"Fatihə" surəsi

1. Rəhman və Rəhim Allahın adı ilə!

2. Həmd aləmlərin Rəbbi Allaha məxsusdur.

3. Rəhman və Rəhim olana (ümumi və xüsusi rəhməti hamını əhatə edən Allaha),

4. Haqq-hesab (məhşər) gününün sahibinə!

5. (İlahi!) Yalnız Sənə ibadət edirik və yalnız Səndən imdad diləyirik!

6. Bizi düz yola yönəlt!

7. Nemət verdiyin kəslərin yoluna, qəzəbinə gəlmişlərin və azmışların (yoluna) yox!

"Həmd" surəsinin ümumi məzmunu: Bu surə Allahın “Rəhman” və “Rəhim” adlarını anmaqla başlayır və Onun atributlarını (sifətlərini) saymaqla davam edir. Sonra öyrədir ki, ibadətə və yardım istəməyə layiq olan yalnız Allahdır. Surə Allahdan hidayət diləyi ilə bitir. Allah teologiya, esxatologiya (məad) və nübüvvət prinsiplərini ehtiva edən Quran təlimlərinin icmalını bu surədə vermişdir.[1]

3. Rəhman və Rəhim: "Rəhman" və "Rəhim" Allahın gözəl adlarından ikisidir (ad olduğu üçün də ayənin tərcüməsində olduğu kimi saxlamışıq). Allah dəfələrlə özünü bu sifətlərlə tanıtmışdır. Bu iki sözün mənası və aralarındakı fərq haqqında demişlər: "Rəhman, mübaliğə modeli olub, bütün bəndələrə - istər mömin olsun, istər kafir - şamil olan ilahi rəhmətin

---

[1] "Təsnim", c. 1, səh. 258.

çoxluğunu ifadə edir. Rəhim isə "sifəti-müşəbbəhə"dir və Allahın yalnız mömin bəndələrinə aid olan daimi və əbədi rəhmətini ifadə edir".[2]

İslam peyğəmbərindən (s) nəql olunan bir hədisdə deyilir: "Allahın yüz rəhməti var. Onlardan birini yer üzünə endirmiş və məxluqatı arasında bölmüşdür. O bir rəhmətlə insanlar bir-birlərinə mehribanlıq göstərir, sevgi bəsləyirlər. Digər doxsan doqquz rəhməti isə özü üçün saxlamış, onun üzə çıxması zamanını təxirə salmışdır. Qiyamət günü bəndələrinə həmin doxsan doqquz rəhmətlə rəhm edəcək".

Digər bir rəvayətdə deyilir: "Allah verdiyi bir rəhməti də alacaq və yüz rəhmət tamamlanacaq. Qiyamət günü bəndələrinə yüz rəhməti, yəni bütün rəhməti ilə rəhm edəcək".[3] Əlbəttə, aydındır ki, "yüz rəhmət" ifadəsi mətləbin zehinlərə yaxın olması üçün verilmişdir. Çünki Allahın rəhməti sonsuz və sayagəlməzdir.

4. Məhşər gününün sahibi: Şübhəsiz, Allah dünyanın da sahibi və hökmranıdır. Amma Onun sahibliyi və hökmranlığı məhşər günü daha tam şəkildə üzə çıxacaqdır. Çünki Qiyamətdə bütün maddi bağlar, zahiri mülkiyyətlər aradan qalxacaq və mütləq mülkiyyət, hökmranlıq Allaha məxsus olacaq.

Allah Quranda buyurur: "*Elə bir gün ki, onlar hamısı aşkara çıxacaqlar, onların heç bir şeyi Allahdan gizli qalmayacaq. (Onlara deyiləcək:) "Bu gün hökm kimindir? "Bir olan, qalib olan Allahındır!*" ("Ğafir", 16) Başqa bir ayədə oxuyuruq: "*O elə bir gündür ki, heç kəs digəri üçün bir iş görməyə qadir deyil. O gün bütün işlər yalnız Allaha məxsusdur!*" ("İnfitar", 19) İmam Baqirdən (s) sözügedən ayə ilə bağlı nəql olunan bir hədisdə deyilir: "Bu gün də, o gün də bütün işlər Allahın əlindədir. Lakin Qiyamətdə bütün

[2] "Əl-Mizan", c. 1, səh. 21.
[3] "Məcmə əl-bəyan", c. 1, səh. 54.

hakimlər aradan qalxacaqlar. Allahın hakimiyyətindən başqa hakimiyyət qalmayacaq".[4] İmam Səccad (ə) haqqında nəql olunan bir rəvayətdə deyilir: "Həzrət (ə) "*Haqq-hesab (məhşər) gününün sahibi (olan Allaha)!*" ayəsini o qədər təkrar edirdi ki, az qalırdı canını tapşırsın".[5]

6. Düz yol: Düz yol, heç bir yandan sapmayan aydın, geniş və hamar yoldur.[6] Onda məqsəd Allaha pərəstiş dini, doğru və haqq din, ilahi göstərişlərə sadiq qalmaqdır. "Ənam" surəsinin 161-ci ayəsində oxuyuruq: (Ya Peyğəmbər!) De: "*Həqiqətən, Rəbbim məni düz yola, sabit (dünya və axirət səadətinə zəmanət verən) dinə, mövhum dinlərdən üz döndərən və müşriklərdən olamayan İbrahimin dininə yönəltdi*".

Bəzi rəvayətlərdə düz yolun Quran, bəzilərində isə Əhli-beyt (ə)[7] olması bildirilmişsə də, buna səbəb Allahın insanı əbədi səadətə qovuşduracaq, zərrəcə yanıltmayacaq bir təlimin yalnız Quran və Əhli-beyt (ə) yolu ilə bəyan etməsidir.

---

[4] "Nümunə", c. 26, səh. 236.
[5] "Üsuli-kafi", c. 2, səh. 595.
[6] "Məcmə əl-bəyan", c. 1, səh. 65.
[7] Yenə orada.

"Bəqərə" surəsi

1. Əlif, Lam, Mim (Bu əzəmətli kitabı sadə əlifba hərflərindən ərsəyə gətirən Allah böyükdür).

2. Bu, heç bir şəkk-şübhə olmayan, təqvalılara doğru yol göstərən əzəmətli bir kitabdır.

3. (Təqvalılar) O kəslərdir ki, qeybə (hissə qapalı olana) inanır, namaz qılır və onlara ruzi olaraq verdiyimiz bütün nemətlərdən (Allah yolunda) sərf edirlər.

4. O kəslər ki, sənə göndərilənə və səndən əvvəl (keçmiş peyğəmbərlərə) göndərilənlərə iman gətirir və axirətə əminliklə inanırlar.

5. Məhz onlar öz Rəbbi tərəfindən (göstərilmiş) hidayət yolundadırlar. Nicat tapanlar da onlardır.

"Bəqərə" surəsinin ümumi məzmunu: Bu surənin əsas hissəsi Allahın bəndələrinin bütün səmavi kitablara inanması, ilahi peyğəmbərlər arasında fərq qoymaması zərurətini bəyan edir. Buna görə də bu surədə kafirlər, münafiqlər və kitab əhli səmavi dinlər, ilahi peyğəmbərlər arasında fərq qoyduqları üçün məzəmmət olunurlar və qınanırlar. Bu surənin bəzi hissələrində qiblənin Beytül-müqəddəsdən Kəbəyə çevrilməsi, həcc, irs, oruc və s. kimi bəzi hökmlərə aydınlıq gətirilmişdir.[8]

1. "Müqəttəə" hərflər: "Müqəttəə" hərflər və onların təfsiri ilə bağlı çox sözlər deyilmişdir. Bu nəzəriyyələr arasında iki nəzəriyyə daha çox diqqəti

---

[8] "Əl-Mizan", c. 1, səh. 46.

cəlb edir. Birincisi budur ki, "Müqəttəə" hərflər Allah və elçisi arasında sirlərdən ibarətdir. Bu sirləri yalnız onlar bilirlər.[9] İkinci nəzəriyyə budur ki, Allah-Taala "Müqəttəə" hərflərlə göstərməyə çalışır ki, qarşınızdakı Quran sizin də ixtiyarınızda olan hərflərdən ibarətdir (misal üçün, əlif, lam, mim və s.). Lakin siz Quran kimi bir kitab gətirməkdə acizsiniz və bu, Quranın vəhy olmasına sübutdur.[10]

2. Quranın nazilolma məqsədi - hidayət: Hidayət, yolu göstərməkdir. Belə ki, insanı məqsədə çatdırsın. [11] "Hadi" bir qrupun önündə gedən və yolu onlara göstərən şəxsə deyilir.[12] Allah bir çox ayələrdə (bu ayə də o qəbildəndir) Quranı "hidayət kitabı" adlandırır. Bəli, Quran həqiqətən, sırf hidayət kitabıdır. Elə bir hidayət ki, ona azğınlıq və zülmət yol tapa bilmir.[13] Demək, Allahın onu nazil etməkdə məqsədi insanların əbədi səadətinə gedən yolu göstərməkdir. Necə ki, Allah "Maidə" surəsinin 15-ci və 16-cı ayələrində buyurur: "*Ey kitab əhli! Sizə səmavi kitabda gizlətdiyiniz şeylərin bir çoxunu ifşa edən və (hələ ifşası məsləhət olmayan) bir çoxunun da üstünü vurmayan peyğəmbərimiz gəldi. (Bəli!) Artıq Allah tərəfindən sizə bir nur və açıq-aydın bir kitab (Quran) gəldi. Allah Öz rizasına tabe olanları onunla əmin-amanlıq yollarına yönəldər, onları Öz fərmanı ilə zülmətdən nura çıxarar və düz yola hidayət edər!*" Buna nəzərən aydın olur ki, Quran tarixi, elmi və s. kitab deyil. Əksinə, Quranın peyğəmbərlərin, keçmiş xalqların tarixini, müxtəlif elmi məsələləri qeyd etməkdə məqsədi yalnız insanı hidayət etmək, ona səadət yolunu göstərməkdir.

---

[9] "Safi", c. 1, səh. 90.
[10] "Nümunə", c. 1, səh. 62.
[11] "Kəşşaf", c. 1, səh. 35.
[12] "Məcmə əl-bəyan", c. 1, səh. 65.
[13] "Təfsiri-mövzui", c. 1, səh. 183.

3. "Rizq" - çörək və sudan daha yüksək: "Rizq" sözü müəyyən vaxtlarda verilən davamlı bəxşiş mənasını ifadə edir. Bəzən pay və hissə mənasında da işlənir. Bəzilərinə görə isə "rizq" qarşı tərəfin ehtiyacına, istəyinə uyğun xüsusi bəxşişdir ki, onun həyatı, yaşamı davam etsin. "Rizq" sözünün dilimizdə qarşılığı "ruzi"dir. Qeyd etmək lazımdır ki, "rizq" və ruzi maddiyyatla, su və çörəklə bitmir. İnsanın təkamülü üçün ehtiyacı olan hər şey ruzidir. Buna görə də məzumlardan bizə gəlib çıxan dualarda mükəmməl zəka, faydalı bilik, çoxlu və halal sərvət, yüksək şəxsiyyət, əməlisaleh və ləyaqətli övlad, sabit iman, dünya və axirət xeyri, pak yaşam, şəfaət, Allah evi Kəbəni ziyarət ziyarət, məsumların (ə) türbələrini ziyarət etmək, onların məzarı yanında dəfn olunmaq və Qiyamətdə onlarla birgə olmaq ruzi olaraq Allahdan istənilmişdir. İmam Sadiq (ə) elmi ilahi ruzilərdən biri hesab edir və bu ayəni izah edərkən buyurur: "Yəni, onlara öyrətdiklərimizi insanlar arasında yayırlar". Buna görə, təlim və öyrətmək də bir növ (Allah yolunda) sərf etməkdir.[14]

6. Həqiqətən, küfr edənləri (ilahi əzabla) qorxutsan da, qorxutmasan da, onlar üçün fərqi yoxdur, iman gətirməyəcəklər.

7. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərinə isə pərdə salmışdır. Onları böyük bir əzab gözləyir.

8. İnsanlar içərisində elələri də vardır ki, iman gətirmədikləri halda: “Biz Allaha və Qiyamət gününə iman gətirdik“, - deyirlər.

---

[14] "Ətyəb əl-bəyan", c. 1, səh. 210.

9. Allahı və möminləri aldatmağa çalışırlar. Bir halda ki, yalnız özlərini aldadırlar, lakin (bunu) anlamırlar.

10. Onların ürəyində bir növ xəstəlik var. Allah, onların xəstəliyini daha da artırmışdır. Yalan dedikləri üçün onları şiddətli bir əzab gözləyir.

11. Onlara: “Yer üzündə fəsad törətməyin!” - dedikdə: “Biz yalnız islah edənlərik”, - deyə cavab verirlər.

12. Bilin ki, onlar həmin fəsad törədəndirlər, lakin (bunu) dərk etmirlər.

13. Onlara: "(Digər) insanlar kimi iman gətirin!” – deyildiyi zaman: “Biz də səfehlər kimi iman gətirək?” - deyə cavab verirlər. Agah olun ki, səfeh onların özləridir, lakin (bunu) bilmirlər.

14. Onlar möminlərlə qarşılaşdıqları zaman: “Biz iman gətirmişik”, - deyirlər. (Amma) öz şeytanları ilə xəlvətə çəkildikləri zaman: “Biz sizinləyik, biz ancaq (onları) ələ salırıq”, - deyirlər.

15. Allah da onları ələ salar və onları tüğyanları içində saxlayar ki, sərgərdan olsunlar.

16. Onlar "hidayət"i "azğınlığ"a satmış kəslərdir. Onların alveri xeyir gətirməyib və haqq yolu tapmayıblar.

---

6. İnadkar kafirlər azğınlıq dolanbacında: Bu ayədə “kafirlər” deyəndə bütün kafirlər nəzərdə tutulmur. Küfründə sabit olan, haqqı danmaq, təkzib etmək qəlblərinə hakim kəsilmiş, Allahın dininə qarşı düşmənçilik və inad etmək yolunda heç bir səyini əsirgəməyən kafirlərdən bəhs edilir. Məqsəd Qüreyşin başçıları kimi son nəfəslərinə qədər Peyğəmbərlə (s) düşmənçilik

etməkdən əl çəkməyən kafirlərdir.[15] "Şuəra" surəsinin 136-cı ayəsinə görə, belələrinin qəlbini günah büsbütün qaraltdığından, əlac üçün heç bir yol qalmayıb və onlar Peyğəmbərin (s) qarşısına keçib deyirlər: "*Bizə öyüd-nəsihət versən də, verməsən də, bizim üçün fərqi yoxdur*". Allah da "Bəqərə" surəsinin 6-cı ayəsində buyurur: "*Həqiqətən, küfr edənləri (ilahi əzabla) qorxutsan da, qorxutmasan da, onlar üçün fərqi yoxdur, iman gətirməyəcəklər*".[16]

10. Qəlb (ürək) - insanın varlıq həqiqəti: Quranda "qəlb"də məqsəd insan vücudunun həqiqəti, yəni onun ruhudur.[17] Quran ayələrindən aydın olur ki, insanın qəlbi və ruhu da onun bədəni kimi sağlamlıq, xəstəlik və ölüm olmaqla üç hala malidkir. Quran "Şuəra" surəsinin 88-ci və 89-cu ayələrində qəlbin sağlamlığı haqqında buyurur: "*O gün (Qiyamət günü) mal-dövlət və övlad bir fayda verməz! Ancaq sağlam bir qəlblə Allahın hüzuruna gələn kimsədən başqa!*" Qəlbin xəstəliyi haqqında "Bəqərə" surəsinin 10-cu ayəsində oxuyuruq: "*Onların ürəyində bir növ xəstəlik var*". Qəlbin ölməsi haqqında isə "Ənam" surəsinin 36-cı ayəsində deyilir: "*(Sənin dəvətini) ancaq cani-dildən eşidənlər qəbul edər. Ölüləri (insan ruhunu əldən verənləri və iman gətirməyənləri) isə Allah (Qiyamətdə) dirildər*". Ürəyin xəstəliyi ona şəkk-şübhənin daxil olmasıdır. Belə ki, ürəkdə Allaha iman nurunu, onun nişanələrini aradan qaldırır və şəkk-şübhə artdıqca qəlbin xəstəliyi də ağırlaşır. "Bəqərə" surəsinin 10-cu ayəsinə görə, "*Allah, onların xəstəliyini daha da artırır*". İş o yerə çatır ki, bu nur sönükür və insanın qəlbi ölür. Bu xəstəliyin əlacı Allaha iman və gerçək tövbədir.[18]

---

[15] "Əl-Mizan", c. 1, səh. 55.
[16] "Təfsiri-mövzui", c. 6, səh. 67.
[17] "Əl-Mizan", c. 2, səh. 228.
[18] Yenə orada, c. 5, səh. 387.

14. Şeytan: "Şeytan" sözü xeyir və yaxşılıqdan uzaq düşmüş[19] və şər varlıq[20] mənasını ifadə edir. Bu ad İblisə məxsus deyil. Amma o, qəti olaraq Allahın rəhmətindən uzaqlaşdığı, qovulduğu və şər simvolu olduğu üçün haqlı olaraq ona "Şeytan" demək olar. Allah "Ənam" surəsinin 112-ci ayəsində buyurur: "*Beləcə, Biz hər peyğəmbər qarşısında insan və cin şeytanlarından düşmənlər yaratdıq. Onlar (xalqı) aldatmaq məqsədilə bir-birinə gizlicə (pıçıldaşaraq) aldadıcı və əsassız sözlər deyirdilər*".[21] Bu ayədə "Şeytan"da məqsəd küfrlü əqidələrində yekdil olan, öz aralarında həmfikir və sirdaş olan kafir və münafiqlərin başçılarıdır.[22]

15. Kafirlərin cəzası ilahi istehza: Rəvayətə görə, bir nəfər İmam Rzadan (ə) "Allah da onları ələ salar (onlara istehza edir)" cümləsi haqqında soruşduqda, imam (ə) buyurdu: "Allah ələ salmır. Amma onları ələ saldıqları üçün cəzalandırır". Yəni, bu cəza onları ələ salmaqdır.[23] Quranda bu ibarənin digər forması da mövcuddur. Belə ki, "Bəqərə" surəsinin 194-cü ayəsində deyilir: "*Sizə qarşı təcavüz edənlərə siz də həmin ölçüdə təcavüz edin*". Bu ayədə fərman verilir ki, sizə təcavüz olunduğu kimi (qətl, qarət, namusa təcavüz və s.) siz də təcavüz edin.[24]

---

[19] "Kəşşaf", c. 1, səh. 65.
[20] "Əl-Mizan", c. 7, səh. 331.
[21] "Məcmə əl-bəyan", c. 1, səh. 49.
[22] "Ətyəb əl-bəyan", c. 1, səh. 399.
[23] "Tövhid", Şeyx Səduq, səh. 163, hədis: 1.
[24] "Kəşşaf", c. 1, səh. 67; "Nümunə", c. 2, səh. 32.

17. Onlar (münafiqlər, qaranlıq çöldə yolu tapmaq üçün) od yandıran şəxsə bənzəyirlər. Od (yanıb) ətrafındakıları işıqlandırdığı zaman Allah (tufan qoparıb) onların işığını söndürər və göz işləməyən qorxunc zülmətlər içində qoyar.

18. Onlar kar, lal və kordurlar. Buna görə də (yanlış yoldan) dönməzlər.

19. Yaxud qaranlıq gecədə ildırımlı və şimşəkli səmadan (yolçularçn başına) yağan yağış altında ildırımın səsini eşitməsinlər deyə ölüm qorxusundan barmaqlarını qulaqlarına tıxayanlara bənzəyirlər. Halbuki Allah kafirləri (qüdrəti ilə) əhatə etmişdirr.

20. İldırımın (gözqamaşdıran işığı) az qalır ki, onların gözünü çıxartsın. (Şimşək işıq saçıb çölü) onlar üçün aydınladanda (bir neçə addım) gedirlər, üzərlərinə qaranlıq çökdükdə isə dayanırlar. Əgər Allah istəsəydi, onların qulaqlarını və gözlərini alardı. Çünki Allah hər şeyə qadirdir.

21. Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaratmış Rəbbinizə ibadət edin ki, təqvalı olasınız.

22. O Allah ki, sizin üçün yer üzünü döşəmə, göyü (atmosferi) isə başınız üzərində tavan kimi yaratdı, göydən su endirdi və onun vasitəsilə sizin üçün ruzi olsun deyə müxtəlif meyvələr yetişdirdi. Belə isə (bütlərin heç birinin sizi yaratmadığını və sizə ruzi vermədiyini) bildiyiniz halda Allaha şəriklər qoşmayın.

23. Əgər bəndəmizə (Peyğəmbərə) nazil etdiyimizə şəkkiniz varsa, ona bənzər (ən azı) bir surə gətirin və əgər doğru deyirsinizsə, onda Allahdan savayı (bütün) şahidlərinizi (bu işdə köməyə) çağırın.

24. Əgər bunu bacarmırsınızsa, - heç bacara da bilməyəcəksiniz, - o halda kafirlər üçün hazırlanmış, yanacağı (günahkar) insanlardan və daşlardan (bütlərdən) olan oddan qorxun.

---

21. Hamı üçün göndərilmiş kitab: "Ey insanlar!" müraciəti Quranda iyirmi dəfə təkrarlanmış ümumi və əhatəli bir müraciətdir və göstərir ki, Quran müəyyən bir irqə, qəbiləyə, tayfaya və kəsimə məxsus deyil. Əksinə, hamıya öz ümumi dəvətində yer vermiş, vahid Allaha ibadətə, hər növ şirk və tövhid xəttindən yayınmaqla mübarizəyə səslənişdir.[25]

23. Bütün insanların Quran kimisini gətirməkdə acizliyi: Allah-Taala bu və eləcə də digər Quran ayələrində ("Yunus", 38; "Hud", 13-14; "İsra", 88; "Tur", 33-34) bütün şüurlu varlıqların - istər insanları, istərsə də cinləri - Quran kimi bir kitab, ondan on surə, hətta bir surə kimisini gətirməkdə aciz olduqlarını və bunu bacarmayacaqlarını bildirir. Buna görə də tam qətiyyətlə hamını Quran kimi bir kəlam gətirməyə dəvət edir. Şübhəsiz, İslama və Qurana aşkar düşmənçilik edənlər, münafiqcəsinə zərbə vuranlar, hətta İslama qarşı mübarizə yolunda canlarından keçən qəddar və qatı düşmənlər Qurana bənzər bir kitab gətirə bilsəydilər, gətirər və Quranın bu qəbildən olan ayələrini batil edərdilər. Peyğəmbər (s) dönəmindən və Quranın nazil olmasından on dörd əsrdən çox bir zaman keçməsinə baxmayaraq, heç bir sözün insanlar arasında Quran qədər özünə yer açа bilməməsi, hər keçən gün bunun daha da vüsət alması, insan ruhunu heyrətləndirməsi, ona məmnunluq hissi aşılaması, zəkaları öz qarşısında baş əyməyə vadar etməsi gerçəyi

---

[25] "Nümunə", c. 1, səh. 117.

Quranın vəhy, Peyğəmbərin (s) missiyasının isə haqq olmasının ən böyük sənədidir.[26]

24. Daxildən alovlanan od: Bu ayəyə görə, Cəhənnəm odunu iki şey alovlandırır, insanlar və daşlar. Bu ayədə “daşlar” kəlməsi Allah yerinə pərəstiş olunan bütləri ifadə edir. Necə ki, Quran "Ənbiya" surəsinin 98-ci ayəsində müşriklərə müraciətlə buyurur: "*Siz və Allahdan qeyri ibadət etdiyiniz bütlər isə Cəhənnəm yanacağı (odunu) olacaqsınız*". Ayədə çox önəmli bir məqam budur ki, bəzi insanların Cəhənnəm yanacağı olduğu bildirilir. Bu göstərir ki, insanın bulaşdığı, özünü və başqalarını da aludə edən xoşagəlməz əməllər və fikirlər Qiyamətdə bir od olaraq onun öz vücudundan alovlanacaq, özünü və yoldan çıxardıqlarını yandıracaq. Necə ki, "Huməzə" surəsinin 6-cı və 7-ci ayələrində Cəhənnəm haqqında oxuyuruq: "*O, Allahın yanar odudur. Elə bir od ki, ürəklərdən alovlanır*".[27] "Vəqud" böyük yanmaq qabiliyyətinə malik şeylərə deyilir. Qiyamət günü bu qabiliyyəti dünyada qazanan insanlar olacaq. Onlar kibrit daşı və kükürd kimi içlərində od gizlətmiş, yanmağa hazırdırlar. Daxillərində başqaları üçün də yanacaq vasitə daşıyırlar. Bu dünyada özləri üçün yandırdıqları Cəhənnəmdir. Buna görə də ayənin sonunda buyurur: "*Kafirlər üçün hazırlanmışdır*". Yəni, Cəhənnəm qabaqcadan hazırlanmışdır və onlar özlərini kibrit daşı və kükürd kimi yanmağa hazırlamışlar.[28] Ayənin izahı ilə bağlı həzrət Əlidən (ə) nəql olunan bir rəvayətdə deyilir: "Ey bizim şiələrimiz! Təqvalı olun, o odun yanacağı - odunu olmaqdan çəkinin.

---

[26] "Nümunə", c. 1, səh. 117.
[27] "Ətyəb əl-bəyan", c. 1, səh. 463; "əl-Mizan", c. 1, səh. 92.
[28] "Təfsiri-mövzui", c. 5, səh. 379.

Hərçənd ki, siz Allaha küfr etmirsiniz. Mömin qardaşlarınıza zülm etməkdən çəkinməklə özünüzü o odun şərindən amanda saxlayın".[29]

25. İman gətirən və yaxşı işlər görənlərə müjdə ver ki, onlar üçün ağacları altından çaylar axan Cənnət bağları vardır. (Onun) meyvəsindən onlara verildiyi zaman: “Bu ki, bizə əvvəlcə verilən ruzidir”, - deyəcəklər (Amma bunlar onlardan daha yaxşı və daha dadlıdır). Onlar üçün gətirilən meyvələr hamısı (gözəllik və təravət baxımından) bənzərdir. Onlar üçün orada pak zövcələr də var və onlar orada əbədi qalacaqlar.

26. Allah (zahirən kiçik olan) ağcaqanadı və ya ondan daha kiçiyini misal gətirməkdən çəkinməz. İman gətirənlər bunun öz Rəbbi tərəfindən bir həqiqət olduğunu bilirlər. Küfr yolunu tutanlar isə (bəhanə olaraq): “Allah bu məsəllə nə demək istəyir?” - deyirlər. (Bəli!) Allah bununla bir çoxlarını azdırır, bir çoxlarını isə doğru yola yönəldir. Amma onunla fasiqlərdən başqasını azdırmaz.

27. O kəslər ki, Allahla əhd bağladıqdan sonra onu pozur, Allahın birləşdirilməsini buyurduğu şeyləri parçalayır və yer üzündə fitnə-fəsad törədirlər. Məhz onlar ziyana uğrayanlardır.

28. Allahı necə inkar edirsiniz ki, siz ölü (ruhsuz bədən) idiniz, O, sizi diriltdi. Sonra sizi yenə öldürəcək, yenə də dirildəcək və daha sonra siz Ona tərəf qaytarılacaqsınız (Demək, nə həyatınız, nə də ölümünüz özünüzdəndir. Hər şeyiniz Allahdandır).

29. Yer üzündə nə (nemət) varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi göy şəklində düzəldib nizama salan Odur. O, hər şeyi biləndir.

---

[29] "Təsnim", c. 2, səh. 463.

---

26. Quranda misal gətirməkdə məqsəd: Bu ayənin nazil olma səbəbi haqqında nəql olunmuşdur ki, Allah bəzi ayələri nazil edib, onlarda milçəyi ("Həcc", 73), hörümçəyi ("Ənkəbut", 41) misal çəkdikdə, bir qrup müşrik bunu bəhanə edərək tənqid atəşinə tutdular və “bu necə səmavi vəhydir ki, milçək və hörümçəkdən danışır” deyə istehza etdilər. Allah bu ayəni onlara cavab olaraq nazil etdi.[30] Müxtəlif şeyləri misal gətirməkdə məqsəd həqiqətləri anlatmaq, ağır məfhumları insanların zehninə, düşüncəsinə yaxınlaşdırmaqdır. Bu mətləbə alimlərin kitablarında çox rast gəlmək olar.[31] İnsan nə qədər çox sadəlövh olsa, misala da bir o qədər çox ehtiyacı olur. Bu səbəbdən misal üçün, riyaziyyat müəllimi bu və ya digər həndəsi məsələni yeni şagirdə başa salmaq üçün mütləq misaldan istifadə etməlidir. Qurani-kərim də müxtəlif təlimlərini təqdim etmək üçün çoxsaylı misallardan istifadə etmişdir.[32] İmam Sadiq (ə) bu ayə haqqında buyurur: "Allah ağcaqanadı misal çəkdi. Çünki həmin ağcaqanadda kiçik olmasına rəğmən o böyüklüyündə fildə olan hər şey yaratmışdır. Bundan əlavə (fildə olmayan), digər iki üzv də yaratmışdır (buynuzcuqlar və qanadlar)". Allah bu misalla möminlərə yaradılışın zərifliyini bəyan etmək istəyir. Filə bənzər yaradılan bu zahirən zəif varlıq haqqında düşünmək insanın diqqətini Yaradanın əzəmətinə yönəldir.[33]

---

[30] "Nümunə", c. 1, səh. 145.
[31] "Ətyəb əl-bəyan", c. 1, səh. 480.
[32] "Təfsiri-mövzui", c. 1, səh. 432.
[33] "Nümunə", c. 1, səh. 150.

27. Allah yanında ən nifrətəlayiq əməllər: “Allahın birləşdirilməsini əmr etdikləri” dedikdə, Onun birləşdirilməsini əmr etdiyi hər şey nəzərdə tutulur. Misal üçün, Peyğəmbərlə (s) əlaqə yaratmaq, imamlarla (ə) ünsiyyət qurmaq, qohumlarla münasibət saxlamaq, iman qardaşları ilə birgə olmaq və s.[34] Hərçənd, bu ayə bütün ilahi münasibətlərə hörmətlə yanaşmaqdan söhbət açır, amma şübhəsiz, qohumluq əlaqəsi onun ən bariz nümunəsidir. Quran qohumluq əlaqələrini pozanlar haqqında ağır ifadələr işlədir. İslam hədislərində isə belələri qınanırlar ve pislənirlər. "Məhəmməd" surəsinin 22-ci ayəsində oxuyuruq: "*Əgər (bu göstərişlərdən) üz döndərsəniz, sizdən yer üzündə fitnə-fəsad törətmək və qohumluq əlaqələrini kəsmək gözlənilməzmi?!*" İslam peyğəmbərindən (s): "Allah dərgahında ən nifrətəlayiq əməllər hansılardır? – soruşduqda, həzrət (s) buyurdu: "Allaha şərik qoşmaq". "Ondan sonra hansı əməl?" - soruşduqda isə "Qohumlarla əlaqəni kəsmək", - deyə bildirdi.[35]

29. Yeddi göy: Quran ayələrindən aydın olur ki, bizim gördüyümüz bütün ulduzların, səma cisimlərinin hamısı birinci göyə aiddir. Bunun arxasında digər altı göy mövcuddur ki, bizim görmə qabiliyyətimizin və elmi vasitələrimizin gücü xaricindədir. Ümumilikdə yeddi göy var. Bunun dəlili isə Quranda yer alan digər ayələrdir. Misal üçün, "Fussilət" surəsinin 12-ci ayəsində deyilir: "*Biz aşağı göyü (dünya səmasını) ulduz qəndillərilə bəzədik*". "Saffat" surəsinin 6-cı ayəsində isə oxuyuruq: "*Biz aşağı göyü (dünya səmasını) ulduzlarla bəzədik*".

---

[34] "Ətyəb əl-bəyan", c. 1, səh. 484.
[35] "Nümunə", c. 1, səh. 156.

30. (Xatırla ki,) Rəbbin mələklərə: “Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam”, - dedikdə (mələklər): “Biz Sənə şükür etdiyimiz, şəninə təriflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada (yer üzündə) fəsad törədəcək və qan tökəcək birinimi yaradırsan?”- söylədilər (Çünki bu Adəmdən qabaq da yerdə varlıqlar yaşayır, fəsad törədir, qan tökürdülər). Əgər insanı yaratmaqda məqsəd ibadətdirsə, biz sənə layiqincə ibadət edirik). (Allah onlara:) “Mən sizin bilmədiyiniz həqiqətləri bilirəm!” – buyurdu.

31. Sonra Adəmə “adlar” elmini (yaradılışın sirlərini və varlıqlara ad qoymaq elmini) tam şəkildə öyrətdi. Sonra onları mələklərə göstərərək: “Əgər doğru deyirsinizsə, bunların adlarını Mənə bildirin!” - dedi.

32. (Onlar): “Sən paksan! Biz Sənin bizə öyrətdiklərindən başqa bir şey bilmirik. Doğrudan da, Sən bilən və hikmət sahibisən”, - dedilər.

33. (Sonra) “Ey Adəm, bunların adlarını (sirlərini) onlara bildir!”- dedi. (Adəm) onlara (mələklərə) bunların adlarını xəbər verdikdə (Allah): “Mən sizə, göylərin və yerin gözə görünməyən sirlərini, sizin gizlində və aşkarda etdiklərinizi bilirəm, söyləmədimmi?” – buyurdu.

34. (Xatırla ki,) mələklərə: “Adəmə səcdə edin! – dedikdə İblisdən başqa (hamısı) səcdə etdi. (Yalnız) o, qürrələnərək imtina etdi və (əmrə tabe olmadığı, təkəbbür etdiyi üçün) kafirlərdən oldu.

35. Və (Adəmə) dedik: “Ey Adəm, sən zövcənlə Cənnətdə məskunlaş və hər ikiniz oradakı (nemətlərdən) istədiyiniz kimi, bol-bol yeyin, yalnız bu ağaca yaxın düşməyin! Yoxsa zülm edənlərdən olarsınız”.

36. (Lakin) Şeytan onların Cənnətdən yayınmasına səbəb oldu və olduqları yerdən çıxartdı. (Bu zaman onlara): “Bir-birinizə düşmən kəsilərək (yer üzünə) enin! Yerdə sizin üçün müəyyən vaxta qədər sığınacaq və dolanacaq vasitələri var”, - dedik.

37. Sonra Adəm Rəbbindən bəzi sözlər öyrənərək (onlarla) tövbə etdi və Allah da onun tövbəsini qəbul etdi. Çünki O (Allah), tövbələri qəbul edən və mərhəmətlidir.

---

31. Adlar elmi: İnsana ən böyük ilahi bəxşiş olaraq verilən, onun ilahi xilafət məqamına layiq olmasının, fəzilət və iftixarının mənşəyi olan "adlar" elminin nə olması mövzusunda təfsirçilər arasında çox ehtimallar var. Bəzilərinə görə, məqsəd sözlərlə bağlı bilikdir. Bir halda ki, bir neçə sözü bilmək heç zaman belə bir fəzilətə səbəb ola bilməz. Əlbəttə, bu, ayədə yer alan ifadələrə də uyğun gəlmir. Çünki "göylərin və yerin gözə görünməyən sirləri" ibarəsi göstərir ki, bu elm göyün və yerin mələklərdən gizli olan sirləri ilə əlaqəli olmuşdur. Bəzilərinə görə, məqsəd ruhları öncədən yaradılan ilahi höccətlərin, xüsusilə məsum imamların (ə) adlarıdır. Bəzi rəvayətlərdə də belə bir izah yer almışdır. Heç şübhəsiz, bu qəbildən olan rəvayətlər bu ümumi məfhumun önəmli nümunələrinə işarədir. Belə ki, təfsirlə bağlı rəvayətlərin metodu da belədir. "Adlar" elmi bununla bitmir. Əksər təfsirçilərə görə, məqsəd budur ki, Allah yerə, göyə, mədənlərin çıxarılmasına, əkinçiliyə aid bütün bilikləri Adəmə öyrətdi, yaxud da onun təbiətində, istedadında bunlara yığcam şəkildə yer verdi. Beləcə Adəm dünyanın bütün sirləri ilə tanış oldu. Bu sirlərin hamısını anlamaq istedadını, ləyaqətini övladlarına da ötürdü. Onun belə bir elmə yiyələnməsindən, bu istedadı övladlarına da ötürməsindən daha üstün, daha yüksək fəzilət ola bilərmi? İmam Sadiq (ə) bir hədisdə sözügedən ayənin izahı ilə bağlı buyurur: "Məqsəd bütün yerlər, dağlar, dərələr, çay yataqlarıdır". Sonra

həzrət (ə) ayağının altına sərilmiş bir xalçaya baxıb buyurdu: "Bu xalça da Allahın Adəmə öyrətdiyi məsələlərdən idi". Bu şərh göstərir ki, Adəm bütün biliklərə yiyələnmişdi.

Əllamə Təbatəbai "əl-Mizan" əsərində bu məsələni tədqiq edərək belə qənaətə gəlir: "Allahın Adəmə öyrətdiyi adlar qeyb pərdəsi ilə örtülmüş yüsək varlıqlar idi ki, bu dünyada hər bir ad onların xeyir və bərəkəti ilə nazil olmuş, onların nurundan faydalanmışdır". Hər halda "adlar" elmi bu dünyanın önəmli həqiqətlərini ehtiva edən çox geniş bilik sahəsi olmuşdur.[36]

35. Adəmin Cənnəti: Bəziləri Adəmin Cənnətinin pak və yaxşı insanlara vəd edilmiş Cənnət olduğunu hesab etmişlər. Lakin doğrusu budur ki, Adəmin Cənnəti yerin yaşıllıqla əhatə olunmuş bölgələrindən birində yerləşən naz-nemət dolu, ruh oxşayan bağlardan biri olmuşdur. Çünki birincisi, Qiyamətdə vəd edilən Cənnət əbədi bir nemətdir. Bir çox Quran ayələrində onun əbədi olmasına işarə vurulmuşdur və ondan çıxmaq mümkün deyil. İkincisi, nə günaha aludə olan İblis oraya yol tapa bilər, nə onun vəsvəsələri, nə də Allaha itaətsizlik. Üçüncüsü, Əhli-beytdən (ə) bizə gəlib çatan rəvayətlərdə bu mövzuya tam aydınlıq gətirilmişdir. Rəvayətçilərdən biri nəql edir ki, İmam Sadiqdən (ə) Adəmin Cənnəti haqqında soruşdum. İmam (ə) buyurdu: "Ora dünya bağlarından biri idi. Günəş və ay oraya saçırdı. Əgər əbədi Cənnət olsaydı, Adəm oradan çıxarılmazdı". Buradan aydın olur ki, Adəmin yer üzünə enməsində məqsəd - məqamından enməsidir, məkanından yox. Yəni öz dəyərli məqamından endirildi və yamyaşıl bağdan çıxarıldı. İrəli sürülən digər bir ehtimala görə isə bu Cənnət digər planetlərdən birində olmuşdur. Buna İslam rəvayətlərində də işarə vurulmuşdur. Bu qəbildən olan rəvayətlərdə sözü

---

[36] "Peyami-Quran", c. 7, səh. 202.

keçən "səma" (göy) sözündə məqsəd də yüksək məkana yox, yüksək məqama vurğu ola bilər. Hər halda, çoxsaylı dəlillər göstərir ki, bu Cənnət axirət Cənnəti deyil. Çünki Qiyamət Cənnəti insanın əməllərinin nəticəsi və insanın son mənzilidir. Bu Cənnət isə Adəmin əməllərinin, həyat proqramının başlanğıcı və ilk mənzili olmuşdur.[37]

[37] "Nümunə", c. 1, səh. 186.

38. Dedik: “Hamınız oradan enin! Mənim tərəfimdən sizə bir hidayət gəldiyi zaman Mənim hidayətimə tabe olanların nə bir qorxusu var, nə də onlar qəmgin olarlar”.

39. Kafir olanlar və ayələrimizi təkzib edənlər isə Cəhənnəm əhlidirlər, onlar orada əbədi qalacaqlar.

40. Ey İsrail oğulları! Sizə bəxş etdiyim nemətimi xatırlayın, əhdimə vəfa edin ki, Mən də sizin əhdinizə vəfa edim. (Vəzifənizə, öhdəliklərinizə əməl etməkdə) yalnız Məndən qorxun!

41. Göndərdiyimə (Qurana) iman gətirin ki, onun nişanələri sizin kitablarınızda olanlara uyğundur. Onu ilk inkar edən siz olmayın! Mənim ayələrimi ucuz qiymətə satmayın (dəyərsiz dünya malına görə kitablarınızda mövcud olan Quranın və İslam peyğəmbərinin nişanələrini gizlətməyin) və ancaq Məndən (və əmrlərimə qarşı gəlməkdən) qorxun (insanlardan yox)!

42. Haqqı batillə qarışdırmayın, haqqı bilə-bilə gizlətməyin!

43. Namaz qılın, zəkat verin və rüku edənlərlə birlikdə rüku edin! (Namazı camaatla birgə qılın!)

44. İnsanları yaxşı işlərə (nişanələri Tövratda aydın şəkildə verilən peyğəmbərə iman gətirməyə) dəvət etdiyiniz halda, özünüzü unudursunuz? Halbuki (səmavi) kitabı oxuyursunuz. Məgər düşü nmürsünüz?

45. Səbir və namazdan kömək alın! (Mətinliklə, daxili həvəsləri cilovlamaqla və Allaha diqqətlə güc yığın!) Bu iş itaətkarlardan başqası üçün ağırdır.

46. (İtaətkarlar) o kəslərdir ki, Rəbbinə qovuşacaqlarına və Ona doğru qayıdacaqlarına əmindirlər.

47. Ey İsrail övladı! Sizə bəxş etdiyim nemətimi və (bir zaman) sizi bütün insanlardan üstün tutduğumu yadınıza salın!

48. Qorxun o gündən ki, heç kəs digərinin cəzasını üzərinə almır, heç kəsdən şəfaət qəbul olunmur, heç kəsdən əvəz alınmır və onlara heç bir kömək göstərilmir.

---

40. İsrail: "İsrail" sözü (həzrət Yusifin (ə) atası) həzrət Yaqubun (ə) ləqəbidir. İbri dilində iki sözdən, qul mənasını ifadə edən "isra" və Allah mənasında işlənən "İl" sözündən ibarətdir. Həzrət Yaqubun (ə) on iki oğlu var idi və Bəni-İsrailin soyu bu on iki oğul uşağına çatır. Həzrət Musanın (ə) soyu da dörd vasitə ilə həzrət Yaquba (ə) çatır.[38] İsrail övladlarının Allahla bağladığı əhd-peymanda məqsəd "Bəqərə" surəsinin 83-cü və 84-cü ayəsində işarə sözü keçən məsələlərdir.[39] Allahın İsrail oğullarına bəxş etdiyi nemətdə məqsəd isə 49-cu ayədən sonra deyilənlərdir.[40]

45. Namazdan yardım istəmək: Allah-Taala bu ayədə çətinliklərdə səbr və namazdan kömək almağı əmr edir. Namaz - aləmlərin Rəbbinə qəlbən diqqət etməkdir. Ruhun öz maliki və ixtiyar sahibi ilə əlaqəsidir.[41] Təfsirçilər bu ayəni izah edərkən bildirmişlər ki, Peyğəmbər (s) onu narahat edən bir problemlə qarşılaşdıqda namaz və orucdan kömək alardı. İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə deyilir: "Həzrət Əli (ə) dözülməz bir problemlə qarşılaşdıqda namaza sığınırdı". Sonra imam (ə) bu ayəni oxudu.[42]

---

[38] "Ətyəb əl-Bəyan", c. 2, səh. 7.
[39] "Nümunə", c. 1, səh. 202.
[40] "Ətyəb əl-bəyan", c. 2, səh. 8.
[41] "Əl-Mizan", c. 1, səh. 152.
[42] "Nümunə", c. 1, səh. 219.

47: Bəni-İsrailin bütün insanlardan üstün olması: İsrail övladlarının bütün insanlardan üstün olmasında məqsəd onların öz müasirlərindən, yaşadıqları mühitin insanlarından üstün olmasıdır. Belə ki, "Əraf" surəsinin 137-ci ayəsində Bəni-İsrail haqqında oxuyuruq: "*Yer üzünün daim xeyir-bərəkət verdiyiniz şərq və qərb tərəflərini zəifliyə sürüklənən (zülm zənciri altında əzilən) o tayfanın öhdəsinə qoyduq*". Məlumdur ki, o zaman Bəni-İsrail bütün yer üzünə sahib olmadı. Demək, yaşadıqları yerin şərq və qərbinə malik olmaqları nəzərdə tutulur. Buna görə də onların bütün insanlardan üstün olması da həmin bölgənin insanlarından üstün olması deməkdir.[43]

48: Şəfaətin gerçəkləşməsi şərti: Təfsirçilərə görə, ayənin "heç kəsdən şəfaət qəbul olunmur" hissəsi göstərir ki, Qiyamətdə heç kəsin şəfaəti Allahın izni olmadan qəbul olunmayacaq. Necə ki, Allah "Taha" surəsinin 109-cu ayəsində buyurmuşdur: "*O gün Rəhman Allahın izn verdiyi və söz danışmağına razı olduğu kəslərdən başqa heç kimin şəfaəti fayda verməz!*"[44] Bu - və bu qəbildən olan - ayələr kafirlərə və ağır günahlar səbəbilə şəfaətdən məhrum olan fərdlərə aiddir. Buna görə də bu ayənin digər şəfaət ayələri və Peyğəmbərin (s), məsum imamların (ə) günahkarlara vasitəçilik etməsi haqqında nəql olunan çoxsaylı rəvayətlərlə ziddiyyət təşkil etmir. Əlbəttə, bir məsələni xatırlatmaq zəruridir ki, şəfaət nə günaha həvəsləndirməkdir, nə geridə qalma əlamətidir, nə də bugünkü dünya cəmiyyətlərindəki tərəfgirlik və dostbazlığa bənzərdir. Əksinə, çox önəmli tərbiyə üsuludur və müxtəlif baxımlardan müsbət və qurucu təsirlərə malikdir. Misal üçün, günahkarda ümid yaradır, onu məyusluq ruhu ilə mübarizə haqqında düşündürür. Onların günahların bağışlanmayacağı ilə bağlı ümidsizliyə qapılıb, aludəlik girdabında batmasına mane olur.

---

[43] Yenə orada, səh. 221.
[44] "Əl-Mizan", c. 1, səh. 154.

Həmçinin, şəfaətə ümid edən kəs şəfaət edənlə hər hansı bir şəkildə ünsiyyət qurmağa çalışır. Onun razılığını cəlb etmək yönündə işlər görür. Məhz bu mənəvi əlaqə şəfaət edənin gözəl xüsusiyyətlərinin şəfaət olunana keçməsinə gətirib çıxarır. Öncə də qeyd etdiyimiz kimi, şəfaətin başlıca şərti Allahın iznidir. Şübhəsiz, şəfaətə ümid edən kimsə bu iznin müqəddimələrini bu və ya digər şəkildə hazırlamalıdır. Yəni, elə bir iş görməlidir ki, Allahın xoşuna gəlsin. Bundan başqa, bəzi ayələrdə deyilir ki, şəfaət zalımlara aid deyil. Beləcə, şəfaətə ümid bağlayanlar zülmkarların cərgəsindən (burada "zülm" geniş mənadadır) şıxmalıdırlar. Bu cəhətlərin məcmusu səbəb olur ki, şəfaətə ümid bağlayanlar keçmiş əməllərini bir daha nəzərdən keçirsinlər. Gələcək üçün daha yaxşı qərarlar versinlər. Bu özü də şəfaətin müsbət tərəfi və tərbiyədə təsirli amildir.[45]

[45] "Peyami-Quran", c. 6, səh. 525-507.

49. (Yadınıza salın ki) fironçular sizə ən ağır işgəncələr verdikləri, oğlan uşaqlarınızı boğazlayıb, qadınlarınızı (kəniz etmək məqsədilə) sağ buraxdıqları zaman sizi onların əlindən xilas etdik. Bunlarda Rəbbiniz tərəfindən (sizin üçün) böyük bir sınaq var idi.

50. (Yadınıza salın ki) o zaman sizin üçün dənizi yarıb sizə nicat verdik və Fironun adamlarını siz baxa-baxa (suda) qərq etdik.

51. (Yadınıza salın ki) o zaman Musaya qırx gecəlik vədə verdik (və o, ilahi fərmanları almaq üçün qərarlaşdırdığımız yerə gəldi). Siz ondan sonra buzovu (özünüzə tanrı) seçdiniz və (bununla da) zalım oldunuz.

52. Sonra da bunun ardınca sizi əfv etdik ki, bəlkə, şükür edəsiniz.

53. (Yadınıza salın ki) o zaman Musaya kitab və (haqqı batildən) ayıran vasitə verdik ki, bəlkə, doğru yola yönələsiniz.

54. (Yadınıza salın ki) O zaman Musa öz qövmünə dedi: “Ey qövmüm, siz buzovu (pərəstiş üçün) seçməklə, həqiqətən, özünüzə zülm etdiniz. Odur ki, yaradanınıza tərəf qayıdaraq tövbə edin, özünüzü (bir-birinizi) öldürün. Bu, Rəbbinizin yanında sizin üçün daha yaxşıdır". Sonra Allah tövbənizi qəbul etdi. Çünki O, tövbələri qəbul edən və bağışlayandır.

55. (Yadınıza salın ki,) “Ya Musa, Allahı açıq-aşkar görməyincə, sənə əsla iman gətirməyəcəyik”, - dediyiniz zaman gözünüz görə-görə sizi ildırım vurdu.

56. Sizi ölümünüzdən sonra yenidən diriltdik ki, bəlkə (Onun nemətlərinə) şükür edəsiniz.

57. Üstünüzə buludla kölgə saldıq. Sizə ağac şirəsi və bildirçin göndərdik. (Və dedik:) “Ruzi olaraq verdiyimiz pak nemətlərdən yeyin!” (Amma siz naşükürlük etdiniz). Onlar bizə yox, özlərinə zülm edirdilər.

---

49. İsrail oğullarının başının kəsilmə səbəbi: Fironun İsrail övladlarının başını nədən kəsməsi haqqında müxtəlif versiyalar mövcuddur. Bəzilərinə görə, o, yuxuda "beytül-Müqəddəs tərəfindən alovlaıb bütün Misir evlərini bürüyən və qibtilərin (Firon tərəfdarlarının) evini yandıran, İsrail oğullarının evinə isə yaxın düşməyən od gördü. O, yuxuyozanlardan izahat tələb etdi. Onlar dedilər: "Beytül-Müqəddəsdən bir kişi çıxacaq və fironçuların hakimiyyətini, gücünü məhv edəcək". Bəzilərinə görə, bu məsələni Firona kahinlər (cinlərlə əlaqədə olub, gələcək və qeyblə bağlı məlumatı olanlar) xəbər verdilər. Bəzilərinin fikrincə isə bu xəbəri keçmiş peyğəmbərlər vermişdilər və Fironun da qulağına çatmışdı. Hər halda o Bəni-İsraildən olan oğlan uşaqlarını öldürməklə belə bir şəxsin qiyamını önləmək istəyirdi. Bəzi təfsirçilərə görə, fironçular bu planı Bəni-İsraili zəiflətmək üçün qurmuşdular ki, onların üsyan və savaş gücü olan oğul övladlarını aradan götürsünlər, təkbaşına üsyan edəcək, mübarizə aparacaq gücü olmayan qadınlarını isə xidmətçi olaraq istifadə etmək üçün sağ saxlasınlar. Bundan başqa, "Ğafir" surəsinin 25-ci ayəsindən aydın olur ki, Bəni-İsrail qadınlarının oğul uşaqlarını öldürmək, qız uşaqlarını isə sağ saxlamaq prosesi hətta həzrət Musanın (ə) qiyamından sonra da davam edirdi: "*(Musa) onlar üçün dərgahımızdan haqq gətirdikdə onlar: "Ona iman gətirənlərin oğlanlarını öldürün, qadınlarını (qızlarını) isə diri saxlayın!" – dedilər*".[46]

---

[46] "Nümunə", c. 16, səh. 12.

50. Nil çayı böyük bir dəniz kimi: Ayədə "bəhr" sözündə məqsəd böyük Nil çayıdır ki, böyüklüyünə görə ona dəniz deyilmişdir.[47]

54. Buzova sitayişin ağır cəzası: Bəzi rəvayətlərə görə, həzrət Musanın (ə) fərmanı ilə buzova sitayiş edənlərdən yetmiş min nəfəri səhər vaxtı qılınc çəkib bir-birlərini öldürməyə başladılar. Onların on min nəfəri öldürüldü. Bu zaman həzrət Cəbrayıl nazil oldu və Musaya (ə) dedi: "Onlara söylə, bir-birlərini öldürməyi saxlasınlar. Allah tövbələrini qəbul etdi".[48] Buzova sitayiş edənlərə belə ağır və qəribə cəza verilməsinin səbəbinə gəlincə, bəziləri bildirmişlər ki, buzova sitayiş etməyin özünün çox böyük günah olmasına baxmayaraq, onun bu qədər böyük və aydın möcüzələr, nişanələr görən qövm tərəfindən edilməsi daha çirkin idi. Allah onlara belə ağır bir cəza kəsdi ki, buzova sitayiş etmək bir də əsla onların ağlından keçməsin.[49]

57. Allahın İsrail övladlarına lütfləri: Bəzi təfsirçilərə görə, Musa (ə) Bəni-İsraili böyük Nil çayından keçirdikdən sonra onlar biyabanda mənzil saldılar. Musaya dedilər: "Ey Musa! Bizi həlak etdin. Abad şəhərimizdən, yurd-yuvamızdan kölgəsi, ağacı, suyu olmayan çölü-biyabana gətirdin".

Allah bir bulud göndərdi ki, gündüzlər onların üzərinə kölgə salsın. Gecələr onlar üçün ləziz şirə göndərirdi. Onu bitkilərin, ağacların, daşların üzərinə qoyurdu. Günorta vaxtı isə süfrələrində qızarmış quş olurdu. Musanın (ə) yanında bir daş da var idi ki, əsa ilə ona vururdu və ondan on iki bulaq (Bəni-İsrail qəbilələrinin sayı qədər) qaynayırdı. Belə ki, hər qəbilə özünə məxsus olan çeşmədən istifadə edirdi. "Bəqərə" surəsinin 60-cı ayəsində də buna işarə vurulmuşdur.[50]

---

[47] "Nümunə", c. 8, səh. 375.
[48] "Əl-Mizan", c. 1, səh. 190.
[49] "Nümunə", c. 1, səh. 255.
[50] "Əl-Mizan", c. 1, səh. 191.

58. (Yadınıza salın ki) o zaman dedik: “Bu şəhərə (Beytül-Müqəddəsə) girin, onun firavan nemətlərindən istədiyiniz yerdə yeyin, (Beytül-Müqəddəs məbədinin) qapısından (Allaha) səcdə edərək daxil olun və (Ya Rəbb!) “günahlarımızı tök!” - deyin ki, xətalarınızı bağışlayaq. Biz yaxşı əməl edənlərin savabını artıracağıq.

59. Amma zülm edənlər onlara deyilən bu sözü başqası ilə dəyişdirdilər (Onun yerinə kinayəli söz işlətdilər). Buna görə də zülm edənlərə bu itaətsizliyə görə göydən əzab göndərdik.

60. (Yadınıza salın ki) Musa öz qövmü üçün su istədikdə, Biz ona: “Əsanı o xüsusi daşa vur!” – deyə əmr etdik. Qəfildən ondan on iki çeşmə fışqırdı. Belə ki, (İsrail övladlarının on iki tayfasıdan) hər biri öz çeşməsini tanıdı. (Və dedik:) “Allahın verdiyi ruzidən yeyin-için, fəqət yer üzündə fəsad törətməyin!”

61. Onda siz dediniz: “Ya Musa! Biz bir növ təama heç vaxt dözməyəcəyik! Rəbbindən istə ki, bizim üçün torpağın bitirdiyi şeylərdən - göyərtisindən, xiyarından, sarımsağından, mərcisindən və soğanından yetirsin! (Musa da cavabında) dedi: “Siz xeyirli olan şeyləri bu cür alçaq şeylərlə dəyişdirmək istəyirsiniz? (İndi ki, belədir, çalışın bu çöldən) şəhərlərdən birinə enin, çünki orada sizin üçün istədiyiniz hər şey var”. Onlara zəlillik, miskinlik (damğası) vuruldu və Allahın qəzəbinə düçar oldular. Çünki onlar Allahın ayələrini inkar edir və peyğəmbərləri haqsız yerə öldürürdülər. Bu (həm də) onların (Allaha) asi olduqlarına və həddi aşdıqlarına görə idi.

---

58. Əhli-beyt (ə) vilayəti - ilahi əfv qapısı: İmam Sadiqdən nəql olunan bir rəvayətdə deyilir: "Biz sizin bağışlanma qapınızıq". Yəni, biz sizin üçün Bəni-İsrailin keçməli və günahları bağışlansın deyə, "hittə!" (günahlarımızı tök) deməli və ilahi mükafat almalı olduğu qapı kimiyik. Müsəlmanlar da ilahi rəhmətə qovuşmaq, əfvə nail olmaq istəyirlərsə, Əhli-beytin (ə) vilayətini etiraf etməli və onların sevgi hərəminə daxil olmalıdırlar.[51]

59: Bəni-İsrailin Allahın fərmanına etinasızlığı: Qurana görə, Bəni-İsrail Beytül-müqəddəs məbədinə daxil olanda "hittə!" (İlahi, günahlarımızı tök!) sözünü dilə gətirməli idi. Bəzi təfsirçilərə görə isə onlar bu sözü istehza ilə, Allahn fərmanına qarşı gələrək dəyişdilər. Onun yerinə "hintə", yəni buğda dedilər.[52]

59. Bəni-İsrailin etinasızlığının əzabı: "Ricz" sözünün lüğəti mənası iztirab və nizamsızlıqdır. Hicaz şivəsində əzab mənasını verir. Bəzi rəvayətlərdə ayədəki bu söz taun xəstəliyi kimi izah edilmişdir ki, sürətlə Bəni-İsrail arasında yayıldı və maraqlı burasıdır ki, onlardan yalnız zalım olanlara yoluxdu.[53]

61. Bəni-İsrailin bir növ yeməyə dözümsüzlüyü: “Bir növ təam” dedikdə şirə və quş nəzərdə tutulur. Bu iki növ qidanın bir növ hesab olunmasına səbəb budur ki, onda müxtəliflik, çeşidlilik yox idi. Bir növ qida nə qədər dadlı olsa da yeknəsək və təkrar olduqda insanı çiyrindirir.[54]

61. Bəni-İsrailin mənzil saldığı şəhər: "Misir" sözü əslində iki şey arasındakı həd, sərhəd, yaxud torpaq sahəsi mənalarında işlənir. Şəhərlər müəyyən hüdudlara sığdığından "Misir" adlanırlar.[55] Buna nəzərən

---

[51] "Ətyəb əl-bəyan", c. 2, səh. 41.
[52] "Məcmə əl-bəyan", c. 1, səh. 230.
[53] "Nümunə", c. 1, səh. 269.
[54] "Ətyəb əl-bəyan", c. 2, səh. 44.
[55] "Qamusi-Quran", c. 6, səh. 260.

düşünürük ki, bu ayədə "Misir"də məqsəd onun ümumi məfhumu, yəni şəhərdir (ölkə yox). Yəni, siz hazırda bu çöldə özünütərbiyə sınağından keçirsiniz. Bura növbənöv qidaların yeri deyil. Gedin, şəhərlərdə məskən salın. Orada bunların hamısı var. Amma bu özünütərbiyə proqramı orada yoxdur.[56]

61. Yəhudilərin peyğəmbərləri öldürməsi: Deyilənə görə, yəhudilər çoxlu sayda peyğəmbəri müxtəlif üsullarla, o cümlədən başını kəsmək, quyuya atmaq, qazanda qaynatmaq, yandırmaq və s. öldürmüşlər. Bundan başqa padşahların fərmanları, kafir və müşriklərin əli ilə bir çox peyğəmbərlərin ölümünə vasitə olmuşlar.[57]

[56] "Nümunə", c. 1, səh. 278.
[57] "Ətyəb əl-bəyan", c. 2, səh. 26.

62. (İslam peyğəmbərinə) iman gətirənlərdən, musəvi (yəhudi), isəvi (xristian) və sabiilərdən (Yəhya peyğəmbərin ardıcılları) Allaha, axirət gününə inanıb yaxşı iş görənlərin mükafatları Rəbbinin yanındadır. Onların nə bir qorxusu var, nə də onlar bir qəm-qüssə görərlər (İlahi dinlərin ardıcıllarının hər biri öz dövründə vəzifələrinə və dini əmrlərə uyğun əməl etmişsə, mükafatını alacaq və nicat tapacaqdır).

63. (Yadınıza salın ki) bir zaman sizdən əhd-peyman aldıq və Tur dağını başınızın üzərinə qaldırdıq (və sizə dedik:) "(Allah ayələrindən, fərmanlarından) sizə verdiyimizi möhkəm tutun, içindəkiləri unutmayın ki, bəlkə, təqvalı olasınız".

64. Sonra bunun ardınca siz üz döndərdiniz. Əgər sizə Allahın lütfü və rəhmi olmasaydı, şübhəsiz, ziyana uğrayanlardan olardınız.

65. Şübhəsiz, sizin aranızdan şənbə günü əmrə uymayıb günah edənlər haqqında məlumatınız var . Biz də onlara: "Qovulmuş meymunlar olun!" – dedik.

66. Biz bu cəzanı onların müasirləri və sonrakı nəsillər üçün ibrət, təqvalılar üçün isə öyüd-nəsihət etdik.

67. (Yadınıza salın ki) bir zaman Musa öz qövmünə dedi: "Allah sizə bir inək kəsmənizi əmr edir! (Onun bədəninin bir hissəsini qatili tapılmayan ölüyə vurun ki, dirilsin, qatilinin kim olduğunu bildirsin və bununla da hay-küy yatsın.)" (Onlar isə) dedilər: "Bizi ələ salırsan?" (Musa) dedi: "Cahillərdən olmaqdan Allaha sığınıram".

68. Onlar dedilər: "(Elə isə) bizim üçün Rəbbindən istə ki, onun necə (inək) olmasını bizə bildirsin?" (Musa:) "Allah o inəyin nə çox qoca, nə də çox cavan yox, bunların ikisinin arasında olduğunu buyurur. Sizə əmr olunanı (yubanmadan) yerinə yetirin!" – dedi.

69. Onlar dedilər: “Bizim üçün Rəbbindən istə, qoy onun rəngini də bizə bildirsin”. O da cavabında: “(Allah) onun tam sarı rəngli və görənlərə xoş gələn (bir inək) olduğunu buyurur”, - dedi.

---

62. İstənilən dinə sitayiş nicat tapmağa səbəb olurmu? Bəzən bu ayəyə istinad edərək digər bütün dinlərin doğru olmasının əsaslandırıldığını görürük. Onlar iddia edirlər ki, Qurana görə, kim sözü gedən dinlərdən birinə iman edərsə, Qiyamətdə nicat tapacaqdır. Amma nəzərə almaq lazımdır ki, bu ayədə yəhudi və xristianların bəzi əsassız etiqadları tənqid olunmuşdur. Çoxsaylı Quran ayələrinə görə, onlar seçilmiş ümmət olduqlarına, hidayət olunmuş irq və xalq olduqlarına, digər insanlardan fərqləndiklərinə inanırdılar. Özlərini Allahın övladları və dostları hesab edirdilər. Onların etiqadına görə, axirət dünyası onlara məxsus idi. Cəhənnəmə getməli olsalar da bu çox qısa müddətlik olacaq. Məlum ayə bu yanlış və azğın etiqada cavab olaraq cahanşümul müraciətlə buyurur ki, bütün insanlar Allah dərgahında eynidirlər. Heç bir zümrə başqa bir zümrədən üstün deyil. Tək müsəlman, yəhudi, xristian və s. adı üzərində olmaqla xilas olmaq mümkün deyil. Əksinə, Qiyamətdə xilas olmağın əsası budur ki, insan həqiqətən səmimi qəlbdən iman gətirsin və onu yaxşı əməllə müşayiət etsin. Buna görə də bu ayə əsla bütün şəriətləri rəsmiləşdirmir. Bəşəriyyəti bu yollardan istədiyini seçməkdə azad buraxmır. Əksinə, ayədə məqsəd özünü yüksəkdə görməyin, yəhudilik və s. kimi sözlərin əsassız olmasıdır. Bu səbəbdən də sözügedən ayədən ümumi sülh nəzəriyyəsini anlamaq və bütün dinlərin ardıcıllarının nicat tapacağını anlamaq olmaz. Quranın hansı dinin ardıcılı olmağı Qiyamətdə xilas olma səbəbi hesab

etdiyini bilmək üçün digər ayələrə - misal üçün, "Ali-İmran" surəsinin 85-ci ayəsnə - müraciət etmək lazımdır.[58]

63. Dağı Bəni-İsrailin başı üzərinə qaldırmağın səbəbi: Dağı Bəni-İsrailin başı üzərinə qaldırmaqda məqsəd onları böyük ilahi qüdrətdən qorxutmaq, Allahın fərmanlarına əməl etməyə səsləmək olmuşdur. Əlbət ki, bu dəvətdə ikrah və məcburiyyət olmamışdır. Onda məqsəd onlara Allahın əzəmətli qüdrətini göstərmək olmuşdur. Çünki əgər dağı Bəni-İsrailin başı üzərinə qaldırmaq ikrah və məcburiyyətə səbəb olsaydı, o zaman həzrət Musanın (ə) digər bir çox möcüzələri də ikrah və məcburiyyətə, insanların zorla dinə gətirilməsinə səbəb olardı. Bir halda ki, Qurana görə, onlar bütün bu heyrətləndirici möcüzələrə şahid olandan sonra yenə də iman gətirmədilər. Necə ki, sonrakı ayədə deyilir: "Sonra bunun ardınca siz üz döndərdiniz".[59] Ətraflı məlumat üçün, "Əraf" surəsinin 171-ci ayəsinin izahına bax.

65. "Əshabi-Səbt" haqqında ətraflı məlumat üçün, "Əraf" surəsinin 165-ci aysəinə bax.

---

[58] "Mənşuri-cavid", c. 3, səh. 217.
[59] "Əl-Mizan", c. 1, səh. 197; "Ətyəb əl-bəyan", c. 2, səh. 50.

70. (Onlar yenə) söylədilər: “Bizim üçün Rəbbindən istə ki, onun necə (inək) olmasını bizə bildirsin, çünki bu inək bizə qaranlıq qalıb. Əgər Allah istəsə, əlbəttə, düz yolda olacağıq”.

71. (Musa) dedi: “(Rəbbiniz) buyurur ki, o, nə yer şumlamağa ram edilmiş, nə də əkin suvarmış bir inəkdir. Eyibsiz-qüsursuzdur, hətta heç bir başqa rəngi yoxdur”. (Bu zaman) onlar: “İndi həqiqəti gətirib çıxartdın”, - dedilər və onu (belə bir inəyi tapıb) kəsdilər. Amma az qalmışdı ki, bu işi görməsinlər.

72. (Yadınıza salın ki,) siz o zaman bir nəfəri öldürüb, sonra onun (qatili) barəsində mübahisə etdiniz. Allah gizlətdiyinizi aşkara çıxarır.

73. (Belə olduqda) dedik: “(Kəsilmiş inəyin) bir parçasını ölüyə vurun (ki, dirilib qatilinin kim olduğunu bildirsin)”. Allah ölüləri belə dirildər və sizə Öz nişanələrini göstərər ki, bəlkə düşünəsiniz.

74. Bundan (bu əhvalatdan) sonra qəlbləriniz yenə sərtləşərək daş kimi, bəlkə, daha da bərk oldu. Çünki bəzi daşların içərisindən nəhrlər axır, bəzisi yarılıb içindən su fışqırır və bəzisi də Allahın qorxusundan (dağdan yuvarlanıb) düşür (Amma sizin qəlbləriniz nə Allah qorxusu ilə döyünür, nə də bilik və insani duyğuların mənşəyidir). Allah sizin etdiklərinizdən qafil deyildir.

75. İndi onların sizə (dininizə) inanacaqlarınımı umursunuz? Halbuki onların içərisində elələri vardır ki, Allahın kəlamını dinləyib anladıqdan sonra, onu bilə-bilə təhrif edirlər.

76. İman gətirənlərlə görüşdükləri zaman: “İman gətirdik”, - deyirlər. Bir-birləri ilə xəlvətə çəkildikdə isə (bəziləri digərlərinə etiraz olaraq): “Allahın (İslam peyğəmbərinin nişanələri haqqında) sizə bildirdiyi şeyi onlara (müsəlmanlara) danışırsınız ki, (Qiyamət günü) Rəbbinizin yanında onları sizə qarşı dəlil gətirsinlər? (Bunu) dərk etmirsinizmi?” – söyləyirlər.

---

71. Bəhanə aramaq və vəzifənin ağırlaşdırılması: İmam Rzadan (ə) aşağıdakı məzmunda bir rəvayət nəql olunmuşdur: "Bəni-İsraildən bir kişi yaxınlarından birini öldürdü, nəşini isə qəbilələrdən birinin yolu üstünə atdı. Sonra bir dəstə toplayıb ölənin qanını tələb etmək üçün həzrət Musanın (ə) yanına getdi və ondan qatili tapıb üzə çıxarmasını istədi. Musa (ə) dedi: "Mənim üçün bir inək gətirin". Dedilər: "Bizi ələ salmısan?" Musa (ə) dedi: "*Cahillərdən olmaqdan Allaha sığınıram*". Əgər onlar inək gətirsəydilər, sonrakı zəhmətlərə qatlaşmazdılar. Amma onlar işi daha da çətinləşdirdilər. Allah da onların işini ağırlaşdırdı. Dedilər: "*Bizim üçün Rəbbindən istə ki, onun necə (inək) olmasını bizə bildirsin*". Musa dedi: "*Allah o inəyin nə çox qoca, nə də çox cavan yox, bunların ikisinin arasında olduğunu buyurur. Sizə əmr olunanı (yubanmadan) yerinə yetirin!*" Nəhayət, həmin əlamətlərə uyğun inəyi Bəni-İsraildən olan bir gəncdən tapdılar. Gənc dedi: "Mən inəyimi bir qızıl dolu dəridən başqa heç nəyə satmıram", Onu satın aldılar. Musanın (ə) göstərişi ilə kəsdilər. Ətinin bir parçasını ölünün bədəninə vurdular. Məqtul dilildi və qatilinin kim olduğunu açıqladı. Musa (ə) səhabələrinə dedi: "İnək əhvalatı bundan ibarət idi ki, əməlisaleh bir gənc atasına çox hörmət qoyurdu. Bir gün onun üçün çox qazanc gətirəcək bir alış-veriş fürsəti yarandı. Atasının yanına getdi ki, sandığın və ya otağın açarını alsın. Amma atası yatdığından onu oyadıb narahat etmədi və alış-verişdən vaz keçdi. Atası əhvalatdan xəbərdar olub ona "afərin" dedi və

həmin inəyi ona bağışladı". Sonra həzrət Musa (ə) buyurdu: "Yaxşı əməlin sahibinə necə çatdığına baxın!"[60]

74. Mövcudatın Allaha təbii itaəti: Ayənin "*(Bəzi daşlar) Allahın qorxusundan (dağdan yuvarlanıb) düşür*" hissəsi insanlarda belə bir sual doğura bilər ki, daşların dağlardan yuvarlanıb düşməsi zəlzələ və s. təbii hadisələrlə bağlı olduğu halda Quran onların Allahın qorxusundan düşdüyünü bildirir. Bu suala cavab olaraq demək lazımdır ki, bütün səbəblər sonunda Allaha gedib çıxır. Daşın dağdan aşağı yuvarlanmasında təbii hadisələrdən təsirlənməsi əslində Allahın gerçəklikdə yaratdığı qanunlardan təsirlənməsidir. Daş dağdan düşdükdə əslində Allahın qanunu, ilahi fərman icra olunur. Sanki daş Allahın fərmanından itaət üçün, Onun qanununa itaətsizlik qorxusundan aşağı yuvarlanır. Necə ki, "Bəqərə" surəsinin 166-cı ayəsində oxuyuruq: "*Göylərdə və yerdə nə varsa, hamısı Ona məxsusdur, hamısı Onun itaətindədir*".[61] Güman ki, bütün varlıqlar, hətta daşlar da Allahın əmrlərinə uyurlar. Amma insanın qəlbi o qədər sərtdir ki, ilahi fərmanlara əsla diqqət etmir.

---

[60] "Əl-Mizan", c. 1, səh. 203.
[61] Yenə orada, c. 1, səh. 202.

77. Onlar bilmirlərmi ki, Allah onların gizli saxladıqlarını və aşkara çıxartdıqlarını bilir?!

78. Onların bəziləri Allah kitabını boş arzulardan (xam xəyallardan) başqa bir şey sanmayan avamlardır (bisavadlardır). Onlar yalnız zənnə qapılırlar.

79. Vay o şəxslərin halına ki, onlar öz əlləri ilə kitab yazır, sonra da: “Bu, Allah tərəfindəndir!” – deyirlər ki, onu az qiymətə satsınlar. Öz əlləri ilə yazdıqlarına görə vay onların halına! Qazandıqları şey üçün vay onların halına!

80. (Onlar): “Cəhənnəm odu bizə bir neçə gündən artıq toxunmaz” – dedilər. (Onlara) de: “Allahdan belə bir əhd almısınızmı? - Allah heç vaxt öz əhdindən dönməz. - Yoxsa Allaha qarşı bilmədiyinizi söyləyirsiniz?”

81. Bəli, günah edən və günahlarının təsiri bütün varlığını bürüyən şəxslər od əhlidirlər və onlar orada əbədi qalacaqlar.

82. İman gətirənlər və yaxşı işlər görənlər isə behişt əhlidirlər və onlar orada əbədi olacaqlar.

83. (Yadınıza salın ki,) bir zaman İsrail oğullarından: “Allahdan qeyrisinə ibadət etməyin, valideynlərinizə, yaxın qohumlarınıza, yetimlərə, yoxsullara yaxşılıq edin, insanlarla xoş danışın, namaz qılın, zəkat verin!” – deyə əhd-peyman aldıq. Sonra (əhdinizə rəğmən) az bir qisminiz istisna olmaqla üz döndərdiniz və (əhdinizə vəfa etməkdən) boyun qaçırdınız.

---

78. Təqlid - kortəbii, yoxsa şüurlu: "Bəqərə surəsinin 75-ci və 79-cu ayələri yəhudiləri iki qismə ayırır. Birinci qisim səmavi kitabı oxuyur, amma onu öz istəklərinə uyğun yazır və təhrif edirdi. İkinci qisim oxumaq və

yazmaq bilmidi. Səmavi kitabdan yalnız birinci qismin onlara dediyi təhrif və yalanları bilirdilər.[62] Bu ayə ilə bağlı nəql olunmuşdur ki, bir kişi İmam Sadiqə (ə) dedi: "Avam (savadsız) yəhudilər öz səmavi kitablarından yalnız alimləri vasitəsi ilə xəbər tutduqları halda, necə olur ki, Allah onları alimləri qəbul etdikləri, onlardan söz dinlədikləri üçün məzəmmət edir? Yəhudi avamları bizim alimləri eşidən, onların ardınca gedən avamlarımızdan fərqli idilərmi?" İmam (ə) buyurdu: "Bizim avamlarımız yəhudi avamlarından bir cəhətdən fərqli, digər cəhətdən isə onlara bənzərdirlər. Allah yəhudi avamlarını qınadığı kimi bizim də avamlarımızı qınayıb. Onların fərqi budur ki, yəhudi avamları alimlərinin vəziyyətindən xəbərdar idilər və bilirdilər ki, onlar açıq şəkildə yalan danışırlar. Haram yeyir, rüşvət alırlar. Allahın hökmlərini dəyişirlər. Onlar öz vicdanları ilə bu gerçəyi dərk etmişdilər ki, belə şəxslər günahkardırlar. Onların Allah və Onun hökmləri haqqındakı sözlərini, peyğəmbərlər haqqında şahidliklərini qəbul etmək doğru deyil. Bu səbəbdən Allah onları qınamışdır. Əgər bizim avamlarımız da öz alimlərindən aşkar günah, şiddətli təəssüb, dünya və harama tamahı görüb, onların ardınca getsələr, günahkar alimlərin ardınca getdikləri üçün qınanan yəhudilər kimi olacaqlar". Sonra imam (ə) buyurdu: "Avam, savadsız insanlar ruhunun saflığını qoruyan, dinə sadiq olan, nəfsani həvəslərə qarşı gələn, ilahi fərmana müti olan alimlərin ardınca getməlidirlər".[63]

80. Yəhudilik və irqi üstünlük etiqadı: Bu ayə yəhudilərin əsassız sözlərindən birinə işarədir. Bu illüziya onları qürrələndirirdi, yanlışlıqlarına, eqoistliklərinə, xudpəsəndliklərinə səbəb olurdu. Bu etiqada əsasən, yəhudi irqi bütün irqlərdən üstündür. Onlar fərqlidirlər, günahkarları yalnız qısa bir müddət cəzalandırılacaqlar. Sonra isə Allahın əbədi behişti onların ixtiyarına

---

[62] "Əl-Mizan", c. 1, səh. 214.
[63] "Nümunə", c. 1, səh. 319.

veriləcək. Yəhudilər özlərini peyğəmbərlərin övladları hesab edir və deyirdilər: "Onlar Qiyamət günü öz övladları ilə bağlı şəfaət edəcəklər". Həmçinin onların şəfaət edəcəyinə inandıqlarından deyirdilər: "*Cəhənnəm odu bizə bir neçə gündən artıq toxunmaz*". Bu ayə məntiqi açıqlama ilə sözügedən yanlış düşüncəni aradan qaldırır və bildirir ki, sizin bu sözünüz iki haldan xaric deyil. Ya Allahla bu haqda xüsusi əhd-peyman bağlamısınız. - Təbii ki, belə bir əhd-peyman yoxdur. - Ya da Allaha qarşı yalan danışırsınız.[64]

83. Xoş danışmaq: İmam Sadiq (ə) "*İnsanlarla xoş danışın*" ibarəsi ilə bağlı buyurur: "İnsanlarla xoş danışın. Yaxşılıq və xeyirdən başqa bir şey haqqında danışmayın. Nə qədər ki, bir sözün yaxşı olduğunu bilmirsiniz, dilinizə gətirməyin". İmam Baqirdən (ə) nəql olunan bir rəvayətdə oxuyuruq: "İnsanlarla sizinlə danışılmasını istədiyinizdən daha yaxşı və xoş danışın".[65]

[64] "Nümunə", c. səh. 322; "Mənşuri-cavid", c. 8, səh. 68.
[65] "Əl-Mizan", c. 1, səh. 218.

84. (Xatırlayın ki,) o zaman sizdən: “Bir-birinizin qanını tökməyin, bir-birinizi yurdunuzdan çıxarmayın!” – deyə əhd aldıq. Sonra da siz (özünüz bu əhdə) şahidlik edərək (onu) təsdiqlədiniz.

85. Amma yenə bir-birinizi öldürən, özünüzdən olan bir dəstəni öz yurdundan çıxaran, onlara qarşı bu günah və təcavüzdə köməkləşən sizsiniz (Bunlar hamısı Allahla bağladığınız əhdi pozmaqdır). Onlar əsir düşüb yanınıza gəlsələr, fidyə verib azad edirsiniz. Halbuki onları (öz yurdlarından) çıxartmaq sizə haram edilmişdi. Məgər, siz səmavi kitabın bir hissəsinə inanıb, digər qismini inkar edirsiniz? Sizlərdən bu cür işlər görənlərin (ilahi hökmlər və qanunlar arasında fərq qoyanların) cəzası dünyada yalnız rüsvay olmaq, Qiyamətdə isə ən şiddətli əzaba düçar olmaqdır. Allah gördüyünüz işlərdən qafil deyil.

86. Onlar axirəti dünya həyatına satan kimsələrdir. Buna görə də onların əzabı yüngülləşməz və onlara kömək olunmaz.

87. Biz Musaya kitab (Tövrat) verdik, ondan sonra bir-birinin ardınca peyğəmbərlər göndərdik. Məryəm oğlu İsaya aşkar dəlillər bəxş etdik və onu Müqəddəs Ruhla qüvvətləndirdik. Hər dəfə sizə ürəyinizə yatmayan (nəfsinizin istəklərinə uymayan) bir şey gətirən peyğəmbərə təkəbbür göstərmədinizmi? (Ona iman gətirməkdən imtina etmədinizmi?) Onların bir qismini təkzib edib, bir qismini isə öldürmədinizmi?

88. (Onlar istehza ilə) dedilər: “Bizim qəlblərimiz örtülüdür”. (Biz sənin sözlərindən bir şey anlamırıq). (Əslində) Allah onları məhz küfrlərinə görə lənətləmişdir (rəhmətindən uzaq salmışdır. Ona görə də bir şey anlamırlar). Odur ki, onlar az inanırlar.

---

85. Yəhudilər və əsirlər üçün fidyə ödəmək: Əksər təfsirçilər bu ayə haqqında bildirmişlər ki, Bəni-Qüreyzə və Bəni-Nəzir qəbilələrinin hər ikisi yəhudi qəbilələrindən idi və bu qəbilələr bir-birləri ilə yaxın qohum idilər. Onlar dünya mənafeyinə görə bir-birləri ilə qarşı-qarşıya gəldilər. Bəni-Nəzir Xəzrət qəbiləsinə qoşuldu. Bəni-Qüreyzə isə Əvs qəbiləsinə qoşuldu. Hər ikisi (Xəzrəc və Əvs) müşrik ərəb qəbilələrindən idi. Xəzrəc və Əvs qəbilələri arasında baş verən döyüşlərdə Bəni-Qüreyzə və Bəni-Nəzir də öz müttəfiqlərinə kömək edirdi. Lakin döyüş alovu sönükdükdən sonra bütün yəhudilər toplaşıb, əl-ələ verib fidyə (əsirləri azad etmək üçün ödənilən vəsait) ödəyərək əsirlərini azad edirdilər. Bu işlərində Tövratın hökm və qanununu əsas gətirirdilər. Bir halda ki, birincisi, Əvs və Xəzrəc hər ikisi müşrik qəbilələr idilər və onlara kömək icazəli deyildi. İkincisi, fidyə ödəmək əmrini verən qanun qətldən çəkinmək əmrini də vermişdir. Yəhudilər arasında digər nadan və inadkar qövmlərdə olduğu kimi bu növ ziddiyyətli əməllər çox idi. Ayənin işarələrindən biri budur ki, iman və təslim olmağın nəticəsi özünü qanun insanın şəxsi mənafeyinə zidd olanda göstərir. Bu halda insan ilahi qanuna hörmət edərsə, imanlıdır deməkdir. Yoxsa, ilahi göstərişlər insanın mənafeyini qorumaq yönündə olanda ona əməl etmək nə fəxrdir, nə də iman əlaməti. Buna görə də möminləri müsəlmanlardan daim bu yolla ayırmaq olar. Çünki möminlər ilahi qanunların hamısına təslim olurlar. Münafiqlər isə ayrı-seçkilik edirlər.[66]

86. Dünya və onun axirət qarşısında dəyərsizliyi: Allah Quranda dəfələrlə dünya həyatını məzəmmət etmiş, insanlara xəbərdarlıq etmişdir: "*Dünya həyatı sizi aldatmasın*". Bu qınağın səbəbinə gəlincə, Quran insanlara elə bir

[66] "Nümunə", c. 1, səh. 231.

həyat və yaşam vəd etmişdir ki, dünya həyatı onun yanında çox dəyərsizdir. Onu dünya həyatına satmaq olmaz. Allah-Taala "Tövbə" surəsinin 38-ci ayəsində dünya və axirət arasındakı fərq haqqında buyurur: "*Axirətə qarşılıq dünya həyatınamı razı oldunuz? Halbuki dünya malı axirət yanında (axirətlə müqayisədə) çox cüzi bir şeydir!*" Həzrət Peyğəmbərdən (s) nəql olunan bir rəvayətdə oxuyuruq: "Dünya və axirətin müqayisəsi sizdən birinizin barmağını dənizə salıb, sonra onu çıxarması kimidir. Görün onun barmağı dəniz suyundan nə qədər götürə bilmişdir".[67] Həzrət Əli (ə) isə buyurur: "Bir azad kişi yoxdurmu ki, ağızda qalmış bu artığı (dəyərsiz dünyanı) öz əhlinin (kafir və münafiqlərin) ixtiyarına buraxsın? Sizin canlarınızın qiyməti və dəyəri ancaq Cənnətdir. Elə isə özünüzü ondan başqa heç nəyə satmayın".[68] Bəli, insan dünya və axirət yolayrıcında qalanda dünyanı seçərsə, Quranın qınağına tuş gələr. Necə ki, "Əraf" surəsinin 32-ci ayəsində oxuyuruq: *De: "Allahın Öz bəndələri üçün yaratdığı zinəti və təmiz (halal) ruziləri kim haram etmişdir?" De: "Bunlar dünyada iman gətirənlər üçündür (hərçənd, başqaları da onlardan istifadə edə bilirlər), (lakin) Qiyamət günündə (axirətdə) isə xalis (möminlərə məxsus) olacaqdır". Ayələrimizi anlayıb-bilənlərə belə izah edirik".*

87. Ruh əl-Quds (Müqəddəs Ruh): Təfsirçilər Müqəddəs Ruh haqqında müxtəlif fikirləri irəli sürmüşlər. Bəzilərinə görə,burada Cəbrayıl nəzərdə tutulur. Bu ehtimala əsasən ayə belə başa düşülməlidir: "Allah İsaya Cəbrayıl vasitəsilə yardım etdi və onu qüvvətləndirdi". Buna sübut "Nəhl" surəsinin 102-ci ayəsidir. Ayədə deyilir: "*De: "Müqəddəs Ruh onu (Quranı) Rəbbin tərəfindən haqq olaraq nazil etmişdir*!" Cəbrayıla Müqəddəs Ruh deyilməsinə səbəb budur ki, mələklərdə ruhanilik yönü aydın məsələdir.

---

[67] Yenə orada, c. 20, səh. 455.
[68] "Nəhc əl-bəlağə", qısa kəlamlar: 456.

Onlara ruh deyilməsi də bu səbəbdəndir. Ona “müqəddəs” sözünün əlavə edilməsi isə bu mələyin fövqəladə şəkildə pak və müqəddəs olmasına işarədir.[69]

[69] "Nümunə", c. 1, səh. 338.

89. Onlara Allah tərəfindən özlərində (kitablarında) olan nişanələrə uyğun bir kitab göndərildiyi zaman, bundan qabaq özlərinə kafirlər üzərində qələbə (onun köməyi ilə kafirlərə qalib gələcəkləri) müjdəsi verdikləri (öncədən) tanıdıqları (kitab və peyğəmbər) göndərildiyi zaman, ona küfr etdilər. Allah kafirlərə lənət eləsin!

90. Onlar Allahın göndərdiyini boşuna inkar etməklə, "Allah nə üçün öz lütfü ilə istədiyi bəndəsinə ayələrini nazil edir?" - deyə etiraz etməklə özlərini çox pis şey qarşılığında satdılar və Buna görə də onlar (Allahın) qəzəbi üstünə bir qəzəb də artırdılar. Kafirlər üçün alçaldıcı bir əzab var.

91. Onlara: “Allahın nazil etdiklərinə inanın!” – deyildikdə, onlar: “Biz özümüzə göndərilənə inanırıq”, - deyir, ondan başqasını inkar edirlər. Halbuki o həqiqətdir və onlara nazil olanı təsdiq edir. (Onlara) söylə: “Əgər (doğru deyirsinizsə, özünüzə nazil olan ayələrə) inanırsınızsa, bəs nə üçün bundan qabaq Allahın peyğəmbərlərini öldürürdünüz?”

92. Musa sizə o qədər dəlillər (möcüzələr) gətirdi. Siz isə onun ardınca (Musa yox ikən) zülm edərək buzovu (tanrı) seçdiniz.

93. (Yadınıza salın ki,) o zaman Biz sizdən əhd aldıq, Tur dağını başınızın üstünə qaldırdıq (və dedik): “Sizə verdiyimiz (fərmanlardan) möhkəm yapışın və (düzgün) eşidin!” Onlar isə: “Eşitdik, amma qarşı çıxdıq”, – dedilər. Çünki küfrləri üzündən buzovun məhəbbəti qəlblərini bürümüşdü. (Onlara) de: “Əgər iman gətirmisinizsə, imanınız sizə necə də pis əmr edir!”

---

89. Yəhudilərin Peyğəmbərin (s) nişanələrindən xəbərdar olması: Bu ayənin izahı ilə bağlı İmam Sadiqdən belə bir hədis nəql olunmuşdur:

"Yəhudilər öz kitablarında görmüşdülər ki, gələcək peyğəmbərin hicrət edəcəyi məkan (Mədinənin iki tərəfində yerləşən) Əyr və Ühüd dağları arasında olacaqdır. Onlar öz yurdlarından çıxıb, çoxlu axtarışdan sonra Mədinəyə gəlib çatdılar. Orada məskən saldılar. Ticarətlə məşğul olub həyatlarını sürdürdülər ki, İslam peyğəmbəri (s) nübüvvətini elan etsin və ona iman gətirsinlər. Sonralar Əvs və Xəzrəc qəbilələri də orada məskunlaşdılar. Bu iki qəbilənin cəmiyyəti çoxaldıqda yəhudilərin mal-mülkünə təcavüz etdi. Yəhudilər onlara deyirdilər: "Həzrət Məhəmməd (s) gələndə sizi bizim diyarımızdan çıxaracaq". Həzrət Məhəmməd (s) peyğəmbərliyə seçiləndə Əvs və Xəzrəc qəbilələri ona iman gətirib, "Ənsar" olaraq şöhrət qazandılar. Yəhudilər isə nişanələrini kitablarında oxumaqlarına və gələcəyi ümidi ilə Mədinəyə gəlmələrinə baxmayaraq, onu inkar etdilər.[70]

90. Yəhudilərin inadkarlığı: "*Buna görə də onlar (Allahın) qəzəbi üstünə bir qəzəb də artırdılar*" ibarəsinin təfsirinə görə, yəhudilər Allahın ayələrinə küfr etmək, Onun fərmanlarına itaət göstərməmək, ilahi peyğəmbərləri qətlə yetirmək kimi səbəblərdən Allahın qəzəbinə tuş gəlmişdilər. Bu, onların uğradığı ilk qəzəb idi. Onların qalıqları isə İslam peyğəmbərinin (s) nübüvvətindən sonra da ata-babalarının yollarını getdilər. Yəni, nəinki onun dinini inkar etdilər, hətta ona qarşı mübarizəyə qalxdılar və bu, onları yeni bir qəzəbin tutmasına səbəb oldu. Bu isə artıq ikinci qəzəb idi.[71]

91. Babaların peyğəmbər öldürməsi, nəvələrin razılığı: Ayənin "*Bəs nə üçün bundan qabaq Allahın peyğəmbərlərini öldürürdünüz?*" hissəsi ilə bağlı İmam Sadiqdən (ə) nəql olunan bir rəvayətdə deyilir: "Bu ayə Peyğəmbər (s) dönəmində yaşayan yəhudilər haqqında nazil olmuşdur. Bir

[70] "Əl-Mizan", c. 1, səh. 221.
[71] "Nümunə", c. 1, səh. 346.

halda ki keçmiş peyğəmbərləri onlar öldürməmişdilər. Heç onların zamanında da yaşamayıblar. Peyğəmbərləri öldürən keçmiş yəhudilər olmuşdur. Lakin Allah onları da qatillərin yerində hesab etmiş, keçmişdəkilərin çirkin işlərini onlara aid etmişdir. Çünki onlar keçmişdəkilərin - sələflərinin yolunu gedirdilər.Onları sevirdilər (və onların işindən razı idilər)".[72]

[72] "Əyyaşi", c. 1. səh. 143.

94. (Onlara) de: "Əgər (sizin iddia etdiyiniz kimi) Allah yanında axirət evi başqa insanlara deyil, yalnız sizə məxsusdursa və əgər siz (bunu) doğru deyirsinizsə, onda ölüm arzulayın!”

95. Amma onlar özlərindən qabaq göndərdikləri pis əməllərə görə əsla ölüm arzulamazlar. Allah zalımları tanıyır.

96. Onları yaşamağa (bu dünyaya və sərvət toplamağa) bütün insanlardan, hətta müşriklərdən də daha artıq həris görərsən. (Belə ki) Onlardan hər biri ona min il ömür verilməsini istər. Halbuki bu uzun ömür onu (ilahi) əzabdan uzaqlaşdırmaz. Allah onların nə etdiklərini görür.

97. (Onlar deyirlər: "Sənə vəhyi nazil edən mələk Cəbrayıl olduğuna görə və biz onunla düşmən olduğumuza görə sənə iman gətirmirik".) De: "Cəbrayıla düşmən olan (əslində Allaha düşməndir). (Çünki) o Quranı Allahın fərmanı ilə özündən əvvəlkiləri təsdiqləyən, möminlər üçün isə hidayət və müjdə olaraq sənin qəlbinə nazil etmişdir".

98. Kim Allaha, onun mələklərinə və peyğəmbərlərinə, Cəbrayıla və Mikayıla düşməndirsə, (kafirdir və) şübhəsiz, Allah kafirlərə düşməndir.

99. Biz sənə açıq-aydın dəlillər göndərdik, onları yalnız fasiqlər inkar edərlər.

100. (Yəhudilər) hər dəfə (Allah və Peyğəmbərlə) əhd bağladıqları zaman onların bir qismi onu pozmadımı?! Bəli, onların çoxu iman gətirməz.

101. Allah tərəfindən onlara özlərində (kitablarında) olan nişanələrə uyğun bir peyğəmbər gəldikdə, səmavi kitab verilənlərdən bir qismi guya bilmirmiş kimi, Allahın kitabına arxa çevirdi.

---

94. Yəhudilərin irqçiliyi və Quranın buna münasibəti: Quran ayələrindən əlavə, yəhudilərin həyat tarixindən də aydın olur ki, onlar özlərini ali irq mənsubları hesab edirdilər (İndi də belə hesab edirlər). Onlar hesab edirdilər ki, insan cəmiyyətinin ən yaxşı, seçilmiş gülüdürlər. Cənnət onlar üçün yaradılmışdır. Onlar Allahın övladları və Onun xüsusi dostlarıdırlar. Bu axmaq eqoistlik Quranın bir çox ayələrində yəhudilərdən söhbət açıldıqda əks olunmuşdur. "Maidə" surəsinin 18-ci ayəsində onların dilindən oxuyuruq: "*Biz Allahın oğulları və xüsusi dostlarıyıq*". "Bəqərə" surəsinin 111-ci ayəsində isə deyilir: *(Onlar) dedilər: "Cənnətə yəhudilərdən və xaçpərəstlərdən başqa heç kəs girməyəcək*". Bu xülyalar bir tərəfdən onları zülmə, cinayətə, günaha və təcavüzə sürükləyirdi, digər tərəfdən isə kibrə, xudpəsəndliyə, eqoizmə səsləyirdi. Quran bu ayədə onların iddiasına kəskin və tutarlı cavab verir: "*Əgər (sizin iddia etdiyiniz kimi) Allah yanında axirət evi başqa insanlara deyil, yalnız sizə məxsusdursa və əgər siz (bunu) doğru deyirsinizsə, onda ölüm arzulayın!*" Yəni, Allahın mərhəmətinə sığınmaq, sonsuz behişt nemətləri içində olmaq istəmirmisiniz? Yəhudilər bu iddiaları ilə müsəlmanları dinlərindən soyutmaq istəyirdilər. Amma Quran onların yalanlarının üstünü açır. Çünki onlar dünyanı tərk etmək istəmirdilər. Necə ki, 95-ci ayədə də buna işarə vurulmuşdur.[73]

97. Cəbrayıla düşmən olacaq qədər inad: Təfsirçilər bu ayənin nazil olma səbəbi ilə bağlı bildirirlər ki, Peyğəmbər (s) Mədinəyə gəldikdən sonra, bir gün yəhudi alimlərindən biri - İbn Suriya bir qrup Fədək yəhudisi ilə birgə Peyğəmbərin (s) yanına gəldi. Həzrətdən (s) müxtəlif suallar soruşdular. Onun nübüvvətinə şahid olacaq dəlilləri araşdırdılar. Peyğəmbər (s) o suallara cavab verdi. Onlar cavabların doğru olduğunu görüb razılaşdılar.

---

[73] "Nümunə", c. 1, səh. 354.

İbn Suriya dedi: "Bir sual qalıb. Ona da cavab versən, sənə iman gətirib tabe olacağıq. Sənə nazil olan mələyin adı nədir?" Həzrət (s) "Cəbrayıl" deyə bildirdi. İbn Suriya dedi: "O, bizim düşmənimizdir. Çünki cihad və savaş haqqında ağır hökmlər gətirir. Mikayıl isə həmişə sadə və rahat hökmlər gətirir. Əgər sənin mələyin Mikayıl olsaydı, sənə iman gətirərdik". Bu ayə onlara cavab olaraq nazil oldu ki: "*Cəbrayıla düşmən olan (əslində Allaha düşməndir). (Çünki) o Quranı Allahın fərmanı ilə özündən əvvəlkiləri təsdiqləyən, möminlər üçün isə hidayət və müjdə olaraq sənin qəlbinə nazil etmişdir*".[74] "Şəni-nnüzul" ardınca ayə və ya ayələr nazil olan hadisəyə deyilir. Buna görə də "şəni-nüzul"ları bilmək ayənin mənasını başa düşməkdə çox təsirli və faydalıdır.

98. Dörd Allah dərgahına yaxın mələk: İslam qaynaqlarında adətən Allah dərgahna yaxın dörd mələyin - Cəbrayıl, Mikayıl, İsrafil və Əzrayılın adı çəkilir ki, onlardan ən üstünü Cəbrayıldır.[75] Bu mələklər Allahın işlərdəki vasitələridir. Cəbrayıl ilahi vəhy vasitəsi, Mikayıl məxluqatın ruzi vasitəsi, İsrafil Qiyamətdə ölüləri diriltmə vasitəsi, Əzrail isə can almaqda vasitədir.[76] İmam Səccaddan (ə) mələklər haqqında nəql olunan bir duada oxuyuruq: "İlahi! Salam göndər İsrafilə, o şeypur sahibinə (ona üfürməklə hamı öləcək, ikinci dəfə üfürdükdə isə hamı diriləcək). (Salam göndər ona ki,) şeypura üfürərək, məzarda uyuyanları diriltmək üçün sənin fərmanını gözləyir. (Salam göndər) sənin yanında yüksək yeri, sənə mütilik səbəbilə yüksək məkanı olan Mikayıla. (Salam göndər) göylərinin əhli arasında itaət olunan, yanında dəyərli, dərgahına yaxın olan Mikayıla!"[77]

---

[74] "Əl-Mizan", c. 1, səh. 227.
[75] "Nümunə", c. 1, səh. 364.
[76] "Əl-Mizan", c. 8, səh. 266.
[77] "Əl-Mizan", c. 17, səh. 9.

102. (Yəhudilər) Süleymanın dövründə şeytanların (insanlara) oxuduqlarına tabe oldular. Süleyman (əsla sehrə əl bulaşdırmadı və) kafir olmadı, lakin şeytanlar kafir oldular və xalqa sehr öyrətdilər. (Yəhudlər də) iki Babil mələyi Harut və Maruta nazil olanlara tabe oldular. (Onlar sehri batil etmək, təsirini aradan qaldırmağı bilmək üçün xalqa öyrədirdilər). “Biz sınaq vasitəsiyik, kafir olma! (Bu təlimlərdən pis məqsədlər üçün istifadə etmə!)” – deməmiş heç kəsə bir şey öyrətmirdilər. (Buna baxmayaraq, yenə də) onlardan ər-arvad arasına nifaq sala biləcəkləri şeylər öyrənirdilər. Lakin onlar Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər. Onlar ancaq özlərinə zərər verən, faydası olmayan şeyləri öyrənirdilər. Şübhəsiz, belə şeyləri satın alanların axirətdə payı olmadığını yaxşı bilirlər. Kaş ki, onlar özlərini nə qədər yaramaz bir şeyə satdıqlarını biləydilər!

103. Əgər onlar iman gətirib təqvalı olsaydılar (pis əməllərdən çəkinsəydilər), Allah tərəfindən əldə etdikləri savab daha xeyirli olardı. Əgər bunu dərk etsəydilər.

104. Ey iman gətirənlər! (Peyğəmbərdən Quran ayələrini dərk etmək üçün möhlət istədikdə) “Raina” deməyin, “unzurna” deyin! (Çünki birinci söz həm "bizə möhlət ver" mənasında, həm də "bizi səfeh hesab et" mənasında işlənir və bu düşmənlər üçün bir bəhanə idi). (Sizə əmr olunanı) eşidin! Kafirləri (və istehza edənləri) ağrılı bir əzab gözləyir.

105. Nə kitab əhlindən olan kafirlər, nə də müşriklər sizə Rəbbiniz tərəfindən heç bir xeyir göndərilməsini istəməzlər. Halbuki Allah Öz mərhəmətini istədiyi kimsəyə məxsus (bəxş) edər. Allah böyük lütf sahibidir!

---

102. Süleyman kafir olmadı: Hədislərdən bəlli olur ki, həzrət Süleyman zamanında onun ölkəsində bir dəstə sehr və cadugərliklə məşğul olurdu. Süleyman onların bütün yazılarını, vərəqələrini toplayıb, xüsusi yerdə saxlamağı əmr etdi. Bəlkə də buna görə ki, onların arasında sehrbazların sehrini batil etmək üçün faydalı mətləblər var idi. Süleyman dünyasını dəyişəndən sonra bir dəstə onları üzə çıxarıb, yaymağa, insanlara öyrətməyə başladı. Bəziləri yaranmış vəziyyətdən istifadə edib, Süleymanın heç peyğəmbər olmadığını, ölkəni həmin sehr və cadu vasitəsilə ələ keçirdiyini və bu yolla xariqüladə işlər gördüyünü iddia etdilər. Bəni-İsraildən də bir qrup onların ardınca gedib cadugərliyə aludə oldu. Belə ki, hətta Tövratdan da əl çəkdilər. İslam peyğəmbəri (s) nübüvvətini elan etdikdən sonra Quran ayələri ilə Süleymanın (ə) Allahın peyğəmbəri olduğunu bildirdi. Bəzi yəhudi alimləri dedilər: "Məhəmmədə təəccüblənmirmisinizmi ki, Süləyman sehrbaz olduğu halda, onun peyğəmbər olduğunu söyləyir?" Yəhudilərin bu sözü böyük ilahi peyğəmbərə iftira olmaqla yanaşı, onun kafir olmasını da gərəkdirirdi. Çünki onlara görə, Süleyman (ə) sehrbaz olduğu halda, yalandan özünü peyğəmbər adlandırmış və bu da onun kafir olmasına gətirib çıxartmışdı. Bu ayə onlara cavab olaraq nazil olmuşdur.[78]

102. İlahi iradə - bütün istəklərin fövqündə: Ayənin "*Lakin onlar Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər*" ibarəsi məcburiyyət ifadə etmir. Əksinə, bu ibarə tövhidin əsaslı prinsiplərindən birinə işarə vurur. Belə ki, bu dünyada bütün qüdrətlər Allahın qüdrətindən mənşə alır. Hətta odun yandırması, qılıncın kəsməsi də Onun fərmanı və izni ilə baş verir. Cadugər Allahın iradəsinin əksinə olaraq, yaradılışa müdaxilə edə, Allahın

---

[78] "Nümunə", c. 1, səh. 370.

hakimiyyətini məhdudlaşdıra bilməz. Bunlar Allahın müxtəlif varlıqlara bəxş etdiyi xüsusiyyətlərdir. Bəziləri bunlardan yaxşı yararlanırlar, bəziləri isə sui-istifadə edirlər. Demək, Allahın insanlara bəxş etdiyi azadlıq da onların sınanması üçün bir vasitədir.[79]

102. Sehr - böyük günah: Sehr - bəzən insanların vücuduna təsir göstərə biləcək xariqüladə işlərə deyilir. Bəzən bir növ gözbağlıcadır. Bəzənsə onun təsiri yalnız psixi və xəyalidir.[80] Bütün islam fəqihlərinə görə, sehri öyrənmək və cadugərlik etmək haramdır. İmam Əlidən (ə) nəql olunan bir rəvayətdə deyilir: "Kim az və ya çox olmasından asılı olmayaraq, sehr öyrənsə, kafir olmuş və Allahla əlaqəsi tamamilə kəsilmişdir". Əlbəttə, cadunu öyrənmək sahirlərin sehrini batil etmək üçün olarsa, eybi yoxdur. Hətta bəzən bəzilərinin sehri öyrənməsi "vacibi-kifayi " olur ki, əgər yalançı iddiaçı insanları bu yolla aldatmağa çalışsa, onun sehr və cadusunu batil edib, yalan iddiasını ifşa etsin.[81]

[79] Yenə orada, səh. 376.
[80] Yenə orada, səh. 377.
[81] Yenə orada, səh. 379.

106. Biz hər hansı bir hökmü ləğv edir və ya onu təxirə salırıqsa, ondan daha yaxşısını, yaxud ona bənzərini gətiririk. Allahın hər şeyə qadir olduğunu bilmirdinmi?!

107. Bilmirdinmi ki, göylərin və yerin hökmranlığı ancaq Allaha məxsusdur (Öz hökmlərində məsləhətə uyğun olaraq, hər növ dəyişiklik aparmaqda haqlıdır)? Sizin Allahdan başqa bir haminiz və yardımçınız yoxdur (Sizin məsləhətinizi bilən də, təyin edən də Odur).

108. Yoxsa siz də Peyğəmbərinizdən (Məhəmməddən) bundan əvvəl Musadan edilən (ağılsız) tələbi edirsiniz? İmanı küfrə dəyişən kəs, şübhəsiz, doğru yoldan (ağıl və fitrət yolundan) azmışdır.

109. Kitab əhlindən bir çoxu, həqiqət onlara bəlli olduqdan sonra belə, təbiətlərində kök atmış paxıllıq üzündən sizi, iman gətirmiş olduğunuz halda, yenidən küfrə qaytarmaq istəyirdilər. Allah öz əmrini (cihad fərmanını) göndərincəyə qədər onları əfv edin və bağışlayın (güzəştə gedin). Şübhəsiz ki, Allah hər şeyə qadirdir!

110. Namaz qılın, zəkat verin. Özünüz üçün qabaqcadan göndərdiyiniz xeyir işi Allah yanında (axirət dünyasında) tapacaqsınız. Şübhəsiz, Allah nə etdiklərinizi görəndir.

111. (Onlar) dedilər: “Cənnətə yəhudilərdən və xaçpərəstlərdən başqa heç kəs girməyəcək”. Bu, ancaq onların arzusudur (xəyalıdır). (Onlara) de: “Əgər doğru deyirsinizsə, dəlilinizi gətirin”.

112. Bəli, yaxşı işlər görüb özlərini Allaha təslim edənlərin Rəbbi yanında mükafatı vardır. Onların (axirətdə) nə bir qorxusu var, nə də onlar qəm-qüssə görərlər (Demək, Allahın behişti heç bir qrupun inhisarında deyil).

---

106. İnsanın təkamülü üçün proqram: "Nəsx" yox etmək, məhv etmək kimi mənalarda işlənir. Şəriət terminologiyasında bir hökmün qüvvədən düşməsi və digər bir hökmlə əvəz edilməsidir. Misal üçün, müsəlmanlar Mədinəyə hicrətdən sonra yeddi ay Beytül-müqəddəsə doğru namaz qıldılar. Ondan sonra qiblənin dəyişdirilməsi haqqında fərman çıxarıldı və müsəlmanlar Kəbəyə üz tutub namaz qılmaqla vəzifələndirildilər. "Nəsx" anlayışı ilə bağlı bu məqama diqqət yetirmək zəruridir ki, insanın ehtiyacları bəzən zamana, mühitə, şəraitə uyğun olaraq dəyişir, bəzən isə sabit qalır. Bir zaman bu və ya digər proqram insanın xöşbəxtlik qarantıdır. Lakin başqa bir zamanda həmin proqram şərait dəyişdiyi üçün onun yolunu kəsən daşa çevrilə bilər. Bu gün hansısa dərman xəstə üçün faydalıdır. Həkim ifstifadəsini münasib görür. Növbəti günlərdən birində isə xəstə nisbətən sağaldığına görə, həkim dərmanı kəsməsini, yaxud dəyişməsini münasib görə bilər. Bu məsələ insanların və cəmiyyətin təkamül qanununa nəzərən daha da aydın olur. Bəşəri cəmiyyətlərin təkamül axarında bəzən bu və ya digər proqram faydalı, qurucu, bəzənsə ziyanlı və dağıdıcı ola bilir. Xüsusilə ictimai və ideoloji inqilablar baş verdikdə proqramların tədricən, fərqli zaman kəsiklərində dəyişilmə zərurəti daha aydın nəzərə çarpır. Əlbəttə, unutmaq lazım deyil ki, ilahi dinlərin prinsipləri əsas təməlləri təşkil edir. Bütün şəraitlərdə və bütün məkanlarda eynidir. Heç zaman tövhid prinsipi, ictimai ədalət və yüzlərlə bu qəbildən olan hökm dəyişməzdir. "Nəsx" qaydası daha kiçik və ikinci dərəcəli məsələlərə aiddir.[82]

108. Möcüzə - nübüvvətin isbatlanma vasitəsi: Quran bir çox ayədə bu mətləbi açıqlamışdır ki, Musanın (ə) qövmü ondan ya mahal, qeyri-mümkün

[82] "Nümunə", c. 1, səh. 390.

olan, ya da baş verməsi mümkün olmayan məsləhət, olmayan tələblər edirdi. "Bəqərə" surəsinin 55-ci ayəsində oxuyuruq: "*(Yadınıza salın ki,) "Ya Musa, Allahı açıq-aşkar görməyincə, sənə əsla iman gətirməyəcəyik", - dediyiniz zaman, gözünüz görə-görə sizi ildırım vurdu*". "Zuxruf" surəsinin 53-cü ayəsində deyilir: "*Əgər (Musa) doğru deyirsə, nə üçün ona qızıl bilərziklər taxılmayıb və onunla birlikdə mələklər gəlməyib?*" Allah da onlara haqqa təslim olmamaqlarına səbəb olan bu yersiz bəhanə və tələblərinə görə şiddətli əzab verdi. Peyğəmbər (s) dövrünün yəhudiləri və Qüreyş müşrikləri də ondan belə tələblər edirdilər. Belə ki, "İsra" surəsinin 90-93-cü ayələrində oxuyuruq: *Dedilər: "Bizə (bu qızmar və quru) yerdən bir bulaq çıxarmayınca, yaxud (ağacları) arasında şırıl-şırıl irmaqlar axan xurma və üzüm bağın olmayınca, yaxud, güman etdiyin kimi, göyü (daşlarını) parça-parça edib başımıza endirməyincə, yaxud Allahı və mələkləri açıq-aşkar qarşımıza gətirməyincə, və ya qızıldan bir evin olmayınca, yaxud sən göyə qalxmayınca, sənə iman gətirməyəcəyik*". Lakin həqiqət isə budur ki, peyğəmbərlər öz iddialarının - onları Allahın göndərdiklərinin isbatı üçün, Allahın izni və fərmanı ilə öz dövrlərinin insanlarının düşüncə və şüur səviyyəsinə uyğun işlər görürdülər. İnsanlar bu işlərdən aciz idilər. Buna görə də həmin işlər möcüzə adlanır. Bu ayə İslam peyğəmbərinin (s) müxaliflərini qınayır, məzəmmət edir ki, yersiz tələblər irəli sürməsinlər. Əks təqdirdə, Musanın qövmü kimi, ilahi əzaba düçar olarlar. Prinsipcə, möcüzə - peyğəmbərlərin nübüvvətini sübuta yetirmək üçündür. Belə deyildi ki, peyğəmbərlər insanların nəfsani meyllərinə uyğun olaraq, tələb etdiyi hər şeyi etsinlər və onların peyğəmbərlik missiyası xalq üçün tamaşaxanaya dönsün.[83]

---

[83] "Ətyəb əl-bəyan", c. 2, səh. 145.

Sonumidtv.az

113. Yəhudilər dedilər: “Xaçpərəstlərin (Allah yanında) heç bir yeri yoxdur”. Xaçpərəstlər isə dedilər: “Yəhudilərin heç bir yeri yoxdur (və haqq deyillər)". Halbuki onların hər ikisi səmavi kitab oxuyur (və bu növ təəssüblərdən uzaq dumalıdırlar). Bilməyənlər də (müşriklər kimi digər nadanlar) onlar kimi danışdılar. Allah, Qiyamət günü onların arasında ixtilafda olduqları şey haqqında mühakimə yürüdəcək.

114. Allahın məscidlərində Onun adının çəkilməsinə maneçilik törədənlərdən və onların viran edilməsinə çalışanlardan daha zalım kim ola bilər? (Halbuki) onlar oraya ancaq qorxa-qorxa girməli idilər. Onlar üçün dünyada (yalnız) rüsvayçılıq, axirətdə isə böyük (ilahi) əzab vardır.

115. Şərq də, qərb də Allahındır. Hansı səmtə üz tutsanız, Allah oradadır. Şübhəsiz ki, Allah ehtiyacsız və biləndir.

116. (Yəhudilər, xaçpərəstlər və müşriklər) dedilər: “Allah (Özü üçün) övlad götürmüşdür”. - O pakdır. - Əksinə, göylərdə və yerdə nə varsa, hamısı Ona məxsusdur, hamısı Onun itaətindədir.

117. Göyləri və yeri var edən Odur. Bir şeyin yaranmasına fərman verdikdə, ona yalnız: “(Var) ol!” – deyər, o da dərhal (var) olar.

118. Cahillər dedilər: “Nə üçün Allah bizimlə danışmır və ya bizim özümüzə bir ayə və nişanə gəlmir?” Onlardan əvvəlkilər belə demişdilər. Onların qəlbləri (və düşüncələri) biri-birinə bənzəyir. Şübhəsiz, biz əminliklə inananlara (və həqiqət axtaranlara) ayə və nişanələrimizi (kifayət qədər) aydınlaşdırdıq.

119. Biz səni haqq olaraq (bəşəriyyətə) müjdə verməyə və qorxutmağa göndərdik. Sən (risaləti çatdırdıqdan sonra) Cəhənnəm əhli(nin yolunu azmasına) məsul deyilsən.

---

114. Məscidləri dağıtmaq (sökmək) və oraya daxil olmağa maneçilik törətmək: Bu ayə nüsəlmanların Məscidül-haramda və Kəbə ətrafında namaz qılmasına mane olan kafir və müşriklər haqqında nazil olmuşdur.[84] Əlbəttə, ayənin mənası genişdir. Müəyyən zaman və məkanla məhdudlaşmır. Xüsusi şəraitdə nazil olan, lakin hökmü bütün dövrlərə aid olan ayələrdəndir. Buna görə də, hansı kəsim bu və ya digər şəkildə məscidlərin dağıdılmasına çalışsa, yaxud orada Allahın adının çəkilməsinə və ya ona ibadət edilməsinə mane olsa, sözügedən rüsvayçılığa, həmin böyük əzaba düçar olar. Bir məqama da diqqət yetirmək lazımdır ki, məscidə getməyin qarşısını almaq, Allahın adının çəkilməsinə mane olmaq, məscidin sökülməsinə çalışmaq heç də yalnız məscidin binasını bel və külünglə sökməklə olmur. Əksinə, məscidin rövnəqdən salınmasına səbəb olan istənilən addım, eləcə də insanlara Allahı unutduran, onları qəflətə sövq edən hər şey bu bu hökmdədir. [85]

115. Namazda qibləyə diqqətin səbəbi: Ötən ayədə məscidlərə mane olan, onların sökülməsinə çalışan zalımlardan söhbət gedirdi. Bu ayədə də həmin mövzu davam etdirilir: "*Şərq də, qərb də Allahındır. Hansı səmtə üz tutsanız, Allah oradadır*". Əgər sizə məscidlərə, tövhid mərkəzlərinə getməyi yasaq etsələr, Allaha bəndəlik, ibadət etmək yolu bağlı deyil. Şərqin və qərbin hamısı Allaha məxsusdur. Ona görə də hansı səmtə getsəniz, Allah oradadır. Yəni, Allaha hər yerdə ibadət edə bilərsiniz. Digər bir məsələ isə budur ki, qibləyə üz tutmaq məsələsi heç də Allahın zatının konkret məkanla

---

[84] "Əl-Mizan", c. 1, səh. 254.
[85] "Nümunə", c. 1, səh. 411.

məhdudlaşması demək deyil. Əksinə, insan maddi varlıq olduğundan, müəyyən bir istiqamətə namaz qılmalıdır. Buna görə də müsəlmanların cərgəsində vəhdət və ahəngdarlıq yaransın, hərc-mərcliyin və pərakəndəliyin qarşısı alınsın deyə, hamının bir səmtə namaz qılması əmr olunmuşdur. Qiblə üçün təyin olunan yer isə Kəbədir. Kəbə, ən qədim tövhid mərkəzi olan müqəddəs məkandır. Ona üz tutmaq tövhid xatirələrini anmaqdır.[86] Kəbə, özünə yox, səmtinə namaz qılınan və səcdə olunan məkandır. Əlbət ki, bir çox ibadətlərdə də qiblə şərt deyil.[87]

119. Peyğəmbərlərin ən böyük missiyası: Müşdə vermək və qorxutmaq ilahi peyğəmbərlərin ən böyük missiyası olmuşdur. Onlar bir tərəfdən möminləri və əməlisalehləri dünya və axirətdə əməllərinin mükafatından xəbərdar etmişlər, digər tərəfdən isə kafir və günahkarları küfr və günahın acı nəticəsi haqqında məlumatlandırmışlar ki, insanlar bununla iki nicat və həlak yolunu aydın şəkildə dərk etsinlər və tam sərbəst iki yoldan birini seçsinlər. Necə ki, Quranın "Ənfal" surəsinin 42-ci ayəsində oxuyuruq: "*Lakin Allah olacaq işi həyata keçirmək üçün belə etdi ki, həlak olan (yolunu azan) açıq-aşkar bir dəlillə həlak olsun, sağ qalan (hidayət olan) aşkar bir dəlilllə sağ qalsın*".[88]

---

[86] Yenə orada, səh. 414.
[87] "Təfsiri-mövzui", c. 8, səh. 112.
[88] "Ətyəb əl-bəyan", c. 2, səh. 170.

120. Sən onların (istəklərinə tam təslim olmayınca və təhrif olunmuş) dinlərinə tabe olmayınca, nə yəhudilər, nə də xaçpərəstlər səndən qətiyyən razı qalmayacaqlar. (Onlara) de: “Allahın göstərdiyi yol yeganə doğru yoldur”. Əgər sənə gələn elmdən sonra onların (nəfslərindən gələn) istəklərinə uysan, o zaman Allah tərəfindən sənə nə bir hami, nə də bir köməkçi olacaqdır.

121. Səmavi kitab verdiyimiz kimsələrdən (yəhudi və xaçpərəstlərdən) onu layiqincə oxuyanlar İslam peyğəmbərinə iman gətirirlər. Onu inkar edənlər isə ziyana uğrayanlardır.

122. Ey İsrail oğulları! Sizə bəxş etdiyim nemətimi və (vaxtı ilə) sizi bütün insanlardan üstün etdiyimi xatırlayın.

123. Qorxun o gündən ki, heç kəs heç kəsi müdafiə etmir, heç kəsdən əvəz qəbul edilmir, heç kəsə şəfaət fayda vermir və onlara (heç bir tərəfdən) kömək göstərilmir.

124. (Yadınıza salın ki,) Rəbbi İbrahimi müxtəlif vasitələrlə sınağa çəkdiyi zaman o, bu sınaqlardan yaxşı çıxdı. (Bu zaman Allah ona:) “Səni insanlara imam (rəhbər, başçı) təyin edirəm”, - dedi. (İbrahim isə:) “Nəslimdən də (imamlar təyin et)” – dedi. (Allah:) “Mənim əhdim zalımlara çatmır (və sənin övladlarından bu məqama yaınız pak və qüsursuz olanlar layiqdirlər)”, - buyurdu.

125. (Yadınıza salın ki,) o zaman evi (Kəbəni) insanlar üçün dönüş və əmin-amanlıq yeri etdik. “(Siz də onu anmaq üçün) İbrahimin durduğu yeri özünüzə ibadətgah edin!” İbrahimə və İsmayıla da: “Evimi (Kəbəni) təvaf edənlər, yaxınlıqda olanlar, rüku və səcdə edənlər üçün təmizləyin", – deyə əmr etdik.

126. (Yadınıza salın ki,) İbrahim: “Ey Rəbbim, buranı təhlükəsiz bir şəhər et, əhalisinin Allaha və axirət gününə inananlarına (cürbəcür) məhsullardan ruzi ver!”- deyə dua etdikdə, O (Allah): “(Duanı qəbul etdim və möminlərə hər növ bərəkət verdim.) Kafir olanlara isə (bu məhsullardan) cüzi pay verəcəm. Sonra da onları Cəhənnəm əzabına sürükləyəcəm. Ora nə pis bir aqibətdir!” – deyə buyurdu.

---

121. Quranı layiqincə oxumaq: Ayənin "Səmavi kitab verdiyimiz kimsələrdən (yəhudi və xaçpərəstlərdən) onu layiqincə oxuyanlar" hissəsi ilə bağlı İmam Sadiqdən (ə) maraqlı bir rəvayət nəql olunmuşdur. Rəvayətdə deyilir: "Məqsəd budur ki, Quran ayələrini diqqətlə, aram oxusunlar. Onun həqiqətlərini anlasınlar, hökmlərinə əməl etsinlər. Müşdələrinə ümidvar olsunlar, hədələrindən qorxsunlar. Hekayətlərindən ibrət alsınlar, fərmanlarına boyun əysinlər, qadağalarından çəkinsinlər. Allaha and olsun ki, məqsəd ayələri əzbərləmək, hərfləri və surələrin oxunuşunu, (cüz və ya hizb kimi) bölgülərini öyrənmək deyil. Onlar Quranın hərflərini əzbərlədilər. Amma onun hüdudlarını aşdılar. Məqsəd yalnız Quran üzərinə düşünmək və hökmlərinə əməl etməkdir".[89]

124. İbrahimin (ə) imamlığı: "*Rəbbi İbrahimi müxtəlif vasitələrlə sınağa çəkdiyi zaman*" ibarəsinə təfsirçilər belə izah verirlər ki, burada İbrahimin (ə) sınağa çəkildiyi çətinliklərnəzərdə tutulur. Misal üçün, həyat yoldaşını və körpə uşağını quru Məkkə çölündə qoyması, Babil bütpərəstlərinə qarşı

[89] "Əl-Mizan", c. 1, səh. 262.

çıxması, onların bütlərini sındırması, oda atılması, istəkli oğlu İsmayılı (ə) qurban kəsməsi əmri və s. Quran "Saffat" surəsinin 106-cı ayəsində həzrət İbrahimin (ə) ən bariz sınaqlarından birini - həzrət İsmayılı (ə) qurban kəsmək əmrini nağıl etmişdir. Təfsirçilərə görə, bu fərman həzrət İbrahimin (ə) ömrünün sonlarında baş vermişdir və o, Allah tərəfindən "imam" olmadan öncə peyğəmbər olmuşdur. Bu, imamət məqamının nübüvvət məqamından yüksək olmasına sübutdur. İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə oxuyuruq: "Allah İbrahimi (ə) öz bəndəsi etdi. Nəbisi etməzdən qabaq onu nəbi seçdi. Rəsulu etməzdən qabaq onu rəsulu seçdi. Onu öz dostu hesab etməzdən qabaq, öz dostu etdi. Bütün bu məqamları onda toplayandan sonra isə ona: "Səni imam təyin edirəm", - buyurdu. Bu məqam İbrahimə (ə) o qədər böyük göründü ki, dedi: "İlahi, mənim nəslimdən də imamlar təyin et!" İmam o kəsdir ki, insanlar onun ardınca gedirlər. Onu özlərinə rəhbər seçirlər. Onun sözünə, əməlinə tabe olurlar. Peyğəmbərin missiyası ilahi göstərişləri çatdırmaq, insanlara səadət yolunu göstərməkdir. İmamın işi isə ilahi göstərişləri icra etməkdir. Yəni, imam öz ilahi gücü ilə yolu göstərir, hidayət olmasına, kamilliyə yetməsinə zəmin olanlara bələdçilik edir və mənzil başına çatdırır.[90] Bu ayə imamın məsum (qüsursuz) olmasının dəlillərindən biridir. Çünki Allah əhdinin (imamətin) zalımlara çatmayacağını bildirir. Zülmün, ədalətsizliyin hər növü, kim tərəfindən olmasından asılı olmayaraq, yüksək imamlıq məqamından məhrum olmağa səbəb olur.[91]

125. İnsanların dönüş yeri və əmin-amanlıq mərkəzi: "Məsabə" sözü "səub" kökündən, bir şeyin ilkin halına qayıtmasına deyilir. Allah evi Kəbə monoteistlərin hər il üz tutduğu, tək cismani yox, həm də ruhani və mənəvi

[90] Yenə orada, c. 1, səh. 262; "Nümunə", c. 1, səh. 436.
[91] "Təfsiri-mövzui", c. 3, səh. 221.

olaraq ilk tövhid və fitrətə qayıtdığına görə, "məsabə" - dönüş yeri adlanır. Həzrət İbrahimin (ə) məqamı Kəbə evinin yaxınlığındadır və hacılar təvaf etdikdən sonra onun yanına gedir və orada təvaf namazı qılırlar. Rəvayətlərə görə, İbrahimin (ə) məqamı onun durduğu yerdir və onun ayaq izi daşın üzərində qalmışdır.[92]

[92] "Nümunə", c. 1, səh. 447; "Ətyəb əl-bəyan", c. 2, səh. 187.

127. (Onu da yadınıza salın ki,) İbrahim və İsmayıl evin (Kəbənin) bünövrəsini ucaltdıqları zaman: “Ey Rəbbimiz! (Bunu) bizdən qəbul et, Sən, doğrudan da eşidən və bilənsən!” – deyə dua etdilər.

128. “Ey Rəbbimiz! Bizi öz fərmanına təslim et! Nəslimizdən də Sənə təslim olan ümmət (yarat)! Bizə ibadət qaydalarımızı göstər, tövbəmizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edən və rəhmlisən”.

129. “Ey Rəbbimiz! Onların içərisindən özlərinə elə bir peyğəmbər göndər ki, Sənin ayələrini onlara oxusun, onlara kitab və hikmət öyrətsin, onları təmizləsin! Çünki Sən qüdrətli və hikmətlisən (bu işə qadirsən)”.

130. İbrahimin dinindən (bu qədər pak və aydın olduğu halda) səfeh və nadanlardan başqa kim üz döndərər? Həqiqətən, Biz onu bu dünyada seçdik və heç şübhəsiz, o, axirətdə də əməlisalehlərdən olacaq.

131. Rəbbi ona: “(Haqqa) təslim ol!” – dedikdə, o (Allahın əmrini bütün qəlbi ilə qəbul etmiş və): “Aləmlərin Rəbbinə təslim oldum!” – demişdi.

132. İbrahim və Yaqub (ömürlərinin son anında) övladlarına bu dini vəsiyyət etdilər (və hər biri öz övladlarına dedi:) “Ey övladlarım, həqiqətən, Allah (bu pak) dini sizin üçün seçdi və siz dünyadan yalnız müsəlman olaraq (Allahın fərmanına təslim olaraq) köçməlisiniz”.

133. Yaqubun ölümü çatdıqda siz onun yanında idinizmi?! O, övladlarından: “Məndən sonra nəyə ibadət edəcəksiniz?” – deyə soruşduğu zaman, onlar: “Sənin Allahına və ataların – İbrahimin, İsmayılın və İshaqın Allahına, tək Allaha təslim olacağıq!” - dedilər.

134. Onlar keçib getmiş bir ümmətdilər. Onların etdiyi əməllər özlərinə, sizin etdiyiniz əməllər isə sizə aiddir. Siz onların əməlləri barəsində sorğu-sual olunmayacaqsınız.

---

128. İbadət qaydaları (mənasik): Ayənin "*Bizə ibadət qaydalarımızı göstər*" hissəsinin təfsirində iki nəzəriyyə daha çox diqqəti cəlb edir. Birincisi, ayədə "ibadət qaydaları" dedikdə, məqsəd həcc qaydalarıdır. Yəni, həzrət İbrahim (ə) və İsmayıl (ə) Allahın evini inşa etdikdən sonra Ondan onlara evini ziyarət etmək qaydasını öyrətməsini istədilər. İkincisi, ibadət qaydalarında məqsəd bütün dini vəzifələr, ibadətlə bağlı əməllərdir. Yəni, o həzrətlər Allahdan istəyirlər ki, onlara ibadət və bəndəlik qaydalarını öyrətsin və Allaha onun sevdiyi şəkildə, istədiyi qaydalara uyğun ibadət etsinlər.[93]

128. Peyğəmbərlərin tövbə və əfv diləyinin mənası: Təfsirçilər ayənin "Tövbəmizi qəbul et" ibarəsinin izahı ilə bağlı bildirirlər ki, həzrət İbrahim (ə) və İsmayıl (ə) günah etməmişdilər ki, tövbə də etsinlər. Çünki peyğəmbərlər məsumdurlar. Onlar heç bir günah işləmirlər. Amma Allah dərgahına yaxın insanlar hansı məqama çatırlarsa çatsınlar, Allahı tanımaq, dərk etmək baxımından adi insanlardan çox yüksəkdə dursalar da, özlərini Allah qarşısında daha kiçik, daha qüsurlu görürlər. Özlərini Allahın onlara etdiyi lütf qarşısında xəcalətli hesab edirlər. Buna görə də vəzifələrini icra etməyi, ibadətlərini Allah dərgahına layiq hesab etmir və tövbə edirlər. Belə ki, İslam peyğəmbərindən (s) nəql olunan bir hədisdə deyilir: "İlahi! Səni layiq olduğun kimi tanımadıq və Sənə layiq olduğun kimi ibadət etmədik".[94]

130. Yetkin insanların dini: Allah saleh bəndəsi İbrahim (ə) haqqında söhbət açdıqdan, onun bəndəlikdə səmimiliyindən, dünya və axirət

---

[93] "Ətyəb əl-bəyan", c. 2, səh. 197.
[94] Yenə orada; "Mənşuri-cavid", c. 5, səh. 84.

ehtiyaclarını ehtiva edən əhatəli dualarını xatırlatdıqdan, digər insanlara xidmətini yüksək qiymətləndirəndən sonra onu kamil insan və ümmətin imamı olaraq təqdim edir və buyurur: "İbrahimin dinindən (bu qədər pak və aydın olduğu halda) səfeh və nadanlardan başqa kim üz döndərər?" Çünki yetkin və sağlam zəka insanı səadət və təkamül yoluna əmr edir. Quran yeganə xalis tövhid və Allaha təslim olmaq yolunu - İbrahimin (ə) dininin həqiqətini bəyan etmişdir. Demək, ağıllı insan ağlı vasitəsilə İbrahimi (ə) və onun dinini tanıdıqdan sonra səadəti belə bir insana tabe olmaqda görür və kim inad və təəssüb səbəbilə İbrahimin (ə) dinindən üz döndərsə, əslində əqli baxımdan yetkinləşməmiş, inkişafdan qalmışdır.[95]

131. İslamın mənası və dərəcələri: İslam və təslimin hər ikisi bir kəsin və ya bir şeyin başqa birinə müti olmasını və əsla onun itaətindən çıxmamasını ifadə edir. Bu və bu qəbildən olan ayələrdə islam mütləq şəkildə ilahi göstərişlərə, Allahdan gələnə tabe olmaqdır. İlahi göstərişləri və qaydaları icra etmək fərqli dərəcələrə malikdir. İslamın ən aşağı dərəcəsi Allahın yeganəliyini və digər təlimləri dil ilə iqrar etməkdir. Bu, "Şəhadət sözləri" adlanır. Şübhəsiz, bu kimi ayələrdə sözügedən həzrət İbrahimin (ə) islamında məqsəd onun bu mərhələsi deyil. Burada məqsəd Allaha elə bir şəkildə təslim olmaqdır ki, bəndə özünü heç bir şeyin maliki sanmasın. Bütün əşyaların, o cümlədən, öz varlığının əsl malikinin Allah olduğunu bilsin. Bu halda Allahın istəyi onun istəyi olacaq. Bütün cidd-cəhdi Allahın razılığını əldə etmək olacaq.[96]

---

[95] "Əl-Mizan", c. 1, səh. 294; "Ətyəb əl-bəyan", c. 2, səh. 201.
[96] "Əl-Mizan", c. 1, səh. 299; "Ətyəb əl-bəyan", c. 2, səh. 206.

135. (Kitab əhli:) “Doğru yolu tapmaq üçün yəhudi, yaxud da xaçpərəst olun!” - dedirlər. De: “(Bu təhrif olunmuş dinlər əsla doğru yola yönəltməzlər) Əksinə, xalis İbrahim dininə tabe olun. O, əsla Allaha şərik qoşanlardan deyildi.

136. Deyin: “Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmayıla, İshaqa, Yaquba və onun övladlarına göndərilənlərə, (eləcə də) Musaya, İsaya və (digər) peyğəmbərlərə Rəbbi tərəfindən verilənə inanmışıq. Onlardan heç birini digərindən ayırmırıq. Biz yalnız Ona (Allahın əmrinə) təslim olanlarıq (İrqi təəssüblər, şəxsi qərəzlər onların arasında ayrı-seçkilik etməyimizə səbəb olmur)”.

137. Əgər onlar da sizin iman gətirdiyinizə iman gətirsələr, doğru yolu yönəlmiş olarlar. Yox, əgər boyun qaçırsalar, haqdan ayrılmış olarlar. Allah onların şərini səndən uzaq edər. O, (hər şeyi) eşidən və biləndir.

138. “(Budur) İlahi rəng! (İman, islam və tövhid rəngini qəbul edin). Hansı rəng ilahi rəngdən daha yaxşıdır?! Biz ancaq Ona ibadət edirik”.

139. De: “Siz Allah barəsində bizimlə mübahisəmi edirsiniz? Halbuki O həm bizim, həm də sizin Rəbbinizdir. Bizim əməllərimiz bizə, sizin əməlləriniz isə sizə aiddir. Biz Ona ürəkdən (səmimi) pərəstiş edirik.

140. Yoxsa siz İbrahimin, İshaqın, Yaqubun və övladlarının yəhudi və ya xaçpərəst olduqlarını iddia edirsiniz? De: “Siz daha yaxşı bilirsiniz, yoxsa Allah? (Onların yəhudi və ya xaçpərəst olmadıqlarını bildiyiniz halda, nə üçün gerçəyi gizlədirsiniz?)” Yanında olan ilahi şəhadəti gizlədənlərdən daha zalım kim ola bilər? Allah sizin etdiklərinizdən xəbərsiz deyildir.

141. (Hər halda) Onlar keçib getmiş bir ümmətdirlər. Onların etdiyi əməllər özlərinə, sizin etdiyiniz əməllər isə sizə aiddir. Siz onların əməlləri barəsində sorğu-sual olunmayacaqsınız.

---

138. İlahi rəng: Bu ayədə deyilir ki, iki ayə qabaq sözügedən iman bir növ ilahi rəngdir və bu rəng ən yaxşı rəngdir. Yaxşı rəng Allahın dinində ixtilaf salan və Allahın əmr etdiyi kimi qorunub saxlanmayan yəhudilik və xristianlıq deyil.[97] Bəzilərinə görə, Allahın bu ayədə rəng sözündən istifadə etməsinə səbəb budur ki, rəng aydın göründüyü kimi, iman və islam da möminlərdə tam olaraq aydın olur. Yaxud rəng cismin ayrılmaz hissəsi olduğu kimi, iman da möminlərin ürəyinə nüfuz edir və oradan çıxmır.[98] Bu ayənin izahı ilə bağlı İmam Sadiqdən (ə) nəql olunan bir rəvayətdə deyilir: "İlahi rəngdə məqsəd islamdır".[99]

139. Əməlin qəbul olunmasının ən mühüm amili: "İxlas" - bir şeyi özünə aid olmayan hər şeydən təmizləməkdir.[100] Quranda isə ixlas o deməkdir ki, bəndə ibadətdə heç bir şeyi və ya heç bir kəsi Allaha şərik qoşmasın.[101] "Kəhf" surəsinin 110-cu ayəsində oxuyuruq: "*Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətə heç kəsi şərik qoşmasın*". Quranda və Əhli-beytdən (ə) gələn rəvayətlərdə ibadətdə ixlas üzərində təkidlə dayanılmışdır. Belə ki, onu əməlin qəbul olunmasında ən önəmli amil kimi qiymətləndirmişlər. İmam Sadiqdən (ə) nəql olunan rəvayətdə deyilir: "Sizin Rəbbiniz mehribandır, az əməli də qəbul edir. Allahın bəndəsi yalnız Allahın razılığını qazanmaq üçün iki rəkət namaz

---

[97] "Əl-Mizan", c. 1, səh. 308.
[98] "Safi", c. 1, səh. 193.
[99] "Əl-Mizan", c. 1, səh. 310.
[100] "Əl-Möcəm əl-vəsit", səh. 249.
[101] "Əl-Mizan", c. 13, səh. 77.

qılır, Allah həmin iki rəkət namaza görə onu Cənnətə daxil edir".[102] Digər tərəfdən isə Allahdan başqasına xoş gəlmək, qeyrisinin razılığını qazanmaq üçün iş görmək əməlin boşa çıxmasının ən böyük amili kimi verilmişdir. Belə ki, İslam peyğəmbəri (s) buyurur: "Rəbbiniz buyurmuşdur: "Mən yaxşı şərikəm. Kim işlərində məxluqatdan birini mənə şərik qoşsa, o işin hamısını o şərikə verəcəm. Çünki mən heç bir əməli sırf mənim üçün olmadan qəbul etmirəm".[103]

141. Yəhudilərin babaları ilə öyünməsi: Bu ayə yəhudilərin yanlışlarından birinə cavabdır. Onlar ata-babalarına, onların fəxrli işlərinə və Allah dərgahındakı əzəmətlərinə söykənirdilər. Güman edirdilər ki, özləri aludə olsalar da, ata-babalarının sayəsində nicat tapacaqlar. Quran bu ayədə buyurur: "*Onlar keçib getmiş bir ümmətdirlər. Onların etdiyi əməllər özlərinə, sizin etdiyiniz əməllər isə sizə aiddir. Siz onların əməlləri barəsində sorğu-sual olunmayacaqsınız*". Buna görə də bütün səyinizi ata-babalarınızla öyünməyə sərf etmək əvəzinə öz etiqad və əməlinizi düzəltməyə, islah etməyə yönəldin. Hərçənd ki, bu ayə zahirdə yəhudilərə, kitab əhlinə müraciət edir, amma aydındır ki, bu hökm yalnız onlara xas deyil. Müsəlmanlara da aiddir.[104]

---

[102] "Səfinə əl-bihar", c. 2, səh. 667.
[103] "Əl-Mizan", c. 13, səh. 402.
[104] "Nümunə", c. 1, səh. 465.

142. Tezliklə ağılsız adamlar deyəcəklər: “Onları (müsəlmanları) üz tutduqları qiblədən nə döndərdi?” De: “Şərq də, qərb də Allahındır. O, istədiyi şəxsi doğru yola yönəldir”.

143.(Sizin qibləniz orta qiblə olduğu kimi) sizi orta (mötədil) bir ümmət etdik ki, insanlara şahid olasınız, Peyğəmbər də sizə şahid olsun. Bundan qabaq üz tutduğun qibləni yalnız Peyğəmbərə tabe olanlarla (ondan üz çevirib) geriyə dönənləri bir-birindən ayırd etmək üçün təyin etdik. Bu, Allahın doğru yola yönəltdiyi şəxslərdən başqası üçün ağır idi. (Bunu da bilin ki, keçmiş qibləyə qıldığınız namazlar düzdür) Allah sizin imanınızı (namazınızı) tələf etməz. Çünki Allah insanlara qarşı mehriban və mərhəmətlidir.

144. Biz sənin üzünün (yeni qiblənin təyin olunması üçün) göyə tərəf çevrildiyini görürük. İndi səni razı olduğun qibləyə tərəf döndərəcəyik. Üzünü Məscidül-harama tərəf çevir! Harada olsanız, üzünüzü oraya döndərin! Səmavi kitab verilmişlər bunun öz Rəbbi tərəfindən bir həqiqət olduğunu yaxşı bilirlər (Öz kitablarında İslam peyğəmbərinin iki qibləyə namaz qılacağı haqqında oxuyublar). Allah onların (bu ayələri gizlətmək yönündəki) əməllərindən xəbərsiz deyildir.

145.(And olsun ki) sən kitab əhli üçün hər cür ayə (nişanə və dəlil) gətirsən də, onlar sənin qiblənə tabe olmayacaqlar. Sən də heç vaxt onların qibləsinə tabe olmayacaqsan (Onlar qiblənin bir daha dəyişməsinin mümkünlüyünü təsəvvür etməməlidirlər). Hətta onlar özləri də bir-birinin qibləsinə tabe olmayacaqlar. Əgər sənə gələn elmdən sonra onların istədiyinə uysan, o zaman sən də, şübhəsiz ki, zalımlardan olacaqsan.

---

142. Yəhudilərin fitnəsinin qarşısını almaq üçün qiblənin dəyişilməsi: Bu ayədən 115-ci ayəyə qədər qiblənin dəyişilməsindən söhbət gedir. İmam Sadiqdən (ə) ayə ilə bağlı nəql olunan bir rəvayətdə deyilir: "Peyğəmbər (s) on üç il Məkkədə, yeddi ay da Mədinəyə hicrətdən sonra Beytül-müqəddəs səmtinə namaz qılırdı. (Sonra) qiblə Məkkəyə doğru dəyişdi. Bunun səbəbi o idi ki, yəhudilər Peyğəmbərə (s) tənə vurur və deyirdilər: "Sən bizə tabesən. Bizim qibləmiz səmtinə namaz qılırsan". Peyğəmbər (s) onların sözündən çox narahat olur, gecə yarısı evdən çıxır, gözlərini səmaya dikir və düşmənlərin tənəsinə cavab olaraq qiblənin dəyişməsi ilə bağlı ilahi fərman gözləyirdi. Növbəti gün Peyğəmbər (s) zöhr namazı vaxtı Bəni-Salim məscidinə getdi. Namazın iki rəkətini qılmışdı ki, Cəbrayıl nazil oldu. Peyğəmbərin (s) iki biləyindən tutub, onu Kəbə səmtinə çevirdi və bu ayə həzrətə (s) nazil oldu: "*Biz sənin üzünün (yeni qiblənin təyin olunması üçün) göyə tərəf çevrildiyini görürük. İndi səni razı olduğun qibləyə tərəf döndərəcəyik. Üzünü Məscid əl-Harama tərəf çevir!*" ("Bəqərə", 144) Peyğəmbər (s) namazın iki rəkətini Beytül-müqəddəs, digər iki rəkətini isə Məscidül-haram səmtinə qıldı. Bu zaman yəhudilər və ağlıkəmlər dedilər: "*Onları (müsəlmanları) üz tutduqları qiblədən nə döndərdi?*" Allah bu suala cavab olaraq, buyurur: "*Şərq də, qərb də Allahındır. O, istədiyi şəxsi doğru yola yönəldər*". Yəni, bütün aləm Allaha məxsusdur. Kəbə və Beytül-müqəddəsin öz-özlüyündə bir dəyəri yoxdur. Onlara dəyəri Allah vermişdir.[105]

143. Orta (mötədil) ümmət: Bəzi görkəmli təfsirçilərə görə, "*Sizi orta bir ümmət etdik ki, insanlara şahid olasınız*" cümləsində məqsəd ümmətin

[105] "Əl-Mizan", c. 1, səh. 313 və 326.

müəyyən fərdləri, yəni məsum imamlardır (ə). "Orta ümmət"in mənası ilə bağlı iki versiya mövcuddur. Birinci versiyaya görə, orta ümmətdə məqsəd etiqadlarda, əxlaqi məsələlərdə və əməldə heç zaman ifrat və təfritə varmayan kəsimdir. Məsum imamlar pak və qüsursuz olduqları üçün daim yaşamlarında ifrat və təfritdən uzaq durmuş, bütün işlərində ən doğru yolu getmişlər. Heç bir səmtə doğru azmamışlar. Buna görə də Allah onları insanlara şahid etmişdir ki, onlar dünyada insanların əməllərinə şahid olsunlar və Qiyamət günü Allah yanında şahidlik etsinlər. Allah da onların şahidliyi üzərinə hökm oxusun. İkinci versiyaya görə isə məqsəd Peyğəmbərlə (s) xalq arasında olan insanlardı. Yəni məsum imamlar (ə) insanların əməllərinə şahiddirlər. Necə ki, "Nisa" surəsinin 41-ci ayəsində oxuyuruq: "*Hər ümmətdən (əməllərinə) bir şahid gətirəcəyimiz və səni də onlara şahid gətirəcəyimiz zaman (onların halı) nə cür olacaq?*" Yəni, hər ümmətin, o cümlədən islam ümmətinin də şahidləri var. Peyğəmbər (s) bütün şahidlərə şahiddir. Hər halda bu ayələr müsəlmanların hamısına yox, xüsusi bir qrupa aiddir. Bu ayə ilə bağlı İmam Baqirdən (ə) nəql olunan bir hədisdə deyilir: "İnsanların şahidləri yalnız peyğəmbərlər və imamlardır. Bütün islam ümmətinin nəzərdə tutulması və Allahın onlardan şahidlik tələb etməsi ağla müvafiq deyil. Çünki ümmətin arasında elələri vardır ki, onların şahidliyinin heç bir dəyəri yoxdur".[106]

[106] "Ətyəb əl-bəyan", c. 2, səh. 228; "əl-Mizan", c. 1, səh. 314.

146. Səmavi kitab verdiyimiz şəxslər onu (Peyğəmbəri) öz oğullarını tanıdıqları kimi tanıyırlar. (Buna baxmayaraq) onların bir qismi, həqiqəti bilə-bilə gizlədir.

147. Bu (qiblənin dəyiməsi hökmü), Rəbbin tərəfindən olan haqq bir hökmdür. Odur ki, heç vaxt ona şübhə edənlərdən olma.

148. Hər kəsin (hər ümmətin) Allahın təyin etdiyi bir qibləsi vardır. (Buna görə də qiblə haqqında çox danışmayın. Onun yerinə) yaxşı işlər görməkdə bir-birinizi ötüb keçin. Harada olursunuzsa olun, Allah sizin hamınızı (Qiyamətdə yaxşı və pis əməllərinizin əvəzini vermək üçün) bir yerə toplayacaqdır. Çünki, O, hər şeyə qadirdir.

149. Haradan (hansı şəhərdən, hansı nöqtədən) çıxsan, (namaz vaxtı) üzünü Məscidül- harama tərəf çevir. Bu, Rəbbin tərəfindən bir haqq fərmandır. Allah gördüyünüz işlərdən xəbərsiz deyildir.

150. Haradan (hansı səmtdən) çıxsan, (namaz vaxtı) üzünü Məscidül-harama tərəf çevir. Harada olsanız, üzünüzü ona tərəf çevirin ki, (inaddan əl çəkməyən) zalımlardan başqa heç kəsin sizə qarşı bir dəlili olmasın (Çünki keçmiş səmavi kitablarda verilən peyğəmbərin nişanələrindən biri onun iki qibləyə namaz qılmasıdır). Onlardan qorxmayın, (yalnız) Məndən qorxun. (Qibləni dəyişməyimin səbəbi bu idi ki,) sizə olan nemətimi tamamlayım, bəlkə, siz doğru yola yönələsiniz.

151. Həmçinin (qibləni dəyişməklə nemətimi tamamladığım kimi) sizə ayələrimizi oxumaq, sizi təmizləmək, kitabı, hikməti və bilmədiklərinizi öyrətmək üçün sizə öz içərinizdən bir peyğəmbər göndərdik.

152. Elə isə Məni xatırlayın ki, Mən də sizi yad edim. Mənə şükür edin və (nemətlərimə) nankorluq etməyin.

153. Ey iman gətirənlər! Səbir və namazdan kömək alın. (Çünki) Allah səbir edənlərlədir.

---

146. Keçmiş səmavi kitablarda İslam peyğəmbərinin (s) xüsusiyyətləri:

Bu ayə ilə bağlı İmam Sadiqdən (ə) nəql olunan bir rəvayətdə deyilir: "Bu ayə yəhudi və xristianlar haqqında nazil olmuşdur. Çünki Allah Tövratda, İncildə və Zəburda həzrət Məhəmmədin (s), səhabələrinin və hicrətinin nişanələri haqqında məlumat vermişdir. Necə ki, Quranda da ("Fəth" surəsinin 29-cu ayəsində) deyilir: "*Məhəmməd (s) Allahın elçisidir. Onunla birlikdə olanlar (möminlər) kafirlərə qarşı sərt, bir-birinə (öz aralarında) isə mərhəmətlidirlər. Onları daim rüku və səcdə edən, Allahdan riza və lütf diləyən görərsən. Onların əlaməti üzlərində olan səcdə izindən məlumdur. Bu onların Tövratda və İncildəki vəsfidir*". Peyğəmbərin (s) və səhabələrinin bu xüsusiyyətləri Tövratda da var idi. Demək, Allah Peyğəmbəri (s) göndərdikdə kitab əhli onun nişanələrini, xüsusiyyətlərini bilirdi. Necə ki, Allah bu haqda ("Bəqərə", 89) buyurur: "(Öncədən) tanıdıqları (kitab və peyğəmbər) göndərildiyi zaman, ona küfr etdilər". [107]

150. Əlinin (ə) fasiləsiz xilafəti nemətin tamamlanması vədinin reallaşması kimi: Bəzi təfsirçilər ayənin "*(Qibləni dəyişməyimin səbəbi bu idi ki,) sizə olan nemətimi tamamlayım*" hissəsinin izahı ilə bağlı demişlər ki, Allah bu ayədə müsəlmanlara onlara olan nemətini tamamlayacağını vəd etmişdir. Bu vədin həyata keçməsi "Maidə" surəsinin 3-cü ayəsində bəyan olunmuşdur: "*Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün (əbədi) din olaraq islamı bəyənib seçdim*". Bütün

---

[107] "Ətyəb əl-bəyan", c. 2, səh. 240.

şiə təfsirçilərinə və eləcə də əksər əhli-sünnə təfsirçilərinə görə, "Maidə" surəsinin 3-cü ayəsi Qədir-Xumda həzrət Əli (ə) İslam peyğəmbəri (s) tərəfindən canişin təyin edildikdən sonra nazil olmuşdur.[108]

152. Allahı xatırlamağın, Ona şükür etməyin fəzilət və həqiqəti: Allahı yad etməyin fəziləti haqqında çoxlu sayda rəvayətlər nəql olunmuşdur. İslam peyğəmbərindən (s) nəql olunan bir rəvayətə görə, bir gün o, səhabələrinə buyurdu: "Behişt bağlarında gəzin". Soruşdular: Ey Allahın elçisi! Behişt bağları nədir?" Buyurdu: "Allah xatırlanan məclislər. Belə məclislərə gedin və Allahı xatırlayın. Kim onun Allah yanında dəyərinin nə qədər olduğunu bilmək istəyirsə, Allahın onun üçün nə qədər dəyərli olmasına baxsın. Çünki Allah öz bəndəsinə onun Allaha göstərdiyi hörmət qədər hörmət göstərir. Bilin ki, sizin malikiniz və sahibiniz yanında ən yaxşı və ən təmiz əməliniz Allahı yad etməkdir. Çünki o özü özü haqqında məlumat vermiş və buyurmuşdur: "Məni yad edin ki, mən də sizi nemətlərimlə yad edim. Məni ibadət və itaətlə yad edin ki, mən də sizi öz yaxşılığımla, nemətlərimlə, razılığımla yad edim". Əlbəttə, Allahı yad etməkdə məqsəd yalnız onu dil ilə zikr etmək deyil. Əksinə, Allahı yad etmək insan ruhunun ibadətidir. Əgər dil ilə zikr könüldən gəlirsə, dəyərlidir. Əks təqdirdə dəyəri yoxdur. Unutmaq lazım deyil ki, Allahı həqiqi yad etmək insanın əməlində özünü göstərir. Necə ki, Peyğəmbərdən (s) nəql olunan bir rəvayətdə oxuyuruq: "Hər kim Allaha itaət etsə, Allahı yad etmiş olur. Hərçənd, namazı, orucu və Quran tilavəti az da olsa. Kim Allaha asi olsa, Allah onu unudar. Hərçənd, namazı, orucu və Quran tilavəti çox da olsa".[109] Quran Allahı xatırlamaqla yanaşı şükür etməyi də əmr edir, insanı nemətə naşükürlük etməkdən həzər edir. Allaha şükür, Allaha ehtiyac, onun qarşısında yoxsulluq hissi ilə birgə

---

[108] "Əl-Mizan", c. 1, səh. 324.
[109] Yenə orada, səh. 336.

olmalıdır. Naəlac bir xəstəni xeyirxah bir insan təmənnasız müalicə edərsə, o özünü həmin şəxsə qarşı xəcalətli hesab edər. Bu hiss dil ilə təşəkkür etməkdən daha yüksəkdir. Əgər insan Allahın məxluqu qarşısında belədirsə, hər şeyi ondan olan Allah qarşısında necə olmalıdır? Bəli, dil ilə şükür etmək yüksək ilahi həqiqətdən, yəni Allaha alimcəsinə şükürdən çox uzaq fasilədədir.[110]

[110] "Təfsiri-mövzui", c. 14, səh. 246.

154. Allah yolunda öldürülənlərə ölü deməyin. Əksinə, onlar diridirlər, lakin siz dərk etmirsiniz.

155. Əlbəttə, sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can və məhsul itkisi ilə imtahan edirik. Səbir edənlərə müjdə ver.

156. O kəslər ki, başlarına bir müsibət gəldiyi zaman: “Biz Allahınıq və Ona tərəf qayıdacağıq”, - deyirlər.

157. Onlara Rəbbi tərəfindən lütflər və mərhəmət var. Doğru yolda olanlar onlardır.

158. Səfa və Mərvə Allahın əlamətlərindəndir (nişanələrindəndir). (Odur ki,) Kəbə evini həcc və ya ümrə yolu ilə ziyarət edən şəxsin bunları təvaf etməsinə heç bir maneə yoxdur (Müşriklərin bu iki dağa dikdiyi bütlər onların müqəddəsliyinə xələl gətirmir). Kim yaxşı işlər görməkdə Allaha itaət etsə, Allah (onun əməli qarşısında) qədirbilən və (etdiklərindən) xəbərdardır.

159. Kitabda insanlara aşkar etdiyimiz dəlillərdən sonra göndərdiyimiz nişanələri və hidayət vasitələrini gizlədən kimsələr Allahın lənətinə gəlirlər və bütün lənət edənlər də onlara lənət oxuyurlar.

160. Mən yalnız tövbə edənlərin, (pis əməllərini yaxşı işlərlə) islah edənlərin və (gizlətdiklərini) aşkara çıxaranların tövbəsini qəbul edirəm. Mən tövbələri qəbul edən və mərhəmətliyəm.

161. Şübhəsiz, kafir olanlar və kafir olaraq ölənlər Allahın, mələklərin və bütün insanların lənətinə gələcəklər.

162. Onlar həmişəlik (lənət içərisində, Allahın rəhmətindən uzaq) qalacaqlar. Nə əzabları yüngülləşəcək, nə də onlara möhlət veriləcək.

163. Sizin tanrınız bir olan Allahdır, Ondan başqa tanrı yoxdur. O, Rəhman və Rəhimdir (ümumi və xüsusi rəhmətə malikdir).

---

155. Başıuca səbirlilər: Bu ayəyə görə, şübhəsiz, Allah insanları çətinliklərlə, müxtəlif müsibətlərlə imtahana çəkir. Bu imtahanlardan yalnız bir zümrə üzüağ çıxır və onlar səbirlilərdirlər. Növbəti ayə isə səbrliləri tanıdaraq buuyurur: "*Onlar başlarına bir müsibət gəldiyi zaman: "Biz Allahınıq və Ona tərəf qayıdacağıq", - deyənlərdir*". Aydın məsələdir ki, məqsəd yalnız dillə demək deyil. Əksinə, qəlbən etiqad bəsləmək də önəmlidir. *"Biz Allahınıq və Ona tərəf qayıdacağıq"*ibarəsi ilə səbr arasında nə əlaqə olmasına gəlincə, bəzi böyük təfsirçilərə görə, insanın vücudu, onun malik olduqları - bədən üzvləri, mal, həyat yoldaşı, övlad və s. özü-özlüyündə heç bir müstəqilliyə malik deyil. Allahın iradəsi ilə yaranmışdır və Allah insanın da, onun malik olduqlarının da həqiqi sahibidir. Hərçənd, Allah zahirdə insanı bəzi şeylərin maliki etmişdir. Amma bu mülkiyyət nisbidir. Bu zahiri və nisbi mülkiyyət insandan alinacaq. İnsan heç bir şeyə malik olmadan Allahın hüzuruna qayıdacaq. Həzrət Əli (ə) bu haqda buyurur: "Bizim *"Biz Allahınıq və Ona tərəf qayıdacağıq"* deməyimiz Allahın həqiqi malik, bizim isə onun mülkiyyəti altında olmağımızı etirafdır. *"Biz Allahınıq və Ona tərəf qayıdacağıq"* öləcəyimizi etiraf etməkdir". Bəli, əgər insan çətinliklər, problemlər zamanı bütün varlığının Allahın mülkü olmasına, həqiqi sahibinin Allah olmasına və buna görə də öz mülkündən istədiyi kimi istifadə etməkdə haqlı olmasına, digər tərəfdən isə insanın dünyadakı zahiri mülkiyyətinin bitəcəyinə, təkbaşına Allahın hüzuruna dönəcəyinə diqqət yetirsə, başa düşəcək ki, əslində heç bir şeyin maliki deyil. Artıq onun olmayan bir şeyin əlindən çıxması üçün qəm

yeməyəcək. Əlindəkilərin tələf olması ona kədər gətirməyəcək.[111] Səbir və müsibətin dəyəri ilə bağlı İmam Sadiqdən (ə) nəql olunan bir rəvayətdə Peyğəmbərin (s) belə buyurduğu bildirilir: "Allah buyurur: "Mən dünyanı bəndələrimə borc olaraq verdim. Buna görə də kim dünyadan mənə bir şey borc versə (yəni Allah yolunda xərcləsə), hər biri qarşılığında onun yeddi yüz bərabərinə qədər mükafat verəcəm. Ondan mənə borc verməyən və məcburi şəkildə bir şey aldığıma isə onun qarşılığında üç şey verəcəm. Əgər o üç şeydən birini mələklərə versəydim, məndən razı olardılar". İmam Sadiq (ə) sonra buyurdu: "Bu üç mükafat Allahın məcburi aldıqları üçündür".[112]

160. Allahın tövbə qəbul etməsi: Allah bu ayədən başqa Quranın heç bir yerində tövbə haqqında öz adından danışmamışdır. Bu, Allahın tövbə edənə, keçmişini islah edənə sonsuz hörmətidir. Allah bu ayədə "*Onların tövbəsini qəbul edirəm. Mən tövbələri qəbul edən və mərhəmətliyəm*", - deyə buyurur və sanki bu işi bir əhd olaraq öz üzərinə götürdüyünü, bəndəsini aludəliklərdən təmizləyəcəyini bəyan edir. Bu xüsusi lütfü iki sifətlə "təvvab" (çox tövbə qəbul edən) və "Rəhim" (xüsusi rəhmətə malik) təkmilləşdirmişdir.[113] İmam Baqirə (ə) isnad edilən bir rəvayətdə deyilir: "Allahın bəndəsinin tövbə etməsinə sevinməsi qaranlıq gecədə azuqəsini, qida tədarükünü itirib, sonra onu tapan adamın sevincindən daha çoxdur".[114]

---

[111] "Əl-Mizan", c. 1, səh. 349.
[112] Yenə orada, 381.
[113] "Əl-Mizan", c. 1, səh. 389; "Nümunə", c. 1, səh. 548.
[114] "Səfinə əl-bihar", c. 1, səh. 476.

164. Şübhəsiz, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, dənizdə insanların xeyrinə üzən gəmilərdə, Allahın göydən endirdiyi, onunla ölmüş torpağı diriltdiyi və onda növbənöv heyvanları yaydığı suda, göylə yer arasında ram edilmiş küləyin və buludların istiqamətinin dəyişdirilməsində düşünən insanlar üçün (Allahın varlığını və yeganəliyini göstərən) nişanələr vardır.

165. Bəzi insanlar özlərinə Allahdan qeyri tanrı seçir, onları Allahı sevən kimi sevirlər. İman gətirənlərin Allaha məhəbbəti isə (müşriklərin bütlərinə sevgisindən) daha güclüdür. Zülm edənlər (Allahdan qeyrisini tanrı seçənlər) (ilahi) əzabı görəndə bütün (qüvvət və) qüdrətin Allaha məxsus olduğunu və (qorxduqları xəyali tanrıların yox,) Allahın şiddətli əzabı olduğunu biləcəklər.

166. O zaman (azğın və azdıran) başçılar ardıcıllarından (onlara tabe olanlardan) uzaqlaşacaq, (ilahi) əzabı görəcək və əlləri hər yerdən üzüləcəkdir.

167. O zaman tabe olanlar (ardıcıllar): “Kaş bir də dünyaya qayıda biləydik, (bu gün) onlar bizdən uzaqlaşdıqları kimi biz də onlardan (azğın başçılardan) uzaqlaşardıq”, - deyərlər. (Bəli,) beləcə Allah onların əməllərini təəssüf doğuracaq şəkildə özlərinə göstərər və onlar Cəhənnəm odundan heç vaxt çıxmayacaqlar.

168. Ey insanlar! Yer üzündəki qidaların təmiz və halal olanlarını yeyin, Şeytanın izi ilə getməyin. Çünki, o sizinlə açıq-aşkar düşməndir.

169. O sizə ancaq pis və iyrənc işlər görməyi və Allaha qarşı bilmədiklərinizi deməyi əmr edir.

---

164. Ən yaxşı ilahi töhfə: Ağıl, insanın onunla doğrunu və yanlışı, haqqı və batili, düzü və yalanı və s. ayırd etdiyi bir nemətdir.[115] O elə bir nemətdir ki, insan onunla hidayət olur (doğru yola yönəlir), haqqa tabe olur və batil üzərində israrla dayanmır.[116] İslam rəvayətləri və Quran ayələrində ağıl üzərində çöx təkidlə dayanılmışdır. Belə ki, onu ən yaxşı ilahi töhfə hesab etmişlər.[117] Bu ayədə də deyilir ki, yaradılış haqqında düşünən ağıl sahibləridir. Onlar onu ilahi bir nişanə hesab edirlər. Çox ola bilsin ki, insanların əksəriyyəti Allahın nişanələrini görürlər. Amma ondan heç bir şəkildə faydalana bilmirlər. Bir rəvayətə görə, bir dəstə insan Peyğəmbərin (s) yanında bir müsəlmanı tərifladilər. Həzrət (s) buyrudu: "Onun zəkası necədir?" Dedilər: "Ey Allahın rəsulu! Biz onun ibadətdəki cidd-cəhdindən, xeyirli işlərindən danışırıq, siz ağlından soruşursunuz?" Həzrət (s) buyrudu: "Axmağın axmaqlığı ucbatından gələn bəla günahkarların inadkarlığından daha pisdr. Allah Qiyamətdə bütün insanları ağıllarının səviyyəsinə görə yüksəldəcək və onlar bu meyrala Allaha yaxın olacaqlar".[118] Əlbəttə, cəmiyyətdə bəziləri üçün ağıl zirək olmaq deməkdir. Amma rəvayətlərdə bu mənada işlənmir. İmam Sadiq (ə) ağıl haqqında buyurur: "Ağıl, o şeydir ki, onunla Allaha pərəstiş olunsun və behişt qazanılsın". Ravi soruşdu: "Bəs Müaviyədə olan nə idi?" Həzrət (ə) buyurdu: "O, zirəklik və məkr idi ki, ağla oxşayır, amma ağıl deyil".[119]

167. Xəsislik, Qiyamətin böyük peşmançılığı: İmam Sadiqdən (ə) "Allah onların əməllərini təəssüf doğuracaq şəkildə özlərinə göstərər" ayəsi

---

[115] "Əl-Mizan", c. 1, səh. 404.
[116] "Əl-Mizan", c. 17, 251.
[117] Bax: "Üsuli-Kafi", "əl-Əql vəl-cəhl" fəsli.
[118] "Nümunə", c. 24, səh. 329.
[119] "Üsuli-Kafi", c. 1, səh. 28.

haqqında nəql olunan bir rəvayətdə deyilir: "Bu o adamdır ki, malını Allaha itaət yolunda xərcləməyə ürəyi gəlmir. Sonra ölür və malını elə adam üçün qoyub gedir ki, onunla ya Allaha itaət edir, ya da ona asi olur. Əgər vərəsə onunla Allaha itaət etsə, Qiyamətdə o əməlin savabı başqa bir tərəziyə qoyular və o təəssüf edər. Çünki savab onun malının nəticəsi idi. Əgər vərəsə onun malını Allaha itaətsizlikdə sərf etsə, (yenə təəssüf edər). Çünki o mal ilə vərəsəni Allaha itaətsizlik göstərməkdə qüvvətləndirmişdir".[120] Məlumdur ki, bu hədis asi olanın və günahkarın Qiyamətdə peşmançılıq çəkməsini bəyan edir və ayənin mənası bu hədislə məhdudlaşmır.

[120] "Əl-Mizan", c. 1, səh. 408.

170. Onlara: “Allahın nazil etdiyinə tabe olun!” – deyildiyi zaman, onlar: “Biz ancaq atalarımızın getdiyi yolla gedəcəyik”, – deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yolda deyildilərsə necə? (Yenədəmi onlara tabe olacaqlar?)

171. Kafirlərin məsəli (sənin onları dinə çağırmağının məsəli) o adamın məsəlinə oxşayır ki, (heyvanları təhlükədən xilas etmək üçün) haylayır, amma onlar hay-küydən başqa bir şey eşitmirlər (Onun sözünün əsl mənasını anlamırlar. Bu kafirlər əslində) kar, lal və kordurlar. Buna görə də bir şey anlamırlar.

172. Ey iman gətirənlər! Sizə ruzi olaraq verdiyimiz pak nemətlərdən yeyin. Əgər Allaha ibadət edirsinizsə, Ona şükür edin.

173. Allah sizə yalnız ölü heyvanı, qanı, donuz ətini və Allahdan başqasının adı ilə kəsilənləri haram etmişdir. Məcbur qalan üçün isə zülm və təcavüz etmədikcə heç bir günahı yoxdur (Zərurət yarandıqda acından ölməmək üçün onlardan yeyə bilər). Allah bağışlayan və mehribandır.

174. Allahın kitabdan nazil etdiklərini gizlədən və onu ucuz qiymətə satanlar oddan başqa bir şey yemirlər (Bu yolla əldə etdikləri hədiyyələr və mal-mülk əslində yanar oddur). Qiyamət günü Allah onlarla danışmaz, (onları) təmizə çıxarmaz. Onları ağrılı əzab gözləyir.

175. Onlar azğınlığı doğru yola, əzabı bağışlanmağa dəyişənlərdir. Onlar Cəhənnəm əzabına necə də dözümlüdürlər!

176. Bu ona görədir ki, Allah (səmavi) kitabı haqq olaraq (aydın dəlil və nişanələrlə) göndərmişdir. Onunla bağlı ixtilaf edənlər (gizlətməklə, təhrif etməklə ixtilaf yaradanlar) dərin bir çatlaq (və dağınıqlıq) içərisindədirlər.

---

173. Allahın halal və haramı insanın məsləhətinə uyğundur: Haram, yasaqdır. Bu və ya digər iş haramdır dedikdə məqsəd budur ki, o işi görmək qadağandır. Halal isə haramın müqabilidir. Onun mənası isə əməldə azad olmaqdır. Bilmək lazımdır ki, hansısa işin, qidanın və s. halal və ya haram olması insanların öz məsləhətinə uyğundur və bunun Allaha bir xeyri dəymir. Necə ki, "Bəqərə" surəsinin 168-ci ayəsində deyilir: "*Ey insanlar! Yer üzündəki qidaların təmiz və halal olanlarını yeyin*". Ayədə ifadə olunmağa çalışılır ki, bu və ya digər şeyin halal olması onun pak olması ilə yanaşıdır. Ayədə sözükeçən "təyyib" sözündə məqsəd insan məzacına xoş gələn yeməkdir.[121] "Maidə" surəsinin 4-cü ayəsində isə oxuyuruq: "*Səndən hansı şeylərin halal edildiyini soruşurlar. De: "Bütün pak nemətlər sizə halal buyurulmuşdur*". Bu ayədə Allah ümumi şəkildə buyurur ki, pak və insan təbiətinə uyğun olan şeylər halaldır.[122] İmam Sadiqdən (ə) nəql olanan bir hədisdə oxuyuruq: "Kim ölü heyvanın ətini yesə, bədəni zəifləyər, ağrı verər. (Ölü heyvanın əti) onun gücünü azaldar, nəslini kəsər. Ölü heyvan əti yeyən qəfil ölər". Güman ki, bu fəsadların səbəbi həzm orqanının ölü heyvandan sağlam qan yarada bilməməsidir. Bundan başqa, ölü heyvanın əti həm də mikrob yığnağıdır. Buna görə də islam dini yalnız ölü heyvan ətini yeməyi haram etməmiş, həm də onu murdar hesab etmişdir ki, müsəlmanlar ondan tamamilə uzaq dursunlar.[123] Əlbəttə, əksər hökmlərin fəlsəfəsi bizə məlum deyil. Amma biz onları hikmət sahibi olan Allah tərəfindən o hökmlərə əməl edir, Allaha müti oluruq.

---

[121] "Əl-Mİzan", c. 1, səh. 416.
[122] "Əl-Mizan", c. 5, səh. 205.
[123] "Nümunə", c. 1, səh. 585.

174. Dinsatan alimlər - odyeyənlər: Təfsirçilərin yekdil rəyinə görə, bu ayələr kitab əhli haqqında nazil olmuşdur. Əksəriyyətin fikrincə, ayə xüsusilə yəhudi alimlərini nəzərdə tutur. Onlar İslam peyğəmbəri (s) nübüvvətə seçilməzdən öncə onun nişanələrini öz kitablarında görmüş və davamlı olaraq insanlar üçün danışırdılar. Amma Peyğəmbərin (s) gəlişindən sonra insanların kütləvi şəkildə ona yönəlməsini görüb qorxdular ki, belə davam etdiyi təqdirdə öz mənafeləri təhlükəyə düşə bilər. Onlar üçün təşkil olunan ziyafətlər, verilən hədiyyələr əldən çıxa bilər. Buna görə də Peyğəmbərin (s) Tövratdakı nişanələrini gizlətdilər. Əlbəttə, ayənin "şəni-nüzul"u bununla məhdudlaşmır. Ayənin geniş və ümumi mənası öz qüvvəsində qalır və ilahi hökmləri, əmrləri gizlədən hər kəsə şamil olur. Çox ola bilsin ki, bəziləri Quranda açıq bəyan olunan Əhli-beyt (ə) fəzilətlərini gizlətsinlər. Mövcud ayələri başqa şəkildə yözur və izah edirlər. Belə olan halda bu ayə onlara da aid olacaq. Bu ayə həmçinin axirətdə onların əməllərinin canlanmasına da işarə vurur və bildirir ki, həqiqəti gizlədənlər, bu yolla mal-mülk sahibi olanlar yanar od əldə ediblər və bu od axirətdə onların qarnına daxil olaub yandıracaq. Həmçinin "Nisa" surəsinin 10-cu ayəsində deyilir: "*Yetimlərin mallarını haqsızlıqla yeyənlər (əslində) yalnız od yeyirlər və tezliklə alovda yanacaqlar*".[124] Qeyd etmək lazımdır ki, “az qiymət” dedikdə o nəzərdə tutulmur ki, çox qiymətə satsaydılar, ziyanları az olacaqdı. Əksinə, məqsəd budur ki, dünya malından (bu yolla) əldə etdikləri hər şey dünya malı olduğu üçün az və dəyərsizdir.[125]

---

[124] "Nümunə", c. 1, səh. 592; "Ətyəb əl-bəyan", c. 2, səh. 303.
[125] "Təfsiri-mövzui", c. 5, səh. 411.

177. Yaxşı əməl (yalnız namaz vaxtı) üzünü şərqə və (ya) qərbə tərəf çevirməyiniz deyil (və yaxşı əməl ancaq qiblənin dəyişilməsi haqqında danışmağınız və bütün vaxtınızı ona sərf etməyiniz deyil). Yaxşı əməl (sahibi) əslində Allaha, axirət gününə, mələklərə, (səmavi) kitaba və peyğəmbərlərə inanan, mal-dövlətini çox sevməsinə baxmayaraq, onu qohum-əqrəbaya, yetimlərə, yoxsullara, yolda qalan müsafirə, dilənçilərə və qulların azad olunmasına sərf edən, namaz qılan, zəkat verən, (eləcə də) əhd bağladıqda əhdinə vəfa edən, dar ayaqda, xəstəlikdə və cihad zamanı səbir edənlərdir (mətin olanlardır). Onlar doğru danışanlardır (sözləri etiqadlarına uyğundur). Təqvalı olanlar da məhz onlardır.

178. Ey iman gətirənlər! Öldürülənlər haqqında sizin üçün qisas hökmü qərara alınmışdır: azada qarşılıq azad, qula qarşılıq qul, qadına qarşılıq qadın. (Din) qardaşı tərəfindən bir şey bağışlanmış (qisas hökmü qanbahasına çevrilmiş) şəxs yaxşı davranmalıdır (Qan sahibi, qanbahası ödəyəni nəzərə almalıdır). O (qatil) da qanbahasını (qan sahiblərinə) yaxşılıqla ödəməlidir (laqeydlik etməməlidir). Bu, Rəbbiniz tərəfindən sizin üçün bir yüngüllük və mərhəmətdir. Bundan sonra təcavüzkarlıq edəni ağrılı əzab gözləyir.

179. Ey ağıl sahibləri! Qisasda sizin üçün həyat vardır. Bəlkə təqva yolunu tutasınız.

180. Sizlərdən birini ölüm haqlayanda qoyub gedəcəyiniz maldan valideynlərinizə, yaxınlarınıza (yaxın qohumlarınıza) verilməsi üçün layiqli vəsiyyət etməniz vacib edilmişdir. Bu, təqvalılar üzərində bir haqdır.

181. Kim (vəsiyyəti) eşitdikdən sonra onu dəyişdirsə, günahı ancaq onu dəyişdirənlərin üzərinə düşür. Şübhəsiz ki, Allah eşidən və biləndir.

---

178. Qisas - cəmiyyətin təhlükəsizlik qarantı: Qeyd etmək lazımdır ki, İslam hər növ qisasın tərəfdarı deyil. Əksinə, qisas və əvəz çıxmağın müəyyən sərhədləri var. Bir qətl üçün onlarla qətl törədilməsi və ya bir qətlin əvəzini çıxmaq üçün bir tayfadan, qohum-əqrəbadan intiqam alınması icazəli deyil. İslamdan qabaq cahiliyyət dönəmində belə hallar çox baş verirdi. Hətta indi də dünyanın müxtəlif yerlərində, fərqli xalqlar arasında bu kimi ənənələr mövcuddur. Digər tərəfdən, məzlumun qanına önəm verməmək, məqtulun qəyyumlarına “qisas və müdafiə hüququnuz yoxdur” demək olmaz. Çünki bu iş canilərə, fitnəkarlara meydan vermək, qatillərin əlini açıq qoymaq, günahsızların qanının boşuna axıdılmasına göz yummaq, qisas hissinə və qan sahiblərinin qəlbinin ovundurulmasına etinasızlıqdır. Hər iki davranış təhlükəlidir. Çünki birincisi cəmiyyətdə hərc-mərcliyə səbəb olur, ikincisi isə nəinki ədalətli sistemə uyğun deyil, həm də heç bir ağlamüvafiq sistemlə səsləşmir. Buna görə də "qanı qanla yumaq olmaz" məntiqi doğru deyil. Əksinə, bir çox hallarda cinayətkarı və zalımı başqalarına dərs olsun deyə cəzalandırmaq lazımdır. Həzrət Əli (ə) buyurur: "Daşı gəldiyi yerə atın. Çünki şəri şər aparar". Əgər İmam Səccadın (ə) qisas ayəsinin izahı ilə bağlı açıqlamalarına diqqət yetirsək, qisasın diqqətəlayiq faydalarının olduğunu görərik. İmam Səccad (ə) "*Qisasda sizin üçün həyat vardır*" ayəsini oxyandan sonra buyurmuşdur: "Ey Peyğəmbər ümməti! Bilin ki, qisas sizin üçün və İslam cəmiyyəti üçün yaşam mənbəyidir. Çünki qətl fikrinə düşən bilsə ki, qatili də öldürəcək, ondan öc alacaqlar, mütləq bu şeytani fikrindən daşınacaq, öldürməkdən yayınacaq. Demək, qisas qanunu ilk növbədə sui-qəsd olunacaq adamın həyatını qurtarır, onun qətlinə mane

olur. İkincisi, cinayətkarın öz yaşamını xilas edir. Çünki qarşı tərəfi öldürərsə, o da qisas nəticəsində öldürüləcək. Amma qisas qprxusundan bu əmələ bulaşmır. Üçüncüsü isə başqalarının həyatını xilas edir. Xalq və cəmiyyətin can təhlükəsizliyini təmin edir. Çünki insanlar qisasın vacib olduğunu, mütləq icra olunacağını bildikdə qisas qorxusundan başqalarını qətlə yetirməyə cəsarət etmirlər".[126]

180. Bəzən vacib olan müstəhəb əməl: Vəsiyyət təkidli müstəhəb əməllərdən biridir ki, bəzən vacib olur. Misal üçün, insan ilahi əmrlərin icrasında, boynunda olan hüquqların ödənməsində səhlənkarlıq edibsə, yaxud onda kiminsə əmanəti varsa, vəsiyyət etmədikdə onların hüquqları pozula bilər. İrs qanununda yalnız müəyyən yaxın qohumlar pay ala bilirlər. Halbuki qohumlar və ya İslam cəmiyyətində maddi köməyə zəruri ehtiyacı olan fərdlər, yaxud irs payı maddi ehtiyacını qarşılayacaq miqdarda olmayan varislər ola bilər. Bu baxımdan İslam irs qanunu ilə yanaşı vəsiyyət qanununu da vermişdir ki, müsəlmanlara ölüm sonrası üçün öz mallarının üzdə biri haqqında qərar qəbul edə bilsinlər. İslam rəvayətlərində vəsiyyət çox təkidlə tövsiyə olunmuşdur. O cümlədən Peyğəmbərdən (s) nəql olunan bir rəvayətdə deyilir: "Müsəlmana yaraşmaz ki, gecə vəsiyyətnaməsi başının altında olmadan yatsın". Əlbəttə, "başının altında olması" ifadəsi təkid üçündür. Məqsəd vəsiyyətin yazılması, hazır olmasıdır. Digər rəvayətdə isə oxuyuruq: "Vəsiyyətsiz dünyadan gedənin ölümü cahiliyyət ölümüdür". Vəsiyyətin zəruri olmasından əlavə onun ədalətli olması da çox təkid olunmuşdur ki, kimsəyə ziyan dəyməsin. İmam Baqir (ə) buyurur: "Kim vəsiyyətində ədalətə riayət etsə, sanki həmin malı özü sağ ikən Allah

[126] "Mənşuri-cavid", c. 1, səh. 121.

yolunda sərf etmişdir. Vəsiyyətində zülm və haqsızlıq edən isə Qiyamət günü Allah qarşısında çıxdıqda Allah ondan üz döndərəcək".[127]

[127] "Nümunə", c. 1, səh. 618.

182. Hər kəs vəsiyyət edənin yanılmasından (varislər arasında fərq qoymasından) və ya günah işləməsindən (günah işi vəsiyyət etməsindən) qorxub, onların arasını düzəltsə, ona heç bir günah yazılmaz (o vəsiyyəti dəyişdirmiş sayılmaz). Allah bağışlayan və mehribandır.

183. Ey iman gətirənlər! Oruc, sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, təqvalı olasınız.

184. Bir neçə müəyyən gün (oruc tutmalısınız). Sizdən xəstə və ya səfərdə olanlar başqa günlərdə bir neçə gün (oruc tutsunlar). Oruc tutmağa taqəti olmayanlar (xəstələr, qoca kişi və qadınlar) isə bir yoxsulu doyuracaq qədər fidyə versinlər. Kim xeyir iş görsə, bu onun üçün daha yaxşıdır. Oruc tutmaq sizin üçün daha yaxşıdır, əgər bilsəniz.

185. (Oruc tutmaq üçün nəzərdə tutulan bir neçə gün) ramazan ayıdır. O, Quranın insanları doğru yola yönəldən, hidayət nişanələri və haqqı batildən ayıran olaraq nazil edildiyi aydır. Sizdən ramazan ayına şahid olanlar (vətənində olanlar) oruc tutmalıdırlar. Xəstə və ya səfərdə olanlar isə (onun yerinə) başqa günlərdə (tutsunlar). Allah sizin üçün çətinlik yox, asanlıq (rahatlıq) istəyir. (Məqsəd budur ki,) bu günlərin orucunu tamamlayasınız və sizi doğru yola yönəltdiyi üçün Onu uca tutasnız. Bəlkə şükür edəsiniz.

186. Bəndələrim Məni səndən soruşanda (de ki,) Mən (onlara) yaxınam. Məni çağıranda çağıranın səsinə səs verirəm. Onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yolu tapsınlar (məqsədə çatsınlar).

---

183. Oruc - kamilliyə və mənəviyyata çatmağın ən təsirli yolu: Oruc ən böyük İslam ayinlərindən, məsumların (ə) buyurduğuna görə, İslamın üzərində qurulduğu beş təməldən biridir.[128] Əlbəttə, bu ibadət növü İslam ümmətinə məxsus deyil. İslamdan qabaqkı ümmətlərdə də ilin müəyyən günləri müxtəlif şəkillərdə oruc tutulurmuş. Misal üçün, ət orucu, süd orucu, yemək və içmək orucu və s. Quranda da "Məryəm" surəsində həzrət Məryəmin sükut orucuna işarə vurulmuşdur. Orucun fəziləti ilə bağlı çoxlu sayda rəvayət nəql olunmuşdur. Bu ayə özü də orucun fəzilətinə aydın dəlildir. Çünki ayənin sonunda orucun faydasının "təqva" olduğu bildirilir. Bu təqva orucla, yemək-içməkdən pəhriz etməklə, cinsi meyllərini cilovlamaqla əldə olunur. Başqa sözlə, kamilliyə və mənəviyyata qovuşmağın ən yaxın yoludur. Bir hədisi-qüdsidə oxuyuruq: "Oruc mənə məxsusdur, onun mükafatını da mən özüm verəcəm". Bəzi təfsirçilər bu hədisi izah edərkən bildirmişlər: "Oruc yeganə ibadətdir ki, insan özü bildirməsə, heç kim oruc olduğunu bilməz. Digər ibadətlərdə isə belə deyil. Onları hamı görür və bu ibadətdə riyaya səbəb ola bilər. Buna görə də Allah "oruc mənə məxsusdur", deyə buyurmuşdur".[129]

185. Quranın nazil olduğu ay və ilahi ziyafət: Ramazan ayı qəməri təqviminin 9-cu və Quranda adı çəkilən yeganə aydır. Ramazan ayının ən mühüm fəzilətlərindən biri budur ki, səmavi kitablar - Tövrat, İncil, Zəbur və Quran bu ayda nazil edilmişdir. Tarixi qaynaqlara görə, Peyğəmbər (s) şaban ayının son günlərində səhabələrini ramazan ayını qarşılamağa hazırlamaq üçün xütbə oxumuşdur. Həzrət (s) bu ayın önəmini belə açıqlamışdır: "Ey camaat! Allah ayı bərəkət, əfv və rəhmətlə birgə sizə üz tutmuşdur. Bu ay Allah yanında ayların ən yaxşısıdır. Onun günləri günlərin

---

[128] "Ətyəb əl-bəyan", c. 2, səh. 326.
[129] "Əl-Mizan", c. 2, səh. 31 və 36.

ən yaxşısı, gecələri gecələrin ən yaxşısı, saatları saatların ən yaxşısıdır. Bu elə bir aydır ki, Allahın qonaqlığına dəvət olunmusunuz və Allah tərəfindən hörmət göstərilənlərdən olmusunuz. Bu ayda sizin nəfəslərinizin Allahı mədh etmək, yuxularınızın ibadət savabı var. Bu ayda əməlləriniz qəbul, dualarınız müstəcabdır. Bədbəxt o adamdır ki, bu ayda Allaın əfvindən məhrum olsun".[130]

186. Duanın qəbul olunma şərtləri: Bu ayə Allahın bəndələrinə lütfü və məhəbbəti ilə doludur. Allah bu ayədə öz adından danışmış, yeddi dəfə birinci şəxs əvəzliyi (mən) işlətmişdir. "Mənim bəndələrim", "Mənim haqqımda", "Mən yaxınam", "Məni çağıranda", "cavab verirəm" (səs verirəm), "çağırışımı", "Mənə iman gətirsinlər". Quranın heç bir yerində belə bir ayə tapmaq olmaz. Allah bu ayədə duanın qəbul olunması üçün əsaslı bir şərt göstərir və buyurur: "Məni çağıranda". Yəni, dua edənin, Məni çağıranın duası, çağırışı ürəkdən gəlməlidir. Yalnız dildə olmalı deyil. İmam Sadiqdən (ə) nəql olunan bir rəvayətdə deyilir: "Allah unutqan qəlbin duasını qəbul etmir". Həmçinin bəndə dua edərkən öz hacətini həqiqətən Allahdan istəməlidir. Digərlərini Allah yanında kiçik sanmalıdır. Məxluqatı vasitə hesab etsə də, ilkin səbəbin Allah olduğunu bilməlidir. Hədisi-qüdsidə deyilir: "Elə bir məxluq yoxdur ki, Məndən başqasına tapınsın, göylərin və yerin səbəbiyyət ipini ondan qırmayım. Məndən bir şey istəsə, ona vermərəm. Məni səsləsə, ona cavab vermərəm. Elə bir məxluq yoxdur ki, Mənə tapınsın, göyləri və yeri onun ruzisinə zamin etməyim. O, Məni çağırsa, cavab verəcəm, Məndən bir şey istəsə, verəcəm. Məndən bağışlanmaq istəsə, onu bağışlayacam".[131]

---

[130] "Nümunə", c. 1, səh. 634.
[131] "Əl-Mizan", c. 2, səh. 31, 36.

187. Oruc gecəsi qadınlarınızla yaxınlıq etmək sizə halal edildi. Onlar sizin, siz də onların libasısınız (Hər ikiniz bir-birinizin zinəti və qoruyucususunuz). Allah sizin özünüzə xəyanət etdiyinizi (bu yasaq edilmiş işi gördüyünüzü) bilirdi. Elə buna görə də tövbələrinizi qəbul etdi və sizi bağışladı. İndi onlara yaxınlaşın, Allahın sizin üçün təyin etdiyini onlardan istəyin. Sübhün ağ sapı (gecənin) qara sap(ın)dan seçilincəyə qədər yeyin, için. Sonra gecəyə qədər orucunuzu tamamlayın. Məscidlərdə etikafda olduğunuz zaman onlarla yaxınlıq etməyin. Bunlar Allahın sərhədləridir, bunlara yaxınlaşmayın. Allah insanlara ayələrini bu cür açıqlayır ki, bəlkə, təqvalı olsunlar.

188. Mallarınızı öz aranızda haqsız olaraq yeməyin. Xalqın malının bir qismini günah yolu ilə yeyəsiniz deyə bilə-bilə (rüşvət olaraq) hakimlərə verməyin.

189. Səndən yeni doğan aylar barəsində soruşurlar. De: “Bunlar insanlar(ın həyatını tənzimləmək) və həcc üçün vaxt ölçüləridir”. Yaxşı əməl evlərinizə (cahiliyyət dövründə olduğu kimi) arxa tərəfdən girməniz deyil. Əksinə, yaxşı əməl (sahibi) təqvalı olandır. Evlərə qapılarından daxil olun və təqva yolunu tutun ki, nicat tapasınız.

190. Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddi aşmayın. Allah həddi aşanları sevmir.

---

187. Orucun vacib edilməsi haqqında bir neçə söz: Rəvayətlərdən aydın olur ki, oruc hökmü ilk dəfə nazil edildikdə müsəlmanların yalnız gecə

yatmazdan öncə yemək hüquq var idi. Belə ki, kimsə gecə yuxuya gedib, sonra ayılsaydı, yemək və içmək ona haram idi. Həmçinin o zaman ramazan ayında qadınlarla yaxınlıq etmək mütləq şəkildə - gecə də, gündüz də haram idi. Bəlkə də bu hökm müsəlmanlar üçün sınaq və onları oruc hökmlərini qəbul etmək üçün hazırlıq vasitəsi idi. Peyğəmbərin (s) Xəvvat ibn Cübeyr adlı yaşlı və zəif səhabəsi bacarmadığı halda oruc tutur, (Əhzab döyüşü ərəfəsində) gündüzlər Peyğəmbərlər (s) və digər müsəlmanlarla birgə xəndək qazırdı. Bir gün iftar zamanı evə daxil oldu. Həyat yoldaşı iftar üçün yemək hazırladı. Lakin o yorğunluqdan yuxuya getdi. Yuxudan ayıldıqda dedi: "Mənim artıq iftar haqqım yoxdur". Gecəni bu şəkildə ac keçirdi. Sübh Mədinə ətrafında xəndək qazmağa getdi. Qazma işlərini davam etdirərkən zəiflikdən və ifrat aclıqdan huşunu itirdi. Peyğəmbər (s) başının üzərinə gəldi. Onun vəziyyətini görüb təsirləndi. Digər tərəfdən bəzi müsəlman gənclər də özlərini qorumaq iqtidarında deyildilər və ramazan ayı gecələrində qadınları ilə yaxınlıq edirdilər. Bu vaxt ayə nazil oldu. Müsəlmanlara ramazan ayı gecələrində yeməyə və qadınları ilə yaxınlıq etməyə icazə verdi.[132]

187. Bir-biriniz üçün gözəl libas: Bu ayədə qadın və kişi bir-biri üçün libasa bənzədilmişdir. Libas bir tərəfdən insanı istidən, soyuqdan, digər əşyalara toxunmaqdan qoruyur, bir tərəfdən isə onun eyblərini örtür. Digər tərəfdən də insan bədəni üçün zinətdir. Ayədə sözügedən bu bənzətmə və incə metafora bütün bu məqamları ehtiva edir. Həyat yoldaşları bir-birlərini yanılmaqdan, fəsada aludə olmaqdan qoruyurlar, bir-birinin eyblərini örtürlər, digər tərəfdən isə bir-birlərinin təskinlik səbəbidirlər və hər biri digərinin zinəti hesab olunur. Bu ifadə qadın və kişinin son dərəcə mənəvi

[132] "Nümunə", c. 1, səh. 649.

əlaqəsini, bir-birlərinə yaxınlıqlarını, həmçinin onların bu sahədə bərabər olmasını tam olaraq açıqlayır. Çünki heç bir fərq qoyulmadan qadınlar haqqında da kişilər haqqında işlənən ifadə işlənmişdir.[133]

188. Rüşvət - böyük və çirkin günah: Rüşvət, ən böyük və ən çirkin günahlardan biridir. İmam Sadiq (ə) bu haqda buyurur: "Məhkəmədə rüşvət Allaha küfr etməkdir". Peyğəmbərdən (s) nəql olunan bir hədisdə deyilir: "Allah rüşvəti alana, verənə və onların arasında vasitəçilik edənə lənət etmişdir". Əlbəttə, bu günahın iyrəncliyi ona aludə olanların onu hədiyyə, zəhmət haqqı, hörmət və s. aldadıcı adlar altında gizlətməsinə səbəb olmuşdur. Amma məlumdur ki, adların dəyişməsi rüşvətin mahiyyətini dəyişmir. Hər halda bu yolla alınan pul haram və qanunsuzdur. Peyğəmbərin (s) həyat tarixində oxuyuruq ki, bir gün ona hakimlərindən birinin hədiyyə adı altında rüşvət aldığını xəbər verirlər. Həzrət (s) çox narahat oldu və ona buyurdu: "Siz evdə otursanız, mənim tərəfimdən hakim təyin edilməsəniz, insanlar yenə də sizə hədiyyə verəcəklər?" Sonra həmin hədiyyənin ondan alınıb, beytülmala qatılmasını tapşırdı və onu vəzifəsindən uzaqlaşdırdı.[134]

---

[133] "Nümunə", c. 1, səh. 650; "əl-Mizan", c. 2, səh. 45.
[134] "Nümunə", c. 2, səh. 6.

191. Onları (heç bir cinayətdən çəkinməyən bütpərəstləri) harada tapsanız öldürün. Sizi çıxartdıqları yerdən (Məkkədən) siz də onları çıxardın. Fitnə (və bütpərəstlik) qətldən daha pisdir. Onlar sizinlə Məscidül-haram yanında vuruşmayınca, siz də onlarla orada vuruşmayın. Əgər sizinlə (orada) vuruşsalar, siz də onları öldürün. Kafirlərin cəzası belədir.

192. Əgər onlar (döyüşə) son qoysalar, şübhəsiz, Allah bağışlayan və mehribandır.

193. Fitnə (bütpərəstlik və əsarət) aradan qalxana qədər və din yalnız Allaha məxsus olanadək onlarla vuruşun. Əgər onlar (yanlış hərəkətlərə) son qoysalar, (onları sıxışdırmayın, çünki) düşmənçilik yalnız zülm edənlərə qarşı olur.

194. Haram ay qarşısında haram ay! (Əgər düşmənlər ayın hörmətini sındırsalar və sizinlə döyüşsələr, siz də onlarla vuruşmaq haqqına maliksiniz). Bütün haramların qisasını almaq olar. Sizə qarşı təcavüz edənlərə siz də həmin ölçüdə təcavüz edin. Allahdan çəkinin (təqvalı olun, ifrata varmayın) və bilin ki, Allah təqvalılarladır.

195. (Malınızı) Allah yolunda xərcləyin və öz əlinizlə özünüzü təhlükəyə atmayın. Yaxşılıq edin ki, Allah yaxşılıq edənləri sevir.

196. Həcc və ümrə (əməllərini) Allaha görə tamamlayın, əgər qarşınız kəsilsə (qorxu və ya xəstəlik kimi maneələr səbəbilə ehram bağlayandan sonra Məkkəyə daxil ola bilməsəniz), (sizə) müyəssər olan bir qurbanlıq (kəsin və ehramdan çıxın), qurbanlıq öz yerinə çatıncaya (kəsilincəyə) qədər başınızı qırxmayın. Əgər sizdən xəstələnən, yaxud başında narahatlıq olan olsa (və başını qırxmaq məcburiyyətində qalsa), fidyə olaraq oruc tutmalı və ya sədəqə verməli, yaxud da bir qurban kəsməlidir. (Xəstəlik və düşməndən) amanda olduğunuzda isə ümrəni bitirib

həccə başlayan şəxs ona müyəssər olan bir qurban kəsməlidir. Qurbanlıq tapmayanlar bunun əvəzində həcc günlərində üç gün və (vətəninə) qayıdandan sonra yeddi gün oruc tutmalıdırlar ki, bu da tam on gün edir. (Əlbəttə,) bu ailəsi Məscidül-haramda (Məkkə və ətrafında) yaşamayanlara aiddir. Allahdan çəkinin və bilin ki, Allahın cəzası ağırdır.

---

191. Fitnə - qətldən daha pis: "Fitnə" sözü əslində qızılı oda atıb, yaxşısını pisindən, bəzilərinə görə isə xalisini qatqısından ayırmaqdır. "Fitnə" və eyni kökdən törəyən sözlər Quranda altmış dəfə qeyd olunmuş və müxtəlif mənalarda işlənmişdir. Bəzən sınaq və imtahan ("Ənkəbut", 2), bəzən aldatmaq ("Əraf", 27), bəzən bəla və əzab ("Zariyat", 13), bəzən azğınlıq ("Maidə" 41), bəzən də bütpərəstlik və ya iman gətirənlərin yoluna çəkilən sədd, maneə mənasında işlənmişdir. Amma güman ki, bütün bu mənalar “fitnə”nin ilkin mənası ilə əlaqədardır. Çünki bu söz lüğət mənası etibarilə qızılı oda atıb, yaxşısını pisindən, xalisini qatqısından ayırmağı bildirir, bir növ təzyiq və şiddət olan bütün mənalarda işlənir. Misal üçün, imtahan mənasında adətən təzyiq və problemlər var. Əzab mənasında bir növ şiddət və təzyiq var. Aldatmaq, hiylə təzyiq altında həyata keçirilir. Eləcə də şirk və insanların hidayəti üçün maneə törətməyin hər biri bir növ təzyiq və basqı ifadə edir. Qısası, bütpərəstlik və ondan irəli gələn müxtəlif fərdi və ictimai günahlar Məkkədə yayılmış, Allahın təhlükəsiz hərəmini aludə etmiş, ondan törəyən fəsadlar qətldən də çox olmuşdur. Bu ayədə deyilir ki, qan

tökməkdən qorxub bütpərəstliklə mübarizədən çəkinməyin. Çünki bütpərəstlik qətldən də pisdir.[135]

191. Kəbə və Məscidül-haram ətrafı: Kəbə ətrafına ona görə Məscidül-haram deyilir ki, Allah bəzi şeyləri orada haram, digər yerlərdə isə halal etmişdir. Məscidül-harama ehramsız girmək də bu qəbildəndir. Kim Məscidül-harama daxil olmaq istəsə, öncə ehram bağlamalıdır. Həmçinin orada - müdafiə istisna olmaqla - döyüş və qan tökmək haramdır. Haram aylara bu adın verilməsinin də səbəbi budur. Çünki o aylarda - müdafiə istisna olmaqla - müharibə və qan tökmək haramdır.[136]

195. Allah yolunda xərcləmək (infaq) - cəmiyyətin çöküşdən xilas olması üçün bir yol: Təfsirçilərə görə, "(malınızı) Allah yolunda xərcləyin" və "öz əlinizlə özünüzü təhlükəyə atmayın" cümlələri arasında əlaqə budur ki, Allah yolunda xərcləmək cəmiyyətin çöküşünün, fəlakətə sürüklənməsinin qarşısını alır. Çünki öz malından Allah yolunda xərcləmək unudulsa, sərvət müəyyən bir qrupun əlində toplansa, onun qarşısında əksəriyyət səfalət içində yaşasa, çox keçməyəcək ki, cəmiyyətdə böyük bir partlayış baş verəcək. Böyük sərvət sahiblərinin də canı, malı bu partlayışda yanacaq. Buradan da Allah yolunda xərcləmək və təhlükənin qarşısının alınması arasındakı fərq aydın olur. Buna görə də öz malından Allah yolunda yoxsullara vermək yoxsular üçün faydalı olduğu kimi sərvət sahibləri üçün də faydalıdır. Bəzi təfsirçilərin təbirincə, malından Allah yolunda sərf etməmək həm insan ruhunun xəsislik səbəbilə ölməsinə gətirib çıxarır, həm də cəmiyyətin səfalətdən, yoxsulluqdan ölməsinə səbəb olur. Xüsusilə islam cəmiyyəti yaxşılıq üzərində qurulmuşdur. Həzrət Əlidən (ə) nəql olunan bir

---

[135] "Nümunə", c. 2, səh. 21.
[136] "Müstəlahat əl-fiqh", səh. 208.

rəvayətdə deyilir: "Malınızı zəkat verməklə qoruyun".[137] Nəzərə almaq lazımdır ki, ayədə sözü gedən "infaq" kəlməsi geniş məna ifadə edir, zəkat və xums kimi vacib infaqları, eləcə də sədəqə kimi müstəhəb infaqları da ehtiva edir.

[137] "Nümunə", c. 2, səh. 37.

197. Həcc, məyyən aylardadır. (Həmin aylarda ehram bağlamaqla və həcc əməllərinə başlamaqla) həcci özünə vacib edənlər (bilməlidirlər ki,) həcdə (qadınla) yaxınlıq, günah və mübahisə (icazəsi) yoxdur. Allah gördüyünüz hər bir yaxşı işi bilir. Azuqə tədarükü görün. Ən yaxşı azuqə isə təqvadır. Ey ağıl sahibləri, Məndən çəkinin.

198. (Həcc mövsümündə) Rəbbinizin lütfündən (iqtisadi mənafe) diləməniz sizin üçün günah deyildir (Çünki həccin faydalarından biri sağlam iqtisadıyyatın əsasının qoyulmasıdır). Ərəfatdan qayıdarkən Məşərül-haramda Allahı yad edin. Bundan əvvəl (yolunu) azanlardan olduğunuz halda sizi doğru yola yönəltdiyi kimi, siz də Onu yad edin.

199. Sonra camaatın döndüyü yerdən siz də (Minaya) dönün. Allahdan bağışlanmaq diləyin, şübhəsiz, Allah bağışlayan və mehribandır.

200. (Həcc) əməllərinizi bitirdikdə (vaxtilə) atalarınızı yad etdiyiniz kimi, hətta ondan da artıq Allahı yad edin. (Həcc mərasimində insanlar iki dəstədirlər:) İnsanların bəzisi: “Ey Rəbbimiz, bizə (verəcəyin gözəl nemətləri) elə dünyada ver!” - deyirlər. Belələrinin axirətdə heç bir payı yoxdur.

201. Bəziləri isə: “Ey Rəbbimiz, bizə dünyada da, axirətdə də gözəl nemətlər ver, bizi od (Cəhənnəm) əzabından qoru!” - deyirlər.

202. Onlar qazandıqlarından (və dualarından) nəsiblərini alacaqlar. Allah tez haqq-hesab çəkəndir.

---

197. Ən yaxşı azuqə: Bəzi təfsirçilərə görə, bu ayə Peyğəmbər (s) dönəmində müəyyən insanlar haqqında nazil olmuşdur. Belə ki, onlar Allah evini ziyarət üçün yola düşdükdə özləri ilə heç bir yol azuqəsi götürmürdülər. Azuqə götürəndə də ehram zamanı onu kənara atır və deyirdilər: "Biz Allahın evini ziyarətə gedirik. Necə ola bilər ki, bizə yemək verməsin?" Bəzən elə hallar olurdu ki, azuqələrini atdıqları üçün zəhmətə düşür, dilənçilik etməyə məcbur olurdular. Quran bu yanlış düşüncəni rədd edir və bildirir ki, özünüz üçün azuqə götürün. Amma eyni halda onları daha mühüm mənəvi bir mövzuya yönəldir və bildirir ki, bu azuqədən başqa digər azuqə də var və onu axirət səfəri üçün hazırlamaq lazımdır. Bu azuqə təqvadır.[138] "Təqva" "viqayə" kökündən olub, bu və ya digər şeyi ona ziyan vuracaq məsələlərdən qorumaq mənasını ifadə edir. Başqa sözlə, təqva insanı ehtiras tüğyanından qoruyan daxili nəzarət gücüdür və insanı uçurumda saxlayan güclü tormoz rolunu oynayır, təhlükəli sürətin qarşısını alır.[139] Həzrət Əli (ə) buyurur: "Ey Allahın bəndələri! Bilin ki, təqva möhkəm və yenilməz bir qaladır".[140] Başqa bir kəlamında buyurur: "Bilin ki, günahlar yüyəni qırmış azğın atlara bənzər ki, ona minən günahkarları od-alova atar. Təqva və günahdan çəkinmək isə yüyəni sahibinin əlində olan ram edilmiş dəvələrə bənzər. Onlara minənləri behiştə daxil edərlər".[141]

201. Dünyada yaxşılıq, yoxsa Allah rizası: Allah öncəki və bu ayədə insanları iki dəstəyə bölür: Birinci dəstə dünyadan başqa bir şey istəmir və buna görə də axirətdə pay almayacaq. İkinci dəstə Allahdan "həsənə" istəyir. Bəzi təfsriçilərə görə, bu ayədə "həsənə" Allahın razılığını bildirir. Yəni, ikinci dəstənin istədiyi onları və nəfsani meyllərini razı salmaq yox, Allah

---

[138] "Nümunə", c. 2, səh. 55.
[139] "Nümunə", c. 1, səh. 79.
[140] "Nəhc əl-bəlağə", xütbə: 156.
[141] "Nəhc əl-bəlağə", xütbə: 16.

rizasıdır. Rəvayətlərdə "həsənə"nin bir çox nümunələri bəyan olunmuşdur. İmam Sadiqdən (ə) nəql olunan bir rəvayətdə deyilir: "("Həsənə"də məqsəd) axirətdə Allah rızası, Cənnət, dünyada isə bol ruzi, gözəl əxlaqdır".[142] Peyğəmbərdən (s) nəql olunan bir rəvayətdə isə oxuyuruq: "Allahın şükür edən qəlb, ona dünya və axirət işlərində kömək edən imanlı həyat yoldaşı verdiyi kimsəyə dünya və axirətdə "həsənə" vermiş, onu Cəhənnəm əzabından qorumuşdur".[143] Əlbəttə, yuxarıda da qeyd etdiyimiz kimi, bu rəvayətlərdə sadəcə "həsənə" anlayışının real nümunələri əks olunur. Ayənin məqsədi isə geniş mənada yaxşılıq, gözəl nemətlərdir.[144]

[142] "Əl-Mizan", c. 2, səh. 83, 87.
[143] "Nümunə", c. 2, səh. 66.
[144] "Əl-Mizan", c. 2, səh. 87.

203. Müəyyən günlərdə (zilhiccə ayının 11, 12 və 13-cü günləri) Allahı yad edin. Kim tələssə və (Allahı) iki gündə (yad) etsə, onun üçün heç bir günah yoxdur. Kim yubansa (üç gündə etsə,) (onun da) heç bir günahı yoxdur. (Bu) Allahdan çəkinənlər (təqvalı olanlar) üçündür. Allahdan çəkinin (təqvalı olun) və bilin ki, Onun hüzuruna toplanacaqsınız.

204. İnsanların elәsi vardır ki, onun dünya həyatında danışdığı sözlər səni heyrətə salır (Zahirdə sənə sevgisini bildirir) və qəlbində olana Allahı şahid göstərir. Halbuki o, düşmənlərin ən qatısıdır.

205. O, dönüb getdikdə (sənin yanından çıxıb gedən kimi) yer üzündə fitnə-fəsad törətməyə, əkinləri və nəsilləri məhv etməyə çalışır. Allah isə fitnə-fəsadı sevmir.

206. Ona: “Allahdan qorx!” – deyildiyi zaman (inadı çoxalır,) inad və təəsüb onu günaha sürükləyir. Ona Cəhənnəm kifayətdir. Ora nə pis yerdir!

207. İnsanların elәsi də vardır ki, Allahın razılığını qazanmaq üçün canını verir (həzrət Əli (ə) kimi hicrət gecəsi Peyğəmbərin (s) yerində yatmaqla iman və fədakarlıq nümayiş etdirir, Allah rizası üçün öz canından keçir). Allah öz bəndələrinə qarşı mehribandır.

208. Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə gəlin! Şeytanın izi ilə getməyin, çünki o sizin açıq-aydın düşmәninizdir.

209. Əgər sizə (bu qədər) aydın nişanələr gəldikdən sonra yenə də doğru yoldan azsanız, o zaman bilin ki, (Allahın ədalətindən qaça bilməyəcəksiniz). Çünki Allah qüdrətli və hikmətlidir.

210. Yoxsa (Şeytanın izi ilə gedənlər bu qədər aydın nişanələrdən sonra) Allah və mələklərin bulud kölgəsində onlara doğru gəlməsini (və yeni dəlillər göstərməsini) gözləyirlər? (Halbuki bu, mümkün deyil). Bütün işlər görülmüşdür və şübhəsiz ki, bütün işlər Allaha qaytarılacaqdır.

---

203. "Təşriq" günlərində Allahı yada salmaq qaydası: İslam hədislərində "Təşriq" günlərində (zilhiccə ayının 11, 12 və 13-cü günləri) Allahı yad etmək haqqında bildirilir ki, Qurban bayramı gününün zöhr namazı ilə başlayan və 13-cü günün sübh namazı ilə bitən on beş namazdan sonra bu ilhamverici sözlər təkrarlanmalıdır: "Allahu Əkbər, Allahu Əkbər, la ilahə illəllah, vəllahu Əkbər, və lillahil-həmd, Allahu Əkbər əla ma hədana, Allahu Əkbər əla ma rəzəqna min bəhim əl-ənam". Rəvayətlərə görə, ayədə "Allahdan çəkinənlər" ifadəsində məqsəd ovdan çəkinməkdir. Yəni, ehram halında ovdan və ya ehramda olanlara haram olan digər şeylərdən çəkinənlər Qurban bayramından sonra iki gün Minada qala və Allahı yad edə bilərlər. Amma bu işlərdən çəkinməyənlər üç gün qalmalı və ona məxsus ayini həyata keçirməlidirlər.[145]

207. Allahın lütfündən bir nişanə: ("İnsanlardan" ifadəsi ilə başlayan) 204-cü və 205-ci ayələrdə söhbət o dönəmdə günahları ilə fəxr edənlərdən gedir. Hansılar ki, zahirdə sülhdən, Peyğəmbərlə (s) dostluqdan, ona sevgidən dəm vurur, ürəklərində isə düşmənçilik planları qururdular. Davranışlarından da din və insanlığa fitnə-fəsad və fəlakətdən başqa bir şey toxunmurdu. Bu ayə də "insanlardan" ifadəsi ilə başlayır və ondan aydın olur ki, söhbət sözügedən qrupun qarşı tərəfindən gedir. Yəni, o qınanan dəstənin müqabilində elələri də vardır ki, öz canlarını Allah rizası uğruna fəda edirlər. Bütün arzu və istəkləri Allah rizası qazanmaqdır. Allah onların

---

[145] "Nümunə", c. 2, səh. 70.

vasitəsi ilə din və dünyanı islah edir, haqqı dirildir. İnsanların həyatını pak-pakizə və valehedici edir. Bu yolla bəşəriyyət islamın bərəkətindən faydalanır. Buradan aydın olur ki, nə üçün ayənin sonunda "Allah öz bəndələrinə qarşı mehribandır" deyilir. Çünki insanlar arasında belə insanların olması Allahın Öz bəndələrinə xüsusi lütfü və mehribanlığının nümunələrindəndir. Əgər elə fitnə-fəsad törədən və münafiq düşmənlərə qarşılıq belə insanlar olmasa, dinin əsasları sarsılar. Allah hər zaman düşmənlərinin fəsadlarını dostlarının islahatı ilə aradan qaldırır. Belə ki, həmin surənin ("Bəqərə") 251-ci ayəsində oxuyuruq: "*Əgər Allah insanların bir qismini, digərləri ilə dəf etməsəydi, yer üzü fitnə-fəsada uğrayardı*". Bir çox Şiə və Əhli-sünnət rəvayətlərində nəql olunduğuna görə, bu ayə həzrət Əli (ə) haqqında nazil olmuşdur. Müşriklər Peyğəmbəri (s) qətlə yetirmək istədikləri gecə o həzrət (s) Məkkəni tərk edib, Mədinəyə hicrət etmək qərarına gəldi. Həzrət Əli (ə) isə onun yerində yatdı və həyatını təhlükəyə atdı. Əslində canını Allah rizası uğruna fəda etdi.[146]

208. İman sayəsində sülh və əmin-amanlıq: "Silm" sülh və əmin-amanlıq deməkdir. Bu ayədən aydın olur ki, sülh və əmin-amanlıq yalnız Allaha iman sayəsində mümkündür. Çünki maddi aləm və ona bağlılıq çəkişmələrin mənşəyidir. Əgər mənəvi iman gücü insanı cilovlamasa, sülhə nail olmaq qeyri-mümkündür. Bu ayənin ümumi dəvətindən, bütün möminləri - bütün irqlərdən, bütün dillərdən, bütün coğrafi məkanlardan, bütün ictimai təbəqələrdən - istisnasız olaraq sülhə, əmin-amanlığa çağırmasından aydın olur ki, hər nöqtəsində sülh və əmin-amanlığın hakim olacağı vahid cahanşümul hakimiyyətin qurulması yalnız Allaha iman nəticəsində mümkündür. Prinsipcə, (dil, irq və s. kimi) təfriqə amilləri müqabilində

---

[146] "Əl-Mizan", c. 2, səh. 99.

bəşərin ürəkləri arasında möhkəm birləşdirici bağ lazımdır ki, bu birləşdirici bağ yalnız bütün bu ixtilafların fövqündə duran Allaha imandır. İman sayəsində sülh və əmin-amanlıq həşəmətli Həcc mərasimində ən yaxşı şəkildə müşahidə oluna bilər. Orada bütün müsəlmanlar - hansı irqə, hansı regiona mənsub olmasından asılı olmayaraq - tam təhlükəsiz, aram bir vəziyyətdə Allaha ibadət edirlər. Allaha ibadətin nəticəsində hər növ ixtilaf və fərq gizli qalır.[147] İmam Sadiqdən (ə) nəql olunan bir rəvayətdə "silm sözü həzrət Əlinin (ə) və digər məsum imamların (ə) imamət və vilayəti kimi izah olunur. Çünki imamət də islam ümmətinin vəhdətinin əsasını təşkil edən başlıca amil ola bilər. Əgər Peyğəmbərdən (s) sonra bütün müsəlmanlar bu möhkəm və yenilməz qalaya daxil olsaydılar, İslam düşmənləri İslam diyarında - Siffeyn, Cəməl və Nəhrəvan döyüşləri kimi - saysız faciələr törədə bilməzdilər.[148]

[147] "Nümunə", c. 2, səh. 81.
[148] "Ətyəb əl-bəyan", c. 2, səh. 388; "Ala ər-Rəhman", səh. 186.

211. İsrail oğullarından soruş ki, Biz onlara nə qədər aydın nişanələr verdik (Amma onlar Allahın bəxş etdiyi maddi və mənəvi imkanlardan yanlış yolda istifadə etdilər). Allahın neməti verildikdən sonra onu dəyişdirənlər (yanlış yolda istifadə edənlər ağır ilahi əzabla cəzalandırılacaqlar). Allahın əzabı ağırdır.

212. Dünya həyatı kafirlər üçün zinətləndirilmişdir. (Buna görə də bəzən yoxsul olan) iman gətirənləri ələ salırlar. Halbuki, təqvalılar Qiyamət günü onlardan üstündürlər (Çünki orada gerçək dəyərlər üzə çıxacaq). Allah istədiyi kəsə saysız-hesabsız ruzi verir.

213. İnsanlar (başlanğıcda) tək bir ümmət idilər. (Onların arasında ziddiyyət yox idi. Zaman keçdikcə cəmiyyətlər, təbəqələr yarandı və onların arasında ixtilaf və ikitirəlk əmələ gəldi. Belə olduqda) Allah onlara müjdə verən və onları qorxudan peyğəmbərlər göndərdi, insanlar arasındakı ixtilafları ayırd etmək üçün peyğəmbərlərlə birlikdə haqqa çağıran kitab nazil etdi (İman gətirənlər onda ixtilafa düşmədilər). Yalnız (kitab) verilənlər və aşkar nişanələr göstərilənlər haqdan yayındıqları və zülm etdikləri üçün ixtilafa düşdülər. Allah iman gətirənləri Öz əmri ilə ixtilafda olduqları (məsələlərdə) haqqa yönəltdi (İman gətirməyənlər isə azğınlıq və ixtilafda qaldılar). Allah istədiyini düz yola yönəldir.

214. Sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlməmiş behiştə daxil olacağınızımı sanırsınız? Onlara elə sıxıntı və xəstəlik üz vermiş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və ona iman gətirənlər: “Allahın köməyi nə vaxt gələcək?” - dedilər. (Kömək istədikdə onlara deyildi:) Bilin ki, Allahın köməyi yaxındır.

215. Səndən (Allah yolunda) nə verəcəklərini soruşurlar. De: “Verəcəyiniz hər bir xeyir valideynlərə, qohum-əqrəbaya, yetimlərə,

kasıblara və yolda qalan müsafirlərə məxsusdur. Şübhəsiz, Allah etdiyiniz hər bir xeyir işdən xəbərdardır (Təzahür etməyə ehtiyac yoxdur, O bilir).

---

213. İlk şəriət sahibi olan peyğəmbər: Məsumlardan (ə) gələn rəvayətlərə görə, din gəlməsi həzrət Nuhdan (ə) sonra baş vermişdir. Ayədə sözügedən "İnsanlar (başlanğıcda) tək bir ümmət idi" ibarəsi də o həzrətdən (ə) öncəyə aiddir. O zaman insanlar ilahi fitrətə uyğun yaşayırdılar. Nübüvvətdən, peyğəmbərlikdən və dindən əsər-əlamət yox idi. Digər Quran ayələri də bu mətləbi təsdiqləyir.[149]

214. Çətinliklər acı zahiri və şirin batini: Bəzi təfsirçilərə görə, müsəlmanlar Ühüd döyüşündə məğlub olduqdan sonra - Mədinə münafiqlərindən olan - Abdullah ibn Übəy onlara dedi: "Nə zamana qədər özünüzü ölümə verəcəksiniz?" Əgər Məhəmməd (s) peyğəmbər olsaydı, Allah onun tərəfində olanları əsarətə düşməyə, qətlə yetməyə qoymazdı. Bu zaman bu ayə nazil oldu. Bu ayədən aydın olur ki, bəzi möminlər Cənnətə daxil olmağın başlıca amilinin Allaha imanı bəlli etmək olduğunu düşünürlər. Onlara elə gəlir ki, imanı bəlli etdikdən sonra artıq heç bir çətinliyə, narahatlığa məruz qalmamalıdırlar. Çalışmadan, səy göstərmədən Allah bütün işlərini yoluna qoyacaq. Quran bu yanlış təfəkkürü rədd edir və aydınlaşdırır ki, əbədi səadətə və daimi behiştə nail olmaq üçün insanın çətinlik kürəsində poladtək bərkiməsi, sınaqdan keçməsi və imanının aşkar olması lazımdır. Digər tərəfdən, çətinliklərdə ciddi-cəhdlə çalışmalı,

---

[149] "Əl-Mizan", c. 2, səh. 145.

bacarığını artırmalıdır. Bu halda Allahın yardımı da onun köməyinə gələcək. Rəvayətə görə, Xəbbab ibn Ərət adlı bir kişi - erkən İslam çağı mücahidlərindən olmuşdur - Peyğəmbərin (s) yanına gəlib müşriklərin verdiyi əzab-əziyyətdən gileyləndi. Həzrət (s) buyurdu: "Sizdən qabaqkı ümmətlər müxtəlif növ bəlalarla işkəncə olundular. Belə ki, onların bəzilərinin başını mişarladılar və iki yerə böldülər. Lakin bu, əsla onları dinlərindən yayındırmadı".[150] Məsumlardan (ə) nəql olunan rəvayətlərdə deyilir: "Bəla və çətinliklər də Allahın mömin bəndəsinə verdiyi nemətdir. Çünki möminin çətinliyi onun Allaha daha çox təvəkkül etməsinə, yalvarmasına səbəb olur və beləcə o, Allaha daha da yaxınlaşır. Peyğəmbərdən (s) nəql olunan bir rəvayətdə deyilirr: "Çoxlu bəla və çətinlik öz ardınca çoxlu savab və mükafat gətirir. Demək, Allah bəndəsini sevdikdə, onu çoxlu çətinliklərlə qarşılaşdırır. Əgər kimsə Allahdan razı olsa, Allah da ondan razı qalır. Əgər kimsə Allaha qəzəblənsə, Allah da ona qəzəblənir".[151]

[150] "Nümunə", c. 2, səh. 100.
[151] "Üsuli-kafi", c. 2, səh. 278.

216. (Allah yolunda) döyüş (cihad) xoşunuza gəlmədiyi halda, sizə vacib edildi. Çox zaman xoşlamadığınız bir şey sizin üçün xeyirli, çox zaman da xoşladığınız bir şey sizin üçün zərərli ola bilər. (Onu) Allah bilir, siz bilməzsiniz.

217. Səndən haram ayda döyüş haqqında soruşurlar. De: "O ayda döyüşmək böyük günahdır. Lakin Allah yolunun (insanların haqq dinə yönəlməsinin) qarşısını almaq, onu inkar etmək, Məscidül-harama hörmətsizlik etmək və sakinlərini (oradan) çıxarmaq Allah yanında daha böyük günahdır. Fitnə salmaq (insanları küfrə təşviq edən, imandan çəkindirən əlverişsiz mühit yaratmaq) isə qətldən daha böyük günahdır". (Müşriklər) əgər bacarsalar, sizi dininizdən döndərincəyə qədər sizinlə vuruşmaqda davam edəcəklər. Sizdən hər kəs öz dinindən dönüb kafir olaraq ölsə, onun bütün (keçmiş) əməlləri dünya və axirətdə heçə gedər. Onlar Cəhənnəm əhlidirlər və orada əbədi qalacaqlar.

218. Həqiqətən, iman gətirənlər, hicrət edənlər və Allah yolunda cihad edənlər Allahın mərhəmətinə ümidvardırlar. Allah bağışlayan və mehribandır.

219. Səndən şərab və qumar haqqında soruşurlar. De: "Onlarda böyük günah və insanlar üçün (maddi) mənfəət vardır. Lakin günahları mənfəətlərindən daha böyükdür". Səndən (Allah yolunda) nə xərcləyəcəklərini soruşurlar. De: "Ehtiyacınızdan artıq qalanını!" Allah sizə ayələri bu cür açıqlayır ki, bəlkə, düşünəsiniz.

---

216. Şəriətin insanların həyat məsləhətlərinə uyğun olması: Allah bu ayədə qəti olaraq buyurur ki, insanlar özlərinin yaxşı və ya pis anlaşıylarına tabe olmamalıdırlar. Çünki onların biliyi hər baxımdan məhdud və dəyərsizdir. Onların bildiyi bilmədikləri qarşısında dəniz qarşısında bir damlanı xatırladır. İnsanlar Allahın yaradılış qanunlarında bütün şeylərin sirrindən xəbərdar olmadıqları, bəzən çox faydalı bir şeyi faydasız hesab etdikləri - elm inkişaf etdikcə onların önəmli faydalarından xəbərdar olduqları – kimi, şəriət qanunlarının da fayda və fəsadlarını bilmirlər. Buna görə də əslində onların səadətini təmin edəcək bir şey xoşlarına gəlməyə bilər. Yaxud, bədbəxtlikləri ilə nəticələnəcək bir şey xoşlarına gələ bilər. Onlar Allahın intəhasız biliyi qarşısında öz məhdud biliklərinə nəzərən ilahi hökmlər qarşısında qaşqabaq sallamasınlar. Əksinə, bilməlidirlər ki, Rəhman və Rəhim Allah cihad və s. kimi çətin hökmlər qoymuşsa, bu onların özlərinin xeyrinədir. Bu həqiqətə diqqət yetirmək ilahi qanunlar qarşısında insanda inzibatilik və təslimçilik ruhu formalaşdırır. Onun idrakını, baxışını məhdud mühitdən daha yüksəyə qaldırır. Sonsuza, yəni Allahın intəhasız biliyinə bağlayır. Bu mövzu düşmənlə döyüş və cihad mövzusuna xas deyil. Əksinə, ümumi bir qanunun üstünü açır. İlahi göstərişlərin bütün zahiri çətinliklərini, acılıqlarını insan üçün asanlaşdırır.[152]

217. Ümid: İlahi rəhmətə ümidvar olmaq, insan səadətinin başlıca amillərindən biridir. Çünki ümid insanın hərəkətinə səbəb olur. Əlbəttə, bir mühüm məsələni qeyd etmək lazımdır ki, Quranın söhbət açdığı arzuolunan ümid məqsədin digər zəruri səbəbləri ilə birgə olan ümiddir. Yəni insan, qarşıya qoyduğu məqsədə çatmaq üçün lazımi səbəbləri, vasitələri təmin edib, sonra məqsədə çatmağı gözləməli, ona ümidvar olmalıdır. Misal üçün,

---

[152] "Nümunə", c. 2, səh. 107.

münasib bir vaxtda yerini şumlayan, toxum səpən, vaxtlı-vaxtında sulayan, məhsula istənilən ziyanın dəyməsinin qarşısını alan əkinçi bütün bu şərtlər mövcud olduğu halda, Allahın ona yaxşı məhsul verməsinə ümidvar olur. Əbədi səadətə və sonsuz ilahi rəhmətə çatmaq məsələsi də belədir. Əgər kimsə Allaha iman, layiqli əməl və ilahi təqva sahibi olsa, bu halda ilahi rəhmətə və mükafata da ümidvar olsa, o həqiqi ümid edəndir. Əks təqdirdə, ümid özünü aldatmaqdan başqa bir şey deyil. Necə ki, bu ayə Allahın rəhmətinə ümidvar olmağı Ona inam, Onun yolunda cihad kimi dəyərləndirir.[153] Həzrət Əli (ə) bu haqda buyurur: "Allaha ümid edən şəxsin ümidi davranışından, əməlindən bilinir".[154]

[153] "Ətyəb əl-bəyan", c. 2, səh. 422.
[154] "Nəhc əl-bəlağə", xütbə: 159.

220. (Bəlkə) dünya və axirət barəsində (düşünəsiniz). Səndən yetimlər haqqında soruşurlar. De: “Onların işlərini yoluna qoymaq yaxşıdır. Əgər öz həyatınızı onların həyatına qatırsınızsa, (eybi yoxdur), onlar sizin (din) qardaşlarınızdır (Onlarla bir qardaş kimi davranın)”. Allah islah (yaxşılıq) edənləri fəsad törədənlərdən ayırd edir. Əgər Allah istəsəydi, sizi əziyyətə salardı (və yetimlərə qəyyumluq etdiyiniz halda, onların mallarını bütünlüklə öz malınızdan ayırmağı əmr edərdi. Amma Allah belə etmir. Çünki) O, qüdrətli və hikmətlidir.

221. Müşrik (və bütpərəst) qadınlar iman gətirməyincə, onlarla evlənməyin. (Hərçənd cariyələrlə evlənməkdən başqa çıxış yolunuz olmasa da. Çünki) Allaha iman gətirmiş bir cariyə, (gözəlliyinə, sərvətinə və ya ictimai mövqeyinə) heyran olduğunuz (azad) müşrik bir qadından daha yaxşıdır. Həmçinin, müşrik kişilər Allaha iman gətirməyincə, mömin qadınları (onlara) ərə verməyin. (Hərçənd onları imanlı kölələrə ərə verməkdən başqa çıxış yolunuz olmasa da. Çünki) Allaha iman gətirən bir kölə (gözəlliyinə, sərvətinə və ya ictimai mövqeyinə) məftun olduğunuz (azad) müşrik bir kişidən daha yaxşıdır. Onlar (müşrik qadınlar və kişilər) sizi Cəhənnəmə çağırırlar. Allah isə sizi Öz fərmanı ilə Cənnətə, bağışlanmağa doğru səsləyir. O, Öz ayələrini insanlara açıqlayır ki, bəlkə, xatırlasınlar.

222. Səndən heyz (aybaşı) barəsində soruşurlar. De: “Heyz əzab-əziyyətli bir haldır. (Buna görə də) heyz zamanı qadınlardan kənar olun, (heyzdən) təmizlənməyənə qədər onlarla yaxınlıq etməyin, təmizləndikdən sonra isə onlara Allahın sizə əmr etdiyi yerdən yaxınlaşın”. Allah tövbə edənləri və pak olanları sevir.

223. Qadınlarınız sizin tarlanızdır. Elə isə istədiyiniz vaxt onlarla yaxınlıq edin. (Çalışın, bu fürsətdən istifadə edib ləyaqətli övladlar yetişdirməklə) özünüz üçün qabaqcadan (yaxşı əməllər) göndərin. Allahdan çəkinin və bilin ki, Onunla görüşəcəksiniz. Möminlərə müjdə ver.

224. Yaxşılıq etmək, təqvalı olmaq (pis əməllərdən çəkinmək) və insanların arasını düzəltmək üçün Allahı andlarınıza hədəf etməyin. Allah eşidən və biləndir.

---

220. Zərurət yarandıqda yetimin malından istifadə etmək icazəsi: Bu ayənin nazilolma səbəbilə bağlı İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə deyilir: "İsra" surəsinin 33-cü və "Nisa" surəsinin 10-cu ayələri nazil olub, yetimlərin malına onların özünə xeyri olmadığı halda yaxın düşmək, onların malından yemək qəti qadağan edildikdə, evlərində yetim saxlayan ailələr onlara qəyyumluq etməkdən imtina etdilər və onları öz başlarına buraxdılar. Hətta bəziləri onları evlərindən çıxartdılar. Evdən çıxartmayanlar isə evdə çıxartmaqdan betər bir vəziyyət yaratdılar. Çünki öz mallarından hazırladıqları xörəyə onların malından qatmırdılar. Hətta onlar üçün ayrıca yemək hazırlayırdılar. Yetim yeməyi yeyəndən sonra artıq qalanını onun üçün saxlayırdılar ki, sonra yesin. Yemək xarab olanda isə onu atırdılar. Bütün bunlar ona görə idi ki, yetimin malını yemək məsuliyyətindən canlarını qurtarsınlar. Bu vəziyyət həm qəyyumlar, həm də yetimlər üçün çoxlu problemlər yaratdı. Buna görə də Peyğəmbərin (s) yanına gəlib bu haqda soruşdular. Onlara cavab olaraq ayə nazil oldu və müsəlmanlara bildirildi ki, yetimlərin qəyyumluğundan imtina etmək, onları özbaşına

buraxmaq düzgün iş deyil. Yaxşısı budur ki, onların qəyyumluğunu qəbul edin. Onların işlərini yoluna qoyun və qaydaya salın. Əgər onların malı sizin malınıza qarışsa, eybi yoxdur. Sizin məqsədiniz işləri yoluna qoymaq olduqda, onlarla br qardaş kimi davranın.[155]

221. Müşriklərlə evlənmək qadağası: Bu ayə müşriklərlə ailə qurmağın qadağan olunması səbəbini onların insanı Cəhənnəmə çağırmasında görür. Bu önəmli məsələyə diqqət yetirmək lazımdır ki, müşriklərlə müştərək həyat qurmaq, üns bağlamaq tədricən insanı Allah yolundan uzaqlaşdırır. Onu Cəhənnəmə sövq edir. Hərçənd, müşrik şəxsin çağırışı dillə olmasa da, onun yanlış əqidəsi, çirkin xüsusiyyətləri getdikcə imanlı insanda iz buraxır. Onu Allahdan uzaqlaşdırır və şirkə doğru çəkir. Bu təsir övladlar üçün daha keçərlidir. Çünki valideynlərin xasiyyəti, əhval-ruhiyyəsi genetik irsiyyət yolu ilə övladlara ötürülür. Eyni zamanda ata-ananın övladların tərbiyəsindəki rolu danılmazdır. Xüsusilə əgər ata-ana müsəlman və mömin olmasa, bu daha acınacaqlı nəticələr doğurur. Çünki övladlar uşaqlıqdan ana qucağında böyüyürlər. Müşriklərdən fərqli olaraq, möminlər imanlı və təqvalı olduqları üçün öz həyat yoldaşlarını və övladlarını dil və əməlləri ilə Cənnətə, ilahi əfvə çağırırlar və Allah bu çağırışı özünə isnad edir. Çünki möminlərin qəyyumu Odur. Onlar Onun köməyi ilə Allah yolunda addımlayırlar.[156]

223. Qabaqcadan özünüz üçün yaxşı əməllər göndərin: Bu cümlə göstərir ki, intim münasibətin son qayəsi, məqsədi həzz və ehtirasını soyutmaq deyil. Əksinə, bundan övlad dünyaya gətirmək və onları layiqli şəkildə yetişdirmək üçün istifadə etmək lazımdır. Onu indidən bir mənəvi tədarük olaraq Qiyamət üçün göndərmək lazımdır. Bu ayədə xəbərdarlıq edilir ki, həyat

---

[155] "Nümunə", c. 2, səh. 117-122.
[156] "Nümunə", c. 2, səh. 133; "əl-Mizan", c. 2, səh. 209.

yoldaşı seçərkən bir sıra prinsiplər nəzərə alınmalıdır ki, bu önəmli nəticə, əməlisaleh övlad və layiqli nəsil törətməklə sonuclansın. Bu ayənin izahı ilə bağlı Peyğəmbərdən (s) nəql olunan bir hədisdə deyilir: "İnsan öləndə üç şeydən başqa hər şeydən ümidi kəsilir: cari sədəqələr (savabı daimi olan mallardan), fayda verən bilik və onun üçün dua edən layiqli övlad". Beləcə əməlisaleh övladlar yetişdirmək, elmi əsərlər yaratmaq, düzgün yola yönəldən kitablar yazmaq, məscid, xəstəxana və kitabxana kimi xeyirli binalar tikmək və s. yaxşı əməllər cərgəsindədir.[157]

[157] "Nümunə", c. 2, səh. 142.

225. Allah, bilmədən içdiyiniz andlara görə sizi cəzalandırmayacaq, lakin qəlblərinizin kəsb etdiyi şeylərə (qəsdən içdiyiniz andlara) görə sizi cəzalandıracaqdır. Allah bağışlayan və həlimdir.

226. Qadınları ilə yaxınlıq etməməyə and içənlər dörd ay gözləyə bilərlər (Eyni zamanda bu dörd ay ərzində talaq vermək və ya birgə yaşamağa davam etdirmək baxımından öz qadınları ilə bağlı vəziyyəti aydınlaşdırmalıdırlar). Əgər (bu müddət ərzində) dönsələr, (onların üzərinə bir şey düşmür. Çünki) Allah bağışlayan və mehribandır.

227. Əgər ayrılmaq (boşanmaq) qərarına gəlsələr, (şərtlər mövcud olduqda eybi yoxdur). Allah eşidən və biləndir.

228. Boşanan qadınlar üç dəfə heyz görüb təmizlənincəyə qədər gözləməlidirlər (iddə saxlamalıdırlar). Əgər Allaha və Qiyamət gününə inanırlarsa, Allahın onların bətnlərində yaratdığını gizlətmək onlara halal deyil. Ərləri barışmaq istəsələr, bu müddət ərzində onları qaytarmağa (onlarla yenidən birgə yaşamağa başqalarından) daha çox haqlıdırlar. (Kişilərin) qadınlar üzərində haqları olduğu kimi onların da (kişilər üzərində) layiqli haqları vardır. Ancaq kişilər onlardan üstündürlər. Allah qüdrətli və hikmətlidir.

229. (Rici) talaq iki dəfədir. (Hər dəfə) qadını yaxşı saxlamaq (və barışmaq), ya da xoşluqla buraxmaq (ayrılmaq) gərəkdir. Onlara verdiyinizdən bir şey geri almanız sizə halal deyil. Yalnız hər ikisinin Allahın hədlərini yerinə yetirməyəcəklərindən qorxması istisnadır. Əgər onların Allahın hədlərini yerinə yetirməyəcəklərindən qorxsanız, qadının (boşanmaq üçün) bir şey əvəz verməsində ikisi üçün də günah yoxdur. Bunlar Allahın hüdudlarıdır, onları aşmayın. Allahın hüdudlarını aşan zalımdır.

230. Əgər onu (üçüncü dəfə) yenə də boşasa, o zaman (qadın) başqa birinə ərə getməmiş (onunla yaxınlıq etməmiş) ona (əvvəlki ərinə) halal olmaz. (İkinci əri) onu boşadıqdan sonra Allahın hədlərinə hörmətlə yanaşacaqlarına ümidvar olduqları təqdirdə, (həmin qadının birinci əri ilə təkrar evlənməsində) heç bir günah yoxdur. Bunlar Allahın anlayanlar üçün açıqladığı hədlərdir.

---

224 və 225. Əsassız andlar: Bu iki ayənin nazilolma səbəbi ilə bağlı nəql olunmuşdur ki, Peyğəmbərin (s) səhabələrindən Abdullah ibn Rəvahənin qızı ilə kürəkəni arasında mübahisə yarandı. O, and içdi ki, onların işinə qarışmayacaq və ixtilaflarını həll etmək üçün heç bir iş görməyəcək. Bu zaman sözügedən iki ayə nazil oldu və bu növ andları yasaqladı.[158] 224-cü ayədən aydın olur ki, and içmək - xüsusilə də Allaha and içmək - yaxşı iş deyil. Bu iki ayəyə və eləcə də məsumlardan (ə) nəql olunan rəvayətlərə görə, and iki yerdə mötəbər və hüquqi dəyərə malik deyil: 1. İnsan vacib və ya müstəhəb işi görməyəcəyinə, yaxud haram bir işi görəcəyinə dair and içərsə, bu halda andı etibarsızdır və bu anda əməl etməməyinin eybi yoxdur.[159] İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə oxuyuruq: "Səndən iki nəfəri barışdırman istənildikdə mən belə iş görməyəcəyimə dair and içmişəm demə".[160] 2. Bilmədən, niyyətsiz, əsəbiliklə və ya başqalarının məcbur etməsi ilə, andın əsl mahiyyətini diqqətə almadan içilən andlar da bu

---

[158] "Nümunə", c. 2, səh. 145.
[159] "Ətyəb əl-bəyan", c. 2, səh. 448.
[160] "Əl-Mizan", c. 2, səh. 451.

qəbildəndir.[161] İmam Sadiq (ə) buyurur: "Dəyərsiz and kiminsə əhd bağlamaq istəmədən "yox, Allaha and olsun" və "bəli, Allaha and olsun" deməsidir".[162] Əgər and bu iki haldan xaric olsa, insan həqiqətən and içsə, andına əməl etməsi vacibdir. Əgər andını sındırsa, axirət cəzasından əlavə kəffarə də ödəməlidir. Digər bir rəvayətdə İmam Sadiq (ə) yalan and haqqında buyurur: "And içən və yalan olduğunu bilən Allahla döyüşə qalxmışdır".[163] "Maidə" surəsinin 89-cu ayəsində andı sındırmağın kəffarəsinin on yoxsula yemək vermək, on nəfər ehtiyacı olanı geyindirmək və ya bir kölə azad etmək olduğu bildirilmişdir (Hazırda kölə olmadığı üçün iki kəffarədən biri ödənilməlidir).[164]

228. Halalların ən arzuolunmazı: Bu və bir neçə sonrakı ayənin ümumi mövzusu talaqdır. Talaq özü bir zərurətdir. Çünki bəzən elə səbəblər ortaya çıxır ki, ər və arvadın müştərək həyatı mümkünsüz olur. Əgər nikah müqaviləsinin əbədi olaraq qalmasında israrlı olsalar, çoxlu problemlərə yol açacaqdır. Buna görə də İslam talağın özü ilə müvafiqdir. Lakin bu fikirdədir ki, bunu minimuma endirmək lazımdır. Nə qədər ki, evliliyi davam etdirmək mümkündür, kimsə talağa üz tutmasın. Buna görə də İslam rəvayətləri talağı qınamış, onu ən arzuolunmaz halal adlandırmışlar. İslam peyğəmbərindən (s) nəql olunur: "Allah dərgahında İslamda (müsəlman cəmiyyətində) bir ailənin əsasının talaq və ayrılıqla dağılmasından mənfur şey yoxdur". İmam Sadiqdən (ə) nəql olunan bir rəvayətdə isə oxuyuruq: "Allahın halalları arasında Onun dərgahında heç bir şey talaq qədər xoşagəlməz deyil".[165]

---

[161] "Ətyəb əl-bəyan", c. 2, səh. 448.
[162] "Əl-Mizan", c. 2, səh. 431.
[163] "Səfinə əl-bihar", c. 8, səh. 759.
[164] "Nümunə", c. 2, səh. 148.
[165] "Nümunə", c. 24, səh. 224.

231. Qadınlarınızı boşadığınız və onların gözləmə müddəti (iddə) başa çatdığı zaman onları ya düzgün şəkildə saxlayın, ya da xoşluqla buraxın. Onları zərər vurmaq və təcavüz etmək üçün saxlamayın. Belə edən, özünə zülm etmiş olur. (Bu əməllərlə, Allahın hökmlərindən sui-istifadə etməklə) Allahın ayələrini ələ salmayın. Allahın sizə verdiyi nemətləri, öyüd-nəsihət üçün göndərdiyi kitabı və hikməti yada salın. Allahdan çəkinin və bilin ki, Allah hər şeyi (Onun hökmlərindən sui-istifadə edənlərin niyyətlərini) bilir.

232. Qadınlarınızı boşadığınız və onların gözləmə müddəti (iddə) başa çatdığı zaman öz aralarında layiqli şəkildə razılığa gələrlərsə, onlara yenidən (əvvəlki) ərlərinə ərə getməyə mane olmayın. Bu sizlərdən Allaha və axirət gününə iman gətirənlərin öyüd aldığı (əməl etdiyi) bir göstərişdir. Bu (göstəriş) sizin (ailələrinizin) inkişafı üçün daha təsirli və aludəliklərinizin təmizlənməsi üçün daha faydalıdır. Allah bilir, siz isə bilmirsiniz.

233. Analar öz övladlarını tam iki il əmizdirməlidirlər. (Bu,) əmizdirmə müddətini tamamlamaq istəyənlər üçündür. Uşağın atası (əmizdirmə müddətində, hətta talaq verilmiş olsa da) ananın yeməyini və geyimini layiqincə təmin etməlidir. Heç kəs gücü çatdığından artıq vəzifə daşımır. Nə ana, nə də ata (aralarındakı ixtilafa görə) uşağına ziyan vura bilməz. Varis də bu şəkildə etməlidir (Südvermə müddətində ananın xərcini təmin etməlidir). Əgər ata və ana öz aralarında məsləhətləşib, uşağı süddən (tez) ayırmaq qərarına gəlsələr, ikisinə də heç bir günah yoxdur. Əgər siz (ana əmizdirə bilmədikdə və ya razılaşmadıqda) uşağınız üçün süd anası tutmaq istəsəniz, (ananın keçmiş) haqqını layiqincə ödəsəniz, sizə heç bir günahı yoxdur. Allahdan çəkinin və bilin ki, Allah, etdiklərinizi görür.

---

231. Talaq "iddə"sinin fəlsəfəsi: Bu və bunu əhatə edən ayələrdə bəzi talaq hökmlərinə işarə vurulmuşdur. Bu hökmlərdən biri talaqdan sonrakı iddədir. Yəni, talağı verilən qadınlar üç dəfə heyz görüb təmizlənincəyə qədər gözləməlidirlər. Ondan sonra digər kişiyə ərə gedə bilərlər. İslam alimləri bu hökmün fəlsəfəsi ilə bağlı iki məqamı qeyd etmişlər: 1. Soyu qorumaq. Hərçənd bir dəfə aybaşı olmaq artıq qadının hamilə olmamasına sübutdur, amma bəzən qadınlar hamilə olduğu halda da aybaşı ola bilirlər. Buna görə də bu müddətin tam başa çatması əmr olunmuşdur ki, qadın üç dəfə heyz görüb təmizlənsin, keçmiş ərindən hamilə qalmadığı tam aydın olsun və ailə qura bilsin. 2. Barışıq və qayıdış üçün bir yol. Bir çox ayrılıqlar kiçik mübahisələrdən başlayır. Bu kimi hallar insanların ürəyinə kin-küdurət odu salır və talağa səbəb olur. Amma bir çox hallarda bir az vaxt keçdikdən sonra qadın və kişi peşman olur, yenidən bir yerdə yaşamaq istəyirlər. Buna görə də islam qadınların müəyyən müddət gözləmələrini vacib etmişdir ki, bəlkə qara buludlar çəkilsin və kin alovu yatsın. İmam Baqirdən (ə) nəql olunan bir hədisdə oxuyuruq: "Talağı verilmiş qadın iddə müddətində bəzənə, sürmə çəkə, saçına boya qoya, ətirlənə bilər. İstədiyi libası geyinə bilər. Ola bilər ki, bu yolla bir daha kişinin (keçmiş ərinin) qəlbini ələ alsın və kişi ona tərəf qayıtsın".[166]

233. Ana südünün uşağın fiziki və ruhi inkişafında rolu: Fəqihlərin rəyinə görə, ananın övladına süd verməsi vacib deyil. Amma südəmər uşağın anasının südü ilə qidalanması çox müstəhəb və yaxşıdır.[167] Ana südü südəmər uşağın orqanizminə və ruhuna çox müsbət təsir bağışlayır. Müasir elmə görə də ana südü körpənin ilk bir neçə ayda ehtiyacı olan hər şeyi

[166] "Nümunə", c. 2, səh. 159; c. 24, səh. 224.
[167] "Ətyəb əl-bəyan", c. 2, səh. 470.

qarşılayır. Ana südü olduqda körpənin başqa qidaya ehtiyacı yoxdur. Qidadan əlavə süd verən qadının əxlaqı və xasiyyəti də körpəyə ötürülür. İmam Əlidən (ə) nəql olunan bir rəvayətdə deyilir: "Südəmər uşağa ana südündən başqa heç bir bərəkətli süd verilə bilməz".[168] Həmçinin hədislərə görə, körpəyə anadan başqa bir qadın süd versə, on iki imamlı, ismətli və gözəl olması müstəhəbdir.[169] Həzrət Əli (ə) buyurmuşdur: "Övladınıza süd vermək üçün yaxşı bir şəxs seçin. Necə ki, ailə qurmaq üçün münasib birini axtarırsınız. Çünki süd vermək insanın xarakterinə, əxlaqına təsir göstərir".[170] Allah "Qəsəs" surəsində buyurur ki, həzrət Musanın (ə) anası Allahın fərmanı ilə onu bir qutuya qoydu və Nil çayına buraxdı. Fironun adamları onu tapdılar və ona süd verəcək bir dayə axtardılar. Lakin Allahın iradəsilə uşaq anasından başqa heç kimi əmmədi. Beləcə, Allah onu anasının qucağına qaytardı. Bəzilərinin fikrincə, Musanın (ə) başqalarının südünü əmməsinə imkan verilməməsinin səbəbi bu idi ki, Allah peyğəmbəri olacaq şəxs aludə, haram, oğurluq, cinayət, rüşvət, başqalarının qəsb olunmuşa haqlarından əmələ gələn südlə qidalanmasın. O, anasının südü kimi halal südlə qidalanmalı idi ki, aludəliklərə qarşı ayağa qalxsın, mübarizə aparsın.[171] Rəvayətlərdə süd vermə üçün çoxlu savab nəzərdə tutulduğu bildirilmişdir. Peyğəmbərdən (s) nəql olunan bir rəvayətdə oxuyuruq: "Qadın körpəsinə süd verdikdə körpə hər dəfə südü sovuranda Allah anaya İsmayıl (ə) övladlarından bir kölə azad etməyin savabını verir. Süd verib qurtardıqdan sonra isə bir mələk ananın böyrünə vurur və deyir: "İşini bir daha gör, çünki bağışlandın".[172]

---

[168] "Vəsail əş-şiə", c. 21, səh. 453.
[169] "Tozih əl-məsail", İmam Xomeyni, məsələ: 2488.
[170] "Səfinə əl-bihar", c. 3, səh. 362.
[171] "Nümunə", c. 16, səh. 34.
[172] "Bihar əl-ənvar", c. 101, səh. 107.

234. Sizdən ölənlərin qoyub getdiyi qadınlar dörd ay on gün gözləməlidirlər (iddə saxlamalıdırlar). Bu müddət başa çatdıqda onların özləri barədə layiqli şəkildə etdiklərində sizə heç bir günah yoxdur (Könülləri istəyən kişi ilə ailə qura bilərlər). Allah etdiklərinizdən xəbərdardır.

235. (Əri ölən) qadınlara elçi düşmək istədiyinizi eyham vurmanızda və ya (bəlli etmədən) ürəyinizdə gizlətmənizdə sizə heç bir günah yoxdur. Allah sizin onları xatırlayacağınızı (unutmayacağınızı) bilir (O, sizin təbii istəklərinizə qarşı deyil). Lakin onlarla gizlincə vədələşməyin, onlara layiqli şəkildə söz deyin (eyham vurun). (Amma hər halda) gözləmə müddəti başa çatmayıncaya qədər onlarla nikah bağlamağa cəhd etməyin. Bilin ki, Allah sizin qəlbinizdə olanı bilir. Ona qarşı gəlməkdən qorxun və bilin ki, Allah bağışlayan və həlimdir (Cəzalandırmağa tələsmir).

236. Qadınları yaxınlıq və mehri təyin etməzdən qabaq boşamanızda sizin üçün heç bir günah yoxdur. (Bu zaman) onlara (uyğun bir) hədiyyə verin. Varlı öz imkanı daxilində, kasıb da öz imkanı daxilində (verən və alanın vəziyyətinə uyğun) hədiyyə verməlidir. Bu, yaxşılıq edənlər üzərində bir haqdır.

237. Mehrini təyin etdiyiniz qadınları yaxınlıq etməzdən əvvəl boşasanız, təyin etdiyinizin yarısını (onlara verməlisiniz). Qadınların (öz haqlarını ərlərinə) bağışlaması və ya nikah bağı əlində olanın (azyaşlı və ya ağıl sağlamlığı yerində olmayanın qəyyumunun) bunu bağışlaması isə istisnadır. Sizin güzəştə getməyiniz (mehrin hamısını verməyiniz) təqvaya daha yaxındır. Öz aranızda (bir-birinizə) yaxşılıq etməyi unutmayın. Allah sizin etdiklərinizi görür.

---

235. Həlimliyin fəziləti: Həlim o kəsdir ki, bacardığı, gücü çatdığı halda heç bir işi vaxtından əvvəl görmür, cinayətkarları cəzalandırmaqda tələskənlik etmir. Bu sifətin kamil nümunəsi Allah-Taaladır. Lakin Onun geniş ruha malik bəzi bəndələrinə də aid ola bilər. Quran "Tövbə" surəsinin 114-cü ayəsində həzrət İbrahimin (ə) həlim adam olduğunu buyurur: "Həqiqətən, İbrahim (Allaha) çox yalvaran həlim bir adam idi."[173] Həlimlik haqqında məsumlardan (ə) çoxlu sayda hədislər nəql olunmuşdur. Bir rəvayətə görə, həzrət Əli (ə) bir nəfərin - sadiq xidmətçisi - Qəmbərə nalayiq söz dediyini və Qəmbərin də ona qarşılıq vermək istədiyini eşitdi. İmam (ə) onu çağırıb buyurdu: "Aram ol, sənə nalayiq söz deyəni rüsvay olmuş halda qoy. Bu halda Rəhman Allahı razı salmış, Şeytanı əsəbləşdirmiş və düşmənini cəzalandırmış olursan. Toxumu yaran və canlıları yaradan Allaha and olsun ki, imanlı insan heç bir şeylə həlimliklə olduğu kimi Allahını razı salmır. Şeytanı heç bir şeylə susqunluqla olduğu kimi qəzəbləndirmir. Axmaq insanı çirkin işinə görə heç bir şeylə onun (ədəbsizlikləri) qarşısında susmaqla olduğu kimi cəzalandırmır".[174]

237. Evlilik həyatında əfv və güzəştin zərurəti: Bu ayə əsasən iki əsaslı prinsip, evlilik məsələlərində - istər nikah olsun, istər talaq, istərsə də digər məsələlər - ürf və yaxşılığı əsas götürmək üzərində dayanır. Ayəyə görə, hətta talaq və ayrılıq da mübahisə, keşməkeş, təhrik və intiqam ruhu ilə qarışmamalıdır. Əksinə, yaxşılıq, alicənablıq, əfv və güzəşt əsasında olmalıdır. Çünki əgər bir kişi və qadın birgə yaşaya bilmirsə və müəyyən

---

[173] "Nümunə", c. 2, səh. 203.
[174] "Səfinə əl-Bihar", c. 2, səh. 323.

səbəblərdən ayrılmağa qərar verirlərsə, onların arasında düşmənçiliyin hakim kəsilməsinə nə lüzum var?[175] "*Sizin güzəştə getməyiniz təqvaya daha yaxındır*" ibarəsinin şərhi ilə bağlı deyilmişdir ki, öz halal və qanuni haqqından keçən insan, şübhəsiz, haqqı olmayandan, ona haram olandan daha rahat keçə bilər. Haqqı olmayana göz yummaqda daha güclü olar. "*Öz aranızda (bir-birinizə) yaxşılıq etməyi unutmayın*" ibarəsi isə insanları öz həyatlarında yaxşılıq etməyə, güzəştə getməyə rəğbətləndirir. Onları əxlaqi fəzilətlər əhatəsində yaşamağa təşviq edir. Belə ki, insanlar öz hüquqlarından asanlıqla keçə bilsinlər. Ər arvada, arvad da ərə mülayim davransın.[176]

[175] "Nümunə", c. 2, səh. 203.
[176] "Əl-Mİzan", c. 2, səh. 250

238. Bütün namazlara, (xüsusilə də) orta namaza (zöhr namazına) ciddi yanaşın və Allah qarşısında mütiliklə durun.

239. Əgər (düşməndən və ya digər bir təhlükədən) qorxsanız, (namazınızı) ayaq üstə (piyada) və ya minik üzərində (qılın). Təhlükə sovuşduqda isə Allahı, sizə bilmədiklərinizi öyrətdiyi kimi yad edin (Namazı adi qaydada qılın).

240. Sizlərdən ölüm ayağında olan və (özündən sonra) zövcələr qoyub gedənlər zövcələrinə bir il müddətində (ər evindən) çıxmamaq (ərə getməmək) şərtilə baxılmasını (xərclərinin təmin olunmasını) vəsiyyət etməlidirlər. Əgər onlar (öz arzuları ilə) çıxıb getsələr, (o zaman xərclərini tələb etmək hüquqları yoxdur. Amma) onların özləri barədə layiqincə görəcəkləri işlərdə sizin üçün heç bir günah yoxdur. Allah qüdrətli və hikmətlidir.

241. Boşanmış qadınlara (ər tərəfindən) uyğun bir hədiyyə (vermək) lazımdır. Bu, təqvalılar üzərində bir haqdır.

242. Allah Öz ayələrini sizə belə açıqlayır ki, bəlkə düşünəsiniz.

243. Ölüm qorxusundan (taun xəstəliyi bəhanəsilə cihadda iştirak etməkdən böyun qaçırıb) yurdlarını qoyub qaçan minlərlə adamı görmədinmi? Allah onlara: “Ölün!” – dedi (və bəhanə etdikləri xəstəliklə də öldülər). Sonra isə onları diriltdi (və onların həyat hekayəsini gələcək nəsillər üçün ibrət etdi). Allah insanlara lütf edəndir, lakin insanların çoxu (Ona) şükür etmir.

244. Allah yolunda vuruşun və bilin ki, Allah eşidən və biləndir.

245. Kim Allaha gözəl bir borc verər ki (Allahın ona bəxş etdiyi maldan Onun yolunda verər ki), O da onun üçün bunu qat-qat artırsın? (Bəndələrin ruzisini) azaldan da, artıran da Allahdır (Allah yolunda xərcləmək əsla

ruzinin azalmasına səbəb olmur). Siz Ona doğru qaytarılacaqsınız (və mükafatınızı alacaqsınız).

---

238. Namaz vaxtlarına diqqət: Bu ayə beş namaza önəm verməyi, onlara diqqətlə yanaşmağı təkid edir. Namaza ciddi yanaşmaq onun qaydalarına, şərtlərinə və xüsusiyyətlərinə riayət etmək kimi izah olunmuşdur. O qayda və şərtlər ki, həm namazın zahirini batil olmaqdan, pozulmaqdan qoruyur, həm namazın ruhunu, yəni namazda diqqəti (hüzuri-qəlbi) gücləndirir, həm də namazın yolunda duran maneələri aradan qaldırır.[177] Namaza ciddi yanaşmağın yollarından biri onu müəyyən vaxtda, xüsusilə ilk vaxtda qılmaqdır.[178] Ayə ilə bağlı İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə oxuyuruq: "Namaza ciddi yanaşmaq insanın namaza üz tutması və vaxtında qılmasıdır. Belə ki, (heç bir şey onu namazdan çəkindirməsin və heç bir şey onu özünə məşğul etməsin".[179] Həzrət Əlinin (ə) Məhəmməd ibn Əbu Bəkrə tövsiyələrini əks etdirən bir rəvayətdə deyilir: "Namazı onun üçün müəyyənləşdirilmiş vaxtda yerinə yetir və bekarçılıqdan onu vaxtından əvvəl qılma. Həmçinin işin olduğu üçün onun vaxtını keçirmə və bil ki, əməllərinin hər bir şeyi namaza bağlıdır".[180]

239. Namazın bütün hallarda vacib olması: Hədislərə görə namaz heç bir halda insanın üzərindən götürülmür. Lakin onun qılınma forması dəyişə

---

[177] "Peyami-Quran", c. 6, səh. 224.
[178] "Ətyəb əl-bəyan", c. 2, səh. 485.
[179] "Əl-Mizan", c. 2, səh. 264.
[180] "Nəhc əl-bəlağə", məktub: 27.

bilər.[181] Bu ayə göstərir ki, döyüş və bənzər zamanlarda qorxu və ya başqa bir səbəbdən adi qaydada namaz qılmaq mümkün olmadıqda, piyada və ya minikdə namaz qılmaq lazımdır. İmam Kazım (ə) "bir şəxsin izinə yırtıcı heyvan düşmüşsə, namaz vaxtı gəlib çatmışsa, yırtıcının qorxusundan hərəkət edə bilmirsə, necə namaz qılmalıdır?" sualına cavab olaraq buyurur: "Olduğu vəziyyətdə hərçənd, arxası qibləyə də olsa, namazını qılsın. Rüku və səcdələri dayandığı yerdə işarə ilə yerinə yetirsin". Bu namaz fəqihlərin haqqında geniş şəkildə söhbət açdıqları "Xof" (qorxu) namazıdır. Demək, namaza ciddi yanaşmaq adi sabitlik halına xas deyil. Əksinə, namaz bütün hallarda yerinə yetirilməlidir.[182]

245. Allahla faydalı sövdələşmə: Bu ayənin nazilolma səbəbilə bağlı nəql olunan rəvayətdə deyilir: "Bir gün həzrət Peyğəmbər (s) buyurdu: "Kim sədəqə versə, Cənnətdə onun iki mislini alacaqdır". Əbu əd-Dəhdah Ənsari dedi: "Ey Allahın rəsulu! Mənim iki bağım var. Onlardan birini sədəqə versəm, Cənnətdə onun iki mislini alacağammı?" Həzrət (s) buyurdu: "Bəli, alacaqsan". Dedi: "Həyat yoldaşım və övladlarım da mənimlə birgə olacaqlar?" Həzrət (s) buyurdu: "Bəli, onlar da sənlə birlikdə olacaqlar". Sonra Əbu əd-Dəhdah bağlarının ən yaxşısını sədəqə olaraq Peyğəmbərin (s) ixtiyarına verdi. Bu zaman sözügedən ayə nazil oldu və Allah onun sədəqəsini qat-qat artırdı. Əbu əd-Dəhdah qayıtdı. Həyat yoldaşını və övladlarını sədəqə üçün nəzərdə tutduğu bağda gördü. Bağın qapısında dayandı. Həyat yoldaşını səslədi və dedi: "Mən bu bağı sədəqə üçün ayırmışam. Əvəzində isə Cənnətdə iki qatını alacağam. Sən və övladlarımız da Cənnətdə mənimlə birlikdə olacaqsınız". Arvadı dedi: "Satdığın və aldığın mübarək olsun!" Sonra hamısı bağdan xaric oldular və onu

[181] "Ətyəb əl-bəyan", c. 2, səh. 488.
[182] "Nümunə", c. 2, səh. 208.

Peyğəmbərə (s) təhkim etdilər. Peyğəmbər (s) buyurdu: "Cənnətdə nə çox xurma ağacları var ki, şaxələri Əbu əd-Dəhdah üçün asılmışdır".[183]

[183] "Nümunə", c. 2, səh. 223.

246. Musadan sonra İsrail oğullarından bir dəstəni (onların başına gələnləri) görmədinmi? Onlar öz peyğəmbərinə dedilər: “Bizə bir hökmdar təyin et ki, (onun əmri altında) Allah yolunda vuruşaq!” O dedi: “Sizə vuruşma əmri verilsə, bəlkə də (boyun qaçırar və) vuruşmazsınız?” Onlar dedilər: “Yurdumuzdan çıxarıldığımız, övladlarımızdan ayrı düşdüyümüz halda (şəhərlərimiz düşmən tərəfindən işğal olunduğu, övladlarımız əsir alındığı halda) Allah yolunda necə döyüşməyə bilərik?” Lakin onlara vuruşmaq əmri gəldikdə az bir qismi istisna olmaqla, (hamısı döyüşdən) boyun qaçırdı. Allah zalımları tanıyır.

247. Peyğəmbərləri onlara dedi: “Allah Talutu sizə hökmdar göndərdi (təyin etdi)”. Onlar dedilər: “O necə bizə hökmdar ola bilər ki, biz hökmdarlığa ondan daha layiqik və ona heç böyük var-dövlət də verilməmişdir?” (Peyğəmbər) dedi: “Onu sizə (hökmdarlıq üçün) Allah seçmiş, ona bilik və fiziki güc vermişdir. Allah Öz mülkünü (səltənətini) istədiyinə verər. Allahın (bəxşişi) genişdir və (Allah kimin daha layiqli olduğunu) bilir”.

248. Peyğəmbərləri onlara dedi: “Onun hökmdarlığının əlaməti sizə "əhd sandığı"nın gəlməsidir. Onun içində Rəbbinizdən bir təskinlik, Musa və Harunun ailəsindən qalan yadigarlar vardır. Onu mələklər gətirəcək. Əgər siz möminsinizsə, sizin üçün bunda aydın bir nişanə vardır”.

---

246. Talut və Calut: Bu ayə ilə bağlı İmam Baqirdən (s) nəql olunan rəvayətdə oxuyuruq: "Bəni-İsrail Musa (ə) dünyasını dəyişdikdən sonra dinlərini dəyişdilər və Allahın fərmanlarından yayındılar. Aralarında onlara

yaxşı işlər görməyi əmr edən, pis işlərdən çəkindirən "İrmiya" adlı bir peyğəmbər var idıı. Lakin onlar ona tabe olmurdular. Allah, İrmiyaya itaətsizlik etdikləri üçün qibtli (yerli misirli) Calutu onlara hakim etdi. O, Bəni-İsraili çox zillətə sürüklədi. Onların kişilərini öldürdü, qalanlarını isə yurdlarından çıxartdı. Qadınlarını da özünə kəniz götürdü. Bundan sonra Bəni-İsrail zamanın peyğəmbərinin (Şamuelin) yanına gedib, acınacaqlı vəziyyətlərindən gileylənərək dedilər: "Allahdan istə ki, bizim üçün hökmdar təyin etsin və (onun əmri altında) Allah yolunda döyüşək". O zamanlar daim nübüvvət bir ailədə, hökmdarlıq isə digər bir sülalədə idi. Buna görə də onlar öz peyğəmbərlərindən belə istədilər. Peyğəmbərləri soruşdu: "Əgər sizin üçün belə bir peyğəmbər təyin olunsa və döyüş sizə vacib edilsə, cihaddan boyun qaçırmayacağınıza dair söz verirsinizmi?" Onlar dedilər: "Bizim nə bəhanəmiz var ki, Allah yolunda döyüşməyək? Bir halda ki, düşmən bizi evimizdən çıxarıb, arvad-uşağımızdan uzaq salıb". Lakin Allah o peyğəmbərə xəbər verdi ki, bunlar döyüşdən yayınacaqlar. Elə ki, cihad onlara vacib oldu, çox az bir hissəsindən başqa hamısı döyüşdən boyun qaçırdı. Nəhayət, peyğəmbərləri onlara dedi: "Allah Talutu sizə hökmdar seçdi". Bəni-İsrail bundan qəzəbləndi. Onlar dedilər: "O hara, hökmdarlıq hara? Biz özümüz hökmdarlığa daha layiqik. O, nə sərvət sahibidir, nə peyğəmbərlər sülaləsindən olan Lavinin soyundandır, nə də hökmdarlar sülaləsi olan Yusif soyundandır. O, Binyaminin (Yusifin qardaşı) soyundandır. Bu soydan nə peyğəmbər olmuşdur, nə də hökmdar". Peyğəmbərləri onlara cavab olaraq dedi: "Allah onu sizdən üstün bilmişdir. Ona elm və fiziki güc vermişdir. Allah nə edirsə, biliyə dayanır". Bəli, Talut Bəni-İsrailin ən bilici və ən güclü kişisi idi. Lakin yoxsul idi və Bəni-İsrail onun yoxsulluğuna irad tutur və çox sərvəti olmadığını deyirdilər. Peyğəmbərləri onlara dedi: "Onun Allah tərəfindən sizə hökmdar

seçilməsinin əlaməti budur ki, sizin yanınıza "Əhd sandığı" gələcək və onu mələklər dayışyacaqlar. Bu, Allahın Musanın (ə) anasına göndərdiyi sandıqdır. Anası Musanın (ə) qundağını həmin sandığa qoyub çaya buraxmışdı. Bu sandıq həmişə Bəni-İsrailin arasında idi. Ona təbərrük edirdilər. Musanın (ə) dünyasını dəyişmə zamanı gəlib çatdıqda Tövrat lövhələrini, zirehini və digər nübüvvət əlamətlərini onun içinə qoydu və canişini Huşaya tapşırdı. Bəni-İsrailin günahları və sandığa hörmətsizliyi həmin sandığın onlardan alınmasına səbəb oldu. O zamana qədər izzətli və şərafətli həyat sürdükləri halda, Caluta tuş gəldilər və onun əli ilə xar oldular.[184]

247. Rəhbərlik şərtləri: Bəni-İsrail Talutun hökmdarlığa seçilməsinə etiraz olaraq iki xüsusiyyəti irəli sürdülər: yüksək əsil-nəsil və çoxlu var-dövlət. Amma peyğəmbərləri onlara kəskin cavab verdi və beləcə rəhbərliyin Talutda mövcud olan iki mühüm şərtini açıqladı: bilik və fiziki güc. Əslində soy-kökü və sərvət iki şərti və əsas olmayan imtiyazdır. Lakin bilik və bacarıq isə iki gerçək və əsas imtiyazdır. Rəhbər öz biliyi ilə cəmiyyətin səadət yolunu müəyyən edir. Onun qaydalarını, prinsiplərini cızır. Öz gücü ilə isə onları vaxtında icra edir.[185]

---

[184] "Əl-Mizan", c. 2, səh. 300.
[185] "Nümunə", c. 2, səh. 237.

249. Talut qoşunla birlikdə (şəhərdən) ayrıldığı zaman (onlara) dedi: “Allah sizi bir çay vasitəsilə sınağa çəkəcək. Kim (susayarkən) ondan içsə, o məndən deyildir. Bir ovuc götürənlərdən başqa kim ondan dadmasa, o, məndəndir”. Onların az bir qismi istisna olmaqla, (hamısı) ondan su içdi. O və onunla birlikdə iman gətirənlər (sınaqdan çıxanlar) çayı keçdikdən sonra (saylarının azlığından narahat oldular və bəziləri) dedilər: “Bu gün bizim Calut və onun qoşunu ilə vuruşacaq gücümüz yoxdur”. Amma Allahla görüşəcəklərini yəqin bilənlər (Qiyamət gününə inananlar) dedilər: “O qədər az (saylı) dəstə Allahın fərmanı ilə çox (saylı) dəstəyə qalib gəlib ki!” Allah səbir edənlərlədir (müqavimət göstərənlərlədir).

250. Calut və onun qoşunu ilə qarşılaşdıqda dedilər: “Ey Rəbbimiz, bizə çoxlu səbir və ayaqlarımıza qüvvət ver! Bizə kafir qövmə qarşı yardım et!”

251. Sonra onlar Allahın fərmanı ilə düşmən qoşununu məğlubiyyətə uğratdılar. (Talutun qoşunundan qüvvətli və şücaətli bir gənc olan) Davud Calutu öldürdü. Allah ona (Davuda) hökmranlıq və bilik bəxş etdi, ona istədiyini öyrətdi. Əgər Allah insanların bəzilərini bəziləri ilə dəf etməsəydi, yer üzünü fəsad bürüyərdi. Lakin Allah aləmlərə qarşı lütfkardır.

252. Bunlar Allahın ayələridir. Onları sənə haqq olaraq oxuyuruq. Şübhəsiz, sən göndərilən elçilərdənsən.

---

249. Böyük cihadın kiçik cihada təsirinin bir nümunəsi: İmam Baqir (ə) bu ayə ilə bağlı buyurur: "Talutun əhvalatında çayın suyundan içməyənlər - bir ovuc (Allahın icazə verdiyi qədər) içən və ya heç içməyənlər - üç yüz on üç nəfər idilər. Talutun qoşunu Calutun qoşunu ilə qarşılaşdıqda Allahın

fərmanının əksinə olaraq çayın suyundan içənlər dedilər: "Bu gün bizim Calut və onun qoşunu ilə vuruşacaq gücümüz yoxdur". Ondan içməyənlər isə dedilər: "O qədər az (saylı) dəstə Allahın fərmanı ilə çox (saylı) dəstəyə qalib gəlib ki!"[186]

251. Calutun Davud tərəfindən öldürülməsi: İmam Sadiqdən nəql olunan bir hədisdə oxuyuruq: "Davud və qardaşları dörd nəfər idilər. Ataları da yaşlı kişi idi. Onlarla birgə yaşayırdı. Hamısından kiçik olan Davud atasının qoyunlarını otarırdı. Qardaşları isə Talutun qoşununda xidmət edirdilər. Bir gün Davudun atası onu çağırdı ki, oğlum, gəl hazırladığım bu yeməyi qardaşların üçün apar. Qoy düşmənə qarşı güclü olsunlar. Qısaboy, göygöz, qısa saç və pak ürəkli gənc olan Davud yeməyi götürdü və döyüş meydanına yollandı. Döyüş meydanında qoşun sıralarının bir-birinə yaxınlaşdığını gördü. Davud irəli gedərkən bir daşa ilişdi. O daşdan bir səs gəldi ki, ey Davud, məni götür və Calutu mənimlə qətlə yetir. Allah məni Calutu öldürmək üçün yaratmışdır. Davud o daşı götürdü və sapandını qoyduğu kisəyə atdı. Yoluna davam etdi və qoşunun içinə girdi. Eşitdi ki, hamı Calutun qaniçənliyindən, qəhrəmanlığından danışır və güclü olduğunu deyir. Davud dedi: "Nə olub ki, onu bu qədər şişirtmisiniz və qarşısında aciz qalmısınız? Allaha and olsun ki, onunla qarşılaşan kimi onu öldürəcəyəm". Əsgərlər bu xəbəri Taluta çatdırdılar və Davudu Talutun yanına apardılar. Talut dedi: "Ümidvaram ki, Allah Calutu bu gəncin əli ilə öldürəcək". Səhər açıldıqda əsgərlər Talutun ətrafına toplaşdılar. İki qoşun üz-üzə dayandı. Davud dedi: "Calutu mənə göstərin". Onu görən kimi kisədən daşı çıxarıb sapanda qoydu və var gücü ilə Caluta tərəf tulladı. Daş birbaşa Calutun iki gözünün arasına dəydi və beyni parçalandı. Calut atdan yıxıldı. Əsgərlər

---

[186] "Əl-Mizan", c. 2, səh. 302.

qışqırdılar: "Davud Calutu öldürdü". Bu hadisədən sonra insanlar onu öz hökmdarları seçdilər. Davud elə məşhurlaşdı ki, elə bil Talutun adı eşidilməmişdi. Allah Davuda Zəburu nazil etdi. Ona dəmirçilik sənətini öyrətdi. Dağlara və quşlara onunla birlikdə Allahı mədh etməyi əmr etdi".[187]

[187] Yenə orada, səh. 303.

253. O elçilərin bəzisini bəzilərindən üstün etdik. Allah onlardan bəzisi ilə danışmış, bəzisinin isə dərəcələrini yüksəltmişdir. Məryəm oğlu İsaya aydın nişanələr verdik və onu müqəddəs Ruhla qüvvətləndirdik (Lakin bu peyğəmbərlərin üstünlüyü ümmətlər arasında ixtilafa mane olmadı). Əgər Allah istəsəydi, onlardan sonra gələnlər onlara göndərilən bu qədər aydın nişanələrdən sonra bir-birləri ilə savaşa qalxmazdılar (Amma Allah insanları məcbur etmir və onları səadət yolunu keçməkdə azad qoymuşdur). Lakin onlar ixtilaf etdilər. Onlardan kimisi iman gətirdi, kimisi də kafir oldu. (Döyüşlər baş verdi, qan töküldü. Yenə də) əgər Allah istəsəydi, onlar bir-birləri ilə vuruşmazdılar. Lakin Allah istədiyini (hikmət əsasında) edir (və heç kimi nəyisə qəbul etməyə məcbur etmir).

254. Ey iman gətirənlər! Alış-verişin, dostluğun və şəfaətin olmayacağı gün (səadəti və cəzadan xilas olmağı ala bilməyəcəyiniz, maddi dostluqların fayda verməyəcəyi və şəfaətə layiq olmayacağınız gün) gəlməzdən qabaq sizə verdiyimiz ruzidən (Allah yolunda) xərcləyin! Kafirlər özləri zalımdırlar (Həm özlərinə zülm edirlər, həm də başqalarına).

255. Allah, Ondan başqa heç bir tanrı yoxdur, Həyy (Öz zatı ilə var olan) və Qəyyumdur (digər varlıqlar da Onun zatı ilə ayaqdadırlar). Onu nə mürgü, nə də yuxu tutar (Bir an da dünyanı idarə etməkdən qafil olmaz). Göylərdə və yerdə nə varsa, (hamısı) Ona məxsusdur. Onun fərmanı olmadan yanında kim şəfaət edə bilər? (Şəfaət edənlərin şəfaətə layiq olanları şəfaət etməsi Onun mütləq hakimiyyətini azaltmır). Onların (bəndələrinin) keçmişini və gələcəyini bilir. Onun elmindən, Onun istədiyindən başqa heç nə bilə bilməzlər. Onun taxtı (səltənəti) göyləri və yeri əhatə etmişdir. Onları qoruyub saxlamaq Onu yormur. Uca və əzəmətli Odur.

256. Dinin qəbul olunmasında məcburiyyət yoxdur. (Çünki) artıq doğru yol azğınlıqdan ayırd edilmişdir. Kim Tağutu (Şeytanı, bütləri və eləcə də digər azğın varlıqları) inkar edib Allaha iman gətirsə, o, əsla qırılmayan ən möhkəm bir tutacaqdan yapışmışdır. Allah eşidən və biləndir.

---

253. Peyğəmbərlərin bəzisinin bəzilərindən üstün olması: Məlumdur ki, bütün peyğəmbərlər Allah tərəfindən göndərilmək və ilahi ismarış gətirmək baxımından haqdırlar. Onlara iman zəruridir. Necə ki, Allah-Taala "Bəqərə" surəsinin 275-ci ayəsində möminlərin dilindən buyurur: "*Biz Onun elçiləri arasında fərq qoymuruq (Hamısına inanırıq)*". Lakin bəzi cəhətlərdən bəzi peyğəmbərlər daha üstündürlər. Bu fərq iki növdür: 1. Bəzi peyğəmbərlərə xas olan özəlliklər baxımından. Misal üçün, Allah həzrət Musa (ə) ilə xüsusi şəkildə söhbət etmişdir, yaxud həzrət Süleymana (ə) padşahlıq vermişdir və s. Digər peyğəmbərlərlə bağlı isə belə olmamışdır. 2. Mənəvi dərəcələr və Allaha yaxın olmaq baxımından. Şübhəsiz, bu baxımdan İslam peyğəmbəri (s) Allahın ən üstün peyğəmbəri olmuşdur. Hərçənd o həzrət (s) birinci növ üstünlük baxımından da bir çox cəhətlərdən digər peyğəmbərlərdən üstün olmuşdur. Misal üçün, ona nazil olan kitab (Quran) Allah tərəfindən göndərilən ən mükəmməl kitabdır. Heç bir peyğəmbərə belə bir kitab verilməmişdir. Yaxud, onun canişinlərini (on iki imamı) deyək. Heç bir peyğəmbərə belə canişinlər verilməmişdir.[188]

---

[188] "Ətyəb əl-bəyan", c. 3, səh. 3.

255. Quranın zirvə nöqtəsi: “Ayətül-Kürsi” adı ilə şöhrət tapmış bu ayə Quranın ən əzəmətli ayələrindəndir. Ehtiva etdiyi yüksək maarif bu ayələrin fəzilət və üstünlüyü haqqında çoxlu sayda hədis və rəvayətlərin nəql olunmasına səbəb olmuşdur. İmam Sadiqə (ə) istinad edilən bir hədisdə belə buyurulmuşdur: “Əbuzər Qəffari Allah rəsulundan (s) “Ey Allahın rəsulu, Sizə nazil olmuş ən mühüm və ən fəzilətli ayə hansıdır?”, - deyə soruşduqda, Allah rəsulu (s) “Ayətül-Kürsi”, - deyə cavab verdi.” İmam Sadiqə (s) istinad edilən başqa bir hədisdə belə deyilir: “Hər şeyin zirvə nöqtəsi var, Quranın zirvə nöqtəsi “Ayətül-Kürsi”dir.” İmam Əli (ə) bu ayənin fəziləti haqqında belə buyurmuşdur: “İslamı başa düşüb və ya müsəlman kimi doğulan bir şəxsin “Ayətül-Kürsi” oxumadan gecə yatıb səhər durmasına inanmıram. Əgər bu ayədə nə olduğunu bilsəniz, heç bir halda onu tərk etməzsiniz. Allah rəsulu (s) mənə buyurdu: “Ayətül-Kürsi”ni mənə ərşin altındakı xəzinədən veriblər. Məndən əvvəl heç bir peyğəmbərə belə bir şey verilməyib.” Sonra İmam Əli (ə) belə buyurmuşdur: “Bu sözü Peyğəmbərdən (s) eşitdikdən sonra elə bir gecə olmadı ki,“Ayətül-Kürsi” oxumayım.”[189] “Ayətül-Kürsi”nin qeyd edəcəyimiz vaxtlarda oxunmasının daha çox savabı var: “Gündəlik namazlardan sonra, evdən çıxarkən, nəqliyyat vasitəsinə minərkən, səfərə çıxarkən, yatmazdan əvvəl, qəbristnalıq ziyarətində olarkən, hər səhər-axşam.” Bunu da qeyd etməliyik ki, məşhur nəzərə görə “Ayətül-Kürsi” “هُمْ فِيهَا خَالِدُونَ” (...daim orada olacaqlar) cümləsinə qədər deyil, “وَهُوَ العَلِيُّ الْعَظِيمُ” (Uca və əzəmətli Odur) cümləsinə qədərdir. Əlbəttə, sonrakı iki ayənin oxunmasının da fəziləti vardır[190].

[189] Əl-Mizan, c.2, səh.341
[190] Ətyəbül-bəyan, c.3, səh.8

256. Dində heç bir məcburiyyət yoxdur: Ümumiyyətlə, İslam və heç bir haqq məzhəb iki cəhətdən məcburiyyət səciyyəsinə malik ola bilməz: 1. Açıq-aşkar dəlil və möcüzələrdən sonra məcburiyyətə ehtyac yoxdur. Zorakılığa qətiyyətli məntiqi olmayanlar əl atarlar, aydın və güclü məntiqi olan İslamın buna ehtyacı yoxdur; 2. Din daxili inanc və etiqadlara əsaslandığı üçün məcburi olması mümkün deyil. Məcburiyyət insanın cismini təslim edə bilər, ancaq etiqad və inanclarını əsla! Əlbəttə, bu, o demək deyil ki, İslam ümumiyyətlə, icbardan istifadə etməmişdir. İslam dinində üç halda hərbi güc tətbiq edilmişdir: 1. Müşrikliyin təsirlərini aradan qaldırmaq üçün. İslama görə bütpərəstlik din deyil, əksinə bir xəstəlik və xurafatdır. İnsan cəmiyyətinin yüz faizlik səhv və yanlış bir yolda yürüməsinə və bununla da süquta uğramasına icazə vermək olmaz. 2. Müsəlmanları məhv etmək üçün hücum planı hazırlamış insanlara qarşı müdafiə cihadına qalxmaq əmri verilmişdir. Peyğəmbər (s) zamanında baş vermiş müharibələrin demək olar ki, çoxu bu qəbildəndir. 3. Azad təbliğata nail olmaq üçün. Haqq olan din azad şəkildə təbliğ oluna bilər. Din bu fəaliyyətə mane olan şəxslərə qarşı zor tətbiq edib, öz haqqını əldə edə bilər[191].

[191] Nümunə, c.2, səh.281

257. Allah iman gətirənlərin hamisidir, onları zülmətlərdən nura çıxarır. Kafirlərin hamiləri isə tağutlardır, onları nurdan zülmətlərə sövq edirlər. Onlar od əhlidirlər və daim orada olacaqlar.

258. Allahın verdiyi hökmranlıq üzündən (yetərsizlikdən qürura qapılaraq) İbrahimlə Rəbbi barəsində höcətləşən kimsəni (Nəmrudu) görmədinmi? Çünki Allah ona hakimiyyət vermişdi (və yetərsizlikdən qürura qapılmışdı). İbrahim: "Mənim Rəbbim dirildən və öldürəndir" – dedikdə, o, "Mən də dirildir və öldürürəm!" – demişdi (Bunu sübuta yetirmək və xalqı aldatmaq üçün iki dustaq gətizdirmiş, birini qətlə yetirmiş, digərini isə azad etmişdi). İbrahim: "Allah günəşi şərqdən çıxarır. Sən də onu qərbdən gətir!" – dedikdə, o kafir donub qalmışdı. Allah zalım qövmü doğru yola yönəltməz.

259. Və ya divarları damlarının üstünə uçulmuş (xaraba qalmış) bir kəndin yanından keçən kimsənin (əhvalatını) bilmirsənmi? (O, oranın

əhalisini ölmüş, sümüklərini ətrafa səpələnmiş görüb, öz-özünə) demişdi: “Allah bunları ölümdən sonra necə dirildəcək?” (Bu zaman) Allah onu yüz il öldürdü, sonra da dirildib dedi: “Nə qədər qaldın?” O dedi: “Bir gün, yaxud günün bir hissəsini qaldım!” (Allah) dedi: “Yox, sən yüz il qaldın. Öz yemək-içməyinə bax, (illər keçməsinə baxmayaraq) hələ də xarab olmayıb (Tez bir zamanda xarab olacaq maddələri yüz il saxlayan Allah hər şeyə qadirdir). Ulağına da bax! (Gör necə parçalanıb). Biz (səni diriltməklə həm özünü əmin etdik, həm də) səni insanlar üçün bir nişanə etdik. (İndi) sümüklərə bax, gör Biz onları necə götürüb bir-birinə birləşdirir, sonra da onların üstünü ətlə örtürük”. Ona (bu həqiqətlər) aydın olduqda dedi: “Bilirəm ki, Allah hər şeyə qadirdir!”

---

257. Möminlərin vəlisi: “Vəli” sözü bu ayədə hami və ixtiyar sahibi mənasında işlənmişdir. Bu ayəyə əsasən Allah yalnız möminlərin hamisidir[192]. Allahın möminlərin vəli və himayəçisi olması möminləri zülmətlərdən nura çıxarması ilə nəticələnir. Belə bir şəxs elmi məsələlərdə cəhalət, əməli məsələlərdə isə zülm və azğınlıq zülmətinə məruz qalmaz[193].

257. Möminlər nura daxil olur, kafirlər nurdan çıxırlar: Bu ayədə “nur” və “zülmət” deyilərkən hidayət və sapma nəzərdə tutulur. Burada belə bir sual yarana bilər ki, məgər kafirlər nurda idilər ki, Allah onları küfrlərinə görə nurdan çıxarıb nura daxil edir? Bəzi təfsirçilər hesab edirlər ki, insan ilk yaranış mərhələsində fitri və ilahi nura malik olur, elə yaradılıb ki, onu və dünyanı yaradanı tanımaq istəyir. Ancaq Allahın Peyğəmbər (s) vasitəsilə insanlara göndərdiyi din və proqramla tanış deyl. Əgər insan ağlı və Peyğəmbərin (s) tərbiyəsi ilə yaxşı tərbiyə olunsa, həmin nur insanın canına

---

[192] Ətyəbül-bəyan, c.3, səh.22
[193] Tematik təfsir, c.11, səh.95

və ruhuna yayılar, uşaqlıq bilgisizliyi Allah və Onun nişanələrini tanıma ilə əvəzlənər. Yox, əgər kafir olsa, fitri nurdan küfr və itaətsizlik zülmətlərinə doğru süqut edər[194]. Diqqət çəkən nüanslardan biri də budur ki, nur sözü Quranda hər zaman təkdə işləndyi halda, zülmət sözü cəmdə (zülmətlər) işlənmişdir. Bu da onu göstərir ki, düz və haqq yol çox deyil, birdir. İki nöqtəni birləşdirən düz xətti buna misal göstərə bilərik. Buna görə də haqq tərəfdarları hər zaman vəhdətdə olurlar. Batil yol isə çoxlu və saysız-hesabsızdır. Buna görə də batil tərəfdarları öz batil davranışlarında bir deyillər[195].

258. Peyğəmbərin (s) keçmiş və gələcəyi bilməsi: Bu ayədə Nəmrudla İbrahimin (ə) mübahisəsindən bəhs edilir. Bəzi təfsirçilər ayənin "görmədinmi? bilmirsənmi?" ifadələrinə əsasən Peyğəmbərin (s) elminin öz zamanının fövqündə dayandığını, Allahın istəyi ilə keçmişdən və gələcəkdən xəbərdar olduğu qənaətinə gəlmişlər. Onlar hesab edirlər ki, məhz buna görədr ki, Allah öz Peyğəmbərinə (s) "görmədinmi?", - deyə buyurur. Yəni Peyğəmbər (s) İbrahimlə (ə) Nəmrudun macərasından xəbərdar olmuş, sanki onu görmüşdür[196].

259. Yüz ildən sonra dirilən peyğəmbər: Bu ayənin təfsrini ehtiva edən çoxlu sayda hədis və rəvayət mövcuddur. Bu hədis və rəvayətlərə əsasən həmin şəxsin adının Üzeyr və ya İrmiya, özünün isə Bəni-İsrail peyğəmbərlərindən olduğu məlum olur. Buxtunnəsr Beytülmüqəddəs əhalisi üzərində qələbə çaldı, hər yeri viran qoydu, əhalini qılıncdan keçirdi. Buxtunnəsrin qələbəsinin səbəbini yaxşıya əmr və pisdən çəkindirmə ilə izah etmişlər. İrmiya bu xarabalığı və qətliamı görüb şəhəri tərk etmiş və öz-

---

[194] Əl-Mizan, c.2, səh.350
[195] Nümunə, c.2, səh.285
[196] Ətyəbül-bəyan, c.3, səh.34

özünə ***"Allah onları necə dirildəcək?"***, - deyə sual vermişdir. Allah-taala onu öldürüb yüz ildən sonra diriltmişdir. Bəzilərinin yazdığına görə, hər şeydən əvvəl onun gözləri bərpa olmuş və gözləri ilə sümüklərinin bir yerə necə toplaşmasını, bir-birinə necə yapışmasını, ətlə örtülməsini müşahidə etmişdir. O, damarlarının və oynaqlarının da necə birləşdiyini görmüşdür. Möminlərin əmiri İmam Əli (ə) buyurmuşdur: ***"Üzeyr ailəsini tərk edəndə əlli yaşı var idi, arvadı da hamilə idi. Allah-taala onu öldürüb, yüz ildən sonra diriltdi. Evinə qayıdanda oğlunun yüz yaşı var idi. Halbuki Üzeyr yenə də əlli yaşında idi. Oğlu onun özündən böyük idi."*** O, üzüm və meyvə suyundan ibarət olan azuqəsinə baxdıqda, yüz ildən sonra onların heç birinin xarab olmadığını gördü. Allah-taala bu vasitə ilə öz sonsuz qüdrətinin cüzi bir hissəsini ona göstərmək istəmişdi. Allahın bu peyğəmbəri özünün necə dirildiyini, mürəkkəb sümüklərinin necə öz yerlərini aldığını görüb demişdir: "Bilirəm ki, Allah hər şeyə qadirdir!"[197]

[197] Tematik təfsir, c.4, səh.133

260. (Xatırla ki,) İbrahim: “Ey Rəbbim, ölüləri necə diriltdiyini mənə göstər!” – dedikdə (Allah) buyurmuşdu: “Məgər inanmırsan?” (İbrahim:) “Əlbəttə, inanıram, lakin xatircəm olmaq istəyirəm”, - deyə cavab vermişdi. (Bu zaman Allah) buyurmuşdu: “Dörd quş növü seçib, onları (kəsdikdən sonra) parça-parça et və (bir-birinə qatıb) hər dağın başına bir parça qoy. Sonra onları çağır, tez yanına gələcəklər. Bil ki, Allah yenilməz qüvvət, hikmət sahibidir!” (həm ölülərin bədənlərinin zərrələrindən xəbərdardır, həm də onları toplamağa qadirdir.)

261. Mallarını Allah yolunda sərf edənlər yeddi sünbül bitirən və hər sünbülündə yüz dən olan toxum kimidirlər. Allah onu istədiyi kimsə (layiq olan) üçün qat-qat artırar. Allah (qüdrət və rəhməti ilə) genişdir, (hər şeyi) biləndir.

262. Mallarını Allah yolunda minnət qoymadan, əziyyət vermədən sərf edənlərin Rəbləri yanında mükafatı var. Onların heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər.

263. (Ehtiyacı olanlara deyilmiş) xoş bir söz və (onların kobud davranışlarını) bağışlamaq əziyyətlə (minnətlə) verilən sədəqədən daha yaxşıdır. Allah ehtiyacsızdır, həlimdir!

264. Ey iman gətirənlər! Sədəqələrinizi malını riyakarlıqla (özünü xalqa göstərmək üçün) sərf edən, Allaha və axirət gününə inanmayan şəxs kimi, minnət qoymaq və əziyyət verməklə puça çıxarmayın. Belə şəxslər üzərində (toxum səpilmiş nazik) torpaq (qatı) olan, gur yağış yağdıqda çılpaqlaşan daş parçasına bənzəyirlər. Onlar gördükləri işlərdən heç nə əldə etməzlər. Şübhəsiz ki, Allah kafirləri haqq yola yönəltməz!

---

261. Xeyriyyəçilik vasitəsilə sosial siniflər arasındakı uçurumun ortadan qaldırılması: Bu və sonrakı ayələrin əsas mövzusu xərcləməkdir. Allah-taala bu ayələrdə xeyriyyəçiliyin savab və fəzilətini qeyd etməklə, möminlərə mallarını Allah yolunda xərcləməyə stimul verir. Allah yolunda xərcləməni İslam insan haqları kontekstində ən böyük əməli hökmlərdən biri kimi təqdim etmiş, bir qismini vacib, digər qismini müstəhəb elan edərək, insanlara ona əməl etmək göstərişi vermişdir. Zəkat, xums, maliyyə kəffarələri (cəzanın pulla kompensasiyası), vəqf, vəsiyyət, bəxşiş və sairə Allah yolunda xərcləmənin (vacib və müstəhəb) növlərindəndir. Bu məsələdə dinin məqsədi başqalarının maliyyə dəstəyi olmadan öz ehtiyaclarını ödəyə bilməyən sinifləri himayəyə almaq, onların həyat səviyyələrini yaxşılaşdırmaqdır. Din israfçılıq və bədxərcliyi imkanlı şəxslərə qadağan etməklə, onları dəbdəbəli və lüks həyatdan çəkindirir, bu vasitə ilə cəmiyyətin varlı və yoxsul sinifləri arasındakı məsafəni azaldır[198].

261. Allahın yolu və onun nümunələri: Bu və sonrakı ayələrdə "Allah yolunda" şərti xərcləmənin ilkin xüsusiyyəti kimi göstərilmişdir. Yəni təkcə xərcləmə və sair deyil, görülən bütün işlərdə Allahın razılığının qazanılması qəsd edilməlidir. Rəvayətlərin birində qeyd edilir ki, bir kişi təhlükəli bir yerdən keçirmiş. Camaat deyir: "Əcəb, zirək adamdır. Kaş bu zirəkliyini Allah yolunda sərf edəydi." Peyğəmbər buyurur: ***"Məgər Allah yolunda olmaq təkcə döyüşmək və öldürməklə məhdudlaşır? Allahın yolları çoxdur: Halal ruzi qazanmaq üçün evdən çıxmaq, səfərə yollanmaq, ata və ananın yaşayış xərclərini təmin etmək Allah yoludur; həyat yoldaşı və övlad üçün halal ruzi qazanmaq məqsədilə səfərə çıxmaq Allah yoludur; öz xərclərini təmin etmək üçün insanın səfərə çıxması da Allah yoludur.***

---

[198] Əl-Mizan, c.2, səh.387

Daha çox sərvət əldə etmək və mal toplamaq üçün səfərə çıxan Şeytan yolundadır.”[199] Bu mühüm nüansa İmam Əliyə (ə) aid olan bir hədisdə də rast gəlinir: ***“Allah yoxsulların ruzisinin varlıların mallarından verilməsini vacib etmişdir. Deməli, yoxsul yalnız haqqı varlı tərəfindən mənimsənildikdə ac qalır. Allah onları bu əməllərinə görə sorğuya çəkəcək.”***[200]

261. Əməlin savabını artırmaq: Bu ayə xərcləmək haqqında olsa da, ayənin “Allah onu istədiyi kimsə (layiq olan) üçün qat-qat artırar” cümləsi təkcə xərcləməklə bağlı deyil, ümumilik ifadə edir. Ayənin mənası, əslində, belədir: “Allah istədiyi hər bir xeyir əməl sahibinin əməlini bir neçə dəfə artırar.” Belə ki, xeyriyyəçinin xərclədiyini yeddi yüz dəfə artırmaq istəsə, artırar. İmam Sadiqə (ə) aid olan bir hədisdə belə buyurulmuşdur: “***Əgər mömin işini yaxşı icra etsə, Allah onun əməlini yeddi yüz dəfə artırar. Allahın*** “Allah onu istədiyi kimsə (layiq olan) üçün qat-qat artırar” ***cümləsi bunu deməyə əsas verir. Deməli, hər bir əməli ilahi savab ümidi ilə yaxşı yerinə yetirin.”*** Bu hədisin rəvayətçisi belə qeyd edir: Mən “yaxşı şəkildə yerinə yetirin, deyərkən nəyi qəsd edirsiniz?” - deyə soruşduqda həzrət buyurdu: ***“Məsələn, namaz qılırsan, rüku və səcdələri yaxşı şəkildə yerinə yetirirsən. Oruc tutarkən orucunu batil edən hər şeydən uzaq dursan. Həccə gedərkən həcc və ümrəni pozan bütün davranışlardan qorunursan. Hər bir əməli edəndə də bütün çirkinliklərdən təmiz olmalıdır.”***[201]

---

[199] Əl-Mizan, c.2, səh.389
[200] Nəhcül-bəlağə, Qısa kəlamlar, 327
[201] Əl-Mizan, c.2, səh.405

265. Mallarını Allahın razılığını qazanmaq və ruhlarını gücləndirmək (insani vərdişləri ruhda möhkəmlətmək) yolunda sərf edənlər yüksəklikdə olan bir bağa bənzərlər ki, ora düşən bol yağış (təmiz hava və yetərli dərəcədə günəş işığı) onun meyvələrini ikiqat artırar. Əgər bol yağış yağmasa, sısqa yağış (da ona kifayət edər). Həqiqətən, Allah nə etdiyinizi görəndir!

266. Məgər sizdən biriniz istərmi ki, ağacları altından çaylar axan, rəngarəng meyvələri olan xurma və üzüm bağı olsun, zəif uşaqları olduğu

halda, ona qocalıq üz versin, həmin vaxtda da oraya odlu bir qasırğa düşsün və o bağ od alıb yansın? (Öz mallarını riyakarlıqla, minnət və əziyyət verərək xərcləyənlərin vəziyyəti belədir). Allah ayələri sizin üçün bu cür aydınlaşdırır ki, bəlkə düşünəsiniz.

267. Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan çıxardığımız şeylərin (mədənlər, ağac və bitkilər) yaxşılarından (Allah yolunda) sərf edin! Ancaq göz yumaraq aldığınız pis, yaramaz şeylərdən vermək fikrində olmayın! Bilin ki, Allahın heç bir şeyə ehtiyacı yoxdur və şükürə (tərifə) layiqdir!

268. Şeytan (xərcləyərkən) sizi yoxsulluqla qorxudaraq, çirkin işlərə sövq edər, Allah isə (əksinə) sizə bağışlanmaq və bərəkət vədi verər. Allahın qüdrəti genişdir. (O, hər şeyi) biləndir (buna görə də bütün vədlərinə əməl edir).

269. Allah istədiyi (layiq gördüyü) şəxsə hikmət (elm, mərifət, müdriklik) bəxş edər. Hikmət bəxş edilmiş şəxsə çoxlu xeyir bəxş edilər. Bunu yalnız ağıllı adamlar dərk edərlər!

---

265. İxlasın xeyriyyəçiliyə təsiri: Bu və əvvəlki ayədə iki gözəl misalla öncə minnət, əziyyət, riyakarlıq qarışmış xeyriyyəçiliyin həqiqəti təsvir edilmiş, sonra ixlas, dini və humanist hisslərdən qaynaqlanan xeyriyyəçilikdən söhbət açılmışdır. Əvvəlki ayədə riyakarlıqla müşayiət edilən əməl üzəri nazik torpaq qatı ilə örtülmüş, zahirən bəzəkli, yamyaşıl, daxilən isə sərt və nahamar olan, gur yağış yağdıqda zahiri gözəlliyindən əsər-əlamət qalmayan daş parçasına bənzədilmişdir. Riyakar adamlar da öz faydasız və sərt batinlərini xeyrxahlıq siması altında gizlədirlər, heç bir sabit kökü olmayan əməllər edirlər. Lakin çox çəkmir ki, həyat pərdələri onların

üzərindən kənara çəkir və batinlərini aşkara çıxarır[202]. 266-cı ayədə qeyd edilmiş misal yalnız Allah üçün edilmiş xeyriyyəçiliyin əsla təsirsiz olmadığını və şübhəsiz ki, tezliklə öz təsirini göstərəcəyini başa salır. Belə xeyriyyəçilik Allahın diqqət və qayğısından kənarda qalmır; ilahi yönə malik olduğu üçün Allahın özü kimi əbədiləşir. Əlverişli və məhsuldar ərazidə yerləşdiyi üçün istənilən cür yağış yağdıqda məhsul verən, məhsulunun keyfiyyət və kəmiyyəti yağışın növündən və miqdarından asılı olan bağ kimi, Allahın da ixlas dərəcələrindən asılı olan qayğısı fərqlidir[203].

267. Yaxşı şeylərin xərclənməsi ilə bağlı tövsiyyə: Bu ayə ilə bağlı qeyd edilmiş rəvayətlərin birində belə deyilir: "Allah rəsulu (s) xurma zəkatının toplanmasına göstəriş verdikdə, bəziləri zəkat vermək üçün dənəsi iri və əti az olan ən pis və quru xurma növünü seçirdilər. Bəziləri isə ən yaxşı xurmalardan seçirdilər. Peyğəmbər (s) buyurdu: ***"Bundan sonra dənli bitkilərin miqdarını təyin edəndə dənəsi iri və əti az olan ən pis və quru xurma növünü hesablamayın və onu zəkat verməyin."*** Məhz bu zaman "yaramaz şeylərdən verməyin..." ayəsi nazil oldu."[204]

268. Allahın vədi və Şeytanın vədi: Bu ayə ilə bağlı nəql edlmiş rəvayətlərin birində belə qeyd edilmişdir: ***"Şeytan həmişə deyir: "xərcləməyin ki, özünüz yoxsullaşacaqsınız." Ancaq Allah bağışlanma və bərəkət vədi verir. Yəni Allah yolunda xərcləsəniz, həm sizi bağışlayacaq, həm də öz fəzli ilə həmin malın yerini dolduracaq."***[205]

269. Hikmət və çoxlu xeyir: Hikmətin mənası xüsusi şəkildə möhkəmlətmək və ya nəyinsə hər hansı zəifləmə və xəsarətə məruz qalmayacaq dərəcədə möhkəmləndirilməsidir. Adətən bu söz yalan və

---

[202] Nümunə, c.2, səh.326
[203] Əl-Mizan, c.2, səh.395
[204] Əl-Mizan, c.2, səh.407
[205] Əl-Mizan, c.2, səh.408

yanlışdan uzaq olan rasional elmlər haqqında işlədilir. Hikmət reallığı əks etdirən və insanın xoşbəxtliyində rol oynayan düzgün bilgidir. Başlanğıc və qayıdış mövzularını ehtiva edən ilahi maarifi və ya təbiət reallıqlarının izahını verən elmləri buna misal göstərə bilərik. Buna görə də hədis və rəvayətlərdə hikmət Allahtanıma, bəsirət, dini ayıqlıq, Allaha itaət, imamtanıma kimi izah edilmişdir. Çünki bu maarif insan səadətinin əsasını təşkil edir[206]. İmam Sadiqə (ə) aid olan bir hədisdə belə buyurulmuşdur: ***"Hikmət tanımanın çırağı, təqvanın ölçü vasitəsi, doğruçuluq və dürüstlüyün nəticəsidir. Əgər Allahın bəndəyə hikmətdən daha böyük, uca, bol və əzəmətli bir nemət vermədiyini desək, düz danışmışıq. Çünki Allah "Allah istədiyi (layiq gördüyü) şəxsə hikmət (elm, mərifət, müdriklik) bəxş edər. Hikmət bəxş edilmiş şəxsə çoxlu xeyir bəxş edilər", - deyə buyurmuşdur..."***[207] Yaddan çıxarmamalıyıq ki, Quranın leksikonundakı hikmətlə rasional elmlərin mövzusu olan hikmət fərqlidir. Əslində, hikmət ənənəvi təqlidlə uyğunluq təşkil etməyən tədqiqi tanımadır[208].

[206] Əl-Mizan, c.2, səh.399
[207] Əl-mizan, c.2, səh.408
[208] Tematik təfsir, c.7, səh.229

270. (Allah yolunda) xərclədiyiniz və nəzir etdiyiniz hər şeyi Allah bilir, lakin zülm edənlərin heç bir köməkçisi yoxdur!

271. Yoxsullara aşkarda sədəqə versəniz, yaxşıdır. Əgər onu gizlində versəniz, daha yaxşı olar. Bu, günahlarınızın bir qismini örtər (Allah yolunda bağışladığınıza görə bağışlanacaqsınız). Allah tutduğunuz hər bir işdən xəbərdardır!

272. İnsanları doğru yola (məcburi şəkildə) yönəltmək sənin borcun deyil. (Buna görə də çıxılmaz vəziyyətdə qalıb İslamı qəbul etmələri üçün qeyri-müsəlmanlara edilən yaxşılığı tərk etmək düzgün deyil). Allah kimi istərsə (layiq görsə), onu doğru yola yönəldər. Allah yolunda sərf etdyiniz malın mənfəəti və etdiyiniz yaxşılıqlar özünüz üçündür. Malınızı yalnız Allahın razılığını qazanmaq üçün sərf edin. Allah yolunda etdiyiniz hər bir yaxşılığın mükafatı sızə tam şəkildə veriləcək və sizə əsla zülm edilməyəcək!

273. (Allah yolunda etdiyiniz yaxşılıqların ünvanı) Allah yolunda çətinliyə düşən (Allah dininə diqqət onları öz vətənlərindən didərgin salmış, müharibə meydanında iştirak onlara dolanışıqlarını təmin etməyə, qazanc

əldə etməyə, ticarətlə məşğul olmağa imkan vermir), (sərmayə əldə etmək üçün) səfərə çıxa bilməyən, həyalı olduqları üçün məlumatsız insanların ehtiyacsız sandıqları ehtiyaclılar olmalıdır. Sən onları üzlərindən tanıyırsan. Onlar heç kəsdən israrla bir şey istəməzlər. Allah yolunda etdiyiniz hər bir yaxşılıqdan Allah xəbərdardır!

274. Mallarını gecə və gündüz, gizli və aşkar sərf edənlərin mükafatı Rəbləri yanındadır. Onların heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər.

---

270. Nəzir: Bu sözün mənası qorxudur. İnsan istəyinə nail ola bilməyəcəyindən qorxduğu üçün özü-özlüyündə şərt kəsir ki, istəyinə nail olsa, xüsusi bir iş görəcək. Əlbəttə, haram və dinə zidd olan işlərin nəzr edilməsi batildir. Nəzir yalnız halal işlərdə düzgündür. Nəzir boyun almağın sözlə ifadə edilən xüsusi bir forması var. Nəzrinə əməl etməyən şəxs cərimə ödəməlidir. Nəzrin hökmləri fiqh kitablarında və əməli traktatlarda təfsilatı ilə şərh edilmişdir[209].

271. Gizli və aşkar sədəqə: Allah-taala bu ayədə sədəqənin gizli və aşkar olmaqla hər iki formasını tərifləmişdir. Çünki onların hər ikisinin müsbət təsirləri vardır. Aşkar sədəqə insanlara stimul verir, onların yaxşı işə cəlb olunmasında əməli şəkildə rol oynayır, habelə yoxsul və çarəsizlərdə ümid yaranmasına səbəb olur. Yoxsullar cəmiyyətdə onların qayğısına qalan mərhəmətli insanların olduğunu hiss edirlər. Bu da onların ümidlərini itirməməsinə səbəb olur. Gizli sədəqənin faydası ondadır ki, riyakarlıq, minnət və narahatçılıqdan uzaqdır, yoxsulun abrının qorunması ilə nəticələnir. Buna görə də bu sədəqədə ixlas aşkar verilən sədəqədəki

---

[209] Ətyəbül-bəyan, c.3, səh.53

ixlasdan çoxdur. Ümimiyyətlə, aşkarda verilən sədəqənin müsbət nəticələri gizlində verilən verilən sədəqənin nəticələrindən çox olsa da, gizlində verilən sədəqənin ixlas və təmizliyi aşkarda verilən sədəqənin ixlasından çoxdur[210]. Həzrət Əli (ə) bu barədə belə buyurmuşdur: ***"Gizlində verilən sədəqə günahların cəriməsi, aşkarda verilən sədəqə isə pis ölümün qarşısını alır."***[211] Başqa bir hədisdə belə qeyd edilir: ***"Allahın kölgəsindən başqa bir kölgə olmadığı vaxt O, yeddi qrup insana öz lütf və mərhəmət kölgəsində sığınacaq verəcək. Onlardan biri gizlində sədəqə verən, sağ əlinin verdiyindən sol əlinin xəbəri olmayan şəxsdir."***[212]

272. Qeyri-müsəlmana yaxşılıq edilməsi və onun şərtləri: Bu ayədə qeyri-müsəlmana edilən yaxşılığın sərhədləri müəyyən edilir. Belə ki, yoxsulluq içində qalıb İslamı seçmək məcburiyyətində qalmalarına nail olmaq məqsədi ilə qeyri-müsəlman yoxsullara sədəqə verilməməsi düzgün deyil. Allahın nemət və bəxşişləri dinindən və inancından asılı olmayaraq, bu dünyadakı bütün insanlara şamil olduğu üçün möminlər də sədəqə verərkən və yoxsullara yardım göstərərkən qeyri-müsəlmanları da nəzərə almalıdırlar. Əlbəttə, qeyri-müsəlmana yaxşılıq insani yardım səciyyəsi daşımalı, onları İslamın humanist ruhu ilə tanış etməli, düşmənlərin küfrünün güclənməsinə və düşmənlərin məkrli planlarının inkişafına xidmət etməməlidir[213]. Bu ayənin nazilolma səbəbindən bəhs edən rəvayətlərdə qeyd edilir ki, İslamın ilk illərində Peyğəmbər (s) müsəlmanların qeyri-müsəlmanlara sədəqə verməsinə icazə vermirdi, müsəlmanlar özləri də öz kafir qohumlarına sədəqə verməyə meyl göstərmirdilər. Sonra Allah

---

[210] Əl-Mizan, c.2, səh.401
[211] Mənşuri-cavid, c.8, səh.273
[212] Nümunə, c.2, səh.347
[213] Nümunə, c.2, səh.348

“Bəqərə” surəsini nazil edib, kafir yoxsullara da sədəqə verilməsinə icazə verdi[214].

274. İmam Əlinin (ə) xeyriyyəçiliyi: Çoxlu sayda hədisdə bu ayənin İmam Əli (ə) haqqında nazil olduğu qeyd edilmişdir. Deyilənə görə, o cənabın dörd dirhəmi var imiş. Bir dirhəmini gecə, bir dirhəmini gündüz, bir dirhəmini aşkar, bir dirhəmini gizlində Allah yolunda sərf etdikdən sonra bu ayə nazil olmuşdur. Əlbəttə, ayənin nazilolma səbəbi ayənin mənasını məhdudlaşdırmır. Yəni başqaları da bu ayəyə əməl etsələr, ayənin hökmü onlara da şamil olar[215].

[214] Əl-Mizan, c.2, səh.409
[215] Nümunə, c.2, səh.360

275. Sələm yeyənlər (Qiyamət günü) yalnız Şeytan toxunmuş kimi qalxarlar (müvazinətlərini saxlaya bilməz, gah yıxılıb, gah dururlar). Bunların belə olmaları: “Alış-veriş də sələm kimi bir şeydir! (bu ikisi arasında heç bir fərq yoxdur)” – dedikləri üzündəndir. Halbuki Allah alış-verişi halal, sələm (faiz) almağı isə haram (qadağan) etmişdir (çünki bu ikisi arasında çox böyük fərq var). Əgər kimsə Rəbbi tərəfindən gələn nəsihəti qəbul edərək (sələm yeməkdən) çəkinsə, keçmişdə (haram hökmü gəlməzdən) əldə etdiyi mənfəətlər onundur. Onun işi Allaha həvalə edilir (Allah onun keçmişini bağışlayacaq). Amma qayıdanlar (bu günahı yenidən davam etdirənlər) Cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar!

276. Allah sələmi məhv edər, sədəqələri artırar. Allah heç bir nankoru, günahkarı sevməz!

277. İman gətirən, xeyirli işlər görən, namaz qılan, zəkat verən şəxslərin mükafatı Rəbləri yanındadır. Onların heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər!

278. Ey iman gətirənlər! Əgər möminsinizsə, doğrudan, Allahdan qorxun və sələmdən qalan məbləğdən imtina edin!

279. Əgər belə etməsəniz, bilin ki, Allah və rəsulu sizinlə müharibə aparacaq. Yox, əgər tövbə etsəniz, sərmayəniz (mayanız) sizindir. Beləliklə, nə siz zülm edərsiniz, nə də sizə zülm olunar!

280. Əgər sizə borcu olan şəxsin borcunu ödəməyə imkanı çatmazsa, ona vəziyyəti yaxşılaşıncaya qədər möhlət verin! (Əgər həqiqətən, ödəməyə imkanı çatmırsa), Əgər (bu işin xeyrini) bilsəniz, Allaha görə bağışlamağınız daha yaxşıdır!

281. Allaha tərəf qaytarılacağınız gündən qorxun! (O gün) hər kəsə gördüyü əməlin əvəzi kamil şəkildə veriləcək və heç kəsə qarşı haqsızlıq edilməyəcək. (Çünki qarşılarına çıxanlar əməllərinin nəticələri olacaq.)

---

275. Sələmin mənfi təsirləri: Bu və sonrakı ayələrdə sələmdən bəhs edilir. Sələm sədəqənin əksi olduğu üçün sözügedən ayənin Allah yolunda xərcləməkdən bəhs edən əvvəlki ayələrlə əlaqəsi var. Sələm yeyən adam əvəzsiz pul alır, sədəqə verən isə əvəzsiz pul verir. Sələm siniflər arasında ixtilafa və düşmənçiliyə səbəb olduğu halda, sədəqə sevgi və dostluğu artırır. Sələm yoxsulların qanının sorulmasına, sədəqə isə çarəsizlərin həyatının yaxşılaşmasına səbəb olur. Sələm ixtilaf və qeyri-sabitliyə, sədəqə isə vəhdətə və əmin-amanlığa səbəb olur. Allah-taala bu ayədə din düşmənlərinin hakimiyyətinin qəbul edilməsi istisna olmaqla, heç bir günahla bağlı göstərmədiyi bir kəskinlik göstərir. Quranda bu iki günaha münasibət zina, şərabxorluq, qumar, zülm və sair kimi digər böyük günahlara olan münasibətdən fərqlənir. Çünki pis təsirləri dinin əsasını, insan həyatını və ilahi fitrəti məhv edən bu iki günahdan fərqli olaraq, digər günahların fəsadları təkcə bir neçə nəfəri və həyatın zahiri yönlərini əhatə edir[216]. Quran və məsumlar (ə) sələmə qarşı çox ciddi və kəskin şəkildə mübarizə aparmışlar. Bu əməllə bağlı çoxlu sayda kəskin məzmunlu hədis və rəvayətlər nəql edilmişdir. İmam Sadiq (ə) buyurmuşdur: ***"Bir dirhəm sələm almağın günahı öz məhrəmi ilə Kəbədə yetmiş dəfə zina etmiş şəxsin günahından böyükdür."*** İmam Sadiqə (ə) istinad edilən başqa bir hədisdə belə qeyd edilir: ***"Günahının böyüklüyü baxımından sələmin yetmiş***

---

[216] Əl-Mizan, c.2, səh.413

dərəcəsi var. Ən kiçik dərəcəsi Kəbədə anasına təcavüz etmiş şəxsin günahı qədərdir.”[217] Bu ayədə sələm yeyənlərin davranışı yaxşı ilə pisi fərqləndirməyən dəlinin davranışına bənzədilmişdir. Çünki o, bir şeyi başqasına bir müddətliyə verir, əvəzində isə həmin şeyi daha çox miqdarda alır. Bu isə fitrətə və sağlam vicdana ziddir. Sağlam vicdan insanın özünün ehtiyac duymadığını başqa ehtiyaclılara verməyi, başqalarında olanla isə öz ehtiyaclarını təmin etməyi tələb edir. Amma sələm birtərəflidir. Sələmçi yalnız alır, varlanır, nəticədə, başqalarını yoxsul və çarəsiz edir. Bu da sələm yeyən adamın ağlını itirməsinə, alqı-satqı ilə sələm arasında fərq qoyamamasına, təkcə öz mənafeyini güdməsinə səbəb olur. Ayədə sələmçinin öldükdən sonra Qiyamət günü düşəcəyi bu vəziyyətin təsviri verilmişdir. Peyğəmbərə (s) aid edilən bir hədisdə belə buyurulmuşdur: ***“Merac gecəsi qarınları çox böyük olduğu üçün yerlərindən qalxa bilməyən adamlar gördüm. Cəbrayıldan soruşdum: “Bunlar kimdir?” dedi: “Bunlar dünyada sələm yeyən şəxslərdir. Allah onlar haqqında belə buyurmuşdur: “Sələm yeyənlər (Qiyamət günü) yalnız Şeytan toxunmuş kimi qalxarlar (müvazinətlərini saxlaya bilməz, gah yıxılıb, gah dururlar)” Bunlar səhər-axşam oda atılan və “İlahi, Qiyamət nə vaxt olacaq?” - deyən Firon davamçıları kimidirlər.”*** Peyğəmbərə aid edilən başqa bir hədisdə belə qeyd edilir: ***“Sələm yeyən adam Qiyamətdə dəli kimi qaldırılacaq, ayaqlarını yerlə sürütləyəcək.”*** Bu sözlərdən sonra ***“Sələm yeyənlər...”*** ayəsini oxumuşdur[218].

---

[217] Ətyəbül-bəyan, c.3, səh.62
[218] Əl-Mizan, c.2, səh.415-428

Sonumidtv.az

282. Ey iman gətirənlər! Müəyyən müddətədək bir-birinizə borc verdikdə onu yazın. (Həmin sənədi) aranızdan bir nəfər katib ədalətlə yazmalıdır. Yazmağı bacaran şəxs Allahın öyrətdiyi şəkildə yazmaqdan boyun qaçırmamalıdır. O yazmalı, üzərində haqq olan yazdırmalı, Rəbbi olan Allahdan çəkinməli və heç nəyi ötürməməlidir. Əgər borc alan ağıldan kəm və ya ruhi xəstədirsə və yaxud (lal olduğu üçün) özü deyib yazdıra bilmirsə, (əvəzində) qəyyumu ədalətlə yazdırmalıdır. Aranızdan iki (adil) kişini (bu həqiqətə) şahid tutun. Əgər iki kişi olmazsa, razı olduğunuz və

etibar etdiyiniz bir kişi və iki qadın seçin ki, (bu iki qadın birlikdə şahidlik etməlidirlər) biri yayındıqda, o birisi ona xatırlatsın. Şahidlər (şahidlik etməyə) çağırıldıqda boyun qaçırmamalıdırlar. Az və ya çox olmasından asılı olmayaraq (borcunuzu) yazmaqdan usanmayın. Bu, Allah yanında daha ədalətli, şahidlik üçün daha düzgün və şübhəyə (mübahisəyə) düşməməyiniz üçün daha yaxşıdır. Lakin aranızda gedən nağd ticarət istisnadır. Bunu yazmamağınız sizin üçün günah deyildir. (Nağd) alqı-satqı etdikdə şahid tutun. Katibə və şahidə (doğrunu söylədiyi üçün) zərər verilməməlidir (təzyiq göstərilməməlidir). Əgər belə etsəniz, Allahın əmrindən çıxmış olarsınız. Allahdan qorxun. Allah sizə öyrədir və Allah hər şeyi biləndir.

---

282. Ticarət sənədlərinin tənzimlənməsi ilə bağlı on səkkiz göstəriş: Bu ayədə “qərz” deyil, “dəyn” sözü işlənmişdir. “Qərz” sözündən bir-birinə bənzəyən iki şeyin mübadiləsində istifadə edilir. Məsələn, bir nəfər oxşarını qaytaracağı bir şeyi borc götürdükdə bu sözdən istifadə edilir. Ancaq “dəyn” alqı-satqı və borcun formasından asılı olmayaraq, bütün borc növlərinə şamil olunur. Tərəflərdən birinin öhdəlik götürdüyü icarə, sülh, alqı-satqı və sairəni buna misal göstərə bilərik. Quranın ən uzun ayəsi olan bu ayədə alqı-satqı ilə bağlı on səkkiz qayda təqdim edilmişdir. Həmin qaydalar bunlardır: 1. Əgər bir nəfər başqasına borc versə və ya tərəflərdən birinin borclu qalması ilə nəticələnəcək alqı-satqı baş versə, sonradan heç bir səhvə yol verilməməsi və hər hansı iddia irəli sürülməməsi üçün bütün şərtləri ehtiva edən bir müqavilə tərtib edlməlidir; 2. Müqavilənin tərəflərin ehtimal edilən müdaxiləsindən qorunması üçün o, üçüncü şəxs tərəfindən yazılmalıdır; 3. Katib müqaviləni yazarkən haqqı rəhbər tutmalı və həqiqəti yazmalıdır; 4. Alqı-satqının hökm və şərtlərindən xəbərdar olan tənzimləyici Allahın ona verdiyi bu nemətə hörmət və təşəkkür əlaməti olaraq, müqavilə yazmaqdan

boyun qaçırmamalıdır, hətta mübadilə tərəflərinə bu sosial vəzifədə məsələdə yardım göstərməlidir; 5. Katibin müqaviləni yazması üçün şərtləri ona alqı-satqı tərəflərindən biri deməlidir. Amma yazdıranın kim olmasına gəlincə, ayədə bu məsuliyyət borclu olan, yəni üzərində haqq olan şəxsə tapşırılmışdır; 6. Borclu olan şəxs yazdırarkən Allahı yaddan çıxarmamalı, heç nəyi ötürməməli, yazması üçün hər şeyi katibə deməlidir; 7. Əgər borclu ağıldan kəm (öz maliyyə işlərini tənzimləyə bilməyən, xeyrini və zərərini müəyyənləşdirə bilməyən şəxs), ruhi xəstə, lal və kar olarsa, müqaviləni onun əvəzində qəyyumu yazdırmalıdır; 8. Qəyyum və vəkil yazdırarkən ədalətə riayət etməli, qəyyumu olduğu şəxsin mənafeyini nəzərə almalı, haqsızlığa yol verməməlidir; 9. Müqavilə yazmaqla yanaşı tərəflər iki şahid də tutmalıdırlar. 10 və 11. Şahidlər yetkinlik şəxs və müsəlman olmalıdırlar; 12. Bir kişi və iki qadın da şahidlik edə bilər; 13. Şahidlər etimad göstərilən və etirbarlı şəxslər olmalıdırlar; 14. Şahidlər kişi olarlarsa, müstəqil şəkildə şahidlik edə bilərlər. Ancaq şahidlər bir kişi və iki qadın olarsa, birlikdə şahidlik etməlidirlər. Bu da ona görədir ki, əgər onlardan biri emosiyalara qapılıb təsir altına düşərsə, şahidlik işində səhvə yol verməməsi üçün digəri ona xatırlatsın; 15. Az və ya çox olmasından asılı olmayaraq, borc yazılmalıdır; 16. Əgər alqı-satqı nağd olarsa, yazmaq lazım deyil; 17. Nağd alqı-satqıda sənəd tərtib edilməsi lazım olmasa da, şahidin olması lazımdır; 18. Haqq və ədalətə riayət etdikləri üçün katib və şahidlərə təzyiq göstərilməməli, əziyyət verilməməlidir.

Bu ayədə alqı-satqı sənədinin detallı şəkildə tənzimlənməsi ilə bağlı qeyd edilmiş dəqiq hökmlər Quranın müsəlmanların iqtsadi məsələlərinə və fəaliyyətlərinin tənzimlənməsinə çox böyük diqqət ayırdığını göstərir. Quranın oxuma-yazma və təhsil problemi olan inkişaf etməmiş bir cəmiyyətdə müqavilə tənzimlənməsinə xüsusi diqqət ayırması bu səmavi

kitabın müsəlmanların iqtisadi sistemində islahatlar aparılmasına ciddiyyət göstərdiyindən xəbər verir[219].

283. Əgər səfərdə olsanız və katib tapmasanız, girov alın (Borc yiyəsinə girov verilsin). Əgər bir-birinizə (tam) etibar edirsinizsə, (girov lazım deyil və) etibar olunmuş şəxs borcunu (təyin olunan vaxtda) geri qaytarsın və Rəbbi olan Allahdan qorxsun. Şahidliyi gizlətməyin. Onu gizlədən şəxsin qəlbi günahkardır. Allah etdiklərinizi bilir.

284. Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. (Buna görə) Ürəyinizdə olanı üzə çıxarsanız da, gizlətsəniz də, Allah sizi ona uyğun hesaba çəkəcək. İstədiyini (layiq olanı) bağışlayar, istədiyinə (layiq olana) da əzab verər. Allah hər şeyə qadirdir.

285. Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə iman gətirdi. Möminlər də hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər (və dedilər:) “Biz Onun elçiləri arasında fərq qoymuruq (Hamısına inanırıq)". Onlar dedilər: “Eşitdik və itaət etdik! Ey Rəbbimiz! Səndən bağışlanmaq diləyirik və dönüş(ümüz) yalnız Sənədir”.

286. Allah hər kəsin üzərinə yalnız gücü yetdiyi qədər məsuliyyət qoyur. (İnsanın) gördüyü (yaxşı) iş öz xeyrinə, (pis) iş isə öz əleyhinədir. (Möminlər deyirlər:) “Ey Rəbbimiz, unutsaq və ya xəta etsək, bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkilərin üzərinə (günah etdikləri üçün) qoyduğun ağır məsuliyyəti, bizim üzərimizə qoyma! Ey Rəbbimiz, bizi gücümüz çatmayan şeyi daşımağa vadar etmə! Günahın nəticələrini bizdən uzaq et, bizi bağışla və bizə rəhm et! Sən bizim hamimizsən. Kafirlər üzərində (qələbə çalmaqda) bizə kömək et!”

---

[219] Nümunə, c.2, səh.382

--

284. Bəndələrin qəlbində olanlara görə hesabat: Bəzən belə bir təsəvvür yaranır ki, bu ayə “Günahın niyyəti günah deyil” məzmununu ifadə edən çoxlu sayda hədislə təzad təşkil edir. Bəzi böyük təfsirçilər bu iradı belə cavablandırmışlar: “Ürəyinizdə olan” ifadəsi qəlbdə sabitləşmiş pis və yaxşı xüsusiyyətləri və əxlaqı ifadə edir. İnsanın sərgilədiyi davranışlar onun ruhunda sabitləşmiş iman, küfr, sevgi, nifrət və bu kimi xüsusiyyətlərdən qaynaqlanır. Lakin bu ayənin məzmunu bəzən qeyri-ixtiyari şəkildə təsəvvür edilən, insanın həyata keçirməkdə qərarlı olmadığı günah fikrinə şamil olmur[220].

285. “Bəqərə” surəsinin son iki ayəsini oxumağın savabı: Çoxlu sayda hədisdə bu və sonrakı ayəni oxumağın çox böyük savabı olduğu qeyd edilmişdir. Bəzi hədislərin məzmunu belədir: Hər kəs bu iki ayəni İşa namazından sonra oxusa, bütün gecəni namaz və ibadətlə keçirmiş adamın savabını qazanar. Habelə, bu ayənin oxunduğu evə Şeytan daxil ola bilməz[221].

286. Unutqanın cəzalandırılmaması: Təfsirçilər bu ayənin “Ey Rəbbimiz, unutsaq və ya xəta etsək, bizi cəzalandırma!” cümləsini təfsir edərkən belə qeyd etmişlər: “Unutmaq iki cürdür: Birincisi, insanın bərpa edə bilməyəcəyi unutqanlıq. Xəstəlik nəticəsində yaddaşını itirmiş şəxsi buna misal göstərə bilərik. Şübhəsiz ki, belə bir şəxsin cəzası yoxdur. İkincisi, insanın öz diqqətsizliyi üzündən baş vermiş və cəzası da ola biləcək

---

[220] Əl-Mizan, c.2, səh.441
[221] Ətyəbül-bəyan, c.3, səh.90

unutqanlıq. Bu ayədə insana bu növ unutqanlıq və xətaya görə bağışlanma istəməsi öyrədilir[222].

286. Asan din: “İsr” sözünün ərəb dilində mənası saxlamaq və həbs etməkdir. “İsr” insanı fəaliyyətdən saxlayan ağır işə deyilir. Qeyd olunan söz insanı məhdudlaşdıran əhd-peymanlara da şamil edilir. Buna görə də bəzən cəza və cərimələrə “isr” deyilr. Bu cümlədə möminlər Allahdan bəzən onların Allaha itaətsizlik göstərməsinə səbəb olan ağır vəzifələrə görə bağışlamasını diləyirlər. Bu, Peyğəmbərin (s) İslam qanunları ilə bağlı qeyd etdiyi mənanı ifadə edir: “Mən elə bir din gətirmişəm ki, ona əməl etmək hamı üçün asan və rahatdır.” Quran ayələrinə əsasən keçmiş ümmətlərə vacib edilmiş ağır təkliflər və çətinliklərin səbəbi onların mənsub olduqları din deyil, ilahi əmrlərdən boyun qaçırmaq və itaətsizlik olmuşdur. Bu ağır vəzifələr onlara cəza tədbiri olaraq vacib edilmişdir. “Ənam” surəsinin 146-cı ayəsində İsrail övladları haqqında belə buyurulmuşdur: “Yəhudilərə dırnaqlı (təkdırnaqlı) heyvanların hamısını haram etdik. İnək və qoyunun bellərinə və ya bağırsaqlarına yapışan, yaxud sümüklərinə qarışan yağlar müstəsna olmaqla, onların piylərini də onlara haram buyurduq. Həddi aşdıqlarına görə onları belə cəzalandırdıq. Şübhəsiz ki, Biz sözündə doğru olanlarıq!”[223]

---

[222] Ətyəbül-bəyan, c.3, səh.94
[223] Nümunə, c.2, səh.403

"Ali-İmran" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Əlif, Ləm, Mim.

2. Allah, Ondan başqa heç bir məbud yoxdur, Həyy (Öz zatı ilə var olan) və Qəyyumdur (digər varlıqlar da Onun zatı ilə ayaqdadırl ar).

3. (O, həmin şəxsdir ki,) sənə əvvəlki kitabların əlamətləri ilə üst-üstə düşən Kitabı haqq olaraq nazil etdi. Tövrat və İncili -

4. ondan əvvəl insanları doğru yola yönəltmək üçün göndərdi. Haqqı batildən ayıran kitabı da nazil etdi. Allahın ayələrini inkar edənlər üçün şiddətli bir əzab var. Allah (cinayətkarları və inadkar kafirləri cəzalandırmaq üçün) Qüdrətlidir, intiqam sahibidir.

5. Göydə və yerdə heç nə Allahdan gizli qalmaz. (Buna görə də onları idarə etmək Ona çətin deyil).

6. Bətnlərdə sizə istədiyi surəti verən Odur. Qüdrətli və hikmət sahibi olan Allahdan başqa məbud yoxdur.

7. Bu kitabı sənə nazil edən Odur. Onun bir qismi kitabın əsasını təşkil edən "möhkəm" (aydın və aşkar) ayələrdir (digər ayələrdə qarşıya çıxan istənilən anlaşılmazlığa bu ayələr əsasında aydınlıq gəlir), digər qismi isə "mütəşabeh"dir (Məzmun səviyyəsi çox yüksək olduğu üçün, habelə digər cəhətlərdən ilk baxışda müxtəlif ehtimallar irəli sürülməsinə səbəb olan, lakin möhkəm ayələr əsasında mənalarına aydınlıq gələn ayələr). Qəlblərində sapma olanlar fitnə-fəsad törətmək (insanları sapdırmaq) və (yanlış) yozmaq məqsədilə mütəşabih ayələrin ardınca düşərlər. Onun yozumunu isə Allah, dəyişməz və sabit bilgiyə malik olanlardan başqa heç kəs bilməz. (Quranın bütün ayələrinin sirlərini ilahi elm və maarif əsasında dərk etmək istəyənlər) deyərlər: "Biz onların hamısına iman gətirdik, hamısı bizim Rəbbimiz tərəfindəndir". (Bu həqiqəti) yalnız ağıl sahibləri dərk edərlər.

8. (Dəyişməz və sabit bilgiyə malik olanlar) Ey Rəbbimiz! Bizi haqq yola yönəltdikdən sonra qəlbimizi (haqq yoldan) sapdırma və bizə Öz tərəfindən mərhəmət bəxş et. Çünki Sən mərhəmətlisən.

9. Ey Rəbbimiz! Sən insanları (baş verəcəyinə) şübhə edilməyən bir gündə toplayacaqsan. Çünki Allah öz vədinə xilaf çıxmaz! (Biz Sənə, Sənin rəhmətinə və Qiyamət vədinə iman gətirmişik.)

“Ali-İmran” surəsinin ümumi məzmunu: Tövhid, Allahın atributları, qayıdış, İslamın digər maarifləri, cihad, bəzi İslam hökmləri, çətinliklər qarşısında dözümlü olmağın zəruriliyi, Allahın imtahanları, peyğəmbərlərin (ə) tarixindən xatırlatmalar[224].

7. Möhkəm və mütəşabeh ayələr: Allah-taala bu ayədə Quranın ayələrini möhkəm və mütəşabeh olmaqla iki qismə bölmüşdür. Möhkəm ayələr mənaları heç bir mübahisə doğurmayacaq qədər aydın olan ayələrdir. “De: O Allah birdir” (Tövhid surəsi, ayə-1), “Ona bənzər heç bir şey yoxdur” (Şura surəsi, ayə-11), “Oğula iki qız hissəsi qədər pay düşür” (Nisa surəsi, ayə-11) və sair kimi ayələr digər ayələrin əsasını təşkil etdiyi, onların izahedicisi olduğu üçün Quranda “Kitabın anası” adlandırılmışdır. Bunlardan fərqli olaraq, ilk baxışda mənaları anlaşılmayan, başa düşülməsi çətin görünən, bəzən müxtəlif ehtimalların irəli sürülməsinə səbəb olan ayələr də var. “Allahın əli onların əllərinin üstündədir” (Fəth surəsi, ayə-10), “Allah eşidəndir, biləndir” (Bəqərə surəsi, ayə-234) və sair ayələri misal göstərmək olar. Təbii ki, Allahın nə əli var, nə də qulağı. Bu sözlər Allahın qüdrət və elmini ifadə edir. Bunlar Quranın mütəşabeh ayələridir. Onlarla bağlı yaranmış anlaşılmazlığa aydınlıq gətirmək üçün möhkəm ayələrə müraciət etmək lazımdır. Məsələn, “Allahın əli onların əllərinin üstündədir” ayəsi ilə “Ona bənzər heç bir şey yoxdur” ayəsi arasında paralellik aparsaq, “Allahın əli” deylərkən başa düşdüyümüz əlin nəzərdə tutulmadığını anayarıq. Çünki Allahın heç bir bənzəri yoxdur. Bununla da Allahın əlinin olması ilə bağlı təsəvvür yaranmasının qarşısı alınır. İmam Rza (ə)

---

[224] Nümunə, c.2, səh.408

buyurmuşdur: ***“Mütəşabeh ayələri möhkəm ayələrə istinad edən şəxs düz yola yönələr.”***

Ayədə mütəşabeh ayələrin yozumunun, son məqsəd və mənasının olduğu qeyd edilmişdir. Yəni Quranda sirləri və dərin mənaları olan ayələr var. Ancaq azğın fikirli və pis niyyətli insanlar onları səhv yozur, özlərini və başqalarını aldatmaq üçün bu yozumlara əsaslanırlar. Bu ayənin nazilolma səbəbi ilə bağlı bir hədis nəql etmişlər. Həmin hədisin məzmunu belədir: Peyğəmbərin (s) yanına gəlmiş bir qrup yəhudi müqəttəə hərfləri olan “Əlif, Ləm, Mim” hərflərini əsas götürərək dedilər: “Əbcəd hesabı ilə “Əlif” 1-ə, “Ləm” 30-a, “Mim” isə 40-a bərabərdir. Nəticədə, bu hesabla sənin ümmətinin ömrü 71 ildən artıq olmayacaq.” Peyğəmbər (s) bu yanlış düşüncənin qarşısını almaq üçün buyurdu: “Siz nə üçün təkcə “Əlif, Ləm, Mim”-i hesablayırsınız? Məgər Quranda “Əlif, Ləm, Mim, Sad”, “Əlif, Ləm, Ra” və sair kimi müqəttəə hərfləri yoxdur? Nə üçün hamısını hesablamırsınız?” Həmin mübahisədən sonra bu ayə nazil oldu. Ayənin sonunda mütəşabeh ayələrin mənasının yalnız Allah, sabit və qətiyyətli bilgiyə malik olan şəxlslərə məlum olduğu qeyd edildi. Çoxlu sayda hədislərdə “sabit və qətiyyətli bilgiyə malik olan şəxslər” deyilərkən Peyğəmbər (s) və məsum imamların nəzərdə tutulduğu, mütəşabeh ayələrin rəmzi mənalarını və sirlərini yalnız onların bildiyi qeyd edilmişdir. İmam Sadiqə (ə) aid olan bir hədisdə belə qeyd eidlmişdir: “Sabit və qətiyyətli bilgiyə malik olanlar bizik. Biz mütəşabeh ayələrin yozumunu bilirik.”

Burada bir məsələyə də aydınlıq gətirilməsi yerinə düşər. Sual oluna bilər ki, nə üçün Quranın ayələrinin bir hissəsi mütəşabehdir? Bu suala iki mühüm cavab verilmişdir: 1. İnsanların istifadə etdikləri söz və ifadələr onların gündəlik ehtiyacalrını ödəmək üçün yaradılmışdır. Adi həyat çərçivəsindən çıxdıqda bu sözlər öz mənalarını itirir. Məsələn, dünyanın

sonsuz Rəbbindən söz düşdükdə sözlərin yetərsizliyi daha aydın şəkildə hiss olunur. Mütəşabeh ayələrin bir hissəsinin anlaşılmazlığı bu yetərsizliklə bağlıdır. Məsələn, "Allahın əli onların əllərinin üstündədir" ayəsinin mənası möhkəm ayələr vasitəsilə məlum olur. 2. Mütəşabeh ayələrin olması insanların Peyğəmbərə (s) və həqiqi xəlifələrə olan ehtyaclarını daha yaxşı şəkildə göstərir. Bu, elmi ehtiyacdan irəli gələrək insanların onlara müraciət etməsinə və onları rəsmən tanımalarına səbəb olur[225].

10. Nə sərvətləri, nə də övladları kafirləri Allahın (əzabından) xilas edə bilməz. Onlar Cəhənnəmin yanacağıdırlar.

11. (Onların həqiqətləri inkar və təhrif etmədəki adətləri) Firon nəslinin və onlardan əvvəlkilərin adətinə bənzəyir. Onlar Bizim ayələrimizi yalan hesab etdilər, Allah da onları günahlarına görə yaxaladı. Allah şiddətli cəza verəndir.

12. Kafirlərə de: "(Ühüd döyüşündəki müvəqqəti qələbənizə görə sevinməyin) Tezliklə məğlub olacaq, sonra (Qyamətdə) Cəhənnəmə doğru toplanılacaqsınız! Ora nə pis yerdir!"

13. (Bədr döyüşündə) Qarşı-qarşıya gələn iki dəstədə sizin üçün bir əlamət (ibrət dərsi) var idi. Dəstələrdən biri Allah yolunda vuruşurdu, digəri isə kafirlər idi (Şeytan və büt yolunda idi). Kafirlər onların "möminlərin" sayca iki qat artıq olduqlarını öz gözləri ilə görürdülər (Bu isə onların qorxuya düşməsinə və məğlubiyyətə uğramasına səbəb oldu). Allah istədiyi (layiq gördüyü) kəsi Öz köməyi ilə qüvvətləndirir. Bunda bəsirət sahibləri üçün bir ibrət vardır.

---

[225] Nümunədən iqtibas, c.2, səh.430; Ətyəbül-bəyan, c.3, səh.112

14. Qadınlar, uşaqlar, yığın-yığın qızıl-gümüş, yaxşı cins atlar, mal-qara və əkin yerləri kimi maddi vasitələrə qarşı sevgi (imtahan və tərbiyə olunmaları üçün) insanların gözünə gözəl göstərilmişdir. (Amma) Bunlar (insanın son məqsədinə çevriləcəkləri təqdirdə), aşağı həyat sərmayəsidir, gözəl sonluq (yüksək və əbədi həyat) Allah dərgahındadır.

15. De: "Sizə bundan (maddi sərmayələrdən) daha yaxşısı barədə xəbər verimmi? Allahdan qorxanlar üçün Rəbləri yanında (ağacları) altından çaylar axan, içində əbədi qalacaqları bağlar, pak zövcələr və Allahın rizası vardır". Allah qullarının (əməllərini) görür.

---

12. Quranda kafirlərin məğlub olacağı öncədən xəbər verilmişdir: Bu ayənin nazilolma səbəbindən bəhs edən rəvayətlərdə qeyd edilir ki, müsəlmanların Bədr döyüşündəki qələbəsindən sonra bir qrup yəhudi dedi: "Bizim öz dini kitablarımızda haqqında məlumat verilən, heç bir döyüşdə məğlub olmayan ümmi (təhsil görməmiş) peyğəmbər həmin peyğəmbərdir." Başqa bir dəstə dedi: "Tələsməyin, başqa bir döyüş olar, o zaman bu haqda danışarıq." Müsəlmanların zahiri məğlubiyyəti ilə nəticələnən Ühud döyüşü baş verdikdən sonra dedilər: "Yox, And olsun Allaha, bizim kitabımızda müjdə verilən peyğəmbər bu deyil" Bu hadisədən sonra İslamı qəbul etməməklə yanaşı Peyğəmbərə (s) və müsəlmanlara qarşı olan kin-küdurətləri daha da artdı. Hətta müsəlmanlara hücum etməməklə bağlı Peyğəmbərlə (s) bağladıqları müqaviləni razılaşdırılmış müddət başa çatmazdan əvvəl pozdular. Kəb ibn Əşrəfin müşayiəti ilə altmış süvari Məkkəyə yollandı. Məkkədə müsəlmanlara qarşı birgə mübarizə aparmaq haqqında razılığa gəlib Mədinəyə geri döndülər. Bu ərəfədə Ali-İmran surəsinin 12-ci ayəsi nazil oldu. Ayədə onlara nəticəni işin sonunda hesablamaq tövsyyəsi və tezliklə məğlub olacaqları xəbəri verildi. Nəzərə

almalıyıq ki, bu ayə Ühüd döyüşündən sonra məğlubiyyətə uğramış müsəlmanların malik olduqları qüdrət və nüfuzlarını zahirən itirməsindən, İslam düşmənlərinin koalisiya haqqında razılığa gəlməsi, güc və qüdrət əldə etməsindən sonra nazil olub. Deməli, müsəlmanların yaxın gələcəkdə qələbə çalacağını öncədən açıq şəkildə xəbər verdiyi üçün onu Quranın möcüzə ayələrindən hesab etmək olar. Çünki burada öncədən açıq şəkildə verilmiş xəbər tam şəkildə reallaşmış və müsəlmanlar on ildən az bir müddətdə istər əhdini pozan yəhudilər olsun, istərsə də müşriklər, bütün düşmənlərini məğlub etmişlər[226].

13. Bədr müharibəsində azsaylı müsəlmanların Allahın yardımı ilə qələbə çalması: Bu ayədə Bədr müharibəsinin keyfiyyətindən danışılır. Təfsirçilərin yazdığına görə, Bədr döyüşündə müəslmanların sayı 313 nəfər olmuşdur. Onların 77 nəfəri mühacir, 236 nəfəri isə ənsarlardan olmuşdur. Mühacirlərin bayraqdarı Əli (ə), ənsarların bayraqdarı isə Səd ibn Əbbad olmuşdur. Bu böyük döyüşə müsəlmanlar yetmiş dəvə, iki at, altı zireh, səkkiz qılıncla getmişdilər. Halbuki sayı mindən çox olan düşmən qoşununun kifayət qədər silah-sursatı və yüz atı olmuşdur. Həmin döyüşdə iyirmi iki şəhid (14 nəfər mühacir, 8 nəfər ənsar) verən müsəlman qoşunu düşmən üzərində qələbə çalmışdır. Düşmən tərəfdən yetmiş nəfər ölmüş, yetmiş nəfər əsir alınmışdır. Müsəlmanlar tam qələbə ilə Mədinəyə geri dönmüşdülər. Ayədə Allahın Bədrdə möminlərə göstərdiyi qeyb yardımlarının cüzi bir hissəsindən xəbər verilmişdir. Ayədə qeyd edilir ki, müşriklərin gözündə möminlərin sayı olduqlarından iki dəfə artıq görünmüşdür. Yəni möminlərin sayı 313 nəfər olduğu halda, müşriklərin gözündə 600 nəfərdən çox görünmüşdür. Bu ilahi yardım onlarda qorxu

---

[226] Nümunə, c.2, səh.449

hissini artırmış və məğlubiyyətlərində rol oynamışdır. Halbuki döyüş başlamazdan əvvəl bunun əksi baş vermişdir. Onlar müsəlmanlara təhqiramiz nəzərlərlə baxdıqları üçün saylarının göründüklərindən az olduğunu güman etmişdilər. Başqa sözlə desək, döyüş başlamazdan əvvəl Allah müsəlmanların sayını düşmənlərin gözündə olduqlarından az göstərmişdir. Bundan qürurlanan düşmən döyüşə girmiş, döyüş başqladıdan sonra isə Allah müsəlmanların sayını düşmənlərin gözündə çox göstərməklə onları qorxuya salmış, nətcədə, məğlub olmalarına zəmin yaratmışdır. Digər tərəfdən isə Allah döyüş ruhiyyələrini, əzmkralıqlarını və güclərini artırmaq üçün düşmənlərin sayını müsəlmanların gözündə az göstərmişdir. "Ənfal" surəsinin 44-cü ayəsində bu məsələyə işarə edilmişdir: ***"Döyüş meydanında düşmənlə üz-üzə gəldiyiniz zaman Allahın olacaq işi yerinə yetirmək üçün (döyüş ruhiyyənizin zəifləməməsi üçün) onları sizin gözünüzdə (sayca) az göstərdiyi, (məğlubiyyətləri ilə nəticələnəcək döyüşdən imtina etməmələri üçün) sizi də onların gözündə azaltdığı vaxtı xatırlayın..."***[227]

[227] Nümunə, c.2, səh.452

16. “Ey Rəbbimiz! Biz iman gətirdik, bizim günahlarımızı bağışla və bizi Od əzabından qoru!”– deyənlər -

17. (çətnliklər qarşısında, itaət və günahı tərk etmək yolunda) əzmkarlıq göstərən, doğru danışan, (Allaha) müti olan, (malından Allah yolunda) xərcləyən və sübh vaxtı bağışlanma diləyən kimsələrdir.

18. Bütün işləri haqq-ədalətə əsaslanan Allah (yaranış aləmində vahid sistem yaratmaqla) Özündən başqa heç bir məbud olmadığına şahidlik edir. Mələklər, elm sahibləri də (buna ayrı-ayrı şəkillərdə) şahidlik edirlər. Ondan başqa ibadətə layiq heç bir varlıq yoxdur, həm qüdrət, həm də hikmət sahibidir.

19. Allah dərgahında din İslamdır (Haqq qarşısında təslim olmaq). Səmavi kitab verilənlər yalnız bildikdən və xəbərdar olduqdan sonra aralarındakı zülm və həsəd üzündən ixtilafa düşdülər. Kim Allahın ayələrini inkar edərsə, (bilsin ki, Allah onu sorğuya çəkəcək. Çünki) Allah dərhal haqq-hesab çəkəndir.

20. Əgər sənlə mübahisəyə qalxsalar, (onlarla mübahisə etmə,) de: “Mən və ardıcıllarım, özümüzü Allaha təslim etmişik!” Kitab göndərilmişlərə (yəhudi və xristian) və savadsızlara (müşriklərə) isə de: “Siz də təslim olursunuzmu?” Əgər (Haqqın fərmanı və məntiqi qarşısında) təslim olsalar, doğru yola yönəlmiş olarlar. Üz döndərsələr, (narahat olma, çünki) sənin öhdənə düşən ancaq təbliğ etməkdir. Allah bəndələrini görür.

21. Allahın ayələrini inkar edənləri, peyğəmbərləri haqsız yerə qətlə yetirənləri və ədalətə çağıran insanları öldürənlərə şiddətli əzab veriləcəyini xəbər ver.

22. Onların əməlləri (bu böyük günahlarına görə) həm bu dünyada, həm də axirətdə puça çıxacaq, yardımçıları (şəfaətçiləri) olmayacaqdır.

---

17. Sübh vaxtı bağışlanma diləmək: Məsumların (ə) hədislərinə əsasən “sübh vaxtı bağışlanma diləmək” deyilərkən gecə namazı və onun sonuncu qunutda (gecə namazının sonuncusu bir rükətli vitr namazı) dilənən bağışlanma nəzərdə tutulur. İmam Sadiq (ə) buyurmuşdur: “Hər kəs bir il vitr namazında ayaq üstə durmuş vəziyyətdə “Əstəğfirullahə rəbbi və ətubu iləyh” desə, Allah-taala onu sübh vaxtı bağışlanma diləyən”lərdən edər və Allahın onu bağışlaması qaçılmaz olar.”[228]

19. Bütün dinlərin ruhu: Allah-taala bu ayədə buyurur ki, zamanından asılı olmayaraq, dinin ruhu Allah və onun göstərişləri qarşısında təslim olmaqdan ibarətdir. İslam peyğəmbərinin (s) dini təslimolmanın ən ali və kamil nümunəsi olduğu üçün İslam adlandırılmışdır. Kəlamlarının birində möminlərin əmiri İmam Əli (ə) İslamın həqiqətini belə izah etmişdir: “İmam Əli (ə): “İslamın həqiqəti Haqq qarşısında təslim olmaqdır. Təslim olmaq isə yəqin olmadan mümkün deyil (yəqinsiz təslim başa düşərək deyil, kor-koranə təslimdir). Yəqin təsdiqlə (təkcə bilmək kifayət etmir, qəlbən inanmaq və təsdiq etmək də şərtdir), təsdiq etirafla (inam və imanın təkcə qəlbdə və ruhda olması da yetərli sayılmır, onu cəsarətlə izhar etmək də lazımdır), etiraf məsulyyət və öhdəliklə (etiraf təkcə sözlü ifadə deyil, məsuliyyət qəbul etmək və öhdəlik götürməkdir), məsuliyyət və öhdəlik əməl etməklə (Allahın fərmanını yerinə yetirmək və ilahi proqramları icra etmək) şərtlənir.” Deməli, öhdəlik və məsuliyyət əməllə şərtlənir. Güclərini yalnız danışıqlara, layihələrə, iclaslara və bu kimi işlərə sərf edənlərin işi yalnız danışmaqdan ibarətdir. Onlar nə öhdəlik və məsuliyyət qəbul ediblər,

[228] Əl-Mizan, c.3, səh.137

nə də İslamın ruhundan xəbərdardırlar. Bu, bütün aspektlərdən İslamla bağlı qeyd edilmiş ən parlaq izahdır[229].

22. Həbt və təkfir (püç etmə və silmə): Ayədə Allahın ayələrini inkar edənlərin, peyğəmbərləri haqsız yerə öldürənlərin və ədalətə çağıran insanları qətlə yetirənlərin əməllərinin Axirətdə puç olacağı buyurulmuşdur. Bu iki ifadəyə Quranın çox yerində rast gəlinir. "Həbt" sözünün mənası keyfiyyətini itirmək, puç olmaq deməkdir. "Təkfir" "həbt" sözünün antonimidir. "Təkfir", yəni yaxşı işlərə görə cəza verilməməsi, keçmiş günahların təsirinin aradan qaldırılması. Bunu belə izah edirlər: Bəzən insan uzun illər zəhmət çəkir və çətinliklə külli miqdarda sərvət toplayır, amma cəhalət və ehtras üzündən onu itirir. Yəni keçmiş yaxşılıqların hamısı puç olur. Bəzən insan çoxlu səhvlərə yol verir, amma ağıllı və hesablanmış bir davranışla bütün səhvlərinin üstündən xətt çəkdirir. Buna səhvlərin bağışlanılması və günühların silinməsi deyilir. Mənəvi məsələlərdə də bu belədir[230].

[229] Nümunə, c.2, səh.471
[230] Nümunə, c.2, səh.113

23. Aralarında hökm verlməsi üçün (Səmavi) kitabda payı olan şəxslərin Allah kitabına tərəf dəvət olunduqlarını, sonra bir dəstəsinin (haqqı qəbul etməkdən) imtina edərək üz çevirdiyini görmədinmi?

24. Bu, onların: “Od bizə ancaq bir neçə gün toxunar! (digər xalqlardan üstün olduğumuz üçün bizim cəzamız çox az olacaq)”– demələrinə görədir. (Allaha atdıqları) bu iftira onların öz dinləri ilə öyünməsinə səbəb oldu (nəticədə, günahlar törətdilər).

25. Elə isə onları (baş verəcəyi ilə bağlı heç bir) şək-şübhə olmayan, hər kəsə qazandığının əvəzi ödəniləcəyi, heç bir haqsızlıq edilməyəcəyi gün (Qiyamət günü) topladıqda (onların halı) necə olacaq?

26. De: “Ey mülklərin maliki olan Allah! Sən istədiyin şəxsə hakimiyyət verir, istədiyindən də geri alırsan; istədiyini ucaldır, istədiyini də xar edirsən. Bütün xeyirlər Sənin əlindədir. Sən hər şeyə qadirsən.

27. Sən gecəni gündüzə, gündüzü isə gecəyə daxil edirsən; ölüdən diri, diridən isə ölü çıxarırsan. Sən istədiyin kəsə hesabsız ruzi verirsən”.

28. Möminlər möminləri qoyub kafirləri özlərinə dost və hami seçməsinlər! Belə edən şəxsin Allahla heç bir əlaqəsi yoxdur (Onun Allahla olan əlaqəsi tamamilə kəsilər). Ancaq onlardan ehtiyat etməyiniz (daha mühüm hədəflər üçün təqiyyə etməyiniz) istisnadır. Allah sizi Özündən (Ona itaətsizlik göstərməkdən) çəkindirir. Dönüş yalnız Allahadır.

29. De: “Kökslərinizdə olanı gizlətsəniz də, üzə çıxarsanız da, Allah onu bilir. O, göylərdə və yerdə olanları da bilir. Allah hər şeyə qadirdir.

---

27. Ölüdən diri, diridən isə ölü çıxarmaq: “Ölüdən diri çıxarmaq” deyilərkən həyatın cansız varlıqlardan yaranması nəzərdə tutulur. Bilirik ki, yer kürəsi həyatı qəbul etməyə hazır olduğu vaxt canlı varlıqlar cansız maddələrdən yaradıldılar. Bundan əlavə, bizim və kainatın bütün canlı varlıqlarının bədənində cansız maddələr hüceyrələrin tərkibində davamlı olaraq canlı varlığa çevrilirlər. Canlı varlıqların ölməsi isə hər zaman gözlərimiz önündə baş verən hadisədir. Bu ayənin təfsiri kontekstində daha üstün məna da qeyd edilmişdir. Həmin izah mənəvi həyat və ölümlə bağlıdır. Belə ki, bəzən həqiqi ölülər hesab edilən imansız insanlardan həqiqi həyat sahibi olan imanlı şəxslər törəyir, bəzən isə əksinə olur. Quranın bir çox ayəsində küfr və iman mənəvi ölüm və həyat kimi izah edilmişdir. Əhli-beyt (ə) hədisləri də bunu təsdiq edir[231].

---

[231] Nümunə, c.2, səh.495-496

28. Təqiyyə: Təqiyyə Quran və hədislərə əsasən icazə verilmiş, ağılla da qəbul edilən davranışlardandır. Belə ki, insan düşmənin qorxusundan zahirdə onunla həmrəy və həmfikir ola bilər. Çünki Allah-taala yalnız haqqın yaşamasını və ona yeni can bəxş etmək istəyir. Təqiyyə və zahirdə düşmənin istəyinə uyğun şəkildə davranmaq çox vaxt dinin maraqlarının qorunmasında təqiyyənin tərk edilməsindən və nəticədə qətllə nəticələnən davranışdan daha çox rol oynayır. Bu ayədə xüsusi şəraitlərdə təqiyyəyə əməl edilməsinə icazə verilmişdir. Təqiyyə ilə bağlı çoxlu sayda hədis də nəql edilmişdir. Peyğəmbər (s) buyurmuşdur: ***"Təqiyyəsi olmayanın dini yoxdur"***. İmam Baqir (ə) buyurmuşdur: ***"İnsan istər-istəməz hər şeydə təqiyyə etmək məcburiyyətində qalır. Buna görə də Allah təqiyyəni halal buyurmuşdur."***[232] Amma burada nəzərə alınması mühüm olan nüans budur ki, təqiyyə hər yerdə də eyni hökmə malik deyil. Bəzən vacib, bəzən halal, bəzən isə haramdır. Təqiyyə insanın canının heç bir faydası olmadan təhlükəyə düşdüyü şəraitdə vacibdir. Batil və fəsadın yayıldığı, insanların haqq yoldan sapdığı, zülm və haqsızlığın gücləndiyi şəraitdə təqiyyə haram və qadağandır[233]. Daha ətraflı məlumat almaq üçün "Nəhl" surəsinin 106-cı ayəsinə müraciət edin.

[232] Əl-Mizan, c.3, səh.177-188
[233] Nümunə, s.2. səh.501

30. Hər kəs etdiyi yaxşı və pis əməlləri (qarşısında) hazır görəcəyi gün özü ilə pis əməlləri arasında çox böyük zaman fasiləsi olmasını arzulayacaq. Allah sizi Özündən (Özünə qarşı itaətsizlik göstərməkdən) çəkindirir. Allah bütün bəndələrinə qarşı mehribandır.

31. De: "Əgər Allahı sevirsinizsə, mənə tabe olun ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir".

32. De: "Allaha və elçi(sinə) itaət edin!" Əgər boyun qaçırsalar, şübhəsiz ki, Allah kafirləri sevməz.

33. Allah Adəmi, Nuhu, İbrahimin nəslini və İmranın ailəsini aləmlərdən üstün etdi.

34. Onlar (təmizlik, təqva və fəzilət baxımından) biri digərindən törəmiş övladlar (nəsil) idilər. Allah Eşidəndir, Biləndir (Onların öz peyğəmbərlik missiyası yolunda göstərdkləri səylərdən xəbərdardır).

35. (Xatırlayın) Bir zaman İmranın zövcəsi demişdi: "Ey Rəbbim! Mən bətnimdəkini Sənə xidmətçi olması üçün nəzir edirəm. (Bu nəziri) məndən qəbul et! Sən eşidənsən, bilənsən!".

36. Onu dünyaya gətirdikdən sonra (qız olduğunu görüb) demişdi: "Ey Rəbbim! Mənim qızım oldu. (Allah onun dünyaya nə gətirdiyini daha yaxşı bilirdi). Oğlan qız kimi deyil (Qız məbəddə oğlan kimi xidmətçilik edə bilməz). Mən onun adını Məryəm qoydum, onu və onun nəslini qovulmuş Şeytandan (qorunmağı) Sənə həvalə edirəm".

37. Rəbbi onu (Məryəmi) yaxşı və layiqli şəkildə qəbul etdi, onu gözəl bir fidan kimi yetişdirdi (bəslədi) və onu müdafiə etməy Zəkəriyyaya tapşırdı. Zəkəriyya hər dəfə (Məryəmin) ibadət etdiyi mehraba girdikdə orada xüsusi bir yemək olduğunu görərdi. Ondan "Məryəm, bunu haradan gətirmisən?" – deyə soruşduqda o: "Bu, Allah tərəfindəndir! Allah istədiyi

şəxsə syasız-hesabsız (və ya heç bir sorğu-sulasız) ruzi verər.” - deyə cavab verərdi.

---

30. Əməllərin təcəssümü: Quranın bu və başqa ayələrində Qyamətdə insanın yaxşı və pis əməllərinin hər birinin bir formada təcəssüm edəcəyi və məhşərdə hazır olacağı qeyd edilir. “təcidu” sözü “vicdan” sözündən yaranmış, mənası tapmaq deməkdir. Yəni hər kəs Qiyamətdə öz əməllərini tapacaq və özü ilə pis əməlləri arasında çox böyük fasilə yaranmasını arzu edəcək. Çoxlu sayda ayə bu həqiqəti təsdiq edir. “Kəhf” surəsinin 49-cu ayəsində Qiyamət günü günahkarın bütün keçmiş əməllərini qarşısında hazır görəcəyi qeyd edilmişdir. “Zilzal” surəsinin 7-ci və 8-ci ayələrində belə buyurulmuşdur: ***“Kim zərrə qədər yaxşılıq etsə, onu görər. Kim zərrə qədər pislik etsə, onu görər.”*** Buna görə də Qiyamət günü insan özü yaxşı və ya pis əməlini tapacaq. Çoxlu sayda hədis də bu məzmunu təsdiq edir. Peyğəmbər (s) ondan nəsihət etməsini istəyən bir şəxsə belə buyurmuşdur: “Ey Qeys, bir dostun var ki, mütləq sənin lə birlikdə dəfn olunacaq. Sən ölü olduğun halda o diridir. Əgər o yaxşı və xeyirli olsa, sənə yaxşılıq edəcək, yox əgər pis olsa, səni (dəhşətli hadisələrə) təslim edəcək. Sonra o yalnız sənin lə qaldırılacaq. Sən də Qiyamət səhnəsinə yalnız onunla gələcəksən. Səndən onun haqqında soruşulacaq. Buna görə də onu layiqli yerinə yetir. Çünki layiqli olsa, onunla ünsiyyətdə olarsan, əks təqdirdə, yalnız ondan qorxacaqsan. O sənin əməlindir.”[234] İmam Sadiq (ə) belə buyurmuşdur: ***“Ölü qəbrə qoyulduqdan sonra qarşısında bir şəxs peyda olar və ona deyər: Ey insan, biz üç nəfər idik, biri sənin ölümünlə sona yetən ruzin;***

[234] Nümunə, c.2, səh.504

digəri səni qoyub gedən ailən, üçüncüsü mənəm – səninlə qalan sənin əməlin. Amma sənin nəzərində o ikisindən ən az dəyərlisi mən idim."[235]

33. Əhli-beytin (ə) üstünlüyü: Əllamə Təbatəbai hesab edir ki, "İbrahimin ailəsi" deyilərkən nəsil şəcərəsi İsmail (ə) vasitəsilə İbrahim-Xəlilə (ə) çatan məsumlar nəzərdə tutulur. Onlar İslam peyğəmbərinin (s) məsum övladlarıdırlar. İmam Rza (ə) ilə Məmunun dialoqunu əks etdirən bir rəvayətdə belə qeyd edilir: *"Məmun soruşdu:*

- Allah Peyğəmbərin (s) qohumlarını başqalarından üstün tutubmu?

İmam (ə) buyurdu:

- Allah qohumların digər insanlardan üstün olduğunu Quran ayələrində buyurmuşdur."

Məmun dedi:

- Quranın harasında?

İmam Rza (ə) buyurdu:

- "Allah Adəmi, Nuhu, İbrahimin nəslini və İmranın ələsini aləmlərdən üstün etdi." ayəsində."[236]

33. İmranın ailəsi: İmran həzrət Məryəmin (ə) atasının adıdır. İmranın ailəsi deyilərkən bu ayədə həzrət Məryəm (ə) və həzrət İsa (ə) və ya hər ikisi və İmranın həyat yoldaşı nəzərdə tutulur[237].

36. Abid və ibadət edən qadın: "Məryəm" sözünün mənası ibadət edən və xidmətçi qadın deməkdir. Uşağını dünyaya gətirdikdən sonra ananın bu adı seçməsi bu imanlı ananın övladını Allaha ibadət və bəndəçilik yoluna vəqf etməsinə çox böyük sevgisi olduğunu göstərir[238].

---

[235] Quranın ismarışı, c.6, səh.136
[236] Əl-Mizan, c.3, səh.191 və 194
[237] Əl-Mizan, c.3, səh.193
[238] Nümunə, c.2, səh.526

38. Elə oradaca (Məryəmdəki ləyaqəti gördükdən sonra) Zəkəriyya Rəbbini çağıraraq dedi: “Ey Rəbbim! Öz tərəfindən mənə (də) pak bir övlad bəxş et! Sən duaları Eşidənsən”.

39. O, mehrabda durub namaz qılarkən mələklər onu çağırdılar: “Allah səni Yəhya ilə - Allahın Kəlməsini (İsanı) təsdiq edən, rəhbər olacaq, üsyankar nəfsinə hakim və əməlisalehlərdən olacaq bir peyğəmbərlə müjdələyir”.

40. O dedi: “Ey Rəbbim! Qocalıq məni haqladığı, zövcəm də sonsuz olduğu halda mənim övladımın olması necə mümkündür?” (Allah) buyurdu: “Belədir, Allah hər istədiyini edər”.

41. (Zəkəriyya) dedi: “Ey Rəbbim! Mənim üçün bir əlamət təyin et”. (Allah) buyurdu: “Sənin əlamətin üç gün insanlarla ancaq işarə ilə danışmaq olacaq (dilin heç bir səbəb olmadan tutulacaq). (Bu böyük nemətə görə) Rəbbini çox yad et və səhər-axşam Ona təriflər de!”

42. (Xatırlayın) Bir zaman mələklər demişdilər: “Ey Məryəm! Allah səni seçmiş, təmizləmiş və dünyanın bütün qadınlarından üstün etmişdi.

43. Ey Məryəm! (bu nemətə görə) Rəbbinə itaət göstər, səcdə et və rükuya gedənlərlə birlikdə rükuya get!”

44. Bunlar qeyb xəbərlərindəndir ki, onu sənə vəhy edirik. Məryəmi kimin himayəyə götürəcəyini müəyyən etmək üçün qələmlərini suya (püşk) atdıqları zaman, həmçinin (Bəni-İsrail alimlərinin səni himayə etmək şərəfinə nail olmaq üçün) bir-birilərilə mübahisə etdikləri zaman sən onların yanında deyildin.

45. (Xatırlayın) Bir zaman mələklər demişdilər: “Ey Məryəm! Allah səni Öz tərəfindən, adı Məryəm oğlu İsa Məsih olan bir kəlimə (əzəmətli varlıq) ilə müjdələyir. O, bu dünyada və axirətdə şan-şöhrətli və (Allaha) yaxınlaşdırılmışlardan olacaqdır.

-

39. Mehrab Şeytan və üsyankar nəfslə müharibə və mübarizə məkanıdır: Məsciddə camaat imamının durduğu yerə mehrab deyilir. Bütün məscidə də mehrab deyilir. Bu söz mənası döyüşmək, müharbə aparmaq olan “hərb” sözündən düzəlmişdir. Çünki mömin insan namaz qılıb Allaha ibadət edərkən Şeytan və üsyankar nəfslə müharibə aparır. Ehtimal ki, bu ayədə “mehrab” deyilərkən bütün məscid nəzərdə tutulmuşdur[239]. Bu və bir çox digər ayələrə əsasən bütün səmavi dinlərdə namaz olmuşdur[240].

42. Öz dövrünün ən üstün xanımı: Bu ayədə “stafə~ki” (səni seçdi) sözü iki dəfə təkrar edilmişdir. Qeyd olunan sözün işləndiyi birinci cümlə onun qeyd-şərtsiz seçilmiş olduğunu ifadə edir. Yəni Allah-taala Məryəmi

---

[239] Quran qamusu, c.2, səh.115
[240] Ətyəbül-bəyan, c.3, səh.187

(ə) Ona ibadət etməsi və bəndə olması üçün seçmişdir. İkinci cümlə isə onun bütün qadınlar arasından seçildiyini ifadə edir. Bu ayə Məryəmin (ə) öz dövrünün bütün xanımları arasından seçildiyini göstərir. Bu da o deməkdir ki, Məryəm öz dövrünün ən böyük şəxsiyyəti olmuşdur. Bu məsələ İslamın böyük xanımı Fatimeyi-Zəhranın (ə) dünyanın ən üstün xanımı olması gerçəyi ilə təzad təşkil etmir. Çünki İslam peyğəmbərinə (s) istinad edilən bir hədisdə mələklərin həzrət Zəhraya (ə) xitabən belə dedikləri qeyd edilmişdir: ***"Məryəm öz dövrünün üstün xanımı idi. Allah səni həm öz dövrünün, həm Məryəmin dövrünün, həm əvvəlin, həm də sonranın xanımlarının xanımı etdi."***[241]

45. Allahın kəliməsi: "Kəlmə" insanı müəyyən bir məzmun və mənaya yönləndirir. Bu mənada bütün məxluqat Allahın kəlməsidir. Çünki bizi yaradıcıya doğru yönləndirir. "Kəhf" surəsinin 109-cu ayəsində belə buyurulmuşdur: ***De: "Əgər Rəbbimin sözlərini yazmaq üçün dəryalar mürəkkəb olsaydı və bir o qədər də ona əlavə etsəydik, yenə də Rəbbimin sözləri tükənmədən öncə onlar tükənərdi!"*** Təfsirçilər hesab edirlər ki, "Allahın kəlmələri" deyilərkən Onun yaratdıqları nəzərdə tutulur. Yaranmışlar arasında mürəkkəbliyi və yaranış əzəməti ilə seçilən insan Allahın varlığını daha yaxşı dərk etdirir. Digər insanlarla müqayisədə Allahın varlığını insanlara peyğəmbər və imamlar (əleyhimissalam) daha yaxşı başa salır. Buna görə də hədislərdə məsumlar (ə) Allahın kəlamı adlandırılmışlar. "Ali-İmran" surəsinin 45-ci ayəsində İsa (ə) Allahın kəlməsi kimi təqdim edilmişdir. Çünki onun dünyaya gəliş forması, beşikdə

---

[241] Nümunə, c.2, səh.542

danışmaq, ölüləri diriltməsi, anadangəlmə korlara şəfa verməsi və sair kimi möcüzələri insanları elmli və qüdrətli Allahın varlığına doğru yönləndirir[242].

[242] Nümunə, c.2, səh.548; Ətyəbül-bəyan, c.3, səh.199

46. O, beşikdə və yaşa dolduqdan sonra insanlarla danışacaq və layiqli insanlardan olacaqdır”.

47. (Məryəm:) “Ey Rəbbim! Mənə heç bir insan toxunmadığı halda, necə uşağım ola bilər?” – dedikdə, (Allah) buyurdu: “Belədir, Allah hər istədiyini yaradır. O, bir işin əmələ gəlməsini qərara aldıqda, ona ancaq “Ol!” deyər, o da dərhal olar.

48. Ona yazmağı, hikməti, Tövratı və İncili öyrədəcək.

49. Və (onu) İsrail övladına peyğəmbər göndərəcək. (İsa onlara deyəcək:) “Mən, Rəbbiniz tərəfindən sizə möcüzə gətirmişəm. Palçıqdan quşa bənzər bir surət düzəldib ona üfürərəm, o da Allahın əmri ilə quş olar. Allahın iznilə anadangəlmə korları, cüzam xəstəliyinə tutulanları sağaldar və Allahın iznilə ölüləri dirildərəm. Mən yediyiniz və evlərinizdə yığıb saxladığınız şeylərdən də sizə xəbər verərəm. Əgər imanınız olsa, heç şübhəsiz, bunlarda sizin üçün bir dəlil vardır.

50. Məndən əvvəl göndərilmiş Tövratı təsdiq edirəm. (Etdiyiniz zülm və günah nəticəsində) sizə haram edilmiş şeyləri (bəzi heyvanların və balıqların ətini) halal etmək üçün gəlmişəm. Sizə Rəbbiniz tərəfindən bir möcüzə gətirmişəm. İndi Allahdan qorxun və mənə itaət edin!

51. Allah mənim də Rəbbimdir, sizin də. Ona ibadət edin! Budur doğru yol!

52. İsa onların küfrünü (qarşı çıxdıqlarını) hiss etdikdə: “Allah yolunda (Onun dininin təbliğində) kim mənim köməkçim olacaq?” - deyə

soruşdu. Həvarilər dedilər: “Biz Allahın köməkçiləriyik! Allaha iman gətirmişik. Sən də şahid ol ki, biz müsəlman olmuşuq!”

---

46. İsanın (ə) yetkinlik yaşında danışması: “Məhd” Azərbaycan dilində təqribən beşik sözünün ekvivalentidir. Ərəb dilindəki “məhd” sözünün beşikdən fərqi onun ümumi məzmun daşıması və körpənin yatması və istirahət etməsi üçün nəzərdə tutulmuş hər bir vasitəyə şamil olur. “Məryəm” surəsindəki ayələrə əsasən həzrət İsa (ə) ilk körpəlik çağında danışmışdır. Normal vəziyyətdə mümkünsüz görünən bu hadisə özü böyük bir möcüzədir. Lakin insanın yetkinlik çağında danışması tamamilə normal bir hadisədir. Bu iki hadisənin bir ayə daxilində qeyd edilməsi ilə bəlkə də onun körpə vaxtı eynilə yetkinlik yaşında olduğu kimi, uşaqlara xas olan deyil, ölçülüb-biçilmiş, məzmunlu və əhəmiyyətli danışdığını çatdırmaq üçündür. Bundan əlavə, qeyd olunan ifadə İsanın (ə) ömrü ilə də bağlı öncəgörüyə işarə edə bilər. Bilirik ki, həzrət İsa (ə) dünya həyatında qocalıq dövrünü yaşamamışdır, 33 yaşında ikən Allah onu göylərə qaldırmışdır. Rəvayətlərə görə İsa (ə) İmam Mehdi (ə) zühur edən vaxt insanların arasına qayıdacaq, onlarla ömrünün əvvəlində olduğu kimi danışacaq[243].

47. Mövcudatın var edilməsi: “O, bir işin əmələ gəlməsini qərara aldıqda, ona ancaq “Ol!” deyər, o da dərhal olar”. Yəni nəyisə yaradarkən Allahın vasitələrə, hətta “mövcud ol” deməyə də ehtiyacı yoxdur. Bu cümlə Allahın qətiyyətli iradəsini ifadə edir. Belə ki, Allah nəyisə istəsə və ya onun yaranış fərmanını versə, dərhal meydana gəlir[244].

---

[243] Nümunə, c.2, səh.549
[244] Ətyəbül-bəyan, c.3, səh.202; Nümunə, c.2, səh.552

49. Obyektiv aləm üzərində hakimiyyət: Bu və oxşar ayələr göstərir ki, Allahın elçiləri və vəliləri Onun fərmanı və iznilə lazım gəldikdə obyektiv aləmə təsir göstərə, adi və təbii qanunlardan kənar davranışlar sərgiləyə bilirlər. "Sağaldıram", "ölüləri dirildirəm" və birinci şəxsin təkində işlənmiş bu qəbil feillər sözügedən hadisələrin birbaşa peyğəmbərlərin öz əli ilə həyata keçdiyini göstərir. Bu hadisələrin baş verməsində onların vəzifəsinin təkcə dua etməkdən ibarət olduğunu ifadə edən iddialar isə əsassızdır. Sözügedən ifadə formaları onların obyektiv aləmə təsir göstərdiyini və hadisələri birbaşa meydana gətirdiklərini deməyə əsas verir. Sadəcə peyğəmbər və övliyaların bu işləri müstəqil şəkildə görmələri, yaranış sistemindən kənar müstəqil bir sistemə sahib olmaları ilə bağlı təsəvvür yaranmaması, habelə şirk ehtimalının qarşısını almaq üçün ayələrdə Allahın izni və bu kimi ifadələrdən istifadə edilmişdir (bu ayədə iki dəfə, "Məryəm" surəsinin 110-cu ayəsində dörd dəfə). "Obyektiv aləm üzərində hökmranlıq" deyilərkən peyğəmbər və imamların (əleyhimissalam) lazım gəldikdə və zərurət yarandıqda Allahın izni və icazəsi ilə obyektiv aləmə təsir göstərməsi nəzərdə tutulur. Bu, qanuni rəhbərlik (insanları idarə etmək, qanunlar müəyyənləşdirmək, doğru yola dəvət və hidayət etmək) anlayışından daha yüksək olan bir mənadır. Deyilənlərdən Allah adamlarının obyektiv aləm üzərindəki hakimiyyətini inkar edən və bunu bir növ şirk hesab edən insanların şübhəsinə aydınlıq gəlir. Onlar hesab edirlər ki, peyğəmbərlərin işi yalnız hökmlərin təbliği və Allaha doğru çağırışla məhdudlaşır. Bəzi obyektiv hadisələrin baş verməsi üçün yalnız duadan stifadə edirlər, bundan artıq heç bir səlahiyyətə malik deyillər. Halbuki bu və başqa oxşar ayələr bunun əksini ifadə edir[245].

---

[245] Nümunə, c.2, səh.557

53. “Ey Rəbbimiz, nazil etdiyinə iman gətirdik və peyğəmbər(in)ə tabe olduq. Artıq bizləri şahid olanlar zümrəsinə yaz!”

54. (Yəhudilər və İsanın düşmənləri onu aradan götürmək və dininə son qoymaq üçün) plan cızdılar. Allah da (İsanı və dinini qorumaq üçün) tədbir gördü. Allah tədbir görənlərin ən yaxşısıdır.

55. (Xatırlayın!) O vaxt Allah İsaya buyurdu: “Ya İsa, Mən səni alıb Özümə doğru qaldırıram, səni kafirlərdən pak edirəm. Sənə tabe olanları Qiyamət gününə qədər kafirlərdən üstün edirəm. Sonra siz Mənim hüzuruma qayıdacaqsınız. İxtilaf etdiyiniz məsələ barəsində aranızda Mən hökm verəcəyəm!

56. Kafirlərə (Haqqı tanıdıqdan sonra onu inkar edənlər) gəldikdə, onlara dünyada və axirətdə ağır cəza verəcəyəm. Onların heç bir köməkçisi yoxdur!

57. İman gətirib yaxşı işlər görənlərə gəldikdə isə, (Allah) onların mükafatlarını tamamilə verəcəkdir. Allah zülm edənləri sevməz!”

58. Bu söylədiklərimiz (sənin haqq olduğunu ifadə edən) əlamətlərdəndir və hikmətli xatırlamadır.

59. Allah yanında İsa da Adəm kimidir. Allah onu (Adəmi) torpaqdan yaratdı. Sonra ona: “mövcud ol!” – dedi, o da oldu (Buna görə də İsanın atasız dünyaya gəlməsi onun Allah olmasına əsla dəlil ola bilməz.)

60. Bunlar sənin Rəbbin tərəfindən olan bir həqiqətdir. Buna görə də şübhə edənlərdən olma!

61. (İsa haqqında) sənə çatan məlumatdan sonra səninlə mübahisə edənlərə de: “Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü çağıraq! Sonra nifrin edib yalançılara Allahın lənət etməsini diləyək!”

---

53. Həvarilərin İsa Məsihin (ə) düzlüyünə şahidlik etməsi: Ayənin “Bizi şahidlər zümrəsinə yaz” cümləsini şərh edərkən təfsirçilər bldirirlər ki, həvarilər Allahın göndərdiyinə iman gətirib onu təsdiq etdikdən və Allahın əmrlərinə tabe olduqlarını elan etdikdən sonra İsanın (ə) Allah vəhyini tam

şəkildə çatdırdığına, özünün də ona əməl etdiyinə, onların öz peyğəmbərlərinin iman və əməlini özlərinə örnək götürdüyünə və ona tabe olduğuna şahidlik etdilər. Peyğəmbərlik iddiası edib Allahın əmrlərini doğru-düzgün çatdırmayan və ya ona əməl etməyən şəxs əməli olaraq özünün yalançı olduğunu təsdiq etmiş olur. Ancaq həvarilər İsanın (ə) Allah vəhyinin təbliği və ona əməl kontekstindəki düzgünlüyünü təsdiq etməklə onu özlərinin həqiqi rəhbəri hesab edib, fərmanına təslim oldular[246].

55. İsanın (ə) həyatda olması: Quran ayələri həzrət İsanın (ə) hal-hazırda da həyatda olduğunu, yaşadığını ifadə edir. Bu ayədə Allah "təvəffa" sözündən istifadə etmişdir. "Təvəffa" sözünün mənası götürmək, almaq deməkdir. Ölən adama "vəfat etdi" deyilməsinin səbəbi onun canının alınması ilə bağlıdır. Əlbəttə, bu ayədə "təvəffa" sözünün "öldürdü" mənası nəzərdə tutulmamışdır. "Təvəffa" deməklə Allah insanlara çatdırmaq istəyir ki, həzrət İsanı (ə) yəhudilərin arasından alıb götürdü, yəhudilərin əlindən xilas etdi[247] (Daha ətraflı məlumat üçün "Nisa" surəsinin 157-ci ayəsinə bax).

61. Mübahələ (qarşılıqlı nifrin) Əhli-beytin haqq olduğuna sübutdur: "Mübahələ" sözünün mənası qarşılıqlı nifrin etmə deməkdir. İmam Sadiqin (ə) bu ayənin izahı ilə bağlı buyurduğu bir hədisdə belə qeyd edilir: ***"Nəcran yəhudilərindən bir qrupu Peyğəmbərin (s) yanına gəlib ona dedi:***

- Nəyə çağırış edirsən?

Peyğəmbər (s) buyurdu:

- Sizi Allahdan başqa Allah olmadığına, mənim Allahın peyğəmbəri olduğuma, İsanın yaranmış və qidalanan bəndə olduğuna şahidlik etməyə çağırıram.

---

[246] Əl-mizan, c.3, səh.237
[247] Nümunə, c.2, səh.568; Əl-Mizan, c.3, səh.239

Uzun mübahisədən sonra bir qrup xristian haqqı - İsanın Allahın bəndəsi olduğunu qəbul etmək istəmədi. Həmin vaxt bu ayə nazil oldu. Peyğəmbər (s) onlara dedi: "Gəlin bir-birimzi nifrin edək. Əgər mən haqlı olsam, Allahın lənəti sizə olsun, yox əgər siz haqlı olsanız, Allahın lənəti mənə olsun." Onlar qəbul etdilər və sabahısı gün bir yerdə görüşüb bir-birlərini nifrin etmək qərarına gəldilər. Başçılarının yanına qayıtdıqdan sonra bu hadisəni ona danışdılar. Başçı dedi: "Əgər tayfasını gətirsə, peyğəmbər deyil, yox əgər təkcə ailəsini gətirsə, hökmən peyğəmbərdir." Ertəsi gün Peyğəmbər (s) Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseynlə (ə) birlikdə mübahələyə hazır oldu. Bu səhnəni görən xristianlar Peyğəmbərdən (s) mübahələdən əl çəkməsini, öz dinlərində qalmasına və Peyğəmbərə (s) cizyə ödəməyə icazə verməsini istədilər. Peyğəmbər (s) razılaşdı və onlar geri döndülər."[248] Rəvayət olunur ki, xristianların yepiskopu onlara deyirmiş: "Mən elə simalar görürəm ki, əgər Allahdan dağları yerindən qoparmasını istəsələr, Allah edər. Onlarla əsla mübahələ etməyin ki, həlak olarsınız və Qiyamətə qədər yer üzündə bir nəfər xristian qalmaz."[249] Mübahələ hadisəsi Peyğəmbərin (s) xüsusi bir bilgiyə malik olduğunu göstərməklə yanaşı, onun dua və istəyinin də təsirli olduğunu göstərir[250].

Burada çox mühüm nüanslardan biri də "ənfüsəna" (biz özümüz) ifadəsidir. Bu sözün aid olduğu insan kamillik baxımından və üstün keyfiyyətlərinə görə elə yüksək həddə olmalıdır ki, "Peyğəmbərin canı, özü" sayıla bilsin. Qeyd etdiyimiz kimi, bu sözün aid olduğu şəxs Əlidir (ə)[251].

---

[248] Əl-Mizan, c.3, səh.264
[249] Nümunə, c.2, səh.579
[250] Tematik təfsir, c.9, səh.178
[251] Mənşuri-Cavid, c.7, səh.106

62. Bu, həmin doğru olan hekayədir. (Onun Allah və ya Allahın oğlu olması iddialarının heç bir əsası yoxdur.) Tək olan Allahdan başqa heç bir məbud yoxdur. Allah yenilməz qüvvət, hikmət sahibidir!

63. Əgər onlar (bütün bu dəlillərə baxmayaraq, yenə də haqqı qəbul etməkdən) üz döndərsələr, (bil ki, haqq axtarışında deyillər və) Allah fitnə-fəsad törədənlərdən xəbərdardır!

64. De: “Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan “Allahdan başqasına ibadət etməyək, heç nəyi ona tay tutmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!” kəlməsinə tərəf gəlin! Əgər onlar (bu çağırışdan da) üz döndərsələr, o zaman deyin: “Şahid olun ki, biz müsəlmanıq!”

65. Ey kitab əhli, nə üçün İbrahim barəsində mübahisə edir və inadkarlıq göstərirsiniz (Hər biriniz onu öz dininin davamçısı kimi təqdim edirsiniz)? Halbuki Tövrat da, İncil də ondan sonra nazil edilmişdir, məgər düşünmürsünüz?

66. Siz bildiyiniz şey barəsində mübahisə edən adamlarsınız. Bəs bilmədiyiniz şeylər barəsində niyə mübahisə edirsiniz?! Allah bilir, siz bilməzsiniz!

67. İbrahim nə yəhudi idi, nə də xaçpərəst. O xalis təkAllahlı müsəlman idi və şərik qoşanlardan deyildi.

68. İnsanların İbrahimə ən layiq olanı ona tabe olan, bu Peyğəmbər və ona iman gətirənlərdir (onlar hər kəsdən layiqlidirlər). Allah möminlərin vəlisi və hamisidir!

69. Kitab əhlindən bir dəstə (yəhudilər) sizi yolunuzdan sapdırma istədiyi (arzu etdiyi) halda, (onlar bilməlidirlər ki, sizi sapdıra bilməzlər) yalnız özlərini düz yoldan sapdırır və bunu dərk etmirlər.

70. Ey kitab əhli, Allahın ayələrini (onların düzlüyünü) təsdiq etdiyiniz halda, nə üçün (onları) inkar edirsiniz?

---

64. Din al-veri edən alimlərə tabe olmaq bir növ ibadət ortaqlığıdır (şirk): Bəzi təfsirçilər ***"Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!"*** ayəsini təfsir edərkən bildirirlər ki, bəzi ayələrdə bir qrup əhli-kitab aliminin Allahın hökmlərini öz mənafelərinə və təəssüblərinə uyğun şəkildə izah və təhrif etdikləri qeyd edilmişdir. İslam məntiqinə əsasən bilərəkdən bu cür şəxslərə tabe olanlar bir növ onlara ibadət etmişlər. Çünki halal və haramı təyin etmək səlahiyyəti və qanunvericiliyi Allaha məxsusdur, bu mövzuda başqasının ixtiyar sahibi olduğunu qəbul edən şəxs həmin adamı Allaha ortaq etmişdir. Deyilənə görə daha öncə xristian olub, sonradan İslamı qəbul etmiş Ədiyy ibn Hatəm bu ayə nazil olduqdan sonra "ərbabən" sözünə əsasən cümləni "kitab əhli olanlar bəzi alimlərinə ibadət edirlər" kimi başa düşür və Allah rəsuluna (s) deyir: "Biz o vaxt öz

alimlərimizə əsla ibadət etməmişik.” Peyğəmbər (s) buyurur: ***“Onların Allahın hökmlərini öz maraqlarına uyğun şəkildə dəyişdiklərini bildiyiniz halda, yenə də onlara itaət göstərirdinizmi?”*** Ədiyy “bəli” deyə cavab verir. Peyğəmbər (s) buyurur: ***“Bu, elə ibadət və bəndəçilikdir.”*** İslamda əqli əsarət və müstəmləkə ibadət və bəndəçilik hesab edilir. İslamda şirk və bütpərəstliyə qarşı necə mübarzə aparılırsa, əqli müstəmləkəçilik və əsarətə də qarşı eyni şəkildə mübarizə aparılır[252].

65. Nə yəhudi, nə xristian: Rəvayətlərdə qeyd olunur ki, Nəcran yəhudiləri və xristianları Peyğəmbərin (s) hüzurunda həzrət İbrahim (ə) üstündə mübahisəyə qalxdılar. Yəhudilər İbrahimin (ə) yəhudi, xristianlar isə onun xristian olduğunu deyirdilər. Üstün olduqlarını sübuta yetirmək üçün onlardan hər biri həzrət İbrahimin (ə) onlardan olduğunu iddia edirdi. Çünki Allahın bu böyük peyğəmbəri bütün din mənsubları arasında əzəmətlə xatırlanırdı. Bu əsnada sözügedən ayə nazil oldu və onların iddialarının əsassız olduğu bildirildi. Belə ki, İbrahim (ə) Musa (ə) və İsadan (ə) əvvəl yaşamış, Tövrat və İncil ondan sonra nazil olmuşdu[253].

67. Həzrət İbrahim (ə) yəhudi və xristian olmadığı halda, necə müsəlman idi?! Ümumiyyətlə, Quran leksikonunda müsəlman təkcə İslam peyğəmbərinin (ə) davamçısına deyilmir, islam deyiləndə Allahın fərmanı qarşısında qeyd-şərtsiz təslim olmaq, istənilən şirk və dualizmdən uzaq, xalis və kamil tövhid nəzərdə tutulur. İbrahim (ə) bu ənənənin bayraqdarı hesab edilir.[254]

68. Tabeçilik Allah dostları ilə yeganə əlaqə vasitəsidir: Bu ayədə məktəb əlaqəsindən üstün əlaqə olmadığı, Allah dostları ilə yalnız tabeçilik

---

[252] Nümunə, c.2, səh.594
[253] Nümunə, c.2, səh.604
[254] Nümunə, c.2, səh.606

və itaət vasitəsilə əlaqə qurmağın mümkünlüyündən danışılır. Buna görə də İslam peyğəmbəri (s) və məsum imamlarla (ə) əlaqə və yaxınlıq iddiasını yalnız onlara tabe olmaqla iddia etmək olar. Hədis və rəvayətlərdə də bu mövzu əsas diqqət mərkəzində olmuşdur. İmam Əliyə (ə) istinad edilən bir hədisdə belə qeyd edilmişdir: ***"İnsanların peyğəmbərlərə ən layiq olanı onların göstərişlərinə hər kəsdən çox əməl edənlərdir."*** Sonra İmam (ə) bu ayəni oxuyub buyurmuşdur: ***"Nəsəb və qohumluq baxımından nə qədər uzaq olsa da, Muhəmmədin (s) dostu Allahın əmrinə itaət göstərən, qohumluq əlaqələri nə qədər yaxın olsa da, Muhəmmədin (s) düşməni Allaha itaətsizlik göstərəndir."***[255]

[255] Nümunə, c.2, səh.607

71. Ey kitab əhli, nə üçün bilə-bilə haqqa yalan donu geyindirir və doğrunu gizlədirsiniz?

72. Kitab əhlindən (yəhudilərdən) bir dəstə dedi: “(Gedin, üzdə) Möminlərə nazil edilənə günün əvvəlində inanın, günün sonunda isə onu inkar edin! Bəlkə (öz dinlərindən) üz döndərərlər. (Siz kitab əhli və səmavi müjdədən xəbərdar olduğunuz üçün bu hiylə onları şübhəyə salmağa yetər).

73. Sizin dininizə tabe olanlardan başqa heç kəsə inanmayın!” De: “Yönləndirən, hidayət edən yalnız Allahdır (onun qarşısında sizin bu hiylənizin heç bir təsiri yoxdur)”. (Sonra yəhudilər öz adamlarına dedilər:) “Sizə verilənin bənzərinin (səmavi kitab) başqasına (müsəlmanlara) veriləcəyinə və yaxud Rəbbinizin hüzurunda onların sizinlə mübahisə edəcəyinə (inanmayın, peyğəmbərlik, məntiq, hər ikisi sizə məxsusdur)!” De: “Həqiqətən, nemət (peyğəmbərlik, ağıl, məntiq neməti heç kəsin deyil,) Allahın əlindədir və onu istədiyi şəxsə bəxş edər. Allah genişdir (sonzuz nemət sahibidir), (o nemətlərin layiq olduğu yerləri) biləndir!”

74. Rəhmətini istədiyi şəxsə şamil edər. Allah böyük kərəm sahibidir!

75. Əhli-kitab arasında elələri var ki, əgər onlara külli miqdarda sərvət əmanət etsən, onu tamamilə sənə qaytararlar; elələri də var ki, onlara bir dinar da əmanət versən, başlarının üzərində durub tələb etməyincə sənə qaytarmazlar. Səbəb də budur ki, onlar: “Biz ümmilər (yəhudi olmayanlar) qarşısında məsuliyyət daşımırıq”, - deməklə bilə-bilə Allaha böhtan atırlar.

76. Hər kəs öz əhdinə vəfa etsə və pis əməllərdən çəkinsə, (Allah onu sevər, çünki) Allah müttəqiləri sevir.

77. Allah ilə olan əhdlərini və andlarını ucuz qiymətə satan şəxslərin axirətdə heç bir payı olmayacaq. Allah Qiyamət günü onları dindirməyəcək, onlara nəzər salmayacaq və onları (günahdan) təmizləməyəcək. Onları şiddətli bir əzab gözləyir!

---

77. Kitab əhlinin haqqı gizlətməsi: Bu ayənin məzmunu öz əksini "Bəqərə" surəsinin 42-ci ayəsində də tapmışdır. Həmin ayədə belə buyurulur: "Haqqı batillə qarışdırmayın və bilə-bilə haqqı gizlətməyin!" Hər iki ayədə insanları haqq yoldan sapdırmaq üçün haqqı batillə qarışdıran və həqiqəti gizlədən kitab əhli məzəmmət edilir. Onlar Tövrat və İncildə İslam peyğəmbəri (s) ilə bağlı qeyd edilmiş xüsusiyyətləri gizlədir və ya təhrif edir, doğru ilə yalanı bir-birinə qarışdırıb insanlarda çaşqınlıq yaradırdılar[256]. Möminlərin əmiri İmam Əli (ə) haqqla batilin bir-birinə qarışdırılması ilə bağlı belə buyurmuşdur: "***Əgər haqq batilə bürünməsəydi, düşmənlərin boş-boş danışan dili qısa olardı. Onlar bir az batildən, bir az da haqdan götürüb bir-birinə qarışdırırlar. Belə olan təqdirdə yalnız Allahın xoş vəd verdiyi şəxslər nicat tapacaq***"[257]

75. Əmanətdar və xəyanətkar: Bu ayədə kitab əhli iki qrupa bölünmüşdür: Əmanətdar və vicdanlı insanlar; əmanətə xəyanət edən insanlar. Quran ikinci qrupun xəyanətini belə ifadə edr: ***"Biz yəhudi olmayanlar qarşısında məsuliyyət daşımırıq"*** Qəribədir ki, bu sözün Allaha və ilahi dinə ad edirlər. Bu fikir yəhudilərin digər xalqlardan üstün olması kimi yanlış inancından qaynaqlanır. Onlar hesab edirlər ki, başqalarının boynuna minə bilərlər, qarşılığında isə başqalarının az da ola, etiraz etməyə haqqı çatmır. Onlar qeyri-yəhudilərin mallarını əllərindən ala bildikləri

---

[256] Nümunə, c.2, səh.611
[257] Nəhcül-bəlağə, 50-ci xütbə

halda, digərlərinin belə bir haqqı yoxdur. Əslində, onlar başqa insanlara dilsiz heyvan münasibəti bəsləyir və onlardan istədikləri kimi istifadə edə biləcəklərini düşünürlər[258]. "başlarının üzərində durub tələb etməyincə sənə qaytarmazlar" cümləsi yəhudilərin hansı ruhiyyədə olduğunu göstərir. Onların çoxu başqalarının hüquqlarını güc və zor tətbiq etmədən rəsmən tanımırlar. Buna görə də öz haqlarını onlardan geri almaq üçün müsəlmanların çalışıb qüdrətli olmaqdan və onları bu qüdrət qarşısında diz çökdürməkdən başqa çarələri yoxdur. Son illərdə Orta Şərqdə baş verən hadisələr göstərir ki, beynəlxalq konvensiyalar, müqavilələr, dünya ictimaiyyətinin fikir, haqq, ədalət və bu kimi məsələləri İslam düşmənləri üçün heç bir əhəmiyyət daşımır. Onlar başqa bir şey deyil, yalnız güc və qüdrət qarşısında təslim olurlar[259].

77. İlahi əhdi və andı pozmağın cəzası: Qeyd edilir ki, Peyğəmbər (s) zamanında İmrəül-qeys adlı bir nəfər xəzrəmutlu bir kişi ilə torpaq üstündə mübahisə edir. Nəhayət, Peyğəmbərin (s) yanına gəlirlər. Peyğəmbər (s) İmrəül-qeysdən soruşur:

- Torpağın sənə məxsus olduğunu təsdiq edəcək bir şahidin varmı?

İmrəül-qeys deyir:

- Xeyr.

Peyğəmbər (s) buyurur:

- Belə olan təqdirdə əgər qarşı tərəf and içib yerin ona aid olduğunu desə, yeri ona verməli olacaqsan.

İmrəül-qeys deyir:

- And olsun Allaha, belə olan təqdirdə yerim əlimdən çıxacaq.

Peyğəmbər (s) buyurur:

---

[258] Əl-Mizan, c.3, səh.300
[259] Nümunə, c.2, səh.620

- Əgər yer həqiqətən sənin olmuş olsa və o da and içib bu yeri mənimsəsə, Qiyamət günü Allahın üzlərinə nəzər salmayacağı, günahdan təmizləməyəcəyi və şiddətli əzaba düçar edəcəyi şəxslərdən olacaq.

Xəzrəmutlu kişi bu sözü eşidəndə qorxuya düşdü və torpağı İmrəül-qeysə qaytardı[260].

78. Onların (yəhudlər) arasında elələri var ki, (Allah) kitab(ını) oxuyan zaman siz onların oxuduqlarının (Allah) kitab(ın)dan olduğunu güman edəsiniz deyə dillərini o tərəf-bu tərəfə əyirlər. Halbuki (Allah) kitab(ın)dan deyil. Allah tərəfindən olmadığı halda, onlar "Bu, Allah tərəfindəndir", - deyir və bilə-bilə Allaha böhtan atırlar.

79. Heç bir insana yaraşmaz ki, Allah ona kitab, hikmət və peyğəmbərlik bəxş etdikdən sonra o, insanlara: "Allahı buraxıb mənə ibadət edin!" – desin. Əksinə, o: "Kitabı öyrətdiyiniz və öyrəndiyiniz üçün Allah adamı olun!" - deyər.

---

[260] Əl-Mizan, c.3, səh.314

80. O sizə mələkləri və peyğəmbərləri özünüzə Rəbb qəbul etməyi əmr etməz. O sizi müsəlman olduqdan sonra küfrə dəvət edərmi?!

81. Allahın peyğəmbərlərdən: “Sizə kitab və elm verildikdən sonra sizdə olanı təsdiq edən bir peyğəmbər gəldikdə ona mütləq inanıb yardım edin”, - deyə əhd aldığı, sonra onlara: “Bunu təsdiq edib möhkəm əhd-peyman bağlayırsınızmı?” – dediyi, onların da: “Təsdiq etdik!” – deyə cavab verdikləri, (bu zaman) Allahın: “Elə isə şahid olun! Mən də sizinlə birlikdə şahid olanlardanam”, - deyə buyurduğu vaxtı xatırlayın!

82. Bundan sonra kim üz döndərsə, fasiqdir.

83. Onlar Allahın dinindən başqa bir din axtarırlar?! (Onun dini İslam dinidir) Göylərdə və yerdə olanlar istər ixtiyari olsun, istərsə də icbari, Onun (fərmanı) qarşısında təslim olmuşlar və hamı Onun hüzuruna qayıdacaq.

---

78. Allaha iftira atmaq məharəti: “Yəlvunə” mənası döndərmək, çevirmək və əymək olan “ləyy” sözündən yaranmışdır. Burada Allah sözlərinin təhrif edilməsi üsuluna işarə edilmişdir. Belə ki, Tövratı oxuyarkən zühur edəcəyi müjdə verilmiş İslam peyğəmbərinin (s) xüsusiyyətlərindən bəhs edən ayələri dəyişir və bunu elə məharətlə edirdilər ki, dinləyci eşitdiklərinin Allah kitabının ayələri olduğunu güman edirdi[261].

79. İbadət yalnız Allaha olmalıdır: Bu ayənin nazilolma səbəbini əks etdirən bir məlumatda belə qeyd edilmişdir: “Nəcrana ezam edilmiş dəstəyə başçılıq edən Əbu Rafe adlı yəhudi Peyğəmbərin (s) hüzuruna gələrək deyir:

- Sənə ibadət etməyimi, səni Allah hesab etməyimi istəyirsənmi? (Onlar güman edirdilər ki, İslam peyğəmbərinin (s) İsanın (ə) Allah olması

---

[261] Nümunə, c.2, səh.630

məsələsinə etirazı onun özünün belə bir paya sahb olmaması ilə bağlıdır. Əgər onu da Allah kimi qəbul etsələr, mövqeyindən əl çəkəcək. Çox güman ki, bu təklif Peyğəmbəri (s) bədnam etmək və insanlarda çaşıqnlıq yaratmaq hiyləsindən qaynaqlanırdı).

Lakin Peyğəmbər (s) buyurdu:

- Allaha pənah. Mən kiminsə tək olan Allahdan qeyrisinə ibadət etməsinə icazə vermərəm. Allah məni belə bir iş üçün göndərməyib."[262]

Bu ayədə xristianların həzrət İsaya (ə) aid etdikləri batil fikirlər rədd edilmşdir. Onlar iddia edirdilər ki, guya İsa (ə) özünün Allahın oğlu və Allah olduğunu demiş, Ata, Oğul və Müqəddəs ruha ibadət edilməsini istəmişdir. Ola bilsin ki, bu ayədə "Allah Musanın Allahı, Musa, Harunun, Harun isə Fironun Allahıdır" deyən yəhudilər nəzərdə tutulmuşdur. Bəlkə də bu ayə ümumi məzmun daşıyır, hətta Peyğəmbər (s) və imamları (ə) Allahlıq məqamına qədər yüksəldənlərə də şamil olur[263]. Ümumiyyətlə, bu ayədən belə başa düşülür ki, Allahdan qeyrisinə edilən istənilən ibadət forması, xüsusilə, insana edilən ibadət azadlıq ruhuna və insan şəxsiyyətinin müstəqilliyinə ziddir. Habelə Allahın bəndələri qarşısında yaltaqlıq edilməsi də qadağan edilmişdir. İmam Əlinin (ə) dilindən söylənmiş, o cənabın həqiqi və mənəvi simasını göstərən ibrətamiz bir hədis də qeyd olunan fikri təsdiq edir. Bir gün İmam Əli (ə) Ənbana (İraqın sərhəd şəhərlərindən birinin adıdır) gedir, bir qrup kəndli kəndlərinin adətinə uyğun olaraq miniklərindən düşüb İmamın (ə) qarşısında səcdə edirlər. İmam (ə) bu hadisədən çox narahat olur və yüksək səslə deyir: "Belə niyə edirsiniz?" Onlar: "Biz bu hərəkətimizlə əmirlərimizə olan hörmətimizi izhar edirik", - deyə cavab verirlər. İmam Əli (ə) buyurur: "And olsun Allaha ki, bunun rəhbərlərinizə

---

[262] Nümunə, c.2, səh.631
[263] Ətyəbül-bəyan, c.3, səh.361

heç bir xeyri yoxdur. Ancaq siz özünüzü bu dünyada çətinliyə salır, axirətdə izə bədbəxtliyə düçar edirsiniz. Arxasınca küfr gətirən əziyyət necə də zərərlidir. Arxasınca Cəhənnəm odundan xilas gətirən azadlıq necə də faydalıdır!"

81. Peyğəmbərlərdən İslam peyğəmbəri (s) haqda ilahi əhd alınması: Bu ayə onu çatdırır ki, bütün peyğəmbərlər (ə) Allahla bağladıqları əhd və peymana uyğun olaraq Allahın peyğəmbərlərindən hansının dövrünə təsadüf etsələr, ona iman gətirib, yardım göstərəcəklər[264]. Bunun ən parlaq nümunəsi İslam Peyğəmbəridir (s). Bu mövzunu ehtiva edən çoxlu sayda hədis və rəvayətlər Allahın təkcə Peyğəmbər (s) deyil, onun vəsiləri ilə bağlı da əhd aldığını ifadə edir. İmam Sadiqə (ə) aid olan bir hədisdə belə buyurulur: ***"Allah elə bir peyğəmbər göndərməyib ki, Mühəmmədin (s) peyğəmbərliyinə və Əlinin (ə) imamlığına iman gətirməklə bağlı ondan əhd almamış olsun."***[265]

[264] Əl-Mizan, c.3, səh.381
[265] Mənşuri-cavid, c.6, səh.10

84. Söylə: “Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladlarına nazil edilənə, Rəbbi tərəfindən Musa, İsa və (sair) peyğəmbərlərə verilənlərə inandıq və onların heç birini bir-birindən ayırmırıq. Biz yalnız Ona (Onun fərmanına) təslim oluruq!”

85. Kim özünə İslamdan (Allahın fərmanı qarşısında təslim olmaq) başqa bir din seçsə, ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar!

86. İman gətirdikdən, Rəsulun haqq olduğunu təsdiq etdikdən və aşkar dəlillər gəldikdən sonra kafir olan bir cəmiyyəti Allah doğru yola necə yönəldər? Allah zalımlar zümrəsini haqq yola yönəltməz!

87. Onların cəzası Allahın, mələklərin və bütün insanların lənətinə düçar olmaqdır!

88. Onlar bu lənət (nifrin) içərisində əbədi qalacaqlar. Cəzaları yüngülləşməyəcək və onlara möhlət verilməyəcək.

89. Yalnız bundan sonra tövbə edərək islah olan şəxslər istisnadırlar (Keçmiş günahlarını yumağa çalışanların tövbəsi qəbul olunacaq). Çünki Allah bağışlayan və rəhm edəndir!

90. İman gətirəndən sonra kafir olan və küfrlərini daha da artıran (bu yolda israrlı olan) şəxslərin (çıxılmaz vəziyyətdə və ölüm ayağındakı) tövbəsi əsla qəbul olunmaz. Onlar (əsl) azanlardır! (Çünki həm Allah, həm də tövbə yolunu itiriblər)

91. Kafir olub küfr içində ölənlərdən hər birinin dünya dolusu qızılı olsa və (əzabdan qurtarmaq üçün) onu fidyə versə, yenə də qəbul olunmaz. Onları dəhşətli bir əzab gözləyir. Onların heç bir köməkçisi olmayacaq!

---

84. Əsbat: "Əsbat" sözü "sibt" sözünün cəmidir, mənası nəyinsə asanlıqla yayılması və inkişaf etməsidir. Övladlara, xüsusilə nəvələrə və bir ailənin qol-budağına sibt və əsbat deyilir[266]. "Əsbat" deyilərkən bu ayədə həzrət Yəqubun (ə) nəslindən və ya Bəni-İsraildən olan (Davud, Süleyman, Yunus, Əyyub və sair) peyğəmbərlər nəzərdə tutulmuşdur[267].

85. Ən üstün din: Bu ayədə "İslam" deyilərkən ümumi mənada Haqq qarşısında təslim olmaq, xüsusi mənada isə təslim olmanın ən üstün nümunəsi - İslam dini nəzərdə tutulmuşdur. Bu gün İslamdan başqa heç bir din qəbul edilmir. Bütün ilahi dinlər möhtərəm sayılsa da, bəşəriyyətin müasir və əməl edəcəyi proqramı İslam olmalıdır. Doktorluq təhsili alan tələbələr ibtidai, orta, yuxarı, bakalavr və sair təhsil pillələrində oxuduqları fənlərə hörmətlə yanaşsalar da, yalnız təhsl aldıqları pillənin fənlərini oxumalıdırlar, proqram səviyyəsindən aşağı fənləri davam etdirməyin yalnız ziyanı olacaq. Yersiz təqlid və nadancasına təəssübkeşlikləri ilə etnik ənənələrinə və xurafatlarına tabe olub mənsub olduqları dinlərini zibilləyənlər, şübhəsiz ki, ziyana uğrayacaq, ömür sərmayəsini puç etmək təəsüfü və peşmançılığından başqa heç nə əldə etməyəcəklər[268].

87. İnadkar kafirlərə hər kəsin lənəti olsun: "Lənət" sözünün mənası qəzəblə müşayiət olunan uzaqlaşdırma və kənarlaşdırmadır. "Allahın lənəti"

---

[266] Nümunə, c.6, səh.411
[267] Əl-Mizan, c.3, səh.386
[268] Nümunə, c.2, səh.645

deyilərkən Allahın fərdləri öz rəhmətindən uzaqlaşdırması başa düşülür. Mələklər və insanların lənətinə gəlincə isə qəzəb, nifrət, kənarlaşdırma və ya Allahdan bu insanları öz rəhmətindən uzaqlaşdırmasını istəmək nəzərdə tutulur. Ayıq başla, bilə-bilə küfr və inkar yolunu tutmuş zülmkar mürtədlər günah və fəsad girdabına elə batırlar ki, ağıllı insanların və mələklərin nifrətini qazanırlar, ondan da pisi, Allahın qəzəbinə tuş gəlirlər[269].

Quranda bütün insanların iman gətirdikdən sonra kafir olanları lənətlədiyi buyurulmuşdur. Kafirlər özləri də insan olduqları halda, şübhəsiz ki, özləri özlərini lənətləməzlər. Bu paradoks öz həllini necə tapır? Bu sualın cavabında onu deməliyik ki, ilahi lənət Qiyamətdə aşkar olacaq. Çünki Allahın ümumi rəhməti bu dünyada kafirlərə də şamil olur. Ancaq Qiyamətdə onlara rəhm olunmayacaq, hətta kafirlər özləri də bir-birlərini lənətləyəcəklər. Belə ki, "Ənkəbut" surəsinin 25-ci ayəsində Allah həzrət İbrahimin (ə) müşriklərə xitab edərək belə dediyini qeyd edir: ***"Sizin Allahı qoyub bütləri tanrı qəbul etməyiniz yalnız dünyada aranızda olan dostluğa və sevgiyə görədir. Sonra, Qiyamət günü bir-birinizi inkar edəcək, bir-birinizə lənət oxuyacaqsınız. Hamınızın məskəni od olacaq, heç bir kömək edəniniz, yarınız-yavəriniz olmayacaq!"***[270]

[269] Nümunə, c.2, səh.649
[270] Ətyəbül-bəyan, c.2, səh.269

92. Sevdiyiniz şeylərdən (Allah yolunda) sərf etməyincə xeyirə çatmazsınız. Allah verdiyiniz sədəqədən xəbərdardır!

93. Tövrat göndərilməmişdən qabaq İsrailin (Yəqub peyğəmbərin) yalnız özünə haram etdiklərindən (məsələn, dəvə ətinin ona ziyanı var idi) başqa bütün (pak) qidalar İsrail övladlarına halal idi. De: “Əgər doğru danışırsınızsa, Tövratı gətirin və oxuyun!” (Əvvəlki peyğəmbərlərə aid etdiyiniz bu sözlər, hətta təhrif edilmiş Tövratınızda da yoxdur).

94. Bundan sonra Allaha iftira atanlar zülm edənlərdir! (Çünki bunu bilərəkdən və qəsdən edirlər).

95. De: “Allah doğru buyurmuşdur (Bunlar İbrahimin pak dinində olmamışlar). Buna görə də İbrahimin dininə tabe olun, çünki o, Haqq yolda olmuş, şərik qoşanlardan olmamışdır”

96. İnsanlar üçün ilk inşa olunan ev (Allaha ibadət etmək üçün) Məkkədəki evdir. O, bütün bəşəriyyət üçün bərəkət və hidayət mənbəyidir.

97. Orada aydın nişanələr, (o cümlədən) İbrahimin məqamı var. Oraya (Allahın evinə) daxil olan şəxs əmin-amanlıqda olacaq. Getməyə imkanı çatan hər bir kəsə Allah üçün Onun evinə getməsi vacibdir. Kim imtina etsə (Həcci tərk etsə, özünü ziyana salmışdır). Allah heç kəsə möhtac deyil!

98. De: “Ey kitab əhli! Allah sizin əməllərinizin şahidi olduğu halda, nə üçün Allahın ayələrini inkar edirsiniz?!”

99. De: “Ey kitab əhli! Nə üçün iman gətirən şəxsləri Allahın yolundan saxlayır, bu yolu əymək istəyirsiniz? Halbuki, siz (bu yolun düzlüyünə) şahidsiniz və Allah sizin etdiklərinizdən xəbərsiz deyil.”

100. Ey möminlər! Əgər siz kitab əhlindən olan (işləri nifaq salmaq, kin-küdurət və ədavət odunu yandırmaq olan) bir dəstəyə itaət göstərsəniz, sizi iman gətirdikdən sonra döndərib kafir edər.

---

92. Həqiqi xeyirə nail olmağın ən mühüm yolu: “Birr” xeyir və yaxşılığın çoxluğu deməkdir. Bu söz qəlbdə və əməldə olan bütün yaxşılıqlara şamil olur. “Bəqərə” surəsinin 177-ci ayəsində belə buyurulmuşdur: ***“Yaxşı əməl (sahibi), əslində, Allaha, axirət gününə, mələklərə, (səmavi) kitaba və peyğəmbərlərə inanan, mal-dövlətini çox***

sevməsinə baxmayaraq, onu qohum-əqrəbaya, yetimlərə, yoxsullara, yolda qalan müsafirə, dilənçilərə və qulların azad olunmasına sərf edən, namaz qılan, zəkat verən, (eləcə də) əhd bağladıqda əhdinə vəfa edən, dar ayaqda, xəstəlikdə və döyüş meydanında səbir edənlərdir (mətin olanlardır). Onlar doğru danışanlardır (sözləri etiqadlarına uyğundur). Təqvalı olanlar da məhz onlardır." Bu ayədə bütün yaxşılıqlar müxtəsər şəkildə sadalanmış və "birr" sözünün geniş mənası verilmişdir. Nəzər-nöqtəsi olan ayədə də möminin sevdiyindən xərcləməsi xeyirxahlığa və yaxşılıqlara nail olmağın əsas vasitələrindən biri hesab edilmişdir. Bu məsələyə israr edilməsinin səbəbi də budur ki, insanın maldan ayrılması çox çətindir malından və sərvətindən ayrılmağı hazır olan şəxs xeyriyyəçilik zirvəsi istiqamətində böyük addıma imza atmışdır[271].

93. Daha əvvəl bütün qidaların İsrail övladlarına halal olması: Bu ayədə yəhudilərin şübhələrindən birinə cavab verilir. Hadisə belə olmuşdu: "Allah-taala "Nisa" surəsinin 160-cı ayəsində "***Yəhudilər zülm etdiklərinə görə onlara halal olan pak nemətlərin bir hissəsini haram etdik***", - deyə buyurduqda yəhudilər etiraz edərək dedilər: "Bu, yalandır. Çünki dəvə əti kimi bəzi pak qidalar elə əvvəlcədən yəhudilərə haram idi." Quranın bu ayəsində yəhudilərə cavab verilir və daha əvvəl İsral övladlarına bütün qidaların halal buyurulduğu, lakin bəzlərinin sonradan haram edildiyi qeyd edilir. Bircə həzrət Yəqub (ə) dəvə əti kimi bəzi qidaları (başqalarına deyil,) özünə qadağan etmişdi. Hədislərdə onun dəvə ətini özünə qadağan etməsi onunla izah edilir ki, o, dəvə əti yeyəndə belindəki ağrı kəsknləşirmiş. Halbuki həzrət Musa (ə) onu haram etməmişdir[272].

---

[271] Əl-Mizan, c.2, səh.394
[272] Əl-Mizan, c.3, səh.395-400

96. Bəkkə: Allahın evinin yerləşdiyi yer izdiham və qarışıqlıq mənasını verən Bəkkə adlandırılmışdır. Bu söz ibadət etmək, namaz qılmaq, təvaf etmək və sairə üçün insanların Allah evində yaratdıqları izdihamı ifadə edir[273].

96. Allaha ibadət etmək üçün olan ilk ev: Bu ayəni təfsir edərkən İmam Əli (ə) belə buyurmuşdur: Məkkədən əvvəl də evlər olmuşdur. Amma Allaha ibadət etmək üçün inşa edilən ilk ev Kəbə olmuşdur."[274] Hədislərdə qeyd edilir ki, Kəbə binası həzrət Adəmin (ə) dövründən mövcud olmuş və ona hörmət göstərilmişdir. İmam Əli (ə) buyurmuşdur: ***"Adəmin (əleyhissalam) dövründən başlayaraq insanların sonuncusuna qədər Allahın bütün insanları bir daşla sınadığını görmürsənmi?..."***[275] Maraqlıdır ki, bütün dinlərdə Kəbəyə ehtiram göstərilmiş və göstərilməkdədir. Tədqiqatçılar bildirirlər ki, hindlilər, farsdilli sabeilər, kildanilər, zərdüştilər, yəhudilər, xristianlar, cahil ərəblər, hər biri öz inancına uyğun olaraq Kəbəyə ehtiram göstərir, dəyər verirlər[276].

---

[273] Əl-Mizan, c.3, səh.401
[274] Əl-Mizan, c.3, səh.407
[275] Nəhcül-bəlağə, 234-cü xütbə
[276] Əl-Mizan, c.3, səh.414

101. Sizə Allahın ayələri oxunduğu və Onun Peyğəmbəri aranızda olduğu (vəhylə əhatə olunduğunuz) halda, siz necə kafir ola bilərsiniz? (Buna görə də Allaha sığının.) Allaha (Onun dininə) sığınan şəxs doğru yola yönəldilmişdir.

102. Ey iman gətirənlər! Allahdan ilahi təqvaya layiq şəkildə qorxun. Dünyanı yalnız müsəlman olaraq tərk edin! (İman cövhərini ömrünüzün sonuna qədər qoruyub saxlayın).

103. Hamılıqla Allahın ipinə (Quran, İslam və vəhdətə səbəb olan istənilən vasitə) möhkəm sarılın və parçalanmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən, O sizin qəlblərinizarasında ülfət yaratdı və Onun neməti sayəsində qardaş oldunuz. Siz oddan olan bir quyunun kənarında ikən O sizi oradan xilas etdi. Allah Öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, bəlkə haqq yola yönəlmiş olasınız!

104. İçərinizdə yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir zümrə olsun! Bunlar həqiqətən nicat tapmış şəxslərdir.

105. (Allah tərəfindən) açıq-aydın dəlillər gəldikdən sonra bir-birindən ayrılan və ixtilaf törədən şəxslər kimi olmayın! Onlar böyük bir əzaba düçar olacaqlar.

106. (Bu böyük əzab) Bəzi üzlərin ağ, bəzi üzlərin isə qara olacağı gündə olacaq. Üzü qara olanlara: "İman gətirəndən sonra kafirmi oldunuz? Kafir olduğunuza görə indi, dadın əzabı!" – deyiləcəkdir.

107. Üzü ağ olanlar isə Allahın mərhəməti içərisində olub orada (Cənnətdə) həmişəlik qalacaqlar!

108. Bunlar Allahın sənə olduğu kimi oxuduğumuz ayələridir! Allah aləmlərə (bəşər əhlinə) zülm etmək istəməz.

---

102. Təqvanın dərəcələri: "İlahi təqva" deyilərkən insanın özünü Allahın əzabından qoruması nəzərdə tutulur. Bu dərəcəyə insan Allahın əmr və göstərişlərinə tabe olmaq və nemətlərinə şükür etməklə nail olur. Bu ayədə möminlər təqvanın ən yüksək dərəcəsi olan "həqiqi təqvaya"[277] dəvət olunurlar. Həqiqi təqva Allahın göstərişlərinə tam itaət göstərməkdir. İmam Sadiqə (ə) aid olan bir hədisdə deyilir: ***"Həqiqi təqva, yəni Allahın fərmanına davamlı itaət göstərmək, heç zaman günah etməmək, Allahı həmişə xatırlamaq, heç vaxt unutmamaq, nemətləri qarşısında şükür etmək, nankorluq etməməkdir."*** Təqvanın müxtəlif dərəcələri var. Ayədə onun ən yüksək dərəcəsinə işarə edilmişdir. Məlumdur ki, əksəriyyət belə bir təqvaya nail olmaq gücündə deyil. Buna görə də Allah-taala "Təğabun" surəsinin 16-cı ayəsində belə buyurmuşdur: "Allahdan bacardığınız qədər qorxun". Bu ayədə, əslində, "Ali-İmran" surəsinin 102-ci ayəsində qeyd

---

[277] Orijinal mətndə "təqvanın haqqı" ifadəsi işlənmişdir. Azərbaycan dilində bu ifadənin qarşılığı dilin normalarına cavab vermədiyi üçün tərcümədə sözügedən ifadənin ümumi mənası verilmişdir.

edilən həqiqi təqva dərəcələrinə nail olmanın yolu göstərilmişdir. İmam Əli (ə) bir hədisində belə buyurmuşdur***: "And olsun Allaha, bu ayəyə (kamil şəkildə) yalnız Peyğəmbərin əhli-beyti (əleyhimissalam) əməl etmişdir. Allah hər zaman xatirimizdədir, Onu unutmuruq. Biz Allaha şükür edirik, əsla naşükürlük etmirik. Biz Allaha itaət edirik, əsla itaətindən çıxmırıq."*** Sonra İmam (ə) buyurmuşdur: "Bu ayə nazil olandan sonra səhabələr Peyğəmbərə (s) dedilər: ***"Bizim həqiqi təqvaya gücümüz çatmaz" Sonra Allah bu ayəni nazil etdi: "Allahdan bacardığınız qədər qorxun"***[278]

103. Allahın ipi: Quran və məsumların hədislərinə əsasən "Allahın ipi" deyilərkən Allahla əlaqəni ifadə edən istənilən vasitə nəzərdə tutulur. Hədislərdə bu ifadənin Quran və Əhli-beyt (ə) kimi şərh edilməsinin səbəbi Quran və Əhli-beytin (ə) insanlarla Allah arasında ən mühüm əlaqə vasitəsi olması ilə bağlıdır. "Allahın ipi" ifadəsi ilə, əslində, insanların adi şəraitdə, tərbiyəçi və yönləndirici olmadan təbiət quyusunda, cəhalət, nadanlıq və üsyankar instinktlər bataqlığında qalacağı, bu quyudan xilas olmaq üçün möhkəm bir ipdən yapışmaq zərurətinə işarə edilmişdir. Bu möhkəm ip insanları aşağı səviyyədən yüksəklərə qaldıran, mənəvi və maddi təkamül səmasına ucaldan Quran, Peyğəmbər (s) və onun həqiqi canişinləri vasitəsilə reallaşan Allah və insan münasibətlərini ifadə edir[279].

104. Cahil ərəblərin acınacaqlı vəziyyətinə işarə: Allah-taala "Siz oddan olan bir quyunun kənarında ikən" cümləsi ilə cahil ərəblərin acınacaqlı, təəssüf doğuran vəziyyətinə işarə etmişdir. Tarixçilər ərəblərin İslamdan əvvəlki vəziyyəti ilə bağlı ətraflı məlumatlar vermişlər. İmam Əli (ə) Peyğəmbərdən (ə) sonra İslam ümmətinin vəziyyəti ilə bağlı daha geniş məlumata malik olan bir şəxsdir. O, cahil ərəblərin vəziyyətini lakonik

[278] Əl-Mizan, c.3, səəh. 420 və 432
[279] Nümunə, c.3, səh.41

şəkildə belə ifadə etmişdir: ***"Allah Muhəmmədi (s) insanları qorxutmaq və göndərdiyi vəhyin əmanətçisi etmək üçün göndərdi. Siz ərəb xalqı ondan əvvəl ən pis dinə tapınırdınız, ən pis evlərdə yaşayırdınız, daşlıq və hamar olmayan ərazilərdə yaşayır, zəhərli ilanlarla eyni evi paylaşırdınız, çirkli su içir, xoşagəlməz yeməklər yeyir, bir-birinizin qanını tökür, qohum-əqrəbanızla əlaqələrinizi kəsmiş, aranızda bütlər dayanırdı, günah içində batmışdınız."***[280]

[280] Nəhcül-bəlağə, 26-cı xütbə

109. (Allah nə üçün zülm etsin axı?) Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Bütün işlər Allaha qaytarılır. (Onun fərmanına tabedir)!

110. Siz insanlara xeyir vermək üçün yaradılmış ən yaxşı ümmətsiniz, yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız. Əgər kitab əhli də (belə bir parlaq proqrama və dinə) iman gətirsə, onlar üçün yaxşı olar. Onların (yalnız) az hissəsi imanlıdır, çox hissəsi fasiqdir (Allahın itaətindən çıxanlardır).

111. Onlar (kitab əhli, xüsusilə yəhudilər) sizə cüzi ziyandan (rahatlığınızı pozmaqdan) başqa bir zərər yetirə bilməzlər. Əgər sizinlə savaşacaq olsalar, dönüb qaçarlar. Sonra onlara kömək edən də olmaz.

112. Harada olurlarsa olsunlar, onlara zillət damğası vurulmuşdur. (Onlar bu zillətdən) yalnız Allahla (öz yaramaz davranışlarını tərk etməklə) və insanlarla əlaqə və münasibət yaratmaqla xilas ola bilərlər. Onlar Allahın qəzəbinə düçar olmuş, onlara miskinlik damğası vurulmuşdur. Çünki onlar Allahın ayələrini inkar etmiş, peyğəmbərləri haqsız yerə öldürmüşlər. Bunun bir səbəbi də odur ki, onlar günah etmiş və həddi aşmışlar (başqalarının hüquqlarını pozmuşlar).

113. Onların hamısı eyni deyil. Kitab əhli içərisində (haqq və iman üzrə) sabitqədəm olan, gecə vaxtları səcdə edərək Allahın ayələrini oxuyan bir qrup var.

114. Onlar Allaha və axirət gününə inanır, yaxşı işlər görməyi əmr edir, pis əməllərdən çəkindirir və xeyirli işlər görməyə tələsirlər. Onlar əməlisalehlərdəndirlər.

115. Onların etdiyi yaxşı işlərin heç biri nəticəsiz qalmaz (layiqli mükafatlarını alarlar). Allah təqvalılardan xəbərdardır!

---

109. İnsanın bütün ixtiyar və azadlıqlarının alındığı gün: Təfsirçilər bu ayənin "Bütün işlər Allaha qaytarılır" cümləsini təfsir edərkən bildirirlər ki, insanların bütün işləri və səlahiyyətləri onlardan alınıb Allaha qaytarılacaq. Belə ki, "Mömin" surəsinin 16-cı ayəsində belə buyurulmuşdur: ***"(Qiyamət günü deyiləcək:) "Bu gün hökm kimindir?" (Allah özü cavab verəcək:) "Bir olan, qalib olan Allahındır!"***[281]

110. Ən yaxşı ümmət: Bu ayədə xitab obyekti bütün müsəlmanlardır. Onlar ən yaxşı ümmət kimi təqdim olunurlar. Aydındır ki, müsəlmanların digər ümmətlərdən üstün olmasının səbəbi yaxşı işlər görməyi əmr etmək, pis əməlləri qadağan etmək və Allaha həqiqi inamdır. Müsəlmanlar yaxşı əməllər görməyi əmr etməyi, günahla mübarizəni unutmadıqca üstün ümmət sayılırlar. Nə vaxtsa bu vəzifəni unutsalar, artıq ən yaxşı ümmət olmayacaqlar. Belə bir sual yarana bilər ki, nə üçün bu surənin 104-cü ayəsində yaxşı əməl etməyi əmr etmək və pis əməlləri qadağan etmək xüsusi bir qrupun vəzifəsi hesab edilmişdir? Qeyd etməliyik ki, 110-cu ayədə sözügedən vəzifənin qəlb və dillə məhdudlaşan fərdi mərhələsinə işarə edilmişdir. Bütün müsəlmanlar bu mərhələdə yaxşı işlər görməyi əmr etmək, pis əməlləri qadağan etməklə vəzifələndirilmişlər. Məcburiyyət və qanunilik tələb edən əmr və qadağaların qanuni icrası İslam hökumətinin və şəriət hakiminin vəzifələrindəndir. Şəriət hakiminin icazəsi olmadan heç kəsin yaxşı işlər görməyi əmr etmək, pis əməlləri qadağan etmək səlahiyyəti yoxdur. Hər halda, yaxşı işlər görməyi əmr etmək, pis əməlləri qadağan etmək cəmiyyətin sağlamlıq və xoşbəxtliyinə zəmanət verən çox mühüm bir dini vəzifədir. İmam Baqir (ə) bu mövzunun əhəmiyyətinə işarə edərək belə buyurmuşdur: ***"Yaxşı işlər görməyi əmr etmək, pis əməlləri qadağan etmək***

---

[281] Ətyəbül-bəyan, c.3, səh.314

Allahın vacib buyurduğu böyük əməldir. Qalan vacib əməllər onun vasitəsilə reallaşır. Onun vasitəsilə yollar təhlükəsiz, insanların qazancı, iş və fəaliyyəti halal olur, insanların hüquqları təmin olunur. Onun sayəsində torpaqlar abadlaşır, düşmənlərdən intiqam alınır, bütün işlər tənzimlənir." İmam Əli (ə) bu dini vəzifənin əhəmiyyətini belə ifadə etmişdir: ***"Bütün yaxşı əməllər və Allah yolunda cihad yaxşı işlər görməyi əmr etmək, pis əməlləri qadağan etmək vəzifəsi ilə müqayisədə böyük və dalğalı bir dənizə damcı damızdırmaqdır."*** Bilməliyik ki, yaxşı işlər görməyi əmr etmək, pis əməlləri qadağan etmək Allahın insana bəxş etdiyi ixtiyar və azadlıqla təzad təşkil etmir, əksinə insanların xoşbəxtliyini onların azadlığı ilə birlikdə təmin edir. Allah rəsulu (ə) bu nüansı çox gözəl şəkildə ifadə etmişdir: ***"İnsanlar arasında günahkar bir qrup insanla birlikdə gəmiyə minən, dənizin ortasında əlinə balta götürüb öz oturduğu yeri dələn, etiraz edən olarsa, "mən öz payıma düşən hissədə istədiyimi edərəm", - deyə cavab verən adama bənzəyir. Əgər gəmidə olan digər insanlar onu bu işindən çəkindirməzlərsə, çox çəkməz su gəmiyə dolar və hamı brlikdə dənizdə batar."*** Peyğəmbər (s) bu maraqlı misalı ilə yaxşı işlər görməyi əmr etmək, pis əməlləri qadağan etmək vəzifəsinin məntiqi təsvirini vermiş və fərdin cəmiyyətə nəzarət haqqını talelərin qovuşmasından qaynaqlanan təbii bir haqq hesab etmişdir[282].

[282] Nümunə, c.3, səh.50 və 64

116. Kafirlər mallarına və övladlarına sığınaraq Allahın cəzasından xilas ola bilməzlər. Onlar Cəhənnəmlikdirlər və orada əbədi qalacaqlar.

117. Onların bu dünyada xərclədikləri özünə zülm edən bir qövmün əkinlərini (münasib yerdə və vaxtda əkmədikləri üçün) məhv edən yandırıcı bir küləyə bənzəyir. Allah onlara zülm etməyib, onlar özləri-özlərinə zülm edirlər.

118. Ey iman gətirənlər! Özünüzdən başqasını özünüzə sirdaş etməyin. Onlar sizin barənizdə fitnə-fəsad törətməkdən əl çəkməzlər, sizin zəhmətə, əzab-əziyyətə düşməyinizi istəyirlər. Onların ədavət və düşmənçilikləri ağızlarından (çıxan sözlərdən) aşkar olur. Qəlblərində gizlətdikləri isə daha böyükdür. Əgər fikirləşsəniz, (onların pisilklərinin qarşısını almaq üçün yollar və) əlamətləri artıq sizə izah etdik.

119. Siz onları sevirsiniz, onlar isə sizi sevməzlər. Siz səmavi kitabların hamısına inanırsınız (amma onlar sizin kitaba inanmırlar). Onlar sizinlə görüşdükləri zaman (yalandan): “Biz də inandıq”, - deyir, xəlvətdə olduqda isə sizə qarşı olan qəzəblərindən barmaqlarını gəmirirlər. De: “Acığınızdan ölün! Allah qəlblərdə olanları biləndir.”

120. Sizin xeyir və mənfəətiniz olanda onlar qəmgin olur, sizə bir zərər toxunanda isə sevinirlər. Əgər səbr edib təqvalı olsanız, onların hiyləsi sizə heç bir zərər yetirməz. Allah onların nə etdiklərini biləndir.

121. Sən möminlər üçün (əlverişli) döyüş düşərgəsi seçmək üçün sübh tezdən öz ailəndən ayrılıb getdiyin vaxtı (yadına sal)! Allah eşidəndir, biləndir! (Döyüş planları ilə bağlı aparılan bütün danışıqları eşidir, bəzilərinin bu barədə nə düşündüklərini bilirdi).

---

118. Müsəlmanlar öz sirlərini kafirlərin yanında açmasınlar: Bir qrup müsəlman qohumluq, qonşuluq, süd qohumluğu və ya İslamdan öncəki müqavilələr səbəbilə yəhudilərlə dostluq edirdi. Onlarla o qədər səmimi idilər ki, müsəlmanların sirlərini onlarla bölüşürdülər. Zahirdə özlərini müsəlmanların dostu kimi aparıb, amma İslam və müsəlmanların qatı düşməni olan yəhudilər bu vasitə ilə müsəlmanların sirlərindən xəbər tuturdular. Buna görə də sözügedən ayə nazil oldu və müsəlmanlara öz sirlərini onlarla eyni dində olmayanlarla bölüşməmək xəbərdarlığı verildi. Çünki onlar müsəlmanlara zərər vurmaq üçün əllərindən gələni əsirgəmir və hər zaman onlar üçün çətinliklər yaratmağa çalışırlar[283].

[283] Nümunə, c.3, səh.80

121. Müsəlmanlarla müşriklər arasında baş verən ikinci müharibə: Bu və sonrakı bir neçə ayədə Ühüd döyüşündən bəhs edilir. Bədr döyüşündə sayca az olan müsəlman qoşunu qarşısında məğlub olan Məkkə müşrikləri intiqam almaq qərarına gəlirlər. Hicrətin üçüncü ilində üç minlik süvari və iki minlik piyada dəstələrindən ibarət olan böyük bir qoşunla Peyğəmbəri (s) və müsəlmanları məhv etmək məqsədilə Mədinəyə tərəf yola düşürlər. Peyğəmbər (s) bu xəbəri eşitdikdən sonra müsəlmanları toplayıb döyüş meydanının seçilməsi ilə bağlı müzakirələr aparır. Bəziləri şəhərdə qalmağı və şəhərin dar küçələrində döyüşməyi təklif edirlər. Çünki qeyd olunan vəziyyətdə qocalar və qadınlar da döyüşdə iştirak edə bilirdilər. Bəziləri isə şəhərdən kənarda döyüşməyi təklif edirlər. Sonda döyüşün şəhərdən kənarda aparılması qərarına gəlirlər. Bu ayədə həmin vaxt Peyğəmbərin (s) əlverişli döyüş düşərgəsi seçmək üçün bir neçə nəfərlə birlikdə şəhərdən çıxmasına işarə edilmişdir. Hər halda, Peyğəmbər (s) sözügedən müharibəyə min nəfərlə yollanır. Abdullah ibn Übəyyin başçılıq etdiyi üç yüz nəfərlik dəstə Mədinədən kənarda döyüşməyin əleyhinə olduğunu bəhanə gətirib döyüşdən imtina edir. Nəticədə, yeddi yüz nəfərlik müsəlman qoşunu müşriklərin beş minlik qoşunu ilə qarşılaşmalı olur. Qoşunların qarşı-qarşıya gəldikləri meydan Ühüd dağının yaxınlığında olduğu üçün Abdullah ibn Cübeyrə əlli nəfər mahir oxçu ilə dağın giriş hissəsində mövqe seçməyi, nəyin bahasına olursa-olsun, yerlərindən tərpənməməyi, qoşunu arxa tərəfdən qorumağı göstəriş verir. Birinci hücumda müsəlmanlar müşriklər üzərində qələbə çalmağı bacarırlar. Bunu görən oxçuların çoxu qənimət tamahı ilə mövqelərini tərk edir. Bu zaman Xalid ibn Vəlidin başçılığı ilə pusquda durmuş dəstə dağın digər tərəfindən fırlanıb İslam ordusuna arxadan hücum edir. Bu döyüşdə müsəlmanlar məğlub oldular, müşriklər isə qələbəni qapdılar. Müsəlmanların çox qaçdı, Əlinin (ə) başçılıq etdyi az bir dəstə

Peyğəmbəri (s) qorudu. Sonda bir dəstənin Peyğəmbərin (s) əmrindən çıxması müsəlmanların məğlubiyyətinə səbəb oldu. Müsəlman qoşunu yetmiş nəfər itki və çoxlu sayda yaralı ilə Mədinəyə geri döndü[284].

[284] Əl-mizan, c.4, səh.11; Nümunə, c.3, səh.85

122. Aranızdan iki dəstənin zəiflik göstərmək (və geri çəklmək) qərarına gəldiyi, Allahın isə onlara yardım göstərdiyi (fikirlərindən daşınmaqda yardım göstərdiyi) vaxtı xatırla. Möminlər yalnız Allaha təvəkkül etməlidirlər!

123. Zəif olduğunuz halda, Bədrdə Allah sizə yardım göstərdi (sizi təhlükəli düşmən üzərində qalib etdi). Nemətinə şükür etmək üçün Allahdan qorxun! (Düşmən qarşısında Allah rəsulunun əmrindən çıxmayın)

124. Həmin vaxt sən möminlərə deyirdin: “Rəbbinizin üç min mələk endirərək imdadınıza yetişməsi sizə kifayət etməzmi?”

125. Bəli, əgər (bu gün də) dözümlülük göstərib təqvalı olsanız, onlar qəzəblə üstünüzə gəldikləri zaman Rəbbiniz artıq beş min nişan və əlaməti olan mələklə sizə yardım edər.

126. Allah bunu sizin üçün məhz müjdə olaraq və qəlbləriniz rahatlansın deyə etdi. Kömək ancaq yenilməz qüdrət, hikmət sahibi olan Allahdandır.

127. (Allahın sizə verdiyi bu vəd) kafirlər ordusunun bir hissəsini məhv etmək (döyüş meydanında kəsib-doğramaq) və ya məyus və naümid qayıtsınlar deyə xar etmək üçündür.

128. Sənin (kafirləri və döyüşdən qaçan möminləri əfv etmək) səlahiyyətin yoxdur. Onlar zalım olduqları üçün onları yalnız Allah bağışlaya və ya cəzalandıra bilər.

129. Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. O, istədiyini bağışlayar, istədiyini cəzalandırar. Allah bağışlayandır, rəhm edəndir!

130. Ey iman gətirənlər! Sələmi qat-qat artırıb yeməyin. Allahdan qorxun ki, nicat tapasınız!

131. Kafirlər üçün hazırlanmış oddan çəkinin!

132. Allaha və peyğəmbərə itaət edin ki, bağışlanmış olasınız!

---

122. Zəiflik göstərən iki tayfa: Tarixi mənbələrin yazdığına görə bu ayədə Ous qəbiləsindən olan Bənu Sələmə, Xəzrəc qəbiləsindən olan Bənu Harisə tayfalarına işarə edilmşdir. Onlar döyüşləri şəhərin daxilində keçirilməsini təklif etmiş, Peyğəmbər (s) isə bu təkliflə razılaşmamışdı. Bundan əlavə, daha öncə də qeyd etdiyimiz kimi, Abdullah ibn Übəyy İslam qoşunlarına qoşulmuş üç yüz nəfər yəhudi ilə Mədinəyə qayıtmışdı. Bu iki məsələ iki müsəlman tayfasının döyüşmək fikrindən yayınmasına səbəb olmuşdu. Amma ayədən göründüyü kimi, onlar tezliklə öz qərarlarından daşınmış müsəlmanlarla olan əməkdaşlıqlarını davam etdrmişlər[285].

123. Mələklərin yardımı: Bədr döyüşündə kafirlərlə müqayisədə müsəlmanların sayı az idi. Tarixi mənbələrin yazdığına görə müsəlmanların sayı 313 nəfər olmuşdur. Müsəlman döyüşçülərin atları və qılıncları da sayca az olmuşdur. Halbuki düşmən qoşunu silah-sursatla tam təchiz edilmiş min nəfər döyüşçüdən ibarət olmuşdur. Allah müsəlmanlara bir neçə vasitə ilə yardım göstərmişdir: düşmənlərin qəlbində qorxu və həyəcan yaratmaq, ikinci, möminlərin qəlblərini gücləndirməklə və sair. Allahın Bədr döyüşündə müsəlmanlara etdiyi qəribə köməklərdən biri mələkləri

---

[285] Nümunə, c.3, səh.86

göndərmək olmuşdur[286]. Quran ayələrindən belə başa düşülür ki, mələklərin əsas vəzifəsi müsəlmanlarda müharibəyə qarşı ruh yüksəkliyi yaratmaq, döyüş əzmkarlığı yaratmaq olmuşdur[287].

130. Sələmin tədricən qadağan edilməsi: Quranın sosial sapmalarla mübarzə zamanı tətbiq etdiyi metodda insanlara öncə yanlış əməl və davranışın zərər və ziyanları göstərilir, bundan sonra həmin əməl qadağan edilir. Bu metoddan cəmiyyətdə günah və çirkinlik daha çox yayıldığı zaman istifadə edilir. Sələm cahiliyyət dövrünün ərəbləri arasında geniş vüsət almış və bir çox bədbəxtliklərin mənbəyi olan ictimai günahlardan idi. Buna görə də sələmin kökünü kəsmək üçün Quranda bu əməl dörd mərhələ üzrə qadağan edilmişdir: 1-ci mərhələ: "Rum" surəsinin 39-cu ayəsində sələmlə bağlı tövsiyyə xarakterli bir göstəriş yer almışdır: ***"Xalqın mal-dövləti hesabına artması üçün sələmə verdiyiniz malın Allah yanında heç bir artımı olmaz. Allahın razılığını qazanmaq üçün verdiyiniz sədəqə (zəkat) isə belə deyil. Bunu edənlər qat-qat artıq mükafat əldə edərlər!"*** 2-ci mərhələ: "Nisa" surəsinin 161-ci ayəsində yəhudilərin yanlış adət-ənənələri tənqid edilərkən onların çirkin sələm adətlərinə də işarə edilir: ***"Qadağan etməyimizə baxmayaraq, onların davam etdrdikləri pis adətlərindən biri sələm yemək idi."*** 3-cü mərhələ: "Bəqərə" surəsinin 275-279-cu ayələrində sələmin istənilən forması qadağan edilmiş, Allah və Peyğəmbərə (s) qarşı müharibə aparmaq kimi dəyərləndirilmişdir. 4-cü mərhələ: "Ali-İmran" surəsinin bu ayəsində sələmin haramlığı açıq şəkildə elan edilmiş, onun təkcə şiddətli və aşkar növündən söhbət açılmışdır. Aşkar sələm deyilərkən sərmayənin sələm istiqamətli proqressiv (irəliyə hərəkət) artımı nəzərdə tutulur. Yəni birinci mərhələdə mənfəət sərmayəyə əlavə edilir və

[286] Ətyəbül-bəyan, c.3, səh.335
[287] Nümunə, c.7, səh.105

ümumilikdə sələm predmetinə çevrilir. Bu minvalla mənfəət hər mərhələdə sərmayəyə əlavə edilib yeni sərmayə təşkil edir. Nəticədə, qısa müddət ərzində toplanan faiz ümumilikdə borclunun borcunun bir neçə dəfəyə qədər artmasına və onun tamamilə müflis olmasına səbəb olur. Tarixi mənbələr və hədislərdən bizə çatan məlumatlardan belə məlum olur ki, cahiliyyət dövründə əgər borclu müddət tamamlandıqdan sonra borcunu ödəyə bilməsəydi, borc sahibindən sərmayəni və onun fazini birlikdə yeni sərmayə formasında ona borc verməyi və həmin yeni formanın faizini almasını təklif edirmiş. Müasir dünyamızda da bu qəddar sələm forması geniş yayılmışdır[288]. Peyğəmbər (s) buyurmuşdur: ***"Allah sələm yeyən adamın qarnına yediyi sələm qədər Cəhənnəm odu doldurar. Əgər sələmlə sərvət əldə etsə, Allah onun heç bir əməlini qəbul etməz, faizdən bir karatı qalana qədər Allah və mələklərinin davamlı lənəti içində olar."***[289]

133. Rəbbinizin məğfirətinə və genişliyi göylərlə yer üzü qədər olan, müttəqilər üçün hazırlanmış Cənnətə tələsin -

[288] Nümunə, c.3, səh.106
[289] Səfinətül-bəhar, c.3, səh.296

134. (ey) imkanlı vaxtalarında da, yoxsul vaxtlarında da Allah yolunda xərcləyən, qəzəblərini udan, insanların günahlarından keçən şəxslər! Allah yaxşılıq edənləri sevər.

135. (ey) günah iş gördükləri, yaxud özlərinə zülm etdikləri zaman Allahı yada salıb günahlarının bağışlanmasını istəyən, (Günahları Allahdan başqa kim bağışlaya bilər ki?) bilərəkdən günah etməkdə israrlı olmayan şəxslər!

136. Onların mükafatı öz Rəbləri tərəfindən bağışlanmaq və ağacları altından çaylar axan Cənnətlərdir ki, orada əbədi qalacaqlar. Yaxşı işlər görənlərin mükafatı nə gözəldir!

137. Sizdən əvvəl ənənələr olmuşdur (Hər bir xalqın taleyi onun gördüyü işlərə və adət-ənənələrinə uyğun olmuşdur. Siz də onlar kimisiniz). İndi yer üzünü gəzin və (Allahın ayələrini) təkzib edənlərin aqibətinin necə olduğunu görün!

138. Bu, bütün insanlar üçün bir izah, müttəqilər üçün isə hidayət (doğru yolu göstərən) və nəsihətdir.

139. Məyus və qəmgin olmayın. Əgər imanınız olsa, siz qalibsiniz!

140. Əgər siz (Ühüd müharibəsində) yara aldınızsa, o biri (kafir) dəstə də (Bədr müharibəsində) eyni cür yara aldı. Biz bu günləri (qələbə və məğlubiyyəti) insanlar arasında növbə ilə dəyişdiririk ki, Allah iman gətirən şəxsləri (başqalarından) ayırd etsin və içərinizdən şəhidlər (şahidlər) seçsin. Allah zülmkarları sevməz!

---

133. Cənnət və Cəhənnəm indi də mövcuddurmu? Bu ayəni oxuduqda ortaya belə bir sual çıxa bilər: Cənnət və Cəhənnəm yaradılmış və hal-hazırda mövcuddur, yoxsa sonradan, insanların əməlləri nətcəsində meydana gələcək? Digər tərəfdən, ayədə “Cənnətin genişliyi yer və göylər qədərdir”, -

deyə buyurulur. O zaman behişt haradadır? Əksər İslam alimləri ayələrə və hədislərə əsaslanaraq Cənnət və Cəhənnəmin hal-hazırda mövcud olduğu, bu dünyanın daxlində və bətnində olduğu qənaətindədirlər. Biz səmanı, yeri və müxtəlif planetləri görürük, amma bu dünyanın batinində olan aləmləri görmürük. Əgər fərqli gözə və dərkə malik olsaydıq, onu görə bilərdik. Məsələn, bir çox dalğalar beş hiss üzvü ilə dərk edilə bilməsə də, xüsusi cihazlar vastəsilə tutula bilir. Bəziləri bu sualı cavablandırarkən bildirirlər ki, axirət aləmi, Cənnət və Cəhənnəm bu aləmi əhatə edir və bu aləm onun bətnindədir. Bu, körpənin öz anasının bətnində onu əhatə edən kainatdan xəbərsiz olmasına bənzəyir. Biz də bizi əhatə edən aləmdən xəbərsizik. İnsan müqayisə etmək üçün bu yer və göydən daha böyük və daha geniş varlıq tanımadığı üçün Quran Cənnətin əzəmət və genişliyini göy və yerin genişliyinə bənzətmişdir. Belə ki, əgər ana bətnində olan uşaqla söhbət etmək istəsək, onunla elə təmas yaratmalıyıq ki, onun üçün başa düşülən olsun[290]. Hər halda, Cənnət o qədər böyükdür ki, İmam Sadiq (ə) buyurmuşdur: ***"Cənnətin xoş ətri min illik məsafədən hiss olunur. Əgər insanlar və cinlər Cənnətin ən aşağı dərəcəsinin sakininin evində qonaq olsalar və o onlara dadlı və ləziz yemək və içməklərdən versə, nemətlərindən azalmaz və əskilməz.***"[291] Deməli, dünyanın bütün sakinləri bir Cənnət sakininin evinə yerləşir. Yəni bütün Cənnət əhli üçün olan Cənnət deyil, təkcə bir Cənnət sakininin evi kainat qədər böyükdür. Bəs ağıllı insan bu əzəmətlikdə dünyanı kiçik dünyaya necə dəyişə bilər?[292]

135. Şeytanın hiyləsinin puça çıxması: İmam Sadiq (ə) buyurmuşdur: ***"Bu ayə nazil olduqdan və tövbə edən günahkarlara bağışlama müjdəsi***

---

[290] Nümunə, c.3, səh.112
[291] Səfinətül-bəhar, c.1, səh.669
[292] Tematik təfsir, c.6, səh.33 və 34

verildikdə İblis çox narahat oldu və bütün silahdaşlarını səsləyib toplantı təşkil etməyə çağırdı. Silahdaşları ondan bu toplantının səbəbini soruşdular. O, bu ayəyə görə narahat olduğunu dilə gətirdi. Silahdaşlardan biri dedi: "Mən insanları filan-filan günaha dəvət etməklə bu ayənin təsirini aradan qaldıra bilərəm." İblis onun təklifini qəbul etmədi. Başqası da oxşar təklif irəli sürdü. İblis onu da qəbul etmədi. Bu əsnada Vəsvasi-xənnas adlı qocaman Şeytan dedi: "Mən problemi həll edərəm" İblis "Necə?", - deyə soruşduqda o dedi: "Mən Adəm övladlarını vəd və arzularla günaha aludə edərəm. Günaha batdıqdan sonra Allahı xatırlamağı və Ona dönüşü onların yadlarından çıxararam." İblis dedi: "Çıxış yolu elə budur" Sonra dünyanın sonuna qədər bu vəzifəni ona tapşırdı."[293]

135. Günahda israrlı olmaq bağışlanma istəyi ilə təzad təşkil edir: Ayənin "günahda israrlı olmayan şəxslər" ifadəsi günahda israrlı olmağın Allahdan bağışlanma istəyi ilə təzad təşkil etdiyini açıq şəkildə göstərir. İmam Sadiq (ə) buyurmuşdur: ***"Günahda israrlı olduğu halda, tövbə edən şəxs oyunbazdır."***[294] İmam Sadiq (ə) başqa bir hədisində belə buyurmuşdur: ***"İsrarla davam etdirilən kiçik günah artıq kiçik sayılmaz, tövbə və bağışlanma ilə tərk edilən günah böyük sayılmaz."***[295]

---

[293] Nümunə, c.3, səh.121
[294] Ətyəbül-bəyan, c.4, səh.362
[295] Əl-Mizan, c.4, səh.26

141. (Bu, həm də) Allahın iman gətirənləri təmizləməsi və kafirləri tədricən məhv etməsi üçündür.

142. Yoxsa Allah içərinizdən cihad edənləri və səbr edənləri ayırd etməmişdən qabaq Cənnətə girəcəyinizimi güman edirsiniz?

143. Siz ölümlə qarşı-qarşıya gəlməzdən əvvəl ölüm (Allah yolunda şəhid olmağı) arzulayırdınız. Sonra onu gördünüz və durub baxdınız. (Onu qəbul etməyə hazır deyildiniz. Danışığınızla əməliniz arasında çox fasilə var).

144. Muhəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər olmuşdur. Əgər o, ölsə və ya öldürülsə, siz gerimi dönəcəksiniz? (İslamdan çıxıb cahiliyyətə və küfr dövrünə qayıdacaqsınız?) Halbuki geri dönən şəxs Allaha heç bir zərər yetirməz. Tezliklə Allah şükür edənlərə mükafat verəcək.

145. Allahın izni olmayınca heç kəsə ölüm yoxdur. Bu, təyin edilmiş bir taledir (Buna görə də Peyğəmbərin (s) və ya başqalarının ölümü ilahi qanundur). Dünya mənfəəti istəyən şəxsə dünya mənfəətindən, axirət savabı istəyən şəxsə isə axirət savabından verəcəyik. Şükür edənləri də tezliklə mükafatlandıracağıq!

146. Çoxlu sayda Allahpərəst insanın birlikdə döyüşdüyü neçə-neçə peyğəmbər olmuşdur. Onlar Allah yolunda çəkdikləri müsibətlərə görə nə zəiflik, nə acizlik göstərmiş, nə də boyun əymişlər. Allah səbr edənləri sevər!

147. Onların: "Ey Rəbbimiz, günahlarımıza və işlərimizdə həddi aşdığımıza görə bizi bağışla! Bizi sabitqədəm və kafirlər üzərində qalib et!!" – deməkdən başqa sözləri olmamışdır.

148. Buna görə də Allah həm dünya nemətlərini, həm də ən gözəl axirət nemətini onlara verdi. Allah yaxşı iş görənləri sevər!

---

141. Həyatın çətinlikləri mömini xalisləşdirir: "Yuməhhisu" mənası bir şeyi qatqılardan təmizlənmək, xalisləşdirmək olan "təmhis" sözündən düzəlmişdir. Allah-taala bu ayədə bəzən insanın xeyrinə, bəzən isə ziyanına olan çətinliklərin nəticələrindən birinə işarə edir. O da bundan ibarətdir ki, insanı qatqılardan və çirkinliklərdən təmizləyir[296]. Bir çox hədis və rəvayətlərdə həyat çətinliklərinin möminin günah və çirkinliklərdən təmizlənməsinə səbəb olduğu qeyd edlmişdir. İmam Əli (ə) buyurmuşdur: ***"Şiələrimizdən olan heç bir bəndə bizim qadağan etdiyimiz bir işi görməz. Əgər görsə, günahlardan təmizlənməsi üçün ölməzdən əvvəl bir bəlaya***

---

[296] Əl-Mizan, c.4, səh.30

düçar olar.” Sonra İmam (ə) insanın can, mal və sair cəhətdən qarşılaşdığı bəzi çətinlikləri sadalayaraq buyurmuşdur: ***“Bu çətinliklər Allahla görüşərkən insanın günahsız olması üçündür. Ola bilər ki, dünyadan köçərkən hansısa bir möminin günahı olsun. Belə olan surətdə onun can verməsi çətinləşər.”***[297]

142. İlahi imtahanlardan uğurla keçmənin mükafatı: Quranın bu və başqa ayələrində İslamın təkcə dildə qəbul edilməsinin yetərsizliyinə işarə edilmişdir. Cənnətə getmək və əbədi xoşbəxtliyə nail olmaq üçün müsəlmanların imtahan olunması, mücahid düz danışanların münafiq yalançılardan seçilməsi lazımdır[298]. Nəzərə almaq lazımdır ki, ilahi imtahanlar tərbiyəvi səciyyə daşıyır. Odun təzyiqi altında xalisləşməsi üçün qızılın qəliblərə tökülməsini, daha da gücləndirmək üçün əsgərlərin ağır işlərə cəlb edilməsii, iradə və dözüm tələb edən məşqlərə məcbur edlməsini buna misal göstərə bilərik. İlahi imtahanlar da belədir, insanı daha dözümlü, ayıq və xalis edir. Bir sözlə, ilahi imtahanlar insanın ruh və cisminin tərbiyə və təkmilləşməsi vasitəsidir[299]. Müxtəlif imtahanlar fərdlərin daxili dünyasını və həqiqi mahiyyətini müəyyənləşdirməyə xidmət edir. Allah-taala bir bəndə vasitəsilə minlərlə bəndəni sınaqdan keçirə bilər. Məsələn, bir nəfərin varlanması ilə həyat yoldaşı, övladlar, qohumlar, dostlar, düşmənlər, qonşular və yoxsullar imtahan edilirlər. Sərvət verlən adam özü də imtahan edilir. O, bu sərvətin şükürünü yerinə yetirib Allah yolunda xərcləyəcəkmi?[300]

145. Şəxsiyyətpərəstlik qadağandır: Döyüş meydanlarından yalanların təbliği və yayılması ruhiyyələrin zəifləməsinə təsir göstərən amillərdəndir.

---

[297] Səfinətül-bəhar, c.1, səh.394
[298] Ətyəbül-bəyan, c.3, səh.371
[299] Quranın ismarışı, c.4, səh.477
[300] Ətyəbül-bəyan, c.3, səh.371

Düşmənlər “Ühüd” döyüşündə bu vasitədən istifadə etmişdilər. Müharibənin qızğın yerində qəfildən “Muhəmmədi öldürdüm...” səsi eşidildi. Müsəlmanların çox hissəsi əl-ayağa düşdü və tələsik döyüş meydanını tərk etdi. Amma Əli (ə), Əbu Dəcanə, Təlhə və sardən ibarət olan fədakar və əzmkar azlıq qalanlarını müqavimət göstərməyə çağırdılar. Bu ayədə həmin hadisəyə işarə edilir və döyüşü tərk edən dəstə ciddi şəkildə məzəmmət edilir. Şəxsiyyətpərəstlik məqsədyönlü mübarizələri təhdid edən ən böyük təhlükələrdəndir. Hətta sonuncu peyğəmbər olsa belə, müəyyən bir şəxsə bağlı olmaq həmin şəxsin itirilməsi ilə inkişafa hədəflənmiş səy və fəaliyyətlərin sona çatması deməkdir. Bu asılılıq sosial inkişafın olmamasının açıq əlamətlərindəndir[301].

[301] Nümunə, c.3, səh.137

149. Ey iman gətirənlər! Əgər kafirlərə itaət etsəniz, onlar sizi geri döndərər və siz də ziyana düşərsiniz.

150. Xeyr, sizin himayəçiniz Allahdır. O, yardım edənlərin ən yaxşısıdır.

151. Heç bir dəlil və sübut olmadan Allaha şərik qoşduqlarına görə tezliklə kafirlərin ürəklərinə qorxu salarıq. Onların yeri Cəhənnəmdir. Zülmkarların yeri necə də pisdir.

152. Allah (Ühüd müharbəsində) öz vədinə sadiq çıxdı. Siz Onun əmri ilə düşmənləri qətlə yetirdiniz. (Bu qələbə) siz zəiflik göstərənə, (mövqelərinizi tərk etmək üstündə) bir-birinizlə mübahisə edənə və istədiyinizi sizə göstərəndən sonra əmrdən boyun qaçırdığınız vaxta qədər (davam etdi). İçərinizdən bəziləri dünyanı, bəziləri isə axirəti istəyirdi. Sonra Allah sizi onları təqib etmək fikrindən daşındırdı. (Qələbənizi məğlubiyyətlə nəticələndirdi ki,) sizi imtahan və sınaqdan keçirsin. O sizi əfv etdi. Çünki Allah möminlərə qarşı mərhəmətlidir!

153. Dağa qalxdığınız və Peyğəmbərin sizi arxadan çağırmasına baxmayaraq, (qorxudan) geridə qalanlara baxmadığınız vaxtı xatırlayın. Əlinizdən çıxan şeylərə (qənimətlərə) və uğradığınız fəlakətlərə görə təəsüf

etməyəsiniz deyə Allah qəminizin üstünə qəm gətirməklə sizi cəzalandırdı. Şübhəsiz ki, Allah gördüyünüz işlərdən xəbərdardır!

---

149. Kafirlərə itaət küfr dolu keçmişə qayıdışdır: Bu və sonrakı bir neçə ayədən məlum olur ki, Ühüd döyüşündən sonra möminlərlə qarşılaşdıqda bəzi kafirlər özlərini xeyirxah kimi göstərərək müsəlmanlara Qüreyş kafirləri ilə müharibə aparmağın bir səhv olduğunu, ümumiyyətlə, müsəlmanların kafirlərlə bacara bilməyəcəklərini deyir, gələcəkdə qarşı-qarşıya gəlməməyi məsləhət görürdülər. Xülasə, onlara təfriqə yaradacaq sözlər danışırdılar. "Ali-İmran" surəsinin 173-175-ci ayələrində bu mövzuya işarə edilmişdir. Sözügedən ayələrdə möminlərin şeytan və şeytansifətlər tərəfindən qorxudulmasından, onların möminləri döyüşlərdən yayındırma cəhdlərindən söhbət açılır. Allah-taala bu ayədə möminləri xəbərdar edir ki, əgər kafirlərin təsrinə düşsələr, geri qalacaq, yenidən küfr və şirkə dönəcəklər[302].

151. Ühüd döyüşündən sonra kafirlərin qorxuya düşməsi: Təfsirçilər yazırlar ki, Ühüd döyüşündən sonra Məkkəyə geri qayıdarkən Əbu Süfyan müşriklərə deyir: "Sağ qalan müsəlmanları öldürməməkdə pis etdik. Gəlin, qayıdaq, Mədinəyə hücum edək və onları da qətlə yetirək." Bu qərara gələr-gəlməz Allah onların qəlbinə dəhşətli bir qorxu saldı. Öz-özlərinə dedilər: "Məhəmməd Ühüddə ölənlərin intiqamını almaq fikrinə düşər, qoşun hazırlayıb bizi məğlub edər." Buna görə də fikirlərindən daşındılar[303]. Hədislərinin birində Peyğəmbər (s) buyurmuşdur: ***"Allahın mənə bəxş etdyi imtiyazlardan biri budur ki, düşmənin qəlbinə qorxu salmaqla məni***

---

[302] Əl-mizan, c.4, səh.44
[303] Ətyəbül-bəyan, c.3, səh.389

onlara qalib edir.” Bu məsələ müharibələrdə qələbənin ən mühüm amillərindən hesab edilir. Bu gün də bu mövzu öz aktuallığını qoruyub saxlayır. Belə ki, əsgərlərin ruh yüksəkliyi qələbəyə onların say və təchizatlardından daha çox təsir göstərir. İslam cihada olan iman və sevgi ruhunu gücləndirməklə, şəhidliyi fəxr saymaqla və qüdrətli Allaha təvəkkül etməyi tövsiyə etməklə öz mücahdlərinə bu ruhiyyəni ən yüksək səviyyədə aşılayır. Halbuki güvənc yerləri iradəsiz və cansız bütlər olan bütpərəstlər ölümdən sonrakı həyata inanmırdılar, xurafat onların fikirlərini bulaşdırmışdı, ruhiyyələri çox zəif idi. Müsəlmanların onlar üzərində qələbə çalmasına səbəb olan amillərdən biri məhz bu ruhiyyə fərqi idi[304].

152. Peyğəmbərin (s) göstərişlərinə əməl etməmək məğlubiyyətə səbəb olur: Tarixi mənbələrin yazdığına görə müsəlmanlar sübh tezdən dağın ətəyinə çatırlar. Peyğəmbər (s) Abdullah ibn Cübeyrə əlli mahir oxçu ilə birlikdə dağ keçidində durmağı göstəriş verir. Onlara israrla, hər nə olursa olsun, yerlərindən tərpənməməyi, müəslman qoşunlarını arxa tərəfdən qorumağı tapşırır. Onlara göstəriş verərkən deyir: “Əgər biz düşməni Məkkəyə qədər, onlarsa bizi Mədinəyə qədər təqib etsələr belə, siz yerinizdən tərpənməyin, mövqelərnizi tərk etməyin.” Lakin İslam ordusunun düşmənləri geri oturtduğunu görən oxçuların bir qismi qənimət tamahı ilə öz mövqelərini tərk edir və Abdullah ibn Cübeyrə qulaq asmır. Bu zaman iki yüz nəfər sayseçmə əsgərlə pusquda durmuş Xalid ibn Vəlid dağı dövrə vurub dağ keçidindən keçərək, İslam ordusuna arxadan hücum edir. Abdullah ibn Cübeyr və mövqelərini tərk etməmiş əsgərlərin müqaviməti isə heç bir fayda vermir və hamısı şəhid olur. Xalid ibn Vəlidin dəstəsi müsəlmanları qəfil yaxalayır və bu hadisə döyüşün taleyinin dəyişməsinə,

---

[304] Nümunə, c.3, səh.149

müsəlmanların məğlub olub döyüş meydanından qaçmasına səbəb olur. Allah-taala bu ayədə Peyğəmbərin (s) döyüşdən əvvəl verdiyi qələbə müjdəsinin doğru olduğunu, məğlubiyyətə onların özlərinin səbəb olduğunu qeyd edir. Peyğəmbərin (s) göstərişlərinə tabe olduqları müddətdə qələbə onların əlində idi, yalnız o zaman məğlub oldular ki, itaətszlik göstərdilər[305].

154. Bu qəm-qüssədən sonra Allah sizə rahatlıq göndərdi. Xəfif bir yuxu şəklində gələn bu rahatlıq sizin bir qisminizi sardı. O biri qisminiz isə ancaq öz canlarının hayına qalaraq: "Qələbənin bizə xeyri varmı?" – deyə

[305] Nümunə, c.3, səh.136

Allaha qarşı haqsız yerə, cahiliyyətə xas olan düşüncələrə qapıldılar. De: “Bütün işlər (qələbələr) Allahın əlindədir.” Onlar ürəklərində sənə açıb demədikləri şeyləri gizlədərək: “Əgər bizim qələbədə payımız olsaydı, burada öldürülməzdik”, - deyirlər. De: “Əgər siz evlərinizdə olsaydınız belə, alınlarına ölüm yazılmış kəslər yenə çıxıb əbədi yatacaqları yerlərə gedərdilər. Bunlar Allahın ürəklərinizdə olanları yoxlayıb aşkara çıxartması və qəlblərinizdə olanları təmizləməsi üçündür. Allah ürəklərinizdə olanlardan xəbərdardır.”

155. (Ühüd müharibəsində) iki ordunun qarşılaşdığı gün qaçanları Şeytan düçar olduqları bəzi günahlar sayəsində yoldan çıxardı. Allah onları bağışladı. Allah bağışlayandır, həlimdir!

156. Ey iman gətirənlər! Səfərə və ya müharibəyə getmiş qardaşları haqqında: “Əgər onlar bizim yanımızda olsaydılar, nə ölər, nə də öldürülərdilər”, - deyən kafirlər kimi olmayın! (Qoyun) Allah bunu onların qəlbində həsrətə çevirsin[306]. Dirildən də, öldürən də Allahdır. Allah etdiyiniz əməlləri görəndir!

157. Əgər Allah yolunda öldürülsəniz və ya ölsəniz, Allahın rəhmi onların (bütün ömürləri boyu) topladıqlarından yaxşıdır.

---

154. Ühüd döyüşündən sonrakı gecə: Ühüd döyüşündən sonrakı gecə iztirablı və ağrılı gecə olmuşdur. Müsəlmanlar Qüreyşin qalib əsgərlərinin yenidən Mədinəyə qayıdacağını və müsəlmanların sonuncu müqavimətini

---

[306] Kafirlərin ürək yanğısı donuna bürüdükləri bu sözlər müsəlmanları ruhiyyədən salmaq üçün idi. Müsəlmanlar da bu cümlələrdən tez-tez istifadə edəcəkləri təqdirdə ruhiyyələri zəifləyəcək və döyüşlərdən yayınacaqdılar və beləcə onlar öz məqsədlərinə nail olacaqdılar. Allah müəslmanlara göstəriş verir ki, bu sözləri deməsinlər və böyük ruh yüksəkliyi ilə müharibəyə getməklə münafiqlərin arzusu ürəklərində həsrətə çevrilsin və bu həsrət həmişəlik qalsın (tərcüməçi)

qıracaqlarını proqnozlaşdırırdılar. Bəlkə də bütpərəstlərin qayıtmaq qərarı ilə bağlı xəbər onlara çatmışdı. Əgər qayıtsaydılar, şübhəsiz ki, döyüşün ən təhlükəli mərhələsi baş verəcəkdi. Bu əsnada Ühüddən qaçdıqlarına görə peşiman olan, Allahın lüfkarlığına sığınan, Peyğəmbərin (s) gələcək vədlərinə əmin olan tövbəkar və həqiqi mücahidlər bu qorxu və iztirablara, əyinlərindəki döyüş paltarlarına və silahlarına baxmayaraq, rahat idilər. Münafiqlər, imanı zəif olanlar və qorxaqlar fikir və narahatçılıqdan gecə yata bilməmiş, çarəsizlikdən həqqi möminlərə keşikçilik etmişdilər. Bu ayədə həmin gecə baş verənlər haqqında məlumat verilmişdir[307].

154. Bəzi müsəlmanların başında şirkə bulaşmış fkirlər hələ də qalmaqda idi: Təfsirçilər ***"Allaha qarşı haqsız yerə, cahiliyyətə xas olan düşüncələrə qapıldılar"*** cümləsini şərh edərkən qeyd ediblər ki, İslamı təzəcə qəbul etmiş, Quranın təbirncə desək, ***"öz canlarının hayında olan"*** bəzi müsəlmanlar İslamdan əvvəl, cahilyyət və bütpərəstlik dövründə məişət təminatı, həyat və ölüm, sevgi, müharibə, insanlar, göylər, yer və sairənin hər birinin bir rəbbi və idarəedicisi olduğuna, Allahın həmin işlərin tamamilə bunların xtiyarına verdiyinə, onların öz iradələrində qətiyyətli olduqlarına, istədiklərini etdiklərinə inanırdılar. Bütpərəstlər bu Allahlara öz xoşbəxtliklərinə qovuşmaq, bədbəxtlikləri özlərindən uzaq etmək üçün ibadət edirdilər. Allahı isə bu Allahların rəbbi, böyük şah hesab edirdilər. Allahların hər biri öz yaratdıqlarını onların ən böyüyünün ixtiyarına vermiş, onu tam səlahiyyət sahibi etmişdi. Həmin məxluq öz nüfuz darəsində istədiyini edə bilərdi. Bu müşriklər iman gətirdikdən sonra haqq dinin zahirən inkişaf etdiyini, Peyğəmbərin (s) isə öz çağırışlarında məğlub olmayacağı və ya öldürülməyəcəyini, ölməyəcəyini güman edirdilər. İslamı

---

[307] Nemunə, c.3, səh.155

təzəcə qəbul etmiş bu bütpərəst müsəlmanların Allahın bənzəri, bu bənzərlərdən birinin Peyğəmbər (s), Peyğəmbərin (s) rəbb olması, Allahın düşmənlər üzərində qələbə çalmağı və qənimət toplamağı ona həvalə etməsi ilə bağlı düşünmələri həmin cahiliyyət dövrünün inanclarından qaynaqlanırdı. Halbuki biz Allahın tək olduğunu, heç bir şərikinin olmadığını, bütün işlərin Onun əlində olduğunu, heç kəsin ixtiyarının öz əlində olmadığını bilirik. Buna görə də növbəti ayədə (***De: "Bütün işlər Allahın əlindədir"***) qeyd olunan bulaşıq təfəkkür tərzinə cavab verilmişdir[308].

157. Allah yolunda öldürülmək: Bu ayədə Allah yolunda edilən bütün səfərlərdən bəhs edilir. Allah yolunda cihad və döyüşməyi, dini təhsil almağı, Həcc ziyarətini, digər ziyarətləri və sair üçün edilən səfərləri buna misal göstərə bilərik. Belə ki, Allah-taala "Nisa" surəsinin 100-cü ayəsində belə buyurmuşdur: ***"Kim evindən çıxıb Allaha və onun Peyğəmbərinə tərəf hicrət etsə, sonra isə ölüm onu haqlasa, həmin şəxsin mükafatını Allah Özü verər! Allah bağışlayandır, rəhm edəndir!"***[309]

[308] Əl-mizan, c.4, səh.49
[309] Ətyəbül-bəyan, c.3, səh.404

158. Ölsəniz də, öldürülsəniz də, mütləq Allahın hüzuruna toplanacaqsınız! (Deməli, sonunuz puçluq və fanilik olmaycağı üçün fanilik qorxunuz olmasın.)

159. Allahın mərhəməti səbəbilə sən onlara qarşı mülayim davrandın. Əgər qaba və daşürəkli olsaydın, ətrafından dağılışıb gedərdilər. Artıq sən onları əfv et, onlar üçün (Allahdan) bağışlanmaq dilə, işlərdə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevər!

160. Əgər Allah sizə yardım etsə, heç kəs sizə qalib gələ bilməz. Yox, əgər sizə olan yardımını saxlasa, Ondan sonra sizə kim kömək edə bilər? Möminlər təkcə Allaha təvəkkül etsinlər!

161. (Peyğəmbərin sizə xəyanət etdiyini düşünürdünüz? Halbuki) heç bir peyğəmbər xəyanət etməz. Əmanətə xəyanət edən şəxs, Qiyamət günü

xəyanət etdiyi şeyi özü ilə gətirər. Sonra isə hər kəsə gördüyü işlərin əvəzi tam şəkildə verilər və onlara haqsızlıq edilməz!

162. Allahın razılığını qazanmaq üçün çalışan şəxs Allahın qəzəbinə düçar olmuş şəxs kimi ola bilərmi? Onun (qəzəbə düçar olanın) yeri Cəhənnəmdir. Onun aqibəti çox pisdir!

163. Onların Allah yanında dərəcələri vardır. Allah onların etdiyi işləri görəndir.

164. Allah möminlərə onların öz içərisindən Allahın ayələrini onlara oxuyan, onları (pis əməllərdən) təmizləyən, Kitabı (Quranı) və hikməti onlara öyrədən bir peyğəmbər göndərdiyi vaxt böyük bir nemət bəxş etdi. Halbuki bundan əvvəl onlar açıq-aydın zəlalət içərisində idilər.

165. Siz (Bədr müharibəsində) onları ikiqat müsibətə düçar etdiyiniz halda, (Ühüd müharibəsində) başınıza müsibət gəldiyi zaman: "Bu, haradan gəldi?" – dediniz. Söylə: "Bu sizin özünüzdəndir". Həqiqətən, Allah hər şeyə qadirdir!

-

159. Peyğəmbərin (s) gözəl əxlaqı: Bu ayədə Peyğəmbərin (s) gözəl əxlaqından bəhs edilir. Peyğəmbərin (s) malik olduğu əxlaq onun ağıl və düşüncənin həqiqətinə varıb səciyyələndirə bilmədiyi möcüzələrindəndir. Həqiqətən də İslamın əsl inkişaf səbəblərindən biri Peyğəmbərin (s) gözəl əxlaqı olmuşdur. Deyilənə görə İslamın inkişafına üç amil səbəb olmuşdur: Xədicənin (ə) malı, Əlinin (ə) qılıncı, Peyğəmbərin (s) əxlaqı. İslam peyğəmbərinə (s) ən yaxın adamlardan olan İmam Əli (ə) onu belə səciyyələndirmişdir: ***"Onun gözəl əxlaqına və yerli-yerində olan davranışlarına baxmaq həqiqət axtarışında olan düşüncə sahibi üçün yetərli dərəcədə parlaq bir dəlildir. Səbr, dözüm, təbəssüm, təvazökarlıq,***

səhvə yol verən adamın səhvini görməzdən gəlmək, yoxsullara qarşı mehriban olmaq, kasıblara köməklik, çətinliklərə dözmək, bəyənilən səciyyələrin cəmlənməsi, dünyaya qarşı ehtyacsızlıq, dünyadan üz döndərmək, çoxlu-çoxlu ehsan və yaxşılıqlar etmək, cəsur və şücaətli olmaq, günü aclarla keçirmək, acından qarnına daş bağlamaq, başqasının dəvətini qəbul etmək, qullar kimi yemək yemək, insanlar arasında onlardan biri kimi gəzmək, ayaqları vərəmləyənə qədər ibadət etmək, saysız-hesabsız, saymaqla bitməyən digər gözəl xüsusiyyətlər ona aid olan davranışlar idi.”[310]

159. Məşvərət və məsləhət: Təfsirçilər “İşlərdə onlarla məslhətləş” cümləsini təfsir edərkən bildirirlər ki, bu göstəriş ona görə idi ki, Peyğəmbər (s) Ühüd döyüşündən əvvəl düşmənlə necə qarşılaşmaq haqqında öz səhabələri ilə məsləhətləşdi. Əksəriyyətin rəyinə əsasən düşərgənin Ühüd dağının ətəyində qurulması qərarına gəldilər. Bu rəy istənilən effekti vermədiyi üçün çoxları hesab etdi ki, Peyğəmbər (s) gələcəkdə kiminlə isə məsləhətləşməməlidir. Quran qeyd olunan təfəkkür tərzinə cavab verir və bəzi məqamlarda ziyanlı olacağına baxmayaraq, yenə də məsləhətləşməyi göstəriş verir. Çünki ümumilikdə məsləhətləşmənin faydaları ziyanlarından çoxdur. Onun fərdi və ictimai inkişafı, fərdin şəxsiyyətinin formalaşmasına göstərdiyi təsir hər şeydən üstündür. Ümumiyyətlə, İslam məsləhətləşməyə xüsusi önəm verir. Baxmayaraq ki, səmavi vəhyə əsaslandığı, güclü təfəkkürə malik olduğu üçün Peyğəmbərin (s) məsləhətləşməyə ehtiyacı yox idi, ancaq həm müsəlmanların diqqətini məsləhətləşmənin əhəmiyyətinə yönəltmək, məsləhətləşmənin onların həyatlarının əsas proqramına çevirmək, həm də onlarda fikir və mühakimə gücünü inkişaf etdirmək üçün

---

[310] Ətyəbül-bəyan, c.3, səh.406

müsəlmanların qanunverici deyil, qanunların icrası kontekstinə aid olan ümumi məsələlərində onlarla məsləhətləşirdi. Peyğəmbər (s) fikir və rəy sahibi olanlara xüsusilə dəyər verrdi. Peyğəmbər (s) Ühüd müzakirəsində belə buyurmuşdur: ***"Rəhbərləriniz yaxşılarınız, sərvətliləriniz səxavətliləriniz olsa, işləriniz məsləhət və məşvərətə əsaslansa, yerin üstü sizin üçün yerin altından yaxşı olar. Yox, əgər rəhbərləriniz pislər, varlılarnız simiclər olsa, işləriniz məsləhət və məşvərətə əsaslanmasa, yerin altı sizin üçün yerin üstündən yaxşı olar."***[311]

161. Dünya malı müsəlmanların Ühüd müharibəsindəki məğlubiyyətinin səbəbidir: Bəzi təfsirçilər qeyd edirlər ki, bu ayə Ühüd döyüşündə iştirak etmiş döyüşçülərin bəzi əsassız üzrxahlıqlarına cavab vermişdir. Belə ki, Ühüdün bəzi oxçuları həssas mövqelərini qənimət toplamaq niyyəti ilə tərk etmək istədikdə komandirləri onlara yerlərindən tərpənməməyi əmr edir və Allah rəsulunun onları qənimətdən məhrum etməyəcəyini deyir. Lakin bu dünyapərəstlər öz həqiqi simalarını gizlətmək üçün "Biz qorxuruq ki, qənimətlərin bölgüsü zamanı bizi diqqətdən kənarda qoysun. Buna görə də özümüzə qənimət çırpışdırmalıyıq", - deyə cavab verirlər və öz mövqelərini tərk edib qənimət toplamağa başlayırlar. Nəticədə, acı hadisələr baş verir[312].

[311] Nümunə, c.3, səh.166-169
[312] Nümunı, c.3, səh.175

166. İki dəstənin (müsəlman və kafirlərin) qarşılaşdığı gündə (Ühüd günü) başınıza gələn Allahın əmrilə (ilahi ənənəyə uyğun olaraq) baş verdi. Bu, möminləri ayırd etmək üçün idi.

167. Bu, həm də münafiqin tanınması üçün idi. Onlara: “Gəlin Allah yolunda vuruşun, yaxud sizə aid olanı müdafiə edin! – deyildikdə onlar: “Əgər döyüş olacağını bilsəydik, sizin ardınızca gələrdik (amma bilirik ki, olmayacaq)” – deyə cavab verdilər. Onlar o gün imandan çox küfrə yaxınlaşmışdılar, ürəklərində olmayan şeyi dilləri ilə deyirlər. Allah onların gizlətdiklərini çox yaxşı bilir!

168. (Yardım əlini uzatmaqdan imtina etdikləri) qardaşları haqqında: “Əgər onlar sözümüzə qulaq assaydılar, öldürülməzdilər”, - deyənlərə söylə: “Əgər doğru deyirsinizsə, onda ölümü özünüzdən uzaqlaşdırın!”

169. (Ey Peyğəmbər!) Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Əksinə, onlar diridirlər. Onlara Rəbləri yanında ruzi əta olunur.

170. Onlar Allahın Öz mərhəmətindən bəxş etdiyi nemətlərə görə şaddırlar, arxalarınca gəlib hələ onlara çatmamış (gələcək mücahid və şəhidlər) kəslərin heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə sevinirlər.

171. Onlar Allahdan gələn nemət və mərhəmətə görə, həm də Allahın möminlərin mükafatını puça çıxarmayacağına görə məmnundurlar.

172. Yaralandıqdan sonra Allahın və Peyğəmbərin dəvətini qəbul etmiş şəxslərdən yaxşı işlər görüb təqvalı olanlarını böyük bir mükafat gözləyir!

173. Bunlar o adamlardır ki, insanlar onlara: “Camaat sizə qarşı toplanmışdır, onlardan qorxun!” - dedikdə, (bu söz) onların imanını daha da artırdı və onlar: “Allah bizə yetər və O, ən yaxşı himayəçidir!” – deyə cavab verdilər.

169-171. Şəhidin məqam və əzəməti: İmam Sadiqə (ə) istinad edilən bir hədisdə bu ayələrin Bədr və Ühüd şəhidləri haqqında nazil olduğu qeyd edilmişdir. Allah-taala Ühüd şəhidlərinin ruhuna xitabə edərək “***Nə arzunuz var?***”- deyə soruşdu. Onlar “İlahi, bizim bundan böyük nə arzumuz ola bilər ki? Sənin əbədi nemətlərinə qərq olmuşduq, Sənin ərşinin kölgəsində məskunlaşmışıq. Bizim yeganə istəyimiz budur ki, yenidən həyata qayıdıb yenidən şəhid olaq”, - deyə cavab verdilər. Allah buyurdu: “***Mənim dəyişməz əmrimə əsasən heç kəs ikinci dəfə dünyaya qayıda blməz.***” Dedilər: “İndi ki, belədir, onda salamımızı Peyğəmbərə (s) çatdır, haqqımızda salamat qalanlara danış və onlara Sənin bizdən, bizim isə Səndən razı qaldığımızı de.” Bundan sonra “Ali-İmran” surəsinin 169-171-ci ayələri nazil oldu.

Hər halda, belə nəticəyə gəlirik ki, imanları zəif olanlar Ühüd hadisəsindən sonra Ühüddə şəhid olan dostlarına və yaxınlarına görə təəssüflənir, onların ölməsindən və məhv olmasından narahat olurdular. Xeyir əldə etdikləri və onların yerlərini boş gördükləri zaman daha çox narahat olur və öz-özlərinə deyirdilər: “Biz bu cür naz-nemət içindəyik, amma qardaşlarımız və övladlarımız qəbirlərdə yatırlar, əlləri hər şeydən

üzülüb.” Bu sözlər yanlış olması və reallıqdan uzaq olması ilə yanaşı salamat qalanların ruhiyyəsinə də mənfi təsir göstərirdi. Bu ayələr həmin fikrilərin üzərindən bir xətt çəkdi, şəhidlərin uca və üstün məqama layiq görüldüklərini bəyan etdi. “Buradakı həyat” deyilərkən, öldükdən sonra ruhların malik olduqları Bərzəx həyatı nəzərdə tutulur. Baxmayaraq ki, öldükdən sonra yaşamaq təkcə şəhidlərə aid deyil, sadəcə, şəhidlər çox yüksək həyata, növbənöv mənəvi nemətlərlə müşayiət olunan həyata malik olduqları üçün Bərzəxin digər sakinlərinin yaşayışı onların yanında çox aşağadır. İmam Rzanın (ə) İmam Əliyə (ə) istinad etdiyi məlumatda belə qeyd edilmişdir: İmam Əli (ə) xütbə oxuyur, camaatı cihada həvəsləndirirdi. Bu vaxt ayağa qalxan bir gənc “Ey möminlərin əmiri, mənə Allah yolunda döyüşənlərin üstünlüklərindən danış” - deyə müraciət etdi. İmam Əli (ə) buyurdu: ***“Zatüs-səlasil” döyüşündən qayıdırdıq. Mən Peyğəmbərin (s) arxasında o cənabın miniyinə minmişdim. Eyni sualı mən Peyğəmbərdən (s) soruşdum. O buyurdu: “Mücahidlər döyüş meydanında döyüşmək qərarına gələndə Allah Cəhənnəmdən azad olmanı onlara vacib edir, əllərinə silah alıb döyüşə hazırlaşdıqda mələklər onların varlığı ilə fəxr edirlər. Həyat yoldaşları, övladları və yaxınları onlarla vidalaşdıqda günahlarından xilas olurlar... Bundan sonra gördükləri elə bir iş yoxdur ki, mükafatlandırılmasınlar. Hər gün üçün min abidin etdiyi ibadətin mükafatı onlara yazılır.... Düşmənlə qarşı-qarşıya gəldikləri vaxt qazandıqları savabın miqyasını dünya əhalisi dərk edə bilməz. Döyüş meydanına ayaq basdıqda, nizələr və oxlar atılmağa başladıqda, təkbətək döyüşlərə start verildikdə mələklər öz qanadları ilə onları dövrəyə alır və Allahdan onların sabitqədəm olmasını istəyirlər. Bu vaxt çarçı car çəkərək deyir: “Cənnət qılıncların kölgəsindədir.” Həmin vaxt düşmənin şəhidin bədəninə vurduğu zərbələr yayın istisində içilən sərin sudan daha şirin***

olur. Şəhid miniyindən yıxıldıqdan sonra hələ yerə çatmamış Cənnətin huriləri onu qarşılamağa gəlirlər, Allahın onun üçün hazırladığı maddi və mənəvi nemətlərdən danışırlar. Şəhid yerə uzandığı vaxt yer deyir: "Pak bədəndən qalxan pak ruha salam olsun! Heç bir gözün görmədiyi, heç bir qulağın eşitmədiyi, heç bir insanın təsəvvür edə bilmədiyi nemətlər sənin yolunu gözləyir." Allah buyurur: "Mən onun salamat qalanlarının hamisiyəm. Onları şadlandıran məni şadlandırıb, onları qəzəbləndirən məni qəzəbləndirmişdir..."[313]

[313] Nümunə, c.3, səh.194

174. Buna görə də Allahın neməti və lütfü sayəsində özlərinə heç bir əziyyət toxunmadan geri döndülər və Allahın razılığına tabe oldular. Allah böyük nemət və mərhəmət sahibidir.

175. Bu, yalnız şeytandır ki, öz ardıcıllarını qorxudur. Onlardan qorxmayın! Əgər imanınız varsa, Məndən qorxun!

176. Küfrə tələsənlər səni kədərləndirməsinlər! Onlar Allaha heç bir zərər yetirə bilməzlər, Allah da istər ki, axirətdə onlara heç bir pay verməsin. Onları böyük bir cəza gözləyir!

177. İmanı verib, əvəzində küfrü satın alanlar Allaha heç bir zərər verə bilməzlər. Onları şiddətli bir əzab gözləyir!

178. Küfr edənlər onlara verdiyimiz möhləti heç də özləri üçün xeyirli sanmasınlar! Bizim onlara verdiyimiz möhlət ancaq günahlarını daha da artırmaları üçündür. Onları xaredici bir əzab gözləyir.

179. Allah pisi yaxşıdan ayırmadan möminləri sizin (indi) olduğunuz vəziyyətdə qoyan deyildi. Allah sizi qeyb sirlərindən xəbərdar edən də deyildi (Bu şəkildə möminlərlə münafiqlər məlum olardı. Bu, isə ilahi qanunauyğunluğa ziddir). Lakin, Allah öz elçiləri arasından istədiyi şəxsi seçər (ona rəhbərlik vəzifəsini yerinə yetirmək üçün lazım olan bəzi qeyb sirlərini bildirər). Buna görə də Allaha və Onun peyğəmbərlərinə inanın. Əgər inanıb Allahdan qorxsanız, sizi böyük bir mükafat gözləyir!

180. Allah tərəfindən bəxş olunmuş mal-dövləti sərf etməyə xəsislik edənlər bu əməlin onlar üçün xeyirli olduğunu güman etməsinlər. Xeyr, bu onlar üçün zərərlidir. Tezliklə xəsislik etdikləri şey Qiyamət günü boyunduruq kimi boyunlarına dolanacaq. Göylərin və yerin mirası Allaha məxsusdur. Allah hər bir əməlinizdən xəbərdardır!

---

174. Həmraül-əsəd döyüşü: Bu və əvvəlki iki ayədə Həmraül-əsəd döyüşünə işarə edilmişdir. Ühüd döyüşünün sonunda Əbusüfyanın qalib gəlmiş ordusu sürətlə Məkkə yolunu tutdu. "Ruha" adlanan əraziyə çatdıqda çox peşman oldular, Mədinəyə qayıdıb sağ qalan müsəlmanları da öldürmək qərarına gəldilər. Bundan xəbər tutan Peyğəmbər (s) qoşunun başqa bir döyüşə hazırlanmasına göstəriş verdi. Hətta yaralıların da bu orduya qoşulmasına əmr verdi. Xəbər Qüreyş qoşunlarına çatdıqda müsəlmanların bu müqavimət əzmkarlığından qorxuya düşdülər. Bu əsnada Əbusüfyan ordusunun ruhiyyəsini zəiflədəcək başqa bir hadisə də baş verdi. Mədinədən Məkkəyə səfər edən Möbəd Xəzai adlı bir şəxs Peyğəmbər (s) və səhabələrinin vəziyyətini görüb çox təsirləndi və Peyğəmbərə (s) dedi: "Sizin vəziyyətiniz mənim üçün çox dözülməzdir". Bu sözləri deyib oradan uzaqlaşdı. Ruha ərazisində Əbusüfyanın ordusu ilə rastalaşdı. Əbusüfyan ondan İslam peyğəmbəri (s) haqda soruşdu. O isə belə cavab verdi: "Məhəmmədin böyük bir ordu ilə sizin arxanızca gəldiyini gördüm." Bunu eşidən Əbusüfyan və ordusu qətiyyətlə geri çəkilmək qərarına gəldi. Geri çəkilə bilmək üçün vaxt qazanmaq və müsəlmanları təqib fikrindən yayındırmaq üçün oradan keçib Mədinəyə tərəf getməkdə olan bir dəstə Əbülqeyslidən Peyğəmbərə (s) Əbusüfyan və Qüreyş bütpərəstlərinin böyük bir ordu ilə Mədinəyə tərəf getdiyini və Peyğəmbərin silahdaşlarının qalan hissəsini qırmaq niyyətində olduqlarını deməsini xahiş edirlər. Bu xəbər Peyğəmbərə (s) və müsəlmanlara çatdıqda dedilər: "Allah bizə yetər və O, ən yaxşı himayəçidir." Amma nə qədər gözlədilər, düşmən qoşunlarından bir xəbər çıxmadı. Buna görə də üç gün qaldıqdan sonra Mədinəyə qayıtdılar. Sözügedən ayələrdə bu hadisəyə işarə edilmişdir[314].

---

[314] Nümunə, c.3, səh.301

178. Kafir və günahkarların rifahı zahirdə nemət, batində isə əzabdır: Bu ayə çoxlarının beynindən keçən bir suala cavab verir. Nə üçün zalımlar və günahkar insanların bir qupu bol nemət içində yaşayır, Allahın bəlasına gəlmirlər? Quran buyurur: Bunlar islah olunmayan insanlardırlar, yaranış qanunauyğunluğuna, ixtiyar və iradə azadlığı prinsipinə əsasən öz başlarına buraxılıblar ki, tənəzzülün ən son həddinə çatsınlar və daha ağır cəzalara layiq olsunlar. Bundan əlavə, Quranın bəzi ayələrindən belə məlum olur ki, Allah-taala bəzən belə adamlara çoxlu nemət verir, amma elə bu dünyada daha çox acı çəkmələri üçün qələbə, sevinc və qürur ləzzətinə qərq olduqları zaman qəfildən hər şeylərini alır. Çünki belə bir təmtəraqlı həyatdan ayrılmaq çox ağırdır. Belə ki, Allah-taala "Ənam" surəsinin 44-cü ayəsində belə buyurmuşdur: ***"Onlara edilmiş xəbərdarlığı unutduqları zaman tam şadlanmaları üçün hər şeyin (bütün nemətlərin) qapılarını onların üzünə açdıq. Qəfildən onları yaxaladıq və onlar məyus oldular (ümid qapıları onların üzlərnə bağlandı)."***[315] Hər halda, bilmək lazımdır ki, maddi nemətlərin artması həmişə də insanın xeyrinə olmur. İmam Əli (ə) buyurmuşdur: ***"Ey Adəm övladı, Allah-taalanın sənə ardı-arası kəsilmədən nemət verdiyini, sənin isə itaətsilik etməkdə davam etdiyini gördükdə Onun cəzasından qorx!"***[316]

180. Zəkat verməyənin cəzası: İmam Sadiq (ə) bu ayə haqqında belə buyurmuşdur: "Kim zəkat verməsə, Allah-taala onun malını oddan olan boyunduruqlara çevirər, sonra deyər: ***"Dünyada bu malları əsla özündən uzaq tutmadığın kimi, indi də onları götürüb boynundan as!"***[317] Habelə məsumlardan zəkat verməyən haqqında belə bir hədis rəvayət edilmişdir:

---

[315] Nümunə, c.3, səh.212
[316] Nəhcül-bəlağə, 25-ci hikmət
[317] Nümunə, c.3, səh.219

“Qiyamət günü zəhərli bir ilan zəkat verməyən şəxsin boğazına sarılacaq, insanlar hesab-kitablarını qurtarana qədər onu çalacaq.”[318]

181. “Allah kasıbdır, biz isə ehtiyacsızıq!” – deyənlərin sözlərini Allah eşitdi. Biz onların dediklərini və peyğəmbərləri haqsız yerə öldürdüklərini yazacaq və onlara: “Dadın yandırıcı əzabı!” – deyəcəyik.

182. Bu, sizin öz əllərinizlə gördüyünüz əməllərin nəticəsidir, Allah bəndələrinə əsla zülm edən deyildir!

183. “Allah bizə əmr etmişdir ki, odun (ildırımın) yandıracağı bir qurban gətirməyincə heç bir peyğəmbərə inanmayaq!” – deyənlərə belə cavab ver: “Məndən əvvəl peyğəmbərlər gəlmiş, sizə açıq-aşkar möcüzələr

[318] Ətyəbül-bəyan, c.3, səh.441

və dediklərinizi gətirmişdilər. Əgər doğru danışırsınızsa, bəs nə üçün onları öldürdünüz?"

184. Əgər onlar səni yalançı sayarlarsa (bu, heç də yeni bir şey olmaz)! Çünki səndən əvvəl açıq dəlillər, mətin və möhkəm səhifələr, nur saçan kitab gətirmiş peyğəmbərləri də yalançı saymışdılar.

185. Hər bir kəs ölümü dadacaqdır. Siz Qiyamət günü öz mükafatınızı tam şəkildə alacaqsınız. Oddan uzaqlaşdırılıb Cənnətə daxil edilən şəxslər xilas olacaqlar. Dünya həyatı isə aldadıcı sərmayədən başqa bir şey deyildir.

186. Əlbəttə, siz malınızla və canınızla imtahan ediləcəksiniz. Sizdən əvvəl kitab verilmiş kimsələrdən və müşriklərdən bir çox narahatedici sözlər eşidəcəksiniz. Əgər səbr edib təqvalı olsanız, (daha yaxşıdır, çünki) bu, mühüm və etibarlı işlərdəndir.

---

181. Nə üçün yəhudilər Allahın yoxsul olduğunu düşünürdülər? İmam Sadiq (ə) bu ayə haqqında belə buyurmuşdur: "And olsun Allaha, Allahın yoxsul olduğunu deyənlər Allahı görməyiblər ki, yoxsul olduğunu da bilsinlər. Lakin onlar Allah dostlarının kasıb olduğunu görüb deyirdilər ki, əgər Allah varlı olsaydı, dostlarını da varlı edərdi. Bu səbəbdən də mal-dövlətlərinə görə Allah qarşısında öyünürdülər."[319]

183. Yəhudilərin Peyğəmbərə (s) bəhanələr gətirməsi: Bəzi təfsirçilər yazırlar ki, yəhudilərin ***"odun (ildırımın) yandıracağı bir qurban gətirməyincə"*** fikri həzrət Adəmin (ə) iki oğlunun qurbanlıq hadisəsindən qaynaqlanır. Belə ki, "Maidə" surəsinin 27-ci ayəsində belə buyurulmuşdur: ***"İki qurbanlıq təqdim etdikləri vaxt onların birindən qəbul edildi,***

---

[319] Əl-Mizan, c.4, səh.87

digərindən isə qəbul edilmədi.” Deyilənə görə Habilin qurbanlığının (qoyun) qəbul olunmasının əlaməti onun göydən gələn od vasitəsilə yanması olmuşdur[320]. Daha ətraflı məlumat almaq istəyənlər “Maidə” surəsinin 27-ci ayəsinə müraciət edə bilərlər.

185. Hər kəs ölümü dadacaq: Dadmaq ifadəsi ilə tam şəkildə hiss etməyə işarə edilmişdir. Bəzən insan bir qidanı görür, əli ilə ona toxunur, amma dadmayana qədər onu tam şəkildə hiss etmir. Yaranış sistemində ölüm insan və canlı varlıqlar üçün bir növ qidadır[321]. Deyilənə görə İmam Əli (ə) bir cənazənin arxasınca gedirmiş. Bir nəfərin güldüyünü eşidib buyurur: “Sanki ölüm bizim deyil, başqasının taleyinə yazılıb. Sanki haqq bizdən başqasına vacib olub. Düşünürsən ki, bu gördüyümüz ölülər tezliklə bizim yanımıza qayıdacaq olan qonaqlardır. Onları qəbirlərinə qoyub mallarını yeyirik. Sanki onlardan sonra əbədi qalacağıq...”[322]

185. Cəhənnəmin cazibəsi: “zuhzih” insanın özünü tədricən nəyinsə təsirindən uzaqlaşdırmasına, “faz” isə məhvdən xilas olub məhbuba qovuşmağa deyilir. Cəhənnəm odunun cazibəsindən xilas olub Cənnətə daxil olanlar xilas olub öz məhbublarını tapanlardır. Sanki Cəhənnəm var gücü ilə insanı özünə tərəf cəzb edir. Doğrusu, insanı özünə tərəf çəkən amillərin qəribə bir cazibəsi var[323]. Peyğəmbər (s) buyurmuşdur: “And olsun Allaha, Cənnətdə şallağınızın izi qədər olan yer bütün dünya və onda olanların hamısından yaxşıdır.” Sonra Peyğəmbər (s) bu ayəni oxumuşdur: ***“Oddan uzaqlaşdırılıb Cənnətə daxil edilən şəxslər xilas olacaqlar.”***[324]

---

[320] Ətyəbül-bəyan, c.3, səh.447
[321] Nümunə, c.3, səh.230
[322] Nəhcül-bəlağə, 122-ci hikmət
[323] Nümunə, c.3, səh.231
[324] Əl-mizan, c.4, səh.87

186. Müşriklərin əziyyət verməsi, narahatçılıq yaratması: Bu ayənin nazilolma səbəbindan bəhs edərkən bildirirlər ki, müsəlmanlar Məkkədən Mədinəyə hicrət etdikdən, evlərindən və buradakı həyatlarından uzaq düşdükdən sonra müşriklər onların mallarına təcavüz etdilər. Mədinəyə gəldikdən sonra Mədinə yəhudilərinin tənə və acı sözləri ilə qarşılaşdılar. Xüsusilə Kəb ibn Əşrəf adlı bir yəhudi şairi öz şeirlərində Peyğəmbəri (s) və müsəlmanları təhqr edir, müşrikləri onlara qarşı qaldırırdı. Hətta müsəlman qızlarını və qadınlarını qəzəllərinin, eşqbazlıqlarının mövzusuna çevirirdi. Bu şairin tərbyəsizliyi elə bir həddə çatdı ki, Peyğəmbər (s) onun qətlinə fərman verdi və müsəlmanlar onu qətlə yetirdilər. Hədislərə görə bu ayədə həmin hadisələrə işarə edilmiş və müsəlmanların öz müqavimətlərini davam etdirməsinə stimul verilmişdir[325].

[325] Nümunə, c.3, səh.233

187. (Xatırlayın!) Allah kitab əhlinə: “Siz onu gizlətməyib insanlar üçün aydınlaşdırmalısınız!” – deyə əmr etdiyi zaman onlar buna (kitaba) arxa çevirdilər və onu az bir qiymətə satdılar. Necə də ucuz mal alırlar!

188. Etdikləri (çirkin) əməllərə görə sevinən və görmədikləri işlərə görə tərif olunmağı sevən kimsələrin əzabdan xilas olacaqlarını güman etmə. Onları şiddətli bir əzab gözləyir!

189. Göylərin və yerin hökmü Allaha məxsusdur. Allah hər şeyə qadirdir!

190. Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində (bir-birinin ardınca gəlib-getməsində) ağıl sahibləri üçün (açıq-aşkar) dəlillər vardır.

191. Ayaq üstə olanda da, oturanda da, böyrü üstə uzananda da Allahı xatırlayanlar göylərin və yerin yaradılış sirləri haqqında düşünər (və deyərlər): “Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi Cəhənnəm odunun əzabından qoru!

192. Ey Rəbbimiz! Sən Cəhənnəm oduna atdığın şəxsi xar və rüsvay edərsən və zalımlara kömək edən olmaz!

193. Ey Rəbbimiz! biz: “Rəbbinizə inanın!” – deyə imana dəvət edən carçının çağırışını eşidib iman gətirdik. Ey Rəbbimiz! Günahlarımızı bağışla, təqsirlərimizdən keç və canımızı yaxşı əməl sahibləri ilə bir yerdə al !

194. Ey Rəbbimiz! Öz peyğəmbərlərin vasitəsilə bizə vəd etdiklərini ver və Qiyamət günündə bizi rüsvay etmə! Çünki Sən Öz vədinə xilaf çıxmazsan!”

---

187. Allahın alimlərə din maarifini izah etmək əmri verməsi: Bu ayə kitab əhlinin alimləri haqqında nazil olsa da, Allahın göstərişləri və dini maarifi izah etmək və yaymaq vəzifəsi daşıyan bütün din alimlərinə şamildir. Allah onların hamısına bu məsələ ilə bağlı ciddi tapşırıq verib. Bu ayədəki “təbyin” (izahetmə) sözünə diqqət yetirdikdə məlum olur ki, burada təkcə ayələri oxumaq və səmavi kitabları yaymaq nəzərdə tutulmamışdır, alimlərin vəzifəsi dini həqiqətləri açıq və aydın şəkildə başa salmaq, bütün insanları onlardan xəbərdar etməkdir. Din maarifinin izahında və müsəlmanlara açıqlama verməkdə səhlənkarlıq edənləri Allahın bu ayədə yəhudi alimləri üçün vəd verdiyi aqibət gözləyir. İslam peyğəmbəri (s) buyurmuşdur: ***“Elmi ona ehtiyac duyanlardan gizlədən şəxsin ağzına Qiyamət günü oddan bir yüyən vurulacaq”*** Həsən ibn Əmmara istinad edilən bir məlumatda deyilir: “Bir gün Zühərinin yanına getmişdim. O, camaata hədis deməyi tərk etmişdi. Ona dedim:

- Eşitdiyin hədisləri mənə de.

Dedi:

- Məgər bilmirsən ki, artıq heç kəsə hədis demirəm?

Dedim:

- Ya sən mənə hədis de, ya da mən sənə hədis deyəcəm.

Dedi:

- Sən de!

Dedim:

- Əli (ə) buyurub: "Allah nadanlara öyrənmək əmri verməzdən əvvəl alimlərə öyrətmək əmri vermişdir."

Bu hədisi ona dedikdən sonra susqunluğuna son qoyaraq dedi:

- İndi qulaq as, deyim...

Həmin məclisdə mənə qırx hədis dedi[326].

188. Görülməmiş yaxşı işə görə tərif gözləmək: Hədisçilər və təfsirçilər bu ayənin nazilolma səbəbi ilə bağlı müxtəlif fikirlər qeyd etmişlər. Bu fikirlərin birində qeyd edilir ki, bir qrup yəhudi öz səmavi kitablarını təhrif edib orada olan həqiqətləri gizlədir, bu yolla öz məqsədlərinə nail olduqlarını düşünür, bu əməllərinə görə çox sevinir, eyni zamanda, camaatın onları alim, din himayəçisi və vəzifətanıyan olduqlarını düşünmələrini istəyirdilər. Quranın bu ayəsi onların qeyd olunan yanlış düşüncəsinə cavab verdi. Əlbəttə, bu ayədə təkcə yəhudilər və İslamın ilk illərinn münafqləri nəzərdə tutulmamışdır. Alim hesab edilməsini arzu edən nə çox cahil, insanların gözündə abid və zahid hesab edilməsini arzu edən nə çox günühkar, gördükləri işlərin tərifləmməsini istəyən nə çox kələkbaz var. Şübhəsiz ki, bu ayə onların hamısına şamil olur[327].

190-194. Dini bilgilərin yer aldığı münacat səbkili ayələr: Hədis və rəvayətlərdə bu ayələrə xüsusi əhəmiyyət verilmişdir. Əta ibn Əbu Riyah: "Bir gün Aişənin yanına gedib ondan soruşdum: Ömrün boyu Peyğəmbərdə (s) gördüyün ən qəribə davranış hansı olub? Aişə dedi: Peyğəbərin (s) bütün işləri heyrətamiz idi. Ancaq hamısından qəribəsi bu idi; bir gecə mənim

[326] Nümunə, c.3, səh.237
[327] Nümunə, c.3, səh.239; Ətyəbül-bəyan, c.3, səh.455

evimdə istirahət edirdi. Hələ rahatlanmamışdı ki, yerindən qalxdı, dəstəmaz alıb namaza durdu. Namaz əsnasında ilahi cazibənin təsiri ilə o qədər göz yaşı tökdü ki, paltarının ön tərəfi tamamilə islandı. Sonra səcdəyə getdi, o qədər ağladı ki, yer islandı. Sübhə qədər ağladı. Bilal onu sübh namazına səsləyəndə ağladığını görüb "Allahın lütfü sizi əhatə etdiyi halda, nə üçün belə ağlayırsınız?" – deyə soruşduqda buyurdu: ***"Allahın şükür edən bəndəsi olmayımmı? Allah keçən gecə mənə çox mühüm bir ayə göndərib"*** Sonra "Ali-İmran" surəsinin 190-194-cü ayələrini oxudu və sonda buyurdu: ***"Vay olsun onları oxuyub düşünməyənlərin halına!"***[328]

195. Allah onların dualarını qəbul edərək (buyurdu): "İstər kişi olsun, istərsə də qadın, Mən heç birinizin əməlini puça çıxarmayacağam. Siz eynisiniz, bir-birinizdənsiniz. Allah yolunda hicrət edənlərin, evlərindən

[328] Nümunə, c.3, səh.249

çıxarılanların, Mənim yolumda çətinliyə məruz qalanların, vuruşanların və öldürülənlərin günahlarını, əlbəttə, bağışlayacaq və onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəyəm. Bu, Allahın mükafatıdır. Ən yaxşı mükafat Allah yanındadır!"

196. Kafirlərin şəhərbəşəhər (məğrur-məğrur) gəzib-dolaşması səni aldatmasın!

197. Bu, çox cüzi bir qazancdır. Sonra isə onların məskəni Cəhənnəmdir. Ora necə də pis yerdir!

198. Lakin öz Rəbbindən qorxanları ağacları altından çaylar axan Cənnətlər gözləyir ki, onlar orada Allah qonağı kimi həmişəlik qalacaqlar. Allah yanında olan nemətlər yaxşı əməl sahibləri üçün daha xeyirlidir.

199. Kitab əhli içərisində elələri də vardır ki, onlar Allaha, həm sizə, həm də özlərinə nazil olana inanır, Allaha boyun əyərək Allahın ayələrini ucuz qiymətə satmırlar. Onların mükafatı Rəbləri yanındadır. Allah sürətli haqq-hesab çəkəndir.

200. Ey iman gətirənlər! (çətinliklərə və ehtiraslar qarşısında) səbrli olun, düşmənlər qarşısında dözümlü olun, sərhədlərinizin keşiyində durun və Allahdan qorxun ki, bəlkə, nicat tapasınız!

---

195. Əsl mühacir və mücahid örnəklərindən nümunələr: Rəvayətlərin birində bu ayənin İmam Əli (ə) haqqında nazil olduğu qeyd edilmişdir. İmam Əli (ə) Fatimələri, yəni anası Fatimə binti Əsədi, Peyğəmbər (s) qızı və sonradan həyat yoldaşı olan Fatiməni və Zübeyrin qızı Fatiməni özü ilə birlikdə Mədinəyə apararkən Zəcnan adlı yerdə Ümmü Əymən və bir neçə nəfər taqətdən düşmüş mömin onlara qoşulub birlikdə hərəkət edir. Onlar

Allah rəsulunun (s) yanına gedənə qədər Allahı zikr etməyi bir an belə, unutmurlar[329].

195. Qurana görə kişi və qadın bərabərliyi: Bu ayədən bəzən "İslam qadınların deyil, kişilərin dinidir" kimi ittihamlar səsləndirən məlumatsız insanların həqiqətdən nə qədər uzaq olduqları məlum olur. Fiziki və emosional xüsusiyyətlərinə görə bəzən İslam qanunvericiliyində kişi ilə qadın arasında fərq qoyulması və ictimai məsələlərdən fərqliliyin olması qadının mənəvi dəyərinə əsla xələl gətirmir. Mənəvi cəhətdən qadın və kişi arasında heç bir fərq yoxdur, xoşbəxtlik qapıları onların üzünə eyni şəkildə açıqdır. Nəzər almalıyıq ki, bu və oxşar ayələr elə bir dövrdə nazil olmuşdur ki, həmin dövrdə dünyanın əksər xalqları qadınların insan olmasına şübhə edir, qadını lənətlənmiş varlıq, günah və azğınlıq mənbəyi hesab edirdilər. Yunanlar qadını alçaq və şeytan xislətli varlıq hesab edir, rumlular isə onların ruhsuz varlıqlar olduqlarını düşünürdülər[330].

196. Kafirlərin aldadıcı sərvəti: Təfsirçilər bu və sonrakı iki ayənin nazilolma səbəbini belə izah edirlər: Məkkə müşriklərinin çoxu tacir idi, bu yolla külli miqdarda sərvət əldə etmiş, naz-nemət içində yaşayırdılar. Mədinə yəhudiləri də ticarət işlərində səriştəli idilər, əksər hallarda ticarət səfərlərindən əlidolu qayıdırdılar. Amma həmin vaxt müsəlmanlar bir çox səbəblərdən, o cümlədən Məkkədən Mədinəyə hicrət etdikləri, iqtisadi blokadada olduqları üçün maddi cəhətdən çətinlik çəkir, ağır şəraitdə yaşayırdılar. Bu iki vəziyyətin müqayisəsi belə bir sual doğururdu ki, nə üçün imansız şəxslər naz-nemət içində yaşayır, imanlılar isə əziyyət,

---

[329] Əl-Mizan, c.4, səh.93
[330] Nümunə, c.3, səh.256

çətinlik, əzab və yoxsulluq içində yaşayırdılar? Bu ayələr qeyd olunan suala cavab verir[331].

200. Özünü və İslam cəmiyyətini müdafiə etmək üçün lazım olan hər növ hazırlığa malik olmanın zəruriliyi: "Rabitu" feli "ribat" sözündən düzəlmiş, feilin məsdəri "murabətə"dir, insanın özünü və İslam cəmiyyətini qorumaq üçün hərbi müdafiədən tutmuş mədəniyyət və etiqad müdafiəsinə qədər lazım olan bütün növ hazırlıqlara şamil olur. İmam Sadiq (ə) buyurmuşdur: ***"Bizim şiə alimləri İblis və onun üsyankar dostları qarşısında sıraya düzülmüş, onların özlərini qorumağa gücləri çatmayanlara qarşı təşkil etdikləri hücumların qarşısını alan sərhədçilərə bənzəyirlər."***[332]

"Nisa" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ey insanlar! Sizi tək bir şəxsdən xəlq edən, ondan zövcəsini yaradan və o ikisindən də dünyaya çoxlu sayda kişi və qadınlar gətirən Rəbbinizdən qorxun! Allahın adını çəkərək bir-birinizdən nə isə istəyəndə Allahdan qorxun, habelə qohumluq əlaqələrini kəsməkdən çəkinin! Çünki Allah üzərinizdə gözətçidir!

2. Yetimlərin mallarını (həddi-büluğ yaşına çatdıqda) özlərinə verin və (özünüzün) pis mallarınızı (onların) yaxşı malları ilə dəyişdirməyin! Onların mallarını öz mallarınıza qatıb yeməyin! Çünki bu, böyük günahdır.

3. Əgər yetim qızlarla (evlənəcəyiniz təqdirdə) ədalətlə rəftar edə bilməyəcəyinizdən qorxarsınızsa, o zaman sizə halal olan başqa qadınlardan iki, üç və dörd nəfərlə izdivac edin! Əgər (onlarla) ədalətlə

[331] Nümunə, c.3, səh.257
[332] Nümunə, c.3, səh.266

davranacağınızdan əmin deyilsinizsə, o zaman təkcə bir qadınla evlənin və ya sahib olduğunuz qadınlardan biri ilə kifayətlənin. Bu davranış zülm və haqsızlığın qarşısını yaxşı alır.

4. Qadınlarınızın mehrlərini onlara (tam şəkildə) bir borc kimi ödəyin! Əgər onlar qəlbən, öz razılıqları ilə bundan sizə bir şey bağışlasalar, onu halal olaraq, nuşcanlıqla yeyin!

5. Allahın sizə dolanmaq üçün bəxş etdiyi malları əqli yetkinliyi olmayanlara verməyin. Həmin maldan onlara verin, onları geyindirin və onlara xoş sözlər deyin!

6. Nikah yaşına çatdıqda yetimləri sınayın. Əgər yetərincə böyüdüklərini görsəniz, mallarını özlərinə qaytarın. Onlar böyüməzdən əvəvl mallarını yeyib israf etməyin. Ehtiyacsız olan şəxs o mala toxunmasın (zəhməthaqqı götürməsin), ehtiyacı olan isə (çəkdiyi zəhəmət miqdarında) ondan yesin. Yetimlərin mallarını özlərinə qaytardığınız zaman yanlarında şahid tutun! Haqq-hesab çəkməyə Allah kifayət edər!

“Nisa” surəsinin ümumi məzmunu: Bu surənin əsas mövzuları: 1. İmana, ədalətə, qatı düşmənlərlə dostluq əlaqəsinin kəsilməsinə dəvət; 2. Sağlam olmayan cəmiyyətlərlə tanış olmaq üçün keçmiş xalqların başına gələn hadisələrdən fraqmentlər; 3. Ehtiyaclıların, o cümlədən yetimlərin və sairənin himayə edilməsi və onların hüquqlarının qorunması ilə bağlı göstərişlər; 4. Miras qanunu, təbii və ədalətli metod əsasında; 5. Evlənmə ilə bağlı qanunlar, iffətliliyin və abır-həyanın qorunması üçün qanunlar; 6. Ümumi sərvətin qorunması üçün ümumi qanunlar; 7. İslam cəmiyyətinin düşmənlərinin tanıtdırılması və müsəlmanları düşmənlərə qarşı ayıq etmək;

8. İslam hökuməti və belə bir hökumətdə rəhbərə itaət göstərmənin zəruriliyi; 9. Hicrət etmənin əhəmiyyəti və onun zəruri halları[333].

1. Adəm və Həvva – bəşəriyyətin ata və anası: Bu və digər ayələrdən belə məlum olur ki, bütün insanlar eyni ata-ananın övladlarıdırlar. Quranda insanların atasının Adəm olduğu qeyd edilsə də, analarının adı qeyd edilməmişdir. Hədislərdə onun Həvva olduğu bildirilmişdir. Yəhudi tarixində insanın sonuncu növünün yaşının yeddi min olduğu göstərilmişdir. Araşdırmalar bu faktı təsdiq edir. Əlbəttə, biologiyada insanlıq tarixinin daha çox olduğu, eradan əvvələ aid olan tapıntılar və insan skeletlərinin bunu təsdiq etdiyi iddia edilsə də, tapıntıların və skeletlərin müasir insanın əcdadlarına aid olduğunu sübut edəcək qaneedici dəlillər yoxdur. Ola bilər ki, insan yaranışından əvvəl yer üzündə insanın başqa növləri yaşamış, sonra məhv olmuşlar. Müasir insan onların sonuncu növüdür. Quranda bu mövzu açıq şəkildə bəyan edilməsə də, bəzi ayələrdən, o cümlədən "Bəqərə" surəsinin 30-cu ayəsindən bunu başa düşmək olur. Bəzi hədislərdə bizim dövrdən əvvəl başqa insanların olduğu açıq şəkildə ifadə edilsə də, Quran və hədislərdə müasir insanların bir ata və bir anadan törədiyi açıq şəkildə bəyan edilir[334].

4. Mehr qadının danılmaz haqqıdır: Cahiliyyət dövründə qadınlara dəyər verilmir, qadının qeyd-şərtsiz haqqı olan mehr onun qəyyumlarına verilir və o, qadının qəyyumlarının etirazsız mülkü hesab edilirdi. Bəzən bir qadının mehri baqşa bir qadının mehri təyin edilirdi. Məsələn bir qardaş öz bacısını başqasına ərə verib əvəzində həmin adamın bacısını alırdı. Bu zaman qadınların mehri əvəzlənmə olurdu. İslam bu qəddar ənənələrin üzərindən xətt çəkdi və mehrin qadının qeyd-şərtsiz haqqı olduğunu elan

[333] Nümunə, c.3, səh.274
[334] Əl-Mizan, c.4, səh.145

etdi. Quranda kişilərə bu hüquqa tam şəkildə riayət etməsi israrla tövsiyə edilmişdir. İslamda mehr üçün bəlli bir miqdar müəyyən edilməmiş evlənənlərin öz ixtiyarına buraxılmışdır. Bütün bunlarla yanaşı, hədislərdə mehrin ağır təyin edilməməsi ilə bağlı göstərişlər verilmişdir. Nəzərə almaq lazımdır ki, qadın və kişi evlilikdən bərabər şəkildə faydalanırlar. Amma kişi ilə qadın boşandıqda qadının daha çox ziyana düşəcəyini inkar etmək olmaz. Qadının evlilik zamanı məhrum olduğu imkanlar kişinin itirdiyi imkanlardan çoxdur. Mehr, əslində, qadının zərərini ödəmək və gələcək yaşayışını təmin etmək üçün bir vasitədir. Bundan əlavə, mehr kişinin boşanma meyli qarşısında həm də əyləc rolunu oynayır. Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, mehr qadının qiyməti deyil, onun ziyanlarının aradan qaldırılmasına və hüquqlarının qorunmasına xidmət edir. Ayədə bəxşiş mənasını ifadə edən "nəhlə" sözü ilə bəlkə də bu cəhətə işarə edilmişdir[335].

5. Səfeh (əqli yetkinliyi olmayan): Səfeh əqli və fikri cəhətdən inkişaf etməmiş, dini və dünyəvi məsələləri ayırd edə bilməyən adama deyilir. Həddi-büluğa çatmayan yetim də bura aiddir. Bu sözün zahiri mənasından belə başa düşülür ki, səfeh sözünün mənası çox genişdir. Belə ki, hədislərdə şərabxor, açıq-aşkar günah edən insan, hətta etimad göstərilməyən insan da səfeh hesab edilmişdir[336].

[335] Nümunə, c.3, səh.298
[336] Nümunə, c.3, səh.302; Əl-Mizan, c.4, səh.175

7. Ata, ana və qohumların (vəfat etdikdə) qoyub getdikləri maldan kişilərə və qadınlara pay düşür. Azlığından və ya çoxluğundan asılı olmayaraq, bu, təyin edilmiş və ödəniləcək bir paydır.

8. Bölgü zamanı varis olmayan qohumlar, yetimlər və yoxsullar da orada iştirak edərlərsə, onlara da o maldan bir şey verin və gözəl sözlərlə könüllərini alın!

9. Özlərindən sonra aciz və zəif övladlar qoyub gedəsi olan şəxslər onlardan ötəri necə qorxurlarsa, (camaatın yetimlərinə qarşı haqsızlıq etməkdən də) o cür qorxsunlar! Allahdan qorxsunlar və qətiyyətli söz sahibi olsunlar.

10. Yetimlərin mallarını zülm və haqsızlıqla yeyənlər, əslində, od yeyirlər və tezliklə Cəhənnəm odunda yanacaqlar.

11. Allah övladlarınız haqqında sizə tövsiyə verir, oğula iki qız hissəsi qədər pay düşür. Əgər qızlarınızın sayı (iki və) ikidən artıqdırsa, mirasın üçdə iki hissəsi onlara çatır. Əgər təkcə bir nəfər qızdırsa, mirasın yarısı onundur. Övladı olduğu təqdirdə vəfat edənin ata və anasının hər birinə mirasın altıda bir hissəsi verilir. Əgər övladı olmasa, varisi yalnız ata və anadan ibarət olarsa, (malın) üçdə bir hissəsi anaya aiddir. (Qalan hissə tamamilə ataya çatır). Əgər ölmüş şəxsin qardaşları və bacıları varsa, ananın hissəsi altıda birdir. (Yerdə qalan beşdə bir hissə yenə atanın payına düşür). Bu bölgü ölən şəxsin vəsiyyəti yerinə yetirildikdən və ya borcu ödənildikdən sonra aparılır. Valideynlərinizdən və övladlarınızdan hansı birinin (xeyir və) mənfəət cəhətdən sizə daha yaxın olduğunu bilməzsiniz. Bu, Allah

tərəfindən müəyyən edilmiş vacibdir. Həqiqətən, Allah (hər şeyi) biləndir, hikmət sahibidir!

---

7. Cahiliyyət dövründə qadının vəziyyəti və Quranın mövqeyi:

Surənin ilk ayələrinin əsas mövzusu evlənmə və irslə bağlıdır. Cahiliyyət dövrü adı ilə şöhrət tapmış İslama qədərki dövrün vəziyyəti ilə bağlı məlumat bu ayələrin başa düşülməsinə daha çox kömək edir. Qan tökmək, axmaq təəssübkeşliklər, təkəbbür, məğrurluq, zalımlara itaət, məzlumların hüquqlarının tapdalanması, düşmənçilik və münaqişə, qumar, şərabxorluq, zina, qan və murdar olmuş heyvanların ətini yemək, xarab olmuş xurma yemək və sairə həmin dövrün ərəbləri arasında üstünlük hesab edilirdi. Həmin vaxt qadınlar insan cəmiyyətinə xas olan imtiyazlardan məhrum idilər, heç bir ixtiyarları yox idi, ata, ana və qardaşlarının miraslarında heç bir pay sahibi deyildilər. Kişilər onlarla heç bir qeyd-şərt olmadan evlənirdilər. Bütün bunlara yanaşı, qadınlar özlərni bəzəyib sevdikləri insanı özlərinə cəlb edirdlər. Nəticədə, zina və ərli qadınlarla evlənmə kimi qeyri-qanuni evliliklər ərəblər arasında geniş yayılmışdı. Cahiliyyət dövrünün uşaqları yalnız atalarına bağlı idilər. Əgər kiçik yaşlarında atalarını itirsəydilər, mirasdakı paylarından məhrum olurdular, mras yalnız böyük övladlara aid olurdu. Miras bölgüsünə ölənin arvadı da aid olurdu. Yəni ata öldükdən sonra böyük oğul atasının arvadını, yəni ögey anası ilə evlənirdi. Qadınlar və kiçik övladlar (qız və ya oğlan olmasından asılı olmayaraq) mirasdan məhrum idilər. Yalnız böyük övlad olmadığı təqdirdə kiçiklər mirasda pay sahibi olurdular. Amma bu halda da imkanlı qohumlar yetimin himayəçisi olur və malını yeyirdilər. Əgər uşaq qız olsaydı, malını yemək üçün onunla evlənirdilər. Bütün malının axırına çıxdıqdan sonra boşayırdılar. Beləcə, həmin qadın tamamilə heç nəsiz qalırdı, nə yaşayışını

təmin edəcək bir malı, nə də ona rəğbət göstərib ailə quracaq və qarnını doyuracaq bir kəsi olurdu. Yetimlərin problemi cahiliyyət dövrünün ərəblərinin ən böyük problemlərindən idi. Ardı-arası kəsilməyən müharibələr, qarətlər və qətillər çoxlu sayda uşağın atasız qalmasına səbəb olurdu[337]. Quran belə bir şəraitdə nazil oldu və bu çirkinliklərin hər birinə qarşı mübarizəyə qalxdı.

10. Əməllərin təcəssümü və yetim malını yeməyin cəzası: Bu ayədən məlum olur ki, əməllərimizin zahiri siması olduğu kimi, bu dünyada bizim görə bilmədiyimiz həqiqi siması da var. Bu sima o biri dünyada zahir olacaq, əməllərin təcəssümü orada gerçəkləşəcək. Quranın bu ayəsində bildirilir ki, yetim malı yeyənlərin əməllərinin zahiri ləziz və rəngarəng yeməklərdən faydalanmaq olsa da, həmin yeməklərin batini yanar oddur. Qiyamətdə məhz həmin batini sima aşkara çıxacaq. İmam Baqir (ə) buyurmuşdur: "***Yetim malı yeyən şəxs Qiyamətə qarnında odla gələcək. Od qarnında elə alovlanacaq ki, şölələri ağzından çıxacaq və bütün Məhşər əhli onun yetim malı yediyini başa düşəcək."*** Əməlin həqiqi siması hər zaman onun zahiri keyfiyyəti ilə xüsusi bir tənasüb təşkil edir. Yetim malı yemək və onun hüquqlarını qəsb etmək yetimin qəlbini yandırdığı, ruhunu incitdiyi kimi, həmin əməlin həqiqi siması da yandırıcı oddur. Yetimlərin malına təcavüzün çox pis bir əməl olmasını ifadə edən çoxlu sayda hədis mövcuddur. Bu hökm hətta yetimlərin malına edilən kiçik bir təcavüzə belə şamil olur. Məsumdan (ə) yetim malına hansı miqdarda təcavüzün od əzabına səbəb olması ilə bağlı soruşulduqda ***"İki dirhəm miqdarında"***, - deyə cavab vermişdir[338].

---

[337] Əl-Mizan, c.4, səh.155-157
[338] Nümunə, c.3, səh.317

12. (Vəfat etmiş) arvadlarınızın uşağı yoxdursa, onların vəsiyyəti yerinə yetirildikdən və borcları ödənildikdən sonra qoyub getdikləri malın yarısı sizindir. Övladları olduğu təqdirdə isə mirasın dörddə biri sizə çatır. Əgər sizin uşağınız yoxdursa, vəsiyyətiniz yerinə yetirildikdən və borcunuz ödənildikdən sonra qoyub getdiyiniz malın dörddə biri arvadlarınızın payına düşür. Övladlarınız olduqda isə mirasın səkkizdə biri onlara çatır. Əgər (vəfat etmiş) kişi və qadının (ata-anası və övladı olmayıb) eyni anadan tək

bir qardaşı və ya bir bacısı varsa, onların hər birinə mirasın altıda biri düşür. Onların sayi birdən artıq olduqda isə hamısı həmin malın üçdə birinə şərikdir. Bu, onlara (vərəsələrə) zərər toxunmadığı halda edilən vəsiyyətin yerinə yetirilməsindən və ya borcun ödənilməsindən sonra icra olunur. Bu, Allahın göstərişidir. Allah biləndir, həlimdir!

13. Bunlar Allahın sərhədləridir (qanunlarıdır). Hər kəs Allaha və Peyğəmbərinə itaət edərsə, Allah onu ağacları altından çaylar axan Cənnətlərə əbədi olaraq daxil edər ki, bu da böyük bir qurtuluş və qələbədir.!

14. Hər kəs Allaha və Peyğəmbərinə itaət etməyib Onun hədlərini aşarsa (qanunlarını pozarsa), onu həmişəlik Cəhənnəmə daxil edər. Onu rüsvayedici əzab gözləyir.

-

12. Nə üçün kişinin miras payı qadının miras payından iki dəfə çoxdur? Bu və əvvəlki ayədə miras hökmlərindən danışılır. “Kişinin miras payı qadının miras payından nə üçün iki dəfə çoxdur?” sualına gəlincə isə, qeyd etməliyik ki, bu, zahirən belə görünür, lakin daha çox diqqət yetirdikdə aydın olur ki, qadının payı kişinin payından iki dəfə çoxdur. Bunun səbəbi isə İslamın qadın hüquqlarını müdafiə etməsidir. Belə ki, İslama görə gəlirlərinin yarısını qadınlara xərcləmək kişilərin vəzifəsidir. Halbuki qadınların üzərinə belə bir vəzifə qoyulmamışdır. Kişi həyat yoldaşını onun ehtiyaclarına uyğun olan ev, geyim, yemək və sair zəruri vasitələrlə təmin etməlidir, habelə övladların məişət xərclərini təmin etmək də kişinin vəzifəsidir. Buna görə də qadın öz miras payını tamamilə saxlaya bilər. Kişi isə miras payını özü, həyat yoldaşı və övladlarına xərcləmək məcburiyyətindədir. Nəticədə, kişinin gəlirinin yarısı özünə, yarısı izə həyat yoldaşına sərf edildiyi halda, qadının payı toxunulmaz qalır. İslam dini ilə

bağlı yazılmış əsərlərə müraciət etdikdə məlum olur ki, qeyd olunan sual İslamın lk dövrlərindən meydana gəlmişdir. İslam öndərlərinə bu barədə tez-tez suallar verilmişdir. Əhli-beyt imamalrının (ə) verdiyi cavabın məzmunu adətən ondan ibarət olurdu ki, Allah-taala qadına mehr ödəməyi kişiyə vacib etmşdir. Buna görə də onların payını çox etmişdir. İmam Rzadan (ə) bu barədə soruşduqda belə cavab vermişdir: ***"Qadınların miras payının kişilərin miras payından çox olmasının səbəbi budur ki, qadın ailə qurarkən mehr alır, kişi isə mehr verir. Bundan əlavə, qadınların dolanışıq xərcləri də kişilərin üzərindədir, halbuki qadın nə özü, nə də həyat yoldaşının xərcini ödəmək məsuliyyəti daşımır."***[339]

Başqa bir məlumatda qeyd edilir ki, dinin əsas prinsiplərini (Üsuli-dini) inkar edən İbn Əbül-əvca bir gün deyir: "Yazıq qadının nə günahı var ki, qadına mirasdan bir, kişiyə isə iki pay düşür?" Bu xəbər İmam Sadiqə çatdıqda buyurur: ***"Qadına cihad, ailənin təminatı, xərci bilmədən törədilən cinayətin maddi cəriməsi vacib olmadığı halda, bütün bunlar kişiyə vacibdir. Buna görə də qadına bir, kişiyə isə iki pay düşür."***[340]

13. Ayənin orijinalında işlənmiş "hüdud" (sərhədlər) sözü "həd" sözünün cəmidir, mənası qarşısını almaq, mane olmaq deməkdir. İki şeyin arasına ayrılıq salan, onları bir-birindən ayıran vasitəyə həd deyilir. Məsələn, evlərin arasındakı sərhədlər, bağlar arasındakı sərhədlər, şəhər və ölkələr arasındakı sərhədlər. Bu sərhədlər onları bir-birindən ayırır. "Bunlar Allahın sərhədləridir" cümləsi Quranda altı yerdə işlənmişdir. Onların hamısında sözügedən ifadə bir sıra ictimai hökmlər və qaydalar bəyan edildikdən sonra qeyd edilmişdir. "Bəqərə" surəsinin 188 (Etikaf zamanı cinsi münasibətin yasaqlığı və orucun hökmləri elan edildikdən sonra), 229-

[339] Nümunə, c.3, səh.329
[340] Əl-Mizan, c.4, səh.228

cu və 230-cu ayələri, “Tələq” surəsinin 10-cu ayəsi (Boşanma hökmünün müəyyən hissəsini bəyan etdikdən sonra), “Mücadələ” surəsinin 4-cü ayəsi buna misaldır. Qeyd olunan yerlərin hamısında aşılması qadağan edilən hökmlər və qanunlardan söhbət açılır. Buna görə də Allahın sərhədləri adlandırılmışlar[341].

15. Qadınlarınızdan zina edənlərə qarşı dörd nəfər şahid tələb edin! Əgər onlar (bu işə) şəhadət verib təsdiq etsələr, həmin qadınları ölənə qədər, yaxud Allah onlar üçün bir yol açanadək evlərdə həbs edin!

16. İçərinizdən belə (çirkin) iş görən (subay) qadın və kişilərə əziyyət verin. Əgər tövbə edib özlərini düzəltsələr, onlardan əl çəkin! Çünki Allah tövbələri qəbul edəndir, bağışlayandır!

17. Allah tərəfindən yalnız bilmədən pis iş görüb dərhal da tövbə edən şəxslərin tövbəsi qəbul olunur. Allah belələrinin tövbəsini qəbul edir! Allah biləndir, hikmət sahibidir!

18. Günah işlər görməkdə davam edərək ölüm yetişən anda: “Mən indi tövbə etdim” – deyənlərin və kafir olaraq ölənlərin tövbəsi qəbul olunmaz. Biz onlar üçün şiddətli bir əzab hazırlamışıq!

19. Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir! (Qadınlar) açıq-aşkar pis bir iş görməyincə onlara verdiyiniz şeylərin (mehrin) bir hissəsinə sahib çıxmaq məqsədilə onlara əziyyət verməyin. Onlarla gözəl (Allahın buyurduğu kimi) davranın. Əgər (hər hansı səbəbdən) onlara nifrət etsəniz (tez də ayrılmaq qərarına gəlməyn). Sizin xoşlamadığınız çox şeydə Allah çoxlu xeyirlər nəzərdə tuta bilər.

---

[341] Nümunə, c.3, sh.336

15. Zina etmiş ərli qadınlarla bağlı müvəqqəti hökm: Ayənin “yaxud Allah onlar üçün bir yol açanadək” cümləsindən bu hökmün müvəqqəti səciyyə daşıdığı məlum olur. Bu hökm ilk başlanğıcda elan edilmişdir. Belə ki, bu cümlə ilə gələcəkdə bu çirkin davranışla bağlı yeni hökm göndəriləcəyinə işarə edilir. Yeni hökm gəldikdə zina etdikləri üçün evlərdə həbs edlən və nəzarət altında saxlanılan qadınlar təbii ki, həbsdən azad ediləcəklər və onlar haqqında yeni cəza tədbiri görülməyəcək. Onların həbsdən azad edilməsi əvəvlki hökmün qüvvədən düşməsinə görədir. Yeni cəza növünün həyata keçirilməməsi cəza qanununun daha əvvəl zina etmiş şəxslərə aid edilməməsi ilə bağlıdır. Yeni qanun gələcəkdə bu çirkin davranışı etmiş şəxslərə şamil olur. İslamda sonradan zina etmiş ərli qadınlar üçün müəyyən edilən cəza daşqalaq qanunudur[342].

17. Tövbənin qəbul olunması şərtləri: Bu ayədə tövbənin qəbul olunması üçün iki şərt qeyd edilmişdir: brincisi, bilməməzlikdən günah etmək, ikincisi isə, dərhal tövbə etmək. Təfsirçilər bu iki şərti izah edərkən bildirirlər ki, “bilməməzlik” deyilərkən burada günahın düşmənçilik və inadkarlıq zəminində deyil, nəfsani istəklər, ehtiras və qəzəb nəticəsində baş verməsi nəzərdə tutulur. Bu davranışlar ona görə bülməməzlik hesab edilir ki, ehtiras və qəzəb soyuduqdan sonra insan etdiyi əməldən peşman olur. Əslində, əksər günahlar bilməməzlik və ağılsızlıq ucbatından baş verir. Çünki günah edərkən ehtras və qəzəb insanın ağıl və düşüncəsinin üstünü örtür.

İkinci şərtə gəlincə, bldirirlər ki, bu ayədə “qərib” (dərhal, tez) deyilərkən ölüm insanı haqlamazdan və ölüm nişanələri bəlli olmazdan əvvəlki hala aiddir. Bu ayə İmam Səccadın (ə) “Əbu Həmzə” duasında daha

---

[342] Nümunə, c.3, səh.343

geniş şəkldə izah etdiyi həqiqəti bəyan edir. Həmin duada İmam Səccad (ə) Allaha xitab edərək buyurur: ***"İlahi, Sənə qarşı günah edərkən Allahlığını əsla inkar etmədim, əmrini yüngül saymadım, günaha Sənin cəzana tuş gəlmək, əzab vədini inkar etmək niyyəti ilə yol vermədim. Xəta etdim, Əmmarə nəfs haqqı mənə anlaşılmaz etdi, ehtiras mənə üstün gəldi.***"[343]

19. Qadınlara hörmət və onlarla yaxşı davranmaq: Allah-taala bu ayədə kişilərə həyat yoldaşları ilə yaxşı davranmaq göstərişi verir. Hədislərdə də bu mövzuya çox təkid edilmişdir. Peyğəmbər (s) buyurmuşdur: ***"Ailə quran hər bir kəs həyat yoldaşını əzizləməlidir."***[344] Peyğəmbər (s) başqa bir hədisində belə buyurmuşdur: ***"Himayəsi altında olanların hüquqlarını pozan şəxs məlundur, məlundur!"***[345] İmam Sadiqə (ə) istinad edilən bir hədisdə belə qeyd edilir: ***"Allah həyat yoldaşı ilə yaxşı davranan şəxsə rəhmət eləsin."***[346]

20. Əgər arvadınızın yerinə başqa bir arvad almaq itəsəniz, ona (birinciyə) çoxlu mal vermiş olsanız da, ondan heç bir şey geri almayın! Məgər qadınların mehrini geri almaq üçün böhtan və aşkar bir günahamı əl atacaqsınız?

21. Siz onu necə geri ala bilərsiniz ki, (vaxtilə) bir-birinizlə yaxınlıq etmişdiniz və onlar (izdivac vaxtı) sizdən möhkəm əhd-peyman almışdılar.

22. Atalarınızın evlənmiş olduğu qadınlarla əsla evlənməyin! Yalnız keçmişdə (bu hökm gəlməzdən əvvəl) olan bu cür işlər müstəsnadır. Çünki bu çox çirkin, iyrənc işdir və yanlış bir yoldur!

---

[343] Nümunə, c.3, səh.349
[344] Müstədrəkül-vəsail, c.14, səh.249
[345] Vəsailüş-şiə, c.20, səh.171, 88-ci fəsil
[346] Vəsailüş-şiə, c.20, səh.171, 88-ci fəsil

23. Sizə analarınız, qızlarınız, bacılarınız, bibiləriniz, xalalarınız, qardaş və bacılarınızın qizları, süd analarınız, süd bacılarınız, arvadlarınızın anaları və yaxınlıq etdiyiniz qadınlarınızın himayənizdə olan qızları (ögey qızlarınız) ilə evlənmək haram edildi. Cinsi əlaqədə olmadığınız qadınlarınızın qızları ilə evlənmək isə sizin üçün günah deyildir. Öz belinizdən gələn oğullarınızın arvadları ilə evlənmək və iki bacını birlikdə almaq da sizə haramdır. Yalnız keçmişdə (Cahiliyyət dövründə) olan bu cür işlər müstəsnadır. Çünki Allah bağışlayandır, rəhm edəndir!

---

20. İftira ataraq mehri qadınlardan geri almayın: Bu ayənin nazilolma səbəbindən danışarkən bildirirlər ki, İslamdan əvvəl arvadlarını boşayıb yenidən evlənmək istəyən kişilər mehr verməkdən boyun qaçırmaq üçün əvvəlki arvadlarını əxlaqsızlıqda günahlandırır, onlara mehrlərini qaytarana qədər təzyiq göstərir, həmin mehri isə ikinci arvadlarına verirdilər. Bu ayə nazil oldu, qeyd olunan çirkin ənənənin qarşısını aldı və onu pislədi[347].

21. Qadının kişidən möhkəm əhd-peyman alması: İmam Sadiq (ə) ***"Onlar sizdən möhkəm əhd-peyman alıblar"*** cümləsi haqqında belə buyurmuşdur: ***"Əhd-peyman deyilərkən evllik nikahı zamanı oxunan cümlələr nəzərdə tutulur."***[348]

22. Cahiliyyət dövründə ögey analara qarşı təəssüf doğuran münasibət: Bu ayənin nazilolma səbəbindən danışarkən bildirirlər ki, cahiliyyət dövründə kimsə dünyasını dəyişsəydi, özündən sonra arvadı və uşaqları qalsaydı, həmin qadın bu uşaqların ögey anası olduğu təqdirdə miras payı kimi bölüşdürülürdü. Yəni onlar ögey anaları ilə evlənmək və ya

---

[347] Nümunə, c.3, səh.358
[348] Əl-Mizan, c.4, səh.265

onu başqasına ərə vermək haqqına sahib idilər. İslamdan sonra Əbuqeys adlı ənsar dünyasını dəyişir. Oğlu ögey anasına evlənmə təklifi edir. Qadın isə deyir: "Mən səni öz övladım hesab edirəm, bu təklifə yaxşı baxmıram, amma yenə də Peyğəmbərdən (s) soruşmağı lazım bilirəm." Qadın bu məsələni Peyğəmbərə (s) danışdıqdan sonra sözügedən ayə nazil oldu və bu ayədə sözügedən ənənə kəskin şəkildə pislənilib qadağan edildi[349].

23. Südvermə vasitəsilə məhrəm olanlar: Ayənin bir hissəsində yalnız iki qrupa işarə edilsə də, əlimizdə olan çoxlu sayda hədislərdə süd məhrəmlərinin bu iki qrupla məhdudlaşmadığı məlum olur. Peyğəmbərdən (s) nəql olunan məşhur hədisdə bildirilir ki, nəsil əlaqəsi ilə evlənilməsi qadağan olan bütün insanlar (xala, bibi, qardaşın övladı, bacının övladı), südəmmə əlaqəsi ilə də qadağan edilir (süd xalası, süd bibisi və sair)[350].

[349] Nümunə, c.3, səh.361
[350] Nümunə, c.3, səh.365

24. (Əsir alaraq) sahib olduqlarınız istisna olmaqla (çünki əsirlik boşanma sayılır), ərli qadınlar Allahın yazısı (hökmü) ilə sizə (haram edildi). Namusla (iffətlə), zinakarlığa yol vermədən, mallarınızı sərf edərək sahib olduğunuz başqa qadınlar isə sizə halal edildi. Mütə (müvəqqəti nikah) etdiyiniz qadınların mehrlərini verməyiniz vacibdir! Mehr müəyyən edildikdən sonra aranızda razılaşdığınız şeydən ötrü sizə heç bir günah yazılmaz. Allah (hər şeyi) biləndir, hikmət sahibidir!

25. Azad, iffətli, mömin qadınlarla evlənməyə maddi imkanı olmayanlar sahib olduqları iffətli mömin cariyələrdən (kənizlərdən) ala bilərlər. Allah sizin imanınızdan yaxşı xəbərdardır. Hamınız bir-birinizdənsiniz[351]. İffətini qoruyub saxlayan, açıq-aydın zinakarlıq etməyən və aşnası olmayan cariyələrlə sahiblərindən icazə alıb evlənin və mehrlərini onların özlərinə verin! Əgər onlar ərli olduqları halda iffətə zidd olan hərəkətə yol verərlərsə, cəzaları azad qadınlara verilən əzabın yarısı qədər olacaq. Bu (kənizlərlə evlənmək), (ehtiras, şəfvət üzündən) çətinlik çəkəcəyindən qorxanlarınız üçündür. Əgər (bu halda) səbr etsəniz, sizin üçün daha yaxşı olar. Allah bağışlayandır, rəhm edəndir!

26. Allah (bu göstərişlərlə) sizə (xoşbəxtlik və səadət yollarını) bildirmək, sizdən əvvəlkilərin getdiyi düz yolları sizə göstərmək və tövbələrinizi qəbul etmək istər. Allah (hər şeyi) biləndir, hikmət sahibidir!

---

24. Müvəqqəti evlilik: Ayənin “Mütə (müvəqqəti nikah) etdiyiniz qadınların mehrlərini verməyiniz vacibdir!” cümləsi müvəqqəti evliliyin

[351] Azad, qul, kəniz, qadın, kişi və sair olmasından asılı olmayaraq bütün insanlar eynidir, hamısı Adəmin övladları, Allahın bəndələridir.

icazəli olduğunu açıq şəkildə ifadə edir. Əhli-beyt imamlarının (ə) hədislərində də müvəqqəti evliliyin sübutu zamanı bu ayəyə istinad edilmişdir. İmam Baqir (ə) Əbu Bəsrin "mütə" ilə bağlı soruşduğu suala belə cavab vermişdir: ***"Quranda bu məsələ yer almışdır. Quranda deyilir: "Mütə etdiyiniz...."*** İmam Baqir (ə) Abdullah ibn Lisinin mütə ilə bağlı verdiyi suala belə cavab vermişdir: "Allah onu Quranda və Peyğəmbərinin (s) vasitəsilə halal etmişdir, Qiyamətə qədər də halal olacaq." Tarixi mənbələr müvəqqəti evliliyin Peyğəmbər (s) zamanında halal olduğunu, müsəlmanların bu əməli etdiyini, yalnız Ömər ibn Xəttabın öz şəxsi rəyi əsasında bunu qadağan etdiyini yazır. Peyğəmbərin (s) məşhur səhabəsi Cabir ibn Abdullah Ənsari belə nəql etmişdir: "Peyğəmbərin (s) zamanında, Əbu Bəkrin xilafəti dövründə və Ömərin xəlifəliyi dövrünün yarısına qədər müvəqqəti evlilik hökmünə əməl edilirdi. Ömər onu qadağan etdi." Ömərin özünə istinad edilən br məlumatda belə qeyd edilmişdir: "Peyğəmbər (s) zamanında iki mütə var idi – qadınlarla mütə (müvəqqəti evlilik) və təmättö həcci (həccin xüsusi bir növüdür), mən onları qadağan etdim, onlara əməl edənləri cəzalandırdım."

İnsan anatomiyasına azacıq diqqət yetirsək, müvəqqəti evliliyin sosial bir zərurət olduğunu anlayarıq. Bu, ümumi bir qanundur. Belə ki, əgər insanın təbii istəkləri düzgün şəkildə təmin edilməzsə, insanlar onların təminatı üçün yanlış yollara əl atacaqlar. Təbii instinktiv hisslərin tamamilə məhv edilməsinin qeyri-mümkünlüyü də inkarolunmaz bir həqiqətdir. Bunu tamamilə məhv etməyə çalışmağımız da ağılsızlıq olar. Çünki bu, bir növ yaranış qanununa qarşı mübarizədir. Buna görə də daha düzgün yol instinktlərin normal vasitələrlə təmin edilməsi və onlardan faydalı şəkildə istifadə etməkdir. Cinsi instinktin ən güclü instinktlərdən olduğunu da inkar etmək olmaz. İndi belə bir sual yaranır ki, çox yerdə, əksər ictimai

mühitlərdə çox adam bəlli yaş həddində daimi evlilik həyatı qura bilmir və ya bəzən evli kişilər uzun səfərlər və ezamiyyətlər zamanı cinsi təminat problemləri ilə qarşılaşırlar. Müasir dövrdə, təhsil müddətinin uzanması ilə gənclərin evlilik yaşının gecikdiyi, ictimai münasibətlərin daha da mürəkkəbləşdiyi, gənclərin ehtiraslarının yüksək olduğu yaş həddində evlənmə imkanın məhrum olduqları bir dövrdə bu problem daha da ciddiləşmişdir. Bunun üçün nə etmək lazımdır? Gəncləri rahiblər kimi öz ehtiraslarını öldürməyəmi çağıraq? Yoxsa onları sərhəd tanımayan cinsi ehtiraslar burulğanında tərk edib utancverici səhnələrə şahidlik edək? Bəlkə elə bir yol seçək ki, həm insanı daimi evlilik problemindən xilas etsn, həm də ehtiras anarxyasının qarşısını alsın. Bldiyimiz kimi, daimi evlilik nə keçmişdə, nə də indi təklikdə cəmiyyətin bütün təbəqələrinin cinsi tələbatlarını ödəyə bilməmiş və ödəyə bilmir. Biz iki yol ayrıcında qalmışıq: Ya maddi prinsiplərlə idarə olunan müasir dünyada olduğu kimi, qeyri-qanuni cinsi münasibətlərə icazə verməli, ya da müvəqqəti-evlilik proqramını qəbul etməliyik. Müvəqqəti evliliyə qarşı olmaqla yanaşı qeyri-qanuni cinsi münasibətləri də müxalif olan şəxslərin bu suala necə cavab verəcəyi məlum deyil. Müvəqqəti evlilik proqramı daimi evlilikdə olduğu kimi qida, geyim və mənzil təminatı kimi öhdəlik və şərtlərlə səciyyələnmir. Yəni maliyyə imkanlarının olmaması, təhsil fəaliyyəti və bu kimi cəhətlər tam uyğnuluq təşkil edir, digər tərəfdən isə cinsi fəsadlara və qeyri-qanuni cinsi münasibətlərin yaratdığı çirkin nəticələrin də qarşısını alır. Himayəsiz və qeyri-qanuni övlad problemi də bu proqram vasitəsilə öz həllini tapır. Çünki müvəqqəti evlilikdən dünyaya gələn uşaqlar daimi izdivacda olduğu kimi vərəsəlik, madd təminat və sair kimi hüquqlara malikdirlər[352].

[352] Nümunə, c.3, səh.373

27. Allah sizi bağışlamaq stəyir. Amma ehtiraslarına uyanlar sizi tamamilə sapdırmaq stəyirlər.

28. Allah (kənizlər və sairə ilə evlənmək hökmü verməklə) işinizi asanlaşdırmaq istəyir. İnsan (ehtiraslar burulğanına müqavimət göstərmək baxımından) zəif yaradılmışdır

29. Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş istisna olmaqla, bir-birinizin mallarını haqsız yerə (qeyri-qanuni yollarla) yeməyin və özünüzü öldürməyin! (inthar etməyin) Allah sizə qarşı mərhəmətlidir!

30. Hər kəs təcavüz və zülm etməklə bu işləri görərsə, tezliklə onu Cəhənnəm oduna atırıq. Bu, Allah üçün asandır!

31. Əgər sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, kiçik günahlarınızın üstünü örtər və sizi gözəl bir məkana daxil edərik.

32. Allahın birinizi digərindən ütün tutduğu şeyi arzulamayın (Bu təbii və hüquqi fərqliliklər sizin həyat nizamınızı qorumaq üçündür). Kişilərin öz qazandıqlarından öz payı, qadınların da öz qazandıqlarından öz payı vardır. (Çətinliklərinizi aradan qaldırmaq üçün) Allahın lütfündən (mərhəmətindən) istəyin! Allah hər şeyi biləndir.

33. Ata-ana və yaxın qohumların qoyub getdikləri maldan hər biri üçün varislər təyin etdik. Əhd-peyman bağladığınız şəxslərin də paylarını özlərinə verin! Allah hər şeyə şahiddir!

---

29. Ziyanlı alış-verişin qadağan edilməsi: Təfsirçilər bu ayənin "bir-birinizin mallarını haqsız yerə (qeyri-qanuni yollarla) yeməyin" cümləsini şərh edərkən bildirirlər ki, burada insan cəmiyyətinin xoşbəxtliyinə və xilasına mane olan, ona ziyan vuran, məhvə sürükləyən alış-verişlər nəzərdə tutulmuşdur. Bu alış-verişlər dini cəhətdən qanuni olmayan alış-verişlərdir. Sələm, qumar, hər iki tərəfin və ya tərəflərin birinin nə alıb-verdiklərini bilmədiyi, məhsulun xüsusiyyətləri və qiyməti məlum olmayan alış-verişləri buna misal göstərmək olar[353].

29. Özünüzü öldürməyin: Təfsirçilər "Özünüzü öldürməyin" cümləsini izah edərkən bildirirlər ki, burada insanın öz canına qiyması qadağan edilmişdir. Əlbəttə, ayədə özünüzü ifadəsi ilə İslam cəmiyyətinin bütün fərdləri nəzərdə tutula bilər. Çünki Quran bütün möminlərin vahid bir sistem hesab edir. Belə ki, bir fərdin canı bütün fərdlərin canı deməkdir.

---

[353] Əl-Mizan, c.4, səh.334

Nəticədə, heç kəsin nə özünü, nə də başqasını öldürməyə haqqı çatmır. Bu cinayəti törədən şəxs hər iki halda insan cəmiyyətinə zərbə vurmuş olur. Hətta bu ayəyə əsasən fərdlərin özlərini ölüm təhlükəsinə məruz qoyması da qadağan edilmişdr. İmam Sadiq (ə) bu ayə haqqında belə buyurmuşdur: ***"Burada bir müsəlmanın təklikdə müşriklərin üzərinə hücum etməsi, evlərinə soxulması və sonda qətlə yetirilməsi nəzərdə tutulur."*** İmam Sadiq (ə) başqa bir hədisində: ***"Qəsdən özünü öldürən şəxs əbədi Cəhənnəmlikdir."***, - deyə buyurmuş, sonra isə "Nisa" surəsinin 29-30-cu ayələrini oxumuşdur[354].

31. Böyük və kiçik günahlar: Bu və digər ayələrdən belə məlum olur ki, günahlar böyük və kiçik olmaqla iki qrupa bölünürlər. Günahların kiçik və böyüklük meyarına gəlincə, qeyd etməliyik ki, böyük günahlar İslam nöqteyi-nəzərindən daha çox diqqət mərkəzində olan, Quranda qadağan edilməklə yanaşı, həm də Cəhənnəm əzabı vəd edilmiş günahlardır. Şirk, zina, sələm, yetim malı yemək və sair böyük günahlardandır. Əhli-beyt (ə) hədislərində belə qeyd edilmişdr: ***"Böyük günahlar Allahın od cəzası təyin etdiyi günühlardır."***[355]

Başqa bir yanaşmaya görə günahların böyüklük və kiçiklik meyarı onların qadağa keyfiyyəti ilə müəyyən edilir. Yəni bir günahın böyük və ya kiçik olduğunu müəyyən etmək üçün Quran və sünnədə həmin günaha nə qədər əhəmiyyət verildiyinə baxmaq lazımdır[356]. Burada bir məsələni də yaddan çıxarmamalıyıq ki, kiçik günahlar təkrarlanmadıqları, etinasızlıq, təkəbbür və üsyan niyyəti ilə yol verilmədikləri təqdirdə kiçik sayılırlar. Çünki kiçik günahlar bəzi hallarda böyük günahlara çevrilrlər. İmam Sadiq

---

[354] Əl-Mizan, c.4, səh.327 və 329
[355] Nümunə, c.3, səh.398
[356] Əl-mizan, c.4, səh.333

(ə) buyurmuşdur: ***"Kiçik günahların heç biri təkrarlandıqdan sonra kiçikliyində qalmır."*** İmam Əli (ə) buyurmuşdur: ***"Ən böyük günah sahibinin onu kiçik saydığı günahdır."***[357]

33. Tərəflərin vərəsəlik şərti ilə qarşılıqlı öhdəlik müqaviləsi bağlaması: Təfsirçilər ***"Əhd-peyman bağladığınız şəxslər"*** cümləsini izah edərkən bildirirlər ki, bu əhd-peymanın mənası vərəsəlik şərti ilə qarşılıqlı öhdəlik müqaviləsinin məzmununa daha yaxındır. Belə ki, İslamdan əvvəl mövcud olan bu müqavilə formasına İslam dinində düzəlişlər edildi və yaradıcı səciyyəsi olduğu üçün İslam dini tərəfindən qanuniləşdirildi. Bu müqaviləyə əsasən iki nəfər bir-birinə qardaşcasına köməklik göstərmək, çətinliklər zamanı bir-birlərinə yardım etmək, tərəflərdən biri dünyasını dəyişdikdə sağ qalan şəxsin ölən adamın mirasına şərik olması ilə bağlı öhdəlik götürürlər. İslam bu müqavilə və qardaşlıq formasını rəsmən tanımış, ona tərəflərdən salamat qalanın ölən tərəfin mirasına yalnız onun qohumları olmadığı təqdirdə şərik ola biləcəyi şərtini əlavə etmişdr. Bu barədə daha ətraflı məlumat almaq üçün fiqh kitablarının bu mövzudan bəhs edən fəsillərinə baxa bilər[358].

---

[357] Nümunə, c.3, səh.401
[358] Nümunə, c.3, səh.410

34. Kişilər qadınların hami və gözətçiləridirlər. Bu, Allahın (ictimai nizam-ntizamı qorumaq üçün) bəzilərini bəzilərindən üstün etməsi və (kişilərin) öz mallarından (qadınlar üçün) sərf etməsinə görədir. Əməlisaleh qadınlar (ailə məsələlərində) təvazökar olurlar, (ərləri) yanlarında olmayanda onların sirlərini, hüquqlarını qoruyan, Allahın onlar (qadınlar) üçün təyin etdiyi hüquqları məsuliyyətlə yerinə yetirirlər. Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara öyüd-nəsihət verin, (əgər nəticə hasil olmazsa) yataqda onlardan uzaq durun və (əgər öz vəzifələrinə əməl etmələri üçün onları məcbur etməkdən başqa heç bir çıxış yolu qalmazsa) onları tənbeh edin! Əgər sizə itaət göstərsələr, onları incitmək üçün heç bir yola əl atmayın. Əlbəttə, Allah ucadır, böyükdür!

35. Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, o zaman (onların problemini həll etmək üçün) kişinin adamlarından bir nəfər və qadının adamlarından da bir nəfər münsif seçin. Əgər onlar barışdırmaq istəsələr, Allah da onlara kömək edər. Həqiqətən, Allah biləndir, (hər kəsin niyyətindən) xəbərdardır!

36. Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın! Ata-anaya qohum-əqrəbaya, yetimlərə, yoxsullara, yaxın və uzaq qonum-qonşuya, yaxın (yoldaş və) dosta, (pulu qurtarıb yolda qalan) müsafirə (yolçulara), əlinizin altında olana (sahib olduğunuz qul və kənizlərə) yaxşılıq edin! Çünki Allah özünü bəyənənləri, lovğalıq edənləri (başqalarının hüquqlarını tapdalayanları) sevməz!

37. Onlar özləri xəsislik etməklə yanaşı, başqalarını da xəsisliyə təhrik edir və Allahın öz lütfündən bəxş etdiyi nemətləri gizlədirlər (Bu davranış onlarln küfründən qaynaqlanır). Biz kafirlər üçün xaredici əzab hazırlamışıq!

---

34. Ailənin kişi tərəfindn himayə edilməsi: Təfsirçlər "Kişilər qadınların hami və gözətçiləridirlər" cümləsini təfsir edərkən bildirirlər ki, bu cümlə diktatorluq, təcavüz və qəsbkarlığı ifadə etmir. Əslində, ailə kiçik bir ictimai birlikdir. Daha böyük cəmiyyətlərdə olduğu kimi, onun da rəhbər və himayəçisi olmalıdır. Bu məsələ digər dövrlərlə müqayisədə müasir dünyada daha aydındır. Hər hansı bir işi yerinə yetirmək üçün hətta iki nəfərlik bir heyət ezam edilsə belə, onlardan biri mütləq başçı olmalıdır, əks təqdirdə hərc-mərclik yaranar. Ailədə kişinin himayəçi olması da eyni prinsipə əsaslanır. Bu isə kişinin malik olduğu xüsusiyyətlərlə izah edilir: 1. Qadından fərqli olaraq kişidə ağıl və təfəkkür hiss və emosiyadan üstün tutulur. Qadınlar hisslərinə üstünlük verirlər. 2. Ailəni idarə etmək və qorumaq üçün kişi yetərli dərəcədə fiziki gücə malikdir. Bundan əlavə, həyat yoldaşı və övladların xərclərnin ödənilməsi, mehrin verilməsi və ailə üzvlərinin təminatının ödənilməsi öhdəliyi kişiyə ailənin himayəçilik vəzifəsini üzərinə götürmək haqqı verir[359].

34. "Nüşuz" sözü: Bu sözün leksik mənası özbaşnalıq, təkəbbür və itaətsizlikdir[360]. Qeyd olunan söz ər və ya arvada aid edildikdə onlardan ikisindən birinin üzərinə düşən vəzifədən boyun qaçırması kimi başa düşülür[361]. Qeyd etməliyik ki, ayədə işarə edilmiş fiziki tənbeh özbaşına və

---

[359] Nümunə, c.3, səh.413
[360] Əl-Mizan, c.4, səh.453
[361] Müstəlahatül-fiqh, səh.537

inadkar qadına qarşı atılan ən son addımdır. Yəni qadın öz vəzifəsini yerinə yetirməzsə, öncə xoş sözlərlə nəsihət edilməlidir. Əgər nəsihətin təsri olmazsa və qadın nəsihət qəbul etməzsə, diqqətdən kənarda saxlanmalıdır, özünə gələnə qədər yatağı ondan ayırmaq lazımdır. Əgər qadın itaətsizliyni davam etdirərsə və davranışları ilə ailənin təməlini laxladarsa, zor tətbiq etməkdən başqa heç bir çıxış yolu qalmır. Əlbəttə, fiqh kitablarında da yazıldığı kimi, vurmaq yumşaq olmalıdır. Bu vuruş onun bədən üzvlərindən hansınınsa sınmasına, yaralanmasına və göyərməsinə səbəb olmamalıdır[362]. İmam Baqir (ə) bu ayəni təfsir edərkən belə buyurmuşdur: ***"Misvak çöpü ilə vurmaq kimi."*** Buna görə də ayənin sonunda ***"Allah ucadır, böyükdür!"*** - deyə buyurulmuşdur. Yəni Allah-taala bu cümlə ilə xatırlama vermək istəyib ki, fiziki gücləri kişiləri öz həyat yoldaşlarına qarşı zülm və haqsızlığa yol verəcək dərəcədə özlərindən çıxarmasın[363]. Əlbəttə, öz vəzifələrini yerinə yetirməyən ərlər haqqında da cəza tədbirləri görülür, hətta fiziki cəzaya layiq görülürlər. Bu cəzalandırma vəzifəsi qadınların səlahiyyətindən kənar olduğu üçün şəriət hakimi ailə qanunlarını pozan kişiləri müxtəlif vasitələrlə, hətta fiziki cəza növü tətbiq etməklə öz vəzifəsi ilə tanış edə bilər[364].

---

[362] Nümunə, c.3, səh.414
[363] Əl-Mizan, c.4, səh.357
[364] Nümunə, c.3, səh.416

38. Onlar öz mallarını camaata göstərmək üçün xərcləyən, Allaha və axirət gününə inanmayanlardırlar. Şeytanla yoldaşlıq edənlərin yoldaşı necə də pisdir!

39. Əgər onlar Allaha və axirət gününə inanıb Allahın onlara verdiyi ruzidən (yoxsullara) sərf etsəydilər, nə olardı?! Allah onlardan (onların niyyətlərindən) xəbərdardır.

40. Allah zərrə qədər də zülm etməz. Əgər yaxşı bir əməl baş versə, onu ikiqat artırar və öz tərəfindən də (bu əməl qarşılığında) böyük mükafat verər!

41. Hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid təyin edəcəyimiz zaman onların halı necə olacaq?

42. O gün Allahı dananlar və Peyğəmbərə asi olanlar yerlə yeksan olmağı arzu edərlər və heç bir sözü Allahdan gizlədə bilməzlər!

43. Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlamayana qədər və cunub (murdar) olduğunuz zaman - yol ötən müsafirlər müstəsnadır - qüsl edənədək namaza yaxınlaşmayın (durmayın). Xəstələndikdə və ya səfərdə olduqda, ayaq yolundan gəldikdə, yaxud qadınlarla cinsi əlaqədə olduqda (qüsl və dəstəmaz üçün) su tapmadığınız zaman pak bir torpaqla təyəmmüm edin, üzünüzə və əllərinizə onu sürtün! Şübhəsiz ki, Allah əfv edəndir, bağışlayandır!

44. Məgər sən kitabdan (Tövratdan) bir pay verilmiş olanları görmürsənmi ki, (ondan öz hidayətləri üçün istifadə etmək əvəzinə) zəlaləti satın alır və sizin də (doğru) yoldan azmanızı istəyirlər?

---

38. Əməllərin puça çıxması: Riyakarlıq böyük ictimai bəlalardandır. İslama görə hər bir əməl niyyətdən asılıdır. Başqa sözlə desək, hər bir əməlin əsasını niyyət təşkil edir. Niyyət isə xalis olmalıdır. İslamda hər şeydən əvvəl niyyət ölçülür. İslam peyğəmbərinin (s) məşhur bir hədisində belə deyilir: “Hər bir əməl niyyətdən asılıdır. Hər kəsin gördüyü işdəki payı həmin əməlin niyyətinə uyğundur. Allaha görə cihad edən şəxsin Allah yanındakı mükafatı böyükdür. Dünya malından ötrü müharibə aparan şəxsin mükafatı, hətta dəvənin ayağını bağlamaq üçün olan ipdən ötrü olsa belə, həmin niyyət qədərdir.” Bu, ona görədir ki, əməli niyyət formalaşdırır. Allah

üçün iş görən şəxs həmin əməlin özülünü möhkəm edir və bütün niyyəti insanların ondan istifadə etməsinə yönəlir. Lakin riyakarlıq niyyəti ilə iş görən şəxs gördüyü işin dərinliyinə, mahiyyətinə, özülünə və ehtiyacı olanların mənfəətinə əhəmiyyət vermir. Riyakarlığa öyrəşmş cəmiyyət təkcə Allahdan, gözəl əxlaqi davranışlardan və üstün vərdişlərdən uzaq düşmür, həm də ictimai proqramlar məzmundan məhrum olur, əməllər bir ovuc mənasız görüntülərlə məhdudlaşır. Belə bir insanın, belə bir cəmiyyətin aqibəti nə qədər də ağrılıdır! Peyğəmbər (s) hədislərinin birində belə buyurmuşdur: ***"Bir zaman gələcək ki, insanların daxli çirkin və bulaşıq, zahirləri isə gözəl olacaq. Bunun səbəbi insanların tamahkarlığı və ilahi mükafata əhəmiyyət verməməsidir. Onların dini riya olacaq, qəlblərində Allah qorxusu olmayacaq. Allah onları ağır əzaba düçar edəcək. Onlar Allahı bir xilaskar olaraq nə qədər çağırsalar da, duaları qəbul olmaz."***[365]

43. Yoldan istisnadır: Bu cümlənin təfsiri ilə bağlı iki versiya var. Birinci versiyaya görə "yoldan keçən" deyilərkən səfərdə olan insan nəzərdə tutulur. Yəni bu ayəyə görə, səfərdə olan və su tapmayan şəxs namaz qılmaq üçün təyəmmüm etməlidir. İkinci təfsirdə Əhli-beyt (ə) imamlarının hədisinə istinad eidlmişdir. Həmin hədisə görə, qeyd olunan ifadə ilə cənabətli halda məsciddə dayanmadan keçib getmənin icazəli olması nəzərdə tutulur. Bəzi hədislərə əsasən bu cümlə ilə Peyğəmbər (s) məscidinin ətrafında yaşayan və evlərinin qapısı məscidə açılan səhabə və müsəlmanlara cənabətli halda məscidin içində dayanmadan oradan keçib getməyə icazə verilmişdir[366].

43. Təyəmmümün mənəvi və maddi təsirləri: Təyəmmüm elə ibadətlərdəndir ki, ibadətin ruhu sözün əsl mənasında özünü onda əks

---

[365] Nümunə, c.27, səh.363
[366] Nümunə, c.3, səh.439

etdirmşdir. Çünki insan Allah qarşısındakı itaət və təvazökralığını nümayiş etdirmək üçün torpağa vurduğu əlini ən şərafətli üzvü olan alnına sürtür. Bununla təyəmmüm edən insan demək istəyir ki, alnım və əllərim Allah qarşısında son həddə qədər təvazökar və itaətkardır. Bu işi gördükdən sonra insan dəstamaz və qüsllə şərtlənən namaz və dgər ibadətləri yerinə yetirmək səlahiyyəti qazanır. Bu şəkildə təyəmmüm təvazökarlıq, bəndəçilik və şükürçülük ruhunun tərbiyələnməsinə təsir göstərir[367].

44. İncil və Tövratın təhrif edlməsi: Ayənin ***"sən kitabdan bir pay verilmiş olanları görmürsənmi...?"*** cümləsini təfsr edərkən təfsirçilər bildirirlər ki, "kitab" deylərkən İncil və Tövrat nəzərdə tutulur. Bu ifadə onu göstərir ki, Peyğəmbərin zamanına qədər İncil və Tövrat məhv edilmiş və onlardan yalnız bir hissəsi toxunulmaz qalmışdı. Əlbəttə, məhz həmin hissədə Peyğəmbərin (s) gələcəyi ilə bağlı müjdə verilmişdi, amma onlar həmin faktı gizlədirdilər[368].

[367] Nümunə, c.3, səh.442
[368] Ətyəbül-bəyan, c.4, səh.91

45. Allah sizin düşmənlərinizi daha yaxşı tanıyır (Onlar sizə ziyan vura bilməzlər). Bir dost və yardımçı kimi Allah sizə kifayət edər!

46. Yəhudilərin bir qismi sözlərin yerini dəyişib təhrif edir və dillərini əyərək Allahın dininə tənə vurmaq məqsədilə sənə: "Eşitdik və qəbul etmədik; eşit, eşitməz olasan (kar olasan) və (istehza və kinayə ilə) raina (bizi axmaq yerinə qoy)", - deyirlər. Əgər onlar: "Eşitdik və itaət etdik; eşit və bizə tərəf bax!",- desəydilər, əlbəttə, onlar üçün daha xeyirli və daha doğru olardı. Lakin Allah onları küfrlərinə görə rəhmətindən uzaq etmişdir. Buna görə də onların yalnız az bir hissəsi iman gətirmişdir.

47. Ey kitab verilmiş kimsələr! Bəzi üzləri tanınmaz hala salıb ənsələrinə (arxalarına) çevirməmişdən və şənbə gününün hörmətini saxlamayanlara (əshabus-səbtə) etdiyimiz kimi, onları da rəhətimizdən uzaq etməzdən əvvəl əlinizdə olanı (Tövratı) təsdiqləyən olaraq nazil etdiyimizə (Qurana) iman gətirin! Allahın əmri mütləq yerinə yetəcəkdir!

48. Allah şirki əsla bağışlamır, amma istədiyi şəxsin bundan kiçik günahlarını bağışlar. Allaha şərik qoşan şəxs böyük günaha yol vermişdir.

49. Özlərini öyənləri görmürsənmi? (Bu özünü öymələrin heç bir dəyəri yoxdur). Allah istədiyini öyər və onlara azacıq da zülm olunmaz.

50. Sən onların Allaha qarşı necə yalan uydurduqlarına bax! Bu, açıq-aşkar bir günah (onları cəzalandırmaq üçün) kifayətdir!

51. Kitabdan pay verilənləri görmürsənmi? Onlar Cibt və Tağuta (büt və bütpərəstlərə) inanır və kafirlər haqqında da: "Bunlar möminlərdən daha doğru yoldadırlar", - deyirlər.

---

46. Təhrif deyilərkən bu ayədə nə nəzərdə tutulur? Bu suala bir neçə aspektdən cavab verilmişdir: Birinci versiyaya görə "təhrif" deyilərkən Tövratın sözlərinin dəyişdirilməsi, sözlərin yerlərinin dəyişdrilməsi, azaldılması və ya çoxaldılması nəzərdə tutulur. Bildiyimiz kimi, hal-hazırda mövcud olan Tövrat həzrət Musaya (ə) göndərilmiş Tövratdan çox fərqlənir. İkinci versiyaya görə "sözlərin təhrifi" deyilərkən Tövratın və Peyğəmbərlərin sözlərinin yanlış izahı və yozumları nəzərdə tutulur. Belə ki, Tövratda İslam peyğəmbəri (ə) və Məsihin gəlişi ilə bağlı müjdə verilmişdir, ancaq yəhudilər müjdələri təhrif etmiş, Musadan (ə) sonra heç bir xilaskarın gəlmədiyini iddia etmşlər. Onlar bu günə qədər də xilaskarın yolunu gözləməkdədirlər. Üçüncü versiyaya görə "sözlərin təhrifi" deyilərkən sözlərin layiq olmadıqları yerlərdə işlənməsi nəzərdə tutulur. Allah-taala bu ayədə onlardan üçünə işarə etmişdir. Məsələn, "eşitdik" ifadəsi itaət niyyəti ilə deyilməli və ondan sonra "itaət etdik" sözü işlənməlidir. Bu ifadə məsxərə niyyəti lə işlədilərək "eşitdik və qarşı çıxdıq" formasında deyilməməlidir. Bu təfsirə əsasən Allah-taala söz və ifadələrin bu şəkildə yanlış işlədilməsini sözlərin təhrf edilməsi kimi qəbul edir[369].

---

[369] Əl-Mizan, c.4, səh.373

46. Söz oyunu və müsəlmanları məsxərəyə qoymaq: “Raina” cümləsinin mənası “Bizi nəzərə al və bizə möhlət ver” deməkdir. Müəslmanlar İslamın ilk illərində Allah rəsulunun (s) sözlərini yaxşı eşitmək və yadda saxlamaq üçün Ona bu şəkildə müraciət edirdilər. Amma yəhudilər bu müraciət formasını əllərində bayraq tutaraq, Peyğəmbərlə (s) qarşılaşdqıda tez-tez onu təkrar edirdilər. Onlar bu ifadəni işlədərkən onun ibricə olan məna yükünü nəzərdə tuturdular. İbricə bu feilin iki mənası var: 1. Bizi eşit, eşitməz olasan; 2. Bizi axmaq yerinə qoy. Bununla demək istəyirdilər ki, guya Peyğəmbər (s) öz davranışları ilə camaatı axmaq yerinə qoyur (Allaha sığınırıq)[370]. “Bəqərə” surəsinin 104-cü ayəsində də bu mövzuya işarə edilmişdir.

47. Yəhudilərin fikri və ruhi cəhətdən məhv olması, mənəvi cəhətdən geriləməsi: Ayənin “Bəzi üzləri tanınmaz hala salıb ənsələrinə (arxalarına) çevirməmişdən” cümləsini şərh edərkən bildirirlər ki, burada ağlın və zəkanın reallığı dərk edə bilməməsi, düz yoldan sapması nəzərdə tutulmuşdur. İmam Sadiqə (ə) aid edilən bir hədisdə belə buyurulmuşdur: “Məqsəd onların hidayət yollarını bağlamaq, azğınlıq və zəlalət yoluna geri qaytarmaqdır.” Kitab əhli, xüsusilə yəhudilər bütün dəlillərə baxmayaraq haqq qarşısında təslim olmadılar, şüurlu surətdə inadkarlıq göstərdilər, müxtəlif məqamlarda bilərəkdən əks mövqedən çıxış edib əks davrandılar. Tədricən inadkarlıq onlar üçün vərdişə çevrildi. Sanki şüurları tamamilə pozuldu, gözləri kor, qulaqları kar oldu. Belə şəxslər həyatda irəliləmək əvəzinə gerilədilər, bataqlığa düşdülər. Haqqı bilərəkdən inkar edənlərin

[370] Nümunə, c.3, səh.447

cəzasıdır bu. Buna görə də “Taməsə” feilinin bu ayədəki mənası fikri və ruhi cəhətdən məhv etmək, mənəvi cəhətdən geri salmaqdır[371].

51. Yəhudilərin müşriklərin tərəfini saxlaması: Bu ayənin nazilolma səbəbindən danışarkən qeyd edirlər ki, Peyğəmbər (s) Mədinəyə hicrət etdikdən sonra Kəb ibn Əşrəf adlı yəhudi böyüklərindən biri Mədinəni tərk edir, iki dinin tərəfdarları arasındakı mübahisələrdən uzaq durmaq məqsədilə Məkkəyə köçür. O, camaata deyir: Mən nə Məhəmmədə qarşı kimsə kömək etmək fikrində deyiləm, nə də onun üçün döyüşmək fikrim yoxdur. Müşriklər ondan soruşurlar: Ey Kəb, bizim dinimiz yaxşıdır, yoxsa Məhəmməd və səhabələrinin dini? O, deyir: sizin dininiz yaxşı və qədimdir, amma Məhəmmədin dini yenicə zühur edib. Bu ayə onun haqqında nazil oldu[372]. Quranın bu surəsinin 54-cü ayəsində qeyd olunan haqsız mühakiməyə işarə edilərək buyurulur: Bunun kökündə paxıllıq və qısqanclıq dayanır. Çünki İslam peyğəmbərinin (s) göndərilməsi peyğəmbərliyin İshaqın nəslindən İsmayılın nəslinə keçməsindən xəbər verirdi. İshaqın nəslindən olan yəhudilər buna görə paxıllıq edir, utanmaz-utanmaz bütpərəstliyi təkAllahlıq dinindən üstün tuturdular.

---

[371] Nümunə, c.3, səh.450
[372] Əl-Mizan, c.4, səh.393

52. Onlar Allahın öz rəhmətindən uzaq saldığı kimsələrdir. Allahın öz rəhmətindən uzaq saldığı kimsəyə heç bir yardımçı tapa bilməyəcəksən!

53. Yoxsa onların hökmranlıqda bir payları var? Əgər belə olsaydı, (hər şeyi öz inhisarlarına alar və) insanlara azacıq da olsun haqq verməzdilər.

54. Yoxsa onlar Allahın öz nemətindən bəxş etdiyi şeylərə görə insanlara () Peyğəmbərə və onun nəslinə) paxıllıq edirlər? Halbuki Biz İbrahim övladlarına (yəhudilər onun nəslindəndirlər) da kitab və hikmət vermişdik və onlara böyük hökmranlıq bəxş etmişdik.

55. Lakin onlardan bir qrupu ona iman gətirdi, bir qrupu isə (insanların) ona tərəf (olan) yolu(nu) bağladı. Cəhənnəmin alovlanmış odu (onlara) kifayət edər!

56. Ayələrimizi inkar edənləri tezliklə oda atacağıq. Onların dəriləri bişdikcə, əzabı dadsınlar deyə, o dəriləri başqası ilə əvəz edəcəyik. Allah yenilməz qüvvət, hikmət sahibidir!

57. İman gətirən və yaxşı işlər görən şəxsləri tezliklə (ağacları) altından çaylar axan Cənnətlərə daxil edəcəyik. Onlar orada əbədi qalacaqlar. Orada onları pak zövcələr gözləyir. Biz onları rahatlıq bəxş edən geniş kölgəliklərə yerləşdirəcəyik.

58. Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir. Allah sizə gözəl nəsihətlər verir. Allah (hər şeyi) eşidəndir, görəndir!

59. Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və əmr sahiblərinə (Peyğəmbərin canişinlərinə) itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və Qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır.

---

56. Cəhənnəmin şiddətli əzabları: Möminlərin əmiri Əli (ə) canlara lərzə salan cümlələrində bizlərə xitab edərək belə buyurmuşdur: ***"Bilin ki, bu zəif dərinin Cəhənnəm oduna dözümü yoxdur. Özünüzə rəhminiz gəlsin. Siz bu dünyanın çətinliklərinə qarşı nə qədər dözümlü olduğunuzu sınaqdan keçirmisiniz. Bədəninizə tikan batdıqda, ya titrədikdə, yıxıldıqda, qanadıqda və ya isti qumlar üstündə yandıqda hansı hala düşdüyünüzü görməmisinizmi? Bəs ikiqat od içində olduqda, yataq yoldaşı daş, yoldaşı Şeytan olduqda insanın vəziyyəti necə olacaq? Cəhənnəm sahibi oda qəzəbləndikdə qəzəbinin şiddətindən bəzilərinin onu başlarına şırpacağını, bəzilərinin isə udacağını, nərə çəkdikdə isə fəryadının heybətindən hər tərəfdən püskürəcəyini bilirsinizmi?"***[373]

58. Əmanətin əhəmiyyəti: Əmanət məfhumu geniş mənaları ehtiva edir, istənilən maddi və mənəvi sərmayəyə şamil olur. Bu ayədə açıq şəkildə bildirilir ki, heç bir müsəlman əmanət sahibinin müsəlman və ya qeyri-müsəlman olmasından asılı olmayaraq, heç bir əmanətə xəyanət etməməlidir. İmam Sadiq (ə) dostlarından birinə belə buyurmuşdur: ***"Əgər bir nəfər qılıncla Əlini (ə) qətlə yetirsəydi və həmin qılıncı yanımda əmanət qoysaydı, ya məndən məsləhət alsaydı və ya mənimlə məsləhətləşsəydi, mən əmanəti qəbul edər, əsla ona xəyanət etməzdim."*** İslam mənbələrində heç bir məsələyə əmanət məsələsi qədər əhəmiyyət verilməmişdir. Məsələn, İmam Sadiq (ə) buyurmuşdur: ***"Fərdlərin rüku və səcdələrinin uzunluğuna baxmayın. Çünki bu, onlar üçün bir adət ola***

---

[373] Nəhcül-bəlağə, 182-ci xütbə

bilər və onu tərk etsələr narahat olarlar. Siz onların düz danışan olmasına və əmantdar olmasına baxın."[374]

59. Əmr sahibləri: Peyğəmbərin (s) xüsusi səhabələrindən olan Cabir ibn Abdullah Ənsariyə aid edilən bir rəvayətdə belə qeyd edilmişdir: "Bu ayə nazil olduqda Peyğəmbərdən (s) soruşdum: "Ey Allahın rəsulu (s), Allah və peyğəmbərini tanıdıq, bəs əmr sahibləri kimlərdir ki, Allah onlara itaəti öz itaəti ilə yanaşı qeyd etmişdir?" Peyğəmbər buyurdu: ***"Ey Cabir, Onlar mənim canişinlərim və məndən sonra müsəlmanların rəhbərləridirlər. Onların brincisi Əli ibn Əbutalib (ə), sonra Həsən (ə), sonra Hüseyn (ə), sonra Əli ibn Hüseyn (ə), sonra Tövratda Baqir adı ilə qeyd edilmiş Muhəmməd ibn Əlidir (ə). Cabir, sən onu tezliklə görəcəksən. Onunla görüşəndə salamımı ona çatdırarsan. Ondan sonra Sadiq Cəgər ibn Muhəmməd (ə), sonra Musa ibn Cəfər (ə), sonra Əli ibn Musa (ə), sonra Muhəmməd ibn Əli (ə), Əli ibn Muhəmməd (ə), sonra Həsən ibn Əlidir (ə). Sonra Həsən ibn Əlinin oğlu, Muhəmməd, mənim adaşım, həmkünyəm[375], Allahın yer üzündəki dəlili və Allahın bəndələri arasında qoruduğudur. O, elə bir şəxsdir ki, Allah onun vasitəsilə öz adını bütün dünyaya yayacaq. O, elə bir şəxsdir ki, şiələri və dostlarının gözündən uzaq düşəcək. Bu qeyb şəraiti elə olacaq ki, Allah qəlbini iman ilə yoxlamayıncaya qədər heç kəs onun imamətin inamında sabitqədəm olmayacaq."*** Dedim: "Ey Allahın rəsulu (s) O, qeybdə olduğu vaxt şiələr ondan faydalanacaqlarmı?" Buyurdu: ***"Bəli, and olsun məni peyğəmbər təyin edənə, buludlarla örtülməsinə baxmayaraq, insanlar günəş işığından***

---

[374] Nümunə, c.3, səh.476

[375] "Künyə" - Ərəb dilində kişinin öz böyük oğlunun, qadının isə böyük övladın adının qarşısına "əb" (kişilərdə) və "ümm" (qadınlarda) sözləri əlavə edilərək adlandırılması bir ənənə olmuşdur. Ərəb qəbilələri arasında şəxslər üçün künyə formasında ad qoymaq ənənəsi o şəxs üçün hörmət və ehtiram əlaməti) sayılır. Məsələn, Əbülqasim, Əbül-həsən, Ümmü Sələmə, Ümmü Gülsüm və s.

faydalana bildikləri kimi, qeyb dövründə onlar da onun nurundan nur alacaq, rəhbərliyindən faydalanacaqlar. Cabir, bu, Allahın gizlətdiyi sirlərdən və Allahın gizlətdiyi bilgidir. Buna görə də onu yalnız əhlinə söylə.”[376]

60. Sənə nazil edilənə və səndən əvvəl nazil edilənlərə (səmavi kitablara) iman gətirdiklərini güman edən, zalımların və haqq olmayan hakimlər tərəfindən mühakimə olunmaq istəyənləri görmürsənmi? Halbuki onlara həddi aşan zülmkarlardan üz döndərmək əmr olunmuşdu. Şeytan isə onları (doğru yoldan) çox uzaq olan zəlalətə sürükləmək istəyir.

61. Onlara: “Allahın nazil etdiyinə və Peyğəmbərə tərəf gəlin!” – deyildiyi zaman münafiqlərin səndən üz döndərdiklərini görərsən.

---

[376] Kəmalüddin və təmamünnemə ,c.1, səh.253

62. Bəs etdikləri əməllərin cəzası olaraq başlarına bir müsibət gəldiyi zaman (onların halı) necə olacaq? Sonra onlar sənin yanına gəlib: “Bizim (onların məhkəməsinə müraciət etməkdə) məqsədimiz yalnız yaxşılıq etmək və (iddiaçılar arasında) barışıq yaratmaq idi”, - deyərək Allaha and içəcəklər.

63. Onlar elə şəxslərdir ki, Allah onların ürəklərindəkini (yaxşı) bilir. Sən onlardan üz çevir (onları cəzalandırma), onlara öyüd ver və əməllərinin nəticəsi haqqında onlara xatırlatma ver!

64. Biz hər bir peyğəmbəri, ancaq ona Allahın əmrilə itaət olunsun deyə, göndərdik. Əgər onlar özlərinə zülm etdikləri (Allahın əmrlərini pozduqları) zaman sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv diləsəydi, Allahın tövbələri qəbul edən və mərhəmətli olduğunu görərdilər.

65. Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim təyin etməyincə və sənin verdiyin qərara görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə, iman gətirməyəcəklər.

---

60. Hakimlik etməsi üçün zalım hakimlərə müraciətin qadağan edilməsi: Bu ayənin nazilolma səbəbindən bəhs edərkən təfsirçilər bildirirlər ki, Məduni yəhudilərindən birinin münafiq müsəlmanlardan biri ilə mübahisəsi düşmüşdü. Buna görə də aralarında hakimlik etməsi üçün bir nəfəri seçmək qərarına gəldilər. Yəhudi İslam peyğəmbərinin (s) ədalətli və bitərəf adam olduğuna inandığı üçün dedi: Mən sizin peyğəmbərinizin hakimlik etməsinə razıyam. Lakin münafiq yəhudi böyüklərindən olan Kəb ibn Əşrəfi seçdi. Çünki o, Kəbə rüşvət verib onun fikrini dəyişə biləcəyini

düşünürdü. Buna görə də İslam peyğəmbərinin (s) hakim olması təklifinə etiraz etdi. Bu ayə nazil oldu və ayədə sözügedən şəxslər məzəmmət edildi[377]. İmamlar (ə) öz hədislərində münsiflik etmək üçün zalım hakimlər və ədalətsiz insanlara müraciəti qadağan etmişlər. İmam Sadiq (ə) buyurmuşdur: ***"Öz din qardaşı ilə mübahisəsi düşmüş şəxs anlaşılmazlığı həll etmək üçün öz ona dindaşlarından birinə müraciət etməyi təklif etsə, lakin qarşi tərəf imtina edib hakimlik etməsi üçün zalımlara müraciət etsə, sanki haqlarında "Nisa" surəsinin 60-cı ayəsi nazil olmuş şəxslər kimi olar."***[378] İmam Sadiq (ə) bu ayədə işlənmiş "tağut" sözünü izah edərkən buyurmuşdur: ***"Haqsız hökm çıxaran və camaatın münsiflik etməsi üçün müraciət etdiyi şəxs."***[379]

64. Təvəssül və Quranın təsdiqi: Bu ayə Peyğəmbər və imamlara təvəssül edilməsini şirk hesab edənlərə cavab verir. Ayədə açıq şəkildə deyilir ki, Peyğəmbərin (s) yanına gedib onu Allah dərgahına şəfaətçi salmaq, Peyğəmbərin (s) günahkarların bağışlanması üçün vasitəçilik etməsi və bağışlanma diləməsi tövbənin qəbuluna və ilahi rəhmətə səbəb olur[380]. Əlbəttə, bu cür vasitəçilik zamanı xətaya yol verənlərin həmin vasitəçiliyə hazırlığı, ləyaqəti və tutumu olmalıdır[381].

65. Peyğəmbərin (s) əmrinə qeyd-şərtsz itaət tövhidin parlaq göstəricisidir: Bu ayənin nazilolma səbəbindən bəhs edərkən bildirirlər ki, mühacirlərdən olan Zübeyr ibn Əvam Mədinə ənsarlarından biri ilə özlərinin yanaşı olan xurma bağının suvarılması üstündə mübahisə edir. Mübahisəyə son qoymaq üçün Peyğəmbərin (s) yanına gəlirlər. Zübeyrin bağı daha

---

[377] Nümunə, c.3, səh.491
[378] Ətyəbül-bəyan, c.4, səh.118
[379] Nümunə, c.3, səh.492
[380] Nümunə, c.3, səh.499
[381] Nümunə, c.3, səh.500

yuxarıda, ənsardan olan müsəlmanın bağı isə aşağıda olduğu üçün Peyğəmbər (s) öncə Zübeyrin, sonra isə ənsardan olan müsəlmanın öz bağını suvarmasına göstəriş verir. Bu, yanaşı olan bağlarla bağlı mövcud ənənəyə uyğun bir qərar idi. Amma camaatın gözündə müsəlman obrazı yaratmış ənsardan olan müsəlman Peyğəmbərin (s) ədalətli qərarı ilə razılaşmır və narazılığını belə ifadə edir: Zübeyr sənin əmin oğlu olduğu üçünmü belə hökm çıxardın? Peyğəmbər (s) çox narahat olur, hətta yanaqlarının rəngi dəyişir. Bu vaxt sözügedən ayə nazil olur və ayədə müsəlmanlara xəbərdarlıq edilir[382]. Bu ayəyə əsasən imanın üç əlaməti var: Bütün mübahisələrdə Peyğəmbərə (s) müraciət etmək; çıxardığı hökmə görə əsla narahat olmamaq; ona cani-dillə tam şəkildə əməl etmək[383]. İmam Sadiq (ə) buyurmuşdur: ***"Əgər insanlar Allaha ibadət etsələr, ona şərik qoşmasalar, namaz qılsalar, zəkat versələr, Allah evini ziyarət etsələr, Ramazan ayını oruc tutsalar, ancaq Allah və ya Onun peyğəmbərinin (s) işlərinə etiraz etsələr və ya bu etirazı qəlblərindən keçirsələr, həmin miqdarda müşrik olurlar."*** Sonra İmam (ə) "Nisa" surəsinin 65-ci ayəsini oxuyub buyurdu: ***"Allaha və Peyğəmbərinə (s) iatət göstərin!"***[384]

[382] Nümunə, c.3, səh.502
[383] Quranın xəbəri, c.3, səh.366
[384] Əl-Mizan, c.4, səh.424

66. Əgər Biz onlara: “Bir-birinizi öldürün, yaxud evlərinizi və yurd-yuvalarınızı tərk edin!” – deyə əmr etsəydik, onlardan yalnız az bir hissəsi bu əmri yerinə yetirərdi. Əgər onlara verilən nəsihətlərə əməl etsəydilər, onlar üçün daha xeyirli olardı və imanlarının möhkəmlənməsinə səbəb olardı.

67. O halda Biz onlara Öz tərəfimizdən böyük mükafat verərdik.

68. Və onları düz yola yönəldərdik.

69. Allaha və Peyğəmbərə itaət edənlər (Qiyamət günü) Allahın nemətlər verdiyi nəbilər (peyğəmbərlər), siddiqlər (doğru danışanlar, sədaqətli olanlar, etiqadı dürüst olanlar), şəhidlər və salehlərlə (yaxşı əməl sahibləri ilə) bir yerdə olacaqlar. Onlar gözəl yoldaşlardır!

70. Bu mükafat Allah tərəfindəndir. Onun (bəndələrinin vəziyyətindən, niyyət və əməllərindən) xəbərdar olması kifayət edər.

71. Ey iman gətirənlər! (düşmən qarşısında) Ehtiyatı əldən verməyib düşmən üzərinə ya dəstə-dəstə, ya da hamınız bir yerdə (zaman və məkan şərtlərindən asılı olaraq) hərəkət edin!

72. Aranızda elələri (münafiqlər) vardır ki, (həm özləri zəifdirlər, həm də) başqalarını ruhdan salarlar və əgər sizə bir müsibət üz versə: "Allah bizə lütf etdi ki, mücahidlərlə birlikdə olub həmin müsibətin şahidi olmadıq", - deyərlər.

73. Əgər Allah tərəfindən sizə bir qənimət nəsib olsa, o zaman guya aranızda heç bir dosluq yoxmuş kimi: "Kaş ki, biz də onlarla birlikdə olub böyük bir xilasa (qalibiyyətə) nail olaydıq!", - deyərlər

74. Dünyanı verib əvəzində axirəti satın alanlar Allah yolunda vuruşsunlar. Hər kim Allah yolunda vuruşaraq ölərsə və ya qalib gələrsə, ona böyük mükafat verəcəyik.

---

66. Allaha itaət əzmkralığın artmasının səbəbidir: "Əşəddu təsbitən" (İmanlarının möhkəmlənməsi) cümləsindən belə başa düşülür ki, insan Allahın əmrinə itaət yolunda nə qədər addım atarsa, onun əzmkralığı və imanı bir o qədər çox olar. Əslində, Allaha itaət, bir növ ruhun tərbiyələndirilməsinə xidmət edir. Davam və təkrar etdirildikcə fiziki bədən tərbiyəsində olduğu kimi gün-gündən ruhu möhkəmləndirir, gücləndirir, dözümlülük və əzmkarlığını artırır, insan tədricən elə bir məqama çatır ki, heç bir güc onun iman əzmkarlığını sındıra və onu aldada bilmir. Deyilənə görə bu ayə nazil olduqdan sonra imanlı müsəlmanlardan biri dedi: And olsun Allaha, əgər Allah tərəfindən bizə belə ağır göstərişlər verilsəydi, hökmən yerinə yetirərdik. Ancaq Allaha şükür olsun ki, bizə belə bir əmr verilməyib. Bu xəbər Peyğəmbərə (s) çatdıqda buyurdu: ***"Mənm***

ardıcıllarımdan bəzisinin qəlbindəki iman sarsılmaz dağlardan da möhkəmdir.”[385]

69. Allaha itaət dünyanın yaxşıları ilə yoldaşlığa səbəb olur: İmam Əli (ə) bu ayənin nazilolma səbəbindən danışarkən belə qeyd etmişdir: “Bir kişi Peyğəmbərin (s) yanına gəlib dedi: “Mən Sizdən ayrı qala bilmirəm. Evimə gedəndən sonra Siz yadıma düşəndə əlim tamamilə işdən soyuyur. Əlimdə nə işim varsa, saxlayıram, Sizi görüb rahatlanmaq üçün ziyarətinizə gəlirəm. Bunun səbəbi mənim Sizə qarşı olan sevgimdir. İndi düşünürəm ki, görəsən Qiyamət günü Siz Cənnətə daxil olub ən yüksək dərəcəyə yüksəldikdə mən nə edəcəyəm? Ey Allahın rəsulu, həmin vaxt sizin ayrılığınıza necə dözəcəyəm?” Bu ayə nazil oldu və Peyğəmbər (s) həmin kişini çağırıb bu ayəni oxudu, ona müjdə verdi.” İmam Baiqr (ə) buyurmuşdur: ***“Günahdan uzaq durmaqla bizə yardım edin. Çünki günahlardan çəkinməklə Allahla görüşən şəxs üçün Allah yanında bir xilas var. Çünki Allah buyurmuşdur: “Allaha və Peyğəmbərə itaət edən şəxs...” Bəli, peyğəmbər bizdəndir; siddiq də bizdəndir; şəhidlər və salehlər də bizdəndirlər.”***[386]

71. Hərtərəfli hazırlıqlı və ehtiyatlı olmağa təkid edilməsi: Bu ayədə müsəlmanlara hər zaman öz təhlükəsizliklərini və sərhədlərini qorumaq üçün maddi və mənəvi cəhətdən hərtərəfli hazırlıqlı olmaq göstərişi verilmişdir. “Hizr” (vasitə) sözünün mənası çox genişdr, bütün maddi və mənəvi vasitələrə şamil olur. O cümlədən müsəlmanlar hər bir zaman düşmənin mövqeyindən, silah növlərindən, müharibə taktikasından, hazırlıq səviyyəsindən, silahlarının sayından, funksionallığından xəbərdar olmalıdırlar. Çünki bütün bu mövzular düşmən təhlükəsinin qarşısının alınmasında və “hizr” məzmununun ifadəsində rol oynayır. Digər tərəfdən,

---

[385] Nümunə, c.3, səh.506
[386] Əl-Mizan, c.4, səh.425

müsəlmanlar özlərini qorumaq üçün psixoloji, mənəvi cəhətdən, mədəni, iqtisadi və iqtisadi resursların səfərbər edilməsi, dövrün ən son standartlara cavab verən silah növündən, onun işlədilmə mexanizmindən istifadə baxımından hazırlıqlı olmalıdırlar. Şübhəsiz ki, müsəlmanlar təkcə bu ayəni öz həyatlarına tətbiq etsəydilər, tarix boyu məğlubiyyətə uğramazdılar[387].

[387] Nümunə, c.4, səh.3

75. Nə üçün “Ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən (Məkkədən) kənara çıxart, bizə öz tərəfindən himayəçi göndər, yardımçı yolla!” – deyə dua edən zəiflədilmiş, çarəsiz hala salınmış kişilər, qadınlar və uşaqlar uğrunda Allaha xatir vuruşmursunuz?

76. İman gətirənlər Allah yolunda, kafir olanlar isə tağut (büt, tiran, zülmkarlar hökmdarlar) yolunda vuruşurlar. O halda Şeytanın dostlarıyla vuruşun! (Onlardan qorxmayın!) Çünki Şeytanın hiyləsi zəifdir!

77. (Məkkədə): “(Hələlik) cihaddan əl çəkin, namaz qılın, zəkat verin!” – deyilmiş şəxsləri görmədinmi? (Onlar bu əmrə görə narahat olmuşdular). Lakin (Mədinədə) onlara cihad əmri verildikdə içərilərindən bir qismi insanlardan Allahdan qorxan kimi və ya daha artıq bir qorxu ilə qorxaraq: “Ey Rəbbimiz! Cihad etməyi nə üçün bizə vacib etdin? Nə üçün bu əmri yaxın zamana qədər təxtə salmadın?” – dedilər. Onlara söylə: “Dünya həyatnın faydası azdır, lakin müttəqilər üçün axirət sarayı daha xeyirlidir. Sizə (müttəqilərə) xurma çərdəyində olan nazik tel qədər belə zülm olunmayacaq!”

78. Harada olursunuz olun, hətta uca (möhkəm) qalalar içərisində olsanız belə, ölüm sizi haqlayacaq. Onlara (münafiqlərə) bir xeyir yetişdikdə: “Bu Allahdandır!” – deyərlər, bir pislik üz verdikdə isə: “Bu səndəndir!” – söyləyərlər. De: “Bunların hamısı Allahdandır”. Nə üçün bu insanlar söz anlamaq istəmirlər?!

79. Sənə yetişən hər bir yaxşılıq Allahdandır, sənə üz verən hər bir pislik isə özündəndir. Biz səni insanlara peyğəmbər göndərdik. Allahın buna şahid olması kifayət edər.

---

75. Müsəlmanın zəiflədilmiş, çarəsiz vəziyyətə salınmış insanlarla bağlı vəzifəsi: "Zəiflədilmiş" sözü ilə "zəif" sözü arasında fərq var. "Zəif" çarəsiz, "zəiflədilmiş" isə başqalarının zülm və haqsızlığı nəticəsində fikri, mədəni, iqtisadi, siyasi və ya sosial cəhətdən çarəsiz vəziyyətə düşən şəxsə deyilir[388]. Allah-taala bu ayədə Allaha xatir, zəiflədilmiş insanlar uğrunda vuruşmaq əmri vermişdir. Xalis və təmizürəkli möminlərin qiyama qalxması üçün onlara təkcə "Allah yolunda qiyam edin" göstərişinin verilməsi kifayət edər. Lakin Allah-taala bu iman dərəcəsində olmayan möminlərə həm də stimulverici bir əmr göndərir, onlara Allah yolunda vuruşmaqla yanaşı Allah düşmənlərinin işkəncələrinə məruz qalmış din qardaşları, qadınlar və uşaqların azad edilməsi uğrunda da vuruşmaq əmri verir və bu vasitə ilə onların qeyrətini coşdurur. İslam qohumluq və yaxınlıq təəssübkeşliyinə qarşı olduğu halda, müsəlman olduqdan sonra qohum və yaxınların qeyrətini və təəssübünü çəkməyi göstəriş verir. Bu ayə zalımların təcavüzünə məruz qalmış və Allahdan xilas istəyən, hicrət edə bilməyib Məkkədə müşriklərin işkəncələrinə məruz qalmış məzlumlar haqqındadır. Bu ayəyə istinad edərək məsumların (ə) ***"Zəif və çarəsiz vəziyyətə salınmışlar bizlərik"*** xüsusilə deməsi diqqət çəkir. Bu hədisdən onların İslam ümmətinin zalımlarının imamlara (ə) qarşı zülm və haqsızlıqlar etdiyi, zülm və haqsızlığa məruz

---

[388] Nümunə, c.3, səh.9

qalmış imamlara yardım göstərilməsi, onların yolunda cihadın vacibliyi aydın olur[389].

76. Tağut (tiran): "Tağut" leksik mənası həddi aşmaq, təcavüz, zorakılıq etmək, təcavüzkar davranışlar olan "tüğyan" sözündən düzəlmişdir. "Tağut" sözü "tüğyan" sözünün mübaliğə formasıdır. Buna görə də Şeytan, bütlər, zorakı hakimlər, Allahdan başqa bütün məbudlar, haqqa aparmayan istənilən vasitə tağut hesab edilir. Nəzərdən qaçırmaq olmaz ki, bu söz həm tək, həm də cəmdə işlənir[390]. Tüğyan sözü insan haqqında işləndikdə onun ağıl və şəriətlə müəyyən edilmiş sərhədləri aşdığını ifadə edir. Deməli, tağut hər kəsdən üstün olmaq üçün bəndəlik vəzifələrini aşan zülmkar insana deyilir. Deməli, "Allahdan başqa bütün məbudlar" deyilərkən də bu məna nəzərdə tutulur[391].

77. Cihada səhlənkarlıq edənlərin məzəmmət edilməsi: Bu ayənin nazilolma səbəbindən bəhs edilərkən bildirilir ki, Məkkədə müşriklərin təzyiq və işkəncələrinə məruz qaldıqları zaman bəzi müsəlmanlar Peyğəmbərin (s) yanına gəlib dedilər: Bizə İslamdan əvvəl hörmət edilirdi, amma İslamdan sonra vəziyyətimiz dəyişdi, hörmətdən düşdük. İndi davamlı olaraq düşmənlərin təzyiq və tənələrinə məruz qalırıq. İcazə verin, əvvəlki mövqelərimizi geri qaytarmaq üçün vuruşaq. Peyğəmbər (s) isə cavablarında buyurdu: "Mənə hələ müharibə aparmaq əmri verilməmişdir." Ancaq müsəlmanlar Mədinəyə getdikdən, silahlı mübarizəyə zəmin yarandıqdan və cihad əmri nazil olduqdan sonra onların bəzisi silahlı mübarizədən boyun qaçırdı, həmin coşqudan heç bir əsər-əlamət qlamadı. Bu ayə nazl oldu,

---

[389] Əl-Mizan, c.4, səh.431
[390] Nümunə, c.3, səh.280
[391] Əl-Mizan, c.4, səh.413

müsəlmanların qiymətləndirilməsi və səhlənkar insanların məzəmmət edilməsi üçün həqiqətlər bəyan edildi[392].

[392] Nümunə, c.4, səh.14

80. Peyğəmbərə itaət edən şəxs Allaha itaət etmişdir. Kim üz döndərsə (qoy döndərsin)! Biz ki səni ona gözətçi göndərməmişik.

81. Onlar Sənin yanında “itaət edirik!” – deyir, lakin səndən ayrıldıqdan sonra onların bir qismi sənin dediklərinin əksinə məxfi gecə toplantıları təşkil edir. Allah onların bu toplantılarda dediklərini yazır. Onlara etina etmə (onların planlarından qorxun olmasın), Allaha təvəkkül et! Allahın (sənə) dost və müdafiəçi olması kifayət edər!

82. Onlar Quran haqqında düşünmürlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, onda çoxlu ziddiyyət (ixtilaf, uyğunsuzluq) tapardılar.

83. Onlara qələbə və ya məğlubiyyət xəbəri gəldikdə (araşdırmadan) dərhal onu yayarlar. Halbuki əgər bunu Peyğəmbərə və ya (ayırd etməyi bacaran) öndərlərə desəydilər, məsələlərin əsl mahiyyətindən xəbərdar olardılar. Əgər Allahın lütfü və mərhəməti üzərinizdə olmasaydı, az bir qisminiz istisna olmaqla, hamınız Şeytana uyardınız.

84. Allah yolunda vuruş (cihad et). Sən yalnız özünə cavabdehsən, ancaq möminləri də (buna) təşviq et! Ola bilsin ki, Allah kafirlərin gücünü azaltmışdır. Allah daha qüdrətlidir, əzabı daha şiddətlidir!

85. Yaxşı işə vasitəçi olana (onun savabından), pis işə vasitəçi olana (onun günahından) bir pay düşür. Allah hər şeyi hesablamağa və qorumağa qadirdir.

86. Sizə salam verildiyi zaman cavabını ondan da gözəl verin və ya ən azı eyni şəkildə cavab qaytarın! Allah hər şeyi hesaba alandır.

---

80. Peyğəmbərin (s) hədis və sünnəsinə tabe olmağın vacibliyi: Bu, Peyğəmbərin (s) sünnəsinin dəlil olması və hədislərinin qəbul edilməsinin vacibliyini sübut edən ən parlaq ayələrdəndir. Buna görə də kimsə deyə

bilməz ki, Quranı qəbul edirəm, amma Peyğəmbərin (s) hədis və sünnəsini qəbul etmirəm. Bu ayədə açıq şəkildə qeyd edilir ki, "Peyğəmbərin (s) hədis və sünnəsinə itaət Allahın əmrinə itaət etməkdir." Bundan əlavə, sünni və şiə mənbəsi olmasından asılı olmayaraq, bütün İslam mənbələrində yer almış "Səqəleyn" hədisində də Peyğəmbər (s) Əhli-beytin (ə) göstərişinə itaəti Allaha itaətə bərabər tutmuş, ondan ayırmamışdır. Heç kəs deyə bilməz ki, "Mən Quranı qəbul edirəm, amma Əhli-beyt (ə) hədislərini qəbul etmrəm." Çünki bu söz bu və oxşar ayələrə ziddir. İmamların (ə) bu ayə ilə bağlı əlimizə çatan hədislərində Allah-taalanın əmr və qadağa haqqını Peyğəmbərə (s), Peyğəmbərin (s) isə eyni haqqı Əli (ə) və məsum imamlara (ə) verdiyini oxuyuruq. Buna görə də onların əmr və qadağalarından boyun qaçırmaq olmaz. Çünki onların əmr və qadağası onların özləri deyil, birbaşa Allah tərəfindəndir[393].

82. Quranda ixtilaf və ziddiyyətin olmaması: Bu ayədə Quran ayələrində ixtilaf və ziddiyyətin olmaması onun vəhyə əsaslanmasının dəlili kimi təqdim edilmişdir. Belə ki, Allahdan başqa bütün varlıqlar hərəkətdə, dəyişməkdə və təkmilləşməkdədirlər. Bu təkmilləşmə özünü onların, xüsusilə də insanların yaratdıqlarında da göstərir. İnsanlığın təkamül tarixinə nəzər salsaq, bu dəyişikliyi, inkişafı və təkamülün özünü elm, sənaye və sair sahələrdə daha yaxşı nümayiş etdirdiyinin şahidi olarıq. Əgər bir insan həyatına diqqətlə nəzər salsaq, onun müxtəlif yaş periodlarındakı təkamülünü və fərqli-fərqli düşüncələrə malik olduğunu görərik. Hətta davamlı şəkildə aparılan bir işə, məsələn, bir kitaba diqqətlə nəzər salsaq, yazıçının həmin işdə necə inkişaf etdiyini və təkmilləşdiyini görərik. Belə ki, kitabın sonunun əvvəlindən, bəzi hissələrinin bəzisindən daha yaxşı olduğu

[393] Nümunə, c.4, səh.25

məlum olacaq. Lakin Quranda belə deyil. Tarxi qaynaqların yazdığına görə Quran 23 ilə tədrici şəkildə, müxtəlif zaman və məkanlarda, müharibə, sülh, xəstəlik və sağlamlıq, qüdrət və zəiflik, məğlubiyyət və qələbə dövründə nazil olmuşdur. Amma bütün bunlara baxmayaraq, orada heç bir təzad və ixtilaf yoxdur, kitab başdan sona qədər yüksək ilahi maariflə doludur, misilsiz fəashət və bəlağətə malikdir. Onda heç bir ixtilaf yoxdur, orada hər hansı təzada rast gəlmək qeyri-mümkündür. Bu özü onun insan beyninin məhsulu olmadığını, hərəkət və təkmilləşmənin fövqündə duran, bütün kamilliklərin mənbəyi olan bir varlığın kəlamı olduğunu sübut edən bir faktordur[394].

86. Təhiyyət (Salam vermək): "Təhiyyət" ərəb dilində "həyat" sözündən götürülmüş, başqasına həyat və sağlamlıq diləmək mənasını ifadə edir. Bu, həm "Sələm əleyk" (Allah səni salamat etsin), həm də "Həyyakəllah" formasında ola bilər. Bəzi hədis və təfsirlərdə əməldə sevgi göstərilməsinin "təhiyyət" məzmununa aid edilməsinə rast gəlinir. İmam Baqir (ə) buyurmuşdur: ***"Ayədə "təhiyyət" deyilərkən salam və istənilən növ yaxşılıq nəzərdə tutulmuşdur."*** Deyilənə görə kənizlərindən biri İmam Həsənə (ə) bir gül hədiyyə edir. İmam (ə) bu hədiyyə müqabilində onu azad edir. Bunun səbəbini soruşduqda İmam (ə) buyurur: ***"Bu ədəb-ərkanı bizə Allah-taala "Sizə salam verildiyi zaman cavabını ondan da gözəl verin", -deyə buyuraraq öyrətmişdir."*** Deməli, ayədə stənilən növ yaxşılığa ondan daha yaxşı və ya ən azı həmin yaxşılığın özü qədərində cavab verilməsi ilə bağlı ümumi qanun müəyyən edilmişdir[395]. Deyilənə görə bir kişi Peyğəmbərə (s) "Əssəlamu əleykə", - deyə salam verir. Peyğəmbər (s) ona "Əleykəssəlam və rəhmətullahi və bərəkatuh", - deyə cavab verir.

[394] Əl-Mizan, c.5, səh.20
[395] Nümunə, c.4, səh.42

Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Salam vermək müstəhəb, cavabını vermək isə vacibdir."***[396]

87. Allahdan başqa heç bir məbud yoxdur. Olacağına şübhə edilməyən Qiyamət günü hamınızı O toplayacaqdır. Allahdan daha doğru danışan kim ola bilər?!

88. Siz nə üçün münafiqlər barəsində iki qrupa bölünmüsünüz? (Bəziləri onlarla müharibə aparılmasının tərəfdarı, bəziləri isə onlarla müharibə aparılmasına qarşıdır) Halbuki Allah onları əməllərinə (fikirlərinə) görə əvvəlki hallarına qaytarmışdır. Siz Allahın (çirkin əməllərinə görə) azdırdığı kimsəni doğru yolamı gətirmək istəyirsiniz? Allahın sapdırdığı kimsə üçün heç bir yol tapmayacaqsan.

---

[396] Əl-Mizan, c.5, səh.36

89. Onlar sizin də onlar kmi kafir olmanızı və bir-birinizə bərabər olmanızı istərlər. Buna görə də onlar (tövbə edib) Allah yolunda hicrət etməyənə qədər onlardan (özünüzə) dost seçməyin! Əgər bundan imtina etsələr (və sizə qarşı fəaliyyətlərindən əl çəkməsələr), onları harada görsəniz, tutun, (təhlükə hiss etdikdə) öldürün. Onların arasından özünüzə nə bir dost, nə də bir köməkçi seçin!

90. Ancaq sizinlə müqaviləsi olanlarla müqaviləsi olan, yaxud sizinlə və ya öz qövmlərilə vuruşmaqdan təngə gələrək yanınıza gələn şəxslər müstəsnadır. Əgər Allah istəsəydi, onları sizin üstünüzə qaldırardı və onlar da sizinlə vuruşardılar. Əgər onlar sizdən aralanıb bir tərəfə çəkilsələr və sizinlə vuruşmayıb sülh təklif etsələr, o zaman Allah sizə onların əleyhinə çıxmağa icazə verməz.

91. Tezliklə siz elə kəslərə də rast gələcəksiniz ki, onlar həm sizdən, həm də öz camaatından arxayın olmaq istərlər. (Sizin yanınızda özlərini müsəlman kimi, qəbilələrinə qayıtdıqda isə kafir kimi aparırlar). Hər dəfə fitnə-fəsad törətməyə sövq edildikdə cani-dildən bu işə qoşularlar. Əgər onlar sizi tərk edib getməsələr, sülh təklif etməsələr və sizdən əl çəkməsələr, onda onlara harada rast gəlsəniz, əsir alın və (ya) öldürün. Biz sizi onlara açıq-aşkar qalib etdik.

---

88. Müsəlmanların münafiqlərlə bağlı ixtilafı: Allah-taala 85-ci ayədə ***“pis işə vasitəçi olana (onun günahından) bir pay düşür”***, - deyə buyurduqdan sonra möminlərə xitab edərək buyurur: ***“nə üçün münafiqlər barəsində iki qrupa bölünmüsünüz?”*** Buradan belə başa düşülür ki, bir qrup müsəlman münafiqlərlə müharibə aparılmaması üçün vasitəçilik etmək niyyətində idi, başqa bir qrup isə ciddi şəkildə etiraz edir və hesab edirdi ki,

münafiqlərə qarşı döyüşmək və onları məhv etmək lazımdır. Quran birinci qrupu münafiqləri və zərərli nifaq ağacını müdafiə etdiyi üçün məzəmmət edir. Allah onların sinəsindən itələyib haqQ yoldan sapdırmışdır. Allahın sapdırdığı adamların hidayət olunmasını necə İstəmək olar? İmam Baqir (ə) bu ayənin nazilolma səbəbi ilə bağlı belə buyurmuşdur: ***"Bu ayə Məkkədən Mədinəyə hicrət edib müsəlman olduqlarını elan etdikdən sonra Məkkəyə qayıdan insanlar haqqındadır. Onlar Mədinənin abu-havasından xoşlanmadıqları üçün Məkkəyə dönmüş və müşrik olduqlarını elan etmişdilər. Bundan sonra müşriklərin ticarət mallarını yükləyib Yəmaməyə gedərkən müsəlmanlar onların yolunu bağlamış və döyüşmək istəmişlər. Bu zaman müsəlmanlar arasında fikir ayrılığı yaranmış, bəziləri onların mömin olduqlarını söyləyib müharibəyə etiraz etmiş, bəziləri isə onların müşrik olduğunu söyləmişdir. Allah ona görə bu ayəni nazil etmişdir."***[397]

90. Nə müsəlmanlarla, nə də onlara qarşı olan qrup: İmam Sadiq bu ayənin naziolma səbəbi haqqında belə buyurmuşdur: ***"Bu ayə Bəni-Mədləc qəbiləsi haqqında nazil olmuşdur. Bu qəbilə Peyğəmbərin (s) yanına gələrək ona belə demişdir: "Biz sənin peyğəmbərliyinə şahidlik edə bilmirik. Biz gəlmişik ki, sənlə olmadığımızı, eyni zamanda sənə qarşı olmadığımızı, öz qövmümüzlə əməkdaşlıq etdiyimizi elan etməyə gəlmişik."*** Hədisin hekayətçisi bu sözlərdən sonra "Peyğəmbər (s) onlarla necə davrandı?",- deyə soruşduqda İmam Sadiq (ə) belə cavab vermişdir: ***"Peyğəmbər (s) buyurdu: "Ərəb müşriklərinin işlərini başa vurana qədər***

[397] Əl-Mizan, c.5, səh.31-37

onlarla işiniz olmasın. Bundan sonra onları dəvət edin. Əgər İslamı qəbul etsələr, işiniz olmasın, əgər qəbul etməsələr, onlarla döyüşün.”[398]

91. İkiüzlülüyə qarşı kəskin mövqe seçilməsi: Bu ayənin naziolma səbəbi ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Ən məşhur versiyaya görə bir qrup məkkəli Peyğəmbərin (s) yanına gəlib hiylə işlədərək müsəlman olduqlarını elan edir. Lakin qüreyşlilərin yanına qayıtdıqdan və onların bütləri qarşısında dayandıqdan sonra bütlərə ibadət etməyə başladılar. Bu vasitə ilə özlərini həm müsəlmanlar, həm də qüreyşlilər tərəfindən gözlənilən təhlükədən sığortalamış oldular və hər iki tərəfdən mənfəət əldə etməyə nail oldular. Bu ayə nazil oldu və burada müsəlmanlara bu dəstəyə qarşı sərt mövqe tutmaq göstərişi verildi.[399] Onu da qeyd etmək lazımdır ki, ayələrin mənaları onların nazilolma səbəbi ilə məhdudlaşmır, bütün zaman və məkanlarda öz aktuallıqlarını qoruyur.

[398] Əl-Mizan, c.5, səh.39
[399] Nümunə, c.4, səh.57

92. Heç bir mömin başqa bir mömini öldürə bilməz. Bu işin səhvən baş verdiyi hal müstəsnadır. Hər kəs bir mömini səhvən öldürərsə, bir qul azad etməli və öldürülmüş şəxsin ailəsi qanbahasını bağışlamadıqda onlara qanbahası ödəməlidir. Öldürülən şəxs (özü) mömin olduğu halda, sizə düşmən olan bir tayfadandırsa (mənsub olduğu tayfa kafirdirsə), o zaman (öldürən şəxs) mömin bir qul azad etməlidir (qanbahası ödəmək lazım deyil). Əgər (öldürülən şəxs) sizinlə əhd (müqavilə) bağlamış bir tayfadan olarsa, o zaman onun ailəsinə qanbahası verməklə yanaşı mömin bir qul da azad etmək lazımdır. (Azad etməyə qul) tapa bilməyən şəxs bir-birinin ardınca (arası kəsilmədən) iki ay oruc tutmalıdır. Bu, (br növ güzəşt və) ilahi tövbədir. Allah (hər şeyi) biləndir, hikmət sahibidir!

93. Mömin bir şəxsi qəsdən öldürən adamın cəzası əbədi qalacağı Cəhənnəmdir. Allah ona qəzəb və lənət edər, (axirətdə) onun üçün böyük bir əzab hazırlar!

94. Ey iman gətirənlər! Allah yolunda (cihad etmək üçün) səfərə çıxdığınız zaman axtarış aparın! Sizə müsəlman olduğunu bildirən və sülh

təklif edən bir kimsəyə dünya həyatının puç mənfəətinə tamahsılanaraq: “Sən mömin deyilsən!” deməyin! Çünki Allah yanında (sizin üçün) çoxlu qənimətlər var. Siz özünüz də bundan əvvəl onlar kimi idiniz, lakin Allah sizə minnət qoydu (və siz haqq yola gəldiniz). Elə isə, siz də (bu böyük nemətə şükür əlaməti olaraq) araşdırma aparın! Allah bütün etdiklərinizdən xəbərdardır!

---

92. Bilmədən törədilən qətlin hökmlərinin fəlsəfəsi: Deyilənə görə, hicrətdən öncə Haris ibn Yezid ibn Nəbişə adlı bir nəfər Əbu Cəhllə birlikdə müsəlmanlardan olan Əyyaş ibn Əbu Rəbiəyə işkəncə verirlərmiş. Sonra həmin bu Haris Məkkədən Mədinəyə, Peyğəmbərin (s) yanına hicrət edərək müsəlman oldu. Bir gün Haris yolla gedərkən Əyyaşla qarşılaşır. Əyyaş Harisin hələ də kafir olduğunu güman edib onu qətlə yetirir, sonra İslam peyğəmbərinin (s) yanına gəlib hadisəni ona danışır. Həmin vaxt bu ayə nazil olur. Peyğəmbər (s) ayəni Əyyaşa oxuyaraq buyurur: ***“Dur və bir qul azad et!”***[400] Bu ayədə bilmədən törədilən qətlin fəsadlarının aradan qaldırılması istiqamətində üç həll yolu təqdim edilmişdr. Əslində, bu həll yollarının hər biri sözügedən hadisə nəticəsində dəymiş ziyanın bir növ aradan qaldırılmasına xidmət edir. Həmin həll yolları bunlardır: 1. Mömin bir şəxsin öldürülməsi nəticəsində yaranan ictimai ziyanın bir növ aradan qaldırılması üçün bir qul azad edlməsi; 2. Bir nəfərin ölümü ilə ailəyə dəymiş iqtisadi ziyanın bir növ aradan qaldırılması üçün qanbahası verilməsi. Əslində, qanbahası bir insanın qanının həqiqi qiymətini əsla ifadə edə bilməz. Çünki günahsız bir insanın qanı hər bir qiymətdən yüksəkdir; 3. Səhvən qətl törətmiş adamın fasilə vermədən iki ay ardıcıl oruc tutması onun

---

[400] Əl-Mizan, c.5, səh.43

əxlaqi və mənəvi zərərinin aradan qaldırılmasına xidmət edir. Əlbəttə, oruc mömin bir qul azad etməyə imkanı olmayan və ya bu vasitədən yararlana bilməyən şəxsə aiddir[401].

93. Qəsdən törədilən qətlin cəzası: Adam öldürmək ən böyük cinayətlərdən və ən təhlükəli günahlardan olduğu üçün ona qarşı mübarizə aparılmadıqda sağlam cəmiyyətin ən mühüm şərtlərindən olan təhlükəsizlik və əmin-amanlıq tamamilə pozulur. Quranın müxtəlif ayələrində onun mühüm əhəmyyətindən söz açılmışdır. Hətta bir adamın səbəbsiz yerə öldürülməsi yer üzünün bütün sakinlərinin öldürülməsi kimi təqdim edilmişdir. "Maidə" surəsinin 32-ci ayəsində belə buyurulmuşdur: "Hər kəs yer üzündə qətl və fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur."[402] Buna görə də bu ayədə mömin bir şəxsi qəsdən öldürən adam dünya cəzası hesab edilən qisasla yanaşı dörd axirət cəzası da qeyd edilmişdir: 1. Cəhənnəm oduna əbədi məhkum olmaq; 2. Allahın qəzəb və nifrəti; 3. Allahın lənəti və ilahi rəhmətdən uzaq düşmək; 4. Böyük bir əzab hazırlanması.

Qəsdən törədilmiş qətl hadisəsi üçün maksimum dərəcədə kəskin axirət əzabı müəyyən edilmişdir. Belə ki, Quranın heç bir yerində heç bir günah üçün belə bir şiddətli əzab qeyd edilməmişdir. Qətlin dünyadakı cəzası qətldir. Peyğəmbər (s) belə buyurmuşdur: ***"Dünyanın məhv olması Allahın nəzərində bir müsəlmanın ölümündən daha kiçikdir."***[403]

94. Müsəlman olduğunu deyən şəxsə "Sən müsəlman deyilsən" deməyin: Mənbələrin yazdığına görə Peyğəmbər (s) Fədəkdə məskunlaşmış yəhudiləri İslama dəvət etmək üçün Üsamə ibn Zeydin rəhbərliyi altında

---

[401] Əl-Mizan, c.5, səh.43
[402] Nümunə, c.4, səh.63
[403] Nümunə, c.4, səh.67

həmin ərazinin kəndlərindən birinə qoşun göndərir. Həmin kəndlərin birində Mirdas adlı bir kişi yaşayırmış. O, Peyğəmbərin (s) göstərişi ilə bir dəstənin oraya gəldiyini eşidib ailəsini və əmlakını toplayıb həmin ərazidəki dağlara çəkildi. Ailəsini və özü ilə apardıqlarını yerbəyer etdikdən sonra özü "Əşhədu əllə iləhə illəllah və Əşhədu ənnə Muhəmmədən rəsulullah" deyə-deyə Üsaməyə tərəf yola düşdü. Üsamənin yanına çatan kimi Üsamə həmin kişinin şahidlik etdiyini eşidə-eşidə ona ağır bir qılınc zərbəsi vurub öldürdü. Qayıtdıqdan sonra vəziyyəti Peyğəmbərə (s) danışdı. Peyğəmbər (s) buyurdu: ***"Şəhadətləri deyən bir kişini öldürdün?"*** Üsamə belə cavab verir: ***"O, qorxusundan şəhadətləri deyirdi."*** Peyğəmbər (s) buyurdu: ***"Sən onun qəlbinin üzərindən pərdə götürmədin, dili ilə söylədiyini də qəbul etmədin. Halbuki onun daxilindən xəbərin yox idi."*** Üsamə bu sözləri eşitdikdən sonra and içir ki, bir daha şəhadətini deyənləri öldürməyəcək. Məhz elə bu bəhanə ilə İmam Əlinin (ə) müsəlman adı daşıyan zülmkar və üsyankar firqələrə qarşı olan döyüşlərinin heç birində iştirak etməyib, əmrə itaət etməkdən boyun qaçırdı[404].

[404] Əl-Mizan, c.5, səh.46

95. Xəstəlik və narahatçılığı olmadan (üzrsüz səbəbdən) cihada getməyən möminlərlə Allah yolunda öz malları və canları ilə cihad edən mücahidlər bir deyillər. Allah malları və canları ilə vuruşanları əyləşənlərdən (cihada getməyənlərdən) üstün tutmuşdur. Allah bunların hər birinə (gördükləri yaxşı əməllərə görə) mükafat vəd etsə də, mücahidləri daha böyük mükafatla əyləşənlərdən üstün etmişdr.

96. (Onları) Allah tərəfindən yüksək dərəcələr, bağışlanma və mərhəmət gözləyir. (Əgər kiçik xətaları olsa,) Allah bağışlayandır, rəhm edəndir.

97. Mələklər öz nəfslərinə zülm edənlərin canlarını alarkən (onlara) dedilər: “Siz nə iş görürdünüz? (Nə üçün müsəlman olduğunuz halda, kafir sıralarında yer almışdınız?)” Onlar söylədilər: “Biz öz ölkəmizdə təzyiq altında olan və zəif hala salınmış şəxslər idik.” (Mələklər də onlara) dedilər: “Hicrət etməyiniz üçün Allahın yeri geniş deyildimi?”. Onların yeri Cəhənnəmdir. O necə də pis sonluqdur!

98. Yalnız, həqiqətən təzyiq altında olan (aciz hala salınmış), heç bir çarəsi və (bu mühitdən xilas olmaq üçün) çıxış yolu olmayan aciz kişi, qadın və uşaqlar müstəsnadır.

99. Ola bilsin ki, Allah onları əfv etsin. Allah əfv edəndir, bağışlayandır!

100. Allah yolunda hicrət edən şəxs yer üzündə çoxlu sayda geniş və əmin-aman yerlər tapar. Allah və onun Peyğəmbərinə doğru hicrət edərək evindən çıxan şəxsi (mənzil başına çatmamış) ölüm haqlasa, həmin şəxsin mükafatını Allah Özü verər! Allah bağışlayandır, rəhm edəndir!

101. Səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa, namazı qısaltmaq sizə günah hesab edilməz. Həqiqətən, kafirlər sizinlə açıq düşməndirlər.

---

97. Canı kim alır? Bu ayədə canın mələklər tərəfindən alındığı qeyd edilmişdir. Halbuki "Zümər" surəsinin 42-ci ayəsində belə buyurulmuşdur: ***"Allah (əcəli çatan kimsələrin) canlarını (ruhlarını) onlar öldüyü zaman alır."*** "Səcdə" surəsinin 11-ci ayəsində isə belə buyuruıur: ***"De: "Sizə müvəkkil olan ölüm mələyi (Əzrail) canınızı alır."*** Təfsirçilər bu məsələyə açıqlama gətirərkən bildirirlər ki, mələklər ölüm mələyinin, yəni həzrət Əzrayılın (ə) əmrinə tabedirlər. Əzrayıla (ə) da can almaq vəzifəsi Allah tərəfindən verlmişdir. Deməli, canın alınmasını bu üçündən hər birinə aid etmək düzgündür. Məsələn, binanın tikintisində həm fəhlələri, həm mühəndisi, həm də əsl sahibi həmin binanı tikən hesab etmək olar[405].

98. Yalancı və həqiqi zəiflər: Allah-taala əvvəlki və bu ayədə zəifləri yalançı və həqiqi olmaqla iki qrupa bölmüşdür. 97-ci ayədə birinci qrupdan söz açılmışdır. Yalançılar öz seçimləri ilə küfr və müşrik ölkəsində qalan, müşriklərin təzyiqləri nəticəsində öz dini vəzifələrinə əməl edə bilməyən şəxslərdir. Buna görə də mələklər üzrlərini qəbul etməyib onlara deyirlər: "Nə üçün hicrət etmədiniz?" Lakin bu ayədə də işarə edilən ikinci qrup xəstəlik, əlillik, yoxsulluq və sair kmi müxtəlif səbəblərdən hicrət etməyə imkanı olmayan və ya ümumiyyətlə, din çağırışı qulaqlarına çatmayan, ondan əsla xəbər tutmayan, eyni zamanda şərait yarandıqda iman gətirən və inadkarlıq göstərməyən şəxslərdir. Allah-taala sonrakı ayədə ikinci qrupun

---

[405] Ətyəbül-bəyan, c.4, səh.179

ilahi nemətdən bəhrələnəcəyini buyurmuşdur. Bir nəfər İmam Kazimdən (ə) zəif və çarəsiz vəziyyətə salınmışlar haqqında soruşduqda belə buyurmuşdur: ***"Zəif və çarəsiz vəziyyətə salınmışlar Allahın höccətindən məhrum qalmış, müxtəlif etiqad və inancları fərqləndirə bilməyənlərdir. Lakin haqla batili bir-birindən ayıra biləcək qədər zəkaya malik olan şəxsə artıq zəif və çarəsiz demək düzgün deyil."*** Bu açıqlama ilə məlum olur ki, zəif və çarəsizlər də iki qrupa bölünürlər. Birinci qrup haqq dini tanıyıb ondan xəbərdar olanlar, lakin küfr mühitindən xilas olmağı və öz dini vəzifələrinə əməl etməyi bacara bilməyənlərdr. İkinci qrup isə haqq dinin çağırışından xəbərsz olanlardır. Əgər bu çağırış onlara çatsaydı, qəbul edərdilər. Deməli, küfr və günah mühitindən xilas olmağı bacaran və ya dini maarifə yiyələnə bilən, lakin zamanında ixtiyari şəkildə zəiflik göstərən şəxsin Allah yanında heç bir üzrü olmayacaq[406].

100. Hicrət və onun vacib olduğu məqamlar: Bu və bir çox digər ayələrə əsasən İslam müxtəlif səbəblərdən vəzifəsini icra edə bilməyənlərə başqa bir mühitə, başqa bir yerə hicrət etməyi açıq şəkildə göstəriş vermişdir. Məlumdur ki, hicrət təkcə Peyğəmbərin (s) zamanı ilə məhdudlaşan bir hökm olmamışdır. Nə zaman və harada eyni şərait yaranarsa, müsəlmanların vəzifəsi hicrət etməkdir. Quranda hicrət azadlıq və asayiş səbəbi kimi təqdim edilir. Belə ki, bu və "Nəhl" surəsinin 41-ci ayəsində belə buyurulmuşdur: ***"Zülmə məruz qaldıqdan sonra Allah yolunda hicrət edənlərə dünyada gözəl bir yer nəsib edəcəyik. Axirət mükafatı isə daha böyükdür. Kaş biləydilər!"*** Allah rəsulu (s) hicrətin üstünlüyü haqqında belə buyurmuşdur: "Öz dinini qorumaq üçün bir ölkədən başqa bir ölkəyə hicrət edən şəxs hətta bir qarış da getmiş olsa, Cənnəti

---

[406] Əl-Mizan, c.5, səh.53

qazanmış, Muhəmməd (s) və İbrahimlə (ə) qonşu olmağa layiq görülmüş olur.” Çünki bu iki böyük peyğəmbər mühacirlərin öndərləri sayılır[407].

102. Sən onların arasında olub (döyüş meydanında) onlara namaz qıldırdığın vaxt onlardan bir dəstəsi (namaza) qalxsın və silahlarını özü ilə götürsün. Səcdə etdikdən (və namazı bitirdikdən sonra) sonra sizin arxanıza (döyüş meydanına, düşmənin önünə) keçsinlər. Sonra namaz qılmamış (döyüşdə olan) dəstə öz müdafiə vasitələrini və silahlarını götürərək gəlib səninlə birlikdə namaz qılsın! (Çünki) kafirlər sizin öz silahlarınızdan və mallarınızdan xəbərsiz qalmanızı və onların da sizin üzərinizə birdəfəlik

[407] Nümunə, c.4, səh.90

(qəfil bir hücumla) basqın etməyi arzu edirlər. Yağışdan əziyyət çəkdiyiniz, yaxud xəstə olduğunuz zaman silahlarınızı (namaz vaxtı) yerə qoymaq sizə günah deyildir, lakin müdafiə vasitələrini (zireh və dəbilqə kimi) özünüzlə götürün! Allah kafirlər üçün alçaldıcı əzab hazırlamışdır!

103. Namazınızı qıldıqdan sonra ayaq üstə olanda da, uzananda da Allahı zikr edin, arxayınlığa çixdıqda (qorxu olmadıqda) isə, namazı (öz qaydasınca) qılın! Çünki namaz möminlərin sabit və bəlirlənmiş vəzifəsidir.

104. Düşməni təqib etməkdə zəiflik göstərməyin! Çünki siz əziyyət çəkirsinizsə, onlar da sizin kimi əziyyət çəkirlər. Halbuki siz onların ummadıqlarını Allahdan umursunuz. Allah (hər şeyi) biləndir, hikmət sahibidir!

105. Biz sənə Quranı haqq olaraq nazil etdik ki, Allahın sənə öyrətdiyi ilə insanlar arasında hökm edəsən. Xainləri müdafiə edənlərdən olma!

---

102. Qorxu namazı: Bu ayədə qorxu namazının forması geniş şəkildə izah edilməmişdir. Ümumiyyətlə, qanunları ümumi şəkildə söyləyib şərhini sünnəyə həvalə etmək Quranın spesifik metodlarındandır. Sünnədən məlum olduğu kimi, qorxu və təhlükə zamanı dörd rükətli namazlar iki rükətə çevrilir. Birinci qrup bir rükəti imamla birlikdə qılır və imam birinci rükətdən sonra dayanır. Birinci qrup ikinci rükəti ayrı qılıb döyüş meydanına yollanır. Sonra ikinci qrup birincinin yerini tutur, namazlarının birinci rükətini imamla birlikdə, ikinci rükəti isə tək qılır. Qorxu namazının forması ilə bağlı müxtəlif fikirlər var, amma qeyd etdiyimiz forma ən məşhur formadır. Ayədən çıxarılan nəticələr: 1. Namaz heç bir halda, hətta qorxu halında və döyüş meydanında da tərk edilmir;. 2. Camaat namazının əhəmiyyəti o qədər böyükdür ki, hətta döyüş meydanında və düşmən

qarşısında da ona riayət etmək lazımdır; 3. Döyüşçü heç bir halda döyüş vasitəsini tərk etməməli, onu özündən uzaq tutmamalıdır[408].

103. Namazın əhəmiyyəti: Möminlərin əmiri Əli (ə) namaz haqqında belə buyurur: ***"Namazı boynunuza götürün, onu qorumağa çalışın, onu çox-çox yerinə yetirin, onunla Allaha yaxınlaşın: "Çünki o, möminlərin sabit və müəyyən edilmiş vəzifəsidir". Cəhənnəm əhlinin cavabını eşitmirsinizmi? Onlardan "Sizi bu oda nə saldı", - deyə soruşulduqda "Namaz qılanlardan deyildik", - deyə cavab verirlər."***[409]

105. Günahsız müsəlmanların bəraəti: Bu və sonrakı bir neçə ayənin nazilolma səbəblərindən danışılarkən belə qeyd edilmişdir: Bəşir adlı münafiq Rüfayə adlı müsəlmanın evinə oğurluğa girir, onun qılıncını, zirehini və və bir qədər də yeməyini oğurlayır. Rüfayə bu barədə qardaşı oğlu Qətadəyə danışır. Bədr döyüşçülərindən olan Qətadə hadisə haqqında Peyğəmbərə (s) məlumat verir. Ancaq Bəşir və iki qardaşı bu işdə Rüfayə ilə brlikdə yaşayan Ləbid adlı imanlı bir müsəlmanı ittiham edirlər. Ləbid bu insafsızcasına atılmış böhtana görə bərk əsəbləşir, qılıncını sıyırıb onların üzərinə hücum çəkir "Məni oğurluqda ittiham edirsiniz? Halbuki özünüz buna daha layiqsiniz. Siz Peyğəmbərə (s) həcv yazıb satirik şeirlərinizin qüreyşlilərə aid olduğunu deyən həmin münafiqlərsiniz. Ya bu ittihamınızı sübuta yetirməlisiniz, ya da qılıncımın zərbəsinə tuş gələcəksiniz!", - deyə fəryad qoparır. Oğru qardaşlar vəziyyəti belə görüb onu yola gətirməyə çalışırlar. Amma Qətadənin bu hadisəni Peyğəmbərə (s) çatdırdığından xəbərdar olub qəbilələrinin məharətli danışıq qabiliyyəti olan nümayəndələrindən birini bir dəstə ilə birlikdə Peyğəmbərin (s) yanına göndərirlər və onların Peyğəmbərdən (s) oğruları bağışlamasını xahiş

---

[408] Nümunə, c.4, səh.103
[409] Nəhcül-bəlağə, 190-cı xütbə

etməyi, Qətadəni isə böhtan atmaqda ittiham etmələrini istəyirlər. Peyğəmbər (s) zahiri vəzifəsinə əməl edərək, həmin dəstənin şahidliyini qəbul edir və Qətadəni məzəmmət edir. Heç bir günahı olmayan Qətadə bu hadisəyə görə çox narahat olur, əmisinin yanına qayıdıb hadisəni böyük təəssüf hissi ilə əmisinə danışır. Əmisi ona təskinlik verərək deyir: "Narahat olma, Allah bizimlədir." Bu zaman bu və sonrakı ayə nazil olur, günahsız kişi (Ləbid) bəraət qazanır, həqiqi xainlər kəskin şəkildə məzəmmət edilir[410].

[410] Nümunə, c.4. səh.110

106. Allahdan bağışlanmaq dilə! Allah bağışlayan və rəhm edəndir!

107. Özlərinə xəyanət edənləri müdafiə etmə! Şübhəsiz ki, Allah günaha batmış xaini sevməz!

108. Onlar öz çirkin əməllərini insanlardan gizlətsələr də, Allahdan gizlədə bilməzlər. Gecə məclislərində Allahın razı olmadığı sözləri danışanda Allah onlarla idi. Allah onların əməllərini əhatə edir (etdiklərindən xəbərdardır).

109. Bəli, siz həmin adamlarsınız ki, bu dünyada onları müdafiə etdiniz, bəs Qiyamət günü onları Allah qarşısında kim müdafiə edəcək? Yaxud onların vəkil və hamisi kim olacaq?

110. Pis iş gördükdən və ya özünə zülm etdikdən sonra Allahdan bağışlanmaq diləyən şəxs Allahın bağışlayan, mərhəmətli olduğunu görər.

111. Günaha batmış şəxs özünə ziyan vurmuşdur. Allah hər şeyi biləndir, hikmət sahibidir!

112. Etdiyi xəta və ya günahı günahsız bir adamın boynuna atan şəxs boynuna böhtan və açıq-aşkar günah yükü götürmüş olur.

113. Əgər sənə Allahın lütfü (mərhəməti) olmasa idi, onların bir dəstəsi səni düz yoldan azdırmaq niyyətində olacaqdı. Halbuki onlar

özlərindən qeyrisini azdıra bilməz və sənə də heç bir zərər verə bilməzlər. Allah sənə kitab və hikmət göndərdi, bilmədiklərini öyrətdi. Allahın sənə qarşı olan lütfkarlığı böyükdür!

---

106. Peyğəmbərə (s) bağışlanma diləməklə bağlı göstəriş verilməsi: Əllamə Təbatəbai yazır ki, burada "bağışlanmaq dilə" deyilərkən Peyğəmbərə (s) Allahdan başqalarının hüquqlarını pozmaq, insan təbiətindəki ehtirasa meyl imkanının tamamilə aradan qaldırılmasını və onu tamamlə bağışlamasını istəməsi ilə bağlı göstəriş nəzərdə tutulmuşdur. Yəni Peyğəmbər (s) günah etməyib ki, ona görə də bağışlanma diləsin. Peyğəmbər (s) Allahdan nəfs və ehtirasa olan meyllilik imkanını ondan alınmasını istəyir. Buna görə də ayənin mənası belə olur: xainlərin tərəfini saxlama, onlara meyl göstərmə, Allahdan bu mövzuda uğur istə və Ondan istə ki, xainlərin xəyanətinə meylliliyi və nəfsin nüfuzunu sənin ruhundan və canından alsın[411].

113. Peyğəmbərin (s) məsum olmasına başqa bir dəlil: 105-ci ayədə qeyd edildi ki, xain bir dəstə öz hiylə və kələkləri ilə mühakimə zamanı Peyğəmbərin (s) səhvə yol verməsinə çalışırdı. Lakin Allah vəhy vasitəsilə öz peyğəmbərinə köməklik göstərdi, ona əsl həqiqəti göstərdi. Bu ayə mövzunun davamıdır. Bu ayə əsasında ilahi peyğəmbərin səhv və xətaya yol vermədiyini nəticə almaq olar. Sözügedən ayədə üç cümləyə xüsusilə dqqət yetirmək lazımdır: 1. "***Allah sənə kitab və hikmət göndərdi"***. Bu cümlədə Peyğəmbərin (s) mühakimələrinin əsasını təşkil edən mənbələrə, yəni Quran və sünnəyə (hikmət) işarə edilmişdir. Bu iki böyük qanunverci mənbədən

---

[411] Tematk təfsir, c.3, səh.4

xəbərdar olmaq ilahi hökmlərdə məsumluq səbəbi hesab edilir. Nəticədə, Peyğəmbər (s) Allahın hökmlərini bəyan edərkən əsla səhvə və tərəddüdə yol vermir. Çünki Qiyamətə qədər bəşəriyyətin ehtiyac duyduğu hər şey bu iki mənbədə yer almışdır. Əlbəttə, məlumdur ki, ümumi qanunları bilmək mövzular, konkret qanunlar və onların müvafiq sahələrə tətbiqi zamanı səhvdən sığortalanmaya səbəb olmur. Əslində, səhvdən qorunmaq üçün başqa bir vasitəyə ehtiyac vardır ki, sonrakı cümlədə belə qeyd edilir: 2. ***"Bilmədiyini sənə öyrətdi"*** Bu hansı elmdir ki, Peyğəmbərin (s) o haqda məlumatı yox idi, amma onu Allah öyrətdi? Görəsən bu, Allahın kitab və sünnədə öz əksini tapmış ümumi hökmlərlə bağlı bilgidir, yoxsa hadisələrin xüsusiyyətləri və həqiqətləri ilə bağlı bilgidir? Şübhəsiz ki, birinci ehtimal tamamilə əsassızdır. Çünki ümumi hökmlərlə bağlı bilgiyə əvvəlki ayədə açıq şəkildə işarə edilmişdir. Buna görə də artıq təkrara ehtiyac yox idi. Heç kəs ilahi peyğəmbərin öz şəriətinin hökmlərindən məlumatsız olduğunu ehtimal edə bilməz. Buna görə də burada təkid və gücləndiriciyə ehtiyac yoxdur. Deməli, cümlədə nəzərdə tutulan məna ikinci ehtimala aiddir. Yəni Allah hadisələrin üzərindən pərdəni çəkmiş və Peyğəmbəri (s) onun səhvə yol verməsi və günahsız bir insana iftira atmasına çalışanların hiyləsindən xəbərdar etmişdir. 3. ***"Allahın sənə qarşı olan lütfkarlığı böyükdür!"*** Məsumluq və günahsızlıq mövzusunun yalnız bir hadisə və ya məhkəmə məsələsi ilə məhdudlaşdığı, başqa heç bir yerə aid olmadığı təsəvvürü yaranmasın deyə, Allah ayədə bu cümləni qeyd etmişdir. Allahın böyük adlandırdığı bizim böyük hesab etdiklərimizdən fərqlənir. Üstünlük və lütfkarlığın əlaməti budur ki, Peyğəmbər (s) həyat tərzində, mühakimlərində, qərarlarında, münasibət və davranışlarında səhvə yol verməmişdir. Qeyd etməliyik ki, peyğəmbərlik missiyası üçün spesifik olan cəhətlərə əsasən, Peyğəmbərin (s) nümunə və meyar olması səbəbilə o, elə həyat sürməlidir

ki, ümmət onun səhv və xətaya yol verdiyini ehtimal edə bilməsin, davranış və danışıqlarına itaət göstərərkən tərəddüddə qalmasınlar[412].

114. Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur. Xeyir ancaq başqalarına yardım göstərməyi, yaxud yaxşılıq etməyi və ya insanlar

[412] Mənşur-cavid, c.7, səh.275

arasında sülh yaradan kimsənin söhbətindədir. Allahın razılığını qazanmaq üçün belə işlər görən kimsəyə böyük mükafat verəcəyik!

115. Haqq aşkar olduqdan sonra Peyğəmbərə qarşı çıxan, möminlərdən qeyrisinin yolunu izləyən şəxsi Biz istədiyi (özünün yönəldiyi) yola yönəldər və Cəhənnəmə daxil edərik. Çox pis aqibətdir.

116. Allah Ona şərik qoşulmasını əsla bağışlamaz. Bundan kiçik olan günahları isə dilədiyi (layiq bildiyi) kimsə üçün bağışlayar. Allaha şərik qoşan şəxs (haqq yoldan) çox azmışdır.

117. Allahı qoyub çağırdıqları, əslində, heç bir təsiri olmayan bütlər, asi və dağıdıcı şeytanlardır.

118. Allah onu (Şeytanı) öz rəhmətindən məhrum etdi. O isə dedi: "Bəndələrindən müəyyən bir qismini ələ alacağam".

119. Onları hökmən (doğru yoldan) sapdıracaq, (puç) xülyalara salacaq, heyvanlarının qulaqlarını kəsməyi və Allahın (pak) yaratdıqlarını dəyişdirməyi əmr edəcəyəm! Allahı qoyub Şeytanı özünə dost tutan şəxs, əlbəttə, açıq-aşkar ziyana uğramışdır.

120. Şeytan onlara (yalançı) vədlər verir, başlarını arzularla qarışdırır. Belə ki, onlara yalnız yalan vədlər verir.

121. Onların (Şeytana uyanların) yeri Cəhənnəmdir və heç bir qaçış yolları yoxdur.

---

114. Gizli söhbətlərin qadağan edilməsi və yalnız istisna hallarda ona icazə verilməsi: Ümumiyyətlə, gizli danışıqlar, qulağa söz demək və gizli toplantılar keçirilməsi Quranda Şeytan əməli kimi təqdim edilmişdir. Belə ki, "Mücadələ" surəsinin 10-cu ayəsində belə qeyd edilmişdir: "Məxfi danışma (pıçıldaşma) Şeytan əməlidir." Məlumdur ki, bu davranışdan

adətən, doğru olmayan əməllər üçün istifadə edilir. Çünki xeyirli və faydalı işlər görmək üçün, adətən, gizli danışmağa lüzum yoxdur. Əlbəttə, bəzən zərurətin insanı yaxşı işlər görmək üçün məxfi danışıqlardan istifadə etməyə məcbur etdiyi hallar istisnadır. Bu istisnaya Quranın bir çox yerində işarə edilmişdir. Belə ki, "Mücadələ" surəsinin 9-cu ayəsində belə buyurulmuşdur: ***"Ey iman gətirənlər! Bir-birinizlə xəlvət danışdığınız zaman günah, düşmənçilik və Peyğəmbərin əleyhinə çıxmaq barədə danışmayın; yaxşı işlər, Allahdan qorxmaq barədə danışın..."*** İnsanlar arasında qulağa söz deyilməsi şübhə və bədgümanlıq yaranmasına səbəb olar, hətta dostlar arasında da xoşagəlməzliklər yaradır. Buna görə də zəruri hallar istisna olmaqla, bu davranışdan istifadə edilməsə, daha yaxşı olar. Quranda qeyd olunan hökmün fəlsəfəsi də elə budur. Əlbəttə, bəzən insanın abrının qorunması üçün gizli danışıqdan istifadə edilməsi də lazımdır. Bu ayədə sədəqə adı ilə qeyd edilmiş maliyyə yardımları və ya yaxşıya dəvət aşkarda ediləcəyi təqdirdə qarşı tərəfin utanmasına səbəb olacaqsa və bu səbəbdən də onları qəbul etməkdən boyun qaçıracaqsa, həmçinin insanlar arasında sülh yaradılması cəhdi aşkarda bir nəticə verməsə, qeyd olunan addımlar gizlində atılmalı, sülh yaradılması üçün tərəflərlə ayrı-ayrılıqda söhbət aparılmalıdır. Qeyd etməliyik ki, insanları yaxşı işlərə dəvət etmək və onlar arasında sülh yaradılması sədəqənin nümunələrindən hesab edilir. Allah rəsulunun (s) Əbu Əyyuba belə buyurduğu qeyd edilmişdir: ***"Sənə Allah və peyğəmbərinin sevdiyi sədəqənin nə olduğunu söyləyimmi? İnsanlar bir-birlərinə qarşı düşmən münasibəti bəslədikdə onları barışdır, bir-birlərindən uzaqlaşdıqda onları yaxınlaşdır."***[413]

[413] Nümunə, c.4, səh.126

116. Şirkdən başqa bütün günahların bağışlana bilməsi: Bu ayənin məzmunu az fərqlə eyni surənin 48-ci ayəsində də qeyd edilmişdir. Bu, tək və misli olmayan Allaha inanan insanları Allahın lütfkarlığı və mərhəməti ilə ruhlandıran, onlarda ümid yaradan ayələrdəndir. Çünki bu ayədə şirkdən başqa bütün günahların bağışlana biləcəyi bildirilmişdir. İmam Əli (ə) buyurmuşdur: "Heç bir ayə mənim üçün bu ayədən ümidverici ola bilməz." İbn Abbas belə qeyd edir: "Bu ayə mömin üçün Günəşin işıq saldığı hər şeydən yaxşıdır." Çünki çox insan var ki, törətdikləri böyük günahlara görə Allahın rəhmət və mərhəmətindən məyus olurlar. Bu da onların ömürlərinin qalan hissəsini günah içində keçirmələrinə səbəb olur. Lakin Allahın rəhmət və mərhəmətinə olan ümid onların günah və yanlışdan çəkinməsində rol oynayır. Əlbəttə, bağışlanmanın da şərti vardır. Bu bağışlanma layiq olanlara şamil olur. Allahın istəyi onun hikməti ilə müşayiət olunur. Şübhəsiz ki, ilahi hikmət layiq olmayanın bağışlanmasına icazə verməz. Bu ayədə qeyd edilməsi lazım olan mühüm nüanslardan biri də budur ki, ayənin tövbə ilə heç bir əlaqəsi yoxdur. Çünki tövbə bütün günahların, hətta şirkin də yuyulmasına səbəb olur. Ayədə ilahi rəhmətin tövbə etməyə imkan tapmamış şəxslərə şamil olması nəzərdə tutulmuşdur. Yəni ilahi rəhmət öz əməllərindən peşman olmazdan əvvəl və ya peşman olduqdan, lakin pis əməllərini nəticələrini hələ aradan qaldırmağa imkan tapmadan dünyadan köçmüş şəxslərə aid olur[414].

[414] Nümunə, c.3, səh.453

122. İman gətirib yaxşı işlər görənləri isə Biz tezliklə ağacları altından çaylar axan bağlara daxil edəcəyik. Onlar orada əbədi qalacaqlar. Allahın haqq vədidir. Danışığında və vədlərində Allahdan daha doğruçu kim ola bilər?!

123. (Üstünlük) nə sizin, nə də kitab əhlinin arzusu ilə deyildir. Pislik edən şəxs onun cəzasını görəcək və o, Allahdan başqa özünə nə bir dost, nə də bir imdada yetən tapacaqdır!

124. Kişi və qadın olmasından asılı olmayaraq yaxşı işlər görən insanlar mömin olacaqları təqdirdə Cənnətə daxil olarlar. Onlara azacıq da olsa, haqsızlıq edilməz!

125. Özünü Allaha təslim edən, yaxşı əməl sahibi olan, İbrahimin xalis və pak dininə tabe olan şəxsdən din etibarilə daha üstün kim ola bilər? Allah İbrahimi Özünə dost seçmişdir!

126. Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Allah hər şeyi əhatə edir.

127. Səndən qadınlar barəsində hökm verməyini istəyirlər. De ki: "Sizin onlarla bağlı sualınıza Allah cavab verir. Verilməsi vacib olanı (mirası) özlərinə verməyərək evlənmək istədiyiniz yetim qızlar (qadınlar) və aciz uşaqlar haqqında, həmçinin yetimlərlə ədalətlə rəftar etməniz barədə Kitabda məlumat verilmişdir". Sizin etdiyiniz bütün xeyirli işlərdən Allah xəbərdardır!

---

123. Həqiqi və yalançı imtiyazlar: Müsəlmanlar və kitab əhli mübahisə edir və birinin digərindən üstün olduğunu iddia edirmişlər. Kitab əhli deyirmiş ki, bizim peyğəmbərimiz sizin peyğəmbərdən daha əvvəl yaşayıb, kitabımız da kitabınızdan daha əvvəl göndərilib. Müsəlmanların isə cavabı belə olurdu: Bizim peyğəmbərimiz sonuncu peyğəmbərdir, kitabı sonuncu kitabdır, ən kamil səmavi kitabdır. Buna görə də biz sizdən üstünük. Bu və sonrakı ayələrdə insanların dəyərinin, mükafat və cəzasının heç də bu arzu və iddialarla ölçülmədyi, dəyər, mükafat və üstünlüyün iman və saleh əməldən asılı olduğu bildirildi. Bu, bütün xalqların eyni olduğunu ifadə edən sabit və dəyişməz qanundur. Qurana görə təkcə bir məzhəblə əlaqələndirilən xəyali, sosial, irqi və sair asılılıqların faydasız olduğunu, fərdin mənsub olduğu məktəbin əsaslarına imanı və onun proqramlarına əməl edilməsini başlıca prinsip hesab edir. Deyilənə görə, bu ayə nazil olduqdan sonra bəzi müsəlmanlar elə qorxuya düşdülər ki, qorxularından

ağlamağa başladılar. Çünki onlar insanın bəzən səhvə yol verə biləcəyini, günah edəcəyini bilirdilər. Əgər bağışlanma və əfv olmasaydı və insan etdiyi bütün pis əməllərinn cəzasını çəkməli olsaydı, vəziyyət çox çətin olardı. Buna görə də Peyğəmbərə (s) "Bu ayə bizim üçün heç bir çıxış yolu qoymayıb", - deyə müraciət etdikdə Allah rəsulu (s) buyurmuşdu: ***"And olsun canım əlində olana! Vəziyyət ayədə buyurulduğu kimidir. Amma müjdə verim ki, sizin Allaha yaxınlaşmanıza və yaxşı işlər görməyə təşviq edlmənizə səbəb olur. Başınıza gələn müsibətlər, hətta ayağınıza batan tikan belə, günahlarınızın kəffarəsidir."***[415]

125. İbrahim Xəlil: "Xəlil" sözü mənacı ehtiyac olan "xullət" sözündən törəmişdir. Xəlil öz ehtiyaclarını yalnız Allaha deyən və ehtiyaclarının aradan qaldırılmasını yalnız Allahdan istəyən şəxsə deyilir. İmam Rza (ə) belə buyurmuşdur: "Allah-taala İbrahimi ona görə xəlil seçdi ki, heç bir ehtiyaclını geri qaytarmadı və hər kəsdən yalnız Allahı istədi."[416] Əlbəttə, bəzi təfsirçilər hesab edirlər ki, "xəlil" sözü mənası dost olan "xəllət" sözündən törəmişdir. Buna görə də ayənin mənası belə olur: "Allah İbrahimi Özünə dost seçdi"

Bəs görəsən İbrahim hansı imtiyazın sahibi olmuşdu ki, Allah ona belə bir məqam bəxş etmişdi? Bu barədə müxtəlif hədislər qeyd edilmişdir. Bəzi hədislərdən belə məlum olur ki, o, çox səcdə etdiyi, acları yedizdirdiyi, gecə yarısı namaz qıldığı, Allahın itaəti yolundan çox canfəşanlıq göstərdiyi üçün bu məqama layiq görülmüşdür[417].

127. Qadınların və yetimlərin İslamdan əvvəlki və sonrakı vəziyyəti: Bəzi hədislərə görə, bu ayə surənin əvvəlində yetimlər, irs və qadınlardan

---

[415] Nümunə, c.4, səh.140
[416] Əl-Mizan, c.5, səh.98
[417] Nümunə, c.4, səh.145

bəhs edən ayələrdən sonra nazil olmuşdur. Cahiliyyət dövründə, irs və varislik ayələri nazil olmazdan əvvəl qadınlar, qızlar və həddi-büluğ yaşına çatmamış uşaqlar miras payından məhrum idilər. Yalnız həddi-büluğ yaşına çatmış, döyüşçü və süvari oğlanlar mirasda pay sahibi idilər. Miras ayələri nazil olduqdan sonra Peyğəmbərdən (s) qadınların, qızların və yetim uşaqların miras hökmləri haqqında soruşuldu. Bu ayə nazil oldu və onlara bu barədə surənin əvvəlində izahat verildiyi bildirildi[418].

[418] Əl-Mizan, c.5, səh.100

128. Əgər bir qadın öz ərinin qaba rəftarından, yaxud ondan üz çevirməsindən qorxarsa, onların öz aralarında sülh bağlamasının heç bir eybi yoxdur (Bu zaman kişi və ya qadın sülhə xatir bəzi hüquqlarına göz yumur). Sülh daha yaxşıdır. Baxmayaraq ki, insanlar xəsis və qısqancdırlar (Bu onların özlərini sevməsindən irəli gəlir). Əgər yaxşılıq etsəniz və təqvalı olsanız (bağladığınız sülhə görə güzəştə getsəniz), Allah etdiyiniz hər bir işdən xəbərdardır (və sizə layiqli mükafat verəcəkdir)!

129. Siz nə qədər çalışsanız da, (sevgi baxımından) arvadlar arasında əsla ədalətli davrana bilməzsiniz. Ancaq meylinizi tamamilə birinə salmayın ki, digəri ərini itirmiş bir qadın vəziyyətinə düşsün. Əgər islah və təqva yolunu tutsanız, (Allah sizi bağışlar). Allah bağışlayandır, rəhm edəndir!

130. Əgər onlar (yola getməyib) bir-birindən ayrılacaq olsalar, Allah onların hər birini Öz geniş lütfü (kərəmi) ilə ehtiyacsız edər. Allah lütf, kərəm və hikmət sahibidir!

131. Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Biz sizdən əvvəl kitab verilənlərə də, sizə də Allahdan qorxmanızı (Onun əmrindən çıxmamağı) tövsiyə etdik. Əgər Allahı inkar etsəniz belə, göylərdə və yerdə nə varsa, Allahındır. Allah ehtiyacsızdır, həmdə layiqdir.

132. Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Allahın onları qoruması kifayət edər.

133. Ey insanlar! Əgər O istərsə, sizi yox edər, (yerinizə) başqalarını gətirər. Allah buna qadirdir!

134. Hər kəs dünya savabını (mükafatını) istərsə (axirət nəticələrini düşünməzsə, yanılır), (bilməlidir ki) dünyanın da, axirətin də mükafatları Allahın yanındadır. Allah eşidəndir, görəndir!

---

128. Yöndəmsiz kişi ilə yola getmək çox yaxşıdır: Bu ayənn nazilolma səbəbindən bəhs edilərkən qeyd edilir ki, Rafi ibn Xədicin iki həyat yoldaşı var idi. Onlardan biri yaşlı, digəri isə gənc idi. Aralarında yaranan mübahisə üzündən yaşlı arvadını boşadı və hələ müddət tamam olmamış ona dedi: "Əgər istəyirsənsə, sənlə barışaram, amma o biri arvadımı səndən üstün tutsam, gərək dözəsən və öz haqqına göz yumasan. Yox, əgər razı deyilsənsə, müddət tamam olana qədər gözləyək, sonra ayrılaq." Qadın birinci təklifi qəbul etdi və onlar barışdılar. Bu ayə nazil oldu və bu mövzunun hökmü müəyyən edildi[419]. Bu surənin 34-cü ayəsində də qeyd edildi ki, "nüşuz" sözünün mənası qadının və ya kişinin ailə məsələlərində üzərinə düşən vəzifəni yerinə yetirməməsidir. Həmin ayədə üzərinə düşən vəzifəsini yerinə yetirməyən qadının hökmü müəyyən edilmişdi. Bu ayə və onun nazilolma səbəbini ifadə edən hədisdən belə başa düşülür ki, ailəlik məsələlərində kişi ailə hüquqlarını pozarsa, qadın boşanmanın qarşısını almaq üçün bəzi hüquqlarına göz yuma və onları güzəştə gedə bilər. Bu sülh və barışıq ailəlik münasibətlərində ayrılmaqdan

[419] Nümunə, c.4, səh.149

yaxşıdır[420]. Əlbəttə, qadın da şəriət hakiminə müraciət edə və yoldaşından şikayət edə və şəriət hakimi onların məsələlərinə aydınlıq gətirə bilər[421].

128. Ər və arvadın öz hüquqlarına xəsislik etməsi: ***"Belə məsələlərdə insanlar xəsisdirlər"*** cümləsini izah edərkən bildirirlər ki, xəsislik insanın öz maraqlarını qoruması və şəxsiyyətinin süquta uğramasının qarşısını almaq üçün Allahın insana bəxş etdiyi bir instinktdir. Ər və arvad öz hüquqlarına və maraqlarına qarşı xəsisdirlər və haqlarının pozulmasına razı deyillər. Amma ailə həyatları dağılmaq təhlükəsi ilə qarşılaşdıqda barışıq və bəzi hüquqlara güzəştə gedilməsi, xəsislik və qısqanclığın bir kənara qoyulması daha yaxşıdır[422].

129. Bütün həyat yoldaşlarına qarşı eyni sevgini bəsləmək mümkün deyil: Ayənin ***"arvadlar arasında əsla ədalətli davrana bilməzsiniz"*** hissəsinə gəlincə, İmam Sadiq (ə) buyurmuşdur: "Burada "ədalət" deyilərkən istək və sevgidəki ədalət nəzərdə tutulur". Başqa hədislərdə bu ayənin çoxarvadlılıqla heç bir təzad təşkil etmədiyi qeyd edilmişdir. Əslində, burada söhbət ondan gedir ki, bir kişi bütün həyat yoldaşlarını eyni səviyyədə sevə bilməz. Amma ardınca göstəriş verilir ki, bu reallıq həyat yoldaşlarından hansınasa qarşı haqsızlıq edilməsinə səbəb olmamalıdır[423]. Hədislərdə həyat yoldaşları arasında ədalətli davranılmağın mühümlüyü ilə bağlı göstərişlər yer almışdır ki, bu da sözügedən qanunun böyüklüyündən xəbər verir. Hətta deyilənə görə İmam Əli (ə) xanımlarından hər hansısa birinə aid olan günündə hətta dəstamazını da digər xanımının evində almazmış[424]. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: "İki

---

[420] Əl-Mizan, c.5, səh.108; Ətyəbül-bəyan, c.4, səh.229
[421] Bax: Fiqh terminləri kitabı, səh.537
[422] Əl-Mizan, c.5, səh.103
[423] Əl-Mizan, c.5, səh.108
[424] Nümunə, c.4, səh.103

xanımı olub günlərini və mallarını onlar arasında ədalətli şəkildə bölməyən şəxs Qiyamət günü sürünə-sürünə oda girənlərdən olacaq.”[425]

[425] Vəsailüş-şiə, c.21, səh.342

135. Ey iman gətirənlər! (Şahidliyiniz) sizin özünüzün, ata-ananızın, yaxın qohumlarınızın əleyhinə olsa belə, çox-çox ədalətli olun, Allah üçün şahidlik edin! (Əleyhinə şahidlik etdiklərniz) istər dövlətli olsunlar, istərsə də kasıb, Allah onlara hamilik etməyə daha layiqdir. Buna görə də nəfsinizin istəyinə uymayın ki, haqq yoldan saparsınız. Əgər haqqı təhrif etsəniz və ya onu söyləməkdən boyun qaçırsanız, (bilin ki) Allah etdiyiniz işlərdən xəbərdardır!

136. Ey iman gətirənlər! Allaha və Peyğəmbərinə, Onun Öz Peyğəmbərinə endirdiyi Kitaba və ondan əvvəl nazil etdiyi (səmavi) kitablara iman gətirin! Allahı, onun mələklərini, kitablarını, peyğəmbərlərini və axirət gününü inkar edən şəxs (doğru yoldan) çox azmışdır.

137. (Əvvəlcə) iman gətirib sonra kafir olan, sonra iman gətirib yenə kafir olan, sonra da küfrünü artıran kəsləri Allah heç vaxt bağışlamayacaq və doğru yola yönəltməyəcək!

138. Munafiqlərə, onları şiddətli əzab gözləməsi ilə bağlı müjdə ver.

139. O münafiqlər ki, möminləri qoyub kafirləri dost seçdilər. Bütün izzətlər (güc, qüdrət və elm) Allaha məxsus olduğu halda, izzəti onların yanındamı axtarırlar?

140. Allah Quranda sizə nazil etmişdir (bildirmişdir) ki, Allahın ayələrini inkar edildiyini və onlara istehza olunduğunu eşitdiyiniz zaman müşriklər başqa bir söhbətə girişməyənə qədər onlarla bir yerdə əyləşməyin! Yoxsa, siz də onların tayı olarsınız. Allah münafiq və kafirlərin hamısını Cəhənnəmdə bir yerdə toplayacaqdır!

---

135. Şahidlik və onun əhəmiyyəti: Quranın çox yerində doğru şahidliyə təkid edilmişdir. Bu ayədə də şahidliyin insanın özü və əzizlərinin

ziyanına olsa belə, Allahın razılığını qazanmaq üçün doğru şahidlik etməsi ilə bağlı göstəriş verilmişdir. Məsum öndərlərimiz (ə) də bu məsələyə çox önəm vermişlər. Peyğəmbərin (s) hədislərinin birində belə buyurulmuşdur: ***"Hakiminin qarşısında yalandan şahidlik edənin sözü söz şahidin yeri Cəhənnəmdə hazır olana qədər tamamlanır. Doğru şahidliyi gizlədənin də aqibəti eynidir."***[426] Allah rəsulunun (s) başqa bir hədisində belə buyurulur: ***"Kiminsə zərərinə yalandan şahidlik edənin yeri Cəhənnəmin ən aşağı təbəqəsidir; orada münafiqlərlə birlikdə dilindən asılacaq."***[427]

139. Güc, qüdrət və elm Allah düşməninin yox, Allahın yanındadır: Bu ayədə müsəlmanlara iqtisadi, mədəni, siyasi və sair sahələrdə güc və qüdrəti İslam düşmənləri ilə dostluqda arxtarmamaq, yalnız Allaha arxalanmaq göstərişi verilir. Çünki bütün güc və qüdrətlərin mənbəyi Allahdır. İslam düşmənlərində kiməsə verilərəcək bir qüdrət yoxdur, əgər qüdrət sahibi olsalar da etimad olunası deyillər, maraqlarına uyğun olaraq istənilən vaxt ən səmimi müttəfiqlərini tərk edir və özlərini elə aparırlrar ki, sanki müsəlmanlarla əsla münasibətdə olmayıblar. Hətta əksər hallarda öz dostlarını maraqlarına qurban verməyə hazırdırlar. Müasir tarix bu reallığı daha parlaq şəkildə əks etdirir[428].

140. Günah məclisində iştrakın qadağan edilməsi: Təfsirçilər hesab edirlər ki, ***"Allah Quranda (bu hökmü) sizə nazil etmişdir"*** cümləsi ilə "Ənam" surəsinin 68-ci ayəsi nəzərdə tutulmuşdur. Belə ki, həmin ayədə Peyğəmbərə (s) xitabən belə buyurulmuşdur: "Ayələrimizi istehza edənləri gördüyün zaman onlar söhbəti dəyişənə qədər onlardan üz çevir. Əgər Şeytan (bu qadağan əmrini) sənə unutdursa, xatırlayandan sonra o zalım

---

[426] Kaf, c.7, səh.383, "Yalandan şahidlik edən şəxs" fəsli
[427] Vəsailüşşiə, c.27, səh.325, "Saxta şahidliyin cəzası" fəsli
[428] Nümunə, c.4, səh.170

tayfa ilə birlikdə oturma.” Bu ayədən bir neçə nüans öz əksini tapmışdır: 1. İştirakçı sakit dayansa belə, günah məclisində iştirak həmin günahı etmək kimidir. Çünki bu növ sükutlar bir növ əməli razılıq və təsdiqdir; 2. Günah məclisinin qarşısını almaq mümkün olmasa, ən azı onu tərk etmək lazımdır; 3. Kafir və günahkarlarla oturub-durmaq, onların məclislərində iştirak etmək münafiqlik əlamətidir. Çünki həqiqi müsəlman Allahın ayə və hökmlərinin təhqir olunduğu məclisdə əsla iştirak etməz, etiraz etmədən dura bilməz, ən azı öz narazılığını oranı tərk etməklə izhar edər[429].

141. Sizə hər zaman göz qoyanlar (münafiqlər) Allah tərəfindən sizə bir qələbə bəxş edildikdə: “Məgər biz də sizinlə deyildikmi? (Deməli, biz də qənimətlərə ortağıq)” deyərlər, kafirlərə bir zəfər nəsib olduqda isə: “Məgər biz sizi möminlərə qarşı mübarizə aparmağa və onlara təslim olmamağa həvəsləndirmədikmi? (Deməli, biz sizinlə şərik olacağıq)” – söyləyərlər. Qiyamət günü Allah Özü sizin aranızda hökm verəcəkdir. Allah kafirləri möminlər üzərində əsla qalib etməmişdir!

142. Münafiqlər Allahı aldatmağa çalışırlar. Halbuki o (Allah) onları aldadır. Onlar namaza durduqları zaman tənbəlliklə (könülsüz) qalxır, camaat qarşısında riyakarlıq edir və Allahı olduqca az yad edirlər.

143. Onlar nə bunlar (möminlərə), nə də onlar (kafirlərə) tərəfə yönələn məqsədsizlərdir (Nə möminlərin, nə də kafirlərin sırasında yer alırlar). Allahın azdırdığı şəxs üçün heç bir yol (nicat yolu) tapa bilməyəcəksən!

---

[429] Nümunə, c.4, səh.172

144. Ey iman gətirənlər! Möminləri qoyub kafirləri özünüzə dost, hami, arxa və dayaq seçməyin! Məgər Allahın hüzurunda öz əleyhinizə açıq bir dəlilmi vermək istəyirsiniz?

145. Münafiqlərin yeri Cəhənnəmin ən aşağı təbəqəsindədir. Sən heç vaxt onlara yardım edən tapmayacaqsan! (Buna görə də münafiqlik əlaməti sayılan Allah düşməni ilə dostluqdan çəkinin)

146. Tövbə edənlər, özlərini islah edib düzəldənlər, Allahdan möhkəm yapışanlar və öz dinlərini Allaha xatir xalisləşdirənlər istisnadırlar. Onlar möminlərlə olacaqlar. Allah imanlı şəxslərə böyük mükafat verəcəkdir!

147. Siz şükür edəcəyiniz və iman gətirəcəyiniz təqdirdə Allahın sizi cəzalandırmasına nə ehtiyac var? Allah şükürə qiymət verəndir, (hər şeyi) biləndir!

---

141. Allah kafirləri möminlər üzərində əsla qalib etməmişdir: Bəzi təfsirçilər bu cümləyə əsaslanaraq hesab edirlər ki, kafirlər təkcə elmi cəhətdən deyil, hərbi, siyasi, mədəni, iqtisadi və sair cəhətlərdən də möminlərə qalib gələ bilməzlər. Ayrı-ayrı sahələrdə və müxtəlif cəbhələrdə onların müsəlmanlar üzərində qələbə çalmasının səbəbi müsəlmanların çoxunun həqiqi mömin olmaması, imandan uzaq düşməsi, öz vəzifələrini, məsuliyyətlərini və missiyalarını tamamilə unutmasıdır. Müsəlmanlar arasında vəhdət və qardaşlığın olmaması, cihadın öz həqiqi hədəflərindən uzaq salınması, beşikdən qəbrə qədər əldə edilməsi hər kəsə vacib edilən zəruri elm və bilik əldə edilməməsi də bu səbəblərdəndir[430].

[430] Nümunə, c.4, səh.175

142. Münafiqlər Allahı aldatmaq istəyirlər: Təfsirçilər ayənin bu cümləsini izah edərkən bildirirlər ki, münafiqlərin təsəvvüründə hiyləgər fikirlər yarandığı andan özləri bir növ həmin hiylənin qurbanına çevrilmiş olurlar. Çünki çox dəyərsiz sərmayə əldə etmək üçün varlıqlarının böyük sərmayəsini, yəni imanlarını itirirlər. Bu, müdriklərdən birinin sənətkar və tacirlərlə söhbətini əks etdirən bir dastana bənzəyir. Bir müdrik üzünü sənətkar və tacirlərə tutaraq deyir: "Ehtiyatlı olun ki, qərib qonaqlar sizi aldatmasınlar". Onlardan biri deyir: "Onlar sadəlövhdürlər, əksinə, biz onlara kələk gələrik". Müdrik deyir: "Elə mən də bunu demək istəyirəm. Siz bu yolla çox cüzi qazanc əldə edib, əvəzində böyük sərmayənizdən, imanınızdan olarsınız."[431] Deyilənə görə, bir gün bir nəfər Peyğəmbərdən (s) "Qiyamət gününün sabahkı əzabından xilas olmaq", - nə deməkdir?" - deyə soruşduqda, Allah rəsulu (s) buyurur: ***"Xilas bundadır ki, Allahı aldatmağa çalışmayın ki, O sizi Aldadar. Çünki Allah Onu aldatmağa çalışanı aldadar və imanı onun qəlbindən silər. Allahı aldadan şəxs, əslində, özünü aldadır, ancaq başa düşmür."*** Başqa bir nəfər soruşur: "Bəndə Allaha qarşı necə hiylə işlədir?" Peyğəmbər (s) buyurur: ***"Allahın göstərişinə əməl edib niyyətində Allahdan qeyrisini tutmaqla. Buna görə də riyakarlıqdan qorunun ki, Allaha şərik qoşmaqdır. Riyakar Cəhənnəmdə dörd adla çağırılacaq. Ona deyiləcək: "Ey kafir, ey facir, ey hoqqabaz, ey riyakar, əməlin puç oldu, mükafatın yox oldu, bu gün sənə mükafat yoxdur. İndi mükafatını kimə görə əməl etmişdinsə, kimin xoşuna gəlmək üçün etmişdinsə, ondan istə."***[432]

142. Allahı yalnız az sayda adam yad edir: Ayənin ***"camaat qarşısında riyakarlıq edir və Allahı olduqca az yad edirlər"*** cümləsini izah

---

[431] Nümunə, c.4, səh.177
[432] Əl-Mizan, c.5, səh.133

edərkən İmam Əli (ə) buyurmuşdur: “Allahı xəlvətdə və gizlində yad edən Onu daha çox xatırlamışdır. Münafiqlər Allahı aşkarda xatırlasalar da xəlvətdə onu yad emtirlər. Buna görə də Allah-taala buyurmuşdur: ***“camaat qarşısında riyakarlıq edir və Allahı olduqca az yad edirlər”*** Peyğəmbər (s) bu ayə haqqında belə buyurmuşdur: “Münafiqin namazı belədir, oturur, gözünü günəşə zilləyir ki, nə vaxt batacaq. Sonra ayağa qalxır, sonra abasını qarğa kimi dörd dəfə yerə vurur, Allahı isə olduqca az yad edir.”[433]

[433] Əl-Mizan, c.5, səh.123

148. Allah pisliklərin (başqalarının eyiblərinin) açılıb söylənməsini sevmir. Yalnız zülm olunmuş şəxslər istisnadır. Allah (hər şeyi) eşidəndir, biləndir!

149. Əgər yaxşılıqları aşkara çıxarsanız, yaxud gizlətsəniz və ya pisliklәri əfv etsəniz (Allah onları bilər), Allah bağışlayandır, qüdrət sahibidir!

150. Allahı və peyğəmbərlərini inkar edənlər, Allah və peyğəmbərləri arasında fərq qoyanlar, “Biz (peyğəmbərlərin) bəzisinə inanır, bəzisinə isə inanmırıq”,- deyənlər və bu ikisi arasında özlərinə bir yol seçmək istəyənlər...

151. Onlar əsl kafirlərdir. Biz kafirlər üçün alçaldıcı əzab hazırlamışıq!

152. Lakin Allaha və peyğəmbərlərinə iman gətirən və onlar arasında heç bir fərq qoymayan şəxslərin mükafatını Allah verəcəkdir. Şübhəsiz ki, Allah bağışlayandır, rəhm edəndir!

153. Kitab əhli (yəhudilər) sənin onlara göydən (tam) bir kitab endirməyini istəyirlər. (Əslində, bu, bir bəhanədir). Onlar (vaxtilə) Musadan bundan daha böyüyünü istəmiş və: “Bizə Allahı aşkar göstər!” – demişdilər. Bu zülm və haqsızlıqları üzündən onları ildırım vurmuşdu. Sonra onlara gələn bütün açıq-aydın dəlillərə baxmayaraq, buzova sitayiş etmişdilər. Biz bundan da (onların bu günahından da) keçdik və Musaya açıq-aşkar dəlil verdik.

154. Tur dağını başları üzərinə qaldırdıq, həmin vəziyyətdə onlardan əhd alıb dedik: "(Tövbə etmək üçün) qapıdan (Beytül-müqəddəsin qapısından) təvazökarcasına daxil olun, şənbə gününün qayda-qanununu pozmayın!" Və onlardan möhkəm əhd aldıq.

---

148. Qeybətin icazəli olduğu yerlərdən biri: Təfsirçilər bu ayəni qeyd edərkən bildirirlər ki, Allahın bu ayədə "Yalnız zülm olunmuş şəxslər istisnadır (zülmə məruz qalmış şəxs zalımın pisliklərini danışa bilər)", - deyə buyurduğu cümlə zülmə məruz qalmış şəxsin bütün pisliklərini danışmasına icazə vermir, yalnız zülmə məruz qaldığı mövzularda sükut etməməsinə, haqqını tələb etmək üçün zalımın pis davranışlarını faş etməsinə, zülmlə birbaşa bağlılığı olan xüsusiyyətlərini dilə gətirməsinə icazə verir[434]. Fəqihlər və təfsirçilər bu ayəyə istinad edərək bildirirlər ki, qeybətin icazə verildiyi yerlərdən biri zülmün elan edlməsi və insanın öz haqqını tələb etməsidir[435].

150. İmanla küfrün qarışdırılması: Bu ayədə yəhudi və xristianların mövqeyinə aydınlıq gətirilir. Yəhudilər Məsihi (ə) rəsmən peyğəmbər kimi tanımırdılar, eyni zamanda hər iki din mənsubları İslam peyğəmbərini (s) qəbul etmirdilər. Halbuki onların səmavi kitablarına əsasən bu peyğəmbərlərin peyğəmbər olması sübuta yetmşidi. Nəfsani istəklərdən, nadancasına təəssüblərdən, paxıllıq, əsassız dar düşüncələrdən qaynaqlanan həqiqətlərin qəbulundakı bu ayrıseçkilik Allah və peyğəmbərinə imanın olmamasının əlaməti idi. Çünki iman insanın meyl və istəyinə uyğun olanı deyil, nəfsani istəklərinin əksinə olanı qəbul etməsidir. Meyl və istəklərə

[434] Əl-Mizan, c.5, səh.125
[435] Ətyəbül-bəyan, c.4, səh.253

uyğun olanı qəbul etmək Allahpərəstlik deyil, nəfspərəstlikdir[436]. Əgər bu gün də diqqətlə baxsaq, bu ayə səmavi dinlərin tərəfdarlarının çoxuna, hətta bir çox müsəlmanlara şamil olur. İlahi dinin həqiqətindən kilometrlərcə uzaq düşmüş yəhudi və xristianları bir kənara qoyub müsəlmanlara nəzər salsaq, sözügedən ayənin onların da çoxuna şamil olduğunu görərik. Çünki əməl meydanında onların istəkləri ilə üst-üstə düşməyən ilahi hökmlərin çoxunu qəbul etmədiklərini görürük. Hicab, sələm, haram musiqi, xums, qadın və kişilərin qarışıq həyat tərzi və dinin təkid etdiyi bir çox digər hökmlər müsəlmanların çoxunun diqqətdən kənarda saxladığı hökmlərdir. Halbuki İslamın mühüm şərtlərindən biri ilahi peyğəmbərlər və məsum imamların (ə) əmr etdiyi bütün hökmləri təsdiq etmək və vacib saymaqdır. "Bəqərə" surəsinin 285-ci ayəsində belə buyurulmuşdur: ***"...Möminlər də hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər (və dedilər:) "Biz Onun elçiləri arasında fərq qoymuruq (Hamısına inanırıq)". Onlar dedilər: "Eşitdik və itaət etdik!..."***[437]

153. Quranın tam şəkildə nazil edilməsini istəmək: Bu ayənin nazilolma səbəbindən danışılarkən qeyd edilir ki, bir qrup yəhudi Peyğəmbərin (s) yanına gəlib deyir: "Əgər sən Allahın peyğəmbərisənsə, Musa (ə) Tövratı tam şəkildə təqdim etdiyi kimi, sən də öz səmavi kitabını bizə tam şəkildə təqdim et." Bu ayə nazil oldu və onlara cavab verildi[438].

---

[436] Nümunə, c.4, səh.189
[437] Ətyəbül-bəyan, c.4, səh.256
[438] Nümunə, c.4, səh.192

Sonumidtv.az

155. Lakin onlar verdikləri əhdi pozduqları, Allahın ayələrini inkar etdikləri, peyğəmbərləri haqsız yerə öldürdükləri və: “Qəlblərimiz pərdə ilə örtülüb! (Peyğəmbərin söylədiklərini başa düşmürük)” - dedikləri üçün (Allah dərgahından qovuldular). Bəli, küfrləri ucbatından Allah onların

qəlblərinə möhür vurmuşdur. Buna görə də onların yalnız az bir hissəsi iman gətirər.

156. Onlar həm də küfr etdikləri və Məryəmə qarşı böyük bir iftira atdıqları üçün (lənətə düçar oldular).

157. (Onların Allah dərgahından qovulmasının bir səbəbi də:) ”Biz, Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük”, - demələridir. Halbuki onlar İsanı nə öldürdülər, nə də çarmıxa (xaça) çəkdilər. Onlarda yalnız belə bir təsəvvür yarandı. Onun (qətlə yetirilməsi) haqqında ixtilafda olanlar şəkk-şübhə içərisindədirlər. Onların buna dair heç bir məlumatları yoxdur, ancaq zənnə qapılırlar. Əlbəttə, onu öldürmədilər.

158. Allah onu Öz dərgahına qaldırdı. Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!

159. Kitab əhlindən elə bir kəs olmaz ki, ölümündən əvvəl ona (İsaya) iman gətirməsin, lakin o, (İsa) Qiyamət günündə onların (kitab əhlinin) əleyhinə şəhadət verəcəkdir.

160. Yəhudilər zülm etdiklərinə və bir çoxlarını Allahın yolundan döndərdiklərinə görə onlara halal edilmiş gözəl (təmiz, halal) nemətlərin bir hissəsni haram etdik.

161. Habelə qadağan olunmasına baxmayaraq, sələm aldıqları, haqsız yerə xalqın malını yedikləri üçün (halal olanı onlara haram buyurduq). Biz onlardan olan kafirlər üçün şiddətli bir əzab hazırlamışıq!

162. Lakin onların elmdə qüvvətli (möhkəm) olanları və (İslam ümmətindən olan) möminlər sənə nazil edilənə və səndən əvvəl göndərilənə inanır, namaz qılır, zəkat verir, Allaha və axirət gününə iman gətirirlər. Biz, əlbəttə, onlara böyük mükafat verəcəyik!

---

156. Kitab əhlinin həzrət Məryəmə (ə) iftira atması: "Böyük iftira" deyilərkən burada zina iftirası nəzərdə tutulur. Belə ki, "Məryəm" surəsinin 27-ci ayəsində belə buyurulmuşdur: ***"(Məryəm) uşağı (İsanı) qucağında tutmuş halda tayfasının yanına gəldi. Onlar dedilər: "Ey Məryəm! Sən çox qəribə və pis bir iş tutdun!"*** Məryəm (ə) haqqında olan bu inanc həm küfrdür, həm böhtan, həm də iftira. Çünki elə həmin beşikdəcə həzrət İsa camaata dedi: ***"Mən Allahın quluyam. O mənə kitab verdi, özümü də peyğəmbər etdi."*** ("Məryəm" surəsi, ayə-30). Sonra İsa (ə) elə beşikdəcə danışaraq özünün pak olduğunu və pak bir anadan dünyaya gəldiyini sübuta yetirdi. Allah-taala "Nur" surəsinin 23-cü ayəsində bu iftiranın çirkinliyi və acı aqibəti ilə bağlı belə buyurmuşdur: ***"(İstənilən çirkinlikdən) xəbəri olmayan namuslu, ismətli mömin qadınları zinada ittiham edənlər dünyada və axirətdə lənətə düçar olarlar. Onları çox böyük bir əzab gözləyir"***[439]

157. Həzrət İsanın (ə) çarmıxa çəkilməsi iddiasının rədd edilməsi: Bu ayədə İsanın (ə) çarmıxa çəkilməsi və qətlə yetirilməsi inancı tamamilə qətiyyətlə rədd edilr. Müxtəlif tarixi sübutlar da İsanın (ə) xaça çəkilməsinin və öldürülməsinin əsassız olduğunu sübut edir. Xristianların öz yazılarında səhvə yol verilməsi ehtimalının yüksək olduğu qeyd edilir. Dəlil və sübutların bəzilərinə nəzər salaq: 1. İsanın (ə) çarmıxa çəkildiyi qeyd edilən dörd İncil İsadan (ə) illər sonra onun şagirdləri və ya şagirdlərinin şagirdləri tərəfindən yazılmışdır. Bunu xristian tarixçiləri özləri etiraf edirlər. 2. İncillərdə yazılana görə düşmənlər İsaya (ə) hücum çəkərkən şagirdləri qaçdırlar. Deməli, onlar İsanın (ə) çarmıxa çəkilməsi qənaətinə camaat arasındakı gəzən şayiələr əsasında gəliblər. 3. İsanın (ə) başqa bir adamla

---

[439] Ətyəbül-bəyan, c.4, səh.262; Əl-Mizan, c.5, səh.134; Tematik təfsir, c.7, səh.356

səhv salınması faktını təsdiq edən amillərdən biri də budur ki, İsanı (ə) tutmaq üçün şəhər kənarındakı Cestmani bağına gedənlər ordu dəstələrində xidməti vəzifə yetirən Roma əsgərləri idilər. Bu qrup nə yəhudiləri tanıyırdı, nə onların adət-ənənələrindən xəbərdar idi, nə də İsanı (ə) öz şagirdlərindən fərqləndirə bilirdi. Qeyd olunanlardan əlavə, onların səhvə yol verdiyini təsdiq edən başqa dəlil və sübutlar da var. İslam hədislərində Allahın başqa bir şəxsi İsanın (ə) şəklinə saldığı, bu səbədən də məhz həmin şəxsin tutularaq qətlə yetirldiyi qeyd edilmişdir. Hər-halda Qurana və İslam hədislərinə görə həzrət İsa (ə) ölməmiş, Allah onu göylərə qaldırmışdır. Lakin bu qalxmanın forması və onun hansı həyat tərzinə malik olması bizə məlum deyil[440].

159. Ölümündən əvvəl kitab əhlinin İsaya (ə) iman gətirməsi: Bu ayə ilə bağlı müxtəlif izahlar verilmişdir. Həzrət İsanın (ə) həyatda olduğunu, axırzamanda onun yenidən dünyaya qayıdacağını (hədislərdə qeyd edilir ki, İmam Mehdi (ə) zühur etdiyi vaxt həzrət İsa (ə) da göydən enəcək və İmamın (ə) arxasında namaz qılacaq, yəhudi və xristianlar onu gördükdən sonra ona və İmam Mehdiyə (ə) iman gətirəcəklər) nəzərə alsaq, ayənin izahı belə olur: Bütün kitab əhli İsa (ə) vəfat etməzdən əvvəl ona iman gətirəcək, amma yerə enməzdən əvvəl əcəli çatmış və gözləri önündən dünyanın maddi pərdələri qalxmış bütün şəxslər həqiqəti dərk edəcəklər. Peyğəmbərliyini inkar edənlər ona iman gətirəcək, Allah hesab edənlər səhvlərini başa düşəcəklər. Əlbəttə, qeyd etməliyik ki, bu qaçılmaz imanın heç bir faydası yoxdur. İsanın (ə) yer üzünə qayıtdığı zaman həyatda olan insanlar ona iman gətirəcəklər. Həmin vaxt iman gətirməyənlər ölərkən qeyri-ixtiyari iman gətirəcəklər. Allah-taala bu ayə ilə bildirir ki, İsa (ə)

---

[440] Nümunə, c.4, səh.201; Əl-Mizan, c.5, səh.134

diridir və o, kitab əhli hamılıqla ona iman gətirdikdən sonra vəfat edəcək. Bu şəkildə İsanın (ə) çarmıxa çəkilməsi və qətlə yetirilməsi rədd edilir[441].

163. Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy göndərdiyimiz kimi, sənə də vəhy göndərdik. Biz İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladlarına (İsrailin övladlarına), İsaya, Əyyuba, Yunisa, Haruna və Süleymana da vəhy göndərdik; Davuda da Zəburu verdik.

164. Daha öncə sənə haqlarında danışdığımız və danışmadığımız peyğəmbərlər (göndərdik). Allah Musa ilə danışdı. (Bu ona məxsus olan bir imtiyaz idi)

165. Biz peyğəmbərləri müjdə gətirən və əzabla qorxudan kimi göndərdik ki, daha bu peyğəmbərlərdən sonra insanların Allaha qarşı bir bəhanə yeri qalmasın. Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!

166. Lakin Allah sənə nazil etdiyi ilə şəhadət verir ki, onu Öz elmi ilə nazil etmişdir. Mələklər də buna şahidlik edirlər. Baxmayaraq ki, təkcə Allahın şahid olması yetərlidir!

---

[441] Əl-Mizan, c.5, səh.136

167. Kafir olanlar və (insanları) Allahın yolundan döndərən şəxslər, şübhəsiz ki, çox uzaq bir zəlalətə uğramışlar.

168. Kafirləri və (özlərinə və başqalarına) zülm edənləri, Allah əsla bağışlamayacaq və onları heç bir yola yönləndirməyəcək!

169. Əbədi, həmişəlik qalacaqları Cəhənnəm yolundan başqa! Bu, Allah üçün çox asandır!

170. Ey insanlar! (Yolunu gözlədiyiniz) Peyğəmbər haqqı Rəbbiniz tərəfindən gətirdi. (Ona) iman gətirin ki, bu, sizin üçün xeyirlidir. Siz (onu) inkar etsəniz də, (Allaha heç bir ziyanı yoxdur, çünki) göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Allah (hər şeyi) biləndir, hikmət sahibidir!

---

163. Yaxşıların hamılıqla malik olduğuna sən təklikdə maliksən: Bəzi təfsirçilər bu ayəni şərh edərkən bildirirlər ki, Quran bu ayədə Peyğəmbərə (s) onun dininin bütün keçmiş dinlərin malik olduğu imtiyazlara malik olduğunu bəyan edir. Əhli-beytə (ə) aid edilən bəzi hədislərdə də bu mənaya işarə edilmişdir. Əslində, təfsirçilərin yuxarıda qeyd edilən qənaəti bu hədislərin məzmununa əsaslanır[442].

163. Davudun kitabı: Bu ayədə Allahın Davuda (ə) göndərdiyi Zəburun səmavi kitab olmasına işarə edilmişdir. Bu fakt şəriət, səmavi kitab və din sahibi olan peyğəmbərlərin beş nəfərdən ibarət olması faktı ilə təzad təşkil etmir. Çünki həm Quran ayələrindən, həm də hədislərdən peyğəmbərlərə nazil edilmiş kitabların iki qrupa bölündüyü məlumdur: 1. Qanunverici hökmləri ehtiva edən və yeni din elanı verən kitablar. Bunların sayı isə beşdir və beş peyğəmbərə göndərilmişdir. 2. Yeni hökmlər deyil,

---

[442] Nümunə, c.4, səh.214

öyüdlər, nəsihətlər, istqamətləndiricilər, tövsiyələr və dualardan ibarət olan kitablar. Zəbur da məhz belə kitablardan olmuşdur. Bu kitab da digər qədim kitablar kimi təhriflərə məruz qalsa da, deyə bilərik ki, müəyyən həddə qədər öz formasını qoruya blmişdir. Zəbur əvvəldən sonra qədər nəsihət, dua və minacatlardan təşkil olunmuş "məzmur" adlanan 150 (yüz əlli) fəslə malikdir[443].

164. Adları Quranda qeyd edilmiş peyğəmbərlər: İmam Baqir (ə) bu ayə haqqında belə buyurmuşdur: ***"Peyğəmbərlərin bəzisi öz peyğəmbərliklərini camaatdan gizlədirdilər. Buna görə də onların adı məxfi saxlanmış və Quranda qeyd edilməmişdir. Amma bəzi peyğəmbərlər öz peyğəmbərlik missiyalarını aşkar şəkildə elan etmişlər. Bunlar adları Quranda qeyd edilən həmin peyğəmbərlərdir. Bu ayə həmin mənaya işarə edir."***[444]

164. Allahın Musa (ə) ilə danışmasının bir nümunəsi: Quranın müxtəlif yerlərində Allahın Musa (ə) ilə danışmasına işarə edilmiş və həmin söhbətlərin bəzi fraqmentləri bəyan edilmişdir. Hədislərdə də bir çox məqamlara toxunulmuşdur. İmam Əlinin (ə) bir hədisində Allahın Musaya (ə) belə buyurduğu qeyd edilmişdir: ***"Sənə dörd tapşırıq verirəm, onlara riayət etməyə çalış: Birincisi, nə vaxta qədər ki, günahlarını bağışlatdırmamısan, başqalarında eyib axtarma. İkincisi, nə qədər ki, xəzinələrimin tükəndiyini görməmisən, ruzinə görə narahat olma. Üçüncüsü, nə qədər ki, hakimiyyətimin süquta uğradığını görməmisən, məndən başqasına ümid bəsləmə. Dördüncüsü, nə qədər ki, Şeytanın***

---

[443] Əl-Mizan, c.5, səh.148
[444] Nümunə, c.18, səh.182

öldüyünü görməmisən, hiyləsindən, kələyindən, planlarından arxayın olma.”[445]

[445] Nümunə, c.18 ,səh.182

171. Ey kitab əhli! Öz dininizdə ifrata varmayın! Allah barəsində yalnız haqqı deyin. Məryəm oğlu İsa Məsih ancaq Allahın elçisi, Məryəmə bəxş etdiyi bir söz (Məryəmin bətninə atdığı kəlmə) və Allah tərəfindən olan bir ruhdur. Buna görə də Allaha və peyğəmbərlərinə iman gətirin və "(Allah) üçdür" deməyin. (Belə sözlərə) son qoyun ki, (bu) sizin üçün daha yaxşı olar. Allah yeganə məbuddur. Övladı olmaqdan (bu bəşəri xüsusiyyətdən) uzaqdır. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onlara rəhbərlik və hamilik etmək üçün Allah yetər!

172. İsa Məsih də, yaxın mələklər də Allahın qulu olmaqdan əsla imtina etməzlər. Allah Ona ibadət etməkdən üz çevirən və təkəbbür göstərənlərin hamısını tezliklə Öz hüzuruna toplayacaqdır!

173. İman gətirənlərin və yaxşı işlər görənlərin mükafatlarını tam şəkildə verəcək, üstəlik Öz nemətindən onlar üçün artıracaqdır. İmtina edənləri və təkəbbür göstərənləri isə acı bir əzaba düçar edəcəkdir! Onlar özlərinə Allahdan savayı nə bir dost, nə də havadar tapacaqlar!

174. Ey insanlar! Sizə Rəbbiniz tərəfindən aşkar bir dəlil gəlmişdir. Biz sizə aydın bir nur endirdik.

175. Allah Ona iman gətirən və ondan (səmavi kitabdan) möhkəm yapışanların hamısını tezliklə öz mərhəməti, lütfü altına alar və özünə tərəf gedən düz yola yönəldər.

---

171. İfrat: Öndər və rəhbərlər mövzusunda ifrata varmaq səmavi dinlərdə haqq yoldan sapmanın ən mühüm səbəblərindən biri kimi

qiymətləndirilir. İnsan özünü sevdiyi üçün rəhbər və öndərlərini olduqlarından daha üstün təqdim edir və bununla da əslində, daha çox özünü böyük və əzəmətli göstərməyə çalışır. Bəzən öndərləri şişirtmənin və mübaliğədə ifrata varmanın onlara qarşı inam, sevgi və məhəbbət göstəricisi hesab edilməsi insanın qorxulu uçuruma yuvarlanmasına səbəb olur. Buna görə də İslamda ifratçılara qarşı sərt mövqe sərgilənmiş, həm fiqh, həm də etiqad və inanc əsasları ilə bağlı olan kitablarda ifratçılar ən aşağı dərəcəli kafirlər hesab edilmişlər[446]. İmam Əli (ə) buyurmuşdur: ***"Mənə qarşı mövqeləri iki qrupu həlak edəcək: mənə qarşı sevgisində ifrata varanı; mənimlə düşmənçilikdə həddi aşanı."***[447] Deyilənə görə bir nəfər İmam Əlini (ə) çox tərifləyir və tərifində ifrata varır. İmam (ə) onun dili ilə qəlbinin bir olmadığını görüb deyir: ***"Mən dediklərindən aşağı, qəlbində olandan yüksəkdəyəm."***[448]

171. Xristianlıqda ən böyük sapma: Xristianlıqda mövcud olan sapmalar arasında "üçlük" inancından böyük sapma yoxdur. Onlar açıq şəkildə deyirlər ki, Allah təkdir, eyni zamanda üçdür. Yəni həm təkliyi, həm də üçlüyü düzgün hesab edirlər. Bu inanc xristian araşdırmaçıları üçün böyük çətinliklər yaratmışdır. Əgər Allahın təkliyini məcazi, üçlüyünü isə həqiqi, yaxud da üçlüyünü məcazi, təkliyin isə həqiqi hesab etsəydilər, məsələ çox sadə olardı. Ancaq maraqlısı budur ki, bu inancların hər ikisini həqiqi və gerçək hesab edirlər. Buna görə də xristianlar dərk edilməsi mümkün olmayan bir məsələ ilə qarşılaşmalı olurlar. Çünki 3=1 bərabərliyini heç məktəbli uşaq da qəbul etmir. Nəticədə, deyirlər ki, bu inancı ağıl miqyası ilə deyil, bəndəçilik və qəlb miqyası ilə qəbul etmək

---

[446] Nümunə, c.4, səh.221
[447] Nəhcül-bəlağə, 117-ci hikmət
[448] Nəhcül-bəlağə, 83-cü hikmət

lazımdır. Məhz elə buradan da dinlə rasional məntiqin bir-birindən ayrılması baş verir. Bəzi xristianlar elə bir təhlükəli vadi seçirlər ki, orada dinin heç bir rasional yönü yoxdur, yalnız inam və bəndəçilik yönü var. Elm və dinin bir-birinə yad olması və bu ikisinin təzad təşkil etməsi müasir dövrün xristian məntiqi ilə də aşkardır. Çünki elm 3 ilə 1-in bərabər olmadığını dediyi halda, müasir xristianlıqda onların bərabər olduğu iddia edilir[449].

174. Dəlil (burhan) və nur: Bəzi alimlər hesab edirlər ki, "burhan" (dəlil) sözünün mənası ağarmaq deməkdir. Düzgün əsaslandırma haqqın üzünə işıq saldığı və onu dinləyicinin gözü önündə ağardıb aşkar etdiyi üçün ona "burhan" deyilir. Bu ayədə "burhan" deyilərkən İslam peyğəmbəri (s), nur deylərkən isə Qurani-məcid nəzərdə tutulmuşdur[450]. Quranın işıqlı və nurlu olması onunla izah edilir ki, maarifi aydındır, istənilən anlaşılmazlıq və müəmmadan kənardır, eyni zamanda bəşəriyyəti istənilən batil etiqad və davranışdan xilas edir, yol seçimindəki tərəddüdə son qoyur, zülmətlərə işıq salır, düz yola və Allahın Cənnətinə doğru yönləndirir[451]. Hədislərin birində "burhan" deyilərkən Peyğəmbərin (s), "nur" deyilərkən isə Əlinin (ə) nəzərdə tutulduğu qeyd edilmişdir. Bu təfsir əvvəlki təfsirlə təzad təşkil etmir. Çünki nurun mənası genişdir, həm Qurana, həm də onun hafizi, həqiqi təfsirçisi və müdafiəçisi olan İmam Əliyə (ə) şamil ola bilər[452].

[449] Nümunə, c.4, səh.224
[450] Nümunə, c.4, səh.234
[451] Tematik təfsir, c.1, səh.356
[452] Nümunə, c.4, səh.234

176. Səndən (bacı və qardaşların miras payı haqqında) soruşsalar, de: “Allah atabir-anabir və ya atabir qohumlarınız (qardaş və bacılarınız) haqqında sizə belə buyurur: Övladı olmayan bir şəxs vəfat etdikdə, onun (atabir-anabir və ya yalnız atabir) bir bacısı varsa, qoyub getdiyi malın yarısı ona çatır. Övladı olmayan bir qadın vəfat etdikdə (yəni varisi yalnız bir qardaşı olan bacı vəfat etdikdə), malının hamısı qardaşın payına düşür. Əgər vəfat edən şəxsin iki bacısı varsa, mirasın üçdə ikisi onlara çatır. Əgər varislər qardaş və bacılardan ibarət olarsa, kişiyə (qardaşa) qadına (bacıya)

düşən payın iki misli verilir”. Allah bunu (öz hökmlərini) sizə doğru yoldan çıxmamağınız üçün aydınlaşdırır. Allah hər şeyi biləndir!

"Maidə" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ey iman gətirənlər! Əhdlərə (müqavilələrə) sadiq olun. (Aşağıda) adları çəkiləcək olan heyvanlar istisna olmaqla, dördayaqlı heyvanlar (və onların rüşeymləri) sizə halal edildi. İhram zamanı ov etməyi halal bilməyin. Allah istədiyini hökm edər!

2. Ey iman gətirənlər! Allahın şüarlarına və müəyyən etdiyi hədlərə (həcc mərasimlərinə), haram (hörmətli) aya (zülhiccəyə və ya rəcəb zülqədə, zülhiccə və məhərrəm aylarına), əlamətsiz və əlaməti olan qurbanlıqlara, həmçinin Rəblərinin lütf və razılığını qazanmaq niyyətilə Allahın evinə gələnlərə hörmətsizlik etməyin! (Onların qarşısını almayın) İhramdan çıxdığınız zaman ov ovlaya bilərsiniz. Sizi Məscidülhərama daxil olmağa qoymayan camaata qarşı başladığınız kin sizi təcavüzə sövq etməsin. Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun, günah iş görməkdə və düşmənçilik etməkdə bir-birinizə köməklik göstərməyin. Allahdan qorxun. Allahın əzabı şiddətlidir!

“Maidə” surəsinin ümumi məzmunu: Bu surə bəzi dini bilgilərə, hökm və vəzifələrə şamildir[453]. Bəlkə də deyə bilərik ki, əhd-peymanlara sadiq qalmağa çağırış bu surənin əsas vəzifəsidir[454].

---

[453] Nümunə, c.4, səh.241 və 242
[454] Əl-Mizan, c.5, səh.160

1. Əhd-peymanlara, müqavilə və sazişlərə vəfalı olmağın əhəmiyyəti: Bu surə əhdə vəfalı olmaq tövsiyəsi ilə başlayır. Təfsirçilər qeyd edirlər ki, "əhd-peymanlar və müqavilələr" deyilərkən insanın bağlaya və razılığa gələ biləcəyi bütün müqavilələr nəzərdə tutulur. Bu müqavilələr bəndənin Allahla, insanların peyğəmbər və imamlarla, şəxsin özünün özü ilə, insanların maliyyə, evlilik və sair mövzularda bir-birləri ilə bağladıqları müqavilə şəkillərinə şamildir. İnsan cəmiyyətlərinə diqqətlə nəzər saldıqda, cəmiyyətin ən kiçik forması olan ailə strukturundan tutmuş dövlət kimi böyük strukturlarına qədər müqavilə və sazişlərin cəmiyyətlərin əsasını təşkil etdiyini görürük. Buna görə də Quranda əhd-peymanlara vəfalı olmağa israrla göstəriş verilmişdir. Hətta Məkkənin fəthi ilə iqtidar müsəlmanların əlinə keçdikdən və Quranda "müşriklər ya müsəlman olmalı, ya da qanları axıdılmalıdır!" hökmü verildikdən sonra belə, müqaviləsi olan müşriklərə müqavilə müddətləri başa çatana qədər möhlət verilməsi ilə bağlı göstəriş verildi ("Tövbə" surəsinin əvvəlki ayələri). Əlbəttə, məlumdur ki, əhdə vəfa qarşı tərəf o əhdi pozmayana qədər qüvvədə olur[455]. Məsum rəhbərlər (ə) də əhdə vəfa edilməsini israrla tövsiyə etmişlər. Peyğəmbər (s) buyurmuşdur: ***"Öz əhdinə vəfalı olmayanın dini yoxdur."*** İmam Sadiq (ə) buyurmuşdur: ***"Üç mövzuda Allah insanın öhdəlikdən boyun qaçırmasına icazə verməmişdir: 1. Yaxşı və pis adam olmasından asılı olmayaraq, hər kəsin əmanətini qoruyub saxlamaq; 2. Yaxşı və pis adam olmasından asılı olmayaraq, hər kəslə əhd bağlanmışsa, ona sadiq qalmaq; 3. Yaxşı və pis adam olmasından asılı olmayaraq, ata və anaya qarşı yaxşı olmaq."***[456]

3. Qarşılıqlı yardımlaşma və əməkdaşlığın meyarı: Bu ayədə İslamın bütün sosial, hüquqi, etik və siyasi məsələlərinə şamil olan ümumi bir

[455] Əl-mizan, c.5 ,səh.160
[456] Nümunə, c.4, səh.246

qanundan söz açılmışdır. Bu qanuna əsasən müsəlmanlar yaxşı işlərdə bir-birlərinə yardım göstərməli, əməkdaşlıq etməlidirlər. Amma qeyd etməliyik ki, yanlış hədəflər, yanlış fəaliyyətlər, zülm və haqsızlıq üçün əməkdaşlıq etmək birmənalı olaraq qadağandır. Bu əməkdaşlığa dəvət edən adam insanın öz doğma qardaşı olsa belə, onun dəvətindən imtina edilməlidir. Qeyd olunan qanun cahiliyyət dövründə tamamilə fərqli idi. Cahiliyyə ərəbləri arasında belə bir qanun var idi: "Zalım və məzlum olmasından asılı olmayaraq qardaşına (dostuna və şərikinə) kömək et." Həmin dövrlərdə bir qəbilədən olan bir dəstə başqa bir qəbilədən olan bir dəstənin üzərinə hücum çəksəydi, qəbilənin digər üzvləri bu hadisədə kimin haqlı, kimin haqsız olmasını araşdırmadan onların müdafiəsinə qalxırdılar. Bu prinsip müasir dövrün beynəlxalq münasibətlərində öz əksini tapmışdır. Adətən tərəfdaşlıq müqaviləsi və ya ortaq maraqları olan dövlətlər mühüm əhəmiyyət daşıyan beynəlxalq məsələlərdə ədalətli və haqsız, zalım və məzlum arasında fərqləndirmə aparmadan bir-birlərinin müdafiəsinə qalxırlar. İslam bu nadan ənənənin üzərindən xətt çəkmiş müsəlmanların günah, zülm və təcavüz deyil, yaxşı işlər, qurucu və faydalı proqramlarda əməkdaşlıq etməsinə göstəriş vermişdir. Hədislərdə bu məsələyə çox təkid edilmişdir. O cümlədən, hədislərinin birində Peyğəmbər (s) buyurmuşdur: "Qiyamət günü olduqda çarçı car çəkərək deyəcək: ***"Zalımlar və onların havadarları, özlərini onlara bənzədənlər, hətta onlar üçün qələm yonub mürəkkəb tutanlar haradadır?" Onlar hamısı dəmir sandığa qoyulub Cəhənnəmin ortasına atılacaqlar."***[457]

[457] Nümunə, c.4, səh.253

3. Ölü (kəsilmədən ölüb murdar olmuş) heyvanın əti, qan, donuz əti, Allahdan başqasının adı söylənərək kəsilmiş, boğulmuş, işgəncə ilə öldürülmüş, yüksəklikdən düşərək ölmüş, başqa bir heyvanın buynuzu ilə vurulub öldürülmüş, yırtıcı heyvanların ovunun qalan hissəsi, canı çıxmamış kəsdiyiniz heyvanlar müstəsnadır, bütlər üzərində (və ya onların qarşısında) kəsilmiş heyvanlar və fal oxları ilə pay bölmək sizə haram edildi. Bütün bu əməllər günahdır. Bu gün kafirlər dininizdən (onu məhv edə bilmədikləri üçün) əllərini üzdülər. Onlardan qorxmayın, Məndən (Mənə qarşı çıxmaqdan) qorxun! Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün (əbədi) din olaraq İslamı qəbul etdim. Ancaq ac vaxtı başqa bir yemək tapmayan və günaha meyl etmək niyyəti olmayan şəxs (qadağan edilmiş ətlərdən yeyə blər). Allah bağışlayandır, rəhm edəndir!

4. Səndən nələrin onlara halal edildiyini soruşurlar, de: “Bütün pak nemətlər sizə halal edilmşdir. Allahın sizə öyrətdiyi (ov üsulları) ilə təlim edib əhliləşdirdiyiniz ov heyvanları və itlərinin ovladıqları da sizə halaldır. Onların sizin üçün (ovlayıb) saxladıqlarından yeyin və ona görə (təlim

etdiyiniz heyvan və quşları ov üzərinə qısqırtdığınız zaman) Allahın adını çəkin. Allahdan (Ona itaətsizlik göstərməkdən) qorxun. Allah sürətli haqq-hesab çəkəndir!

5. Bu gün pak nemətlər sizə halal edilmişdir. Kitab əhlinin yeməkləri sizə, sizin yeməkləriniz isə kitab əhlinə halaldır. İsmətli müsəlman qadınları, həmçinin sizdən əvvəl kitab verilmişlərdən (yəhudilərin və xaçpərəstlərin) olan azad və ismətli (özlərini zinadan və nəfslərini haram şeylərdən qoruyan) qadınları mehrlərini verdiyiniz, namuslu olub zina etmədiyiniz və aşna saxlamadığınız təqdirdə (evlənmək üçün) sizə halaldır. İman gətirilməli olanı dananın bütün işləri boşa çıxar və o, axirətdə zərər çəkənlərdən olar!

---

3. Əlinin (ə) rəhbərlyi dini kamil edir, neməti tamamlayır: Ayədə "əl-yəum" (gün-bu gün) sözünün iki dəfə təkrar edilməsi təfsriçilər arasında mübahisəyə səbəb olmuşdur. Mübahisəyə səbəb olan cəhət dörd hadisəni özündə cəmləşdirən günün hansı gün olmasıdır. Yəni o hansı gündür ki, həm kafirlər həmin gün məyus olmuş, həm din kamilləşmiş, həm nemət tamamlanmış, həm də Allah-taala həmin günü İslam dininin bütün bəşəriyyət üçün sonuncu din olduğunu elan etmişdir. Bu məsələ təfsirçilər arasında uzun-uzadı mübahisələrin yaranmasına səbəb olmuşdur. Ancaq həmin günün Peyğəmbərin (s) həyatında çox mühüm hadisəni ifadə etməsi heç bir şübhə doğurmur. Belə ki, bütün şiə təfsirçiləri həmin mühüm günün Zilhiccə ayının 18-i, yəni Qədiri-xum günü olması qənaətindədirlər. Həmin gün Peyğəmbər (s) möminlərin əmiri olan Əlini (ə) rəsmi olaraq öz canişini təyin etmişdir. Həmin gün idi ki, kafirlər məyusluq dalğaları arasında qərq oldular. Çünki onlar İslamın bir şəxsdən asılı olduğunu düşünür, Peyğəmbərin (s) vəfatı ilə vəziyyətin yenidən əvvəlki hala düşəcəyinə və

İslamın tədricən məhv olacağına ümid bəsləyirdilər. Amma təqva, elm, güc və ədalət baxımından Peyğəmbərdən (s) sonra müsəlmanlar arasında misli olmayan bir şəxsin Peyğəmbərin (s) canişi təyin edildiyini, insanların onun canişinliyini qəbul etdiyini (ona beyət etdiyini) gördükdə ümidsizliyə qapıldılar və başa düşdülər ki, din əsaslı və əbədi bir dindir. Bu o gün idi ki, İslam öz kamillik zirvəsinə çatdı. Çünki Peyğəmbər (s) üçün canişin təyin edilmədən və müsəlmanların gələcək vəziyyəti təyin edilmədən bu din kamilləşməyəcəkdi. O gün idi ki, Allahın neməti insanlara, onların gələcəyi üçün Əli (ə) kimi bir rəhbərin təyin edilməsi ilə tamamlandı. Habelə həmin gün idi ki, İslam proqramlarının təkmilləşməsi ilə Allah tərəfindən son və cahanşümül din kmi qəbul edildi. Hədislərin birində Peyğəmbərin (s) Qədiri-xumda Əlini (ə) insanlara rəhbər təyin etdiyi, hələ insanlar dağılmamışdılar ki, "Bu gün dininizi sizin üçün kamil etdim..." ayəsinin nazil olduğu qeyd edilmişdir. Həmin vaxt Peyğəmbər (s) buyurmuşdu: ***"Allahu Əkbər, din kamilləşdi, Allahın neməti tamamlandı, Allah mənim peyğəmbərliyimdən və Əlinin (ə) rəhbərliyindən razı qaldı."*** Sonra buyurmuşdur: ***"Mən kimin rəhbəriyəmsə, Əli (ə) də onun rəhbəridir. İlahi, onu sevəni Sən də sev, onunla düşmənçilik edənə Sən də düşmən ol! Ona yardım edənə Sən də yardım et! Ona yardım əlini uzatmayandan Sən də əlini çək!"***

Burada cavablandırılması tələb olunan bir sual da ondan ibarətdir ki, nə üçün Qədir hadisəsi aid olan ayənin bir hissəsi halal və haram ətlərdən bəhs edən bir mövzunun tərkibində gəlmişdir?

Qədirlə bağlı olan ayənin halal və haram qidalardan bəhs edən hökmlərin arasında yerləşdirilməsinin səbəbi ola bilsin ki, ayənin təhrif, ixtisar və dəyişiklikdən qorunması ilə bağlıdır. Çünki əksər hallarda diqqət çəkməməsi və nəticədə qorunması üçün nəfis və qiymətli bir əşya sadə şeylərin arasına qoyulur. Peyğəmbərin (s) ömrünün son saatlarında baş verən

hadisələr, bir neçə nəfərin Peyğəmbərin (s) vəsiyyət yazmaq istəməsinə mane olması, hətta Peyğəmbərin (s) sayıqlamaqda ittiham edilməsi bəzi fərdlərin Peyğəmbərin (s) canişinliyi məsələsinə həssas yanaşmasından və onu inkar etmək üçün hətta sərhədləri də aşdıqlarından xəbər verir. Bu şərtlər xəlifləik və onun gələcək nəsillərə ötürülməsi ilə bağlı sənədlərin qorunması üçün bu cür öngörülərin həyata keçirilməsini, indakar müxaliflərin diqqətindən yayınması üçün sadə məzmunlarla qarışdırılmasını zəruri etmirdimi?! Bundan əlavə, Qədir günü ilə bağlı olan sənədlər əksər sünni mənbələrində də qeyd edilmişdir[458].

[458] Nümunə, c.4, səh.263-271

6. Ey iman gətirənlər! Namaza durduğunuz zaman üzünüzü və əllərinizi dirsəklərə qədər yuyun! Başınızı və hər iki bəndə (oynağa) qədər ayaqlarınızı məsh edin. Əgər cünub (boynunuza cənabət qüslü gəlibsə) olmusunuzsa, yuyunun (və qüsl edin). Xəstələndiyiniz, səfərdə olduğunuz, ayaq yolundan gəldiyiniz və ya qadınlarla yaxınlıq etdiyiniz zaman (qüsl və dəstəmaz üçün) su tapmasanız, pak torpaqla təyəmmüm edin, ondan üzünüzə (alnınıza) və əllərinizə sürtün (paklığı niyyət edib əllərinizi bir dəfə torpağa sürtərək üzünüzü, bir dəfə də torpağa sürtərək əllərinizi məsh edin). Allah sizi çətinliyə salmaq istəməz, əksinə, O sizi pak, təmiz etmək və sizə olan nemətini tamamlamaq (artırmaq) istər ki, bəlkə, şükür edəsiniz!

7. Allahın sizə olan nemətini və: "Eşitdik və itaət etdik", - dediyiniz zaman sizdən aldığı əhdi unutmayın. Allahdan (əmrinə qarşı çıxmaqdan) qorxun ki, Allah kökslərdə olanları (qəlblərin sirrini) biləndir!

8. Ey iman gətirənlər! Həmişə Allah üçün qalxın, ədalətli şahidlər olun. Hansısa bir toplumla olan düşmənçiliyiniz sizi günaha və ədalətsizliyə sövq etməsin. Ədalətli olun ki, o, təqvaya daha yaxındır. Allahdan (Ona qarşı günah etməkdən çəkinin) qorxun. Allah etdiklərinizdən xəbərdardır!

9. Allah iman gətirib yaxşı işlər görənlərə bağışlanma və böyük mükafat vədi vermişdir!

---

6. Dəstəmazda əllərin yuyulma forması: Bu ayədə dəstəmaz, qüsl və təyəmmümdən bəhs edilir. Əlbəttə, bu üç əməlin ayrı-ayrı hökmləri və yerinə yetirilmə forması Əhli-beyt imamlarına (ə) aid olan hədislərdə müəyyən edilmişdir. Bu ayədə diqqət çəkən nüanslardan biri ***"Əllərinizi dirsəyə qədər yuyun"*** göstərişidir. Nəzərə almalıyıq ki, dəstəmazda əlin yuyulmasının vacib edildiyi miqdar ***"dirsəyə qədər"*** sözü ilə ifadə

edilmişdir. “Mərafiq” sözü ərəb dilində mənası dirsək olan “mirfəq” sözünün cəmidir. “Əllərinizi yuyun” deyilərkən əllərin biləngə qədər yuyulması da başa düşülə bilər. Çünki əllərimizi yuyarkən adətən bu hissəni yuyuruq. Buna görə də qeyd olunan anlaşılmazlığa aydınlıq gətirilməsi üçün “dirsəyə qədər yuyun” cümləsindən istifadə edilmişdir. Deməli, bu izahla məlum olur ki, ayədə “ilə” (qədər) ədatı yumanın keyfiyyətini deyil, yuyulacaq olan hissənin miqdarını göstərmək üçündür. Əhli-sünnə məzhəbində də geniş yayıldığı kimi, bəziləri hesab edir ki, ayədə “dirsəyə qədər yuyun” deyilərkən “barmaqların ucundan dirsəyə qədər yuyun” mənası nəzərdə tutulmuşdur. Məsələ daha aydın olsun deyə bir misala baxaq: Divarını rənglətdirmək istəyən bir nəfər fəhləyə “Divarı döşəmədən bir metr hündürlüyə qədər rənglə”, - deyə göstəriş verir. Təbii ki, burada göstəriş verənin məqsədi divarın aşağıdan yuxarıya doğru rənglənməsi deyil. Yəni o, demək istəmir ki, rəngi mütləq aşağıdan başlayıb yuxarıya doğru davam etdirməlisən. Göstəriş verənin məqsədi əslində, artıq və əskikliyə yol vermədən rənglənəcək olan hissənin miqdarını göstərməkdir. Deməli, ayədə yalnız əlin yuyulacaq olan miqdarı qeyd edilmiş, yuyulma qaydasını izah etmək isə Əhli-beyt (ə) imamları vasitəsilə bizə çatan Peyğəmbər (s) sünnəsinə həvalə edilmişdir. Sünnəyə görə də yuyulma forması yumanın dirsəkdən başlayaraq barmaqların uclarına doğru davam etdirilməsindən ibarətdir[459].

6. Təyəmmümün torpağı: Allah-taala bu ayədə “Təmiz torpaqla təyəmmüm edin”, - deyə buyurmuşdur. Bu da onu göstərir ki, təyəmmümün torpağı pak və təmiz olmalıdır. İslam öndərlərinin hədislərində də bu mövzu

[459] Nümunə, c.4, səh.285

təkid edilmişdir. Hədislərin birində belə qeyd edilmişdir: "İmam Əli (ə) Yolların (çirkli) torpağı üzərinə təyəmmüm edilməsini qadağan etmişdir."[460]

6. Dəstəmazın mənəvi təsirləri: Dəstəmaz insan orqanizmi üçün gigiyenik cəhətdən faydalı olduğu kimi, mənəvi və tərbiyəvi cəhətdən də faydalıdır. Əlbəttə, bunun üçün dəstəmaz Allaha yaxınlaşma niyyəti ilə alınmalıdır. İmam Rza (ə) buyurmuşdur: ***"İbadətdən öncə dəstəmaz alınmasına ona görə göstəriş verilir ki, bəndələr Allah qarşısında durub ona minacat edərkən çirkin deyil, pak və təmiz olsunlar. Bundan əlavə, dəstəmaz yuxu və tənbəlliyin təsirlərinin aradan qalxmasına, insanın qəlbnin və ruhunun Allah qarşısında tər-təmiz dayanmaq üçün hazır olmasına səbəb olur."***[461]

6. Hökmlərin müəyən edilməsi və ilahi nemətin təkmilləşdirilməsi: "Nemət" deyilərkən bu ayədə Allahın dini nəzərdə tutulur. Bu ayədə buyurulur ki, Allah dinin bütün qanunlarını müəyyən etməklə, dini kamilləşdirmək və bəndələri üçün olan nemətini tamamlamaq istəyir. Dəstəmaz, təyəmmüm və qüsl dini hökmlərin bir hissəsini təşkil etdikləri üçün ilahi nemətin tamamlanmasında rol oyanyırlar[462].

7. İsrarla bağlanmış əhd-peyman: Hədislərdən belə məlum olur ki, bu ayədə "əhd-peyman deyilərkən" Qədiri-Xum günündə insanlardan İmam Əlinin (ə) Peyğəmbərin (s) canişini, xəlifəsi və insanların rəhbəri olması ilə bağlı əhd alınması nəzərdə tutulmuşdur. Həmin gün Qədirdə olan hər kəs, hətta münafiqlər də bir nəfər kimi Əliyə (ə) sədaqətlə itaət edəcəklərini söz verərək ***"Eşitdik və itaət etdik"*** dedilər[463].

---

[460] Nümunə, c.4, səh.290
[461] Nümunə, c.4, səh.291
[462] Əl-Mizan, c.5, səh.235
[463] Ətyəbül-bəyan, c.4, səh.312

10. Kafir olub ayələrimizi təkzib edənlər isə Cəhənnəmlikdirlər!

11. Ey iman gətirənlər! Allahın sizə olan nemətini xatırlayın. Bir dəstə (düşmən) sizə əl qaldırmaq (sizi məhv etmək) istədiyi zaman Allah onlara maneçilik törətdi. Allahdan qorxun. Möminlər təkcə Allaha təvəkkül etsinlər!

12. Allah İsrail oğullarından əhd aldı və biz onlardan (onların arasından) on iki rəhbər seçdik. Allah "Mən sizinləyəm. Əgər namaz qılsanız, zəkat versəniz, peyğəmbərlərimə iman gətirib onlara kömək etsəniz, Allaha gözəl borc versəniz (Allah yolunda ehtiyaclılara yardım göstərsənz), günahlarınızın üstünü örtər və sizi ağacları altından çaylar axan

Cənnətlərə daxil edərəm. Lakin bundan sonra sizdən hər hansınız kafir olsa, o artıq doğru yoldan azmış olar!”

13. Ancaq əhdlərini pozduqları üçün onları rəhmətimizdən uzaqlaşdırdıq və ürəklərini sərtləşdirdik (daşa döndərdik). Onlar sözlərin (Allahın sözlərinin) yerini dəyişib təhrif edirdilər və xəbərdar edildikləri şeylərin bir hissəsini unutdular. İçərilərindən az bir qismi istisna olmaqla onların sənə etdikləri xəyanətlərdən həmişə xəbərdar olacaqsan. Bununla belə, onları bağışla, günahlarından keç. Allah yaxşılıq edənləri sevir!

---

11. Kafirlərə mane olmaq Allahın böyük nemətidir: Bu ayənin məzmunu kafir və müsəlmanlar arasında baş vermiş bir sıra hadisələrə uyğun gəlir. Bədr, Ühüd, Əhzab və sair hadisələri buna misal göstərmək olar. Aəyədə müşriklərin möminləri qırmaq, İslamı və təkAllahlıq dinini məhv etmək üçün göstərdikləri bütün səylərə işarə edilmişdir[464].

12. İsrail övladlarından olan rəhbərlər: “Nəqib” ərəb dilində hər hansı qrupun fəaliyyətlərini idarə etmək məsuliyyəti daşıyan şəxsə deyilir. Ayədə on iki rəhbər deyilərkən on iki Bəni-İsrail qəbiləsinin başçısı nəzərdə tutulmuşdur. Bu rəhbərlərin hər biri sözügeədn qəbilələrə başçılıq və himayəçi vəzifəsi daşımışdır (“Bəqərə” surəsi, 60-cı ayə, “Əraf” surəsi, 160-cı ayə). Bu on iki rəhbərin həmin on iki qəbilədəki mövqeyi, imamların bu ümmətdəki mövqeyinə bənzəyir. Onlar dini və dünyəvi məsələlərdə insanların müraciət etdiyi mənbələr olmuşlar. Əlbəttə, onlara vəhy gəlməmiş və onlar ilahi hökmləri müəyyən etməmişlər[465]. Maraqlıdır ki, sünni mənbələrində yer almış br çox hədis və rəvayətlərdə bu ayə ilə İslam

---

[464] Əl-Mizan, c.5, səh.243
[465] Əl-Mizan, c.5, səh.244

peyəmbərinin (s) on iki xəlifəsinə işarə edildiyi və Peyğəmbərin (s) də xəlifələrinin sayının Bəni-İsrail xəlifələrinin sayı qədər olduğu qeyd edilmidşir. Məsələn, ən məşhur sünni imamı Əhməd ibn Hənbəl öz "Müsnəd" kitabında bir neçə vasitə ilə Məsruqa istinad edilən bir məlumatı qeyd etmişdir. Həmin məlumatda deyilir: "Abdullah ibn Məsuddan soruşdum: Bu ümmətə neçə nəfər rəhbərlik edəcək? İbn Məsud cavabında dedi: Biz eyni sualı Peyğəmbərdən (s) soruşduqda o, dedi: ***"On iki nəfər - Bəni-İsaril rəhbərlərinin sayı qədər."***[466]

13. Bəşəriyyəti həlak edən xəstəlik: "Qəsavət" sözünün leksik mənası bərkiməkdir və daş üçün istifadə edilir. Bu sözün qəlb üçün işlədilməsi Haqq qarşısında təvazökarlıq göstərilməməsi və mərhəmət qarşısında təsirlənməməni ifadə edir. Qəlbin daşlaşmasına Quranın bir çox yerində işarə edilmişdir. Bu ayədə əhd sındıran yəhudilərin cəzalarından birinin qəlblərnin daşlaşması olduğu göstərilmişdir. "Hədid" sirəsinin 16-cı ayəsində belə buyurulmuşdur: ***"İman gətirənlərin qəlblərinin Allahın zikri və Haqdan nazil olan qarşısında yumşalmasının vaxtı gəlib çatmadımı?! Onlar özlərindən əvvəl kitab verilən kimsələr kimi olmasınlar. Uzun zaman keçdikdən sonra onların qəlbləri daşlaşmışdır. Onların çoxu günahkarlardır!"***[467] Hədislərdə də bu həlakedici ruhi xəstəlik haqqında xəbərdarlıq edilmişdir. İmam Sadiq (ə) buyurmuşdur: "Allah-taala Musaya vəhy edərək buyurmuşdur: ***"Ey Musa, Sərvətinin çoxalmasına görə sevinmə, Məni heç vaxt unutma (zikrimi heç vaxt tərk etmə). Çünki sərvətin çoxalması adətən günahların yaddan çıxmasına, Məni xatırlamamaq isə qəlbin daşlaşmasına səbəb olur."*** Möminlərin əmiri (ə) buyurmuşdur: ***"Gözlərmizin yaşı yalnız qəlblərimizin bərkiməsi və***

[466] Nümunə, c.4, səh.308
[467] Əl-Mizan, c.5, səh.245

daşlaşmasına görə quruyur. Qəlblərimiz yalnız günahların artmasına görə bərkiyir.”[468]

14. Biz nəsranilik (İsaya yardım) iddiasında olanlardan əhd aldıq. Sonra onlar xəbərdar olunduqları şeyin mühüm bir hissəsini unutdular. Buna görə də aralarına Qiyamət gününə qədər davam edəcək ədavət və düşmənçilik saldıq. Allah onları gördükləri işlərdən (onların nəticələrindən) xəbərdar edəcək.

15. Ey kitab əhli! Sizə kitabda gizlətdiyiniz şeylərin bir çoxunu bildirən, bir çoxunu da görməzdən gələn (onları ifşa etmək hələ məsləhət olmadığı üçün) Peyğəmbərimiz gəldi. Allah tərəfindən sizə bir nur və açıq-aydın bir Kitab gəldi.

16. Allah razılığına uyğun davrananları onunla (Quranla) əmin-amanlıq yollarına yönəldər, onları öz iznilə zülmətdən işığa çıxarar və düz yola istiqamətləndirər!

17. “Allah Məryəm oğlu Məsihdir”, - deyənlər, şübhəsiz ki, kafir oldular. De: “Əgər Allah Məryəm oğlu Məsihi, anasını və yer üzündə olanların hamısını məhv etmək istəsə, kim Ona mane ola bilər? Göylərin, yerlərin və onların arasında olan hər bir şeyin hökmranlığı Allahın əlindədir. O, istədiyini (hətta İsa kimi atasız uşaq da) yaradar və hər şeyə qadirdir!

---

14. Xristianlar arasında yandırılmış düşmənçilik və kin-küdurət odu: Həzrət İsa (ə) peyğəmbər idi və insanları sülh və səfaya dəvət edirdi. Onları

---

[468] Nümunə, c.19, səh.428

axirət inancına səsləyir, dünyapərəstlikdən, dünyanın qiymətsiz sərvəti, iqtidarı və ləzzətləri üstündə mübahisə etməkdən, mübarizə aparmaqdan çəkindirirdi. Lakin ona tabe olduğunu iddia edənlər onun göstərişləri və nəsihətlərinin əksinə əməl edirdilər. Buna görə də Allah onlar arasında İsanın (ə) dəvət etdiyi sülh və qardaşlıq yaratmaq əvəzinə düşmənçilik odu yanıdıraraq buyurdu ki, bu od Qiyamətə qədər davam edəcək. Əgər Məsihin (ə) tarixini araşdırsaq, görərik ki, İsa (ə) göylərə çəkildiyi vaxtdan həvarilərlə məsihiliyi təbliğ etdiyini iddia edənlər arasında ixtilaf düşdü və bu ixtilaf günbəgün bütün xristianlığı bürüdü. Bunlar həmin vaxtdan bir-birlərinin canına düşdülər, aralarında müharibələr, qətllər, qarətlər, sürgünlər baş verdi. İş bəşəriyyətin həyatına təhlükə olacaq dünya müharibələrinin baş verməsinə qədər gəlib çatdı. Bütün bunlar Allah yolundan imtina etməyin, dünyapərəstlik və şəhvətpərəstliyin nəticəsi idi[469]. Məlumdur ki, müsəlmanlar da xrstianların yolunu tutsalar, eyni aqibətə düçar olacaqlar[470].

17. Xrstianların Allahla bağlı əsassız inancları: Bilməliyik ki, xristianların Allahla bağlı bir neçə əsassız iddiaları vardır. Birincisi, üç Allaha inanırlar. “Nisa” surəsinin 171-ci ayəsində bu mövzuya işarə edilmiş və yanlış olduğu qeyd edilmişdir. Həmin ayədə belə deyilir: “(Allah) üçdür” deməyin. (Belə sözlərə) son qoyun ki, (bu) sizin üçün daha yaxşı olar. Allah yeganə məbuddur”. İkincisi, onlar kainatın yaradıcısını həmin üç Allahdan biri hesab edir və onu Ata Allah adlandırırdılar. “Maidə” surəsinin 73-cü ayəsində bu inancın yanlış olduğu qeyd edilir. Həmin ayədə Allah belə buyurur: “Allah üç Allahdan bridir!” – deyənlər, əlbəttə, kafir olmuşlar. Halbuki bir olan Allahdan başqa heç bir məbud yoxdur.” Üçüncü və ən qəribə inancları budur ki, üç Allah çox olması ilə yanaşı vahiddir. Bu unanca

[469] Əl-Mizan, c.5, səh.246
[470] Nümunə, c.4, səh.319

görə, Allah həmin Məryəm oğlu İsa, Məryəm oğlu İsa (ə) isə həmin Allahdır və bu ikisi üç ayrı substansiyaya malik olduqları halda, müqəddəs ruhla birdirlər. Quran üçlüyün hər üç tərəfini qeyd edərək, qətyyətlə rədd etmişdir[471]. İmam Rza (ə) Xristian başçılarından olan Casəliqlə mübahisəsi zamanı belə buyurur: ***"And olsun Allaha, biz Muhəmmədə (s) iman gətirmiş İsaya inanırıq. Yalnız sizin İsanıza bir iradımız var. O da budur ki, az oruc tutub, az namaz qılırdı."*** Casəliq deyir: "Biliyini zay etdin, özünü aciz vəziyyətə saldın. Mən sənin ən savadlı müsəlman olduğunu düşünürdüm." İmam Rza (ə) buyurur: ***"Məqsədiniz nədir?"*** Casəliq: Sən deyəndə ki, İsa az oruc tutub, az namaz qılırdı, düz danışmadın. Çünki İsa yemək yediyi bir gün, yatdığı bir gecə olmayıb. Bütün günlərini oruc tutmuş, bütün gecələrini ibadət etmişdir." Bu zaman İmam Rza (ə) buyurur: ***"Cənab Casəliq, bəs həzrət İsa kim üçün oruc tutub, kimə ibadət edirdi?"*** Casəliq İmamın (ə) sarsılmaz məntiqi ilə qarşılaşdığını görüb susmaqdan başqa çarə görmür.

Deməli, İsanın (ə) bütün həyatı ibadət və sitayişlə keçmişdisə, onu necə Allah hesab etmək olar? Çünki Allahın özünün özünə ibadət etməsinin heç bir mənası yoxdur[472].

---

[471] Nümunə, c.4, səh.324
[472] Mənşur cavid, c.12, səh.425

18. Yəhudilər və nəsranilər dedilər: “Biz Allahın övladları və (xüsusi) doslarıyıq”. De: “Bəs onda nə üçün günahlarınıza görə sizə əzab verir?” Xeyr, siz də Onun yaratdığı bir bəşərsiniz. İstədiyini (layiq gördüyünü) bağışlar, istədiyinə (layiq olana) əzab verər. Göylərin, yerin və onların arasında olan hər bir şeyin hökmranlığı Allahın əlindədir və bütün varlıqların dönüşü Ona doğrudur!

19. Ey kitab əhli! Elçilər arasında fasilə yarandıqdan sonra “(Qiyamət günü) bizə nə bir müjdə verən, nə də bir qorxudan gəldi”, - deməməyiniz

üçün sizə həqiqətləri bəyan edən Peyğəmbərimiz (Muhəmməd) gəldi. Artıq sizə müjdə verən və qorxudan şəxs gəlmişdir. Allah hər şeyə qadirdir!

20. (Yadınıza salın) Bir vaxt Musa öz xalqına belə demişdi: "Ey xalqım, Allahın sizə olan nemətini xatırlayın, bir zaman sizə peyğəmbərlər göndərdi, sizi hökmdar və ixtiyar sahibləri etdi və heç bir bəşər övladına vermədiyini sizə verdi.

21. Ay camaat! Allahın sizin üçün müəyyən etdiyi müqəddəs torpağa daxil olun, geri dönməyin ki, ziyana uğrayarsınız!"

22. Onlar dedilər: "Ya Musa, orada (güclü və) zülmkar adamlar var. Onlar oradan çıxmayınca biz oraya girməyəcəyik. Əgər onlar oradan çıxsalar, biz daxil olarıq".

23. Allahdan qorxan və Allahın nemət (ağıl, iman və cəsarət) verdiyi iki nəfər dedi: "Siz onların şəhərlərinin darvazasından daxil olun. Daxil olduğunuz zaman qələbə çalacaqsınız. Əgər möminsinizsə, Allaha təvəkkül edin!"

---

19. Peyğəmbərlər arasında fasilə: "Fətrət" sözünün mənası durğunluq, sakitlik deməkdir, iki hərəkat və ya iki inqilab, iki fəaliyyət arasındakı fasiləyə deyilir. Musa (ə) ilə İsanın (ə) peyğəmbərlik etdikləri dövrlər arasındakı zaman fasiləsində çox peyğəmbər və elçilər olduğu halda, İsanın (ə) peyğəmbərlik etdiyi dövrdən İslam peyğəmbərinin (s) peyğəmbərliyə seçildiyi dövrə qədər elə də çox peyəmbər gəlməmişdir. Quranda bu dövr peyğəmbərlərin durğunluq dövrü adlandırılır. İsanın (ə) dövründən Muhəmməd peyğəmbərin (s) dövrünə qədər 600 ilə yaxın zaman fasiləsi var. Əlbəttə, "Yasin" surəsinin 14-cü ayəsinə və İslam təfsirçilərinin qənaətinə əsasən bu iki peyğəmbər arasında ən azı üç peyğəmbər olmuşdur. Hətta

bəziləri onların sayının dörd olduğunu da qeyd edir. Hər-halda həmin elçilərin vəfat etdiyi vaxtlar İslam peyğəmbərinin (s) peyğəmbərliyə seçildiyi vaxt arasında fasilə olduğu və habelə onların sayı İsadan (ə) əvvəlki peyğəmbərlərin sayından az olduğu üçün İsanın (ə) dövründən İslam peyğəmbərinin (s) dövrünə qədər olan zaman müddəti durğunluq dövrü adlandırılmışdır. Əlbəttə, bu dövrdə peyğəmbərlərin icraçı varisləri olmuşdur. Şiə inancına görə yer üzündə hər zaman ilahi rəhbər (höccət) olmuş və olacaqdır[473].

20. Fironçulara nökərçilik utancından azad və xilas olmaq neməti: Təfsirçilər bu ayənin "sizi hökmdar və ixtiyar sahibləri etdi" cümləsini şərh edərkən bildirirlər ki, burada Allahın insanları fironçulara nökərçilik utancından, onların təcavüzlərindən, təzyiqlərindən xilas etməsi nəzərdə tutulur. Çünki "mülk" sözünün mənası insanın özü, ailəsi və əmlakının idarəçiliyindəki müstəqilliyidir. İsrail övladları həzrət Musanın (ə) zamanında ən yaxşı sosal sistemə malik idilər, tövhid və təkAllahlıq mühitində yaşayırdılar. Bu sistem onları Allah və peyğəmbərinə itaət etməyə vadar edirdi. Həmin vaxt cəmiyyət ədalətlə idarə edilirdi, digər xalqlara təcavüz edilmirdi, cəmiyyəti məhvə aparan sinfi ayrıseçkilik, rəiyyət və ərbab bölgüsü yox idi, onlara yalnız Musa (ə) rəhbərlik edirdi. Müsa (ə) Allahın peyğəmbəri və məsum bir şəxs idi, despot şah və hakimlərin yolunu getmirdi. Musa (ə) xalqından Allahın onlara layiq gördüyü bu nemətini xatırlamalarını istədi: "Allahın sizi ixtiyar sahibləri etdiyi vaxtı xatırlayın!"[474]

20. Allahın İsrail övladlarına bəxş etdiyi xüsusi nemətlər: Təfsirçilər bu ayənin "heç bir bəşər övladına vermədiyini sizə verdi" cümləsini təfsir

---

[473] Nümunə, c.4, səh.332; Ətyəbül-bəyan, c.4, səh.333
[474] Əl-Mizan, c.5, səh.293

edərkən bildirirlər ki, bu, Allahın İsrail övladlarına bəxş etdiyi açıq-aşkar və qətiyyətli möcüzələrlə müşayiət olunan nemətləri idi. Əgər onlar öz imanları üzərində möhkəm dayansaydılar, şübhəsiz ki, bu möcüzələr və nemətlər onların dünya və axirətdə ideal həyata nail olmasına səbəb olacaqdı. Bu diqqət və möcüzələr Misirdə olduqları vaxt və Fironun əlindən xilas olduqları vaxta qədər davam etdi. Əgər tarixə nəzər salsaq, görərik ki, İsrail övladlarından əvvəl mövcud olmuş heç bir xalqa belə diqqət ayrılmamış, bu qədər möcüzə göstərilməmişdir[475]. Fironçuların əlindən möcüzəli şəkildə xilas olmaq, dənizin onlar üçün ikiyə ayrılması, səhrada didərgin düşdükdə qeyb aləmindən onlara "mən" və "səlva" adlı xüsusi yeməklər göndərilməsi[476], düz yola yönəlmələri üçün onlara çoxlu peyğəmbərlər göndərilməsi[477], Firon və fronçuların məhv edilməsi, onların sərvətlərinin ələ keçirilməsi, hərəkət edərkən başları üzərindən buludun hərəkət etməsi[478] və sair Allahın möcüzələrindən və nemətlərindən idi.

[475] Əl-Mizan, c.5, səh.293
[476] Nümunə, c.4, səh.337
[477] Möcəmül-bəyan, c.3, səh.307
[478] Ətyəbül-bəyan, c.4, səh.335

24. (İsrail oğulları) dedilər: “Ey Musa, nə qədər ki, onlar oradadırlar, biz ora girməyəcəyik. Sən və Rəbbin gedin (onlarla) vuruşun. Biz isə burada oturmuşuq”.

25. (Musa) dedi: “Ey Rəbbim! Mənim yalnız özümə və qardaşıma ixtiyarım çatır. Sən bizimlə bu günahkar cəmiyyət arasına ayrılıq sal!”

26. Allah (Musaya) buyurdu: “Bu torpaq qırx il onlara haramdır. Yer üzündə (Bu səhrada) sərgərdan gəzib dolaşacaqlar. Bu günahkar camaata görə qəmgin olma!”

27. Onlara Adəmin iki oğlunun əhvalatını olduğu kimi söylə. Hər ikisi qurban gətirdiyi zaman birinin qurbanı qəbul edilmiş, digərininki isə qəbul olunmamışdı. (Qurbanı qəbul olunmayan qardaş o biri qardaşına) demişdi: “And olsun Allaha, səni öldürəcəyəm! (Qardaşı isə) belə demişdi: “ (Mənim nə günahım var?) Allah yalnız təqvalılardan qəbul edər!

28. Sən məni öldürmək üçün mənə əl qaldırsan da, mən səni öldürmək üçün sənə əl qaldıran deyiləm. Çünki mən aləmlərin Rəbbindən qorxuram.

29. Mən istəyirəm ki, sən həm mənim günahım (məni öldürməklə üzərinə götürdüyün günahla), həm də öz günahınla birlikdə qayıdasan və Cəhənnəm sakinlərindən olasan. Zalimların cəzası budur!”

30. Üsyankar nəfsi yavaş-yavaş onu öz qardaşını öldürməyə sövq etdi, (nəhayət) onu öldürdü və ziyana uğrayanlardan oldu.

31. Sonra Allah qardaşının cəsədini necə basdırmağı ona göstərmək üçün yer eşələyən bir qarğa göndərdi. O dedi: “Vay halıma! (Gör nə günə qalmışam!) Bu qarğa qədər olub qardaşımın cəsədini də basdıra bilmədim?” Artıq (rüsvayçılıq qorxusundan vicdanı qarşısında tutduğu işdən) peşman olmuşdu.

---

24. Misiri tərk etdikləri vaxtdan səhrada didərgin qaldıqları vaxta qədər: Bu surənin 20-26-cı ayələri həzrət Musanın (ə) öz qövmünü Misirdən çıxarıdığı, İsrail övladlarının peyğəmbərləri tərəfindən göstərlən möcüzələri müşahidə etdikləri dövrə aiddir. Allah-taala onlara bir-birinin ardınca nemətlər bəxş edirdi. İsrail övladlarının bütün bunlardan sonra məskunlaşmaq və azad yaşamaq üçün bir əraziyə ehtiyacları var idi. Allah-taala bu neməti də onlara bəxş etdi. Əlbəttə, bunun üçün onlar cihad etməli və zəhmət çəkməli idilər. Ancaq İsrail övladları bəhanə gətirərək, itaətsizlik göstərdilər və bununla da öz talelərini dəyişib qırx il didərgin qaldılar[479]. Bu ayənin ehtiva etdiyi bir neçə nüansa açıqlama gətirmək istəyirik: 1. “Müqəddəs torpaq” deyilərkən (21-ci ayə) hara nəzərdə tutulur? “Müqəddəs torpaq” deyilərkən böyük ehtimalla Suriya ərazisi nəzərdə tutulur. Bütün ehtimallar bu ərazidən yanadır. Çünki tarixi faktlar bu regionun ilahi

[479] Əl-Mizan, c.5, səh.292

peyğəmbərlərin beşiyi, böyük dinlər diyarı, uzun illər təkAllahlıq və Allahpərəstlik mərkəzi olduğunu sübuta yetirir. Buna görə "Müqəddəs torpaq" deyilərkən məhz bu ərazinin nəzərdə tutulduğunu deyə bilərik. 2. "Zülmkar adamlar" deyilərkən iri və hündür cüssələri olan Əmaliqə tayfası nəzərdə tutulur. Samın nəslindən olan bu insanlar Ərəbistan yarımadasının şimalında, Sina səhrasının yaxınlığında yaşayırdılar. Onlar Misirə hücum etmiş və uzun müddət onu öz hakimiyyətləri altında saxlamışlar. Onların hakimiyyət müddəti 500 il davam etmişdir[480]. 3. Həzrət Musa (ə) ***"Mənim təkcə özümə və qardaşıma ixtiyarım çatır"*** (25-ci ayə) deyərkən məqsədi təkcə özü və qardaşı Harunun (ə) iman gətirdiyini demək deyildi. O, demək istəyirdi ki, "Mən yalnız özümü və qardaşımı Sənə itaətkarlıq göstərməyə vadar edə bilərəm, digərlərinə bunu etməyə ixtiyarım çatmır." Çünki bir tərəfdən həzrət Harun (ə) peyğəmbər və həzrət Musanın (ə) canişini idi. Digər tərəfdən isə, İsrail övladları arasında az da olsa, möminlər var idi. 22-ci ayədə işarə edilən iki mömini buna misal göstərə bilərik. Yəni Musa (ə) demək istəyirdi ki, onun yalnız özünə və qardaşına ixtiyarı çatır, digərlərinin (mömin və ya kafir) ixtiyarı öz əllərindədir. 4. Hədislərdə İsrail övladlarının 40 il başlı-başına qalması və didərgin düşməsi mövzusundan çox bəhs edilmişdir. Hədislərdə onların gecə-gündüz yol gedib heç bir bəlli məkana çata bilməmələri və həmin vaxt Musa peyğəmbərin (ə) vəfat etməsi məsələlərinə də işarə edilmişdir[481].

27. Adəmin (ə) övladlarının qurbanlığı: Bu ayədən başlayaraq 31-ci ayəyə qədər Adəmin (ə) oğlanlarının birinin digərini öldürməsindən söhbət açılır. Hədislərə görə onların birinin adı Habil, digərininki isə Qabil olmuşdur. İmam Sadiqə (ə) aid olan bir hədisdə deyilir ki, Allahın göstərişi

---

[480] Nümunə, c.4, səh.337
[481] Əl-Mizan, c.5 ,səh.298 və 302

ilə Habil həzrət Adəmin (ə) canişini təyin edilmiş və ona Allahın əzəmətli adları öyrədilmişdir. Böyük qardaş olan Qabil özünün daha üstün və daha layiqli olduğunu düşünürdü. Buna görə də onlara qurban kəsmələri göstəriş verildi. Hansının qurbanlığı qəbul edilsəydi, həzrət Adəmin (ə) canişini də məhz o olacaqdı. Anca ixlas və təqvasına görə Habiln qurbanlığı qəbul edildi. Paxıl və inadkar olan Qabiin qurbanlığı isə rədd edildi. Qabil buna görə çox narahat oldu, qardaşını öldürmək kimi dəhşətli bir cinayət törətdi. Bu ayələrdə sözügedən hadisədən bəhs edilir[482].

29. Qətlə yetirilənin günahlarının qatilə keçməsi: İmam Baqir (ə) bu ayəyə işarə edərək belə buyurmuşdur: ***"Bir nəfər başqasını öldürərsə, Allah qətlə yetirilənin bütün günahlarını qatilin hesabına yazar və öldürüləni bütün günahlardan təmizləyər."***[483]

[482] Ətyəbül-bəyan, c.4, səh.342
[483] Safi, c.2, səh.27

32. Buna görə də İsrail oğullarına bildirdik ki, qətl törətməmiş və yer üzündə fitnə-fəsada bulaşmamış bir insanı öldürən şəxs sanki bütün insanları öldürmüş kimidir. Bir insanı ölümdən xilas edən şəxs sanki bütün insanları diriltmiş kimidir. Bizim peyğəmbərlərimiz İsrail oğullarına açıq dəlillər gətirdilər. Ancaq bundan sonra da onların bir çoxu yer üzündə həddi aşıb israf etdilər.

33. Allaha və Peyğəmbərinə qarşı müharibəyə qalxanların, yer üzündə fitnə-fəsad salmağa çalışanların (silah götürüb insanların canına, malına və namusuna hücum çəkənlərin) cəzası ancaq öldürülmək, edam edilmək, dara çəkilmək, ya da əl-ayaqlarının çarpazvari (sağ əllərindən dörd barmaq və sol ayaqlarının) kəsilməsi, yaxud da yaşadıqları yerdən sürgün edilməkdir. Bu (cəza) onlar üçün dünyada bir rüsvayçılıqdır. Axirətdə isə onları böyük bir əzab gözləyir.

34. Sizin əlinizə keçməmişdən əvvəl tövbə edənlər istisnadır. Bilin ki, Allah bağışlayan və rəhm edəndir!

35. Ey iman gətirənlər! Allahdan qorxun, Ona yaxınlaşmaq üçün bir vasitə axtarın. Onun yolunda cihad edin, bəlkə nicat taparsınız!

36. Yəqin ki, yer üzündə olanların hamısı, üstəlik bir o qədər də onların əlində olsa, bunların hamısını Qiyamət gününün əzabından qurtarmaq üçün fidyə (cərimə) versələr, yenə də onlardan qəbul olunmayacaq. Şiddətli bir əzaba düçar olacaqlar.

---

32. Günahsız bir insanı öldürmək bütün insanları öldürmək kimidir: Təfsirçilər bu ayə ilə bağlı müxtəlif fikirlər səsləndirmişlər. Əllamə Təbatəbai bu ayəni təfsir edərkən belə qeyd edir: "Hər bir insan insan olduğu üçün insanlıq adlanan bir həqiqətə malikdir. Bütün insanlar bu həqiqətdə ortaqdırlar. Bu cəhətdən fərdlər arasında heç bir fərq yoxdur. Allah ibadətinin yer üzündə əbədi qalması üçün bu həqiqətin əbədi qalmasını istəyir. Digər tərəfdən isə insanların ömrü qısa olduğu üçün insanlar biri digərinin ardınca yaşamalıdırlar ki, bu həqiqət davam etsin. İndi əgər bir nəfər heç bir səbəb olmadan (qisas və ya yer üzündə fəsadla mübarizə məqsədi olmadan) günahsız bir insanı qətlə yetirərsə, insanlığın həqiqətini təhlükə altında qoymuş və bununla da Allaha qarşı çıxmış olur. Çünki Allah insanlığın davam etdirilməsini istədiyi halda, bir nəfərin simasında da olsa belə, o, insanlığı öldürmüşdür. Buna görə də günahsız bir insanı öldürən şəxs sanki bütün insanları öldürmüş, bir insanı ölümdən xilas edən şəxs isə sanki bütün insanları ölümdən xilas etmişdir. Bu da onunla izah edilir ki, bir günahsız insanın öldürülməsi insanlıq həqiqətinin öldürülməsi və bir insanın ölümdən xilas edilməsi insanlıq gerçəyinə həyat bəxş edilməsidir. Əhli-beyt (ə) hədislərində də bu mövzu öz əksini tapmışdır. Hədislərdə qeyd eidilir ki, günahsız bir insanı öldürən şəxsin məkanı Cəhənnəmdir. Əgər bütün insanları da öldürmüş olsaydı, yenə də eyni məkanda olacaqdı. Əlbəttə, başqasını öldürən insanın Cəhənnəmdəki əzabı daha çox olacaq[484].

33. Müharibəyə qalxmağın fiqhə aid olan bir neçə yönü: Bu və sonrakı ayə fiqh kitablarında geniş şəkildə araşdırılmış hökmlərə şamildir. Burada onların bir neçəsinə işarə edirik: 1. "Allah və Peyğəmbərlə (s) müharibəyə qalxmaq" deyilərkən kiminsə silah və ya təhdiddən istifadə

[484] Əl-Mizan, c.5, səh.322 və 327

edərək insanların canına və malına təcavüz etməsi nəzərdə tutulur. Burada şəhərdən kənarda keçidlərdə soyğunçuluq edən quldurlarla şəhər daxilndəki quldurların heç bir fərqi yoxdur. Buna görə də bu ayə insanların canına, malına və namusuna təcavüz edən macəraçı insanlara da şamil olur. 2. "Əlin və ayağın kəsilməsi" deyilərkən oğurluq edən adamda olduğu kimi, əl və ayaqdan dörd barmağın kəsilməsi nəzərdə tutulur. 3. Müharibəyə qalxan şəxslər günahsız insanı öldürəcəkləri təqdirdə onlara ölüm hökmü kəsilir. Silahla təhdid edib, insanların malını qarət etdkdə isə əl və ayaq barmaqları kəsilir. Qətl törədib, eyni zamanda soyğunçuluq edənin cəzası edamdır. Edam edilən adamın cəsədi bir neçə gün dar ağacında saxlanır. Başqasının üstünə silah çəkib heç bir xəsarət yetirməyənin, habelə silah çəkib soyğunçuluq etməyən şəxsin cəzası isə başqa bir şəhərə sürgündür[485].

35. Təvəssül - Qurandan bir həqiqət: Təvəssülün mənası nəyəsə sevgi və istəklə yaxınlaşmaq istəyinə və ya yaxınlaşmağa deyilir[486]. Buna görə də bu ayədə işlənmiş "vasitə" sözünün mənası genişdir, insanı Allaha yaxınlaşdıran hər bir şeyə və hər bir əmələ şamil olunur. Belə ki, İmam Əlinin (ə) bir hədisində ***"Allaha və Peyəmbərə (s) inam, Allah yolunda cihad, İxlas kəlməsi (Lə iləhə illəllah), namaz, zəkat, ramaz ayının orucu, həcc, qohumlara baş çəkmək, aşkar və gizli sədəqə və bütün yaxşı işlər"*** vasitə hesab edilmiş və onların vasitə seçilməsi lazım bilinmişdir. Quran ayələri və məsum imamların (ə) hədislərinə əsasən saleh bir insanın Allah dərgahında vasitəçi seçilib Allahdan onun xatirinə nə isə istənilməsi heç bir halda qadağan deyil və tövhid inancı ilə heç bir təzad təşkil etmir. Belə ki,

---

[485] Nümunə, c.4, səh.360

[486]

hədislərin birində belə qeyd edilmişdir: “İmam vasitəsilə Allaha yaxınlaşın!”[487]

[487] Əl-Mizan, c.5, səh.341

37. Onlar atəşdən çıxmaq istəyirlər, lakin oradan çıxa bilməzlər. Onlar üçün daimi əzab var!

38. Oğru kişi ilə oğru qadının gördükləri işin əvəzi kimi Allahdan cəza olaraq əllərini kəsin. Allah qüdrətlidir, hikmət sahibidir!

39. Haqsızlığa yol verdikdən sonra tövbə edib özünü düzəldən şəxsin tövbəsini Allah qəbul edər (və onun bu cəzasını bağışlayar. Çünki) Allah bağışlayan və rəhm edəndir!

40. Göylərin və yerin hökmranlığının Allaha məxsus olduğunu bilmirsənmi?! O, istədiyini (layiq olanı) cəzalandırar, istədiyini (layiq bildiyini) bağışlayar. Allah hər şeyə qadirdir!

41. Ya Peyğəmbər! Küfr yolunda sürətlə irəliləyən, qəlbən inanmadıqları halda, dildə: “İnandıq”, - deyənlər, (habelə) səni yalançılıqda ittiham etmək üçün sözlərinə yaxşı-yaxşı qulaq asıb bəhanə tapmağa çalışan yəhudilər səni kədərləndirməsinlər. Onlar özləri sənin yanına gəlməyən başqa bir qrupun casuslarıdırlar. Onlar sözlərin əsas mənasını təhrif edib (bir-birlərinə) deyirlər: “Əgər sizə bu (bzim istədiyimiz) verilsə (və Məhəmməd sizin istəyinizə uyğun şəkildə hökm etsə), onu qəbul edin. Əks təqdirdə, ondan uzaqlaşın”. Ancaq Allahın (etdiyi günaha görə) cəzalandırmaq istədiyi şəxsi Ondan müdafiə edə bilməzsən. Onlar elə kəslərdir ki, Allah onların ürəklərini təmizləmək istəməmişdir; dünyada onları rüsvayçılıq, axirətdə isə böyük bir əzab gözləyir!

---

38. Oğurluğun cəzası: Quran bu hökmdə də digər hökmlərdə olduğu kimi, mövzunun əsasını qeyd etmiş, izahını isə Peyğəmbər (s) sünnəsinə həvalə etmişdir. Hədislərə əsasən, bu cəzanın (oğrunun əlinin kəsilməsi) icrası bir neçə şərtin olmasını tələb edir. Həmin şərtlər olmadan bu cəzanı

kəsmək olmaz. Fiqh kitablarında həmin şərtlər haqqında geniş məlumat verilmişdir. Əlbəttə, İslamda oğurluğun istənilən növü forma və ölçüsündən asılı olmayaraq haramdır. Amma əlin kəsilməsi cəzası bütün şərtlər toplandıqdan sonra icra edilir. Bizim fəqihlərimizin məşhur rəyinə əsasən əlinin kəsilməsinə hökm verilmiş oğrunun sağ əlinin dörd barmağı kəsilməlidir. Bundan artığına icazə verilmir, baxmayaraq ki, sünni fəqihləri daha yuxarıdan kəsilməsinə fətva vermişlər[488].

39. Tövbə edərsə, cəza oğrunun üzərindən götürülürmü? Şiə fəqihləri arasında ən məşhur nəzər budur ki, oğru, cinayəti İslam məhkəməsində sübuta yetməzdən əvvəl tövbə edərsə, cəzası götürülür. Lakin oğrunun cinayəti iki adil şəxsin şahidliyi ilə sübuta yetərsə, cəzanın icrası tövbə ilə qüvvədən düşmür[489].

41. Yəhudilər zina cəzasını ortadan qaldırmışdılar, Peyğəmbər (s) isə onu bərpa etdi: İmam Baqirin (ə) bu məzmunda bir hədisi var: Xeybər yəhudilərindən olan ərli bir zadəgan qadın həmin xalqın ailəli bir zadəgan kişisi ilə zina etmişdi. Yəhudilər Tövratın (daşqalaq) hökmünü onlara tətbiq ediləcəyindən çox narahat idilər. Bu hökmün onlara tətbiq edilməməsi üçün həll yolları axtarırdılar. Eyni zamanda elə davranmaq istəyirdilər ki, guya Allah hökmlərinə bağlıdırlar. Buna görə də Mədinə yəhudilərinin bir qrup ağsaqqalı Peyğəmbərin (s) yanına getdilər. Bu vaxt zina etmiş ailəli qadının daşqalaq edilməsi ilə bağlı hökm nazil oldu. Lakin onlar dinlərində belə bir hökmün olmadığını bəhanə gətirərək hökmün icrasından boyun qaçırdılar. Peyğəmbər (s) buyurdu: ***"Bu, sizin Tövratda da mövcud olan həmin hökmdür. Əgər razisinizsa, sizlərdən birini çağırım və həmin adamın Tövratdan oxuduqlarını qəbul edin."*** Deilər: "Bəli". ***Peyğəmbər (s)***

[488] Nümunə, c.4, səh.374
[489] Nümunə, c.4, səh.375

buyurdu: "Fədəkdə yaşayan İbn Suriya necə alimdir?" Dedilər: "O, Tövratı bütün yəhudilərdən yaxşı bilir." İbn Suriyanın dalınca adam göndərdilər. Gəldikdən sonra Peyğəmbər (s) buyurdu: ***"Səni Tövratı Musaya nazil edən, dəryanı sizi xilas etmək üçün yaran, düşmənіniz olan Fironu suda qərq edən, səhrada sizə öz nemətlərini bəxş edən tək olan Allaha and verirəm, de görüm, sizə Tövratda bu mövzu ilə bağlı daşqalaq hökmü nazil olub, ya yox?"*** Mənə and verdiyin üçün demək məcburiyyətindəyəm. Bəli, Tövratda belə bir hökm var. Peyəmbər (s) buyurdu: "Nə üçün bu hökmü icra etməkdən boyun qaçırırsınız?" O dedi: "Doğrusu, biz keçmişdə bu cəzanı adi adamlara tətbiq edir, varlı və zadəganları cəzalandırmaqdan çəkinirdik. Buna görə də bu günah cəmiyyətin yuxarı təbəqəsində geniş vüsət aldı. İş o yerə çatdı ki, başçılardan birinin əmisi oğlu bu günahı etdi. Qaydaya uyğun olaraq ona cəza verilmədi. Amma bu əsnada adi sadə adamlardan biri də bu günahı etd. Onu daşqalaq etmək istədikdə qohumları etiraz edərək bildirdilər ki, əgər hökm icra olunacaqsa, hər ikisi də cəzalanmalıdırlar. Buna görə də biz daşqalaq qanunundan daha yüngül bir qanun qəbul etdik. O da bundan ibarət idi ki, onların hər birinə qırx şallaq vurmalı, üzlərini qaraltmalı, miniyin üzərində tərs oturtmalı, küçə və bazarlarda gəzdirməli idik." Bu zaman Peyğəmbər (s) hökm verdi ki, həmin kişi ilə qadın məscidin qarşısında daşqalaq edilsinlər! Elə bu vaxt bu ayələr nazil oldu və hadisə yığcam şəkildə bəyan edildi[490].

[490] Nümunə, c.4, səh.381

42. Onlar sənin sözlərini yalana çıxarmaq üçün ona çox qulaq asır, çox haram yeyirlər. Əgər yanına gəlsələr, aralarında hökm et, ya da (məsləhət blsən,) onlardan üz çevir. Əgər onlardan üz döndərsən, sənə heç bir zərər verməzlər. Əgər aralarında hökm etsən, ədalətlə hökm et. Allah ədalətli insanları sevir!

43. İçərisində Allahın hökmü olan Tövrat əllərində ola-ola səni necə hakim təyin edir, sonra da ondan üz çevirirlər? Onlar mömin deyillər.

44. Biz Tövratı nazil etdik. Onda haqq yola yönləndirmə və nur var idi. Allahın əmrinə itaət göstərən peyğəmbərlər yəhudilər arasında onunla hökm edirdilər. Habelə din alimləri onlara tapşırılmış və şahidi olduqları bu kitab vasitəsilə hökm edərdilər. Buna görə (Allahın ayələri əsasında hökm

çıxardığınız üçün) insanlardan qorxmayın, Məndən qorxun. Mənim ayələrimi ucuz qiymətə satmayın. Allahın nazil etdiyi hökmlər əsasında hökm etməyənlər kafirdirlər!

45. Biz orada (Tövratda) onlara (İsrail övladlarına) canın qisasının can, gözün qisasının göz, burununkunun burun, qulağınkının qulaq, dişinkinin diş, yaranınkının yara olduğunu hökm verdik. Lakin kimsə bağışlasa, (qisasdan imtina etsə, günahlarının) kəffarəsi hesab edilər (günahları bağışlanar). Allahın nazil etdiyi hökmlərlə hökm etməyən zalımdır!

---

43. Tövrat – Təhrif olunmuş kitab: Bu kitabı İran şahı Kuruşun icazəsi ilə Əzra yəhudilər üçün toplamışdır. Bu iş Babilin Kuruş tərəfindən fəthindən, İsrail övladlarının sərbəst buraxılmasından, onların Fələstinə geri qayıtmalarına icazə verilməsindən, Heykəl məbədinin təmirindən sonra həyata keçirilmişdir. Bu, Peyğəmbər (s) zamanında yəhudilər arasında yayılmış və bu gün də mövcud olan həmin Tövratdır. Quran orada ilahi hökmlərin olduğunu, təhrifə və dəyişikliyə məruz qaldığını təsdiq edir. Quran və aparılan araşdırmalar əsasında müasir dövrdə mövcud olan Tövratda Musaya (ə) nazil olmuş orijinal Tövratın mətnləri olduğu, mətnlərə əlavələr edildiyi, ixtisarlar aparıldığı, sözlərdə dəyişikliklər edildiyi, söz və cümlələrin yerlərinin dəyişdirildiyi, təhriflərə məruz qaldığı məlum olur[491].

44. Ədalətsiz hökm çıxarmaq küfrə bərabər bir davranışdır: Peyğəmbər (s) buyurub: ***"Allahın nazil etdiyi hökmlər əsasında hökm etməyənlər kafirdirlər!" ayəsi iki dirhəm üçün ədalətsiz hökm çıxaran və***

---

[491] Əl-Mizan, c.5, səh.349

ittiham edilmiş şəxsi hökmü qəbul etməyə məcbur edən hakimə şamil olur” Hədisin ravisi: Müttəhimi necə məcbur edir? Peyğəmbər (s): ***“İxtiyarında şallaq və həbsxana olan hakimin hökmündən sonra müttəhim hökmlə razılaşsa, heç, yox əgər razılaşmasa, onu şallaqlayıb həbs etdirməklə.”*** Yəni əgər hakim ədalətsiz hökm çıxararsa və hökmü icra etmək iqtdarına malik olarsa, kafir olmuşdur[492].

45. Yəhudi dininə əsasən qisas hökmü: Bu ayə o dövrdə mövcud olan yolverilməz ayrıseçkiliyə son qoymuşdur. Bəzi təfsirlərdən belə məlum olur ki, o dövrdə Mədinə yəhudiləri arasında qəribə bir bərabərsizlik hökm sürürmüş. Məsələn, Bəni-Nəzir tayfasından olan bir şəxs Bəni Qüreyzə tayfasından olan bir nəfəri öldürsəydi, qisas alınmazmış. Halbuki Bəni-Qüreyzə tayfasından bir nəfər qarşı tərəfdən birini öldürəndə hökm fərqli olarmış. İslam Mədinəyə hicrət etdikdən sonra Bəni-Qüreyzəlilər bu barədə Peyğəmbərdən (s) soruşduqda Peyğəmbər (s) buyurur: ***“Qanbahalar arasında heç bir fərq yoxdur.”*** Bəni-Nəzir tayfası etiraz edir və tayfanın statusuna haqsızlıq edildiyini bildirir. “Maidə” surəsinin 45-ci ayəsi nazil olur və onlara təkcə İslamda deyil, yəhudilikdə də bu qanunun hamı üçün eyni olduğunu elan edir. Əlbəttə, İslamda qisas hökmü müəyyən şərtlərə və qaydalara malikdir. Fiqh kitablarında bu mövzu xırdalıqlarına qədər araşdırılmışdır[493].

45. Qisasdan imtina etməyin mükafatı: “Lakin kimsə bağışlasa, (qisasdan imtina etsə, günahlarının) kəffarəsi hesab edilər (günahları bağışlanar).” cümləsi haqqında İmam Sadiqin (ə) belə buyurduğu qeyd edilmişdir: “Yara və qeyri-yara xəsarətinin qisasından imtina edən (məhkumu bağışlayan) şəxsin günahları həmin xəsarət qədər bağışlanar.”

---

[492] Əl-Mizan, c.5, səh.372
[493] Nümunə, c.4, səh.393

Peyğəmbər (s) buyurmuşdur: “Əgər dişi sındırılmış və ya əli kəsilmiş və yaxud bədən üzvlərindən biri kəsilmiş, ya da bədəninə hər hansı xəsarət yetirilmiş şəxs qisasdan imtina etsə və günahkarı bağışlasa, dəymiş zərərə görə ala biləcəyi diyə miqdarında günahları bağışlanar. Əgər bağışladığı miqdar diyənin dörddə biri qədərdirsə, günahlarının dörddə bir, əgər diyənin üçdə biridirsə, günahlarının üçdə bir hissəsi bağışlanar. Əgər güzəştə getdyi tam diyədirsə, bütün günahları bağışlanar.”[494]

46. Onların (əvvəlki peyğəmbərlərin) ardınca Məryəm oğlu İsanı özündən qabaq göndərilmiş Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içində haqq yolu və nur olan, özündən əvvəlki Tövratı təsdiq edən, müttəqilər üçün doğru yol və nəsihət olan İncili verdik.

[494] Əl-Mizan, c.5, səh.373

47. İncil əhli (Məsihin ardıcılları) Allahın onda nazil etdiyi ilə hökm etsin. Allahın nazil etdiyi ilə hökm etməyənlər, əlbəttə, günahkarlardır.

48. Bu kitabı (Quranı) sənə haqq olaraq, özündən əvvəlki kitabları təsdiq edən və onları qoruyan olaraq endirdik. Sən onların arasında Allahın nazil etdiyi (Quran) ilə hökm et. Onların istəklərinə uyub ilahi hökmlərdən üz çevirmə. Sizin hər biriniz üçün aydın bir şəriət və bir yol təyin etdik. Əgər Allah istəsəydi, sizi vahid bir ümmət edərdi. Lakin Allah sizi bu verdikləri ilə sınağa çəkmək (malik olduğunuz müxtəlif istedadları inkişaf etdirmək) istəyir. Elə isə yaxşı işlər görməkdə bir-birinizi ötməyə çalışın (bir-birinizlə yarışın). Hamınızın axır dönüşü Allahadır. (Allah) aranızda ixtilaf doğuran məsələlər barəsində sizə xəbər verəcəkdir!

49. Onların arasında Allahın nazil etdiyi Kitab əsasında hökm et. Onların istəklərinə uyma. Allahın sənə nazil etdiyinin (hökmlərin) bir qismindən səni yayındıra biləcəklərindən ehtiyat edib özünü onlardan gözlə. Əgər onlar (sənin çıxardığın hökmlərdən) üz döndərsələr, bil ki, Allah onları bəzi günahlarına görə cəzalandırmaq istəyir. İnsanların çoxu (Allahın itaətindən çıxmış) fasiqlərdir!

50. Onlar (səndən) Cahiliyyət dövrünün hökmünümü istəyirlər? Yəqin sahibi olan bir cəmiyyət üçün Allahdan daha yaxşı kim hökm verə bilər?!

---

47. Quran nazil olana qədər İncilə tabe olmanın vacibliyi: Şübhəsiz ki, bu ayənin məqsədi İsanın (ə) ardıcıllarına indi də İncilin hökmlərinə tabe olmaq göstərişi vermək deyil. Çünki bu fikir Quranın digər ayələri və əvvəlki dinlərin qanuniliyinə yekun vurulduğunu elan edən Quranın mövcudluq prinsipi ilə təzad təşkil edir. Əslində, ayənin məzmunu Allah-

taala İncili İsaya (ə) nazil etdikdən sonra ona əməl etməyi və onun əsasında hökm çıxarmağı göstəriş verdiyini ifadə edir[495].

47. Allahın hökmünün müxtəlif yönləri: Diqqət çəkən cəhət budur ki, "Maidə" surəsinin 44-cü, 45-ci və 47-ci ayələrində Allahın nazil etdiyi hökmlər əsasında hökm verməyənlər kafir, zalım və günahkar adlandırılmışlar. Bu üç ifadə fərqi hər hökmün üç yönə malik olması ilə izah edilə bilər. Hökmün bir yönü qanunverici (Allah), ikinci yönü qanunun icraçısı (hakim), üçüncü yönü haqqında hökm çıxarılan insanla (müttəhim) bağlıdır. Ayələrdə qeyd olunan ifadələr arasındakı fərqlilik ehtimal ki, bu üç yönə bağlıdır. Çünki Allahın hökmünün ziddinə hökm çıxaran şəxs bir tərəfdən Allahın qanununu ayaqları altına alıb kafir olur, digər tərəfdən günahsız bir insana qarşı zülm və haqsızlıq edir, üçüncü bir tərəfdən öz vəzifə səlahiyyətlərini aşıb günahkara çevrilir[496].

50. Allahın buyurduğuna uyğun şəkildə hökm çıxarmaq, yoxsa nadancasına qərar qəbul etmək: Allah-taala əvvəlki ayələrdə haqq və düzgün olan hökm və qanunların Allah tərəfindən endirildiyini aydın şəkildə buyurduqdan sonra bu ayədə belə buyurur: "Allah hökmündən qeyri hökmlər nadanacasına verilmiş hökm və nəfsani istəklərə tabeçilikdir." Bu ayədə hökm çıxararkən Allah hökmlərinə və qanunlarına istinad etməyənlər məzəmmət edilir və onlara "Nəyin axtarışındasınız?", - deyə xitab edilir, Allah hökmündən üz döndərəcəkləri təqdirdə cahil hesab ediləcəkləri bildirilir. İmam Sadiq (ə) buyurmuşdur: "Hökmlər iki cürdür: İlahi mənbəyə əsaslanan hökmlər; nadancasına verilmiş hökmlər. Allahın hökmlərini tərk etmiş şəxs əsasında nadanlıq dayanan hökmlərə boyun əymişdir."[497] Tarixi

---

[495] Nümunə, c.4, səh.398
[496] Nümunə, c.4, səh.399
[497] Əl-Mizan, c.5, səh.364 və 367

mənbələrin yazdığına görə, Peyğəmbər (s) dünyasını dəyişdikdən sonra həzrət Fatimə Fədəki zorla ondan alan şəxslərin qarşısında dayanaraq bu ayəyə istinad etmiş, onların ilahi qanuna və Peyğəmbər (s) sünnəsinə əsaslanmayan hökmlərinin əsasında nadanlıq dayandığını vurğulamışdır[498]. Buradan da səmavi qanunları və hökmləri olduğu halda, başqa xalqların yaratdığı qanunların arxasınca düşən müsəlmanların cahilik və nadanlıq yolunda irəlilədikləri aydın olur[499].

50. Mühakimənin əsasları: Bu və əvvəlki ayələrdə daha çox mühakimə məsələsinə diqqət yetirilmişdir. Mühakimənin ən mühüm sütunları ədalət və elmdir. Mühakimə zamanı bunların biri və ya hər ikisi olmazsa, mühakimə məqbul sayılmaz. İmam Sadiq (ə) buyurmuşdur: ***"Hakimlər dörd qrupa bölünürlər: Onların üç qrupu odda, yalnız bir qrupu Cənnətdədir. Dörd qrup hakim bunlardır: 1. Haqqı bilə-bilə haqsız hökm çıxaran hakim oddadır; 2. Haqdan xəbəri olmadan haqsız yerə hökm çıxaran hakim də oddadır; 3. Doğru hökm çıxarmasına baxmayaraq, doğru hökmün nədən ibarət olduğunu bilməyən də oddadır. 4. Yalnız doğrunu bilib doğruya hökm edənin yeri Cənnətdir."***[500]

[498] Tematik təfsir, c.8, səh.167
[499] Nümunə, c.4, səh.407
[500] Əl-Mizan, c.5, səh.374

51. Ey iman gətirənlər! Yəhudi və xaçpərəstləri (özünüzə) dost və arxa seçməyin! Onlar bir-birlərinin dostudurlar. Sizdən kim onlarla dostluq edərsə, o da onlardandır. Allah zalım tayfanı düz yola yönəltməz!

52. Amma qəlblərində xəstəlik olanların onlar(la dostluq etmək) üçün bir-birlərini qabaqladıqlarını və: “Bizə bir fəlakət üz verməsindən qorxuruq (bu zaman onlara ehtiyac duyacağımızı düşünürük)”, - deyən görərsən. Bəlkə Allah Öz tərəfindən (müsəlmanların xeyrinə) elə bir zəfər bəxş edər və elə bir iş qurar ki, onlar (münafiqlər) ürəklərində gizlətdiklərindən peşman olarlar.

53. İman gətirənlər isə deyərlər: “Sizinlə birlikdə olduqları barədə Allaha möhkəm andlar içən kəslər bunlardır? (Nə üçün belə oldu?)” Onların əməlləri puça çıxdı və (axirətdə) zərərçəkənlərdən oldular.

54. Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə, (Allaha heç bir ziyan vurmaz) Allah elə bir cəmiyyət gətirər ki, (Allah) onları, onlar da Allahı sevərlər. Onlar möminlərə qarşı təvazökar, kafirlərə qarşı isə sərt olar, Allah yolunda vuruşar və heç kəsin tənəsindən qorxmazlar. Bu, Allahın

lütfüdür, onu istədiyinə (layiq gördüyünə) verər. Allah (öz lütfü ilə) genişdir, (O, hər şeyi) biləndir!

55. Sizin haminiz və rəhbəriniz yalnız Allah, Onun Peyğəmbəri və iman gətirən, namaz qılan və rükuda olduqları halda zəkat verənlərdir.

56. Hər kəs Allah, Onun Peyğəmbərləri və iman gətirənlərin rəhbərliyini qəbul edərsə, (qalib olar. Çünki) Allahın partiyası və firqəsi qalibdir.

57. Ey iman gətirənlər! Sizdən əvvəl kitab verilmiş olanlardan dininizi oyun-oyuncaq hesab edənləri və kafirləri özünüzə dost və rəhbər seçməyin. Əgər möminsinizsə, Allahdan qorxun!

---

54. Allahı sevənlər və Allahın sevdikləri: Ayədə kimlərin nəzərdə tutulması və Allahın bu şəkildə kimləri tərifləməsi ilə bağlı hədislər və təfsiçilər arasında fikir ayrılıqları mövcuddur. Sünni və Şiə vasitəsilə rəvayət edilmiş çoxlu sayda hədislərdə bu ayənin Xeybərin fəthi zamanı İmam Əli (ə) haqqında nazil olması ilə bağlı fikir birliyi var. Həmin məlumatlarda bildirilir ki, Peyğəmbər (s) İslam ordusunun bir neçə sərkərdəsinin Xeybəri fəth edə bilmədiyini görüb, bir gecə üzünü orduya tutaraq buyurur: ***"And olsun Allaha, sabah bayrağı elə bir adama tapşıracağam ki, Allahı və Peyğəmbərini (s) sevir, Allah və Peyğəmbəri (s) də onu sevir. Dalbadal hücum edir və əsla onların qabağından qaçmır. Allah onun əli ilə müsəlmanlara qələbə qismət etməyincə bu meydandan geri dönməyəcək."*** O, möminlərin əmiri Əlidən (ə) başqası deyildi. Hədislərin birində qeyd edilir ki, Peyğəmbərdən (s) bu ayə haqqında soruşulduqda əlini Salman Farsinin çiyninə qoyub ***"Bu şəxs, onun dostları və həmvətənləridir"***, - deyə cavab verir. Deməli, bu hədisdə Peyğəmbər (s) iranlıların müsəlman olacağı,

onların İslamın müxtəlif sahələr üzrə inkişafı istiqamətində səmərəli fəaliyyətlər göstərəcəyi ilə bağlı öncədən xəbər vermişdir. Sonra Peyğəmbər (s) buyurmuşdur: ***"Əgər din (başqa bir hədisdə elm) Sürəyya ulduzundan asılı olsa, Farsdan olan kişilər onu əldə edəcəklər."*** Bəzi hədislərdə bu ayənin həzrət Mehdinin (ə) dostları haqqında nazil olduğu qeyd edilmişdir. Onlar bütün gücləri ilə haqq dindən dönmüşlər qarşısında duracaq, dünyanı iman və haqq-ədalətlə dolduracaqlar. Əlbəttə, ayənin təfsiri ilə bağlı qeyd edilmiş bu hədislər bir-birləri ilə təzad təşkil etmir. Çünki bu ayə geniş məzmun ifadə edir. Əli (ə) və Salman Farsi onun ən mühüm nümayəndələridir. Ayə eyni zamanda bu proqramları davam etdirən insanlara da şamil olur, baxmayaraq ki, hədislərdə onlar qeyd edilməmişdir[501].

55. Namazın rükusunda zəkat vermək: Bütün şiə təfsirçiləri və sünni təfsirçilərinin çoxu ***"İman gətirən, namaz qılan və rükuda olduqları halda zəkat verənlərdir"*** ayəsində şəxsən möminlərin əmiri Əli ibn Əbutalibin (ə) nəzərdə tutulduğunu bildirmişlər. İmam Baqi (ə) buyurmuşdur: ***"Müsəlman olmuş bir qrup yəhudi Peyğəmbərin (s) yanına gəlib soruşdu: "Ey Allahın elçisi, həzrət Musa (ə) Yuşa ibn Nunu öz canişini təyin etdi. Bəs sizdən sonra sizin canişininiz və bizim rəhbərimiz kimdir?" Bu vaxt "Maidə" surəsinin 55-ci ayəsi nazil oldu. Peyğəmbər (s) buyurdu: "Qalxın!" Hamı qalxıb məscidə doğru yollandı. Məsciddən bir dilənçi çıxdı. Peyğəmbər (s) "Kimsə sənə nə isə verdi?", - deyə soruşdu. Dilənçi "Bəli, bu üzüyü." Peyğəmbər (s) soruşdu "Onu sənə kim verdi?" Dilənçi İmam Əlini (ə) göstərib "O namaz qılan kişi", - deyə cavab verdi. Allahın elçisi (s) soruşdu: "Onu sənə verəndə hansı vəziyyətdə idi?" Dilənçi: "Rükuda idi",***

---

[501] Nümunə, c.4, səh.417

- deyə cavab verdi. Bu vaxt Peyğəmbər (s) təkbir dedi, məsciddəkilər də təkbir dedilər. Peyğəmbər (s) buyurdu: "Məndən sonra Əli sizin rəhbərinizdir!" Camaat dedi: "Şadıq ki, Allah Rəbbimiz, Muhəmməd Peyğəmbərimiz, Əli ibn Əbutalb (ə) mövla və rəhbərimizdir." Sonra Allah-taala "Maidə" surəsinin 56-cı ayəsini nazil edərək buyurdu: "Hər kəs Allah, Onun Peyğəmbərləri və iman gətirənlərin rəhbərliyini qəbul edərsə, (qalib olar. Çünki) Allahın partiyası və firqəsi qalibdir."[502] Diqqətdən qaçırmamalıyıq ki, 56-cı ayədə "İman gətirənlər" deyilərkən bütün iman gətirən şəxslər deyl, əvəvlki ayədə müəyyən xüsusiyyətlərlə vəsf edilmiş şəxs nəzərdə tutulmuşdur[503].

[502] Əl-mizan, c.6, səh.8 və 17
[503] Nümunə, c.4, səh.433

58. Siz (azan deyib camaatı) namaza çağırdığınız zaman onlar onu məsxərəyə qoyar, ələ salarlar. Bu, onların anlamaz olmalarındandır.

59. De: “Ey kitab əhli! Bizə nöqsan tutmağınız yalnız bizim Allaha, bizə nazil edilənə və bizdən daha əvvəl nazil edilənlərə inanmağımıza və sizin əksəriyyətinizin haqq yoldan çıxmasınamı görədir?!

60. De: “Dərəcələri, cəzaları Allah yanında bundan daha pis olan şəxslər haqqında sizə xəbər verimmi? Allahın öz rəhmətindən uzaqlaşdırdığı, qəzəbləndiyi, özlərini meymunlara, donuzlara çevirdiyi, bütpərəstə döndərdiyi şəxslər dərəcə baxımından daha pis və doğru yoldan daha çox azanlardır!

61. Yanınıza gəldikləri zaman: “Biz iman gətirdik!” - deyirlər. Halbuki onlar (sizin hüzurunuza ürəklərində gizlətdikləri) küfrlə daxil olmuş, küfrlə də çıxıb getmişlər. Allah onların gizlətdiklərini daha yaxşı bilir!

62. Onların bir çoxunu günah işləməyə, düşmənçilik etməyə və haram yeməyə tələsən görərsən. Onların gördüyü işlər necə də pisdir!

63. Nə üçün nəsrani və yəhudi alimləri onlara günah sözlər danışmağı və haram yeməyi qadağan etmirlər? Onların törətdiyi əməllər necə də pisdir!

64. Yəhudilər dedilər: “Allahın əli (zəncirlə) bağlıdır!” Bu dedikləri sözə görə onların öz əlləri bağlansın və Allahın rəhmətindən uzaq olsunlar! Xeyr, Allahın hər iki əli (qüdrəti) açıqdır. İstədiyi kimi lütf (və ehsan) edər. Rəbbindən sənə nazil edilən bu ayələr onların bir çoxunun küfrünü və azğınlığını artırar. Biz onların arasına Qiyamət gününə qədər davam edəcək düşmənçilik və kin saldıq. Onlar nə zaman müharibə alovunu yandırdılarsa,

Allah onu söndürdü. Onlar yer üzündə fitnə-fəsad törətməyə çalışarlar. Allah isə fitnə-fəsad törədənləri sevməz!

--

60. Metomorfoz: Ayənin ***"meymunlara, donuzlara çevirdiyi"*** ifadələri ilə metomorfoza (insanın heyvan şəkli alması, ona çevrilməsi) mövzusuna işarə edilmişdir. Quranın bir neçə yerində şənbə səhabələri metomorfozu və onların meymuna çevrilməsindən söhbət açılmışdır. Belə ki, "Bəqərə" surəsinin 65-ci ayəsində belə buyurulmuşdur: ***"Şübhəsiz, sizin aranızdan şənbə günü əmrə uymayıb günah edənlər haqqında məlumatınız var . Biz də onlara: "Qovulmuş meymunlar olun!" – dedik."*** Bəzilərinin yazdığına görə, göydən süfrə endirildikdən sonra həzrət İsanın (ə) kafir olmuş bir qrup səhabəsi donuza çevrildi. Bəzi hədislərdə itaətsizlik göstərmiş bəzi insanların metomorfozaya uğradığı qeyd edilmişdir. Metomorfoza bu dünyada insanların batini siması üzərində pərdələrin çəkilməsidr. Bu hadisə dünyanın bu mərhələsində bəzi üsyankar cəmiyyətləri məhdud şəkildə cəzalandırmaq və digər insanları ayıltmaq üçün məhdud çərçivələrdə baş vermişdir. Pərdələrin qaldırılması prosesi axirətdə daha geniş şəkildə, Qiyamət günü isə ümumi şəkildə baş verəcək. Hədislərin birində belə qeyd edilir: Həcc mövsümündə Əbu Bəsir adlı bir nəfər İmam Sadiqə (ə) ded: Nə çox hacı var! İmam (ə) buyurdu: ***"Nə çox fəryad qoparan, nə az hacı var"*** Sonra Allahın istəyi ilə Əbu Bəsirin gözündən pərdəni qaldırdı. Əbu Bəsir həcc ziyarəti edənlərə nəzər saldıqda müxtəlif heyvanlar arasında az sayda insan olduğunu gördü[504].

---

[504] Ətyəbül-bəyan, c.4, səh.411

64. Yəhudilərin Allahla bağlı cəsarətli inancları: Təfsirçilər bu ayənin nazilolma səbəbi ilə bağlı müxtəlif fikirlər söyləmişlər. Ən düzü də budur ki, yəhudilər "Bəqərə" surəsinin 245-ci ayəsində (***Allaha yaxşı borc verən varmı?***) olduğu kimi, sədəqələrin Allaha borc verilməsi kimi təqdim edildiyini eşitdikdə rişxəndlə dedilər: "Allahın əli bağlıdır. Dinin yayılması və dəvətinin diri qalması üçün ehtiyac duyulan qədər xərc çəkə bilmir, buna görə də insanlardan borc istəyir." Hər-halda ayənin nazilolma səbəbi nə olursa-olsun, yəhudilərin bu çirkin fikirləri (bəzi hadisələrdə Allahın əl-qolunun bağlı olması) onların dini təlimlərindən və mövcud Tövratlarından kənar deyil. Günümüzdə mövcud olan Tövratda bəzi işlərin Allahı aciz qoya biləcəyi və Onun bəzi hədəflərə çatmasına mane ola biləcəyi qeyd edilmişdir. Allahın istəyinin həyata keçməsinə mane olan bəzi insanlar haqqında olan hekayələri buna misal göstərmək olar. Adəm və digər keçmiş peyğəmbərlərin Tövratdakı hekayələri bunun bariz nümunəsidir. Yəhudlərin elə inancları var ki, həmin inanclar Allaha layiq olmayan xüsusiyyətlərin aid edilməsinə imkan verir. Onlar Allahın əl-qolunun bağlı olması məsələsini istehza edərək desələr də, bu, əslində, onların Allahla bağlı olan inanclarından qaynaqlanır. Bəzi hədislərdə qeyd olunan sözlərin mənbəyi olan inanclardan söz açılmışdır. Məsələn, qeyd olunan ayəni təfsir edərkən İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Yəhudilər "Allahın əl-qolu bağlıdır" deyərkən yaradılışı tamamladıqdan sonra Allahın daha öncədən müəyyən etdyi işlərdən başqa heç bir yeni iş görmədiyini qəsd edirdilər." Lakin Allah onların bu sözlərini rədd edərək buyurdu: "Allahın hər iki əli (qüdrəti) açıqdır. İstədiyi kimi lütf (və ehsan) edər." Yəni məsləhət gördükdə istədiyi işi təxirə salır və ya gecikdirir, azaldır və ya artırır***[505].

---

[505] Əl-Mizan, c.6, səh.32-40

65. Əgər kitab əhli iman gətirsə və təqvalı olsa, Biz onları bağışlayar və özlərini də Cənnətin bol nemətli bağlarına daxil edərik.

66. Əgər onlar Tövrata, İncilə və Rəbləri tərəfindən nazil edilənə (Qurana) əməl etsələr, göyün və yerin nemətlərindən yeyəcəklər. Onların bir qrupu mötədildir. Lakin çoxu pis işlərlə məşğuldur.

67. Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni (insanlara) tam çatdır. Əgər (bunu) etməsən, Onun (Allahın) risalətini (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini) yerinə yetirməmiş sayılarsan. Allah səni insanlardan qoruyacaq. Allah (inadkar) kafir camaatı düz yola yönəltməz!

68. De: "Ey kitab əhli! Tövrata, İncil və Rəbbiniz tərəfindən sizə nazil edilmiş olana (Qurana) əməl etmədikcə, sizin heç bir düzgün əməliniz olmaz. Rəbbin tərəfindən sənə nazil edilən (Quran) onlardan bir çoxunun yalnız azğınlığını və küfrünü artıracaqdır. Elə isə onlara (onların etdiklərinə) görə kədərlənmə!

69. İman gətirənlərdən, yəhudilərdən, sabiilərdən və xaçpərəstlərdən Allaha və axirət gününə inanıb yaxşı iş görənlərin heç bir qorxusu yoxdur və onlar qəm-qüssə də görməzlər!

70. Biz İsrail oğullarından əhd alıb onlara peyğəmbərlər göndərdik. Nə vaxt ki, hər hansı peyğəmbər onlara istəkləri ilə üst-üstə düşməyən bir hökm gətirdikdə (həmin peyğəmbərlərin) bir qismini yalançı hesab edər, bir qismini də öldürərdilər.

---

67. Qədiri-Xumda Əlinin xəlifəliyinin elan edilməsi: Şiə təfsirçi və alimləri, sünni təfsirçi və alimlərin çoxu bu ayənin nazilolma səbəbindən danışarkən ayənin vida həccindən (Peyğəmbərin (s) sonuncu Həcc ziyarəti) sonra nazil olduğunu, ayədə Peyğəmbərdən (s) sonra həzrət Əlinin (ə) canişinliyinin elan edilməsi məsələsindən bəhs edildiyini bəyan etmişlər. Həmin ilin Qurban bayramından səkkiz gün sonra Həcc ziyarətindən qayıdan müsəlmanlar Cöhfə ərazisinə, Qədiri-Xumun quru və yandırıcı çöllərinə, müsəlmanların bir-brindən ayrılıb öz vətənlərinə üz tutduqları dörd

yolayrıcına çatırlar. Burada vəhy mələyi enir və Allah tərəfindən bu ayəni Peyğəmbərə (s) nazil edir. Peyğəmbər (s) bəzi tarixi mənbələrin qeyd etdiyinə görə, sayları 124 minə çatan müsəlmanları həmin məkana toplayır. Uzun-uzadı çıxışı əsnasında Əli ibn Əbutalibi (ə) açıq şəkildə özünün xəlifə və canişini təyin edir, hakimiyyətini müsəlmanlara qəbul etdirir. Allah-taala Allahın ismarışını insanlara çatdırdıqdan sonra "Maidə" sürəsinin üçüncü ayəsi (Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün (əbədi) din olaraq İslamı qəbul etdim) nazil olur. Həmin gün çox səs-küylü bir gün olur. Hamı bu münasibətlə Əlini (ə) təbrik edir. Həmin gün onu təbrik edən məşhurlar arasında Əbubəkr və Ömər də olur. Təbrik edərkən onlar izdihamın önündə Əliyə (ə) "Afərin sənə, afərin sənə ey Əbutalibin oğlu! Mənim və bütün mömin kişi və qadınların rəhbəri oldun."[506]

Bu ayədə iki nüans diqqəi daha çox cəlb edir:

1. Ayənin ***"Əgər (bunu) etməsən, Onun (Allahın) risalətini (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini) yerinə yetirməmiş sayılarsan."*** cümləsi ayədəki göstərişin çox mühüm əhəmiyyət daşımasından xəbər verir. Şübhəsiz ki, Peyğəmbər (s) Allahın ona həvalə etdiyi peyğəmbərlik vəzfəsini icra edirdi. Lakin ayədə qeyd olunan şərt ayədəki hökmün nə qədər mühüm olduğunu göstərmək üçündür. Ayənin zahiri məzmunu Allah-taalanın "Ey Peyğəmbər, əgər Əlini (ə) özünün canişini təyin etməsən, Allahın risalətini yerinə yetirməmisən", - deyə buyurduğunu ifadə edir. Ayənin batini mənasına gəldikdə isə Allah-taala bütün müsəlmanlara dinlərinin İmam Əlinin (ə) rəhbərliyindən asılı olduğunu elan edir.

---

[506] Nümunə, c.5, səh.8-12

2. Ayənin ***"Allah səni insanlardan qoruyacaq"*** cümləsi Peyğəmbərin (s) bu ayədə nazil olan və bəyan edilməsi əmr edilən hökmü çatdırmaqdan ehtiyatlandığını, hökmü elan edəcəyi təqdirdə, Peyğəmbərin (s) canına təhlükə yaranacağı və ya dinin natamam qalacağı ilə bağlı qorxu keçirdyini ifadə edir. Məlumdur ki, Peyğəmbər (s) öldürüləcəyindən əsla qorxmamışdır. Bütün ömrünü Allah yolunda ictihada sərf etməsi və bu yolda fədakarlıq göstərməsi də onun öz canından qorxmadığını deməyə əsas verir. Peyğəmbərin (s) qorxusu bundan idi ki, bu hökmü elan etdikdən sonra insanlar Peyğəmbəri (s) elə şeylə ittiham edərdilər ki, bu hökm uğursuzluğa düçar olardı. Allah-taala bu ayədə Peyğəmbərə (s) onu insanların təhlükəsindən qoruyacağı ilə bağlı zəmanət verir. İki böyük səhabə - İbn Abbas və Cabir ibn Abdullah Ənsariyə istinad edilən bir məlumatda belə qeyd edilir: "Allah-taala Peyğəmbərə (s) göstəriş verir ki, Əlini (ə) insanların önündə açıq-aşkar şəkildə rəhbər təyin etsin. Ancaq Peyğəmbər (s) insanların "Öz əmisi oğlunu təyin etdi" deyəcəklərindən və ona bu məsələdə tənələr yağdıracağından ehtiyat edirdi. Allah-taala Peyğəmbərə (s) vəhy edib buyurdu: ***"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni (insanlara) çatdır."*** Bundan sonra Peyğəmbər (s) Qədiri-Xum günü Əlinin rəhbərliyini elan etdi[507].

[507] Əl-Mizan, c.6, səh.44

71. Heç bir bəla üz verməyəcəyni güman etdilər. Buna görə də kor və kar oldular (həqiqətləri görmədilər və haqq sözləri eşitmədilər). Sonra Allah onların tövbələrini qəbul etdi. Bundan sonra onların bir çoxu yenidən (qəflət yuxusuna getdi) görməz və eşitməz oldu. Allah onların nə etdiklərini görəndir!

72. “Allah Məryəm oğlu Məsihdir!” – deyənlər şübhəsiz ki, kafir oldular. (Halbuki) Məsih (İsa) belə demişdi: “Ey İsrail oğulları! Mənim və sizin Rəbbiniz olan Allaha ibadət edin! Allaha şərik qoşana Allah, şübhəsiz ki, Cənnəti haram etmişdir. Onun yeri Cəhənnəmdir. Zalımların heç bir köməkçisi yoxdur!”

73. “Allah üç ilahdan biridir!” – deyənlər, əlbəttə, kafir olmuşlar. Tək olan Allahdan başqa heç bir məbud yoxdur. Əgər dediklərindən əl çəkməsələr, onlardan kafir olanlara, şiddətli bir əzab üz verəcəkdir.

74. Məgər onlar Allaha tərəf qayıdıb Ondan bağışlanmalarını istəməyəcəklər? Axı Allah bağışlayandır, mərhəmətlidir!

75. Məryəm oğlu Məsih ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib getmişdir. Onun anası isə çox doğru danışan bir qadın idi. Onlardan hər ikisi yemək yeyirdi. Gör Biz ayələri onlara necə aşkar edirik, onlar (bu ayələrdən) gör necə üz çevirirlər.

76. De: “Allahı qoyub sizə nə bir zərəri, nə də bir xeyiri olmayan şeylərəmi ibadət edirsiniz? Halbuki Allah (hər şeyi) eşidəndir, biləndir!”

---

71. Yəhudilərin irqi təəssübkeşliyi qəflət və həqiqətləri görməzliyin mənşəyidir: Təfsirçilər bu ayəni təfsir edərkən belə qeyd etmişlər: Yəhudilərin istənilən çirkinliyə bulaşmalarına baxmayaraq, bəla göndərilməyəcəyini güman etmələrinin səbəbi onların Yəqubun (İsrail) nəslindən olduqları üçün üstün olduqlarını düşünmələri, özlərini Allahın övladları və dostları hesab etmələri ilə bağlı idi. Bu irqi təəssübkeşlik onların heç bir əzaba məruz qalmayacaqları qənaətinə gəlməsinə səbəb olmuşdu. Bu yanlış inanc onları haqqı görməz, Peyğəmbərin dəvətini və xeyirlərinə olan sözləri eşitməz etmişdi[508]. “Onların bir çoxu” ifadəsi təkrar edilən ***“Kar və kor oldular”*** cümləsindən sonra gələrək, hər iki cümləni izah edir. Yəni həqiqətlərdən xəbərsiz olmaq, həqiqətlərə qarşı kar və kor olmaq ümumi səciyyə daşımırdı, aralarında yaxşı olan azlıq da var idi. Bu, Quranın

[508] Əl-Mizan, c.6, səh.68

yəhudilər haqqında olan cümlələrinin irqi və milli səciyyə daşımadığını, yalnız onların əməllərinin diqqət mərkəzinə alındığını göstərən parlaq dəlillərdəndir. Bəzi təfsirçilər ***"Kar və kor oldular"*** cümləsinin nə üçün təkrarlandığını izah edərkən bildirmşlər ki, onların təkrar edilməsi İsrail oğullarının başına gəlmiş iki hadisə ilə bağlıdır. Bu hadisələrin biri babillilərin hücumu, digər isə iranlıların və romalıların hücumu zamanı baş vermişdir. Belə bir ehtimal da var ki, onlar tez-tez belə olurdular. Gördükləri işlərin acı nəticələrini gördükdən sonra tövbə edir, yenidən tövbələrini sındırırdılar. Yəni hadisə iki dəfə təkrar edilməmişdi[509].

72. Üçlük inancı və onun təməlsizliyi: Təfsirçilərin bi çoxu hesab edir ki, bu və sonrakı ayədə xristianlığın iki fərqli inancına və firqəsinin olduğuna işarə edilmişdir. Onların bir qrupu hesab edir ki, xristanların bir qrupu Allahla İsanı eyniləşdirir, ikinci qrupu isə onların üç Allaha inandığını düşünür. Xrisitanlıqla bağlı irəli sürülmüş bu fikirlər həqiqəti əks etdirmir. Çünki müsəlmanlar arasında Allahın təkliyin və tövhid inancı yekdilliklə şəksiz-şübhəsiz qəbul edildiyi kimi, üçlük inancı da bütün xristianlar tərəfindən qəbul edilir. Əlbəttə, onlar ilahların üç olduğuna etiqad bəsləməklə yanaşı, onu həqiqi olan vahid kimi də qəbul edirlər. Onların inancına görə, üç həqiqi vahid bir həqiqi vahidi təşkil etmişdir. Bu və sonrakı ayədə bu inancın iki fərqli yönünə işarə edilmişdir. Birinci ayədə üç tanrının vəhdətinə, ikinci ayədə isə onların çoxluğuna inandıqlarına işarə edilmişdir. Bu iki ayənin ardıcıl gəlməsi və bu aydın dəlilə işarə edilməsi onların inacının puç olduğunu sübuta yetirmək üçündür. Necə ola bilər ki, tanrı bəzən Məsih və Ruhulqüdslə eyni, bəzən isə onlardan biri olur? Üçün birə bərabər olması ağlabatandırmı? Xristianlar arasında üç tanrı inancına

---

[509] Nümunə, c.5, səh.30

malik olmayan heç bir qrupun olmaması bizim irəli sürdüyümüz fikri təsdiq edir[510].

72. İsanın (ə) çarmıxa çəkilməsi inancı və onun yozumu: Ayənin Həzrət İsanın (ə) dilindən deyilmiş ***"Allaha şərik qoşana Allah, şübhəsiz ki, Cənnəti haram etmişdir. Onun yeri Cəhənnəmdir. Zalımların heç bir köməkçisi yoxdur!"*** cümləsi xristianların yanlış inanclarından birini puça çıxarır. Onların inancına görə, həzrət İsa (ə) çarmıxa çəkilməyi özü istəmiş, canını ardıcıllarına fəda etmişdir. O, çarmıxa çəkildiyi üçün xristianların günahları bağışlanmış, üzərlərindən vəzifələr götürülmüşdür. Sonra heç bir od görmədən Cənnətə daxil olacaqlar. Bu ayədə onların sözügedən batil inancları rədd edilir və İsanın (ə) öz dilindən bəyan edilir ki, müşrik olan Cəhnnəmə daxil olacaq və heç vaxt Cənnət üzü görməyəcək[511].

[510] Nümunə, c.5, səh.30
[511] Nümunə, c.5, səh.34

77. De: “Ey kitab əhli! Dininizdə ifrata varmayın, haqsız danışmayın. Daha öncə yolunu azmış, bir çoxlarını da azdırmış və doğru yoldan çıxmış bir tayfanın nəfsani istəklərinə uymayın!”

78. İsrail oğullarından kafir olanlara həm Davudun, həm də Məryəm oğlu İsanın dilindən lənət oxundu. Bu onların günah etmələrinə və həddi aşmalarına görə idi.

79. Onlar bir-birlərini etdikləri çirkin əməllərdən çəkindirmirdilər. Onların gördükləri iş necə də pis idi!

80. Onların bir çoxunun kafirlərlə (bütpərəstlərlə) dostluq etdiyini görürsən. Gör nəfslərinin əvvəlcədən onlar üçün hazırladığı şey (küfr) necə pisdir ki, Allahın onlara qəzəbi tutmuşdur. Onlar əbədi əzab içində qalacaqlar!

81. Əgər onlar Allaha, Peyğəmbərə və ona nazil olana inansaydılar, onları (kafirləri) özlərinə dost tutmazdılar. Lakin onların çoxu itaətdən çıxmış fasiqdirlər!

82. Yəhudiləri və müşrikləri möminlərin ən qatı düşməni, “Biz xaçpərəstik”, - deyənləri isə onların ən yaxın dostu olduğunu görəcəksən. Bu

onların içində (bilikli, abid) keşiş və rahiblərin olması və (haqq qarşısında) mütəkəbbir olmamalarına görədir.

---

77. Özlərini təkAllahlı inanclısı kimi göstərən müşriklər: Təfsirçilər ayənin ***"Daha öncə yolunu azmış, bir çoxlarını da azdırmış və doğru yoldan çıxmış bir tayfanın nəfsani istəklərinə uymayın!"*** cümləsində bütpərəstlərin nəzərdə tutulduğunu qeyd etmişlər. Quran ayələrinə əsasən deyə bilərik ki, kitab əhlinin yanlış və şirkə bulaşmış inancları bütpərəst kafir və müşriklərin inanc və fikirlərindən qaynaqlanmışdır. Belə ki, "Tövbə" surəsinin 30-cu ayəsində belə buyurulmuşdur: "***Yəhudilər: "Üzeyr Allahın oğludur", xaçpərəstlər də: "Məsih Allahın oğludur", - dedilər. Onların dilində gəzən bu sözlər daha öncə küfr edənlərin sözlərinə bənzəyir"*** Gördüyümüz kimi, "Maidə" surəsinin 77-ci ayəsində bu həqiqətə işarə edilmişdir. Tarixi araşdırmalar və analizlər apardıqdan sonra "Ata və oğul" inancının kitab əhlinə keçmiş dövrlərdə yaşamış bütpərəstlərdən keçdiyi məlum olur. Bu inanc Hindistanın Brahman və Budda, Çin, Qədim Misir və sair ərazilərdə mövcud olmuş bütpərəst inanclarından qaynaqlanır. Sözügedən inanc kitab əhlinin təbliğatçıları vasitəsilə bu dinlərə yol açmış və din adı ilə təzahür etmişdir. Deməli, onların dinləri zahirən tövhid dini olsa da, əslində, bütpərəstlikdir. Yəhudilər Üzeyri, xristianlar isə İsanı (ə) Allahın oğlu hesab edirlər[512].

78. Davud (ə) və İsanın (ə) Bəni-İsrail kafirlərinə nifrin etməsi: Təfsirçilər təkcə bu iki peyğəmbərin adının çəkilmə səbəbi ilə bağlı ehtimallar irəli sürmüşlər. Bəziləri bunun səbəbini həzrət Musadan (ə) sonra

---

[512] Əl-Mizan, c.6, səh.77

bu ikisinin ən məşhur peyğəmbər olması ilə izah etmişlər. Bəziləri hesab edir ki, kitab əhlinin çoxu Davudun (ə) övladları olmaları ilə fəxr etdikləri üçün Quran Davudun (ə) küfr və azğınlıq yolunu gedənlərə nifrin etdiyini elan etmişdir. Bəziləri hesab edir ki, sözügedən ayə bu iki böyük peyğəmbəri qəzəbləndirən və nifrit etmələrinə səbəb olan iki tarixi hadisəyə işarə edir[513]. Son fikri İmam Baqirin (ə) bir hədisi də təsdiq edir. İmam Baqir (ə) buyurmuşdur: ***"Davud İlə əhalisini nifrin etdi. Çünki onlar şənbə günü günah etmişdilər[514]. Bu hadisə onun zamanında baş vermişdi. Davud (ə) belə buyurmuşdu: "İlahi, lənəti onlara paltar kimi geyindir, kəmər kimi hər iki böyürlərindən dola. Allah onları meymunlara çevirdi. Amma İsa (ə) göydən süfrə gəldikdən sonra kafir olmuş şəxsləri nifrin etmişdi."*** Hədislərdə qeyd edilənlərə əsasən həzrət İsanın (ə) nifrin etdikləri donuza çevrilmişdir[515].

82. Yəhudilərin müsəlmanlarla düşmənçiliyi, xristianların müsəlmanlarla dostluğu: Təfsriçilərin çoxu bu və sonrakı bir neçə ayənin Peyğəmbər (s) zamanında yaşamış Həbəşistan kralı Nəcaşi və dostları haqqında nazil olduğu qənaətindədirlər. 82-ci ayədə Peyğəmbərin (s) müasirləri olmuş yəhudi və xristianlar müqayisə edilmş, yəhudi və müşriklərin möminlərin qatı düşmənləri, "Biz xristianıq", - deyənlərin isə onların dostları olduğu qeyd edilmişdir. İslam tarixi İslama qarşı olan mühüaribə səhnələrinin çoxunda yəhudilərin müharibələrə birbaşa və dolayı şəkildə müdaxilə etdiyini, düşmənçilikdən əsla çəkinmədiklərini və çox cüzu hissəsinin İslama meyl göstərdiyini təsdiq edir. Halbuki müsəlmanların apardıqları müharibələrdə onların xristianlarla daha az qarşılaşdıqlarının,

---

[513] Nümunə, c.5, səh.43
[514] Şənbə səhabələri. Bax: "Əraf" surəsinin 165-ci ayəsi
[515] Əl-Mizan, c.6, səh.82

Nəcaşi və dostlarının simasında daha çox xristianın müsəlmanların sıralarına qatıldığının şahidi oluruq[516]. Bu münasibət formaları Peyğəmbərdən (s) sonra da davam etdirilmişdir. Keçən əsrlər ərzində çoxlu sayda xristianın İslamı qəbul etməsinin şahidi olduğumuz halda, yəhudi və bütpərəstlərdən çox az sayda insanın müsəlman olduğunu görürük[517].

[516] Nümunə, c.5, səh.50-55
[517] Əl-Mizan, c.6, səh.80

83. Peyğəmbərə nazil olanı dinlədikləri zaman həqiqəti tapdıqları üçün onların gözlərinin yaşla dolduğunu görürsən. Onlar (belə) deyirlər: “Ey Rəbbimiz! Biz iman gətirdik, bizi (Muhəmmədin dostları ilə birlikdə haqqa) şahid olanlarla bir yerə yaz!

84. Rəbbimizin bizi əməlisalehlər zümrəsinə daxil etməsini arzu etdiyimiz halda, biz nə üçün Allaha və bizə Haqdan gələnə inanmayaq?!

85. Allah da bu sözlərinə görə onlara ağacları altından çaylar axan Cənnət bağları əta etdi. Onlar orada əbədi qalacaqlar. Yaxşı işlər görənlərin mükafatı budur!

86. Kafir olub ayələrimizi yalan hesab edənlər isə Cəhənnəmlikdirlər!

87. Ey iman gətirənlər! Allahın sizə halal buyurduqlarını haram etməyin və həddi aşmayın. Çünki Allah həddi aşanları sevməz!

88. Allahın sizə verdiyi halal və təmiz nemətlərdən yeyin. İnandığınız Allahdan qorxun!

89. Allah sizi qeyri-ixtiayi içdiyiniz andlarınıza görə cəzalandırmaz, lakin (ixtiyari) içdiyiniz andları (pozmağa) görə cəzalandırar. Bu cür andları pozmağın kəffarəsi ailənizə verdiyiniz normal qidalardan on yoxsula yedirdib doyurmaq, yaxud geyindirmək, yaxud da bir kölə azad etməkdir. Bunları etməyə imkanı olmayan şəxs üç gün (dalbadal) oruc tutmalıdır. Bu, içdiyiniz andların kəffarəsidir. Andlarınızı qoruyun (onları pozmaqdan çəkinin). Allah ayələrini sizə belə izah edir ki, bəlkə, şükür edəsiniz!

---

83. Nəcaşi müsəlman olduğunu gizlətdi: Əvvəlki ayənin izahını verərkən bu ayələrin Nəcaşi və dostları haqqında nazil olduğunu qeyd etdik.

Təfsirçilər yazırlar ki, Peyğəmbər (s) Məkkədə olduğu müddətdə müşriklərin onun dostlarına zərər vuracağından ehtiyat edirdi. Buna görə də Cəfər ibn Əbutalib, İbn Məsud və Osman ibn Məzumu bir qrup səhabəsi ilə birlikdə Həbəşistan kralı Nəcaşinin yanına göndərdi. Bu xəbər müşriklərə yetişdikdə Əmr ibn Ası bir dəstə ilə Nəcaşinin sarayına yolladılar. Nəcaşinin sarayına Peyğəmbərin (s) səhabələrindən daha tez çatan bu heyət ona dedi:

- Aramızdan bir nəfər qalxıb peyğəmbər olduğunu deyir, Qüreyş ağıllılarını günahkar və azğın hesab edir. Xalqını sənin üzərinə qaldırmaq üçün ölkənə bir dəstə göndərib. Biz düşündük ki, yaxşı olar ki, səni də bu hadisədən xəbərdar edək. Nəcaşi dedi:

- Yanıma gəlsələr, söylədikləri haqqında düşünərəm.

Peyğəmbərin (s) səhabələri Həbəşistana çatdıqdan sonra birbaşa saraya yollandılar və saray qapıçılarına “Allah dostlarına icazə verin!”, - dedidlər

Nəcaşi dedi:

- Onlara icazə verin. Allah dostlarına salam olsun!

Səhabələr saraya daxil olduqdan sonra salam verdilər. Müşriklər dedilər:

- Gördün, biz düz deyirik? Onlar sizə məxsus olan qayda ilə salam vermədilər.

Nəcaşi:

- Siz nə üçün mənə məxsus olan qayda ilə salam vermədiniz?

Səhabələr:

- Biz sənə Cənnət əhlinə və mələklərə xas olan qayda ilə salam verdik.

Nəcaşi:

- Sizin dostunuz İsa (ə) və anası haqqında nə deyir?

Səhabələr:

- O, Allahın bəndəsi və peyğəmbəridir. Allah tərəfindən olan söz və Məryəmin bətninə üfürülmüş bir ruhdur. Məryəm haqqında isə belə buyurur: "O, əsla ailə qurmamış təmiz, iffətli və namuslu bir xanımdır."

Nəcaşi yerdən bir ağac götürüb dedi:

- İsa (ə) və anası sizin dostunuzun söylədiklərindən hətta bu çubuq qədər artıq söz deməyiblər.

Nəcaşinin bu sözləri müşriklərin xoşuna gəlmədi, keçirdikləri narahatlıq hissindən rəngləri dəyişdi.

Nəcaşi onlara dedi:

- Sizə nazil olandan mənim üçün oxuyarsınız?

Səhabələr:

- Bəli.

- Oxuyun!

Səhabələr Qurandan ayələr oxudular. Bu vaxt Nəcaşinin yanında bir qrup keşiş, rahib və digər xristian inanclılarından var idi. Səhabələr ayələrdən oxuduqca, haqqı tapdıqları üçün bəzi rahib və keşişlərin gözündən yaş axırdı.

Ayələrdə (Maidə-82-83) onların bu vəziyyətinə işarə edilmişdir. Bəzi hədislərdə Nəcaşi və dostlarının İslamı qəbul etdiyi qeyd edilmişdir. Nəcaşi Həbəşistanı tərk edib Peyğəmbərin (s) yanına yollanana qədər canını qorumaq üçün müsəlman olduğunu gizlətmişdi. Lakin yolda ikən canını Yaradana tapşırmışdır[518].

87. İslam rahiblik və asketizm dini deyil: Bu ayənin nazilolma səbəbi ilə bağlı müxtəlif hədislər nəql olunub. Onların ümumi məzmunu belədir: Peyğəmbərin (s) bir qrup səhabəsi qərara gəlir ki, Allaha yaxın olmaq üçün

[518] Əl-Mizan, c.6, səh.85

gecə yatmaq, ət yemək, gündüzləri yemək yemək və sair kimi işlərə son qoysunlar. Bu xəbər Peyğəmbərə (s) çatdıqda narahat olur və belə buyurur: ***"Nə üçün bəzi adamlar halal və pak olan şeyləri özlərinə haram ediblər? Bilin ki, gecələri yatıram, evlənirəm, gündüzləri yemək yeyirəm. Mənim sünnəmdən üz döndərən məndən deyil."*** Allah-taala da bu ayəni nazil edir[519]. Bu vasitə ilə Allah və Peyğəmbər (s) İslamın rahiblik, guşənişinlik və asketizm dini olmadığını elan etmişdir. İnsanların bütün meyl və istəkləri hikmət və məsləhətə əsaslanır. Allah-taala din vasitəsilə bu meyl və istəkləri tənzimləyir, doğru-düzgün istiqamətdə iştifadəsini göstərir.

90. Ey iman gətirənlər! Şərab, qumar, bütlər və fal oxları Şeytan əməli olan çirkdir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız!

91. Şübhəsiz ki, Şeytan içki və qumar vasitəsilə aranıza ədavət və kin salmaq, sizi namazdan və Allahı xatırlamaqdan yayındırmaq istər. (Bu qədər ziyandan, fəsaddan və qadağadan sonra) qorunacaqsınızmı?

92. Allaha və Peyğəmbərə itaət edin və (Onun əmrinə itaətsizlik göstərməkdən) qorxun. Əgər (itaətdən) boyun qaçırsanız (cəzalandırılacaqsınız), bilin ki, Peyğəmbərimizin vəzifəsi yalnız açıq-aşkar təbliğdir (və bu vəzifəsini sizin qarşınızda yerinə yetirib).

---

[519] Əl-Mizan, c.6, səh.112

93. İman gətirib yaxşı işlər görənlərə təqvalı olub iman gətirdikləri, saleh əməllər etdikləri, sonra təqvalı olub iman gətirdikləri, sonra yenə təqvalı olub yaxşı işlər gördükləri təqdirdə, (haram edilməmişdən əvvəl) içdikləri şeylərdən ötrü günah yazılmaz. Allah yaxşı iş görənləri sevər!

94. Ey iman gətirənlər! Allah gizlində Ondan qorxanları tanıtdırmaq üçün sizi əllərinizin və nizələrinizin çata biləcəyi bir ovla imtahan edəcəkdir. Bundan sonra həddi aşanı şiddətli bir əzab gözləyir!

95. Ey iman gətirənlər! İhramda olarkən ov etməyin. Sizlərdən ovu qəsdən öldürən hər bir kəs öldürdüyünün əvəzində bənzər bir heyvan kəffarə ödəməlidir. Özünüzdən olan iki adil kişi onun eyni dəyərə malik əvəz olduğunu təsdiq etməli və o, Kəbəyə qurban edilməlidir. (Əgər qurban kəsməzsə,) ya yoxsulları yedirtməli, ya da əvəz olaraq oruc tutmalıdır ki, gördüyü işin cəzasını dadsın. Allah keçmişdə olanları bağışlamışdır. Hər kəs bundan sonra belə bir iş görsə, Allah ondan intiqam alar. Allah yenilməz qüvvət sahibi, intiqam sahibidir!

---

90. Şirk səviyyəsində olan bir günah: Şiə və sünni təfsirlərində bu ayə ilə bağlı bir çox nazilolma səbəbləri qeyd edilmişdir. Səd ibn Əbu Vəqqasa istinad edilən bir məlumatda belə qeyd edilir: “Bu ayə mənim haqqımda nazil olub. Ənsardan olan bir kişi yemək hazırlayıb bizi də dəvət etmişdi. Ziyafətdə bir dəstə adam iştirak edirdi. Yeməklə yanaşı şərab da içildi. Əlbəttə, bu, İslamda şərab qadağasından əvvəl idi. Şərab qonaqlıqda iştirak edənlərin ağıllarını başlarından aldıqdan sonra fəxrlərini xatırlamağa başladılar. Yavaş-yavaş meyan qızışdı, iş o yerə çatdı ki, onlardan biri dəvə sümüyünü götürüb, vurub burnumu sındırdı. Mən Peyğəmbərin (s) yanına gedib bu hadisəni ona danışdım. Bu vaxt bu ayə nazil oldu. “Müsnədi-

Əhməd", "Sünəni-Əbu Davud", "Nəsai" və "Termizi"də belə qeyd edilmişdir: "Ömər dua edərək deyirdi: "İlahi, bizə şərab haqqında açıq-aşkar bir hökm göndər!" "Bəqərə" surəsinin 219-cu ***(Səndən şərab və qumar haqqında soruşurlar. De: "Onlarda böyük günah və insanlar üçün (maddi) mənfəət vardır. Lakin günahları mənfəətlərindən daha böyükdür")*** ayəsi nazil oldu. Peyğəmbər (s) ayəni ona oxudu. Lakin o, "Nisa" surəsinin 43-cü (***Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlamayana qədər namaza yaxınlaşmayın (durmayın***) ayəsi nazil olana qədər yenə də öz duasına davam edib deyirdi: "İlahi, bundan da aşkar hökm göndər!" Nəhayət, "Maidə" surəsinin 90-cı ayəsi nazl oldu və məsələ tamamilə açıq şəkildə elan edildi. Peyğəmbər (s) bu ayəni ona oxuduqda dedi: "Şərab içməkdən çəkinirik"[520]

İmamlardan (ə) şərab içməyin haramlığı və çirkinliyi ilə bağlı çoxlu sayda hədis nəql edilmişdr. İmam Sadiq (ə) bir hədisində belə buyurmuşdur: ***"Şərabxor Qiyamət günü Allahın hüzuruna bütpərəst kimi çağırılacaq."***[521] İmam (ə) şərabxoru dinsiz, müşrik və bütpərəstlərlə eyni sırada təqdim edir. Məlumatların birində belə qeyd edilir: Bir nəfər İmam Əliyə (ə) ded: Siz hesab edirsiniz ki, şərabxorluq zina və oğurluqdan daha pisdir? İmam (ə) buyurdu: ***"Bəli, çünki zina edən adam başqa bir günah etməyə bilər. Amma şərabxor şərab içdikdə zina da edər, adam da öldürər, namazını da tərk edər."***[522] Bilmək lazımdır ki, təkcə şərab içmək deyil, həm də bu əmələ aidiyyatı olan hər bir iş çirkin, haram və cəzaya layiqdir. Belə ki, hədislərin birində Peyğəmbərin (s) on qrup insanı lənətlədiyini oxuyuruq. Həmin insanlar bunlardır: 1. Ağacını əkən; 2. Ağacını qoruyub bəsləyən; 3.

---

[520] Nümunə, c.5, səh.69
[521] Vəsailüş-şiə, c.25, səh.318
[522] Kafi, c.6, sh.403

Üzümünü sıxan; 4. Onu içən; 5. Badəyə süzən; 6. Onu daşıyan; 7. Gətirəndən alan; 8. Onu satın alan; 9. Onu satan; 10. Onun qarşılığında pul alan[523]. İmam Sadiq (ə) şərabxorun o dünya əzabı haqqında belə buyurmuşdur: "Qiyamət günü şərabxor məhşər səhnəsinə üzü qaralmış, ağzı əyilmiş, dili sallanmış, susuzluq naləsi ucalan halda daxil olacaq."[524] Başqa bir hədisdə belə qeyd edilmişdir: "Allah ona Cəhənnəmdə çirk və çirkabın toplandığı quyudan içirdəcək."[525] Hədislərin birində Peyğəmbərin (s) Allaha and içərək onların şəfaətinin şərabxora şamil olmayacağını buyurduğunu oxuyuruq[526].

[523] Vəsailüş-şiə, c.25, səh.375
[524] Vəsailüş-şiə, c.25, səh.296
[525] Vəsailüş-şiə, c.25, səh.297
[526] Vəsailüş-şiə, c.25, səh.328

96. İstifadə edəsiniz deyə, (ehramda ikən) dəniz ovu və onu yemək sizə də, yolçulara (səfərdə olanlara) da halal edildi. Ehramda olduğunuz müddətdə isə quruda ov etmək sizə haram buyuruldu. Hüzuruna toplanacağınız Allahdan qorxun!

97. Allah Beytülhəramı - Kəbəni, haram ayı, nişanlı və nişansız qurbanları insanların işlərini nizam-intizama salmaq üçün bir vasitə etdi. Bu cür (dəqiq və hesablanmış) hökmlər ona görədir ki, Allahın göylərdə və yerdə nə varsa (hamısını) bildiyini və Allahın bilən olduğunu biləsiniz!

98. Bilin ki, Allahın əzabı şiddətlidir və Allah bağışlayandır, rəhm edəndir!

99. Peyğəmbərin üzərinə düşən vəzifə yalnız xəbər çatdırmaqdır (O, sizin əməllərinizə görə məsuliyyət daşımır). Allah aşkara çıxartdıqlarınızı və gizlətdiklərinizi bilir!

100. De: “Murdarın çoxluğu səni təəccübləndirsə belə, murdarla təmiz (haramla halal) bir ola bilməz”. Ey ağıl sahibləri, Allahdan qorxun ki, nicat tapasınız.

101. Ey iman gətirənlər! Sizə bəlli olunca qanınızı qaraldacaq şeylər barəsində soruşmayın. Əgər onlar haqqında Quran nazil edildikdə

soruşsanız, onlar sizə aydın olar. Allah onları bağışlamış (və görməzdən gəlmişdir). Allah bağışlayandır, həlimdir!

102. Sizdən əvvəl bir tayfa o haqda soruşmuş, sonra da ondan imtina etmişdilər.

103. Allah əsla bəhirə, saibə, vəsilə və hami deyə, bir şey təyin etməmişdir[527]. Lakin kafirlər Allaha qarşı yalan uydururlar. Onların çoxu dərk etmir.

---

100. Çoxluq təmizlik və düzlük meyarı deyil: Bu ayənin ehtiva etdiyi ümumi qanuna əsasən çoxluq təmizlik və düzlük meyarı ola bilməz. Bu nəticə əksəriyyətin istəyini yaxşı və pisi müəyyən edən ölçü miqyası kimi təlqin və təbliğ etməyə çalışan bəzi insanların bəlkə də xoşuna gəlməyəcək. Çünki onlar hesab edirlər ki, haqq və doğru əksəriyyətin bəyəndiyi, yaxşı əksəriyyətin istədiyidir. Halbuki bu, belə deyil. Dünya əhalisinin probleminlərinin çoxu bu təfəkkür tərzindən qaynaqlanır. Əlbəttə, əgər çoxluq düzgün idarəçilik və doğru təlimatlardan faydalansa, sözün həqiqi mənasında yüksək təfəkkür və intellektə yiyələnsə, onun istəkləri yaxşı və pis üçün meyar ola bilər. Bu ayədə hər kəsə çoxluğun və ya azlığın yaxşı və pis üçün meyar olmaması ilə bağlı mesaj verilir. Bütün hallarda təmzlik çirkinlikdən yaxşıdır, ağıl və təfəkkür sahibləri heç vaxt çoxluğa

---

[527] **Bəhirə** beş dəfə doğub sonuncu balası erkək olan dəvəyə deyilir. Cahiliyyət dövründə bütpərəst ərəblər həmən dəvənin qulağını çərtib azad buraxar, ətini və südünü haram bilib yeməzdilər.
Saibə on iki, başqa bir rəvayətə görə on bala vermiş dəvəyə deyilir. Həmin dəvəni sərbəst buraxar, üzərinə minməzmişlər. İstədiyi otlaqda otlayar, istədiyi bulaqdan su içərmiş, heç kəs ona mane olmazmış. Bəzən südünü sağıb qonağa verərmişlər.
Vəsilə yeddi balası olmuş, başqa bir rəvayətə görə əkiz doğmuş qoyuna deyilir. Bu qoyunu öldürmək də qadağan imiş
Hami belindən on bala gəlmiş tumluq erkək dəvəyə deyilir. Ona da heç bir yük qoşmaz, sərbəst buraxarmışlar.

aldanmırlar, bütün mühit çirkaba bulaşsa da, çirkinlikdən uzaq dururlar, ətrafda olan insanların hamısı onlara qarşı çıxsa da, təmizlərin yanında yer alırlar[528]. İmam Əli (ə) buyurmuşdur: ***"Ay camaat, haqq yolda irəliləyərkən o yolun yolçularının azlığı sizi qorxutmasın."***[529]

101. Bəlli olduqda sizi narahat edəcək şeylər soruşmayın: Bunlar dini hökmlərlə bağlı olan məsələlərdir. Quranın bu ayəsinə əsasən Allah-taala əfv və mərhəməti ilə bir çox məsələləri möminlərə vacib etməmiş, onlara güzəştə getmişdir. Buna görə də möminlər həmin məsələləri əbəs yerə qurdalamamalıdırlar. Çünki həmin məsələlər aşkar və vacib edilsə, möminlər çətinliyə düşə və onları yerinə yetirməkdən yayına bilərlər və nəticədə, Allahın qəzəbinə tuş gələrlər. Musanın (ə) inək kəsmələri üçün İsrail oğullarına göstəriş verməsi, onların bəhanə gətirərək əmri yerinə yetirməkdən boyun qaçırması, yersiz suallar verməsi, suallar verdikcə məsuliyyətlərinin daha da ağırlaşdığını buna misal göstərə bilərik[530]. Bu ayənin nazilolma səbəbini ehtiva edən bir məlumatda belə deyilir: "Bir gün Peyğəmbər (s) çıxışı zamanı belə buyurdu: "Camaat, Allah Həcci sizə vacib etdi." Əkkaşə ibn Möhsin Əsədi adlı bir nəfər soruşdu: Ey Allahın rəsulu (s) hər il? Peyğəmbər (s) buyurdu: ***"Əgər mən desəm ki, bəli, o zaman hər il Həccə getmək sizə vacib olar, boyun qaçırsanız, yolunu azarsınız. Nə qədər ki, mən bir söz deməmişəm, siz də heç nə deməyin. Çünki sizdən əvvəl bir çoxları verdikləri suallara və peyğəmbərlərinə tabe olmadıqlarına görə məhv olublar."*** Bu vaxt Allah-taala bu ayəni nazil etdi." Peyğəmbər (s) buyurmuşdur: ***"Allah-taala sizin üçün qanunlar müəyyən etmişdir. Həmin qanunların çərçivəsindən kənara çıxmayın. Sizə vacib buyurduğu əməlləri***

---

[528] Nümunə, c.5, səh.94
[529] Nəhcül-bəlağə, 192-ci xütbə
[530] Daha ətraflı məlumat üçün bax: Bəqərə surəsi, 71-ci ayə

puça çıxarmayın. Sizə qadağan edilmiş məsələlərin hörmətini sındırmayın. Qeyd etmədiklərinin səbəbi unutması deyil, sizə qarşı olan mehribanlığı və mərhəmətidir. Buna görə qəbul edin və o haqda axtarış aparmayın.”[531]

[531] Əl-Mizan, c.6, səh.152

104. Onlara: “Allahın nazil etdiyinə və Peyğəmbərə tərəf gəlin!” – deyildiyi zaman: “Atalarımızdan mənimsədiyimiz bizə yetər”, - deyə cavab verərlər. Bəs ataları heç bir şey bilməyib doğru yolda deyildilərsə, necə?!

105. Ey iman gətirənlər! Özünüzü qoruyun! Siz doğru yolda olsanız, (haqq yoldan) azanların azğınlığı sizə heç bir zərər yetirə bilməz. Hamınızın axır dönüşü Allahadır. Sizi etdiyiniz əməllərdən xəbərdar edəcək!

106. Ey iman gətirənlər! Sizlərdən hər hansı birinizi ölüm haqladıqda vəsiyyət vaxtı aranızdan iki ədalətli şəxsi, səfərdə olduğunuz zaman başınıza ölüm müsibəti gəldikdə isə (müsəlman tapmadıqda) özünüzdən olmayan iki nəfəri şahid tutun. Əgər (bu qeyri-müsəlman şahidlərin doğruluğuna) şübhə etsəniz, namazdan sonra hər ikisini tutub saxlayın və onları: “Haqqı qohumlarımızla bağlı olsa belə, heç bir qiymətə satmarıq və Allahın şahidliyini gizlətmərik. Yoxsa, şübhəsiz ki, günahkarlardan olarıq”, - deyə Allaha and içdirin!

107. Əgər onların günah qazandıqları (haqqı gizlətdkləri) bəlli olsa, o zaman onların yerini ölən adama daha yaxın olan başqa iki nəfər tutar. Onlar: “Həqiqətən, bizim şahidliyimiz onların hər ikisinin şahidliyindən həqiqətə daha yaxındır. Biz həddi aşmadıq. Əks təqdirdə, biz şübhəsiz ki, zalımlardan olarıq”,- deyə Allaha and içərlər.

108. Bu, onların şəhadəti olduğu kimi vermələri və andlarının sonradan başqa andlarla rədd edilməsindən qorxmaları üçün daha münasibdir. Allahdan qorxun və (Onu) eşidin. Allah fasiq qövmü doğru yola yönəltməz!

---

105. Fərdi özünütərbiyə; yaxşıya çağırış və pisdən çəkindirmə - iki yanaşı vəzifə: Bəziləri hesab edir ki, bu ayə ilə İslamın qəti və şübhəsiz göstərişlərindən olan yaxşıya dəvət və pisdən çəkindirmə göstərişi arasında təzad var. Çünki bu ayədə deyilir ki, əgər özünüzü qorusanız, başqalarının haqq yoldan azması sizə təsir göstərməz. Bəzi məsuliyyətdən qaçanlar yaxşıya çağırış və pisdən çəkindirmə əmrindən söz düşdükdə, əmrdən və məsuliyyətdən boyun qaçırmaq üçün bu ayəni əsas gətirir və onun mənasını təhrif edirlər. Halbuki azacıq diqqət yetirdikdə, bu iki hökm arasında heç bir təzad olmadığının şahidi oluruq. Çünki ayədə deyilir ki, hər br şəxsin hesabı ayrıdır, istər əcdadlardan olsun, istərsə də qeyri-əcdadlar, hətta ata, qardaş və övlad olmasından asılı olmayaraq, kiminsə haqq yoldan azması haqq yola yönələn insanların yönəlməsinə heç bir ziyan vura bilməz. Digər tərəfdən, bu ayədə yaxşıya çağırış və pisdən çəkindirmə hökmünün təsir etmədiyi və ya bu iki əmrin şərtlərinin tam olmadığı mövqeyə işarə edilir. Bəzən insanlar "belə olan vəziyyətdə bizim vəzifəmiz nədir?", - deyə narahat olurlar. Quran bu insanlara cavab verərək, narahatlığa heç bir əsas olmadığını bildirir. Çünki insanlar öz vəzifələrini yerinə yetirmiş, qarşı tərəf isə deyilənləri qəbul etməmiş və ya qəbul etmələri üçün şərait tam formalaşmamışdır. Buna görə də vəzifəsini yerinə yetirmiş insanlara heç bir ziyan ***yetişməz. Peyğəmbərdən (s) bu ayə haqqında soruşduqda belə cavab vermişdir: "Yaxşıya çağırın, pisdən çəkindirin. Ancaq insanların dünyanı üstün tutduqlarını, paxıllıq, və nəfsani istəklərin insanlar üzərində hökmranlıq etdiyini, hər kəsin yalnız öz fikrini bəyəndiyini gördüyünüz zaman özünüzü qoruyun, avam insanları tərk edin."*** Hər halda yaxşıya çağırış və pisdən çəkindirmə məsuliyyətindən qaçılması yolverilməz olan ən mühüm

İslam hökmlərindəndir. Bu iki vəzifə boyundan təsirinə heç bir ümid olmayacağı və şərait əlverişli olmayacağı təqdirdə götürülür[532].

106. Səfərdə və vətəndə olarkən vəsiyyətin vacibliyi: Bu ayənin nazilolma səbəbindən bəhs edən məlumatlarda belə qeyd edilmişdir: Təmim Dari adlı bir müsəlman İbn Bəndi və İbn Əbu Maritə adlı iki xristianla səfərə çıxır. Təmim Darinin bir xurcunu, həmin xurcunda özünə aid olan ləvazimat, o cümlədən ərəb bazarlarının birində satmaq üçün bir qızıl qab və boyunbağı olur. Səfər əsnasında o xəstələnir və getdikcə xəstəliyi şiddətlənir. Ölümünün yaxınlaşdıını görüb qızıl qabı və boyunbağını həmin iki xristiana verib varislərinə çatdırmalarını vəsiyyət edir. Onlar qızıl qabla boyunbağını götürüb xurcunda olan digər əşyaları Təmim Darinin varislərinə verirlər. Uzun axtarışdan sonra Təmim Darinin yaxınları qızıl qabla boyunbağını tapmırlar. Buna görə də həmin iki xristianın yanına gedib soruşdular: Onun xəstəliyi uzun sürdümü? Dedilər: Xeyr. Soruşdular: Onu oğrumu soydu? Dedilər: Xeyr. Soruşdular: Ticarətdə ziyan etdi? Dedilər: Xeyr. Dedilər: Biz qızıl qabla boyunbağını tapmadıq. Xristianlar dedilər: Bizə nə vermişdisə, sizə çatdırdıq. Bu iki xristanı Peyğəmbərin (s) yanına apardılar. Peyğəmbər (s) onlardan günahsızlıqlarını sübut etmək üçün and içmələrini istədi. Onlar da and içdikdən sonra Peyğəmbər (s) onları sərbəst buraxdı. Bir müddətdən sonra qızıl qabın və boyunbağının həmin xristianlarda olduğu məlum oldu. Varislər Peyğəmbərin (s) yanına gedib bu xəbəri ona çatdırdılar. Bu vaxt bu ayələr nazil oldu və bu şəraitdə necə davranılacağını göstərdi. Peyğəmbər (s) varislərdən iddialarının doğruluğunu sübut etmək üçün and içmələrini istədi.

---

[532] Nümunə, c.5, səh.109

Bundan sonra həmin qızıl qabla, boyunbağını xristianlardan geri alıb Təmimin varislərinə verdi[533].

109. Allah peyğəmbərləri toplayacağı gün belə buyuracaq: “(çağırışınız müqabilində) sizə nə cavab verildi?” Onlar isə: “Biz heç bir şey

[533] Əl-Mizan, c.6, səh.212

bilmirik. Sən özün bütün gizli sirlərdən xəbərdarsan!" – deyə cavab verəcəklər.

110. Allahın Məryəm oğlu İsaya: "Sənə və anana bəxş etdiyim neməti xatırla. Səni müqəddəs ruhla qüvvətləndirdiyim və sən beşikdə olanda da, yetkin çağında da adamlarla danışdığın, Sənə kitabı (yazıb-oxumağı), hikməti, Tövratı və İncili öyrətdiyim zamanı, Mənim iznimlə palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürürdüyün, onun da Mənim iznimlə quş oduğu, Mənim iznimlə anadangəlmə kor və cüzamlı xəstəyə şəfa verdiyin və Mənim iznimlə ölüləri diriltdiyin zamanı, İsrail oğullarına açıq-aşkar möcüzələr gətirdiyin zaman Mənim onları səndən dəf etdiyim, Onlardan küfrə batanlarının isə "Bu, açıq-aydın sehrdən başqa bir şey deyildir!" dedkləri zamanı xatırla", - deyəcəyi günü xatırla!

111. Həvarilərə: "Mənə və peyğəmbərimə iman gətirin!" – deyə vəhy etdiyim, onların isə: "Bizim (Sənə və peyğəmbərinə) itaətkar kəslər olmağımıza şahid ol!" – deyə cavab verdikləri zamanı xatırla!

112. Həvarilərin: "Ey Məryəm oğlu İsa! Rəbbin bizə göydən (yeməklə dolu) bir süfrə göndərə bilərmi?", - dediyi, onun isə:" Əgər mö'minsinizsə, Allahdan qorxun!" – deyə cavab verdiyi zamanı da xatırla!

113. (Həvarilər) dedilər: "(Bizim pis bir niyyətimiz yoxdur.) İstəyirik ki, ondan yeyək, ürəklərimiz sakit olsun, sənin bizə doğru dediyini bilək və ona şahidlik edənlərdən olaq".

---

109. Peyğəmbərlərin Allah qarşısındakı ədəbli davranışları: Ayənin peyğəmbərlərin dilindən qeyd edilən "Biz heç bir şey bilmirik. Sən özün bütün gizli sirlərdən xəbərdarsan!" cümləsindən Qiyamət günü bütün peyğəmbərlərin çağırılacağı və öz ümmətlərinin əməllərinə şahidlik

edəcəkləri başa düşülür. Deməli, onlar öz ümmətlərinin əməllərindən xəbərdar olacaqlar. Çoxlu sayda hədislərdə də Peyğəmbərin (s) Allahın izni və istəyi ilə qeyb xəbərlərindən xəbərdar olduğu qeyd edilmişdir. Bəs o zaman nə üçün bu ayədə peyğəmbərlərin dilindən "Biz heç bir şey bilmirik", - deyə bir cavab yazılıb? Təfsirçilər bu sualın cavabı ilə bağlı müxtəlif fikirlər irəli sürmüşlər. Bu suala bəlkə də ən yaxşı cavab "Peyğəmbərlər Allah qarşısında təvazökarlıq göstərərək belə edəcəklər" cavabıdır. Onlar Allahın hüzurunda deyəcəklər: İlahi, sənin elmin zatidir. Bizim nəyimiz varsa, səndəndir. Bizim elmimiz Sənin elmin qarşısında bir heçdir. Biz Sənin qarşında heç nə bilmirik. Sən daha yaxşı bilirsən ki, bizim çağırışımıza necə cavab verdilər[534].

110. İnsanların iradəsinin fövqündən qaynaqlanan rəhbərlik, Quran mətninə əsaslanan bir həqiqət: Bu ayədə İsa Məsihlə (ə) bağlı ifrata yol verilməməsi və onun tanrı məqamına yüksəldilməsi fikrinin qarşısının alınması üçün "Mənim iznimlə" sözü dörd dəfə təkrar edilmişdir. Yəni onun etdikləri, nə qədər heyrətamiz olsa da, Allahın işlərinə nə qədər bənzəsə də, etdiklərinin heç biri özündən deyil, Allah tərəfindən idi. O, əmrə tabe olan bir bəndə idi, nəyi var idisə, Allahın sonsuz gücündən istəyərək nail olmuşdu. Bu və oxşar məzmunlu ayələr Allah dostlarının rəhbrəliyinin insan iradəsinin fövqündə olan gücdən qaynaqlandığını göstərən parlaq dəlillərdəndir. Çünki ölünü diriltmək, anadangəlmə korun gözünü açmaq, çarəsiz xəstəlikləri sağaltmaq, palçıqdan düzəlmiş quşu canlandırmaq şəxsən İsanın (ə) özünə aid edilmişdir[535]. Bu bizim Peyğəmbər (s), imamlar (ə) və bəzi Allah adamlarının Allahın izni ilə xariqüladə işlər görə biləcəyi ilə bağlı inancımızı ehtiva edən həqiqətdir.

---

[534] Ətyəbül-bəyan, c.4, səh.493
[535] Nümunə, c.5, səh.124

111. Vəhyin mənalarından biri: Vəhyin Qurandakı mənalarından biri ilhamdır. Bu ayədə də vəhy ilham mənasında işlənmişdir. Başqa bir ayədə də vəhy bu mənada işlənmişdir. Məsələn, "Qəsəs" surəsinin 7-ci ayəsində belə buyurulur: ***"Biz Musanın anasına ona süd verməsini vəhy etdik"***, "Nəhl" surəsinin 68-ci ayəsində belə buyurulur: ***"Sənin Rəbbin bal arısına vəhy etdi"*** Bir nəfər İmam Baqirdən (ə) ***"Həvarilərə vəhy etdiyim zaman"*** ayəsi haqqında soruşduqda, o cənab ***"Onlara ilham etdim"***, - deyə cavab vermişdir[536].

112. Göydən "Maidə" endirilməsini istəmək: Maidə süfrəyə, içində yemək olan qaba, bəzən isə yeməyin özünə deyilir. Həvarilərin dilindən qeyd edilmiş "Sənin Rəbbin göydən bizə (yemək dolu) bir qab göndərə bilərmi?" cümləis belə bir sualın meydana çıxmasına səbəb olur: "Həvarilər Allahın qüdrətinə şübhə edirdilərmi?" Bəzi təfsirçilər bu sualı cavablandırarkən bildirirlər ki, burada bacarıq və qüdrət deyil, məsləhət nəzərdə tutulmuşdur. Yəni Allah-taala göydən yeməklə dolu bir qab, bir süfrə göndərərmi, bu istəymizi yerinə yetirməyi məsləhət buyurarmı? Məsələn, biz "Mənimlə gələ bilərsənmi?" deyərkən "Mənimlə gəlməyi məsləhət bilirsənmi?" məzmununu nəzərdə tuturuq[537]. Bu möcüzəni istəmələri onların İsanın (ə) peyğəmbərliyinə şək və şübhə etmələrindən irəli gəlmirdi. Onlar bununla yəqinlərinin daha da artmasını, imanlarının daha da çoxalmasını istəyirdilər. Çünki insanın bir məsələyə inamı olarsa, hər zaman onu qəlbində hiss etməyə çalışar[538].

---

[536] Əl-Mizan, c.6, səh.222
[537] Əl-Mizan, c.6, səh.228
[538] 5. Məşuri-cavid, c.12, səh.389

114. Məryəm oğlu İsa dedi: “Ya Allah, ey bizim Rəbbimiz! Bizə göydən bir süfrə nazil et ki, o bizim həm birincimiz, həm də axırıncımız üçün bir bayram və Səndən bir əlamət olsun. Bizə ruzi ver ki, Sən ruzi verənlərin ən yaxşısısan!”

115. Allah buyurdu: “Mən onu sizə nazil edərəm. Lakin ondan sonra sizlərdən kim küfrə düşərsə, ona aləmlərdə olanlardan heç kəsə verməyəcəyim bir əzab verərəm!”

116. Allah Məryəm oğlu İsaya: “Ey Məryəm oğlu İsa! Sənmi insanlara: “Məni və anamı özünüzə Allahdan qeyri iki tanrı seçin!” – demişdin?”, - deyə buyuracağı, onun isə: “Sən pak və müqəddəssən! Haqqım çatmayan bir şeyi demək mənə yaraşmaz. Əgər bunu mən demiş

olsaydım, Sən onu bilərdin. Sən mənim ruhumda və canımda olan hər şeyi bilirsən, mən isə Sənin zatında olandan xəbərdar deyiləm. Şübhəsiz ki, Sən bütün sirlərdən və gizlinlərdən xəbərdarsan!

117. Mən onlara yalnız Sənin mənə əmr etdyin şeyi çatdırıb belə demişəm: "Mənim də, sizin də Rəbbiniz olan Allaha ibadət edin!" Nə qədər ki, onların arasında idim, onlara nəzarət və şahidlik edirdim. Sən məni onların arasından qaldırdıqdan sonra onlara nəzarətçi Özün oldun. Sən hər şeyə şahidsən!

118. Əgər onlara əzab versən, Sənin qullarındırlar (əzabından qaça bilməzlər). Əgər onları bağışlasan, yenilməz qüvvət sahibi, hikmət sahibisən" (Əzabın hikmətsizlik, bağışlamağın zəiflik əlaməti deyil).

119. Allah buyurar: "Bu elə bir gündür ki, düz danışanlara düzlükləri fayda verər. Onları ağacları altından çaylar axan Cənnətlər gözləyir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan, onlar da Allahdan razıdırlar. Bu, böyük qurtuluşdur!"

120. Göylərin, yerin və onlarda olan hər şeyin hökmü Allaha məxsusdur. Allah hər şeyə qadirdir!

---

114. Eyd (bayram): Eyd "oud" sözündən götürülmüş, mənası qayıdış deməkdir. Buna görə də xalq və cəmiyyətin çətinliklərdən çıxıb əvvəlki rahatlıqlarına qayıtdıqları günlərə eyd – qayıdış deyilir. İslam bayramlarında insan mübarək Ramazan ayının ibadət və itaətləri sayəsində (Fitr bayramı) və ya Həccin vacib əməllərini yerinə yetrdikdən sonra (Qurban bayramı) ilk fitri paklığı və səfası ruhuna və canına qayıtdığı, fitrətə zidd olan çirkinliklər ortadan qalxıdığı üçün onlara eyd-qayıdış deyilir. Süfrənin endiyildiyi gün Allaha iman səfasına qayıdış günü olduğu üçün həzrət İsa (ə) həmin günü

eyd adlandırmışdır. Hədislərdə süfrənin bazar günü endirildiyi qeyd edilir. Bəlkə də xristianlarda bazar gününə hörmət göstərilməsinin səbəblərindən biri də budur. İmam Əlinin (ə) bir hədisində belə deyilir: ***"Allaha günah edilmədiyi gün bayramdır (eyddir)"***. Çünki günahın tərk edildiyi gün qələbə, paklıq və ilkin fitrətə dönüş günüdür[539]. Ayədən başqa bir nüans da başa düşülür. Belə ki, insanlara böyük bir rəhmət nəsib olarsa, həmin günü rəsmi bayram elan etmək olar. Həzrət İsa (ə) da süfrənin endirildiyi günü öz davamçıları üçün bayram elan etmişdi ki, hər il həmin günü bayram keçirsinlər. Bu məntiqlə, Peyğəmbərin (s) doğulduğu, peyğəmbərliyə seçildiyi və ya insanlar üçün mənəvi və əzəmətli süfrənin endirildiyi hesab edilən hər bir gün bayram təyin edilə bilər. Çünki belə günlər səmavi süfrənin həvarilərə endirildyi gündən qat-qat bərəkətlidir[540].

114. Səmavi süfrənin forması: İmam Baqir (ə) buyurmuşdur: ***"İsrail oğullarına nazil edilmiş süfrə göydən qızıl zəncirlərlə asılmış və orada doqquz ədəd balıq, doqquz ədəd çörək olmuşdur."***[541]

115. Bənzəri olmayan əzab: Təfsirçilər bu cümləni təfsir edərkən bildirirlər ki, göydən süfrə endirilməsini istəyənlər elə bir möcüzə istəmişdilər ki, bu yalnız onların özlərinə xas idi. Daha öncə heç bir ümmət belə bir möcüzə istəməmişdi. Buna görə də Allah-taala onları xəbərdar etmişdi ki, onları belə bir misilsiz möcüzə ilə şərəfləndirdiyim üçün bundan sonra kafir olsalar, misli və bənzəri olmayan əzaba düçar edəcəyəm. Əlbəttə, bu, həmin əzabın əzabların ən şiddətlisi olduğunu deməyə əsas vermir. Əslində, bu cümlədən həmin əzabın öz növündə bənzərsiz olduğu başa

---

[539] Nümunə, c.5, səh.131
[540] Mənşuri-cavid, c.12, səh.391
[541] Əl-mizan, c.4, səh.237

düşülür. Hədislərdə süfrə endirildikdən sonra kafir olanların donuza çevrildiyi qeyd edilmişdir[542].

119. Düzlüyün qiyməti və nəticəsi: Allah-taala bu ayədə buyurur ki, dünyada doğru danışanların düzlüyü axirətdə onlar üçün faydalı olacaq. Əlbəttə, burada düzlük deyilərkən təkcə düz danışmaq nəzərdə tutulmur, əməli cəhətdən də düz olmaq şərtdir. Amma düz danışmağın düzgün əməllə nəticələnəcəyini də unutmaq olmaz. Deyilənə görə, səhrada yaşayan bir kişi Peyğəmbərdən (s) onun nəsihət etməsini istəyir. Peyğəmbər (s) ona yalan danışmamağı tövsiyə edir. Həmin kişi sonralar etiraf edir ki, təkcə həmin nəsihətə əməl etmək onu bütün günahlardan çəkindimişdir. Çünki hansı günahla qarşılaşırsa, yadına düşür ki, əgər həmin günahı etsə və kimsə ondan nə etdiyini soruşsa, düzünü deməli, camaatı etdiyi günahdan xəbərdar etməli idi. Buna görə də həmin aqibətin qorxusundan günahdan çəkinir[543].

[542] Əl-mizan, c.6, səh.237
[543] Əl-Mizan, c.6, səh.251

"Ənam" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Həmd göyləri və yeri xəlq edən, zülmətləri və nuru yaradan Allaha məxsusdur! Lakin kafirlər öz Rəblərinə bənzər və şərik qoşurlar (Halbuki dünya onun təkliyini sübut edən dəlillərlə doludur).

2. Sizi palçıqdan yaradan, sonra əcəl (bir müddət) təyin edən Odur. Allahın yanında qaçılmaz bir əcəl də vardır. Bütün bunlara baxmayaraq, siz yenə də şübhə edirsiniz!

3. Göylərdə və yerdə Allah yalnız Odur![544] Sizin gizlində və aşkarda nəyiniz varsa, nə edirsinizsə (hamısından) xəbərdardır!

4. Onlara Rəblərinin ayələrindən elə bir ayə gəlməz ki, ondan üz çevirməsinlər!

5. Onlara haqq gəldiyi zaman onu yalan hesab etdilər. Ancaq tezliklə məsxərəyə qoyduqlarının xəbərləri onlara gəlib çatacaq! (Əməllərinin nəticəsindən xəbərdar olacaqlar)

6. Məgər onlardan əvvəl neçə-neçə ümməti məhv etdiyimizi görmədilərmi? Onlara sizə vermədiyimiz imkanları (qüvvəti) vermişdik. Onlara bol yağışlar göndərmiş, (evləri, sarayları və bağ-bağatlarının) altından çaylar axıtmışdıq. Onları günahlarına görə məhv etdik və onlardan sonra başqa yeni bir nəsil yaratdıq.

---

[544] Müşriklərin inancına görə yerin bir, göylərin başqa, müharibənin, sülhün və sairənin başqa-başqa yaradanı və idarə edəni var idi. Bu ayədə həmin inancın puç olduğu, yer və göyün bir yaradanı və bir idarə edicisi olduğu bildirildi.

7. Əgər sənə kağız üzərində bir məktub nazil etsək və onlar əlləri ilə ona toxunmuş olsalar belə, kafirlər yenə də: “Bu, açıq-aşkar bir sehrdir”, - deyərlər.

8. Onlar dedilər: “Nə üçün ona bir mələk endirilmədi?” Əgər Biz bir mələk göndərsək, iş bitmiş olacaq və onlara möhlət verilməyəcək.

“Ənam” surəsinin ümumi məzmunu: TəkAllahlıq inancı və şirkin inkar edilməsi bu surənin əsas məzmunu və məqsədini təşkil edir. Allahın tək olduğuna inanmaq deyilərkən insanın Rəbbinin bütün aləmlərin Rəbbi olması, hər şeyin Onun tərəfindən gəlməsi və Ona tərəf qayıdacağı, bəndələrini haqq dinə doğru yönəltmək üçün onlara Allahın rəhmət müjdəsini verən, qəzəb və əzabı ilə qorxudan peyğəmbərlər göndərdiyinə inanması nəzərdə tutulur. Bu surənin ayələrinin çoxu müşriklərə qarşı yönəlmiş dəlillərdən, təkAllahlıq, qayıdış (ölüb-dirilmək) və peyğəmbərlik prinsiplərindən bəhs edilr. Əlbəttə, dini vəzifələrə və qadağalara da ümumi şəkildə işarə edilir[545].

1. İşıq və zülmət: Bu ayədən belə başa düşülür ki, nur Allahın yaratdığı olduğu kimi, zülmət də onun yaratdığıdır. Halbuki görkəmli filosof və alimlər hesab edirlər ki, zülmət işığın olmamasıdır. Yəni zülmət və qaranlıq özü-özlüyündə mövcud olmur, onu yaratmaq da olmaz. Bəs o zaman nə üçün bu ayədə zülmət Allahın yaratdıqlarından hesab edilmişdir? Əvvəla, onu qeyd etməliyik ki, zülmət deyilərkən hər zaman qaranlıq nəzərdə tutulmur. Adətən gur və güclü işıq qarşısında çox zəif olan işığa da zülmət deyilir. Deməli, ayənin məzmunundan belə başa düşülür ki, Allah

---

[545] Əl-Mizan, c.7, səh.5

insanlar üçün gündüzün işığını və gecənin qaranlığını (güclü və zəif işıq) yaradıb. Belə olan halda, zülmət burada Allahın yaratdıqlarından olur. İkincisi, mütləq zülmətin yoxluq olması düzgündür. Lakin mövcud olmayan bir anlayışın xüsusi bir şəraitdə var olan anlayışdan qaynaqlanması danılmazdır. Yəni mütləq zülməti xüsusi bir şəraitdə müəyyən məqsədlər üçün yaradan insan mövcudluq vasitələrindən istifadə etməlidir. Məsələn, biz əksliyi göstərmək üçün bir neçə anlığa otaqda qaranlıq yaratmaq istəsək, bir neçə anlığa işığın qarşısını kəsməliyik. Belə olan halda zülmət də yaranmış hesab edilir[546].

2. Əcəl və onun qismləri: Şübhəsiz ki, burada "əcəl" və "qaçılmaz əcəl" fərqli-fərqli anlayışlardır. Buna görə də təfsirçilər bu fərqlər haqqında mübahisələr etmişlər. Ayələr və Əhli-beyt (ə) hədislərindən belə məlum olur ki, bu ikisinin fərqi ondadır ki, əcəl təklikdə qaçılmaz olmayan ömür, vaxt və müddətə deylir, qaçılmaz əcəl isə qaçılmaz olan ömür və müddətə deyilir. Başqa sözlə desək, qaçılmaz əcəl təbii ölüm, əcəl isə tez baş verən ölümə deyilir. Yəni insanın yaşaması və ömür sürməsi üçün lazım olan bütün şərtlər mövcud olarsa və bütün maneələr aradan qalxarsa, bədən quruluşu onun uzun müddət (məsələn, 80 il) yaşamasını təmin edə bilər. Lakin qəza və ya inthar səbəbilə insan 40 yaşında ölə bilər. Deməli 80 yaş qaçılmaz əcəl, 40 yaş isə əcəldir. Əcəlin bu iki növünün mənasına aydınlıq gəldikdən sonra bir çox məsələlərə aydınlıq gəlir. Hədislərdə oxuyur ki, qohumları ziyarət ömrün uzanmasına, qohumlarla əlaqənin kəsilməsi ömrün qısalmasına səbəb olur. Burada əcəl və ömür deyilərkən qaçılmaz olmayan əcəl nəzərdə tutulur. İstənilən halda hər iki əcəlin Allah tərəfindən təyin edildiyini nəzərdən qaçırmamalıyıq. Bunlardan biri qeyd-şərtsiz, digəri isə

---

[546] Nümunə, c.5, səh.146

müəyyən şərtlər çərçivəsində baş verir. Nümunə üçün deyə bilərik ki, bu işıq heç bir qeyd-şərtsiz iyirmi saatdan sonra sönəcək. Ancaq tufan qopa və həmin işıq iki saatdan sonra sönə bilər. Allah-taala insanlar və millətlərin də heç bir maneə olmayacağı təqdirdə müəyyən zamana qədər yaşamasını istəyir. Amma ortaya hər hansı maneə (günah, tənbəllik, səhlənkarlıq) çıxdıqda müəyyən edilmiş zamandan əvvəl sıradançıxma baş verə bilər[547].

9. Əgər Biz onu (peyğəmbəri) mələk etsəydik, hökmən onu bir insan qiyafəsində göndərər və onlar başqalarını şübhəyə saldıqları kimi, Biz də onları şübhəyə salardıq.

[547] Nümunə, c.5, səh.148

10. (Narahat olma.) Səndən əvvəlki peyğəmbərləri də məsxərəyə qoymuşdular. Lakin onları məsxərəyə qoyduqlarının özü məhv etdi.

11. De: “Yer üzünü dolaşın və sonra görün ki, (lahi ayələri) yalan hesab edənlərin aqibəti necə oldu?”

12. De: “Göylərdə və yerlərdə olanlar kimindir?” De: “Allahındır!” O, rəhmli olmağı Özünə vacib etmişdir. Olacağına heç bir şək-şübhə olmayan Qiyamət gününə sizi şübhəsiz ki, toplayacaqdır. Yalnız özlərinə ziyan vuranlar, iman gətirməzlər!

13. Gecədə və gündüzdə mövcud olan hər bir şey Onundur. O, eşidəndir, biləndir.

14. De: “Mən göyləri və yeri yaradan, bəsləyib Özü bəslənməyən (hamını yedirdib Özü yeməkdən uzaq olan) Allahdan başqasını özümə rəhbər və himayəçimi seçim?!” De: “Mənə ilk müsəlman olmaq əmr edildi və (Allah mənə) müşriklərdən olma!” (deyə əmr etdi).

15. De: “Əgər mən Rəbbimə asi olsam, böyük günün (Qiyamət gününün) əzabından qorxaram”.

16. O gün kim əzabdan qurtulsa, şübhəsiz ki, (Allah) ona mərhəmət əta etmişdir. Bu isə açıq-aydın qurtuluşdur (zəfərdir).

17. Əgər Allah sənə bir sıxıntı versə, (səni ondan) Allahdan başqa heç kəs qurtara bilməz. Əgər (Allah) sənə bir xeyir yetirsə (heç kəs Ona mane ola bilməz). Çünki O, hər şeyə qadirdir!

18. O, Öz qulları üzərində hakimi-mütləqdir. O, hikmət sahibidir, (hər şeydən) xəbərdardır!

---

9. Peyğəmbərin insanlarla eyni cinsdən olması: Bu ayəyə əsasən, insanlara rəhbərlik etməsi və onlara nümunə olması üçün peyğəmbərin

insanlardan olması, bütün insani xüsusyyətlərə və instinktlərə malik olması vacibdir. Çünki mələk insanların gözünə görünməməklə yanaşı, əməli cəhətdən onara nümunə də ola bilməz. Çünki nə onların ehtiyac və dərdlərindən xəbərdardır, nə də instinkt və istəkləri ilə tanışdır. Buna görə də insanlara rəhbərlik etmək üçün uyğun deyil. Bilməliyik ki, ***"hökmən onu bir insan surətində göndərərdik"*** cümləsində təkcə insanın zahiri forması nəzərdə tutulmamışdır. Bu cümlə onun həm zahirən, həm də daxilən insan olmasını ifadə edir. Sonra Allah onların "nə üçün insanı rəhbər təyin etdin, həqiqəti bizdən gizlətdin", - deyə yenədə öz əvvəlki etirazlarında qaldıqlarını bildirir[548].

12. Qayıdış, ilahi rəhmətin vacib şərtidir: Allah-taala "Rəhmət və bağışlamağı Özünə vacib etmişdir" cümləsi ilə qayıdış və ölümdən sonrakı dünyanın olması mövzusuna toxunmuşdur. Rəhmət və bağışlamağı Özünə vacib etmiş Allah ölümün insanların həyatlarına son qoymasına, təkamülün və həyatın davam etməməsinə icazə verərmi? Bu Onun sonsuz rəhməti ilə uyğunluq təşkil edirmi? O, sahibi və hamisi olduğu bəndələrinə qarşı rəhmsizlik göstərib bir müddətdən sonra onları puçluğa və heçliyə məhkum edərmi? Şübhəsiz ki, xeyr. Onun geniş rəhməti varlıqların, xüsusilə insanın təkamül yolunda irəliləməsini tələb edir. Allah-taala Öz rəhməti sayəsində kiçik və dəyərsiz bir toxumu qol-budaqlı, məhsuldar bir ağaca və gözəl bir gülə çevirdiyi, lütfkarlıq edib çox qiymətsiz bir nütfəni kamil bir insana çevirdiyi kimi, bu rəhməti Onun əbədi həyat və qalıcılıq istedadı olan insanı öldükdən sonra daha böyük bir aləmin həyat libasına bürüməsini, bu əbədi təkamül yüksəlişində rəhmət əlini onu çiyninə qoymasını tələb edir. Burada deyə bilərik ki, əbədi həyat yalnız rəhmətə layiq görülmüş insanlar üçündür.

---

[548] Nümunə, c.5, səh.161

Lakin qeyrilərinin nəsibi yalnız bədbəxtlik və sıxıntı olacaq. Şübhə yoxdur ki, Allahın işi insanlar üçün rəhmət zəmini yaratmaqdır. O, insanı yaradıb ona ağıl verdi, onu yönləndirmək, ona rəhbərlik etmək üçün peyğəmbərlər göndərdi, müxtəlif nemətlər bəxş etdi, əbədi həyata doğru gedən yolu hər kəsin üzünə açdı. Bunlar hamısı istisnasız rəhmətdir. İndi əgər insan bu rəhmət vasitələrinin nəticə verməsi istiqamətində irəliləməyib yolunu əyərsə, bütün rəhmət vasitələrini özünə işkəncə və zəhmətlə əvəz edərsə, bu davranış əsla həmin rəhmət vasitələrinə ləkə gətirə bilməz. Bütün qınaqların hədəfi rəhmət vasitələrini əzaba çevirən insandır[549].

12. Həqiqi müflislər: Bu ayədə maraqlı bir ifadə işlədilmişdir. Bəzən insan malını, vəzfəsini və ya bu sərmayələrindən birini itirir. Qeyd olunan məqamlarda insanın itirdikləri onun varlığının tərkib hissəsini təşkil etmir. Lakin ən böyük və həqiqi ziyan insanın əsl varlığını itirməsidir. Haqq düşmənləri və inadkar insanlar ömür, ağıl, fitrət, haqq yolunda istifadə ediləcəyi təqdirdə, insanı kamilliyin layiqli zirvəsinə qaldıra biləcək bütün fiziki və mənəvi nemətləri tamamilə itirirlər. Nəticədə, nə sərmayə qalır, nə sərmayədar. Bu ifadəyə Quranın bir çox ayələrində rast gəlmək olar. Bunlar haqq inkarçıları və çrikaba bulaşmışların acı sonunu açıb göstərən təkanverici məzmunlardır[550].

[549] Nümunə, c.5, səh.165
[550] Nümunə. C.5, səh.166

19. De: “Ən üstün şahidlik kimin şahidliyidir? (Özün də cavab ver və) de: Mənimlə sizin aranızda Allah şahiddir. Bu Quran mənə sizi və onun yetişəcəyi bütün insanları xəbərdar edib qorxutmağım üçün vəhy olundu. Məgər siz Allahla yanaşı başqa tanrılar olduğuna şahidlik edirsiniz?” De: “O, tək bir Tanrıdır. Mən sizin Ona şərik qoşduqlarınızdan uzağam!”

20. Kitab verilmiş şəxslər onu (Muhəmməd peyğəmbəri) öz oğullarını tanıdıqları kimi tanıyırlar. Yalnız varlıqlarının sərmayəsini əllərindən vermiş şəxslər iman gətirməzlər!

21. Allaha iftira yaxan və Onun ayələrini yalan hesab edən kəsdən daha zalım kim ola bilər?! Şübhəsiz ki, zalımlar nicat tapmazlar!

22. O gün (Qiyamət günü) onların hamısını (bir yerə) toplayacaq, sonra (Allaha) şərik qoşanlara deyəcəyik: “Allaha tay tutduğunuz tanrılarınız haradadır?! (Nə üçün köməyinizə gəlmirlər?!)

23. Onların: “Rəbbimiz Allaha and olsun ki, biz müşrik deyildik!” deməkdən başqa heç bir çarələri qalmayacaq.

24. Gör onlar özlərinə necə yalan deyirlər. Yalandan Allaha tay tutduqlarını da əldən verəcəklər!

25. Onların bir qrupu səni dinləyər, lakin onu (Quranı) başa düşməsinlər deyə, onların ürəklərinə pərdə çəkdik, qulaqlarına da karlıq (ağırlıq) verdik. Onlar bütün doğru əlamətləri görsələr də belə, ona inanmazlar. Hətta yanına gəldikdə sənlə höcətləşərlər. Kafir olanlar isə: ”Bunlar qədimlərin əfsanələrindən başqa bir şey deyildir!”, - deyərlər.

26. Onlar digərlərini ondan (Qurandan) uzaqlaşdırar, özləri də ondan uzaq durarlar. Onlar yalnız özlərini məhv edər, amma anlamazlar.

27. Kaş odun qarşısında dayandıqları zaman sən onların: “Kaş ki, (dünyaya) qaytarılıb Rəbbimizin ayələrini yalan hesab etməyəydik və möminlərdən olaydıq!” – demələrini görəsən!

---

19. Ən yüksək şahidlik: Şahdliyn iki əsas şərti var: 1. Məlumatdan olduğu kimi xəbərdar olmaq; 2. Açıq-aydın şəkildə ifadə etmək. Buradan belə başa düşülür ki, fərdlərin şahidliyinin qiyməti onların məlumatı dərketmə miqyasından, məlumatı bəyan etmə gücündən və həmin məlumatın özünün aydınlıq dərəcəsi ilə ölçülür. Yaddaşı zəif olan adamla hafizəsi güclü olan insanın şahidliyi, ağlı başında olmayan insanla huşu başında olan adamın şahidliyi arasında böyük fərq var. Bütün varlıq aləmini yaratmış və onların bütün sirlərindən xəbərdar olan, bütün yaranmışların hakimi, yerdə və göylərdə heç bir zərrədən xəbərsiz olmayan bir varlığın şahidliyi ən böyük və ən mühüm şahidlikdir. Allahın tək olması əqli dəlillərlə sübuta yetsə də, Quranın Allah tərəfindən nazil olması bizə qəti şəkildə aydın olduğu və Allah-taala Özünün Quranda tək olduğunu şahidlik etdiyi üçün bu şahidliyi qəbul edir və ona istinad edirik. İmam Baqir (ə) bu ayəni təfsir

edərkən belə buyurmuşdur: ***"Müşriklər İslamın ilk illərində, yəni Peyğəmbər (s) Məkkədə olduğu vaxt, ona dedilər: "Ey Muhəmməd, Allah bizə peyğəmbər göndərmək üçün səndən başqa adam tapmadı ki, səni göndərdi? Düşünmürük ki, kimsə sənin dediklərini təsdiq etsin. Biz sənin haqqında yəhudi və xristianlardan soruşduq. Onlar da məlumatsız olduqlarını bldirib dedilər: "Bizdə olan kitablarda o kişi haqqında məlumat verilməyib" Buna görə də öz peyğəmbərliyin üçün bir şahid gətirməlisən." Peyğəmbər (s) buyurdu: "Allah mənimlə sizin aranızda şahiddir."***[551]

19. İslam peyğəmbərinin (s) çağırışının cahanşümul olması: Ayənin "Bu Quran mənə sizi və onun yetişəcəyi bütün insanları xəbərdar edib qorxutmağım üçün vəhy olundu" cümləsi İslam peyğəmbərinin (s) peyğəmbərliyinin Qiyamətə qədər cahanşümul və ümumbəşəri olacağını göstərir. Yəni Peyğəmbərin (s) zamanından başlayaraq, Quranı onun özündən eşidib-eşitməməsindən, dillərinin Quran dili ilə eyni olub-olmamasından asılı olmayaraq, bütün insanlar İslam peyğəmbərinin (s) dininə və Qurana tabe olmalıdırlar. Çünki Quran ərəbdillilər üçün qanun kitabı olduğu kimi, tərcümə və təfsir vasitəsilə ərəbdilli olmayanlar üçün də qanundur. Tarixi mənbələrin yazdığına görə, Peyğəmbər (s) məktublar vasitəsilə ərəbdilli olmayan Misir, Həbəşistan, Roma və İran dövlətlərinə xəbər göndərib onları İslama dəvət etmişdir. Bundan əlavə, İslamın lk illərində ana dilləri Quranın dili ilə fərqlənən bəzi insanlar İslamı qəbul etmişdilər. Salman Farsi, Bilal Həbəşi və Süheyb Rumini misal göstərmək

---

[551] Əl-Mizan, c.7, səh.38-43

olar. İmam Sadiq (ə) bu ayəni təfsir edərkən belə buyurmuşdur: ***"Yəni hansı dildə olurlarsa olsunlar."***[552]

20. Kitab əhlinin Peyğəmbəri (s) tanıması: Deyilənə görə, ikinci xəlifə Ömər ibn Xəttab bir gün müsəlman olmazdan əvvəl yəhudilərin böyük alimlərindən olmuş Abdullah ibn Salama deyir: "Muhəmmədi öz kitabınıza əsasən (Tövratdan) tanıyırsınızmı?" O, deyir: "And olsun Allaha, öz uşaqlarımızı başqa uşaqların arasında görüb tanıdığımız kimi, onu da sizin aranızda görən kimi Allahın bizə xəbər verdiyi xüsusiyyətlər əsasında tanıyırıq. Abdullah ibn Salamın and içdiyi Allaha and içirəm ki, Muhəmmədi oğlumdan yaxşı tanıyıram."[553]

[552] Əl-Mizan, c.7, səh.41-44
[553] Əl-Mizan, c.7, səh.44

28. (Onlar, əslində, peşman deyillər) Sadəcə, daha öncə gizlətdikləri əməllər və niyyətlər qarşılarına çıxıb. Əgər geri qaytarılsalar, yenə qadağan olunduqları əməllərə dönərlər. Onlar yalançıdırlar!

29. Yenə də: “Həyat yalnız bu dünyadakı həyatımızdan ibarətdir. Biz (öldükdən sonra) əsla qaldırılmayacağıq!” – deyərlər.

30. Onları Rəblərinin hüzurunda durduqları zaman görsən! Allah onlara belə buyuracaq: “Bu, doğru deyilmi?” Onlar: ”Bəli, Rəbbimizə and olsun (ki, bu, doğrudur!)” – deyə cavab verəcəklər. (Allah) buyuracaq: “Elə isə etdiyiniz küfrlərə görə dadın əzabı!”.

31. Allahın hüzurunda duracaqlarını inkar edən kimsələr, həqiqətən, ziyana uğramışlar. Belə ki, saat (Qiyamət vaxtı) qəflətən onları yaxaladığı zaman günahlarını çiyinlərində daşıyaraq deyəcəklər: “Vay olsun bizə, ona səhlənkar yanaşdıq!” Çyinlərində necə də pis bir yük olacaq!

32. Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Axirət evi müttəqilər üçün daha xeyirlidir. Məgər dərk etmirsiniz?

33. Biz bilirik ki, onların danışdıqları səni kədərləndirir. Əslində, onlar səni yalançı hesab etmirlər, zalımlar Allahın ayələrini inkar edirlər.

34. Səndən əvvəl də peyğəmbərləri yalançı hesab etmişdilər. Lakin Bizim köməyimiz yetişənə qədər onlar yalançı hesab edilmələrinə dözdülər, səbr etdilər, əziyyətlər çəkdilər. (Sən də belə ol! Bu Allahın dəyişməz qanunlarından biridir) Allahın qanunlarını heç nə dəyişə bilməz! Peyğəmbərlərə aid xəbərlər sənə gəlib çatıb.

35. Onların üz döndərməsi sənə ağır gəlirsə, bacarırsansa, yerə bir lağım at və ya göyə bir nərdivan qoy (yerin dərinliklərini və göyləri axtarıb

onlara) bir möcüzə gətir! Əgər Allah istəsə, onları doğru yola toplayar. Elə isə əsla bilməyənlərdən olma!

---

28. Həqiqətləri gizləmək insanın özünü arxayın və rahat hiss etməsi üçün bir vasitədir: "Qarşılarına çıxdı" cümləsindən belə başa düşülür ki, onlar bir sıra həqiqətləri təkcə insanlardan deyil, özlərindən də gizləyirlər. Qiyamət günü bu həqiqətlər üzə çıxacaq. Süni də olsa rahatlıq tapmaq üçün insanın hər hansı həqiqəti hətta özündən də gizlətməsi, vicdan və fitrətinin üzərini örtməsi təəccüblü deyil. Vicdanı aldatmaq və və həqiqətləri özündən gizlətmək vicdanın fəaliyyətinə aid mövzularda diqqət mərkəzində olan məsələlərdəndir. Məsələn, ehtiras və tamah düşgünü olan bir çox insanların ehtiras və tamahları ucbatından çox böyük ziyana düşdüklərini gördükləri halda, heç nə olmamış kimi arxayınlıqla öz işlərinə davam etdiklərinin, hətta bu bilgini bir növ özlərindən də gizli saxlamağa çalışdıqlarının şahidi oluruq[554].

28. Əgər Cəhənnəmliklər dünyaya qayıtsalar, yenə də Cəhənnəmin yolunu tutarlar: Təfsirçilər ***"Əgər geri qaytarılsalar, yenə qadağan olunduqları əməllərə dönərlər."*** cümləsini izah edərkən bildirirlər ki, bu cümlə çirkin və murdar xüsusiyyətlərin dünyada onların varlıqlarına kök salacaq şəkildə təsir etdiyindən xəbər verir. Onları dünyaya qayıtmaq, Allaha iman gətirmək və möminlərin sırasına daxil olmaq arzusuna düşməyə vadar edən amil tərk etdikləri həqiqətin aşkara çıxmasıdır. Həmin həqiqət özünü bütün cəhətləri ilə, yəni Qiyamət gününün əzabı formasında büruzə verir. Gizli və mənəvi həqiqətlərin qeyd olunan şəkildə aşkara çıxması axirət

---

[554] Nümunə, c.5, səh.201

dünyasının zərurətlərindəndir. Lakin onlar bu həqiqətləri gördükdən sonra dünyaya qayıtsalar, dünyanın spesifik qanunları onlara yenidən hakim kəsiləcək, yəni qeyb aləminin üzərinə yenidən pərdə çəkiləcək, onlara azadlıq və ixtiyar veriləcək. Bu ixtiyar və azadlıq yenidən nəfsani istəklər, Şeytanın vəsvəsəsi, heyvan xisləti, təkəbbür və itaətdən boyun qaçırma ilə müşayiət olunacaq. Sözügedən insanlar nəticədə, öz keçmiş şirklərinə, Haqqla olan düşmənçiliklərinə qayıdacaqlar. Həqiqətdə, onlar yenidən dünyaya qayıtsalar, onları daha öncə dünyada şirkə, Haqla düşmənçiliyə və Allahın ayələrini yalan hesab etməyə vadar edən amillər yenidən onları eyni əməllərə vadar edəcək. Keçmiş dünya ilə fərz edilən gələcək dünyanın hökmləri arasında heç bir fərq olmayacaq[555].

32. Dünya həyatının oyun və əyləncəyə bənzədilməsi: Dünya həyatı oyun və əyləncəyə ona görə bənzədilir ki, oyun və əyləncələr adətən əsası olmayan, həqiqi həyat kontekstindən uzaq olan məşğulyyətlərdən ibarət olur. Oyunun nə qalibləri, nə də məğlubları həqiqi qalib və məğlublar olmurlar. Çünki oyundan sonra hər şey öz yerinə qayıdır. Çox vaxt uşaqların oynamaq üçün bir yerə toplaşıb birini əmir, digərini vəzir etdiyinin şahidi oluruq. Amma çox çəkmir ki, nə əmirdən, nə də vəzirdən bir əsər-əlamət qalmır. Əyləncə üçün hazırlanmış tamaşalarda döyüş, eşq və düşmənçilik səhnələrinin canlandırıldığının, lakin bir saatdan sonra heç birindən əsər-əlamət qalmadığını görürük. Dünya bir tamaşa səhnəsinə bənzəyir ki, insanlar onun oyunçularıdırlar. Bəzən bu uşaq oyunu hətta ağıllı insanları da özünə məşğul edir. Lakin çox çəkmir ki, bu əyləncə və tamaşanın sona çatdığı elan edilir. Məlumdur k, bu ayələrin məqsədi maddi dünyanın zahiri təmtəraqına ürək bağlayıb son məqsədin yaddan çıxarılmasına qarşı

---

[555] Əl-Mizan, c.7, səh.56

mübarizədir. Yoxsa ki, dünyanı özləri üçün xoşbəxtlik vasitəsi seçmiş insanlar dünya deyil, axirət axtarışındadırlar[556].

36. (Sənin dəvətini) yalnız eşidən qulaqları olanlar qəbul edər. (İnsanlıq ruhunu itirmiş, buna görə iman gətirməyən) Ölüləri Allah dirildər. Sonra onlar Allahın hüzuruna qaytarılar.

37. (Məkkə müşrikləri) dedilər: "Nə üçün Rəbbi tərəfindən ona (Peyğəmbərə) bir möcüzə endirilmir?" De: "Allah möcüzə endirməyə qadirdir. Lakin onların çoxu (belə bir möcüzə göndərildikdə onu inkar edəcəkləri təqdirdə başlarına gələcək müsibət və fəlakəti) bilməz!

38. Yerdə gəzən elə bir canlı, qanadları (iki qanadı) ilə uçan elə bir quş yoxdur ki, sizin kimi ümmətlər olmasın. Biz Kitabda (Quranda) heç bir

---

[556] Nümunə, c.5, səh.207

şeyi nəzərdən qaçırmadıq (əskiltmədik). Sonra onlar Rəblərinin hüzuruna cəm ediləcəkdir.

39. Ayələrimizi yalan hesab edənlər qaranlıqlar içində qalmış karlar və lallardır. Allah istədiyini (layiq olanı haqq yoldan) azdırar, istədiyini (layiq gördüyünü) isə düz yola yönəldər.

40. De: “Əgər doğru danışanlarsınızsa, mənə deyin görüm, sizə Allahın əzabı gəlsə və ya Qiyamət başınızın üstünü alsa, Allahdan başqasınımı çağıracaqsınız?”

41. Xeyr, yalnız Ona dua edib yalvaracaqsınız. O, əgər istəsə, yalvarıb xilas olmaq istədiyiniz bəlanı aradan qaldırar, siz də bu gün Allaha şərik qoşduğunuzu (həmin gün) unudarsınız.

42. Səndən əvvəlki ümmətlərə (peyğəmbərlər) göndərdik. (Həmin peyğəmbərlərə qarşı çıxıb onları inkar etdikləri zaman) onları müsibət və fəlakətə düçar etdik ki, bəlkə (ayılıb, Haqq qarşısında) təslim olub təvazökarlıq göstərsinlər.

43. Bəs əzabımız onların başlarının üstünü alanda nə üçün (təvazökarlıq göstərib) təslim olmadılar? Əksinə, (inadları üzündən) qəlbləri sərtləşdi və Şeytan da onlara etdikləri əməlləri süslü göstərdi.

44. Onlara edilmiş xəbərdarlıqları unutduqları zaman hər şeyin (bütün nemətlərin) qapılarını onların üzünə açdıq. Onlara verilən nemətlərə (tam) sevindikləri vaxt onları qəflətən yaxaladıq (ciddi şəkildə cəzalandırdıq) və onlar məyus oldular (ümid qapıları üzlərinə bağlandı).

-

38. Canlılar şüurlu varlıqlardır: Ayənin ərəbcə orijinalından işlənmiş “üməm” sözü “ümmət” sözünün cəmidir. Ümmət ortaq taleyi olan cəmiyyət və qrupa deyilir. Məsələn, vahid din və ya dil vahid xüsusiyyətlərə malikdir.

Bu ayədə buyurulur ki, heyvan və quş növlərinin hər biri özü-özlüyündə insanlar kimidir. Lakin bu bənzərliyin hansı cəhətdən olması ilə bağlı təfsirçilər arasında fikir ayrılıqları vardır. Digər ayələr və Əhli-beyt (ə) hədisləri onların bu ayədə insanlara əqli və şüuri cəhətdən bənzədildiyini deməyə əsas verir. Yəni onlar da öz aləmlərində bilgiyə, şüura və idraka malikdirlər, Allahı tanıyırlar. Şüuri cəhətdən onlar insan şüurunun ən aşağı səviyyəsinə malik olsalar da, öz gücləri daxilində Allaha həmd və təsbih deyirlər. Ayənin son hissəsi (***Sonra onlar Rəblərinin hüzuruna cəm ediləcəkdir***) də bu fikri təsdiq edir. Yəni heyvanlar üçün də ölüb-dirilmək və Qiyamət var. Çübhəsiz ki, hesab-kitabın, mükafatlandırma və cəzalandırmanın birinci şərti ağıl və şüur, ardınca isə vəzifə və məsuliyyətdir. Bu inancın tərəfdarları iddia edirlər ki, heyvanların da öz səviyyələrinə uyğun dərk və idraka malik olduğunu göstərən faktlar var. Bir çox heyvanların yüksək və heyrətamiz sistemə malik olan həyat tərzi onların şüur və dərklərinin yüksək səviyyədə olduğundan xəbər verir. Qarışqalar, arılar, quşlar, bir çox başqa heyvanların mürəkkəb həyat tərzi və heyrətamiz ictimai sistemi bu fikri təsdiq edr. Bir çox heyvanların öz sahiblərinə qarşı olan sevgisi və sədaqəti də qeyd olunanlar fikri gücləndirir. Şübhəsiz ki, bunların hamısını yalnız instinktdən qaynaqlandığını söyləmək olmaz. Çünki instinkt adətən monoton və davamlı fəaliyyətlərin qaynağıdır. Lakin xüsusi şəraitlərdə öncədən proqnozlaşdırıla bilməyən və əsasən reaksiya səciyyəsi daşıyan davranışlar instinkt deyil, şüur və dərk əsaslı olur. Bunlardan əlavə, Quranın bir sıra ayələrini də bəzi heyvanların şüur və dərkə malik olduğunu göstərən qətiyyətli dəlillər hesab etmək olar. Qarışqaların Süleymanın (ə) ordusunun qarşısından qaçması, şanapipiyin Səba və Yəmənə gəlməsi və oradan Süleymana (ə) həyəcanverici xəbərlər gətirməsindən bəhs edən ayələr bu iddianı təsdiq edir. Hədislərdə də heyvanların öldükdən sonra

diriləcəyindən xəbər verilir. Əbuzərə istinad edilən bir məlumatda deyilir: Peyğəmbərin (s) yanında idik. İki keçi kəllələşdi. Peyğəmbər (s) buyurdu: ***"Bilirsiniz, onlar nə üçün kəllələşdilər?"*** orada olanlar "Xeyr", - deyə cavab verdilər. Peyğəmbər (s) buyurdu: ***"Ancaq Allah bilir və tezliklə onlar arasında hökm çıxaracaq."*** Burada ortaya belə bir sual çıxır, vəzifə və məsuliyyətin başlıca səbəbi ağıl olduğu halda, onlar da insanlar kimi gördükləri işlərə görə məsuliyyət daşıyırlar? Halbuki uşaqlar, əqli və psixoloji xəstələrin məsulyyətdən azad olduqlarını bilirik. Qeyd etməliyik ki, vəzifə və məsuliyyətin mərhələləri var və hər bir mərhələ özünə uyğun olan ağıl və idrakın olmasını tələb edir. İslamda insanlar üçün o qədər vəzifələr müəyyənləşdirilib ki, yüksək ağıl və idrak olmadan onları yerinə yetirmək mümkün deyil. Biz bu cür vəzifələri heyvanlar üçün qəbul edə bilmərik. Çünki onlar bu vəzifələrin yerinə yetirilməsi üçün lazım olan əqli səviyyəyə malik deyillər. Sadə və ən aşağı vəzifə üçün müəyyən şüur və dərkin olması yetərlidir. Heyvanların müəyyən şüur səviyyəsinə və ona uyğun vəzifə daşıdığını tamamilə inkar edə bilmərik. Belə ki, nə qədər ibtidai olsa da, uşaqlar və dəlilərdən də öz hədlərində davranış tələb edilir. Gözləntinin əksi baş verdikdə, onlar da cəzalandırılır[557].

[557] Nümunə, c.5, səh.221-227

45. Artıq o zalım tayfanın kökü kəsildi. Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur!

46. De: “Bir deyin görüm, əgər Allah sizin qulaqlarınızı və gözlərinizi əlinizdən alsa, ürəklərinizə möhür vursa, onları sizə Allahdan başqa kim verə bilər?” Gör Biz ayələrimizi onlara necə izah edirik, sonra onlar gör necə üz döndərirlər?

47. De: “Bir deyin görüm, əgər Allahın əzabı sizə qəflətən (gizli) və ya aşkar gəlsə, zalım tayfadan başqası həlak edilərmi?”

48. Biz peyğəmbərləri ancaq müjdə verənlər və (əzabla) qorxudanlar olaraq göndərdik. İman gətirib özlərini islah edənlərin heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər!

49. Ayələrimizi yalan hesab edənlərə isə itaətszlik göstərdiklərinə görə əzab yetişəcəkdir!

50. De: “Mən sizə demirəm ki, Allahın xəzinələri mənim yanımdadır. Mən (Allahın mənə öyrətdikləri istisna olmaqla) qeybdən də xəbərdar deyiləm və sizə də demirəm ki, mən mələyəm. Mən yalnız mənə vəhy edilənə tabe oluram”. De: “Kor görənlə bir olarmı? Məgər düşünmürsünüz?”

51. Rəblərinin hüzuruna cəm ediləcəklərindən qorxanları onun (Quranla) vasitəsilə xəbərdar et. (Həmin gün) Onların Allahdan başqa heç

bir hamisi və havadarı yoxdur. Bəlkə onlar (bununla) pis əməllərdən çəkinsinlər!

52. Səhər axşam Allahı çağıran və yalnız Onun özünü istəyənləri yanından qovma. Nə sən onların verəcəkləri hesabata azca da olsa cavabdehsən, nə də onlar sənin (verəcəyin) hesabatında azca da olsa cavabdehdirlər. Buna görə də onları qovsan, zalımlardan olarsan.

--

45. Zülm və zülmkarlığın kökünün kəsilməsi: Ayənin son hissəsində Allah-taala "Həmd aləmlərin Rəbbinə məxsusdur", - deyə buyurmuşdur. Bu da zülm, fəsad və zülmkarların kökünün kəsilməsinin həmd və şükür ediləcək qədər əhəmiyyətli olduğunu göstərir. İmam Sadiq (ə) buyurmuşdur: "Zülmkarların qalmasını istəyən şəxs Allaha günah edilməsini istəyən şəxs kimidir. Allah-taala zalımların məhv edilməsinə görə Özünə tərif deyərək buyurmuşdur: "Artıq o zalım tayfanın kökü kəsildi. Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur!"[558] Müasir dünyada bu ayənin nümunələrindən biri açıq-aşkardır. Nəmrud, Firon, Əbu Cəhl, Əbu Süfyan, Müaviyə, Yezid və Əhli-beyt (ə) düşmənlərinin nəslindən əsər-əlamət yoxdur. Lakin bütün məzlumluqlarına baxmayaraq, Əhli-beyt (ə) ailəsi bütün İslam ölkələrində mövcuddur və günbəgün sayları da artmaqdadır[559].

50. Qeyb elmi: Təfsirçilərin qənaətinə görə ***"Mən (Allahın mənə öyrətdikləri istisna olmaqla) qeybdən də xəbərdar deyiləm"*** cümləsi onu göstərir ki, Peyğəmbər (s) qeybdən özbaşına, müstəqil şəkildə xəbərdar olmur. Yəni onların zatı onları başqalarının bilmədiyi məlumatlardan xəbərdar edəcək qüvvə ilə təchiz edilməyiblər. Məhz elə bu ayədə

---

[558] Nümunə, c.5, səh.239
[559] Ətyəbül-bəyan, c.5, səh.69

Peyğəmbərə (s) vəhy edildiyi qeyd edilmişdir. Bu da onu göstərir ki, o, qeybdən vəhy vasitəsilə xəbərdar olur. "Cin" surəsinin 26-27-ci ayələrində Allah-taala belə buyurmuşdur: ***"Qeybi bilən ancaq Odur və Öz qeybini heç kəsə əyan etməz; Bəyənib seçdiyi peyğəmbərdən başqa!"*** Deməli, heç bir varlıq, o cümlədən Peyğəmbər (s) özbaşına qeybdən xəbərdar olmur. Lakin Peyğəmbər (s) Allahın izni, vəhy və ya Allahın istədiyi başqa bir vasitə ilə bəzi qeyb həqiqətlərindən xəbərdar olur[560].

52. İslam ictimai təbəqələşmə fikrinə qarşıdır: Bu, bundan əvvəlki və sonrakı ayələrin nazilolma səbəbi ilə bağlı bir-birinə oxşar çoxlu sayda hədis və rəvayətlər nəql edilmişdir. Onların birində deyilir: Bir qrup qüreyşli yoldan ötərkən Peyğəmbərin (s) Süheyb, Xubab, Bilal, Əmmar və bir neçə yoxsul müsəlmanla əyləşdiyini görüb təəccüblə soruşurlar: "Ey Məhəmməd, insanlar arasından yalnız bunlara razılıq vermisən? Allah bizim aramızdan elə bunları seçib? Biz bunlara tabe olaq? Nə qədər gec deyil, onları ətrafından uzaqlaşdır. Bəlkə biz ondan sonra sənə yaxınlaşa və sənə tabe olarıq." Bu ayə nazil oldu və onların təklifini rədd etdi. İslam, Quran və peyğəmbərlər məktəbinin əzəmətini ifadə edən əlamətlərdən biri budur ki, onlar bu cür təkliflərə qarşı ciddi şəkildə mübarizə aparmış, sosial təbəqələşmənin hər zaman pboblem olduğu cəmiyyətlərdə mal və sərvətsizliyin Salman, Əbuzər, Süheyb, Xubab kimi təmiz, imanlı və zəkalı şəxslərə az da olsa qüsur gətirmədiyini, beyinsiz, kor, özünü bəyənmiş, təkəbbürlü, lovğa varlıların mal və sərvətlərinə görə ictimai və mənəvi imtiyaza malik olmadığını çatdırmaq üçün çalışmış, anormal imtiyaz düşüncəsinə qarşı çıxmışlar[561].

---

[560] Əl-mizan, c.7, səh.97
[561] Nümunə, c.5, səh.251

Sonumidtv.az

53. Beləliklə, onların bəzilərini bəziləri ilə (varlıları yoxsullarla) ilə sınağa çəkdik ki, nəhayət “Allahın aramızdan seçib minnət qoyduğu (iman

nemətini bəxş etdiği) şəxslər bunlardırmı?" desinlər. Şükür edənləri daha yaxşı tanıyan məgər Allah deyilmi?

54. Ayələrimizə iman gətirənlər yanına gəldikdə onlara de: "Sizə salam olsun! Rəbbiniz rəhmli olmağı Özünə vacib etmişdir. Sizlərdən hər kəs pis iş görsə, sonra tövbə edib düzəlsə (Allah onun günahından keçər, çünki) Allah bağışlayandır, mehribandır!"

55. Biz ayələrimizi belə müfəssəl izah edirik ki, (həqiqət sizin üçün aydın olsun və) günahkarların yolu açıq-aydın bilinsin.

56. De: "Sizin Allahı qoyub ibadət etdiyiniz varlıqlara ibadət etmək mənə qadağan edilmişdir". De: "Mən sizin nəfsinizin istəklərinə əsla uymaram. Belə ola biləcəyi təqdirdə mən (haqq yoldan) azar və doğru yola yönəlmişlərdən olmaram!"

57. De: "Mən Rəbbimdən (gələn) açıq-aydın bir dəlilə istinad edirəm. Siz isə onu yalan hesab etdiniz. Sizin (endirilməsinə) tələsdiyiniz hadisə (ilahi əzabı endirmək) mənim əlimdə deyil. Hökm yalnız Allaha məxsusdur. Haqqı batildən ayırır. O, ayırd edənlərin ən yaxşısıdır!"

58. De: "Əgər tələsdiyiniz hadisə (əzab) mənim əlimdə olsaydı, iş mənimlə sizin aranızda əlbəttə, bitmiş olardı. Ancaq, Allah zalımları daha yaxşı tanıyır! (və tam vaxtında cəzalandırır)."

59. Qeybin açarları yalnız Onun yanındadır. Onları ancaq və ancaq O bilir. O, suda və quruda nə varsa bilir. Yerə düşən elə bir yarpaq yoxdur ki, (Allah) ondan xəbərdar olmasın. Yerin qaranlıqları içində elə bir toxum, yaş-quru elə bir şey yoxdur ki, açıq-aydın kitabda (lövhi-məhfuzda) olmasın!

---

54. Tövbənin həqiqəti: Bu ayədən aydın olur ki, mömin insan yalnız bilməzlik və başa düşməzlikdən ehtirasına tabe olduqda günaha yol verir.

Yoxsa, imanlı şəxs təkəbbür, inad və lovğalıqdan Allaha günah etməz. Ayədə Allah "Sonra tövbə edib düzəlsə", - deyə buyurmuşdur. Bu da onu göstərir ki, tövbə keçmiş səhvləri düzəltmək və yanılşları aradan qaldırmaqdır. Çünki həqiqətən, Allaha dönüb Ona sığınıbsa, yenidən özünü tövbə edib təmizlədiyi günahın çirkinliyinin ağuşuna atıb bulaşdırmaz. Tövbənin mənası budur. Tövbə təkcə dildə "Allaha tövbə edirəm" deyib qəlbən heç bir islah və düzəlmək niyyəti olmadan tövbə sayılmaz. Belə ki, Allah-taala "Bəqərə" surəsinin 284-cü ayəsində belə buyurmuşdur: ***"Ürəyinizdə olanı üzə çıxarsanız da, gizlətsəniz də, Allah sizi ona uyğun hesaba çəkəcək"***. İmam Sadiq (ə) buyurmuşdur: Allah ölməzdən əvvəl Allaha doğru qayıdıb tövbə edən bəndəyə rəhmət etsin. Çünki həmin tövbəsinə görə Allah layiqli bəndəsi ilə bağlı özünə bir haqqı vacib edərək buyurmuşdur: ***"Rəbbiniz rəhmli olmağı Özünə vacib etmişdir. Sizlərdən hər kəs pis iş görsə, sonra tövbə edib düzəlsə (Allah onun günahından keçər, çünki) Allah bağışlayandır, mehribandır!"*** Habelə Allah-taala buyurmuşdur: ***"Pis iş gördükdən və ya özünə zülm etdikdən sonra Allahdan bağışlanmaq diləyən şəxs Allahın bağışlayan, mərhəmətli olduğunu görər."*** (Nisa surəsi, 110-cu ayə)[562]. Bu ayəyə əsasən, cahillik üzündən baş vermiş əməllərə görə tövbə edildikdə, qəbul edilir. Bilməzlik mənasını verən cahillik bəzən elm və məlumatın qarşılığı kimi işlədilir. Bu söz bəzən məlumat və bilgisinin bilgi sahibinə heç bir təsir göstərmədiyi, məlumatsız insanlar kimi davranan, çirkin və pis işləri sanki onun çirkinliyindən xəbəri olmayan insan kimi həyata keçirən, onları gözəl və bəyənilən işlər kimi icra edən məlumatlı və bilən insan haqqında da işlədilir. Başqa sözlə desək, insanın çirkin və pis işlərlə bağlı dərk və düşüncəsi daxili

[562] Əl-Mizan, c.7, səh.107-113

istəklərininin əsarətinə məruz qaldıqda, üsyankar instinktlər ağıl və düşəncəsini öz təsiri altına aldıqda, ehtiras, qəzəb və nəfsani istəklər insanın həyat devizinə çevrildikdə onu cahil edir. Quranda və el arasında ağıl, elm və məlumatları olsa belə, bu cür insanlara cahil və nadan deyilir, nadanlıqlarından qaynaqlanan davranışlar cahil davranışlar hesab edilirş. Nə etdiyini bilən və tutduğu əməlin çirkinliyindən xəbərdar olmasına baxmayaraq, ağıl və düşüncəsi nəfsani istəklərinin əsarətinə məruz qalmış gəncə də cahil və nadan deyilir. Bu şərhdən belə məlum olur ki, günahkar fərdin etdiyi çirkin əməllər iki qrupa bölünür: 1. Gənclik instinktlərinin təsirinə məruz qalmış gəncin nəfsani istəklərinə uyub tutduğu çirkin əməl. Bu əməl cahilcəsinə əməl olsa da, inadkarlıq və təkəbbürlükdən qaynaqlanmır. Buna görə qəzəb və ehtiras odu söndükdən, cəhalət pərdəsi qalxdıqdan sonra tez də peşman olur. Şübhəsiz ki, bu cür insanın tövbəsi qəbul olur və Haqqın rəhməti onu əhatə edir. 2. Nəfsani istəklər və instinktlərin təsirindən deyil, inadkarlıq və təkəbbürlükdən qaynaqlanan çirkin və pis işlər. Daxili xəyanət, təkəbbür bu cür insanı xoşagəlməz işlərə vadar edir. Bu xislət adətən insanın ömrünün sonuna qədər onunla birlikdə olur, gənclik dövrünün ehtrias və nəfsani istəklərinin odu sönsə də, o sönmür. Şübhəsiz ki, belə əməllər tövbə ilə sona yetmir, Allahın sonsuz rəhmətini qazandırmır[563].

[563] Mənşuri-cavid, c.8, səh.237

60. Gecə (yuxuda) ikən sizi (sizin ruhunuzu, canınızı) alan, gündüz isə nə etdiyinizdən xəbərdar olan Odur. Sonra O sizi gündüz (yuxudan) oyandırır. Məyyən olunmuş vaxt gəlib yetişənə qədər (bu vəziyyət davam edir). Sonra ona doğru qayıdacaqsınız və sonra da O sizi etdiyiniz əməllərdən xəbərdar edəcəkdir.

61. O, Öz bəndələri üzərində hakimi-mütləqdir. O, sizə mühafizəçilər təyin edir. Nəhayət, birinizin əcəli gəlib çatdıqda onun canını elçilərimiz alır. Onlar (bəndələrin ömür və əməllərinin hesabının qorunmasında) heç bir səhlənkarlığa yol verməzlər!

62. Sonra (bəndələr) həqiqi rəhbərləri olan Allaha tərəf qaytarılar. Bilin ki, hökm və mühakimə Ona məxsusdur və O, ən sürətli haqq-hesab çəkəndir!

63. De: “Son dərəcə təvazökarlıqla (aşkarda) və gizlində Ona dua edib: “Əgər bizi bundan (zülmətlərdən və təhlükələrdən) xilas etsə, şükür edənlərdən olarıq”, - deyə yalvardığınız zaman sizi suyun və qurunun zülmətindən xilas edən kimdir?”

64. De: “Allah sizi bunlardan xilas edir, hər bir çətinlik və narahatlıqdan qurtarır. Amma yenə də siz Ona şərik qoşursunuz”

65. De: “Allah yuxarıdan və ayaqlarınızın altından sizə əzab göndərməyə, sizi dağınıq dəstələr şəklində bir-birinizə qarışdırmağa və biriniz vasitəsilə digərinizə müharibə (qarşıdurma) dadını daddırmağa qadirdir!” Gör ayələrimizi onlara necə izah edirik? Bəlkə, başa düşərlər!

66. Sənin qövmün onu (Allahın ayələrini), haqq olduğu halda, yalan hesab etdi. (Onlara) de: “Mən sizə görə məsuliyyət daşımıram!”

67. (Allahın sizə verdiyi) hər bir xəbərin müəyyən bir vaxtı vardır və siz tezliklə biləcəksiniz.

68. Ayələrimizə istehza edənləri gördüyün zaman onlar söhbəti dəyişənə qədər onlardan üz çevir. Əgər Şeytan sənə unutdursa, xatırladıqdan sonra o zalım tayfa ilə oturma.

---

61. İnsanın mühafizəçiləri: Ayənin “O sizə mühafizəçilər təyin edir” cümləsini şərh edən təfsirçilər burada insanları bəlalardan və təhlükələrdən qorumaqla vəzifələndirilən mələklərin nəzərdə tutulduğunu qeyd etmişlər. Varlıq aləminin bütün üzvləri daha çox kamilləşmək, bu dünyadan daha çox faydalanmaq istədiyi üçün bizi əhatə edən bu dünya təhlükə və bəlalarla doludur. Bu səbəbdən də bütün mövcudat davamlı olaraq mübarizə aparır, biri digəri üzərində qələbə çalmağa çalışır. Bildiyimiz kimi, insan mövcudatın ən zərif və ən zəif nümayəndəsidir. Buna görə də Allah insanı

əcəli yetişənə qədər bəlalardan, xoşagəlməz hadisələrdən, müsibət və təhlükələrdən qorumaq üçün ona qoruyucu mələklər göndərmişdir. Əcəli yetişdikdə isə bu mələklər insanı bəlalar içində tərk edir və bəlalar insanın ömrünə xitam verir. Bu məzmun bəzi hədislərdə də öz əksni tapmışdır[564].

65. Müxtəlif əzablar: Bu ayədə Peyğəmbərə (s) günahkarları üç növ əzabla təhdid etmək göstərişi verilmişdir: Yuxarıdan gələn əzablar; aşağıdan qalxan əzablar; sözlərin çəp gəlməsi, nəticədə müharibə baş verməsi, qan tökülməsi. Yuxarıdan gələn və aşağıdan qalxan əzablar məsələsi təfsirçilər arasında fikir ayrılığının yaranmasına səbəb olmuşdur. Əslində, bu iki ifadənin məzmunu çox genişdir. Belə ki, yuxarıdan və aşağıdan gələn bəlalar deyildikdə həm ildırımlar, təhlükəli yağıntılar, zəlzələlər, yer sürüşmələri, uçqunlar, dənzlərdə qasırğalar, çaylarda daşqınlar baş verməsi, həm də cəmiyyətin yüksək təbəqəsinin bəzi millətlərin başına od yağdırması, öz işini bilməyən işçilərin camaata problemlər yaratması nəzərdə tutula blər. Bu ayənin məzmunu müasir dövrdə insanların həyatını havadan və qurudan zülmətə çevirən, qısa müddət ərzində havadan endirilən aviazərbələr, minalar, sualtı hücumlar zamanı kəndləri, şəhərləri yerlə-yeksan edən, kül təpələrinə döndərən dəhşətli silahlara da şamil ola bilər[565]. Hədislərdə də bu əzabların müxtəlif formalarına işarə edilmişdir. Hədislərin çoxunda yuxarıdan gələn əzab deyildkdə göydən qopacaq olan fəryad, aşağıdan gələn əzab deyildikdə yerə batma nəzərdə tutulduğu qeyd edilmişdir. Hədislərə görə, bu iki əzab gələcəkdə, İmam Mehdinin (ə) zühur edəcəyi ərəfədə bu ümmətin başına gələcək olan əzablardandır. İxtilaf və parçalanmaya gəlincə isə, bu, Peyğəmbərdən (s) sonra İslam ümmətinin başına gələn ən böyük

---

[564] Əl-Mizan, c.7, səh.135
[565] Nümunə, c.5, səh.282

müsibətdir. Tam qətyyətlə deyə bilərik ki, bu problem müsəlmanların başına gələn saysız-hesabsız bəlaların ən başlıca səbəblərindəndir[566].

68. Allahın ayələrinin məsxərəyə qoyulduğu məclisdə iştirakın qadağan edilməsi: Bu ayədə ümumi bir hökm verilmişdir. Bu da Allahın ayə və nişanələrinin məsxərəyə qoyulduğu bir məclisdə iştirak etməyin qadağan edilməsi ilə bağlıdır. Əhli-beyt (ə) hədislərində bu cür məclislərlə bağlı məlumatlar verilmişdir. Peyğəmbər (s) buyurmuşdur: ***"Allaha və axirətə inamı olan şəxs imamlardan birinə söyüş söyüldüyü və ya möminlərin qeybətinin edildiyi məclisdə əyləşməməlidir. Çünki Allah öz kitabında belə buyurmuşdur: "Ayələrimizə istehza edənləri gördüyün zaman onlar söhbəti dəyişənə qədər onlardan üz çevir."***[567]

[566] Əl-Mizan, c.7, səh.140 və 155
[567] Əl-Mizan, c.7, səh.144 və 157

69. (Öyüd-nəsihət vermək üçün onlarla əyləşən) müttəqilərə onların əməllərindən heç bir günah gəlməz. Lakin bu, onlara xatırlatmaq üçün olmalıdır ki, bəlkə pis əməllərdən çəkinsinlər.

70. (Fitri) dinlərini oyun və əyləncəyə çevirən, dünya həyatının məğrur etdiyi şəxsləri boşla getsinlər. Onlara bunun (Quran) vasitəslə xatırlat ki, heç kəs əməllərinin çətinliyini çəkməsin. (Qiyamətdə) Allahdan başqa onun nə bir dostu var, nə də bir şəfaətçisi (havadarı). O, hər hansı şəkildə əvəz ödəsə belə, ondan qəbul olunmaz. Onlar etdikləri əməllərin cəzasına məhkumdurlar. Onları küfr etdiklərinə görə qaynar su və şiddətli əzab gözləyir!

71. De: “Biz Allahı qoyub bizə nə bir xeyir, nə də bir zərər verə bilməyən şeylərəmi tapınacağıq? Allah bizi düz yola yönəltdikdən sonra “Bizə tərəf gəl!”, - deyərək, düz yola çağıran dostlarının olmasına baxmayaraq, şeytanın vəsvəsələri ilə yer üzündə düz yolu itirmiş çaşqın adam kimi geriyəmi döndəriləcəyik? De: “Yalnız Allahın haqq yolu doğru yoldur. Bizə aləmlərin Rəbbinə təslim olmaq əmr edilmiş,

72. Habelə: “Namaz qılın, Allahdan qorxun, hüzuruna toplanacağınız məhz Odur!” (deyə buyurulmuşdur)”.

73. Göyləri və yeri haqq olaraq yaradan Odur. Onun: “Ol!” deyəcəyi gün (hər şey) dərhal olar. Onun sözü haqdır. Surun üfürüləcəyi gün hökm Ona məxsusdur. Qeybi və aşkarı bilən də Odur. O, hikmət sahibidir, (hər şeydən) xəbərdardır!

---

69. “68-ci ayə”nin istisnası: İmam Baqir (ə) buyurmuşdur: Əvvəlki ayə nazil olduqdan və müsəlmanlara istehza və məsxərə edən kafirlərlə eyni məclisdə iştrak etmək qadağan edildikdən sonra bir qrup müsəlman dedi:

Əgər hər yerdə bu göstərişə əməl etməli olsaq, gərək Məscidül-harama getməyək, Allahın evini təvaf etməyək. Çünki kafirlər Məscidin hər tərəfində yayılmış və Allahın ayələrini məsxərəyə qoyurlar. Məscidin hər hansı küncündə dursaq, onların sözlərini eşitməli olacağıq. Bu zaman 69-cu ayə nazil oldu və müsəlmanlara qeyd olunan şəraitlərdə onlara nəsihət vermək, bacardıqca doğru yola yönəltmək göstərişi verildi. Bu ayənin nazilolma səbəbi ilə bağlı söylənilən hadisə bütün surənin nazilolma səbəbi ilə təzad təşkil etmir. Çünki müsəlmanların həyatında müxtəlif hadisələr baş verə, sonra tam surə nazil ola və bu surənin ayələri həmin hadisələrin ayrı-ayrı cəhətlərini nəzərdə tuta bilər. Unutmamalıyıq ki, bu ayənin istisnasından yalnız o adamlar istifadə edib ayələrin istehza edildiyi məclislərdə iştirak edə bilərlər ki, ayədə qeyd edildiyi kimi təqvalı olsunlar, onların təsirlərinə düşməməklə yanaşı, onları düz yola yönləndirsinlər, məclis iştirakçılarına təsir göstərə bilsinlər[568].

70. Dünyapərəstliyin fitri dinlə ziddiyyəti: Bu ayədə dünyapərəst insanların nəfslərinə tabe olaraq haqq dinlərini məsxərəyə qoymasına işarə edilmişdir. Bu ayədən dünyapərəstlərin də haqq dinə malik olduqları vurğulanmışdır. Bu, ruhlarının dərinliklərindən insanları Allaha doğru səsləyən həmin ilah fitrətdir. Deməli, onlar bu fitri dini ciddiyə almalı, onun təhriflərə və xurafatlara qarışmasına yol verməməlidirlər. Lakin dünyapərəstlər onu oyun-oyuncağa, əyləncə vasitəsinə çevirmişlər, nəfslərinin istədiyi şəkillərə, qəliblərə salırlar. Buna görə də Allah-taala ***"Dünya həyatı onları məğrur etmişdir"***, - deyə buyurmuşdur. Çünki dünyanın maddi ləzzətlərində qərq olmaq, onlardan kam almaq üçün

---

[568] Nümunə, c.5, səh.287

göstərilən maksimum səylər onların haqq dindən üz çevirməsinə və onu məsxərəyə qoymalarına səbəb olmuşdur[569].

70. İnsanın öz əməlindən ayrı düşməsi qeyri-mümkündür: Bu ayədə diqqət yetirilməsi önəmli olan nüans budur ki, ***"Onlar etdikləri əməllərin cəzasına məhkumdurlar"*** cümləsi onlardan kompensasiya qəbul edilməyəcəyi, hami, köməkçi və yardımçıları olmayacağı üçün deyilmişdir. Yəni onların cəzasına səbəb hər hansı xarici amil olmayacaq ki, onu dəf etmək də mümkün olsun. Məruz qalacaqları əzab onların öz cövhərlərindən, malik olduqları xüsusiyyətlərdən və etdikləri əməllərdən qayanqlanır. Onlar öz əməllərinin əsiridirlər. Buna görə və xilas ola bilməzlər. Çünki əməllər və onların təsir və nəticələrindən ayrılmaq insanın özü-özündən ayrılması deməkdir[570].

71. Tənəzzül və xilas arasında sərgərdan olmaq: Bu ayədə öz əməlindən baş açmayan və xoşbəxtliyini təmin etmək üçün möhkəm iradə göstərməyən çaşqın adamın təsviri verilmişdir. O, məqsədə çatmaq üçün lazım olan, daha əvvəllər haqq yola yönəlmiş insanların qət etdiyi ən yaxşı və qətiyyətli yolu tərk etmişdir. O, insanı məhvə və bədbəxtliyə sürükləyən şeytanlar və azdırıcılar arasında çaşqına dönmüşdür. Halbuki məqsədə yetmiş və ya mənzil başına çatmaqda olan haqq yolunun yolçuları isə onu öz yanlarına dəvət etsələr də o tənəzzül və xilas arasında qalıb nə edəcəyini bilmir[571].

---

[569] Əl-Mizan, c.7 səh.147
[570] Nümunə, c.5, səh.294
[571] Əl-Mizan, c.7, səh.149

74. İbrahimin atası (əmisi) Azərə: “Sən bütləri özünə tanrı seçirsən? Mən səni və sənin qövmünü açıq-aydın azğınlıq içində görürəm!” – dediyi zamanı xatırlayın!

75. Beləcə, İbrahimə göylərin və yerin hökmranlığını (və Allahın onlar üzərindəki mütləq hökmranlığını) göstərdik ki, heç bir tərəddüd etmədən əminliklə inananlardan olsun!

76. Gecənin qaranlığı onu bürüdükdə o, bir ulduz görüb: “Bu mənim Rəbbimdir!”, batdıqda isə: “Mən batanları sevmirəm”, dedi.

77. Doğmaqda olan ayı görüb: “Bu mənim Rəbbimdir!”, (ay) batdıqda isə: “Doğrudan da, əgər Rəbbim məni doğru yola yönəltməsə, mən zəlalətə düşənlərdən olaram”, - dedi.

78. Doğan günəşi görüb: “Bu mənim Rəbbimdir, bu, daha böyükdür!” – dedi. (Günəş) batdıqda isə dedi: “Ey camaatım, mən, həqiqətən, sizin Allaha şərik qoşduqlarınızdan uzağam!

79. Mən üzümü göyləri və yeri yaradana çevirdim. Mən öz imanımda ixlaslı və səmimiyəm, şərik qoşanlardan deyiləm!”

80. Tayfası onunla (İbrahimlə) mübahisəyə qalxdı. (İbrahim) dedi: “Allah məni doğru yola yönləndirdiyi halda, siz Onun barəsində mənimlə mübahisə edirsiniz? Rəbbimin istədiyi hər hansı bir şey istisna olmaqla, mən sizin Ona şərik qoşduğunuz heç nədən qorxmuram. (Onlar mənə ziyan vura bilməzlər). Rəbbim elminin genişliyi hər şeyi əhatə edir. Məgər düşünüb ibrət almırsınız?

81. Allahın sizə haqqında heç bir dəlil endirmədiyini Ona şərik qoşmaqdan qorxmadığınız halda, mən niyə sizin qoşduğunuz şəriklərdən qorxmalıyam? Əgər bilirsinizsə, (o zaman deyin görək) bu iki dəstədən (bütpərəstlər, Allahpərəstlər) hansı əmin-amanlıqda (Qiyamət əzabından qorxmamağa) olmağa daha layiqdir?

---

74. İbrahimin atası: Quran ayələrini araşdırdıqda Azərin həzrət İbrahimin atası olmadığı məlum olur. Sadəcə, şəraitdən asılı olaraq həzrət İbrahim onu ata deyə müraciət edirdi. Ata sözü doğma atadan sonra babaya, əmiyə, ögey ataya, insana himayədarlıq etmiş və ya itaət göstərilən bütün böyüklərə də aid edilə bilər. Əlbəttə, Quranda İbrahimlə (ə) Azəri hansı qohumluq əlaqəsinin bağladığı dəqiq qeyd edilməmişdir. Bəzi hədislərdə

onun əmisi olduğu qeyd edilmişdir. Bir çox hədislərdə həzrət İbrahimin (ə) atasının adının Tarex olduğu göstərilmişdir. "Tövrat"da da həzrət İbrahimin atasının adı belədir[572].

75. Göylərin və yerin hökmranlığının İbrahimə (ə) göstərilməsi: Quran ayələrinin dərinliklərinə vardıqda məlum olur ki, Allah-taala göylərin və yerin hökmranlığını həzrət İbrahimə (ə) göstərərkən hər şeyin Ondan asılı olduğunu, Allahdan başqa heç bir şeyin müstəqil olmadığını başa salmaq məqsədi güdmüşdür. Hər şeyin Allahdan asılı, Ona möhtac olduğu, kainatın idarə edilməsində heç nəyin onunla ortaq olmadığı məlum olduqda, kainatda olan hər bir şeyə nəzər saldıqda bu mövcudatların bir-birlərinin idarəedicisi olmadığı aydın olur. Deməli, insanların öz əlləri ilə düzəltdikləri bütlər də insanların Rəbbi ola bilməz, batan, çıxan, dəyişkənliyə məruz qalan ulduzlar, ay və günəş də kainatın idarəedicisi ola bilməz. Buna görə də bütün səltənətləri, hər bir şeyin Allahdan asılı olduğunu gördüyü üçün bütpərəstlik, ulduzpərəstlik, aypərəstlik, günəşpərəstlik və istənilən növ şirkə qarşı mübarizə aparırdı[573]. Əslində, çox insanlar yerə, göylərə, göy cismlərinə baxırlar, hətta bir çoxlarının peşəsi və məşğuliyyəti günəş və ayı müşahidə etmək, onların çıxıb-batmasını hesablamaqdır, bu sahə üzrə ixtisaslaşıblar, ancaq aləmlərin hökmranının kim olduğu görə bilmirlər. Çünki peşələrinin əhatə dairəsinə daxil olanları gördükdə, onların yaradanı və idarəedicisi haqqında düşünmürlər[574]. Allah-taala İbrahimin mənəvi övladları olan müsəlmanlara dünyanın batininə baxmağı göstəriş verir. Aləmin batinini müşahidə etməyin ən mühüm yolu fitri tövhidi, qəlb yolunu

[572] Əl-Mizan, c.7, səh.167
[573] Əl-Mizan, c.7, səh.176
[574] Tematik təfsir, c.2, səh.91

gücləndirməkdir. Bu yol elə bir yoldur ki, insan öz məhbubunu öz qəlbində tapır[575].

76. Ay və sair göy cismlərinin zahiri idarəçiliyini qəbul etmək "Tövhid" sözünü ucaltmaq üçündür. İmam Rza (ə) buyurmuşdur: ***"İbrahimin (ə) qövmü üç qrupa bölünmüşdü: Bir qrupu Zöhrə ulduzuna (Venera), bir qrupu aya, başqa bir qrupu isə günəşə stayiş edirdi. İbrahim (ə) sığındığı mağaradan çıxdıqdan sonra bu müşriklərlə rastlaşır. Gecə vaxtı Zöhrə ulduzunun çıxdığını görüb "Mənim tanrım budur" deyir. Amma həqiqəti bildiyi üçün ürəyində onu inkar edirdi. Zöhrə ulduzu batdıqdan sonra "Mən batanları sevmirəm. Çünki batmaq hər zaman mövcud olanın deyil, yaranmışın xüsusiyyətidir" deyir. Parlayan ayı gördükdə "Mənim tanrım budur" dedi. Amma həqiqəti bildiyi üçün ürəyində onu inkar edirdi. Ay gözdən itdikdən sonra deyir: "Əgər Rəbbim məni düz yol yönləndirməsə, şübhəsiz ki, haqq yoldan azmışlardan olacağam." Səhər tezdən şölə saçan günəşi görüb deyir: "Mənim tanrım budur. Bu Zöhrədən də, aydan da böyükdür." Amma həqiqəti bildiyi üçün ürəyində onu inkar edirdi. İbrahim (ə) bu sözləri şirkə bulaşmış inanca etiraf etmək və bunu onlara təbliğ etmək üçün demirdi. Günəş batdıqdan sonra üzünü hər üç qrupa tutub deyir: "Ey mənim xalqım, mən sizin Allaha qoşduğunuz şirklərdən uzağam. Mən üzümü o şəxsə tərəf çevirirəm ki, göyləri və yeri yaradıb. Mən öz imanımda səmimi və ixlaslıyam." İbrahim (ə) bu sözləri yalnız onların dinlərini puça çıxarmaq, onlara Zöhrə, ay və günəş kimi cismlərin ibadətə layiq olmadığını, bütün***

[575] Tematik təfsir, c.12, səh.234

bunların, göylərin və yerin xalqinin Allah olduğunu və yalnız onun ibadətə layiq olduğunu sübuta yetirmək üçün deyirdi...”[576]

82. İman gətirib imanlarını şirk və zülmə bulaşdırmayanlar əmin-amanlıqdadırlar. Onlar haqq yola yönəlmişlərdir!

83. Bu, öz qövmünə qarşı Bizim İbrahimə verdiyimiz dəlillər idi. Biz istədiyimiz (layiq gördüyümüz) şəxsi dərəcə-dərəcə ucaldırıq. Sənin Rəbbin hikmət sahibi, elm sahibidir.

84. Biz İshaqı və Yəqubu Ona bəxş etdik. Onların hər ikisini haqq yola yönləndirdik. Bundan əvvəl Nuhu və onun övladlarından olan Davudu, Süleymanı, Əyyubu, Yusifi, Musanı və Harunu da haqq yola yönəltmişdik. Biz yaxşı iş görənləri belə mükafatlandırırıq.

85. Zəkəriyyanı, Yəhyanı, İsanı, İlyası da (haqq ola yönəltdik). Onların hamısı əməlisalehlərdən idi.

---

[576] Əl-Mizan, c.7, səh.213

86. Habelə İsmaili, Əlyəsəi, Yunisi və Lutu da (haqq ola yönəltdik) və onları aləmlərdən üstün tutduq.

87. Biz onların atalarından, nəsillərindən və qardaşlarından da (bir qisminə üstünlük bəxş etdik), onları seçdik və düz yola yönəltdik.

88. Bu, Allahın hidayətidir. Bununla bəndələrindən istədiyini haqq yola yönəldir. Əgər onlar müşrik olsaydılar, etdikləri (yaxşı) əməllər puça çıxardı.

89. Onlar Bizim kitab, hökm və peyğəmbərlik verdiyimiz kimsələrdir. Əgər (indi) bunlar (Qüreyş müşrikləri və başqa kafirlər) bu dəlilləri dansalar, Biz onlara həmin dəlilləri inkar etməyən bir tayfanı mühafizəçi edərik.

90. Onlar (adları çəkilən peyğəmbərlər) Allahın doğru yola yönəltdiyi kimsələrdir. Sən də onların haqq yolunu tutub get. De: “Mən bunun (peyğəmbərlik və təbliğ) müqabilində sizdən bir haqq istəmirəm. Bu (peyğəmbərlik vəzifəsi) aləmlər (bütün bəşəriyyət) üçün yalnız bir xatırlatmadır.”

---

82. Əmin-amanlıq zülmə bulaşmamış imanın nəticəsidir: Əvvəlki ayədə İbrahimin (ə) üzünü bütpərsət qövmünə tutuaraq: “Bu iki dəstədən (bütpərəstlər, Allahpərəstlər) hansı əmin-amanlıqda (Qiyamət əzabından qorxmamağa) olmağa daha layiqdir?”, - deyə soruşduğunu və elə bu suala özünün də cavab verdiyini görürük. Bu ayəyə əsasən, haqq yola yönəlmə və əmin-amanlıq iman gətirənlərə məxsusdur. Bir şərtlə ki, bu iman gətirənlər öz imanlarını şirkə və zülmə bulaşdırmasınlar. Allahı tanıması, elminin və ayıqlığının səviyyəsindən asılı olaraq, insanların imanları da bir-birindən fərqlənir. İmanın dərəcəsindən asılı olaraq, ona edilən haqsızlıq da fərqlənir. Dünyanın bir yaradıcısının olduğuna və həmin yaradanın kainatı idarə

etdiyinə, bütün mövcudatın onun əmri ilə idarə edildiyinə inanan şəxs onun kainatın idarəçiliyində tək olduğuna da inanmalı və yaradılışdan heç birini ona şərik qoşmamalıdır. Bu cür insanın Allaha şərik qoşması zülmdür. Dərəcə cəhətdən əvvəlkindən daha yüksək olan şəxs əvvəlki mərhələdə olan şəxsin malik olduğu imana malik olmaqla yanaşı valideynə qarşı haqsızlıq, yetim malı yemək, adam öldürmək, zina, şərab içmək və sair kimi günahlarla qarşılaşdıqda bu günahlardan çəkinir. Bu mərhələdə olan şəxsin imanının təsiri həmin günahlardan uzaq durmaqla şərtlənir. Allah-taala bu mərhələdə olan insana kiçik günahlarını bağışlayacağını vəd vermişdir. Belə ki, "Nisa" surəsinin 31-ci ayəsində belə buyurmuşdur: "Əgər sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, kiçik günahlarınızın üstünü örtər və sizi gözəl bir məkana daxil edərik." Bu həddin elminə və biliyinə sahib olan şəxs böyük günahlara bulaşarsa, bu mərhələnin əmin-amanlığı ondan alınar və o Cəhənnəmdə yandırılar. Baxmayaraq ki, həmişəlik Cəhənnəmdə qalmayacaq, şəfaət və ya əzab müddətinin tamamlanması nəticəsində xarc olacaq. Bundan daha yüksək mərhələnin zülmü savab olan əməlləri tərk etmək, bəyənilməyən işlər görmək, halallarla kifayətlənmək. Bundan daha yüksək mərhələnin zülm və haqsızlığı gözəl əxlaqi, ilahi, mənəvi, ruhani davranışlarda xətalara yol vermək, bundan da yüksək mərhələdə olan insanların özlərinə zülm və haqsızlığı onların ilahi sevgiyə mane olan xətaya yol verməsidir. Bu mərhələnin hər birinə xas olan iman möminə xüsusi əmin-amanlıq bəxş edir, həmin mərtəbəyə uyğun olan bədbəxtliyə səbəb olan zülm və haqsızlığı dəf edir. Bu ayə ilə bağlı olan hədislər də qeyd olunan fikri təsdiq edir. Hədislərin bəzisində zülm şirk, bəzisində isə şübhə kimi izah edilmişdir. Hədislərin bəzisində Əhli-beyt (ə) düşmənləri ilə dostluq da zülm və haqsızlıq nümunəsi kimi verilmişdir. Deməli, bu ayədə

zülm deyilərkən fərdlərin iman və idrak dərəcələrindən asılı olaraq dəyişən bütün zülmlər nəzərdə tutulur[577].

89. Allah dininin mühafizəçiləri: Yuxarıdakı ayələrdə İbrahimin (ə) müşriklərə dolayısı ilə vahid və təkAllahlıq inancının insan təbiətinə və cövhərinə əsaslandığını və onların öz təbətlərinə zidd davrandıqlarına inandırdığını görürük. Sonra Allah-taala peyğəmbərləri xalis və təmtəraqsız tövhid inancı ilə əzizlədiyini, onları sapma olmayan yola yönəltdiyini, onlara kitab, hikmət və peyğəmbərlik bəxş etdiyini bəyan edir. Bu ayədə Allah Peyğəmbərə (s) müxaliflərin küfr, şirk və inadkarlıqlarına görə kədərlənməməsi üçün təskinlik verir. Çünki onlar ilahi hidayəti və Peyğəmbərin (s) peyğəmbərliyini inkar edərlərsə, Allah onları tövhid inancını qoruyan və onu əsla inkar etməyən din mühafizəçiləri ilə əvəz edər, onlara etimad göstərərək öz dininin mühafizəçiləri edər. Allahın dinini hər zaman qoruyan və onun süquta uğramasına imkan verməyən bəndələri vardır. Bunlar Allahın məsum bəndələri, yəni peyğəmbərlər və onların haqq davamçılarıdır. Belə ki, hədislərin birində ayənin ən parlaq nümayəndələrindən birinin məsum imamlar (ə) olduğu qeyd edilmişdir[578].

[577] Əl-Mizan, c.7, səh.207
[578] Əl-Mizan, c.7, səh.268 və 267

91. Onlar: “Allah heç bir insana bir şey nazil etməmişdir”, - deməklə Allahı doğru tanımamışdılar. De: “Musanın insanlara bir nur və hidayət olaraq gətirdiyi kitabı kim nazil etmişdir? Siz onu hissələrə bölür, bir hissəsini aşkara çıxarır, böyük bir hissəsini isə gizlədirsiniz. Sizə özünüzün və atalarınızın bilmədiyi məsələlər öyrədilir. De: “Allah!” onları inadkar danışıqları ilə birlikdə tərk et ki, oyun-oyuncaqları ilə baş-başa qalsınlar.

92. Bu, xeyir-bərəkəti, özündən əvvəlkiləri təsdiq edən bir kitabdır ki, onu sənə abadlıqların anasının (Məkkə) əhalisini və ətrafındakı insanları qorxutmaq üçün nazil etmişik. Axirətə iman gətirənlər ona iman gətirər, namazlarını da qoruyub saxlayarlar.

93. Allaha iftira yaxan, özünə heç bir vəhy nazil olunmadığı halda: “Mənə də vəhy olunmuşdur, mən də Allahın nazil etdiyinin bənzərini endirəcəyəm”, - deyən şəxsdən daha zalım kim ola bilər? Sən (bu) zalımların ölümün əzabları içində çabaladıqdıqlarını, mələklərin də əllərini uzadıb: “Çıxarın canlarınızı! Siz bu gün Allaha iftiralar atdığınıza və Onun ayələrinə qarşı təkəbbürlü davrandığınıza görə alçaldıcı bir əzabla cəzalandırılacaqsınız!” – dediklərini görsən (hallarına acıyacaq, təəssüflənəcəksən)

94. (Qiyamət günü onlara deyiləcək:) Siz Bizim hüzurumuza ilk dəfə sizi yaratdığımız kimi tək-tənha, sizə bəxş etdiklərimizi arxanızda qoyub gəlmisiniz. Şəfaətinizə şərik olacaqlarını düşündüyünüz şəfaətçilərinizi yanınızda görmürük. Artıq aranızdakı əlaqələr kəsilib və arxalandıqlarınız sizdən uzaqlaşıb yox olublar.

---

91. Yəhudilər və ilahi vəhyin gizlədilməsi: Soruşula bilər ki, nə üçün bu ayədə səmavi vəhyi kağız və bu kimi vasitələr üzərinə yazan yəhudilər məzəmmət edilmişdir? Burada ki, məzəmmət ediləsi bir şey yoxdur. Əslində, məzəmmət səbəbi onların Tövratı dağınıq kağız və bu kimi vasitələr üzərinə yazıb xeyirlərinə olanı camaata göstərmələri, ziyanlarına olanları gizlətmələri idi[579]. İmam Sadiq (ə) bu ayə haqıqnda belə buyurmuşdur: ***"Onlar ilahi vəhyi kağızlar üzərinə yazır ,sonra istədiklərini aşkara çıxarır, istədiklərini gizlədirdilər."***[580]

92. İslam peyğəmbərinin (s) dəvətinin miqyası: Quranın bir çox ayələri İslamın ümumdünya bir din olduğunu açıq şəkildə bəyan edir. Lakin bu ayəyə nəzər saldıqda ortaya belə bir sual çıxır: Necə olur ki, bu ayədə Peyğəmbərin (s) göndərilməsinin məqsədi Məkkə və onun ətrafında olan insanları düz yola yönəltmək və onları qorxutmaqla məhdudlaşdırılır. Bu məzmun İslamın ümumdünya miqyaslı bir din olması prinsipi ilə təzad təşkil etmirmi? Bu suala cavab verməzdən əvvəl onu qeyd etməliyik ki, Quran dilində "qəryə" iri və ya kiçik şəhər və kənd olmasından asılı olmayaraq abadlıq olan yerə deyilir. "Yusuf" surəsinin 82-ci ayəsində Yusifin qardaşlarının atalarına belə dedikləri qeyd edilmişdir: ***"Biz olduğumuz abadlıq haqqında soruş".*** Bilirik ki, onlar bu sözləri Misirin paytaxtından qayıtdıqdan, qardaşları Benyaminin Misirin əzizinin adamları tərəfindən saxlanılması hadisəsindən sonra demişdilər. Təbii ki, bu ayədə də abadlıqlar deylərkən kəndlər nəzərdə tutulmur. Bu söz dünyanın bütün insan məskənləri olan ərazilərini ehtiva edir. Digər tərəfdən, bir çox hədislərdə

---

[579] Nümunə, c.5, səh.341
[580] Əl-Mizan, c.7, səh.315

yerin quru hissəsinin Kəbənin altından başlayaraq yayılmağa başladığı, məhz bu səbəbdən də onun "Dəhvül-ərd" (yerin genişlənməsi) adlandırıldığı qeyd edilmişdir. Yəni sudan ilk xaric olan quru nöqtəsi Məkkə olmuşdur. Buna görə də Məkkəyə "Ümmül-qura" (abadlıqların başlanğıcı) deyilmişdir. "Ümm" ərəb dilində özəy, əsas, başlanğıca deyilir. Buna görə də "Onun ətrafındakı insanlar" deyilərkən yer üzünün bütün sakinləri nəzərdə tutulur[581].

93. Quranın misli, əsla: İmam Sadiq (ə) bu ayənin nazilolma səbəbi haqqında belə buyurmuşdur: ***"Osmanın süd qardaşı olan Abdullah ibn Səd ibn Əbu Sərh Mədinəyə gəlib İslamı qəbul edir. Onun yaxşı xətti var idi. Buna görə də Peyğəmbərə (s) vəhy nazil olanda onu çağırıb vəhyi yazmasını göstəriş verir. Peyğəmbər (s) ona "Allah eşidəndir, görəndir" dedikdə o, "eşidəndir, biləndir" yazır. Peyğəmbər (s) "Allah etdiklərinizdən xəbərdardır", - deyə buyurduqda, o "görəndir" yazır. Nəticədə, İslamdan dönüb kafir olur. Məkkəyə döndükdən sonra qüreyşlilərə deyir: "Allah və Məhəmməd nə dediklərini bilmirlər." Mən onun dediyinin bənzərini deyə, Allahın endirdiyini endirə bilərəm. Allah bu ayəni onun haqqında nazil edir. Ona qarşı edilən güzəşt Peyğəmbər (s) Məkkəni fəth edənə qədər davam edir. Məkkənin fəthindən sonra Peyğəmbər (s) onun qətlinə fərman verir. Osman onun əlindən tutub Peyğəmbərin (s) yanına gəlir. Onlar gələndə Peyğəmbər (s) məsciddə olur. Osman deyir: Ey Allahın rəsulu (s), onu bağışla. Peyğəmbər (s) susur. Osman eyni sözü yenə təkrar edir. Peyğəmbər (s) buyurur: O sənin boynuna. Osman qayıtdıqdan sonra Peyğəmbər (s) səhabələrinə buyurur: Məgər mən sizə demədimmi ki, onu görən kimi öldürün? Bir nəfər deyir: Ey Peyğəmbər (s), mənim gözüm***

[581] Nümunə, c.5, səh.344

sizdə idi, gözləyirdim ki, onu öldürməm üçün mənə işarə edəsiniz. Peyğəmbər (s) buyurur: Peyğəmbərlər işarə ilə adam öldürtdürmürlər. Nəticədə, Abdullah ibn Əbu Əsrəh Peyğəmbərin (s) azad etdiklərindən olur”[582].

95. Toxumu da, çəyirdəyi Allah çatladır. Ölüdən diri, diridən də ölü çıxarır. Budur sizin Allahınız! Axı siz Haqqdan necə döndərilirsiniz?

96. Dan yerini O sökür; gecəni istirahət səbəbi, günəşi və ayı isə hesab vasitəsi etmişdir. Bu, yenilməz qüvvət sahibi, bilən Allahın təqdiridir.

97. Suyun və qurunun zülmətində düz getmək üçün ulduzları sizin üçün yaradan da Odur. Biz bilən insanlar üçün əlamətləri izah etdik.

---

[582] Əl-Mizan, c.7, səh.293

98. Sizi tək bir insandan yaradan da Odur. (İnsanlar iki qrupa bölünür:) Bəzləri sabit, bəziləri dəyişkəndir. Biz ayələrimizi anlayan insanlar üçün müfəssəl bəyan etdik.

99. Göydən su endirən Odur. Biz onunla müxtəlif bitkilər yetişdirdik, yaşıl fidanlar və budaqlar göyərtdik, onlardan bir-birinə sıxlaşmış dənələr çıxartdıq. Biz xurma ağacının çiçəyindən nazik salxım çiçəklər çıxartdıq. Habelə, üzüm bağları, bir-birinə bənzəyən və bənzəməyən zeytun və nar yetişdirdik. Bar verdiyi vaxt onların meyvəsinə və yetişməsinə baxın. Bunda imanlı şəxslər üçün əlamətlər vardır.

100. Cinləri yaratdığı halda, onlardan Allaha şəriklər qoşdular, yalandan və bilmədən Onun üçün oğullar və qızlar uydurdular. Allah isə onların Ona aid etdikləri sifətlərdən uzaqdır və yüksəkdə durur

101. O, göyləri və yeri var edəndir. Zövcəsi olmadığı halda Allahın övladı necə ola bilər axı? Hər şeyi O yaratmışdır. O, hər şeyi biləndir!

--

96. Gecə və istirahət səbəbi: Allah-taala bu ayədə gecəni istirahət və rahatlıq tapmaq üçün bir vasitə etdiyini buyurmuşdur. İnsanın işıq və aydınlıqda iş və fəaliyyətə meylli olduğu danılmazdır. İşıqda qan dövranı bədənin səth hissəsinə meyllənir və bütün hüceyrələr aktiv olur. Buna görə də işıqda yatmaq insana elə də rahatlıq və dinclik gətirmir, əksinə, əzginlik yaradır. Lakin ətraf nə qədər qaranlıq olarsa, yuxu bir o qədər şirin və dərin olar, bədənə rahatlıq bəxş edər. Çünki qaranlıqda qan dövranı bədənin dərinliklərinə daha çox meyllənir, hüceyrələrin fəaliyyəti passivləşir. Məhz elə buna görədir ki, hava qaraldıqdan sonra təbiətdə təkcə canlılar deyil, bitkilər də yuxuya gedir, dan yerinin ilk işartısında isə oyanış, hərəkət və aktivləşmə başlayır. Əhli-beyt (ə) hədislərində bu həqiqətin ruhunu əks

etdirən göstərişlərə daha çox rast gəlinir. Belə ki, "Nəhcül-bəlağə"də İmam Əlinin (ə) dostlarından birinə belə nəsihət verdiyini görürük: ***"Qaranlıq düşdükdən sonra hərəkət etmə ki, Allah gecəni səfər üçün deyil, dincəlmək və istirahət etmək üçün yaratmışdır. Gecə vaxtı dincini al, yorğunluğunu çıxar."*** İmam Baqir (ə) buyurmuşdur: ***"Gecə vaxtı ailə qurmaq sünnənin bir hissəsidir. Çünki Allah gecəni rahatlıq və istirahət səbəbi təyin etmişdir."*** İmam Səccadın (ə) öz xidmətçisinə belə buyurduğu nəql edilmişdir: ***"Dan yeri söküləna qədər heyvan kəsməyin. Çünki Allah gecəni bütün canlılar üçün istrahət vasitəsi etmişdir."***[583]

98. Sabit və dəyişkən insanlar: Bu ayədə bəzi insanların sabit, bəzilərinin isə dəyişkən olduğu buyurulmuşdur. Təfsirçilər bu iki ifadə ilə bağlı çoxlu şərhlər vermişlər. Br izaha görə, "sabit" deyilərkən yaradılışı cəhətdən tamlanmış və ana bətnində dünyaya gəlişini gözləyən və ya dünyaya gəlmiş insan, "dəyişkən" deyilərkən isə yaradılışı hələ tamamlanmamış, hələ də nütfə şəklində atasının belində olan insan potensialı nəzərdə tutulur. Başqa bir təfsirə görə, "sabit" deyilərkən əbədi olan və heç zaman ölməyən ruh, "dəyişkən" deyilərkən isə sabit olmayan fani bədən nəzərdə tutulur. Bəzi hədislərdə bu ifadələrlə bağlı mənəvi məzmunlar da qeyd edilmişdir. Belə ki, hədislərdə "sabit" deyilərkən iman cəhətdən sabit olan, "dəyişkən" deyilərkən isə iman cəhətdən sabit olmayan insanların nəzərdə tutulduğu qeyd edilmişdir[584].

100. Cini Allaha şərik qoşdular: Cin deyilərkən bu ayədə şeytanlar nəzərdə tutula bilər. Belə ki, zərdüştilər Yəzdan və Əhrimən olmaqla iki tanrıya inanırdılar. Bu inanca Yezidiyyə firqəsi də malikdir. Onlar İblisi tanrı hesab edir, ona məlik tavus və ya pərilər şahi deyirlər. Ola bilər ki,

---

[583] Nümunə, c.5, səh.360
[584] Nümunə, c.5, səh.367

burada elə həqiqi cin nəzərdə tutulmuşdur. Çünki müşriklər Allahın cinləri özünə qız övladı seçdyinə və pərilərin bu vasitə ilə yarandığına inanırdılar. Əlbəttə, sonuncu nəzəriyyə ayənin məzmunu ilə daha çox uyğunluq təşkil edir. Çünki ayədə ***"Yalandan və bilmədən Onun üçün oğullar və qızlar uydurdular."***, - deyə buyurulmuşdur. Burada mələklərdən üstün varlıqların nəzərdə tutulduğunu da deyə bilərik. Brahmanlar və buddistlərin inancı həzrət İsanı (ə) Allahın oğlu hesab edən xristanların inancına bənzəyir. Bundan əlavə, keçmiş bütpərəstlər bütləri Allahın övladları, ərəb müşrikləri isə mələkləri Allahın qızları hesab edrdilər[585].

[585] Əl-Mizan, c.7, səh.300

102. O Allah Rəbbinizdir! Ondan başqa heç bir məbud yoxdur. Hər şeyi yaradan Odur. Ona ibadət edin. O, bütün mövcudatın mühafizəçisi və hamisidir.

103. Gözlər Onu görməz. Amma O, gözləri görər. O, lütfkar və xəbərdardır!

104. Rəbbinizdən sizə parlaq dəlillər gəlmişdir. Kim (onların vasitəsilə haqqı) görsə, öz xeyrinə, kim göz yumsa, görməzdən gəlsə, öz ziyanınadır. Mən sizə nəzarətçı deyiləm.

105. Biz ayələrimizi belə izah edirik. (Qoy onlar): “Sən dərs almısan (bunları başqalarından öyrənmisən)”, - deməklərində olsunlar. Biz onu həqqətləri dərk etməyə hazır olanlar üçün aydınlaşdırmaq istəyirik.

106. Rəbbindən sənə vəhy edilənə tabe ol. Ondan başqa heç bir məbud yoxdur. Müşriklərdən isə üz çevir!

107. Əgər Allah istəsəydi, onlar (məcburi şəkildə iman gətirər və) müşrik olmazdılar. Biz səni onların üzərində cavabdeh qoymamışıq və sən onları məcbur etmək vəzifəsi daşımırsan!

108. Allahdan başqalarına tapınanları söyməyin. Yoxsa onlar da bilməzlikdən haqsız yerə Allahı söyərlər. Beləcə, hər bir ümmətə öz

əməllərini gözəl göstərdik. Sonra onlar hamısı Rəblərinə doğru qayıdacaqlar. Onları etdikləri əməllərdən xəbərdar edəcək!

109. Son dərəcə israrla Allaha and içdilər ki, əgər onlara bir əlamət (möcüzə) gəlsə, ona mütləq inanacaqlar. De: "Möcüzələr yalnız Allah tərəfindəndir. (Mənim ixtiyarımda deyil ki, sizin istəyinizlə möcüzə göstərə bilim). Siz haradan bilirsiniz ki, onlara möcüzə gəlsə, (iman gətirəcəklər? Xeyr,) iman gətirməyəcəklər!"

110. Biz onların ürəklərini və gözlərini daha öncə ona iman gətirmədikləri kimi tərsinə çevirər və onları öz azğınlıqları içində çaşqın bir vəziyyətdə tərk edərik.

---

103. Gözlər Onu görməz: Əqli dəlillər Allahın gözlə görülə bilməyəcəyini sübut edir. Çünki göz yalnız cismlər və onların bəzi keyfiyyətlərini görür. Cism və cism keyfiyyətinə malik olmayanlar əsla gözlə görülə bilməz. Başqa sözlə desək, gözlə görülən şey hökmən maddə, məkan və cəhətlərə malik olmalıdır. Halbuki Allah bütün bunların fövqündədir. Allah hüdudsuz varlıq olduğu üçün hər şeyin məhdud olduğu maddi dünyanın fövqündədir. Quranın bir çox ayələrində, o cümlədən, İsrail oğullarından və Allahı görmək tələbinin irəli sürülməsindən bəhs edən ayələrdə Allahın görünməsinin mümkün olmadığı açıq-aşkar şəkildə inkar edilmişdir. Əhl-beyt (ə) hədislərində də bu inanc inkar edilmiş, onun tərəfdarları ciddi şəkildə tənqid edilmişdir. İmam Sadiqin (ə) məşhur dostlarından olan Hişama istinad edilən bir məlumatda belə qeyd edildiyini oxuyuruq: İmam Sadiqin (ə) yanında idim. O cənabın dostlarından olan Müaviyə ibn Vəhəb daxil oldu. Sonra üzünü İmama (ə) tutub dedi:

- Ey Peyğəmbərin balası, Peyğəmbərin Allahı gördüyünü ifadə edən hədis haqqında nə deyə bilərsiniz? Onu hansı şəkildə görüb? Habelə o cənabın "Möminlər Cənnətdə öz Rəblərini görəcəklər" hədisi haqıqnda fikriniz nədir? Onu hansı şəkildə görəcəklər?

İmam Sadiq (ə) gülməsəyərək buyurdu:

- "Ey Vəhəbin oğlu Müaviyə, necə də pisdir, insan 70-80 il ömür sürsün, Allahın mülkündə yaşasın, verdiyi nemətlərdən faydalansın, ancaq Onu layiqli şəkildə tanımasın. Ey Müaviyə, Peyğəmbər (s) Allahı bu gözlə görməyib. Görmək iki cürdür: zahiri gözlə görmək və qəlb gözü ilə görmək. Əgər kim qəlb gözü ilə gördüyünü desə, düz deyib, kim zahiri gözlə gördüyünü desə, yalan deyib, Allahı və onun ayələrini inkar edib, kafir olub. Çünki Peyğəbər (s) buyurmuşdur: Hər kim Allahın öz yaratdıqlarına bənzədiyini deyərsə, kafirdir."[586]

108. Hətta düşmənləri belə söyməyin qadağan edilməsi: Bəzi hədis və məlumatlarda bildirlir ki, bir qrup mömin bütpərəstlərin davranışlarından bərk narahat olduqları üçün bəzən müşriklərin bütlərini təhqir etdir, onları söyürdülər. Quran bu davranışı açıq-aşkar şəkildə qadağan etdi, hətta ən pis və ən xurafat ayinlər qarşısında ədəb-ərkanın, abır-həyanın qorunmasını göstəriş verdi. Çünki söyüş və təhqirlə kimisə yanlış yoldan qaytarmaq olmaz. Bu cür fərdlər malik oduqları nadanlıq və təəssübkeşlik ucbatından inadkarlıq göstərib öz inanclarında israrlıq nümayiş etdirər, daha acınacaqlısı isə, səhvə yol verib Allaha təhqirlər və söyüşlər yağdırarlar. Hədislərdə də Quranın haqq yoldan sapmışlara söyüş söyülməsinin tərk edilməsi ilə bağlı məntiqi izlənmşdir. İslam öndərləri müsəlmanlara hər zaman məntiqə və dəlil-sübutlara əsaslanmağı, əks inanclılara söyüş söyülməməsi ilə bağlı

---

[586] Nümunə, c.5, səh.381

göstərişlər vermişlər. "Nəhcül-bəlağə"-də oxuyuruq ki, Əli (ə) Siffeyn mübaribəsində Müaviyənin ardıcıllarına söyüş verən bir qrup əshabəsinə belə buyurmuşdur: ***"Sizin söyüş söyən olmağınızı istəmirəm. Amma danışıqlarınızda onların davranışlarını səciyyələndirsəniz, vəziyyətlərini təsvir etsəniz, doğruya daha yaxın olar, üzrünüz məqbul sayılar."*** Soruşula bilər ki, bütpərəstlər Allaha etiqad etdkləri və bütləri ilahi dərgahın şəfaətçiləri hesab etdikləri Allahı necə söyə bilərlər? Belə ki, əgər biz inadkar və təəssübkeş insanlara diqqətlə nəzər salsaq, bu vəziyyətin heç də təəccüb doğurmadığını görərik. Bu cür insanlar narahat olduqları zaman qarşı tərəfi incitmək üçün üstənilən vasitəyə əl atmağa meyilli olurlar. Hətta ortaq inanc bəslədiklərini belə söyməkdən çəkinmirlər[587].

[587] Nümunə, c.5, səh.394

111. Əgər Biz mələkləri onlara endirsəydik, ölülər onlarla danışsaydı və hər şeyi toplayıb onların qarşısına qoysaydıq belə, Allah istəmədikcə, onlar iman gətirməzdilər. Lakin onların əksəriyyəti (bunu) bilmir.

112. Beləcə, Biz hər peyğəmbər üçün insan və cin şeytanlarından düşmənlər yaratdıq. Onlar (insanları) aldatmaq məqsədilə gizlində bir-birlərinə aldadıcı və əsassız sözlər deyirdilər. Əgər Rəbbin istəsəydi, belə etməzdilər. (Onların qarşısını ala bilərdi. Amma məcburiyyətin heç bir faydası yoxdur) Onları uydurduqları yalanlarla birlikdə boşla getsinlər!

113. Nəticədə, (şeytanların vəsvəsələri və şeytansifətlərin təblğatları) axirətə inanmayanların ürəkləri onlara meyl etsin, onlar ona meyl göstərsinlər, (həmin sözlərdən) xoşlansınlar və istədikləri günahı etsinlər.

114. Sizə içində hər şey yazılmış Kitabı nazil edən Allah olduğu halda, mən (haqq ilə batili ayırd etmək üçün) Ondan başqasınınmı hakim olmasını istəməliyəm?! Kitab verilmiş şəxslər bu Kitabın sənin Rəbbin tərəfindən haqq olaraq nazil edildiyini bilirlər. Sən tərəddüd edənlərdən olma!

115. Rəbbinin sözü düzgün və ədalətli şəkildə tamam oldu. Heç kəs Onun sözlərini dəyişdirə bilməz. O, eşidəndir, biləndir!

116. Əgər yer üzündə olanların çoxuna itaət etsən, onlar səni Allahın yolundan azdırarlar. Onlar ancaq zənnə uyar, təxmin və gümana qapılarlar!

117. Sənin Rəbbin yolundan azanları da, haqq yola yönələnləri də daha yaxşı tanıyır.

118. Əgər siz Allahın ayələrinə iman gətirmisinizsə, (başı kəsilərkən) üstündə Onun adı çəkilmiş heyvanları yeyin!

--

111. Peyğəmbərin (s) dəvəti və müşriklərin inandkarlığı: Bu və əvəvlki iki ayədə buyurulur ki, müşriklər Peyğəmbərə (s) möcüzə göstərəcəyi təqdirdə Allaha inanacaqlarını deyirlər. Lakin Allah buyurur ki, onların iman gətirməsi əcaib-qəraib möcüzələrdən deyil, Allahın istəyindən asılıdır. Onlar Peyğəmbərin (s) dəvətini ilk başlanğıcda qəbul etmədikləri və inadkarlıq göstərdikləri üçün Allah onların gözlərini və qulaqlarını bağlamış, iman müvəffəqiyyətini əllərindən almışdır[588]. Bu hadisə Peyğəmbər (s) zamanında dəfələrlə baş vermişdir. İmam Əli (ə) bir xütbəsində belə buyurmuşdur: ***"Mən o cənabla bir yerdəydim. Qüreyş böyüklərindən bir qrupu gəldi. Onlar Peyğəmbərə (s) dedilər:***

- Ey Məhəmməd, sən o qədər böyük bir iddia irəli sürmüsən ki, nə ataların, nə də sülaləndən heç biri belə bir iddia irəli sürməyib. Biz səndən bir iş görməni istəyirik. Əgər qəbul edib istəyimizi bizə göstərsən, biləcəyik ki, sən Allahın peyğəmbər və elçisisən. Əks təqdirdə, sənin sehrbaz və yalançı olduğunu biləcəyik.

Peyğəmbər (s) buyurdu:

- Nə istəyirsiniz?

Dedilər:

- Bu ağacı çağır, kökündən çıxaraq gəlib qarşında dayansın.

- Allah hər br işə qadirdir. Əgər Allah sizin üçün belə bir iş görsə, iman gətirib Onun haqq olduğunu təsdiq edərsiniz?

- Bəli.

---

[588] Əl-Mizan, c.7, səh.331

- İndi sizə istədiyinizi göstərəcəyəm. Ancaq bilirəm ki, xeyirli yola dönməyəcəksiniz. Aranızda elə bir şəxs var ki, Qəlib quyusuna atılacaq[589], elə bir şəxs var ki, dəstələri toplayacaq.

Sonra Peyğəmbər (s) buyurdu:

- Ey ağac, əgər Allaha və o biri dünyaya inanırsansa və mənim Allahın peyğəmbəri olduğumu bilirsənbsə, Allahın izni ilə köküdən çıx gəl və mənim qarşımda dayan.

And olsun onu peyğəmbərliyə Seçənə, ağac köküdən çıxdı, çox yüksək, eyni zamanda quşların qanadlarının səsini xatırladan bir səslə gəldi. Allah rəsulunun (s) qarşısında dayandı, yuxarı budaqlarını Peyğəmbərin (s) başı üzərinə, bəzi budaqlarını isə mənm çiynimə sərdi. Mən həmin vaxt Peyğəmbərin (s) sağ tərəfində dayanmışdım. Oradakılar o cənaba baxıb inadkarlıq göstərərək dedilər:

- İndi əmr et, ağacın yarısı sənin yanına gəlsin, o biri yarısı yerinə qayıtsın.

Peyğəmbər (s) əmr etdi, onun yarısı daha uca və qəribə bir səs-küylə Peyğəmbərin (s) yanına gəldi. O qədər yaxınlaşdı ki, az qalırdı Peyğəmbərə (s) sarılsın. Sonra onlar kafircəsinə, inadkarcasına dedilər:

- İndi əmr et, ağacın bu yarısı o biri yarısına birləşsin!

Peyğəmbər (s) əmr etdi, ağac yerinə qayıtdı. Mən dedim:

- "La ilahə illəllah" (Allahdan başqa məbud yoxdur) Mən sənə iman gətirən ilk şəxsəm, ey Allahın elçisi! Sənin peyğəmbərliyini təsdiq etmək və sözünü uca tutmaq üçün Allahın izni və sənin əmrinlə ağacın sənin yanına gəlməsinə şahidlik edən ilk şəxsəm!

Ancaq onlar hamısı bir ağızdan dedilər:

---

[589] Müşriklərin "Bədr" döyüşündə məğlub olacağına və Əbu cəhl və bir neçə Qüreyş başçısının həmin quyuya atılacağına işarə etmişdir.

- Bu kişi yalançı sehrbaz, məharətli və heyrətamiz bir cadugərdir! (Mənə işarə edərək) Bunun kimilərdən başqa səni səni təsdiq edən olarmı?"[590]

112. Möminlərin kamilləşməsində şeytanların rolu: Ümumiyyətlə, bütün işləri Allaha aid etmək olar. Çünki bütün işlər Ondandır. İxtiyar, azadlıq, qüdrət, elm və sairə Allahın insana bəxş etdiyi nemətlərdir. Deməli, şeytanlar da peyğəmbərlərlə düşmənçilik edirlərsə, yenə də Allahın icazə və izni ilə edirlər. Amma onlar öz işlərində məcbur və ixtiyarsız deyillər. Onların da malik olduqlarını Allah vermişdir. Sadəcə, onlar bütün imkanlarını hiylə və kələk yolunda istifadə edirlər. Ümumiyyətlə, dünya ixtiyar və azadlıq məkanıdır. Allah-taala insanlara və cinlərə xeyir və şər yolunu azad şəkildə seçib yürümək üçün ixtiyar və azadlıq vermişdir. Əlbəttə, bir cəhətdən də şeytanların planları dolayısı ilə möminlərin özlərini düzəltməsində və inkişafında rol oynaya bilər. Çünki düşmənin olması, özü də bu cür mahir və hiyləgər düşmənin olması iti zəkalı və qərarlı bir fərdin ayıqlığının, iradəsinin, müqavimət gücünün artmasına və düz yoldakı qətiyyətinin artmasına səbəb ola bilər[591].

119. Nə üçün siz üzərində Allahın adı çəkilmiş şeylərdən (heyvanların ətindən) yemirsiniz? Halbuki məcburiyyət qarşısında (yeməli) olduğunuz şeylər istisna olmaqla, sizə haram olanları O sizə bildirmişdir. İnsanların bir çoxu (şəriəti) bilməməzlikdən və nəfslərinin istəklərinə uyaraq (başqalarını) düz yoldan azdırarlar. Rəbbin həddi aşanları daha yaxşı tanıyır!

120. Günahların aşkarından da, gizlisindən də əl çəkin! Çünki günah qazananlar etdikləri əməllərə görə cəzalandırılacaqlar!

---

[590] Nəhcül-bəlağə, 234-cü xütbə
[591] Nümunədən iqtibas, c.5, səh.407

121. Üzərində Allahın adı çəkilməmiş heyvanların ətindən yeməyin. Çünki bu iş günahdır. Həqiqətən, şeytanlar sizinlə mücadilə etmələri üçün öz dostlarına gizlində bəzi şeyləri təlqin edirlər. Əgər onlara itaət etsəniz, siz də müşrik olacaqsınız.

122. Ölü ikən diriltdiyimiz, sonra insanlar arasında gəzməsi üçün nur bəxş etdiyimiz şəxs zülmət içində qalıb oradan çıxmayan şəxs kimi ola bilərmi? Bu şəkildə etdikləri əməllər kafirlərə gözəl göstərildi.

123. Beləliklə, hər bir şəhərə və kəndə günahkar başçılar təyin etdik. Fəaliyyətləri camaatı aldatmaqla nəticələndi. Onlar yalnız özlərini aldadarlar, lakin fərqinə varmazlar.

124. Onlara bir ayə gəldiyi zaman: "Allahın peyğəmbərlərinə verildiyinin misli bizə verilməyincə biz iman gətirməyəcəyik!" – deyərlər. Allah peyğəmbərliyi hara göndərəcəyini Özü daha yaxşı bilir. Günahkarlar (insanları haqq yoldan sapdıranlar) işlətdikləri hiylələrə görə Allah dərgahında zillətə və şiddətli əzaba düçar olacaqlar!

---

120. Aşkar və gizli günah: "Aşkar günahlar" nəticəsinin pis və qorxulu olacağı gizli olmayan şirk, yer üzündə fəsad törətmək, zülm və haqsızlıq kimi günahlardır. "Gizli günahlar" ilk baxışda nəticəsinin qorxulu olacağı başa düşülməyən murdar olmuş heyvanın, donuzun ətinin yeyilməsi, qan içmək kimi günahlara deyilir. Allah-taala bu əməllərin günah olduğunu elan etmişdir. Bəzi məqamlarda onların haram edilmə səbəbi bizə aydın olmaya bilər. Bu ayədə Allah buyurur ki, nəticələrindən xəbərdar olmasanız belə, bütün günahları tərk edin[592].

---

[592] Əl-Mizan, c.7, səh.344

122. Peyğəmbərin əmisi Həmzənin iman gətirməsi: Bu ayənin nazilolma səbəbi haqqında belə qeyd edilir. İslam və Peyğəmbərin (s) qatı düşmənlərindən olan Əbu Cəhl bir gün Peyğəmbəri (s) çox incidir. Peyğəmbərin (s) həmin günə qədər İslamı qəbul etməmiş, lakin bu din haqqında davamlı olaraq düşünən şücaətli əmisi Həmzə sözügedən gün adəti üzrə ovda olur. Səhradan qayıtdıqdan, Əbu Cəhllə qardaşı oğlunun əhvalatından xəbər tutduqdan sonra çox narahat olur, birbaşa Əbu Cəhlin yanına gedir. Başına (ya da burnuna) elə vurur ki, burnu qanayır. Əbu Cəhl öz tayfası, hətta Məkkə əhalisi arasında böyük nüfuz sahibi olmasına baxmayaraq, Həmzənin çox böyük şücaət sahibi olduğunu nəzərə alıb heç bir reaksiya vermir. Həmzə sonra Peyğəmbərin (s) yanına gedir, İslamı qəbul edir, həmin gündən ömrünün sonuna qədər bu dinin müdafiəsində dayanır. Bu ayə bu hadisə üçün nazil olur, Həmzənin imanını, Əbu Cəhlin küfr və fəsad içindəki inadkarlığını bəyan edir. Bu ayədə "ölüm və həyat" "küfr və iman" mənalarında işlədilmişdir. Əsl həqiqətdə ölüm və həyatın mənəvi mənası nəzərdə tutulmuşdur. Bu ifadə açıq şəkildə göstərir ki, iman quru, boş və təmtəraqlı sözlərdən ibarət bir inanc deyil. İman imansız insanların cansız bədənlərinə üfürülən, onların varlıqlarına və bütün həyatlarına təsir göstərən bir ruh kimidir. Nəzə almaq lazımdır ki, bu ayədə nur Quran, Peyğəmbər (s) və imamların (ə) təlimləri ilə yanaşı, Allahın insana bəxş etdiyi yeni dərkə, idrak üfüqünü dünyanın maddi həyat səviyyəsindən daha yüksəklərə qaldırılmasına, daha geniş üfüqlərə yüksəltməsinə deyilir. O, özünütanıma işığı altında eqoizm və nəfs pərdələrini ruhun gözləri önündən kənara itələyir. Nəticədə, insan daha əvvəllər görmədiyi həqiqətləri görür, öz həyat yolunda insanların nəfsani istəklərinə tabe olaraq etdiyi xətalara yol vermir, sağ-salamat məqsədə çatır. Peyğəmbər (s) hədislərinin birində belə buyurmuşdur: "Mömin Allahın nuru

ilə baxır”. Bu hədis də qeyd olunan həqiqəti əks etdirir. Əlbəttə, bu parlaq baxışı qələmlə, sözlə təsvir etmək qeyri-mümkündür, onu dadmaq, hiss etmək lazımdır[593]. Qeyd etməliyik ki, bu parlaq düşüncəyə nail olmaq üçün yalnız həqiqi iman işığında, Quran və məsum öndərlərin göstərişlərinə əməl etmək lazımdır.

124. Peyğəmbərlər – Allahın seçdikləri: Bu ayənin nazilolma səbəbi ilə bağlı qeyd olunanlardan belə başa düşülür ki, bəzi müşriklər yaşları, gücləri və sərvətlərinin Peyğəmbərin (s) yaşı, gücü və sərvətindən çox olduğunu düşünərək, özlərini peyğəmbərliyə daha layiq bilirdilər[594]. Amma məlumdur ki, peyğəmbərlik yaş, sərvət və mövqe ilə müəyyən edilmir. Bunun üçün insanın mənəvi hazırlığı, daxili təmizliyi, əxlaqi və insani xüsusiyyətləri, günahdan uzaq olması, təqvalı olması şərtdir. Bunu isə Allahdan başqa heç kəs bilmr. Peyğəmbərin canişini də vəhy və qanunvericilik istisna olmaqla, peyğəmbərin bütün xüsusiyyətlərinə və keyfiyyətlərinə malik olmalıdır. Yəni həm dinin mühafizəçisi, həm insanların maddi və mənəvi rəhbəri, öz vəzifəsini daha yaxşı yerinə yetirmək və insanlara nümunə olmaq üçün günahsızlıq və məsumluq məqamında olmalıdır. Buna görə də onun da təyin edilməsi Allah tərəfindən olmalıdır. Çünki yalnız Allah bilir ki, imam kim olmalıdır[595].

[593] Nümunə, c.5, səh.424
[594] Nümunə, c.5, səh.430
[595] Nümunə, c.5, səh.431

125. Allah düz yola yönəltmək istədiyi şəxsin köksünü İslam üçün açıb genişləndirər, azdırmaq istədiyi şəxsin köksünü sanki o, göyə qalxırmış kimi daraldar. Allah iman gətirməyənlərə pisliyi belə edər!

126. Bu, Rəbbinin doğru yoludur. Biz ayələrimizi nəticə çıxaran insanlar üçün aydınlatdıq.

127. Onlar üçün Rəblərinin yanında əmin-amanlıq yurdu olacaq. Etdikləri əməllərə görə Allah onların hamisidir.

128. Onların hamısını toplayacağı gün (Allah): “Ey (şeytanlar və) cin tayfası, siz insanların bir çoxunu yoldan çıxartdınız”, - deyə buyuracaq. Onların insanlardan olan dostları deyəcəklər: “Ey Rəbbimiz! Biz bir-birimizdən bəhrələndik (biz ötəri ləzzətlərə nail olduq, onlar bizə hökmranlqı etdilər) və bizim üçün müəyyən etdiyin əcəlimiz gəlib çatdı!” (Allah) buyuracaq: “Sizin yeriniz oddur. Allahın istədiyi şəxslər istisna olmaqla, siz orada həmişəlik qalacaqsınız!” Sənin Rəbbin hikmət, elm sahibidir!

129. Bu qayda ilə etdikləri əməllərə görə bəzi zalımları digər bəzisinə həvalə edərik.

130. Ey cin və insan tayfası! Məgər sizə öz içərinizdən ayələrimi söyləyən və belə bir günlə qarşılşacağınızı sizə qorxu gələn peyğəmbərlər gəlmədimi? Onlar deyəcəklər: “Biz öz əleyhimizə şahidik! (Bəli, biz pis iş

tutmuşuq)”. Dünya həyatı onları aldatdı və onlar kafir olduqları barədə özlərinə qarşı şahidlik edəcələr.

131. Bu, ona görədir ki, Rəbbin şəhər və kəndlərin əhalisini bilməzlik və xəbərsizlik üzündən etdikləri zülmlərə görə məhv etməz!

-

125. Köksün genişləndirilməsi: “Köks” deyilərkən burada ruh, fikir nəzərdə tutulmuş, əksər yerlərdə bu mənada işlədilmişdir. “Köksün genişliyi” deyilərkən isə ruhun böyüklüyü, fikrin yüksəkliyi, insanın əqli diapazonunun daha iri miqyası nəzərdə tutulur. Çünki haqqı qəbul etmək üçün insanın öz şəxsi mənfəətlərinə daha çox göz yumması lazımdır. Bunu isə yalnız yüksək fikir sahibləri, ruhu geniş olan insanlar bacara bilərlər. Allah-taala bu ayədə köksün genişliyini böyük nemətlərdən, köksün darlığını isə ilahi cəzalardan biri kimi təqdim etmişdir. Buna görə də Allah-taala öz peyğəmbərinə bəxş etdiyi böyük nemətlərdən birinə “Şərh” surəsinin birinci ayəsində işarə edərək buyurmuşdur: “Sənin köksünü genişləndirib açmadıqmı?” Bunu insanların müxtəlif vəziyyətləri əsasında daha yaxşı müşahidə etmək olar. Bəzi insanların ruhu o qədər böyükdür ki, istənilən hadisəni, böyüklüyündən asılı olmayaraq, qəbul etməyə hazırdırlar. Bəzi insanların ruhu isə hətta heç bir həqiqətin təsir edə bilməyəcəyi dərəcədə dar və məhduddur. Onların həyatları gündəlik məişət problemləri, yatmaq və yeməklə məhdudlaşır. Əgər dünya onlara verilsə, hər şey yaxşıdır, yox əgər azacıq dəyişiklik müşahidə etsələr, nəzərlərində hər şeyin sonu çatır, hər şey viran qalır. Bu ayə nazil olduqdan sonra Peyğəmbərdən (s) “köksün genişliyi nədir?” – deyə soruşulduqda, buyurmuşdur: ***“Allahın istədiyi hər kəsin qəlbinə saldığı nurdur. Bu nurun işığında həmin insanın ruhu genişlənir, açılır.”*** Soruşdular: “Bunu göstərən bir əlamət varmı?” Peyğəmbər (s)

buyurdu: ***"Bəl, axirət evinə diqqət ayrmaq, aldadıcı dünyaya göz yummaq, ölüm insanı haqlamamış ölümə hazır olmaq (iman, saleh əməl, haqq yolunda ciddi cəhdlə çalışmaq)"***[596]

127. Cənnətdə əmin-amanlıq neməti: Cənnət əhlinin ən böyük nemətlərindən biri arxayınlıq və əmin-amanlıqdır. Ayədə işarə edilən bu nemət ən böyük nemətlərdən biridir. Bir an olmasa, qəm-kədər insanı öz təsiri altına alar. Sözügedən həqiqəti təhlükəli səhralarda, hər an raket və bombaların düşəcəyi müharibə zonalardında olan insanlar daha yaxşı dərk edərlər. Bu məkanlarda dirilik suyu zəhərə dönür, saatlar və dəqiqələr ağır gedir. Qeyd olunan şəraitdə Quranın Cənnət sakinləri ilə bağlı işlətdiyi ifadələrin həqiqətini və dərinliyini hiss etmək olar. Əlbəttə, Cənnət əhli hətta bu dünyada da imanları sayəsində özlərini əmin-amanlıqda hiss edirlər. Mömin insan Allaha həqiqi mənada təvəkkül etmək, onun təqdirinə razı olmaq və iradəsi önündə təslim olmaqla ən ağır çətinlikləri belə, xüsusi sakitliklə qarşılayırlar. "Yunus" surəsinin 62-ci və 63-cü ayələrində belə buyurulmuşdur: ***"Bilin ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər... Onlara dünya həyatında da, axirət həyatında da şadlıq və sevinc var."***[597]

129. Himayə və rəhbərliyin Qiyamətə qədər davam etməsi: Bu ayədə Allahın yuxarıda sözügedən şəxslərlə bağlı olan əbədi bir qanununa işarə edilmişdir. Allah-taala buyurur ki, zülmkarlar və haqq yoldan sapmışlar bu dünyada bir-birlərinin himayəçisi, rəhbəri, bələdçisi, yanlış yollarda yaxın yol yoldaşı və həmkarı olduqları halda, o biri dünyada da bir-birlərini qoyub qaçacaqlar. Buna səbəb isə onların bu dünyada etdiyi əməllərin nəticəsidir. Çünki Qiyamət səhnəsi reaksiyaların iri miqyasda təzahür edəcəyi məkandır.

---

[596] Nümunə, c.5, səh.436
[597] Quranın ismarışı, c.6. səh.286

Orada qarşımıza çıxanlar bizim bu dünyada ***etdiklərimizin inikasıdır***[598]***. Əhli-beyt (ə) hədislərində bu ayə haqqında belə buyurulmuşdur: "Bu dünyada qəbul etdikləri rəhbər və himayədarlar axirətdə də onların rəhbər və himayədarları olacaq. Qiyamət günü onlar bir yerdə olacaqlar."***[599]

132. Hər kəs üçün etdiyi əməllərə görə dərəcələr vardır. Rəbbin onların nə etdiklərindən qafil deyildir!

133. Rəbbin ehtiyacsız və mehribandır. İstəsə, sizi başqa xalqların nəsillərindən yaradığı kimi, sizi də aparıb yerinizə dilədiyini gətirər.

134. Sizə vəd edilən şübhəsiz ki, gələcəkdir. Siz onu (Allahı) aciz qoya bilməzsiniz (ədalətindən, mükafat və cəzasından qaça bilməzsiniz).

---

[598] Nümunə, c.5, səh.440
[599] Əl-Mizan, c.7, səh.369

135. De: “Ey mənim xalqım, əlinizdən gələni edin. Mən də (öz vəzifəmi) yerinə yetirirəm. Amma tezliklə kimin aqibətinin yaxşı olduğunu biləcəksiniz. Şübhəsiz ki, zalımlar nicat tapmayacaqlar!

136. (Müşriklər) Allah üçün Onun yaratdığı əkindən və davardan pay ayırıb öz (batil) gümanları ilə: “Bu, Allahın, bu da (Allaha) şərik qoşduğumuz bütlərindir!” – dedilər. Onların şərik qoşduqları üçün olan hissə Allaha çatmaz, Allah üçün olan hissə isə şərik qoşduqlarına çatardı (Bütlərin payında çatışmazlıq olsaydı, Allahın malını bütlərə verərdilər. Amma əksini düzgün saymazdılar). Onların verdikləri hökm necə də pisdir!

137. Beləcə, ortaqları (bütləri) müşriklərə övladlarını öldürməyi onlara yaxşı bir iş kimi göstərdilər, onları məhvə sürüklədilər və dinlərini onlara şübhəli göstərdilər. Əgər Allah istəsəydi, bunu etməzdilər (Qarşılarını ala bilərdi. Amma məcburiyyətin heç bir faydası yoxdur). Onları da, uydurduqları yalanları da başlı-başına burax!

-

134. Ölüb-dirilməni xatırlamağın zərurəti: Deyilənə görə, Üsamə ibn Yezid yüz dinara bir kəniz alır, ancaq məbləği bir aya ödəyəcəyini razılaşdırır. Xəbər Peyğəmbərə (s) çatdıqda buyurur: ***“Üsamənin bu davranışına təəccüblənmirsiniz? Bir kəniz alıb və pulunu br aya ödəmək istəyir. Üsamə uzun arzularla yaşayır. Canım əlində olan Allaha and olsun ki, mən kiprik çalanda gözümün açılacağına ümidim olmur. Gözüm açıq olanda onu yuma biləcəyimə ümidim olmur. Tikəni ağzıma qoyanda onu udacağıma ümidim olmur. Ey Adəm övladları, əgər yaxşı düşünsəniz, gərək özünüzü hər zaman ölülərin arasında görəsiniz. And olsun canım***

əlində olan Allaha, sizə vəd verilən şübhəsiz ki, gələcək və siz Allahı aciz qoya bilməzsiniz.”[600]

136. Allahın payı və bütlərin payı: Ayənin “Onların şərik qoşduqları üçün olan hissə Allaha çatmaz, Allah üçün olan hissə isə şərik qoşduqlarına çatardı” cümləsini şərh edərkən təfsirçilər ayənin tarixi bir hadisə haqqında nazil olduğunu qeyd edirlər. Belə ki, müşriklərin əkinlərindən və heyvanlarından Allah üçün ayırdıqları paya hər hansı hadisə nəticəsində ziyan dəysəydi, deyərmişlər: “Problem yoxdur, Allah onsuz da ehtiyacsızdır.” Yox əgər bütlər üçün ayırlmış pay sıradan çıxsaydı, Allahın payını onun yerinə qoyar və deyərmişlər: “Bütlərin çox böyük ehtiyacı var.” Habelə, Allahın payı hesab edilən tarlanın suyu bütlərin payı olan tarlaya axsaydı, deyərmişlər ki, eybi yoxdur. Allah ehtyacsızdır. Yox, əgər hadisə əksinə baş versəydi, suyun qarşısını alar və deyərmişlər ki, bütlərin daha çox ehtiyacı var. Buna görə də ayənin sonunda sözügedən inanc pislənmiş və “Verdikləri hökm necə də pisdir”, - deyə buyurulmuşdur. Bütpərəstlik yanlış və əsassız bir davranış olmaqla yanaşı, bütpərəstlərin davranışlarının çirkin olmasının dəlillərini belə sıralaya bilərik: 1. Hər şey Allah tərəfindən yaranmış və hər şeyin maliki Allah olduğu, habelə bütün mövcudat Onun tərəfindən idarə edildiyi halda, onlar kainatın yalnız cüzi bir hissəsini Ona aid edirdilər. Sanki hər şeyin əsl maliki onlar özləri idi və bölgü aparmaq da onların haqqı idi. 2. Onlar bu bölgülərində bütlərə daha çox üstünlük verirdilər. Allaha aid edilən paya ziyan toxunması heç bir əhəmiyyət daşımırdı. Lakin bütlərin payına ziyan dəysəydi, Allahın payı ilə bu ziyanı aradan qaldırır, Allahın payından götürüb bütlərə verirdilər. Bu ayrıseçkilik bir növ bütlərin Allahdan üstün tutulduğunu göstərirdi. 3. Hədislərdə qeyd

---

[600] Əl-Mizan, c.5, səh.449

edilir ki, onlar bütlərə daha çox diqqət ayırırdılar. Çünki bütlərə hamilik edənlər, onların xidmətçiləri və bütpərəstlərin özləri bütlərin payını özləri yeyir, Allahın payını isə uşaqlara və qonaqlara verirdilər. Faktlar göstərir ki, kök və yağlı qoyunlar və dənli bitkilər bütlərin payı idi. Onlar bununla öz qarınlarını fikirləşirdilər. Bütün bunlar göstərir ki, bölgü zamanı onlar hətta Allaha bütlər qədər də qiymət vermirdilər. İnsanın dəyərsiz daş və taxta parçasını kainatın yaradıcısından üstün tutması necə də çirkin və utancvericidir. Ağıl və təfəkkürün bundan da artıq tənəzzülə uğradığını təsəvvür etmək olarmı?[601]

137. Övladların bütlərə qurban edilməsi: "Bütlər müşriklərə övladlarını öldürməyi onlara yaxşı bir iş kimi göstərdilər". Yəni bütlərin bütpərəstlərin ürəyində olan yeri, mövqeyi və sevgisi elə bir həddə idi ki, bəzi müşriklər onlara daha da yaxın olmaq üçün hətta öz övladlarını da onların yolunda, qurban etməyə, öldürməyə hazır idilər. Tarixdə bütpərəst və ulduzpərəstlərin bu davranışlarını təsdiq edən faktlar var. Əlbəttə, bu hadisə Bəni Təmim qəbiləsinin öz qızlarını diri-diri basdırması hadisəsindən fərqlənir. Bu ayədə qız və oğlan olmasından asılı olmayaraq, övladların öldürülməsindən söz açılır. Halbuki övladları diri-diri basdırmaq yalnız qız uşaqlarına aid idi[602].

---

[601] Nümunə, c.5, səh.449
[602] Əl-Mizan, c.7, səh.372

138. Dedilər: “Bu davarlar və əkinlərin bir hissəsi (bütlərə aid olan hissəsi hər kəsə) haramdır, ondan yalnız bizim istədiklərimiz yeyə bilməz. Bunlar minilməsi (bizə) qadağan edilmiş heyvanlardır”. Elə heyvanlar da var idi ki, onların üzərində (onları kəsərkən) Allahın adını çəkməzdilər. Bütün bunları (Allahın əmri deyə) Allaha iftira yaxaraq edərdilər. Tezliklə (Allah) iftiraların cəzasını verəcəkdir.

139. Habelə dedilər: “Bu heyvanların qarınlarındakı (balalar) yalnız bizim kişilərə məxsusdur, onlar qadınlarımıza haram edilmişdir”. Əgər ölü doğularsa, hər kəs (kişilər və qadınlar) onda ortaqdır. Tezliklə (Allah) onlara (bu yalan) vəsflərinin (yalan hökmlərinin) cəzasını verəcəkdir. O, hikmət, elm sahibidir!

140. Cahillik və nadanlıq üzündən öz uşaqlarını öldürənlər Allahın onlara verdiyi ruzini özlərinə haram etdikləri və Allaha iftira atdıqları üçün şübhəsiz ki, ziyana uğramışlar. Həqiqətən, onlar (haqq yoldan) azmış, doğru yolu tapa bilməmişlər.

141. Talvarlı və talvarsız bağları yaradan Odur. Həm meyvə, həm də dad baxımından bir-birindən fərqlənən xurma və taxıl növlərini, bir-birinə həm bənzəyən, həm də bənzəməyən zeytunu və narı yaradan Odur. Bar verdiyi zaman meyvəsindən yeyin, yığım vaxtı haqqını ödəyin, ancaq israf etməyin. (Allah) israf edənləri sevməz!

142. Yük daşıyan və kiçik heyvanları (başqa məqsədlər üçün) da O yaratdı. Allahın sizə verdiyi ruzilərdən yeyin və Şeytanın addımlarını izləməyin ki, o sizin açıq-aşkar düşmənizdir.

---

138. Bütpərəstlərin bəzi xurafat inancları: Bu ayədə bütpərəstlərin düşüncə və təfəkkürlərinin dayaz olduğundan xəbər verən bəzi xurafat inanclara işarə edilir və əvvəlki ayələr təkmilləşdirilir. Oncə onların ***"Bu davarlar və əkinlərin bir hissəsi (bütlərə aid olan hissəsi hər kəsə) haramdır, ondan yalnız bizim istədiklərimiz yeyə bilməz"***, - dedikləri qeyd edilir. Bunu deyərkən əslində onlar bütlərə xidmət göstərənlər və bütxanaların rəhbərlərini nəzərdə tuturdular. Bütlərə ayrılmış paydan yalnız həmin insanlar yeyə bilərdilər. Buradan o da başa düşülür ki, ayənin bu hissəsində bütlər üçün əkin məhsulları və heyvanlardan ayrılmış paydan necə istifadə edilməsinə işarə edilmişdir. Öncəki iki ayənin şərhində bu məsələyə işarə edildi. Sonra Allah-taala bütpərəstlərin haram etdiyi şeylərə işarə edir. Onlar hesab edirdilər ki, bəzi heyvanlara minmək olmaz. Ola bilsin ki, burada "Maidə" surəsinin 103-cü ayəsində "saibə, bəhirə, hami", - deyə qeyd edilmiş heyvanlara işarə edilmişdir. Daha sonra Allah onların başqa bir çirkin hökmünə işarə edərək buyurmuşdur: ***"Elə heyvanlar da var idi ki, onların üzərində (onları kəsərkən) Allahın adını çəkməzdilər."*** Ola bilsin ki, burada başlarını kəsərkən bütlərin adının çəkildiyi və ya bəzi

təfsirçilərə görə, Həccə gedərkən minilməsi qadağan edilən heyvanlar nəzərdə tutulmuşdur. Hər iki halda hökmləri əsassız və xurafat olmuşdur[603]. Sonrakı ayədə müşriklərin heyvan ətləri ilə bağlı olan başqa bir xurafat hökmünə işarə edilərək buyurulmuşdur: "Bu heyvanların qarınlarındakı (balalar) yalnız bizim kişilərə məxsusdur, onlar qadınlarımıza haram edilmişdir". Əgər ölü doğularsa, hər kəs (kişilər və qadınlar) onda ortaqdır." Onlar hesab edirdilər ki, əgər heyvan diri doğulsa, yalnız kişilərə məxsusdur, yox əgər ölü doğulsaydı, hər kəs onda ortaq idi. Öncə qeyd edim ki, bu hökmün heç bir məntiqi və fəlsəfi əsası yoxdur. İkincisi, ölü heyvanın ətinin ziyanlı olduğunu nəzərə alsaq, belə bir hökmün çıxarılması çox çirkin bir davranış idi. Üçüncüsü, hökmdə qadın və kişi ayrıseçkiliyi var. Çox utancverici haldır ki, yaxşı olan yalnız kişiyə aid edilir, pis olana isə qadınlar da ortaq edilir[604].

141. Məhsul yığılarkən yoxsulların hüquqlarının unudulmaması: Bilməliyik ki, "yığım vaxtı vacib olan haqq" deyilərkən zəkat nəzərdə tutulmamışdır. Çünki ayədə işarə edilən bəzi meyvələrə zəkat düşmür. Digər tərəfdən isə, bu ayə Məkkədə nazil olduğu halda, zəkat hökmü Mədinədə nazil olub. Deməli, bu ayəyə əsasən, məhsul yığımı vaxtı yoxsulların həmin məhsulda haqqı vardır. Həmin haqqı həm ağıl qəbul edir, həm də din sədəqə adı altında təsdiq edir. İmam Sadiq (ə) buyurmuşdur: "Əkinin iki haqqı var: alınmalı haqq; verilməli haqq. Alınmalı haqq vacib zəkatdır. Amma insanın öz istəyi ilə verdiyi haqqa ayədə "yığım vaxtı haqqını ödəyin", - deyə işarə edilmişdir. Yığım deyilərkən yığıma başladıqdan məhsulun bir yerə toplandığı vaxta qədər olan müddət nəzərdə tutulur." İmam Sadiq (ə) başqa bir hədisində belə buyurmuşdur: ***"Toplanmış məhsulunuzdan yanınıza***

[603] Nümunə, c.5, səh.455
[604] Nümunə, c.5, səh.457

gəlmiş hər bir müsəlmana pay verin. Əgər heç bir müsəlman gəlməsə, müşrikə verin." Deyilənə görə, Mədinədə xurma yığımı vaxtı xurma salxımını ağacdan qoparıb məscidə qoyarmışlar. Yoxsullar gələr və çubuqla həmin salxıma vurub tökülən xurmalardan yeyərmişlər[605].

[605] Əl-Mizan, c.7, səh.375

143. (Sizin üçün) səkkiz cüt heyvan yaratdı: bir cüt qoyun və bir cüt keçi. De: “Allah onların erkəklərini haram edib, ya dişilərini, yoxsa dişilərin qarınlarındakını haram edib? Əgər doğru deyirsinizsə, (onların haram olmasına) dəliliniz varsa, mənə xəbər verin!”

144. Həmçinin (Sizin üçün) bir cüt dəvə və bir cüt inək (yaratdı). De: “Allah onların hansını haram edib? Erkəklərini, ya dişilərini, yoxsa dişilərin qarınlarındakını haram edib? Yoxsa Allah bunu (iddia etdiyinizi) sizə tövsiyə etdiyi zaman (bu qadağaya) şahid idiniz? Bilməməzliyi üzündən insanları (haqq yoldan) azdırmaq üçün Allaha qarşı yalan uyduran şəxsdən daha zalım kim ola bilər? Allah zalımları əsla doğru yola yönəltməz!

145. De: “Mənə gələn vəhylər içərisində murdar olduqları üçün ölü heyvan, (heyvanın bədənindən) çölə axmış qan, donuz əti və ya Allahdan başqasının adı ilə (bütlərin adı ilə) günah olaraq kəsilmiş heyvanlar istisna olmaqla, hər hansı bir kəsin yediyi yeməklər içərisində haram buyurulan bir şey görmürəm. Amma məcburiyyət qarşısında qalan (bu haramları yeməyə məcbur olan), ləzzət qəsdi olmayan və həddi aşmayan şəxsə (günah yoxdur)”. Çünki sənin Rəbbin, həqiqətən, bağışlayandır, rəhm edəndir!

146. Yəhudilərə dırnaqlı (dırnağı bütöv olan) heyvanların hamısını haram etdik. İnək və qoyunların bellərinə və ya hər iki tərəfdən böyürlərinə yapışmış, yaxud sümüklərinə qarışan yağlar müstəsna olmaqla, onların piylərini də yəhudilərə haram buyurduq. Həddi aşdıqlarına görə onları belə cəzalandırdıq. Biz doğru danışırıq!

---

143 və 144. Müşriklərin Allaha iftira atması: Bu iki ayədə əti halal olan bəzi heyvanların, habelə həm yük daşımaq, həm də qida üçün uyğun

olan bəzi heyvanların adları qeyd edilmişdir. Bu heyvanların ətini halal və ya haram etmək həmin heyvanları, insanları və bütün kainatı yaradan Allahın işi olduğu üçün, onların halal və ya haram olması iddiası ya ağılla sübuta yetirilməli, ya vəhy vasitəsilə təyin edilməli, yaxud da sözügedən əmr elan edilərkən Peyğəmbərin (s) yanında olmaq lazımdır. Bu surənin 143-cü ayəsində açıq şəkildə bildirilir ki, bu heyvanları haram etmək üçün müşriklərin heç bir əqli və elmi sübutları olmamışdır, eyni zamanda vəhy və peyğəmbərlik iddiasında da deyildilər. Deməli, yeganə ehtimal onların bu barədə vəhy gələrkən Peyğəmbərin (s) yanında olduqlarını iddia etmək olmalıdır. Buna görə də 144-cü ayədə Allah-taala belə buyurur: ***"Yoxsa Allah bunu (iddia etdiyinizi) sizə tövsiyə etdiyi zaman (bu qadağaya) şahid idiniz?"*** Təbii ki, müşriklərin bu suala cavabları mənfi olacaq. Bu da onların bu məsələdə yalnız böhtan və iftiraya əla atdıqlarını sübuta yetirir[606].

145. Haram ətlər və heyvanların kəsilmə hökmləri: Bu ayədə "heyvan" sözünün yerinə "fisq" sözündən istifadə edilmişdir. "Fisq" bəndəçilik çərçivəsindən çıxmağa və Allahın əmrinə itaət göstərməkdən boyun qaçırılmasına deyilir. Buna görə də bütün növ günahlara "fisq" deyilir. Sözügedən ayədə bu sözü işlətməkdə məqsəd bəlkə də haram ətlərin iki qrupa bölündüyünə işarə etməkdir: 1. Murdar və iyrənc olduqları, orqanizm üçün zərərli olduqları üçün haram edilmiş ətlər. Ayədə onlar çirk kimi də qeyd edilmişdir. Ayənin əvvəlində onlara murdar olmuş heyvan və donuz əti misal vurulmuşdur. 2. Çirkin olmayan, gigiyenik cəhətdən də orqanizm üçün ziyanlı olmayan ətlər. Bu ətləri yeməyin, əslində, etik və mənəvi ziyanları vardır. Başqa sözlə desək, günah yolunda və bütlərin adı çəkilərək kəsilmiş, bəndəçilikdən çıxmaq, Allahdan və tövhid inancından

---

[606] Nümunə, c.6, səh.9

uzaqlaşmaq, şirk və bütpərəstlik, nəhayət, mənəviyyat, əxlaq və etiqad gigiyenasına riayət etməmək nəticəsində haram edilmiş heyvan əti. Buna görə də haram ətin gigiyenik cəhətdən haram edildiyini düşünmək sadəlövhlükdür. Bəzən haramlar əxlaqi və mənəvi cəhətdən zərərli olduqları üçün haram edilmişlər. Buradan da aydın olur ki, İslami kəsimin şərtləri də iki yerə bölünür: Dörd damarın kəsilməsi və qanın çölə axıdılması gigiyenik səciyyə daşıyır, qibləyə çevirmək, kəsərkən "Bismillah" demək və kəsənin müsəlman olması mənəvi səciyyə daşıyır[607].

145. Bəzi haram ətlər və qidalar: Belə bir sual yarana bilər ki, nə üçün bu ayədə qidalarla bağlı olan haramlar dörd şeylə məhdudlaşdırılmışdır? Halbuki haram qidaların təkcə bunlardan ibarət olmadığını bilirik. Məsələn, pullu balıqlar istisna olmaqla, bütün su canlılarının haram edilməsini buna misal göstərmək olar. Belə ki, ayədə qeyd olunanlara işarə edilməmiş və haramlar dörd şeylə məhdudlaşdırılmışdır. Qeyd etməliyik ki, bu ayədə diqqət mərkəzində olan məsələ yalnız müşriklərin xurafat hökmləri ilə bağlı qadağadır. Başqa sözlə desək, ayə demək istəyir ki, Allahın buyurduğu haramlar sizin uydurduqlarınız deyil, bunlardır. Məsələyə daha da aydınlıq gətirmək üçün bir nümunəyə baxaq: Bir nəfər bizdən soruşur: Həsən və Hüseyn, hər ikisi gəldi? Biz deyirik: Xeyr, təkcə Həsən gəldi. Burada məqsədimiz təkcə Hüseynin gəlmədiyini bildirməkdir. Burada bizim nəzərdə tutmadığımız başqa adamların gəlməsinin isə heç bir maneçiliyi yoxdur. Bu cür məhdudlaşdırmaya əlavə və ya nisbi məhdudlaşdırma deyilir[608]. Digər tərəfdən, belə ehtimal edə bilərik ki, bu bir neçə hökm "Ənam" surəsi nazil

[607] Nümunə, c.6, səh.13; Kaşif təfsiri, c.3, səh.471
[608] Nümunə, c.6, səh.15

olana qədər Məkkədə Peyğəmbərə (s) vəhy edilmiş, sonrakı illərdə Mədinə surələrində, yəni “Bəqərə” və “Maidə” surələrində gəlmişdir[609].

147. Əgər onlar səni yalançı hesab etsələr, de: “Rəbbiniz böyük mərhəmət sahibidir. Onun günahkarlara verəcəyi əzabın da qarşısı alına bilməz!”

148. Tezliklə müşriklər belə deyəcəklər: “Əgər Allah istəsəydi, nə biz müşrik olardıq, nə də atalarımız və nə də biz nəyisə haram edərdik. Onlardan əvvəlkilər də bu cür yalan danışmış, sonda, əzabımızı dadmışdılar. De: “Bizə göstərə biləcək açıq-aydın bir dəliliniz varmı? Siz yalnız əsası olmayan zənnə qapılır və yersiz fərziyyələr uydurursunuz!”

[609] Kaşif təfsiri ,c.3, səh.471

149. De: “Tutarlı dəlil yalnız Allaha məxsusdur. Əgər O istəsə, sizin hamınızı doğru yola yönəldər” (Ancaq məcburiyyətin heç bir faydası olmadığı üçün bunu etmir).

150. De: “Bunu (haram saydıqlarınızı) Allah haram buyurmuşdur deyə, şəhadət verəcək şahidlərinizi gətirin!” Əgər onlar (yalandan) şahidlik etsələr, sən onlarla birlikdə şahidlik etmə, ayələrimizi yalan hesab edənlərin, axirətə inanmayanların və Allaha şərik qoşanların nəfslərinin istəklərinə uyma.

151. De: “Gəlin Rəbbinizin sizə nələri haram etdiyini deyim: Ona heç bir şərik qoşmayın; ata-anaya yaxşılıq edin; kasıblıq üzündən uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Nə aşkarda, nə də gizlində pis işlərə yaxın durmayın. Allahın möhtərəm saydığı insanı haqsız yerə qətlə yetirməyin. (Allah) bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb anlayasınız!

---

149. Allahın tutarlı və qətiyyətli dəlili: Allah-taala müşriklərin 148-ci ayədə qeyd edilən iddialarını puç çıxarmaq üçün bu ayədə onlara dəlil gətirir: “De ki, Allah peyğəmbərləri vasitəsilə, habelə əqli yolla tövhid, halal və haram hökmlərlə bağlı doğru və aydın dəlillər göndərmişdir. Bunlar heç kəsin bəhanə gətirə bilməyəcəyi dəlillərdir. Buna görə də onlar iddia edə bilməzlər ki, Allah öz sükutu ilə onların batil inanclarını və əməllərini təsdiq edir, habelə, əməl edərkən məcbur olduqlarını da idda edə bilməzlər. Çünki məcbur olsaydılar, dəlil və sübutların, peyğəmbərlərin göndərilməsinin, onların təbliğ və dəvətlərinin heç bir faydası olmazdı. Dəlil gətirilməsi özü də iradə azadlığının olmasını sübuta yetirən bir dəlildir. “Tutarlı və qəti dəlil” sözündən Allahın insanlara bəyan etdiyi dəlillərin əqli, nəqli, elm,

dərrakə vasitəsilə aydın, peyğəmbərlərin göndərlməsi ilə daha da aydınlaşdırıldığı başa düşülür. İlahi dəlillər heç kəsin tərəddüd və şübhə etməyəcəyi dərəcədə aydındır. Allah peyğəmbərləri ona görə bütün eyib və nöqsanlardan təmiz etmiz və məsum edib ki, heç bir şübhə və tərəddüdə yer qalmasın. İmam Kazım (ə) buyurmuşdur: ***"Allah insanlara iki dəlil göndərmişdir: görünən və görünməyən dəlillər. Görünən dəlillər peyğəmbərlər və imamlar, görünməyən dəlillər isə insanların ağlıdır."*** İmam sadiq (ə) bu ayənin təfsiri zamanı belə buyurmuşdur: ***"Allah-taala Qiyamət günü öz bəndəsinə buyuracaq: "Mənim bəndəm, bilirdin? (bilə-bilə günah edirdin?)" Əgər bəndə desə ki, bəli, bilirdim, Allah buyuracaq: "Bəs nə üçün bildiyinə əməl etmirdin?" Əgər desə ki, bilmirdim, xəbərsiz idim, buyuracaq: "Bəs əməl etmək üçün öyrənmədin?" Bu zaman çıxılmaz vəziyyətdə qalacaq. "Tutarlı dəlil"in mənası budur."*** Məlumdur ki, bu hədisdə Allahın dəlillərindən bir nümunəsi qeyd edilmişdir.Allahın dünyada və axirətdə çoxlu dəlilləri vardır[610].

151. Ata və anaya yaxşılıq: Allah-taala Quranın bir çox yerində tövhid və təkAllahlıq inancına dəvət etdikdən dərhal sonra ata və anaya yaxşılıq edilməsini göstəriş vermişdir (Bəqərə-83, Nisa-36, Loğman-14 və bu ayə). Bu ayələrdən belə başa düşülür ki, ata və anaya qarşı naşükürlük ən böyük günahlardan və ya şirkdən sonra ən böyük günahdır[611]. Peyğəmbər (s) buyurmuşdur: ***"Ata və ananı incitməyin. Cənnətin ətri min illik yoldan hiss olunur, lakin ata-anasına əziyyət verənlər... onu duymurlar."***[612] Peyğəmbər (s) başqa bir hədisində belə buyurmuşdur: ***"Ata və anasına yaxşılıq edənlər Cənnətdə peyğəmbərlərdən bir dərəcə aşağıda olacaqlar,***

---

[610] Nümunə, c.6, səh.24
[611] Əl-Mizan, c.7 ,səh.386
[612] Vəsailüşşiə, c.21, səh.501

ata-anaları incidənlər Cəhənnəmdə fironlardan bir dərəcə yuxarıda olacaqlar.”[613]

151. Qadağan edilmiş övlad qətli: Bu ayədə cahiliyyət dövrünün ərəblərinin yanlış təəssübkeşlik üzündən təkcə qızlarını deyil, həmin dövrün cəmiyyətinin böyük sərmayəsi hesab edilən oğlanlarını da yoxsulluq qorxusundan öldürdüklərinə işarə edilmişdir. Allah-taala bu ayədə onlara ən zəif yaradılışa belə ruzi göndərdiyi nemətlər süfrəsinə baxmağı və bu işdən əl çəkməyi göstəriş verir. Çox təəssüflər olsun ki, bu cahiliyyət dövrünün davranışı müasir dövrdə də başqa bir şəkildə təkrarlanır, günahsız körpələr embrion olarkən abort yolu ilə qətlə yetirilirlər[614].

[613] Müstədrəkül-vəsail, c.15, səh.176
[614] Nümunə, c.6, səh.34

152. Yetimin malına, daha yaxşı niyyət istisna olmaqla, həddi-büluğa çatana qədər yaxın durmayın. Ölçüdə və çəkidə ədalətli olun. Biz hər kəsə yalnız gücü çatdığı qədər vəzifə veririk. Söz söylədiyiniz zaman qohumunuz olsa belə, ədalətli olun. Allahla olan əhdə vəfalı olun. Bunlar Allahın sizə olan tapşırığıdır. Bəlkə, xatırlayasınız!

153. Bu, Mənim düz yolumdur. Onu tutub gedin. Sizi haqq yoldan sapdıracaq əyri yollarla getməyin. Allah sizə bunları tövsiyə etdi ki, pis əməllərdən çəkinəsiniz!”

154. Sonra Musaya hidayət və rəhmət mənbəyi olan Kitab verdik. (Nemətlərimizi) yaxşı işlər görənlər üçün tamamladıq, hər şeyi aydınlaşdırdıq. Bəlkə Rəbləri ilə görüşəcəklərinə inansınlar!

155. Bizim nazil etdiyimiz bu kitab bərəkətlidir. Ona tabe olun və Allahdan qorxun ki, bəlkə, sizə rəhm edilsin!

156. Biz onu sizin: “Bizdən əvvəl kitab ancaq iki tayfaya (yəhudilərə və xaçpərəstlərə) nazil edilmişdir. Biz onların araşdırmasından xəbərsizik”,- deməməyiniz.

157. Və ya: “Əgər bizə də kitab nazil edilsəydi, onlardan daha artıq düz yolda olardıq”, - söyləməməyiniz üçün (göndərdik). Artıq Rəbbinizdən sizə açıq-aşkar bir dəlil, hidayət və mərhəmət gəlmişdir. Allahın ayələrini yalan hesab edib onlardan üz çevirəndən daha zalım kim ola bilər?! Ayələrimizdən üz çevirənləri əsassız yerə üz çevirdiklərinə görə ən pis cəza ilə cazalandıracağıq!

---

152. Yetim malı yeməkdən uzaq durmaq: Bu və 151-ci ayədə iki məsələ ilə bağlı “yaxın durmayın” ifadəsi işlənmişdir. Bu ifadə Quranda bəzi başqa günahlar haqqında da işlədilmişdir. Ehtimal ki, qeyd olunan ifadə zina, müdafiəsiz yetimlərin malının yeyilməsi və sair kimi qıcıq yaradan günahlar haqqında işlənmişdir. Buna görə də Quranda insanlara xəbərdarlıq edilir ki, şiddətli vəsvəsə və qıcıqlara məruz qalmamaq üçün bu günahlara yaxın durmasınlar[615].

152. Vəzifə güc və imkan həddindədir: ***“Biz hər kəsə yalnız gücü çatdığı qədər vəzifə veririk”*** cümləsi bir suala cavab xarakteri daşıyır. Allah buyurur ki, yetim malına yaxşı niyyət istisna olmaqla yaxın durmayın, ölçüdə və çəkidə ədalətli olun. Kimsə hesab edə bilər ki, bu iki göstərişə yüz faiz əməl etmək qeyri-mümkündür. Çünki yetimlərin qəyyumları nə qədər diqqətli olsalar da, heç bir pis niyyət olmadan onların malları ilə bağlı kiçik də olsa, səhvə yol verə, habelə, ticarətçilər də eyni diqqəti sərgiləməklərinə baxmayaraq, heç bir qərəz olmadan səhv çəkə bilərlər. Bəs belə olan halda onların vəzifələri necə olacaq? Allah-tala bu suala belə cavab verir: ***“Biz hər***

---

[615] Nümunə, c.6, səh.34

kəsə yalnız gücü çatdığı qədər vəzifə veririk” Yəni özündə lazımı diqqəti göstərib lakin səhvə yol vermiş insana cəza yoxdur[616].

153. Əhli-beyt (ə) Allah yolunun bariz nümunələridir: Hədislərin birində Peyğəmbərin (s) düz bir xətt çəkib “Allah yolu belə düzdür”, sonra onun sağ və solundan xətlər çəkib “Bu yollar Allah yolu deyil. Bunlardan elə birisi yoxdur ki, onun başında şeytan durub insanları özünə doğru çağırmasın”, - deyə buyurduğu, daha sonra isə “Bu, həqiqətən, mənim düz yolumdur” ayəsini tilavət etdiyi qeyd edilmişdir. İmam Baqir (ə) bu ayə haqqında belə buyurmuşdur: “Biz Əhli-beyt (ə), düz yoluq. Hər kəs bu yoldan üz çevirsə, bu biri yollar onu gözləyər. Həmin yollarla irəliləyə bilər, ancaq kafir olar.” Əhli-beytin Allah yolunun bariz nümunələrindən olması şübhəsizdir. Kim onları izləsə, şübhəsiz ki, məqsədə çatar. Sünni və şiə mənbələrində qeyd eidlmiş hədislərdə düz yol deyilərkən İmam Əlinin (ə) nəzərdə tutulduğu qeyd edilmişdir[617].

154. Əhatəli və kamil din haqqında bir izah: Soruşula bilər ki, əgər Musanın (ə) dini kamil idisə (tamamladıq sözü də bunu ifadə edir), bəs ondan sonra Məsihin (ə) gətirdiyi dinə və daha sonra İslam dininə nə lüzum var idi? Yaddan çıxarmaq olmaz ki, hər bir din öz dövrünə uyğun olaraq əhatəli və kamildir. Allah tərəfindən natamam bir dinin göndərilməsi qeyri-mümkündür. Sadəcə, bir dövr üçün tam və kamil olan bir din sonrakı illərdə natamam və yetərsiz ola bilər. İbtidai sinif üçün əhatəli və kamil olan bir təhsil proqramının orta təhsil pilləsi üçün yetərsiz olduğunu buna misal göstərə bilərik. Səmavi kitabların göndərilməsi və sonuncu Peyğəmbərə (s) və sonuncu qanuna qədər çoxlu sayda peyğəmbərlərin göndərilməsinin səbəbi də budur. Bəşəryyət sonuncu qanunu qəbul etməyə hazır olduğu vaxt

---

[616] Əl-Mizan, c.7, səh.388
[617] Əl-Mizan, c.7, səh.398

sonuncu qanun göndərildi və artıq yeni dinə ehtiyac qalmadı. Təhsilini başa vurmuş insanın sonradan əldə etdiyi məlumatlar əsasında tədqiqatlar aparıb elmi inkişafa nail ola bildiyini buna misal göstərə bilərik. Qeyd olunan cəhətdən bu dinin davamçılarının da yeni dinə ehtiyacı yoxdur, sonuncu dindən yetərincə motivasiya ala bilərlər.[618]

[618] Nümunə, c.6, səh.40

158. Yalnız mələklərin, yoxsa Allahın özünün, yaxud da Rəbbinin bəzi Qiyamət əlamətlərinin gəlməsinimi gözləyirlər? Rəbbinin bəzi Qiyamət əlamətləri gələcəyi gün öncədən iman gətirməmiş və ya iman gətirdikdən sonra yaxşı bir iş görməmiş şəxsə heç bir xeyir olmayacaq. De: "Gözləyin, doğrusu, biz də gözləyirik!"

159. Şübhəsiz ki, sənin dinlərini parçalayıb firqə-firqə olmuşlarla heç bir əlaqən yoxdur. Onların işi Allahladır. Allah sonra onları nə etdiklərindən xəbərdar edəcəkdir!

160. Kim yaxşı bir iş görərsə, ona həmin işin on qat əvəzi (savabı) verilər. Kim pis bir iş görərsə, ona həmin işin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz.

161. De: "Rəbbin məni doğru yola, haqq və əbədi dinə, batildən haqqa tapınan və müşriklərdən olmayan İbrahimin dininə yönəltdi!"

162. De: "Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür!

163. Onun heç bir şəriki yoxdur. Mənə belə əmr edilmişdir və mən ilk müsəlmanam!"

164. De: "Allah hər şeyin Rəbbi olduğu halda, heç mən Ondan başqa Rəbb istəyərəm? "Hər kəsin qazandığı günah ancaq özünə aiddir. Heç bir günahkar başqasının günahını daşımaz. Axır dönüşünüz Rəbbinizədir. İxtilaf etdiyiniz məsələ barəsində sizə xəbər verəcəkdir.

165. İxtiyarınıza verdiyi nemətlər vasitəsilə sınamaq üçün sizi yer üzündə xəlifə təyin edən, dərəcələrə görə birinizi diğərinizdən üstün edən Odur. Həqiqətən, sənin Rəbbin sürətli cəzalandıran, bağışlayan, rəhm edəndir! (İmtahan və sınaqdan çıxmayanların cəzasını tez verən, haqq axtarışında olanlara qarşı mehribandır)

---

158. Kafirlərin yersiz gözləmələri: Bu ayədə Allah kafirlərin inadkarlığı, qəlb korluqları və əsla iman gətirməyəcəyindən xəbər verir. Onlar elə bir günü gözləyirlər ki, həmin gün iman gətirmək mümkün deyil. Əgər mümkün olsa belə, heç bir faydası yoxdur. Onlar üç şeydən birini gözləyirlər: 1. Mələklər gəlsin. Ancaq bilməlidirlər ki, mələklərin onlar üçün enməsi əzabla müşayiət ediləcək (Hicr surəsi-8). 2. Allah özü gəlsin və onlar Allahı öz gözləri ilə görsünlər. "Allah özü gəlsin" deyərkən Qiyamət gününün tez gəlməsi, kafirlərin gözləri önündən pərdələrin qalxması, Allahın əzəmət və gözəllik sifətləri ilə hər kəsə görünməsi nəzərdə tutulur. Yəni onun təkliyi, elmi və qüdrəti elə təzahür edəcək ki, inkar etmək üçün heç kəsin bəhanəsi qalmayacaq. Əgər onlar bunu qəsd edirlərsə, təbii ki, həmin gün imanın heç bir faydası olmayacaqdır. 3. Onlar Qiyamətin gəlişindən xəbər verən bəzi əlamətləri gözləyirlər. Bu əlamətlər ehtimal ki, iki qrupa bölünür: 1. Qiyamətin əlamətləri (Muhəmməd surəsi-18); 2. Qiyamət gününün hadisələri. Yaranış sisteminin bir-birinə dəyməsi bu hadisələrdəndir. Həmin vaxt da daha öncə iman gətirməmiş şəxslərin imanının onlar üçün heç bir faydası olmayacaqdır[619].

159. Təfriqə Allaha ibadət edən ümmətlərin bəlasıdır: Bu ayənin məzmunu keçmiş ümmətlərə və ya indiki ümmətə mənsub olmasından asılı olmayaraq, Allah bəndələri arasına nifaq və ixtilaf toxumu səpən, müxtəlif bidətlər (dində olmayanı dinə gətirmək) yaradan bütün təfriqəçi (ekstremist) fərdlərə şamil olur. Əhli-beyt (ə) hədislərində, habelə sünni mənbələrində yer almış hədislərdə bu ayə ilə bu ümmətin haqq yoldan azmışlarına,

---

[619] Mənşuri-cavid, c.9, səh.252

təfriqəçilərinə və bidətçilərinə işarə edildiyi nümunə kimi qeyd edilmişdir. Çünki bu nümunələr açıqlanmasaydı, bəziləri yaxalarını kənara çəkib ayədə başqa adamların nəzərdə tutulduğunu təsəvvür edərdilər. İmam Baqir (ə) bu ayə haqqında belə buyurmuşdur: ***"Bu ayədə möminlərin əmiri İmam Əlidən (ə) ayrı düşüb müxtəlif dəstələrə bölünmüş şəxslərə işarə edilmişdir."*** Bu ümmətin parçalanacağını öncədən xəbər verən Peyğəmbər (s) hədisi də bu həqiqəti təsdiq edir[620].

160. Birə on: Əbuzərin Peyğəmbərə (s) istinadən nəql etdiyi bir hədisdə belə deyilir: ***"Allah buyurur ki, yaxşı işi on dəfə artırıb çoxaldıram, pisliklərə bir cəza verirəm və ya bağışlayıram. Vay olsun təkləri onlardan çox olanların (pis işləri bir, yaxşı işləri on hesab edildiyi halda, günahları savablarından çox olanların) halına"***[621]

"Əraf" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Əlif, Ləm, Mim, Sad.

2. Bu, (insanları doğru olmayan inancları və davranışlarının acı aqibətindən) qorxutmaq və möminlərə xatırlatmaq üçün sənə nazil edilən Kitabdır. Ondan ötrü ürəyində bir sıxıntı və narahatlıq olmasın!

3. Rəbbinizdən sizə nazil edilənə tabe olun. Allahı qoyub başqa rəhbərlərə və məbudlara tabe olmayın. Siz öyüd-nəsihətə az qulaq asırsınız!

4. Biz neçə-neçə şəhər və kəndləri məhv etdik. Əzabımız onları gecə, yaxud gündüz vaxtı istirahət edərkən haqladı.

5. Əzabımıza düçar olduqları zaman onların: "Biz həqiqətən, zalım olmuşuq!" – deməkdən başqa heç bir sözləri olmamışdır.

---

[620] Nümunə, c.6, səh.49
[621] Nümunə, c.6, səh.57

6. Şübhəsiz ki, (həm) peyğəmbər göndərilən ümmətləri, (həm də) peyğəmbərlərin (özlərini) sorğu-suala çəkəcəyik.

7. Sonra da onlara (əməllərini) öz elmimizlə şərh edəcəyik. Biz əsla qaib deyildik (hər yerdə bəndələrin əməllərini görürük).

8. O gün çəki (əməllərin qiymətləndirilməsi) haqdır. Tərəziləri ağır gələnlər nicat tapanlardır!

9. Tərəziləri yüngül gələnlər isə ayələrimizə qarşı haqsızlıq etdiklərinə görə varlıq sərmayələrini itirənlərdir.

10. Biz yer üzünün sahibliyini, hökmranlığını, rəhbərliyini sizə verdik və orada sizin üçün dolanışıq vasitələri yaratdıq. Siz isə olduqca az şükür edirsiniz!

11. Sizi yaratdıq, sonra sizə surət verdik və mələklərə: “Adəmə səcdə edin!” – dedik. İblisdən başqa hamısı səcdə etdi. O, səcdə edənlərdən olmadı.

Surənin ümumi məzmunu: Surənin əvvəlində başlanğıc və qayıdış mövzusuna qısa şəkildə işarə edilmişdir. Daha sonra insan şəxsiyyətinin dəyərini göstərmək məqsədilə Adəmin yaranışındakı çox mühüm cəhətlərə işarə edilmiş, Adəm övladlarının düz yola yönəlməsi və özlərini islah etməsi ilə bağlı Allahın onlardan aldığı əhdlər tək-tək qeyd edilmişdir. Tövhid, ədalət, təqva yolundan azmışların uğursuzluğa, məğlubiyyətə uğradığını və həqiqi möminlərin qələbə çaldığını göstərmək üçün keçmiş xalqlar, Nuh, Lut və Şüeyb peyğəmbərin (ə) qövmlərinin başına gələn hadisələrə işarə edilir və bunlara İsrail oğullarının əhvalatı, Musanın (ə) Fironla apardığı mübarizə

də əlavə edilir. Surənin sonunda yenidən başlanğıc və qayıdış mövzuları yer alır[622].

2. Peyğəmbərə təsəlli verilməsi: "...sənə nazil edilən Kitabdır. Ondan ötrü ürəyində bir sıxıntı və narahatlıq olmasın!" cümləsində Peyğəmbərə (s) təsəlli verilmişdir. Bu ayələr Allah tərəfindən nazil olduğu üçün onlara görə narahat olmaq lazım deyil, nə çiyinlərinə götürdüyü peyğəmbərlik vəzifəsinin ağırlığına görə, nə inadkar və tərs düşmənlərin ona qarşı göstərəcəkləri reaksiyaya görə, nə də göndərilənin təbliğinin nəticəsinə görə narahat olmaq lazım deyil. Bu surənin Məkkədə nazil olduğunu nəzərə alsaq, Peyğəmbərin (s) hansı problem və çətinliklərlə qarşılaşdığını təsəvvür etmək elə də çətin deyil. Baxmayaraq ki, bu gün biz Peyğəmbər (s) və səhabələrinin Məkkə mühitindəki həyatlarının İslamın ilk dövrlərinə aid cəhətlərini xırdalıqlarına qədər təsvir edə bilmirik. Lakin onun həmin dövrdə həyatın bütün sahələri üzrə tamamilə geridə qalmış bir mühitində qısa müddət ərzində inqilab etdiyini nəzərə alsaq, hansı çətinliklərin meydana çıxdığını ümumi şəkildə təsəvvür edə bilərik. Buna görə də narahat olmaması üçün Allah ona təsəlli verir, fəaliyyətinin nəticəsinə ümid yaradırdı[623].

8. Qiyamətdə əməllərin ölçülməsi: Qiyamətdə əməllərin ölçülməsi və ölçü vasitəsi ilə bağlı çox fikirlər mövcuddur. Lakin nəzərə almalıyıq ki, sözləri tam başa düşmək üçün həmin sözlər öz dövrümüzün mövcud nümunələrinə köklənməməli, məzmunları nəticə aspektindən qiymətləndirməliyik. Məsələn, keçmişdə çıraq, içərisində bir qədər yağ, ortasından fitil asılmış, havanı tənzimləməsi üçün üzərinə şüşə keçirilmiş qaba deyilirdi. Halbuki indi çıraq deyilərkən içində yağ, fitili və şüşə örtüyü

[622] Nümunə, c.6, səh.75
[623] Nümunə, c.6, səh.79

olan qab deyil, bir işıqlandırıcı cihaz nəzərdə tutulur. Sadəcə, indiki çıraqla keçmiş çırağı birləşdirən cəhət onların nəticəsidir. Yəni hər ikisi qaranlığa işıq salan vasitələrdir. Tərəzi də belədir. Məsələn, zaman keçdikcə tərəzilərin necə dəyişdiyinin şahidi oluruq. Hətta digər vasitələri ölçmək üçün hazırlanmış və istifadə edilən cihazlara ayrı-ayrı adlar müəyyən edilir. Termometri buna misal göstərə bilərik. Deməli, Qiyamət günü insanların əməlləri, dünyada gödüyümüz tərəzi və ölçü cihazları ilə deyil, xüsusi bir vasitə ilə ölçüləcək. Həmin vasitələr peyğəmbərlər, imamlar (ə) və saleh bəndələr də ola bilər. Əhli-beyt (ə) hədislərində bu məna daha aydın şəkildə ifadə edilmişdir. İmam Sadiq (ə) buyurmuşdur: ***"Qiyamət günündə ölçü vasitələri peyğəmbərlər və onların canişinləri olacaq."*** Başqa bir hədisdə belə qeyd edilmişdir: "***Möminlərin əmiri və onun övladlarından olan imamlar tərəzilərdir."*** Əslində, dünyanın nümunəvi kişi və qadınları insanların əməllərinin ölçü miqyaslarıdır. Hər kəs onlara nə qədər oxşayırsa, bir o qədər çəkili və dəyərlidir, onlardan uzaq olanlar az çəkili və ya çəkisizdirlər[624].

[624] Nümunə ,c.6, səh.91

12. (Allah iblisə): “Mən sənə əmr edəndə sənə səcdə etməyə nə mane oldu?” – deyə buyurdu. (İblis:) “Mən ondan daha yaxşıyam (üstünəm), çünki Sən məni oddan, onu isə palçıqdan yaratdın!” – dedi.

13. Buyurdu: “Oradan (olduğun məqamdan) aşağı en. Orada (o məqamda) təkəbbürlü olmağa haqqın çatmır. (Oradan) çıx, çünki sən cılız və alçaqlardansan!”

14. (İblis) dedi: “Mənə Qiyamətə qədər möhlət ver!”

15. (Allah) buyurdu: “Sən möhlət verilənlərdənsən!”

16. (İblis) dedi: “İndi ki, Sən məni azdırıb yoldan çıxartdın, mən də Sənin düz yolunun üstündə onlara pusqu quracam.

17. Sonra onların yanına qarşılarından və arxalarından, sağlarından və sollarından gedəcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən!”

18. (Allah) buyurdu: “Oradan (o məqamdan) rüsvay olmuş və xar edilmiş halda çıx. And içirəm ki, onlardan hər kim sənə tabe olsa, Cəhənnəmi sizin hamınızla dolduracağam!

19. Ey Adəm! Sən zövcənlə birlikdə Cənnətdə sakin ol. Hər ikiniz istədiyiniz yerdən yeyin, ancaq bu ağaca yaxınlaşmayın, yoxsa zülm edənlərdən olarsınız!”

20. Şeytan o ikisinin bədənindəki gizli yerləri aşkara çıxarmaq məqsədilə onları vəsvəsə edib dedi: “Rəbbiniz sizə bu ağacı yalnız mələk olmamağınız və ya (Cənnətdə) əbədi qalmamağınız üçün qadağan etmişdir!”

21. Həm də onlara: “Mən sizin xeyrinizi istəyənlərdənəm”,- deyə and içdi.

22. Beləliklə, onları hiylə-kələklə (məqamlarından) endirdi. Həmin ağacdan daddıqda ayıb yerləri göründü. Onlar Cənnət (ağaclarının) yarpaqlarından ayıb yerlərinin üstünü örtməyə başladılar. Rəbləri onlara xitab edərək buyurdu: “Məgər sizə bu ağacı qadağan etməmişdimmi? Şeytan sizin açıq-aşkar düşmənizdir, deməmişdimmi?”

---

12. İblsin özünü üstün görməsi: Bu ayədən belə məlum olur ki, İblis odun torpaqdan üstün olduğunu düşünmüşdür. Bu da onun ən böyük səhvlərindən biri idi. Bəlkə də elə səhv etməmişdi, qəsdən yalan danışırdı. Çünk biz torpağın müxtəlif nemətlərin, həyat üçün lazım olan bütün maddələrin mənbəyi, canlı varlıqların öz həyatlarını davam etdirməsi üçün zəruri vasitə olduğunu bilirik. Halbuki od belə bir mahiyyətə malik deyil. Adəmin üstünlüyü onun topraqdan yaranmasında deyildi, onun əsl üstünlüyü insanlıq ruhuna malik olmasında, Allahın xəlifəsi və nümayəndəsi olmasında idi. Deməli, odun torpaqdan üstün olduğunu hətta fərz etsək belə, bu amil Allahın lütf etdiyi ruh, əzəmət və xəlifəlik qarşısında səcdə edib təvazökarlıq göstərməməyə əsas vermir. Ehtimal ki, Şeytan bütün bunları bilirdi, lakin təkəbbürü və özünü bəyənməsi onun qarşısını aldı, qalanları bəhanə idi[625].

13. İblisin təkəbbürünün nəticəsindən ibrət dərsi götürmək: Bu ayədən aydın olur ki, Şeytanın bütün bədbəxtlikləri onun təkəbbüründən

---

[625] Nümunə, c.6, səh.99

qaynaqlanır. Möminlərin əmiri İmam Əli (ə) təkəbbür və özünü üstün tutmağın pisliyi haqqında belə buyurmuşdur: "Allahın İblislə olan davranışından ibrət dərsi götürün. Onun bütün yaxşı əməllərini, səy və cəhdlərini nəticəsiz qoydu. İblis altı min il Allaha bəndəlik etdi, lakin bir saat təkəbbürlü oldu. İblisdən sonra Allaha qarşı bu cür itaətsizlik edən şəxs əzabdan xilas ola bilərmi? Əsla, pak və müqəddəs olan Allah mələyin Cənnətdən qovulmasına səbəb olan bir əməli törətmiş insanı Cənnətə daxil etməz."[626]

17. Şeytan dörd bir tərəfdən pusqu qurub: Bu ayə Şeytanın dilindən qeyd edilmiş, onun insanlara necə pusqu qurması, dörd bir tərəfdən onlara yaxınlaşması və vəsvəsə etməsinə işarə edilmişdir. Əlbəttə, "sirati-müstəqim" (düz yol) deyilərkən maddi deyil, mənəvi yol nəzərdə tutulduğu kimi, dörd cəhət deyilərkən də maddi deyil, mənəvi məzmun başa düşülür. Qurana əsasən deyə bilərik ki, "qarşılarından" deyilərkən insanın arzusunda olduğu şirin və ya baş verəcəyindən qorxduğu bədbəxt hadisələr olmasından asılı olmayaraq, gələcəkdə baş verəcək olan hadisələr nəzərdə tutulur. Hər iki növ hadisə insanın pusqusunda dura bilər. O qədər arzular var ki, insanı günahdan saxlayır, o qədər dəhşətli qorxular var ki, insanı yaxş işdən, xeyirdən və savabdan saxlayır. "arxalarından" deyilərkən Adəmin övladları və nəsli nəzərdə tutulur. Çünki insan elə güman edir ki, onun həmişəyaşarlığı övladlarının həyatda olmasından, şadlıq və narahatlığı isə onların şadlıq və narahatlığından asılıdır. Buna görə də halal-haram bilmədən onlar üçün sərvət toplayır, çox vaxt övladlarının dünya xoşbəxtliyini təmin etmək üçün özünü Cəhənnəmlik edir. "Sağlarından" deyilərkən insanın müsbət yönü, yəni dini yönü nəzərdə tutulur. Şeytan dini

---

[626] Nümunə, c.6, səh.106

yöndən hücuma keçə, dində ifrat və mübaliğə edərək bu davranışları insanın gözündə gözəl göstərə, insanı Allahın vacib buyurmadığı işləri görməyə vadar edə və bu vasitə ilə insanı Cəhənnəmlik edə bilər. "Soldan" deyilərkən dinsizlik nəzərdə tutulur. Şeytan ehtiras və qəzəb vasitəsilə insana nüfuz edə, onu ehtiras yaradan günahlara sövq edə və bu vasitə ilə onu Cəhənnəmlik edə bilər. İmam Sadiqin (ə) bu ayə ilə bağlı buyurduğu hədis də qeyd etdiklərimizi təsdiq edir: ***"Ön tərəfdən onlara doğru gedərəm", yəni axirəti onların gözündə dəyərsiz edərəm, "arxa tərəfdən...", yəni onalrı sərvət toplamağa, Allahın vacib buyurduğu hüquqları yerinə yetirməməyə və bununla da sərvətinin varislərinə qalmasına çalışaraqm, "sağ tərəfdən...", yəni dinlərini azğınlıqla bəzəmək, etdikləri oxşar əməlləri gözəl göstərmək sıradan çıxararam, "sol tərəfdən...", yəni dünya ləzzətlərini sevimli edərəm, ehtirasları qəlblərinə hakim edərəm."***[627]

[627] Əl-Mizan, c.8, səh.32

23. “Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan, rəhm etməsən, biz, şübhəsiz ki, ziyana uğrayanlardan olacağıq!” – dedilər.

24. Buyurdu: “Bir-birinizə düşmən olaraq (öz məqamınızdan) enin! Yerdə sizin üçün müəyyən vaxta qədər sığınacaq və dolanışıq vasitəsi vardır”.

25. Buyurdu: “Orada (yer üzündə) yaşayacaq, orada öləcək və (Qiyamətdə) oradan çıxarılacaqsınız!”

26. Ey Adəm övladları! Sizə bədəninizi örtəcək və bəzək vasitəsi olacaq bir libas göndərdik. Lakin təqva libası daha yaxşıdır. Bunlar xatırlamağınız üçün Allahın nemətlərindəndir.

27. Ey Adəm övladları! Şeytan ata-ananızı Cənnətdən qovdurduğu və ayıb yerlərini özlərinə göstərmək üçün libaslarını soyundurduğu kimi, sizi də aldadıb yoldan çıxartmasın. Şübhəsiz ki, o (Şeytan) və həmkarları sizi sizin onları görə bilmədiyiniz yerdən görürlər. Biz şeytanları iman gətirməyənlərin dostları etdik.

28. Çirkin bir iş tutduqları zaman: “Atalarımızı belə edən gördük. Bunu bizə Allah əmr etmişdir”,- deyirlər. De: “Allah çirkin əməli (əsla) əmr etməz. Allaha bilmədiyiniz şeyimi aid edirsiniz?”

29. De: “Rəbbim ədaləti əmr etdi. Hər bir məsciddə (ibadət vaxtı) üzünüzü Ona tərəf tutun. Dininizi yalnız Onun üçün xalisləşdirərək ibadət edin. Sizi ilk başlanğıcda yaratdığı kimi, yenə qayıdacaqsınız!

30. Bir dəstəni doğru yola yönəltdi, (layiq olmayan) bir dəstə isə azmağa layiq görüldü. Çünki onlar Allahı qoyub şeytanları özlərinə rəhbər seçmiş və doğru yolda olduqlarını güman edirlər.

---

23. Həzrət Adəmin günahsızlığı: Bu ayədən belə başa düşülür ki, Adəm (ə) Allahın göstərişinə əməl etmədi, qadağan olunmuş ağaca yaxınlaşdı və onun meyvəsindən yedi. Digər tərəfdən də bilirik ki, o, Allahın peyğəmbərlərindədir, peyğəmbərlər isə məsumdurlar, əsla günah etməzlər. Deməli, Adəm (ə) günah edib? Təfsirçilər bu suala cavab verərkən günahları iki qrupa bölmüşlər: qeyd-şərtsiz günahlar, nisbi günahlar. Qeyd-şərtsiz günah Allahın qəti fərmanına qarşı çıxmaq, bütün vacibləri tərk etmək, istənilən harama bulaşmaqdır. Nisbi günah (daha yaxşını tərk etmək) isə böyük bir şəxsiyyətin malik olduğu məqam və mövqeyə yaraşmayan qeyri-haram bir əməli etməsinə deyilir. Çox yüksək məqam sahibi olan bir şəxsin öz məqam və mövqeyinə uyğun olmayan halal və hətta yaxşı bir əməli də nisbi günah sayıla bilər. Məsələn, mömin və varlı bir şəxsin bir yoxsulu yoxsulluqdan xilas etmək üçün az miqdarda yardım göstərməsi günah deyil, hatta savabdır, lakin sanki günaha batmışdır. Allah dostlarından birinin namazı diqqətsiz qılması da məzəmmətə səbəb olur. Ancaq həmin namaz adi insanlar üçün yaxşı hesab edilə bilər. Adəmə (ə) ağacla bağlı qoyulmuş qadağa haram məzmunlu qadağa deyil, daha yaxşını tərk etməməklə bağlı bir göstəriş olmuşdur. Lakn Adəmin (ə) mövqeyinə əsasən bu qadağa çox mühüm məzmun daşıyır, onu yerinə yetirməmək Allah tərəfindən qeyd olunan şəkildə cəza verilməsinə səbəb olmuşdur. Bir ehtimala da görə həmin ağacın Adəmə (ə) qadağan edilməsinin səbəbi onun özünün asayşinin təmin olunması üçün idi. Yoxsa ki, həmin ağaca yaxınlaşmaq günah deyildi. Çünki həmin vaxt Adəm (ə) hər hansı öhdəliklə vəzifələndirilmədiyi üçün cəza və mükafat söhbət mövzusu ola bilməz. Məsələn, həkimin ziyanverici qidalara qadağa qoymasını buna misal göstərə bilərik. Şübhəsiz ki, xəstə həkimin göstərişinə əməl etməsə, onun şəxsinə qarşı çıxmış sayılmır, sadəcə, onun tövsiyyəsini görməzdən gələrək, özünü çətinliyə salmış olur. Adəmə (ə)

Allah göstəriş vermişdi ki, qadağan edilmiş ağacın meyvəsindən yemək onun Cənnətdən çıxmasına, nəticədə, çətinliyə düşməsinə səbəb olacaq. Deməli, həmin ağacın meyvəsindən yemək günah deyildi. Sadəcə, Allahın tövsiyəsindən çıxmaq Adəmin (ə) yer üzündə çətinliyə düçar olmasına səbəb oldu[628].

26. Təqva ən üstün libasdır: Allah insanın bədənini, ayıb yerlərini örtən, bədəninin çöldə qalmasının qarşısını alan libasdan danışdıqdan sonra insana zahiri libasdan daha yaxşı olan, onun batini, aşkara çıxarmasından qorxduğu eyiblərini örtən batini libasdan söz açır. Bu libas Allahın göstəriş verdiyi təqva (Allaha görə günahlardan qorunmaq) libasıdır. Məlumdur ki, zahiri eyiblərin aşkara çıxması ilə baş verən rüsvayçılıq və xarlıq batini eyiblərin aşkara çıxması ilə baş verən rüsvayçılıqla eyni səviyyədə deyil. Çünki batini eyiblərin aşkara çıxması Allahın qəzəbi və onun alovlanmış oduna bərabərdir. Deməli, batini libas olan təqva libası zahiri libasdan daha yaxşıdır. İmam Baqir (ə) bu ayədən danışarkən "iffət"i təqva libasının bir nümunəsi kimi tanıtdırdıqdan sonra belə buyurmuşdur: ***"Təqva libası iffətdir. İnsanın ayıb yeri əynində libas olsa belə, iffət vasitəsilə örtülü olur. Günahkar insanın əynində paltar olsa belə, ayıbları çöldə olur."***[629] Yəni təqvalı insan hətta əynində heç bir paltar olmasa belə, heç bir halda öz iffətini itirmir, iffəti bütün varlığının mahiyyətini təşkil edir. İfətsiz, həyasız insanın əynində növbənöv paltarlar olsa belə, hər bir şəraitdə həyasızdır.

27. Şeytandan ehtiyatlı olun: Allah-taala bu ayədə bütün insanlara xitab edərək buyurur ki, "Batini eyiblərinizi yalnız təqva libası ilə örtün. Bu libas sizin fitrətinizə və zatınıza xas olan bir libasdır. Deməli, Şeytanın, eyiblərini üzə çıxarmaq üçün ata və analarınızın batini təqva libaslarını

[628] Nümunə, c.6, səh.123
[629] Əl-Mizan, c.8, səh.71

əyinlərindən çıxardığı kimi, bu libası sizin də əyninizdən çıxarmasına əsla imkan verməyin. Buradan aydın olur ki, Şeytanın Adəmə və Həvaya qarşı gördüyü iş insanların təqva libaslarının onların canları və ruhlarından çıxarmasının bir nümunəsi olmuşdur. Bəli, aldanmayana qədər hər bir şəxs Cənnətdədir. Aldandığı vaxt Allah onu Cənnətdən xaric edir[630].

---

31. Ey Adəm övladları! Məscidə gedərkən özünüzü zinətləndirin. Yeyin-için, ancaq israf etməyin. Çünki Allah israf edənləri sevmir.

32. De: "Allahın öz qulları üçün yaratdığı zinətləri və təmiz ruziləri kim haram etmişdir?" De: "Bunlar dünya həyatında iman gətirənlərə (baxmayaraq ki, digərləri də onlarla ortaqdırlar) məxsusdur, Qiyamət günü isə (möminlər üçün) xalis olacaqlar". Bilən insanlara ayələri biz belə izah edirik.

33. De: "Rəbbim istər aşkarda olsun, istərsə də gizli, yalnız çirkin əməlləri, günahı, haqsız yerə zülm etməyi, Allahın, haqqında heç bir dəlil nazil etmədiyi bir şeyi ona şərik qoşmağınızı və bilmədiyiniz şeyləri Allaha aid etməyinizi haram etmişdir".

34. Hər bir xalq və cəmiyyətin (müəyyən bir) müddət və zamanı var. Vaxtları çatdıqda nə bir saat yubanar, nə də bir saat onu qabaqlaya bilərlər.

35. Ey Adəm övladları! Ayələrimi sizə çatdırmaq üçün öz aranızdan sizə elçilər gəldiyində təqvalı olub saleh əməllərlə məşğul olan şəxslərə (özləri və başqalarını islah emtək üçün çalışanlara) heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər.

36. Ayələrimizi yalan sayıb onlara təkəbbürlə yanaşanlar isə Cəhənnəm əhlidirlər. Onlar orada əbədi qalacaqlar.

---

[630] Əl-Mizan, c.8, səh.71

37. Allaha qarşı yalan uyduran və ya onun ayələrini yalan hesab edən şəxslərdən daha zalım kim ola bilər?! Onların nəsibi (bu dünya nemətləri arasından) öncədən təyin edilənlər olacaq. Elçilərimiz canlarını almaq üçün onların yanlarına getdikləri zaman onlardan: "Allahı qoyub çağırdığınız məbudlar haradadır?" - deyə soruşacaqlar. Onlar: "Yox oldular", - deyə cavab verəcək və kafir olduqlarına dair özlərinə qarşı şahidlik edəcəklər.

---

31. Məscidə gedərkən bəzənmək: Bu ayədə "zinətləndirin" deyilərkən ola bilsin ki, həm təmiz və səliqəli paltarlar geyinmək, saçları daramaq, ətir vurmaq və sair kimi işləri ehtiva edən zahiri bəzək vasitələrindən istifadə, həm də mənəvi xüsusiyyətlər – insani keyfiyyətlər, əxlaqi gözəlliklər, pak niyyət və ixlasla zinətlənmə göstərişi nəzərdə tutulmuşdur. Bəzi hədislərdə bayram namazları və Cümə namazı bəzək vasitələrinin ən parlaq nümunələrindən biri kimi səciyyələndirilmişdir. İmam Həsənin (ə) həyatından bəhs edən tarixi qaynaqların yazdığına görə o həzrət namaza durarkən ən yaxşı paltarlarını geyinərmiş. Ondan "Nə üçün ən yaxşı paltarlarını geyinirsən?" – deyə soruşulduqda, "Allah gözəldir və gözəlliyi sevir. Mən Rəbbim üçün bəzənirəm. Çünki O buyurub: "Məscidə gedərkən özünüzü zinətləndirin". Buna görə də ən gözəl paltarlarımı geyinmək istəyirəm" – deyə cavab vermişdir. Ancaq təəssüflər olsun ki, bir qrup müsəlman adətən namaz qılarkən və ya məscidə gedərkən çirkli, köhə və ya ev paltarı geyinir, bu geyimlərdə Allaha ibadət mərasimlərində iştirak edir. Halbuki, bu ayə və eyni məzmunda olan hədislərdə məscidə gedərkən ən yaxşı paltarları geyinmək göstərişi verilmişdir[631].

---

[631] Əl-Mizan, c.8, səh.80

31. İsraf və çox yemək qadağandır: İsraf hər hansı işdə həddi aşmağa deyilir. Baxmayaraq ki, bu ifadə daha çox xərcləmək mənasında işlədilir. Ayənin nəzərdə tutulan kiçik cümləsi gigiyena ilə bağlı verilmiş mühüm göstərişlərdən birini ehtiva edir. Alimlərin araşdırmaları göstərir ki, xəstəliklərin çoxunun mənşəyində çox yemək durur. Deyilənə görə Harunərrəşidin təbabət sahəsində şöhrət qazanmış xristian bir həkimi var imiş. Bir gün bu həkim İslam alimlərindən birinə deyir: "Mən sizin Səmavi kitabınızda tibbə dair heç nə tapmıram. Halbuki, faydalı elmlər din və bədən elmləri olaraq iki qrupa bölünür". Həmin alim cavabında deyir: "Allah-taala təbabətə aid olan bütün göstərişlərini ayələrinin birinin tərkibində qeyd etmişdir: "Yeyin-için, ancaq israf etməyin". Peyğəmbərimiz (s) də təbabəti özünün "Mədə bütün xəstəliklərin evi, pəhriz isə bütün dərmanların başıdır. Bədəninə adət etdirdiyin (doğru-düzgün) vərdişi ondan əsirgəmə!" göstərişində xülasə etmişdir. Xristian həkim bu sözləri eşitdikdən sonra deyir: "Quran və peyğəmbəriniz (s) Calinusa (məşhur həkim) tibb elmindən heç nə saxlamayıb"[632].

31. Xərclərdə israfçılığın qadağan edilməsi: İmam Sadiq (ə) hədislərinin birində belə buyurmuşdur "Siz elə düşünürsünüz ki, Allah-taala kimə sərvət veribsə, həmin adamı əzizləmək üçün verib? Ya kiməsə verməyibsə, həmin adamı xar etmək üçün verməyib? Xeyr, belə deyil. Mal-dövlət Allahın insanlara verdiyi əmanətdir. Onlara həmin maldan israfa yol vermədən yemək, içmək, geyinmək, evlənmək, minik vasitəsinə sahib olmaq, artıq qalanını yoxsul möminlərə verib onların qəm-qüssəsini dağıdacaq qədər istifadə etmək icazə vermişdir. Əgər kim belə etsə, yediyi halaldır, içdiyi halaldır, mindiyi halaldır, evliliyi üçün xərclədiyi halaldır.

---

[632] Nümunə, c.6, səh.153

İsrafa yol verənlərə isə bunlar haramdır. İsraf etməyin ki, o, israf edənləri sevmir”[633].

38. (Allah onlara) buyuracaq: “Sizdən əvvəl yaşamış özünüzə bənzər cin və insan tayfaları ilə birlikdə Cəhənnəmə girin!” Hər tayfa girdikcə digərinə lənət oxuyacaq. Nəhayət, hamısı orada zillət içində toplandıqdan sonra tabe olanlar öndər və rəhbərlər barəsində deyəcəklər: “Ey Rəbbimiz! Bizi azdıran bunlardır. Bunların od əzabını ikiqat artır! (birini özləri azdıqlarına görə, digərini də bizi azdırdıqlarına görə)” (Allah) buyuracaq: “Hər birinizi ikiqat əzab gözləyir, lakin siz bilmirsiniz!” (Çünki tabe olanlar haqq yolda olmayan rəhbərlərin ətrafına toplaşmasaydılar, onların insanları azdırmağa qüdrətləri çatmazdı)

39. Öndərlər isə tabe olanlara: “Sizin bizdən heç bir üstünlüyünüz yoxdur. Buna görə də etdiklərinizin cəzası olaraq dadın əzabı! – deyəcəklər.

[633] Əyaşinin təfsiri, c.2, səh.142

40. Ayələrimizi yalan hesab edənlərə və onlara təkəbbürlə yanaşanlara göyün qapıları açılmaz və dəvə iynənin gözündən keçməyənə qədər onlar da Cənnətə daxil olmayacaqlar. Biz günahkarlara belə cəza veririk!

41. Onlar üçün Cəhənnəmdən (Cəhənnəm odundan) döşək və üstlərinə örtmək üçün (atəşdən) örtüklər vardır. Biz zalımları belə cəzalandırırıq!

42. İman gətirib yaxşı işlər görənlər isə - əlbəttə, Biz heç kəsi qüvvəsi yetdiyindən artıq yükləmərik – Cənnətlikdirlər, onlar orada əbədi qalacaqlar!

43. Biz onların (Cənnət əhlinin) ürəklərindəki kin-küdurəti çəkib çıxardarıq. Onların (qəsrləri və ağacları) altından çaylar axar. Onlar deyərlər: “Həmd bizi buraya gətirib çıxaran Allaha məxsusdur! Əgər Allah bizi doğru yola yönəltməsəydi, biz (buranın) yolu tapa bilməzdik. Həqiqətən, Rəbbimizin peyğəmbərləri haqqı gətirmişdilər!” Onlara: “Etdiyiniz əməllərə görə varisi olduğunuz Cənnət budur!” – deyə xitab ediləcəkdir.

---

40. Göyün qapıları: Allah rəsulunun (s) bir hədisində belə buyurulduğunu oxuyuruq: ***“Mömin bəndə dünyadan ayrılıb axirət evinə doğru üz qoyduqda, çöhrələri günəş kimi parlayan ağ üzlü mələklər göydən Cənnət libasları və xoş ətirli hənutla onun yanına enər və onun ətrafında əyləşərlər. Sonra ölüm mələyi enər və həmin bəndənın yastığının kənarında əyləşib deyər: “Ey təmiz ruh, Allahın rəhmətinə və razılığına doğru çıx!” Bu zaman möminin canı onun bədənindən su tuluğun ağzında çıxdığı kimi çıxar. Baxmayaraq ki, siz canın alındığını başqa cür görürsünüz. Canını aldıqdan sonra dərhal Cənnət libasına büküb hənutlayırlar və ondan dünyadakı müşkün ətrindən də gözəl bir qoxu qalxar. Onu yuxarı qaldırarlar. Hansı mələyin yanından keçərlərsə, “Bu***

pak ruh kimdir?", - deyə soruşar. Onlar isə "Filankəsdir", - deyə cavab verər və onu dünyada çağırılan ən gözəl adlarla təqdim edərlər. Nəhayət dünya səmasının sonuna çatar və onun açılmasını istəyərlər. Göyün qapısı üzlərinə açılır və yeddinci göyə qədər hər bir göyün yaxın mələkləri onu növbəti göyə qədər müşayiət edər, yola salarlar. Bu zaman Allah-taala buyurar: "Mənim bəndəmin əməl dəftərini ən yüksək dərəcələrə qeyd edin və onu yerə endirin. Çünki onları torpaqdan yaratdım, torpağa da qaytarır və yenidən oradan qaldırıram." Bundan sonra onun ruhu (qəbirdə) bədəninə qaytarılır. Sonra iki mələk gəlib qarşısında oturar və soğru-suala başlayarlar:

- Rəbbin kimdir?

- Rəbbim Allahdır.

- Dinin hansıdır?

- İslam dini mənim dinimdir.

- Aranızdan seçilmiş bu kişi kimdir?

- O, Allahın elçisidir.

- Haradan bilirsən?

- Allahın kitabını oxudum, ona iman gətirdim və onu təsdiq etdim.

Bu zaman göydən səs gələr: "Bəndəm düz dedi. Cənnətdən onun üçün paltar gətirin, ayaqları altına xalı sərin. Cənnətin qapısını açın ki, oranın xoş ətri və mehi ona dəysin!" Bundan sonra onun qəbri açılacaq və oraya gözəl üzlü, gözəl geyimli və gözəl qoxulu bir adam daxil olaraq deyər: "Səni sevindirəcək bir aqibətin müjdəsini gətirmişəm. Bu, sənə müjdə verilən həmin gündür." Həmin bəndə ondan soruşar: "Sən kimsən ki, simandan xeyir və yaxşılıq yağır?" O, deyər: "Mən sənin saleh əməlinəm." Bəndə deyər: "İlahi, Qiyamət gününü indi et. Qiyamət gününü indi et ki, ailəmə və sahib olduqlarıma qovuşum."

Sonra Peyğəmbər (s) sözünü belə davam etdirir: ***"Kafir bəndə axirətə doğru yollananda, dünyadan ayrılarkən qara üzlü mələklər kobud paltarlarla enər və onu əhatəyə alarlar. Sonra ölüm mələyi enər, yastığının kənarında əyləşib deyər: "Ey çirkli can, Allahın qəzəbinə doğru çıx!" Bu vaxt ruhunu bədənindən daraq yaş yundan çör-çöpü ayırdığı kimi çıxarar. Sonra onu dərhal kobud paltara bükərlər. Ondan yer üzündə olan ən mürdar iydən də pis bir iy qalxar. Hansı mələyin yanından keçərlərsə, "Bu çirkli ruh kimdir?", - deyə soruşar. Onlar isə "Filankəsdir", - deyə cavab verər və onu dünyada çağırılan ən pis adlarla təqdim edərlər. Nəhayət, dünya səmasının sonuna çatar və onun açılmasını istəyərlər. Göyün qapısı açılmaz."*** Peyğəmbər (s) bura çatdıqda bu ayəni oxumuşdur: ***"göyün qapıları açılmaz" Allah-taala buyurar: "Əməl dəftərini ən aşağı dərəcələrə qeyd edin. Onun ruhunu pərt və xar edərlər... Sonra göydən səs gələr: "Bəndən yalan dedi və yalan hesab etdi. Onun üçün oddan xalı sərin. Cəhənnəmin qapısını üzünə açın ki, oranın istisi və öldürücü küləkləri ona dəysin." Sonra qəbir onu elə sıxar ki, kürəyi xurd-xəşil olar. Bu vaxt yanına çirkin üzlü, əynində çirkli paltarlar olan, pis qoxulu bir şəxs gələrək deyər: "Sənə əziyyət verəcək bir sonun müjdəsini gətirmişəm. Bu, sənə vəd verilmiş həmin gündür. Həmin kafir ondan soruşar: "Sən kimsən ki, simandan şər yağır?" həmin adam deyər: "Sənin çirkin əməlinəm." Bu zaman həmin kafir deyər: "İlahi, Qiyamət gününü reallaşdırma!"***[634]

[634] Əl-Mizan, c.8, səh.139

44. Cənnət əhli Cəhənnəm əhlinə səslənib: “Biz Rəbbimizin bizə vəd etdiyini haqq olaraq gördük. Siz də Rəbbinizin sizə verdiyi vədin gerçək olduğunu gördünüzmü?” – deyə soruşacaq. Onlar: “Bəli!” – deyə cavab verəcəklər. Elə bu zaman onların arasında bir carçı belə car çəkəcək: “Allah zalımlara lənət eləsin!”

45. Onlar insanları Allah yolundan döndərər, (şübhə toxumları səpməklə) onu əyri göstərmək istəyərlər və axirəti də inkar edərlər!”

46. Onların ikisinin (Cənnət əhli ilə Cəhənnəm əhlinin) arasında pərdə var. Əraf (Cənnətlə Cəhənnəmin arasındakı sədd) üzərində isə hər iki dəstəni üzündən tanıyan insanlar vardır. Onlar Cənnət əhlini səsləyərək: “Sizə salam olsun!” - deyərlər, ancaq oranın həsrətini çəkmələrinə baxmayaraq, Cənnətə daxil olmurlar.

47. Onların gözləri Cəhənnəm əhlinə sataşdığı zaman: “Ey Rəbbimiz! Bizi zalımlarla bir etmə!” - deyərlər.

48. Əraf əhli üzlərindən tanıdıqları adamlara sələnərək deyəcək: “Sizə nə yiğdığınız mal-dövlət, nə də təkəbbürünüz fayda verdi”

49. Bunlar (Əraf üzərində olanlar) “Allahın rəhməti onlara şamil olmayacaq”, - deyə and içənlər deyilmi? (Lakin Allaha olan inamlarına və bəzi xeyirli əməllərinə görə Allah onlara buyurar:) “Cənnətə daxil olun. Sizin heç bir qorxunuz yoxdur və siz qəm-qüssə görməyəcəksiniz!”

50. Cəhənnəm əhli Cənnət əhlini çağırıb deyəcək: “Bir az su və ya Allahın sizə verdiyi ruzilərdən bizə bir qədər ehsan edin!” Onlar isə deyəcəklər: “Allah bunları kafirlərə haram buyurmuşdur.”

51. Dinlərini oyun-oyuncaq və əyləncəyə çevirənlərə, dünya həyatının məğrur etdiyi şəxslərə. Onlar bu günə qovuşacaqlarını unutduqları və ayələrimizi (bilə-bilə) inkar etdikləri kimi, Biz də onları bu gün unudarıq!

-

44. Əli (ə) Qiyamətin carçısıdır: İmam Rza (ə) bir hədisində bu ayəyə işarə edərək buyurmuşdur: “O carçı möminlərin əmiri Əlidir (ə).” İbn Abbasa isitnad edilən bir məlumatda elə deyilir: “Kitabda Əlinin (ə) elə adları var ki, camaat onları bilmir. Onlardan biri də bu ayədə qeyd edilən “Carçı” adıdır. O, “Allahın lənəti olsun mənim rəhbər olduğumu yalan hesab edən və haqqımı yüngül sayan şəxslərə!”[635]

46-49. Cənnətin yolu üzərində olan keçilməz keçid: Ayə və hədislərdən belə başa düşülür ki, “Əraf” Cənnətin yolu üzərində keçilməsi qeyri-mümkün olan bir keçiddir. Təbii ki, saleh və pak insanlar bu keçiddən sürətlə keçəcəklər, lakin yaxşı ilə pisi bir-birinə qarışdıranlar bu yolda qalacaq, çətinliyə düşəcəklər. Cəmiyyətlərin və xalqların rəhbərləri çətin keçidlərdə arxada gəlib bütün orduya yardım göstərən komandirlər kimi dayanıb zəif möminlərə yardım göstərəcəklər. Xilasə, ləyaqəti çatanlar bu rəhbərlərin yardımları sayəsində xilas olacaqlar. Deməli, Ərafda iki qrup insan olacaq: Zəiflər və mərhəmət edilmiş günahkarlar; bütün hallarda zəiflərə yardım göstərən rəhbərlər. Bəzi hədislərdə də bu mövzu öz əksini tapmışdır. İmam Sadiq (ə) buyurmuşdur: ***“Əraf Cənnətlə Cəhənnəmin***

---

[635] Əl-Mizan, c.8, səh.142

arasında bir təpədir. İmamlar o adamlardır ki, möminlər heç bir sorğu-sual olmadan Cənnətə daxil olduqları halda, onlar Ərafda şiələrin yanında olacaqlar. Öndərlər öz günahkar ardıcıllarına deyəcəklər: "İmanlı qardaşlarınıza yaxşı baxın, sorğu-sual olunmadan Cənnətə tələsirlər." Bu, Allahın buyurduğu həmin məsələdir: "Sizə salam olsun!" - deyərlər, ancaq oranın həsrətini çəkmələrinə baxmayaraq, Cənnətə daxil olmurlar." Sonra onlara deyiləcək: "Düşmənlərinizə baxın, oddadırlar." Bu, Allahın "Onların gözləri Cəhənnəm əhlinə sataşdığı zaman: "Ey Rəbbimiz! Bizi zalımlarla bir etmə!" - deyərlər.", - deyə buyurduğu həmin məsələdir. Sonra Cəhənnəm əhlinə deyəcəklər: Bunlar (günaha batmış ardıcıllar və şiələr) həmin adamlardır ki, siz onlara "Allahın rəhməti sizə şamil olmayacaq"- deyə tənə edərdiniz. Bu günahkarlara imamlar tərəfindən belə bir göstəriş veriləcək: "Heç bir qorxu və kədər hissi keçirmədən Cənnətə daxil olun!"[636] Peyğəmbərə (s) aid olan bir hədisdə belə deyilir: ***"Qiyamət günü Allah bütün bəndələri toplayacaq. Sonra Cənnət əhlinə Cənnətə getmək, Cəhənnəm əhlinə Cəhənnəmə getmək göstərişi veriləcək. Sonra Ərəf əhlinə deyiləcək: "Nəyin həsrətini çəkirsiniz?" Deyəcəklər: "İlahi, Sənin fərmanını gözləyirik." Onlara deyiləcək: "Etdiyiniz yaxşı əməllər sizi oddan xilas etdi. Lakin günahlarınız Cənnətə girməyinizə mane olur. Ancaq mənim rəhmət və mərhəmətimlə Cənnətə daxil olun!"*** Əlbəttə, burada onların bağışlanılmasının səbəbkarı Ərafda olan şəfaətçilər və Allah dostlarıdır. Hədislərin birində bir nəfərin Peyğəmbərdən (s) "Əraf yoldaşları kimlərdir?", - deyə soruşduqda onun belə buyurduğu qeyd edilmişdir: ***"Onlar atalarına itaətsizlik göstərsələr də Allah yolunda öldürülmüş***

[636] Nümunə, c.6, səh.189

şəxslərdir. Şəhidlik onların Cəhənnəmə daxil olmasına, itaətsizlik isə Cənnətə daxil olmasına mane olur. Onlar Cənnətlə Cəhənənmin arasında olan divarın üzərindədirlər. Allah bütün yaratdıqlarını sorğu-suala çəkdikdən sonra yalnız onlar qalacaqlar. Allah onlara mərhəmət göstərib öz rəhməti (peyğəmbər və imamların şəfaəti) ilə Cənnətə daxil edəcək."[637]

52. Həqiqətən, Biz onlara tam dolğun şəkildə izah etdiyimiz, inanan bir qövm üçün hidayət və mərhəmət olan bir Kitab gətirdik.

---

[637] Quranın ismarışı, c.6, səh.556

53. Onlar yalnız ayələrin yozumunu gözləyirlər? Onların yozumunun çatdığı gün daha öncə onu unutmuş olan şəxslər deyəcəklər: “Rəbbimizin elçiləri haqqı gətirmişdilər. Bizə şəfaət edəcək bir şəfaətçi varmı? Yoxsa etdiyimiz əməllərdən başqasını etmək üçün geri qayıdaqmı?” Onlar ömür sərmayələrini tükədiblər. Uydurduqları tanrılar gözlərindən itəcək.

54. Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra varlıq aləmini hakimiyyəti altına alan, gündüzü onun arxasınca sürətlə hərəkət edən gecə vasitəsilə örtüb bürüyən, günəşi, ayı və ulduzları əmrinə boyun əymiş halda yaradan Allahdır. Bilin ki, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi olan Allah mübarəkdir!

55. Rəbbinizə yalvara-yalvara, həm də gizlicə dua edin. O, həddi aşanları sevməz!

56. Yer üzü düzəldikdən sonra, orada fəsad törətməyin. Ona (Allaha) həm qorxu, həm də ümidlə dua edin. Həqiqətən, Allahın mərhəməti yaxşı işlər görənlərə çox yaxındır!

57. Küləkləri Öz mərhəməti önündə müjdəçi olaraq göndərən Odur. Belə ki, küləklər (yağmur yüklü) ağır buludları hərəkətə gətirdiyi (daşıdığı) zaman Biz onları (buludları) ölü (qurumuş) bir məmləkətə tərəf qovur, onun vasitəslə su endirir və onunla hər cür meyvə yetişdiririk. Biz ölüləri də (dirildib qəbirlərindən) belə çıxaracağıq. Bəlkə, xatırlayasınız!

---

54. Dünyanın altı günə yaranması: Dünyanın altı günə yaranması məsələsinə Quranın yeddi ayəsində işarə edilmişdir. Ortaya belə bir sual çıxır: Bildiyimiz kimi, gecə və gündüz yerin günəş sistemində öz oxu ətrafında firlanması nəticəsində meydana gəlir. Deməli, yer və göy yaranmazdan əvvəl gecə ilə gündüz olmayıb. Belə olan halda dünyanın

yaranışı ilə bağlı qeyd edilmiş bu ifadə nə dərəcədə düzgündür? Digər tərəfdən, dünyanın ümumilikdə altı günə yaranması da elmi təsdiqini tapmır. Çünki elm yer və göyün indiki vəziyyətinə milyardlarla ildən sonra gəlib çatdığını sübuta yetirir.

Öncə bunu qeyd etməliyik ki, "gün" sözünün çox geniş məna yükünə malik olması və onun ayrı-ayrı dillərdəki qarşılığı bu sualın yaratdığı şübhəyə aydınlıq gətirir. "Gün" sözü çox vaxt dövr mənasında işlənir. Məsələn, ingilis dilində "time" ərəb dilində olduğu kimi, sutka mənasını ifadə etməklə yanaşı, dövr və zaman mənalarını da bildirir. Bu dövr bir il də ola bilər, yüz il də, milyon, milyard il də. Nümunə üçün, Allah Quranda "Dirilmə"ni "Qiyamət günü" sözü ilə ifadə etmişdir. Halbuki dirilmə dövrünün çox uzun sürəcəyini bilirik. Amma Quran ayələri və hədislər əsasında dirilmə günü və əməllərin hesablanmasının əlli min il sürəcəyi göstərilmişdir. İmamlardan biri bu ayə haqqında belə buyurmuşdur: "Altı gün, yəni altı vaxt, altı dövr." Hər-halda Quran ayələrinin məcmusundan belə başa düşülür ki, Allah-taala yer və göyü altı ardıcıl dövrdə yaratmışdır. Bu dövrlər milyonlar və milyardlar illə ifadə edilə bilər. Müasir elm bunu inkar etmir. Ehtimal ki, bu dövrlər aşağıdakı ardıcıllıqla sıralanmışdır: 1. Bütün dünya qaz kütləsi şəklində olmuş, öz çevrəsində dövrə vuraraq parçalara ayrılmış və kürələr yaranmışdır. 2. Həmin kürələr tədricən parlaq ərinti, soyuq və həyat üçün əlverişli olan kütlələr şəklini almışdır. 3. Bu kütlələrin bəzisinin dövri hərəkəti nəticəsində sistemlər yaranmışdır. Yerin Günəşdən ayrıldığı Günəş sistemi də belə formalaşmışdır. 4. Yer soyumuş və həyat üçün əlverişli imkanlara malik bir kürə şəklini almış, üzərində sular və dənizlər meydana gəlmişdir. 5. Yerdə bitkilər, ağaclar bitmiş, yemək və

qidalanmaq üçün lazım olan şərait yaranmışdır. 6. Yer üzündə canlılar və heyvanlar yaranmışdır[638].

54. Yaratmaq və əmr etmək: Ayədə yaratmaq və əmr etmək deyilərkən nəzərdə tutulan məna təfsirçilər arasında fikir ayrılığının yaranmasına səbəb olmuşdur. Bu və digər ayələrin konteksti yaratmaq deyilərkən ilk yaranışın, əmr deyilərkən isə Allahın əmri ilə yaradılış aləminə hakim kəsilmiş, mövcudatı özünə tabe edən qanunlar və sistemlər nəzərdə tutulduğunu deməyə əsas verir. Bu, əslində, Allahın dünyanı yaradıb onu başlı-başına buraxdığını, Özünün də çəkilib bir kənarda oturduğunu düşünənlərə bir cavabdır[639].

55. Dua forması: Şübhəsiz ki, Allahla rabitə, məbudla dərləşmək, Ona dua etmək fərd və cəmiyyətin formalaşmasında mühüm rol oynayır. Allah-taala bu ayədə duanın oxunma qaydasını göstərmişdir: Öncə Allahın ad və sifətlərini qəlbdə və ruhda canlandırıb bütün diqqəti bir yerə toplamaq, yüksək təvazökarlıqla, ağlaya-ağlaya çağırmaq; İkinci, gizlində, səssiz-küysüz bir yerdə təmiz ürək, səmimi qəlblə dua etmək. Bir gün həzrət Musa (ə) bir kişinin əl qaldırıb yalvarışla dua etdyini görüb öz-özünə deyir: ***"Əgər onun istədiyi mənim əlimdə olsaydı, verərdim"***. Allah bu zaman vəhy edərək buyurur: ***"Mən ona qarşı səndən də mehribanam. O, məni istəyir, ancaq fikri qoyunlarının yanındadır. Mən fikri Məndən başqasının yanında olan bəndənin duasını yerinə yetirmirəm."*** Musa (ə) həmin kişiyə yaxınlaşıb ona Allaha səmimi qəlbdən dua etməsini tövsiyə edir. Kişi səmimi qəlbdən dua edir və Allah duasını qəbul edib istədiyini verir[640].

---

[638] Nümunə, c.6, səh.200; Quranın ismarışı, c.2, səh.165
[639] Nümunə, c.6, səh.206
[640] Kaşif, c.4, səh.171

58. Təmiz (və münbit torpağın) yerin bitkiləri Rəbbinin əmri ilə çıxar. Ancaq pis (şoranlıq torpaqda) yerdə yalnız dəyərsiz bitkilər bitər. Ayələri şükür edənlərə belə izah edirik.

59. Biz Nuhu öz xalqına göndərdik. O dedi: “Ey mənim xalqım! Tək olan Allaha ibadət edin. Sizin Ondan başqa məbudunuz yoxdur. Mən sizə görə böyük günün əzabından qorxuram!”

60. Xalqının böyükləri: “Biz səni açıq-aydın azğınlıqda görürük!”, - deyə cavab verdilər.

61. Dedi: “Mən heç azmamışam, lakin mən aləmlərin Rəbbi tərəfindən göndərilmiş bir peyğəmbərəm!

62. Mən sizə Rəbbimin ismarışlarını çatdırır və sizin xeyrinzi istəyirəm. Allahdan (gələn vəhy ilə) sizin bilmədiklərinizi bilirəm!

63. Yoxsa sizi (yalnış əməllərinizin nəticəsi ilə) qorxutmaq, sizin də təqvalı olmanız və rəhm oluna bilinməniz üçün içərinizdən olan bir adam

(peyğəmbər) vasitəsilə Rəbbinizdən sizə xəbərdaredici göstərişin gəlməsinə təəccüb edirsiniz?"

64. Nəhayət, onu yalançı hesab etdilər. Biz də onu və onunla birlikdə gəmidə olanları xilas etdik. Ayələrimizi yalan hesab edənləri isə qərq etdik (suda boğduq). Onlar, həqiqətən, kor bir toplu idi.

65. Ad qövmünə da qardaşları Hudu (göndərdik). O dedi: "Ey xalqım! Allaha ibadət edin. Sizin ondan başqa heç bir məbudunuz yoxdur. Məgər (Allahın əzabından) qorxmursunuz?"

66. Xalqının kafir başçıları ona: "Biz səni safehlik içində görür və yalançılardan hesab edirik!" – deyə cavab verdilər.

67. Dedi: "Ey xalqım! Mən heç də səfeh deyiləm, lakin aləmlərin Rəbbi tərəfindən göndərilmiş bir peyğəmbərəm!

---

58. İlahi hidayətdən faydalanarkən istedad fərqliliyi: Ayədə bu və o biri dünya həyatında hər kəsin qarşılaşacağı bir məsələyə işarə edilmişdir. Belə ki, hər hansı məqsədin hasil olması üçün təkcə subyekt fəaliyyəti kifayət etmir. Bunun üçün istedad və potensial da şərtdir. Yağış damcılarından daha incə və həyatverici bir şey ola bilməz. Lakin həmin yağışın bir yerdə yaşıllıq və gül bitirməsi, başqa bir yerdə çör-çöp bitirməsi onun incə təbiəti ilə təzad təşkil etmir[641]. Peyğəmbər (s) hədislərinin birində buyurmuşdur: "Allahın mənə peyğəmbər olaraq əmr etdiy hidayət və elm torpaq üzərinə yağan yağış kimidir. Yağış bir yerə yağır, onun bir hissəsi həmin suyu udur, nəticədə, çoxlu bitkilər göyərir, başqa bir hissəsi udub özündə saxlayır və insanlar həm özləri içmək, həm də əkinlərini suvarmaq üçün ondan istifadə edirlər. Həmin yağış suyu özündə saxlamayan, bitki

---

[641] Nümunə, c.6, səh.216

göyərtməyən daş dağlara da düşür. İnsanlar da mənim dinimlə münasibətdə üç qrupa bölünürlər: bəziləri onu öyrənir və öz çullarını sudan çıxarır, başqalarına yardım əli uzatmır, başqalarına heç nə öyrətmirlər; bəziləri həm özləri ondan faydalanır, həm də başqalarına öyrədrlər; üçüncü qrup isə nə özləri ondan faydalaır ,nə də başqasına öyrədirlər."[642]

59. TəkAllahlıq inancı peyğəmbərlərin ilk şüarıdır: TəkAllahlıq şüarı təkcə Nuh (ə) deyil, bütün ilahi peyğəmbərlərin ilk şüarı olmuşdur. Buna görə də bu və Quranın digər surələrinin ayrı-ayrı ayələrində ilk çağırışa başlyarkən peyğəmbərlərin çoxunun ilk şüarının ***"Ey mənim xalqım! Tək olan Allaha ibadət edin. Sizin Ondan başqa məbudunuz yoxdur."***[643] olduğu qeyd edilmişdir. Bu cümlələrdən şirk və bütpərəstliyin bütün insanların xoşbəxtlik yolu üzərində olan ən böyük tikanlar olduğu yaxşı başa düşülür. TəkAllahlıq incanın bağbanları olan peyğəmbərlər insan cəmiyyətlərindəki səmərəli gül və ağac növlərini yetişdirmək üçün hər şeydən əvvəl öz yaradıcı təlimləri ilə bu tikanları təmizləməyə çalışırdılar[644].

65. Peyğəmbərlər insanların qardaşlarıdırlar: Həzrət Hud (ə), habelə Nuh, Saleh, Lut və Şüeyb (Allahın salamı olsun onlara) haqqında qardaş ifadəsinin işlədilməsinin səbəbi onların çox ürəyiyanan, mehriban, öz xalqları ilə qardaş kimi davranmaları, onların düz yola yönləndirilməsi yolunda əllərindən gələni əsirgəməmələri olmuşdur. Bu ifadə fərd və cəmiyyətə qarşı hədsiz dərəcədə can yandıran insanlar haqqında işlədilir. Bundan əlavə, qeyd olunan söz bərabərlikdən və insanın istənilən şəkildə özünü digərlərindən üstün tutmamasından xəbər verir. Yəni Allah adamları insanları yönləndirərkən heç bir iddiada olmamış, yalnız onları bədbəxtlik

---

[642] Əl-Mizan, c.8, səh.176
[643] Əraf surəsinin 65, 73, 85-ci ayələri
[644] Nümunə, c.6, səh.219

bataqlığından xilas edib Allaha doğru yönləndirmək məqsədi güdmüşlər. Hər halda “qardaşları” deyilərkən din qardaşlığı nəzərdə tutulmamışdır. Çünki bu xalqlar onsuz da peyğəmbərlərin islahedici çağırışlarına müsbət cavab verməmişlər[645].

[645] Nümunə, c.4, səh.226

68. Mən sizə Rəbbimin ismarışlarını çatdırıram. Mən sizin etibarlı xeyirxahınızam.

69. Yoxsa sizi (Allahın əzabı ilə) qorxutmaq üçün içərinizdən olan bir adam (peyğəmbər) vasitəsilə Rəbbinizdən sizə xəbərdaredici göstərişin gəlməsinə təəccüb edirsiniz? Xatırlayın ki, Allah sizi Nuhun xalqından sonra onun yerinə gətirdi, sizi fiziki cəhətdən daha qüvvətli etdi. Allahın nemətlərini yada salın ki, bəlkə, nicat tapasınız!"

70. Dedilər: "Sən bizə ona görə gəldin ki, biz yalnız tək olan Allaha ibadət edək və atalarımızın tapındıqları bütlərdən əl çəkək? Əgər doğru deyirsənsə, bizə vəd verdiyin şeyi (Allahın əzabını, bəlasını) gətir!"

71. Dedi: "Artıq Rəbbinizin nifrət və qəzəbi sizi əhatə edib. Sizin və atalarınızın (tanrı niyyəti ilə bütlərə) qoyduğu adlar barəsində mənimlə mübahisəmi edirsiniz? Halbuki Allah onlar barədə heç bir dəlil endirməmişdir. Gözləyin, mən də sizinlə birlikdə gözləyirəm! (Siz mənim məğlub olmağımı, mən də ilahi əzabın sizə gəlməsini)"

72. Nəhayət, onu (Hudu) və onunla birlikdə olanları Öz mərhəmətimizlə xilas etdik. Ayələrimizi yalan hesab edib iman gətirməyənlərin isə kökünü kəsdik.

73. Səmud xalqına da qardaşları Salehi (göndərdik). O dedi: "Ey xalqım! Allaha ibadət edin. Sizin Ondan başqa məbudunuz yoxdur. Rəbbinizdən sizə açıq-aydın bir dəlil gəldi. Allahın bu dişi dəvəsi sizin üçün bir möcüzədir. Buraxın Allahın torpağında otlasın, onu incitməyin, yoxsa çox şiddətli bir əzaba düçar olarsınız!

-

69. Ad xalqı güclü idi və qabaqcıl sivilizasiyaya malik idi: “Sizi fiziki cəhətdən daha qüvvətli etdi” cümləsi Ad xalqının fiziki cəhətdən daha güclü olduğuna işarə edir. Həm müxtəlif Quran ayələri ,həm də tarixi mənbələrdə onların iri cüssəli, möhkəm bədənli, güclü, qabaqcıl sivilizasiyaya, yamyaşıl bir əraziyə malik olduğundan xəbər verir. “Fussilət” surəsinin 15-ci ayəsində onların dilindən belə deyilir: “Kim bizdən daha güclüdür?”. “Haqqə” surəsinin 7-c ayəsndə də etdikləri əməllərin cəzası olaraq onların başlarına gələn bəla haqqında belə buyurulduğunu oxuyuruq: ***“Sən onların iti əsən küləklər arasında çürümüş və içiboş xurma ağacları kimi yerə yıxılıb məhv olduqlarını görmədinmi?”***[646]

71. Bütpərəstlərin Hudla (ə) mübahisəsi: Bu ayədə bütpərəstlərin bütlərə sitayişlə bağlı irəli sürdükləri dəlillər rədd edilir. Onlar deyirdilər ki, ataları bütpərəst, eyni zamanda onlardan ağıllı olmuşlar. Buna görə də onlar atalarının yolunu gedir, bütlərə ibadət edirlər. Həzrət Hud (ə) onlara belə cavab verir: “Sizin kimi, atalarınızın da bütlərin tanrı olması ilə bağlı doğru-düzgün dəlilləri olmamışdır. Siz öz əllərinizlə daşı və ya ağacı yonub onlara adlar qoyur, birini bolluq, müharibə, üçüncüsünü dəniz və ya quru tanrısı adlandırırsınız. Bu bütlərin sizin qoyduğunuz adlardan başqa heç bir kimliyi yoxdur. Onların Allahlığı yalnız sizin xəyallarınıza aiddir. Hətta adlandırılması belə öz əlinizdə olan bir ovuc xülya ilə mənim qəti dəlil-sübutlara əsaslanan iddiama cavab vermək istəyirsiniz?” ***“Sizin və atalarınızın (tanrı niyyəti ilə bütlərə) qoyduğu adlar barəsində mənimlə mübahisəmi edirsiniz? Halbuki Allah onlar barədə heç bir dəlil endirməmişdir”*** cümləsi Quranın bir neçə yerində bütpərəstlik ənənəsini puça çıxarmaq üçün təkrar edilmişdir. Bu, cümlə bütpərəstliyin puç

---

[646] Nümunə, c.6, səh.229; Əl-Mizan, c.8, səh.183

olduğunu sübut etmək üçün aydın və təsirli dəlil, ən incə və dəqiq izah növlərindən biridir. İddiaçı öz iddiasını sübut etmək üçün dəlil və sübut gətirə bilmədikdə, iddia etdiyi məsələ ilə bağlı konkret forma və tərif vermək üçün xülya qəlibi yaratmaqdan başqa çarəsi yoxdur. Ən primitiv cəhalətlərdən biri insanın dəlil və sübutlar qarşısında inadkarlıq göstərməsi, xülya təriflərə əsaslanmasıdır[647].

73. Salehin dəvəsi: "Naqə" dişi dəvəyə deyilir. Quranın yeddi ayəsində Salehin (ə) dəvəsindən söz açılmışdır[648]. Bu, Salehin (ə) peyğəmbərliyini sübuta yetirmək üçün Allahın Səmud xalqı üçün möcüzə olaraq dağdan çıxardığı dəvədir. Buna görə də "naqə" sözü "Allah" sözü ilə təyin edilərək, "nəqətullah" (Allahın dəvəsi) şəklində işlədilmişdir. Bu dəvə[649] Səmud xalqını sınamaq üçün Allahın onlara göndərdiyi bir elçi idi.

[647] Əl-Mizan, c.8 ,səh.183
[648] Nümunə, c.6, səh.235
[649] Əl-Mizan, c.8, səh.185; Tematik təfsir, c.6, səh.321

74. Sizi Ad qövmündən sonra onun yerinə gətirdiyi, düzlərində qəsrlər tikdiyiniz, dağlarını yonub özünüzə evlər düzəltdiyiniz yer üzündə yerləşdiyi vaxtı xatırlayın. Allahın nemətlərini yada salın, yer üzündə fitnə-fəsad törətməyə çalışmayın!”

75. Ad qövmünün təkəbbürlü başçıları iman gətirmiş əlsiz-ayaqsız yoxsullara üz tutub: “Siz əminsiniz ki, Saleh həqiqətən, Rəbbi tərəfindən göndərilmişdir?” – deyə soruşdular. Onlar: “Bəli, biz ona əmr olunmuş hər bir şeyə inanırıq!” – deyə cavab verdilər.

76. Təkəbbürlülər dedilər: “Sizin inandığınızdan biz imtina edirik!”

77. Sonra o dəvəni tutub kəsdilər və Rəblərinin əmrindən çıxaraq: “Ey Saleh! Əgər sən peyğəmbərlərdənsənsə, bizə qorxu gəldyini gətir!” – dedilər.

78. Nəticədə, onları lərzəyə gələn yer ağuşuna aldı. Sübh vaxtı evlərində yalnız cansız bədənləri qalmışdı.

79. (Saleh) onlardan üz çevirib dedi: “Ey xalqım! Mən sizə Rəbbimin əmrini çatdırdım və xeyirxahlıq şərtinə əməl etdim. Lakin siz xeyirxahları sevmirsiniz!”

80. Lutun da o öz qövmünə: “Sizdən əvvəl heç bir bəşər övladının etmədiyi çox çirkin bir əməli sizmi edəcəksiniz?

81. Siz ehtirasa qapılıb qadınların yerinə kişilərə üz tutursunuz. Siz, doğrudan da, həddi aşmış (yolunu azmış) bir toplumsunuz!”, - dediyi vaxtı xatırla!

---

74. Səmud xalqı, yayı düzdə, qışı dağda: Buradan belə başa düşülür ki, Səmud xalqı yayı düzdə, qışı dağda keçirirmiş. Yaz və yay fəqillərində geniş və bol-bərəkətli düzlərdə əkin əkir, heyvandarlıqla məşğul olurdu. Buna görə də düzlərdə gözəl və dəbdəbəli evləri olmuşdur. Soyuqlar düşdükdən və məhsul yığımı başa çatdıqdan sonra oyulmuş qayaların içində, tufan, sel və gözlənilməz təbiət hadisələrinin təsir edə bilmədiyi əmin-aman yerlərdə məskən salır, asudə həyat sürürdülər[650].

75. “Mələ” sözünün mənası: “Mələ” adətən özləri üçün vahid bir inanc seçmiş, birlikləri və zahiri dəbdəbələri gözlər qamaşdıran bir sinfə deylir. Bu sözün leksik mənası doldurmaqdır. Sözügedən ifadə Quranda daha çox zahiri bəzənmiş, batini bulaşmış, cəmiyyətin müxtəlif səhnələrini

---

[650] Nümunə, c.6, səh.237

öz varlıqları ilə dolduran təkəbbürlü, lovğa, özlərini bəyənmiş insanlara aid edilir[651].

76. Cəmiyyətin təkəbbürlü və istismarçı zadəganları: Təkəbbürlü zadəganlar zahiri gücləri və sərvətlərinə güvənərək, hər zaman cəmiyyətə rəhbərlik etməyə çalışırdılar. Onlar hesab edirdilər ki, bu dəfə də küfr və imansızlıqlarını izhar etməklə başqalarına örnək olacaq, camaat da onlara tabe olacaq. Lakin çox çəkmədi, öz səhvlərini başa düşdülər və anladılar ki, insanlar iman işığında yeni şəxsiyyət qazanmış, fikir azadlığından və iradələrinin gücündən faydalanıblar. Maraqlıdır ki, bu və əvvəlki ayədə imansız zadəganlar təkəbbürlü, imanlı zəhmətkeş kütlə isə zəif adlandırılmışdır. Bu da onu göztərir ki, birinci dəstə özlərini üstün hesab etməklə, əllərinin altında olan insanların hüquqlarını pozmaqla və onların güclərini tükətməklə bu mövqeyə çatmışdır. Günümüzün dili ilə onları istismarçı, aşağı təbəqəni isə istismar edilən təbəqə adlandırmaq olar[652].

80. Lutun (ə) əsl nəsəbi və qissəsi: Farabi həzrət Lut (ə) haqqında belə yazır: "Lut" ərəb sözüdür, sözün kökü "Ləvt", mənası isə yapışqanlıq deməkdir. Bu cənab ona görə Lut adlandırılıb ki, onun sevgisi həzrət İbrahimin (ə) qəlbinə yapışmış, hopmuşdur. O, İbrahimin (ə) qardaşı oğlu Harun ibn Tarixin oğludur. Allah-taala onu Mötəfikat adlanan ərazidəki beş şəhərə göndərmiş, həmin şəhərlərin heç birinin əhalisi ona iman gətirməmiş, öz çirkin əməllərindən əl çəkməmişlər[653]. Quran ayələrindən də belə məlum olur ki, o, həzrət İbrahimə (ə) iman gətirmiş, onunla birlikdə müqəddəs Şamata (indiki Suriya) mühacirət etmiş, sonra ilk dəfə eynicinslilərin cinsi münasibəti kimi çirkin günaha batmış xalqa doğru göndərilmişdir. Tarixi

---

[651] Nümunə, c.6, səh.220
[652] Nümunə, c.6, səh.238
[653] Tematik təfsir, c.6, səh.384

mənbələrin yazdığına görə, həmin xalq Sədud adlanan ərazidə yaşamışdır. Buna görə də xalqına qorxu gələrkən ona belə cavab verirlər: ***"Lutun ailəsini öz ölkənizdən və şəhərinizdən çıxarın..."*** Çünki onlar həmin yerdən deyildilər. Axırda da Allah öz lütfü ilə arvadı istisna olmaqla, Lutu və ailəsini xilas etdi, Allahın mələkləri həmin xalqı daş yağışına qərq edib, şəhəri alt-üst etdilər[654].

[654] Əl-Mizan, c.8, səh.188

82. Qövmünün isə: “Onları öz şəhərinizdən, məmləkətinizdən çıxarın, çünki onlar təmiz və günahsız adamlardır!” – deməkdən başqa bir cavabı olmamışdı.

83. (İş bu yerə çatanda) Biz onu və ailəsini xilas etdik. Yalnız övrəti tərk edilənlərdən oldu.

84. Onların üstünə yağış (daş) yağdırdıq. Bax gör günahkarların axırı necə oldu!

85. Mədyənə də qardaşı Şüeybi göndərdik. (Şüeyb) onlara belə dedi: “Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir məbudunuz yoxdur. Artıq sizə Rəbbinizdən aşkar bir dəlil gəldi. Ölçüdə və çəkidə düz olun. İnsanların mallarından heç nə azaltmayın. Yer üzü (peyğəmbərlərin dəvəti və iman işığı sayəsində) düzələndən sonra orada fitnə-fəsad törətməyin. Əgər siz möminsinizsə, bu, sizin üçün daha xeyirlidir!

86. Hər yolun başında əyləşib Allaha iman gətirənləri qorxudaraq Onun yolundan döndərməyin, (ortaya şübhəli fikirlər atmaqla) onu əyri göstərməyin. Xatırlayın ki, bir zaman siz çox az idiniz, amma O sizi çoxaltdı. Görün fitnə-fəsad törədənlərin axırı necə oldu!

87. Əgər sizin bir qisminiz mənimlə göndərilənə inanmış, bir qisminiz isə inanmamışsa, Allah aramızda öz hökmünü verincəyə qədər səbr edin. Çünki O, hökm verənlərin ən yaxşısıdır!”

---

82. Təmizliyin, ismətin günah olduğu yer: Günaha aludə olmuş bir cəmiyyətin təmiz insanları təmizlikdə ittiham edib özündən uzaqlaşdırması heç də təəccüblü deyil. Günaha aludə olmuş cəmyyət bu insanları öz ehtiraslarına maneə hesab edir. Çürkin əməllər törədən insanların gözündə təmiz insanlara xas olan güclü və qürurverici cəhətlər zəiflik və nöqsan hesab edilir. ***“Onlar paklıq və təmizlik istəyən insanlardır”*** cümləsinə əsasən belə bir ehtimal da irəli sürmək olar ki, onlar Lut (ə) və ardıcıllarını riyakarlıqda ittiham etmişlər[655]. Ayədən belə bir nəticə də əldə etmək olar ki, üzərlərinə mühüm təbliğat öhdəliyi götürən, yaxşıya dəvət, pisdən çəkindirmə fəaliyyəti ilə məşğul olanlar insanların Allah dininə qarşı olan etinasızlığından usanmamalı, peşman olmamalıdırlar. Çünki bu reaksiyalar hər zaman olmuşdur. Həzrət Nuh (ə) 950 il təbliğat apardı, ancaq ona çox az adam iman gətirdi. Lut (ə) otuz ildən sonra öz ailəsindən başqa heç kəsi haqq yola yönəldə bilmədi. Hətta arvadı da doğru yola dönənlərdən olmadı. Allah-taala “Səba” surəsinin 13-cü ayəsində belə buyurmuşdur: ***“Bəndələrimdən şükür edəni azdır!”***[656]

83. Lutun arvadı: Quran ayələrindən belə məlum olur ki, Lutun (ə) arvadı da Nuhun (ə) arvadı kimi kafir və günahkarlardan olmuş, ərinə iman gətirməmiş, əksinə ona xəyanət etmişdir. “Təhrim” surəsnin 10-cu ayəsində belə buyurulmuşdur: “Allah kafirlərə Nuhun övrəti ilə Lutun övrətini misal

---

[655] Nümunə, c.6, səh.245
[656] Ətyəbül-bəyan, c.5, səh.376

çəkdi. Onlar Bizim qullarımızdan iki saleh bəndənin himayəsi altında idilər. Onlar ərlərinə xəyanət etdilər və bu iki peyğəmbərlə olan əlaqələri onlara heç bir fayda vermədi. Onlara: "Girənlərlə birlikdə siz ikiniz də Cəhənnəmə girin!" – deyildi." Quranda Lutun (ə) zövcəsinin ona hansı xəyanəti və ya xəyanətləri etdiyi haqqında məlumat verilməmişdir. Lakin hədislərdə qeyd edilir ki, qövmü Luta (ə) qonaq qəbul etməyi qadağan etmişdi. Əzab mələkləri Lutun (ə) evinə insan surətində gəldikdən sonra Lutun (ə) arvadı şəhər camaatını bu hadisədən xəbərdar etmiş və əhali də Lutun (ə) evinə hücum çəkmişdi... Əlbəttə, burada çox diqqətli olmaq lazımdır ki, Lutun (ə) övrəti iffətinə xələl gətirəcək hər hansı səhvə də əsla yol verməmişdir. Çünki heç bir peyğəmbərin həyat yoldaşı iffətinə xələl gətirəcək addım atmaz. Çünki Peyğəmbər (s) hədislərinin birində açıq şəkildə belə buyurmuşdur: ***"Heç bir peyğəmbərin zövcəsi iffətinə xələl gətirəcək addım atmamışdır."***[657]

85. Din insanları islah edir: 84-cü ayədə insanların Allahla olan əlaqəsindən söhbət açılır. Bu ayədə isə insanların bir-birləri ilə olan əlaqələrindən bəhs edilir. Yəni islahatlar aparıldıqdan sonra yer üzündə fəsad törətməsinlər. Dinin insan hüquqları ilə bağlı vəzifələrdən biri budur ki, insanlar arasında olan zülm və haqsızlığı aradan qaldırıb onları islah etsin və bu vasitə ilə onların dünya və axirət xoşbəxtliyini təmin etsin. İmam Baqir (ə) bu ayə haqqında belə buyurmuşdur: ***"Yer ölmüşdü, Allah-taala onu peyğəmbəri vasitəsilə diriltdi. Diqqətli olun, düzəldikdən sonra yer üzündə fəsad törətməyin."***[658]

86. İmanın yolunu kəsənlər: Həzrət Şüeyb (ə) dəvətinin üçüncü hissəsində kafir qövmünü Allahın düz yoluna və dinə təcavüz etməkdən

---

[657] Nümunə, c.24, səh.300 və c.9, səh.181
[658] Əl-Mizan, c.8, səh.191

çəkinməyə çağırdı. Bu cümlədən belə başa düşülür ki, Şüeybin qövmü müxtəlif vasitələrlə insanları ondan uzaqlaşdırır, onların Şüeybə (ə) iman gətirməsinə, yanına getməsinə, sözlərinə qulaq asmasına, təşkil etdiyi ibadət mərasimlərində iştirak etməsinə mane olur, Haqq dinə və tövhid yoluna iman gətirməmələri üçün onları təhdid edirdilər. Xülasə, Şüeybin qövmü bütün gücünü, hiylə-kələyini səfərbər edərək iman yolu üzərində pusqu qurmuş və insanların iman gətirməsinə mane olurdu[659].

[659] Əl-mizan, c.8, səh.192

88. Qövmünün təkəbbürlü və güc sahibi olan əyanları: “Ey Şüeyb! Bizim dinimizə dönməsəniz, səni və səninlə birlikdə iman gətirənləri məmləkətimizdən mütləq qovacağıq!” – dedilər. Dedi: “Əgər imtina etsəm belə?

89. Allah bizi sizin dininizdən xilas etdikdən sonra biz sizin dininizə dönsək, Allaha qarşı yalan uydurmuş olarıq. Rəbbimiz olan Allah istəməsə, bizim ona qayıtmağımız əsla doğru deyil. Rəbbimizin elmi hər şeyi əhatə edir. Biz yalnız Allaha təvəkkül emişik. Ey Rəbbimiz! Bizimlə qövmümüz arasında ədalətlə hökm et. Çünki Sən hökm edənlərin ən yaxşısısan!”

90. Qövmünün kafir olmuş nüfuzlu əyanları dedilər: “Əgər Şüeybin ardınca getsəniz, siz də ziyana uğramış olacaqsınız!”

91. Elə bu zaman onları silkələnən yer öz ağuşuna aldı və onlar sübh vaxtı öz evlərində cansız cəsədlər şəklində düşüb qalmışdılar.

92. Şüeybi yalançı adlandıranlar (elə mhəv oldular ki), sanki orada heç yaşamamışdılar. Şüeybi təkzib edənlərin özləri ziyana uğrayanlar oldular.

93. Sonra onlardan üz döndərib dedi: “Ey xalqım! Mən sizə Rəbbimin ismarışlarını çatdırdım və sizin xeyrinizi istədim. İndi imansız qövmün halına necə təəssüflənim?”

94. Biz bəlkə də qayıtsınlar, yalvarıb-yaxarsınlar deyə, əhalisini müsibət və bəlaya düçar etmədiyimiz heç bir şəhər və kəndə peyğəmbər göndərmədik.

95. Sonra (bu xəbərdarlıqlar onlara təsir etmədikdə) pisliyi (narahatlıq və sıxıntı) yaxşılıqla (bol nemət və rifahla) əvəz etdik. Beləliklə, artıb çoxaldıqları (bütün nemətlərdən bəhrələnib, özlərindən çıxdıqları) və: “Atalarımıza da belə yaman-yaxşı günlər üz vermişdi”, - dedikləri vaxt onları özləri də bilmədən, qəflətən yaxaladıq.

--

89. Şüeybin (ə) sözlərinin qısa izahı: ***"Allah bizi sizin dininizdən xilas etdikdən sonra"*** cümləsindən heç də belə nəticə almaq olmaz ki, həzrət Şüeyb (ə) əvvəl müşrik olmuş, sonra Allah onu xilas etmişdir. Əslində, Şüeyb (ə) bu sözləri cəmiyyətin əksəriyyətinin mövqeyinin bütün cəmiyyətə aid edilməsi prinsipindən çıxış edərək, daha əvvəl kafir olub sonra iman gətirmiş ardıcıllarının dilindən demişdir[660]. Bu ayədə daha çox diqqət tələb edən nüanslardan biri də ondan ibarətdir ki, həzrət Şüeyb (ə) qövmünün özü və möminlərin tövhid inancından dönməsi ilə bağlı ümidlərini puça çıxardı. Amma belə buyurdu: "Rəbbimiz olan Allah istəməsə..." Bununla onlara başa saldı ki, o və ardıcılları iman və tövhid yolunda qətiyyətli və sabitqədəm olsalar da bu qətiyyəti Allahın lütfü hesab edir, Rəblərinin istək və iradəsinə ehtiyaclı olduqlarını düşünürlər[661]. Bu, çox mühüm məsələdir ki, Şüeyb (ə) kimi bir peyğəmbər malik olduğu yüksək mövqe və məqamına baxmayaraq, özünün haqq yolda büdrəyəcəyindən hər zaman qorxur və hər zaman Allahdan istəyir ki, onu haqq yolda saxlasın.

89. Təvəkkülün mənası: Təvəkkül mənası vəkil seçmək olan "vəkalət" sözündən törəmişdir. "Allaha təvəkkül" deyilərkən təkcə həyatın çətinlikləri, xoşagəlməz hadisələr, düşmənçiliklər, müxaliflərin inadkarlıqları, həll edilməsi mümkünsüz olan çıxılmazlıqlar qarşısında Allahı vəkil etmək və ona güvənmək nəzərdə tutulmamalıdır, insanın gücü çatdığı, imkanı daxilində olan işlərdə də əsas subyektin Allah olduğunu yaddan çıxarmamaq lazımdır. Çünki təkAllahlılıq inancında olan bir şəxsin baxışında bütün güc

---

[660] Əl-Mizan, c.8, səh.195
[661] Əl-Mizana istinadən, c.8, səh.195

və qüdrətlərin mənbəyi Allahdır[662]. Bəzi ifratçıların düşündüyü kimi, təvəkkül səbəblərə göz yummaq, əlləri əllərin üzərinə qoymaq, bir küncdə oturmaq deyil, özünü düzəltməkdir, başqalarından asılı olmamaq, daha dərindən düşünməkdir. Səbəblər aləmindən, təbiətdən həyatdan istifadə eynilə Allaha təvəkküldür. Çünki bu səbəblərin hər biri Allahın istəyi və iradəsi ilə təsir göstərir[663]. İslam peyğəmbəri (s) buyurmuşdur: Allahın vəhy elçisi Cəbrayıldan "təvəkkül nədir?" – deyə soruşduqda, dedi: ***"Yaranmışların ziyan vurmaması, xeyir verməməsi, bağışlamaq və mane olmaq iqtidarında olmaması inancındadırlar, yaranmışlardan ümidlərini kəsirlər. Allahın bəndəsi belə olduqda yalnız Allah üçün çalışır, ondan başqasına ümidlənmir. Əsl təvəkkül budur."***[664]

89. Ən yaxşı hakim Allahdır: Fəthin mənası açmaq, fatehin mənası isə açandır[665]. Bu ayədə hakim mənasında işlənmişdir. Çünki hakim öz mühakiməsi ilə başqalarına məlum olmayan məlumata qapı açır. İbn Abbas: "Mənimlə bir qadın arasında bir ixtilaf yaranmayana qədər bu ayədəki fateh sözünün hansı mənada işləndiyini başa düşməmişdim. O, mənə dedi: " **انطلق افتحک بالقاضی**" Yəni, gəl mühakimə etməsi üçün səni qazinin yanına aparım[666]. Məlumdur ki, heç bir qapı Allahın üzünə bağlı deyil və buna görə o ən yaxşı hakimdir. Buna görə də həzrət Şüeyb (ə) Allahdan istəyir ki, onunla qövmü arasında mühakkimə etsin. Çünki O, ən yaxşı hökm edəndir.

---

[662] Nümunə, c.10 ,səh.295
[663] Nümunə, c.7, səh.88
[664] Nümunə, c.10, səh.298
[665] Quran qamusu, "fəth" sözü
[666] Məcməül-bəyan, c.4, səh.305

96. Əgər şəhər və kəndlərin əhalisi iman gətirib təqvalı olsaydılar (günahlardan çəkinsəydilər), sözsüz ki, göyün və yerin bərəkət qapılarını onların üzünə açardıq. Lakin onlar (haqqı) yalan hesab etdilər, Biz də onlara etidkləri əməllərin cəzasını verdik.

97. Bu məmləkətlərin əhalisi əzabımızın onlara gecə yatarkən gəlməyəcəyinə əmin idimi?

98. Və ya bu məmləkətlərin əhalisi əzabımızın onlara gündüz oynayıb əylənərkən gəlməyəcəyinə arxayın idimi?

99. Yaxud Allahın tədbir tökməycəyinə əmin idilərmi? Özlərini ziyana salanlardan başqa heç kəs Allahın tədbir tökməyəcəyinə əmin ola bilməz!

100. Yer üzünün sahiblərindən sonra ona varis olanlara ibrət olmadımı ki, əgər Biz istəsək, onları da günahlarına görə həlak edər, (haqq səsi eşitməmələri üçün) ürəklərini möhürləyərik?

101. Bunlar, bəzi xəbərlərini sənə çatdırdığımız şəhər və kəndlərdir. Peyğəmbərləri onlara açıq-aşkar dəlillər gətirmişdilər. (Amma o məmləkətlərin əhalisi o qədər inadkar idi ki,) əvvəlcə yalan hesab etdiklərinə yenə də inanmadılar. Allah kafirlərin ürəklərini belə möhürləyir (İnadkarlıq göstərdikləri və günah etməkdə israrlı olduqları üçün müəyyən edə bilmə hissindən məhrum edir).

102. Onların əksəriyyətində əhdə vəfa görmədik. (Əksinə) onların əksəriyyətinin günahkar olduğunu gördük.

103. Onlardan (əvvəlki peyğəmbərlərdən) sonra Musanı ayələrimizlə Firon və onun ətrafında olan insanlara göndərdik. Onlar ona (həmin ayələrə qarşı) haqsızlıq etdilər. Bax gör fəsad törədənlərin aqibəti necə oldu!

104. Musa dedi: “Ey Firon! Mən aləmlərin Rəbbi tərəfindən göndərilmiş bir peyğəmbərəm!

---

96. İman və təqva ilahi bərəkətlərin açarı: Günahkarlar və itaətdən boyun qaçıranların başına gətirilən müsibətlərdən bəhs edən əvvəlki ayələrdə bəzən göydən leysanların yağmasına, yerdən bulaqların qaynamasına (Nuhun tufanında olduğu kimi), bəzən ildırımlara, göy gurultularına, bəzən də qorxulu zəlzələlərə işarə edilmişdir. Bu ayədə bildirlir ki, bütün bunlar insanın öz əməllərinin nəticəsidir. Əgər insan təmiz və imanlı olsa, göydən və yerdən əzab deyl, Allahın bərəkəti nazil olacaq.

İnsan bərəkətləri bəlalara dəyişir[667]. Hədislərinin birində İmam Sadiq (ə) buyurmuşdur: ***"Heç bir ilin yağışı o biri ilin yağışından az olmur. Ancaq Allah onu istədiyi yerə yağdırır. Bir xalq günaha bulaşdıqda Allah-taala onlar üçün təyin etdiyi yağışı həmən il onlardan əsirgəyib səhralara, dənizlərə və dağlara yağdırır."***[668] Soruşula bilər ki, əgər iman və təqva ilahi bərəkətlərin enməsinə, imansızlıq və təqvasızlıq da bərəkətlərin kəsilməsinə səbəb olursa, bəs nə üçün bəzi millətlərin naz-nemət içində batdığını, imanlı toplumun isə çətinliklərlə üzləşdiyini görürük? Bu suala cavab vermək üçün iki nüansa diqqət yetirməyimiz lazımdır: 1. İmansız ümmətlərin naz-nemət içində üzməsi təsəvvürü başqa bir yanlışdan, yəni var-dövlətin xoşbəxtlik səbəbi hesab edilməsi yanlışından qaynaqlanan böyük bir yanlışdır. Adətən insanlar elə düşünürlər ki, hansı ölkənin sənayesi daha çox inkişaf edibsə və sərvəti çoxdursa, həmin ölkənin əhalisi daha xoşbəxtdir. Halbuki həmin cəmiyyətlərin daxilinə diqqətlə fikir versək, onların cismlərini və ruhlarını didib parçalayan dərdlərini yaxından görsək, onların çoxunun yer üzünün ən çarəsiz insanları olduğunu görərik. Bundan əlavə, sözügedən nisbi inkişaf onların peyğəmbərlərin (ə) təlimlərində yer almış səy, tələş, nizam-intizam və məsuliyyət hissinin nəticəsidir. 2. "Nə üçün imanlı və təqvalı cəmiyyətlər geridə qalıblar?" sualına gəlincə, əgər iman və təqva deyilərkən təkcə İslam iddiası, Peyğəbmərin (s) təlimlərinə quru bağlılıq iddiası nəzərdə tutulursa, belə fərdlərin geridə qaldığını qəbul edirik. Ancaq həqiqi iman və təqva deyilərkən onun həyatın bütün sahələrinə və bütün davranışlara nüfuz etməsi nəzərdə tutulmalıdır. Bu isə, təkcə iddia ilə olmur. Bəli, İslam başqa, müsəlman isə başqa bir şeydir[669].

---

[667] Nümunə, c.6, səh.266
[668] Tematik təfsir, c.11, səh.154
[669] Nümunə, c.6, səh.266

99. Qorxu və ümid müsbət davaranışların mənbəyidir: İlahi tədbirdən əmin olmamaq deyilərkən məsuliyyətlərin yerinə yetirilmə formasında qorxu və vəzifələrin icrasında səhlənkarlıq qorxusu nəzərdə tutulur. Bu qorxu hissi isə möminin qəlbində hər zaman ilahi rəhmətə ümid hissi ilə müşayiət olunmalıdır. Bu iki hissin bərabərliyi bütün müsbət davranışların və fəaliyyətlərin mənbəyidir. Hədislərdə bu, ümid və qorxu kimi qeyd edilir. Qeyd olunan hisslər imanlı insanlarda vəhdət təşkil edir. Lakin ziyana uğramış günahkarlar Allahın bu cəzasını yaddan çıxarır və özlərini son dərəcə əmin-amanlıqda hiss edirlər[670]. İmam Baqir (ə) buyurmuşdur: "***Elə bir mömin bəndə yoxdur ki, onun qəlbində iki nur, yəni qorxu və ümid nuru olmasın. Bunların heç biri digərindən çox deyil, hər ikisi tamamilə bərabərdir.***"[671] Hətta peyğəmbər və imamlar (Allahın salamı olsun onlara) da özlərini Allahın tədbirindən əmin hesab etməmişlər. İmam Əli (ə) buyurmuşdur: ***"Bu ümmətin ən yaxşısı Allahın cəzasından arxayın olmayanıdır. Çünki Allah-taala buyurmuşdur: Allahın tədbirindən yalnız ziyana uğramışlar arxayın olar."***[672]

---

[670] Nümunə, c.6, səh.273
[671] Kafi, c.2, səh.94
[672] Nümunə ,c.6, səh.272

105. Allah barəsində yalnız haqqı deməyə borcluyuq. Mən sizə Rəbbinizdən açıq-aşkar bir dəlil gətirmişəm. İndi İsrail oğullarını mənimlə bərabər göndər!”

106. (Firon) dedi: “Əgər bir əlamət gətirmisənsə və doğru danışanlardansansa, onu göstər!”

107. (Musa) əsasını atdı və o, dərhal açıq-aşkar bir əjdaha oldu.

108. Əlini (yaxasından) çıxartdı və o, baxanlar üçün bəmbəyaz oldu.

109. Fironun yan-yörəsindəkilər dedilər: “Şübhəsiz ki, bu çox məharətli və bilikli bir sehrbazdır.

110. O sizi yurdunuzdan çıxartmaq istəyir!” (Nə düşünürsünüz?) “Onunla bağlı əmriniz nədir?”

111. (Sonra Firona) dedilər: “Onu və qardaşını saxla və şəhərlərə (sehrbazları) yığan adamlar göndər.

112. Nə qədər bilikli sehrbaz varsa, hamısını tutub gətirsinlər!”

113. Sehrbazlar Fironun yanına gəlib dedilər: “Əgər biz qalib gəlsək, yüksək dərəcədə mükafatlandırılacağıqmı?”

114. Dedi: “Bəli, siz ən yaxın adamlardan olacaqsınız!”

115. (Qarşılaşma günü yetişdi, sehirbazlar) dedilər: “Ya Musa! Ya sən (sehr alətlərini) at, ya da biz ataq!”

116. “Siz atın” – dedi. Onlar (sehr alətlərini) atdıqda, adamların gözlərini bağlayıb onları qorxutdular və böyük bir sehr göstərdilər.

117. Musaya: “Əsanı tulla!” – deyə vəhy etdik. Qəfildən (əsa böyük bir ilana çevrildi və) onların uydurma alətlərini sürətlə uddu.

118. (Bu zaman) haqq aşkar oldu, olanların uydurub düzəltdikləri isə batil oldu.

119. (Sehrbazlar) orada məğlub və xar olub kiçildilər.

120. Və sehrbazlar (qeyri-ixtiyari) səcdəyə qapandılar.

---

105. Musanın (ə) haqlı olmasının sübutu: Həzrət Musa (ə) demək istəyir ki, mən illər öncə canımın qorxusundan qaçdım. Sizlər məni öldürmək istəyirdiniz. İndi isə heç bir silah-sursat götürmədən bircə qardaşım Harunla Firon, onun qüdrətli hikmətinin və sizin qarşınıza çıxmışam. Sizin hamınızı Allah yoluna dəvət edirəm. Bu mənim haqlı olduğumun ən böyük sübutudur. Əgər Allahın fərmanı olmasaydı, sizin qarşınıza çıxmağa cürətim olmazdı. Buna görə də Allah barəsində yalnız haqqı deməli, yalnız doğrunu söyləməliyəm[673].

108. Bəmbəyaz əl: Hədislərdə qeyd edlir ki, bu möcüzə baş verərkən həzrət Musanın (ə) əli günəş kimi parlayırdı[674]. Hətta deyilənə görə onun işığı günəş işığından da parlaq olmuşdur. Günəşə baxmaq olmadığı kimi, işığın parıltısından ona da baxmaq olmurmuş[675].

116. Sehr: Sehr hiylə, kələk, fokus, cəld əl hərəkətinə deylir. Bəzən amili və təhrikedicisi, görünməz və sirli qalan bir hadisəyə də deyilir. Buna görə də sürətli əl hərəkəti və əşyaların yerini dəyişmək bacarığı ilə təqdim

---

[673] Ətyəbül-bəyan, c.5, səh.408
[674] Əl-Mizan, c.8, səh.218
[675] Ətyəbül-bəyan, c.5, səh.412

edilən mövzunu qeyri-adi formada təqdim edən, həmçinin müxtəlif maddə və əşyaların kimyəvi və fiziki xassələrindən istifadə edərək insanlara əcaib-qəraib hərəkətlər sərgiləyən insanların hamısı sehrbaz hesab edilir. Bunlardan başqa, sehrbazlar göstərilərini daha da mükəmməl şəkildə təqdim etmək üçün adətən tamaşaçını öz təsiri altında alan təlqinlərdən, mübaliğəli cümlələrdən, bəzən isə qorxulu və vahiməli səslərdən istifadə edirlər. Firon dövrünün sehrbazlarının əhvalatlarından bəhs edən bu və digər ayələrdən sehrbazların alətlərdən istifadə etdikləri məlum olur. ***"Camaatın gözlərini sehrlədilər"***, ***"Camaatı qorxuya saldılar"*** və digər surələrdə olan eyni məzmunlu cümlələr yuxarıda qeyd etdiyimiz həqiqəti təsdiq edir[676].

116. Fironun sehrbazlarının sehrinin böyüklüyü: Allah-taala "Böyük bir sehr göstərdilər" cümləsi ilə üstüörtülü şəkildə sehrbazların yaratdıqları səhnənin çox böyük və qorxulu olduğuna işarə edir. Yoxsa ki, burada "əzəmətli" sözündən istifadə etməzdi. Bu və bənzər ayələrdən bəhs edən hədislər, tarixi məlumatlar və təfsirlərdən bu səhnənin miqyasının çox böyük olduğu məlum olur. Bəzi təfsirçilərin qeyd etdiyinə görə, oraya toplaşmış sehrbazların sayı on minlərlə nəfər, habelə istifadə etdikləri alətlərin sayı da on minlərdən çox idi. Həmin dövrdə Misirdə təcrübəli və peşəkar sehrbazların sayının çox olduğunu nəzərə alsaq, bu söz heç də təəccüb doğurmur. Hətta iş o yerə çatmışdı ki, Musa da qorxuya düşmüşdü. Quranın "Taha" surəsinin 67-ci ayəsində bu qorxu haqqında belə buyurulmuşdur: ***"Musanın canına qorxu düşdü"***[677]. İmam Əli (ə) Nəhcül-bəlağədə buyurur ki, onun qorxusu başqa bir şeyə görə idi: ***"Musanın qorxusu öz canına görə***

[676] Nümunə, c.6, səh.292
[677] Nümunə, c.6 ,səh.293

deyildi. O, cahil və azğınların insanları təsir altına alacaqlarından qorxurdu.”[678]

[678] Nəhcül-bəlağə, 4-cü xütbə

121. Dedilər: “Biz aləmlərin Rəbbinə iman gətirdik -

122. Musanın və Harunun Rəbbinə!”

123. Firon dedi: “Mən sizə icazə verməzdən əvvəl ona iman gətirdiniz?” Bu, yəqin ki, əhalisini çıxartmaq məqsədilə bu şəhərdə (bu məmləkətdə) qurduğunuz bir hiylədir. Ancaq tezliklə biləcəksiniz!

124. Əl-ayağınızı çarpaz kəsəcək (sağ əli sol ayaqla, sol əli sağ ayaqla), sonra isə hamınızı dara ağacından asacağam!”

125. (Sehrbazlar) dedilər: “(Önəmli deyil,) biz Rəbbimizin hüzuruna dönəcəyik!

126. Sənin bizdən intiqam almağın isə ancaq Rəbbimizin ayələri gələn kimi bizim onlara iman gətirməyimizə görədir. Ey Rəbbimiz! Bizə səbr və dözüm əta et, bizi müsəlman olaraq öldür!”

127. Firon qövmünün əyan-əşrafı dedi: “Musanı və qövmünü azad buraxırsan ki, fitnə-fəsad törətsinlər, səni və tanrılarını tərk edib getsinlər?” Dedi: “Tezliklə oğullarını öldürəcək, qızlarını isə (xidmətçilik etmək üçün) diri saxlayacağıq. Biz onlar üzərində tam hökmranıq (Onlar bizim tam hökmranlığımız altındadırlar).”

128. Musa öz qövmünə dedi: “Allahdan yardım diləyin və dözümlü olun. Yer üzü Allahındır. Bəndələrindən istədiyini onun varisi edər. (Xoşbəxt) aqibət təqvalılar üçündür!”

129. Dedilər: “Sən bizə gəlməzdən əvvəl də, sonra da biz əziyyət çəkdik! (Bu işkəncələrə nə vaxt son qoyulacaq?)” Dedi: “Ümid var ki, Rəbbiniz düşməninizi məhv edib sizi yer üzünün varisləri edəcək, sonra isə necə davranacağınıza baxacaq!”

130. Biz Fironun xalqını qıtlığa, quraqlığa və məhsul çatışmazlığına məruz qoyduq ki, bəlkə ayılsınlar, nəticə çıxarsınlar!

---

123. Müstəmləkəçiliyin ən pis forması: Bəlkə də Firon “Mən sizə icazə verməzdən əvvəl ona iman gətirdiniz?” (Mənim icazəm olmadan ona iman gətirdiniz?) cümləsi ilə həm Musanı (ə) təhqir etmək, həm də “Mən özüm də həqiqət tərəfdarı və həqiqət axtaran adamam, əgər Musanın (ə) bu göstərdiyi hərəkət həqiqət olsaydı, mən özüm camaata iman gətirməsi üçün icazə verərdim. Amma sizin bu tələsik davranışınız göstərir ki, onun bu göstərisi nəinki düz deyil, eyni zamanda Misir camaatına qarşı yönəlmiş bir hiylə və kələkdir” demək istəyib. Bu, həm də onu göstərir ki, iqtidar və hakimiyyət hərisliyi, dəliliyi Fironun varlığını elə sarmışdı ki, Misir camaatının onun icazəsi olmadan addım ata, söz danışa bilməyəcəyi iddiasında idi. Hətta daha pisi, onun icazəsi olmadan düşünmək və iman gətirmək haqqına sahib olmadıqlarını düşünürdü. Bu, müstəmləkəçiliyin ən pis formasıdır, millət elə bir vəziyyətə salınıb, quldarlıq və əsarət elə həddə çatıb ki, heç kəsin düşünməyə, kiməsə və hansısa məktəbəsə hətta qəlbində belə inam bəsləməyə haqqı çatmır. Bu, müasir müstəmləkə formasında da həyata keçirilən proqramdır. Yəni neomüstəmləkəçilər təkcə iqtisadi, siyasi və ictimai müstəmləkəçiliklə kifayətlənmir, daha da irəli gedərək, öz fəaliyyətlərini fikri müstəmləkəçiliklə gücləndirməyə çalışırlar[679].

126. Fironun sehrbazlarının mənəvi dözümlülüyü: Doğrusu, sehrbazların ruhunda və canında yaranmış heyrətamiz dözümlülük haqqında düşünməyə dəyər. Musanın (ə) ən qatı düşmənlərindən olan, onun dinini və missiyasını məhv etmək qəsdinə durmuş fərdlər necə olur ki, canını qurban verməyə hazır olan qətiyyətli möminlərə çevrildilər? Tarixi mənbələr və

---

[679] Nümunə, c.6, səh.300

hədislərdə qeyd edilir ki, onlar bu yolda elə dirəniş və dözümlülük göstərirlər ki, Firon öz təhdidlərini əməli şəkildə həyata keçirmək məcburiyyətində qalır, onları şaqqalatdırıb tikə-tikə olmuş bədənlərini Nilin sahilindəki uca xurma ağaclarından asır. Nəticədə, onların qürurverici adları dünyanın azad insanlarının adları ilə qoşa çəkilməyə layiq görülür. Böyük təfsrçi Təbərsinin dili ilə desək, "Onlar səhər sehrbaz kafirlər idilər, axşam Allah yolunun xoşbəxt şəhidləri oldular!"[680]

127. Bütpərəstin bütü: Bu ayədən belə məlum olur ki, Fironun tanrıları var idi və onlara ibadət edirdi. Əlbəttə, başqa ayələrdə onun özünü də tanrı hesab etməsi faktına rast gəlirik. Belə ki, "Naziat" surəsinin 24-cü ayəsində onun belə dediyinin şahidi oluruq: ***"Dedi: Mən sizin uca rəbbinizəm"*** Bu ənənə digər xalqlarda da mövcud olmuşdur. Tarixi mənbələrin yazdığına görə, Roma və başqa ölkələrdə insanlar öz qəbilə və tayfa başçılarına sitayiş etmiş, onlar isə öz atalarına və ya öz bütlərinə ibadət etmişlər[681].

127. Firon və İsrail oğullarının müqavimət göstərən kişilərinin ortadan qaldırılması siyasəti: Firon burada çox köklü və əsaslı bir mübarizəyə başlayır, İsrail oğullarının bütün qüdrətinə son qoymaq qərarına gəlir. O, İsrail oğullarının mübariz və döyüşkən kişilərinin nəslini kəsmək üçün oğullarını qətlə yetirməyi, qız və qadınlarını isə kənizlik və xidmətçilik etmələri üçün salamat saxlamağı qarşısına məqsəd qoyur. Bu metod həm qədim müstəmləkəçilik, həm də neomüstəmləkəçilik üçün səciyyəvidir. Millətin sayılıb seçilən, başbilən, ağıllı nümayəndələrini öz siyasətləri ilə boğmaq, aradan götürmək, müxtəlif vasitələrdən istifadə edərək, onlardakı kişilik və mərdlik ruhunu öldürmək, özlərini aradan götürmək, aktiv

[680] Nümunə, c.6, səh.305
[681] Əl-Mizan, c.8, səh.227

olmayan fərdlərə isə toxunmamaq müstəmləkəçiliyin spesifik xüsusiyyətlərindəndir[682].

131. (İbrət götürmədilər, əksinə) Onlara bolluq qismət olduğu zaman: “Bu bizim özümüzə görədir!” – deyir, bir pislik üz verdikdə isə “Bu, Musa və yanındakıların nəhsliyi ucbatındadır”, - deyirdilər. Agah olun ki, bütün bunların mənbəyi Allahın yanındadır, lakin onların çoxu bilməz!

132. Dedilər: “Sən bizi ovsunlamaq üçün nə möcüzə gətirsən də, yenə sənə iman gətirən deyilik!”

133. Biz onlara ayrı-ayrı möcüzələr olan tufan, çəyirtkə və həşərat, qurbağa və (su mənbələrinə) qan göndərdik. Onlar yenə də (ayılmadılar) özlərinə sığışdırmayıb kafir bir tayfa oldular.

---

[682] Nümunə, c.6, səh.309

134. Onlara əzab gəldikdə dedilər: “Ya Musa! Bizim üçün Allahından sənin‌lə olan əhdinə vəfa etməsini istə. Əgər bu əzabı bizdən götürsə, biz, hökmən, sənə iman gətirəcək və İsrail oğullarını sənin‌lə birlikdə göndərəcəyik”.

135. Elə ki, əzabı bir müddətə onlardan götürürdük, öz əhdlərini pozurdular.

136. Biz də ayələrimizi yalan hesab edib onlardan qafil olduqları üçün nəhayət, onlardan intiqam aldıq, dənizdə batırdıq.

137. Zəiflədilmiş o tayfanı yer üzünün daim xeyir-bərəkət verdiyimiz şərq tərəflərinə varis etdik. Səbr etdiklərinə və dözümlülük göstərdiklərinə görə Rəbbinin İsrail oğullarına verdiyi gözəl vəd yerinə yetdi. Fironun və onun camaatının tikib qurduqlarını və hasarlanmış bağlarını isə viran qoyduq.

---

131. İslama görə əlamət və əlamətlərə inam: Əsası **“تطيّر”** olan **“يطّيّر”** sözünün mənası nəhs gətirmək deməkdir. Sözün kökü isə **“طير”**, mənası quş deməkdir. Ərəblər nəhs gəlməsinə adətən quşlar vasitəsilə etiqad bəslədikləri, bəzən qarğanın qarıldamasını nəhs, quşun sol tərəfdən uçmasını uğursuzluq əlaməti hesab etdikləri üçün **“تطيّر”** mütləq şəkildə nəhs gəlmək mənasında işlədirlər. Quran bütün baş verənlərin Musa (ə) və tərəfdarlarının nəhsliyi ucbatından baş verdiyini iddia edən Firon və ətrafındakılarına belə cavab verir: Bilin ki, başlarına gələn bütün bəlaların mənbəyi Allahdır, Allah istəmişdir ki, onlar əməllərinin cəzasını çəksinlər. Lakin onların çoxu bilmir. Ümumiyyətlə, müxtəlif insanlar və ayrı-ayrı xalqlar arasında yaxşı və nəhs əlamətlər inancı geniş yayılmışdır. Ayrı-ayrı toplumlarda bəzi hadisələr yaxşı əlamət, qələbə və işlərin alınma səbəbi, bəzi hadisələr isə nəhs əlamət,

uğursuzluq və məğlubiyyət səbəbi hesab edilir. Halbuki uğur və uğursuluğun bu hadisələrlə heç bir məntiqi əlaqəsi yoxdur. Xüsusilə, əlamətlərə inam əsasən xurafat və qeyri-məntiqi yönlərə malikdir. Bu ikisinin təbii təsirləri olmasa da, psixoloji təsirləri danılmazdır. Yaxşı əlamət adətən ümidə və fəaliyyətə, nəhs əlamət isə məyusluğa, ümidsizliyə, acizliyə və zəifliyə səbəb olur. Bəlkə də elə buna görədir ki, hədis və rəvayətlərdə yaxşı əlamətlər məsələsi inkar edilməmiş, nəhs əlamətlərə inam isə kəskin şəkildə qadağan edilmişdir. Məşhur hədislərinin birində Peyğəmbər (s) buyurmuşdur: ***"İşlərinizə yaxşı əlamət gətirin ki, ona nail olasınız."*** Quran və hədislərdə nəhs gətirilməsi, nəhs əlamətə uyğun davranmaq kəskin şəkildə pislənmişdir. Peyğəmbər (s) hədislərinin birində belə buyurmuşdur: ***"Nəhs gətirmək, hər hansı hadisəni pis əlamət hesab etmək bir növ Allaha şərik qoşmaqdır."*** Hədislərin birində nəhs əlamətin psixoloji təsirə malik olduğunu oxuyuruq: ***"Nəhs əlamətə inanmağın təsiri onu qəbul etdiyin qədərdir. Əgər onu yüngül bir şey hesab etsən, təsiri az olacaq, əgər onu ciddiyə alsan, təsiri güclü olacaq. Əgər ona etina etməsən, heç bir təsiri olmayacaq."***[683]

133. Fironun xalqının başına gələn əzablar: Təfsirçilərin yazdığına görə, qurbağalar o qədər çoxalır ki, hətta yeməklərinin içindən, paltarlarının altından, yataqlarından çıxır. Qan gəlməsi ilə bağlı qeyd edirlər ki, Nil çayı, çaylar və kəhrizlərin suyu, ümumiyyətlə, bütün sular Firon xalqı üçün qana çevrilir. Lakin Musanın (ə) tərəfdarları üçün bu belə deyildi. Yəni Fironun tərəfdarları qan içdiyi halda, həmin qan Musanın (ə) tərəfdarları üçün zülal suya çevrilirdi[684].

---

[683] Nümunə, c.6, səh.316
[684] Ətyəbül-bəyan, c.5, səh.435

134. Allahın Musa (ə) ilə əhdi: Onlar Allahın Musa (ə) ilə bağladığı əhd deyərkən, Musa (ə) dua edəcəyi təqdirdə onun bütün dualarını qəbul edəcəyi ilə verdiyi əhdi nəzərdə tuturdular[685].

137. Məkkə və Suriya, iki bərəkətli ərazi: Ayədə bərəkətli yer deyilərkən Suriya və Fələstin torpaqları nəzərdə tutulmuşdur. Çünki Allah yalnız iki yerin daha bərəkətli olduğunu bildirmişdir. Onlardan biri Kəbə, digəri isə müqəddəs torpaqlar hesab edilən Fələstin ərazisidir[686].

[685] Əl-Mizan, cş8 ,səh.233
[686] Əl-Mizan, cş8 ,səh.233

138. Biz İsrail oğullarını dənizdən keçirtdik. Yolları üzərində təvazökarlqla öz bütlərinin ətrafına toplaşmış bir tayfaya rast gəldilər. (Bu vaxt İsrail oğulları) dedilər: “Ya Musa! Bizə də onların tanrıları kimi bir tanrı düzəlt!” Dedi: “Siz cahil və nadan bir cəmiyyətsiniz!

139. Bunlar (bütpərəstlər) məhvə məhkumdur, etdikləri əməllər isə batildir (puçdur)!”

140. (Musa yenə) dedi: “Allah sizi aləmlərə (dövrünüzdəki bütün insanlara) üstün etdiyi halda, heç mən sizin üçün Allahdan başqa bir tanrı istərəmmi?!”

141. Sizi Fironun tərəfdarlarının əlindən xilas etdiyimiz zamanı xatırlayın. Onlar sizə davamlı olaraq ağır işkəncələr verir, oğullarınızı öldürür, qadınlarınızı isə (özlərinə xidmət etmək üçün) diri saxlayırdılar. Bunda sizin üçün Rəbbiniz tərəfindən böyük bir sınaq var idi.

142. Biz Musa ilə otuz gecə barədə vədələşdik, sonra ona on gecə də əlavə etdik. Beləliklə, Rəbbinin təyin etdiyi müddət tam qırx gecə oldu. Musa qardaşı Haruna dedi: “Sən tayfam içində mənim xəlifəm ol, (onları) islah etməyə çalış və (yer üzündə) fitnə-fəsad törədənlərin yolu ilə getmə!”

143. Musa təyin etdiyimiz vaxtda gəldikdə Rəbbi onunla danışdı. (Musa:) “Ey Rəbbim! Özünü (camalını) mənə göstər. Sənə baxım!” – dedi. Allah: “Sən Məni əsla görə bilməzsən. Lakin dağa bax. Əgər o yerində dura bilsə, sən də Məni görə bilərsən”, - deyə buyurdu. Rəbbi dağa təcəlli etdikdə (Allahın nuru dağa saçıldıqda) onu yerlə bir etdi. Musa da özündən gedib yerə düşdü. Ayılandan sonra isə: “Sən paksan, müqəddəssən! (sən gözə görünməzsən!) Sənə doğru qayıtdım. Mən iman gətirənlərin birincisiyəm!” – dedi.

---

138. Materialist və bütbərəst İsrail oğulları: Həzrət Musadan (ə) əvvəl İsrail oğulları babaları həzrət İbrahimin (ə) dinində idilər. İbrahimdən (ə) Musaya (ə) qədər olan dövr ərzində İshaq, Yəqub və Yusif (Allahın salamı olsun onlara) peyğəmbərlik etmişdir. Onlar İsrail oğullarını təkAllahlıq dininə inanmağa, şirkdən uzaq durmağa çağırmış, Allahın maddə və cism olmadığını, forma və ölçüyə gəlmədiyini başa salmışlar. Lakin Quranda İsrail oğulları ilə bağlı olan əhvalatlardan belə məlum olur ki, onlar yalnız maddə və hiss olunanı qəbul etmiş, maddədən kənar, onun fövqündə olanı qəbul etməmişlər. Allah haqqında söylədikləri isə tam səmimi olmamış, göstəri səciyyəsi daşımış, söylədiklərinə həqiqətən də etiqad bəsləməmişlər. Milli təəssübkeşlikləri İsrail oğullarını babalarının dinini simvolik və zahirən də olsa, qoruyub saxlamağa vadar etsə də, uzun illər bütpərəst fironlar və qibtilərin əsarəti altında olduqları üçün bütpərəstlik ruhlarına və canlarına hopmuşdu. Buna görə də onların çoxu Allahın cismani və maddi bir varlıq olduğunu təsəvvür edirdi. Musa (ə) onlara Allah haqqında məlumat çatdırmaq istədikdə, onlar xəyallarında cismani bir varlıq canlandırırdılar. Buna görə də gedərkən yolları üzərində bütə sitayiş edən bir tayfa ilə

rastlaşdıqda xoşlarına gəldi və onlar kimi bir bütə sahib olmaq istədilər. Musadan (ə) onlara dua və ibadət etmələri üçün bir büt düzəltməsini istədilər. Mənbələrin yazdığına görə, yəhudilərdən biri İslama və müsəlmanlara tənə vurmaq üçün İmam Əliyə (ə) "Siz Peyğəmbərin (s) vəfatından heç otuz il keçməmiş bir-birinizə qılınc çəkdiniz" – dedikdə, İmam Əli (ə) buyurdu: ***"Amma siz yəhudilər ayağınızdakı dəniz suyu qurumamış peyğəmbərinizə "Bizə də onların tanrıları kimi bir tanrı düzəlt" dediniz"***[687]

142. Musa (ə) ilə qərarlaşdırılmış müddət barəsində bir suala cavab: Sual oluna bilər ki, nə üçün təyin edilmiş 40 gün müddəti bir dəfəyə deyil, mərhələli şəkildə təyin edilib, yəni əvvəl 30 gecə təyin edilib, sonra on gecə də ona əlavə edilib? Əslində, təyin edilmiş müddət qırx gecə olmuşdur, lakin Allah-taala İsrail oğullarını sınamaq üçün Musanı (ə) öncə otuz gecəlik bir görüşə dəvət edir, sonra münafiqlərin möminlərdən seçilməsi üçün həmin müddəti uzadır. İmam Baqir (ə) buyurmuşdur: ***"Musa Allahın vəd verdiyi yerə gedərkən öz qövmünə bildirir ki, onun bu gedişi otuz gündən çox çəkməyəcək. Ancaq Allah-taala həmin müddətə on gün də əlavə etdiyində İsrail oğulları "Musa öz verdiyi sözdən çıxdı", - deyib buzova pərəstiş etməyə başladı."*** Hədislərdə bu qırx günün ziqədə ayının birinci günü başlayıb zilhiccə ayının onu (Qurban bayramı günü) başa çatdığı qeyd edilmişdir. Ayədə qırx gün deyil, "qırx gecə" ifadəsi işlədilmişdir. Bu da ona görədir ki, Musanın (ə) Allahla olan minacatları, danışıqları daha çox gecə vaxtları olurdu[688].

142. Harun (ə) Musa (ə) üçün necə idisə, Əli (ə) də Peyğəmbər (s) üçün elə idi: Sünni və şiə təfsirçilərinin çoxu bu ayəni təfsir edərkən

[687] Əl-Mizan, c.8, səh.238
[688] Nümunə, c.6, səh.340

“Mənzilət” (mövqe, məqam, dərəcə, status) hədisinə işarə etmiş və Peyğəmbər (s) səhabələrinin çoxunun Təbuk döyüşü ilə bağlı belə dediklərini qeyd etmişlər: ***“Peyğəmbər (s) Təbuka doğru yollanarkən Əlini (ə) öz yerinə təyin etdi. Əli (ə) dedi: “Məni uşaqların və qadınların arasında qoyursan? (və icazə vermirsən ki, sənlə cihad meydanına gedim?)” Peyğmbər (s) buyurdu: “Mənə olan nisbətinin Harunun Musaya (ə) olan nisbəti kimi olmasını istəmirsənmi? Bir fərqlə ki, Məndən sonra peyğəmbər olmayacaq.”***[689]

143. Nə üçün Musa (ə) Allahdan Onu görməsini istədi? Ən aydın cavab budur ki, Musa (ə) bunu öz qövmünün dilindən istəmişdir. Çünki İsrail oğullarının bir qrup nadanı israr edirdi ki, iman gətirmək üçün Allahı mütləq görməlidirlər (Nisa surəsi-153). Ona da qənaətbəxş cavab almaları üçün bu istəyi Allaha ünvanlaması əmr edildi. Məsumlardan (ə) bizə çatmış bəzi hədislərdə də bu məsələ öz təsdiqini tapır[690].

[689] Nümunə, c.6, səh.343
[690] Nümunə, c.6, səh.356

144. (Allah) buyurdu: “Ya Musa! Mən Öz ismarışlarım və (səninlə) danışmağımla səni seçib insanlardan üstün tutdum. İndi sən verdiyimi al və şükür edənlərdən ol!”

145. Biz onun üçün lövhələrdə hər bir mövzu ilə bağlı nəsihət yazdıq, hər şey haqqında açıqlama verdik. “Bundan möhkəm yapış və ümmətinə də de ki, onun ən yaxşılarına əməl etsinlər. (Axirətdə) Tezliklə fasiqlərin yurdunu sizə göstərəcəyəm!

146. Yer üzündə haqsız yerə təkəbbürlük edənləri tezliklə ayələrimdən (ona inanmaqdan) yayındıracağam. Onlar nə möcüzə görsələr, ona inanmazlar. Onlar haqq yolu görsələr, onu qəbul etməz, azğınlıq yolunu görsələr, onu özlərinə yol seçərlər. Bunun səbəbi isə onların ayələrimizi yalan hesab etmələri və ondan qafil olmalarıdır.

147. Ayələrimizi və axirət görüşünü doğru hesab etməyənlərin əməlləri puça çıxacaq. Onlar yalnız öz əməllərinin qarşılığını alacaqlar”

148. Musanın qövmü ondan sonra öz bəzək-düzək şeylərindən buzov səsi verən cansız bir buzov heykəli düzəltdilər. Məgər onlarla danışmadığını, onlara (haqq) yol göstərmədiyini görmürdülərmi? Onu (özlərinə tanrı) seçib zülm eləyən oldular.

149. Həqiqəti bildikdə və haqq yoldan azdıqlarını gördükdə, dedilər: “Əgər Rəbbimiz bizə rəhm etməsə və bizi bağışlamasa, mütləq ziyana uğrayanlardan olacağıq!”

---

144. Allahın Musa (ə) ilə danışıq şəkli: Müxtəlif ayələrdə Allahın Musa (ə) ilə danışmasından bəhs edilir. Bu danışıq fəzada və ya cismlərdə səs dalğaları yaratmaqla baş verirdi. Səs dalğaları Əymən vadisindəki ağacdan süzülərək, bəzən Tur dağında Musanın qulağına çatırdı. Bu danışıq elə şəkildə idi ki, Musa (ə) onun Allah tərəfindən olduğuna və ona

ünvanlandığına əmin idi. Bu bilgi Musaya (ə) ya vəhy və ilham vasitəsilə, ya da digər vasitələrlə hasil olmuşdu[691].

145. Tövratın lövhələri: Ayədən belə başa düşülür ki, Allah-taala Musaya (ə) Tövratın qanunlarını əks etdirən lövhələr göndərmişdir. Lakin Quranda bu lövhələrin necəliyi, cinsi, hansı maddədən olması ilə bağlı məlumat verilməmişdir. "Əlvah" sözü mənası səhifə olan lövhə sözünün cəmidir. Təfsirlərdə Musaya (ə) göndərilən lövhələrin cinsi və keyfiyyəti ilə bağlı müxtəlif ehtimallar irəli sürülmüşdür. Ancaq heç biri qəti və etimad göstəriləcək həddə deyil[692].

145. Əməllərin ən yaxşısını seçmək: Əvvəlki ayədə "Bu göstərişlərin ən yaxşısını götür" deyilərkən bu, qeyd olunan göstərişlər arasında pis, yaxşı və daha yaxşı hökmlərin olması, yaxşıların götürülüb, pislərin tərk edilməsi, yaxşı və daha yaxşılar arasında daha yaxşının seçilməsi kimi başa düşülməməlidir. Çünki bəzən elə olur ki, üstünlük dərəcəsi bildirən sifət (ən yaxşı) adi dərəcədə işlənən sifət (yaxşı) mənasında işlədilir. Bu ayədə də eyni qayda tətbiq edilmişdir. Yəni "ən yaxşı" "yaxşı" mənasında işlədilmişdir. Bununla da bütün bu göstərişlərin yaxşı olduğuna işarə edilmişdir. Ayə ilə bağlı irəli sürülən bir ehtimalda "ən yaxşı" deyilərkən, elə öz mənasının nəzərdə tutulduğu qeyd edilmişdir. Belə ki, bu göstərişlər arasında bəzisi halal və icazə verilmiş əməllər sayıldığı halda (qisas kimi), bəzisi daha yaxşı əməllər hesab edilmişdir (əfv və bağışlamaq kimi). Yəni burada Allah Musaya (ə) "Ardıcıllarına bacardıqları qədər daha yaxşı seçmələrini de", - deyə bir göstəriş verir. Yəni əfv və bağışlamağı qisasdan üstün tutsunlar[693].

---

[691] Nümunə, c.6, səh.363
[692] Nümunə, c.6, səh.363
[693] Nümunə, c.6, səh.264

148. Samirinin buzovu: “Xuar” inək və ya buzovun çıxardığı səsə deyilir. Bir qrup təfsirçi hesab edir ki, Samiri qızıldan düzəldilmiş buzovun daxildən sinə hissəsinə xüsusi bir boru qoymuşdur. Həmin borudan buzov səsinə bənzər bir səs çıxırdı. Bəziləri hesab edir ki, buzovu külək istiqamətində tənzimləmişdi. Külək əsərkən buzovun xüsusi şəkildə düzəldilmiş ağzından səs çıxırdı. Bəzi təfsirçilər hesab edirlər ki, Samiri Cəbrayılın ayağının altından götürdüyü torpağı həmin buzovun içinə tökdüyü üçün buzov canlanmış və təbii buzov səsi çıxarırdı. Sonuncu ehtimal Quranla təsdiqini tapmır. Çünki “cəsəd” (heykəl) ifadəsi onun canlı deyil, cansız bir cəsəd olduğunu deməyə əsas verir. Hər-halda, Samiri Musanın (ə) qövmünün uzun illər məhrumiyyətlər içində yaşadığını, materialist düşüncələrin bu qövmə hakim kəsildiyini, qızıla, daş-qaşa çox həris olduqlarını yaxşı bildiyi üçün buzovunu qızıldan düzəltmişdi ki, qulların və heyranların diqqətini ona cəlb edə bilsin[694].

[694] Nümunə, c.6, səh.371

150. Musa qəzəbli və kədərli halda tayfasının yanına dönərkən onlara dedi: “Məndən sonra mənə nə pis xələf oldunuz! (Dinimi zay etdiniz) Rəbbinizin əmri ilə bağlı tələskənlik etdiniz?” Sonra lövhələri atdı, qardaşının başından yapışıb özünə tərəf çəkdi. (Harun) dedi: “Ey anam oğlu! Belə edib məni düşmənin istehza hədəfinə çevirmə. Məni zalımlarla bərabər tutma!”

151. (Musa) dedi: “Ey Rəbbim! Məni və qardaşımı bağışla. Bizi Öz mərhəmətin altına al. Sən rəhm edənlərin ən rəhmlisisən!”

152. Şübhəsiz ki, buzovu (tanrı) qəbul edənlərə Rəbbindən bir qəzəb yetişəcək və onlar dünyada zillətə düçar olacaqlar! Biz (Allaha) iftira yaxanları belə cəzalandırırıq!

153. Pis əməllər etdikdən sonra tövbə edib iman gətirənlərə gəldikdə isə, Rəbbin tövbədən sonra bağışlayandır, rəhm edəndir!

154. Musanın qəzəbi yatanda lövhələri götürdü. Onların birində: “Rəbbindən qorxanlar doğru yola və mərhəmətə nail olacaqlar!” - (deyə yazılmışdı).

155. Musa Bizim təyin etdiyimiz yerə öz tayfasından yetmiş adam seçdi. Yer titrəməsi onları yaxaladıqda (və onlar həlak olduqdan sonra Musa) dedi: “Ey Rəbbim! Əgər istəsəydin, bundan qabaq onları da, məni də məhv edərdin. Aramızdakı səfehlərin törətdiyi günahlar üzündən bizi məhvmi edəcəksən? Bu Sənin sınağından başqa bir şey deyildir. Sən onunla istədiyini (layiq bildiyini) zəlalətə düçar edər, istədiyini (layiq gördüyünü) doğru yola yönəldərsən. Sən bizim hamimizsən (ixtiyar sahibimizsən). Bizi bağışla və rəhm et. Axı sən bağışlayanların ən yaxşısısan!

---

150. Allahın əmri ilə bağlı tələskənlik etmək: Ayənin məzmunundan belə başa düşülür ki, onlar Allahın otuz günün uzadılıb qırx gün edilməsi ilə bağlı əmrinə tələskən reaksiya vermiş, Musanın (ə) gəlməməsini onun ölümü və ya vədə xilaflıqla izah etmişdilər. Halbuki azacıq səbr etməli, bir neçə gün dözməli və əsl məsələnin ortaya çıxmasını gözləməli idilər[695].

150. Musanın (ə) buzovpərəstliyə qarşı reaksiyası: Quranın digər ayələri, xüsusilə “Taha” surəsinin 92-93-cü ayələrindən belə məlum olur ki, həzrət Musa (ə) Harunu (ə) çox ciddi şəkildə tənbeh emiş və səsini qaldıraraq belə demişdir: ***“Ey Harun, onların haqq yoldan azdığını gördükdə nə üçün mənə tabe olmadın? Mənim əmrimdən boyun qaçırdın?”*** bu reaksiya bir tərəfdən Musanın (ə) bütpərəstlik və qövmünün haqq yoldan azmasına görə keçirdiyi daxili narahatlıq hissinin aydın

---

[695] Nümunə, c.6, səh.376

təzahürü, digər tərəfdən isə İsrail oğullarının yatmış beyinlərini silkələmək və əməllərinin çox çirkin olduğuna diqqət cəlb etmək üçün bir vasitə idi. Belə bir kəskin reaksiya və həyəcanlı davranış olmasaydı, İsrail oğulları öz xətalarının nə qədər dərin və böyük olduğunun fərqinə varmaz, bütpərəstliyin təsirləri beyinlərində qalardı. Buna görə də Musanın (ə) bu davranış tərzi nəinki bəyənlməz, əksinə, vacib və labüd hesab edilirdi[696].

155. Musanın (ə) Allahla vədələşdirdiyi yerlərin sayı: Musanın Musa (ə) ilə Allah arasında olan vədələşmələrin sayının neçə olması təfsirçilər arasında fikir ayrılığına səbəb olmuşdur. Hər biri öz fikrini sübuta yetirmək üçün Quranın ayrı-ayrı hissələrinə əsaslanmışdır. Quran və hədislərdə olan faktların ümumi məcmusundan belə başa düşülür ki, Musanın (ə) Allahla bir vədələşməsi olmuşdur. Həmin vaxt da İsrail oğullarından bir dəstəsini götürüb vədələşdirilən yerə aparmışdır. Allah "Tövrat"ın lövhələrini həmin vaxt nazil etmiş və onunla danışmışdır. Məhz elə həmin vədələşdirilmiş yerdə göy gurultusu və ya zəlzələ baş vermiş, Musa özündən getmiş, İsrail oğulları yerə yıxılmışdılar[697].

155. Həlak olanlar yenidən dirilirlər: Musanın (ə) bu cümləsi etiraz xarakteri daşımırdı. Əslində, o bununla Allahın lütf və mərhəmətini cəlb etmək istəyirdi. Bu davranışı ilə Allahın lütf və mərhəmətinə sığınaraq, yanlış istəklərinə görə məhv olmuş günahkarların yenidən dirilməsini istəyirdi. Çünki İsrail oğullarının onun yetmiş nəfərin ölümüdə ittiham edəcəyindən və nəticədə kafir olacaqlarından qorxurdu. Buna görə də Musa (ə) ağlaya-ağlaya, yalvara-yalvara deyir: ***"Aramızdakı səfehlərin törətdiyi günahlar üzündən bizi məhvmi edəcəksən?"*** Yəni səfehlərinə görə bir xalqı tamamilə məhv etmək sənin mərhəmət və mehribanlığından uzaqdır. Çünki

---

[696] Nümunə, c.6, səh.377
[697] Nümunə, c.6, səh.399

onların həlak olması İsrail oğullarının haqq yoldan azmasına səbəb olacaq. Sonra Musa (ə) Allaha ***"Bu Sənin sınağından başqa bir şey deyildir. Sən bununla istədiyini (layiq bildiyini) zəlalətə düçar edər, istədiyini (layiq gördüyünü) doğru yola yönəldərsən"***, - deyərkən məqsədi bu olur ki, imtahan etdiyi bütün fərdləri həlak etmək Allahın ənənəsindən uzaqdır. Hər halda, Musa (ə) istəyirdi ki, Allah həmin yetmiş nəfəri diriltsin, peyğəmbərini qövmünün iftirasından, İsrail oğullarını isə azğınlıqdan xilas etsin[698]. Ayə və hədislərin ümumi məcmusundan belə nəticəyə gəlmək olar ki, həlak olmuşlar nəhayət ki, yenidən dirilir və Musa (ə) ilə birlikdə İsrail oğullarına doğru geri dönürlər, gördüklərini camaata çatdırır, məlumatı olmayanları təbliğ edir, maarifləndirirlər[699].

[698] Əl-Mizan, c.8, səh.277
[699] Nümunə, c.6, səh.391

156. Bizə bu dünyada da, axirətdə də yaxşılıq yaz. Biz Sənə tərəf dönmüşük!” (Allah) buyurdu: “İstədiyimi əzabıma düçar edərəm. Rəhmətim hər şeyi əhatə edib. Onu təqvalı olanlara, zəkat verənlərə, ayələrimizə iman gətirənlərə yazacağam!

157. Onlar Allahın elçisinə, ümmi (təhsil almamış) peyğəmbərə tabedirlər, onun hansı xüsusiyyətlərə malik olduğunu əllərindəki Tövrat və İncildən bilirlər. Onlara yaxşı işlər görməyi əmr edər, pis işləri qadağan edər, təmiz nemətləri halal, təmiz olmayanları haram edər, onların ağır yükünü götürər və üstlərindəki buxovları açar. Ona iman gətirən, yardım göstərən və onunla nazil olan nura tabe olanlar, məhz onlar nicat tapanlardır!”

158. De: “Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş peyğəmbəriyəm. (O Allahın ki) göylərin və yerin hökmü Onundur, Ondan başqa heç bir məbud yoxdur. O dirildir və öldürür. Buna görə də Allah, eləcə də Onun Allaha və Allahın sözlərinə inanan və təhsil görməmiş peyğəmbər olan elçisinə iman gətirin və ona tabe olun ki, doğru yolu tapasınız!”

159. Musanın ümməti arasında bir dəstə də vardır ki, onlar haqq yola doğru yönləndirir və haqq-ədalətlə hökm edirdilər.

---

156. Dünya və axirətdə yaxşılıq: “Dünyada və axirətdə yaxşılıq” deyilərkən dünya və axirətin pak, təmiz və gözəl həyatı nəzərdə tutulur.

Allah yolunda addımlamaq, Allahın insan fitrətinə kodlaşdırdığı yolda olmaq insanı dünya və axirətin pak, təmiz və gözəl yoluna yönləndirir[700].

156. İlahi rəhmətin genişliyi: "İlahi rəhmətin genişliyi" deyilərkən bu dünyada hər kəsə verilmiş, yaxşı və pis əməl sahibi olmasından asılı olmayaraq, hər kəsin faydalandığı dünya nemətləri nəzərdə tutula bilər. Onunla maddi və mənəvi rəhmətlərə də işarə edilə bilər. Çünki mənəvi nemətlər yalnız bir xalqa, bir cəmiyyətə məxsus deyil. Baxmayaraq ki, bunun da müəyyən şərtləri var, həmin şərtlər olmadan şamiloma gerçəkləşmir. Ümumiyyətlə, ilahi rəhmət qapısı hər kəsin üzünə açıqdır. Sadəcə, insanlar özləri bu qapıdan keçməklə bağlı qərar qəbul edirlər. O qapıdan keçmək üçün lazım olan şərtləri özündə ehtiva etməyən insan günahı özündə axtarmalıdır. Bunu Allahın rəhmətinin məhdud olması kimi izah etmək düzgün deyil. Lakin tövbənin qəbul edilməsi, Allahın rəhmətinin geniş və ümumi olmasının qeyd-şərtsz və hesab-kitabsız olması təsəvvürünün qarşısını almaq üçün ayənin davamında Allah-taala belə buyurmuşdur: "Onu təqvalı olanlara... yazacağam"[701] İmamlardan (ə) bizə gəlib çatmış hədislərdə Allah-taalanın rəhmətinin çox cüzi hissəsini bu dünyaya bəxş etdiyini, bütün yaradılış aləminin həmin rəhmətə xatir var olduğu, bütün rəhmətinin isə axirətdə möminlərə və təqvalılara şamil olduğu qeyd edilmişdir. Allahın rəhmət və mərhəmətinin çox böyük olması ilə bağlı gözəl və müjdələyici hədislər var. Peyğəmbər (s) buyurmuşdur: "Canım əlində olana and olsun! Allah Qiyamət günü elə mehribanlıq göstərib bağışlayır ki, İblis də ümidlənir ki, bəlkə Allah onu da bağışlaya."[702]

---

[700] Əl-Mizan, c.8, səh.279
[701] Nümunə, c.2, səh.393
[702] Əl-Mizan, c.8, səh.295

157. Ümmi peyğəmbər: Quranda "Ümmi" anadan doğulduğu kimi qalan, yazıb-oxumağı bacarmayan, ilk doğulduğu gün yazıb-oxumağı bacarmadığı kimi, sonralar da bunu bacarmayana deyilir. Bu söz fars dilində də təhsil almamış adam mənasını verir[703]. Peyğəmbərin (s) məktəbə getməməsi və heç nə yazmaması bütün tarixçilər tərəfindən yekdilliklə qəbul edilmiş bir məsələdir. Allah-taala da "Ənkəbut" surəsinin 48-ci ayəsində Peyğəmbərin (s) seçilməzdən əvvəlki vəziyyəti haqqında belə buyurur: ***"Bundan əvvəl sən əsla bir kitab oxumamış və öz əlinlə heç nə yazmamısan. Əgər belə olsaydı, onda batilə uyanlar (onun barəsində) şəkk-şübhəyə düşərdilər."*** Əgər Peyğəmbər (s) təhsil alsaydı, deyəcəkdilər ki, Quranı özü yazıb. Təhsilsiz olmasının hikməti onun peyğəmbərliyinin dəlillərindən idi, çağırış kontekstində Allah və metafizik aləmlə olan əlaqəsinə kölgə sala biləcək ehtimalları inkar edirdi. Əlbəttə, təhsil almamaqla savadsızlıq tamamilə ayrı-ayrı şeylərdir. Peyğəmbərin (s) yazıb-oxumağı insandan deyil, Allahdan öyrənməsinin heç bir problemi yoxdur. Çünki belə bir vərdiş şübhəsiz ki, insanı kamilləşdirən və peyğəmbərlik məqamını gücləndirən cəhətlərdəndir. Hədislərdə bu məsələyə işarə edilmişdir: "Peyğəmbər (s) həm yazmaq, həm də oxumaq bacarığına malik idi, lakin missiyası ilə bağlı cüzi də olsa, şübhə yaranmaması üçün bu bacarığından istifadə etməmişdir."[704]

158. Allahın sözləri: "Allahın sözləri" deyilərkən Allahın İslam peyğəmbəri (s) və digər peyğəmbərlərə göndərdiyi və əməl ediməsini vacb buyurduğu şəriət və ayinlər nəzərdə tutulur[705].

---

[703] Mənşuri-cavid, c.7, səh.248
[704] Nümunə, c.6, səh.400
[705] Əl-Mizan, c.8, səh.290

160. Biz onları hər biri bir qəbilə olan on iki qrupa böldük. Qövmü ondan (səhrada) su istədiyi zaman ona: “Əsanı daşa vur!” – deyə vəhy etdik. Birdən-birə ondan on iki çeşmə qaynadı. Hər qəbilə özünün su içəcəyi yeri bildi. Biz buludları onların üstündə kölgəlik etdik, onlara təbii bal və bildirçin endirdik. Onlara: “Sizə ruzi olaraq verdiyimiz pak nemətlərdən

yeyin!” (Allaha şükür edin) dedik. Onlar (itaətsizlik göstərmək və zülm etməklə) Bizə yox, ancaq özlərinə zülm edirdilər!

161. Onlara “Bu şəhərdə (Qüdsdə) sakin olun, ondan istədiyiniz yerdə yeyin (faydalanın), “Allah, bizi bağışla”) deyin və qapıdan (Beytülmüqəddəsin qapısından) təvazökarlıqla daxil olun ki, günahlarınızı bağışlayaq. Biz yaxşı işlər görənlərə daha çox mükafat verəcəyik”, - dediyimiz vaxtı xatırlayın!

162. Lakin özlərinə zülm edənlər onlara deyilən sözü dəyişdirib başqa şəklə saldılar. Etdikləri haqsızlığa görə Biz də onlara göydən bəla göndərdik.

163. Onlardan dəniz kənarında yerləşən şəhər haqqında soruş! O zaman onlar şənbə günü həddi aşırdılar (Allahın əmrindən çıxırdılar). Həmin vaxt şənbə (tətil, istirahət, ibadət günü) günü balıqlar (suyun səthində) görünür, şənbədən başqa günlərdə isə gəlmirdi. Bu şəkildə biz onları itaətsizliklərinə səbəb olan hadisə imtahan etdik.

---

160. Qəbilələr: Ayədə İsrail oğullarına verilmiş bir neçə ilahi nemətə işarə edilmişdir. Öncə belə buyurulur: “Biz onları hər biri bir qəbilə olan on iki qrupa böldük.” Bu bölgünün məqsədi onların ədalətli və düşmən münasibətlərindən kənar bir sistem vasitəsilə idarə edilməsi olmuşdur. Məlumdur ki, düzgün və nizam-intizamlı təsnifatlara malik, ayrı-ayrı qrupları layiqli başçılar tərəfindən idarə edilən bir cəmiyyətin idarə edilməsi daha asan və həmin cəmiyyətdə ədalətin bərqərar edilməsi daha rahat olar. Buna görə də bütün dünya ölkələrində bu prinsipdən istifadə etmək üçün səy göstərilir. “Əsbat” sözü “sibt” sözünün cəmidir, mənası övladlar, xüsusilə nəvələrdir. Bir ailənin ayı-ayrı qollarına “Sibt və əsbat” deyilir. Burada

(əsbat) qəbilələr deyilərkən hər biri Yəqubun (ə) övladlarından törəmiş Bəni-İsrail qəbiləsi nəzərdə tutulur[706].

160. Mənn və səlva: Allahın İsrail oğullarına göndərdiyi mənn və səlva haqqında təfsirçilər müxtəlif fikirlər irəli sürmüşlər. Çox böyük ehtimalla mən ətraf dağlarda olan təbii bal növü və ya həmin səhrada bitən ağaclardan süzülən xüsusi şirə növüdür. Səlva göyərçin quşuna bənzəyən əti halal olan bir quş növüdür. Bunlar və bir neçə digər nemət Allahın Fironun qoşunlarının əlindən xilas olmuş və səhrada didərgin düşmüş İsrail oğullarına bəxş etidiyi hədiyyə idi[707].

163. Təhrif edilmiş xilasedici söz: "Bəqərə" surəsinin 59-cu ayəsinə bax!

164. Şənbə səhabələrinin məskunlaşdığı məkan: Bu ayədə İsrail oğullarının macəra dolu tarixinin başqa bir səhifəsinə işarə edilmişdir. Əlimizdə olan hədislərə əsasən deyə bilərik ki, işarə edilən hadisə dənizlərdən birinin (Ehtimal ki, Qırmızı dəniz) sahilində İlə adlı (indi İlat adlanır) limanı yaxınlığında yaşayan insanlar haqqındadır. Allah onları imtahan etmək və sınaqdan keçirmək üçün onlara şənbə günü balıq ovlamağı qadağan edir. Ancaq onlar bu əmri pozduqları üçün şiddətli əzaba düçar oldular[708].

163. Cəlbedici vasitələrlə imtahan edilmək: ***"Bu şəkildə biz onları itaətsizliklərinə səbəb olan hadisə imtahan etdik."*** cümləsindən belə başa düşülür ki, Allah-taala onları insanı özünə cəlb edən, cazibəsi olan, itaətsizlik göstərməyə təhrik edən bir hadisə ilə itahan etmişdir. Ümumiyyətlə, insanların və cəmiyyətlərin qarşılaşdıqları bütün imtahan və

---

[706] Nümunə, c.6, səh.411
[707] Nümunə, c.6, səh.412
[708] Nümunə, c.6, səh.418

sınaqlar eyni səciyyəyə malikdir. Çünki ilahi imtahan insanın cazibələr qarşısındakı müqavimətinin miqyasını müəyyən etməlidir. Əgər günah özünə tərəf çəkməzsə, imtahanın heç bir mənası olmaz[709].

164. Onlardan bir dəstə (başqa bir dəstəyə): “Allahın məhv edəcəyi və ya şiddətli əzab verəcəyi bir tayfaya nə üçün öyüd–nəsihət verirsiniz?” – dediyi zaman, onların: “(bu nəsihətlər) Rəbbiniz qarşısında üzrxahlıq etmək üçündür. Bəlkə, onlar (nəticə çıxarıb, günahdan çəkinsinlər) təqvalı olsunlar!” – dedikiləri zamanı xatırla!

165. Onlara edilən xəbərdarlıqları unutduqları zaman Biz pislikdən çəkindirənlərə nicat verdik, zülm edənləri isə itaətsizlik göstərdikləri üçün şiddətli bir əzaba düçar etdik.

166. Qadağan olunduqları işdə itaətsizlik göstərdikləri vaxt onlara: “Qovulmuş meymunlara çevrilin!” – deyə əmr etdik.

167. Rəbbinin Qiyamət gününədək onlara şiddətli əzab verəcək şəxslər göndərəcəyini xəbər verdyi vaxtı xatırla! Çünki Rəbbinin cəzası sürətlidir. Sözsüz ki, O, həm də (tövbəkarları) bağışlayandır, rəhm edəndir!

---

[709] Nümunı, c.6, səh.419

168. Onları yer üzündə dəstələrə parçaladıq. İçərilərində əməlisaleh olanlar da, olmayanlar da var idi. Onları yaxşılıq və pisliklərlə imtahan etdik ki, bəlkə (haqq yola) dönsünlər.

169. Onlardan sonra yerlərini kitaba (Tövrata) sahib olan övladlar tutdu. (Ancaq bununla belə,) Onlar bu dəyərsiz dünya malını götürüb deyirlər: "Biz (günahkarıqsa, tövbə edib) bağışlanacağıq!" Əgər əllərinə bunun misli qədər daha bir dünya malı gəlsə, onu da alırlar. Məgər Allah barəsində haqdan başqa bir şey söyləməyəcəklərinə dair onlardan Kitabda yazılmış əhd alınmamışdımı?! Onlar onu dəfələrlə oxuyublar. Axirət evi Allahdan qorxanlar üçün daha xeyirlidir. Məgər dərk etmirsiniz?

170. Kitabdan (möhkəm) yapışanlar, namaz qılanlar (böyük mükafat alacaqlar, çünki) Biz əməlisalehlərin mükafatını zay etməyəcəyik!

---

165. Şənbə səhabələrinin hiyləsi: Bu insanların qanun pozuntusuna nədən başlaması ilə bağlı təfsirçilər arasında fikir ayrılıqları mövcuddur. Bəzi hədislərdən belə məlum olur ki, onlar ilk qanun pozuntusuna dini hiylə işlədərək başlamışlar. Yəni dənizin sahilində bir hovuzu düzəldib oradan dənizə arx açırlar. Şənbə günləri hovuzun yolunu açırdılar. Nəticədə dəniz suyu ilə birlikdə hovuza çoxlu sayda balıq daxil olurdu. Axşam vaxtı balıqlar dənizə qayıtmaq istədikdə suyun qarşısını kəsir, balıqların dənizə qayıtmasına mane olurdular. Sonra bazar günü hovuza dolmuş balıqları ovlayır, "Biz şənbə günü ov etməmişik, yalnız onları hovuzda mühasirəyə almışıq" deyrdilər[710].

---

[710] Nümunə, c.6, səh.422

165. Günahkarlar və onlara etiraz etməyənlərin məhv, həlak olması, pisdən çəkindirənlərin xilası: Bu ayədən belə başa düşülür ki, sahildə yaşayan əhali üç qrupa bölünmüşdü: birinci qrup heç bir qorxusuz günah və itaətsizlik edənlər; ikinci qrup itaətsizlik göstərməməklərinə baxmayaraq, günahkarlar qarşısında susan, onları günahlardan çəkindirməyən, üstəlik pislikdən çəkindirənlərə göstərdikləri fəaliyyətlərinin əbəs olduğunu, günahkarlara heç bir təsir göstərmədiyini deyib etiraz edənlər; üçüncü qrup isə Allahın əmrinə etina etməyib günah edənləri pis yoldan çəkindirən və Allah qarşısında məsuliyyət daşıdıqlarının fərqinə varan insanlar idi. Bu ayəyə əsasən, bu üç qrupdan (günahkarlar, sükut edənlər və nəsihət verənlər) yalnız üçüncü qrup ilahi əzabdan xilas olmuşdur. Hədislərə görə, onlar nəsihətlərinin heç bir təsir göstərmədiyini görüb narahat olmuş, şəhəri tərk etmək qərarına gəlmişdilər. Gecə vaxtı şəhəri tərk edib səhraya üz tutmuşdular. Elə məhz həmin gecə digər iki qrup ilahi əzaba düçar olmuşdu. Bu ayədə Allahın iki qanunundan birinə işarə edilmişdir. O da budur ki, əgər kimsə zülm və haqsızlığın qarşısını almasa və ya ən azı öyüd-nəsihət verməsə, nəhayət, zülm və fəsad mühitini tərk etməsə, həmin zülmkarlarla ortaqdır, onlar kimi əzaba məhkumdur. İmam Sadiqin (ə) Şənbə səhabələri haqqında olan bir hədisində belə qeyd edilmişdir: ***"İki qrup həlak oldu, yalnız qadağa qoyan qrup xilas oldu."*** Əlbəttə, mutasiya cəzası ov edənlərə aid idi, günaha etiraz etməyənlərin cəzası isə ehtimal ki, həlak olmaq olmuşdur. Belə ki, mutasiyaya uğramışlar da bir neçə gündən sonra həlak olmuşdular[711].

167. Yəhudilər rahatlıq üzü görməyəcəklər: Təfsirçilər bu ayənin təfsiri ilə bağlı müxtəlif ehtimallar irəli sürmüşlər. Bəzilər hesab edir ki,

---

[711] Nümunə, c.6, səh.423

burada itaətsizlik göstərən qrup nəzərdə tutulmuşdur. Onlar hətta dövlət də qursalar, yollarını dəyişməyincə, zülm və fəsaddan əl çəkməyincə rahatlıq tapa bilməyəcək, təzyqlər altında olacaqlar, narahatlıqları əsla səngiməyəcək. Bəziləri hesab edir ki, burada "Bərzəx" aləminə işarə edilmişdir. ***"Qiyamət gününədək onlara şiddətli əzab verəcək şəxslər"*** deyilərkən Bərzəxdə onlara Qiyamətə qədər əzab verəcək mələklər nəzərdə tutulmuşdur[712].

168. Nemətlər və çətinliklər Allaha doğru qayıdışın iki amili: "Onları yer üzündə dəstələrə parçaladıq" cümləsində yəhudilərin yer üzünə səpələnməsinə işarə edilmişdir. "Yaxşılıqlar" deyilərkən nemətlər, rifah, asayiş, "pisliklər" deyilərkən narahatlıqlar və təzyiqlər nəzərdə tutulur. Onlara şükür hissini aşılamaq, haqq yoluna qayıtmaları üçün bəzən onlara stimul, rifah və nemət bəxş etdik, bəzən onlara bəla göndərib çətinliklərə məruz qoyduq ki, qürur, təkəbbür, xudpəsəndlik miniyindən enib öz acizliklərinin fərqinə varsınlar, nəticədə, bəlkə də ayılıb Allahın yoluna qayıtsınlar. Hər iki halda məqsəd onların haqq yola yönləndirilməsi və qaytarılmasıdır[713].

---

[712] Nümunə, c.6, səh.430
[713] Nümunə, c.6, səh.430

171. (Xatırlayın) Dağı onların başı üstünə kölgənəcək kimi qaldırdığımız zaman onlar elə güman etmişdilər ki, dağ üstlərinə düşəcək. Onlara: “Sizə verdiyimizdən möhkəm yapışın, orada olanları yada salın ki, təqvalı olasınız!” – demişdik.

172. Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellərindən övladlarını çıxardıb onları özlərinə (bir-birinə) şahid tutaraq: “Mən sizin Rəbbiniz deyiləmmi?” – (deyə soruşdu), onlar da: “Bəli, Rəbbimizsən!” – deyə cavab verdilər. (Bunu ona görə etdi ki, məbada) Qiyamət günü: “Biz bundan qafil idik”;

173. Və ya: “Atalarımız bizdən əvvəl müşrik olmuşdular, biz də onlardan sonra gələn övladlar idik (onların yolunu getməkdən başqa çarəmiz yox idi). Bizi batilə uyanların törətdikləri əməllərə görəmi məhv edəcəksən?” – deyəsiniz.

174. Biz ayələrimizi bu şəkildə izah edirik ki, onlar, bəlkə, qayıtsınlar! (və bilsinlər ki, tövhd nidası onların ruhunda hələ ilk gündən mövcud olmuşdur)

175. Onlara ayələrimizi verdiyimiz şəxsin əhvalatını oxu (danış). Amma o, bu ayələrin əhatəsindən çıxdı. Şeytan onu özünə tabe etdi və o, azanlardan oldu

176. Əgər Biz istəsəydik, onu (həmin ayələrlə) ucaldardıq (Məcburiyyət bizim ənənəyə xarakterik olmadığı üçün bunu etmədik). Lakin

o, aşağı meyl edib nəfsinin istəklərinə uydu. O elə bir köpəyə bənzəyir ki, üstünə cumsan da ağzını açıb dilini çıxaracaq, cummasan da (Dünyaya o qədər susuzdur ki, ondan əsla döymaz). Bu, ayələrimizi yalan hesab edənlər barəsində çəkilən məsəldir. Bu əhvalatları (yəhudilərə) söylə ki, bəlkə, düşünsünlər!

177. Ayələrimizi yalan hesab edib özlərinə zülm edənlər barəsində çəkilən məsəl necə də pisdir!

178. Allahın doğru yola yönəltdiyi şəxs (əsl) doğru yolda olan şəxsdir. Onun (etdikləri əməllərə görə) sapdırdığı şəxslər (əsl) ziyana uğrayanlardır.

---

171. Tur dağının Bəni-İsrail xalqının başı üzərində olması: İmam Sadiq (ə) bu ayə haqqında belə buyurmuşdur: "Allah-taala Tövratı İsrail oğullarına göndərdikdə onlar Tövratı qəbul etmədilər. buna görə də Allah-taala Turi-Sina dağını onların başı üzərinə qaldırdı. Bu vaxt Musa (ə) onlara dedi: ***"Əgər Tövratın göstərişlərini qəbul etməsəniz, bu dağ sizin üstünüzə düşəcək" Yalnız bundan sonra onlar qəbul etdilər və onun qarşısında təslim oldular."***[714]

172. Tövhid, fitrət dini: Bu və sonrakı iki ayədə fitri tövhidə və Allaha inamın insanların ruhunun dərinliklərində olmasına işarə edilir. Bu ayənin izahı haqqında çoxlu sayda fikir və rəylər mövcuddur. Ayənin daha məntiqli təfsirlərindən birində buradakı əhd-peymanla istedadlar aləminə, fitri sözləşməyə, yaradılışa və obyektivlik prinsipinə işarə edildiyi qeyd edilmişdir. Belə ki, Adəm övladları nütfə şəklində atalarının belindən ayrılıb analarının bətninə düşdükləri zaman zərrə şəklində olurlar. Həmin vaxt

---

[714] Qumminin təfsiri, c.1, səh.247

Allah bu zərrələrə tövhid həqiqətini dərk edəcək istedad və potensial bəxş edir. Bu ilahi sirr onların zatına və fitrətinə zati və daxili bir hiss, şüur və idraklarına isə şüurlu bir həqiqət şəklində əmanət edilir. Buna görə də bütün insan fərdləri tövhd ruhuna malikdirlər. Həm Allahın onlardan soruşduğu sualın, həm də insanların Allaha verdiyi cavabın dili obyektiv qanunlar sisteminə aiddir. Bu izaha görə, ayədəki sual-cavab forması və əhd-peyman fitri sözləşmə olmuşdur. Hər kəs bu fitrəti və onun təsirlərini ruhunda hiss edir. Hətta psixoloji araşdırmalara görə, dini hiss insanın şüuraltı psixikasının əsas hisslərindən biridir. Bəşəriyyəti bütün tarix boyu Allahpərəstliyə sövq edən məhz həmin hissdir. Belə bir fitrət olduğu üçün insanların "atalarımız bütpərəst olublar" bəhanəsi tamamilə əsassızdır. "Rum" surəsinin 30-cu ayəsində belə buyurulmuşdur: ***"Üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə tərəf tut. İlahi yaradılışda dəyişiklik olmaz."***[715]

175. Bələmi Baura: İmam Rza (ə) bu ayə haqqında belə buyurmuşdur: ***"Bu ayə Allahın "Əzəmətli ad"ından xəbərdar olan və onunla istədiyi duanın qəbuluna nail olan, lakin sonradan ehtrasına uyub Firona meyl göstərən Bələmi Baura haqqındadır. Firon Musa (ə) və tərəfdarlarını ələ keçirmək üçün hərəkətə keçdiyi zaman Bələmə deyir: "Allahdan istə, Musa və yoldaşlarını bizim tələmizə salsın." Bələm Musanı axtarıb tapmaq məqsədilə ulağına minir. Ulaq yerindən tərpənmir. Bələm heyvanı vurmağa başlayır. Allah heyvanı danışdırır və o deyir: "Vay olsun sənə! Nə üçün məni vurursan? İstəyirsən ki, sənlə birlikdə gedim və sən Allahın peyğəmbərinə və möminlərə nifrin edəsən?" Bələm onu o qədər çırpır ki, heyvan ölür. Bu vaxt "Əzəmətli ad" ondan alınır. "Amma o, bu***

[715] Nümunə, c.7, səh.4

ayələrin əhatəsindən çıxdı...” ayəsində bu hadisəyə işarə edilmişdir.” İmam Baqir (ə) bu ayələr haqqında buyurmuşdur: ***“Əslində, bu ayələr Bələm haqqındadır. Allah-taala bu misalı nəfsani istəklərini ilahi hidayətdən üstün tutan hər bir müsəlmana meyar təyin etmişdir.”***[716]

[716] Əl-Mizan, c.8, səh.342

179. Biz cinlərdən və insanlardan çoxunu şübhəsiz ki, Cəhənnəm üçün yaratdıq. Onların qəlbləri (ağılları) vardır, lakin onunla (düşünməzlər) anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz bunlardır!

180. Ən gözəl adlar (əsmayi-hüsna) Allahındır. Allahı onunla (bu adlarla) çağırın. Onun adları barəsində təhrifə yol verənləri (o adları Allahdan qeyrisinə qoyub, Ona ortaq qoşanları) tərk edin. Onlar tezliklə etdikləri əməllərin cəzasını alacaqlar!

181. Yaratdıqlarımız içərisində bir zümrə də vardır ki, onlar insanları haqqa yönləndirir, (haqqı rəhbər tutaraq onlar arasında) ədalətlə hökm edirlər.

182. Ayələrimizi yalan hesab edənləri tədricən bilmədikləri yerdən əzaba düçar edəcəyik.

183. Mən onlara möhlət verirəm. Çünki Mənim planım və tədbirim güclüdür. (Kimsə ondan yaxa qurtara bilməz)

184. Məgər (islamı qəbul etməli olan kəslər) düşünmədilər ki, onların yoldaşında (Peyğəmbərdə) heç bir cünunluq (dəlilik) əsər-əlaməti yoxdur? O ancaq açıq-aydın qorxudandır! (insanlara öz vəzifələrini xatırladır)

185. Məgər onlar göylərin və yerin idarəçiliyinə, nizam-intizamına, Allahın yaratdıqlarına baxmadılarmı?! (Heç fikirləşmədilərmi ki,) bəlkə həyatlarının sonu yaxınlaşıb? (Bu aydın səmavi kitaba inanmadılarsa,) Bundan sonra hansı sözə inanacaqlar?

186. Allah hər kəsi (çirkin əməllərinin nəticəsi olaraq) doğru yoldan sapdırsa, ona yol göstərən olmaz. (Allah) onları öz azğınlıqları içində çaşqın bir vəziyyətdə qoyar!

187. Səndən Qiyamət haqqında soruşarlar ki, nə vaxt qopacaq? De: "O ancaq Rəbbimə məlumdur. (Qiyamətin) qopacağı vaxtı Allahdan başqa heç kəs bilə bilməz. (Hətta) Göylərdə və yerdə ağırdır (çox əhəmiyyətlidir). O sizlərə ancaq qəflətən gələr!" Sən onun haqqında bir şey bilirsənmiş kimi onlar səndən (yenə) soruşarlar. De: "O ancaq Allah dərgahında məlumdur, lakin insanların çoxu bilməz!"

---

179. Cinlərin və insanların yaradılış məqsədi: Bu ayədə deyilir ki, ***"Cinlərin və insanların çoxu Cəhənnəm üçün yaradılıb"***. Ortaya belə bir sual çıxır: Cin və insanların çoxunun yaradılmasının məqsədi Cəhənnəm odudurmu? Halbuki Quranın digər ayələrində son məqsədin Allaha ibadət, tərəqqi, təkamül, ilahi rəhmət və səadətə çatmaq olduğu qeyd edilmşidir. Əgər Quranın ayələrini yanaşı qoysaq, sualın cavabı aydınlşacaq. Cinlərin və insanların yaradılmasının məqsədi ilə bağlı deyilmiş bu fikir, sanki dülgər "topladığım bu ağacların çoxu gözəl qapılar düzəltmək, qalan əksəriyyəti yandırılmaq və ocaq qalamaq üçündür. Sağlam, təmiz və saf olan ağacları birinci qeyd etdiyim məqsəd üçün, sağlam olmayan, pisxassəli, zəif ağacları və tikə-paraları ikinci məqsəd üçün istifadə edəcəyəm" deməsinə bənzəyir. Əslində, dülgərin iki məqsədi var: Əsas və təbii məqsəd. Əsas məqsəd qapı və yaxşı vasitələr düzəltməkdir. O, bütün səy və fəaliyyətlərini məhz bu yolda sərf edir. Ancaq lazım olmayan, istifadəyə yaramayan ağacları yandırmaq üçün bir kənara qoyur. Bu isə dülgərin əsas deyil, təbii hədəfidir. Bu misalla bizim mövzunun arasında mövcud olan yeganə fərq ağacların

bir-birlərindən fərqlənməsinin qeyri-ixtiyari olması, insanların isə bir-birlərindən fərqlənməsinin onların özlərinin ixtiyari şəkildə etdikləri əməllərdən asılı olmasıdır. Başqa sözlə desək, Allah Quranın müxtəlif ayələrində buyurur ki, bütün insanları pak və təmiz yaratmış, xoşbəxtlik və təkamül səbəblərini hər kəsin ixtiyarına vermişdir. Ancaq bir qrup insan öz əməlləri ilə Cəhənnəm əzabına düçar olur, sonu zülmət və bədbəxtliklə nəticələnir. Başqa bir qrup insan isə öz əməlləri ilə Cənnətlik olur, xoşbəxtlik və səadətə qovuşur[717].

180. Gözəl adlar: Allahın gözəl adları deyilərkən Allahın hər biri gözəl olan ayrı-ayrı sifətləri nəzərdə tutulur. Bilirik ki, Allah alim, qadir, ruzi verən, adil, səxavətli, kərim və rəhimdir. Bunlardan başqa da gözəl sifətlərə malikdir. Əlbəttə, Allahın bu adlarla çağırılması deyilərkən məqsəd həmin adların təkcə dildə deyilməsi, "Ey alim, ey qadir, ey rəhimlilərin rəhimlisi və sair", - deyə çağırılması deyil. Əsl məqsəd bu adları insanın imkan daxilində öz varlığına hopdurması, onun elminin ziyasının, qüdrət və qüvvəsinin işığının, sonsuz rəhmətinin insanlarda və cəmiyyətdə tətbiqidir. Başqa sözlə desək, onun sifətləri ilə sifətlənməli, əxlaqı ilə əxlaqlanmalıyıq.

İmam Sadiq (ə) bu ayə haqqında belə buyurmuşdur: ***"And olsun Allaha, Allahın gözəl adları bizik"***. İmam (ə) bu hədisində ilahi sifətlərin güclü işığının pak və məsum olan Əhli-beytin (ə) varlığında əks olunduğuna işarə etmişdir. Yəni onları tanımaq insanın Allahı tanımasına kömək edir. Məlumdur ki, Allahın bütün adları gözəldir. Hədislərə əsasən, onlar arasındakı bəzi adlar daha əhəmiyyətlidir. Bəlkə də bu ayədə "gözəl adlar" deyilərkən məhz həmin sifətlər nəzərdə tutulmuşdur. Peyğəmbər (s) və imamlardan (ə) bizə gəlib çatmış hədislərdə Allahın 99 adının olması, həmin

---

[717] Nümunə, c.7, səh.19

adlarla çağırıldıqda dualaların qəbul olunması, onları sayanın Cənnətə gedəcəyi ilə bağlı məzmunlar qeyd edilmişdir. Əlbəttə, nəzərə almalıyıq ki, bu hədislərdə məqsəd adların onların məzmununa diqqət yetirmədən təkcə oxunması deyil. Məqsəd insanların bu ad və sifətlərə etiqad bəsləməsi, sonra varlığında həmin adların məzmununu ehtiva edən ziyanı öz varlığında əks etdirməkdir. Məsələn, Allah səxavətlidirsə, deməli, biz də belə olmalıyıq. Bu cəhəti özünə aşılayan şəxs şübhəsiz ki, Cənnətlik olar, duaları da Allah tərəfindən qəbul edilər[718].

188. De: “Mən Allah istəmədən özümə nə bir xeyir, nə də bir zərər verə bilərəm. (Allahın iradəsi xaricində qeybi və gizli sirlərdən də xəbərdar deyiləm). Əgər qeybdən xəbərdar olsaydım, özüm üçün daha çox xeyir tədarük edərdim və mənə pislik (ziyan) də toxunmazdı. Mən iman gətirən (haqqı qəbul etməyə hazır olan) bir tayfanı ancaq qorxudan və müjdələyənəm!”

189. Sizi tək bir fərddən (Adəmdən) yaradan və ünsiyyət qurması (rahatlıq tapması) üçün öz cinsindən zövcəsini yaradan Odur. (Adəm)

[718] Nümunə, c.7, səh.28-32

zövcəsi ilə yaxınlıq etdikdə o, (Həvva) yüngül bir yük götürdü (hamilə oldu), buna baxmayaraq işlərinə davam etdi. Ağırlaşdığı vaxt hər ikisi Allaha dua edib: "Əgər bizə saleh bir uşaq versən, şükür edənlərdən olarıq!" – dedi.

190. Allah onlara (insanlara) saleh övlad verdikdə (digər varlıqların bu işdə təsirinin olduğunu güman edib) bu nemətə görə Allaha şəriklər qoşmağa başladılar. Allah isə Ona qoşulan şəriklərdən ucadır!

191. Ona heç bir şey yaratmayan, özləri də yaradılmış olan varlıqlarımı şərik qoşurlar?

192. (Halbuki bunlar) nə onlara kömək edə bilər, nə də özlərinə!

193. Siz onları doğru yola dəvət etsəniz, sizə tabe olmazlar. Sizin üçün eynidir, istər onları dəvət edin, istərsə də susun.

194. Allahdan başqa ibadət etdiklərniz sizin kimi bəndələrdir. Əgər doğru deyirsinizsə, haydı, çağırın onları, sizə cavab versinlər. (İstədiklərinizi versinlər)

195. Onların yeriyən ayaqları, ya tutan əlləri, ya görən gözləri, yaxud eşidən qulaqları varmı?! (Yox, əsla) De: "Allaha şərik qoşduğunuz bütləri çağırın, Mənə qarşı plan qurun və bir an belə, möhlət verməyin!

---

188. Peyğəmbərlərin qeybi bilməsi Allahın bir nemətidir: Məhdud araşdırmaları olan, digər ayələri nəzərə almadan bir ayəyə səthi baxıb, hətta həmin o bir ayənin özündəki incə nüansları belə, diqqətdən qaçıraraq mühakimə yürüdən bəzi şəxslər bu ayəyə əsaslanaraq Peyğəmbərin (s) qeybdən xəbər verə biləcəyini inkar edirlər. Halbuki bu ayədə Peyğəmbərin (s) müstəqil şəkildə, Allahın iradəsi xaricində qeybdən xəbərdar ola biləcəyi inkar edilmişdir. Biz hər bir insanın özünün və başqalarının xeyir və ziyanlarının malik olduğunu bildiyimiz halda, bu ayədə Peyğəmbərin (s)

müstəqil şəkildə özünə xeyir verə və ziyan vura biləcəyi inkar edilmişdir. Buna görə də ayənin "Mən Allah istəmədən özümə nə bir xeyir, nə də bir zərər verə bilərəm" cümləsi açıq şəkildə göstərir ki, burada məqsəd xeyir və ziyan üzərindəki malikiyyəti, habelə qeyb bilgisini qeyd-şərtsiz inkar etmək deyil. Burada əsas məqsəd müstəqilliyin inkarıdır. Başqa sözlə desək, Peyğəmbər (s) özü-özündən heç nə bilmir, yalnız Allahın qeybdən verdiyi xəbərləri, ixtiyarına verdiyi sirləri bilir. "Cinn" surəsinin 26-27-ci ayələrində belə buyurulur: "Qeybi bilən ancaq Odur və Öz qeybini heç kəsə əyan etməz; Bəyənib seçdiyi peyğəmbərdən başqa!"[719] Əqli cəhətdən də sübuta yetir ki, peyğəmbər və imamlar (Allahın salamı olsun onlara) bəzi qeyb sirlərindən xəbərdar olmadan öz vəzifələrini tam şəkildə yerinə yetirə bilməzlər. Belə ki, istər zaman, istərsə də məkan baxımından peyğəmbər və imamların (Allahın salamı olsun onlara) məmuriyyət dairəsi çox geniş olmuşdur. Xüsusilə Peyğəmbərin (s) peyğəmbərlik, imamların (ə) imamlıq missiyasının ümumbəşəri və əbədi olması, yəni Qiyamətə qədər bütün yer üzü və bütün dünya insanlarına şamil olması bu fikri daha da gücləndirir.

Əgər bir vilayət valisi vilayətdəki insanların vəziyyətini, regionun imkanlarını, imtiyaz və məhrumiyyətlərini bilmədən həmin vilayəti idarə edərsə, oranın rəhbərliyinin öhdəsindən layiqincə gələ bilərmi? Şübhəsiz ki, xeyr. Bəs o zaman Qiyamətə qədər bütün bəşəriyyətə peyğəmbər seçilmiş bir peyğəmbər ona verilmiş missiya müddətinin son gününə qədər dünyadakı vəziyyətdən xəbərdar olmadan öz vəzifəsini necə icra edə bilər? Şübhəsiz ki, onlar adi vasitələrlə bütün əsrlərdən xəbər tuta bilməz, bütün xalqlar və millətlərdən xəbərdar ola bilməzdilər. Buna görə yeganə yol Allahın təlimi ilə qeybdən xəbərdar olmaqdır. Bundan əlavə, onların rəhbərlik missiyası

---

[719] Nümunə, c.7, səh.46

cəmiyyətin zahir və batininə, insanların xaricinə və daxilinə şamil olur, təkcə həyatın zahiri yönü ilə məhdudlaşmır. İmam Sadiq (ə) hədislərinin birində ravilərdən birinə xitabən belə buyurmuşdur: "Sən Allahın öz bəndələrinə onların sirlərindən xəbərdar olmayan bir rəhbər və bir xəlifə təyin etməsinin mümkün ola biləcəyinimi fikirləşirsən?" Bu məzmun o cənabın başqa bir hədisində daha aydın şəkildə ifadə edilmişdir: ***"Allahın bir bəndəni özünün yer üzündəki dəlili təyin edib bütün ehtiyaclarının ondan gizlətdiyini güman edən şəxs Allaha iftira atmışdır."***[720]

189. Saleh övlad Allahın nemətidir: "Bir fərd və zövcəsi" deyilərkən Adəm (ə) və Həvva deyil, cins mənasında kişilik və qadınlıq nəzərdə tutulmuşdur. Yəni Allah sizin zövcələrinizi sizin cinsinizdən yaratdığı kimi, hamınızı da bir növdən yaratmışdır. Bu və sonrakı ayələrdə övlad gözləyərkən əllərini dua etmək üçün qaldırıb Allahdan saleh və layiqli övlad istəyən, hər kəs kimi çətinlik və təhlükə ilə qarşılaşdıqları zaman tam səmimiyyətlə Allaha dua edən, istədikləri həyata keçəcəyi təqdirdə şükür edəcəkləri ilə bağlı Onunla əhd-peyman bağlayan, lakin övladı olduqdan və ya problem və çətinlikləri həll olduqdan sonra bütün əhd-peymanlarını unudan insanlara işarə edilmişdir. Bəzən deyirlər ki, əgər övladımız sağlam və gözəldirsə, ata-anasına çəkib, bu, uşağa irsən keçib. Bəzən deyirlər ki, qidalanması və şəraiti yaxşı olub, filan məhsulların sayəsində belə olub. Bəzən ibadət etdikləri bütlərə üz tutuaraq deyirlər: "Övladımız bütlərin nəzarləri altında olub" və sair. Bununla da Allahın rolunu tamamilə unudur, onlara bəxş edilən nemətin əsas səbəbkarının təbiət amilləri və ya xurafat tanrılar olduğunu hesab edirlər[721].

---

[720] Quranın ismarışı, c.7, səh.254
[721] Nümunə, c.7, səh.51

196. Mənim hamim Kitabı nazil edən Allahdır. O, bütün əməlisalehlərə himayədarlıq edər!

197. Sizin Ondan başqa tapındıqlarınız isə nə sizə, nə də özlərinə bir köməklik edə bilər!”

198. Əgər siz onları doğru yol göstərmələri üçün çağırsanız, eşitməzlər. Sən onların sənə baxdıqlarını, lakin görmədiklərini görərsən.

199. Sən onlarla mülayim davran, üzrlərini qəbul et, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər!

200. Əgər sənə Şeytandan bir vəsvəsə gəlsə, Allaha sığın. Allah eşidəndir, biləndir!

201. Allahdan qorxanlara Şeytandan bir vəsvəsə toxunduğu zaman onlar (Allahı, Onun mükafat və cəzasını) xatırlayar və (Onun xatırlamaq sayəsində haqq yolu görər) dərhal görən olarlar.

202. (Şeytanlardan olan) qardaşları (Allahdan qorxmayanları) durmadan azğınlığa sürükləyər, əllərindən gələni əsirgəməzlər.

203. Sən onlara bir ayə gətirmədiyin zaman: “Nə üçün sən özün onu uydurmadın?” – deyə soruşarlar. De: “Mən ancaq mənə vəhy edilənə tabe oluram. Bu, Rəbbiniz tərəfindən (göndərilmiş) aşkar dəlil, iman gətirən bir tayfa üçün hidayət və mərhəmət mənbəyidir.

204. Quran oxunan zaman onu dinləyin və susun ki, sizə rəhm olunsun!

205. Rəbbini səhər-axşam ürəyində yalvararaq, qorxaraq, səsini qaldırmadan yad et və qafillərdən olma!

206. Rəbbinin yanında olanlar (Allaha yaxın olanlar) Ona ibadət etməyi özlərinə ar bilməzlər. Ona təsbih deyər, səcdə edərlər!

---

199. Rəhbər və təbliğatçıların dörd mühüm vəzifəsi: İmam Sadiqə (ə) istinad edilən bir hədisdə əxlaq mövzusunda Quranda bundan daha əhatəli bir ayə olmadığı qeyd edilmişdir. Bəzi hədislərdə qeyd edilir ki, bu ayə nazil olandan sonra Peyğəmbər (s) Cəbrayıldan insanlarla mülayim davranmaq və çətinliyə salmamağın mənasını soruşduqda Cəbrayıl deyir: "Ey Muhəmməd, Allah sənə zülm edənləri əfv etməyi, məhrum edənləri bağışlamağı, səndən əlaqələrini kəsənlərlə əlaqə yaratmağı əmr edir."[722] Bu və sonrakı ayədə Peyğəmbərin (s) simasında rəhbər və təbliğatçıların üzərinə düşən dörd vəzifəyə işarə edilmişdir. Başlanğıcda mülayim davranmaq, çətinliyə salmamaq, üzrləri qəbul etmək göstərişi verilir. Təbii ki, rəhbər və təbliğatçı çox cddi olarsa, çox çəkməz ki, cəmiyyət onu tərk edər və o, qəlblərdəki yerini itirər. Sonra Peyğəmbərə (s) insanlara yaxşılığa çağırmaq göstərişi verilir. Bununla həm də ciddiliyin tərk edilməsinin yaltaqlıq olmadığına işarə edilir. Rəhbər və təbliğatçılar bütün həqiqətləri olduğu kimi deməli, insanları haqqa dəvət etməli, heç nəyi əsirgəməməlidirlər. Üçüncü mərhələdə cahil və nadanlar qarşısında dözümlü olmaq göstərişi verilir. Çünki rəhbərlər və təbliğçilər öz yollarında təəssübkeş, inadkar, cahil, əxlaqsız insanlarla qarşılaşırlar. Bu çətinliklərə qalib gəlməyin yolu

---

[722] Məcməül-bəyan, c.4, səh.415

cahillərlə polemikaya girmək deyil. Bu zaman ən yaxşı yol dözümlü və hövsələli olmaq, onları görməzdən gəlməkdir. 200-cü ayədə dini rəhbərlərin və təbliğatçıların dördüncü vəzifəsinə işarə edilmişdir. O da Şeytanın vəsvəsələri qarşısında Allaha sığınmaq, Ondan yardım istəməkdir. Çünki şeytanların vəsvəsələri onların yolları üzərində özünü məqam, mal, şöhrət və bu kimi formalarda göstərir. Şeytan və şeytansifətlər vəsvəsə edərək onları yoldan çıxarmağa səy göstərirlər[723].

201. Günahla qarşılaşdıqda Allahı xatırlamaq insanın ruhuna nur bəxş edir: İmam Sadiqin səhabələrindən olan Əbu Bəsir İmam Sadiqdən (ə) bu ayə haqqında soruşduğunu onun isə belə cavab verdiyini qeyd edir: ***"Günah etməyi qərara alan, lakin Allahı xatırlayıb həmin günahdan əl çəkən bəndəyə işarə edilmişdir."***[724] ***"Allahı xatırlayarkən gözləri açılar, haqqı görərlər"*** cümləsinə gəlincə, şeytani vəsvəsələr insanın batininə pərdə çəkir. Nəticədə, insan yolu quyudan, dostu düşməndən, yaxşını pisdən ayırd edə bilmir. Lakin Allahı xatırlamaq insana ayıqlıq, işıq, həqiqətləri müəyyən edə bilmək gücü verir. Bu tanıma və bilmə şeytanın vəsvəsələrindən xilas olmaqla nəticələnir[725].

204. Quran oxunduqda susmaq lazımdır: Quran oxunarkən susub onu dinləmək savabdır. Yəni bir nəfər Quran oxuyarsa, başqaları harada və hansı vəziyyətdə olmalarından asılı olmayaraq sükut edib ona qulaq assınlar, öz həyatlarında ondan ilham alsınlar. Quran təkcə qiraət kitabı deyil, düşüncə, dərk və əməl kitabıdır. Bu ayədəki müstəhəb əmrə o qədər təkid edilmişdir ki, hətta bəzi hədislərdə onun vacib olduğu vurğulanmışdır[726].

---

[723] Nümunə, c.7, səh.62
[724] Əl-Mizan, c.8, səh.389
[725] Nümunə, c.7, səh.67
[726] Nümunə, c.7, səh.70

Sonumidtv.az

"Ənfal" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Səndən ənfal[727] (qənimətlər, sahibi bəlli olmayan istənilən mal) haqqında soruşarlar. De: "Qənimətlər Allah və Peyğəmbərə məxsusdur.

[727] Ənfal "nəfl" sözündən götürülmüş, mənası çoxluq, artıqlıq deməkdir. Müstəhəb namazlara da ona görə "nafilə" deyilir ki, onlar vacib namazlara əlavə edilir. Nəvəyə nafilə deyilməsinin səbəbi onun övladlara əlavə edilməsi ilə bağlıdır. "Nəufəl" daha çox bəxşiş verən adama deyilir. Döyüş qənimətlərinə "ənfal" deyilməsi döyüşdən sonra müəyyən əşyaların və malların sahibsiz qalaraq qalib gələn döyüşçülərin əlinə keçməsi ilə bağlıdır.

Buna görə də əgər imanınız varsa, Allahdan (Onun əmrindən çıxmaqdan) qorxun, aranızdakı münasibətləri düzəldin, Allaha və Peyğəmbərinə itaət edin!

2. Möminlər yalnız o şəxslərdir ki, Allah adı çəkiləndə ürəkləri qorxudan titrəyər, Allahın ayələri onlara oxunduğu zaman imanları daha da artar, onlar ancaq öz Rəblərinə təvəkkül edərlər.

3. Namaz qılar və verdiyimiz ruzidən (Allah yolunda) sərf edərlər.

4. Həqiqi möminlər onlardır. Onların öz Rəbləri yanında dərəcələri vardır. Onları bağışlanma və qüsursuz ruzi gözləyir!

5. (Bəzilərinin Bədr qənimətlərinin bölgüsünə etiraz etməsi) bir qrup möminin narazı olmasına baxmayaraq, Rəbbinin səni haqq uğrunda öz evindən çıxartmasına bənzəyir!

6. Haqq bəlli olduqdan sonra belə, onlar yenə də bu barədə səninlə mübahisə edirdilər. (Qorxu və dəhşət onları elə sarmışdı ki,) sanki gözləri baxa-baxa ölümə sürüklənirdilər.

7. Xatırlayın, bir zaman Allah sizə iki dəstədən birinin (Qüreyşin ticarət karvanı və ya onların silahlı ordusu) sizin olacağına vəd vermişdi. Siz silahsız karvanın sizin olmasını arzu edirdiniz. Allah isə Öz sözləri ilə haqqı bərqərar etmək və kafirlərin kökünü kəsmək istəyirdi.

8. Günahkarların xoşuna gəlməsə də, haqqı bərqərar etmək və batili yox etmək istəyirdi.

“Ənfal” surəsinin ümumi məzmunu: Surənin əvvəlində İslam maliyyə sisteminin ən mühüm sahəsinə, o cümlədən “Beytül-mal”ın (İslam xəzinəsi) əsas qaynaqlarından hesab edilən əlavə gəlirlər və qənimətlərə işarə edilmiş, sonra həqiqi möminlərin xüsusiyyətləri, üstün keyfiyyətləri, Bədr döyüşü,

cihad hökmlərinin mühüm cəhətləri, düşmən hücumları qarşısında müsəlmanların əsas vəzifələri, Peyğəmbərin (s) hicrəti, həmin gecə baş verən mühüm tarixi hadisə (Leylətül-məbit hadisəsi), müşriklərin İslamdan öncəki vəziyyəti və xurafatları, ilk dövrlərdə müsəlmanların zəif olması, sonradan İslam sayəsində güclənməsi, xumsun hökmləri və onun bölgü forması, istənilən zaman və məkan çərçivəsində cihada hərbi, siyasi və ictimai cəhətdən hazır olmaq zərurəti, zahirən sayca az olmalarına baxmayaraq, düşmənlə müqayisədə müsəlmanların mənəvi cəhətdən daha üstün qüvvələrə malik olması, əsirlərlə bağlı hökmlər, onlarla davranış tərzi, hicrət edənlər və etməyənlər, münafiqlərə qarşı mübarizə və onlarla olan problemlər, münafiqlərin tanınması yolları, sonda bir sıra etik, əxlaqi və ictimai mövzulardan bəhs edilmişdir[728].

1. Ənfal: Bu ayə haqqında bir neçə nazilolma səbəbi qeyd edilmişdir. Bədr döyüşündən sonra qənimətlərin bölüşdürülməsinin müsəlmanlar arasında mübahisəyə səbəb olması bütün hədislərin ortaq cəhətidir. Müsəlmanlar Peyğəmbərdən (s) məsələyə aydınlıq gətirməsini istədikdə Allah-taala bu ayəni nazil edir və onlara bildirir ki, qənimətlərin bölgüsü onların deyil, qənimətlər Allahın və Onun peyğəmbərinn əlindədir, onların bölgüsü Allaha və peyğəmbərinə aiddir. Bundan sonra Peyğəmbər (s) qənimətləri müsəlmanlar arasında bərabər şəkildə bölür[729]. Bu ayə döyüş qənimətləri haqqında nazil olsa da, onun məzmunu ümumi bir hökmü ehtiva edir, bütün əlavə mallara (bəlli sahibi olmayan) şamil olur. Bu səbəbdən də Əhli-beyt (ə) imamları tərəfindən bizə çatmış hədislərdə "ənfal"ın çox geniş məzmun ifadə etməsi ilə bağlı məlumat verildiyinə rast gəlirik[730].

---

[728] Nümunə, c.7, səh.77
[729] Əl-Mizan, c.9, səh.7
[730] Nümunə, c.7, səh.81

1. İnsanlar arasında sülh yaratmağın üstünlüyü: Sülh, barışıq yaratmaq, kin-küdurəti, düşmənçilikləri aradan qaldırmaq, kin-küdurəti səmimiyyət, düşmənçilikləri dostluqlarla əvəz etmək İslamın ən mühüm proqramlarındandır. İslam təlimlərində bu mövzuya ən yüksək ibadətlərdən sayılacaq qədər böyük əhəmiyyət verilmişdir. Möminlərin əmiri İmam Əli (ə) şəhadət yatağında son vəsiyyətlərini edərkən övladlarına belə buyurmuşdur: "Allah yadınızda olsun, Allah yadınızda olsun, aranızda barışıq yaradın. Babanız Peyğəmbərin (s) "İnsanlar arasındakı münasibətləri düzəltmək, bütün (müstəhəb) namaz və oruclardan üstündür", - deyə buyurduğunu eşitdim."[731]

7. Bədr döyüşünə hazırlıqlar: Peyğəmbər (s) Mədinəyə hicrət etdikdən sonra müsəlmanlar xəbər tuturlar ki, Əbu Süfyanın başçılığı ilə Qüreyş ticarət karvanı Şamdan Məkkəyə qayıdır. Peyğəmbər (s) səhabələrinə göstəriş verir ki, müşriklərin müsəlmanlara vurduğu ziyanların əvəzini çıxmaq üçün həmin karvana doğru hərəkətə keçsinlər və karvanı malları qarışıq müsadirə etsinlər. Əbu Süfyan Mədinədəki dostlarından biri vasitəsilə bu hadisədən xəbər tutur. Məkkəyə bir qasid göndərib yardım istəyir. Məkkə camaatının çoxunun bu karvanda payı olduğu üçün tez bir zamanda səfərbər olurlar. Bir hissəsini Məkkənin tanınmış və adlı-sanlı adamları təşkil edən 950 nəfərlik orduya Əbu Cəhl rəhbərlik edir. Ordu 700 dəvə, 100 atlı və 150 piyadadan ibarət olur. Digər tərəfdən, Əbu Süfyan müsəlmanların hücumlarından xilas olmaq üçün yolunu dəyişərək sürətlə Məkkəyə doğru hərəkətini davam etdirir. İslam peyğəmbəri (s) həmin günlərin bütün mübariz müsəlmanlarından ibarət olan 313 nəfərlik ordu ilə Məkkə ilə Mədinə arasındakı Bədr adlanan əraziyə çatdıqda Qüreyş

---

[731] Nümunə, c.7, səh.81

ordusunun hərəkətə keçdiyini eşidir. Bu ayə həmin şəraitdə müsəlmanların hansı vəziyyətdə olduğunu bəyan edir[732].

9. Rəbbinizdən kömək dilədiyiniz, Onun da duanızı: “Mən sizə bir-birinin ardınca enən min mələklə yardım edərəm!” – deyə qəbul buyurduğu zamanı (xatırlayın).

10. Allah bunu yalnız bir müjdə olsun və qəlbiniz onunla rahatlıq tapsın deyə belə etdi. Qələbə yalnız Allahdandır. Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!

11. Üzərinizə Allah tərəfindən istirahət və rahatlıq vasitəsi olan xəfif bir yuxu çökdüyü, sizi təmizləmək, Şeytanın vəsvəsəsini sizdən uzaqlaşdırmaq, ürəklərinizi möhkəm və addımlarınızı mətin (ayaqlarınızın altını möhkəm) etmək üçün göydən üstünüzə yağış yağdırdığı vaxtı xatırlayın!

12. Rəbbinin mələklərə: “Mən də sizinləyəm. Möminlərə qüvvət verin. Mən kafirlərin ürəklərinə qorxu salacağam. Zərbələri onların

[732] Nümunə, c.7, səh.93

boyunlarına endirin, bütün barmaqlarını doğrayın!", - deyə vəhy etdiyi zamanı xatırlayın!

13. Bu onların Allah və Onun Peyğəmbərilə düşmənçilik etməsinə görədir. Kim Allah və Onun Peyğəmbəri ilə düşmənçilik etsə, (şiddətli əzaba düçar olar). Allah şiddətli əzab verəndir.

14. Bunu (dünyadakı bu əzabı) dadın. Kafirlər üçün (o biri dünyada) od əzabı da olacaq.

15. Ey iman gətirənlər! Döyüş meydanında bir yerə toplaşmış kafirlərlə qarşılaşsanız, onlara arxa çevirməyin!

16. Yenidən hücuma keçmək məqsədilə meydanı tərk edən və ya başqa bir dəstəyə (mücahidlər dəstəsinə) qoşulmaq məqsədi güdən şəxs istisna olmaqla, belə bir vaxtda onlara arxa çevirən hər kəs Allahın qəzəbinə tuş gələcək. Onun məskəni Cəhənnəmdir. Ora nə pis dönüş yeridir.

9-10. Mələklər müsəlmanların köməyinə tələsirlər: İbn Abbas: "Bədr günü iki qoşun qarşı-qarşıya dayanıb mövqe tutduqdan sonra Əbu Cəhl dedi: "İlahi, bu iki dəstədən hansı yardıma layiqdirsə, ona yardım göstər!" Müsəlmanlar da Allahdan yardım istədilər. Sonra Allah mələkləri endirdi." İmam Sadiq (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Peyğəmbər (s) müşriklərin qoşununun sayının çox, müsəlmanların sayının az olduğunu gördükdə üzünü qibləyə tərəf tutaraq buyurdu: "İlahi, mənə verdiyin vədə vəfa et! İlahi, bu dəstə (səhabələrinə işarə edərək) həlak olsa, artıq yer üzündə sənə ibadət edən olmaz." Əllərini göyə uzatmış halda o qədər dua etdi ki, əbası çiynindən düşdü. Bu vaxt Allah onun duasını qəbul edib mələkləri endirdi."*** Əlbəttə, mələkələr kafirləri öldürmək üçün endirilməmişdi, onların gəlməsinin məqsədi möminlərə müjdə vermək,

ürəklərini şadlandırmaq və təskinlik vermək idi. Belə ki, bu surənin 12-ci ayəsində bu məqama işarə edilmişdir. Bu məzmun bəzi tarixçilərin fikirlərini də təsdiq edir. Onlar qeyd edirlər ki, mələklər müşrikləri qətlə yetirmək üçün nazil olmamışdılar, hətta müşriklərdən heç bir nəfəri də qətlə yetirmədilər. Döyüşdə öldürülüən müşriklərin 1/3-ini ya yarısını İmam Əli (ə), qalanlarını isə digər döyüşçülər qətlə yetirmişdilər. Mələklərin işi yalnız müsəlmanların sayını müşriklərin gözündə çox göstərmək, müşriklərin sayını da müsəlmanların gözündə az göstərmək, bununla da müsəlmanlara ürək-dirək vermək, müşriklərin ürəyinə isə qorxu salmaqdan ibarət idi[733].

11. Bədr döyüşündən əvvəlki gecə Allahın müsəlmanlara bəxş etdiyi iki nemət: Bu ayədə Allahın Bədrdə möminlərə bəxş etdiyi bəzi nemətlərə işarə edilmişdir. Qarşılaşmadan bir gün əvvəl müsəlmanlar çox qorxurdular və təpədən dırnağa qədər silahlanmış müşrik qoşunları qarşısında nə edəcəklərini bilmirdilər. Sabahkı döyüşə hazır olmaları üçün Allah-taala onları xəfif və rahatlıq gətirən yuxuya daldırdı. Digər tərəfdən, müşriklər suya daha tez çatdıqları üçün müsəlmanlarla su arasında sədd çəkmişdilər. Yuyunaq, dəstəmaz almaq, qüsl etmək, susuzluqları yatırmaq və sair ehtiyaclarını dəf etmək üçün müsəlmanların suya böyük ehtiyacı var idi. Ehtyaclarını ödəmək üçün Allah-taala onlara yağış yağdırdı. Müsəlmanların düşərgə saldığı yer qumluq ərazi idi və hərəkət edərkən quma batırdılar. Bu yağışın yağmasının digər faydası da bu oldu ki, həmin yer bərkidi, nəticədə müsəlmanlar mətin addımlar, böyük ümid və əminlik içində, ruhən və cismən tər-təmiz olaraq Bədr meydanına ayaq basdılar[734].

15-16. Döyüşdən qaçmaq ən böyük günahlardan biridir: Döyüş meydanından qaçmaq İslamda ən böyük günahlardan biri hesab edilir. İbn

---

[733] Əl-Mizan, c.9, səh.22
[734] Əl-Mizan, c.9, səh.1

Şazan adlı səhabəsi döyüşdən qaçmağın haram olmasının səbəbini soruşduqda, İmam Rza (ə) belə buyurmuşdur: “Allah-taala döyüşdən qaçmağı haram etmişdir. Çünki bu hərəkət Allah dininin yüngül sayılmasına, peyğəmbər və adil imamların təhqir edilməsinə səbəb olur. Döyüş meydanından qaçanlar peyğəmbərə və imamlara yardım göstərməkdən imtina etmiş hesab edilirlər. Buna görə də ilahi əzaba düçar olurlar. Çünki onlar bununla Peyğəmbərin (s) Allahın rəbb olmasının təsdiqi, ədalətin bərqərar edilməsi, zülmə son qoyulması, fəsadın yer üzündən silinməsi ilə bağlı çağırışlarını tərk etmiş olurlar, digər tərəfdən düşmənlərin müsəlmanlara qarşı cürətlənməsinə, onların müsəlmanları əsir götürmək, qətlə yetirmək, Allah dinini məhv etmək və sair fəsadları törətmək kimi fikirlərə düşməsinə səbəb olurlar.” İmam Əlinin (ə) malik olduğu və bəzən örnək olsun deyə başqalarına nümunə göstərdiyi üstün keyfiyyətlərdən biri də döyüş meydanından qaçmaması idi. Belə ki, İmam Əli (ə) buyurmuşdur: “Sayca qat-qat çox olan düşmənin qarşısından heç vaxt qaçmadım, meydanda mənimlə qarşılaşan elə bir adam olmadı ki, qanı ilə torpağı sulamamış olsun.”[735]

[735] Nümunə, c.7, səh.113; Əl-Mzan, c.9 ,səh.57

17. Onları siz öldürmədiniz, Allah öldürdü. (Ya Peyğəmbər! onların üz-gözünə torpaq və çınqıl) atdığın zaman sən atmadın, Allah atdı. Allah bununla möminləri yaxşı bir sınağa çəkmək istəyirdi. Allah eşidəndir, biləndir!

18. Bu belə idi (mömin və kafirlərin taleyi gördüyünüz kimi idi). Allah kafirlərin planlarını zəiflədəndir!

19. Əgər siz qələbə istəyirsinizsə, qələbə artıq sizə üz tutdu. Əgər (müxalif mövqeyinizdən) əl çəksəniz, bu sizin üçün daha xeyirli olar. Yox, əgər qayıtsanız, Biz də qayıdarıq. Dəstəniz nə qədər çox olsa da, sizi (Allahın yardımından) ehtiyacsız etməz. Allah möminlərlədir!

20. Ey iman gətirənlər! Allaha və Onun Peyğəmbərinə itaət edin, (sözlərini) eşitdiyiniz halda, ondan üz döndərməyin!

21. Əslində, eşitmədikləri halda: “Eşitdik!” deyənlər kimi olmayın!

22. Allahın nəzərində canlıların ən pisi düşünməyən karlar və lallardır.

23. Əgər Allah onlarda bir xeyir bilsəydi, (haqq sözü) onlara eşitdirərdi. Əgər haqqı onların qulağına çatdırsa belə, yenə də üz çevirib imtina edərlər (boyun qaçırarlar).

24. Ey iman gətirənlər! Peyğəmbər sizi, sizlərə həyat bəxş edəcək bir şeyə dəvət etdiyi zaman Allahın və Onun Peyğəmbərinin dəvətini qəbul edin. Bilin ki, Allah insanla onun qəlbi arasına girər və siz axırda Onun hüzuruna cəm ediləcəksiniz!

25. Siz təkcə zalımlara toxunmayacaq bəladan qorxun (Başqaları da susduğu üçün, təkcə zalımlara deyil, bütün cəmiyyətə üz verəcək bəladan qorxun). Bilin ki, Allah şiddətli əzab verəndir!

---

17. Allah torpaq atdı: Hədislərdə qeyd edilir ki, Bədr döyüşündə Peyğəmbər (s) İmam Əliyə (ə) "Mənə bir ovuc qum və çınqıl ver", - deyə buyurur. İmam Əli (ə) belə də edir. Peyğəmbər (s) onu Qüreyş müşriklərinə doğru atır. Allahın istəyi ilə həmin qum və çınqıl müşriklərin gözlərinə dolur. Hədislərdə bu möcüzənin müsəlmanların qələbə çalmasında rol oynadığı bildirilir. Hər-halda, Allah-taala bu ayədə müsəlmanlara və Peyğəmbərə (s) Bədr hadisəsinin, təpədən dırnağa qədər silahlanmış müşriklərin sayca çox az və silah-sursat cəhətdən də zəif olan müsəlmanlar tərəfindən məğlub olmasının adi bir iş olmadığını xatırladır. Allah-taala mələkləri göndərməklə möminlərin ürəklərini möhkəmləndirmiş, müşriklərin ürəyinə qorxu və dəhşət salmış, bir ovuc torpaqla müsəlmanların müşriklər üzərində qələbəsini reallaşdırmış, onların müşrikləri qətlə yetrməsinə, əsir götürməsinə və qənimət əldə etməsinə yardım göstərmişdir. Deməli, zahirdə müsəlmanlar qalib gəlsə də, Peyğəmbər (s) onlara tərəf bir ovuc torpaq atsa da, əsl qələbə Allaha aid idi. Buna görə də bu qalibiyyətin Allaha aid edilməsi daha düzgün olar[736].

4. İslam həyat bəxş edən bir dindir: Bu ayədə İslam çağırışının həyata, mənəvi, maddi, mədəni, iqtisadi, siyasi, əxlaqi, sosial və sair həyata, yaşamağa çağırış odluğu bildirilir. Bu, İslam və bu haqq din haqqında deyilmiş ən qısa və eyni zamanda ən əhatəli bir tərifdir. Əgər bir adam soruşsa ki, İslamın hədəfi nədir və bizə nə verə bilər, çox qısa bir cümlə ilə deyə bilərik ki, İslamın hədəfi bütün sahələrdə həyatı təmin etmək. Əlbəttə, həyat və yaşayış sözlərinin müxtəlif mənaları var. Həyat deyilərkən bitki həyatı, heyvan həyatı, fikri və əqli həyat, o biri dünyada əbədi həyat, həyat və yenilməz qüvvət sahibi olan Allahın sonsuz elm və qüdrətini ifadə edən

---

[736] Əl-Mizan, c.9, səh.60

həyatı nəzərdə tutula bilər. Həyat və yaşayışın bü dərəcələrinə əsasən məlum olur ki, cahiliyyət dövrünün insanları maddi və heyvani həyata malik olsalar da, insani, mənəvi və əqli həyatdan məhrum idilər. Quran gəldikdən sonra onları insani və ilahi həyat və yaşayışa dəvət etdi[737].

24. Allahın bütün insanları və mövcudatı əhatə etməsi: Şübhəsiz ki, qəlb deyilərkən ruh və ağıl nəzərdə tutulur. Bu cümlədə Allahın hər yerdə hazır və nazir olduğunu, bütün yaradılış aləmini əhatə etdiyini, bu dünyadakı varlıqlarla bir olmadığı halda, onlardan ayrı və onlara yad olmadığı, ölüm, həyat, elm, qüdrət, əmin-amanlıq, uğur və səadətin onun əlində, onun qüdrəti daxilində olduğu, buna görə insanın ondan heç nəyi gizlədə bilməyəcəyi, onun razılığı və istəyi olmadan uğur və qələbə əldə edə bilməyəcəyi, bütün bu deyilənlərə əsasən, Ondan başqasına üz tutulmasının, Ondan başqasından yardım dilənməsinin rəva olmadığı qeyd edilmişdir. Çünki O, hər şeyin sahibidir və insanın bütün varlığını əhatə edir[738].

25. Fitnə (bəla): Ayədə fitnə deyilərkən hansı bəla formasının nəzərdə tutulduğu aydın şəkildə qeyd edilməmişdir. Ayənin məzmunundan belə başa düşülür ki, burada bəla deyilərkən İslamın haqq hökumətində sistemin tamamilə pozulması, rəhbərliyin haqqı çatmayan bir adamın əlinə keçməsi, Allah kitabının qəti hökmlərinin və Peyğəmbər (s) sünnəsinin məhv edilməsinə hədəflənmiş sözləşmə nəzərdə tutulmuşdur. Bəli, bu cür fitnənin zülmü bütün müsəlmanlara toxunur. Allah hamını belə bir fitnədən qorunmağa çağırmışdır. Əhli-beyt (ə) hədislərdə möminlərin əmiri İmam Əlinin (ə) xilafətinin qəsb edilməsi, ona qarşı Cəməl döyüşünün təşkili bu ayənin iki bariz nümunəsi kimi göstərilmişdir[739].

---

[737] Nümunə, c.7, səh17
[738] Nümunə, c.7, səh.129
[739] Əl-Mizan, c.9, səh.51

26. Xatırlayın, bir zaman siz yer üzündə az idiniz; zəif (aciz) sayılırdınız, adamların sizi ələ keçirməsindən qorxurdunuz. Ancaq Allah sizə sığınacaq verdi, köməklik göstərib sizi gücləndirdi və təmiz ruzilərdən verdi ki, bəlkə, şükür edəsiniz!

27. Ey iman gətirənlər! Bilərəkdən Allaha və Peyğəmbərə xəyanət etməyin, habelə aranızda olan əmanətlərə də xəyanət etməyin! (Bu, çox böyük günahdır)

28. Bilin ki, mal-dövlətiniz və övladınız yalnız bir imtahan vasitəsidir. Ən böyük mükafat məhz Allah yanındadır!

29. Ey iman gətirənlər! Əgər Allahdan (Ona qarşı çıxmaqdan) çəkinsəniz, O sizə haqla-nahaqı ayırmaq üçün bir vasitə (sayəsində haqqla

batili bir-birindən ayıra biləcəyiniz bəsirət) verər, günahlarınızın üstünü örtüb sizi bağışlayar. Allah böyük lütf və mərhəmət sahibidir!

30. Yadına sal ki, bir zaman kafirlər səni həbs etmək və ya öldürmək, yaxud da (Məkkədən) çıxarmaq üçün bir çıxış yolu fikirləşdirlər (plan cızdılar). Allah da tədbir tökdü. Allah tədbir tökənlərin ən yaxşısıdır!

31. Ayələrimiz onlara oxunduğu zaman: "Eşitdik, (elə də böyük bir şey deyil) istəsək, biz də bunun bənzərini deyə bilərik. Bunlar qədimdəkilərin əfsanələrindən (uydurmalarından) başqa bir şey deyildir!" – söyləyərlər (Amma yalan deyirlər, onun bənzərini əsla gətirə bilməzlər).

32. (Xatırla!) Bir zaman da: "Ya Allah! Əgər bu haqdırsa və Sənin tərəfindən gəlibsə, onda başımıza göydən daş yağdır və ya bizə şiddətli bir əzab göndər!" – demişdilər.

33. Amma (Ey Peyğəmbər,) nə qədər ki, sən onların arasındasan, Allah onlara əzab göndərməyəcək. Bağışlanmalarını dilədikdə də Allah onlara əzab verməz!

---

27. Əmanətə xəyanət ən mənfur əməllərdəndir: Xəyanət insanın hər hansısa haqqı ödəyəcəyinə söz verib ödəməkdən boyun qaçırmasına deyilir. Bu sözün antonimi "əmanət" sözüdür. Əmanət deyilərkən adətən maliyyə əmanətləri nəzərdə tutulsa da, Quran məntiqində bu sözün çox geniş məna yükü var, həyatın bütün sosial, siyasi və əxlaqi sferalarını əhatə edir. Hətta hədislərdə qeyd edilir ki, əgər bir məclisdə müəyyən bir mövzuda söhbət olarsa və sözü danışan adam bu söhbətin məclisdən çıxmasına razı olmazsa, həmin söz oradakılar üçün əmanət hesab edilir. Buna görə də İslamın suyu və torpağı müsəlmanların əlində ilahi əmanətdir. Onların övladları da əmanətdir. Allahın iki böyük əmanəti hesab edilən Quran və ilahi rəhbərlər

isə əmanətlərin ən üstünü hesab edilir. Hər halda əmanətə xəyanət əməllərin ən mənfuru, günahların ən çirkinidir. Əmanətə xəyanət edən münafiqdir. Peyğəmbər (s) buyurmuşdur: ***"Münafiqin 3 əlaməti var: yalan danışar; verdiyi vədə xilaf çıxar; yanında nəyisə əmanət qoysan, xəyanət edər. Oruc tutsa, namaz qılsa, özünü müsəlman hesab etsə belə, bu cür şəxs münafiqdir."***[740]

28. Mal-dövlət və övladlar iki imtahan vasitəsidir: Bu ayə əvvəlki ayənin davamıdır. Burada mal-dövlət və övladlara görə Allah, Peyğəmbər (s) və sair əmanətlərə xəyanət etməmək göstərişi verilir. Bilirik ki, Mədinəyə hicrət etdikdən sonra bəzi müsəlmanların sərvəti və övladları Məkkədə qalmışdı. Onlar müşriklərin diqqətini cəlb etmək və bununla da mal-dövlətlərini, arvad-uşaqlarını qorumaq üçün müsəlmanların bəzi sirli xəbərlərini müşriklərə çatdırırdılar. Bu ayədə müsəlmanlara bildirilir ki, onlar mal-dövlətləri və övladları ilə imtahan olunurlar, çalışsınlar bu imtahandan başı aşağı çıxmasınlar[741]. Hər-halda, bu iki vasitə insanın daha çox bağlı olduğu şeylərdir. Buna görə də hər birimiz sözügedən iki böyük imtahan meydanında özümüzü Allaha həvalə edək və diqqətli olaq. Çünki çoxları bu meydanda sürüşmüş və özlərinə əbədi lənət qazanmışlar[742].

33. Peyğəmbərin varlığı və tövbə əzabdan xilas olmanın iki amilidir: İmam Məhəmmədbaqirin (ə) İmam Əliyə (ə) istinadən buyurduğu bir hədisdə belə qeyd edilmişdir: "Yer üzündə iki şey əmin-amanlıq və ilahi əzabdan xilas olma səbəbidir. Onların biri qaldırılmış, digəri qalmışdır.

---

[740] Nümunə, c.7, səh.136
[741] Əl-Mizan, c.9, səh.56
[742] Nümunə, c.7, səh.138

Ondan bərk-bərk yapışın. Qaldırılmış səbəb Peyğəmbər (s), qalan səbəb isə tövbə və bağışlanma diləməkdir. (Sonra bu ayəni oxudu)”[743]

[743] Nurussəqəleyn, c.3, səh.41

34. Onlar Məscidül-həramın sahibləri olmadıqları halda, (möminlərin orada ibadət etməsinə) mane olduqlarında nə üçün Allah onlara əzab verməsin! Onun sahibləri yalnız təqvalılardır. Lakin onların əksəriyyəti bunu bilməz!

35. (Namaz qıdlıqlarını iddia etdikləri halda,) Onların evin (Kəbə evinin) yanındakı namazları (duaları) fit verib əl çalmaqdan başqa bir şey deyildir. Etdiyiniz küfrə görə indi dadın əzabı!

36. Kafirlər öz mallarını (insanları) Allah yolundan döndərmək üçün sərf edərlər. Onlar (zəhmət çəkərək qazandıqları) bu malları sərf edəcəklər, lakin sonra peşman olacaq, axırda da məğlub ediləcəklər. Kafirlər Cəhənnəmə aparılmaq üçün topanılacaqlar ki,

37. Allah murdarı pakdan ayırsın, sonra murdarları bir-birinin üstünə yığıb hamısını bir yerə toplasın və birlikdə Cəhənnəmə atsın. Bunlar ziyana uğramışlardır.

38. Kafir olanlara de: “Əgər onlar müxalif olmaqdan əl çəksələr (və iman gətirsələr), keçmişdəki günahları bağışlanar. Yox, əgər yenə əvvəlki əməllərinə qayıtsalar, əvvəlkilərin (keçmiş ümmətlərin) başına gələnlər onların da başına gələr.

39. Fitnə (bütpərəstlik və əsarət) aradan qalxana qədər və din yalnız Allaha məxsus olanadək onlarla vuruşun. Əgər onlar (şirk, fəsad və yanlış əməllərinə) son qoysalar, (Allah onları qəbul edər). Allah onların nə etdiklərini görəndir.

40. Əgər boyun qaçırsalar, bilin ki, (sizə heç bir ziyan vura bilməzlər) Allah sizin havadarınızdır. O necə də gözəl havadar, necə də yaxşı yardımçıdır!

---

34. Məscidlərin təqvalı insanlar tərəfindən idarə edilməsi: Ayədə verilən hökm Məscidül-həram haqqında olsa da, bütün dini mərkəzlərə, məscidlərə, dini komplekslərə şamil olur. Bu mərkəzlərin pak, təmiz, diri, təlim-tərbiyə, oyanış və diriliş ocaqları olmasını təmin etmək üçün onların rəhbər və sahibləri mütləq ən pak, ən təmiz, ən dindar və ən aktiv insanlar olmalıdırlar. Bir çox İslam ölkələrində olduğu kimi, sözügedən mərkəzlərin alqı-satqı bazarlarına, fkirlərin çirkləndirilməsi və haqqdan sapdırma mərkəzlərinə çevrilməməsi üçün məscidlərin və İslam mədəniyyət mərkəzlərinin rəhbərləri bir ovuc artıq, bulaşıq, özünü satmış, əcnəbi dövlətlərə bağlı insanlar olmamalıdırlar. Əgər müsəlmanlar İslamın məscidlər və dini mərkəzlərlə bağlı göstərişlərinə əməl etsəydilər, bu gün İslam cəmiyyətlərinin vəziyyəti başqa cür olardı[744].

35. Cahil ərəblərin ibadət formalarından bir nümunə: Tarixi mənbələrin yazdığına görə, cahiliyyət dövrünün ərəbləri Kəbə evini təvaf edərkən evin ətrafına tamamilə çılbaq dolanır, fit verir, əl çalır və bu davranışlarını ibadət adlandırırdılar. Habelə, qeyd olunanlara görə, Peyğəmbər (s) üzünün həm Kəbəyə, həm də Beytül-müqəddəsə olması üçün Həcərül-əsvədin yanında üzü şimala doğru durub namaz qılırdı. Bu vaxt Bəni Səhm qəbiləsindən olan iki nəfər, biri sağda, biri isə solda olmaqla, Peyğəmbərin (s) yanında dayanırlar. Onu namaz qılarkən incitmək üçün biri

---

[744] Nümunə, c.7, səh.156

fit, digəri isə əl çalır. Ərəblərin cəhalət tarixinin səhifələrini vərəqlədikcə və Qurandakı məlumatları araşdırdıqda çox böyük təəccüb içində kosmos və atom səri olan müasir dövrümüzdə də insanların cahiliyyət dövrünün hərəkətlərini təkrarladıqlarının və özlərini ibadət edənlərin sırasında olduqlarını güman etdiklərni görürük[745].

37. Yaxşıların və pislərin yeri: Allah-taala əvvəlki ayədə kafirlərin öz şeytani məqsədlərinə çata bilməyəcəklərini xəbər verir. Bildirir ki, onlar Allahın nurunu söndürmək və Allah dinini məhv etmək üçün əllərindən gələni edir, çoxlu sərmayə sərf edirlər. Ancaq onların bütün səylərinin nəticəsi yalnız ümidsizlik olacaq, axırda peşman olacaq, ziyana uğrayacaqlar. Bu ayədə qeyd olunan məsələnin dəlili açıqlanır. Belə ki, bu dünyada baş verən bütün hərəkətlər ilahi qanunlar çərçivəsində baş verir. İlahi qanuna əsasən, yaxşı və pis, pak və napak bir-birindən ayrılmalı, pisliklər bir yerə toplanıb sonda Cəhənnəmə atılmalıdır. Bəli, Cəhənnəm məhv yurdudur. Ora pisliklər karvanının məskənidir və Allahın qəzəb odu ilə əbədi yanacaqlar. Cənnət bütün yaxşılıqların məskənidir. Bütün təmizliklər, paklıqlar orada həmişəlik qalacaqlar. Bu ayədə Allahın şübhəsiz bir qanununa işarə edilmişdir, hər bir yaxşılıq sonda yaxşılıqlar məskəninə, hər bir pislik pisliklər məskəninə qovuşur[746].

39. Mehdi (ə) yer üzündə şirkin kökünü kəsəcək: İmam Sadiq (ə) bu ayə ilə bağlı belə buyurmuşdur: ***"Bu ayənin son yozumu və təfsiri hələ yetişməyib. Qaimimiz zühur edəndə həmin zamana təsadüf edən insanlar bu ayənin yozumunun şahidi olacaqlar. And olsun Allaha, Muhəmmədin***

[745] Nümunə, c.7, səh.157
[746] Əl-Mizan, c.9, səh.75

(s) dini yer üzündə heç bir gecəsində əsla müşrikin olmayacağı bir səviyyəyə çatacaq.”[747]

41. Əgər siz Allaha və haqla batilin ayırd edildiyi gün – iki dəstənin bir-birilə qarşılaşdığı gün (möminlərlə qeyri-möminlərin bir-birindən

[747] Nümunə, c.7, səh.166

ayrıldığı Bədr günü) bəndəmizə nazil etdiyimizə iman gətirmisinizsə, bilin ki, əldə etdiyiniz hər cür qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasının, yetimlərin, yoxsulların və (pulu qurtarıb) yolda qalan müsafirlərindir. Allah hər şeyə qadirdir!

42. Siz aşağı, onlar yuxarı (düşmən sizdən üstün olduğu), karvan isə sizdən daha aşağıda olduğu vaxt (vəziyyət o qədər çətin idi ki,) əgər siz (döyüş meydanına getmək haqqında) bir-birinizlə vədələşsəydiniz, sonda vədinizə xilaf çıxardınız. Lakin Allah etməli olacağı işi yerinə yetirmək üçün belə etdi ki, həlak olanlar (və haqq yoldan sapanlar) aşkar bir dəlillə həlak olsun, sağ qalanlar (haqq yola yönələnlər) da aşkar bir dəlillə sağ qalsınlar. Allah eşidəndir, biləndir!

43. O zaman Allah yuxuda sənə onların sayını az göstərdi. Əgər çox göstərsəydi, mütləq qorxar və (döyüşə başlayıb-başlamamaqla bağlı) bir-birinizlə mübahisə edərdiniz. Lakin Allah sizi (bunların şərindən) salamat qurtardı. O, kökslərdə olanları biləndir!

44. Üz-üzə gəldiyiniz zaman Allah olacaq işi yerinə yetirmək məqsədilə onları sizin gözünüzdə (sayca) az göstərir, sizi də onların gözündə azaldırdı (Siz qorxmayıb döyüşə başlayasınız, onlar da qorxuya düşüb qaçmasınlar, döyüşüb sonda məğlub olsunlar deyə). Bütün işlər axırda Allaha qaytarılacaqdır.

45. Ey iman gətirənlər! Bir dəstə ilə üz-üzə gəldikdə qətiyyətli olun və Allahı çox xatırlayın ki, nicat tapasınız!

---

41. Xums: Bu, Quranda xums mövzusunun toxunulduğu yeganə ayədir. Bu ilahi hökmün şərhinə təfsirlər, fiqh və hökmlər kitablarında geniş şəkildə yer verilmişdir. Bu müxtəsərdə bir neçə mühüm məsələyə toxunmaq

istəyirik: 1. Hədislərdən belə başa düşülür ki, bu ayədə “qohum-əqrəba” deyilərkən peyğəmbərin bütün qohumları deyil, Əhli-beyt (ə) imamları nəzərdə tutulur. Onların Peyğəmbərin (s) canişinləri və İslam dövlətinin rəhbərləri olduğunu nəzərə alsaq, xumsun qeyd olunan səhminin onlara verilməsinin səbəbi aydın olur. Başqa sözlə desək, Allahın səhmi, Peyğəmbərin səhmi və Peyğəmbərin (s) qohum-əqrəbasının səhmi İslam dövlətinin rəhbərinə aiddir. O, sadə həyat tərzini onunla təmin edir, qalan hissəni isə ümmətin idarəçiliyində cəmiyyətin ehtiyaclarının ödənilməsində lazım olan müxtəlif sahələrə xərcləyir. 2. Hədislərə əsasən yetimlər, yoxsullar və yolda qalanlar deyilərkən Haşim övladlarından olan seyyidlərin yetimləri, yoxsulları və yolda qalanları nəzərdə tutulur. 3. Hədislərə, hətta lüğətlərdəki leksik mənasına əsasən, bu ayədə qənimət deyilərkən təkcə döyüşlərdə əldə edilən qənimət deyil, ticarət, fəaliyyət və ya müharibə vasitəsilə əldə edilən hər növ mənfəət nəzərdə tutulur. 4. Xumsun yarısının Haşim övladlarına verilməsi ayrıseçkilik deiyilmi? Birincisi, xumsun seyyidlərə və Haşim övladlarına aid olan hissəsi yalnız ehtiyacı olan seyyidlərə aiddir. Verilən miqdar isə bir ilin ehtiyaclarının təminatı qədər olmalıdır, ondan artığını vermək olmaz. Buna görə də həmin hissədən iş qabiliyyəti olmayan, xəstə, yetim uşaq, yaşayış xərclərini tamamilə ödəyə bilməyən seyyidlər yararlana bilərlər. İş qabiliyyəti olanlar, yaşayış təminatını ödəyə biləcək imkana malik olanlar xumsun bu hissəsindən istifadə edə bilməzlər. İnsanlar arasında dolaşan “Hətta evlərinin damlarının navalçaları da qızıldan olsa, seyyidlər xums ala bilərlər” fikri yanlışdır və heç bir əsası yoxdur. İkincisi, Haşim övladları və seyyidlərin yoxsul və ehtiyaclıları zəkatdan əsla istifadə edə bilməzlər, onun əvəzinə xumsun onlara aid olan hissəsi ilə kifayətlənməlidirlər. Üçüncüsü, əgər seyidlərin xumsdakı payı onların ehtiyaclarından çox olarsa, həmin artıq hissə beytül-

mala daxil edilməli və digər xərclərə sərf edilməlidir. Əgər seyyidlərin səhmi onların ehtiyaclarını təmin etməzsə, o zaman beytül-maldan və zəkat səhmindən onlara pay verilməlidir. Bu üç cəhətə diqqət yetirdikdə məlum olur ki, əslində, maddi cəhətdən seyyidlə qeyri-seyyidlər arasında heç bir fərq qoyulmamışdır. Seyid olmayan ehtiyaclılar illik xərclərini zəkatdan ödəyə bilərlər, onlar xumsdan məhrumdurlar. Seyyidlər də ehtiyaclarını ödəmək üçün xumsdan isitfadə edirlər, onların zəkatdan istifadə etməyə haqları çatmır. Burada ortaya belə bir sual çıxır: Əgər nəticə etibarı ilə bu iki hökm arasında heç bir fərq yoxdursa, bəs bu proqramın nə əhəmiyyəti var? Sualı cavablandırarkən qeyd edirlər ki, xumsla zəkat arasındakı mühüm fərq ondan ibarətdir ki, zəkat İslam cəmiyyətinin ümumi mallarından hesablanan gəlirlərdən verilir. Buna görə də onun istifadə yerləri məhz həmin istiqamətlərdir. Lakin xums İslam hökumətinə aid olan vergilərdəndir. Yəni İslam hökuməti və onun idarəçilərinin xərcləri onun vasitəsilə təmin edilir. Buna görə də seyyidlərin ümumi camaatın malından məhrum edilməsi Peyğəmbərin (s) qohumlarının bu paydan uzaqlaşdırılmasına hesablanmışdır. Nəticədə, müxaliflərin "Peyğəmbər (s) öz qohumlarını camaatın malına daraşdırıb" məzmunlu bəhanələrinə son qoyulur. Digər tərəfdən, seyyidlərin ehtiyaclıları da başqa bir vasitə ilə təmin olunmalıdırlar. Bu məsələ İsalm qanunlarında elə tənzimlənmişdir ki, ehtyaclı seyyidlər ümumi büdcədən deyil, İslam hökumətinin büdcəsindən təmin oluna bilsinlər. Əslində, xums seyyidlər üçün imtiyaz deil, ümumi maraqlar və insanların bədgüman olmasının qarşısını almaq üçün çıxış yoludur[748].

[748] Nümunə, c.7, səh.174

46. Allaha və Onun Peyğəmbərinə itaət edin. Bir-birinizlə çəkişməyin, yoxsa zəifləyərsiz və gücünüz, qüdrətiniz tükənər. Səbrli və dözümlü olun, çünki Allah səbr edən, dözümlü olanlarladır!

47. Yurdlarından təkəbbürlə, özlərini camaata göstərmək üçün çıxanlar və (insanları) Allah yolundan döndərənlər (sonda isə məğlubiyyətə uğrayanlar) kimi olmayın. Allah onların nə etdiklərindən xəbərdardır!

48. (Xatırla) O zaman Şeytan onlara öz əməllərini gözəl göstərib demişdi: “Bu gün insanlar içərisindən heç kəs sizə qalib gəlməyəcək. Mən sizin qonşunuzam (haminizəm)!” Lakin iki dəstə (kafirlər və mələklərin himayəsində olan möminlər) üz-üzə gəldiyi zaman dönüb qaçaraq: “Mən

sizdən uzağam. Mən sizin görmədiklərinizi görürəm. Mən Allahdan qorxuram. Allah şiddətli əzab verəndir!" – demişdi.

49. O zaman münafiqlər və ürəklərində mərəz olanlar: "Bunları (müsəlmanları) öz dinləri məğrur edib!" – deyirdilər. Lakin (onlar bilmirdilər ki,) Allaha təvəkkül edən (qalib olar). Çünki Allah yenilməz qüvvət sahibidir, hikmət sahibidir!

50. Əgər sən kafirləri mələklər onların üzünə və arxalarına vura-vura: "Dadın yandırıcı əzabı!" – deyib canlarını alanda görsən, (hallarına təəssüflənərsən)

51. Bu sizin əvvəlcədən göndərdiyiniz əməllərin qarşılığıdır. Yoxsa Allah bəndələrinə əsla zülm edən deyildir!

52. (Bu müşriklərin vəziyyəti) eynilə Fironun yaxınları və onlardan əvvəlkilərin vəziyyəti kimidir. Onlar Allahın ayələrini inkar etdilər, Allah da onları günahlarına görə cəzalandırdı. Allah qüvvətlidir, cəzası ağırdır!

--

45-47. Düşmənlə mübarizə aparmaq üçün riayət edilməsi vacib olan yeddi mühüm göstəriş: Allah-taala bu üç ayədə İslam uğrunda aparılan döyüşlərdə və düşmənlə mübarizədə möminlərə yeddi göstərişə riayət etməyi vacib buyurmuşdur: 1. Qətiyyətli olmaq; 2. Allahı çox xatırlamaq; 3. Allah və Peyğəmbərə (s) itaət göstərmək; 4. Münaqişə və çəkişmələrdən əl çəkmək; 5. Səbrli və dözümlü olmaq; 6. Nəfsani istəklərə görə və özünü camaata göstərmək üçün çıxmamaq; 7. İnsanları Allah yolundan sapdırmamaq. Bu yeddi göstərişin məcmusu ən mühüm ümumi müharibə göstərişlərini ehtiva edən tam hərbi qanundur. Əgər Peyğəmbər (s) zamanında baş vermiş Bədr, Ühüd, Xəndək, Hüneyn və sair kimi müharibələrə diqqətlə nəzər salsaq, görərik ki, müsəlmanların qələbə

çalmasının səbəbi bu göstərişlərə riayət və əhəmiyyət vermək olmuşdur. Məğlubiyyətlə nəticələnən döyüşlərdə isə məğlubiyyət səbəbi məhz həmin göstərişlərə riayət edilməməsi və onların diqqətdən kənarda qalması olmuşdur[749].

49. Şeytan müşriklərin arasında: Şeytanın müşriklərin qəlbinə necə nüfuz etməsi, Bədrdə onlarla olan söhbətlərinin hansı formada olması ilə bağlı fikir ayrılıqları mövcuddur. Təfsirçilər arasındakı bu fikir ayrılıqları ümumilikdə iki inancda cəmləşir: 1. Bir qrup bu hadisənin batin vəsəvəsələr vasitəsilə baş verdiyini düşünür. Yəni Şeytan öz vəsvəsələri, müşriklərin mənfi və şeytani sifətlərindən istifadə edərək, əməllərini onlaırın gözlərində gözəl göstərmiş, onlara yenilməz br qüvvəyə malik olduqlarını aşılamış, onlarda bir növ daxili sığınacaq və söykənəcək yaratmışdır. Lakin müsəlmanların ciddi müqaviməti və qələbəyə səbəb olan qeyr-adi hadisələrdən sonra bu vəsəvəsələrin təsiri onların qəlbindən yoxa çıxmış və hiss etmişlər ki, məğlubiyyətlə qarşı-qarşıyadırlar və heç bir sığınacaqları da yoxdur. Bunun nəticəsində onları Allah tərəfindən ağır əzab gözləyir. 2. Digər qrup hesab edir ki, Şeytan insan surətində təcəssüm etmiş və onların gözünə görünmüşdür. Kitablarda yer almış bir çox hədislərdə belə qeyd edildiyni oxuyuruq: “Qüreyş Bədr meydanına doğru hərəkətə keçməklə bağlı ciddi şəkildə qərar qəbul etdiyi zaman daha öncədən düşmənçilikləri olan Bəni Kənanə tayfasının hücum edəcəyindən qorxurdu. Bu vaxt İblis Bəni Kənanə qəbiləsinin ən məşhur simalarından olan Səraqə ibn Malikin simasında təcəssüm edib Qüreyşin yanına gəldi və onlarla bir olduğunu, heç kəsin onlara qalib gəlməyəcəyini deməklə yanaşı, Bədr döyüşündə də iştirak etdi. Ancaq Bədrdə mələklərin endiyini görüb, geri çəkilib qaçdı, qoşun da

[749] Nümunə, c.7, səh.194

müsəlmanlar tərəfindən aldıqları ciddi zərbələrə tab gətirə bilməyib, İblislə birlikdə qaçmağa üz qoydu. Müşriklər Məkkəyə qayıtdıqdan sonra Səraqə ibn Malikin qoşunun qaçmasına səbəb olduğunu dedilər. Bu xəbər Səraqəyə çatanda o "Mənim bundan əsla xəbərim yoxdur", - deyə and içdi. Onun Bədrdəki vəziyyətni əks etdirən bəzi əlamətləri qeyd etdikləri zaman bütün deyilənləri inkar etdi və and içdi ki, belə bir şey olmamış və o, Məkkəni tərk etməmişdir. Bu şəkildə həmin şəxsin Səraqə ibn Malik olmadığı məlum oldu." Bu ayədəki ifadələr və danışıq formasının zahiri məzmunu İblisin təcəssüm etməsi fikri ilə daha çox uyğunluq təşkil edir[750].

49. Bu ayədə "münafiqlər" deyilərkən kimlər nəzərdə tutulmuşdur?

Bu ayədə "münafiqlər" və "qəlblərində mərəzi olan şəxslər" deyilərkən kimlərin nəzərdə tutulması təfsirçilər arasında fikir ayrılıqlarının yaranmasına səbəb olmuşdur. Bunlar ya Mədinədə müsəlmanların sıralarına qatılmış, müsəlman olduqlarını və iman gətirdiklərini elan etmiş, lakin ürəklərində bunun əksini düşünən insanlar olmuşlar, ya da Məkkədə üzdə iman gətirib hicrət etməkdən imtina etmiş, Bədrdə müşriklərə qoşulmuş, müsəlmanların sayca kafirlərdən az olduğunu görüb "Bu müsəlmanlar öz dnlərinə aldanıb döyüş meydanına ayaq basıblar" deyən şəxslərdir. Hər halda, Allah-taala onların qəlbində olanlardan xəbər verir, onların özlərinin və həmfikirlərinin səhvə yol verdiklərini buyurur[751].

---

[750] Nümunə, c.7, səh.201
[751] Nümunə, c.7, səh.203

53. Bu, ona görədir ki, Allah-taala heç bir tayfaya verdiyi neməti, həmin tayfa özünü dəyişməyincə dəyişməz. Allah eşidəndir, biləndir!

54. Bu, Fironun ailəsi və onlardan əvvəlkilərin vəziyyətinə bənzəyir. Onlar Rəblərinin ayələrini yalan hesab etdilər, Biz də onları günahlarına görə məhv etdik. Fironun ailəsini batırdıq. Onların hamısı zalım idi!

55. Allah yanında canlıların ən pisi kafir olanlar və iman gətirməyənlərdir.

56. Onlar əhd bağladığın şəxslərdir ki, sonra hər dəfə öz əhdlərini pozar və (əhd pozmaqdan və xəyanət etməkdən) çəkinməzlər.

57. Əgər meydanda (döyüş meydanında) onları görsən, üzərlərinə elə hücum çək ki, arxalarında olan qüvvələr pərən-pərən düşsünlər. Bəlkə xatırlasınlar (ibrət götürsünlər)!

58. Əgər bir tayfanın sənə xəyanət edə biləcəyindən qorxsan, onlarla olan əhdin ləğv olunduğunu ədalətli şəkildə onlara elan et. Çünki Allah xainləri sevməz!

59. Küfr yolunu tutmuş insanlar qabağa düşdüklərini (əzabımızda xilas olunduqlarını) düşünməsinlər. Onlar Bizi əsla aciz qoya bilməyəcəklər!

60. Allahın düşmənini və öz düşmənlərinizi, onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi düşmənləri qorxutmaq üçün düşmənlərə qarşı ixtiyarınızda olan bütün qüvvələri və döyüş atlarını hazır vəziyyətə

gətirin. Allah yolunda nə xərcləsəniz, onun əvəzi artıqlaması ilə ödənilər və sizə heç bir haqsızlıq edilməz!

61. Əgər onlar sülhə (barışığa) meyl etsələr, sən də sülhə razılıq ver və Allaha təvəkkül et. O eşidəndir, biləndir!

---

53. Neməti dəyişmək insanın öz əlindədir: İmam Baqir (ə) buyurmuşdur: ***"Allah-taala qətiyyətlə bildirmişdir ki, bəndəsinə layiq gördüyü neməti o günah etməyincə və həmin günaha görə bəlaya, çətinliyə düşməyə layiq olmayınca ondan almaz."*** İmam Sadiq (ə) buyurmuşdur: "Allah-taala peyğəmbərlərdən birini bir qövmə göndərərək ona belə deməsini vəhy etdi: "İstisnasız olaraq Mənə itaət edən bütün insanlar, bütün məmələkətlərin sakinləri şadlıq və sevinc içindədirlər. Əgər mən bəyənmədiyimdən mən bəyəndiyimə üz tutsalar, Mən də onları bəyənmədiklərindən xilas edib bəyəndiklərini onlara bəxş edərəm."[752] Bu ayədən belə məlum olur ki, insanın nəfsani dəyişiklikləri ilə gündəlik baş verən hadisələr arasında birbaşa əlaqə var. Belə ki, insanlar daxili vəziyyətlərini dəyişməklə xarci aləmdə baş verən hadisələrin dəyişməsinə səbəb olurlar[753].

55. Əhd sındıran yəhudilər: Keçən ayələrdə müşriklərdən, onlarla olan döyüşlərdən və onların aqibətlərindən bəhs edilirdi. Bu ayədən sonra isə müharibə, sülh, müqavilə, onun pozulması və sair kimi göstərişlərdən və hökmlərədn bəhs edilir. Əlbəttə, 55, 56, 57 və 58-ci ayələrdə Mədinə və onun ətrafında olan yəhudilərdən danışılır. Peyğəmbər (s) onlarla Peyğəmbərə (s) və müsəlmanlara ziyan verməmək, onlara qarşı hiyləyə əl atmamaq, İslam düşmənlərinə kömək etməmək, əvəzində isə dinlərində qala

---

[752] Əl-Mizan, c.9, səh.112
[753] Tematik təfsir, c.12, səh.193

bilmələri və təhlükəsiziliklərinin təmin olunması haqqında razılığa gəlmişdi. Lakin onlar bu razılaşmanın şərtlərinə əməl etməyib, biri-birinin ardınca onun şərtlərini pozdular. Nəhayət, Allah onlarla döyüşmək əmri verdi[754].

60. Düşmənlə mübarizə aparmaq üçün tam şəkildə hazırlıqlı olmağın vacibliyi: Bu ayədə İslamda cihad, müsəlmanların mövcudluğu, şan-şöhrəti və qürurunun qorunması istiqamətində ən çox önəm daşıyan bir məsələyə toxunulmuşdur. Ayənin məzmunu o qədər genişdir ki, hər bir əsrə, zamana və məkana tam şəkildə aid olur. Qüvvə sözünün mənası çox genişdr. Buna görə də bu söz təkcə döyüş vasitələri, hər bir dövrün modern silahları deyil, maddi və mənəvi olmasından asılı olmayaraq, düşmənin məğlubiyyətə uğradılmasında rol oynayan bütün güc və qüvvələrə şamil olur. Deməli, hər bir dövrün son model silahlarından istifadə etməklə yanaşı ən mühüm güc və qüvvə hesab edilən əsgər və döyüşçülərin iman və ruhiyyəsinin gücləndirilməsi ilə də məşğul olmaq lazımdır. Habelə, güc və qüvvə mənasını ifadə edən, düşmənə qalib gəlməkdə çox mühüm rol oynayan iqtisadi, mədəni və siyasi qüdrət əldə edilməsini də yaddan çıxarmaq olmaz[755]. Əlbəttə, hazırlıqlı olmaq hücum etmək məqsədi güdməməlidir, məqsəd düşmənləri qorxutmaq olmalıdır. Bu qorxu müharibənin baş verməsinin qarşısının alınmasında mühüm rol oynayır. Həqiqətən də müdafiə bazasının yaradılması düşmənin hücumlarının qarşısının alınması və müdafiənin təmin olunmasında mühüm əhəmiyyət daşıyır. Qeyd olunan çox yüksək və müqəddəs hədəf ağıl və məntiqə də uyğundur[756]. Bəzi hədislərdə Peyğəmbərin (s) ***"Qüvvə deyilərkən ox nəzərdə tutulur"***, - deyə buyurduğu qeyd edlir. Başqa bir hədisdə bütün silah növlərinin nəzərdə

---

[754] Əl-Mizan, c.7, səh.222. Mədinə yəhudilərinin tarixi ilə bağlı daha ətraflı məlumat əld etmək istəyənlər "Əl-Mizan"da bu ayənin təfsirinə müraciət edə bilərlər.
[755] Nümunə, c.7, səh.222
[756] Quranın ismarışı, c.10, səh.336

tutulduğu qeyd edilmişdir. Hədislərin birində qılınc və qalxanın nəzərdə tutulduğu bildirilir. Bir hədisdə ağ saçların qaraldılmasına işarə edildiyi bildirilir. Yəni İslam düşməni qorxutmaq üçün daha yaşlı döyüşçüyə gənc siması bəxş edəcək vasitələrdən olan saçların rənglədilməsi məsələsini diqqətdən kənar saxlamır. Bütün bunlar ayədəki qüvvə sözünün çox geniş məzmuna malik olduğunu göstərir[757].

62. Əgər onlar səni aldatmaq istəsələr, Allah sənə kifayət edər. O, Özünün və möminlərin yardımı ilə sənə güc verdi.

63. Və onların ürəklərində bir-birinə qarşı ülfət yaratdı. Əgər sən onların ürəklərini bir-birinə bağlamaq üçün yer üzündə nə varsa, hamısını

[757] Nümunə, c.7, səh.222

xərcləsəydin belə, yenə bacarmazdın. Lakin Allah onlar arasında ülfət yaratdı, çünki O, yenilməz qüvvət sahibi, hikmət sahibidir.

64. Ya Peyğəmbər! Allah və sənin ardınca gedənlər səni himayə etmək üçün kifayət edər.

65. Ya Peyğəmbər! Möminləri döyüşə ruhlandır. Əgər sizdən iyirmi nəfər mətin və qətiyyətli olsa, iki yüz kafirə, yüz nəfər mətin və qətiyyətli olsa, min kafirə qalib gələr. Çünki onlar anlamayan bir dəstədir!

66. Hələ ki, Allah sizdə bir zəiflik olduğunu bilib güzəştə getdi. Artıq aranızda yüz nəfər mətin və qətiyyətli olsa, iki yüz nəfərə (kafirə), min nəfər olsa, iki min nəfərə Allahın iznilə qalib gələr. Allah səbrli və qətiyyətli olanlarladır!

67. Tam qələbə çalmadan (ayağını yerdə möhkəmlətmədən) heç bir peyğəmbərə əsir götümək yaraşmaz. Siz dünyanın əbədi olmayan malını istəyirsiniz (istəyirsiniz ki, daha çox əsir götürüb fidyə müqabilində azad edəsiniz), Allah isə (sizin üçün) axirət istəyir. Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!

68. Əgər Allahın öncədən (təbliğ etmədən heç bir ümmətə əzab verməyəcəyi ilə bağlı) hökmü olmasaydı, götürdüyünüz (əsirlər) müqabilində sizə ağrılı-acılı bir əzab gələrdi.

69. Əldə etdiyiniz qənimətləri halal və təmiz olaraq yeyin və Allahdan qorxun. Allah bağışlayandır, rəhm edəndir!

---

64. Bir müsəlmanın on kafirə qarşı savaşması: Bu ayədə bir nəfərin on nəfərə qalib gələcəyi xəbər şəklndə verilsə də, sonrakı ayənin məzmunundan, yəni “Hələ ki, Allah sizdə bir zəiflik olduğunu bilib güzəştə getdi” cümləsindən vəzifə təyinindən, proqram və göstərişdən söhbət

açıldığı məlum olur. Yəni müsəlman döyüşçülərin sayına görə düşmənlə eyni səviyyədə olmasını gözləməməlidir. Hətta müsəlmanlar sayca düşməndən on dəfə az da olsalar, yenə də cihad vacibdir[758]. Bu və sonrakı ayə bir yerdə nazil olsa da, mömilərin iki ayrı-ayrı zamanlardakı vəziyyətindən xəbər verir, onların iki fərqli şəraitdəki vəzifələrini bəyan edir. Bu vəziyyətlərdən biri möminlərin ilahi bəsirət baxımından daha yüksək, ruhi baxımdan daha güclü olması ilə bağlıdır. Yəni bu halda olanda möminlərin hər biri on nəfərə bərabərdir. Digər vəziyyət onların bəsirət və mənəvi güc baxımından aşağı səviyyədə olduğu zamanla bağlıdır. Belə olan halda onların biri iki nəfərə bərabərdir[759]. Burada diqqət yetirilməsi çox mühüm olan nüanslardan biri budur ki, Allah-taala bu hökmü imanı olmayan düşmənlərin şüur və dərrakəsinin olmaması ilə əsaslandırmışdır. Bu əsaslandırma ilk başlanğıcda adama çox qəribə və təəccüblü gəlir. Yəni ayıq və məlumatlı olmaqla qələbə arasında və ya bilməməzliklə məğlubiyyət arasında nə əlaqə ola bilər? Əslində, bu ikisi arasında çox möhkəm və yaxın əlaqə vardır. Çünki möminlər öz yollarını yaxşı tanıyır, öz yaranışlarının və var olmalarının məqsədini dərk edir, bu dünyanın müsbət nəticələrindən, o dünyada mücahidləri saysız mükafatlar gözlədiyindən xəbərdardırlar. Onlar nədən ötrü vuruşduqlarını, kimin üçün döyüşdüklərini, hansı müqəddəs hədəf uğrunda fədakarlıq göstərdiklərini, bu yolda şəhid olacaqları təqdirdə kiminlə hesablaşacaqlarını bilirlər. Bu aydın yol və bu bilgi onlara səbr, dözüm, qətiyyət, cəsarət bəxş edir. İmansız və ya bütpərəst insan nə üçün döyüşdüyünü, kimin uğrunda müharibə apardığını, bu yolda ölərsə, onların qanının kim tərəfindən yuyulacağını bilmir. Yalnız kor-koranə təqlid və adət, quru təəssübkeşlik, məntiqsiz seçim ucbatından və ya maddi dünyanın

[758] Nümunə, c.7, səh.236
[759] Əl-Mizan, c.7, səh.128

keçici ləzzətlərinə qovuşmaq üçün bu məktəbin arxasınca düşmüşlər. Bu yolun zülməti, məqsəddən xəbərsizlik, mübarizənin nətcəsindən, fəaliyyətlərinin aqibətindən xəbərsizlik onları zəiflədir, güc və dözümlülüklərini tükədir və onları zəif bir varlığa çevirir[760].

67. Tam qələbə çalmadan əsir götürmək qadağandır: Bu ayədə müharibə ilə bağlı çox həssas bir məsələyə toxunulmuşdur. Burada müsəlmanlara göstəriş verilir ki, düşmən üzərindən tam qələbə çaldıqlarından əmin olmadan əsir götürmək fikrinə düşməsinlər. Belə ki, bəzi hədislərdən belə məlum olur ki, İslamı yeni qəbul etmiş bəzi müsəlmanlar Bədr meydanında imkan daxilində düşmənləri əsir götüməyə çalışırdılar. Çünki həmin dövrün döyüş qaydalarına əsasən, döyüş başa çatdıqdan sonra əsir götürmüş dəstə yüksək məbləğdə fidyə alıb əsirləri azad edirdi. Bu davranış bəzi məqamlarda yaxşı addım hesab edilə bilər. Lakin düşmənin məğlub olmasından tam əmin olmadan belə bir fikrə düşmək çox təhlükəlidir. Çünki əsir götürmək, onların əl-qolunu bağlamaq, və onların münasib bir yerə aparılması ilə məşğul olmaq çox vaxt döyüşçüləri əsl hədəfdən yayındırır. Bu da xəsarət almış düşmənə öz hücumlarını intensivləşdirməyə və döyüşçüləri məğlub etməsinə şərait yaradır. Ühüd döyüşündə qənimət toplamaq istəyi bir qrup müsəlmanın başını qatdı. Bu fürsətdən istifadə edən düşmən müsəlmanlara son zərbəsini endirdi. Buna görə də əsir götürmək yalnız düşmən üzərində tam qələbə çalındığından əmin olduqdan sonra icazəlidr. Bundan qeyri-surətdə müsəlmanlar qətiyyətli və dalbadal zərbələri ilə hücuma keçmiş düşmənin güc və qüdrətini tükətməlidirlər. Əlbəttə, qələbədən tam əmin olduqdan sonra öldürməkdən əl

[760] Nümunə, c.7, səh.237

çəkmək və əsir götürməklə kifayətlənmək insanlıq və humanizmin şərtidir[761].

70. Ya Peyğəmbər! Əlinizdə olan əsirlərə de: “Əgər Allah ürəklərinizdə bir yaxşılıq olduğunu bilsə (niyyətiniz pak olsa), sizə sizdən alınandan (fidyədən) daha yaxşısını verər və sizi bağışlayar. Axı Allah bağışlayandır, rəhm edəndir!

71. Əgər əsirlər sənə xəyanət etmək istəsələr, (bilin ki, bu, yeni bir şey deyil,) onlar bundan əvvəl Allaha da xəyanət ediblər. Allah (sizi) onlar üzərində qalib etdi. Allah biləndir, hikmət sahibidir!

72. İman gətirib hicrət edənlər, Allah yolunda malları və canları ilə cihad edənlər və sığınacaq verib köməklik göstərənlər bir-birlərinin dostudurlar. İman gətirib hicrət etməyənlərə gəldikdə isə, nə qədər ki, hicrət etməyiblər, sizin onlar qarşısında heç bir öhdəliyiniz və dostluğunuz yoxdur.

---

[761] Nümunə, c.7, səh.244

Lakin əgər onlar din yolunda (öz dinlərini qorumaq üçün) sizdən yardım istəsələr, sizinlə (düşmənçiliyə son qoyulması ilə bağlı) razılaşması olan tayfaya qarşı yardım istisna olmaqla, onlara kömək göstərmək sizə vacibdir. Allah nə etdiklərinizi görəndir!

73. Kafirlər də bir-birinin dostlarıdır (köməkçi və müdafiəçiləridir). Əgər siz bunları (bu göstərişləri) etməsəniz, yer üzündə böyük bir fitnə-fəsad baş verər.

74. İman gətirib hicrət edənlər, Allah yolunda cihad edənlər və sığınacaq verib kömək edənlər – məhz onlardır həqiqi möminlər. Onları (axirətdə) bağışlanma və layiqli ruzi gözləyir!

75. Sonradan iman gətirib hicrət edənlər və sizinlə bir yerdə vuruşanlar da sizdəndirlər. Qohumlar Allahın müəyyən etdiyi hökmlərdə bir-birlərinə daha layiqdirlər. Allah hər şeyi biləndir!

---

70. Kafir əsirlərin müsəlman olmasının faydaları: ***"Əgər Allah ürəklərinizdə bir yaxşılıq olduğunu bilsə"*** cümləsində İslamın qəbulu və iman gətirmə nəzərdə tutulmuşdur. ***"sizə sizdən alınandan (fidyədən) daha yaxşısını verər və sizi bağışlayar"*** cümləsində maddi və mənəvi mükafatlar nəzərdə tutulmuşdur. Yəni İslam və iman sayəsində onlara maddi və mənəvi mükafatlar nəsib olacaq ki, bu da onların azad edilməsi üçün ödənilən fidyədən üstündür. Bundan əlavə, Allahın əsirlərə lütf etdiyi digər mükafat iman gətirdikdən sonra onların günahlarının bağışlanılmasıdır. İman gətirməzdən əvvəl etdikləri günahlar nəticəsində onların fikirlərinə və ruhlarına hakim kəsilmiş narahatlıq və işkəncə bağışlanılma ilə aradan qalxır. Əhli-beyt (ə) hədislərində azad edildikdən sonra Peyğəmbərin (s) əmisi Abbas ibn Əbdülmüttəlib və bir neçəsi istisna olmaqla Bədr əsirlərinin

hamısının Məkkəyə geri döndüyü qeyd edilmişdir. O, azadlığını əldə etmək üçün yüksək məbləğdə fidyə ödəyib azadlığına qovuşduqdan sonra müsəlman olmuşdu. Ancaq sonralar Peyğəmbər (s) Abbasa həmin fidyənin əvəzində çoxlu mal vermiş və bu ayəni demişdir. Ümumiyyətlə, Peyğəmbər (s) müsəlman olmuş əsirlərə ruh yüksəkliyi verir, azad olmaq üçün fidyə verdikləri malları daha yaxşı şəkildə özlərinə qaytarırmış[762].

72. Müsəlmanların hicrət etməmiş möminlər qarşısındakı məsuliyyəti: Bu ayədən surənin sonuna qədər olan ayələrdə beş qrup insandan bəhs edilmişdir. Onların dördü müsəlman, biri isə kafirdir. Həmin müsəlman qruplar bunlardır: 1. İlk mühacirlər; 2. Mədinə dostları, ənsarlar; 3. İman gətirib hicrət etməyənlər; 4. Sonradan iman gətirib mühacirlərə qoşulanlar. Allah-taala üçüncü qrup haqqında belə buyurur: ***"İman gətirib hicrət etməyənlərə gəldikdə isə, nə qədər ki, hicrət etməyiblər, sizin onlar qarşısında heç bir məsuliyyət, öhdəlik və dostluğunuz yoxdur."*** Yalnız bir halda himayə və məsuliyyət istisna olunur: ***"Lakin əgər onlar din yolunda (öz dinlərini qorumaq üçün) sizdən yardım istəsələr, sizinlə (düşmənçiliyə son qoyulması ilə bağlı) razılaşması olan tayfaya qarşı yardım istisna olmaqla, onlara kömək göstərmək sizə vacibdir."*** Başqa sözlə desək, onları müdafiə etmək yalnız onlar müşriklərlə qarşı-qarşıya gəldikləri zaman zəruri olur. Əgər onlar müsəlmanların saziş bağladıqları kafirlərlə qarşı-qarşıya gəlsələr, sazişə hörmət bu qrupu müdafiə etməkdən daha üstündür[763].

73. Kafirlərlə dostluq münasibəti ilə bağlı qadağanın fəlsəfəsi: Allah-taala əvvəlki ayələrdə müsəlmanlara göstəriş verir ki, müsəlmanlar gərək bir-birləri ilə dost, qardaş olsunlar, bütün hallarda bir-birlərinə yardım göstərsinlər. Belə ki, kafirlərin də arasında belə bir əlaqə mövcuddur.

---

[762] Nümunə, c.7, səh. 252; Quranın ismarışı, c.10, səh.379
[763] Nümunə, c.7, səh.255

Əlbəttə, kafirlərlə müsəlmanlar arasında belə bir əlaqə olmamalıdır. Bu cümlə, əslində, əvvəlki ayələrdəki göstərişlərin mahiyyətini və dəlilini bəyan edir. Əlbəttə, hər bir cəmiyyətin öz fərdləri arasında dostluq, qardaşlıq və bərabərlik əlaqəsinin olmasına ehtiyacı vardır. İslam cəmiyyəti haqq və ədalətə əsaslandığı üçün İslam cəmiyyətinin düşməni olan kafirlərlə dostluq və əlaqə yaradılması onlarla mədəniyyət ixtilafının yaranmasına, onların batil inanacları və davranışlarının İslam cəmiyyətinə sirayət etməsinə, İslam cəmiyyətinin sıradan çıxmasına və pozulmasına səbəb olur. Əgər müasir dövrümüzdə mövcud olan İslam ümmətinin vəziyyətinə diqqətlə nəzər salsaq, bu göstərişə əməl etmədiyi üçün İslam dünyasının əsl ftnə və böyük fəsadın bir nümunəsinə çevrildiyinin şahidi olarıq[764].

[764] Əl-Mizan, c.9, səh.145

"Tövbə" surəsi

1. (Bu,) Allah və Peyğəmbəri tərəfindən saziş bağladığınız müşriklərə bir xəbərdarlıqdır!

2. Yer üzündə dörd ay sərbəst gəzib dolaşın (haraya istəyirsiniz gedin, düşünün) və bilin ki, siz Allahı aciz qoya bilməzsiniz. Allah kafirləri rüsvay edəndir!

3. Bu, Allah və Peyğəmbəri tərəfindən insanlara böyük həcc günü (Qurban bayramı günü) elan edilən bir bildirişdir! Allah və Peyğəmbərinin müşriklərdən acığı gəlir. Əgər tövbə etsəniz, sizin üçün daha yaxşı olar. Əgər imtina etsəniz, bilin ki, Allahı aciz qoya bilməzsiniz (Onun qüdrətinin çərçivəsindən çıxa bilməzsiniz) Kafirləri ağrılı bir əzabla müjdələ!

4. Müqavilə bağladığınız və haqqınızda heç bir nöqsana yol verməmiş, habelə, sizin əleyhinizə heç kəsə yardım göstərməmiş müşriklər istisnadır. Onlarla olan əhdinizə axıra qədər sadiq olun. Çünki Allah müttəqiləri sevər!

5. Haram aylar çıxdıqdan sonra müşrikləri harada görsəniz, öldürün, əsir alın, mühasirəyə alın və bütün yollarını – keçidlərini tutun. Lakin əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın. Çünki Allah bağışlayandır, rəhm edəndir!

6. Əgər müşriklərdən biri səndən sığınacaq istəsə, ona sığınacaq ver ki, Allah kəlamını eşitsin. Sonra onu əmin olduğu yerə çatdır. Çünki onlar bilməyən bir tayfadır!

"Tövbə" surəsinin ümumi məzmunu: Müşriklərdən təngə gəlinməsi ilə bağlı xəbərdarlıq edilməsi, müşriklər və Kitab əhli ilə müharibə, münafiqlərin xüsusiyyətlərinin izahı, cihada ruhlandırmaq, bu ilahi vəzifədən boyun qaçıranların məzəmmət edilməsi, kafirlərlə dostluq münasibətlərinin qadağan edilməsi, zəkat məsələləri bu surənin ümumi məzmununu təşkil edir[765].

1. Əhd pozan müşriklərin təhlükəsizlik zəmanətinin ləğv edilməsi: Allah-taala bu ayədə müsəlmanlarla düşmənçilik edilməməsi haqqında saziş bağlamış müşriklərin təhlükəsizlik zəmanətinin ləğv edilməsini elan etmişdir. Əlbəttə, bu təhlükəsizlik zəmanətinin ləğv edilməsi və müqavilənin pozulması əbəs və əsassız deyildi. Allah-taala sonrakı bir neçə ayədə bildirir ki, müşriklərin müqaviləsinə etimad etmək olmaz. Çünki onların çoxu müqavilənin şərtlərini pozur, əhdlərinə sadiq qalmırdılar. Buna görə və qarşılıq göstərmək üçün Allah-taala müsəlmanlar tərəfindən də müqavilənin ləğv edilməsini qanuni saydı. Belə ki, "Ənfal" surəsinin 85-ci ayəsində də bu göstərişi vermişdir. Allah-taala sözügedən məsələləri bu ayələr vasitəsilə müşriklərə elan etdirərək, onları artıq müqavilənin ləğv edilməsindən, təhlükəsziliklərinin zəmanət verilməməsindən xəbərdar edərək, onlara çatdırır ki, başlarına bir çarə qılsınlar və müqavilənin ləğv edilməsini gözlənilməz addım kimi qiymətləndirməsinlər. Müşriklərin müqavilələrinin

---

[765] Əl-Mizan, c.7, səh.150

ləğv edilməsinin əsassız olmadığını bu surənin öz əhdlərinə sadiq qalan müşrikləri istisna edən, onların statuslarını əhdpozan müşriklərin statuslarından fərqləndirən 4-cü ayəsi də təsdiq edir[766].

2. Müşriklərə dörd ay möhlət verilməsi: "Yer üzündə dörd ay sərbəst gəzib dolaşın" deyilərkən bu dörd ay ərzində onların təhlükəsizliyinə təminat veriləcəyi, bu müddətdə onlara yaxşı-yaxşı düşünmək, xeyirlərinə olanı seçmək üçün fürsət verildiyi nəzərdə tutulmuşdur. Ya müsəlman olub həyatda qalmalıdırlar, ya da müşrik olub məhv olmalıdırlar[767]. Bu müvəqqəti azadlıq haqqının tanınması hələ gənc olan İslamın qürur və iftixarlarından biridir. İslam düşmənlərinə möhlət verir ki, bu müddət ərzində düşünsünlər və bəlkə ağıl və düşüncə ilə xoşbəxtlik yolunu taparlar. Əks təqdirdə, harada istəyirlərsə, orada da özlərinə bir sığınacaq tapsınlar. Əgər müqavimət göstərmək üçün tədarük görməyə ehtiyacları varsa, öz tədarüklərini görsünlər. Əgər gənc dövrünü yaşayan İslam dövləti doğruluğa və düzlüyə əsaslanmasaydı, basqın edib hər kəsi həlak edərdi[768]. Bu dörd ay "Tövbə" surəsinin nazil olduğu ilin böyük həcc günündən (Qurban bayramı günündən) başlayıb növbəti ilin Rəbiüssani ayının onunda başa çatmışdır. 5-ci ayədə haram aylar deyilərkən müharibə və döyüşlərin qadağan edildiyi dörd ay (rəcəb, ziqədə, zilhiccə, məhərrəm) deyil, məhz həmin aylar nəzərdə tutulur[769].

3. Müşriklərə elan edilən nifrət xəbərdarlığının məzmunu: Quranda nifrət üstüörtülü şəkildə bəyan edilsə də, hədislərdə həzrət Əlinin (ə) Peyğəmbər (s) tərəfindən dörd məsələni çatdırmaq üçün ezam edildiyi göstərilir: 1. Müşriklərlə olan müqavilənin ləğv edilməsi; 2. Gələcək həcc

---

[766] Əl-Mizan, c.9, səh.151
[767] Əl-Mizan, c.9, səh.151
[768] Mənşuri-cavid, c.7, səh.135
[769] Əl-Mizan, c.8, səh.153

mərasimlərində onların iştirakının qadağan edilməsi; 3. Kəbənin ətrafına həmin vaxta qədər müşriklər arasında ənənə şəklini almış çılpaq təvaf edilməsi adətinin qadağan edilməsi; 4. Müşriklərin Allah evinə girməsinin qadağan edilməsi[770].

7. Məscidül-həramın yanında müqavilə bağladığınız (və öz əhdlərinə sadiq çıxan) şəxslər istisna olmaqla, müşriklərin Allah və Onun Peyğəmbəri

[770] Nümunə, c.7, səh.289

yanında necə əhdi ola bilər?! Onlar sizə qarşı sədaqətli olduqca siz də onlara qarşı sədaqətli olun. Allah təqvalıları sevər!

8. Necə ola bilər? (Müşriklərin əhdi necə dəyəri ola bilər ki,) onlar sizə qalib gəlsələr, nə sizinlə olan qohumluğa, nə də əhdə baxarlar. Onlar ürəkləri istəmədikləri halda, sözdə sizi razı salarlar. Onların əksəriyyəti fasiqdir!

9. Onlar (müşriklər və ya onlara yardım edən yəhudilər) Allahın ayələrini ucuz qiymətə satdılar, sonra da (insanları) Onun yolundan döndərdilər. Onlar pis işlərlə məşğul olurdular.

10. Onlar (təkcə sizin deyil,) heç bir mömin barəsində nə qohumluğa, nə də bir əhdə əməl edərlər. Onlar həddi aşanlardır!

11. Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onlar sizin din qardaşlarınızdır. Biz ayələrimizi bilən (və düşünən) bir tayfaya belə şərh edirik!

12. Əgər əhd bağladıqdan sonra əhdlərini pozsalar və dininizi məzəmmət etsələr, küfr başçıları ilə vuruşun. Çünki onların əhd-peymanları yoxdur. Bəlkə, əl çəkələr!

13. Məgər siz öz əhdlərini pozan, Peyğəmbəri çıxardıb qovmaq niyyətində olan, üstəlik, sizinlə döyüşə də birinci başlayan bir tayfa ilə vuruşmayacaqsınız? Məgər onlardan qorxursunuz? Halbuki əgər möminsinizsə, əslində, daha çox Allahdan qorxmalısınız!

---

8. Müşriklərin qohumluq əlaqələrinə etinasızlığı: Qüreyşilər Peyğəmbər (s) və bəzi müsəlmanların qohumları olsalar da, özləri bu cəhətə azacıq etina etmədikləri və qohumluq münasibətlərinə hörmət qoymadıqları halda, Peyğəmbər (s) və müsəlmanlardan bunu necə uma bilərlər? Oxşar

mövzu növbəti iki ayədə təkrar edilmişdir. Təkrarçılıq isə nəzərdə tutulan məsələni təkid etməklə yanaşı, 8-ci ayədə Peyğəmbərin (s) ətrafına toplaşmış müsəlmanları səciyyələndirir. Ayədə imanı olan fərdlərdən söhbət gedir. Yəni möminlər müşriklərə əhəmiyyət vermirlər, müşriklərdir ki, möminlərlə və tövhid dininə tabe olan hər kəslə düşmənçilik edir və heç nəyi nəzərə almırlar. Deməli, onlar iman və haqqı özlərinə düşmən bilirlər. Bu mövzuya "Büruc" surəsinin bəzi keçmiş xalqlara işarə edən 8-ci ayəsində də işarə edilmişdir. Ayədə belə deyilir: ***"Onların möminlərə qarşı yeganə iradı bu idi ki, onlar yenilməz qüdrət sahibi və həmd-sənaya layiq olan Allaha iman gətirmişdilər."***[771]

11. İman dini vəzifələrin yerinə yetirilməsi ilə kamilləşir: Tövbə deyilərkən Allaha qayıdış nəzərdə tutulur. Müşrikdən tövbə etməsini istədikdə məqsəd onun təkAllahlıq inancından uzaq salan işləri tərk etməsi, Allaha, Onun sifətlərinə və peyğəmbərinə iman gətirməsi olur. Möminə "tövbə et" dedikdə isə məqsəd onun möminə layiq olmayan çirkin və anormal əməllərdən əl çəkməsi olur[772]. Ayədə tövbədən sonra namaz qılınması, zəkat verilməsi məsələlərinə toxunulmuşdur. Çünki namaz Allaha bəndəliyin ən parlaq nümunəsi, zəkat isə İslam cəmiyyətinin ən güclü maliyyə fondu hesab edilir. Əslində, bu iki ibadət növü nümunə üçün qeyd edilmişdir. Bunların qeyd edilməsində məqsəd budur ki, birbaşa qəlblə bağlı olan Allaha iman praktiki səciyyəyə malik olan dini vəzifələrin icrası ilə kamilləşir[773].

12. Küfr başçıları: Bu ayənin məqsədi əvvəlki ayələrdə (8-10) işarə edilən müşriklər deyil. Onlar ümumiyyətlə, heç bir mömin barəsində

---

[771] Nümunə, c.7, səh.298
[772] Mənşuri cavid, c.7, səh.161
[773] Əl-Mizan, c.9, səh.163

qohumluq, əhd və peyman prinsiplərinə riayət etmədikləri üçün onlarla bağlı heç bir şərt irəli sürülməmiş və ***"Əgər əhd bağladıqdan sonra əhdlərini pozsalar..."***, - deyə bir fikir səsləndirilməmişdir. Bu ayədə müsəlmanların rəhbər və başçıları ilə əhd və müqavilə bağlayıb onu pozan və müsəlman rəhbərlərinə qarşı duran insanlardan söhbət gedir. Quranda onlar küfr başçıları kimi təqdim edilmişdir. Çünki onlar ilahi ayələri inkar etməkdə qabağa düşmüş, başqaları da onların yolunu getmişdilər. Əhli-beyt (ə) imamlarına istinad edilən hədislərdə "Cəməl" müharibəsini təşkil edənlərin başında duran Təlhə və Zübeyr bu ayənin bariz nümunələrindən biri kimi təqdim edilmişdir. Çünki onlar müsəlmanların haqq rəhbəri İmam Əliyə (ə) qarşı müharibəyə qalxmış, əhd-peymanlarını pozmuş, beyətlərini sındırmışdılar. Buna görə də tarixdə "Nakisin" (əhdpozanlar) adı ilə şöhrət tapmışlar[774].

[774] Əl-Mizan, c.9, səh.163

14. Onlarla vuruşun ki, Allah onları sizin əlinizlə cəzalandırsın, onları rüsvay etsin, möminlərdən bir qrupunun qəlbinə şəfa versin (Bu yolda yaxınlarını itirdikləri üçün qəlbləri yaralanmış möminlərin qəlbinə məlhəm qoysun)

15. Onların qəlblərindən qəzəbi silib aparsın. Allah istədiyi (layiq bildiyi) şəxsin tövbəsini qəbul edər. Allah biləndir, hikmət sahibidir!

16. Yoxsa elə güman edirsiniz ki, Allah içərinizdə cihad edənləri, Allahdan, Onun Peyğəmbərindən və möminlərdən başqasını özlərinə sirr ortağı seçənləri ayırd etməmiş siz sərbəst buraxılacaqsınız? Allah nə etdiklərinizdən xəbərdardır!

17. Müşriklər öz küfrlərinə şahidlik etdikləri halda, Allahın məscidlərini təmir etməyə haqları çatmır. Onların əməlləri puça çıxmışdır. Onlar Odda əbədi qalacaqlar!

18. Allahın məscidlərini yalnız Allaha və Qiyamət gününə iman gətirən, namaz qılıb zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar təmir edə bilərlər. Belə bir tayfanın doğru yolu tapacağına ümid var!

19. Məgər siz hacılara su verməyi və Məscidül-həramı təmir etməyi Allaha və Qiyamət gününə iman gətirib Allah yolunda cihad edənlərlə eynimi tutursunuz? Onlar Allah yanında eyni olmazlar. Allah zalım tayfanı doğru yola yönəltməz!

20. İman gətirib hicrət edənlər, Allah yolunda malları və canları ilə vuruşanlar üçün Allah yanında daha üstün dərəcələr var. Onlar qalib gələnlər və nicat tapanlardır.

---

17. Müşriklərin məscidləri təmir etməyə haqları çatmır: Müşriklərlə olan müqavilələrin ləğvindən və cihad əmrinin verilməsindən sonra bəzilərini düşündürən suallardan biri bu idi ki, nə üçün sözügedən əksəriyyəti özümüzdən uzaqlaşdıraq və onların həcc mərasimində iştirakına icazə verməyək? Halbuki onların bu mərasimdə iştirakı hər cəhətdən abadlıq yaranmasına səbəb olur. Onların bu mərasimdə iştirakı və edəcəkləri mühüm yardımlar maddi cəhətdən Məscidül-həramın abadlaşmasına, mənəvi cəhətdən isə Allah evinin ətrafında insanların toplaşmasına səbəb olur. Bu və sonrakı bir neçə ayədə bu cür boş və əsassız fikirlərə cavab verilir və Allah bldirir ki, müşriklərin nə Məscidül-həramın təmiri və bərpası üçün göstərdikləri səylərin, nə də Allah evinin ətrafında yaratdıqları izdihamın

Kəbə üçün heç bir xeyri yoxdur. Allah pak və təmiz olduğu kimi, Onun evi də pak və təmizdir. Buna görə də təmiz olmayan çirkli insanların əlləri bu evdən tamamilə kəsilməlidir[775].

18. Məscidlərin abad olmasının əhəmiyyəti: Məscidlərin tikilməsi və abadlaşdırılması əhəmiyyəti ilə bağlı çoxlu sayda hədisin olması bu işin qeyri-adi dərəcədə əhəmiyyətə malik olduğunu göstərir. Peyğəmbər (s) buyurmuşdur: ***"Əgər bir nəfər məsciddə bir çıraq yandırsa, o çıraq orada nə qədər k, işıq salmağa davam edir, Allah ərşinin daşıyıcıları və mələkləri onun bağışlanılmasını istəyərlər."*** Bu gün daha çox əhəmiyyət daşıyan məsələ məscidlərin mənəvi cəhətdən abad olmasına çalışmaqdır. Başqa sözlə desək, məscidlərin tikintisindən çox məscid əhli, məscid qoruyucuları və məscid mühafizləri olan insanların düzəldilməsinə və ənənəvi abadlığına daha çox əhəmiyyət verməliyik. Məscid insanların oyanışı, ayıqlığı, mühitin təmizlədilməsi, müsəlmanların İslam irsinin müdafiəçiləri ruhiyyəsində yetişdirilməsi istqamətlərində istənilən islami hərəkata hazırlaşmaq üçün bir mərkəz rolunu oynamalıdır. Xüsusilə, məscid təkcə əlillərin və yaşlı insanların toplaşdığı mərkəz deyil, imanlı yeniyetmələrin və gənclərin toplaşdığı mərkəz olmalıdır[776].

19. Əlinin (ə) başqalarından üstün olduğunu göstərən bir nümunə: Çoxlu sayda hədislərdə bu və növbəti üç ayənin möminlərin əmiri İmam Əli (ə) haqqında nazil olduğu qeyd edilmişdir. Hədislərin birində deyilir ki, Şeybə və Abbas bir gün özlərini başqalarına tərifləyir və özlərinin üstünlüklərindən danışırmışlar. Bu vaxt onların yaxınlığından keçən Əli (ə) onlardan soruşur: ***"Nəyinizlə fəxr edirsiniz?"*** Abbas deyir: "Mənə elə bir imtiyaz verilib ki, başqasına verilməyib, mənə Allah evinin ziyarətçilərinə su

[775] Nümunə, c.7, səh.314
[776] Nümunə, c.7, səh.317

vermək imtiyazı verilib.” Şeybə deyir: “Mən Məscidül-haramı təmir və bərpa edirəm, Kəbə evinin açarı da məndədir.” Əli (ə) buyurur: ***“Sizdən həya etsəm də, yaşımın az olmasına baxmayaraq, deməlyəm ki, mənim elə imtiyazım var ki, sizdə o yoxdur.”*** Onlar soruşur: “Ey Əli, o, hansı imtiyazdır elə?” İmam Əli (ə) buyurur: ***“Mən qılıncla sizin burnunuza-burnunuza o qədər vurdum ki, nəhayət Allah və peyğəmbərinə iman gətirdiniz.”***[777] Abbas əsəbləşib ayağa durur və ətəyini darta-darta Peyğəmbərin (s) yanına şikayətə gedir: “Görürsən, Əli mənimlə necə danışır?” Peyğəmbər (s) buyurur ***“Əlini çağırın!”*** Əli (ə) gəldikdən sonra Peyğəmbər (s) ondan soruşur: ***“Nə üçün Əmin Abbasla bu cür danışırsan?”*** Əli (ə) deyir: ***“Ey Allahın rəsulu, mən həqiqəti dedim, istəyir əsəbləşsin, istəyirsə də xoşuna gəlsin.”*** Bu vaxt Cəbrayıl nazil olur və buyurur: “Ey Muhəmməd! Rəbbin sənə salam çatdırır və buyurur ki, bu ayələri onlara oxusun: “Məgər siz hacılara su verməyi...” (19-23-cü ayələr).

[777] Əl-Mizan, c.9, səh.219

21. Rəbləri onları Öz tərəfindən bir mərhəmət, razılıq və içərisində əbədi nemətlər olan Cənnətlərlə müjdələr.

22. Onlar orada həmişəlik və əbədi qalacaqlar. Çünki böyük mükafat Allah yanındadır!

23. Ey iman gətirənlər! Əgər atalarınız və qardaşlarınız küfrü imandan üstün tutarlarsa, onları özünüzə dost, yardımçı və himayəçi bilməyin. Sizdən onları dost tutanlar özlərinə zülm etmiş olarlar.

24. De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, övrətləriniz, qəbiləniz, qazandığınız mallar, kasad olmasından qorxduğunuz ticarət, xoşladığınız məskənlər sizə Allahdan, Onun Peyğəmbərindən və Allah yolunda cihaddan daha sevimlidirsə, Allahın əzabı sizə gəlincəyə qədər gözləyin. Allah itaət göstərməyənləri doğru yola yönəltməz!

25. Allah sizə çox yerdə, həmçinin Hüneyn günündə kömək etdi. O gün çox olmağınız sizi məğrur etsə də, bir faydası olmadı, gen dünya sizə dar oldu (yer üzü genişliyinə baxmayaraq sizə dar gəldi), sonra dönüb qaçdınız.

26. Sonra da Allah Öz Peyğəmbərinə və möminlərə öz təskinliyini nazil etdi, görmədiyiniz qoşunlar endirdi və kafirləri əzaba düçar etdi. Bu, kafirlərin cəzasıdır!

23-24. Ya Allah dini, ya dünya, hansı daha sevimlidir? Bir qrup müsəlman bütpərəstlərə qarşı müharibə əmrinə etiraz etmək üçün ehtimal ki, müşriklər arasında qohum və yaxınlarının olmasını, müharbə olarsa, qohumlarına və qəbilələrinə göz yummaq məcburiyyətində qalmağı bəhanə gətirə bilər. Digər tərəfdən, onların əsas ticarət partnyorlarının Məkkə müşrikləri olması ilə yanaşı, sərmayələrinin çox hissəsi də onların əlində idi. Məkkəyə gedib-gələrkən bu əlaqələri daha da inkişaf etidirir, sərvətlərini artırırdılar. Bundan əlavə, onların Məkkədə böyük evləri və əraziləri də var idi. Müşriklərlə qarşıdurma olacağı təqdirdə evləri dağıdıla və ya müşriklərin həcc mərasiminə son qoyulması ilə buradakı ərazilər öz qiymətlərini itirə bilərdi. Bu ayələrdə həmin şəxslərin vəziyyəti təsvir edilmiş və onlara qəti cavab verilmişdir. Hədislərdə qeyd edilir ki, İmam Əli (ə) həcc mərasimində "Bundan sonra müşriklərin Məscidül-hərama girməyə haqqı çatmır" əmrini elan etdikdə qüreyşilər fəryad qopararaq deyirlər: "Ticarətimiz batdı, ailələrimiz dağıldı, evlərimiz viran qaldı." Bu ayə onlara qəti şəkildə cavab verir. Sözügedən ayələrdə doğruçu imanla şirkə, münafiqliyə bulaşmış imanın əsas xətləri, həqiqi möminlərlə imanları zəif olan fərdlərin fərqi göstərilmişdir. Ayələrdə açıq şəkildə bildirilir ki, əgər insanın maddi həyat bağlılığı insanın gözündə Allah, Peyğəmbər (s) cihad və Allahın əmrinə boyun əyməkdən daha qiymətlidirsə və insan bu bağlılıqlarını dinə qurban verə bilmirsə, deməli, onun imanı həqiqi iman deyil və imanı kamilləşməmişdir. İmanın ruhu və həqiqəti bütün dəyərləri ilə

yalnız bu cür fədakarlıqlar lazım olduğu zaman tərəddüd etmədikdə təzahür edir[778].

25. Hüneyn döyüşü: İslam ordusu Məkkə və onun ətrafındakı əraziləri fəth edib, bütpərəstliyə son qoymuşdu. Lakin Həvazin və Səqif qəbilələrinə aid olan Taif və onun ətrafındakı ərazilər bütpərəstlər üçün alınmaz qala hesab edilirdi. Buna görə də Peyğəmbər (s) vaxt itirmədən Taifi fəth etmək qərarına gəldi. Bunun üçün İslam ordusu İki dağın arasından keçən və Hüneyn ərazilərinə qədər uzanan dərin və uzun bir keçiddən keçmək məcburiyyətində idi. Peyğəmbər (s) on iki minlik ordu ilə Həvazinə tərəf yola düşür. Bu xəbəri eşidən Həvazin qoşunları dağların oyuqlarında, ətraf dərələrdə, ağacların aralarında pusqu qururlar. Müsəlman qoşunları bu ərazilərdən keçəndə qəfildən onlara hücum çəkirlər. Müsəlmanların çoxu qaçır, başda Əli (ə) olmaqla yalnız az sayda ixlaslı və həqiqi mömin qalıb döyüşə davam edir və Peyğəmbəri (s) qoruyur. Allah-taala burada müsəlmanları düşmənlə baş-başa buraxır və qısa müddətə onları himayə etməkdən əl çəkir. Çünki müsəlmanlar həmin vaxta qədər çox olmaları ilə öyünürdülər. Çox çəkmədi ki, məğlubiyyətlə qarşılaşdılar. Müsəlmanlar qaçmağa üz qoyduqda Peyğəmbər (s) səsi uca olan Abbasa göstəriş verir ki, hündür yerə çıxıb müsəlmanları "Ay mühacirlər və ənsar! Ey Bəqərə surəsinin dostları! Ey Şəcərə beyətçiləri! Hara qaçırsınız?! Peyğəmbər (s) buradadır!", - deyə çağırsın. Müsəlmanlar Abbasın səsini eşitdikdə qayıdırlar və hər tərəfdən düşmənə hücum çəkirlər, Allahın yardımı ilə irəliləyib düşməni məğlub edirlər[779]

[778] Nümunə, c.7, səh.331
[779] Nümunə, c.7, səh.339; Mənşuri cavid, c.7, səh.60 və 63

Sonumidtv.az

27. Bundan sonra Allah yenə də istədiyinin (layiq bildiyinin) tövbəsini qəbul edər. Allah bağışlayandır, rəhm edəndir!

28. Ey iman gətirənlər! Müşriklər murdardırlar. Buna görə də bu ildən sonra Məscidül-hərama yaxınlaşmasınlar. Əgər yoxsulluqdan qorxursunuzsa, (bilin ki,) Allah istəsə, sizi öz kərəmi ilə ehtiyacsız edər. Allah biləndir, hikmət sahibidir!

29. Kitab əhlindən Allaha və Qiyamət gününə iman gətirməyən, Allahın və Peyğəmbərinin haram buyurduqlarını haram bilməyən və haqq dini (islamı) qəbul etməyənlərlə zəlil günə qalıb öz əlləri ilə cizyə verincəyə qədər vuruşun.

30. Yəhudilər: "Üzeyr Allahın oğludur", xaçpərəstlər də: "Məsih Allahın oğludur", - dedilər. Onların ağzında gəzən bu sözlər daha öncə küfr edənlərin sözlərinə bənzəyir. Allah onları öldürsün! Necə də haqqı təhrif edirlər!

31. (Onlar) Allahı qoyub alimlərini və rahiblərini, Məryəm oğlu Məsihi özlərinə tanrılar qəbul etdilər. Halbuki onlara ancaq bir olan Allaha ibadət etmək əmr olunmuşdu. Ondan başqa heç bir tanrı yoxdur. O, şərik qoşulanlardan pak və təmizdir.

---

28. Müşriklərin natəmizliyi: Ayədə "müşriklərin natəmizliyi" deyilərkən zahiri natəmizlik və murdarlıqdan daha üstün bir məna nəzərdə tutulmuşdur. Çünki onların natəmizliyi Məscidül-həramın təmizliyi və paklığı müqabilində işlədilmişdir. Məscidül-həramın təmizliyi və paklığı isə zahiri deyil, batini və mənəvi məsələdir. Deməli, bu ayədə müşriklərin natəmizliyi deyilərkən onların batini natəmizliyi nəzərdə tutulur. Ayədə "bu il" sözü ilə hicrətin doqquzuncu ili nəzərdə tutulmuşdur. Yəni Əlinin (ə) Allah və Peyğəmbərin (s) müşriklərə nifrət etdiyini, Kəbə evinin ətrafında

çılpaq təvaf edilməsinin, ümumiyyətlə, müşriklərin Həccdə iştiarkının qadağan edilməsinin elan etdiyi il nəzərdə tutulur[780].

29. Cizyə: "Cizyə" cəza sözündən olmuş, mənası İslam hökumətindən sığınacaq almış Kitab əhlinin ödədiyi maliyyə deməkdir. Cizyəni Kitab əhlini İslam hökumətində canları və mallarının qorunması qarşılığında ödəyirdilər. Buna görə də cizyəni tuma haqqının bir növü hesab edənlər onun mahiyyətinə vara bilməmşlər. Onlar yaddan çıxarırlar ki, Kitan əhli öhdəlik götürdükdən sonra İslam hökuməti bütün təcavüzlərdən və narahatlıqlardan qorumaq öhdəliyi götürür. Onlar cizyə ödədikləri üçün toxunulmazlıq və təhlükəsizlik təminatından istifadə etməklə yanaşı, döyüş meydanında iştirakdan da, bütün müdafiə və təhlükəsizlik təminatı xidmətlərində iştirak öhdəliyindən də azad edilirdilər. Buradan da onların müsəlmanlarla müqayisədə İslam hökuməti qarşısında daha az məsuliyyət daşıdığı məlum olur. Yəni onlar az miqdarda illik ödəmə ilə İslam hökumətinin bütün imkanlarından istifadə edə bilir və müsəlmanlarla eyni hüquqa malik olur, üstəlik təhlükələrdən də qorunurdular. Bir məsələni də qeyd etmək laızmdır ki, cizyə üçün konkret məbləğ təyin edilmirdi, onun miqdarı cizyə ödəyicisinin ödəmə imkanına əsasən müəyyən edilirdi. İslam tarixindən bizə gəlib çatmış məlumatlarda onun üçün minimum məbləğ təyin edildiyi, həmin məbləğin bəzən ildə bir dinardan çox olmadığı, hətta bəzən müqavilələrdə cizyə ödəyicilərinin imkanları daxilində ödəmə edə biləcəkləri qeyd edilirdi[781].

30. Üzeyr kimdir? Üzeyr şəxs adıdır. Yəhudilər ibri dilində ona Uzra deyirlər. O, yəhudilərin dinində islahat aparmış şəxsdir. Miladdan təxminən yarım əsr əvvəl Babil hökmdarı Buxtunnəsr yəhudilərin ölkəsinə hücum

[780] Əl-Mizan, 9, səh.236
[781] Nümunə, c.7, səh.354

etmiş, böyük məbədlərini dağıtmış, Tövratın lövhələrini yandırmış, kişiləri qılıncdan keçirmiş, qadınları, qocaları və uşaqları Babilə sürgün etdirmiş, yarım əsrə yaxın, yəni İran şahı Böyük Kuruşun Babili fəth etdiyi vaxta qədər onları Babildə saxlamışdır. Böyük Kuruş Babili fəth etdikdən sonra Uzra onun yanına gedib yəhudilərin sürgündən azad etdirilməsini xahiş edir. Kuruş Uzraya hörmət bəslədiyi üçün xahişini yerinə yetirmiş və yəhudilərin öz vətənlərinə dönməsinə icazə vermişdir. Tövratın bütün nüsxələri məhv edildiyi üçün, onun yenidən toplanmasına göstəriş vermişdir. Üzra miladdan əvvəl 457-ci ildə bir toplu yazıb Tövrat adı ilə yəhudilərə yayıdı. Əslində, bu Tövrat da sonradan məhv edilmiş və yüz illər sonra yenidən ayrı bir Tövrat yazılmışdır. Buna görə də Üzeyr yəhudilərə görə çox hörmətli və böyük şəxsiyyət olmuşdur. Bu hörmətlərinə görə onu Allahın oğlu adlandırmış, keçmiş kafirlər kimi, küfr və şirkə bulaşmış sözlər danışmışlar[782].

31. Kitab əhlinin alim və rahiblərinin Allahı qoyub seçdikləri tanrılar:

İmam Sadiqin (ə) səhabələrindən olan Əbu Bəsir İmamdan (ə) bu ayə haqqında soruşduqda belə cavab vermişdir: ***"And olsun Allaha, yəhudi alimləri və xristian rahibləri yəhudi və xristianları özlərinə ibadət etməyə dəvət etmirdilər. Əgər özlərinə ibadət etməyə dəvət etsəydilər, camaat qəbul etməzdi. Lakin onlar Allahın haram buyurduğunu camaata halal edir, halal buyurduğunu haram edirdilər. Camaat da qəbul edirdi. Buna görə də yəhudi və xristianlar özləri də bilmədən öz alim və rahiblərinə ibadət edirdilər."***[783]

[782] Əl-Mizan, c.9, səh.251
[783] Əl-Mizan, c.9, səh.253

32. Onlar Allahın nurunu ağızları ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, ancaq öz nurunu tamamlamaq istər.

33. Müşriklərin xoşuna gəlməsə də, onu (islamı) bütün dinlərdən üstün və qalib etmək üçün Öz Peyğəmbərini doğru yol və haqq dinlə göndərən Odur!

34. Ey iman gətirənlər! (Kitab əhlinin) alimləri və rahiblərinin çoxu insanların mallarını haqsızlıqla yeyir və (onları) Allah yolundan döndərirlər. Qızıl-gümüş yığıb onu Allah yolunda xərcləməyənləri şiddətli bir əzabla müjdələ!

35. Yığdıqları qızıl-gümüşün Cəhənnəm atəşində qızdırılıb alınlarına, böyürlərinə və kürəklərinə dağ basılacağı gün (onlara deyiləcək): “Bu sizin özünüz üçün yığıb saxladığınız mallardır. Özünüz üçün yığıdığınızı dadın!”

36. Allahın yaranış kitabına əsasən Allah yanında ayların sayı göyləri və yeri yaratdığı gündən bəri on ikidir. Onların dördü haram aylardır. Bu, sabit və möhkəm dindir. Bu aylarda özünüzə zülm etməyin. Müşriklər sizə qarşı müttəfiq olub vuruşduqları kimi, siz də onlara qarşı bir yerdə vuruşun və bilin ki, Allah müttəqilərlədir!

---

33. İslamın qloballaşması vədi: "Səf" surəsinin 9-cu ayəsində eyni, "Fəth" surəsinin 38-ci ayəsində isə azacıq fərqli söz və ifadələrlə təkrar edilmiş bu ayə daşıdığı əhəmiyyətin təkrar edilməyə səbəb olan mühüm bir hadisədən xəbər verir. İslamın qloballaşması deyilərkən onun bütün dünyanı əhatə etməsi nəzərdə tutulur. Bu məsələ hələ reallaşmamışdır. Lakin bu ilahi vədin tədricən reallaşmaqda olduğunu görməkdəyik. İslamın dünyada sürətlə yayılması, ayrı-ayrı Avropa ölkələrində bu dinin rəsmi şəkildə tanınması, İslamın Amerika və Afrikada sürətlə yayılması, bir çox alimin İslamı qəbul etməsi və sair kimi faktlar İslamın bütün dünyanı əhatə edəcəyindən xəbər verir. İslam mənbələrində yer almış hədislərə əsasən, İslamın qloballaşma proqramının həzrət Mehdinin (ə) zühurundan sonra təkmişlləşəcəyi xəbər verilmişdir. İmam Baqir (ə) bu ayənin təfsiri haqqında belə buyurmuşdur: ***"Bu ayədə olan vəd Ali Muhəmmədin Mehdisinin (ə)" zühurundan sonra reallaşacaq. Həmin gün yer üzündə Muhəmmədin (s) haqq olduğunu etiraf etməyən adam qalmayacaq."*** İslam peyğəmbəri (s) buyurmuşdur: ***"Yer üzündə elə bir ev qalmayacaq ki, Allah İslam adını oraya daxil etməmiş olsun."***[784]

---

[784] Nümunə, c.7, səh.373

34. Allah yolunda xərcləməyən şəxslərin təhdid edilməsi: Bu ayədə "Allah yolunda xərcləmək" deylərkən dinin əsasını möhkəmləndirən istənilən xərc nəzərdə tutulur. Yəni həmin xərc çəkilməsə İslamın əsasına zərbə dəyəcək. Məsələn, cihad, qorunması vacib olan dini maraqlar, müsəlman cəmiyyətlərin parçalanmasanın qarşısını almaq üçün İsalmın ictimai məsələlərinə çəkilən xərcləri buna misal göstərə bilərik. Allah yolunda xərcləmək xums və zəkat kimi vacib olan maliyyə hüquqlarına şamil olur ki, din onu dini cameəni möhkəmləndirmək üçün vasib etmişdir. Deməli, İslam cameəsi ehtiyac duyduğu halda, kimsə sərmayəni və əlində olan nəqd sərvəti gizlədərsə və Allah yolunda xərcləməkdən boyun qaçırarsa, Allahın şiddətli əzabını gözləsin. Mənbələrdə üçüncü xəlifənin zamanında Peyğəmbərin (s) böyük səhabəsi Əbuzərin üçüncü xəlifə Osman və Şam valisi Müaviyənin sərvət toplamasına və müsəlmanların beytulmalına qarşı etinasızlıq göstərdiyinə etiraz edərkən bu ayəyə istinad etdiyini, cavabında isə haqqı dediyi üçün xəlifənin onu Rəbəzəyə (quru, susuz və heç bir yaşıllığı olmayan bir yerə) sürgün etdiyini, onun isə burada canını tapşırdığını oxuyuruq[785].

36. Haram aylar: Dörd haram ay - zilqədə, zilhiccə, məhərrəm və səfər aylarıdır. Bu ayların haram hesab edilməsi İbrahm peyğəmbərin (ə) dininə əsaslanır, sonradan ərəblər, hətta cahiliyyət və bütpərəstlik vaxtlarında da bu ənənəni davam etdirmişlər. Bəzən il ərzində bəhanələr gətirərək onların yerini dəyişirdilər. Sonrakı ayədə məhz bu məsələyə işarə edilmişdir[786]. Bu dörd ayda qan tökülməsinin qadağan edilməsi Rəcəbdə ümrə həccini yerinə yetirmək üçün Məkkəyə ziyarətçilərin gəlməsi, zilqədə, zilhiccə və məhərrəm aylarında həcc mərasimini yerinə yetirmək üçün ziyarətçilərin

[785] Əl-Mizan, c.9, səh.259
[786] Əl-Mizan, c.9, səh.277

Məkkəyə gəlməsi və geri dönməsi ilə izah edilir. Bu dörd ayda müharibə edilməsinin və qan tökülməsinin qadağan edilməsi ibadət üçün buraya gələn insanların səfər əsnasında təhlükəsizliklərinin təmin edilməsi ilə bağlıdır[787]. İmam Baqirin (ə) səhabələrindən olan Zürarəyə istinad edilən bir məlumatda belə deyilir: "Mən Məscidül-haramda İbrahim məqamının arxasında İmam Baqirin (ə) yanında əyləşmişdim. İmam (ə) abasını dizlərinə büküb onları sınəsinə sıxmış halda üzü qibləyə oturmuşdu. Bir qədər keçdikdən sonra buyurdu: ***"Bilin, ona baxmaq ibadətdir. Allah yer üzündə ondan daha sevimli və daha qiymətli yer yaratmamışdır."*** Sonra əli ilə Kəbəyə işarə edərək buyurdu: ***"Allah haram ayları yer və göylərin ilk yarandığı vaxtdan öz kitabında haram etmişdir. Onların üçü (zilqədə, zilhiccə, məhərrəm) dalbadal gəlir. Biri isə ümrə ziyarəti üçün haram edilmişdir."***[788]

[787] Ətyəbül-bəyan, c.6, səh.216
[788] Əyyaşinin təfsiri, c.2, səh.232

37. (Haram ayların) yerlərini dəyişmək, təxirə salmaq ancaq küfrü artırmaqdır ki, bununla kafir olanlar azdırılarlar. Onlar Allahın haram etdiyi ayların müddətini düzəltmək, beləcə Allahın haram buyurduğunu halal etmək məqsədilə onu bir il halal, bir il haram sayarlar. Pis əməlləri onlara gözəl göstərlmişdir. Allah kafir qövmü doğru yola yönəltməz!

38. Ey iman gətirənlər! Sizə "Allah yolunda cihada doğru hərəkət edin!" – deyildikdə nə üçün yerə yapışıb qaldınız? Yoxsa axirətdən imtina edib dünya həyatına razı oldunuz? Halbuki dünya malı axirət yanında (axirətlə müqayisədə) yalnız cüzi bir şeydir!

39. Əgər (döyüş meydanına doğru) hərəkət etməsəniz, sizə şiddətli bir əzab verər və başqa bir tayfanı sizin yerinizə gətirər. Siz isə Ona heç bir zərər verməzsiniz. Allah hər şeyə qadirdir!

40. Əgər siz ona köməklik göstərməsəniz, Allah ona kömək etdi. Necə ki, kafirlər onu (Məkkədən) iki nəfərdən ikincisi olaraq çıxartdıqları, hər ikisi mağarada olduğu və o öz yoldaşına: "Qəm yemə, Allah bizimlədir!" – dediyi zaman (tək qoymamışdı). O vaxt Allah ona bir arxayınlıq (rahatlıq) nazil etmiş, onu sizin görmədiyiniz qoşunlarla müdafiə etmiş, kafirlərin sözünü alçaltmışdı. Yalnız Allahın sözü (dini) ucadır. Allah yenilməz qüvvət, hikmət sahibidir!

---

37. Haram aylarla oyun oynamaq: Haram ayların yerlərini dəyişmək və təxirə salmaq cahil ərəblər arasında geniş yayılmış adətlərdən idi. Allah Quranda onların bu davranışını "küfrü artırmaq" kimi təqdim etmişdir. Çünki, onlar, əslində, kafir və bütpərəst idilər. Allahın bu hökmünü dəyişmək və əvəzləmək onların küfrünün artmasına səbəb olurdu. Deyilənlərə görə, cahil ərəblər İbrahimin və İsmayılın (Allahın salamı olsun onların hər ikisinə) dinindən gələn haram ayların hörmətini saxlayırmışlar. Lakin qarət etməyə və qan tökməyə alışdıqları üçün üç ay dalbadal dözə, qarət etmədən və qan tökmədən dayana bilməzmişlər. Buna görə də haram ayların yerini dəyişərmişlər. Məsələn, məhərrəm ayının haramlığını səfər ayına qədər təxirə salar, səfər ayını haram ay elan edib məhərrəmdə müharibə edərmişlər, sonra növbəti il məhərrəmi yenidən haram ay elan edərmişlər. Onlar bununla həm İbrahim ənənəsini qorumağa, həm də qətl və qarət əllərinin açıq olmasına çalışırdılar[789].

38. Təbuk döyüşü müsəlmanlar üçün çətin imtahan olmuşdur: İbn Abbas və digəri bu və sonrakı ayənin Təbuk döyüşü haqqında nazil olduğunu qeyd etmişlər. Həmin vaxt Peyğəmbər (s) Taifdən Mədinəyə qayıtmış, müsəlmanları rumlularla müharibəyə hazırlamışdır. Qaynaqlarda döyüş başlamazdan əvvəl Peyğəmbərin (s) adətən döyüş hədəflərini və son məqsədini müsəlmanlara açıqlamadığı qeyd edilmişdir. Bununla o, hərbi sirlərin düşmən əlinə keçməməsinə çalışırdı. Lakin Təbukda vəziyyət fərqli olduğu üçün daha öncədən açıq şəkildə rumlularla döyüşəcəklərini elan etdi. Çünki Şərqi Rum imperiyası ilə müharibə Məkkə müşrikləri və Xeybər yəhudiləri ilə olan müharibəyə bənzəmirdi. Bu iş elə də sadə deyildi. Müsəlmanlar bu qarşılaşmaya tam hazırlıqlı olmalı idilər. Bundan əlavə,

---

[789] Əl-Mizan, c.9, səh.280

Mədinə ilə Təbukun arası (610 km) çox uzaq, üstəlik yay fəsli, dənli bitkilərin biçini və məhsul yığımı mövsümü idi. Bütün bunlar müsəlmanların döyüş meydanına getməsinə mane olacaq çətinliklər idi. Bəziləri Peyğəmbərin dəvətini qəbul etməkdə tərəddüd edirdilər. Bu ayələr nazil olmuş, müsəlmanlara qəti xəbərdarlıq etmiş və təhlükə elanı verməklə onları bu böyük döyüşə hazırlamışdır[790].

40. Yersiz fəzilət biçimi: Bu ayədə Qüreyş müşriklərinin gizli planlarından xilas olmaq üçün Peyğəmbərin (s) gizlincə Məkkəni tərk etməsinə, Sur mağarasında gizlənməsinə, möcüzəli şəkildə müşriklərin əlindən xilas olmasına işarə edilmişdr[791]. Burada iki nüansa işarə edirik: Birincisi, ayədə ***"iki nəfərdən ikincisi"*** ifadəsi ilə Peyğəmbərin (s) təkliyinə və qəribliyinə işarə edilmişdir. Bu sözün digər şəxsin varlığı və kimliyi ilə heç bir əlaqəsi yoxdur. Ayənin ümumi məzmunu, əslində, belədir: Əgər siz Peyğəmbərə (s) köməklik göstərməsəniz, Allah bütün düşmənlərin Peyğəmbərə (s) qarşı arxa-arxaya verdikləri, öldürmək üçün hər tərəfdən onu mühasirəyə alıb qətlə yetirmək, onun isə Məkkəni tərk etməkdən başqa çarəsinin olmadığı, heç kəsin onunla bir yerdə olub köməklik etmədikləri, mağarada iki nəfərdən ikincisi olduğu, Peyğəmbərin (s) öz yol yoldaşı Əbu Bəkrə "Bu gördüklərindən qəmgin olma! Çünki Allah bizimlədir, kömək Onun əlindədir", - deyə buyurduğu vaxt kömək etmişdir. İkincisi, bu ayədə qeyd edilən yardımlar, yəni rahatlıq göndərilməsi, Peyğəmbərin (s) görünməz qoşunlarla gücləndirilməsi əvəzliklərə əsasən onun yoldaşına deyil, təkcə onun özünə aid olduğu məlum olur[792].

---

[790] Nümunə, c.7, səh.413
[791] Daha ətraflı məlumat üçün bax: Ətyəbül-bəyan, "Tövbə" surəsi, 40-cı ayənin təfsiri.
[792] Nümunə, c.7, səh.418

41. Ağır da gəlsə, yüngül də, hərəkət edin, malınız və canınızla Allah yolunda cihad edin! Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir!

42. Əgər yaxın qənimətlər və asan səfər olsaydı, onlar sənin ardınca gedərdilər. Lakin məşəqqətli yol onlara uzaq gəldi (deyə, boyun qaçırdılar). Tezliklə: “Əgər gücümüz çatsaydı, biz də sizinlə bərabər səfər edərdik”,-

deyə Allaha and içəcək və özlərini həlak edəcəkər. Allah isə onların yalançı olduqlarını bilir.

43. Allah səni bağışladı! Nə üçün doğru danışanları və yalançıları tanımazdan əvvəl onlara icazə verdin? (yaxşı olardı ki, onlar özlərini tanıtdırana qədər gözləyəydin).

44. Allaha və axirət gününə iman gətirənlər malları və canları ilə cihad etməmək barəsində səndən izn istəməzlər (o saat cihada çıxarlar). Allah müttəqiləri tanıyandır!

45. Səndən izn istəyənlər ancaq Allaha, axirət gününə iman gətirməyənlər və ürəkləri şəkk-şübhə içində olanlardır. Onlar öz şübhələrində çaşqındırlar.

46. Əgər onlar (doğrudan da, cihada) çıxmaq istəsəydilər, ona hazırlıq görərdilər. Lakin onların davranışı Allaha xoş gəlmədi, buna görə də (cihada çıxmaqlarına) mane oldu. Onlara: "(Evdə) oturanlara (qocalar, xəstələr və uşaqlarla bərabər) siz də oturun!" - deyildi.

46. Əgər sizinlə birlikdə (cihad meydanına doğru) çıxsaydılar, sizdə yalnız narahatlıq və tərəddüdü artırar, sürətlə aranızda fitnə və təfriqə salardılar. Aranızda onların sözlərinə qulaq asan adamlar var. Allah zalımları tanıyandır!

---

41. Cihadda iştiraka mane olan amillər: Yüngüllük və ağırlıq deyilərkən, insanın Allah yolunda cihad etməsinə mane olan amillər nəzərdə tutulur. Başın dünya və maliyyə işlərinə qarışması, ailə, övlad, qohumlar və dostların sevgisi, onlardan ayrı qala bilməmək, silah və ya müharibəyə getmək üçün yol tədarükünün olmamasını və sairəni buna misal göstərmək olar. Belə problemləri olan insan ağır yüklü, olmayan isə öhdəliyi az olan

insan hesab edilir. Ayədə nə olursa olsun, birinci və ikinci şəraitin olmasından asılı olmayaraq, cihad meydanına doğru hərəkətə keçmək əmri verilmişdir[793].

43. Allahın Peyğəmbəri (s) danlamasının səbəbi: Peyğəmbərin (s) məsum olmasını qəbul etməyən insanlar bu cür ayələrə istinad edərək Peyğəmbərin (s) bu cür vəziyyətdə verdiyi icazənin ilahi məsləhətin ziddinə olduğunu iddia edirlər. Yəni Peyğəmbərin (s) bu hərəkəti xəta və yanlış olmuş, lakin Allah onu bağışlamışdır. Onun məzəmmət edildiyi və qınandığı ***"Allah səni bağışladı! Nə üçün doğru danışanları və yalançıları tanımazdan əvvəl onlara icazə verdin?"*** ayəsinə diqqətlə nəzər saldıqda, görünür ki, Peyğəmbərin (s) Mədinədə münafiqlərə icazə verməsi yanlış olmuşdur. Allah isə onu əfv etmişdir. Yoxsa əfvin nə mənası var idi? Buna görə də bəziləri Peyğəmbərin (s) əqli və nəqli dəlillərlə sübuta yetən məsumluğuna xələl gəlməsinin qarısını almaq üçün Peyğəmbərin (s) bu icazə ilə daha yaxşısını tərk etdiyini (tərki-övla) iddia etməyə çalışmışlar. Yaxşı olardı ki, ümumiyyətlə, icazə verməyəydi. Əvf sözü günah üçün işləndyi kimi, tərk edilməsi daha yaxşı olan işdə də istifadə edilir.

Əslində, belə bir cavabın verilməsinə ümumiyyətlə, ehtiyac yoxdur. Ayənin zahiri məzmunu mövcud şübhəni aradan qaldırmağa kifayət edir. Ayələr özü Peyğəmbərin (s) icazəsinin yüzdə-yüz doğru və məsləhət olduğunu göstərir. Fərz edək ki, Peyğəmbər (s) onlara icazə verməsəydi və onların Mədinədə qalmasını qadağan etsəydi, o zaman iki haldan biri baş verəcəkdi: Ya onun əmrinə itaət göstərib qoşuna qoşulacaq, müsəlmanların sıralarında yer alacaq və cəbhəyə doğru yola düşəcəkdilər, ya da onun əmrindən boyun qaçırıb, açıq şəkildə itaətsizlik göstərəcəkdilər. Şübhəsiz ki,

---

[793] Əl-Mizan, c.9, səh.293

hər iki vəziyyətdə fəsad baş verəcəkdi. Çünki 47-ci ayədə açıq şəkildə qeyd edildiyi kimi, qoşun arasına yalnız fitnə və təfriqə salacaq, qoşunu bir-birinə vuracaq və qoşun arasında fikir ayırılıqları yaradacaqdılar. Nəticədə, onların törədəcəkləri cinayət cihaddan yayınma cinayətindən daha ağır olacaqdı. İkinci halda, yəni Peyğəmbərin (s) əmrindən boyun qaçırıb Mədinədə qalacaqları təqdirdə Peyğəmbərin (s) heybəti və əzəməti sınacaqdı və yavaş-yavaş münafiqlərin cürət və cəsarətləri daha da aşkar səciyyə alacaqdı. Buna görə Peyğəmbər (s) Allahın verdiyi bəsirət və ayıqlıq sayəsində münafiqlərin Mədinədə qalmasına icazə verdi və bununla da hər iki cinayətin qarşısını almış oldu. ***"Nə üçün icazə verdin"*** cümləsində məzəmmət olsa da, əslində, məzəmmətin obyekti Peyğəmbər (s) deyil, münafiqlərdir. Yəni münafiqlərin vəziyyəti, onların riyakarlığı və yalanları o qədər açıq-aşkardır ki, kiçik bir sınaq onların riyakarlıq pərdəsinin qalxması üçün kifayət edir. Yəni Peyğəmbərin (s) icazə verməməsi vəziyyətin aydınlaşması üçün kifayət idi. Gördüyümüz kimi, etirazın iti tərəfi münafiqələrə tərəfdir. Sanki Allahın burada demək istədiyi budur ki, ya Peyğəmbər (s), onlar yalançı və boşboğazdırlar, sən onların yalanlarının üstünü örtdün, əgər icazə verməsəydin, onların yalanı aşkara çıxacaqdı. Bu icazəverməzlik möminlə münafiqin ayrılma səbəbi olsa da, sikkənin bir tərəfi idi. Sikkənin digər üzü yuxarıda qeyd etdiyimiz kimi, daha mühüm idi. Gördüyümüz kimi, burada hətta daha yaxşının tərk edilməsi də baş verməmişdir. Ayə başqa bir hədəfi izləyir. O da Peyğəmbərə (s) qarşı olan lütfkarlıq və mehribanlığı ifadə edir. Sanki ayənin çatdırmaq istədiyi budur ki, ey Peyğəmbər (s) nə üçün bu dərəcədə mülayimlik, yumşaqlıq etdin, həya və təvazökarlıq göstərib onlara icazə verdin, düşmənlərinin çirkli mahiyyətinin hər kəsə məlum olmasına icazə vermədin, dost və düşməninin bir-birindən seçilməsinə razı olmadın? Bu sərt xitabların hədəfi yalançı münafiqlərdir, lakin sonsuz sevgi təzahürü

olaraq ən əziz insanlara ünvanlanmış danlaq libasında düşmənin rüsvay olmasına mane olmuşdur. Əlbəttə, bu cür danışıq incəliklərini böyük insanların onlara daha əziz olan insanlarla danışıq tərzindən xəbəri olanlar başa düşə bilər[794].

48. Onlar əvvəl (də) fitnə törətmək istəmiş və sənin işlərini bir-birinə vurmuşdurlar. Nəhayət, onlar istəmədikləri halda, haqq gəldi və Allahın əmri aşkar oldu.

49. Onların bəzisi deyir: "Bizə icazə ver (döyüşdə iştirak etməyək), bizi günaha batırma!" Bilin ki, onlar (elə indi də) günahda süquta uğrayıblar (günahda tənəzzül ediblər, günahda çöküblər). Cəhənnəm kafirləri əhatə edib!

50. Sənə bir yaxşılıq üz versə, onlar narahat olur. Sənə bir müsibət üz versə: "Biz tədbirimizi qabaqcadan görmüşük!" deyər və sevincək halda dönüb gedərlər.

51. De: "Allahın bizim üçün yazdığından başqa bizə heç bir hadisə üz verməz. O bizim rəhbərimiz və himayəçimizdir. Buna görə də möminlər yalnız Allaha təvəkkül etsinlər!"

---

[794] Mənşuri-cavid, c.7, səh.295

52. De: “Biz Allahın Özü tərəfindən və ya bizim əlimizlə sizi əzaba düçar etməsini gözlədiyimiz halda, siz bizlərə ancaq iki yaxşı işdən birinin gəlməsinimi gözləyirsiniz? İndi ki, belədir, siz gözləyin, biz də sizinlə birlikdə gözləyək!”

53. De: “İstər könül xoşluğu ilə olsun, istərsə də zorla, Allah yolunda xərcləyin. Onsuz da sizdən qəbul olunmayacaq. Çünki siz fasiq bir tayfa idiniz.

54. Onların xərclədiklərinin qəbul olunmasına mane olan yalnız Allahı və Onun Peyğəmbərini inkar etmələri, namazı ağrına-ağrına qılmaları və narazı-narazı xərcləmələridir.

---

49. Münafqləri tanıma yollarından biri: Bəzi təfsirçilərin yazdığına görə, Peyğəmbər (s) müsəlmanları Təbuk döyüşünə hazırladığı və cidaha çağırdığı vaxt münafiqlərdən, hətta onların öndə gedənlərindən və Bəni-Sələmə tayfa başçılarından olan Cədd ibn Qeys Peyğəmbərin (s) yanına gələrək dedi: Əgər icazə verirsənsə, mən bu döyüşdə iştirak etməyim. Çünki qadınlara qarşı çox həssasam. Xüsusilə, əgər Rum qızlarını görsəm, ürəyim əldən gedər, onlara heyran olub cihaddan əl çəkə bilərəm. Peyğəmbər (s) ona icazə verdi. Elə həmin vaxt bu ayə nazil oldu və həmin adamı ittiham etdi. Peyğəmbər (s) üzünü Bəni-Sələmə tayfasından olan dəstəyə tutub dedi: “Böyüyünüz kimdir?” Dedilər: “Cədd ibn Qeys, ancaq o, paxıl və qorxaq adamdır.” Peyğəmbər (s) buyurdu: ***“Paxıllıqdan pis dərd ola bilməz!”*** Sonra belə buyurdu: “Sizin böyüyünüz ağ bənizli Bişr ibn Bərradır”

Bu ayədən belə məlum olur ki, münafiqləri tanımağın yolları onların üzərlərinə düşən vəzifədən boyun qaçırmaq üçün gətirdikləri əsaslar və bəhanələrdir. Bu bəhanə formaları onların daxili dünyasından xəbər verir.

Onlar daha mühüm məsələlərədn yayınmaq, möminləri aldatmaq üçün çox cılız, bəzən də gülüş doğuran sözlər deyir, onların fikirlərindən, dini mövzulardan, Allah və Peyğəmbərinin göstərişlərindən istfadə edirlər. Halbuki günah içində itib-batır, əllərinə qılınc götürüb Peyğəmbəri (s) və onun dinini qılınclayırlar[795].

49. Cəhənnəmin kafirləri əhatə etməsi: Təfsirçilər bu cümlə ilə bağlı müxtəlif fikirlər söyləmişlər. Bəziləri bu cümlədə insanı Cəhənnəmə sürükləyən səbəb və vasitələrə eyham edildiyini qeyd etmişlər. Bəziləri hesab edir ki, bu, gələcəkdə mütləq, baş verəcək hadisənin keçmiş zaman formasında işlənməsi prinsipinə əsaslanır. Yəni gələcəkdə Cəhənnəm onları mütləq, əhatə edəcək. Bir ehtimal da ondan ibarətdir ki, Cəhənnəm indi də mövcuddur, bu dünyanın batinindədir, Cəhənnəm əhli onun içindədir. Habelə Cənnət də indi mövcuddur, bu dünyanın batinindədir, Cənnət əhlini əhatə edir[796].

51. Saqinin hər süzdüyü gözəllik, incəlik və sevgidir: Bu ayədən bu dünyanın əsl sahibinin Allah olduğu, heç kəsin Onun iradə və ixtiyarından kənar olmadığını ifadə edən mühüm tövhid həqiqəti başa düşülür. Əgər insan bu həqiqətə inanırsa, şübhəsiz ki, Allaha təvəkkül edir, özünü Allahın istəyinə təslim edir, artıq çətinliklər və müsibətlər qarşısında etiraz etmir, hər hansı nemətə malik olduqda fəxr etmir, qürurlanmır.[797] Yazırlar ki, İmam Hüseynin (ə) ailəsini asir aldıqdan sonra İbn Ziyad həzrət Zeynəbə (Allahın salamı olsun ona) deyir: “Allahın qardaşınla necə davrandığını gördün?” Xanım isə belə cavab verir: “Mən gözəllikdən başqa bir şey görmədim.”

---

[795] Nümunə, c.7, səh.437
[796] Nümunə, c.7, səh.439
[797] Əl-Mizan, c.9, səh.317

Allah onların qətlini təqdir etdi, onlar da qətlə yetiriləcəkləri yerə tələsdilər[798].

54. Münafiqlərin yalandan ibadət etməsi: Bu ayəyə əsasən belə nəticəyə gəlmək olar ki, insanların təkcə namaz və oruclarına aldanmaq olmaz. Çünki münafiqlər həm namaz qılır, həm də camaatın gözündə Allah üçün xərcləyirlər. Münafiqlərlə namazları və xeyriyyəçilikləri ilə həqiqi möminlərin pak və təmiz əməllərini fərqləndirmək lazımdır. Davranışlarına diqqətlə nəzər saldıqda bunu görmək olar. Hədislərin birində belə qeyd edilir: ***"Camaatın təkcə uzun-uzadı rüku və səcdələrinə baxmayın. Çünki bu, vərdiş olar və onu tərk etmək də onlarda narahatlığa səbəb olar. Onların doğru danışmasına və əmanətdar olmasına fikir verin."*** Doğru danışmaq və əmanətdar olmaq imandan qaynaqlanır. Halbuki vərdiş edilmiş rüku və səcdələr münafiqliyə uyğnudur[799].

[798] Ətyəbül-bəyan, c.6, səh.237
[799] Nümunə, c.7, səh.450

55. Onların malları və oğul-uşağı səni təəccübləndirməsin. Allah onlarla dünya həyatında bu vasitə ilə əzab vermək, kafir olduqları halda, canlarını almaq istəyir.

56. Sizdən olmadıqları halda, sizdən olduqları barədə Allaha and içirlər. Lakin onlar qorxaq bir zümrədir. (Sirləri faş olmasın deyə, yalandan and içirlər)

57. Əgər onlar bir sığınacaq və ya mağara, yaxud yeraltı bir yol tapsalar, tələsik oraya doğru qaçarlar.

58. Onların arasında sədəqələr (onların bölünməsi) barəsində sənə eyib tutanlar da var. Əgər ondan (sədəqədən) onlara bir şey verilsə, razı qalar, verilməsə, qəzəblənərlər.

59. (Halbuki) Allah və Peyğəmbərinin onlara verdiklərindən razı qalıb: “Allah bizə kifayətdir. Tezliklə Allah və rəsulu bizə lütfündən bəxş edəcək. Biz yalız Onun razılığını istəyirik!” – desəydilər (onlar üçün yaxşı olardı).

60. Zəkatlar Allah tərəfindən müəyyən edilmiş bir fərz (vacib əməl) olaraq ancaq yoxsullara, miskinlərə, zəkatın toplanması üçün zəhmət çəkən işçilərə, sevgi və rəğbətlərinin qazanılmasına səy göstərilən insanlara, (onların azad edilməsi üçün) qullara, həmçinin (borcu ödəməyə imkanı

olmayan) borclulara, Allah yolunda (Onun dinini gücləndirmək üçün) və yolda qalan yolçulara məxsusdur. Allah biləndir, hikmət sahibidir!

61. (Münafiqlər) Peyğəmbəri incidib: “O, sadəlövh adamdır”, - deyən şəxslərdir. De: “Onun sadəlövh olması sizin xeyrinizədir. (Ancaq bilin ki,) o, Allaha inanır, (yalnız) möminləri təsdiq edir. O sizdən iman gətirənlər üçün rəhmətdir.” Allahın Rəsulunu incidənləri şiddətli bir əzab gözləyir!”

---

60. Zəkatın xərcləndiyi yerlər: Bu ayədə sədəqələr deyilərkən vacib buyurulmuş sədəqələr, yəni zəkat nəzərdə tutulur. Zəkat müsəlman cəmiyyətinin iqtisadi vəziyyətinin sağlam olmasında çox mühüm və əsaslı rol oynayan mühüm İslam hökmlərindəndir. Hədislərdə bu vacib əmrə çox böyük əhəmiyyət verilmiş, onun tərk edilməsi kəskin şəkildə qadağan edilmişdir. İmam Sadiq (ə) buyurmuşdur: “Əgər bütün insanlar öz mallarının zəkatını versələr, yoxsul və ehtiyaclı müsəlman qalmaz... İnsanlar yalnız sərvəti olan insanların günahı ucbatından yoxsul, ehtiyaclı, ac və çılpaq qalır.”[800] Bu ayədə zəkatın səkkz istifadə yerinin olması qeyd edilmişdir: 1. Yoxsullar; 2. Miskinlər. (Yoxsulla miskinin fərqini izah edərkən bildirirlər ki, yoxsul işləməsinə və çalışmasına baxmayaraq, maliyyə çatışmazlığı olan, lakin heç kəsdən kömək yardım diləməyən şəxsə deyilir. Miskin isə ehtiyacı çox olan, işləyə bilməyən, buna görə də başqalarından köməklik istəyən şəxsə deyilir); 3. Zəkatı toplayan işçilər (Bunlar zəkatın toplanması və İslam xəzinəsinin idarə edilməsi işlərində çalışan insanlara deyilir. Onlara ödənilən məbləğ, əslində, əməkhaqqı hesab edilir. Bu adamlarda yoxsulluq əsla şərt deyil); 4. Sevgi və rəğbətlərinin qazanılmasına səy göstərilən insanlar

---

[800] Nümunə, c.8, səh.4

(İslamın hədəflərinin inkişaf etdirilməsi üçün güclü mənəvi marağı olmayan insanların sevgisini cəlb etmək üçün maliyyə stimulu vermək); 5. Qulların azad edilməsi (Zəkatın bir hissəsi quldarlıqla mübarizəyə və humanizmə zidd olan bu mövzuya son qoyulması üçün sərf edilir); 6. Borcu olanların, heç bir təqsir və günahı olmadan borc yükü altında qalmış, borcunu ödəməyə imkanı çatmayan insanların borcunun ödənilməsi; 7. Allah yolunda (Cihad, təbliğat və sair olmasından asılı olmayaraq Allah dininin gücləndirilməsinə və inkişafına şamil bütün yollar nəzərdə tutulur); 8. Yolda qalmışlar (Hər hansı səbəbdən yarı yolda qalmış, mənzil başına çatmaq üçün kifayət qədər ehtiyatı, miniyi, səfər tədarükü olmayan, əslində yoxsul olmasalar da, qarətə məruz qaldıqları, xəstələndikləri, əllərində olan vəsaitin hər hansı səbəbdən tələf olması və ya istənilən halda bu bu vəzyyətə düşmüş müsafirlər. Belə insanlara zəkatdan mənzil başına gedib çata biləcəkləri qədər malyyə yardımı edilir)[801].

61. Sadəlövh yox, alicənab peyğəmbər: "Qummi"nin təfsirində bu ayənin nazilolma səbəbi haqqında belə qeyd edilmişdir: "Abdullah ibn Nəbtəl adlı bir münafiq Peyğəmbərin (s) yanında əyləşib ona qulaq asır, sözlərini digər münafiqlərə çatdırır və sözgəzdirənlik edirdi. Həzrət Cəbrayıl (ə) enib buyurdu: "Ey Muhəmməd, münafiqlərdən biri sözgəzdirənlik edir, sənin sözlərini münafiqlərə çatdırır." Peyğəmbər (s) buyurdu: "O, kimdir?" Cəbrayıl: "Qaraüzlü, qalınsaçlı bir insandır. Gözləri sənə zillənmiş sanki iki qara qazandır. Sənlə söhbət edir." Peyğəmbər (s) həmin kişiyə xəbərdarlıq edib Cəbrayılın (s) sözlərini ona çatdırdı. Lakin o, and içib bu işlə məşğul olmadığını dedi. Peyğəmbər (s) ona buyurdu: "Mən səndən qəbul etdim, sən belə etmə!" O isə münafiq dostlarının yanına qayıtdıqdan sonra onlara dedi:

---

[801] Əl-Mizan, c.9, səh.321

“Muhəmməd sadəlövh adamdır. Allah ona xəbər verdi ki, mən sözgəzdirənəm, onun sözlərini başqalarına danışıram, o isə qəbul etmədi. Hələ üstəlik mən də ona deyəndə ki, belə bir iş tutmamışam, heç bir söz danışmamışam, mənə inandı.” Bu zaman bu ayə nazil oldu. Yəni Peyğəmbər (s) ona nazil olanı təsdiq edir, sizin sözlərinizi və üzrlərinizi də qəbul edir. Əslində, işin mahiyyətindən xəbərdardır və sizi də təsdiq etmir[802].

[802] Əl-Mizan, c.9, səh.333

62. Onlar sizi razı salmaq üçün Allaha and içirlər. Əgər onlar mömindirlərsə, (bilsinlər ki) Allah və Onun Peyğəmbərinin razılığını qazanmaq daha yaxşıdır!

63. Məgər Allah və Onun Peyğəmbəri ilə düşmənçilik aparan şəxs onu içində əbədi qalacağı Cəhənnəm odunun gözlədiyini bilmirmi? Bu, böyük rüsvayçılıqdır.

64. Münafiqlər özlərinə qarşı, ürəklərində olan sirlərlərdən xəbər verəcək bir surənin nazil ediləcəyindən qorxurlar. De: "Siz istehza etməyinizdə olun. Allah qorxub çəkindiyiniz şeyi üzə çıxaracaqdır!"

65. Əgər onlardan soruşsan (ki, "bu səhv addımı nə üçün atdınız?"): "Biz ancaq zarafatlaşb əylənirdik",- deyə cavab verərlər. De: "Allahı, Onun ayələrini və Peyğəmbərini məsxərəyə qoyursunuz?!"

66. (De: Əbəs yerə) üzr istəməyin. (Çünki) siz iman gətirdikdən sonra artıq kafir oldunuz. Sizlərdən bir qismini (tövbə etdiyi üçün) əfv etsək də, digər qismini günahkar olduğu üçün əzaba düçar edəcəyik!

67. Münafiq kişilərlə münafiq qadınların hamısı eynidir. Onlar pis işlər görməyi əmr edər, yaxşı işləri qadağan edərlər. Əllərini də sıxarlar. Onlar Allahı unutdular, Allah da onları unutdu. Münafiqlər fasiqlərdir!

68. Allah münafiq kişilərə, münafiq qadınlara və kafirlərə içində əbədi qalacaqları Cəhənnəm odu vəd etmişdir. Bu, onlara kifayətdir. Allah onları öz rəhmətindən uzaq salıb və onları daimi bir əzab gözləyir!

---

64. Münafiqlər tərəfindən Peyğəmbərə (s) qətl planının hazırlanması: Bu və sonrakı bir neçə ayənin nazilolma səbəbilə bağlı bir neçə fikir mövcuddur. Onlar arasında bu ayələrin məzmununa daha çox uyğun gələni İbn Keysana istinad edilən məlumatdır. Həmin məlumatda belə deyilir: "Bu

ayələr Təbuk döyüşündən qayıdarkən Peyğəmbəri (s) qətlə yetirmək qərarına gələn on iki nəfər münafiq haqqında nazil olmuşdur. Bu münafqlər bir keçidin yuxarısında pusqu qurub, Peyğəmbər (s) həmin keçidə çatanda qəfldən hücum çəkib onu qətlə yetirməyi planlaşdırmışdılar. Cəbrayıl (ə) Peyğəmbəri (s) bu plandan xəbərdar etdi və ona göstəriş verdi ki, bir neçə nəfəri onların yanına göndərsin və onlar da gedib münafiqələrin dəvələrinin üzünə və başına vurub bu mənfur planlarının həyata keçməsinə mane olsunlar. Təbukdan qayıdarkən Əmmar Yasir Peyğəmbərin (s) miniyinin yüyənindən tutmuş, Həziqə ibn Yəman isə arxadan gedirdi. Bu vaxt üzlərini bağlamış münafiqlər yetişdilər. Peyğləmbər (s) Həziqəyə "Onların miniklərinin üzlərinə vurub uzaqlaşdır", - deyə göstəriş verdi. Həziqə belə də etdi. Peyğəmbər (s) həmin keçiddən xəta-bəlasız keçdikdən sonra Həziqədən "Bildin hansı qəbilədən, hansı tayfadan idilər?", - deyə soruşduqda Həziqə "Heç birini tanımadım", - deyə cavab verdi. Peyğəmbər (s): "filankəs, filankəs, flankəs..." deyib onların hamısının adını açıqladı. Həziqə dedi: "Nə üçün bir dəstə göndərib onları öldürtmürsən?" Peyğəmbər (s) buyurdu: ***"İstəmirəm ərəblər desin ki, Muhəmməd öz səhabələrinə qalib gəldikdən sonra onları qətlə yetirdi."*** Oxşar məlumat İmam Baqirə (ə) istinad edilən bir hədisdə də öz əksni tapmışdır. İmam Baqirə (ə) istinad edilən məlumatda əlavə olaraq belə qeyd edilmişdir: ***"Onlar öz aralarında Peyğəmbəri (s) qətlə yetirməklə bağlı məşvərət edərkən belə qərara gəldilər ki, əgər Peyğəmbər (s) planımızdan xəbər tutsa, deyərik ki, zarafat edirdik, yox əgər xəbər tutmasa, öldürərik."***[803]

65. Münafiqlərin günahlarından pis olan üzrləri: Münafiqlərin əli boşa çıxdıqdan və planları heç bir nəticə vermədikdən sonra Peyğəmbər (s)

[803] Əl-Mizan, c.9, səh.353

onlardan qurduqları pusqu və gözlənilməz hücumları haqqında soruşduqda deyirlər: Bizim pis bir nyyətimiz yox idi. Vəziyyət siz şübhələndiyiniz kimi deyil. Biz oyun oynayıb əylənirdik, niyyətimiz ciddi deyildi. Allah Peyğəmbərinə (s) onlara belə deməsini göstərirş verir: "Günahınızdan daha pis bir üzr gətrirsiniz?" Hazırladığınız mənfur plan günah idi. Peyğəmbəri (s) məsxərəyə qoymaq üçün uydurduğunuz bu üzr isə başqa bir günahdır, Allaha, Onun Peyğəmbərinə (s) və ayələrinə qarşı küfrdür[804].

67. Münafiqlər Allahın rəhmətindən uzaqdırlar: Təbii ki, Allahın unutması həqiqi deyil, məcazi mənada deyilmiş bir ifadədir. Yəni Allah onlarla unutqan bir insan kimi davranır, onlara heç bir rəhmət və uğur nəsib etmir. Bu cür ifadələrdən gündəlik həyatamızda da istifadə edirik. Məsələn, deyirik: Sən öz üzərinə düşən vəzifəni unutduğun üçün biz də vaxtında ödəmə etməyi unudacağıq. Yəni sənə haqq ödəməyəcəyik. Bu fikri təsdiq edən məzmuna Əhli-Beyt (ə) hədislərində də çox rast gəlmək olar[805]. İmam Əli (ə) bu ayə haqqında belə buyurmuşdur: ***"Yəni onlar bu dünyada Allahı unutduqları, Ona itaət göstərmədikləri, Ona və Peyğəmbərinə (s) iman gətirmədikləri üçün Allah da onları Axirətdə unudacaq. Yəni onlara savab yazmayacaq, yaxşılıq və rəhmət bölgüsündə onlar unudulmuşlardan hesab ediləcəklər."***[806]

---

[804] Əl-Mizan, c.9, səh.343
[805] Nümunə, c.8. səh.30
[806] Əl-Mizan, c.9, səh.358

69. (Ey münafiqlər!) Siz (nifaq salmaqda) özünüzdən əvvəlkilər kimisiniz. Hələ onlar sizdən daha qüvvətli, mal-dövlət və övlad baxımından daha artıq idilər. Onlar öz nəsiblərindən bəhrələndilər. Siz də öz nəsibinizdən sizdən əvvəlkilər kimi bəhrələndiniz. Siz də onlar kimi (küfr, nifaq və möminləri istehza etmək yolunda) batdınız. Onların əməlləri dünyada da, axirətdə də puça çıxmışdır. Onlar həmin ziyana uğrayanlardır!

70. Məgər onlara özlərindən əvvəlki Nuh, Ad, Səmud tayfasının, İbrahim qövmünün, Mədyən əhalisinin (Şüeybin qövmü) və Mötəfikilərin (şəhərləri alt-üst olmuş Lut tayfasının) xəbəri gəlib çatmadımı? Peyğəmbərləri onlara aşkar dəlillər gətirmişdi. Allah onlara zülm edən deyildi, onlar özləri özlərinə zülm edirdilər.

71. Mömin kişilərlə mömin qadınlar bir-birlərinin dostlarıdırlar (yardımçılarıdırlar). Onlar (insanlara) yaxşı işlər görməyi əmr edər, pis işləri yasaq edər, namaz qılıb zəkat verər, Allaha və Peyğəmbərinə itaət edərlər. Allah tezliklə onları öz rəhmətinə qovuşduracaq. Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!

72. Allah mömin kişilərə və qadınlara ağacları altından çaylar axan Cənnətlər və Ədn Cənnətlərində gözəl məskənlər vəd buyurmuşdur. Onlar orada əbədi qalacaqlar. Əbədi Cənnətlərdə pak məskənlər və Allahın razılığı daha üstündür. Böyük qələbə də budur!

---

70. Lut qövmü və alt-üst olmuş şəhərlər: "İitikaf" sözündən düzəlmiş "mötəfikat" sözünün mənası çevrilmə və alt-üst olmaqdır. Bu sözlə Lut qövmünün güclü zəlzələ nəticəsində alt-üst olmuş şəhərlərinə işarə edilmişdir[807]. İmam Sadiq (ə) bu bardə belə buyurmuşdur: "Bu, məskənləri alt-üst olan Lut qövmüdür. Onların məskənlərinin ən hündür nöqtələri ən alçaq nöqtələrinə çevrildi."[808]

71. Möminlər br-birlərinin dost və yardımçılarıdırlar: Bu ayə ilə 67-ci ayəni müqayisə etdikdə diqqət yetirilməsi lazım olan məqamlardan biri budur ki, 67-ci ayə hamısı bir qrupdan olan münafiqlər haqqındadır. Yəni münafiqlər bir sırada yer alsalar da, xüsusiyyət və proqramarda ortaq olsalar da, aralarında dostluq, yoldaşlıq, bir-birlərinə həqiqi mənada yoldaşlıq etmək ruhiyyəsi yoxdur. Hər hansı birinin şəxsi maraqları təhlükəyə düşərsə, hətta dostlarına da xəyanət edərlər. Buna görə də "Həşr" surəsinin 14-cü ayəsində belə buyurulmuşdur: ***"Münafiqlərin bir olduqlarını güman edirsən, lakin***

[807] Nümunə, c.8, səh.34
[808] Kafi, c.8, səh.171

onların qəlbləri dağınıqdır.” Lakin möminlərdən bəhs edən ayədə onların vəhdətdə və bir olduqları qeyd edilir. Yəni dağınıq olmalarına baxmayaraq, sanki bir bədən kimidirlər. Buna görə də onlar bir-birlərinin işini öz üzərlərinə götürür, qaydaya salır, özü və cəmiyyəti pislik və günahdan islahı üçün bir-birlərinə yaxşını əmr, pisi qadağan edirlər. Hər kəs digəri üçün məsuliyyət daşıdığını düşünür[809].

72. Ədn Cənnətlərinin sakinləri: “Ədn” sözünün leksik mənası bir məkanda qalmaq, məskunlaşmaqdır. “Ədn Cənnətləri” deyilərkən yaşamaq, məskunlaşmaq və əbədi qalmaq üçün nəzərdə tutulan bağlar nəzərdə tutulur[810]. Hədislər və təfsirçilərin sözlərindən “ədn Cənnətləri” deyilərkən Allah mükafat verdiyi Cənnətin xüsusi bir yerinin nəzərdə tutulduğu başa düşülür. İslam peyğəmbəri (s) ədn Cənnətləri haqqında danışarkən belə buyurmuşdur: ***“Ədn heç bir gözün görmədiyi, heç kəsin ağlına gələ bilməyəcəyi bir yerdir. Orada yalnız üç qrup insan məskunlaşacaq: peyğəmbərlər, siddiqlər və şəhidlər.”*** Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***“Mənim kimi yaşamaq və mənim kimi ölmək, Allahın mənə vəd verdiyi bağda, yəni ağaclarını öz əlləri ilə əkdiyi, “Yaran”, - deyə əmr etdiyi və bu əmrlə yaranan Cənnət bağlarında məskunlaşmaq istəyən şəxs Əli ibn Əbutalibi (ə), ondan sonra isə onun övladlarını sevsin!”***[811]

72. Allahın razılığı Cənnətdən daha şirindir: İmam Səccad (ə) bu ayə haqqında belə buyurmuşdur: ***“Cənnət əhli Cənnətdə öz yerlərini aldıqdan, Allah dostu öz evlərinə və bağına getdikdən və hər bir mömin öz taxtına söykəndikdən sonra xidmətçiləri onları əhatə edəcək, üstü mer-meyvə dolu ağaclar budaqlarını onlara tərəf əyəcək, hər tərəfdən bulaqlar qaynamağa***

---

[809] Nümunə, c.8, səh.36
[810] Əl-Mizan, c.9, səh.349
[811] Nümunə, c.8, səh.38

başlayacaq, onun taxt və sarayı altından çaylar axacaq, onun üçün xalılar səriləcək, yastıqlar qoyulacaq, istədiyini dilinə gətirməzdən əvvəl xidmətçilər hazır edəcək, Cənnətlərdən ona hurilər gətiriləcək... Cabbar olan Allah onlara təcəlla edərək buyuracaq: "Ey mənim dostlarım, ey mənə itaət göstərənlər, ey mənə qonşu olan Cənnət sakinləri, mən sizə içində olduğunuzdan daha yaxşı olan bir şey haqqında xəbər verimmi?" Cənnət əhli deyəcək: "İlahi, bizim indi olduğumuz vəziyyətdən daha yaxşı nə ola bilər? Hansı nemətləri istəyiriksə, gözün zövq aldığı nə varsa, Sənin alicənablığın sayəsində mövcuddur."Allah-taala həmin sualı yenə təkrar edəcək. Cənnət sakinləri deyəcək: "İlahi, biz indi içində olduğumuzdan daha gözəlini bizə nəsib et!" Allah buyuracaq: "Mənim sizdən razı olmağım və Mənim sizə qarşı sevgim siz içində olduğunuzdan daha üstün və daha yaxşıdır." Cənnət əhli deyəcək: "Bəli, ey Rəbbimiz, Sənin bizdən razı olmağın və Sənin bizə qarşı sevgin bizim üçün daha yaxşı və daha şirindir."[812]

[812] Əyyaşinin təfsiri, c.2, səh.242

73. Ya Peyğəmbər! Kafir və münafiqlərlə vuruş! Onlarla sərt davran! Onların məskəni Cəhənnəmdir. Necə də pis aqibətdir!

74. Allaha and içirlər ki, (Peyğəmbər arxasınca nalayiq sözlər) deməyiblər. Halbuki onlar küfr söz danışmış, İslamı qəbul etdikdən sonra kafir olmuş, müvəffəq ola bilmədikləri bir işə girişmişdilər. İntiqam almalarının yeganə səbəbi Allahın və Peyğəmbərinin Öz nemətləri ilə onları ehtiyacsız etməsidir. (Bununla belə,) əgər tövbə etsələr, onlar üçün xeyirli olar. Yox, əgər üz döndərsələr, Allah onları dünyada və axirətdə şiddətli bir əzabla cəzalandıracaq. Yer üzündə onların nə bir dostu, nə bir himayəçisi, nə də bir imdada yetəni var!

75. Bəzisi Allahla belə əhd etmişdi: "Əgər Allah bizə Öz nemətindən bəxş etsə, biz mütləq sədəqə verəcək və sözsüz ki, əməlisalehlərdən (və şükür edənlərdən) olacağıq".

76. Ancaq Allah Öz nemətindən onlara bəxş etdikdə xəsislik etdilər, boyun qaçırdılar və üz döndərdilər.

77. Allaha verdikləri vədi pozduqlarına və yalan danışdıqlarına görə Allah da onların ürəyinə Allahla qarşılaşacaqları günə qədər nifaq saldı.

78. Məgər bilmirdilər ki, Allah onların sirlərini də, gizli danışıqlarını da bilir. Və Allah qeybləri (gizli şeyləri) çox gözəl biləndir?!

79. İtaət göstərib könüllü surətdə sədəqə verən möminlərə eyib tutanları və yalnız imkanları daxilində verə bilən şəxsləri məsxərəyə qoyanları Allah Özü məsxərəyə qoyacaqdır. Onlar şiddətli bir əzaba düçar olacaqlar!

---

74. Münafiqlərin yalan və nifaqlarının ifşası: Peyğəmbərə (s) qarşı hazırlanmış sui-qəsd planı boşa çıxdıqdan sonra sui-qəsdçilər hadisəni zarafat və rişxənd kimi qələmə verərək deyirlər: "Bizim pis bir niyyətimiz yox idi." Onlar belə danışaraq özlərini təmizə çıxarmaq istəyirdilər. Peyğəmbər (s) bu təhqiramiz sözlərinə görə onları məzəmmət edir. Onların dərhal rəngi dəyişir və and içirlər ki, belə söz deməyiblər. Allah-taala bu ayədə onların hər iki yalanının üstünü açır, "Biz belə bir söz deməmişik" sözlərinə ***"Onlar küfr söz danışıblar"***, - deyə cavab vermiş, utancverici hiyləni inkar etmələrinə isə ***"Müvəffəq ola bilmədikləri bir işə girişmişdilər"***, - deyə cavab vermişdir[813].

74. Münafiqlərin Allah və Peyğəmbərin (s) lütfkarlıqlarına qarşı naşükürlükləri: Şübhəsiz ki, Allahın lütfü, İslam hökmü və Peyğəmbərin xidmətləri sayəsində münafqlərin ehtiyacsız olması, və ehtiyaclarının aradan qalxması intiqama səbəb ola biləcək bir hal deyil, əksinə, buna görə şükür və təşəkkür etmək lazımdır. Lakin bu pis xislətli naşükürlər xidmət və nemətə cinayətlə cavab vermək istəyirdilər. Bu gözəl və bədii ifadə tərzindən danışıqda və yazıda çox istifadə edilir. Məsələn, uzun illər xidmətində durduğumuz bir insan bu xdmətlərin əvəzində bizə xəyanət etdikdən sonra

---

[813] Əl-Mizan, c.9, səh.351

deyirik: Günahımız yalnız bu idi ki, sənə sığınacaq verdik, yüksək məhəbbət və qayğı göstərdik[814].

75. İbrətamiz bir hadisə: Hədis və rəvayətlərdə bu və sonrakı ayələrin Sələbə ibn Hatib haqqında nazil olduğu qeyd edilmişdir. Çox yoxsul olan bu adam bir gün Peyğəmbərin (s) yanına gəlib ondan varlanması üçün dua etməsini istəyir. Peyğəmbər (s) ona sadə həyat tərzini davam etdirməsini, Peyğəmbərdən (s) nümunə götürməsini tövsiyə edir. Lakin Sələbə israrla Peyğəmbərdən (s) bu duanı etməsini rica edir və and içir ki, əgər Allah ona sərvət bəxş etsə, həmin sərvətin bütün vacib vergilərini ödəyəcək. Peyğəmbər (s) ona dua edir və bir müddətdən sonra Sələbə sərvət və çoxlu qoyun sahibi olur. Qoyunları o qədər çoxalır ki, artıq onları Mədinədə saxlaya bilmir, buna görə də Mədinədən kənar bir yerdə məskunlaşır. Bu iş onun cümə və camaat namazlarında iştirakına da mane olur. Zəkat məmuru zəkat almaq üçün onun yanına getdikdə zəkat verməkdən də boyun qaçırır, istehza ilə deyir: "Zəkat Kitab əhlinin ödədiyi cizyə kimidir." Bu xəbər Peyğəmbərə (s) çatdıqda buyurur: "Vay olsun Sələbəyə! Vay olsun Sələbəyə!" bu vaxt bu ayələr nazil olur[815].

79. Əməl və ibadətin keyfiyyət baxımından əhəmiyyəti: Mənbələrin yazdığına görə, Peyğəmbər (s) İslam ordusunu düşmənlə (ehtimal ki, Təbuk döyüşünə) mübarizəyə hazırladığı vaxt camaatın yardımına ehtiyac duyulduğunu görür. Buna görə də fikrini camaata elan etdikdə imkanları olanlar İslam ordusuna zəkat adı ilə və ya heç bir əvəz olmadan külli miqdarda yardımlar göstərirlər. Gəlirləri az olan bəzi müsəlmanlar da az da olsa, bu böyük İslam proqramına yardım göstərirlər. Lakin münafiqlər hər iki dəstəyə eyib tuturlar. Çox yardım göstərənləri riyakar adlandırır, az

---

[814] Nümunə, c.8, səh.45
[815] Əl-Mizan, c.9, səh.364

yardım edənləri isə məsxərəyə qoyaraq “İslam ordusunun belə bir yardıma ehtiyacımı var?” – deyə istehza edirlər. Bu və sonrakı ayə nazil olur və onları ciddi şəkildə qınayır. Bu ayədən götürülən ən böyük dərs budur ki, İslam əməlin çoxluğuna deyil, keyfiyyətinə, ixlas, səmimiyyət və niyyətə yüksək əhəmiyyət və dəyər verir. Mühüm olan hər kəsin imkanı çatdığı qədəri əsirgəməməsidir. Dəyər azlıq və çoxluqda deyl, məsuliyyət və ixlasdadır. Hətta hədislərin birində bir nəfərin Peyğəmbərdən (s) “hansı sədəqə daha yaxşıdır?”, - deyə soruşduğunda Peyğəmbərin (s) ***“Gəliri az olanların sədəqəsi”***, - deyə cavab verdyini oxuyuruq[816].

[816] Nümunə, c.8, səh.55

80. Onlar üçün istər bağışlanma dilə, istər diləmə; (hətta) onlar üçün yetmiş dəfə də bağışlanma diləsən, yenə Allah onları bağışlamayacaq. Çünki onlar Allahı və Onun Peyğəmbərini inkar etdilər. Allah fasiq tayfanı doğru yola yönəltməz!

81. (Təbuk döyüşündə iştirak etməyib) arxada qalanlar (münafiqlər) Allahın Rəsuluna qarşı çıxdıqlarına görə sevindilər, Allah yolunda malları və canları ilə cihad etmək istəmədilər, (bir-birlərinə və möminlərə): "Bu istidə hərəkət etməyin!" – dedilər. (Ya Peyğəmbərim!) De: "Cəhənnəm odu bundan da istidir!" Kaş biləydilər!

82. Buna görə də onlar az gülüb çox ağlasınlar. Bu, onların etdiklərin əməllərin cəzasıdır.

83. Əgər Allah səni onlardan olan bir dəstənin yanına qaytarsa və onlar səndən (döyüşə) çıxmaq üçün izin istəsələr, de: "Mənimlə əsla çıxmayacaq, mənimlə birlikdə heç vaxt heç bir düşmənə qarşı döyüşməyəcəksiniz. Çünki əvvəlcə kənara çəkilməyə razı oldunuz. İndi də arxada qalanlarla birlikdə (evdə) oturun!"

84. Onlardan ölən heç bir kəsə heç vaxt namaz qılma, qəbrinin başında durma. Çünki onlar Allahı, Onun Peyğəmbərini dandılar və fasiq olaraq öldülər.

85. Onların nə mal-dövləti, nə də oğul-uşağı səni heyrətə salmasın. Allah bu vasitə ilə onlara dünyada əzab vermək və kafir olduqları halda, canlarının çıxmasını istər.

86. "Allaha iman gətirin, Onun Peyğəmbəri ilə birlikdə vuruşun!" – deyən bir surə nazil edildiyi zaman aralarında sərvət sahibi olanlar səndən izn istəyib: "Qoy biz də (döyüşdən azad edilmiş) oturanlarla bir yerdə qalaq!" – deyərlər.

---

80. Hətta Peyğəmbərin (s) də bağışlanma diləyinin qəbul edilmədiyi məqam: Şübhəsiz ki, burada yetmiş sözü sayı deyil, çoxluğu ifadə etmək üçündür. Yəni onlar üçün nə qədər bağışlanma diləsən də, Allah onları bağışlamayacaq. Məsələn, bir nəfər digərinə "Yüz dəfə də israr etsən, qəbul etməyəcəyəm", - deyir. Bu o demək deyl ki, yüz birinci dəfə desə, qəbul edəcək. Bu cümlə ilə o, əslində, heç vaxt qəbul etməyəcəyini göstərir. Qurana görə ölüm haqlayana qədər küfr və nifaqdan tövbə etməyincə kafirlər və kafirlərdən pis olan münafiqlərə heç bir ümid yeri yoxdur[817].

82. Qiyamət haqqında xəbərdarlıq: Bu ayədə qələbə çalqıdlarını, cihaddan boyun qaçırmaq və bəzi mücahidlərdə soyuqluq yaratdıqlarını güman edərək, qəhqəhə çəkərək gülən münafiqlərə işarə edilmişdir. Ümumiyyətlə, münafqlər hər yerdə və hər zaman belədirlər. Amma Quran onlara xəbərdarlıq edir ki, "Az gülüb çox ağlasınlar" Onları qarşıda gözləyən zülmət gələcək üçün ağlasınlar; onları gözləyən şiddətli əzablar üçün ağlasınlar; özlərindən sonra bütün qayıdış körpülərini uçurduqları üçün ağlasınlar; bütün ömür sərmayəsini əldən verib əvəzndə rüsvayçılıq, bədbəxtlik və qaragünlülük aldıqları üçün ağlasınlar. Təfsirçilərin çoxu Peyğəmbərin (s) bu məşhur hədisini qeyd etmişdir: ***"Əgər mən bildiyimi siz də bilsəydiniz, az gülüb çox ağlayardınız."***[818]

85. Dünyanın təmtərağına aldanmayın, həqiqi zövq və həyat başqa bir şeydir: Bu ayənin məzmunu azacıq söz fərqi ilə eyni surənin 55-ci ayəsində də ifadə edilmişdir. Bu iki ayədə Allah peyğəmbərinə xitab edərək, münafiqlərin mal və sərvətlərinin çoxluğuna təəccüblənməməyi buyurur və

---

[817] Əl-Mizan, c.9, səh.363
[818] Nümunə, c.8, səh.63

onların başını qatan bu sərvətin onlar üçün xoşbəxtlik gətirəcək bir nemət olmadığını, əksinə küfrün canlarına hopduğunu bildirir. Hər bir varlığın öz xoşbəxtliyini gördüyü həyat yalnız o zaman həqiqi xoşbəxtlik və səadət ola bilər ki, öz həqiqi yolunda olsun. Əgər insan həyatın əbədi və həqqi nəticələrinə, yəni faydalı elm əldə edib, gözəl əxlaqi keyfiyyətlərə yiyələnərsə, faydasız və əbəs işlərlə məşğul olmazsa, heç bir çətinlik və əziyyətsiz zövqə və asayişə nail olar. Bu cür həyat Allahın rəhbərliyini və himayəsini qəbul etməklə mümkün olur. Belə ki, Allah-taala "Yunus" surəsinin 62-ci ayəsində belə buyurmuşdur: "Bilin ki, Allah dostlarının nə qorxusu olur, nə də qəmgin olurlar." Lakin başı dünyaya qarışan, dünyanın bər-bəzəyinə heyran olan, onun uzun-uzadı arzularına aldanan, Şeytan tərəfindən özündən uzaq düşürülən, özünə yadlaşan insan bütün qüvvəsini maddi ləzzətlərə sərf edir, bütün hədəfi heyvani instinktlərdə mərkəzləşir, həm doymadığı, həm də malik olduqlarını itirməsinin narahatlığını çəkdiyi üçün ən pis əzaba düçar olur, lakin elə güman edir ki, ləzzət içindədir, xoşbəxtdir. Dünya həyatının təmtərağı artdıqca Allahdan və onun rəhmətindən uzaqlaşır, tədricən bədbəxtliyin son həddinə çatır, halbuki bəndəlik məqamından uzaq, küfr içində can verir, əliboş halda Məhşərə daxil olur. Əsl həqiqətdə bu cür zənginlik böyük yoxsulluqdur. Allah-taala "Taha" surəsinin 124-126-cı ayələrində bu vəziyyəti belə təsvir etmişdir: ***"Hər kəs Məni xatırlamaqdan imtina etsə, həyatı daralar və Biz Qiyamət günü onu məhşərə kor olaraq gətirərik!" O belə deyər: "Ey Rəbbim! Nə üçün məni məhşərə kor olaraq gətirdin, halbuki mən görürdüm!" (Allah) buyurar: "Elədir, amma sənə ayələrimiz gəldi, sən isə onları unutdun. Bu gün eləcə də sən unudulacaqsan!"***[819]

---

[819] Əl-Mizan, c.9, səh.319

87. Onlar arxada qalanlarla bir yerdə qalmağı seçdilər. Onların ürəkləri möhürlənmişdir, buna görə də anlamazlar.

88. Lakin Peyğəmbər və onunla birlikdə iman gətirənlər malları və canları ilə cihad etdilər. Bütün yaxşlıqlar onlar üçündür, nicat tapanlar da məhz onlardır!

89. Allah onlar üçün əbədi qalacaqları, ağacları altından çaylar axan Cənnətlət hazırlamışdır. Bu, böyük qurtuluşdur (qələbədir)!

90. Ərəblərdən (döyüşdə iştirak etməmək üçün) izn almağa üzrxahlar gəldi. Allaha və Onun Peyğəmbərinə yalan söyləyənlər isə (heç bir üzrləri olmadan) oturdular. Tezliklə onlardan kafir olanlara şiddətli bir əzab üz verəcəkdir.

91. Allaha və Onun Peyğəmbərinə xeyir istədikləri təqdirdə acizlərə, xəstələtə və Allah yolunda sərf etməyə bir şey tapa bilməyənlərə heç bir günah yoxdur. Yaxşı işlər görənləri məzəmmət etməyə heç bir əsas yoxdur. Allah bağışlayandır, rəhm edəndir!

92. Minik üçün yanına gəldikdə: "Sizin minməyiniz üçün bir miniyim yoxdur",- deyərkən sərf etməyə bir şey tapa bilmədikləri üçün kədərdən gözlərindən yaş axa-axa geri dönənlərdə heç bir günah yoxdur!

93. Ancaq varlı olduqları (cihad üçün kifayət qədər imkanları olduğu) halda, səndən izn istəyənlər qınanmalıdırlar. Onlar arxada qalanlarla (qadınlar və uşaqlarla) bir yerdə qalmağa razı oldular. Allah onların ürəklərini möhürləmişdir. Buna görə də onlar heç nə bilməzlər!

---

88. İman və cihad xeyir və bərəkətin mənşəyidir: "Xəyrat" (yaxşılıqlar) sözü maddi və mənəvi olmasından asılı olmayaraq, istənilən uğur, müvəffəqiyyət, qələbə, nemət və xeyirə şamil olur. Bu ayənin ifadələri nicat tapmış və bütün növ xeyrə və səadətə layiq olan insanların bu qrupa aid olduğunu göstərir. Onlar bütün varlıqları və imkanları ilə cihad edirlər. Bu ayəyə əsasən, imanla cihad bir yerdə cəm olarsa, özü ilə xeyir və bərəkət nazil edər. Bu ikisi olmadan xilasa nail olmaq olmaz, maddi və mənəvi xeyrə çatmaq olmaz. Mömin və münafiqlərin xüsusiyyətlərinin müqayisəsi zamanı məlum olur ki, münafiqlər imansızlıq və günah aludəçiliyi ucbatından nadan və qafldirlər. Buna görə də şüur, dərk və ayıqlığın nəticəsi

olan yüksək əzmkarlıq, səy və fəaliyyətdən məhrum olarlar. Onlar xəstələr və uşaqlarla qalmağa razıdırlar, amma bütün fəxr və başıucalıq gətirən cihad meydanında iştirakdan imtina edirlər. Halbuki imanlı insanlar açıq gözlü, dərrakəli, yüksək əzmkarlığa malik insanlardır. Onlar çətinliklərə qarşı mübarizədə bütün imkanlarını səfərbər edirlər. Bu, Quranın br çox ayələrdə bizə verdiyi, lakin bizim yenə də xəbərsiz qaldığımız həmin böyük dərsdir[820].

90. Cihad və mücahidlərlə əməkdaşlıq sahəsində heç kəsə güzəştə gedilmir: Bu ayədə bir deyil, iki qrupdan söhbət açılmışdır. Birinci qrupun mənsubları üzrlü səbəblərdən, maddi imkansızlıq və fiziki çatışmazlıq üzündən cihadda iştirak etməmək üçün icazə alırlar. Amma ikinci qrup yalançı münafqlərdən ibarətdir. Onlar heç bir üzr olmadan cihaddan boyun qaçırırlar. Allah-taala bu iki qrupu müqayisə edərək, ikincinin nə qədər bədbəxt və nanəcib olduğunu aşkara çıxarır[821].

91. Təbliğat apararaq mücahidləri dəstəkləyin: Bu ayə yuxarıda qeyd edilən birinci qrupun vəzifəsini müəyyən edir, onlara silah götürə bilməsələr də, döyüş meydanında iştrak etməyə gücləri çatmasa da, mücahdlərə sözlə, danışmaqla, təbliğatla, davranış tərzi ilə stimul versinlər, onları mübarizəyə ruhlandırsınlar, cihadın faydalarını saymaqla onların ruhiyyələrini gücləndrsinlər, eyni zamanda nə qədər bacarırlarsa, düşmənin ruhiyyəsini zəiflətsinlər, onların məğlubiyyətinin başlanğıcını təmin etməkdə səhlənkarlıq göstərməsinlər. Əsl mənası ixlas və səmimiyyət olan "nəsh" sözü bütün növ ixlaslı xeyirxahlıqları və fəaliyyətləri əhatə edən ümumi bir sözdür. Bu ayədən belə başa düşülür ki, Allah yolunda cihad edən mücahidlərlə əməkdaşlıq etməkdə heç kəsə güzəşt edilmir. Hətta xəstə və

[820] Nümunə, c.8, səh.75
[821] Əl-Mizan, c.9, səh.373

kor olanlar, silah götürmək və döyüş meydanında iştirak etmək iqtidarında olmayanlar da dilləri, təbliğatları və əməlləri ilə mücahidləri dəstəkləməlidirlər. Yəni chadın bir neçə mərhələsi var, bir mərhələdə üzrü olan şəxs digər mərhələlərdə də üzrlü sayılmır[822].

91-92. Cihadda iştirak edə bilməyib, lakin qəlbləri mücahidlərlə olan şəxslərin mükafatı: Bəzi hədislərdən belə nəticəyə gəlirik ki, üzrü olan qruplar müharibədə iştirakdan və cəzadan azad edilməklə yanaşı, cihadda iştiraka olan sevgiləri miqdarında mücahidlərin cavab və mükafatlarına da ortaqdırlar. Təbuk döyüşündən qayıdıb Mədinəyə çatdıqdan sonra Peyğəmbər (s) belə buyurmuşdur: ***"Siz özünüzdən sonra bu şəhərdə elə kişiləri qoyub getmişdiniz ki, bütün yol boyu sizinlə idilər. Atdığınız hər addımda, xərclədiyiniz hər malda, keçdiyiniz hər yerdə sizinlə bir idilər."*** Soruşdular: "Ey Allahın rəsulu, necə yəni bizimlə bir yerdə idilər? Halbuki Mədinədə idilər." Buyurdu: ***"Çünki onlar üzrləri olduğu üçün cihadda iştirak edə bilmədilər. (Amma qəlbləri sizinlə idi)"***[823]

[822] Nümunə, c.8, səh.81
[823] Nümunə, c.8, səh.82

94. (Cihaddan imtina edənlərin) yanlarına qayıtdığınız zaman onlar sizdən üzr istəyərlər. De: “Üzr istəməyin, onsuz da sizə inanmayacağıq. Çünki Allah əhvalınızdan bizi xəbərdar etmişdir. Allah və Peyğəmbəri sizin əməllərinizi görür. Sonra qeybi və aşkarı bilənin hüzuruna qaytarılacaqsınız, O da sizə nə etdiklərinizi xəbər verəcəkdir!

95. Yanlarına qayıtdığınız zaman onlara göz yummağınız (münafiq davranışlarına susub məzəmmət etməməniz) üçün Allaha and içəcəklər. Siz onlardan üz çevirin! Çünki onlar murdardırlar və qazandıqlarının cəzası olaraq düşəcəkləri yer də Cəhənnəmdir!

96. Onlardan razı olasınız deyə, sizə and içəcəklər. Siz onlardan razı olsanız da, Allah fasiq bir tayfadan razı olmaz!

97. Bədəvilər küfr və nifaq baxımından daha qəliz və Allahın öz Peyğəmbərinə nazil etdiyi hökm və qanunladan xəbərdar olmamağa daha layiqdirlər. Allah biləndir, hikmət sahibidir!

98. Bədəvilər içərisində elələri vardır ki, (Allah yolunda) xərclədiklərini ziyan sayar və başınıza müsibətlər gəlməsini gözləyərlər. Müsibətlər onların özləri üçündür! Allah (hər şeyi) eşidəndir, biləndir!

99. Bədəvilər içərisində elələri də vardır ki, Allaha, Qiyamət gününə inanır, xərclədiklərini Allaha yaxınlıq və Peyğəmbərin dualarına nail olmaq üçün vəsilə sayırlar. Bilin ki, bu onlar üçün yaxınlaşmağa bir səbəbdir. Allah onları Öz mərhəmətinə nail edəcəkdir. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!

---

94. Cihaddan imtina edənlərin uzaqlaşdırılması: Mənbələrdə bu və sonrakı iki ayənin nazilolma səbəbinin Peyğəmbərin (s) Təbuk döyüşündən Mədinəyə geri dönərkən Allah yolunda cihad etməkdən boyun qaçırmış və sayları səksən nəfər olan bir qrup münafiqi özündən uzaqlaşdırması ilə bağlı olduğu qeyd edilmişdir. Peyğəmbər (s) onlar haqqında belə buyurmuşdur: ***"Nə onlarla otur-dur edin, nə də onlarla danışın."*** Bu ayə onların vəziyyətinə işarə edir[824].

95. Münafiqlərdən üz döndərmək: "Turizu" və "ərizu" sözlərinin hər ikisinin kökü "iraz" sözü olmaqla eynidir. Bu söz iki mənada işlənir. Birinci məna münafqlərin möminlərə ünvanladığı istək zamanı ifadə edilmişdir. Yəni sizdən onların münafiq davranışlarına sükut etməyinizi və onları qınamamağınızı istəyirlər. İkinci məna isə Allahın möminlərə göstərişində öz əksini tapır. Yəni Allah möminlərə "onlardan üz çevirin", - deyə göstəriş verdikdə, burada üz çevirmək münafiqlərlə oturub-durmamaq, onları xar etmək mənasında işlənmişdir. Hədislərinin birində Peyğəmbər (s) buyurmuşdur: "Dörd şey qəlbi sıradan çıxarır. O dörd şeydən biri ölülərlə

---

[824] Əl-Mizan, c.9, səh.381

oturub-durmaqdır.” Səhabələr “Ey Allahın rəsulu, ölülər kimlərdir?” – deyə soruşduqda buyurmuşdur: “İmandan və ilahi hökmlərdən sapmışlar.”[825]

97. İslamda bədəvi ərəblər və bədəvi ərəb: Bu və sonrakı iki ayədə bədəvi münafiqlər, onların əlamətləri və fikirləri, həmçinin bədəvilərin müxlis və həqiqi möminlərindən söhbət açılmışdır. “Ərab” (bədəvilər) cəm bildirir. Çoxlarının təsəvvürünün əksinə olaraq “ərab” ərəb sözünün cəmi deyil, dildə onun təki də yoxdur. Bu söz bədəvi ərəblərə şamil olur. Bu sözün tək halını fadə etmək istədikdə sözün sonuna mənsubiyyət bildirən “yə” hərfi əlavə edilir və “ərabi” formasında işlədilir. Deməli “ərab” bədəvi ərəblər, “ərabi” isə bədəvi ərəblərdən biri deməkdir. “Ərabi” bədəvi ərəb mənasını versə də, hədislərdə bu sözün geniş məzmun ifadə edildiyinin şahidi oluruq. Başqa sözlə desək, İslama görə onun coğrafi regionla heç bir əlaqəsi yoxdur, təfəkkür tərzi və fikri regiona şamil edilir. Yəni İslam qanunlarından, adət-ənənələrindən xəbər və məlumatı olmayanlar, şəhərlərdə yaşasalar belə, ərabi deyilir. İmam Sadiqin (ə) məşhur bir hədisi bu fikri təsdiq edir. Həmin hədisdə deyilir: ***“Sizin dininizdən xəbəri olmayan hər bir şəxs bədəvidir.”*** Başqa bir hədisdə belə deyilir: ***“Hicrətdən sonra bədəvi olmaq küfrün bir formasıdır.”*** İmam Əli (ə) bir qrup üsyankar səhabəsinə xitabən belə buyurmuşdur: ***“Biln ki, siz hicrətdən sonra bədəvi oldunuz.”*** Qeyd olunan son iki hədisdə bədəvilik hicrətin əks tərəfi kimi göstərilmişdir. Hicrətin geniş məzmununun məkan çərçivəsinin fövqündə dayandığını, fikrin küfür müstəvisindən iman müstəvisinə keçid mənası daşıdığını nəzərə alsaq, “bədəvi ərəb” sözünün mənası da başa düşülür.

---

[825] Vəsailüşşiə, c.16, səh.266

İslam ənənələrindən, həyat tərzindən və qanunlarından cahiliyyət həyat tərzinə, ənənələrinə və qanunlarına qayıdış[826].

[826] Nümunə, c.8, səh.93

100. Mühacir və ənsardan daha öndə olanlara, habelə yaxşı işlər görməkdə onların ardınca gedən şəxslərə gəldikdə, Allah onlardan, onlar da Allahdan razı oldu. (Allah) onlar üçün əbədi qalacaqları, (ağacları) altından çaylar axan Cənnətlər hazırlamışdır. Bu, böyük qalibiyyətdr!

101. Ətrafınızdakı (Mədinənin ətrafında məskunlaşmış) bədəvilərdən bir qrupu münafiqdir. Mədinə əhalisindən (də) bir qrupu inadkar münafqdir. Sən onları tanımırsan, Biz isə onları tanıyırıq. Onlara iki dəfə (dünyada rüsvay etməklə, öləndən sonra əzaba düçar etməklə) əzab verəcəyik. Sonra isə (Qiyamətdə) ən böyük əzaba uğrayacaqlar.

102. Bir qismi günahlarını etiraf etdi, yaxşı və pis əməlləri bir-birinə qarışdırdılar. Ümid var ki, Allah onların tövbələrini qəbul etsin. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!

103. Onların mallarından sədəqə (zəkat) al ki, bununla onları təmizləmiş, pak etmiş və təlimatlandırmış olasan. (Zəkat alarkən) onlara dua et, çünki sənin duan onlar üçün bir rahatlıq vasitəsidir. Allah eşidəndir, biləndir.

104. Məgər onlar bilmirlər ki, tövbəni bəndələrindən qəbul edən, sədəqəni (zəkat) alan yalnız Allahdır. Allah tövbələri qəbul edəndir, mərhəmətlidir?!

105. De: “Əməl edin. Allah, Onun Peyğəmbəri və möminlər əməllərinizi görürlər. Siz qeybi və aşkarı bilən Allahın hüzuruna qaytarılacaqsınız, O da sizə nə etdiklərinizi xəbər verəcəkdir!”

106. Bir qism də Allahın fərmanına həvalə edilib. Allah ya onlara əzab verəcək, ya da tövbələrini qəbul edəcək. Allah biləndir, hikmət sahibidir!

---

100. Mühacirlərdən daha öndə olanları: Şiə və sünnilər tərəfindən nəql edilən hədislərin çoxuna əsasən, İslamı ilk qəbul edən şəxs Əli ibn Əbutalib (ə) olmuşdur. O, mühacir və ənsarın öndə olanlarının başında durur[827]. Bəzi alim və təfsirçilər bu ayəyə istinad edərək, Peyğəmbərin (s) bütün səhabələrinin təmiz, düz və Cənnət əhli olduğunu iddia etmiş, hətta bu iddianı təsdiq edəcək hədislər də nəql etmişlər. Əslində, bu iddianı qəbul etmək üçün Quranın bir çox ayəsini inkar etmək lazımdır. ***"Allah fasiqlərdən əsla razı olmayacaq"***, ***"Allah zülmkarları sevmir"*** və sair kimi ayələrdən belə nətcə əldə etmək olar ki, peyğəmbərin səhabələri arasında Təlhə və Zübeyr kimi fasiq və zalım insanlar var idi. Onlar İmam Əliyə (ə) qarşı müharibəyə qalxmaqla on yeddi min müsəlmanın qanının axıdılmasına səbəb oldular. Təbii ki, ***"Mühacir və ənsardan daha öndə olanlar, habelə yaxşı işlər görməkdə onların ardınca gedən şəxslər"*** deyildikdə Peyğəmbərin (s) ətrafında olan bütün səhabələr, onların ilahi əzabdan xilas olması, dediklərinin dəlil hesab edilməsi nəzərə tutulmur. Həmin şəxslər Allahın razılığı yolunda addım atanlardır[828].

103. Zəkar təmizləyici və tərbiyələndiricidir: Bu ayədə zəkat hökmünə işarə edilmişdir. Zəkat İslam dininin əsas prinsiplərindəndr. Bu, ayənin zahirindən və habelə ayənin təfsiri ilə bağlı Əhli-beyt (ə) imamlarından nəql edilmiş hədislərdən də başa düşülür. Allah-taala zəkatı insanı təmizləyən və

---

[827] Nümunə, c.8, səh.103
[828] Nümunə, c.8, səh.108; Əl-Mizan, c.9, səh.396

tərbiyələndirən bir vasitə kimi tanıtdırmışdır. Bəzi təfsirçilər bu ilahi vacibi ağacın inkişafına və boy atmasına səbəb olan artıq budaqların və yarpaqların budanmasına bənzətmişlər. Mənbələrin yazdığına görə, zəkat gətirildikdə Peyğəmbər (s) zəkat verənə və onun ailəsinə dua edərmiş[829].

104. Allah sədəqə alandır: Zəkat və sədəqələri alan ya Peyğəmbər (s), imam (ə) və müsəlmanların rəhbəri, ya da haqqı çatan insandır. İstənilən halda, Allah zahirdə onları almır, sadəcə peyğəmbər, ilahi rəhbərlər Allahın yer üzərindəki nümayəndələri olduğu və buna görə də Onun əli hesab edildikləri üçün bu ifadə belə işlədilmişdir. Habelə Allahın icazəsi və fərmanı ilə bu sədəqələri qəbul edən ehtiyaclı bəndələr, həqiqətdə, Allahın nümayəndələri hesab edilirlər. Bu şəkildə onların əli də Allahın əli hesab edilir. Bu ifadə eyni zamanda zəkat və sədəqə vermək üçün çox yaxşı stimuldur, bütün müsəlmanlara zəkat və sədəqələrini ödəyərkən son dərəcə ədəbli və hörmətlə davranmağı aşılayır. Çünki zəkat və sədəqəni alan yalnız Allahdır. Peyğəmbər (s) hədislərinin birində belə buyurmuşdur: ***"Sədəqə ehtiyacı olan insanların əlinə yetməzdən əvvəl Allahın əlinə yetişir."***[830]

105. Peyğəmbər (s) və Əhli-beytin (ə) ümmətin əməllərindən xəbərdar olması: Bu ayə və Əhli-beyt (ə) imamları tərəfindən rəvayət edilmiş çoxlu sayda hədislərdən belə başa düşülür ki, Peyğəmbər (s) və imamlar (ə) bütün ümmətin əməllərindən xəbərdar olurlar. Yəni Allah xüsusi bir vasitə ilə ümmətin əməllərini onlara təqdim edir. İmam Sadiq (ə) buyurmuşdur: ***"İnsanların bütün əməlləri hər gün sübh tezdən Peyğəmbərə təqdm edilir. Pislərin və yaxşıların əməlləri. Buna görə ehtiyatlı olun. Bu Allahın "De, əməl edin..." ayəsinin məzmunudur."*** Bir nəfər İmam Rzaya (ə) "Mənə və ailəmə dua et", - deyə müraciət etdikdə İmam (ə) belə buyurmuşdur: ***"Məgər***

---

[829] Əl-mizan, c.9, səh.390
[830] Nümunə, c8, səh.121

mən dua etmrəm? And olsun Allaha, sizin əməlləriniz hər gün səhər və axşam mənə təqdim edilir. Məgər Allahın kitabında "De, əməl edin..." ayəsini oxumursan? And olsun Allaha, möminlər deyilərkən İmam Əli ibn Əbutalib (və onun övladlarından olan digər imamlar) nəzərdə tutulmuşdur."[831]

107. (Onların bir qrupu da müsəlmanlara) zərər vurmaq, küfr (küfrü gücləndirmək), möminlər arasına təfriqə salmaq məqsədilə məscid, daha öncə Allah və Onun Peyğəmbərinə qarşı mübarizə aparmış şəxsə sığınacaq

[831] Nümunə, c.8, səh.125

tikən şəxslərdr. Onlar: “Bizim yaxşılıq etməkdə başqa bir fkrimiz olmamışdır”, - deyə and içərlər. Allah onların yalançı olduğuna şahidlik edir.

108. Orada heç vaxt (namaza) durma. İlk gündən bünövrəsi təqva üzərində qurulmuş məscid namaza durmağına daha layiqdir. Orada paklanmağı sevən insanlar vardır. Allah pak olanları sevər!

109. Onun özülünü Allah qorxusu və razılığı üzərində quran kəs daha yaxşıdır, yoxsa onun əsasını zəif bir uçurumun kənarında inşa edib qəfildən Cəhənnəm oduna yuvarlanan kəs?! Allah zalım tayfanı doğru yola yönəltməz!

110. Onların qurduğu bu bina ürəkləri parça-parça olana qədər qəlblərində bir şübhə və tərəddüd vasitəsi olaraq qalacaqdır. Allah biləndir, hikmət sahibidir!

111. Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərdən canlarını və mallarını Cənnət müqabilində satın almışdır. Bu, Tövratda, İncildə və Quranda qeyd edilmiş haqq vəddir. Allahdan daha çox əhdə vəfa edən kimdir? Etdiyiniz ticarətə görə müjdə olsun sizə. Bu, böyük qələbədir!

---

107. Zirar məscidi və ya casusluq yuvası: Mənbələrin yazdığına görə, Bəni Əmr ibn Ouf tayfasından bir qrup Mədinənin yaxınlığında Quba adlanan bir yerdə məscid tikdirib Peyğəmbərdən (s) orada namaz qılmasını və gəlişi ilə həmin məscidi şərəfləndirməsini istəyirlər. Peyğəmbər (s) də onların bu dəvətini qəbul edir, həmin məscidə gedib orada namaz qılır. Bu hadisədən sonra münafiqlərdən olan Bəni Ğənəm ibn Ouf tayfasından olan bir qrup Quba məscidi tikənlərin paxıllığını çəkir və öz-özlərinə deyirlər ki, Quba məscidinə qarşılıq olaraq bir məscid tikib orada namaz qılaq və

Muhəmmədin (s) rəhbərlik etdiyi camaat namazında iştirak etməyək. Bundan başqa, münafiqlər bu işləri ilə Əbu Amir Rahib üçün bir mərkəz yaratmaq istəyirdilər. O, cahiliyyət dövründən əvvəl xristian rahibi olmuşdu. Peyğəmbər (s) Mədinəyə gəldikdən sonra onun paxıllığını çəkdiyi üçün Peyğəmbərə (s) qarşı dəstələr yaratmış, sonra Məkkəyə qaçmışdı. Məkkənin fəthindəın sonra Taifə qaçmış, Taif əhalisi İslamı qəbul etdikdən sonra Şama qaçıb orada gizlənmişdi. Rum imperatorundan yardım istəmək niyyəti ilə buradan da Ruma qaçmış. Elə həmin ərəfədə Mədinə münafiqlərinə xəbər göndərmiş və onlardan Peyğəmbərlə (s) müharibəyə hazırlaşmalarını, məscid tikib onu və Rum ordusunu gözləmələrini istəmişdi. Lakin Rum ipmeratoruna çatmamış ölüm onu elə yolda haqlamışdır. Hər halda, münafiqlər bu məscidi inşa edir və Peyğəmbərdən (s) orada namaz qılmasını istəyirlər. Peyğəmbər (s) onlara söz verir ki, Təbukdan qayıtdıqdan sonra orada namaz qılacaq. Ancaq qayıtdıqdan sonra Allah-taala bu ayələri nazil edərək onu münafqlərin fitnəsindən xəbərdar edir və müsəlmanlara həmin məscidi uçurmalarını, yandırmalarını və həmin yeri zibilxanaya çevirmələrini göstəriş verir[832].

108. Məscidin siması və həqiqi məscidlər: İlk gündən təqva bünövrəsi əsasında inşa edilmiş məscid deyilərkən yuxarıdakı ayələrin izahında da qeyd etdiyimiz kimi, Quba məscidi nəzərdə tutulur. İmam Sadiqin (ə) də bir hədisində bu mövzu işıqlandırılmışdır[833]. Zirar məscidi hadisəsi və bu ayələrdən götürdüyümüz çox qiymətli dərslərdən biri budur ki, müsbət dini, sosial və aktiv mərkəzin iki əsas xüsusiyyəti olmalıdır: Birincisi, onun bünövrəsi və məqsədi ilk başlanğıcda pak olmalıdır: “İlk gündən bünövrəsi təqva üzərində qurulmuş”, ikincisi, himayəçiləri və mühafizəçiləri pak, düz

[832] Əl-Mizan, c.9, səh.404
[833] Əl-Mizan, c.9, səh.405

imanlı və bəlli insanlar olmalıdır: “Orada paklanmağı sevən insanlar vardır” Bu iki əsas xüsusiyyətin hər birinin ortadan qalxması nəticə olmamasına və məqsədə çatmamağa səbəb olur[834]. Məscid əhlinin paklığı deyilərkən zahiri və fiziki, yoxsa mənəvi və batini paklığın nəzərdə tutulması məsələsi təfsirçilər arasında fikr ayrılığının yaranmasına səbəb olmuşdur. Lakin çox böyük ehtimalla paklıq burada geniş məna ifadə edir, ruhun günah və şirkin təsirlərindən təmizlənməsinə, cismin çirk və nəcasət bulaşığından təmizlənməsinə şamil olur[835].

111. Cihad Allahla edilmiş ən faydalı ticarətdir: Allah-taala bu ayədə özünü alıcı, möminləri satıcı, onların can və mallarını əmtəə, Cənnəti onun qiyməti, Tövrat, İncil və Quranı bu alqı-satqının sənədi kimi təqdim etmişdir[836]. Burada insan Allahın bütün bu lütf və məhəbbətindən heyrətə gəlir. Bütün varlıq aləminin maliki, bütün yaradılış dünyasının mütləq hakimi, hər kəsə sahib olduğunun da sahibi olan Allah öz bəndələrinə bağışladığı həmin nemətləri onlardan satın alır, bağışladıqlarını bir neçə yüz dəfə baha qiymətə satın alır. Bundan da faydalı ticarət olarmı? Cabir ibn Abdulla Ənsariyə istinad edilən bir hədisdə belə qeyd edildiyini oxuyuruq: “Bu ayə nazil olanda Peyğəmbər (s) məsciddə idi. Oradakılar sevinclərindən təkbir dedilər. Ənsardan olan bir nəfər yaxınlaşıb təəccüblə Peyğəmbərdən (s) soruşdu: “Həqiqətən, indi nazil olan bu ayə idi?” Peyğəmbər (s) “Bəli”, - deyə cavab verdi. Həmin ənsardan olan kişi dedi: “Çox faydalı bir ticarətdir. Bu alqı-satqıdan dönmərik. Əgər bizdən bu ticarətdən dönməmzi istəsələr, qəbul etmərik.”[837]

---

[834] Nümunə, c.8, səh.146
[835] Nümunə, c.8, səh.140
[836] Əl-Mizan, c.9, səh.410
[837] Nümunə, c.8, səh.149

112. Tövbə, ibadət və şükür-səna edənlər, səyahət edənlər, rüku və səcdə edənlər, yaxşı işlər görməyi əmr edib pis işləri yasaq edənlər və Allahın hədlərini (halal-haramı) qoruyanlar (həqiqi möminlərdir). (Belə) möminləri müjdələ!

113. Müşriklərin Cəhənnəmlik olduqları bəlli olduqdan sonra onlarla qohum olsalar belə, Peyğəmbərə və iman gətirənlərə onlar üçün bağışlanma diləmək yaraşmaz!

114. İbrahimin öz atası (əmisi) üçün bağışlanma diləməsi isə ancaq (əmisini imana cəlb etmək məqsədilə) ona verdiyi bir vədə görə idi. Lakin atasının Allaha düşmən olması İbrahimə aydın olduqda, o, öz atasından uzaqlaşdı (onunla bütün əlaqələrini kəsdi). Həqiqətən, İbrahim mehriban, həlim və dözümlü idi.

115. Allah bir tayfanı doğru yola yönəltdikdən sonra qorxub çəkinməli olduqları şeyləri özlərinə bildirmədən onları (haqq yolundan) sapdırmaz! Çünki Allah hər şeyi biləndir!

116. Göylərin və yerin hökmranlığı Allaha məxsusdur. Dirildir və öldürür. Sizin Allahdan başqa havadarınız və köməyə çatanınız yoxdur!

117. Bir qismin ürəyi haqdan sapmaq (döyüş meydanından qayıtmaq) üzrə ikən Allah öz rəhmətini Peyğəmbərə, çətin saatda onun arxasında gedən mühacirlərə və ənsara şamil etdi, sonra da onların tövbələrini qəbul buyurdu. Çünki O, onlara qarşı mehriban və rəhmlidir.

---

112. Həqiqi şəhidlərin xüsusiyyətləri: İmam Sadiqə (ə) istinad edilən bir hədisdə qeyd edilir ki, "Tövbə" surəsinin mücahdlərə müjdə verən 111-ci ayəsi nazil olduqdan sonra bir nəfər Peyğəmbərdən (s) soruşdu: "Əgər bir nəfər qılıncını çəkib cihada getsə və öldürülsə, ancaq həyatında çox böyük günah etmiş olsa, şəhid hesab edilirmi və bu ayə ona da şamil olurmu?" Bu vaxt bu ayə nazil oldu, həqiqi mücahid və şəhidlərin xüsusiyyətlərini bəyan etdi[838]. Allah-taala bu ayədə möminləri ən gözəl xüsusiyyətlərlə səciyyələndirir. Bunlar elə xüsusiyyətlərdir ki, əgər bunlara malik olsalar, imanları kamilləşər, Allahın Cənnətlə bağlı verdiyi qəti vəd onlara şamil olar. Bu xüsusiyyətlərə malik olanlar çox azdır. İmam Sadiqin (ə) bir hədisində belə qeyd edilmişdir: ***"Əbbad Bəsri adlı bir nəfər İmam Səccadın (ə) Həcc mərasimi üçün Məkkəyə getdiyini görüb (özünü müqəddəsliyə vuraraq) deyir: Ey Hüseynin oğlu Əli, çətin olan Cihadı tərk edib asan və rahat olan Həccə üz tutmusan. Məgər Allah buyurmayıb ki, "Allah satın***

---

[838] Kafi, c.5, səh.15

almışdır...” İmam Səccad (ə) buyurur: “Əgər möminləri Allahın vəsf etdiyi şəkildə görsəydim (Tövbə-112), bəli, onlarla birlikdə edilən cihad Həccdən yaxşı olardı.”[839]

112. Möminlərin səyahəti: Səyahətin mənası yer üzündə seyr və hərəkətdir. Burada səyahət deyilərkən Allahın yad edildiyi və ona ibadət edilən məkanlara getmək, həmin yerlərə səfər etmək nəzərdə tutulur. Məscidləri buna misal göstərə bilərik. Həqiqi möminlər bir məsciddən başqa bir məscidə, bir dini məclisdən başqa bir dini məclisə gedənlərdir. Onların ibadət işığında həyata keçirdikləri özünüdüzəltmə proqramları məhdud bir mühitlə xülasələşmir. Onlar üçün hər yer Allaha bəndəlik, özünü düzəltmə və özünütərbiyə mərkəzidir. Peyğəmbər (s) buyurmuşdur: ***“Mənim ümmətimin səyahəti məscidlərdədir.”***[840]

113-114. Təkəbbürlü müşriklər üçün bağışlanma diləyinin qadağan olunması: 113-cü ayədə Peyğəmbər (s) və möminlərə müşriklər üçün bağışlama istəməyi qətiyyətlə qadağan edir. Çünki bu iş əsla bağışlanmağa layiq olmayan, xilas yolu görünməyən bir fərd üçün yersiz arzu diləməkdir. Bundan əlavə, bağışlanma istəyi bir növ məhəbbətin izharıdır, müşriklərə qarşı sevgi bəsləmək isə qadağandır. Qurandan xəbəri olan müsəlmanlar ayələrdə həzrət İbrahimin (ə) öz əmisi üçün bağışlanma dilədiyini oxumuşdular. Buna görə də onların ağlına belə bir sual gələ bilərdi ki, məgər Azər müşrik deyildi? Əgər bu əməl qadağan idisə, nə üçün Allahın bu böyük peyğəmbəri həmin əməli etmişdi?[841] Quran bu düşüncəyə belə cavab verir: İbrahim (ə) müşrik əmisi üçün ona görə bağışlanma istəmişdi ki, onun müşrik olmasına baxmayaraq, Allahla düşmənçilik etmədiyini, inadkarlıq

---

[839] Əl-Mizan, c.9, səh.420
[840] Nümunə, c.8, səh.151; Əl-Mizan, c.9, səh.411
[841] Nümunə, c.8, səh.155

göstərmədiyini düşünür, haqq yola yönələcəyinə ümid edirdi. Əslində, mehribanlıq göstərərək Allahdan onun üçün bağışlanma diləyəcəyini vəd vermişdi. Lakin onun Allahla düşmənçilik etdiyindən, şirk və azğınlığında israr göstərdiyindən xəbər tutduqda ondan uzaqlaşdı[842].

117. Təbuk döyüşünün çətinliklərindən bir epizod: Bu ayə Təbuk döyüşü və müsəlmanların həmin döyüşdə qarşılaşdıqları çətinliklər haqqında nazil olmuşdur. Döyüşdə vəziyyət o həddə çatır ki, bir qrup müsəlman qayıtmaq qərarına gəlir. Lakin Allahın lütfü sayəsində bu qərardan daşınırlar. Bu döyüşdə müsəlmanların qarşılaşdığı çətinliklərdən biri bu idi ki, hər on nəfərə bir dəvə düşürdü, müsəlmanlar dəvələri növbə ilə minirdilər. Azuqələri kəpəkli arpa unu, az miqdarda xarab olmuş xurma, vaxtı ötmüş yağ idi. Xurma da o qədər az idi ki, bir nəfər onu ağzına qoyub dadı ağzına çıxana qədər sorub ikinci adama verir və bir qurtum su içirdi. Bu hərəkət xurmanın dənəsi qalana qədər davam edirdi[843].

[842] Əl-Mizan, c.9, səh.411
[843] Əl-Mizan, c.9, səh.422

118. (Təbuk döyüşündən) geri qalmış üç nəfəri də bağışladı. Hətta yer üzü bütün genişliyinə baxmayaraq, onlara dar gəlmiş, ürəkləri sıxılmış və yəqin bilmişdilər ki, Allahdan (Onun əzabından), ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur. Allah tövbələri qəbul edən və rəhmlidir!

119. Ey iman gətirənlər! Allahdan (Onun əmrinə qarşı çıxmaqdan) qorxun və sadiqlərlə (doğru danışanlar) olun!

120. Mədinəlilərə və onların ətrafındakı bədəvilərə (döyüşdə) Allahın peyğəmbərindən geri qalmaq, onun canından öncə öz canlarının hayına qalmaq yaraşmaz. Çünki Allah yolunda onlara elə bir susuzluq, yorğunluq və aclıq üz verməz, kafirlərin qəzəbinə səbəb olan elə bir yerə onlar ayaq basmaz və düşməndən elə bir bəla, müsibət görməzlər ki, bunların müqabilində onlara yaxşı bir əməl yazılmamış olsun! Həqiqətən, Allah yaxşı işlər görənlərin mükafatını zay etməz!

121. Allah onları, etdikləri əməllərin ən gözəli ilə mükafatlandırsın deyə az və ya çoxluğundan asılı olmayaraq xərclədikləri elə bir mal, (cihada gedərkən və dönərkən) qət etdikləri elə bir yer yoxdur ki, (buna görə) onlara (savab) yazılmasın.

122. Möminlərin hamısının (cihad meydanına doğru) hərəkət etməsi də münasib deyil. Nə üçün hər tayfadan bir dəstə qalıb dinə dərindən yiyələnməsin, öz tayfalarına geri döndükdə onları qorxutmasın. Bəlkə (Allahın əmrinə qarşı çıxmaqdan) qorxub çəkinsinlər!

---

118. Çox-çox tövbə qəbul edən Allah: Təfsirçilər bu ayənin Kəb ibn Malik, Mərarə ibn Rəbi və Hilal ibn Üməyyə adlı üç nəfər müsəlmanın səfəri ilə bağlı nazil olduğunu qeyd edirlər. Bu üç nəfər Peyğəmbərin (s) əmrindən çıxıb onunla Təbuka getməkdən imtina etsələr də, etdiklərindən peşman olurlar. Peyğəmbər (s) Mədinəyə geri döndükdə yanına gedib üzr istəyirlər. Peyğəmbər (s) onlarla danışmır, müsəlmanlardan da onlarla danışmamalarını istəyir. Buna görə də hər kəs, hətta uşaqlar da onlardan uzaq gəzir. Bu üç nəfərin həyat yoldaşları Peyğəmbərin (s) yanına gəlib deyirlər: "Biz də həyat yoldaşlarımızdan uzaq duraq?" Peyğəmbər (s) buyurur: "Xeyr, amma onlar sizə yaxınlaşmasın." Nəticədə Mədinədə yaşamaq onlar üçün çətinləşir, əlacsız qalıb Mədinə dağlarına sığınırlar. Hər gün ailələri onlara yemək aparır, lakin onlarla danışmırlar. Onlar bir-birlərinə deyirlər: "İndi ki, camaat bizdən küsüb bizimlə danışmır, biz nə üçün bir-birimizlə danışaq?" Buna görə də bir-birlərindən ayrılırlar. Əlli gün belə yaşayır, Allaha yalvarıb tövbə edirlər. Nəhayət, Allah onların tövbəsini qəbul edir və bu ayəni onlar haqqında nazil edir. Bu ayədə incə bir nüans var, o da budur ki, Allah ***"Sonra Allah rəhmətini onlara şamil etdi. Allah çox tövbə qəbul edən və rəhmlidir!"***, - deyə buyurur. Təfsirçilər bu cümləni izah edərkən qeyd edirlər ki, bəndənin tövbəsi Allah tərəfindən olan iki tövbə arasında yer almışdır. Öncə Allah insana diqqət ayırır və ona tövbə uğuru bəxş edir, sonra insan tövbə edib bağışlanma diləyir, bundan sonra Allah yenidən diqqət göstərib insanın tövbəsini qəbul edir[844].

---

[844] Əl-Mizan, c.9, səh.422

119. Əhli-beyt (ə) həqiqi doğru danışandır: Bu ayə şiə alimlərinin şiə məzhəbinin haqq olduğunu və pak imamların imamlığını sübuta yetirmək üçün istinad etdikləri ayələrdəndir. Onların bu istinadla bağlı dəlilləri ayənin sözləri və bu ayə ilə bağlı olan hədislərdir. Ayədə ***"sadiqlərlə olun!"***, - deyə buyurulmuşdur. Düzlüyün mərhələləri, dərəcələri var və bu ayədə düzlüyün bütün dərəcələrinə mütləq şəkildə işarə edilmişdir. Əməldə düzlük, danışıqda, niyyətdə düzlük, inancda-etiqadda düzlük. Bütün bu mərhələlərdə düz olan adam, heç şübhəsiz, məsumdur. Yəni əməldə, danışıqda, niyyətdə zərrə qədər də olsun yalana, xətaya yol vermirlər, bütün varlıqları hər bir səhvdən uzaqdır[845].

122. Dini biliklərin öyrənilməsinin zəruriliyi: Əvvəlki ayələrlə cihad məsələsində bağlılığı olan bu ayədə müsəlmanlar üçün həyati əhəmiyyət daşıyan bir reallığa işarə edilir. O da bundan ibarətdir ki, cihad çox əhəmiyyətli, ondan yayınmaq isə utanc verici və günah olsa da, zərurət yarandıqda möminlərin hamısının cihad meydanında iştirakı lazım olmur. Xüsusilə Peyğəmbər (s) Mədinədə olduğu vaxtlarda digər şəhərlərin möminlərinin hamısı cihada getməməli, onların bir qrupu Mədinəyə getməli, orada dini hökmlərə yiyələnməli, geri döndükdə öz həmşəhərlilərini dini maarif ilə tanış etməli, təqva və pərhizkarlığa dəvət etməlidir[846]. Bu ayədə müsəlmanlar "öyrədənlər və öyrənənlər" olmaqla, iki qrupa bölünmüşdür. Yəni hər bir müsəlman bu iki qrupdan birində yer almalıdır, ya öyrətməlidir, ya da öyrənməlidir. İslam tarixində çoxlu alim başqalarına təbliğ etmək üçün İslam elmlərinin öyrənilməsinin "kifayi vacib" kontekstində lazım olduğunu sübuta yetirmək üçün bu ayəyə istinad etmişlər. Müasir dünya ölkələrinin çoxunda təhsil və elmi biliklərə yiyələnmək məcburidir. Qanunun tələbi ilə

---

[845] Ətyəbül-bəyan, c.6, səh.329
[846] Nümunə, c.8, səh.190

hər bir uşaq təhsil almalıdır. Əgər oxumasa, onun valideyni cəzalandırılır. Lakin heç bir yerdə öyrətmək qanunla məcbur edilmir. Öyrətmək ixtiyari bir məsələdir, insan öyrətməyə də bilər. İslamda isə təhsil vacib olduğu üçün onun başqalarına öyrədilməsi də vacib və zəruridir. Bu ayə qeyd olunan fikrin dəlillərindəndir[847].

123. Ey iman gətirənlər! Yaxınlığınızda olan kafirlərlə vuruşun. Qoy onlar sizdə sərtlik görsünlər. Bilin ki, Allah müttəqilərlədir!

[847] Quranın ismarışı, c.10, səh.282

124. Bir surə nazil edildiyi zaman onlardan: “Bu surə sizin hansınızın imanını artırdı?” – deyənlər də var. (Onlara de:) “Möminlərə gəlincə, onların imanını artırar və onlar (ilahi rəhmət və lütfkarlığa görə) sevinərlər.

125. Qəlblərində xəstəlik olanlara gəldikdə isə, onların murdarlığına bir murdarlıq da artar və onlar kafir olaraq ölərlər!

126. Onlar ildə bir ya iki dəfə imtahan olunduqlarını görmürlərmi? Bununla belə, yenə tövbə etmir, ibrət almırlar!

127. Bir surə nazil edildiyi zaman onların bəzisi bir-birinə baxıb: “Sizi kimsə görürmü?”, sonra dönüb aradan çıxırlar. Onlar anlamaz bir tayfa olduqları üçün Allah da ürəklərini (haqdan) döndərmişdir!

128. Şübhəsiz ki, sizə özünüzdən bir elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir, sizin haqq yola yönəlmənizdə israrlıdır, möminlərə qarşı şəfqətli, mərhəmətlidir!

129. Əgər onlar (haqdan) üz döndərsələr, (narahat olma,) de: “Mənə təkcə Allah yetər. Ondan başqa heç bir məbud yoxdur. Ona təvəkkül etdim mən. O, böyük ərşin sahibidir!

---

123. Düşmən qarşısında qüdrət nümayişi: Allah-taala bu ayədə ümumi cihad əmri vermişdir. Bu cihadla İslam bütün dünyanı bürüyəcək şəkildə yayılmalıdır. Əgər möminlər öz yaxınlıqlarındakı kafirlərlə cihad etsələr, İslam mərhələ-mərhələ yayılar və bütün dünyaya hakim olar. Bu ayədə sərtlik deyilərkən Allah və onun dini uğrunda əməl kəskinliyi nəzərdə tutulur. Yəni burada kafirlərlə sərt, kobud və düşməncəsinə davranışdan, onlara qarşı zülm və təcavüzdən söhbət getmir. Çünki bütün dini və əxlaqi prinsiplərə görə bu davranışlar çirkindir. Cihad ayəsi də möminlərə hər növ

zülm və təcavüzü qadağan etmişdir[848]. “Onlar (kafrlər) sizdə sərtlik, güc görsünlər” cümləsindən əldə edilən nəticə budur ki, düşmən qarşısında təkcə daxili cəsarət və cürət, psixoloji hazırlıq kifayət etmir, bu hazırlığı düşmənə nümayiş də etdirmək lazımdır. Başqa sözlə desək, gücün və qüdrətin olması yetərli deyil, düşmən qarşısında qüdrət də nümayiş etdirmək lazımdır[849].

126. İllik imtahan: İldə bir ya iki dəfə təkrarlanan imtahanla bağlı təfsirçilər arasında fikir ayrılığı yaranmışdır. Bəziləri onu xəstəliklər, aclıq və digər bədbəxt hadisələr kimi izah etmiş, bəziləri İslam əzəmətinin əlamətləri və münafiqlərin məcburən iştirak etdiyi cihad meydanlarında Peyğəmbərin (s) haqq olduğunu göstərən əlamətlər müşahidəsi, bəziləri isə onların sirr pərdələrinin qalxması kimi yozmuşlar. Lakin ayənin sonunda “onlar xatırlamırlar” cümləsindən aydın olur ki, bu imtahan bu qrupun ayılmasına səbəb olan imtahan olmalıdır. Habelə ayənin məzmunundan bu imtahanın bütün insanların öz həyatlarında qarşılaşdıqları ümumi imtahandan fərqlənən bir imtahan olduğu da başa düşülür. Bu aspekt əsasında dördüncü təfsirin, yəni onların pis əməlləri üzərindən pərdə götürülməsi və zahirlərinin aşkara çıxması yozumu ayənin məzmununa daha yaxındır. Belə bir ehtimal da mövcuddur ki, sözügedən ayədə imtahan bütün bu mövzuları əhatə edəcək ümumiliyə malikdir[850].

127. İlahi ayələrin nazil olması münafiqlərin ciddi narahatlığına səbəb olurdu: Bu ayədə münafiqlərin daha bir xüsusiyyətinə işarə edilmişdir. Onlar olduğu zaman Quran surələrindən biri nazil olduqda və onlar da bunu eşitdikdə bir-birlərinə baxırmışlar. Bu baxışları ilə bir-birlərindən sanki “Sizi kimsə görürmü?” – deyə soruşurdular. Onlar bu halları ilə eşitməyə dözümü

---

[848] Əl-Mizan, c.9, səh.419
[849] Nümunə, c.8, səh.197
[850] Nümunə, c.8, səh.203

olmayan sözü eşidən, narahatlığının şiddətindən üzünün rəngi dəyişmiş, başqalarının onun bu vəzyyətindən gizli saxladığı niyyətini başa düşəcəyindən qorxan adamı xatırladırlar. Buna görə də onların streslərindən xəbərdar olan adamlardan "ətrafımızdakıların bizm halımzdan xəbəri olan varmı?", - deyə soruşurdular. Onlar ilahi ayələri qəbul etməkdən və onlara iman gətirməkdən dönmüş vəziyyətdə Peyğəmbərin (s) ətrafından dağlışırdılar[851].

128. Peyğəmbərin (s) ümmətin haqq yola yönəlməsində göstərdiyi israr: Quran ayələri və Allahın rəsulunun (s) həyatı əsasında məlum olur ki, o, bu ümmətə mehriban bir ata kimi, övladının böyüyüb boya-başa çatması üçün bütün səy və tələşını səfərbər edən, övladının yanlışlarını gördükdə ürəyi yanan atadan bəlkə də daha çox qayğı göstərmiş, ümmətin haqq yola yönəlməsi üçün çalışmış, haqq yoldan sapdıqlarına görə əziyyət çəkmişdir. Hətta iş o yerə çatırmış ki, qüssədən az qalırmış canını tapşırsın. Belə ki, "Kəhf" surəsinin 6-cı ayəsində belə qeyd edildiyini oxuyuruq: "Yoxsa bu sözlərə inanmasalar, onların etdikləri əməllərə görə özünü qəm-qüssədən həlak etmək istəyirsən?!" Peyğəmbər (s) haqq yoldan sapanları necə dəhşətli aqibət gözlədiyindən, əbədi həyatlarını oda sürüklədiklərindən xəbərdar olduğu üçün onların bu dəhşətli aqibətdən xilas olmasına çalışır, onların haqdan üz döndərməsinə görə çox narahat olurdu[852].

---

[851] Əl-Mizan, c.9, səh.426
[852] Tematik təfsirdən iqtibas, c.8, səh.290

"Yunus" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Əlif, Lam, Ra. Bunlar möhkəm və hikmətli Kitabın ayələridir!

2. İçərilərindən bir adama: “İnsanları (küfr və günahın nəticələri ilə) qorxut, iman gətirənlərə Rəbləri yanında gözəl mükafat olduğunu müjdə ver!” – deyə vəhy etməyimiz xalqa təəccüblü gəldimi ki, kafirlər: “Bu kişi açıq-aşkar bir sehrbazdır!” dedilər.

3. Rəbbiniz göyləri və yeri altı gündə (altı mərhələdə) yaradan, sonra (dünyanı) hökmü altına alıb idarə edən Allahdır. Onun izni olmadan heç bir şəfaət edən olmaz. Budur Rəbbiniz olan Allah. Ona ibadət edin. Xatırlayan adam olmaq istəmirsinizmi?

4. Hamınızın dönüşü Onadır. Allah haqq vəd verib. O, məxluqu yoxdan var edir, sonra iman gətirib yaxşı işlər görənləri ədalətlə

mükafatlandırmaq üçün yenidən qaytarır. Kafirləri etdikləri küfrlərə görə qaynar su və şiddətli bir əzab gözləyir!

5. Günəşi işıqlı, ayı nurlu edən, illərin sayını və hesabı biləsiniz deyə, ay üçün mənzillər müəyyən edən məhz Odur. Allah bunları yalnız haqq olaraq yaratdı. O, ayələrini anlayanlara izah edər!

6. Gecə ilə gündüzün bir-birinin ardınca gəlməsində, Allahın göylərdə və yerdə yaratdıqlarında Allahdan qorxan (və həqqətləri görən) bir tayfa üçün dəlillər (əlamətlər) var.

"Yunus" surəsinin ümumi məzmunu: Bu surə də Məkkədə nazil olmuş bir çox surələr kimi, başda "başlanğıc" və "qayıdış" mövzuları olmaqla, bir neçə əsas və fundamental mövzunu əhatə etmişdir. Surənin əvvəlində vəhydən və peyğəmbərlik məqamından söz açılır, sonra Allahın əzəmətindən xəbər verən yaranış əlamətlərindən danışılır, dünyanın maddi həyatının keçəri olması, axirət dünyasına daha çox diqqət ayrılmasının zəruriliyi xatırlanır, insanlara iman və yaxşı əməllər vasitəsilə axirətə hazır olmaları tövsiyyə edilir. Sözügedən mövzulara uyğun olaraq böyük peyğəmbərlərin, o cümlədən Nuh, Musa və Yunus (Allahın salamı olsun onların hər üçünə) peyğəmbərin həyatının müxtəlif yönlərindən fraqmentlər qeyd edilir, mövzuları daha da qətiləşdirmək üçün bütpərəstlərin inadkarlıqlarından danışılır, Allahın hər yerdə hazır və nazir olması xatırlanır. Xüsusilə sonda qeyd edilən mövzunun sübutu üçün çətinliklərlə qarşılaşdıqları zaman onların fitrətlərinin özünü necə büruzə verməsi və tək olan Allahı xatırlamalarından danışılır. Qeyd olunan mövzuların təkmilləşdirilməsi üçün

uyğun məqamlarda yaxşı işlər görmüş əməlisaleh bəndələrə gözəl aqibət müjdəsi verilir, günahkarlar acı sonluqla təhdid edilir[853].

2. "Qadəmu sidq"[854]: Bu ifadə ilə bağlı üç fikir mövcuddur: 1. İman fitri keçmişə əsaslanır. Əslində, möminlər öz imanlarını büruzə verməklə fitrətlərinin istəklərini təsdiq etmiş olurlar. 2. Qayıdış və axirət nemətlərinə işarədir. Çünki "qadəm" sözünün mənalarından biri məqam və mövqedir. Yəni möminlərin Allah dərgahında qəti və dəyişməz məqamları var. 3. "Qadəm"in mənası öndər və rəhbərdir. Yəni mömin bəndələrə sadiq öndər və rəhbərlər göndərilmişdir. Quran təfsirlərində bu ayədə "Qadəmə sidqin" deyilərkən Peyğəmbər (s) və ya həzrət Əlinin (ə) öndərliyinin nəzərdə tutulduğu qeyd edilən hədislər də bu mənanı təsdiq edir[855]. Ehtimal ki, bu hədislərdə möminlər və İmam Əlinin (ə) öndərliyinə etiqadı olan insanlara Allah rəsulu (s) tərəfindən şəfaət ediləcəyi nəzərdə tutulmuşdur[856].

3. Yer və göyün altı günə yaranması: "Gün" sözü ərəb dilində, elə digər dillərdə də çox vaxt dövr mənasında işlənir. Məs.: Gün var idi, ölkəmizdə diktatura hökm sürürdü, indi azadlığa çıxmışıq. Yəni diktatura dövrü var idi. Diktatura dövrü sona yetdikdən sonra insanların azadlıq dövrü başladı[857]. Daha çox məlumat almaq üçün bax: "Əraf" surəsi, 54-cü ayə.

3. Ərş: Ərş sözü bəzən dam, bəzən damı olan bir vasitə, bəzən də uca, əzəmətli taxt və kürsü mənasında işlənir. Bunlar ərş sözünün həqiqi mənasıdır. Bu söz məcazi olaraq qüdrət mənasını ifadə edir. Məs.: Filankəs taxta çıxdı. Filankəs taxtdan düşdü və taxtdan salındı. Bu cümlələrdə iqtidar, güc, qüdrəti ələ almaq, hökmranlıq və iqtidardan, hakimiyyətdən salınma

---

[853] Nümunə, c.8, səh.213
[854] "Gözəl mükafat" kimi tərcümə etdmişik
[855] Nümunə, c.8, səh.216
[856] Əl-Mizan, c.10, səh.19
[857] Nümunə, c.8, səh.219

nəzərdə tutulur. Bunlarda taxt sözünün həqiqi mənası, ümumiyyətlə, nəzərdə tutulmaya bilər. Eyni aspektdən "Allah taxtda qərarlaşdı" deyilərkən Allahın dünyanı idarə etməsi və hökmranlığı altına alması nəzərdə tutulur[858].

5. Ay, dəqiq təqvim: Ay nazik hilal olduğu gündən başlayaraq ayın ortasına qədər böyüyür. Həmin gündən sonra isə ayın sonuna bir ya iki günlük vaxt qalana qədər kiçilməkdə davam edir və daha sonra qaranlıqda itir. Sonra yenidən hilal şəklində görünür və əvvəlki mənzilləri qət edir. Bu dəyişmə əbəs deyil, savadlı və savadsız olmasından asılı olmayaraq, hər kəsin oxuya biləcəyi, iş və fəaliyyətlərinin tarixi müəyyən etmək və fəaliyyətlərinə nəzarət edə bilmək üçün istifadə etdiyi çox dəqiq və canlı bir təbii təqvimdir. Bunlar ayın bizim üçün faydalı olan nurunun faydalarından biridir[859].

[858] Nümunə, c.8, səh.219
[859] Nümunə, c.8, səh.224

7. Bizimlə görüşəcəklərinə (və Qiyamət gününə) inanmayanlar, dünya həyatından razı qalıb ona bel bağlayanlar və ayələrimizdən xəbərsiz olanların –

8. etdikləri əməllərə görə yeri Oddur.

9. İman gətirib layiqli işlər görənləri Rəbləri imanları sayəsində yönlədirər. Cənnət bağlarında onların (qəsrlərinin) altından çaylar axar.

10. Onların Cənnətdəki danışıqları (və dualarının): "Allahım! Sən pak və müqəddəssən!", orada salamlaşması: "Salam!" və sözlərinin sonu: "Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur!" olacaq.

11. Əgər insanlar xeyir əldə etmək üçün tələsdikləri kimi, Allah da onları cəzalandırmağa tələssəydi, (tezliklə) ömürləri sona yetərdi (tamamilə məhv olardılar). Bizimlə görüşəcəklərinə inamı olmayanları azğınlıqları içində itib-batmaları üçün tərk edərik.

12. İnsana bir sıxıntı üz verdikdə Bizi uzananda da, oturanda da, ayaq üstə olanda da çağırar. Bu sıxıntını ondan uzaqlaşdırdıqdan sonra elə gedər ki, sanki problemin həlli üçün Bizi heç çağırmamışdı. Həddi aşanlara etdikləri əməllər beləcə gözəl göstərildi.

13. Biz sizdən əvvəlki ümmətləri peyğəmbərlərinin aydın dəlillər gətirməsinə baxmayaraq, iman gətirmədikləri və zülm etdikləri üçün məhv etdik. Biz günahkarları belə cəzalandırırıq.

14. Sonra onların ardınca sizi yer üzündə onların xələfləri etdik ki, görək siz necə davranacaqsınız.

-

7. Dünya qısa və aldadıcıdır: Sözün əsl mənasında dünyandan əl çəkmiş, dünyanın bər-bəzəyinin əsla aldada bilmədiyi İmam Əli (ə) qısa və aldadıcı dünya haqqında belə buyurmuşdur: ***"Sizi nəfsani istəklərin haləsi ilə, şirin və təravətli görünən dünya ilə ehtiyatlı olmağa çağırıram. Özünü nağd olması ilə sevdirir, az malını sizin gözünüzdə gözəl göstərir, özünü arzular paltarında cilvələndirir, özünü yalanla bəzəyir, sevinci və neməti davamlı deyil, dərd-qəmindən yaxa qurtarmaq olmur, çox aldadıcı, incidici, rəngdən rəngə düşən, ölümlü, sonlu, xarab olan, qarımpa, adam öldürəndir... Dünyaya etibar edib dünya tərəfindən məyus edilən çox adam olub, dünyaya etimad göstərib dünya tərəfindən yerə çırpılan çox adam olub. Çox əzəmətli insanları xar edib, çox şövkətli insanları qiymətdən salıb... Özünüz üçün seçdyiniz, inandığınız, tamahında olduğunuz budur? Ona qarşı şübhə ilə baxmayan, təhlükəsindən qorxmayan üçün pis saraydır. Bilin, necə ki, bilirsiniz, dünyadan köçəcək, onu tərk edəcəksiniz."***[860]

10. Cənnət sakinlərinin Cənnətdəki üç ləzzəti: Bu ayədə Cənnət sakinlərinin üç halından, üç böyük nemətindən və üç ləzzətindən söz açılmışdır. Birinci zövq halı Allahın zatı və sifətlərinin onların varlıqlarını nura qərq etdiyi vaxta aiddir. Bu, heç bir ləzzətlə müqayisə edilə bilməyəcək bir ləzzətdir. Onlar həmin vaxt deyəcəklər: ***"Allahım! Sən pak və müqəddəssən!".*** İkinci zövq halı sülh və səfa dolu, hər kəsin bir-biri ilə anlaşdığı bir mühitdə möminlərin bir-birləri ilə qarşılaşdığı vaxta aiddir. Cənnət sakinləri qarşılaşdıqları zaman səfa və səmimiyyət dolu sözlərlə

---

[860] Nəhcül-bəlağə, 110-cu xütbə

ünsiyyət quracaqlar: ***"orada salamlaşması: "Salam!" olacaq"***. Üçüncü zövq halı rəngarəng Cənnət nemətlərinin onlara bəxş etdiyi zövqə aiddir. Bu nemətlər onların Allaha olan diqqətini daha da artıracaq. Onlar Cənnət nemətlərindən istifadə etdikcə təriflər yağdıracaqlar: ***"Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur!"***[861] Peyğəmbərin (s) hədislərinin birində belə deyilir: Cənnət sakinləri bir şey istədikdə ***"Allahım! Sən pak və müqəddəssən!"*** deyəcəklər. Bunu deyən kimi istəklərini dilə gətirmədikləri, bunun üçün göstəriş vermədikləri halda, xidmətçilər istədiklərini onlar üçün hazır edəcəklər. Yeyib-içmək başa çatdıqdan sonra Allaha həmd edəcək, şəninə təriflər deyəcəklər: ***"Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur!"***[862]

11. Allah əzab verməyə tələsmir: Bu ayəni şərh edərkən təfsirçilər insanın təbiətən tələskən olduğunu, xeyrinə olan şeyə tez çatmaq istəyən, bütün səbəblərin əl-ələ istəklərini çox sürətlə reallaşdırmasını arzulayan bir varlıq olduğunu yazırlar. Əslində, o bunları Allahdan istəyir. Çünki bütün səbəblər Allahın əlindədir, səbəblər səbəbi Odur. İnsanın bu təbiəti nəfsani istəklərindən qaynaqlanır. Ancaq varlıq sistemi, onun nizam-intizamı insanın nəfsani istəklərinin xaricindədir. Əgər Allah-taalanın əşyaların yaranması və səbəb-nəticə sistemindəki qanunu insanların qanunlarına bənzəsəydi, cəhl və nadanlığa əsaslansaydı, o zaman Allah insanları çox sürətlə əzaba düçar etməli idi. Belə ki, qayıdış və dirçəlişi inkar edən azğın şəxs əzaba layiqdir. Lakin Allah insanlara əzab verməyə tələsmir, imtahan olunmaları üçün dünyada onlara bir müddət möhlət verir. Çünki dünya cəza və mükafat deyil, imtahan və sınaq yeridir[863].

---

[861] Nümunə, c.8, səh.223
[862] Tematik təfsir, c.5, səh.334
[863] Əl-Mizan, c.10, səh.21

15. Açıq-aydın ayələrimiz onlara oxunduğu zaman Bizimlə görüşəcəklərinə (və Qiyamətə) inanmayanlar: “Bundan başqa bir Quran gətir və ya onu dəyişdir! (və bütləri məzəmmət edən ayələrini çıxar!)” – deyərlər. Onlara de: “Mənim onu özbaşına dəyişmək səlahiyyətim yoxdur. Mən ancaq

mənə vəhy olunana tabe oluram. Əgər Rəbbimin itaətindən boyun qaçırsam, böyük günün əzabından qorxaram".

16. De: "Əgər Allah istəsəydi, mən bu ayələri sizə oxutmazdım və (Allah) onu sizə bildirməzdi. Bundan əvvəl mən uzun illər sizin aranızda yaşadım (heç bir ayə gətirmədim). Məgər başa düşmürsünüz?"

17. Allahın adından yalan danışan, Onun ayələrini yalan hesab edən adamdan daha zülmkar kim ola bilər? Şübhəsiz ki, günahkarlar xilas olmayacaqlar!

18. Onlar Allahı qoyub onlara nə bir xeyir, nə də bir zərər verən bütlərə ibadət edir və: "Bunlar bizim Allah yanındakı şəfaətçilərimizdir!" – deyirlər. De: "Allaha göylərdə və yerdə bilmədiyi bir şey haqqındamı xəbər verirsiniz? Allah Ona tay və bərabər tutulan bütlərdən uzaqdır və ucadır!"

19. İnsanlar (başlanğıcda) tək bir ümmət idilər. Sonra ayrıldılar. Əgər Rəbbin tərəfindən öncədən (onların dərhal cəzalandırılması ilə bağlı) bir əmr olmasaydı, ixtilafda olduqları məsələlər barəsində dərhal hökm verilər (sonra da hamısı cəzalandırılardı).

20. Deyirlər: "Nə üçün Rəbbi tərəfindən ona bir möcüzə göndərilmir?" De: "Qeyb (möcüzələr) yalnız Allaha məxsusdur (və onun əmri ilədir). Siz gözləyin, mən də sizinlə birlikdə gözləyirəm! (Siz bəhanə möcüzələr gözləyin, mən də sizin cəzalandırılmanızı gözləyim)"

15-17. Müşriklər və başqa bir Quran tələbi: Bu ayənin bəhs etdiyi şəxslər bütpərəstlik, zülm, haqsızlıq, fəsad və günah canlarına-qanlarına qarışmış insanlardır. Quranda bütün bunlar qadağan edilmişdir. Buna görə də onların bütün inanclarını və çirkin əməllərini inkar edən ayələri qəbul edə bilmirdilər. Nəticədə, Peyğəmbərə (s) "Elə bir Quran gətir ki, bütpərəstliyi, günah və fəsadı qadağan etməsin və ya elə ayələrlə əvəz et ki, bizi şirk,

fəsad və günahdan çəkindirməsin", - deyə etraz edirdilər. Onlar Peyğəmbəri (s) sanki bir şair və ya hekayətçi yerinə qoyur, zövqlərini oxşamayan, xoşlarına gəlməyən bir şeir və hekayə olduqda xoşlarına gəlməyən hissələrinin çıxarılmasını, əvəzinə xoşladıqları məzmunların salınmasını istəyən şeir və hekayə dinləyiciləri kimi, Peyğəmbərdən (s) eyni şeyləri istəyirdilər. Allah peyğəmbərinə onlara belə deməsini göstəriş verir: "Mən özümdən heç nə danışmıram, nə deyirəmsə, Allah tərəfindən gələn vəhydir. Uzun illər sizin aranızda oldum, belə sözlər danışmadım. Bu özü söylədiyim ayələrin vəhy olduğunu göstərən bir dəlildir. Əgər mən Allahın adından yalan danışsam, başqa bir Quran gətirsəm və ya onda dəyişiklik aparsam, insanların ən zülmkarı olaram. Çünki insanların ən zülmkarı Allahın adından yalan danışanlardır."[864] İslam düşmənləri Quranla mübarizədə üç mərhələ adlamışdılar. Birinci mərhələdə Quran ayələrinə qarşı elmi mübarizəyə qalxmış, ortaya Quran maarifi ilə bağlı şübhə doğuracaq fikirlər atmış, lakin heç bir nəticə hasil etməmişdlər. Növbəti mərhələdə elmi mübarizəyə Qurandan kənar müstəvidə qalxmış, Allah kitabına qarşı ona bənzəyən bir kitab, on surə və ya heç olmasa bir ayə təqdim etməyə çalışmış, bütün ədib və oratorlarını bu mənfur məqsəd üçün səfərbər etmişdilər. Lakin bunun da heç bir faydası olmamışdı. Sonrakı mərhələdə Peyğəmbərin (s) öz əli ilə Quranda ixtisarlar aparmağa və ona əlavələr etməyə, Peyğəmbəri iftiraya təhrik etməyə çalışmışdılar. Ancaq bu cəhdlər də uğursuz olmuşdu. Bu ayədə həmin mübarizə mərhələsinə işarə edilmiş, Quranın izzət və hikmətinin dinə hücum çəkmiş düşmənlərin bütün elmi və əməli səylərinin,

[864] Əl-Mizan, c.10, səh.25

hiylə və kələklərinin, zor-güclərinin puça çıxmasına səbəb olduğu diqqətlə çatdırılmışdır[865].

18. Bütlərin şəfaət edəcəyinə inanmaq: Bu inanc bütpərəstlərin əsas stimullaşdırıcı etiqadlarından biri olmuşdur. Tarixi mənbələrin yazdığına görə, ərəb başçılarından olan Əmir ibn Ləhiyy Şamın mədən sularından istifadə etmək və müalicə almaq üçün oraya gedir. Həmin yerin bütpərəstləri onun diqqətini cəlb edirlər. Bu ibadətin səbəbini onlardan soruşduqda ona deyirlər: Bu bütlər yağışın yağmasına, problemlərin həll olmasına, Allah yanına şəfaət olunmaya səbəb olur. Əslində, xurafatçı olan bu adam onların sözlərinin təsiri altına düşür, özü ilə Hicaza aparmaq üçün onlardan bir neçə büt istəyir. Hicaz əhalisi arasında bütpərəstlik məhz bundan sonra yayılmağa başlayır[866]. Bütpərəstlər Qiyamət gününə, ümumiyyətlə, inanmadıqları üçün bütlərin şəfaətçi olduğunu deyərkən onların Qiyamətdə deyil, dünya işlərində vasitəçi olduğunu nəzərdə tuturdular[867].

20. Peyğəmbərdən (s) əcaib-qəraib möcüzələr istənilməsi: "Ayə" (möcüzə) sözü ümumi məna daşıyıb bütün növ möcüzələri ehtiva etsə də, əldə olan məlumatlar onların Peyğəmbəri tanımaq üçün deyil, təklif xarakterli möcüzələr istədiklərindən xəbər verir. Yəni ortuqları yerdə ağıllarına nə gəlirdisə, onu Peyğəmbərə təklif edir və Peyğəmbərin də onların dediklərini yerinə yetirəcəyini gözləyirdilər. Sanki Peyğəmbəri bütün möcüzələrin açarını əlində tutmuş və hər gün kiminsə gəlib ona möcüzə təklif edəcəyini gözləyəyən işsiz-gücsüz bir adam hesab edirdilər. Ancaq möcüzənin Allahın işi olmasından, yalnız onun əmri ilə baş verdiyindən,

---

[865] Tematik təfsir, c.1, səh.335
[866] Nümunə, c.8, səh.250
[867] Tematik təfsir, c.12, səh.270

digər tərəfdən, möcüzənin Peyğəmbərin tanınması, insanların hidayət olunması, bir formasının belə, bunun üçün kifayət edəcəyindən xəbərsiz idilər. Bundan başqa, Peyğəmbər (s) Qurandan əlavə onlara kifayət qədər möcüzə göstərmişdi. Onların təklifləri bir ovuc macəra marağından başqa bir şey deyildi[868].

21. İnsanlara üz verən sıxıntıdan sonra onlara bir mərhəmət daddırdığımız zaman ayələrimizə qarşı hiyləgərlik edirlər. De: “Allah sizdən daha tez hiylə qurar (tədbir tökər)”. Elçilərimiz (mələklər) qurduğunuz hiylələri yazırlar.

22. Sizi quruda və dənizdə hərəkət etdirən Odur. Siz gəmilərdə olduğunuz, onlar da içindəkiləri uyğun bir küləklə (məqsədə doğru) apardığı və onlar sevindikləri zaman birdən fırtına qopar və dalğalar hər tərəfdən onların üzərinə gələr, həlak olacaqlarını güman edərlər. Bu vaxt Allahı

[868] Nümunə, c.8, səh.254

ixlasla çağırıb deyərlər: “Əgər bizi bu bəladan xilas etsən, əlbəttə, şükür edənlərdən olacağıq”.

23. Allah onları xilas etdikdə isə (yenə də) haqsız yerə yer üzündə zülm, haqsızlıq edirlər. Ey insanlar! Etdiyiniz zülm, haqsızlıq öz ziyanınızadır. Dünya həyatından (faydalanırsınız). Sonra dönüşünüz Bizə doğrudur. Biz etdiklərinizə barədə sizə xəbər verəcəyik.

24. Dünya həyatı göydən endirdiyimiz və ardınca yer üzündə insanların və heyvanların yeyəcəyi bitkilərin bitdiyi suya bənzəyir. Nəhayət, yer öz bərbəzəyinə bürünüb süsləndiyi və sakinləri də ondan faydalana biləcəklərindən əmin olduqları zaman (qəfildən) gecə, yaxud gündüz əmrimiz yetişər və onu sanki dünən heç nə olmamış kimi, biçərik. Ayələrimizi düşünən insanlara belə izah edirik.

25. Allah əmin-amanlıq yurduna dəvət edir və istədiyini (layiq gördüyünü) doğru yola yönəldir.

---

21. Allahın lütfkarlığı qarşısında insanın naşükürlüyü: Bu ayədə Allahın lütfkarlığı və mərhəməti qarşısında insanların çoxunun naşükür olması kimi ümumi bir mövzuya işarə edilmişdir. Sıxıntı və çətinliklərdən sonra Allah insana, hətta layiq olmadığı lütfkarlığı və mərhəməti göstərdiyi halda, o, şükür və təşəkkür yerinə Allahın ayələrinə qarşı hiyləgərlik edir. Əvvəlki ayələrdə bu hiylə və kələklərin bariz nümunəsinə işarə edildi. Bu, müşriklərin Quran ayələrinə qarşı olan hiylələri idi. Onlar bu nemət qarşısında: “Bundan başqa bir Quran gətir və ya onu dəyişdir!” (Yunus surəsi, 15-ci ayə), ya da “Nə üçün Rəbbi tərəfindən ona bir möcüzə göndərilmir?” (Yunus surəsi, 20-ci ayə) deyirdilər. Bununla da Quranın möcüzə olmadığına eyham edib, Allahın ayələrinə qarşı hiylə və kələk

işlədirdilər[869]. Onlar Allahın möcüzələri, bəla və nemətləri ilə qarşılaşdıqda qəbuledilməz yozumlara əl atır, qaçmaq üçün yol axtarırdılar. Məsələn, bəla və müsibət üz verdikdə bunu bütlərin qəzəbinin əlaməti kimi qələmə verir, əmin-amanlığı onların sevgi və şəfqətinin əlaməti, ya da təsadüf hesab edirdilər. Allahın tədbiri deyilərkən Allahın gizli olub gözlənilmədən, çox sürətlə üz verən verən bəlaları nəzərdə tutulur. Bəzən elə olur ki, Allah-taala günahkarları bir-birləri ilə bəlaya düçar edir. Təbii ki, hər kəsdən qüdrətli olanın, maneələri dəf etməkdə hər kəsdən güclü olanın plan və tədbirləri daha sürətlidir. Başqa sözlə desək, cəzalandırmaq istədiyi şəxsi cəzalandırar. Halbuki Ondan qeyri heç kəs bu xüsusiyyətə malik deyil[870].

23. Zülm, haqsızlıq və onun sürətli nəticələri: İmam Sadq (ə) hədislərinin birində: ***"Üç şey var ki, nəticəsi onu onu edənə qayıdır: əhd sındırmaq, zülm və hiylə"***, - deyə buyurmuş, sonra bu ayəni oxumuşdur: ***"Ey insanlar! Etdiyiniz zülm, haqsızlıq öz ziyanınızadır"***. Başqa bir hədisində isə belə buyurmuşdur: ***"Ən sürətli müsibət zülm və haqsızlığın cəzasıdır".*** Allah rəsulu (s) hədislərinin birində belə buyurmuşdur: ***"(Fərz edin) Əgər bir dağ başqa bir dağa zülm etsə, sonda parça-parça olacaq"***[871].

24-25. Dünya dəyişkən bir yurd, Cənnət isə əmin-amanlıq yurdudur: Quran bu iki ayədə dünyanın qeyri-sabit və dəyişkən olmasını gözəl bir misalla bəyan edir. Ağaclari, otlari, bitkiləri bar gətirmiş, başdan-başa hər guşəsi həyat bəxş edən bir bağ təsəvvür edin. Bir qaranlıq gecə və ya günəşli bir gün qəfildən qara buludlar göy üzünü alır, göy guruldayır, ildırım çaxır, tufan qopur, dolu və leysan yağmağa başlayır və həmin bağı yerlə yeksan edir. Sabahı gün o bağı görməyə getdiyində ağacların sındığını, bitkilərin

---

[869] Əl-Mizan, c.10, səh.33
[870] Nümunə, c.8, səh.257
[871] Əl-Mizan, c.10, səh.29

solduğunu, darmadağın olduğunu, hər şeyin torpaq üzərinə səpələndiyini görürsən. Elə vəziyyətdə olur ki, dünənki yamyaşıl və tərvaətli bağ olduğuna inana bilmirsən. İnsanların həyat macərası da belədir. Xüsusilə, yaşadığımız bu dövrdə bəzən bir zəlzələnin və ya bir neçə saatlıq bir müharibənin abad və əmin-aman bir şəhəri viran qoyduğunun, yerində xarabalıq, tikə-tikə olmuş cəsədlərdən başqa bir şey qalmadığının şahidi oluruq. Belə bir dəyişək həyatla sevinənlər necə də qəflətdədirlər. Cənnətdə isə maddi dünaynın soyğunçu keşməkeşlərindən, Allahı unutmuş sərvət sahiblərinin axmaq iğtişaşlarından, müharibə, qan tökülməsi, imperializm və müstəmləkədən heç bir əsər-əlamət yoxdur. Bütün bu məzmun "Əmin-amanlıq yurdu" ifadəsində cəm olub. Əgər bu dünya həyatı tövhid və ilahi rəngə boyanarsa, bu da əmin-amanlıq yurduna çevrilər, qasırğa bəlasına məruz qalmış tarla vəziyyətindən xilas olar[872].

[872] Nümunə, c.8, səh.263

26. Yaxşı işlər görənlər üçün yaxşı mükafat və ondan da artığı var. Onların üzünü qaranlıq və zillət örtməz. Onlar Cənnətlikdirlər və orada əbədi qalacaqlar!

27. Günah qazananlara günahları qədər cəza verilər. Üzlərini zillət və xarlıq örtər. Onları Allahdan (Allahın əzabından) heç nə qurtara bilməz. Üzləri (o qədər qara olar ki,) sanki gecənin zülmət parçaları ilə örtülmüşdür. Onlar Cəhənnəmlikdirlər, özləri də orada əbədi qalacaqlar!

28. O gün onların hamısını bir yerə toplayacaq, sonra müşriklərə: “Siz də, məbudlarınız da yerinizdə durun!” – deyəcək və onları bir-birlərindən ayıracağıq. Məbudları onlara deyəcək: “Siz bizə ibadət etmirdiniz”.

29. Sizinlə bizə aramızda Allahın şahid olması yetər. Həqqətən, biz sizin ibadətinizdən xəbərsiz idik!”

30. Orada hər kəs daha öncə gördüyü işi təcrübə edəcək və hamılıqla öz həqiqi ixtiyar sahibi və himayədarları olan Allaha doğru qaytarılacaqlar. Özlərindən uydurub Allaha tay tutduqları məhv olacaq.

31. De: “Sizə göydən və yerdən kim ruzi verir? Qulaq və gözlərin sahibi (və yaradıcısı) kimdir? Ölüdən diri, diridən ölü çıxardan kimdir? İşləri

yoluna qoyan, nizam-intizama salan kimdir? Dərhal, “Allahdır!” – deyə cavab verərlər. De: “Bəs nə üçün Allahdan qorxmursunuz?”

32. Sizin həqiqi Rəbbiniz olan Allah odur. Elə isə haqdan sonra zəlalətdən başqa nə qalır?! Nə üçün (Ona ibadət etməkdən) üz çevirirsiniz?”

33. Rəbbinin fasiqlərin iman gətirməyəcəkləri ilə bağlı fərmanı belə qətiləşir.

---

26. “Yaxşı mükafat və daha çox” ifadələrinin mənası: Əllamə Təbatəbai “Yaxşı işlər görənlər üçün yaxşı mükafat və ondan da artığı var” ayəsini izah edərkən iki ehtimal irəli sürmüşdür. Birincisi, Allah-taala hər bir yaxşı iş üçün həmin əməlin öz mislində mükafat təyin etmişdir. Daha sonra əməl edənin ləyaqətindən asılı olaraq, bu əməlin mükafatını ona bərabər və ya ondan artıq edir. Allah-taala Quranda belə buyurmuşdur: ***“Kim yaxşı bir iş görərsə, ona həmin işin on qat əvəzi verilər”***[873], ***“(Allah) iman gətirənlərin və yaxşı işlər görənlərin mükafatlarını tam verəcək, üstəlik, Öz nemətindən onlar üçün (bir qədər) artıracaqdır.”***[874]. İkinci ehtimal budur ki, “yaxşı mükafat” deylərkən yaxşı aqibət və insanın “yaxşı” sözündən dərk etdiyi nəzərdə tutulur. “Daha artıq” deyilərkən insanın Allahın lütfkarlığından başa düşüb dərk etdiyindən artığı nəzərdə tutulur. Belə ki, “Səcdə” surəsinin 17-ci ayəsində belə buyurulmuşdur: ***“Etdikləri əməllərin mükafatı olaraq gözlərə işıq gəlməsinə səbəb olan nə cür nemətlər gizlənib saxlandığını heç kəs bilməz!”***, “Qaf” surəsinin 35-ci ayəsində isə belə buyurulmuşdur: ***“Orada onlar üçün istədikləri hər şey***

---

[873] Ənam surəsi, 160-cı ayə
[874] Nisa surəsi, 173-cü ayə

vardır. Dərgahımızda isə ondan artığı (heç kəsin təsəvvür belə edə bilmədiyi nemətlər) mövcuddur!”[875]

30. Qiyamət; əməllərin təcrübə edilməsi və yoxlanması: Bu ayədə Qiyamət günü insanların öz əməllərini yoxlayacağı buyurulur. Kal və ya yetişmiş olduğunun, habelə dadının müəyyən edilməsi üçün kənd təsərrüfatı məhsulu dadılmaqla yoxlandığı kimi, Qiyamətdə də insanın əməlləri təcrübə ediləcək. Şirin, yoxsa acı olduğunu bilmək üçün insan öz əməlini dadacaq. Bu dünyada şirin görünən çox əməllər var ki, o dünyada acı olacaq və əksinə. Hədislərin birində belə buyurulmuşdur: ***“Cənnət acılarla, Cəhənnəm ehtiraslarla örtülmüşdür”***. Buna görə də Quranda ***“Orada hər kəs daha öncə gördüyü işi təcrübə edəcək”***, - deyə buyurulmuşdur[876].

31. Gözlərin və qulaqların sahibi: İnsanın hissləri Allahın ixtiyarındadır, onlar Allahın hakimiyyəti altındadır. Hiss üzvləri arasında göz və qulağın qeyd edilməsi digər hiss üzvləri ilə müqayisədə bu iki hiss üzvünün insan həyatında daha çox rol oynaması ilə bağlıdır. İnsan beş hiss üzvü vasitəsilə Allahın insanın ixtiyarına verdiyi imkanlardan faydalanır, istədiyi istiqamətə doğru hərəkət edir, xoşlamadığından uzaqlaşır. Allah-taala bu cümlə ilə hiss üzvlərinin Onun ixtiyarında olduğunu, onları istədiyi şəkildə idarə etdiyini, güclü və zəif yaratdığını xatırladır. Buna görə də bəzi insanların bu hiss üzvlərinin bəzisindən məhrum olduğunun və ya bəzilərində bu hissələrdən hansınınsa daha güclü olmasının şahidi oluruq[877]. Bəzən Allah-taala insanın bədən üzvləri üzərindəki nəzarətini və hökmranlığını ondan alır. Məhz elə buna görədir ki, ölərkən çox adama

---

[875] Əl-Mzan, c.10, səh.40
[876] Tematik təfsr, c.5, səh.81
[877] Əl-Mizan, c.10, səh.47

gözünü və ağzını bağlamağa da icazə vermir və onlar gözü və ağzı açıq halda can verrlər[878].

31. Həyat; mürəkkəb və sirli bir fenomen: Canlı varlığın cansızdan necə yaranması təbiət alimlərini hələ də heyrətdə qoyan mövzulardandır. Şübhəsiz ki, mürəkkəb, incə və sirli həyat hadisəsi qeyri-adi elm və qüdrətə, universal ağıla möhtacdır. O, ilk başlanğıcda yer üzünün canlı varlıqlarını cansızlarından yaratmaqla yanaşı, onlar üçün əbədi olmayan ömür təyin etmişdir. Buna görə də həyatı ölümlü etmiş, nəticədə də dəyişilmə və kamilləşmə üçün imkan yaratmışdır. Bu ayənin təfsiri ilə bağlı başqa bir ehtimal da irəli sürülmüşdür. O da bundan ibarətdir ki, burada maddi ölüm və həyatla yanaşı mənəvi ölüm və həyat da nəzərdə tutulmuşdur. Çünki bəzən çirkin işlər görən, imansız və haqq yolda olmayan ata və anadan ağıllı, dərrakəli və təmiz insanlar törədiyini və əksini, yəni irsiyyət qanununun əksinə olaraq dəyərli ata və anadan dəyərsiz və ölü qəlbli insanların törədiyini görürük. Bu məzmuna Əhli-beyt (ə) hədislərində çox rast gəlinir[879].

[878] Tematik təfsir, c.14, səh.258
[879] Nümunə, c.8, səh.277

34. De: “Heç məbudlarınızdan məxluqu yoxdan yaradıb sonra onu qaytaran biri varmı?” De: “Yalnız Allah məxluqu yoxdan yaradıb sonra onu qaytarır. Elə isə nə üçün üz döndərirsiniz?”

35. De: “Heç məbudlarınızdan haqqa doğru yönəldən biri varmı?” De: “Yalnız Allah haqqa doğru yönəldir. Haqqa doğru yönəldən şəxs arxasınca gedilməyə daha çox layiqdir, yoxsa doğru yol göstərilmədikcə özü onu tapa bilməyən şəxs? Sizə nə olub? Necə mühakimə yürüdürsünüz?”

36. Onların çoxu ancaq zənnə uyar, zənn isə (insanı) haqdan ehtiyacsız etməz (haqqa qovuşdurmaz). Şübhəsiz, Allah nə etdiklərindən xəbərdardır!

37. İlahi vəhy olmadan bu Quranın Allaha aid edilməsi layiqli (və mümkün) deyil. Lakin o özündən əvvəlkiləri (səmavi kitabları) təsdiq və ətraflı izah edəndir. Onda heç bir şübhə yoxdur, Aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir.

38. Onlar “O, Quranı yalandan Allahın adına çıxıb!” – deyirlər? De: “Əgər doğru deyirsinizsə, ona bənzər bir surə gətirin və Allahdan başqa, kimə gücünüz çatırsa, onu da (köməyə) çağırın!”

39. (Onu elmi dəlillərlə inkar etmədilər) Əslində, məlumatları olmadığı, həqiqəti onlara aydın olmayan bir şeyi yalan hesab etdilər. Onlardan əvvəlkilər də eyni şəkildə yalan hesab etmişdilər. Bir bax, zalımların axırı necə oldu!

40. Onların bəzisi ona nanır, bəzisi isə inanmır. Rəbbin fitnə-fəsad törədənləri daha yaxşı tanıyır!

41. Əgər səni yalançı hesab etsələr, de: “Mənim əməlim mənə, sizin əməliniz isə sizə məxsusdur. Mənim etdiyim əməllərdən sizin xoşunuz gəlmir, sizin etdiyiniz əməllərdən (də) mənim xoşum gəlmir!”

42. Onlardan bir qrupu səni dinləyir (ancaq sanki eştmir və kardırlar). Anlamamalarına rəğmən, sən sözlərini karlara eşitdirə bilərsənmi?!

---

35. Arxasınca gedilməyə daha çox kim layiqdir? Bu ayədə Allahın dünyanı tək idarə etməsi və tövhid dəlillərindən biri bəyan edilmişdir. Deməli, fitrət və idrakının tələbi ilə insan bütün işlərdə Haqqa tabe olmalıdır. Nəfsinə uyub səhvən haqdan uzaqlaşaraq nahaqqa tabe olan və əslində, nahaqqı haqq hesab edərək, nahaq yolda irəliləyən şəxsə cəza verildiyində üzrxahlıq edib özünü haqq davamçısı kimi göstərəcəkdir. Deməli, haqqa tabe olmaq hər bir halda lazımdır. Haqqa dəvət edən insanın dəvət və çağırışını qəbul etmək zərurdir. Çünki ona tabe olmaq haqqa tabe olmaq deməkdir. Əlbəttə, bu ayədə haqqa doğru yönəltmək deyilərkən təkcə yol göstərmək nəzərdə tutulmur. Çünki kimsə haqq yolu tanıyıb özü haqq yolda olmadığı halda, başqalarını bu yola dəvət edə blər. Lakin “yolu göstərmək və məqsədə çatdırmaq” yalnız Allahın və Allahın heç bir vasitə olmadan haqq yola yönəltdiyi şəxslərin işidir. Onların dəvətinə tam şəkildə etimad göstərmək olar. Bu şəxslər yalnız peyğəmbərlər və imamlardır (Allahın salamı olsun onlara). Allah-taala bu ayədə müşriklərə “Arxasınca gedilməyə daha çox həm yolu göstərən, həm də məqsədə çatdıran daha layiqdir, yoxsa haqq yola yönəltməyə əsla qüdrəti çatmayan, əksinə yönləndirilməyə ehtiyacı olan məbudlar?”- deyə sual ünvanlayır. Şübhəsiz ki, müşriklərin bu suala heç bir cavabı olmadığı üçün Peyğəmbərə (s)

onların əvəzində ***"Haqq yola yalnız Allah yönəldir"***, - deyə cavab verməsini göstəriş verir[880].

38. Quranın universallığı: Allah-taala bu və başqa ayələrdə Quranı insan beyninin məhsulu hesab edən insanları Quran surələri kimi bir surə gətirməyə və bu vasitə ilə onların Quran surələrinə bənzər surə gətirə bilməyəcəklərini sübuta yetirmək, bu səmavi kitabın vəhy olduğunu çatdırmaq istədiyini bəyan edir. Burada diqqət yetirilməsi zəruri olan nüans Quranın təkcə fəsahət və bəlağət baxımdan misilsiz olduğunu çatdırmaq deyil. Fəsahət və bəlağət bəşəriyyəti onun qarşısında təvazökarlıq göstərməyə vadar edən misilsiz xüsusiyyətlərindən yalnız biridir. Quranın bəlkə də ən mühüm xüsusiyyətlərindən biri onun universallığıdır. Quranın ilahi maarifin əsas prinsiplərnə malik olması, ibadət hökmləri, mədəni, siyasi, iqtisadi və məhkəmə qanunlarındakı universallığı, onda yer alan əzəmətli əxlaq və gözəl ədəb nümunələri, keçmiş peyğəmbərlər və xalqların sərgüzəştləri, qeyb xəbərləri, öngörüləri, mələklər, cinlər, yer və göylər haqqında verilən məlumatlar, verdiyi nəsihətlər, ümidlər və gəldiyi qorxular, yaranışın başlanğıcı və Allaha doğru qayıdış haqqında verilən məlumatlar, güclü dəlilləri, ruhlandırıcı, parlaq və yönləndirici bəyanı və sair bu kitabın Allah tərəfindən endirilməsi və insanın öz məhdud qüvvələri ilə onun bənzərini gətirə bilməyəcəyi ilə bağlı qəti əminlik yaradan cəhətlərdir[881].

39. Cahllik və nadanlıq haqla mübarizəyə təhrik edən mühüm amildir: Bu ayədən belə başa düşülür ki, haqla mübarizə, ona qarşı müxalifət və düşmənçiliyə səbəb olan ən mühüm amillər cahillik və nadanlıqdan qaynaqlanır. "Nadanlığın sonu küfürdür" deyimi də elə buradandır. Haqq axtarışında olan müsəlmanın ilk vəzifəsi bilmədiyi məsələdə susmaq, səbrli

---

[880] Əl-Mizan, c.10, səh.53
[881] Əl-Mizan, c.10, səh.62

olmaq, axtarış aparmaq, bilmədiyi məsələni hərtərəfli araşdırmaq, qarşılaşdığı məsələni inkar etmək üçün qəti dəlil əldə etməyincə inkara qalxmamaq, habelə, qəti dəlil olmadan isbat yükünün altına girməməkdir. İmam Sadiq (ə) buyurmuşdur: ***"Allah-taala iki Quran ayəsi ilə bu ümmətə iki mühüm dərs vermişdir: Yalnız bildiklərini desinlər; bilmədiklərini inkar etməsinlər!"*** Sonra İmam ***"Məgər onlardan Allah haqqında yalnız haqqı deməklə bağlı kitab əhdi alınmamışdımı?!"***[882] və ***"Əslində, məlumatları olmadığı, bir şeyi yalan hesab etdilər."***[883] ayələrini tilavət etmişdir.

39. Yozum: Bax, "Ali-İmran" surəsinin 7-ci ayəsinin izahı

43. Onlardan bir qrupu sənə tərəf baxır (ancaq sanki heç görmür). Görməmələrinə baxmayaraq, sən korları doğru yola yönəldə bilərsənmi?!

---

[882] Əraf surəsi, 169-cu ayə
[883] Yunus surəsi, 39-cu ayə

44. Allah insanlara heç zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər!

45. Allahın onları bir yerə toplayacağı gün(ü xatırla!) Sanki (dünyada) günün bir saatını və bir-birlərini görüb tanıyacaqları miqdar dayandıqlarını (hiss edəcəkləri). Allahla görüşməni (və dirilməni) yalan hesab edənlər sözsüz ki, ziyana uğrayıb doğru yola yönəlmədilər.

46. Onlara vəd etdiyimiz əzabın bir qismini sənə (dünyada) göstərsək də, yaxud (onlar əzaba düçar olmazdan əvvəl) səni dünyadan aparsaq da, istənilən halda, onların axır dönüşü Bizədir. Allah onların nə etdiklərinə şahiddir!

47. Hər ümmətin bir peyğəmbəri vardır. Peyğəmbərləri onlara gəldiyi zaman aralarında ədalətlə hökm olunar və onlara zülm edilməz!

48. "Əgər düz deyirsənsə, (bir xəbər ver görək) bu verdiyin vəd (əzab) nə vaxt olacaq?" – deyə soruşarlar.

49. De: "Allahın istədiyindən başqa, mən özümə nə bir xeyir, nə də bir zərər verə bilərəm. (Bu qədər bilirəm ki,) hər ümmətin bir sonu vardır. Onların əcəli gəlib çatdıqda (əzab və ya ölüm fərmanları verildikdə) bircə saat belə nə geri qalar, nə də irəli keçərlər".

50. De: "Bir deyin görək. Əgər Onun əzabı sizə gecə, yaxud gündüz gəlsə, (onu özünüzdən dəf edə bilərsinizmi?) Günahkarlar nə üçün tələsirlər?

51. Baş verdikdən sonra ona inanacaqsınız? (Sizə deyiləcək:) İndimi? Halbuki siz daha əvvəl ona tələsirdiniz (İndi nə faydası var?)

52. Sonra zülm edənlərə: "Dadın əbədi əzabı. Siz ancaq qazandığınız günahlara görə cəzalandırılırsınız!" – deyiləcək.

53. Səndən: "O (ilahi əzab vədi) doğrudurmu?" – deyə soruşacaqlar. Onlara belə cavab ver: "Rəbbimə and olsun ki, şübhəsiz, doğrudur. Siz onun qarşısını ala bilməzsiniz!"

---

45. Dünya həyatının qısalığı: Bunu bir neçə amillə izah etmək olar: 1. İnsanlar əbədi Qiyamət həyatı ilə müqayisədə dünya həyatının bir saatdan artıq olmadığını düşünüəcəklər. 2. Əbədi olmayan dünya həyatı insanlar üçün elə sürətlə keçir ki, onun sanki bir saatdan artıq olmadığı təsəvvürü yaranır. 3. İnsanlar ömürlərindən düzgün istifadə etmədikləri üçün bütün ömürlərinin bir saatdan çox dəyərə malik olmadığını düşünürlər. Buna görə də təfsirlərdə ***"Bir-birlərini görüb tanıyacaqları qədər"*** cümləsində insanların dünyada qaldıqları müddətin azlığına işarə edildiyi qeyd edilir. Yəni ömür o qədər qısadır ki, insanlar onun yalnız iki nəfərin bir-birlərini görüb tanış olduqları və ayrıqldıqları qədər davam etdiyini güman edirlər. Ayənin təfsiri zamanı irəli sürülən ehtimallardan birində zamanın qısa olması deyilərkən "Bərzəx" dövrünün nəzərdə tutulduğu qeyd edilmşdir. Yəni onlar Bərzəxdə illərin və əsrlərin necə sürətlə keçdiyini sanki yuxuda olduqları kimi hiss edəcəklər. Belə ki, Qiyamət günü min illər, on min illərə bərabər olan Bərzəx həyatının bir saatdan çox olmadığını güman edəcəklər. Qeyd olunan təfsirə əsasən ***"Bir-birlərini görüb tanıyacaqlar"*** cümləsinin mənası belə olacaq: Bərzəx həyatı onlar üçün o qədər qısa olacaq ki, dünya ilə bağlı heç nəyi unutmayacaq və bir-birlərini yaxşı tanıyacaqlar. Ya da orada bir-birlərinin çirkin əməllərini görüb br-birlərinin iç üzünü görürlər. Bu özü onlar üçün böyük bir rüsvayçılıqdır[884].

46-56. Peyğəmbəri (s) göndərdikdən sonra möminlərin xilas olması, kafirlərin əzaba düçar olması: Bu ayədə Allahın bütün ümmətlərə şamil olmuş və olmaqda davam edən qəti qanunundan xəbər verilir. O qanun da

---

[884] Nümunə, c.8, səh.303

budur ki, Allah-taala əmrlərini insanlara çatdırmaq üçün bütün ümmətlərə peyğəmbərlər göndərmişdir. Sonra peyğəmbərlərlə ümməti arasında hökm vermək, imanlı şəxsləri xilas etmək, Allah və peyğəmbərlərini yalançı hesab edənləri əzaba düçar etmək üçün əzab nazil etmişdir. Sonra İslam peyğəmbərinə (s) bu qanununun heç bir istisnasız onun da ümmətinə şamil olduğunu çatdırmasını göstəriş vermişdir. Əlbəttə, ilahi əzabın Peyğəmbər ümmətinə nə zaman nazil olacağını buyurmamış və onun zamanını gizli saxlamışdır. İmam Sadiqin (ə) bu surənn 50-c ayəsi haqqında belə buyurduğunu oxuyuruq: ***"Bu ayədə ilahi əzabın nazil olacağını inkar edən, zahirdə müsəlman görünən axırzaman günahkarlarına göndəriləcək əzab nəzərdə tutulmuşdur."***[885]

51. Əzab nazil olduqdan sonra tövbənin qəbul olunmaması: Bu ayədə əzab nazil olarkən tövbə qapısının bağlanacağından, peşmançılığın heç bir fayda verməyəcəyindən danışılır. Bunun səbəbi isə aydındır. Çünki belə bir halda edilən tövbə məcburiyyət və çıxılmazlıqdan edilən tövbəyə bənzəyir. Sözügedən tövbənin heç bir dəyəri yoxdur[886].

[885] Əl-Mizan, c.10, səh.66
[886] Nümunə, c.8, səh.312

54. Əgər zülm etmiş bir şəxs yer üzündə olan hər şeyə sahib olsa, onu (əzabın qorxusundan) öz xilası üçün verər. Onlar əzabı gördükləri zaman (peşman olsalar da, daha da rüsvay olmamaları üçün) peşmançılıqlarını gizlədərlər. Onlar arasında ədalətlə hökm olunar, heç birinə zülm edilməz.

55. Bilin ki, göylərdə və yerdə nə varsa, hamısı Allahındır. Xəbəriniz olsun ki, Allahın vədi haqdır, lakin onlar (bunu) bilməz!

56. Dirildən də, öldürən də Odur. Ona doğru qaytarılacaqsınız!

57. Ey insanlar! Rəbbiniz tərəfindən sizə bir öyüd-nəsihət, ürəklərdə olana bir şəfa, möminlərə mərhəmət gəlmişdir!

58. De: “Allahın bəxşiş, lütf və rəhməti ilə sevinsinlər. Bu onların topladıqlarından daha xeyirlidir!”

59. De: “Allahın sizə ruzi olaraq endirdiyini gördünüzmü ki, onun bir qismini haram, bir qismini isə halal etdiniz?” De: “Allah Özü sizə icazə verdi, yoxsa Allaha iftira yaxırsınız? (özünüzdən halal və haram hökmü çıxarırsınız?)”

60. Allaha iftira yaxanlar Qiyamət günü (Qiyamət gününün əzabı) barəsində nə düşünürlər? Allah insanlara qarşı mərhəmətlidir, lakin onların çoxu şükür etməz!

61. Sən hansı halda olsan (və nə düşünsən), Qurandan nə oxusan, nə iş görsəniz, onlara daldığınız (onları etdiyiniz) zaman Biz sizə şahid olarıq. Yerdə və göydə zərrə qədər bir şey sənin Rəbbindən gizli qalmaz. Ondan daha böyük, daha kiçik elə bir şey də yoxdur ki, açıq-aydın kitabda (lövhi-məhfuzda) olmasın!

---

57. Quran qəlb və ruh xəstəliklərinin dərmanıdır: İmam Əli (ə) bu həqiqəti çox aydın ifadələrlə bəyan etmişdir: ***"Dərdlərinizin dərmanını Quranda axtarın. Çətinliklə qarşılaşdığınızda Qurandan mədəd umun. Quran ən böyük dərdlərin, yəni küfür, nifaq, haqq yoldan azmanın dərmanıdır."***[887]

58. Nemət və rəhmət: Bəxşiş və rəhmət arasında hansı fərqin olması təfsirçilər arasında uzun-uzadı mübahisələrə səbəb olmuşdur. Bəziləri ilahi bəxşiş və lütfkarlıqla zahiri nemətlərə, rəhmətlə isə batini nemətlərə işarə edildiyini hesab etmişlər. Bəziləri isə ilahi bəxşiş və lütfkarlıqla nemətin başlanğıcına, rəhmətlə isə nemətin davam etməsinə işarə edildiyini iddia etmişlər. Bəzi hədislərdə ilahi bəxşiş və lütf deyilərkən Peyğəmbərin (s) varlığı və peyğəmbərlik nemətinin, ilahi rəhmət deyilərkən isə Əlinn (ə) varlığı və imamət nemətinin nəzərdə tutulduğu qeyd edilmişdir. Sonuncu

[887] Nəhcül-bəlağə, 175-ci xütbə

təfsirdə bəlkə də bu hədisə işarə edilmişdir. Çünki Peyğəmbər (s) İslamın başlanğıcı, Əli (ə) isə onun qalma və davam etmə səbəbi oldu[888].

59. Cahliyyət dövründə heyvanların halal və haram üzrə bölgüsü: Burada İslamdan əvvəlki ərəblərin dəvə, qoyun və sair heyvanları öz cahil ənənələrinə uyğun olaraq halal və haram etməsi, onlar arasında qəribə bölgülər aparması nəzərdə tutulmuşdur[889]. Vəsilə, saibə, hami və sairəni buna misal göstərə bilərik (daha ətraflı məlumat üçün bax: "Maidə" surəsi, 103-cü ayə).

61. Dünya Allahın hüzurudur: Bu ayədə bütün müsəlmanları haqq yolda saxlayacaq, onları sapmalardan qoruyacaq böyük bir məsələ qeyd edilmişdir. Bu məsələyə diqqət cəmiyyətin sağlam olmasına səbəb olur. İnsanlar bir həqiqəti yaddan çıxarmamalıdırlar ki, nə danışırıqsa, nə düşünürüksə, haraya baxırıqsa, hansı haldayıqsa, təkcə Allah deyil, Onun mələkləri də bizi izləyir, bütün diqqətləri ilə bizə nəzarət edrlər. Yerdə və göydə ən kiçik hərəkət belə Ondan gizli qalmır. Hər şey səhv, yanlış və dəyişilmədən uzaq olan lövhi-məhfuzda, Allahın sonsuz elm səhifəsində, Allaha yaxın olan mələklərin və insanın əməllərni yazan mələklərin düşüncəsində, hamımızın əməl dəftərində qeyd edilir. Səbəbsiz yerə deyil ki, İmam Sadiq (ə) buyurmuşdur: "İslam peyğəmbəri (s) bu ayəni tilavət edəndə şiddətlə ağlayırdı." Bir halda ki, Peyğəmbər (s) o cür ixlası, bəndəliyi, insanlara xidməti, Yaradana ibadəti lə Allahın elmi qarşısında öz əməllərinə görə o cür qorxu keçirirsə, bizim vəziyyətimiz məlumdur[890].

---

[888] Nümunə, c.8, səh.322
[889] Əl-Mizan, c.10, səh.79
[890] Nümunə, c.8, səh.331

62. Bilin ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməzlər.

63. İman gətirmiş və (Allahın əmrinə qarşı çıxmaqdan) çəkinmiş şəxslər -

64. Dünyada da, axirətdə də şaddırlar. Allahın verdiyi vədlər heç vaxt dəyişməz. Bu, böyük qurtuluşdur!

65. Onların sözləri səni kədərləndirməsin. Bütün izzət (güc və qüdrət) yalnız Allaha məxsusdur. O, eşidəndir, biləndir!

66. Bilin ki, göylərdə və yerdə olanların hamısı Allahındır. Allahdan qeyrisini Ona şərik qoşanlar (məntiq və dəlil qarşısında) tabe olmazlar. Onlar əsassız fikirlərə tabe olar və yalnız yalan danışarlar.

67. Gecəni dincəlməyiniz üçün təyin edən, gündüzü (çalışıb ruzi qazanmağınız üçün) işıqlı edən Odur. Bunlarda eşidən qulaqları olanlar üçün dəlillər vardır.

68. "Allah Özünə övlad seçmişdir!" dedilər. Allah (hər bir eyib, nöqsan və ehtiyacdan) pak və müqəddəsdir. O, ehtiyacsızdır. Göylərdə və yerdə nə varsa, hamısı Onundur. Bu iddianıza heç bir dəliliniz yoxdur. Allaha qarşı bilmədiyiniz şeyimi deyirsiniz?

69. De: "Allaha qarşı yalan uyduranlar, (əsla) nicat tapmazlar!"

70. Dünyadan (azacıq) mənfəətləri vardır. Sonra bizə doğru qayıdacaqlar, ondan sonra küfr etdiklərinə görə onlara çox şiddətli bir əzab daddıracağıq!

---

62. Allah dostlarının qorxusu və qəm-qüssəsi olmaz: "Övliya" mənası iki şey arasında vasitəsizlik, yaxınlıq və fasiləszlik olan "vəli" sözünün

cəmidir. Buna görə də övliyalar (Allah dostları) Allahla aralarında heç bir pərdə, maneə və fasilə olmayan şəxslərdir. Onların qəlblərində olan örtük aradan qalxmış, Allahtanıma nuru, iman və pak əməl sayəsində Allahı qəlb gözü heç bir şübhə, tərəddüd olmadan görürlər. Varlığı sonsuz, qüdrəti nəhayətsiz, mütləq kamillik olan Allahı bu cür tanıma sayəsində Allahdan qeyrisi nəzərlərində kiçik, dəyərsiz, qeyri-sabit görünür. Okeanla tanış olanın gözündə damcının heç bir dəyəri olmaz. Günəşi görən şəxs işıqsız şama etina etməz. Buna görə də onların qorxusu və qəm-qüssəsi olmaz. Çünki insanda qorxu əlində olan nemətləri itirdiyi və ya gələcəkdə onu təhdid edən təhlükələr olduğu zaman yaranır. Qəm-qüssə insanda əlində olan nemətləri itirdiyi üçün yaranır. Allahın həqiqi dostları maddi dünyanın bütün bağlılıqlarından və əsarətindən azaddırlar, başqalarının davamlı olaraq iztirab və narahatlıq içində saxlayan qorxular və qəm-qüssələr onlardan uzaqdır[891].

İmam Əlidən (ə) bu ayə və Allah dostlarının xüsusiyyətləri haqqında soruşulduqda İmam belə buyurmuşdur: ***"Allah dostları Allah üçün olan ibadəti səmimi şəkildə yerinə yetirən, başqaları təkcə dünyanın zahirinə baxdıqları halda, dünyanın batininə baxan, (bu dərin baxış sayəsində) dünyanın gec yetişən təsirlərindən xəbərdar olan, başqaları dünyanın keçici bəzək-düzəyinə aldandığı halda, dünyanın onları tezliklə tərk edəcəyini bildikləri üçün onu tərk edən, dünyanın tezliklə onları öldürəcəyini bildikləri üçün ona qarşı olan sevgilərini ürəklərndə qovub çıxaran şəxslərdir."***[892] İmam Sadiq (ə) buyurmuşdur: ***"Qeybdə olduğu vaxt imamlarının (özlərini islah etməklə) zühurunu gözləyən, zühur etdiyi vaxt***

[891] Nümunə, c.8, səh.333
[892] Əl-Mizan, c.10, səh.92

əmrinə müti olan Qaim İmamın (ə) ardıcıllarının xoş halına. Onlar Allah dostlarıdırlar. Onların qorxusu və qəm-qüssəsi olmaz."[893]

64. Allahın təqvalı insanlara müjdəsi: Bu ayədə Allahın öz dostlarına dünya və axrətdə nəyi layiq görməsi təfsirçilər arasında fikir ayrılığına səbəb olmuşdur. Bəziləri hesab edir ki, bu, dünyasının dəyişib o dünyaya gedərkən mələklərin möminlərə ***"Sizə vəd verilmiş Cənnət sizə mübarək olsun"***[894] deyə verdiyi müjdədir. Bəzləri hesab edir ki, bu, möminlərin düşmən üzərndə qələbə çalması və yer üzündə hökmranlıq etməsi ilə bağlı Allahın verdiyi qələbə vədləridir. Bəzi hədislərdə bu, mömnlərin dünyada gördükləri yaxşı yuxuların yozumları, qəbirlərindən qalxdıqdan sonra mələklərin onlara verdiyi Cənnət vədi olduğu qeyd edilmişdir. Ayədən müjdənin çox geniş məna ifadə etdiyi, hər növ müjdə, şadlıq, qələbə və uğuru ehtiva etdiyi məlum olur. Qeyd etdiyimiz bütün məzmunlar müjdənin ayrı-ayrı nümunələridir. İmam Sadiqin (ə) dostlarından biri İmamın belə buyurduğunu qeyd edir: ***"Bu məktəbin davamçıları ömürlərinin son anlarında elə şeylər görürlər ki, gözləri parlayır".*** Hekayətçi belə qeyd edir: Mən israrla "Nə görürlər?" – deyə soruşdum və on dəfə eyni sualı təkrar etdim. Lakin hər dəfəsində İmam təkcə bu cümlə ilə qənaətləndi: ***"Görərlər."*** Məclisin axırında üzünü mənə tərəf tutub səsləndi: ***"Deyəsən israr edib nəyi gördüklərini öyrənmək istəyirsən."*** Dedim: Bəli, əlbəttə. Sonra ağladım. İmam halımı görüb lütfkarlıqla buyurdu: ***"O iki nəfəri görərlər."*** Soruşdum: Hansı iki nəfəri? Buyurdu: ***"Peyğəmbər (s) və Əlini (ə). Heç bir imanlı insan bu iki böyük şəxsyyətin ona müjdə verdiyini görmədən dünyaya göz***

---

[893] Nurussəqəleyn, c.3, səh.222
[894] Fussilət surəsi, 30-cu ayə

yummaz. Bunu Allah Quranda bəyan edib." Soruşdum: Harada, hansı surədə? Bu vaxt İmam bu ayəni tilavət etdi[895].

71. Müşriklərə Nuhun əhvalatını danış. Bir zaman o öz ümmətinə belə demişdi: "Ey ümmətim! Əgər aranızda olmağım və Allahın ayələrini sizə xatırlamağım sizə ağır gəlirsə, (əlinizdən nə gəlirsə, edin) mən Allaha

[895] Nümunə, c.8, səh.337; Əl-Mizan, c.10, səh.94

təvəkkül etmişəm. Məbudlarınızla birlikdə nə edəcəyinizi qərarlaşdırın. Sizə heç nə gizli qalmasın (görəcəyinz işi hərtərəfli yoxlayın), sonra mənə heç möhlət də verməyib həyatıma son qoyun!

72. Əgər siz (dəvətimi qəbul etməkdən) üz çevirsəniz, (pis iş görmüş olarsınız, belə ki,) mən sizdən heç bir muzd istəmirəm. Mənim muzdum yalnız Allaha aiddir. Mənə müsəlmanlardan (Allahın əmri qarşısında təslim) olmaq əmr edilmişdir!"

73. Lakin onlar Nuhu yalançı hesab etdilər. Biz Nuha və onunla birlikdə gəmidə olanlara nicat verdik, onları varislər (xələflər) etdik. Ayələrimizi yalan hesab edənləri isə suda batırıb boğduq. Bax gör qorxudulanların (lakin ilahi qorxuya əhəmiyyət verməyənlərin) aqibəti necə oldu!

74. Nuhun ardınca öz ümmətlərinə elçilər göndərdik. Onlar açıq-aşkar dəlillər gətirmişdilər. Ancaq bunlar daha öncə yalan hesab etdikləri şeyə iman gətirmədilər. Biz (dərk etməmələri üçün) həddi aşanların ürəklərini belə möhürləyirik.

75. Onlardan sonra Musanı və Harunu öz ayələrimizlə Firon və tərəfdarlarına göndərdik. Lakin onlar təkəbbürlük etdilər (və haqqa tabe olmadılar). Çünki günahkar bir qrup idilər.

76. Onlara Bizim tərəfimizdən haqq gəldikdə: "Bu, aşkar bir sehrdir!" – dedilər.

77. Musa dedi: "Məgər sizə haqq gəldiyi zaman onun barəsində beləmi deyirsiniz? Bu sehrdirmi? Halbuki sehrbazlar (əsla) nicat tapmazlar!"

78. Onlar: "Bizi atalarımızın tapındığından döndərmək, özünüz də yer üzündə böyüklük etmək üçünmü gəldiniz? Biz sizə (əsla) iman gətirmərik!" – dedilər.

---

71. Din rəhbərlərinin düşmən qarşısında şücaəti: Həzrət Nuh "Məbudlarınızla birlikdə nə edəcəyinizi qərarlaşdırın. Sizə heç nə gizli qalmasın (görəcəyinz işi hərtərəfli yoxlayın)..." cümləsi ilə xalqını ona qarşı bütün gücünü səfərbər etməyə təhrik etdi. Təbii ki, bu çağırış onların özlərinin və bütlərinin aciz və gücsüz olduğunu, Allahın öz peyğəmbərini düşmənlərdən qoruya biləcəyini göstərmək üçün idi[896]. Bu ayələr nazil olduğu vaxt Peyğəmbərin (s) vəziyyəti eynilə Nuhun (ə) vəziyyəti kimi idi. Sanki Allah-taala bu ayələri göndərməklə peyğəmbərə düşmənin güc və qüdrətinə əhəmiyyət verməməyi, cəsarətlə öz yoluna davam etməyi göstəriş verirdi. Çünki onun arxalandığı varlıq Allahdır. Heç bir qüvvə Onun qüdrəti qarşısında müqavimət göstərə bilməz. Bəzi təfsirçilər Nuhun bu cümləsni və peyğəmbərlərin buna bənzər ifadələrini möcüzənin bir növü hesab etmişlər. Çünki onlar aşkarda heç bir imkana malik olmadıqları halda, düşməni məğlub edəcəkləri ilə təhdid edir, özlərinin qələbəsindən xəbər verirdilər. Bu, bütün İslam rəhbərləri üçün böyük bir dərsdir. İslam rəhbəri düşmənlərin izdihamı qarşısında qorxmamalı, Allaha təvəkkül etməli, yüksək qətiyyət və əzmkarlıqla onları meydana çağırmalı, aciz olduqlarını elan etməlidir. Bu mühüm amil ardıcılların ruhiyyəsinin güclənməsinə, düşmənlərin ruhiyyəsinin sınmasına səbəb olur[897].

72. Peyğəmbərlik mükafatı: Həzrət Nuh (ə) "Əgər siz (dəvətimi qəbul etməkdən) üz çevirsəniz, (pis iş görmüş olarsınız, belə ki,) mən sizdən heç bir muzd istəmirəm" cümləsi ilə demək istəyir ki, əgər siz məndən üz çevirsəniz, mənim üçün heç bir problem olmayacaq. Çünki mən sizdən haqq

[896] Əl-Mizan, c.10, səh.97
[897] Nümunə, c.8, səh.351

istəmədim ki, sizin üz çevirməyiniz mənim haqqımın aradan getməsinə səbəb olsun. Mənim muzdumu Allah verir[898]. Yalançı iddiaçılarla müqayisədə həqiqi peyğəmbərlərin ən parlaq əlamətlərindən biri onların ilahi maraq güdməsindədir. İlahi maraq peyğəmbərlik iddiasının düzlüyünün dəlilidir. Halbuki yalançı iddiaçılar maddi maraq güdür, kahinlər və sairədə müşahidə edildiyi kimi, onların məqsədi yalnız şəxsi mənfəətlərdir. Quranda ilahi peyğəmbərlərin öz zəhmətləri müqabilində heç nə ummaması mövzusunun daha çax qabardılması onların bu imtiyazla tanına biləcəyindən xəbər verir. Onlar bu şüarı həm sözdə vermiş, həm də əməldə göstərmişdilər. Halbuki yalançı bir iddiaçı belə bir söz deyib, onu əməldə əsla göstərə bilməz[899].

73. Əhli-beyt (ə) müsəlmanların nicat gəmisidir: Bu ayəyə əsasən Nuhu yalançı hesab edənlərin hamısı həlak oldu, təkcə Nuh və onunla birlikdə gəmidə olanlar xilas oldu. Sünni və şiə hədisçilərinin əksəriyyətinin Peyğəmbərdən (s) nəql etdiyi və "Gəmi hədisi" adı ilə şöhrət tapmış hədisdə Peyğəmbərin (s) belə buyurduğunu oxuyuruq: "Mənim Əhli-Beytim Nuhun gəmisi kimidir. Ondan yapışan xilas olacaq, ondan imtina edən boğulacaq." Yəni yalnız Peyğəmbərin (s) Əhli-beyti ilə birlikdə olanlar xilas olacaqlar[900].

77. Möcüzə ilə sehrin fərqi: Əvvəlki ayədə Həzrət Musanın (ə) düşmənlərinin onu möcüzəsini sehr və cadu hesab etdiklərini oxuduq. Bu ayədə Musanın (ə) özünü müdafiə etmək üçün iki dəlil gətirdiyi qeyd edilir. Birincisi, o buyurur: Bu sehr və cadu deyil, həqiqətdir. Yəni möcüzə və sehr, hər ikisi insanları öz təsiri altına alsa da, sehr yanlış, sehrbazların işləri məqsədsiz, məhdud və az dəyərlidir. Lakin peyğəmbərlərin möcüzələri

---

[898] Əl-Mizan, c.10, səh.98
[899] Quranın ismarışı, c.7, səh.64 və 65
[900] Ətyəbül-bəyan, c.6, səh.430

həqiqətdir, islah etmə və tərbiyələndirmə kimi parlaq məqsədlərə xidmət edir, daha geniş və məhdudiyyətsiz formada təqdim edilir. İkincisi, o buyurur: “Sehrbazlar əsla xilas olmayacaqlar”. Fəaliyyətləri aldadıcı və azdırıcı xüsusyyətə malik olan sehrbazlar mənfəətpərəst, azdırıcı, dəyişən və yalançı şəxslər olurlar. Onları gördükləri işlərdən tanımaq olar. Lakin peyğəmbərlər haqq tələb edən, ürəyiyanan, təmiz ürəkli, məqsədyönlü, dindar, maddiyata etina etməyən şəxslərdir. Sehrbazların ixlasla işləri yoxdur, onları sərvət, məqam, və şəxsi mənfəətlər maraqlandırır. Halbuki peyğəmbərlərin məqsədi Allahın yaratdığı insanları haqqa doğru yönəltmək, insan cəmyyətinin maddi və mənəvi dünyasını islah etməkdir[901].

79. Firon: “Nə qədər bilikli sehrbaz (cadugər) varsa, yanıma gətirin!” – dedi.

80. Sehrbazlar gəldikdə Musa: “Ata biləcəklərinizi (sehr-cadu vasitələrinizi) atın” – dedi.

81. Onlar atdıqda Musa dedi: “Sizin gətirdiyiniz (etdiyiniz) hər şey sehrdir. Allah tezliklə onu batil edəcəkdir. Çünki Allah fitnə-fəsad törədənlərin əməllərini islah etməz!

82. Günahkarlar istəməsələr də, Allah haqqı öz vədilə gerçəkləşdirəcək!”

83. Firon və tərəfdarlarının işkəncələrinin qorxusundan (ilk başlanğıcda) Musaya öz qövmündən olan kiçik bir qrup istisna olmaqla, heç kəs iman gətirmədi. Çünki Firon o yerdə hökmdar və həddi aşmışlardan idi.

---

[901] Nümunə, c.8, səh.359

84. Musa dedi: “Ey qövmüm! Əgər Allaha iman gətirmisinizsə və təslim olmusunuzsa, Ona təvəkkül edin!”

85. Onlar dedilər: “Yalnız Allaha təvəkkül edirik. Ey Rəbbimiz! Bizi zalım tayfanın işkəncələrinə məruz qoyma!

86. Və bizi öz mərhəmətinlə kafirlərin əlindən qurtar!”

87. Musaya və qardaşına: “Camaatınız üçün Misirdə evlər seçin, evlərinizi bir-birinin qarşısında tikin, namaz qılın və möminləri (zəfərlə) müjdələyin!” – deyə vəhy etdik.

88. Musa dedi: “Ey Rəbbimiz! Sən Firona və tərəfdarlarına dünyada zinət və mal-dövlət vermisən! Ey Rəbbimiz! (Nətcədə, bəndələrini) Sənin yolundan azdırırlar. Ey Rəbbimiz! Onların mal-dövlətini məhv et və (törətdikləri günahlara görə) ürəklərini möhürlə (sərtləşdir) ki, şiddətli əzabı görməyincə iman gətirməsinlər!”

---

81. Cadugərlərin cadusunun puça çıxarılması: Bu ayədə həzrət Musa (ə) baş verəcək hadisə (əsanın əjdahaya çevrilməsi) ilə uyğunluq təşkil edəcək bir həqiqətə aydınlıq gətirir. Cadugərlərin etdikləri (iplərin və əsaların ilan və əjdaha şəklində görünməsi) sehrdr. Sehr gerçək olmayanın gerçək kimi göstərilməsidir. Sehr və cadunun əsası batil olduğu üçün Allah da onu batil edir və puç olduğunu açıb göstərir. Haqqı aşkar və davamlı etmək, batili aradan aparmaq Allahın qanunudur. Batilin nail olduğu qüdrət müvəqqəti olar. Qüdrət və əbədilik haqqa məxsusdur. Batilin və nahaqqın müvəqqətiliyi Allah-taalanın bir çox ayədə bəyan etdiyi bir həqiqətdir.

Nəzər nöqtəsi olan ayənin sonunda da buna təkid edərək buyurmuşdur: ***"Allah fitnə-fəsad törədənlərin əməlini islah etməz."***[902]

87. İsrail övladlarının şəhərdə məskunlaşmağa başlaması: "Qiblə" sözünün leksik mənası qarşı-qarşı olmaqdır. Qiblə sözünün bu gün məhşur olan mənası onun ikinci dərəcəli mənasıdır[903]. Bu ayəni təfsir edərkən bildirirlər ki, Allah Musa və qardaşına (Allahın salamı olsun onların hər ikisinə) vəhy edib Misirdə qövmləri üçün ev tikmələrini göstəriş verir. Həmin vaxta qədər İsrail övladları şəhər həyatı görməmiş, səhra sakinləri kimi çadırlarda yaşamışdılar. Onlara təbliğat aparmaları və məşvərət etmə imkanına malik olmaları, namazlarını cəm şəkildə qılmaları üçün evlərini sıra ilə qarşı-qarşıya, divar-dvara tikmək göstərişi verilir[904].

88. Musanın (ə) nifrini və onun qəbul edilməsi: Firon tərəfdarlarının iman gətirəcəyindən tamamilə ümid kəsildikdən sonra Həzrət Musa (ə) onları nifrin etmişdir. Onların əsla xilas olmayacağı, yalnız azğınlaşmaqda davam edib, başqalarını da azğınlığa sürükləyəcəyi qəti şəkildə aydınlaşdıqdan sonra Musa (ə) onları nifrin edir və Allahdan Firon tərəfdarlarının iman gətirməməsini, yalnız ilahi əzabı gördükləri zaman, imanın heç bir faydası olmadığı vaxt iman gətirmələrini istəyir[905].

---

[902] Əl-Mizan, c.10, səh.104
[903] Nümunə, c.8, səh.371
[904] Əl-Mizan, c.10, səh.109
[905] Əl-Mizan, c.10, səh.110

89. Buyurdu: “Duanızı qəbul etdim. Qətiyyətli olun və bilməyənlərin yolunu izləməyin!

90. İsrail oğullarını dənizdən (Nil çayından) keçirtdik. Firon və qoşunu zalımcasına və təcavüzkarcasına onları təqib etdi. (Firon) batacağı anda: “İsrail oğullarının inandıqlarından başqa tanrı olmadığına iman gətirdim. Mən təslim olanlardanam!” – dedi.

91. (Ancaq ona belə xitab edildi:) İndimi? Halbuki daha əvvəl üsyan etmiş və fitnə-fəsad törədənlərdən olmuşdun!

92. Gələcək nəsillərə bir ibrət olasan deyə, bu gün bədənini xilas edəcəyik. İnsanların çoxusu ayələrimizdən xəbərsizdirlər!

93. (Sonra) İsrail oğullarını münasib bir yerdə məskunlaşdırıb, təmiz və pak (halal) ruzilər verdik. Onlar elm gələnə qədər ixtilafda olmadılar. Qiyamət günü Rəbbin ixtilafda olduqları məsələlər barəsində onlar arasında hökm verəcəkdir!

94. Əgər sənə nazil etdiyimizə şübhə edirsənsə, səndən əvvəl səmavi kitab oxuyanlardan soruş. Haqq sənə, sözsüz ki, Rəbbin tərəfindən yetişmişdir. Buna görə də əsla şübhə edənlərdən olma!

95. Allahın ayələrini təkzib edənlərdən də olma, yoxsa ziyana uğrayanlardan olarsan!

96. Haqlarında Rəbbinin fərmanı gerçəkləşmiş olanlar iman gətirməzlər!

97. Şiddətli əzabı görənə qədər bütün ayələri görsələr belə (iman gətirməzlər).

---

90. Məcburi imanın faydasızlığı: Musanın (ə) öngörüləri biri-digərinin ardınca gerçəkləşdikdən, bu böyük peyğəmbərin doğruçu olduğuna əvvəlkindən daha artıq əmin olduqdan və gücünü gördükdən sonra Firon çıxılmaz vəziyyətdə qalıb iman gətirdiyini elan etdi. Ümid edirdi ki, Allah İsrail övladlarını dağ boyda dalğalardan xilas etdiyi kimi, onu da xilas edəcək[906]. Zülmkarlar və dövrün despot hökmdarları usanmadan öz çirkin əməllərini davam etdirirlər. lakin ölüm onları yaxaladığında, pərdələr qalxdığında, etdikləri əməllərin nəticəsi gözləri önündə təcəssüm etdiyində peşman olur və iman gətirdiklərini elan edirlər. Halbuki bu imanın heç bir faydası və dəyəri olmur. Əməli edib-etməmək kimi ixtiyari seçim olduğu zaman gətirilən imanın dəyəri vardır. Habelə insanın xeyir və şər səbəbi olacağı dünyada gətirdiyi imanın qiyməti vardır. Ancaq dalğaların qoynunda saman çöpü kimi o tərəf-bu tərəfə çırpılan şəxsin gətirdiyi imanın faydası və dəyəri yoxdur[907].

92. Fironun cansız bədəninin sahilə çıxması: Təfsirçilərin əksəriyyəti hesab edir ki, “bədən” deyilərkən bu ayədə Fironun cansız bədəni nəzərdə tutulmuşdur. Çünki o bölgənin insanlarının təsəvvüründə Firon o qədər əzəmətli bir varlıq hesab edilirdi ki, əgər bədəni sudan çıxmasaydı, çoxları Fironun batdığına inanmayacaq və onun xilas olması ilə bağlı əfsanələr qoşacaqdılar. Bu səbəbdən də gələcək nəsillərə ibrət olsun deyə, Allah-taala onun cansız bədənini sahilə çıxardı. Bu gün də Misir və Britaniya muzeylərində fironlardan ikisinin bədəni mumiyalanmış şəkildə qorunur.

---

[906] Nümunə, c.8, səh.376
[907] Mənşuri-cavid, c.12, səh.131

Bəziləri bu ikisindən birinin Musanın (ə) müasiri olmuş Fironun bədəni olduğunu ehtimal edirlər[908].

93. Münasib yer: Münasib yer deyilərkən insanın məskunlaşmaq üçün arzuladığı yer nəzərdə tutulur. Sanki həmin yer "mən insanların məskunlaşması üçün yaxşı yerəm və bu iddiamda doğruyam", - deyə səslənir. Gözəl ab-havaya, bərəkətli torpağa, bol nemətlərə malik olması, insanın məskunlaşması üçün münasib olması əlverişli və münasib yerin xüsusiyyətlərindəndir. İsrail övladlarının məskunlaşdığı əlverişli və münasib yer deyilərkən Beytül-müqəddəs və Şam torpaqları nəzərdə tutulmuşdur. Allah-taala onları həmin ərazidə məskunlaşdırıb, buranı müqəddəs və mübarək adlandırmışdır. Quranda onların bu əraziyə daxil olması hadisəsi qeyd edilmişdir[909].

94. Peyğəmbərin şübhə və tərəddüdü var idimi? Allah-taala bu ayədə Peyğəmbəri (s) himayə etmək və nazil etdiyinin doğru olduğunu sübuta yetirmək üçün Peyğəmbərə (s) Ktab əhlinin öz kitablarını təhrif etməyən və onu düzgün oxuyanlarından bu barədə soruşmaq göstərişi verir. Çünki bu ilahi maarif ümumi şəkildə bütün səmavi kitablarda öz əksini tapmışdır. Bu ayədə diqqət yetirilməsi tələb olunan ən mühüm nüans budur ki, Peyğəmbər (s) ona nazil olana şübhə etməmişdir. ***"Əgər şübhən varsa"*** ifadəsi nəzərdə tutulan mövzunu sübuta yetirmək və gücləndirmək məqsədi daşıyır. Belə ki, bu ifadə formasından elmi və rasional mübahisələrdə çox istfadə edilir. Məsələn, mübahisə tərəfi tərəf müqablini qane edəcək və öz iddiasını sübuta yetirəcək tutarlı və qənaətbəxş bir dəlil gətirir. Lakin tərəf müqabilinin heç

---

[908] Nümunə, c.8, səh.377
[909] Əl-Mizan, c.10, səh.114

bir şübhəsi qalmadığı halda, öz iddiasını daha da möhkəmləndrmək üçün ***"Əgər şübhən varsa"*** deyərək başqa bir dəlil də gətirir[910].

98. Nə üçün Yunisin ümmətindən başqa iman gətirib imanı özünə fayda verən heç bir şəhər və kənd olmadı? (Yunisin ümməti) iman

[910] Əl-Mizan, c.10, səh.116

gətirdikləri vaxt onları dünyadakı rüsvayçılıq əzabından qurtardıq və onlara bir müddət (ömürlərinin axırınadək) gün-güzəran verdik.

99. Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. Sən insanları iman gətirməyə məcburmu etmək istəyirsən?! (Məcburi imanın nə faydası var?).

100. Allahın əmri (izni, yardımı, hidayəti) olmadan heç kəs iman gətirə bilməz. Düşünməyən insanlara çirkab (günah və küfür çirkabı) nəsib edər.

101. De: “Baxın, göylərdə və yerdə (Allahın birliyi və ayələrindən xəbər verən) nələr var?” Lakin bu ayələr və qorxutmalar iman gətirməyənlərə (inadkarlıqları ucbatından) heç bir fayda verməz!

102. Onlar özlərindən əvvəlkilərin günlərinə bənzər bir gün (bəla və müsibətlər) gözləyirlər!” De: “Gözləyin, mən də sizinlə birlikdə gözləyirəm!”

103. Sonra (bəla və əzab nazil olduğunda) peyğəmbərlərimizi və iman gətirənləri xilas edərik. Möminləri belə xilas etmək Bizə vacibdir.

104. De: “Ey insanlar! Əgər mənim dinim barəsində şübhəyə düşmüşsünüzsə, (bilin ki) mən Allahı qoyub tapındıqlarınıza ibadət etmərəm. Ancaq sizin canınızı alacaq Allaha ibadət edirəm. Mənə möminlərdən olmaq əmr edilmişdir”.

105. Və (mənə:) “Hər növ şirkdən uzaq olan bir dinə tərəf üz tut və müşriklərdən olma,

106. Allahdan başqa, sənə nə bir xeyir, nə də zərər verə bilən heç nəyi çağırma! Əgər belə etsən, zülm edənlərdən olarsan!” (deyə əmr edilmişdir.)

---

98. Yunisin (ə) qövmünün imanı: Şübhə yoxdur ki, digər xalqlardan da çoxlu sayda iman gətirənlər olmuşdur. Yunisin (ə) qövmünün digərlərindən fərqləndirilməsinin səbəbi qövmün qəti əzab göndərilmədən hamılıqla iman gətirməsi olmuşdur. Halbuki digər qövmlər arasında Allahın qəti əzabı enənə qədər öz inkarçı mövqelərində möhkəm dayanan çoxlu sayda insanlar olmuşdur. Onlar ilahi əzabı gördükdən sonra iman gətirdklərini elan etsələr də, 90-cı ayədə qeyd edilən səbəbdən imanlarının heç bir faydası olmamışdır. Yunisin (ə) qövmünün iman gətirməsi hadisəsi belə baş vermişdir: Yunis (ə) Neynəva (İraq) səhrasında məskunlaşmış qövmünün iman gətirməyəcəyini görüb aralarında yaşayan bir abidin təklifi ilə camaatı nifrin edir. Halbuki elmli və bilikli bir şəxs də Yunisə dua etməyi, daha çox təbliğat aparmağı və məyus olmamağı təklif edirdi. Yunis (ə) bu macəradan sonra qövmünü tərk edir. Dəfələrlə onun sözlərinin düzlüyünün şahidi olmuş qövm həmin elmli adamın yanına gedib onlara bir yol göstərməsini xahiş edir. Həmin vaxt əzab nazil olmasa da, əzab əlamətləri görünməkdə idi. Onlar fürsəti qənimət bilib, alimin tövsiyəsi ilə şəhəri tərk edib duaya, yalvarıb-yaxarmağa başlayır, iman gətirdiklərini deyib tövbə edirlər, Allahın nəzərlərini daha çox cəlb etmək, rəhmət və mərhəmətinə nail olmaqdan ötrü uşaqları analarından ayırır, cod və qiymətsiz paltarlar geyinir və öz peyğəmbərlərinin axtarışına çıxırlar. Lakin ondan heç bir əsər-əlamət tapmırlar. Bu vaxt edilmiş həqiqi tövbə öz işini görür, əzab əlamətləri çəkilir və əmn-amanlıq yenidən hökm sürür. Yunis (ə) başına gələn uzun-uzadı macəradan sonra qövmünə doğru geri qayıtdıqda onu ürəkdən və səmimi qəbul edirlər. Bir nüansı qeyd etməliyik ki, Yunisin (ə) qövmü qəti əzaba məruz qalmamışdır. Əks təqdirdə tövbələri qəbul edilməz. Adətən qəti əzab gəlməzdən əvvəl göndərilən xəbərdarlıqlar onlar üçün kifayət qədər oyadıcı olmuşdur. Halbuki Fironun tərəfdaları dəfələrlə

bu təhlükələrin və xəbərdarlıqların şahidi olsalar da, onları ciddiyə almamış, sonda qəti əzaba düçar olmuşlar[911].

99. İman Allahın hədiyyəsi və insanın seçimidir: Bu ayənin sonrakı ayə ilə təzad təşkil etdiyi təsəvvür edilə bilər. Çünki bu ayədə Allahın heç kəsi iman gətirməyə məcbur etmədiyi buyurulduğu halda, sonrakı ayədə Allahın əmr və istəyi olmadan heç kəsin iman gətirə bilməyəcəyi buyurulmuşdur. Bir nüansa diqqət sözügedən ziddiyətin aradan qalxmasına səbəb olur. O da budur ki, inancımıza görə, nə məcburiyyət düzdür, nə də qeyd-şərtsiz azadlıq. Yəni insanlar davranışlarında məcbur və ixtiyarsız olmadıqları kimi, tam şəkildə başlı başına da buraxılmamışlar. İradə azadlığına malik olmaqla yanaşı, Allahın yardımına da ehtiyacları vardır. Bu iradə azadlığını insana Allah vermişdir. Ağıl, idrak və təmiz vicdan da Onun nemətlərindəndir. Peyğəmbərlərin (ə) və səmavi haqqa doğru kitabların yönləndirməsi də Onun tərəfindəndir. Buna görə də iradə azadlığı ilə yanaşı, iman neməti və onun məhsulunun mənbəyi Allahdır[912].

104. Ölüm Allahın ixtiyarındadır: Bu ayədə Allahın atributları arasından öldürən atributu qeyd edilmişdr. Belə ki, müşriklər bütlərə pisliklər dəf etdiyini və yaxşılıqların mənbəyi olduğunu düşündükləri üçün ibadət edirdilər. Lakin öldürmək məsələsinə gəlincə, ölümün hər kəsi haqlayacağına və hər kəsin ölümü dadacağına əmin idilər. Digər tərəfdən isə ölümün başqasının deyil, məhz təkcə Allahın əlində olduğunu bilirdilər. Buna görə də qeyd olunan sifət can vermənin acısından xilas olmaq üçün onların Allaha ibadət etməsinə stimul ola bilər. Bundan əlavə, Allahın bu atributunun qeyd edilməsi bir növ müşrikləri təhdid xarakteri daşıyır. Çünki

---

[911] Nümunə, c.8, səh.387
[912] Nümunə, c.8, səh.390

Allah-taala əvvəlki ayələrdə onlara əzab vədi vermiş və əzab gəldiyi vaxt müşriklərin ölümünün qaçılmaz olduğunu xəbər vermişdir[913].

107. Əgər Allah sənə (imtahan etmək üçün və ya günahın kəffarəsi olaraq) bir zərər toxundursa, bunu Ondan başqa heç kəs aradan qaldıra bilməz. Əgər sənə bir xeyir diləsə, heç kəs Onun lütfünün qarşısını ala bilməz. O, bunu Öz qullarından istədiyinə nəsib edər. O, Bağışlayandır, Rəhmlidir.

108. De: “Ey insanlar! Rəbbiniz tərəfindən sizə haqq gəlmişdir. Kim doğru yolla getsə, bunu özü üçün etmişdir, kim azğınlığa düşsə, haqq yoldan sapıb özünə ziyan etmişdir. Mən sizə məmur deyiləm (Mənə sizi məcbur etmək əmr edilməyib)”.

---

[913] Əl-Mizan, c.10, səh.126

109. Sənə vəhy edilənə tabe ol və Allah Öz hökmünü verənə qədər səbr et. O, hökm verənlərin ən yaxşısıdır.

"Hud" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Əlif, Lam, Ra. Bu, ayələri möhkəmləndirilmiş, sonra izah edilmiş və Allah tərəfindən göndərilmiş bir Kitabdır.

2. (Mənim çağırışım budur ki,) Siz Allahdan başqasına ibadət etməyəsiniz. Mən Allah tərəfindən sizi qorxudan və müjdələyənəm.

3. Və Rəbbinizdən bağışlanmağınızı diləyəsiniz, sonra Ona doğru qayıdasınız ki, müəyyən bir müddətə qədər sizə yaxşı gün-güzəran versin və hər bir yaxşı əməl sahibini əməli qədər bağışlasın. Əgər (bu əmrdən) üz döndərsəniz, mən böyük günün sizə üz verəcək əzabından qorxuram.

4. Sizin qayıdışınız Allaha doğrudur. O, hər şeyə qadirdir!

5. Bilin ki, onlar özlərini (və sözlərini) Ondan (Peyğəmbərdən) gizləmək məqsədilə sinələrini bükərlər. Xəbərdar olun ki, onlar libaslarına büründükdə belə, Allah onların gizli saxladıqları və aşkar etdikləri hər şeyi bilir. Çünki O, ürəklərdə olan sirlərdən xəbərdardır.

"Hud" surəsinin ümumi məzmunu: Bu surənin ayələrində Məkkə surələrində olduğu kimi, İslam maarifinin əs4as prinsiplərindən, yəni tövhid, şirk və bütpərəstliklə mübarizə, qayıdış, ölümdən sonrakı dünya, peyğəmbərin dəvətinin doğruluğu prinsiplərindən bəhs edilir. Ayələrdə qeyd olunan mövzularla yanaşı düşmənləri kəskin təhdidlər, möminlərin tutduqları yolda əzmkar və qətiyyətli olması ilə bağlı ciddi göstərişlər də yer almışdır. Surədə həzrət Nuhun (ə) fəaliyyətindən və mübarizələrindən geniş şəkildə bəhs edilir, Hud, Saleh, İbrahim, Lut və Musanın (Allahın salamı olsun onların hamısına) başına gələn hadisələrdən, onların şirkə, küfrə, azğınlığa və zülmə qarşı mübarizələrindən bəhs edilir[914].

3. Din dünya həyatının həqiqi gözəlləşdiricisidir: Quranın bu və bir çox digər ayələrində dindarlığın ölümdən sonrakı həyatdan əvvəl dünya

---

[914] Nümunə, c.9, səh.3

həyatını gözəlləşdirdiyi bəyan edilmişdir. Bəziləri dünyanın maddi nemətləri ilə iman, tövbə arasında mənəvi və naməlum bir bağlılıq olduğunu hesab edirlər. Halbuki bu əlaqə və bağlılığı naməlum hesab etməyimizin heç bir əsası yoxdur. Hər bir ağıllı və məntiqli insan yalan, saxtakarlıq, oğruluq, zülm, haqsızlıq və ayrıseçkiliyin sosial həyat bağlarını bir-birindən qopardığını və insanın həyatını zülmətə çevirdiyini qəbul edir. Quranın bu və bundan əvvəlki ayəsində dörd prinsipə riayət edilməsinin müsəlmanların, ümumiyyətlə, insanların dünya həyatlarını abadlaşdırdığı qeyd edilmişdir. Həmin qanunlar bunlardır: 1. Tövhid: "Yalnız Allaha ibadət edin"; 2. Peyğəmbərlərin rəhbərliyinin qəbul edilməsi: "Mən Allah tərəfindən sizi qorxudan və müjdələyənəm"; 3. Mühitin günahdan təmizlənməsi: "Bağışlanma diləyin"; 4. İlahi dəyərlərə doğru qayıdış və onları həyat şüarı etmək: "Ona doğru qayıdın". Buna görə də qeyd olunan dörd prinsipdən sonra belə buyurulmuşdur: ***"Müəyyən bir müddətə qədər sizə yaxşı gün-güzəran versin və hər bir yaxşı əməl sahibinə əməli qədər bağışlasın."***[915] Allah-taala bu cümlələrdə demək istəyir ki, daha öncə qeyd edilmiş göstərişlərə əməl ediləcəyi təqdirdə Allah bəyənilən xüsusiyyətləri özündə ehtiva edən, habelə səy və çalışqanlıqda digərlərindən üstün olan şəxsi malik olduğu üstünlük qədər müküfatlandırar, ona xoşbəxtlik və səadət nəsib edər. Belə ki, hər hansı xüsusiyyətdə üstünlük və imtiyazı olan şəxs ondan daha yaxşı istifadə edib dünya və axirətdə yüksək dərəcəyə nail ola bilər. Bu, yalnız tövhd və Allaha iman sayəsində gerçəkləşən bir həqiqətdir. Çünki Allah adildir və heç kəsin haqqını zay etməz. İnsan cəmiyyətləri tövhid və imandan uzaq düşdükləri üçün zahirən nə qədər mütərəqqi və inkişaf etmş görünsələr də bu inkişaf gözə dəymir. Çünki Allahsız cəmiyyətlərdə insanlar

---

[915] Nümunə, c.9, səh.10

diktator və aciz olmaqla iki qrupa bölünürlər. Bütün imtiyazlar layiq olmasa belə, diktatora verilir. Aciz və zəiflər üstünlük sahibi və xoşbəxtliyə layiq olsalar da həmişə bədbəxtlik və xoşagəlməzlik içində çabalayırlar[916].

5. Müşriklər özlərini Peyğəmbərdən (s) gizləyirdilər: Hədis və tarix kitablarının yazdığına görə, müşriklər və Peyğəmbəri (s) inkar edənlər müəyyən həddə qədər Allahı qəbul edir, Peyğəmbərlə mübarzəyə qalxıb Quran və onun surələrinin bənzərini gətirməyə çalışırdılar. O dövrün söz ustadları çox çalışdılar, hətta bir neçəsi Kəbənin yanında bir yerə toplaşıb bir il müddətinə Quranın hamısını və ya bir hissəsini sıradan çıxarmaq haqqında sözləşdilər. Lakin bir surə gətirməyi belə, bacarmadılar. Bundan sonra Peyğəmbərə (s) iftiralar atmağa, onu sehrbaz və yalançı adlandırmağa başladılar. Ayədə elmi mübarizədə məğlubiyyətə uğramış, rüsvay olduqlarını gördükdə boyunlarını büküb paltarlarını başlarına çəkərək aradan çıxan şəxslərə işarə edilmişdir. Onların Quranla mübarizə aparmağa gücləri çatmamış və ona üstün gələ bilməmişdilər[917].

---

[916] Ə-mzan, c.10 ,səh.136
[917] Tematik təfsir, c.1, səh.174

6. Yer üzündə elə bir canlı yoxdur ki, Allah onun ruzisini verməsin. Allah onların məskunlaşdıqları yeri də, daşındıqları yeri də bilir. Bunların hamısı açıq-aşkar bir kitabda qeyd edilmişdir.

7. Sizi sınayıb hansınızın daha yaxşı əməl sahibi olduğunu təyin etmək üçün ərşi (hökmranlığı) su üzərində ikən göyləri və yeri altı gündə yaradan Odur. Əgər desən ki: "Siz öləndən sonra, həqiqətən, qaldırılacaqsınız!", şübhəsiz ki, kafir olanlar: "Bu, açıq-aşkar sehrdir!" – deyə cavab verərlər.

8. Əgər onlara gələcək əzabı az bir müddət gecikdirsək, (istehza ilə): "Ona mane olan nədir?" – deyəcəklər. Bilin ki, əzab onlara gələcəyi gün geri qaytarılmayacaq. Məsxərəyə qoyduqları onları yaxalayacaq.

9. Əgər Öz tərəfimizdən insana bir nemət daddırsaq, sonra da bunu ondan geri alsaq, şübhəsiz ki, o, məyus və nankor olacaq.

10. Əgər başına gələn bir müsibətdən sonra ona nemətlər daddırsaq, mütləq: “Çətinliklər məndən sovuşdu, artıq geri gəlməz” - deyəcək, qəflət və sevinc içində batıb özünü öyəcək.

11. Səbr edib yaxşı işlər görənlər müstəsnadır. Onları bağışlanma və böyük bir mükafat gözləyir.

12. “Nə üçün ona bir xəzinə endirilməyib və ya onunla birlikdə bir mələk gəlməyib?” – deməklərindən dolayı, bəlkə də, sənə vəhy edilən ayələrin bəzisini (qəbul etmədikləri üçün) tərk etməli (təxirə salmalı) olacaqsan və buna görə ürəyin qısılacaq! Sən yalnız qorxudansan. Allah hər şeyi qoruyan, nəzarətdə saxlayandır!

---

6. Təyin edilmiş ruzinin əldə edilməsinə səy göstərmək: Bəzi zəif insanlar ruzinin təyin edildiyini ifadə edən bu ayə və hədslərə əsaslanaraq insanın ruzi əldə etmək üçün daha çox səy göstərməsinə lüzum olmadığını, ruzinin təyin edildiyini, istənilən halda insana verildiyini və heç bir açıq ağızın ruzisiz qalmadığını düşünə bilər. Halbuki Quran və hədislərlə ümumi tanışlığı olan insan İslama görə istənilən maddi və mənəvi nailiyyətin əsasında səy və fəaliyyət dayandığını bilər. İslam rəhbərləri başqalarına örnək olmaq üçün çox vaxt ağır və böyük zəhmət tələb edən işlərlə məşğul olmuşlar.

Əbdüləli belə nəql edir: Yayın çox isti günlərindən biri idi. Mədinə küçələrinin birində Cəfər ibn Muhəmmədlə (ə) qarşılaşdım. Ona dedim: Sənə fəda olum, Siz Allah dərgahında yüksək məqam sahibisiniz və Peyğəmbər nəslindənsiniz. Buna baxmayaraq, belə bir gündə özünüzü əziyyətə salırsınız? İmam Sadiq (ə) buyurdu: ***“Ey Əbdüləli, mən öz ruzimin təminatında səndən və sənin kimilərindən ehtiyacsız olmaq üçün ruzi qazanmaq niyyəti çölə çıxmışam.”*** Əslində, diqqət yetirilməsi zəruri olan

məsələ budur ki, ruzinin təyin olunmasından bəhs edən ayə və hədislər öz yaşayışlarının təminatı üçün hər yola əl atan, cinayət törətməkdən çəkinməyən, zülm və haqsızlığa yol verən, günah işlədən, belə etmədikdə yaşayışlarını təmin edə bilməyəcəklərini düşünən həris və dünyapərəst insanlar üçün bir cavabdır. Quran ayələri və hədislərdə bu cür şəxslərə yaşayışlarını təmin etmək üçün, əbəs yerə canfəşanlıq göstərməmək, qeyri-qanuni vasitələrə əl atmamaq, ağlın qəbul etmədiyi yollardan stifadə etməmək xəbərdarlığı verilmiş. İnsanlar qanuni fəaliyyət göstərməli və Allahın onların ehtiyaclarını ödəyəcəyindən əmin olmalıdırlar. Allah rəsulu (s) hədislərinin birində belə buyurmuşdur: ***"Məlumunuz olsun ki, Ruhul-əmin qəlbimə vəhy edib ki, heç kəs ruzisinə tam nail olmadan ölməz. Özünüzü Allahdan qorxmağa adət etdirin, ruzinizi gözəlliklə axtarın. Ruzinin gec yetişməsi sizi Allahın itaətindən çıxmağa vadar etməsin, çünki uca Allah ruziləri yaratdıqları arasında haram deyil, halal şəkildə bölüşdürmüşdür. Buna görə də Allahdan qorxan və səbirli olan şəxsin ruzisi ona halal yolla çatar. Allah həya pərdəsini yırtıb ruzisini haram yolla əldə edən şəxsin halal ruzisini azaldar və özünü də cəzalandırar."***[918]

7. Allahın su üzərindəki ərşi: Bəzən "ərş" sözü ümumi yaradılış aləmi mənasında işlənir. Bəzən maye olan hər şeyə "su" deyilir. Maye halında olan filizləri və sairəni buna misal göstərə bilərik. Ərş və su haqqında yazdıqlarımızdan belə qənaətə gəlmək olar ki, yaradılış aləmi ilk mərhələdə maye halında olan maddələrdən təşkil olunmuşdur. Ya da çox yüksək təzyiqlə sıxılmış qazlar maye və ərimiş maddələr şəklində olmuşdur. Sonra suyabənzər bu kütlədə böyük bir hərəkət və partlayış baş vermiş və səthində olan hissələr davamlı olaraq kənarlara sıçramışdır. Daha sonra bu bir-birinə

---

[918] Nümunə, c.9 ,səh.15; Əl-Mizan, c.10, səh.170

bitişik olan hissələr ayrılaraq biri digərinin ardınca planetlər, ulduzlar və qalaktikaları yaratmışlar. Deməli, Allahın hökmranlığının məzhəri olan bu kainat və ərş ilk başlanğıcda sözügedən suyabənzər əzəmətli maddə üzərində olmuşdur. Ayədə işarə edilən digər mühüm məsələ varlıq aləminin insan üçün yaradılması, yəni yaradılışının əsl məqsədinin insan olmasıdır. İnsan isə təlim-tərbiyə altında təkamül yolunu qət etməli, anbaan Allaha yaxınlaşmalıdır. Allah-taala buyurmuşdur: ***"Sizi sınayıb hansınızın daha yaxşı əməl sahibi olduğunu təyin etmək üçün bu heyrətamiz yaradılışı yaratmışdır."*** Ayədə hər bir insanın dəyərinin onun əməllərinin çoxluğu deyil, əməlin gözəlliyindən asılı olduğu qeyd edilmişdir. Bu da onu göstərir ki, İslam hər yerdə əməlin kəmiyyəti deyil, keyfiyyətinə üstünlük vermişdir. İmam Sadiq (ə) bu barədə belə buyurmuşdur: ***"Allah əməlin çoxluğunu deyil, düzlüyünü istəyir. Əməlin düzlüyü Allahdan qorxma və düz niyyətdən asılıdır."*** Daha sonra buyurmuşdur: ***"Xalis əməli qorumaq əməlin özündən çətindir. Xalis əməl yerinə yetirilərkən Allahdan başqa heç kəsin nəzərdə tutulmadığı əməldir."***[919]

[919] Nümunə, c.9, səh.26

13. Yoxsa: “Bunu (Quranı) özündən uydurdu!” - deyirlər. De: “Əgər doğru deyirsinizsə, siz də onun kimi özünüzdən on surə uydurub gətirin və Allahdan başqa, kimi bacarırsınızsa, onu da köməyə çağırın.

14. Yox, əgər onlar dəvətinizi qəbul etməsələr, bilin ki, o ancaq Allahın elmi ilə nazil olmuşdur. Ondan başqa heç bir məbud yoxdur! Bu halda təslim olursunuz?

15. Dünyanı və onun bərbəzəyini istəyənlərə əməllərinin əvəzini elə həmin dünyada verərik. Onların dünyadakı mükafatları əsla azaldılmaz.

16. Axirətdə onların oddan başqa heç bir payı olmayacaq. Onların dünyada (Allahdan qeyrisi üçün) gördükləri işlər puç olar və bütün əməlləri boşa çıxar!

17. Rəbbin tərəfindən açıq-aydın bir dəlili, ardınca da Onun tərəfindən bir şahidi olan, ondan da əvvəl Musanın (ümməti üçün) rəhbər və mərhəmət olan kitabının təsdiq etdiyi kimsə (bu xüsusiyyətlərə malik olmayan bir şəxs kimi ola bilərmi)?! Bunlar (həqiqət axtarışında olanlar) ona (bu xüsusiyyətlərə malik olana) inanırlar. Onu inkar edən müxtəlif zümrələrin mənsublarına vəd olunan yer oddur. Artıq sən də onun barəsində şübhəyə düşmə. O sənin Rəbbindən (gələn) haqdır, lakin insanların çoxu inanmaz!

18. Allaha iftira yaxanlardan daha zülmkar kim ola bilər? Onlar (Qiyamət günü) Allahın hüzuruna gətirilər və şahidlər (peyğəmbərlər və mələklər) belə deyərlər: “Bunlar Rəbləri barəsində yalan söyləyənlərdir!” Allahın lənəti olsun zalımlara!

19. (İnsanları) Allah yolundan döndərənlər, doğru yolu əyri göstərənlər axirəti inkar edənlərdir.

---

15. Niyyətin əməlin nəticəsinə təsiri: Bu və sonrakı ayədə ilahi həqiqətlərdən birinə aydınlıq gətirilmişdir. O da budur ki, məzmunundan asılı olmayaraq, insanın gördüyü iş üçün etdiyi niyyətin müvafiq nəticəsi vardır. Əgər insan gördüyü işi dünya üçün etsə, o zaman bütün zəruri şərtlər çərçivəsində onun dünya həyatı yaxşılaşacaq. Ancaq görülən işin nəticəsinin axirətə heç bir aidiyyəti olmayacaq. Çünki axirət məqsədi güdülməmiş və bunun üçün heç br addım atılmamışdır. Hətta yaxşılıq etmək, gözəl əxlaq sahibi olmaq kimi yaxşı əməllər də təklikdə Axirət və Cənnət nemətlərinə nail olmaq üçün kifayət etmir. Görülən işin niyyətində Allaha yaxınlaşmaq və axirət məqsədi olmasa, axirət savabına səbəb olmaz. Allah rəsulu (s) bu ayəni izah edərkən buyurmuşdur: “Qiyamət günü mənim ardıcıllarım üç qrupa bölünəcək: Allaha ixlasla ibadət edənlər; əməllərində riyakarlıq edənlər; dünya üçün yaşayanlar. Həmin gün Allah Ona dünyaya görə ibadət edənlərə buyuracaq: “Səni izzət və əzəmətimə and verirəm, de görüm Mənə ibadət etməkdə nə məqsəd güdürdün?” Həmin şəxs deyəcək: Dünya. Allah buyuracaq: Topladıqlarının sənə heç bir xeyri olmyacaq və ona dönməyəcəksən. Onu Cəhənnəmə aparın!” Sonra Ona ibadətlərində riyakarlıq edənə buyuracaq: “Səni izzət və əzəmətimə and verirəm, de görüm Mənə ibadət etməkdə nə məqsəd güdürdün?” O “Riyakarlıq və özünü göstərmək”, - deyə cavab verəcək. Allah-taala buyuracaq: “Riyakarlıqla etdiyin ibadət səni Mənə doğru ucaltmaz. Bu gün sənə onun heç bir faydası yoxdur. Onu Cəhənnəmə aparın!” Sonra Allaha ixlasla ibadət edən şəxslərə buyuracaq: “Səni izzət və əzəmətimə and verirəm, de görüm hansı məqsədlə Mənə ibadət edirdin?” O deyəcək: “And olsun izzətə və əzəmətinə, Sən

məndən daha yaxşı bilrsən. Mən sənə yalnız sənin razılığını qazanmaq və Cənnətə nail olmaq üçün ibadət edirdim. Allah buyuracaq: "Bəndən düz deyir, onu Cənnətə aparın!"[920]

17. Əli (ə) Allah rəsulunun (s) peyğəmbərliyinin doğruçu şahididir: Təfsirçilər bu ayədə ***"Rəbbi tərəfindən aşkar dəlili olan"*** deyilərkən Peyğəmbərə (s), "Onun aşkar dəlili" deyilərkən Qurana, peyğəmbərlyinin doğruçu şahidi deyilərkən Əli (ə) kmi həqiqi möminlərə işarə edildiyini qeyd etmişlər. Məsum imamlardan (ə) bizə çatmış çoxlu sayda hədislərdə və bəzi sünni təfsirlərində "şahid" deyilərkən İmam Əlinin (ə) nəzərdə tutulduğu bildirlmişdr. Bir kişi İmam Əlidən (ə) soruşur: "Hansı ayə sizin haqqınızda nazil olmuşdur?" İmam buyurur: ***"Allahın "Aşkar dəlili olan..." ayəsini eşitməmisənmi? Peyğəmbərin öz Rəbbindən aşkar dəlili var idi. Mən Onun tərəfindən ona şahidəm."*** Əlbəttə, şahid sözünün İmam Əliyə (ə) aid edilməsi şahid sözünün Əbuzər, Salman, Əmmar Yasir və sair kimi həqiqi möminlərə də aid edilməsi ilə heç bir təzad təşkil etmir. Sadəcə, bu hədislərdə daha üstün şəxsə işarə edilmişdir. Belə ki, beşinci imamdan nəql edlən bir hədisdə bütün məsum imamlar şahid sözünün nümunələri kimi təqdim edilmişdir[921]. Rəvayətlərin birində Müaviyənin qarşısında uzun-uzadı çıxışı zamanı İmam Həsənin (ə) belə buyurduğu qeyd edilmişdir: ***"Nəhayət işlər bu yerə yetişdi ki, Allah Muhəmmədi (s) peyğəmbər seçdi, kitabını ona göndərdi, sonra ona insanları Allaha doğru dəvət etməsini əmr etdi. Atam Allahın və peyğəmbərinin çağırışına cavab verən, iman gətirən Allahı və peyğəmbərini təsdiq edən ilk şəxs oldu. Allah peyğəmbərinə nazil etdiyi kitabda buyurmuşdur: "Aşkar dəlili olan şəxs...". Allah rəsulu aşkar***

---

[920] Əl-Mizan, c.10, səh.167 və 173
[921] Nümunə, c.9, səh.51; Əl-Mizan, c.10, səh.175 və 177

dəlili olan şəxsdr. Atam onun arxasınca gedən və peyğəmbərliyinin şahididir.”[922]

20. Onlar yer üzündə qaçıb canlarını qurtara bilməzlər. Allahdan başqa kömək edən də tapmazlar. Allahın əzabı onlar üçün ikiqat olacaq. Onlar (haqqı) eşidə bilməzlər və (onu) görməzlər!

21. Onlar varlıqlarının sərmayəsini itirdilər. Yalandan uydurduqları məbudlar da yoxa çıxdı.

22. Axirətdə də hər kəsdən çox onların ziyana uğraması labüddür!

---

[922] Əl-Mizan, c.10, səh.185

23. İman gətirib yaxşı işlər görənlər və Rəbləri qarşısında təvazökarlıqla təslim olanlar Cənnətlikdirlər. Onlar orada əbədi qalacaqlar!

24. Bu iki zümrənin (kafirlərin və möminlərin) vəziyyəti korla karın, görənlə eşidənin vəziyyəti kimidir. Bu ikisi eyni ola bilərmi?! Məgər ibrət almırsınız?

25. Biz Nuhu öz xalqına doğru göndərdik. Nuh dedi: “Mən sizi açıq-aşkar qorxudanam!

26. Allahdan başqasına ibadət etməyin. Çünki mən ağrılı-acılı günün sizə üz verəcək əzabından qorxuram!”

27. Qövmünün kafir əyan-əşrəfi dedi: “Biz səni ancaq özümüz kimi adi bir insan hesab edirik. Sənə yalnız sadəlövh səfillərin tabe olduğunu görürük. Sizin bizdən (heç bir şeydə) üstün olduğunuzu da görmürük. Əksinə, sizin yalançı olduğunuzu hesab edirik!”

28. (Nuh) dedi: “Ey camaatım! Bir deyin görək. Əgər Rəbbim tərəfindən açıq-aydın bir dəlilim olsa, dərgahından mənə bir mərhəmət bəxş etsə və o sizə gizli qalsa (yenə də mənim peyğəmbərliyimi inkar edəcəksiniz?). Siz istəmədiyiniz halda, biz sizi bu aşkar dəlili qəbul etməyə məcbur edə bilərikmi?!

---

20. Kafirlər haqqı eşitmək gücündə deyillər: “Onlar haqqı görə bilməzlər”, yəni haqq sözü eşitmək onlar üçün o qədər ağırdır ki, sanki onu eşitməyə gücləri çatmır. Təbii ki, ifrat inadadkarlıq, haqq və həqiqətə qarşı düşmənçiliyn nəticəsində haqqı dərk edə bilməmələri onları məsuliyyətdən azad etmir. Çünki bu acizliklərinə səbəb olan davranışları onların özlərinin ixtiyari seçimidir. Yəni kafirlər günah etmək, itaətsizlik göstərmək və bunda

israrlı olmaqla elə iş görüblər ki, Allah haqq səsini eşitmək, əlamətləri görmək qüdrətni onlardan almışdır[923].

21. Böyük ziyan: İnsan, əslində, varlığından başqa heç nəyin sahibi deyil. Əgər yeganə sərvəti olan varlığını dünya ilə münasibətdə məhvinə səbəb olan şeyə satarsa, şübhəsiz ki, zərər etmiş olar. Bu şey nə qədər qiymətsiz olarsa, alqı-satqının ziyanı da bir o qədər çox və satan şəxs daha böyük zərərçəkmiş olar[924].

23. Möminlərin ən üstün xüsusiyyətlərindən biri: "Əxbətu" feili "ixbat" sözündən düzəlmişdir. "İxbat" sözünün kökü isə mənası insanın üzərində əminlik və rahatlıqla addım ata biləcəyi saf, hamar və geniş yer olan "xabt" sözüdür. Buna görə də qeyd olunan söz əminlik, habelə təvazökarlıq və təslim mənasında işlədilmişdr. Çünki bu xüsusiyyətlərə malik olan yer həm addım atanlar üçün təhlükəsizdir, həm də yol gedənlər üçün təvazökar və təslim olan[925].

Hədislərin birində belə qeyd edildiyini oxuyuruq: Səhabələrindən biri İmam Sadiqə (ə) dedi: "Aramızda Küleyb adlı bir şəxs var. Sizdən bir söz eşidən kimi, "mən təslim" deyir. Buna görə də ona "Təslim Küleyb" adı vermişik. İmam dua edib buyurdu: ***"Allah ona rəhmət etsin"*** Sonra əlavə etdi: ***"Bilirsiniz, təslim nədir?"*** Biz susduq. İmam buyurdu: ***"And olsun Allaha, bu Allah kəlamının*** "إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ وَأَخْبَتُوا إِلَىٰ رَبِّهِمْ" ***ayəsində qeyd edilən həmin "ixbat"dır."***[926]

27. Bir suala cavab: Şübhəsiz ki, Nuha (ə) iman gətirənlər nə səfil idilər, nə də aşağı səviyyəli adamlar. Sadəcə, peyğəmbərlər hər şeydən əvvəl zəifləri müdafiə edib özlərini böyük hesab edənlərə qarşı mübarizə

---

[923] Nümunə, c.9, səh.63; Əl-Mizan, c.10, səh.181
[924] Əl-Mizan, c.10, səh.183
[925] Nümunə, c.9, səh.66
[926] Əl-Mizan, c.10, səh.188

apardıqları üçün peyğəmbərlərin dəvətini ilk qəbul edənlər məhz həmin məhrum, yoxsul, az gəlirli adamlar olurdu. Şəxsiyyət miqyasını yalnız güc və qızılla ölçən insanlar bu sinfin nümayəndələrini səfil hesab edirdilər. Onları ona görə sadəlövh adlandırırdılar ki, onlarda başqalarında olan inadkarlıq, xoşagəlməz təəssüb yox idi. Onlar həqiqətin ilk parıltısını öz qəlblərində daha tez hiss edən, həqiqət axtarışından qaynaqlanan zəkaları ilə peyğəmbərlərin sözlərində və əməllərində düzlük və doğruluq əlamətlərini görən təmizürəkli gənclər idi[927].

[927] Nümunə, c.9, səh.71

29. Ey qövmüm! Mən bu dəvətə görə sizdən bir muzd, mükafat istəmirəm. Mənim muzdum ancaq Allaha aiddir. Mən iman gətirənləri (sizə görə) qovan deyiləm. Onlar öz Rəbləri ilə görüşəcəklər. (Əgər onları özümdən uzaqlaşdırsam, Qiyamət məhkəməsində düşmənim olarlar). Lakin mən sizi cahil bir tayfa görürəm!

30. Ey qövmüm! Əgər mən onları qovsam, Allah qarşısında kim mənə yardım edəcək? Məgər düşünmürsünüz?

31. Mən sizə demirəm ki, Allahın xəzinələri məndədir. Mən qeybi də bilmirəm. Mən demirəm ki, mələyəm. Sizin gözünüzdə səfil görünənlərə Allahın heç bir xeyir verməyəcəyini də demirəm. Onların ürəklərində olanı Allah daha yaxşı bilir. (Belə olduğu təqdirdə əgər onları qovsam,) onda zalımlardan olaram!”

32. Onlar dedilər: “Ey Nuh! Bizimlə çənə-boğaz olub çox mübahisə etdin. İndi ki, düz deyirsən, bizə vəd verdiyini gətir görək!”

33. Nuh dedi: “Əgər Allah istəsə, gətirəcək. Siz ondan qaça bilməyəcəksiniz.

34. Əgər Allah sizi (etdiyiniz günahlara görə) sapdırmaq istəyirsə, mən sizə nəsihət vermək istəsəm də, nəsihətimin sizə heç bir faydası olmayacaq. O sizin Rəbbinizdir və siz Ona doğru qaytarılacaqsınız!”

35. Yoxsa (müşriklər): “O (Muhəmməd) bu sözləri yalandan Allahın adına çıxıb!” – deyirlər? De: “Əgər mən onu özümdən uydurub, Allahın adına çıxıramsa, günahı mənim boynumadır. Ancaq mən sizin törətdiyiniz günahlardan uzağam!”

36. Nuha belə vəhy olundu: “Bu vaxta qədər iman gətirənlərdən başqa artıq qövmündən heç kəs iman gətirməyəcək. Buna görə də etdikləri əməllərə görə kədərlənmə!

37. Hüzurumuzda və vəhyimizə uyğun olaraq gəmi düzəlt, zülm edənlər barəsində mənə müraciət etmə (onların bağışlanmalarını Məndən xahiş etmə). Çünki onlar hamısı suda boğulmağa məhkumdur!”

---

31. Nə üçün heç kəsin qeybdən xəbəri yoxdur? Qeyb və bu kimi hadisələrin bilinməsindən bəhs edən ayələrin iki qrupa bölündüyünün və ilk baxışda onların bir-biri ilə təzad təşkil etdiyinin şahidi oluruq. Birinci qrup ayələrdə qeyb elminin və fövqəladə qüdrətin yalnız Allaha məxsus olduğu, başqalarının isə belə bir imkana malik olmadığı qeyd edilmişdir. İkinci qrup ayələrdə Allahdan qeyrilərinin (bəzi mələklər və peyğəmbərlər) də qeybdən xəbərdar olduğu qeyd edilmişdir. Quran ayələrini və hədisləri bir qədər dərindən araşdırdıqda məlum olur ki, Allaha aid olan qeyb elmi və qüdrəti mütləqdir və heç nə ilə şərtlənməmişdir. Yəni Allahdan başqa heç kəs özü-özlüyündə başqasının yardımı olmadan qeyb elminə və qüdrətinə malik ola bilməz. Lakin Allah kiməsə qeyb elmini və qüdrətini lütf edərsə, həmin şəxs də Allahın icazəsi ilə qeybdən xəbər verə və fövqəladə qüdrət sahibi ola

bilər. Məsələn, Allah "Nəcm" surəsinin 44-cü ayəsində belə buyurmuşdur: ***"Öldürən və dirildən Odur"***. Halbuki "Ali-İmran" surəsinin 49-cu ayəsində həzrət İsanın (ə) dilindən belə buyurulmuşdur: ***"Ölüləri Allahın izni ilə dirildirəm".*** "Cinn" surəsinin 26-cı ayəsində belə buyurulmuşdur: ***"Qeybi bilən odur, heç kəsi qeyb sirlərindən xəbərdar etmir."*** Ancaq sonrakı, yəni 27-ci ayədə belə buyurulmuşdur: ***"Seçdiyi elçilər istisnadır"***[928].

35. Dinlə ağlın uyğunluğu: Ayəni oxuyarkən belə bir fikir yarana bilər: Bu necə məntiqdir ki, peyğəmbər camaata "Əgər bu iftiradırsa, günahı mənim boynuma" deyir? İftira günahının məsuliyyətini qəbul etmək peyğəmbərin sözünün doğru və həqiqət olduğunu sübuta yetirirmi? Eyni zamanda onlarda itaət məsuliyyəti yaradırmı? Əvvəlki ayələrə diqqət yetirdikdə bu sualın cavabı məlum olur. Əslində, Peyğəmbər (s) demək istəyir ki, sağlam ağıl və məntiq dəlil və sübuta əsaslanmış sözləri qəbul edir, mən də ağıl və məntiqə zidd olan bir söz deməmişəm. Əgər fərz etsək ki, bu sözlər Allah tərəfindən nazil olmayıb, o zaman günahı mənim boynuma. Ancaq siz mənim bu sözlərimə tabe olsanız, günah etməmiş olarsınız. Çünki ağıl və məntiqə tabe olursunuz. Lakin sizin heç bir dəlil və sübut olmadan, sırf inadkarlıq üzündən mənimlə qarşıdurma yaratmağınız böyük və bağışlanmaz günahdır[929].

37. Nuhun gəmi düzəltməsi ilahi vəhyə əsaslanırdı: "Hüzurumuzda", yəni sənin bu istiqamətdə gördüyün bütün işlər və göstərdiyin səylər bizim hüzurumuzda və gözlərimiz önündə baş verir. Buna görə də arxayınlıqla öz işinə davam et. Təbii ki, Allahın gördüyünü, baxdığını, qoruduğunu və təqib etdiyini hiss etmək insana həm güc və qüvvət verir, həm də məsuliyyət hissini artırır. "Bizim vəhyimiz" sözü onu göstərir ki, Nuh gəmini necə

---

[928] Əl-Mizan, c.10, səh.200
[929] Nümunə, c.9, səh.78

düzəltməyi də Allahdan öyrənirdi. Belə də olmalı idi. Çünki Nuh daha öncədən tufanın hansı ölçüdə olacağını bilmədiyi üçün gəmini hansı ölçüdə düzəldəcəyini də bilməzdi. Deməli, ən yaxşı formaları seçməkdə Allah ona vəhy vasitəsilə yardım edir[930].

[930] Nümunə, c.9, səh.90

38. O, gəmini düzəldir, ümmətinin əyan-əşrəfi isə yanından ötüb-keçdikcə onu məsxərəyə qoyurdular. (Nuh) onlara deyirdi: “Əgər (indi) siz bizi məsxərəyə qoyursunuzsa, biz də sizi eyni şəkildə məsxərəyə qoyacağıq.

39. Tezliklə rüsvayedici əzabın kimə gələcəyini və əbədi əzabın kimi haqladığını biləcəksiniz!”

40. Nəhayət, əmrimiz gəldiyi və təndir qaynadığı zaman (Nuha) dedik: “Hər heyvandan biri erkək, biri dişi olmaqla, bir cüt, həmçinin əvvəlcədən həlak vədi verilmiş şəxslər (arvadın və oğlanlarından biri) istisna olmaqla, qalan ailə üzvlərini və iman gətirənləri gəmiyə mindir!” Əslində, onunla birlikdə çox az adam iman gətirmişdi.

41. O dedi: “Onun adı ilə gəmiyə minin! Gəmi hərəkət edəndə də, dayananda da onu xatırlayın k, Rəbbim bağışlayandır, rəhm edəndir!”

42. Gəmi onları dağlar kimi dalğaların arasından apardığı zaman Nuh bir kənarda durmuş oğlunu səsləyib dedi: “Oğlum! Bizimlə birlikdə gəmiyə min, kafirlərdən olma!”

43. O isə belə cavab verdi: “Tezliklə məni sudan qoruyacaq bir dağa sığınacam”. Nuh dedi: “Allahın rəhm etdiklərindən başqa, bu gün heç kəs (insanları) Onun əzabından qoruya bilməz!” Bu vaxt dalğa ata ilə oğulun arasına girib onları bir-birindən ayırdı və o da suda boğulanlardan oldu.

44. Deyildi: “Ey yer! Suyunu ud! Ey göy! Saxla!” Su çəkildi. İş bitdi. Gəmi Cudi dağı üzərində oturdu və: “Zalımlar (Allahın mərhəmətindən) uzaq olsunlar!” – deyildi.

45. Nuh Rəbbinə səslənib dedi: “Ey Rəbbim! Oğlum mənim ailəmdəndir. Sənin vədin haqdır. Sən bütün hakimlərdən üstünsən!”

-

38. Nuhun gəmisinin böyüklüyü: Şübhəsiz ki, Nuhun gəmisi sadə bir gəmi olmamışdır. O dövrdə belə bir gəminin düzəlməsi də asan başa gəlməmişdir. Gəmi həqiqi möminlərlə yanaşı, hər heyvandan bir cüt və gəmidəki insan və heyvanların uzun müddətlik qidasını tutacaq qədər böyük idi. Digər tərəfdən, gəmi bütün yer üzünü bürümüş suda dağ boyda dalğaların arasından sağ-salamat keçməli, məhv olmamalı idi. Bəzi hədislərdə gəminin uzunluğunun beş yüz, eninin isə üç yüz metr olduğu qeyd edilmişdir[931]. İmam Sadiqə (ə) istinad edilən bir hədisdə bu gəminin düzəlməsinə səksən il vaxt sərf edildiyi yazılmışdır[932].

38. Məsxərə: Heç bir səbəb olmadan kimisə məsxərə etmək bəyənilməyən bir davranış və nadanlıq əlaməti hesab edilsə də, haqq üçün, əzab vermək və qarşılıq göstərmək, xüsusilə, hədəfə nail olmaq və düşmənlərin bəhanələrinə son qoymaq məqsədilə olsa, eybi yoxdur. Belə ki, "Tövbə" surəsinin 79-cu ayəsində Özünün məsxərə etdyini qeyd edir: ***"Münafqlər yoxsul möminləri məsxərəyə qoyur. Allah da onları məsxərəyə qoyur."***[933]

40. Suyun təndirdən qaynaması: Müfəzzəl adlı səhabəsi İmam Sadiqdən (ə) ***"Təndir qaynadı"*** cümləsinin mənasını soruşduqda İmam buyurur: ***"Bu təndir mömünə bir qarının evində idi. Ev isə Kufə məscidinin sağ tərəfindəki qiblənin (mehrabın) arxasında yerləşmişdi."*** Müfəzzəl soruşur: İndiki məscdin hansı tərəfində? İmam buyurur: ***"İndiki Fil qapısının küncündə".*** Müfəzzəl soruşur: Su qaynamağa həmin təndirdən başlamışdı? İmam buyurur: ***"Bəli, Allah Nuhun qövmünün əzab əlamətini görməsini istəmişdir. Sonra Allah heyrətamiz bir yağış göndərmiş, bütün***

---

[931] Nümunə, c.9, səh.94
[932] Əl-Mizan, c.10, səh.233
[933] Əl-Mizan, c.10, səh.215

bulaqlar qaynamış, Allah o qövmü suda batırmış, Nuh və onunla birlikdə gəmidə olanları xilas etmişdir."[934]

40. Nə üçün Nuha hər heyvandan bir cüt götürməsi əmr edildi? Bu, ona görə əmr edilmişdi ki, həmin seldə heyvanların nəsli kəsilməsin. Çünki sel bütün yer üzünü, ya da ən azı yer üzünün böyük bir hissəsini bürümüşdü. İkinci halda da həmin vaxt heyvanların uzaq bir yerə daşınması asan bir iş deyildi[935].

40. Nuhun qövmünün inadkarlığı və onun dözümlülüyü: İmam Baqirin (ə) ***"Onunla birlikdə çox az adam iman gətirmişdi"*** cümləsi haqqında buyurduğu bir hədisdə ***"Onların sayı səkkiz nəfər olmuşdu"*** qeyd edildiyini oxuyuruq[936]. Maraqlıdır ki, Quranda verilən xəbərə görə həzrət Nuh (ə) qövmünü 950 il haqqa dəvət etmişdir. Adamı qövmün inadkarlığından çox bezməyən beyğəmbərin səbr və dözümü heyrətə gətirir.

44. Nuhun gəmisi harada dayanmışdır? Nuh (ə) gəminin idarəçiliyini Allaha həvalə etmişdi. Dalğalar gəmini o tərəf-bu tərəfə aparırdı. Hədislərdə qeyd olunanlara görə, gəmi altı ay üzmüş, çox yerlərdən (bəzi hədislərdə gəminin Məkkədən və Kəbə yaxınlığından keçdiyi qeyd edilmişdir) keçmişdir. Nəhayət, əzabın sona yetməsi və yerin əvvəlki vəziyyətə qayıtması əmr edilmişdir. Bu ayədə Allahın əmrinin icra forması, onun detalları və nəticəsi çox qısa, eyni zamanda gözəl və aydın şəkildə ifadə edilmişdir. Quranın bütün ayələri yüksək fəsahət və bəlağətə malik olsa da, dilçi alimlərin çoxunun dediyinə görə, bu ayə Quranın ən fəsahətli və bəlağətli ayəsi hesab edilir[937]. "Cudi" dağa, bərk və daşlı yerə deyilir.

---

[934] Əl-Mizan, c.10, səh.233
[935] Nümunə, c.9, səh.103
[936] Əl-Mizan, c.10, səh.234
[937] Nümunə, c.9, səh.109

Bəziləri hesab edir ki, bu, Mosul ərazisində yerləşən və bir ucu Ararat dağlarına gedib çıxan dağ silsiləsindəki bir dağın adıdır[938].

46. Buyurdu: “Ey Nuh! O sənin ailəndən deyil. Çünki o, qeyri-saleh əməldir (layiq olmayan bir adamdır). Elə isə bilmədiyin bir şeyi Məndən istəmə. Sənə cahillərdən olmamağı nəsihət edirəm”.

47. Dedi: “Ey Rəbbim! Bilmədiyim bir şeyi Səndən istəməkdən Sənə sığınıram. Əgər məni bağışlamasan, mənə rəhm etməsən, ziyana uğrayanlardan olaram!”

48. (Nuha) belə deyildi: “Ey Nuh! Sənə və sənինlə birlikdə olan ümmətlərə Bizim tərəfimizdən (bəxş edilmiş) əmin-amanlıq və bərəkətlərlə

[938] Əl-Mizan, c.10, səh.220

(gəmidən) en. Elə ümmətlər də var ki, Biz onlara nemətlər verəcək, sonra isə (bu nemətlərə qarşı nankorluq etdikləri üçün) onları şiddətli bir əzaba düçar edəcəyik!”

49. (Ya peyğəmbər!) Bunlar sənə vəhy etdiyimiz qeyb xəbərlərindəndir. Bundan qabaq onları nə sən, nə də ümmətin bilirdi. Buna görə səbirli və dözümlü ol! Çünki (gözəl) aqibət müttəqilərindir!

50. Ad (qövmünə) də qardaşları Hudu göndərdik. O dedi: “Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir məbudunuz yoxdur. Siz yalnız iftirakçısınız! (Bütləri Allaha ortaq edirsiniz)

51. Ey qövmüm! Mən buna (peyğəmbərliyə) görə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım yalnız məni yaradana aiddir. Başa düşmürsünüz?

52. Ey qövmüm! Rəbbinizdən bağışlanma diləyin. Sonra Ona doğru qayıdın ki, göydən sizə davamlı yağış göndərsin, gücünüzün üstünə güc əlavə etsin. Günahkarcasına (haqdan) üz çevirməyin!”

53. Dedilər: “Ey Hud! Sən bizə açıq-aşkar bir möcüzə gətirmədin. Sənin sözünlə tanrılarımızı tərk etməyəcəyik. Biz sənə inanmırıq!

---

46. Nuhun oğlu pislərlə qaldı: ***“O səndən deyil”*** cümləsi çox böyük bir insani və tərbiyəvi dərsdir. Bu ayədən belə məlum olur ki, Allah üçün mənəvi bağlılıqlar qarşısında fiziki bağlılıqların (qohumluq və dostluq) heç bir qiyməti yoxdur. Qohumluq imtiyazı, hətta ata və oğul münasibətləri mənəvi və ideoloji bağlılıq qarşısında öz mənasını itirir. Mənəvi bağlılıq olduğu yerdə Peyğəmbərlə (s) heç bir fiziki bağlılığı olmayan Salman Farsi ***“Salman bizim ailədəndir”*** hədisinə əsasən Peyğəmbərin (s) ailəsindən hesab edilir. Ancaq Nuhun (ə) oğlu atası ilə mənəvi əlaqəsini kəsdiyi üçün ***“O sənin ailəndən deyil”*** cümləsi ona aid olur. Əhli-beyt (ə) hədislərində

şiələrin onların əməli təlimatları və proqramlarını öz həyatlarında yüksək səviyyədə tətbiq etmədikləri halda, təkcə bu adı daşımaqla kifayətlənən şəxslər haqqında Quranın bu ayəsinə bənzər xəbərdaredici fikirlər söyləndiyinə rast gəlinir. Bir gün İmam Rza (ə) dostlarının birindən soruşur: ***"Camaat bu ayəni necə izah edir?"*** Orada olanlardan biri deyir: Bəziləri hesab edir ki, həmin oğlan Nuhun həqiqi oğlu olmamışdır. İmam buyurur: ***"Xeyr, belə deyil. O, şübhəsiz ki, Nuhun oğlu idi. Lakin Allahın əmrindən çıxdığı an Allah onunla atası arasında olan əlaqəni inkar etdi. Habelə bizdən olub, Allaha itaət etməyən də bizdən deyil."***[939]

46. Nuhun oğlu günah içində itib-batmışdı: Bəzən insan bir işi görəndə o qədər irəli gedir ki, həmin əməlin özünə çevrilir. Necə ki, möminlərin əmiri İmam Əli (ə) ədalətin özü olmuşdur. Yəni İmam Əli (ə) ədalət içində elə qərq olmuşdu ki, sanki zatı ədalətin özünə çevrilmişdi. Nuhun oğlu da pis işlər görən insanlarla o qədər oturub-durmuş və çirkin əməllər və fikirlər içində elə itib-batmışdı ki, sanki bütün varlığı qeyri-saleh əmələ çevrilmişdi. "O, qeyri-saleh əməldir" cümləsi çox qısa və müxtəsər bir cümlə olsa da, Nuhun oğlu ilə bağlı mühüm bir həqiqəti əks etdirir. Nəticədə, cümlənin mənası sanki belə olur" Ey Nuh, əgər oğlunun zülm və fəsadı səthi olsaydı, onun barəsindəki istəyini qəbul edərdim. Amma indi ki, o başdan ayağa fəsad və günaha batıb, şəfaətə yer yoxdur[940].

47. Allahdan bağışlanma diləyə-diləyə Ona təşəkkür etmək: Həzrət Nuhun "Əgər məni bağışlamasan, mənə rəhm etməsən, ziyana uğrayanlardan olaram!" cümləsi zahirən tövbə təəssüratı bağışlasa da, daxilən ilahi təlim-tərbiyə nemətinə görə şükür məzmunu daşıyır. Nuh (ə) bu cümləsində Allaha diqqət və lütfkarlığına görə təşəkkür edir. Allah bu istəyi

---

[939] Nümunə, c.9, səh.118
[940] Nümunə, c.9, səh.116

ilə Nuhu cahil və nadanlar zümrəsində yer almasının qarşısını alır və onu sapmadan xilas edir. Sanki Nuh (ə) belə demək istəyir: İlahi, şükür ki, rəhmət və mərhəmətini məndən əsirgəmədin və məni cahil və ziyankarlardan olmağa qoymadın[941].

52. Ad qövmünün yeddi il qıtlıq çəkməsi: "Göydən sizə davamlı yağış göndərsin" cümləsi Ad qövmünün quraqlıq və qıtlıqdan əziyyət çəkməsindən xəbər verir. Peyğəmbərləri onlara vəd verir ki, əgər iman gətrsələr, Allah onlara bol yağış göndərəcək. Əhli-beyt (ə) hədislərindən belə məlum olur ki, Ad qövmü həzrət Huda (ə) iman gətirmədiyi, ona əziyyət verdiyi üçün yeddi il yağış üzünə həsrət qalır, quraqlıq və qıtlıqdan əziyyət çəkir[942].

[941] Əl-Mizan, c.10, səh.228
[942] Əl-Mizan, c.10, səh.294

54. Biz (sənin haqqında) ancaq onu deyə bilərik ki, bəzi tanrılarımız səni bəlaya düçar edib (ağlını başından alıb)". (Hud) dedi: "Həqiqətən, mən Allahı şahid çağırıram, siz də şahid olun ki, mən sizin şərik qoşduqlarınızdan uzağam.

55. Ondan başqa (tapındıqlarınızın hamısından uzağam). Hamılıqla mənə qarşı hiylə qurun və mənə heç möhlət də verməyin.

56. Mən, Rəbbim və Rəbbiniz olan Allaha təvəkkül etmişəm. Elə bir canlı yoxdur ki, ixtiyarı (Allahın) əlində olmasın. Həqiqətən, Rəbbim doğru yoldadır (ədalətlidir).

57. Əgər üz çevirsəniz, (bilin ki,) mənə əmr olunanı sizə çatdırdım. Rəbbim yerinizə başqa bir camaat gətirər və siz də Ona heç bir zərər yetirə bilməzsiniz. Rəbbim hər şeyi hifz edən və qoruyandır".

58. Əmrimiz yetişdikdə Hudu və onunla birlikdə iman gətirənləri Öz mərhəmətimizlə xilas etdik və onları ağır bir əzabdan qurtardıq.

59. Bu Ad qövmü idi ki, Rəbbinin ayələrini inkar etdi, Onun elçilərinə asi oldu və haqq düşməni olan hər zalımın əmrinə uydu.

60. Onları həm bu dünyada, həm də Qiyamət günü lənət təqib edəcəkdir. Həqiqətən, Ad qövmü öz Rəbbini inkar etdi. (Allahın rəhmətindən) uzaq olsun Hudun qövmü Ad!

61. Səmud qövmünə də qardaşları Salehi (göndərdik). O dedi: "Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa məbudunuz yoxdur. Sizi

torpaqdan yaradıb onun abad etməyi sizə həvalə edən Odur. Ondan bağışlanma diləyin, sonra da Ona tərəf qayıdın ki, Rəbbim (bəndələrinə) yaxındır, (onların çağırışlarına) cavab verəndir".

62. Dedilər: "Ey Saleh! Sən bundan əvvəl bizim ümid yerimiz idin. Atalarımızın ibadət etdiyinə ibadət etməyi bizə qadağan edirsən? Halbuki biz sənin bizləri dəvət etdiyin barəsində şübhə və tərəddüd içindəyik".

---

56. Hər şeyin ixtiyarı Allahın əlindədir: "Nasiyə" (kəkil) saçın ön hissəsinə deyilir. "Kəkildən yapışmaq" deyilərkən nəyisə tamamilə təsir altına almaq nəzərdə tutulur. Həzrət Hud (ə) bu ifadəni Allah haqqında işlədərkən Onun qüdrətinin hər şeyi əhatə etdiyinə işarə etmək istəmişdir. O elə bir qüdrət sahibidir ki, heç bir varlıq Onun iradəsi qarşısında müqavimət göstərə bilməz. Belə ki, insan və ya hər hansı heyvanın kəkilindən möhkəm yapışılarsa, müqavimət göstərə bilməz. Allah bu ifadədən ona görə istifadə edib ki, özlərini öyən təkəbbürlü insanlar və özlərindən razı olan bütpərəstlər meydanlarının bir neçə gün boş olduğunu görüb Allahın iradəsinə müqavimət göstərə biləcəklərini düşünməsinlər. Allahın əmri yetşidiyində heç bir müqavimət göstərmədən Ona təslim olacaqlar[943].

56. Kainatın ədalətlə idarə edilməsi: "Allahın düz yolda olması" deyilərkən Allahın yaranış aləmindəki sabit və dəyişməz qanunu, kainatı ədalət və hikmət üzrə idarə etməsi nəzədə tutulur. Nəticədə, haqla batil qarşı-qarşıya gəldikdə Allah haqqı qoruyub batili məhv edir. Həzrət Hud (ə) bunu müşriklərə deyərkən Allahın ədalətli qanununun qəti və dəyişməz olduğunu, tezliklə dininə yardım edəcəyini, peyğəmbərini onların şərindən

---

[943] Nümunə, c.9, səh.138

qoruyacağını, onları və batil inanclarını məhv edəcəyini çatdırmaq olmuşdur[944].

60. Bu dünyada Ad qövmünü təqib edən lənət: "Lənət"in mənası Allahın rəhmətindən uzaq olmaqdır. "Onları Qiyamətdə bir lənət izləyəcək" deyilərkən onların əbədi əzaba düçar olacaqlarının nəzərdə tutulması aydın məsələdir. "Onları bu dünyada lənət izləyəcək" ifadəsnə gəlincə, bu barədə bir neçə ehtimal irəli sürülmüşdür: 1. Bu dünyada onların məhvinə səbəb olmuş əzab; 2. Dünyanın sonuna qədər insanların etdikləri günahlar onların hesabına yazılacaq. Çünki Nuhun tufanı sona çatdıqdan və yer üzü şirk və küfürdən təmizləndikdən sonra onlar yenidən küfür və şirkin əsasını qoydular, başqa sözlə desək, şirk və küfür ənənəsini yenidən yaydılar. Buna görə də dünya durduqca günah edənlərin günahına ortaq olacaqlar; 3. Dünyanın sonuna qədər onların vəziyyətindən, küfür və inadkarlıqlarından xəbərdar olan hər kəs onlara lənət yağdıracaq. Əlbəttə, bu üç ehtimal arasında ikincisi daha güclüdür[945].

61. "İstimar" sözünün mənası: "İstimar" yerin abadlaşdırılmasının kiməsə həvalə edilməsinə deyilir. Təbii ki, bunun üçün lazım olan vasitələrin onun ixtiyarına verilməsi şərtdir. Bu ifadə Səmud qövmü barəsində tamamilə yerinə düşür. Çünki onlar yamyaşıl və məhsuldar torpaqlara sahib idilər, əkinçilikdə yenilik etmiş, möhkəm binalar tikməkdə çox qabağa getmişdilər. Diqqət çəkən nüans budur ki, Allah-taala "yeri abad edib sizin ixtiyarınıza verdim" – deyil, "yer üzünü abadlaşdırmağı sizə həvalə etdim", - deyə buyurmuşdur. Yəni bütün vasitələr ixtiyarınızdadır, siz səy və fəaliyyət göstərib yer üzünü abadlaşdırmalı, yerdə olan sərvətlərdən faydalanmalısınız. Səy və fəaliyyət göstərmədən heç nəyə nail

[944] Əl-Mizan, c.10, səh.291
[945] Əl-Mizan, c.10, səh.293

olmayacaqsınız. Dövrümüzdə “istimar” sözünün mənası tamamilə dəyişmiş, Quranda nəzərdə tutulan mənanın tamamlə əksini ifadə etməyə başlamışdır. Bu söz artıq böyük siyasi və sənaye güclərin zəif və gücsüz xalqları istila etməsi, onların qarət etməsi, soyması, qanlarını sorması, həyat mənbələrini yağmalaması mənasında işlənir[946].

63. Dedi: “Ey qövmüm! Mənə deyin görüm, əgər mən Rəbbimdən açıq-aydın bir dəlil təqdim edirəmsə, O da Öz tərəfindən mənə bir mərhəmət bəxş edirsə, (Onun mənə həvalə etdiyi missiyadan boyun qaçıra bilərəmmi?)

[946] Nümunə, c.9, səh.150

Əgər Ona itaətsizlik edərəmsə, mənə Onun hüzurunda kim yardım edə biləcək? Sizin sözləriniz yalnız sizin ziyankar olmağınızla bağlı əminliyimi artırır.

64. Ey qövmüm! Allahın bu dişi dəvəsi sizin üçün bir nişanədir. Qoyun Allahın torpağında otlasın. Ona pislik etməyin, yoxsa Allahın əzabı sizi yaxalayar".

65. Onlar dəvəni kəsdilər. (Saleh onlara) dedi: "Evlərinizdə üç gün də kef çəkin. Bu, yalan olmayan bir vəddir".

66. Əmrimiz yetişdikdə Salehi və onunla birlikdə iman gətirənləri Öz mərhəmətimizlə (əzabdan) və o günün rüsvayçılığından qurtardıq. Çünki Rəbbin Qüvvətli və məğlubedlməzdir.

67. Zülm edənləri isə qorxunc bir səs bürüdü və onlar öz evlərində üzüqoylu düşüb öldülər.

68. Sanki heç o diyarın sakini olmamışdılar. Bilin ki, Səmud qövmü öz Rəbbini inkar etdi. (Allahın rəhmətindən) uzaq olsun Səmud qövmü!

69. Elçilərimiz (mələklər) İbrahimə müjdə gətirdilər və: "Salam!"– dedilər. O da: "Salam!"– dedi və çox çəkmədi ki, (onlara) qızardılmış bir buzov gətirdi.

70. Əllərinin ona uzanmadığını gördükdə onlardan xoşlanmadı və canına qorxu düşdü. Ona dedilər: "Qorxma! Biz Lut qövmünə göndərilmişik".

71. Arvadı ayaq üstə durmuşdu, (sevincindən) güldü. Biz onu İshaqla, ardınca da Yaqubla müjdələdik.

---

68. Səmud qövmünün hekayəsi: İmam Sadiqin (ə) Əbu Bəsir adlı səhabəsi bir gün İmamdan "Səmud qövmü ilahi xəbərdarlıqları yalan saydı.

Dedilər: “Biz özümüzdən olan bir adama tabe olaq?! Əgər belə etsək, onda haqq yoldan azmış və dəlilik etmiş olarıq!”(Qamər surəsi, 23-24-cü ayələr) ayəsi haqqında soruşduqda, İmam buyurur: “Bu ayələr Saleh peyğəmbəri yalançı hesab edən Səmud qövmü haqqındadır. Allah peyğəmbər göndərib bütün bəhanə qapılarını bağlamadan heç bir xalqı məhv etməz. Həzrət Saleh (ə) Səmud qövmünə peyğəmbər göndərildi. Lakin qövmü onu müsbət qarşılamadı, əmrlərindən boyun qaçırıb dedi: Sən dağdan bizim üçün qarnında balası olan dişi dəvə çıxarmayınca biz sənə əsla iman gətirmərik... Allah-taala onların istəyinə uyğun olaraq qayadan qarnında balası olan dişi bir dəvə çıxardı. Bu, Salehin düzdanışan olduğunu göstərən bir möcüzə idi. Sonra Allah Salehə (ə) vəhy edib: “Allah suyu sizinlə bu dəvə arasında bölüb. Su bir gün sizindir, bir gün bu dəvənin”, - deyə buyurdu. Dəvənin növbəsi çatanda o heyvan sudan içən kimi böyüklü-kiçikli hər kəs dərhal onun südünü içirdi. Gecə sona çatıb səhər açılanda camaat sudan içir, dəvə isə içmirdi. Br müddət bu minvalla ötüb keçdi. Lakin onlar yenidən Allahın əmrinə itaətsizlik göstərdilər. Bir gün bir yerə toplaşıb dedilər: “Bu dəvəni öldürün, ayaqlarını kəsin. Biz suyun bir gün bizə, bir gün isə ona aid olmasına razı deyilik”. Sonra dedilər: “Kim onu öldürməyi boynuna götürər? Həmin adama nə istəsə verərik.” Üzünün rəngi qırmızı, saçlarının rəngi palıdı, gözlərinin rəngi göy, atası tanınmaz haramzada, pisliyi ilə şöhrət tapmış Qəddar adlı bir kişi bu işi öz üzərinə götürdü. Camaat onun üçün mükafat da təyin etdi. Dəvə suya yaxınlaşdıqda Qəddar su içincəyə qədər ona fürsət verdi. Sudan tam doyub geri dönərkən qılıncla dəvəyə zərbə endirdi. Birinci zərbə nətcəsiz olduğu üçün ona ikinci zərbəni endirdi. Dəvə böyrü üstə yerə yıxıldı. Dəvənin balası dağa tərəf qaçdı, üç dəfə üzünü göyə tutub mələdi. Səmud camaatı axışıb gəldi ,hər kəs dəvəyə bir zərbə vurdu. Dəvənin ətini aralarında bölüşdürdülər, böyüklü-kiçikli hər kəs dəvənn

ətindən yed. Saleh (ə) hadisədən xəbər tutduqda onların yanına getdi. Onlara "Ay camaat, niyə belə etdiniz? Nə üçün Allahın əmrindən çıxdınız?" dedi. Allah Salehə vəhy edib buyurdu: "Sənin qövmün zülm etdi, itaətdən boyun qaçırdı. Mən dəlil göndərdiyim dişi bir dəvəni öldürdü. O dəvənin onlara heç bir zərəri yox idi. Əksnə, onlara çox böyük xeyri var idi. Qövmünə çatdır, üç günə qədər onlara möhlət verirəm. Əgər bu üç gün ərzində tövbə etsələr, tövbələrini qəbul edəcəyəm. Yox əgər tövbə etməsələr və çirkin işlərindən əl çəkməsələr, əzabımı onlara göndərəcəyəm." Saleh (ə) qövmünün yanına gedib Allahın əmrini onlara çatdırdı. Ancaq onlar daha çirkin reaksiya verərək dedlər: "Ey Saleh, əgər doğru deyirsənsə, bizə vəd verdiyini gətir". Saleh buyurdu: "Sabah səhər üzləriniz saralacaq. Üçüncü gün qızaracaq, üçüncü gün isə qaralacaq". Eelə də oldu. Həmin günün səhəri üzləri saraldı. Dərhal bir yerə toplaşdılar. Bəzilər dedi: "Salehin dediyi gerçəkləşdi." Ancaq qövmün daha çox zülmkar olanları dedilər: "Əzab nə qədər böyük olsa da, biz Salehin sözlərini qəbul etməyəcəyik." İkinci günün səhəri üzləri qızardı. Bir yerə toplaşıb "Salehin dedikləri gerçəkləşdi" dedilər. Yenə də azğınları dedilər: "Əgər hamımız həlak olsaq belə, Salehin sözlərini dinləməyəcəyik..." Nəticədə, tövbə etmədilər. Üçüncü gün yetişdyində hamısının üzünün rəngi qaraldı. Bu dəfə də bir-birlərinə "Salehin dediyi əzab gəlib çatdı." Azğınlar ümidsizlik içində və məyus halda dedilər: "Salehin bizə dediyi yetşdi." Gecə yarı olduğunda Cəbrayıl onlara doğru endi. Elə yüksək səslə qorxu gəldi ki, səsin heybətindən onların qulaqlarının pərdəsi cırıldı, ürəkləri, ciyərləri tikə-tikə oldu... Həmin günün sabahısı yataqlarında cansız uzandıqları halda, Allah göydən odlu bir gurultu göndərib hamısını yandırdı."[947]

---

[947] Əl-Mizan, c.10, səh.302

72. Dedi: “Vay halıma! Mən qoca bir qarı, bu ərim də ixtiyar bir kişi olduğu halda, mən necə doğa bilərəm?! Doğrusu, bu çox təəccüblü bir şeydir!”

73. Dedilər: “Allahın əmrinə təəccübmü edirsən? Bu, Allahın sizin ev əhlinə olan rəhmət və bərəkətidir. O, tərifəlayiqdir, ucadır!

74. İbrahimin qorxusu çəkildikdə və müjdə ona yetişdikdə Lut tayfası barəsində Bizimlə mübahisə etməyə başladı.

75. Çünki İbrahim dözümlü, ürəyiyanan, təvəkkül edən bir adam idi.

76. “Ey İbrahim! Bundan (istəyindən) əl çək, Rəbbinin əmri artıq gəlmişdir. Onlara qarşısıalınmaz qəti bir əzab gəlir.

77. Elçilərimiz (əzab mələkləri) Lutun yanına gəldikləri zaman narahat oldu, ürəyi sıxıldı və: “Bu gün çətin bir gündür!” – dedi.

78. Tayfası tələsik (Lutun) yanına gəldi. Onlar əvvəl də pis işlər görürdülər. (Lut onlara) dedi: “Ey qövmüm! Bunlar mənim qızlarımdır. Onlar sizin üçün daha təmizdirlər. (Onlarla ailə qurun və çirkinlikdən uzaq olun). Allahdan qorxun və məni qonaqların yanında rüsvay etməyin. Məgər aranızda ağlı başında, başa düşən bir adam yoxdur?”

79. Onlar dedilər: “Sənin qızlarına heç bir rəğbətimiz olmadığını bilirsən. Nə istədiyimizi də yaxşı bilirsən!”

80. (Lut) dedi: “Kaş sizə qarşı bir gücüm, qüvvəm olaydı, ya da möhkəm bir dayağım, söykənəcəyim olaydı!”

81. (Əzab mələkləri) dedilər: “Ey Lut! Biz sənin Rəbbinin elçiləriyik. Onlar sənə əsla toxunmayacaqlar. Gecənin bir vaxtında ailəni (bu şəhərdən) apar. Heç birinz arxasına baxmasın. Təkcə övrətin istisnadır. Onların düçar olduğu əzaba o da düçar olacaq. Onların vaxtı səhərdir. Səhər yaxın deyilmi?”

---

73. Allahın İbrahim və ailəsinə qarşı olan xüsusi lütfü: İbrahimin arvadı Allahın istəyi ilə onun övlad sahibi olacağını eşitdikdə təəccüblənir. Allahın elçiləri onun bu təəccübünə dərhal son qoyur, Allahın onlara bəxş etdiyi qeyri-adi nemətləri, Allahın möcüzəli şəkildə onları təhlükələrdən necə xilas etdiyini, Allahın İbrahimi zalım Nəmrudun əlindən xilas etdiyini, odun ortasında salamat saxladığını, bütsındıran İbrahimə təkbaşına bütün zalımlara qarşı çıxacaq qüdrət və əzmkarlıq verdiyini xatırladır və həmin Allahın ixtiyar yaşında bu ailəyə bir övlat lütf etmək istədiyini xəbər verirlər. Əlbəttə, Allahın bu rəhmət və bərəkəti həmin günlə bitmirdi. Allahın bu ailəyə bəxş etdiyi bərəkət davam etmiş və etməkdədir. Allahın İbrahmin (ə) ailəsinə lütf etdiyi İslam Peyğəmbəri (s) və məsum imamların

(Allahın salamı olsun onların hamısına) varlığından böyük hansı nemət ola bilər?[948]

73. Tərifəlayiq və uca Allah: Bu iki xüsusiyyətin qeyd edilməsi əvvəlki cümlənin məzmununu sübuta yetirmək üçündür. "Həmid" tərifəlayiq işlər görən şəxsə deyilir. Bu ad Allahın öz bəndələrinə saysız-hesabsız nemətlər verdiyini, bəndələrinin də bu nemətlər qarşısında ibadət etməli olduğunu göstərir. "Məcid" nemətə layiq olmaq üçün bir iş görülmədiyi halda, nemət verən şəxsə deyilir. Bu cür xüsusiyyətlərə malik olan Allahın peyğəmbər ailəsinə belə bir nemət verməsi təəccüblü ola bilərmi?[949]

75. Həlim, ürəyiyanan və təvəkkül edən peyğəmbər: "Həlim" cəza və intiqama tələsməyən adama deyilir. "Əvvah" çətinlikləri və bəlaları gördükdə daha çox sızıldayan adama deyilir. "Münib" hər bir işdə Allaha üz tutan şəxsə deyilir. Bu ayədə İbrahmin (ə) mələklərlə Lutun qövmü barəsində mübahisə etməsinin səbəbi bəyan edilir. Əslində, İbrahim zalımlara əzab verilməsinə görə narahat deyildi, heç onların tərəfini də tutmurdu. Sadəcə, o həlim və hövsələli bir adam idi, əzabın zalımlara tez endirilməsini istəmir, Allahın köməyi ilə islah olacaqlarına ümid edirdi. Habelə, o, insanların haqq yoldan sapması və məhv olmasına görə çox narahat idi. İnsanların azğınlıqdan xilas olması üçün Allaha üz tutur, Ondan yardım istəyirdi[950].

79. Paklığı, təmizliyi özlərinə layiq bilməyənlər: Təəccüblüsü budur ki, qövmü Luta "Bizim sənin qızlarına rəğbətimiz yoxdur, heç bu bizə layiq də deyil", - deyə etiraz edirdi. Bu cümlə onların son dərəcə azğın olduğunu, pak, təmiz, imanlı qızlarla evlənməyə razı olmadıqları halda, cinsi azğınlığı

---

[948] Nümunə, c.9, səh.173
[949] Nümunə, c.9, səh.174
[950] Əl-Mizan, c.10, səh.314

özlərinə layiq biləcək qədər çirkin, haqqı batil, batili haqq hesab edəcək qədər mənfur bir cəmiyyətə çevrildiklərini göstərir. Günaha adət etmənin və ona öyrəşmənin ən son həddi budur ki, günaha aludə olanlar ən çirkin və ən utancverici əməlləri özlərinə layiq bildikləri halda, ən təmiz cinsi münasibəti yanlış əməl hesab edirlər[951].

80. Mehdi və səhabələri; Lutun arzusu: İmam Sadiq (ə) bu ayə haqqında belə buyurmuşdur: ***"Burada "güc və qüvvə" deyilərkən Muhəmmədin (s) ailəsinin qaimi (ə), "möhkəm dayaq və söykənəcək" deylərkən onun 313 nəfər səhabəsi nəzərdə tutulmuşdur."*** Lutun o dövrdə belə bir şəxsin və silahdaşların zühurunu arzu etməsi təəccüblü görünə bilər. Ancaq Quranın ayələrinin təfsirini ehtiva edən hədislərlə tanış olduqda onların çoxunun ümumi qanunun ayrı-ayrı nümunələrə tətbiq olduğu aydın olur. Əslində, Lut İmam Mehdinin (ə) zühurundan sonra cahanşümul ilahi hökumət quracaq qətiyyətli, qərarlı, mənəvi və fiziki cəhətdən güclü kişilərin olmasını, onlarla birlikdə qiyam etməyi, bu ilahi gücə söykənərək fəsad və azğınlıqla mübarizəyə qalxmağı, bu cür həyasız insanları əzib məhv etməyi arzulamışdır[952].

---

[951] Nümunə, c.6, səh.184
[952] Nümunə, c.9, səh.185

82. Əmrimiz yetişdiyində oranı alt-üst etdik və üzərinə daş leysanı yağdırdıq.

83. (O daşlara) Rəbbinin dərgahında əlamət qoyulmuşdu. O (başqa) zalımlardan də uzaq deyil!

84. Mədyən əhlinə də qardaşları Şüeybi (göndərdik). O dedi: “Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa məbudunuz yoxdur. Ölçünü və çəkini əskiltməyin. Mən sizi xeyir-bərəkət içində görürəm. Ancaq sizi bürüyəcək bir günün əzabından qorxuram!

85. Ey qövmüm! Ölçüdə və çəkidə ədalətə tam riayət edin. Camaatın malını əskiltməyin və haqlarını kəsməyin. Yer üzündə fitnə-fəsad törətməyə çalışmayın!

86. Əgər möminsinizsə, Allahın saxladığı sizin üçün daha yaxşıdır. Mən də sizə nəzarətçi deyiləm!”

87. Onlar dedilər: “Ey Şüeyb! Atalarımızın tapındığını tərk etməyimizi, mallarımızla istədiyimiz kimi davranmamağı sənə namazınmı əmr edir? Sən ki, həlim və ağıllı adamsan!”

88. Dedi: “Ey qövmüm! Bir mənə deyin görüm! Əgər Rəbbim tərəfindən aşkar bir dəlilim varsa və mənə gözəl bir ruzi veribsə (mən Onun əmrinə qarşı çıxa bilərəmmi)? Mən sizi çəkindirdiyimə özüm əsla bulaşmaq istəmirəm. Mən yalnız bacardığım qədər sizi islah etmək istəyirəm. Mənim

uğurum yalnız Allahdandır. Ona təvəkkül etdim və Onun hüzuruna dönəcəyəm!

---

83. Homoseksuallığın günahının böyüklüyü: Bu ayədə zalımlar deyilərkən Məkkə zalımları və ya Peyğəmbər (s) zamanının müşrikləri nəzərdə tutulmuşdur. Buna görə də ayənin mənası belə olur: Bu cür daş yağışının yağması Məkkə zalımlarından da uzaq deyil. Ayənin mənası belə də ola bilər: Lut qövmünün alt-üst etdiyimiz şəhərləri İslam peyğəmbərinin (s) qövmünün zalımlarından uzaq deyil. Həmin şəhərlər Məkkə ilə Şamın (indiki Suriya) arasında yerləşir. Onlar bu şəhərlərin yanından keçib gedrdlər. "Hicr" surəsinin 76-cı ayəsində belə deyilir: ***"Onların yurdlarının xarabalıqları onların get-gəl etdikləri yolun üzərindədir."*** "Saffat" surəsinin 137-138-ci ayələrində belə buyurulmuşdur: ***"Siz həmişə səhərlər onların yanından keçirsiniz. Habelə axşamlar. Düşünmürsünüzmü?"*** Bəlkə də bu ayə bütün zalımlar üçün bir təhdiddir. Yəni hər bir zalım Lutun qövmünün başına gələn əzaba düçar ola bilər. İmam Baqir (ə) bir hədisində belə buyurmuşdur: ***"Peyğəmbər ümmətindən Lut qövmünün çirkin günahına bulaşmış şəxslər bu zalımlardandır."***[953] Homoseksuallıq istər qadınlarda olsun, istərsə də kişilərdə, İslama görə çox böyük günahlardandır. İslam öndərlərinin bu günahın pisliyindən bəhs edən çoxlu sayda hədislərini oxuduqda az sayda günahın bu dərəcədə çirkin ola bləcəyinin şahidi oluruq. İslam peyğəmbərinin hədislərinin birində belə deyilir: ***"Lut qövmü o utancverici əməlləri etdiyi zaman yer elə ağlayırdı ki, göz yaşları göylərə çatırdı, göylər elə ağlayırdı ki, göz yaşları ərşə çatırdı. Nəhayət, Allah göyə***

---

[953] Əl-Mizan, c.10, səh.332

daş yağdırmasını, yerə isə onları udmasını əmr etdi." Təbii ki, yer və göyün ağlaması bənzətmə və simvolik səciyyə daşıyır. Peyğəmbərin başqa bir hədisində belə deyilir: ***"Yeniyetmə ilə cinsi əlaqədə olan şəxs Qiyamət günü Məhşərə dünya sularının əsla pak edə bilməyəcəyi cənabətli halda gətirilər. Allah ona qəzəb və lənət edər, Cəhənnəmi onun üçün hazırlayar. Necə də pis yerdir."*** Sonra buyurmuşdur: "Kişi cinsindən olan şəxs öz həmcinsi ilə cinsi əlaqədə olanda bu utancverici əmələ görə Allahın ərşi titrəyir."[954]

86. Allahın saxladığı: "Bəqiyyətullah" (Allahın saxladığı) ifadəsi halal və az miqdarın faydalı olduğunu çatdırır. Allahın əmri ilə olduğu üçün qalıcıdır. Ya da halal qazanc ilahi nemətlərin və bərəkətlərin davamlı olmasına səbəb olduğu üçün bu ifadədən istifadə edilmişdir. Sözügedən ifadə ilə bəlkə də dünya və dünyadakıların fani olub aradan getməsinə baxmayaraq, mənəvi mükafatların əbədi olaraq qalacağına işarə edilmişdir. Hədislərdə "Bəqyyətullah" ifadəsinin İmam Mehdi (ə) və bəzi başqa imamlara aid olduğu qeyd edilmişdir. İmam Məhəmmədbaqir (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Qiyam etdikdən sonra Qaimin deyəcəyi ilk cümlə bu ayə olacaq: "Əgər möminsinizsə, Allahın saxladığı sizin üçün daha yaxşıdır" Sonra deyəcək: "Mən Allahın saxladığı, aranızdakı xəlifəsi və dəliliyəm. Hər kəs ona yalnız "Salam olsun sənə ey Allahın yer üzündə saxladığı", - deyə salam verəcək."*** Yaddan çıxarmamalıyıq ki, Quran ayələri xüsusi bir hadisə üçün nazil olsa da, ümumi məna daşıyır, zaman-zaman digər nümunələrə də tətbiq edilə bilir. Nəzər nöqtəsi olan ayənn xitab obyekti Şüeybin qövmü olsa da , " Allahın saxladı" deyiləkən halal mənfəət və sərmayə və ilahi nemətlər nəzərdə

---

[954] Nümunə, c.9, səh.192

tutulsa da, Allah tərəfindən insanlar üçün qorunub saxlanmış, xeyir, bərəkət və xoşbəxtlik səbəbi olacaq bütün faydalı varlıqlar "Allahın saxladığı" hesab edilə bilər. Bütün peyğəmbərlər və böyük öndərlər Allahın saxladığıdır. Cddi bir düşmənlə mübarizə apardıqdan sonra bir xalq, bir millətin sağ qalmış həqiqi rəhbəri Allahın saxladığı hesab edilir. Müharibə meydanında qalib gəlmiş mübariz əsgərlər də Allahın saxladığıdır. Vəd olunmuş Mehdi (ə) də İslam peyğəmbərinin (s) qiyamından sonra sonuncu imam və ən böyük inqilab rəhbəri, xüsusilə peyğəmbərlər və imamların (Allahın salamı olsun onların hamısına) yeganə qalan varisi olduğu üçün "Allahın saxladı" ifadəsinin ən parlaq nümayəndəsi və bu ləqəbin ən layiqli daşıyıcısıdır[955].

[955] Nümunə, c.9, səh.203

89. Ey qövmüm! Mənimlə olan ixtilaf və düşmənçiliyiniz Nuhun, Hudun, ya da Salehin qövmünün başına gələnlərin sizin də başınıza gəlməsinə səbəb olmasın. Lut qövmü sizdən elə də uzaq deyildir".

90. Rəbbinizdən bağışlanma diləyin, Ona doğru qayıdın. Rəbbim rəhimlidir, (tövbəkar bəndələrini) sevəndir.

91. Dedilər: "Ey Şueyb! Söylədiklərinin çoxunu anlamırıq və biz səni aramızda zəif görürük. Əgər kiçik qəbilən olmasaydı, səni daşqalaq edərdik. Bizim qarşımızda sənin heç bir gücün yoxdur."

92. Dedi: "Ey qövmüm! Məgər mənim kiçik qəbiləm sizin üçün Allahdan da qüdrətlidir ki, siz Ona saymazlıq edib arxa çevirirsiniz? Rəbbim sizin nə etdiklərinizi əhatə edir (bilir).

93. Ey qövmüm! Əlinizdən gələni edin, mən də öz işimi görəcəyəm. Rüsvayedici əzabın kimə gələcəyini və kimin yalançı olduğunu tezliklə biləcəksiniz. Siz gözləyin, mən də sizinlə birlikdə gözləyirəm".

94. Əmrimiz yetişdiyində Şueybi və onunla birlikdə iman gətirənləri Öz mərhəmətimizlə xilas etdik. Zülm edənləri isə qorxunc səs yaxaladı və onlar öz evlərində üzüqoylu düşüb öldülər.

95. Sanki heç oranın sakinləri olmamışdılar. Səmud qövmü (Allahın rəhmətindən) uzaq olduğu kimi, Mədyən də uzaq olsun!

96. Biz Musanı ayələrimizlə və aydın bir dəlillə göndərdik...

97. Firon və onun tərəfdarlarına. Ancaq onlar Fironun əmrinə tabe oldular. Halbuki Fironun əmri inkişaf və xilas səbəbi deyildi.

---

89. Şüeybin qövmünün yaşadığı dövrlə Lutun qövmünün yaşadığı dövrün yaxınlığı: Bu ayədə Şüeybin qövmü ilə Lutun qövmünün zaman baxımından yaxınlığı nəzərdə tutulmuşdur. Quran ayələrindən belə məlum

olur ki, həzrət Şüeyb həzrət Musa ilə eyni dövrdə yaşamışdır. Həzrət Lut isə həzrət İbarihimin müasiri olmuşdur. Bu iki ülü-əzm peyğəmbər arasındakı zaman fasiləsi isə üç əsrdən az olmuşdur. Deməli Şüeybin qövmü ilə Lutun qövmünün yaşadığı dövrlər arasında üç əsrdən az vaxt olmuşdur[956].

90. Sevən Allah: "Vədud" Allahın adlarından biridir. Vədud sevən və sevgisini gördüyü işlərlə büruzə verən şəxsə deylir. Allah sevəndir, yəni yaratdıqlarını və bəndələrini sevir, bəndələrinə layiq gördüyü saysız-hesabsız nemətlərlə sevgisini aşkar edir. Allah-taala Quranda belə buyurmuşdur: "Əgər Allahın nemətlərini saysanız, onları sayıb qurtara bilməzsiniz." (İbrahim surəsi, 34-cü ayə)[957].

91. Nə üçün qövmü Şüeybi zəif hesab edirdi? İslam peyğəmbəri (s) buyurmuşdur: ***"Şüeyb Allaha olan sevgisindən o qədər ağlamışdı ki, gözləri kor olmuşdu".*** İmam Əli (ə) buyurmuşdur: ***"Şüeyb kor olduğu üçün qövmü onu zəif hesab edrdi."*** Sonra buyurmuşdur: ***"Heç bir şəriki olmayan Allaha and olsun ki, Rəblərinin əzəmətindən qorxmurdular. Öz qohum və qəbilələrindən başqa heç nədən qorxuları yox idi."***[958]

94. Şüeybin mənəvi məqamı: Şüeyb (ə) Allahın əziz peyğəmbərlərindən olmuşdur. Allah-taala onu Quranda tərifləyiri digər peyğəmbərlərlə yanaşı tərifləmişdir. Quranda Şüeyb əmanətdar və islahedici peyğəmbər kimi təqdim edilmişdir. Şüeyb özü də özünü salehlərdən biri kimi təqdim edir və Allah onun bu xüsusiyyətdə olduğunu təsdiq edir. Şüeybin mənəvi şəxsiyyətinin çox yüksək olduğunu İmran oğlu Musanın (ə) on ilə yaxın ona xidmət göstərməsi təsdiq edir. İslam peyğəmbəri (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Şüeyb Allaha olan sevgisindən o***

---

[956] Əl-Mizan, c.10, səh.361
[957] Əl-Mizan, c.10, səh.362
[958] Biharül-ənvar, c12, səh.380; Əl-Mizan, c.10, səh.365

qədər ağladı ki, gözləri kor oldu. Allah gözlərini ona yenidən qaytarıb buyurdu: "Ey Şüeyb, bu ağlamaq nə üçündür? Cənnətə getmək istəyindəndir, yoxsa Cəhənnəm qorxusundan?" Şüeyb dedi: "Xeyr, sənin sevgini qəlbən qəbul etmişəm. Qəbimin gözü ilə sənə baxanda mənimlə nə edəcəyinin mənim üçün heç bir əhəmiyyəti yoxdur." Bu vaxt Allah ona vəhy edib buyurdu: "Ey Şüeyb, əgər bu sözün doğrudursa, görüşüm sənə mübarək olsun. Ey Şüeyb, bu ixlas və sevginə görədir ki, İmran oğlu Musanı sənə xidmətçi verdim."[959]

[959] Əl-Mizan, c.10, səh.365

98. Qiyamət günü o, qövmünün qabağına düşüb onları oda daxil edəcək. Daxil olacaqları yer necə də pis yerdir!

99. Onları həm bu dünyada, həm də Qiyamət günü lənət təqib edəcəkdir. Onlara verilən pay necə də pisdir!

100. Bu, sənə haqlarında danışdığımız şəhər və kəndlərin hekayələrindəndir. Onların bəzisi (indi də) qalır, bəzisi isə yerlə-yeksan olub.

101. Biz onlara zülm etmədik, onlar özləri özlərinə zülm etdilər. Rəbbinin əzab əmri yetişdiyində Allahdan başqa çağırdıqları məbudlar onlara kömək etmədi, əksinə, onların ancaq zərər və ziyanlarını artırdı.

102. Zülm və haqsızlıq edən şəhər və kəndlərə əzab göndərərkən Rəbbinin əzabı belə olur. Onun əzabı ağrı-acılı və şiddətlədir.

103. Axirət gününün əzabından qorxanlar üçün bunda bir əlamət vardır. Bu, insanların bir yerə toplanacağı və hamının ona şahid olacağı bir gündür.

104. Biz onu (Qiyaməti) sadəcə, müəyyən olunmuş vaxtadək təxirə salmışıq.

105. (Qiyamət) gəlib çatdığı gün Allahın izni olmadan heç kəs danışmayacaq. Bir dəstə bədbəxt, bir dəstə xoşbəxtdir.

106. Bədbəxt olanlar oddadır. Onlar orada fəryad qoparacaq, ah-nalə edəcək.

107. Rəbbinin istədiyi istisna olmaqla, göylər və yer durduqca onlar orada əbədi qalacaqlar. Rəbbin istədiyini edəndir.

108. Xoşbəxt olanlara gəldikdə isə, əbədi Cənnətdə olacaqlar. Rəbbinin dilədiyi istisna olmaqla, göylər və yer durduqca onlar orada əbədi qalacaqlar. (Bu,) tükənməz bir bəxşişdir.

---

105. Aşkar olanın sözlə ifadəsinə nə ehtiyacı var? Bəzi təfsirçilər hesab edirlər ki, ümumiyyətlə, Qiyamət günü danışmağa ehtiyac olmayacaq. Çünki danışmaq başqalarının fikirləri ilə tanış olmaq və ya öz fikrlərimizi başqalarına çatdırmaq üçün istifadə etdiyimz bir vasitədir. Əgər başqa bir vasitə ilə qarşı tərəfinin fikirlərini öyrənmək mümkündürsə, danışmağa ehtiyac yoxdur. Buna görə də Qiyamətdə insanların bütün sirləri aşkara çıxacağı üçün artıq danışmağa ehtiyac olmayacaq. Əgər danışacaqlarsa, bu onların öz sirlərini izhar etmələr üçün deyil, bir növ orada aşkara çıxacaq əməllərinin əks olmasıdır. Orada danışmaq eynilə dünyadakı kimi olmayacaq, yəni insan istədiyi kimi, yalan və ya doğru danışa bilməyəcək. Qiyamət həqiqətlərin aşkar olduğu, qeybin aşkara çıxdığı, bu dünya ilə heç bir bənzərliyi olmayan bir gündür[960].

107. Əbədi Cənnət və Cəhənnəm: Bu və sonrakı ayədə iki məsələ daha çox diqqət tələb edir: 1. Quran ayələri və məsumların hədislərindən

---

[960] Əl-Mizan, c.11, səh.10

belə başa düşülür ki, Qiyamət günü Cənnətə daxil olanlar orada əbədi qalacaq, bəzi Cəhənnəmliklər də Cəhənnəmdə həmişəlik qalacaqlar. Bu və sonrakı ayədə də ***"Rəbbinin istədiyi istisna olmaqla"*** bədbəxt insanların Cəhənnəmdə əbədi qalacağı və "Rəbbinin istədiyi istisna olmaqla" xoşbəxtlərin Cənnətdə əbədi qalacağı qeyd edilmişdir. Təfsirçilər ayələrdə qeyd olunan istisnalar haqqında müxtəlif izahlar vermişlər. Bu izahlar arasında daha ağlabatanı bütün Cəhənnəmliklərin orada qalmayacağı fikridir. Belə ki, bəziləri ilahi əfv və ilahi övliyaların şəfaəti ilə Cəhənnəmdən azad olacaq, qalanları isə böyük və bağışlanılmaz günahlar etdikləri üçün ilahi əfvə layiq olmayıb əbədi olaraq Cəhənnəmdə qalacaqlar. Buna görə də ayənin sonunda Allah-taala ***"Rəbbin istədiyini edəndir"***, - deyə buyurmuşdur. Bu cümlədən belə başa düşülür ki, bəzi Cəhənnəmliklər Allahın istəyi ilə oradan azad olacaqlar. Lakin Cənnətliklər Cənnətə daxil olduqdan sonra həmişəlik olaraq orada qalacaq və heç vaxt oradan çıxmayacaqlar. Sonrakı ayədə Allah-taala ***"Rəbbinin istədiyi istisna olmaqla"***-deyə buyurmaqla başa salmaq stəyir ki, Cənnət əhli Cənnətdə Allahın istəyi ilə qalacaq. Əgər Allah istəsə, onları Cənnətdən xaric edər, lakin bunu etməyəcək. Buna görə də Allah növbəti ayənin sonunda ***"tükənməz bir bəxşişdir"***, - deyə buyurmuşdur (Hud surəsi, 8-ci ayə). İmam Baqir (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Cəhənnəm sakinlərindən bir qrupu Cəhənnəmdən xaric olacaq və ilahi şəfaətə nail olacaqlar. Sonra onları bir çayın kənarına aparacaqlar... Onlar orada yuyunacaqlar. Nəticədə, ətləri və qanları yenilənəcək, Cəhənnəmin yanığının izləri bədənlərindən təmizlənəcək. Bundan sonra Cənnətə daxil ediləcəklər. Cənnət sakinləri onları gördükdə "Cəhənnəmliklər gəldi" deyəcəklər. buna görə də onlar bu adın onların üzərindən götürülməsini istəyəcək və Allah da bu adı onların üzərindən götürəcək."*** Ardınca İmam (ə)

buyurmuşdur: ***"Əlinin düşmənləri odda həmişəlik qalacaqlar, onlar şəfaətdən məhrum qalacaqlar."***; 2. ***"Göylər və yer durduqca"***. Ortaya belə bir sual çıxır: Quranda dəfələrlə Qiyamət ərəfəsində göylərin və yerin məhv olacağı qeyd edilmişdir. Belə olduğu təqdirdə Cənnət və Cəhənnəmin, eyni zamanda onların sakinlərinin əbədiliyi yer və göylərin mövcudluğu ilə necə şərtləndirilə bilər? Qeyd etməliyk ki, Quranda Qiyamət ərəfəsində yer və göylərin tamamilə məhv olacağı, Qiyamətdə yer və göyün olmaması deyil, mövcud nizam-intzamının dəyişəcəyi və onların başqa göylərə və yerə çevriləcəyi bldirilmişdir (İbrahm surəsi, 48-ci ayə; Zümər surəsi, 74-cü ayə). Quranın başqa ayələrindən yer və göylərin həmişəlik qalacağı, onlar olduqca Cənnət cə Cəhənnəm əhlinin bu ikisinin də olacağı başa düşülür[961].

[961] Əl-Mizan, c.11, səh.23; Nümunə, c.9, səh.239

109. Onların ibadət etdiklərinin batilliyinə şübhən olmasın. Onlar bu məbudlara atalarının əvvəllər ibadət etdiyi kimi ibadət edirlər. Biz onların nəsibini əskiltmədən tam verəcəyik.

110. Biz Musaya səmavi Kitab verdik. Sonra onun barəsində ixtilaf düşdü. Əgər Rəbbinin əzəli fərmanı olmasaydı, aralarında dərhal hökm verilərdi. Onlar (hələ) şək-şübhə içindədirlər.

111. Rəbbin hər birinin əməllərini onlara əskiltmədən verəcəkdir. Allah onların nə etdiklərindən xəbərdardır.

112. Sən də, sənինlə birlikdə Allaha doğru gələnlər də Sənə əmr edildiyi kimi, düz olun. Həddi aşmayın. O, sizin etdiklərinizi görür.

113. Zalımlara arxalanma, yoxsa odun sizi bürüməsinə səbəb olar. O halda sizin Allahdan başqa heç bir vəli və himayədarınız olmayacaq. Sonra sizə kömək olunmaz.

114. Gündüzün iki başında (əvvəlində və sonunda) və gecənin əvvəllərndə namaz qıl! Çünki yaxşı işlər pis əməlləri yuyub aparır. Bu, xatırlayanlar üçün bir xatırlatmadır.

115. Səbr et! Allah yaxşı iş görənlərin mükafatını puça çıxarmaz.

116. Nə üçün sizdən əvvəlki dövrlərdə yer üzündə fitnə-fəsadın qarşısını ala biləcək gücə malik alimlər olmamışdır? Onlardan yalnız xilas etdiyimiz az bir qismi istisnadır. Zalımlar dünyanın ləzzətlərinə uyub günahkar oldular.

117. Rəbbin, əhalisi islah olunmağa və düzəlməyə niyyətlənmiş məmləkətləri haqsız yerə məhv etməz.

---

112. Quranın ən çətin göstərişi: İbn Abbasa istinad edilən məlumatda Peyğəmbərə (s) bundan çətin və ağır bir ayə göndərilmədiyi qeyd edilmişdir. Buna görə də səhabələri ondan "Nə üçün belə tez qocaldın?" – deyə soruşduqlarında buyurmuşdu: ***"Hud və Vaqiə surələri məni qocaltdı".*** Deyilənə görə, bu ayə nazil olanda Peyğəmbər (s) buyurmuşdur: "Hazır olun, hazır olun, çünki səy və çalışmaq vaxtıdır." Ondan sonra Peyğəmbər (s) heç gülməmişdir. Bu ayənin Peyğəmbərə (s) ağır gələn ən mühüm tərəfi "düz ol" əmri olmuşdur. Ayədə təbliğat və təşviqat yolunda düz olmaq, İlahi vəzifələrin və Quran təlimatlarının yerinə yetirilməsində yalnız Allah üçün və onun buyurduğu kimi düz olmaq əmri verlmişdir. Qalib gəlmək asandır, ancaq onu qoruyub saxlamaq çətindir[962].

113. Zalımlara arxalanmayın: Bu ayədə ictimai, siyasi, hərbi və dini proqramlardan birinə işarə edilmişdir. Sözügedən proqramın əsasını zalımlara etimad göstərilməməsi ilə bağlı göstəriş təşkil edir. Zalımlara arxalanmaq çoxlu fəsadlara yol açır. Digər tərəfdən, onların güclənməsinə. Onların güclənməsi isə cəmiyyətdə günah və fitnə-fəsadın yayılmasına səbəb olur. Zalımlara arxalanmaq cəmiyyətin fikir mədəniyyətinə tədricən təsir göstərir, günah və zülmün çirkinliyi təsəvvürünün ortadan qalxmasına səbəb olur, insanları zülm etməyə, zülmkar olmağa təşviq edir. Başqalarına bağlılıq formasında təzahür edən etimadın nəticəsi yalnız bədbəxtlik olduğu halda, bu etimadın mənbəyi zalım və zülmkar olarsa, vəziyyət daha acınacaqlı olar. Yalnız o cəmiyyəti mütərəqqi və inkşaf etmiş cəmiyyət hesab etmək olar ki, özü-özünü təmin edə bilsin və digər cəmiyyətlərlə olan əlaqəsi zəif və güclü prinsipinə deyil, qarşılıqlı maraqlara əsaslansın. Zəif və güclü prinsipinə əsaslanan bağlılıq istənilən halda, əsarət və istismarla

---

[962] Nümunə, c.9, səh.258

nəticələnir. Əgər əlaqə və bağlılıq tərəfi zalım olarsa, zülmdə ortaqlıq və zalımın proqramlarında iştirakla nəticələnəcək[963].

114. Günün iki başında və gecənin əvvəllərində namaz qılmaq: Əhli-beyt (ə) hədislərindən belə qənaətə gəlirik ki, gündüzün iki başının namazı deyilərkən sübh və məğrib namazları, gecənin əvvəllərinin namazı deyilərkən isə işa namazı nəzərdə tutulmuşdur. Ayənin nəzər nöqtəsi olan cümləsində bu üç namaza işarə edilmişdir[964].

114. Namaz günahları yuyur: Əbu Osman adlı bir nəfərə istinad edilən məlumatda deyilir: "Salman Farsi ilə bir ağacın altında oturmuşduq. O, qurumuş bir budaqdan tutub bütün yarpaqları tökülənə qədər onu silkələdi. Sonra üzünü mənə tutub dedi: Nə üçün belə etdiyimi soruşmadın. Soruşdum: Niyə belə etdin? Dedi: Peyğəmbər (s) də bir dəfə eynilə belə etmişdi. Bir gün onunla bir ağacın altında oturmuşduq. Peyğəmbər (s) eynilə bu cür edib dedi: ***"Salman, Nə üçün belə etdiyimi soruşmursan?"*** "Nə üçün etdiniz?" – deyə soruşduqda, buyurdu: ***"Müsəlmanlar dəstəmaz alıb beş namazı bütün şərtləri ilə yerinə yetirdiklərində günahları bu ağacın yarpaqları kimi tökülür."*** Sonra bu ayəni oxudu."[965]

116. Cəmiyyətin korlanma səbəbi: Hər bir cəmiyyətdə zülm və fəsad olur. Mühüm olan cəhət budur ki, cəmiyyət zülm və fəsad olduğunu hiss edib onu aradan qaldırmağa səy göstərsin. Belə bir hiss olduğu və onun aradan qaldırılması istiqamətində addımlar atıldığı təqdirdə Allah bu cəmiyyətə möhlət verir, yaranış qanunu onların həyatda qalmasını tələb edir. Lakin bu hiss aradan qalxdığında, cəmiyyət günahlara laqeyd olduğunda, fitnə-fəsad sürətlə hər tərəfi bürüdüyündə artıq bu cəmyyət yaşayış

---

[963] Nümunə, c.9, səh.259
[964] Nümunə, c.9, səh.265
[965] Əl-Mzan, c.11, səh.69

haqqından məhrum olur. Məsələn, insanın bədəni mkroblara, xəstəliklərə və sairəyə qarşı mübarzə aparmaq gücündə olduğu və özünü müdafiə edə biləcəyi vaxta qədər yaşa bilər. Lakin bədən mikroblar qarşısındakı müqavimətini itirdiyində tezliklə xəstələnir və həyatı sona yetir. Əgər insan cəmiyyətinin müdafiəçi qüvvəsi, yəni almləri və ziyalıları zülm və haqsızlığa qarşı mübarizəyə qalxmasa, fitnə-fəsadın qarşısını almasa, bir müddətdən sonra bütün cəmiyyət fitnə-fəsada bulaşacaq, xəstə və ölü bir cəmiyyətə çevriləcək[966].

118. Əgər Rəbbin istəsəydi, bütün insanları vahid bir ümmət edərdi. Amma onlar elə hey ixtilafdadırlar.

119. Yalnız Rəbbinin rəhm etdiyi şəxslər istisnadır. Onları bunun üçün (rəhməti qəbul etmək üçün) yaratdı. Rəbbinin: “Mən Cəhənnəmi bütün (günahkar) cinlər və insanlarla dolduracağam!” fərmanı qətiləşdi.

---

[966] Nümunə, c.9, səh.275

120. Ürəyini rahatlamaq və iradəni möhkəmləndirməkdən ötrü peyğəmbərlərin başına gələn bütün hadisələri sənə danışırıq. Bunda sənin üçün həqiqət, möminlər üçün isə öyüd-nəsihət və xatırlatma var.

121. İman gətirməyənlərə de: “Əlinizdən gələni edin, biz də edəcəyik.

122. Gözləyin! Biz də gözləyirik”.

123. Göylərin və yerin qeybi Allaha aiddir. Bütün işlər də Ona qaytarılacaqdır. Elə isə Ona ibadət et və Ona təvəkkül et. Rəbbin nə etdiklərinizdən əsla xəbərsiz deyildir.

"Yusuf" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Əlif, Lam, Ra. Bunlar açıq-aydın Kitabın (Quranın) ayələridir!

2. Biz onu ərəbcə bir Quran olaraq nazil etdik ki, bəlkə dərk edəsiniz.

3. Biz bu Quran vasitəsilə sənə ən gözəl qissələri danışırıq. Şübhəsiz ki, sən bundan əvvəl ondan xəbərsiz idin.

4. (Xatırla) Bir zaman Yusif atasına dedi: “Atacan! Mən yuxuda on bir ulduz, Günəş və Ayın mənə səcdə etdiyini gördüm.

---

118. İlahi hidayət insan yaranışının məqsədidir: Quranda iki növ ixtilafdan söz açılmışdır. Bu ixtilaflardan biri insanların özlərindən asılı olmadan mövcud olur. Sözügedən ixtilaf fərdlərin fiziki və mənəvi fərqlilyindən qaynaqlanır, ayrı-ayrı mühitlərdə daha qabarıq şəkildə meydana çıxır, müxtəlif sosial və fərdi davranışların, adət-ənənələrin, mədəniyyətlərin meydana gəlməsinə səbəb olur. Sosial münasibətlər kontekstində aparılmış araşdırmalar sübuta yetirir ki, bu növ fərqlilik olmasaydı, insan cəmiyyətinin həyatı bir an olsun belə davam etməzdi.

Fərqlilik ehtiyaclarını ödəmək və çatışmazlıqlarını aradan qaldırmaq üçün insanların bir-birlərinə müraciət etməsinə, bu da öz növbəsində onların bir-birini tamamlamasına səbəb olur. Quranın haqqında danışdığı, eyni zamanda məzəmmət etdiyi ikinci növ ixtilaf insanların nəfsani stəklərindən qaynaqlanan dini ixtilafdır. Belə ki, tövhid və təkAllahlıq inancı insanın fitri inancıdır. İnsanın yanlış yolda irəliləməsi nəfsani istəyinə tabe olması və ağlına qarşı çıxması nətcəsində baş verir. Nəzər nöqtəsi olan ayədə birinci deyil, ikinci növ ixtilafa işarə edilmişdir. Çünki birinci növ ixtilaf və fərqlilik qurucu, ikinci növ ixtilaf isə təfriqə, parçalanma, haqq yoldan sapma, əbədi bədbəxtlik və çarəsizlik səbəbidir. Allah-taala sonrakı ayədə yalnız bir qrupun, Allahın mərhəmət göstərdiyi şəxslərin bu ixtilafdan istisna edildiyini buyurmuşdur. Əllamə Təbatəbai yazır ki, insan yaranışının məqsədi olan bu xüsusi mərhəmət haqq yola yönəlməkdir. Yalnız ağıllarına və peyğəmbərlərin göstərişlərinə tabe olmaqla ilahi hidayətə nail olmuş şəxslər dini ixtilafdan uzaqdırlar. İlahi hidayət onları əbədi xoşbəxtliyə qovuşduracaq. Nəfslərinə tabe olduqları, zülm və haqsızlığa yol verdkləri üçün bu hidayətdən uzaq düşmüş insanların aqibəti yalnız od olacaq. Cəhənnəm onlarla dolacaq. İmam Baqir (ə) buyurmuşdur: ***"İlahi rəhmət və hidayət nəsib olmuş şəxslər Muhəmmədin (s) nəsli və onların ardıcıllarıdır."***[967] Təbii ki, bu hədisdə ayənin ən parlaq nümunəsinə işarə edilmişdir. Çünki bu ayənin məzmunu bütün peyğəmbərləri və onların davamçılarını əhatə edir.

"Yusuf" surəsinin ümumi məzmunu: Bu surədə imanını Allah üçün xalis etmiş, ruhunu Allah məhəbbəti ilə doldurmuş, bütün dqqətini yalnız Allaha yönəldən bəndəni Allahın öz himayəsinə götürüb ən yaxşı şəkildə

---

[967] Əl-Mizan, c.11, səh.62

böyüdüb boya-başa çatdırmasından, tərbiyə etməsindən, özünə yaxınlaşdırıb məhəbbət camı ilə sirab etməsindən, özü üçün pak və təmiz etməsindən, məhvinə hədəflənmiş bütün zahiri səbəbləri ilahi həyatı qarşısında puç etməsindən, həyatın xaredici hadisələrindən xilas edib izzət və şərəf verməsindən bəhs edilir. Allah-taala bu deyilənləri peyğəmbərlərindən olan Yusifin (ə) həyat hekayəsi fonunda bəyan edir. Elə buna görə də onu hekayələrin ən yaxşısı kimi təqdim edir[968].

4. Yuxuda müjdə: Allah Yusifin (ə) hekayəsini Yusfin şahlığı, ata, anası və on bir qardaşının onun qarşısında təzim etməsinə işarə edən maraqlı bir yuxunun təsviri ilə başlamışdır. Əslində, bu yuxu həzrət Yusifə bir müjdə idi. Allah-taala bu vasitə ilə ona xüsusi diqqətinin olduğunu və onu öz himayəsinə götürəcəyini başa salmışdır. Buna görə gələcəkdə qarşılaşacağı acı və çətinliklər Yusifə (ə) asan gəlmişdir. Çünki onu çox şirin bir sonluğun gözlədiyini blirdi[969].

[968] Əl-Mizan, c.11, səh.75
[969] Əl-Mizan, c.11, səh.80

5. O dedi: “Oğlum! Yuxunu qardaşlarına danışma, yoxsa sənə hiylə qurarlar. Çünki şeytan insanın aşkar düşmənidir

6. Beləcə, Rəbbin səni seçəcək, sənə yuxuları yozmağı öyrədəcək və Öz nemətini bundan əvvəl ataların İbrahimə və İshaqa tamamladığı kimi, sənə və Yaqub nəslinə də tamamlayacaqdır. Şübhəsiz ki, Rəbbin biləndir, hikmət sahibidir”.

7. Yusif və qardaşlarının (hekayəsində) soruşanlar üçün əlamətlər (hidayət əlamətləri) vardır.

8. Bir zaman (qardaşları) dedilər: “Biz güclü bir dəstə olmağımıza baxmayaraq, Yusif və qardaşı (Benyamin) atamıza bizdən daha sevimlidir. Dəqiq, atamız aşkar bir yanlışlıq içindədir.

9. Yusifi ya öldürün, ya da uzaq bir yerə atın ki, atanızın dqqəti yalnız sizə yönəlsin. Bundan sonra (günahınıza tövbə edib) əməlisalehlərdən olarsınız”.

10. Onlardan biri dedi: “Yusifi öldürməyin! Əgər nə isə etmək istəyirsinizsə, onda onu bir quyuya atın ki, karvanlardan biri onu götürsün!”

11. (Bu planlarını həyata keçirmək qardaşlar atalarının yanına gəlib) dedilər: “Atacan! Nə üçün Yusifi bizə etibar etmirsən? Halbuki biz onun xeyrini istəyirik.

12. Sabah onu bizimlə göndər, yemək yeyib əylənsin. Biz onu qoruyarıq!”

13. O dedi: “Onu aparmağınız məni kədərləndirər. Qorxuram ki, onu qurd yeyə, siz də xəbər tutmayasınız!””.

14. Onlar dedilər: “Biz güclü bir dəstə olduğumuz halda, canavar onu yesə, biz ziyana uğrayanlardan olarıq”.

---

5. Sirlərin qorunmasının əhəmiyyəti: İnsan həyatında elə sirlər olur ki, üstü açılarsa, sirr sahibinin və ya cəmiyyətin həyatı təhlükəyə məruz qala bilər. Bu sirlərin qorunmasında təmkinli olmaq iradənin möhkəmliyi və ruh genişliyinin əlamətlərindən biri hesab edilir. İnsanın həyatı boyu qarşılaşdığı bir çox problemlərin kökündə sirləri saxlaya bilməməsi dayanır. İmam Rza (ə) hədislərinin birində belə buyurmuşdur: ***“Mömin üç xüsusiyyətə malik olmasa, mömin olmaz: Onun biri Rəbbinə, biri peyğəmbərinə, biri də imamına aid xüsusiyyətlərdəndir. Sirr saxlamaq Rəbbinə, insanlarla yaxşı davranmaq peyğəmbərə, çətinlik və problemlər qarşısında dözümlü olmaq imama xas olan xüsusiyyətdir.”*** İmam Sadiqə (ə) aid edlən hədislərin brində oxuyuruq: ***“Sənin sirlərin sənin qanın kimidir, gərək təkcə öz damarlarında cərəyan etsin”***[970]

6. İlahi bəxşişlər nə zaman nemət olur: Qurana görə sərvət, həyat yoldaşı, övlad və bu kimi maddi bəxşişlər Allaha bəndəlik və əbədi

---

[970] Nümunə, c.9, səh.318

xoşbəxtliyə nail olmaq yolunda vasitəyə çevrilərsə, nemət olur, yox əgər bu imkanlardan şeytan və günah yolunda istfadə edilərsə, ilahi əzab səbəbi olur.

Ayədə "neməti tamamlamaq" deyilərkən həm bütün maddi və mənəvi nemətlərin Allaha itaət və ona bəndəlik yolunda istifadəsi, həm də xoşbəxtliyə çatmaq üçün onların qüsursuz və tam olması nəzərdə tutulur. Nemətlər deyilərkən isə dünya nemətlərinin bolluğu deyil, Allahın insana onu həqiqi xoşbəxtliyə nail edəcək qədər maddi və mənəvi nemət bəxş etməsi nəzərdə tutulur[971].

8. Yusif və qardaşı Atamıza bizdən daha əzizdir: Yəqubun bu iki uşağı daha çox sevməsinə nə səbəb olmuşdu? Bu sevgi iki səbəbdən ola bilər: 1. Fitri və təbii səbəb. Hər bir insan kiçik uşağını daha çox istəyr, zəif və gücsüz olduğu üçün ona daha çox diqqət ayırır, böyüklərdən daha çox əzizləyir. 2. Yəqub Yusifin üzündən onun əzəmətli olduğunu hiss edir, çox böyük potensiala və parlaq gələcəyə malik olduğunu görürdü[972]. Paxıllığın insanı hansı vəziyyətə salması, hətta onu qardaş canına qıyacaq və ya onun gələcəyini çətinliklər qarşısında qoyacaq həddə çatdırması, qarşısı alınmayacağı təqdirdə bu daxili odun həm insanların özlərinin, həm də bir-birlərinin həyatlarına təhlükə yaradacaq qədər irəliləməsi bu hekayədən öyrəndiyimiz mühüm dərslərdəndir. İslam peyğəmbərinin (s) hədsilərinin birində belə buyurulmuşdur: ***"Allah İmran oğlu Musaya (ə) paxıllığı qadağan edərək buyurdu: "Paxıl adam bəndələrimə verdiyim nemətlərə görə qəzəblənir, bəndələrimə təyin etdiyim qismətlərə mane olur. Hər kəs belə etsə, nə Mən ondanam, nə də o Məndən."*** İmam Sadiq (ə)

[971] Əl-Mizan, c.11, səh.84
[972] Mənşuri-cavid, c.11, səh.347

buyurmuşdur: ***"Dinin üç bəlası var: paxıllıq, özünü bəyənmək, özünü öymək"***[973].

9. Özünü aldatmaq: Çox vaxt insan günah edərkən vicdanının etirazı ilə qarşılaşır və ya dini inancları onun qarşısında sədd çəkir, günaha doğru hərəkət etməsinə mane olur. Günah etmək istəyən insan bu səddi asanlıqla keçmək, günah yolunu açmaq üçün vicdanını və inancını "günahı etdikdən dərhal sonra tövbə edərsən" sözü ilə aldadır. Yəni günah etmək üçün bir şeytan planı cızanda bir şeytan planı da vicdanını aldatmaq üçün cızır. Bu plan çox vaxt da təsirli olur və insanın qarşısında dayanan möhkəm səddi aradan qaldırır. Yusifin qardaşları da eyni vasitəyə əl atdılar və özlərni təhlükəli cinayət törətməyə hazır etdilər[974].

[973] Nümunə, c.9, səh.326
[974] Nümunə, c.9, səh.323

15. Onu özləri ilə aparıb quyuya atmaq qərarına gəldikdə biz ona belə vəhy etdik: “Sən gələcəkdə onlara gözləmədikləri bir halda bu davranışları barəsində xəbər verəcəksən”.

16. (Yusifin qardaşları) axşam ağlaya-ağlaya atalarının yanına gəlib

17. dedilər: “Ey atamız! Biz Yusifi əşyalarımızın yanında qoyub yarışmaq üçün getmişdik. Canavar onu yedi. Hərçənd, biz doğru danışsaq da, sən bizim sözümüzə inanmayacaqsan”.

18. Onun köynəyinə saxta qan ləkəsi sürtüb gətirdilər. (Yaqub) dedi: “Sizə bu işi nəfsiniz gözəl göstərmişdir. Mən gözəl səbr sahibi olacam. Söylədiklərinizin müqabilində Allahdan kömək diləyirəm”.

19. Bir karvan gəldi və suçularını (su dalınca) göndərdilər. O, vedrəsini quyuya salladı və (Qəfildən) “Şad xəbər! Bu (gözəl və sevimli) bir oğlan uşağıdır!”– deyə səsləndi. Bunu qənimət kimi başqalarından gizlətdilər. Allah isə onların nə etdiklərini bilirdi.

20. Onu dəyərsiz bir qiymətə – bir neçə dirhəmə satdılar. Onların ona (onu satmağa) meyilləri yox idi. (Çünki sirlərinin aşkara çıxacağından qorxurdular.)

21. Onu alan misirli (Misir şahının vəziri) öz arvadına: “Ona yaxşı bax. Ola bilsin ki, bizə faydası dəysin, ya da onu oğulluğa götürək”– dedi. Beləliklə, Yusifi həmin məmləkətdə məskunlaşdırdıq və ona yuxu yozmağı öyrətdik. Allah Öz işində qalibdir. Lakin insanların çoxu (bunu) bilmir.

22. Yetkinlik çağına çatdıqda Biz ona hökm (peyğəmbərlik) və elm verdik. Yaxşı iş görənləri belə mükafatlandırırıq.

---

15. Qardaşlarının hiyləsi, Yusifin yüksəlişi: Azyaşlı Yusif (hədislərə görə ən çoxu yeddi yaş var idi) quyuda yorğun və qəmgin halda düşüb qaldığı vaxt Allah-taala vəhy mələyini göndərib buyurur: “Qardaşların səni yox etmək məqsədilə quyuya atsalar da, bununla sənin yüksəlişinin başlandığından xəbərsizdirlər. Allah sənə izzət bəxş edib qüdrət taxtına çıxaracaq. Onlar sənin qarşında bağışlanma və mərhəmət diləyəcəklər. Sən isə onlara etdikləri zülm və haqsızlıqdan xəbər verəcəksən.” Bu surənin 88-90-cı ayələrində bu hadsəyə işarə edilmişdir[975].

18. Saxta qan: Qardaşları atalarının inandırmaq üçün Yusifin köynəyin quzu qanuna bulayıb ona aparırlar. Quranda bu qan Yusifə aid olmadığı üçün yalançı və saxta qan adlandırılmışdır. Qardaşları Yusifi quyuya atdıqdan sonra köynəyini quzu qanına bulaşdırırlar. Onların köynəyi atalarına sağ-salamat aparması qanın saxta olmasından xəbər verirdi. Halbuki əgər Yusifi canavar yemiş olsaydı, köynək tikə-tikə olmalı idi. Elə burda deyblər ki, yalan ayaq tutar, ancaq yeriməz, sonda yalançı rüsvay olar. Varlıq aləminə dəyişməz həqiqət hakimdir. Yalançı öz yalanı ilə həqiqətin üstünü örtsə də, onun xəbərsiz olduğu saysız-hesabsız əlamətlərinin hamısının üstünü örtə bilməz. Qardaşları Yusifin həyatının üstünə pərdə çəkdilər, onun qurda yem olduğunu dedilər, lakin onun yaşadığından xəbər verən salamat qalmış köynəyin üzərinə pərdə çəkə bilmədilər. Belə ki, “Zümər” surəsinin 3-cü ayəsində belə buyurulmuşdur: ***“Allah yalançını və küfr edəni haqq yola yönəltməz.”***[976]

---

[975] Əl-Mizan, c.11, səh.102
[976] Mənşuri-cavid, c.11, səh.355

18. Ən çirkin cinayətlərin gözəl göründüyü məqam: “Sizə bu işi nəfsiniz gözəl göstərmişdir” cümləsində Allah başa salmaq istəyir ki, əgər üsyankar ehtiraslar insanın ruhuna və fikrinə hakim kəsilərsə, qardaş öldürmək və ya sürgün etmək kimi çirkin cinayəti gözündə elə gözəl göstərər ki, həmin cinayəti müqəddəs və zəruri bir iş hesab edər. Bu, insanın psixoloji vəziyyətindən irəli gəlir. Belə ki, nəyəsə qarşı ifrat sevgi xüsusilə əxlaqdan kənar davranışlarla müşayiət edildikdə insanın qiymətləndirmə və münsiflik hissinə mane olur, həqiqətlərin fərqli görünməsinə səbəb olur[977].

21. Misirin əzizi: Yusifi alan adam Misirin əzizi idi. Həmin dövrdə “əziz” Misir şahının vəzirinə və ya baş vəzirinə deyilirdi[978].

21. Yuxu yozumunu bilməyin Misir əzizinin sarayına gəlməklə əlaqəsi: Belə bir sual yarana bilər ki, yuxu yozumunu bilməyin Yusifin Misir əzizinin sarayına gəlməklə nə əlaqəsi var idi? Bir nüansa diqqət yetirməklə bu suala cavab vermək olar. Belə ki, günahlardan qorunması və üsyankar ehtiraslarla mübarizə aparması qarşılığında Allah insana bir sıra mənəvi və elmi nemətlər bəxş edir. Başqa sözlə desək, bu nemətlər qəlb işığının səmərəsidir, Allahın bu cür şəxslərə bəxş etdiyi mükafatdır. Ola bilsin ki, Yusifə (ə) yuxu yozumunu bilmək istedadı Misir əzizinin həyat yoldaşının qeyri-adi gözəlliyi qarşısında öz nəfsinə hakim kəsildiyi üçün verilmişdir[979].

22. Hökm və elm yaxşı işlər görən insanların mükafatıdır: Allah heç bir səbəb olmadan heç kəsə heç nə vermir. Buna görə də Allahın hökm və elm verdy şəxslərlə cahil və səhcə yol verən insanlar bir deyil. Elə bu səbəbdən də Allah-taala bu cümlədə hökm və elmin Yusfin (ə) yaxşı əməlinin mükafatı olduğunu buyurmuşdur. Bu ayəyə əsasən deyə blərik ki,

---

[977] Nümunə, c.9, səh.350
[978] Nümunə, c.9, səh.357
[979] Nümunə, c.9, səh.361

Allah-taala hər kəsə gördüyü yaxşı iş ölçüsündə hökm və elm bəxş edir. Belə ki, “Hədid” surəsinin 28-ci ayəsində belə buyurmuşdur: ***“Ey iman gətirənlər! Allahdan qorxun və Onun peyğəmbərinə iman gətirin ki, sizə Öz mərhəmətindən iki pay versin, sizə (insanlar arasında və həyat yolunuzda) getməyiniz üçün nur bəxş etsin...”***[980]

23. Evində qaldığı qadın ondan kam almaq istədi və qapıları bağlayıb: “(Sənin üçün hazır olana doğru) gəl!”– dedi. O isə: “Allaha sığınıram! Axı o, (Misirin əzizi) mənim çörək verənimdir, məni əzizləmişdir. Şübhəsiz ki, zalımlar nicat tapmazlar!”– dedi.

24. Qadın ona meyl etdi. Əgər Rəbbinin dəlilini görməsəydi, o da ona meyl edərdi. Belə etdik ki, pisliyi və çirkin əməli ondan uzaqlaşdıraq. Çünki o, Bizim ixlaslı qullarımızdandır.

---

[980] Əl-Mizan, c.11, səh.122

25. Hər ikisi qapıya tərəf yüyürdülər və qadın onun köynəyini arxadan cırdı. Bu vaxt qapının yanında qadının əri ilə rastlaşdı. (Qadın) dedi: “Sənin ailənə xəyanət etmək istəyənin cəzası zindana salınmaqdan və ya ağrılı-acılı əzabdan başqa nə ola bilər?!”

26. (Yusif) dedi: “O məndən kam almaq istədi”. Bu vaxt qadının ailəsindən olan bir şahid belə şahidlik etdi: “Əgər onun köynəyi öndən cırılıbsa, qadın doğru deyir, o isə yalançılardandır.

27. Yox əgər köynəyi arxadan cırılıbsa, qadın yalan deyir, o isə doğru danışanlardandır”.

28. (Msirin əzizi) onun köynəyinin arxadan cırıldığını gördükdə dedi: “Bu siz qadınların hiylələrindəndir. Həqiqətən də, sizin məkr və hiyləniz çox böyükdür.

29. Yusuf, sən bu məsələni yaddan çıxart! Sən də ey qadın, günahına görə bağışlanma dilə. Çünki sən səhvə yol verənlərdən olmusan”.

30. Şəhərin bir qrup qadını dedi: “Əzizin arvadı cavan köləsindən kam almaq istəyir. Bu gəncin eşqi onun qəlbinin dərinliklərinə nüfuz edb. Biz onu aşkar bir azğınlıq içində görürük”.

---

23. Ayədə işlənmiş “rəbb” sözünün mənası: Təfsirçilərin çoxu hesab edir ki, ayədəki “rəbb” sözü daha genş məzmunda malik, ixtiyar sahibi, nemət sahibi mənalarını ifadə edir. Burada “rəbb” deyilərkən Misirin əzizi nəzərdə tutulur. Belə ki, eyni surənin 42-ci və 50-ci ayələrində də “rəbb” sözü Allahdan-qeyrisinə aid edilmişdir[981]. Bəzi təfsirçilər “rəbb” deyilərkən burada Allaha işarə edildiyini iddia etmişlər. Çünki başqaları Yusifi Misir

[981] Nümunə, c.9, səh368

əzizinin qulu hesab etsələr də, Yusif özünü hər hansı insanın deyil, o cümlədən Misir əzizinin deyil, yalnız aləmlərin Rəbbinin qulu və bəndəsi hesab edirdi. Onun üçün Rəbbi yalnız Allah idi. Nəticədə, ayənin mənası belə olur: Mən Allaha sığınıram. O Allaha ki, mənim Rəbbimdir, məni əzizləyir, hər nəyim varsa, Ondandır[982].

24. Allahın dəlili: Allahın dəlilin nə olması ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Ancaq onlar arasında daha ağlabatını günahın, çirkin həqiqətinin, dünya və axirət həyatındakı qorxulu nəticələrinin təcəssüm etməsi fikridir. Bu təcəssüm peyğəmbərlik və ismət işığında, Allahın gözəgörünməz qayğısı sayəsində baş verir. Belə bir həqiqəti görməsi üfüqü Yusifin gözündə elə işıqlandırdı ki, qəlbində kiçicik şübhə və tərəddüdə belə yer qalmadı. Başqa sözlə desək, əqli dəlil və sübutlar üfüqü insanın gözündə işıqlandırdığı, iradəsini möhkəmləndirib qətiyyətini artırdığı kimi, peyğəmbərlik, ismət, ilahi lütf və qayığının şərtlərindən olan əməllərin həqiqətini görmək istedadı insana aydınlıq və qətiyyət bəxş edir, nətcədə, günah fikrini kökündən qurudur[983].

26. Yusifin günahsızlığının şahidi: Əhl-beyt imamlarının (ə) hədslərində bu şahidin Misir əzizinin həyat yoldaşının yaxınlarından olan bir nəfərin südəmər körpəsi olduğu qeyd edilmişdir. Körpə Allahın istəyi ilə möcüzəli şəkildə beşikdə dilə gəlmiş, həqiqəti aşkar etmiş və həzrət Yusifin (ə) günahsız olduğunu sübuta yetirmişdir. İmam Səccadın (ə) bir hədisində də bu məsələyə işarə edilmişdir[984].

28. Qadınların məkr və hiyləsi: Bu ayədə qadınların, əlbəttə, Misirin əzizinin zövcəsi kimi, ehtirasına tabe olan və çərçivə qəbul etməyən

---

[982] Əl-Mizan, c.11, səh.128
[983] Mənşuri-cavid, c.11, səh.375
[984] Əl-Mizan, c.11, səh.136

qadınların məkr və hiyləsinə işarə edilmiş, onların hiylə və kələyinin çox böyük olduğu vurğulanmışdır. Tarix səhifələrində bu fikri təsdiq edəcək hadisələrə çox rast gəlmək olar. Bu hadisələr göstərir ki, ehtirasının quluna çevrilmiş qadınların öz məqsədlərinə çatmaq üçün düşündükləri planların misli yoxdur. Yusifin (ə) hekayəsində də Misir əzizinin zövcəsinin Yusifi xəyanətdə ittiham etməsi, özünü məsum göstərməsi, öz çirkin əməlinə haqq qazandırmaq məqsədilə Misir qadınları üçün məclis təşkil etməsi buna bir sübutdur[985].

29. Bütdən bağışlanma istəmək: Misirin əzizi "Bağışlanma dilə" desə də, bunu kimdən istəməsini demir. Sonrkı ayələrdən onların müşrik olduğu aydın olur. Bu da onu göstərir ki, onun məqsədi büt və ya Allahdan qeyri bir məbud olmuşdur[986].

29. Misir əzizinin qeyrətsizliyi: Bu ayədən Misir əzizinin qeyrətsiz olduğu başa düşülür. Ümumiyyətlə, diktator və zalım rəhbərlər üçün qeyrət məsələsi və namusunu qorumaq elə də mühüm əhəmiyyət daşıyan məsələlərdən olmamışdır. Onlar özləri o qədər günah və iffətdən kənar işlərə aludə olurlar ki, yanındakıların törətdikləri fəsadlar gözlərində əhəmiyyətini itirir[987].

---

[985] Nümunə, c.9, səh.389
[986] Əl-Mizan, c.11, səh.147
[987] Nümunə, c.9, səh.388

31. (Əzizin arvadı) onların dedi-qodularından xəbər tutduqda onlara xəbər göndərdi və onlar üçün mütəkkələr hazırladı (əzəmətli bir məclis qurdu), hər birinn əlinə (meyvə kəsmək üçün) bir bıçaq verdi və (bu vaxt Yusifə): “Onların qarşısına çıx!”– dedi. Onu gördükdə o qədər tərifl ədilər ki, (diqqətsizlikdən) öz əllərini kəsdilər və dedilər: “Allah qüsursuzdur! Bu, bəşər deyil. Bu, ancaq hörmətə layiq bir mələkdir!”

32. (Əzizin arvadı) dedi: “Barəsində məni məzəmmət etdiyiniz (adam) bax budur! Mən ondan kam almaq istədim, o isə imtina etdi. Əgər əmrimi yerinə yetirməsə, zindana atılacaq və şübhəsiz ki, xar olacaq”.

33. (Yusif) dedi: “Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən daha yaxşıdır. Əgər bunların hiyləsini məndən uzaq etməsən, mən onlara meyl edər və cahillərdən olaram”.

34. Rəbbi onun duasını qəbul etdi və onların hiyləsini ondan uzaq etdi. Çünki O, eşidəndir, biləndir.

35. (Yusifin günahsız olduğunu təsdiq edən) dəlilləri gördükdən sonra, yenə də bir müddətliyinə onu zindana salmaq qərarına gəldilər.

36. Onunla birlikdə iki gənc də zindana düşdü. Onlardan biri dedi: “Mən yuxuda şərab (üçün üzüm) sıxdığımı gördüm”. Digəri isə belə dedi: “Mən yuxuda başımda çörək apardığımı, quşların da ondan yediyini gördüm. Bu yuxunun yozumunu bizə bildir. Çünki biz sənin yaxşı adam olduğunu düşünürük.”

37. (Yusif) dedi: “Yemək payınız gəlməmişdən əvvəl yuxunuzun yozumunu sizə bildirərəm. Bu, Rəbbimin mənə öyrətdiyi elmlərindəndir. Mən Allaha iman gətirməyən və axirəti də inkar edən qövmün dinini tərk etdim.

---

33. Zindan mənm üçün daha yaxşıdır: Bəzi hədislərdə var ki, Misir qadınları Yusifin camalını gördükdən sonra Yusifə ismarış göndərib ondan kam almaq arzusunda olduqlarını bildirdilər[988]. Bəzi hədislərdə bir qrup qadının əzizin arvadının müdafiəsinə qalxdığı, Yusifi dövrəyə alaraq yağlı sözlərlə onu əzizin arvadının istəyini yerinə yetirməyə təşviq etdikləri qeyd edilmişdir. Hər-halda, Yusif bu qəribə tələdən Allaha sığındı, zindanın çətinliyini Allahın qəzəbinə səbəb olacaq keçici ləzzətdən üstün tutdu və Allahdan onu bu qadınların hiyləsindən xilas etməsini istədi. İslam peyğəmbərinin (s) hədislərinin birində belə buyurulmuşdur: “Allah kölgəsindən başqa bir kölgə olmadığı gün Allah yeddi qrup insanı öz ərşinin kölgəsinin altına alacaq. Onlardan biri gözəl bir qadının kam almaq dəvətini rədd edib “mən Allahdan qorxuram” deyən şəxsdir.”[989] Bu ayələrin öyrətdiyi mühüm dərslərdən biri də nəfslə mübarizə, ona qarşı cihad dərsidir. Bu cihadı Peyğəmbər (s) “Böyük cihad” adlandırmışdır. Çünki daxili düşmənlə

[988] Əl-Mizan, c.11, səh.156
[989] Nümunə, c.9, səh.402

mübarizə xarici düşmənlə mübarizədən daha çətindir. Hədislərin birində belə qeyd edilmişdir: Peyğəmbər (s) bir dəstə müsəlmanı cihada göndərir. Onlar yorğun və yaralı vəziyyətdə geri qayıtdıqlarında Peyğəmbər (s) buyurur: ***"Kiçik cihadı yernə yetirənlərə afərin. Ancaq onların böyük cihadları qalıb."*** Müsəlmanlar soruşurlar: Ey Allahın rəsulu (s), böyük cihad hansıdır? Peyğəmbər (s) buyurur: ***"Əsil mücahd nəfsi ilə mübarizə aparan şəxsdir."***[990] Hədislərdə: "İnsanın ən böyük düşməni qəzəb və ehtirasdır. Bu iki hssi cilovlayan şəxs yüksək dərəcələrə nail olar, kamilliyin son həddinə yetişər."[991] məzmunu da yer almaqdadır.

36. Doğru yuxular: Yusif surəsində bir neçə heyrətamz yuxu və həmin yuxulardan sonra gerçəkləşən hadisələrdən söz açılmışdır: Yusifin uşaq vaxtı görüb atasına danışdığı yuxu; İki məhbusun görüb Yusifə danışdığı yuxu; Şahın gördüyü və Yusifin yozduğu yuxu: Quranda bu qəbildən olan başqa da yuxulara da işarə edilmişdir. Doğru yuxular savadlı və savadsız olmasından asılı olmayaraq hər kəsin dqqətini cəlb etmiş mürəkkəb hadisələrdəndir. Alimlər doğru yuxuların həqiqətini hələ də açа bilməmişlər. Ümumiyyətlə, bu mövzu maddi yöndən izahedilməzdir. Onu yalnız ruhun müstəqillyinə inam əsasında izah etmək olar. Əlbəttə, nəzərə almaq lazımdır ki, bütün yuxular da belə deyil, çox yuxuların səbəbi stress, dağınıq fikirlər, çox yemək, xəstəlik və sairdir. Ancaq doğru yuxuların gerçəkliyini də inkar etmək olmaz[992].

36. Nə üçün məhbuslar yuxularının yozumunu Yusifdən soruşurdular? Məhbuslar Yusifdən (ə) yuxularını yozmasını xahiş etdikdən sonra bu davranışlarının səbəbini belə izah edirlər: "Biz sənin yaxşı adam olduğunu

---

[990] Nümunə, c.9, səh.375
[991] Mənşuri-cavid, c.11, səh.390
[992] Nümunədən iqtibas edilmişdir, c.9, səh.311; c.19, səh.481

düşünürük”. Adətən, insanlar yaxşı adamların təmiz qəlbə malik olduqlarını, dünyada baş verən hadisələrin bir-biri ilə olan əlaqəsini yaxşı başa düşdüklərini, haqq yolda olmağa daha layiq olduqlarını, başqalarından gizli qalan doğru yuxu kimi bəzi hadisələrdən onların xəbərdar olduğunu düşünürlər. Daxilən təmiz olduqları üçün əməlisaleh insanların digərlərindən gizli qalan hadisələrdən xəbərdar olduqlarına inanırlar. Bu səbəbdən də o iki məhbus yuxularının yozumunu Yusifdən (ə) soruşmuşdular[993].

[993] Əl-Mizan, c.11, səh.175

38. Mən atalarım İbrahim, İshaq və Yaqubun dininə tabe oldum. Nəyisə Allaha tay tutmaq bizə yaraşmaz. Bu, Allahın bizə və insanlara olan lütfüdür, lakin insanların çoxu şükür etmir.

39. Ey mənim zindan yoldaşlarım! Pərakəndə tanrılar yaxşıdır, yoxsa Tək olan qalib Allah?

40. Ondan başqa ibadət etdiyiniz bu məbudlar sizin və atalarınızın adlandırdığınız adlardan başqa bir şey deyildir. Allah onlarla bağlı heç bir dəlil nazil etməmişdir. Hökm yalnız Allahındır. Ondan başqasına ibadət etməməyinizi əmr etmişdir. Doğru və sabit din budur, lakin insanların çoxu (bunu) bilmir.

41. Ey mənim zindan yoldaşlarım! Sizdən biriniz öz ağasına şərab süzəcək, digəriniz isə çarmıxa çəkiləcək və quşlar onun başını yeyəcəklər. Haqqında soruşduğunuz məsələ qəti və labüddür".

42. O iki nəfərdən xilas olacağına əmin olduğuna dedi: "Sahibinin (Misir şahının) yanında məni yada sal!" Lakin şeytan ona sahibinin yadına salmağı unutdurdu və o, zindanda bir neçə il də qaldı.

43. Şah dedi: "Mən yuxuda yeddi arıq inəyin yeddi kök inəyi yediyini, həmçinin yeddi yaşıl sünbül və bir o qədər də qurusunu gördüm. (Quruların yaşıllara dolanıb onları mıhv etdiyini gördüm.) Ey zadəganlar! Əgər yuxu yoza bilirsinizsə, yuxum haqqında fikirlərinizi bildirin".

---

38. Peyğəmbərlərin günahsız olması Allahın insanlara lütfüdür: Həzrət Yusifin (ə) müşrik olmamağın və tövhid inancının Allahın ona və atalarına bəxş etdiyi bir nemət olduğunu deməsi aydın məsələdir. Çünki bu, Allahın öz bəndəsinə ardınca əbədi xoşbəxtlik gətirən böyük bir lütfüdür.

Ancaq Allahın peyğəmbərlərə lütf etdiyi bu nemətin insanlar üçün də ilahi bir nemət olması artıq ayrı bir mövzudur. Belə ki, insanlara yaxşılığı, təqvanı və düzlüyü ilham edən ağıl və fitrətlə yanaşı, onları dini hökmlərdən xəbərdar edən vəhy və peyğəmbərliyə də ehtiyacları vardır. Habelə insanların şirk çirkabına bulaşmamış pak qəlblərə və işıqlı ruhlara, tövhid fitrətindən əsla uzaq düşməmiş şəxslərə hər zaman ehtiyacı var. Çünki insanlar özbaşına buraxılsaydı, təbii ki, maddiyyat dalınca düşdükləri və Allahın yaddan çıxardıqları üçün insanlar müşrik olardı və bununla da yaranışın əsas məqsədi olan Allaha bəndəlik və ibadət məzmunu öz mənasını itirərdi. Bu cür insanlar zülmətlərə işıq saçan parlaq çıraqlar kimi maddiyyat zülmətinə qərq olmuş mənəvi həyatdan uzaq düşmüş insanları qəflət yuxusundan oyadır, göydən yerə sallanmış bir ip kimi hidayət olunmaq istəyənləri yuxarı aləmlərə qaldırırlar. Peyğəmbər və məsum imam olan bu insanlar yaranışın məqsədini, yəni Allaha ibadət və bəndəlik məqsədini qorumaq vəzifəsi daşıyırlar. Əgər onlar olmasa, yer öz sakinlərini udar. Məhz bu cəhətdən də doğru danışan Yusif (ə) belə buyurmuşdur: "Mən və pak atalarımın yalnız Allaha ibadət etməsi, bizim istənilən şirkdən pak olmağımız, həm bizim özümüz üçün, həm digər insanlar üçün böyük br lütf və diqqətdir. Ancaq insanların çoxu bu ilahi dqqət və qayğıya diqqət yetirib onun şükürünü etmir."[994]

40. Müşrklərin tanrıları adlandırılmışları olmayan adlardır: Bu ifadənin müşriklərin ibadət etdiyi tanrılar haqqında işlədilməsi onların hörmətlə yad etdikləri, qarşısında təzim etdikləri quru adlardan artıq bir şey

[994] Əl-Mizan, c.11, səh.177

olmaması ilə bağlıdır. Onlar, əslində, bir neçə ada sitayiş edirdilər. Buna dəniz Allahı, qurunun Allahı, yerin Allahı, göy Allahı və sair[995].

40. Qurucu olan bir şüardan sui-istfadə: "Hökm yalnız Allahındır" şüarı Quranın müsbət şüarlarından biridir. Bu şüarda Allahın hökumətindən başqa hər növ hökumət inkar edilir. Təəssüflər olsun ki, tarix boyu bu şüardan sui-istifadələr olmuşdur. O cümlədən çox yöndəmsiz, axmaq, hissiz Nəhrəvan xaiciləri də Siffeyn müharibəsində hakimlik məsələsinə etiraz olaraq bu şüara əl atmış, müharibənin başa çatdırılması və xəlifə təyin edilməsi üçün hakim təyin edilməsinin günah olduğunu elan etmiş, Allahın Quranda buyurduğu ***"Hökm yalnız Allahındır"*** şüarını vermişdilər. Lakin unudurdular ki, Allahın əmrilə rəhbər təyin edilmiş öndərlərin hökmü elə Allahın hökmüdür. Əgər hakmləri İmam Əli (ə) təyin edirsə, onların verdiyi hökm Əlinin (ə) hökmü, Əlinin hökmü isə Peyğəmbərin (s) və Allahın hökmü olur. Ümumiyyətlə, Allahın insan cəmiyyətinə birbaşa rəhbərlik etməsi mümkün bir iş deyil. Bunun üçün Allahın əmri ilə insanların özlərindən bəzi adamlar seçilməli və hökumət onlar tərəfindən idarə edilməlidir. Lakin xaricilər bu aşkar həqiqəti unudaraq Əlinin (ə) hakim təyin etməsini səhv hesab edərək, hətta bununla İmamın İslamdan çıxdığını qət etmişdilər. Bu cür qurucu proqramlar nadanların əlinə düşdüyündə İslam hökumətinin ən ziyanlı destruktiv amilinə çevrilir[996]. Deyilənə görə, xaricilərin bu Quran ayəsindən sui-istifadə etdiyindən xəbər tutduğunda buyurur: ***"Batilə hədəflənmiş doğru sözdür!"***[997]

---

[995] Əl-Mizan, c.11, səh.180
[996] Nümunə, c.9, səh.418
[997] Nəhcül-bəlağə, 198-ci hikmət

44. Onlar dedilər: “Dağınıq və qarmaqarışıq yuxulardır. Biz belə yuxuların yozumunu bilmirik”.

45. İki nəfərdən xilas olanı bir müddətdən sonra xatırlayaraq dedi: “Mən onun yozumunu sizə bildirərəm. Məni (o məhbus gəncin yanına) göndərin!”

46. (O, zindana gəlib belə dedi:) “Yusif! Ey düz danışan kişi! Yeddi arıq inəyin yeddi kök inəyi yediyi, həmçinin yeddi yaşıl sünbül və bir o

qədər də quru barədə olan yuxunu bizə izah et ki, mən camaatın yanına qayıdım, bəlkə onlar da xəbərdar olsunlar”.

47. Dedi: “Yeddi il ciddi-cəhdlə əkərlər. Biçdiklərini isə yeyər, az bir miqdar istisna olmaqla, sünbüldə saxlayarlar.

48. Ondan sonra yeddi il quraqlıq gələcək. Əvvəlcədən həmin illər üçün tədarük etdiklərini yeyər, yalnız az bir miqdar (toxumluq) saxlayarlar.

49. Daha sonra elə bir il gələcək ki, onda insanlara bol yağış veriləcək və insanlar (meyvə və yağlı toxumları sıxıb) şirə çəkəcəklər.”

50. Şah dedi: “Onu yanıma gətirin!” Lakin elçi onun yanına gəldikdə (Yusif) dedi: “Sahibinin yanına qayıt və ondan əllərini doğrayan qadınların əhvalatını soruş. Rəbbim onların hiyləsindən xəbərdardır”.

51. (Şah onları hüzuruna çağırtdırıb) dedi: “Yusifdən kam almaq istədiyiniz vaxt hadisə necə olmuşdu?” Onlar dedilər: “Allah pak və qüsursuzdur! Biz onda pis bir şey görmədik”. (Bu vaxt) əzizin arvadı dedi: “İndi haqq aşkara çıxdı. Ondan kam almaq istəyən mən idim. O isə doğru danışanlardandır.

52. Bunu ona görə dedim ki, yanımda olmadığı vaxt ona xəyanət etmədiyimi və Allahın xainlərin hiylələrinə yol vermədiyini bilsin.

---

44. Qarmaqarışıq yuxular: Misir böyükləri şahın yuxusunu qarmaqarışıq və dağınıq yuxular addlandırdılar. İnsanın yuxuda olarkən bir yuxudan başqa bir yuxuya keçməsi çox təsadüf edilən haldır. Yəni insan fərqli-fərqli yuxular görür. Bu yuxular bir-birinə qarışdığı vaxt artıq bu yuxulardan bir nəticə almaq olmur. Buna görə də sözügedən yuxuya qarmaqarışıq və dağınıq yuxu deyilir. Misir hökmdarının bu qəribə yuxunu bir deyil, bir neçə dəfəyə gördüyünü də ehtimal etmək olar. Belə ki,

Tövratda da onun kök və arıq inəkləri bir dəfə, yaşıl və quru sünbülləri başqa bir dəfə gördüyü yazılmışdır. Buna görə də Misir başbilənləri onun yuxularını qarışıq və dağınıq yuxular hesab edib demişdilər: Biz belə yuxuları deyl, yalnız doğru-düzgün yuxuları yoza bilirik. Lakin doğru, düzdanışan Yusif Allahın ona verdiyi elmlə onu yozdu[998].

46. Düzdanışan Yusif: Yusif (ə) zindanda yoldaşlarının yuxularını düzgün yozduğu, danışıqığında və əməllərində düz olduğu üçün bu şəxs Yusifə (ə) "Sədiq" (çox düzdanışan) deyə müraciət edir. Onu da qeyd etməliyik ki, Allah bu kişinin Yusifə verdiyi gözəl ləqəbi təsdiq etmişdir[999].

50. Özünə hörmət: Yusif (ə) zindanda belə asanlıqla çıxıb şahın əfv utancını qəbul etmək istəməmişdir. Azadlığa çıxdıqdan sonra bir cinayətkar və ya əfv edlmiş br müttəhim kimi yaşamaq istəməmişdir. Həbs olunmasının səbəbinin araşdırılmasını və tamamilə günahsız olduğunun sübuta yetməsini, yalnız bundan sonra azadlığa çıxarılmasını, eyni zamanda Misir hökumət sisteminin çirkaba bulaşdığını sübuta yetirmək istəmişdir[1000]. Peyğəmbər (s) hədislərinin birində belə buyurulmuşdur: ***"Yusifin (ə) səbr və alicənablığı heyrətamizdir. Şahın yuxusunun yozumunu soruşduqlarında "Zindandan çıxmayınca yozmaram" demədi. Digər tərəfdən, onu zindandan azad etməyə gəldiklərində üzərində olan ittihamdan xilas olub bəraət almayınca çıxmadı."***[1001] Bu səbr və alicənablığı əvvəldə ***"Onu mənim yanıma gətirin"*** (50-ci ayə) deyən şahın daha sonra ***"Onu mənim yanıma gətirin, onu özümə ən yaxın adam edəcəyəm"*** deməsinə səbəb olmuşdur[1002].

---

[998] Əl-Mizan, c.11, səh.190
[999] Əl-Mizan, c.11, səh.191
[1000] Nümunə, c.9, səh.230
[1001] Ətyəbül-bəyan, c.7, səh.210
[1002] Əl-Mizan, c.11, səh.203

52. Yusifin özünün günahsız olduğunu sübuta yetirməsi: Bu və sonrakı ayə əzizin arvadı deyil, Yusifin (ə) dilindəndir. Bu metod, yəni söz danışanın adı çəkilmədən onun sözünün qeyd edilməsi Quranın sepesifk xüsusiyyətlərindəndir. “Bu sözü ona görə dedim” deyərkən Yusif iki ayə əvvəl dediyi fikri, yəni günahsız olması ilə bağlı araşdırılma aparılmasını nəzərdə tutmuşdur. Yusif (ə) deyir: “Mən bunu ona görə istədim ki, həqiqət üzə çıxsın və ilk növbədə Misirin əzizi əmin olsun ki, o olmadığı vaxt mənim onun həyat yoldaşına qarşı pis nyyətim olmayıb, ikincisi, hər kəs xainin kim olduğunu və xainlərin üzlərinin qaralacağını bilsin.” Yusif bunları deyərkən onun günasızlığı və düzlüyü hər kəsə məlum olur. Buna görə də Misirin xəzinələrinin rəhbəri olmağa hazır olduğunu elan etdiyində şah dərhal qəbul etdi[1003].

[1003] Əl-Mizan, c.11, səh.203

53. Mən özümə əsla bəraət qazandırmıram. Çünki nəfs pis işləri əmr edər. Yalnız Rəbbimin rəhm etdiyi istisnadır. Rəbbim bağışlayandır, rəhmlidir".

54. Şah dedi: "Onu yanıma gətirin! Onu özümə yaxın (adam) edəcəyəm". Onunla söhbət etdikdə: "Sən bu gün yanımızda yüksək məqam sahibi, etibarlı bir adamsan"– dedi.

55. (Yusif) dedi: "Bu məmləkətin xəzinələrini mənə tapşır. Çünki mən qoruyanam, bilənəm".

56. Beləliklə, Yusifi məmləkətdə (Msirdə) iqtidar sahibi etdik. O, istədiyi yerdə qala bilərdi. Biz istədiyimizə mərhəmətimizi nəsib edirik və yaxşı iş görənlərin mükafatını puç etmirik.

57. İman gətirənlər və təqvalı olanlar üçün, əlbəttə, axirət mükafatı daha xeyirlidir.

58. (Kənanı qıtlıq bürüdü.) Yusifin qardaşları (ərzaq yardımı almaq üçün Misirə) gəldilər. Daxil olduqlarında (Yusif) onları tanıdı, onlar isə onu tanımadılar.

59. (Yusif) onların yüklərini hazırlayarkən dedi: “(Növbəti dəfə gələndə) atabir qardaşınızı yanıma gətirin! Məgər görmürsünüzmü ki, mən ölçüyə tam riayət edirəm və mən ev sahibliyi edənlərin ən yaxşısıyam?

60. Əgər onu yanıma gətirməsəniz, məndən (bir qab belə) ərzaq görməyəcəksiniz, özünüz də mənə yaxınlaşmayın”.

61. Dedilər: “Atası ilə danışarıq (və onu razı salmağa çalışarıq). Biz bunu edəcəyik.”

62. Daha sonra xidmətçilərinə dedi: “Ödədiklərini də yüklərinin içinə qoyun ki, ailələrinin yanına döndükdə bəlkə də onu tanısınlar və ola bilsin ki, qayıtsınlar”.

63. Atalarının yanına qayıtdıqdan sonra dedilər: “Ey ata! (Qardaşımız Benyamin olmadan) daha bizə ərzaq verilməyəcək. Pay (ərzaq) almaq üçün qardaşımızı bizimlə birlikdə göndər. Biz onu qoruyacağıq”.

---

53. Rəbbimin rəhm etdiyindən başqa: Əvvəlki ayələrdən də gördüyümüz kimi, həzrət Yusif (ə) öz günahsızlığını sübuta yetirib Misirin əzizinə xəyanət etmədiyini elan etdi. Ancaq o, Allahın ixlaslı bəndələrindən olduğu, bütün güc və qüdrətin Allahdan olduğuna, Allah qarşısında özünün heç bir gücə sahib olmadığına inandığı üçün özünü üsyankar nəfsi qarşısında qoruya bilməsini Allahın lütf və mərhəməti olduğunu bəyan edir, bununla fərəhlənirdi. Yusif (ə) heyvani ehtiraslar qarşısında təslim ola biləcəyi halda, Allahın lütf və mərhəməti ilə istisna edildiyinə inanırdı. Əgər Allah insana mərhəmət göstərsə, ən çətin imtahanlardan üzüağ şıxar[1004].

[1004] Əl-Mizan, c.11, səh.201

55. İnsanların qıtlıqdan da pis təhlükədən xilas olması: Hədislərdə Yusifin (ə) cəmiyyəti qıtlıqla yanaşı şirk təhlükəsindən də xilas etdyi qeyd edilmişdir. İmam Rza (ə) buyurmuşdur: ***"Yusif (ə) nemətlərin bol olduğu yeddi il ərzində azuqə toplamaqla məşğul oldu. Qıtlıq illəri yetişdiyi vaxt azuqələri satmağa başladı. Birinci il azuqələri pul (dinar və drhəm) qarşılığında satdı. Bu şəkildə Misirin bütün nağd pulları Yusifin (ə) mülkiyyətinə keçdi. İkinci il azuqələri bəzək əşyaları, ləl-cəvahirat qarşılığında satdı. Bu şəkildə Misirin bütün ləl-cəvahiratı Yusifin (ə) mülkiyyətinə keçdi. Bu minvalla üçüncü il heyvanlar, dördüncü il qullar və kənizlər, beşinci il evlər və ərazilər, altıncı gün tarlalar və çaylar qarşılığında satdı. Yeddinci il Misir camaatının heç nəyi qalmadığı üçün özləri qarşılığında satdı. Bu şəkildə bütün Misir əhalisi Yusifin mülkiyyətinə keçdi. Camaat artıq belə deyirdi: "Allahın kimsə belə bir səltənət verdiyini eşitməmişik. Bu cür elmli və tədbirl şah tanımırıq." Bundan sonra Yusif (ə) Misir şahına dedi: "Allahın mənə bəxş etdiyi bu nemətlərlə bağlı fikrn nədir? Bil ki, onları bədbəxtlikdən mən xilas etməmişəm ki, sahibləri və ya canlarının bəlasına da çevrilim". Şah dedi: "Necə deyirsənsə, elə də olsun." Yusif (ə) dedi: "Mən Allahı və səni şahid tutub bütün Misir camaatını azad edir, var-dövlətlərini də özlərinə qaytarıram. Habelə taxtını, tacını, səltənəti və bütün səlahiyyətlərini özünə qaytarıram. Bir şərtlə ki, mənim dediyim kimi davranıb mənim istədiyim kimi hökm edəcəksən." Şah dedi: "Bu təklifə əməl etmək mənim tövbəmdir. Yalnız sənin dininə və ənənənə əməl etmək, hökmünlə hökm etmək mənim üçün qürurdur. Əgər sən olmasaydın, əsla haqq yolda olmazdım. Mənim səltənətimi sən qorudun, onu möhkəmləndirdin. Mən şəhadət verirəm ki, Allahdan başqa tanrı yoxdur və sən onun***

peyğəmbərisən. Sənə veriyimiz bu vəzifədə qal. Sən bizim yanımızda yüksək məqam və etibar sahibisən.”[1005]

58. Qırx ildən sonra Yusifin (ə) qardaşları ilə görüşməsi: Deyilənə görə Yusifin (ə) qardaşları ilə görüşü qırx ildən sonra baş tutmuşdur. Buna göə də qardaşları onu tanımamışdılar. Bundan başqa, o şəkildə quyuya atdıqları və qəpik-quruşa satdıqları Yusifin (ə) vəzirlik taxtına oturacağı ağıllarına gəlməzdi[1006]. Yusif (ə) birinci görüşlərində özünü qardaşlarına tanıtdırmadı. Çünki o, ilk olaraq anabir qardaşını gətizdrmək və özünü yalnız onun olduğu vaxt tanıtdırmaq istəyirdi (90-91-ci ayələr). Bununla da səbirli və təqvalı olduğu üçün özünün, eyni zamanda Yusif kimi, qardaşlarının paxıllığı ucbatından çoxlu çətinliklər görmüş qardaşının Allahın mərhəmət və mükafatına layiq görüldüklərini göstərmək istəyirdi[1007]. Qeyd etməliyik ki, Benyamin Yusifin atabir-anabir qardaşı, o birlər isə atabir qardaşları idi. Hamısının atası Yəqub olsa da, anaları ayrı idi.

[1005] Əl-Mizan, c.11, səh.209
[1006] Ətyəbül-bəyan, c.7, səh.221
[1007] Əl-Mizan, c.11, səh.211

64. Dedi: “Onu sizə qardaşını (Yusif) etibar etdiyim kimi, etibar edim? Allah qoruyanların ən yaxşısı, rəhmlilərin rəhmlisidir!”

65. Mallarını açdıqda pullarının özlərinə qaytarıldığını görüb dedilər: “Ata! Daha nə istəyirik? Bu bizim özümüzə qaytarılmış pullarımızdır. Biz ailəmizə bir daha ərzaq alıb gətirər, qardaşımızı qoruyar və bir dəvə yükü də artıq gətirərik. Bu, az ərzaqdır! (Misirin səxavətli və alicənab əzizi üçün elə də böyük bir şey deyil.)”

66. Dedi: “İmkanlarınız daxilində (ölüm və ya başqa hadisələr baş vermədiyi təqdirdə) onu qaytarıb yanıma gətirəcəyinizə dair Allaha and içiçib söz verməsəniz, onu sizinlə (Misirə) göndərməyəcəyəm!” Onlar and içib söz verdikdə (Yəqub): “Allah dediyimizə şahid və nəzarətçidir!” – dedi.

67. (Yola düşmək istədikləri vaxt Yəqub) dedi: “Oğullarım! bir qapıdan daxil olmayın, ayrı-ayrı qapılardan daxil olun. Bununla belə, mən Allahın qəza-qədərini sizdən heç bir şeylə dəf edə bilmərəm. Hökm yalnız Allahındır. Mən Ona təvəkkül etdim. Təvəkkül edənlər hamısı da Ona təvəkkül etsinlər!”

68. Onlar ataları əmr etdiyi kimi daxil olduqlarında bu hərəkət Allahın qəza-qədərini əsla onlardan dəf edə bilmədi, ancaq Yəqubun ürəyində bir diləyi yerinə yetirmiş oldu. Biz öyrətdiyimiz üçün o, böyük elm sahibi idi. Lakin insanların çoxu bilməz!

69. Onlar Yusifin hüzuruna daxil olduqları zaman qardaşına yanında yer verib dedi: “Mən sənin qardaşınam. Onların etdiklərinə görə kədərlənmə, narahat olma!”

---

64. Yəqubun (ə) Allahın mərhəmətinə arxalanması: Həzrət Yəqub (ə) başlanğıcda oğlanlarının Benyaminin özləri ilə aparmaq istəyinə rədd cavabı verir. Çünki Yusifin başına gələn hadisə zamanı əmanətdar insanlar olmadıqlarını görmüşdü. Onlar Yusifi qoruyacaqları ilə bağlı verdikləri sözün eynisini (12-ci ayə) Benyaminlə də bağlı verirlər (63-cü ayə): “Biz onu qoruyacağıq”. Lakin Yəqub (ə) onların etibar edləcək adamlar olduğunu bildiyi üçün sözlərini qəbul etmir, Allahın onu qoruyacağına bel bağlayır və “Allah ən yaxşı qoruyandır”, - deyə buyurur. Bu sözünü Allahın “rəhmlilərin rəhimlisi” olması ilə izah edir. Bir nəfər Allahdan başqasına etibar edib əmanət verə bilər, lakin həmin şəxs əmanətə və onun sahibinə rəhm etməyə bilər. Ancaq rəhm etmək lazım olduğu yerdə mərhəmətini əsirgəmir, işini Allaha həvalə etmiş aciz insana rəhm edir. Bu cümlə haqqında hədislərin birində belə qeyd edilmişdir: Yəqub (ə) “Allah qoruyanların ən yaxşısıdır və...” dedikdən sonra Allah buyurdu: ***“İzzətimə and olsun, sən mənə etimad və təvəkkül etdiyin üçün o ikisini (Yusifi və qardaşını) sənə qaytardım.”***[1008]

66. Yəqubun insafı: Təfsirçilər ***“İmkanlarınız daxilində (ölüm və ya başqa hadisələr baş vermədiyi təqdirdə)”*** cümləsinin Yəqubun (ə) insaflı və nəzakətli olmasından xəbər verdiyini yazırlar. Oğlu Benyaminə qarşı yüksək sevgisi olmasına baxmayaraq, oğlanlarından imkanları xaricndə olan bir şeyi istəmir və deyir: “İmkanlarınız daxilində (ölüm və ya başqa hadisələr baş

[1008] Əl-Mizan, c.11, səh.216

vermədiyi təqdirdə) övladımı sizdən istəyirəm. İmkanlarınız xaricində hər hansı hadisə baş verərsə, sizdən gnah görmərəm."[1009]

67. Allahı yaddan çıxarmamaqla yanaşı səbəb və vasitələrədn istifadə: Bu ayədən Yəqubun (ə) oğlanlarına görə qorxduğu məlum olur. O qorxurdu ki, camaatın onun oğlanlarına gözü dəyər, onlara paxıllıq edər və qətlə yetirmək fikrinə düşər, ya da onların birliyindən qorxub parçalanmaları üçün hiylə işlədər, başlarına bəla aça bilərlər. Buna görə də onlara bir qapıdan deyil, ayrı-ayrı qapılardan girməyi göstəriş verir. Əlbəttə, Yəqubun bu göstərişinin təklikdə və Allahın istəyi olmadan təsirli olacağı təəsəvvürünün qarşısını almaq üçün dərhal da "Mən Allahın qəza-qədərinin qarşısını ala bilmərəm. Çünki hökm Allaha məxsusdur. Söylədiklərimi mənə Allah özü öyrətmiş və bu özü Allahın istədiyidir" – deyə buyurur. Elə bu səbbədən də ayənin sonunda onun Allaha təvəkkül etdiyi qeyd edilmişdir. Bu ayədən əldə edilən mühüm dərslərdən biri də budur ki, səbəb və vasitələr əbəs və dəyərsiz hesab edilməməli, onlardan da istifadə etmək lazımdır. Eyni zamanda səbəb və vasitələrin müstəqil şəkildə təsir göstərmədiklərini, Allahın istəyi və əmri olmadan heç bir təsirə malik olmadıqlarını yaddan çıxarmamaq lazımdır. Ancaq təvəkkül edəcək yeganə varlıq varsa, o da Allah olmalıdır[1010].

68. Onun yüksək elmi bizim təlimimizə əsaslanır: Bu elm kəsb edilən, tövhid inancındakı ixlasına görə Allahın bəzi bəndələrinə lütf etdiyi elmlərin fövqündədir. Bu elm və məlumatda səhv ola bilməz. Ayənin sonunda buyurulan ***"İnsanların çoxu onu bilmir"*** cümləsi əksəryyiətin bu elmdən məhrum olduğunu göstərir. Allah-taala bu cümlə ilə Yəqubu tərifləyir, onun haqlı olduğunu təsdiq edir, övladlarına verdiyi göstərişi, Allaha təvəkkülünü

[1009] Nümunə, c.10, səh.26
[1010] Əl-Mizan, c.11, səh.220

doğdu bir davranış nümunəsi kimi qəbul edir. Elə bu səbəbdən də onun istəyini yerinə yetirib Yusifi ona qaytarır[1011].

[1011] Əl-Mizan, c.11, səh.223

70. (Yusifin adamı) onların yüklərini bağlayarkən şahın su içdiyi qabı qardaşının yükünün içinə qoydu. Sonra bir nəfər qışqırıb dedi: “Ey karvan əhli! Siz oğrusunuz!”

71. (Qardaşlar) onlara tərəf dönüb: “Nə itirmisiniz?”– dedilər.

72. Onlar dedilər: “Padşahın piyaləsini. Onu gətirənə bir dəvə yükü (ərzaq) veriləcək”. (Carçı): “Mən buna zaminəm!”– (dedi).

73. Onlar dedilər: “Allaha and olsun! Siz bilirsiniz ki, biz (bu) yerlərə fitnə-fəsad törətmək üçün gəlməmişik və biz oğru deyilik».

74. Onlar dedilər: “Əgər yalançı olsanız, cəzası nədir?”

75. (Qardaşlar) dedilər: “Kimin yükünün içində tapılsa, cəzası özü olacaq (bu cinayətinə görə sizin kölənız olacaq). Biz zalımları belə cəzalandırırıq”.

76. Bu vaxt o (Yusif), qardaşının yükündən əvvəl onların yüklərini axtarmağa başladı, sonra da onu qardaşının yükündən çıxartdı. Biz Yusifə belə bir tədbir öyrətdik. Yoxsa o, Allahın istəyi olmadan şahın qanunlarına əsasən qardaşını tutub saxlaya bilməzdi. Biz istədiyimiz şəxsin dərəcələrini artırırıq. Hər bir bilik sahibindən üstün bir bilən var.

77. Onlar dedilər: “Əgər o oğurlayıbsa, (heç də təəccüblü deyil,) daha öncə qardaşı (Yusif) da oğurluq etmişdi”. Yusuf (çox narahat oldu) bunu (narahtlığını) gizlədib onlara büruzə vermədi və (öz-özünə:) “Siz (mənim gözümdə) daha pis mövqedəsiniz. Allah haqqında danışdığınızdan daha çox xəbərdardır.”– dedi.

78. Onlar dedilər: “Ey vəzir! Onun çox qoca atası var. Onun yerinə bizim birimizi götür. Biz səni yaxşı adam hesab edirik”.

---

70. Yusif (ə) günahsız bir adamı oğurluqda necə günahlandırdı? Günahsız bir adamı oğurluqda günahlandırmaq yolverilən idimi? Özü də bu elə bir ittiham idi ki, onun acı nəticəsi digər qardaşlardan da yan keçməyəcəkdi. Əslində, bu plan Benyaminin öz razılığı ilə həyata keçirilmişdi. Çünki Yusif (ə) əvvəlcədən özünü qardaşına tanıtdırmış və qardaşı bu planın onu saxlanılması üçün hazırlandığından xəbərdar idi. Sözügedən davranışda qardaşlara heç bir iftira və böhtan da atılmamışdı. Bu, sadəcə, onlar üçün böyük sınaq qarşısında elə də mühüm əhəmiyyəti olmayan keçici bir narahatlıq yaradacaqdı[1012]. Bu sınaq zamanı Yəqubun (ə) sevimli oğlunun itkisinə dözümü yoxlanılacaq, bu vasitə ilə savabı, mükafatı, kamilliyi daha da təkmilləşmiş olacaqdı. Habelə qardaşlar da bu hadisədə sınanacaq, qardaşları Benyamini tək buraxmayacaqları ilə bağlı atalarına verdikləri sözün üzərində durub-durmamaları yoxlanacaqdı. Digər tərəfdən, ***"Əgər o oğurlayıbsa, (heç də təəccüblü deyil,) daha öncə qardaşı (Yusif) da oğurluq etmişdi"*** deyənlərin kimliyi də üzə çıxacaqdı[1013]. Bundan əlavə, nəzər nöqtəsi olan ayənin özündən də məlum olur ki, "Siz oğrusunuz" sözünü deyən şəxs Yusif deyil, Qurana görə kimliklərinin qeyd edilməsi elə də mühüm əhəmiyyət daşımayan hökumət işçilərindəndir. Nəticədə, bu plan Yusifin (ə) məsumluğuna heç bir xələl gətirmir və əsla günah hesab edilmir[1014].

76. Nə üçün Yusif qardaşları ilə onların öz qanunlarına uyğun davrandı? Əgər Yusif Qardaşı Benyamini Misir qanunlarına uyğun şəkildə cəzalandırsaydı, onu döydürməli və həbs etdirməli idi. Digər tərəfdən isə öz məqsədinə nail olub onu yanında saxlaya bilməcəkdi. Buna görə də

[1012] Nümunə, c.10, səh.39
[1013] Quranın ismarışı, c.7, səh.121
[1014] Əl-Mizan, c.11, səh.225

qardaşlarından onlarda oğurluğun cəzasının nə olduğunu soruşur. Qardaşlar da bildirirlər ki, onların qanunlarına görə oğurluq edən şəxsi kölə edib işlətməklə cəzalandırırlar. Yusif (ə) də bu ənənəyə uyğun şəkildə davranır. Çünki cinayətkarın cəzalandırılması üsullarından biri onun mənsub olduğu cəmyyətin qanunlarına uyğun cəzalandırmaqdır[1015].

77. Qardaşlarının Yusifi (ə) oğurluqda ittiham etməsi: Qardaşları o anda özlərini xilas etmək üçün qardaşları Yusifə (ə) oğurluq iftirası yaxırlar. Təbii ki, bunun bir əsası olmalı idi. İmam Rzadan (ə) nəql edilən bir hədisdə deyilir: İshaq peyğəmbərin ya kəməri, ya da yaylığı miras olaraq bir peyğəmbərdən digər peyğəmbərə ötürülürdü. Yusifin (ə) zamanında bu yaylıq Yusifin bibisində idi.

Uşaq vaxtı Yusif bibisinin yanında qalırdı. Bibisi qardaşı oğlunu çox istəyirdi. Bir gün Yəqub (ə) bacısına xəbər göndərir ki, Yusifi görmək istəyirəm. Göndər görüm, sonra qaytararam. Bibisi Yəqubun elçisindən Yusfin bir gecə də onunla qalmasını xahiş edir. Sabahısı gün İshaqın (ə) həmin kəmərini köynəyin altından Yusfin belinə bağlayır və köynəyini də üstünə salıb atasının yanına göndərir. Bir müddətdən sonra Yəqubun (ə) yanına gəlib deyir: Bir müddət idi ki, kəməri itirmişdim. İndi onun Yusifdə olduğunu görürəm. Həmin dövürdə oğrunun cəzası mal sahibinin köləsinə çevrilmək olduğu üçün bu bəhanə ilə Yusifi (ə) özü ilə aparır. Bundan sonra Yusif bibisinin yanında qalır[1016].

[1015] Nümunə, c.10, səh.37
[1016] Əl-Mizan, c.11, səh.242

79. O dedi: “Allah eləməsin ki, yanında malımızı tapdığımız kəsdən başqasını tutub saxlayaq. Onda biz zalımlardan olarıq”.

80. Ondan ümidlərini kəsdikdə məsləhətləşmək üçün bir kənara çəkildilər. Böyükləri dedi: “Atanızın sizi Allaha and içdirdiyini, bundan əvvəl də Yusifə qarşı haqsızlıq etdiyinizi bilmirsiniz? Atam mənə izn verməyincə və Allah mənim haqqımda hökm verməyincə buradan tərpənməyəcəyəm. O, hökm verənlərin ən yaxşısıdır.

81. Atanızın yanına qayıdın və deyin: “Ey atamız! Oğlun oğurluq etdi. Biz ancaq bildiyimiz şeyə şahidlik etdik. Biz qeybi bilmirdik.

82. (Əgər inanmırsansa,) olduğumuz şəhərdən və birlikdə gəldiyimiz karvandan soruş. Biz, doğru danışırıq”.

83. (Yaqub) dedi: “Nəfsiniz bu işi sizə gözəl göstərib. Mən səbr edirəm, gözəl səbr. Ümidvaram ki, Allah onların hamısını mənə qaytaracaq. Çünki O, biləndir, hikmət sahibidir”.

84. Üzünü olardan döndərdi və: “Heyf Yusifdın!”– dedi. Qəm-qüssədən gözlərinə ağ gəldi. Ancaq qəzəbini boğurdu.

85. Dedilər: “Allaha and olsun ki, Yusifi o qədər xatırlayacaqsan ki, axırda ya əldən düşəcək, ya da öləcəksən”.

86. O dedi: “Mən dərd-qəmimi yalnız Allaha söyləyirəm və Allahdan sizin bilmədiklərinizi bilirəm.”

---

79. Yusifin (ə) danışdığında diqqətli olması: Diqqət çəkən məqam budur ki, Yusif (ə) qardaşlarının oğurluq etdiyini dilinə gətirmir, yalnız “Biz yanında malımızı tapdığımız...” deyir. Bu da onun həyatda yanlışa yol verməmək üçün çox diqqətli olduğunu göstərir.

81. Biz qeybi bilmirdik: Burada Yəqubun (ə) oğlanları “qeyb” deyərkən Benyaminin oğru olduğunu nəzərdə tutmuşdular. Yəni piyalə tapılmazdan əvvəl bundan xəbərsiz olduqlarını demək istəmişdilər. Belə olduğu təqdirdə ayənin mənası belə olur: Atacan, oğlun oğurluq etdi. Biz yalnız oğurluğun cəzasının nə olduğunu dedik. Benyaminin oğurluq etdiyini və buna görə tutulacağını bilmirdik. Yoxsa bldiyimizi deməzdik, nəticədə də, o da tutulmazdı[1017].

[1017] Əl-Mizan, c.11, səh.232

83. Yəquba (ə) görə Benyaminin saxlanma səbəbi: Yusifdə (ə) olduğu kimi, Benyaminin xəbərindən sonra da Yəqubun (ə) oğlanlarına "Nəfsiniz bu işi sizə gözəl göstərib" deyərkən (18-ci ayə) oğlanlarını təkzib etmək və ya onlara böhtan atmaq məqsədi güdmürdü. Çünk Quran özü də onların doğru danışdıqlarını və Benyaminin həqiqətən də saxlandığını təsdiq edir. Əslində, həzrət Yəqub (ə) Allah verdiyi istedadla Benyaminin saxlanması ilə Yusifin (ə) itməsi arasında bir əlaqə olduğunu başa düşürdü və Yusifin (ə) də itməsinə onların nəfsani istəklərnin səbəb olduğunu bilirdi. Buna görə də o, "Mən Allahın Benyaminin qayıdacağına" deyil, "Mən Allah onların hamısını (Yusif, Benyamin və Misirdə qalmış böyük qardaş) mənə qaytaracağına ümidvaram" dedi. Bununla da başa salır ki, onların hamısının itirilməsi nadan və xətakar oğulların nəfslərinə aldanması nəticəsində baş vermişdir[1018].

83. Gözəl səbr: Bir gün İmam Baiqrdən (ə) "gözəl səbr"in nə olduğunu soruşurlar. İmam buyurur: ***"Səbr edənin heç kəsə şikayətlənmədiyi səbrdir. Bir gün İbrahim (ə) nəvəsi Yəqubu (ə) abid bir rahibin yanına göndərir. Rahib onu gördükdə İbrahim (ə) olduğunu güman edib qarşısına yüyürdü, görüşüb bağrına basdı və onu "Salam olsun Rəhmanın dostu İbrahimə" deyərək salamlayır. Yəqub (ə) buyurur: "Mən İbrahm deyiləm, İbrahim oğlu İshaqın oğlu Yəqubam". Rahib deyir: "Bəs nə üçün belə yaşlı və sınıxmış görünürsən?" Buyurur: "Qəm, qüssə, xəstəlik". Yəqub hələ rahibin mənzilinə çatmamış Allah ona vəhy edərək buyurur: "Ey Yəqub, Məndən bəndələrimə şikayət edirsən?!" Elə bu vaxt Yəqub səcdəyə düşərək deyir: "Allahım, bir daha bunu təkrar etmərəm." Allah vəhy göndərərək buyurur: "Bu dəfə səni bağışladım.***

[1018] Əl-Mizan, c.11, səh.233

Ancaq br daha təkrarlama". Ondan sonra dünyanın hansı çətinliyi ilə qarşılaşırsa, heç kəsə şikayət etmir. Yalnız bir dəfə belə deyir: "Mən dərd-qəmimi yalnız Allaha söyləyirəm və Allahdan sizin bilmədiklərinizi bilirəm."[1019]

87. Ey oğullarım! Gedin, Yusif və qardaşını axtarın, Allahın mərhəmətindən ümidinizi kəsməyin. Çünki Allahın mərhəmətindən təkcə kafir adamlar ümidlərini kəsər".

88. Onlar (Yusifin) yanına girdikdə dedilər: "Ey vəzir! Biz və ailəmiz fəlakətə uğramışıq. (Ərzaq almaq üçün) özümüzlə bir qədər mal gətirmişik. Bizim ölçünü tam et və bizə sədəqə ver. Şübhəsiz ki, Allah sədəqə verənləri mükafatlandırar".

89. Dedi: "Nadan olduğunuz vaxt Yusifə və qardaşına nə etdiyinizi bilirsinizmi?"

90. Dedilər: "Sən həmin Yusifsən?" O dedi: "Mən Yusifəm, bu da qardaşımdır. Allah bizə minnət qoydu. Kim təqvalı, səbrli və dözümlü olsa, (aıxrda qalib gələcək). Çünki Allah yaxşı iş görənlərin mükafatını puç etməz".

91. Dedilər: "Allaha and olsun ki, Allah səni bizdən üstün tutmuşdur. Biz isə xətaya yol verənlərdən olmuşuq".

92. (Yusif) dedi: "Bu gün siz qınanılmayacaqsınız. Allah sizi bağışlasın! O, rəhm edənlərin ən rəhmlisidir.

93. Bu köynəyimi aparıb atamın üzünə atın, gözləri açılsın. (Sonra da) bütün yaxınlarınızı mənim yanıma gətirin".

[1019] Əl-Mizan, c.11, səh.243

94. Karvan (Misir torpağından) ayrılanda ataları dedi: “Əgər məni ağılsız hesab etməsəydiniz, (deyərdim ki,) mən Yusifin qoxusunu hiss edirəm.

95. Onlar dedilər: “Allaha and olsun ki, sən hələ də əvvəlki yanlışlığında qalmaqdasan”.

---

87. Yəqub (ə) Yusifin (ə) həyatda olduğunu haradan bilirdi? Bir Hənnan ibn Südeyr adlı bir nəfər İmam Baqirdən (ə) soruşur: Yəqub (ə) Yusifin (ə) sağ olduğunu bilirdimi? Halbuki iyirmi il idi ki, Yusifdən (ə) ayrı düşmüşdü. İmam Baqir (ə) buyurur: Bəli, bilirdi. O, sübh vaxtı Allahdan ölüm mələyinin yanına enməsini istəyir. Əzrayıl yerə endikdən sonra deyir: Ey Yəqub, nə istəyirsən? Yəqub soruşur: Mənə de görüm, ruhları bir-bir alırsan, yoxsa birlikdə? Əzrayıl “Tək-tək”, - deyə cavab verir. Yəqub soruşur: Yusfin də ruhunu almısanmı? Ölüm mələyi: “xeyir”, - deyə cavab verir. Yəqub Yusifin sağ olduğunu başa düşür. Buna görə də Yəqub oğlanlarına deyir: Oğlanlarım, gedin Yusifi və qardaşlarını axtarın!”[1020]

87. Allahın mərhəmətindən təkcə kafir adamlar ümidlərini kəsər: Şirk və küfrdən sonra ən böyük günah Allahın rəhmətindən naümid olmaq və ya Allahın əzabına düçar olmamağı hesab etməkdir. Quran ayələri və hədislərdə mömin insanın əzabdan qorxu və Allahın mərhəmtinə ümid hisslərini eyni səviyyədə saxlamaq göstərişi verilmişdir. İnsan ona əzab verilməyəcəyini düşünərsə, istənilən çirkaba aludə olar. Əgər Allahın rəhmətindən ümidini kəssə, özünü düzəltmək üçün çalışmaz[1021]. Allahın rəhmətndən ümidini kəsən şəxs, Yəqubun dilindən də söylənmiş ayəyə

[1020] Əl-Mizan, c.11, səh.243
[1021] Ətyəbül-bəyan, c.7, səh.260

əsasən, kafir hesab edilir. Çünki belə bir şəxs Allahın sonsuz qüdrətini məhdudlaşdırır və Onun bir daha bağışlaya bilməyəcəyini, sonsuz lütf və mərhəmətini bir daha ona aid etməyəcəyini düşünür[1022]. Hədislərdə Allahın rəhmətindən naümid olmaq ciddi şəkildə məzəmmət edilmişdir. İmam Sadiq (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Günahların ən böyüyü Allaha şərik qoşmaq... Ondan sonra isə Allahın rəhmətindən naümid olmaq... Sonra özünün Allahın əzabına düçar olunmayacağını düşünmək."***[1023]

92. Qüdrət sahibi olarkən bağışlamaq peyğəmbərlərin əxlaqıdır: Əvvəlki ayədə bizə mühüm bir dərs verilmiş, İslamın gözəl bir davranışı və dini qanunu aydın şəkildə təqdim edilmişdir. İslama görə, düşmən üzərində qələbə çaldıqda intiqam fikrinə düşmək, kin saxlamaq olmaz, güc və qüdrət sahibi olduqdan sonra əfv etmək lazımdır. Belə ki, İslam peyğəmbəri (s) bənzər hadisə zamanı, yəni Məkkənin fəthindən, qaniçmiş düşmənlər, müşrik və bütpərəst başçılar üzərində qələbə çaldıqdan sonra onlara belə demişdi: ***"Ey Qüreyş camaatı, sizinlə bağlı nə əmr edəcəyimi düşünürsünüz?... Mən sizin haqqınızda qardaşları üzərində qələbə çaldıqdan sonra qardaşım Yusifin söylədiyini söyləyəcəyəm: "Bu gün siz qınanılmayacaqsınız."***[1024]

93. Allahın istədiyi olur: "Yusif" surəsindəki dərslərdən biri Allahın istəyinin yaradılmışların istəyinə qalib gəlməsidir. Xar etmək üçün qardaşları Yusifi quyuya atdılar. Ancaq hadisə hadisə onun Misirin əzizinin evinə düşməsinə və Misirin əzizi olması ilə nəticələndi. Xar etmək üçün Misirin əzizinin arvadı onu zindana saldırdı, ancaq eyni hadisə onun şahın yanında yüksək vəzifə və məqama yüksəlməsi ilə nəticələndi. Qardaşları

[1022] Əl-Mizan, c.11, səh.237
[1023] Üsuli-kafi, c.2, səh.303
[1024] Nümunə, c.10, səh.95

onun qanlı köynəyini atalarına apardılar və qəm-qüssədən Yəqubun gözü kor oldu. Ancaq Allah Yəqubun gözlərinin Yusfin köynəyi vasitəsilə açılmasını istədi. Ümumiyyətlə, bütün zahiri səbəblər əl-ələ verib Yusifi xar etmək istədi, ancaq Allah onun günbəgün daha da ucalmasını və güclənməsini istədi, belə də oldu: "Allah istədiyini edəndir"[1025].

[1025] Əl-Mizan, c.11, səh.245

96. Müjdəçi gəlib çatdıqdan sonra köynəyi onun üzünə atdı, dərhal gözləri açıldı və dedi: “Məgər sizə deməmişdimmi ki, mən Allahdan (gələn vəhy sayəsində) sizin bilmədiklərinizi bilirəm?”

97. Dedilər: “Ata! Allahdan bizim günahlarımızın bağışlanmasını dilə. Çünki biz, xətaya yol verənlərdən olmuşuq”.

98. O dedi: “Tezliklə Rəbbimdən sizin üçün bağışlanma diləyəcəyəm. Çünki O, bağışlayandır, rəhimlidir”.

99. Onlar Yusifin yanına gəldikdə o, ata-anasını qucaqlayıb dedi: “Hamınız Misirə daxil olun! Allahın istəyi ilə əmin-amanlıqda olacaqsınız.”

100. Ata-anasını taxtın üstündə əyləşdirdi. Onlar ona (Yusifə) görə səcdə etdilər. O dedi: “Atacan! Bu, daha öncə gördüyüm yuxumun yozumudur. Rəbbim onu gerçəkləşdirdi. O yaxşlıq edib məni zindandan çıxartdı, şeytan mənimlə qardaşlarım arasına fitnə saldıqdan sonra sizi səhradan gətirdi. Rəbbim istədiyinə qarşı lütfkardır. Çünki O, biləndir, hikmət sahibidir.

101. Ey Rəbbim! Sən mənə böyük bir hakimiyyət verdin və mənə yuxuları yozmağı öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim himayədarımsan. Canımı müsəlman kimi al və məni əməlisalehlərə qovuşdur”.

102. Bu sənə vəhy etdiyimiz qeyb xəbərlərindəndir. Onlar qərara gəlib plan qurduqları vaxt sən onların yanında deyildin.

103. Sən nə qədər israrlı olsan da, insanların çoxu iman gətirməyəcək.

---

97. Təvəssül Quran mətninə əsaslanan bir həqiqətdir: Bu ayəyə əsasən deyə bilərik ki, başqasının vasitəçiliyi ilə bağışlanma diləmək tövhidə zidd deyil, əksinə, Allahın lütf və mərhəmətinə nail olmaq üçün bir vasitədir.

Yoxsa Yəqub peyğəmbər övladlarının ondan Allaha dua edib onların bağışlanılmalarını istəməsini necə qəbul edə və vastəçilik istəklərini müsbət qarşılaya bilərdi? Bu onu göstərir ki, Allahın vəlilərinə təvəssül etmək icazəli bir əməldir. Bunu yasaq və tövhid prinsipinə zidd bir davranış hesab edənlərin ya Qurandan xəbərləri yoxdur, ya ondan düzgün nəticə ala bilmirlər, ya da yanlış təəssübkeşlikləri onların Quran maarifinin həqiqətlərinə nail olmasına mane olur[1026].

98. Nə üçün Yəqub (ə) oğlanları üçün Allahdan bağışlanma istəyini sonraya saxladılar? Yəqubun (ə) oğlanları üçün bağışlanma istəyini təxirə salmasının səbəbi bəlkə də bu ola bilər ki, o, öncə Yusifi (ə) görməklə Allahın ona bəxş etdiyi nemətin tamamlandığını, qəlbən tam məmnun olmaq, Yusifin ayrılıq acısını qəlbindən tamamilə təmizləmək, artıq bundan sonra şəfqətlə dua etmək istəyirdi. Bəzi hədislərə əsasən deyə bilərik ki, bəlkə də o, bu diləyi duanın qəbul ediləcəyi ehtimal edilən bir günə saxlamışdı. Belə ki, İmam Sadiq (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Yəqub bağışlanma diləyini Cümə günü sübh vaxtına qədər təxirə saldı"***. Başqa bir hədisində İmam Sadiqin (ə) Peyğəmbərdən belə nəql etdiyini oxuyuruq: "Allahı çağıracağınız ən yaxşı vaxt sübh vaxtlarıdır. Yəqub (ə) duanı səhər açılana qədər təxrə saldı."[1027] Bu iki hədisə əsasən deyə bilər ki, bəlkə də ümumi şəkildə səhərlər, xüsusi şəkildə isə Cümə günü sübh vaxtı Allaha dua və minacaq etmək üçün ən yaxşı vaxtdır.

100. Yusifin ailəsi Yusifə deyil, Yusifə görə səcdə etdi: Səcdə şübhəsiz ki, Allaha məxsus olan bir ibadətdir. Bütün peyğəmbərlərin dəvət hədəfi olan tövhidin mənası da elə məhz budur. Buna görə də nə Yusif (ə) ona səcdə edilməsinə icazə verərdi, nə Yəqub (ə) kimi böyük bir peyğəmbər

---

[1026] Nümunə, c.10, səh.75
[1027] Əl-Mizan, c.11, səh.247

bunu edərdi, nə də Quran onu layiqli və məqbul bir əməl kimi təqdim edərdi. Deməli, bu səcdə Allaha edilmiş bir şükür səcdəsi olmuşdur. O Allaha ki, bütün bu nemətləri, məqamı, dərəcəni, əzəmət və böyüklüyü Yusifə bəxş etmiş, Yəqub ailəsinin çətinliklərini həll etmişdi. Belə olan surətdə Yəqubun, zövcəsinin və övladlarının Allah etdiyi səcdə Yusifə görə olduğu üçün ona hörmət və ehtiram əlaməti də sayılırdı. Məsum imamların (ə) çoxlu sayda hədislərində onların səcdəsinin Allaha ibadət və itaət, Yusifə hörmət, Allaha şükür səciyyəsi daşıdığını oxuyuruq. Mələklərin Adəmə səcdəsi məsələsində də səcdə belə bir heyrətamiz varlıq yaradan böyük Allaha ibadət məzmunu daşımaqla yanaşı, Adəm məqamına hörmət səciyyəsinə də malik idi. Bunu belə izah edə bilərik ki, bir nəfər çox mühüm və böyük bir iş görür. Biz də belə bir bəndə yaratdığı üçün səcdə edirik. Bu səcdə Allaha ibadət, sözügedən bəndəyə hörmət sayılır[1028].

100. Yusifin yuxusunun yozumu: Bu ayədə yuxu deyilərkən Yusifin uşaq vaxtı görüb atasına danışdığı yuxu nəzərdə tutulur. O, yuxuda günəşin, ayın, və on bir ulduzun ona səcdə etdiyini görmüşdü. Atası, anası və qardaşları Misirə gəldikdən sonra ona görə səcdəyə düşdükləri vaxt Yusif həmn yuxunun yozumunu açıqladı[1029].

[1028] Nümunə, c.10, səh.83
[1029] Əl-Mizan, c.11, səh.249

104. Sən onlardan bir mükafat istəmirsən. Bu, aləmlər üçün yalnız bir xatırlatmadır.

105. Göylərdə və yerdə nə qədər əlamət vardır ki, onların yanından üz çevirib keçirlər.

106. Allaha iman gətirdiklərini iddia edənlərin çoxu müşrikdir.

107. Məgər onlar Allahın (hər tərəfi) bürüyən əzabından yaxa qurtacaqlarına, ya da gözləmədikləri bir vaxt saatın qəfildən gəlməyəcəyinə əmindirlər.

108. De: “Bu, mənim yolumdur. Mən və mənim ardıcıllarım ayıq və tam əminliklə insanları Allaha doğru dəvət edirik. Allah pakdır, müqəddəsdir. Mən də müşriklərdən deyiləm”.

109. Biz səndən əvvəl məmləkətlərin sakinlərindən yalnız vəhy etdiyimiz kişiləri elçi göndərdik. (Sənin çağırışına qarşı çıxanlar) özlərindən

əvvəlkilərin aqibətinin necə olduğunu görmək üçün yer üzünü gəzmədilərmi? Axirət yurdu təqvalılar üçün daha xeyirlidir. Məgər düşünmürsünüz?

110. (Peyğəmbərlər öz dəvətlərinə, düşmənlər də qarşıdurmalarına davam etdikləri halda,) elçilər ümidlərini itirdikdə və (camaat da) onlara yalan deyildiyini güman etdiklərində köməyimiz onlara gəlir və istədiklərimiz nicat tapırdı. Günahkar tayfadan əzabımız əsla geri çevrilməz.

111. Onların başına gələnlərdə düşüncə sahibləri üçün bir ibrət vardır. Bunlar uydurulmuş hekayələr deyil, özündən əvvəlkilərlə uyğunluğu olan, hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir zümrə üçün hidayət və mərhəmətdir.

---

106. İtaətdə şirk: Allah bu surənin 103-105-ci ayələrində Peyğəmbərin (s) haqq isməməyinə, göylərdə və yerdə Allahı xatırladan saysız-hesabsız əlamətlər olmasına baxmayaraq, insanların çoxunun iman gətirmədiyini, daha sonra isə iman gətirən azlığın da çox hissəsinin da şirkə bulaşdığını buyurmuşdur. İmanla şirk bir-birləri ilə əks qütblərdə dayanırlar. Bir nəfər imanın ən yüksək və ya şirkin ən aşağı mərtəbəsində və yaxud da bu ikisinin ortasında ola bilər. Yəni mömin olduğu halda, şirkə bulaşa bilər. İman qəlbin itaətkarcasına Allaha bağlılığıdır. Bu bağlılığın isə güclü və ya zəif dərəcələri var. Bir nəfər Allahın ixlaslı bəndələri kimi, Allahdan qeyrisinə ürək bağlamaz. Belə oan surətdə iman zirvəsində qərarlaşmış olur. Bir nəfər də haqqı-həqqəti unudub tamamilə Allahdan qeyrisinə, keçici maddi həyata bağlana bilər. Bu iki nöqtə arasında dərəcə və mərhələlər var. Nəzər nöqtəsi olan ayədə həmin mərhələlərə işarə edilmişdir. Məsələn, bir nəfər Allahdan qorxduğunu, ona iman gətirdiyini iddia etdiyi, bütün güc-qüvvənin Allaha məxsus olduğunu bildyi halda, hər hansı müsibət və çətinliyin qorxusundan

bütün varlığı ilə tir-tir əsə, "Bütün güc və qüvvə Allaha məxsusdur" ayəsindən xəbərdar olduğu halda, gücü Allahdan qeyrisindən istəyə, Allahın ruzi verən olduğuna inandığı halda, hər bir mərd və namərdin qapısını döyə, Allahın hər şeydən xəbərdar olduğuna imanı olduğu halda, yenə utanmaya və Allahın hüzurunda günah edə bilər. Bu cəhətdən ayədə şirkin bəzi mərhələləri ilə imanın bəzi mərhələlərinin bir araya gələ biləcəyinə işarə edilmişdir. Əxlaq terminologiyasında buna "gizli şirk" deyilir. Ayənin incə məqamlarına işarə edən Əhli-beyt (ə) hədisləri bu cəhətdən daha çox diqqət və düşüncə tələb edir. İmam Baqir (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Bu ayədə ibadət deyil, itaətdə şirk nəzərdə tutulmuşdur. İnsanların etdikləri günahlar itaətkarlıqda şirkdir. Çünki günah edənlər Şeytana itaət edir, Allaha itaətdə Şeytanı da Allaha ortaq edirlər. Bu günahlar ibadət şirki olmadığı üçün Allahdan qeyrisinə ibadət hesab edilmir."*** Hədislərinin birində İmam Sadiq (ə) buyurmuşdur: ***"Burada küfür həddinə çatmamış şirk nəzərdə tutulmuşdur."*** Başqa bir hədisində İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Ayədəki şirki belə izah edə bilərik: Məsələn, bir nəfər deyir: "əgər filankəs olmasaydı, mən məhv olmuşdum, əgər filankəs olmasaydı çətinliyə düşəcək, ailəmi itirəcəkdim." Bu şəxs Allaha idarəedici ortaqlar qoşmuşdur, onları ruziverən, bəla və müsibətləri dəf edən hesab edir."*** Hədisin rəvayətçisi imamdan "Bir adamın "Əgər Allah filankəsi yetirməsəydi, mən batmışdım, məhv olmuşdum" deməsi də şirkdir?" deyə soruşduqda İmam buyurur: ***"Bu yaxşıdır və heç bir eyb yoxdur"***[1030].

108. Tövhidin yüksək zirvəsinə dəvət edənlər: Allah-taala əvvəlki ayədə kamil imanın və xalis tövhidin çətinliklə əldə edilən bir gövhər

---

[1030] Əl-Mizan, c.11, səh.278

olduğunu, möminlərin çoxunun həmin mərhələyə çata bilmədiyini buyurduqdan sonra peyğəmbərinə bildirir ki, Allah yolu ayıqlıq və bəsirətlə müşayiət olunan xalis tövhidə çağırışdır. Bu yüksək zirvəyə çatmaq üçün Allah rəsulunun (s) çağırışına müsbət cavab vermək lazımdır. Burada diqqət çəkən cəhət dəvət vəzifəsinin təkcə Peyğəmbər (s) deyil, bütün davamçılara aid olmasıdır. Əlbəttə, bu ağır və məsuliyyətli vəzifəni öz üzərinə yalnız Peyğəmbər (s) kimi şirkdən uzaq olan, elmli, ayıq və Allaha əminliklə inanan adam götürə bilər. Davamçı olduğunu iddia edən hər kəs də Allaha dəvət məsuliyyətinin altına girə bilməz. Belə ki, 106-cı ayədə Allah-taala belə buyurur: "İman gətirdiklərini iddia edənlərin çoxu müşrikdir." Əhli-beyt (ə) hədislərində "davamçı və ardıcıllar" deyilərkən bu ayədə möminlərin əmiri İmam Əli (ə) və imamların nəzərdə tutulduğu qeyd edilmşdir[1031]. Əlbəttə, məsum imamlar (ə) Peyğəmbərin (s) ən parlaq davamçıları olduqları üçün ayənin məzmunu onlara şamil olsa da, təkcə onlarla məhdudlaşmır.

[1031] Əl-Mizan, c.11, səh.279

"Rəd" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Əlif, Lam, Mim, Ra. Bunlar Kitabın ayələridir. Rəbbin tərəfindən sənə nazil edilən haqdır, lakin insanların çoxu inanmır.

2. Göyləri gözlə görülə bilən sütunlarsız yüksəldən, sonra da Ərşə ucalan (dünyanın idarəçiliyini hakmiyyəti altına alan), müəyyən vaxta qədər hərəkət edən günəşi və ayı ram edən Allahdır. O, işləri yoluna qoyur və ayələrini izah edir ki, bəlkə Rəbbinizlə görüşə əminliklə inanasınız.

3. Yeri döşəyən, orada möhkəm dağlar, çaylar yaradan və bütün meyvələrdən cüt-cüt yetişdirən də Odur. Gecəni gündüzün üzərinə örtür. Bunlarda fikirləşənlər üçün əlamətlər var.

4. Yer üzündə bir-birinə yaxın müxtəlif hissələr, üzüm bağları, əkinlər, şaxəli-şaxəsiz xurma ağacları vardır. Onlar eyni su ilə suvarılır. Biz meyvə baxımından birini digərindən üstün edirik. Bunlarda ağıllarını işlədənlər üçün əlamətlər vardır.

5. Əgər təəccüblənirsənsə, əsl təəccüblüsü: “Biz torpaq olduqdan sonra yenidən yaradılacağıq?” sözüdür. Onlar Rəblərini inkar edənlərdir. Onlar boyunlarında qandallar olanlardır. Onlar Cəhənnəmlikdirlər və orada əbədi qalacaqlar.

“Rəd” surəsinin ümumi məzmunu: Bu surənin əsas məqsədi Quranın haqq olduğunu, bu səmavi kitabın möcüzə, Peyğəmbərin (s)

peyğəmbərliyinin nişanəsi olduğunu sübuta yetirməkdir. Müşriklər heç bir əsas olmadan onun Allahın dəlili və Peyğəmbərin (s) möcüzəsi olmadığını, peyğəmbərin uydurması olduğunu iddia edirdilər. Allah-taala əsas məqsədi sübuta yetirmək üçün bu surədə iki cəhətə daha çox üstünlük vermişdir: 1. Özünün dünyadakı nişanələri; 2. Keçmiş xalqların həyatı və haqqı yalan hesab etdikləri üçün qarşılaşdıqları acı tale. Bütün yaradılış aləmi Allahın tək olduğunu göstərən nişanələr, keçmiş xalqların həyatı isə peyğəmbərlərin haqq olduğunu göstərən həqiqətlərdir. Quranda hər iki cəhətə xüsusi önəm verilir. Tövhid Quranın əsası və özülü, peyğəmbərlik isə zərur şərtidir. Quranın yaradılış aləmi və bəşər tarixi olan bu səsləşməsi onun haqq olduğunu göstərən möhkəm dəlildir[1032].

2. Göyün sütunları: Deyilənə görə, Hüseyn ibn Xalid adlı bir nəfər İmam Rzadan (ə) "Allah "Zariyat" surəsinin yeddinci ayəsində ***"Yollara malik olan göyə and olsun"***, - deyərkən nəyi nəzərdə tutmuşdur?", - deyə soruşduqda İmam (ə) buyurmuşdur: ***"Bu göydən yerə doğru uzanmış yollar var"***. Hüseyn ibn Xalid soruşmuşdur: "Allah göylər sütunsuzdur, deyə buyurduğu halda yerlə hansı yol əlaqəsi ola bilər ki?" İmam (ə) buyurmuşdur: "***Allah pak və müqəddəsdir. Məgər Allah sizin görə biləcəyiniz sütunlarsız deyə buyurmayıbmı?"*** Hüseyn ibn Xalid: "Bəli", - deyə cavab vermişdir. İmam belə davam etmişdir: ***"Deməli, sütunlar var, ancaq siz onları görmürsünüz."*** Bu hədis əsasında nəzər nöqtəsi olan ayənin Quranın nazil olduğu vaxt heç kəsə məlum olmayan bir həqiqətdən xəbər verdiyi məlum olur. Belə ki, həmin dövrdə elm dünyasına ptolomey nəzəriyyəsi hakim idi. Adıçəkilən nəzəriyyəyə əsasən göylər soğanın qatları kimi kürələr şəklində bir-birlərinin üzərində yerləşmişdir. Heç biri sütunsuz

---

[1032] Əl-Mizan, c.11, səh.285

və asılı deyil, hamısı bir-birlərinə söykənmiş vəziyyətdədir. Elm inkişaf etdikdən sonra göylərin soğan qabığına bənzər formada olması fikri tamamlə yanlış olduğu ortaya çıxdı. Əsl həqiqət isə budur ki, səma cismləri, planetlər nəyəsə söykənməmiş, hər biri öz orbitində sabit və asılı vəziyyətdədir. Onları öz orbitlərində sabit saxlayan yeganə amil cazibə və dafiə qüvvəsinin balansıdır. Bu qüvvələrdən biri planetlərin kütləsi, digəri isə hərəkəti ilə bağlıdır. Cazibə və dafiə bu balansı görünməz bir sütun kimi səma cismlərini, planetləri öz yerlərində qoruyub saxlayır[1033].

4. Bitkilər haqqında iki mühüm nüans: 2-4-cü ayələrin əsas qayəsi Allahın kainatı tək idarə etdiyini çatdırmaqdır. Yəni Allah-taala kainatın yaradıcısı olmaqla yanaşı, onları idarə edir. Bütpərəstlər isə Allahın kainatın yaradıcısı, bütləri isə onların idarəedicisi hesab edirdilər[1034]. Bu ayə mühüm nüansları ehtiva edir. Burada onların ikisinə ümumiləşdirilmiş və lakonk şəkildə işarə edəcəyik: 1. Yer üzü bir-birinin yanında yerləşmiş, özünəməxsus quruluşa, bitki göyərtmək potensalına malik müxtəlif hissələrdən təşkil olunmuşdur. Sanki hər bir hissə insanların ehtiyaclarını ödəmək üçün özlərinə məxsus olan ayrı-ayrı bitkiləri yetişdirmək üçün vəzifələndirlmişdir. 2. Ağac və bitkilər bəzən bir, bəzən iki budaqlı olur. “Sinvan” ərəb dilində ağacın əsas gövdəsndən ayrılan budağa deyilir. Ümumiyyətlə, “sinvan” gövdədən ayrılan budaqlar mənasını daşıyır. Çox maraqlıdır ki, bu budaqların hər biri bəzən fərqli-fərqli meyvələr yetşdirir. Ola bilsin ki, bu ifadə ağacların peyvənd oluna biləcəyini göstərir. Bəzən bir gövdəyə bir neçə növ calaq edilir. Bu calaqların hər biri inkişaf edib fərql-fərqli meyvələr yetişdirir[1035].

[1033] Nümunə, c.10, səh.110
[1034] Əl-Mizan, c.11, səh.296
[1035] Nümunə, c.10, səh.116

6. Onlar yaxşılıqdan (rəhmətdən) öncə səndən pisliyə (əzaba) tələsməyini istəyirlər. Halbuki onlardan əvvəl ibrətamiz bəlalar nazil olmuşdur. Zülm etmələrinə baxmayaraq, Rəbbin insanlara qarşı mehriban və bağışlayandır. (Eyni halda) Rəbbin şiddətli əzab verəndir.

7. Kafir olanlar deyirlər: “Niyə ona Rəbbindən bir möcüzə endirilməyib?” Sən ancaq qorxudansan. Hər qövmün bir yolgöstərəni vardır.

8. Allah hər bir dişinin daşıdığı döldən, bətnlərin nəyi əskildib, nəyi artıracağından xəbərdardır. Onun yanında hər şeyin müəyyən ölçüsü vardır.

9. Qeybi və aşkarı biləndir, böyükdür, ucadır.

10. Onun üçün gizli danışanlarınız da, onu aşkara çıxaranlarınız da, gecə məxfi, gündüz açıq-aşkar gəzənləriniz də eynidir.

11. Allahın əmri ilə insanın həm önündə, həm də arxasında daim onunla birlikdə olub onu qoruyan mələklər vardır. Özlərində olanı dəyişmədikcə, Allah heç bir xalqın taleyini dəyişməz. Əgər Allah hər hansı bir camaata (etdiyi əməllərə görə) pislik etmək istəsə, heç nə onun qarşısını ala bilməz və Allahdan başqa heç bir himayəçiləri olmaz.

12. Həm qorxmağınız, həm də ümid bəsləməyiniz üçün ildırımı sizə göstərən və ağır buludları var edən Odur.

13. Göy gurultusu Ona həmd və tərif deyir. Mələklər də Onun qorxusundan (təriflər deyirlər). İldırımları göndərib istədiyini vurur. Halbuki onlar Allah barəsində mübahisə edirlər. O, sonsuz qüdrət sahibidir (şiddətli əzab verəndir).

---

6. Rəhmət və mərhəmət əvəzinə Allahın əzabını istəmək: Əslində, onlar Peyğəmbərə (s) istehza etmək niyyətilə belə deyirdilər. Kafirlər Peyğəmbərlərin (s) onları ilahi əzabla təhdid etdiklərini görüb belə istehzalara əl atır, əzabın gəlməsini istəyirdilər. Allah-taala onların bu istəyini nəzər nöqtəsi olan ayədə təəccüb formasında bəyan edir. Əvvəla, onlar keçmiş xalqların hansı ibrətamiz bəla və müsibətlərə düçar

olduqlarından xəbərdar idilər; ikincisi, Allah insanlara qarşı mehriban və bağışlayandır. Onlar əzab deyil, mərhəmət və bağışlanma istəməli idlər[1036].

7. Peyğəmbər şəriətin təsisçisi, imam isə onu qoruyandır: Qorxutmaq, qorxu gəlmək və təhdid etmək yolunu azmışların yola gətirilməsi və doğru yolu tapmaları üçündür. Yolgöstərən, hidayətçi isə insanların doğru yolda yürüməsi üçündür. Əslində, "qorxu gələn" yaradan, var edən, "Yolgöstərən" isə qoruyan və irəli aparandır. Biz bu ikisini peyğəmbər və imam adlandırırıq. Peyğəmbər şəriətin əsasını qoyur, imam isə onu qoruyur. Peyğəmbərdən (s) nəql edilən çoxlu sayda hədis bu izahı təsdiq edir. İbn Abbasa istinad edilən bir hədisdə bu ayə nazil edilərkən Peyğəmbərin (s) əlini sinəsinə qoyaraq ***"Mən qorxudanam"*** deməsi, sonra Əliyə (ə) işarə edərək ***"Sən yolgöstərən və hidayətçisən. Məndən sonra hidayət olunmuşlar sənin vasitənlə hidayət olunacaqlar"***, - deyə buyurması qeyd edilmişdir[1037].

11. Gözəgörünməz mühafizəçilər: Ayədən Allahın bir qrup mələyi gecə-gündüz növbələşərək insanları öndən və arxadan qorumaq üçün təyin etdiyi başa düşülür. Demək olar ki, hamımız çox vaxt möcüzəli bir qüvvənin bizi və ya yaxınlarımızı təhlükələrdən qoruduğunu hiss etmişik. Şübhəsiz ki, bunların təsadüf olmadığını qəbul edirik. İmam Baqir (ə) bu ayəni izah edərkən belə buyurmuşdur: ***"Yəni Allahın qaçılmaz təqdiri yetişənə qədər onu quyuya düşməkdən, uçün divarın altında qalmaqdan və sair hadisələrdən qoruyurlar. Allahın qaçılmaz təqdiri yetişdikdə isə onu Allahın öhdəsinə buraxıb ona həvalə edirlər. Bunlar insanı növbə ilə gecə və gündüz qoruyan dörd mələkdir"***[1038].

[1036] Əl-Mizan, c.11, səh.303
[1037] Nümunə, c.10, səh.130
[1038] Nümunə, c.10, səh.142

11. Fərdi və ictimai xoşbəxtliyində insanın özünün rolu: Quranın bu və bir çox ayəsində insanların yaxşı və pis əməllərinin onların həyatlarına birbaşa təsir göstərdiyi qeyd edilmişdr. İmam Səccad (ə) bu ayə haqqında belə buyurmuşdur: ***"Nemətləri dəyişən günahlar bunlardır: insanlara qarşı zülm və haqsızlıq etmək, yaxşı və bəyənilmiş adətlərin tərk edilməsi, nemətlərə qarşı nankorluq, şükür və təşəkkürün tərk edilməsi. Bu barədə Allah-taala "...Allah xalqı dəyişməz...", - deyə buyurmuşdur."***[1039]

İmam Sadiq (ə) atasına istinadən belə buyurmuşdur: ***"Nemətin bəndəyə verilib, günah edib bəlaya səbəb olmayınca ondan alınmaması Allahın dəyişilməz qanunudur."***[1040] Bu ayədə İslamın əsas prinsiplərindən biri yer almışdır. Hər hansı cəmiyyətin qələbəsi, məğlubiyyəti, xoşbəxtlik və bədbəxtliyi həmin cəmiyyətin özüdür. Xarici amillər sonrakı yerləri tutur[1041].

13. İldırımın tərif deməsi: Bu ifadə işarə edilən göy hadisəsinin sadə bir hadsə olmadığından xəbər verir. İldırım, əslində, Allahın elm və qüdrətindən xəbər verir. Çünki tərif Allahın bütün eyib və nöqsanlardan uzaq olmasını, həmd isə Allaha ibadəti ifadə edir. Bu cəhətdən ildırım Allahın gözəllik və əzəmət atributlarını ifadə edir. Bu ifadə sözlü deyil, sözsüz olsa da, malik olduğu vəziyyətlə bunu ehtiva edir. Məsələn, hər hansı bir ixtira ixtiraçının nə qədər savadlı və məlumatlı olmaısndan xəbər verir, onun tərifləmməsinə, yaxşı xatırlanmasına səbəb olur.

Bəzi təfsirçilər bu dünyanın bütün zərrələrinin özünəməxsus şüura malik olduğuqlarını, şüurlu şəkildə, ağılla, dərk edərək tərif və həmd

---

[1039] Əl-Mizan, c.11, səh.333
[1040] Tematik təfsir, c.5, səh.66
[1041] Nemunə, c.10, səh.145

dediklərini qeyd edirlər. İldırımın da həmd və tərifini bu qəbldən olan tərifl ərdən hesab etmək olar[1042].

14. Həqiqi çağırış yalnız Ona məxsusdur. Allahdan qeyri çağırdıqları onların çağırışına cavab verməz. Onlar ağzlarına su çatsın deyə, ovuclarını suya tərəf açmış şəxsə bənzəyirlər. Ancaq əsla çatmayacaq. Kafirlərin duası azğınlıqda olmaqdan başqa bir şey deyildir.

15. Göylərdə və yerdə olanların hamısı, onların kölgələri də səhər-axşam istər-istəməz Allaha səcdə edir.

16. De: “Göylərin və yerin Rəbbi kimdir?” De: “Allahdır!” De: “Siz Onu qoyub özlərinə nə bir fayda, nə də bir zərər verməyə qadir olmayanlarımı özünüzə hami (və tanrı) seçirsiniz?” De: “Korla görən eynidirmi? Yaxud zülmətlə nur eynidirmi?” Yoxsa onlar Allaha, Onun yaratdığı kimi yarada bilən şəriklər tapdılar və bu yaratma onların gözündə bir-birinə bənzər göründü? De: “Hər şeyi yaradan Allahdır. O Təkdir, (hər şeyə) Qalib gələndir”.

[1042] Quranın ismarışı, c.2, səh.262

17. Göydən su endirir, çay və dərələrin tutduğu qədər sellənib axır. Sel üzə çıxmış bir köpüyü götürüb aparır. Bəzək şeyləri və ya məişət əşyaları düzəltmək üçün (insanların) odda qızdırıb əritdikləri şeylərin üstündə də buna bənzər bir köpük olur. Allah haqqa və batilə belə misallar çəkir. Köpük kənara sıçrayıb yox olur, insanlara fayda verən şeylər yer üzündə qalıcı olur. Allah belə məsəl çəkir.

18. Rəblərinin dəvətini qəbul edənlər üçün gözəl mükafat vardır. Onun dəvətini qəbul etməyənlərə gəlincə, yer üzündə olanların hamısı, üstəlik bir o qədəri də onların olsaydı, hamısını əzabdan xilas olmaq üçün verərdilər. (Lakin onlardan qəbul edilməzdi.) Onları çox pis bir hesab gözləyir. Yerləri Cəhənnəmdir. Nə pis yerdir!

---

14. Haqqa çağırış: Dəvət və dua ərəbcə dua edənin çağırdığı şəxsin diqqətini özünə cəlb etməsinə deyilir. Həqiqi dua və çağırışın iki əsas şərti var: birincisi, çağırılan şəxs çağıranı eşitməli, ikincisi, cavab verməli və çağıranın istəyini yerinə yetirməlidir. Bu iki xüsusiyyət müşriklərin ibadət etdkləri bütlər, ulduzlar və sairəyə deyil, Allaha məxsusdur. Deməli, Allahı çağırmaq həqiqi dua və çağırış hesab edilir. Lakin Allahdan qeyrisini çağırmaq səhv və yanlışdır. Buna görə də Allah-taala gözəl bir misalla belə bir yanlış duanın həqiqi dua deyil, duanın təqlidi olduğunu başa salır. Belə ki, susuz bir adam sudan aralı dayanıb ovuclarını açır və ağzına yaxınlaşdırır, beləcə su içməyi təqlid edir. Aydındır ki, belə bir şəxsin susuzluğu yatmayacaq. Allahdan qeyrisini çağıran da eynilə belədir. Heç bir cavab eşitməyəcək, sadəcə, dua formasını yerinə yetirmiş olacaq[1043].

[1043] Əl-Mizan, c.11, səh.319

15. Yaranmışların səcdəsi: Səcdə bu məqamlarda acizlik, təvazö və təslimin ən son həddi hesab edilir. Yəni bütün mələklər, insanlar, ağıl və şüur sahibləri Allaha möhtacdırlar, onun fərmanına tabedirlər. Əlbəttə, bir qrupun səcdəsi və təvazökarlığı yalnız qeyri-ixtiyari səciyyə daşıyır. Onlar yaradılış aləminin qanunlarına tabedirlər. Məsələn, bütün yaradılmışların cismləri, canları yaşamaq, ölmək, inkişaf etmək, boy atmaq, sağlam olmaq, xəstələnmək və sair kimi qanunlara tabedir. Yaradılış qanunları qarşısındakı bu təslim qeyri-ixtiyari səcdə hesab edilir. Yaradılmışların bəzisinin səcdəsi isə qeyr-ixtiyari olmaqla yanaşı ixtiyari səciyyə də daşıyır. Yən biz öz iradəmizlə Allah qarşısında səcdə edirik[1044].

17. Haqq və batilin çox möhtəşəm bir misalla təsvir edilməsi: Haqla batilin gözəl təsvirini ehtiva edən, eyni zamanda ədəbi cəhətdə yüksək şəkildə ifadə edilmiş bu mənalı misalda çox həqiqətlər gizlənmişdir. Burada üç nöqtəyə işarə edəcəyik: 1. "***Sel üzə çıxmış bir köpüyü götürüb aparır.***" Bilirik ki, saf suyun üzündə nadir hallarda köpük görmək olar. Çünki su yalnız xaricdən bulandığı zaman köpük yaranır. Deməli, buradan belə məlum olur ki, əgər haqq öz saflığı və təmizliyində qalsa, onun kənarlarında əsla köpüklər meydana gəlməz. Ancaq haqq çirkli mühitlə qarşılaşdıqda mühitin rəngini alarsa, həqiqət xurafatla, dürüstülk nadürüstlüklə, paklıq, təmizlik natəmizliklə qarışarsa, onun kənarlarında köpüklər meydana gələcək. İmam Əli (ə) bir kəlamı da bunu ifadə edir: ***"Əgər batil haqla qarışmasaydı, haqq onu axtaranlara gizli qalmazdı. Əgər haqq batillə örtülməsəydi, onun haqqında pis danışan düşmənlərin dili qısalardı."*** 2. ***"Çay və dərələrin tutduğu qədər sellənib axır"***. Bu cümlədən belə anlaşılır ki, ilahi nemətin mənbəyində heç bir paxıllıq, məhdudiyyət və qadağa

---

[1044] Nümunə, c.10, səh.156

yoxdur. Buludlar səmada heç bir maneəsiz hər tərəfə yağış yağdırır, ondan ayrı-ayrı yerlər, dərələr, çaylar öz tutduqları qədər faydalanır. Daha kiçik yer daha az istfadə edir, daha böyük yerin payı isə daha böyük olur. İnsanların qəlbi və ruhu da ilahi nemət qarşısında eynilə belədir. 3. ***"İnsanlara fayda verən yer üzündə qalıcı olur"***. Köpük və su misalında köpük yoxa çıxıb təmiz və saf su, ərimiş dəmir və onun üzünün köpüyü misalında xalis dəmir qaldığı kimi, faydalı, insanlar, qruplar, məktəblər, proqramların yaşamaq haqqı vardır. Əgər batil bir insan və məktəbin qaldığını görürüksə, bu ona qarışmış haqqa görədir[1045].

[1045] Nümunə, c.10, səh.167

19. Rəbbin tərəfindən sənə nazil edilənin haqq olduğunu bilən şəxs kora bənzəyə bilərmi? Təkcə ağıl sahibləri xatırlayar.

20. Allaha verdikləri sözü yerinə yetirən və əhdi pozmayanlar,

21. Allahın əmr etdiyi əlaqələri yaradanlar, Rəblərindən qorxan və haqq-hesabın pisliyindən çəkinənlər,

22. Rəblərinin razılığını cəlb etmək üçün səbr edən, namaz qılan, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyən və pisliyi yaxşılıqla dəf edənlər. Axirət evinin gözəl aqibəti onlarındır,

23. Daxil olacaqları Cənnət bağları onlarındır. Əmələsaleh ataları, zövcələri, övladları və mələklər bütün qapılardan onların yanına daxil olacaq (və onlara deyəcəklər:)

24. “Səbr etdiyinizə görə sizə salam olsun! Axirət evinin sonu necə də gözəldir!”

25. Allahla əhd bağladıqdan sonra onu pozan, Allahın əmr etdiyi əlaqə və bağlılıqları kəsən və yer üzündə fitnə-fəsad törədənlərə gəlincə, onlar üçün lənət və Axirət evinin pisliyi.

26. Allah istədiyinin ruzisini bol edər, istədiyinkini də azaldar. Ancaq onlar (kafirlər) dünya həyatı ilə sevinirlər. Halbuki dünya həyatı axirətlə müqayisədə çox cüzi bir bir şeydir.

27. Kafir olanlar deyirlər: “Nə üçün Rəbbi tərəfindən ona bir əlamət endirilməyib?” De: “Allah istədiyini sapdırır, qayıdanları isə Özünə doğru yola yönəldir”.

28. Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır.

---

21. Allahın yaradılmasını və qorunmasını əmr etdiyi əlaqələr: Bu cümlə geniş məzmun daşıyır. Burada Allahın əmr etdiyi istənilən növ əlaqə nəzərdə tutulur. Bunların ən məşhuru qohumluq əlaqəsidir. Allah-taala “Nisa” surəsinin birinci ayəsində təkidlə belə buyurmuşdur: “Qohumlarınızla olan əlaqənizi kəsməkdən çəkinin!” Əlbəttə, yuxarıda da qeyd etdiyimiz kimi, bu cümlə ümumi məzmun daşıyır. Çoxlu sayda hədislərdə imamlarla olan əlaqələr bu bağlılığın ən mühüm nümunələrindən biri kimi bəyan edilmişdir. Hədisələrinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: ***“Bu ayənin bir mənası qohumlarla əlaqədir. Ancaq onun ən yüksək nümunəsi bizimlə olan bağlılığınızdır.”***[1046]

21. Qiyamətdə hesabatın pisliyi və çətinliyi: Təfsirçilər “hesabın pisliyi” ifadəsi ilə bağlı müxtəlif fikirlər irəli sürmüşlər. Bəziləri hesab edir ki, dəqiq və güzəştsiz hesab nəzərdə tutulur. Çünki hesabın pisliyi deyilərkən aləmlərin Rəbbinin zülm və haqsızlığa yol verəcəyini düşünmək düzgün deyil. İmam Sadiqin (ə) bir hədisi də bu mənanı təsdiq edir. Belə ki, İmam Sadiq (ə) bir səhabəsindən: ***“Nə üçün filankəs səndən şikayət edir?”*** – deyə soruşduqda o, belə cavab verir: Haqqımı ondan tam aldığım üçün şikayətlənir. İmam bu sözü eşitdikdən sonra əsəbi halda oturub deyir:

[1046] Əl-Mizan, c.11, səh.345

"Haqqını sona qədər almısansa, pislik etmədiyini güman edirsən? Allahın "Qyamət gününün pis hesabından qorxarlar", - deyə buyurduğunu eşitməmisənmi? Güman edirsən ki, ağıl sahibləri Allahın onlara zülm edəcəyindən qorxurlar? Xeyr. And olsun Allaha, onlar qorxurlar ki, Allah onların hesablarını diqqətlə, sona qədər yoxlayacaq. Allah bunun adını hesabın pisliyi qoyub. Buna görə də hesablaşmada diqqət və həddən artıq ciddlik göstərən şəxs pis hesablaşma aparmışdır."[1047]

22. Pisliklərin yaxşılıqlarla dəf edilməsi: Yəni ağıllı insanlar pis bir iş gördükdə, günaha yol verdikdə onu yaxşı iş görməklə dəf edirlər. Bu pisliyin onlar və ya başqaları tərəfindən baş verməsinin fərqi yoxdur. Əgər özləri tərəfindən baş verərsə, tövbə edib bağışlanılmalarını diləyir, həmin pisliyin əvəzində yaxşı bir iş görürlər. Əgər başqaları onlara pislik və haqsızlıq edibsə, bağışlayıb əfv edir, alicənablıq göstərib pislikdən çəkindirirlər[1048]. İslam hədislərində hər iki vəziyyətə işarə edilmişdir. Peyğəmbər (s) hədislərinin birində belə buyurmuşdur: "Pis bir iş gördükdə ardınca yaxşı iş görməklə onu dəf et." İmam Əli (ə) buyurmuşdur: "Qardaşını yaxşılıq etməklə tənbeh et, zərərini bəxşişlə qaytar."[1049]

28. Qəlbin rahatlığı: Bu, dəqiqdir ki, insanın bu həyatdakı bütün səy və təlaşı xoşbəxtliyə nail olmaq üçün, bütün qorxusu isə bədbəxtlik və məhrumiyyətlə qarşılaşmaqdandır. İnsanlar bu yolda hər vasitəyə əl atır, bütün gücünü sərf edir. Dünyada olan bütün səbəblər, ümumiyyətlə dünyadakı hər şey bir cəhətdən faydalıdır, digər tərəfdən isə itiriləndir. Var-dövlət, övlad, həyat yoldaşı və sairəni buna misal göstərə bilərik. Əslində, bunlardan heç birinə bağlanıb rahatlıq tapmaq olmaz. Lakin Allahı tanıyıb

---

[1047] Nümunə, c.10, səh.178
[1048] Əl-Mizan, c.11, səh.347
[1049] Nümunə, c.10, səh.191

bütün xeyir və yaxşılıqların Ondan olduğuna, möminlərin himayəçisinin Allah olduğuna, onlara xoşbəxtlik nəsib edəcəyinə söz verdiyinə inanan şəxsin qəm-qüssəsi olmaz, qəlbi tam rahatlıq içində olar. Bu, inkaredilməz bir həqiqətdir. Qəlbində Allahdan qeyrisi ilə rahatlıq tapan və bu həqiqəti unudan şəxs bir anlığa hansı əbədi varlıqdan uzaqlaşdığını, hansı fani varlığa söykəndiyini xatırlayarsa, iztirab və narahatlıq bütün varlığını bürüyər[1050].

29. İman gətirib yaxşı işlər görənlərin nəsibi ən yaxşı şeylər və ən yaxşı aqibətdir.

[1050] Əl-Mizan, c.11, səh.358

30. Beləliklə, Biz səni özündən əvvəl neçə-neçə ümmətlər gəlib getmiş bir ümmətə göndərdik ki, onlar Rəhmanı inkar etdikləri halda, sənə vəhy etdiyimizi onlara oxuyasan. De: “O, mənim Rəbbimdir. Ondan başqa məbud yoxdur. Mən Ona təvəkkül etdim və qayıdışım Ona doğrudur”.

31. Əgər Quran vasitəsilə dağlar hərəkətə gəlsə və ya yer parça-parça olsa, yaxud da onun vasitəsilə ölülər danışsa, (yenə də iman gətirməyəcəklər). Ancaq bütün işlər Allahın ixtiyarındadır. İman gətirənlər bilmirlərmi ki, əgər Allah istəsə, bütün insanları doğru yola yönəldər? (Sadəcə, məcburi hidayətin heç bir faydası yoxdur). Allahın vədi yetişənə qədər etdikləri əməllərə görə kafir olanlara əzici müsibət üz verməkdə davam edəcək və ya onların evlərinin yaxınlığına enəcəkdir. Şübhəsiz ki, Allah vədinə xilaf çıxmaz.

32. Səndən əvvəlki elçilərə də istehza etmişdilər. Mən kafirlərə möhlət verdim, sonra isə onları yaxaladım. Gördün əzabım necə idi?

33. Hər kəsin başı üzərində dayanıb, hər kəsin əməllərini görən şəxs (bu xüsusiyyətlərin heç birinə malik olmayan kimidirmi?) Onlar Allaha şəriklər qoşdular. De: “Onların adlarını sadalayın! Yoxsa siz Ona yer üzündə bilmədiyi şeyləri, yaxud boş sözlərimi xəbər verirsiniz?” Kafirlərə öz yalanları gözəl göstərilmiş və onlar yoldan (Allah yolundan) çıxarılmışlar. Allahın azdırdığı şəxsin yol göstərəni olmaz.

34. Onlar üçün dünyada əzab vardır. Axirət əzabı isə daha ağırdır. Heç kəs onları Allahdan qoruya bilməz.

---

29. Əsasında iman və təqva dayanan həyat ən yaxşı həyatdır: Nemətlər həyatı zövqlü və dadlı etdikləri zaman dadlı və şirin olur. Həyatı dadlı etdikləri təqdirdə insan onlarla rahatlıq tapır. Əgər insan ən yaxşı

nemətlərə sahib olarsa, lakin rahatlığı olmazsa, bu nemətlərin heç bir dadı və zövqü olmaz. Rahatlıq isə təkcə iman və təqva işıqında əldə edilir. Davamlı olaraq Allahı xatırlayan insanın qarşılaşdığı heç bir şeydən qorxusu olmaz. Çünki o hər şeyin ixtiyarının Allahın əlində olduğuna, baş verənlərin ilahi qəza-qədər olduğuna, olanların bəndənin xeyrinə olduğuna inanır. Əgər ona nə isə verilirsə, ya da nə isə əlindən alınırsa, deməli, xeyrinədir. Buna görə də bütün həyatı zövqlü və yaşanmalı, sonu isə ən yaxşı sonluq olur. Allah-taala "Nəhl" surəsinin 97-ci ayəsində bu dadlı və zövqlü həyatı başqa bir şəkildə vəsf edərək buyurmuşdur: ***"Qadın və kişiliyindən asılı olmayaraq, yaxşı iş görən hər bir şəxsi mömin olacağı təqdirdə pak həyatla dirildərik və onların mükafatını etdikləri ən yaxşı əməllərə uyğun olaraq verərik."*** Bu, sonu gözəl və pak olan həyat müqabilində Allahdan üz çevirənlərin həyatını belə təsvir etmişdir: ***"Məni xatırlamaqdan imtina edən hər kəsin həyatı daralacaq və Qiyamət günü onu məhşərə kor gətirəcəyik."*** (Taha surəsi, 124-cü ayə)[1051].

31. İnadkar kafirlərdən ümidin kəsilməsi: Surənin bu və digər ayələrindən belə məlum olur ki, möminlər kafirlərin ***"Nə üçün Rəbbindən ona Qurandan başqa bir möcüzə və əlamət nazil olmur?"*** sözünü eşitdikdə Allahın Qurandan başqa bir möcüzə göndərəcəyi təqdirdə kafirlərin iman gətirəcəyinə ümidlənirlər. Buna görə də Peyğəmbərdən (s) onların bu istəklərinə müsbət cavab verməsini istəyirlər. Ancaq Allah-taala bu ayədə möminlərə belə buyurur: ***"Əgər Quran vasitəsilə dağlar hərəkətə gəlsə və ya yer parça-parça olsa, yaxud da onun vasitəsilə ölülər danışsa, (yenə də kafirlər inadkarlıqları və küfrləri ucbatından iman gətirməyəcəklər)."***

[1051] Əl-Mizan, c.11, səh.359

Bununla da möminləri onların iman gətirəcəyindən tamamilə ümidsiz edir[1052].

31. Məkkə və onun ətrafında yaşayan kafirlərə əzici bəlalar nazil olması: Bu ayədə Allah kafirləri qəti şəkildə təhdid edir və onlara əzabın son həddi nazil olana qədər əlamətləri biri digərinin ardınca aşkara çıxan əzab vədi verir. Əllamə Təbatəbai bu ayəni təfsir edərkən belə yazır: "Kafir" deyilərkən burada İslamın ilk dövründə İslamı və Peyğəmbəri (s) inkar etməkdə, ona qarşı düşmənçilikdə, fitnə-fəsad törətməkdə əllərindən gələni əsirgməyən məkkəli və qeyri-məkkəli olan bütün kafirlər nəzərdə tutulur. Daha sonra Allah onları iki qrupa bölür: Birinci qrup əzici bəlalara düçar olmuşlardır. Onlar müharibələr, qətllər və qarətlər nəticəsində tamamilə pis vəziyyətə düşmüş Məkkəətrafı ərazilərin müşrikləridir. İkinci qrup isə bəla və müsibətlərin onların yaşadıqları yerin yaxınlığına qədər gəlib çıxmış şəxslərdir. Onlar Məkkənin özündə yaşayan kafirlərdir. Şəhərin ətrafında baş verən hadisələrin tüstüsü onlara qədər gəlib çatır, onların qorxusu, dəhşəti, qəm-qüssəsi şəhər əhalisinin yuxusunu ərşə çəkir, iştahlarını çəkir. Allahın son vədi isə Bədr və digər müharibələrdə qılınclar vasitəsilə kafirlərin axırına çıxan əzabdır[1053].

[1052] Əl-Mizan, c.11, səh.364
[1053] Əl-Mizan, c.11, səh.364

35. Müttəqilərə vəd edilmiş Cənnətin vəsfi belədir: ağacları altından çaylar axır, meyvəsi də, kölgəsi də daimidir. Müttəqilərin aqibəti budur. Kafirlərin aqibəti isə Oddur.

36. Səmavi kitab verdiyimiz kəslər sənə nazil edilənə görə şaddırlar. Firqələrin bəzisi onun bir qismini inkar edirlər. De: “Mənə Allaha ibadət etmək və Ona şərik qoşmamaq əmr edilmişdir. Mən yalnız Ona doğru çağırıram və qayıdışım da yalnız Onadır!”

37. Beləliklə, biz onu (Quranı) sənə açıq-aydın bir əmr olaraq nazil etdik. Əgər sənə elm gəldikdən sonra onların istəklərinə tabe olsan, səni Allah qarşısında nə bir himayə edən, nə də bir qoruyan olar.

38. Biz səndən əvvəl də elçilər göndərdik və onlara zövcələr və övladlar verdik. Heç bir elçi Allahın izni olmadan bir möcüzə gətirə bilməzdi. Hər vaxtın bir yazısı var.

39. Allah istədiyini pozar, istədiyini sabit saxlayar. Ana kitab (lövhi-məhfuz) Onun yanındadır.

40. Biz onlara vəd etdiyimiz əzabın bir qismini sənə göstərsək və ya (ondan öncə) səni öldürsək (bil ki,) sənin öhdənə düşən ancaq təbliğ etməkdir. Onlardan haqq-hesab soruşmaq Bizə aiddir.

41. Məgər Bizim, yer üzünə gəlib onu ətraflarından azaltdığımızı görmürlərmi? (Cəmiyyətlər, mədəniyyətlər, alimlər tədricən yox olur) Allah hökm verir. Onun hökmünün qarşını heç kəs ala və ya inkar edə bilməz. O, sürətli haqq-hesab çəkəndir.

42. Onlardan əvvəl də planlar quranlar oldu. Ancaq bütün planlar Allaha məxsusdur. O, hər kəsin nə etdiyindən xəbərdardır. Tezliklə kafirlər Axirətdə gözəl aqibətin kimin olacağını biləcəklər.

---

36. Peyğəmbərlik missiyasının elan edildiyi illərdə Kitab əhlinin İslama qarşı müsbət mövqeyi: Kitab əhli deyilərkən yəhudilər, xristanlar və atəşpərəstlər nəzərdə tutulur. Tarixi mənbələr göstərir ki, yəhudilər peyğəmbərlik missiyasının elan edildiyi və habelə ondan əvvəlki illərdə peyğəmbərə qarşı düşmən münasibəti bəsləmirdilər. Yəhudilərin əsas düşmənçiliyi və inadkarlığı Peyğəmbər (s) Mədinəyə hicrət etdikdən sonra yarandı. Hətta hicrətin ilk illərində onların bir qrupu iman gətrmiş və Peyğəmbərin (s) peyğəmbərliyini qəbul etmişdir. Elə həmn dövrlərdə xristianlardan br qrupu da haqq dini qəbul etmiş, İslama qarşı çıxmamışdır. Buna Həbəşistan xrstanlarını misal göstərə bilərik. Həbəşistanlıların çoxu

İslamı qəbul etmişdi. Atəşpərəstlər də həmin dövrlərdə haqq və ədaləti yayacaq bir bir xilaskarı gözləyirdilər. Onlar müşriklər kimi haqqa qarşı inadkar mövqedə deyildilər. Ayənin daha çox nəzər nöqtəsində olan qrup ikinci qrup, yəni doğru yolu axtaran Nəcaşi və tərəfdarları kimi xristianlardır[1054].

36. Firqələr və qruplar: Burada batil inancları ilə uyğunluq təşkil etməyən ayələri qəbul etməyən Kitab əhli nəzərdə tutulur. Buna Allahın tək olduğunu bəyan edən, üçlüyü və Kitab əhlinin digər təhrif edilmiş inanclarını və hökmlərini inkar edən ayələri misal göstərmək olar[1055].

39. "Ana kitab" nə deməkdir? Bu ayə hədislərdə də işarə edilmiş ümumi bir qanunu bəyan edir. Dünyada baş verən hadisələr iki mərhələ ilə səciyyələnir: Birincisi, heç bir dəyişikliyə məruz qalmayan və ayədə "Ana kitab" ifadəsi ilə təqdim edilmiş qəti mərhələdir. İkincisi, dəyişikliyə məruz qalan qeyri-qəti və şərtli mərhələdir. Buna "məhv və sübut" mərhələsi də deyilir. Bəzən bu iki mərhələni "Lövhi-məhfuz" və "Lövhi-məhv və isbat" da adlandırırlar. Bu iki lövhənin birində yazılmışlar əsla dəyişilmir, dəyişməz qalır. Lakin digər lövhədə bir şey yazıla və sonra pozula, pozulanın yerinə başqası yazıla bilər. Bu isə bəzən hadisələrə onların natamam səbəblər aspektindən baxmağımızla bağlıdır. Məsələn, öldürücü bir zəhəri nəzərdə tutub "Kim ondan içsə, ölər" deyirik, lakin həmin zəhərin təsirini aradan aparacaq dərmanı yaddan çıxarırıq. Belə ki, zəhərə qarşı olan dərman vaxtında içilərsə, zəhərin təsirini tamamilə məhv edər. Bu misalda zəhər vasitəsilə ölmək qəti səciyyə daşımır. Bu hadisənin yeri "Lövhi-məhv və isbat"dır. Yəni digər hadisələrə əsasən, dəyişə biləndir. Lakin hadisəni tam səbəbləri ilə birlikdə, şərtlərin hamısının toplanması və bütün

[1054] Əl-Mizan, c.11, səh.374
[1055] Əl-Mizan, c.11, səh.374

maneələrin aradan qalxması kontekstində nəzərdə tutarıqsa, artıq hadisə qəti səciyyə daşımış olur və yeri "Lövhi-məhfuz"dur. Bu izahla sözügedən mövzu ilə bağlı yaranacaq suallara cavab verilmiş olur. Quranın bəzi ayə və hədislərində filan işin filan şeyə səbəb olacağını oxuyuruq. Ancaq bəzən bu nəticələrin şahidi olmuruq. Bu ona görədir ki, həmin nəticənin gerçəkləşməsi şərtlərdən asılıdır. Ya həmin şərtlər tam təmin olunmayıb, ya da hər hansı maneə şərtlərin tamlaşmasına imkan verməmişdir. Lövhi-məhfuz, Lövhi-məhv və isbat, peyğəmbər və imamların elmlərindən bəhs edən bir çox hədislərə yuxarıdakı izah əsasında tam aydınlıq gəlir. Möminlərin əmiri İmam Əli (ə) bir gün Allah rəsulundan (s) bu ayə haqqında soruşduqda Peyğəmbər (s) buyurur: ***"Mən bu ayəni təfsir etməklə özümdən sonra sənin və ümmətin gözünü işıqlandırıram. Ehtiyaclılara düzgün şəkildə yardım göstərmək, ata-anaya yaxşılıq etmək, hər bir xeyirli işi yerinə yetirmək bədbəxtliyi xoşbəxtliyə çevirir, ömrü uzadır, təhlükələrin qarşısını alır."*** Bu hədisdən xoşbəxtlik və bədbəxtliyin qaçılmaz br hadisə olduğu anlaşılır. Hətta bir nəfər ən bədbəxt insanların sırasında yer almasına baxmayaraq, davranışlarını dəyişməklə, yaxşılıqlara üz tutmaqla, xüsusilə Allahın bəndələrinə yardım və xidmət göstərməklə öz taleyini dəyişə bilər. Çünki bu işlərin yeri Lövhi-məhfuz deyil, Lövhi-məhv və isbatdır. Əlbəttə, bu hədis ayənin ehtiva etdiyi cəhətlərdən birini bəyan etmək üçün qeyd edilmişdir[1056].

[1056] Nümunə, c.10, səh.241

43. Kafirlər deyirlər: “Sən peyğəmbər deyilsən!” De: “Mənimlə sizin aranızda Allahın və Kitabı bilən şəxsin şahid olması yetər”.

"İbrahim" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Əlif, Lam, Ra. (Bu,) insanları öz Rəblərinin izni ilə qaranlıqdan nura – qüdrətli, tərifəlayiq Allahın yoluna çıxartmaq üçün sənə nazil etdiyimiz bir Kitabdır.

2. O Allahın ki, göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Şiddətli əzabdan ötrü vay kafirlərin halına!

3. O kəslərin ki, dünyanı axirətdən üstün tutur, (insanları) Allah yolundan sapdırır və onu əyməyə çalışırlar. Onlar uzaq bir azğınlıq içindədirlər.

4. Biz hər bir peyğəmbəri yalnız öz xalqının dilində danışan göndərdik ki, (həqiqətləri) onlara bəyan etsin. Allah istədiyini sapdırır, istədiyini də doğru yola yönəldir. O, qüdrətlidir, hikmət sahibidir.

5. Biz Musanı möcüzələrimizlə göndərib (ona): “Xalqını qaranlıqdan nura çıxart və Allahın günlərini onların yadına sal”. Bunda çox səbr və şükür edənlər üçün dəlillər vardır.

---

43. İmamlar (ə) Quranı bilən şəxslərdir: Surənin əvvəlində də qeyd etdiyimiz kimi, onun əsas hədəfi Quranın haqq olduğunu sübuta yetirməkdir. Allah-taala surənin sonunda eyni hədəfə bir daha işarə edərək Peyğəmbəri (s) inkar edən şəxslərə buyurur: Peyğəmbərin (s) şahidi Allah özüdür. Habelə Quranı öyrənmiş, onu bilən, onu tam mənimsəmiş şəxs də Quranın Allah tərəfindən göndərildiyinə və Peyğəmbərin (s) Allahın elçisi olmasına şahidlik edir. Bir çox Əhli-beyt (ə) hədislərində ***"Kitabı bilən şəxs"***in İmam Əli (ə) və ondan sonrakı imamlar olduğu qeyd edilmişdir. Çünki onlar Quranı tam bilən və onun rəmzlərindən tam şəkildə xəbərdar olan şəxslərdir[1057].

İbrahim surəsinin ümumi məzmunu: Bu surədə inanclar, öyüd-nəsihətlər, keçmiş xalqların ibrətamiz hekayələrindən bəhs edilir, peyğəmbərlərin missiyası və səmavi kitabların göndərilməsinin məqsədi açıqlanır[1058].

1. Peyğəmbər (s) Quranın icraçısıdır: Bu ayənin diqqət çəkən cəhəti Allahın "Bu Quranı sənə nazil etdik ki, insanları qaranlıqdan işığa çıxarasan", - deyə buyurmasıdır. Yəni Quran bəşəriyyətin hidayət və xilas kitabı olsa da, bir icraçıya ehtiyacı var. Həqiqət yolunu itirmiş insanları Quran vasitəsilə zülmətdən işığa çıxartmaq Peyğəmbər (s) kimi bir rəhbərin olması şərtdir. Buna görə də bütün əzəmət və böyüklüyünə baxmayaraq, rəhbər, icraçı və bələdçi olmadan Quran bütün problemləri həll edə bilməz[1059].

4. Peyğəmbərlər çağırışlarını öz xalqlarının danışdığı dildə etmişlər: Peyğəmbərlər birinci növbədə arasından seçildikləri xalqla təmasda

---

[1057] Əl-Mizan, c.11, səh.389
[1058] Nümunə, c.10, səh.259
[1059] Nümunə, c.10, səh.267

olurdular. Peyğəmbərlərə göndərilən vəhyin ilk şüası həmin xalqa işıq salır, ilk səhabə və dostlar bu xalqın arasından seçilirdi. Buna görə də həqiqətləri daha aydın şəkildə çatdırmaları üçün hər bir peyğəmbərin arasından seçildiyi xalqın dilində danışması lazım idi. Bu ayədən həm də peyğəmbərlərin dəvətinin qeyri-adi bir dəvət olmadığı, insanların azğınlıqdan haqq yola çıxarılmasının möcüzəli şəkildə baş vermədiyi məlum olur. Yəni peyğəmbərlərin vəzifəsi arasından seçildikləri xalqın dilində danışıb onlara ilahi çağırışı izah etməkdən ibarət olmuşdur. İnsanları hidayət etmək və ya haqq yoldan sapdırmaq artıq peyğəmbərlərə aid olmayan bir işdir. Peyğəmbərlərin çağırışını qəbul və ya inkar etməsindən asılı olaraq insanları müvafiq şəkildə hidayət etmək və ya azğınlıq içində saxlamaq Allahın işidir[1060].

5. Allahın günləri: Şübhəsiz ki, burada “günlər” deyilərkən xüsusi günlər nəzərdə tutulmuşdur. Bütün günlər və və bütün varlıqlar Allaha məxsus olduğu halda, xüsusi günlərin Allaha aid edilməsi şübhəsiz ki, həmin günlərdə baş vermiş və baş verəcək, onları başqa günlərdən fərqləndirən və Allahın hökmünü aşkara çıxaran hadisələrlə bağlıdır. Deməli, Allahın günləri deyilərkən şübhəsiz ki, Allahın hökmünün, təkliyini ifadə edən ayə və möcüzələrin, dəlil və sübutların zahir olduğu zamanlardır. Məsələn, insan öldüyü gün Allahın axirət dəlili aşkara çıxır, dünyaya aid olan səbəbiyyət qanunları öz təsirlərini itirir. Məsələn, Qiyamət günü heç kəs başqasına nədəsə malik olmayacaq, başqası üçün heç nə edə bilməyəcək, hər şey Allahın əlində olacaq. Nuh, Ad və Səmudun ümmətinin məhv olduğu günlər də buna misaldır. Həmin günlər Allahın güc və qüdrətinin, qalibiyyətinin aşkara çıxdığı, ilahi izzətin təzahür etdiyi günlərdir.

[1060] Nümunə, c.10, səh.269; Əl-Mizan, c.12, səh.15

İlahi rəhmət və nemətin təzahür etdiyi günlər də buraya aid edilə bilər. Yəni burada ilahi nemətlərin təzahür etdiyi günlərdən söhbət gedir. Məsələn, Həzrət Nuh (ə) və səhabələrinin gəmi ilə xilas olduqları, Allahın bərəkətindən faydalandıqları, salamat qaldıqları, İbrahim (ə) üçün odun gülüstana çevrildiyi gün və sair buna misaldır. Əhli-beyt (ə) hədslərində "Allahın günləri" üçün bir çox nümunələr qeyd edilmişdir. Bu günlərin ən bariz nümunəsi həzrət Mehdinin (ə) zühur edəcəyi gündür[1061].

6. (Xatırla ki, bir) zaman Musa öz xalqına demişdi: "Allahın sizə verdiyi neməti və sizi Firon əhlindən xilas etdiyi zamanı xatırlayın. Onlar

[1061] Əl-Mizan, c.12, səh.17

sizə ağır əzablar verir, oğlan uşaqlarınızı öldürür, qadınlarınızı isə sağ buraxırdılar. Bunda Rəbbinizdən sizin üçün böyük bir sınaq var idi".

7. (Habelə xatırlayın ki, bir) zaman Rəbbiniz bildirmişdi: "Əgər şükür etsəniz, sizə (olan nemətimi) artıraram, yox əgər naşükürlük etsəniz, (bilin ki,) Mənim əzabım şiddətlidir".

8. Musa (İsrail oğullarına) dedi: "Əgər siz və yer üzündə olanların hamısı kafir olsanız, (Allaha heç bir zərər yetirməzsiniz, çünki) Allah ehtiyacsızdır, tərifəlayiqdir".

9. Sizdən əvvəlkilərin – Nuh, Ad və Səmud tayfalarının və onlardan sonra Allahdan başqa heç kəsin xəbəri olmadığı tayfaların xəbərləri sizə gəlib çatmadımı? Peyğəmbərləri onlara açıq-aydın dəlillər gətirdilər. Onlar isə əllərini ağızlarının üstünə qoyub dedilər: "Biz təbliğinə ezam olunduğunuzu inkar edirik və bizləri dəvət etdiyiniz barəsində şəkk-şübhə içindəyik!"

10. Elçiləri dedilər: "Göyləri və yeri yaradan Allaha şəkk etməkmi olar? O, günahlarınızı bağışlamaq və sizə müəyyən vaxta qədər möhlət vermək üçün sizi çağırır". Onlar dedilər: "Siz də bizim kimi insanlarsınız. Bizi atalarımızın ibadət etdiklərindən döndərmək istəyirsiniz. Bizə açıq-aydın bir dəlil və möcüzə gətirin".

---

7. Şükürün həqiqəti: Şübhəsiz ki, verdiyi nemətlərin müqabilində Allah-taalanın bizim şükürümüzə ehtiyacı yoxdur. Əgər şükür edilməsini göstəriş veribsə, bu həmin nemətlərin artırılması üçündür. Əgər şükürün həqiqətini açsaq, onunla nemətin artması arasında hansı əlaqənin olduğuna və tərbiyəvi amili rolunda necə çıxış etdiyinə aydınlıq gələr. Şükür təkcə dildə təşəkkür edib "Həmd Allah üçündür" deməkdən ibarət deyil. Şükürün

üç mərhələsi var: Birinci mərhələ neməti bəxş edənin kimliyinə diqqət yetirməkdən, ikinci mərhələ dildə təşəkkür etmək, üçüncü mərhələ əməldə şükür etməkdən ibarətdir. Yəni ilk öncə verilən nemətin bizə hansı məqsədlə bəxş edildiyi haqqında düşünüb onu öz yerində istifadə etməliyik. Əgər belə etməsək, nemətə nankorluq etmiş olarıq. Belə ki, göz nemətini Allahın nişanələrini görmək, qulaq nemətini Allahın ayələrini dinləmək, ağıl nemətini Aıllahın tanımaq üçün istifadə etsək və ümumiyyətlə, nemətlərin hər birini onlara aid olan yerlərdə istifadə etsək, Allaha şükür etmiş hesab edilirik. Yox, əgər dayanmadan dildə şükür etdiyimiz halda, həmin nemətləri zülm, itaətsizlik, xudpəsəndlik, lovğalıq, təkəbbür, Allaha yadlaşmaq vasitəsinə çevirəriksə, nemətlərə qarşı nankorluq etmiş sayılırıq. İmam Sadiq (ə) buyurmuşdur: ***"Şükürün ən aşağı dərəcəsi nemətlərin Allah tərəfindən verildiyini bilmək, Allahı yaddan çıxarmamaq və qəlbin özünü tamamilə nemətlərin ağuşuna atmaması, Allahın verdiynə razı olmaq, verdiyi nemətləri itaətsizlik vasitəsinə çevirməmək, nemətlərindən istifadə edə-edə əmr və qadağalarına qarşı çıxmamaqdır."*** Bu hədisdən güc, qüdrət, elm, ağıl qüvvəsi, ictimai nüfuz, var-dvövlət, sərvət, sağlamlıq üçün olan şükürün və nankorluğun necə olması aydınlaşır. İmam Sadiq (ə) bir hədisində belə buyurmuşdur: "Nemətin şükürü günahdan çəkinməkdir." Buradan şükür etməklə nemətin artması arasında əlaqə olduğu da aydın olur. Əgər insanlar Allahın verdiyi nemətləri onların həqiqi yerlərində istifadə etsələr, əməli olaraq bu nemətlərə layiq olduqlarını sübuta yetirmiş olurlar. Bu ləyaqət isə daha böyük nemətin verilməsinə və ilahi lütfkarlığın artmasına səbəb

olur[1062]. Bunlarla yanaşı elə ləyaqətsiz insanlar da vardır ki, nəinki nemətin artımına layiq deyillər, hətta sahib olduqları da onlar üçün çoxdur[1063].

10. Dünya və axirət xoşbəxtliyi peyğəmbərlərin (ə) göndərilmə səbəbidir: ***"O, günahlarınızı bağışlamaq və sizə müəyyən vaxta qədər möhlət vermək üçün sizi çağırır".*** Bu kiçik cümlə peyğəmbərlərin əsas hədəfini bəyan edir. Belə ki, ilahi qanunlardan biri hər bir varlığın özünə xas olan xoşbəxtlik və səadətə yönləndirilməsidir. İnsan bu varlıq sisteminə aid olan növlərdən və sözügedən yönləndirmənin şamil oduğu varlıqlardandır. İnsanın malik olduğu həyat əbədi olduğu üçün dünya ilə məhdudlaşmır, ölümlə başa çatmır. Deməli, insan bu dünyada elə həyat sürməlidir ki, bu həyat onu əbədi xoşbəxtliyə qovuşdursun.

Əgər insan dünyada başlı-başına buraxılarsa, nəfsani istəklərin təsiri altına düşəcək, nəticədə, itaətsizlik göstərib zülm edəcək, buna görə də iki əzaba düçar olacaq: birinci əzab insanı bu dünyada haqlayacaq, onun normal və təmiz br həyat sürməsinə imkan verməyəcək, əcəli çatmamış bu dünyadan aparacaq. Keçmiş xalqların düçar olduqları əzablar buna bir sübutdur. İkinci əzab etdiyi günahlara görə insanın o dünyada düçar olacağı və onu əbədi xoşbəxtlikdən məhrum edəcək əzabdır. Allah-taala insanı kamilləşdirmək üçün peyğəmbərlər göndərir və bu vasitə ilə onlara xoşbəxtliyə nail olmanın yollarını göstərir. Deməli, peyğəmbərlərə tabe olmanın iki faydası vardır: Birincisi, dünyəvi faydadır. Allah-taala bu fayda haqqında belə buyurmuşdur: "Müəyyən edilmiş vaxta qədər sağ qalmağınız və dünya nemətlərindən faydalanmağıız üçün". İkincisi, axirət faydasıdır. Allah-taala bu fayda haqqında da belə buyurmuşdur: "İtaət göstərəcəyiniz

---

[1062] Nümunə. c.10, səh.278
[1063] Mənşuri-cavid, c.1, səh.248

təqdirdə günahlarınızı bağışlamaq, axirət əzabından xilas olmağınız və əbədi xoşbəxtliyə nail olmağınız üçün”[1064].

11. Peyğəmbərləri onlara dedilər: “Düzdür ki, biz də sizin kimi bir insanıq. Lakin Allah bəndələri arasından istədiyinə (və layiq gördüyünə) nemət bəxş edir (peyğəmbərlik verir). Allahın əmri olmadan biz sizə heç bir möcüzə göstərə bilmərik. Möminlər ancaq Allaha təvəkkül etsinlər.

12. Bizə (xoşbəxtlik) yollarını göstərdiyi halda, nə üçün Allaha təvəkkül etməyək? Sizin bizə verdiyiniz əziyyətlərə dözəcəyik. Təvəkkül edənlər yalnız Allaha təvəkkül etsinlər”.

[1064] Əl-mizan, c.12, səh.26

13. Kafirlər peyğəmbərlərinə dedilər: “Bizim dinimizə qayıtmayınca sizi öz torpağımızdan qovacağıq!” Rəbləri isə onlara belə vəhy etdi: "Biz zalımları məhv edəcəyik."

14. Onlardan sonra sizi yerdə sakin edəcəyik. Bu, məqamdan (ədalətdən) və əzabımdan qorxanlara aiddir”.

15. Onlar (Allahdan) qələbə istədilər. Hər bir azğın dikbaş ziyana uğradı.

16. Onu Cəhənnəm gözləyir; (orada) ona irinli, üfunət qoxulu su içirdiləcək.

17. Öz istək və meyli ilə içməyə hazır olmadığı bu suyu qurtum-qurtum içəcək. Ona hər yerdən ölüm gələcək, lakin o, ölməyəcəkdir. Bunun ardınca da ağır bir əzab gələcəkdir.

18. Rəblərini inkar edənlərin əməlləri fırtınalı bir gündə küləyin sovurub apardığı külə bənzəyir. Onlar etdikləri əməllərdən az da olsa, heç bir fayda əldə edə bilməzlər. Budur uzaq və uzun azğınlıq!

---

16. Üfunətli, pis qoxulu su: Peyğəmbər (s) bu ayə barəsində belə buyurmuşdur: ***“O üfunətl və pis qoxulu suyu Cəhənnəmlik şəxsin yanına aparacaqlar. O, özünü arxaya çəkəcək. Bu vaxt daha da yaxınına aparacaqlar. Üzü onun hərarətindən bişəcək, başının dərisi soyulacaq. Bu suyu ona içirdklərində içi parça-parça olacaq, bədəninin aşağı hissəsindən süzüləcək. Allah-taala onlar barəsində belə buyurmuşdur: “Onlara içlərini parçalayan qaynar sudan içirdiləcək.” Həmçinin buyurmuşdur:***

"Su istədiklərində onlara üzləri bişirən dəmir ərintisinə bənzər bir su gətirəcəklər"[1065].

18. Yaxşı iş görənlər və qeyri-müsəlman ixtiraçıların mükafatı: Quranın bu və digər ayələrinə əsasən, deyə bilərik ki, kafirlər və tövhid inancı olmayan şəxslərin əməlləri zahirdə yaxşı və gözəl olsa da, Allah yanında heç bir dəyərə malik deyil. Çünki insan varlığını bir ağaca bənzətsək, inanc və etiqadlar onun kökü, əməl və davranışlar isə budaq və yarpaqları simvolizə etmiş olacaq. Kafirlərdə ağacın kökləri çürümüşdür. Həmin ağac kənardan gözəl və möhkəm görünsə də, kökü yoxdur. Buna görə də dəyərsizdir.

Burada ortaya belə bir mühüm sual çıxır: Bütün ömrünü xalqa, insanlara xidmət etməyə sərf etmiş və yaxşı işlər görmüş kafirin vəziyyəti necə olacaq? Qeyd etməliyik ki, bu cür insanların vəziyyəti iki haldan xaric deyil; onlar ya maddi maraq güdüb varlanmaq, şöhrət qazanmaq istəyiblər, ya da insani maraqlar güdüb, yalnız insanlığa xidmət haqqında düşünüblər. Birinci qrupun vəziyyəti məlumdur. Onlar heç özləri də Allahdan və insanlardan heç nə güdməyiblər. Onların niyyəti mənfəət əldə etmək və məşhurlaşmaq olub, buna da nail olublar. İkinci qrupa gəldikdə, şübhəsiz ki, onlar Allah tərəfindən layiq olduqları mükafatı alacaqlar. Bu mükafat bu dünyada da verilə bilər, o dünyada da. Ancaq bir məsələ gün kimi aydındır ki, alim və adil Allah onları mükafatsız qoymayacaq. Ancaq bu mükafatlandırmanın necə olduğu və olacağı xırdalıqları ilə bizə məlum deyil. Bu qədər deyə bilərik ki, ***"Allah yaxşı işlər görənlərin mükafatını puç etməz"***. Əgər insanlara xidmət imanla müşayiət olunarsa, əməl sahibi Allah tərəfindən ən yüksək mükafata layiq görüləcək. Əks təqdirdə

[1065] Biharul-ənvar, c.8, səh.244

mükafatdan tamamilə məhrum olacaq. Əlbəttə, əməlin mükafatı Cənnətə daxil olmaqla şərtlənmir. İmam Kazim (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Bəni-İsraildə mömin bir kişinin kafir bir qonşusu var imiş. Kafir kişi mömin qonşusu ilə çox yaxşı davranırmış. Dünyasını dəyişdikdən sonra Allah ona odun istisini dəf edəcək bir ev bəxş etdi... Ona deyildi: Bu, mömin qonşunla yaxşı davrandığın üçündür."*** Peyğəmbər (s) Qüreyş başçılarından və cahilyyət dövrünün məşhur müşriklərindən olan Abdulla ibn Cədaə haqqında belə buyurmuşdur: ***"Cəhənnəm sakinləri arasında ən az əzab görən şəxs Cədaədir."*** Səbəbini soruşduqda buyurmuşdu: ***"Çünki o, aclara yemək verirdi".*** Peyğəmbər (s) Ədi ibn Hatəmə (Hatəmi Tainin oğluna) belə buyurmuşdur: ***"Səxavətinə görə şiddətli əzab atandan götürülmüşdür."***[1066]

[1066] Nümunədən iqtibas, c.10, səh.314

19. Allahın göyləri və yeri haqdan yaratdığını görmürsənmi? Əgər istəsə, sizi aparıb yeni bir məxluq gətirər.

20. Bu, Allah üçün çətin deyildir.

21. (Qiyamət günü) onların hamısı Allahın hüzuruna çıxarılacaq. Bu vaxt zəiflər (nadanların arxasınca düşüb gedənlər) təkəbbürlük edənlərə (və azğın rəhbərlərə) deyəcəklər: “Biz sizə tabe idik. (İndi) siz Allahın əzabının bir hissəsini qəbul edib bizdən sovuşdura bilərsinizmi?” Onlar deyəcəklər: “Əgər Allah bizi doğru yola yönəltsəydi, biz də sizə doğru yolu göstərərdik. (Ancaq artıq iş işdən keçib. İndi) dözümsüzlük göstərsək də, səbr etsək də bizim üçün eynidir. Qaçacaq yolumuz yoxdur”.

22. İş bitdikdə şeytan deyəcək: “Allah sizə doğru vəd vermişdi. Mən də sizə vəd vermişdim, lakin vədə xilaf çıxdım. Mənim sizin üzərinizdə heç bir hökmranlığım yox idi. Mən sizi yalnız dəvət etdim, siz də dəvətimi qəbul

etdiniz. Buna görə də məni yox, özünüzü qınayın. Nə mən sizin fəryadınıza çata bilərəm, nə də siz mənim fəryadıma çata bilərsiniz. Mən əvvəllər də sizin məni (Allaha) şərik qoşmağınızı inkar etmişdim". Şübhəsiz ki, zalımlar üçün üzücü bir əzab var.

23. İman gətirib saleh əməllər edənləri isə ağacları altından çaylar axan, Rəbbinin izni ilə içində əbədi qalacaqları Cənnət bağlarına daxil edəcəklər. Onların orada qarşılaşarkən bir-birlərinə edəcəkləri dua: "Salam!" olacaqdır.

24. Allahın xoş bir sözü kökü yerdə möhkəm olub budaqları göyə ucalan gözəl bir ağaca necə bənzətdiyini görmədinmi?

---

21. Əgər Allah bizi doğru yola yönəltsəydi, biz də sizə doğru yolu göstərərdik: "Hidayət" (doğru yola yönəltmək) deyilərkən Cəhənnəm əzabından xilas yolunu göstərmək nəzərdə tutulur. Yəni təkəbbürlü azğın rəhbərlər əzab içində yandıqları halda nadan ardıcıllarına deyəcəklər: "Əgər Allah bizə Cəhənnəmdən çıxmağın yolunu göstərsəydi, biz də sizə göstərərdik. Niyyətləri dünyada haqq dinə doğru yönləndirmə də ola bilər. Yəni Allah dünyada bizi doğru yola yönəltsəydi, biz də sizi yönəldərdik. Lakin biz təkəbbürümüz, siz də axmaqlığınız ucbatından azğın və Cəhənnəmlik olduq. Əslində, hər iki təfsir eyni məzmunu ifadə edir. Çünki Qiyamət günü aşkara çıxan insanın dünyadakı inancları və əməllərindən başqa bir şey deyil. Bu əməllər bu dünyadakı həqiqəti örtülü, o dünyada isə aşkardır[1067].

22. Şeytanın vəsvəsəsi insanın ixtiyarını əlindən almır: Bu ayədən belə başa düşülür ki, şeytanın vəsəvəsələri insanın ixtiayını, iradəsini və

[1067] Əl-Mizan, c.12, səh.42

azadlığını ondan almır. Əslində, şeytanın işi yalnız dəvət etmək və çağırmaqdır. İnsanlar şeytanın dəvətini öz iradələri ilə qəbul edirlər. Ancaq insanın yanlışları və günahları davam etdirməsi insanı elə həddə çata bilər ki, artıq şeytanın vəsvəsələri qarşısında heç bir ixtiyarı olmaz. Narkotika aludəçilərinn asılılığını buna misal göstərmək olar. "Nəhl" surəsinin 99-100-cü ayələrində Allah-taala belə buyurmuşdur: "Şeytanın iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlər üzərində heç bir hökmranlığı yoxdur. Onun hakimiyyəti yalnız onu özünün himayəçisi edənlər və Allaha şərik qoşanlar üzərindədir." Şeytan bu şəkildə öz günahlarını onun boynuna atan, onu azğınlıqların səbəbkarı hesab edən, ona lənətlər yağdıranların hamısının cavabını verir və özlərini sudan quru çıxarmağa çalışanların puç məntiqlərini alt-üst edir[1068].

24. Pak tövhid ağacı: Quran ayələrinə diqqətlə nəzər saldıqda məlum olur ki, pak ağaca bənzədilmiş "pak söz" deyilərkən Allahın təkliyinə həqiqi və sabit inam nəzərdə tutulmuşdur. Bu etiqadın kökü və əsası əsla məhv olmur, dəyişikliyə və çevrilməyə məruz qalmır. Buna görə də bütün həqiqətlərin və bərəkətlərin cücərdiyi sabit ağac kökünə bənzədilmişdir. İnsan cəmiyyətinin həqiqi həyatı, maddi və mənəvi varlığının asılı olduğu pak inanclar, gözəl əxlaq və saleh əməllərin hamısı bu kökdən qaynaqlanır. Tövhid və Allahpərəstlik insanın varlığına kök atdığı zaman insan özü həmin pak ağacın bir nümunəsinə çevrilir, bir tərəfdən qəlbi və ruhu aləmin Rəbbinə qovuşur, digər tərəfdən insanlar onun varlığının bərəkətindən bəhrələnirlər. Buna görə də bu ayəni izah edən Əhli-beyt (ə) hədislərində sözügedən pak ağac İslam peyğəmbəri (s) və onun pak ailəsi hesab edilmişdir. Hətta sabit və sarsılmaz tövhid inancından qaynaqlanan, xeyir və

[1068] Nümunə, c.10, səh.327

bərəkəti bütün dünyanı saran istənilən düzgün etiqadı və hər bir saleh əməli bu ağacın bir nümunəsi hesab etmək olar[1069].

[1069] Əl-Mizan, c.12, səh.49

25. Rəbbinin izni ilə öz bəhrəsini hər zaman verir. Allah insanlar üçün misallar çəkir ki, bəlkə, xatırlayıb (ibrət alsınlar).

26. Pis sözü isə yerdən qopardılmış və artıq sabit dura bilməyən pis bir ağaca bənzədib.

27. Allah iman gətirənləri dünya həyatında da, axirətdə də sabit etiqad və sözünə görə möhkəm saxlayar. Allah zalımları sapdırar. Allah istədiyini edər.

28. Məgər sən Allahın nemətlərini küfrə dəyişənləri və öz xalqını yoxluq və həlak yurduna sürükləyənləri görmədinmi?

29. Onlar Cəhənnəmin oduna girəcəklər. Ora necə də pis yaşayış yerdir.

30. Onlar (insanları) Allah yolundan sapdırmaq üçün Ona ortaqlar qoşdular. De: “(Bir neçə gün dünyanın ləzzət və zövqündən) bəhrələnin! Aqibətiniz oddur”.

31. İman gətirən qullarıma de ki, namaz qılsınlar, alış-verişin və dostluğun olmayacağı bir günün gəlməsindən əvvəl onlara verdiyimiz ruzidən Allah yolunda gizli və aşkar xərcləsinlər.

32. Göyləri və yeri yaradan, göydən su endirən, o su ilə sizin üçün ruzi olaraq meyvələr yetişdirən, əmri ilə dənizdə üzməsi üçün gəmiləri sizə tabe və çayları ram edən Allahdır!

33. (Nizam-intizamlı bir proqram üzrə) davamlı hərəkətdə olan Günəşi və Ayı, həmçinin gecəni və gündüzü sizin ixtiyarınıza verən Odur.

---

26. Küfr və günahın çirkin ağacı: “Pis söz” xəbis və çirkin olan bütün anlayışları əhatə edir. O cümlədən çirkin, bəyənilməyən, danışığa, azdırıcı və səhv proqramlara, çirkin və bulaşıq insanlara şamil olur. Təbii ki, kökdən qoparılmış çirkin və pis ağac boy atmaz, inkişaf etməz, ucalmaz, gül açmaz, meyvə gətirməz, kölgə salmaz, mənzərəsi olmaz, sabit və möhkəm olmaz. Belə bir ağac yandırılmaqdan başqa heç bir dərdə dəyməz[1070]. Bəzi hədislərdə çirkin əməvi sülaləsi və ya Əhli-beyt düşmənləri bu ağacın bir nümunəsi hesab edilmişdir[1071].

27. Haqq yolunda qətiyyətli və sabitqədəm olmağın mükafatı: Allah-taala bu ayədə qətiyyətli imanları ilə sabitqədəm olan möminləri mətin olmalarına görə dünya və axirət həyatında düz yoldan sapmaqdan qoruyacağını, xoşbəxtlik yolunda saxlayacağını vəd verir. İnsanın kamillik yüksəlişində adlamalı olacağı mühüm mərhələlərdən biri dünyadan Bərzəx aləminə köçməkdir. Bu ayənin təfsirini ehtiva edən çoxlu sayda hədisdə Allah-taalanın bu qorxulu və dəhşətli mərhələdə mömini sapmaqdan qoruyacağı qeyd edilmişdir. İmam Sadiq (ə) buyurmuşdur: ***“Bizim dostlarımız və şiələrimizdən biri can verərkən Şeytan onun sağına və soluna keçib onu bizdən uzaqlaşdırmağa çalışır. Ancaq Allah onun sapmasına imkan vermir. “Allah iman gətirənləri sabit saxlayar” ayəsinin mənası budur.”*** Əlbəttə, bu insanin kamillik yüksəlişindəki bir mərhələsidir. Allah bu ayədə sabitqədəm möminləri dünya və axirətdə bütün sapmalardan qoruyacağını vəd vermişdir[1072].

28. Allahın nemətini küfrə dəyşənlər: Bunlar Allahın nemətlərinə şükür etmək əvəzinə nankorluq edən, Allahın nemətlərindən o razı

[1070] Nümunə, c.10, səh.335
[1071] Ətyəbül-bəyan, c.7, səh.384
[1072] Əl-Mizan, c.12, səh.54

qalmadığı şəkildə istifadə edən küfr rəhbərləri, doğru yoldan sapmış keçmiş ümmətlər və Peyğəmbər (s) ümmətidir. Allahın nemətlərinə ən yaxşı şükür edənlər onlardan Allahın razı qaldığı şəkildə istifadə edənlərdir. Dildə şükür etmək şükürün bir mərhələsidir. Bu şəkildə küfr rəhbərləri həm özlərini, həm də xalqlarını yandırıcı Cəhənnəmə sürükləyirlər. İmam Əli (ə) belə buyurmuşdur: ***"Biz (Əhli-beyt) Allahın bəndələrinə bəxş etdiyi nemətik."*** Allahın nemətləri saysız-hesabsızdır. Məsum imamlar (ə) Allahın insanlara bəxş etdiyi ən böyük nemətdir[1073].

32-33. Hər şey sənə ram edilmişdir: Quran nöqteyi-nəzərindən insan o qədər əzəmətlidir ki, bütün varlıqlar Allahın əmri ilə ona ram edilmişdir. Yəni ya onların ixtiyarı insanın əlindədir, ya da insanın mənafeyi üçün hərəkətdədirlər. İnsan o qədər yüksəldilmişdir ki, bütün yaradılış kompleksində bir ali hədəfə çevrilmiş, hər şey ona ram edilmiş, onun əmrinə verilmişdir. Bütün bu nemətlərin şərhi insana yeni şəxsiyyət bəxş edib onu öz əzəmətli məqamı ilə tanış etməklə yanaşı, onda şükür etmək hissini də qaldırır. Qeyd etmək lazımdır ki, ram etmək Quranda iki mənada işlədilmişdir: Günəş, ay və sairənin mövcudluğunun insanların maraqlarına xidmət etməsi ram etmənin bir, gəmilərin dənizlərədə üzməsinin ixtiyarının insana verilməsi isə onun başqa formasıdır[1074].

[1073] Əl-Mizan, c.12, səh.63
[1074] Nümunə, c.10, səh.355

34. O sizə istədiyiniz hər şeydən vermişdir. Əgər Allahın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz. İnsan zalım və naşükürdür.

35. (Xatırla!) Bir zaman İbrahim demişdi: “Ey Rəbbim! Bu şəhəri əmin-amanlıq şəhəri et. Məni və oğullarımı bütlərə tapınmaqdan uzaqlaşdır.

36. Ey Rəbbim! Onlar çox adamı azdırıb. Kim mənə tabe olsa, o, məndəndir. Kim də mənə itaətsizlik göstərsə, Sən bağışlayansan, rəhimlisən.

37. Ey Rəbbimiz! Namaz qılsınlar deyə mən övladlarımdan bəzisini Sənin mühafizə olunan Evinin yaxınlığında, heç bir bitki və su olmayan yerdə sakin etdim. İnsanların bir qrupunun qəlbini onlara meylli et və onlara məhsullardan ruzi ver ki, bəlkə şükür etsinlər.

38. Ey Rəbbimiz! Sən bizim nəyi gizli saxladığımızı və nəyi aşkara çıxartdığımızı bilirsən. Nə yerdə, nə də göydə heç nə Allahdan gizli deyil.

39. Qoca vaxtımda mənə İsmaili və İshaqı bəxş edən Allaha həmd olsun! Həqiqətən, Rəbbim dua eşidəndir.

40. Ey Rəbbim! Məni də, övladlarımdan olanları da namaz qılan et! Ey Rəbbimiz! Duamı qəbul elə!

41. Ey Rəbbim! Haqq-hesab günü məni, valideynlərimi və möminləri bağışla!”

42. Zalımların etdikləri əməllərdən Allahın xəbərsiz olduğunu sanma. Əslində, onların (cəzasını) gözlərin bərələ qalacağı günə saxlayır.

---

34. Ehtiyac duyduqlarınız sizə verilib: Bu ayədə Allahın insanlara lütfkarlıq göstərdiyi, istədiklərinin bir qisminin verildiyi qeyd edilmişdir. Çox vaxt insan özü bilmədən Allahdan ziyanına, hətta məhvinə səbəb olacaq şeylər istəyir. Lakin elm, hikmət sahibi olan mehriban Allah belə bir istəyi yerinə yetirmir. Çox vaxt da insan dili ilə Allahdan nəyisə istəmir, ancaq daxildən, içdən, təbiəti və varlığı ilə onu təmənna edir. Allah insanın dilinə gətirməyib varlığının dərinliklərində təmənna etdiyi bu şeyi ona verir. “İstədiyini” sözünü həm sözlü, həm də sözsüz istəyə şamil etmək olar[1075].

36. İbrahimin həqiqi övladları: Öncəki ayədə həzrət İbrahimin (ə) Allahdan onu və övladlarını bütpərəstlikdən uzaq etməsini istədiyini oxuduq.

[1075] Nümunə, c.10, səh.357

Bununla da onun insanları müşrik və təkAllahlı olmaq üzrə iki qrupa böldüyünün şahidi oluruq. Nəzər nöqtəsi olan ayədə isə İbrahim (ə) "Kim mənim yolumu getsə, məndəndir, qəlbində və əməlində mənim yolumdan üz döndərib özünü şirkə bulaşdıran şəxs məndən deyil", - deyə buyurur. Bəlkə də həzrət İbrahim (ə) bu duasında çox gözəl bir tərzdə demək istəyib ki, İlahi, mən Səndən övladlarımın şirkdən uzaqlaşdırılmasını istəsəm də, əslində, həqiqi övladlarım, hətta fiziki olaraq mənim nəslimdən olmasalar da belə, mənim dinimə tabe olan və Sənə ibadət edənlərdir. Tövhid dinindən üz çevirənlərin, hətta fiziki olaraq mənim nəslimdən olsalar da, mənə heç bir aidiyyatları yoxdur. Bu, çox mühüm bir məsələdir. Allah və Onun övliyalarının nəzərində dəyərli olan şey zahiri əlaqələr deyil. Allahın nəzərində dəyər meyarı peyğəmbər və imamlarla olan mənəvi əlaqə və ruhi bənzərlikdir. Hədislərin birində belə deyilir: "İmam Sadiq (ə) buyurdu: "***Bizi sevən biz Əhli-beytdəndir."*** Soruşdum: ***"Sənə fəda olum, sizdəndir?"*** Buyurdu: ***"And olsun Allaha, bizdəndir. Məgər Allahın İbrahim haqqında buyurduğu "Kim mənə tabe olsa, həqiqətən, o məndəndir" kəlamını eşitməmisənmi?"*** İmam Sadiqə (ə) aid edilən başqa bir hədisdə deyilir: ***"Sizlərdən hər kəs Allahdan qorxsa və saleh əməl sahibi olsa, o biz Əhli-beytdəndir."*** Rəvayətçi soruşdu: ***"Siz Əhli-beytdəndir?"*** Buyurdu: ***"Bəli, biz Əhli-beytdəndir. Çünki İbrahim (ə) bu barədə belə buyurmuşdur: "Kim mənə tabe olsa, həqiqətən o məndəndir"*** Ömər ibn Yəzid soruşdu: "Belə bir şəxs Ali-Muhəmməddəndir?" Buyurdu: ***"Bəli, And olsun Allaha, Ali-Muhəmməddəndir. Məgər Allahın "İbrahimə ən yaxın olan şəxslər ona tabe olanlardır", həmçinin "Kim mənə tabe olsa, həqiqətən o məndəndir", - deyə buyurduğunu eşitməmisənmi?"***[1076]

[1076] Əl-Mizan, c.12, səh.69

37. Hacər və İsmayılın Məkkədə tərk edilməsi: İbrahimin (ə) kənizi Hacərdən bir oğlu olur, adını İsmayıl qoyur. Paxıllıq onun birinci arvadı Saraya güc gəlir və Hacərlə övladı İsmayılın varlığına tab gətirə bilmir. Buna görə də İbrahimdən (ə) onları başqa bir yerə aparmasını istəyir. İbrahim (ə) Allahın əmri ilə bu istəyi yerinə yetirir və İsmayılla Hacəri o dövrlərdə quru, yaşayış üçün əlverişsiz olan Məkkə çölünə aparır. Orada onlarla xudahafizləşib geri dönür. Çox çəkmir ki, körpə və ana günəşin istisi altında susayırlar. Hacər körpəsinin canını xilas etmək üçün çox çalışır. Bu yerin böyük bir ibadət mərkəzi olmasını istəyən Allah Zəmzəm bulağını üzə çıxarır. Bir müddətdən sonra bu yerin yaxınlığından keçən səhranişin Cürhüm qəbiləsi hadisədən xəbər tutub orada məskən salır və bu gedişlə Məkkə şəhərə çevrilir[1077].

[1077] Nümunə, c.10, səh.362

43. Boyunlarını uzadıb başlarını səmaya doğru yuxarı qaldıracaq, hətta kipriklərini belə qırpmayacaqlar. Ürəkləri boşalacaq.

44. İnsanları ilahi əzabın gələcəyi günlə qorxut. O gün zalımlar deyəcəklər: “Ey Rəbbimiz! Bizə yaxın bir vaxta qədər möhlət ver ki, sənin dəvətini qəbul edək və peyğəmbərlərin arxasınca gedək”. (Ancaq onlara belə cavab veriləcək:) “Məgər daha əvvəl siz fani olacağınız barədə and içməmişdiniz?!

45. Siz özlərinə zülm edənlərin evlərində məskunlaşdınız. Onlarla necə davrandığımız sizə aydın oldu və sizə misallar da çəkdik”.

46. Onlar öz hiylələrini qururdular. Onların hiyləsi dağları yerindən oynatsa belə, Allaha bəllidir. (Hiylələri sənə heç nə edə bilməz).

47. Allahın Öz peyğəmbərlərinə verdiyi vədə xilaf çıxacağını sanma. Çünki Allah qüdrətlidir, intiqam alanadır.

48. O gün yer başqa bir yerlə, göylər də (başqa göylərlə) əvəz olunacaq və insanlar tək olan qüdrətli Allahın hüzurunda duracaqlar.

49. O gün günahkarları bir-birlərinə zəncirlənmiş görəcəksən.

50. Onların paltarları qətrandan olacaq, üzlərini də alov bürüyəcəkdir.

51. Allah hər kəsə qazandığının əvəzini vermək üçün belə edəcəkdir. Allah sürətli haqq-hesab çəkəndir!

52. Bu (Quran), insanlara bir ismarışdır. Qoy hamı onun vasitəsilə həm qorxsun, həm Onun Tək İlah olduğunu bilsin, həm də ağıl sahibləri ibrət alsınlar.

---

43. Qiyamət günü zalımların vəziyyəti: Əvvəlki və bu ayədə Qiyamətin beş xüsusiyyəti qeyd edilmişdir: Gözlərin bərəlməsi, boyunların uzanması, başların səmaya doğru yuxarı qaldırılması, kipriklərin qırpınmaması, hər şeyin unudulması. Bu xüsusiyyətlər Qiyamət gününün qorxu və dəhşətindən xəbər verən xüsusiyyətlərdir. Öz məğrur və təkəbbürlü baxışları ilə hər şeyə istehza dolu nəzərlərlə baxan adamlar həmin gün elə aciz duruma düşəcəklər ki, hətta gözlərini qırpmağa belə qüdrətləri çatmayacaq. Qorxulu və dəhşətli mənzərələri görməmək üçün gözlərini göyə dikəcəklər, çünki baxdıqları hər tərəfdə dəhşətli mənzərələrin şahidi olacaqlar. Özlərini universal ağıl sahibi, başqalarını ağılsız sayanlar ağıllarını elə itirəcəklər ki, donmuş, qurumuş, təfavütsüz, hərəkətsiz, qorxu və dəhşət dolu baxışları dəlilərin, hətta ölülərin baxışlarını xatırladacaq. Həqiqətən, Quran hər hansı mənzərənin təsvirini verərkən ən qısa ifadələrlə ən kamil təsvirləri verir. Bu iki ayə də bunun bir nümunəsidir[1078].

44. Bu ayədə hansı günə işarə edilmişdir? Keçən iki ayədə zalımların Qiyamətdəki vəziyyətinə, qorxulu gündə onların vəziyyətinin nə qədər çətin olduğuna işarə edilmişdir. Bu ayədə də insanlara ilahi əzabın gələcəyi günlə qorxu gəlinir. Əllamə Təbatəbai kimi böyük təfsirçilər hesab edirlər ki,

---

[1078] Nümunə, c.10, səh.375

burada Qiyamət günü deyil, ilahi əzabın bu dünyada qəfildən gəldiyi, peyğəmbərlərlə onların ümmətləri arasındakı anlaşılmazlığa aydınlıq gətirən, peyğəmbərlərlə düşmənçilik edən zalımların və təkəbbürlülərin məhv edildiyi gün nəzərdə tutulmuşdur. Bu əzab peyğəmbərlərə itaətsizlik göstərən bütün ümmətlər üçün təyin edilmiş və əcəllərinin çatdığı vaxt gerçəkləşən bir əzabdır. Quranda Lut, Hud, Səmud və sair ümmətlərin dünyəvi əzabları açıq şəkildə ifadə edilmişdir. Hətta Peyğəmbərdən (s) sonra İslam peyğəmbərinin (s) ümməti hesab edilən bütün insanlar da bu qanundan istisna edilməmişdir. Quranın bir çox ayələrində bu ümmətə elə bu dünyada əzab vədi verilmişdir. İlahi əzabın bu ümmətin zalımlarını yaxalayacağı və məhv edəcəyi gün artıq şirk və günahın kökü kəsiləcək, yer üzündə təkcə möminlər qalacaq. Allah-taala bu barədə belə buyurmuşdur: ***"Biz Zikrdən (Tövratdan) sonra Zəburda da Mənim saleh bəndələrimin yer kürəsinin varisi (hakimi) olacağını yazmışıq."*** (Ənbiya surəsi, 105-ci ayə)[1079] Əhli-beyt (ə) hədislərində "Ənbiya" surəsinin 105-ci ayəsinin İmam Mehdinin (ə) zühuruna işarə etdiyini oxuyuruq. Hədislərdə qeyd edilir ki, yer üzü zülm və haqsızlıqla dolduqdan sonra o, buranı haqq-ədalətlə dolduracaq[1080].

48. Qiyamət təsəvvür edilə bilməyəcək bir hadisədir: Qiyamət günü yer və göylərin əvəzlənəcəyindən bəhs edən ayələri dərindən araşdırdıqda bu mövzunun ağıl və düşüncənin fövqündə olduğu, təsəvvürə sığmayacaq qədər əzəmətli bir hadisə olduğu aydın olur. Təkcə bu qədər başa düşmək olar ki, həmin gün kainatın mövcud sistemi tamamilə dəyişəcək və başqa bir forma alacaq. Bu mövzunu ehtiva edən hədislərdə hissi qavrayışlar əsasında verilən izahların əsas məqsədi ayənin mənasını insanlara uyğun misallarla başa salmaqdır. Quranın çox ayələrində vəziyyət eynidir. Nümunə üçün "Nəbə"

[1079] Əl-Mizan, c.12, səh.80
[1080] Əl-Mizan, c.14, səh.338

surəsinin 20-ci ayəsinə baxaq: “Qiyamətdə dağlar hərəkətə gələcək, ilğıma dönəcəkdir.” Məlumdur ki, “dağların ilğıma dönməsi” deyilərkən onların, ilğım formasına düşməsi deyl, yerlərindən hərəkət etməsi və məhv olması nəzərdə tutulur. Torpağın gümüş formasına düşəcəyini ifadə edən hədislər ağıl və düşüncəyə uyğun izahı ehtiva edir. Yoxsa ki, həmin günün həqiqəti ağıl və dərrakəmizin hüdudarı xaricindədir[1081].

[1081] Əl-Mizan, c.12, səh.87

"Hicr" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Əlif, Ləm, Ra. Bunlar Kitabın və açıq-aydın Quranın ayələridir.

2. Kafirlər bəlkə də arzu edəcəklər ki, kaş müsəlman olaydıq.

3. Qoy onlar yeyib-içsinlər, ləzzət alsınlar və arzular onların başlarını qatsın. Ancaq tezliklə biləcəklər.

4. Biz heç bir şəhər və məmləkətin əhalisini müəyyən olunmuş əcəli gəlib çatmamış məhv etmədik.

5. Heç bir ümmət öz əcəlini nə qabaqlaya bilər, nə də yubada bilər.

6. Dedilər: “Ey Zikr nazil edilən şəxs! Həqiqətən, sən dəlisən.

7. Əgər doğru danışırsansa, nə üçün mələkləri bizə gətirmirsən?”

8. Biz mələkləri ancaq haqq üçün endiririk. O zaman kafirlərə möhlət verilməz.

9. Biz Quranı nazil etdik və Biz onu mütləq, qoruyacağıq.

10. Biz səndən öncə də əvvəlki ümmətlərə peyğəmbərlər göndərmişdik.

11. Onlara elə bir elçi gəlməzdi ki, ona istehza etməsinlər.

12. Beləcə, Biz Quranı günahkarların qəlbinə yeridirik.

13. Onlar (hələ də) ona inanmırlar. Əvvəlki xalqların da davranışı belə idi.

14. Əgər onlara göydən bir qapı açsaq və onlar dayanmadan oraya qalxsalar,

15. yenə də deyərlər: “Gözlərimizi bağlayıblar, bəlkə də biz sehrlənmişik”

“Hicr” surəsinin ümumi məzmunu: Bu surədə Peyğəmbərə (s) dəli deyən, Quranı dəlilərin boş-boş danışıqları hesab edən kafirlərin Allah rəsulunu (s) məsxərəyə qoymasından bəhs edilir. Allah bu surədə peyğəmbərinə təsəlli və təskinlik verir, onu səbrli, dözümlü olmağa çağırır, insanlara müjdə verir, qorxu gəlir[1082].

2. Kaş müsəlman olaydım: Bu ayədə o biri dünyaya işarə edilmişdir. Yəni kafirlər axirətdə öz əməllərinin acı nəticəsinə görə müsəlman olmalarını arzu edəcəklər. Əlbəttə, arzuları əsla gerçəkləşməyəcək. Çünki iman və təslimin axirətdə deyil, dünyada faydası var. İmam Sadiq (ə) hədislərinin birində belə buyurmuşdur: “Qiyamət olan kimi carçı Allah tərəfindən car çəkib müsəlmanlardan başqa heç kəsin Cənnətə daxil olmayacağını deyəcək. Məhz həmin gün kafirlər arzu edib deyəcəklər ki, kaş dünyada müsəlman olaydıq.” Peyğəmbər (s) hədislərinin birində belə buyurmuşdur: “Cəhənnəmliklər bir yerə toplaşdıqları vaxt xəta etmiş müsəlmanlar da onlarla bir yerdə olacaq. Kafirlər müsəlmanlara deyəcəklər: “Məgər siz müsəlman deyildiniz?” Onlar “Bəli”, - deyə cavab verəcəklər. Kafirlər deyəcəklər: “Deməli, təsdiq və imanınızın da sizə faydası olmadı və siz bizimlə birlikdəsiniz.” Bu vaxt Allahın oddan xilas etmədiyi heç bir tövhid inanclısı qalmayacaq. Bundan sonra Allah rəsulu (s) “Kafirlər bəlkə də arzu edəcəklər ki, kaş müsəlman olaydıq” ayəsini oxuyur[1083].

8. Kafirlərin məhvolma istəyi: Bu ayənin təfsiri ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Bu təfsirlərin birində, daha doğrusu, digərləri ilə müqayisədə daha ağlabatan görünən təfsirdə deyilir: Mələklərin hiss üzvləri ilə qavranıla bilməməsi Allahın qanunudur. Əgər kafirlərin istəyinə uyğun olaraq Allah möcüzə vasitəsilə mələkləri göndərib onların gözlərinə göstərsə

[1082] Əl-Mizan, c.12, səh.93
[1083] Əl-Mizan, c.12, səh.95; Nümunə, c.11, səh.7

idi, ilahi dəlil tamamlanmış, heç bir şək-şübhəyə yer qalmamış olacaqdı. Həmin vaxt kafirlərin iman gətirməyəcəkləri təqdirdə əzabın nazil olub onları məhv etməsi qaçılmaz olacaqdı. Sözügedən kafirlər təkəbbür və inadkarlığın son həddində olduqları üçün yenə də iman gətirməyəcəkdilər. Belə olduğu təqdirdə onların bu istəyi məhvolma istəyi hesab edilir[1084].

9. Quranın toxunulmazlığı: Bu ayə Quranın təhrf olunmadığını sübuta yetirən dəlillərdən biridir. Ayə Quranın bütün növ təhrif və dəyişmədən qorunduğunu, eynilə Peyğəmbərə (s) nazil olan həmin Quran olduğunu göstərir. Allah-taala bu ayədə qətiyyətlə onu qoruduğunu bəyan edir. "Fussilət" surəsinin 41-42-ci ayələrində də bu həqiqət öz əksini tapmışdır. Allah-taala həmin ayələrdə belə buyurmuşdur: "Bu, sarsılmaz bir Kitabdır. Batil ona nə öndən, nə də arxadan nüfuz edə bilməz. O, hikmət sahibi, tərifəlayiq Allah tərəfindən nazil edilmişdir."[1085]

12. Günahkarların Quranı dərk etməyə ləyaqətləri çatmır: Allah-taala nişanələrini müxtəlif yollarla günahkar və müxaliflərə başa salır, sanki onların qəlblərinə daxil edir. Ancaq təəssüflər olsun ki, onların təmiz olmayan qəlbləri həmin nişanələri özlərinə çəkmir, əksinə dəf edir, ruha cəzb olunmasına imkan vermir. Bu, dadlı yeməyi qəbul etməyib geri qaytaran xəstə mədə və həzm sistemin xatırladır[1086].

[1084] Əl-Mizan, c.12, səh.96; Nümunə, c.11, səh.15
[1085] Əl-Mizan, c.12, səh.99; Nümunə, c.11, səh.18
[1086] Nümunə, c.11, səh.36

16. Biz səmada bürclər yaratdıq və onu baxanlar üçün bəzədik.

17. Onu qovulmuş hər bir şeytandan qoruduq.

18. Ancaq kim xəlvətcə qulaq assa, onu parlaq bir meteor təqib edər.

19. Biz yeri açıb genişləndirdik, orada möhkəm dağlar yerləşdirdik və orada hər şeydən lazım olduğu qədər yetişdirdik.

20. Orada həm sizin üçün, həm də sizin ruzi verə blmədiklәriniz üçün dolanışıq vasitələri yaratdıq.

21. Hər şeyin xəzinələri Allahın yanındadır. Biz ondan ancaq müəyyən ölçüdə endiririk.

22. Biz külәkləri mayalandırıcı vasitə (buludlarda su əmələ gətirən, bitkiləri tozlandıran bir vasitə) kimi göndərdik, göydən yağmur yağdırıb onu sizə içirtdik. Halbuki sizin onu qoruyub saxlamaq qüdrətiniz yox idi.

23. Dirildən də, öldürən də, varis olan da Bizik.

24. Sizdən əvvəl gəlib-gedənləri də bilirik, sonra kimlərin gələcəyini də bilirik.

25. Rəbbin (Qiyamətdə) onları mütləq toplayacaq. Çünki O, hikmət sahibidir, biləndir.

26. Biz insanı pis qoxulu palçıqdan götürülmüş quru gildən yaratdıq.

27. Cinləri isə daha öncə yandırıcı və qızmar oddan yaratmışdıq.

28. (Xatırla!) Bir zaman Rəbbin mələklərə belə demişdi: “Mən pis qoxulu qara palçıqdan götürülmüş quru gildən insan yaradacağam!

29. Mən onu tamamlayıb Öz ruhumdan üfürdüyüm zaman siz ona səcdə edin!”

30. Mələklərin hamısı istisnasız olaraq ona səcdə etdi.

31. Yalnız İblisdən başqa. O, səcdə edənlər arasında olmaqdan imtina etdi.

---

16. Səma bürcləri: “Büruc” sözü mənaca aşkara çıxmaq, görünmək olan “bürc” sözünün cəmidir. Buna görə də şəhər divarlarının xüsusi hissələri, qoşunların özünü xüsusi şəkildə büruzə verən hissələri bürc adlanır. “Səma bürcləri” deyilərkən günəş və ayın mövqeləri nəzərdə tutulur. Daha dəqiq desək, biz yer kürəsindən aya və günəşə baxdığımız zaman fəsillərdən və ilin ayrı-ayrı vaxtlarından asılı olaraq, onların ulduzlar kompleksinin yaratdığı formalarla qarşı-qarşıya dayandığını görürük. Məsələn, günəşin buğa, oğlaq, tərəzi və ya əqrəb bürcündə olduğunu deyirik.

Təbii ki, bu bürclərin mövcudluğu, ay və günəşin mövqeləri, bu bürclərin hərəkət trayektoryası dünyanın təqvim sistemini formalaşdırır. Bu, Allahın elm və qüdrətinin parlaq dəlilidir.

17-18. Meteor: Şeytanların xəlvətcə qulaq asması, meteor və sair haqqında "Saffat" surəsinin ilk ayələrini təfsiri edərkən məlumat verəcəyik.

19. Bitkilərin heyrətamiz sistemi: Mənası hər bir şeyin ölçüsünün müəyyən edilməsi olan "vəzn" sözündən düzəlmiş "mozun" sözü ilə bitkilərin bütün hissələrinin dəqiq hesabı, heyrətamiz sistemi və uyğun ölçülərinə işarə edilmişdir. Bu hissələrin hər birinin, yəni gövdə, budaq, yarpaq, çiçək, toxum, meyvənin ayrı-ayrı funksiyaları vardır. Yer kürəsində müxtəlif xüsusiyyətləri, funksiyaları, təsirləri olan bəlkə də yüz minlərlə bitki növü var. Bunların hər birinin öyrənilməsi Allahtanımada ipucu rolunu oynayır. Bitkilərin hər birinin yarpağı Allahı tanımaq üçün bir dəftərdir[1087]. Bəzi təfsirçilər hesab edir ki, burada Allahın hər bitkidən insanların ehtiyac duyduqları qədər yaratdığı nəzərdə tutulmuşdur[1088].

21. Hər şeyin xəzinələri Allah yanındadır: Xəzinə insanların mallarını yığdıqları yerə deyilir. Təbii haldır ki, insan yalnız hər zaman əldə etmək imkanına malik olmadığı şeyləri toplayıb qoruyur. Buna görə də imkan düşdüyündə lazım bildiyi şeyi əldə edir və zərurət yaranacağı vaxt istifadə etmək məqsədilə xəzinədə saxlayır. Şübhəsiz ki, bu məna Allah üçün təsəvvürolunmazdır. Buna görə də bir qrup təfsrçi Allahın xəzinələrini onun qüdrətinin nəticələri kimi təfsir etmişdir. Yəni hər şey Allahın qüdrət xəzinəsində mövcuddur, lazım və məsləhət bildiyi miqdarı meydana gətirir. Habelə "endirmək" sözünü isə yaratmaq və meydana gətirmək kimi izah

[1087] Nümunə, c.11, səh.54
[1088] Quranın ismarışı, c.2, səh.316

etmişlər. Allah tərəfindən bəndəyə bəxş edildiyi üçün bu ifadədən istifadə edilmişdir[1089].

22. Küləklər buludları və bitkiləri dölləndirir: Botanikada bütün btkilərin erkək və dişilərə bölündüyü, külək əsdiyi zaman erkək bitkinin güllərinin toz zərrəciklərinin dişi bitkiyə köçürüldüyü, nəticədə, onun mayalandığı artıq sübuta yetmiş məsələlərdəndir. Ayə sözügedən həqiqəti bəyan edir[1090]. Bəzi təfsrçilər bu ayədə buludların küləklər tərəfindən mayalanmasından danışıldığını qeyd etmişlər. Belə ki, küləklər bulud parçalarını bir-birnə birləşdirir, onları mayalandırır və nəticədə yağış yağmasına zəmin yaradır[1091].

26-29. İnsanın iki təzadlı yönü: Bu ayələrdən belə nəticəyə gəlirik ki, insan iki təzadlı yöndən təşkil olunmuşdur. Bu yönlərin biri böyüklük və əzəmətin ən yüksək həddindədir, digəri isə dəyərin ən aşağı həddindədir. Bir tərəfdən ona ilahi ruh üfürülüb, digər tərəfdən pis qoxulu quru palçıqdan təşkil olunub. “Öz ruhum” ifadəsi insan ruhunun çox qymətli və əzəmətli olduğunu, hətta onu mələklərdən də üstün edəcək ucalığa malik olduğunu göstərir. Ramazan ayının əzəmətini gösətərən Allahın ayı ifadəsini buna misal göstərə bilərik[1092].

[1089] Nümunə, c.11, səh.58
[1090] Əl-Mizan, c.12, səh.144
[1091] Nümunə, c.11, səh.61
[1092] Nümunə, c.11, səh.78

32. (Allah) buyurdu: “Ey İblis! Nə üçün sən səcdə edənlərlə deyilsən?”

33. (İblis) dedi: “Pis qoxulu palçıqdan götürülmüş quru gildən yaratdığın insana əsla səcdə etmərəm!”

34. (Allah) buyurdu: “Onların (mələklərin) sırasından çıx! Artıq sən (dərgahımızdan) qovuldun.

35. Qiyamət gününə qədər sənə lənət olacaqdır”.

36. (İblis) dedi: “Ey Rəbbim! Diriliş gününə qədər mənə möhlət ver”.

37. (Allah) buyurdu: “Sən möhlət verilənlərdənsən.

38. Ancaq müəyyən edilmiş vaxtın gününə qədər”.

39. (İblis) dedi: “Ey Rəbbim! Sən məni haqq yoldan azdırdığına görə, mən də (maddi nemətləri) yer üzündə onlara gözəl göstərib hamısını azdıracağam.

40. Yalnız Sənin ixlaslı bəndələrin istisnadır”.

41. (Allah) buyurdu: “Bu, Mənim öhdəmdə olan düz yoldur.

42. Sənə tabe olan azğınlar istisna olmaqla, qullarım üzərində sənin heç bir hökmranlığın olmayacaq”.

43. Cəhənnəm onların hamısına vəd olunmuş yerdir.

44. Onun yeddi qapısı vardır. Hər qapı üçün onlardan müəyyən bir dəstə təyin olunmuşdur.

45. Şübhəsiz ki, müttəqilər bağlarda və çeşmələrin kənarında olacaqlar.

46. (Mələklər onlara deyəcək): “Bu bağlara sağ-salamat və arxayınlıqla daxil olun!”

47. Biz onların ürəklərindəki kin-küdurəti çıxarıb atdıq. Onlar qardaşdırlar, taxt üstündə qarşı-qarşıya əyləşərlər.

48. Onlara orada heç bir yorğunluq toxunmayacaq və onlar oradan çıxarılmayacaqlar.

49. Qullarıma xəbər ver ki, Mən bağışlayanam, rəhmliyəm.

50. Əzabım isə üzücü əzabdır.

51. Onlara İbrahimin qonaqları barəsində də xəbər ver.

---

38. İblisin möhlətinin başa çatacağı vaxt: Təfsirçilərin çoxu hesab edir ki, burada dünyanın sonuncu, İsrafilin birinci surunu çalacağı gün nəzərdə tutulmuşdur. Çünki həmin günə qədər insanlar heç bir vəzifədən azad edilməyəcək, Allaha qarşı çıxmaq və üsyan etmək imkanı davam edəcək. Lakin Quran ayələri, hədislər, hətta əqli dəlillər bu fikrin əksini ifadə edir. Quran ayələri, hədislər, hətta əqli dəlillər insanın xoşbəxtliyə doğru hərəkətdə olduğunu və tezliklə elə bu dünyada xoşbəxtliyin kamillik zirvəsinə yüksələcəyini, insan cəmiyyətinin günah və pisliklərdən xilas olacağını deməyə əsas verir. Belə ki, elə bir gün gələcək ki, yer üzündə yalnız Allaha ibadət ediləcək, küfr, fitnə-fəsad və günahın kökü yer üzündən tamamilə kəsiləcək, ruhi xəstəliklərə və şeytan vəsəvəsələrə son qoyulacaq. Deməli, İblisə verilən möhlətin başa çatacağı gün dünyanın sonu deyil, insan

cəmiyyətinin Allahın iradəsi ilə islah olacağı, fitnə-fəsadın kökünün kəsiləcəyi gündür. Bəzi hədislərdə bu gün həzrət Mehdinin (ə) zühur edəcəyi gün kimi izah edilmişdir[1093].

39. Şeytanın gözəl göstərmə davranışı: Allah Şeytanı haqq yoldan əsla azdırmamışdır. Bu, İblisin özünə bəraət qazandırmaq, azğınlığına don geyindirmək üçün istifadə etdiyi mənfur vasitə idi. Bu, ümumiyyətlə, İblis və bütün şeytanların ənənəsidir; birincisi, günahlarını başqalarının boynuna atır, ikincisi, öz çirkin əməllərini yanlış məntiqlərlə izah etməyə çalışırlar. Onlar bunu təkcə Allah bəndələri deyil, hər şeydən xəbərdar olan Allahın özünə də qarşı etməkdən çəkinmirlər. Şeytanın gözəl göstərməsi deyilərkən Şeytanın çirkini gözəl göstərən və ya müxtəlif amillərdən istifadə edərək, çirkin davranışları gözəl göstərən şeytan vəsvəsələri nəzərdə tutulur. Öldürücü maddələrin şirin və dadlı örtüklərdə verilməsi, böyük azğınlıqların mədəniyyət, intellekt, azad düşüncə və sair kimi örtüklərdə təqdim edilməsini buna misal göstərmək olar[1094].

41-42. Şeytan heç kəsi məcbur edə bilməz: Bu iki ayə insan iradəsinin azadlığını sübuta yetirən möhkəm ayələrdir. Belə ki, İblis və ordusu heç kəsi günah və fitnə-fəsada məcbur edə bilməz. Onların işi yalnız günahı gözəl göstərmək, hiyləgərlik, şər və pisliyə dəvətdən ibarətdir, son qərar insanın öz əlindədir. Əslində, Allah-taala bu iki ayədə İblisin insanı tam şəkildə öz hökmranlığı altına alacağı ilə bağlı xam xəyalını onun beynindən çıxarır[1095].

44. Cəhənnəmin qapıları: Quranın Cəhənnəmin qapılarının necə olacağı ilə bağlı heç nə deyilməmişdir. Quran ayələri və məsumların (ə) hədislərini diqqətlə təhlil etdikdə Cəhənnəmin qapıları deyilərkən

---

[1093] Əl-Mizan, c.12, səh.158
[1094] Nümunə, c.11, səh.72
[1095] Quranın ismarışı, c.1, səh.416

Cəhənnəmin təbəqələrinin nəzərdə tutulduğu məlum olur. Əzabın növü və şiddətindən asılı olaraq bu təbəqələrin hər biri digərlərindən fərqlənir. Hədislərin birində İmam Əlinin (ə) üzünü bir qrup insana tutaraq belə buyurduğunu görürük: "Bilirsiniz, Cəhənnəmin qapıları necədir?" Onlar "Yəqin ki, dünya qapıları kimidir", - deyə cavab verirlər. İmam Əli (ə) "Xeyr, belə deyil", - deyib bir əlini digər əlinin üzərinə qoyaraq "belədir", - deyə buyurur..."[1096] Hədislərdə Cəhənnəmin bəzi qapılarından Firon, Haman, Qarunun, bəzisindən müşriklərin və Peyğəmbər (s) nəslinin daxil olacağı qeyd edilmişdir. Bu da onu göstərir ki, Cəhənnəmin təbəqlərinin biri digərindən daha ağrılı-açılıdır. Bu təbəqələrə daxil olanlar digərlərindən daha böyük günah edənlər, etdikləri günahlar biri-digərindən pisdir[1097]. Nəticədə, Cəhənnəm qapıları əzab və cəzaların da eyni olmadığını və bir-birlərindən çox fərqləndiyini göstərir[1098]. Maraqlıdır ki, İmam Sadiqin (ə) hədislərinin birində ***"Cənnətin səkkiz qapısı var"***, - deyə buyurulmuşdur. Bu ayədə isə Cəhənnəmin yeddi qapısının olduğu buyurulmuşdur. Bu da onu göstərir ki, bədbəxtliyə və əzaba daxil olmaq üçün qapı nə qədər çox olsa da, xoşbəxtliyə aparan yollar onlardan da çoxdur[1099].

[1096] Nümunə, c.11, səh.73
[1097] Əl-Mizan, c.13, səh.169; Quranın smarışı, c.6, səh.418
[1098] Quranın ismarışı, c.1, səh.418
[1099] Nümunə, c.11, səh.78

52. İbrahimin yanına daxil olub salam verdiklərində (İbrahim) dedi: “Biz sizdən qorxuruq!”

53. (Mələklər): “Qorxma! Biz səni elmli bir oğulla müjdələyirik!”– dedilər.

54. Dedi: “Qocalmağıma rəğmən mənə (belə bir) müjdə verirsiniz? Nə ilə müjdələyirsiniz?”

55. Dedilər: “Biz sənə doğru müjdə verdik. Sən ümidini üzənlərdən olma!”

56. Dedi: “Doğru yoldan azanlardan başqa Rəbbinin mərhəmətindən kim ümidini üzər?”

57. Sonra dedi: “Ey elçilər! Vəzifəniz nədir?”

58. Dedilər: “Biz günahkar adamları məhv etmək üçün göndərilmişik.

59. Yalnız Lutun ailəsi istisnadır. Biz onların hamısını xilas edəcəyik.

60. (Lutun) arvadından başqa. Biz onun geridə qalanlardan (və şəhərdə həlak olanlardan) olmasına qərar verdik”.

61. Elçilər Lut ailəsinin yanına gəldikdə

62. o dedi: “Siz yad adamlarsınız!”

63. Onlar dedilər: “Biz sənin yanına onların şübhə etdiyi ilə (əzab) gəlmişik.

64. Biz sənə doğru xəbər gətirmişik. Biz doğru danışanlarıq.

65. Gecənin sonuna yaxın ailəni özünlə götürüb buradan çıx və özün onların arxasınca get. Sizdən heç kəs dönüb arxasına baxmasın. Sizə əmr olunan yerə yollanın”.

66. Biz Luta sübh çağı onların kökünün kəsiləcəyi xəbərini vəhy etdik.

67. (O biri tərəfdən) şəhər əhalisi (qonaqların gəldiyindən xəbər tutub) sevinə-sevinə (Lutun evinə tərəf) gəldi.

68. (Lut) dedi: “Bunlar mənim qonaqlarımdır. Məni biabır etməyin!

69. Allahdan qorxun və məni hörmətdən salmayın!”

70. Dedilər: “Məgər biz sənə dünya adamlarını (qonaq saxlamağı) qadağan etməmişik?”

---

52. Nə üçün İbrahim (ə) qonaqlardan qorxduğunu deyir? İbrahim (ə) bu sözü qonaqlar oturduqdan, İbrahim (ə) onlara buzov kəsdkdən və onların yemədiyini gördükdən sonra söyləyir. (Hud surəsinin 70-ci ayəsində də bu mövzuya şarə edilmişdir). Yalnız bu qərbə davranışdan sonra İbrahim (ə) qorxu hissi keçirir və onlardan roxduğunu söyləyir[1100]. Bəzi təfsirçilər yazırlar ki, həm o dövrdə, həm ondan sonrakı dövrlərdə, həm də müasir dövrdə bəzi xalqlarda təklif edilmiş duz-çörəyi yeyən adamdan heç bir təhlükə toxunmayacağı, duz-çörəkdən imtina edən şəxsin düşmənçilik, kin-küdurət niyyətində olması inancı olmuş və olmaqda davam edir. İbrahim (ə) də bu səbəbdən qorxu hissi keçirmişdir[1101].

53. İshaq; İbrahimin elmli oğlu: Şübhəsiz ki, elmli oğul deyilərkən həzrət İshaq (ə) nəzərdə tutulmuşdur. Çünki mələklər bu müjdəni İbrahmə verdiklərində qısır olan, bundan başqa artıq ana ola biləcək yaşı da keçmiş zövcəsi Sara orada olmuş, bu müjdə ona da verilmişdir. Onu da bilirik ki, Sara İshaqın anasıdır və İbrahimin daha öncədən Hacərdən İsmayıl adlı oğlu var idi[1102]. Onu da qeyd etməliyik ki, İshaqın elm sahibi kimi təqdim edilməsi bəlkə də onun adi elmlərdən daha yüksək elmə malik olacağını xəbər vermək üçün idi. Yəni o, ilahi təlimlərlə təlimatlandırılacaq və ona göydən vəhy endiriləcəkdi. Belə ki, “Saffat” surəsinin təxminən buna

---

[1100] Əl-Mizan, c.12, səh.179
[1101] Nümunə, c.11, səh.99
[1102] Nümunə, c.11, səh.99

bənzəyən 112-ci ayəsində belə buyurulmuşdur: “Biz İbrahimi İshaqla, layiqlilərdən olan peyğəmbərlə müjdələdik”. Bu ayə həzrət İshaqın qeyb aləmi ilə əlaqəsi olduğundan xəbər verir[1103].

60. Lutun (ə) həyat yoldaşının həlak olması: Lutun (ə) həyat yoldaşı kafirlərlə əlbir və daxili düşmən idi. O, kafirlərlə razılığa gəlmişdi ki, peyğəmbərin evinə gizlicə kimsə gəlsə bacada od yandırıb onları xəbərdar etsin. Buna görə də məhvinə əmr edildi[1104].

70. Nə üçün Luta (ə) qonaq qəbul etməsi qadağan edilmişdi? Lutun (ə) qövmü xəsis və paxıl adamlar idi, əsla evlərinə qonaq çağırmazdılar. Yaşadıqları şəhər isə düz karvan yolunun üzərində yerləşirdi. Onlar kiminsə orada qalmaması üçün bu çirkin davranışı şəhərdə təzə məskunlaşanlara tətbiq edir, get-gedə bu davranış onlar üçün adət halını almışdı. Lut isə orada qərib bir adam görsəydi, çətinliyə düşməməsi üçün onu evinə dəvət edərmiş. Onlar bu hadisədən xəbər tutduqlarında çox qəzəblənir və ona qonaq qəbul etməyi açıq şəkildə qadağan edirlər. Ehtimal ki, ayədə “dünya adamları” deyilərkən də məhz yoldan ötənlər və o şəhərin, o diyarın sakini olmayaıb yolu buradan düşən şəxslər nəzərdə tutulmuşdur[1105].

[1103] Əl-Mizan, c.12, səh.179
[1104] Ətyəbül-bəyan, c.8, səh.54
[1105] Nümunə, c.11, səh.110

71. Dedi: “Bunlar mənim qızlarım! Əgər düz iş görmək istəyirsinizsə, (onlarla evlənin, günahdan çəkinin)!”

72. (Ey Muhəmməd!) And olsun sənin canına, onlar məstlikləri içində başlarını itirmişdilər.

73. Nəhayət, Günəş doğanda qorxunc səs (öldürücü, ildırım, göy gürültüsü və zəlzələ ilə müşayiət olunan bir səs) onları bürüdü.

74. Oranın altını üstünə çevirdik və onların üzərinə daş yağdırdıq.

75. Bunda arif adamlar üçün dəlillər vardır.

76. Onların şəhərləinin xarabalıqları daim istifadə edilən yolun üstündədir.

77. Bunda möminlər üçün dəlillər vardır.

78. Əykə əhalisi (Şüeybin qövmü) də zalım idi.

79. Onlardan da intiqam aldıq. Hər iki viran qalmış şəhər (Lutun qövmünün şəhəri və Əykə) aydın görünən yol üzərində yerləşir.

80. Hicr əhalisi də peyğəmbərləri yalançı saydı

81. Biz ayələrimizi onlara göndərdik, lakin onlar (bu) ayələrdən üz döndərdilər.

82. Onlar dağların qoynunda möhkəm evlər yonurdular.

83. Onları sübh çağı qorxunc səs bürüdü.

84. Əldə etdikləri onları ilahi əzabdan xilas etmədi.

85. Biz göyləri, yeri və onların arasında olanları yalnız haqq olaraq yaratdıq. Vəd olunmuş Saat mütləq, gələcəkdir. Odur ki, Sən görməzdən gəl. Bunu gözəl et!.

86. Həqiqətən, Rəbbin yaradandır, biləndir.

87. Biz sənə "Təkrarlanan yeddi"ni (Fatihə surəsini) və əzəmətli Quranı verdik.

88. Onların bəzi təbəqələrinə verdiyimiz maddi nemətlərə əsla göz dikmə, onların malik olduqlarına görə kədərlənmə, (lütf və mərhəmət) qanadlarını möminlərin üzərinə aç!

89. Və de: "Mən aşkar bir qorxudanam!"

90. Biz (Allahınn ayələrini) bölənlərə də belə (əzab) göndərmişdik.

---

72. Allah Peyğəmbərin (s) canına and içir: Məşhur səhabə İbn Abbasa istinad edilən bir məlumatda belə deyilir: "Allah Özünə Muhəmməddən (s)

əziz adam yaratmamışdır. Mən Allahın ondan başqa kiminsə canına and içdiyini eşitməmişəm.”[1106]

75. Daxilə fikir verən arif insanlar: “Mutəvəssim” (arif) ərəb dilində zahiri əlamətləri görüb onun daxilini anlayan, yəni işarədən anlayan insana deyilir. Ayənin mənası belədir: Lutun (ə) qövmünə göndərilmiş əzab və şəhərlərinin viran qoyulması hadisəsində əlamətlər var. Ağıllı və dərrakəli insanlar bu əlamətləri görməklə hadisənin mahiyyətinə varır, iman və təqvaları artır. Bu xüsusiyyət hər kəsin malik olduğu iman gücündən asılıdır. İslam peyğəmbəri (s) belə buyurmuşdur: “Möminin zəkasından qorxun. Çünki o, Allahın nuru ilə görür.” Sonra bu ayəni oxumuşdur. İmam Baqir (ə) hədislərinin birində belə buyurmuşdur: ***“Elə bir insan yoxdur ki, iki gözünün arasında mömin və ya kafir yazılmamış olsun. Bu yazını siz görməzsiniz. Amma bu Ali Muhəmmədin (s) imamlarından gizli deyil. Onların hüzuruna kim daxil olarsa, elə ilk baxışda onu tanıyar, kafir və ya mömin olduğunu bilərlər.”*** Sonra İmam ***(ə)*** bu ayəni tilavət etmişdir. Əlbəttə, imamlar dərrakəli insanların ən yüksək nümayəndələridir. Bu ayə onlarla məhdudlaşmır[1107].

76. Lutun (ə) yaşadığı şəhərin xarabalıqları: Bu ayəni izah edərkən təfsirçilər Lut (ə) qövmünün əzab göndərilmiş şəhərlərinin xarabalıqlarının Mədinə-Şam istiqamətindəki karvan yolunun üzərində yerləşdiyini, bu yolla səfərə çıxanların həmin xarabalıqları gördüklərin qeyd etmişlər. Bu surənin 79-cu ayəsində də eyni məsələyə işarə edilmişdir[1108].

80. Peyğəmbərlərdən birini yalançı hesab etmək onların hamısını yalançı hesab etmək deməkdir: Allah-taala bu ayədə Səmud qövmünün

---

[1106] Məcməül-bəyan, c.6, səh.142
[1107] Əl-Mizan, 12, səh.184
[1108] Nümunə, c.11, səh.114

bütün peyğəmbərləri yalançı hesab etdiklərini qeyd etmişdir. Halbuki onlar təkcə Salehi yalançı hesab etmişdilər. Bu isə bütün peyğəmbərlərin dəvətinin mahiyyətcə eyni olması ilə bağlıdır. Bütün peyğəmbərlər din olaraq yalnız İslam gətirmişdir. Fərq isə qanunlarda və bəzi əməli hökmlərdədir. Peyğəmbərlərin hər biri özündən əvvəlki peyğəmbərləri təsdiq etmişdir. Deməli, bu peyğəmbərlərdən hər hansı birini qəbul etməyən şəxs peyğəmbərliyi inkar etmiş olur[1109].

87. Təkrarlanan yeddi (Səbül-məsani): Allah-taala bu ayədə Peyğəmbərə düşmənlərin çoxluğu və yaratdıqları çətinliklər qarşısında dəstək vermək üçün ona heç nə ilə müqayisə edilməyəcək bir neməti – Əzəmətli Quranı və mübarək "Fatihə" surəsini xatırladır. "Səb" sözü ərəb dilində yeddiyə, "məsani" isə ikiliklərə deyilir. Təfsirçilərin və hədislərin çoxu "Təkrarlanan yeddi" deyilərkən "Fatihə" surəsinin nəzərdə tutulduğunu qeyd etmişlər. çünki bu surə yeddi ayədən ibarətdir. Bu surə mühüm əhəmiyyət daşıdığı və əzəmtli məzmuna malik olduğu üçün Peyğəmbərə (s) iki dəfə nazil olması və ya bir hissəsi bəndənin təşəkkür və tərifini, ikinci hissəsi isə bəndənin istəyini ehtiva etməklə iki hissədən ibarət olması, ya da namazda iki dəfə təkrarlanması baxımından təkrarlanan adlandırılmışdır[1110].

88. Lütfkarlıq və mərhəmətin son həddi: ***"Qanadını möminlərin üzərinə aç"*** cümləsi təvazökarlıq və mülayimliyi fadə edir. Çünki quş öz balalarını ağuşuna almaq istədikdə qol-qanadını açaraq cücələrinin üzərinə sərir. Bu cümlə ilə möminlərlə səbrli, dözümlü və onların səviyyəsinə uyğun davranmaq da nəzərdə tutula bilər. Ümumiyyətlə, "möminləri qanadlarının altına yığır" ifadəsi Peyğəmbərin bütün gücünü, səy və tələşını möminlərin

[1109] Tematik təfsir, c.6, səh.332
[1110] Nümunə, c.5, səh.129

təlim-tərbiyəsinə sərf etməsi nəzərdə tutulur. Eynilə quşlarda belədir. Qanadlarını cücələrinin üzərinə açdıqda uçmur, onlardan ayrılmır[1111]. Hər halda, bu ayə Quranın möminlərə verdiyi ən gözəl müjdələrdən bridir.

91. Onlar Quranı böldülər (xeyirlərinə olanı qəbul etdilər, nəfsani istəklərinin əksinə olanı tərk etdilər).

92. Rəbbinə and olsun ki, (Qiyamətdə) onların hamısından soruşacağıq –

93. etdikləri əməllər barəsində.

94. Sənə buyurulanı açıq-aşkar bəyan et və müşriklərdən üz çevir (və onlara etina etmə).

95. Biz iztehza edənlərin şərini səndən uzaq edərik.

96. Allahla yanaşı məbud seçənlərin. Onlar tezliklə başa düşəcəklər.

97. Biz onların dediklərindən sıxıldığını (narahat olduğunu) bilirik.

98. Sən Rəbbinə həmd və tərif de və səcdə edənlərdən ol!

99. Sənə yəqin (ölüm) gələnədək Rəbbinə ibadət et.

"Nəhl" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

[1111] Əl-Mizan, c.12, səh.191

1. (Müşrikləri və günahkarları cəzalanadırmaq üçün) Allahın əmri yetişdi. Ona tələsməyin. Allah müşriklərin Ona qoşduqları ortaqlardan uzaqdır və ucadır.

2. Öz hökmü ilə qullarından istədiyi hər kəsə mələkləri ruhla göndərib (belə bir göstəriş verir): "İnsanları qorxudub xəbərdar edin ki, Məndən başqa məbud yoxdur. Məndən (Mənə qarşı çıxmaqdan) qorxun!"

3. Göyləri və yeri gerçək yaratmışdır. O, müşriklərin qoşduqları ortaqlardan ucadır.

4. O, insanı dəyərsiz nütfədən yaratdı. Sonda özünün açıq-aşkar müdafiəçisinə çevrildi.

5. Mal-qaranı da O yaratdı. Onlarda sizin üçün geyim vasitəsi və başqa faydalar vardır. Onların ətindən yeyirsiniz.

6. Onları istirahət etdikləri yerə qaytardıqda və (səhərlər) çölə buraxdıqda onlarda sizin üçün əzəmət və gözəllik var.

90-91. Quranı bölənlər: Bu ayənn iki məşhur təfsiri var: Birinci təfsirə görə Quranı bölənlər deyilərkən, Allahın dini və hökmlərini öz mənafelərinə uyğun şəkildə bölüb, xeyirlərinə olanları qəbul edən, zərərlərinə olanı inkar edənlər nəzərdə tutulur[1112]. İkinci təfsirə bu iki ayə həzrət Muhəmməd (s) peyğəmbərliyə seçildiyi ilk vaxtlar insanları Allah yolundan çəkindirmək üçün Quranı parça-parça edənlər nəzərdə tutulur. Buna görə Allah əzab göndərib onları məhv etmişdi. Bəzi hədislərdə onların Qüreyş tayfasından olduğu qeyd edilmişdir. Bu dəstə Quranı cırıb deyirdi: "Quran sehr-cadu və uydurma əfsanələrdir". Həcc mövsümündə Məkkəyə giriş yollarında adamlar durğuzub Məkkəyə gələnlərin Peyğəmbərlə (s) görüşməsinə mane

---

[1112] Nümunə, c.11, səh.137

olurdular. Bu surənin 95-ci ayəsindəki istehza edənlər deyilərkən də ola bilsin ki, bu dəstə nəzərdə tutulmuşdur. Bu ayəni izah edərkən həmin dəstənin beş nəfərdən ibarət olduğu qeyd etmişlər. 95-ci ayə nazil olarkən Peyğəmbər (s) onların xar olacağını və sonda onları ən pis şəkildə öldürəcəyini blirdi[1113].

94. Peyğəmbərin (s) aşkar dəvətə başlaması: Yazılanlara görə həzrət Muhəmməd (s) peyğəmbərliyə seçildikdən sonra üç il gizli təblğat aparmışdır. Peyğəmbərə (s) ilk başlanğıcda az sayda dam iman gətirmişdi. Bəlkə də bu say İmam Əli (ə) və həzrət Xədicə ilə məhdudlaşırdı. Nəzər-nöqtəsi olan ayə nazil olduqda Peyğəmbərə (s) dəvətini aşkara çıxarmaq, artıq gizli deyil, aşkarda təbliğat aparmaq göstərişi verildi[1114].

"Nəhl" surəsinin ümumi məzmunu: Bu surənin beş mövzunu əhatə etiyini deyə bilərik: 1. Allahın bəxş etdiyi nemətlərin şərh edlməsi; 2. Tövhidlə bağlı dəlillər, Allahın yaratmaq əzəməti, axirət, müşrik və günahkarların təhdd edlməsi; 3. Müxtəlif İslam hökmlərinin bəyan edilməsi, o cümlədən ədalətli olmaq, yaxşılıq etmək, cihad, günah, zülm, haqsızlıq, əhd sındırmaqdan çəkinməklə bağlı əmr, Allahın bəxş etdiyi nemətlərə görə şükür etmək göstərişi; 4. Müşriklərin bidətlərinin qeyd edilməsi; 5. İnsanların şeytan vəsvəsəsindən qorunmağa çağırılması[1115].

1. İlahi əzabın qətiliyi və müşriklərin ona tələsməsi: Quranın bəzi ayələrində qeyd edilir ki, kafirlər Peyğəmbərin (s) ilahi əzabla bağlı təhdidləri qarşısında inadkarlıq və təkəbbür göstərərək istehza ilə deyirdilər: Əgər dediyin əzab və cəza düzdürsə, bəs nə üçün gəlmir? Allah-taala bu ayədə kafirələrə xitab edərək buyurur: "Əzaba tələsməyin Allahın

---

[1113] Əl-Mizan, c.12, səh.193
[1114] Əl-Mizan, c.12, səh.196
[1115] Nümunə, c.11, səh.142

kafirlərlərə əzab göndərilməsi ilə bağlı əmri tezliklə gələcək.” Buna görə də ayədə şühudi keçmiş zaman formasından (yetişib) istifadə edilmişdir. Bu da əzabın qəti və qaçılmaz olduğunu göstərir. Bu formadan Quranda çox istifadə edilir. Ayrı-ayrı ayələrdə gələcəkdə baş verməsi qəti olan işlər şühudi keçmiş zaman forması ilə ifadə edilmişdir. Sanki artıq baş vermiş bir hadisə qədər qətidir. “Allahın əmri” deyilərkən Allahın Peyğəmbərə (s) və möminlərə verdiyi vəd nəzərdə tutulur. Həmin vədində Allah müşrikləri təhdid edir, möminlərə kömək ediləcəyini, kafirlərin xar və əzaba düçar edəcəyini, dinini aşakar edəcəyini, sonda küfr və şirkin kökünü kəsəcəyini elan edir. Bəzi hədislərdə bu ayədə həzrət Mehdinin (ə) zühuruna işarə edildiyi və ayənin Allahın bu barədə olan əmrinin ən parlaq nümunəsi olduğu qeyd eidlmişdir[1116].

[1116] Nümunə, c.11, səh.151; Əl-Mizan, c.12, səh.203

7. Onlar sizin ağır yüklərinizi özünüzün çətinliklə apara biləcəyiniz bir şəhərə daşıyırlar. Rəbbiniz mərhəmətlidir, rəhmlidir.

8. Atları, qatırları və uzunqulaqları həm minməyiniz, həm də sizə zinət olsun deyə yaratdı. Hələ bilmədiyiniz çox şeylər yaradacaqdır.

9. Doğru yol göstərmək Allaha aiddir. Ancaq bəzi yolla əyridir. Əgər Allah istəsə, sizin hamınızı düz yola yönləndirər. (Ancaq məcburi olduğu üçün faydası yoxdur).

10. Göydən suyu endirən Odur. Bu, həm sizin içməyiniz, həm də heyvanlarınızı içində otardığınız bitki və ağaclar üçündür.

11. (Allah) onunla sizin üçün dənli bitkilər, zeytun, xurma, üzüm və (başqa) meyvələrin hamısından yetişdirir. Həqiqətən, bunda anlayan adamlar üçün aydın dəlil vardır.

12. O, gecəni və gündüzü, günəşi və ayı sizə ram etdi. Ulduzlar da Onun əmri ilə sizə ram edilmişdir. Sözsüz ki, bunda ağlını işlədən insanlar üçün əlamətlər vardır.

13. Yer üzündə yaratdığı rəngarəng varlıqları da sizə ram etdi. Bunda xatırlayan insanlar üçün dəlillər vardır.

14. O, təzə ət yeməyiniz və taxmaqdan ötrü zinət əşyaları çıxarmağınız üçün dənizi də sizə ram etdi. Allahın lütfündən faydalanasınız deyə, dənizin bağrını dələn gəmiləri görürsən. Bəlkə Onun nemətlərinə şükür edəsiniz.

---

9. Doğru yolu göstərmək Allaha aiddir: Əvvəlki ayədə insanın maddi tələbatlarını ödəməsi üçün quruda istifadə etdiyi minik vasitələrindən söhbət açılmışdır. Bu ayədə Allah insanın mənəviyyat yoluna işarə edərək kamilliyə

çatması üçün ona yol göstərəcəyini buyurur. Bu istiqamətləndirmə iki vasitə ilə gerçəkləşir: 1. Daxildən insanı yaxşı işlər görməyə və kamilliyə səsləyən fitrət yolu; 2. Xaricdən insanı Allaha doğru dəvət edən peyğəmbərlər və səmavi kitablar. Əlbəttə, bəziləri hesab edə bilər ki, əgər doğru yolu göstərmək Allaha vacibdirsə, nə üçün insanların doğru yolda deyil? Bu Allahın acizliyindən xəbər vermirmi? Yəni Allah insanları doğru yola yönəldə bilmir. (Allaha sığınırıq bu sözü deməkdən). Allah-taala belə bir şübhənin yaranmasının qarşısını almaq üçün ayənin sonunda belə buyurur: "Əgər Allah istəsə, sizin hamınızı düz yola yönləndirər". Bu o deməkdir ki, Allah bəndələrin doğru yola məcburi deyil, öz seçimləri ilə, ixtiyari şəkildə yönlənməsini istəyir. Başqa sözlə desək, öz ixtiyar və iradələri ilə yaxşı işlər görüb günahlardan çəkinərək ilahi hidayətə layiq görülsünlər. Maraqlıdır ki, bu ayədə Allah insana mənəvi yolu göstərməyi özünə lazım hesab etmişdir. Halbuki maddi nemətlərlə bağlı belə bir söz deməmişdir. Bu da hidayət nemətinin maddi nemətlərdən üstün olduğunu göstərir[1117].

11. Zeytun, xurma və üzümün xüsusiyyətləri: Ortaya belə bir sual çıxa bilər ki, nə üçün Quranda yalnız üç meyvəyə, yəni zeytun, üzüm və xurmaya daha çox əhəmiyyət verilmişdir? Ola bilsin ki, bu, digər meyvələrlə müqayisədə onların daha çox faydalı olması ilə bağlıdır. Bədənin yanacaq təminatında zeytun yağının çox böyük əhəmiyyəti var, hərarət kalorisi çox yüksəkdir. Buna görə də gücləndirici vasitə hesab edilir. Zeytun yağı həm də qaraciyərin səmimi dostu hesab edilir. Böyrək fəsadlarının, öd daşlarının, böyrək sancılarının, qəbzlərin aradan qaldırılmasında çox faydalıdır. Quranda Zeytun ağacı "müqarək ağac" adlandırılmışdır[1118]. Hədislərinin birində İmam Həsən (ə) buyurmuşdur: ***"Adəm (ə) oğluna vəsiyyət edərkən***

[1117] Nümunə, c.11, səh.172
[1118] Nümunə, c.11, səh.172

ona belə buyurmuşdur: Zeytun ye, çünki o, xeyirli və bərəkətli ağaclardandır.”[1119]

Xurma sümüklərin möhkəmlənməsində əsas rol oynayan zəngin kalsium ehtiyatına, beyinin əsas ünsürlərindən olan, əsəb və yorğunluğun qarşısını alan, görməni yaxşılaşdıran fosfora malikdir. Xurmada olan potasium mədə yarasının meydana gəlməsinin qarşısını alır. Potasium ümumyyətlə bədən əzələləri və toxumaları üçün mühüm əhəmiyyət daşıyır. Statistika göstərir ki, xurma istifadəçiləri xərçəng xəstəliynə daha az tutulurlar. Ümumiyyətlə, bu, maqneziumun mövcudluğu ilə bağlıdır. Xurmada mövcud olan şəkər ən yaxşı şəkərlərdəndir. Belə ki, hətta şəkər xəstəsi olanlar da ondan istifadə edə bilərlər. Peyğəmbər (s) hədislərinin brində belə buyurmuşdur: ***“Xurma olmayan evin sakinləri acdır”***.

Həkimlər üzümü təbii aptek hesab edirlər. Üzüm təqribən ana südünün malik olduğu xüsusiyyətlərə malikdir. Buna görə tam bir qida hesab edilir. Üzüm bədəndə ətdən iki dəfə artıq hərarət yaradır. Bundan başqa, antitoksik keyfiyyətə malikdir. Qanın təmzlənməsi, revmatizm, podaqra, qan cövhərinin çoxluğu xəstəliklərinin müalicəsində çox böyük əhəmiyyəti var. Üzüm mədə-bağırsaq sistemini təmizləyir. Dərd-qəmi azaldır, insana xoş əhval-ruhiyyə bəxş edir. Bu meyvə çox qiymətli qida növü olmaqla yanaşı, mikrobları məhv etmək gücünə malikdir, hətta xərçəng xəstəliyi ilə mübarizədə mühüm rol oynayır. Peyğəmbər (s) hədislərinin birində belə buyurulmuşdur: ***“Sizin ən yaxşı meyvəniz üzümdür”***[1120].

[1119] Vəsailüşşiə, c.25, səh.96
[1120] Nümunə, c.11, səh.173

15. O, sizi silkələməsin deyə, yer üzündə sabit və möhkəm dağlar, düzgün səmt götürəsiniz deyə, çaylar və yollar yaratdı.

16. Əlamətlər yaratdı. (Gecələr) ulduzlar vasitəsilə istiqamətlərini müəyyənləşdirirlər.

17. Yaradan yaratmayan kimidirmi? Xatırlamırsınızmı?

18. Əgər Allahın nemətlərini saymalı olsanız, əsla sayıb qurtara bilməzsiniz. Allah bağışlayandır, rəhmlidir.

19. Allah gizli saxladığınızı da, aşkara çıxartdığınızı da bilir.

20. Allahdan başqa çağırdığınız məbudlar heç bir şey yarada bilməzlər. Çünki onlar özləri də yaradılmışlar.

21. Onlar dirilə bilməyəcək ölülərdir və (ibadət edənlərinin) nə vaxt qaldırılacaqlarını da bilmirlər.

22. Sizin məbudunuz Tək olan Allahdır. Axirətə inanmayanların qəlbi (haqqı) inkar edir. Özləri də təkəbbürlüdürlər.

23. Şübhə yoxdur ki, Allah onların gizli saxladığından da, aşkara çıxartdığından da xəbərdardır. O, təkəbbürlü olanları sevmir.

24. Onlardan: "Rəbbiniz nə nazil etmişdir?"– deyə soruşulduqda, onlar: "Bunlar keçmişdəkilərin uydurma nağıllarıdır!"– deyərlər.

25. Onlar Qiyamət günü öz günahlarının hamısını və nadanlıqları üzündən azdırdıqları kəslərin günahlarının bir qismini daşımalıdırlar. Bilin, onlar pis bir ağır yük daşıyırlar.

26. Onlardan öncəkilər də belə hiylələr qurmuşdular. Lakin Allah onların həyat tikililərini özülündən dağıtdı, tavanları başlarına uçdu və əzab onlara bilmədikləri yerdən gəldi.

---

15. Yerin qoruyucuları: Bu cümlə Quranın bir neçə yerində təkrar edilmişdir. Ümumiyyətlə, dağların quruluşu elədir ki, kökdən bir-birlərinə birləşmiş və sanki zireh kimi yer kürəsini əhatə etmişdir. Bu da yerin daxilində hər an sıçraması mümkün olan qazların təzyiqi nəticəsində baş verən silkələnmələrin qarşısının alınmasında böyük rol oynayır. Bundan əlavə, dağların xüsusi vəziyyəti yerin ay cazibəsi qarşısındakı davamlı müqavimətini artırır və cazibənin təsirini minimuma endirir. Habelə güclü küləklərin ciddi təzyiqlərini və küləklərin daimi hərəkətinin ciddi təzyiqlərini azaldır. Çünki dağlar olmasaydı, yerin hamar səthi davamlı olaraq güclü küləklərə məruz qalar və rahatlıqdan əsər-əlamət qalmazdı[1121].

[1121] Nümunə, c.11, səh.182

Bu ayədən çayların yaranması ilə dağlar meydana gəlməsi arasında əlaqə olduğu başa düşülür. Bütün il boyu axan və susuz əraziləri su ilə təmin edən böyük çaylar dağların zirvəsində qar və buz formasında toplanmış sular sayəsində meydana gəlir. Buna görə də dünyanın böyük dağları mövcud çayların mənbəyi hesab edilir. Bəziləri səhvən düşünə bilər ki, dağlar yerin hissələrini bir-birindən ayırır, gediş-gəlişlərə, yerüstü hərəkətlərə mane olur. Ancaq bu ayədə Allah-taala yollarını azmamaları və mənzil başına çatmaları üçün dağlarda yollar və dərələr yaratdığını buyurmuşdur[1122].

16. Yer və göy əlamətləri: Allah öncəki ayədə yol nemətindən söz açmışdır. Yollarda əlamət və nişanlar olmadan insan mənzil başına çata bilməyəcəyi üçün sonrakı ayədə əlamətlərə işarə etmişdir. Dağ və dərələrin fomrası, yer kürəsinin eniş və yoxuşları, torpaq və dağların rəngləri və sair insanı azmağa qoymayan əlamətlərdir. Əgər yer üzü bir şəkildə olsaydı, düz yolla hərəkət etmək mümkün olmazdı və insan hər an aza və yolunu qarışdıra bilərdi. Bəzən insanlar gecə vaxtı səhra və ya okeanlarda hərəkət etməli olurlar. Səhra və dənizlərdə bu əlamətlər olmadığı üçün Allah göydəki əlamətləri, yəni ulduzları insanların yardımına göndərir ki, məqsədlərinə çatsınlar. Bu ayələrdə maddi yollar və əlamətlərdən danışılsa da, Quranın bu kontekstdəki bəyanı insanın mənəvi həyatı üçün bir meyar ola bilər. Çünki istənilən müqəddəs hədəfə nail olmaq üçün insanın doğru yol seçməsi zəruridir. Xoşbəxtlik yolunu səhv salmamaq və haqq yoldan sapmamaq üçün əlamət və nişanələrin həyati əhəmiyyəti vardır. Əhli-beyt (ə) hədislərində ulduz Peyğəmbər (s), əlamətlər isə imamlar (ə) kimi yozulmuşdur. Əlbəttə, bu da ayənin mənəvi təfsirini ehtiva edir[1123].

[1122] Quranın ismarışı, c.2, səh.222
[1123] Nümunə, c.11, səh.183 və 188

23. Təkəbbürlülük kafirlərə xas olan xüsusiyyətdir: Quranın bir neçə ayəsində təkəbbür kafirlərə xas olan xüsusiyyət kimi təqdim edilmişdir. Burada "təkəbbür" deyilərkən isə haqqın qarşısında təkəbbür və inadkarlıq, onu qəbul etməmək nəzərdə tutulur. Bu növ təkəbbür bütün hidayət yollarını insanın üzünə bağlayır və bütün ömrü boyu onu bədbəxtlik, günah və imansızlıq içində saxlayır. İmam Əli (ə) hədislərinin birində belə buyurmuşdur: "İblis Allahın düşməni, təəssübkeşlərin öndəri, təkəbbürlülərin rəhbəridir". Buna görə də varlı və yoxsul olmasından asılı olmayaraq, haqqı qəbul etməkdən boyun qaçıran hər kəs təkəbbürlü sayılır. Baxmayaraq ki, çox vaxt sərvət və var-dövlətin çoxluğu insanın haqqı qəbul etməsinə mane olur[1124].

25. Rəhbərlər və ənənə yaradıcıları davamçıların əməllərinə şərikdirlər: Hər hansı yaxşı və ya pis bir işin səbəbləri arasında rəhbərlər, istiqamətləndricilər və ənənə yaradıcıları çox mühüm rol ifa edirlər. Buna görə də Quran ayələri və hədislərdə xeyir və şər istiqamətləndiriciləri davamçılarının mükafat və cəzasında onlara ortaq olduqları qeyd edilmişdir. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Hər kəs düz yola dəvət etsə və ona tabe olsalar, dəvətçi davamçılarının mükafatı mislində mükafata layiq görüləcək və onların mükafatından heç nə əskilməyəcək. Hər kəs yanlış yola dəvət etsə və ona tabe olsalar, dəvətçi davamçılarının cəzası mislində cəzaya layiq görüləcək və onların cəzasından heç nə əskilməyəcək."***[1125]

[1124] Nümunə, c.11, səh.194
[1125] Nümunə, c.11, səh.206

27. Sonra Qiyamət günü Allah onları rüsvay edərək deyəcək: “Mənə qoşduğunuz və haqlarında mübahisə etdiyiniz şəriklər haradadır?” Elm verilmiş şəxslər deyəcəklər: “Bu gün kafirlər rüsvay və bədbəxt olacaqlar!”

28. Mələklər özlərinə zülm etmiş bu şəxslərin canlarını aldıqları zaman onlar təslim olub: “Biz pis bir iş görmürdük!”(– deyəcəklər). Bəli, Allah sizin nələr etdiyinizi bilir.

29. (Onlara deyiləcək:) İndi içində əbədi qalacağınız Cəhənnəmin qapılarından daxil olun! Təkəbbürlülərin qalacağı yer necə də pisdir!”

30. Müttəqilərə: “Allah nə nazil etmişdir?”– deyildikdə, onlar: “Xeyir (və xoşbəxtlik)!”– deyərlər. Xeyirli işlər görənlər üçün bu dünyada gözəl mükafat var. Axirət yurdu isə ondan da xeyirlidir. Müttəqilərin yurdu necə də gözəldir.

31. Onlar hamısı ağacları altından çaylar axan əbədi Cənnət bağlarına daxil olacaqlar. Orada istədikləri hər şey var. Allah müttəqiləri belə mükafatlandırır.

32. Bunlar həmin şəxslərdir ki, mələklər onların canını tər-təmiz olduqları halda, alıb deyirlər: “Sizə salam olsun! Etdiyiniz əməllərə görə Cənnətə girin!”

33. Yoxsa (kafirlər) mələklərin onların yanına gəlməsindən və yaxud Rəbbinin əmrinin gəlməsindən başqa bir şeymi gözləyirlər? (Gözləyirlər ki, onlar gəldikdən sonra tövbə etsinlər? Ancaq həmin vaxt etdikləri tövbənin

heç bir əhəmiyyəti yoxdur.) Onlardan əvvəlkilər də belə etmişdilər. Allah onlara zülm etmədi, lakin onlar özləri özlərinə zülm edirdilər.

34. Nəhayət, törətdikləri əməllərin acı nəticələri onlara nəsib oldu və istehza etdikləri (əzab) onları yaxaladı.

---

27. Elm verilmiş şəxslər: Quranın bu və digər ayələrinə diqqətlə nəzər saldıqda məlum olur ki, "elm verilmiş şəxslər" deyilərkən Allahın tək olduğuna əminliklə inanan, tövhid həqiqətinə varmış, habelə xəta və nöqsandan uzaq olan məsum şəxslər nəzərdə tutulur. Buna görə də Qiyamət günü onlara danışmaq icazəsi veriləcək. "Nəbə" surəsinin 38-ci ayəsində Qiyamət haqqında belə buyurulduğunu oxuyuruq: ***"Rəhmanın izin verdiyi kimsələrdən başqa heç kəs danışmayacaq, danışan da doğrunu deyəcəkdir!"*** Söz yalnız o zaman düz olur ki, onu deyən şəxs xətadan, batildən və əbəs danışıqlardan uzaq olsun. Yalnız o adamın danışığı və dediyi sözlər xəta və nöqsandan tamamilə uzaq ola bilər ki, onu danışan şəxs davranışlarında xəta və nöqsandan tamamilə uzaq olsun. Deməli, elm verilmiş şəxslər yalnız haqqı görən, yalnız həqiqəti danışan və yalnız doğru olanı edən şəxslərdir. Bu, Qurandan əldə edilən bir məzmundur. Bəzi hədislərdə bu şəxslərin məsum imamlar (ə) olduğu qeyd edilmişdir[1126].

27. Faydası olamayan itaətkarlıq: Haqqın tam şahidi olduqdan sonra onu inkar edən az adam tapılar. Buna görə də günahkarlar və zülmkarlar qəflət və qürur pərdələrinin qalxdığı, Bərzəx gözünün açıldığı ölüm astanasında iman gətirdiklərini elan edirlər. Ancaq bu məqamda da müxtəlif sözlər danışırlar. Bəziləri öz çirkin işlərindən imtina edib "Biz pis bir iş

[1126] Əl-Mizan, c.12, səh.232

görmürdük" deyirlər. Bu şəxlsər dünya həyatında o qədər yalan danışıblar ki, yalan artıq varlıqlarının tərkib hissəsinə çevrilib. Onar hətta yalan danışmağın heç bir əhəmiyyət vermədiyi yerdə də yalan danışırlar. Bəziləri peşiman olduqlarını etiraf edib dünyaya qayıtmaq istədiklərini bildirirlər (Səcdə surəsi, 12-ci ayə). Bəziləri Fron kimi, sadəcə, iman gətirdiklərini deyirlər (Yunus surəsi, 90-cı ayə). Əlbəttə, bu sözlərin heç biri qəbul edilməyəcək. çünki artıq gec olacaq. Bu cür iman gətirmə çıxılmazlığın nəticəsi kimi meydana çıxdığı üçün heç bir faydası yoxdur[1127].

30. Təqva dünya və axirət xoşbəxtliyinin amilidir: Dünya mükafatı deyilərkən bu dünyada edilən yaxşı işlərə görə verilən mükafat, ədalət və gözəl davranışların hökm sürdüyü sağlam cəmiyyətdən faydalanma, inkişaf və xoşbəxtlik əsasında əldə edilmiş pak və təmiz həyat nəzərdə tutulur. Bu, təqvalıların dünya mükafatıdır. Ancaq onların axirət evi daha yaxşıdır. Çünki onun zövqü bitən deyil, neməti əziyyətsiz əldə edilir, xoşbəxtliyini bədbəxtlik təqib etmir. İmam Əli (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Ey Allahın bəndələri! Bəndənin Allahın rəhmət və məğfirətinə ən yaxın olduğu vaxt Allah itaət etdiyi və ciddiyyətlə tövbə etdiyi vaxtdır. Sizə bütün xeyirləri nəsbiniz edən təqvanı sifariş edirəm. Təqvadan başqa heç nə də xeyir yoxdur. İnsan təqva vasitəsilə dünya və axirət xeyrindən pay alır. Belə ki, Allah-taala buyurmuşdur: "Allahdan qorxub pis əməllərdən çəkinənlər..."[1128]***

31. Orada istədikləri hər şey var: Demək olar ki, Cənnət nemətlərini təsvir etmək üçün bundan geniş və bundan əhatəli ifadə ola bilməz. Bu ifadə hətta "Zuxruf" surəsinin 71-ci ayəsində olan ifadədən də əhatəli görünür.

[1127] Nümunə, c.11, səh.209
[1128] Əl-Mizan, c.12, səh.234

Həmin ayədə belə buyurulmuşdur: ***"Cənnətdə ürək istəyən, gözlərin baxmaqdan zövq aldığı hər şey var"***[1129].

35. Müşriklər dedilər: "Əgər Allah istəsəydi, biz də, atalarımız da Ondan qeyrisinə ibadət etməz və Onun izni olmadan heç nəyi haram

[1129] Nümunə, c.11, səh.213

saymazdıq!” (Bəli,) onlardan əvvəlkilər də eyni şəkildə davranmışdılar. Məgər elçilərin vəzifəsi ancaq açıq-aşkar təbliğat aparmaq deyilmi?

36. Biz hər ümmətə: “Tək olan Allaha ibadət edin, həddi aşanlardan uzaq dur”– deyə, elçi göndərdik. Allah kimisini doğru yola yönəltdi, kimisinə də azmaq nəsib etdi. Yer üzündə gəzib dolaşın və görün yalan sayanların aqibəti necə oldu!

37. Sən onların doğru yola gəlməsini nə qədər istəsən də, (faydası yoxdur, çünki) Allah azdırdığı kimsələri doğru yola yönəltməz və onların kömək edəni olmayacaq.

38. Onlar Allaha möhkəm and içdilər ki: “Allah ölən bir kəsi diriltməyəcəkdir!” Əslində, bu (hesab günü bütün ölənləri diriltmək), Allahın qəti vədidir, ancaq insanların çoxu bilmir.

39. Məqsəd budur ki, ixtilafda olduqları şeyi onlara aydınlatsın və inkar edənlər də yalan danışdıqlarını bilsinlər.

40. Biz bir şeyi istədikdə, ona ancaq: “Ol!”– deyirik, o da olur.

41. Zülmə məruz qaldıqdan sonra Allah yolunda hicrət edənlərə bu dünyada gözəl bir yer (və məqam) verəcəyik. Axirət mükafatı isə ondan da böyükdür. Kaş biləydilər!

42. Onlar səbirli olanlar və ancaq Rəblərinə təvəkkül edənlərdir.

---

35. Bütpərəstlərin peyğəmbərliklə bağlı şübhəsi: Ayədə peyğəmbərliyi inkar edən bütpərəsətlərin peyğəmbərliyə qarşı irəli sürdükləri bir şübhədən söz açılmışdır. Belə ki, Peyğəmbər (s) zamanının bütpərəstləri deyirdilər: Əgər peyğəmbərlik missiyası doğru olsaydı, peyğəmbərlərin bütpərəstliyi qadağan etməsi və Allah Özünün icazəsi olmadan nələrinsə haram edilməsini yasaq etsəydi, şübhəsiz ki, biz bu işləri görməzdik. Çünki Allah

bir şeyi istəyərsə, həmin şey olar; əgər Allah bizim müşrik olmamağımızı istəsəydi, biz müşrik olmazdıq. Deməli, Allah belə bir şey istəməyib, ümumiyyətlə, şəriət və peyğəmbərlik deyilən bir şey olmamış və yoxdur. Allah-taala müşriklərin bu şübhəsnə iki konkret cümlə ilə cavab verir: Birincisi, bu, təzə söhbət deyil. Keçmiş müşriklər də bütə sitayiş edir, Allahın icazəsi olmadan nələrisə haram edir, peyğəmbərlərin qadağaları qarşısında eyni bəhanələri gətirir, buna görə də əzaba düçar olurdular. İkincisi, peyğəmbərlərin vəzifəsi insanları qeyri-adi şəkildə təkAllahlığa dəvət etmək və Allahın əmrlərinə məcbur etmək deyil. Onların vəzfəsi yalnız xəbər çatdırmaq, insanları dəvət etmək və doğru yolu göstərməkdən ibarətdir[1130].

36. Tövhid inancına dəvət və həddi aşanlarla mübarizə peyğəmbərlərin dəvətinin əsasını təşkil edir: Bu ayəyə əsasən tövhid inancına dəvət və tağutla mübarizə bütün peyğəmbərlərin dəvətinin əsasını təşkil etmişdir. Çünki tövhidin əsasları möhkəm olmasa, həddini aşanlar cəmiyyətlərdən və insan təfəkküründən təmizlənməsə, heç bir islah olmuş proqram icra edilə bilməz. “Tağut” tüğyan sözünün mübaliğə mənasını ifadə edən formasıdır. Mənası həd və hüdudları aşmaq deməkdir. Allahın müəyyən etdiyi bütün hədlərin pozulmasına səbəb olan vasitəyə deyilir. Buna görə də şeytan, büt, despot hakim, zülmkar, təkəbbürlü insan, habelə nahaqla nəticələnən bütün yollara tağut deyilir[1131].

37. Kimlər hidayət olunmağa layiq deyillər? “Allah haqq yoldan sapdırdığı şəxsi haqq yola yönəltməz”. Təbii ki, bu cümlə bütün haqq yoldan sapmışlara aid deyil. Çünki peyğəmbərlərin vəzifəsi təbliğ etmək, doğru yola yönəltməkdir. Tarix də bu təbliğ və yönəldilmələrin əksər yolunu azmışlara

---

[1130] Əl-Mizan, c.12, səh.237
[1131] Nümunə, c.11, səh.231

təsir göstərdiyini, onların doğru yola gəldiyini və eşqlə onu müdafiə etdiklərini təsdq edir. Bu cümlə yalnız inadkarlığın zürvə nöqtəsinə çatmış, hidayət yolunun qapılarının tamamilə bağlanmasına səbəb olacaq qədər təkəbbür, qürur, qəflət və günah girdabına batanlara aiddir. Məhz bu adamlardır ki, peyğəmbərlər onların xilası üçün nə qədər çalışsalar da, heç bir nəticə hasil olmaz. Onlar etdikləri əməllər nəticəsində doğru yoldan elə uzaq düşüblər ki, artıq hidayət olunmağa layiq deyillər[1132].

41-42. Dünya və axirətdə hicrət etməyin mükafatı: Bu ayənin nazilolma səbəbi ilə bağlı belə qeyd edilmişdir: Bir qrup müsəlman Məkkədə İslamı qəbul etdikdən sonra ciddi təzyiqlərə məruz qalırdı. İslamı gücləndirmək və öz səslərini başqalarına çatdırmaqdan ötrü Peyğəmbərdən (s) sonra Mədinəyə hicrət etdilər. Bu hicrət onların və digər müsəlmanların qələbəsinə səbəb oldu. Bu ərəfədə Süheyb adlı yaşlı bir kişi Məkkə müşriklərinə belə bir təklif irəli sürür: Mən yaşlı br kişiyəm. Mənim sizinlə bir yerdə olmağımın sizə elə bir faydası yoxdur. Əgər sizə qarşı olsam, sizə zərərim toxunmaz. Gəlin mənim mallarımı götürün və Mədinəyə getməyimə icazə verin. Məkə müşrikləri razılaşırlar. Süheyb bütün malını-mülkünü onlara verib Mədinəyə hicrət edir. Bəziləri Süheybə deyir: “Faydalı al-ver etmisən”. Həmin vaxt bu ayə nazil olur, onun və onun kimilərin bu və o biri dünyadakı qələbə xəbərini çatdırır. Əlbəttə, İslamın ilk vaxtlarının mühacirlərinin fədakarlıqları olmasaydı, İslamın səsi boğazında boğulardı. Ancaq mühacirlər bu hesablanmış slçrayışla az müddətdən sonra Məkkəni öz hakimiyyətləri altına alır, İslamın səsini bütün dünyaya çatdırırlar. Bu, bütün şəraitlərdə hər bir müsəlmana dərs ola biləcək bir davranışdır[1133].

[1132] Nümunə, c.11, səh.225
[1133] Nümunə, c.11, səh.235

41. Mühacirlərin hicrət etməsinin məqsədi sağlam cəmiyyət olmuşdur:

Yaxşı və münasib yer deyilərkən yalnız Allaha ibadət edilən, ədalət və yaxşılıqların hökm sürdüyü təmiz və sağlam cəmiyyət nəzərdə tutulur. Mühacirlərin hicrət etməsinin səbəbi də məhz belə bir cəmiyyət yaratmaq olmuşdur[1134].

43. Biz səndən əvvəl də yalnız vəhy etdiyimiz kişiləri göndərmişdik. Əgər bilmirsinizsə, bilənlərdən soruşun.

44. Aydın dəlillər və (əvvəlki peyğəmbərlərə göndərilən) kitabları (bilənlərdən soruşun). Biz bu Zikri (Quranı) sənə nazil etdik ki, insanlara göndəriləni onlara izah edəsən və bəlkə düşünələr.

45. Hiyləgərlər Allahın onları yerə batırmayacağına və yaxud əzabın onlara gözləmədikləri bir yerdən gəlməyəcəyinə əmindirlərmi?

[1134] Əl-Mizan, c.12, səh.253

46. Ya da gəzib dolaşdıqları zaman (Allahın) onları yaxalamayacağındanmı (əmindirlər)? Halbuki onlar yaxa qurtara bilməyəcəklər.

47. Yaxud qorxulu xəbərdarlıqların tədricən onları çətin vəziyyətə salmayacağındanmı (əmindirlər)? Çünki Rəbbiniz mərhəmətlidir, rəhmlidir.

48. Məgər onlar Allahın yaratdıqlarının sağdan sola hərəkət edərək Allaha müti şəkildə səcdə etdiklərini görmürlərmi?

49. (Təkcə kölgələr deyil,) göylərdə və yerdə olan canlıların hamısı, mələklər də təkəbbür göstərmədən Allaha səcdə edirlər.

50. Onlar hakimləri olan Rəblərindən qorxur və onlara əmr olunanları yerinə yetirirlər.

51. Allah: “İki məbud seçməyin! Məbud(unuz) həmin tək olan Allahdır. Yalnız Məndən qorxun!”– deyə əmr etdi.

52. Göylərdə və yerdə nə varsa, Onundur. Xalis din də daim Ona məxsusdur. Siz Allahı qoyub başqasındanmı qorxursunuz?

53. Malik olduğunuz nemətlərin hamısı Allahdandır. Sonra sizə bəla gəldiyi zaman yalnız Onu çağırırsınız.

54. Bəlanı sizdən sovuşdurduqdan sonra sizlərdən bəziləri Rəblərinə şərik qoşur.

---

43. Əgər bilmirsinizsə, bilənlərdən soruşun: Qüreyş müşrikləri güman edirdilər ki, insan peyğəmbərlik məqamına çata bilməz, peyğəmbərlik mələklərə xas olan xüsusiyyətlərdəndir. Müxtəlif ayələrdə bu şübhəyə cavab verilmişdir. O cümlədən, bu ayədə də onlara cavab verilir ki, təkcə İslam peyğəmbəri deyil, bütün peyğəmbərlər insandırlar, onlara vəhy edilir. Peyğəmbərlərə insanları ilahi dinə adi və təbii qaydalar çərçivəsində dəvət

etmək əmr edilib. İnsanlar öz aralarından seçilərn insanların dəvətlərinə müsbət və ya mənfi cavabı ixtiyari şəkildə verməlidirlər. Sonra Allah-taala bu məsələni sübuta yetirmək üçün belə buyurur: ***"Bu həqiqəti başa düşmək üçün bilənlərə müraciət edin və onlardan soruşun!"*** Yəni siz, ey kafirlər, bu məsələni İslam peyğəmbərindən (s) qəbul etmirsinizsə, Kitab əhlinin alimlərindən soruşun, xüsusilə Peyğəmbərlə (s) düşmən, sizinlə dost olan yəhudilərdən onların peyğəmbərlərinin necə olduqlarını soruşun! Şübhəsiz ki, onlar da sizə Quranın sözünü deyəcəklər. Əlbəttə, ***"Əgər bilmirsinizsə, bilənlərdən xəbəri olanlardan soruşun!"*** cümləsi bizi mühüm bir əqli qanuna istiqamətləndirir. O da budur ki, kimsə hər hansı məsələni bilmirsə, həmin məsələni öyrənmək üçün mütəxəssisə müraciət etsin. Bu səbəbdən də bir çox hədislərdə bilənlər (Zikr əhli) deyilərkən Əhli-beyt (ə) nəzərdə tutulduğu qeyd eidlmişdir. Çünki Peyğəmbərin (s) "Səqəleyn" hədisindəki açıq bəyanına əsasən insanları dini məlumatsızlıqdan və sapmadan iki mənbə xilas edə bilər – Qurani-kərim və Peyğəmbərin (s) əhli-beyti. Deməli, dini dərk etmək üçün onlara müraciət etmək lazımdır[1135].

44. Quranın həqiqi təfsirçiləri: Quranın bu ayəsindən açıq şəkildə başa düşülür ki, birincisi, Quran təklikdə kifayət etmir, ayələrini izah etmək üçün bir izahediciyə ehtiyacı vardır; ikincisi, hər kəs də bu mühüm vəzifəni ifa edəcək səlahiyyətə malik deyil. Bu ayəyə əsasən, Peyğəmbərə (s) Quranı təfsir etmək səlahiyyəti verilmişdir. Əhli-beyt (ə) isə Quranın ayələrinin təfsir və izahında Peyğəmbərin (ə) davamçısı hesab edilir. Bu fikir təvatür həddə olan "Səqəleyn" və digər hədislərlə sübuta yetir. Lakin səhabələr, tabelər və ya din alimləri Quranın özünə və Peyğəmbər (s) hədislərinə istinad etmədən Quranın ayələrinin təfsir mənbəyi ola bilməzlər. Çünki onlar

---

[1135] Əl-Mizan, c.12, səh.256

bu ayənin və dinin digər etimad edilən aşkar dəlillərinin nəzərdə tutduğu subyektlər deyillər[1136].

47. Ayıldıcı xəbərdarlıqlar ilahi rəhmətin bir nümunəsidir: Ayədə qorxuducu xəbərdarlıqlarla müşayiət edilən tədrici bəlalar deyilərkən Allahın birdəfəlik əzabları deyil, bir-birinin ardınca gələn müsibət və bəlalar nəzərdə tutulur. Əgər insanlar bu bəla və müsibətləri gördükdən sonra ayılıb tövbə etsələr, çox yaxşı, əks təqdirdə, son əzab onları yaxalayacaq. Bu növ cəza hiylələri, günahları və təcavüzləri qayıdış və tövbə yolunu bağlayacaq həddə çatmamış insanlar üçündür. Onlar ətraflarında baş verən xoşagəlməz hadisələr, o cümlədən maliyyə sıxıntıları, xəstəlik, əziz insanların itirilməsi kimi hadisələrlə qarşılaşdıqda ayıla bilərlər. Buna görə də Allahın mərhəmət və rəhməti hələ ki, Allahla olan bütün əlaqə və bağlantılarını əldə verməmiş, keçdikləri bütün körpüləri yandırmamış, əvvəlki iki ayədə işarə edilən qruplarla heç bir əlaqəsi olmayan insanlara şamil olur[1137].

48-49. Göylərdə və yerdə nə varsa, Allaha səcdə edir: Əsl həqiqi səcdə son dərəcə təvazö və itaətkarlıqdan ibarətdir. Əgər bizim yeddi üzvümüzlə etdiyimiz adi səcdə həqiqətən təvazö və itaətkarlıqla müşayiət olunarsa, sözügedən səcdə nümunələrindən biri hesab edilə bilər. Yaradılış aləminin bütün yaradılmışları varlıq aləminin Allah tərəfindən müəyyən olunmuş ümumi qanunlarına təslim olduqları, bu qanunlardan sapmaqdıqları üçün hamısı Allahın fərmanına mütidirlər, Onun qarşısında səcdə edirlər. Bütün bunlar o alim, qadir, sonsuz və ehtiyacsız varlığın nişanəsidir. Hətta hər gün günəşin doğması və batması ilə yerini dəyişən, sağdan sola hərəkət

[1136] Əl-Mizan, c.12, səh.260
[1137] Nümunə, c.11, səh.249

edən kölgələr də Allah qarşısındakı bəndəliklərini, təvazökarlıqlarını öz vəziyyətləri ilə elan edirlər[1138].

55. (Qoy) Bizim onlara verdiyimiz nemətlərə nankorluq etsinlər. (Hələlik) bir neçə günlük (dünya malından) bəhrələnsinlər! Ancaq tezliklə biləcəksiniz.

56. Onlar özlərinə verdiyimiz ruzidən heç bir xeyir və ziyanlarını görmədikləri bütlərə pay ayırırlar. Allaha and olsun ki, atdığınız bu iftiralara görə sorğu-sual olunacaqsınız.

57. Onlar qızları Allaha aid edirlər. O, pak və müqəddəsdir. Özlərinə isə istədiklərini aid edirlər.

58. Onlardan birinə qızı olması ilə bağlı müjdə verildikdə üzü qapqara qaralır, bərk əsəbləşir.

59. Verilən pis xəbər üzündən camaatdan gizlənir. (Bilmir nə etsin,) onu rüsvayçılıq içində saxlasın, yoxsa torpağa gömsün? Bilin, pis qərar qəbul edirlər.

60. Çirkin xüsusiyyətlər axirətə inamı olmayanlara xasdır. Ən ali sifətlər isə Allaha məxsusdur. O, qüdrətlidir, hikmət sahibidir.

[1138] Nümunə, c.11, səh.254

61. Əgər Allah insanları etdikləri zülmə görə cəzalandırsaydı, yer üzündə heç bir canlını (sağ) qoymazdı. Lakin onlara müəyyən vaxta qədər möhlət verir. Əcəlləri çatdığında isə bircə saat belə yubanmaz və qabağa düşməzlər.

62. Onlar özlərinin xoşlamadıqlarını (qızları) Allaha aid edirlər. Bununla belə, dilləri yalandan ən gözəl aqibətin onların olacağını söyləyir. Şübhəsiz ki, od onlar üçündür və onlar (Cəhənnəmə) qabaqda gedənlərdir.

63. Allaha and olsun ki, səndən əvvəl də ümmətlərə peyğəmbərlər göndərdik. Şeytan əməllərini onlara gözəl göstərdi. Bu gün də onların vəlisi və hamisidir. Onlar üçün üzücü bir əzab vardır.

64. Biz Kitabı sənə yalnız ona görə nazil etdik ki, onlara ixtilafda olduqları şeyləri bəyan edəsən. (Bu Quran) mömin camaat üçün hidayət və mərhəmət mənbəyidir.

---

56. Bütlərin heyvandarlıq və əkinçilikdəki payı: Müşriklərn çirkin adətlərindən biri öz gəlirlərindən bütlərə pay ayırmaları idi. Cahiliyyət dövrünün ərəbləri dəvə və digər heyvanları, eyni zamanda əkin məhsullarından bütlərə pay ayırır, onların yolunda xərcləyirdilər. Halbuki bütlərin onlara nə bir xeyri nə də bir ziyanı dəyirdi. Bu, onların etdiyi ən axmaq bir əməl idi[1139].

57. Allahın qız sahibi olmasına etiqad bəsləmək: Müşriklərin çirkin adətlərindən biri də cismə xas olan heç bir xüsusiyyətə malik olmayan Allahın qızı olduğuna etiqad bəsləmək idi. Onlar hesab edirdilər ki, mələklər Allahın qızlarıdır. Lakin növbə özlərinə çatanda qız sahibi olmağı ar bilirdilər. Ümumiyyətlə, onlara görə qız eyib, rüsvyaçılıq, utanc,

---

[1139] Nümunə, c.11, səh.267

başıaşağılıq, bədbəxtlik hesab edilirdi. Oğul müharibələrdə, qarətlərdə kömək edə bildiyi və işləyib qazanc əldə etdiyi üçün dəyərli hesab edilirdi[1140].

58-59. Qızların diri-diri torpağa gömülməsi: Qızların diri-diri torpağa basdırılması adət halı almış cahiliyyə dövrünün müşriklərinin bu antiinsani və nadan adətləri haqqında belə qeyd edirlər ki, kişilər həyat yoldaşları azad olmazdan əvvəl bir çala qazıb hazır saxlayırdılar. Dünyaya gələn övladları qız olduğu təqdirdə onu diri-diri həmin çalaya atıb üstünü torpaqlayırdılar. Bunu qızları üzündən yoxsullaşacaqlarından qorxudqları üçün edirdilər. Çünki oğlanlar işləyir, qazanc gətirirdilər. Oğlanlar istehsalçı olduqları halda, qızlar istehlakçı hesab edilirdi.

Deyilənlərə görə, bu yanlış addım ilk dəfə Bəni Təmim qəbiləsi ilə İranın Kəsra qəbiləsi arasında baş verən döyüşdən sonra atılmağa başlamışdır. Həmin döyüşdə Bəni-Təmim qəbləsindən olan bir qrup qadın kəsralılara əsir düşür. Döyüşçülər onları Kəsra sarayına aparır və onları sarayda kəniz kimi saxlayırlar. Bir müddətdən sonra tərəflər arasında sülh müqaviləsi imzalanır və Bəni-Təmim qəbiləsi əsir düşmüş xanımları geri istəyirlər. Kəsra sarayında isə öz qəbilələrinə geri dönmək və ya sarayda qalmaq seçimi qadınların özlərinə həvalə edilir. Qızların çoxu getməkdən imtina edir. Qəbilənin kişiləri çox qəzəblənirlər və söz verirlər ki, əgər bundan sonra qızları olsa, onları diri-diri toprağa basdıracaqlar və sözlərinə də əməl edirlər. Bu ənənə yavaş-yavaş digər qəbilələrə də keçir və hər tərəfə yayılır. Bununla da qız öldürmək adət halını alır[1141].

61. “Canlı” (dabbə) deyilərkən nə nəzərdə tutulur? Ehtimal ki, burada “canlı” deyilərkən insan nəzərdə tutulur. Çünki insan da hərəkətdə olan

---

[1140] Nümunə, c.11, səh.267
[1141] Əl-Mizan, c.12, səh.276

canlılardandır. Buna görə də ayənin mənası belə olur: Əgər Allah-taala insanları etidkləri zülm və haqsızlıqlara görə cəzalandırmaq, yəni zülm və haqsızlığa yol verən hər bir kəsi əzaba düçar etmək istəyərsə, artıq yer üzündə hərəkət edən heç bir insan qalmaz. Çünki zülmkarlar etdikləri zülm və haqsızlıqlara görə həlak olsaydılar, məsum insanlar, peyğəmbərlər və övliyaların babları da ata-babaları həlak olduğu üçün ümumiyyətlə, dünyaya gəlməzdilər. Bəlkə də elə buna görə canlı deyilərkən bütün heyvanlar və canlılar nəzərdə tutulur. Belə olan surətdə heyvanların və digər canlıların insanların günahlarına görə məhv edilməsi belə izah edilir: Qurana görə yer kürəsinin bütün mövcudatı insanların kamilləşmsi üçün yaradılmışdır. Deməli, insan olmazsa, onların da mövcudluğu əbəs olacaqdır. "Bəqərə" surəsinin 29-cu ayəsində belə buyurulmuşdur: ***"Allah yerdə mövcud olan hər şeyi sizin üçün yaratmışdır."***[1142]

63. Şeytan kafirlərin hamisidir: "Bu gün o sizin vəliniz və haminizdir" cümləsində Peyğəmbər (ə) zamanındakı ərəb müşriklərinə işarə edilmişdir. Onlar da əvvəlki ümmətlərin azğın proqramlarını davam etdirirlər. Əməllərini onların gözündə gözəl göstərən Şeytan bu gün bu müşriklərin rəhbəri və hamisidir[1143].

[1142] Əl-Mizan, c.12, səh.280
[1143] Nümunə, c.11, səh.284

65. Allah göydən su göndərib ölmüş yerə həyat bəxş etdi. Bunda eşidən qulağı olan adamlar üçün aydın dəlil vardır.

66. Mal-qarada da sizin üçün bir ibrət vardır. Biz sizə onların qarınlarındakı ifrazat və qanın arasından təmiz və dadlı süd içirdirik.

67. Siz xurma və üzüm ağaclarının meyvələrindən məstedici içkilər, pak və xeyirli ruzi hazırlayırsınız. Bunda düşünən adamlar üçün aydın dəlil vardır.

68. Rəbbin bal arısına belə vəhy etdi: "Dağlardan, ağaclardan və (insanların) düzəltdikləri çardaqlardan özünə ev seç.

69. Sonra bütün meyvələrdən (və güllərin şirəsindən) ye və Rəbbinin sənə təyin etdiyi yollarla rahat get". Onların qarınlarından tərkibində insanlar üçün şəfa olan müxtəlif rəngli içki çıxır. Həqiqətən, bunda düşünən adamlar üçün aydın dəlil vardır.

70. Allah sizi yaratdı, sonra öldürəcəkdir. Sizlərdən bəziləri (vaxtilə) bildiyi şeyləri unutsun deyə ömrünün ən arzuolunmaz ixtiyar çağına çatdırılacaq. Həqiqətən, Allah biləndir, qüdrətlidir.

71. Allah ruzi baxımından birinizi digərindən üstün etmişdir. Üstünlük verilənlər kölələrinə öz ruzilərindən vermirlər ki, bu cəhətdən bərabər olsunlar. Onlar Allahın nemətini inkarmı edirlər?

72. Allah sizin üçün öz cinsinizdən zövcələr yaratdı, zövcələrinizdən də sizin üçün övladlar və nəvələr yaratdı və sizə pak olanlardan ruzi verdi. İndi onlar batilə inanıb Allahın nemətini inkarmı edirlər?

---

66. Süd Allahın dəlillərindən biridir: Südün əmələ gəlməsi Allahın dəlillərindən, qüdrət və elminin nişanələrindəndir. Dadlı süd həzm edilmiş qidalarla qanın arasından süzülür, ancaq onlara qarışmır, dadlarını, tamlarını

və qoxularını almır. Belə bir qüdrət sahibi olan Allah insan bədəninin üzvlərini çürüyüb dağıldıqdan sonra yenidən toplamağa, yenidən diriltməyə qadirdir[1144]. (Südün necə meydana gəlməsi və faydaları haqqında daha ətrfalı məlumat almaq istəyənlər "Nümunə" təfsirində bu ayənin təfsirinə baxa bilər).

67. Şərab düzəltmək ilahi nemətlərdən sui-istifadədir: Məlumdur ki, Allah-taala bu ayədə xurma və üzümdən şərab alınmasına icazə verməmişdir. Məstedciləri xeyirli və pak ruzilərlə qarşılaşdırmaqla şərabın haramlığına və pisliyinə qısa şəkildə işarə etmişdir. Buna görə də bu ayənin şərabın haram edilməsi hökmünün elan edildiyi ayədən əvvəl nazil olduğunu deməyə ehtiyac qalmır. Burada onun haram olduğuna işarə edilmişdir. Bu ayə bəlkə də şərabın haram olması ilə bağlı ilk xəbərdarlığı əks etdirir. Sanki Quran ilahi nemətləri sadalayarkən ondan sui-istifadəyə də işarə etmişdir[1145].

68. Bal arısına vəhy edilməsi: Vəhy kiməsə bir şeyi başqalarının xəbərdar olmayacağı şəkildə başa salmağa deyilir. Deməli, bir şeyin heyvana malik olduğu instinkt vasitəsilə başa salınması vəhydir. Hər hansı bir mövzunun yuxu, vəsvəsə və ya işarə vasitəsilə başa salınması da vəhydir. Quranda vəhy bu mənaların hamısında işlənmişdir. Əlbəttə, dini kontekstdə vəhy yalnız Peyğəmbərə (s) göndərilən sözlərlə məhdudlaşmışdır[1146].

69. Bal şəfaverici bir şərbətdir: Bal sağlamlıq, bir çox xəstəliklərin qarşısının alınması və müalicəsində faydalı olan xüsusiyyətlərə malikdir. Hədislərdə də balın müalicəvi xüsusiyyətlərindən çox işarə edilmişdir. İmamlara istinad edilən bir çox hədislərdə belə qeyd edilmişdir: ***"Öz xəstəliyini bal şərbəti kimi bir vasitə ilə müalicə etməyən heç bir xəstə***

[1144] Əl-Mizan, c.12, səh.288
[1145] Nümunə, c.11, səh.290
[1146] Əl-Mizan, c.12, səh.292

yoxdur.”[1147] (Daha ətraflı məlumat almaq istəyənlər “Nümunə” təfsirində bu ayənin təfsirinə baxa bilər)[1148].

70. Ömrün ən arzuolunmaz ixtiyar çağı: Doğrusu, bu yaş həddi üçün konkret rəqəm təyin etmək olmur. Çünki dərketmə qüvvəsinin sıradan çıxması, yaddaşsızlığın yaranmağa başlaması fərdlərin fiziki sağlamlıqlarından asılıdır. Adətən bu əlamətlər özünü 75 yaşdan sonra büruzə verməyə başlayır. Bəzi hədislər də bunu təsdiq edir[1149].

72. Ailə ən böyük nemətlərdən biridir: Bu ayədə Allahın insanlara bəxş etdiyi ən böyük nemətlərdən birinə, yəni ailə nemətinə işarə edilmişdir. Ailə insan cəmiyyətinin əsasını təşkil edir, insanların həyatının davamlılığı ondan asılıdır. Kişi ilə qadının evliliyi insan nəslinin davamlılığını təmin etməklə yanaşı, onların birinin digəri ilə rahatlıq tapmasına səbəb olur. İnsanların çox böyük ehtiyac duyduqları qarşılıqlı yardımlaşma və həmkarlıq ruhiyyəsi ailə mühitində formalaşır. Ailə üzvlərindən hər biri digərinə bir növ xidmət edir və bu şəkildə bir-birlərinin ehtiyaclarını ödəyir. Böyük insan cəmiyyəti bu kiçik qruplar sayəsində öz həyatını davam etdirir. Şübhəsiz ki, insanlar bu gözəl və qurucu əlaqəyə son qoysalar, ailə özülünü məhv etsələr, demək öz əlləri ilə öz köklərinə balta çalmış olarlar, nəticədə, çox çəkməz ki, yer kürəsində insan qalmaz. Çünki heç bir orqan bu isti və səfalı mühitin yerini doldura bilməz[1150].

[1147] Elə bir xəstəlik yoxdur ki, bal şərbəti ilə müalicə olunmasın
[1148] Nümunə, c.11, səh.302
[1149] Əl-Mizan, c.12, səh.294
[1150] Əl-Mizan, c.12, səh.297

73. Allahı qoyub göylərdən və yerdən onlara verəcək heç bir ruzisi olmayan və buna gücləri də çatmayan varlıqlaramı ibadət edirlər.

74. Heç nəyi Allaha bənzətməyin. Allah bilir, siz isə bilmirsiniz.

75. Allah, heç bir şeyə gücü çatmayan və başqasının mülkiyyəti olan bir kölə ilə dərgahımızdan özünə verdiyimiz gözəl ruzidən gizli və aşkar xərcləyən kimsəni məsəl çəkdi. Bu iki nəfər birdirmi? Həmd Allaha məxsusdur, lakin onların çoxu bilmir.

76. Allah iki nəfəri (də) məsəl çəkdi; onlardan biri anadangəlmə laldır, heç bir şeyə gücü çatmır və öz sahibinə bir yükdür. Onu hara yollasa, yarıtmır. Belə bir insanla doğru yolda olub haqq-ədalətə əmr edən bir kimsə bərabərdirmi?

77. Göylərin və yerin qeybi Allaha məxsusdur. Qiyamət bir göz qırpımı kimidir və ya daha tezdir. Allah hər şeyə qadirdir.

78. Allah sizi analarınızın bətnindən heç nə anlamadığınız bir halda çıxartdı, sizə qulaq, göz və ürək verdi ki, Onun nemətinin şükürünü edəsiniz.

79. Onlar havada saxlanılan quşları görmürlərmi? Onları (havada) saxlayan ancaq Allahdır. Bunda iman gətirən insanlar üçün dəlillər vardır.

---

73. Ruzi vermək bütlərin səlahiyyətində deyil: Müşriklər güman edirdilər ki, bütlər onların taleyində, xeyir və ziyanlarında rol oynayır. Buna görə onlara ibadət edirdilər. Göylərdən enən və yerdən çıxan ruzilərin insan həyatının zəruri tələbatları olduğunu bilirik. Ancaq bu ruzilərin heç biri bütlərin səlahiyyətində deyil. Onlar heç bir iradəsi olmayan varlıqlardır. Daşıdıqları dəyərə müşriklərin xurafat və cahil təəsübkeşlikləri sayəsində malik olmuşdular[1151].

74. Allahın misli və bənzəri yoxdur: Bu cümlənin xitab obyekti öz nöqsanlı ağılları ilə Allahı vəsf edən və onu digər varlıqlara bənzədən insanlardır. Onlar deyirdilər ki, insanların övladları varsa, deməli, Allahın da övladları var; mələklər Allahın qızlarıdır. Allahın cin və pərilərlə qohumluğu var. Çox vaxt soruşurdular ki, Allah çürümüş sümükləri necə dirildəcək? Bunu ona görə soruşurdular ki, Allahı belə bir qüdrətə malik olmayan varlıqlarla müqayisə edirdilər. Allah-taala bu ayədə buyurur ki, Allahın zatı və fellərinin həqiqətindən xəbəriniz olmadığı üçün bu cür bənzətmələr etməyə və onu yaratdıqları ilə müqayisə etməyə haqqınız çatmır[1152].

[1151] Nümunə, c.11, səh.322
[1152] Əl-Mizan, c.12, səh.298

75-76. Tövhidin dəyəri və şirkin dəyərsizliyi: Bu iki ayədə Allahpərəstliyin dəyərini və şirkin dəyərsizliyini daha yaxşı başa salmaq üçün iki gösəl məsəl çəkilmişdir. 75-ci ayədə iki nəfər müqayisə edilmişdir. Onlardan biri başqasının köləsi, heç bir ixtiyarı olmayan gücsüz və yoxsul bir adamdır. Digəri isə dilədiyi vaxt öz malından Allah yolunda xərcləyə bilən qüdrətli və varlı bir adamdır. Bu, qüdrətli Allahla müşriklərin aciz tanrılarını səciyyələndirən bir məsəldir. Allah-taala ehtiyacsızdır, bütün kamilliklər ona məxsusdur. O, hər şeyə qadirdir, istədiyini edir, heç kəs onun istəyinin qarşısını ala bilməz. Müşriklərin tanrıları isə onun mülkiyyətidir, heç bir ixtiyar sahibi deyillər. 76-cı ayədə də tövhid inancını başa salmaq üçün başqa bir məsəl çəkilmişdir. Həmin məsəldə də iki insan müqayisə edilmişdir. Onlardan biri yükü başqasının boynunda olan və əlindən heç bir iş gəlməyən lal və kar, digəri isə düz yolda olan qüdrətli və ədalətli insandır. Şübhəsiz ki, bu insanlar bərabər deyil. Bu, Allahla bütlərin, daha dəqiq desək, heç bir nöqsanı olmayan, bütün varlıqların kamilləşməsini istəyən Allahla Ona möhtac olan bütün məbudların fərqini başa salmaq üçün bir məsəldir[1153].

77. Qiyamət bir göz qırpımı qədər asandır: Bu cümlənin məqsədi bütün xüsusiyyətlərinə baxmayaraq, Qiyamətin Allah üçün çox asan olduğunu çatdırmaqdır. Allah-taala "Əraf" surəsinin 187-ci ayəsində Qiyamətin yerdən və göylərdən ağır və əhəmiyyətli, insanlar üçün çox çətin və ağır olduğu buyurulsa da, Allah üçün o bir göz qırpımı qədər asandır. ***"Göz qırpımı kimidir"*** ifadəsi onun asanlığını çatdırmaq üçündür. Çünki göz qırpmaq insanlar üçün ən asan məsələlərdəndir. Allah üçün Qiyaməti gerçəkləşdirmək bundan da asandır. Ümumiyyətlə, Allah üçün çətinlik və

[1153] Əl-Mizan, c.12, səh.299

asanlığın heç br mənası yoxdur. Çünki ***"Bir şeyi (yaratmaq) istədikdə ona təkcə: "Ol!" deyər, o da dərhal olar."*** (Yasin surəsi, 82-ci ayə). Buna görə də Allah-taala bilavaslə "Ondan da yaxındır", - deyə buyurmuşdur[1154].

[1154] Əl-Mizan, c.12, səh.305

80. Allah evlərinizi sizin üçün rahatlıq məkanı etdi, heyvanların dərilərindən sizin üçün həm səfərə çıxdığınız vaxt, həm də düşərgə saldığınız zaman asanlıqla daşıya biləcəyiniz çadırlar, üstəlik də onların yunundan, kürkündən və tükündən müəyyən vaxta qədər ev əşyaları və başqa şeylər düzəltdi.

81. Allah, yaratdıqları şeylərdən sizin üçün kölgələr əmələ gətirdi, dağlarda sizin üçün sığınacaqlar, sizi istidən (və soyuqdan) qoruyacaq paltarlar və döyüşdə mühafizə edəcək geyimlər yaratdı. Beləcə, (Allah) Öz nemətini sizə tamamlayır ki, bəlkə əmrinə tabe olasınız.

82. Əgər üz çevirsələr, (narahat olma,) sənin vəzifən ancaq aşkar təbliğat aparmaqdır.

83. Onlar Allahın nemətlərini tanıyır, sonra onu inkar edirlər. Onların əksəriyyəti kafirdir.

84. Hər ümmətdən bir şahid gətirəcəyimiz gün kafirlərə (danışmaq üçün) izn verilməyəcək, üzr istəmələrinə və əfv diləmələrinə də icazə verilməyəcək.

85. Zalımlar əzab çəkməyə başladıqda onlara güzəştə gedilməyəcək, möhlət verilməyəcəkdir.

86. Müşriklər Allaha şərik qoşduqları tanrıları gördükdə deyəcəklər: “Ey Rəbbimiz! Bunlar Sənin əvəzində çağırdığımız şəriklərdir!” Bu vaxt ibadət etdikləri onlara deyəcək: “Siz yalançısınız!”

87. O gün hamısı Allah qarşısında təslim olacaq və uydurduqları onlardan gözdən itib məhv olacaq.

---

80. Heyvanların tüklərinin fərqliliyi başqa bir nemətdir: Heyvanların bədənlərindəki tüklər müxtəlif olur. Bəzilərinin tükü çox cod olur, bəzilərinki yumşaq, bəzilərinki daha yumşaq olur. Bunlar tük, yun, kürk, xəz və sair adlanır. Təbii ki, bu fərqlilik onların hər birinin ayrı-ayrı istifadə imkanları malik olmasına səbəb olur. Birindən xalça, palaz və bu kimi vasitələrin toxunmasında, birindən paltar tikilişində, başqasından çadır və sair vastələrin hazırlanmasında istifadə edilir[1155]. "Müəyyən vaxta qədər" ifadəsi bütün nemətlərin fani və keçici olacağını göstərir. Deməli, ağıllı insan onlara görə axirətini əldən verməməlidir[1156].

81. Kölgə neməti: Bu ayədə cisimlərin kölgələrinin Allahın qiymətli nemətlərindən biri olduğu qeyd edilmişdir. Bildiyimiz kimi, insanın işığa ehtiyacı olduğu kimi, kölgəyə də ehtiyacı var. Çünki işıq mövcudluğu monoton şəkildə davam etsəydi, həyat qeyri-mümkün olardı. Bunu da bilirik ki, Yer kürəsinin sakinləri üçün ən böyük kölgə Yerin kölgəsidir. Gecə adlandırdığımız bu kölgə Yer səthinin yarı hissəsini tutur. Həm bu böyük kölgənin, həm də gündüz vaxtı ayrı-ayrı bölgələrdə yaranan kiçik kölgələrin insan həyatında oynadığı rol danılmazdır[1157].

[1155] Nümunə, c.11, səh.344
[1156] Əl-Mizan, c.12, səh.314
[1157] Nümunə, c.11, səh.345

81. Dəmir zireh neməti: ***"Müharibə vaxtı sizi qoruyacaq geyimlər"*** deyilərkən dəmir və sair vasitələrdən düzələn və döyüş vaxtı döyüşçüləri qoruyan zirehlər nəzərdə tutulur[1158].

83. Məsum rəhbərlər Allahın ən böyük nemətidir: "Allahın neməti" ifadəsinin məna yükü o qədər genişdir ki, bütün maddi, mənəvi nemətlər., hətta Peyğəmbərə (s) də şamil olur. Əhli-beyt (ə) hədislərində "Allahın neməti" deyilərkən məsum imamlar və rəhbərlərin nəzərdə tutulduğu qeyd edilmişdir. İmam Sadiq (ə) hədislərinin birində belə buyurmuşdur: ***"And olsun Allaha, Allahın neməti bizik. Allah bu nemət vasitəsilə bəndələrinə lütf və mərhəmət göstərir, xoşbəxtlər bizim vasitəmizlə xoşbəxt olurlar."*** Məlumdur ki, xoşbəxtlik və qələbə doğruçu rəhbərlərin rəhbərliyi olmadan mümkün deyil. Bu, ilahi nemətlərin ən parlaq nümunəsidir[1159].

84. Şhadilik etməsi üçün hər bir ümmətdən bir şahid gətirəcəyimiz gün: Quran ayələri və məsumların (ə) hədislərindən belə məlum olur ki, Allahın dəlili istər peyğəmbər olsun, istərsə də peyğəmbərin canişini, hər bir zaman öz ümmətinin əməllərindən xəbərdardır və Qiyamət məhkəməsində öz ümməti üçün şahidlik edəcək. Bu surənin 89-cu ayəsində də eyni həqiqətə işarə edilmişdir[1160].

86. Bütlər və bütpərəstlərin iddiası: Müşriklər uydurma tanrılarına işarə edərkən əzablarının bir hissəsini onların boynuna atmaq məqsədi güdürlər. Buna görə də deyirlər: ***"Ey Rəbbimiz! Bunlar Sənin əvəzində çağırdığımız şəriklərdir!"*** Bütlərin onları təkzib etməsi də yalan deyil. Qondarma bütlər, əslində, ibadətə layiq olmadıqlarını bəyan edəcəklər. Ola bilər ki, müşriklər orada öz sözlərinə bunu da əlavə edəcəklər: "İlahi, bu

---

[1158] Əl-Mizan, c.12, səh.315
[1159] Nümunə, c.11, səh.350
[1160] Ətyəbül-bəyan, c.8, səh.168

məbudlar bizim vəsvəsə olunmağımızda şərik idilər.” Onlar isə “Siz yalan danışırsınız, bizim vəsvəsə edəcək qüdrətimiz yox idi”, - deyə cavab verəcəklər[1161]. Digər tərəfdən, ibadət bəndənin öz məbudu qarşısında təvazökarlıq və itaət göstərməsinə deyilir. Bu əlaqə məbudun xəbəri və məlumatı olmadan heç bir məna daşımır. Müşriklərin ibadəti birtərəfli və bütlərin məlumatı olmadan gerçəkləşdiyi üçün bütlər Allahı şahid tutaraq “Bizim onların ibadətlərindən xəbərmiz yox idi”, - deyə etiraz edəcəklər[1162].

88. Kafir olub (insanları) Allah yolundan sapdıranlara törətdikləri fitnə-fəsada görə əzab üstündən əzab artıracağıq.

[1161] Nümunə, c.11, səh.357
[1162] Tematik təfsir, c.2, səh.707

89. (Xatırlayın!) O gün hər ümmətə özlərindən bir şahid gətirəcək, səni isə onlara şahid gətirəcəyik. Biz sənə hər şeyi izah edən, müsəlmanlar üçün hidayət və mərhəmət səbəbi, habelə müjdəçi olan Kitabı nazil etdik.

90. Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara bəxşiş verməyi əmr, məxfi günahları, aşkar günahları və haqsızlıq etməyi qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə xatırlayasınız.

91. Allahla əhd bağladıqda əhdə sadiq olun; andlarınızı möhkəmlətdikdən sonra pozmayın. Çünki siz Allahı özünüzə zamin etmisiniz. Şübhəsiz ki, Allah sizin nələr etdiyinizi bilir.

92. İplərini möhkəm əyirdikdən sonra (onu) açıb qadın kimi olmayın. Bir camaat digər bir camaatdan (sayca və malca) daha çox olduğu üçün andlarınızı aranızda hiylə vasitəsinə çevirirsiniz. Allah bununla sizi sınayır. O, ixtilafda olduğunuz şeyləri Qiyamət günü sizə mütləq bildirəcəkdir.

93. Əgər Allah istəsəydi, sizin hamınızı vahid bir ümmət edərdi. Lakin O, istədiyini (layiq bldiyini) azdırır, istədiyini (layiq gördüyünü) də doğru yola yönəldir. Siz etdiyiniz əməllərə görə mütləq sorğu-sual olunacaqsınız.

---

89. Haqq yoldan sapmışların şahidi: Bu cümlədə “onlar” deyilərkən kimlərin nəzərdə tutulması, İslam peyğəmbərinin (s) kimlərə şahidlik edəcəyi ilə bağlı təfsirçilər çoxlu fikirlər irəli sürmüşlər. Onlar arasında iki fikir daha çox diqqət cəlb edir. Birincisi budur ki, “onlar” deyilərkən İslam peyğəmbərinin (s) ümməti nəzərdə tutulur. Hər bir peyğəmbər öz ümmətinə şahidlik etdəcəyi kimi, İslam peyğəmbəri (s) də öz ümmətinə şahidlik edəcək. İkincisi budur ki, “onlar” deyilərkən digər şahidlər nəzərdə tutulur. Belə ki, dünyanın başlanğıcından sonuna qədər bütün ümmətlərin peyğəmbərlər və onların canişinlərinin simasında şahidləri olmuş və

olacaqdır. Ancaq İslam peyğəmbəri (s) bu şahidlərin şahididir. Ayənin mənası belədir: Allahın dəlili hər bir zaman öz ümmətinin vəziyyətindən xəbərdardır və Qiyamət məhkəməsində ümmətinə bu barədə şahidlik edəcəkdir. İslam peyğəmbərinə (s) gəldikdə isə, o, bütün şahidlərin vəziyyətindən xəbərdardır və Qiyamət günü şahidlərə şahidlik edəcəkdir. Əlbəttə, Quran ayələri və hədislərə diqqətlə nəzər saldıqda ikinci fikrin öz təsdiqini tapdığının şahidi oluruq[1163]. Daha ətraflı məlumat almaq istəyənlər "Bəqərə" surəsinin 142-ci ayəsinə baxa bilərlər.

89. Quran hər şeyi izah edir: Cümlənin məzmunundan belə başa düşülür ki, Quran insanın haqq yola yönəlməsi üçün lazım olan hər şeyi bəyan etmişdir. Əslində, Quran riyaziyyat, coğrafiya, tarix, kimya, fizika, biologiya və sair elmləri tam əhatə edən böyük bir ensiklopediya deyil, haqq yola yönəldən hidayət kitabıdır. Əgər Quranda bəzən bu elmlərə işarələr edilbsə, məqsəd insanı haqq yola yönəltmək və islah etməkdir. Buna görə də "hər şeyi izah edir" deyilərkən insanların haqq yola yönəlməsi və əbədi xoşbəxtliyə nail olmasında ehtiyac duyduğu hər şeyin Quranda olması nəzərdə tutulur. İmam Sadiq (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Allah Quranda hər şeyi bəyan edib. And olsun Allaha, bəndənin ehtiyac duyduğu heç bir şeyi əsirgəməyib. Buna görə insan deyə bilməz ki, kaş Quranda filan şey nazil olaydı. İnsanın ehtiyac duyduğu elə bir şey yoxdur ki, Allah onu Quranda nazil etməmiş olsun."*** Əlbəttə, Quranın ehtiva etdiyi daha üstün məzmunları əldə etmək üçün onun həqiqi alimlərinə, yəni Peyğəmbər (s) və məsum imamlara (ə) müraciət etmək və onların zülal bulaqlarından sirab olmaq lazımdır[1164].

[1163] Əl-Mizan, c.12, səh.323; Nümunə, c.11, səh.259; Ətyəbül-bəyan, c.8, səh.174
[1164] Nümunə, c.11, səh.361

90. Ən əhatəli sosial proqram: Bu ayə İslamın ictimai, humanizm və etik məsələlərlə bağlı ən əhatəli təlimatlarından birini ehtiva edir. Başlanğıcda belə deyilir: ***"Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara bəxşiş verməyi əmr edir."*** Ədalət, bütün varlıq sisteminin əsasını təşkil edən qanun, hər bir şeyin öz yerində olması deməkdir. Buna görə də istənilən sapma, ifrat, təfrit, başqalarının hüquqlarının pozulması ədalət prinsipinə zidd hesab edilir. Ancaq ədalət bütün qüdrəti, əzəməti və dərin təsirinə baxmayaraq, böhran və istisna hallarda təklikdə təsir göstərə bilmir yaxşılıq edilməsi əmrini tələb edir. İmam Əli (ə) buyurmuşdur: "Ədalət insaflı olmaq, yaxşılıq isə daha çox bağışlamaqdır." Ayədə üç müsbət prinsipdən sonra üç mənfi və qadağan edilmiş prinsip qeyd edilir: "***Gizli günahları, aşkar günahları və haqsızlıq etməyi qadağan edir"***. "Fəhşa" deyilərkən gizli günahlar, "münkər" deyilərkən aşkar günahlar, "bəğy" deyilərkən istənilən növ təcavüz, hüquqların pozulması, zülm və bütpərəstlik nəzərdə tutulur. Bu ayənin ehtiva etdiyi prinsiplərə diqqət və əməl dünyanın abadlaşdırılması və hər növ bədbəxtlikdən xilas edilməsinə kifayət edir. Peyğəmbərin (s) bir hədisində belə buyurulmuşdur: Təqva Allahın bu cümləsində ümumiləşmişdir: "***Allah ədalətli olmağı... əmr edir***"[1165]

92. Əhdi pozmaq: Allah-taala öncəki ayədə ümumiyyətlə, əhdin pozulmasını qadağan etmişdir. Bu ayədə isə əhdlərini möhkəmləndirdikdən və Allahı bu əhdə zamin etdikdən sonra onu pozanları yundan ip əyirib onu yenidən sökən yüngülağıl qadına bənzətmişdir. Deyilənə görə bu ayədə günün yarısına qədər kənizlərinə yun əyirtdrib, sonra onları sökdürən Ritə binti Əmrə adlı axmaq və yelbeyin qadına işarə edilmişdir[1166].

[1165] Nümunə, c.11, səh.366
[1166] Əl-Mizan, c.12, səh.335

94. Andlarınızı aranızda fırıldaq və xəyanət vasitəsinə çevirməyin. Yoxsa ayağınız möhkəm ikən titrəyər və (insanları) Allah yolundan döndərdiyinizə görə əzabı dadarsınız. Sizi böyük bir əzab gözləyir.

95. Allahla bağladığınız əhd-peymanı ucuz qiymətə satmayın. Allah yanında olan sizin üçün daha xeyirlidir. Kaş biləydiniz.

96. Sizdə olan tükənəcək, Allah yanında olan isə qalıcıdır. Səbirli olanlara etdikləri ən yaxşı əməllərə görə mükafat verəcəyik.

97. Kişi və qadın olmasından asılı olmayaraq, mömin olduğu halda, layiqli iş görən hər bir kəsə gözəl bir həyat bəxş edəcək və etdiyi ən yaxşı əməllərə görə mükafat verəcəyik.

98. Quran oxuyarkən qovulmuş Şeytanın şərindən Allaha sığın!

99. Çünki onun iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlər üzərində heç bir hökmranlığı yoxdur.

100. Onun hakimiyyəti yalnız onu özünə rəhbər seçən və Allaha şərik qoşanlar üzərindədir.

101. Biz bir ayəni başqa bir ayə ilə əvəzlədikdə: “Sən ancaq bir iftiraçısan!”– deyirlər. Halbuki Allah hansı hökmü nazil etdiyini daha yaxşı bilir. Ancaq çoxu (həqqəti) bilmir.

102. De: “Müqəddəs Ruh onu iman gətirənləri sabitqədəm etmək üçün, müsəlmanlara doğru yol göstərən hidayətçi və müjdə olsun deyə Rəbbin tərəfindən haqq olaraq nazil etmişdir”.

---

94. And və əhdin pozulmasının iki mənfi nəticəsi: Bu ayədə əhdin pozulması və andlardan xəyanət etmək üçün istifadə edilməsiin iki mənfi nəticəsi qeyd edilmişdir: 1. Bu davranış insanların etimad və etibarının zədələnməsinə səbəb olur, iman gətirənlərin bir qrupunun imanı zəifləyir. 2. Axirət evində insanın ilahi əzaba düçar olması ilə nəticələnir[1167]. Bu və sonrakı ayədə ümumi şəkildə istənilən növ and pozulması və və andlardan sui-istifadə qadağan edilsə də, Əhli-beyt (ə) hədislərində İslam peyğəmbərinin (s) müsəlmanlardan Əlinin (ə) rəhbərliyi ilə bağlı aldığı əhd-peymanın pozulması bu ayənin ən böyük nümunələrindən biri kimi təqdim edilmişdir. Bəli, həmin əhdin pozulması bir tərəfdən çoxlu sayda insanın Allahın doğru yolundan sapmasına, digər tərəfdən isə əhd sındıranların Allahın böyük əzabına tuş gəlməsinə səbəb oldu[1168].

96. Həyata əbədilik rəngi qataq: Maddi dünya həyatı fani və keçicidir. Lakin bu həyata əbədi olan Allahın pak zatı ilə məna qatsaq, onu Allaha və Allah yoluna həsr etsək əbədilik rənginə boyanar. Ümumiyyətlə, Allahın zatı

[1167] Nümunə, c.11, səh.381
[1168] Ətyəbül-bəyan, c.8, səh.181

ilə əlaqələndirilən hər bir şey əbədilik rənginə boyanır. Buna görə də peyğəmbərlər, imamlar, doğru yolda olan alimlər, şəhidlər və əməlisaleh möminlər ölməzdirlər. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Adəm övladı dünyasını dəyişərkən ümid və arzuları üç şey istisna olmaqla hər şeydən kəsilər: 1. Davamlı olan sədəqələr; 2. İnsanların faydalandığı elm və bilik; 3. Valideyninə dua edən saleh övlad."*** İmam Əli (ə) buyurmuşdur: ***"İki əməl arasında fərq var: zövqü keçəri, nəticəsi acı və qalıcı olan əməllə əziyyəti keçəri, mükafatı qalıcı olan əməl".***[1169]

96. Əməllərin ən yaxşısına uyğun mükafat: Bu ifadə onu göstərir ki, bütün səbr edənlərin yaxşı əməllərinin mükafatı eyni deyil. Bəzisi yaxşıdır, bəzisi daha yaxşı. Ancaq Allah hamısını daha yaxşı hesab edir və onlara daha yaxşı mükafat verir. Bu, alicənablığın ən yüksək həddidir. Bir nəfər üstün, yaxşı və orta olmaqla bir neçə əmtəə növünü satışa çıxarır, ancaq alıcı onların hamısını daha üstün olanın qiymətinə uyğun alır[1170].

97. Pak və gözəl həyat: Allah-taala bu ayədə yaxşı işlər görən möminlərə vəd verir ki, başqa insanlar kimi diri və həyatda olsalar da, onlara yeni və pak bir həyat bəxş ediləcək; onlara haqqı batildən ayıran nur və ayıqlıq veriləcək. Bu səbəbdən də möminlər cani-dildən maddi dünya və onun zahiri təmtərağından, cazibələrindən əl çəkir, özünü izzət sahibi olan Allaha həsr edir. Bu bağlılıq "gözəl həyat"ın həqiqi mahiyyətini fadə edir. Onlar özlərini elə bir varlığa həsr ediblər ki, Onda zərrə qədər nöqsan yoxdur. Bu bağlılıq nəticəsində insan vəsf edilə bilməyəcək bir izzət sahibi

[1169] Nümunə, c.11, səh.390
[1170] Nümunə, c.11, səh.388

olur. Allaha bağlanmaqla insan ölüm, əziyyət, dərd-qəm və bədbəxtliyin yol tapa bilmədiyi bir həyat qazanır[1171].

98. Quran oxuyarkən Allaha sığınmağın mənası: Ümumiyyətlə, həqiqətləri görmək və dərk etmək üçün iki şeyin olması şərtdir: Haqqın çöhrəsinin aşkar olması, görmə və dərk etmə vasitəsinə malik olmaq. Şübhəsiz ki, Quranın çöhrəsi parlaqlığın ən yüksək həddindədir. Ancaq şeytanlar və şeytansifətlər nəfsani istəklərin köməyi ilə insanın dərketmə gücünü ondan ala bilərlər. Hədislərin birində də belə qeyd edimişdir: ***"Əgər şeytanlar Adəm övladlarının qəlblərinin ətrafında dövrə vurmasaydılar, onlar mələklər aləmini və göylərin dərinliklərini görərdilər."*** Buna görə də haqq yolunun yolçularının bu yolu getməsinin birinci şərti nəfslərini təmizləmək və təqvalı olmaqdır. Əslində, bu ayənin məqsədi təkcə "Qovulmuş Şeytandan Allaha sığınıram" ifadəsi ilə kifayətlənməni çatdırmaq deyil. Ayəyə görə bu ifadəni fikrə, fikri isə daxili hala çevirməli, hər bir ayəni oxuyarkən bizimlə həyat bəxş edən kəlam arasında maneə yaradan şeytan vəsəvəsələrindən Allaha sığınmalıyıq[1172].

[1171] Əl-Mizan, c.2, səh.241
[1172] Nümunə, c.11, səh.297

103. Biz onların: “Bu ayələri ona bir insan öyrədir!”– dediklərini bilirik. Onların nəzərdə tutduqları adamın dili ərəb dili olmadığı halda, bu, açıq-aydın ərəb dilidir.

104. Allahın ayələrinə inanmayanları, əlbəttə ki, Allah doğru yola yönəltməz və onlar üçün üzücü bir əzab vardır.

105. Yalanı ancaq Allahın ayələrinə inanmayanlar uydururlar. Əsl yalançılar onlardır.

106. Qəlbləri imanla əminlik tapdığı halda, məcbur edilən şəxslər istisna olmaqla, kim iman gətirdikdən sonra Allahı inkar etsə və qəlbini küfrə açsa, Allahın qəzəbinə düçar olar. Onlar üçün böyük bir əzab vardır.

107. Bu ona görədir ki, dünya həyatını axirətdən üstün tuturlar. Həm də Allah imansızları (inadkarları) doğru yola yönəltmir.

108. Bunlar o kəslərdir ki, Allah onların qəlbinə, qulaqlarına və gözlərinə möhür vurmuşdur. Əsl qafillər onlardır.

109. Axirətdə ziyana uğrayanlar da onlardır.

110. Aldandıqdan sonra (iman gətirib) hicrət edənləri, daha sonra cihad edib əzmkarlıq göstərənləri, bunlardan sonra əlbəttə, Rəbbin bağış-layandır, rəhimlidir.

---

103. Kafirlər Quranı kimə aid edirdilər? Bu ayədə nəzərdə tutulan şəxsin kimliyi ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Həmin fikirlərin məcmusundan belə başa düşülür ki, o, Məkkədə yaşayan və Kitab əhlinin kitablarından xəbəri olan, xristian etiqadlı, Bəni-Xəzrəminin azad etdiyi

rumlu bir qul olmuşdur. Müşriklər Peyğəmbəri (s) Quranı həmin şəxsdən öyrənməkdə ittiham edirdilər. Quran onlara cavab verir ki, ümumiyyətlə, həmin şəxsin dili ərəb dili deyildi. Ancaq Quran açıq-aşkar ərəb dilindədir. Ərəbdilli olmayan bir şəxsin ərəbcəsi ədəbi və bədii cəhətdən çox yüksək səviyyədə olan Quranı yazıb-oxumağı bilməyən Peyğəmbər (s) kimi bir şəxsə öyrətməsi isə mümkün deyil[1173].

105. Mömin yalan danışmaz: Bu ayə yalanın çirkinliyindən bəhs edən mühüm ayələrdəndir. Ayədə yalançılar kafirlər və Allahın ayələrini inkar edənlər səviyyəsinə endirilmişdir. Ayənin nəzər nöqtəsi Allah və Peyğəmbərə (s) iftira atmaq olsa da, yalanın çirkinliyinin də təsvri verilmişdir. Bu ayəyə əsasən yalan imanla tərs mütənasibdir. Çünki yalan münafiqlik əlaməti, münafiqlik isə imanın tam əksidir[1174]. Bir nəfər Peyğəmbərdən (s) "Mömin zina edərmi?" – deyə soruşduqda Peyğəmbər (s) ***"Mümkündür"***, - deyə cavab verir. Həmin şəxs "Oğurluq edərmi?" – deyə soruşduqda Peyğəmbər (s) ***"Belə bir günaha aludə olub imanlı qalması mümkündür"*** – deyə cavab verir. Bu şəxs "Bəs mömin yalan danışarmı?" – deyə soruşduqda Peyğəmbər (s) buyurur: ***"Xeyr!"*** Sonra bu ayəni buyurur: ***"Yalanı ancaq Allahın ayələrinə inanmayanlar uydururlar"***[1175]

106. Təqiyyə (İnsanın öz etiqad və inancını gizlətməsi): Hədislərdə bu ayənin Peyğəmbərin (s) vəfalı dostu olan Əmmar Yasir haqqında nazil olduğu qeyd edilmişdir. Qüreyş müşrikləri Əmmarın atası Yasir, anası Süməyyə, habelə İslamı təzə qəbul etmiş Bilal və Xubabı tutub dinlərindən və Peyğəmbərdən (s) üz döndərmələrini tələb edir, dözülməz işgəncələrə məruz qoyurdular. Ağır işgəncələr nəticəsində Əmmarın ata və anası

[1173] Əl-Mizandan iqtibas, c.12, səh.347
[1174] Nümunə, c.11, səh.412
[1175] Əl-Mizan, c.12, səh.352

işgəncələrə dözməyib canlarını tapşırır. Ancaq Bilal və Xubab işgəncələrə dözüb dillərinə küfr söz gətirmirlər. Əmmar Yasir isə dözə bilməyəcəyini görüb müşriklərin istədiklərini deyir və canını onların əlindən xilas edir. Bu xəbər müsəlmanlar arasında yayıldıqda bəziləri onu küfür və mürtədlikdə ittiham edirlər. Ancaq Peyğəmbər (s) bu şayiəni qəbul etməyib, Əmmarın müdafiəsinə qalxır. Bir müddətdən sonra Əmmar gözü yaşlı halda Peyğəmbərin (s) yanına gəlib dediklərinə görə peşmançılıq hissi keçirdiyni bildirir. Peyğəmbər (s) buyurur: "Kafir olduğunu söylədiyin vaxt qəlbində hansı etiqadı daşıyırdın?" Əmmar deyir: Qəbim rahat və imanla dolu idi. Peyğəmbər (s) buyurur: "Əgər sənə yenə də təzyiq göstərsələr, istədiklərini de və canını xilas et!"[1176] Bu ayə, onun nazilolma səbəbi və çoxlu sayda hədislərdən belə məlum olur ki, təqiyyənin müxtəlif formaları bir çox yerlərdə icazəli, hətta vacibdir. Daha çox məlumat əldə etmək istəyənlər "Ali-İmran" surəsinin 28-ci ayəsinə baxa bilərlər.

111. O gün hər kəs özünü müdafiə edəcək, hər kəsə etdiyi əməllərin əvəzi tam veriləcək və onlara zülm edilməyəcəkdir.

112. Allah təhlükəsizlik və əmin-amanlıq içində olan abad bir bölgəni misal çəkir. Ona ruzisi hər yerdən davamlı olaraq gəlirdi. Ancaq Allahın nemətlərinə nankorluq etdilər. Allah da etdikləri əməllərə görə onlara aclıq və qorxu libası geyindirdi.

113. Onlara özlərindən bir elçi gəldi. Onu təkzib etdilər. Buna görə Allahın əzabı onları haqsızlıq etdikləri halda yaxaladı.

114. Allahın sizə verdiyi halal və təmiz ruzilərdən yeyin və əgər Allaha ibadət edirsinizsə, nemətinə şükür edin.

[1176] Əl-Mizan, c.12, səh.358

115. O sizə ancaq ölü heyvanı, qanı, donuz ətini və Allahdan qeyrisinin adı ilə kəsilən heyvanı haram etmişdir. Ancaq həddi aşmadan məcbur olan şəxslər(i Allah bağışlayar. Çünki) Allah bağışlayandır, rəhmlidir!

116. Dilinizə gətirdiyiniz yalana əsasən: "Bu, halaldır, o, haramdır!"– deməyin ki, Allaha iftira atmış olursunuz. Şübhəsiz ki, Allaha iftira atanlar nicat tapmayacaqlar.

117. (Bu dünyada onlara nəsib olmuş) mənfəət azdır, onları sarsıdıcı bir əzab gözləyir.

118. Sənə daha öncə izah etdiyimiz şeyləri yəhudilərə haram etmişdik. Biz onlara zülm etmədik. Lakin onlar özləri özlərinə zülm edirdilər.

---

112. Nemətə nankorluq etməyin cəzası: Məsumlardan biri bu ayə haqqında belə belə buyurmuşdur: Bu ayə yaşadıqları ərazidən Sərsar adlı çay keçən bir tayfa haqqında nazil olmuşdur. Bu çayın hesabına onların əraziləri bol-bərəkətli, məhsuldar və yamyaşıl idi. Nemətləri o qədər bol oldu ki, Allah nemətlərinə qarşı naşükürlük etdilər. İş o yerə çatdı ki, xəmirlə öz çirkablarını təmizlədilər. Bunu belə izah edirdilər ki, xəmir yumşaqdır və ondan istifadə edərkən narahatlıq yaratmır. Allahın nemətlərinə qarşı bu cür nankorluq edib onlara qarşı hörmətsizlik etdilər. Buna görə də Allah həmin çayı qurutdu. Nəticədə, quraqlıq yarandı. Allah onları həmin çirkabı təmizlədikləri xəmirlərə möhtac etdi. Hətta iş o yerə çatmışdı ki, həmin xəmir üstündə dava-dalaş salırdılar[1177].

[1177] Əl-Mizan, c.12, səh.376

Bu ayə və hədis ilahi nemətlər bolluğu içində olan insanlara və xalqlara br xəbərdarlıqdır. İnsanlar bilməlidrlər ki, istənilən növ israfçılığın bir cəzası var. Onun ən aşağı cəzası həmin nemətlərin əldən alınmasıdır. Hədislərdə bu məsələyə çox əhəmiyyət verilmişdir. İmam Sadiq (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Atam (İmam Baqir (ə)) yeməyə batmış əlini dəsmalla silməzdi. Yeməyə hörmət əlaməti olaraq onu sorardı. Əgər yanında yemək yeyən bir uşağın qabında yemək qalsaydı, həmin qabdakı yeməyi yeyərdi. Bir dəfə dedi: "Bəzən süfrənin kənarına tökülmüş yeməkləri yığıram… Sonra yuxarıda sözügedən tayfanın Allah nemətlərinə, xüsusilə çörəyə qarşı olan nankorluğu və naşükürlüyü ilə bağlı hekayəsini danışdı"***[1178].

115. İstəmədən və həddi aşmadan: "Bağ" və ya "bağı" sözü mənası tələb və istəmək olan "bəğy" sözündən düzəlmişdir. Burada zövq və ləzzət almaq meyli, Allahın haramının halal sayılması nəzərdə tutulur. "Ad" və ya "adi" sözü mənası həddi aşmaq, təcavüz etmək olan "ədv" sözündən düzəlmişdir. Burada çıxılmaz vəziyyət yarandığı vaxt haram ətdən lazımı miqdardan artıq istifadə nəzərdə tutulur. Əhli-beyt (ə) hədislərində "bağı" sözü bəzən zalım, "adi" sözü isə qəsbkar mənasında işlədilmişdir. Hətta "bağı" sözü bəzən İmama qarşı qiyam edən, "adi" isə oğurluq mənasında işlədilmişdir. Bu hədislərdə ola bilsin ki, zəruri ehtiyac yarandığı vaxt haram ətdən istifadəyə işarə edilmişdir. Zülm, təcavüz və ya oğurluq etmək üçün səfərə çıxan adam belə bir şəraitə düşərsə, canını qorumaq üçün vəzifəsi onlardan istifadə etmək olsa da, tutduğu əməl günah sayılır[1179].

118. Allahın yəhudilərə qoyduğu qadağalar: Bu ayədə "Ənam" surəsinin 146-cı ayəsində sözü keçən məsələlərə işarə edilmişdir. Həmin

---

[1178] Nümunə, c.11, səh.435
[1179] Nümunə, c.11, səh.441

ayədə belə buyurulur: ***"Yəhudilərə dırnaqlı heyvanların hamısını haram etdik. İnək və qoyunun bellərinə və ya bağırsaqlarına yapışan, yaxud sümüklərinə qarışan yağlar müstəsna olmaqla, onların piylərini də yəhudilərə haram buyurduq. Bunu etdikləri haqsızlığa görə onlara cəza olaraq verdik. Biz doğru danışırıq!"*** "Nisa" surəsinin 16o-161-ci ayələrində isə belə buyurulmuşdur: ***"Yəhudilər zülm etdiklərinə və bir çoxlarını Allahın yolundan döndərdiklərinə görə onlara halal edilmiş gözəl (təmiz, halal) nemətlərin bir hissəsni haram etdik. Habelə qadağan olunmasına baxmayaraq, səläm aldıqları, haqsız yerə xalqın malını yedikləri üçün (halal olanı onlara haram buyurduq)...."***[1180]

[1180] Nümunə, c.11, səh.444

119. Rəbbin bilməməzlikləri üzündən pislik edən, ondan sonra tövbə edib özlərini islah edənlərə qarşı, Rəbbin bunlardan sonra, əlbəttə ki, bağışlayan və rəhm edəndir.

120. İbrahim (təklikdə) Allahın fərmanına müti bir ümmət idi. O, müşriklərdən deyildi.

121. O, Allahın nemətlərinə şükür edən idi. Allah onu seçmiş və doğru yola yönəltmişdi.

122. Biz ona dünyada gözəl nemət verdik. Şübhəsiz ki, o, axirətdə də əməlisalehlərdəndir.

123. Sonra sənə "İmanı xalis olan, müşriklərdən olmayan İbrahimin dininə tabe ol!" – deyə vəhy etdik.

124. Şənbə günü yalnız bir cəza idi ki, onda da ixtilafa düşdülər. Rəbbin Qiyamət günü ixtilafa düşdükləri şey barəsində onların arasında hökm verəcəkdir.

125. Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Rəbbin Onun yolundan azanları da, doğru yolda olanları da yaxşı tanıyır.

126. Cəzalandırmaq istəsəniz, yalnız sizə təcavüz edilən miqdarda cəza verin. Əgər səbr etsəniz, bu, səbr edənlər üçün daha xeyirlidir.

127. Səbr et! Sənin səbrin ancaq Allah üçün və Allahın yardımı ilə olsun. Onlara görə kədərlənmə və qurduqları hiylələrdən ötrü də sıxılma.

128. Allah (Ondan) qorxanlar və yaxşı işlər görənlərlədir.

---

119. Tövbənin qəbul olunma şərtləri: Bu ayədə tövbənin qəlbdə edilməsi və qəlbdə keçirilən peşmançılıqla məhdudlaşmadığı qeyd edilir. Onun əməllərdə özünü göstərməsi şərt hesab edilir. İnsanın özünü islah etməsi və yanlışlarını aradan qaldırması tövbənin təkmilləşdiricisi sayılır. Yəni ayə bizə onu başa salır ki, bir "Əstəğfirullah" cümləsi minlərlə günahın bağışlanmasına səbəb olmur. Bunun üçün əməllərdə mövcud olan yanlışlar aradan qaldırılmalıdır. İnsan ruhları və ya cəmiyyətin günah nərcəsində zərər görmüş hissələri islah və bərpa edilməlidir. Cümlədə bu cəhət o qədər əhəmiyyət verilir ki, yenidən ***"Rəbbin bunlardan sonra, əlbəttə ki, bağışlayan və rəhm edəndir"*** cümləsi ilə ilahi rəhmətin yalnız tövbə və islahatdan sonra mümkün olacağı təkid edilir[1181].

120. İbrahim (ə) br ümmət idi: İbrahimə (ə) nə üçün ümmət deyilməsi ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Bəziləri bunu onun əzəmətli olması ilə izah edirlər. Bəzən belə deyildiyinin şahidi oluruq: "Filankəs təklikdə bir tayfadır". Bəziləri burada "ümmət" deyilərkən imam və rəhbər mənasının nəzərdə tutulduğunu qeyd etmişlər. Bəziləri yazır ki, İbrahim (ə) yer üzündə Allahpərəst olmadığı, hər kəsin şirk və bütpərəstlik bataqlığında batdığı bir vaxt yer üzündə tək olan Allaha ibadət edən yeganə şəxs idi.

[1181] Nümunə, c.11, səh.445

Deməli, o, təklikdə bir ümmət müşriklər isə başqa bir ümmət idi. (Sonuncu fikir İmam Sadiqin (ə) bir hədisinin məzmununa əsaslanır)[1182].

124. Nə üçün yəhudi dinində mövcud olmuş bəzi çətin hökmlər qüvvədən düşdü? Bu ayədə etdikləri günahlar ucbatından Allah-taalanın yəhudi tayfalarından birinə qoyduğu qadağalardan, onların bu qadağaları pozmasından, nəticədə, Allahın əzabına düçar olmasından, meymun surətinə düşməsindən bəhs edilir. (Daha ətraflı məlumat almaq istəyənlər "Əraf" surəsinin 163-cü ayəsinə baxa bilərlər). Bu ayə, əslində, "Nə üçün yəhudi dinində insanın təbiətinə uyğun olmayan bəzi hökmlər mövcud olub və həmin hökmlər islam dinində qüvvədən düşüb?" sualına cavab səciyyəsi daşıyır. Quran bu şübhəyə cavab olaraq bildirir ki, sözügedən qadağalar Allah tərəfindən daha öncədən müəyyən edilmiş qadağalar olmamışdır. Allah bu qadağaları yəhudilərin etdikləri günah müqabilində onlara cəza olaraq təyin etmişdir. Həmin qadağalar sonrakı ümmətlərə aid olmamışdır[1183].

125. Allah yoluna bu şəkildə dəvət edin: Bu ayədə təbliğat və Allah yoluna çağırış üsulu, müxaliflərlə mübahisə forması göstərilir: "Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et". Yatmış ağılları oyatmaq və haqqa dəvət yolunda atılan ilk addım düzgün məntiqdən istifadə və hesablanmış dəlillərin təqdimindən ibarətdir. İkinci addım insanların hiss və emosiyalarından istifadədir. Öyüd-nəsihət daha çox emosional səciyyə daşıyır. İnsanların hisslərini oyatmaqla böyük bir kütləni haqqa doğru istiqamətləndirmək olar. Gözəl öyüd-nəsihət deyilərkən kobudluğa yol vermədən, qarşı tərəfi təhqir etmədən, özünü qarşı tərəfdən üstün tutmaq niyyəti güdmədən, inadkarlığa təhrik etmədən və sair kimi neqativ

[1182] Əl-Mizan, c.12, səh.368 və 376
[1183] Əl-Mizan, c.12, səh.369

davranışlara yol vermədən edilən nəsihət nəzərdə tutulur. Din təbliğ yolunda atılan üçüncü addım gözəl mübahisədən ibarətdir. Bu mərhələ beyinəri yanlış düşüncələrlə dolmuş insanlara aiddir. Mübahisə vasitəsilə qarşı tərəfi bu düşüncələrdən xilas etmək lazımdır ki, haqq qəbul etməyə hazır olsun. Təbii ki, mübahisə gözəl şəkildə aparıldıqda, yəni haqq-ədalət, düzgünlük, əmanət və doğru lə müşayiət olunan, təhqrə, özünü üstün göstərməyə, lovğalığa, təkəbbürə yol verilməyən, bir sözlə bütün insani dəyərlərin qorunduğu mübahisə effektli və təsirli olur[1184].

[1184] Nümunə, c.11, səh.355

"İsra" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Dəlillərimizdən bəzisini göstərmək üçün Öz qulunu gecə vaxtı Məscidul-haramdan ətrafını xeyir-bərəkətli etdiyimiz Məscidul-əqsaya aparan (Allah) pak və müqəddəsdir. Çünki O, eşidəndir, görəndir.

2. Biz Musaya səmavi Kitab verdik və onu İsrail oğullarına doğru yol göstərən bir vasitəsi edərək dedik: "Məndən başqasını özünüzə himayədar götürməyin!"

3. Ey Nuhla birlikdə (gəmiyə) mindirdiklərmizin övladları! O, şükür edən bir qul idi.

4. Biz Kitabda İsrail oğullarına: "Siz yer üzündə iki dəfə fəsad törədəcəksiniz və olduqca təkəbbür göstərəcəksiniz"(– deyə) xəbər verdik.

5. Birinci vədin vaxtı yetişdiyi zaman sizə qarşı döyüşçü qullarımızı göndərərik. (Onlar sizi məhv edərlər, hətta cinayətkarları yaxalamaq üçün) evləri axtararlar. Bu, qəti bir vəddir.

6. Sonra sizi onlar üzərində yenidən qalib edər, var-dövlət və oğullarla sizə yardım edər və sayınızı çoxaldarıq.

7. Yaxşılıq etsəniz, özünüzə yaxşılıq etmiş, pislik etsəniz, yenə də özünüzə etmiş olursunuz. İkinci vədin vaxtı yetişdiyi zaman üzünüzdə qəm-qüssə əlamətləri aşkar olar, birinci dəfə məscidə (Əqsaya) girdikləri kimi, (yenə də) girərlər və hökmranlıqları altına aldıqları hər şeyi məhv edərlər

---

"İsra" surəsinin ümumi məzmunu: TəkAllahlıq inancı və şirkin inkarı bu surənin əsas məzmununu təşkil edir. Surə Allahın nöqsansız olması ifadəsi ilə başlayır. Sonra Allahın İsrail oğulları üçün təyin etdiyi tale

yolundan bəhs edir. Bununla da Allaha itaət edənin izzətli, itaətindən boyun qaçıranın isə xar olacağı mesajı verilir. Surədə başlanğıc və qayıdışla bağlı olan bəzi həqiqətlər, dinin bəzi ümumi hökmlərindən bəhs edilir[1185].

1. Merac: Bu ayədə Peyğəmbərin (s) "Merac" adı ilə şöhrət tapmış ilahi və heyətamiz səfərinə işarə edilmişdir. bundan başqa "Nəcm" surəsinin də əvvəlki ayələrində ilahi səfərə işarə edilmişdir. Əlbəttə, hədislərdə Məscidül-haramdan Məscidül-əqsaya hərəkət sözügedən səfərin başlanğıcı kimi göstərilmiş, bundan sonra yer, sonra göy və daha irimiqyaslı bir səfərin baş verdiyi qeyd edilmişdir. Bu ilahi səfərin necəliyi, səfər zamanı Peyğəmbərin (s) başına gələnlər, onun nələri görməsi ilə bağlı hədislərdə ətraflı məlumat verilmişdir. Hədislərdə "Merac" gecəsi Peyğəmbərin (s) mələklərlə, peyğəmbərlərin ruhları ilə görüşməsi, Cənnətlə Cəhənnəmi yaxından görməsi, heç bir vasitə olmadan Allahla danışması qeyd edilmişdir[1186]. Daha ətraflı məlumat almaq istəyənlər təfsir və hədis kitablarına müraciət edə bilərlər.

2. İnsanlar Nuh (ə) və onun gəmi yoldaşlarının soyundandır: Quran ayələrindən belə məlum olur ki, insanlar Nuh (ə) və onun gəmi yoldaşlarının soyundandırlar. Qalan insanlar o dövrdə həzrət Nuha iman gətirmədikləri və öz küfrlərində inadkarlıq göstərdikləri üşün tufanda məhv oldular. Belə ki, "Saffat" surəsində belə buyurulmuşdur: "Onun övladlarını (yer üzündə) baqi etdik... Sonra başqalarını (Nuhla düşmənçilik edənləri) suda boğduq." ("Saffat" surəsi, 77 və 82- ci ayələr)[1187].

3. Nuh; Allahın şükür edən bəndəsi: Şübhəsiz ki, bütün peyğəmbərlər Allaha şükür edirlər. Lakin hədislərdə Nuh (ə) bu xüsusisiyyətlə

[1185] Əl-Mizan, c.13, səh.5
[1186] Əl-Mizan, c.13, səh.7
[1187] Əl-Mizan, c.13, səh.37

səciyyələndirilmiş, onun bu xüsusiyyətə daha çox layq olduğu qeyd edilmişdir. O, paltar geyinəndə, su içəndə, yemək yeyəndə, hər hansı nemətə qovuşanda dərhal Allahı xatırlayar və şükür edərmiş. İmam Baqir (ə) və İmam Sadiqə (ə) istinad edilən bir hədisdə belə qeyd edilmişdir: ***"Nuh hər gün səhər axşam bu duanı oxuyardı: Ey Rəbbim, Mən şahidlik edirəm ki, səhər-axşam mənə verilən nemətlər istər dini olsun, istərsə də dünyəvi, hamısı Sənin tərəfindəndir. Təksən və şərikin yoxdur, həmd də şükür də Sənə məxsusdur. Məndən razı qalana qədər Sənə şükür edərəm. Hətta məndən razı qaldıqdan sonra belə sənə şükür etməkdən əl çəkmərəm."*** Sonra imam belə əlavə etmişdir: ***"Nuhun şükürü belə olmuşdur."***[1188]

4-8. Bu ayələrdə hansı hadisələrə işarə edilmişdir? Ayələrin məzmunu aydındır. Lakin ayələrdə konkret hansı hadisələrdən bəhs edildiyi, nə vaxt, harada baş verəcəyi, döyüşkən və güclü insanlar deyilərkən kimlərin və hansı məscidin nəzərdə tutulduğu açıq şəkildə qeyd edilməmişdir. Bəzi təfsirçilər hesab edirlər ki, ayədə işarə edilən hər iki hadisə İsrail oğullarının tarixində baş vermişdir. Babil şahı Buxtunnəsrin İsrail oğullarına hücumu, nəticədə, Bəni-İsrail hökumətinin tamamilə yerlə yeksan edilməsi, Heykəl məbədinin uçurulması, Tövrat səhifələrinin yandırılması, kişilərin qətliamı, qadın və qocaların əsir götürülməsi, bu vəziyyətin Kuruş zamanına qədər davam etməsi, onun zamanında İsrail oğullarının əsarətdən xilas olması, yenidən həyat qazanması bu hadisələrdən birincisi, İsanın təvəllüdündən yüz il qabaq Roma imperatoru Espiyanosun əmri ilə vəziri Tərtusun Beytülmüqəddəsi viran qoyması, İsrail oğullarını qətlə yetirməsi, bu didərgin həyatın son illərə, yəni yəhudilərin müstəmləkəçi dövlətlərin köməyi ilə çoxlu cinayətlər törədərək möhkəm olmayan bir dövlət

---

[1188] Nümunə, c.12, səh.24

qurduqları son illərə qədər davam edən vəziyyətləri həmin hadisələrdən ikincisi ola bilər[1189].

8. Ümid var ki, Rəbbiniz sizə rəhm etsin. Əgər siz qayıtsanız, Biz də qayıdarıq. Cəhənnəmi kafirlər üçün bir həbsxana etdik.

9. Bu Quran ən qətiyyətli yola yönəldir və yaxşı işlər görən möminlərə müjdə verir ki, onlar üçün böyük mükafat olacaq.

10. Axirətə iman gətirməyənlər üçün isə sarsıdıcı bir əzab hazırlamışıq.

11. İnsan xeyir dilədiyi kimi, şər də diləyir. Doğrusu, insan hər zaman tələskəndir.

12. Biz gecə və gündüzü iki əlamət etdik. Rəbbinizdən lütf diləyəsiniz, illərin sayını və hesabı biləsiniz deyə gecənin əlamətini silib gündüzün işıqlı əlamətini gətirdik. Biz hər şeyi aydın şəkildə izah etdik.

[1189] Əl-Mizan, c.13, səh.43; Nümunə, c.12, səh.37

13. Hər bir insanın əməllərini öz boynundan asdıq. Qiyamət günü onun üçün qarşısında açıq şəkildə görəcəyi bir kitab çıxararıq.

14. (Ona deyərik:) Kitabını oxu! Bu gün sənə özün-özünü hesaba çəkməyin yetər.

15. Kim doğru yola yönəlirsə, özü üçün yönəlir, kim azğınlığa düşürsə, öz zərərinə azğın olur. Heç bir günahkar başqasının günah yükünü daşımaz. Biz peyğəmbər göndərmədən əzab verməmərik.

16. Biz hər hansı şəhəri və məmləkəti məhv etmək istəsək, öncə əmrlərimizi oranın naz-nemət içində yaşayan sakinlərinə bəyan edirik. Qarşı çıxdıqlarında və əzaba məhkum olduqlarında onları şiddətli şəkildə yerlə-yeksan edirik.

17. Nuhdan sonrakı əsrlərdə yaşamış neçə-neçə nəsilləri məhv etdik. Rəbbinin qullarının günahlarını bilməsi və görməsi kifayətdir.

---

11. İnsanın duası özünün zərərinə ola bilər: Bu ayədə dua daha geniş məna ifadə edir, istənlən çağırış və istəyi, dillə edilən duanı və ya nəyinsə əldə edilməsi üçün göstərilən səyləri ehtiva edir. Əslində, daha çox gəlir və mənfəət əldə etmək üçün insanın tələskənlik etməsi onun qarşısında duran məsələləri ərtaflı şəkildə araşdıra bilməməsinə səbəb olur. Bu tələskənlik isə onun öz həqiqi xeyrini müəyyən edə bilməməsi ilə nəticələnir. Nəfsani istəklər həqiqəti insanın gözündə fərqli göstərir və onu şər və pisliyə doğru getməyə sövq edir. Şər və pislik başlanğıcda insana gözəl görünür, sonra insan onu istəməyə başlayır və düşünür ki, həqiqətən, yaxşı yoldadır. Buna görə də dəyişik salmamaq üçün əsl xeyir və şəri tanımaq çox mühüm məsələdir. “Bəqərə” surəsinin 216-cı ayəsində belə buyurulur: ***“Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün***

zərərli olsun”. Ayə və hədislərin çoxunda dünya sevgisi, məqam və vəzifə sevgisi, daha çox var-dövlət sevgisi pislənmişdir. Çünki onlar kənardan xoşbəxtlik və səadət kimi görünsələr də, daxildə qaranlıq və zülmət ola bilərlər. İmam Sadiq (ə) hədislərinin birində belə buyurmuş: ***“Öz xilas və həlak yolunu tanı. Allahdan xilasına səbəb olacağını güman etdiyin, lakin məhvinə səbəb olacaq bir şey əsla istəmə!”*** sonra bu ayəni oxumuşdur[1190].

13. İnsanın əməlləri hər zaman onunla birlikdədir: “Tair” bu ayədə yaxşı və pis fal və ya bəxt-tale mənasındadır. Quranda belə buyurulur: Yaxşı və pis fal yalnız boynunuzdan asılmış əməllərdən ibarətdir. “Hər bir insanın əməllərini öz boynundan asdıq” yəni insanın əməlləri və onların nəticələri nə dünyada, nə də axirətdə ondan ayrı deyil. O, bütün hallarda həmin əməllərin məsuliyyətini daşıyır. Hər nə varsa, əməldir, qalanları yalnız sözdür. Ayə və hədislərdən belə məlum olur k, insanın bütün əməlləri xırdalıqlarına qədər əməl dəftərində qeyd edilir. Əgər insan yaxşı və saleh əməl sahibidrsə, Qiyamət günü əməl dəftəri sağ əlinə verilir, yox əgər pis əməl sahibidirsə, əməl dəftəri sol əlinə verilir[1191]. “Kəhf” surəsinin 49-cu ayəsində belə buyurulmuşdur: ***“(Bütün insanların) kitabı (orada qarşısına) qoyulacaq və sən günahkarların orada olanlardan qorxduqlarını görəcəksən. Onlar deyəcəklər: “Vay halımıza! Bu necə bir kitab imiş! O nə bir kiçik, nə də bir böyük günahı buraxmadan hamısını sayıb yazmışdır!” Onlar etdikləri əməlləri öz qarşılarında görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz!”***

16. Sərxoş varlılar və ilahi əmr: Ayəni oxuyarkən belə bir sual yarana bilər ki, nə üçün cah-cəlal içində yaşayan şəhvətpərəst varlılar ilahi əmrin xitab obyekti olurlar? Qeyd etməliyik ki, əvvəla, sağlam olmayan cəmiyyətlərdə liderlər varlılar, naz-nemət içində yaşayan dövlətlilər, sadə

[1190] Nümunə, c.1, səh.29; Ətyəbül-bəyan, c.8, səh.228
[1191] Nümunə, c.12, səh.48

xalq isə itaət edənlər olur. İkincisi, ictimai fəsadların çoxunun mənbəyi də naz-nemət içində bəslənmiş, ehtiraslara qərq olmuş, istənilən islahat tələb edən insani və etik çağırışlara ikrah hssi ilə baxan, Allahı unutmuş varlılardır. Buna görə də varlılar peyğəmbərlərə qarşı çıxanların ön sıralarında yer almışlar, sosial ədalətin hakim olmasını və zəif təbəqənin hüquqlarının müdafiəsini tələb edən insanların çağırışlarını onlara qarşı yönəlmiş hücumlar hesab etmişlər. Bu cəhətlərə görə varlılar xüsusilə qeyd edilmişdir. Çünki fitnə-fəsadın əsl kökü məhz bu qrupdur. Habelə bu ayə mömin və Allah axtarışında olan insanlara hökuməti ehtirasdan məst olmuş kapitalistlərin əlinə verməmək və onlara tabe olmamaqla bağlı xəbərdarlıq edir. Əks təqdirdə cəmiyyət məhv olar[1192].

[1192] Nümunə, c.12, səh.59

18. Hər kəs fani dünya həyatını istəsə, ondan yalnız istədiyimiz miqdarı istədiyimiz şəxsə verərik. Sonra isə Cəhənnəmi onlar üçün hazır edərik, oranın yandırıcı odunda qınanmış və (Allahın dərgahından) qovulmuş halda yanacaqlar.

19. Kim də Axirəti istəsə, mömin olaraq bütün qəlbi ilə ona can atsa, səy və tələşı mükafatlandırılar.

20. Bu iki qrupun hər birinə Rəbbinin nemətlərindən bəxş edirik. Rəbbinin neməti (heç kəsə) qadağan deyildir.

21. Bax gör (dünyada) onların birini digərindən necə üstün etdik. Axirət dərəcələri və üstünlükləri bundan da artıqdır.

22. Allahla yanaşı başqa məbudlara ibadət etmə, yoxsa xar və tək-tənha qalarsan.

23. Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağınızı əmr etmişdir. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlarla incə, mülayim, hörmətlə danış!

24. Təvazökarlıq qanadlarını incə və sevgi-məhəbbətlə onların qarşısına sər və: “Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!”– de.

25. Rəbbiniz ürəklərinizdə olanları çox yaxşı bilir. Əgər əməlisaleh olsanız (və yanlışlarınızı düzəltsəniz), O, tövbə edənləri bağışlayandır.

26. Qohum-əqrəbaya da, yoxsula da, yolda qalana da haqqını ver, ancaq israf və bədxərclik etmə!

27. Çünki israfçılar şeytanların qardaşlarıdır. Şeytan Rəbbinə qarşı çox nankordur.

18-20. Dünyanı istəyən və axirəti istəyənlər: Bu ayələrdə dünyanı istəyənlərin və axirəti stəyənlərin hər birinin vəziyyətindən və aqibətindən bəhs edilir. Ayədə çox mühüm nüanslara işarə edilib. Burada onlardan üçünü müxtəşər şəkildə qeyd edirik: 1. Ayədə dünya istəyənlərin bütün istədiklərinə nail olacaqları buyurulmur. Allah dünya istəyənləri iki qrupa bölür: Birincisi, dünya istəyənlər istədiklərinin bir qisminə nail olurlar. O miqdarı da biz təyin edirik. İkincisi, hər kəs də bu miqdara nail olmur. Yalnız Biz istədiklərimiz təyin etdiyimiz miqdara nail olur. Deməli, dünyapərəstlərin hamısı istədiyinə çatmayacaq. Çatanlar isə istədiklərinin hamısına çatmayacaqlar. Gündəlik həyatımız bu iki məhdudiyyətin mövcudluğunu açıq şəkildə göstərir. O qədər adam var ki, gecə-gündüz çalışır, ancaq bir yerə çatmır. O qədər adam var ki, bu dünyada uzun-uzadı arzuları var, ancaq onların yalnız kiçik bir qismini əldə edib. 2. Dünyapərəstlərin aqibətinin necə olacağı belə qeyd edilir: ***"Cəhənnəmi onlar üçün hazır edərik".*** Ancaq axirət dünyasının aşiqləri haqqında belə buyurulur: ***"Onların səy və təlaşı mükafatlandırılar"***. Yəni Allah-taala onların səy və təlaşlarının mükafatını verər. Bu ifadə "onların mükafatı Cənnət olacaq" fadəsindən daha üstün, daha əhatəlidir. Çünki hər bir kəsin Allah tərəfindən veriləcək olan mükafatı əməl sahibinin etdiyi əməlin miqyası deyil, mükafatı verənin şəxsiyyət və varlıqlığının miqyası ilə ölçülür. Bu əsasla Allahın verəcəyi mükafat Onun sonsuz zatı, təsəvvürümüzə gələn-gəlməyən maddi və mənəvi nemətlərə münasibdir. 3.

Allah-taala nemətlərinin bir hissəsini hamının ixtiyarına verir, pis-yaxşı, hər kəs onlardan faydalanır. Bu, insanların həyatı üçün zəruri olan nemətlərə işarədir. Başqa sözlə desək, bu, Allahın ümumi rəhmətinin bütün mömin və kafirlərə şamil olmasını göstərir. Ancaq bunun fövqündə yalnız möminlərə və əmlisalehlərə məxsus olan sonsuz nemətlər var[1193]. Əlbəttə, qeyd etməliyik ki, bu və oxşar ayələrdə dünya istəmək deyilərkən dünya, dünya ləzzətləri və gözəlliklərinin məqsəd seçilməsi nəzərdə tutulur. Yoxsa, dünayaya axirət xoşbəxtliyinə nail olmaq üçün bir vasitə kimi baxılması aləmlərin Rəbbinin öz istəyidir. Gözəl axirət həyatına nail olmaq üçün dünyanın abad edilməsi və gözəlliyinə çalışmaq, bunun üçün dua və çağırışlar etmək çox bəyənilən və doğru bir işdir.

23-25. Ata-anaya yaxşılıq: Bu ayələrdə təkAllahlı olmaq əmri verildikdən sonra ata-anaya yaxşılıq etmək göstərişi verilmişdir. Bu da qeyd olunan məsələnin həddən artıq əhəmiyyətli olduğundan xəbər verir. Ayədə diqqət çəkən ən mühüm məqamlardan biri də budur ki, valideynə yaxşılıq edilməsi əmri onların ən çətin vaxtları, yəni yaşlı olduqları dövrlə konkretləşdirilir. Çünki ixtiyar yaşlarında onlar yemək, içmək, təmizlik və sair kimi ən zəruri ehtiyaclarını təmin etmək iqtidarında olmaya, övladlarına ehtiyac duya bilərlər. Ata-anaya yaxşılıq etmək bütün yaş hədlərində vacib olsa da, qocaqldıqları vaxt bu, daha da vacib olur. Allah Quranda buyurur ki, onlara baxılması çətinliyini canınızla ödəyin, ən kiçik hörmətsizliyə belə yol verməyin, onların da sizin əzablarınıza dözdükləri vaxtı, özlərini oda-suya yaxdıqları, ancaq şikayətlənmədikləri vaxtları yadınıza salın. Valideynə yaxşılıq etmək o qədər mühümdür ki, bəzən cihaddan da vacib olur. Belə ki, cihad bütün insanlara vacib olduğu səfərbərlik deyil, könüllü iştirak tələb

[1193] Nümunə, c.12, səh.63

olunduğu vaxt valideynə baxmaq cihaddan üstün olur. Könüllü çağırış vaxtı əgər cihada getmək valideynin çətinliyə düşməsinə səbəb olacaqsa, cihada gedilməsinə icazə verilmir. İmam Sadiq (ə) hədislərinin birində belə buyurmuşdur: Bir gənc Allah rəsulunun (s) yanına gəlib deyir: Mən təcrübəli və yüksək əhval-ruhiyyəli bir adamam, cihad etməyi də çox sevirəm, ancaq bu istəyimdən narahat olan bir anam var. Peyğəmbər (s) buyurur: ***"Qayıt, ananla yaxşı davran. Məni peyğəmbərliyə seçən Allaha and olsun ki, ananın səninlə ünsiyyətdə olduğu bir gecə Allah yolunda edilən bir illik cihaddan üstündür."***[1194]

26. Qohumların haqqı: "Rum" surəsinin 38-ci ayəsində bu mövzunu izah edəcəyik.

28. Əgər sən Rəbbindən mərhəmət umaraq onların üzünə baxmırsansa (imkanın olmadığı üçün onlara heç nə verə bilmirsənsə), onlarla xoş və nəzakətli danış.

[1194] Əl-Mizan ,c.13, səh.79; Nümunə, c.12, səh.79

29. Əlini nə qoynunda gizlət, nə də onu büsbütün aç. Yoxsa qınanmış və aciz vəziyyətə düşərsən.

30. Həqiqətən, Rəbbin istədiyinin ruzisini bol ya az edər. O, öz qullarını tanıyır və görür.

31. Yoxsulluq qorxusundan uşaqlarınızı öldürməyin. Axı onların da, sizin də ruzinizi Biz veririk. Onları öldürmək, həqiqətən də, böyük günahdır.

32. Zinaya yaxınlaşmayın. Çünki bu, çox çirkin bir iş və pis bir yoldur!

33. Allahın, öldürülməsini haram buyurduğu şəxsi haqsız yerə öldürməyin. Kim haqsız yerə öldürülmüşsə, vəkilinə ixtiyar vermişik. Lakin o da qisas aldıqda həddi aşmamalıdır. Çünki ona artıq kömək olunmuşdur.

34. Yetim həddi-buluğa çatana qədər, xeyirxahlıq məqsədi istisna olmaqla, onun malına yaxınlaşmayın! Əhdə vəfa qılın. Çünki əhd barəsində sorğu-sual olunacaqdır.

35. Ölçdükdə ölçüyə tam riayət edin, düzgün tərəzi ilə çəkin. Bu, sizin üçün daha xeyirli və nəticəsi daha yaxşıdır.

36. Haqqında məlumatın olmadığı bir işin dalınca getmə. Çünki qulaq, göz və ürək, bunların hamısından soruşulacaq.

37. Yer üzündə təkəbbürlə gəzmə. Çünki sən nə yeri yara bilər, nə də qamətin dağlara çata bilər.

38. Bütün bu əməllərin günahı Rəbbinin xoşlamadığı bir şeydir.

---

29. Allah yolunda xərcləyərkən orta həddi gözləmək: İmam Sadiqdən (ə) belə bir məzmunda hədis nəql edilmişdir: Əgər kimsə Peyğəmbərdən (s) ehtiyac duyduğu bir şey istəsəydi, verərdi. Bir gün bir qadın oğlunu Peyğəmbərin (s) yanına göndərib deyir: Peyğəmbərdən (s) bir şey istə, əgər

desə ki, yoxumdur, onda köynəyini istəyərsən. Oğlan belə də edir. Üstündə heç nəyi olmadığı üçün Peyğəmbər (s) köynəyini verməli olur. Həmin vaxt Allah-taala bu ayəni göndərərək ona bütün üstün cəhətlərinə baxmayaraq sədəqə verərkən orta həddi gözləməyi, sədəqə verərkən onu minimum həyat təminatlarından məhrum edəcək həddə israfçılığa yol verməməyi göstəriş verir[1195].

31. Övlad qətlinin qadağan edilməsi: Övladın tələf edilməsi Quranın bir neçə yerində qadağan edilmişdir. İnsan qətlilinin bir forması hesab edilən bu çirkin davranış xüsusilə yasaq edilmişdir. Çünki övlad öldürmək bədbəxtlik və daşürəkliliyin ən çirkin formasıdır. Bu məsələyə xüsusilə diqqət ayrılmasının bir səbəbi də budur ki, ərəblər tez-tez qıtlıq baş verən bir regionda yaşayırdılar. Qıtlıq əlamətlərini müşahidə etməyə başlayarkən yoxsullaşmamaq və abırlarını qorumaq üçün gördükləri ilk iş övladlarını öldürmək olurdu[1196]. Maraqlısı budur ki, müasir dövrün insanları keçmişdəkilərin bu çirkin davranışları haqqında eşitdikdə dəhşətə gəlir, qorxuya düşürlər. Halbuki eyni cinayəti uşaq saldırmaqla həyata keçirirlər, hətta dünyanın ən mütərəqqi cəmiyyətlərində əhali artımı və iqtisadi böhranın qarşısını almaq üçün bu cinayətə əl atırlar[1197].

32. Zinaya yaxınlaşmayın: Bu ayədə zina qadağan edilməklə yanaşı, çox incə bir məqama da toxunulmuşdur. O da budur ki, adıçəkilən günahın təhrikediciləri vardır və insan bu günaha tədricən bulaşır. Göz oxşamaq, naz-qəmzə, çılpaqlıq, hicabsızlıq, günaha təhrik edən kitablar, fəsad ocaqları, naməhrəmlə xəlvət, gənclərin evlənməməsi, tərəflərin ailə qurulması məsələsini çətinləşdirməsi və sair insanı zinaya təhrik edən, ona

---

[1195] Əl-Mizan, c.13, səh.97
[1196] Əl-Mizan, c.13, səh.83
[1197] Nümunə, c.12, səh.101

yaxınlaşdıran amillərdir. Allah-taala kiçik bir cümlədə onların hamısını qadağan etmişdir[1198].

33. Qətldə həddi aşmaq: ***"Qətldə həddi aşmayın!"*** cümləsində cahiliyyət dövründə geniş yayılmış, dövrümüzdə də təsadüf edilən bir əmələ işarə edilmişdir. Belə ki, bəzən qətlə yetirilmiş bir nəfərin əvəzində qətlə yetirilən şəxsin yaxınları bir qəbləni və ya bir ailəni qətlə yetirir, çoxlu qanlar tökürlər. Hətta qətl hadisəsində də ədalətə riayət edilməsinin zəruriliyi möminlərin əmiri İmam Əlinin (ə) vəsiyyətlərində yer almış prinsiplərdəndir: ***"Ey Əbdülmüttəlibin övladları! Mənim qətlə yetirilməyimi bəhanə gətirib müsəlmanların qanını tökməyinizi, "möminlərin əmiri öldürüldü, möminlərin əmiri öldürüldü" deməyinizi görməyim. Siz də ona bir zərbə vurun! Məbada üzvlərini kəssiniz. Çünki mən Allah rəsulundan (s) "Hətta quduz it olsa belə, üzvləri kəsməkdən çəkinin!", - deyə buyurduğunu eşitdim."***[1199]

36. Bilmədiyinin dalınca getmə: "Bilmədiyinin dalınca getmə" cümləsinin mənası çox genişdir, etiqad, danışmaq, şahidlik etmək, hökm vermək və sair məsələləri əhatə edir. Hər şeydə meyar elm və əminlik olmalıdır. Zənn, güman, ehtimal, təxmin, şək-şübhə və sairəyə etimad göstərmək olmaz. İmam Kazim (ə) atasına istinadən belə buyurmuşdur: ***"Sən ürəyin istəyəni deyə bilməzsən. Çünki Allah "Bilmədiyinin dalınca getmə", - deyə buyurmuşdur."***[1200] Peyğəmbər (s) hədislərinin birində belə buyurmuşdur: ***"Mömin kişi və ya qadına böhtan atan şəxsi tam***

[1198] Nümunə, c.12, səh.102
[1199] Nümunə, c.12, səh.107
[1200] Nümunə, c.12, səh.116

cəzalandırmaq üçün çirkin əməllə məşğul olan qadınlara aid çirk və çirkabın içində saxlayar.”[1201]

39. Bunlar Rəbbinin sənə vəhy etdiyi hikmətlərdəndir. Allahla yanaşı başqa tanrıya ibadət etmə, yoxsa qınanmış və qovulmuş halda Cəhənnəmə atılarsan.

40. Rəbbiniz oğlanları sizin üçün seçib, Özünə isə mələklərdən qızlar götürüb?! Siz olduqca böyük (və çirkin) söz danışırsınız.

41. Xatırlamaları üçün Biz bu Quranda müxtəlif faydalı açıqlamalar verdik Lakin (bu) onların yalnız nifrətini artırır.

[1201] Qumminin təfsiri, c.1, əh.410

42. De: “Əgər onların söylədikləri kimi, Allahla yanaşı başqa tanrılar olsaydı, onlar Ərş sahibinə doğru yol tapmaq üçün səy göstərərdilər”.

43. Allah onların söylədiklərindən ucadır, çox ucadır, çox təmizdir.

44. Yeddi göy, yer və onlarda olanlar, hamısı Ona təriflər deyir. Hər bir yaranmış Ona həmd və tərif deyir, lakin siz onların tərifini anlamazsınız. O, səbrlidir, bağışlayandır.

45. Sən Quran oxuduğun zaman sənin lə Axirətə inanmayanların arasına gözəgörünməz pərdə çəkirik.

46. Quranı anlamasınlar deyə, Biz onların qəlbinə örtüklər çəkdik, qulaqlarına da tıxac vurduq. Sən Quranda Rəbbinin tək olduğunu yad etdiyin zaman onlar arxa çevirir, səndən üz çevirirlər.

47. Onlar səni dinlədikləri zaman nəyə qulaq asdıqlarını, habelə öz aralarında xəlvətcə söhbət edərkən o zalımların: “Siz ancaq sehrlənmiş bir adama uyursunuz”– dediklərini Biz çox yaxşı bilirik.

48. Gör səni kimlərə bənzətdilər. Nəticədə, azdılar və doğru yolu tapa bilməzlər.

49. Onlar dedilər: “Biz çürümüş və dağılmış sümüklər olduğumuz zaman təzədən yeni bir yaranmış olacağıq?”

---

40. Cahil inanc: Bu ayədə müşriklərin xurafat inanclarından birinə işarə edilmiş, onların məntiq və təfəkküründün əsasına aydınlıq gətirilmişdir. Belə ki, müşriklərin çoxu mələklərin Allahın qızları olduğuna etiqad bəsləyirdi. Ancaq özləri qız adı eşidəndə utanc hissi keçirir, onun varlığını özlərinə ar bilir, evdə qız uşağının dünyaya gəlməsini bədbəxtlik əlaməti hesab edirdilər. Quran onlara öz məntiqləri ilə cavab verərək belə buyurur:

Siz o qədər nadansınız ki, özünüzə ar bildiyinizi, varlığından utanc hissi keşirdiyinizi Allaha aid edirsiniz[1202].

42. Qarşıdurma arqumenti: Bu ayədə tövhid arqumentlərindən biri hesab edilən qarşıdurma arqumentinə işarə edilmişdir[1203]. Belə ki, müşriklər Allahdan başqa tanrıların da olduğuna, onların hər birinin dünyanı ayrı-ayrı cəhətlərdən idarə etdiyinə inanırdılar. Müşriklərə görə onlar yer tanrısı, göy tanrısı, müharibə tanrısı, Qüreyşin tanrısı və sair olmaqla dünyanın idarə edilməsində pay sahibidirlər. Bu ayədə bildirilir ki, əgər belə olsaydı, onların hər biri Ərşin sahibinə doğru hərəkətə keçər, onu taxtdan salıb özü də onun yerinə keçmək üçün çalışardı. Hər bir varlığın daxilində qüdrət və hakimiyyət sevgisi olduğu üçün onlar da qüdrət və hakimiyyətin tam sahibi olmaq üçün bir-birləri ilə mübarizəyə qalxardılar. Belə bir mübarizə və qarşıdurma olmaması, kainatın vahid bir proqram əsasında hərəkət etməsi kainatın vahid bir idarəedicisinin olduğunu göstərir[1204].

44. Mövcudat aləminin tərif deməsi: Quranın ayrı-ayrı ayələrində mövcudat aləminin Allaha həmd və tərif deməsindən söhbət açılmışdır. Bəlkə də bu ayə heç bir istisna etmədən bütün yaradılış aləminin tərif və sitayişdə ortaq olduğunu tamamilə açıq şəkildə ifadə edən ayədir. Ancaq təfsirçilər bu tərifin keyfiyyəti ilə bağlı müxtəlif fikirlər irəli sürmüşlər. Bir qrup təfsirçi hesab edir ki, canlı, cansız, şüurlu, şursuz olmasından asılı olmayaraq kainatın bütün zərrələri özünəməxsus şüur və idraka malikdir və öz aləmində Allaha həmd və tərif deyir. Hərçənd ki, biz onların dərk və hisslərinin hansı formada olduğunu anlaya bilmir, həmd və tərif zümzümələrini eşidə bilmirik. “Fussilət” surəsinin 11-ci ayəsində belə

[1202] Nümunə, c.12, səh.126
[1203] Nümunə, c.12, səh.130
[1204] Əl-Mizan, c.13, səh.104

buyurulmuşdur: “Sonra Allah tüstü halında olan göyə üz tutaraq ona (göyə) və yerə belə əmr etdi: “İstəsəniz itaət göstərib, istəyirsiniz məcburi olaraq meydana gəlin!” Onlar da: “İstəyərək (Allahın əmrinə itaət edərək) vücuda gəldik!” – deyə cavab verdilər.” Bu və bənzər ayələri qeyd olunan inancın təsdiqləyicisi hesab etmək olar. Bir çox təfsirçilər hesab edirlər ki, bu həmd və tərif mövcud vəziyyətin ifadəsinə əsaslanan həmd və tərifdir. Məcaz deyil, həqiqətdir. Buna rəssamın yüksək zövq və məharətə malik olmasından xəbər verən, tərif dedizdirən tablonu misal göstərə bilərik. Əsrarəngiz kainat malik olduğu heyrətamiz sistem və sirlərlə, əzəmət və gözəlliyi, insanı heyrətə salan incəlikləri ilə Allaha həmd və tərif deyir. Məgər həmd və tərif eyib və nöqsanlardan uca bilmək deyilmi? Varlıq aləminin quruluşu və nizam-intizamı onu yaradanın bütün eyib və nöqsanlardan uca olduğunu göstərir. Məgər həmd kamillik xüsusiyyətlərinin bəyanı deyilmi? Yaradılış aləminin nizam-intizamı Allahın kamil xüsusiyyətlərə, sonsuz elmə, qüdrətə, geniş və əhatəli hikmətə malik olmasından danışır. Bütün yaradılış aləminin həmd və tərif deməsi bu yöndən tamamilə başa düşüləndir. Buna görə kainatın bütün zərrələrinin şüur və idraka malik olduğunu deməyə lüzum yoxdur. Çünki bununla bağlı qəti bir dəlilimiz yoxdur. Quranın digər ayələri də vəziyyətin ifadəsi ehtimalının daha məqsədəuyğun olduğunu təsdiq edir[1205].

[1205] Nümunə, c.12, səh.133

50. De: “İstər daş olun, istər dəmir,

51. və ya nəzərinizdə bundan da möhkəm bir məxluq bilin, (həyat potensalından nə qədər uzaq olsa da, yenə də Allah sizi diriltməyə qadirdir)”. Onlar tezliklə deyəcəklər: “Bizi kim qaytaracaq?” De: “İlk dəfə sizi yaradan!” Onlar (təəccüb və inkar əlaməti olaraq) başlarını sənə doğru əyib: “Bəs bu nə vaxt olacaqdır?”– deyəcəklər. De: “Bəlkə də, yaxın zamanda oldu!”

52. Sizi (qəbirlərinizdən) çağıracağı gün çağırışına Ona həmd edən halda cavab verəcək və (Bərzəxdə) çox az qaldığınızı güman edəcəksiniz.

53. Qullarıma de ki, ən gözəl sözləri danışsınlar. Çünki şeytan onların arasına ədavət sala bilər. Şeytan hər zaman insanın açıq-aydın düşməni olmuşdur.

54. Rəbbiniz sizdən (əməl və niyyətlərinizdən) xəbərdardır. İstəsə, sizə rəhm edər, istəsə, sizə əzab verər. Biz səni onlar üzərində məmur olasan deyə, göndərməmişik.

55. Rəbbiniz göylərdə və yerdə olanların hamısının vəziyyətindən çox yaxşı xəbərdardır. Biz peyğəmbərlərin bəzisini digər bəzisindən üstün etdik və Davuda Zəbur verdik.

56. De: “Allahdan başqa məbud bildiklərinizi çağırın. Onlar hər hansı çətinliyi sizdən nə uzaqlaşdırmağa, nə də onda dəyişiklik yaratmağa qadirdirlər”.

57. Onların çağırdığı şəxslər özləri də Rəblərinə (yaxın olmaq üçün) bir vasitə axtarırlar, Onun rəhmətinə ümid bəsləyir, əzabından qorxurlar. Çünki Rəbbinin əzabı qorxmağı və qorunmağı tələb edir.

58. Elə bir şəhər və kənd yoxdur ki, Qiyamət günündən əvvəl Biz onu məhv etməyək və ya onu şiddətli əzaba düçar etməyək. Bu, ilahi kitabda (lövhi-məhfuzda) yazılmışdır.

---

53. Müxaliflərlə mübahisə metodu: Bu ayədə müxaliflərlə, xüsusilə müşriklərlə necə mübahisə edilməsi metoduna işarə edilmişdir. Belə ki, məktəb nə qədər yüksək, məntiq nə qədər güclü olsa da, düzgün mübahisə metodu ilə müşayiət olunmazsa, ona incəlik və sevgi yerinə kobudluq hakim olarsa, heç bir faydası olmaz. Buna görə də Allah İslam peyğəmbərinə (s) belə buyurur: ***“Qullarıma de ki, ən gözəl sözləri danışsınlar”***. Ən gözəl deyilərkən, deyilən sözün məzmunu, deyilmə forması, etik və insani dəyərlərlə müşayiət olunma nəzərdə tutulur. İslamın ilk vaxtlarında yeni iman gətirmişlər daha öncəki adətlərinə uyğun olaraq inanclarına müxalif olanlarla kobud davranır, onların Cəhənnəmlik və azğın, özlərinin isə Cənnətlik olduqlarını deyirdilər. Bu da müxaliflərin Peyğəmbərin (s) çağırışları qarşısında mənfi mövqe tutmasına, Allah rəsuluna (s) qarşı təhqiramiz ifadələr işlətməsinə, onu sehrbaz, dəli, kahin, şair

adlandırmalarına səbəb olurdu. Bu təhqirlər bəzən elə həddə çatırdı ki, müsəlmanlar qeyri-ixtiyari olaraq onlarla söz savaşına çıxır, ağızlarına gələni danışırdılar. Quran möminləri bu işdən çəkinməyə, şeytanın fitnəsindən qorunmaları üçün danışarkən mülayim və nəzakətli olmağa, ən gözəl sözləri seçməyə dəvət edir[1206].

55. Bəzi peyğəmbərlərin bəzisindən üstün olması: Bu cümlə müşriklərin "Başqa adam yox idi, Allah yetim Muhəmmədi peyğəmbər seçdi? Necə oldu ki, o, peyğəmbərlərin sonuncusu təyin edildi?" məzmunlu təhqirlərinə cavab idi. Quran bunun heç də təəccüblü bir şey olmadığını buyurur. Belə ki, Allah hər bir insanın dəyərindən xəbərdardır, öz peyğəmbərlərini insanların arasından seçir, bəzisni bəzisindən üstün edir. O, İbrahim Xəlilullah, Musanı Kəlimullah, İsanı Ruhullah, İslam peyğəmbərini isə Həbibullah təyin etmiş və öz hikməti ilə bəzisini bəzisindən üstün etmişdir[1207].

55. Davudun (ə) Zəburu: Bütün peyğəmbərlərin arasından Davudun və Zəburun seçilməsi aşağıdakı səbəblərdən izah edilə bilər: 1. Davudun Zəburu başdan-başa minacat, yalvarış, nəsihətdir. Yəni kitablar arasında əvvəlki ayələrdə yer almış "gözəl danışsınlar" göstərişinə daha uyğun gələn kitab odur. 2. Davudun Zəburunda maddi cəhətdən yoxsul, kasıb, yetim olmalarına baxmayaraq saleh və yaxşı insanların hakim olacağından xəbər verilmişdir. Bu məsələyə "Ənbiya" surəsinin 105-ci ayəsi və bu gün əlimizdə olan Zəburda işarə edilmişdir[1208].

57. Onlar özləri yaxın olmaq üçün vasitə axtarırlar: Allah-taala əvvəlki ayədə buyurur ki, müşriklərin məbudları hər hansı çətinliyi sizdən nə

[1206] Nümunə, c.12, səh.157
[1207] Nümunə, c.12, səh.161
[1208] Nümunə, c.12, səh.161

uzaqlaşdırmağa, nə də onda dəyişiklik yaratmağa qadirdirlər. Bu ayədə isə məbud hesab edilənlərin bir çoxunun (İsa Məsih və ya digər saleh bəndələr, mələklər və s.) təkAllahlı olduğu, Allaha yaxınlaşmaq üçün vasitə axtardığı, Allahın rəhmətinə ümid bəslədiyi və əzabından qorxduğu buyuyulmuşdur. Onlar Allah dərgahının möhtacı və tozu olduqları halda, Allahdan necə ayrı və müstəqil ola, Onun izn və icazəsi olmadan sizin hər hansı probleminizi həll edə bilərlər?[1209]

[1209] Əl-Mizan, c.13, səh.128; Nümunə, c.1, səh.162

59. Bizim möcüzələr göndərməyi dayandırmağımıza səbəb ancaq əvvəlkilərin onları yalan hesab etməsi oldu. Səmud tayfasına aydınlıq gətirən bir dişi dəvə verdik, ancaq onlar ona zülm etdilər. Biz möcüzələri yalnız qorxutmaq üçün göndəririk.

60. (Xatırla!) Bir zaman Biz sənə: “Rəbbin insanları tam əhatə etmişdir”– demişdik. Bizim sənə göstərdiyimiz yuxu, habelə Quranda haqqında danışdığımız lənətlənmiş ağac insanları sınaqdan keçirmək üçün idi. Biz onları qorxuduruq, ancaq onlarda artan yalnız böyük azğınlıq olur.

61. (Xatırla!) Bir zaman mələklərə: “Adəmə səcdə edin!”– dedik. İblisdən başqa hamısı səcdə etdi. O dedi: “Mən Sənin torpaqdan yaratdığınamı səcdə edim?!”

62. (Sonra) dedi: “Mənə de görüm, (hansı səbəbdən) bunu məndən üstün tutdun? Əgər Qiyamət gününə qədər məni həyatda saxlasan, az bir qismindən başqa onun bütün övladlarını yoldan çıxaracam, kökünü kəsəcəm.

63. Buyurdu: “Get! Onlardan kim sənə tabe olsa, cəzanız Cəhənnəmdir. Özü də yetərincə bir cəza.

64. Onlardan gücün çatdığını səsinlə təhrik et, atlı və piyada qoşununu onların üzərinə göndər, mallarına və övladlarına şərik ol, başlarını vədlərlə qarışdır. Ancaq şeytan onlara yalnız yalan vədlər verər.

65. Əslində, Mənim qullarım üzərində sənin hökmün olmayacaqdır. Rəbbinin onları qoruması kifayətdir”.

66. Nemətindən bəhrələnəsiniz deyə dənizdə gəmini sizin üçün hərəkətə gətirən Rəbbinizdir. O sizə qarşı rəhmlidir.

---

60. Peyğəmbərin (s) yuxusu və lənətlənmiş ağac: Təfsirçilər “Peyğəmbərə göstərilmiş yuxu”, habelə “Quranda lənətlənmiş ağac” barəsində müxtəlif fikirlər irəli sürmüşlər. Ancaq Quran ayələri və Əhli-beyt (ə) hədislərinə daha çox uyğun gələn nəzər Peyğəmbərin (s) gördüyü məşhur yuxuya əsaslanır. Bir gün Peyğəmbər (s) yuxuda meymunların onun minbərinə çıxıb-düşdüklərini görür. Peyğəmbər (s) bu yuxudan sonra çox narahatlıq hissi keçirir, qəm-qssəyə batır, o gündən sonra çox az gülür. Bu yuxu əməvilərin hakimiyyətə gələcəyini, onların bir-birinin ardınca peyğəmbər minbərinə çıxmasına işarə edirdi. Əməvi hakimləri şəxsiyyətsiz, İslam hökumətini və Allah rəsulunun (s) xilafətini cinayətkar bir rejimə çevirmiş insanlar olmuşdur. Əksər şiə və sünni təfsirlərində “lənətlənmiş ağac” deyilərkən əməvilər sülaləsinin nəzərdə tutulduğu qeyd edilmişdir. Bu izah Peyğəmbərin (s) yuxusu ilə bağlı təqdim edilmiş izaha uyğundur. Soruşula bilər ki, əməvilərin çirkin ağacı Quranın harasında lənətlənmişdir? “İbrahim” surəsinin 36-cı ayəsində pis ağacdan söhbət açılmışdır. Ayədə pis ağac ifadəsinin ehtiva etdiyi məzmuna, həmin ayədə əməvilər sülaləsinin nəzərdə tutulduğunu ifadə edən hədislərə, məna baxımından “pis” sözü ilə lənətlənmiş sözünün qarşılıqlı əlaqəsinə əsasən deyə bilərik ki, Quranın məhz həmin ayəsində burada sözü keçən lənətlənmiş ağaca işarə edilmişdir[1210].

64-65. Şeytan insanlar üzərində hökmranlıq edirmi? Bu ayədə Allah Şeytana əmr edir ki, ona tabe olan insanları haqq yoldan çıxarsın və bütün gücünü bu yolda sərf etsin. Əlbəttə, bu əmr “təhdid” xarakteri daşıyır.

[1210] Nümunə ,c.12, səh.172

Məsələn, yola gəlməyən və itaətsizlik göstərən birinə belə deyilir: "Get, nə istəyirsən, et!" Ancaq Allah Şeytanın qarşısına planının icrasına başlamazdan əvvəl sədd çəkir və elə ilk başlanğıcda buyurur: ***"Sənə tabe olan azğınlar istisna olmaqla, bəndələrim üzərində sənin heç bir hökmün olmaz!"***[1211] Habelə "Nəhl" surəsinin 99-100-cü ayələrində də bu barədə belə buyurulmuşdur: ***"Onun iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlər üzərində heç bir hökmranlığı yoxdur. Onun hakimiyyəti yalnız onu özünə rəhbər seçən və Allaha şərik qoşanlar üzərindədir."***[1212]

64. Şeytan azğınlar sürüsünün çobanıdır: "Onlardan gücün çatdığını səsinlə təhrik et" Bu cümlədə Şeytanın batil vəsvəsələri ilə onun ardınca gedənlər məzəmmət edilmişdir. Sanki Allah Şeyatnı çobana, ardıcıllarını isə çobanın heç bir məna ifadə etməyən məzmunsuz səsi ilə yola düşən sürüyə bənzətmişdir. Sürü onun nə dediyini, nə istədiyini və onları hara apardığını başa düşmədən yol alır[1213].

64. Şeytanın piyada və atlı qoşunu: Əslində, bu ifadə məcaz məna daşıyır. Belə ki, insanları yoldan çıxarmaq üçün Şeytanın öz cinsindən və insanlardan ibarət silahdaşları vardır. Bəziləri bu işdə atlı kmi sürətli, bəziləri isə piyada kimi astagəldir[1214].

64. Şeytan insanların mallarına və övladlarına necə şərik olur: Şeytanın insanların mallarına və övladlarına şərikliyi deyilərkən onların faydalarından pay götürməsi nəzərdə tutulur. Məsələn, insan Şeytanın vəsvəsəsinə uyur, təbii ehtiyacı olan və halal yolla qazana biləcəyi malı haramla əldə edir. Belə olan halda həm insan öz istədiyinə çatmış olur, həm şeytan. Halal yolla övlad sahibi ola biləcəyi halda şeytanın vəsvəsəsinə uyub

---

[1211] Hicr surəsi, 42-ci ayə
[1212] Ətyəbül-bəyan, c.8, səh.279
[1213] Əl-Mizan, c.13, səh.142
[1214] Nümunə, c.12, səh.183

ona haram yolla sahib olan və ya halal övladını Allah istədiyi kimi tərbiyə etməyən şəxs Şeytana kömək etmiş və onu övladına ortaq etmişdir. Buna görə də Quran Şeytan yoluna sərf edilən sərvət və övladda Şeytanın insana ortaq olduğunu buyurur[1215].

67. Dənizdə bir çətinliklə qarşılaşdığınız zaman Ondan başqa çağırdıqlarınızı unudursunuz. Sizi xilas edib quruya çıxartdıqda isə üz döndərirsiniz. İnsan çox nankordur!

68. (Allahın) sizi quruda yerə batırmayacağına, yaxud üstünüzə çınqıl tufanı göndərməyəcəyinə əminsinizmi? Sonra sizi qoruyan da tapa bilməzsiniz.

69. Yoxsa sizi bir daha dənizə qaytarıb üstünüzə qasırğa göndərməyəcəyinə və kafir olduğunuza görə (dənizdə) sizi batırmayacağına

[1215] Əl-Mizan, c.13, səh.143

əminsiniz? Sonra buna görə Bizdən intiqam alan bir nəfər belə tapa bilməzsiniz.

70. Biz, Adəm övladlarını hörmətli etdik, onları quruda və dənizdə (miniklər) daşıdıq, pak nemətlərdən onlara ruzi verdik və onları yaratdıqlarımızın çoxundan üstün elədik.

71. O gün bütün insanları öz rəhbəri ilə birlikdə çağıracağıq. Əməl dəftəri sağ əlinə verilənlər onu (sevinə-sevinə) oxuyacaq və onlara xurma çəyirdəyindəki kəsik qədər zülm edilməyəcəkdir.

72. Bu dünyada kor olan (haqqı görə bilməyən) kəs axirətdə də kor və daha azğın olacaq

73. Ondan (ilahi vəhydən) qeyrisini bizə aid edəsən deyə, az qalmışdı ki, səni, sənə vəhy etdiyimizdən sapdırsınlar və bu halda səni özlərinə dost seçsinlər.

74. Əgər Biz səni (məsumluğun və günahsızlığın sayəsində) sabit saxlamasaydıq, əlbəttə, azacıq onlara meyl edərdin.

75. Əgər belə etsəydin, sənə həyat və ölümdən sonrakı əzabı ikiqat daddırardıq. Sonra Bizə qarşı özünə bir köməkçi də tapa bilməzdin.

---

70. İnsan Allahın yaratdığı ən üstün varlıqdır: Bu ayəyə əsasən insan yaranmışların çoxundan üstündür. Görəsən insan mələklərdən də üstündür? Təfsirçilər bu suala müxtəlif cavab vermişlər. Ancaq böyük ehtimalla ayənin nəzər nöqtəsi ümumiyyətlə, mələklərin insandan və ya insanın mələkdən üstün olması məsələsi deyil. Ayənin əsas məqsədi insanın heyvanlardan və cinlərdən üstün olduğunu çatdırmaqdır. “Mələk üstündür, yoxsa insan?” sualına gəldikdə isə, deməliyik ki, məqamca mələk adi bir insandan üstündür. Çünki onlar paklıq, təmizlik və ixlasın yüksək zirvəsindədirlər. Buna görə də özünü çirkin xüsusiyyətlərdən arındırmamış insandan

üstündürlər. Lakin insan Allahın təyin etdiyi kamillik yolu ilə irəliləyərsə, hətta mələklərin belə çata bilmədiyi məqama yüksələ bilər. Belə ki, mələklərin kamil insan nümunəsi olan Adəmin (ə) qarşısında təzim edib təvazökarlıq göstərməsindən xəbər verən Quran ayəsi bu fikir açıq şəkildə təsdiq edir. İmam Əli (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Allah-taala mələklərə ağil verib şəhvət vermədi, heyvanlara şəhvət verib ağıl vermədi, insanlara isə hər ikisini verdi. Ağlı şəhvətinə qalib gələn insan mələkdən üstün, şəhvəti ağlına qalib gələn isə heyvanlardan aşağı olar."***[1216]

71. Rəhbərlik və onun insan həyatındakı rolu: Ayənin başlanğıcında rəhbərlik və onun insan həyatındakı roluna işarə edilmişdir. Bu ayəyə əsasən peyğəmbərlər və onların canişinlərinin rəhbərliyini qəbul edənlər öz rəhbərləri ilə, Şeytan və azğın rəhbərləri özlərinə rəhbər seçənlər isə onlarla olacaqlar. Xülasə, bu dünyada olan rəhbərlik və ardıcıllıq əlaqəsi o dünyada özünü tam şəkildə əks etdirəcək. Bu prinsip əsasında nicat tapanlar və əzaba düçar olanlar müəyyən ediləcək. Burada insanın kamilləşməsi üçün zəruri olan vasitələrdən birinə işarə edilməklə yanaşı, insanlara rəhbərlik seçimində çox diqqətli olmaq, öz fikir və idarəçilik proqramını hər adamın da əlinə verməmək xəbərdarlığı verilir. Hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Siz Allaha təşəkkür etmirsiniz? Qiyamət günü Allah hər bir dəstəni seçdiyi rəhbərlə çağıracaq. Bizi də Peyğəmbərlə çağıracaq. Həmin vaxt siz bizə pənah gətirəcəksiniz. Hara baxırsınız? And olsun Kəbənin Allahına, sizi Cənnətə doğru aparacaqlar (bu cümləni üç dəfə təkrar etdi)"***[1217]

[1216] Əl-Mizandan iqtibas, c.13, səh.156-161
[1217] Nümunə, c.12, səh.200

73-75. Zəif müsəlmanların uzaqlaşdırılmasını istəyən müşriklər: Bu ayənin nazilolma səbəbindən bəhs edən hədislərdə belə qeyd edilmişdir: Qullarla birlikdə oturub Allahın ayələrini dinləməyi özlərinə ar bilən müşriklər Peyğəmbərə (s) belə bir təklif verirlər: Bizim tanrılarımız haqqında xoşlamadığımız sözlər demə, İslamı qəbul etmiş zəif və şəxsiyyətsiz kölə və kənizləri özündən uzaqlaşdır". Bu ayə həmin vaxt nazil olmuşdur. Əlbəttə, Allah-taala 74-cü ayədə öz peyğəmbərini bəxş etdiyi məsumluq və günahsızlıq sayəsində müşriklərə meyl etməkdən qoruduğunu və onların təklifləri qarşısında heç bir müsbət reaksiya göstərmədiyini buyurur[1218].

[1218] Əl-Mizan, c.13, səh.169

76. Az qalmışdı ki, səni sıxışdırıb bu yurddan çıxarsınlar. Əgər belə etsəydilər, səndən sonra yalnız az bir müddət qalardılar.

77. Bu, səndən əvvəl göndərdiyimiz peyğəmbərlərin sünnəsidir. Sən Bizim qayda-qanunlarımızda heç bir dəyişiklik tapa bilməzsən.

78. Gün günortadan qüruba doğru meyl edəndən gecənin qaranlığınadək (gecə yarısınadək) namaz qıl və Fəcrin oxunanını (sübh namazını da qıl)! Çünki Fəcrin oxunanı (gecə və gündüz mələkləri tərəfindən) müşahidə ediləndir.

79. Gecənin bir vaxtı (yuxudan oyanıb) Quran oxu (namaz qıl). Bu sənin üçün əlavə bir vəzifədir. Ümid var ki, Rəbbin səni tərifəlayiq bir məqama yüksəltsin.

80. De: “Ey Rəbbim! Məni daxil olacağım yerə düzgünlüklə daxil et; məni çıxacağım yerdən də düzgünlüklə çıxart. Öz tərəfindən mənə yardım edən bir dəlil ver”.

81. De: “Haqq gəldi, batil məhv oldu. Həqiqətən də batil məhvə məhkumdur!”

82. Qurandan şəfa və rəhmət olanı möminlərə nazil edirik. Zalımların isə ancaq ziyanını artırır.

83. İnsana nemət verdiyimiz zaman (haqdan) üz çevirib təkəbbürlə uzaqlaşır. Ona bir zərər toxunduqda isə məyus olur.

84. De: “Hər kəs öz xarakterinə uyğun davranır. Rəbbiniz isə yolları daha gözəl olan şəxsləri daha yaxşı tanıyır.

85. Səndən ruh haqqında soruşurlar. De: “Ruh Rəbbimin əmrindəndir. Sizə yalnız az bir bilik verilmişdir”.

86. Əgər istəsək, sənə vəhy etdiyimizi səndən alarıq. Sonra Bizə qarşı özünə himayəçi tapa bilməzsən.

---

85. Ruh nədir? Bu sözün Quranda işlənmə kontekstləri müxtəlifdir. Bəzən peyğəmbərlərə öz missiyalarını yerinə yetirməkdə dəstək olan Müqəddəs ruh (Bəqərə - 253), bəzən möminə güc verən gözəgörünməz ilahi – mənəvi qüvvə (Mücadilə - 22), bəzən xüsusi “əmin” (əmanətdar) xüsusiyyəti ilə səciyyələndirilən vəhy mələyi (Şüəra - 193), bəzən Allahın xüsusi mələyi və ya ən böyük varlıq (Nəbə - 38, Qədr - 4), bəzən Quran və səmavi vəhy (Şura - 53), bəzən insanın ruhu (Səcdə - 9, Hicr - 29) mənalarında işlənmişdir. Ayənin kontekstindən və kontekstlə əlaqəsi olan faktlardan belə başa düşülür ki, sual verənlər bizi heyvanlardan fərqləndirən, ən böyük şərəfimiz, bütün güc və fəaliyyətlərimizin mənbəyi olan, sayəsində bütün yer və göylərə meydan oxuduğumuz, elmlərə yiyələnib, mövcudat aləminin mahiyyətinə vardığımız əzəmətli ruhumuzun həqiqəti haqqında soruşmuşlar. Onlar bu yaranış aləminin qəribə fenomeninin həqqətini öyrənmək istəyirdilər. Çünki ruh maddənin malik olduğu quruluşdan fərqli bir quruluşa malikdir, ona hakim olan qanunlar maddəyə hakim olan

qanunlardan, fiziki və kimyəvi xüsusiyyətlərdən fərqlidir. Peyğəmbərə (s) bu suala qısa və konret olaraq ***"Ruh Rəbbimin əmrindəndir"***, - deyə cavab verməsi əmr edilir. Yəni o, sirli varlıqdır. Bu cavab soruşanlarda təəccüb doğurmaması üçün "sizə çox az bilik verilmişdir", - deyə əlavə edilmişdir. Buna görə də sizə hər şeydən yaxın olmasına baxmayaraq, ruhun sirlərindən xəbərdar olmamağınız təəccüblü deyil. İmam Baqir (ə) və İmam Sadiqə (ə) aid edilən bir hədisdə bu ayə haqqında belə buyurulduğunu oxuyuruq: ***"Ruh Allahın yaratdığı görə bilən, gücü olan və köməklik göstərən varlıqlardandır. Allah onu peyğəmbərlər və imamların qəlbinə lütf edib."*** Bu imamlardan birinə aid edilən hədislərin birində belə deyilir: ***"Ruhu mələklər aləmindən və Allahın qüdrətindəndir."*** Bəzi hədislərdə ruhun Mikayıl və Cəbrayıldan daha böyük bir varlıq olduğu, hər zaman peyğəmbərlər və imamların yanında olduğu, onlara öz vəzifələrində köməklik göstərdiyi, vəzifələrini yerinə yetirərkən sapmalardan qoruduğu qeyd edilmişdir. Bu hədislər ayənin təfsiri ilə bağlı qeyd etdiyimiz fikirlə təzad təşkil etmir, əksinə, onunla üst-üstə düşür. Çünki insanın ruhunun dərəcələri var. Ruhun peyğəmbər və imamlarda olan dərəcəsi onun ən yüksək dərəcəsidir. Ruhun bu dərəcəsi aid olduğu insanı xəta və günahdan qoruyur. Bu ruh qeyri-adi elm və biliyə malikdir. Şübhəsiz ki, ruhun bu dərəcəsi bütün mələklərdən, hətta Cəbrayıl və Mikayıldan da üstündür[1219]. Əlbəttə, bəzi təfsirçilər Quran ayələri və bu ayənin nazilolma səbəbinə əsaslanaraq, bu ayənin yəhudilər haqqında nazil olduğunu bildirmişlər. Yəhudilər, ya da ən azı Peyğəmbərin (s) müasiri olan yəhudilər Cəbrayılı özlərinə düşmən hesab edir, onu əzab mələyi adlandırırdılar. Hətta iddia edirdilər ki, Allah ona peyğəmbərliyi İsrail övladlarına çatdırmasını əmr

[1219] Nümunə, c.12, səh.250

etdiyi halda, o, əmrdən çıxaraq peyğəmbərliyi İsmayılın övladlarına gətirmişdi. Bu inanca, xüsusilə sualı hazırlayanların Cəbrayılla bağlı fərqli düşüncəyə malik olan, onu əzab məmuru hesab edən, İsrail oğullarının hakimiyyətinin Büxtünnəsr tərəfindən süquta uğradılacağını xəbər verən bir xəbərçi olduğuna inanan, peyğəmbərlik məsələsində xəyanət etdiyini iddia edən yəhudilər olduğuna əsasən deyə bilərik ki, onlar sual verərkən Ruhul-əmini nəzərdə tutur və Peyğəmbərin (s) onunla bağlı fikrini öyrənmək, mövqelərinə uyğun cavab verəcəyi təqdirdə ondan faydalanmaq, əks təqdirdə ona qarşı çıxmağı düşünürdülər. Yəhudilər bu məqsədlə qüreyşilərə Ruh haqqında sual verməyi öyrədirlər. Bu faktlara əsasən deyə bilərik ki, ayədə sual obyekti olan Ruh yəhudilərin özlərinə düşmən hesab etdikləri Cəbrayıldır. ***"Ruh Rəbbimin əmrindəndir"*** cümləsinin təfsiri çox aydındır. O da budur ki, vəhy əmanətdarı Allahın məmurlarındandır, o nə iş görürsə, Allahın əmri ilə edir. Əgər hər hansı bir qövmü məhv edirsə və ya həzrət Muhəmmədi (s) peyğəmbər missiyası ilə iftixarlandırırsa, Allahın izni və əmri ilə edir. Buna görə ona düşmən olmaq və onunla düşmənçiliyə qalxmaq əsassızdır[1220].

[1220] Mənşuri-cavid, c.3, səh.208 və 215

87. Ancaq Rəbbinin mərhəməti (səni əhatə etməsəydi) Onun sənə olan lütfü böyükdür.

88. De: “Əgər insanlar və cinlər bu Quranın bənzərini gətirmək üçün birləşsələr, bir-birinə kömək etsələr də onun bənzərini gətirə bilməzlər”.

89. Biz bu Quranda insanlar üçün hər şey haqqında məsəl çəkdik. Lakin insanların çoxu yalnız inkarı seçdi.

90. Onlar dedilər: “Bizə (quru) yerdən bir bulaq çıxarmayınca sənə iman gətirməyəcəyik;

91. və ya ortasından çaylar axıdacağın xurma və üzüm bağın olmayınca;

92. yaxud, güman etdiyin kimi, göyün parçalarını üstümüzə yağdırmayınca və ya Allahı və mələkləri qarşımıza gətirməyincə;

93. yaxud qızıldan bəzənmiş bir evin olmayınca; ya göyə qalxmayınca (biz sənə inanmayacağıq). Hətta göyə qalxsan da, bizə oxuyacağımız bir məktub endirməsən, inanmayacağıq”. De: “Rəbbim pak və müqəddəsdir! Mən isə yalnız Allahın bir elçisiyəm”.

94. İnsanlara doğru yolu göstərən bələdçi gəldikdən sonra onların iman gətirməsinə ancaq: “Allah bir insanımı elçi göndərdi?”– demələri mane oldu.

95. De: “Əgər yer üzündə arxayın gəzib dolaşanlar mələklər olsaydı, onlara bir mələyi elçi göndərərdik”.

96. De: “Mənimlə sizin aranızda Allahın şahid olması yetər. Çünki O, qullarından xəbərdardır, görəndir”.

--

88-89. İnsanların və cinlərin yarada bilməyəcəyi kitab: Bu ayə açıq şəkildə balacasından böyüyünə qədər bütün insanları, ərəb və qeyri-ərəbləri, insanları və insandan başqa şüuru olan bütün varlıqları, alimləri, filosofları, ədibləri, tarixçiləri, dahi və qeyri-dahiləri istisnasız olaraq Quranla debata çağırır. Ayədə deyilir ki, əgər Quranın Allah tərəfindən nazil olduğunu, insan beyninin məhsulu olduğunu düşünürsünüzsə, onun bənzərini gətirin, əgər bütün səy və fəaliyyətlərinizin nəticə vermədiyini və aciz qaldığınızı görsəniz, Quranın ən yaxşı möcüzə olması sizə aydın olar. Kəlam alimlərinin debata çağırış adlandırdıqları bu cür qarşılaşma çağırışı hər bir möcüzənin əsaslarından biri hesab edilir. Belə bir ifadənin işləndiyi bütün mövzular həmin mövzunun möcüzə olduğundan xəbər verir. 89-cu ayədə Quran möcüzələrindən biri, yəni onun universal və əhatəli olmasından xəbər verir. Doğrusu, Qurandakı mövzuların müxtəlifliyi, xüsusilədə onun dərs oxumamış bir adam tərəfindən gətirilməsi insanı çox heyrətləndirir. O, qətiyyətli əqli dəlillərə, mətin hökmlərə, analoqu olmayan, insanı heyrətə salan, ayıldıcı tarixi mövzulara, yüksək səviyyəli etik məzmunlara malikdir. Onda xürafatdan heç bir əsər-əlamət yoxdur, qeyri-adi və çox dəqiq elmi mövzuları ehtiva edir. Xülasə, Quran söz açdığı bütün sahələrdə ən ali nümunələri təqdim etmişdir. İnsanın məlumatlarının məhdudluğu, eyni zamanda Peyğəmbərin (s) yaşadığı mühitin məhdud elm və bilik çərçivəsinin əhatə edə bilməyəcəyi məlumatların, o cümlədən tövhid, əxlaq, sosial, siyasi, hərbi sahələrdə təqdim etdiyi müxtəlif məzmunların Quranda yer alması onun insan beyninin məhsulu deyil, Allah tərəfindən göndərilən bir kitab olduğundan xəbər vermirmi? Buna görə də bütün insanlar və cinlər onun bənzərini gətirmək üçün bir yerə toplaşsalar bunu etməyə gücləri çatmaz. Fərz edək ki, müasir dövrün ayrı-ayrı elm sahələri üzrə bütün mütəxəssis və alimləri bir yerə toplaşıb bir ensiklopediya yazır və onu ən

yüksək şəkildə tərtib edirlər. Bu toplu müasir dövr üçün əhatəli bir mənbə ola bilər, ancaq şübhəsiz ki, əlli ildən sonra təkcə nöqsanlı olması deyil, köhnəlməsi ilə diqqət çəkəcək. Halbuki Quran hər bir zaman üçün təzədir, sanki bu gün nazil olub, zamanı keçmiş heç nəyi yoxdur[1221].

94-95. Peyğəmbərlə insanların eyni mahiyyətə malik olması: Keçən ayələrdə müşriklərin tövhidlə bağlı söylədikləri bəhanələrindən söz açılmışdır. Bu ayədə də onların standart bəhanəsinə işarə edilmişdir: "İnsanlara doğru yolu göstərən bələdçi gəldikdən sonra onların iman gətirməsinə ancaq: "Allah bir insanımı elçi göndərdi?"– demələri mane oldu." Belə bir yüksək vəzifənin və mühüm məsuliyyətin insana verildiyinə inanmaq olarmı? Öhdəsindən yaxşı gəlməsi üçün belə bir böyük missiyanın insandan daha yüksək olan mələk kimi bir varlığa həvalə edilməsi yaxşı olmazdımı?

Bu zəif və əsassız məntiq bir və ya iki qrupa aid bir məntiq deyildi, imanı olmayan insanların çox tarix boyü peyğəmbərlərə bu şablon fikirlə etiraz etmişlər. Quran çox qısa, aydın və mənalı bir cümlə ilə onlara cavab verir: ***"De: "Əgər yer üzündə arxayın gəzib dolaşanlar mələklər olsaydı, onlara bir mələyi elçi göndərərdik."*** Yəni bələdçi rəhbər ardıcılları ilə eyni cinsdən olmalıdır. İnsanlara rəhbərliyi insan, mələklərə rəhbərliyi mələk etməlidir. Rəhbər və ardıcılların eyni mahiyyət daşıyıcısı olması aydın məsələdir. Çünki bir rəhbərin təbliğatının ən mühüm hissəsini elm və bu sahədə örnək ola bilmə potensialı təşkil edir. Onun öz ardıcıllarına örnək ola bilməsi üçün ardıcıllarının malik olduğu instinktlərə, hisslərə və ruha malik olması şərtdir. Əks təqdirdə, cinsi ehtirası, insanların malik olduqları digər instinktləri olmayan, habelə geyim, məskən və qidaya ehtiyacı olmayan bir

[1221] Nümunə, c.12, səh.273

mələk paklıq, təmizlik və dindarlıqda insanlara əsla örnək ola bilməz. İnsanlar deyər ki, onun bizim qəlbimizdən, ehtiras və qəzəb nəticəsində ruhumuzda tüğyan edən tufanlardan xəbəri yoxdur… O, yalnız öz qəlbinə uyğun danışır, bizim hisslərimiz onda da olsaydı, bizim kimi, hətta bizdən də pis olardı. Ardıcıllarının dərdlərinə əlac etmək, problemlərinin həll yolunu göstərmək üçün liderin öz ardıcıllarının dərdlərini və ehtiyaclarını dərk etməsi zəruridir. Buna görə peyğəmbərlər insanların öz aralarından seçilir, həyatın bütün acılarını dadmaq, acı həqiqətləri hiss etmək, özlərini insanların dərdlərinə əlac etməyə hazırlamaq üçün adətən həyatın ən çətin və dözülməz anlarını yaşayırlar[1222].

97. Allah kimi doğru yola yönəldərsə, həqiqi doğru yola yönəlmiş odur. Kimi azdırarsa, ona Ondan başqa yönləndiriçi və rəhbər tapa bilməzsən. Qiyamət günü Biz onları üzü üstə, kor, lal və kar olduqları halda bir yerə toplayacağıq. Onların məskəni Cəhənnəmdir. Odları azaldıqda onlara yeni alov əlavə edəcəyik.

[1222] Nümunə, c.12, səh.289

98. Bu, ayələrimizi inkar etdiklərinə və: “Məgər biz çürümüş sümüklər və dağınıq torpaq olduğumuz halda, təzədən yeni bir məxluq olaraq qaldırılacağıq?”– dediklərinə görə onların cəzasıdır.

99. Məgər göyləri və yeri yaradan Allahın onlar kimisini yaratmağa qadir olduğunu bilmirlərmi? Allah onlar üçün heç bir şək-şübhə olmayan qəti bir əcəl müəyyən etmişdir. Zalımlar isə küfr və inkardan başqa bir şey qəbul etmədilər.

100. De: “Əgər siz Rəbbimin rəhmət xəzinələrinə sahib olsaydınız belə, yenə də (onun) xərclənib tükənməsindən qorxaraq xəsislik edərdiniz. Çünki insan xəsisdir”.

101. Biz Musaya doqquz aşkar möcüzə verdik. İsrail oğullarından soruş; Musa onların yanına gəldikdə Firon ona: “Ey Musa! Mən sənin dəli (ya sehrbaz) olduğunu güman edirəm”– demişdi.

102. (Musa) dedi: “Sən bilirsən ki, bu möcüzələri yalnız göylərin və yerin Rəbbi ürəklərə işıq bəxş etmək üçün göndərmişdir. Ey Firon, mən güman edirəm ki, sən tezliklə məhv olacaqsan.”

103. (Firon) onları bu ölkədən qovub çıxartmaq istədi. Biz isə onu və onunla birlikdə olanların hamısını (suda) batırdıq.

104. Bundan sonra İsrail oğullarına: “Bu yerdə (Misir və Şamda) yaşayın! Axirət vədi gəlib yetişdiyi zaman sizin hamınızı toplayacağıq”– dedik.

---

100. Səxavətin savabı: “Qətur” mənası həddən artıq az xərcləmək və xəsislik olan “qətr” sözünün mübaliğə formasıdır. Quranın çox ayələrində insan heç bir qeyd-şərtsiz məzəmmət edilmiş, paxıllıq, nadanlıq, zalımlıq, tələskənlik və sair xüsusiyyətlərlə səciyyələndirilmişdir. Qeyd olunan

səciyyələndirmənin möminlərə heç bir aidiyyatı yoxdur. Burada sadəcə, insanın təbiətinə işarə edilmşdir. Yəni ilahi rəhbərlər vasitəsilə tərbiyə olunmamış, başlı-başına buraxılmış insanın bu çirkin xüsusiyyətləri qəbul etmə təhlükəsi daha yüksək olur. Əslində, insan belə yaradılmamış, və bütün insanların sonu da belə olmayacaqdır[1223]. Məsumların (ə) hədislərində səxavət haqqında yüksək fikirlər söyləndiyinə, paxıllıq və xəsisliyin pisləndiyinə çox rast gəlinir. Peyğəmbər (s) buyurmuşdur: "Səxavət budaqları dünyaya doğru sallanmış Cənnət ağacıdır. Allah yolunda xərcləyərək, bəxşişlər verərək ondan yapışan hər kəsi Cənnətə doğru çəkər. Xəsislik Cəhənnəmdə bir ağacdır. Allah yolundan xərcləməkdən və yaxşılıq etməkdən imtina etməklə ondan yapışan hər kəsi Cəhənnəmə doğru dartar. İmam Sadiq (ə) buyurmuşdur: "Günakar səxavətli gənc Allaha xəsis abiddən daha yaxındır." Xəsislik xəstəliyinin əlacı və müalicəsi daha çox xərcləməkdədir. İnsan o qədər çox xərcləməlidir ki, səxavət onda vərdiş halını alsın[1224].

101. Firon və qoşunları batmazdan əvvəl Musanın (ə) göstərdiyi möcüzələr: Quranda həzrət Musanın (ə) doqquz möcüzəsindən söz açılmışdır. Bu ayədə Firon və qoşunlarının məhv olmasından əvvəl gerçəkləşmiş möcüzələrə işarə eidlmişdir: 1. Həzrət Musanın (ə) əsasının böyük ilana çevrilməsi; 2. Bəmbəyaz əl: Həzrət Musa (ə) əlini yaxasına salıb çıxartdıqdan sonra əli günəş kimi parlayırdı (Bu iki möcüzəyə "Qəsəs" surəsinin 3-ci ayəsində işarə edilmişdir). 3. Dağıdıcı tufanlar; 4. Firon və tərəfdarlarının tarlalarını və bağlarına daraşmış çəritkələr; 5. Onların dənli bitkilərini məhv edən bitki xəstəliyi; 6. Qurbağaların Nildən çıxması və həyatı onlar üçün dözülməz və yaşanmaz edəcək qədər çoxalması; 7. Qan:

[1223] Nümunə, c.12, səh.301
[1224] Ətyəbül-bəyan, c.8, səh. 314

Firon tərəfdarlarının içməli suları qana döndü (Bu beş möcüzəyə “Əraf” surəsinin 133-cü ayəsində işarə edilmişdir). 8. Qıtlıq və quraqlıq; 9. Meyvə qıtlığı (Bu iki möcüzəyə “Əraf” surəsinin 130-cu ayəsində işarə edilmişdir)[1225].

105. Biz Quranı haqq olaraq nazil etdik, o da haqq olaraq nazil oldu. Səni yalnız müjdə verən və qorxudan olaraq göndərdik.

106. İnsanlara hissə-hissə oxuyasan deyə, ayələrini bir-birindən ayırdığımız Quranı tədriclə nazil etdik.

107. De: “İstər ona inanın, istərsə də inanmayın. (Bu ayələr) Ondan əvvəl elm verilmiş kimsələrə oxunduğu zaman üz üstə səcdəyə qapanır

108. və: “Vədləri mütləq, gerçəkləşən Rəbbimiz pak və müqəddəsdir!”– deyirlər.

109. Onlar (qeyri-ixtiyari) üzüqoylu düşüb ağlayır və (bu ayələri oxumaq) onların itaətini artırır.

110. De: “İstər Allah deyib çağırın, istərsə də ər-Rəhman. Hansı adla çağırırsnız, çağırın, ən gözəl adlar Ona məxsusdur”. Namazını nə çox uca səslə, nə də çox asta səslə qıl. Bunların arasında orta bir yol seç.

111. De: “Həmd Özünə heç bir övlad götürməyən, hakimiyyətində heç bir şəriki olmayan, zəif və aciz qalmamaqdan ötrü heç bir hamiyə ehtiyacı olmayan Allaha məxsusdur!” Onu çox-çox uca tut.

[1225] Ətyəbül-bəyan, c.8, səh.314; Nümunə, c.12, səh.309

"Kəhf" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Həmd bu kitabı Öz quluna nazil edən və onda heç bir nöqsana yol verməyən Allaha məxsusdur!

2. (Bu kitab günahkarları) Allahın şiddətli əzabı ilə qorxutmaq, yaxşı işlər görən möminləri gözəl mükafata nail olacaqları ilə müjdələmək üçün sabit, doğru və digər səmavi kitabları qoruyan bir kitabdır.

3. (Möminlər) orada (onlara müjdə verlən Cənnətdə) əbədi qalacaqlar.

4. (Kitabı həm də ona görə nazil etdi ki,) "Allah Özünə övlad götürmüşdür!"– deyənləri qorxutsun.

---

105. Quranın təhrfə uğramaması: "***Quranı haqq olaraq nazil etdik***" və "***O, haqq olaraq nazil oldu***" cümlələrinin fərqi ilə bağlı müxtəlif izahlar verilmişdir. Aydın məsələdir ki, bəzən insan hər hansı işə başlayır. Ancaq gücü məhdud olduğu üçün onu doğru-düzgün şəkildə başa çatdıra bilmir. Hər şeyi bilən, hər şeydən xəbərdar olan, hər şeyə gücü çatan şəxs isə həm işə düzgün başlayır, həm də onu tam şəkildə başa çatdırır. Məsələn, bəzən insan suyu öz çeşməsindən tər-təmiz çıxarır, ancaq yolda onun bulanmasının qarşısını ala bilmədiyi üçün istifadəçi duru və təmiz sudan faydalana bilmir. Öz işini bilən və bütün imkanlara sahib olan şəxs isə həm suyu öz çeşməsindən tərtəmiz çıxarır, həm də susuzlara tərtəmiz çatdırır. Quran da Allah tərəfindən haqq olaraq nazil olmuş, bütün çatdırılma mərhələlərində, yəni həm Cəbrayıl vasitəsilə göndərilərkən, həm də Peyğəmbər (s) tərəfindən qəbul edilərkən, ümumiyyətlə, heç bir halda heç bir zaman təhrifə məruz qalmır. "Biz Zikri nazil etdik, Özümüz də onu qoruyacağıq" ayəsinə

əsasən Quran heç bir zaman təhrifə məruz qalmamış və qalmayacaqdır. Çünki Allah-taala onu qorumağı öz üzərinə götürmüşdür. Deməli, ilahi vəhyin zülal suyu Peyğəmbərin (s) zamanından dünyanın sonuna qədər toxunulmaz şəkildə insanların qəlbinə yol tapmış və tapacaqdır[1226].

106. Quranın tədricən nazil olma arqumentlərindən biri: Bu ayədə Quranın tədricən nazil olmasının mühüm dəlillərindən birinə işarə edilmişdir. İnsanların Quranı yaxşı qavraması, başa düşməsi, əzbərləməsi, ehtiva məlumatları yaxşı dərk etməsi, əməli göstərişlərinə əməl edə bilməsi üçün Peyğəmbər (s) onu hissə-hissə oxuyurdu. Əgər Quran birdəfəyə nazil olsaydı, insanlar ondakı məlumatları qavraya və hökmlərinə əməl edə bilməzdilər. Çünki etiqad məsələləri və əməli göstərişləri ehtiva edən böyük həcmin birdəfəyə göndərilməsi o vaxta qədər başlanğıc, qayıdış və şəriət haqqında heç bir məlumatı olmayan insanlara çətin gələr və onları birdəfəyə qəbul etmələri çətin olardı[1227].

110. Gözəl adlar Ona məxsusdur: Bu ayənin nazilolma səbəblərindən bəhs edən məlumatlarda bildirilir ki, bir gecə Peyğəmbər (s) Məkkədə səcdədə ikən Allahı Rəhman və Rəhim adları ilə çağırırdı. Bəhanəçi müşriklər fürsətdən istifadə edib deyirlər: Bu adam bizi çoxAllahlı olmaqda ittiham etdiyi, təkAllahlı olduğunu və yalnız bir məbudun olduğunu iddia etdiyi halda, özü iki Allaha ibadət edir. Bu ayə nazil olur və onlara çağırılan Allahın bir pak zata aid olduğu cavabı verilir[1228].

110. Namazın qılınma forması: 110-cu ayənin son hissəsində Məkkə müşriklərinin Peyğəmbərin (s) namazına etirazlarına işarə edilmişdir. Onlar deyirdlər ki, Peyğəmbər (s) namazı ucadan qılıb bizi narahat edir. Bu nə

[1226] Nümunə, c.12, səh.315
[1227] Əl-Mizan, c.13, səh.316
[1228] Nümunə, c.12, səh.324

ibadətdir, nə proqramdır? Ayədə Peyğəmbərə (s) belə bir göstəriş verilir: "Namazını nə çox uca səslə, nə də çox asta səslə qıl. Bunların arasında orta bir yol seç". Görəsən orta həddhansıdır? "Cəhz" və "əxvat" qadağası nəyi ifadə edir? "Cəhz" fəryad qoparmağa, "əxvat" isə insanın özünün eşitməyəcəyi dərəcədə astadan oxumağa deyilir. İmam Sadiq (ə) bu ayənin təfsri ilə bağlı belə buyurmuşdur: ***"Cəhr" səsi həddənb artıq ucaltmağa, "əxfat" isə insanın özünün eşitməyəcəyi dərəcəyə deyilir. Namaz bu ikisinin arasında olmalıdır."***[1229]

"Kəhf" surəsinin ümumi məzmunu: Digər Məkkə surələri kimi bu surədə daha çox başlanğıc, qayıdış, müjdələmək, qorxutmaq məsələlərindən bəhs edilir. Surədə həmçinin "Mağara yoldaşlarının əhvalatı", "Musa və Xızırın əhvalatı", "Zülqərneynin əhvalatı" kimi ibrətamiz və maraqlı hadsələrə toxunulur[1230].

5. Bu haqda nə onların, nə də atalarının heç bir məlumatı yoxdur. Ağızlarından çıxan söz necə də ağırdır. Onlar yalnız yalan danışırlar.

[1229] Nümunə, c.12, səh.327
[1230] Nümunə, c.12, səh.327

6. Əgər bu kəlama inanmırlarsa, etdikləri əməllərə görə özünü qəm-qüssədən həlakmı edəcəksən?

7. İnsanların hansının daha yaxşı əməl etdiyini sınaqdan keçirmək üçün yer üzündə olan hər şeyi ona (yerə) bəzək etdik.

8. (Amma bu bərbəzəklər daimi deyil.) Biz yer üzünü bitkisiz torpaq edəcəyik.

9. Sən mağara və Rəqim yoldaşlarının bizim qəribə möcüzələrimizdən olduğunumu güman edirsən?

10. (Xatırla!) Bir zaman o gənclər mağaraya sığınıb: "Ey Rəbbimiz! Bizə Öz tərəfindən bizə mərhəmət bəxş et və bizə xilas yolu göstər!"– demişdilər.

11. Biz mağarada onların qulaqlarını (yuxu pərdəsi ilə) bağladıq, uzun illər yuxuya daldılar.

12. Sonra o iki dəstədən hansının öz yuxu müddətini daha düzgün hesabladığını bilmək üçün onları oyatdıq.

13. Biz onların əhvalatını sənə doğru-düzgün danışırıq. Onlar Rəblərinə iman gətirmiş gənclər idi. Biz də onların hidayətini artırdıq.

14. Onlar qalxıb: "Rəbbimiz göylərin və yerin Rəbbidir. Biz heç vaxt Ondan başqa heç bir məbudu çağırmarıq. Əks halda, böyük danışmış olarıq!"– deyərkən onların qəlbinə qüvvət verdik.

15. "Bizim xalqımız özünə Allahdan başqa məbudlar seçib. Nə üçün (buna) aşkar bir dəlil gətirmirlər? Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər?!

---

9. Mağara yoldaşlarının əhvalatı: Surənin bu ayəsindən 26-cı ayəsinə qədər olan hissəsində ibrətamiz və çox maraqlı olan Mağara yoldaşları

əhvalatından bəhs edilir. Hədislərə əsasən bu əhvalat Peyğəmbərdən (s) soruşmaları üçün yəhudilərin müşriklərə öyrətdikləri üç sualdan biri olmuşdur. Əgər Peyğəmbər (s) bilsəydi, deməli düz danışdığı məlum olacaqdı. Onların müşriklərə öyrətdikləri digər iki məsələ Musa ilə Xızırın və Zülqərneynin əhvalatı idi. Bu surədə onların hər üçündən bəhs edilmişdir. Mağara və Rəqim yoldaşları eyni adamlardır. Onların Mağara yoldaşları adlandırılmasının səbəbi aydındır. Rəqim adlandırılmalarının səbəbinə gəlincə, "Rəqim"in mənası yazılmış deməkdir. Mağara yoldaşları ona görə Rəqim yoldaşları adlandırılmışdılar ki, onların əhvalatı bir lövhəyə yazılıb mağaranın divarına vurulmuş, ya da şahların xəzinələrində mühafizə edilirdi[1231]. Dini mənbələrdə Mağara yoldaşları ilə bağlı çox sözlər deyilsə də, onların bəzisinin əsası yoxdur. Buna görə də onlar arasında ziddiyyət və fərqliliklər olduğu diqqət çəkir. Əli ibn İbrahim Qumminin öz təfsirində qeyd etdiyi məlumat mətn və məzmun, Quran ayələri ilə uyğunluq təşkil etməsi baxımından digər məlumatlarla müqayisədə daha düzgün olduğu nəzərə çarpır. İmam Sadiqə (ə) istinadən qeyd edilmiş həmin əhvalatın xülasəsi belədir: Onlar öz ölkələrinin əhalisini bütpərəstliyə məcbur edən, əmrdən boyun qaçıranları isə qətlə yetirən zülmkar və despot bir şahın zamanında yaşayırdılar. Bunlar böyük Allaha ibadət edir, lakin öz əqidələrini hökumətdən gizlədirdilər. Zalım şah paytaxt şəhərin darvazasında məmurlar saxlamışdı. Şəhərdən çıxmaq istəyən şəxs orada olan bütlərə səcdə etmək məcburiyyətində idi. Bu imanlı insanlar ov etmək bəhanəsi ilə şəhərdən çıxır və qərara gəlirlər ki, bir daha çirkaba bulaşmış şəhərlərinə qayıtmasınlar. Yolda bir çobanla qarşılaşır və onu da təkAllahlılıq inancına dəvət edirlər. Çoban dəvəti qəbul edir. Çox maraqlıdır

[1231] Əl-Mizan, c.13, səh.241

ki, çobanın iti dallarınca düşüb onlardan ayrılmır. Bütpərəstlikdən qaçmış bu gənclər günün sonunda bir mağaraya çatır və orada dincəlmək qərarına gəlirlər. Allah onları burada o qədər yatırdır ki, həmin zalım şah ölür, şəhər əhalisi bir neçə nəsil dəyişir, nəsllər bir-birini əvəz edir. Mağara yoldaşları uzun yuxudan ayılır və nə qədər yatmaları ilə bağlı bir-birindən soruşurlar. Günəşin yüksəldiyini görüb: "Bir gün, ya günün bir hissəsini yatmışıq" deyirlər. Sonra bir nəfəri şəhərə göndərib deyirlər: "Bu gümüş sikkəni götür və şəhərə get, bizə yeməyə bir şey al. Ancaq ehtiyatlı ol, səni tanımasınlar. Çünki bizdən xəbər tutsalar, ya bizi öldürəcəklər, ya da öz dinlərinə məcbur edəcəklər." Həmin kişi şəhərə daxil olduqda şəhərin tamamilə dəyişdiyini, əhalinin onun tanımadığı tamamilə fərqli, hətta dillərini belə başa düşmədiyi bir əhali olduğunu görür. Bu kişi kimi, şəhər əhalisi də onun dilini başa düşmür, ondan kim olduğunu, haradan gəldiyini soruşurlar. Nəhayət kişi sirrin üstünü açmalı olur. Həmin vaxt Allahpərəst olan şah yandaşları və həmin kişi ilə birlikdə mağaraya doğru hərəkət edirlər. Onlar mağaraya çatıb içəri boylansalar da heç nə görmürlər. Allah həmin vaxt mağaraya bir qorxu pərdəsi çəkdiyindən həmin kişidən başqa heç kəs cürət edib mağaraya daxil ola bilmir. Dostları mağaraya daxil olduqdan sonra mağara yoldaşlarının qorxu içində olduğunu görür. Onlar bu gələnlərin bütpərəst və zalım şah Dəqyanusun adamları olduğunu güman etmişdilər. Kişi onlara uzun müddət yatdıqlarını və Allahın bunu insanlara bir möcüzə olaraq göstərdiyini xəbər verir. Dostlar sevinir, göz yaşları tökür və Allahdan onları elə bu vəziyyətlərində öldürmələrini istəyirlər. Dövrün şahı deyir: Bunlar imanlı şəxslər olduqları üçün burada məscid tikmək lazımdır[1232]...

[1232] Nümunə, c.12, səh.395

16. (Onlara dedik:) Madam ki, siz onları və Allahdan savayı ibadət etdiklərini tərk etdiniz, onda mağaraya sığının ki, Rəbbiniz sizə Öz mərhəmətini geniş etsin və bunda sizin üçün rahatlıq yaratsın.

17. (Əgər orada olsaydın,) günəşin doğduğu zaman onların mağarasının sağ tərəfinə yönəldiyini, batdığı zaman isə sol tərəfə adladığını, onların da mağaranın geniş bir yerində yerləşdiklərini görərdin. Bu, Allahın nişanələrindəndir. Allah kimi doğru yola yönəldərsə, həqiqi doğru yola yönəlmiş odur. Kimi azdırarsa, ona doğru yolu göstərən bir rəhbər tapa bilməzsən.

18. (Əgər onlara baxsaydın,) yatmış olduqları halda, oyaq olduqlarını düşünərdin. Biz onları sağa-sola çevirirdik. Onların iti isə qabaq pəncələrini

mağaranın ağzında uzadıb (gözətçilik edirdi). Əgər onları görsəydin, onlardan qaçardın və başdan ayağa qədər səni dəhşət bürüyərdi.

19. Beləcə onları oyatdıq ki, bir-birlərindən soruşsunlar. Onlardan biri soruşdu: "Nə qədər yatdınız?" Dedilər: "Bir gün yaxud günün bir hissəsi qədər". (Nə qədər yatdıqlarını dəqiqləşdirə bilmədikləri üçün) dedilər: "Rəbbiniz nə qədər yatdığınızı daha yaxşı bilir. Birinizi bu gümüş pulunuzla şəhərə göndərin. Qoy baxsın ən təmiz yemək hansıdırsa, ondan sizə bir miqdar yemək gətirsin. Amma ehtiyatlı olsun və sizin barənizdə heç kəsi duyuq salmasın!

20. Çünki onlar sizi tapsalar ya sizi daşqalaq edər, ya da öz dinlərinə döndərərlər. Onda siz əsla xilas üzü görməzsiniz!"

---

17. Mağara yoldaşlarının mağaradakı yeri: Allah-taala bu ayədə qısa açıqlama ilə mağaranın günəş şüasının səhər və ya günortadan sonra yalnız bir dəfə düşə biləcəyi şərq-qərb deyil, qütb istiqamətində olduğunu başa salır. Yəni mağaranın ağzı cənub qütbünə doğrudur, həm gün çıxanda, həm də batanda günəş şüası mağaranın içərisinə düşürdü. Habelə mağara yoldaşları girişdən aralı və mağaranın geniş ərazisində olduqları üçün günəş şüaları onların üzərinə birbaşa düşmürdü. Allah bu vasitə ilə onları günəşin istisindən, rənglərini dəyişməkdən, paltarlarını çürüməkdən qorumuşdur. Yatdıqları yerin havası boğuq olmadığı üçün onlar rahat yatmışdılar. Mağaranın içində hava şərq və qərb istiqamətindən cərəyan etmiş və mağara yoldaşları da bu hava dövranı içində rahat olmuşdular[1233].

18. Açıq gözlə yatmaq: Ayədə mağara yoldaşlarının yatışının adi bir yatış olmadığı, mağarada olduqları uzun müddət ərzində gözlərinin ayıq

---

[1233] Əl-Mizan, c.13, səh.251

insanlar kimi tamamilə açıq olduğu qeyd edilmişdir. Bu da ona görə idi ki, heyvanlar, qurd-quş ayıq olduqlarını güman edib onlara yaxın durmasın. Ya da ona görə idi ki, qorxulu görkəm alsınlar, hətta insanlar belə onlara yaxın durmağa cürət etməsinlər. Bu özü bir qoruma vasitəsidir[1234].

19. Mağara yoldaşları hansı məqsədlə uzun müddət yatızdırılmışdı? Bu ayədən belə başa düşülür ki, Allahın mağara yoldaşlarını uzun müddət yatızdırmaqda məqsədi "haqqın batil üzərində qələbə çaldığını" onlara göstərmək idi. Mağara yoldaşları elə bir cəmiyyətdə yaşayırdılar ki, küfr və batil hər tərəfi bürümüşdü, haqqın qələbə çalacağına az da olsa ümid yox idi, hətta yoldaşlar az qalırdı ki, şübhəyə düşsünlər. Buna görə də mağaraya sığındıqları zaman Allahdan onları rəhmət kölgəsinin altına almasını, hidayət etməsini və tərəddüddən xilas etməsini istəyirlər. Allah-taala da dualarını qəbul edir, uzun illər yuxuya aparır, sonra yuxudan oyadır, oyadır ki, bir-birlərindən nə qədər yatdıqlarını soruşsunlar. Biri bir gün, digəri günün bir hissəsini yatdıqlarını desin, sonra ətraflarına baxsınlar, dünyanın dəyişdiyini görsünlər və yavaş-yavaş on illərlə yuxuda oldqularını, bu onillərin başqasının gözündə onillər olduğu halda, onlara bir gün və ya yarım gün gəldiyini, elə buradan da dünya həyatının haqqı öldürəcək, batili həyatda saxlaya biləcək qədər uzun olmadığını, Allahın haqqi batil üzərində qalib etmək istəyində olduğunu, dünyanın zahiri güc və qüdrətinin, cah-cəlalının məhvə məhkum olduğunu başa düşsünlər[1235].

19. Pak və halal qidanın əhəmiyyəti: Bu ayədə haqq yolunun bütün yolçularına təkcə mənəvi qida deyl, həm də cismani qidanın təmizliyini gözləmələri, istənilən qarışıqdan qorumaları, hətta ən böhranlı vəziyyətlərdə belə bu prinsipi unutmamaları tövsiyə edilir. Bu gün dünya əhalisinin əksər

---

[1234] Nümunə, c.12, səh.369
[1235] Əl-Mizan, c.13, səh.253

hissəsi bu həqiqəti başa düşmüş və çalışır ki, yeməklərini hər növ zahiri bulaşıqdan qorusun. İnsanlar yeməkləri gigiyenik tələblərə cavab verən qablarda, mikrobdan, toz-torpaqlı və bulaşıq əllərdən uzaq tutmağa çalışırlar. Əlbəttə, bu çox yaxşı bir işdir, lakin bu miqdarla kifayətlənmək olmaz. Qidalar haram, sələm, təcavüz və istənilən növ batini çirkabdan da qorunmalıdır. Hədislərdə halal ruzi qazanılmasına çox təkid edilmiş, onun dua və qəlb səfasına təsirindən çox danışılmışdır. Hədislərin birində qeyd edilir ki, bir nəfər Peyğəmbərin (s) yanına gəlib ondan soruşur: "İstəyirəm duam qəbul olsun." Peyğəmbər (s) buyurur: ***"Yeməyini təmiz et, haram yeməyi qarnına daxil etmə!"***[1236]

[1236] Nümunə, c.12, səh.375

21. Beləcə, Allahın (Qiyamət günü ilə bağlı olan) vədinin doğru olduğunu və dünyanın sonu və Qiyamətin qopacağı ilə bağlı şübhə olmadığını bilsinlər deyə, insanları onların halından xəbərdar etdik. Öz işləri barəsində öz aralarında mübahisə etdikləri zaman bir dəstə dedi: “Onların üstündə bir bina tikin (ki, həmişəlik gözlərdən uzaq olsunlar). Rəbləri onların halından daha yaxşı xəbərdardır!”. Onların sirlərindən agah olanlar (bunun Qiyamət üçün bir əlamət olduğunu bilənlər) isə dedilər: “Onların (məzarı) kənarında mütləq, bir məscid tikəcəyik!”.

22. Bir dəstə: “Onlar üç nəfər idi, dördüncüləri köpəkləri idi!”– deyəcək. Başqa bir dəstə deyəcək: “Beş nəfər idilər, altıncıları köpəkləri idi!” Bütün bunlar əsassız sözlərdir. Bəziləri deyəcək: “Onlar yeddi nəfər idi, səkkizinciləri köpəkləri idi!” De: “Onların sayını Rəbbim daha yaxşı bilir.” Onların sayını yalnız az sayda adam bilir. Onlar barəsində yalnız dəlillər əsasında mübahisə et və heç kəsdən onlar barədə heç nə soruşma!

23. Heç vaxt heç bir iş barəsində: “Mən onu sabah edəcəyəm!”– demə!

24. Yalnız: “Əgər Allah istəsə!” (“inşAllah” - de!) Unutduğun zaman Rəbbini yada salıb: “Ümidvaram ki, Rəbbim məni bundan daha aydın olan bir yola yönəldər”– de.

25. Onlar mağarada üç yüz il, üstəlik doqquz il (də) qaldılar.

26. De: “Onların nə qədər qaldıqlarını Allah daha yaxşı bilir. Göylərin və yerin qeybi Ona məxsusdur. Doğrusu, necə də görən və eşidəndir!

Onların Ondan başqa heç bir vəli və himayədarı yoxdur. O, öz hakimiyyətinə heç kəsi şərik etməz!"

27. Rəbbinin Kitabından sənə vəhy olunanları oxu. Onun sözlərini heç kəs dəyişdirə bilməz. Ondan başqa heç bir sığınacaq tapa bilməzsən.

---

21. Qayıdış əlaməti: Mağara yoldaşlarının on illər çəkən uzun yuxusu ilə ölüm, oyanması ilə Qiyamət arasında bir bənzərlik vardır. Hətta demək olar ki, bu yatmaq və oyanmaq bir sıra cəhətlərdən ölməkdən və yenidən həyata qayıtmaqdan da qəribə olmuşdur. Çünki onillər keçməsinə baxmayaraq, bədənləri çürüməmişdi, yemədən və içmədən salamat qalmışdılar. İstənilən ağıl sahibi üçün belə bir sual yaranır ki, onlar bu uzun müddət ərzində necə salamat qalmışdılar. Bu Allahın hər şeyə qadir olduğunu göstərmirmi? Belə bir hadisə ölümdən sonrakı həyatın mümkünlüyündən xəbər verən bir əlamətdir[1237].

21. Mağara yoldaşlarının məzarı kənarında məscid tikilməsi: Bəzi tarixçilər yazırlar ki, mağara yoldaşları hadisənin həqiqətindən, yəni on illərlə yatdıqlarından xəbər tutduqda çox təəccübləndilər. Bütün övladlarını, qardaşlarını və dostlarını itirdiklərini, həyatın onlar üçün yaşanmaz olduğunu hiss etdikdə Allahdan ölmələrini və Allahın rəhmətinə qovuşmalarını istədilər və Allah da onların duasını qəbul etdi. Onlar dünyaya göz yumdular və cəsədləri insanlar oraya gələnə qədər mağarada qaldı. Burada cismani qayıdışı qəbul edənlərlə ona qarşı olanlar arasında mübahisə düşdü. Müxaliflər mağara yoldaşlarının tezliklə unudulmasını və bu əsaslı arqumentin ona əsaslananların əlindən çıxmasına çalışırdılar. Buna

[1237] Nümunə, c.12, səh.381

görə təklif etdilər ki, mağaranın qapısı bağlansın və mağara yoldaşları tamamilə unudulsun. Onlar insanları susdurmaq üçün deyirdilər: Bu barədə çox danışmayın, onların sirli həyatı olub, Allah onların vəziyyətindən daha çox xəbərdardır. Onların əhvalatını unudun, onlarla işiniz olmasın. Bu hadisənin mahiyyətinə varan onun Qiyaməti sübut etmək üçün canlı bir arqument olduğunu başa düşən həqiqi möminlər isə bu hadisənin unudulmamasına çalışdılar . Buna görə də dedilər: "Biz onların məzarının kənarında məscid və ibadətgah tikməliyik ki, insanları onları unutmasın, pak ruhlarından mədəd umsunlar"[1238].

24. "Əgər Allah istəsə" (inşAllah) deməyin əhəmiyyəti: Gələcəkdə görülməsi planlaşdırılan və bu barədə qərara gəlindiyi vaxt "Əgər Allah istəsə" demək lazımdır. Çünki biz müstəqil qərar qəbul etmək səlahiyyətində deyilik. Əgər Allah istəməsə, heç kəs heç nə edə bilməz. Buna görə də öz güc və qüdrətimizin Allahın istək və qüdrətindən asılı olduğunu təsdiq etməyimiz üçün danışığımıza "Əgər Allah istəsə" ifadəsini artırmağımız daha yaxşıdır. Digər tərəfdən, hər hansı hadisə haqqında qətiyyətlə xəbər vermək gücü və qüdrəti məhdud olan, yerinə yetirəcəyi işlərin həyata keçməsinə mane olan amillərin meydana çıxacağını ehtimal edən bir insanın gələcəkdə görəcəyi işlər haqqında danışarkən "Əgər Allah istəsə" deməməsi düzgün və məntiqli deyil. Bəzi hədislərdən belə məlum olur ki, kimsə gələcəklə bağlı danışarkən "Əgər Allah istəsə" deməsə, Allah onu başlı-başına buraxar və öz himayəsi altına almaz. Bir məlumatda oxuyuruq ki, İmam Sadiq (ə) bir məktub yazılması üçün göstəriş verir. Məktub sona yetdikdən sonra onu gözdən keçirərkən orada "Əgər Allah istəsə" ifadəsinin olmadığını gördükdə belə buyurmuşdur: ***"Əgər Allah istəsə" ifadəsi***

[1238] Nümunə, c.12, səh.382

olmadığı halda, siz bu məktubun sona çatacağına nə qədər əmin idiniz? Baxın, harada bu ifadə yoxdursa, onu həmin yerə əlavə edin!”[1239] Bu ayənin izahı ilə bağlı Əhli-beytə istinad edilən bir sıra hədislərdə qeyd edilir ki, əgər gördüyünüz hər hansı işin üstündən bir il keçsə və həmin işdən əvvəl “Əgər Allah istəsə” sözünü demədiyini xatırlasanız, səhvinzi düzəldib “Əgər Allah istəsə” sözünü deyin[1240].

28. Səhər və axşam öz Rəblərini çağıran, yalnız Onun razılığını istəyənlərlə birlikdə ol. Dünyanın bərbəzəyinə xatir gözlərini onlardan

[1239] Nümunə, c.12, səh.384-389
[1240] Nümunə, c.12, səh.390

çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işlərində ifrata varanlara itaət etmə!

29. De: “Bu, Rəbbiniz tərəfindən haqqdır. Kim istəyir inansın, kim də istəyir inkar etsin”. Biz zalımlar üçün elə bir Od hazırlamışıq ki, onun çadırı onları əhatə etmişdir. Onlar su istədikdə onlara üzləri bişirən əridilmiş metala bənzər bir su gətiriləcəkdir. Nə pis içkidir! Nə pis məskəndir!

30. İman gətirib yaxşı əməllər edənlərə gəlincə, Biz yaxşı işlər görənlərin mükafatını puç etmərik.

31. Ağacları və qəsrləri altından çaylar axan əbədi Cənnət bağları məhz onlar üçündür. Onlar orada qızıl bilərziklərlə bəzədiləcək, qalın və nazik ipəkdən yaşıl paltarlar geyəcək və orada taxtların üzərində dirsəklənəcəklər. Nə gözəl mükafat, necə də gözəl məskəndir!

32. Onlara iki kişini misal çək. Bunların birinə iki üzüm bağı verib onları xurmalıqlarla əhatə etdik və aralarında bərəkətli əkin saldıq.

33. Hər iki bağ bol məhsul verdi və bu məhsuldan heç bir şey əskilmədi. Onların arasından bir çay axıdırdıq.

34. Bu bağ sahibinin çoxlu gəliri var idi. Buna görə də öz (mömin) yoldaşı ilə söhbət edərkən ona: “Mən sərvət sarıdan səndən daha üstün və adamlarıma görə səndən daha qüvvətliyəm!”– dedi.

---

28. Quranın kasıb möminlərə diqqət ayırması: Təfsirçilər bu ayənin nazilolma səbəbi haqqında belə qeyd etmişlər: Peyğəmbərin (s) yanına gəlmiş bir qrup özlərindən razı və lovğa varlı zadəgan məclisin yuxarı başında əyləşmiş Salman, Əbuzər, Süheyb, Xəbbab kimi səhabələrə işarə edərək deyir: Əgər sən məclisin yuxarı başında əyləşsən, bədənlərinin qoxusu insanı narahat edən, əyinlərində cod və yun paltarları olan bu cür insanları özündən uzaqlaşdırsan, biz sənin yanına gələr, məclisində əyləşər,

sözlərindən faydalanarıq. Ancaq nə edək ki, bu cür insanların olduğu yerdə ola bilmərik. Bu zaman nəzər nöqtəsi olan ayə nazil olur və Peyğəmbərə (s) aldadıcı və boş sözləri qəbul etməmək, bütün həyatı boyu yoxsul olmalarına və yun paltarlar geyinmələrinə baxmayaraq, Salman və Əbuzər kimi imanlı, təmizürəkli insanlarla birlikdə olmaq göstərişi verilir. Ayə nazil olduqdan sonra Peyğəmbər (s) varlıların tikanlı sözlərindən inciyərək məclisi tərk etmiş kasıb möminləri axtarır. Onlar Məscidin bir küncünə çəkilib Allahı zikr edirdilər. Peyğəmbər (s) onları tapdıqdan sonra buyurur: Allaha şükür olsun ki, sizin kimi insanlarla birlikdə olmaq göstərişi verincəyə qədər ölmədim[1241].

32 və 46. Dünyanın həqiqətini izah etmək üçün iki gözəl misal: Allah-taala bu surənn 7-ci ayəsində yer üzü üçün bəzək yaratdığı bütün mövcudatın insanların sınaq və imtahan vasitəsi olduğunu, kimin əməlinin daha yaxşı olduğuna aydınlıq gətirən br meyar olduğunu, bir müddətdən sonra bu bərbəzəyin məhv olacağını, heç bir əsər-əlamətlərinin qalmayacağını buyurmuşdur. Bu ayələr 7-ci ayədəki məsələni izah edir. Belə ki, Allah iki gözəl məsəl çəkməklə (iki kişinin məsəli və 45-c ayədə qeyd olunacaq məsəl) insanın dünya həyatında sahib olduğu sərvət və övladların həqiqətini izah edir, tezliklə məhv olub gedəcək aldadıcı və tezliklə sıradan çıxacaq bərbəzəyin insana Allahı necə unutdurduğunu, onu özünə məşğul etdiyini, qəlbini öz quluna çevirdiyini, buyurur. Dünyanın bərbəzəyi insanı elə aldadır ki, o, bütün bunların həqiqi sahibi olduğu güman edir. Ancaq qəfildən Allah tərəfindən bir bəla gəlir, həmin əzəmətli həyat məhv olur,

[1241] Nümunə, c.12, səh.414

qəflət yuxusundan ayıldıqdan sonra insan üçün xatirədən başqa bir şey qalmır[1242].

34. Varlıların özlərini üstün tutmaları: Bu ayədə nəzər nöqtəsi olan şəxsin yanlış düşüncəsinə və çirkin inancına işarə edilmişdir. O da çox dünyapərəstlər kimi, özünü öz sərvətinin və var-dövlətinin həqiqi sahib sanır, bütün əmlakının Allah tərəfindən olduğunu və ona imtahan və sınaq üçün verildiyini unudur. Zahiri səbəbləri və vasitələri görsə də səbəblərin həqiqi sahibini unudur. Bu düşüncə ilə dostuna: "Mən səndən varlı və imkanlıyam" - deyir. Bu, eynilə Qarun təfəkkürüdür. Qarun ona nəsihət verməyə çalışan, sərvətin çoxluğuna sevinməməyi məsləhət görən, ondan başqasına ehsan verməyi tövsiyə edən insana: "Bu sərvəti malik olduğum bilik sayəsində əldə etmişəm" demişdi[1243].

[1242] Əl-Mizan, c.13, səh.304
[1243] Əl-Mizan, c.13, səh.306

35. O, özünə qarşı zülm edərək bağına daxil olub dedi: “Bunun nə vaxtsa yox ola biləcəyini düşünmürəm.

36. Qiyamətin qopacağına da inanmıram. Əgər Rəbbimin dərgahına qaytarılmalı olsam, bundan da yaxşı bir yer nəsibim olacaq!”

37. Onunla söhbət edən (mömin) yoldaşı isə dedi: “Səni torpaqdan, sonra nütfədən yaratmış, daha sonra səni tam bir kişi qiyafəsinə salmış Allahı inkarmı edirsən?

38. Lakin Allah mənim Rəbbimdir və mən heç kəsi Rəbbimə şərik qoşmaram!

39. Nə üçün bağına girdiyin zaman: “Bu, Allahın istədiyi bir nemətdir! Güc və qüvvət yalnız Allaha məxsusdur!”– demədin? Əgər var-dövlətcə və övladca məni özündən kasıb sayırsansa,

40. ola bilsin ki, Rəbbim mənə sənin bağından daha yaxşısını versin, sənin bağına isə göydən hesablanmış bir bəla göndərsin və o, bitkisiz hamar bir yerə dönsün.

41. Yaxud onun suyu yerin dərinliklərinə sovrulub getsin və bir də onu əldə edə bilməyəsən!”

42. (Hər halda, Allahın əzabı yetişdi) onun bütün meyvələri məhv oldu. Bütün bağ talvarların üzərinə tökülmüşdü. O, buraya çəkdiyi xərcə görə elə hey əllərini bir-birinə sürtüb deyirdi: “Kaş Rəbbimə heç kəsi şərik qoşmayaydım!”

43. Allah qarşısında ona yardım edəcək insanlar yox idi və o da öz-özünə kömək edə bilməzdi.

44. Orada sübuta yetmişdi ki, rəhbərlik (güc) yalnız haqq olan Allaha məxsusdur. Ən yaxşı mükafat verən və ən gözəl aqibət nəsib edən Odur.

45. Onlara dünya həyatını misal çək. Bu (dünya həyatı) göydən göndərdiyimiz suya bənzəyir. Yerdəki bitkilər onun vasitəsilə (yetişər və) bir-birinə sarmaşar, bir müddətdən sonra isə küləyin sovurub apardığı quru çör-çöpə dönər. Allah hər şeyə qadirdir.

---

39. “Allahın istədiyi olur; Güc yalnız Allaha məxsusdur”: Bunlar mömin şəxsin kafir olmuş varlı həmsöhbətinə dediyi son sözlərdir. Öncəki ayələrdə qeyd olunanlara əsasən, bu kafir kişi öz sərvətinə elə aldanır ki, özünün və sərvətinin əbədi, Allahdan ehtiyacsız olduğunu güman edir. Mömin həmsöhbəti onun küfr dolu fikirlərinə cavab verərkən iki cümlə işlədir: “Allahın istədiyi olur” və “Güc yalnız Allaha məxsusdur”. Bu iki cümlə ilə başa salır ki, heç nə və heç kəs Allahdan ehtiyacsız deyil, yer

üzündə nə qədər güc və güclü varsa, o sonsuz Zatdan asılıdır[1244]. Bu iki qısa cümlə insan həyatı və onun dünyaya baxışında böyük dəyişiklik yarada bilər. Möminlərin əmiri İmam Əli (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Biz Allahın varlığı ilə heç nəyə malik deyilik və O bizi malik etmədən heç nəyə sahib ola bilmərik. Deməli, O bizə bəxş etdiyinə bizdən daha layiqdir. Üzərimizə bir vəzifə qoymuşdur. Verdiyini bizdən aldıqda üzərimizdə olan vəzifəni də götürmüş olur."***[1245]

44. Kainatın həqiqi rəhbəri: "Vilayət" deyilərkən bu ayədə idarəedici rəhbər nəzərdə tutulur. Ayənin geniş mənası belədir: Fəlakət və müsibətlər hər tərəfdən hücuma keçdiyi, zahiri səbəblər öz güclərini itirdyi zaman özünü heç nədən asılı hesab etməyən, Allaha ehtiyacı olmadığını və müstəqil bir varlıq olduğunu düşünən insanın acizliyi və gücsüzlüyü, insanın bütün işlərinin, ümumiyyətlə dünyadakı bütün mövcudatın rəhbəri və idarəedicisinin Allah olduğu aydın olur. Çünki həqiqi sahib odur. Bu dünyada təsir və nüfuz sahibi olduğu təsəvvür edilən hər bir şey o ehtiyacsız varlıqdan asılıdır, onun rəhbərliyi, təsiri, himayəsi altındadır[1246].

44. Sərvət məğrurluğu: Bu məsəldə sərvət məğrurluğunun canlı təsvirinin şahidi olur, sonu şirk və küfürlə nəticələnən məğrurluqla tanış oluruq. Tutumları az olan insanlar hər hansı məqama yetişdikdə, sərvət və mövqe baxımından digərlərindən azacıq üstün olduqlarını gördükdə məğrurluq, lovğalıq və təkəbbür bəlasına düçar olurlar. Hər şeydən öncə öz imkanlarını başqasına göstərməyə, bunu bir üstünlük kimi təqdim etməyə çalışırlar. Quranda bu xüsusiyyət belə ifadə edilmişdir: ***"Mən mal və adamlarımın çoxluğuna görə səndən üstünəm"***. Bu adamların dünyaya

---

[1244] Əl-Mizan, c.13, səh.311
[1245] Nəhcül-bəlağə, 403-cü hikmət
[1246] Əl-Mizan, c.13, səh.314

olan sevgisi onlarda əbədi olacaqları təsəvvürü formalaşdırır və nəhayət uca səslə deyirlər: ***"Bu bağın nə vaxtsa məhv ola biləcəyini güman etmirəm!"*** Maddi dünyanın əbədi olacağına inanmaq Qiyamət inancı ilə təzad təşkil edir. Bu cür şəxslər qayıdışı inkar edərək deyirlər: ***"Qiyamət qopacağına inanmırıq.***" Xudbinlikləri və lovğalıqları onların özlərinin Allaha və Allah dərgahına yaxın olduqlarını söyləmələrinə, özləri üçün qeyri-adi mövqelər təsəvvür etmələrinə, ***"Əgər Allah tərəfinə qaytarılsaq, axirət dünyası olsa, bundan da yaxşı yerə sahib olacağıq"*** demələrinə səbəb olur. Qeyd olunan dörd mərhələ dünyapərəst insanların həyatlarında müşahidə edilən xüsusiyyətləri əks etdirir. Əslində onların haqq yoldan azması dünyapərəstlikdən başlayıb şirk, küfr, qayıdışın inkarı ilə sona çatır. Çünki onlar maddi gücə büt kimi ibadət edərək, ondan qeyrisini yaddan çıxarırlar[1247].

45. Dünya həyatının həqqətinə dair gözəl bir misal: Allah-taala bu ayədə insanlara belə buyurur: Həyatınzın başlanğıcından sonuna qədər olan bütün illəri gözləriniz önündə təkrarlanır. Bahar fəslində çəmənliyə gedin, hər qarışından həyat nəfəsi gələn, ürək oxşayan gözəlliklərə tamaşa edin. Payız fəslində də həmin yamyaşıl düzə gedin, hər tərəfdən ölüm əlamətlərinin necə diqqət çəkdiyinə baxın. Bəli, siz özünüz də uşaq vaxtı yeni açmış bir qönçə kimi idiniz, sonra tərafətli bir gül kimi gənc oldunuz, daha sonra solub qurumuş, yarpaqları saralıb tökülmüş güllər kimi qocalıb zəiflədiniz, nəhayət əcəl küləyi sizi biçdi, bir neçə gündən sonra çürümüş torpağınız küləklərlə sovrulub hər tərəfə yayıldı[1248].

[1247] Nümunə, c.12, səh.439
[1248] Nümunə, c.12, səh.447

46. Var-dövlət və övladlar dünya həyatının bəzəyidir. Əbədi qalan yaxşı əməllərin isə Rəbbinin dərgahındakı savabı daha yaxşı və ümidvericidir.

47. (Xatırla!) Bir gün Biz dağları hərəkətə gətirəcəyik. Yerin dümdüz olduğunu görəcəksən. Hamını qaldıracaq və onlardan heç birini diqqətdən kənarda qoymayacağıq.

48. Onlar Rəbbinin hüzurunda sıra ilə duracaqlar. (Onlara deyiləcək:) “Hamınız hüzurumuza sizi ilk dəfə yaratdığımız kimi gəldiniz. Amma siz elə güman edirdiniz ki, Biz sizə müəyyən bir vaxt təyin etməyəcəyik”.

49. Kitab (bütün insanların əməllərinin yazıldığı kitab) oraya qoyulacaq və sən günahkarların orada olanlardan qorxduqlarını görəcəksən. Onlar deyəcəklər: “Vay halımıza! Bu necə bir kitab imiş! Onda heç bir kiçik, heç bir böyük əməl ötürülmədən hesablanaraq yazılmışdır!” Etdikləri bütün əməlləri qarşılarında görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz!

50. Bizim mələklərə: “Adəm üçün səcdə edin!” – dediyimiz zamanı xatırlayın. Cinlərdən olan İblisdən başqa hamısı səcdə etdi. O, Rəbbinin əmrindən çıxdı. Onlar sizin düşməniniz olduğu halda, siz Məni qoyub onu və onun nəslini özünüzə rəhbərmi seçirsiniz? Zalımlar üçün bu necə də pis mübadilədir!

51. Mən onları nə göylərin və yerin yaradılışına, nə də özlərinin yaradılışına şahid etmədim. Mən (başqalarını) yoldan çıxaranları Özümə köməkçi tutmuram.

52. (Xatırlayın!) Bir gün (Allah): “Mənə qoşduğunuz şərikləri çağırın!”– deyəcək. Ancaq onları nə qədər çağıracaqlarsa, cavab verməyəcəklər. Biz bu iki dəstə arasında həlakedici bir yarğan yaratdıq.

53. Günahkarlar odu görən kimi, onunla qarışacaqlarına əmin olacaqlar. Oradan qaçmağa heç cür yol tapa bilməyəcəklər.

---

46. Əbədi qalan yaxşı əməllər: “Əbədi qalan yaxşı əməllər” deyilərkən bəyənilən və layilqi işlər nəzərdə tutulur. Qurana görə, insanın əməlləri Allah dərgahında qorunub saxlanır. Əgər o əməllər yaxşı olsalar, əbədi qalan yaxşı əməllər silsiləsinə aid olacaq. Məsumlara aid olan bir hədisdə deyilir: Əbədi qalan yaxşı əməllər deylərkən namaz nəzərdə tutulur. Hədislərin birində Əhli-beytə (ə) qarşı olan sevgi bu əməllərin bir nümunəsi kimi təqdim edilmişdir. Məlumdur ki, hədislərin hər birində bu əməllərin yalnız adıçəkilən əməllə məhdudlaşdırıldığına deyil, onların bir nümunəsinə işarə edilmişdir[1249].

47. Qiyamət ərəfəsində dünyanın viran qalması və dəyişməsi: Bu və sonrakı iki ayədə Qiyamət ərəfəsində baş verəcək hadisələrə işarə edilmişdir. Bu hadisələr çoxdur. “Qiyamət əlamətləri” adlanan bu hadsələrdən Quranın son hissəsindəki kiçik surələrdə daha çox bəhs edilir. Bu aləmətlərin məcmusu göstərir ki, yaşadığımız bu dünya tamamilə dağılacaq və dəyişəcək, dağlar parçalanacaq, ağaclar və binalar yerə batacaq, yer tamamilə düz olacaq, zəlzələlər onu darmadağın edəcək, günəş, ay və ulduzların işığı yoxa çıxacaq, ondan sonra xarabalıqlar üzərində yeni dünya,

---

[1249] Əl-Mizan, c.13, səh.315

yeni yer və göy meydana gələcək, insanların yeni həyatı həmin yeni dünya üzərində qurulacaq[1250].

49. Qiyamətdəki üç kitab: Quran ayələrinin məcmusundan belə qənaətə gəlmək olar ki, Qiyamətdə insanların üç cür kitabı (əməl dəftəri) olacaq. Birincisi, başlanğıcdan sonra qədər bütün insanların əməllərinin qeyd olunduğu vahid bir kitab. "Ktab qoyulacaq" cümləsi bütün insanların hesab-kitabının qeyd edildiyi vahid bir kitabın olacağından xəbər verir. İkinci kitab ayrı-ayrı ümmətlərin əməllərinin qeyd edildyi kitabdır. "Casiyə" surəsinin 28-ci ayəsində hər bir ümmətin öz kitabına doğru çağırılacağı buyurulmuşdur. Üçüncü kitab ayrı-ayrılıqda hər bir insan üçün olan kitabdır. "İsra" surəsinin 13-cü ayəsində belə buyurulmuşdur: "Hər bir insanın əməllərini öz boynundan asdıq. Qiyamət günü onun üçün qarşısında açıq şəkildə görəcəyi bir kitab çıxararıq."[1251] Əlbəttə, nəzər nöqtəsi olan ayələr insanın əməllərinin bu kitablarda qeyd edildiyini göstərməklə yanaşı, onların əməllərinin təcəssüm edəcəyindən və görünəcəyindən xəbər verir. Bu dünyada dağınıq enerjilər formasında məhv olmuş əməllər, əslində, məhv olmamışdır. Müasir elm də heç bir enerji və maddənin yox olmadığını, davamlı olaraq bir haldan başqa bir hala keçdiyini sübuta yetirir. Həmin gün bu itmiş enerjilər maddəyə çevriləcək və uyğun şəkillərdə təzahür edəcəkdir. Gözəl əməllər gözəl şəkillərdə, pis əməllər isə çirkin və utancverici şəkildə təzahür edib bizimlə birlikdə olacaq[1252].

50. Mələklər sırasında olan cin: Bu ayədən İblisin mələklərdən deyil, cinlərdən olduğu məlum olur. Ümumiyyətlə, Quran ayələri və məsumların (ə) hədislərinə əsasən məlum olur ki, etdiyi çoxlu ibadətlər sayəsində İblis

---

[1250] Nümunə, c.12, səh.451
[1251] Əl-Mizan, c.13, səh.320
[1252] Nümunə, c.12, səh.457

Allaha yaxın olan mələklər sırasına qədər yüksəlmişdi. Ancaq Allahın əmri qarısında təkəbbür və dikbaşlıq etdiyinə, Adəmə səcdə etməkdən boyun qaçırdığına görə uca məqamdan qovulmuş, Allahın qəzəbinə tuş gəlmişdir[1253].

[1253] Nümunə, c.12, səh.466

54. Biz bu Quranda insanlar üçün cürbəcür məsəllər çəkdik. İnsan isə daha çox mübahisə edəndir.

55. İnsanlara doğru yolu göstərən rəhbər gəldiyi zaman onların iman gətirmələrinə və Rəbbindən bağışlanma diləmələrinə mane olan şey yalnız əvvəlkilərin başına gələnlərin onların da başına gəlməsini, yaxud da gözləri görə-görə əzabın gəlib onlara yetişməsini gözləmələri oldu.

56. Biz elçiləri yalnız müjdə verənlər və xəbərdarlıq edənlər olaraq göndəririk. Kafirlər isə haqqı batil vasitəsilə yalana çıxarmaq üçün mübahisə edirlər. Bizim ayələrimizi və vəd verilmiş əzabları istehza edirlər.

57. Rəbbinin ayələri xatırladılarkən onlardan üz döndərən, əvvəllər öz əlləri ilə etdiklərini unudan adamdan daha zalım kim ola bilər? Anlamasınlar deyə, Biz onların qəlbinə örtüklər çəkdik, qulaqlarını da kar etdik. Buna görə də sən onları doğru yola çağırsan da, onlar heç vaxt doğru yola gəlməzlər.

58. Rəbbin bağışlayandır, mərhəmət sahibidir. Əgər onları etdikləri əməllərə görə cəzalandırsaydı, əzabı onlara daha tez göndərərdi. Lakin onlar üçün heç vaxt qaça bilməyəcəkləri bir vaxt vardır.

59. Bunlar zülm və haqsızlıq etdikləri zaman məhv etdiyimiz şəhər və kəndlərdir. Biz onları məhv etmək üçün vaxt müəyyən etmişdik.

60. Bir zaman Musa öz dostuna belə demişdi: “Mən iki dənizin qovuşduğu yerə çatana qədər, səfərim uzun sürsə də belə, axtarışdan əl çəkməyəcəyəm”.

61. O dənizlərin qovuşduğu yerə gəlib çatdıqda (yemək üçün özləri ilə götürdükləri) balıqlarını unutdular. Balıq isə dənizdə yol alıb getdi.

---

55. Allahın əzabını gözləyən inadkar kafirlər: Bu ayədə inadkar, məğrur kafirlərin iki hal istisna olmaqla, heç bir halda iman

gətirməyəcəklərinə işarə edilmişdir: Birincisi, əvvəlki qövmlərə gəlmiş şiddətli əzab onları da ağuşuna almayınca; ikincisi, ilahi əzabı öz gözləri ilə görməyincə. Əlbəttə, bu məcburi inamın heç bir əhəmiyyəti yoxdur. Nəzərə almaq lazımdır ki, bu insanlar heç zaman belə bir son gözləmirlər. Ancaq belə bir tale onlar üçün qaçılmaz olduğu üçün Quran onu intzar və gözləmə adlandırmışdır. Əslində, sözügedən ifadə bir növ kinayə səcyyəsi daşıyır. Bu, eynilə bizim haqq yoldan sapmış bir nəfərə "sən yalnız cəzalandırılmaq istəyirsən" deməyimizə bənzəyir. Yəni cəza sənin qaçılmaz taleyindir və sən sanki onu gözləyirsən[1254].

60. Nə üçün Musa (ə) Xızırın (ə) arxasınca getdi? Bu ayə Musa (ə) və onunla iki dənizin qovuşduğu yerdə görüşən alimin əhvalatı ilə başlayır. Hədislərdə adı Xızır kimi qeyd edilən bu alim hadisələrin sirlərindən xəbərdar olan bir şəxsdir. Allah-taala bu əhvalatla İslam peyğəmbərinə (s) sanki insanların üz çevirdiklərinə və dünyapərəstlik etdiklərinə görə kədərlənməməyi, öz çağırışında qətiyyətli və dözümlü olmağı nəsihət edir. Çünki görünən hər bir şeyin bir batini var, kafirlərin qüdrət və sərvətlərinin fövqündə Allah dayanır. Necə ki, Xızırın (ə) gördüyü işlərin bir batini var idi və bu batin sonradan aşkara çıxdı. Burada adı çəkilən Musa (ə) ülül-əzm peyğəmbərlərin üçüncüsü olan İmran oğlu Musadır. Hədislərə görə 60-cı ayədə "onun dostu" deyə işarə edilən şəxsin Musanın (ə) canişini Yuşa ibn Nun olduğu yazılmışdır. İmam Baqirin (ə) hədislərinin birində belə qeyd edilmişdir: ***"Musa (ə) İsrail oğullarından olan bir qrupun əhatəsində oturduğu vaxt bir kşi ondan dedi: "Mən Allah haqqında səndən daha məlumatı olan bir adam tanımıram". Musa (ə) dedi: "Mən də tanımıram". Bu vaxt Allah vəhy göndərərək buyurdu: "Niyə? Bəndən Xızır səndən***

[1254] Nümunə, c.12, səh.471

daha çox məlumatlıdır.” Musa (ə) Xızırla görüşməyin necə mümkün olacağını Allahdan soruşdu. Musanın balığının itəcəyi yer Xızırın olduğu məkanın əlaməti oldu. Allahın Quranda buyurduğu hadisə bundan sonra baş verdi.”[1255]

60. İki dənizin qovuşduğu yer: Burada hansı iki dənizdən söhbət getməsi ilə bağlı təfsirçilər arasında fikir ayrılığı mövcuddur. Ancaq daha böyük ehtimalla bura Əqəbə körfəzi ilə Süveyş kanalının kəsişdiyi yerdir. Bildiyimiz kimi, Qırmızı dəniz şimalda iki istiqamətdən quru sahəsinə girmişdir, bunun biri şimal şərq istiqamətində, digəri isə şimal qərb istiqamətində. Birincisi Əqəbə körfəzini, ikincisi isə Süveyş körfəzini təşkil etmişdir. Bu körfəzlər cənub hissədə birlikdə Qırmızı dənizə birləşirlər[1256].

61. Balıq dənizdə necə hərəkət etdi? Əllamə Təbatəbai bu ayə haqıqnda belə qeyd etmişdir: Bu ayələrdə balığın öldükdən sonra dirilməsi açıq şəkildə qeyd edilməmişdir. Cümlələrin məzmunundan belə qənaətə gəlmək olar ki, balıq dənizin kənarında bir qayaya qoyulmuş, yuxarıya doğru çırpınan dalğa ilə birlikdə dənizə düşmüş və dərinə batmışdır. 60-cı ayənin təfsirini ehtiva edən bəzi hədislər də bu fikri təsdiq edir. Çünki həmin hədislərdə balığın dirilməsi deyil, məhz itməsi qeyd edilmişdir[1257].

[1255] Əl-Mizan, c.13, səh.333
[1256] Nümunə, c.12, səh.480
[1257] Əl-Mizan, c.13 ,səh.335

62. Onlar oradan getdikdən sonra (Musa) öz səfər yoldaşına dedi: “Yeməyimizi gətir. Biz bu səfərimizdə lap əldən düşdük”– dedi.

63. Dedi: “(İstirahət etmək üçün) qayanın kənarına sığındığımız vaxt yadına gəlirmi? Mən balığın əhvalatını danışmağı unutdum. Doğrusu, onu mənə yalnız şeytan unutdurdu. Balıq qəribə bir şəkildə dənizə düşüb getdi”.

64. (Musa:) “Elə istədiyimiz də bu idi!”– dedi. Sonra onlar öz ləpirlərinin izinə düşüb geri qayıtdılar.

65. (Orada) Öz dərgahımızdan mərhəmət bəxş etdiyimiz və Öz tərəfimizdən elm öyrətdiyimiz qullarımızdan birinə rast gəldilər.

66. Musa ona dedi: “Sənə öyrədiləni, inkişaf və islaha səbəb olanı mənə öyrətmən üçün sənin arxanca gələ bilərəmmi?”

67. Dedi: “Sən mənim yanımda əsla səbirli ola bilməzsən.

68. Axı sən sirlərindən xəbərdar olmadığın bir şeyə necə dözə bilərsən?”

69. (Musa) dedi: “Allahın istəyi ilə səbirli olduğumu görəcəksən. Heç bir işdə əmrindən çıxmayacağam”.

70. (Xızır) dedi: “Əgər ardımca gəlmək istəyirsənsə, özüm sənə deməyincə heç bir şey haqqında soruşma”.

71. Hər ikisi yola düzəldi. Nəhayət, gəmiyə mindilər. (Xızır) gəmini deşdi. (Musa) dedi: “Sən gəmidə olanları suya qərq etmək üçünmü onu deşdin? Doğrusu, çox pis bir iş tutdun”.

72. Dedi: “Mən demədimmi sən mənim yanımda əsla səbirli ola bilməzsən?”

73. (Musa) dedi: “Unutduğum bir şeydən ötrü məni qınama və öz işimdə məni çətinliyə salma!”.

74. Yenə öz yollarına davam etdilər. Nəhayət, bir oğlan uşağı ilə rastlaşdıqda (Xızır) onu öldürdü. (Musa) dedi: “Heç kəsi öldürməyən günahsız bir insanımı öldürdün? Doğrusu, çox pis bir iş tutdun”.

---

63. Şeytan Allah peyğəmbərinə nəyisə unutdura bilərmi? Bu ayəni oxuyarkən belə bir sual yarana bilər: Şeytan Yuşa ibn Nun kimi bir peyğəmbərə fikir və düşüncəsini təsir altına ala bilərmi? Halbuki peyğəmbərlərin Şeytandan qorunduqlarını bilirik. Qeyd etməliyik ki, peyğəmbərlərin Şeytandan qorunması deyilərkən Şeytanın peyğəmbərləri günaha çəkə bilməməsi nəzərdə tutulur. Ancaq Şeytanın peyğəmbərlər üçün çətinliklər yaratmadığına dair heç bir arqumentimiz yoxdur. Belə ki, Şeytan nəyisə onlara unutdura bilər. Quranın bəzi ayələri də bunu təsdiq edir. “Sad”

surəsinin 41-ci ayəsini buna misal göstərə bilərik: ***"Bəndəmiz Əyyubu xatırla! Rəbbini çağıraraq (dedi: Ey Rəbbim,) Şeytan məni çətinliyə və zəhmətə salıb."***[1258]

65. Musa (ə) ilə Xızırın (ə) görüşü: Musanın görüşdüyü və bu ayədə çox gözəl xüsusiyyətlərlə səciyyələndirilən alimin adı Quranda qeyd edilməmişdir. Ancaq hədislərdə həmin alimin adının Xızır (ə) və həzrət Musanın (ə) müasirlərindən olan peyğəmbərlərdən olduğu qeyd edilmişdir. Bəzi hədislərdə Allahın ona uzun ömür verdiyi, hələ də yaşadığı və dünyadan köçmədiyi haqqında xəbər verilmişdir[1259].

65. Xızırın (ə) ilahi elmi qəbul etməsi: Təfsirçilər "Öz dərgahımızdan mərhəmət" ifadəsi ilə bağlı müxtəlif fikirlər irəli sürmüşlər. Bəziləri onu peyğəmbərlik, bəziləri uzun ömürlülük kimi izah etmişlər. Başqa bir ehtimala görə isə burada ilahi elmi qəbul edə bilməsi üçün Allahın ona bəxş etdiyi böyük istedad, geniş ruh, köks genişliyi nəzərdə tutulmuşdur. "Dərgahımızdan" ifadəsi onu göstərir ki, həzrət Xızırın (ə) elmi adi bir elm olmamışdır, bu elm dünyanın və hadisələrin yalnız Allaha məlum olan sirlərinin bir hissəsi olmuşdur. Qeyri-müəyyənlikdə işlədilmiş və belə məqamlarda daha çox böyüklüyü ifadə edən "elm" sözü Xızırın ilahi elmdən daha çox bəhrələndiyindən xəbər verir[1260].

68. Musa və Xızırın ayrı-ayrı sistemlərdən asılı olan fərqli vəzifələri: Nəzərə almalıyıq ki, həzrət Xızır (ə) hadisələrin sirli və görünməz tərəflərin ehtiva edən elm qapıları ilə əhatə olunmuşdu. Halbuki həzrət Musa (ə) hadisələrin görünməyən tərəflərini bilmək və onlardan xəbərdar olmaq üçün vəzifələndirilməmişdir. Hadisələrin görünən tərəfləri əksər hallarda

---

[1258] Əl-Mizan, c.13, səh.336
[1259] Əl-Mizan, c.13, səh.334
[1260] Nümunə, c.12, səh.486

görünməyən tərəflərdən fərqlənir. Belə ki, hər hansı davranış zahirən şüursuzcasına edilmiş bir hərəkət kimi görünsə də, görünməz tərəfində müqəddəs, məntiqli və hesablanmış bir hərəkət ola bilər. Belə olan halda hadisənin görünən tərəfinə baxan şəxs səbr və ixtiyarı əldən verib etiraza qalxmalı olur. Ancaq görünməyən tərəflərdən xəbərdar olan şəxs soyuqqanlılıqla öz işinə davam edir, hövsələsizlik edənin etiraz və fəryadına baxmır, həqiqəti açıb söyləmək üçün münasib bir vaxt gözləyir. Şagird isə elə hey dözümsüzlük göstərir, lakin sirlərdən xəbərdar olduqda tamamilə rahatlanır. Burada ortaya belə bir sual çıxır: Ülül-əzm və şəriət sahibi olan bir peyğəmbərin öz müasirlərinin hamısından çox bilməsi zəruri deyilmi? Cavab veririk ki, peyğəmbər ona əmr olunan vəzifənin sərhədləri, yəni subyektiv hadisələr sistemi çərçivəsində hər kəsdən elmli olmalıdır. Musa (ə) subyektiv, insanların ixtiyarına verilmiş sistem çərçivəsində dövrünün ən elmli və bilikli şəxsidir. Musanın (ə) dostunun aid olduğu aləmə gəlincə, onun subyektiv, zahirdə aləmlə heç bir əlaqəsi yoxdur. Başqa sözlə desək, Xızır (ə) peyğəmbərlik missiyasının şərtlənmədiyi sirlərdən xəbərdar idi. Hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: "Musa (şəriət, qanun elmində) Xızırdan elmli olmuşdur." İmam Rzaya (ə) aid edilən bir hədisdə də bu iki böyük şəxsiyyətinin vəzifələndirildiyi çərçivə fərqli idi, hər biri öz aid olduğu aləmdə digərindən daha bilikli idi[1261].

[1261] Nümunə, c.12, səh.487 və 515
Bu peyğəmbərlərdən birinin vəzifəsi görünən, digərininki görünməz aləmlə bağlıdır. Birinə hadisələrin görünən tərəfləri, digərinə isə görünməyən tərəfləri əsasında davranmaq vəzifəsi tapşırılmışdır. Heç biri digərinə aid olan tərəflər əsasında davrana bilməz. Əks təqdirdə vəzifə səlahiyyətlərini aşmış olur. Hər birinə öz mənsub olduğu sistemə uyğun yüksək bilgi verilmişdir. Hər ikisi Allahın bu sistemlərə uyğun olan əmrlərini icra etməklə vəzifələndirilmişlər.

75. (Yenə də o alim kişi) dedi: “Sənə demədimmi ki, mənim yanımda səbr edə bilməzsən?”

76. (Musa) dedi: “Əgər bundan sonra səndən bir şey barəsində soruşsam, daha mənimlə yoldaşlıq etmə. Artıq mənim tərəfimdən üzürlü hesab ediləcəksən.”

77. Yenə yollarına davam etdilər. Nəhayət, bir kənd camaatına çatdılar. Onlardan yeməyə bir şey istədilər. Camaat onları qonaq etmək istəmədi. Orada dağılmaqda olan bir divar gördülər. (O alim kişi) onu düzəltdi. (Musa) dedi: “Əgər istəsəydin, bunun müqabilində zəhmət haqqı alardın”.

78. (Xızır) dedi: “Budur, artıq mənimlə sənin ayrılmağının zamanı çatdı. Səbr edə bilmədiyin şeylərin yozumunu tezliklə sənə xəbər verəcəyəm.

79. Gəmi dənizdə çalışan kasıb adamlara məxsus idi. Mən o gəmini ona görə korlamaq istədim ki, onları hər bir sağlam gəmini zorla alan zalım bir şah gözləyirdi.

80. Oğlan uşağına gəldikdə, onun ata-anası mömin idilər. Onları azğınlığa və küfrə sürükləməsindən qorxduq.

81. Buna görə istədik ki, onların Rəbbi onun əvəzində o ikisinə ondan daha təmiz və daha sevimli bir övlad versin.

82. Divara gəldikdə isə, o, şəhərdəki iki yetim oğlanın idi. Altında onlara məxsus bir xəzinə vardı. Onların atası əməlisaleh adam olmuşdu. Rəbbin onların həddi-buluğa çatmalarını və öz xəzinələrini çıxartmalarını istədi. Bu Rəbbinin bir mərhəməti idi. Mən bunları öz ixtiyarımla etmirdim. Sənin səbr edə bilmədiyin işlərin yozumu budur!"

83. Səndən Zülqərneyn barəsində soruşarlar. De: "Onun əhvalatının bir hissəsini tezliklə sizə danışacağam".

---

76. Musanın Xızıra qarşı insaflı davranması: Bu ayə Musanın (ə) son dərəcə insanflı və uzaqgörən olduğundan xəbər verir. Çünki üçüncü sınaqdan sonra onunla Xızırın missiyasının tamamilə fərqli olduğunu başa düşüb haqq qarşısında təslim olur. Ustaddan ayrılmaq ona çətin və dözülməz olsa da, bu reallıq qarşısında inadkarlıq etmir, insaf göstərib həmin alim kişiyə haqq verir. Halbuki bu qısa sürən dostluqdan böyük həqiqət xəzinələri əldə etmişdi. İnsan bütün ömrünü özünü sınamağa həsr etməməlidir, nəticə almaq üçün bir neçə sinaq yetərlidir[1262].

82. İnsanın düzlüyünün övladın taleyinə təsiri: Bu ayədən belə məlum olur ki, insanın düzlüyü bəzən varislərinə yaxşı təsir göstərir, onların səadət və xoşbəxtliyinə səbəb olur. "Nisa" surəsinin 9-cu ayəsindən də göründüyü kimi, ata və ananın əməlisaleh olması övladın taleyinə təsir göstərir: "Özlərindən sonra zəif övladlar qoyub gedəcəkləri təqdirdə onlardan ötrü qorxan kəslər (yetimlərdən ötrü də) qorxsunlar." İmam Sadiq (ə) buyurmuşdur: ***"Allah mömin kişinin ləyaqətinə xatir onun övlad və***

[1262] Əl-Mizan, c.13, səh.494 və 519

nəvəsini də islah edir, ailəsini və ətrafını qoruyur. Onlar daim həmin mömina xatir Allah yanında qorunurlar.”[1263]

82. Xızır metodu meyardırmı? Musa (ə) ilə Xızırın (ə) əhvalatında alimlər arasında mübahisəyə səbəb olan ən mühüm məsələlərdən biri bu iki dostun qarşılaşdığı üç hadisədir. Musa (ə) hadisələrin görünməyən tərəflərindən xəbərdar olmadığı üçün etiraz edirdi. Sonradan ustadının izahlarını eşitdikdə qane olmuşdu. İndi soruşula bilər ki, qəsbkarın əlinə keçməməsi üçün sahibinin icazəsi olmadan kiminsə malını korlamaq olarmı? Bir yeniyetməni gələcəkdə edəcəyi bir işdən ötrü öncədən cəzalandırmaq olarmı? Başqasının malını qorumaq üçün zəhmət haqqı almadan işləməyə lüzum varmı? Qeyd etməliyik ki, bizi əhatə edən dünyaya iki sistem hakimdir: Bizdən asılı olmayan obyektivlik; bizdən asılı olan subyektivlik. Bu iki sistem ümumi prinsiplərdə koordinasiya təşkil etsələr də, xırdalıqlarda bir-birndən ayrıdırlar. Məsələn, Allah-taala bəndələrini sınağa çəkmək üçün qarşılarına qorxulu hadisələr, var-dövlətin, məhsulun azalması, əzizlərn itirilməsi kimi hadisələr çıxarır. Bununla da kimin səbrli və dözümlü olması sınanılır. Görəsən hər hansı peyğəmbər belə bir addım ata bilərmi? Allah naşükürlük etdiyinə görə insanın sağlamlığını əlindən ala bilər. Ancaq subyektivlik aləmində kimisə naşükürlük etdiyinə görə sağlamlıqdan məhrum etmək olarmı? Obyektiv sistemdə Allah heç bir görünən səbəb olmadan istənilən hadisə vasitəsilə yetkinlik yaşına çatmamış bir uşağın həyatına son qoya bilər. Çünki həmin uşaq gələcəkdə böyük təhlükələrə səbəb ola bilər. Eyni zamanda bu cür şəxslərin qorunub saxlanması imtahan və sınaqlara xidmət edə bilər. Allah bir qrup insanı (Musa kim) subyektiv sistemin qanunlarını icra etmək, mələklər və

[1263] Əl-Mizan, c.13, səh.345

insanlardan ibarət olan başqa bir qrupu isə obyektiv sistemin qanunlarını idarə etmək üçün ezam etmişdir. Əlbəttə, bu qrupların heç biri özbaşına addım ata bilməz. Addım atmaları üçün həqiqi hakim və malikdən icazə almaları şərtdir. Buna görə də Xızır açıq şəkildə bildirir ki, mən bu işləri özbaşına etmirəm[1264].

[1264] Nümunə, c.12, səh.505

84. Biz ona yer üzündə qüdrət və hökmranlıq verdik və hər şeyin səbəblərini ona ixtiyarına verdik.

85. O, bu səbəblərə tabe oldu (onlardan istifadə etdi).

86. Nəhayət, günəşin batdığı yerə gəlib çatdıqda onu qara palçıqlı bir çeşmədə batan gördü (gözünə belə göründü). Orada bir tayfaya rast gəldi. Biz buyurduq: “Ey Zülqərneyn! Ya onları cəzalandırmalı, ya da onlarla bağlı yaxşı bir davranış seçməlisən!”

87. Dedi: “Haqsızlıq edəni cəzalandıracağıq. Sonra Rəbbinə qayıdacaq və Allah ona ağır bir əzab verəcəkdir!

88. İman gətirib yaxşı iş görənə isə ən gözəl mükafat veriləcəkdir. Biz ona əmrimizdən asan olanı buyuracağıq”.

89. Sonra o, (yenidən ixtiyarında olan) vasitələrdən istfadə etdi.

90. Nəhayət, günəşin doğduğu yerə çatdıqda onu elə bir qövm üzərində doğan gördü ki, onlar üçün (günəşə) qarşı heç bir örtük yaratmamışdıq.

91. Bax belə! Biz onun ixtiyarında olan imkanlardan xəbərdar idik.

92. Sonra o, yenə (ixtiyarında olan) vasitələrdən istifadə etdi.

93. Nəhayət, iki dağ arasına gəlib çatdıqda onların ətrafında heç bir söz anlamayan (özlərinə məxsus dilləri olan) bir tayfaya rast gəldi.

94. Onlar dedilər: “Ey Zülqərneyn! Yəcuc və Məcuc bu ərazilərdə fitnə-fəsad törədir. Bəlkə biz sənə xərac verək, sən də bizimlə onlar arasında bir sədd düzəldəsən?”

95. (Zülqərneyn) dedi: “Rəbbimin mənə əta etdiyi daha yaxşıdır. Yaxşısı budur qüvvənizlə mənə kömək edin, mən də sizinlə onlar arasında möhkəm bir sədd çəkim.

96. Mənə böyük dəmir parçaları gətirin!” Nəhayət, iki dağın arasını tamamilə doldurduqda dedi: “Körükləyin!”. Dəmir qızarıb əriyənə kimi (körüklədilər). Dedi: “Mənə ərimiş mis gətirin, onun üstünə töküm!”

97. Onlar (Yəcuc və Məcuc tayfaları) nə onun üstünə çıxa bildilər, nə də onu dələ bildilər.

---

84. Zülqərneyn: Zülqərneynin kimliyi təfsirçilər arasında fikir ayrılıqlarının yaranmasına səbəb olmuşdur. İrəli sürülən ehtimallar arasında Quran ayələri və tarixi faktlarla uyğunluq təşkil edən ən böyük ehtimal Zülqərneynin Əhəməni şahı böyük Kuruş olması ehtimalıdır. Tarixi mənbələrin yazdığına görə Kuruş Şərq, Qərb və Şimala yürüşlər etmişdir. Bu üç istiqamətli yürüşlər Quranda işarə edilən üç səfərə uyğun gəlir. Kuruş birinci dəfə Kiçik Asiyanın şimalında yerləşən Lidiya torpaqlarına yürüş etmişdir. Bu ölkə Kuruş hökumətinin qərbində yerləşirdi. Əgər Kiçik Asiyanın qərb sahilinin xəritəsinə baxsaq, sahilin böyük bir hissəsinin kiçik körfəzlərlə əhatə olunduğunu, xüsusilə çeşmə formasını almış İzmir körfəzində bitdiyini görərik. 86-cı ayədə buyurulur ki, Zülqərneyn qərb səfərində günəşin qara və palçıqlı çeşmədə batdığını görür. Bu səhnə günəşin körfəzlərdə batarkən Kuruşun şahidi olduğu səhnədir. Kuruşun ikinci yürüşü Şərq istiqamətində olmuşdur. Yunan tarxçisi olan Heredot yazır: Kuruşun Şərqə hücumu Lidiya ölkəsinin rəthindən sonra baş vermişdir. Kuruşu bu yürüşə səhrada yaşayan bəzi yırtıcı qəbilələrin zülm və haqsızlıqları olmuşdur. Quranın təbirincə (90-cı ayə) Kuruş Şərq səfərində günəş şüalarının qarşısını tutacaq heç bir daldanacaq və kölgənəcəkləri olmayan səhra xalqlarını görmüşdür. Kuruşun üçüncü yürüşü şimal istiqamətində, yəni Qafqaz dağları istiqamətində olmuşdur. Kuruş iki dağ

arasındakı dar keçidə çatdıqda yerli camaatın xahişi ilə yırtıcı xalqların qarşısını almaq üçün iki dağ arasına möhkəm bir sədd çəkmişdir. Bu boğaz hal-hazırda Daryal adlanır. Vladiqafqaz və Tiflisin arasında yerləşən bu sədd və dəmir hasar indi də qalmaqdadır. Bu sədd Kuruşun inşa etdirdiyi həmin səddir. Quranın Zülqərneyn səddi ilə bağlı təqdim etdiyi xüsusiyyətlər bu səddlə tamamilə uyğunluq təşkil edir[1265].

84. Zülqərneynin ixtiyarında olan vasitələr: "Səbəb" ərəb dilində ağaca çıxmaq üçün istifadə edilən kəndirə, ümumiyyətlə, istənilən vasitəyə deyilir. Ayədə bu söz daha geniş məna ifadə edir. Bu da onu göstərir ki, Allah hədəfinə çatmaq üçün bütün vasitələri Zülqərneynin ixtiyarına vermişdi – yetərli dərəcədə ağıl və bacarıq, düzgün idarəçilik qabiliyyəti, güc və qüdrət, ordu və insan qüvvəsi, maddi imkanlar. Zülqərneyn bu imkanlardan çox yüksək səviyyədə istifadə edirdi[1266].

94. Zülqərneyn heç bir söz anlamayan xalqla hansı dildə ünsiyyət qurmuşdur? 93-cü ayədə buyurulur ki, Zülqərneyn heç bir söz anlamayan və özlərinə məxsus dlləri olan bir xalqa rast gəldi. Ancaq 94-cü ayədə bu xalqın Zülqərneynlə danışdığı, camaatın ondan Yəcuc və Məcuca qarşı bir sədd tikdirməsini xahiş etdiyi qeyd edilmişdir. Bu danışıqlar işarələr və ya danışıq hesab edilməyən sözlər vasitəsilə ola bilər. Bəzilərinin ehtimalına görə onlar arasında baş verən anlaşma tərcüməçilər və ya Allah tərəfindən edilən ilham vasitəsilə baş tutmuşdur. Bu ilham formasına Süleymanın bəzi heyvanlarla danışığını misal göstərə bilərik[1267].

94. Yəcuc və Məcuc: Faktlara əsasən deyə bilərik ki, böyük ehtimalla Yəcuc və Məcuc Qafqaz xalqlarının başına bəla olmuş moğollardır. Kuruşun

---

[1265] Nümunə, c.12, səh.542-549
[1266] Nümunə, c.12, səh.529
[1267] Nümunə, c.12, səh.533

bu ərazilərə yürüşü zamanı Qafqaz xalqları onların qarşısının alınması üçün Kuruşdan yardım istəmiş, o da məşhur Zülqərneyn səddini tikdirmişdir[1268].

98. Dedi: “Bu, Rəbbimdən olan bir mərhəmətdir. Rəbbimin vədi yetişdikdə isə onu yerlə yeksan edəcəkdir. Rəbbimin vədi həqiqətdir”.

99. O gün (Yəcuc və Məcuc tayfalarını) onları axışıb izdiham yaratdıqları halda buraxarıq. Sur üfürüləndə Bz hamını bir yerə toplayarıq.

100. O gün Biz Cəhənnəmi kafirlərə göstərərik.

101. O kəslərə ki, gözlərinə Məni anmamaq üçün pərdə çəkilmişdi, özləri də eşidə bilmirdilər.

102. Kafirlər Məni qoyub qullarımı özlərinə dost tutacaqlarınımı güman edirdilər? Biz Cəhənnəmi kafirləri qəbul etmək üçün hazırlamışıq.

[1268] Nümunə, c.12, səh.552

103. De: “Sizə əməllərində ən çox ziyana uğrayanların kimlər olduğunu xəbər verimmi?

104. O kəslər haqqında ki, dünya həyatındakı səyləri boşa çıxdığı halda, yaxşı işlər gördüklərini güman edirdilər.

105. Onlar Rəblərinin ayələrini və Onunla görüşəcəklərini inkar edən, buna görə də bütün əməlləri boşa çıxan kimsələrdir. Odur ki, Qiyamət günü onlar üçün heç bir çəki və hesab-kitab olmayacaq”.

106. Kafir olduqları, ayələrimi və elçilərimi məsxərəyə qoyduqları üçün cəzaları Cəhənnəmdir.

107. İman gətirib xeyirxah əməllər edənlərə gəldikdə isə, Firdovs bağları onları qəbul edən məskən olacaq.

108. Onlar orada əbədi qalacaq, oradan köçmələrini istəməyəcəklər.

109. De: “Əgər Rəbbimin sözlərini yazmaq üçün dənizlər mürəkkəb olsa və bir o qədər də ona əlavə etsək belə, Rəbbimin sözləri qurtarmadan dənizlər qurtarardı”.

110. De: “Mən də sizin kimi bir insanam. (Üstünlüyüm ondadır ki,) mənə vəhy olunur ki, sizin məbudunuz tək olan məbuddur. Kim Rəbbi ilə qarşılaşmağa ümid bəsləyirsə, gərək yaxşı işlər görsün və ibadətlərində heç kəsi Rəbbinə şərik qoşmasın!”

---

102. Cənnət və Cəhənnəm təsəvvürə gəlməz mükafat və cəzanın müqəddiməsidir: “Nüzəl” ərəb dilində qonağa ilk təklif edilənə deyilir. Bu ayədə Cəhənnəmin kafirlərə təklif edilən ilk yer olduğu buyurulmuşdur. 107-ci ayədə isə Cənnətin saleh əməl sahibi olan möminlərə təklif edilən ilk yer olduğu qeyd edilmişdir. Bəzi təfsirçilər bu ayələrə istinadən bildirirlər ki, Cənnət və Cəhənnəm mömin və kafirlərə təklif edilən ilk yerlər olduğunu,

bundan sonra isə təsəvvür edilə bilməyəcək savab və mükafat olduğunu söyləmişlər. Bəzi Quran ayələri də bu fikri təsdiq edir: ***"Orada (Cənnətdə) onlar üçün istədikləri hər şey vardır. Dərgahımızda isə ondan artığı (heç kəsin təsəvvür edə bilməyəcəyi nemətlər) mövcuddur!"*** (Qaf surəsi, 35-ci ayə) ***"Etdikləri əməllərin mükafatı kimi onlar üçün gözlərinə sevinc gətirəcək nələr saxlandığını heç kəs bilmir."*** (Səcdə surəsi, 17-ci ayə); ***"Və onlar üçün əsla güman etmədikləri görünəcəkdir." (Zümər surəsi, 47-ci ayə)***[1269]

103-104. İnsanların ən ziyana uğramışı: Bir insanın bəzən yanlış bir iş gördüyü halda, yaxşı və mühüm bir iş gördüyünü güman etdiyinin çox şahidi oluruq. Bu cür mürəkkəb cəhalət bir an, bir il, hətta bir ömür də davam edə bilər. Doğrusu, bundan böyük bədbəxtlik ola bilməz. Quranın bu cür şəxsləri insanların ən ziyana uğramışı adlandırmasının arqumenti aydındır: Günaha batıb, ancaq günah etdiyini bilən şəxslər adətən öz yanlışı üçün həd və sərhəd müəyyən edirlər. Çox təsadüf edilib ki, onlar özlərinə gəlmiş və yanlışlarını düzəltmək üçün tövbə edib yaxşı işlər görmüşlər. Günah edib günahlarını ibadət sayanlar çirkin əməllərini düzgünlük hesab edirlər. Bu adamların öz əməllərini islah etməməklə bağlı qərarları bir tərəfə, öz əməllərini davam etdirməkdə israr da göstərirlər. Quran onlar haqqında diqqət çəkən çox maraqlı bir ifadə işlədir və "onları əməllərində ən çox ziyana uğrayanlar" adlandırır. Hədislərdə bu ifadənin fikir və düşüncə tələb edən çox aydın nümunələrinə rast gəlinir. Bəzi hədislərdə tərki-dünya kişi və qadınlar bu ayənin xitab obyektləri kimi təqdim edlmişdir. Çünki onlar ömürlərini məbədlərdə keçirir, özlərinin dünyanın halal zövqlərindən məhrum edir və bu məhrumiyyəti Allaha yaxınlaşma səbəbi hesab edirlər.

[1269] Əl-Mizan, c.13, səh.364

Bəzi hədislərdə Nəhrəvan xariciləri bu ayənin xitab obyektlərindən biri hesab edilmişdir. Bu beyinsiz və nadan insanlar Əlini (ə) öldürmək kimi böyük günahları Allaha yaxınlaşmaq səbəbi hesab edir, Cənnətin onların inshisarında olduğunu düşünürdülər. İfrat təəssüblər, qürur, təkəbbür, eqoizm, özünü bəyənmə, lovğalıq, dünyapərəstlik bu cür yanlış düşüncələrin meydana gəlməsinin ən mühüm amillərindəndir[1270].

110. Allahla görüş: Şübhəsiz ki, "Allahla qarşılaşma" deyilərkən hissi qarşılaşma nəzərdə tutulmur. Çünki hissi qarşılaşma cisim olmanı, cisim olmaq məhdud, möhtac və fani olmanı tələb edir. Hər bir ağıl sahibi Allahın bu xüsusiyyətlərdən uzaq olduğunu bilir. Deməli, Allahla qarşılaşma deyilərkən batini müşahidə nəzərdə tutulur. Yəni insan Qiyamətdə Allahın əsərlərini hər zamankından çox görəcək və onda sanki Allahı qəlb gözü ilə aşkarda görürmüş kimi bir təəssürat yaranacaq. Buna görə də hətta ən inadkar inkarçılar belə, Qiyamətdə inkara etmək üçün heç bir bəhanə qalmadığını görüb etiraf edəcəklər[1271].

110. İxlas saleh əməlin həqiqətidir: Bu ayədə saleh əməlin həqiqəti qısa bir cümlə ilə ifadə edilmişdir. Daha aydın desək, ixlas və səmimiyyət olmadan əməl saleh hesab edilməz[1272]. İslam peyğəmbəri (s) belə buyurmuşdur: ***"Riyakarlıq və özünü göstərmək niyyəti ilə namaz qılan, oruc tutan və sədəqə verən şəxs ibadətində Allaha şərik qoşmuşdur."*** Sonra Peyğəmbər (s) nəzər nöqtəsi olan ayəni buyurmuşdur. İmam Baqir (ə) və İmam Sadiqə (ə) aid edilən bir hədisdə belə buyurulmuşdur: ***"Əgər bəndə hər hansı əməli Allahın rəhmətini qazanmaq və axrət niyyəti ilə etsə,***

[1270] Nümunə, c.12, səh.563
[1271] Nümunə, c.12, səh.566
[1272] Nümunə, c.12, səh.577

ancaq bu əmələ kiminsə xoşuna gəlmək niyyəti də qatsa, əslində, həmin bəndə müşrik olmuşdur.”[1273]

"Məryəm" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Kəf, Hə, Yə, Ayn, Sad.

2. (Bu) sənin Rəbbinin Öz qulu Zəkəriyyaya qarşı olan mərhəmətindən bir xatırlatmadır.

3. Bir zaman Rəbbinə gizlicə dua edib

4. demişdi: “Ey Rəbbim! Artıq sümüklərim zəifləmiş, başım da ağappaq ağarmışdır. Ey Rəbbim! Sənə dua edərkən onun qəbulundan əsla məhrum edilməmişəm.

5. Mən özümdən sonra gələn qohumlarımdan (onların Sənin haqq dinini qorumayacaqlarından) qorxuram. Zövcəm də sonsuzdur. Mənə Öz tərəfindən elə bir canişin bəxş et ki,

6. həm mənim, həm də Yaqubun nəslinin varisi olsun. Elə et ki, Sənin razılığını qazanmış olsun!”

7. “Ey Zəkəriyya! Səni Yəhya adlı bir oğulla müjdələyirik. Biz bu adı (ondan) öncə kimsəyə qoymamışıq!”

8. Dedi: “Ey Rəbbim! Zövcəm sonsuz bir qadın ikən, özüm də qocalıb əldən düşdüyüm halda, mənim övladım necə ola bilər?”

[1273] Əl-Mizan, c.13, səh.402

9. (Mələk) dedi: “Belədir, Rəbbin “Bu, Mənim üçün asandır. Daha öncə sənin özünü də sən heç bir şey deyilkən xəlq etmişdim!”, - deyə buyurub”.

10. Dedi: “Ey Rəbbim! Mənim üçün bir əlamət müəyyən et”. Buyurdu: “Əlamətin budur ki, danışa bildiyin halda, üç gün adamlarla danışmayacaqsan!”

11. O, ibadət etdiyi mehrabdan öz camaatının qarşısına çıxıb işarə ilə onlara dedi: “Səhər-axşam (Allaha) təriflər deyin!”

“Məryəm” surəsinin ümumi məzmunu: Bu surə məzmun baxımından bir neçə hissədən ibarətdir: 1. Bu surənin ən mühüm hissəsində həzrət Nuh, İbrahim, İshaq, Yəqub, Musa, İsmayıl, İdris, Zəkəriyya, Yəhya, İsa (Allahın salamı olsun onların hamısına) kimi bəzi böyük peyğəmbərlər, o cümlədən pak və müqəddəs xanım Məryəmin (ə) əhavalatları təşkil edir. Bu əhvalatlarda xüsusi tərbiyəvi nüanslar yer almışdır. 2. Suranin digər hissəsi Qiyamət, Qiyamətin necə olacağı, günakarların aqibəti, təqvalı insanların mükafatı və sair kimi mövzuları ehtiva edir. 3. Əvvəlki hissələri tamamlayan öyüd və nəsihət hissəsi. 4. Sonuncu hissə ümumlikdə, insan nəfsinin iman, təmizlik, paklıq və təqvaya sövq edilməsində rol oynaya biləcək Quran, Allahın övladının olmaması və şəfaətlə bağlı olan tərbiyəvi mövzuları əhatə edir[1274].

1. Kəf, Hə, Yə, Ayn, Sad: “Bəqərə” surəsinin birinci ayəsində “müqəttəə” hərfləri ilə bağlı izahat vermişik. Burada qeyd edilməsi lazım olan məsələlərdən biri budur ki, nəzər nöqtəsi olan surənin müqəttəə hərflərindən bəhs edən hədislər iki qrupa bölünmüşdür: 1. Hədislərdə bu

---

[1274] Nümunə, c.13, səh.3

hərflərdən hər biri ilə Allahın gözəl adlarına işarə edildiyi qeyd edilmişdir: Kəf hərfi ilə Kafi, hə hərfi ilə Hadi, yə hərfi ilə Vəli, ayn hərfi ilə Alim, sad hərfi ilə Sadiqül-vəd adı nəzərdə tutulmuşdur. 2. Hədislərdə bu hərflər vasitəsilə İmam Hüseynin (ə) qiyamına işarə edildiyi qeyd edilmişdir: Kəf hərfi ilə Kərbəla, hə hərfi ilə Peyğəmbər ailəsinin (ə) həlak ediləcəyinə, yə hərfi ilə Yezid, ayn hərfi ilə ətəşə (susuzluğa), sad hərfi ilə İmam Hüseyn (ə) və yoldaşlarının səbrinə işarə edilmişdir. Nəzərə almalıyıq ki, Quran ayələrinin müxtəlif mənaları vardır. Ayələrin mənası bəzən keçmiş və gələcəyə aid olsa da, bu müxtəliflikl̈ər heç bir təzadda səbəb olmur. Əks təqdirdə, əgər ayənin mənasını bir yozumla məhdudlaşdırsaq, bu məhdudlaşdırma ayənin nazilolma şəraiti və zamanı baxımından problem yarada bilər[1275].

6. Yəqub sülaləsinin varisi olan övlad: Zəkəriyyanın (ə) həyat yoldaşı həzrət Süleymanın (ə), həzrət Süleyman (ə) isə həzrət Yəqubun (ə) nəslindəndir. Buna görə də Zəkəriyya (ə) Allahdan ona özünün və Yəqub (ə) nəslinin varisi olacaq bir övlad verməsini istəyir[1276].

7. Yəhya adı analoqu olmayan bir ad olmuşdur: Bu ayədən belə məlum olur ki, Yəhyanın adını Allah özü qoymuş və ondan əvvəl heç kəs bu adı daşımamışdır. Əlbəttə, Yəhyanın adının analoqu olmaması deyilərkən onun kimi bir şəxsiyyətin olmaması da nəzərdə tutula bilər. Bu iddianı Allahın Quranda əvvəlki peyğəmbərlərdən heç biri haqqında demədiyi və yalnız Yəhya ilə bağlı qeyd etdiyi xüsusiyyətlər təsdiq edir; uşaq yaşında peyğəmbərliyə çatması, evlənməməsi, doğularkən, ölərkən və qaldırılarkən Allah tərəfində salamlanması. Əlbəttə, həzrət İsa (ə) da bu xüsusiyyətlərdə onunla ortaq olmuşdur, ancaq nəzərə almaq lazımdır ki, İsanın (ə) doğuluşu

[1275] Nümunə, c.13, səh.6
[1276] Nümunə, c.13, səh.14

Yəhyanın (ə) doğuluşundan sonra olmuşdur[1277]. Bir məsələni də qeyd etməliyik ki, bu ilahi peyğəmbərin evlənməkdən imtina etməsinin xüsusi bir səbəbi olmuşdur. Yoxsa ki, evlənməkdən imtina etmək, ümumiyyətlə, insan üçün kamillik hesab edilmir. Daha ətraflı məlumat almaq istəyənlər "Nümunə" təfsirində bu və "Ali-İmran" surəsinin 29-cu ayəsinin təfsirinə baxa bilərlər. Deyilənlərə bir də bunu əlavə etməliyik ki, bir peyğəmbərin spesifik xüsusiyyətlərinin söylənməsi onun məqam baxımından digər peyğəmbərlərdən üstün olması kimi başa düşülməməlidir. Bütün bunlar onun özünəməxsus imtiyazlarını göstərmək üçündür[1278].

7. İmam Hüseynlə (ə) həzrət Yəhyanın (ə) oxşarlıqları: Hədislərdə İmam Hüseynlə (ə) həzrət Yəhyanın (ə) ortaq cəhətlərinin olduğu qeyd edilmişdir. Ad cəhətdən onların heç birinin özündən əvvəl adaşı olmamışdır; hər ikisinin başı Allah dinini müdafiə etdiyi üçün kəsilmişdir; hər ikisinin qatili haramzada olmuşdur; hər ikisi qətlə yetrildikdən sonra qırx gün göy üzü günəş çıxıb batana qədər qırmızı rəngə boyanmışdır[1279].

[1277] Əl-Mizan. C.14, səh.15
[1278] Nümunə, c.13, səh.17
[1279] Əl-Mizan. C.14, səh.15; Ətyəbül-bəyan, c.8, səh.420

12. “Ey Yəhya! Kitabdan möhkəm yapış!” Biz uşaq ikən ona peyğəmbərlik əmri verdik.

13. Üstəlik Öz tərəfimizdən ona bir şəfqət və paklıq da bəxş etdik. O, müttəqi idi.

14. Ata-anasına qarşı qayğıkeş idi; zülmkar və asi deyildi.

15. Doğulduğu gün də, öləcəyi gün də, yenidən dirildiləcəyi gün də ona salam olsun!

16. Bu kitabda Məryəmi də yada sal. O zaman o, ailəsindən ayrılıb (Beytülmüqəddəsdən) şərq tərəfdə olan bir yerə çəkilmiş,

17. özü ilə onlar arasına bir pərdə tutmuşdu. Bu zaman Biz Öz Ruhumuzu onun yanına göndərdik. O, Məryəmin qarşısında eyibsiz və nöqsansız insan surətində peyda oldu.

18. (Məryəm bərk qorxub) dedi: “Mən sənin şərindən Rəhman Allaha sığınıram! Əgər Allahdan qorxursansa (mənə toxunma!)”.

19. Dedi: “Mən sənə ancaq pak bir oğlan bəxş etmək üçün Rəbbinin elçisiyəm”.

20. (Məryəm) dedi: “Mənə bir insan toxunmadığı və özüm də bulaşmış bir qadın olmadığım halda, mənim övladım necə ola bilər?”

21. Dedi: “Elədir, ancaq Rəbbin: “Bu, Mənim üçün asandır. Biz onu insanlar üçün bir möcüzə və Öz tərəfimizdən bir mərhəmət edəcəyik. Bu nöqtəsi qoyulmuş bir əmrdir” – deyə buyurub”.

22. Nəhayət, (Məryəm) uşağa qaldı və onu uzaq bir yerə apardı.

23. Doğuş sancıları onu bir xurma ağacının yanına getməyə vadar etdi. O dedi: “Kaş bundan əvvəl öləydim və birdəfəlik unudulaydım!”

24. Qəfildən ayağının altından bir səs ona dedi: “Qəm yemə, Rəbbin sənin ayağının altından bir bulaq axıtdı.

25. Xurma ağacının gövdəsini özünə tərəf silkələ ki, sənin üçün yetişmiş, təzə xurma tökülsün.

-

12. Allah kitabından möhkəm yapışmaq: Böyük ehtimalla bu ayədə "kitab" deyilərkən Tövrat, ya da Tövratla bərabər Yəhyadan (ə) əvvəl göndərilmiş peyğəmbərlərin kitablarıdır. Çünki həmin vaxt şəriət və ilahi hökmlərin mənbəyi Tövrat olmuşdur. Kitabdan möhkəm yapışmaq deyilərkən onun hökmləri və göstərişlərinə diqqət və ciddiyyətlə əməl nəzərdə tutulur[1280].

13. Allahın Yəhyaya (ə) qarşı xüsusi məhəbbəti: Təfsirçilər bu ayədə işlənmiş xüsusi məhəbbət ifadəsi ilə bağlı müxtəlif fikirlər irəli sürmüşlər. Bəziləri hesab edir ki, xüsusi məhəbbət deyilərkən burada Allahın ona bəxş etdiyi peyğəmbərlik və rəhbərlik nəzərdə tutulmuşdur. Belə ki, "Hud" surəsinin 28-ci ayəsində Allah Nuhun (ə) dilindən belə buyurmuşdur: ***"Öz dərgahından mənə bir mərhəmət lütf etmiş olsa"*** Məlumdur ki, o, bu cümləsində Allah tərəfindən peyğəmbərlik verilməsini nəzərdə tutmuşdur. Bəziləri hesab edir ki, bu cümlə Yəhyanın (ə) yalnız onu sevənlərin gözünə görünməsini ifadə edir. "Taha" surəsinin 39-cu ayəsində də Musa (ə) haqqında belə buyurulduğunu oxuyuruq: ***"Öz tərəfimdən sənə qarşı bir sevgi yaratdım"*** Yəni Allah insanların qəlbində Musaya (ə) qarşı sevgi yaratmışdı. Bəzilərinə görə xüsusi məhəbbət deyilərkən onun başqalarına qarşı sevgi və məhəbbəti nəzərdə tutulur. O, insanlara qarşı mehriban və xeyirxah idi, onları Allah yoluna və tövbə etməyə çağırırdı. Ancaq ayənin özündən belə məlum olur ki, Allahla Yəhya (ə) arasında xüsusi bir əlaqə və

[1280] Əl-Mizan, c.14, səh.18

bağlılıq olmuş, Allah onu bu xüsusiyyətlə tərifləmişdir. İmam Baqir (ə) hədislərinin birində belə buyurmuşdur: "Allahın Yəhyaya olan xüsusi məhəbbəti elə idi ki, Yəhya nə vaxt "Ya Rəbb" desəydi, Allah "Bəli", - deyə cavab verərdi."[1281]

15. İnsan həyatının ən qorxulu mərhələləri: İmam Rza (ə) buyurmuşdur: ***"İnsan həyatının ən qorxulu mərhələləri üç mərhələdir: Doğulduğu və dünyaya göz açdığı gün; öldüyü, axirət və onun sakinlərini gördüyü gün; qaldırılacağı və bu dünyaya hakim olmayan qanunları gördüyü gün. Allah-taala bu üç mərhələdə Yəhyaya salamatlıq nəsib etdi, ona qorxular qarşısında əminlik və sakitlik bəxş edərək "Salam olsun ona", - deyə buyurdu"***[1282].

17. Ruh: Məşhur təfsirçilərin demək olar ki, hamısı burada Ruh deyilərkən Cəbrayılın nəzərdə tutulduğunu qeyd etmişdir. Cəbrayılın nə üçün Ruh deyə təqdim edildiyini isə onun həm ruhani, həm həyat bəxş edən bir varlıq olması ilə izah etmişlər. O, Allahın ismarışlarını peyğəmbərlərə çatdırdığı üçün layiqli insanların həyat vericisi hesab edilir. Ruh sözünün Allaha aid edilməsi (Bizim Ruhumuz deyilməsi) bu ruhun əzəmətli və şərafətli olduğunu göstərmək üçündür[1283].

23. Nə üçün Məryəm Allahdan ölüm istədi? Allahdan ölüm istəmək düzgün bir iş deyil. Ancaq bəzən insan həyatında elə hadisələr baş verir ki, ölümün dadı insana həyatın dadından daha şirin gəlir. Məryəm həmin anlarda bu uşağın dünyaya gəlməsi ilə abır və həyasının ağılsız insanlar qarşısında təhlükəyə düşəcəyindən qorxurdu. Buna görə də ölməyi və tamamilə unudulmağı arzu edir. Bu da onu göstərir ki, o, iffət və həyasını

[1281] Əl-Mizan, c.14, səh.18
[1282] Nümunə, c.13, səh.27
[1283] Nümunə, c.13, səh.36

hətta canından da çox istəyirdi, abır-həyası onun üçün hətta canından da üstün idi. Lakin bu fikirləri elə də uzun sürmədi, iki möcüzə görməklə bunlar bu fikirlərini tamamilə unutdu[1284].

25. Xurma hamilə qadınlar üçün ən yaxşı qidadır: Allah rəsulu (s) hədislərinin birində belə buyurmuşdur: "Qadınların azad olduqdan sonra yeyəcəkləri ilk şey xurma olmalıdır. Məryəm azad olduqdan sonra Allah-taala ona ***"Xurma ağacının gövdəsini özünə tərəf silkələ ki, sənin üçün yetişmiş, təzə xurma tökülsün"***, - deyə buyurmuşdur. Bəzi hədislərdə hamilə qadın üçün ən yaxşı qida və dərmanın xurma olduğu buyurulmuşdur[1285].

26. (Bu dadlı qidadan) ye, (bu dadlı sudan) iç, (bu körpənin doğumu münasibətilə) gözün aydın olsun! Əgər insanlardan kimisə görsən, (işarə ilə) de: "Mən Rəhman Allaha oruc tutmağı nəzir etmişəm. Odur ki, bu gün heç kimlə danışmayacağam".

27. (Məryəm) körpəni qucağına alıb öz tayfasının yanına gətirdi. Dedilər: "Ey Məryəm! Sən yaramaz və qəribə bir iş tutmusan.

28. Ey Harunun bacısı! Atan pis kişi, anan da pozğun qadın olmamışdır".

29. (Məryəm) ona işarə etdi. Dedilər: "Beşikdə olan körpə ilə necə danışaq?"

[1284] Nümunə, c.13, səh.44
[1285] Nümunə, c.13, səh.46

30. (Qəfildən İsa dil açıb) dedi: “Mən Allahın quluyam! O mənə Kitab verib və məni peyğəmbər etmişdir.

31. Harada oluramsa olum, məni mübarək etdi və nə qədər ki sağam, mənə namaz qılıb zəkat verməyi tövsiyə etdi.

32. Məni anama qarşı qayğıkeş etdi, zülmkar və bədbəxt etmədi.

33. Doğulduğum gün də, öləcəyim gün də, yenidən dirildiləcəyim gün də mənə salam olsun!”

34. Barəsində şübhəyə düşdükləri haqq söz olan Məryəm oğlu İsa budur.

35. Allaha övlad götürmək əsla yaraşmaz. O, pak və müqəddəsdir! O, nəyisə əmr etdikdə ona ancaq “Ol!”– deyər, o da dərhal olar.

36. “Allah həm mənim Rəbbim, həm də sizin Rəbbinizdir. Yalnız Ona ibadət edin! Doğru yol budur”.

37. Ancaq (ondan sonra) ardıcıllarından olan firqələr arasında ixtilaf düşdü. Böyük günü görəcək kafirlərin vay halına!

38. Onlar Bizim hüzurumuza gələcəkləri gün necə də yaxşı eşidən qulağa və necə də yaxşı görən gözlərə sahib olacaqlar! Lakin bu zalımlar bu gün açıq-aydın azğınlıq içindədirlər.

---

26. Sükut orucu və oruc olanda sükut: Ayənin zahiri məzmunundan belə məlum olur ki, İsanın (ə) özünün danışması və anasının müdafəsinə qalxması və onun pak olduğunu sübuta yetirmək üçün Məryəmə sükut etmək əmri verilmiş və o da Allahın əmri ilə bir müddət sükut etməli olmuşdu. Bu üsul hər bir cəhətdən faydalı idi. Ayədən həm də belə başa düşülür ki, sükut nəzri həmin cəmiyyətə məlum bir ibadət növü olmuşdur. Buna görə ona heç bir etiraz bildirmirlər. Hərçənd ki, bu oruc növü İslam üçün səciyyəvi deyil.

İmam Zeynülabidin (ə) hədislərinin birində belə buyurmuşdur: "Sükut orucu haramdır". Bu, o dövrün şəraiti ilə İslamın meydana gəldiyi dövrün şəraiti arasında fərq olduğundan irəli gəlirdi. Əlbəttə, İslamda tam oruc adətlərindən biri oruc olarkən insanın dilini günah və bəyənilməyən sözləri danışmaqdan, gözlərini istənilən günaha baxmaqdan qorumasıdır. İmam Sadiq (ə) hədislərinin birində belə buyurmuşdur: "Oruc tutmaq təkcə insanın özünü yemək və içməkdən saxlamasından ibarət deyil. Məryəm demişdi: ***"Mən Rəhman Allaha xatir nəzr orucu tutmuşam". Qəsdi susmaq və sükut etmək olmuşdu. Buna görə də oruc olduğunuz vaxt dilinizi və gözlərinizi günahdan qoruyun. Bir-birinizə qarşı paxıl olmayın, mübahisə etməyin."***[1286]

28. Məryəm; Harunun bacısı! Onların "Ey Harunun bacısı!" deməsi təfsirçilər arasında müxtəlif yozumların meydana çıxmasına səbəb olmuşdur. Daha düzgün ehtimal budur ki, Harun pak və əməlisaleh bir insan olmuşdur. Bu cəhətinə görə də İsrail oğulları arasında məsələ çevrilmişdi. Onlar kiminsə pak olduğunu söyləmək istədikdə ona "Ey Harunun qardaşı və ya ey Harunun bacısı", - deyə xitab edirdilər. Bu məzmun Peyğəmbərə (s) aid edilən qısa bir hədisdə də öz əksini tapmışdır. Peyğəmbərə aid edilən hədislərin birində isə İsrail oğulları arasında yaxşı və əməlisaleh insanların peyğəmbərlər və əməlisaleh insanlarla təqdim edilməsi ənənəvi bir davranış olduğu qeyd edilmişdir[1287].

30. İsa (ə) Allahın bəndəsidir: Həzrət İsa (ə) sözünə Allahın bəndəsi olduğunu söyləməklə başlayıb, Allaha ibadət etməyə əmr olunduğunu deməklə bitirmişdi (36-cı ayə). Bununla da onun haqqında ifrata varanların və ona Allah deyənlərin qarşısını almaq məqsədi güdmüşdür. Halbuki 37-ci

---

[1286] Nümunə, c.13, səh.45
[1287] Nümunə, c.13, səh.51

ayədə də işarə edildiyi kimi, ondan sonra ardıcıllarından olan firqələr arasında ixtilaf yaranmış, onu Allah və ya Allahın oğlu adlandırmışdılar[1288].

31. Namaza çağırış: Bir nəfər İmam Sadiqdən (ə) insanı Allaha yaxınlaşdıran ən yaxşı vasitələrin və bu vasitələr arasında Allah qatında ən sevilən əməlin hansı olması ilə bağlı soruşduğunda İmam (ə) buyurmuşdu: ***"Allahtanımadan sonra namazdan yaxşı əməl yoxdur. Məgər Allahın saleh bəndəsi olan Məryəm oğlu İsanın (ə) "Mənə namaz qılmaq tövsiyə edilmişdir", - deyə buyurduğunu eşitməmisənmi?"***[1289]

32. Ananın məqamı: Allahın əmri ilə atası olmadan anasından dünyaya gəlmiş həzrət İsa (ə) anasına qarşı qayğıkeş olması ilə fəxr etməsi ananın məqamının çox yüksək olduğundan xəbər verir. Bu barədə çoxlu sayda hədislər mövcuddur. Müsəlmanlar təkcə sözdə deyl, əməldə də buna səy göstərməlidirlər. İmam Sadiq (ə) hədislərinin birində belə buyurmuşdur: Bir nəfər Peyğəmbərin (s) yanına gəlib ona dedi: Ey Allahın rəsulu, kimə yaxşılıq edim? Buyurdu: "Anana", Dedi: Sonra kimə? Buyurdu: "Anana", Dedi: Daha sonra kimə? Buyurdu: "Anana". Dördüncü dəfə sualını təkrar etdikdə Peyğəmbər (s) buyurdu: "Atana". Hədislərin birində isə belə qeyd edilmişdir: Bir gənc (ümumi səfərbərlik elan edilməmiş) cihadda iştirak etmək üçün Peyğəmbərin (s) yanına gəldi. Peyğəmbər (s) buyurdu: "Anan varmı?" Gənc "bəli", - deyə cavab verdi. Peyğəmbər (s) buyurdu: "Ananın xidmətində dur, Cənnət anaların ayaqları altındadır."[1290]

[1288] Əl-Mizan, c.14, səh.46; Nümunə, c.13, səh.69
[1289] Kafi, c.3, səh.264
[1290] Əl-Mizan, c.14 ,səh.46; Nümunə, c.13, səh.69

39. Sən onları hər şeyin sona yetəcəyi vaxt həsrət çəkiləcək günlə qorxut! Onlar qəflətdədirlər və iman gətirmirlər.

40. Biz yerə və onun üstündə olanlara sahib çıxacağıq. Hamısı bizə doğru qaytarılacaq.

41. Bu kitabda İbrahimi də xatırla! O, çox düz danışan və peyğəmbər idi.

42. Bir zaman o, atasına demişdi: “Atacan! Nə üçün eşitməyən, görməyən və sənin heç bir probelmini həll etməyən bir şeyə sitayiş edirsən?

43. Ata, sənə gəlməyən bir elm mənə gəlmişdir. Buna görə də arxamca gəl ki, səni doğru yola yönəldim.

44. Ata, Şeytana ibadət etmə! Şeytan Rəhman Allaha asi olub.

45. Ata, qorxuram ki, Rəhman Allahdan sənə bir əzab toxunsun və nəticədə, Şeytanın dostlarından olasan”.

46. Dedi: “İbrahim, sən mənim tanrılarımdan üzmü çevirirsən? Əgər (bu işindən) əl çəkməsən, səni daşqalaq edəcəyəm. Uzun müddət məndən uzaq ol!”

47. (İbrahim) dedi: “Sənə salam olsun! Mən tezliklə Rəbbimdən sənin üçün bağışlanma diləyəcəyəm. Çünki O, hər zaman mənə qarşı lütfkar olmuşdur.

48. Mən sizi və Allahdan başqa sitayiş etdiyinizi tərk edir və öz Rəbbimə dua edirəm. Rəbbimi çağırarkən cavabsız qalmayacağıma ümidvaram.

49. İbrahim onları və onların Allahdan başqa yalvardıqlarını tərk etdiyi zaman Biz ona İshaqı və Yaqubu bəxş etdik. Biz onların hər ikisini peyğəmbər etdik.

50. Onlara öz mərhəmətimizdən əta etdik və onlara (gələcək ümmətlər arasında) yaxşı ad və yüksək məqam nəsib elədik.

51. Bu kitabda Musanı da xatırla! O, ixlaslı, yüksək məqama sahib elçi və peyğəmbər idi.

---

39. Ölümün öldürüləcəyi gün: Allah rəsulu (s) buyurmuşdur: Cənnətliklər Cənnətə, Cəhənnəmliklər Cəhənnəmə daxil olduqlarında bir nəfər “Ey Cənnətin sakinləri!” - deyə çağıracaq. Sonra yenə “Ey Cəhənnəmin sakinləri”, - deyə səslənəcək. Hər iki dəstə səsin sahibinə doğru boylanacaq. Bu vaxt ölümü ağ və qara qoyun şəklində gətirəcəklər. Həmin səsin sahibi deyəcək: “Ölümü tanıyırsınızmı?” Deyəcəklər “Budur”. Hamı onu tanıyacaq. Sonra həmin şəxs qoyunun başını kəsib deyəcək: “Artıq sizə ölüm yoxdur, əbədi olaraq Cənnətdə qalacaqsınız”. Üzünü Cəhənnəmliklərə tutaraq deyəcək: “Sizə də ölüm yoxdur, əbədi Cəhənnəmdə qalacaqsınız”. Allah-taala bu barədə belə buyurmuşdur: “Onları həsrət çəkiləcək günlə qorxut!” Bu hədisi nəql etdkdən sonra İmam Baqir (ə) və İmam Sadiq (ə) belə buyurmuşlar: “Cənnətlklər o qədər sevinəcəklər ki, əgər o gün kimin

üçünsə ölüm olsa, şübhəsiz ki, sevincdən olar. Cəhənnəmliklər o qədər həsrət çəkəcəklər ki, əgər həmin gün ölüm olsa, şübhəsiz ki, ölərlər."[1291]

42. İbrahimin atası kim olub? Bu ayələrdə İbrahimin (ə) ata deyə çağırdığı şəxsin adı "Ənam" surəsinin 74-cü ayəsinə əsasən Azər olmuşdur. Bu şəxs İbrahimin həqiqi atası deyil, ya əmisi, ya ana babası, ya da atası vəfat etdikdən sonra anasının ailə qurduğu şəxsdir. (Daha çox məlumat əldə etmək istəyənlər "Ənam" surəsinin 74-cü ayəsinə baxa bilərlər)[1292].

44. Şeytana ibadət: məlumdur ki, burada ibadət deyilərkən Şeytana səcdə etmək, namaz qılmaq, oruc tutmaq deyil, bir növ ibadət və sitayiş hesab edilən əmrə tabeçlik nəzərdə tutulmuşdur. Allah rəsulu (ə) belə buyurmuşdur: Söz danışana qulaq asan şəxs ona sitayiş edir. Əgər danışan Allah tərəfindən danışarsa, dinləyici Allaha, əgər İblis tərəfindən danışırsa, İblisə ibadət etmiş olur[1293].

47. İbrahimin (ə) Azərə salam verməsi: Bu salam vidalaşma və xudahafizləşmə mənasında ola bilər. Ola bilsin ki, İbrahim bu salama bir neçə cümlə də əlavə edərək atası Azəri tərk etmişdir. Bu salam mübahisəyə son qoymaq məqsədi ilə deyilmiş də ola bilər. Necə ki, "Qəsəs" surəsinin 55-ci ayəsində buyurulmuşdur: "Onlar lağlağı eşitdikləri zaman ondan üz çevirib: "Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə aiddir. Sizə salam olsun! Biz cahillərə qoşulmaq istəmirik!"– deyirlər."[1294] Salam deyilərkən bu ayədə əmin-amanlıq və salamatlıq da nəzərdə tutula bilər. Çünki Azər İbrahimi ölümlə təhdid edir, o isə qarşılığında Azərə əmin-amanlıq və salamatlıq arzulayırdı. Nadanların cahil davranışlarına onların özləri kimi qarşılıq vermək alicənablıqdan deyil. Onlar qarşı tərəfə alicənablara xas olan

---

[1291] Əl-Mizan, c.14, səh.54
[1292] Əl-Mizan, c.14, səh.56
[1293] Nümunə, c.13, səh.78
[1294] Nümunə, c.13, səh.84

şəkildə cavab verirlər. Necə ki, “Fürqan” surəsinin 64-cü ayəsində buyurulmuşdur: “Rəhmanın (əsl) bəndələri ... cahillər söz atdıqları (xoşlarına gəlməyən bir söz dedikləri) zaman onlara salam deyən, etinasızlıq və alicənablıq göstərən şəxslərdir.”[1295]

47. Tezliklə sənin üçün bağışlanma diləyərəm: İbrahimin müşrik Azər üçün bağışlanma diləyəcəyi ilə bağlı vəd verməsi hələ də onun haqq yola gələcəyinə və iman gətirəcəyinə ümid bəsləməsi ilə bağlı idi. Ancaq Azərin Allah düşməni olduğu və iman gətirməyəcəyi tam aydın olduğunda ondan uzaqlaşdı. “Tövbə” surəsinin 114-cü ayəsində bu nüansa işarə edilmişdir[1296].

[1295] Əl-Mizan, c.14, səh.59
[1296] Əl-Mizan, c.14, səh.59

52. Biz (Musanı) Tur dağının sağ tərəfindən çağırdıq və xəlvəti danışaraq onu özümüzə yaxın etdik.

53. Biz Öz mərhəmətimizdən ona peyğəmbər olan qardaşı Harunu da bəxş etdik.

54. Bu kitabda İsmayılı də xatırla! O öz vədinə sadiq, elçi və peyğəmbər idi.

55. O öz ailəsinə namaz qılmağı, zəkat verməyi əmr edirdi. O, Rəbbinin rizasını qazanmışdı.

56. Bu kitabda İdrisi də xatırla! O, çox düz danışan və bir peyğəmbər idi.

57. Biz onu yüksək bir məqama ucaltdıq.

58. Onlar Allahın nemət bəxş etdiyi peyğəmbərlərdən, Adəmin və Nuhla birlikdə (gəmidə) daşıdığımız kimsələrin nəslindən, İbrahimin və İsrailin nəslindən və seçib haqq yola yönəltdiyimiz kimsələrdəndirlər. Onlar Rəhman Allahın ayələri oxunduğu zaman səcdə edib ağlayanlardır.

59. Amma onlardan sonra namazı dəyərdən salan, şəhvətə uyan övladlar gəldi. Tezliklə öz azğınlıqlarını(n cəzasını) görəcəklər.

60. Ancaq (Allaha) tövbə edib iman gətirənlər və xeyirxahlıq edənlər istisnadır. Onlar Cənnətə daxil olacaq və heç bir haqsızlığa məruz qalmayacaqlar.

61. Onlar Rəhman Allahın Öz qullarına vəd etdiyi və onların görmədikləri əbədi bağlara daxl olacaqlar. Onun vədi mütləq, yerinə yetəcəkdir.

62. Onlar orada boş və mənasız sözlər eşitməyəcəklər, “Salam!”dan başqa bir söz olmayacaq. Orada səhər-axşam Cənnətdə onların ruzisi olacaqdır.

63. Qullarımızdan olan müttəqilər üçün miras verəcəyimiz Cənnət budur.

64. (Vəhy bir müddət təxirə düşdükdən sonra Cəbrayıl Peyğəmbərə dedi:) “Biz yalnız sənin Rəbbinin əmri ilə enirik. Önümüzdə, arxamızda və onların arasında nə varsa, Ona məxsusdur. Rəbbin əsla unudan deyildir”.

---

54. Vədə sadiq İsmayıl: Əhli-beyt (ə) hədislərinə əsasən, bu ayədə adıçəkilən İsmayıl İbrahimin (ə) oğlu deyil, Allahın göndərdiyi peyğəmbərlərdən olan İsmayıl ibn Həzqildir. Bir gün İmam Rza (ə) səhabələrinin birindən soruşur: ***“İsmayılın nə üçün vədə sadiq adlandırılmasının səbəbini bilirsənmi?”*** Hədisin ravisi “xeyr”, - deyə cavab verdikdə İmam (ə) buyurur: ***“O, bir kişi ilə bir yerdə görüşməyi qərarlaşdırmışdı.*** (Həmin şəxs qərarlaşdırılan yerə gəlməmiş, ancaq) ***İsmayıl bir il həmin adamı gözləmişdi.”***[1297] Təbii ki, İsmayıl bütün iş-gücünü atıb həmin adamı gözləməmişdir. Öz həyatına davam etsə də həmin şəxsin gəlişini gözləmişdir[1298].

55. Təbliğata ailədən başlamağın zəruriliyi: Peyğəmbərliyin ilk təbliğat mərhələsi insana hər kəsdən yaxın olan ailədən başlayır. Bu səbəbdən də İslam peyğəmbəri (s) təbliğatına həyat yoldaşı Xədicə və əmisi oğlu Əli (ə) ilə başlamışdır. Daha sonra “Şüəra” surəsinin 214-cü ayəsində “Yaxın qohumlarını qorxut” əmrinə əsasən yaxın qohumlarına çağırış

[1297] Əl-Mizan, c.14, səh.64
[1298] Nümunə, c.13, səh.95

etmişdir. “Taha” surəsinin 122-ci ayəsində belə buyurulduğunu görürük: “Ailəni namaza dəvət et, namazın yerinə yetirilməsində səbirli ol”[1299].

56. İdris (ə): Təfsirçilərin çoxunun yazdığına görə İdris Nuhun ata babası olmuşdur. Tövratda onun adı Əxnux kimi qeyd edilmişdir ki, onun da ərəbcə tərcüməsi İdrisdir. Bəziləri bu sözün kökünün “dərs” olduğunu qeyd etmişlər. Çünki o, qələmlə yazan ilk şəxs olmuşdur. İdris (ə) peyğəmbərliklə yanaşı astronomiya, hesab və astrologiya elmlərini də bilmişdir. O, insanlara paltar tikməyi öyrədən ilk şəxs olmuşdur[1300].

59. Dəbdəbəli həyata meyilliliyin pislənməsi: İmam Əli (ə) buyurmuşdur: ***“Ehtiras dalınca düşən şəxs möhkəm bina tikdirən, insanların gözlərini qamaşdıran miniyə minən və barmaqla göstərilən paltar geyinən şəxsdir.”***[1301] Bu hədis ayənin məzmunun məhdudlaşdırmır, onun ən parlaq nümunəsini ehtiva edir.

62. Sübh və şam vaxtı Cənnət sakinlərinə verilən qiymətli hədiyyələr: Allah rəsulu (ə) buyurmuşdur: ***“Cənnət sakinlərinə dünyada namaz qıldıqları vaxtlarla eyni vaxtda Allah tərəfindən qiymətli hədiyyələr bəxş edilir.”*** Bu hədisdən belə məlum olur ki, təsəvvürə gəlməyən, təxmin belə edilə bilməyən bu hədiyyələr Cənnətin spesifik nemətləri ilə yanaşı səhər və axşam vaxtları Cənnət sakinlərinə hədiyyə edilən çox qiymətli nemətlərdir. Bu deyilənlərdən Cənnət həyatının monoton olmadığı qənaətinə gəlmək olar. Hər səhər-axşam Allah yeni lütfü ilə onları sevindirir. Onlar özlərinə bu dünyadakı pak etiqadları və saleh əməlləri ilə təmin etdikləri miniklə öz kamillik səfərlərini davam etdirəcəklər[1302].

[1299] Nümunə, c.13, səh.96
[1300] Nümunə, c.13, səh.102
[1301] Əl-Mizan, c.14, səh.80
[1302] Nümunə, c.13, səh.107

63. Kafirlərin Cənnətdəki məskənlərinin varisləri: “Miras” insan öldükdən sonra onun başqasının mülkiyyətinə keçən malına deyilir. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmudşur: “İstisnasız olaraq hər kəsin Cənnətdə və Cəhənnəmdə bir yeri vardır. Kafirlər möminlərin Cəhənnəmdəki yerlərinə, möminlər isə kafirlərin Cənnətdəki yerlərinə sahib olurlar.”[1303]

64. Vəhy mələyi yalnız Allahın əmri ilə enir: Bu və sonrakı ayə ilə bağlı müxtəlif yozum və izahlar verilmişdir. Allah-taala 63-cü ayəni göndərdikdən sonra vəhy mələyi vasitəsilə Peyğəmbərə (s) bunları söyləməsini əmr etmişdir: De: “Bu sözləri mən özümdən demirəm, bunlar Allahın kəlamıdır, mən yalnız yerin və göylərin Rəbbi olan Allahın əmri ilə enirəm. Gərək ona ibadət edəsən. Çünki onun tayı-bərabəri və bənzəri yoxdur.” Ayə mələyə aid sözlər olması təəssüratı yaratsa da, əslində, Allahın ismarışıdır[1304].

[1303] Nümunə, c.13, səh.108
[1304] Əl-Mizan, c.14, səh.81

65. O, göylərin, yerin və onların arasında olanların Rəbbidir! Ona ibadət et və Ona ibadətdə səbirli ol! Heç Ona oxşarını tanıyırsanmı?!

66. İnsan deyər: “Doğrudanmı mən öldükdən sonra (qəbirdən) diri çıxardılacağam?”

67. Məgər insan bundan əvvəl heç bir şey deyilkən onu yaratdığımızı xatırlamırmı?

68. Rəbbinə and olsun ki, onların hamısını şeytanlarla birlikdə bir yerə toplayacaq, sonra da diz üstə çökmüş halda Cəhənnəmin ətrafına yığacağıq.

69. Sonra hər firqədən Rəhman Allaha ən çox asi olanı ayıracağıq.

70. Odda yanmağa daha çox layiq olanları Biz daha yaxşı tanıyırıq.

71. Hamı oraya daxil olacaqdır. Bu, Rəbbinin qəti bir əmridir.

72. Sonra Biz müttəqiləri oradan xilas edəcək, zalımları isə orada diz üstə çökmüş halda tərk edəcəyik.

73. Onlara açıq-aydın ayələrimiz oxunduğu zaman kafirlər möminlərə deyərlər: “Bu iki firqədən hansının məqamı daha yaxşı, məclisi daha gözəldir?”

74. Biz onlardan əvvəl var-dövlət və zahiri görünüşcə onlardan daha üstün olan neçə-neçə qövmləri məhv etdik.

75. De: “Qoy Rəhman Allah azğınlıqda olan şəxsə ilahi vədi; ya əzabı, ya da Qiyaməti öz gözləri ilə görənə qədər möhlət versin! (Həmin gün) kimin yerinin daha pis, kimin ordusunun daha zəif olduğunu biləcəklər”.

76. Allah doğru yolda olanların doğruluğunu artırar. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında savab baxımından daha xeyirli, aqibətcə daha yaxşıdır.

---

68. Kafirlərin şeytanlarla yoldaşlığı: Onlar dünyada imansızlıqları sayəsində şeytanların hakimiyyəti altına keçdikləri, buna görə də axirətdə öz rəhbərləri ilə çağırılacaqları üçün ayədə ***"Onları şeytanlarla birlikdə bir yerə toplayacağıq"***, - deyə buyurulmuşdur. "Əraf" surəsinin 27-ci ayəsində belə buyurulmuşdur: ***"Biz şeytanları iman gətirməyənlərin rəhbəri etdik."*** Şeytanlar da dünyada onlarla oturub-durduqları üçün axirətdə onlarla birlikdə çağırılacaqlar. "Zuxruf" surəsinin 36-cı ayəsində belə buyurulmuşdur: ***"Hər kəs Allahı xatırlamaqdan üz çevirsə, hər zaman yaxınında olan Şeytanı ona düçar edərik"***[1305].

71-72. Hamı Cəhənnəmə daxil olacaq: Bu ayəni təfsir edərkən təfsirçilərin əksəriyyəti bildirmişdir ki, bütün yaxşı və pis insanlar istisnasız olaraq Cəhənnəmə daxil olacaq. Nəmrudun odu İbrahim üçün sərin olduğu kimi, Cəhənnəm də Cənnət sakinləri üçün sərin və əzabsız olacaq. Çünki odun onlarla heç bir əlaqəsi olmayacaq. Yalnız Cəhənnəm odu ilə uyğunluğu olan Cəhənnəm sakinləri odalan maddə kimi alovlanacaqlar. Bir nəfər Cabir ibn Abdullah Ənsaridən bu ayənin təfsiri haqqında soruşduqda Cabir iki barmağı ilə iki qulağına işarə edərək deyir: Bu qulaqlarımla Peyğəmbərdən (s) eşitdim. Əgər yalan desəm, kar olum. Peyğəmbər (s) buyurdu: ***"Daxil olmaq bu ayədə girmək mənasındadır. Bütün yaxşı və pis əməlli insanlar istisnasız olaraq Cəhənnəmə daxil olacaq. Od İbrahimə qarşı sərin olduğu kimi, möminlər üçün də sərin və əziyyətsiz olacaq. Nəhayət, Cəhənnəm soyuğun şiddətindən fəryad qoparacaq. Sonra Allah təqvalıları oradan çıxaracaq, zalımları isə xar şəkildə orada tərk edəcək."*** Hədislərinin birində

[1305] Əl-mizan, c.14, səh.87

Peyğəmbər (s) belə buyurmuşdur: ***Qiyamət günü od imanlı şəxsə deyəcək: "Məndən tez ötüb keç ki, nurun alovumu söndürməsin."*** Hədisdəki Cəhənnəmin üzərindən çəkilmiş tükdən nazik, qılıncdan iti olan Sirat körpüsü ifadəsi də bu yozumu təsdiq edir. Əsilndə, Cəhənnəmi və oradakı əzabları görmək Cənnət nemətlərinin ləzzətinin bir neçə dəfə artmasına səbəb olur. Belə ki, möminlər hansı təhlükəni adladıqlarının şahidi olacaqlar. Bundan əlavə onlar oddan elə sürət və qətiyyətlə keçəcəklər ki, azacıq da olsa zərər görməyəcəklər. Peyğəmbər (s) hədislərinin birində belə buyurmuşdur: ***"İnsanların hamısı Cəhənnəm oduna daxil olacaq. Sonra oradan əməllərinə uyğun şəkildə çıxacaqlar; bəziləri ildırım sürətilə, bəziləri sürətlə əsən külək, bəziləri iti qaçan at, bəziləri adi süvari, bəziləri iti gedən piyada, bəziləri isə adi gedən piyada kimi çıxacaq"***[1306].

73. Sərvətə görə lovğalanmaq: Bütün dövrlərdə olduğu kimi, o dövrün də cahil cəmiyyətinin dəyər meyarı qızıl-gümüş, pul, məqam, mövqe, vəzifə, zahiri görkəm olduğu üçün Nəzr ibn Haris kimi despot varlılar Peyğəmbərə ilk iman gətirmiş vəfalı və yoxsul möminlərin yanında lovğalanaraq deyirdilər: Bizim şəxsiyyətimizi göstərən əlamət bizimlədir, ancaq sizin şəxsiyyətsizliyinizin əlaməti yoxsulluğunuz və məhrumiyyətinizdir. Bu da bizim haqq və doğru, sizin isə nahaq olduğunuzun br sübutudur. Hədislərdə var ki, bu zadəganlar ən gözəl paltarlarını geyinir, özlərini bəzəyir, Allah rəsulunun (s) səhabələrinin önünə düşür və onlara istehza ilə baxırdılar[1307].

75. Gizli əzab: Burada Quran təbirincə tədrici əzab adlanan ilahi əzaba işarə edilmişdir. Bəzən Allah imansız və kafir insanları cəzalandırmaq üçün bol nemətə qərq edir, Allahı və onun ayələrini tamamilə yadlarından çıxarmaları üçün möhlət verir, iman gətirmələri heç bir ümid yeri qoymur.

[1306] Nümunə, c.13, səh.118
[1307] Nümunə, c.13, səh.122

Bu insanlar dünya və axirətdə Allahın əzabını görmədən öz ixtiyarları ilə iman gətirmirlər. Əzabı gördükən sonra məcburi imanlarının isə heç bir faydası olmur[1308].

77. Ayələrimizi inkar edib: “Mənə var-dövlət və övlad veriləcəkdir!”– deyən adamı gördünmü?

78. Olmaya, o, qeybdən xəbərdar olub, yoxsa Allahdan vəd alıb?

79. Əsla belə deyil! Biz tezliklə onun dediklərini yazacaq və əzabını davamlı edəcəyik.

80. Onun söylədiyi şeylər (var-dövlət və övlad) Bizə qalacaq və o, hüzurumuza tək-tənha gələcəkdir.

81. Onlar Allahdan başqa tanrılar qəbul etdilər ki, onları izzət sahibi etsinlər.

[1308] Nümunə, c.13, səh.124

82. Əsla! Tezliklə (məbudları) onların ibadətini inkar edəcək və onlara qarşı çıxacaqlar.

83. Məgər kafirlərin üstünə onları təhrik etmələri üçün şeytanları göndərdiyimizi görmürsənmi?

84. Odur ki, onlardan ötrü tələsmə. Biz onları (və əməllərini) diqqətlə sayırıq.

85. O gün Biz müttəqiləri Rəhman Allahın hüzuruna hörmətli nümayəndələr kimi toplayarıq.

86. Günahkarları isə Cəhənnəmə (susuz dəvə suya qaçan kimi) susamış halda qovarıq.

87. Rəhman Allahdan əhd almış kəslərdən başqaları şəfaət etməyə qadir olmazlar.

88. "Rəhman Allah özünə övlad götürmüşdür!"– dedilər.

89. Doğrusu, olduqca çirkin sözlər dediniz.

90. Bu sözə görə az qaldı göylər parçalansın, yer yarılsın və dağlar yerindən qopub uçsun –

91. Rəhman Allaha övlad aid etdiklərinə görə.

92. Rəhman Allaha övlad götürmək yaraşmaz.

93. Göylərdə və yerdə olanların hamısı Onun qullarıdır.

94. Allah onları hesablamış və diqqətlə saymışdır.

95. Hamısı Qiyamət günü Onun hüzuruna tək-tənha gələcək.

---

77. Varlı olmağa görə qovulma: Bir neçə ayə yuxarıda dünyapərəst kafirlərin möminlərin yanında lovğalanmasından söz açılmışdır. Ayələrin ümumi məzmunundan belə başa düşülür ki, inamı zəif olan möminlər, ya da iman gətirmək ərəfəsində olan insanla kafirlərin təsiri altına düşür, varlı

olmağın küfrlə, yoxsul olmağın isə imanla birbaşa əlaqəsinin olduğunu düşünərək kafir olurdular. Allah-taala bu ayələrdə təəccüb ifadə edən bir ahənglə, onların bu qənaətə hansı əsasla gəldiklərini, qeybdən xəbərdarmı olduqlarını, varlı olmaları ilə bağlı Allahdan əhdmi aldıqlarını soruşur. Sonra buyurur ki, Biz bütün var-dövləti onlardan alacaq, özlərini də hüzurumuza tək-tənha gətirəcək, küfrə bulaşmış inancları ilə tanıtdıracaq, çirkin inancına görə davamlı əzaba düçar edəcəyik[1309].

82. Qiyamət günü bütlərin öz ardıcıllarına qarşı durması: Bu ayədə "Fatir" surəsinin 13-cü və 14-cü ayələrinin ehtiva etdiyi məzmuna işarə edilmişdir. Həmin ayələrdə Allah-taala belə buyurmuşdur: ***"Ondan başqa çağırdıqlarınız... Qiyamət günü sizin şirkinizi inkar edəcəklər."*** Habelə "Əhqaf " surəsinin 6-cı ayəsində belə buyurulmuşdur: ***"İnsanlar toplandıqları vaxt, bu məbudlar onların düşmənləri olacaqlar."*** Əlbəttə, mələklər, şeytanlar, cinlər kimi şüurlu və ağıllı varlıqların vəziyyəti məlumdur. Cansız məbudlara gəlincə, ola bilsin ki, həmin gün Allahın əmri ilə dilə gələcək və onlara ibadət edənlərdən xoşlanmadıqlarını deyəcəklər. İmam Sadiqin (ə) bu ayə ilə bağlı olan hədisində belə buyurulmuşdur: ***"İbadət təkcə rüku və səcdədən ibarət deyil. İbadət ona və buna itaətdən ibarətdir. Yaradana üsyan edərkən hər hansı yaranmışa itaət edən şəxs ona ibadət etmiş sayılır. (Onu müşrik və bütpərəstlərin aqibəti gözləyir)"***[1310]

83. Şeytanlar izzət, yoxsa bədbəxtlik səbəbidirlər: 81-ci ayədə buyurulur ki, müşriklər Allaha qoşduqları şəriklərin onların izzət sahibi edəcəyini düşündükləri üçün Allahdan qeyri varlıqlarla ibadət edirdilər. Müşriklərin ibadət etdiyi məbudlar sırasında cinlər və şeytanlar da yer alırdı.

[1309] Əl-Mizan, c.14, səh.104
[1310] Nümunə, c.13, səh.129

Bu ayədə buyurulur ki, müşriklərin izzət və yüksəliş səbəbi hesab etdikləri şeytanlar onların bədbəxtlik səbəbidir. Çünki onları şər və fəsada təhrik edir, əbədi bədbəxtliyi onlara ərməğan edirlər[1311]. Ümumiyyətlə, şeytanların insanlar üzərindəki hökmranlığı məcburi hökmranlıq deyil. Əslində, qəlbinə və ruhuna daxil olması üçün şeytana insan özü icazə verir. "Nəhl" surəsinin 100-cü ayəsində belə buyurulmuşdur: ***"Onun hakimiyyəti yalnız onu özünə rəhbər seçən və Allaha şərik qoşanlar üzərindədir."***[1312]

87. Əhd və peyman şəfaətin şərtidir: Bu ayədə buyurulur ki, şəfaətçilərin şərtlərindən biri əhd sahibi olmalarıdır. Təfsirçilər "əhd" sözü ilə bağlı müxtəlif fikirlər irəli sürmüşlər. Əhli-beyt (ə) hədislərinə əsasən deyə bilərik ki, əhdin ən bariz nümunəsi İmam Əli (ə) və ondan sonrakı imamların rəhbərliyidir. Habelə Allahın tək olmasına, Muhəmmədin (s) peyğəmbərliyinə, vəhyə əsaslanan bütün məlumatların; Quran, qohumluq, öldükdən sonra dirilmə, Cənnət, Cəhənnəm, hesab-kitab, əməllərin düzgün ölçüləcəyinin haqq olduğuna şahidlik etmək, möminin qəlbini şad etmək, namazı bütün şərtləri ilə düzgün və tam qılmaq[1313].

90. Göylərin parça-parça olması və yerin yarılması nə deməkdir? Bu cümlə Quran ifadələrinə əsasən xüsusi bir həyat, şüur və dərkə sahib olan kainatın (Ənam surəsi, 38-ci ayə; İsra surəsi, 44-cü ayə) pak və müqəddəs olan Allaha atılan bu iftiradan (Allahın övlad sahibi olması iftirası) bərk qorxuya düşdüyünə işarə edir. Bu cümlə iftiranın çox çirkin olduğunu ifadə etmək üçün obrazlı şəkildə deyilmiş bir cümlə də ola bilər. Bəzən elə biz də

[1311] Əl-Mizan, c.14, səh.107
[1312] Nümunə, c.13, səh.132
[1313] Tematik təfsir, c.5, səh.123

hər hansı xoşagəlməz bir hadisə ilə qarşılaşdıqda belə deyirik: “Sanki yer-göy uçub başıma töküldü”[1314].

96. İman gətirib yaxşı işlər görənlərə qarşı Rəhman Allah şübhəsiz ki, qəlblərdə bir sevgi yaradacaq.

97. Biz onu (Quranı) sənin dilinlə asanlaşdırdıq ki, onunla müttəqilərə müjdə verəsən və inadkar düşmənləri qorxudasan.

98. Biz onlardan əvvəl neçə-neçə qövmü məhv etdik. Heç onlardan hansınısa hiss edir və yaxud onlardan az da olsa, səs eşidirsənmi?

"Taha" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ta, Ha.

2. Biz Quranı sənə ona görə nazil etmədik ki, əziyyətə düşəsən.

3. Onu yalnız (Allahdan) qorxanlara xatırlatma olsun deyə göndərdik.

4. (Bu Quran) yeri və uca göyləri yaradan tərəfindən nazil olmuşdur.

5. O Rəhman Ərşin hakimidir.

[1314] Nümunə, c.13, səh.142

6. Göylərdə, yerdə, onların arasında və torpağın altında nə varsa, Ona məxsusdur.

7. Sən açıq-aydın danışsan da (danışmasan da, fərqi yoxdur). O, sirləri, (hətta) daha gizli olanı da bilir.

8. O özündən başqa ilah olmayan Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur!

9. Musanın xəbəri sənə çatıbmı?

10. O zaman o, (uzaqdan) bir od görüb ailəsinə demişdi: “Ayaq saxlayın! Mən bir od gördüm. Bəlkə ondan sizə bir köz gətirdim, ya da bu od vasitəsilə bir yol tapdım!”

11. Oda yaxınlaşdıqda bir səs gəldi: “Ey Musa!

12. Mən sənin Rəbbinəm. Başmaqlarını çıxart. Çünki sən müqəddəs Tuva vadisindəsən!

---

96. İman və gözəl əməlin cazibəsi: İman və saleh əməl qeyri-adi cazibəyə malikdir. İnsanın ruhuna, fkrinə, danışığına və əməlinə yansıyan təkAllahlıq inancı və peyğəmbərinə etiqad yüksək əxlaq, təqva, təmizlik, paklıq, düzlük, dürüstlük, əmanət, şücaət, fədakarlıq, güzəşt formalarında təzahür edir, nəticədə, yüksək cazibə və çəkicilik yaradır. Hətta günaha aludə olmuş insanlar da pak insanlardan zövq alır, özləri kimi pak olmayanlara nifrət edirlər. Buna görə də özlərinə ortaq seçmək istədikdə ortaqlarının pak, nəcib, əmanətdar və dürüst insan olmasına üstünlük verirlər. Bu, təbii haldır, eyni zamanda Allahın mömin və saleh bəndəsinə bəxş etdiyi, bir ucu o dünyaya qədər uzanıb gedən ilk mükafatıdır. Bu ayənin nazilolma səbəbi ilə bağlı Peyğəmbərdən (s) nəql edilmiş çoxlu sayda hədis ayənin İmam Əli (ə) haqqında nazil olduğunu göstərir. Hədislərinin

birində Peyğəmbərin (s) İmam Əliyə (ə) belə buyurduğu qeyd edilmişdir: ***"De: Ey Rəbbim! Mənim üçün dərgahında bir əhd təyin et və məhəbbətimi möminlərin qəlbinə sal!"*** Elə bu vaxt nəzər nöqtəsi olan ayə nazil olmuşdur. Bəlkə də İmam Əlinin (ə) hədislərinin birinin məzmunu da məhz elə bu həqiqətlə bağlıdır: ***"Əgər bu qılıncla bir möminin burnuna vursam, mənimlə düşmənçilik etməyəcək. Əgər məni sevməsi üçün bütün dünyanı münafiqə versəm, məni sevməz. Çünki Allahın hökmü təhsil almamış Peyğəmbərin (s) dilindən cari olmuş və o cənab belə buyurmuşdur: Ya Əli, mömin sənin lə düşmənçilik etməz, münafiq səni sevməz"*** Əlbəttə, bu ayənin Əli (ə) haqqında nazil olması onun məzmununun bütün möminləri əhatə etməsinə mane olmur[1315].

"Taha" surəsinin ümumi məzmunu: Bu surənin məzmununu ümumiləşdirərək beş yerə bölmək olar: 1. Quranın əzəməti ilə bağlı qısa bir anotasiya, Allahın əzəmət və gözəllik bildirən atrbutları; 2. Həzrət Musanın (ə) 80-dən çox ayəni əhatə edən əhvalatı; 3. Öldükən sonra dirilmə və dirilmənin xüsusiyyətlərinin bir hissəsi; 4. Quran və onun əzəməti; 5. Adəm və Həvvanın əhvalatı; 6. Bütün möminlərə ünvanlanmış ayıldıcı nəsihət[1316].

1. Ta, Ha: Müqəttəə hərfləri ilə bağlı "Bəqərə" surəsinin birinci ayəsinin təfsirində açıqlamalar vermişik. Təfsirçilər bu ayə ilə bağlı diqqət tələb edən fikirlər söyləmişlər. İmam Sadiq (ə) hədislərinin birində belə buyurmuşdur: "Taha" Peyğəmbərin (s) adlarından biridir. Hərflərin simvolizə etdiyi məna belədir: "Talibul-həqq, əl-Hadi iləyh" (Haqqı tələb edən, ona doğru yönləndirən) "Taha" da "Yasin" kimi tədricən İslam peyğəmbərinin adlarından birinə çevrilmişdir. Hətta Peyğəmbər ailəsinə (ə)

[1315] Nümunə, c.13, səh.144
[1316] Nümunə, c.13, səh.153

də Taha ailəsi deyilmişdir. “Nüdbə” duasında həzrət Mehdi (ə) “Ey Tahanın oğlu”, - deyə çağırılır[1317].

2. Biz Quranı sənə ona görə nazil etmədik ki, əziyyətə düşəsən: Bu ayənin nazilolma səbəbini ehtiva edən çoxlu sayda hədislərdə bildirilir ki, Quran və vəhy nazil olduqdan sonra İslam peyğəmbəri (s) çox ibadət edirdi. Ayaq üstə dayanıb o qədər ibadət edir ki, ayaqları vərəmləyir. İbadətinə davam etmək üçün bəzən ağırlığını bir, bəzən digər ayağı üzərinə salır, bəzən dabanı, bəzən də pəncəsi üzərində dayanır. Bu ayə nazil olur və Peyğəmbərə (s) özünü çox da əziyyətə salmamaq göstərişi verilir[1318].

9. Peyğəmbərliyə təyin edildiyi gecə Musanın (ə) vəziyyəti: Tarixi mənbələrin yazdığına görə Musa (ə) ilə Şüeybin (ə) razılaşması sona yetdikdən və Mədyəndə qalma müddəti başa çatdıqdan sonra həyat yoldaşını, övladını və qoyunlarını götürüb Misirə doğru yola düşür. Gecənin qaranlığında yolu itirir, qoyunları pərən-pərən düşür. Qızınmaq üçün ocaq qalamaq istəsə də, ocaq yanmır. Bu əsnada hamilə olan yoldaşının sancıları başlayır. Musa (ə) demək olar ki, bir-birinin üstünə gələn hadisələr burulğanına düşür. Bu vaxt diqqətini uzaqdan bir şölə cəlb edir. Əslində, ilahi nur olan bu şöləni od zənn edən Musa (ə) yolu tapmaq və od götürmək üçün həmin işığa doğru yola düşür[1319].

[1317] Nümunə, c.13, səh.156
[1318] Nümunə, c.13, səh.156
[1319] Nümunə, c.13, səh.167

13. Mən səni seçdim. İndi sənə vəhy olunanı dinlə!

14. Mən Allaham. Məndən başqa məbud yoxdur. Mənə ibadət et və Məni xatırlamaq üçün namaz qıl!

15. Qiyamət mütləq gələcək! Hər kəsə səy və fəaliyyətinin əvəzi verilsin deyə, onu gizlədirəm.

16. Ona inanmayan və nəfsinin istəklərinə uyan heç kimsə səni ondan yayındırmasın, yoxsa məhv olarsan!

17. Ey Musa, sağ əlindəki nədir?"

18. Dedi: "Bu mənim əsamdır. Ona söykənir və onunla qoyunlarıma yarpaq tökürəm. Bu, mənə başqa işlər görmək üçün də lazım olur".

19. Buyurdu: "At onu, ey Musa!"

20. Musa onu atdı və o, dərhal əjdaha olub sürətlə sürünməyə başladı.

21. Buyurdu: "Götür onu, qorxma! Biz onu əvvəlki halına qaytaracağıq.

22. Əlini qoynuna sal ki, qüsursuz, bəmbəyaz çıxsın. Bu, başqa bir möcüzədir.

23. (Belə etdik) ki, sənə ən böyük möcüzələrimizdən (bir neçəsini) göstərək.

24. Fironun yanına get! Çünki o, həddini aşmışdır".

25. (Musa) dedi: "Ey Rəbbim! Köksümü açıb genişlət!

26. İşimi yüngülləşdir!

27. Dilimdəki düyünü aç ki,

28. sözümü anlasınlar!

29. Mənə öz ailəmdən bir vəzi təyin et –

30. Qardaşım Harunu!

31. Onunla arxamı möhkəmlət!

32. Onu işimə ortaq et ki,

33. Sənə çoxlu təriflər deyək

34. və Səni çox yad edək.

35. Çünki Sən hər zaman bizdən xəbərdar olmusan!”

36. Buyurdu: “Ey Musa! Dilədiyin sənə verildi.

37. Sənə yenə də mərhəmət göstərib nemət bəxş etdik.

---

14. Namaz xatırlama amilidir: Bu ayədə namazın mühüm fəlsəfələrindən birinə, yəni xatırlama amilnə işarə edilmişdir. Bu dünya həyatının unutqanlıq yaradan amillərinin əhatəsində insanın ona müxtəlf zaman fasilələrində Allahı, Qiyaməti, peyğəmbərlərin çağırışını, yaranışın məqsədini xatırladacaq, onu qəflət girdabında batmaqdan qoruyacaq bir vasitəyə ehtiyacı var. Namaz bu mühüm vəzifəni reallaşdıran bir vasitədir. İnsanı bu dünyanın bütün hər bir şeyindən təcrid edən yuxudan sonra qılınan sübh namazı, gündüz vaxtının iş-gücünün qızğın vaxtında qılınan günorta namazı, gündüz vaxtının iş və fəaliyyətindən sonra, istrahətə başlamazdan əvvəl qılınan axşam namazı insanı yaradana istiqamətləndirir, ona Allahı və yaradılışın məqsədini xatırladır[1320].

15. Qiyamət vaxtının gizli saxlanmasının səbəbi: Bu ayəyə əsasən Qiyamət günü hər bir kəsə göstərdiyi səy və fəaliyyətlərə uyğun əvəz verilməsi üçün gizli saxlanmışdır. Başqa sözlə desək, Qiyamət günü gizli saxlanmaqla hamıya bir növ sərbəst şəkildə əməl etmək imkanı yaranır. Digər tərəfdən, Qiyamət gününün vaxtı dəqiq məlum olmadığı üçün, hər bir

[1320] Nümunə, c.13, səh.174

vaxt baş verə biləcəyi mümkün olduğu üçün daimi hazırlıq vəziyyətində olmaqla və ya tərbiyə proqramının daha sürətlə qəbul edilməsi ilə nəticələnir. Qədr gəcəsi də eynilə belədir. Bu gecə ona görə məxfi saxlanılır ki, insanlar ilin və ya Ramazan ayının bütün gecələrinə ehtramla yanaşıb, Allah dərgahına üz tutsunlar[1321]. Eyni məntiq ölümə də aiddir. Qiyamət kimi, əcəl vaxtı da insanlara məlum deyil, hər an baş verə bilər. Onu bəlkə də hər bir kəsin Qiyamətinin başlanğıcı hesab etmək olar. Belə ki, hədislərin birində belə deyilr: "İnsan öldükdə Qiyaməti başlayır"[1322].

22. Ağappaq əl: Deyilənə görə Musa (ə) əlini yaxasına salıb çıxardıqdan sonra əli günəş kimi işıq saçırmış[1323]. Ayədə ona görə "qüsursuz" sözü işlənib ki, əlin xəstəlik səbəbilə ağarması şübhəsi yaranmasın. Bu, bir anlıq meydana çıxıb sonra yox olan bir parlaqlıq olmuşdur[1324].

25. Köksün genişliyi: Bu ayədə insanın köksü görünən və dərk edilənlərin tökülüb sirr kimi gizlədildiyi bir qaba bənzədilmişdir. İnsanın tab gətirə bilməyəcəyi böyük bir hadisə baş verdiyində köksü daralır, onun genişlənməsinə ehtiyac duyur. Musaya (ə) bu ağır missiya tapşırıldıqdan sonra o, Firon tərəfdarları, hətta öz qövmü qarşısında hansı çətinliklərlə qarşılaşacağını yaxşı bilirdi. Buna görə də Allahdan tutumunun daha böyük olmasını istəmişdir[1325].

25-36. Ümmətə rəhbərlik etmək üçün dilənən dəqiq istəklər: Musanın (ə) bu ayələrdə Allahdan dilədiyi istəklər, yəni güclü iradə, söz demək qüdrəti, ilahi yardımlar, etibarlı bir dosta malik olmaq, azğın cəmiyyəti

---

[1321] Nümunə, c.13, səh.171
[1322] Ətyəbül-bəyan, c.9, səh.16
[1323] Ətyəbül-bəyan, c.9, səh.21
[1324] Nümunə, c.13, səh.180
[1325] Əl-Mizan, c.14, səh.144

dəyişmək, mənəvi və humanist dəyərlərə malik bir cəmiyyət yaratmaq üçün açıq şəkildə ehtiyac duyulan faktorlardır. Bu onu göstərir ki, hətta peyğəmbər təyin olunmazdan əvvəl belə, Musa (ə) çox ayıq bir adam olmuş, üzərinə düşən məsuliyyətin bütün yönlərindən xəbərdar olmuşdur. Sünni və şiə mənbələrində mövcud olan hədislərdə İslam peyğəmbərinin (s) də öz hədəflərini həyata keçirmək üçün Allahdan eyni istəkləri dilədiyi qeyd edilmişdir. Sadəcə, Peyğəmbər (s) Harun (ə) adının yerində Əlinin (ə) adını çəkmişdir[1326].

33-34. Həzrət Musanın (ə) istəklərinin əsas qayəsi: Həzrət Musanın (ə) istəklərinin əsas qayəsini Allahı çoxlu-çoxlu yad etmək, ona tərif demək təşkil edir. Allaha tərif demək Allahın şirk və nöqsanlardan uzaq olduğunu ifadə etməkdən ibarətdir. Musanın (ə) məqsədi "Sübhanəllah" (Allah eyib və nöqsanlardan uzaqdır) cümləsini təkrar-təkrar deyildi, o, şirkə bulaşmış inancları beyinlərdən yumaq, şirk əlamətlərini cəmiyyətdən təmizləmək, insanların etiqad və əməllərində Allahın xatırlanmasını diriltmək istəyirdi[1327].

38. Anana lazım olanı vəhy etdiyimiz zaman belə vəhy etdik:

39. "Onu bir sandığa qoyub çaya burax ki, çay onu sahilə atsın və həm Mənim düşmənim, həm də onun düşməni onu götürsün". Gözlərim önündə

[1326] Nümunə, c.13, səh.191-193
[1327] Nümunə, c.13, səh.192

boya-başa çatdırılasan deyə, Öz tərəfimdən sənə qarşı (qullarım arasında) məhəbbət oyatdım.

40. Bacın gedib: “Sizə onun qayğısına qalacaq birisini göstərimmi?” dedyi zaman ananın gözü aydın olsun və qəm yeməsin deyə, səni ona qaytardıq. Sən bir nəfəri öldürdün. Biz səni qəm-qüssədən qurtardıq. Biz səni sınaqlardan keçirtdik. Sən illərlə Mədyən əhli içində qaldın. Sonra da müəyyən olunmuş vaxtda buraya çatdın, ey Musa!

41. Mən səni Özüm üçün hazır etdim!

42. Sən və qardaşın ayələrimlə gedin və Məni xatırlamaqda səhlənkarlıq etməyin

43. Fironun yanına gedin. Çünki o, həddini aşmışdır.

44. Onunla yumşaq danışın. Bəlkə xatırlasın, yaxud da qorxsun!”

45. Onlar dedilər: “Ey Rəbbimiz! Biz onun bizi qabaqlayacağından və ya həddini aşmasından qorxuruq”.

46. Buyurdu: “Qorxmayın, çünki Mən sizinləyəm, eşidirəm və görürəm!

47. Onun yanına gedib deyin: “Biz sənin Rəbbinin elçiləriyik. İsrail oğullarını bizimlə göndər və onlara əziyyət vermə. Biz Rəbbin tərəfindən sənə aşkar əlamət gətirmişik. Doğru yolla gedənlərə salam olsun!

48. Bizə vəhy olunub ki, əzab (Allahın ayələrini) yalan sayıb üz döndərənlərə veriləcəkdir!”

49. (Firon) dedi: “Rəbbiniz kimdir, ey Musa?”

50. Dedi: “Rəbbimiz hər bir varlığa mövcud olması üçün lazım olan hər bir şeyi verib sonra da doğru yolu göstərəndir!”

51. Dedi: “Bəs əvvəlki nəsillərin vəzyyəti necə olacaq?”

---

38. Quranda vəhyin mənaları: “Vəhy” yavaş səsə, pıçıltıya və ya nəyinsə astadan və pıçıltı ilə deyilməsinə deyilir. Bu söz Quranda müxtəlif mənalarda – bəzən simvolik işarə (Məryəm - 11), bəzən instinktiv ilham (Nəhl - 68), bəzən genetik əmr (Zilzal - 5), bəzən peyğəmbər olmasalar belə, Allahın mömin bəndələrin qəlbinə göndərdiyi ilham mənasında işlənmişdir. Nəzər nöqtəsi olan ayədə “vəhy” sözü məhz sonuncu mənada işlədilmşdir. Ümumiyyətlə, “vəhy” sözünün Quranda işlədilən ən mühüm mənalarından biri peyğəmbərlərə aid olan ilahi ismarışlardır[1328].

39. Musa (ə) doğulduğu vaxt İsrail oğullarının kritik vəziyyəti: Quranın digər ayələrindən belə məlum olur ki, Firon İsrail oğullarının gücünün, qüdrətinin və ehtimal olunan üsyanının qarşısını almaq üçün ciddi təzyiq altında saxlayırdı. Bir qrup tarixçi və təfsirçinin yazdığına görə, Firon Bəni-İsraildə dünyaya gələcəyi və Firon hakimiyyətinə son qoyacağı öncədən xəbər verilmiş uşağın dünyaya gəlməsinin qarşısını almaq üçün oğlan uşaqlarının qətlə yetirilməsinə, qız uşaqlarının isə kənizlik etmələri üçün diri saxlanılmasına əmr vermişdi. Musa (ə) məhz belə bir şəraitdə dünyaya gəlmişdi. Anası övladına görə çox qorxurdu. Bu vaxt Musanı böyük inqilab üçün seçmiş Allah anasının qəlbinə belə bir ilham göndərir: “Bundan sonra onu bizə həvalə et, bax gör onu necə qoruyacaq və sənə geri qaytaracağıq”[1329].

39. Musaya qarşı hər kəsdə sevgi yaranması: Hədislərinin birində İmam Baqir (ə) belə buyurmuşdur: ***“Musa dünyaya gəldikdə və anası körpənin oğlan olduğunu gördükdə üzünün rəngi dəyişir. Mamaça “Rəngin nə üçün dəyişdi?” – deyə soruşduqda deyir: “Oğlumun başının kəsiləcəyindən qorxuram”. Mamaça deyir: “Əsla qorxma!” Musa elə***

[1328] Nümunə, c.13, səh.213
[1329] Nümunə, c.13, səh.198

görkəmə malik idi ki, görənləri özünə məftun edirdi.” Onu Firon sarayında qoruyan da məhz bu məhəbbət idi[1330].

41. Allahın Musa (ə) haqqında buyurduğu ən sevgi dolu söz: “İstina” nəyinsə düzəlməsi və islah edilməsində israr edilməsinə deyilir. Əslində, ayənin mənası belə olur: Səni sanki Özüm üçün istəyirmiş kimi hər cəhətdən islah etdim. Bu, Allahın Musa (ə) haqqında buyurduğu ən sevgi dolu sözdür. Filosofların təbirincə desək, “Allah hər hansı bəndəni sevdiyində ona dostun dosta bəslədiyi kimi, rəğbət bəsləyir.”[1331]

44. Hətta düşmənlə də mülayim davranmaq: Quranın hökmünə görə azğın və günahkar olmalarına baxmayaraq, insanların qəlbinə nüfuz etmək üçün ilk öncə onlarla mülayim davranmaq lazımdır. Hətta bəzi hədislərdə Musaya (ə) Fironu ən yaxşı adı ilə çağırmaq göstərişi verildiyini görürük[1332].

50. Allahın tanıtdırılma arqumentləri: Musa (ə) bu ayədə yaradılış və varlıq aləminin iki əsas prinsipinə işarə etmişdir. Bu prinsiplərin hər biri Allahın tanıtdırılması üçün parlaq və müstəqil dəlildir. Birincisi budur ki, Allah hər bir varlığa ehtiyac duyduğu hər bir şeyi vermişdir. İkincisi, mövcudatın yönləndirilməsi və onlara rəhbərlik məsələsidir. Bu aspektin ehtiyacların təminindən sonrakı mərhələyə aid olduğunu ifadə etmək üçün cümlədə “summə” (sonra) önqoşmasından istifadə edilmişdir. Yəni Allah-taala mövcudata həyat üçün lazım olan bütün vasitələri bəxş etdikdən sonra onlara öz həyatlarını davam etdirmək üçün bəxş edilən güclərindən düzgün və dəqiq şəkildə necə istifadə etmək üsulu öyrədilmişdir. İnsanlar da bu genetik yönləndirilmə ilə təchiz edilmişlər. Ancaq insanla ağıl, ixtiyar, vəzifə, məsulyyət və heyanların sahib olmadığı kamilləşmə proqramlarına

---

[1330] Nümunə, c.13, səh.200
[1331] Nümunə, c.13, səh.205
[1332] Nümunə, c.13, səh.213

sahib olduqları üçün genetik yönləndirilmə ilə yanaşı dini yönləndirilməyə də möhtacdırlar[1333].

52. Dedi: “Onlara aid olan məlumat Rəbbimin yanında olan bir Kitabda qeyd edilmişdir. Rəbbim əsla xəta etmir və unutmur!”

53. O, yer üzünü sizin üçün istirahət məkanı etmiş, orada sizin üçün yollar salmış və müxtəlif bitki növləri bitirməyimiz üçün göydən su endirmişdir.

54. Onlardan həm özünüz yeyin, həm də heyvanlarınızı yemləyin. Bunlarda başa düşənlərdən ötrü dəlillər vardır.

55. Biz sizi ondan (torpaqdan) yaratdıq, ona qaytaracaq və bir daha oradan qaldıracağıq.

56. Biz dəlillərimizin hamısını ona (Firona) göstərdik. O isə yalan sayıb qəbul etmədi.

57. Dedi: “Musa! Sən öz sehrinlə bizi öz torpağımızdan qovub çıxartmağamı gəlmisən?

[1333] Nümunə, c.13, səh.218

58. Biz də sənə buna bənzər bir sehr göstərə bilərik. Bizimlə öz aranda görüş vaxtı təyin et. Nə biz, nə də sən vədə xilaf çıxmayaq. Bu hamımız üçün münasib bir məkanda olsun".

59. Dedi: "Görüş vaxtınız "Bəzək" (bayram) günüdür. Bir şərtlə ki, gün qalxdığı vaxt hamı bir yerə toplaşsın."

60. Firon məclisi tərk etdi, sonra da bütün hiylə və kələklərini toplayıb gəldi.

61. Musa onlara dedi: "Vay olsun sizə! Allaha qarşı yalan uydurmayın, yoxsa O, sizi əzabla məhv edər. İftira yaxan məyus (və məğlub) olar!"

62. Onlar öz aralarında davam edib-etməməklə bağlı mübahisə edib xəlvətcə söhbətləşdilər.

63. Dedilər: "Bu ikisi doğrudan da sehrbazdır. Onlar öz sehrləri ilə sizi torpağınızdan qovub çıxartmaq və nümunə ənənənizə son qoymaq istəyir.

64. Odur ki, bütün gücünüzü və hiylələrinizi birləşdirib (mübarizə meydanına) bir yerdə gəlin. Bu gün öz üstünlüyünü sübuta yetirən şəxs xilas olacaqdır".

---

52. Fironun şübhəsinə Musanın (ə) cavabı: Həzrət Musa (ə) 48-ci ayədə dirilmə, cəza və mükafat mövzularını açıq şəkildə bəyan edir. Dirilməni inkar edən digər müşriklər kimi Musa (ə) da təəccüblə soruşur: "Ölüb məhv olmuş, artıq heç bir əsər-əlamətləri qalmayan keçmiş nəsillərin vəzyyəti necədir? Yalnız quru adları qalmış və əfsanəyə çevrilmiş bu insanlar əməllərinin cəza və mükafatını necə görürlər?" Musa (ə) bu şübhəyə belə cavab verir: "Keçmiş nəsllərin mükafat və cəzasını vermək onlardan

xəbəri olmayan üçün çətindir. Ancaq elmi bütün zaman və məkanları əhatə edən Allah üçün bu çətin deyil, o, keçmiş və gələcəkdən xəbərdardır."[1334]

53. Allahın dörd nemətinin qeyd edilməsi: Bu ayədə Allahın dörd nemətinə işarə edilmişdir: 1. İnsanın istirahət və rahatlıq məkanı olan yer. Cazibə qanunu və yerin əhatə edən böyük hava qatı sayəsində insan yer üzündə rahat və əmin-amanlıq içində yaşaya bilir. 2. Allahın yer üzündə yaratdığı yollar bütün regionları bir-birinə birləşdirir. Göylərə ucalmış dağların arasında dərələr və yollar mövcuddur. İnsanlar bu yollarla öz məqsədlərinə çata bilərlər. 3. Allah göydən həyat və bərəkət mənbəyi olan su endirmişdr. 4. Bir hissəsi qidalanmaq, bir hssəsi, paltar üçün xammal, bir hissəsi dərman və sair vasitələr üçün yararlı olan müxtəlif bitkilər[1335].

55. İnsanın torpaqdan yaranmasına diqqət: Hamımızın torpağa qayıdışı və oradan qalxacağı tamamilə aydındır. Bizim torpaqdan necə yaranmağımızla bağlı iki yozum mövcuddur. Birincisi, biz hamımız Adəmdən (ə) törəmiş, o isə birbaşa torpadan yaranmışdır. İkincisi, hətta biz özümüz də torpaqdan götürülmüşük. Çünki özümüz və ata-analarımızın bədənini təşkil edən qida maddələrinin hamısı torpaqdan qaynaqlanır. Bu, bütün həddini aşmışlara və fironsifətlərə bir xatırlatmadır. Heç kəs haradan gəlib, haraya gedəcəyini unutmamalıdır. Dünən torpaq olmuş, sabah da torpaq olacaq bir varlığın bütün bu lovğalığı, təkəbbürü və həddini aşmasının səbəbi nədir? Bir gün bir nəfər İmam Əlidən (ə) namazların hər bir rükətində edilən iki səcdənin mənasını soruşdquda İmam (ə) buyurur: "Birinci səcdənin mənası budur ki, alnını səcdəyə qoyarkən demək istəyirsən ki, İlahi, mən ilk başlanğıcda bu torpaqdan yaranmışam. Başını qaldırdıqda demək istəyirsən ki, məni bu torpaqdan çıxarmısan. İkinci səcdənin mənası

[1334] Əl-Mzan, c.14, səh.169
[1335] Nümunə, c.13, səh.222

budur ki, məni yendən torpağa qaytaracaqsan. Başını səcdədən qaldırdıqda demək istəyirsən ki, məni yenidən bu torpaqdan qaldıracaqsan.”[1336]

59. Bəzək günü: Şübhəsiz ki, bu ifadə ilə vaxtı bizə dəqiq məlum olmayan bir bayram gününə işarə edilmişdir. Bizə məlum olan budur ki, insanlar həmin gün işləməz və bu mərasimdə iştirak etmək üçün hazırlanarmışlar[1337].

63. Firon tərəfindən insanların dini hisslərinin təhrik edilməsi: Firon ənənə deyərkən həmin vaxt Misirdə mövcud olan dualist dini inancı, daha çox da qibtilər tərəfindən məbud qəbul edilən tanrıları, xüsusilə də Fironu nəzərdə tuturdu. O, bununla insanların dini təəssübkeşliyini təhrik etmək istəyirdi. Çünki insanlar hər nə olursa-olsun atalarının dinini, xüsusilə də adət etdikləri, pak və səmavi olduğunu düşündükləri bu dini müqəddəs sayırdılar. Firon onlara böyüklüklərinin öz dinlərində olduğunu bəyan edir və bildirir ki, əgər Musanın sözlərini qəbul etsələr, əzəmətləri puz olacaq[1338].

[1336] Nümunə, c.13, səh.222
[1337] Nümunə, c.13, səh.231
[1338] Əl-Mizan, c.14, səh.175

65. (Sehrbazlar) dedilər: “Ey Musa! Sən əvvəl (əsanı) atırsan, yoxsa birinci atan biz olaq?!”

66. Dedi: “Əvvəl siz atın!” Bu vaxt sehrləri sayəsində kəndirləri və əsaları elə təsir bağışlayırdı ki, sanki hərəkət edirdi.

67. Musa ürəyində gizli bir qorxu keçirdi (məbada insanlar yollarını azsınlar!)

68. Dedik: “Qorxma, sən şübhəsiz ki, (qalib və) üstünsən!

69. Sağ əlində olanı yerə at, onların qurduqlarını udsun. Onların qurduqları sadəcə sehrbaz hiyləsidir. Sehrbaz isə hara gedirsə-getsin, xilas olmaz”.

70. (Musa əlindəkini atdı və əsa onların bütün qurduqlarını uddu.) Sehrbazlar hamısı səcdəyə qapanıb dedilər: “Biz Harunun və Musanın Rəbbinə iman gətirdik!”

71. (Firon) dedi: “Mən sizə izn verməmişdən əvvəl Ona iman gətirdiniz? Şübhəsiz ki, O sizə sehr öyrədən böyüyünüzdür. Mən sizin əllərinizi və ayaqlarınızı çarpaz kəsib xurma ağaclarının gövdələrində çarmıxa çəkəcəyəm. Onda hansımızın əzabının daha şiddətli və daha davamlı olduğunu biləcəksiniz!”

72. Dedilər: “Bizi yaradana and olsun ki, səni bizə gələn bu aydın dəlillərdən əsla üstün tutmayacağıq. İndi nə hökm verəcəksənsə, ver. Sən ancaq bu dünya həyatında hökm verə bilərsən!

73. Biz Rəbbimizə iman gətirdik ki, O, bizi günahlarımıza və sənin bizi məcbur etdirdiyin sehrə görə bağışlasın. Allah daha xeyirli və daha daimidir!”

74. Kim Rəbbinin hüzuruna günahkar kimi gələrsə, Cəhənnəmlik olar. Orada nə ölər, nə də yaşayar.

75. Kim Onun hüzuruna yaxşı əməllər etmiş bir mömin kimi gələrsə, onlara ən yüksək dərəcələr nəsib olar –

76. ağacları altından çaylar axan əbəd Cənnət bağları. Orada əbədi qalarlar. Bu, özlərni təmizləyənlərin mükafatıdır.

---

66. Fironun sehrbazları nə etdi? Təfsirçilərin çoxunun yazdığına görə sehrbazlar kəndir və əsaların içinə civə tökmüşdülər. Günəşin istisi altında civənin qızması kəndir və əsaların qeyr-adi çevikliklə hərəkət etməsinə səbəb olurdu. Şübhəsiz ki, bu hərəkətlilik həqiqi hərəkət deyildi. Sehrbazların insanlara etdiyi təlqinlər və burada yaratdıqları xüsusi mühit insanların gözündə onların canlanması və hərəkət etməsi təəssüratı yaradırdı. Ümumiyyətlə, sehr müxtəlif vasitələrlə, o cümlədən gözbağlıca və hiylə, təlqinlər, cisimlərin fiziki və kimyəvi xassələri, bəzən isə şeytanların yardımları vasitəslə həyata keçirilir. Əlbəttə, keçmişdə sehr və cadu kmi təqdim edilən davranışların çoxunun sirri bu gün açılmış və bu davranışlar artıq sehr və cadu hesab edilmir. Sehrin əsl həqiqətinə gəldikdə isə, onu inkar etmək olmaz. Sehr İslamda haram və böyük günahlardan hesab edilir. Əlbəttə, digər hallarda olduğu kimi, sehrin də istisnaları vardır. Belə ki, yalandan peyğəmbərlik iddiası edənlərin iddialarını puça çıxarmaq və ya

sehr nəticəsində zərər çəkmiş insanları sehrdən xilas etmək üçün onu öyrənmək icazəli, hətta bəzi məqamlarda vacibdir[1339].

67. Musanın (ə) qorxusu nədən idi? Musanın (ə) ürəyində keçirdiyi qorxu hissinin səbəbi sehrbazların yaratdığı qorxulu səhnə deyildi. O, əslində, insanların bu qorxulu səhnənin təsiri altına düşəcəyindən və Musanın (ə) onları asanlıqla haqq yola qaytara bilməyəcəyindən, ya da Musa (ə) öz möcüzəsini göstərməyə macal tapmamış onların meydanı tərk edəcəklərindən, ya da haqqın aşkar olmasının qarşısını almaq üçün onların meydandan çıxarılacağından qorxurdu[1340].

69-70. Sehrlə möcüzənin fərqi: O vaxta qədər belə bir səhnə ilə qarşılaşmamış, sehri sehr olmayandan ayırmağı bacaran sehrbazlar əmin oldular ki, Musanın (ə) göstərdiyi yalnız ilahi möcüzədir və onları Allah yoluna dəvət etmək üçün göndərilmiş bir peyğəmbərdir. Buna görə də ruhlarında böyük bir çevriliş yarandı və Musanın (ə) dəvətini qəbuı etdilər. Ümumiyyətlə, sehrbazın sərgilədiyi göstərinin əsasında məhdud insan qüvvəsi dayandığı halda, möcüzə sonsuz ilahi qüdrətdən qaynaqlanır. Sehrbaz məhdud çərçivədə işlər görə bilsə də, insan gücünün fövqündə heç nə edə bilməz. O, yalnız məşqlər vasitəsilə yiyələndiyi işləri reallaşdıra bilər. Bundan kənarda hər hansı hərəkəti göstərə bilməz. Peyğəmbərlərə gəldikdə isə, onlar Allahın sonsuz qüdrətindən bəhrələndikləri üçün istənilən xariqəni yarada bilərlər. Sehr azğınlıq və hiylə üzərində qurulduğu üçün sehrbazlar da hiyləgər və saxtakar insanlar hesab edilirlər. Halbuki ixlas, səmimiyyət, paklıq, dürüstülk peyğəmbərlərin möcüzələri ilə çulğalaşmış və onların gücünü artıran bir dəlildir[1341].

[1339] Nümunə, c.13, səh.237
[1340] Nümunə, c.13, səh.238
[1341] Nümunə, c.13, səh.236

73. Sehrbazların Firon tərəfindən məcbur edilməsi: Bu ayədən belə məlum olur ki, Fron sehrbazları Musa (ə) ilə mübarzə aparmağa və sehr göstərməyə məcbur edirdi. Bu məcburiyyət ya onlar öz şəhər və məmləkətlərindən gətrilərkən, ya da Musa (ə) onlara xitab edib bəzilərinə təsr göstərdiyi, nəticədə, onlar arasında mübahisə düşdüyü vaxt baş vermiş, nəhayət, Musa (ə) ilə mübarizə aparmağa məcbur edilmişdilər (62-ci ayə)[1342].

74. Ölüm və həyatın olmadığı yer: Cəhənnəmdə əzaba məruz qalanların bu əzabdan xilas olmasına səbəb olacaq ölüm olmayacaq. Belə ki, "Zuxruf" surəsinin 77-ci ayəsində belə buyurulmuşdur: "Onlar çağırıb deyəcəklər: ***"Ey Cəhənnəmin maliki! Rəbbinin canımızı almasını arzu edirik". O isə: "Siz burada əbədi qalacaqsınız!"– deyəcək."*** Habelə Cəhənnəm əhlinin orada ləzzət alacaqları, ixtiyar və qüdrət sahibi olacaqları bir həyat da mövcud deyl. Nə varsa, yalnız əzab-əziyyətdən ibarətdir[1343].

[1342] Əl-Mizan, c.14, səh.181
[1343] Ətyəbül-bəyan, c.9, səh.65

77. Biz Musaya: “Gecə vaxtı qullarımı özünlə apar və onlar üçün dənizdə quru yol aç. Nə onların təqibindən qorxacaqsan, nə də dəryada boğulmaqdan!”– deyə vəhy etdik.

78. Firon öz ordusu ilə onları təqib etdi və dəniz onları tamamilə batırdı.

79. Firon öz xalqını haqq yoldan azdırdı və doğru yola yönəltmədi.

80. Ey İsrail oğulları! Biz sizi düşmənizdən xilas etdik. Tur dağının sağ tərəfində sizinlə vədləşdik. Sizə şirə və bildirçin endirdik.

81. Sizə verdiyimiz pak ruzilərdən yeyin və bunda həddi aşmayın, yoxsa sizə qəzəbim tutar. Qəzəbimə tuş gəlmiş şəxs isə süquta uğrayar.

82. Mən tövbə edib, iman gətirib yaxşı işlər görən, sonra da doğru yolu tutanları bağışlayıram.

83. “Ey Musa! Camaatının qabağına düşüb tələsməyinə nə səbəb oldu?”

84. Dedi: “Ey Rəbbim! Onlar mənim arxamca gəlirlər. Məndən razı qalasan deyə, Sənin yanına tələsdim!”

85. Buyurdu: “Səndən sonra camaatını sınağa çəkdik. Samiri onları yoldan çıxartdı”.

86. Musa qəzəbli, kədərli halda camaatının yanına qayıdıb dedi: “Ey camaatım! Məgər Rəbbiniz sizə gözəl bir vəd verməmişdimi? Mənim sizdən ayrı olduğum müddət uzunmü sürdü? Yoxsa mənə verdiyiniz vədə xilaf çıxıb Rəbbinizdən sizə bir qəzəb gəlməsini istədiniz?”

87. Dedilər: “Biz sənə verdiyimiz vədə öz ixtiyarımızla xilaf çıxmadıq. Biz o xalqın özümüzlə gətirdiyimiz zinət əşyalarını (oda) atdıq. Həmçinin Samiri də belə atdı”.

---

77. Musanın (ə) Fironla mübarizəsinin son mərhələsi: Bu və sonrakı ayədə Musanın (ə) Fironla olan mübarizəsinin son mərhələsinə, yəni İsrail oğullarının Misirdən çıxarılmasına işarə edilmişdir. İsrail oğulları vəd olunmuş torpaqlara (Fələstin) doğru hərəkət etdlər. Ancaq Nilin sahilinə çatdıqlarında Fironun ardıcılları bundan xəbər tutdular. Firon böyük bir qoşunla onları təqib etməyə başladı. İsrail oğulları özlərini Nillə düşmən qoşunlarının mühasirəsində gördülər. Bir tərəfdə böyük Nil çayı, digər tərəfdə isə qana susamış qəzəbli və güclü düşmən ordusu dayanmışdı. Allahın istəyi isə fərqli idi. Allah zülmə məruz qalmış bu imanlı camaatın zalımların əlindən xilas, eyni zamanda zülmkarların məhv olmasını istəyirdi. Diqqət çəkən məqam ondan ibarətdir ki, Allah-taala "Nil çayında bir yol aç" deyil, məhz "dənizdə quru yol aç" – deyə buyurmuşdur. Bildiyimiz kimi, çay və ya dənizin suyu çəkildiyində su çəkilən yerdən bir müddət keçmək olmur. Ayə bunu göstərir ki, açılan yol Allahın əmri ilə quru olmuşdur[1344].

80. Mənn və səlva: Fironun qoşunlarının əlindən xilas olduqdan sonra İsrail oğulları səhrada nə edəcəklərini bilmədlər. Çox böyük ehtimalla mən ətraf dağlarda olan təbii bal növü və ya həmin səhrada bitən ağaclardan süzülən xüsusi şirə növüdür. Səlva göyərçin quşuna bənzəyən əti halal olan bir quş növüdür.[1345].

82. İlahi rəhbərlərin rəhbərliyini qəbul etmək tövbə, iman və saleh əməlin qəbulunun şərtidir: Təfsirçilər "Sonra doğru yol tutan" cümləsi lə bağlı müxtəlif fikirlər söyləmişlər. Bu fikirlərdən ikisi daha cəlbedicidir: Birincisi, təfsir budur ki,, bu ayədə iman, təqva və saleh əməl yolunun davam etdirilməsinə işarə edilmişdir. Yəni tövbə keçmişin üstünü örtür, və xilasa səbəb olur. Bir şərtlə ki, tövbə etmiş şəxs bir daha həmin şirk və

[1344] Nümunə, c.13, səh.257
[1345] Nümunə, c.13, səh.261

günah dərəsinə enməsin, Şeytanın və nəfsin vəsəvəsələrinə uymamaq, nəticədə, yenidən əvvəlki yola düşməmək üçün daim özünə nəzarət etsin. İkinci təfsirə görə ayədə Allah tərəfindən təyin edilmiş rəhbərlərin rəhbərliyinin qəbulunun zərurliyinə işarə edilmişdir. Çünki dinin sütunlarından biri Peyğəmbərin çağırışını, onun rəhbərliyini, ondan sonra isə canişinlərinin rəhbərliyni qəbul etməkdir. İmam Baqir (ə) bu ayə haqqında belə buyurmuşdur: ***"Sonra doğru yola yönələn" deyilərkən biz Əhli-beytin rəhbərliyinə doğru yönəlmə nəzərdə tutulur."*** Bu prinsipin tərk edilməsinin nə qədər ölümcül olduğunu başa düşmək üçün sonrakı ayələri araşdırmaq, rəhbəri tərk etdikləri, Musa (ə) və canişini Haruna (ə) itaət etməkdən boyun qaçırdıqları üçün İsrail oğullarının necə buzovpərəstlik, şirk və küfrə düçar olduqlarını görmək kifayətdir[1346].

83-84. Musanın (ə) vəd olunmuş yerə çatmağa şövqü və tələsməsi: Musa (ə) Tövratın hökmlərini almalı və İsrail oğullarından olan bir qrupu özü ilə aparmalı idi ki, bu səfərdə onlar Allahtanıma və vəhylə bağlı yeni həqiqətlərin şahidi olsunlar. Allahla münacat etmək, vəhy səsini eşitmək şövqü Musanın (ə) qəlbinə elə od salmışdı ki, gözü ayağının altını görmürdü, yeməyi, içməyi, istirahət etməyi də unutmuşdu. Sürətlə gedib vəd olunmuş yerə hər kəsdən əvvəl çatmaq istəyirdi. İmam Sadiq (ə) buyurmuşdur: ***"Müştaq nə yeməyə meyl edir, nə dadlı sudan ləzzət alır, nə rahat yata bilir, nə dostu ilə ünsiyyət yaradır, nə də evində rahatlıq tapır... Bir gün məhbubuna qovuşmaq ümdi ilə Allaha gecə-gündüz bəndəlik edir... Bu eşq elə həddə çatır ki, Allah İmran oğlu Musanın Allahla vədləşdirilmiş***

[1346] Nümunə, c.13, səh.263; Əl-Mizan, c.14, səh.188

yerə olan eşqi haqqında belə buyurur: "Məndən razı qalasan deyə, Sənin yanına tələsdim!"[1347]

88. Onlar üçün buzov kimi böyürən bir buzov heykəli düzəltdi. (Bir-birlərinə dedilər): "Sizin də tanrınız, Musanın da tanrısı budur." O, (Allahla bağladığı əhdi) unutdu.

89. Məgər (bu heykəlin) onlara heç bir cavab vermədiyini, onlar üçün nə bir zərər, nə də bir fayda verməyə qadir olmadığını görmürdülərmi?!

[1347] Nümunə, c.13, səh.267

90. Bundan əvvəl Harun onlara demişdi: “Ey qövmüm! Siz bunun vasitəsilə sınağa çəkildiniz. Sizin Rəbbiniz Rəhman olan Allahdır. Mənə tabe olun və əmrimə itaət edin!”

91. Onlar: “Musa yanımıza qayıdana qədər biz onun ətrafına dövrə vuracağıq (ona sitayiş edəcəyik!)”– dedilər.

92. (Musa) dedi: “Ey Harun! Onların azdıqlarını gördüyün zaman nə üçün

93. mənə tabe olmadın? Əmrimə qarşımı çıxdın?

94. (Harun) dedi: “Ey anamın oğlu! Saqqalımdan və saçımdan tutma. Doğrusu, mən sənin: “İsrail oğulları arasına təfriqə saldın və sifarişmə əməl etmədin!”– deyəcəyindən qorxdum.

95. (Musa üzünü Samiriyə tutub) dedi: “Nə üçün belə etdin ey Samiri”

96. Dedi: “Mən onların görmədiklərini gördüm. Mən elçinin mirasından bir hissəsini götürdüm, sonra onu atdım. Nəfsim məni bu işə sövq etdi”.

97. (Musa) dedi: “Çıx get! Sən həyatın boyu: “(Sənə yaxınlaşmaq istəyənlərə) Mənə toxunmayın!”– deməli olacaqsan. Səni əsla dəyişilməyəcək bir vəd (ilahi əzab) gözləyir. Sən sitayiş etdiyin tanrına bax. Biz öncə onu yandıracaq, sonra da tikələrini dənizə tökəcəyik.

98. Sizin məbudunuz yalnız Özündən başqa heç bir məbud olmayan Allahdır. Onun elmi hər şeyi əhatə edir”.

---

88. Kim unutdu? Unudan şəxs deyilərkən Samiri nəzərdə tutulur. Çünki Musa (ə) və Allahla olan əhd-peymanını unudan, bütpərəstliyə üz

tutan məhz o, olmuşdur. Bəzilərinin yazdığı kimi, həmin şəxsin Musa olması fikri ayənin zahiri məzmunu ilə düz gəlmir[1348].

94. Musanın (ə) Haruna (ə) sərt reaksiya göstərməsi: Həzrət Harun (ə) qardaşının qəzəbini yatırtmaq üçün Musaya (ə) "Anam oğlu" deyə müracət edir. Bununla demək istəyir ki, bizim ikimiz də bir ananın övladlarıyıq, bir nəfərin qucağında böyüyüb boya-başa çatmışıq, bir-birimizə qarşı bu şəkildə qəzəblənməməliyik[1349]. Burada ortaya belə bir sual çıxır ki, Musa və Harun şübhəsiz ki, məsum və peyğəmbər olublar. O zaman Musanın bu cür sərt reaksiyası və Harunun özünü bu şəkildə müdafiə etməsi necə izah edilə bilər? Əslində, Musa (ə) qardaşının günahsız olduğunu dəqiq bilrdi. Ancaq bu davranışı ilə iki məsələni sübuta yetirməyə çalışırdı: Birincisi, İsrail oğullarına çox böyük günaha batdıqlarını, hətta Musanın (ə) özü də peyğəmbər olan qardaşının da mühakimə olunmasına səbəb olan bir əməli törətdiklərini başa salmaq istəyirdi. Digər tərəfdən bu davranışı ilə Harunun günahsız olduğunu hər kəsin gözü önündə sübuta yetirir, nəticədə, peyğəmbərliyi dövründə onu ittiham olunmaqdan xilas edir[1350].

96. Samiri buzovu necə düzəltdi? Təfsirçilər bu ayə ilə bağlı müxtəlif fikrlər irəli sürmüşlər. Onlar arasında ayənin məzmununa daha uyğun gələn nəzər budur: Qövmün zinət əşyaları deyilərkən (87-ci ayə) Fironun qoşununa aid olan, Musanın (ə) göstərişi ilə camaatın topladığı və özləri ilə apardıqları zinət əşyaları nəzərdə tutulur. Bu ləl-cəvahirat Musanın (ə) və ya ona aid olduğu üçün "Elçinin mirası" adlanmışdır. Samiri "Mən elçinin mirasından bir hissəsini götürdüm" deyərkən demək istəyir ki, mən yaxşı heykəl düzəldə bilirəm. Musanın malından bir hissəsini götürüb heykəl

---

[1348] Nümunə, c.13, səh.271
[1349] Ətyəbül-bəyan, c.9, səh.88
[1350] Nümunə, c.13, səh.283

düzəltim, mən camaatın bilmədiyini blirəm. Əslində, nəfsim mənə elçinin qızıllarından götürüb heykəl düzəltməyi vəsvəsə etdi. Nəticədə, elçinin mirasından götürüb oda tökdüm, sonra səs verən bir buzov düzəltdim. Onu elə düzəltim ki, hər dəfə hava onun qarnından daxil olub ağzından çıxdığında buzov səsi eşidilirdi[1351].

97. Musanın (ə) əmri ilə Samirinin cəzalandırılması: Bu ayədə Samirinin Musa (ə) tərəfndən cəzalandırılmasından danışılır. Samirinin cinayəti sübuta yetdikdən sonra Musa (ə) Samirinin cəmiyyətdən təcrid edilməsinə göstəriş verir. O, artıq heç kəslə ünsiyyət qura və kimsə də onunla əlaqə yarada bilməzdi. Ümumiyyətlə, Musa (ə) ömrünün sonuna qədər Samirinin tək-tənha yaşamasını əmr edir. Bu özü ən ağır işkəncələrdən biri idi. Bu əmr daimi həsrət və sonsuz qorxu ilə nəticələnəcəkdi. Bəziləri bunun Musaya (ə) aid olan bir əmr deyil, nifrin olduğunu yazmışlar. Bu nifrin nəticəsində Samiri əlacsız dərdə düçar olmuş, heç kəs ona yaxınlşa bilməmişdr. Şiddətli qızdırmadan yanarkən kimsə yaxınlaşmaq istədikdə fəryad qoparıb ***"Mənə yaxınlaşmayın!"*** deyərmiş. Bəzləri onun vasvasılıq dərdinə düçar olduğunu yazmışlar. Bu xəstəlik nəticəsində insanlardan qorxar hər kəsdən qaçar və ***"Mənə yaxınlaşmayın"***, - deyə fəryad qopararmış[1352].

[1351] Əl-Mizan, c.14, səh.196
[1352] Əl-Mizan, c.14, səh.196

99. Beləcə, əvvəlkilərin əhvalatlarından sənə danışırıq. Biz sənə Öz tərəfimizdən Zikr verdik.

100. Ondan üz döndərən hər kəs Qiyamət günü ağır bir günah yükü daşıyacaq.

101. Onlar bu vəziyyətdə əbədi qalacaqlar. Qiyamət günü onlar üçün nə pis yükdür!

102. O gün sur üfürüləcək və o gün günahkarları bədənləri gömgöy göyərmiş halda bir yerə toplayacağıq.

103. Onlar öz aralarında pıçıldaşıb deyəcəklər: “Siz (Bərzəxdə) cəmi on gün qaldınız!”

104. Biz onların nə deyəcəklərini də yaxşı bilirik. Onların ən ağıl və əməl cəhətdən ən üstünü: “Siz cəmisi bir gün qaldınız!”– deyəcək.

105. Səndən dağlar haqqında soruşurlar. De: “Rəbbim onları dağıdıb havaya sovuracaq,

106. sonra yer üzünü susuz, bitkisiz, hamar və boş düzəngaha çevirəcəkdir.

107. Sən orada nə bir eniş, nə də bir yoxuş görməyəcəksən”.

108. O gün hamı carçıya tabe olacaq, ona qarşı çıxa bilməyəcəklər. Rəhman Allahın qarşısında səslər kəsiləcək və yalnız pıçıltı eşidəcəksən.

109. O gün Rəhman Allahın izn verdiyi və söz deməsinə razı olduğu şəxslərdən başqa heç kimin şəfaəti fayda verməyəcəkdir.

110. Allah onların gələcəyini də, keçmişini də bilir. Onların elmi isə Onu əhatə edə bilməz!

111. (O gün) üzlər Yaşayan, Qəyyum olan Allah qarşısında zəlil bir görkəm alacaq. Kürəyində zülm-haqsızlıq yükü olan şəxs məyusdur.

112. Mömin olub yaxşı işlər görən şəxslər isə nə haqsızlıqdan, nə də haqqının kəsiləcəyndən qorxmazlar.

113. Beləliklə, Biz onu ərəbcə Quran olaraq nazil etdik. Biz orada təhdidləri xatırladıq ki, bəlkə təqvalı olsunlar və ya onlar üçün xatırlatma olsun.

---

102. Sur: “Sur” haqqında “Zümər” surəsinin 68-ci ayəsində məlumat verləcək.

102. Günahkarlar gömgöy göyərmiş bədənlərlə: “zurq” sözü “əzrəq” sözünün cəmidir, gözün göyərməsinə deyilir. Ancaq bəzən bədəni ağrı-

acıdan gömgöy göyərmiş şəxsə də aid edilir. Belə ki, bədən ağrı-acı nəticəsində zəifləyir, öz təravətini itirir və göy rəngdə görünür[1353].

103. Qiyamətlə müqayisədə dünya və Bərzəx ömrünün qısa olması: Şübhəsiz ki, insanın Bərzəx həyatı uzun sürəcək. Ancaq Qiyamətlə müqayisədə çox qısa görünəcək[1354]. Bəzi təfsirçilər hesab edirlər ki, bu ayədə insanların drilişdən əvvəlki dünya və Bərzəx həyatlarının qısa olmasına işarə edilmişdir. İnsanlara əbədi yaşayacaqları məlum olduqda dünya və Bərzəx həyatının çox qısa olduğunu dərk edəcəklər[1355].

104. Bir günlük qalma: Şübhəsiz ki, nə bir gün, nə də on gün uzun müddət deyil. Sadəcə bir ən kiçik təkrəqəmli ədəd hesab edildiyi üçün "bir gün" sözü ilə ən qısa zaman ifadə edilir. Quranda bu sözü deyən şəxs davranış və fikir baxımından üstün şəxs adlandırılmışdır. Çünki bu sözün müəllifi zaman baxımından axirət həyatı ilə müqayisədə dünya və Bərzəx həyatının çox qısa, keyfiyyət baxımından isə çox dəyərsiz olduğunu ən kiçik ədədlə ifadə etmişdir[1356].

108. Carçı deyilərkən kim nəzərdə tutulmuşdur? Quranda carçının İsrafil və ya qeyrisi olması açıq şəkildə qeyd edilməmişdir. Ancaq kim olursa-olsun əmri heç kəsin çıxmağa cürət etməyəcəyi dərəcədə təsirli olan bir şəxs olacaq[1357].

109. Şəfaət ən yüksək tərbiyə məktəbidir: Bəziləri şəfaət haqqında yanlış təsəvvürlərə malikdirlər, şəfaəti dünya əlaqələrinə bənzədirlər. halbuki şəfaət İslam məntiqinə əsasən yüksək tərbiyə məktəbidir, öz səy və fəaliyyətləri ilə haqq yolda addımlayan, ancaq bəzən qüsur və xətaya yol

---

[1353] Nümunə, c.13, səh.297
[1354] Nümunə, c.13, səh.298
[1355] Əl-Mizan, c.14, səh.209
[1356] Nümunə, c.13, səh.299
[1357] Nümunə, c.13, səh.303

verən şəxslər üçün bir dərsdr. Yol verdiyi qüsur və xətalar insanın qəlbində ümidsizlik yarada bilər. Məhz bu zaman şəfaət hərəkətverici bir qüvvə kimi insana yardım edir, ona məyus olmamağı, haqq yolunu davam etdirməyi, bu yolda səy və fəaliyyətdən əl çəkməməyi diktə edir. Əgər insan qüsura yol veribsə, ümumi mərhəməti hər kəsə şamil olan mərhəmətli Allahın icazəsi ilə insanlara yardım edən şəfaətçilər vardır. Şəfaət tənbəlliyə dəvət, məsuliyyət yükünün altından qaçmaq və ya günah qarşısında yaşıl işıq yandırmaq deyil, əksinə, insanı haqq yolda daha qətiyyətli olmağa, günahları azaltmağa səsləyən bir vasitədir[1358].

[1358] Nümunə, c.13, səh.304

114. Haqq Hökmdar olan Allah ucadır! Onun vəhyi sənə tamamlanmayınca Quranı oxumağa tələsmə və: “Ey Rəbbim! Elmimi artır!”– de.

115. Biz bundan əvvəl Adəmlə də əhd bağlamışdıq. Lakin o, əhdi unutdu və Biz onda qətiyyət görmədik.

116. Bir zaman mələklərə: “Adəm üçün səcdə edin!”– demişdik. İblisdən başqa hamısı səcdə etdi. O, boyun qaçırdı (və səcdə etmədi).

117. Dedik: “Ey Adəm! Bu, həm sənin, həm də zövcənin düşmənidir. O sizi Cənnətdən çıxartmasın, yoxsa çətinliyə düşəcəksiniz.

118. Sən orada nə ac qalacaq, nə də çılpaq olacaqsan.

119. Sən orada nə susayacaq, nə də günəşin istisindən əziyyət çəkəcəksən!”

120. Şeytan onu vəsvəsə edib dedi: “Ey Adəm! Sənə əbədiyyət ağacını və tükənməyəcək bir mülkü göstərimmi?”

121. Nəhayət, ikisi də ondan yedilər və ayıb yerləri göründü. Özlərini örtmək üçün Cənnət (ağaclarının) yarpaqlarından paltar tikdilər. Adəm Rəbbinə asi olub mükafatından məhrum oldu.

122. Sonra Rəbbi onu seçib tövbəsini qəbul etdi və doğru yola yönəltdi.

123. Buyurdu: “Bir-birinizə düşmən kəsilərək hər ikiniz buradan enin. Məndən sizə doğru yolu göstərən rəhbər gəldiyi zaman hər kəs Mənim doğru yol göstərən bələdçimin ardınca getsə, nə yolunu azar, nə də bədbəxt olar.

124. Hər kəs Məni xatırlamaqdan üz döndərsə, həyatı sıxıntılı olacaq və Biz Qiyamət günü onu hüzurumuza kor olaraq gətirdəcəyik”.

125. Deyəcək: “Ey Rəbbim! Mən ki görürdüm, nə üçün məni kor olaraq gətirdin?”

---

114. Vəhy tamamlanmayınca oxunuşa tələsməmək əmri: Bu ayədən belə məlum olur ki, Allah rəsulu (s) vəhy olunandan xəbərdar olmuş, vəhy nazil olmağa başladığı vaxt onun tamamlanmasını gözləmədən Quranı oxumağa başlayırmış. Bu ayə Quranın bir dəfəyə nazil olduğunu ifadə edən hədisləri gücləndirən istinad mənbələrindəndir. Hədislərə əsasən Quran Peyğəmbərə (s) iki şəkildə nazil olmuşdur. Quran Peyğəmbərə (s) Qədr gecəsi tam şəkildə nazil olmaqla yanaşı, 23 il ərsində tədricən, şəraitə uyğun olaraq, ayə-ayə nazil olmuşdur. Əgər Peyğəmbərin (s) vəhyin məzmunundan xəbəri olmasaydı, Allahın ona: “Vəhy tamamlanmayınca oxumağa tələsmə”, - deyə buyurmasının heç bir mənası olmazdı. Hər halda Allah bu ayə vasitəsilə Peyğəmbərə (s) tələsməməyi əmr etmişdir[1359]. Nəzərə almaq lazımdır ki, Peyğəmbərin (s) tələskənliyi hövsələsizlik və ya özünü göstərməkdən deyil, vəhyi qəbul etməyə, mənimsəyib insanlara çatdırmaq üçün olan eşqdən irəli gəlirdi. Peyğəmbər (s) bütün yönlərdə nümunə olmalı olduğu üçün hətta bu cür tələskənlik belə ona yasaq edilmişdir. Bununla da

[1359] Əl-Mizan, c.14, səh.214

Allah insanlara başa salır ki, hətta vəhyin alınmasında belə tələskənliyə icazə verilməmişdir[1360].

115. Adəmin (ə) məsumluğu: Həzrət Adəmin (ə) məsum olması ilə bağlı "Əraf" surəsinin 23-cü ayəsində məlumat verilmişdir.

120. Şeytanın Adəmin (ə) əbədiliyə meyilli olmasından sui-istifadə etməsi: Şeytan Adəmin (ə) nəyə meyl göstərməsi ilə bağlı müşahidə aparır, onun əbədi həyata və tükənməz bir qüdrətə meylli olduğunu öyrənr. Buna görə də onu ilahi fərmandan çıxarmağa sövq etmək üçün bu iki faktordan istifadə edir. Başqa sözlə desək, Allah Adəmə (ə) Şeytanı özündən uzaqlaşdıracağı təqdirdə həmişəlik Cənnətdə qalacağını və əbədi Cənnət nemətlərindən bəhrələnəcəyini vəd verdiyi kimi, Şeytan da vəsvəsələrini həmin nöqtə üzərində cəmləmişdir[1361].

124. Sıxıntılı həyat Allahı unutmağın cəzasıdır: Təfsirçilər bu ayəni təfsir edərkən yazırlar ki, Allahı unudan və onunla əlaqələrini kəsən adamın dünyaya bağlanmaqdan, bütün səy və fəaliyyətini dünyada daha yaxşı şəraitə nail olmağa sərf etməkdən başqa yolu yoxdur. O, dünya həyatını günbəgün yaxşılaşdırır və başı onun zövq və ləzzətinə qarışır. Ancaq bu ləzzətlər az və ya çox olmasından asılı olmayaraq ona rahatlıq gətirmir. Çünki nə əldə edirsə, yenə də əldə etmədiyinin dərdini çəkir, əldə etdiklərini xoşagəlməzliklər, ölüm, xəstəlik və sair nəticəsində itirəcəyindən narahat olur. Varlı və kasıb olmasından asılı olmayaraq Allahı unutmuş dünyapərəst hər zaman sıxıntı və təzyiq altında yaşayır. Ancaq Allahtanıma və onu xatırlama sayəsində o biri dünyanın olduğuna inanan, Allah yanında bütün istədiklərinin olduğunu, heç bir sıxıntı və ziyan olmayacağını bilən şəxs

---

[1360] Əl-Mizan, c.14, səh.214
[1361] Nümunə, c.13, səh.321

dünyanın isti və soyuğundan əsla qorxmur, az və ya çox olmasından asılı olmayaraq, Allahın müəyyən etdiyinə qane olur[1362].

[1362] Əl-Mizan, c.14, səh.224

126. Deyəcək: “Sənə ayələrimiz gəldiyi halda, sən onları unutduğun kimi, bu gün də sən unudulacaqsan!”

127. Biz həddi aşanı və Rəbbinin ayələrinə inanmayanı belə cəzalandırırıq. Axirət əzabı isə daha şiddətli və daha sürəklidir.

128. Daha əvvəl məhv etdyimiz və (viran qalmış) məskənlərində gəzib dolaşdıqları neçə-neçə nəsillər onların doğru yola yönəlməsi üçün kifayət etmirmi? Həqiqətən, bunda ağıl sahibləri üçün parlaq əlamətlər vardır.

129. Əgər Rəbbin tərəfindən əvvəlcədən təyin edilmiş qanun və müəyyən edilmiş bir vaxt olmasaydı, Allahın əzabı onları tezliklə yaxalayardı.

130. Onların dediklərinə səbr et. Günəş doğmamışdan və batmamışdan əvvəl Rəbbini həmd-səna ilə təriflə, gecənin bəzi saatlarında və gündüzün iki başında Ona təriflər de ki, bəlkə razı qalasan.

131. Onların bəzisinə verdiyimiz maddi nemətlərə göz dikmə. Bunlar sınamaq üçün onlara verdiyimiz dünya həyatının çiçəkləridir. Rəbbinin ruzisi daha xeyirli və daha davamlıdır.

132. Ailənə namaz qılmağı əmr et, özün də onu səbrlə yerinə yetir. Biz səndən ruzi istəmirik, sənə ruzi verən Bizik. Gözəl aqibət təqvaya bağlıdır.

133. Dedilər: “Nə üçün o, Rəbbindən bizə bir möcüzə və əlamət gətirmir?” Məgər əvvəlki (səmavi) kitablarda olan açıq-aydın xəbərlər onlara gəlib çatmadımı?

134. Əgər Biz onları bundan əvvəl (Quran gəlməzdən öncə) əzabla məhv etsəydik, (Qiyamətdə) deyərdilər: “Ey Rəbbimiz! Nə üçün bizə bir

peyğəmbər göndərmədin ki, biz də zəlil və rüsvay olmazdan əvvəl Sənin ayələrinə tabe olaq?"

135. De: "Hamı gözləyir. İndi ki, belədir, siz də gözləyin. Ancaq tezliklə siz kimin doğru yol sahibi olduğunu və kimin haqq yola yönəldiyini biləcəksiniz!"

--

126. Günahkarların unudulacağı gün: Günahkarların o biri dünyada unudulması Allahın onları unutması kimi başa düşülməməlidir. Əslində, Allah onlarla unutmuş kimi davranacaq, onlara etina göstərməyəcək. Bu ifadə formasına dilimizdə də rast gəlinir. Məsələn, biri başqasına etinasızlıq göstərdikdə qarşı tərəf "Nə üçün məni unutmusan?" – deyə şikayətlənir[1363].

129. Allahın qanunu və müəyyən edilmş vaxt: "Kəlimətun min Rabbik" (Rəbbin tərəfindən söz) ifadəsindəki "kəlmə" sözü Adəm (ə) Cənnətdən yerə endirilərkən Allah tərəfindən verilmiş əmri ifadə edir. Bu əmrə əsasən, insanlar müəyyən edilmiş vaxta qədər yer üzündə yaşayacaq və bu müddət ərzində Allahın qəfil əzabına tuş gəlməyəcəklər. Onlar ilahi əzaba yalnız peyğəmbər gəldikdən sonra, ona iman gətirmədkləri, onunla mübarizəyə qalxdıqları, möcüzə tələb edib möcüzənin şahidi olduqdan sonra yenə də iman gətirmədikləri təqdirdə məruz qalacaq və əzab nəticəsində məhv olacaqlar. İslam peyğəmbərinin (s) ümməti Allahın daha əvvəl verdiyi vədə əsasən qaçılmaz və əlacsız əzaba məruz qalmayacaq. Ancaq peyğəmbər göndərildiyi üçün ümmətin mömin və kafirləri arasında hökm çıxarılacaq, kafirlər məhv ediləcək. Quran ayələrinə əsasən, kafirlərin əzabı müəyyən müddətə qədər təxirə salınır. "Müəyyən edilmiş vaxt" deyilərkən

---

[1363] Nümunə, c.13, səh.331

zamanı heç zaman dəyişməyən vaxt nəzərdə tutulur. Bu ümmətin kafirləri bu dünyada ilahi əzaba düçar olub məhv olacaqlar[1364].

130. Allaha tərif deməyin, Onu xatırlamağın insanın ruhiyyəsinə təsiri: Xüsusi vaxtlarda Allahı xatırlayıb ona tərif deməklə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Bu fikrlər arasında ikisi daha ağlabatan görünür: 1. Bu ayədə Allahı xatırlamaq və onu zikr etmək deyilərkən beş vaxt qılınan namaz nəzərdə tutulur. Bu ayə həmin namazların vaxtarına işarə edir. 2. Bu ayədə zikr, müstəhb namazlar və sair olmasından asılı olmayaraq müəyyən zamanlarda oxunması tövsiyə edilmiş istənilən növ zikr və xatırlamaya işarə edilmişdir[1365]. Həmd və zikrlə bağlı göstəriş ruhyyəni gücləndirmək və təsəlli xarakteri daşıyır. Çünki həmd, səna, zikr, gücə və gündüz namazları insanın Allahla olan rabitəsini möhkəmləndrir, nəticədə insan yalnız Allahı düşünür, çətinliklərdən qorxmur, belə bir arxa və söykənəcəklə düşməndən qorxu və vahiməsi olmur. Bu şəkildə rahatlıq və əminlik ruhuna və canına dolur. "Bəlkə razı qalasan" cümləsi də bu nüansa işarə edir[1366].

132. Ailənə namaz qılmağı əmr et: "Ailə" deylərkən burada Peyğəmbərin (s) ailəsi nəzərdə tutulmuşdur. Bu surə Məkkədə nazil olduğu üçün Peyğəmbərin (s) ailəsi yalnız Xədicə (ə) və Əlidən (s) ibarət idi. Əlbəttə, bu cümlə Peyğəmbərin (s) digər yaxınlarına da şamil ola bilər. çünki zaman keçdikcə Peyğəmbərin (s) ailəsi böyümüşdür[1367]. Hədislərdə yazılana görə Peyğəmbər (s) bu aəyə əməl etmək üçün uzun müddət Əli (ə) və Fatimənin (ə) evinə gedər, qapının iki tərəfdən də tutaraq deyərmiş:

[1364] Əl-Mizan, c.14, səh.232
[1365] Əl-Mizan, c.14, səh.234
[1366] Nümunə, c.13, səh.339
[1367] Nümunə, c.13, səh.242

“Namaz! Allah sizə rəhm etsin. Allah çirkinliyi siz Əhli-beytdən uzaqlaşdırmaq və sizi tamamilə pak etmək istəyir.”[1368]

132. İbadətə Allahın deyil, insanın ehtiyacı var: Namaz Allahın əzəmətini artırmır, insanların kamilləşməsi üçün böyük bir sərmayə və böyük bir tərbiyə məktəbidir. Başqa sözlə desək, Allah özü və ətrafındakıların həyatını idarə etmək üçün öz millətindən bac-xərac yığan şah və hökmdalara bənzəmir. Allah hər kəsdən ehtiyacsızdır, hamı Ona möhtacdır. Oxşar məzmuna “Zariyat” surəsinin 56-57-ci ayələrində də rast gəlmək olar: ***“Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım. Mən onlardan ruzi istəmirəm. Mən onlardan Məni yedirtmələrini də istəmirəm.”*** Deməli, ibadətin nətcəsi birbaşa ibadət edənin özünə aid olur[1369].

"Ənbiya" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

[1368] Əl-Mizan, c.14, səh.241
[1369] Nümunə, c.13, səh.342

1. İnsanların haqq-hesabı yaxınlaşıb, ancaq onlar qəflət içindədirlər, üz çeviriblər.

2. Onlara öz Rəblərindən elə bir yeni xəbərdarlıq gəlməz ki, ona istehza ilə qulaq asmasınlar.

3. Bu, qəlbləri əyləncə və qəflət içində batdığı halda baş verər. Zalımlar öz aralarında xəlvətcə pıçıldaşıb deyirlər: “Məgər bu sizin kimi adi bir insan deyilmi? Gözünüz görə-görə sehrinmi dalınca düşəcəksiniz?”

4. (Peyğəmbər) dedi: “Rəbbim göydə və yerdə danışılan bütün sözləri bilir. O, eşidəndir, biləndir!”

5. Onlar dedilər: “(Muhəmmədin (s) gətirdiyi vəhy deyil,) qarmaqarışıq yuxulardır! Xeyr, o bunu özündən uydurmuşdur! Xeyr, o, bir şairdir! O, əvvəlki elçilərə göndərilən (möcüzələr) kimi bizə də bir möcüzə gətirməlidir”.

6. Onlardan əvvəl məhv etdiyimiz məmləkətlərdən heç biri iman gətirməmişdi. İndi bunlarmı iman gətirəcəklər?

7. Biz səndən əvvəl də yalnız vəhy nazil etdiyimiz kişilər göndərmişdik. Əgər bilmirsinizsə, bilənlərdən soruşun.

8. Biz onları yemək yeməyən bədənlər etmədik. Onlar əbədi də deyillər.

9. Sonra isə onlara verdiyimiz vədi yerinə yetirdik. Biz həm onları, həm də istədiyimiz kəsləri xilas edib, həddi aşanları məhvə uğratdıq.

10. Biz sizə xatırladan (və ayıldan) bir Kitab nazil etdik. Məgər başa düşmürsünüz?

“Ənbiya” surəsinin ümumi məzmunu: Bu surədə əsasən peyğəmbərlərdən bəhs olunur[1370].

1. Haqq-hesab və Qiyamətin yaxınlaşması deyilərkən nə nəzərdə tutulur? Bəzi təfsirçlər hesab edir ki, keçmişə nisbətdə dünyanın ömrünə artıq az qalıb. Bu səbəbdən də Qiyamət artıq yaxındır. Deyilənə görə Peyğəmbər (s) işarə və orta barmağını göstərərək buyurmuşdur: ***“Mənim və Qiyamətin təyin edlməsi bu ikisi kimidir.”*** Bəziləri bu ifadə ilə Qiyamətin qopacağında heç bir şübhə olmadığına işarə edildiyini bildirmişlər[1371].

3-10. Müşriklərin peyğəmbərliklə bağlı irəli sürdükləri bəzi iradlar: Bu ayələrdə inadkar müşriklərin Quran və peyğəmbərliklə bağlı irəli sürdükləri iradlar və bəhanələrə işarə edilmişdir. Birinci irad bundan ibarət idi ki, peyğəmbər də sizin kimi insandır (3-cü ayə), insanlıq baxımından sizdən heç nəyi ilə fərqlənmir. Əgər qeyblə əlaqəli olması iddiası düzgündürsə, sizin də qeybdən xəbəriniz olmalıdır. Əgər sizin qeybdən xəbərinz yoxdursa, deməli, o yalan danışır. Möcüzə adlandırdığı və öz peyğəmbərliyinə dəlil olaraq təqdim etdiyi kitab isə möcüzə deyil, sadəcə, sizin gətirə bilmədiyiniz bir cadudur. Allah-taala bu irada iki aspektdən cavab verir: Birincisi, keçmiş peyğəmbərlərin da hamısı insan olmuşdur. İslam peyğəmbərinin bu iddası analoqu olmayan bir iddia deyil. Peyğəmbərlik insan olmaqla təzad təşkil edən bir anlayış deyil. Peyğəmbərlə peyğəmbər olmayanın fərqi vəhydədir. Allah vəhyi istədiyi şəxsə göndərə bilər. Allah kiməsə vəhy göndərirsə, bu o demək deyil ki, hamıya vəhy göndərməlidir. Yaxud da əgər kiməsə vəhy göndərmirsə, bu o demək deyil ki, bunu kimdənsə əsirgəməlidir. Vəhy insanla Allah arasında olan xüsusi br əlaqədir. İlahi hikmət sayəsində bəziləri ona layiq, bəzi digərləri isə layiq

---

[1370] Əl-Mizan, c.14, səh.244
[1371] Nümunə, c.13, səh.353

deyildir. Ayənin sonunda Allah-taala buyurur ki, əgər bunu bilirdinizsə, heç, yox əgər bilmirdinizsə, o zaman müşriklərin hörmət bəslədikləri və etibar etdikləri Kitab əhlindən soruşun (7-ci ayə). Müşrklərin ikinci iradı onların peyğəmbər və Quranla bağlı olan və get-gedə kəskinləşən iftiralarından ibarət idi (5-ci ayə). İlk öncə onlar dedilər ki, Muhəmmədin (s) söylədikləri qarmaqarışıq yuxulardır. O, elə güman edir ki, bunlar Allah tərəfindən göndərilən vəhydir. Bu sözlər sehrdən də dəyərsizdir. Onlar yavaş-yavaş iftiralarını daha da kəskinləşdirərək deyirdilər: Bunlar qeyri-ixtiyari görülən qarmaqarışıq yuxular deyil, özündən uydurub Allaha aid etdiyi sözlərdir. Sonra daha da irəli gedərək deyirdilər: O, ümumiyyətlə, şairdir və şeir oxuyur. Bu iftira ona görə daha ağırdır ki, yalançı yalanı düşünərək, bilərəkdən danışır, şair isə düşünmədən ağlına gələni deyir, poetik cəhətdən könül oxşayan sözləri qəlibə salır. Buna görə hətta zəruri aksiomları da inkar edə, doğrunu yalan, yalanı isə doğru saya, yanlış üzərində açıq şəkildə israrla dayana bilər. Sonra müşriklər öz-özlərində belə qənaətə gəlirlər ki, Quran möcüzə deyil. Əgər Peyğəmbər (s) düz deyirsə, keçmiş peyğəmbərlər kimi möcüzə gətirsin, Musanın əsası və Salehin dəvəsi kimi möcüzələr göstərsin. Allah "Əgər Muhəmməd (s) keçmiş peyğəmbərlər kimi, möcüzə gətirsə, biz iman gətirəcəyik" deyənlərin yalan danışdıqlarını belə ifadə edir: "Keçmiş ümmətlər də öz peyğəmbərlərindən əcaib-qəraib möcüzələr istəmiş, ancaq peyğəmbərlər onların təklif etdikləri möcüzələri göstərdiklərində yenə də iman gətirməmiş və ilahi əzaba düçar olmuşdular. Bunlar da onlar kimidirlər, yalan danışırlar."[1372] Sonra lakonik və dərin mənalı bir cümlə ilə müşriklərə belə cavab verir: Hər kəs insanlar üçün xatırlatma, ayıltma, təfəkkür və paklıq mənbəyi olan Quran ayələrini

[1372] Əl-Mizan, c.14, səh.251

araşdırsa, onun parlaq və əbədi bir möcüzə olduğunu görər. Bütün cəhətlərdən möcüzə olduğu açıq-aşkar görünən bu kitabı inkar edib başqa möcüzələr tələb edilməsi qərəz və ağılsızlıqdan xəbər verir[1373].

11. Biz zalım olan neçə-neçə məmləkəti məhv edib, sonra başqa xalqları ərsəyə gətirdik.

12. Əzabımızı hiss edən kimi dərhal oradan qaçmağa başladılar.

13. (Dedik:) “Qaçmayın! Naz-neməti bol olan həyata və yurdlarınıza qayıdın. Bəlkə sizdən istənildi (Yoxsullar evinzə gəlib sizdən nə isə istədi və siz də onları əlboş qaytardınız)”.

14. Onlar: “Vay halımıza! Biz, həqiqətən də zalım olmuşuq”– dedilər.

15. Biz onları küləşə döndərib susdurana qədər fəryad qoparırdılar.

[1373] Nümunə, c.13, səh.363

16. Biz göyü, yeri və onların arasında olanları əyləncə üçün yaratmamışıq.

17. Əgər Biz əyləncə düzəltmək fikrində olsaydıq, Özümüzə uyğun bir şey seçərdik. Əgər bunu etsəydik (edərdik).

18. Biz haqqı batilin başına vurarıq və o da onu məhv edir. Beləcə, batil məhv olub sıradan çıxır. Allaha aid etdiyiniz sifətlərə görə vay halınıza!

19. Göylərdə və yerdə kim varsa, Ona məxsusdur. Onun yanında olanlar (mələklər) Ona ibadət etməkdən əl çəkmir və əsla yorulmurlar.

20. Onlar gecə-gündüz, usanmadan (Onun) şəninə təriflər deyirlər.

21. Yoxsa özlərinə yerdə diriltməyə qadir olan tanrılarmı qəbul etdilər?

22. Əgər göydə və yerdə Allahdan başqa tanrılar olsaydı, dağılıb məhv olardılar (dünyanın nizam-intizamı bir-brinə dəyərdi). Ərşin sahibi olan Allah onların aid etdiyi sifətlərdən ucadır!

23. Heç kəs onun gördüyü işlərə irad tuta bilməz. Onların gördükləri işlər haqqında soruşular.

24. Allahdan başqa tanrılarmı seçdilər? De: “Sübutunuzu göstərin! Bu, mənimlə olanların və məndən öncəkilərin (peyğəmbərlər) sözüdür”. Lakin onların çoxu əsil həqiqəti bilmir, buna görə də (ondan) üz çevirərlər.

---

18. Sabit və davamlıdır: Haqq və batil bir-birinə qarşı olan anlayışlardır. Haqq öz zatında sabit, batil isə öz zatında sabit deyil, ancaq insanlarda haqq təsəvvürü yaratmaq üçün özünü haqq kimi göstərir. Əlbəttə, haqq qarşısında dayandığı zaman batil olduğu məlum olur və sıradan çıxır. Buna su və ilğımı misal göstərə bilərik. Su mövcud olan bir gerçəkdir, lakin ilğım su olmadığı halda, özünü su kimi göstərir, görənlər onun su olduğunu

zənn edir. Ancaq susuz adam ona yaxınlaşdıqda su olmadığını görür. Allah-taala Quranda haqq və batilə aid çox misallar çəkmiş, həqiqətə uyğun olan inancları haqq, həqiqətə uyğun olmayan inancları isə batil kimi təqdim etmişdir, axirəti haqq, insanın özününkü hesab etdiyi, əldə etmək üçün qaçdığı dünya həyatını bütün bər-bəzəyi ilə batil saymışdır. Allah-taala öz zatını haqq, insanların aldandığı Allahın qoyub meyl göstərdiklərini batil adlandırmışdır. Batilə haqqla qarşı-qarşıya gələnə, öz-özlüyündə onu məhv edib yerinə keçdyini təsəvvür edənə qədər möhlət vermək, sonda haqqın əli ilə batili məhv etmək Allahın sünnəsidir. Bəzi vaxtlarda haqlılar azlıqda olsalar da, zəifləsələr də, haqq inancın kökü yer üzündən əsla kəsilməz. Haqq üzərinə hücum çəkənlər nə qədər çox olsa da, haqq əsla məhv olmaz. Allah öz peyğəmbərlərindən öz yardımını əsirgəməz. Bıçaq sümüklərinə dirənsə də, peyğəmbərlər ümidsizliyə qapılmazlar. Nəticədə, əvvəlki ayələrə əsasən bu ayənin mənası belə olur: Biz dünyanı əyləncə üçün yaratmamışıq, batili haqqla vurub onu məhv etmək bizim əzəli və əbədi sünnəmizdir. Əgər batil doğru olmayan və batil bir dəlil və inanc olarsa, haqq dəlil də inanc onu məhv edib sıradan çıxarar.Əgər batil doğru olmayan bir əməl və sünnə olarsa, heç bir qaçışı olmayan əzab həmin əməl və sünnəni məhv edər. Bir sözlə, batil nə olursa, olsun, haqq onu məhv edəcək[1374]. Hədislərdə zühur etdikdən sonra İmam Zamanın (ə) quracağı dövlət bu ayənin ən bariz nümunəsi kimi təqdim edilmişdir[1375].

22. Qarşıdurma arqumenti: Bu ayədə tövhid arqumentlərindən biri hesab edilən qarşıdurma arqumentinə işarə edilmişdir. Biz dünyaya bir qanunun hakim olduğunu, kainatın vahid bir sistemlə idarə edildiyini, kainatı təşkil edən ayrı-ayrı hissələr arasında heç bir ziddiyyətin olmadığını bilirik.

[1374] Əl-Miza, c.14, səh.263
[1375] Ətyəbül-bəyan, c.9, səh.152

Qanunlar və sistemlərin bu koordinasiyası dünyanın vahid mənbə tərəfindən idarə olunduğunu göstərir. Əgər mənbələr çox və istəklər müxtəlif olsaydı, bu koordinasiya mövcud olmaz və Quranın təbirincə desək, dünya dağılıb məhv olardı. Çünki iki nəfər nə qədər həmfikir və həmzövq olsa da, yenə də iki nəfərdir, baxış və zövqlər fərqlənməlidir. Əgər onların hər şeyi eyni olsaydı, bir olardılar. Deməli, iki nəfər olması üçün qəti surətdə fərqlər olmalı və bu fərqlərin nəticələri özünü göstərməlidir. Bu kitab nə qədər böyük olsa da, müxtəlif mövzulardan bəhs etsə də, müəllifi iki və daha artıq olacağı təqdirdə ondakı uyğunsuzluq dərhal hiss ediləcəkdi. Böyük yaradılış kitabı bütün əzəməti ilə vahid koordinasiya qanununa tabedir. Əgər dünyanın idarəçiliyinə müxtəlif iradə və mənbələr müdaxilə etsəydi, bu koordinasiya və uyğunluq əsla mümkün olmazdı. Doğrusu, nə üçün alimlər kosmik gəmiləri tam dəqiqlklə kosmosa göndərə, stansiyanı öncədən proqnozlaşdırılmış məkanda endirə, sonra onu oradan hərəkət etdirə, öncədən hesablanıb müəyən edilmiş yerdəki məkana endirə, hətta saniyə ilə ölçülən zərərləri müəyyən edə və bunun üçün proqramlar tərtibə edə bilirlər? Əgər kainata iki və daha artıq iradə hakim olsaydı, hər birinin bir istəyi olardı və hər biri digərinin təsirinə qarşı çıxardı, nəticədə, dünya dağılardı[1376].

[1376] Nümunə, c.13, səh.381

25. Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: “Məndən başqa heç bir məbud yoxdur, yalnız Mənə ibadət edin!”– deyə vəhy etməyək.

26. Onlar dedilər: “Rəhman Allah Özünə övlad götürdü!”. O, pakdır, müqəddəsdir! Onlar (mələklər) Onun layiqli qullardır.

27. Ondan qabaq danışmazlar; (hər zaman) Onun əmrini yerinə yetirərlər.

28. O onların indiki, gələcək və keçmiş əməllərini bilir. Onlar yalnız Onun razı qaldığı şəxslərdən ötrü şəfaət diləyir və Onun qorxusundan tir-tir əsirlər.

29. Onlardan kimsə: “Mən Ondan başqa bir tanrıyam!” – desə, onu Cəhənnəmlə cəzalandırarıq. Biz zalımları belə cəzalandıracağıq.

30. Məgər kafirlər göylərlə yer bir olduğu zaman Bizim onları bir-birindən araladığımızı, hər bir canlını sudan yaratdığımızı görmürlərmi? Yenədəmi inanmırlar?

31. Yerin onları yırğalamamasından ötrü orada möhkəm dağlar yaratdıq. Onlar gedə bilsinlər deyə, orada dərələr və yollar yaratdıq.

32. Göyü mühafizə olunan bir tavan etdik. Onlar isə oradakı dəlillərimizdən üz çevirirlər.

33. Gecəni, gündüzü, günəşi və ayı da yaradan Odur. Onların hər biri bir orbitdə hərəkətdədir.

34. Səndən əvvəl də heç bir bəşərə ölümsüzlük nəsib etmədik. Əgər sən ölsən, onlar həmişəlik qalacaqlar?!

35. Hər kəs ölümü dadacaqdır. Biz sizi pisliklər və yaxşılıqlarla sınağa çəkirik. Sonda siz Bizə qaytarılacaqsınız!

---

28. Mələklərin şəfaəti: "Onun razı qaldığı şəxslərdən ötrü şəfaət diləyir" cümləsi müşriklərin mühüm inanclarından birini, yən mələklərin insanlara şəfaətçi olması inancını rədd edir. Bəzi müşriklər mələklərə onlara şəfaətçi olacaqlarını və onlara Allaha yaxınlaşdıracaqlarını düşünərək ibadət edirdilər (Bax: Yunus surəsi – 18; Zümər - 3). Allah-taala bu ayə ilə onların batil inanclarını rədd edir və bildirir ki, mələklərin şəfaəti yalnız Allahın razı qaldığı şəxslərə şamil olur. Mələklərin şəfaəti dini şirkə bulaşmamış və tövhidlə ziddiyyət təşkil edən şəxslərə şamil olur. Yalnız təkAllahlılara şəfaətçi olan mələkləri Allaha şərik qoşub onlardan şəfaət diləyən şəxslərin davranışı çox təəccüb doğurur[1377].

30. Göylərin və yerin yaranış prosesi: Təfsirçilər "Göylərlə yer bir olduğu zaman Bizim onları bir-birindən araladıq" cümləsi ilə bağlı müxtəlif fikrlər irəli sürmüşlər. Onlar arasında üç təfsir daha ağlabatandır: 1. Göylə yerin bir olması yaranışın başlanğıcına işarədir. Alimlər hesab edirlər ki, bu dünya yandırıcı qazlardan ibarət olan çox böyük bir kütlə halında olmuş, daxili partlayış və hərəkət nəticəsində tədricən parçalara bölünmüş, nəticədə, ulduzlar, planetlər, o cümlədən günəş sistemi və yer kürəsi yaranmışdır.

[1377] Əl-Mizan, c.14, səh.378

Kainat indi də genişlənməkdədir. 2. Bitişiklik deyilərkən dünyanı təşkil edən maddələrin vahdişəkilli olması nəzərdə tutulur. Dünyanı təşkil edən bütün məddələr bir vahid şəkildə olmuş, ancaq zaman keçdikcə bir-birindən ayrılıb yeni tərkiblər almış, bitkilər və heyvanlar meydana gəlmiş, yerdə və göydə müxtəlif varlıqlar peyda olmuşdur. Bu varlıqların hər biri özünəməxsus nizam-intizama və xüsusiyyətlərə malikdir. Onların malik olduqları xüsusiyyətlərin hər biri Allahın əzəmətinin, sonsuz elm və qüdrətinin göstəricisidir. 3. Göyün bitişik olması deyilərkən ilk əvvəllər oradan yağış yağmaması nəzərdə tutulur. Yerin bitişk olması deyilərkən ilk vaxtlarda yerdə bitki bitməməsi nəzərdə tutulur. Ancaq Allah-taala hər ikisində açılış etmiş, göydən yağış yağdırmış, yerdən müxtəlif bitkilər bitirmişdir. Əhli-beyt (ə) hədislərinin çoxunda sonuncu təfsirə, bəzilərində isə birinci mənaya işarələr edilmişdir[1378].

30. Su mövcudatın həyatının əsasını təşkil edir: Bütün canlıların həyatı sudan asılıdır. Suyun mənbəyini isə göydən yağan yağışlar təşkil edir. Alimlər hesab edirlər ki, ilk həyat tumurcuqları dənizlərin dərinliklərində meydana gəlmişdir. Buna görə də həyatın başlanğıcını su təşkil edir. Quranda insanın torpaqdan yarandığı deyilərkən, yaddan çıxarmamalıyıq ki, torpaq və sudan təşkil olunmuş palçıq nəzərdə tutulur. Bir nüansı da nəzərdən qaçırmaq olmaz ki, insan və heyvanların çoxunun bədəninin böyük bir hissəsini (70%) su təşkil edir. Bəziləri mələklərin və cinlərin canlı olduqları halda, sudan yaranmadığını deyərək bu fikrə etiraz etmişlər. Ancaq onların cavabı çox sadədir. Onlar ayədə hiss olunan canlıların nəzərdə tutulduğunu nəzərdən qaçırırlar[1379].

[1378] Nümunə, c.13, səh.394
[1379] Nümunə, c.13, səh.396

32. Göy mühafizə edilən tavandır: Göy deyilərkən ayədə yer kürəsini əhatə edən və qalınlığı yüz kilometrlərlə ölçülən hava qatı nəzərdə tutulur. Hava və qazlardan təşkil olunmuş bu zərif qat əslində, çox möhkəm və müqavimət gücünə malikdir ki, kənardan yerə yaxınlaşan istənilən cismi məhv edir və yer kürəsini hər gün yağan komet yağışından qoruyur. Bundan başqa, atmosfer təbəqəsi Günəşin zəhərli şüalarının yer kürəsinə gəlməsinin qarşısını alır və sanki süzgəc rolunu oynayır[1380].

[1380] Nümunə, c.13, səh.398

36. Kafirlər səni gördükləri zaman sənə ancaq istehza edərək: “Sizin tanrılarınıza tənə edən budurmu?”– deyirlər. Məhz onlar Rəhman olan Allahı xatırlamağı inkar edirlər.

37. İnsan hövsələsiz yaradılmışdır. Tələsməyin, tezliklə Mən dəlillərimi sizə göstərəcəyəm.

38. Onlar: “Əgər doğru deyirsinizsə, bu vəd nə vaxt yetişəcək?”– deyirlər.

39. Kaş ki, kafirlər üzlərindən və kürəklərindən uzaqlaşdıra bilməyəcəkləri və onlara heç bir köməyin edilməyəcəyi vaxtın (gələcəyini) biləydilər!

40. (Allahın bu əzabı) onları gözlənilmədən yaxalayacaq və onları heyrətə salacaqdır. Onlar onu dəf edə bilməyəcəklər və onlara aman da verilməyəcəkdir.

41. Səndən əvvəlki elçiləri də məsxərəyə qoymuşdular. Rişxənd edənləri istehza etdikləri şey məhv etdi.

42. De: “Gecə-gündüz sizi mərhəmətli Allahdan kim qoruyur?” Lakin onlar öz Rəblərini xatırlamaqdan üz çevirdilər.

43. Yoxsa onların onları Bizdən qoruya biləcək tanrılarımı vardır? Onlar hətta özlərinə belə kömək etməyə qadir deyillər. Bizdən də müdafiə oluna bilməzlər.

44. Biz onlara və atalarına ömürləri uzanıncaya qədər xoş güzəran verdik. (Nəticədə, onlar həddi aşdılar.) Məgər onlar Bizim gəlib sürəkli olaraq yerin tərəflərindən (yer əhalisini) əskiltdiyimizi görmürlərmi? Məgər onlar qalibdirlərmi?!

--

37. Tələskənliyin pislənməsi: Bu ayədə insanın tələskənliyindən danışılır. Hətta ayənin orjnalında "insan tələskənlikdən yaranmışdır" ifadəsi işlənmişdir. İnsan o qədər tələskəndir ki, sanki ondan başqa heç nə bilmir. Məsələn filankəs başdan ayağa pislik və ya yaxşılıqdır, ya o qədər yaxşıdır ki, sanki yaxşılıqdan, ya o qədər pisdir ki, sanki pislikdən yaranmışdır[1381]. Tələskənlik bəyənilməyən xüsusiyyətlərdəndir. Din böyükləri və əxlaq alimləri bu xüsusiyyəti çox məzəmmət etmişlər. Əlbəttə, tələsməklə sürəti qarışdırmamaq laızmdır. Sürət proqram tam tənzimləndikdən, bütün cəhətlər hesablandıqdan sonra vaxt itkisinə yol vermədən həyata keçirilən fəaliyyətlərə şamil edilir. Tələskənlik isə proqram tam şəkildə hazır olmadan, tamamlama işlərinin aparılmasına ehtiyac duyulduğu halda, göstərilən fəaliyyətlərə şamil olur. Deməli, sürət bəyənilən bir hərəkət olduğu halda, tələskənlik bəyənilmir[1382]. İmam Əli (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Zamanı yetişmədən işləri görməyə tələsməkdən, habelə zamanı yetişmiş işləri yerinə yetirməkdə səhlənkarlıq etməkdən çəkin... Hər bir şeyi öz yerinə qoy, hər bir işi vaxtında yerinə yetir."***[1383]

37. Əzabın nazil olmasına tələsmək: Əvvəlki ayədən belə məlum olur ki, müşriklər Peyğəmbərin (s) çağırışına qarşı olduqlarını nümayiş etdirmək üçün onunla qarşılaşdıqda onu məsxərəyə qoyur, bununla da küfr və günahlarını daha da artırırdılar. Əlbəttə, Allah onlara qarşı onların özü kimi davranmadı. Onlar Peyğəmbərin (s) dəvətini zarafata salıb məsxərəyə qoydular, ancaq Allah onların bu zarafatlarını ciddiyə aldı. Kafirlər Peyğəmbəri (s) hər məsxərəyə qoyduqlarında özlərini ilahi əzaba daha da yaxınlaşdırdılar. Sanki bu hərəkətləri ilə əzaba daha tez düçar olmaq

---

[1381] Əl-Mizan, c.14, səh.290
[1382] Nümunə, c.13, səh.313
[1383] Nəhcül-bəlağə, 53-cü məktub

istəyirdilər. Onlar sağlam olduqları vaxt Allahın göstərdiyi əlamətlərdən dərs götürmür, öz əzablarının əlamətlərini gəzirdilər. Buna görə də Allah bu ayədə kafir olduqdan sonra onların istehza etmələrinin səbəbini əzab əlamətlərini görməyə tələsmələri ilə izah edir və tezliklə əlamətlərini onlara göstərəcəyini xəbər verir[1384].

40. Cəhənnəm odu gözlənilməz və vahiməlidir: Cəhənnəm odu gözlənilmədən gələcək, yəni günahkarlar odun haradan gəldiyini və onları necə əhatə etdiyini bilməyəcəklər. Bu məna əslində, öz izahını Allah-taalanın Cəhənnəmi vəsf edərkən buyurduğu ***"Allahın yandırdığı od. O od ki, qəlblərdən qalxır"*** (Hüməzə - 7-8), ***"Siz və Allahdan qeyri ibadət etdiyiniz Cəhənnəmin odunları olacaqsınız"*** (Ənbiya - 98) ayələrində tapır. Məlumdur ki, belə bir xüsusiyyətə malik olan od insanın daxilini sardığı kimi, zahirini də bürüyəcək. O, daxili zahərdən az yandırmayacaq. Bu od dünya odu kimi dəridən başlayıb daxilə keçmir. Cəhənnəm odu insanın dərisi ilə daxilini birlikdə yandırır. İnsan ondan xilas ola bilmir, ondan yaxa qurtarmaq üçün çıxış yolu tapa bilmir, özü ilə od arasına heç nə çəkə bilmir. Çünki od varlığının dərinliklərindən şölələnir. Buna görə də Cəhənnəm sakinlərinin yeganə reaksiyası yalnız vahimələnməkdən ibarət olur, heç yerə qaça bilmir, özlərini müdafiə edə bilmirlər[1385].

44. Yer sakinlərinin fani olması Allahın qüdrətinin, yaranmışların acizliyinin nişanəsidir: Təfsirçilər "Biz gəlib sürəkli olaraq yerin tərəflərindən (yer əhalisini) əskildirik" cümləsi ilə bağlı müxtəlif fikirlər irəli sürmüşlər. Bu fikirlər arasında daha ağlabatanı "yer" deyilərkən yer əhalisinin nəzərdə tutulması ilə bağlı olan fikirdr. İnsanlar tədricən və sürəkli olaraq ölüb getdikləri və dünya həyatına vida etdiklər üçün yerin

[1384] Əl-Mizan, c.14, səh.290
[1385] Əl-Mizan, c.14, səh.291

tərəflərindən sürəkli olaraq əskilir. Əhli-beyt (ə) mamlarına aid edilən bəzi hədislərdə bu ayədə alimlərin ölümünün nəzərdə tutulduğu qeyd edilmişdir. Əslində, bu hədislərdə ayənin məzmunun yalnız həmin şəxslərlə məhdudlaşdığına deyil, parlaq nümunələrə işarə edildiyni yaxşı bilirik. Beləliklə, ayədə böyük insanların ölümü, çoxsaylı xalqların qırılması, hətta alimlərin ölümünün xatırlanması özlərindən razı, qürurlu və əbırsiz kafirlər üçün ibrət dərsi rolunu oynayır. Bununla da onların Allahla mübarzədə məğlub olacaqları onlara başa salınır[1386].

45. De: “Mən sizi ancaq vəhy vasitəsilə xəbərdar edirəm”. Karlar xəbərdar edildikləri vaxt deylənləri eşitməzlər.

46. Əgər onlara Rəbbinin ən kiçik əzabı belə toxunsa, fəryad qoparıb: “Vay halımıza! Biz zalım olmuşuq”– deyərlər.

47. Biz Qiyamət günü ədalət tərəziləri quracağıq. Heç kəsə cüzi də olsa, ədalətsizlik edilməyəcəkdir. (Gördükləri yaxşı və pis əməl) bir xardal

[1386] Nümunə, c.13, səh.415

dənəsi ağırlığında olsa belə, onu hazır edəcəyik. Bizim haqq-hesab çəkməyimiz kifayət edər.

48. Biz Musa və Haruna fürqan (haqqı batildən ayıran), nur və müttəqilərə xatırlatma vasitəsi vermişdik.

49. O müttəqilər ki, öz Rəblərindən gizlində qorxur və Qiyamətdən lərzəyə gəlirlər.

50. Bu, nazil etdiyimiz mübarək bir Zikrdir. Siz onu inkarmı edirsiniz?

51. Biz daha öncə İbrahimə də hidayət və inkişaf vasitəsi bəxş etdik. Biz onu tanıyırdıq.

52. Bir zaman o öz atasına və tayfasına: "Bu cansız heykəllər nədir ki, siz onlara sürəkli sitayiş edirsiniz?" – dedi.

53. Onlar: "Biz atalarımızı onlara ibadət edən görmüşük!" – dedilər.

54. Dedi: "Həqiqətən, həm siz, həm də atalarınız açıq-aydın bir azğınlıq içində olmusunuz".

55. Onlar: "Sən bizə haqq gətirmisən, yoxsa zarafat edirsən?" – dedilər.

56. Dedi: "Xeyr, sizin Rəbbiniz, yaratdığı göylərin də, yerin də Rəbbidir. Mən buna şahidlik edənlərdənəm.

57. Allaha and olsun ki, siz olmayanda bütlərinizi məhv etmək üçün bir plan cızacağam!"

---

47. Ədalət tərəzisi: Bəziləri hesab edir ki, Qiyamətdə bu dünya tərəzlərinə bənzər tərəzlər qurulacaq. Sonra da fərz edirlər ki, insanların əməlləri orada çəkilmək üçün çəki və ağırlığa malik olacaq. Əslində isə Qiyamətdən bəhs edərkən tərəzi sözündən əməllərin ölçüləcəyini ifadə

etmək üçün istifadə edilir. Bildiyimiz kimi, hər bir şeyin özünə uyğun ölçü cihazı vardır. Termometr, barometr və digər ölçü cihazları onlarla ölçülən şeyə uyğundur. Hədislərə əsasən Qiyamətdə ölçü vasitələri peyğəmbərlər, imamlar, əməl dəftərlərində qaranlıq nöqtə olmayan pak və əməlisaleh insanlardır[1387]. Böyük və nümunəvi şəxsiyyətlər əməllərin ölçü miqyaslarıdır. Hər kəsin əməli onların əməllərinə bənzərlik dərəcəsi ilə ölçülür. Onların əməllərinə bənzəməyn əməllər ölçüsüz və ya çəkisi az olan əməllər hesab edilir. Allah dostları hətta bu dünyada da ölçü miqyasları hesab edilir. Onlara daha çox bənzəyənlər daha dəyərli insanlardır. Qyamətdə bu həqiqət özünü aşkar şəkildə büruzə verəcək[1388].

50. Hamı üçün xeyirli və bərəkətli olan bir kitab: Bu ayədə Quran ona görə "mübarək" adlandırılıb ki, o sabit və daimi xatırlatmaya, çoxlu xeyir-bərəkətə malik, həm möminlərə fayda verən, həm də cəmiyyətdə kafirlərin asayişini təmin edən, xülasə, qəbul etsələr də, etməsələr də bütün dünya əhalisi üçün faydalı olan bir kitabdır. Bu iddianın səbəbi bu gün insan cəmiyyətində müşahidə etdiyimiz inkişaf və islahatlardır. Əgər dönüb geriyə, Quranın nazil olduğu və ondan əvvəlki əsrə baxsaq, Quranın bərəkəti sayəsində bəşəriyyətin haradan haraya gəldiyini görər, dildə etiraf etsələr də, etməsələr də dünya əhalisinin Quranın bərəkəti sayəsində hansı inkişafa nail olduğu məlum olar. Əlbəttə, inkarçıların bu həqiqəti inkar etməsində müsəlmanlar da az rol oynanamamışlar. Çünki müsəlmanlar özləri də Qurana riayət etməkdə zəiflik göstərmişlər. Bunu Quran ayəsi də təsdiq edir. Belə ki, Quranda Peyğəmbərin (s) Qiyamət günü şikayətlənərək belə

[1387] Nümunə, c.13, səh.431
[1388] Quranın ismarışı, c.6, səh.160

deyəcəyi qeyd edilmişdir: ***"Ey Rəbbim! Mənim bu ümmətim Qurandan uzaq düşdü."*** (Fürqan surəsi - 30)[1389].

57. Müşriklərin həzrət İbrahim (ə) tərəfindən təhdid edilməsi: Bu ayədə İbrahimin (ə) dilindən nəql edilən fikir böyük ehtimalla açıq şəkildə deyilmiş bir cümlə deyil, ürəyindən keçirdiyi bir qərar olmuşdur. Çünki əksər vaxtlar qərarlar sözlə ifadə edilir. Məsələn, "Artıq demişəm, mən bunu hökmən edəcəyəm". Yəni mənə bu işi etməyi qərara almışam. Çox güman ki, bu cümlənin xitab obyekti o dövrün bütün bütpərəstləri olmamışdır. Çünki sözügedən xalq çox güclü və öz bütlərinə qarşı həddən artıq təəssübkeş idi. İbrahim (ə) onlar üçün yad idi. Digər tərəfdən həmin vaxt İbrahmin (ə) yalnız özünün etqad bəslədiyi təkAllahlıq inancına dəvətinin ilk çağı idi. Bütün bunlar bir kənara, İbrahimin (ə) öz düşmənini gəldiyi qərardan xəbərdar etməsi və açıq şəkildə "Siz olmayanda bütlərinizi məhv etmək üçün plan cızacağam" deməsi ehtiyatsızlıq olardı. Əgər onun bu qərarını açıq-aşkar söylədiyini ehtimal edəriksə, o zaman ən azından bunu şəhərin bəzi sakinlərinin və bu sirri heç kıəsin yanında açmayacağını ehtimal etdiyi insanların yanında söylədiyini deməliyik[1390].

[1389] Əl-Mizan, c.14, səh.298
[1390] Əl-Mizan, c.14, səh.300

58. Nəhayət, (münasib bir vaxt tapıb) onların hamısı sındırıb qırıq-qırıq etdi və yalnız böyüyünü saxladı ki, bəlkə ona müraciət edələr.

59. (Bütləri bu vəziyyətdə gördükdə onlar) dedilər: “Tanrılarımızla bu cür davranan şəxs şübhəsiz ki, zalımlardandır!”

60. (Bir qrup:) “İbrahim adlı bir gəncin bütlər haqqında pis-pis danışdığını eşitmişik”– dedi.

61. (Başqa bir qrup:) “Şahidlik etməsi üçün onu camaatın gözləri önünə gətirin!” – dedi.

62. Dedilər: “Tanrılarımızla sənmi belə davrandın, ey İbrahim?”

63. Dedi: “Bəlkə bunu onların böyüyü edib. Əgər danışa bilirlərsə, özlərindən soruşun”.

64. Onlar vicdanlarının səsi ilə öz-özlərinə: “Həqiqətən də, siz zalımlarsınız” – dedilər.

65. Sonra baş-ayaq çevrilib (vicdanlarını unudub) dedilər: “Axı sən bilirsən ki, bunlar danışmırlar”.

66. (İbrahim) dedi: “Elə isə Allahı qoyub sizə heç bir fayda və zərər verə bilməyənlərəmi tapınırsınız?

67. Tfu sizə də, Allahdan başqa tapındıqlarınıza da! Düşünmürsünüzmü?”

68. Dedilər: “Əgər bacarırsınızsa, onu yandırıb tanrılarınıza köməklik göstərin”.

69. (Nəhayət, onu oda atdılar.) Biz: “Ey od! İbrahim üçün sərin və zərərsiz ol!” – dedik.

70. Onlar İbrahimi bu planla məhv etmək istədilər, lakin Biz onları insanların ən ziyana uğramışları etdik.

71. Biz onu da, Lutu da xilas edib aləmlər üçün bərəkətli etdiyimiz yerə gətirdik.

72. Biz ona İshaqı və bir də Yaqubu bağışlayıb hamısını əməlisaleh insanlar etdik.

---

63. İbrahim (ə) yalan danışmadı: İbrahim (ə) peyğəmbər və məsum olduğu, yalan danışması da əsla mümkün olmadığı halda, söylədiklərinin reallıqla üst-üstə düşməməsi təfsirçilər arasında fikir ayrılıqlarına və onların bu ayənin yozumu ilə bağlı fərqli izahlar verməsinə səbəb olmuşdur. İrəli sürülən fikirlər arasında daha məntiqlisi budur: İbrahimin (ə) bu işi böyük bütün üstünə atması danılmazdır. Ancaq bütün əlamətlər onun ciddi olmadığını göstərir. Əslində, o bu davranışı ilə bütpərəstlərin xurafat və əsassız inanclarını onların üzünə vurmaq, cansız daş və ağacların nəinki yardım istəyənlərin problemlərini həll etmək, hətta bir cümlə belə deyib onlara pərəstiş edənlərdən yardım istəyə bilməyəcək qədər aciz olduqlarını başa salmaq istəmişdi. Biz özümüz də mübahisə zamanı qarşı tərəfin

iddialarının əsassız olduğunu ortaya çıxarmaq üçün onun tərəddüdsüz qəbul etdiyi fikirləri nəqli və ya sual cümləsi formasında onun özünə təqdim edirik. Bu metodun yalanla uzaqdan-yaxından heç bir əlaqəsi yoxdur. Yalan heç bir kontekst və müəyyənləşdirici əlaməti olmayan sözlərdir. İmam Sadiq (ə) buyurmuşdur: ***"İbrahim bu sözləri onları islah etmək və bütlərin belə bir iş görə bilməyəcəyini söyləmək üçün söyləmişdir."*** Sonra İmam (ə) buyurmuşdur: ***"And olsun Allaha, o bütlər belə bir şey etməmiş və İbrahim yalan söyləməmişdir."***[1391]

68-69. İbrahimin (ə) yandırılmasına qərar verilməsi və odun gülüstana çevrilməsi: Müşriklərin İbrahimi (ə) yandırmaq qərarına gəlməsi və odun gülüstana çevrilməsi ilə bağlı çoxlu hədislər nəql edilmişdir. Burada bir neçə nüansa işarə edəcəyik: Deyilənə görə İbrahimi (ə) yandırmaq üçün qalanan tonqal o qədər böyük olmuşdur ki, quşlar həmin ərazidən uçub keçə bilməmişlər. Təbii ki, belə bir tonqala yaxın durmaq olmazdı. Buna görə də İbrahimi (ə) bu od dənizinin içinə atmaq üçün mancanaqdan istifadə etmişlər. Hədislərin birində belə qeyd edilmişdir: İbrahimi (ə) mancanağa qoyub oda tullamaq istədikləri vaxt yer, göy və mələklər fəryad qoparıb Allahdan bu tövhid qəhrəmanını qorumasını istəyirlər. Cəbrayıl İbrahimin (ə) yanına gəlib deyir: "Bir ehtiyacın varmı?" İbrahim (ə) "Sənə yox" – deyə cavab verir. Bu vaxt Cəbrayıl ona deyir: "Onda ehtiyac duyduğunu Allahdan istə". O isə belə cavab verir: ***"Onun mənim vəziyyətimdən xəbərdar olması kifayətdir".*** Hədislərin birində qeyd edilir ki, onu o oda düşdüyü vaxt Allah oda "Sərin ol!" – deyə əmr edir. Od elə soyuyur k, soyuqdan İbrahimin (ə) dişləri bir-birinə dəyir. Allah oda "Zərərsiz ol!" – deyə əmr edir. Bu vaxt zadəganlardan bii deyr: Mən oda onu yandırmamasını dedim. Bu vaxt

---

[1391] Nümunə, c.13, səh.438

tonqaldan bir od sıçrayıb onu yerindəcə yandırır[1392]. Hər kəs üçün faydalı olan nüanslardan biri budur ki, bəzən insan səbəblər aləminə elə qərq olur ki, təsir və xassələrin varlıqların özünə aid olduğunu güman edir, mövcudata bu xassələri verən varlığı unudur. Deməli, Allah bəzən insanları ayıltmaq üçün səbəb yaradıb səbəb yandırır, bəzi varlıqlara onlar üçün səciyyəvi olmayan xassəni verir, eyni zamanda bəzilərini onlar üçün spesifik olan xassədən məhrum edir. Bununla da onların öz-özlərində heç nəyə malik olmadığını başa salır. Diqqətləri bu həqiqətlərə yönəltməklə möminlərdə təvəkkül və bəndəlik ruhunu dirildir, oyaq saxlayır, Allahdan qeyrisini düşünməməyə, Ondan qeyrisindən yardım istəməməyə yönləndirr. Möminlər problemlər odunun söndürülməsini yalnız Ondan istəyirlər, düşmənlərin məhv edilməsini ondan xahiş edirlər, yalnız Onu görür, ondan başqasından heç nə təmənna etmirlər[1393].

[1392] Nümunə, c.13, səh.445
[1393] Nümunə, c.13, səh.447

73. Biz Öz hökmümüzlə onları (insanlara) doğru yolu göstərən rəhbərlər etdik. Onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər.

74. Lutu da (yada sal!) Biz ona hökmranlıq (peyğəmbərlik) və elm bəxş etdik, çirkin işlər görən bir şəhərdən xilas etdik. Çünki onlar çirkin və pozğun insanlar idilər.

75. Onu Öz rəhmətimizə daxil etdik. O, əməlisalehlərdən idi.

76. Nuhu da (yada sal!) Daha öncə dua etdiyində Biz onun duasını qəbul etmiş, özünü və ailəsini böyük qəm-qüssədən qurtardıq!

77. Onu ayələrimizi yalan hesab edən adamlardan müdafiə etdik. Çünki onlar pis adamlar idilər. Odur ki, Biz onların hamısını suya batırdıq.

78. Davudu və Süleymanı da (yada sal!) Bir zaman onlar camaatın çobansız qoyunlarının gecə vaxtı girib otladığı (və bərbad hala saldığı) bir əkin sahəsi barəsində hökm vermişdilər. Biz onların hökmünə şahid idik.

79. Biz onu (əsl hökmü) Süleymana başa saldıq. Onların hər ikisinə hökmranlıq və çoxlu elm bəxş etdik. Biz dağları və quşları Davudla birlikdə (Allahı) tərifləmələri üçün ram etdik. Bunu Biz etdik.

80. Biz ona (Davuda) sizi döyüşlərdə qoruması üçün zireh düzəltməyi öyrətdik. Siz şükür edirsinizmi?

81. Güclü əsən küləyi Süleymana ram etdik. Onun əmri ilə bərəkət verdiyimiz yerə tərəf əsərdi. Biz hər şeydən xəbərdar idik.

---

73. İmamət, maddi və mənəvi rəhbərlik: Bu ayədə daha öncə adları çəkilmiş peyğəmbərlərə işarə edilir, insanların rəhbər və liderləri olduqları qeyd edilir. Ayədə qeyd edilir ki, Allah-taala bu peyğəmbərlərə peyğəmbərliklə yanaşı imamlıq, rəhbərlik də vermişdir. İmamət insanların maddi və mənəvi, zahiri və batini, cismani və ruhani yönlərinin bütün

cəhətlərinə rəhbərlik mənasını ifadə edən ən son kamillik dərəcəsidir. Peyğəmbərliklə imamətin fərqi ondadır ki, peyğəmbərlər nəbilik və elçilik məqamında yalnız Allahın əmrini almaq və onu müjdə və xəbərdarlıq şəklində insanlara çatdırmaq öhdəliyi daşıyırlar. Ancaq imamət mərhələsində onlar ədalətli hökumət qurmaqla və ya hökumət olmadan da bu proqramları icra öhdəliyi daşıyırlar. Bu mərhələdə onlar tərbiyəçi, hökm və proqramların icraçısı, insanların təlim-tərbiyəçisi, pak, təmiz və insani mühit yaratmaq vəzifəsi yerinə yetirirlər. İmamət məqamı bütün ilahi proqramların həyata keçirilməsi məqamıdır. Başqa sözlə desək, obyektiv və subyektiv yönləndricilik, insanları hədəfə çatdırmaq məqamıdır. Bu cəhətdən imam öz şüaları ilə bütün diri canlıların həyatını təmin edən günəşə bənzəyir[1394].

78. Davud və Süleyman, Allahın təyin etdiyi hakimlər: Bu və sonrakı ayədə həzrət Davud və Süleymanın hökm çıxarma əhvalatına işarə edilmişdir. Əhli-beyt (ə) hədislərindən bizə gəlib çatan məlumatlarda qeyd edilir ki, gecə vaxt br sürü üzüm bağına daxil olub üzümlərin yarpaqlarını və meyvələrini yeyərək bağı bərbad hala salır. Bağ sahibi Davudun yanına şikayətə gəldiyində Davud dəymiş ziyan qarşılığında bütün qoyunların bağ sahibinə verlməsinə hökm verir. Həmin vaxt azyaşlı olan Süleyman atasına çıxardığı hökmü əvəz etməsini, südündən və yunundan istifadə etməsi üçün qoyunların bağ sahibinə verilməsini, dəymiş ziyanı aradan qaldırması, bağı əvvəlki vəziyyətinə salması üçün sürü sahibinə verilməsi, bağ əvvəlki vəziyyətinə qaytarıldıqdan sonra bağın və qoyunların öz sahiblərinə qaytarılmasını təklif edir. Sonrakı ayə Allah-taala tərəfindən Süleymanın

[1394] Nümunə, c.13, səh.454

hökmünün təsdiqləndiyini göstərir[1395]. Burada iki nüansa diqqət yetirmək lazımdır: Birincisi, Davud və Süleyman bağ sahibinin xəsarətinin qoyunların sahibi tərəfindən aradan qaldırılmasında yekdil olmuş, sadəcə, icra formasında fərqli metodlar təklif etmişdilər. Davudun belə bir hökm çıxarmasının səbəbi bəlkə də dəymiş ziyanın qoyunların qiymətinə bərabər olması ilə bağlı olmuşdur. Buna görə də Davud qoyunların bağ sahibinə verilməsinə hökm etmişdir. Amma Süleyman daha sadə həll yolu təklif etmişdir. ***"Biz onların hökmünə şahid idik"*** və ***"Onların hər ikisinə hökmranlıq və çoxlu elm bəxş etdik"*** cümlələri hər iki peyğəmbərin Allahın hökmü əsasında hökm çıxardığını və hər iki hökmün Allah tərəfindən məqbul sayıldığını göstərir. Amma onların birinin çıxardığı hökm digərindən daha asan olmuşdur. Hədislərdə yazılanlara görə Davud özündən əvvəlki peyğəmbərlərin metodu ilə hökm ermişdir. Lakin Allah Süleymana bundan sonra hökmün fərqli şəkildə icra ediləcəyini vəhy etmişdir. İkinci nüans budur ki, Quran ayələrinə əsasən, Davud (ə) həmin vaxt Allahın yer üzündəki xəlifəsi, Allah tərəfindən təyin edlmiş hökmdar idi. İcra ediləcək olan hökm onun hökmü olmalı idi. Süleyman (ə) gəldikdə isə, əlbəttə ki, o, atasının icazəsi ilə hökm vermiş və bu da səbəbsiz olmamışdır. Yoxsa ki, bir hadisə ilə bağlı iki hökm çıxarılmasının və çıxarılan hökmlərin hər birinin də ayrı-ayrılıqda keçərli olmasının heç bir mənası olmazdı. Deməli, Davud və Süleymanın hökm verməsi deylərkən əslində, onların ayrı-ayrılıqda hökm verməsi deyil, məsləhətləşməsi nəzərdə tutulur. İmam Sadiqin (ə) bir hədisində bu fikir açıq şəkildə ifadə edilmişdir. Hədislərinin birində İmam Sadiq (ə) buyurur ki, həzrət Davud (ə) bu addımı ilə öz canişinini İsrail

[1395] Nümunə, c.13, səh.466

oğullarına tanıtdırmaq və Süleymanın bu məqama layiq olduğunu başa salmaq istəmişdir[1396].

81. Şam Süleymanın vətəni və bərəkətli bir məmləkətdir: Bərəkətli yer deyilərkən burada Süleymanın yaşadığı Şam nəzərdə tutulmuşdur[1397].

82. Şeytanlar arasından onun üçün dalğıclıq edən və bundan başqa işlər görənlər də var idi. Biz onları nəzarətimiz altında saxlayırdıq.

83. Əyyubu da (yada sal!) Bir zaman o, Rəbbini çağırıb demişdi: "Çətinlik və əzab-əzyyətlərə məruz qalmışam. Sən rəhmlilərin ən rəhmlisisən!"

84. Biz onun duasını qəbul etdik və düçar olduğu bəlanı aradan qaldırdıq. Tərəfimizdən bir mərhəmət və ibadət edənlər üçün bir xatırlatma olsun deyə, ailəsini ona qaytardıq, üstəlik bir o qədər də əlavə etdik.

[1396] Əl-Mizan, c.14, səh.312
[1397] Əl-Mizan, c.14, səh.315

85. İsmaili, İdrisi və Zülkifli də (yada sal!) Hamısı səbr edənlərdən idilər.

86. Biz onları rəhmətimizə qovuşdurduq. Çünki onlar əməlisalehlərdən idilər.

87. Zün-Nunu (Yunisi) da (yada sal!) Bir zaman o qəzəbli (qövmündən) getmiş və onu sıxmayacağımızı (həyatı ona dar etməyəcəyimizi) güman etmişdi. Sonra da zülmətlər içində çağırıb demişdi: "Səndən başqa heç bir məbud yoxdur! Sən paksan, müqəddəssən! Mən zülm edənlərdən olmuşam!"

88. Biz onun duasını qəbul etdik və həmin qəm-qüssədən xilas etdik. Biz möminləri belə xilas edirik!

89. Zəkəriyyanı da (xatırla!) Bir zaman o yalvarıb demişdi: "Ey Rəbbim! Məni tənha buraxma. Sən varislərin ən yaxşısısan!"

90. Biz də onun duasını qəbul etdik, ona Yəhyanı bəxş etdik və zövcəsini (hamilə qalmağa) hazır etdik. Çünki onlar yaxşı işlər görməyə tələsər, ümid və qorxu ilə Bizi çağırardılar. Onlar Bizə müti idilər.

---

82. Şeytanların Süleymana xidmət göstərməsi: Bu ayədə şeytanlar kimi təqdim edilən varlıqlar "Səba" surəsinin 12-13-cü ayələrində cin adlandırılmışdır. Bu ikisi bir-bri ilə təzad təşkil etmir. Çünki şeytanlar da cinlərdəndir. "Cin" surəsində bu mövzu haqqında bir qədər geniş məlumat verəcəyik. "Sad" və "Səba" surələrinin ayələri, habelə bu ayə əsasında məlum olur ki, Süleymana tabe olan bu cinlər ağıllı, zirək, müxtəlif bacarıq və qabiliyyətləri olan cinlər olmuşlar. Onlar dənizdə Süleyman üçün dalğıclıq edir, dənizin altından ləl-cəvahirat və qiymətli əşyalar gətirirmişlər. "Bundan başqa işlər görərdilər" cümləsi "Səba" surəsinin 13-cü ayəsində

geniş şəkildə deyilənlərin icmalıdır. Həmin ayədə Allah-taala belə buyurmuşdur: ***"Onlar Süleyman nə istəyirdisə, qəsrlər, heykəllər, hovuzlara bənzər çanaqlar və yerindən tərpənməyən nəhəng qazanlar düzəldirdilər."***[1398] Süleymana aid olan digər ayələrdən, o cümlədən "Sad" surəsinin 38-ci ayəsindən belə məlum olur ki, Süleyman itaət göstərməyən bir qrup şeytanı da ram etmişdi. "Biz onları nəzarət altında saxlayırıq" cümləsində Süleymanın xidmətində olan bu qrupun itaətdən boyun qaçırmasının qarşısının alınmasına işarə edilə bilər[1399].

83. Əyubun əhvalatının qısa məzmunu: Bir nəfər İmam Sadiqdən (ə) Əyyubun başına gələn bəla haqqında soruşduqda "əhvalatın qısa məzmunu belədir", - deyə buyurmuşdu: Əyubun bəlası hər hansı nemətə nankorluq etməsi ucbatından olmamışdı. Əksinə, o, daha çox şükür etdiyi üçün bu bəla və çətinliklərə məruz qalmışdı. Şeytan onun çox-çox şükür etməsinə paxıllıq edərək üzünü Allah dərgahına tutub demişdi: Ona görə bu qədər şükür edir ki, ona zəngin həyat və bol nemət bəxş etmisən. Əgər dünya nemətlərini ondan alsan, əsla sənə şükür etməz. Məni onun dünyasına hakim et, onda görərsən məsələ mən dediyim kimidir. Allah-taala bu hadisəni haqq yolunun bütün yolçularına örnək etmək üçün şeytana bu icazəni verir. O, Əyyubun övladlarını bir-bir onun əlindən alır. Ancaq bu bəlalar onun şükürünü azaltmaq əvəzinə daha da çoxaldır. Şeytan Allahdan Əyyubun əkin sahələrinin və qoyunlarının onun ixtiyarına verilməsini istəyir. Bu icazə verildikdən sonra Şeytan əkin sahələrinə od vurur, qoyunların axırına çıxır. Əyyubun şükürü yenə azalmır. Nəhayət Şeytan Əyyubun bədəninə təsir edə bilməyi, onu xəstələndirməyi Allahdan istəyir. Buna da icazə verilir. Əyyub elə xəstələnir ki, hətta xəstəliyin şiddətindən hərəkət etməyə taqəti olmur,

[1398] Nümunə, c.13, səh.475
[1399] Nümunə, c.13, səh.475

ancaq ağlı və düşüncəsi yerində qalır. Xülasə, malik olduğu nemətlər biri-digərinin ardınca Əyyubdan alınır. Amma Əyub şükürdən əl çəkmir. Hətta iş o yerə çatır ki, onu görməyə gələn bir qrup rahib deyir: "Hansı böyük günaha batmısan ki, belə bir bəlaya düçar olmusan?" Beləcə ona qarşı məzəmmət və tənələr yağmağa başlayır. Bu, hərəkətlər Əyyuba çox ağır gəlir və o belə deyir: "Rəbbimin izzətinə and olsun ki, yetimlər, zəiflər və yoxsullar süfrədə mənimlə oturmayınca ağzıma bir tikə belə aparmamışam. Allahın yerinə yetirməli olan hökmləri ilə qarşılaşdıqda ən çətinini seçmişəm." Əyyub bütün imtahan və sınaqların öhdəsindən səbr və şükür etməklə gəldikdən sonra əlini duaya qaldıraraq çox ədəbli şəkildə, heç bir şikayətə yol vermədən dua edir. Bu zaman Allahın rəhmət qapıları üzünə açılır, çətinlikləri sürətlə aradan qalxır, Allahın nemətləri əvvəlkindən də çox olur, Allah-taala övladlarını dirildir və əlavə də övladlar bəxş edir[1400].

85. Zülkifl: Böyük ehtimalla o, Bəni-İsrail peyğəmbərlərindən olmuşdur. "Kifl" sözünün mənası nəsib, öhdəlik və məsulyyətdir. Etdiyi çoxlu ibadətlər və yaxşı əməllər qarşılığında Allah-taala ona çoxlu savab verdiyi üçün o, Zülkifl (çoxlu fayda sahibi) adlanmışdır. Bəziləri hesab edir ki, o, gecələri ibadət edəcəyi gündüzləri oruc tutacağı, hökm edərkən qəzəblənməməyi əhd etdiyi və sona qədər əhdinə sadiq qaldığı üçün Zülkifl adlanmışdır. Bəzilərinə görə Zülkifl İlyasın ləqəbidir[1401].

[1400] Nümunə, c.13, səh.479
[1401] Nümunə, c.13, səh.483

91. İsmətini qoruyan Məryəmi xatırla! Biz Öz ruhumuzdan ona üfürdük, onu və onun oğlunu aləmlərə bir əlamət etdik.

92. Bunlar hamısı (böyük peyğəmbərlər və onların davamçıları) vahid bir ümmətdir. Mən də sizin Rəbbinizəm. Elə isə Mənə ibadət edin!

93. Lakin onlar dinlərini parçalayıb dəstələrə ayrıldılar. Onların hamısı Bizim hüzurumuza qayıdacaq.

94. Kim mömin olduğu halda yaxşı işlər görsə, əziyyəti geri çevrilməz. Şübhəsiz ki, Biz onun bütün əməllərini yazırıq.

95. Məhv etdiyimiz kəndlər və şəhərlərə qadağa qoyulmuşdur və onlar əsla geri qayıtmaz.

96. Nəhayət, Yəcuc və Məcuc (səddi) açıldığı və onlar yüksəkliklərdən sürətlə keçib gəldikləri zaman;

97. haqq olan vədimiz yaxınlaşdıqda kafirlərin gözləri qorxudan bərələcəkdir. (Deyəcəklər:) “Vay halımıza! Biz bundan qafil idik. Üstəlik zülmkar olmuşuq!”

98. Siz və Allahdan başqa tapındıqlarınız Cəhənnəmin odunu olacaqsınız. Hamınız oraya girəcəksiniz.

99. Əgər bunlar tanrı olsaydılar, ora girməzdilər. Halbuki hamısı orada əbədi qalacaqlar.

100. Onlar orada inildəyəcək və heç nə eşitməyəcəklər.

101. Daha öncə tərəfimizdən yaxşı vəd verilmiş insanlara (əməlisaleh möminlər) gəldikdə isə, onlar ondan uzaq tutulacaqlar.

---

91. Məryəmin (ə) böyüklüyü: Məryəmin (ə) böyüklüyü ondadır ki, peyğəmbərlərdən olmadığı halda, adı Quranda peyğəmbərlərlə eyni sırada çəkilmişdir.

95. Dünyaya qayıtmaq qadağandır: Bu ayədə ilahi əzabı gördükdən, öldükdən və Bərzəx dünyasına getdikdən sonra gözləri önündən qürur pərdəsi çəkilmiş, "Kaş bütün günahlarımızı yumaq üçün dünyaya qayıdaydıq", - deyə arzu edən insanlardan danışılır. Ancaq Quran onların qayıdışının tamamilə qadağan olunduğunu və günahlarını yumaq üçün artıq heç bir çıxış yolunun olmadığını açıq şəkildə ifadə edir. Bu ayə eynilə "Möminun" surəsinin 99-cu ayəsinə bənzəyir. Həmin ayədə Allah-taala belə buyurmuşdur: ***"Nəhayət, onlardan birinə ölüm gəldiyi zaman deyər: "Ey Rəbbim! Məni geri qaytar. Bəlkə tərk etdiyim yaxşı əməlləri edəm". Əsla!"***[1402]

96. Yəcuc və Məcucun yolunun açılacağı vaxt: Yəcuc və Məcuc haqqında "Kəhf" surəsinin 94-cü ayəsində məlumat vermişk. Bu iki tayfanın yolunun açılması deyiləkən səddin dağılması və bu vasitə ilə onların dünyanın digər regionlarına təsiri və ya hər tərəfdən dünyaya nüfuz göstərəcəkləri nəzərdə tutulur. Nəzər nöqtəsi olan ayədə bu mövzu geniş

[1402] Əl-Mizan, c.14, səh.318

şəkildə ifadə edilməmiş, onların təkcə yer üzünə yayılması, bunun Qiyamət əlaməti olmasına işarə edilmişdir[1403]. "Kəhf" surəsinin 97-98-ci ayələrində Zülqərneynin əhvalatı qeyd edildikdən, onun Yəcuc və Məcuc səddi çəkməsinə işarə edidikdən sonra o bəndin Yəcuc və Məcucun keçə bilməyəcəyi, hətta dəlik belə aça bilməyəcəyi şəkildə möhkəm və yüksək olduğuna işarə edilmişdir.

98. Odda olan məbudlar, oddan uzaq olan məbudlar: İmam Baqir (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Ənbiya" surəsinin 98-ci ayəsi nazil olduqdan sonra ayəni eşidən Məkkə əhalisi çox qorxu keçirdi. Şəhərə daxil olduğunda qüreyşlilərin elə hey bu ayədən danışdığını görən Abdulla ibn Zəbəri soruşur: Bu, Muhəmmədin sözüdür? "Bəli", - deyə cavab verirlər. O deyir: "Əgər özü bunu etiraf etsə, onunla mübahisəyə qalxacam". Nəhayət onu Muhəmmədlə görüşdürürlər. İbn Zəbəri soruşur: Söylədiyin cümlə təkcə biz və tanrılarımız haqqındadır, yoxsa bütün bütpərəst xalqlar və onların tanrıları haqqındadır? Peyğəmbər (s) buyurur: Siz və tanrılarınız, bütün ümmətlər və onların tanrıları haqqındadır. Yalnız Allahın özünün istisna etiyi şəxslər xaricdir. İbn Zəbəri deyir: And olsun tanrıya ki, bu dəqiqə sənin cavabını verəcəyəm. Nəsranilərin İsa və anasına ibadət etdiklərini bildiyin halda İsa haqqında yaxşı və xeyirli sözlər danışan sən deyildinmi? Habelə bir qup insan mələklərə sitayiş edir. Onda onlar və ibadət etdikləri odda deyillər? Əgər oddadırlarsa, deməli, İsa və mələklər də odda olacaq? Peyğəmbər (s) buyurur: Xeyr, İsa və mələklər odda deyil. Bunu eşidən qüreyşlilər hay-küy salıb gülüşərək deyirlər: İbn Zəbəri səni yaxşı susdurdu. Peyğəmbər (s) buyurur: Siz mənim sözümü başa düşmədiniz və əbəs yerə hay-küy***

[1403] Nümunə, c.13, səh.502

saldınız. Məgər mən Allahın istisna etdikləri xaricdir, demədimmi? Bunu deyərkən Allahın "Daha öncə tərəfimizdən yaxşı vəd verilmiş insanlar" ayəsini nəzərdə tutmuşdum."[1404]

101. Qiyamətdə kimlər əzabdan uzaq olacaq? Hədislərinin brinidə Peyğəmbərin (s) İmam Əliyə (ə) xitabən belə buyurduğunu oxuyuruq: "Ey Əli! Sən və şiələrin hovuzun kənarındasınız, dostlarınıza su verir, düşmənlərinizi ondan məhrum edirsiniz. Siz insanların narahatlıq keçirdiyi böyük gün əmin-amanlıqda və Allahın ərşinin kölgəsindəsiniz. Hamı qorxu içindədir, siz qorxmursunuz, insanlar qəm-qüssə içindədir, sizin heç bir qəminiz yoxdur. ***"Daha öncə tərəfimizdən yaxşı vəd verilmiş insanlar"***, habelə ***"Ən böyük dəhşət belə onları kədərləndirməyəcək. Mələklər onları qarşılayıb: "Bu sizə vəd olunmuş gününüzdür!"– deyəcəklər"*** ayəsi sizin haqqınızda nazil olub."[1405]

[1404] Əl-Mizan, c.14, səh.335
[1405] Əl-Mizan, c.14, səh.337

102. Onlar Cəhənnəm odunun səsini eşitməyəcəklər. Ürəkləri istədiyi şeydə əbədi qalacaqlar.

103. Ən böyük dəhşət belə onları kədərləndirməyəcək. Mələklər onları qarşılayıb: “Bu sizə vəd olunmuş gününüzdür!”(– deyəcəklər.)

104. O gün göyü yazılı dürmək kimi bükəcəyik. (Məxluqatı) ilk dəfə yaratdığımız kimi yenə əvvəlki halına qaytaracağıq. Bu bizim verdiyimiz vəddir. Sözsüz ki, Biz onu yerinə yetirəcəyik.

105. Biz Zikrdən (Tövratdan) sonra Zəburda da yazmışdıq ki, yer üzünə Mənim əməlisaleh qullarım varis olacaqlar.

106. Bunda ibadət edənlər üçün bir bildiriş vardır.

107. Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik.

108. De: “Mənə vəhy olunan yalnız budur ki, sizin ilahınız Tək olan Allahdır. Təslim olursunuzmu?”

109. Əgər onlar üz döndərsələr, de: “Mən sizn hamınıza bərabər səviyyədə təbliğ etdim. Sizə vəd olunan şeyin yaxın və ya uzaq olduğunu bilmirəm.

110. Allah açıq deyilən sözü də, sizin gizlədib saxladıqlarınızı da bilir.

111. Mən bilmirəm, bəlkə də bu sizi sınaqdan keçirtmək və müəyyən müddətə qədər faydalanmağınız üçündür”.

112. (Peyğəmbər) dedi: “Ey Rəbbim! Ədalətlə hökm ver! Rəbbimiz sizin aid etdiyiniz sifətlərə qarşı yardım dilədiyim Rəhmandır”.

---

103. Qiyamətin böyük qorxusu: Qorxu deyilərkən burada dünyanın sonunda sur çalınarkən yaranan qorxu nəzərdə tutulur. “Nəml” surəsinin 87-

ci ayəsində belə buyurulmuşdur: ***"(Xatırlayın!) Sur çalınacağı gün Allahın istədiklərindən başqa, göylərdə və yerdə olanlar dəhşətə düşəcək."***[1406]

104. Göyün dürmələndiyi gün: Keçmiş zamanlarda məktub və kitab yazmaq üçün lüləşəkilli vərəqlərdən istifadə olunurdu. Bu lülələr bir-birinə bükülürdü. Yazı yazmağa onun bir tərəfindən başlanılırdı. Yazı sona yetdikdən sonra dürmək bir kənara qoyulurdu. Buna görə də həm məktublar, həm də kitablar dürmək şəklində olurdu. Sözügedən dürməyə ərəb dilində "sicl" deyilir. Ayədə dünyanın sonu çatdığı vaxt varlıq aləminin dürməyinin bükülməsi ilə bağlı çox incə bir bənzətmə aparılmışdır. Bu gün həmin dürmək açıqdır, bütün şəkilləri və xətləri oxunur, hər bir xətt və şəkil öz yerindədir. Ancaq Qiyamət əmri yetişdiyində bu böyük lülə bütün xətləri və şəkilləri ilə birlikdə büküləcək. Əlbəttə, dünyanın bükülməsi onun tamamilə məhv olması demək deyil, onun bir-birinə çırpılıp toplanmasıdır. Başqa sözlə desək, dünyanın forması dəyişəcək, ancaq maddəsi dəyişməyəcək. Bu, dirilişdən bəhs edən müxtəlif ayələrdən, xüsusilə insanın çürümüş sümüklərinin yenidən toplanacağından və qəbirdən qalxacağından bəhs edən ayələrdən daha yaxşı başa düşülür[1407].

105. Əməlisaleh bəndələr yer üzünün varisləridir: Varis deyiləkən heç bir alqı-satqı olmadan malın bir nəfərdən başqasına keçməsi başa düşülür. Yerin varisləri deyilərkən yer üzünün mənfəətləri üzərindəki hökmranlığın başqalarından əməlisalehlərə keçməsi, yer üzünün bərəkətinin onlara aid olması nəzərdə tutulur. Sözügedən bərəkətlər dünyəvi nemətlər, yəni əməlisaleh bəndələrin dünya həyatından bəhrələndiyi dünya nemətləri kimi də başa düşülə bilər. Belə olan halda, ayənin ümumi məzmunu belə olur: Yer üzü tezliklə şirk və günah çirkabından təmizlənəcək, Allaha bəndəlik

[1406] Əl-Mizan, c.14, səh.329
[1407] Nümunə, c.13, səh.512

edən, Ona şərik qoşmayan əməlisaleh insan cəmiyyəti təmizlənmiş dünyada yaşayacaq. "Nur" surəsinin 55-ci ayəsində də bu mövzuya işarə edilmişdir. Ayədə qeyd olunan bərəkətlər axirət dünyasına da aid ola bilər. Axirət dünyasına aid olan bərəkətlər deyiləkən Allaha yaxınlıq, irs deyiləkən isə onların Cənnətin sahibi olacağı nəzərdə tutulur. Belə ki, Allah-taala "Zümər" surəsinin 74-cü ayəsində Cənnət sakinlərinin dilindən belə buyurmuşdur: ***"Həmd və səna bizə verdiyi vədini yerinə yetirən və bizi yerə varis edən Allaha məxsusdur! Biz Cənnətin istədiyimiz yerində sakin oluruq..."*** Deməli, nəzər nöqtəsi olan ayə həm bu dünya, həm də axirət haqqındadır. Yəni dünya və axirət nemətləri və bərəkətləri əməlisaleh insanlara məxsus olacaq. Əhli-beyt (ə) hədislərində İmam Mehdi (ə) və onun səhabələrinin quracağı dövlət bu ayənin ən parlaq nümunələrindən biri kimi təqdim edilmişdir. Bu da dünya nemətlərinin və bərəkətlərinin sonda əməlisaleh insanlara aid olduğunu göstərir[1408].

111. İlahi əzabın təxirə düşməsinin iki səbəbi: Bu ayədə ilahi əzabın təxirə düşməsi ilə bağlı iki səbəb qeyd edilmişdir: Birinci səbəb imtahan və sınaqla bağlıdır. Allah insanları tam şəkildə sınamayınca əzab göndərməyə əsla tələsmir. İkinci səbəb isə möhlətlə bağlıdır. İmtahan və sınaqları başa çatmış, əzabları qətiləşmiş şəxslərin əzabı daha ağır olsun deyə, nemət içində boğulmaları üçün Allah onların nemətlərini artırır. Ağrı-acını daha kəskin şəkildə dadsınlar, məhrumların və zülmə məruz qalmışların əzab-əziyyətlərini daha yaxşı hiss etsinlər deyə, tamamilə zövq-səfaya daldıqları vaxt əzab qamçısını endirir[1409].

[1408] Əl-Mizan, c.14, səh.331
[1409] Nümunə, c.13, səh.530

"Həcc" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ey insanlar! Rəbbinizdən qorxun! Çünki Qiyamətin zəlzələsi çox böyük bir şeydir.

2. Onu görəcəyiniz gün süd verən ana südəmər körpəsini unudacaq, hamilə qadın bətnindəkini salacaqdır. Sərxoş olmadıqları halda, insanları sərxoş görəcəksən. Allahın əzabı şiddətlidir.

3. İnsanlardan eləsi də var ki, heç nə bilmədiyi halda, Allah haqqında mübahisə edir və hər bir asi şeytana itaət edir.

4. Onun haqqında belə yazılmışdır: kim onun rəhbərliyi altına keçsə, şübhəsiz ki, onu doğru yoldan çıxardıb yandırıcı Oda sürükləyər.

5. Ey insanlar! Dirilişə şübhə edirsinizsə, (yaddan çıxarmayın ki,) Biz sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan, daha sonra tam bir şəklə salınmış və ya salınmamış bir parça çeynənmiş ətdən yaratdıq. (Bütün bunları ona görə dedik ki, hər şeyə qadir olduğumuzu) sizə bəyan edək. İstədiyimizi bətnlərdə müəyyən bir vaxta qədər saxlayırıq. Sonra sizi (oradan) uşaq kimi çıxardırıq. Məqsəd sizin yetkinlik yaşına çatmağınızdır. Sizlərdən bəzisi vəfat edir, bəzisi də o qədər ömür sürür ki, ömrünün ən pis mərhələsinə çatır, bildiklərini unudur. Sən yer üzünü quru və cansız görürsən. Biz ona yağmur endirdiyimiz zaman o, hərəkətə gəlib göyərir və cürbəcür gözəl bitkilər bitirir.

"Həcc" surəsinin ümumi məzmunu: Bu surənin ehtiva etdiyi məzmunları ümumilikdə altı hissəyə bölmək olar: 1. Dirilişlə bağlı çoxlu sayda ayələr; 2. Şirk və müşriklərlə mübarizə; 3. Keçmiş xalqların ibrətamiz taleyi və Allahın onlara göndərdiyi əzabların araşdırılması dəvəti; 4. Həcc mövzusu; onun İbrahm (ə) zamanından başlayan tarixi; qurbanlıq və təvaf hadisəsi; 5. Zalımlarla mübarizə və hücuma keçmiş düşmənlə müharibə; 6. Həyatın müxtəlif yönlərinə aid öyüd-nəsihətlər, namaz qılmağa, zəkat verməyə, yaxşını əmr, yasaqlanmışdan çəkindirmək, Allaha təvəkkül və diqqət yetirməyə stimullaşdırmaq[1410].

1. Qiyamət ərəfəsində baş verəcək böyük zəlzələ: Bu ayədə Allah mömin və kafir, qadın və kişi olmasından, xitabi əyani olaraq eşidib-eşitməməsindən, yaranmış və yaranacaq olmasından asılı olmayaraq bütün insanlara xitab edərək onlara özlərini Allahın qəzəbindən qorumağı göstəriş verir. Kafirlər iman gətirməkə, möminlər dinin əməli məsələlərində Allahın

---

[1410] Nümunə, c.14, səh.4

göstərişlərindən çıxmamaqla buna nail ola bilərlər. Ayədə Qiyamət zəlzələsinin böyüklüyü təqvalı olmanın səbəbi kimi təqdim edilmişdir (Qiyamət zəlzələsi çox böyük olduğu üçün təqvalı olun). Bu zəlzələnin Qiyamət zəlzələsi kimi təqdim edilməsinin səbəbi onun Qiyamət əlamətlərindən olması ilə bağlıdır. Ayədən belə başa düşülür ki, həmin zəlzələ birinci surun üfürülməsindən əvvəl baş verəcək. Çünki "Zümər" surəsinin 68-ci ayəsində belə buyurulmuşdur: ***"Sur çalınacaq. Dərhal hamı ayağa qalxacaq və haqq-hesabı gözləyəcək".*** Bu zəlzələnin Qiyamətdən əvvəl baş verəcəyini ayədə insanların adi həyatlarını yaşadıqları vaxt qəfildən baş verəcəyini və həyatlarını dəyişəcəyini göstərən məzmunlar ifadə edir. Şübhəsiz ki, bu hadisə birinci surdan əvvəl bütün canlıların ölməsinə səbəb olacaq[1411]. Bu ayə Quranın çox ayələrinin ehtiva etdiyi bir həqiqəti ümumi şəkildə ifadə edir; Qiyamət varlıq sistemində güclü dəyişiklik və çevriliş baş verməsi ilə qopacaq, dağlar yerindən oynayacaq, dənizlər bir-birinə qarışacaq, yerlə göy bir-birinə çırpılacaq, yeni dünya başlayacaq, Qiyamət ərəfəsində insanlar bərk qorxuya düşəcək, gözləri ayaqlarının altını görməyəcək[1412].

2. Cismani dirilişə aid iki sübut: Bu ayədə iki məntiqli və qətiyyətli dəlillə cismani dirilişə isarə edilmişdir: 1. Döl və ondan sonrakı mərhələdə baş verən dəyişikliklər, habelə bitkilər göyərərkən torpaqda baş verən dəyişikliklər. Əslində, Allah-taala insanların dünya həyatlarında qarşılaşdıqları, davamlı olaraq öz gözləri ilə gördükləri, ancaq fərqinə varmadıqları diriliş səhnələrini onlara izah etməklə ölümdən sonrakı həyatın nəinki qeyri-mümkün olmadığını, hətta hər gün qarşılaşdıqları hadisələrin bənzəri olduğunu başa salır. Cansız torpağı nütfəyə çevirən, dəyərsiz nütfəni

---

[1411] Əl-Mizan, c.14, səh.340
[1412] Nümunə, c.14, səh.7

ayrı-ayrı canlanma mərhələsindən keçirən, hər gün ona yeni həyat libası geyindirən, quru və cansız torpağa yenidən həyat bəxş edən, onu başdan-başa yamyaşıl dona bürüyən varlıq insanı yeni həyata qaytarmağa qadir deyilmi?![1413]

5. Dölün laxtalanmış qan və çeynənmiş ət mərhələləri: İnsanın bu ayədə qeyd edilmiş yeddi həyat mərhələsindən ikisinə izah verilməsi daha lazımlı görünür. Embrionun üçüncü həyat mərhələsində nütfə laxtalanmış qana çevrilir, malik olduğu hüceyrələr tut dənəsi kimi heç bir formasız bir-birinin yanında qərarlaşır. Qısa müddət keçdikdən sonra dölün ayrı-ayrı nahiyələrə bölünməsinin başlanğıcı hesab edilən bölgü çuxurları meydana gəlir. Dördüncü mərhələdə, yəni çeynənmiş ət mərhələsində döl yavaş-yavaş çeynənmiş bir ət parçası formasını alır. Ancaq bu mərhələdə heç bir üzv bəlli olmur. Qəfildən dölün dərsində dəyişikliklər meydana gəlməyə və yavaş-yavaş bədən üzvləri görünməyə başlayır. Bu mərhələni keçə bilməyən, əvvəlki formasında qalan döllər düşür və həyat səhnəsindən silinirlər. “Tam bir şəklə salınmış və ya salınmamış” ifadəsi ilə ola bilsin ki, bu mərhələyə işarə edilmişdir[1414].

[1413] Nümunə, c.14, səh.17
[1414] Nümunə, c.14, səh.24

6. Bunun səbəbi Allahın Haqq olmasıdır. O, ölüləri dirildir və hər şeyə qadirdir,

7. Qiyamət gələcəkdir, onda heç bir şəkk-şübhə yoxdur və Allah qəbirlərdə olanların hamısını dirildəcəkdir.

8. İnsanlar arasında elələri də vardır ki, heç bir biliyi, doğru yolu göstərən rəhbəri və nur saçan bir kitabı olmadan Allah haqqında mübahisə edir.

9. Onlar (Allahın sözlərinə qarşı) təkəbbür və etinasızlıqla insanları Allahın yolundan sapdırmaq istəyirlər. Onlar bu dünyada rüsvay olacaq, Qiyamət günü isə Biz onlara Cəhənnəm əzabını daddıracağıq.

10. (Onlara deyiləcəkdir:) “Bu, öncədən əllərinizin sizin üçün göndərdiklərinin qarşılığıdır. Allah qullarına əsla zülm etməz”.

11. İnsanlardan eləsi də vardır ki, Allaha yalnız dildə ibadət edir. Əgər ona bir xeyir nəsib olsa, rahatlıq tapar. Yox, əgər sınanması üçün bir müsibətə düçar olarsa, dəyişər (küfrə üz tutar). O (şəxs) dünyanı da itirər, axirəti də. Açıq-aşkar ziyan məhz elə budur.

12. O, Allahı qoyub ona heç bir zərər və xeyir verməyəni çağırır. Dərin azğınlıq da elə budur.

13. O, həm də zərəri xeyrindən daha yaxın olana çağırır. O nə pis rəhbər və köməkçi, nə pis munis və yoldaşdır!

14. Allah iman gətirib yaxşı işlər görənləri ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcək. Allah istədiyini edəndir.

15. Allahın dünyada və axirətdə öz Peyğəmbərinə köməklik göstərməyəcəyini güman edən şəxs evinin tavanına bir ip salıb özünü assın, sonra da nəfəsini kəssin və baxıb görsün, bu hərəkəti qəzəbini yatırdacaqmı?

---

7. Dirilişin baş verəcəyi qətidir: Bu surənin 5-ci və 6-cı ayələrində dirilişin baş verəcəyinin mümkünlüyündən, bu ayədə isə onun baş verəcəyinin qətiliyindən bəhs edilir. Allah-taala bu ayədə başa salır ki, ölülərin dirilişi təkcə mümkün hadisə yox, eyni zamanda qəti və qaçılmazdır. Ölümdən sonrakı həyatın mövcudluğuna şübhəsi olanlar bütün il boyu və hər gün insan və bitkilərin gözləri önündə təkrarlanan oxşar həyat səhnələrinə baxsınlar. Allahın qüdrətinə şübhə edənlər yaranış mərhələlərini düşünsünlər. İnsanlar ilk başlanğıcda torpaqdan yaranmayıblarmı? Buna görə də yenidən torpaqdan qaxlmağın harası təəccüblüdür? Hər il torpağın gözlərimiz önündə öldükdən sonra dirildiyini görmürükmü? Buna görə də öldükdən sonra insanların dirilməsi nə üçün təəccüb doğurmalıdır? Dirilişin baş verəcəyinə şübhə edənlər bilməlidirlər ki, bu dünyaya hakim olan sistem yaranışın bir məqsədi olduğundan xəbər verir. Yoxsa hər şey əbəs və yanlış olardı. Digər tərəfdən, bir neçə günlük ömrü olan, özü də xoşagəlməzliklər və nakamlıqlarla müşayiət olunan bu həyat yaranışın ali məqsədini əsla təşkl edə bilməz. Buna görə də yaradılışın məqsədi hesab ediləcək geniş və əbədi bir dünya olmalıdır[1415].

11. Üç azğın qrupun pislənməsi: Surənin 3, 8 və 11-ci ayələri “insanlardan elələri və ya eləsi də var” ifadəsi ilə başlamış, davamında isə üç azğın insan tipindən danışılmışdır. Birinci tip heç bir elm və məlumatları olmadan Allah haqqında mübahisəyə qalxan, cin və insanlardan olmasından

---

[1415] Nümunə, c.14, səh.22

asılı olmayaraq, asi şeytanlara tabe olan azğın insanlardır (3-cü ayə). İkinci tip azğınlar birinci qrupun azdırıcı rəhbərlərinə arxalanıb Allahın sözlərinə etinasızlıq göstərən və insanları Allahın yolundan sapdırmaq istəyən insanlardır (8-ci ayə). 11-ci ayədə üçüncü tip azğın insanlardan danışılır. Onlar imanları zəif olan insanlardır. Onlar din və imandan sanki maddiyat əldə etmək üçün istifadə edirlər. Əgər bu məqsəd hasil olsa, dini doğru hesab edir, əks təqdirdə əsassız olduğunu düşünürlər. Bir qrup təfsirçi bu ayənin nazilolma səbəbi haqqında belə yazmışdır: Arada-sırada Peyğəmbərin (s) yanına gələn bir qrup səhra ərəbi var idi. Əgər fiziki cəhətdən vəziyyətləri yaxşı olsaydı, atları doğsaydı, oğlan uşaqları olsaydı, sərvətləri və mal-qaraları artsaydı, şadlanar, İslama və Peyğəmbərə (s) etimad və inam göstərərdilər. Ancaq xəstələnsəydilər, qızları olsaydı, var-dövlətləri azalsaydı, qəlbləri şeytanın vəsvəsəsinə məruz qalar, bütün bu bədbəxtliklərin səbəbini qəbul etdkləri din olduğunu düşünüb ondan üz döndərərdilər. Bu cür insanlar dinə yalnız maddiyyat dəliyindən baxır, onun haqq və doğru olduğunu dünya mənfəətləri ilə ölçürdülər. Dövrümüzdə də sayı çox olan və hər bir cəmiyyətdə mövcud olan bu tip insanlar imanları şirkə və bütpərəstliyə bulaşmış insanlardır. Sadəcə, bunların bütü onların həyat yoldaşları, övladları, var-dövlətləri və sərvətləridir. Təbii ki, bu cür inam və etiqad hörümçək torundan da zəif olur[1416].

15. Allahın Peyğəmbərə (s) yardım etməsinə qəzəblənən insanların çıxış yolu: Təfsirçilər dəlil və faktlara əsaslanaraq bu ayə ilə bağlı müxtəlif fikirlər bildrmişlər. Onlar arasında daha düzgün nəzərə çarpan fikir budur: Bu ayədə müşrik və kafirlərə bildirilir ki, istər Məkkədə olsun, istərsə də Mədinəyə hicrətindən sonra, bütün peyğəmbərliyi dövründə müşriklər

[1416] Nümunə, c.14, səh.33

Peyğəmbərə (s) qarşı hiylə və kələk qurmaqdan əl çəkmədilər. Məkkədə onu qətlə yetirmək istədilər, o isə Allahın istəyi ilə xilas olub Mədinəyə hicrət etdi. Bədr və Ühüd kimi müharibələri təşkil edib dəfələrlə İslamı məhv etmək qərarına gəldilər. Ancaq Allah gün-gündən İslamın izzət və hörmətini artırdı, peyğəmbərinə yardım etdi. Buna görə də onların Peyğəmbərə (s) qarşı olan kin-küdurətləri artdı. Allah-taala bu ayədə buyurur ki, əgər qəzəbdən özünüzü həlak etsəniz belə, bütün hiylə və kələkləriniz öz zərərinizə olacaq, Allahın qüdrət və istəyi qarşısında nakam qalacaqsınız[1417].

16. Biz onu (Quranı) beləcə açıq-aşkar ayələr şəklində nazil etdik. Allah istədiyini doğru yola yönəldər.

17. Həqiqətən, Allah iman gətirənlər (müsəlmanlar), yəhudilər, sabiilər (ulduzpərəstlər), xaçpərəstlər, atəşpərəstlər və müşriklər arasında Qiyamət günü (haqq ilə batili ayırd edərək) hökmünü verəcəkdir. Şübhəsiz ki, Allah hər şeyə şahiddir! (Hər şeydən xəbərdardır!)

[1417] Ətyəbül-bəyan, c.9, səh.276

18. Göylərdə və yerdə olanların, Günəşin, Ayın, ulduzların, dağların, ağacların, heyvanların və insanların bir çoxunun Allaha səcdə etdiyini görmürsənmi? Bir çoxları üçün (kafirlərə) isə əzab qaçılmazdır. Allahın xar etdiyi kimsəni heç kəs yüksəldə bilməz. Allah dilədiyini (məsləhət bildiyini) edər!

19. Bunlar Rəbləri barəsində mübahisə və düşmənçiliyə qalxan iki zümrədir. Onu inkar edənlər üçün oddan paltar biçilmişdir; başlarına qaynar və yandırıcı maye töküləcəkdir.

20. İçləri və dəriləri onunla əriyəcək.

21. Hələ onlar üçün dəmir gürzlər vardır.

22. Cəhənnəmin qəm-qüssəsindən xilas olmaq istədiklərində yenidən oraya qaytarılacaq və (onlara:) "Yandırıcı əzabı dadın!" (deyiləcək).

23. Allah iman gətirib yaxşı işlər görənləri ağacları altından çaylar axan Cənnətlərə daxil edəcəkdir. Onlar altun və incidən olan bilərziklərlə bəzənəcək, oradakı libasları ipəkdən olacaqdır!

---

17. Ulduzpərəst və atəşpərəstlər: Ayədə adıçəkilən altı qrupdan ikisi haqqında izahat vermək daha lazımlı görünür. 1. Ulduzpərəstlər: Ayədən onların bəzi səmavi dinlərə tabe olduqları, xüsusilə yəhudilərlə xaçpərəstlər arasında bir mövqe seçdikləri başa düşülür. Bəziləri onları Zəkəriyya oğlu Yəhyanın davamçıları hesab edirlər. Xristianlar arasında o, baptist Yəhya adı ilə məşhurdur. Bəziləri hesab edir ki, onlar həm yəhudi, həm də xristian inanclarının qarışığından bir din yaratmışlar. Buna görə də onların dinini yəhudiliklə xristianlığın sintezi hesab edirlər. Ulduzpərəstlər üçün axar su çox mühüm əhəmiyyət daşıyır. Buna görə də onların çoxu iri çayların sahilində yaşayır. Onların ulduzpərəst adlandırılmasının səbəbi bəzi

ulduzlara xüsusi rəğbət bəsləmələri ilə bağlıdır[1418]. 2. Atəşpərəstlər: Atəşpərəstlər Zərdüştün davamçılarına deyilir. Müqəddəs kitabları Avesta adlanır. Zərdüşütün həyat tarixi və zühur etdiyi zaman çox mühüm əhəmiyyət daşıyır. Ümumiyyətlə, əlimizdə Zərdüştlə bağlı dəqiq məlumat yoxdur. İskəndərin İrana hücumu zamanı bu dinin tərəfdarlarının müqəddəs kitabı tamamilə məhv edilmişdir. Hətta onun bir vərəqi belə saxlanmamışdır. Sasanilərin hakimiyyəti dövründə kitab yenidən yazılmışdır. Buna görə də onların dininin əsl mahiyyəti haqqında dəqiq məlumata malik deyilik. Dəqiq olan budur ki, atəşpərəstlər dünyanın iki mənbə tərəfindən idarə olunduğuna inanırlar. Bu mənbələrdən biri xeyir, digəri isə şərdir. Birincinin adı Yəzdan, ikincisinin adı isə Əhriməndir. biri nur, digəri zülmətdir. Onların mələklərin müqəddəs olduğuna etiqad bəslədikləri, ancaq bütpərəstlərdən fərqli olaraq onlar üçün büt düzəltmədikləri, təvəssül etmədikləri və onları vasitəçi seçmədikləri də dəqiqdir. Onlar dörd ünsürü, xüsusilə odu müqəddəs hesab etmişlər. Qədimdə atəşpərəstlərin İran, Çin, Hindistan və sair ölkələrdə atəşgahları olmuşdur. Onlar bütün kainatın Ahurəmazdaya aid olduğuna, ümumiyyətlə, dünyanın onun tərəfindən yarandığına inanmışlar. Hədislərdə onların bir peyğəmbəri olmuş, həmin peyğəmbəri qətlə yetirib kitabını da yandırdıqları qeyd edilmişdir. Bəzi hədislərə görə Allah onlara peyğəmbər və kitab göndərmiş, onlar isə günaha bulaşdıqları üçün Allahın dinini təhrif edib, özlərindən yeni bir din yaratmışlar[1419].

18. Mövcudatın səcdə etməsi: Quranın ayrı-ayrı ayələrində mövcudatın səcdə etdiyindən, Allaha həmd və təriflər deməsindən, namaz qılmasından söhbət açılır və bu dörd ibadət formasının təkcə insanlara məxsus olmadığı, hətta zahirdən cansız görünən varlıqların da bu ibadətlərdə

[1418] Nümunə, c.14, səh.46
[1419] Əl-Mizan, c.14, səh.359

iştirak etdiyi bildirilir. Bu ayəyə əsasən deyə bilərik ki, mövcudat iki formada səcdə edir: ixtiyari və qeyri-ixtiyari (şüurlu və şüursuz). Onların Allahın iradəsi, yaranış qanunları, bu dünyaya hakim olan nizam-intizam qarşısındakı qeyd-şərtsiz səcdəsi və təvazökarlığı bu kainatın bütün zərrələrini əhatə edən qeyri-ixtiyarı və şüursuz səcdədir. Hətta fironların, nəmrudların və inadkar inkarçıların varlığını təşkil edən bütün zərrələr və beyin hüceyrələri də bu qeyri-ixtiyari səcdənin subyektləridr. Bir qrup tədqiqatçı hesab edir ki, dünyanın bütün zərrələri şüur və dərkin müəyyən bir növünə malikdir. Bu dərk sayəsində Allaha həmd və tərif deyir, səcdə edir, namaz qılırlar (Bax: "İsra" surəsi, 44-cü ayə). Əgər bu şüur və dərk formasını qəbul etməsək belə, onların yaranış qanunları qarşısındakı təvazö və itaəti inkaredilməzdir. İxtiyari və şüurlu səcdəyə gəlincə, ağıl, şüur, dərk və idrak sahiblərinin Allah qarşısında etdikləri təvazökarlıq nəzərdə tutulur. Burada ortaya belə bir sual çıxır: Əgər bütün mövcudatın ümumi səcdə proqramı insanlara da şamil olursa, nə üçün bu ayədə yalnız bəzi insanların səcdə etdyi qeyd edilir? Bu ayədə səcdənin ixtiyari və qeyri-ixtiyari yönlərinin birlikdə işlədildiyinə diqqət yetirsək, sualın cavabı aydınlaşar. Belə ki, günəş, ay, ulduzlar, dağlar, ağaclar, canlıların səcdəsi deyilərkən qeyri-ixtiyari səcdə nəzərdə tutulur, ancaq insanlara gəldikdə, onun ixtiyari yönü nəzərdə tutulur ki, bəziləri onu yerinə yetirir, bəziləri isə ondan boyun qaçırıraraq "Bir çoxları üçün (kafirlərə) isə əzab qaçılmazdır" cümləsinin şamil olduğu insanların sırasına daxil olurlar[1420].

[1420] Nümunə, c.14, səh.49

24. Onlar pak sözə doğru və Allahın bəyəndiyi yola yönəldilirlər.

25. Kafir olub möminləri Allah yolundan, (habelə) həm yerlilər, həm də gəlmələr üçün bərabər səviyyəli (ibadətgah) etdiyimiz Məscidül-həramdan döndərənlərə və burada haqq yoldan azmaq, zülm və haqsızlığa yol vermək istəyənlərə də şiddətli əzabdan daddıracağıq!

26. (Xatırla!) Bir zaman evin yerini İbrahim üçün hazırlayıb: “Mənə heç bir şeyi şərik qoşma, evimi təvaf edənlər, namaza duranlar, rüku edən və səcdəyə qapananlar üçün (bütlərdən və istənilən çirkabdan) təmizlə!” (-deyə buyurmuşduq).

27. İnsanları həccə çağır ki, onlar sənin yanına hər cür uzaq yollardan piyada və arıq dəvələr üstündə gəlsinlər,

28. özlərinə aid olan müxtəlif faydaların şahidi olsunlar və məlum günlərdə onlara verilmiş heyvanların üzərində (qurban kəsərkən) Allahın adını çəksinlər. Onlardan özünüz də yeyin, məzlum yoxsullara da yedirdin!

29. Sonra günahlarını yusunlar, nəzirlərini yerinə çatdırsınlar və qiymətli Kəbə evinin ətrafına fırlansınlar.

30. (Həcc ayinləri) bunlardır! Hər kim ilahi proqramlara hörmət etsə, Rəbbi yanında onun üçün xeyirli olar. (Haram olduğu) sizə oxunanlar istisna olmaqla heyvanlar sizə halal edilmişdir. Murdar bütlərdən qorunun, yalan sözlərdən də çəkinin.

---

25. Hamının Məscidül-həramda bərabər olması: Təfsirçilər "həm yerlilər, həm də gəlmələr üçün bərabər səviyyəli (ibadətgah) etdiyimiz" cümləsi ilə bağlı müxtəlif fikirlər söyləmişlər. Bəziləri hesab edir ki, cümlədə tövhid mərkəzində ibadət edərkən hər kəsin bərabər olması nəzərdə tutulur. Yəni həcc əməlini yerinə yetirərkən və Kəbə evinin yanında ibadət edərkən heç kəsin başqasına mane olmağa haqqı çatmır. Bəzləri bu cümlənin daha geniş məzmun ifadə etdiyini bildirirək belə demişlər: İnsanlar təkcə ibadət mərasimlərində deyil, istirahət və digər ehtiyaclarını təmin etmək üçün Məkkə ətrafında olan ərazilərdən və evlərdən istifadə zamanı da bərabərdirlər. Buna görə də bəzi fəqihlər Məkkənin evlərinin alqı-satqısını və kirayəyə verilməsini haram edərək fətvalarını bu ayə ilə əsaslandırmışlar. Hədislərdə də zəvvarların Məkkə evlərində məskunlaşmasının qarşısının alınması qadağan edilmişdir. Bəzi hədislərdə bu davranış haram, bəzilərində isə məkruh əməl kimi təqdim edilmişdir. Əlbəttə, bu mövzu fiqh mənbələri, hədislər və təfsirdən tam dəqiq başa düşülmədiyi üçün haram hökmünü vermək çox çətindir[1421].

26. "Kəbə evinin yerinin İbrahim üçün hazır edilməsi" deyilərkən nə nəzərdə tutulur? Hədislərdə yazılanlara görə Allah Adəmin zamanında tikilmiş, Nuhun tufanında dağılmış Kəbə evinin yerini İbrahimə (ə) göstərmişdir. Külək qopmuş, torpaq göyə sovrulmuş və evin sütunları

[1421] Nümunə, c.14, səh.62

görünmüşdü; bulud gəlmiş və həmin yerə kölgə salmışdı. Hər halda, evin yeri İbrahimə göstərilərək hazır edilmiş, o da oğlu İsmayılla onu yenidən tikmişdir[1422]. Ayədə təvaf edənlər, qiyam edənlər, rüku edənlər və səcdə edənlər ifadələri yanaşı işləndiyi üçün Allah evinin yanında edilən ən böyük ibadətin bu dörd ibadət forması olduğunu hesab etmək olar[1423].

27. İstər piyada olun, istərsə də süvari, həccə gedin: Ayədə piyadaların süvarilərdən əvvəl qeyd edilməsi Allah dərgahında onların məqamlarının üstün olmasına işarədir. Çünki onlar bu yolda daha çox əziyyət çəkirlər. Belə ki, hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Həccə piyada gedənin hər addımına yeddi yüz savab verilər, süvarlərin hər addımına isə yetmiş savab verilər."*** Bu ifadə ilə Allah evinin ziyarətinin mühüm əhəmyyət daşıdığına da işarə edilə bilər. Yəni bu yolda bütün imkanlardan istifadə edilməlidir, hər zaman da minik gözləmək lazım deyil. "Arıq" deyiləkən keçdiyi çöllər yandırıcı, quru, susuz və ot-ələfsiz olduğu üçün bu yolun minikləri arıqlatdığı nəzərdə tutulur. Ola bilər ki, bu ifadə ilə səfərin çətinliyinə və yaxud da səfər üçün daha çevik, dözümlü və sınaqdan çıxmış, sınaq meydanında arıqlamış, əzələləri möhkəmlənmiş heyvanların seçilməsinin zəruriliyinə işarə edilmişdir. Bu yolda yaxşı bəslənmiş heyvanlar kara gəlmir. Əlbəttə, naz-nemət içində bəslənən insanlar da bu yolun adamı deyillər[1424].

28. Həccin faydaları: Ayədə "faydalar" ifadəsi ilə bağlı heç bir məhdudiyyət yoxdur, bütün faydaları, mənəvi bərəkətləri, maddi nəticələri, fərdi və sosial faydaları, siyasi, ictimai, iqtisadi və əxlaqi fəlsəfələri ehtiva edir. Sinfindən və mövqeyindən asılı olmayaraq müsəlmanlar dünyanın

---

[1422] Nümunə, c.14, səh.67
[1423] Mənşuri-cavid, c.11, səh.270
[1424] Nümunə, c.14, səh.70

bütün nöqtələrindən oraya axışsınlar və qulaqları ilə eşitdiklərini gözləri ilə görsünlər. İmam Sadiq (ə) bu ayə haqqında belə buyurmuşdur: “Həm dünyəvi, həm də axirət faydalarını ehtiva edir.”[1425]

28. Məlum günlər: Əhli-beyt (ə) hədislərinə əsasən məlum günlər deyilərkən Zilhiccə ayının 10, 11, 12 və 13-cü günləri nəzərdə tutulur. Heyvanlar üzərində Allahın adının çəkilməsi deyilərkən qurban kəsərkən Allahın adının çəkilməsinə işarə edilir. Bu əməl qoyun və dəvəni bütlərə qurban edən müşriklərin əməllərindən fərqlənir[1426].

[1425] Nümunə, c.14, səh.72
[1426] Əl-Mizan, c.14, səh.371

31. Hamınız Allah üçün xalis və səmimi olun, Ona əsla şərik qoşmayın! Kim Allaha şərik qoşsa, elə bil, göydən düşər, quşlar onu qapar, yaxud külək onu sovurub uzaq bir yerə atar.

32. (Həcc ayinləri) bax belədir! Hər kim Allahın şüar və atributlarına hörmət etsə, (bilsin ki,) bu, qəlblərin təqvasının əlamətidir.

33. Onlarda (qurbanlıq heyvanlarda) sizin üçün müəyyən bir vaxta qədər (qurbanlıq gününə qədər) mənfəət vardır. Sonra onların kəsiləcəyi yer qədim və qiymətli evin (Kəbənin) yaxınlığındadır.

34. Biz hər bir ümmət üçün qurbangah müəyyən etdik ki, ruzi verdiyimiz heyvanların üzərində (qurban kəsərkən) Allahın adını çəksinlər. Sizin tanrınız Tək olan İlahdır. Onun qarşısında təslim olun. Sən təslim olanlara və müti olanlara müjdə ver;

35. o kəslərə ki, Allah anıldığı zaman qəlbinə qorxu düşər, başına gələn müsibətlərə səbr edər, namaz qılar və onlara verdiyimiz ruzidən Allah yolunda xərcləyərlər.

36. Biz kök dəvələri də sizin üçün Allahın (dininin) şüar və atributlarından etdik. Onlarda sizin üçün xeyir vardır. Sıra ilə düzüldükləri halda (kəsərkən) üzərlərində Allahın adını çəkin. Böyrü üstə yıxıldıqları zaman onlardan özünüz də yeyin, aza qane olan kasıba və dilənçiyə də yedirdin. Beləcə, onları (qurbanlıq heyvanları) sizə ram etdik ki, bəlkə Allaha şükür edəsiniz.

37. Onların nə əti, nə də qanı Allaha çatmaz. Ona yalnız sizin təqvanız çatar. Sizi doğru yola yönəltdiyinə görə Onu uca tutasınız deyə, bunları sizə beləcə ram etdi. Yaxş işlər görənləri müjdələ!

38. Allah iman gətirənləri müdafiə edir. Allah heç bir nankor xaini sevmir.

-

31. Şirk tövhid səmasından enməkdir: Ayədə səma deyilərkən tövhid nəzərdə tutulur, şirk bu səmadan enməyə səbəb olur. Təbii ki, bu səmada ulduzlar sayrışır, ay və günəş parlayır. Xoş o adamın halına ki, bu səmada günəş və ay kimi olmasa da, heç olmasa sayrışan ulduzlar kimi olsun. Yüksəklikdən enərkən iki aqibətlə qarşılaşmaq olar. 1. Yarı yolda leş yeyən quşlara yem olmaq. Yəni insan aid olduğu yüksəklikdən enərsə, ehtirasların hücumuna məruz qalar. Onların hər biri insanın varlığının bir hissəsini qapıb məhv edər. 2. Əgər onların əlindən yaxa qurtarsa, küləklərə məruz qalar. Külək onu uzaqlarda yerə elə çırpar ki, parça-parça olar, hər tikəsi bir yerə sıçrayar. Burada külək deyilərkən pusquda durmuş şeytan nəzərdə tutulur. Şübhəsiz ki, tövhid səmasından enən şəxs qətyyətini itirir, hər an artan sürətlə yoxluğa doğru irəliləyir, sonda məhv olur. Tövhid səmasından məhrum olmuş şəxs tale yüyənini əlinə ala bilməz, bu yolda irəlilədikcə, tənəzzülü artar, nəhayət, bütün insanlıq sərmayəsini itirər. Doğrusu, şirk üçün bundan canlı və bundan obrazlı bənzətmə ola bilməz[1427].

36. Qurbanlığın sərf olunduğu yerlər: Ayədə qurbanlıq ətinin sərf olunduğu üç yer qeyd edilmişdir: 1. Hacılar özləri yesinlər. “Ondan yesinlər” cümləsindən belə başa düşülür ki, hacıların özlərinin ondan yeməsi vacibdir. Ola bilsin ki, bu, onlarla ehtiyaclılar arasında bərabərliyin riayət edilməsi üçündür. 2. Qane olan şəxsə verilsin. Qane olan nə isə verildikdə verilənə qane və razı olan, etiraz etməyən, qəzəblənməyən şəxsə deyilir. 3. Qurbanlığın sərf olunduğu üçüncü şəxs dilənçidir. Dilənçi ehtiyacını dilənən, verilənə qane olmayıb etiraz edən şəxsə deyilir. Bu və 28-ci ayədən

---

[1427] Nümunə, c.14, səh.95

belə başa düşülür ki, Həcc mərasimində qrubanlıq lazım olan yerlərə çatdırılmalı, həm qurban kəsən, həm də ona ehtiyacı olanlara sərf edilməlidir. Müsəlman qurbanlıq ətini Minada xarab edə və ya torpağa basdıra bilməz. Əgər həmin yerdə ehtiyaclı tapılmazsa, ehtiyac duyulan başqa yerə göndərməlidir[1428].

37. Qurban kəsməyin fəlsəfəsi: Allahın qurbanlığa ehtiyacı varmı? Ümumiyyətlə, qurban kəsilməsinin fəlsəfəsi nədir? Bu ayədə açıq şəkildə bildirilir ki, Allahın qurbanlığa ehtiyacı yoxdur. Əslində, məqsəd insanların təqva mərhələlərini adlaması, kamillik yolunu davam etdirməsi və Allaha daha da yaxınlaşmasıdır. Bütün ibadətlər insanların tərbiyə edilməsi üçündür. Qurbanlıq insana fədakarlıq, güzəşt, Allah yolunda şəhidliyə hazır olmaq, yoxsul və ehtiyaclı insanlara yardım etmək dərsləri öyrədir. Qandan istifadə edilmədiyini bilirik. Əslində, Allah-taala "onun qanı da Allaha çatmaz", - deyə buyurarkən Məkkə müşriklərinin əməllərini təkrar etmək istəyən müsəlmanlar qarşısında qadağa qoyur. Belə ki, müşriklər qurban kəsərkən onun qanını bəzən bütlərin başına və ya Kəbə evinin divarlarına sürtürdülər. Bəzi müsəlmanlar da onların bu xurafatlarını təkrar etməyə meyl göstərirdilər. Sözügedən ayə nazil olur və bu hərəkətin müsəlmanlara qadan olduğunu elan edir. Təəssüflər olsun ki, bu adət bəzi regionlarda hələ də qalmaqdadır. İnsanlar ev tikdikdən sonra qurban kəsib onun qanını evin divar və tavanına sürtür, hətta bəziləri məscidlərin tikilişi zamanı da bu çirkin hərəkətə yol verirlər[1429].

[1428] Nümunə, c.14, səh.108
[1429] Nümunə, c.14, səh.109

39. Müharibəyə məcbur edilmiş insanlara cihad icazəsi verilmişdir. Çünki onlar zülmə məruz qalmışlar. Allah onlara kömək etməyə qadirdir.

40. Onlar ancaq “Rəbbimiz tək olan Allahdır” – dediklərinə görə haqsız yerə evlərindən və şəhərlərindən çıxarıldılar. Əgər Allah insanların bəzilərini digərləri ilə dəf etməsəydi, monastırlar, kilsələr, sinaqoqlar və içərisində Allahın adı çox zikr olunan məscidlər dağılıb gedərdi. Allah Ona yardım edənlərə yardım edər. Allah qüvvətlidir, məğlubedilməzdir.

41. Əgər onlara yer üzündə qüdrət versək, onlar namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin aqibəti Allaha aiddir.

42. Əgər səni yalançı saysalar, (bil ki, bu təzə br şey deyil,) səndən əvvəl Nuh, Ad və Səmudun xalqı da (peyğəmbərlərini) yalançı saymışdı.

43. Habelə İbrahim və Lutun xalqı da

44. və Mədyən əhli də. Musa da yalançı sayılmışdı. Ancaq Mən kafirlərə möhlət verib, sonra onları əzaba düçar etdim. Onları necə inkar etdiyimi gördünmü?

45. Zülm etdikləri halda, damları üzərinə uçurub (öncə dam və tavanlarını uçurduğumuz, sonra divarları həmin damların üzərinə uçurub) məhv etdiyimiz neçə-neçə kənd və şəhərlər olmuşdur. Neçə-neçə quyular, neçə-neçə uca və möhkəm qəsrlər sahibsiz qaldı.

46. Məgər onlar dərk etmək üçün qəlbə, eşitmək üçün qulağa mallik olsunlar deyə, yer üzündə gəzib dolaşmırlarmı? Əslində, gözlər deyil, kökslərdəki qəlblər kor olur.

39-40. Cihadı zəruri edən səbəblər: Bu ayələrdə cihadin iki mühüm yönünə işarə edilmişdir: 1. Məzlumun zalıma qarşı cihadı. Məzlumun zalıma qarşı cihadı onun fitri və əqli haqqıdır. O, haqqını zalımdan almaq üçün ayağa qalxmalı, fəryad qoparmalı, silaha əl atmalı, zalımı öz yerində oturtmalı, haqsızlığa uzanmış əlini kəsməlidir. 2. Allah adını qəlblərdən silməyə, düşüncələrin oyanış mərkəzləri olan ibadət ocaqlarını dağıtmağa niyyətlənən və buna cürət edən həddini aşmışlara qarşı cihad. Allah şüarını yaddaşlardan silməyə çalışan, insanları özlərinə qul və kölə etməyə səy göstərən bu cür insanlara qarşı cihad etmək vacibdir. Bir məsələni də xüsusilə qeyd etmək lazımdır ki, məscid və ibadət ocaqlarını viran qoymaq təkcə onların divarlarını uçurmaqdan ibarət deyil, dolayı yollarla məscid və ibadət ocaqlarının daxilinə nüfuz etmək və çirkin təbliğatlar aparmaqla

insanları bu məkanlardan uzaqlaşdırmaq, haqq yoldan azdıraraq Allahdan uzaq salmaqla sözügedən məkanları xarabalığa çevirmək onları viran qoymağın bir formasıdır. Buradan da "Nə üçün İslam müsəlmanların öz məqsədlərini zor və silah gücünə həyata keçirməsinə, təkcə məntiqi vasitələrdən istifadə etməməsinə icazə vermişdir?" - deyə soruşanların cavabı aydın olur. İnsanları haqqı dedikləri üçün ev-eşiklərindən didərgin salan, var-dövlətlərini mənimsəyən, heç bir qanun və məntiq qəbul etməyən zalımlara qarşı məntiq və sözlə mübarzə aparmaq olarmı? Əgər subyektiv düşüncələri bir kənara qoysaq və insan cəmiyyətlərində mövcud olan gerçəklərə baxsaq, əminliklə deyə bilərik ki, bəzən elə şərait yaranır ki, silaha əl atmaq, güc tətbiq etməkdən başqa çarə qalmır. Bu isə məntiqin gücsüzlüyü deyil, düzgün məntiqin qəbul edilməməsi ilə izah edilir. Şübhəsiz ki, məntiqin təsir göstərdiyi yerlərdə o, hər zaman öndədir[1430].

41. Əməlisalehlərin hökmranlıq forması: Əvvəlki ayələrdə Allah tərəfindən yardım ediləcəklərinə vəd verlmiş Allah dostlarının xüsusiyyətləri bu ayə vasitəsilə bəyan edilmişdir: Onlar qüdrət əldə etdikdən sonra hədlərini aşmırlar, Allahla, eyni zamanda xalqla olan əlaqələri daha da möhkəmlənir. Namaz Yaradanla olan əlaqənin göstəricisi, zəkat vermək xalqla olan münasibətlərin sıx olmasının rəmzi, yaxşı işlər görməyi əmr etmək, pis işləri qadağan etmək isə sağlam bir cəmiyyətin əsasları hesab edilir. Bu dörd xüsusiyyət sözügedən insanları tanımaq üçün kifayətdir. Bəzi hədislərdə bu ayənin İmam Mehdi (ə) və onun səhabələri və ya Allah rəsulunun (s) nəsli ilə bağlı olduğu qeyd edilmişdir. İmam Baqir (ə) bu ayə haqqında belə buyurmuşdur: Bu ayə Muhəmmədin nəsli, Mehdi və onun səhabələri ilə bağlıdır. Allah-taala şərq və qərbi onların hakimiyyəti altına

[1430] Nümunə, c.14, səh.119

keçirəcək, dinini qalib edəcək, Mehdi və səhabələrinin əli ilə haqqı sıxışdırmış bədbəxtlik tərənnümçüsü olan batili məhv edəcək, zülmdən əsər-əlamət qalmayacaq, onlar yaxşı işlər görməyi əmr edəcək, pis işləri qadağan edəcəklər[1431].

46. İnsanın daxili idrak vasitələri: Bu ayədə insanın idrak vasitələri qəlb (ağıl) və qulaqda cəmləşdirilmişdir. Yəni insanın həqiqətləri dərk etməsi üçün iki vasitəsi var: ya daxildən hərəkətverici bir qüvvəyə malik olmalı və məsələləri özü təhlil etməli, ya nəsihətçilərə, haqq yolunun bələdçilərinə, Allahın peyğəmbərlərinə və haqq adamlarına qulaq asmalı, ya da hər iki yol vasitəsilə haqqa çatmalıdır[1432]. Allah-taala Quranda "Görən göz və eşidən qulağı olub, əslində, kor və kar olan nə çox insan var", - deyə buyurmuşdur. Əslində, gözlərini itirdkləri halda, qəlbən ayıq olan insanlar kor deyillər. Əsl korlar qəlblərinin gözü kor olanlar, həqiqəti dərk etməyən şəxslərdir. Peyğəmbər (s) hədislərinin birində belə buyurmuşdur: ***"Ən pis korluq qəlb korluğudur."*** Başqa bir hədisində isə belə buyurmuşdur: ***"Allah-taala hər hansı bəndəsinə yaxşılıq etmək istədikdə görə bilmədiklərini görməsi üçün onun qəlb gözünü açır."***[1433]

[1431] Nümunə, c.14, səh.117
[1432] Əl-Mizan, c.14, səh.390
[1433] Nümunə, c.14, səh.130

47. Onlar səndən əzabın tez gəlməsini istəyirlər. Allah Öz vədinə əsla xilaf çıxmaz. Rəbbinin yanında olan bir gün sizin saydığınızın min ili kimidir!

48. Neçə-neçə şəhərlər və kəndlərə (əhalisi) zalım olduqları halda möhlət verdim, (onlar bu möhlətdən düzgün istifadə etmədikdən) sonra onları əzaba düçar etdim. Dönüş yalnız Mənədir!

49. De: “Ey insanlar! Mən sizə yalnız açıq xəbərdarlıq edənəm.

50. İman gətirib yaxşı işlər görənlər üçün bağışlanma və qiymətli ruzi vardır.

51. Ayələrimizi məhv etməyə çalışanlar və bizim qəti iradəmizə qalib gələcəklərini düşünənlər Cəhənnəm sakinləridirlər.

52. Biz səndən əvvəl elə bir elçi, elə bir nəbi (peyğəmbər) göndərmədik ki, o arzu etdiyində (ilahi məqsədləri həyata keçirmək üçün plan düşündükdə) şeytan ona (həmin plana) gizlicə təlqinlər etməsin. Lakin Allah şeytanın gizlicə təlqin etdiyini yoxa çıxarır, sonra da Öz ayələrini möhkəmlədirirdi. Allah biləndir, hikmət sahibidir.

53. (Bununla) Allah şeytanın gizli təlqinini qəlbində xəstəlik və qəlbi sərt olan insanlar üçün bır sınaq vasitəsinə çevirmək istəyirdi. Zalımlar uzaq bir ədavət içindədirlər.

54. Habelə məqsəd bu idi ki, elm verilən kəslər bunun Rəbbin tərəfindən olan bir həqiqət olduğunu bilsinlər, nəticədə, ona inansınlar və qəlbləri onun qarşısında itaət göstərsin. Allah iman gətirənləri doğru yola yönəldər.

55. Kafirlər isə Qiyamət günü qəfildən başlarının üstünü alanadək, yaxud faydası olmayan bir günün əzabı yetişənədək Quran barəsində şəkk-şübhə içində qalarlar.

---

47. Allahın səbri: Təfsirçilər "Rəbbinin yanında olan bir gün sizin saydığınızın min ili kimidir!" cümləsi ilə bağlı müxtəlif fikirlər irəli sürmüşlər. Daha ağlabatan isə bu fikirdir: Allah-taala misal olaraq bir günün min ilə bərabər olduğunu qeyd etməklə başa salmaq istəyir ki, onun üçün əzabın gəlməsinə tələsən insanlara dərhal əzab göndərməklə onlara min il möhlət verib, daha sonra əzab vermək arasında heç bir fərq yoxdur. Onlar onsuz da sonra əzaba düçar olacaqlar, çünki Allah öz vədinə əsla xilaf çıxmaz[1434]. Bu ayə əslində, Allahın helmli və səbirli olduğunu göstərir[1435]. Çünki helm və səbrin mənası möhlət vermək və günahın cəzasının təxirə salınmasıdır[1436]. Digər tərəfdən isə, tələsmək fürsətin əldən çıxmasından və imkanların tükənməsindən qorxan adamların xüsusiyyətidir. Amma əzəli və əbədi qüdrət sahibi olan Allah üçün tələsməyin heç bir mənası yoxdur, o öz vədini yerinə yetirməyə hər zaman qadirdir[1437].

52. Rəsulla nəbinin fərqi: "Biz səndən əvvəl elə bir elçi, elə bir nəbi (peyğəmbər) göndərmədik" cümləsindən elçi (rəsulla) nəbi arasında fərq

---

[1434] Ətyəbül-bəyan, c.9, səh.315
[1435] Əl-Mizan, c.14, səh.391
[1436] Məcməül-bəyan, c.2, səh.93
[1437] Nümunə, c.14, səh.132

olduğu açıq-aydın başa düşülür. Bu barədə çox izahlar verilmişdir. Ancaq daha uyğun izah budur ki, Rəsul (elçi) öz dinini təbliğ etmək və bu dinə dəvət etməklə vəzifələndirilmiş peyğəmbərə deyilir. Rəsulların bu yolda əllərindən gələni əsirgəmədiklərini, istənlən çətinliklərə canları bahasına olsa belə, sinə gərdiklərini yaxşı bilirik. Nəbi isə leksik mənasından da göründüyü kimi, irimiqyaslı təbliğ vəzifəsi daşımasa da, ilahi vəhydən xəbər verən şəxsə deyilir. Yəni nəbi dərdi olanların müraciət edib dərdlərinə çarə istədikləri həkim kimidir. Peyğəmbərlərin şərait və mühitləri bir-birindən fərqlənmiş, hər birinin özünəməxsus vəzifəsi olmuşdur[1438]. Əlbəttə, bəzi təfsirçilər Əhli-beyt (ə) hədislərinə istinad edərək bildiriblər ki, rəsul vəhy mələyinin nazil olduğu, mələyi görən və onunla danışan şəxsdir. Amma nəbi yuxu görən və vəhyi yuxu vasitəsilə alan şəxsdir[1439].

52. Şeytanın peyğəmbərlərin hədəflərinə təlqinləri: Bu ayə ilə bağlı müxtəlif təfsirlər mövcuddur. Onların bəzisi Peyğəmbərin (s) qəti dəlillərlə sübuta yetmiş məsumluğuna ziddir. Əllamə Təbatəbai "təmənna" sözü əsasında ayəni iki şəkildə təfsr etmişdir: 1. "Təmənna" ürəkdən keçən arzu mənasındadırsa, ayənin mənası belə olacaq: Biz səndən əvvəl elə bir elçi, elə bir nəbi (peyğəmbər) göndərmədik ki, o, Allahın dinini irəli aparmaq və insanların ona iman gətirməsini arzu etdiyində şeytanın insanları onun dininə qarşı vəsvəsə etmək və zalımları ona qarşı təhrik etmək, fitnə-fəsad törədənləri aldatmaq və bu vasitə ilə peyğəmbərləri məyus etməklə hədəflərinə gizli təlqinlər etməsin. Ancaq sonda Allah şeytanın səylərini puça çıxarır, ayələrini möhkəmləndirir, peyğəmbərinin səy və tələşını hədəfə çatdırırdı. 2. "Təmənna"nın oxumaq mənasını götürsək, ayənin mənası belə olacaq: Biz səndən əvvəl elə bir elçi, elə bir nəbi (peyğəmbər) göndərmədik

[1438] Nümunə, c.14, səh.144
[1439] Əl-Mizan, c.14, səh.392

ki, o Allahın ayələrindən insanlara oxuduğu zaman şeytan insanları Allaha iman gətirməkdən yayındırmaq üçün onların qəlbinə şübhə toxumu səpib onları vəsvəsə etməsin. Ancaq Allah şeytanın yaratdığı şübhələri puça çıxarır, peyğəmbəri həmin şübhələri aradan qaldırmağa müvəffəq edir və ya həmin şübhələri aradan qaldırmaq üçün əlamət göndərirdi[1440]. Qeyd etməliyik ki, bu kitabda nəzər nöqtəsi olan ayənin tərcüməsi birinci mənaya əsaslanır.

[1440] Əl-Mizan, c.14, səh.392

56. O gün hökm və hakimlik yalnız Allaha məxsusdur. Onların arasında hökm verəcəkdir. İman gətirib yaxşı işlər görənlər nemətləri bol olan bağlarda olacaqlar.

57. Kafir olub ayələrimizi yalan hesab edənləri isə xaredici bir əzab gözləyir.

58. Allah yolunda hicrət edənlərə, sonra öldürülənlərə və yaxud ölənlərə Allah gözəl ruzi verəcəkdir. Çünki o, ruzi verənlərin ən yaxşısıdır!

59. Allah onları razı qalacaqları yerə daxil edəcəkdir. Həqiqətən, Allah biləndir, səbrlidir!

60. Belədir! Hər kim zülm və haqızlığa məruz qaldığı miqdarda cəza versə, sonra yenə də təcavüzə məruz qalsa, mütləq, Allah ona kömək edəcəkdir. Həqiqətən, Allah əfv edəndir, bağışlayandır!

61. Bu (ilahi yardım vədi) ona görədir ki, Allah gecəni gündüzə, gündüzü də gecəyə daxil edir. Allah eşidəndir, görəndir.

62. Bu ona görədir ki, Allah Haqdır. Ondan başqa çağırdıqları isə batildir. Allah ucadır, böyükdür.

63. Allahın göydən su göndərdiyini və yerin (onunla) yaşıllığa büründüyünü görmürsənmi? Allah lütfkardır, xəbərdardır.

64. Göylərdə və yerdə nə varsa, Onundur. Allah ehtiyacsızdır və hər növ tərifə layiqdir.

---

56. Allahın Qiyamət hökmranlığı: Nəzərə almalıyıq ki, Allahın hökmranlığı təkcə Qiyamət günü ilə məhdudlaşmır. Allah həmişəlik mütləq hakimdir. Sadəcə, dünyada malik və hakimlər olduğu üçün belə bir təsəvvür yarana bilər ki, Allahdan başqa da hakimlər vardır. Ancaq Qiyamət

səhnəsində onun yeganə hakim və malik olması həqiqəti tamamilə aşkara çıxacaq. Başqa sözlə desək, iki cür hakim və malik var: Yaradanın yaranmışlar üzərindəki hökmranlığı həqiqi hökmranlıq, insanlar arasında mövcud olan hökmranlıq isə formal hökmranlıqdır. Dünyada bu iki hakimiyyət formasının hər ikisi mövcuddur. Ancaq o dünyada formal hakimyyətlər deyil, yalnız Yaradanın həqiqi hökmranlığı olacaq[1441].

58. Allah yolunda ölmək şəhidlik kimidir: Bəzi təfsirlərdə bu ayənin nazilolma səbəbi haqqında belə yazılmışdır: Mühacirlər Mədinəyə getdikdən sonra onların bəzisi şəhidlik şərbətini içdikləri halda, bəzisi təbii əcəlləri ilə dünyalarını dəyişdilər. Bu aspektdən səhabələr arasında Allahın bütün üstünlükləri şəhidlərərə aid etməsi fikri meydana çıxdı. Nəzər nöqtəsi olan ayə nazil oldu və hər iki qrupun Allahın ən üstün nemətlərinə layiq görüldüklərini bəyan etdi. Buna görə də bəzi təfsirçilər buradan belə qənaətə gəlirlər ki, əsas Allah yolunda can verməkdir, fərqi yoxdur, bu, istər şəhid edilməklə olsun, istərsə təbii əcəllə. Hər kəs Allah üçün və Allah yolunda ölərsə şəhidlərin savabını qazanar[1442]. İmam Əli (ə) buyurmuşdur: "...Allahın, peyğəmbərin və peyğəmbər ailəsinin haqqını tanıdığı halda öz yatağında ölən hər kəs şəhiddir. Niyyətində qılınc sıyırmaq olan bu adamın qəsd etdiyi yaxşı əməllərin mükafatına layiq görülməsi Allahın öhdəsindədir."[1443] Qeyd etməliyik ki, Allah yolunda hicrət etməyin mənası çox genişdir, Allah yolunda hicrət etmiş hər kəsə şamil olur. Buraya İslamın ilk dövrlərində Allah yolunda hicrət etmiş mühacirlər də, Həcc, Allah evini və Əhli-beytin (ə) müqəddəs qəbrlərini ziyarət etmək üçün öz vətənlərini tərk etmiş mühacirlər də aiddir. Bu ayə dini biliklərə yiyələnmək, dini təbliğ

[1441] Nümunə, c.14, səh.148
[1442] Nümunə, c.14, səh.150
[1443] Nəhcül-bəlağə, 232-ci xütbə

etmək, yaxşı işlər görməyi əmr etmək, pis işlərdən çəkindirmək, kafirləri öz ölkəsindən çıxarmaq, ölkəsini kafirlərin şərindən qorumaq üçün evlərindən çıxmış insanlara da şamildir[1444].

61. Gecə-gündüzün hesablanmış və tədrici dəyişkənliyi: "Yulic" kökü "vuluc" olan "ilac" sözündən düzəlmşdir; mənası daxil olmaqdır. Bu söz ilin müxtəlif fəsillərindən asılı olaraq gecə-gündüzün hesablanmış, nizam-intizamlı və tədrici dəyişikənliyini, birinin qısalmasını, digərinin uzanmasını ifadə edir. Bu sabit və nizam-intizamlı sistem milyon illərdir ki, mövcuddur. Bu ifadə ilə günəşin atmosfer şəraitindən asılı olan doğuşu və batışına da işarə edilə bilər. Belə ki, günəşin doğması qəfil deyil, tədricən baş verir, dan yer sökülməyə başlayanda günəş şüaları yüksəlir və yavaş-yavaş aşağı enir. Sanki gündüz tədricən gecənin içərsinə daxil olur, işıq ordusu zülmət ordusu üzərində qələbə çalır. Qürub vaxtı isə günəş şüasi sona yetir və hava azacıq tutulur, günəş işığı tədricən yuxarıdan son qürub yerinə qədər sona yetir və zülmət ordusu hər tərəfi öz ağuşuna alır. Əgər belə olmasaydı, günəşin doğuşu və batışı bir anda baş versəydi, gecə gözlənilmədən gündüzlə, gündüz isə qəfildən gecə ilə əvəzlənsəydi, bu, insan üçün ruhi və cismani problemlər yaradardı. Sürətli dəyişiklik ictimai cəhətdən də çoxlu fəsadlar yaranmasına səbəb olardı. Ayənin hər iki mənanı ifadə etməsinin heç problemi yoxdur[1445].

[1444] Ətyəbül-bəyan, c.9, səh.325
[1445] Nümunə, c.14, səh.153

65. Məgər Allahın quruda olanları və Onun əmri ilə okeanlarda üzən gəmiləri sizə ram etdiyini görmürsənmi? Göyü də Onun izni olmadan yerə düşməsin deyə O tutub saxlayar. Allah insanlara qarşı mərhəmətli və mehribandır.

66. Sizə həyat verən, sonra öldürən, daha sonra dirildən məhz Odur. Ancaq bu insan çox nankordur.

67. Biz hər bir ümmət üçün yerinə yetirə biləcəyi bir ibadət müəyyən etdik. Onlar bu işdə səninlə höcətləşməsinlər. Sən Rəbbinə tərəf dəvət et. Çünki sən ən doğru bir yoldasan.

68. Əgər sənlə mübahisəyə qalxsalar, de: “Allah sizin nə etdiyinizi daha yaxşı bilir.

69. İxtilaf etdiyiniz məsələlər barəsində Allah sizə Öz hökmünü Qiyamət günü verəcəkdir”.

70. Məgər bilmirdin ki, Allah göydə və yerdə olanları bilir? Bütün bunlar Kitabda (Allahın sonsuz elm kitabında) mövcuddur. Bu, Allah üçün asandır.

71. Onlar Allahı qoyub, haqqında heç bir dəlil nazil edilməyən və üstəlik özlərinin də bilmədikləri şeylərə ibadət edirlər. Zalımların kömək edəni və yol göstəräni olmaz.

72. Açıq-aydın ayələrimiz kafirlərə oxunduğu zaman sən onların inkarçı görkəm aldığını görərsən. Az qalırlar ki, qalxıb yumruqları ilə ayələrimizi onlara oxuyanların üstünə hücum çəksinlər. De: “Sizə bundan daha pisini xəbər verimmi? Allahın kafirlərə vəd verdiyi həmin yandırıcı oddur. O nə pis aqibətdir!”

---

65. Üzən gəmilər Allahın lütfkarlığının əlamətidir: Yer və göydəki mövcudatın ram edilməsi deyilərkən insanın kamilləşməsi üçün Allahın onları ram etməsi nəzərdə tutulur. Yerdə mövcud olan nemətlər arasında gəmilərin okeanlardakı hərəkətinin xüsusilə qeyd edilməsi gəmilərin keçmişdə və indi ən mühüm nəqliyyat vasitələrindən olması ilə bağlıdır. Heç bir nəqliyyat vasitəsi bu vaxta qədər insanların və yüklərin bir yerdən başqa bir yerə daşınmasında gəmilərin yerini tuta bilməmişdir. Əgər bir gün gəmilərin okeanlardakı hərəkəti dayansa, insanların həyatı tamamilə alt-üst olar. Çünki quru yolları gəmilərin daşıdığı yüklərin hamısını daşımaq gücündə deyil. Sonra Allah böyük nemətlərdən olan göy nemətinə işarə

etmişdir. O, Allahın izni olmadan yerə düşməsin deyə, səmanı qoruyur. Allah planetləri öz orbitlərində hərəkət etdirir. Mərkəzdən qaçma nətcəsində hasil olan dəfetmə qüvvəsi ilə onların cazibə qüvvəsi arasında paralellik yaratmışdır. Nəticədə, onların öz orbitlərindəki hərəkətləri zamanı aralarındakı məsafələrdə heç bir dəyişiklik yaranmır, toqquşma baş vermir. Allah atmosfer təbəqəsini elə yaradıb ki, kometlərin yerə toxunmasına və məhvedici dağıntılar törətməsinə imkan vermir. Bu, Allahın bəndələrinə qarşı olan lütf və mərhəmətinin göstəricisidir. İnsanların əmin-amanlıq və asayiş içində yaşamasını təmin etmək, onları dağıdıcı ulduz yağışından və toqquşmalardan qorumaq üçün belə bir əmin-aman beşik yaratmışdır[1446].

67. Səmavi dinlərdə yeni ibadət formalarının mövcud olma fəlsəfəsi:

Bu ayədə xalqlar deyilərkən, Peyğəmbər (s) zamanında mövcud olan ərəb, qeyri-ərəb, rumlular və sair kimi müxtəlif xalqlar deyil, İslama qədər olan və bir-birini əvəzləyən bütün keçmiş xalqlar nəzərdə tutulur. “Sənin lə höcətləşməsinlər” cümləsinin xitab obyekti Peyğəmbərin (s) çağırışına qarşı çıxaraq onunla təqdim etdiyi ibədət forması barəsində mübahisə edən müşrik və inkarçılardır. Kitab əhlindən olan kafirlər və müşriklər İslamda olan bəzi ibadət formalarını gördükdə onlar üçün yeni olan və analoqunu keçmiş dinlərdə, o cümlədən yəhudilikdə olmayan ibadətlər barəsində Peyğəmbərlə (s) mübahisəyə qalxaraq deyirdilər: “Bu ibadəti haradan gətirmisən? Buna bənzər ibadət formalarını keçmiş dinlərdə görməmişik. Əgər sən doğrudan da peyğəmbər olsaydın, keçmiş ümmətlərin Allaha ibadət edən nümayəndələri bu ibadətlərdən xəbərdar olmalı idilər.” Allah-taala onlara belə cavab verir: “Keçmiş ümmətlərin hər birinin Allaha ibadət etmək üçün özünəməxsus ibadət forması var idi. Ümmətlərin heç birinin ibadəti digərinə

[1446] Nümunə, c.14, səh.159

ötürülməmişdir. Çünki Allah hər bir dinin qanunlarının hökmünə sonra gələn dinin qanunları ilə xitam verir və daha yaxşısını təqdim edir. Bunun səbəbi isə sonrakı ümmətlərin fikir və düşüncə cəhətdən əvvəlkilərdən daha üstün olması, onların daha yaxşı və daha kamil ibadət formaları yerinə yetirmək potensialına malik olmasıdır. Buna görə də sizin peyğəmbərlə mübahisəyə qalxıb onun dininin əvvəlki dinlərə bənzəməməsinə etiraz etməyinizin heç bir mənası yoxdur."[1447]

72. İnkarçı kafirlər məntiqsiz və kobud idilər: Kafirlər Allahın ayələrini eşitiklərində Quranın canlı məntiqi ilə özlərinin nadan təəssübkeşliyi arasında ziddiyyət olduğunu görürdülər. Haqq-həqiqət qarşısında təslim olmaq istəmədikləri üçün üzlərinin ifadəsi dəyişir, inkarçı görkəm alırdılar. Əlbəttə, məsələ bununla da bitmirdi, təəssüb və inadkarlıqları elə həddə çatırdı ki, az qalırdılar bu ayələri söyləyənlərə hücum çəksinlər. Məntiqli insanın məntiqə zidd olan fikirlər eşitdikdə ona məntiqi yolla cavab verdiyini nəzərə alsaq, kafirlərin göstərdiyi bu yanlış reaksiya onların məntiqə əsaslanmadığının, yalnız təəssübkeşlik və cəhalət içində batdıqlarını göstərir. Quran bu məntiqsizlərə qarşı Peyğəmbərə (s): "De: "Sizə bundan daha pisini xəbər verimmi? Allahın kafirlərə vəd verdiyi həmin yandırıcı oddur. O nə pis aqibətdir!" – deyə göstəriş verir. Yəni siz elə düşünürsünüz ki, Allahın ayələri sizin azğın və yanlış fikirlərinizlə üst-üstə düşmədiyi üçün pisdir. Mən isə sizə bundan da pisini xəbər verirəm: "Siz bu inadkarlığınıza görə axırda Allahın ağrılı-acılı əzabına məruz qalacaqsınız."[1448]

[1447] Əl-Mizan, c.14, səh.407
[1448] Nümunə, c.14, səh.169

73. Ey insanlar! Sizə bir məsəl çəkilir. Onu dinləyin. Şübhəsiz ki, Allahdan başqa ibadət etdiklərniz bir milçək belə yarada bilməzlər, hətta bunun üçün əl-ələ versələr belə. Əgər milçək onlardan bir şey götürüb aparsa, bunu ondan geri ala bilməzlər; həm istəyənlər aciz qalar, həm istənilənlər! (Həm ibadət edənlər, həm də ibadət olunanlar bunu bacarmazlar)

74. Onlar Allahı lazımınca tanımadılar. Allah qüvvətlidir, məğlubedilməzdir!

75. Allah mələklərdən də elçilər seçir, insanlardan da. Allah eşidəndir, görəndir!

76. Onların keçmişini və gələcəyini bilir. Bütün işlər Allaha qayıdır.

77. Ey iman gətirənlər! Rüku edin, səcdəyə qapanın, Rəbbinizə ibadət edərək yaxşı işlər görün ki, bəlkə nicat tapasınız.

78. Allah yolunda cihad edin və cihadı layiqincə yerinə yetirin. O, sizi seçdi və dində sizin üçün heç bir çətinlik yaratmadı. Atanız İbrahimin dininə tabe olun (Bu elə sizin atanız İbrahimin dinidir). Peyğəmbər sizə, siz də insanlara şahid olasınız deyə, Allah həm əvvəlki kitablarda, həm də bu

Kitabda sizi müsəlman adlandırdı. Elə isə namaz qılın, zəkat verin və Allaha möhkəm sarılın ki, O sizin rəhbəriniz və himayədarınızdır. O nə gözəl himayədar, nə gözəl yardımçıdır!

---

73. Milçək belə yaratmağa qadir olmayan yalançı tanrılar: İmam Sadiq (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Müşriklər adət-ənənələrinə görə Kəbənin ətrafında olan bütlərinə müşk-ənbər sürtüb qarşısında sitayiş edirdilər. (Allah onların heç nəyə qadir olmadıqlarını başa salmaq üçün)" dörd qanadı olan yaşıl rəngli milçək göndərir. Həmin milçək bütlərin üzərindəki bütün müşk-ənbərləri sorur. Bu ayə həmin vaxt nazil olur."***[1449] Ayənin "Allahdan başqa ibadət etdiklərinizbir milçək belə yarada bilməzlər, hətta bunun üçün əl-ələ versələr belə" cümləsini oxuduqdan sonra ortaya belə bir sual çıxa bilər: Müasir insan elm və texnologiyanın gücü ilə nəinki bir milçək, ondan da üstün ixtiralara imza atmışdır. Bir göz qırpımında çox böyük məsafələr qət edən nəqliyyat vasitələri, ən mürəkkəb riyazi məsələləri bir anda həll edə bilən dəqiq elektron beyinlər yaratmışdır. Belə olan halda, bu ayə müasir insana da şamil olurmu? Qeyd etməliyik ki, ağılları heyran qoyan bu cür vasitələrin düzəldilməsi təbii ki, bəşəriyyətin elmi inkişafının yüksək yaradıcılıq qabiliyyətindən xəbər verir. Ancaq bütün bunlar canlı bir varlığın yaranış sirri qarşısında çox sadə bir şeydir. Əgər canlı varlıqların fiziologiyası, milçək kimi kiçik bir həşəratın bioloji fəaliyyətlərindən bəhs edən bir kitabı diqqətlə araşdırsaq, görərik ki, bir milçəyin beyin quruluşu, əsəb və həzm sistemi ən yüksək texniki təchizata malik olan təyyarənin quruluşundan müqayisə edlə bilməyəcək dərəcədə

[1449] Əl-Mizan, c.14, səh.416

üstündür. Canlı varlıqların həyatı, hissələri, hərəkətləri, inkişafı, artması hələ də alimlər üçün bir müəmma olaraq qalmaqdadır. Bu mövcudatın bədənindəki incəliklər həllolunmaz müəmmalardır[1450].

78. İxlas Allah yolunda edilən layiqli cihadın şərtidir: "Allah yolunda cihad edin və cihadı layiqincə yerinə yetirin" cümləsini təfsir edən əksər təfsirçilər burada düşmənə qarşı olan silahlı cihadın nəzərdə tutulmadığını bildirmişlər. Cihadın leksik mənasını da nəzərə alsaq, cihad deyilərkən Allah yolunda göstərilən bütün növ səylər, yaxşı işlər görmək üçün atılan addımlar, boyun əyməyən nəfsani istəklərlə mübarizə, zalım düşmənlə mübarizə nəzərdə tutulur. Təbərsi "Məcməül-bəyan"da əksər təfsirçilərə istinad edərək layiqli cihad deyilərkən Allah üçün görülən işlərin ixlas, xalis niyyət və tam səmimiyyətlə yerinə yetirilməsinin nəzərdə tutulduğunu qeyd etmişdir. Şübhəsz ki, layiqli cihad keyfiyyət, kəmiyyət, məkan, zaman və sair cəhətlərə əsasən məzmunca çox geniş miqyası əhatə edir. Nəfslə mübarizədə ixlas və səmimiyyət ən çətin mərhələ olduğu üçün ona daha çox önəm verilmişdir. Çünki Allahdan qeyrisi üçün olan fikir və meyllərin insanın qəlbinə və əməllərinə təsiri o qədər gizlidir ki, ondan yalnız Allahın xüsusi bəndələri xilas ola bilərlər[1451].

78. İbrahim (ə) müsəlman ümmətinin atasıdır: İbrahimin (ə) müsəlman ümmətinin atası hesab edilməsi onun Allah qarşısında təslim olması ilə bağlıdır (Bəqərə - 131). Digər tərəfdən isə Quran onun öz dilindən belə buyurur: ***"Mənə tabe olan məndəndir"*** (İbrahim - 36). Bu cümləsi ilə o ardıcıllarını özünə aid etmişdir. Quranın başqa bir ayəsindən onun dilindən belə buyururlur: ***"Məni və övladlarımı bütlərə tapınmaqdan qoru!"*** (İbrahim - 35). Şübhəsiz ki, övladlarım deyərkən o, müsəlmanları nəzərdə

[1450] Nümunə, c.14, səh.174
[1451] Nümunə, c.14, səh.171

tutmuşdur. Çünki onun nəslindən olan müşriklərə dua etməsinin heç bir mənası olmazdı. Allah-taala Quranda belə buyurmuşdur: ***"İnsanlardan İbrahimə ən layiq olanlar, onun ardınca gedənlər, bu Peyğəmbər və (ona) iman gətirənlərdir."*** (Ali-İmran - 68)[1452] Bu ayələrin məcmusundan Quranda İbrahimin (ə) İslam ümmətinin mənəvi atası və müsəlmanların da onun mənəvi övladları olmasının səbəbi aydın olur. Çünki o, ilk müsəlman olan şəxsdir. Ardıcılları olan müsəlmanları da öz övladları hesab etmişdir.

"Muminun" surəsi

[1452] Əl-Mizan, c.14, səh.414

Rəhman və Rəhim Allahın adı ilə!

1. Möminlər nicat tapıblar;

2. o kəslər ki, namazlarında müti və təvazökardırlar,

3. o kəslər ki, faydasız, əbəs işlərdən qaçırlar,

4. o kəslər ki, zəkat verirlər,

5. o kəslər ki, öz iffətlərini (cinsi orqanlarını) qoruyurlar,

6. yalnız öz zövcələri və sahib olduqları cariyələlə münasibətdə olurlar. Onlara görə qınanmazlar.

7. Bundan başqa vasitəyə can atanlar həddi aşanlardır.

8. O kəslər ki, əmanətlərini və vədlərini qoruyurlar.

9. O kəslər ki, namazlarını qoruyurlar.

10. Onlardır varis olanlar.

11. Firdovs Cənnətinə varis olanlar orada əbədi qalacaqlar.

12. Biz insanı palçıq şirəsindən yaratdıq.

13. Sonra nütfə halında təhlükəsiz yerdə yerləşdirdik.

14. Daha sonra nütfəni laxtalanmış qan formasına, laxtalanmış qanı çeynənmiş ət parçası formasına, çeynənmiş ət parçasını sümük formasına saldıq, sonra da sümükləri ət ilə örtdük. Sonra ona yeni bir yaranış verdik. Yaradanların ən yaxşısı olan Allah çox böyükdür!

15. Bundan sonra siz mütləq, öləcəksiniz.

16. Sonra da Qiyamət günü dirildiləcəksiniz.

17. Biz sizin üstünüzdə yeddi yol (göyün yeddi təbəqəsini) yaratdıq. Biz yaratdıqlarımızdan (əsla) xəbərsiz olmamışıq.

“Muminun” surəsinin ümumi məzmunu: Bu surənin ehtiva etdiyi məzmunları ümumiləşdirərək bir neçə qrupa bölmək olar: 1. Möminlərin

xilasına səbəb olan xüsusiyyətlər; 2. Allahın varlıq aləmini sarmış müxtəlif nişanələri; 3. Keçmiş peyğəmbərlərdən bir qrupunun başına gələnlər; 4. Təkəbbürlü insanlara dirilişlə mövzusu ilə bağlı bəzən sərt ahəngə malik məntiqi dəlillərlə xəbərdarlıq edilməsi; 5. Allahın varlıq aləmi üzərindəki hökmranlığı; 6. Qiyamətin təkrar-təkrar xatılanması; 7. İnsanın yaranış məqsədinin bəyan edilməsi[1453].

2. Mütilik və təvazökarlıq namazın ruhudur: "Xaşiun" mənası böyük şəxsiyyət və ya həqiqət qarşısında əlamətləri özünü aşkar şəkildə büruzə verən təvazökarlıq göstərmək, ruhən və cismən ədəb nümayiş etdirmək olan "xüşu" sözündəndir. Quran burada namaz qılmağı deyil, namazda müti və təvazökar olmağı möminlərin xüsusiyyətlərindən biri kimi təqdim etmişdir. Bununla da onların namazının ruhsuz və cansız olan söz və hərəkətlərdən ibarət olmadığını başa salmaq istəmişdir. Onlar namaz qılarkən diqqətlərini elə cəmləyirlər ki, Allahdan qeyri nə varsa, hamısından tamamilə təcrid olunur, yalnız ona bağlanırlar. Fikir və düşüncəyə, Allahla ünsiyyətə elə aludə olurlar ki, bu aludəçilik bütün varlıqlarını əhatə edir. Özlərini sonsuz varlıq qarşısında bir zərrə, ucu-bucağı görünməyən okean qarşısında bir damcı timsalında görürlər. Bir gün Peyğəmbər (s) namaz üstündə saqqalı ilə oynayan bir nəfəri görüb belə buyurur: ***"Əgər müti olsaydı, bədən üzvləri də müti olardı".*** O, bununla təvazökarlığın daxildən baş qaldırıb özünü zahirdə göstərən bir hal olduğuna işarə edir[1454]. Peyğəmbər (s) başqa bir hədisində belə buyurmuşdur: "Münafiqlərin təvazökarlığından Allaha sığının". "Münafiqlərin təvazökarlığı nədir?" – deyə soruşulduğunda buyurmuşdur: "Qəlb deyil, bədənin təvazökar və müti olması"[1455]. Namaz və digər

[1453] Nümunə, c.14, səh.190
[1454] Nümunə, c.14, səh.194
[1455] Əl-Mizan, c.15, səh.12

ibadətlərdə qəlb hüzuru, əsl təvazökarlıq və mütilik halı tapmaq üçün aşağıdakılar tövsiyə olunur: 1. Allahla ünsiyyətdə olarkən diqqətin yayınmaması və Allahdan qeyrisinə baxmaması üçün insana dünyanın kiçik, Allahın isə böyük olduğunu qənaəti yaradacaq bilgiyə sahib olmaq lazımdır. 2. Fikir dağınıqlığı insanın diqqətini toplamasına mane olur. İnsan dağınıq fikirlərdən nə qədər çox yaxa qurtara bilərsə, ibadətlərində bir o qədər qəlb hazırlığı tapar. 3. Namaz üçün məkan seçimi də burada rol oynayır. Buna görə də insanın diqqətini yayındıran əşyalar qarşısında namaz qılmaq bəyənilmir. Əslində, müsəlmanların ibadət ocaqları nə qədər sadə və təmtəraqdan uzaq olarsa, o qədər yaxşı olar. Bu boşluq insanın qəlb hazırlığına yardım göstərir. 4. Günahdan qorunmaq insanın qəlb hazırlığında rol oynayır. Günah insanın qəlbini Allahdan uzaqlaşdırır. 5. Namazın mənasını bilmək, hərəkət və zikrlərin fəlsəfəsinə varmaq təsir göstərən amillərdəndir. 6. Namazdan əvvəl, namaz əsnasında və ondan sonra müstəhəb buyurulmuş zikrləri demək təsir göstərir. 7. Özünə nəzarət, bu yöndə məşqlər etmək və bunu davam etdirmək ilk başlanğıcda bir anlıq qəlb hazırlığının yaranmasına səbəb və diqqətin toplanmasına səbəb olur. Ancaq bu davranışlarını davam etdirəcəyi təqdirdə insan namazda özünə elə yüksək həddə hakim olar ki, qəlbinin bütün dəliklərini Allahdan qeyrisinə bağlayar[1456].

3. Əbəs və faydasız iş: Əbəs iş heç bir faydası olmayan işə deyilir. Əlbəttə, bu anlayış nisbidr. Çünki hər hansı iş özü-özlüyündə faydalı, başqa işlərlə müqayisədə əbəs ola bilər. Deməli, əbəs və faydasız işlər dini cəhətdən halal oduğu halda axirət faydası olmayan işlərə deyilir. Buna yemək yeməyi misal göstərə bilərik. Yemək yemək ilk baxışda lazım, zəruri və qaçılmazdır. Ancaq yemək yeməkdə məqsəd yalnız ləzzət və zövq almaq

[1456] Nümunə, c.14, səh.204

olsa, dini cəhətdən əbəs iş hesab edilir. Yemək yemək əbəs olmaqdan o zaman çıxır ki, onda məqsəd güc toplayıb Allaha ibadət etmək olsun. Deməli, vacıb və müstəhəb kontekstindən kənar olan bütün işlər əbəsdir. Bütün işləri, yemək, içmək, yatmaq, ailə qurmaq və sairəni məqsədyönlü və Allahın razılığını qazanmaq niyyəti ilə etməklə müstəhəb əmələ çevirmək olar[1457].

18. Biz göydən müəyyən miqdarda su endirib onu yerdə saxladıq. Biz onu yox etməyə tam qadirik.

19. Sonra onun vasitəsilə sizin üçün xurma və üzüm ağaclarından bağlar göyərtdik. O bağlarda yediyiniz çoxlu meyvələr vardır.

20. Sina dağında bir ağac bitir (zeytun). Yeyənlər üçün həm yağ və həm şirə verir.

21. Heyvanlarda da sizin üçün bir ibrət var. Biz onların bətnində olandan sizlərə içirdirik. Sizin üçün onlarda çoxlu faydalar var. Üstəlik onların ətindən də yeyirsiniz.

22. Onlara və gəmilərə minirsiniz.

[1457] Əl-Mizan, c.15, səh.8

23. Biz Nuhu öz qövmünə elçi göndərdik. O dedi: “Ey qövmüm! Tək olan Allaha ibadət edin! Sizin Ondan başqa heç bir məbudunuz yoxdur. Məgər qorxmursunuz?”

24. Qövmünün kafir zadəganları dedilər: “Bu kişi elə sizin kimi bir insandır və sizə böyüklük etmək istəyir. Əgər Allah (peyğəmbər göndərmək) istəsəydi, mələklər göndərərdi. Biz ulu babalarımızdan belə bir şey eşitməmişik.

25. Bu cin vurmuş bir adamdır. Odur ki, ona qarşı bir müddət səbrli olun!”

26. (Nuh) dedi: “Ey Rəbbim! Onların məni yalançı saymasına qarşı mənə kömək et!”

27. Biz Nuha vəhy etdik: “Gəmini hüzurumuzda və vəhyimizə uyğun şəkildə düzəlt. Əmrimiz gəldiyi və təndir qaynadığı zaman hər canlıdan bir cüt (erkək və dişi), daha öncə həlak olacaqları ilə bağlı vəd verilmiş kəslər (arvadın və oğlun) istisna olmaqla, öz ailəni gəmiyə mindir. Zalımlar barəsində Mənə müraciət etmə. Çünki onlar hamısı həlak olacaqlar.

---

18. Yeraltı su ehtiyatları dünya əhalisi üçün böyük nemətdir: Bildiyimiz kimi, yerin üst qatı sukeçirən və sukeçirməz olmaqla iki təbəqəyə bölünür. Əgər yerin bütün təbəqələri sukeçirən olsaydı, yağış suları tamamilə yerin dərinliklərinə hopardı və yer səthi quruyar, bir damcı belə su tapılmazdı. Əgər yerin bütün təbəqələri sukeçirməz gil olsaydı, bütün yağan yağıntılar yer səthində qalar, bütün yer üzü bataqlıqlara çevrilər, həyat üçün yararsız olar, həyat mənbəyi olmaq əvəzinə ölüm səbəbinə çevrilərdi. Anacaq Allah-taala yerin üst qatını sukeçirən, alt qatını isə sukeçirməz etmişdir. Nəticədə yağıntılar üst qatdan süzülüb alt qat üzərində toplanır,

sonra bu ehtiyatlardan bulaqlar, quyular və kəhrizlər vasitəsilə istifadə edilir. Quyudan çıxardığımız şirin su bəlkə də min illər əvvəl yağmış və yerin dərinliklərinə süzülmüş, xarab olmadan bu günün su ehtiyatına çevrilmiş yağış suyunun damcılarıdır. Allah insanı yaşamaq üçün yaratmış, suyu onun həyat mənbəyinə çevirmişdir. Ondan əvvəl isə bu həyat mənbəyini saxlamaq üçün çox mühüm mənbələr yaratmıdır[1458].

20. Turi-Sina Zeytun ağacının bitdiyi məkan: Turi-Sina Sina səhrasında yerləşən Tur dağıdır. Allah-taala burada Zeytunu ona görə Tur dağında bitən ağac kimi təqdim edir ki, Hicaz ərəbləri bu regionun quru çöllərindən keçib şimala doğru üz tutduqları zaman qarşılarına çıxan ilk yer Zeytun ağacları bol olan Sina düzü olmuşdur. Xərtəyə baxdıqda bu məsələ daha yaxşı anlaşılır[1459].

19-20. Xurma, zeytun, üzüm: Bu həyat əhəmiyyətli meyvələrin xüsusiyyətləri ilə yaxından tanış olmaq istəyənlər "Nəhl" surəsinin 11-ci ayəsinə baxa bilərlər.

27. Nuhun (ə) əhvalatı: "Hud" surəsinin 37-40-cı ayələrinin məzmunu ilə bu ayənin məzmunu təxminən eynidir. Bu ayənin ehtiva etdiyi nüanslarla daha yaxından tanış olmaq, Nuhun (ə) gəmisinin böyüklüyü, suyun təndirdən qaynaması, daha öncədən həlak olacaqları ilə bağlı vəd verilmiş şəxslər və sair kimi məsələlər haqqında daha ətraflı məlumat əldə emək istəyənlər həmin ayələrə baxa bilərlər.

[1458] Nümunə, c.14, səh.217
[1459] Nümunə, c.14, səh.220

28. Sən yanında olanlarla birlikdə gəmiyə mindiyin zaman de: “Həmd bizi zalım adamlardan xilas edən Allaha məxsusdur!”

29. De: “Ey Rəbbim! Bizi bərəkətli bir məkanda yerə endir. Sən yerə endirənlərin ən yaxşısısan!”

30. Bunda əlamətlər və ibrətlər vardır. Həqiqətən, Biz sınağa çəkirik.

31. Onlardan sonra başqa bir cəmiyyət meydana gətirdik.

32. Onlara da özlərindən “Allaha ibadət edin! Sizin ondan başqa heç bir ilahınız yoxdur. Məgər qorxmursunuz?” deyən bir elçi göndərdik.

33. Qövmünün kafir olan, axirət görüşünü yalan hesab edən və dünya həyatında firavanlıq nəsib etdiyimiz zadəganları dedilər: “O sizin kimi bir insandır. Yediyinizdən o da yeyir, içdiyinizdən o da içir.

34. Əgər siz özünüz kimi adi bir insana itaət etsəniz, mütləq ziyana uğrayarsınız.

35. O sizə ölüb torpağa və sür-sümüyə çevrildikdən sonra yenidən çıxarılacağınızımı vəd edir?

36. Sizə vəd olunan şey qeyri-mükündür, qeyri-mümkün!

37. Həqiqətən, bu dünya həyatımızdan başqa heç bir həyat yoxdur; birimiz ölür, digərimiz onun yerini tutur və biz əsla qaldırılmayacağıq.

38. O, yalnız Allaha iftira yaxan bir adamdır. Biz ona inanan deyilik”.

39. (Peyğəmbərləri) dedi: “Ey Rəbbim! Onların məni yalançı saymasına qarşı mənə kömək et!”

40. (Allah) buyurdu: “Tezliklə tutduqları işdən peşman olacaqlar!”

41. Onları qorxunc bir səs haqq olaraq bürüdü. Biz onları daşqının apardığı çör-çöpə döndərdik. (Allahın rəhmətindən) uzaq olsun zalım adamlar!

42. Onlardan sonra başqa-başqa nəsillər yaratdıq.

---

30. İmtahan Allahın qəti qanunudur: “Həqiqətən, Biz sınağa çəkirik” cümləsinin geniş məzmunu bəlkə də belədir: Biz Nuhun (ə) qövmünü dəfələrlə sınağa çəkdik, onlar sınaqların öhdəsindən gəlmədikləri üçün məhvə məhkum etdik. Cümlənin geniş məzmunu belə də ola bilər: Biz bütün dövrlərin insanlarını sınağa çəkirik. Əvvəlki ayədə söylənilənlər təkcə Nuhun (ə) dövrünün insanlarına aid deyil, bütün dövrlərin insanlarına aiddir. Hər br dövrün insanları müxtəlif formalarda sınanılır. Bəşəriyyətin təkamül yolu üzərində tikan olan insanlar sınaqlar vasitəsilə yoldan təmizlənir ki, bəşəriyyət təkamül yolunu davam etdirə bilsin[1460]. Möminlərin əmiri İmam Əli (ə) belə buyurmuşdur: “Allah sizə sığınacaq verib, sizə zülmü rəva görməyib. Ancaq sığınacaq veribsə, bu o demək deyil ki, sizi sınamayacaq. Əzəmətli Allah: “Bunda əlamətlər və ibrətlər vardır. Həqiqətən, Biz sınağa çəkirik”, - deyə buyurmuşdur.”[1461] Əlbəttə, Allah-taalanın sınaq formaları fərqlidir. Yoxsulluq, var-dövlət, izzət, zillət, xəstəlik, sağlamlıq və sair, hər biri Allah tərəfindən br imtahandır. Allah bəndəsi bütün bu vəziyyətlərə şükür və səbr etməli, öz vəzifəsinə əməl etməlidir[1462].

31. Səmud qövmü Nuh qövmündən sonra həlak olmuş qövmdür: Quranda Allah-taalanın Nuhdan sonra meydana gətirdiyi, sonra məhv etdiyi qövmün hansı qövm olduğunu, habelə bu qövmün peyğəmbərin adını qeyd etməmişdr. Çox ehtimal ki, bu qövm Saleh peyğəmbərin (ə) qövmü Səmuddur. Çünki Allah-taala Quranın bir neçə yerində bu qövmdən söz

---

[1460] Nümunə, c.14, səh.232
[1461] Nəhcül-bəlağə, 102-ci xütbə
[1462] Ətyəbül-bəyan, c.9, səh.387

açmış və onların Nuh (ə) qövmündən sonra yaşamış və qorxunc səs bəlasına düçar olmuş qövm olduğunu buyurmuşdur[1463].

33. Dəbdəbəli həyat və onun acı nəticəsi: Bu ayədə naz-nemət içində keçən dəbdəbəli həyatla küfr və Allahla görüşün yalan hesab edilməsi arasında bir əlaqə olduğu vurğulanmışdır. Həqiqətən də belədir. Çünki bu cür həyat sürən insanlar qeyd-şərtsiz azad həyat sürməyə, bütün heyvani ləzzətlərdən azad şəkildə istifadə etməyə meyilli olurlar. Məlumdur ki, Allahın nəzarət etdiyini və böyük Qiyamət məhkəməsini qəbul etmək bu həyat yolu üçün bir maneədir. Bu inanclar həm insanın vicdanını rahat buraxmır, həm də insanların qınaq qapılarını açır. Buna görə də bu cür insanlar Allaha bəndəlik boyunduruğunu birdəfəlik boyunlarından çıxarır, Allahı və dirlişi inkar edir, əvvəlki ayədə qeyd edildiyi kimi, belə deyirlər: Həyat yalnız bu dünyadan ibarətdir ,bundan başqa dünya yoxdur, kim bunun əksini desə, yalançıdır. Fürsəti qənmət saymaq, beş günlük dünyanı kef çəkmək, hər çəməndən bir gül qoparmaq, hər şeydən zövq almaq lazımdır. Onlar bütün çirkin hərəkətlərini bu cür sözlərlə yozurlar. Digər tərəfdən, dəbdəbəli həyata başqalarının hüquqlarını tapdalamadan, başqalarına qarşı zülm və haqsızlıq etmədən nail olmaq mümkün deyil. Peyğəmbərləri və Qiyaməti inkar etmədən yolları hamar olmaz. Məhz elə bu səbəbdəndir ki, bu cür həyat tərzi sürən insanların çoxu hər şeyə daban çırpır, hər şeyə təhqir və inkar gözü ilə baxırlar. Bu nəfsani istəklərin əsirinə çevrilmiş kor qəlbli yazıqlar Allahın itaət və mərhəmət kölgəsindən çıxıb əvəzinə ehtiraslar boyunduruğunu taxır, nəfsani istəklər bütünün köləsinə çevrilirlər. Onlar tənəzzülə uğramış fikirlərə, çirkaba bulaşmış ruhlara, zülmət və qaranlıq çökmüş qəlblərə malikdirlər. Kənardan onların həyatı bəzilərinə cəlbedici

---

[1463] Əl-Mizan, c.15, səh.33

görünə bilər, ancaq yaxından çox qorxuncdur. Çünki günahın yaratdığı narahatlıq, nemətlərin itirilməsi və ölüm qorxusu onları daim iztirab və stresdə saxlayır[1464].

43. Heç bir ümmət öz əcəlini nə qabaqlaya bilər, nə də yubandırar.

44. Sonra bir-birinin ardınca elçilərimizi göndərdik. Hər dəfə hər hansı bir ümmətə peyğəmbər gəldikdə, onlar onu yalançı saydılar. Biz də onları bir-birinin ardınca məhv edib əfsanələrə çevirdik. (Allahın rəhmətindən) uzaq olsun iman gətirməyənlər!

45. Sonra Musanı və qardaşı Harunu ayələrimizlə və açıq-aydın bir dəlillə göndərdik –

[1464] Nümunə, c.14, səh.240

46. Fironun və onun əyanlarının yanına. Onlar isə təkəbbürlük göstərdilər. Çünki onlar özlərini üstün tutan adamlar idilər.

47. Onlar dedilər: “Tayfaları bizim köləmiz olduğu halda, biz özümüz kimi olan iki insanamı inanacağıq?”

48. Onları yalançı saydılar və nəticədə hamısı həlak oldu.

49. Biz Musaya Kitab verdik ki, bəlkə onlar doğru yola yönəlsinlər!

50. Biz Məryəm oğlunu və onun anasını bir əlamət və nişanə etdik. Onları əmin-aman və su axan hündür bir yerdə yerləşdirdik.

51. Ey elçilər! Halal nemətlərdən yeyin və yaxşı işlər görün! Mən sizin etdiklərinizdən xəbərdaram!

52. Sizin bu ümmətinz vahid bir ümmətdir. Mən də sizin Rəbbinizəm. Elə isə Məndən (əmrimə qarşı çıxmaqdan) qorxun.

53. Lakin onlar təfriqə salıb parçalanma yaratdılar, hər firqə bir yol seçdi. Firqələrin hər biri öz təriqətinə sevinir.

54. Sən bir müddət onları öz cəhalət və qəflətləri içində burax!

55. Yoxsa elə hesab edirlər ki, yardım məqsədilə onlara var-dövlət və övlad verməklə

56. xeyir qapılarını onların üzünə açmağa tələsirik? Xeyr, onlar anlamırlar.

57. Həqiqətən, Rəblərinin qorxusundan əsim-əsim əsənlər,

58. Rəblərinin ayələrinə iman gətirənlər,

59. Rəblərinə şərik qoşmayanlar,

---

50. Əmin-aman və su axan hündür bir yer: Təfsirçilər bu yerlə bağlı müxtəlif fikirlər irəli sürmüşlər. Bəziləri hesab edir ki, bura həzrət İsanın (ə) doğulduğu və Şam şəhərlərindən olan Nasirə şəhəridir. Çünki bu peyğəmbər

doğulduğu vaxt onun doğum xəbərini eşidən və gələcəyi barəsində ümumi məlumatlara malik olan bir qrup alim onu aradan götürmək qərarına gəlmişdi. Ancaq Allah onu əmin-aman və nemətləri bol olan br yerdə məskunlaşdırmışdı. Bəziləri həmin yerin Misir olduğunu qeyd etmişlər. Çünki İsa (ə) və anası Məryəm (ə) düşmənlərin əlindən xilas olmaq üçün bir müddət Misirdə yaşamışlar. Bəziləri həmin yerin Dməşq, bəziləri Rəmələ (Beytül-müqəddəsin şimal-şərq şəhərlərindən biri) olduğunu qeyd etmişlər. Çünki İsa (ə) və anası ömürlərinin bir hissəsini bu şəhərlərdə keçirmişlər. Bu cümlə ilə İsanın (ə) doğulduğu Beytül-müqəddəs düzünə də işarə edildiyini ehtimal etmək olar. Allah-taala bu yeri İsa (ə) və anası üçün əmin-aman, şirin su axan, qurumuş ağacdan xurma bəxş edən bir məkan etmişdir[1465]. Əhli-beyt imamlarına (ə) aid olan bəzi hədislərdə bu yerin Nəcəf və Kufə olduğu qeyd edilmişdir[1466].

51. Peyğəmbərlər başqaları kimi yeyib-içsələr də, yedikləri pak və məqsədyönlüdür: Əvvəlki ayələrdə kafirlərin bəhanələrindən birinə işarə edilərək buyurulmuşdur: Nə üçün Allahın peyğəmbəri olduğunu iddia edən bir şəxs başqa insanlar kimi yeyib-içir? Bu ayədə peyğəmbərlərə xitabən belə buyurulmuşdur: ***"Ey elçilər! Halal nemətlərdən yeyin və yaxşı işlər görün!"*** Əslində, onlarla digər insanların fərqi bundadır ki, onlar qidanı ehtiyac kimi deyil, təkamül vasitəsi kimi qəbul edirlər. Buna görə də onların yedikləri yalnız pak və təmiz qidalardan olur. Halbuki yeməyi əsas məqsəd edən insanlar bu şərtə riayət etmirlər, pak olub-olmamasından asılı olmayaraq yalnız heyvani istəklərə tabe olurlar. Qidalanmanın insanın ruhiyyəsinə, fərqli qidaların insanların əxlaqına fərqli təsirlər qoyduğunu nəzərə alsaq, ***"pak yeməklərdn yeyin"*** və ***"yaxşı işlər görün"*** cümlələri

[1465] Ətyəbül-bəyan, c.9, səh.410
[1466] Nümunə, c.14, səh.255

arasında əlaqə olduğunu görərik. Hədislərdə var ki, haram yemək duanın qəbul olunmasının qarşısını alır. İslam peyğəmbərinin (s) məşhur bir hədisi bu iddianı təsdiq edir. Br kişi Peyğəmbərin (s) yanına gəlib deyir: "Duamın qəbul olunmasını istəyirəm". Peyğəmbər (s) buyurur: ***"Yeməyini pak et, haram yeməkdən çəkin"***[1467].

53. Nadancasına təəssübkeşlik haqq yolunda böyük maneədir: "Firqələrin hər biri öz təriqətinə sevinir" cümləsi mühüm bir psixoloji və ictimai həqiqəti çatdırır. Bu da nadancasına təəssübkeşlikdir. Firqələrin hər biri özü üçün bir yol və ayin seçmiş, beyninin qapısını istənilən fikir üçün bağlamış, beyninə yeni bir şüanın daxil olub, ruhuna bir nəsim əsib həqiqəti aydınlatmasına icazə vermir. Bu hal eqoizmdən, özünü bəyənməkdən, lovğalıqdan, xudbinlikdən, özünü üstün tutmaqdan qaynaqlanır. Əslində, sözügedən xüsusiyyət həqiqətlərin üzə çıxması, ümmətlər arasında vəhdət və birlik yaranmasının qarşısını alan ən böyük maneədir. İnsanın öz firqəsini sevməsi ondan qeyrisinə qarşı biganəliyə və nifrətə səbəb olur. Bəzən iş o yerə çatır ki, insan tutduğu yola müxalif olan bir söz eşitdikdə barmaqlarını qulağına tıxayır, paltarını başına çəkir, adət etdiyinin əksinə olan həqiqəti eşitməmək üçün qaçmağa üz tutur. Belə ki, Allah-taala Nuh (ə) zamanının müşrikləri haqqında belə buyurmuşdur: ***"Sən onları bağışlayasan deyə mən hər dəfə onları (imana) dəvət etdikdə, onlar barmaqlarını qulaqlarına tıxadı, paltarlarına büründü, (küfrlərində) israr edib, israrla təkəbbürlülük göstərdilər."*** (Nuh-7)[1468]

[1467] Nümunə, c.14, səh.255
[1468] Nümunə, c.14, səh.259

60. İtaət yolunda son dərəcə ciddi-cəhdlə çalışan, bununla belə Rəblərinə qayıdacaqlar deyə qəlbləri qorxu hissi keçirənlər -

61. Məhz bu cür şəxslər yaxşı işlər görməyə tələsər və başqalarından öndə gedərlər.

62. Biz hər kəsə yalnız qüvvəsi çatdığı qədər vəzifə veririk. Dərgahımızda açıq-aydın danışan bir Kitab vardır. Onlara zülm olunmaz.

63. Lakin onların qəlbi bu əməl dəftərindən xəbərsizdir. Onların bundan başqa davamlı olaraq yerinə yetirdikləri (pis) başqa işlər də vardır.

64. Nəhayət, onların cah-calal içində yaşayanlarını əzabla yaxaladığımız zaman acı-acı fəryad qopararlar.

65. (Ancaq onlara deyilər:) “Bu gün fəryad qoparmayın! Çünki sizə Bizim tərəfimizdən heç bir yardım göstərilməyəcək!”

66. Ayələrim sizə oxunurdu, siz isə üz çevirib geri dönürdünüz.

67. Onun qarşısında təkəbbürlük edir, gecələr isə yığıncaqlarınızda yaramaz sözlər danışırdınız.

68. Məgər onlar bu Söz haqqında düşünmürdülərmi? Yoxsa onlara ulu babalarına gəlməyən bir şey gəlib?

69. Ya da peyğəmbərlərini tanımayıb buna görə də onu inkar edirlər?

70. Yaxud: “O dəlidir?”– deyirlər. Xeyr, o peyğəmbər onlara haqqı gətirmişdir. Lakin onların çoxu haqqı xoşlamır.

71. Əgər haqq onların nəfslərinin istəklərinə tabe olsaydı, göylər, yer və onlarda olanlar fəsada uğrayardı. Ancaq Biz onlara xatırladan Quranı verdik. Onlar isə xatırladandan üz döndərirlər.

72. Yoxsa sən onlardan bir mükafat istəyirsən? Hərçənd ki, Rəbbinin mükafatı daha xeyirlidir. O, ruzi verənlərin ən yaxşısıdır!

73. Sən, həqiqətən də, onları doğru yola çağırırsan.

74. Axirətə inanmayanlar isə bu yoldan çıxırlar.

---

62. Açıq-aydın danışan kitab: Əməl dəftəri və onun keyfiyyəti haqqında "Kəhf" surəsinin 49-cu ayəsində məlumat vermişik. Burada diqqət yetirilməsi lazım olan nöqtə kitabın danışması məsələsidir. Kitabın danışması deyilərkən kitabda qeyd edilənlərin heç bir anlaşılmazlıq olmadan elan edilməsi nəzərdə tutulur[1469]. Bu ifadə eynilə "Filan məktub yetərli dərəcədə aydındır" cümləsinə bənzəyir. Yəni əlavə şərhə ehtiyac yoxdur. Heç bir araşdırmasız özü həqiqətləri bəyan edir[1470].

68. Allah dini bütün zamanlar üçün bir nemətdir: "Yoxsa onlara ulu babalarına gəlməyən bir şey gəlib?" cümləsində Allah başa salmaq istəyir ki, əgər təkAllahlıq inancı, diriliş, yaxşı işlər görməyə dəvət, təmiz olmağa çağırış təkcə İslam peyğəmbərinə aid olan bir məsələ olsaydı, o zaman "bu deylənlər yenidir, biz onların altına girə bilmərik, əgər bunlar doğrudursa, bütün insanlara qarşı lütfkar və mərhəmtli olan Allah keçmiş peyğəmbərlər göndərməyib" – deyə bəhanə edə bilərdilər. Ancaq Peyğəmbərin (s) dəvətinin məzmunu əsas və prinsip baxımından keçmiş peyğəmbərlərin

---

[1469] Əl-Mizan, c.15, səh.42
[1470] Nümunə. c.14, səh.268

dəvətinin məzmunu ilə eyndir. Buna görə də onların bəhanələri yersizdir[1471]. Əlbəttə, bu da o demək deyil ki, keçmiş xalqların xəbəri olmadığı bütün yeni fikirlər batildir. Məqsəd insanların doğru yola yönəlməsi olduğu üçün ilahi missiyanın bütün insanlara çatdırılmasıdır. Bunun da nəticəsində insanlar doğrunu seçmək imkanı əldə etməlidirlər. Əgər bu missiya keçmiş xalqlara çatdırılmayıb, hər hansı cəmiyyətə çatdırılarsa, şübhəsz ki, yanlışdır[1472].

69. İlahi rəhbərlər insanların tanıdığı şəxslər olmuşdur: Bu ayədə açıq-aydın şəkildə başa düşülür ki, ilahi rəhbərlər insanların yaxşı əməl sahibləri kimi tanıdıqları şəxslər olmuşlar. Çünki tanınmaz şəxslər olsaydılar, bu ayəyə əsasən müxaliflərin əlinə bəhanə düşərdi. Peyğəmbərlərin özlərini tanımaqdılarını bəhanə gətirib onları inkar edərdilər[1473]. İslam peyğəmbəri (s) də öz zamanında hamı tərəfindən tanınmış bir şəxs olmuşdur. Mənsub olduğu qəbilə (Qüreyş) və tayfa (Bən-Haşim) əzəmət və şərəfləri ilə tanınmışdır. Peyğəmbərin (s) İbrahimə qədər uzanıb gedən nəsil şəcərəsi tanınmış və böyük insanlar olmuşdur. Ən önəmlisi isə, o cənab düzlüyü, dürüstlüyü və əmanətdarlığı ilə şöhrət tapmışdır. Hətta o qədər dürüst və əmanətdər olmuşdur ki, Məhəmmədəmin deyə çağırılmışdır[1474].

71. Haqpərəstlik və ehtiraspərəstlik: Bu ayədə haqpərəstlik və ehtiraspərəstliyin qarşılaşdırılmışdır. Ayədə buyurulur ki, əgər haqpərəstlik ehtiraspərəstliyə çevrilsəydi, təkcə yer və onun əhalisi deyil, göylər də darmadağın olardı. Bunu anlamaq elə də çətin deyil. Çünki: 1.İnsanların ehtirasları eyni deyl, adətən aralarında böyük təzadlar mövcuddur. Hətta elə olur ki, bir insanın öz ehtirasları da öz aralarında təzad təşkil edir. Əgər haqq bu istəklərə tabe olarsa, nəticəsi hərc-mərclik, parçalanma və qarşıdurma

[1471] Nümunə. c.14, səh.274
[1472] Əl-Mizan, c.15, səh.45
[1473] Nümunə, c.14, səh.275
[1474] Ətyəbül-bəyan, c.9, səh.430

olar. Hər kəs bir tanrıya ibadət edər. Əgər haqq bu cür istəklərə tabe edilərsə, ayrı-ayrı tanrılar varlığa hakim kəsilərsə, artıq hansı fəsadların baş verəcəyini deməyə lüzum qalmır. 2. İnsanların ehtiraslara bulaşmış istəkləri adətən fəsadlı davranışlara meylli olur. Əgər insan cəmiyyətlərində bu meyllərə yer verilərsə, nəticəsi fəsaddan baş bir şey olmaz. 3. Ehtiras və nəfsani istəklərlə müşayiət olunan meyllər hər zaman biryönlü olur, yalnız bir yöndən baxmağı tələb edir, digər yönlər diqqətdən kənarda qalır. Bildiyimiz kimi, ən mühüm fəsad amillərindən biri digər yönlərin diqqətdən kənarda qaldığı biryönlü proqramlardır. Bu ayə bir çox cəhətlərdən "Ənbiya" surəsinin 22-ci ayəsinə bənzəyir. Həmin ayədə Allah-taala belə buyurmuşdur: "Əgər göydə və yerdə Allahdan başqa tanrılar olsaydı, məhv olardılar." Təbii ki, haqq doğru yol kimi birdir. Ehtiraslar və nəfsani istəklər xəyali tanrılar kimi, çoxdur. Təzad təşkil etdkləri halda, haqqa, yoxsa ehtirasa tabe olmalıyıq – yerin, göyün və bütün mövcudatın məhvinə səbəb olan ehtirasa, yoxsa vəhdət, tövhid, nizam-intizam və birlik rəmzi olan haqqa?[1475]

75. Əgər Biz onlara rəhm edib düşdükləri bəlalardan xilas etsək, onlar (ayılmayacaq, əksinə) azğınlıqları içində inadkarlıq göstərib sərgərdan gəzəcəklər.

[1475] Nümunə, c.14, səh.279

76. Biz onları əzabla yaxaladıq, ancaq onlar öz Rəblərinə nə boyun əydilər, nə də hüzurunda yalvarıb-yaxardılar.

77. Nəhayət, şiddətli əzab qapısını onların üzünə açdığımız zaman qəfildən məyus olacaqlar.

78. Sizin üçün qulaq, göz və ürəklər yaradan Odur. Siz Ona çox az şükür edirsiniz.

79. Sizi yer üzündə yaradan Odur. Siz Onun hüzuruna toplanılacaqsınız.

80. Dirildən də, öldürən də Odur. Gecə ilə gündüzün bir-birini əvəz etməsi Ona aiddir (Onun işidir). Məgər düşünmürsünüz?

81. Xeyr, onlar da əvvəlki ümmətlərin dedikləri kimi dedilər.

82. Onlar dedilər: “Məgər biz ölüb torpaq və sür-sümük olduqdan sonra bir də qaldırılacağıq?”

83. Bu vəd bizə və atalarımıza öncədən verilmişdir. Bu, keçmişdəkilərin əfsanələrindən başqa bir şey deyil.

84. De: “Əgər bilirsinizsə, (deyin görüm) yer və onun üstündə olanlar kimindir?”

85. Onlar dərhal: “Allahındır!”– deyəcəklər. De: “Bəs xatırlamayacaqsınız?”

86. De: “Yeddi göyün Rəbbi və əzəmətli Ərşin Rəbbi kimdir?”

87. Onlar dərhal: “Allahdır!”– deyəcəklər. De: “Bəs qorxmursunuz?”

88. De: “Əgər bilirsinizsə, (deyin görüm) bütün mövcudatın hökmranlığı əlində olan, sığınacağı olmayanlara sığınacaq verən, Özünün isə sığınacağa ehtiyacı olmayan kimdir?”

89. Onlar: “Allahdır!”– deyəcəklər. De: “Bəs necə olur ki, sehrləndiyinizi deyirsiniz? (bütün bunların sehr və ofsun olduğunu deyirsiniz?)”

76-77. Tərbiyə xarakterli əzablar və təmizlik aparmaq üçün göndərilən əzablar: Bu ayələrdə iki əzab növündən söhbət açılır: 1. Tərbiyə xarakterli əzab: Bu cəza formasında məqsəd insanların çətinliyə məruz qalıb zəif və aciz olduğunu başa düşməsi, nəticədə, təkəbbür və qürur atından enməsidir. Peyğəmbərin (s) nifrini ilə müşriklərin bir neçə il qıtlıq çəkməsi buna misaldır. Həmin vaxt müşriklər elə vəziyyətə düşdülər ki, adi vəziyyətdə yeyilməyəcək şeyləri yemək məcburiyyətində qaldılar. Bu cür bəlalar insanın əlinin hər yerdən üzülməsinə səbəb olur. Bu da insanın Allaha dönüşündə rol oynaya bilər. 2. Təmizlik işləri aparmaq üçün göndərilən əzablar: Bu əzab növündə məqsəd islaholunmaz insanların yer üzündən silinməsidir. Onların bu həyatda yaşamasına heç bir zərurət qalmadığı üçün insanların təkamül yolundan təmizlənməlidirlər. Bu cəza növünün ən bariz nümunəsi ölümdür. Ölüm vasitəsilə tövbə və qayıdış qapısı insanın üzünə tamamilə bağlanır[1476].

76. Dua zamanı təvazö və yalvarışın əhəmiyyəti: "İstikanət" sözünün mənası təvazökarlıq[1477], "təzərro" sözünün mənası təvazö ilə müşayiət olunan təslimolmadır (yalvarıb-yaxarmaq)[1478]. Əhli-beyt imamalarına (ə) aid edilən bəzi hədislərdə bu iki sözün əməli nümunəsi göstərilmişdir. İmam Baqir (ə) hədislərinin birində belə buyurmuşdur: ***"İstikanət təvazökarlığa, təzərro isə yalvarmaq üçün əlləri yuxarı qaldırmağa deyilir."*** İmam Sadiq (ə) buyurmuşdur: ***"İstikanət deyilərkən dua, təzərro deyilərkən namazda əllərin qaldırılması nəzərdə tutulur."*** İmam Əli (ə) buyurmuşdur: ***"Duada***

[1476] Nümunə, c.14, səh.288; Əl-Mizan, c.15, səh.50
[1477] Əl-Mizan, c.15, səh.49
[1478] Nümunə, c.14, səh.287

təvazökar deyillər. Əgər təvazökar olsaydılar, Allah dualarını qəbul edərdi.”[1479] Əlbəttə, bu hədslər ayənin məzmununu məhdudlaşdırmır, əksinə Allah dərgahında necə təvazökar olmağın üsul və qaydalarını öyrədir.

84-89. Dirilişin ilahi qüdrətinin ümumi olması vasitəsilə sübuta yetirilməsi: Bir neçə ayə əvvəl kafirlərin dirilişi inkar etməsinə işarə edildi. Quran ayələrindən aydın şəkildə başa düşülür ki, dirilişi inkar edən müxaliflərin çoxu daha çox cismani dirilşə şübhə etmiş, torpağa dönmüş insanın yenidən həyata qayıdacağına təəccüblə yanaşmışlar. Buna görə də dirlişdən bəhs edən ayələrin çoxunda Allahın qüdrət məsələsi önə çəkilmişdir. Kainatda olan hadisələrdən nümunələr göstərilmişdir, bununla da ayələri dinləyənlərin ölümdən sonrakı dirilmə ilə bağı təəccüblərinə cavablar verilmişdir. Bu ayələrdə də Allahın qüdrətini göstərən üç mövzudan misal göstərilmişdir: 1. Yer və yer əhalisi; 2. Səma və əzəmətli ərş; 3. Yaradılış aləminin idarə edilməsi[1480]. Yaddan çıxarmaq olmaz ki, dirilişi inkar edənlər Allahın varlığına inandıqlarını etiraf edirdilər. Onların inancına görə O, yaranış aləmini yoxdan var edən, rəblər rəbbi, tanrılar tanrısıdır, ondan qeyri tanrırlar onun yaratdıqlarıdır. Buna görə də nəzər nöqtəsi olan ayələrdə müşriklərin Allahın varlığına inamı qeyd-şərtsiz fərz edilmişdir[1481]. Onlar üçün yeri, göyü, onlar arasında olanları yoxluq zülmətindən varlıq işığına gətirməyə qüdrəti çatan varlığın ölənlərin çürümüş sümüklərini yenidən dirildəcəyini söyləmək kifayət idi. “Yasin” surəsinin 77-79-cu ayələrində bu məzmun belə ifadə edilmişdir: ***“Məgər insan onu nütfədən yaratdığımızı bilmir? O, açıq mübahsəyə qalxdı, Bizə bir məsəl çəkdi, lakin öz yaradılışını unudaraq dedi: “Çürümüş sümükləri***

[1479] Əl-Mizan, c.15, səh.51
[1480] Nümunə, c.14, səh.298
[1481] Əl-Mizan, c.15, səh.57

kim dirildə bilər?" De: "Onları ilk dəfə yaradan Özü onları dirildəcəkdir. O, hər bir məxluquna yaxşı bələddir."[1482]

90. Xeyr, Biz haqqı onlar üçün gətirdik. Onlar isə yalan danışırlar!

91. Allah Özünə əsla övlad götürməmişdir. Onunla yanaşı heç bir ilah yoxdur. Əks təqdirdə ilahların hər biri öz yaratdıqlarını özü idarə edər və biri digərinə üstün gəlməyə can atardı. Allah onların (Ona) aid etdikləri sifətlərdən uzaqdır.

92. O, gizli və aşkarı biləndir. Ona qoşduqları şəriklərdən çox ucadır.

93. De: "Ey Rəbbim! Əgər onlara vəd olunan əzabları mənə göstərəcəksənsə,

94. məni zalım adamların içində qoyma, ey Rəbbim!"

[1482] Ətyəbül-bəyan, c.9, səh.447

95. Biz onlara vəd etdiyimizi sənə göstərməyə qadirik.

96. Pisliyi ən yaxşı üsulla dəf et. Biz onların aid etdikləri sifətlərdən daha yaxşı xəbərdarıq.

97. De: “Ey Rəbbim! Şeytanların vəsvəsələrindən Sənə sığınıram!

98. Onların mənə yaxınlaşmalarından Sənə sığınıram, ey Rəbbim!”

99. (Onlar öz yanlış həyatlarını sürdürməyə davamedərlər.) Nəhayət, onlardan birinə ölüm gəldiyi zaman deyər: “Ey Rəbbim! Məni geri qaytar.

100. Bəlkə tərk etdiyim yaxşı əməlləri edəm”. Xeyr! Onun bu dedikləri ancaq dildə deylmş bir sözdür. Onların arxasında diriləcəkləri günə qədər Bərzəx vardır.

101. Sur üfürüləcəyi gün onların aralarında qohumluq əlaqəsi olmayacaq və bir-birindən kömək diləməyəcəklər.

102. Məhz əməlləri ağır gələnlər xilas olanlardır.

103. Əməlləri yüngül gələnlər isə varlıqlarının sərmayəsini itirənlərdir. Cəhənnəmdə əbədi qalacaqlar.

104. Odun yandırıcı şölələri onların üzünü yandıracaq. Orada üzlərinin dərisi dartılacaq.

---

100. Bərzəx bu dünya ilə axirət arasında bir dünyadır: “Bərzəx” iki predmet arasında pərdə rolu oynayan hər hansı vasitəyə deyilir. Buna görə də bu dünya ilə axirət dünyası arasındakı dünyaya “Bərzəx” deyilir. Bəzən qəbir, bəzən ruhlar aləmi də adlandırılan bu aləmin varlığı haqqında ayə və hədislərdə məlumat verilmişdir. Bir çox ayədə bu mövzuya açıq şəkildə işarə eidlmişdir. Bu ayədə də sözügedən aləmdən danışılır. Belə bir dünyanın mövcud olduğunu açıq şəkildə ifadə edən ayələrə şəhidlərin həyatı ilə bağlı ayələri (Bəqərə surəsi – 154; Ali-İmran surəsi-169), habelə Firon və

tərəfdarları kimi hədlərini aşmış kafirlərin Bərzəxini açıq şəkildə ifadə edən "Mömin" surəsinin 46-cı ayəsini misal göstərmək olar. "Mömin" surəsinin 46-cı ayəsində Allah-taala belə buyurur: ***"Onları səhər-axşam oda salırlar. Qiyamət qopacağı gün isə, (Allah:) Firon nəslini ən şiddətli əzaba salın!(-deyə əmr verəcək.)"*** Məlumdur ki, ayədə Firon nəslinin səhər-axşam salındığı od deyilərkən Bərzəx Cəhənnəmi nəzərdə tutulmuşdur. Çünki ayənin sonunda onların Qiyamət əzabına ayrı şəkildə işarə edilmişdir. Bu səbəbdən də təfsirçilərin çoxu burada Bərzəx aləmi və qəbir əzabına işarə edildiyini bildirmişlər. Hədislərdə Bərzəx aləmi və onun xüsusiyyətləri haqqında geniş məlumat verilmişdir. İmam Əli (ə) və İmam Səccada (ə) aid edilən oxşar məzmunlu bir hədisdə belə deyilir: ***"Qəbir ya Cənnət bağlarından, ya da Cəhənnəm quyularından biridir."*** Bədr döyüşündən sonra müsəlmanlar bir quyu qazıb Məkkə müşriklərinin cəsədlərini oraya tökürlər. Peyğəmbər (s) quyunun kənarında dayanıb buyurur: ***"Ey quyu sakinləri! Rəbbinizin sizə vəd etdiyinin haqq olduğunu gördünüzmü? Mən özüm Allahın verdiyi vədin haqq olduğunu gördüm."*** Soruşurlar: Ey Allahın rəsulu! Onlar eşidirlərmi? Buyurur: ***"Bu gün onlar sizdən daha yaxşı eşidir."*** İmam Sadiq (ə) hədislərinin birində belə buyurmuşdur: ***"And olsun Allaha, mən sizin yalnız Bərzəxinizdən qorxuram."*** İmam (ə) bununla Qiyamət günü Peyğəmbər (s) və məsum imamların (ə) möminlərə şəfaət edəcəyinə, Bərzəx hesabının isə ayrıca olduğunu nəzərdə tutmuşdur. İmam Sadiq (ə) başqa bir hədisində belə buyurmuşdur: "And olsun Allaha! Bərzəx dünya ilə axirət arasındakı qəbir, savab və cəza aləmidir." Bərzəx aləminin necə olduğuna gəlincə isə, alimlər onu belə izah etmişlər: Dünya həyatı sona yetdikdən sonra insanın ruhu maddi cismin xüsusiyyətlərinin bir çoxunun olmadığı zərif bir cisimdə yer alır. Ancaq onda bu dünyadakı maddi cismə aid olan bəzi ünsürlər olduğu üçün tam mücərrəd və tam maddi

olmayan, bir növ örtük mücərrədliyinə malik xəyali bir bədəndə qərarlaşır. Hədislərdə qəbrin insanı sıxması deyilərkən maddi bədən deyil, misali bədən nəzərdə tutulur. Çünki öldükdən sonra həmin bədən heç bir hissə malik olmur, bundan başqa, yanma və sair hadisələr nəticəsində tamamilə sıradan çıxa bilər. Əlbəttə, axirət aləmini tam dərk edə bilmədyimiz kimi, Bərzəx aləmini də tam şəkildə dərk etmək bizim üçün mümkün deyil. Çünki bu aləm yaşadığımız dünyanın fövqündə dayanır. Bəzi alimlər onu yuxu vəziyyətinə bənzətmişlər. Doğru yuxular zamanı ruhumuz misali qəlib vasitəsilə bəzi ürək oxşayan mənzərələri görüb zövq alır, bəzən isə qorxulu mənzərələrdən diksinib sərəsimə halda yuxudan oyanır. İmam Sadiq (ə) buyurmuşdur: "Allah-taala möminin ruhunu bədənindən aldıqdan sonra onu dünyadakı qəlibinə bənzər bir qəlibdə qərarlaşdırır." Hədislərdə öldükdən sonra insanlardan bir sıra məsələlər haqqında soruşalacağından bəhs edilir. Bu da deyilənləri təsdiq edən nüanslardandır. İmam Səccad (ə) hədislərinin birində belə buyurmuşdur: "Ey Adəm övladı! Ölümü unutma! Tezliklə ruhun bədənindən alınacaq və bir məkana köçürüləcəksən… Səni sorğu-suala çəkmək üçün Münkir və Nəkir adlı ki mələk gələcək. İlk soruşacaqları sual Allah haqqında olacaq. Sonra sənə göndərilmiş peyğəmbər, qəbul etdiyin din, oxuduğun kitab, rəhbərliyini qəbul etdiyin imam, sonra ömrünü hansı yola sərf etməyin, var-dövlətini hansı yolla qazanıb nəyə sərf etməyin haqqında soruşulacaq."[1483]

[1483] Quranın ismarışı, c.5, səh.443

105. Mənim ayələrim sizə oxunmurdumu və siz də onları yalan hesab etmirdinizmi?

106. Onlar deyəcəklər: “Ey Rəbbimiz! Bədbəxtliyimiz bizə üstün gəldi və biz doğru yoldan azan bir camaat olduq.

107. Ey Rəbbimiz! Bizi buradan çıxart! Əgər bir də təkrar etsək, həqiqətən də, zalımıq”.

108. (Allah) buyuracaq: “Rədd olun Cəhənnəmə və Mənimlə heç nə danışmayın!

109. Həqiqətən, qullarımdan bir zümrə var idi ki, onlar: “Ey Rəbbimiz! Biz iman gətirdik. Bizi bağışla, bizə rəhm et! Sən rəhm edənlərin ən yaxşısısan!”– deyirdilər.

110. Siz isə onları məsxərəyə qoyurdunuz. Nəhayət, bu (məsxərələriniz) Məni yada salmağı belə sizə unutdurdu. Siz onlara gülürdünüz.

111. Ancaq bu gün Mən səbr etdiklərinə görə onları mükafatlandırdım. Onlar uğur qazananlar və xilas olanlardır!”

112. Allah kafirlərdən: “Yer üzündə neçə il qaldınız?” – deyə soruşacaq.

113. Onlar: “Bir gün, yaxud bir gündən də az qaldıq. Sən saya bilənlərdən soruş” – deyəcəklər.

114. (Allah) deyəcək: “Siz çox az qaldınız. Kaş biləydiniz!

115. Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz Bizə qaytarılmayacaqsınız?”

116. Həqiqi hökmdar olan Allah ucadır! Ondan başqa heç bir ilah yoxdur. O, şanlı Ərşin Rəbbidir.

117. Kim Allahla yanaşı, haqqında heç bir dəlili olmadığı başqa bir tanrıya ibadət edərsə, hesab-kitabını Rəbbi özü aparacaq. Şübhəsiz ki, kafirlər nicat tapmayacaqar!

118. De: “Ey Rəbbim, bağışla və rəhm et! Sən rəhm edənlərin ən yaxşısısan!”

---

106. Xoşbəxtlik və bədbəxtlik bizim əməllərimizin, danışıqlarımızın və niyyətlərimizin nəticəsidir: “Şəqvət” və “şəqavət” (bədbəxtlik) sözləri səadət (xoşbəxtlik) sözünün antonimidir. Bədbəxtlik insanın düçar olduğu şər və bəla, səadət isə nemət və yaxşılıq vasitələrinin tam təmin olunmasıdır. Hər halda, bu ikisi yalnız bizim əməllərimizin, danışıqlarımızın və niyyətlərimizin nəticəsidir. Xoşbəxtlik və bədbəxtliyin insanla birgə doğulduğuna inanmaq peyğəmbərlərin çağırışı və bütün rəhbərlərin səyləri ilə ziddiyyət təşkil edən xülyadan artıq bir şey deyil. Bu xülya məsuliyyətdən boyun qaçırmaq, yanlış davranışlara və cinayətkarlıqlara don geyindirmək və məlum olmayanları yozmaq üçün uydurulmuşdur. Buna görə də Cəhənnəmlik günahkarlar Allahın bütün bəhanələrə son qoyduğunu, özləri özlərini bədbəxt etdiklərini və azğın zümrə olduqlarını açıq şəkildə etiraf edirlər[1484].

108. Cəhənnəm sakinlərin Allah yanında tənəzzülü: “İxsəu” feili adətən iti qovmaq üçün istifadə edilir. İnsana deyildikdə onun xarlığını və

[1484] Nümunə, c.14, səh.338

cəzaya layiq olduğunu ifadə etmək üçün deyilir[1485]. Maraqlıdır ki, Cəhənnəmlik insanlar bədbəxtliklərini elə həddə çatdırırlar ki, sonrakı ayədə möminlər tərəfindən "Rəhm edənlərin ən rəhmlisi" adlandırılan Allah onlara bu ifadə ilə xitab edir.

112-113. Axirətlə müqayisədə dünya ömrünün qısa olması: Ayədə "yer üzündə nə qədər qaldınız" deyilərkən ölümdən öncəki dünya həyatı nəzərdə tutulur. Allah-taala Cəhənnəm sakinlərindən "Yer üzündə nə qədər qaldınız?" – deyə soruşduqda əbədi axirət həyatı, onun nemət və əzabları ilə müqayisədə dünya həyatının çox-çox qısa olduğunu görənlər belə cavab verərlər: "Bir gün, yaxud bir gündən də az qaldıq." – deyərlər. Allah rəsulu (s) hədislərinin birində belə buyurmuşdur: "Allah Cəhənnəmliklərini Cəhənnəmə, Cənnətlikləri Cənnətə daxil etdikdən sonra Cənnət sakinlərindən: "Yer üzündə nə qədər qaldınız?" – deyə soruşacaq. Onlar: "Bir gün, yaxud bir gündən də az", - deyə cavab verəcəklər. Allah buyuracaq: "Bir gün, yaxud bir gündən də az müddətdə nə yaxşı ticarət etdiniz, rəhmət, razılıq və Cənnət qazandınız. Elə isə burada əbədi qalın". Cəhənnəm sakinlərindən: "Ey Cəhənnəm sakinləri! Dünyada nə qədər ömür sürdünüz?" – soruşacaq. Onlar deyəcəklər: "Bir gün, yaxud bir gündən də az". Allah: "Bir gün, yaxud bir gündən də az müddətdə nə pis ticarət etdiniz, odu və Mənim qəzəbimi qazandınız. Elə isə burada əbədi qalın" , - deyə buyuracaq."[1486]

113. Saymağı bacaranlar: Hədislərin birində belə qeyd edilir: "Saymağı bacaranlar deyilərkən günləri sayan, saatları hesablayan, etdiyimiz əməlləri yazan mələklər nəzərdə tutulur."[1487]

[1485] Nümunə, c.14, səh.339
[1486] Nümunə, c.14, səh.342
[1487] Əl-Mizan, c.15, səh.76

115. İnsan hədəf və məqsədi olan varlıqdır: Bu ayə Qiyamət, hesab-kitab və əməllərin əvəzinin veriləcəyini ifadə edən ən canlı dəlillərdən biridir. Belə ki, Qiyamət və qayıdış olmasa, dünya həyatı əbəs və mənasız olar. Çünki bü dünya həyatı bütün çətinlikləri, Allahın müəyyən etdiyi bütün proqramları ilə yalnız bu bir neçə günlük həyat üçün olsa, çox mənasız və puç olar. Yaradılış aləminin əsrarəngiz olduğunu görməzdən, insanın da ən kamil varlıq olduğunu bilməzdən gəlmək olmur. Belə ki, varlıq aləminin ən ali varlığı olan insanın bu qısa ömrü ərzində, doğulduğu gündən öldüyü günə qədər çətinliklər, problemlər içində ömür sürür. İndi adı insan olan bu əzəmətli varlığın əsas hədəfinin bir neçə günlük dünya həyatını yaşamaq, ömrünü çətinliklər içində keçirmək, yemək yemək, palar geyinmək, yatmaq, oyanmaq, sonra ölməkdən və hər şeyin sona çatmasından ibarətdirmi? Qeyd olunan şəraitdə yaradılış əbəs olmurmu? Hər hansı ağlı olan varlıq bütün bu nizam-intzamı, möhtəşəmliyi bu cür kiçik hədəfdən ötrü yarada bilərmi?[1488]

"Nur" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

[1488] Nümunə, c.14, səh.344

1. (Bu,) Bizim nazil edib (əməl edilməsini sizə) vacib buyurduğumuz bir surədir. Biz onda açıq-aydın ayələr nazil etdik ki, bəlkə düşünüb ibrət alasınız.

2. Zinakar qadının və zinakar kişinin hər birinə yüz şallaq vurun. Əgər Allaha və axirət gününə inanırsınızsa, o ikisinə qarşı şəfqətiniz Allahın hökmünü icra etməyinizə mane olmasın. Qoy möminlərdən bir dəstə onların əzabına şahid olsun.

3. Zinakar kişi yalnız zinakar və ya müşrik bir qadınla evlənə bilər. Zinakar qadın da yalnız zinakar və ya müşrik bir kişiyə ərə gedə bilər. Möminlərə isə bu, haram edilmişdir.

4. İsmətli qadınları (zinada) günahlandırıb, sonra dörd şahid gətirməyən kəslərə səksən şallaq vurun və onların şahidliyini əsla qəbul etməyin. Onlar fasiqlərdir.

5. Bundan sonra tövbə edib özlərini islah edənlərdən başqa. Şübhəsiz ki, Allah bağışlayandır, rəhmlidir.

6. Arvadlarını (iffətsizlikdə) günahlandırıb özlərindən başqa şahidləri olmayanların hər biri doğru danışanlardan olmasına dair dörd dəfə Allahı şahid tutmalıdır

7. beşinci dəfə isə: “Əgər yalan danışanlardandırsa, Allah ona lənət eləsin!” - desin.

8. Qadının da ərinin yalan danışanlardan olduğuna dair dörd dəfə Allahı şahid tutması cəzanı ondan dəf edər.

9. Beşinci dəfə: “Əgər bu kişi doğru danışanlardandırsa, Allah ona qəzəb etsin!” - desin.

10. Əgər Allahın sizə lütfü və mərhəməti olmasaydı, Allah tövbələri qəbul edən və hikmət sahibi olmasaydı (sizlərin çoxunuz Allahın lənətinə gələrdiniz).

“Nur” surəsinin ümumi məzmunu: Bu surəni iffət, ismət və cinsi günahlarla mübarizə surəsi hesab etmək olar[1489].

2-9. Ümumi iffəti qorumaq üçün dörd hökm: Bu ayələrdə Allahın dörd hökmünə işarə edilmiş. Bu hökmlərin mərkəzində zina (bir-birlərinə məhrəm olmayan qadınla kişinin qeyr-qanuni münasibətləri). Burada həmin dörd hökm haqqında ümumi məlumat verəcəyik: Zina etmş kişi ilə qadının cəzasından danışan 2-ci ayə üç əmri ehtiva edir: 1. Zina edən qadınlarla kişilərin cəzalandırılması. Əlbəttə, ümumi səciyyə daşıyan bu hökmün istisnaları da vardır. Zina etmiş evli kişi və ərli qadının cəzası bütün şərtlər daxilində edamdır. 2. Allahın bu qanununu icra edərkən şəfqət və mərhəmət göstərlməməsinə əmr edilir. Əlbəttə, Allahın hökmünü icra edərkən şəfqət və mərhəmət yolverilməz olduğu kimi, ifrata varmaq, kobudluq göstərmək və həddi aşmaq da yasaqdır. 3. Bir qrup möminin cəza meydanında iştirak etməsinə göstəriş verilmişdir. Çünki burada məqsəd təkcə günahkarı cəzalandırmaq deyil, həm də digərlərinin ibrət götürməsidir. Quranda edamın mütləq hamının gözü önündə yerinə yetirilməsi əmr edilməmişdir. Ayrı-ayrı şərait və məsləhətlərdən asılı olaraq bəzən üç və ya daha artıq adamın iştrakı kifayət edir[1490]. 3-cü ayədə zinakar qadınla zinakar kişinin ailə qurması qadağan edilmişdir. Ümumiyyətlə, hədislərdə bu əməlləri ilə şöhrət tapmış və tövbə etməyən kişi və qadınlar qeydi şərt edilmişdir. Yəni bu əməllər ilə şöhrət tapmasalar, keçmiş əməllərini tərk etsələr, pak və təmiz olmaq qərarına gəlsələr, tövbələrini əməlləri ilə göstərsələr, onlarla ailə

[1489] Nümunə, c.14, səh.353
[1490] Nümunə, c.14, səh.359

qurmağın heç bir maneçiliyi yoxdur[1491]. 4 və 5-ci ayələrdə iftira və böhtanın cəzasından bəhs edilir. Belə ki, əvvəlki ayələrdə zina etmş kişi və qadınların ağır şəkildə cəzalandırılması bəyan edilmişdir. Bu da təqvasız və qərəzli insanların bu vasitə ilə təmiz insanlara böhtan və iftira atmasına səbəb ola bilər. Buna görə də zina edən kişi və qadınının ciddi şəkildə cəzalandırılacağı bəyan edildikdən sonra bu hökmdən sui-istifadə etmək istəyən iftiraçıların ağır cəzalandırılacağı bildirilmişdir. Bununla da təmiz və iffətli ailələrin heysiyyəti, şərəf və ləyaqətləri qorunur və qərəzli insanlar camaatın şərəfi ilə oynamaq cürətindən məhrum edilirlər. Quranda bu cür insanlara 80 şallaq cəza müəyyən edilir, şahidliklərinin qəbul edlməməsi və fasiq kimi tanınmaları elan edilir. İffətli ailələrn qorunması məsələsində göstərilən bu ciddiyyət təkcə bu mövzu lə məhdudlaşmır, İslam təlimlərinin çoxunda öz əksini tapır. Bütün bunlar İslam təlimlərində imanlı, iffətli kişi və qadınların heysiyyətinin qorunmasına çox böyük önəm verilməsindən xəbər verir. Əlbəttə, bir nəfər başqasına namus böhtanı atarsa, hökmün icrasından sonra tövbə edərsə, böhtan atdığı şəxsdən halallıq alarsa, tövbə ilə şahidliyi gələcəkdə məqbul sayılar və İslamın bütün hökmlərində fasiqlik hökmü onun üzərindən götürülər[1492]. 6-9-cu ayələr böhtan mövzusunun istisna və qeydini bəyan edir. Belə ki, ər öz arvadını iffətsizlikdə ittiham edərsə, onun yad br adamla haram münasibətdə olduğunu iddia edərsə, ona böhtanın cəzası (80 şallaq) tətbq edilmir. Əlbəttə, onun da iddası dəlilsiz və şahidsiz qəbul edilmr. Çünki onun yalan və ya doğru deməsi məlum deyil. Bu zaman Quran məsələni ən yaxşı və ən ədalətl şəkildə həll edəcək bir həll yolu təklif etmişdir. Bunu da onunla izah edirlər ki, kişinin belə bir hadisəyə susması mümkün deyil, qeyrət buna icazə vermir. Əgər o, hakimin yanına

[1491] Nümunə, c.14, səh.361
[1492] Nümunə, c.14, səh.369

gedib şikayət etsə, dərhal haqqında hökm çıxarılacaq. Çünki hakim onun yalan və ya doğru dediyini bilmir. Əgər dörd şahid tələb etsə, bu mövzu da onun şərəf və ləyaqəti ilə düz gəlməz və bununla da məsələ bitər. Digər tərəfdən, yad insanlar bir-birlərini daha çox ittiham etdikləri halda, ərlə arvad bir-birlərini daha az ittiham edirlər. Əlbəttə, bu hökm qadının da əl-qolunu bağlamır, 8-9-cu ayələrə əsasən onun üçün çıxış yolu qoyur. Bu hökmdə həm qadın, həm də kişi İslam hakim qarşısında Allahı şahd tutduqları, yalan deyəcəkləri təqdrdə Allahın lənət və qəzəbini üzərlərinə aldıqları üçün əksər insanlar belə bir səhv hərəkətə yol vermir[1493].

11. Şübhəsiz ki, o böyük iftiranı atanlar özünüzdən olan bir dəstə idi. Onu özünüz üçün pis bir şey hesab etməyin. Əksinə, bu, sizin üçün xeyirlidir. Etdikləri bu günahda onların hər birinin öz payı vardır. İçərilərindən günahın böyük hissəsi üzərinə düşən şəxsi böyük bir əzab gözləyir.

12. Nə üçün siz bunu (bu iftiranı) eşitdiyiniz zaman mömin kişilər və qadınlar bir-biriləri haqda yaxşı fikirdə olmadırlar, “Bu, açıq-aydın bir böhtandır!” – demədilər?

13. Nəyə görə onlar buna dair dörd şahid gətirmədilər? Madam ki, şahid gətirmədilər, deməli, onlar Allah yanında əsl yalançıdırlar.

14. Əgər Allahın dünyada və axirətdə sizə lütfü və mərhəməti olmasaydı, etdiyinz bu günaha görə sizə böyük bir əzab yetişərdi.

[1493] Nümunə, c.14, səh.380

15. Yadınıza salın, bir zaman siz bu şayiəni bir-birinzin dilindən eşitdiniz, əmin olmadığınız sözü danışdınız və onu əhəmiyyətsiz bir şey hesab etdiniz. Halbuki bu, Allah yanında çox böyük günahdır.

16. Nə üçün siz onu eşitdiyiniz zaman: "Bizə bunu danışmaq yaraşmaz. Allahım! Sən pak və müqəddəssən! Bu, çox böyük bir böhtandır!"– demədiniz?

17. Əgər möminsinizsə, Allah sizə bir daha bu cür hərəkətləri heç vaxt təkrar etməməyi nəsihət edir.

18. Allah ayələri sizə izah edir. Allah biləndir, müdrikdir.

19. Möminlər arasında iyrənc şayiələrin yayılmasını istəyənlər üçün dünyada və axirətdə acılı-ağrılı bir əzab vardır. Allah bilir, siz isə bilmirsiniz.

20. Əgər Allahın sizə lütfü və mərhəməti olmasaydı, Allah şəfqətli və rəhmli olmasaydı (böyük bir əzaba düçar olardınız).

-

11. Allah rəsulunun (s) ailəsinə böhtan atılması və Allahın Peyğəmbər (s) ailəsini müdafiə etməsi: Bu ayələrdə böyük böhtana işarə edilmişdir. Sünni hədislərində böhtan atılan şəxsin Aişə xanım, Şiə hədislərində isə onun qibtiyyəli Mariyya olduğu qeyd edilmişdir. Qeyd edək bu qibtyyəli Mariyyanı Peyğəmbərə (s) Misir şahı hədiyyə etmişdr. Peyğəmbərin (s) 18 aylığında vəfat etmiş İbrahim adlı oğlunun anası da məhz Mariyya olmuşdur. Hədislərə gəlincə, hər iki məzhəbin hədislərində onları sual altına alacaq məqamlar var. Buna görə də sözügedən hədislərin müzakirəsinə lüzum görmürük. Hədislərin ümumi məcmusundan belə başa düşülür ki, bu ayələrdə işarə edilən iftira Peyğəmbərin (s) ailə üzvlərindən birinə atılmışdır. Bu, Aişə də ola bilər, qibtiyyəli Mariyya da. Ayələrdən göründüyü kimi, bir

qrup şəxs Peyğəmbərin ailə üzvlərindən birinə iffətsizlik ittihamı atmış, münafiqlər və qəlbində mərəz olanlar böhtanın insanlar arasında yayılmasında maraqlı olduqları üçün onun yayılmasına köməklik göstərmiş, nəticədə, sözügedən böhtan ağızdan-ağıza dolaşmışdır. Allah-taala bu ayəni nazil edərək peyğəmbərini müdafiə etmiş və şayiə yayanları ciddi şəkildə məzəmmət etmişdir[1494].

11. Böhtan hadisəsi bir tərəfdən acı olsa da, digər tərəfdən faydalı idi: Bu ayədə iffətli bir şəxsə atılmış böhtana görə ciddi şəkildə narahat olan möminlərə təsəlli verilir: ***"Onu özünüz üçün pis bir şey hesab etməyin. Əksinə, bu, sizin üçün xeyirlidir."*** Əslində, bu hadisə özlərini müsəlman kimi göstərənlərin çirkn niyyətlərinin üstünü açmışdır. Cəmiyyətin fitnəkar və azğın fərdlərinin tanınması, bu vasitə ilə dürüst insanların daha ayıq olması və cəmiyyətin çirkin üzvlərinin islah edilməsinə qalxması islaholunma yolunu tutmuş bir cəmiyyətin xoşbəxtliklərindəndir[1495].

19. Cəmiyyət arasında çirkin davranışları yaymaq və günah odunu körükləmək: İnsan sosial varlıq olduğu üçün mənsub olduğu cəmiyyət onun evi, cəmiyyət üzvlərinin məhrəmi onun evinin məhrəmi hesab edilir. Cəmiyyətin təmiz olması fərdin təmiz olmasına, cəmiyyətin günaha bulaşması fərdin bulaşmasına səbəb olur. Bu səbəbdən də İslam sosial mühiti bulaşdıran hər bir davranışa qarşı qətiyyətlə mübarizə aparır. İslamda qeybətlə mübarizə və eyiblərn örtülməsinə göstəriş verlməsinin bir dəlili də günahın ümumiləşməsinin qarşısını almaqdır. İmam Rza (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Günahı yayan şəxs xar olar, günahı gizləyən şəxs Allah tərəfindən bağışlanar."*** Əvvəlki ayələrdə günahın yayılmasının ciddi şəkildə məzəmmət edilməsinin səbəbi də budur. Ümumyyətlə, günah

[1494] Əl-Mizan, c.15, səh.90
[1495] Əl-Mizan, c.15, səh.91

od kimidir. Cəmyyətin bir yerində bu od şölələnərsə, onu söndürməyə, heç olmasa yayılmasının qarşısını almağa çalışmalıyıq. Əgər odu körükləsək, onu bir yerdən başqa bir yerə daşısaq, od hər tərəfi bürüyəcək və artıq qarşısıalınmaz olacaq. Bundan əlavə, cəmiyyətin zahirini günah çrkabına bulaşmaqdan qorumağın özü fəsad qarşısında bir sədd hesab edilir. İslam peyğəmbəri (s) hədislərinin birində belə buyurmuşdur: ***"Çirkin bir işi yayan şəxs ilk dəfə dünyada bu iiş görən şəxs kimidir."*** Bir gün bir nəfər İmam Kazıma (ə) deyir: Sənə fəda olum, din qardaşlarımdan biri xoşlamadığım bir sözü danışdı. Özündən soruşdum inkar etdi. Halbuki etimad edilən bir qrup şəxs də bu sözü həmin adama istinad edərək danışır. İmam (ə) buyurur: ***"Müsəlman qardaşının qarşısında gözünə və qulağına inanma. Hətta əlli nəfər onun bu işi gördüyünə and içsə, ittiham edilən şəxs həmin işi görmədiyini desə, sən əlli nəfərin deyil, həmin adamın sözünü qəbul et. Onun eyibinin üstünün açılmasına, utanmasına və şəxsyyətinə xələl gəlməsinə səbəb olacaq bir hərəkətini camaat arasında yayma. Yoxsa Allah-taalanın "İyrənc şayiələrin yayılmasını istəyənlər...", - deyə buyurduğu şəxslərdən olarsan."*** Əlbəttə, bu məsələnin məhkəmədə şahidlik etmək və pis işlərdən çəkindirməkdən ötrü bir nəfərin eyiblərinin üstünün açılmasından başqa çarə olmadığı kimi istisnaları vardır[1496].

[1496] Nümunə, c.14, səh.405

21. Ey iman gətirənlər! Şeytanın izi ilə getməyin. Kim şeytanın izi ilə getsə, (Şeytan onu haqq yoldan sapdırar, çünki o) iyrənc və yaramaz işlər görməyi əmr edir. Əgər Allahın sizə lütfü və mərhəməti olmasaydı, sizdən heç kəs heç vaxt təmizə çıxmazdı. Lakin Allah dilədiyini təmizə çıxardır. Allah eşidəndir, biləndir.

22. Aranızdan (mal cəhətdən) üstün olanlar və yaxşı yaşayanlar qohumlar, miskinlər və Allah yolunda hicrət edənlərdən (mallarını) əsirgəməsinlər. Qoy əfv edib bağışlasınlar. Məgər siz Allahın sizi bağışlamasını istəmirsinizmi? Allah bağışlayandır, rəhmlidir.

23. (Heç bir çirkinlikdən) xəbəri olmayan ismətli mömin qadınları günahlandıranlar dünyada və axirətdə Allahın rəhmətindən uzaqdırlar. Onları böyük bir əzab gözləyir.

24. Həmin gün dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir.

25. O gün Allah onların həqiqi cəzasını tam verəcək və onlar Allahın aşkar haqq olduğunu biləcəklər.

26. Napak qadınlar napak kişilərə, napak kişilər isə napak qadınlara, eləcə də təmiz qadınlar təmiz kişilərə, təmiz kişilər də təmiz qadınlara layiqdirlər. Bunlar iftiraçıların söylədiklərindən uzaqdırlar. Onları bağışlanma və qiymətli ruzi gözləyir.

27. Ey iman gətirənlər! Özgə evlərə icazə almadan və onların sakinlərinə salam vermədən girməyin. Bu, sizin üçün daha yaxşıdır. Bəlkə xatırlayasınız.

---

21. Əgər Allahın lütf və mərhəməti olmasaydı, heç kəs heç vaxt təmizə çıxmazdı: Şübhəsiz ki, insanlar Allahın lütf və mərhəməti sayəsində çirkinlik, azğınlıq və günahlardan xilas olurlar. Belə ki, Allah insanlara həm ağıl, həm peyğəmbərlk nemətini bəxş etmş, həm də vəhy vasitəsilə hökmlərini nazil etmişdir. Bu nemətlərlə yanaşı, tutumu və potensialı olan insanlara qeybdən yardımlar göstərməsi paklanma və təmizlənmənin mühüm amillərindəndir. ***"Kimi istəsə"*** ifadəsi Allahın səbəbsiz istəyini ifadə etmir. Bəndələrin öz səy və fəaliyyətləri olmasa, Allah tərəfindən yönləndirmə və nemət də bəxş edilməz. Allah bu yolu istəyən, onda addım atan şəxsin əlindən tutur, şeytanların vəsvəsələrindən qoruyur, mənzil başına çatdırır. Başqa sözlə desək, Allahın lütf və mərhəməti bəzən ixtiyari səciyyə daşıyır, peyğəmbərlərin seçilməsi, səmavi kitabların göndərilməsi, hökmlərin göndərilməsi, müjdə, təhdid vasitəsilə baş verir, bəzən isə ixtiyardan kənar səciyyə daşıyır, ilahi və mənəvi yardımlar vasitəsilə baş verir. Ayənin nəzər nöqtəsi əsasən ikinci vasitədir[1497]. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Heç kəs (təkcə) öz əməli ilə xilas olmayacaq"*** Hədisin ravisi: "Ey Allahın rəsulu (s)! Hətta siz də?", - deyə soruşduqda Peyğəmbər (s) buyurur: ***"Əgər Allah öz rəhmət və lütfünü mənə şamil etməsə, hətta mən də."***[1498]

[1497] Nümunə, c.14, səh.413
[1498] Nümunə, c.14, səh.232

22. İslama görə cəzalandırmada orta həddi: Bir qrup təfsirçi bu ayənin nazilolma səbəbi haqqında belə yazmışdır: Böhtan hadisəsindən sonra səhabələrin bir qrupu qərara gəlir ki, bu hadisədə iştirak edən, böhtanda payı olanlara maliyyə yardımı göstərməsinlər, heç bir halda onlara qarşı mərhəmətli olmasınlar. Bu ayə nazil olur və onlara bu qədər kəskin olmamağı, kəskinlikdən əl çəkməyi, əvf etməyi göstəriş verir. Quran həm böhtan atanlara sərt reaksiya göstərir, həm də ifratçıların həddi aşmaması üçün bir-birindən cəlbedici üç kiçik cümlə ilə emosiyalara sərhəd qoyur: Əfv etməyi, güzəştə getməyi əmr edərək ardınca buyurur: "Allahın sizi bağışlamasını istəmirsinizmi?" Elə isə, siz də bağışlamalısınız. Bundan sonra əmri daha da gücləndirməkdən ötrü Allah-taalanın "bağışlayan və rəhmli" olduğu qeyd edilr. Allah-tala bununla insanların ilahi əmrin hədlərni aşmamağı xatırlatmış olur. Bu hökmün əsl sahibi olan Allah bağışlayan və rəhmlidir. Yardımların kəsilməməsini o əmr edir, sizin bu danışmağınız haradan qaynaqlanır? Şübhəsiz ki, böhtan məsələsində müsəlmanlar arasına təfriqə düşməsi öncədən düşünülmüş bir hiylənin nəticəsi deyildi. Özlərini müsəlman kimi göstərən bəzi insanlar bu işi təşkil etmiş, müsəlmanlardan bir qrupu da bu fitnəyə aldanmışdı. Əlbəttə, hər iki qrup müqəssir olsa da, onlar arasında fərq var idi, digər müsəlmanlar onların hamısı ilə eyni cür davranmamalı idilər. Bu ayə bütün müsəlmanlar üçün böyük bir dərsdir. Bəziləri günah işlətdiyi zaman cəza tətbiqində həddi aşmaq, onları cəmiyyətdən təcrid etmək, tamamilə tənəzzül etməmələri və düşmən sıralarında yer almamaları üçün bütün qapıları üzlərinə bağlamaq olmaz. Bu ayələr, əslində, İslama xas olan cəzbetmə və dəfetmə balansının bir təsviridir. Böhtan və insanların namuslarına böhtan atanların ciddi şəkildə cəzalandırılmasından bəhs edən ayələr dəfetməni, əvfdən, bağışlamadan,

Allahın bağışlayan və mərhəmətli olmasından bəhs edən bu ayə isə cəzbetməni göstərir[1499].

26. Zinakarla evlənməyin haramlığı: İmam Baqir (ə) və İmam Sadiqə (ə) istinad edilən bir hədisdə belə buyurulur: "Bu ayə "Zinakar kişi yalnız zinakar və müşrik qadınla evlənsin" ayəsi kimidir. Çünki bir qrup kişi əxlaqsız qadınlarla ailə qurmaq istəyirdi. Allah-taala bunu onlara qadağan edir və bu işin bəyənilməyən bir iş olduğunu buyurur."[1500]

[1499] Nümunə, c.14, səh.414
[1500] Əl-Mizan, c.15, səh.108

28. Əgər orada heç kəsi tapmasanız, sizə izn verilməyincə oraya girməyin. “Qayıdın!” – deyilsə, qayıdın. Bu, sizin üçün daha təmizdir. Allah etdiklərinizdən xəbərdardır.

29. Yaşayış olmayan və istifadə edə biləcəyiniz evlərə daxil olmaq sizin üçün günah deyildir. Allah sizin aşkara çıxardığınızı da, gizlində saxladığınızı da bilir.

30. Mömin kişilərə de ki, (harama baxmayıb) gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini (zinadan) qorusunlar. Bu, onlar üçün daha təmiz olar. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır.

31. Mömin qadınlara da de ki, (harama baxmayıb) gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini (zinadan) qorusunlar. Görünən miqdar istisna olmaqla zinətlərini göstərməsinlər; baş örtüklərini sinələrinin üstünə salsınlar (boğazlarını və sinələrini onunla örtsünlər); zinətlərini ərlərindən, yaxud atalarından, yaxud ərlərinin atalarından, yaxud öz oğullarından, yaxud ərlərinin oğullarından, yaxud qardaşlarından, yaxud qardaşlarının oğullarından, yaxud bacılarının oğullarından, yaxud öz qadın dindaşlarından, yaxud sahib olduqları kölələrdən, yaxud qadına meyli olmayan əqli qüsurlulardan, yaxud qadınların ayıb yerlərini hələ anlamayan uşaqlardan başqasına göstərməsinlər; gizlətdikləri zinət əşyaları bilinsin deyə ayaqlarını (yerə) vura-vura yeriməsinlər. Ey iman gətirənlər! Hamınız Allaha qayıdın ki, nicat tapasınız.

27-28. Evlərə daxil olarkən icazə almağın səbəbi: Şübhəsiz ki, insan fərdi və sosial olmaqla iki yönə malikdir. Buna görə də şəxsi və ümumi olmaqla ikili həyat sürmək məcburiyyətindədir. Bu həyat tərzlərinin hər birinin özünə xas olan xüsusiyyətləri, ədəb qaydaları var. İctimai mühitdə

insan geyim, davranış, yol yerimək və sair baxımdan bir çox qaydalara riayət etməlidir. Ancaq bütün sutka boyu bu qaydalara riayət etmək yorucu və bezdiricidir. O, sutkanın bir hissəsini azad olmaq, bütün kompleksləri bir kənara qoyub istirahət etmək, ailə üzvləri ilə şəxsi söhbətlər etmək, mümkün olduğu qədər bu sərbəstlikdən faydalanmaq ehtiyacı duyur. Buna görə də şəxsi evinə gedir, qapısını başqalarının üzünə bağlayır, bir neçə saat özünü ictimai həyatdan təcrid edir, ictimai mühitdə qatlaşmaq məcburiyyətində qaldığı komplekslərdən azad olur. Buna görə də bu mühit kifayət qədər sərbəst və əmin-aman olmalıdır. Əgər hər ürəyi istəyən bu mühitə daxil olsa, artıq azadlıq, sərbəstlik, istirahət və rahatlıqdan əsər-əlamət qalmaz. Bu cəhətdən də qeyd olunan məsələ ilə bağlı xüsusi qaydalar mövcuddur. Peyğəmbər (s) kiminsə qapısına gedərkən qapısı ilə üzbəüz dayanmazmış, qapının ya sağ, ya da sol tərəfində durub "Əssəlamu əleykum", - deyə salam verərmş. Həmin vaxt qapıdan pərdə asmaq hələ adət deyilmiş[1501].

29. Yaşayış olmayan evlər: Yaşayış olmayan evlər deyilərkən qeyri-daimi yaşayış üçün tikilmiş və içində yaşamaq üçün lazım olan vasitələri olan evlər nəzərdə tutulur. Buna görə də insanlar həmin evlərdə təbii şəkildə məskunlaşmırlar. Mehmanxanalar, hamamlar, dəyirmanlar və sairəni buna misal göstərmək olar. Bu binalar ümumi istifadə xarakteri daşıdığı üçün hər kəsin oraya daxil olmasına icazə verilir[1502].

30-31. Hicabın fəlsəfəsi: Çılpaqlıq və cinsi azadlıq adlandırılan müasir dövrdə qərbləşmə xəstəliynə tutulmuşlar qadın və kişilərin istənilən komplekssizliyini azadlığın tərkib hissəsi hesab edirlər. Hicabdan danışmaq bu insanların əsla xoşuna gəlmir, bəzən onu keçmişlərə aid əfsanələrin qalıqları hesab edirlər. Ancaq bütün bu qeyd-şərtsiz azadlıqlar sayəsində

[1501] Nümunə, c.14, səh.429
[1502] Əl-mizan, c.15, səh.110

meydana gələn saysız-hesabsız fəsadlar, gün-gündən artmaqda olan problemlər yavaş-yavaş hicab sözünü dinləmək üçün qulaqlar tapılmasına səbəb olmuşdur. Eşitmə, baxma və toxunma zövqünü və həzzini təmin etmələri üçün qadınlar bütün kişilərin ixtyarına verilməlidir, yoxsa bu zövqlər yalnız onların həyat yoldaşlarına məxsusdur? İslama görə baxma, dinləmə və toxunma da daxil, bütün cinsi zövqlər həyat yoldaşlarına məxsusdur. Bütün bunlar başqaları üçün günahdır. Hicabın fəlsəfəsi elə də müəmmalı bir iş deyil. Çünki: 1. Qadınların çılpaqlığı, bəzənib-düzənməsi, işvəli hərəkətləri və sairə kişiləri, xüsusilə gəncləri davamlı təsir altında saxlayır. Bu vəziyyət onların əsəb sisteminə təsir göstərir, əsəb gərginliyi kimi xəstəliklərin yaranmasına, psixoloji xəstəliklərin meydana çıxmasına səbəb olur. 2. Statistika göstərir ki, dünyada çılpaqlığın artması boşanmaların və ər-arvad bağlarının qırılmasının davamlı artımına səbəb olur. 3. Əxlaqsızlığın və qeyri-qanuni uşaqların sayının artması hicabsızlığın acı nəticələrindəndir. Bu acı nəticələr qərb cəmiyyətlərində özünü daha qabarıq şəkildə göstərir[1503].

[1503] Nümunə, c.14, səh.442

32. Subay kişilərinzi və subay qadınlarınızı, əməlisaleh kölə və kənizlərinizi evləndirin. Əgər onlar kasıbdırlarsa, Allah öz lütfü ilə onları ehtiyacsız edər. Allah genişləndirən, biləndir!

33. Evlənməyə imkanı olmayanlar, Allah öz lütfü ilə onları varlandırana qədər, ismətlərini qorusunlar. (Azad olmaq üçün) yazılı məktub istəyən kölələrinizdə bir xeyir görürsünüzsə, onlarla müqavilə bağlayın. Allahın sizə verdiyi maldan onlara verin. Əgər kənizləriniz pak və ismətli qalmaq istəsələr, dünya həyatının keçici malından ötrü onları öz bədənlərini satmağa məcbur etməyin. Kim onları (bu işə) məcbur etsə, (sonra peşman olsa), Allah onların bu məcburiyyətindən sonra bağışlayan və rəhm edəndir.

34. Biz sizə bir çox həqiqətləri bəyan edən ayələr, sizdən əvvəl yaşamış insanlardan bəhs edən əhvalatlar və müttəqilər üçün öyüd-nəsihət nazil etdik.

35. Allah göylərin və yerin nurudur. Allahın nuru içində çıraq olan bir çıraqdana bənzəyir; bu çıraq ulduz kimi bərq vuran parlaq və şəffaf bir şüşənin içindədir. Bu çıraq nə şərqə, nə də qərbə aid olan mübarək zeytun ağacının yağı ilə yandırılır. (Bu yağ o qədər şəffafdır ki,) od toxunmadan belə, sanki işıq saçır. Nur üstünə nurdur. Allah dilədiyini Öz nuruna yönəldir. Allah insanlar üçün misallar çəkir. Allah hər şeyi biləndir.

36. (Bu işıqlı çıraq) Allahın tikilib ucaldılmasına izn verdiyi və içində Allahın adının zikr edildiyi evlərdədir. Orada səhər-axşam Ona təriflər deyirlər.

---

32. Evlənmək Allahın qanunudur: Sağlam evlənmə insan nəslinin davam etməsi, insanın cismani və ruhani rahatlığını təmin edən, problemlərinin həlli üçün ehtiyac duyduğu, yaradılış qanunu ilə uyğunluq təşkil edən fitri bir qanundur. Yaradılış qanunları ilə uyğunluq təşkil edən İslam dini bu həqqəti maraqlı ifadələrlə bəyan edir. Hədislərinin birində İslam peyğəmbəri (s) belə buyurmuşdur: “Evlənən adam dininin yarısını qorumuşdur. Digər yarısında isə təqvalı olmalıdır.” Cinsi instinkt təklikdə digər instnktlərə bərabər olan ən güclü və ramolunmaz instinktdir. Bu instinktdən yanlış istifadə insanın imanının yarısının təhlükəyə düşməsinə səbəb olur. Buna görə də adiyyəti olan ayə və hədislərdə müsəlmanlardan evlənmələri üçün subaylara yardım göstərmələri istənilmişdir. İmam Kazım (ə) Qiyamət günü Allahın ərşinin kölgəsində olacaq üç zümrədən birinin müsəlman qardaşların evlənməsinə yardım göstərən şəxslər olduğunu

buyurmuşdur[1504]. Bu məsələdə ataların üzərinə daha böyük məsuliyyət düşür. Peyğəmbər (s) buyurmuşdur: ***"Yetkinlik yaşına çatmış övladını evləndirməyə imkanı çatan valideyn övladını evləndirməzsə, nəticədə övlad günaha düşərsə, etdiyi günah hər ikisinə yazılar."*** Subayların evlənməsinə problem yaranmasın deyə mehr və sair evlənmə xərclərinin yüngül tutulmasına göstəriş verilmişdir. Buna görə də hədislərdə mehrin çoxluğu qadının ağırayaqlığı və nəhsliyinin əlaməti hesab edilmişdir. Evlilikdən və ailə qurmaqdan boyun qaçırmaq üçün hamının yeganə bəhanəsi yoxsulluq və imkansızlıq olduğu üçün Quran kasıbçılığın maneə ola bilməyəcəyini, əksinə, ehtiyacsızlığa səbəb olacağını açıq şəkildə bəyan etmişdir. İmam Sadiq (ə) buyurmuşdur: ***"Ruzi həyat yoldaşı və ovladla birlikdədir."*** Şübhəsiz ki, insani vəzifəsini yerinə yetirmək və öz təmizliyini qorumaq üçün evlənmək istəyən şəxsə Allah yardım edir[1505].

35. Nur ayəsi: Allahın pak və ulu zatını bu dünyanın hiss olunan varlıqlarından hansınasa bənzətmək istəsək, bunun üçün nurdan başqa bir varlıq tapa bilərikmi? Allah dünyaya işıq bəxş edir. Əgər öz lütfünü bir anlığa kainatdan əsirgəsə, varlıq aləmi fəna və yoxluq zülmətinə qərq olar. Hər bir varlıq Ondan mövqeyinə və münasbət dərəcəsinə uyğun işıq alır. Quran nurdur, çünki Allahın kəlamıdır. Peyğəmbərlər nurdurlar, çünki Allahın elçiləridirlər. Əgər nur sözünü "zatı aşkar olub başqalarını aşkara çıxaran" mənasında götürsək, o zaman nur sözü Allah haqqında işlədilmiş bənzərlik səciyyəsini qazanmış olacaqdır. Çünki kainatda Allahın zatından aşkar heç nə yoxdur. Allahdan başqa nə varsa, Onun nuru ilə aşkardır. Quran gözəl bir misalla ilahi nuru izah edir. Belə ki, möminin qəlbindəki iman nuru işıqlı çırağın malik olduğu dörd funksiyaya malikdir: 1. Çıraq möminin

[1504] Nümunə, c.14, səh.457-463
[1505] Nümunə, c.14, səh.464

qəlbində aşkar olan və ətrafa hidayət nuru yayan iman şölələridir. 2. Şüşə imanı möminin varlığında nizama salan qəlbdir. 3. Çıraqdan möminin sinəsi və ya onu hadisələr girdabından qoruyan şəxsiyyəti və ayıqlığıdır. 4. Mübarək zeytun ağacı möminin imanını şölələndirən və son dərəcə pak olan ilahi vəhydir. Allah göyləri və yeri işıqlandıran nurdur; möminlərin qəlbindən baş qaldırıb onların bütün varlıqlarını işıqlandırır. Onlar özlərinin öz ağılları ilə əldə etdikləri dəlilləri vəhy nuru ilə çulğalaşdırıb "Nur üstünə nur"un nümayəndəsinə çevrilirlər. Beləliklə, ilahi nuru qəbul edəcək istedada malik qəlb sahibləri hidayət tapır və Allahın "Allah dilədiyini Öz nuruna yönəldir" cümləsində nəzərdə tutduğu şəxslər olurlar. Bu vəhy nuru kin-küdurətərin yaranmasına səbəb olan şərq və qərb meyllərinin fəsadlarından uzaq tutulmalıdır. Vəhy nuru istənilən sapmadan elə uzaq tutulmalıdır ki, heç nəyə ehtiyac duymadan insan varlığının bütün qüvvələrini səfərbər edərək "Od toxunmadan belə, sanki işıq saçır" cümləsinin ehtiva etdiyi subbyektə çevrilsin[1506].

[1506] Nümunə, c.14, səh.474

37. Ticarət və alış-verişin Allahı xatırlamaqdan, namaz qılmaqdan və zəkat verməkdən yayındırmadığı kişilər qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxarlar.

38. (Bu işləri ona görə görürlər) ki, Allah onları etdikləri əməllərin ən gözəli ilə mükafatlandırsın və lütfü ilə mükafatlarını artırsın. Allah dilədiyinə hesabsız ruzi verir.

39. Kafirlərin əməlləri səhradakı ilğıma bənzəyir. Susuz insan uzaqdan onun su olduğunu zənn edir, yaxınlaşdıqda isə heç nə tapmır. Əməllərinin yanında hesab-kitabını tam edən Allahı tapar. Allah tez haqq-hesab çəkəndir.

40. Yaxud (onların əməlləri) dərin və böyük bir dənizdə dalğa ilə örtülmüş, dalğa üzərini dalğa, onun üstünü də qara bulud almış qaranlıqlara bənzəyir. Beləliklə, (onların əməlləri) bir-birini örtən qaranlıqlardır! Elədir ki, əgər əlini çıxartsa, onu görməzlər. Allahın nur vermədiyi adamın nuru olmaz.

41. Göylərdə və yerdə olanların, həm də qanad açıb uçan quşların Allaha təriflər dediklərini görmürsənmi? Hər biri öz namazını və tərifini bilir. Allah onların nə etdiklərini bilir.

42. Göylərin və yerin hökmranlığı Allaha məxsusdur. Dönüş də Allahadır.

43. Allahın buludları aramla qovduğunu, sonra onları bir-birinə qovuşdurduğunu, sonra da onları bir yerə topladığını görmürsənmi? Sən onun arasından yağmur çıxdığını görürsən. Göydən, oradakı dağlardan (dağlara bənzər buludlardan) dolu yağdırır. İstədiyinə onun vasitəsilə ziyan vurur, istədiyindən də bu ziyanı uzaqlaşdırır. Buludların şimşəyinin parıltısı az qalır ki, gözləri kor etsin.

-

37. Ürəklərin və gözlərin çevriləcəyi gün: Quran ayələrindən belə məlum olur ki, Qiyamət həqiqətlər üzərindəki pərdələrin kənara çəkiləcəyi və həqiqətin aşkar olduğu gündür. “Biz pərdəni sənin gözündən kənara çəkdik və bu gün sənin gözün iti görür” ayəsi də bunu təsdiq edir. (Qaf surəsi - 22). Ümumiyyətlə, həmin gün qəlblər və gözlər Allahdan qeyrisinə dikilmiş, Allahı unutmuş və həqiqətin üzərini örtmüş dünya baxışından çevriləcək, başqa bir şəkil alacaq. O gün görmək yalnız iman və ağıl nuru ilə mümkün olacaq. Dünyada bu nuru öz daxillərində qorumuş möminlər onun zahir olmuş işığı ilə öz yollarını tapacaq, Rəblərinin lütf və kəramətinə baxacaqlar. Ayələrin birində Allah-taala belə buyurur: “Bir gün işıqları önlərindən və sağ tərəfindən sürətlə hərəkət edən mömin kişi və qadınlara baxarsan” (Hədid - 12). Başqa bir ayədə belə buyurur: “O gün o üzlər sevinib şadlanar, Rəblərinə baxarlar” (Qiyamət – 22-23). Bu dünyada sözügedən işıqdan məhrum olmuş kafirlər kor olacaqlar. Allah-taala “İsra” surəsinin 72-ci ayəsində belə buyurur: “Bu dünyada kor olmuş şəxs axirətdə də kor olacaq”. Qəlblərin və gözlərin çevriləcəyi gün həm möminlər, həm də

kafirlər üçündür. Ancaq ayədə işarə edilən Allah adamları bu çevrilmənin ikinci formasından qorxurlar[1507].

39-40. Səhrada ilğım və ya dənizdə qaranlıqlar: Allah-taala əvvəlki ayələrdə möminlərin vəziyyətinin necə olacağını bəyan etdikdən və və onların aqibətnin yaxşı olacağını buyurduqdan sonra bu ayələrdəiki misalla möminlərin vəziyyəti və aqibəti ilə kafirlərin vəziyyəti və aqibətini müqayisə edir. 39-cu ayədə kafirlərin şirkə bulaşmış əməlləri və ibadətləri ilğıma, özləri isə su istəyən, yanındakı şirin və dadlı sudan üz döndərən, onun xeyrini istəyib həmin sudan içməyə dəvət edən rəhbərə baxmayan susuza bənzədilir. O ilğımı su zənn edib ona doğru hərəkət edir. Digər tərəfdən, əməllərin sona yetdiyi ölüm vaxtı belə təsvir edilir: həmin susuz adam ilğımı gördüyü yerə çatdıqda su tapmır, ancaq həmin yerdə onu şirin suya doğru istiqamətləndirən xeyirxah şəxsi görür. Kafirlər Allahı xatırlamaq, onları ilahi nura və xoşbəxtliyə nail edəcək saleh əməllər əvəzinə bütlərə və şirkə bulaşmış əməllərə üz tutur və bu əməllərin onları xoşbəxt edəcəyini düşünürlər. Bu həyat tərzini ömürlərinin sonuna qədər davam etdirirlər, nəhayət ölüm saatları çatır, axirət evinə köçürlər. Həmin gün bütlərdən heç bir əsər-əlamət qalmır, əllərində onları xoşbəxt edəcək hər hansı əməlin olmadığını görür, aqibətlərinin Allahın əlində olduğunu başa düşürlər. 40-cı ayədə kafirlər əməl cəhətdən zülmət qaranlıqlar içində böyük bir dənizdə səfərə çıxmış şəxsə bənzədilmişdir. Dənizin üzərinə qara buludlar və qorxulu dalğalar elə qaranlıq salmışdır ki, günəş, ay və ulduzlar görünmür. Yolçu belə bir qaranlıq içində yol gedir, onu sahilə çıxaracaq heç bir işıq belə görünmür. Günah və cahillik pərdələri də belədir; kafirlərin qəlbini elə bürüyür, onları maarf işığından elə məhrum edir ki, qəlbə işıq

[1507] Əl-Mizan, c.15, səh.128

düşməsinə az da olsa yer qoymur. (Kafirlərin əməllərinin cəzasının necə olacağı ilə bağlı daha ətraflı məlumat almaq üçün bax: İbrahim surəsi, 18-ci ayə)[1508]

41. Mövcudatın Allaha tərif, həmd-səna deməsi: Bu barədə "İsra" surəsinin 44-cü ayəsində məlumat vermişik.

43. Göydəki dağlar: Bu ayədəki "dağlar" sözü ilə bağlı bir neçə fikir mövcuddur. Daha ağlabatanı göydəki bulud topalarının dağlara bənzəməsidir. Aşağıdan onlara baxdıqda onların hamar olması təsəvvürü yaransa da, təyyarə ilə uçanlar buludların dağlar və dərələr, hündür və alçaqlıqlarla müşayiət olundğunu, yerdəki kimi orada da göyün hamar olmadığını öz gözləri ilə görürlər. Buna görə də onların dağ adlandırılması tam yerinə düşür[1509].

[1508] Əl-Mizan, c.15, səh.131
[1509] Nümunə, c.14, səh.504

44. Allah gecə və gündüzü dəyişir. Bunda bəsirət sahibləri üçün bir ibrət vardır.

45. Allah hər bir canlını sudan yaratmışdır. Onların bəzisi qarnı üzərində hərəkət edir, bəzisi iki ayaq, bəzisi də dörd ayaq üzərində yol yeriyir. Allah istədiyini yaradır. Çünki Allah hər şeyə qadirdir.

46. Biz aydınlıq gətirən ayələr nazil etdik. Allah dilədiyini doğru yola yönəldir.

47. “Allaha və Peyğəmbərə inanır, itaət göstəririk!” – deyirlər. Bu iddiadan sonra onlardan bir dəstəsi üz çevirir. Onlar mömin deyillər.

48. Aralarında hökm vermək üçün Allahın və Onun Elçisinin yanına çağırıldıqları zaman onlardan bir dəstə üz çevirir.

49. Əgər haqlı olsalar, təslim olub sürətlə ona doğru gələrlər.

50. Onların qəlbində xəstəlikmi var? Yoxsa onlar şübhəyəmi düşüblər? Ya da Allahın və Onun elçisinin onlara haqsızlıq edəcəklərindən qorxurlar? Xeyr, onlar özləri zülmkarlardır.

51. Aralarında hökm çıxarması üçün Allah və Onun elçisinin yanına çağırıldıqlarında möminlərin sözü ancaq: “Eşidirik və itaət edirik!” – demələridir. Bunlar, məhz həqiqi nicat tapanlardır.

52. Allaha və Onun elçisinə itaət göstərənlər, Allahdan qorxub əmrinə qarşı çıxmaqdan çəkinənlərdir məhz həqiqi qaliblər.

53. Onlar son dərəcə təkidlə Allaha and içdilər ki, əgər sən onlara əmr etsən, onlar mütləq (evlərindən) çıxacaqlar (və canlarını ixlas tabağına

qoyub təqdim edəcəklər). De: “And içməyin! Səmmiyyətlə itaət göstərin. Allah nə etdiyinizdən xəbərdardır”.

---

45. Su canlıların ilk maddəsidir: Ayədə “ma” sözü ilə hansı suya işarə edilməsi təfsirçilər arasında fikr ayrılığının yaranmasına səbəb olmuşdur. İrəli sürülən fikirlər arasında ikisinin daha düzgün olduğu görünür: 1. Su deyilərkən nütfə nəzərdə tutulur. Bu yozumun problemi bütün canlıların nütfədən yaranmamasıdır. Belə ki, təkhüceyrəli canlılar və bəzi heyvan növləri nütfədən deyil, hüceyrələrin parçalanmasından əmələ gəlirlər. Bu problem öz həllini iddianın ümumi deyil, növ prinsipinə əsaslanaraq irəli sürüldüyü qənaəti ilə tapa bilər. 2. Su deyilərkən ilk varlığın meydana gəlməsi nəzərdə tutulur. Bəzi hədislərə görə də Allahın ilk yaratdığı varlıq su olmuşdur. Allah insanları daha sonra həmin sudan yaratmışdır. Müasir elmi ehtimallara da əsasən ilk həyat cücərtiləri məhz dənizlərdə meydana gəlmişdir[1510].

47-50. Münafiqlər Allah və peyğəmbəri (s) qarşısında itaət göstərmək deyil, öz mənfəətlərinin axtarışındadırlar: Təfsirçilər bu ayələrlə bağlı iki nazilolma səbəbi qeyd etmişlər: 1. Minafiqlərdən birinin bir yəhudi ilə mübahisəsi düşür. Yəhudi zahirən müsəlman olan bu münafiqlə mübahisələrinə son qoyması üçün ona Peyğəmbərin (s) yanına getmələrini təklif edir. Lakin o, qəbul etmir, əvəzində Kəb ibn Əşrəf Yəhudinin yanına getmələrini təklif edir. Bəzi hədislərdə yazılanlara görə hətta o, açıq şəkildə bildirir ki, Muhəmməd bizim məsələdə ədalətli davranmaya bilər. Bu ayə nazil olur və bu cür şəxslər ciddi şəkildə məzəmmət edilir. 2. İmam Əli (ə)

[1510] Nümunə, c.14, səh.508

ilə səhabələrdən biri arasında mübahisə düşür. Mübahisəyə səbəb səhabənin Əlidən (ə) aldığı yerdə çoxlu daşların olması olur. Alıcı bunu bəhanə edərək yeri geri qaytarmaq istəyir, ancaq Əli (ə) qəbul etməyib deyir: Mənimlə sənin aranda Allahın rəsulu (s) hökm çıxarsın. Münafiqlərdən olan Həkəm ibn Əbilas alıcıya deyir: Razılaşma. Çünki onun əmisi oğlunun yanına getsən, şübhəsiz ki, onun xeyrinə hökm çıxaracaq. Bu ayə nazil olur və həmin şəxs ciddi şəkildə məzəmmət edilir[1511]. Şiələrdən biri İmam Baqirin (ə) yanına gəlib deyir: Əgər borc və irs məsələsi ilə bağlı iki şiə arasında mübahisə yaransa, zalım hökümətin hakiminə müraciət edə bilərlərmi? İmam buyurur: ***"Xeyr, onun hökmü zalımın hökmüdür. Əgər onun çıxardığı hökm doğru olsa belə, ona əməl etmək haramdır."*** Həmin şəxs deyir: Bəs belə olan halda nə edək? İmam buyurur: ***"Bizim halal və haramlarımızda nəzər sahibi, hökmlərimizdən xəbərdar olan bir həmməzhəbinizin yanına gedin. Onun hökm çıxarmasına razı olun. Çünki mən onu sizin üçün hakim təyin etmişəm. Bu cür adamdan imtina edən şəxs bizdən imtina etmiş kimidir, eyni zamanda sanki Allaha şərik qoşmuşdur."*** Bu hədisdən də bütün şərtləri özündə cəm etmiş müctəhidin hökmünün eynilə imamların hökmü olduğu qənaətinə gəlirik. Deməli, onların çıxardıqları hökmdən imtina etmək olmaz, digər tərəfdən isə, bütün şərtləri özündə cəm etməmiş müctəhidin hökmünə də tabe olmaq vacib deyil[1512].

52. Həqiqi qalib: Hədislərinin birində İmam Baqir (ə) ***"Bu ayədə Əli (ə) nəzərdə tutulmuşdur"***, - deyə buyurmuşdur. Şübhəsz ki, həzrət Əli (ə)

[1511] Nümunə, c.14, səh.512
[1512] Ətyəbül-bəyan, c.9, səh.548

ayənin ən bariz nümunəsdir, ancaq bu nümunə ayənin ümumi məzmununa əsla xələl gətirmir[1513].

54. De: “Allaha və Peyğəmbərə itaət edin”. Əgər boyun qaçırsanız, (bilin ki,) o ancaq öz əməllərinə cavabdehdir, siz də ancaq öz əməllərinizə cavabdehsiniz. Əgər ona itaət etsəniz, doğru yola yönəlmiş olarsınız. Peyğəmbərin öhdəsinə düşən isə ancaq açıq-aşkar çatdırmaqdır.

[1513] Nümunə, c.14, səh.523

55. Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd vermişdir ki, onlardan əvvəlkiləri yer üzünün canişinləri etdiyi kimi, onları da yer üzünün hakimləri edəcək, möminlər üçün bəyəndiyi dini möhkəmləndirəcək, qorxularını arxayınçılıq və rahatlıqla əvəz edəcəkdir. (Belə ki,) yalnız Mənə ibadət edəcək və heç nəyi Mənə şərik qoşmayacaqlar. Bundan sonra kafir olanlar fasiqlərdir.

56. Namaz qılın, zəkat verin və Peyğəmbərə itaət edin ki, sizə rəhm edilsin.

57. Kafirlərin yer üzündə Allahın əzabından yaxa qurtara biləcəklərini zənn etmə. Onların məskənləri oddur. Ora nə pis yerdir!

58. Ey iman gətirənlər! Sahib olduğunuz kölələr və həddi-buluğa çatmayan uşaqlarınız üç vaxtda sizdən izn istəsinlər: sübh namazından əvvəl, günorta paltarınızı çıxartdığınız zaman və işa namazından sonra. Bu üç xüsusi vaxt sizin üçündür. Qalan vaxtlarda (onların icazə almadan sizin yanınıza girməsində) sizə və onlara heç bir günah yazılmaz., bir-birinizin ətrafına dolanın. Allah ayələri sizə belə izah edir. Allah biləndir, hikmət sahibidir.

---

55. Mehdinin (ə) zühur edəcəyi dövr Allah dininin mütləq hakim olacağı və Allaha tam ixlasla ibadət ediləcəyi dövrdür: Təfsirçilər bu ayədə kimlərə işarə edildiyi, hansı hökumətdən danışıldığı ilə bağlı müxtəlif fikirlər irəli sürmüşlər. Bəziləri ayədə Peyğəmbərin (s) səhabələrinə işarə edildiyini iddia etmişlər. Onlar hesab edirlər ki, Allahın vədi gerçəkləşmiş, möminlər yer üzünə hakim olmuşlar. Bu hökmranlıq özünü Peyğəmbərin (s) vəfatından sonra, Raşidi xəlifələri dövründə İslamın əldə etdiyi güc və qüdrətdə ifadə edir. Bəziləri bu ayənin bütün İslam ümmətinə şamil

olduğunu iddia etmişlər. Onlar hesab edirlər ki, hökmranlıq deyilərkən İslam dininin qüdrətinin artması, müsəlmanlar üçün əmin-amanlıq yaranması, Peyğəmbərdən (s) sonra İslam xəlifələrinin hökmranlığı, İslam düşmənlərinin məğlubiyyətə uğraması nəzərdə tutulur. Əhli-beyt imamlarından (ə) təvatür həddə nəql edilmiş hədislərə əsaslanan bir çox təfsirçilər hesab edirlər ki, Allahın vədi deylərkən həzrət Mehdinin (ə) əli ilə təşkil olunacaq cahanşümul İslam dövləti nəzərdə tutulur. O həzrətin səyi nəticəsində bütün dünya, onu sarmış zülmdən azad olacaq, yerini ədalət tutacaq. Təfsirçilərin irəli sürdüyü fikirlər arasında ən düzü sonuncu fikirdir. Çünki bu ayəni tam şəkildə incələdikdə məlum olur ki, Peyğəmbərin (s) seçildiyi vaxtdan günümüzə qədər qeyd olunan yüksək və müqəddəs xüsusiyyətləri özündə ehtiva edən bu cür pak və təmiz cəmiyyət hələ formalaşmamış, dövlət qurulmamışdır. Allah-taala bu ayədə əməlisaleh möminlərə vəd verir ki, tezliklə sözün əsl mənasında saleh olan, küfr, nifaq və günah ləkəsi olmayan, fərdlərinin inanc və əməllərinə yalnız haqq dinin hakim olduğu, əmin-amanlıq içində yaşayan, daxili və xarici düşmənlərdən qorxusu olmayan bir cəmiyyət gətirəcəkdir. Belə bir cəmiyyət nümunəsi Mehdinin (ə) zühurundan sonra olacaq. Çünki belə bir cəmiyyətin təşkil olunacağından bəhs edən təvatür həddə Peyğəmbər (s) və imamların (ə) hədisləri də ayənin məzmunu ilə üst-üstə düşür. İmam Səccad (ə) br dəfə bu ayəni oxuduqdan sonra belə buyurmuşdur: ***"And olsun Allaha! Onlar biz Əhli-beytin şiələridir. Allah-taala bu vədi bizdən olan bir kişi vasitəsilə gerçəkləşdirəcək. O, bu ümmətin Mehdisidir. O, həmin adamdır ki, Allah rəsulu onun haqqında "Əgər dünyanın ömründən bir gün də qalmış olsa belə, Allah həmin günü o qədər uzadacaq ki, nəslimdən mənimlə adaş***

olan bir kişi qiyam edəcək, yer üzünü zülm və haqsızlıqla dolduğu kimi, ədalətlə dolduracaq", - deyə buyurmuşdur."[1514]

58. Ata və anaya aid olan xüsusi yerlərə girərkən icazə alınması: İctimai fəsad mənbələrinin, iffət və ismətə zidd olan əməllərin və bu kimi sair fəsadların kökünü kəsmək üçün cəza tədbirlərinin görülməsi və şallaq vurulması kfayət etmir. Onların qarşısı tərbiyəvi üsullarla, mədəni əxlaqi təlimlərlə alınmalıdır. Öncə sağlam mühit yaradılmalıdır. Cəza tədbiri məhz bu amillərlə yanaşı nəzərdə tutulur. Elə buna görədir ki, əslində, iffətdən bəhs edən bu surə zinakar kişi və qadınların şallaq cəzası ilə cəzalandırılmasından başlamış, sağlam ailə vasitələrinin təmin edlməsi, İslam hicabına riayət edilməsi, gözlərin harama baxmasının qadağan edilməsi, uşaqların ata və analara aid olan otaqlara girərkən icazə alması kimi mövzularla davam etdirilmişdir. Xidmətçilər də ev sahibinin otağına daxil olarkən icazə almalıdırlar. Yetkinlik yaşına çatmamış uşaqlara da öyrədilməlidir ki, ən azı üç vaxt icazə almadan ata və analarının otağına daxil olmasınlar. Bəzi sadəlövh psixoloqların iddialarının əksinə olaraq sübuta yetmişdir ki, uşaqlar bu mövzuda çox həssasdırlar. Bəzən elə olur ki, ata və ananın səhlənkarlığı, uşaqların görməli olmayacaqları mənzərə ilə qarşılaşması, bəzən onların əxlaq pozuntusuna, bəzən isə psixoloji xəstəlik tapmasına səbəb olur. Ata və analar bu məsələdə çox ciddi olmalıdırlar, uşaqları otağa girərkən icazə almağa adət etdirməlidirlər. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Uşaq beşikdən sizə baxarkən məbada cinsi əlaqədə olasınız."***[1515]

[1514] Əl-Mizan, c.15, səh.154
[1515] Nümunə, c.14, səh.544-546

59. Sizin uşaqlar da həddi-buluğa çatanda özlərindən əvvəlkilər izn istədikləri kimi izn istəsinlər. Allah öz ayələrini sizə belə izah edir. Allah biləndir, hikmət sahibidir.

60. Ərə getməkdən ümidini üzmüş yaşlı qadınlara camaat qarşısında özlərini bəzəmədən paltarlarını çıxarmalarının heç bir günahı yoxdur. Əgər özlərini örtsələr, onlar üçün daha xeyirli olar. Allah eşidəndir, biləndir.

61. Kor, çolaq, bir də xəstəyə (sizinlə oturub çörək yedikləri üçün) günah yazılmaz. Sizin özünüzə də (xüsusi bir icazə olmadan) öz evlərinizdə (övladlarınız və həyat yoldaşlarınızın evləri də sizin eviniz sayılır), yaxud atalarınızın evlərində, yaxud analarınızın evlərində, yaxud qardaşlarınızın evlərində, yaxud bacılarınızın evlərində, yaxud əmilərinizin evlərində, yaxud

bibilərinizin evlərində, yaxud dayılarınızın evlərində, yaxud xalalarınızın evlərində, yaxud açarları ixtiyarınızda olan evlərdə, yaxud dostlarınızın evlərində bir yerdə və ya ayrı-ayrılıqda yemək yeməkdə heç bir günah yoxdur. Evlərə daxil olduğunuz zaman özünüzü Allah tərəfindən mübarək və pak bir salamla salamlayın. Allah ayələrini sizə belə izah edir ki, başa düşəsiniz.

---

60. Yaşlı qadınlar üçün hicab hökmü: Bu qrupun hicab hökmündən istisna edilməsi məsələsi İslam alimləri arasında mübahisə mövzusu deyil. Çünki Quranda bu məsələ aydın şəkildə qeyd edilmişdir. Amma irəli sürülən fikirlər onun xüsusiyyətləri ilə bağlıdır. Bütün fikirlər isə bir həqiqətə işarə edir. O da budur ki, qadınlar elə bir yaş həddinə çatırlar ki, həmin yaş həddində ümumiyyətlə, ailə qurmurlar. Təbii ki, nadir hallar üçün istisnaların olması danılmazdır. Yaşları ötmüş bu qadınlar bədənlərinin icazə verlən miqdarını örtməyə bilərlər. Hədislərdə bu hissələrə müxtəlif ifadələrlə işarələr edilsə də, Quranda üstüörtülü şəkildə onların üst paltarlarını çıxarmalarına açıq şəkildə icazə verldiyinin şahidi oluruq. Buna isə onlar bəzək-düzəkdən istifadə etmədiklər halda, icazə verilir. Digər tərəfdən, onlara gizli zinətlərini də örtmələri və diqqət cəlb edən dəbdəbəli paltarlar geynməmələri də vacibdir[1516].

61. Yemək yeyilməsinə icazə verilən evlər: Bu ayənin bəzi cümlələrinin izah edilməsinə ehtiyac var: 1. ***"Kor, çolaq, bir də xəstəyə (sizinlə oturub çörək yedikləri üçün) günah yazılmaz."*** Mənbələrin yazdığına görə İslamdan əvvəl Mədinə camaatı kor, çolaq və xəstələrə

[1516] Nümunə, c.14, səh.546

onlarla bir süfrə arxasında oturmağa icazə verməz, onlarla yemək yeməz, buna nifrət edərmişlər. Ancaq İslam gəldikdən sonra da bəzi insanların bu cür adamlarla bir yerdə yemək yeməməsinin səbəbi cahiliyyət dövründə olduğu kmi nifrət deyil, etik və əxlaqi dəyərlər idi. Onlar hesab edirdilər ki, sözügedən şəxslərlə birlikdə yemək yedikləri zaman kor yeməyin yaxşı hissəsini görə bilmədiyi halda, onlar görür, çolaq və xəstə adam geri qaldığı halda, onlar daha tez-tez yeyə bilər ki, bu da onlara qarşı haqsızlıq olar[1517]. 2. ***"Sizin özünüzə də (xüsusi bir icazə olmadan) öz evlərinizdə..., yaxud dostlarınızın evlərində yemək yeməkdə heç bir günah yoxdur."*** Bu ayə möminlərə qohumları, ya onlara tapşırılmış evlər və ya dostlarının evlərindəki yeməklərdən onların özlərindən icazə almadan ehtiyac duyduqları qədər israfa yol vermədən yemək icazə vermişdir[1518]. Çünki icazə verdikləri təqdirdə hər kəsin yeməyindən yemək icazəlidir. Ev sahibinin razı olacağı ehtimalı da bunun üçün yetərlidir. 3. ***"Bir yerdə və ya ayrı-ayrılıqda yemək yeməkdə heç bir günah yoxdur."*** Mənbələrin yazdığına görə cahilyyət dövründə təklikdə yemək yemək ayıb sayılarmış. Hətta bəzən elə olurdu ki, kimsə möhkəm acdıqda yeməyini özü ilə gəzdirib, birlikdə yemək yeyib su içmək üçün adam axtarırdı. Ancaq İslam hər iki formaya icazə verir. Nəzər nöqtəsi olan ayə bu səbəbdən nazil edilmişdir[1519].

61. Hər hansı evə daxil olduğunuzda özünüzə salam verin: Burada evə daxil olarkən evdə olan hər kəsə salam verilməsi nəzərdə tutulur. Ayədə "Ev əhlinə salam verin", - deyə buyurulmamışdır. Ayə müsəlmanların bir olduğunu çatdırır. Hamı insandır, Allah hamını bir kişi və bir qadından yaratmışdır. Bundan başqa hamısı da mömindir, onların bir yerə

[1517] Nümunə, c.14, səh.549
[1518] Əl-Mizan, c.15, səh.164
[1519] Nümunə, c.14, səh.554

toplaşmasına imanları səbəb olmuşdur. Möminlərin iman əlaqəsi ailə və sair əlaqələrdən daha güclü və möhkəmdir[1520]. Bəzi təfsirçilər burada sakini olmayan evlərə işarə edildiyini bildirmişlər. Yaxşı olar ki, insan mənzilə daxil olarkən özü-özünə "Əssəlamu aləynə və alə ibədilləhissalihin" (Bizə və Allahın saleh bəndələrinə salam olsun) – deyərək salam versin. Salam haqqında daha ətraflı məlumat əldə etmək istəyənlər "Nisa" surəsinin 86-cı ayəsinə baxa bilərlər[1521].

[1520] Əl-Mizan, c.15, səh.165
[1521] Nümunə, c.14, səh.553

62. Həqiqi möminlər Allaha və Onun elçisinə iman gətirən, mühüm bir işdə onunla (Peyğəmbərlə) birlikdə olduqları vaxt onun icazəsi olmadan heç yerə getməyən şəxslərdr. Səndən icazə alanlar, həqiqətən, Allaha və Onun elçisinə iman gətirənlərdir. Elə isə əgər onlar bəzi mühüm işlər üçün səndən izn istəsələr, onlardan istədiyin kəsə izn ver və onlar üçün Allahdan bağışlanma dilə. Allah bağışlayandır, rəhmlidir.

63. Peyğəmbəri, öz aranızda bir-birinizi çağırdığınız kimi çağırmayın. Allah sizin aranızdan başqalarının arxasında gizlənib biri digərinin arxasınca qaçanları bilir. Elə isə Onun əmrinə qarşı çıxanlar başlarına bir bəla gəlməsindən, yaxud özlərinə sarsıdıcı bir əzab üz verməsindən qorxsunlar.

64. Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. O, sizin nə əməl sahibi olduğunuzu və Onun hüzuruna qaytarılacağınız günü bilir. Allah onlara nə etdiklərini bildirəcəkdir. Allah hər şeyi bilir.

"Fürqan" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Aləmləri xəbərdar edib qorxutmaqdan ötrü Öz quluna Furqanı (Quranı) nazil edən kəs tükənməz, bərəkətli və xeyirlidir!

2. Göylərin və yerin hökmranlığı Ona məxsusdur. Özünə övlad götürməmişdir və hökumətində də şəriki yoxdur. Hər şeyi yaradıb dəqiq bir biçim vermişdir.

---

62. Mühüm proqramlarda iştirak etməmək üçün Peyğəmbərdən (s) icazə alınmasının zəruriliyi: Bəzi hədislərdə bu ayənin Hənzələ ibn Əyyaş haqqında nazil olduğu qeyd edilmişdir. Ühüd döyüşünün baş verəcəyi günün gecəsi Hənzələ ailə qurmağa hazırlaşırdı. Peyğəmbər (s) səhabələri ilə döyüşlə bağlı müzakirələr aparırdı. Bu zaman Hənzələ Peyğəmbərin (s) yanına gəlib ondan həmin gecə üçün icazə istəyir. Peyğəmbər (s) icazə verir. Səhər açıldıqda döyüşdə iştirak etmək üçün o qədər tələskənlik edir ki, hətta qüsl almağı belə lüzum görmür. Elə həmin halda döyüş meydanına yollanır. Nəhayət, şəhid olur. Peyğəmbər (s) onun haqqında belə buyurur: ***"Mələklərin yerlə göy arasında Hənzələyə qüsl verdiklərini gördüm".*** Bundan sonra Hənzələ "Ğəsilül-məlaikə" (mələklərin qüsl verdiyi adam) adı ilə şöhrət tapır[1522].

63. Peyğəmbəri (s) bir-biriniz çağırdığınız kimi çağırmayın: Bu cümlə ilə bağlı iki izah mövcuddur: 1. Peyğəmbərin (s) çağırışını öz çağırışlarınıza tay tutmayın. Əgər o sizi hər hansı məsələyə görə çağırırsa, deməli, həmin məsələ dini cəhətdən çox mühüm bir məsələdir. Ona çox mühüm əhəmiyyəti olan bir məsələ kimi baxmaq lazımdır. Onun çağırışlarına laqeyd yanaşmayın, əmrini Allahın əmri, çağırışını Allahın çağırışı bilin. 2. Peyğəmbəri (s) çağırarkən bir-birinizi çağırdığınız kimi deyil, ədəb-ərkanla, hörmətlə, məqamına layiq şəkildə çağırın. Bu göstəriş

[1522] Nümunə, c.14, səh.561

ona görə verildi ki, o dövrdə İslamın etik davranışları ilə tanış olmayanlar həm təklikdə, həm də ictimai yerdə Peyğəmbəri (s) birbaşa adı ilə "Muhəmməd!" - deyə çağırırdılar. Bu da böyük səmavi rəhbərin məqamına uyğun olmayan bir davranış idi. Bu ayədə onun "Ey Allahın rəsulu", "Ey Allahın nəbisi" kimi adlarla, ədəblə, etik normalara uyğun səs ahəngi ilə çağırmaq göstərişi verlir[1523]. İmam Sadiqin (ə) bir hədisində həzrət Fatimənin (ə) dilindən belə nəql edildiyi qeyd edilmişdir: "Bu ayə nazil olandan sonra mən artıq Allah rəsulunu "atacan" deməyə son qoyub "Ey Allahın rəsulu", - deyə çağırmağa başladım. Peyğəmbər (s) mənə buyurdu: ***"Sən "atacan" de. Çünki bu söz qəlbimi daha da canlandırır və Allahı daha çox şad edir."***[1524]

"Fürqan" surəsinin ümumi məzmunu: Bu surə üç hissədən təşkil olunub: 1. Surənin əvvəlində müşriklərin bəhanələri qeyd edilərək onlara cavablar verilir, Allahın əzabı, Qiyamət gününün hesab-kitabı və Cəhənnəmin ağrı-acılı əzabları ilə qorxu gəlinir, keçmiş xalqların başına gələnlərdən söz açılır. 2. Bu mövzunu təkmilləşdirmək üçün Allahın təkliyini sübut edən dəlillərin müəyyən qisminə, Allahın mövcudat aləmindəki əzəmət nişanələrinə işarə edilir. 3. Həqiqi möminlər və Allahın xalis bəndələrinin xüsusiyyətlərinə ümumiləşdirilmiş şəkildə toxunulur[1525].

1. Quran haqla batili ayırandır: "Fürqan" sözünün mənası ayıran, fərqləndirəndir. Ayədə "fürqan" deyiləkən Quran nəzərdə tutulmuşdur. Çünki Quran insan həyatının bütün sferalarında haqla batilin əbədi və ən yaxşı tanıtdırıcısıdır. Quran fikir, düşüncə, inanc, qanun, hökmlər, ədəb və

[1523] Nümunə, c.14, səh.568
[1524] Safi, c.2, səh.451
[1525] Nümunə, c.15, səh.3

əxlaq sahəsində möhkəm bir meyardır[1526]. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Fitnələr qaranlıq gecənin bir parçası kimi sizi ağuşuna aldığı vaxt Qurana sığının!"***[1527] Diqqət çəkən məqam ondan ibarətdir ki, Allahın zatının mübarək olması Fürqanın, yəni haqqı batildən ayıran Quranın nazil olması vasitəsilə təqdim edilmişdir. Bu da onu göstərir ki, ən böyük xeyir və bərəkət insanın haqq və batili tanımaqda istifadə etdiyi vasitədədir[1528].

[1526] Nümunə, c.15, səh.7
[1527] Üsuli-kafi, c.2, səh.592
[1528] Nümunə, c.15, səh.7

3. Onlar Allahı qoyub heç nə yaratmayan, əksinə, özləri yaradılan, özlərinə nə bir zərər, nə də bir xeyir verməyə qadir olmayan, öldürməyə, həyat verməyə və yenidən diriltməyə qüdrətləri çatmayanları özlərinə tanrı seçdilər.

4. Kafirlər: “Bu, onun uydurduğu yalandan başqa bir şey deyildir. Ona bu işdə başqa adamlar da kömək etmişlər” – dedilər. Beləcə, onlar haqsızlığa və iftiraya yol verdilər.

5. Onlar: “Bu, keçmişdəkilərin nağıllarıdır. O bunları köçürmüşdür. Bunlar səhər-axşam ona oxunur” – dedilər.

6. De: “Onu göylərin və yerlərin sirlərini bilən nazil etmişdir. O, bağışlayandır, rəhimlidir!”

7. Onlar dedilər: “Nə üçün bu peyğəmbər yemək yeyir, bazarları gəzib dolaşır. Nə üçün ona özü ilə birlikdə xəbərdarlıq edib qorxu gələn bir mələk göndərilmədi?

8. Niyə ona (göydən) bir xəzinə göndərilmədi? Niyə meyvəsindən yeyəcəyi bir bağı olmadı?” Zalımlar: “Siz ancaq cin vurmuş bir adamın ardınca gedirsiniz” – dedilər.

9. Gör səninlə bağlı hansı bənzətmələri söylədilər və haqq yoldan bir daha onu tapa bilməyəcəkləri şəkildə sapdılar!

10. İstəsə, sənə bundan daha yaxşısını verə, ağacları altından çaylar axan Cənnət bağlarını yarada, sənin üçün dəbdəbəli qəsrlər inşa edə bilən Allah necə də tükənməz, bərəkətli və xeyirlidir!

11. Lakin onlar Qiyaməti də yalan saydılar. Biz də Qiyaməti yalan sayanlardan ötrü yandırıb-yaxan bir od hazırladıq.

4-5. Quranı başqalarından öyrənməsi Peyğəmbərə (s) atılan bir böhtandır: Hədislərdə qeyd edilir ki, kafirlər "başqa adamlar" deyərkən Tövratı oxuyub onunla yaxından tanışlığı olan Qədas, Yəsar və Həbr adlı üç yəhudini nəzərdə tuturdular. Onlar müsəlman olduqdan sonra Peyğəmbər (s) onlara qayğı göstərirdi. Kafirlər bu vəziyyətdən sui-istifadə edərək Peyğəmbrə (s) bu ayələrdə qeyd edilən iftiraları atdılar[1529]. Kafirlər bir neçə cümlə ilə Quranda zəif cəhətlər olduğunu sübut etməyə çalışırdılar: "Quranda yeni heç nə yoxdur, keçmişdəkilərin bir ovuc nağıllarıdır. Başqalarını köməyi olmadan Peyğəmbər (s) öz fəaliyyətni hətta bir gün də davam etdirə bilməz. Səhər-axşam mövzuları ona kimlərsə diktə etməli və o da yazmalı idi. O, yazmağı da bilir, oxumağı da. Təhsil almamışam deməsi yalandır". Kafirlər bu iftiraları ilə insanları Peyğəmbərin (s) ətrafından dağıtmaq istəyirdilər. Halbuki hamı Peyğəmbərin (s) kimdənsə təhsil almadığını yaxşı bilirdi. Hər gün kimdənsə nə isə öyrənsəydi, bunu hər kəsdən əsla gizlətmək olmazdı. Bundan başqa, Quran ayələri Peyğəmbərə (s) müxtəlif vaxtlarda, o cümlədən səfərlərdə də nazil olurdu. Digər tərəfdən, Quranda keçmiş peyğəmbərlərin əhvalatları ilə yanaşı etiqad, əxlaq, hökm və qanunlarla bağlı çox mövzular yer almışdır. Məsələnin başqa bir tərəfi də ondan ibarətdir ki, Quranda peyğəmbərlər haqqında yazılanlar təhrif edlmiş Tövrat, İncil və ərəb nağıllarında olan əhvalatlardan fərqlənirdi. Əgər onları Quranla müqayisə etsək, bunun şahidi olarıq[1530].

10. Allah Peyğəmbərə (s) kafirlərin söylədiklərindən daha yaxşısını bəxş edə bilər: Əvvəlki ayələrdə qeyd edilir ki, kafirlər Peyğəmbərə (s) qarşı ittihamlar irəli sürərkən nə üçün ona göydən xəzinə göndərilmədiyini və ya nə üçün bir bağ sahibi olmadığını da irad edirlər. Allah-taala bu ayədə onlara

---

[1529] Əl-Mizan, c.15, səh.180
[1530] Nümunə, c.15, səh.22

cavab verərək buyurur ki, Allah Peyğəmbərə (s) kafirlərin söylədiyi xəzinə və bağdan daha yaxşısını verə blər, ancaq istədiyi bu deyil[1531]. İmam Əli (ə) bu mövzunu çox gözəl bir tərzdə ifadə etmişdir: ***"Əgər Allah-taala istəsəydi, peyğəmbərləri seçərkən xəzinələri, ləl-cəvahirat mədənlərini, yamyaşıl bağların qapılarını onların üzünə açardı. Göydəki quşları, yer üzünün yırtıcı heyvanlarını onlarla birlikdə hərəkətə gətirərdi. Ancaq bunu etsəydi, imtahan olmazdı, mükafat və əzab heç bir əhəmiyyət kəsb etməzd, Allahın müjdə və təhdidləri faydasız olardı, möminlərə sınanmışların mükafatları vacb olmazdı, iman gətirənlər əməlisalehlərin savablarına layiq görülməzdlər, sözlər öz mənasını itirərdi. Lakin Allah peyğəmbərləri zahirən sadə və yoxsul olmalarına baxmayaraq, əzmkar və qüvvətli, qəlbləri və gözləri doldurmayacaq qədər qənaətcil, göz və qulaqları heyrətləndirəcək qədər yoxsul olduqları halda seçmişdir. Əgər peyğəmbərlər qarşı çıxılmayacaq qədər böyük qüdrətə, əsla məğlub edilə blməyəcək gücə, bütün gözlərin dikildiyi hakimiyyətə sahib olsaydılar, insanlar uzaq-uzaq yerlərdən onlara doğru axın edərdilər, insanlar arasında etbarları və dəyərləri olmazdı, təkəbbürlü insanlar qarşılarında təzim edərdilər, qorxu və ya maddiyata olan sevgi üzündən zahirən iman gətrdiklərini söyləyərdilər. Belə olan surətdə imanları xalis olmazdı, imanlarına Allahdan qeyri hədəflər nüfuz edərdi, yaxşı işləri ayrı-ayrı məqsədlər üçün edərdilər. Ancaq Allah peyğəmbərlərə itaət göstərilməsinin, səmavi kitabların təsdiqinin, ibadətdə təvazökarlığın, Allahın əmrinə boyun əyməyin, itaətkarlığın əsasında Allah üçün olan xalis niyyətin durmasını, niyyətlərə Allahdan qeyrisinin qatılmamasını istəmişdir. Çünki imtahan və çətinliklərin miqyası artdıqca savab və***

[1531] Əl-Mizan, c.15, səh.185

mükafatlar da artmış olur."[1532] Buradan da aydın olur ki, bu ayədə bağ və qəsr deyilərkən axirət deyil, dünya bağları və qəsrləri nəzərdə tutulur. Yəni Allah-taala elə bu dünyada peyğəmbərlərə kafirlərin söylədiklərindən daha yaxşısını bəxş edə bilər[1533].

12. Bu od onları uzaq məsafədən gördüyü zaman onun qorxulu səsini və qəzəbli uğultusunu eşidəcəklər.

13. Zəncirə vurulmuş və buxovlanmış halda onun dar bir küncünə atıldıqları zaman ah-nalə səsləri, "mənə ölüm olsun" fəryadları ucalar.

14. (Onlara deyilər:) "Bu gün özünüzə bir ölüm deyil, çoxlu-çoxlu ölümlər istəyin!"

15. De: "Bu, yaxşıdır, yoxsa müttəqilərə əməllərinin mükafatı və məskunlaşmaları üçün vəd edilən əbədi Cənnət?"

[1532] Nəhcül-bəlağə, 234-cü xütbə
[1533] Əl-Mizan, c.15, səh.186

16. Onlar üçün orada istədikləri hər şey vardır. Orada əbədi qalacaqlar. Bu, sənin Rəbbinin Öz öhdəsinə götürdüyü qəti bir vəddir.

17. O gün onları və Allahdan başqa sitayiş etdiklərinin hamısını bir yerə toplayıb deyəcək: “Mənim bu qullarımı siz azdırdınız, yoxsa onlar özləri azdılar?”

18. Onlar deyəcəklər: “Sən pak və müqəddəssən! Sənin əvəzinə özümüzə başqa himayədarlar götürmək bizə yaraşmaz. Lakin Sən onlara və atalarına o qədər bol nemət bəxş etdin ki, axırda Səni xatırlamağı unudub məhvə məhkum oldular”.

19. (Allah-taala onlara buyuracaq:) “Bu məbudlar sizin dediklərinizi təkzib etdilər. Artıq siz nə əzabı dəf edə, nə də kimdənsə yardım diləyə bilirsiniz. Zülm edənlərinizə böyük bir əzab daddıracağıq”.

20. Səndən öncəki elçilərimiz də yemək yeyər, bazarları gəzib dolanardılar. Sizin bəzilərinizi digərlərinizlə sınaqdan keçirtdik ki, (görək) səbr edə biləcəksinizmi? Sənin Rəbbin görəndir.

---

12. Cəhənnəmin fəryadı: Bu ayədə ilahi əzabın şiddətini göstərən bir neçə bədii ifadə işlədilmşdir: 1. Ayədə “onlar Cəhənnəm odunu uzaqdan görürlər” deyil, “Cəhənnəm odu onları uzaqdan görür” deyə buyurulmuşdur. Sanki gözü və qulağı varmış kimi od yollara göz dikib günahkarların yolunu gözləyr. 2. Həyəcana gəlməsi üçün od onların yaxınlaşmasına ehtiyac duymur. Elə uzaq məsafədən qəzəblə fəryad qoparır. Hədislərə görə bu məsafə br illik yoldur. 3. Cəhənnəm odu üçün “zəfir” ifadəsi işlədilmişdir. Zəfir insanın havanı ciyərlərinə alması nəticəsində köksünün qabarmasına

deyilir. Bu vəziyyət adətən, insan bərk qəzəbləndiyi vaxt baş verir. Bu ifadələrlə Cəhənnəm odu öz ovunu gözləyən ac yırtıcıya bənzədilmişdir[1534].

17-18. Burada "Allahdan qeyriləri" deyilərkən kimlər nəzərdə tutulur? Məşhur təfsirçilər bu suala iki cavab vermişlər: 1. Burada tanrılar deyilərkən ayrı-ayrı müşrik zümrələrin özlərinə məbud seçdiyi insanlar (İsa peyğəmbər kimi), şeytanlar (cinlər kimi) və mələklərdən olan tanrılar nəzərdə tutulur. Bu ibadət obyektləri ağıl, şüur və idrak sahibləri olduqları üçün onlara sual ünvanlanmışdır. "Bunlar bizim onlara ibadət etməyimizi istəyirdilər" deyən müşriklərin yalanını üzə çıxarmaq və bəhanələrinə son qoymaq üçün iddia ilə bağlı tanrı seçilən bu varlıqların özlərindən soruşulur. Onlar isə söylənilənlərin yalan olduğunu bildirirlər. 2. Allah-taala həmin gün bütlərə bir növ həyat və şüur bəxş edəcək. Onlar da verilən suallara cavab verə və "İlahi, bz bunları azdırmadıq, bunlar ehtiras və qürurlarına tabe olub azdılar", - deyə cavab verə biləcəklər. Ayədəki göstəricilər onların ağıl və şüur sahibi olduqlarını göstərir. Bu da İsa, mələklər və onlar kimi şüurlu varlıqlar versiyasının daha münasib olduğunu deməyə əsas verir[1535].

20. Peyğəmbərlər insanlar üçün sınaq və imtahan vasitəsidir: Əvvəlki ayələrdə qeyd edilir ki, kafirlər peyğəmbərin insanlar kimi yeməsini, bazarlarda gəzməsini, maddi cəhətdən özünə xas bir həyat tərzinə malik olmadığını ona irad tuturdular. Allah-taala bu ayədə onlara cavab verərək buyurur ki, Allahın dəyişməz qanununa əsasən bu dünya ixtiyar və imtahan yeridir, insanlar müxtəlif vasitələrlə sınanırlar. Allah bəzi insanların digərləri üçün imtahan vasitəsi olmasını istəyir. Pyğəmbərlər maddi həyatda insanlarla ortaq cəhətlərə malik olduqları üçün onlar üçün imtahan vasitəsi olurlar. Bununla da şübhəçilər möminlərdən, haqqın acısına dözə bilməyən

[1534] Nümunə, c.15, səh.36
[1535] Nümunə, c.15, səh.45

ehtiras və nəfsani istək davamçıları Allaha itaət yolunda səbr və dözüm nümayiş etdirən haqq ardıcıllarından fərqləndirilirlər[1536]. İnsanların çoxu öz həmnövlərinin, xüsusilə maddi cəhətdən aşağı həyat tərzinə malik insanların tabeçiliyi altında olmağı xoşlamırlar. Onlara görə rəhbər ya maddi cəhətdən, ya yaşca digərlərindən üstün olmalı, ya da cəmiyyətdə tanınıb-seçilən adamlardan olmalıdır. "İsra" surəsinn 94-cü ayəsində Allah-taala belə buyurmuşdur: ***"İnsanlara doğru yolu göstərən bələdçi gəldikdən sonra onların iman gətirməsinə ancaq: "Allah bir insanımı elçi göndərdi?"– demələri mane oldu."***[1537]

[1536] Əl-Mizan, c.15, səh.194
[1537] Nümunə, c.15, səh.50

21. Bizimlə görüşəcəklərinə ümid etməyənlər dedilər: “Nə üçün bizə mələklər göndərilmədi? Niyə Rəbbimizi öz gözlərimizlə görmürük?” Onlar özləri haqqında təkəbbürə qapıldılar və həddi çox aşdılar.

22. Məhz mələkləri görəcəkləri gün günahkarlara heç bir müjdə olmayacaqdır. (Bu, onların əzab günü olacaq). Deyəcəklər: “ Bizə aman verin, bizi bağışlayın!”

23. Biz onların etdikləri əməllərə baxdıqdan sonra onları havada sovrulmuş toz dənəciklərinə çevirərik.

24. Həmin gün Cənnət sakinlərinin qalacağı yer daha yaxşı və istirahət edəcəyi yer daha gözəl olacaqdır.

25. Həmin gün göy buludla parçalanacaq və mələklər (yerə) endiriləcəkdir.

26. Həmin gün həqiqi hökmranlıq ancaq rəhman olan Allaha məxsusdur. O gün kafirlər üçün çətin bir gün olacaqdır.

27. Həmin gün zalım kimsə əlini dişləyərək deyəcəkdir: “Kaş ki, mən Peyğəmbərlə eyni yolu tutaydım!

28. Vay halıma! Kaş ki, filankəslə dost olmayaydım!

29. Çünki Zikr (haqqı xatırladan) mənə çatdıqdan sonra o, məni (haqqı) xatırlamaqdan sapdırdı". Şeytan insanı hər zaman xar edəndir.

30. Peyğəmbər: "Ey Rəbbim! Qövmüm Quranı tərk etdi!" – deyəcək.

31. Beləcə, Biz hər peyğəmbər üçün günahkarlardan bir düşmən etdik. Amma yolu göstərən rəhbər və yardımçı kimi Rəbbin sənə yetər.

32. Kafirlər dedilər: "Nə üçün Quran ona birdəfəlik bütöv nazil olmadı?" Biz onu sənin qəlbini möhkəmləndirmək üçün sənə tədricən oxuduq.

---

25. Göylərin parçalanacağı gün: Bu ayədə müşriklərin bəhanələrindən birinə cavab verilmişdir. Onlar əsatir və nağıllarda olduğu kimi, Allahın və mələklərin buludların arasından enib onları haqqa dəvət edəcəklərini gözləyirdilər. Yəhudi əsatirlərində də bəzən Allahın buludlar arasında göründüyü qeyd edilmişdir. Quranda onlara belə cavab verilir: Mələklər bir gün onlar üçün enəcək. Ancaq həmin gün onların cəza və əzab günü olacaq. Həmin gün onların xülyalarına son qoyulacaq. Bəzi təfsirçilər hesab edirlər ki, göylərin parçalanması deyilərkən müşahidə aləminin aşkar olması, cəhalət və nadanlıq pərdəsinin kənara çəkilməsi, qeyb aləminin aşkara çıxması nəzərdə tutulur. İnsanlar həmin gün malik olduğu dərk və gözdən fərqli bir dərkə və gözə malik olacaq. Pərdələr kənara çəkiləcək və insanlar yuxarı aləmdən enməkdə olan mələkləri görəcəklər[1538].

27-28. Dostun insan həyatındakı rolu: 27-ci ayədə: ***"Kaş ki, mən Peyğəmbərlə eyni yolu tutaydım!"***, sonrakı ayədə isə: ***"Kaş ki, filankəslə dost olmayaydım!"***, - deyə buyurulmuşdur. Yəni bütün bədbəxtliyimə səbəb

---

[1538] Nümunə, c.15, səh.64

Peyğəmbərlə (s) əlaqəni kəsməyim, azğın insanla dostluq etməyimdir[1539]. Bu ayələrdən məlum olur ki, haqq yoldan azmışların azmasının səbəbi ehtiraspərəstlər və şeytanın dostları ilə dostluq etmələridir. Təcrübə də bu həqiqəti təsdiq edir[1540]. İnsan istər-istəməz təsirə məruz qalan varlıqdır, fikirlərinin mühüm hissəsini dostluq etdiyi insanların düşüncə tərzi təşkil edir. Təsirə məruz qalma məsələsi haqqında İmam Əli (ə) belə buyurmuşdur: ***"Əgər kiminsə vəziyyəti sizdə şübhə doğursa və onun hansı dinə qulluq etdiyini bilməsəniz, dostlarına baxın. Əgər dostları Allah dininin davamçıları olsalar, deməli, o da Allah dinində olan adamadır, yox əgər Allah dininin davamçıları olmasalar, deməli o da Allah dinində deyil."*** Doğrusu, dostun insanın xoşbəxtlik və bədbəxtliyindəki rolu bütün amillərdən böyük olur. Bəzən dost insanı məhvə sürükləyir, bəzən fəxr zirvəzinə yüksəldir. İmam Cavad (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Sıyrılmış qılınc kimi, zahiri gözəl, təsiri isə çox acınacaqlı olan pis insanla yoldaşlıq etməkdən çəkin!"***[1541]

30. İnsanlar Quranı tərk ediblər: Bu ayədə İslam peyğəmbərinin (s) kafirlərin Quranla davranış qaydasından şikayəti və narahatlığından danışılır. Bu şikayətin şamil olduğu insanlar bu gün də mövcuddur. Müsəlmanların bir çoxu həyat rəmzi, xilas vasitəsi, qələbə, hərəkət, tərəqqi amili və həyat proqramları ilə dolu olan Quranı bir kənara qoyub, hətta mülki və cəza qanunları üçün də başqalarının tərtib etdiyi qanunlara müraciət etmişlər. Əgər İslam ölkələrinin çoxuna, xüsusilə Şərq və Qərb mədəniyyətinin hökmranlığı altında olan müsəlman ölkələrinə baxsaq, Quranın onlar arasında formal bir rituala çevrildiyinin şahid olarıq. Quran

---

[1539] Nümunə, c.15, səh.71
[1540] Əl-Mizan, c.15, səh.204
[1541] Nümunə, c.15, səh.72

yalnız gözəl səslərlə oxunur, ayələri məscidlərin divarlarına yazılır, açılış mərasimlərində oxunur, səfərdə olanların qorunması, xəstələrin şəfa tapması, maksimum dərəcədə oxunuş savabına nail olmaq üçün istifadə edilir. Bəzi İslam ölkələrində Quranın oxunması və əzbərlənməsi dərnəkləri təşkil edilmişdir. Çoxlu sayda oğlan və qızlar Quranı oxumaq və əzbərləməklə məşğuldurlar. Ancaq fikir və qanunlara gəldikdə, bunlar əcnəbilərdən alınır. Elə bu gün də Peyğəmbər (s) yüksək səslə bunları deməkdədir: ***"Ey Rəbbim! Qövmüm Quranı tərk edib!"***[1542]

[1542] Nümunə, c.15, səh.76

33. Onlar sənin yanına gəlib elə bir məsəl çəkməzlər ki, (onlara qarşı cavab olaraq) Biz sənə haqqı və ən yaxşı yozumu verməyək.

34. Üzləri üstə Cəhənnəmə doğru toplanılacaq kimsələrin yeri ən pis yerdir və onlar haqq yoldan ən çox azan kimsələrdir.

35. Biz Musaya kitab verdik və qardaşı Harunu da ona köməkçi etdik.

36. “Ayələrimizi yalan sayan bu tayfanın yanına gedin!” - dedik. (Ancaq onlar imtina etdilər). Sonra Biz onları ağrı-acı içində məhv etdk.

37. Biz Nuh qövmünü elçiləri yalançı saydıqları zaman suda batırdıq və onları insanlar üçün bir ibrət etdik. Biz zalımlar üçün sarsıdıcı bir əzab hazırlamışıq.

38. Biz Adı, Səmudu, Rəss əhlini (küknar ağacına sitayiş edənlər) və onların arasında olan bir çox nəsilləri də məhv etdik.

39. Biz onların hamısına misallar çəkdik və onların hamısını məhv etdik.

40. Onlar (Məkkə müşrikləri) bəla yağmuru düşmüş şəhərin yanından keçmişdilər. Məgər onlar onu görmürdülər? (Bəli, görürdülər, ancaq) onlar öldükdən sonra dirilməyə də inanmırlar.

41. Onlar səni gördükdə ancaq sənə lağ edir (və deyirlər:) “Budurmu Allahın elçi göndərdiyi kəs?

42. Əgər biz tanrılarımıza tapınmaqda qətiyyətli olmasaydıq, az qala o, bizi azdıracaqdı”. Onlar əzabı gördükləri zaman dərhal kimin haqq yoldan daha çox azdığını anlayacaqlar.

43. Nəfsinin istəyini ilahiləşdirən kimsəni gördünmü? Sən onu haqq yola yönəldə biləcəksənmi (və ya onu müdafiə edə biləcəksənmi)?

-

38. Rəss əhalisi: İmam Əlinin (ə) Rəss əhalisi ilə bağlı böyük bir hədisi var. Hədisin xülasəsi belədir: Onlar “Şaha ağac” adlandırdıqları Sənubər (küknar) ağacına sitayiş edən bir qövm idi. Qövmün Rəss çayı sahilində on iki abad şəhəri var idi. Həmin şəhərlər bunlardır: “Aban, Azər, Di, Bəhmən, İsfənd, Fərvərdin, Ordibehişt, Xordad, Mordad, Tir, Mehr, Şəhrivər”. Əcəmlər öz aylarını da bu şəhərlərin adları ilə adlandırıblar. Rəss əhalisi küknar ağacına hörmət əlaməti olaraq onun toxumlarını ayrı-ayrı yerlərdə əkir və suvarmaq üçün çaydan onların dibinə arxlar çəkirdilər. Həmin sudan kimsə içsəydi, onu qətlə yetirib deyərdilər: Bu Allahların həyat mənbəyidir, onu azaltmağa kiminsə haqqı çatmır. Onlar hər ayın bir gününü bir şəhərdə bayram təşkil edir, şəhərin kənarında olan küknar ağacının yanına gedib ona qurban kəsir, başı kəsilmiş heyvanın bədənini oda atırdılar. Tüstü göylərə qalxdığında səcdəyə qapanıb ah-nalə etməyə başlayırdılar. Bu ənənə bütün şəhərlərdə davam etdirilirdi. Nəhayət bir gün növbə İsfəndiyarın şahlıq etdiyi paytaxt şəhərə çatdı. Bütün kəndlərin əhalisi şəhərə toplaşdı. On iki gün ardıcıl bayram təşkil edildi, imkanları çatan hər şeyi qurban etdilər. Ağacın qarşısında səcdə etdilər. Beləcə, küfr və ağaca sitayiş girdabında qərq olduqları vaxt Allah onlara İsrail oğullarından bir peyğəmbər göndərdi. Peyğəmbər onları tək olan Allaha ibadət etməyə, şirkdən əl çəkməyə çağırdı. Ancaq onlar iman gətirmədilər. Peyğəmbər də onların ibadət etdiyi ağacı nifrin etdi. Ağac qurudu. Hadisədən narahat olan camaat peyğəmbəri öldürmək qərarına gəldi. Dərin bir quyu qazıb onu həmin quyuya atdılar, ağzını da bağladılar. Üstündə əyləşib canını tapşırana qədər etdiyi ah-naləyə qulaq asdılar. Bu əməllərinə görə Allah onlara şiddətli bir əzab göndərib son adamlarına qədər məhv etdi. Hədislərdə qeyd

edilənlərə görə, bu qövmün qadınları da yollarını azıb homoskesuallıqla məşğul idilər[1543].

43. Nəfsani istəklərə və ehtiraslara pərəstiş etmək təhlükəli bəladır: İnsanda müxtəlif instinktlər və meyllərin, insanın özünə, maddi həyata sevgisi, qəzəb və sair xüsusiyyətlərin olması danılmazdır. Bütün bunlar, əslində, həyatın davamı üçün zəruridir. Allah-taala bunların hamısını insanın kamilləşməsində rol oynayan vasitələr olaraq yaratmışdır. Lakin bəzən bu instinktlər həddi aşır, ağılı özünə müti edir, hətta onu həbs edib, insanın bütün varlığına hakim kəsilir, ixtiyar və azadlığını əlindən alır. Bu, hər növ bütpərəstlikdən təhlükəli olan ehtiras və nəfspərəstlikdir. Hətta bütpərəstliyin də ondan qaynaqlandığını deyə bilərik. Buna görə də hədislərinin birində Peyğəmbərin (s) ***"Göylər altında itaət edilən ehtiras və nəfsdən böyük büt yoxdur"***, - deyə buyurması da səbəbsiz deyil. Hədislərdə bu məsələ ilə bağlı çox təkanverici ifadələr işləndiyinin şahidi oluruq. İmam Əli (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Ehtiraspərəstliklə nə din bir araya gələr, nə ağıl".*** Bəzən elə olur ki, insan nəfspərəstlikdən aldığı zərbənin acısını ömrünün sonuna qədər çəkir. Bəzən də elə olur ki, nəfspərəstliyi tərk etməsi nəticəsində Allah bəndəsi adi yollarla mümkün olmayan çox yüksək məqamlara ucalır[1544].

[1543] Əl-Mizan, c.15, səh.215
[1544] Nümunə, c.15, səh.103

44. Yoxsa onların çoxunun eşidib anlayacağınımı güman edirsən? Onlar heyvan kimidirlər, bəlkə daha da azğındırlar.

45. Məgər Rəbbinin kölgəni necə uzatdığını görmürsənmi? Əgər O, istəsəydi, onu hərəkətsiz halda saxlayardı. Sonra Biz günəşi onun varlığının göstəricisi etdik.

46. Sonra o kölgəni yavaş-yavaş yekunlaşdırır.

47. Sizin üçün gecəni libas, yuxunu rahatlıq, gündüzü də həyat və fəaliyyət vasitəsi edən Odur.

48. Külәkləri Öz rəhmətindən qabaq müjdəçi olaraq göndərən Odur. Biz göydən təmizləyici və pakedici su endirdik ki,

49. onunla ölü bir diyarı canlandıraq, yaratdığımız neçə-neçə heyvanlara və necə-neçə insanlara ondan içirdək.

50. Xatırlamaları üçün bu ayələri onlara müxtəlif formalarda bəyan etdik. Lakin insanların çoxu küfrdən başqa hər şeydən imtina edir.

51. Əgər istəsəydik, hər bir kəndə və şəhərə bir qorxudan göndərərdik (ancaq buna lüzum yoxdur).

52. Buna görə sən kafirlərə baş əymə və onlara qarşı bunun (Quran) vasitəsilə böyük bir cihad et!

53. Birinin suyu dadlı və şirin, digərininki isə duzlu və acı olan iki dənizi qovuşduraraq aralarında maneə və keçilməz sədd qoyan Odur.

54. Sudan insan yaradan, ona qan qohumları və sonradan qohum olanları bəxş edən Odur. Rəbbin hər zaman qadirdir.

55. Onlar Allahı qoyub özlərinə nə xeyir, nə də zərər verə bilməyənlərə sitayiş edirlər. Kafir Rəblərinə qarşı bir-birlərinə arxa dururlar.

45-46. Kölgələrin hərəkəti: Bu ayələrdə kölgə nemətindən söhbət açılır. Şübhəsiz ki, ayənin ***"Məgər Rəbbinin kölgəni necə uzatdığını görmürsənmi?"***, - deyə buyurulan ilk hissəsində uzun və hərəkətdə olan, bir vəziyyətdə qalmayan, daim hərəkət edən və yerini dəyişən kölgə nemətinin əhəmiyyətinə işarə edilmişdir[1545]. Ayələrin məzmunundan belə başa düşülür ki, kölgələrin uzanması deyilərkən günortadan sonraya təsadüf edən, qərb tərəfdən başqlayaraq şərqə doğru uzanan, günəş qüruba çatdığında yox olan

[1545] Nümunə, c.15, səh.110

kölgə nəzərdə tutulur. Günəş qürub etdikdə bu uzanma başa çatır və gecə başlayır. Sözügedən kölgə hər zaman hərəkətdədir. Əgər Allah istəsəydi, onu sabit saxlayardı[1546]. Allah-taala sonra günəşi bu kölgənin varlığının göstəricisi etdiyini buyurur. Yəni Allah demək istəyir ki, əgər günəş olmasaydı, kölgə anlayışı aydın olmazdı. 46-cı ayədə kölgə neməti ilə yanaşı başqa bir böyük nemətə işarə edilmişdir. Bu nemət kölgələrin tədricən yekunlaşmasıdır. Əgər işıqdan qaranlığa və əksinə keçid qəfildən baş versəydi, bütün mövcudata zərər dəyərdi. Lakin bu keçmənin tədricən baş verməsi mövcudat aləmi üçün heç bir zərər vermədən böyük xeyirlər verir[1547].

51. Vahid rəhbərlik: Peyğəmbərlər ümmətlərin rəhbərləridirlər. Rəhbər mövzusunda təfriqə ümmətlərin zəifləməsinə səbəb olur. Dövrümüzdə, yəni peyğəmbərliyin sona yetdiyi, dünyanın sonuna qədər rəhbərlyin davam etməsinin zəruri olduğu bir şəraitdə mərkəzləşmə və vəhdət əhəmiyyəti özünü daha qabarıq şəkildə göstərir. Vahid rəhbər bütün qüvvələri bir yerə toplaya və onlara vahid bir proqram təqdim edə blər. Vahid rəhbərlik tövhid həqiqətinin insan cəmiyyətinə yansıdığını göstərir. Bunun əksi isə artıq bir növ şirk, təfriqə və nifaq deməkdir. Peyğəmbərlik məqamını keçdikdən sonra rəhbərliyin aşağı səviyyələrinə də bu prinsip hakim olmalıdır. Rəhbər sarıdan təfriqəyə məruz qalmış xalqlar zəifləməklə yanaşı, həyatlarının bütün sahələrində parçalanmaya düçar olmuşlar[1548].

53. Birinin suyu şirin, digərinin suyu şor olan iki dənizin bir yerdə qərarlaşması: Bu ayədə Allahın bu dünyadakı qüdrətinin heyrətamiz təzahüründən, birinin suyu şor, digərininki şirin olan iki dəniz arasında

---

[1546] Əl-Mizan, c.15, səh.224
[1547] Nümunə, c.15, səh.112
[1548] Nümunə, c.15, səh.129

görünməz pərdə çəkərək bir-birinə qarışmağa qoymamasından danışılır. Əlbəttə, bu gün biz artıq bilirik ki, bu iki dənizi bir-birinə qarışmağa qoymayan görünməz pərdə şor və şirin suyun qatılığı və onların hər birinin özünəməxsus çəkiyə malik olmasıdır. Bu amillər onların uzun müddət bir-birinə qarışmasına imkan vermir. Bəzi təfsirçilər ayədə işarə edilən iki dənizi tapmaq üçün yer kürəsinə uzun-uzadı səyahətə çıxmışlar. Ancaq bu problem bizim üçün öz həllini tapmış məsələlərdəndir. Çünki dənizlərə tökülən bütün şirin sulu çaylar sahilə yaxın ərazidə şirin sudan ibarət bir dəniz zonası yaradır və şor suyu kənara itələyirlər. Bu vəziyyət uzaq məsafələrə qədər davam edir. Qatılıq dərəcəsndəki fərqlilikdən asılı olaraq bir-birinə qarışmırlar[1549].

[1549] Nümunə, c.15, səh.123

56. Biz səni ancaq müjdə verən və qorxudan kimi göndərdik.

57. De: “Mən bunun (Allah dinini yaymağın) əvəzinə sizdən heç bir mükafat istəmirəm. Təkcə onu istəyirəm ki, insanlar Rəbbinə tərəf aparan bir yol tutsunlar”.

58. Ölməz, (əbədi) yaşayana təvəkkül et və Onu həmd-səna ilə təriflə. Onun Öz qullarının günahlarından agah olması kifayətdir.

59. Göyləri, yeri və onların arasındakıları altı gündə yaradan, sonra da Ərş üzərində qərarlaşan (Allah) Rəhmandır. Ondan istə ki, hər şeydən xəbərdardır!

60. Onlara: “Rəhman Allaha səcdə edin!” – deyildikdə: “Rəhman nədir? Məgər bizə əmr etdiyin şeyə səcdə etməliyik?” – deyərlər. (Bu sözü deyərlər və) nifrətləri daha da artar.

61. Səmada bürclər qoyan və orada yanan çıraq və işıq saçan bir ay yaradan (Allah) əbədi və bərəkətlidir.

62. Yada salmaq və ya şükür etmək istəyənlər üçün gecə ilə gündüzü bir-birinin ardınca gətirən Odur.

63. Rəhmanın qulları o kəslərdir ki, yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara (xoşagəlməz) bir söz dedikdə: “Salam!” - deyərlər.

64. Onlar gecələrini Rəbləri üçün səcdədə və qiyamda keçirərlər.

65. Onlar deyərlər: “Ey Rəbbimiz! Cəhənnəm əzabını bizdən uzaq et ki, onun əzabı ağır və davamlıdır.

66. Həqiqətən, o, pis məskən və pis iqamətgahdır!”

67. Onlar Allah yolunda xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bunların arasında orta bir yol tutarlar.

---

62. Gecə ilə gündüzün bir-birini əvəzləməsi şükür edənlər üçün bir nemətdir: Bu ayənin təfsirini ehtiva edən bəzi Əhli-beyt (ə) hədislərində belə qeyd edilir: Gecə ilə gündüzün bir-birini əvəzləməsi ona görədir ki, əgər insan bu vaxtların birində Allaha bəndəlik zamanı üzərinə düşən vəzifələrdən hər hansı birinin icrasında laqeydlik edərsə, digərinin vaxtında onun əvəzini yerinə yetirsin. İmam Sadiq (ə) hədislərinin birində belə buyurmuşdur: ***“Gecə hər hansı ibadəti yerinə yetirməsən, gündüz onun qəzasını yerinə yetir. Allah-taala “Gecə ilə gündüzü bir-birinin ardınca gətirən”, - deyə buyurmuşdur. Yəni insan gecə yerinə yetirə bimədiyi vəzifəsini gündüz, gündüz yerinə yetirə bilmədyini isə gecə yerinə yetirsin.”***[1550]

63. Təvazökarlıq imanın açarıdır: Allah bəndəsinin brinci əlaməti özünü onun bütün əməllərində, hətta yol yeriməsində belə göstərən təvazökarlıqdır. Etik vərdişlər özünü hər zaman insanın əməllərində, danışığında və hərəkətlərində göstərir. İnsanın hətta yol yerimə formasından

[1550] Nümunə, c.15, səh.145

onun əxlaqi keyfiyyətlərinin bəzi cəhətlərini müəyyən etmək olar. Bəli, təvazökarlıq imanın açarıdır. Təkəbbür və qürur isə küfrün açarı hesab edilir. Gündəlik həyatımızda müşahidə etdiyimiz, eyni zamanda Quran ayələrindən də oxuduğumuz kimi, təkəbbürlü insanların Allahın təyin etdiyi rəhbərlərin sözlərinə qulaq asmaq istəmədiklərinin, gerçəkləri məsxərəyə qoyduqlarının, halbuki burunlarının ucundan o tərəfi görmədiklərinin şahidi oluruq. Deyilənə görə, Peyğəmbər (s) küçələrin birindən keçərkən bir qrup insanın bir yerdə toplaşdığını görür. Bunun səbəbini soruşduqda onlar deyirlər: Bir dəli var, gülməli davranışları ilə hər kəsin diqqətini özünə cəlb edib. Peyğəmbər (s) onları yanına çağırıb buyurur: ***"Əsl dəlinin kim olduğunu deməyimi istəyirsinizmi?"*** Hər kəs susur və bütün varlığı ilə qulaq asır. Peyğəmbər (s) buyurur: ***"Əsl dəli təkəbbürlə yol yeriyən, elə hey o tərəf - bu tərəfə baxan, böyürlərini çiyinləri ilə hərəkət etdirən, insanların xeyrinə ümid bəsləmədikləri, şərindən əmin olmadıqları şəxsdir. Belə bir adam görsəniz, (bilin ki, o) xəstədir.", - deyə buyurur"***[1551].

64. Gecəni oyaq qalmaq möminin şərəfidir: Bu ayədə Allah bəndələrinin başqa bir xüsusiyyətnə, yəni gecəni oyaq qalmağa işarə edilmişdir. Onlar qafillərin gözlərinin yuxuda olduğu, riya və özünü göstərməyə heç bir imkan olmadığı vaxt yuxunu özlərinə haram edən, Allahı xatırlayan, Onun əzəməti qarşısında qiyam və səcdə edirlər. Hədislərdə də gecəni oyaq qalmaq və gecə namazının fəzilətləri haqqında çox məlumat verilmişdir. İmam Əli (ə) buyurmuşdur: ***"Gecəni oyaq qalmaq bədənin sağlamlığına, Allahın razılığına, ilahi rəhmətin bəndəyə şamil olmasına və onun peyğəmbərlərin əxlaqını mənimsəməsinə səbəb olur."*** İmam Sadiq

[1551] Nümunə, c.15, səh.150

(ə) buyurmuşdur: ***"Gecə oyaq qalmaqdan əl çəkmə. Çünki bu əməldən məhrum olan şəxs ziyana uğramışdır."***[1552]

[1552] Nümunə, c.12, səh.227

68. Onlar Allahla yanaşı başqa tanrını çağırmaz, Allahın haram etdiyi cana haqsız yerə qıymaz və zina etməzlər. Bunu edən şəxs şiddətl əzaba düçar olar.

69. Qiyamət günü onun əzabı qat-qat artırılar və onun içində xar olub əbədi qalar.

70. Ancaq tövbə edib iman gətirən və saleh əməllər edənlər istisnadır. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər. Allah bağışlayandır, rəhmlidir!

71. Tövbə edib yaxşı iş görən şəxs Allaha doğru qayıtmış olar.

72. Onlar yalandan şahidlik etməz, lağlağı məclisinə rast gəldikdə (oradan) alicənablıqla ötüb keçərlər.

73. Onlara Rəblərinin ayələri xatırlandığı zaman o ayələrə qarşı kar və kor kimi davranmazlar.

74. Onlar deyərlər: “Ey Rəbbimiz! Həyat yoldaşlarımızı və övladlarımızı gözlərimizin aydınlıq səbəbi et və bizi müttəqilərə imam et!”

75. Onlar səbr etdiklərinə görə Cənnətin yüksək dərəcələri ilə mükafatlandırılacaq, orada xeyir-dua ilə, salamla qarşılanacaqlar.

76. Onlar orada əbədi qalacaqlar. Ora nə gözəl məskən, necə də gözəl iqamətgahdır!

77. De: “Əgər dua və çağırışınız olmasaydı, Rəbbim sizə diqqət yetirməzdi. Siz (Allahın ayələrni və peyğəmbərləri) yalan saydınız. Ona görə də (əzab sizi) rahat buraxmayacaqdır!”

---

70. Günahların yaxşı əməllərlə əvəzlənməsi: Bu ayədə tövbənin mühüm təsirlərindən birinə və Allahın tövbə edən şəxsə olan xüsusi diqqətinə işarə edilmişdir. Belə ki, günahkar şəxs tövbə etdikdən sonra Allah lütf və mərhəmət göstərib onun günahlarını silir, əvəzinə yaxşı əməllər yazır. Əbuzərin Peyğəmbərə (s) istinad etdiyi bir hədisdə belə deyilir: ***"Qiyamət günü bəzi insanları Allahın hüzuruna gətirərlər. Kiçik günahlarını ona göstərib böyük günahlarını gizlədərlər. Sonra onlara "Filan vaxt flan yerdə filan (kiçik) günahı etmisən" deyilər. Onlar etiraf edərlər, inkar etməzlər, ancaq ürəklərində böyük günahlarına görə bərk qorxu keçirərlər. Bu vaxt əgər Allah həmin şəxslərə mərhəmət göstərmək istəyərsə, etdikləri günahların əvəzinə ona savab yazılmasını göstəriş verər. Həmin şəxslər deyərlər: "İlahi, biz böyük günahlar etmişik, onları burada görmürük".*** Əbuzər sonra belə qeyd edir: Bu vaxt Peyğəmbər (s) gülümsədi, hətta dişləri göründü. Sonra bu ayəni oxudu: "Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər"[1553].

74. Həyat yoldaşlarıızı və övladlarımızı gözlərimizin aydınlıq səbəbi et: Allah bəndələrinin xüsusiyyətlərindən biri budur ki, övladlarının və ailələrinin tərbiyəsinə xüsusi diqqət yetirər, onlar qarşısında çox böyük məsuliyyət daşıdıqlarını düşünərlər. Əlbəttə, burada təkcə bir küncdə oturub dua etmək nəzərdə tutulmamışdır. Əslində, dua onların bu işə istək və şövqünü, bu yolda olan səy və tələşlarını göstərir. Şübhəsiz ki, bu cür şəxslər övladlarının və ailələrinin tərbiyəsində, onların İslamın əsas prinsipləri və əməli hökmləri ilə tanış olmasında, haqq-ədalət yolunu tutmalarında əllərindən gələni əsirgəmirlər. Allahın bu xalis bəndələrinin ən parlaq addımlarından biri də budur ki, onlar haqq yolunda tək-tənha addımlamaqla

---

[1553] Nümunə, c.15, səh.160

kifayətlənməyb, möminlərin öndəri və rəhbəri də olmağa səy göstərir, başqalarını da bu yola çağırmağa səy göstərirlər. Yaddan çıxarmaq olmaz ki, bu ayələr bütün möminlərin deyil, öndə gedən möminlərin xüsusiyyətlərini bəyan edir. Onlar insan cəmiyyətinin və təqvalı insanların özərinə örnək hesab etdiklər şəxslərdir. Buna görə də hədislərdə bu ayənin İmam Əli (ə) və Əhl-beyt (ə) imamları haqqında nazil olduğunu görürük. Heç bir şübhə yoxdur ki, sözügedən məsumlar bu ayələrin ən parlaq nümayəndələridirlər. Bu isə ayənin ümumi məzmununa xələl gətirmir[1554].

77. Əgər duanız omasaydı, qiymətiniz olmazdı: Bu ayəni gördükdən sonra bəziləri belə hesab edə bilər ki, dua etmək asan işdir, hər kəs bunu bacarar, hətta duanın çarəsizlərin işi olduğunu da düşünə bilər. Bu cür düşünən insanların səhvi ondadır ki, onlar duanın şərtlərini unudurlar. Çünki duanın şərtləri nəzərə alınarsa, insanın özünü düzəltməsində mühüm rol oynadığı, insanla Allah arasında arasında birləşdirici vasitə olduğu ortaya çıxar. Hədislərinin birində Peyğəmbər (s) buyurmuşdur: ***"Dua möminin silahı, dinin sütunu, göylərin və yerin nurudur."*** Duanın birinci şərti insanın çağırdığı, dua etdiyi şəxsi tanımasıdır. İkinci şərt insanın öz ruhunu istəklərə hazır etməsidir. Üçüncü şərt çağırdığı şəxsin çağırandan razı olmasıdır. Çünki duanın təsirli olacağı ehtimalı çox aşağıdır. Dördüncü şərt insanın bütün gücünü səfərbər etməsidir. İnsan duaya bütün güc və qüvvəsini səfərbər etdiyi zaman dua etməlidir. Hədislərdə açıq şəkildə qeyd edilir ki, insan edə biləcəyi işdə səhlənkarlıq edib duadan yapışarsa, duası qəbul olunmaz. İmam Əli (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Dua***

[1554] Nümunə, c.15, səh.167

qələbə və xilasın açarıdır. Ən yaxşı dua təqvalı insanın pak köksündən və qəlbindən qalxan duadır.”[1555]

"Şüəra" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ta, Sin, Mim.
2. Bunlar açıq-aydın Kitabın ayələridir.

[1555] Nümunə, c.15, səh.174

3. Onlar iman gətirmədiyinə görə, görünür, qəm-qüssədən özünü həlak etmək istəyirsən.

4. Əgər Biz istəsək, göydən onlara elə bir əlamət göndərərik ki, onun önündə başları itaətkarlıqla əyilər.

5. Rəhman Allahdan onlara elə bir ayə gəlməz ki, ondan üz çevirməsinlər.

6. Onlar yalan saydılar. Məsxərəyə qoyduqlarının (cəza) xəbəri onlara yetişəcəkdir.

7. Onlar yer üzündə cürbəcür qiymətli bitkilər bitirdiyimizi görmürlərmi?

8. Bunda (Allahın varlığını göstərən) açıq-aydın bir əlamət vardır. Lakin onların əksəriyyəti mömin olmadı.

9. Sənin Rəbbin yenilməz qüvvət sahibi, mərhəmətlidir.

10. Bir zaman Rəbbin Musaya dedi: “Get o zalım qövmün –

11. Firon xalqının yanına! Onlar (Allahın əmrinə qarşı çıxmaqdan) qorxmurlar?”

12. (Musa) dedi: “Ey Rəbbim! Qorxuram ki, onlar məni yalançı hesab edələr,

13. (belə olduqda) hövsələdən çıxam, dilim də söz tutmaya. Buna görə Haruna da peyğəmbərlik ver.

14. Onların məndən əvəzini çıxmaq istədikləri bir günahım da var. Buna görə məni öldürəcəklərindən qorxuram”.

15. Buyurdu: “Xeyr, belə deyil! (Onlar heç nə edə bilməzlər.) İkiniz də ayələrimizlə (onları doğru yola yönəltmək üçün) gedin! Biz sizinləyik və eşidirik.

16. Fironun yanına gedib deyin: “Biz aləmlərin Rəbbinin elçiləriyik!

17. İsrail oğullarını bizimlə göndər!”

18. (Firon) dedi: “Biz səni körpə ikən öz içimizdə boya-başa çatdırmadıqmı? Sən ömrünün bəzi illərini bizimlə yaşamadınmı?

19. Sonda (etməli olmayacağın) o işi gördün, (bizlərdən birini öldürdün) sən bir nankorsan!”

“Şüəra” surəsinin ümumi məzmunu: Bu surənin məzmununu bir neçə bölmə üzrə ümumiləşdirmək olar: 1. Surə müqəttəə hərfləri ilə başlayır. Sonra Quranın əzəmətindən danışılır, ardınca müşriklərin təzyiqləri və dərrakəsizliyi qarşısında Peyğəmbərə (s) təsəlli verilir, tövhid və Allahın atributlarına ötəri şəkildə işarə edilir. 2. Yeddi böyük peyğəmbərin (Musa, İbrahim, Nuh, Hud, Saleh, Lut və Şeyb) həyatının bəzi fraqmentləri qeyd edilir, onların Peyğəmbər (s) dövrünün müşrikləri ilə bənzərliyi olan inadkarlar və dərrakəsizlərlə mübarizəsindən sitatlar gətirilir, onlara göndərilmiş şiddətli, ağır və qorxulu əzab və bəlalar xatırlanır, bununla da İslam peyğəmbərinə qarşı çıxanlar təhdid edilir. 3. Üçüncü hissə əvvəlki bölmələrin nəticəsi xarakterini daşıyır. Burada İslam peyğəmbəri, Quranın əzəməti, müşriklərin təkzibləri, dəvət metodu və möminlərlə necə davranılması mövzusunda Peyğəmbərə verilən göstərişlərdən söhbət açılır. Surə möminlərə müjdə verilməsi, kafirlərin isə təhdid edilməsi ilə sona çatır[1556].

4. Məcburi imanın heç bir dəyəri yoxdur: Bu ayədə bildirlir ki, Allah-taala elə bir möcüzə və kafirlərə elə bir qorxulu əzab göndərə bilər ki, hamı bir nəfər kimi Onun qarşısında təzim edər, itaət göstərər. Ancaq bu imanın Allah üçün heç bir dəyəri yoxdur. Dəyər insanların haqq qarşısında öz

---

[1556] Nümunə, c.15, səh.179

iradəsi, istəyi, qərarı, düşüncə və dərki ilə təvazökarlıq göstərməsindədir. İmam Əli (ə) bu ayə haqqında belə buyurmuşdur: ***"Əgər Allah istəsəydi, göydən bir əlamət göndərərdi və başlar onun qarşısında itaətkarlıqla təzim edərdi. Əgər belə etsəydi, insanlar üçün sınaq anlayışı tamamilə aradan qalxardı"***. İmam Sadiq (ə) bu ayəni izah edərkən belə buyurmuşdur: ***"Həddi aşanlar deyilərkən Əməvi sülaləsi nəzərdə tutulur. Mehdi (ə) qiyam etdiyi vaxt onlar göydə bir əlamət görüb təslim olacaqlar."*** Məlumdur ki, bu hədis ayənin daha geniş məzmununun bir hissəsinə işarə edir. Belə ki, həzrət Mehdi (ə) zühur etdikdən və bütün dünyanın hakimi olduqdan sonra Əməvi yolunu davam etdirən bütün zülmkar hökumətlər Mehdinin (ə) qüdrəti qarşısında təslim olacaq[1557].

13. Musanın (ə) dilində qüsur var idimi? Quranın bir neçə yerində həzrət Musanın (ə) peyğəmbərliyə seçilməsindən, Allahın əmrinin Firon tərəfdarlarına çatdırılmasından danışılarkən həzrət Musanın (ə) dlində düyün olması, buna görə də Allahdan dilindəki düyünü açmasını istəməsi vurğulanır. Görəsən düyün deyiləkən nə nəzərdə tutulur? Doğurdanmı Musanın (ə) dilində qüsur var idi və danışarkən bəzən dili dolaşırdı? Yoxsa Musa (ə) həqiqəti söyləmək üçün rəvan bəyan tərzi, həqiqəti insanlara başa salmaq aydın, səlis, güclü və kəsərli nitq stəyirdi? Böyük ehtimalla ikinci fikr düzgündür. Çünk Harunun vəzir olmasını istəyərkən onun daha fəsahətli olduğunu əsas gətirir: ***"Məndən daha fəsahətli olan qardaşım Harunu yardımçı və köməkçi olmaq üçün mənimlə birlikdə göndər"***[1558]. Deməli, Musa (ə) fəsih olsa da, Harun ondan daha fəsahətli idi. Buna görə də Musa (ə) Allahdan daha fəsahətli olmasını, Harunu isə onun vəzir və köməkçisi etməsini istəmişdir.

[1557] Nümunə, c.15, səh.185-188
[1558] Mənşuri cavid, c.12, səh.69

20. (Musa) dedi: “Mən onu edəndə xəbərsiz olmuşam.

21. Mən sizdən qorxduğum üçün yanınızdan qaçıb getdim. Amma sonradan Rəbbim mənə elm və hikmət bəxş etdi və məni peyğəmbərlərdən etdi.

22. İsrail oğullarını özünə kölə etməyini mənə minnətmi qoyursan?

23. Firon dedi: “Aləmlərin Rəbbi nədir?”

24. (Musa) dedi: “Əgər ağlınız və şüurunuz varsa, (bilin ki,) O, göylərin, yerin və onların arasında olanların Rəbbidir!”

25. Firon ətrafındakılara dedi: “(Onun nə danışdığını) eşitmirsiniz?”

26. (Musa) dedi: “O sizin də, ulu babalarınızın da Rəbbidir!”

27. (Firon) dedi: “Sizə göndərilmiş elçi, sözsüz ki, dəlidir!”

28. (Musa) dedi: “Əgər ağlınızı işə salsanız, (bilərsniz ki,) O, şərqin, qərbin və bunların arasında olanların Rəbbidir!”

29. (Firon qəzəblənib) dedi: “Əgər məndən başqasını tanrı qəbul etsən, səni həbsə ataram!”

30. (Musa) dedi: “Bəs sənə açıq-aşkar bir şey göstərsəm də (iman gətirməzsən)?”

31. (Firon) dedi: “Əgər doğru danışırsansa, göstər onu!”

32. Bu vaxt Musa əsasını (yerə) atdı, o da dərhal dönüb açıq-aşkar böyük bir ilana çevrildi.

33. Əlini (qoynundan) çıxardan kimi baxanların gözləri önündə bəmbəyaz və parlaq oldu.

34. (Firon) ətrafındakı zadəganlara dedi: “Bu, bilikli və məharətli bir sehrbazdır!

35. O öz sehri ilə sizi torpağınızdan çıxartmaq istəyir. Nə təklif edirsiniz?”

36. Dedilər: “Ona və qardaşına möhlət ver və səfərbərlik üçün şəhərlərə məmurlar göndər,

37. bütün bilikli və mahir sehrbazları yanına gətirsinlər”.

38. Nəhayət, sehrbazlar bəlli bir günün müəyyən edilmiş vaxtında toplandılar.

39. Camaata deyildi: “Siz də yığışmırsınızmı?”

---

20. Musa (ə) nədən xəbərsiz olub? Həzrət Musa (ə) məsum olduğu üçün təfsirçilər bu ayə ilə bağlı müxtəlif fikirlər irəli sürmüşlər. Bu fikirlər arasında ən düzü isə budur: Musa (ə) “Xəbərsiz idim” deyərkən demək istəyir ki, mən o adamı öldürərkən xeyrimə olan nəticədən xəbərsiz olmuşam. Belə ki, məndən yardım istəyən adama kömək edərkən, edəcəyim köməyin başqa bir nəfərin ölümü ilə nəticələnəcəyindən, buna görə də

Mənim Misiri tərk edib Mədyənə gedəcəyimdən, uzun illər vətəndən ayrı düşəcəyimdən xəbərsiz olmuşam[1559]. Əslində, Musa (ə) burada peşman olduğunu söyləmir. Çünki həmin vaxt zülmə məruz qalmış bir məzluma yardım göstərmişdir. Həzrət Musa (ə) burada demək istəyir ki, o iki nəfərin mübahisəsinə müdaxilə edərkən qəsdi Fironun adamını öldürmək olmamış, məzlumu müdafiə edərkən qarşı tərəfin ölümünə səbəb olacağından, nəticədə, başına iş açacağından xəbərsiz olmuşdur. Daha ətraflı məlumat almaq istəyənlər "Qəsəs" surəsinin 15-16-cı ayələrinin şərhinə baxa bilərlər.

22. İsrail oğullarının bəndəlik neməti: 18-19-cu ayələrdə qeyd edilir ki, Firon Musanı (ə) uşaq vaxtı etdiyi yaxşılıqların əvəzində nankorluq etməkdə ittiham edir. Əslində, Firon Musanı (ə) və İsrail oğullarını özünün köləsi hesab edir, Musaya etdiyi yaxşlığı köləsinə qarşı lütfkarlıq kimi qiymətləndirirdi. Həzrət Musa (ə) ona belə cavab verir: Sən İsrail oğullarını kölə etməyini boynuma minnət qoyursan? Sənin mənə qarşı lütfkarlıq hesab etdiyin və nankorluqda ittiham etdiyin nemət deyil, mənim və İsrail oğulları üzərindəki zorakı hökmranlığındır. Ümumiyyətlə, insanları zorla kölə etmək necə nemət ola bilər?[1560]

32. Musanın (ə) əsası ilə bağlı işlədilən müxtəlif ifadələr: Bu ayədə Musanın əsasının "səban"a (əjdahaya - böyük ilan), "Nəml" surəsinin 10-cu və 31-ci ayələrində "cann"a (cəld və sürətlə hərəkət edən kicik ilan), "Taha" surəsinin 20-ci ayəsində isə "həyyət"ə (ilan) çevrildiyi qeyd edilmişdir. Bu müxtəliflik sual doğurmaya bilməz. Əslində, burada elə də anlaşılmaz bir şey yoxdur. Bu fərqlilik iki aspektdən izah edilə bilər: 1. Ola bilsin ki, bu ifadələrlə həmin ilanın müxtəlif vəziyyətlərinə işarə edilmişdir. Yəni əsa ilk əvvəl kiçik və nazik bir liana çevrilmiş, yavaş-yavaş böyümüş, nəhayət

[1559] Əl-Mizan, c.15, səh.261
[1560] Əl-Mizan, c.15, səh.264

əjdaha şəkli almışdır. 2. Bu ifadələrin hər biri ilanın ayrı-ayrı xüsusiyyətlərini ifadə edir. Belə ki, “səban” onun böyüklüyünü, “cann” sürətini və çevikliyini, “həyyət” isə onun canlı olduğunu ifadə edir[1561].

[1561] Nümunə, c.15, səh.216

40. Əgər sehrbazlar qalib gəlsələr, onlara tabe olaq”.

41. Sehrbazlar gəldkdən sonra Firona dedilər: “Əgər qalib gəlsək, bizə mükafat veriləcəkmi?”

42. Dedi: “Bəli! Belə olacağı təqdirdə sizi yaxın adamlardan edəcəyəm”.

43. Musa sehrbazlara dedi: “Nə atacaqsınızsa, atın!”

44. Onlar iplərini və əsalarını yerə atıb dedilər: “Fironun qüdrətinə and olsun ki, biz mütləq, qalib gələcəyik!”

45. Sonra Musa əsasını atdı və (əsa) qəfildən onların bütün yalançı ləvazimatlarını uddu.

46. Sehrbazlar dərhal səcdəyə qapandılar

47. və dedilər: “Biz aləmlərin Rəbbinə iman gətirdik –

48. Musanın və Harunun Rəbbinə!”

49. (Firon) dedi: “Mən sizə izn verməmişdən əvvəl siz ona imanmı gətirdiniz? Şübhəsiz ki, o sizə sehr öyrədən böyüyünüzdür. Tezliklə biləcəksiniz! Mən sizin əllərinizi və ayaqlarınızı çarpaz kəsdirib hamınızı dara çəkdirəcəyəm”.

50. Dedilər: “Zərər yox, biz (onsuz da) öz Rəbbimizə qayıdacağıq.

51. Biz ilk iman gətirənlər olduğumuza görə Rəbbimizdən günahlarımızı bağışlayacağına ümidvarıq”.

52. Biz Musaya: “Gecə vaxtı bəndələrimi (Misirdən) apar. Çünki siz təqib olunacaqsınız” – deyə vəhy etdik.

53. Firon şəhərlərə səfərbərlik məmurları göndərdi.

54. Onlar, həqiqətən, kiçik bir dəstədir.

55. Onlar bizi qəzəbləndirmişlər.

56. Biz hamımız döyüşə hazırıq”.

57. Biz onları bağlardan və çeşmələrdən çıxartdıq;

58. xəzinələrdən və gözəl qəsrlərdən də.

59. Beləcə, Biz İsrail oğullarını onların varisi etdik.

60. Onlar İsrail oğullarını təqib etdilər, günəş üfüqdən qalxan vaxtı onlara çatdılar.

---

42. Yaxınlıq ən böyük mükafatdır: Firon sehrbazlardan: “Nə istəyirsiniz, mal, yoxsa vəzifə?” – deyə soruşur. Bu da onu göstərir ki, Fironun yaxın adamlarından olmaq o dövrün ən böyük mükafatlarından biri hesab edilmişdir. Əslində, insanın arzu etdiyi gücə yaxınlaşmasından böyük mükafat ola bilməz. Haqq yoldan sapmışlar Frona yaxın olmağı ən yüksək mükafatlardan hesab etdikləri kimi, Allahpərəstlər də Allaha yaxınlıqdan böyük mükafat olmadığını düşünürlər, hətta Cənnəti bütün nemətləri ilə birlikdə Onun pak zatının bir cilvəsinə dəyişirlər. Buna görə də ən böyük mükafata layiq görülməli olan şəhidlər etdikləri böyük fədakarlıq müqabilində ən böyük mükafat olan Allaha yaxınlıq mükafatına layiq görülürlər. “Rəblərinin yanında” ifadəsi bu həqiqəti açıq şəkildə ifadə edir. Təmizürəkli möminlər də ibadətlə məşğul olarkən fikirlərində tutduqları yeganə şey Allah-taalaya yaxın olmaqdır[1562].

47. İxtiyari iman işığında sevərək hərəkət etmək: Sehrbazların ruhunda baş verən dəyişiklik bir anın çində onların qatı zülmətdən göz qamaşdıran işığa çıxmasına, Frondan gözlədikləri bütün mənfəətlərdən imtina etməsinə, hətta canlarının belə təhlükəyə qarşısında qalmasına hazır

[1562] Nümunə, c.15, səh.222

olmalarına səbəb oldu. Bütün bu cəsarətli addımlar ona görə idi ki, onlar bilikli və savadlı adamlar idilər və bilikləri sayəsində haqqı batildən ayıra bldilər, nəticədə, haqqın tərəfinə keçdilər. Onlar yolun qalan hissəsini ağılla getmədilər, eşq yolunu qət edən minyə mindilər. Gülün qoxusu onları elə məst etmişdi ki, özlərini unutmuşdular. Buna görə də Fironun ən şiddətli təhdidləri qarşısında əzmkarlıq nümayiş etdirdilər. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: "Hər bir qəlb mərhəmətli Allahın əlindədir. Əgər istəsə onu doğru yola yönəldər, əgər istəsə onu haqq yoldan sapdırar." Təbii ki, Allahın istəyi bəndənin hazırlığından qaynaqlanır. Uğurun bəxş edilməsi və əldən alınması səbəbsiz olmur[1563].

59. İsrail oğulları Misirin hakimi oldular? Bir qrup təfsirçi bu ayəyə əsasən hesab edir ki, İsrail oğulları Misirə qayıdıb hakimyyət başına keçdilər və bir müddət burada hökmranlıq etdlər. Bəziləri hesab edirlər ki, Firon və tərəfdarları həlak olduqdan sonra onlar müqəddəs torpaqlara üz tutdular, ancaq br müddətdən sonra Misirə qayıdıb burada hakimiyyəti ələ aldılar. Musanın (ə) Allahın böyük peyğəmbəri olduğunu nəzərə alsaq, ehtimal edə bilərik ki, hökuməti tamamilə süquta uğramış və İsrail oğullarının əlinə keçmiş bir ölkəni, özü də uzun illər yüz minlərlə İsrail oğlunun yaşayıb mühiti ilə yaxından tanış olduğu bir məmləkəti tamamilə tərk edib ora ilə bağlı heç bir qərar qəbul etməmək, əvəzində səhraya üz tutmaq Musa (ə) kimi bir peyğəmbər üçün təsəvvüredlməzdir. Deməli, vəziyyət iki haldan xaric deyil: Ya İsrail oğulları hamılıqla Misirə qayıdıb dövlət yaratdılar, ya da onların bir qrupu Musanın (ə) əmri ilə orada qalıb bu proqramı həyata

[1563] Nümunə, c.15, səh.238

keçirdi. Əks halda, ayələrdə Firon tərəfdarlarının çıxarılması və İsrail oğullarının varis edilməsi anlaşılmaz qalır[1564].

61. İki dəstə bir-birini gördükdə Musanın səhabələri: “Biz yaxalandıq!” – dedilər.

62. (Musa) dedi: “Xeyr, Şübhəsz ki, Rəbbim mənimlədir. Tezliklə mənə doğru yol göstərəcəkdir!”

[1564] Nümunə, c.15, səh.239

63. Biz Musaya: “Əsanı dənizə vur!” – deyə vəhy etdik. Dəniz dərhal yarıldı, hər bir hssəsi nəhəng bir dağ kimi oldu.

64. O birilərini (Fronun qoşununu) də ora yaxınlaşdırdıq.

65. Musa və onunla birlikdə olanların hamısını xilas etdik.

66. O birilərini isə suya qərq etdik.

67. Bu hadisədə bir ibrət vardır. Lakin onların çoxu iman gətirmədi. (Çünki haqqı axtarmırdılar).

68. Sənin Rəbbin məğlubedilməzdir, rəhmlidir.

69. Onlara İbrahimin əhvalatını da oxu.

70. Bir zaman o, öz atasına və tayfasına dedi: “Nəyə ibadət edirsiniz?”

71. Onlar dedilər: “Biz bütlərə ibadət edir və hər gün onlara tapınmaqda davam edirik”.

72. O dedi: “Onları çağırdığınız zaman sizi eşidirlərmi?

73. Yaxud sizə xeyir və ya zərər verirlərmi?”

74. Onlar dedilər: “Biz yalnız ata-babalarımızdan belə etdiklərini görmüşük”.

75. O dedi: “Siz davamlı olaraq nəyə ibadət etdiyinizi gördünüzmü –

76. həm siz, həm də ulu babalarınız?

77. Onların hamısı mənim düşmənimdir, təkcə aləmlərin Rəbbi istisnadır.

78. O Rəbb ki, məni yaratmış və davamlı olaraq doğru yola yönəldir.

79. O Rəbb ki, məni yedirdir və içirdir;

80. O Rəbb ki, xəstələndiyim zaman mənə şəfa verir;

81. O Rəbb ki, məni öldürəcək, sonra dirildəcəkdir;

82. O Rəbb ki, Haqq-hesab günü xətalarımı bağışlayacağına ümidvaram.

83. Ey Rəbbim! Mənə hikmət ver və məni əməlisalehlərə qovuşdur!

---

63. Dəniz kimi bir çay: Quranda Allahın əmri ilə Musanın (ə) İsrail oğullarını dənizdən keçirdiyi dəfələrlə qeyd edilmişdir. (Bax: Yunus – 90, Taha – 77, Şüəra – 63, Duxan - 24). Bəzi ayələrdə isə çaydan keçirdiyi buyurulmuşdur. (Bax: Taha – 78, Qəsəs – 40, Zariyat - 40). Görəsən dəniz və çay deyilərkən nə nəzərdə tutulur? Görəsən çay deyiləkən Misirn su mənbəyi hesab edilən böyük Nil çayı, yoxsa Qırmızı dəniz nəzərdə tutulur? Bəzi təfsirçilər burada Qırmızı dənizin nəzərdə tutulduğunu iddia edirlər. Əlimizdə olan Tövratda da Qırmızı dəniz qeyd edilmişdir. Lakin faktlar Nil çayı olduğunu deməyə əsas verir. Çünki ərəb dilində "bəhr" geniş ərazini əhatə edən bol suya deyilr. "Yəm" də bu mənanı ifadə edir. Buna görə də hər iki sözün Nil çayını ifadə etməsinin heç br maneçiliyi yoxdur[1565].

80. Xəstənin şəfası Onun əlindədir: Bu ayəni oxuduqdan sonra ortaya belə br sual çıxa bilər ki, əgər möminin şəfası Allahın əlindədirsə, həkimə müraciət etməyə, dərmandan istifadə etməyə nə lüzum var. Bu dünyanın səbəblər və vasitələr aləmi olduğunu, hadisələrin maddi və ya mənəvi vasitələrlə idarə edildiyini nəzərə alsaq, sualın cavabı aydın olur. İmam Sadiq (ə) buyurmuşdur: ***"Allah işləri vasitə və səbəblər olmadan icra etmək istəmir".*** Əslində, xəstələrin şəfa tapmasında rolu olan dərman və həkim kimi vasitələr ilahi şəfanın şərtləridir. Çünki Allah şəfa təsirini onlara bəxş etmişdir. Buna görə də biz xəstəliyin müalicəsinə çox böyük önəm verməliyik. Ancaq bir məsələni də xüsusilə diqqət mərkəzində saxlamalıyıq ki, məhdud səbəb və vasitələrin şəfa göstərəcək gücü və yerləri Allahın

---

[1565] Nümunə, c.15, səh.247

istəyindən asılıdır. Allahın istəyi ilə bu vasitələrin heç bir təsiri olmaya bilər. Bu zaman Allahın istəyinə boyun əymək lazımdır[1566].

82. Peyğəmbərlərin tövbəsi və bağışlanma diləməsi: Bu məsələyə "Bəqərə" surəsinin 128-ci ayəsinin şərhində toxunmuşuq.

83. Hər şeydən əvvəl hökm istəmək: Hökm hikmətlə eyniköklü söz olmuşdur. Hikmət haqqa elm və bilik yolu ilə çatmaq, saleh əməlləri və mövcudatı tanımaqdır. Başqa sözlə desək, hikmət harada və hansı libasda olmasından asılı olmayaraq, haqqı tanıdacaq meyar və dəyərlərin tanınmasına deyilir. Əlbəttə, hökm hikmətdən daha üstün məna yükünə malikdir. Hökmdə məlumatla bərabər onun icrasına hazır olmaq var. Nəfsani istəklərə tabe olmadan çıxarılan xətasız və doğru qərarları da bu tərifə əlavə edə bilərik. Hər-halda İbrahm (ə) hər şeydən əvvəl Allahdan hakimiyyətlə müşayiət olunan dərin və düzgün bilik istəmişdir. Çünki heç bir əməl proqramı belə bir bazisi olmadan mümkün deyil. Bundan sonra İbrahim (ə) layiqli bəndələrə qovuşmağı Allahdan istəmişdir ki, bununla da əməli hikmətin yönlərinə işarə etmşdir. Duanın birinci hissəsi nəzəri hikmətə ad olduğu halda, ikinci hissəsi əməli hikməti ifadə edir[1567].

[1566] Tematik təfsir, c.6, səh.378; Quranın smarışı, c.3, səh.342; Ətyəbül-bəyan təfsiri, c.10, səh.44
[1567] Nümunə, c.15, səh.261

84. Gələcək ümmətlər arasında mənə doğru danışan dil qismət elə!

85. Məni nemətlərlə dolu Cənnətin varislərindən et!

86. Atamı (əmimi) bağışla! Çünki o, azanlardandır.

87. Onların dirildiləcəyi gün məni utandırma, rüsvay etmə!

88. O gün ki, nə var-dövlət, nə də oğul-uşaq bir fayda verməyəcək.

89. Ancaq sağlam bir qəlblə Allahın hüzuruna gələnlərdən başqa!”

90. Cənnət müttəqilərə yaxınlaşdırılar.

91. Cəhənnəm də azğınlar üçün aşkar olar.

92. Onlara deyilər: “Hanı sizin sitayiş etdiklәriniz –

93. Allahdan başqa (tanrılarınız)? Onlar sizə kömək edə bilərlərmi, yaxud kimsə onların dadına çata bilərmi?”

94. O zaman onlar azğın ibadət edənlərlə birlikdə Cəhənnəmə atılarlar,

95. İblisin bütün qoşunları da habelə.

96. Onlar orada höcətləşərək deyərlər:

97. “Allaha and olsun ki, biz açıq-aydın azğınlıq içində idik –

98. Çünki sizi aləmlərin Rəbbinə tay tuturduq.

99. Bizi ancaq günahkarlar azdırdı.

100. Bizim nə şəfaətçilərimiz,

101. nə də canıyanan bir dostumuz var!

102. Kaş yenidən qayıda biləydik, möminlərdən olaydıq!”

103. Bu hadisədə bir əlamət (ibrət) vardır. Lakin onların əksəriyyəti yenə iman gətirmədi.

104. Sənin Rəbbin yenilməz qüdrət sahibidr, rəhmlidir.

105. Nuh tayfası elçiləri yalançı saydı.

106. Qardaşları Nuh onlara o vaxt deyəndə ki: “Məgər qorxmursunuz?

107. Həqiqətən, mən sizin üçün etibar edilməli bir elçiyəm.

108. Allahdan qorxun və mənə itaət edin.

109. Mən bunun əvəzinə sizdən heç bir haqq istəmirəm. Mənim haqqım ancaq aləmlərin Rəbbinə aiddir.

110. Allahdan qorxun və mənə itaət edin!”

111. Onlar dedilər: “Sənə ən rəzil adamlar tabe olduğu halda, biz sənə inanaq?”

---

84. İbrahimin (ə) düz danışan dili: İbrahim (ə) bu duası ilə Allahdan sonrakı əsrlərdə nəslindən düz danışan bir övladının olmasını istəyir. Yəni İbrahim (ə) qəlbində olanları söylədiyi kimi, övladının da İbrahimin (ə) qəlbində olanları insanlara çatdırmasını diləyir. Gələcəkdə nəslindən Allah dinini təbliğ etmək, insanları tövhid və təkAllahlıq dininə çağırmaq üçün bir övladı olmasını dua edir. Bəzi təfsrçilər hesab edir ki, İbrahim (ə) bu

duasında İslam peyğəmbərini (s) nəzərdə tutmuşdur. Belə ki, Peyğəmbər (s) özü də hədislərnin birində buna işarə edərək buyurmuşdur: ***"Atam İbrahm duasında məni nəzərdə tutmuşdur".*** Quranın br neçə yerində Peyğəmbərin dininin elə İbrahimin dini olduğunun qeyd edilməsi bu faktı təsdiq edir. Kəbə binasını tikdikdən sonra həzrət İbrahim (ə) və İsmayılın (ə) etdiyi duanın məzmunu da bunu deməyə əsas verir: ***"Ey Rəbbimiz! Onların içərisindən özlərinə elə bir elçi göndər ki, Sənin ayələrini onlara oxusun, Kitabı və hikməti onlara öyrətsin və onları təmizləsin!"*** (Bəqərə-129). Bəzi hədislərdə "düz danışan dil" deyilərkən möminlərin əmiri İmam Əlinin (ə) nəzərdə tutulduğu qeyd edilmişdir[1568]. Əgər biz İmam Əlinin (ə) dinin möhkəmlənməsi və tövhid şüarının davam etməsində ifa etdiyi rol haqqında düşünsək, Peyğəmbərlə (s) yanaşı onun da düz danışan dil olduğunu qəbul edərik.

89. Sağlam qəlb: Sağlam qəlb deyilərkən bütün xəstəliklərdən, əxlaqi qüsurlardan uzaq qəlb nəzərdə tutulur. Hədislərdə sağlam qəlb haqqında çox məlumat verilmişdr. Sağlam qəlbin nə olduğunu bilmək üçün bir neçə nüansa diqqət yetirmək lazımdır: 1. İmam Sadiq (ə) bu ayə haqqında belə buyurmuşdur: ***"Şirk və tərəddüd olan hər bir qəlb tənəzzülə məruz qalır".*** 2. Maddiyata və dünyaya bağlılıq insanı həqiqət yolundan sapmağa və günaha sürükləyr. Çünki ***"dünyanı sevmək bütün günahların qaynağıdır".*** Deməli, sağlam qəlb dünya məhəbbətinin olmadığı qəlbdir. Başqa bir hədisində İmam Sadiq (ə) bu ayə haqqında belə buyurmuşdur: ***"Sağlam qəlb dünya sevgisindən azad olan qəlbdir".*** 3. Sağlam qəlb yalnız Allahın olduğu qəlbdir. İmam Sadiq (ə) bu ayənin mənası haqqında soruşan şəxsə belə cavab vermişdir: ***"Sağlam qəlb Allahdan başqasınını iştrakı olmadan***

[1568] Əl-Mizan, c.15, səh.286

Allahla görüşən qəlbdir.” Bir məsələni də xüsusilə qeyd etməlyik ki, bu məqamlarda qəlb deyilərkən ruh və can nəzərdə tutulur. Hədislərdə qəlb, onun sağlamlığı, bəlaları və bəlalara qarşı mübarizə üsullarından çox danışılmışdır. Bütün bunların məcmusundan belə məlum olur ki, İslam hər şeydən əvvəl fikri, etiqadi və əxlaqi prinsiplərə əhəmiyyət verir. Çünki insanın bütün əməli proqramları onlardan qaynaqlanır. Belə ki, ürəyin sağlam olması cismin sağlam olmasına, xəstə olması isə bütün üzvlərin xəstəlməsinə səbəb olur. Çünki bədənin bütün hüceyrələrinin qidalanması qan vasitəsilə gerçəkləşir. Qan isə bədən dövlətinin bütün nöqtələrinə ürək vasitəsilə paylanır. İnsanın həyat proqramlarının da sağlam və ya qeyri-sağlam olması etiqad və əxlaqın sağlam və qeyri-sağlam olduğunu göstərir[1569].

90. Cənnət yaxınlaşır: Maraqlıdır ki, ayədə “təqvalıları Cənnətə yaxınlaşdırırlar” deyil, “Cənnəti onlara yaxınlaşdırırlar”, - deyə buyurulmuşdur. Bu da təqvalı insanların çox əzəmətli və böyük olduğunu göstərir[1570].

[1569] Nümunə, c.15, səh.273
[1570] Nümunə, c.15, səh.268

112. (Nuh) dedi: “Mən onların nə etdiklərini bilmirəm!

113. Onların haqq-hesabı yalnız Rəbbimə aiddir. Kaş anlayaydınız!

114. Mən iman gətirənləri qovan deyiləm.

115. Mən yalnız açıq-aşkar bir qorxudanam”.

116. Dedilər: “Ey Nuh! Əgər (sözlərinə) son qoymasan, daşqalaq ediləcəksən”.

117. Dedi: “Ey Rəbbim! Qövmüm məni yalançı hesab etdi.

118. Mənimlə onlar arasına ayrılıq sal, məni və mənimlə birlikdə olan möminləri qurtar!”

119. Biz onu və onunla birlikdə olanları (insan və cürbəcür heyvanlarla) dolu gəmidə xilas etdik.

120. Qalanları isə suya qərq etdik.

121. Bunda açıq-aydın bir əlamət vardır. Lakin onların əksəriyyəti iman gətirmədi.

122. Sənin Rəbbin yenilməz qüdrət sahibidir, rəhmlidir.

123. Ad tayfası da elçiləri yalançı saydı.

124. Qardaşları Hud o vaxt onlara deyəndə ki: “Məgər qorxmursunuz?

125. Həqiqətən, mən sizin üçün etibar etməli olduğunuz bir elçiyəm.

126. Allahdan qorxun və mənə itaət edin!

127. Mən bunun əvəzinə sizdən heç bir haqq və mükafat istəmirəm. Mənim haqq və mükafatım ancaq aləmlərin Rəbbinə aiddir.

128. Siz hər bir hündürlükdə əbəs yerə bir əlamətmi qurursunuz?

129. Sanki əbədi qalacaqsınız deyə gözəl və möhkəm qəsrlərmi tikirsiniz?

130. Kimisə cəzalandırdığınız zaman qəddarlar kimi cəzalandırırsınız?

131. Allahdan qorxun və mənə itaət edin!

132. Bildiyiniz nemətlərlə sizə yardım edən Allahdan (onun əmrinə qarşı çıxmaqdan) qorxun.

133. O sizə heyvanat və oğul-uşaqla yardım etdi.

134. (üstəlik) bağlar və çeşmələr də əta etdi.

135. Mən sizə üz verəcək böyük günün əzabından qorxuram".

136. Onlar (Ad qövmü) dedilər: "Bizə öyüd-nəsihət versən də, verməsən də, bizim üçün birdir.

111-114. Dinin yayılmasında yoxsulların rolu: Bu ayələr haqqında araşdırma apardıqda məlum olur ki, o dövrün imkanlı kafirlərinin təfəkkürünə sinifləşmə ruhiyyəsi hakim kəsilmişdir. Buna görə də onlar yoxsul sinfinə aid olanları dəyərsiz və aşağı insanlar hesab etmişlər. Onlar üçün dəyər meyarı var-dövlət, paltar, ev, gözəl və bahalı minik vasitəsi olmuşdur. Bu təfəkkür sahibləri zadəgan sinfində az, yoxsul sinfində daha çox müşayiət edilən təmizlik, təqva, haqpərvərlik və yüksək insani keyfiyyətlərdən xəbərsiz qalmışdılar. Əlbəttə, kafirlərin sözügedən tənələrinə təkcə Nuh (ə) deyil, bütün peyğəmbərlər və İslam peyğəmbəri məruz qalmışdır. Eyni tənələrə hətta bu dövrün haqq rəhbərləri də məruz qalırlar. Ətraflarında yoxsul və zəiflərin olmasını kafirlər onlara nöqsan tuturlar. Halbuki, bununla onlar özləri də bilmədən haqq rəhbərlərini tərifləmiş, təmsil etdkləri məktəbin düz olduğunu təsdiq etmiş olurlar[1571]. Tarixi araşdırmalar da göstərir ki, peyğəmbərlərin çağırışlarının qəbulu və

[1571] Nümunə, c.15, səh.282

onların gətirdklərin dinin yayılmasında yoxsullar öndə getmişlər. Bu gün də dini mərasimlərdə, məscidlərdə, anım məclislərində, moizə, xütbə, dini məktəblərdə yoxsulların və orta təbəqənin nümayəndələrinin daha çox təmsil olunduğu müşahidə edilir[1572].

129. Dünyanın dəbdəbəli qəsrləri axirətin ağır yüküdür: Bir gün İslam peyğəmbəri (s) bir yerdən keçirmiş, gözü yol kənarında olan bir saraya sataşır. "Bu nədir?" – deyə soruşur. Səhabələr onun ənsarlardan birinə aid olduğunu deyirlər. Peyğəmbər (s) evin sahibi gələnə qədər gözləyir. Həmin şəxs salam verir, amma Peyğəmbər (s) üzünü çevrir... Ənsardan olan həmin kişi üzünü ətrafında olan adamlara tutub deyir: "And olsun Allaha, Peyğəmbərin (s) məndən narazı olduğunu görürəm. Bilmirəm nə etmişəm". Səhabələr deyirlər: "Peyğəmbər sənin təmtəraqlı evini görüb narahat oldu". Ənsardan olan kişi gedib evini yerlə bir edir. Bir gün Peyğəmbər (s) həmin yolla gedərkən qəsrin yerində olmadığını görüb soruşur: "Buradakı evə nə oldu?" Hadisəni ona danışırlar. Peyğəmbər (s) buyurur: "Hər bir evin zəruri olan hissəsindən artığı Qiyamət günü öz sahibinə ağır yükdür." Bu və bənzər hədislərdən İslamın israfa yol verilmiş, insanı qafil edən tikililərlə bağlı baxışı, onlara qarşı olması aydın olur. İslamda xüsusilə, evsiz-eşiksizlərin, ev-eşiyə ehtiyacı olanların yaşadığı yerlərdə məğrur və Allahdan xəbərsiz təkəbbür əhlinin tikdiyi qəsrlər kimi tikililər tikilməsinə icazə verilmir. Diqqət çəkən məqam budur ki, Allahın rəsulu (s) bu humanist məqsədin gerçəkləşməsində zor tətbiq etməmiş, belə bir tikilinin uçurdulmasına göstəriş verməmiş, əvəzində etik bir reaksiya (üzünü turşutmaq və etinasızlıq göstərməklə) ilə öz hədəfinə çatmışdır[1573].

[1572] Ətyəbül-bəyan, c.10, səh.60
[1573] Nümunə, c.15, səh.293

130. Mübahisə və münaqişədə rəhmsizlik: Ayədə Ad qövmünün çirkin xüsusiyyətlərindən birinə, yəni mübahisə və münaqişə zamanı edilən rəhmsizliyə işarə edilmişdir. Həzrət Hud (ə) onlara belə buyurur: Kimsə cəzaya səbəb olacaq bir səhvə yol verə bilər. Ancaq siz haqq və ədalət çərçivəsindən çıxmamalı, ən kiçik cinayətə ən ağır cəza forması ilə qarşılıq verməməli, qəzəbləndiyniz vaxt insanların qanını axıtmamalı, qılnc çəkib onların üstünə düşməməlisiniz ki, bu zalımların, zülmkarların və həddi aşanların işidir[1574].

137. Bu, yalnız və yalnız əvvəlkilərin metodudur.

138. Biz əzaba əsla düçar olmayacağıq".

139. Onlar Hudu yalançı saydılar. Biz də onları məhv etdik. Bunda bir əlamət vardır. Lakin onların çoxu iman gətirmədi.

140. Sənin Rəbbin yenilməz qüdrət sahibidir, rəhmlidir.

[1574] Nümunə, c.15, səh.294

141. Səmud tayfası elçiləri yalançı saydı.

142. Qardaşları Saleh o zaman onlara dedikdə ki: “Təqva yolunu tutmursunuz?

143. Mən sizin üçün etibar ediləsi bir peyğəmbərəm.

144. Allahdan qorxun və mənə itaət edin.

145. Mən bunun əvəzində sizdən heç bir haqq və mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir.

146. Təsəvvür edirsiniz, burada olan nemətlər içində son dərəcə arxayınlıqla həmişəlik qalacaqsınız?

147. Bu bağlar və bulaqlar,

148. əkinlər, meyvələri dəymiş və şirin olan xurmalıqlar içində?

149. Dağlardan evlər yonacaq və onlarda nəşə içində yaşayacaqsınız.

150. Allahdan qorxun və mənə itaət edin!

151. Həddi aşanların əmrinə tabe olmayın.

152. Onlar yer üzündə fəsad törədir və islahat aparmırlar”.

153. Dedilər: “(Saleh!) Sən ofsunlanmışlardansan (ağlını itirmisən).

154. Sən də bizim kimi ancaq bir insansan. Əgər doğru danışanlardansansa, bir əlamət göstər”.

155. Dedi: “Bu, dişi dəvədir! Onun da, sizin də müəyyən edilmiş gündə su içmək haqqınız vardır.

156. Ona heç bir pislik etməyin, yoxsa böyük günün əzabı sizi yaxalayar”.

157. Nəhayət, onlar dəvəyə hücum edib onun diz vətərini kəsdilər, sonra da əməllərindən peşman oldular.

158. Əzab onları yaxaladı. Bunda bir əlamət vardır. Lakin onların çoxu iman gətirmədi.

159. Sənin Rəbbin yenilməz qüdrət sahibidir, rəhmlidir.

151-152. İsrafçılıqla yer üzündə fəsad törətməyin əlaqəsi: İsrafçılıq yaradılış və şəriət qanunu ilə müəyyən edilmiş həddin aşılmasına deyilir. Məlumdur ki, istənilən düz sistemdə istənilən təcavüz və həddi aşma pozuntuya və parçalanmaya səbəb olur. Başqa sözlə desək, fəsadın mənbəyi israf, israfın nəticəsi fəsaddır. Əlbəttə, "israf" sözü bir çox mənalarda işlədilir: bəzən yemək və içmək kimi sadə kontekstlərdə, bəzən intiqam və qisas məsələlərində həddin aşılması, yalanla nəticələnən mühakimələr, şək-şübhə ilə nəticələnən inanclar, təkəbbür, üstün tutma, istismar və nəhayət, bütün günahlar kontekstndə işlənir. Buradan da israfçılıqla fəsad arasında hansı əlaqənin olduğu aydınlaşır. Bəzi böyük təfsirçilər hesab edirlər ki, varlıq aləmi vahid bir sistemdir, hətta bəzən hissələri arasında müşahidə edilən ziddiyyətlə harmoniya təşkil edir. Bu sistem doğru hədəflər istiqamətində hərəkətdədir və hər hissəsi üçün müəyyən bir hərəkət trayektoriyası mövcuddur. İndi əgər bu hissələrdən biri öz hərəkət orbitindən çıxsa, yanlış istiqamətə yol alsa, onunla dünyanın digər hissələri arasında problem yaranacaq. Əgər bu həddi aşmış intizamsız hissəni öz həqiqi orbitinə qaytara bilsələr, çox yaxşı olar, əks təqdirdə, onu məhv etməlidirlər ki, sistem onun üçün müəyyən edilmiş şəkildə hərəkətinə davam etsin. İnsan da fitrət əsasında öz orbiti üzrə hərəkət etsə, varlıq sistemi ilə harmoniya təşkil etsə, onun üçün təyin edilmiş xoşbəxt hədəfə çatar. Ancaq həddini aşsa, fəsad yolunda addımlasa, Allah ona qulaqburması verər, çətinliklərlə ona xəbərdarlıq edər. Əgər bunların heç bir təsiri olmasa, fəsad varlığının dərinliklərinə işləsə, Allah əzab göndərərək yer üzünü onu varlıq

çirkabından təmzləyər. Bununla da Allahın bu ayələrdə israfı fəsadla eyni sırada qərarlaşdırmasının mənası aydın olur[1575].

153. Allah rəsuluna atılmış böyük iftira: "Sehr" sözündən düzəlmiş "musəhhər" cadu olunmuş adam deməkdir. Kafirlərin inancına görə sehrbazlar bəzən sehr edərək insanların ağlını başlarından alırlar. Onlar bu iftiranı təkcə Salehə (ə) deyil, o biri peyğəmbərlərə də yaxırdılar. İslam peyğəmbəri (s) bu cür iftiradan yan keçə bilməmişdir. "Fürqan" surəsinin 8-ci ayəsində belə deyilir: ***"Zalımlar: "Siz ancaq cin vurmuş bir adamın ardınca gedirsiniz" – dedilər. "*** Onlar hesab edirdilər ki, ağıllı adam mühitin rənginə uyğunlaşan, çörəyin mövcud qiyməti ilə razılaşan, bütün fəsadlara bulaşmış şəxsdir. Əgər ilahi və inqilabçı bir şəxs yanlış inancları və sistemləri aradan qaldırmaq üçün qiyam etsəydi, onu dəli, cinli və sehrlənmiş adlandırardılar[1576].

157. Günahkarın tərəfdarlarının onun günahına ortaq olması: Möminlərin əmiri İmam Əli (ə) buyurmuşdur: "Ay camaat, hər hansı işə razı və ya narazı olmaq mükafat və cəzanın əhatə dairəsinin artmasına səbəb olur. Belə ki, Səmudun dəvəsini bir nəfər kəsdi, ancaq Allahın əzabı hamını yaxaladı. Çünki hamı əmələ razılıq vermişdi."[1577] Deməli, məktəb və fakir bağlılıqları insanların talelərini birləşdirir[1578].

[1575] Nümunə, c.15, səh.307
[1576] Nümunə, c.15, səh.311
[1577] Nəhcül-bəlağə, 192-ci xütbə
[1578] Nümunə, c.15, səh.314

160. Lut qövmü da elçiləri yalançı saydı.

161. Qardaşları Lut o zaman onlara dedikdə ki: “Təqva yolunu tutmursunuz?

162. Mən sizin üçün etibar ediləsi bir elçiyəm.

163. Allahdan qorxun və mənə itaət edin!

164. Mən bunun əvəzində sizdən heç bir haqq və mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir.

165. Doğrudanmı siz insanlardan yalnız kişi cinsinə yaxınlıq edir

166. və Rəbbinizin sizin üçün yaratdığı cütlərinizi tərk edirsiniz? Həqiqətən, siz həddi aşanlarsınız”.

167. Dedilər: “Ey Lut! Əgər (sözlərindən) əl çəkməsən, mütləq, çıxarılanlardan olacaqsan!”

168. Dedi: “Mən sizin əməllərinizin qatı düşmənyəm.

169. Ey Rəbbim! Məni və ailəmi onların tutduqları işdən xilas et!”

170. Biz onu və onun bütün ailəsini xilas etdik.

171. Geridə qalanlar arasındakı yaşlı qadından başqa.

172. Sonra o birilərini məhv etdik.

173. Biz onların üstünə (daşlardan) yağış yağdırdıq. Qorxudulanların yağışı nə pis yağış imiş!

174. Bunda bir əlamət vardır. Lakin onların çoxu iman gətirmədi.

175. Sənin Rəbbin yenilməz qüdrət sahibidir, rəhmlidir.

176. Əykə əhalisi peyğəmbərləri yalançı hesab etdi.

177. O zaman ki, Şueyb onlara dedi: "Təqva yolunu tutmursunuz?

178. Həqiqətən, mən sizin üçün etibar ediləsi bir elçiyəm.

179. Allahdan qorxun və mənə itaət edin!

180. Mən bunun əvəzində sizdən heç bir haqq və mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir.

181. Ölçüyə tam riayət edin və başqalarını ziyana salmayın.

182. Düz tərəzi ilə çəkin.

183. İnsanların haqqını az qoymayın və yer üzündə fəsad törətməyə çalışmayın.

165-166. Eynicinslilərin çirkin əməllərinin acı nəticələri: Şübhə yoxdur ki, cinsi pozğunluq insan cəmiyyətlərində meydana gələn ən təhlükəli pozğunluqlardandır. Çünki bütün əxlaq normalarını öz zərərli kölgəsi altına alır, insanlarda ülvi hisslərin pozulmasına səbəb olur. Homoseksuallıq İslam dinində o qədər çirkin əməl sayılır ki, İslam hüququnda onun cəzası tərəddüd etmədən edam göstərilmişdr. İmam Rza (ə) bir hədisində homoseksuallığın haram edilməsinin fəlsəfəsini belə izah etmişdir: ***"Kişinin kişiyə, qadının da qadına haram edilməsi səbəbi budur ki, bu davranış Allahın yaratdığı qadın və kişi təbiətinə ziddir. Belə ki, əgər kişilər və qadınlar öz həmcisnlərinə meyl göstərsələr, insanların nəsli***

kəsilər, ictimai həyatı fəsad bürüyər, dünya dağılar." İslam peyğəmbəri (s) bir hədisində belə buyurmuşdur: "***Eynicisnlililərə meyl göstərənlər Cənətin qoxusunu almayacaqlar."*** İmam Əlinin (ə) hədislərinin birində homoseksuallıq küfr həddində təqdim edilmişdir. Hətta homoseksuallığın ən aşağı hədlərinə meyl göstərən şəxsləri də şiddətli əzab gözləyir. İslam peyğəmbərinin (s) hədislərinin birində belə deyilir: ***"Bir oğlan uşağını ehtirasla öpən şəxsə Qiyamət günü Allah oddan bir yüyən taxar."***[1579]

181-182. Çəkidə aldatmaq: Quranda satarkən az çəkmək, tərəzidə aldatmaq, çəki və hesabda kələk gəlinməsinə qarşı mübarizəyə xüsusi önəm verilmişdir. Hətta məsələyə o qədər önəm verilir ki, varlıq aləmində bu sistem yaradılış sistemi ilə bir sırada qərarlaşdırılır: "Göyü ucaldıb tərəzi və qanun qoydu ki, tərəzidə həddi aşmayasınız. İnsafla çəkin və çəkini əskiltməyin." (Rəhman surəsi-7-9). Bu ayələrdə çəki və hesabda ədalətə riayət etmənin kiçik deyil, çox əhəmiyyətli bir mövzu olduğuna, hətta bütün dünyaya hakim olan nizam-intizam və ədalət prinsipnin bir hissəsi olduğuna işarə edilmişdir. Ümumiyyətlə, haqq-ədalət, nizam-intizam və hesab-kitab varlıq aləminə hakim kəsildiyi kimi, hər yerdə və hər şeydə əsas və həyati əhəmiyyətə malikdir. Buna görə də sözügedən prinsipdən uzaq düşmək təhlükəlidir. Xüsusilə çəkidə aldatmaq alqı-satqının əsas şərti hesab edilən etibar və inam sərmayəsini məhv edir, iqtisadi sistemi alt-üst edir. Bir məsələni də xüsusilə qeyd etməliyik ki, çəkidə aldadanlar hüquqi cəhətdən alıcılara borcludurlar. Buna görə də onların tövbəsi, hətta aldatdıqları adamla tanımasalar belə, mənimsədiklərini geri qaytarmayınca tövbələri əsla qəbul olmaz. Sahibi tanınmayan mala gəlincə, həmin məbləğ haqqın qaytarılması adı ilə mal sahibinin adından yoxsula verilməlidir. Çəkidə aldatmağın

[1579] Nümunə, c.15. səh.320

mənası çox genişdir, vəzifəni yerinə yetirərkən istənilən növ laqeydlik və səhlənkarlığa şamil olur. Belə ki, bu hökm az iş görən fəhlə, yaxşı dərs deməyən müəllim, vaxtında iş başında olmayan, işinə can yandırmayan işçiyə də şamil olur və onları da eyni aqibət gözləyir[1580].

[1580] Nümunə, c.15, səh.111

184. Sizi və əvvəlki nəsilləri yaradandan (əmrinə qarşı gəlməkdən) qorxun!”

185. Dedilər: “Sən yalnız və yalnız ofsunlanmışlardansan.

186. Sən də bizim kimi bir insansan. Sənin lə bağlı qənaətimiz yalnız budur ki, sən yalançılardasan.

187. Əgər, doğru danışanlardansansa, göydən başımıza daşlar yağdır”.

188. (Şueyb) dedi: “Rəbbim sizin gördüyünüz işlərdən daha yaxşı xəbərdardır”.

189. Nəhayət, onu yalançı saydılar və buna görə də kölgəli günün əzabı onları yaxaladı. Həqiqətən, o, böyük bir günün əzabı idi.

190. Bu hadisədə bir əlamət vardır. Lakin onların çoxu iman gətirmədi.

191. Sənin Rəbbin yenilməz qüdrət sahibidir, rəhmlidir.

192. Şübhəsiz ki, bu (Quran), aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir.

193. Onu sənin əmanətdar Ruh endirib –

194. sənin qəlbinə ki, qorxudanlardan (xəbərdar edənlərdən) olasan.

195. (Onu) açıq-aydın ərəb dilində (nazil etdi).

196. Şübhəsiz ki, o, keçmiş ümmətlərin kitablarında da onun haqqında məlumat verilmişdr.

197. İsrail oğullarından olan alimlərin ondan yaxşı xəbərdar olması bunlar üçün yetərli dəlil deyilmi?

198. Əgər Biz onu ərəb olmayanlardan birinə nazil etsəydik,

199. və o, bunu onlara (ərəblərə) oxusaydı, ona iman gətirməzdilər.

200. Biz Quranı günahkarların qəlbinə belə (açıq-aydın şəkildə) salarıq.

201. Onlar ağrı-acılı əzabı öz gözləri ilə görməyənədək ona inanmazlar.

202. (Əzab) onlara özləri də hiss etmədən gözlənilmədən gələcəkdir.

203. Onlar deyəcəklər: “Bizə möhlət veriləcəkmi?”

204. Bizim əzabımız üçünmü tələsirlər?

205. Bizə xəbər ver, əgər onlara illərlə bu həyatdan pay versək,

206. sonra vəd olunduqları əzab onlara yetişsə,

---

189. Kölgəli günün əzabı: “Zullət” kölgə salan bulud parçasına deyilir. Təfsirçlərin bir çoxu bu ayəni təfsir edərkən yazırlar ki, Şüeyb qövmünün yaşadığı ərazini yeddi gün yandırıcı isti bürüdü, heç külək əsmədi. Qəfildən göydə bir bulud parçası peyda oldu, külək əsdi. İnsanlar evlərindən çölə tökülüşərək buludun kölgəsinə toplaşdılar. Bu vaxt buluddan qulaq batıran ölümcül bir ildırım qopdu. Onun ardınca oraya toplaşanların başına od yağdı, yer silkələnməyə başladı, hamısı həlak oldu. Bilirik ki, ildırım buludla yer arasındakı güclü elektirik mübadiləsinin nəticəsində baş verir. İldırım qorxulu səsə malikdir, bəzən baş verdiyi ərazidə böyük qığılcım və titrəyişlə müşayiət olunur. Quranın müxtəlif surələrində Şüeyb qövmünə göndərilmiş əzabla bağlı hamısı bir həqiqəti əks etdirən müxtəlif ifadələr işlənmişdir. “Əraf” surəsinin 91-ci ayəsində “rəcfət” (titrəyən yer), “Hud” surəsinin 94-cü ayəsində “səyhət” (uca səs), bu ayələrdə isə “kölgəli günün əzabı” ifadəsi işlədilmişdir[1581].

193. Ruhul-əmin (əmanətdar ruh): Ruhul-əmin deyilərkən vəhy mələyi, yəni, Cəbrayıl nəzərdə tutulur. Çünki “Bəqərə” surəsinin 97-ci

---

[1581] Nümunə, c.15, səh.340

ayəsində də vəhyin onun tərəfindən gətirildiyi buyurulmuşdur: ***"De: "Cəbrayılın düşməni (əslində, Allahla düşməndir. Çünki) o, Allahın əmri ilə Quranı sənin qəlbinə nazil edir."*** Başqa bir yerdə ona Ruhul-qüdüs deyilmişdir (Bəqərə - 87). Allahın Cəbrayılı Ruhul-əmin adlandırmasının səbəbi onun Allahın ismarışını Peyğəmbərə (s) çatdırarkən əmanətdar olduğunu, Allahın sözünü qəsdən, bilmədən, səhvən və ya unudaraq dəyişmədiyini, təhrif etmədən çatdırdığını göstərməkdir[1582].

198-199. Etnik təəssübkeşlik: Şübhə yoxdur ki, insan aid olduğu torpaq, qəbilə və ya xalqa qarşı sevgi bəsləyir. Onun öz torpağına, xalqına və millətinə olan sevgisi eyib deyil, əksinə, onun sosial münasibətlərində qurucu rol oynayan amildir. Ancaq bu sevginin də bir həddi var. Əgər həddi aşsa, dağıdıcı, destruktiv və zərərli olar. Bəyənilməyən milli və etnik təəssübkeşlik ifrat sevgiyə aiddir. Qohum, qəbilə, xalq və vətənin ifrat dərəcədə müdafiəsi tarix boyu bir çox müharibələrə, xurafat və çirkinliklərin xalq və qəbilənin adət-ənənəsi adı altında digər xalqlara ötürülməsinə səbəb olmuşdur. Bu ifrat müdafiə və tərəfdarlıq bəzən elə bir həddə çatır ki, qəbilənin ən çirkin adamı insanın gözündə gözəl, başqa qəbilənin ən gözəl adamı insanın gözündə çirkin görünür. Başqa sözlə desək, etnik təəssübkeşlik insanın ağıl, fikir, düşüncə və dərrakəsinin üzərini örtən, doğru mühakimə yürütməyə mane olan cəhalət və eqoizm pərdələrindən biridir. Təəssübkeşlik bəzi xalqların arasında daha güclüdür. Təəssübkeşliyi şöhrət tapmış bu ayələrdə də işarə edilən bir qrup ərəb buna bir misaldır. Cahiliyyət dövrünün ərəblərinin təəssübkeşliyi elə bir həddə olmuşdur ki, hətta Quran başqa bir xalqa gəlmiş olsaydı, ona əsla iman gətirməzdilər. Hədislərdə də təəssübkeşlik pislənilən və məzəmmət edilən xüsusyyətlərdən biri kimi

---

[1582] Əl-Mizan, c.15, səh.316

təqdim edilmişdir. Hədislərinin birində İslam peyğəmbəri (s) belə buyurmuşdur: ***"Qəlbində xardal dənəsi boyda təəssübkeşlik olan şəxsi Qiyamət günü Allah cahil ərəblərlə bir tutacaq."*** İmam Sadiq (ə) bu ayəni izah edərkən buyurmuşdur: ***"Əgər Quran qeyri-ərəbə nazil olsaydı, ərəblər ona iman gətirməzdilər. Ancaq Quran ərəblərə nazil oldu, qeyri-ərəblər ona iman gətirdi. Bu, qeyr-ərəblər üçün bir üstünlükdür."***[1583]

207. Dünya zövqündən olan nəsiblərinin onlara heç bir faydası olmayacaq.

208. Biz heç bir kəndi qorxudanları olmadan məhv etmədik.

209. Xəbərdar edib, xatırlamaları üçün (göndərdik). Biz əsla zalım olmamışıq!

[1583] Nümunə, c.15, səh.53

210. Bu ayələri şeytanlar və cinlər endirmədi.

211. Onlar buna layiq deyillər və (buna) qüdrətləri də çatmaz.

212. Çünki onlar (səmavi xəbərləri) dinləməkdən kənarlaşdırılmışlar.

213. Allahla yanaşı heç bir tanrını çağırma, yoxsa əzaba düçar edilənlərdən olarsan.

214. Yaxın qohumlarını qorxut!

215. Qanadlarını sənə tabe olan möminlər üçün aç!

216. Əgər onlar sənə asi olsalar, de: “Şübhəsiz ki, mən sizin etdiyiniz əməllərdən uzağam!”

217. Yenilməz qüdrət və rəhmət sahibi olan Allaha təvəkkül et!

218. O, səni (ibadət etmək üçün) duranda da görür,

219. səcdə edənlər arasında etdiyin hərəkəti də.

220. Odur eşidən və bilən Allah!

221. Şeytanların kimə nazil olduqlarını sizə xəbər verimmi?

222. Onlar hər bir yalançıya və günahkara nazil olarlar.

223. Onlar eşitdiklərini (başqalarına) təlqin edərlər və əksəriyyəti yalançıdır!

224. Şairlərə gəldikdə isə, onlara ancaq azğınlar uyar.

225. Onların hər vadidə sərgərdan gəzdiyini görmürsənmi?

226. və etmədikləri sözləri danışdıqlarını (görmürsənmi)?

227. Təkcə iman sahibi olub xeyirxah əməllər edən, Allahı tez-tez yada salan və haqsızlığa məruz qaldıqları zaman özlərini (və möminləri) müdafiə edənlərdən başqa. Zalımlar isə qayıdacaqları yerin hara olduğunu tezliklə biləcəklər.

210-212. Qurana qarşı başqa bir iftira: Bu ayədə Quran düşmənlərinin bəhanə və ya qəbuledlməz iftiralarından birinə cavab verilir. Onlar deyirdilər: Muhəmmədin (s) cinlərdən biri ilə əlaqəsi var və bu ayələri ona həmin cin öyrədir. Halbuki Quranda bu ayələrin aləmlərin Rəbbi tərəfindən nazil edildiyi dəfələrlə təkrarlanır. Əsasən, haqq, ədalət, təqva, təmizlik, paklıq və istənlən şirkdən uzaq durmağa çağırışdan ibarət olan Quranın məzmunu ayələrin şeytan fikrləri və cinlərin təlqinləri ilə əsla oxşar olmadığını göstərir. Şeytanlar və cinlərin işi yalnız fitnə-fəsad və şərdən ibarətdir, Quran isə xeyir və islahat kitabıdır. Bundan başqa, cinlərin belə bir qüdrəti yoxdur. Əgər onların belə bir qüdrəti olsaydı, Quranın nazil olduğu mühitdə şeytanlarla əlaqəsi olan kahinlər kimi insanlar onun mislini gətirə bilməli idilər. Halbuki onların hamısı bunda aciz idilər. Acizlikləri onların gücləri fövqündə olan bir varlıq tərəfindən göndərildiyini sübuta yetirir. Digər tərəfdən kahinlər özləri etiraf edirdilər ki, Peyğəmbər (s) dünyaya gəldikdən sonra onlarla əlaqəsi olan şeytanların səmavi xəbərlərlə olan əlaqəsi tamamilə kəsilmişdir. Quranın digər ayələrindən də məlum olur ki, şeytanlar daha çox göylərə qalxır, qulaq asır, mələklər arasında danışılan xəbərləri bəzən öz dostlarına çatdırırdılar. Lakin Peyğəmbərin (s) zühurundan sonra dinləməyə tamamilə son qoyuldu və bu əlaqə kəsildi. Bunu müşriklər özləri də bilirdilər. Əgər bilməsəydilər də, Quran onlara xəbər verdi[1584].

214. Yaxın qohumların çağırılması: İmam Əli (ə) buyurmuşdur: ***"Bu ayə nazil olanda Allah rəsulu (s) həmin vaxt sayları aşağı-yuxarı qırx nəfər olan Əbdül-Müttəlib övladlarını çağırıb buyurdu: "Sizlərdən hansınız mənim qardaşım, varisim, arxam, məndən sonra mənim vəsim və***

[1584] Nümunə, c.15, səh.363

sizin aranızdakı canişinim olur?" Bu sözü onların hər birinə ayrıca dedi, hamısı da təklifi rədd etdi. Nəhayət, sözü mənə ünvanladı. Mən dedim: "Ey Allahın elçisi! Mən hazıram". Bu vaxt üzünü Əbdül-Müttəlib nəslinə tutub ded: "Ey Əbdül-Müttəlibin övladları! Bu mənim varisim, arxam və məndən sonra aranzıdakı canişinimdir. Sonra toplaşanlar istehza ilə gülüb qalxdılar və Əbu-Talibə dedilər: "Sənə əmr edəcək ki, bu oğlan uşağının əmrinin altına girəsən və ona itaət göstərəsən."[1585]

224-227. İslamda şeir və şairlik: Şübhəsz ki, şeir zövqü və şairlik bacarığı insanın digər bütün istedadları kimi, düzgün istiqamətə yönəldiyi, ondan müsbət şəkildə istifadə edildiyi zaman qiymətli olur. Əgər ondan insanların etiqad və əxlaq özüllərini dağıtmaq, fəsada, anarxiyaya çağırış üçün istifadə edilərsə, insanlar onunla puçluğa, mənasızlığa, xəyalpərvərliyə sövq edilərsə və ya ondan məzmunsuz məşğuliyyət kimi istifadə edilərsə, qiymətsiz, hətta zərərli olar. İslam da bu istiqamətin hədəflərini, strategiyalarını və nəticəlrini qiymətləndirir. Bir qrup səhabə mübarək Ramazan gecələrinin birində sözü şer və şairliyin üstünə gətirdiyi vaxt İmam Əli (ə) buyurdu: "Bilin ki, əməl meyarınız dindir, sizi qoruyan vasitə təqvadır, bəzəyiniz ədəbdir, abrınızı qoruyan vasitə səbrdir." Şeir, əslində, vasitədir, onun qiymət meyarı istifadə edildiyi məqsəddir. Bəzən bu vasitə elə həddə çatdırılmışdır ki, fəsad və destruktivliyin əsas amilinə çevrilmişdir, bəzən bir xalqı və milləti qaniçən və əzazil düşmən qarşısında elə cəsur etmişdir ki, rəşadətlər düşmən ordusunun sıralarını dağıdaraq qəlbini parçalamışlar. İmam Sadiq (ə) buyurmuşdur: ***"Hər kəs bizim haqqımızda bir beyt şeir desə, Allah Cənnətdə onlara bir ev bina edər."***[1586]

[1585] İlələüşşəraye, c.1, səh.170
[1586] Nümunə, c.15, səh.381

"Nəml" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ta, Sin. Bu, Quranın və aydınlıq gətirən açıq-aşkar bir Kitabın ayələridir.

2. Möminlərə doğru yolu göstərən bələdçi və müjdədir.

3. O kəslərə ki, namaz qılır, zəkat verir və axirətə qətiyyətli inamları var.

4. Axirətə iman gətirməyənlərin (pis) əməllərini onlara gözəl göstərdik. Odur ki, onlar sərsəri gəzirlər.

5. Bunlar əzabı ağır olacaq kimsələrdir. Onlar axirətdə ən çox ziyana uğrayanlardır.

6. Həqiqətən, bu Quran sənə müdrik və bilən tərəfindən təlqin edilir.

7. Bir zaman Musa öz ailəsinə: “Mən, uzaqdan bir od gördüm. (Burada qalın) tezliklə ondan sizə bir xəbər və ya bir köz gətirim ki, qızınasınız”, – demişdi.

8. Odun yanına gəlib çatanda bir nida ucaldı: “Odun içindəki də, ətrafındakı da mübarək olsun. Aləmlərin Rəbbi olan Allah pak və müqəddəsdir!

9. Ey Musa! Mən yenilməz qüdrət və hikmət sahibi olan Allaham!

10. Əsanı (yerə) at!” (Musa) onun ilan kimi qıvrıldığını gördükdə dönüb qaçdı, hətta arxasına da baxmadı. “Ey Musa! Qorxma! Elçilər Mənim hüzurumda qorxmazlar.

11. Ancaq kim haqsızlıq edib sonra da pisliyi yaxşılığa çevirərəsə, (Mən onun tövbəsini qəbul edərəm) Mən bağışlayanam, rəhmliyəm!

12. Əlini qoynuna sal; çıxanda heç bir qüsursuz, ağappaq və parlaq olacaq. Bu, Firon və onun tərəfdarlarına göndərilən doqquz möcüzədən biridir. Onlar fasiq və həddi aşmış bir qövmdür!”

13. Açıq-aydın möcüzələrimiz onlara gəldikdə: “Bu, açıq-aşkar bir sehrdir!” – dedilər.

“Nəml” surəsinin ümumi məzmunu: Məkkə surələrinə xas olan məzmun bu surə üçün də spesifikdir. Etiqad baxımından daha çox başlanğıc və qayıdış mövzularını, elmi və etik yöndən beş böyük peyğəmbərin (Musa, Davud, Süleyman, Saleh və Lut (ə)) həyatını və yollarını azmış qövmləri ilə mübarizələrini əhatə edir. Bununla da həm həmin vaxt Məkkədə azlıqda olan möminlərə təsəlli və ürək-dirək verilir, həm də inadkar və zalım müşriklərə xəbərdarlıq edilir. Bu surənin üstün cəhətlərindən biri burada həzrət Süleymanla (ə) Səba kraliçasının əhvalatının böyük bir hissəsinin yer alması,

onun necə iman gətirməsindən danışılması, şanapipik quşu və qarışqanın Süleymanla danışmasından bəhs edilməsidir. Surədə Allahın sonsuz elmi, onun varlıq aləmindəki hər şeyə nəzarət etməsi və onun bəndələri üzərindəki hakimiyyətindən qanışılır[1587].

4. Reallıq və iman: İnsan həyatının ən mühüm cəhətlərindən biri budur ki, gerçəkliyi olduğu kimi dərk etsin, onunla bağlı mövqeyini aydınlaşdırsın, düşüncələri, önyarğıları, azğın meylləri, sevgisi və qəzəbi gerçəkləri görməyə və dərk etməyə mane olmasın. Buna görə də məsumların (ə) Allahdan istədiyi ən mühüm istəklərdən biri belə idi: ***"İlahi, gerçəkləri və mövcüdatı mənə olduğu kimi göstər!"*** Bu hal iman olmadan mümkün deyil. Çünki nəfsani istəklər və ehtiraslar bu yolun ən böyük maneəsidir. Maneə isə yalnız təqva, nəfsani istəklərin clovlanması sayəsində aradan qalxa bilər. Bu həqiqətin aşkar və faktiki nümunəsini dünyapərəstlərin həyatında görmək olar. Onlar yalnız utanc verən, çirkaba bulaşmış və rüsvayçılıq gətirən vasitələri, anarxiyanı, çılpaqlığı, lüks və dəbdəbəli həyat tərzini və sairəni fəxr mənbəyi hesab edib mədəniyyət göstərcisi hesab edirlər. Pis və utancverici əməlləri onlara elə gözəl göstərilir ki, onlara görə utanmamaqla yanaşı, fəxr edib qürur duyurlar[1588].

8. Odda və onun ətrafında olan: Təfsirçilər burada kimlərin nəzərdə tutulması ilə bağlı müxtəlif fikirlər irəli sürmüşlər. Daha ağlabatan rəy odda olan şəxsin Musa (ə), ətrafdakıların isə həmin vaxt bu ərazini əhatə edən yaxın mələklər olduğu deyilən rəydir. Belə ki, Musa (ə) yaşıl ağacın ortasından qalxan oda o qədər yaxınlaşır ki, sanki onun ortasında yer alır. Bunun əksi də ola blər, odun içində olan mələklər, kənarında olan isə Musadır (ə). Üçüncü təfsirdə "Odda olan şəxs" deyilərkən Allahın odun

[1587] Nümunə, c.15, səh.391
[1588] Nümunə, c.15, səh.400

içində olan nurunun, “odun ətrafında olan şəxs” deyilərkən Musanın (ə) nəzərdə tutulduğu qeyd edilmişdir. Hər halda, burada Allahın cism olması ilə bağlı şübhə yaranmaması, Allahın eyib, nöqsan və cisimlikdən uzaq olduğunu çatdırmaq üçün ayənin sonunda Allah-taala “Aləmlərin rəbbi olan Allah pak və müqəddəsdir”, - deyə buyurmuşdur[1589].

[1589] Nümunə, c.15, səh.406

14. Ürəklərində buna qəti əmin halda, haqsızcasına və özlərini üstün tutaraq onu inkar etdilər. Bax gör, fəsad törədənlərin aqibəti necə oldu!

15. Biz Davuda və Süleymana böyük bir elm verdik. Onlar dedilər: “Həmd bizi öz mömin qullarının çoxundan üstün tutan Allah üçündür!”

16. Süleyman Davuda varis oldu və dedi: “Ey insanlar! Bizə quşların dili öyrədildi və bizə hər şeydən verildi. Bu, açıq-aşkar üstünlükdür”.

17. Süleymanın cinlərdən, insanlardan və quşlardan ibarət qoşunu onun üçün toplandı. O qədər çox idilər ki, bir-birinə qoşulmaq üçün dayanmalı idilər.

18. Nəhayət, onlar qarışqa vadisinə gəlib çatdıqda bir qarışqa dedi: “Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və qoşunu özləri də hiss etmədən sizi tapdayıb məhv etməsin”.

19. (Süleyman) onun bu sözünə gülümsədi və dedi: “Ey Rəbbim! Mənə həm mənim özümə, həm də valideynlərimə əta etdiyin nemətə şükür etmək, Sənin razılığına səbəb olacaq yaxşı əməl etmək üçün ilham ver və məni əməlisaleh bəndələrinin sırasında öz mərhəmətinə qovuşdur!”

20. (Süleyman) o (şanapipiyi) axtarıb dedi: “Şanapipiyi nə üçün görmürəm? Yoxsa o burada yoxdur?

21. O, mənə aşkar bir dəlil gətirməsə, ya ona şiddətli bir əzab verəcəyəm, ya da başını bədənindən qoparacağam”.

22. Çox keçmədi (şanapipik gəldi və) dedi: “Mən sənin bilmədiyin bir şeyi öyrəndim. Sənə Səbadan qəti bir xəbər gətirmişəm.

--

14. Kafirin məlumatı: Bu ayəyə əsasən deyə bilərik ki, həqiqi iman heç də elm və qəti əminlik deyil, küfür bilərəkdən, əminlik olduğu halda, inkarçılıq üzündən də baş verə bilər. Başqa sözlə desək, həqiqi iman haqq qarşısında tam şəkildə təslim olmaqdır. Deməli, insan nəyəsə qəti əmin olduğu halda, əmin olduğu həqiqət qarşısında zahirən və daxilən təslim olmazsa, iman gətirmiş sayılmır. Bu cür insanlar bilərəkdən inkarçı olan insanlar qrupuna aid edilir. İmam Sadiq (ə) küfrün beş qismini bəyan edərkən inkar etməni onlardan biri kimi qeyd edir. Qəsdən inkarçılığı isə belə izah edir: "Qəsdən inkarçılıq insanın nəyinsə haqq olduğuna qəti şəkildə əmin olduğu halda, inkar etməsinə deyilir". Daha sonra İmam (ə) nəzər nöqtəsi olan ayəni oxumuşdur[1590].

16. Quşların dili: Bu ayədə quşların danışa bilməsi, şüur və dərk sahibi olduqları açıq şəkildə qeyd edilmişdir. Quşlar digər heyvanlar kimi, müxtəlif vəziyyətlərdə fərqli-fərqli səslər çıxarırlar. Dəqiq araşdırma və diqqət sayəsində bu səs fərqlərindən onların vəziyyətlərini müəyyən etmək olar. Qəzəb, sevinc, aclıq və sair halları ifadə edən səslər demək olar ki, bir-birindən fərqlənir. Lakin nəzər nöqtəsi olan ayələrdə daha fərqli məzmundan danışılır. Ayələrdə onların dəqiq məlumatları əks etdirən, insanlarla ünsiyyəti ehtiva edən nitq sahibi olduqları qeyd edilmişdir. Bu, bəzilərinə qəribə görünsə də, alimlərin apardığı araşdırmalar və bəzi quşlarla bağlı müşahidələr burada heç bir qəribəçiliyin olmadığını göstərir. Heyvanların, xüsusilə quşların zəkası ilə bağlı daha heyrətamiz məlumatlar mövcuddur. Onların yuva düzəltmə qabiliyyəti, körpələrinin gələcək vəziyyəti,

---

[1590] Nümunə, c.15, səh.413

ehtiyacları və çətinlikləri ilə bağlı məlumatları, bir neçə ay öncədən havanın necə olmasını bilmələri, baş verməzdən əvvəl zəlzələdən xəbərdar olmaları, ümumiyyətlə, quşlar və heyvanlarla bağlı əlimizdə olan bu qəbil məlumatlar casnlıların çox yüksək şüur və idraka malik olduqlarından xəbər verir. Bütün bu faktlara əsasən onların özlərinə məxsus danışıq qabiliyyətinə malik olması, onların dillərini bilən insanlarla bildikləri dildə danışa bilmələri heç də təəccüblü deyil. Quranın digər ayələrində də bu mövzunun müxtəlif formalarına işarə edilmişdir (Ənam surəsi-38). Hədislərdə və bu mövzu haqqında çox danışılmışdır. İmam Sadiqin (ə) hədislərinin birində İmam Əlinin (ə) İbn Abbasa belə buyurduğu qeyd edilmişdir: ***"Allah həzrət Süleymana öyrətdiyi kimi, quşların, quruda və suda yaşayan bütün canlıların dilini bizə öyrətdi."***[1591]

17. Həzrət Süleymanın (ə) hökmranlığının sərhədləri: Bu ayəni təfsir edərkən bütün insanların, cinlərin, quşların, yoxsa onların bir qisminin həzrət Süleymanın (ə) ordusunu təşkil etməsi bəzi təfsirçilər arasında fikir ayrılığının yaranmasına səbəb olmuşdur. Əslində, Süleyman bütün yer üzünün hakimi deyildi, onun hakimiyyətinin sərhədləri Şam, Beytül-müqəddəs və ehtimal ki, bəzi ətraf əraziləri əhatə edirdi. Hətta sonrakı ayələrdən belə məlum olur ki, şanapipiyin əhvalatına qədər Yəmən onun hökmranlığı altında olmamışdır. Yəmən yalnız şanapipiyin əhvalatından və Səba kraliçası təslim olduqdan sonra onun hakimiyyəti altına keçmişdir. Habelə, bu ayələrdən belə məlum olur ki, quşlar arasında yalnız bir şanapipik onun əmrində idi. Çünki Süleyman (ə) onu görmədikdə

[1591] Nümunə, c.15, səh.422

axtarmışdır. Əgər söhbət bütün quşlar, o cümlədən minlərlə şanapipikdən getsəydi, bu ifadə düzgün olmazdı[1592].

23. Mən onlara hökmranlıq edən, ixtiyarında hər şey və çox böyük bir taxtı olan bir qadın gördüm.

[1592] Nümunə, c.15, səh.432

24. Mən onun və tayfasının Allahı qoyub günəşə səcdə etdiklərinin şahidi oldum. Şeytan əməllərini onların gözündə gözəl göstərmiş və onları yoldan çıxartdığına görə haqqın yolunu tapa bilmirlər.”

25. Nə üçün göylərdə və yerdə gizli olanı aşkara çıxardan, sizin gizlətdiklərinizi də, üzə çıxartdıqlarınızı da Bilən Allaha səcdə etməsinlər.

26. Böyük ərşin Rəbbi olan Allahdan başqa ilah yoxdur.

27. (Süleyman) dedi: “Araşdıraq görək, sən doğru deyirsən, yoxsa yalançılardansan.

28. Mənim bu məktubumu apar onların yanına at. Sonra qayıt (bir guşədə dayan) və bax gör nə reaksiya verəcəklər!”

29. (Səba kraliçası) dedi: «Ey əyanlar! Mənə çox qiymətli bir məktub atıldı.

30. Bu məktub Süleymandandır və onda deyilir: “Rəhman və Rəhim Allahın adı ilə!

31. Tövsiyəm budur ki, mənə qarşı təkəbbür göstərməyin və yanıma Haqqa təslim olan halda gəlin!”»

32. (Sonra) dedi: “Ey əyanlar! Bu əhəmiyyətli məsələ barəsində fikrinizi mənə bildirin. Mən heç bir mühüm işi sizin iştirakınız (və məsləhətiniz) olmadan etməmişəm.”.

33. Dedilər: “Biz kifayət qədər böyük qüdrətə və çox böyük hərbi gücə malikik. Ancaq son qərar sənindir, bax gör, nə qərar verirsən!”

34. Dedi: “Hökmdarlar hər hansı bir məmləkətə soxulduqları zaman oranı viran qoyar, xalqının hörmətli adamlarını da xar edərlər. Onlar bax belə edərlər.

35. Mən onlara bir hədiyyə göndərəcəyəm və baxacağam görüm elçilər nə xəbər gətirəcəklər.

29-30. Məktub yazmaq üsulu: Bu ayələrdə mühüm və tale yüklü məsələlərdən bəhs edən məktubun hansı formada yazılması göstərilmişdir. Süleymanın (ə) məktubu "Rəhman və Rəhim olan Allahın adı ilə" başlayır və əsas mətləb iki cümlə ilə çatdırılır. Bizim böyük imamlarımız məktubların qısa və lakonik, lazımsız və artıq sözlərə yol verilmədən, tamamilə ölçülüb-biçilərək yazılmasını israrla tövsiyə etmişlər. Möminlərin əmiri İmam Əli (ə) məktublarının birində işçi və nümayəndələrindən birinə belə yazmışdır: ***"Qələmlərinizin ucunu iti edin, sətirləri bir-birinə yaxın edin, məktublarınızda mənə artıq sözlər yazmaqdan çəkinin, daha çox məzmuna fikir verin, uzunçuluğa yol verməyin. Çünki müsəlmanlar bu zərər və xərci ödəyəcək imkana malik deyillər."*** Bu göstəriş müsəlmanların malına qənaət edilməsi ilə yanaşı, yazıçının və oxucunun da vaxtının qənaət edilməsinə səbəb olur. Bu qaydalara riayət edilməməsi məktubun əsas məqsədinin şablon cümlələr arasında itib-batması, yazıçı və oxucunun öz məqsədlərinə çatmaması ilə nəticələnir. Adətən, məktub insanın şəxsiyyətindən xəbər verir. İmam Əli (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Sənin başqalarına göndərdiyin elçi ağlının tərcümanıdır, məktubun sənin tərəfindən danışan ən parlaq vasitədir."*** İmam Sadiq (ə) buyurmuşdur: ***"Məktub insanın ağlının miqyasının və bəsirətinin ölçüsünün göstəricisidir."*** Hədislərdə məktubun cavabının salama cavab qədər vacib olduğu qeyd edilmişdir. İmam Sadiq (ə) buyurmuşdur: "Salamın cavabı vacib olduğu kimi, məktubun da cavabı vaqcibdir."[1593] Təfsirçilər həzrət Süleymanın (ə) məktuba "Rəhman və Rəhim Allahın adı ilə" cümləsi ilə bağlaması və bu məzmunu ehtiva edən hədislərə istinad edərək bu cümlənin təkcə məktub deyil, bütün işlərin əvvəlində qeyd edilməsinin

[1593] Nümunə, c.15, səh.456

faydalı, hətta lazımlı olduğunu bildirmişlər. Məsələn, dəstəmaz alarkən bu cümlənin deyilməsi bədənin tam şəkildə pak olması, həmd və surənin astadan oxunması lazım olan namazlarda (zöhr və əsr), habelə müstəhəb namazlarda ucadan deyilməsi namaz vaxtı şeytanın namaz qılandan uzaqlaşmasına, çətinliklərlə qarşılaşdıqda deyilməsi çətinliklərin aradan qalxmasına, miniyə minərkən təhlükələrdən qorunmaya, hər hansı məkana və evə daxil olarkən bərəkət oraya nazil olmasına, şeytanların həmin yerdən qovulmasına səbəb olur. Evin və ev sakinlərinin bəlalardan qorunması üçün bu cümlənin evlərin giriş qapısına yazılması məsləhətdir[1594].

34-35. Hökmdarların xüsusiyyətləri: Bu ayələrdə despot hökumət və imperiyaların məmləkətlərin məhvinə və hörmətli insanların xar olmasına səbəb olduğu qeyd edilmişdir. Belə ki, despot hakimiyyətlər şəxsiyyətli insanları idarəçilikdən kənarlaşdırır, yaltaqları işə götürür, yalnız öz mənfəətlərini güdürlər. Onlar hədiyyə, rüşvət, var-dövlət düşkünü olurlar, bu işlərlə məşğul olanlar onlar üçün daha əzizdir. Şahların fikri və düşüncələri var-dövlət və şan-şöhrət əsiri olduğu halda, peyğəmbərlər yalnız xalqların islahını düşünürlər. Şahlar hədiyyələrə çox düşkün olurlar, zəif cəhətləri də məhz elə budur. Onların qiymətli hədiyyələrlə ram etmək olar. Buna görə də Səba kraliçası Süleymana (ə) hədiyyə göndərib onun şah, yoxsa peyğəmbər olduğunu öyrənmək istəyir. O fikirləşir ki, əgər Süleyman (ə) hədiyyəni qəbul etsə, deməli, istək və arzularının arxasınca düşüb ölkələr fəth etmək istəyən bir şahdır, yox əgər hədiyyələri qəbul etməsə, deməli, onun məqsədi hökmranlıq, işğal və şan-şöhrət deyil, başqadır. Buna görə də onunla ağılla davranmaq lazımdır[1595].

[1594] Ətyəbül-bəyan, c.15, səh.133
[1595] Nümunə, c.15, səh.455

36. (Səba kraliçasının elçiləri) Süleymanın yanına gəldikdə o dedi: “Siz mənə mal-dövlətləmi yardım etmək istəyirsiniz? Allahın mənə bəxş etdiyi sizə verdiyindən daha yaxşıdır. O sizlərsiniz ki, öz bəxşişlərinizlə fərəhlənirsiniz.

37. Onların yanına qayıt! Biz onların üstünə qarşısında dura bilməyəcəkləri bir ordu ilə gəlib onları oradan xar və alçalmış vəziyyətdə çıxaracağıq!”

38. (Süleyman) dedi: “Ey əyanlar! Onlar müti olaraq yanıma gəlməmiş sizlərdən hansınız onun taxtını mənə gətirə bilər?”

39. Cinlərdən olan bir ifrit dedi: “Sən məclisdən qalxmamış mən onu sənə gətirərəm. Mən bu işi görməyə çox qüvvətliyəm, etibarlıyam!”

40. Kitabdan xəbəri olan bir nəfər isə belə dedi: “Mən onu sənə bir göz qırpımında gətirərəm!” (Süleyman) onu (taxtı) yanında hazır durmuş görən kimi dedi: “Bu, Rəbbimin lütfündəndir ki, məni sınağa çəksin, görək şükür edəcəyəm, yoxsa nankor olacağam! Kim şükür etsə, öz xeyrinə şükür

etmiş olur, kim də nankor olsa, (öz zərərinə olur,) Rəbbim ehtiyacsız və kərimdir!”

41. (Süleyman) dedi: “Onun taxtını tanınmaz hala salın, görək onu tanıyacaq, yoxsa haqqı tapmayanlardan olacaq?”

42. O gəldikdə ona: “Taxtın bu cürdürmü?” – deyildi. O: “Deyəsən odur! Biz bundan öncə bilmiş və müsəlman olmuşuq!” – deyə cavab verdi.

43. (Süleyman) Onu Allahdan başqa tapındığı şeydən çəkindirdi. Çünki o, kafir bir tayfadan idi.

44. Ona: “Həyətə (sarayın həyətinə) daxil ol!” – deyildi. Oraya baxdıqda oranın göl olduğunu güman etdi və (sudan keçmək üçün) ətəyini çırmaladı. (Süleyman) dedi: “Bu, (su deyil,) hamar büllurdan düzəldilmiş bir saraydır!” (Kraliça) dedi: “Ey Rəbbim! Mən özümə zülm etmişəm. İndi isə Süleymanla aləmlərin Rəbbi olan Allaha təslim oldum!”

---

39. Cinlərdən olan ifrit və kitabdan xəbəri olan şəxs: “İfrit” təkəbbürlü və hiyləgər deməkdir. “Mən bu işi görməyə çox qüvvətliyəm, etibarlıyam!” cümləsi də bu ifritin xəyanət edə biləcəyindən ehtiyat edildiyini göstərir. Buna görə də ifrit özünü müdafiə edərək əmanətdar və vəfalı olacağına söz verir. Soruşula bilər ki, cinlərdən olan bir ifrit belə bir qeyri-adi işi necə bacara bilərdi? Qeyd etməliyik ki, hətta imanı olmayan şəxslər də bəzən nəfsi ilə mübarizə və ağır məşqlər sayəsində qeyri-adi işlər görə bilərlər. Lakin onların gördükləri qeyri-adi işlərlə möcüzənin fərqi ondadır ki, bu işlər insanın məhdud gücünə əsaslandığı üçün hər zaman məhduddur. Halbuki möcüzə isə Allahın sonsuz qüdrətindən qaynaqlanır, digər atributları kimi bu da sonsuzdur. Bu fərqi əks etdirən ən bariz nümunə cinlərdən olan ifritlə kitabdan xəbəri olan şəxsin fərqini ehtiva edən

ayələrdir. Ayədə işarə edilən şəxsin kimliyi, malik olduğu elmi haradan əldə etməsi “kitabın elmi” deyilərkən nə nəzərdə tutulması məsələsi təfsirçilər arasında fikir ayrılıqlarına səbəb olmuşdur[1596]. Əhli-beyt (ə) hədislərində həmin şəxsin həzrət Süleymanın (ə) vəziri və özündən sonrakı canişini olan Asəf ibn Bərxiya olduğu qeyd edilmişdir[1597]. Bəziləri bildirir ki, bu imanlı şəxs Allahın əzəmətli adlarından xəbərdar olmuşdur. Belə ki, hər bir şey bu adlar qarşısında təzim edir və onlar insana qeyri-adi güc bəxş edir. Əlbəttə, bu o demək deyil ki, insan onları deməklə onlar güclü təsir yaradırlar. Allahın əzəmətli adlarını bilmək deyərkən insanın onları öz ruhuna və canına hopdurması, bilik, əxlaq, təqva və iman baxımından həmin adların məzhərinə çevriləcək kamilliyə çatması nəzərdə tutulur. Bir şöləsi də əzəmətli ad olan bu mənəvi və ruhi kamillik insana belə bir qeyri-adilik yaratmaq gücü bəxş edir[1598]. Ayənin məzmunundan belə məlum olur ki, həmin şəxsin xüsusi bir elmi və Allahla yaxınlığı olmuşdur. Çünki nə zaman Allahdan bir şey istəsəydi və istəyini dilə gətirsəydi, Allah istəyini verərmiş[1599].

41-44. Süleymanın (ə) tərbiyə metodu: Ayələrdə Süleymanın (ə) Səba kraliçasının iman gətirməsinə səbəb olacaq iki davranış tərzindən söhbət açılır. Birincisi bu idi ki, o, Səba kraliçasının taxtını qeyri-adi şəkildə öz sarayına gətirib tanınmaz şəkilə salmışdı. Halbuki yüksək zəkaya və düşüncəyə malik olan kraliça öz taxtını görən kimi onu tanımış və Süleymanın ilahi və qeyri-adi gücə malik olduğunu başa salmaq istəyində olduğunu anlamışdı. Buna görə də ona “Buna ehtiyac yox idi, biz bundan əvvəl Süleymanın qüdrətindən xəbərdar olmuş və ona tabe olmuşuq”

[1596] Nümunə, c.15, səh.468
[1597] Əl-Mizan, c.15, səh.364
[1598] Nümunə, c.15, səh.470
[1599] Əl-Mizan, c.15, səh.364

demişdi. Süleyman (ə) daha sonra öz peyğəmbərliyini sübuta yetirmək üçün başqa bir əlamət göstərmiş, kraliçanı sarayın hamar büllurdan düzəlmiş həyətinə dəvət etmişdir. Sarayın həyətinin döşəməsi elə düzəldilmişdi ki, kraliça oranın su hovuzu olduğunu güman etmiş, buna görə də oradan keçmək üçün ətəyini çırmalamışdır. Ancaq sonra başa düşmüşdür ki, burada heç bir su yoxdur, büllur döşəmə o qədər hamardır ki, saf su kimi görünür. Burada artıq Süleymanın (ə) adi bir insan olmaması, həqiqətən, Allahla əlaqəsinin olması ilə bağlı onda heç bir şək-şübhə qalmamışdır. Kraliça şanapipiyin gəliş forması, Süleymanın (ə) hədiyyə qəbul etməməsi, taxtın gətirilməsi hadisələrini gördükdən sonra tərəddüd etmədən dərhal öz qaranlıq keçmişini etiraf etmiş, Allah qarşısında təslim olub ona iman gətirmişdir. Süleyman (ə) ordu yürütmədən və qan tökmədən bu cür məsələlərdə əhəmiyyət verən qadın psixologiyasını nəzərə alaraq, kraliçanı heyrətləndirir və müharibə olmadan istəyinə nail olur[1600].

[1600] Nümunəyə istinadən, c.15, səh.479; Əl-Mizan, c.15, səh.366

45. Biz Səmud tayfasına – Allaha ibadət edin deyə, qardaşları Salehi göndərdik. Onlar isə bir-biri ilə düşmənçilik edən iki firqəyə bölündülər.

46. O dedi: “Ey qövmüm! Nə üçün yaxşılıqdan qabaq pisliyə tələsirsiniz? Nə üçün Allahdan bağışlanmağınızı diləmirsiniz? Ola bilsin ki, sizə rəhm oluna”.

47. Onlar dedilər: “Biz sənin və sənինlə birlikdə olanların ucbatından uğursuzluğa düçar olduq”. (Saleh) dedi: “Sizin uğursuzluğunuz Allah yanındadır. Siz aldanmış bir camaatsınız”.

48. O şəhərdə doqquz kiçik qrup var idi ki, yer üzündə fitnə-fəsad törədir, yaxşı işlər görmürdülər.

49. Onlar dedilər: “Gəlin Allaha and için ki, gecə ona və ailəsinə basqın edəcək (onları öldürəcək), sonra da onun qan qohumuna deyəcəyik ki, biz onun ailəsinin öldürüldüyündən xəbər tutmamışıq və biz düzünü deyirik”.

50. Onlar plan cızıb tədbir tökdülər, Biz də tədbir tökdük. Lakin onlar hiss etmədilər.

51. Bax gör onların hiylələrinin aqibəti necə oldu. Biz onları bütün tayfaları ilə birlikdə yerlə-yeksan etdik.

52. Zülm və haqsızlıqları ucbatından boş qalmış evləri də budur. Bunda bilən adamlar üçün əlamət vardır.

53. İman gətirib təqvalı olanları isə xilas etdik.

54. Lutu (yada sal.) Bir zaman öz qövmünə demişdi: “Gözünüz görə-görə çirkin işmi görəcəksiniz?

55. Siz qadınları qoyub ehtiras ucbatından kişilərin yanınamı gedəcəksiniz? Siz nadan bir qövmsünüz!”

---

46. Bağışlanma diləməyin əsl mahiyyəti: Bu ayədə həzrət Salehin (ə) bağışlanma diləməyi Allahın rəhmətini cəlb edən amil olduğunu dediyini görürük. Yaddan çıxarmamalıyıq ki, bağışlanma diləmək dillə ifadə etməkdən daha üstün məzmun daşıyır. Bir nəfər İmam Əlinin (ə) yanında “Allahdan bağışlanma diləyirəm” deyir. İmam Əli (ə) buyurur: ***“Anan matəmində otursun. Bilirsən bağışlanma diləmək nə deməkdir? Bağışlanma diləmək böyük insanlara xasdır. Bağışlanma diləmək altı mənanı ehtiva edir: 1. Keçmişlə bağlı peşmançılıq; 2. Günaha dönmənin həmişəlik tərk edilməsində qərarlılıq; 3. Allahla günah yükündən xilas olmuş halda görüşmək üçün insanların haqlarını geri qaytarmaq; 4. Yerinə yetirilməmiş bütün vaciblərin yerinə yetirilməsi; 5. Bədəndə haramdan yaranmış əti dəri sümüyə bitişəncəyə və dəri ilə sümük arasına yeni ət gələnə qədər qəm-qüssə çəkmək; 6. Bədənə günahın şirinliyini daddığı kimi, itaət əziyyətini daddırmaq. Yalnız bundan sonra “Allahdan bağışlanmaq diləyirəm” de!”***[1601]

48-49. Fəsad törədən doqquz qruplaşma: Bu ayədə işarə edilən şəhər “Hicr” şəhəridir. Şəhər Şamla Hicazın arasında Səmud qövmünün yaşadığı “Vadiyül-qora” adlı ərazidə yerləşi. Orada doqquz kiçik qrup var idi. Onlar qərara gəlirlər ki, gecə vaxtı Salehin evinə basqın edib onu ailəsi ilə bilikdə

[1601] Nəhcül-bəlağə, Qısa kəlamlar, 417-ci kəlam

həlak etsinlər və sonra da Salehin qan qohumuna bu qətldən xəbərsiz olduqlarını desinlər. Bənzər planı müşriklər Peyğəmbərin (s) zamanında da düşünmüşdülər. Belə ki, Məkkə müşrikləri Peyğəmbəri (s) aradan götürməklə bağlı qərar qəbul edirlər. Ancaq bu qərarı necə icra edəcəkləri ilə bağlı konkret fikrə gələ bilmirlər. Bu vaxt Şeytan qoca bir kişi simasında məclisə daxil olur, qırx qəbilədən qırx nəfərin toplanmasını, gecə ikən Peyğəmbərin (s) evinə basqın edib onu qətlə yetirmələrini təklif edir. Bu minvalla Peyğəmbərin (s) qətlində qırx nəfərin əli olduğu üçün qanı itəcək və yaxın qohumları qanbahası istəmək məcburiyyətində qalacaqdılar. Əlbəttə, ilahi yardımlar və həzrət Əlinin (ə) fədakarlığı sayəsində onların planları alt-üst olur (Bəqərə - 207). Bəzi təfsirçilər yazırlar ki, Salehi (ə) öldürmək istəyən doqquz qrup mələklər tərəfindən atılmış daşlar vasitəsilə həlak edilir. Bəziləri yazır ki, Saleh (ə) kimsə hiss etmədən onların arasında keçib getmiş və o getdikdən sonra Allah-taala əzab göndərərək onları məhv etmişdi. Bəziləri isə onların dağa qalxdıqlarını, orada Salehi (ə) gözləyərkən dağın üzərlərinə aşıb onları məhv etdiyi yazırlar[1602].

52. Boş evlər: “Xaviyət” sözünün kökü “xavə”, mənası isə süquta uğrayan, viran qalan və boşalandır. Bu ifadə axan ulduzlar haqqında da işlədilir. “Xavən-nəm”, yəni ulduz axdı. Əslində, “xavə” sözünün əsl mənası boşalmaqdır. Bu söz ac qarınlar, puç qoz, yağışsız ulduzlar (cahiliyyə dövrünün iərəblərinin inancına görə üfüqdə görünən hər bir ulduzun bir yağışı vardır) haqıqnda işlədilir. Bu ayədə Səmud qövmünün evlərinin törətdikləri zülm və haqsızlıq nəticəsində boş qaldığı, onlardan heç bir səs-səmir, hənirti gəlmədiyi, günah dolu məclislər, naz-nemətlər və təm-

[1602] Ətyəbül-bəyan, c.10, səh.152

təraqdan heç bir əsər-əlamət qalmadığı buyurulur. Əlbəttə, zülm və haqsızlıq odu onları yandırıb viran qoymuşdu[1603].

56. Qövmünün cavabı isə ancaq: “Lutun ailəsini şəhər və diyarınızdan çıxarın. Çünki onlar ismətli insanlardır!” – demələri oldu.

[1603] Nümunə, c.15, səh.498

57. Biz onu və ailəsini xilas etdik. Yalnız arvadından başqa. Biz onun geridə qalanlardan olmasını istədik.

58. Biz onların üstünə yağış yağdırdıq. Qorxudulanların yağışı necə də pisdir!

59. De: “Həmd Allaha məxsusdur, salam olsun Onun seçilmiş bəndələrinə! Allah yaxşıdır, yoxsa Ona şərik qoşduqlarınız?

60. (Şərik qoşduğunuz bütlər yaxşıdır,) yoxsa göyləri və yeri yaradan? Sizin üçün göydən su göndərdik, onunla gözəl və ürək oxşayan bağlar saldıq. Halbuki siz onların ağaclarını da böyüdə bilməzdiniz. Heç Allahla yanaşı başqa bir məbudmu var? Xeyr, onlar (nadanlıqları ucbatından yaranmışları Rəblərinə) bərabər tutanlardır.

61. Yoxsa yeri sabit edən, arasından çaylar axıdan, üzərində möhkəm duran dağlar yaradan və iki dənizin arasında maneə qoyan? Allahla yanaşı başqa bir məbudmu var? Xeyr, onların çoxu bilmir.

62. Yoxsa darda qalan dua etdiyi zaman onu qəbul edən, şəri sovuşduran və sizi yer üzünün xəlifələri edən? Allahla yanaşı başqa bir məbudmu var? Çox az xatırlayırsınız.

63. Yoxsa səhranın və dənizin qaranlıqlarında sizi yönləndirən, külәkləri rəhmətindən əvvəl (yağışdan qabaq) müjdəçi kimi göndərən? Allahla yanaşı başqa bir məbudmu var? Allah onların qoşduqları şəriklərdən ucadır.

---

59. “Həmd aləmlərin Rəbbi üçündür” ifadəsinin savabı: Əhli-beyt (ə) hədisrlərində “Həmd aləmlərin Rəbbi üçündür” (“Əlhəmdulillah” zikri) ifadəsini deməyin çox savabı olduğu qeyd edilmişdir. Bir gün Müfəzzəl İmam Sadiqdən (ə) “Mənə ümumi və əhatəli bir dua öyrət”, - deyə xahiş

etdikdə İmam (ə) buyurur: “Allaha həmd və şükür et. Elə bir namaz qılan qalmaz ki, sənə dua etməsin. Çünki onlar namaz qılarkən “Səmiəllahu limən həmidəh” (Allah həmd və şükür edənin həmd və şükürünü eşidir)”, - deyirlər.” Başqa bir hədisdə belə deyilir: Əgər bir nəfər gün ərzində dörd dəfə həmd desə, həmin günün şükürünü etmiş sayılır; əgər gecə həmd desə, həmin gecənin şükürünü etmişdir. İnsan hətta xoşluq və çətinlik vaxtları da Allaha həmd və şükür etməlidir. Nemət verildikdə “Bu nemətə görə Allaha həmd olsun”, bəla ilə qarşılaşdıqda “Hər bir vəziyyətə görə Allaha həmd olsun” desin.”[1604]

59. Allahın seçilmiş bəndələrinə salam olsun: “Seçilmiş bəndələr” deyilərkən peyğəmbərlər və pak imamlar (ə) nəzərdə tutulur. “Ali-İmran” surəsinin 33-cü ayəsində belə deyilir: “Allah Adəmi, Nuhu, İbrahimin nəslini və İmranın nəslini seçib aləmlərdən üstün etdi.” Təfsirçilər yazırlar ki, Allah-taala bu cümlə ilə məsumların, yəni peyğəmbər və imamların digər insanlardan üstün olduğunu, Əhli-beyt imamları (ə) İbrahimin (ə) nəslindən olduğunu yazırlar[1605]. Hədislərdə də Peyğəmbərin (s) pak ailəsinin bu ayənin aşkar prototiplərindən olduğu qeyd edilmişdir (Daha ətraflı məlumat üçün bax:“Ali-İmran” surəsinin 33-cü ayəsi)[1606].

62. Darda qalanın duası: Bu ayədə Allah tərəfindən problemlərin həll edilməsi, dalanların aradan qalxması və duaların qəbul edilməsindən danışılır. Səbəblər dünyasının bütün qapıları insanın üzünə bağlandıqda, bıçaq sümüyə dirəndikdə, insanın əli hər tərəfdən üzüldükdə problemlər düyününü açan, dalanları aradan qaldıran, qəlblərə ümid nuru bəxş edən, rəhmət qapılarını dara düşmüş insanın üzünə açan yalnız Allahdır. Allah

---

[1604] Ətyəbül-bəyan, c.10, səh.163
[1605] Ətyəbül-bəyan, c.10, səh.164
[1606] Əl-Mizan, c.15, səh.393

bütün dua şərtlərini özündə cəm edən duaçının duasını qəbul etməsinə baxmayaraq, bu ayədə "darda qalanlar" ifadəsini xüsusi olaraq qeyd edir. Çünki dua şərtlərindən biri insanın bütün səbəblər aləmindən əl üzməsi, bütün qəlbini və ruhunu Allahın ixtiyarına verməsi, hər şeyin Ondan olduğuna, bütün müşküllərin həllinin Onun əlində olmasına əmin olmasıdır. Bu düşüncə isə özünü yalnız insan darda olduğu vaxt büruzə verir. Doğrudur ki, bu dünya səbəblər dünyasıdır və mömin bütün səy və fəaliyyətlərini bu istiqamətdə həyata keçirir, ancaq səbəblər dünyasında itib-batmır, hər şeyin Onun pak zatının bərəkətindən qaynaqlandığını yaddan çıxarmır. Bu isə duanın qəbul olunmasının ən mühüm şərtidir. Bəzi hədislərdə bu ayə İmam Mehdinin (ə) qiyamına yozulmuşdur. Hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Bu ayə Ali-Muhəmmədin Mehdisi haqıqnda nazil edilmişdir. And olsun Allaha, qəm-qüssə içində olan və çıxılmaz vəziyyətdə qalan odur. İbrahim məqamında iki rükət namaz qılıb əlini Allah dərgahına qaldıraraq dua etdiyində Allah-taala onun duasını qəbul edəcək, narahatlıqlara son qoyacaq və onu yer üzünün xəlifəsi edəcək."*** Təbii ki, ayənin məzmunu daha genişdir. Onun nümunələrindən biri həzrət Mehdinin (ə) varlığıdır. Yer üzünü fitnə-fəsad bürüdüyü, insanların çətinliklər içində çıxılmaz vəziyyətdə qaldıqları, bütün dünyanı qəm-qüssə bürüdüyü vaxt o dünyanın ən müqəddəs yerində dua edəcək, çətinliklərin aradan qalxmasını istəyəcək və Allah-taala da onun duasını müqəddəs dünya inqilabının başlanğıcı edərək, "Sizi yer üzünün xəlifəsi edəcək" ayəsində də buyurulduğu kimi, onu və dostlarını yer üzünün canişinləri edəcək[1607].

[1607] Nümunə, c.15, səh.517-520

64. Yoxsa məxluqatı əvvəldən yaradan, sonra onu yenidən qaytaran, sizə göydən və yerdən ruzi verən? Allahla yanaşı başqa bir məbudmu var?” De: “Əgər doğru deyirsinizsə, dəlilinizi gətirin”.

65. De: “Allahdan başqa göylərdə və yerdə olanların heç biri qeybi bilməz. Nə zaman diriləcəklərini də bilmirlər.

66. Onların (müşriklərin) axirət haqqında heç bir doğru-düzgün məlumatları yoxdur, əksinə, onun barəsində şəkk-şübhə içindədirlər, hətta ona qarşı kordurlar”.

67. Kafirlər dedilər: “Biz və atalarımız torpağa qarışdıqdan sonra torpaqdan çıxardılacağıq?

68. Bu, həm bizə, həm də daha əvvəl atalarımıza verilmiş bir vəddir. Bu, keçmişdəkilərin uydurma əfsanələrindən başqa bir şey deyildir”.

69. De: “Yer üzündə gəzib dolaşın və görün günahkarların aqibəti necə olmuşdur”.

70. Onlara görə kədərlənmə və qurduqları hiylələrdən ötrü də ürəyini sıxma.

71. Onlar: “Əgər doğru deyirsinizsə, bu vəd nə vaxt olacaq?” – deyirlər.

72. De: “Bəlkə də tələsik istədiyiniz şeyin bir qismi artıq sizə yaxınlaşmışdır”.

73. Həqiqətən, sənin Rəbbin insanlara qarşı lütfkardır, lakin onların çoxu naşükürdür.

74. Şübhəsiz ki, sənin Rəbbin onların qəlblərində gizli saxladıqlarını və aşkar etdiklərini bilir.

75. Göydə və yerdə elə bir gizli şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-məhfuzda və Allahın sonsuz elm xəzinəsində) olmasın.

76. Bu Quran İsrail oğullarına ixtilafda olduqları şeylərin çoxunu onlara bəyan edir.

---

66. Kor dünyapərəstlər: “İddə˜rəkə” sözü “tədə˜rəkə” sözündən düzəlmiş mənası bir şeyin hissələrinin hamısının zəncirin halqaları kimi tamamlanana qədər birinin digərinin ardınca gəlməsdir. Deməli, ayənin mənası belə olur: Onlar bütün elmlərini və biliklərini axirətdən başqa şeylərə sərf etdilər, nəhayət, axirət üçün heç bir dərk yolu saxlamadılar. Bu cəhətdən nəzər nöqtəsi olan ayə “Bizi xatırlamaqdan üz çevirib yalnız dünya həyatı istəyən şəxsdən üz çevir. Onların bilik səviyyəsi budur...” (Nəcm-29-30) ayəsinə bənzəyir. Ayədə elmin axirət bilgisindən məhrum olma mərhələlərinə və inadkar müşriklərin onun ən yüksək həddində olmasına

işarə edilmişdir. “Onların (müşriklərin) axirət haqqında məlumatları yoxdur”, yəni onların axirət haqqında heç bir bilgiləri yoxdur, “əksinə, onun barəsində şəkk-şübhə içindədirlər”, yəni, Qiyamət haqqında eşitsələr də, bildikləri qəlbələrinə nüfuz etməmiş, bu haqda qəti inama malik olmamış, əksinə, ona şək-şübhə ilə yanaşırlar. “Hətta ona qarşı kordurlar”, yəni Qiyamətə inanmamaları çirkin inanclarının və əməllərinin ruhlarının gözünü kor etməsi, nəticədə, düşüncə və dərkdən məhrum qoyması ilə bağlıdır. Onlar bu səbəbdən axirət günündən xəbərsizliyin son həddindədirlər və onunla bağlı bütün dərk yolları bağlıdır[1608].

72. Tələskənlik nə üçündür? “Radifə” sözü “radf” sözündən götürülmüş, mənası hər hansı şeyi izləməyə deyilir. Buna görə də at minənə “fadif” deyilir. Habelə, bu söz bir-birlərinin arxasınca düzülmüş fərdlər və əşyalar haqqında işlədilir. Bəziləri hesab edir ki, “əzab” deyilərkən burada müsəlmanlarla kafirlərin ilk döyüşü olan Bədr müharibəsində müsəlmanların inadkar kafirlərə endirdiyi zərbə, nəticədə, kafirlərdən yetmiş nəfərin öldürülməsi və yetmişinin də əsir götürülməsi nəzərdə tutulur. Belə bir ehtimal da var ki, burada ümumi əzab nəzərdə tutulur. Sadəcə, aləmlərə rəhmət olan Peyğəmbərin (s) varlığı əzabın gəlməməsinə səbəb olmuşdur. “Ənfal” surəsinin 33-cü ayəsində də bu məsələyə işarə edilmişdir. “Bəlkə də” ifadəsi Peyğəmbərin (s) dilindəndir. Hətta bu ifadə Allahın dilindən olsa belə, heç bir problem yaratmır. Çünki sözügedən ifadə ilə nəyinsə baş verəcək ərəfədə olduğuna eyham vurulur. Təbii ki, baş verəcək hadisə ilk mərhələlərdə hər hansı maneə ilə qarşılaşa və yarımçıq da qala bilər[1609].

75. Quran İsrail oğulları arasında mövcud olan ixtilafa aydınlıq gətirir: İsrail oğulları arasında bir çox məsələlərdə, o cümlədən Məryəm, İsa,

---

[1608] Əl-Mizan, c.15, səh.388
[1609] Nümunə, c.15, səh.533

Tövratda gələcəyi haqqında müjdə verilmiş peyğəmbərin kimliyi və bir çox dini məsələlərlə bağlı ixtilaf var idi. Quran onların ixtilafda olduqları məsələlərə aydınlıq gətirdi, İsanın açıq şəkildə "Mən Allahın bəndəsiyəm, mənə səmavi kitab verib peyğəmbər təyin etmişdir" (Məryəm-30) dediyini elan etdi, Məsihin anadan atasız olaraq dünyaya gəldiyini, bunun qeyri-mümkün bir hadisə olmadığını buyuraraq, onu Adəmin atasız və anasız olaraq torpaqdan yaranması ilə əsaslandırdı (Ali-İmran-59). Habelə, haqqında Tövratda məlumat verilmiş peyğəmbərin Muhəmməd (s) olduğunu açıqladı. Hər halda, Quranın missiyalarından biri peyğəmbərlərin çatdırdıqları həqiqətlərlə xurafatların qarışması nəticəsində meydana çıxmış ixtialflarla mübarizədir. Ümumiyyətlə, təhriflərdən, haqla batilin qarışmasından meydana çıxmış ixtilaflara son qoymaq hər bir peytğəmbərin vəzifəsidir. Dərs oxumamış və cəhalət mühitindən çıxmış bir fərdin belə bir addım atması qeyri-mümkün olduğu üçün onun Allah tərəfindən göndərildiyi aydın olur[1610].

[1610] Nümunə, c.15, səh.537

77. O, möminlər üçün hidayət və rəhmətdir.

78. Sənin Rəbbin Qiyamətdə onlar arasında Öz hökmü ilə hakimlik edəcək. O, qüdrətlidir, biləndir!

79. Elə isə, Sən Allaha təvəkkül et! Çünki sən açıq-aydın haqq yoldasan.

80. Sözsüz ki, sən sözünü ölülərə eşitdirə və dönüb gedən karları geri çağıra bilməzsən.

81. Habelə, korları düşdükləri azğınlıqdan doğru yola çıxara bilməzsən. Sən sözünü yalnız ayələrimizə iman gətirməyi qəbul etməyə hazır olan və haqq qarşısında təslim olanlara eşitdirə bilərsən.

82. Onlara verilən əzab fərmanı gəlib çatdığı zaman onlar üçün yerdən elə bir canlı (şəxs) çıxardarıq ki, onlarla danışıb ayələrimizə inanmadıqlarını söyləyər.

83. (Yada sal) bir vaxt hər ümmətin ayələrimizi yalan sayanlarından bir dəstə toplayacağıq. Sonra da onları bir yerə toplaşana qədər saxlayacağıq.

84. Nəhayət, (haqq-hesab yerinə) gəldikləri zaman (onlara) deyər: “Ayələrimizi araşdırma aparmadanmı yalan hesab etdiniz? Siz nə iş görürdünüz?”

85. Bu vaxt zülm etdiklərinə görə əzab fərmanı onları haqlayacaq və onlar danışa bilməyəcəklər.

86. Məgər gecəni onların istirahət etməsi və gündüzü işıq saçması üçün yaratdığımızı görmədilərmi? Bu hadisələrdə iman gətirənlər üçün açıq-aşkar əlamətlər vardır.

87. (Yada sal) bir gün sur üfürüləcək, Allahın istədiklərindən başqa, göylərdə və yerdə olanlar dəhşətə düşəcək və hamısı Onun hüzuruna baş əyərək gələcəkdir.

88. Sən dağlara baxıb onların hərəkətsiz durduqlarını güman edirsən, halbuki onlar bulud kimi hərəkət edirlər. Bu hər şeyi nizam-intizamlı şəkildə yaradan Allahın işidir. O, sizin etdiklərinizdən heç şübhəsiz, xəbərdardır.

---

82. "Dabbətul-ərd (Yerin canlısı): "Dabbətul-ərd" ərəb dilində canlıya deyilir. Bəzilərinin düşündüklərinin əksinə olaraq, bu söz təkcə insan olmayan canlılar üçün işlədilmir, daha geniş məzmun ifadə edərək, insanlara da şamil olur. Lakin Quranda bu sözün məna çalarları haqqında heç bir söz deyilməmişdir. Ayədə söz ümumi mənada işlənsə də, bu sözün prototipinin insanlarla danışa biləcəyi və imansız insanları ümumi şəkildə müəyyən edəcəyi qeyd edilmişdir. Hədislərdə və təfsirçilərin yazılarında bu mövzu haqqında çox məlumat verilmişdir. Bir qrup təfsirçi hədislərə əsaslanaraq, onun əsas fəaliyyətinin müsəlmanları münafiqlərdən ayırmaq və onlara əlamət qoymaq olan qeyri-adi və çox aktiv bir insan olduğunu qeyd etmişlər. Hədislərinin birində Peyğəmbər (s) həmin şəxsi belə səciyyələndirmişdir: ***"O, heç kəsin malik olmadığı bir gücə malikdir, kimsə onun əlindən qaça bilməyəcək. Möminin alnına əlamət qoyub "mömin" yazacaq, kafirin alnına əlamət qoyub "kafir" yazacaq. Musanın əsası və Süleymanın üzüyü ondadır."*** Hədislərin çoxunda bu canlının möminlərin əmiri İmam Əli (ə) olduğu qeyd edilmişdir. İmam Sadiqin (ə) bir hədisində belə deyilir: ***"Əli (ə)***

məsciddə yatmışdı. Peyğəmbər (s) oraya gəlib buyurdu: "Qalx, ey Allahın canlısı". Səhabələrdən biri soruşdu: "Ey Allahın elçisi, biz də bir-birimizi bu adla çağıra bilərikmi?" Peyğəmbər (s) buyurdu: "Xeyr, bu ad ona məxsusdur. Allahın Quranda "Onlara verilən əzab fərmanı gəlib çatdığı zaman onlar üçün yerdən elə bir canlı (şəxs) çıxardarıq", - deyə buyuraraq, haqqında xəbər verdiyi "Dabbətül-ərd" odur." Sonra buyurur: "Ey Əli! Axır-zamanda Allah səni ən gözəl surətdə dirildəcək və sənin əlində düşmənlərə əlamət qoymaq üçün bir vasitə olacaq." Bu hədisə əsasən nəzər nöqtəsi olan ayə sonrakı ayədə haqqında məlumat verilən "qayıdışla" (rəcət) bağlıdır[1611].

83. Qayıdış: Bu ayədə Qiyamətlərin əlamətlərindən başqa birisinə işarə edilmişdir. Bu ayədən belə məlum olur ki, elə bir gün gələcək ki, Allah hər bir ümmətdən bir qrupu toplayacaq və onları cəzalandırmaq üçün hazır edəcək. Alimlərin bir çoxu bu ayədə Qiyamət ərəfəsində bir qrup yaxşı və bir qrup pis insanın bu dünyaya qaytarılacağına işarə edildiyini qeyd etmişdir. Əgər burada Qiyamətin özü nəzərdə tutulsaydı, "hər ümmətin ayələrimizi yalan sayanlarından bir dəstə toplayacağıq" ifadəsi düzgün olmazdı, çünki Qiyamət günü təkcə bir qrup deyil, hər kəs toplanacaq. Qayıdış Şiə məzhəbinin məşhur inanclarındandır. Həmin inancın ümumi məzmunu belədir: İmam Mehdinin (ə) zühurundan sonra Qiyamət ərəfəsində xalis möminlərdən bir qrupu və həddini aşmış pis kafirlərdən bir qrupu bu dünyaya qayıdacaq. Birinci qrup kamillik mərhələlərini adlayacaq, ikinci qrup isə şiddətli əzaba məhkum olacaq. Məlumdur ki, Qiyamət günü bütün insanların diriləcəyi qeyri-mümkün olmadığı kimi, bu dünyada bəzi ölülərin dirilməsi mümkünsüz deyil. Quranda keçmiş ümmətlərdən beş qrupunun

---

[1611] Nümunə, c.15, səhh.551

öldükdən sonra dirildiyi qeyd edilmişdir (Bəqərə-56; 73; 247; 259 və Maidə-110). Bu inancla bağlı verilən ən mühüm suallardan biri budur ki, Qiyamətdən öncə bütün insanların qayıtması hansı məqsədi daşıyır? Hədislərdən belə məlum olur ki, qayıdış bütün insanlara deyil, yalnız iman mərhələsinin ən yüksək həddində olan layiqli insanlara, həmçinin zülm və küfrün ən aşağı həddində olan insanlara aiddir. Mənəvi kamillik yolunda irəliləyən, ancaq maneələrlə qarşılaşmış və təkamülü natamam qalmış insanlar dünyaya qayıtdıqdan sonra kamillik irəliləyişlərini davam etdirəcək, cahanşümul haqq-ədalət dövlətinin şahidi olacaq, həmin hökumətin təşkili və onun bərəkətindən faydalanmaqda ortaq olacaqlar. Qatı kafir və münafiqlər isə axirət əzabı ilə yanaşı Firon, Ad və Səmud qövmü kimi qövümlərin düçar olduğu əzaba düçar olmaq üçün bu dünyada da cəzalandırılacaqlar. Bunun üçün yeganə yol qayıdışdır[1612].

89. Yaxşı bir iş görənlərə ondan daha yaxşı mükafat veriləcək. Onlar o günün qorxusundan uzaq olacaqlar.

90. Pis bir iş görənlər isə üzüstə oda atılacaqlar. “Məgər siz ancaq etdiyiniz əməllərə görə cəzalandırılmırsınızmı?”

[1612] Nümunə, c.15, səh.548, 555, 559

91. (De:) “Mənə ancaq bu şəhərin (Məkkənin) Rəbbinə ibadət etmək əmr edilmişdir. O kəsə ki, bu şəhəri hörmətli etmişdir. Hər şey yalnız Ona məxsusdur. Mənə əmr olunub ki, müsəlman olum

92. və Quran oxuyum!” Kim doğru yola yönəlsə, öz xeyrinə doğru yola yönəlmişdir. Haqq yoldan azana isə (belə) de: “Mən ancaq qorxudanlardanam!”

93. De: “Həmd və sitayiş Allaha məxsusdur! Sizin Onu tanımağınız üçün O dəlillərini sizə göstərəcək. Rəbbin etdiyiniz əməllərdən xəbərsiz deyildir!”

"Qasas" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ta, Sin, Mim.

2. Bu, açıq-aydın Kitabın ayələridir.

3. Biz iman gətirən insanlar üçün Musa ilə Fironun əhvalatını olduğu kimi sənə oxuyacağıq.

4. Firon yer üzündə təkəbbürlük göstərib onun əhalisini zümrələrə bölürdü, bir zümrəni zəiflədir, oğlan uşaqlarının başını kəsir, qadınlarını isə sağ buraxırdı. Həqiqətən, o, fitnə-fəsad törədənlərdən idi.

5. Biz istəyirdik ki, yer üzünün aciz qalanlarına minnət qoyaq, onları yer üzünün öndərləri və varisləri edək,

---

89. “Yaxşı iş” deyilərkən nə nəzərdə tutulur? Təfsirçilər ayədə işlənmiş “yaxşı iş” ifadəsi haqqında müxtəlif fikirlər irəli sürmüşlər. Bəziləri bu ifadə ilə “La ilahə illəlah” cümləsinin və Allaha iman gətirilməsinin nəzərdə tutulduğunu qeyd etmişlər. Bəziləri bu sözlə möminlərin əmiri

İmam Əli (ə) və məsum imamların (ə) rəhbərliyinə işarə edildiyini bildirmiş və bu fikri sünni mənbələrində mövcud olan çoxlu sayda hədislə əsaslandırmışlar. Hədislərinin birində İmam Baqir (ə) belə buyurmuşdur: ***"Əlinin (ə) dostlarından biri yanına gəldi. İmam buyurdu: "Yaxşı bir iş görənlərə ondan daha yaxşı mükafat veriləcək" cümləsinin izahını verimmi? Həmin şəxs: "Bəli, sənə fəda olum, ey möminlərin əmiri!" – deyə cavab verdi. İmam buyurdu: "Yaxşı iş biz Əhli-beytin rəhbərliyini qəbul etmək, pis iş isə rəhbərliyimizi inkar etmək və bizə qarşı düşmənçilikdir."*** Yaxşı və pis iş bu ayədə çox geniş məzmun ifadə edirir, bütün yaxşı və pis işlərə şamil olur. Allaha, İslam peyğəmbərinə (s) və imamların rəhbərliyinə (ə) iman gətirmək bütün yaxşı işlərin başında dayansa da, ifadənin bütün saleh əməllərə şamil olmasına mane olmur[1613].

"Qasas" surəsinin ümumi məzmunu: Bu surə, möminlərin say etibarı ilə çox, güc və qüdrət baxımından üstün olan düşmənlərin təqiblərinə məruz qaldıqları bir vaxtda nazil olmuşdur. Müsəlmanların azlığı, düşmənlərin isə çoxluğu bəzilərinin İslamın gələcəyi ilə bağlı qorxu və narahatlıq keçirməsinə səbəb olmuşdu. Qeyd olunan vəziyyət İsrail oğullarının Firon tərəfdarlarının təqib və təzyiqlərinə məruz qaldıqları vəziyyətə daha çox bənzədiyi üçün, bu surənin ayələrinin yarısında Musa, İsrail oğulları və Firon tərəfdarlarından bəhs edilir. Surənin əvvəlində zəiflər üçün olan haqq-ədalət hökumətinin qalib gələcəyi, zalımların məğlubiyyətə uğrayacağı xəbər verilir. Surənin digər hissəsində öz elm və sərvətinə güvənən, təkəbbürü sayəsində Fironun aqibəti ilə qarşılaşan təkəbbürlü və zəngin Qarunun əhvalatından danışılır. Firon suya batdığı halda Qarun torpağa batmışdı. Bu iki hissə arasında birinci hissə üçün nəticə, ikinci hissə üçün isə

[1613] Nümunə, c.15, səh.572

giriş səciyyəsi daşıyan tövhid, qayıdış, Quranın əhəmiyyəti, müşriklərin Qiyamətdəki vəziyyəti, haqq yola yönəlmə və azma, zəif insanların bəhanələrinə cavab mövzularını əhatə edən qiymətli dərslər yer almışdır[1614].

5. Bizim istəyimiz, zəiflərin qələbəsi: Bu ayə çox aşkar və ümidvericidir. Ümumi bir qanun ehtiva edən bu ayədə feil davamedici feil formasında təqdim edilmişdir. Bununla da istəyin təkcə İsrail oğullarının zəifləri və Firon hökuməti ilə məhdudlaşmadığı xəbər verilmişdir. Belə ki, Firon İsrail oğullarının axırına çıxmaq, onları məhv etmək istəyirdi. Ancaq Allah-taala zəifləri yer üzünün varisləri və rəhbərləri etmək istəyini xəbər verir. Bu, haqqın batil, imanın küfr üzərində qələbə çalacağı xəbəridir. İsrail oğullarının hökuməti və Firon tərəfdarlarının hökumətinin süqutu bu ilahi istəyin reallaşmasının ən bariz nümunəsidir. İslam zühur etdikdən sonra Peyğəmbər (s) və səhabələrinin, öz dövrlərinin fironları tərəfindən təzyiqlərə məruz qalan, məsxərə olunan, təhqir edilən imanlı ayaqyalınların, yoxsulların, təmiz qəlbli məzlumların hakimiyyəti isə onun ən kamil nümunəsidir. Allah-taala bu sinfin əli ilə kəsraların saraylarının qapılarını açdı, onları qüdrət taxtından saldı. Bunun ən irimiqyaslı nümunəsi həzrət Mehdinin (ə) bütün yer üzünü əhatə edəcək haqq-ədalət dövlətinin hökmranlığı olacaq. Çoxlu sayda hədislərdə bu böyük zühurdan danışılmışdır. İmam Əli (ə) bu ayəni təfsir edərkən belə buyurmuşdur: “Bu qrup Ali-Məhəmməddir (s). Allah onların Mehdisini təzyiq və əzablardan sonra qaldıracaq, onlara güc-qüdrət bəxş edəcək, düşmənlərini xar edəcək.”[1615]

[1614] Nümunə, c.16, səh.6
[1615] Nümunə, c.16, səh.15

6. hökmranlıqlarını yer üzündə möhkəmləndirək, Firona, Hamana və onların qoşunlarına qorxub çəkindikləri şeyi göstərək.

7. Biz Musanın anasına: “Onu əmizdir. Ondan ötrü qorxduqda isə onu çaya at. Qorxma və kədərlənmə. Çünki Biz onu sənə qaytaracaq və onu elçilərimizdən biri edəcəyik” – deyə vəhy etdik.

8. Fironun ailəsi onu sudan götürdü ki, axırda onlara düşmən kəsilib başlarına bəla olsun. Həqiqətən, Firon, Haman və onların qoşunları günahkar idilər.

9. Fironun zövcəsi (onların uşağı öldürmək niyyətində olduğunu görüb) dedi: “(Bu uşaq) mənim və sənin gözünün işığıdır. Onu öldürməyin. Ola bilsin ki, o bizə bir fayda verər, yaxud da onu oğulluğa götürərik”. Onlar (bu işin sonunu) bilmirdilər.

10. Musanın anasının ürəyi boş qalmışdı (övlad dərdindən başqa heç bir şey haqda düşünmürdü). Əgər Biz, inananlardan olsun deyə, onun qəlbini möhkəmlətməsəydik, az qala məsələnin üstünü açacaqdı.

11. (Anası Musanın) bacısına: “Onun dalınca get!” – dedi. O da onlar hiss etmədən uzaqdan göz qoyurdu.

12. Daha öncə Biz bütün süd verən qadınları ona haram etmişdik. (Musanın bacısı məmurların dayə axtarışında olduqlarını görüb) dedi: “Sizin üçün bu körpənin qayğısına qalacaq və ona qarşı xeyirxah olacaq bir ailəni sizə göstərimmi?”

13. Beləliklə, Biz onu öz anasına qaytardıq ki, gözü aydın olsun, kədərlənməsin və Allahın vədinin haqq olduğunu bilsin. Lakin onların çoxu (bunu) bilmir.

---

6. Haman kim idi? Haman Fironun tanınmış vəziri olmuşdur. Fironun hökumət sisteminə elə nüfuz etmişdi ki, ayədə Misir qoşunları Firon və Hamanın qoşunları kimi qeyd edilmişdir[1616]. Hədislərdə onun çox hiyləgər və tədbirli adam olduğu, Fironun cinayətlərinin çoxunda rol oynadığı, hətta bir çox məqamlarda Fironu yönləndirdiyi bildirilmişdir. Hədislərdə qeyd edilir ki, həzrət Musa (ə) Fironu Allaha inanmağa çağırır, iman gətirəcəyi təqdirdə onun firavan həyata malik olacağını, öldükdən sonra isə Cənnətə gedəcəyini vəd verir. Musanın (ə) bu dəvəti Firona az da olsa, təsir göstərir. Ancaq o, heç bir addımı Hamanla məsləhətləşmədən atmadığı üçün bu məsələdə də Hamanla məsləhətləşir. Haman hiyləgərliklə Fironun iman gətirməsinin qarşısını alır. Habelə Fironun sehrbazlarının Musa (ə)

[1616] Nümunə, c.16, səh.16

qarşısında məğlub olması və Allaha iman gətirməsi ilə İsrail oğullarının çoxu Musaya (ə) iman gətirir. Bu vaxt Haman Firona təklif edir ki, Musanın (ə) dininə üz tutan hər kəsi həbsə salsın, Firon da belə edir. "Əraf" surəsinin 123-cü ayəsində də qeyd edildiyi kimi, bir-birinin ardınca onlara tufan, çəyirtkə, bitki xəstəlikləri, qurbağa, qan bəlalarını göndərir[1617]. Buna görə də hədislərdə onun Fironla birlikdə fəsad törətdiyi kimi, Cəhənnəmdə də onula birlikdə yanacağı qeyd edilmişdir. İmam Sadiqin (ə) babası İmam Sadiqə (ə) istinadən buyurduğu bir hədisdə belə deyilir: ***"Cəhənnəm odunun yeddi qapısı var, onun bir qapısı Firon, Harun, Haman və Qarun üçündür..."***[1618]

8. Allahın qəribə proqramı: Güc və qüdrət nümayişi Allahın qüdrətli və zülmkar bir xalqı məhv etmək istədiyi vaxt göylərin və yerin qoşunları səfərbər etməsi deyil. Əsl qüdrət nümayişi təkəbbürlü zülmkarların özlərini məhv etmək üçün hərəkətə keçməsi, öz-özlərini yandırmaq üçün odun toplamalarıdır. Təcavüzkar və özbaşına Firon tərəfdarlarının da başına gələn məhz bu idi. Onlar Musanı (ə) öz əlləri ilə xilas edib, böyütdülər. Musanın (ə) mamaçası qibtilərdən idi, qoyulduğu sandığı qibti bir dülgər düzəltmişdi. Musanı (ə) Nilin dalğalarından Fironun ailəsi xilas etmişdi. Sandığı Firon özü ya həyat yoldaşı Asya açmışdı. Qəhrəman Musanın əmin-amanlıqda yaşadığı, böyüyüb boya-başa çatdığı saray da məhz elə Fironun öz sarayı olmuşdur. Allahın qüdrət nümayişi bax elə budur[1619].

12-13. Digər qadınların südünün Musaya (ə) haram edilməsinin fəlsəfəsi: Hədislərdə qeyd edilir ki, bütün süd verən qadınlar Musaya (ə) haram edildikdən və o öz anasına qayıtdıqdan, onun sinəsini qəbul etdikdən sonra Fironun vəziri Haman deyir:

[1617] Daha çox məlumat əldə etmək üçün bax: Biharül-ənvar, c.13, səh.67
[1618] Biharül-ənvar, c.31, səh.518
[1619] Nümunə, c.16, səh.30

- Mən hiss edirəm ki, sən onun həqiqi anasısan. Nə üçün bu qədər qadının arasından təkcə sənin sinəni qəbul etdi?

Musanın anası:

- Ona görə ki, mən xoşətirli bir qadınam, südüm çox şirindir. Bu günə qədər mənə tapşırılanların heç biri sinəmdən imtina etməyib. Orada olanlar bu sözü təsdiq etdilər, hər biri ona qiymətli hədiyyələr verdi.

Hədislərinin birində İmam Baqir (ə) belə buyurmuşdur: "***Üç gündən artıq çəkmədi ki, Allah körpəni öz anasına qaytardı."*** Bəziləri yazır ki, başqa qadınların südü Musaya (ə) ona görə haram edilmişdi ki, Allah bu pak peyğəmbərin haram, oğurluq, cinayət, rüşvət, qəsbə bulaşmış süddən qidalanmasını istəmirdi. Pak olmayanlara qarşı mübarizə aparmaq üçün onun anasının südü kimi pak bir süddən qidalanmalı idi. Bəzi təfsirçilər yazırlar ki, yetkinlik yaşına çatana qədər sarayda Musaya (ə) böyük hörmət və ehtiram göstərilmişdir. Ancaq Musanın (ə) tövhidlə bağlı sözləri bərk narahat edirdi. Hətta iş o yerə çatır ki, onu qətlə yetirmək qərarına gəlir. Buna görə də Musa (ə) sarayı tərk edir, şəhərdə olarkən isə biri qibtilərdən, digəri isə sibtilərdən olan iki nəfərin mübahisə etdiyini görür[1620].

[1620] Nümunə, c.16, səh.35

14. (Musa) yetkinləşib kamillik dövrünə çatdıqda Biz ona hikmət və elm əta etdik. Biz xeyirxah işlər görənləri belə mükafatlandırırıq.

15. O, şəhərə əhalisi xəbərsiz ikən daxil oldu və birdən orada bir-biri ilə vuruşan iki kişi gördü. Biri onun ardıcıllarından (İsrail oğullarından), o biri isə düşmənlərindən idi. Ardıcıllarından olan kəs onu düşməninə qarşı köməyə çağırdı. Musa onun sinəsinə möhkəm bir yumruq vurub işini bitirdi. Musa dedi: "Bu (sizin davanız), şeytan əməlindəndir. Həqiqətən, o, açıq-aşkar azdıran bir düşməndir!"

16. (Musa) dedi: "Ey Rəbbim! Mən özüm-özümə zülm etdim. Məni bağışla!" O da onu bağışladı. Həqiqətən, O, Bağışlayandır, Rəhmlidir.

17. Dedi: "Ey Rəbbim! Mənə nemət bəxş etdiyin üçün mən heç vaxt günahkarlara arxa olmayacağam!"

18. Musa şəhərdə səksəkə içində idi və hər an bir hadisənin baş verəcəyini gözləyirdi. Birdən dünən onu köməyə çağıran adamın yenə də fəryad qoparıb ondan kömək dilədiyini gördü. Musa ona dedi: "Sən doğrudan da, açıq-aşkar yolunu azmış insansan!"

19. İkisinin də düşməni olan adamın qarşısını alıb ona mane olmaq istədikdə, o, dedi: "Ey Musa! Sən dünən bir nəfəri öldürdüyün kimi, məni də öldürmək istəyirsən? Sən yer üzündə ancaq bir zülmkar olmaq istəyirsən. Sən islah edənlərdən olmaq istəmirsən".

20. Şəhərin ən ucqar yerindən bir kişi qaça-qaça gəlib dedi: "Ey Musa! Bu camaat səni öldürmək barəsində məşvərət edir. Tez çıx get! Mən sənin yaxşılığını istəyənlərdənəm!"

21. Musa səksəkə içində ətrafa baxa-baxa oradan çıxıb: "Ey Rəbbim! Məni bu zalım adamların əlindən qurtar!" – dedi.

15-16. Musa tərəfindən qətl hadisəsinin baş verməsi məsumluqla düz gəlirmi? Təfsirçilər qibti ilə İsrail oğullarından olan şəxsin mübahisəsi və qibtinin qətlə yetirilməsi hadisəsi ilə bağlı çox fikirlər irəli sürmüşlər. Təbii ki, hadisənin özü elə mühüm problem yaratmır. Çünki Firon tərəfdarlarından olan cinayətkar, İsrail oğullarından olan minlərlə körpənin başını kəsmiş, heç bir cinayətdən çəkinməyən rəhmsiz canilərdən idi. Buna görə də o, qanı İsrail oğullarına halal olan insanlardan idi. Sadəcə, təfsirçilər üçün çətinlik yaradan məsələ Musanın (ə) işlətdiyi sözlərin izahıdır. Bir yerdə Musa (ə) bu əməli şeytan əməli adlandırır, başqa bir yerdə "Ey Rəbbim! Mən özümə zülm etdim, məni bağışla!" – deyir. Bu ifadə formaları hətta peyğəmbərlik vəzifəsinə təyin edilməzdən əvvəl məsum olması zəruri olan peyğəmbərlərin günahsız olması prinsipi ilə necə düz gəlir? Qeyd etməliyik ki, Musanın (ə) törətdiyi hadisə ən uzağı ən yaxşının tərk edilməsi hesab edilməlidir. O, bu davranışı ilə özünü çətinə saldı. Çünki qibti olan bir nəfərin Musa (ə) tərəfindən qətlə yetirilməsi hadisəsi Firon tərəfdarlarının həzm edə biləcəyi yüngül bir hadisə deyildi. Ən yaxşının tərki onsuz da haram bir əməl sayılmır, sadəcə, heç bir yanlışa yol vermədən daha yaxşının tərkinə səbəb olur. Bu ayələri təfsir edərkən İmam Rza (ə) belə buyurmuşdur: "Bu, şeytan əməlindəndir." cümləsində iki kişinin mübahisəsi nəzərdə tutulmuş, o da Musanın əməli deyil, şeytan əməli hesab edilir. "Ey Rəbbim! Özümə zülm etdim", yəni gəlməli olmayacağım yerə gəldim, bu şəhərə ümumiyyətlə, gəlməməli idim. "Məni bağışla", yəni məni düşmənlərindən gizlət ki, məni

tapa bilməsinlər (Ğüfran sözünün bir mənası da gizlətməkdir). Daha ətraflı məlumat üçün bax: "Şüəra" surəsi, 20-ci ayə[1621].

19. Onların hər ikisinin düşməni olan şəxs: Təfsirçilərin çoxu hesab edir ki, Musaya (ə) ***"Ey Musa! Sən dünən bir nəfəri öldürdüyün kimi, məni də öldürmək istəyirsən?"*** – deyən şəxs əvvəlki gün Musadan (ə) köməklik diləyən şəxs idi. İsrail oğullarından olan şəxs Musanın (ə) bu cür məzəmmət etdiyini gördükdə elə güman edir ki, onu da dünənki gün qibti kişini öldürdüyü kimi öldürəcək. Buna görə də qorxusundan belə deyir. Bu gün dava etdiyi qibti onun bu sözündən dünənki qibtinin qatilinin Musa (ə) olduğunu başa düşür. Tez saraya gedib hadisəni danışır. Firon və saray adamları məsləhət və məşvərət edib Musanın (ə) qətlə yetirilməsi ilə bağlı qərar qəbul edirlər. Deməli, "İkisinin də düşməni olan adam" deyilərkən dünənki gün başqa bir qibti ilə mübahisə edən və Musanın (ə) kömək etdiyi şəxs nəzərdə tutulur. Bu cümlə göstərir ki, Tövratda qeyd edilənin əksinə, burada mübahisə edənlərin hər ikisi İsrail oğullarından deyildi. Əslində, onların biri İsrail oğullarından, digəri isə Firon tərəfdarlarından idi[1622].

20. Musanı (ə) Fironun adamlarının planından xəbərdar edən kim idi? Bu kişi ehtimal ki, "Firon nəslindən olan mömin" adı ilə tanınan şəxsdir. Onun adının Cəzqil, hətta Fironun adamların müzakirə, məsləhət və məşvərət məclislərində iştirak edəcək qədər Firona yaxın adamlardan olduğu qeyd edilir. O, Fironun adamlarının törətdikləri cinayətlərdən çox narahat olur, bu hakimiyyətə qarşı bir qiyam olmasını gözləyir, həmin qiyamda iştirak edəcəyinə ümid bəsləyirdi. O, Musaya (ə) ümid bəsləyir, onun simasında inqilabçı bir Allah adamının surətini görürdü. Buna görə də onun təhlükədə olduğunu hiss etdikdə özünü Musaya (ə) çatdırdı və onu

[1621] Nümunə, c.16, səh.44
[1622] Əl-Mizan, c.16, səh.21

təhlükənin caynağından xilas etdi. “Ğafir” surəsində onun təkcə bu hadisə deyil, başqa hadisələrdə də Musaya (ə) yardım göstərdiyi, Firon sarayında İsrail oğulları üçün iti görən göz hesab edildiyi qeyd edilmişdir[1623].

22. Mədyən tərəfə üz qoyduqda dedi: “Ümidvaram ki, Rəbbim məni doğru yola yönəldəcək!”

23. O, Mədyənin su (quyusu) olan ərazisinə gəlib çatanda orada heyvanlarını suvaran adamlar gördü. Onların yaxınlığında da (suya yaxınlaşmalarına mane olmaq üçün) qoyunlarına nəzarət edən iki qız görüb: “Nə etmək istəyirsiniz?” – dedi. Onlar dedilər: “Çobanların hamısı çıxıb getməyincə biz onları (qoyunlarımızı) suvarmırıq. Atamız da çox qocadır”.

[1623] Nümunə, c.16, səh.51

24. (Musa) onlar (onların qoyunları) üçün su çəkdi, sonra da kölgəyə doğru yön alıb dedi: “Ey Rəbbim! Sənin mənə göndərəcəyin istənilən xeyrə ehtiyacım var!”

25. Qəfildən onlardan biri çox utana-utana onun yanına gəlib dedi: “Atam bizə (bizim qoyunlara) su verməyinin haqqını ödəməkdən ötrü səni çağırır”. Musa onun (Şüeybin) yanına gəlib başına gələni danışdıqda o dedi: “Qorxma! Sən zalım adamların əlindən xilas olmusan!”

26. Qızlardan biri dedi: “Atacan! Onu işə götür, çünki işə götürülə bilənlərin ən yaxşısı güclü və etibarlı olanıdır”.

27. (Şueyb) dedi: “Səkkiz il mənə işləmək şərti ilə qızlarımdan birini sənə ərə vermək istəyirəm. Əgər sən (bu müddəti) on ilə çatdırsan, bu, sənin tərəfindən bir lütf olar. Mən sənin çiyninə ağır yük qoymaq istəmirəm. Allahın izni ilə mənim əməlisalehlərdən olduğumu görəcəksən”.

28. (Musa) dedi: “Bu, ikimizin arasında bir razılaşmadır. Bu iki müddətdən hansınısa yerinə yetirsəm, mənə qarşı haqsızlıq olmayacaqdır. Allah dediyimizə Şahiddir!”

---

24. Musanın (ə) ədəb-ərkanı və zahidliyi: Musa (ə) yorğun və ac idi, həmin şəhərdə heç bir sığınacağı və adamı olmayan bir qərib idi. Amma bütün bunlara baxmayaraq, dözümzüslük göstərmirdi. O qədər ədəbli idi ki, hətta dua edərkən də açıq şəkildə “Ey Rəbbim, filan cür et!” demədi. Sadəcə, belə dedi: ***“Ey Rəbbim! Sənin mənə göndərəcəyin istənilən xeyrə ehtiyacım var!”*** Bu duası ilə Musa (ə) yalnız ehtiyac duyduğunu dilə gətirir, qalanını Allahın öz mərhəmətinə həvalə edir[1624]. Möminlərin əmiri İmam Əli

[1624] Nümunə, c.16, səh.57

(ə) peyğəmbərlərin zahidliyi və dünyaya etinasızlıqlarından danışarkən belə buyurmuşdur: ***"Əgər ondan (İslam peyğəmbəri (s)) başqa kimisə özünə öndər seçmək istəsən, Musanı (ə) seç. Çünki o buyurmuşdu: "Ey Rəbbim! Sənin mənə göndərəcəyin istənilən xeyrə ehtiyacım var!" And olsun Allaha! İstədiyi yalnız bir tikə çörək olmuşdur."***[1625]

25. Həya peyğəmbərlər və onların ailələrinin əxlaqıdır: Bu ayədə bizə verilən dərslərdən biri həya dərsidir. Əvvəlki ayələrdə Şüeybin qızlarının öz qoyunlarını suvarmamasına səbəb orada qoyunlarını suvaran bir qrup kişinin olduğu qeyd edilmişdi. Onlar bütün çobanlar gedənə qədər gözləyir və qoyunlarını yalnız bundan sonra suvarırdılar. Bu ayədə də həmin qızlardan birinin yad bir gənclə çox utana-utana və həya ilə yaxınlaşdığı, çatdıracağı ismarışı ***(Atam bizə (bizim qoyunlara) su verməyinin haqqını ödəməkdən ötrü səni çağırır***) bir cümlə ilə ifadə etdiyi qeyd edilir. Digər tərəfdən, Musanın (ə) da həyası diqqətə layiqdir. Belə ki, hədislərdə yazılanlara görə, Musa (ə) Şüeybin (ə) qızı ilə birlikdə onların evlərinə doğru yola düşdükdə ona belə deyir: ***"Sən mənim arxamca gəl və yolu göstər. Çünki biz qadınlara hətta arxadan belə, baxmayan insanlardanıq."***[1626] Bir gün Peyğəmbər (s) səhabələrindən ***"Qadınlar üçün nə daha yaxşıdır?"*** – deyə soruşur. Heç kəs suala cavab verə bilmir. Bu xəbər gedib Fatiməyə (ə) çatır. O xanım belə buyurur: ***"Mən qadınlar üçün nəyin daha yaxşı olduğunu bilirəm. Naməhrəm kişilərə baxmasınlar, namərhrəm kişilər də onları görməsin."*** Həzrət Zəhranın (ə) bu sözləri Peyğəmbərin (s) qulağına çatdıqda çox sevinir və buyurur: ***"Fatimə mənim bədənimin yarısıdır."***[1627]

[1625] Nəhcül-bəlağə, 159-cu xütbə
[1626] Əl-Mizan, c.16, səh.28
[1627] Vəsailüşşiə, c.20, səh.67

26. Düzgün idarəetmə üçün lazım olan iki əsas şərt: Bu ayədə idarəetmədə tələb olunan iki mühüm və əsas şərt ümumi və yığcam şəkildə qeyd edilmişdir: “Güc və etibar”. Təbii ki, güc deyilərkən burada təkcə fiziki güc nəzərdə tutulmur, ümumiyyətlə, güc-qüdrət deyilərkən insanın üzərinə düşən vəzifəni yerinə yetirə biləcəyi güc nəzərdə tutulur. Ən güclü idarəedici öz vəzifə səlahiyyətlərini yaxşı bilən, motivasiyalarından xəbərdar olan, proqramlaşdırmadan yaxşı başı çıxan, yetərli dərəcədə təşəbbüskar olan, fəaliyyətlərin nizama salınması işini yaxşı bacaran şəxsdir. O, öncə hədəfləri müəyyən etməli və yalnız bundan sonra həmin hədəfləri reallaşdıracaq gücləri səfərbər etməlidir. Yaxşı idarəedici bununla yanaşı ürəyiyanan, xeyirxah, etibarlı və dürüst olmalıdır. Öz işlərini gördürmək üçün yalnız etibarlılıq və təmizlik prinsipi ilə kifayətlənənlər, yalnız ixtisas şərti ilə kifayətlənənlər qədər səhvə yol verirlər. İslam məntiqi hər bir işin güclü, qüdrətli və etibarlı insana tapşırılmasını tələb edir. Yalnız bu zaman cəmiyyətdə nizam-intizama nail olmaq olar. Əgər tarix boyu hökumətlərin süqut səbəblərini araşdırsaq, onların süqutunun əsas səbəbinin vəzifələrin iki qrupdan birinə - xəyanətkar idarəedici və ya dürüst bacarıqsıza həvalə edildiyinin şahidi olarıq. Hər ikisinin nəticəsi eynidir[1628].

[1628] Nümunə, c.16, səh.66

29. Musa müddətini başa vurub ailəsi ilə birlikdə yola çıxdığı zaman dağ tərəfdə bir od gördü və ailəsinə dedi: “Dayanın! Mən bir od gördüm. Mən ondan bəlkə də sizə bir xəbər və ya bir köz gətirərəm ki, qızınasınız”.

30. Musa od götürmək üçün gəldikdə vadinin sağ tərəfindəki bərəkətli yerdə bitmiş bir ağacın ortasından səs ucaldı: “Ey Musa! Aləmlərin Rəbbi olan Allah Mənəm!

31. Əsanı at!” Onun ilan kimi sürətlə qıvrıldığını görüb qorxdu, arxasına belə baxmadan geri qayıtdı. (Səs gəldi:) “Ey Musa! Qayıt, qorxma! Sən əmin-amanlıqda olanlardansan!

32. Əlini qoynuna sal ki, çıxaranda eyibsiz-nöqsansız, ağappaq və parlaq olacaq. Qorxu keçib getsin deyə əlini sinənin üzərinə qoy. Bu ikisi (əsa və ağappaq əl) Firon və onun adamlarına qarşı sənin Rəbbindən olan iki parlaq dəlildir. Onlar fasiqdirlər”.

33. Dedi: “Ey Rəbbim! Mən onlardan birini öldürmüşəm, qorxuram ki, məni öldürələr.

34. Qardaşım Harun dildə məndən daha bəlağətlidir. Məni təsdiq etməsi və mənə yardım etməsi üçün onu da mənimlə birlikdə göndər. Mən, onların məni yalançı sayacaqlarından qorxuram”.

35. Buyurdu: “Tezliklə qollarını qardaşınla qüvvətləndirəcək, ikinizə də hökmranlıq və üstünlük verəcəyik. Dəlillərimiz sayəsində sizə qalib gələ bilməyəcəklər. Siz və sizə tabe olanlar qalib gələcəksiniz”.

---

30. Sağ tərəfdəki vadinin kənarı: “Şati” ərəb dilində kənara, qıraға, “vadi” isə sel-sularının axdığı yerə, dərəyə deyilir. İki dağ arasına da vadi deyilir. “Buquə” ətraf əraziləri olmayan torpaq parçasına, “əymən” isə sağ tərəfə deyilir. Bərəkətli torpaq sahəsi vadinin sağ tərəfində xüsusi bir yerdir.

“Ey Musa” çağırışı həmin yerdə olan ağacdan ucalmışdır. Ağacın bərəkətli olması da məhz bu nidanın həmin ağacdan ucalması ilə bağlıdır. Allahın çağırışı bu ərazidən ucaldığı üçün bu ərazi şərafətli hesab edilir. Məhz həmin şərafət və müqəddəslik həzrət Musanın (ə) ayaqqabılarını çıxarmasına səbəb olmuşdur[1629].

32. Qorxudan xilas olmaq üçün əllərin sinə üzərinə qoyulması: Boş səhrada qaranlıqlar içində o möcüzələri görmək Musanı bərk həyəcanlandırdı. Buna görə də ürəyinin sakitləşməsi üçün ona əllərini sinəsinin üzərinə qoymaq göstərişi verildi. Bəziləri hesab edir ki, bu cümlədə peyğəmbərlik vəzifəsinin yerinə yetirilməsində qətiyyət və əzmkarlığın olmasına, heç bir güc və qüdrətdən qorxmamağa eyham vurulur. Bəziləri ehtimal edir ki, əsa ilana çevrildiyində Musa (ə) əlini irəli verib özünü müdafiə etmək istəyir. Allah isə ona müdafiə olunmağa ehtiyac olmadığını, əl-qolunu yığışdırmasını və qorxmamasını göstəriş verir. Ayədə əl əvəzinə qanad sözündən istifadə edilməsi bədii təsvir xarakteri daşıyır. İnsanın təhlükə hiss etdiyi və sakitləşdiyi vaxt keçirdiyi psixoloji vəziyyətlər quşun eyni şəraitlərdə keçirdiyi hisslərə bənzədilmişdir. Belə ki, quş təhlükə gördükdə və ya hiss etdikdə qanadlarını çırpır, ancaq sakitləşdikdə qanadlarını bir yerə yığır[1630]. Bəzi təfsirçilər ehtimal edir ki, bu göstərişlə Allah Musanın (ə) təvazökar olmasını istəmişdir. Çünki təkəbbürlü və xudpəsənd insanlarin adəti qollarını bədənlərindən bir qədər aralı tutmaqdır. Bu ayə “Hicr” surəsinin Peyğəmbərə (s) ***“Qanadlarını möminlər üçün endir”***, - deyə xitab edilən 88-ci ayəsinə bənzəyir[1631].

[1629] Əl-Mizan, c.16, səh.32
[1630] Nümunə, c.16, səh.77
[1631] Əl-Mizan, c.16, səh.34

34. Yalançı sayılmaqdan qorxmağın səbəbi nə idi? Bu ayədə Musanın (ə) Allahdan qardaşı Harunu onunla birlikdə göndərməsini istəməsinin səbəbi qeyd edilmişdir. O Fironun tərəfdarlarının onu yalançı sayacaqlarından, onun da qəzəblənib dəlillərini açıq şəkildə bəyan edə bilməyəcəyindən qorxur. Belə ki, "Şüəra" surəsinin 12-13-cü ayələrində Musanın (ə) dilindən belə deyildiyini görürük: "Ey Rəbbim! Qorxuram ki, onlar məni yalançı hesab edələr, (belə olduqda) hövsələdən çıxam, dilim də söz tutmaya. Buna görə Haruna da peyğəmbərlik ver." Nəticədə, ayənin mənası belə olur: "Qardaşım Harun məndən daha fəsahətlidir, məndən daha səlis danışır. Onu mənimlə birlikdə göndər ki, dəvətimdə düzdanışan olduğumu təsdiq etsin, camaat mənimlə mübahisəyə qalxdığında onları qane etsin. Çünki onların məni yalançı sayacaqlarından, bu zaman da iddiamın düzgünlüyünü aydın şəkildə bəyan edə bilmərəm." (Harunun Musadan (ə) daha fəsahətli olması ilə bağla daha geniş məlumat əldə etmək üçün bax: Şüəra - 12)[1632].

[1632] Əl-Mizan, c.16, səh.34

36. Musa onlara açıq-aşkar möcüzələrimizi göstərdikdə onlar: “Bu Allahın adına uydurulmuş sehrdən başqa bir şey deyil. Biz ulu babalarımızdan belə bir şey eşitməmişik”– dedilər.

37. Musa dedi: “Rəbbim Öz tərəfindən kimin doğru yolu göstərən yönləndirici gətirdiyini və gözəl aqibətin kimə nəsib olacağını daha yaxşı bilir. Şübhəsiz ki, zalımlar nicat tapmazlar!”

38. Firon dedi: “Ey əyanlar! Mən sizin üçün özümdən başqa bir məbud tanımıram. Ey Haman! Mənim üçün palçığın üzərində od qala və bir qüllə düzəlt ki, Musanın məbudundan xəbər tutum. Mən onun yalançılardan olduğunu düşünürəm.

39. Firon və onun qoşunları yer üzündə haqsız yerə təkəbbür göstərdilər və elə güman etdilər ki, hüzurumuza qaytarılmayacaqlar.

40. Biz də onu və onun qoşunlarını tutub dənizə atdıq. Bax gör zalımların aqibəti necə oldu.

41. Biz onları oda çağıran rəhbərlər etdik. Qiyamət günü onlara kömək edilməyəcəkdir.

42. Bu dünyada onları lənətlik etdik[1633]. Qiyamət günü isə onlar üzü qaralardandırlar.

43. Biz əvvəlki nəsilləri məhv etdikdən sonra Musaya insanları ayıldan, doğru yolu göstərən və rəhmət səbəbi olan Kitab verdik ki, bəlkə xatırlasınlar.

---

38. Fironun uca qəsri: İstəmədikləri, arzu etmədikləri hər hansı mühüm hadisə ilə qarşılaşdıqda kütlənin fikrini yayındırmaq və diqqətləri öz üzərlərinə cəlb etmək üçün yeni bir səhnə yaratmaq qədim dövr siyasətçilərinin tez-tez əl atdıqları vasitələrdən olmuşdur. Musanın (ə) sehrbazlar üzərində qələbə çalması xəbəri bütün Misirə yayıldıqdan və sehrbazların Musaya (ə) iman gətirməsi Firon hökumətinin mövqeyini təhlükəyə atdıqdan sonra nəyin bahasına olursa-olsun, kütlənin fikrini yayındırmaq, hədiyyələr, bəxşişlər paylayıb insanları qəflət yuxusuna vermək, onların başını qatacaq bir məşğuliyyət planını işə salmaq zərurəti yaranmışdı. Bəzi tarixi mənbələrin yazdığına görə, Haman saray üçün böyük bir ərazi ayırtdırır. Qəsri tikmək üçün işə əlli min usta və memar, minlərlə fəhlə cəlb edir. Bina o qədər hündür olur ki, üzərindən hər yeri görmək mümkün olur. Bəziləri yazır ki, memarlar onun pilləkənlərini elə tikmişdilər ki, süvari adam atla pilləkənlərlə onun başına qədər dırmaşa bilərdi. Qəsrin tikintisi başa çatdıqdan sonra Firon qəsrin üstünə çıxır və göyün elə yerdən

---

[1633] Arxalarınca elə hey lənət oxunacaq, müt.

göründüyü şəkildə olduğunu görür. Deyilənə görə kamana ox qoyub göyə atır. Ox göydə uçan quşa dəyir, ya da elə özünün əvvəldən planlaşdırdığı kimi qana bulaşmış halda yerə düşür. Firon qəsrdən enərək üzünü camaata tutub deyir: Gedin və artıq rahat olun. Musanın tanrısını öldürdüm. Buna inanan sadəlövh camaat bu xəbəri camaata yayır. Bəzi mənbələrin yazdığına görə tikili davam gətirmir, tezliklə uçur və nəticədə, xeyli adam həlak olur[1634]. Bəziləri ehtimal edir ki, Firon uca qəsr tikdirmək istəyərkən ulduzlara baxmaq, ulduzlar vasitəsilə peyğəmbər göndərildiyini, Musanın dediklərinin həqiqət olub-olmadığını müəyyən etmək üçün bir rəsədxana tikdirmək məqsədi güdmüşdür[1635].

39. Təkəbbür, özünü böyük tutmaq Fironun boyundan uzun bir libasdır: Ayədə Firon və adamlarının təkəbbüründən, başlanğıc və qayıdış prinsipləri qarşısında təslim olmamasından danışılır. Doğrusu, bəzən bir milçəyi belə özündən uzaqlaşdırmağa qüdrəti çatmayan, bəzən mikrob adlanan mikroskopik bir varlıq qarşısında davam gətirməyib torpaqlar altına dəfn edilən zəif insan özünü necə böyük tuta, Allahlıq iddiası edə bilər? Məşhur bir qüdsi hədisdə belə deyilir: ***"Təkəbbür və böyüklük mənim xələtim, əzəmət mənim böyüklüyümün əyninə biçilmiş bir libasdır. Bu xüsusiyyətlərdə mənimlə mübarizəyə qalxan şəxsi Cəhənnəmə göndərərəm."*** Təbii ki, Allahın özünü bu cür səciyyələndirməsinə ehtiyacı yoxdur. Mühüm olan cəhət insanın həddini aşması, təkəbbür və qürurun onun beynini doldurduğu vaxt başlayır[1636].

41. Nur və od öndərləri: Quran məntiqində iki qrup rəhbər və lider var; doğru yolda olan təqvalıların rəhbəri, haqq yoldan azmışların rəhbəri

---

[1634] Nümunə, c.16, səh.85
[1635] Əl-Mizan, c.16, səh.37
[1636] Nümunə, c.16, səh.89

olan liderlər, başqa sözlə desək, od rəhbərləri. Bu iki qrup liderin xüsusiyyətləri hədislərdə, o cümlədə İmam Sadiqin (ə) bir hədisində belə qeyd edilmişdir: “Birinci qrup adamlar Allahın əmrini insanların əmrindən və öz iradələrindən üstün tutanlar, onun hökmünü hökmlərin ən üstünü hesab edənlərdir. Halbuki ikinci qrupun adamları öz əmrlərini Allahın əmrindən üstün tutanlar, öz hökmlərini Allahın hökmündən üstün tutanlardır.” Bu meyarla sözügedən iki qrupu tanımaq çox asandır. Qrupların bir-birindən fərqləndiyi Qiyamət günü hər bir qrup öz rəhbərinin arxasınca gedəcək. Quranda belə buyurulmuşdur: “Hər bir qrupu öz rəhbəri ilə çağırdığımız gün” (İsra-71). Qiyamət bu kiçik dünyanın böyük təcəssümüdür. Bu dünyada hər hansı rəhbərə bağlı olan və onun ardınca gedən şəxs orada da onunla birlikdə olacaq. Yaddan çıxarmamalıyıq ki, dünyada öz ardıcıllarının önündə gedən və onları Nilin dalğaları qoynunda batıran Firon Qiyamətə də onların önündə gedib od dənizinə batıracaq[1637].

[1637] Nümunə, c.16, səh.91

44. Biz Musaya peyğəmbərlik əmri verəndə sən qərb tərəfdə deyildin. Sən (möcüzələri Musanın (ə) ixtiyarına verəndə) şahid olanlardan da deyildin.

45. Lakin Biz müxtəlif dövrlərdə neçə-neçə nəsillər yaratdıq və onlar uzun ömür sürdülər. Sən Mədyən sakinləri arasında olub ayələrimizi onlara oxumurdun. Lakin səni göndərən Biz idik.

46. Biz çağırdığımız zaman sən dağın yanında deyildin. Lakin səndən əvvəl heç bir qorxudan gəlməmiş bir tayfanı xəbərdar edəsən deyə, bu, Rəbbin tərəfindən bir mərhəmətdir. Bəlkə xatırlayalar.

47. Əgər (peyğəmbər göndərilmədən) etdikləri əməllərin nəticəsində onlara bir müsibət üz versəydi, deyəcəkdilər: "Ey Rəbbimiz! Nə üçün bizə bir peyğəmbər göndərmədin ki, biz də Sənin ayələrinə tabe olub möminlərdən olaq?"

48. Bizim tərəfimizdən onlara haqq gəldikdə onlar: "Nə üçün Musaya verilənin eynisi ona da verilmədi?" – dedilər. Məgər onlar daha öncə Musaya verilən möcüzələri inkar edib: "Bu iki nəfər (Musa və Harun bizi azdırmaq üçün) ələ-ələ vermiş iki sehrbazdır. Biz onların heç birinə inanmırıq!" - deməmişdilərmi?

49. De: "Əgər doğru deyirsinizsə (Tövrat və Quran Allah tərəfindən nazil edilməyibsə), Allah tərəfindən bu ikisindən daha doğru yol göstərən elə bir Kitab gətirin ki, mən ona tabe olum!"

50. Əgər sənin bu təklifini qəbul etməsələr, bil ki, onlar yalnız nəfslərinin istəklərinə uymuşlar. Öz nəfsani istəklərinə tabe olan və heç bir düz yol göstərən ilahi rəhbəri qəbul etməyən şəxsdən daha azğın kim ola bilər?! Şübhəsiz ki, Allah zalımları doğru yola yönəltməz.

---

44. Qərb tərəf haradır? Bir məsələyə xüsusilə diqqət yetirmək lazımdır ki, Mədyəndən Misir istiqamətinə hərəkət edərkən Musanın (ə) Sina səhrasından keçib getdiyi istiqamət şərq-qərb, İsrail oğullarının Misirdən Şama doğru hərəkət edərkən Sinadan keçdikləri istiqamət qərb-şərq istiqamətidir. Bəzi təfsirçilər hesab edirlər ki, bu və 46-cı ayədə Allahın həzrət Musaya (ə) verdiyi ilk əmrə və onu Firona doğru yollaması məsələsinə işarə edilmişdir. 46-cı ayə əslində, 44-cü ayəni təsdiq edir[1638]. Bəzi təfsirçilər hesab edirlər ki, bu ayədə Musanın (ə) Turda qalmasına və Tövratın nazil olmasına işarə edilmişdir. 46-cı ayədə isə ilk peyğəmbərlik əmrinin verilməsinə və Musanın (ə) Firona doğru göndərilməsinə işarə edilib[1639].

46. Bir suala cavab: Burada belə bir sual yaranır ki, yer üzündə hər zaman ilahi bir nümayəndə olması, Peyğəmbərin (s) müasirləri olan ərəblər arasında da peyğəmbər canişinlərinin olması zərurətini bildiyimiz halda, Quranda "Səndən qabaq bu qövmə heç bir qorxudan gəlməmişdir", - deyilməsi nə qədər məntiqlidir? Qeyd etməliyik ki, burada kitab sahibi və aşkar qorxudan nəzərdə tutulmuşdur. Belə ki, İsanın (ə) zamanından Peyğəmbərin (s) zamanına qədər uzun illər ötmüş, şəriət sahibi olan peyğəmbərlər gəlməmiş, bu da inkarçıların əlinə bir bəhanə vermişdir. İmam

[1638] Nümunə, c.16, səh.96
[1639] Əl-Mizan, c.16, səh.50

Əli (ə) belə buyurmuşdur: ***"Pak və müqəddəs olan Allah ərəblər arasında bir kitab oxuyan və ya peyğəmbərlik iddiası ilə çıxış edən bir şəxs olmadığı halda, Muhəmmədi (s) peyğəmbər göndərdi. Muhəmməd (s) onlara rəhbərlik edib çatmaları lazım olan yerə çatdırdı və onlara xilas gətirdi."***[1640]

48. İki sehr: "Sehran" iki sehr-cadu deməkdir. Kafirlər bu ifadə ilə Tövrat və Quranı nəzərdə tuturdular. Çünki əvvəlki ayədə də oxuduğumuz kimi, onlar bəhanə gətirərək, nə üçün Quranın da Tövrat kimi bir dəfəyə nazil olmadığına etiraz etmişdilər. Quran bu suala belə cavab verir: Musanın (ə) dövrünün kafirləri sizin kimi Allah peyğəmbərinin səmavi kitabını inkar etmiş, sizin kimi onun sehr-cadu olduğunu demişdilər[1641]. Bəzi təfsirçilər isə "iki sehr" deyilərkən, iki sehrbaz və cadugər nəzərdə tuturlar. Onlar bu sözlə Musa ilə Harunu nəzərdə tuturdular. İfadə mübaliğənin yüksək həddini göstərir. Çünki ərəblər kiminsə haqqında mübaliğə ilə danışdıqda, həmin şəxsi xüsusiyyətin özü kimi təqdim edirlər. Adilin ədalət, zalımın zülm, sehrbazın sehr kimi təqdim edilməsi buna misaldır[1642]. Məsələn, Əlinin (ə) ədalətin daha yüksək həddində olduğunu göstərmək üçün onu "Əli ədalətdir" kimi səciyyələndirmişlər. (Tərcümə ikinci ehtimala əsaslanır).

51. Biz Quran ayələrini onlara biri digərinin ardınca gətirdik ki, bəlkə xatırlasınlar.

52. Daha öncə Kitab verdiyimiz kəslər ona (Qurana) iman gətirirlər.

[1640] Nümunə, c.16, səh.98
[1641] Əl-Mizan, c.16, səh.52
[1642] Nümunə, c.16, səh.102

53. Onlara (Quran) oxunduğu zaman: “Biz ona iman gətirdik. Bunlar həqiqətən də, Rəbbimizdən olan haqdır. Biz ondan əvvəl də müsəlman idik!” – deyirlər.

54. Onlar səbr etdiklərinə görə ikiqat mükafat alan, pisliyi yaxşılıqla dəf edən və verdiyimiz ruzidən Allah yolunda xərcləyən şəxslərdir.

55. Onlar boş və mənasız sözlər eşitdikləri zaman ondan üz çevirib: “Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə aiddir. Sizə salam olsun! Biz cahilləri istəmirik!” – deyirlər.

56. Sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah istədiyini doğru yola yönəldir. O, doğru yolda olanları da daha yaxşı tanıyır.

57. Onlar dedilər: “Əgər biz doğru yola yönəlməyi (hidayəti) sənlə birlikdə qəbul etsək, yurdumuzdan qovularıq”. Məgər Bizim tərəfimizdən ruzi olaraq hər tərəfdən məhsulların gətirildiyi əmin-aman və təhlükəsiz bir yeri onların ixtiyarına vermədikmi? Lakin onların çoxu bilmir.

58. Biz nemətin bolluğundan məst olub qürrələnən neçə-neçə şəhər və kəndi məhv etdik. Bu, onların evləridir. Onlardan sonra az adam istisna olmaqla orada heç kəs məskunlaşmadı. Biz onların varisi olduq.

59. Sənin Rəbbin ayələrimizi oxumaq üçün mərkəzlərinə bir peyğəmbər göndərməmiş şəhərləri və kəndləri məhv etmədi. Biz yalnız əhalisi zalım olan şəhərləri və kəndləri məhv etdik.

---

53. Sonuncu Peyğəmbərin (s) gəlişindən əvvəlki müsəlmanlar: Kitab əhlinin Peyğəmbər (s) və Quran qarşısında təslim olduğu qeyd edilən bu ayənin “Biz ondan əvvəl də müsəlman idik!” cümləsi kitab əhlinin Qurandan və onun haqq olduğundan xəbərdar olduqlarını göstərir. Onlar bu cümlə ilə Quran qarşısında o göndərilməzdən əvvəl təslim olduqlarını, Quranın dəvət etdiyi və İslam adlandırdığı dinə iman gətirdiklərini elan edirlər. Sözügedən

cümlə kitab əhlinin Allah rəsulunun (s) xüsusiyyətlərindən və ona endirilmiş kitabdan xəbərdar olduğunu göstərir. Çünki bu xüsusiyyətlər haqqında onlara göndərilmiş səmavi kitabda məlumat verilmişdi. Quranda bu bardə belə deyilir: ***"O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin, ardınca gedərlər."*** (Əraf - 157), ***"İsrail oğullarından olan alimlərin ondan yaxşı xəbərdar olması bunlar üçün yetərli dəlil deyilmi?"*** (Şüəra - 197)[1643].

56. Doğru yola yönəltmək yalnız Allahın əlindədir: Öncəki ayələrdə iki qrup insandan danışılırdı: Allah rəsulunun (s) səylərinə baxmayaraq, iman nuru qəlblərinə nüfuz etməyən inadkar Məkkə müşrikləri və Allahın haqq yola çağırışını qəbul etmiş, İslam yolunda fədakarlıq göstərən, sevgi ilə dayanmış, qohumlarının, yaxınlarının, özündən razı cahillərin müqavimətindən qorxmayan kitab əhli və Məkkədən uzaqda yaşayan insanlar. Allah-taala bu ayə ilə həqiqət üzərindən pərdə götürür, doğru yola yönəltməyin başqasının deyil, təkcə Allahın əlində olduğunu, hansı şəxsin iman gətirməyə layiq, hansı başlarda ilahi eşq sevdasının olduğunu, hansı qəlblərin haqq üçün döyündüyünü yalnız Allaha bəlli olduğunu çatdırır. O, layiqli insanları daha yaxşı tanıyır, onlara uğur bəxş edir, iman yolunu tutmaları üçün lütf və mərhəmətini onlara yoldaş edir. Allah qəlblərində Allahla düşmənçilik edən, var gücləri ilə Allahın elçiləri ilə mübarizəyə qalxan, iman nuruna layiq görülməyəcək qədər utancverici həyata malik olan, zülmət qəlbli, çirkin insanların yolu üzərində uğur işığı yandırmaz. Çünki burada "hidayət" deyilərkən "yol göstərilməsi" nəzərdə tutulmur. Belə ki, yol göstərmək peyğəmbərlərin işidir, o, istisnasız olaraq doğru yolu

---

[1643] Əl-Mizan, c.16, səh.54
Kitab əhlinin öncədən Peyğəmbərin (s) xüsusiyyətlərindən xəbərdar olması ilə bağlı daha ətraflı məlumat almaq üçün bax: Bəqərə - 89; Ənam - 20

hər kəsə göstərir. Əslində, nəzər nöqtəsi olan bu ayədə “hidayət” deyilərkən “mənzil başına çatdırmaq” nəzərdə tutulur. Bu isə yalnız Allaha məxsusdur. İman toxumunu qəlblərə o səpir. Onun işləri də hesab-kitabsız deyil. O, hazır olan qəlblərə nəzər salır, səmavi nuru onlara çiləyir. Hər halda, bu ayədə Allah bir növ Peyğəmbərə (s) təskinlik verir, ona başa salmaq istəyir ki, nə Məkkə müşriklərinin öz şirklərindəki qətiyyəti, nə də Həbəşistan və Nəcran camatının, Salman və Bəhiraların ixlasla iman gətirməsi səbəbsiz deyil. Birincilərin iman gətirmədiyinə görə narahat olmasın, çünki Allah nuru hazır qəlblərə daxil olur, onlarda çadır qurur. Oxşar məzmunlara Quranda çox rast gəlmək olar. Həmin ayələrdən belə məlum olur ki, Allahın bu qruplarla bağlı istəyi səbəbsiz deyil. Allahın istəyi hikmət, proqram, insanların ləyaqəti, səy və fəaliyyətlərinə əsaslanır. Allah yalnız bu əsasla bir qrupu doğru yola yönəldir, bir qrupu bundan məhrum edir[1644].

[1644] Nümunə, c.16, səh.115

60. Sizə verilən ancaq dünya həyatının keçici zövqü və onun bərbəzəyidir. Allah yanında olanlar isə daha xeyirli və daha davamlıdır. Məgər başa düşmürsünüz?

61. Verdiyimiz gözəl bir vədə qovuşan kimsə dünya həyatının keçici zövqünü bəxş etdiyimiz, sonra da Qiyamət günü gətiriləcək kimsə ilə eynidirmi?

62. O gün Allah onları çağırıb deyəcəkdir: “Güman etdiyiniz ortaqlarım haradadır?”

63. Haqlarında əzab əmrinin gerçəkləşəcəyi qəti olan kimsələr deyəcəklər: “Ey Rəbbimiz! Biz bunları haqq yoldan azdırdıq. Özümüz azdığımız kimi onları da azdırdıq. Biz onlardan uzaqlaşıb Sənə üz tuturuq. Doğrusu, onlar bizə ibadət etmirdilər”.

64. Onlara: “Allaha şərik qoşduğunuz tanrıları çağırın!” – deyiləcək. Məbudlarını çağıracaqlar, ancaq (şərikləri) onlara cavab verməyəcəklər. Onlar əzabı görəcəklər. Arzu edəcəklər ki, kaş haqq yola yönələnlərdən olaydılar.

65. Bir gün Allah onları çağırıb: “Peyğəmbərlərə nə cavab verdiniz?” – deyəcək.

66. O gün bütün xəbərlər onlardan gizli qalacaqdır. Hətta bir-birindən soruşa bilməyəcəklər.

67. Tövbə edib iman gətirən və yaxşı işlər görən kimsə ümid var ki, nicat tapanlardan olsun.

68. Rəbbin istədiyini yaradır və istədiyini seçir. Onların isə ixtiyarı yoxdur. Allah pakdır, müqəddəsdir və onların qoşduqları şəriklərdən ucadır.

69. Sənin Rəbbin onların qəlbinin həm gizli saxladıqlarını, həm də aşkar etdiklərini bilir.

70. O, Allahdır. Ondan başqa məbud yoxdur. Dünyada da, Axirətdə də həmd Ona məxsusdur. Hökmranlıq Ona məxsusdur və siz Ona doğru qaytarılacaqsınız.

---

63. Tanrıların onlara ibadət edənlərdən qaçıb uzaqlaşması: Müşriklərin ibadət etdiyi tanrılar iki qrupa bölünür: Bəzi insanlar Allahın əziz bəndələri olan mələklərə və Məryəm oğlu İsaya (ə) ibadət edir və onları Rəbb sayırdılar. Bəziləri isə İblis kimi çirkin cinlər, Firon, Nəmrud və sair kimi azğın insanlara ibadət edir, onları Rəbb sayırdılar. Ayədə ikinci qrupa aid məbudlardan danışılır. Belə ki, birinci qrupa aid edilən tanrılar kimisə haqq yoldan aqzdırmadığı halda, ikinci qrupa aid edilən tanrılar özləri haqq yoldan azmaqla yanaşı, başqalarını da azdırmışlar. Ayədə buyurulur ki, bu qrupa aid edilən tanrılar onlara ibadət edən insanlardan uzaq durub deyəcəklər: “Özümüz azdığımız kimi onları da azdırdıq” Yəni düzdür ki, onları biz aldadıb azdırmışıq, ancaq onları buna məcbur etməmişik. Biz öz ixtiyarımızla azdığımız kimi, onlar da öx ixtiyarları ilə azıblar, heç bir zor və

gücə məruz qalmayıblar. “İbrahim” surəsinin 22-ci ayəsində İblisin Qiyamət günü öz ardıcıllarına belə deyəcəyi qeyd edilmişdir: “...Mənim sizin üstünüzdə heç bir hökmranlığım yox idi. Mən sizi (azğınlığa) dəvət etdim, siz də (dəvətimi) qəbul etdiniz. Buna görə də məni yox, özünüzü qınayın.” Saffat surəsinin 28-33-cü ayələrində belə buyurulur: ***“(Qiyamətdə) bir qrup deyəcək: “Siz (azğın rəhbərlər idiniz, üzdə) xeyirxahlıq və yaxşılıqla daxil olurdunuz (ancaq işiniz aldatmaqdan və kələk gəlməkdən ibarət idi)”. (Onlar) deyəcəklər: “Xeyr! Siz mömin deyildiniz (bizim nə günahımız var). Bizim sizin üzərinizdə heç bir hökmranlığımız da yox idi. Xeyr, siz özünüz həddi aşmış adamlar idiniz… Biz özümüz azğın olduğumuz kimi, sizi azdırdıq. Çünki biz özümüz də azmış adamlar idik”. Bunların hamısı (həm rəhbərlər, həm də ardıcılları), həmin gün Allahın əzabında ortaqdırlar.”***[1645]

65-66. Peyğəmbərə (s) nə cavab verdiniz? Bu ayənin məzmunu müşriklərdən bəhs edən və Qiyamət günü onlara veriləcək sualı ehtiva edən ayələrin məzmununun davamıdır. Onlardan tapındıqları haqda soruşulduqdan sonra Peyğəmbərlə (s) necə davranmaları soruşulacaq. Şübhəsiz ki, kafirlərin heç bir cavabı olmayacaq. Əgər desələr ki, çağırışlarını qəbul etdik, yalan danışmış olacaqlar. Yalanın isə orada heç bir faydası olmayacaq. Əgər desələr ki, onları yalançı hesab etdik, iftira atdıq, sehrbaz, dəli adlandırdıq, onlara qarşı silahlı mübarizəyə qalxdıq, davamçılarını qətlə yetirdik, verdikləri cavablar xar və rüsvayçılıqlarına səbəb olacaq. Qiyamət günü Allahın böyük peyğəmbərlərindən “İnsanlar sizə nə cavab verdilər?” – deyə soruşulduqda, onlar deyəcəklər: “Biz heç nə

[1645] Əl-Mizan, c.16, səh.64

bilmirik, Sən bütün gizli sirlərdən xəbərdarsan.” (Maidə-109). Bu qəlbdən kor müşriklər bu sual qarşısında nə cavab verə bilərlər?[1646]

68. İxtiyar Allahın bir nemətidir: Bu ayə şirkin inkarı və müşriklərin inancının yanlış olmasına bir dəlildir. Bu ayədə yaradılışın və şəfaət ixtiyarının onun əlində, peyğəmbərlərin göndərilməsi ixtiyarının isə onun iradəsindən, xülasə, bütün mövcudat aləminin ixtiyarının Allahın istəyindən asılı olduğu qeyd edilir. Onun icazəsi olmadan nə bütlər, nə də mələk və peyğəmbərlər heç nə edə bilməzlər. İxtiyarın qeyd-şərtsizliyi onun ümumiliyini ifadə edir. Yəni həm obyektiv, həm də subyektiv hadisələrin ixtiyarı Allahın əlindədir. Hər ikisi onun yaradıcılıq məqamından qaynaqlanır. Belə olan halkda, onlar şirk yolunu necə seçir və Allahdan qeyrisinə üz tuturlar? Əhli-beyt (ə) hədislərində bu ayənin ixtiyar və məsum imamın Allah tərəfindən göndərilməsi mövzularına işarə etdiyi qeyd edilmişdir. “Onların ixtiyarı yoxdur” cümləsi qeyd olunan mənanı ifadə edir. Təbii ki, bu məna yükü ayənin parlaq məna çalarlarından biridir. Çünki dinin qorunması və bu məqsədlə də məsum rəhbərin təyin edilməsi yalnız Allaha məxsusdur[1647].

[1646] Nümunə, c.16, səh.140
[1647] Nümunə, c.16, səh.142

71. De: “Deyin görüm, əgər Allah gecəni üstünüzdə Qiyamətə qədər uzatsa, Allahdan başqa hansı məbud sizə bir işıq gətirə bilər? Eşitmirsinizmi?”

72. De: “Deyin görüm, əgər Allah gündüzü üstünüzdə Qiyamətə qədər uzatsa, Allahdan başqa hansı məbud dincəldiyiniz gecəni sizə gətirə bilər? Məgər görmürsünüz?”

73. Onun mərhəmətindəndir; gecəni və gündüzü yaratdı ki, dicələsiniz, Allahın lütfündən faydalanmaq üçün çalışasınız və bəlkə də şükür edəsiniz.

74. Bir gün Allah onları çağırıb: “Öz nəzərinizdə mənə tay tutduğunuz şəriklər haradadırlar?” – deyəcəkdir.

75. (O gün) Biz hər bir ümmətdən bir şahid seçəcək və (müşriklərə): “Dəlilinizi gətirin!” – deyəcəyik. Onlar bilirlər ki, haqq yalnız Allaha məxsusdur. Uydurduqları hər şey gözdən itəcək.

76. Qarun Musanın qövmündən idi. Amma onlara zülm etdi. Biz ona elə xəzinələr vermişdik ki, onların açarlarını daşımaq bir dəstə qüvvətli adama ağır gəlirdi. Qövmü ona dedi: “Öyünmə! Allah öyünənləri sevmir.

77. Allahın sənə verdiyi ilə axirət yurduna can at. Dünyadakı nəsibini də unutma. Allah sənə yaxşılıq etdiyi kimi, sən də yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə çalışma. Allah fitnə-fəsad törədənləri sevmir”.

---

75. Qiyamət gününün şahidləri: Bu ayədə şahidlər deyilərkən peyğəmbərlər nəzərdə tutulur. Hər bir peyğəmbər öz ümmətinin şahididir,

həzrət Muhəmməd (s) isə bütün peyğəmbərlərin və ümmətlərin şahididir. (Bax: Nisa - 41). Deməli, peyğəmbərlərdən ibarət bir məclis təşkil ediləcək. İnadkar və qəlbi kor olan müşriklər həmin məclisdə sorğuya çəkiləcək. Məhz orada şirkin dərinliklərindən xəbər tutulacaq, Allahın haqq və bütlərin isə puç olduğunu açıq-aşkar şəkildə müşahidə edəcəklər.[1648]

76. İsrail oğullarından olan eqoist varlı: Qarun Musanın (ə) yaxın qohumlarından (əmisi oğlu, yaxud xalası oğlu) olmuşdur. Tövratla yaxından tanış idi, oradakı məlumatların çoxundan xəbərdar idi. İlk əvvəllər möminlərin sırasında yer almışdı. Lakin var-dövlət qüruru onu küfrün qoynuna ataraq yerin dibinə batırdı. Tarixi mənbələrdə onun həm Fironun İsrail oğulları arasındakı nümayəndəsi, həm də Firon xəzinələrinin xəzinədarı olduğu yazılmışdır. Firon İsrail oğullarını qarət edib bütün var-yoxlarını yağmalamaq üçün İsrail oğulları arasından hiyləgər və rəhmsiz bir adam seçir. İsrail oğullarını zalım hakimiyyətinin xeyrinə istismar etmək, bu yolla külli miqdarda sərvət əldə etmək üçün həmin şəxsi İsrail oğulları üzərində tam səlahiyyətli nümayəndəsi təyin edir. Firon həlak olduqdan sonra onun sərvətinin və xəzinələrinin böyük bir hissəsi Qarunda qalır. Musa (ə) Fironun külək gətirən bu sərvətini ondan alıb yoxsullara paylamağa fürsət tapmır. Nəhayət, Musa (ə) ondan zəkat almaq qərarına gəldiyində üzündəki pərdə cırılır və çirkin siması üzə çıxır. (Daha ətraflı məlumat üçün bax: Bu surənin 81-ci ayəsi)[1649].

77. Dinin sərvətlə bağlı mövqeyi: Bu ayədə qövmünün ağıllı adamlarının bir neçə nəsihəti qeyd edilmişdir. Bu xülasədə onların ikisinin qısa izahını verəcəyik:

[1648] Nümunə, c.16, səh.149
[1649] Nümunə, c.16, səh.173

1. Onlar dedilər: “Allahın sənə verdiyi ilə axirət yurduna can at.” Bu onu göstərir ki, mal və sərvət bəzilərinin yanlış təsəvvürlərinin əksinə olaraq pis bir şey deyil. Mühüm olan cəhət sərvətin harada xərclənməsidir. Əgər sərvət vasitəsilə axirət qazanmağa səy göstərilərsə, ondan yaxşı nə ola bilər ki? Əgər sərvət qürur, qəflət, zülm, təcavüz, nəfsani istəklərin həyata keçirilməsi, üçün bir vasitəyə çevrilərsə, ondan pis heç nə ola bilməz. Bu, İmam Əlinin (ə) dünya ilə bağlı söylədiyi məşhur bir cümləsində öz əksini tapmışdır: ***“Ona ibrət gözü ilə baxanın gözlərinə işıq gələr. Ona arzu və təmənna gözü ilə baxanın gözü kor olar.”*** Qarun sahib olduğu külli miqdarda sərvətlə cəmiyyətə xeyri dəyən çoxlu işlər görə bilərdi, ancaq qüruru həqiqətləri görməsinə imkan vermədi.

2. Onlar dedilər: “Dünyadakı nəsibini unutma.” Hər bir insanın dünyada bir nəsibi var. Bu miqdar onun fiziki tələbatını, geyim və yaşayış yerini ödəyəcək qədərdir. Bundan artığı ehtiyacdan kənardır. İnsan bu həqiqəti əsla unutmamalıdır. Bir insan nə qədər yemək yeyə, nə qədər paltar geyinə, neçə evdən, neçə maşından istifadə edə, ölərkən özü ilə neçə kəfən apara bilər? Deməli, bu zəruri ehtiyaclardan artığı başqalarının payıdır. Əgər insan bundan artığını qazanarsa, həmin hissə əmanət sayılır. İmam Əli (ə) belə buyurmuşdur: ***“Ey Adəm övladı! Öz ruzindən artıq qazancında başqalarının xəzinədarısan.” “Dünyadakı nəsibini unutma”*** cümləsi ilə bağlı başqa bir yozum da verilmişdir. Bu yozum yuxarıdakı izahların hamısını əhatə edir. İmam Əli (ə) bu cümlə haqqında belə buyurmuşdur: ***“Sağlamlığını, gücünü, azadlığını, gəncliyini, şadlığını, ehtiyacsızlığını unutma, bunlar vasitəsilə axirətini qazan.”*** Bu izaha əsasən ayənin bu

hissəsi insanları xəbərdar edir ki, fürsət əldən çıxmamış sərmayələrini əldən verməsinlər. Çünki fürsətlər bulud kimi ötüb keçir[1650].

78. (Qarun) dedi: “Bu sərvətə malik olduğum bilik vasitəsilə nail olmuşam”. Məgər o bilmirdi ki, Allah ondan əvvəl ondan daha qüvvətli və

[1650] Nümunə, c.16, səh.155

daha varlı qövmləri məhv etmişdir? (Allahın əzabı yetişdiyində) günahkarlardan cinayətləri barəsində soruşulmaz.

79. (Bir gün Qarun) bütün zinət əşları ilə xalqının qarşısına çıxdı. Dünya həyatını arzulayanlar dedilər: “Kaş ki, Qaruna verilənin bənzəri bizdə də olaydı! Həqiqətən, o, böyük qismət sahibidir”.

80. Elm verilmiş kəslər isə dedilər: “Vay halınıza! İman gətirib yaxşı əməl işlədən kimsə üçün Allahın mükafatı daha xeyirlidir. Buna isə yalnız səbr edənlər nail olarlar”.

81. Biz onu evi ilə birlikdə (yerə) batırdıq. Allahın əzabı qarşısında ona yardım edəcək kimsə yox idi. Özü də özünə kömək edə bilmədi.

82. Dünən onun yerində olmağı arzulayanlar (bu səhnəni gördükdə) dedilər: “Vay olsun bizə! Deməli, Allah Öz qullarından istədiyi kəs üçün ruzini artırar da, azaldar da. Əgər Allah bizə minnət qoymasaydı, bizi də yerin dərinliyinə batırardı. Ah, demək kafirlər nicat tapmayacaqlarmış!”

83. Biz bu Axirət yurdunu yer üzündə özlərini üstün tutmaq və fitnə-fəsad törətmək istəməyənlərə nəsib edirik. Gözəl aqibət müttəqilərindir.

84. Kim yaxşı iş görsə, ona bundan daha yaxşı mükafat verilər. Kim də pis işlər görsə, pis iş görənlərin cəzası yalnız əməlləri (qədər) olar.

---

79. Sərvət nümayişi xəstəliyi: Xudpəsənd varlılar adətən bəzi psixi xəstəliklərə tutulurlar. Bu xəstəliklərdən biri sərvət nümayişi xəstəliyidir. Onlar var-dövlətlərini başqalarına göstərməkdən, miniklərinə minməkdən, ayaqyalın yoxsullar arasından keçməkdən toz-torpağı onların üstünə qaldırmaqdan, onları təhqir etməkdən zövq alırlar. Əlbəttə, başqalarında özlərinə qarşı kin-küdurət yaratdıqları və onların hissləri ilə oynadıqları üçün çox vaxt sərvət nümayişi onların canlarının bəlasına çevrilir. Çox vaxt bu

utancverici hərəkətləri həyat dəftərlərinin vərəqlərini qarışdırır və ya sərvətlərinin sovrulmasına səbəb olur. Bəziləri bu cür axmaq hərəkətləri ilə insanları tamahlandırmaq və onları özlərinə tabe etmək marağı güdə bilərlər, ancaq elələri də var ki, bu davranışlara heç bir maraq güdmədən yol verirlər. Bu isə artıq proqram deyil, nəfsin istəyidir. Hər halda Qarun bu qanundan istisna edilmir, hətta "onun bariz nümunəsidir" desək, yanılmarıq[1651].

81. Qarunun həyasızlığının sonu və əzab əmri: Qarun sərvətini yoxsul insanların qarşısında nümayiş etdirməklə itaətsizliyini son həddə çatdırır. Musa (ə) Qarundan malının zəkatını verməsini tələb etdiyində o, sadə bir hesablama ilə külli miqdarda sərvət ödəməli olduğunu anlayır. Buna görə də zəkat verməkdən boyun qaçırıb özünü təmizə çıxarmaq üçün çirkin bir plana əl atır. Allah rəsulunun heysiyyətini ləkələmək üçün əxlaqsız bir qadına pul verib onu insanların qarşısında Musa (ə) ilə çirkin bir münasibətdə olduğunu elan etməyə razı salır. Lakin qadın insanların qarşısına çıxdığı zaman Musa (ə) Allaha and verib ondan həqiqəti deməsini istəyir. Qadın Allahın istəyi ilə çirkin niyyətindən daşınıb əsl həqiqətin üstünü açır. Bu vaxt Musa (ə) Qarunu nifrin edir. Nəticədə, Allah çirkin təbiətli Qaruna əzab göndərir və onu evi ilə birlikdə yerə batırır[1652].

83. Axirət evi özlərini üstün tutmaq istəyində olanların evi deyil: Cinayətkar varlının ibrətamiz əhvalatı qeyd edildikdən sonra bu ayədə həmin hadisədən alınan nəticə bəyan edilir. Bu ayəyə görə, insanların ilahi nemətlərdən olan axirət evindən məhrum olmasına iki amil səbəb olur: Təkəbbür, özünü başqalarından üstün tutmaq və bütün günahları ehtiva edən fitnə-fəsad. Allahın qadağan etdiyi hər bir davranış insanın yaradılış sisteminə ziddir. Buna görə də həmin qadağaları pozmaq insanın yaranış

[1651] Nümunə, c.16, səh.163
[1652] Nümunə, c.16, səh.166

sisteminə qarşı çıxmaq, kamilliyinə mane olmaq, yaranış qanunlarını pozmaq və yer üzündə fitnə-fəsad törətmək hesab edilir. Hətta təkəbbür də fəsadın bir nümunəsidir. Ancaq böyük təsir gücünə malik olduğu üçün ayrı şəkildə qeyd edilmişdir. Hədislərdə bu xüsusiyyətə xüsusi diqqət ayrılmışdır. Hədislərinin birində İmam Əli (ə) belə buyurmuşdur: ***"Bəzən elə olur ki, insana ayaqqabısının bağının dostunun ayaqqabısının bağından yaxşı olması zövq verir, bununla da bu ayə ona şamil olur."*** Çünki bu da özünü başqalarından üstün tutmağın kiçik bir formasıdır. Xilafəti dövründə İmam Əli (ə) bazarlarda gəzər, yolunu azmışlara yol göstərər, zəiflərə kömək edər, satıcıların və qazanc əldə edənlərin yanından keçərək bu ayəni onlara tilavət edib buyurarmış: ***"Bu ayə ədalətli və təvazökar rəhbərlər, habelə cəmiyyətin digər qüdrət sahibləri haqqındadır."*** Yəni mən rəhbərliyi üstünlük vasitəsi hesab etmədiyim kimi, siz də maddi imkanı üstünlük vasitəsinə çevirməyin. Çünki gözəl aqibət özlərini başqalarından üstün tutmayan və fitnə-fəsad törətməyənlərə məxsusdur[1653]. Möminlərin əmiri İmam Əli (ə) xilafəti qəsb edən və və özünün xəlifə olduğu dövrdə ona müxalif olanlardan şikayətləndikdən sonra belə buyurmuşdur: ***"Sanki onlar Allahın "Biz bu Axirət yurdunu yer üzündə özlərini üstün tutmaq və fitnə-fəsad törətmək istəməyənlərə nəsib edirik. Gözəl aqibət müttəqilərindir." – deyə buyurduğunu eşitməmişdilər. And olsun Allaha! Onu eşidib başa düşmüşdülər. lakin dünya gözlərini qamaşdırmış, onun bəzək-düzəyi onları aldatmışdı."***[1654]

[1653] Nümunə, c.16, səh.177
[1654] Nəhcül-bəlağə, 3-cü xütbə

85. Quranı sənə vacib buyuran səni qayıdacağın yerə (vətəninə) mütləq qaytaracaqdır. De: “Rəbbim kimin hidayət gətirdiyini və kimin açıq-aydın azğınlıq içində olduğunu yaxşı bilir”.

86. Sən bu səmavi Kitabın sənə nazil olacağına ümid etmirdin. Ancaq Rəbbinin mərhəməti sayəsində bu baş verdi. İndi ki, belədir, əsla kafirlərə arxa durma!

87. Allahın ayələri sənə nazil edildikdən sonra, məbada səni bu ayələrdən döndərsinlər. Sən Rəbbinə doğru dəvət et və müşriklərdən olma!

88. Allahla yanaşı başqa bir məbudu çağırma! Ondan başqa heç bir məbud yoxdur. Onun zatından başqa hər şey fanidir. Hakimiyyət yalnız Ona məxsusdur və hamı Ona doğru qaytarılacaqdır.

"Ənkəbut" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Əlif, Ləm, Mim.

2. İnsanlar elə güman edirlər ki, təkcə: “İman gətirdik!” – deyən kimi onlardan əl çəkiləcək və imtahan edilməyəcəklər?

3. Biz onlardan öncəkiləri də sınaqdan keçirmişdik. Allahın doğru və yalan danışanlarla bağlı elmi aşkara çıxmalıdır.

4. Yaramaz işlər görənlər bizim qüdrətimizi üstələyəcəklərinimi güman edirlər? Necə də pis mühakimə yürüdürlər.

5. Allahla görüşəcəyinə ümid bəsləyənələr (onun əmrinə itaət göstərməyə çalışmalıdırlar), çünki Allahın müəyyənləşdirdiyi zaman hökmən gələcəkdir. O, eşidəndir, biləndir.

6. Ciddi-cəhdlə fəaliyyət göstərən özü üçün çalışır. Çünki Allahın aləmlərə qətiyyən ehtiyacı yoxdur.

---

85. Quranın başqa bir öncəgörənliyi: Peyğəmbər (s) Məkkədən Mədinəyə hicrət etmək qərarına gəldikdə vətəni Məkkə üçün darıxdı, simasına qəm çökdü. Bu vaxt vəhy mələyi Cəbrayıl enib ondan soruşdu: Doğulduğun şəhəri doğurdanmı çox sevirsən? Peyğəmbər (s) buyurdu: Bəli. Cəbrayıl dedi: Allah sənə belə bir xəbər göndərdi: “Quranı sənə vacib buyuran səni qayıdacağın yerə (vətəninə) mütləq qaytaracaqdır.” Bu vədin reallaşdığından, Peyğəmbərin (s) güclü bir ordu, qüdrət, əzəmət və qələbə ilə Məkkəyə qayıtmasından, Allahın əmin-amanlıq evinin ona müharibəsiz və qan tökülmədən təslim edildiyindən xəbərimiz var.[1655]

“Ənkəbut” surəsinin ümumi məzmunu: Bu surənin ehtiva etdiyi mövzular dörd bölmədə ümumiləşdirilmişdir: 1. İmtahan və münafiqlərin vəziyyəti; 2. Peyğəmbərlər tarixindən, onların kafir və günahkarlarla

[1655] Nümunə, c.16, səh.184

mübarizəsindən fraqmentlər; 3. Tövhid, şirkin inkar edilməsi, Allahın yaradılış aləmindəki nişanələri; 4. Qondarma tanrıların zəifliyi və acizliyi, hörümçəyə sitayiş edənlər, onların xüsusiyyətləri, habelə Quranın əzəməti, İslam peyğəmbərinin haqq olmasının dəlilləri, namaz, ataya və anaya yaxşılıq, saleh əməllər, müxaliflərlə məntiqli davranış tərzi kimi bəzi tərbiyəvi məsələlər və sair mövzular.[1656]

2-3. İmtahanın müxtəlif formaları: Bu ayələr göstərir ki, imtahan Allahın əbədi və dəyişməz qanunudur. Hər bir zümrə və cəmiyyət bu ilahi qanunda özünəməxsus pay sahibidir. Allahın imtahanı onlar üçün fərqli-fərqli simalarda təzahür edir. Bəzən bir qrup insan hər cəhətdən günah çirkabına bulaşmış mühitdə yaşamaq məcburiyyətində qalır, fitnə-fəsad vəsvəsəsi onları hər tərəfdən əhatə edir. Onların ən böyük sınağı mühitin rəngini almamaq, öz təmizliklərini qorumaqdır. Bəzi insanlar məhrumiyyətlərə məruz qalırlar. Varlıqlarının əsas sərmayəsindən imtina edəcəkləri təqdirdə məhrumiyyətləri və yoxsulluqları da sona yetəcəyi halda, imanlarını, təqvalarını, azadlıqlarını, izzət və şərəflərini qorumaq üçün bunu etmirlər. Onların imtahanı budur. Bəziləri bol nemət içində üzür, ixtiyarlarında bütün maddi imkanlar olur. Belə bir imkana malik olanların imtahanı şükür etməkdir. Bəzən elə ölkələr olur ki, əhalisi Allahdan, ilahi dəyərlərdən və əxlaqdan uzaq olduğu halda, göz qamaşdıran maddi mədəniyyətə, yüksək sosial rifaha malik olur. İnsanları sirli bir cazibə bu həyat tərzinə doğru sürükləyir, inandıqları bütün dəyərləri ayaqları altına atmaları, zillət və xarlığı qəbul etmək müqabilində belə bir həyat tərzinə malik ola bilərlər. Bu da bir imtahan formasıdır. Müsibətlər, dərdlər, çətinliklər, müharibələr, münaqişələr, qıtlıq, bahalıq, inflyasiya, insanları

[1656] Nümunə, c.16, səh.198

əsarət boyunduruğuna salmağa çalışan, despot proqramlara təhrik edən diktator hökumətlər, nəfsani istəklər və ehtirasların güclü dalğaları və sair, hər biri Allah bəndələrinin yolu üzərində duran imtahanlardır. İnsanların imanı, şəxsiyyəti, təqvası, təmizliyi, əmanətdarlığı, azadlığı məhz bu cür səhnələrdə bəlli olur. Bu çətin imtahanlardan üzüağ və qalib çıxmaq üçün davamlı çalışmaq, Allahın xüsusi lütf və mərhəmətinə sığınmaq yeganə xilas yoludur. Bu ayənin təfsirini ehtiva edən bir hədisdə belə deyilir: ***"Qızıl kürədə yoxlandığı kimi yoxlanırlar, od qızılın xalis olmayan qatqılarını sıradan çıxarıb saflaşdırdığı kimi saflaşırlar."***[1657] Möminlərin əmiri İmam Əlinin (ə) bir hədisində belə deyilir: ***"Bəla zalım üçün ədəb, mömin üçün imtahan, peyğəmbərlər üçün dərəcə, övliyalar üçün kəramətdir."*** İmam Əlinin (s) peyğəmbərlərin xüsusiyyətlərindən bəhs edən bir xütbəsində deyilir: ***"Allah peyğəmbərlərini aclıqla imtahan etdi, çətiniliklərlə qarşılaşdırdı, qorxulu hadisələrlə sınadı, çətinliklərlə saflaşdırdı."***[1658] Hər halda, iman gətirdiklərini elan edən kimi Cənnətliklərlə eyni yerdə olacaqlarını düşünənlər yanılırlar.[1659]

[1657] Nümunə, c.16, səh.206
[1658] Quranın ismarışı, c.4 ,səh.476 və 481
[1659] Nümunə, c.16, səh.207

7. İman gətirib yaxşı işlər görənlərin günahlarının üstünü örtərik və onları etdikləri əməllərdən daha üstün olanı ilə mükafatlandırarıq.

8. Biz insana ata-anası ilə gözəl davranmağı tövsiyə etdik. Əgər onlar (müşrik olsalar və) bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün səy göstərsələr, onlara tabe olma. Dönüşünüz Mənə olacaq, Mən də sizi bütün etdiklərinizdən xəbərdar edəcəyəm.

9. İman gətirib yaxşı işlər görənləri əməlisalehlər zümrəsinə daxil edəcəyik.

10. İnsanlardan: “Allaha iman gətirdik!” – deyənlər də vardır. Amma Allah yolunda əzab-əziyyətə məruz qaldıqda insanların işkəncələrini Allahın əzabı ilə eyni tuturlar. Rəbbin tərəfindən bir zəfər gəldikdə isə: “Biz də sizinlə idik!” – deyərlər. Məgər Allah yaradılmışların kökslərində olanları ən yaxşı bilən deyilmi?

11. Şübhəsiz ki, Allah iman gətirənləri də tanıyır, münafiqləri də.

12. Kafirlər möminlərə: “Bizim yolumuzla gedin, biz sizin günahlarınızı öz üstümüzə götürəcəyik” – deyirlər. Halbuki onlar bunların heç bir günahının altına girən deyillər. Şübhəsiz ki, onlar yalançıdırlar.

13. Onlar həm öz (günah) yüklərini və həm də onlarla yanaşı, neçə-neçə yükləri də daşıyacaqlar. Qiyamət günü onlar uydurduqları şeylər barəsində mütləq sorğu-suala çəkiləcəklər.

14. Biz Nuhu öz qövmünə doğru göndərdik. O, onların arasında doqquz yüz əlli il qaldı. Nəhayət, tufan onları zülm etdikləri zaman yaxaladı.

---

8. Ata-anaya yaxşılıq və onun istisnası: Quranda valideynə yaxşılıq edilməsi kimi mühüm və insani mövzuya bir neçə yerdə toxunulmuşdur. Surənin əvvəlki ayələrində qeyd edilən bu tövsiyə Allahın böyük sınaqlarından biridir. Bəzən valideynlər ömürlərinin elə çağına çatırlar ki, onlara baxmaq çətinləşir. Övladlar məhz belə bir vaxtda sınaqdan çıxmalı, boyunlarında olan haqları yerinə yetirməli, Allahın əmrinə itaət göstərməli, ata-analarına yaxşı baxmalıdırlar. Bir gün bir nəfər Peyğəmbərdən (s) "Mən kimə yaxşılıq edim?" – deyə soruşur. Peyğəmbər (s) "Anana", - deyə cavab verir. Həmin şəxs "Ondan sonra kimə?" – deyə soruşur. Peyğəmbər (s) "Anana", - deyə cavab verir. Sual verən adam üşüncü dəfə "Ondan sonra kimə?" – deyə soruşur. Peyğəmbər (s) "Anana", - deyə cavab verir. Dördüncü dəfədə Peyğəmbər (s) ata və insana yaxın olan digər qohumlara yaxşılıq etməyi tövsiyə edir. Bir çox kitabda yer almış başqa bir hədisdə Peyğəmbərin (s) belə buyurduğunu görürük: ***"Cənnət anaların ayaqları altındadır!"*** Ancaq bu sevginin insan və Allah münasibətlərindən, habelə iman şərtlərindən üstün olması ehtimalının qarşısını almaq üçün Allah bir istisna ilə məsələyə aydınlıq gətirir: "Əgər onlar (müşrik olsalar və) bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün səy göstərsələr, onlara tabe olma". Buradan da məlum olur ki, heç nə Allah ilə insan münasibətindən üstün ola bilməz. Bu münasibət bütün həqiqətlərin fövqündə dayanır. İmam Əli (ə) hədislərinin birində belə buyurmuşdur: "Allaha itaətsizliklə şərtlənən yaradılmışa itaət doğru deyil." Bənzər ayə "Loğman" surəsində də yer almışdır. "Loğman" surəsindəki ayədə sadəcə, bu cümlə artıqdır: "Dünyada onlarla gözəl davran". Yəni onların şirkə dəvətini qəbul etməməklə yanaşı, dünya həyatında onlara yoldaş olmalı və onlarla yaxşı keçinməlisən. Quranın şirkə və digər günahlara dəvət etdikləri zaman ata-anaya qarşı

çıxmağa icazə verməsi belə bir təsəvvür yaratmasın ki, onlarla pis davranılmasına icazə verilmişdir.[1660]

10. Az əziyyət çəkib çox istəyən münafiqlər: Əvvəlki ayələrdə saleh möminlər və müşriklərdən danışıldı. Bu ayədə üçüncü qrup insanlardan, yəni münafiqlərdən danışılır. Ayədə Allahın cəzası əzab, insanların yaratdığı çətinliklər fitnə adlandırılmışdır. Allah başa salmaq istəyir ki, insanların yaratdığı çətinliklər əzab deyil, imtahan və insanların kamilləşməsi üçün bir vasitədir. Buna görə də onlara bu ikisini müqayisə etməmək, müxaliflərin onlara əzab və işkəncə verdiklərini bəhanə etməmək, imanlarından əl çəkməmək göstərişi verir, bunun dünyada bir imtahan olduğunu bildirir. Nəzər nöqtəsi olan ayə bir məsələyə aydınlıq gətirir. O da budur ki, münafiq təkcə qəlbində iman olmayıb mömin olduğunu deyən şəxs deyil, imanı zəif olan, başqalarının təzyiqi ilə əqidəsini dəyişən də münafiq sayılır.[1661] Təbii ki, təqiyyəni bu mövzuya heç bir aidiyyatı yoxdur. (Daha ətraflı məlumat üçün bax: Nəhl - 106).

13. Siz günah edin, babalı bizim boynumuza: Bu ayədə müşriklərin zəif və puç bir məntiqlərinin bir nümunəsinə işarə edilmişdir. Bu gün də bir çox qıcıqçıların yanlış bir iş tutmağa çağırış edərkən "Günahı mənim boynuma" demələrinə çox rast gəlirik. Halbuki kimsənin başqasının günahını götürə bilməyəcəyini yaxşı bilirik. Çünki Allah adildir və heç kəsi başqasının cinayətinə görə cəzalandırmaz. Bundan əlavə, bu cür əsassız sözlər insanı hər hansı davranışa görə daşıdığı məsuliyyətdən azad etmir. Bəzi dar düşüncəli insanların bu cür danışıqları insanın cəzasından iynə ucu qədər də azaltmır. Bu şirkə, küfrə, bütpərəstliyə və zülmə dəvət edənlərin heç bir cəzasının olmayacağı təsəvvürünün qarşısını almaq üçün onların öz

[1660] Nümunə, c.16, səh.215-218
[1661] Nümunə, c.16, səh.215-218

günah yüklərini daşımaqla yanaşı başqalarının da günah yüklərini daşıyacaqlarını buyurur. Hər hansı işə stimul vermək işin bir hissəsi sayıldığı üçün onların götürəcəkləri əlavə günah yükünə günaha çağırış və təhrik səbəb olur.[1662]

15. Biz onu və gəmidə olanları xilas edib onu bütün aləmlərə bir əlamət etdik.

16. İbrahimi (də) göndərdik. Bir zaman o öz qövmünə demişdi: “Allaha ibadət edin və Ondan qorxun! Əgər bilsəniz, bu sizin üçün daha xeyirlidir.

[1662] Nümunə, c.16, səh.222

17. Siz Allahı qoyub ancaq bütlərə ibadət edir və yalan uydurursunuz. Allahdan başqa ibadət etdiklərіniz sizə ruzi vermək iqtidarında deyillər. Ruzini yalnız Allahdan diləyin, Ona ibadət edin və Ona şükür edin. Siz ancaq Ona qaytarılacaqsınız".

18. Əgər siz (məni) yalançı hesab etsəniz, (heç də təəccüblənmərəm,) sizdən əvvəlki xalqlar da (öz peyğəmbərlərini) yalançı saymışdılar. Peyğəmbərin vəzifəsi isə yalnız aydın şəkildə çatdırmaqdır.

19. Onlar Allahın yaradılmışları necə xəlq etdiyini, sonra da yenidən qaytardığını görmürlərmi? Bu, Allah üçün asandır.

20. De: "Yer üzünü gəzib dolaşın və Allahın məxluqatı ilk dəfə necə yaratdığına baxın. Sonra Allah axirət dünyasını yaradacaq. Həqiqətən, Allah hər şeyə qadirdir.

21. O, istədiyinə əzab verir, istədiyinə də rəhm edir. Siz Ona doğru qaytarılacaqsınız.

22. Siz əsla Allahın iradəsinə üstün gələ, nə yerdə, nə də göydə Onun qüdrətindən qaça bilməzsiniz. Allahdan başqa sizin nə bir himayədarınız, nə də bir yardımçınız olacaq".

23. Allahın ayələrini və onunla görüşü inkar edənlər Mənim rəhmətimdən ümidlərini kəsənlərdir. Onlar üçün ağrılı-acılı bir əzab vardır.

---

17. Ruzini Allahdan istəyin: Bütpərəstlər bütləri mələk və cinlərin simvolik atributları hesab edir, onları razı salmaq üçün bu atributlara sitayiş edir, əvəzində onların xeyir-bərəkət, ruzi göndərdiklərinə inanırdılar. Ancaq həzrət İbrahim (ə) onlara xeyir-bərəkətin və ruzinin bütlərin deyil, onları yaradan, həyatlarını davam etdirmək üçün ruzilərini də verən Allahın əlində olduğunu xatırladır. Daha sonra İbrahim (ə) daha mühüm məsələyə işarə

edərək ruzi və onun səbəblərinin sitayiş və ibadət səbəbi olmadığını bildirir. Ruzinin xüsusi səbəbləri var və fərdlərin imanından və küfründən asılı deyil. Kafirə çox ruzi nəsib ola biləcəyi halda, möminə az ruzi nəsib ola bilər. İnsan elə tanrıya şükür və ibadət etməlidir ki, qayıdışı onadır, onun əli ilə qaldırılacaq, əbədi xoşbəxtlik və ya bədbəxtliyinə onun əmri ilə qovuşacaq.[1663]

20. Dünyanı gəzmək: Dünyanın müxtəlif yerlərində qədim dövrlərdən qalmış abidələr tarixin canlı sənədləridir. Hətta biz onlardan yazılı tarixdən də çox faydalanırıq. Keçmiş dövrlərdən qalmış abidələr, şəkillər, rəsmlər və kitabələr bizə xalqların ruhu, qəlbi, təfəkkürü, gücü, qüdrəti, əzəməti və süqutu ilə bağlı məlumat verir. Halbuki tarix onların yalnız baş vermiş hadisələrini, cansız və quru şəkillərini təcəssüm etdirir. Diktatorların saraylarının xarabalıqları, əsrarəngiz Misir ehramları, Babil qəsri, Kəsranın sarayları, Səba xalqının mədəniyyət qalıqları və dünyanın ayrı-ayrı yerlərində mövcud olan digər abidələrin hər biri danışmasa da min dilə malikdir, danışır. Canlı tarixdən bir sətir oxumaq bir tarix kitabını oxumağa bərabərdir. İnsanın ruhunun oyanışında rol oynayan bu oxunuş heç nə ilə müqayisə edilə bilməz. Qədim dövrlərə aid abidələrin qarşısında dayandıqda xarabalıqlar sanki canlanır, çürümüş sümüklər torpağın altından qalxır, öz əvvəlki simalarında hərəkət etməyə başlayırlar. Yenidən baxdıqda hamısını sakit, unudulmuş və tərk edilmiş halda görərik. Bu iki vəziyyətin müqayisəsi çox keçici ehtiraslar üçün minlərlə cinayətlərə əl atan təkəbbürlü və özlərini başqalarından üstün tutan insanların nə qədər dar düşüncəli olduqlarının şahidi oluruq. Buna görə də Quran insanlara yer üzünü gəzmək, səyahət etmək, yerin altında olan qədim abidələri öz gözləri ilə görmək, baxıb ibrət

---

[1663] Əl-Mizan, c.16, səh.118

dərsi çıxarmaq göstərişi verir. İslamda səyahət və turizmə çox böyük əhəmiyyət verilir. Məqsəd isə keçmiş xalqların abidələrini araşdırmaq, onların aqibəti ilə yaxından tanış olmaq, dünyanın müxtəlif nöqtələrində Allahın əzəmətini müşahidə etməkdir. Quranda bu məsələ öz əksini "Yer üzünü gəzin" göstərişində tapır. Quranın bir çox ayəsində bu mövzuya toxunulmuşdur. Nəml-69; Ənkəbut-20; Həcc-46 və sairəni buna misal göstərə bilərik. Təəssüf ki, İslamın bu faydalı göstərişi bir çox digər göstərişi kimi müsəlmanların diqqətindən kənarda qalmışdır.[1664]

[1664] Nümunə, c.3, səh.124

24. Qövmünün cavabı isə ancaq: “Ya onu öldürün, ya da yandırın!” – deməsi oldu. Lakin Allah onu oddan qorudu. Bu hadisədə mömin adamlar üçün nişanələr vardır.

25. (İbrahim) dedi: “Siz Allahı qoyub dünya həyatında aranızda sevgi və məhəbbətə səbəb olan bütləri özlərinizə tanrı seçmisiniz. Sonra isə Qiyamət günü bir-birinizdən uzaqlaşıb, bir-birinizi lənətləyəcəksiniz. Yeriniz oddur. Sizə yardım edəcək heç bir dost və yoldaş olmayacaq”.

26. Lut ona (İbrahimə) iman gətirdi. (İbrahim) dedi: “Mən Rəbbimə doğru hicrət edirəm. Həqiqətən, O, qüdrətlidir, müdrikdir”.

27. Biz ona İshaqı və Yəqubu bağışladıq. Onun nəslinə peyğəmbərlik və Kitab verdik. Dünyada onun mükafatını verdik. Axirətdə də əməlisalehlərdən olacaqdır!

28. Lutu da göndərdik. Bir zaman o öz qövmünə belə demişdi: “Siz özünüzdən əvvəl dünya xalqlarından heç kəsin etmədiyi çox çirkin bir əməli etdiniz.

29. Siz kişilərin yanına gedir, yol kəsir (nəsil artımının qarşısını alır) və məclislərinizdə murdar işlər görürsünüz?" Qövmünün cavabı isə ancaq: "Əgər doğru danışanlardansansa, bizə Allahın əzabını gətir!" – deməsi oldu.

30. (Lut) dedi: "Ey Rəbbim! Fitnə-fəsad törədən bu qövmə qarşı mənə kömək et!"

---

25. Bütlərin seçilməsi bütpərəstlər arasında necə sevgi səbəbi olur? Bu suala bir neçə yöndən cavab vermək olar: 1. Sitayiş və pərəstiş hər bir xalq və qəbilə üçün vəhdət rəmzi sayılırdı. Çünki hər zümrə özü üçün bir büt seçmişdi. Bütlərin ayrı-ayrı şəhər və qəbilələrə aid olduğunu yazırlar. Məsələn, "Üzza" Qüreyş qəbiləsinə, "Lat" Səqif, "Mənat" Ous və Xəzrəc qəbilələrinə məxsus idi. 2. Bütlərə sitayiş onlarla əcdadları arasında əlaqə vasitsəi hesab edilirdi. Elə məhz buna görə onların atalarının mirası olduğunu bəhanə gətirib onlara sitayişi bununla izah edirdilər. 3. Kafirlərin rəhbərləri öz ardıcıllarını bütlərə pərəstiş etməyə çağırırdılar, bu, başçı ilə ardıcılları arasında bir əlaqə vasitəsi hesab edilir. Ancaq Qiyamətdə bütün bu puç, çürümüş, saman çöpündən olan əlaqələr darmadağın olacaq, bir-birlərini günahlandıracaq, lənətləyəcəklər. Hətta xam xəyalları ilə Allahla onlar arasında vasitəçi olduğunu düşündükləri və ***"Biz bunlara yalnız ona görə pərəstiş edirik ki, bizi Allaha yaxınlaşdırırlar"*** (Zümər-3) – deyə iddia etdikləri tanrılar onlardan qaçacaq. Allah-taala belə buyurur: ***"Tezliklə məbudlar onların ibadətlərindən imtina edəcək, onlara qarşı çıxacaqlar".*** (Məryəm-82) ***"Qiyamət günü bir-birinizdən uzaqlaşıb, bir-birinizi lənətləyəcəksiniz"*** deyilərkən onların Qiyamət günü bir-birlərindən uzaqlaşması, dünyada yalançı məhəbbətlərinə səbəb olan vasitənin axirətdə ədavət və düşmənçiliklərinə səbəb olacağı nəzərdə tutulur. "Zuxruf" surəsinin 67-ci ayəsində belə buyururlur: "O gün müttəqilərdən başqa

(bütün) dostlar bir-birinə düşmən kəsiləcəklər". Bəzi hədislərdən belə məlum olur ki, bu məsələ təkcə bütpərəstlərə deyil, batil bir rəhbəri özünə başçı seçən, batilin yolunu gedən, onunla dostulq edən hər kəsə aiddir. Onlar Qiyamətdə bir-birlərinə düşmən kəsiləcək, bir-birlərini lənətləyəcəklər. Ancaq münasibətləri bu dünyada tövhid, Allahpərəstlik, Allahın əmrinə boyun əymək prinsipinə əsaslanan möminlərin bir-birlərinə qarşı olan məhəbbəti əbədilik rəngi alacaq, və orada daha da möhkəmlənəcək. Bəzi hədislərdə qeyd olunanlara görə, möminlər orada bir-birləri üçün bağışlanma diləyəcək, müşriklər isə bir-birlərini lənətələmək və nifrin etməklə məşğul olacaqlar[1665].

26. İbrahimin (ə) hicrəti: İlahi rəhbərlər öz missiyalarını hər hansı bir məkandan başlayırdılar. Həmin məkanların mühiti o qədər çirkin və oradakı despotların təzyiqləri o qədər güclü olurdu ki, missiyanın inkişafının tamamilə qarşısını alırdı. Buna görə də ilahi rəhbərlər Allahın dinini yaymaq üçün hicrət etmək məcburiyyətində qalırdılar. İbrahim (ə) də Lut peyğəmbər (ə) və həyat yoldaşı Sara ilə birlikdə Babildən Şama doğru hərəkət etmək və tövhid inancını oradan yaymaq məcburiyyətində qalmışdı. İbrahim (ə) özü bu barədə belə buyurmuşdur: ***"Mən Rəbbimə doğru (Onun dinini yaymaq üçün) hicrət edirəm."*** Çünki bu yol Allah yolu, Onun razı qaldığı yol, göndərdiyi dinin yolu idi[1666].

27. İbrahimin (ə) mükafatı: Təfsirçilər bu mükafatın nə olması ilə bağlı müxtəlif fikirlər irəli sürmüşlər. Bəziləri bunun dünyadakı gözəl maddi və mənəvi həyat olduğunu bildirirlər. Belə ki, "Nəhl" surəsinin 123-cü ayəsində Allah-taalanın belə buyurduğunu görürük: "***Biz dünyada ona yaxşılıq bəxş etdik, o, axirətdə yaxşılardandır."*** Bəziləri hesab edirlər ki,

[1665] Nümunə, c.16, səh.246
[1666] Nümunə, c.16, səh.248

digər möminlərin axirətdə nail olacaqları Allaha yaxınlıq məqamıdır. Allah bu məqamı İbrahimə (ə) bu dünyada bəxş etmişdir[1667]. Bəziləri hesab edirlər ki, bəlkə də burada bütün ümmətlər arasında onun bir örnək kimi yaxşı adla xatırlanmasıdır. Belə ki, hər kəs İbrahimə (ə) böyük bir peyğəmbər kimi hörmət bəsləyir, onun varlığı ilə fəxr edir. Onun duası ilə Məkkənin əmin-amanlıq məkanına çevrilməsi, hər il Həcc mərasimi dövründə bütün qəlblərin ona doğru cəzb olunması, onun imana səbəb olan əzəmətli xatirələrinin yada salınması bu mükafatların bir hissəsi hesab edilə bilər.[1668]

31. Elçilərimiz İbrahimə (övladının olacağı ilə bağlı) müjdə gətirdikləri zaman dedilər: “Biz bu şəhərin (Lutun ezam olunduğu şəhər) sakinlərini məhv edəcəyik. Çünki oranın sakinləri zalımdırlar”.

[1667] Əl-Mizan, c.16, səh.126
[1668] Nümunə, c.16, səh.250

32. (İbrahim) dedi: “Orada Lut da var!” Onlar dedilər: “Biz orada kimin olduğunu yaxşı bilirik. Biz onu da, onun ailəsini də xilas edəcəyik. Yalnız arvadından başqa. O, geridə qalanlardan olacaq”.

33. Elçilərimiz Lutun yanına gəldikdə o, onlara görə kədərləndi və ürəyi sıxıldı. Onlar dedilər: “Qorxma və kədərlənmə! Biz səni və sənin ailəni xilas edəcəyik. Yalnız arvadından başqa. O, geridə qalanlardan olacaq.

34. Biz günah əməllər törətdiklərinə görə bu şəhərin sakinlərinin üstünə göydən bir əzab endirəcəyik”.

35. Biz düşünən adamlar üçün o şəhərdən açıq-aydın bir əlamət saxladıq.

36. Mədyən əhalisinə də qardaşları Şueybi göndərdik. O dedi: “Ey qövmüm! Allaha ibadət edin, Axirət gününə ümid bəsləyin və yer üzündə fəsad törətməyin”.

37. Onlar isə onu yalançı saydılar. Buna görə də onları zəlzələ yaxaladı və səhət tezdən onlar evlərində ölü və üzüqoylu düşmüşdülər .

38. Ad və Səmud qövmünü də (məhv etdik). Onların məskənləri sizə bəllidir. Şeytan onlara etdikləri əməlləri gözəl göstərib haqq yoldan çıxardı. Halbuki onların görən gözləri var idi.

---

32. İbrahimin (ə) Lut qövmünə ürəyi yanır: Həzrət İbrahim (ə) “Orada Lut da var” deyərkən Lutun da xilas olması üçün əzabın Lut qövmünün üzərindən götürülməsini istəyir. Mələklər isə ona belə cavab verirlər: Bizim bundan xəbərimiz var. Biz Lut və ailəsi istisna olmaqla hər kəsi məhv edəcəyik. Arvadı da məhv olanların içində olacaq. İbrahim (ə) Lutun (ə) peyğəmbər olduğunu, Allahın onu da şəhər əhalisi ilə birlikdə məhv etməyəcəyini bilirdi. Mələklərin əzab xəbəri onda Lutla (ə) bağlı bir qorxu

da yaratmamışdı. Sadəcə, İbrahim (ə) həzrət Lutun (ə) hesabına başqalarının da əzabdan xilas olmasını istəyirdi. (Bu mövzu haqqında "Hud" surəsinin 74-76-cı ayələrində bir qədər ətraflı məlumat verilmişdir). İmam Sadiq (ə) hədislərinin birində mələklərin İbrahimin (ə) yanına gəlməsi və ona verilən müjdədən danışarkən sözlərinə bunları əlavə edir:

"İbrahim mələklərə deyir:

- Nə üçün gəlmisiniz?

Mələklər:

- Lut qövmünü məhv etməyə.

İbrahim (ə):

- Əgər onların yüz nəfəri mömin olsaydı, necə?

Cəbrayıl:

- Xeyr (əzab nazil olmazdı).

İbrahim (ə):

- Əgər onların əlli nəfəri mömin olsaydı, necə?

Cəbrayıl:

- Xeyr (əzab nazil olmazdı).

İbrahim (ə):

- Əgər onların otuz nəfəri mömin olsaydı, necə?

Cəbrayıl:

- Xeyr (əzab nazil olmazdı).

İbrahim (ə):

- Əgər onların iyirmi nəfəri mömin olsaydı, necə?

Cəbrayıl:

- Xeyr (əzab nazil olmazdı).

İbrahim (ə):

- Əgər onların on nəfəri mömin olsaydı, necə?

Cəbrayıl:

- Xeyr (əzab nazil olmazdı).

İbrahim (ə):

- Əgər onların beş nəfəri mömin olsaydı, necə?

Cəbrayıl:

- Xeyr (əzab nazil olmazdı).

İbrahim (ə):

- Əgər onların bir nəfəri mömin olsaydı, necə?

Cəbrayıl:

- Xeyr (əzab nazil olmazdı).

İbrahim (ə):

- Lut həmin şəhərdədir.

Cəbrayıl:

- Biz orada olanları yaxşı tanıyırıq. Onu və ailəsini xilas edəcəyik, təkcə arvadından başqa. O, geridə qalanlardan olacaq." İmam Həsən ibn Əli (ə) bu hədis haqqında belə buyurmuşdur: "Mən İbrahimin söhbətindən yalnız belə qənaətə gəlirəm ki, o, Lut qövmünün yaşamasını istəmişdir. Bunu Allah-talanın "Lut qövmü ilə bağlı bizimlə mübahisə edirdi" ayəsindən başa düşmək olar." (Hud-74).[1669]

33. Lutun (ə) ürəyinin sıxılması: Lut (ə) mələkləri tanımadığı üçün narahat olmuşdu. Onlar gözəl gənclər surətində gəlmişdilər. Bu cür qonaqların belə çirkin mühitə gəlişi Luta (ə) problem yarada və qonaqların yanında onun utanmasına səbəb olacaq hərəkətlərin baş verməsinə gətirib çıxara bilərdi. Buna görə də azğın, həyasız və utancverici qövmünün bu qonaqlar qarşısında necə davranacağından bərk narahat idi. "Hud"

[1669] Əl-Mizan, c.16, səh.128-132

surəsindən də məlum olur ki, bu həyasız qövm qonaqlardan xəbər tutduqda durmadan Lutun (ə) evinə axışır və onlara hörmətsizlik etmək istəyirlər. Hələ də mələklərin həqiqi kimliyindən xəbərsiz olan Lut (ə) təşivşə düşür. Gah nəsihət, gah təhdid etməklə, gah vicdanları oyatmaq üçün ***"Aranızda alicənab bir kişi yoxdurmu?"*** deməklə, gah da qızları ilə evlənmələrini təklif etməklə onlara mane olmağa çalışır. Ancaq bu utanmazlar heç nə ilə qane olmur, yalnız öz mənfur və utancverici məqsədlərini düşünürlər. Bu vaxt Allahın elçiləri özlərini Luta (ə) tanıtdırır, ilahi möcüzə ilə hücum çəkmiş qövmün gözünə pərdə çəkir, Allahın bu böyük peyğəmbərinin qəlbini sakitləşdirirlər.[1670]

35. Açıq-aydın əlamət: Bax:"Hicr" surəsi, 76-cı ayə.

38. Göz sahibi olanlar: Bəzi təfsirçilər "Onların görən gözləri var idi" cümləsini təfsir edərkən bu sözlə onların görən gözə, ağıl və dərrakəyə, bəziləri, sağlam fitrətə malik olduqlarının, bəziləri isə doğru yolu göstərən peyğəmbərlərlə təmin olunduqlarının nəzərdə tutulduğunu qeyd etmişlər. Bu sözün bütün bu mənaları eyni anda ifadə etməsinin heç bir problemi yoxdur. Yəni Allah demək istəyir ki, onlar üzrlü cahillər deyildilər, haqqı tanıyırdılar, vicdanları oyaq idi, kifayət qədər ağıllı və dərrakəli idilər, peyğəmbərlər də onlara hər şeyi başa salmışdı. Ancaq bütün bunlara baxmayaraq, ağıl və vicdanın səsinə, peyğəmbərlərin çağırışına əhəmiyyət vermir, şeytanın vəsvəsələrinin arxasınca düşür, çirkin əməllərinin gözlərində gözəl görünməsi günbəgün artırdı. Özlərini dönüşü olmayan bir həddə çatdırmışdılar. Yaradılış qanunu bu quru və faydasız odunları oda məhkum etdi[1671].

[1670] Nümunə, c.16, səh.263
[1671] Nümunə, c.16, səh.271

39. Qarunu, Fironu və Hamanı da (məhv etdik.) Musa onlara aydın dəlillər gətirdi. Onlar isə yer üzündə təkəbbürlük etdilər, ancaq (Allahdan) üstün ola bilmədilər.

40. Biz onların hər birini öz günahına görə yaxaladıq. Onlardan bəzisinin üstünə çınqıl tufanı göndərdik, bəzisini göydən gələn qorxunc səs yaxaladı, bəzisini yerə batırdıq, bəzisini də (suya) qərq etdik. Allah onlara əsla zülm etmədi, amma onlar özləri özlərinə zülm edirdilər.

41. Allahdan başqasını özlərinə rəhbər tutanlar özünə yuva qurmuş hörümçəyə bənzəyirlər. Yuvaların ən zəifi isə, əlbəttə ki, hörümçək yuvasıdır. Kaş ki, biləydilər!

42. Allah onların Onu qoyub nəyi çağırdıqlarını bilir. O, yenilməz qüdrət sahibidir, müdrikdir.

43. Bunlar bizim insanlar üçün çəkdiyimiz məsəllərdir. Onları isə yalnız bilən adamlar dərk edər.

44. Allah göyləri və yeri haqq olaraq yaratmışdır. Bunda möminlər üçün bir əlamət vardır.

45. Kitabdan sənə vəhy olunanı oxu və namaz qıl. Çünki namaz (insanı) çirkinliklərdən və günahdan çəkindirir. Allahı xatırlamaq daha böyükdür. Allah nə etdiyinizi bilir.

---

41. Zəif himayədarlar hörümçək yuvaları kimidir: Bu ayədə Allahdan qeyrisini özünə tanrı və himayədar seçən insanlar üçün gözəl bir misal qeyd edilmişdir. Bu misal üzərində nə qədər çox düşünsək, daha çox incəliklərə vararıq. Hər bir heyvan və ya həşərat özü üçün ev düzəldir, yuva qurur. Ancaq bu evlərin heç biri hörümçək yuvası kimi zəif deyil. Nazik saplardan hörülmüş hörümçək yuvasının nə divarı olur, nə tavanı, nə həyəti, nə də qapısı. Üstəlik, yuvanın hörülməsində istifadə edilən ləvazimat o qədər zəif və davamsızdır ki, heç nəyə müqavimət göstərə bilmir. Mülayim külək əsdiyində bütün sapları sökülür, bir neçə yağış damcısı ilə darmadağın olur, azacıq od qarşısında məhv olur, hətta üzərinə toz-torpaq da qonduğunda davam gətirmir, parçalanıb evin tavanından sallanır. Yalançı tanrılar da belədir, nə bir xeyirləri var, nə ziyanları, nə bir problemi həll edirlər, nə də çıxılmaz vəziyyətdə sığınacaq olurlar. Bu yuva uzun və hündür ayaqlı hörümçək üçün həm istirahət yeridir, həm həşərat ovlayıb qida tədarük etmək üçün tələ. Ancaq digər heyvanların yuvaları ilə müqayisədə sonsuz dərəcə zəif və davamsızdır. Allahdan qeyrisinə güvənənlərin güvənc yerləri hörümçək toru kimidir. Fironların taxt-tacı, qarunların saysız-hesabsız var-

dövləti, şah və hökmdarların qəsrləri, xəzinələri hörümçək toru kimi etimad edilməyəcək qədər zəifdir, hadisələr qasırğasına qarşı duruş gətirə bilmir. Ancaq Allaha iman gətirən və ona təvəkkül edərək ömür sürənlər kürəklərini polad söykənəcəyə söykəmiş kimidirlər.[1672]

45. Namazın ən böyük fəlsəfəsi: Namazın təbiəti insana ən güclü daşındırıcı amili, yəni başlanğıc və qayıdışa etiqadı xatırlatdığı üçün onu çirkinliklərdən və günahdan daşındırır. Namaza durub təkbir deyən insan Allahın hər şeydən üstün və uca olduğunu dilinə gətirir, Onun verdiyi nemətləri xatırlayır, bu nemətlərə görə şükür edir, Onu rəhman və rəhim olması ilə öyür, Qiyamət gününü xatırlayır, Allahın bəndəsi olduğunu etiraf edir, Ondan yardım diləyir, onu doğru yola yönəltməsini, qəzəbləndiyi və yolunu azmış insanların yolundan çəkindirməsini istəyir. Şübhəsiz ki, belə bir insanın ruhunda və qəlbində haqqa doğru bir hərəkət, paklıq və təmizliyə doğru bir cəhd, təqvaya doğru bir sıçrayış yaranacaq. O, Allah üçün əyilir, qarşısında alnını yerə qoyur, əzəmətində qərq olur, xudbinliyi, özünü üstün tutmağı unudur, Allahın təkliyini və Muhəmmədin (s) peyğəmbərliyini təsdiq edir, Peyğəmbərə (s) və ailəsinə salam göndərir, Allahdan Onun saleh bəndələri sırasında yer almasını istəyir. Bütün bunlar namaz qılan bəndənin varlığında böyük bir mənəviyyat dalğası yaradır. Bu dalğa günah qarşısında güclü bir sədd çəkir. Bəndə bu əməli sutka ərzində bir neçə dəfə təkrar edir, günün müxtəlif vaxtlarında maddi fəaliyyətlərlə məşğul olduğu üçün Allahı unudan bəndə bu təkrarlarla ali başlanğıcı xatırlayır. Bundan başqa, namaza hazırlaşarkən yuyunur, özünü təmizləyir, haram və qəsb malı özündən uzaqlaşdırır, dost dərgahına doğru yol alır. Bütün bunlar çirkinliklər və günah qarşısında daşındırıcı rol oynayır. Namaza İslamda o qədər böyük

[1672] Nümunə, c.16, səh.277

əhəmiyyət verilir ki, digər əməllərin qəbulu onun qəbulu ilə şərtlənir. İmam Sadiq (ə) buyurmuşdur: ***"Əgər kimsə namazının Allah dərgahında qəbul olub-olmamasını bilmək istəyirsə, bu namazın onu çirkinliklərdən və günahlardan çəkindirib-çəkindirməməsinə baxsın. Əgər çəkindiribsə, namazı qəbuldur."*** Əlbəttə, çirkinlik və günahların tərk edilməsi bir neçə mərhələdə gerçəkləşir. Namaz qılınma şərtlərindən asılı olaraq, bu mərhələlərdən bir neçəsini ehtiva edə bilər. Qılınan namaz nə qədər formal olsa da, namaz qılan nə qədər günaha bulaşmış olsa da, qıldığı namazının namaz qılana heç təsir etmədiyi mümkün deyil. Təbii ki, bu cür namazın təsiri çox az olur. Ancaq bir həqiqət də var ki, günahkar namazqılan sözügedən namazı qılmasa, daha çox günaha batar. Ənsardan olan bir gənc Peyğəmbərlə (s) birlikdə namaz qılsa da, çox çirkin günahlarla məşğul imiş. Bu barədə Peyğəmbərə (s) xəbər verildiyində "Nəhayət, namazı bir gün onu bu əməllərdən daşındıracaq." – deyə buyurmuşdu.[1673]

[1673] Nümunə, c.16, səh.284

46. Yalnız zülm edənləri istisna olmaqla Kitab əhli ilə ən gözəl tərzdə mübahisə edin və deyin: “Biz Allah tərəfindən bizə və sizə nazil olana iman gətirmişik. Bizim də, sizin də məbudunuz birdir. Biz yalnız Ona itaət edirik”.

47. Beləcə, Kitabı (bu Quranı) sənə nazil etdik. Kitab verdiyimiz şəxslər də ona iman gətirirlər. Bunların (müşriklərin) arasında da ona iman gətirənlər vardır. Bizim ayələrimizi ancaq kafirlər inkar edirlər.

48. Sən bundan əvvəl nə bir Kitab oxuyurdun, nə də əlinlə bir şey yazırdın. Yoxsa, sözlərini inkar etmək istəyənlər şübhəyə düşərdilər.

49. Amma bu, elm verilmiş şəxslərin kökslərində qərarlaşmış açıq-aydın ayələrdir. Bizim ayələrimizi yalnız zalımlar inkar edirlər.

50. Dedilər: “Nə üçün Rəbbi təfəindən ona möcüzə nazil olmadı?” De: “Möcüzələr hamısı yalnız Allah tərəfindəndir. Mən ancaq açıq-aydın qorxudanam”.

51. Davamlı olaraq onlara oxuduğun Kitabı sənə nazil etməyimiz onlar üçün kifayət deyilmi? Bunda iman gətirən adamlar üçün mərhəmət və xatırlatma vardır.

52. De: “Mənimlə sizin aranızda Allahın şahid olması yetər. O, göylərdə və yerdə olanları bilir. Batilə inanıb Allahı inkar edənlər əsl ziyana uğrayanlardır”.

---

49. Təhsil almayan şəxsin yazması: Oxumaq və yazmaq hər bir insan üçün imtiyaz hesab edilir. Ancaq şərait elə gətirir ki, yazmamaq və oxumamaq imtiyaz hesab edilir. Bu məsələ özünü peyğəmbərlər, xüsusilə də sonuncu peyğəmbərdə (s) daha çox doğruldur. Çünki təhsil görmüş alimlər, məlumatlı və çox mütaliə etmiş filosoflar peyğəmbərlik iddiası etsəydilər, səmavi kitab deyə bir kitab gətirdiklərini desəydilər, bu, həmin kitabın onların öz düşüncələrinin məhsulu olması ilə bağlı şübhə yaranmasına səbəb olardı. Amma çox geri qalmış bir cəmiyyətdən çıxmış, heç bir təhsil görməmiş, kitab oxumamış, hətta bir səhifə belə yazı yazmamış bir insan qalxıb çox ali məzmuna malik, varlıq aləmini əhatə edən bir kitab təqdim etdiyində artıq bu kitabın onun öz beyninin məhsulu deyil, səmavi vəhy və ilahi təlimin məhsulu olması ilə bağlı heç bir şübhəyə yer qalmır. Quranın başqa ayələrində də Peyğəmbərin (s) təhsil almadığı qeyd edilmişdir. Ümumiyyətlə, Hicazda İslam peyğəmbərinin (s) təhsil alacağı bir məktəb, dərs oxumaq üçün bir müəllim olmamışdı. Tarixi mənbələrin yazdığına görə, o dövrdə Məkkədə oxumaq və yazmaq savadı olan insanların sayı biri qadın olmaqla, on səkkiz nəfərdən çox olmamışdır. Təbii ki, ibtidai təhsillilərin sayının bu qədər az olduğu bir mühitdə kiminsə təhsil aldığı halda, camaatın ondan xəbər tutmaması qeyri-mümkün idi. Kiminsə qətiyyətlə "Mən təhsil almamışam", – deyə iddia etməsi, heç kəsin də buna etiraz etməməsi iddiaçının doğru danışmasının aşkar göstəricisidir. Hər halda, Peyğəmbərin (s) bu ayələrdə qeyd edilmiş önəmli xüsusiyyəti Quran möcüzəsinin təkmilləşməsində və bəhanəçilərin bəhanələrinin qarşısının alınmasında mühüm rol oynayır. O, yalnız vəhy məktəbindən bəhrələnmiş böyük və misilsiz alim olmuşdur.[1674]

[1674] Nümunə, c.16, səh.306

49. Alimlərin köksündəki parlaq ayələr: Əvvəlki ayədə Peyğəmbərin (s) təhsil almadığı və əsla yazı yazmadığı qeyd edilmişdir. Buradan Quranın insan tərəfindən yazılmadığı məlum olur. Burada ortaya belə bir sual çıxır: Bəs Quran nədir? Quran nəzər nöqtəsi olan ayədə bu suala belə cavab verir: ***"Bu, elm verilmiş şəxslərin köksündə qərarlaşmış açıq-aydın ayələrdir."***[1675] "Açıq-aydın ayələr" ifadəsi Quranın haqq olduğunu göstərən ayələrin Quranın özündə yer aldığını, ayələrin özlərinin bəyan etdiyini və ayələrin dəlillərinin elə onların özlərində olduğunu göstərir. Əsl həqiqətdə Quranın ayələri obyektiv aləmin nişanələri kimidir; insan onları araşdırdıqca, heç nəyə ehtiyac duymadan onların gerçək olduğunu dərk edir. Qanunvericiliklə bağlı olan ayələr də məzmun və forma baxımından düz olduqlarını sübuta yetirirlər. Bundan əlavə, bu ayələrə tabe olanlar və ona ürək bağlayanların əlləri nə qədər boş və ayaqları nə qədər yalın olsa da, elm və ayıqlıqdan nəsibi olan insanlardır. Daha dəqiq desək, hər hansı məktəbin orijinallığını öyrənməyin yollarından biri həmin məktəbə inanan möminlərin vəziyyətinin araşdırılmasıdır. Əgər insanın ətrafını nadan və fırıldaqçılar sararsa, həmin şəxsin də eyni xüsusiyyətin daşıyıcısı olduğu ehtimalı böyük olur. Köksündə elmlərin sirləri yatmış insanlar hər hansı məktəbə qarşı sədaqət nümayiş etdirərlərsə, bu, həmin məktəbin düzlüyünün göstəricisidir. Belə ki, biz Kitab əhlindən olan bir qrup alimin, Əbuzər, Salman, Miqdad, Əmmar Yasir və Əli (ə) kimi, seçilən, təqvalı və böyük şəxsiyyətlərin bu məktəbin himayəçiləri və aşiqləri olduğunu görürük. Bir çox hədislərdə bu ayənin Əhli-beyt imamlarına (ə) aid olduğu qeyd edilmişdir. Təbii ki, ayənin məzmunu təkcə onlarla məhdudlaşmır, əslində, onlar ayənin ən parlaq prototipləridir. Bəzi hədislərdə burada təkcə imamların nəzərdə tutulduğu

---

[1675] Əl-Mizan, c.16, səh.144

qeyd edilsə də, əsl məqsəd Quranın bütün elmlərinin İmamların (ə) ixtiyarında olmasıdır. Bu da alimlərin və düşüncəli insanların Quran elmlərindən faydalana bilməsi ilə heç bir təzad təşkil etmir.[1676]

[1676] Nümunə, c.16, səh.304

53. Onlar səndən əzabın tez gəlməsini tələb edirlər. Əgər qərarlaşdırılmış bir vaxt təyin edilməsəydi, əzab onlara gələrdi. Nəhayət, bu əzab onlara qəfildən, özləri də hiss etmədən gələcəkdir.

54. Cəhənnəm kafirləri əhatə etdiyi halda, onlar səndən əzabın tez gəlməsini istəyirlər.

55. Əzabın onları başlarının üstündən və ayaqlarının altından əhatə edəcəyi və onlara: "Etdiyiniz əməllərin (cəzasını) dadın!" – deyəcəyi gün (çox çətin və ağrılı olacaq).

56. Ey Mənim iman gətirmiş bəndələrim! Mənim bu yerim genişdir. Elə isə yalnız Mənə ibadət edin. (Düşmənlərin təzyiqləri qarşısında təslim olmayın!)

57. Hər kəs ölümü dadacaqdır. Sonra sizi Bizə doğru qaytaracaqlar.

58. İman gətirib layiqli işlər görənləri əbədi qalacaqları Cənnətdə altından çaylar axan otaqlarda yerləşdirəcəyik. Əməl sahiblərinin mükafatı necə də gözəldir!

59. O kəslərin ki, (çətinliklər qarşısında) dözümlü olmuş və yalnız öz Rəblərinə təvəkkül etmişlər.

60. O qədər canlı var ki, öz ruzisini daşıya bilmir. Allah onların da, sizin də ruzinizi verir. O, eşidəndir, biləndir.

61. Əgər sən onlardan: "Göyləri və yeri kim yaradıb, günəşi və ayı kim ram edib?" – deyə soruşsan, onlar: "Allah!" – deyəcəklər. Bununla belə, onları (Allah ibadət etməkdən) necə də sapdırırlar!

62. Allah qullarından istədiyinin ruzisini genişləndirər, istədiyininkini də məhdudlaşdırar . Allah hər şeyi bilir.

63. Əgər sən onlardan: "Göydən yağış nazil edib onunla yeri öldükdən sonra dirildən kimdir?" – deyə soruşsan, onlar: "Allahdır!"– deyəcəklər. De: "Həmd və tərif Allaha məxsusdur!" Lakin onların çoxu bilmir.

---

56. Hicrət etmək lazımdır: Təfsirçilərin çox hesab edir ki, bu, Məkkədə kafirlərin təzyiqlərinə məruz qalmış və üzərlərinə düşən dini vəzifələri yerinə yetirə bilməyən möminlər haqqında nazil olmuşdur. Buna görə də onlara oradan köçmək göstərişi verilmişdir. Əlbəttə, bu qanun təkcə Məkkə möminlərinə aid deyil. Azadlığın müsəlmanlardan tamamilə alındığı, müsəlmanların ilahi proqramlardan uzaq düşdüyü, yalnız zillət və xarlığa məruz qaldıqları hər bir zamanda və məkanda müsəlmanların vəzifəsi tam və ya nisbətən azadlıq olduğu məkanlara hicrət etməkdir. Başqa sözlə desək, insan yaradılışının məqsədi Allaha bəndə olmaqdır. İnsanın azad, başıuca və bütün cəbhələrdə qalib olması onun həqiqi bəndəliyinin əlamətidir. "Yalnız Mənə ibadət edin!" cümləsində məhz bu məsələyə işarə edilmişdir. Bu əsas və son hədəf ayaqlar altına aldındığı zaman yeganə yol hicrət etməkdir. Allahın yeri genişdir, başqa bir yerə köçmək, etnik, irqi, yerlibazlıq hisslərinin güclü olduğu məqamlarda əsarəti qəbul etmək lazımdır. Bu anlayışlar əsl hədəfə təhlükə yaratmayacaq qədər dəyərlidir. İmam Əli (ə) buyurmuşdur: "Sənin üçün heç bir şəhər başqasından yaxşı deyil. Ən yaxşı şəhər səni qəbul edən və asudə yaşadığın şəhərdir."[1677]

60. Allah sizə ruzi verir: İnsandan başqa, canlılar, heyvanlar və həşəratlar arasında öz qidasını səhra və düzənliklərdən toplayıb yuvasına daşıyan və ehtiyat saxlayan çox az sayda canlı növü var. Digər canlılar adətən, hər gün yeni ruzi dalınca düşür. Ətrafımızda, uzaq və yaxın ərazilərdə, səhraların dərinliklərində, dağların zirvələrində, dənizlərin dibində milyonlarla canlının Allahın nemət süfrəsindən qidalandığından

---

[1677] Nümunə, c.16, səh.326

xəbərin olduğu, ruzi əldə etmək üçün onlardan daha zəkalı olduğunu bildiyin halda, nə üçün ruzinin kəsiləcəyindən qorxub çirkin və utancverici həyat tərzini qəbul edir, özünü zülm və zillətli həyat tərzinə məhkum edirsən? Bu darısqal və qaranlıq həyat çərçivəsindən çıx, Rəbbinin geniş süfrəsinin kənarında əyləş, qəm yemə. Ananın qarnında zəif və çarəsiz qaldığın, heç kəsin, hətta mehriban ata və ananın da əlinin çatmadığı vaxt Rəbbin səni unutmadı, ehtiyacın olanı ixtiyarına verdi. Bu gün isə sən artıq güclü və qüdrətlisən, öz ruzinin dalınca özün gedə bilərsən.[1678]

61. Ürəkdə Allah, dildə büt deyirlər: Ərəbistan yarımadasının bütpərəstləri varlıq aləminin tək Allah tərəfindən yaradıldığını qəbul etsələr də, kainatın idarə edilməsində şirkə düşmüşdülər. Onlar hesab edirdilər ki, dünyanı yaratdıqdan sonra Allah kainatın bəzi idarəçilik işlərini üstün məxluqlara həvalə etmiş, özü isə bir kənara çəkilmişdir. Bu məxluqlar mələklər, cinlər, müqəddəs ruhlar və sairədən ibarət idi. Onlara görə, bu varlıqların hər biri dünyanın ayrı-ayrı yönlərdən idarə edir; yaratmaqla idarəçilik ayrı-ayrı mövzulardır. Allahın işi yalnız yaratmaqdan ibarətdir. İdarəçilik yaratmaqdan fərqləndiyi üçün o, bu dünyanın sahibləri olan digər məxluqlara məxsusdur.[1679]

[1678] Nümunə, c.16, səh.332
[1679] Mənşuri-cavid, c.2, səh.281

64. Bu dünya həyatı əyləncə və oyundan başqa bir şey deyildir. Həqiqi həyat axirət evidir. Kaş ki, biləydilər!

65. Gəmiyə mindikləri zaman Allahı ixlasla çağırır (Ondan qeyrisini yaddan çıxarırlar). Allah onları quruya çıxarıb xilas edən kimi, yenidən müşrik olurlar.

66. (Qoy onlar) Bizim onlara verdiyimizə (ayələrə) nankorluq etsinlər və həyatın keçici ləzzətlərindən bəhrələnsinlər. Amma tezliklə başa düşəcəklər.

67. İnsanların onların ətrafında (Məkkədən kənarda) oğurlandığı halda, onlar üçün təhlükəsiz və toxunulmaz bir yer təyin etdiyimizi görmədilərmi? Onlar batilə inanıb Allahın nemətinə qarşı nankorluq edirlər?

68. Allaha qarşı yalan uyduran və yaxud haqq gəldikdə sonra onu yalan sayan kəsdən daha zalım kim ola bilər? Kafirlərin yeri Cəhənnəmdə deyilmi?

69. Yolumuzda (ixlasla) cihad edənləri mütləq, Öz yolumuza yönəldəcəyik. Allah xeyirxah əməl sahibləri ilədir.

"Rum" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Əlif, Ləm, Mim.

2. Rumlular məğlub oldular;

3. (Bu məğlubiyyət) ən yaxın bir yerdə (baş verdi). Lakin onlar məğlubiyyətdən sonra qələbə çalacaqlar;

4. bir neçə il ərzində. İstər (bu məğlubiyyətdən) əvvəl olsun, istərsə də sonra, bütün işlər Allaha məxsusdur. O gün möminlər sevinəcəklər;

5. Allahın köməyi ilə. O, istədiyinə kömək edir. O, qüdrət sahibidir, rəhmlidir.

---

69. Haqq yola yönəlmək üçün iki mühüm amil: Bu ayədəki "Yolumuzda (ixlasla) cihad edənlər" ifadəsi çox geniş məzmun daşıyır, Allah yolunda göstərilən istənilən növ səy və fəaliyyətə, elm kəsb etmək, nəfslə mübarizə, düşmənə qarşı cihad, itaətkarlıqda hövsələ, günah vəsəvəslərinə qarşı dözüm, yoxsul və acizlərə yardım, ümumiyyətlə, Allah yolunda görülən istənilən yaxşı işlərə şamil olur. Bu yolda Allah üçün istənilən şəkildə çalışan insanlar Allah tərəfindən yönləndirilir, himayə olunurlar. Burada "subul" (yollar) deyilərkən Allaha doğru aparan müxtəlif

yollar nəzərdə tutulur; nəfslə cihad, düşmənlərlə mübarizə, elm və mədəniyyət yolu və sair. Allah Onun yolunda cihad edən insanlara vəd vermiş, onların uğur və qələbəsini cihad və ixlas amili ilə şərtləndirmişdir. Əgər düzgün mülahizə etsək, İslam cəmiyyətlərində mövcud olan problemlərin bu iki amilin olmamasından qaynaqlandığını görərik. Müsəlmanların geriliyi, müxtəlif sahələrdə əcnəbilərə ehtiyac, müsəlman torpaqlarının əcnəbilər tərəfindən işğal edilməsi, müsəlmanların əsarəti və sairənin səbəbi ya cihadın unudulması, ya da niyyətlərin qarışmasıdır. Elmi, mədəni, siyasi, iqtisadi və hərbi sahələrdə cihad unudulmuş, dünyaya sevgi, nəfspərəstlik, rahatlıq axtarışı, dardüşüncəlik, şəxsi maraqları güdmək müsəlmanlara hakim kəsilmişdir. İş o yerə çatıb ki, müsəlmanların qətlə yetirdiyi müsəlmanların sayı düşmənlərin qırdığı müsəlmanların sayından çoxdur. Bəzi hədislərdə bu ayə Muhəmmədin ailəsi (s) və onların davamçılarına aid edilmişdir. Çünki onlar ayənin ən kamil nümunəsi, cihad və ixlasda ən öndə gedənlərdir. Əlbəttə, bu, ayənin mənasını məhdudlaşdırmır.[1680]

“Rum” surəsinin ümumi məzmunu: Bu surə ümumilikdə yeddi mövzunu ehtiva edir: 1. Gələcəkdə baş verəcək müharibədə rumluların iranlılar üzərində qələbə çalacağı xəbəri; 2. İmansız insanların bəzi təfəkkür tərzləri və mövqeləri; 3. Göylər, yer və insan varlığında Allahın əzəmətini göstərən bəzi nişanələr; 4. Obyektiv və subyektiv (insanın öz aləmi və ətraf aləm) dəlil və əlamətləri qeyd etdikdən sonra fitri tövhid mövzusunun işıqlandırılması; 5. İmansız, günahkar, fəsad nümunəsi olan insanların vəziyyətlərinin şərhinə qayıdış; 6. Maliklik, qohumluq haqqı, sələm yeməyin

[1680] Nümunə, c.16, səh.350

pislənməsi mövzusu; 7. Tövhid dəlilləri, haqqın nişanələri və qayıdışla bağlı olan mövzulara yenidən qayıdış.[1681]

2-4. Maraqlı bir öngörü: Böyük təfsirçilər yekdilliklə bu ayənin nazilolma səbəbi haqqında belə yazırlar: Peyğəmbər (s) Məkkədə olduğu və möminlərin azlıq təşkil etdiyi bir vaxt rumlularla iranlılar arasında müharibə baş verir və müharibədə iranlılar qalib gəlirlər. Müşriklər bu hadisəni yaxşı əlamət hesab edir və bunu onların haqq olduğunu təsdiq edən bir əlamət hesab edərək deyirlər: İranlılar atəşpərəst və müşrikdirlər, rumlular isə xristian və kitab əhlidirlər. İranlılar rumlulara qalib gəldiyi kimi, son qələbə də müşriklərin olacaq və İslamın kitabı tezliklə bağlanacaq, biz də qalib gələcəyik. Bu cür nəticələrin və qənaətlərin əsası olmasa da, cəhalət mühitində bu cür təbliğlər təsirsiz ötüşmürdü. Buna görə də deyilənlər müsəlmanlara ağır gəlirdi. Nəzər nöqtəsi olan ayələr nazil oldu və iranlıların bu döyüşdə qalib gəlməsinə baxmayaraq, çox çəkmədən rumlulara məğlub olacaqları xəbər verildi. Ayədə hətta, təxmini vaxt da göstərildi. (Bid ərəb dilində minimum 3, maksimum 9 il arasını əhatə edir). Bir tərəfdən səmavi kitabın möcüzəsini, ona əsaslanan şəxsin qeyb aləmini bilən Allahın sonsuz elminə əsaslandığını göstərən, digər tərəfdən isə müşriklərin proqnozuna cavab daşıyan bu qətiyyətli Quran öngörüsü müsəlmanlara xüsusi sevinc və şadlıq bəxş etmişdi.[1682]

[1681] Nümunə, c.16, səh.355
[1682] Nümunə, c.16, səh.359

6. Bu, Allahın verdiyi vəddir. Allah Öz vədinə xilaf çıxmaz. Amma insanların çoxu bilmir.

7. Onlar dünya həyatının yalnız görünən tərəfini bilir, axirətdən isə qafildirlər.

8. Onlar öz-özlərinə fikirləşmirlərmi ki, Allah göyləri, yeri və onların arasındakıları yalnız haqq olaraq və müəyyən müddət üçün yaratmışdır? Ancaq insanların çoxu Rəbləri ilə qarşılaşacağını inkar edir.

9. Onlar yer üzündə gəzib dolaşaraq özlərindən öncəkilərin aqibətinin necə olduğunu görmədilərmi? Onlar bunlardan da güclü idilər. Onlar (əkin əkib abad etmək üçün) yer üzünü bunlardan daha çox dəyişdirib abadlaşdırırdılar. Peyğəmbərləri onlara açıq-aydın dəlillər gətirirdilər. Onlara Allah zülm etmədi. Onlar özləri özlərinə zülm edirdilər.

10. Sonra çirkin işlərə bulaşanlar elə bir həddə çatdılar ki, Allahın ayələrini yalan sayıb onları lağa qoydular.

11. Allah məxluqatı əvvəlcə (yoxdan) yaradır, sonra onu qaytarır. Daha sonra sizi Ona doğru qaytaracaqlar.

12. Qiyamət qopacağı gün günahkarlar ümidsizliyə və qəm-qüssəyə batacaqlar.

13. Məbudlarından onlara şəfaət edənlər olmayacaq, Allaha şərik qoşduqları məbudlar onları inkar edəcəklər.

14. Qiyamət qopacağı gün (insanlar) bir-birlərindən ayrılacaqlar.

15. Amma iman gətirib yaxşı işlər görənlər Cənnət bağında sevinc və şadlıq içində olacaqlar.

---

7. Səthi yanaşanlarla inanclılar bir-birlərinin əks qütbüdürlər: Allaha inanan mömin insanla materialist və müşrik insanın baxış bucağı çox fərqlidir. Birincisi, tövhid inancına əsasən, dünyanın hikmət sahibi olan, bütün işlərini dəqiq proqram və nizam-intizamla görən Allah tərəfindən yaradıldığına inanır. Buna görə də dünyanın dəqiq sirlər kompleksindən ibarət olduğunu düşünür. Bu dünyada heç nə sadə deyil. Bu kitabın bütün sözləri məzmunlu və mənalıdır, bütün yaradılmışlar elm sahibi olan Allahın nişanələridir. Halbuki inamı olmayan materialist dünyanın kar-kor və hədəfsiz hadisələr toplusundan ibarət olduğunu düşünür, yalnız onun zahiri haqqında düşünür, batini və görünməyən tərəfinin olduğunu qəbul etmir. Məgər hər hansı uşağın heç bir məqsəd güdmədən kağız üzərinə çəkdiyi xətlərə, cızma-qaralara əhəmiyyət vermək olarmı? Digər tərəfdən, bu dünyanı son mərhələ və əsas məqsəd hesab edən bir adam onu əbədi həyat üçün sınaq meydanı hesab edən insan kimi necə düşünə və baxa bilər? Biri onun yalnız səthinə baxır, digəri onun batinini düşünür. Bu baxış fərqləri onların bütün həyatlarına təsir göstərir. Səthə baxan xərcləməni zərər və ziyan səbəbi hesab etdiyi halda, inanclı faydalı ticarət hesab edir. Biri sələmi gəlirin artım səbəbi, digəri bədbəxtlik, ziyan və xəsarət səbəbi hesab edir.

Biri cihadı başağrısı, digəri başıucalıq rəmzi, biri şəhidliyi yox olma, digəri isə şəhidliyi əbədi həyat səbəbi hesab edir. İnamı olmayan insanlar dünya həyatının yalnız zahirini və səthini görür, axirət həyatından xəbərsiz qalırlar.[1683]

10. Yalan hesab etmək günahın nəticəsidir: Ayədə kafirlərin küfrünün son mərhələsinə işarə edilmişdir. Günah aludəçiliyi xora xəstəliyi kimi onların canına düşüb iman ruhlarını yeyib sıradan çıxarır. İş o yerə çatır ki, Allahın ayələrini yalan sayır, daha da irəli gedərək peyğəmbərləri və Allahın ayələrini lağa qoyur, özlərini elə bir həddə çatırırlar ki, heç bir öyüd-nəsihət onlara təsir etmir, yalnız Allahın ağrı-acılı əzab qamçısından başqa heç bir çıxış yolu qalmır. Yağıların və canilərin çoxunun həyat tarixinə nəzər saldıqda, onların başlanğıcda belə olmadıqlarının, qəlblərində iman nurunun saçdığının şahidi oluruq. Amma ardıcıl etdikləri günahlar günbəgün onların iman və təqvadan uzaqlaşmasına, nəhayət, küfr həddinə çatmalarına səbəb olur. Tarixi mənbələrin yazdığına görə, həzrət Zeynəb (ə) Müaviyə oğlu Yezidin küfr dolu danışıqları və şeirlərinin onun İslamın əsaslarına inamının olmadığını büruzə verdiyini və onun hər şeyi lağa qoyduğunu görüb Allaha həmd, Peyğəmbər (s) salam verdikdən sonra deyir: Allah düz deyib: “Sonra çirkin işlərə bulaşanlar elə bir həddə çatdılar ki...” Yəni əgər sən bu gün bu küfür dolu şeirlərlə İslamı və imanı inkar edirsənsə, heç də təəccüblü deyil. Bu, elə Allahın “günahkarlar nəhayət, bizim ayələrimizi yalan hesab edərlər” – deyə buyurduğu məsələdir.[1684]

14. Qiyamətin adlarından biri “Saat”dır: “Saat” zamanın bir hissəsinə və ya keçəri anlara deyilir. Qiyamət günü gözlənilmədən və ildırım sürəti ilə baş verəcəyi, habelə Allah da sürətli sorğu-sual edən olduğu və buna görə də

[1683] Nümunə, c.16, səh.367
[1684] Nümunə, c.16, səh. 374

həmin gün bəndələrini sürətlə sorğu-suala çəkəcəyi üçün Qiyamət belə adlandırılmışdır. Bu, həm də ona görədir ki, insanlar onu əsla unutmasınlar. Bəzi leksikoloqlar hesab edir ki, "saat" dünyanın son surunun çalınacağı, hər kəsin qəfildən öləcəyi zamanın, həmçinin insanların Qiyamət üçün qalxacağı vaxtın adıdır. Bu ad dünyanın sonu və Qiyamətin başlanacağı vaxt üçün ona görə seçilib ki, birinci surda hamı dərhal öləcək, ikinci surda hamı dərhal ayağa qalxacaq və Qiyamət başlayacaq. Bəziləri hesab edir ki, saat üç cürdür: 1. Böyük saat: Qiyamət günü, sorğuya çəkilmək üçün insanların dirilməsi; 2. Orta saat: Bir dövrün insanlarının qəfil öldüyü gün (ilahi əzabların göndərildiyi vaxt); 3. Kiçik saat: Hər bir insanın öldüyü vaxt.[1685]

16. Ayələrimizi və axirət görüşünü inkar edənlər əzab verilmək üçün gətiriləcəklər.

[1685] Nümunə, c.16, səh. 380

17. Axşamladığınızda və səhəri açdığınızda Allah pak və müqəddəsdir.

18. Göylərdə və yerdə həmd və sitayiş Ona məxsusdur. Günortadan sonra və günorta da.

19. O, dirini ölüdən və ölünü diridən çıxardır, torpağa öldükdən sonra həyat bəxş edir. Qiyamət günü siz də (qəbirlərdən) belə çıxardılacaqsınız.

20. Sizi torpaqdan yaratması, sonra da sizin dərhal bir insan olub yer üzünə yayılmağınız Onun nişanələrindəndir.

21. Sizin üçün yanlarında rahatlıq tapasınız deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda sevgi və mərhəmət yaratması da Onun nişanələrindəndir. Bunda düşünən bir zümrə üçün ibrətlər vardır!

22. Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun nişanələrindəndir. Bunda bilənlər üçün nişanələr vardır!

23. Gecə və gündüz yatmağınız, Allahın nemətindən bəhrələnməyiniz üçün çalışmağınız da Onun nişanələrindəndir. Bunlarda eşidən qulaqları olanlar üçün nişanələr vardır!

24. Sizə həm qorxu, həm də ümid verən (gurultudan qorxmaq və yağış yağmasına ümidlənmək) ildırımı göstərməsi, göydən yağmur endirib torpağı öləndən sonra onunla diriltməsi də Onun nişanələrindəndir. Bunda ağılla düşünən bir toplum üçün ibrətlər vardır.

17-18. Həmd və sitayiş bütün hallarda Allah üçündür: Bu iki ayədə Allahın tərifləmə və sitayişi üçün dörd vaxt qeyd edilmişdir: gecənin başlanğıcı, sübh vaxtı, günortadan sonra və günörta. Həmd isə bütün məkanları, göy və yeri əhatə etmişdir. Ayələrdə dörd vaxtın qeyd edilməsi ilə tərifin davamlılığı nəzərdə tutula bilər. Elə dilimizdə də “səhər-axşam

filankəsə göz qoy" cümləsi "hər zaman, həmişə gözün onda olsun" məzmununu ifadə edir. Təfsirçilər "Allah pak və müqəddəsdir", "Həmd Ona məxsusdur" cümlələri ilə bağlı iki ehtimal irəli sürmüşlər: 1. Hər iki cümlə xəbər cümləsidir. Qeyd olunan təfsirə əsasən, bu cümlələrdə Allahın özünün pak və müqəddəs olmasından xəbər verilir. Allah-taala "Muminun" surəsinin 14-cü ayəsində belə buyurmuşdur: ***"Yaradanların ən yaxşısı olan Allah əbədi və bərəkətlidir"***. 2. Bu həmd və tərif göstərişdir. Yəni Ona həmd və tərif deyin. Bu təfsir daha ağlabatan görünür. Belə ki, Allah bütün bəndələrə göstəriş verir ki, şirk və günahın təsirlərini ruhlarından təmizləmək üçün hər səhər-axşam, günorta və günortadan sonra namaz və namazdan qeyri vasitələrlə Allaha həmd və tərif desinlər. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Bu iki ayəni və habelə sonrakı ayəni səhərlər oxuyan şəxsin gündüz itirdiklərinin yeri dolar, axşam oxuyanın isə axşam itirdiklərinin yeri dolar."***[1686]

21. Rahatlıq səbəbi: Bu ayədə insan cəmiyyətinin bünövrəsinin ilk daşı hesab edilən ailəyə və ona hakim olan mənəvi əlaqəyə işarə edilmişdir. Ayədə evlilik həyatının məqsədinin nəsil artımı deyil, rahatlıq olduğu qeyd edilmişdir. Bu iki cinsin nümayəndəsinin evlilik həyatı ilə rahatlıq əldə etməsi onların bir-birlərini tamamlaması, bir-birinin çiçəklənməsinə, xilasına və tərbiyələnməsinə səbəb olması ilə bağlıdır. Belə ki, onların hər biri digəri olmadan natamamadır, yalnız öz cütü ilə tamamlanır. Bu rahatlıq təkcə fiziki rahatlıqla məhdudlaşmır, rahatlığın mənəvi və ruhi tərəfi daha mühüm və güclüdür. Ruhi narahatlıqlar ruhi balansın olmaması, evlənməmək ucbatından insanda yaranan müxtəlif xəstəliklər bu fikri təsdiq edir. Ayənin orijinal ərəbcə mətnindəki "məvəddət" sözünün mənası məhəbbət,

[1686] Nümunə, c.16, səh.383

“rəhmə”in mənası isə insanı yaxşılıq etməyə sövq edən mülayimlikdir. Ayədə məhəbbət kişi ilə qadın arasında mövcud olan və hər birini digərinə xidmət göstərməyə vadar edən münasibətləri ifadə etdiyi halda, mərhəmət birtərəflidir və fədakarlıq tələb edir. Əsl həqiqətdə, evlilik həyatında ərlə arvad arasında iki mənəvi əlaqə forması olmalıdır: qarşılıqlı əlaqə formasında təzahür edən münasibətlər; əvəzsiz xidmətlər. Çünki bütün cəmiyyətlərdə kiçik yaşlılar, zəiflər, və işləyə bilməyən insanlar var. Əgər insanlar qarşılıqlı xidmətlər gözləsələr, onlar məhrum qalarlar. Quranın bu qanunu çox gözəldir. İnsan cəmiyyətləri onu tətbiq etmədən asla rahatlıq və asayiş qazana bilməzlər.[1687]

22. Dil və rəng fərqliliyi başqa bir nemətdir: Şübhəsiz ki, fərdləri və şəxsləri tanımadan sosial həyat mümkün deyil. Bütün insanların hamısı əgər bir gün eyni formada, eyni simada və eyni boy-buxunda olsalar, elə həmin bir günün içində həyatın bütün bağları sökülər, ata-ana, övlad, həyat yoldaşı başqasından fərqlənməz, cinayətkar günahsızdan seçilməz, dostu düşməndən ayırd etmək olmaz. Doğrusu, çox böyük gərginliklər yaranar. Bəzi təfsirçilər hesab edirlər ki, bu ayəyə əsasən, bir insanın başqalarından fərqli olması göz və ya qulaq vasitəsilə müəyyən edilir. Allah gözün ayırd etməsi üçün müxtəlif rənglər, formalar və şəkillər, qulağın ayırd etməsi üçün fərqli səs ahənglərini yaratmışdır. Belə ki, yer üzündə üz, səs və bütün cəhətlərdən eyni olan insan tapmaq olmaz. Kiçik bir üzv olan üz, sadə bir məsələ olan səs ahəngi Allahın qüdrəti ilə milyardlarla formadadır. Bu, Allahın əzəmətinin nişanələrindəndir.[1688]

[1687] Quranın ismarışı, c.2, səh.447
[1688] Nümunə, c.16, səh.394

25. Göyün və yerin Onun əmri ilə öz yerlərində qalması da Onun nişanələrindəndir. Sonra da sizi yerdən çağıran kimi dərhal hamılıqla çıxacaqsınız.

26. Göylərdə və yerdə kim varsa, Ona məxsusdur. Hamısı Ona təzim edir.

27. Məxluqatı ilk dəfə yaradan, sonra onu bir daha qaytaran Odur. Bu da Onun üçün çox asandır. Göylərdə və yerdə olan ən uca sifətlər Ona məxsusdur. qüdrətli və hikmət sahibi olan Odur.

28. O sizə özünüzdən bir məsəl çəkib; (Əgər qul sahibi olsanız, bu) sahib olduğunuz qullar sizə verdiyimiz nemətlərdə sizin bərabər hüquqlu şəriklərinizolarlarmı, (azad insanların ortaqlıq məsələlərində ortaq maldan digər ortağın icazəsi olmadan istifadə edərkən) bir-birinizdən çəkindiyiniz

kimi, onlardan da çəkinərsinizmi? Ayələrimizi düşünüb-daşınan insanlar üçün belə izah edirik.

29. Lakin haqsızlıq edənlər heç bir elm və məntiqə əsaslanmadan nəfslərinin istəklərinə uydular. Allahın zəlalətə saldıqlarını kim doğru yola yönəldə bilər? Onlara yardım edən də olmayacaq.

30. Üzünü Allahın xalis dininə tut! Bu, bir fitrətdir ki, Allah insanı bu fitrət üzərində yaratmışdır. Allahın yaratdığında heç bir dəyişiklik yoxdur. Möhkəm din budur, lakin insanların çoxu bilmir.

31. Ona tövbə edərək üz tutun. Allahdan qorxun, namaz qılın və şərik qoşanlardan olmayın!

32. Öz dinlərini parçalayan, firqələrə və qruplara bölünənlərdən olmayın. Hər bir qrup mənsub olduğu ilə öyünür.

---

30. Fitrət dini: “Fitrət” sözünün mənalarından biri yaranışdır. Ayədə dinin fitri bir mövzu olduğu, insan yaranışını əbədi olaraq müşayiət edəcəyi açıq şəkildə qeyd edilmişdir. Alimlər Allahtanımanın fitri olması ilə bağlı müxtəlif fikirlər irəli sürmüşlər. Əlimizdə olan fikirlər onların iki qrupa bölündüyünü göstərir: 1. Bəziləri hesab edirlər ki, “fitrət” deyilərkən əqli isbat nəzərdə tutulur. Hər bir insan ağlın kamal zirvəsinə çatdıqdan, varlıq aləminin nizam-intizamını müşahidə etdikdən və yaranış sirlərinə vaqif olduqdan sonra bu incə sistemin və onun heyrətamiz sirlərinin ağılsız və şüursuz bir başlanğıcdan yaranmasının qeyri-mümkün olduğunu dərk edəcək. 2. Fitrətin başqa bir mənası da var ki, bu mübahisələrdə həmin mənanın daha doğru olması qənaətindəyik. Belə ki, insan həqiqətləri heç bir dəlil və sübuta ehtiyac duymadan dərk edərək qəbul edir. Məsələn, gözəl və xoş ətirli bir gül budağı gördükdə onun gözəl olduğunu etiraf edir və bu

dərkində heç bir əsaslandırmaya və dəlilə ehtiyac duymur. Dərkini “Gözəldir və heç bir dəlil-sübuta ehtiyac yoxdur”, - deyə izhar edir. Allahın fitri olaraq dərk edilməsi də belədir. İnsan ruhunun dərinliklərinə nəzər saldıqda, haqqın nurunu görür və daxilində bir səs eşidir. Bu səs onu varlıq aləmində bənzəri olmayan elm və qüdrətin mənşəyinə, mütləq kamillik olan mənşəyə doğru səsləyir. Bu vicdan mənşəli dərkdə gülün gözəlliyində olduğu kimi, dəlil-sübuta ehtiyac qalmır. TəkAllahlıq inancının fitri olduğunu çox açıq şəkildə göstərən və inkarçıları susduracaq çoxlu faktlar var. Ən mühüm faktları dörd qrup üzrə konkretləşdirmək olar: 1. Ən qədim tarixçilərin araşdırdıqları tarixi həqiqətlər göstərir ki, qədim insan icmaları arasında heç bir dinin olmadığı bir dövrdə qəbilələrin hər biri bir elm və qüdrət mənbəyinə inanmış və sitayiş etmişdir. 2. Eradan əvvəlki (daha dəqiq desək, yazıdan əvvəlki) dövrlərə aid abidələr və maddi mədəniyyət qalıqları qədim insanların dinə, Tanrıya, hətta qayıdışa və öldükdən sonrakı həyatın varlığına inandıqlarını göstərir. Belə ki, öldükdən sonrakı həyatda istifadə etmələri üçün sevdikləri əşyaların bir çoxunu insanların özləri ilə birlikdə dəfn edirdilər. Bu davranışlar onların inanclarının xurafatlarla müşayiət olunduğunu göstərsə də, eradan əvvəlki dövrlərdə dini inancın olmasının inkarolunmaz olduğunu deməyə əsas verir. 3. Psixoloji araşdırmalar və insanın ruhunun ayrı-ayrı yönləri, genetik meyllərinin psixoanalitik araşdırmaları dini inancların fitri olduğunu açıq şəkildə sübuta yetirir. Müasir dövrün bir qrup psixoloq və psixoanalitiklərinin insanın dörd yönü kimi təqdim etdiyi dörd məşhur hiss bu firki təsdiq edir. Həmin dörd hiss bunlardır: elm və bilik hissi; gözəllik hissi; yaxşılıq hissi və dini hiss. Bəzən dini hissi mütləq kamilliyə meyletmə hissi də adlandırırlar. Bu hiss insanı dinə səsləyir, heç bir xüsusi dəlilə ehtiyac duymadan insan böyük başlanğıcın varlığına inanır. 4. Son əsrlərdə, xüsusilə Qərbdə dinə qarşı, miqyasına və müxtəlif vasitələrdən istifadə

prinsipinə görə bənzəri olmayan çox kəskin təbliğatlar aparıldığının şahidi oluruq. Ancaq bu antidin təbliğat dalğaları din köklərini qəlblərdən qopara bilməmiş, əksinə, dini hisslər daha da çiçəklənmişdir. İmam Sadiq (ə) hədislərinin birində "Allah insanı bu fitrət üzərində yaratmışdır" ayəsində təkallahlıq inancının nəzərdə tutulduğunu qeyd etmişdir. Bəzi hədislərdə İslamın bütün prinsip və qanunlarının, peyğəmbərlərin təbliğ etdiyi, onların canişinlərinin qoruduğu, ilahi hakimiyyətləri ilə icra etdikləri, nəticələrinin o dünyada hasil olacağı bütün proqramların fitri olduğu qeyd edilmişdir.[1689] Daha ətraflı məlumat üçün bax: "Əraf" surəsi, 182-ci ayə.

[1689] Quranın ismarışı, c.3 ,səh.98

33. İnsanlara bir bəla üz verdiyi zaman Rəblərini çağırıb Ona doğru tövbə edərək dönürlər. Ancaq Rəbləri Özündən onlara bir mərhəmət daddıran kimi bir dəstəsi dərhal Rəbbinə şərik qoşur.

34. (İmkan ver) Bizim onlara verdiyimiz nemətlərə nankorluq etsinlər, (dünyanın keçəri ləzzətlərindən) bəhrələnsinlər! Tezliklə biləcəksiniz.

35. Məgər Biz onlara müşrik olmalarını söyləyən möhkəm bir dəlil göndərmişik?

36. İnsanlara bir mərhəmət daddırdıqda ona sevinərlər. Öz əlləri ilə etdikləri günahlara görə onlara bir bəla üz verdikdə isə dərhal məyus olarlar.

37. Onlar görmürlərmi ki, Allah istədiyinin ruzisini artırır, istədiyininkini də azaldır? Həqiqətən, bunda iman gətirən adamlar üçün ibrətlər vardır.

38. Qohum-əqrəbanın, yoxsulların və yolda qalanların haqqını ver! Bu, Allahın razılığını istəyənlər üçün daha xeyirlidir. Bu cür insanlar nicat tapanlardır.

39. İnsanlara var-dövlətlərinin artması üçün sələm niyyəti ilə ödədiyiniz heç bir şey Allah yanında artmaz. Allahın razılığını qazanmaq üçün ödədiyiniz zəkata gəlincə, bunu edənlər daha artıq mükafata sahibdirlər.

40. Allah sizi yaradan, sonra sizə ruzi verən, sonra sizi öldürən, sonra da sizi dirildən varlıqdır. Allaha şərik qoşduğunuz məbudlardan hər hansı biri bunlardan birini edə bilərmi? O, pakdır və Ona qoşulan şəriklərdən ucadır.

41. İnsanların quruda və dənizdə qarşılaşdıqları fəsad öz əlləri ilə törətdikləri əməllərin nəticəsi olaraq meydana çıxır. Allah onlara törətdikləri əməllərin bir qisminin nəticəsini daddırmaq istəyir. Bəlkə qayıdalar.

---

38. Qohumların haqqı: Bu ifadə ayədə işarə edilən qohumların sabit və davamlı hüquqlara malik olduğunu göstərir. Ayənin xitab obyekti birbaşa Peyğəmbərdir (s). Həm ayənin məzmunu, həm də bu məzmunla bağlı olan faktlar nəzər nöqtəsi olan ayənin xums haqqında nazil olduğunu, bu göstərişin Peyğəmbərə (s) və xums verməli olan insanlara aid olduğunu deməyə əsas verir. Qohumlar deyilərkən başqası deyil, Peyğəmbərin (s) xums aid olan qohumları nəzərdə tutulur. İmam Baqir (ə) və İmam Sadiqə (ə) aid edilən bir hədisdə belə deyilir: "Bu ayə nazil olanda Peyğəmbər (s) Fədək ərazisini Fatiməyə (ə) bağışlamışdır."[1690] Buna görə də ayənin mənası ümumi deyil, xüsusidir. Daha ətraflı məlumat üçün bax: "Ənfal" surəsi, 41-ci ayə.[1691]

39. Halal sələm: Təfsirçilər bu ayə ilə bağlı müxtəlif fikirlər irəli sürmüşlər. Ancaq onlar arasında ən düzgün olduğu ehtimal edilən və Əhli-beyt (ə) hədisləri ilə uyğunluq təşkil edən ifikir burada bəzilərinin daha çox və daha yaxşı hədiyyə almaq üçün başqalarına, xüsusilə varlı adamlara verdikləri hədiyyələr nəzərdə tutulmuşdur. Təbii ki, bu cür məqamlarda nə qarşı tərəfin həmin hədiyyəyə haqqının çatıb-çatmaması, nə də layiq olub-olmaması, nə da digər imtiyazlar nəzərə alınmır. Yeganə hədəf daha çoxa nail olmaqdır. Təbii ki, ixlasla verilməyən bu cür hədiyyələr əxlaqi və mənəvi cəhətdən dəyərsizdir. Buna görə də ayədə "sələm" deyilərkən

---

[1690] Əl-Mizan, c.16, səh.190
[1691] Nümunə, c.12, səh.Ətyəbül-bəyan, c.10, səh.390

hədiyyə və bəxşişlər nəzərdə tutulur. “İnsanlara var-dövlətlərinin artması üçün” cümləsi insanlardan daha çox hədiyyə almaq məzmunu daşıyır. Şübhəsiz ki, bu cür hədiyyələri almaq haram deyil. Çünki ortada heç bir şərt və razılaşma yoxdur. Sadəcə həmin hədiyyənin heç bir mənəvi və əxlaqi dəyəri yoxdur. İmam Sadiqə (ə) istinad edilən çoxlu sayda hədislərdə burada halal sələmdən danışıldığı qeyd edilmişdir. Bu sələm forması şərtlər əsasında verilən haram sələmdən fərqlənir.[1692]

41. Quruda və dənizdəki fəsadın mənşəyi günahdır: Bu ayə günah ilə fəsad arasında böyük bir əlaqə olduğunu göstərir. Məlumdur ki, istənilən qanun pozuntusu və yanlış hərəkət cəmiyyətə, dolayısı ilə fərdlərə təsir göstərir, nəticədə sosial mühitdə pozuntular meydana gəlməsinə, fəsad törənməsinə səbəb olur. Günah, qanun pozuntusu və yanlış hərəkət istər-istəməz insan orqanizminə xoşagəlməz təsiri olan zəhərli qida kimidir. Məsələn, yalan etibarın itirilməsinə, əmanətə xəyanət isə sosial münasibətlərin pozulmasına səbəb olur. Bir zülüm hər zaman başqa bir zülmün mənşəyi olur və sair. Bu, günahla fəsadın təbii əlaqəsidir. Hədislərdən belə qənaətə gəlirik ki, günahların çoxunun bununla yanaşı elə acı nəticələri də var ki, günahla həmin nəticələr arasındakı əlaqələri görə bilmirik. Məsələn, hədislərdə qeyd edilir ki, qohumlarla əlaqələrin kəsilməsi ömrü qısaldır, yetim malı yemək qəlbi qaraldır. Hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: ***“Günah ucbatından dünyasını dəyişənlərin sayı təbii əcəlləri ilə ölənlərin sayından çoxdur.”*** Peyğəmbər (s) buyurmuşdur: ***“Zinanın altı təsiri var: üçü bu dünyaya, üçü isə axirətə aiddir. Dünyada üzün nurunu aparır, ölümü tezləşdirir, ruzinin kəsilməsinə, axirətdə isə sorğu-sualın çətin olmasına, Allahın qəzəbinə,***

[1692] Nümunə, c.16, səh.444

əbədi atəşə səbəb olur.”[1693] Başqa bir hədisində Peyğəmbər (s) buyurmuşdur: ***“Məndən sonra zina insanlar arasında aşkar çıxdığında qəfil ölümlər artacaq, tərəzidə aldatma baş verdiyində Allah quraqlıq və qıtlıq göndərəcək, zəkatdan imtina edildiyində torpaq öz bərəkətini tarla, bağ və mədənlərdən çəkəcək, mühakimələrdə zülm və haqsızlığa yol verdikləri zaman insanlar zülm və düşmənçilikdə bir-birlərinə yardım etmiş olacaqlar, əhd-peymanları sındırdıqlarında Allah düşmənlərini onlara hökmran edəcək, qohumlarla əlaqələri kəsdiklərində var-dövlət şər insanların əlinə düşəcək, yaxşını əmr, pisdən çəkindirmə tərk edildiyində və Əhli-beytin saleh əməllərini etmədiklərində Allah pisləri onlara hakim edəcək. Yaxşıları dua edəcəklər, ancaq duaları qəbul olmayacaq.”***[1694]

42. De: “Yer üzünü gəzib dolaşın və sizdən əvvəlkilərin aqibətinin necə olduğuna baxın. Onların çoxu müşrik idi”.

[1693] Nümunə, c.16, səh.456
[1694] Quranın ismarışı, c.4, səh.468

43. Allah tərəfindən gəlməsinə heç kəsin mane ola bilmədiyi gün gəlməzdən əvvəl üzünü düz və sabit dinə tərəf tut! O gün insanlar qruplara bölünəcək.

44. Kim kafir olsa, küfrü öz ziyanına olar. Yaxşı iş görənlər isə öz xeyirlərinə (Cənnətdə yer) hazırlamış olarlar.

45. Bu ona görədir ki, Allah iman gətirib yaxşı işlər görənlərə Öz lütfündən mükafat versin. O, kafirləri sevmir.

46. Sizə Öz mərhəmətindən daddırsın, əmri ilə gəmilər üzsün, Onun lütfündən faydalanasınız və bəlkə şükür edəsiniz deyə külәkləri müjdəçi göndərməsi də Allahın nişanələrindəndir.

47. Biz səndən əvvəl onların qövmünə elçilər göndərmişdik. Onlar öz qövmlərinə açıq-aydın dəlillər gətirmişdilər. (Nəsihətlər fayda vermədiyində) Biz günahkarlardan intiqam aldıq. Möminlərə yardım etmək Bizim borcumuz idi.

48. Buludları hərəkətə gətirməsi üçün külәkləri göndərən Allahdır. Sonra onları səmada istədiyi kimi yayıb topa-topa edir. Bu zaman sən onlardan damcı-damcı yağış yağdığını görürsən. Onu bəndələrindən istədiyinə endirdiyində dərhal sevinirlər.

49. Halbuki (yağış) onlara göndərilməzdən əvvəl məyus idilər.

50. Sən Allahın mərhəmətinin izlərinə bax ki, yeri öldükdən sonra necə dirildir. Belə (ölü yeri dirildən) varlıq (Qiyamətdə) ölüləri dirildəndir. O, hər şeyə qadirdir.

---

46. Müjdəçi külәklər: Quranın bir neçə yerində külək yağışın müjdəçisi kimi təqdim edilsə də, “müjdəçi” sözünü bu məna ilə məhdudlaşdırmaq olmaz. Çünki külәklər bir çox digər hadisələrin də

müjdəçisidirlər. Küləklər havanın isti və soyuq balansını tənzimləyir, atmosferdəki infeksiyaları qovub havanı təmizləyir, günəşin istiliyinin yarpaqlar və bitkilər üzərindəki təzyiqini azaldır, günəşin yandırıcılığının qarşısını alır, ağacların yarpaqları tərəfindən emal olunmuş oksigeni insanlara, insanların buraxdıqları karbon qazını isə bitkilərə ərməğan edir, bitkilərin çoxunu tozlandırır, bitki dünyasının erkək və dişi mayalarını bir-birinə qovuşdurur, dəyirmanların hərəkəti və xırmanların havasının təmizlənməsində rol oynayır, bir bağban qayğısı ilə toxumları onların çox olduğu ərazilərdən götürüb düzlərə səpir, küləklə işləyən sərnişin və yük gəmilərini müxtəlif yerlərə aparır. Hətta bu gün nəqliyyat vasitələri küləyi əvəz etsələr də, eyni və əks istiqamətdən əsən küləklər gəmilərin sürətli və zəif hərəkətlərində rol oynayır. Ümumiyyətlə, küləklər bir çox hadisələrin müjdəçisidir. Bütün bunlardan başqa, külək yağışın yağmasında mühüm rol oynayır. Küləklər dənizlərin üzərindəki bulud parçalarını quru və susuz ərazilərə aparır, buludları göy üzünə yayır, sonra onları topalayır, buludların olduğu hissəni soyudur və buludları yağış yağdıracaq vəziyyətə gətirir.[1695]

47. Möminlərə yardım göstərmək bizim borcumuzdur: Quranın bu ayəsinə əsasən, Allah bu dünyada və axirətdə möminləri qorunmasına zəmanət verir. Bu yardımın nümunələrindən biri günahkarlardan intiqam alınmasıdır. Əlbəttə, unutmaq olmaz ki, bu hüququ möminlər üçün Allah özü təyin etmişdir. Heç kəs deyə bilməz ki, Allah onlara yardım etməyə məcbur və məhkumdur, sadəcə, bu Allahın möminlərə qarşı bir lütfüdür. Hədislərin birində belə deyilir: ***"Allah Qiyamətdə Cəhənnəm odunu qardaşının abrını qoruyan şəxsdən uzaqlaşdırmağa zəmanət verir."***[1696]

[1695] Nümunə, c.16, səh.464
[1696] Əl-Mizan, c.16, səh.205

50. Yağış Allah tərəfindən göndərilən bir rəhmətdir: Yağışın Allahın rəhməti kimi təqdim edilməsi onun müxtəlif cəhətlərdən bərəkət səbəbi olması ilə bağlıdır. Yağış quru torpaqları suvarır, bitkilərin toxumlarını cücərdib inkişaf etdirir, ağaclara yeni həyat bəxş edir, havanın toz-torpağını yuyur, havanı təmizləyir, bitkiləri yuyur, onlara təravət bəxş edir, havanı mülayim, rütubətli və nəfəs almaq üçün əlverişli edir, torpağa hopur və bir müddətdən sonra bulaqlar və arxlar şəklində üzə çıxır, çay və sellər yaradır. Sonda bəndlər vasitəsilə qarşısı kəsilmiş sudan elektrik enerjisi alınır, havanın isti və soyuq balansı təmin olunur, istinin azalmasında və soyuğun tənzimlənməsində rol oynayır.[1697] İmam Səccad (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Allah yağışı bütün dağların başına, təpələrə, dərələrə, bütün yüksəkliklərə və düzənliklərə çatması üçün göydən endirir. Tamamilə yerə hopup onu su ilə təmin edə bilməsi üçün onu iri, balaca və ardıcıl damcılar formasında endirir. Əgər sel formasında göndərsəydi, torpaq, ağaclar, tarlalar və meyvə bağları tamamilə məhv olardı."***[1698]

[1697] Nümunə, c.16, səh.470
[1698] Quranın ismarışı, c.2, səh.256

51. Əgər Biz bir külək göndərsək və nəticədə, onlar əkinlərini və bağlarını saralıb-solmuş görsələr, bundan sonra mütləq nankorluq etməyə başlayarlar.

52. Sən səsini nə ölülərə nə də üz çevirib uzaqlaşan karların qulağına çatdıra bilməzsən.

53. Sən korları da düşdükləri zəlalətdən düz yola yönəldə bilməzsən. Sən sözünü yalnız və yalnız ayələrimizə iman gətirib haqq qarşısında təslim olanlara eşitdirə bilərsən.

54. Sizi zəif yaradan, zəiflikdən sonra sizə qüvvət verən, qüvvətli olduqdan sonra zəiflik və qocalıq verən Allahdır. O, istədiyini yaradır. O, biləndir, qadirdir.

55. Qiyamət baş verdiyi gün günahkarlar (Bərzəx aləmində) bircə saat qaldıqlarına and içəcəklər. Onlar (dünyada da) haqdan belə ayrı düşürdülər.

56. Bilik və iman verilmiş şəxsələr isə deyəcəklər: “Siz Allahın əmri ilə Qiyamət gününə qədər (Bərzəx aləmində) qaldınız. İndi diriliş günüdür, lakin siz bilmirdiniz”.

57. Həmin gün üzrləri zalımlara fayda verməyəcək və tövbələri qəbul edilməyəcək.

58. Biz bu Quranda insanlar üçün hər cür məsəllər çəkdik. Əgər sən onlara bir möcüzə gətirsən, kafirlər: “Siz batil yolun yolçularısınız (və bunlar sehr və cadudur)!” – deyəcəklər.

59. Allah bilməyənlərin qəlbini belə möhürləyir.

60. Sən səbrli ol ki, Allahın vədi haqdır. İmanı olmayanlar səni qəzəbləndirib hövsələdən çıxarmasınlar.

52-53. Quran məntiqində ölüm və həyat: Bu iki ayədə tanıma amilləri və insanın xarici aləmlə əlaqə vasitələri - dəqiqləşdirmə hissinin, ölü qəlb qarşısında ayıq ağlın, haqq sözü eşitmək üçün eşidən qulağın və haqq və batili görmək üçün görən gözün lazım olmasının parlaq təsviri verilmişdir. Sadəcə, inadkarlıq, təkəbbür, kor-koranə təqlid və günah insanın həqiqəti görən gözünü kor edir, qulağını kar edir, bəzən ağlını və qəlbini sıradan çıxarır. Əgər bütün peyğəmbərlər, övliayalar və mələklər bu cür insanları doğru yola yönəltmək üçün ezam edilsələr belə, heç bir təsiri olmayacaq. Çünki onların xarici aləmlə olan əlaqəsi tamamilə kəsilib. Quran aspektindən bu cür insanlar fiziki cəhətdən diri olsalar da, ölülər sırasında yer alırlar. Onlardan fərqli olaraq, bəzi insanlar zahirən ölü olsalar da, əslində, əbədiyaşardırlar. Şəhidləri buna misal göstərə bilərik. İslamda insanın həyat və şəxsiyyət meyarı onun ruhi və mənəvi dəyərləri, faydalılığı ilə ölçülür. Zahirən diri olub məzlumların ah-naləsini, haqq çağırışlarını

eşitməyəcək, çarəsizlərin üzünü və varlıq aləmində Allahın əzəmətinin nişanələrini görməyəcək, keçmişi və gələcəyi ilə bağlı bir an olsun belə, düşünməyəcək dərəcədə ehtiraslara qərq olmuş insan Quran məntiqi ilə ölüdür. Ancaq öldükdən sonra təsirləri dünyanı bürüyən, fikirləri, dəstixəttləri, yolları ülgü, nümunə və öndər olan insanlar diri və əbədiyaşardırlar.[1699]

54. Yoxsulluq və varlılıq arqumenti: Ayədə tövhid dəlillərindən hesab edilən yoxsulluq və zənginlik arqumentinə işarə edilmişdir. Ayənin əvvəlində deyilir ki, siz həyatın ilk başlanğıcında zəif və gücsüz idiniz, hətta bir milçəyi belə özünüzdən uzaqlaşdırmağa, ağzınızın suyunu saxlamağa qüdrətiniz çatmırdı, daim qayğınızı çəkən ata-ananızı belə tanımırdınız. Yavaş-yavaş böyüdünüz, gücləndiniz, güclü bədənə, güclü fikrə, qüdrətli ağla, geniş təfəkkürə sahib oldunuz. Lakin bununla belə, bu gücü qoruyub saxlaya bilmədiniz, dağın zirvəsinə çıxıb oradan aşağı enən adam kimi, yenidən fiziki və ruhi zəiflik və gücsüzlük dərəsinə endiniz. Bu dəyişmələr və eniş-yoxuşlar gücün, qüdrətin və zəifliyin sizin əlinizdə olmadığını, hər ikisinin sahibinin başqa bir varlıq olduğunu göstərən bir həqiqətdir. Deməli, sizin varlığınızın çarxını başqası fırladır, nəyiniz varsa, özünüzdən deyil. Möminlərin əmiri İmam Əli (ə) bir hədisində buyurmuşdur: ***"Allah-taalanı qərarların alt-üst olması, problemləri həllini tapması və cəhdlərin boşa çıxması ilə tanıdım."*** Mən bu cür dəyişikliklər sayəsində anladım ki, əsl qüdrət başqasının əlindədir, Onun bizə bağışladığından başqa bizim heç nəyimiz yoxdur. Diqqət çəkən məqam həm də ondan ibarətdir ki, Allah-taala birinci zəifilikdən danışarkən uşaq sözünü əlavə etmədiyi halda, insan üçün qaçılmaz olan ikinci zəiflikdən danışarkən "qocalıq" sözünü işlədir. Bu ifadə

[1699] Nümunə, c.15, səh.541

bəlkə də qocalıq səbəbilə baş verən zəifliyin daha dözülməz olduğunu çatdırmaq üçündür. Birincisi, ona görə ki, ölümə və fənaya yaxındır, ikincisi, ona görə ki, ixtiyar yaşında olan, təcrübə görmüş qocalardan edilən təvəqqe uşaqlardan edilmir. Halbuki hər ikisi zəiflik baxımından bərabərdir. Hadisə çox ibrətamizdir. Yağı və təkəbbürlü olan qüdrət sahiblərini diz çökdürən, zəif və çarəsiz hala salan məhz zəifliyin bu mərhələsidir.[1700]

60. Kafirlər səni qəzəbləndirməsinlər: Nadan inadkarlar və inadkar ağılsızlar qarşısında davam gətirməsi və mübarizədən əl çəkməməsi üçün Allah-taala Peyğəmbərə (s) iki mühüm göstəriş və bir böyük müjdə verir. Birinci göstəriş, qələbənin əsas açarı olan səbr və dözümdür. Allah-taal bu yolda Peyğəmbərə (s) ürək-dirək vermək üçün "Allahın vədi haqdır" – deyə buyurur. O, sənə və möminlərə yer üzündə qələbə və xilafət, İslamın küfr, nurun zülmət üzərində qələbə çalacağını və bu vədi yerinə yetirəcəyini vəd vermişdir. (Rum-47, Ğafir-51, Maidə-56). İkinci göstəriş bu ciddi mübarizədə mətinliyin və sakitliyin qorunması ilə bağlıdır.[1701]

[1700] Nümunə, c.16, səh.479
[1701] Nümunə, c.16, səh.489

"Loğman" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Əlif, Ləm, Mim.

2. Bu, hikmətli Kitabın ayələridir.

3. Əməlisalehlər üçün doğru yol göstərən və rəhmət vasitəsidir.

4. O kəslərə ki, namaz qılır, zəkat verir və axirətə qətiyyətlə inanırlar.

5. Onlar Rəblərindən gələn doğru yoldadırlar. Nicat tapanlar onlardır.

6. Bəzi adamlar nadanlıqları üzündən insanları Allah yolundan sapdırmaq və Allahın ayələrini lağa qoymaq üçün mənasız sözləri satın alırlar. Onlar üçün alçaldıcı bir əzab var.

7. Ayələrimiz onlara oxunduğu zaman sanki onları eşitmirmiş, qulaqları karmış kimi təkəbbürlə üz çevirərlər. Onları ağrılı-acılı bir əzabla müjdələ.

8. Cənnətin bol nemətli bağları iman gətirib yaxşı işlər görənlərə məxsusdur.

9. Onlar orada əbədi qalacaqlar. Bu, Allahın qəti vədidir. O, yenilməz qüdrət və hikmət sahibidir.

10. O, göyləri görə biləcəyiniz bir dirək olmadan yaratmış, sizi silkələməsin deyə, yer üzündə möhkəm dağlar yaratmış və oraya cürbəcür heyvanlar yaymışdır. Göydən yağmur yağdırıb onun vasitəsilə yer üzündə cürbəcür əhəmiyyətli bitkilər bitirdik.

11. Bunlar Allahın yaratdıqlarıdır. İndi siz mənə göstərin görüm, Ondan başqaları nə yaradıblar. Xeyr! Zalımlar açıq-aydın azğınlıq içindədirlər.

"Loğman" surəsinin ümumi məzmunu: Bu surənin ehtiva etdiyi məzmunları beş bölmə üzrə ümumiləşdirmək olar: 1. Müqəttəə hərflərindən sonra Quranın əzəməti, onun spesifik xüsusiyyətlərə malik möminlər üçün yönləndirici və rəhmət olmasına işarə edilmişdir. 2. Səmanın yaradılışında Allahın nişanələri, onun gözəgörünməz sütunlar üzərində dayanması, dağların, müxtəlif canlıların yaradılışı, yağışın yağması və bitkilərin göyərməsindən danışlır. 3. Loğmanın övladına verdiyi hikmətli nəsihətlərin bir qismi qeyd edilir. 4. Yenidən tövhid arqumentləri işıqlandırılır, göyün və yerin ram edilməsi, Allahın insanlara bəxş etdiyi bol nemətlər, təkcə əcdadlarını təqlid etməklə azğınlıq vadisinə yuvarlanmış bütpərəstlərin məntiqinin yanlışlığından danışlır, parlaq bir misalla Allahın böyük və sonsuz olmasına işarə edilir. 5. Ölüm lakonik və düçündürücü bir misalla izah edilir.[1702]

6. Oynaq musiqi (ğina) Şeytanın böyük tələlərindən biridir: "Boş-boş sözlər" deyilərkən insanı azğınlığa və mənasız işlərə sövq edən istənilən qəflətgətirici və məşğuledici söz və musiqi nəzərdə tutulur. Burada insanı ehtiraslandıran musiqi və ahənglə məzmunu ilə insanı fəsada, boş və mənasız işlərə sövq edən sözlər arasında heç bir fərq yoxdur. Bu ayənin təfsiri ilə bağlı Əhli-beyt imamlarından (ə) çoxlu sayda hədis nəql

---

[1702] Nümunə, c.17, səh.5

edilmişdir. Hədislərə görə xaredici əzaba səbəb olan boş-boş danışıqlardan biri oynaq musiqidir. İmam Sadiq (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Oynaq musiqi, boş-mənasız və batil musiqi məclisi Allahın əhlinə nəzərə salmadığı bir məclisdir. Bu Allahın "Bəzi adamlar mənasız sözləri satın alırlar" – deyə buyurduğu ayənin bir nümunəsidir."*** Fəqihlərin bu mövzu ilə bağlı verdikləri açıqlamalardan belə qənaətə gəlmək olar ki, oynaq musiqi (ğina), mənasız, batil, günah məclislərinə xas olan, insanın ehtiraslarını təhrik edən musiqilərdir. İmam Sadiq (ə) buyurmuşdur: ***"Ğina olan ev ağır bəlalardan sığortalanmayıb, orada dua qəbul olmaz, mələklər oraya daxil olmaz."*** Altıncı imam başqa bir hədisində belə buyurmuşdur: ***"Ğina münafiqlik ruhiyyəsini gücləndirir, yoxsulluq və bədbəxtlik gətirir."*** Hədislərinin birində Peyğəmbər belə buyurmuşdur: ***"Şeytan ğina oxuyan ilk şəxs olmuşdur."*** Ğinanın haram olmasının səbəbini izah edərkən qeyd edirlər ki, insanların çoxu ğina musiqilərinin təsiri altında təqva və Allah qorxusunu unudub ehtiraslar və günahların əsirinə çevrilir. Ğina məclisləri adətən müxtəlif fəsad və günahların mərkəzi olur. Günah və fəsada səbəb olan isə məhz həmin ğinadır. Ğinanın neqatif cəhətlərindən biri də onun Allahı unutdurmasıdır. Bəzi hədislərdə ğina anlayışının mənasız sözü ilə ifadə edilməsi də bununla bağlıdır. Belə ki, ğina insanı ehtiraslar içində elə məst edir ki, Allahı yaddan çıxarır. Ayədə boş və mənasız sözlərin Allah yolundan sapdıran amillərdən biri olduğu və ağrıdıcı əzaba səbəb olduğu qeyd edilmişdir. Diqqət yetirməli cəhətlərdən biri də budur ki, ğina və musiqi əsəblərə təsir göstərir, hətta insanı dəlilik dərəcəsinə çatdırır. Onun ürəyə, qan təzyiqinə, digər xoşagəlməz hallara təsiri çoxdur. Müasir dövrümüzə aid ölüm hallarının statistik rəqəmləri keçmişlə müqayisədə qəfil ölümlərin daha çox olduğunu göstərir. Bu artımı müxtəlif səbəblərlə izah

edirlər. Həmin səbəblər sırasında qlobal səviyyədə musiqinin artması amili yer alır.[1703]

[1703] Nümunə, c.17, səh.15

12. Biz Loğmana hikmət verdik: “Allaha şükür et! Kim şükür etsə, öz xeyrinə şükür etmişdir. Kim nankor olsa, (Allaha heç bir zərər toxundurmaz), çünki Allah ehtiyacsız və tərifəlayiqdir”.

13. Bir zaman Loğman öz oğluna nəsihət edərək demişdi: “Oğlum! Heç nəyi Allaha şərik qoşma. Çünki Allaha şərik qoşmaq böyük zülmdür!”

14. Biz insana ata-anasının qayğısına qalmağı tövsiyə etdik. Anası onu gücsüzlük üzərinə gücsüzlük gəlməsinə baxmayaraq, daşımışdır. Onun südəmər dövrü iki il çəkir. Mənə və valideynlərinə şükür et ki, axır dönüş Mənədir.

15. Əgər onlar bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün cəhd göstərsələr, onlara itaət göstərmə! Ancaq dünyada onlarla gözəl davran. Tövbə edərək Mənə üz tutanların yolu ilə get! Sonra isə hamınızın dönüşü Mənə olacaq. Mən sizə nə etdiklərinizbarədə xəbər verəcəyəm.

16. “Oğlum! (Gördüyün yaxşı və ya pis iş) bir xardal dənəsi ağırlığında da olsa, bir daşın içində, yaxud göylərdə və ya yerin dibində də olsa, Allah onu (Qiyamətdə hesablamaq üçün) gətirər. Allah dəqiq, xəbərdardır.

17. Oğlum! Namaz qıl, yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə. Başına gələn müsibətlər qarşısında dözümlü ol ki, bu, mühüm işlərdəndir.

18. İnsanlardan etinasızlıqla üz çevirmə, yer üzündə özünü darta-darta gəzmə. Allah heç bir özündən razı təkəbbürlünü sevmir.

19. Yerişində orta həddi gözlə, (danışanda) səsini alçalt. (Heç vaxt qışqırma,) çünki ən çirkin səs uzunqulağın səsidir”.

--

12. Loğman kim olub: Loğman adına Quranda, məhz elə bu surədə iki yerdə rast gəlmək olar. Onun peyğəmbər, yoxsa müdrik olduğunu göstərəcək heç bir aşkar dəlil yoxdur. Sadəcə, Quranın Loğmandan danışan ayələrin məzmunu onun peyğəmbər olmadığını deməyə əsas veir. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Doğrusunu deyim ki, Loğman peyğəmbər olmayıb. Ancaq çox düşünən və imanın ali dərəcəsinə çatmış bir bəndə olmuşdur. O, Allahı, Allah da onu sevmiş, hikmət nemətini ona layiq görmüşdür..."*** Bəzi tarixi mənbələrin yazdığına görə, Loğman əslən Misirin Sudan əyalətindən olan qaradadərili bir qul olmuşdur. Üzü gözəl olmasa da, aydın qəlbə və səfalı ruha malik olmuşdur. Hədislərdə qeyd edilənlərə görə, bir nəfər Loğmana deyir: Sən bizimlə çobanlıq etmirdinmi? O "Bəli, elədir ki var", - deyə cavab verir. Həmin adam soruşur: "Bəs bütün bu elm və hikmətə necə nail olmusan?" Loğman deyir: "Bu, Allahın istəyi ilə belə olub. Səbəb isə əmanətə xəyanət etməməyim, doğru danışmağım, mənə aid olmayan işlərə qarışmamağım olmuşdur." Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Bir gün Loğman istirahət etmək üçün günün günorta çağı yatmışdı. Qəfildən belə bir səs eşidir: "Ey Loğman! İnsanlar arasında hakimlik etməyin üçün Allahın səni yer üzündəki xəlifəsi etməsini istəyirsənmi?" Loğman deyir: "Əgər Rəbbim seçimi öz ixtiyarıma qoysa, mən rahat yol seçib bu böyük imtahanın altına girmərəm. Ancaq əmr etsə, fərmanını cani dildən qəbul edərəm. Çünki bilirəm ki, belə bir məsuliyyəti mənə həvalə etsə, hökmən mənə yardım göstərəcək, tərəddüdlərdən qoruyacaq." Mələklər soruşur: "Nə üçün?" Deyir: "Çünki insanlar arasında münsiflik etmək vəzifələrin ən çətini, mərhələlərin ən əhəmiyyətlisidir. Zülm və haqsızlıq dalğası hər tərəfdən ona doğru hücum çəkir. Əgər Allah insanı qorusa, xilas olmağa layiqdir, əgər yanlışa yol versə, Cənnət yolundan sapmışdır. Dünyada başıaşağı***

olub, axirətdə başıuca olan adam dünyada başıdik olub axirətdə başıaşağı olan adamdan yaxşıdır. Dünyanı axirətdən üstün tutan şəxs dünyaya nail olmayacaq, axirəti də əldən verəcək." Mələklər Loğmanın gözəl məntiqi qarşında heyrətləndilər. Loğman bunları deyib yuxuya getdi. Allah hikmət nurunu onun qəlbinə bəxş etdi. Yuxudan oyandıqdan sonra hikmətli sözlər danışmağa başladı."[1704]

18-19. Əməldə və danışıqda orta həddi: Bu iki ayədə iki xüsusiyyət qadağan, iki xüsusiyyət isə əmr edilmişdir. Özünü hər kəsdən üstün görmək insanın Allah bəndələri qarşısında təkəbbürlü olmasına, özünü bəyənməsi onun özünü kamil hesab etməsinə, nəticədə, bütün kamillik qapılarını öz üzünə bağlamasına səbəb olur. Bu bəyənilməyən iki xüsusiyyətə qarşılıq olaraq, davranış və danışıq zamanı orta həddin qorunması əmr edilmişdir. Bu iki xüsusiyyətə malik olan şəxs insanlar arasında ən xoşbəxt, Allah qarşısında ən dəyərli və sevimli adamdır. Diqqət çəkən məqam budur ki, ayədə təkəbbürlülərin və əbləhlərin çığırtısı uzunqulaq səsinə bənzədilmişdir. Bunu da təfsirçilər onunla izah edirlər ki, digər heyvanlar adətən nəyəsə ehtiyac duyduları zaman səs çıxarırlar, uzunqulaq isə bəzən səsini heç bir səbəb və ehtiyac olmadan ucaldır. Onun səsinin xoşagəlməz olmasından isə danışmağa dəyməz. Hədislərinin birində İmam Sadiq (ə) burada hündür səslə asqırmağın və ya danışarkən çığıra-şığıra danışmağn nəzərdə tutulduğunu qeyd etmişdir. Təbii ki, bu ayələrin ehtiva etdiyi mənalardan biridir. Hədislərdə heç nəyə təvazökarlıq, gözəl əxlaq, davranışlarda mülayimlik və kobudluğun tərk edilməsi mövzusu qədər yer verilməmişdir. Bir nəfər Peyğəmbərin (s) yanına gedib deyir: "Mənə nəsihət ver!" Peyğəmbərin (s) həmin adama verdiyi nəsihətlərdən biri belə olur:

[1704] Nümunə, c.17, səh.44

"Müsəlman qardaşınla gülər üzlə görüş". Başqa bir hədisində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Qiyamətdə insanın əməl tərəzisində gözəl əxlaqdan üstün heç nə olmayacaq"***[1705]

20. Allahın göylərdə və yerdə olanları sizə ram etdiyini, Özünün aşkar və gizli nemətlərini sizə bol-bol verdiyini görmürsünüzmü? İnsanlar arasında eləsi də vardır ki, heç bir biliyi, doğru yolu göstərəni və nur saçan bir kitabı olmadan Allah barəsində mübahisə edir.

21. Onlara: "Allahın nazil etdiyinə itaət edin!" – deyildikdə, onlar: "Yox! Biz əcdadımızın getdiyi yolu tutub gedəcəyik!" – deyərlər. Əgər şeytan onları yanan odun əzabına doğru çağırsa belə (yenə tabe olacaqlar)?

[1705] Nümunə, c.17, səh.55

22. Yaxşı əməl sahibi olub özünü Allaha təslim edən şəxs ən möhkəm dəstəkdən yapışmış olar. Bütün işlərin sonu Allaha qayıdır.

23. Kafir olanın küfrü səni kədərləndirməsin. Onların dönüşü Bizə olacaq. Biz də onlara etdikləri əməllər barədə xəbər verəcəyik. Allah kökslərdə olanları bilir.

24. Biz dünya malının az bir hissəsini onların ixtiyarına verəcəyik, sonra da onları ağır bir əzaba məcbur edəcəyik.

25. Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?" – deyə soruşsan, onlar mütləq: "Allah!" – deyəcəklər. De: "Həmd olsun Allaha!" Lakin onların çoxu bilmir.

26. Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Allah ehtiyacsızdır, sitayişə layiqdir.

27. Əgər yer üzündəki bütün ağaclar qələm olsa, dəniz də onun mürəkkəbi olsa və ona yeddi dəniz də artırılsa, yenə də Allahın sözləri qurtarmaz. Allah yenilməz qüdrət və hikmət sahibidir.

28. Sizin hamınızı yaratmaq və qaldırmaq bir adamı yaratmaq və qaldırmaq kimidir. Allah eşidəndir, görəndir.

---

20. Aşkar və gizli nemətlər: Aşkar nemətlərə göz, qulaq, bədən üzvləri, sağlamlıq və hiss üzvləri ilə qavranılan nemətlər aiddir. Ancaq gizli nemətlərə isə şüur, iradə, ağıl, ixlaslı əməllər sayəsində qazanılmış mənəvi məqamlar aiddir. Bunlar beş hiss üzvü ilə qavranılmayan nemətlərdir. Hədislərdə Allahın bu ayədə buyurduğu iki qrup nemətlərlə bağlı müxtəlif nümunələr qeyd edilmişdir. Bəzi hədislərdə aşkarda olan nemətlər deyilərkən aşkarda olan imamın, gizlində olan nemət deyilərkən isə qeybdə olan imamın nəzərdə tutulduğu qeyd edilmişdir. Hədislərinin birində İmam

Sadiq (ə) belə buyurmuşdur: ***"Aşkar nemət Peyğəmbər (s) və onun Allahtanıma və təkAllahlıqla bağlı gətirdikləri, gizli nemət isə biz Əhli-beytin rəhbərliyi və bizimlə dostluq əhdidir."***[1706] Peyğəmbər (s) hədislərinin birində belə buyurmuşdur: ***"Aşkar nemət İslam, sənin Allah tərəfindən kamil və nizam-intizamlı yaradılışın, sənə verilmiş nemətlərdir, gizli nemət isə çirkin əməllərinin örtülməsi, insanlar qarşısında rüsvay edilməməndir."*** Əlbəttə, bu təfsirlər arasında heç bir təzad yoxdur. Bunların hər biri gizli və aşkar nemət ifadəsinin ayrı-ayrı nümunələrini simvolizə edir. Bu da məna məhdudiyyətinə deyil, onun daha geniş məzmun ifadə etməsinə səbəb olur.[1707]

27. Allahın sözü bitib-tükənməz: Bu ayədə çox möhtəşəm və bədii bir təsvirlə Allahın elminin tükənməzliyi təsvir edilmişdir. İnsanın elmi nə qədər artsa da, Allahın elmi qarşısında zərrədən artıq deyil. İnsan qatında daha çox olan Allah qatında daha azdır. Sözlər cəmdir və insanın danışdığı sözləri və ifadələri ehtiva edir. Bu ifadə daha geniş mənada fikir və məna ifadə edən hər şeyə şamil olur.
Kainatda mövcud olan varlıqların hər biri Allahın zatı, elmi və qüdrətini ifadə etdiyi üçün bu sözü bütün varlıqlara, xüsusilə ən dəyərli varlıqlara şamil etmək olar. İsa peyğəmbəri (ə) buna misal göstərə bilərik ("Nisa" surəsi - 171, "Ali-İmran" surəsi - 45). Deməli, "Allahın sözləri" deyilərkən Allahın elmi də nəzərdə tutulur. Ayənin forması çox maraqlı və düşüncə tələb edəndir. İri bir ağacdan minlərlə, hətta milyonlarla qələm düzəldilə bildiyini nəzərə alsaq, bütün ağacların qələmə çevrilməsi, dənizlərin və okenların mürəkkəbə çevrilməsi, yeddi dənizin də onlara əlavə edilməsi (təbii ki, burada yeddi deyilərkən say deyil, çoxluq nəzərdə tutulur) təsviri

[1706] Əl-Mizan, c.16, səh.234 və 244
[1707] Nümunə, c.17, səh.65

Allahın elminin böyüklüyünü göstərmək üçündür.[1708] Hədislərin birində belə deyilir: ***"Bu ayənin məqsədi Allahın elminin daha çox olduğunu göstərməkdir. Sizə verilən elm öz aranızda çox, Allah yanında az və cüzidir."***[1709] Bu ayənin məzmunu o qədər aydındır ki, insanın təfəkkür dalğalarını özü ilə birlikdə sahilsiz üfüqlərə doğru aparır, heyrətlərə qərq edir, elm və biliyinin Allahın elmi ilə müqayisədə nə qədər kiçik olduğunu başa salır.[1710]

[1708] Nümunə, c.17, səh.74
[1709] Qumminin təfsiri, c.2, səh.143
[1710] Nümunə, c.17, səh.76

29. Allahın gecəni gündüzə, gündüzü də gecəyə daxil etdiyini, günəşi və ayı ram etdiyini, hər birinin müəyyən olunmuş vaxtadək hərəkət etdiyini görmədinmi? Allah nə etdiklərinizdən xəbərdardır.

30. Bütün bunlar Allahın haqq olduğunu, Onu qoyub çağırdılarının batil olduğunu göstərən dəlillərdir. Allah ucadır, böyükdür.

31. Onun dəlillərinin bəzisini sizə göstərməkdən ötrü dənizdə gəmilərin Allahın neməti sayəsində üzdüyünü görmürsünüzmü? Bunlarda səbrli olanlar və şükür edənlər üçün nişanələr var.

32. (Dənizdə səfər edərkən) bir dalğa buludlar kimi başlarının üstünü aldığında Allahı ixlasla çağırarlar. Ancaq quruya çıxarıb xilas etdiyində aralarından bəziləri orta yol tutar. Bizim ayələrimizi yalnız nankor xəyanətkarlar inkar edərlər.

33. Ey insanlar! Rəbbinizdən qorxun. Valideynin övladın, övladın da valideynin əməllərinin məsuliyyətini qəbul etməyəcəyi, onun yerinə cəza çəkməyəcəyi gündən qorxun. Şübhəsiz ki, Allahın vədi haqdır. Məbada dünya həyatı sizi çaşdırsın, hiyləgər (şeytan) sizi Allahın kərəmi ilə aldatsın.

34. Qiyamətin nə zaman qopacağını yalnız Allah bilir. Yağışı O yağdırır və bətnlərdə olanı O bilir. Heç kəs sabah nə əldə edəcəyini bilə bilməz; heç kəs harada öləcəyini də bilməz. Allah biləndir, xəbərdardır.

---

33. Haqq yoldan sapmanın ən böyük amilləri: Bu ayədə insanlara dünya həyatının bər-bəzəyinə aldanmamaq xəbərdarlığı verilir. Daha sonra şeytanın hiyləsindən söz açılır və onun təhlükəli olduğu qeyd edilir. Belə ki, insanlar bir neçə qrupa bölünürlər: Bəziləri o qədər zəif və gücsüzdürlər ki, dünyanın bər-bəzəyini görən kimi aldanırlar. Bəzilərinin müqavimət gücü bir qədər artıqdır. Onlaırn aldanması üçün şeytanın vəsvəsəsi də lazımdır. Bu cür insanları aldatmaq üçün xarici və daxili şeytanlar əl-ələ verməlidirlər. Ayədə hər iki qrupun mənsublarına xəbərdar edilir. Bir nüansa diqqət yetirməyimiz lazımdır ki, ayənin orijinalındakı "ğərur" sözü istənilən aldadıcıya şamildir. Bu sözün şeytan kimi izah edilməsi onun birinci dərəcəli aldadıcı olması ilə bağlıdır. Yoxsa ki, istənilən aldadıcı, kitab, insan və ya mövqe vəsəvəsəedici sayılır. Ümumiyyətlə, insanı haqq yoldan sapdıran hər bir varlıq bu sözün geniş məna çərçivəsinə daxildir. Bəzilərinin onu dünya kimi izah etmələri dünyanın aldadıcı olması ilə bağlıdır. İmam Əli (ə) dünya haqqında belə buyurmuşdur: "Dünya aldadır, ziyan verir və keçir". Diqqət yetirilməli olan nüans ondan ibarətdir ki, dünyanın aldadıcı olması, bu cəhətdən də məzəmmət edilməsi dünya həyatının bir çox zahiri təmtəraqının insana Allahı unutdurmasıdır. Bəzən dünya insanı elə məşğul edir ki, dünyadan qeyri nə varsa, hamısını unudur. Buna baxmayaraq, dünya həyatının ayrı-ayrı səhnələri arasında elə səhnələr də var ki, dünyanın əbədi olmadığını, bər-bəzəyinin içi boş olduğunu açıq şəkildə bəyan edir. Elə hadisələr var ki, istənilən ağlı başında olan insanı ayıldır, huşu başında

olmayanları isə huşa gətirir.[1711] Bir gün İmam Əli (ə) bir nəfərin dünyanı aldadıcı adlandıraraq məzəmmət etdiyini görüb buyurdu: ***"... Dünya, onun söylədiklərinə inananlar üçün düzlük, mahiyyətini dərk edənlər üçün sağlamlıq, axirətinə azuqə toplayanlar üçün sərvət, öyüd-nəsihət alanlar üçün öyüd-nəsihət diyarıdır. Dünya Allah dostlarının məscidi, mələklərin namaz qıldığı, vəhyin nazil olduğu yer, Allah dostlarının ticarət etdiyi məkanıdır..."***[1712]

34. Allaha məxsus olan elmlər: Ayədə yalnız Allahın elmi çərçivəsində olan üç hadisəyə işarə edilmişdir: Birincisi, Qiyamətin qopacağı zaman. Allah həmin günün nə vaxt olacağının yalnız Özünə aid bir məsələ olduğunu, Ondan başqa heç kəsin (hətta peyğəmbər və imamların da) həmin hadisənin nə zaman baş verəcəyindən xəbərdar olmadığını buyurur. İkincisi, yağışın yağması və analarının bətnində olan körpələrin xüsusiyyətləri (həmin körpənin gözəl və ya çirkin, Cənnət, yoxsa Cəhənnəm əhli olacağı və sair)[1713] ilə bağlı bilgi yalnız Allaha məxsusdur. Yalnız Allahın xəbərdar etdiyi şəxslər istisnadır. Sonuncu iki hadisə (sabah hansı hadisənin baş verəcəyi, insanın hansı məkanda öləcəyi) insanların bilməyəcəkləri hadisələrdir. Belə ki, insan gələcəkdə baş verəcək hadisələrdən xəbərdar ola bilməz. Əlbəttə, bir nüansı də qeyd etməliyik ki, Allahın istəyi ilə Ondan qeyriləri də son dörd hadisədən xəbərdar ola bilərlər. Hədislərdə məsumların öz gələcəklərindən, öləcəkləri məkan və zamandan xəbər verdikləri qeyd edilmişdir.[1714] İmam Sadiq (ə) buyurmuşdur: "İmam qeybdən xəbərdar olmur. Ancaq nəyisə bilmək

---

[1711] Nümunə, c.17, səh.95
[1712] Nəhcül-bəlağə, qısa kəlamlar, 131-ci hikmət
[1713] Nəhcül-bəlağə, 128-ci xütbəyə istinadən
[1714] Əl-Mizan, c.16, səh.243

istədikdə Allah onu məlumatlandırır.”[1715] Hədislərdə imamların qeybi bilməməsi və ayədə qeyd edilən beş hadisənin yalnız Allahın bilgisi daxilində olmasının qeyd edilməsinin səbəbi onların yaşadıqları dövrdə qeyb elminin Allahın zatı elminə aid edilməsi və Allahın təlimatı olmadan bilinən elm kimi başa düşülməsi olmuşdur. İmamlar bu təfəkkür tərzinin bir növ şirk olduğunu nəzərə alaraq, onun yayılmasının qarşısını almaq üçün bu cür bəyanatlar vermişlər. İmam Kazim (ə) hədislərinin birində belə buyurmuşdur: Bizim malik olduğumuz elm qeyb elmi deyil, Allah rəsulundan bizə irsən keçmiş bir elmdir. Biz nə biliriksə, bizə Allah rəsulundan irsən keçib. Allahın rəsuluna da bildiklərini Allah öyrətmişdir.[1716]

[1715] Nümunə, c.17, səh.100
[1716] Mənşuri-cavid, c.8, səh.389

"Səcdə" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Əlif, Ləm, Mim.

2. Bu, aləmlərin Rəbbi tərəfindən nazil edilmiş bir Kitabdır. Onda heç bir-şək- şübhə yoxdur.

3. Ya da onlar: "(Muhəmməd) bunu özündən uydurmuşdur!" – deyirlər. Lakin bu, səndən əvvəl heç bir qorxudanın gəlmədiyi cəmiyyəti qorxutmağın üçün Rəbbinə aid haqq sözdür. Bəlkə doğru yola yönələlər.

4. Allah göyləri, yeri və onların arasındakıları altı gündə yaradan, sonra da Ərşdə qərarlaşan varlıqdır. Sizin Ondan başqa nə bir haminiz, nə də bir şəfaətçiniz vardır. Məgər diqqətli olub xatıralamayacaqsınız?

5. O, bu dünyanın göydən yerə qədər olan bütün işlərini idarə edir. Sonra da sizin hesabınızla min ilə bərabər olan bir gündə Ona doğru yüksəlir.

6. O, gizli və aşkarı bilir, yenilməz qüdrət sahibidir, mərhəmətlidir.

7. O, həmin varlıqdır ki, yaratdığı hər şeyi gözəl biçimdə yaratmış, insanı ilk olaraq palçıqdan xəlq etdi.

8. Sonra onun nəslini bir damla dəyərsiz sudan yaratdı.

9. Sonra onu şəklə saldı və ona Öz ruhundan üfürdü, sizə qulaqlar, gözlər və ürək verdi. Siz Onun nemətlərinə az şükür edirsiniz!

10. Onlar dedilər: "Biz torpağın içində yox olandan sonra yenidənmi yaradılacağıq?" Doğrusu, onlar öz Rəbləri ilə qarşılaşacaqlarını inkar edirlər.

11. De: "Sizə müvəkkil olan ölüm mələyi canınızı alacaq, sonra da sizi Rəbbinizə qaytaracaqlar!"

“Səcdə” surəsinin ümumi məzmunu: Bu surə Məkkədə nazil olduğu üçün Məkkə surələrinin əsas sujet xəttini təşkil edən başlanğıc, qayıdış, müjdə və qorxutmaq mövzularını ehtiva edir və bir neçə hissəyə bölünür:
1. Quranın əzəməti. 2. Allahın göydəki və yerdəki nişanələri. 3. İnsanın torpaqdan və sudan yaranması, nütfə, ilahi ruh, elm əldə etmək üçün zəruri olan vasitələrin verilməsi. 4. Diriliş və ondan əvvəl baş verəcək hadisələr və ölüm. 5. Müjdə və qorxutma məsələsində təhrikedici rol oynayan məsələlər. 6. İsrail oğullarının tarixinə qısa bir ekskursiya. 7. Keçmiş xalqların taleyi və acı aqibətləri ilə bağlı qısa bir xatırlatma. 8. Tövhid və Allahın əzəmət nişanələrinə yenidən qayıdış. 9. Surə inadkar düşmənləri təhdidlə sona yetir.[1717]

5. Min günə bərabər gün: Təfsirçilər bu ayə ilə bağlı müxtəlif versiyalar irəli sürmüşlər. Ancaq digər ayələr və bu ayənin təfsiri ilə bağlı olan ayələrə nəzər saldıqda məlum olur ki, Allah bu dünyanı yaradıb, yerə və göyə xüsusi nizam bəxş edib, insanlara və digər varlıqlara həyat libası biçib. Ancaq dünyanın sonu çatdıqda bu nizamı dəyişəcək, günəş qaralacaq, ulduzlar sönəcək, Quranın buyuruğu ilə desək, ***“O gün səmanı yazılı dürmək kimi bükəcəyik. Yaradılışı heçdən yaratdığımız kimi, yenidən qaytaracağıq”***[1718], bundan sonra yeni bir nizam-intizama və daha geniş bir dünya sisteminə start veriləcək. Bu məzmuna Quranın digər ayələrində rast gəlinir (Rum-27, Yunus-34). Bu və sonda bütün işlərin Allaha qayıdacağından bəhs edən cümlələrə (Hud-123) nəzər saldıqda, bu ayədə də dünyanın başlanğıcından, idarəçiliyindən, sonundan və Qiyamət gününün baş verəcəyindən danışıldığı aydın olur. Bütün bu deyilənlərə əsasən ayənin məzmunu belə olur: Bütün kainat Allah tərəfindən, məna aləmi tərəfindən

[1717] Nümunə, c.17, səh.104
[1718] Ənbiya surəsi, 104-cü ayə

idarə edilir, sonra da Qiyamət günü bütün bunlar Allaha doğru qayıdacaq. Dünya işlərinin Allaha doğru qaldırılacağı min illik bir gün deyilərkən Qiyamətin beş mərhələsindən biri nəzərdə tutula bilər. Belə ki, "Məaric" surəsinin 4-cü ayəsində Allah-taala belə buyurmuşdur: ***"Mələklər və ruh əlli min ilə bərabər olan bir gündə Ona doğru yüksələcəklər"*** Hədislərin birində İmam Sadiq (ə) belə buyurmuş: ***"Qiyamətdə əlli dayanacaq var. Hər dayanacağın müddəti sizin saydığınız min ilə bərabərdir."*** Daha sonra "Məaric" surəsinin bu ayəsini buyurmuşdur: ***"Müddəti əlli minə bərabər olan o gündə."***[1719]

11. Ölüm mələyi: Quranın bir çox ayələrindən məlum olur ki, Allah bu dünyanı bir qrup mələk vasitəsilə idarə edir (Naziat-5). Çünki öz istəklərini vasitələrlə icra etmək Allahın dəyişməz qanunudur. Mələklərdən bir qrupu insanların canlarını almaq vəzifəsi daşıyır (Nəhl-22 və 28). Onların başında ölüm mələyi dayanır. Bu mələk haqqında çoxlu hədislər nəql olunmuşdur. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Xəstəliklər və bəlalar ölümün qasidləri və elçiləridir. İnsanın ömrü başa çatdıqda ölüm mələyi enərək deyir: "Ey Allahın bəndəsi, sənə nə qədər xəbər dalınca xəbər, elçi dalınca elçi göndərdim? Ancaq mən sonuncu xəbərəm, artıq məndən sonra xəbər yoxdur. Rəbbinin çağırışını öz istəyinlə və ya məcburi olaraq qəbul et" Sonra onun canını aldqıda və yaxınlarının ah-naləsi göyə ucaldıqda o qışqıraraq deyər: "Kimin üçün fəryad qoparır, ah-nalə edirsiniz? And olsun Allaha, mən ömrünün sonunda ona heç bir zülm etmədim, ruzisini yemədim. Onu Rəbbi çağırdı. Ona görə də hər kəs özü üçün ağlasın. Mən sizin aranıza o qədər***

[1719] Nümunəyə istinadən, c.17, səh.115; Əl-Mizan, c.16, səh.252

qayıdacağam ki, bir təkiniz belə qalmayacaq.”[1720] Bəzi hədislərdən ölüm mələyinin adının Əzrail olduğu məlum olur.[1721]

12. Kaş ki, günahkarların öz Rəbləri qarşısında başlarını aşağı dikərək: “Ey Rəbbimiz! Vəd verdiyini gördük və eşitdik. Bizi geri qaytar ki, yaxşı işlər görək. Həqiqətən də, biz qəti inandıq!” – dediyini görəydin!

13. Əgər istəsəydik, hər bir insanı ona lazım olan doğru yola (zorla) yönəldərdik. Lakin (Mən onları azad buraxmışam) sözüm və vədim haqdır: “Cəhənnəmi bütün (günahkar) cin və insanlarla dolduracağam!”

14. Bu gününüzlə qarşılaşacağınızı unutduğunuza görə dadın (Cəhənnəm əzabını)! Biz də sizi unutduq. Etdiyiniz əməllərə görə dadın əbədi əzabı!

[1720] Nümunə, c.17, səh.140
[1721] “Bürhan təfsiri”, c.6, səh.197

15. Ayələrimizə ancaq o kəslər iman gətirirlər ki, bu ayələrimiz onlara xatırlanarkən təkəbbür göstərmədən səcdəyə qapanır, Rəblərinə həmd-səna və tərif deyirlər.

16. Onlar gecə yarısı böyürlərini yataqdan qaldırır, öz Rəblərin qorxu və ümidlə çağırır, onlara verdiyimiz ruzilərdən Allah yolunda xərcləyirlər.

17. Onlar üçün gözlərinin parlamasına səbəb olacaq hansı böyük mükafatların gizlədildiyini heç kəs bilmir. Bu, onların etdiyi əməllərin mükafatıdır.

18. Məgər möminlə fasiq eynidirmi? Xeyr! Bu ikisi əsla bərabər ola bilməz.

19. İman gətirib yaxşı işlər görənləri gördüklər əməl qarşılığında əbədi Cənnət bağları gözləyir.

20. Fasiqlərə gəldikdə isə, onların yeri oddur. Hər dəfə onlar oradan çıxmaq istədikdə yenidən oraya qaytarılacaq və onlara deyiləcək: "İnkar etdiyiniz odun əzabını dadın!"

---

15. Səcdə edilməsini tələb edən ayələr: Bu ayə Quranın vacib səcdəsi olan ilk ayəsidir. Bu ayəni oxuyan və ya eşidən hər bir şəxsin səcdə etməsi vacibdir. Bu səcdə üçün dəstamaz almaq vacib deyil. Sadəcə ehtiyat vacibə əsasən səcdə edilərkən alın səcdədə şərt hesab edilən yerə (torpağa, daşa və s.) qoyulmalıdır.[1722] Quranın vacib səcdəsini yerinə yetirərkən insan səcdə niyyəti etməlidir. Səcdəni elə yerinə yetirməlidir ki, kənardan həmin adamın səcdə etdiyi bəlli olsun. Bu səcdə üçün namazda vacib olan, ayıb yerlərin örtülməsi, səcdə edilən yerin pak olması, səcdə edilən yerin ayaq, əl və diz

---

[1722] Nümunə, c.17, səh.145

səviyyəsindən hündür olmamaması, böyük barmaqların ucunun yerə qoyulması və sair kimi şərtlər vacib deyil. Baxmayaraq ki, ehtiyat bu qaydalara riayət edilməsini tələb edir. Quranın vacib səcdəsinin xüsusi bir zikri yoxdur. Səcdə qəsdi ilə alnı yerə qoymaq kifayətdir. Zikr (Subhanəllah vəlhəmdulullah və sair) demək isə müstəhəbdir. Yaxşı olar ki, səcdə zamanı bu zikr deyilsin: "Lə iləhə illəllah həqqan həqqa, lə iləhə illəllah imənən və tədiqa, lə ilə illəllah ubudiyyətən və riqqa, səcədtu ləkə ya rəbbi təəbbudən və riqqa, lə mustənkifən və lə mustəkbirən, bəl ənə əbdun zəlilun, dəifun, xaifun, mustəcirun."[1723] Səcdənin vacib olduğu digər üç ayə bunlardır: Fussilət-37, Nəcm-62, Ələq-19.

16-17. Heç kəsin bilmədiyi böyük mükafatlar: Qiyamət dünyası bu dünyadan çox-çox böyükdür. Hətta Qiyamətlə bu dünyanın müqayisəsini ana bətnindəki körpənin həyatı ilə bu dünya həyatının müqayisəsinə bənzətmək olar. Qiyamət aləminin müqayisə nisbəti daha böyükdür. Bu böyüklük dünyanın dörd divarı arasında həbs edilmiş bizlər üçün dərkə və təsəvvürə gəlməzdir. Biz onun haqqında yalnız eşidirk və bizə xəyal kimi görünür. O dünyanı görüb dərk etməyincə onun əhəmiyyətini də dərk etmək bizə mümkün deyil. Anasının bətnində olan körpəni buna misal göstərə bilərik. Əgər anasının bətnində olan körpə üçün tam ağıl və dərk fərz etsək belə, bu dünya nemətlərini dərk etmək qeyri-mümkün olacaq. Qüdsi hədislərinin birində Peyğəmbər (s) Allahın belə buyurduğunu qeyd etmişdir: "Saleh bəndələrimə elə nemətlər hazırlamışam ki, nə göz görüb, nə qulaq eşidib, nə də kiminsə fikrinə gəlib."[1724] Bu ayənin təfsirini ehtiva edən hədislərdə gecəni oyaq qalmaq və gecə namazının qılınmasına xüsusi əhəmiyyət verildiyinin şahidi oluruq. İmam Sadiq (ə) buyurmuşdur: "***Elə bir***

[1723] Dörd təqlid mənbəyinin risaləsi, Lətif Raşidi, Peyame-mehrab, səh.268
[1724] Nümunə, c.17, səh.150

yaxşı əməl yoxdur ki, Quranda ona bəlli bir mükafat təyin edilməsin. Təkcə gecə namazıdır ki, çox böyük dərəcəyə malik olduğu üçün Allah onun mükafatını açıq şəkildə buyurmamışdır. Allah-taala "Onlar üçün nəyin gizlədildiyini heç kəs bilmir ", - deyə buyurmuşdur." Əlbəttə, hədislərdə mükafatı yalnız Allaha bəlli olan başqa əməllər haqqında da məlumat verilmişdir. Belə ki, hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Bir möminə yemək verib onu doyduran şəxsə axirətdə hansı mükafatın veriləcəyini aləmlərin rəbbi olan Allahdan başqa heç kəs bilmir."***[1725]

[1725] Əl-Mizan, c.16, səh.275

21. Böyük əzabdan əvvəl Biz onlara yaxın əzabdan daddıracağıq ki, bəlkə qayıtsınlar.

22. Rəbbinin ayələri yadına salındıqdan sonra onlardan üz döndərən kəsdən daha zalım kim ola bilər? Biz günahkarlardan mütləq intiqam alacağıq.

23. Biz Musaya Kitab verdik. Sən onun Allahın ayələrini aldığına şübhə etmə. Biz onu İsrail oğullarına doğru yol göstərən vasitə etmişdik.

24. Səbr etdiklərinə və ayələrimizə qətiyyətlə inandıqlarına görə Biz əmrimizlə onlardan doğru yolu göstərən rəhbərlər təyin etmişdik.

25. Sənin Rəbbin Qiyamət günü ixtilafda olduqları məsələlər barəsində onların arasında hökm verəcəkdir.

26. Yurdlarında gəzib-dolaşdıqları əvvəlki neçə-neçə nəsilləri məhv etməyimiz onların doğru yola yönəlməsi üçün kifayət etmədimi? Bunda nişanələr vardır. Onlar eşitmirlərmi?

27. Məgər onlar quru yerə su axıdıb onunla həm heyvanlarının, həm də özlərinin qidalandığı tarlaları yetişdirdiyimizi görmürlər? Görmürlərmi?

28. Onlar: “Əgər doğru danışırsınızsa, (deyin görək) bu qalibiyyətiniz nə vaxt olacaqdır?” – deyirlər.

29. De: “Qələbə günü iman gətirməyin kafirlərə heç bir faydası olmayacaq və onlara möhlət də verilməyəcəkdir”.

30. İndi ki, belədir, onlardan üz çevir və gözlə. Onlar da gözləyirlər. (Sən Allahın rəhmətini, onlar isə əzabını).

---

23. Musa (ə) və Allahın ayələri: Peyğəmbərə və İslamı qəbul etmiş ilk möminlərə ürək-dirək vermək, əvvəlki ayələrdə də haqlarında məlumat verilmiş müşriklərin iftiraları qarşısında möminləri səbrli və dözümlü olmağa çağırmaq, müsəlmanların sonda inadkar kafirlər üzərində qələbə çalacağı və onların yer üzünün öndərləri olacağının müjdəsini vermək üçün bu ayədə Musa (ə) və İsrail oğullarının əhvalatına ötəri işarə edilmişdir. Musa (ə) böyük peyğəmbərlərdən olduğu üçün həm yəhudilərin, həm də xristianların ona inamı var idi. Buna görə də Kitab əhlinin İslama meyl göstərməsində motivasiya rolunu oynaya bilərdi. “Min liqaihi” (onunla görüşə) birləşməsindəki “hi” (o) bitişən əvəzliyinin cümlədə kimi və ya nəyi ifadə etməsi ilə bağlı müxtəlif ehtimallar irəli sürmüşlər. Bəzi təfsirçilər bu əvəzliyin Musaya (ə) aid olduğunu qeyd etmişlər. Bu yanaşmaya görə, cümlənin mənası belə olur: Ey Muhəmməd, Musanın ruhu ilə görüşəcəyinə şübhən olmasın. Bəziləri bitişən əvəzliyin kitaba, yəni Qurana aid olduğunu ehtimal etmişlər. Bu yanaşma ilə məna belə olur: Ey Muhəmməd, Quranın Allah tərəfindən vəhy olunduğuna şübhən olmasın. Bəziləri əvəzliyin Allaha aid olduğunu irəli sürmüşlər. Yəni qayıdış məsələsinə heç bir şübhən olmasın. Əslində, böyük ehtimalla bitişən əvəzlik kitaba (Tövrata) aiddir. Bu zaman isə əvəzlik cümlənin obyekti, Musa (ə) isə subyekti olur. Nəticədə, cümlənin ümumi mənası belə olur: Musanın Allahın

kitabı ilə görüşə nail olduğuna, onun Allah tərəfindən göndərilən bu kitabı aldığına şübhən olmasın.[1726]

24. Əmr nədir? Burada əmr deyilərkən şəriət (Allahın şəriət əmrləri), yoxsa obyektiv əmrin (Allahın yaranış aləmi üzərindəki hökmü) nəzərdə tutulması ilə bağlı fikir ayrılıqları olsa da, ayənin məzmunu birinci mənanın nəzərdə tutulduğunu deməyə əsas verir. Hədislər və təfsirçilər də birinci mənanın olduğunu təsdiq edir. Lakin bəzi böyük təfsirçilər burada obyektiv əmrin nəzərdə tutulduğunu iddia etmişlər. Belə ki, ayə və hədislərdə haqq yola yönəltmənin (hidayətin) iki mənasının olduğu göstərilmişdir: Yolu göstərmək; Məqsədə çatdırmaq. İlahi rəhbərlərin bələdçiliyi hər iki vasitə ilə həyata keçir. Bəzən onlar, sadəcə, əmr və qadağa ilə kifayətlənir, bəzən isə layiqli və potensialı olan insanların qəlblərinin dərinliklərinə nüfuz edərək onları mənəvi məqamlara çatdırırlar. Bəzi ayələrdə əmr sözü obyektiv əmr mənasında işlədilmişdir. "Yasin" surəsinin 82-ci ayəsində belə buyurulmuşdur: ***"Bir şeyi istədiyi zaman Onun əmri yalnız ona: "Ol!" deməkdir. O da dərhal olar."*** Nəzər nöqtəsi olan ayədə də "Bizim əmrimizlə yönləndirirlər" cümləsi eyni mənadadır. Yəni onlar Allahın qüdrəti ilə tutumu olan ruhlara nüfuz edən, ali və insani hədəflərə çatdıran rəhbərlər idilər.[1727]

28. Qələbə günü: Qələbə günü deyilərkən hansı günün nəzərdə tutulması ilə bağlı müxtəlif ehtimallar irəli sürülmüşdür. Birincisi, möminlərlə kafirlərin ayrılacağı Qiyamət günü. Möminlər əbədi xoşbəxtliyə, kafirlər isə əbədi Cəhənnəmə gedəcəklər. İkincisi, bu dünyadakı yaxın əzab (21-ci ayədə də buna işarə edilmişdir) və ya dünyada kafirlərdən intiqam alınması. Buna görə də bəziləri həmin gün ilə Bədr döyüşünə işarə edildiyini

[1726] Nümunə, c.17, səh.163
[1727] Nümunə, c.17, səh.167

ehtimal etmişlər. Çünki öldükdən və əzabı gördükdən sonra gətirəcəkləri imanın kafirlərə heç bir faydası yoxdur. Bəziləri burada Məkkənin fəthinə işarə edildiyini qeyd etmişlər. Çünki uzun illər Peyğəmbərlə (s) düşmənçilik etmiş inadkar kafirlərin gətirdiyi iman həqiqi iman deyildi. Onların ikiüzlülük və riyakarlıq edərək gətirdikləri imanın onlara heç bir xeyri yoxdur. Bu ayədə Allahın axırzamanda Peyğəmbərlə (s) ümməti arasında hökm verəcəyi də nəzərdə tutula bilər. "Yunus" surəsinin 47-ci ayəsində də buna işarə edilmişdir: ***"Hər ümmətin bir peyğəmbəri vardır. Onlara peyğəmbər gəldiyi zaman aralarında ədalətlə hökm olunar və onlara zülm edilməz!"*** Əlbəttə, 30-cu ayənin məzmunundan belə başa düşülür ki, qələbə və fəth deyilərkən axirətdə deyil, dünyadakı qələbə nəzərdə tutulur.[1728] Ehtimallar arasında ən çox həqiqətə yaxın olanı "qələbə günü" deyilərkən bu dünyadakı əzabın göndərilməsinin nəzərdə tutulduğu irəli sürülən ehtimaldır. Kafirlərin kökünü kəsmək üçün göndərilmiş bu əzab zamanı onların iman gətirməsinə macal verilmir. Başqa sözlə desək, tamamilə məhv etmək üçün göndərilmiş əzab bütün bəhanələrə son qoyacaq dəlillər tam təqdim edildikdən sonra, günahkarların kökünü kəsmək üçün göndərilmiş dünya əzabıdır.[1729]

"Əhzab" surəsi

[1728] Əl-Mizan, c.16, səh.273
[1729] Nümunə, c.17, səh.176

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ey Peyğəmbər! Allahdan qorx, kafirlərə və münafiqlərə itaət etmə. Allah biləndir və hikmət sahibidir.

2. Rəbbindən sənə vəhy olunana tabe ol ki, Allah nə etdiyinizdən xəbərdardır.

3. Allaha təvəkkül et! Allahın qoruyan və müdafiəçi olması kifayətdir.

4. Allah heç bir adamın daxilində iki ürək yaratmamışdır. Allah özünüzə haram etdiyiniz zövcələrinizi analarınız etməmiş, oğul deyə çağırdıqlarınızı da oğullarınız etməmişdir. Bunlar sizin dilinizə gətirdiyiniz (əsassız) sözlərdir. Allah isə haqqı deyir və doğru yola yönəldir.

5. Onları öz atalarının adları ilə çağırın. Bu, Allah yanında daha ədalətlidir. Atalarını tanımasanız, onlar sizin din qardaşlarınız və azad edilmiş qullarınızdır. Yol verdiyiniz səhvlərdə sizə heç bir günah yoxdur. Lakin qəsdən etdiklərinə görə (sorğu-sual olunacaqsınız). Allah bağışlayandır, rəhmlidir.

6. Peyğəmbər möminlərə onların özlərindən daha dəyərlidir. Zövcələri isə möminlərin analarıdır. Allahın yazısına görə qohumlar bir-birlərinə möminlərdən və mühacirlərdən daha yaxındırlar. Dostlarınıza yaxşılıq etmək istəməyiniz (mallarınızdan bir hissəsini ona vermək istəməyiniz) isə istisnadır. Bu hökm Kitabda yazılmışdır.

“Əhzab” surəsinin ümumi məzmunu: Bu surə məzmun etibarı ilə beş yerə bölünür: 1. Allaha itaət etməyə, kafirlərə itaət göstərməməyə çağırış, münafiqlərin təklifləri. 2. Cahiliyyət dövrünün bəzi xurafatları. 3. Əhzab döyüşü. 4. Peyğəmbərin müsəlman qadınlarına hər şeydə nümunə olmalı

zövcələri. 5. Cəhş qızı Zeynəbin əhvalatı. 6. Hicab. 7. Qayıdış və o böyük səhnədəki xilas yolu. İnsanın böyük əmanətdarlığı.[1730]

4. Əsassız iddialar: Ayələrin davamında Peyğəmbərə (s) kafir və münafiqlərə deyil, yalnız vəhyə tabe olmaq göstərişi verilir. Ayədə onlara itaət göstərilməsinin insanı bir ovuc xurafatlara və azğınlıqlara sövq etdiyi qeyd edilmişdir. Ayədə həmin xurafatların üçünün adı çəkilir. Öncə belə deyilir: "Allah heç bir adamın daxilində iki ürək yaratmamışdır". Yəni insanın yalnız bir qəlbi var və həmin qəlbə təkcə bir Tanrının sevgisi sığışa bilər. ÇoxAllahlılığa və şirkə çağıran insanların çox qəlbi olmalıdır ki, hər birini bir tanrının sevgi ocağına çevirə bilsinlər. Bu ayəni təfsir edərkən İmam Əli (ə) belə buyurmuşdur: "Bizə qarşı sevgi və bizim düşmənlərimizə qarşı sevgi bir qəlbə sığışmaz. Çünki Allah bir insanın daxilində iki qəlb yaratmayıb ki, biri ilə sevib digəri ilə nifrət etsin. Bizim dostlarımız bizə qarşı sevgilərində qızıl od kürəsində xalisləşdiyi kimi xalisdirlər. Bu həqiqəti dərk etmək üçün hər kəs öz qəlbini yoxlasın. Qəlbində düşmənlərimizə qarşı sevgisi ilə bizə olan sevgisi qarışmış insan bizdən deyil, biz də ondan deyilik." Quran daha sonra cahiliyyət dövrünün digər xurafatlarından olan "arxa" məsələsindən söz açır. Belə ki, cahiliyyət dövrünün ərəbləri öz həyat yoldaşlarından incidikdə və onlara qarşı olan nifrətlərini izhar etmək istədikdə onlara "Sən mənim üçün anamın arxası kimisən". Bununla da öz zövcələrini anaları kimi qələmə verərək boşanmış sayırdılar. İslam bu cahil proqrama son qoyur, hətta bu davranış üçün cəza da təyin edir. Belə ki, İslam bu cür davranan ərə cərimə ödəməyənə qədər zövcəsinə yaxınlaşmaq qadağası qoyur, ər cərimə ödəmədiyi və arvadına yaxınlaşmadığı təqdirdə arvada şəriət hakiminə müraciət edərək ərinə iki seçim təyin etdirmək

---

[1730] Nümunə, c.17, səh.184

hüququ verir. Məhkəmənin hökmü ilə ya ər arvadını qanuni qaydada boşayıb ondan ayrılmalı, ya da cərimə ödəyərək əvvəlki evlilik həyatını davam etdirməlidir. Quranda daha sonra üçüncü cahil xurafata işarə edilir: "Oğul deyə çağırdıqlarınızı da oğullarınız etməmişdir." Cahiliyyət dövrünün ənənlərinə görə bəziləri övladlığa uşaq götürür və onları oğul deyə çağırırdılar. Daha sonra oğulun malik olduğu bütün hüquqları onlara da aid edirdilər. İslam bu məntiqsiz və xurafat qaydaları kəskin şəkildə inkar edir.[1731]

6. Peyğəmbərin (s) həyat yoldaşları möminlərin analarıdır: Bu ayəyə əsasən Peyğəmbərin (s) həyat yoldaşları möminlərin anaları hesab edilir. Əlbəttə, bu hökm mənəvi münasibətlərlə məhdudlaşırdı. Yəni bu məhdudiyyət onlara hörmət göstərilməsi və onlarla ailə qurulmasının haramlığı ilə çərçivələnirdi. Yəni müsəlmanlar Peyğəmbərin (s) qızları ilə ailə qura bilərdilər. Halbuki heç kəs öz anasının qızı ilə ailə qura bilməz. Bundan başqa, məhrəmləri istisna olmaqla heç kəs onlara baxa bilməzdi. Habelə möminlər Peyğəmbərin (s) zövcələrinin varisləri ola bilməzdilər. Ayədə bəyan edilən məsələlərdən biri Peyğəmbərin (s) möminlərin onlara özlərindən üstün olması məsələsidir. Yəni Peyğəmbər (s) fərdi, ictimai, hökumət və sair məsələlərdə hər bir insana onun özündən üstün, Peyğəmbərin (s) istəyi onun özü ilə bağlı istəyindən üstündür. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Canım əlində olana and olsun, mən insana onun özündən, malından, övladından və bütün insanlardan sevimli və üstün olmayınca həqiqi imanı dada bilməz."***[1732] Çox hədislərdə Peyğəmbərin (s) eyni haqqı İmam Əli (ə) üçün tanıdığının, onu

[1731] Nümunə, c.17, səh.192
[1732] Nümunə, c.17, səh.204

müsəlmanlara onların özlərindən üstün bir şəxs kimi təqdim etdiyinin şahidi oluruq.[1733]

7. Bir zaman Biz peyğəmbərlərdən əhd aldıq; səndən, Nuhdan, İbrahimdən, Musadan və Məryəm oğlu İsadan! Biz onların hamısından (peyğəmbərlik və təbliğat vəzifəsini yerinə yetirərkən səhlənkarlıq etməmələri haqqında) möhkəm bir əhd aldıq.

8. Ona görə belə etmişik ki, Allah doğru danışanlardan doğruçuluqları barədə soruşsun. Kafirlər üçün isə ağrılı-acılı bir əzab hazırlayıb.

[1733] Əl-Mizan, c.16, səh.288

9. Ey iman gətirənlər! Qoşunlar sizin üzərinizə gəldiyi zaman Allahın sizə bəxş etdiyi neməti xatırlayın. Biz də onların üstünə şiddəyli külək və görmədiyiniz qoşunlar göndərdik. Allah sizin nə etdiyinizi hər zaman görür.

10. Bir zaman onlar həm yuxarı və həm də aşağı tərəfinizdən üstünüzə gəlmişdilər (və Mədinəni mühasirəyə almışdılar). O vaxt gözlər qorxudan bərəlmiş, ürəklər ağıza gəlmiş və siz Allah barəsində zənnə-gümana qapılmışdınız.

11. Orada möminlər imtahana çəkilmiş və güclü sarsıntıya məruz edilmişdilər.

12. O zaman münafiqlər və qəlbində xəstəlik olanlar deyirdilər: "Allah və Onun Elçisi bizə ancaq yalan vədlər vermişdir".

13. Onlardan bir dəstə dedi: "Ey Yəsrib[1734] əhli! Bura sizin duruş gətirə biləcəyiniz yer deyil. Geri qayıdın!" İçərilərindən bir qismi: "Evlərimiz nəzarətsiz qalıb" – deyərək Peyğəmbərdən geri qayıtmaq üçün izn istəyirdi. Halbuki evləri nəzarətsiz deyildi. Onlar, ancaq, qaçmaq istəyirdilər.

14. Əgər düşmən Mədinənin hər tərəfindən üstlərinə hücum etsəydi və onlardan şirkə dönmələrini istəsəydi, qəbul edər və yalnız qısa müddət ləngiyərdilər.

15. Baxmayaraq ki, onlar bundan əvvəl düşmənə arxa çevirməyəcəklərinə dair Allaha söz vermişdilər. Onlar Allaha verdikləri sözə görə sorğu-sual olunacaqlar.

-

[1734] Mədinə

9-26. Əhzab döyüşü: Bu ayələrdə İslam tarixinin ən mühüm hadisələrindən biri olan "Əhzab" döyüşü haqqında məlumat verilir. Bu müharibə İslam tarixinin dönüş nöqtəsi olmuşdur. Bu müharibə müsəlman və kafir qüvvələrin balansını müsəlmanların xeyrinə dəyişmiş, bu müharibədə əldə edilən qələbə gələcəkdə qazanılacaq böyük qələbələr üçün giriş rolunu oynamışdır. Əslində bu müharibədə düşmənlərin beli sınmış, ondan sonra heç bir mühüm iş görə bilməmişdilər. Əhzab döyüşü, adından da göründüyü kimi, İslam düşmənləri və bu dinin çiçəklənməsi ilə qeyri-qanuni maraqları təhlükəyə məruz qalan qrupların İslama qarşı koalisiyası idi. İlk döyüş qığılcımını Məkkəyə gələrək, Qüreyş tayfasını Peyğəmbərə (s) qarşı müharibəyə qalxmağa təhrik edən, son nəfəslərinə qədər onların yanında olacaqlarını söz verən Bəni-Nəzir yəhudiləri alovlandırmışdı. Yəhudilər Qüreyş qəbiləsindən sonra Ğətfan qəbiləsinə gedərək onları da müharibə etməyə razı salmışdılar. Qüreyş və Ğətfan qəbilələri isə öz müttəfiqlərini, o cümlədən Bəni-Əsəd və Bəni-Səlim qəbilələrini də müharibəyə çağırmışdılar. Qəbilələr özlərinə qarşı təhlükə hiss etdikləri üçün İslam dininin kökünü yer üzündən birdəfəlik kəsmək üçün birləşdilər. Müsəlmanlar Peyğəmbərin (s) göstərişi ilə müzakirə aparırlar. Salman Farsinin təklifi ilə Mədinənin ətrafına xəndək qazırlar. Bu səbəbdən də sözügedən müharibə həm də "Xəndək" müharibəsi adlanır. Bu döyüş zamanı Peyğəmbər (s) çox çətin anlar yaşayır, canlar ağıza gəlir. İslam qoşunlarında olan münafiqlər daha canfəşanlıq edirlər. Düşmən ordusunun böyüklüyü və müsəlmanların azlığı (10 min nəfərə qarşı 3 min nəfər), düşmənlərin döyüş hazırlığı və silah-sursat ehtiyatı müsəlmanlarda gələcəklə bağlı qorxu yaratmışdı. Ancaq Allah bu döyüşdə küfrün başına sonuncu zərbə endirilməsini, münafiqlərin müsəlman sıralarından ayrılmasını və hiyləgərlərin ifşa olmasını, həqiqi müsəlmanların sınanmasını istəyirdi.

Nəhayət, bu döyüş Allahın lütf və köməyi sayəsində müsəlmanların qələbəsi ilə başa çatır. Allahın əmri ilə tufan qoparaq kafirlərin çadırlarını dağıdır, düşərgələrini darmadağın edir, həyatlarını iflic vəziyyətinə salır, digər tərəfdən, görünməz mələk ordusu da müsəlmanlara yardım göstərir. Döyüş zamanı müsəlmanların göstərdiyi heyrətamiz qəhrəmanlıqlar, o cümlədən möminlərin əmiri İmam Əlinin (ə) heç kəsin təkbətək döyüşə cürət etmədiyi Əmr ibn Əbdivudlə döyüşü və onu məğlub etməsi də bu döyüşün müsəlmanların xeyrinə qələbə ilə bitməsində mühüm rol oynayır. Müşriklər heç bir iş görmədən döyüş meydanını tərk edib qaçırlar. Müharibədən sonra bu yeddi ayə nazil olur, öz ifşaedici təhlilləri ilə münafiqlərin iç üzünü açır və müsəlmanların qalibiyyət səbəblərini göstərir. Maraqlıdır ki, xəndək qazdıqları vaxt müsəlmanlar ciddi həyəcan keçirdikləri və İslamın yer üzündən silinəcəyindən qorxduqları halda, Peyğəmbər (s) İran, Rum və Yəmənin müsəlmanlar tərəfindən fəth ediləcəyini xəbər verir. Məhz bu səbəbdən münafiqlər Peyğəmbəri (s) yalan vədlər verməkdə ittiham edirlər. 12-ci ayədə məhz bu məsələyə işarə edilmişdir. Ancaq Peyğəmbərin (s) ilahi aləmlərə açılan gözləri İran, Rum və Yəmən hökmdarlarının saraylarının qapılarının açıldığını görməyə, müsəlmanlar müjdə verməyə və gələcək sirlər üzərindən pərdə götürməyə imkan verirdi.[1735]

[1735] Nümunə, c.17, səh.216-225

16. De: “Əgər ölməkdən və ya öldürülməkdən qaçsanız, sizə bir xeyir gətirməz. Belə olduğu təqdirdə sizin həyatdan yalnız cüzi faydanız olacaq.”

17. De: “Əgər Allah sizə bir pislik etmək istəsə, sizi Ondan kim qoruya bilər və ya sizə yaxşılıq etmək istəsə, kim Onun istəyinə mane ola bilər?” Onlar özlərinə Allahdan başqa nə bir himayəçi, nə də bir yardımçı tapa bilərlər.

18. Allah camaatı müharibədən çəkindirənləri və öz qardaşlarına: “Bizə qoşulun! (və döyüşdən əl çəkin)” – deyənləri tanıyır. Onlar yalnız nadir hallarda döyüşə qatılırlar.

19. Onlar hər şeydə sizin paxıllığınızı çəkirlər. Qorxu yarandığında görürsən, sənə elə baxır və gözləri elə bərəlir ki, sanki canlarını tapşırırlar. Qorxu keçib getdikdə isə mala hərislik və xəsislik edib səni qəzəb yağan kobud və acı dilləri ilə sancırlar. Onlar iman gətirməyiblər. Buna görə də Allah onların əməllərini puç etmişdir. Bu, Allah üçün asandır.

20. Onlar müttəfiqlərin çıxıb getmədiklərini güman edirlər. Əgər müttəfiqlər qayıtsalar, onlar bədəvilər arasına yayılıb barənizdəki xəbərləri soruşub öyrənmək istəyərlər. Əgər aranızda olsalar, yalnız az bir hissəsi döyüşər.

21. Allahın elçisinin həyatı sizə – Allahın rəhmətinə və Axirət gününə ümidi olanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir.

22. Möminlər müttəfiqlərin qoşunlarını gördükdə dedilər: "Bu, Allahın və Onun elçisinin bizə olan vədidir. Allah və elçisi düz deyiblər!" Bu onların yalnız imanını və itaətini artırdı.

---

18. Mane olmağa çalışan dəstə: Bu ayədə iki qruplaşmadan danışıldığı ehtimal edilə bilər: 1. Müsəlmanlar arasında yer almış münafiqlər. Ayənin orijinalında işlədilmiş "minkum" (sizdən) ifadəsi onların imanları zəif olan müsəlmanları döyüşdən yayındırmağa çalışdıqlarını göstərir. 2. Döyüş meydanından kənar olan, Peyğəmbərin (s) əsgərlərini gördükdə "bizə qoşulun və döyüşdən əl çəkin" deyən münafiqlər və yəhudilər. Başqa bir ehtimal da var ki, bu ayə bir zümrənin iki vəziyyətini bəyan edir. Ayədə müsəlmanların arasında olanda onları döyüşməkdən yayındırmağa çalışan, döyüş meydanından kənarda olduqda isə digərlərini də onlara qoşulmağa çağıran bir qrup haqqında nazil olmuşdur. Hədislərin birində qeyd edilir ki, Peyğəmbərin (s) səhabələrindən biri ehtiyacını təmin etmək üçün şəhər kənarına gedir. Bu zaman qardaşının qarşısına çörək, qızardılmış toyuq və şərab qoyub içdiyini görür. Ona deyir: "Sən burada kefdə-damaqdasan, Allahın elçisi qılınclar və nizələr arasında döyüşməkdədir." O isə belə deyir: "Ay əbləh, sən də gəl, bizimlə otur, kefini çək. Muhəmmədin and içdiyi Allah bu meydandan əsla qayıtmayacaq." Həmin səhabə deyir: Yalan danışırsan. And olsun Allaha! Gedib dediklərini Peyğəmbərə (s) çatdıracam.

Səhabə Peyğəmbərin yanına gəldikdən sonra əhvalatı ona danışır. Nəzər nöqtəsi olan ayə nazil olur.[1736]

21. Müsəlmanlar üçün gözəl nümunə: Peyğəmbərlərin insanların arasından seçilməsinin səbəbi onların insanlara əməli nümunə ola bilməsi ilə bağlıdır. Çünki peyğəmbərlərin təbliğat və dəvətlərinin ən mühüm hissəsini onların əməli çağırışları təşkil edir. Buna görə də İslam alimləri məsumluğu peyğəmbərliyin qəti şərti hesab edirlər. Bu iddianın dəlillərindən biri də məhz olanların mütləq nümunə olmasıdır. Doğrusu, peyğəmbərlər həyatımızın iman və təvəkkül, ixlas və şücaət, nizam-intizam və təmizlik, dindarlıq və təqva nümunəsi olsalar, həyat proqramlarımız tamamilə dəyişər, həyatımız başdan-başa nura boyanar. Quranda bu nümunənin yalnız Allaha və dirilişə ümidi olanlar və Allahı çox-çox xatırlayanlara aid olduğu qeyd edilmişdir. Əsl həqiqətdə başlanğıc və qayıdışa inam, bu hərəkətin motivasiyası, Allahı xatırlamaq isə onun davamlılıq səbəbidir. Şübhəsiz ki, qəlbi bu cür imanla dolu olmayanlar Peyğəmbərin (s) addımının izləri addımlaya, davamlı olaraq Allahı xatırlamadıqca və şeytanı özündən uzaqlaşdırmadıqca, Peyğəmbərin (s) nümunəvi həyatını davam etdirə bilməzlər.[1737]

22. Allah və peyğəmbərinin möminlərə vədi: Bəziləri hesab edir ki, burada "vəd" deyilərkən Peyğəmbərin (s) öncədən ayrı-ayrı qrupların müsəlmanlara qarşı birləşəcəkləri nəzərdə tutulmuşdur. Buna görə də onlar koalisiya qoşunlarını gördükdə bunun Peyğəmbər (s) tərəfindən öncədən verilmiş xəbər olduğunu başa düşdülər. Bəziləri hesab edir ki, bu vəd Allah-taalanın "Bəqərə" surəsinin 214-cü ayəsində buyurduğu ayədir: ***"Sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlməmiş behiştə daxil***

[1736] Nümunə, c.17, səh.234
[1737] Nümunə, c.17, səh.243-264

olacağınızımı sanırsınız? Onlara elə sıxıntı və xəstəlik üz vermiş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və ona iman gətirənlər: "Allahın köməyi nə vaxt gələcək?" - dedilər. (Kömək istədikdə onlara deyildi:) Bilin ki, Allahın köməyi yaxındır." Müsəlmanlar bunu daha öncə də eşitmişdilər və bilirdilər ki, əvvəlki peyğəmbər və möminlərin qarşılaşacağı müsibətlərlə qarşılaşacaqlarını, iztirab və qorxu keçirəcəklərini bilirdilər. Koalisiya qoşunlarını gördükdə bu hadisənin həmin vəd olunan hadisə olduğunu, tezliklə Allahın onlara yardım edəcəyini və düşmən üzərində qələbə çalacaqlarını başa düşdülər. Əslində, ayədə hər iki mövzu nəzərdə tutula bilər. Çünki ayədə vəd həm Allaha, həm də Peyğəmbərə (s) aid edilmişdir. Yəni möminlər koalisiya qoşunlarını gördükdə həm Allahın, həm də Peyğəmbərin (s) verdiyi vədi xatırladılar. Bu məsələlərdən biri Allahın, digəri isə Peyğəmbərin (s) verdiyi vədi ifadə edir.[1738]

[1738] Əl-Mizan, c.16, səh.296

23. Möminlərin arasında Allahla bağladıları əhd-peymana sadiq qalan kişilər vardır. Onlardan bəzisi əhdini yerinə yetirmiş (və şəhid olmuş), bəzisi də gözləyir. Onlar öz əhdlərini əsla dəyişdirməyiblər.

24. Bu ona görədir ki, Allah doğru danışanları sədaqətlərinə görə mükafatlandırsın, münafiqlərə də ya istəsə, əzab versin, ya da onların tövbələrini qəbul etsin. Çünki Allah bağışlayandır, rəhmlidir.

25. Allah kafirləri ürəkləri qəzəblə dolu halda heç bir nəticə hasil etmədən geri qaytardı. Allah möminləri döyüşdən ehtiyacsız etdi (və onlara qələbə nəsib etdi). Allah yenilməz güc və qüvvət sahibidir.

26. Allah Kitab əhlindən onlara (müşriklərə) yardım edənləri möhkəm qalalarından endirdi və qəlblərinə qorxu saldı. (Elə bir vəziyyətə düşmüşdülər ki,) siz onların bir qismini öldürür, bir qismini də əsir götürürdünüz.

27. (Allah) onların yerlərini, yurdlarını, mallarını, üstəlik, ayağınız dəyməyən bir yeri də ixtiyarınıza verdi. Allah hər şeyə qadirdir.

28. Ey Peyğəmbər! Zövcələrinə de: “Əgər siz dünya həyatını və onun bər-bəzəyini istəyirsinizsə, gəlin sizi bir hədiyyə ilə məmnun edib gözəl tərzdə sərbəst buraxım.

29. Yox, əgər Allahı, Onun elçisini və Axirət yurdunu istəyirsinizsə, (bilin ki), Allah aranızdan yaxşı işlər görənlər üçün böyük bir mükafat hazırlamışdır”.

30. Ey Peyğəmbərin zövcələri! Sizlərdən hər kim açıq-aşkar günah və çirkin bir iş tutsa, onun əzabı ikiqat artar. Bu, Allah üçün asandır.

---

23. Şəhidlər və gözləyənlər: Bu ayədə hansı insanlar haqqında danışılması ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. İmam Əli (ə) buyurmuşdur: ***"Möminlərdən bəziləri var ..." ayəsi bizim haqqımızda nazil olub. Şəhadəti gözləyən şəxs mənəm.*** (Daha öncə şəhidlik şərbətini içmiş şəhidlər ağası Həmzə kimi kişilərin bizdən olduğunu bilirsiniz.). ***Mən də öz əhd-peymanımı əsla dəyişmədim."*** Ümumiyyətlə, ayənin məzmunu genişdir. Bütün dövrləri, əsrləri əhatə edir, həm Allah yolunda döyüşüb şəhidlik şərbətini içmiş, həm də heç bir tərəddüd etmədən öz əhd-peymanına sadiq qalaraq cihad və şəhidliyə hazır olan bütün ixlaslı möminlərə şamil olur. Deyilənə görə, İmam Hüseynin (ə) Kərbəlada olan silahdaşları meydana yollanmaq istədikdə İmamla (ə) vidalaşarkən "Salam olsun sənə, ey Peyğəmbərin (s) oğlu" deyərmişlər. İmam isə onlara: ***"Salam olsun sizə, biz də sizin arxanızca gəlirik"***, - deyə ardınca da bu ayəni buyurarmış: ***"Onlardan bəzisi əhdini yerinə yetirmiş (və şəhid olmuş), bəzisi də gözləyir."*** Deyilənə görə İmam Hüseyn (ə) bəzi şəhidlərin şəhid olması xəbərini eşitdikdə bu ayəni deyərmiş.[1739]

28-29. Peyğəmbərin (s) zövcəsi olmaq, yoxsa dünyanın bər-bəzəyini seçmək: Təfsirçilər bu ayənin nazilolma səbəbi ilə bağlı bir-birlərindən fərqlənməyən müxtəlif fikirlər qeyd etmişlər. Naziolma səbəblərindən məlum olur ki, Peyğəmbərin (s) zövcələri bir neçə döyüşdən əldə edilən külli miqdarda qənimətləri gördükdən sonra Peyğəmbərdən (s) çox şeylər istəməyə başlayırlar. Peyğəmbər (s) bu istəklərin yerinə yetiriləcəyinin peyğəmbər ailəsi üçün acı nəticələr verəcəyini bildiyi üçün onların

---

[1739] Nümunə, c.17, səh.225

istəklərini yerinə yetirməkdən imtina edir və bir ay onlara yaxın getmir. Nəhayət, bu ayələr nazil olur və möminlərin zövcələrinə nümunə olmalı olan Peyğəmbər (s) zövcələrinin vəzifələrini müəyyənləşdirir. Onlara göstəriş verilir ki, Peyğəmbərin (s) zövcələri dünyanın bər-bəzəyinə qarşı etinasız olmalı, iman, saleh əməl və mənəviyyata diqqət ayırmalıdırlar. Bu göstərişlərə riayət etdikləri təqdirdə Peyğəmbərlə (s) yaşamağa və Peyğəmbərin (s) həyat yoldaşı olmağa davam etdirə bilərlər, əks təqdirdə, ondan ayrılmalıdırlar. Ayələrin xitab obyekti Peyğəmbərin (s) zövcələri olsa da, əslində, ayələrin məzmunu və nəticəsi hər kəsə, xüsusilə rəhbərlik və öndərlik vəzifəsində olanlar şamil olur. Onlar hər zaman iki seçimlə qarşı-qarşıyadırlar; öz zahiri mövqe və vəzifələrindən sərvətə nail olmaq üçün istifadə etsinlər, ya da Allahın razılığını qazanmaq və insanların doğru yola yönəlməsi üçün məhrumiyyətləri qəbul etsinlər.[1740]

30-31. İkiqat savab və cəza: Bu ayələrdə Peyğəmbərin (s) zövcələrinə xitab edilərək onların Allaha itaət edəcəkləri təqdirdə ikiqat savaba, aşkar günah etdikləri təqdirdə ikiqat cəzaya layiq görüləcəkləri buyurulsa da, əslində, ümumi məzmun daşıyır. Yəni ictimai mövqeyi və vəzifəsi olan hər bir şəxsin ailəsinə şamil olur. Çünki bu cür şəxslər təkcə özləri ilə məhdudlaşmırlar, onların iki yönü olur: yönlərindən biri özlərinə, digəri isə cəmiyyətə aid olur. Onların həyat proqramları cəmiyyəti haqq yola yönəldə və ya haqq yoldan sapdıra bilər. Buna görə də davranışlarının fərdi və ictimai olmaqla iki təsiri var. Bu yönlərin isə hər birinin ayrılıqda mükafat və cəzası var. Hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Alimin bir günahı bağışlanınca cahilin yetmiş günahı bağışlanar."*** Bundan əlavə, elmin və məlumatın qədər və ölçüsü ilə mükafat və cəza

---

[1740] Nümunə, c.17, səh.278-282

arasında sıx əlaqə var. İmam Baqir (ə) buyurmuşdur: ***"Allah-taala Qiyamət günü bəndələrinin sorğu-sualına dünyada onlara verdiyi ağlın ölçüsünə əsasən nəzər salıb, sorğu-sual edəcək."*** Bəzi hədislərdə mükafatın insanın dərk və məlumatı ölçüsündə veriləcəyi qeyd edilmişdir.[1741]

31. Sizlərdən hər kim Allah və Onun elçisi qarşısında itaət və təvazökarlıq göstərib yaxşı işlər görsə, ona mükafatını ikiqat verərik. Biz onun üçün çox qiymətli ruzi hazırlamışıq.

[1741] Nümunə, c.17, səh.284

32. Ey Peyğəmbərin zövcələri! Siz hər hansı bir qadın kimi deyilsiniz. Əgər təqvalı olacaqsanız, əda, işvə və nazla danışmayın, yoxsa qəlbində xəstəlik olan tamaha düşər. Layiqli tərzdə danışın.

33. Evlərinizdə qalın! İlk cahiliyyə dövründə olduğu kimi görünməyin. Namaz qılın, zəkat verin, Allaha və Onun elçisinə itaət edin. Allah günah və çirkinliyi yalnız siz Əhli-beytdən uzaqlaşdırmaq və sizi tamamilə tər-təmiz etmək istəyir.

34. Evlərinizdə oxunan Allah ayələrini, elm və hikməti yada salın. Allah lütfkardır, xəbərdardır.

35. Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, Allah fərmanına itaət edən kişilər və qadınlar, doğru danışan kişilər və doğru danışan qadınlar, səbrli kişilər və səbrli qadınlar, təvazökar kişilər və təvazökar qadınlar, sədəqə verən kişilər və sədəqə verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, ismətlərini qoruyan kişilər və ismətlərini qoruyan qadınlar, Allahı çox yad edən kişilər və qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır.

---

33. Təthir (təmizləmə) ayəsi: Allah-taala ayənin əvvəlində Peyğəmbərin (s) zövcələrinə xitab edir, onlara evlərində oturmaq, camaat arasına İslamdan əvvəlki cahiliyyə dövründə olduğu kimi çıxmamaq, iffətli olmaq, namaz qılmaq, zəkat vermək, Allaha və elçisinə itaət etmək göstərişi verir. Ayənin bu hissəsində işlədilmiş altı bitişən əvəzliyin hamısı qadın cinsinin cəmindədir. Sonra ayənin ahəngi dəyişir və Allah belə buyurur: “Allah yalnız siz Əhli-beytdən günah və çirkinliyi uzaqlaşdırmaq və sizi tamamilə tərtəmiz etmək istəyir.” Ayənin bu hissəsində iki cəm əvəzliyi işlənmiş, ikisi də kişi cinsindədir. Doğrudur ki, ayənin əvvəli ilə davamı eyni

məzmunu ehtiva etməlidir. Ancaq bu qanun fərqli məzmunu ifadə edən faktlar olmadığı məqamlarda doğrudur. Buna görə də ayənin ikinci hissəsinin də Peyğəmbərin (s) zövcələrinə aid olduğunu iddia edənlər ayənin məzmununa və kontekstə zidd iddia irəli sürmüş, əvəzlik fərqlərinin qanunauyğunluğunu pozmuşlar. Digər tərəfdən, İslamın həm sünni, həm də şiə təriqətinə mənsub olan böyük alimləri bu ayə ilə bağlı çoxlu sayda hədis olduğunu yekdilliklə təsdiq etmişlər. Hər iki məzhəbin mötəbər kitablarında yer almış bu hədislərin sayı həddən artıq çoxdur. Həmin hədislərdə bu ayənin xitab obyektinin, Peyğəmbərin (s) zövcələri deyil, Peyğəmbər, Əli, Fatimə, Həsən və Hüseyn (Allahın salavat və salamı olsun onlara) olduğu qeyd edilmişdir. "Yurid" (iradə edir-istəyir) feli Allahın obyektiv iradəsini ifadə edir. Yəni Allah-taala əzəli fərmanı ilə siz Əhl-beyti bütün çirkinliklərdən uzaq tutmaq istəmişdir. Burada istək subyektiv deyil, obyektivdir. Çünki subyektiv istək deyilərkən Allahın onları pak və təmiz olmaq vəzifəsi ilə vəzifələndirdiyi başa düşülür. Halbuki bu vəzifənin təkcə Peyğəmbər (s) ailəsinə deyil, hər müsəlmana aid olduğunu bilirik. Belə ki, bütün müsəlmanlar Allah qarşısında özlərini təmiz saxlamaq öhdəliyi daşıyırlar. Burada obyektiv istəyin bir növ məcburiyyət yaratması təsəvvürü ortaya çıxa bilər. Belə olan təqdirdə, məsum olmağın heç bir üstünlüyü və dəyəri olmayacaq. Bu fikrə cavab olaraq deməliyik ki, məsumlar iki növ potensiala malikdirlər - zati, natural və bəxş edilən; əməllər və natural potensial əsasında formalaşan potensial. Ən azı biri ixtiyari olan bu iki potensialın məcmusundan həmin yüksək məqam hasil olur. Başqa sözlə desək, Allahın istəyi bu yüksək məqama nail olmaq üçün zəmin yaradır, bu zəmindən istifadə etmək isə artıq onların öz istək və iradəsindən asılıdır. Günahı tərk etmək və ya günah etməmək onlar üçün əqli deyil, praktiki olaraq mümkünsüzdür. Məsələn, praktiki mümkünsüzlüyə məlumatlı və

imanlı bir adamın məscidə özü ilə şərab aparıb camaat namazının birinci sırasında durub içməsini misal göstərə bilərik. Ancaq bu davranış əqli olaraq mümkündür və bu davranışın ixtiyari olması ilə heç bir təzad təşkil etmir. Peyğəmbər və imamların günah etməməsi də belədir. Məsum olmaq ilahi yardımlar sayəsində olsa da, bu yardımlar özləri də hesab-kitabsız deyil. Belə ki, Quranda İbrahim Xəlilin (ə) Allahın mühüm sınaqlarından keçmədən yüksək imam və rəhbərlik məqamına layiq görülmədiyi buyurulmuşdur (Bəqərə-124). "Rics" ərəb dilində insan təbiəti baxımından və ya ağıl və şəriətin hökmü ilə nifrət edilən və çirkin sayılan istənilən çirkinliyə deyilir. İmamların bəzi kəlamlarında "rics"in günah, şirk, batil inanc, paxıllıq və həsəd mənasında işlədilməsi bu sözün daha geniş mənada götürüldüyünü göstərir. "Təthir" sözünün təmizləmək və pak etmək mənasını daşıdığını nəzərə alsaq, "Sizi tərtəmiz etmək istəyir" cümləsi əvvəlki cümlədə qeyd edilmiş "çirkinliyi sizdən uzaqlaşdırmaq istəyir" məzmununu gücləndirdirməyə xidmət etdiyini deyə bilərik. Ümumiyyətlə, Allah-taala burada təkidli şəkildə pak beşliyi (ə) istənilən çirkinlikdən təmizləmək istədiyini buyurur.[1742]

[1742] Quranın ismarışı, c.9, səh.137

36. Allah və Onun elçisi hər hansı işi lazım bildiyi zaman heç bir mömin kişi və mömin qadın öz işlərində istədikləri qərarı verə bilməz. Allaha və Onun elçisinə asi olan kəs, əlbəttə ki, açıq-aydın azğınlığa düşmüşdür.

37. Bir zaman Allahın nemət verdiyi və sənin özünün nemət verdiyin kəsə (oğul çağırdığın Zeydə): "Zövcəni saxla, Allahdan qorx!" – deyirdin (və bunu dəfələrlə təkrar edirdin). Allahın aşkar edəcəyi şeyi ürəyində gizli saxlayır və insanlardan çəkinirdin. Halbuki əslində qorxmalı olduğun məhz Allahdır. Zeyd zövcəsini boşadıqda səni onunla evləndirdik ki, oğulluqları övrətlərini boşadıqları zaman möminlərin onları almasında heç bir sıxıntı olmasın. Allahın əmri mütləq yerinə yetəcəkdir.

38. Allahın Peyğəmbərə vacib buyurduğu heç bir şeydə ona maneə yoxdur. Daha öncə olanlar haqqında da Allahın qayda-qanunu belə idi. Allahın əmri dəqiq bir hesab və proqram üzrədir.

39. Onlar Allahın risalətini təbliğ edir, Ondan qorxur və Allahdan başqa heç kəsdən qorxmurdular. Allahın haqq-hesab çəkməsi kifayətdir.

40. Muhəmməd aranızdakı kişilərdən heç birinin atası olmayıb və deyildir. Lakin o, Allahın elçisi və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir.

41. Ey iman gətirənlər! Allahı çox-çox xatırlayın!

42. Səhər-axşam Onun şəninə təriflər deyin!

43. Sizi zülmətlərdən (cəhalət və şirk zülmətlərindən) nura (iman, elm və təqva nuruna) çıxartmaq üçün sizə salam və rəhmət göndərən Odur. Onun mələkləri də (sizin üçün rəhmət diləyərlər). O, möminlərə qarşı hər zaman mehriban olmuşdur.

---

37. Ənənəni sındırmaq üçün evlənmək: Bu ayə Peyğəmbərin (s) bibisi qızı Cəheş qızı Zeynəb ilə Peyğəmbərin (s) azad etdiyi Zeyd ibn Harisənin evliliyi haqqında nazil olmuşdur. Besətdən əvvəl və Xədicə ilə ailə qurduqdan sonra Xədicə Zeyd adlı bir qul alır, sonralar onu Peyğəmbərə (s) hədiyyə edir. Peyğəmbər (s) isə onu azad edir. Tayfası Zeydi qəbul etmədiyi üçün Peyğəmbər (s) onu öz evində saxlayıb oğlu kimi baxır və oğlum deyir. Peyğəmbər (s) ona bibisi qızı Zeynəbi almaq qərarına gəlir. Zeynəb əvvəl elə bilir ki, Peyğəmbər (s) onu özünə almaq istəyir. Buna görə də sevinclə razılıq verir. Ancaq sonradan Peyğəmbərin (s) özü üçün deyil, Zeydə görə elçi düşdüyünü başa düşdükdə narahat olur və Zeydlə ailə qurmaqdan imtina edir. Qardaşı Abdulla da bu izdivaca razı olmur. Bu zaman 36-cı ayə nazil olur, Zeynəb və Abdullah kimilərə xəbərdarlıq edilir ki, Allah və peyğəmbəri nəyisə lazım bildiyində kiminsə etiraz etməyə ixtiyarı yoxdur. (Çünki Allah və peyğəmbəri insanlara nəyin daha xeyirli olduğunu onların

özlərindən yaxşı bilirlər). Zeynəb və qardaşı bu ayəni eşitdikdən sonra Allahın fərmanına itaət göstərirlər. ancaq bu evlilik uzun sürmür, tərəflərin yola getməməsi onların boşanması ilə nəticələnir. Peyğəmbər (s) onların ayrılmaması üçün nə qədər səy göstərirsə, xeyri olmur. Boşanma baş verir. Sonra Zeynəbin bu ailə uğursuzluğunu aradan qaldırmaq üçün Allahın əmri ilə Peyğəmbər (s) onunla ailə qurur. Ancaq izdivacdan əvvəl Peyğəmbəri (s) iki məsələ narahat edirdi: Birincisi, Zeyd onun oğulluğu idi. Cahiliyyə dövrünün ənənələrinə görə, oğulluğa götürülmüş adam eynilə doğma oğul kimi sayılırdı. Buna görə də oğulluğa götürülmüş adamın boşadığı qadınla ailə qurmaq haram iş sayılırdı. İkincisi, Peyğəmbərin (s) azad etdiyi bir qulun boşadığı qadınla ailə qurması onun məqam və mövqeyinə uyğun davranış sayılmırdı. Ancaq Allahın əmrinə boyun əyərək böyük fədakarlıq nümayiş etdirən Peyğəmbər (s) bu cahil ənənəni darmadağın edir.[1743]

40. Xatəmiyyət: Bu ayə cahiliyyət dövrünə aid olan yanlış bir ənənəyə son qoymaq üçün Peyğəmbərin (s) Cəhəş qızı Zeydlə evlənməsindən bəhs edən sonuncu ayədir. Öncə belə buyurulur: İstər Zeyd olsun, istərsə də başqası, "Muhəmməd aranızdakı kişilərdən heç birinin atası olmayıb və deyildir." Bir zamanlar əgər Zeydə Muhəmmədin oğlu deyiliridisə, bu, təbii və qohumluq əlaqəsi deyil, İslamın və Quranın hökmü ilə ortadan qaldırılmış bir adət və ənənədən irəli gəlirdi. Əlbəttə, Peyğəmbərin (s) Qasim, Təyyib, Tahir və İbrahim adlı oğlanları olmuşdur. Ancaq tarixi mənbələrin yazdığına görə, hamısı yetkinlik yaşına çatmamış dünyalarını dəyişmişdilər. Sonra Allah peyğəmbərlə insanların əlaqələrinin peyğəmbərlik və xatəmiyyət prinsipinə əsaslandığını buyurur. Ayənin əvvəlində qohumluq əlaqəsi tamamilə inkar edilir, ardınca isə əlaqənin peyğəmbərlik və xatəmiyyət

[1743] Nümunə, c.17, səh.316

prinsipinə əsaslanan mənəvi əlaqə isbat edilir. Ayənin çatdırmaq istədiyi başqa bir həqiqət onun insanlara olan sevgisinin bir ata sevgisindən daha üstün olmasıdır. Onun ümmətə olan sevgisi bir peyğəmbərin öz ümmətinə olan sevgisidir. Xüsusilə də o özündən sonra heç bir peyğəmbər gəlməyəcəyini bilirdi. Buna görə də onlar üçün Qiyamətə qədər lazım olacaq proqramı yüksək sevgi və şəfqətlə təqdim etməli idi. "Xatəm" sonluğa deyilir. Bu ayə peyğəmbərlik missiyasının İslam peyğəmbəri ilə başa çatdığını və ondan sonra heç bir peyğəmbər gəlməyəcəyini göstərir. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Mənim digər peyğəmbərlərlə olan müqayisəmi bir misalla belə izah edə bilərəm: Bir kişi gözəl bir ev tikir. Camaat evin ətrafına toplaşıb "bundan gözəl bina yoxdur. Yalnız bir kərpici çatmır", - deyirlər. Bax həmin boş yeri dolduran sonuncu kərpic mənəm."***[1744]

[1744] Nümunə, c.17, səh.336

44. Onunla görüşəcəkləri gün xeyir-duaları “salam” olacaqdır. (Allah) onlara çox qiymətli mükafat hazırlamışdır.

45. Ey Peyğəmbər! Biz səni şahid, müjdəçi və qorxudan göndərdik.

46. Həm də Allahın fərmanı ilə Ona tərəf çağıran və nur saçan bir çıraq (göndərdik).

47. Möminlərə müjdə ver ki, onlara Allah tərəfindən böyük bir lütf nəsib olacaqdır.

48. Kafirlərə və münafiqlərə itaət etmə. Onların əziyyətlərinə fikir vermə və Allaha təvəkkül et. Allahın himayəçi və müdafiəçi olması kifayətdir.

49. Ey iman gətirənlər! Əgər mömin qadınlarla evlənsəniz, sonra da onlara toxunmazdan əvvəl talaqlarını versəniz, artıq onlar üçün gözləmə müddətini saymağa haqqınız yoxdur. Onları münasib bir hədiyyə ilə razı salın və gözəl tərzdə sərbəst buraxın.

50. Ey Peyğəmbər! Mehrlərini verdiyin zövcələrini, Allahın sənə qənimətlər vasitəsilə bəxş etdiklərindən sahib olduğun cariyələri, səninlə birlikdə hicrət etmiş əmin qızlarını, bibilərinin qızlarını, dayın qızlarını, xalalarının qızlarını, habelə Peyğəmbər evlənmək istədiyi təqdirdə özünü (heç bir mehr istəmədən) Peyğəmbərə bağışlayan hər hansı bir mömin qadını sənə halal etdik. Ancaq bu cür (sonuncu) izdivac digər möminlərə deyil, yalnız sənə məxsusdur. Onlara zövcələri və sahib olduqları cariyələr barəsində hansı hökmü vacib buyurduğumuzu bilirik. Bu ona görədir ki,

sənə (peyğəmbərlik vəzifəsini yerinə yetirərkən) bir çətinlik olmasın. Allah bağışlayandır, rəhmlidir.

---

50. Özlərini Peyğəmbərə (s) bağışlamış möminə xanımlar: Şübhəsiz ki, "Mehr vermədən izdivac etmək" icazəsi Peyğəmbərə xas olan xüsusiyyətlərdən idi. Ayədə bu məsələ açıq şəkildə buyurulmuşdur. Buna görə də İslam fiqhinin açıq hökmlərindəndir. Ayədə verilən ümumi hökmün real həyatda nümunəsinin olub-olmaması təfsirçilərin mübahisə mövzularındandır. Ayədə qeyd edilən hökmün real həyatda həqiqətən baş verməsi tarixi cəhətdən məlum deyil. Ancaq Allahın Peyğəmbərə (s) belə bir icazə verməsi bu ayə ilə dəqiqdir.[1745]

50. Peyğəmbərin (s) zövcələrinin çox olmasının səbəblərindən bir neçəsi: Ayədəki ***"Bu ona görədir ki, sənə bir çətinlik olmasın"*** cümləsi ilə Peyğəmbərə (s) xas olan hökmlərin fəlsəfəsinə işarə edilmişdir. Allah bu ayə ilə demək istəyir ki, Peyğəmbər (s) üçün spesifik olan şərtlər başqaları üçün spesifik deyil. Məhz bu fərqlilik hökmlərdə fərqlilik yaranmasına səbəb olur. Daha aydın dillə desək, bu hökm fərqliliyi Peyğəmbəri (s) məhdudiyyət və çətinliklərdən xilas etmək məqsədi daşıyır. Bu incə nüans Peyğəmbərin (s) ayrı-ayrı xanımlarla ailə qurmasının bir sıra ictimai və siyasi problemləri həll etmək məqsədi daşıdığından xəbər verir. Bilirik ki, Peyğəmbər (s) İslam dininə çağırış etməyə başlayanda tək idi, uzun müddət az sayda adam istisna olmaqla ona iman gətirən olmamışdı. O, dövrünün və yaşadığı mühitin bütün xurafat inanclarına qarşı çıxmışdı. Təbii ki, bu da bütün qəbilə və tayfaların ona qarşı səfərbərlik almasına səbəb olmuşdur. Buna görə də Peyğəmbər (s) düşmənlərin müqəddəs ittifaqını darmadağın etməkdən ötrü

[1745] Nümunə, c.17, səh.379

bütün vasitələrdən istifadə etməli idi. Bu vasitələrdən biri evlilik vasitəsilə qohumluq əlaqələri yaratmaq idi. Çünki qohumluq münasibətləri cahiliyyət dövrünün ən möhkəm bağlarından hesab edilirdi. Onlar qəbilənin kürəkənini özlərindən hesab edir, daim onu müdafiə edir, onu yalqız qoymağı günah sayırdılar. Əldə olan çoxlu sayda faktlar Peyğəmbərin (s) izdivaclarının həm də siyasi səciyyə daşıdığından xəbər verir. İzdivacların bəzisi xurafat ənənələrin darmadağın edilməsinə xidmtə edirdi. Bəzisi düşmənləri azaltmaq və dostları artırmaq, inadkar və təəssübkeş insanların və qəbilələrin məhəbbətini qəzəanmaq məqsədi daşıyırdı. Bildiyimiz kimi, o, gəncliyinin ən qiymətli vaxtı hesab edilən 25 yaşında dul bir qadınla (Xədicə) ailə qurmuşdu. 52 yaşına qədər həmin qadınla yaşamışdır. Bu şəkildə gənclik dövrünu arxada qoyub, ömrünün son on ilində bir çox izdivaclara imza atmışdır. Deməli bu davranışın mütləq, heç bir cinsi istəklə əlaqəsi olmayan əsaslı səbəbləri olmalıdır. Ümumiyyətlə, o dövrün insanları arasında çoxarvadlılıq sadə və normal bir davranış sayılırdı, hətta bəzən elə olurdu ki, birinci zövcə ikinci zövcənin elçiliyini edirdi, heç kəs də buna qeyri-adi yanaşmırdı. Deməli, gənc yaşlarında Peyğəmbərin (s) bir neçə arvad almasına heç bir ictimai məhdudiyyət və ağır maliyyə şəraiti mane olmur. Digər tərəfdən, buna mane olacaq heç bir fiziki qüsuru da olmamışdır. Diqqət çəkən məqəm budur ki, tarixi mənbələrdə Peyğəmbərin (s) zövcələri arasında yalnız birinin (Aişə xanımın) bakirə və ailə qurarkən yaşının az olması qeyd edilmişdir. Bəzi tarixi mənbələrin yazdığına görə, Peyğəmbərin (s) bəzi xanımlarla izdivacı təkcə rəsmi xarakter daşımış, heç bir faktiki evlilik baş verməmişdir. Bəzən münasibətlər elçilik həddindən o tərəfə keçməmişdir. Yəni Peyğəmbər (s) yalnız elçilik etmişdir. Bu davranışı tayfa üçün fəxr səbəbi hesab edilmişdir. Bu şəkildə Peyğəmbər (s) tayfa və qəbilələrlə olan münasibətlərini möhkəmləndirmiş və onlar Peyğəmbərin (s)

müdafiəsində daha qərarlı olmuşlar. Bundan başqa Peyğəmbərin (s) zövcələrinin sayının çox olmasına baxmayaraq, uşaqlarının sayı az olmuşdur. Bu da Peyğəmbərin (s) evlilikdəki məqsədinin daha ali məqsədlər güddüyünü göstərir.[1746]

51. Həyat yoldaşlarından istədiyini təxirə sala, istədiyini də yanına ala bilərsən. Özündən kənarlaşdırdıqlarından hansı birini yanına almaq istəsən, sənə heç bir günah olmaz. Bu, onların gözlərinə işıq gəlməsi (sevinmələri), kədərlənməmələri və sənin onlara verdiklərindən razı qalmaları üçün daha münasibdir. Allah qəlbinizdə olanları bilir. Allah biləndir, səbrlidir.

[1746] Nümunə, c.17, səh.381

52. Bundan sonra sənə başqa qadınla evlənmək, onları, gözəllikləri səni heyran etsə də, başqa qadınlara dəyişmək halal deyildir. Sahib olacağın cariyələr isə istisnadır. Allah hər şeyə nəzarət edəndir.

53. Ey iman gətirənlər! Sizə yemək yeməyə icazə verilməyincə Peyğəmbərin evlərinə girməyin və (təyin edilmiş vaxtdan əvvəl gəlib) yeməyin hazırlanmasını da gözləməyin. Amma dəvət olunduğunuzda girin və yemək yedikdən sonra dağılışın, söz-söhbətə oturmayın. Çünki bu hərəkətiniz Peyğəmbəri narahat edir, amma o sizdən utanır (və heç bir söz demir). Allah isə həqiqəti (söyləməkdən) utanmır. (Peyğəmbərin) zövcələrindən (məişət əşyalarından) bir şey istədikdə, pərdə arxasından istəyin. Bu həm sizin qəlbinizin, həm də onların qəlbinin təmiz qalması üçün daha yaxşıdır. Allahın elçisini incitməyə haqqınız yoxdur. Ondan sonra həyat yoldaşları ilə də əsla evlənməyin ki, bu, Allah yanında böyük (günahdır).

54. Sizin bir şeyi aşkara çıxarmanızdan və ya gizli saxlamanızdan asılı olmayaraq, Allah hər şeydən xəbədardır.

---

51. Başqa bir problemin həlli: Bilirik ki, İslamın çoxarvadlılıqla bağlı hökmlərindən biri ərin öz vaxtını onlar arasında ədalətli şəkildə bölməsidir. Bir gecə bir zövcəyə aid olduğu halda, digər gecə başqasına aiddir. Şərait fərqli və böhran vəziyyəti olduğu, xüsusilə Mədinədə olarkən hər ay demək olar ki, bir müharibənin baş verdiyi halda bu hüquqlara riayət etmək çətin idi. Allah-taala nəzər nöqtəsi olan ayəni göndərməklə bu hökmü Peyğəmbərin (s) üzərindən götürür. Onlar öz vaxtlarını istədikləri kimi tənzmiləyə bilərdilər. Baxmayaraq ki, tarixi faktlar Peyğəmbərin (s) imkan daxilində ədalət və bərabərliyə riayət etdiyini təsdiq edir. Bu ayənin və

ayənin ehtiva etdiyi hökmün nazil olması Peyğəmbərin (s) həyat yoldaşlarına və onların daxili həyatlarına rahatlıq bəxş edir.[1747]

52. Allah rəsulunun (s) izdivacına dair başqa bir hökm: Bu ayənin təfsiri ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Burada onlardan daha mühüm olan ikisini qeyd edirik: 1. Tarixi faktlar göstərir ki, müxtəlif tayfalar və fərdlər Peyğəmbərin (s) onlardan qız alması və belə bir iftixarı onlara da bəxş etməsi üçün Peyğəmbərə (s) çox təzyiqlər göstərirmişlər. Əlbəttə, bu əlaqənin müəyyən mənada Peyğəmbərin (s) ictimai-siyasi məqsədlərinə də xeyri var idi. Ancaq bir şey həddini aşdığında əlavə problemlər yaranır. Bütün qəbilələrin belə bir gözləntisi olduğu üçün Allah-taala qəti bir hökm göndərərək bu əmələ son qoyur. Həmin vaxtlar bəziləri Peyğəmbərə (s) deyirmişlər ki, sənin zövcələrinin çoxu dul və yaşlı arvadlardır. Sənə gözəl və gənc bir xanımla ailə qurmaq yaraşır. Allah diqqətləri məhz bu nöqtəyə yönəldərək, hətta gözəl olsalar belə, Peyğəmbərin (s) artıq izdivac etməsinə icazə vermədiyini buyurur.[1748] 2. Bəzi hədislərdə bu ayədə "Nisa" surəsinin 23-cü ayəsində evlənilməsi qadağan olan qadınların nəzərdə tutulduğu qeyd edilmişdir. Bu təfsirə əsasən ayənin mənası belə olur: "Nisa" surəsinin 23-cü ayəsindən sonra məhrəmlərlə izdivac etmək haram, digər qadınlarla isə halaldır. (Buradakı tərcümə birinci təfsirə əsaslanır).[1749]

53. Peyğəmbərin (s) hörmət və heysiyyətinin qorunması üçün göndərilmiş hökmlər: Bu ayədə əsasən, iki nüansa işarə edilmişdir: 1. Həm ərəblər, həm də bir çox xalqlarda belə bir adət var ki, hətta hansı məişət əşyasına və sairəyə ehtiyac duyulduğunda adətən qonşular bir-birlərinə

[1747] Nümunə, c.17, səh.386
[1748] Nümunə, c.17, səh.391
[1749] Ətyəbül-bəyan, c.10, səh.520; Əl-Mizan, c.16, səh.342

müraciət edirlər. Peyğəmbərin (s) evi də bu adətdən istisna edilməmişdi. Arada-sırada Peyğəmbərin (s) də evinə gəlib həyat yoldaşlarından nə isə istənilirdi. Təbii ki, nə qədər hicaba riayət etsələr də, Peyğəmbərin (s) həyat yoldaşlarının göz önünə çıxmaları elə də yaxşı hal sayılmırdı. Buna görə də Allah göstəriş verir ki, nə isə istədikdə pərdə və ya qapı arxasından istəsinlər. Burada "hicab" deyilərkən qadınların qadınların örtdükləri adi örtük deyil, Peyğəmbərin (s) həyat yoldaşlarına xas olan örtükdür. Əlbəttə, bu hökm başqa qadınlar haqqında nazil edilməmiş, onlar üçün hicaba riayət etmək yetərlidir. Ümumiyyətlə, İslam müsəlman qadınlarına pərdə arxasında oturmaq əmri verməmişdir. Müsəlman qadından tələb olunan yalnız İslam qaydalarına uyğun örtünməkdir. 2. Bəziləri Peyğəmbərdən (s) intiqam almaq və onu təhqir etmək üçün Peyğəmbərin (s) vəfatından sonra onun zövcələri ilə izdivac etmək, bununla da onun heysiyyətinə ləkə gətirmək qərarına gəlmişdilər. Əgər bu davranışa icazə verilsəydi, bəziləri Peyğəmbərin (s) zövcəsi ilə ailə həyatı qurduğunu bəhanə gətirərək ictimai mövqe iddiasına düşə, habelə Peyğəmbərin (s) evinin içindən və onun təlimatları ilə şəxsən tanış olduğunu iddia edib İslamı təhrif etmək xəyalına düşə və yaxud da münafiqlər bu fürsətdən istifadə edib Peyğəmbərin (s) əleyhinə, ona yaraşmayan sözlər uydurub onu hörmətdən salmağa çalışardılar. Buna görə də Peyğəmbərin (s) zövcələri özündən sonra müsəlmanlar arasında çox böyük hörmətə layiq görülmüş, həyatlarından çox razı qalmış, məhrumiyyətlərini bu qürurverici məqam qarşısında çox əhəmiyyətsiz bir şey saymışlar.[1750]

[1750] Nümunə, c.17, səh.401

55. Qadınlara (Peyğəmbərin (s) zövcələrinə) ataları, oğulları, qardaşları, qardaşlarının oğulları, bacılarının oğulları, müsəlman qadınlar, sahib olduqları kölə və cariyələrin yanında (hicab geyməmələrində) heç bir günah yoxdur. Allahdan qorxun ki, Allah hər şeyə şahiddir.

56. Allah və Onun mələkləri Peyğəmbərə salavat göndərirlər. Ey iman gətirənlər! Siz də ona salvat göndərib, salam deyin və tam şəkildə itaət göstərin.

57. Allahı və Onun elçisini incidənləri Allah həm bu dünyada, həm də Axirətdə rəhmətindən uzaqlaşdırmış və onlara alçaldıcı bir əzab hazırlamışdır.

58. Mömin kişiləri və mömin qadınları etmədikləri bir işdən ötrü incidənlər çiyinlərinə böhtan və aşkar bir günah yükü götürmüşlər.

59. Ey Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin qadınlarına de ki, çarşablarını özlərinə bürüsünlər. Bu onların tanınmaması və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah bağışlayandır, rəhmlidir.

60. Əgər ikiüzlülər, qəlbi xəstə olanlar və Mədinədə yalan xəbərlər və əsassız şayiələr yayanlar əməllərindən əl çəkməsələr, səni onlara qarşı qaldırarıq. Sonra onlar bu şəhərdə sənin yanında yalnız qısa müddət qala bilərlər,

61. hər tərəfdən qovularlar. Harada ələ keçsələr, yaxalanıb amansızcasına öldürülərlər.

62. Bu, Allahın əvvəlki qövmlərlə bağlı qanunu idi. Sən Allahın qanununda heç bir dəyişiklik tapa bilməzsən.

---

56. Peyğəmbərə (s) salavat: Keçən ayələrdə Peyğəmbərə (s) hörmət edilməsi, heysiyyətinin qorunması, ona əziyyət verilməməsi haqqında danışıldıqdan sonra bu ayədə öncə Allah və mələklərin Peyğəmbərə (s) olan xüsusi sevgisi qeyd edilir, ardınca möminlərə buyurulur ki, Peyğəmbərin (s) dərəcəsi o qədər yükəskdir ki, varlıq aləminin yaradıcısı olan Allah və Allahın əmri ilə kainatı idarə edən bütün mələklər ona salam göndərirlər. İndi ki, belədir, siz də bu işə qoşulun. O, yaradılış aləminin qiymətli gövhəridir. Əgər Allahın lütfü ilə onunla görüşmək sizə nəsib olsa, qiymətini bilin, onun Allah və mələklərin yanındakı qiymət və dəyərini unutmayın. Sünni və şiə raviləri tərəfindən nəql edilən çoxlu sayda hədisdə Peyğəmbərə (s) salavat göndərilərkən "Ali Muhəmməd" ifadəsinin də salavata əlavə edilməsinin zəruriliyi açıq şəkildə qeyd edilmişdir. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: "Mənə yarımçıq salavat göndərməyin. Soruşdular: Yarımçıq salavat nədir? Buyurdu: təkcə "Əllahummməsalli alə

Muhəmməd” deyib davam etdirməmək. Əslində, belə deməlisiniz: “Əllahummməsalli alə Muhəmmədin və əli Muhəmməd”.[1751]

59. Hicab, yerini bilməyənlər qarşısında qoruyucu vasitədir: Ayədə “tanınmasınlar” deyilərkən iki fikrin nəzərdə tutula biləcəyi qeyd edilmişdir: 1. O dövrdə kənizlərin başlarını və boyunlarını örtmədən küçəyə çıxmaları adi hal idi. Əxlaqi cəhətdən elə də yaxşı vəziyyətdə olmadıqları üçün bəzən avara gənclərin təcavüzlərinə məruz qalırdılar. Allah-taala bu ayədə azad qadınlara İslamın göstəriş verdiyi hicaba tam şəkildə riayət etməyi əmr verir. Məhz bununla onlar kənizlərdən fərqləndirilə və avara insanların əziyyətlərindən xilas ola bilərdilər. Əlbəttə, bu cümlə avara insanlara haqq qazandırmırdı. Əslində, məqsəd günahkarların bəhanələrinə son qoymaq idi. Ayənin məqsədlərindən biri də bu idi ki, bəzi müsəlman qadınlar hicab məsələsinə laqeyd yanaşır, hicaba laqeyd yanaşan məsuliyyətsiz qadınlar kimi, bədənlərinin bəzi hissələrini açıq qoyur, bu da əxlaqsız insanların diqqətinin cəlb edilməsinə səbəb olurdu. Ərəb dilində “cəlbab” sözünün bir neçə mənası var. Ancaq daha çox yaylıqdan uzun, cadradan qısa örtüyə deyilir. “Yudninə” (yaxınlaşdırsınlar), yəni qadınlar bədənlərini tam qorumaq örtüklərini özlərinə yaxın etsinlər, ona bürünsünlər. Örtükləri tez-tez yuxarı qalxıb bədənlərin görsənməsinə səbəb olacaq şəkildə sərbəst buraxmasınlar. Daha sadə və loru dildə desək, paltarlarına möhkəm sarılsınlar.[1752]

60-61. Narahatlıq yaradan və şayiə yayanlara ciddi xəbərdarlıq: Ayənin məzmunundan belə başa düşülür ki, Mədinədə işləri-gücləri fitnə-fəsad törətmək olan üç qrup olmuşdur. Birinci qrup İslamı məhv etmək üçün çalışan münafiqlər idi. İkinci qrup xəstə qəlbli insanlar hesab edilən avara və

[1751] Nümunə, c.17, səh.415
[1752] Nümunə, c.17, səh.427

əxlaqdan kəm insanlar idi. Üçüncü qrupa şayiə yayan, xüsusilə Peyğəmbər (s) müharibəyə yolandıqdan sonra şəhərdə qalanların ruhiyyəsini zəiflətməyə, Peyğəmbərin (s) və möminlərin məğlubiyyətə uğraması ilə bağlı yalan xəbərlər yayan şayiəçi insanlar aid idi. Burada qeyd edilən üç davranışın münafiqlərə aid olduğu da ehtimal edilə bilər. Bu fərqlər ayrı-ayrı qruplar deyil, bir qrupun üç ayrı xüsusiyyəti idi. Hər-halda, Allah buyurur ki, əgər onlar bu davranışlarını davam etdirsələr, onlara qarşı ümumi hucum əmri verəcək və möminlər bir hücumla onları şəhərə bir daha geri dönməyəcəkləri şəkildə Mədinədən qovacaqlar. Əgər şəhərdə qalanları olsa, İslamın himayəsindən çıxmış olacaqlar və müsəlmanların əlindən yaxa qurtara bilməyəcək, harada görülsələr, qətlə yetiriləcəklər.[1753]

[1753] Nümunə, c.17, səh.430

63. Camaat səndən Qiyamət (onun nə vaxt baş verəcəyi) haqqında soruşur. De: “Onu yalnız Allah bilir!” Nə bilirsən, bəlkə də, Qiyamət lap yaxındır.

64. Allah kafirləri lənətləmiş və onlar üçün yandırıcı od hazırlamışdır.

65. Orada əbədi qalacaq, heç bir himayəçi, heç bir yardımçı tapmayacaqlar.

66. Üzləri həmin odda dəyişiləcəyi gün deyəcəklər: “Kaş biz Allaha itaət edəydik, Onun elçisinə müti olaydıq!”

67. Deyəcəklər: “Ey Rəbbimiz! Biz başçılarımıza və böyüklərimizə itaət etdik, onlar da bizi haqq yoldan azdırdılar.

68. Ey Rəbbimiz! Onlara ikiqat əzab ver və onları böyük bir lənətə məruz qoy!”

69. Ey iman gətirənlər! Musanı incidən şəxslər kimi olmayın. Allah onu onların dediklərindən təmizə çıxartdı. O, Allahın yanında çox abırlı (və hörmətli) şəxsdir.

70. Ey iman gətirənlər! Allahdan qorxun və haqq söz danışın ki,

71. Allah əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun elçisinə itaət etsə, böyük bir xilasa (və uğura) nail olar.

72. Biz əmanəti göylərə, yerə və dağlara təklif etdik. Onlar onu daşımaqdan imtina etdib qorxdular. Lakin insan onu boynuna götürdü. O, çox zalım və cahildir.

73. Məqsəd bu idi ki, Allah münafiq kişiləri və münafiq qadınları, müşrik kişiləri və müşrik qadınları cəzalandırsın, mömin kişilərin və mömin qadınların tövbələrini qəbul etsin. Allah bağışlayandır, rəhmlidir.

--

70-71. Əməllərinizin islahı üçün haqq söz danışın: Haqq söz (qavlun sədid) reallığı olan, mənasızlıqdan uzaq, faydası şəritə uyğun olan sözə deyilir. Söz gəzdirmək və sair kimi günah sözlər olmasın. İmanlı insan dediyinə əmin olmalı, boş-mənasız və günah olmaması üçün danışdığı sözü ölçüb-biçməlidir. Quranda bu cür danışıq əməllərin islah və günahların bağışlanma səbəbi hesab edilir. Çünki insan bu cür sözlər danışmamağa adət etdiyində artıq yalan, qeybət, mənasız, fitnə-fəsad yaranmasına səbəb olan sözlərdən uzaq olacaq, avtomatik olaraq günahdan da uzaq olacaq. Nəticədə insan islah olacaq, günahkar keçmişinin peşmançılığını çəkəcək. Əslində, elə tövbə hesab edilən bu peşimançılığın ardınca tövbə edəcək. Allah da ömrünün qalan hissəsində onu böyük günahlardan qoruyacaq, kiçik günahlar edəcəyi təqdirdə də günahlarını bağışlayacaq (Nisa-31).[1754] Əxlaq alimləri dili bədənin ən bərəkətli, eyni zamanda da ən təhlükəli və insanı günaha daha çox sürükləyən üzvü hesab edirlər. Bu kiçik üzv vasitəsilə insanın otuz günah edəcəyi qeyd edilmişdir. Hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Dil hər gün digər bədən üzvlərindən hal-əhval tutaraq soruşur: "Sabahı necə açdın?" Onların hamısı "Bizim vəziyyətimiz yaxşı olar, əgər sən imkan versən", - deyə cavab verir. Sonra əlavə edirlər:***

[1754] Əl-Mizan, c.17, səh.354

"Bizim vəziyyətimizi nəzərə al, biz sənə görə mükafatlandırılırr, sənə görə cəzalandırlırıq."[1755]

72. İlahi əmanəti daşıması insanın ən böyük fəxridir: Böyük İslam təfsirçiləri bu ayə haqqında müxtəlif mülahizələr irəli sürmüş, əmanətin nə olduğunu müəyyən etməyə çalışmışlar. Sözügedən əmanətin əsl mahiyyətinin nədən ibarət olduğunu dərk etmək üçün insana nəzər salınmalı onun göylər, yer və dağlarda olmayan nəyə malik olduğu dəqiqləşdirilməlidir. İnsan elə bir fövqəladə potensiala malikdir ki, bu potensialı ilə "Allahın xəlifəsi" ifadəsinin kamil nümayəndəsinə çevrilə, maariflənmə və özünü təmizləmə vasitəsilə yaradılışın ən yüksək iftixar zirvəsinə yüksələ, mələklərdən də yüksəyə qalxa bilər. Bu istedad iradə azadlığı və ixtiyarla müşayiət olunur. Yəni insan sıfırdan başlayıb sonsuzluğa istiqamət alan bu yolu öz ixtiyarı və ayaqları ilə qət edir. Göy, yer və dağlar Allahı tanıyıb ona müti olsalar da, bu mütilik obyektiv, qeyri-ixtiyari və icbaridir. Buna görə də kamilləşmirlər. Yüksəliş və enişi sonsuz olan, ixtiyari şəkildə kamillik zirvəsinə doğru pərvaz edə biləcək olan varlıq insandır. Bu, bütün mövcudatın götürməkdən imtina etdiyi, təkcə insanın öz üzərinə götürdüyü ilahi əmanətdir. Buna görə də növbəti ayədə insanlar üç qrupa təsnif edilmişlər: möminlər, kafirlər və münafiqlər. Deməli, ilahi əmanət "İradi və ixtiyari şəkildə sonsuz kamilləşmə gücü, kamil insan, xüsusi bəndəlik məqamı və ilahi rəhbərliyi qəbul etmək"dir. Əhli-beyt (ə) imamlarından nəql edilən çoxlu sayda hədislərdə "ilahi əmanət" deyilərkən möminlərin əmiri İmam Əli (ə) və övladlarının rəhbərliyinin nəzərdə tutulduğu qeyd edilmişdir. Bu da onunla bağlıdır ki, peyğəmbər və imamların rəhbərliyi bütün ilahi rəhbərliyin güclü bir şüasıdır. Allahın təyin

---

[1755] Nümunə, c.17, səh.447

etdiyi rəhbərlərin rəhbərliyini qəbul etmədən bəndəlik məqamına yüksəlmək və kamillik yolunu qət etmək qeyri-mümkündür.[1756]

[1756] Nümunə, c.17, səh.452

"Səba" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Həmd göylərdəkilərin və yerdəkilərin hamısının sahibi olan Allaha məxsusdur! Axirətdə də həmd Ona məxsusdur. O, hikmət sahibidir, xəbərdardır.

2. O, yerə girəni də, oradan çıxanı da, göydən düşəni də, oraya qalxanı da bilir. O, rəhmlidir, bağışlayandır.

3. Kafirlər: “Qiyamət bizə gəlməyəcəkdir!” – dedilər. De: “Xeyr, qeybi bilən Rəbbimə and olsun ki, o sizi haqlayacaqdır. Göylərdə və yerdə zərrə qədər olan bir şey də Ondan gizli qalmaz. Bundan daha kiçik və daha böyük elə bir şey yoxdur ki, açıq-aydın Kitabda olmasın”.

4. Bunlar ona görədir ki, iman gətirib yaxşı işlər görənləri mükafatlandırsın. Məhz onlar üçün bağışlanma və çox qiymətli ruzi vardır.

5. Ayələrimizi qüvvədən salmağa çalışanlar, bizdən yaxa qurtarıb qaça biləcəklərini güman edənləri pis və ağrılı-acılı əzab gözləyir.

6. Elm verilmiş insanlar Rəbbindən sənə nazil edilənin haqq olduğunu, onun yenilməz qüdrət sahibi və tərifəlayiq Allahın yoluna yönəltdiyini görürlər.

7. Kafirlər dedilər: “Çürüyüb parça-parça olduqdan sonra yenidən yaradılacağınızı xəbər verən bir kişini sizə göstərəkmi?

“Səbə” surəsinin ümumi məzmunu: Bu surə beş mövzunu əhatə edir: 1. Tövhid, Allahın varlıq aləmindəki nişanələrinin bir qismi, Ona aid olan müqəddəs xüsusiyyətlər, o cümlədən tövhid, rəbb və ilah xüsusiyyətləri. 2. Qayıdış. Bu surədə qayıdış mövzusuna daha çox yer verilmiş, müxtəlif yönlərdən izah edilmişdir. 3. Keçmiş peyğəmbərlər və İslam peyğəmbərinin

(s) peyğəmbərliyi, düşmənlərin onun haqqında olan bəhanələrinə cavab və əvvəlki peyğəmbərlərin göstərdikləri möcüzələrin bir qismininin izahı. 4. Allahın böyük nemətlərinin bir hissəsi, şükür və küfr edənlərin aqibəti, Süleyman və Səba xalqının həyatının bir hissəsi. 5. Fikir, düşüncə, iman, saleh əmələ çağırış, haqq axtarışında olanların ümumi və əhatəli tərbiyə proqramını təşkil edən amillərin insanın xoşbəxtlik və bədbəxtliyinə təsiri.[1757]

3. Allahın elmi: Qayıdışı inkar edənlərin iradlarından biri bu idi ki, insan torpağa çevrildikdən və bütün üzvləri torpağa yayıldıqdan sonra onları kim tanıyıb ayırd edəcək, bir yerə toplayacaq, yeni həyata qaytaracaq, bütün bəndələrin gizli və aşkarda olan əməllərinin hesabatanı aparıb onları qoruyacaq, vaxtı çatanda onları incələyəcək? Ayədə Allahın bütün gizli işlərdən xəbərdar olduğu, zahiri və batini bildiyi, yerdə və göylərdə, hətta zərrə qədər əməlin də Onun sonsuz elmindən kənar olmadığı buyurulur. Beləliklə, nə insan bədəninin zərrələrinin torpağa qarışması, nə onun digər varlıqlara qarışması, hətta həmin hissələrin qida vasitəsilə digər insanların mədəninə köçməsi onların geri qayıtmasına mane olmur. Onların etdikləri əməllər, hətta formasını dəyişsə də bu dünyada qalır. Allah bu əməllərin hamısından xəbərdardır.[1758]

6. Alimlər sənin qayıdışını doğru hesab edirlər: Bəzi təfsirçilər "elm verilmiş şəxslər" deyilərkən Quranın haqq olduğunu göstərən əlamətləri gördükdən sonra ona qarşısında təzim edən, onun haqq olduğunu etiraf edən Kitab əhli olduğunu bildirirlər. Kitab əhlinin bu ifadənin prototiplərindən olmasının heç bir problemi yoxdur. Ancaq ayənin yalnız bu məna ilə məhdudlaşdırılması əsassızdır. "Yəra" (burada "görürlər" kimi tərcümə

[1757] Nümunə, c.18, səh.3
[1758] Nümunə, c.18, səh.14

edilən feil, əslində, ərəbcə orijinalında) gələcək zaman feilidir. Buna görə də "elm verilmiş şəxslər" ifadəsi zaman və məkanından asılı olmayaraq, bütün alimləri və düşüncə sahiblərini əhatə edir. Hədislərdə bu sözün İmam Əliyə (ə) işarə edildiyi qeyd edilmişdir. Təbii ki, İmam Əli (ə) bu ifadənin ən kamil nümunəsidir. İstənilən təəssübkeşdən uzaq alim bu səmavi kitabın məna dolu maarifindən, qətiyyətli hökmlərindən, hikmətamiz nəsihətləri və təkanverici öyüdlərindən tutmuş ibrətamiz tarixi hadisələri, ecazkar elmi mövzularına qədər, bütün mövzuları haqqında düşünsə, onun bütün ayələrinin düzgünlüyünün şahidi olar. Bu gün şərq və alimləri İslam və Quran haqqında çoxlu kitablar yazmışlar. Bu kitablarda İslamın əzəməti və bu Quranın doğruluğu etiraf edilmişdir.[1759]

[1759] Nümunə, c.18, səh.19

8. O, Allaha iftira atır, ya dəli olub?” Xeyr! Axirətə inanmayanlar əzab və dərin bir azğınlıq içindədirlər.

9. Onlar önlərindəki və arxalarındakı yerə və göyə baxmırlarmı? Əgər istəsək, onları yerə batırar və ya göydən üzərlərinə daş parçaları endirərik. Bunda hər bir tövbə edən bəndə üçün bir nişanə vardır.

10. Biz Davuda öz tərəfimizdən böyük bir lütf bəxş etdik (dağlara və quşlara dedik:) “Ey dağlar və quşlar! Onunla birlikdə Allahın şəninə təriflər deyin!” Biz dəmiri onun üçün yumşaltdıq.

11. (Ona dedik:) “Tam və geniş zirehlər düzəlt, halqaları ölçüsündə və münasib et. Yaxşı işlər görün ki, Mən, həqiqətən də, sizin nə etdiyinizi görürəm”.

12. Səhərlər bir aylıq yolu, günortadan sonra (da) bir aylıq yolu qət edən küləyi Süleymana ram etdik. Biz mis çeşməsini onun üçün axıtdıq.

Cinlərin bir qismi Rəbbinin izni ilə onun qabağında işləyirdi. Onlardan hər hansı biri əmrimizdən çıxırdısa, ona yandırıcı odun əzabını daddırırdıq.

13. Süleyman nə istəyirdisə, onlar onun üçün düzəldirdilər; məbədlər, heykəllər, hovuzlara bənzər böyük yemək qabları və yerindən tərpənməyən nəhəng qazanlar. Ey Davud nəsli! Şükür edin! Qullarımdan şükür edəni azdır.

14. Ölümünə hökm verdiyimiz zaman onun öldüyünü onlara ancaq əsasını yeyən həşərat (qarışqa) göstərdi. Yerə yıxıldığında cinlər anladılar ki, əgər onlar qeybi bilsəydilər, xaredici əzaba məruz qalmazdılar.

10-11. Allahın Davuda (ə) lütf etdiyi böyük nemətlər: Bu ayə haqqında danışarkən qeyd edəcəyimiz müxtəlif möcüzələr həzrət Davuda (ə) lütf edilən nemətlərin bir qismidir. Çox gözəl səs, "Sad" surəsində də işarə edilmiş ədalətli mühakimə bacarığı bu ilahi nemətlərdəndir.[1760] Davuda (ə) bəxş edilən nemətlərdən biri Süleyman (ə) kimi dindar, bilikli və ədalətli övlad atası olmasıdır.[1761] Ona bəxş edilən nemətlər arasında ən üstünü peyğəmbərlik neməti olmuşdur. Dağların və quşların onunla səs-səsə verməsinə gəlincə, bildirirlər ki, kainatın bütün zərrələri, Allaha həmd-səna, tərif desə də, Davudun (ə) üstünlüyü onda idi ki, tərif demək üçün səsini ucaldanda mövcudatın batinində olan aşkara çıxır, daxili zümzəmələri xarici nəğməyə çevrilirdi. Hədislərdə qeyd edildiyi kimi, daş parçasının İslam peyğəmbərinin (s) əlində Allahın şəninə tərif deməsi də buna bir misaldır. Hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Davud çölə və düzə üz tutub Zəburu tilavət edərkən onunla səs-səsə verib oxumayan heç bir dağ, daş və quş qalmırdı."*** Bu mənəvi nemətdən sonra ayədə bir maddi

---

[1760] Nümunə, c.18, səh.27
[1761] Mənşuri-cavid, c.12, səh.252

nemətə işarə edilir: ***"Biz dəmiri onun üçün yumşaltdıq".*** Ayənin məzmunundan belə başa düşülür ki, dəmirin Davudun əlində yumşalması Allahın əmri və və möcüzəli şəkildə baş vermişdir. Belə ki, isti kürəyə dəmiri yumşaltmaq qüdrəti verən Allah üçün eyni xüsusiyyəti başqa bir şəkildə peyğəmbərinin əlinə də bəxş etməsində heç bir çətinlik yoxdur.[1762]

12-13. Süleymanın (ə) əzəməti: Küləyin Süleymanın (ə) kürsüsünü (ya xalçasını) necə hərəkətə gətirməsi bizə aydın deyil. Ancaq bildiyimiz budur ki, Allahın qüdrəti qarşında heç nə mürəkkəb və mümkünsüz deyil. İnsan öz kiçik gücü ilə içində yüzlərlə sərnişin olan iri təyyarələri və hava şarlarını göydə hərəkətə gətirdiyi halda, Süleymanın (ə) xalçasını külək vasitəsilə hərəkət etdirmək Allah üçün əsla çətin deyil. Allahın Süleymana (ə) bəxş etdiyi ikinci nemət mis bulağının onun üçün axmasıdır. Əlbəttə, bu hadisənin necəliyi bizə aydın deyil. Üçüncü qeyd edilən nemət böyük bir cin ordusunun onun ixtiyarına verilməsidir. Burada diqqət çəkən başqa bir məqam cinlərin Süleyman (ə) üçün heykəl düzəltməsidir. Bəlkə də bu heykəllər Süleymanı (ə) qəsrlərini daha da əzəmətli göstərmək və bəzək məqsədilə düzəldilirdi. Belə ki, bəzi heyvan heykəlləri insanların nəzərində əzəmət və böyüklük rəmzi hesab edilir. Hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: ***"And olsun Allaha, Süleymanın (ə) göstərişi ilə düzəlmiş heykəllər qadın və kişi heykəlləri deyil, ağac və sairənin heykəlləri olmuşdur."*** Bu hədisə əsasən ruhu olan canlıların heykəlinin düzəldilməsinin onun şəriətində də haram olduğu məlum olur.[1763]

14. Süleymanın (ə) ibrətamiz ölümü: Bu ayədən belə məlum olur ki, Süleyman (ə) öldükdən sonra bir müddət əsasına söykənmiş halda qalmışdır. Onun üçün çalışan cinlər bundan çox gec xəbər tutmuşdular. Təfsirçilər

---

[1762] Nümunə, c.18, səh.28
[1763] Nümunə, c.18, səh.35

həmin müddətin bir il sürdüyünü qeyd etsələr də, inandırıcı görünmür. Çünki Süleymanın (ə) qəsri var idi, qərar verir, hökm çıxarırdı, hər gün qəbuluna insanlar gəlirdi. Uzun müddət heç kəsin belə bir adamın ölməsindən xəbər tutmaması inandırıcı deyil. Deməli, bu müddət o qədər az olmalı idi ki, saray işçiləri bu müddət ərzində onun qəbuluna getməmiş olsunlar. Ola bilsin ki, Süleyman (ə) müəyyən səbəblərdən bir müddətlik onunla görüşə qadağa qoymuş, özü ilə bir qədər azuqə, yemək və su ehtiyatı götürmüşdü. Süleyman (ə) ibadətini başa vurub qəsrin eyvanına çıxdıqdan sonra ölüm mələyi enib canını almış, sonra da qarışqalar onun əsasını yeməyə başlamış, əsa qırıldıqdan sonra onun ruhsuz bədəni yerə yıxılmışdır. Süleymanın (ə) bu cür ölümü insanların cinlərlə bağlı olan təsəvvürlərini alt-üst etdi və onlara məlum oldu ki, cinlərin qeybdən xəbərləri yoxdur.[1764]

[1764] Mənşuri-Cavid, c.12, səh.303

15. Yaşadıqları yerdə Səba qövmü üçün bir nişanə - bir sağda, digəri də solda olan iki bağ var idi. (Onlara dedik:) “Rəbbinizin ruzisindən yeyin və Ona şükür edin. (Bu,) tər-təmiz bir şəhərdir və (Bu da) bağışlayan bir Rəbbdir!”

16. Amma onlar üz döndərdilər, Biz də üstlərinə dağıdıcı sel göndərdik. Onların iki bağını acı meyvəli, yulğunlu və bir az sidr ağacı olan iki bağla əvəz etdik.

17. Bu cəzanı onlara nankorluqlarına görə verdik. Məgər biz nankorluq edəndən başqasını cəzalandırarıqmı?

18. Onlarla bərəkət verdiyimiz şəhərlər arasında aydın görünən şəhərlər salmış, aralarında münasib gediş-gəliş yaratmışdıq. “Gecələr və gündüzlər bu ərazilərdə arxayın gəzib dolaşın!” (- demişdik)

19. (Ancaq bu naşükür camaat) dedi: “Ey Rəbbimiz! Səfərlərimizdə məsafəni uzaq et! (Qoy yoxsullar varlılar kimi səfər edə bilməsinlər)” – dedilər və özlərinə zülm etdilər. Biz onları əfsanələrə çevirib dilə-dişə saldıq, özlərini də pərən-pərən etdik. Bu hadisədə hər bir səbir və şükür edən üçün ibrətamiz nişanələr var.

20. Həqiqətən, İblisin onlar barəsindəki ehtimalı gerçəkləşdi. Bir dəstə mömindən başqa, qalanları ona tabe oldular.

21. Onun bu insanlar üzərində ixtiyar sahibi deyildi. Biz ancaq axirətə inananla ona şəkk gətirən kimsələri bir-birindən fərqləndirmək üçün belə etdik.

22. De: “Allahdan başqa məbud saydıqlarınızı çağırın”. Onların nə göylərdə və nə də yerdə zərrə qədər malikliklәri yoxdur. Onlarda (yerlə

göylərin yaranışında və ona malik olmada) heç bir şərikləri yoxdur və (yaradarkən) Allaha yardımçı da olmayıblar.

--

15-19. Nankorluq nəticəsində küləyə sovrulan parlaq bir mədəniyyət:

“Səba”nin kimliyi haqqında təfsirçilər müxtəlif fikirlər irəli sürmüşlər. Ancaq onun Yəmən ərəblərinin ulu əcdadı olması daha məşhurdur. Peyğəmbərdən (s) nəql olunan bir hədisə əsasən, Səba on oğlu olan bir kişinin adıdır. Bu oğlanlar ərəb qəbilələrinin ataları sayılırlar. Bəziləri hesab edir ki, Səba Yəmənin və ya Yəmənə aid bir yerin adıdır. Quranın “Nəml” surəsində Süleyman və şanapipiyin əvhalatından da Səbanın yer adı daşıdığı məlum olur. Əlbəttə, Səba daha öncə şəxs adı olmuş, sonra həmin şəxsdən törəyən qəbilələr bu adla adlanmış, daha sonra həmin qəbilələrin yaşadığı yer bu adla adlandırılmışdır. Səba əhalisi dağların arasında böyük bir bənd tikib dağıdıcı və səhralarda boş yerə axan sellərin qarşısını almağa müyəssər olmuş və həmin bənddən arxlar çəkərək böyük bağlar və əkin sahələri salmışdı. Əlbəttə, ayələrdə iki bağ deyilərkən adi bağ nəzərdə tutulmur. Bəndin suyu ilə becərilən bu bağlar həddən artıq bərəkətli və bol meyvəli bağ olmuşdur. Bağlar o qədər bol meyvəli olmuşdur ki, tarixi mənbələrin yazdığına görə, əgər kimsə meyvə mövsümündə başına səbət qoyub həmin bağdan sadəcə keçsəymiş, çox qısa müddətdən sonra səbəti meyvə ilə dolarmış. Bu ərazilərlə Şam, Fələstin və İordaniya arasındakı şəhərlər bir-birlərinə zəncir halqalarını xatırladan formada yaxın olmuşlar. Bu şəhərlər bir-birinə o qədər yaxın olub ki, bir şəhərin camaatı digər şəhərin camaatını görərmiş. Bu yaxınlıq həmin şəhərlərin əhalisinin hücumlardan, yırtıcılar, yolkəsənlər və oğruların təhlükəsindən arxayın olmasına səbəb olmuşdu. Camaat bu şəhərlərə miniksiz, azuqə ehtiyatı götürmədən səfər etmiş, qrup

halında səfər etməyə, silahlı mühafizlər götürməyə ehtiyac duymadan, tam arxayınlıqla və az azuqə ilə gedərmişlər. Ancaq bu naşükür camaat Allahın verdiyi və həyatlarına firavanlıq gətirən bütün bu bol nemətlərə naşükürlük etmiş, təkəbbür və qəflət xəstəliyinə tutulmuş, Allahın qanunlarına etinasızlıq göstərmişdir. Onların axmaq istəklərindən biri səfərlərin daha da uzanması olmuşdur. Varlılar az gəlirli insanların onlar kimi səfər etməsini, istədikləri yerə miniksiz, azuqəsiz və heç nəsiz getməsini istəmədikləri üçün yolların uzanmasını, şəhərlərin arasında quru səhraların yaranmasını istəmişdilər. Bunu ona görə istəyirdilər ki, yoxsulların onların rahatlıqlarını pozduğunu, onları narahat etdiyini düşünürdülər. İsrail oğullarının göydən nazil edilmiş "mən və səlva"dan çiriyib soğan, sarımsaq və mərci istəməsi də belə olmuşdu. Tarixi mənbələrin yazdığına görə, səhra siçanları bu təkəbbür içində məst olmuş insanların xəbəri olmadan həmin torpaq bəndə hücum çəkib onu daxildən zəiflədirlər. Gözlənilmədən güclü yağış yağır və dağdakı daşqınlar güclənərək atıq selə qarşı əvvəlki müqavimət gücünü itirmiş bəndi aşırır, bəndin qarşısında toplanmış su şəhərləri yerlə yeksan edir və bu abadlıqları quru səhralara çevirir, bol meyvəli bağın yerində yulğun, sidr və şoranlıq ağacları bitir. Allah öz qüdrətini göstərmək istədikdə böyük bir mədəniyyəti siçanlar vasitəsilə dağıdır və bununla da bəndələrinə zəif olduqlarını göstərir, onlara gücləndikləri vaxt qürurlanmamağı başa salır.[1765]

[1765] Nümunə, c.18, səh.56

23. Onun dərgahında izn verdiyi kəslərdən başqa, heç kimin şəfaətinin faydası yoxdur. (Həmin gün hamı qorxu və narahatlıq içundə olacaq.) Nəhayət, qorxu və narahatlıq hissi qəlblərindən keçib getdikdən sonra onlar (günahkarlar şəfaətçilərdən): “Rəbbiniz nə göstəriş verdi?” – deyə soruşarlar. Onlar isə: “Haqqı! Uca və böyük olan Odur!” – deyə cavab verərlər.

24. De: “Göylərdən və yerdən sizə ruzi verən kimdir?” De: “Allahdır! Elə isə ya biz, ya da siz (ikimizdən biri) ya doğru yolda, ya da açıq-aydın azğınlıq içindədir”.

25. De: “Siz bizim etdiyimiz günahlara görə sorğu-sual edilməyəcəksiniz, biz də sizin etdiklərinizə görə məsuliyyət daşımırıq”.

26. De: “Rəbbimiz hamımızı bir araya cəmləşdirib sonra da aramızda ədalətlə hökm verəcəkdir. Bilici hakim odur!”

27. De: “Ona qoşduğunuz şərikləri bir mənə göstərin. Əsla, belə deyil! (Onun bənzəri və şəriki yoxdur) O, yenilməz qüdrət və hikmət sahibi olan Allahdır!”

28. Biz səni bütün insanlara yalnız müjdə vermək və qorxutmaq üçün göndərdik. Lakin insanların çoxu bilmir.

29. Onlar: “Əgər doğru deyirsinizsə, bu vəd nə vaxt olacaq?” – deyirlər.

30. De: “Sizə verilmiş vəd elə bir gündür ki, nə bircə saat ona gecikə, nə də qabağa keçə bilərsiniz”.

31. Kafirlər dedilər: “Biz nə bu Qurana, nə də bundan əvvəlki kitablara əsla inanmayacağıq!” Kaş sən o zalımları Rəbbinin hüzurunda saxlanılıb günahlarını bir-birlərinin boyunlarına atdıqları halda görəydin. Zəiflər özləri haqda üstün fikirdə olanlara deyəcəklər: “Əgər siz olmasaydınız, biz mömin olardıq”.

---

23. Qiyamətdə hər kəsi saracaq qorxu və narahatlıq: Əvvəlki ayədə buyurulur ki, müşriklərin tanrı adlandırdıqlarının göydə və yerdə zərrə qədər də olsa malikliklərı yoxdur, heç bir düyünü açа biləcək gücdə deyillər. O zaman burada belə bir sual yaranır ki, əgər belədirsə, bəs şəfaət nədir? Bu ayə məhz qeyd olunan suala cavab xarakteri daşıyır. Allah buyurur ki, əgər

Allah dərgahında şəfaətçi varsa, o da Allahın əmri ilədir. Deməli, bütpərəstlərin bütlərə sitayiş etmək üçün "Bunlar bizim Allah yanındakı şəfaətçilərimizdir" – deyə gətirdikləri bəhanəyə (Yunus - 18) bu vasitə ilə son qoyulur. Çünki Allah onların iddia etdikləri bütlərə əsla şəfaət icazəsi verməmişdir. Daha sonra Allah-taala ayədə buyurur ki, Qiyamət günü hər kəsin qəlbinə qorxu və narahatlıq hakim kəsiləcək, həm şəfaətçilər, həm də şəfaət olunanlar narahatlıq və qorxu içində olacaqlar, hər kəs Allahın kimi şəfaətçi seçəcəyini və kimə şəfaət olunacağı ilə bağlı narahatlıq keçirəcək. Şəfaət arzusunda olanlar gözlərini şəfaətçilərə dikəcək, yalvarış dolu baxışlarla onlardan şəfaət umacaqlar. Şəfaətçilər də gözlərini Allahın əmrinə dikib necə və kim haqqında şəfaət ediləcəyini gözləyəcəklər. Allah tərəfindən layiq olanlar haqqında şəfaət əmri gələnə qədər bu ümumi qorxu və narahatlıq davam edəcək. Məhz elə bu zaman günahkarlar şəfaətçilərə deyəcəklər: "Rəbbiniz nə göstəriş verib?" Şəfaətçilər deyəcək: "Haqqı" Haqq budur ki, şəfaət Allahla olan əlaqəsini tamamilə kəsmiş, Allah, peyğəmbər və onların dostlarından tamamilə uzaq durmuş günahkarlara deyil, təkcə əlaqələrini Allahdan tamamilə kəsməyənlərə şamil olsun.[1766]

24. Möhkəm bir dəlil və misilsuz bir metod: "Ya biz, ya da siz (ikimizdən biri) ya doğru yolda, ya da açıq-aydın azğınlıq içindədir" cümləsi insaf və ədəblə müşayiət olunan gerçək bir arqument əsası ola bilər. Bu metod qarşı tərəfi inadkarlıq və təkəbbür miniyindən düşməyə, fikir və düşüncəyə dalmağa vadar edir. Allah-taala bu ayə ilə peyğəmbərinə kafirlərə onların inancları ilə bunların inanclarının təzad təşkil etdiyini, buna görə hər ikisinin doğru olmasının qeyri-mümkün olduğunu söyləməsini göstəriş verir. Təbii ki, iki ziddin bir yerdə cəm olması qeyri mümkündür. Deməli, bu

[1766] Nümunə, c.18, səh.79

qruplardan biri haqq, digəri isə batil və yolunu azmışdır. İndi düşünün və bu tərəflərdən hansının haqq yolda olduğunu, hansının haqq yoldan azdığını müəyyən etmək üçün hər iki tərəfin dəlillərinə baxın. Bu, qarşı tərəfi düşünməyə və axtarış aparmağa vadar edən ən yaxşı mübahisə üsullarından biridir.[1767]

28. Sən bütün bəşəriyyət üçün göndərilmisən: "Kaffət" sözü mənası əlin içi olan "kəff" sözündən götürülmüşdür. İnsan hər şeyi əli ilə tutduğu və ya əli ilə özündən dəf etdiyi üçün bəzən bu söz toplamaq, bəzən isə dəf etmək mənasında işlədilir. Buna görə də təfsirçilər ayədə hər iki mənanın nəzərdə tutulduğunu ehtimal edirlər. Bu sözün mənasının toplamaq olması peyğəmbərin dəvətinin ümumi və bütün bəşəriyyətə şamil olduğunu deməyə əsas verir. Ayənin təfsirini ehtiva edən çoxlu sayda hədis də bu yozumu gücləndirir. İkinci məna ilə isə "kaffət" sözü peyğəmbərin xüsusiyyətini ifadə edir. Yəni Allah peyğəmbəri ona görə göndərib ki, insanları küfr və günahdan çəkindirsin. Birinci təfsir daha düzgün görünür.[1768]

[1767] Nümunə, c.18, səh.83
[1768] Nümunə, c.18, səh.92

32. Özləri haqda üstün fikirdə olanlar zəiflərə belə deyərlər: “Sizə doğru yol gəldikdən sonra sizi ondan bizmi yayındırdıq? Xeyr, siz özünüz günahkar idiniz”.

33. Zəiflər özləri haqda üstün fikirdə olanlara deyərlər: “Xeyr! Siz bizə Allahı inkar etməyi və Ona şəriklər qoşmağı əmr etdiyiniz zaman sizin gecə-gündüz apardığınız məkrli təbliğatlar (bizim azmağımıza səbəb oldu).” Onlar əzabı gördükdə peşmançılıqlarını gizlədərlər. Kafirlərin boyunlarına zəncirlər vurarıq. Onlara etdikləri əməllərdən artığına görə cəza verilərmi?

34. Biz hansı şəhər və məmləkətə bir qorxudan peyğəmbər göndərdiksə, onun naz-nemətdən özünü itirmiş sakinləri ona: “Biz sizin missiyanızı inkar edirik!” – dedilər.

35. Onlar: “Bizim mal-dövlətimiz və övladlarımız daha çoxdur və bizə əzab verilməyəcəkdir” – dedilər.

36. De: “Rəbbim istədiyinin ruzisini bol edər və ya azaldar. Lakin insanların çoxu bilmir”.

37. Mallarınız və övladlarınız sizi bizə əsla yaxınlaşdırmır. Ancaq iman gətirib yaxşı işlər görənlər istisnadır. Onların mükafatları etdikləri

əməllərə görə qat-qat artırılacaq və onlar (Cənnətdəki) mənzillərində asudə yaşayacaqlar.

38. Ayələrimizi inkar etməyə və yalan çıxarmağa çalışanlar, qüdrətimizdən qaçıb qurtaracaqlarını düşünənlər isə əzaba düçar ediləcəklər.

39. De: “Rəbbim istədiyi insanın ruzisini bol edər, istədiyinin ruzisini isə azaldar. Nə xərcləsəniz, əvəzini verər. O, ruzi verənlərin ən yaxşısıdır!”

---

37. Dəyərlərin dəyərləndirilməsi: Fərdi və ictimai həyatın ən mühüm mövzularından biri cəmiyyətin mədəniyyətinə hakim olan dəyər sistemi və ölçü meyarıdır. Çünki individual və sosial həyatda baş verən bütün hərəkətlər həmin sistemdən qaynaqlanır və eyni zamanda bu dəyərləri yaratmağa xidmət edir. Hər hansı xalq və ya millətin bu sahədə səhv etməsi, xəyali və əsası olmayan dəyərlərə üz tutması həmin millət və xalqın tarixinin tamamilə süquta uğraması üçün kifayət edir. Həqiqi dəyərlərin və doğru meyarların dərk edilməsi xalqların xoşbəxtlik sarayının bünövrəsini təşkil edir. Özündənrazı dünyapərəstlər dəyəri təkcə mal, maddi qüdrət və insanların sayı ilə məhdudlaşdırırlar, hətta insanın Allah qarşısındakı dərəcəsini də bu aspektlə ölçürlər. Buna görə də peyğəmbərlərin islahat üçün atdıqları ilk və ən mühüm addım bu cür yalançı çərçivələri və kompleksləri sındırmaqdır. Onlar öz təlimatları ilə bu yanlış baryerləri uçurur, onları Allahın orijinal dəyərləri ilə əvəzləyir, mədəni inqilab edərək şəxsiyyət göstəricilərini var-dövlət, övlad, sərvət və şöhrət çərçivəsindən çıxarıb, iman və saleh əməllə əvəzləyirlər. Hətta elm, bilik, böyük şəxsiyyətlərin övladları olmaq iman və saleh əməllə müşayiət olunmazsa, təklikdə, hətta peyğəmbər olsa belə, insanın dəyərini artırmaz. Allah-taala bu ayədə insanı Allaha yaxınlaşdıran və onun əsl dəyəri hesab edilən yanlış və xurafat düşüncələr üzərindən xətt çəkir və bu dəyərləri hər kəsin əldə edə biləcəyi, maddi imkan

və məhrumiyyətlərin təsir göstərə bilməyəcəyi iki prinsipdə ümumiləşdirir. Əgər övlad və var-dövlət də bu yola xidmət etsə, ilahi rəngə boyanar, iman və saleh əməl rəngi alar, Allaha yaxınlaşdırma səbəbinə çevrilər.[1769] Deyilənə görə, bir kişi İmam Sadiqin (ə) yanında varlılqarı pisləyir. İmam (ə) buyurur: ***"Sakit ol! Çünki Allah-taala qohumları ilə əlaqəsi olan, qardaşlarına qarşı yaxşı davranan varlının savabını ikiqat artırar. Allah-taal belə buyurub: "Mallarınız və övladlarınız sizi bizə əsla yaxınlaşdırmır. Ancaq iman gətirib yaxşı işlər görənlər istisnadır..."***[1770]

39. Allah yolunda xərcləmək azalmaya yox, artıma səbəb olur: ***"Allah yolunda nə xərcləsəniz, əvəzini verər."*** Bu cümlənin mənası çox dərindir. Böyüklüyündən və kiçikliyindən, maddi və mənəvi olmasından asılı olmayaraq, Allah yolunda verilmiş bütün xərclərə şamil olur. Əsas məsələ keyfiyyətindən və kəmiyyətindən asılı olmayaraq, insanın öz sərmayələrini Allah yolunda xərcləməsidir. Peyğəmbərin (s) hədislərinin birində belə buyurulmuşdur: "Hər bir yaxşı iş sədəqədir. Kişinin özü və ailəsi üçün xərclədiyi ona sədəqə yazılır. İnsanın öz abrını qorumaq üçün istifadə etdiyi vasitə sədəqədir." Bu ayə xərcləməni fanilikdən çıxarıb ona əbədilik rəngi verir. Çünki Allah-taala həmin xərcələnəni bir neçə qat, bəzən minlərlə dəfə artıq maddi və mənəvi nemətlərlə əvəz edəcəyinə zəmanət vermişdir. Deməli, Allah yolunda xərcləyən şəxs möhkəm ruhiyyə və inanca malik olar, qəlbi və əli açıq olar. O, yoxsulluq hissini özünə əsla yaxın buraxmaz. Allaha şükür edər ki, ona belə bir faydalı ticarət nəsib etmişdir.[1771]

[1769] Nümunə, c.18, səh.109
[1770] Əl-Mizan, c.16, səh.398
[1771] Nümunə, c.18, səh.181

40. (Xatırla!) O gün Allah onların hamısını qaldıracaq, sonra da mələklərə buyuracaq: “Bunlar sizəmi ibadət edirdilər?”

41. Onlar deyəcəklər: “Sən paksan, müqəddəssən! Onlar deyil, təkcə Sənsən bizim hamimiz! Xeyr, onlar cinlərə ibadət edirdilər. Əksəriyyəti də məhz onlara iman gətirmişdi”.

42. Bu gün bir-birinizə nə bir xeyir, nə də bir zərər verə bilərsiniz. Biz zalımlara deyəcəyik: “Dadın yalan saydığınız odun əzabını!”

43. Aydınlıq gətirən ayələrimiz onlara oxunduğu zaman: “Bu ancaq sizi atalarınızın ibadət etdiklərindən döndərmək istəyən bir kişidir!” – deyərlər. Onlar: “Bu, uydurulmuş böyük yalandan başqa bir şey deyildir!” – deyərlər. Kafirlərə haqq gəldikdə: “Bu, yalnız açıq-aşkar bir sehrdir!” – deyərlər.

44. Biz onlara oxumaları (və oxuduqlarına əsaslanıb səni yalançı çıxarmaları) üçün bir kitab verməmişdik və səndən əvvəl də onlara bir qorxudan göndərməmişdik.

45. Onlardan əvvəlkilər də (Allahın ayələrini) yalan hesab etmişdilər. Halbuki, bunlar onlara verdiklərimizin onda biri də etmir. Onlar Mənim elçilərimi yalançı saydılar. Elə isə (bax, gör) Mənim (onlara verdiyim) əzab necə oldu!

46. De: “Mənim sizə bircə nəsihətim var, o da budur ki, Allah üçün iki-iki, bir-bir ayağa qalxın, sonra da düşünün. Sizin yoldaşınızda (Muhəmməddə) heç bir dəlilik yoxdur. O, yalnız sizi şiddətli əzabdan qorxudub xəbərdar edəndir”.

47. De: “Mən sizdən nə haqq istəmişəmsə, sizin özünüz üçün olub. Mənim haqqım ancaq Allahdan olacaqdır. O, hər şeyə şahiddir”.

48. De: “Rəbbim haqqı endirir. O, qeybləri biləndir”.

---

46. Düşünmə əmri: Doğru yolda olan məzhəblərdən hər zaman təhlükə hiss edən materialist məktəblər dinlərin kütlələri yanlış düşüncələrə

çağırdığını israrla qabardırlar. Əlbəttə, bu, çox geniş bir mövzudur, öz yerində onlara tutarlı və qətiyyətli cavablar verilmişdir. Quranın müxtəlif ayələrində, o cümlədən nəzər nöqtəsi olan bu ayədə həmin insanlar düşüncə və təfəkkürə dəvət edilir. Hətta Quranda dinin xülasəsinin, insan təkamülü və inkişafının mahiyyətinin təfəkkür və düşüncədən ibarət olduğu qeyd edilir. İslam kimi bir dinin gətiricisi bütün insanları sakit və iğtişaşsız bir mühitdə yatmış düşüncələri oyatmağa, qiyama qaldırmağa səslədiyi bir halda, bu din cəhalətə necə səbəb ola bilər? İslam insanı ehtiras və həvəslərdən, zəhərli təbliğat dalğalarından, təəssüb və inadkarlıqlardan uzaq bir mühitdə Allah üçün qalxmağa və düşünməyə çağırdığı, yeganə nəsihətinin bundan ibarət olduğunu bəyan etdiyi, bu çağırışını dəfələrlə təkrarladığı bir halda, belə bir dinin fikir və düşüncələri keyləşdirdiyini iddia etmək gülünc görünmürmü? Quran hətta təklikdə də deyil, iki-iki və kollektiv şəkildə düşünməyə, peyğəmbərlərin çağırışlarının məzmunu və dəlilləri haqqında düşünməyə, ağıl qəbul etdiyi təqdirdə qəbul etməyə dəvət edir. Qəribədir ki, bəzi mütəfəkkirlər fövqəl-təbii dünyanı qəti surətdə inkar edir, dini insanların uydurduğu bir hadisə hesab edir, bunun qorxu, elmi həqiqətlərdən xəbərsizlik, psixoloji qüsurlar və sair nəticəsində meydana gəldiyini iddia edirlər. Ancaq maddi aləmin fövqündə bir dünyanın mövcud olması ehtimalı ilə heç bir önyargı olmadan tövhid və peyğəmbərlərin peyğəmbərlik missiyalarının dəlilləri haqqında düşünmürlər. Maraqlıdır ki, Quranın ayələrinin çoxunun son hissəsi insanları düşünməyə, fikirləşməyə və xatırlamağa çağırır. Hədislərdə də fikir və düşüncəyə birinci dərəcədə əhəmiyyət verildiyinin şahidi oluruq. Hədislərinin birində İmam Rza (ə) belə

buyurmuşdur: ***"İbadət namazın və orucun çoxluğu ilə deyil. Həqiqi ibadət Allahın işlərini düşünməkdir."***[1772]

47. Sizdən mükafat istəmək sizin özünüz üçündür: Bu ayə ilə bağlı yozum mövcuddur: 1. Heç bir qeyd-şərtsiz hər növ mükafat istəyində olmamaq nəzərdə tutulur: 2. Bəzi məqamlarda mənə Allah tərəfindən göndərilən cümlələrdə mənim sizdən mükafat istəməyim, habelə sizdən mükafat istəyib "Perğəmbərliyimin müqabilində sizdən muzd olaraq yalnız yaxınlarımı sevməyi istəyirəm" (Şura-23) deməyim sizin xeyrinizədir. Çünki yaxınlarıma qarşı sevgi imamət və rəhbərlik mövzusuna qayıdış və peyğəmbərlik xəttinin davam etməsidir. Bəziləri bu ayənin nazilolma səbəbindən danışarkən bildirirlər ki, "Çura" surəsinin 23-cü ayəsi nazil olduqdan sonra Peyğəmbər (s) Məkkə müşriklərinə buyurur: Yaxınlarımı narahat etməyin. Onlar da bu təklifi qəbul edirlər. Ancaq Peyğəmbərin (s) onların bütləri haqqında xoşagəlməz sözlər dediyini görüb deyirlər: Ey Muhəmməd! Bizimlə ədalətlə davran. Bir tərəfən bizdən istəyirsən ki, qohum-ərəbanı incitməyək, digər tərəfdən də tanrılarımız haqqında xoşagəlməz sözlər danışıb bizi incidirsən." Bu zaman nəzər nöqtəsi olan ayə nazil olur və onlara deyilir: Peyğəmbərin sizdən istədiyi sizin xeyrinizədir. Onları incitsəniz də, incitməsəniz də bu, belədir.[1773]

[1772] Nümunə, c.18, səh.138
[1773] Nümunə, c.18, səh.144

49. De: “Haqq gəldi. Batil nə ortaya yeni bir iş qoya, nə də onu yeniləyə bilər”.

50. De: “Əgər mən haqq yoldan çıxsam, özüm çıxmış oluram. Yox, əgər doğru yolla gedirəmsə, bu da Rəbbimin mənə nazil etdiyi vasitəsilədir. O, eşidəndir, yaxındır”.

51. Kaş ki, onları fəryadları ucaldığı, ancaq qaça bilmədikləri, yaxınlıqdan götürüldükləri vaxt görəydin.

52. (O halda): “Haqqa iman gətirdik!” – deyəcəklər. Amma uzaq bir yerdən ona necə nail ola bilərlər?!

53. Onlar bundan əvvəl onu inkar edir, uzaqdan uzağa, görmədən (və bilmədən) xoşagəlməz fikirlər yürüdürdülər.

54. Daha öncə onların bənzərlərinə edildiyi kimi, arzuladıqları şeylərlə onların arasına ayrılıq salındı. Çünki onlar şək- şübhə içində idilər.

"Fatir" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Həmd göyləri və yeri yaradan, mələkləri iki, üç və dörd qanadlı elçilər edən Allah üçündür. O, yaratdıqlarından istədiyini artırır. O, hər şeyə qadirdir.

2. Allah insanların üzünə hansı rəhməti açsa, heç kəs onun qarşısını ala bilməz. Nəyi də saxlasa, Ondan başqa heç kəs onu göndərə bilməz. O, yenilməz qüdrət və hikmət sahibidir.

3. Ey insanlar! Allahın sizə verdiyi neməti xatırlayın. Allahdan başqa sizə göydən və yerdən ruzi verən bir xaliq varmı? Ondan başqa heç bir məbud yoxdur. Bununla belə, batilə doğru necə azırsınız?

"Fatir" surəsinin ümumi məzmunu: Bu surənin məzmununu beş bölmədə ümumiləşdirmək olar: 1. Kainatda Allahın əzəmətini göstərən nişanələr və tövhidə aid dəlillər; 2. Allahın yaratmaq və idarə etmək xüsusiyyəti. İnsanın torpaqdan yaranması və təkamül mərhələləri; 3. Qayıdış və əməllərin axirət nəticələri. Allahın bu dünyanı saran geniş rəhməti. Onun özünü üstün tutanlarla bağlı olan dəyişməz qanunu; 4. Peyğəmbərlərin rəhbərliyi, onların inadkar düşmənlə davamlı mübarizəsi. Bu işdə

Peyğəmbərə (s) təskinlik verilməsi; 5. Müxtəlif istiqamətlərdən keçmiş mövzuları təkmilləşdirən öyüd və nəsihətlər.[1774]

1. Quranda mələklər: Quranın çox ayələrində mələklərin xüsusiyyətləri, əlamətləri, missiyaları və vəzifələrindən danışılır. "Bəqərə" surəsinin 285-ci ayəsində mələklərə inam Allah, peyğəmbərlər və səmavi kitablara iman sırasında qərarlaşdırılmışdır. Bu da sözügedən mövzunun çox mühüm əhəmiyyət daşıdığından xəbər verir. Şübhəsiz ki, mələklərin mövcudluğu qeybə aid məsələlərdəndir. Onların mövcudluğunun yeganə sübut yolu nəqli dəlillərdir. Qeybə iman prinsipinə əsasən onları qəbul etmək şərtdir. Quranda mələklərin xüsusiyyətləri belə qeyd edilir: 1. Onlar şüurlu varlıqlar və Allahın hörmətli bəndələridirlər (Ənbiya-26); 2. Onlar Allahın əmrinə tabedirlər, əsla günah etməzlər (Ənbiya-27); 3. Onlar Allahın əmri ilə mühüm vəzifələri icra edir, ayrı-ayrı işlər görürlər. Bir qrupu ərşi daşıyır (Haqqə-17), bir qrup işləri nizama salır (Naziat-5), bir qrup canları almağa məmurdurlar (Əraf-37), bir qrupu insanların əməllərini gözətləyir (İnfitar-10-13), bir qrup insanı təhlükələrdən və xoşagəlməz hadisələrdən qoruyur (Ənam-61), bir qrup üsyankar xalqları cəzalandırmaq və onlara əzab gətirmək vəzifəsi daşıyır (Hud-77), bir qrupu müharibələrdə möminlərə yardım göstərir (Əhzab-9), bir qrupu vəhy və səmavi kitabları peyğəmbərlərə çatdırırlar (Nəhl-2); 4. Onlar davamlı olaraq Allaha həmd və tərifl ər deyirlər (Şura-5); 5. Bununla belə insan kamilləşmə potensialı ilə onlardan üstündür. Məhz bu cəhətdən bütün mələklər heç bir istisnasız onun qarşısında səcdəyə qapanmışlar (Bəqərə-30-34); 6. Onlar bəzən insan surətinə düşür, peyğəmbərlərin, hətta Məryəm (ə) kimi peyğəmbər olmayanların da gözünə görünürlər (Məryəm-17, Hud-69, 77, 78); 7.

[1774] Nümunə, c.18, səh.161

Hədislərdə qeyd olunur ki, onların sayı insanların sayı ilə müqayisəyə gəlməyəcək qədər çoxdur. İmam Sadiq (ə) buyurmuşdur: ***"And olsun canım əlində olan Allaha! Göylərdə mələklərin sayı yerdəki torpaq zərrələrinin sayından çoxdur. Göydə ayaq qoymağa elə bir yer yoxdur ki, orada mələklər Allaha həmd və tərif deməsinlər"***; 8. Onlar yemək yemir, su içmir və evlənmirlər; 9. Onlar yatmırlar, zəifləmirlər, qafil olmurlar; 10. Onların bəlli məqamları var. Burada ortaya belə bir sual çıxır: Qeyd olunan bu xüsusiyyətlərlə onlar maddi, yoxsa qeyri-maddi varlıqlardır? Şübhəsiz ki, bu xüsusiyyətlərlə onlar maddi varlıq ola bilməzlər. Ancaq bizim bildiyimiz maddələrin fövqündə olan incə və lətif maddələrdən yaradıldıqlarını da söyləmək olar.[1775] Bu ayədə diqqət çəkən başqa bir nüans mələklərin qanadlarının olmasıdır. Təbii ki, qanad quşların uçmaq, yerdən göyə qalxmaq, göydən yerə enmək, bir yerdən başqa bir yerə hərəkət etmək üçün istifadə etdikləri bir vasitədir. Quranda bu həqiqətə işarə edilir və bildirilir ki, qanadlı quşlar kimi onlar da elə vasitələrə malikdirlər ki, Allahın əmri ilə göydən yerə enir, yerdən göyə ucalır, bir yerdən başqa bir yerə hərəkət edirlər. Əlbəttə, bu vasitənin necəliyi bizə məlum deyil.[1776]

[1775] Nümunə, c.18, səh.173
[1776] Əl-Mizan, c.17, səh.7

4. Əgər onlar səni yalançı hesab etsələr, (kədərlənmə,) səndən əvvəlki peyğəmbərlər də yalançı hesab olunmuşdu. Bütün işlər Allaha qaytarılacaqdır.

5. Ey insanlar! Allahın vədi haqdır. Nəbadə bu dünya sizi aldatsın, şeytan sizi tovlayıb Allahla (Allahın kərəmi ilə) aldatsın.

6. Şübhəsiz ki, şeytan sizin düşməninizdir, elə isə onu düşmən sayın. O yalnız öz tərəfdarlarını od sakini olmağa çağırır.

7. Küfr yolunu tutanlar üçün şiddətli əzab var. İman gətirib yaxşı işlər görənlərə gəldikdə, bağışlanma və böyük mükafat onlara məxsusdur.

8. Pis əməli özünə gözəl göstərilib onu yaxşı və gözəl görənlə (həqiqəti olduğu kimi görən kimsə eyni ola bilərmi?) Allah istədiyini haqq yoldan azdırır, istədiyini də doğru yola yönəldir. Sən onlara görə təəssüflənib özünü əldən salma. Allah onların nə etdiklərini bilir.

9. Buludları hərəkətə gətirmək üçün külәkləri göndərən Allahdır. Biz onları ölü bir yerə tərəf qovub, onun vasitəsilə yeri ölümündən sonra canlandırırıq. Diriliş də belə olacaqdır.

10. Kim qüdrət (sahibi olmaq) istəsə, (bilsin ki,) qüdrət bütünlüklə ancaq Allaha məxsusdur. Pak sözlər Ona tərəf yüksəlir və saleh əməli

ucaldır. Pis və məkirli planlar hazırlayanları şiddətli bir əzab gözləyir. Onların məkrləri puça çıxacaqdır.

11. Allah sizi torpaqdan, sonra nütfədən yaratmış, sonra da sizi cütləşdirmişdir. Onun xəbəri olmadan heç bir dişi nə hamilə olar, nə də daşıdığını yerə qoya bilər. Uzunömürlünün uzun ömür sürməsi də, onun ömrünün qısaldılması da Kitabda yazılmışdır. Bunlar hamısı Allah üçün asandır.

---

5. Nabadə şeytan sizə hiylə gəlib Allahla aldatsın: Şeytan insanların diqqətini bir tərəfdən Allahın həlim və mehriban olmasına, digər tərəfdən isə günahkar və kafirlərə bəxş etdiyi nemətlərə yönəldir. Bir tərəfdən Allahın bağışlayan və əzaba tələsməyən bir varlıq olduğunu, digər tərəfdən isə dünyapərəstlərin Allahın əzabına tuş gəlmədiklərini, nə qədər dünya axtarırlarsa, nə qədər Allahı unudurlarsa, günah bataqlığına batırlarsa, həyatlarının daha da yaxşı olmasını, daha rahat yaşamalarını, insanlar arasında daha hörmətli olduqlarını təlqin edir. Bu şəkildə şeytan öz vəsəvəsələrindən nəticə alır, insanlara dünya həyatını inkişaf etdirməkdən başqa heç bir dəyər və hörmətin olmadığını, maddi həyatın fövqündə heç bir həyatın olmadığını, dində haqqında danışılan vəd, vəd verən, Qiyamət, sorğu-sual, Cənnət və Cəhənnəmin xurafat olduğunu təlqin edir, nəticədə, insana qəflət və zülm sayəsində məruz qalacağı aqibəti unutdurur.[1777]

8. Haqq yoldan sapmışların bədbəxtliklərinin səbəbi: Bu ayədə haqq yoldan sapmış inadkar xalqların bütün bədbəxtliklərinin ən mühüm əlaməti qeyd edilmişdir. O da budur ki, onların çirkin əməlləri ehtirasları və qara qəlbləri ilə əlbir olduğu üçün onlara gözəl görünür. Təbii ki, belə bir şəxs

---

[1777] Əl-Mizan, c.17, səh.17

nəsihət qəbul etməz, tənqid dinləmək istəməz, yolundan dönməz, əməllərini təhlil etməz, gördüyü işlərin nəticəsindən qorxusu olmaz. Bəs görəsən günahkarların çirkin əməllərini onların gözündə gözəl göstərən kimdir; şeytan, nəfs, yoxsa Allah? Şübhəsiz ki, əsl amil nəfs və şeytandır. Ancaq Allah-taala pis işlərdə də nəticə və təsir gücü qoyduğu üçün onu Allaha da aid etmək olar. İnsanlar günaha batdıqları vaxt ilk başlanğıcda fitrətləri pak, vicdanları oyaq və ağılları həqiqəti görən olduğu üçün tutduqları işdən narahat olurlar. Lakin gördükləri əməllər təkrarlandıqca narahatlqıları azalır, nəhayət laqeydlik həddinə çatırlar, təkrarlar artıqca çirkinliklər gözlərində gözəl görünməyə başlayır. Hətta iş o yerə çatır ki, həmin çirkin davranışları fəxr və üstünlük hesab edirlər. Halbuki, bədbəxtlik girdabında batırlar.[1778] Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Bir gün şeytan həzrət Musa (ə) ilə qarşılaşır. Söhbət əsnasında həzrət Musa (ə) ondan soruşur: Mənə elə bir günah de ki, insan onu törətdikdə sən ona hakim kəsilirsən? Deyir: İnsanın özünün özündən xoşu gəldiyi, gördüyü işləri çox hesab etdiyi, günahları gözündə kiçildiyi vaxt (ona hakim kəsilirəm)."***[1779]

10. Pak söz: "Əl-Kəlimut-təyyib" pak sözlər deməkdir. "Pak söz" deyilərkən sözün ifadə etdiyi məzmunun paklığı nəzərdə tutulur. Məzmun paklığı isə pak və parlaq reallığı ehtiva edən obyektiv reallıqlara əsaslanır. Allahın pak zatı, onun haqq dini və ədaləti, bu dinin yayılmasında rol oynamış təmiz insanlardan daha üstün paklıq nə ola bilər? Buna görə də pak söz başlanğıc və qayıdışa doğru-düzgün inanc və Allahın haqq dini kimi izah edilir. Allaha doğru yalnız belə bir inanc yüksələ, sahibini də özü ilə qaldıra və Allaha yaxın edə bilər. Bəzi təfsirçilər "pak" sözünü "La ilahə illəllah",

---

[1778] Nümunə, c.18, səh.187
[1779] Kafi, c.2, səh.329

Əhli-beytin (ə) rəhbərliyi və sair kimi yozmuş, bu ifadənin izahı ilə bağlı parlaq versiyalar irəli sürmüşlər. Ümumiyyətlə, bu ayə pak və yüksək məzmuna malik olan istənilən sözə şamil olur.[1780]

[1780] Nümunə, c.18, səh.194

12. İki dəniz eyni deyildir. Birinin suyu dadlı, şirin və içilməsi zövqlü, digərininki isə həddindən artıq duzlu, acı və nəfəs kəsəndir. Hər ikisindən təzə ət yeyir, bəzək əşyaları çıxarıb taxırsınız. Allahın nemətlərindən bəhrələnməyiniz üçün sən onda gəmilərin suları yardığını görürsən. Bəlkə Ona şükür edəsiniz.

13. O, gecəni gündüzə, gündüzü də gecəyə daxil edir. O, günəşi və ayı ram etmişdir. Onların hər biri müəyyən olunmuş vaxtadək hərəkət edir. Bu sizin Rəbbiniz olan Allahdır. Hökmranlıq Ona məxsusdur. Sizin Ondan başqa çağırdıqlarınız xurma çəyirdəyinin nazik pərdəsi qədər malikiyyətə sahib deyillər.

14. Əgər siz onları çağırsanız, onlar sizin duanızı eşitməzlər, eşitsələr də cavab verə bilməzlər. Qiyamət günü sizin şirkinizi (və onlara ibadət etdiyinizi) danacaqlar. Heç kəs xəbərdar olan (Allah) kimi səni xəbərdar edə bilməz.

15. Ey insanlar! Siz Allaha möhtacsınız. Ehtiyacsız, həmd və sitayişə layiq olan təkcə Odur.

16. Əgər istəsə, sizi aparıb yeni bir məxluq gətirər.

17. Bu, Allah üçün çətin deyildir.

18. Heç bir günahkar başqasının günah yükünü çiyinləri üzərinə almaz. Yükü ağır olan kimsə günahını daşımaq üçün başqasını çağırsa və çağırdığı kimsə hətta yaxın qohumlarından olsa belə, çiyinləri üzərinə o yükdən heç nə almaz. Sən ancaq öz Rəblərindən gizlində qorxanları və namaz qılanları qorxudursan. Kim təmizlənirsə, nəticəsi özünə qayıdır. (Hər kəsin) qayıdışı Allahadır.

-

14. Ayələrdən sui-istifadələr: Bir qrup vəhhabi müsəlmanların şəfaət və təvəssül vasitəsilə Peyğəmbər (s) və böyük öndərlərlə olan əlaqəsini inkar etmək üçün bu və bənzər ayələrdən istifadə edərək belə iddia edirlər: Qurana görə "Allahdan başqa çağırdıqlarınız sizi eşitməz, əgər eşitsələr də, cavab verməzlər". Bu şəkildə peyğəmbər və imamların ruhlarının vasitəçi olmasını inkar edir, onun tövhid inancına zidd olduğunu düşünürlər. Halbuki bundan əvvəlki və sonrakı ayələrdə bütlərdən, Allaha şərik qoşulan, qüdrət sahibləri olduğu düşünülən daş və taxtadan danışılır. Peyğəmbər və övliyanın Quranın açıq şəkildə diri olduqlarını bəyan etdiyi şəhidlər kimi Bərzəx həyatına malik olmadıqlarını kim bilmir? Onu da bilirik ki, maddi örtüklərdən və dünya asılılıqlarından xilas olduğu üçün Bərzəx həyatında olan ruhun fəaliyyəti daha genişdir. Digər tərəfdən, bu pak ruhların vasitəçi təyin edilməsi Allahla yanaşı onların da müstəqil qüdrət sahibi kimi qəbul edilməsi mənasında başa düşülməməlidir. Əslində, məqsəd Allah dərgahında onların abırlarından mədət ummaq, Allah yanında olan hörmət və böyüklüklərindən istifadə etməkdir. Bu isə tövhid və Allaha bəndəlikdən ayrı bir şey deyil. Allah Quranda şəfaətçilərin şəfaətini öz icazəsi ilə şərtləndirdiyi üçün vasitəçiliyin heç bir problemi yoxdur. Belə ki, tarixi mənbələrdə çətinlikləri olarkən səhabələrin Peyğəmbərin (s) qəbrinin kənarına getdiyini, onu özlərinə vasitəçi təyin etdiklərini, Allah dərgahında onun pak ruhundan yardım dilədiklərini oxuyuruq.[1781]

15. Bizim varlığımız səndəndir, Sən isə Öz zatınla varsan: Bu ayə çox mühüm və qiymətli bir məsələyə toxunur və bu dünyada bizim Allah qarşısındakı mövqeyimizə aydınlıq gətirir. Bütün kainatda sözün əsl mənasında ehtiyacsız olan, öz zatı ilə var olan yeganə varlıq birdir və o

[1781] Nümunə, c.18, səh.216

Allahdır. Bütün insanlar, ümumiyyətlə, bütün mövcudat Ona möhtacdır, o müstəqil varlıqdan asılıdır. Əgər Onunla olan əlaqələri bir an kəsilsə, tamamilə yox olararlar. O, mütləq ehtiyacsız olduğu kimi, insanlar da mütləq möhtacdırlar. O, Öz zatı ilə var olduğu kimi, bütün yaranmışlar da Onun zatı ilə mövcuddurlar. Bəs belə olan halda, Onun bizim ibadətimizə nə ehtiyacı var? Ona ibadət və itaət edərək kamilləşən, o sonsuz başlanğıca bəndəlik sayəsində anbaan Ona daha da yaxınlaşan, zat və atributlarının nurundan faydalanan bizik. Hamımız başqasına deyil, yalnız Ona möhtacıq, buna görə də Ondan qeyrisinin kandarına təzim və təslim niyyəti ilə baş qoymamalı, ehtiyaclarımızın aradan qaldırılmasını Ondan qeyrisindən istəməməliyik. Çünki onlar da bizim kimi möhtacdırlar. Peyğəmbər və imamlar (ə) da məhz Onun göndərdikləri və Onun nümayəndələri olduqları üçün yüksək tutulurlar. Onların heç bir müstəqillik və istiqlaliyyəti yoxdur. O həm ehtiyacsızdır, həm də tərifəlayiq. Yəni ehtiyacsız olduğu halda, elə bağışlayan və mehribandır ki, istənilən həmdə və təşəkkürə layiqdir. Bağışlayan və bəndə sevən olduğu halda, ehtiyacsızdır. Bu həqiqətə diqqət mömin insanlara iki şəkildə müsbət təsir göstərir; onları təkəbbür, xudpəsəndlik, üsyan mərtəbəsindən endirir, özlərini üstün tutmaları üçün özlərindən heç nələri olmadığını, malik olduqlarının hamısının Allahın onlara verdiyi əmanətlər olduğunu onlara dərk etdirir, Ondan qeyrisinin dərgahına əl açmamaq, Allahdan qeyrisinin bəndəlik buxovunu boyunlarına keçirməmək yolunu göstərir. Möminlər bu baxış və dünyagörüşü ilə dünyada nə görürlərsə, Allahın varlığının sayəsində olduğunu dərk edirlər. Səbəblər aləmi onlara səbəblər səbəbini əsla unutdurmur.[1782]

[1782] Nümunə, c.18, səh.220

19. Kor ilə görən əsla eyni deyildir,

20. zülmətlərlə işıq da,

21. kölgə ilə yandırıcı külək də (eyni deyildir).

22. Ölülərlə dirilər də eyni deyillər. Allah öz ismarışını istədiyinin qulağına çatdırır. Sən isə öz sözünü qəbirdə yatanlara eşitdirə bilməzsən.

23. Sən yalnız qorxudansan.

24. Biz səni haqq olaraq müjdə vermək və qorxutmaq üçün göndərdik. Keçmişdə hər bir ümmətin bir qorxudanı olmuşdur.

25. Əgər onlar səni yalançı hesab etsələr, (təəccüblü deyil,) onlardan əvvəlkilər də (öz peyğəmbərlərini) yalançı hesab etmişdilər. Halbuki elçiləri onlara aydın dəlillər, öyüd-nəsihət kitabları və aydınlıq gətirən kitab gətirmişdilər.

26. Sonra Mən kafirləri yaxaladım. Mənim onlara verdiyim əzab necə oldu?

27. Məgər Allahın göydən su endirdiyini və onunla rəngarəng meyvələr yetişdirdiyimizi, dağlarda da müxtəlif rəngli – ağ, qırmızı və tünd qara cığırlar açdığımızı görmürsənmi?

28. İnsanlar, canlılar və heyvanlar arasında da bu cür müxtəlif rəngli olanları vardır. Həqiqət belədir. Bəndələri arasında Allahdan yalnız alimlər qorxar. Allah qüdrətlidir, bağışlayandır.

29. Allahın kitabını oxuyanlar, namaz qılanlar və verdiyimiz ruzilərdən gizli və aşkar xərcləyənlər ziyansız və tükənməz bir ticarətə ümid edirlər.

30. (Onlar bu saleh əməlləri ona görə edirlər ki, Allah) onlara kamil haqq və mükafat versin, lütfünü onlar üçün artırsın. O, bağışlayandır, təşəkkür edəndir.

19-23. İman və küfrün təsirləri: Quranda coğrafi, irqi, sinfi və insanları bir-birindən ayıran bu kimi sərhədlərin mühüm əhəmiyyət daşımadığı qeyd edilir. Quran nöqteyi-nəzərindən yeganə sərhəd iman və küfr sərhədi hesab edilməlidir. Yəni bütün insan cəmiyyətini mömin və kafir olmaq üzrə iki qrupa bölmək olar. Quranın ayrı-ayrı yerlərində dəfələrlə iman nura, küfr isə qaranlığa bənzədilmişdir. Bu, Quranın küfr və iman üçün

təqdim etdiyi ən canlı bənzətmədir. İman daxili dərk və baxış formasıdır, batini inanc, hərəkət və fəaliyyətlə müşayiət olunan elm və bilikdir, insanın ruhunun dərinliklərinə nüfuz edən və konstruktiv fəaliyyətlərin mənbəyinə çevrilən bir inancdır. Küfr isə hərəkətsizliklə, məsuliyyət hissinin olmaması, şeytani və azğın hərəkətlərlə nəticələnən cəhalət, məlumatsızlıq və inamsızlıqdır. Bunu da bilirik ki, maddi dünyada işıq insan, heyvan və bitki aləminin həyatı, hərəkəti, inkişafın və artımın mənbəyi hesab edilir. Qaranlıq və zülmət isə sükut, yuxu və sairənin səbəbi, davam edəcəyi təqdirdə ölüm və həyatın sona çatması hesab edilir. Buna görə də bu ayələrdə iman və küfrün bir yerdə işıq zülmətə, başqa bir yerdə həyat və ölümə, bir yerdə rahatlıq bəxş edən kölgəyə və yandırıcı küləyə, ayrı yerdə görmə və korluğa bənzədilməsi heç də təəccüblü deyil. Bütün deyilməli olanlar bu dörd bənzətmədə bəyan edilmişdir. Mömin bir adamla ünsiyyətdə olanda bu nurun təsirini bütün varlığımızda hiss edirik; fikirləri işıq saçır, sözləri parlaqlıq gətirir, əməlləri və əxlaqı bizi gerçək həyatın həqiqəti ilə tanış edir. Ancaq kafirin bütün varlığından zülmət yağır, yalnız öz keçici və maddi mənfəətlərini düşünür, fikir üfüqü şəxsi həyat çərçivəsindən kənara çıxmır, ehtiraslarında batır, onunla oturan adamın qəlbini və ruhunu zülmət dalğalarına qərq edir.[1783]

28. Həqiqi alimlər: Bu ayədən belə başa düşülür ki, həqiqi alimlər üzərlərinə düşən vəzifələr qarşısında özlərini məsuliyyətli sayanlardır. Başqa sözlə desək, söz deyil, əməl adamlarıdırlar. Çünki əməlsiz elm qorxunun olmamasının bir sübutudur. Ayədə bu cür əməl sahibləri alimlər zümrəsindən hesab edilməmişlər. Bu həqiqət İmam Səccadın (ə) da bir hədisində öz əksini tapmışdır: ***"Elm və əməl iki səmimi dostlardır. Allahı***

[1783] Nümunə, c.18, səh.231

tanıyan şəxs ondan qorxar. Bu qorxu həmin şəxsi Allahın əmrinə itaət göstərməyə və əməl etməyə vadar edər. Elm sahibləri və onların ardıcılları Allahı yaxşı tanıyan, onun üçün əməl edən və onu sevən şəxslərdir. Allah-taala: "Bəndələri arasında Allahdan yalnız alimlər qorxar." – deyə buyurmuşdur". Bu ayəni təfsir edərkən İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Bu ayədə "alimlər" deyilərkən əməlləri sözləri ilə üst üstə düşən şəxslər nəzərdə tutulur. Sözü ilə əməli düz gəlməyn insan alim deyil."*** Başqa bir hədisdə: "Ən çox alim olanınız Allahdan ən çox qorxanınızdır". Qısası, Quran məntiqi ilə alimlər beyinləri onun-bunun fikir və rəylərinin sandığı, dünyanın elmi qanun və formullarının anbarı, dilləri bu məsələlərin sözçüsü, yaşadıqları yer məktəblər, universitetlər, kitabxanalar olan şəxslər deyil. Alimlər, elm və bilik işığı bütün varlıqlarını Allah, iman və təqva nuru ilə işıqlandıran, onları vəzifələrinə qarşı məsuliyyətli edən şəxslərdir.[1784]

[1784] Nümunə, c.18, səh.247

31. Kitabdan sənə vəhy etdiyimiz haqdır, özündən əvvəlki kitabların təsdiqləyicisidir. Allah qullarından xəbərdardır, görəndir.

32. Sonra bu kitabı qullarımız içərisindən seçdiklərimizə miras etdik. Onlardan kimisi özünə zülm edər, kimisi orta yol tutar, kimisi də Allahın izni ilə yaxşı işlərdə öndə gedər. Böyük lütf də budur.

33. (Onların mükafatı) əbədi Cənnət bağlarıdır. Oraya qızıl və mirvari bilərziklərlə bəzədilmiş halda daxil olacaqlar. Oradakı libasları ipəkdəndir.

34. Onlar deyəcəklər: “Həmd qəm-qüssəni bizdən uzaq edən Allah üçündür! Rəbbimiz bağışlayandır, təşəkkür edəndir.

35. Öz lütfü ilə bizi bu (əbədi) iqamətgahda yerləşdirən Odur. Orada bizə nə bir narahatlıq, nə zəiflik, nə də bir uğursuzluq üz verəcək!”

36. Kafirləri isə Cəhənnəm odu gözləyir. Nə ölüm əmrləri verilməz ki, ölüb qurtarsınlar, nə də əzablarından bir şey yüngülləşdirilər. Biz hər bir kafiri belə cəzalandırırıq.

37. Onlar Cəhənnəmdə fəryad qoparıb deyəcəklər: “Ey Rəbbimiz! Bizi çıxart ki, etdiyimiz əməlləri deyil, yaxşı əməllər edək”. (Cavablarında onlara deyiləcək:) “Sizə xatırlaya bilənlərin xatırlaya biləcəyi qədər ömür vermədikmi? Sizə qorxudan da gəlmişdi. Elə isə dadın (əzabı!) Zalımlara heç bir kömək edən olmaz”.

38. Allah göylərin və yerin qeybini biləndir. O, kökslərdə olanları bilir.

---

32. Allah kitabının varisləri: Ayədə “kitab” deyilərkən Quran nəzərdə tutulur. Miras heç bir alqı-satqı olmadan, zəhmət çəkilmədən əldə edilən mülkə deyilir. Quranın miras hesab edilməsi Allahın bu böyük kitabı müsəlmanlara heç bir çətinlikləri olmadan verməsi ilə bağlıdır. Bu ayəyə əsasən Allah-taala Peyğəmbərdən (s) sonra Quranın qorunmasını ümmətin öhdəsinə qoymuşdur. Ümmət bu işin icrasında üç qrupa bölünür: Bəziləri bu kitabın qorunması və onun hökmlərinin icrasında səhlənkarlıq etmiş, nəticədə, özlərinə zülm edənlər adı almışlar. Bəziləri öz işlərində müəyyən yanlışlıqlara yol versələr də, vəzifələrinə çox yüksək səviyyədə əməl etmiş, nəticədə, orta yolu tutanlar adı almışlar. Vəzifələrinə daha yaxşı şəkildə əməl edən, yarış meydanında digərlərindən daha öndə gedən seçilmişlər isə yaxşı işlərdə öndə gedənlər adı almışlar.[1785] Hədislərin çoxunda bu ayədə həzrət Fatimənin (ə) məsum övladlarının nəzərdə tutulduğu qeyd edilmişdir. Quranın varisləri və yaxşı işlərdə hər kəsdən öndə olan seçilmiş bəndələr məhz onlardır. Peyğəmbər (ə) də məşhur “səqəleyn” hədisində onların Quranın biliciləri olduğunu, hər zaman bu səmavi kitabla birlikdə

[1785] Nümunə, c.18, səh.260

olduqlarını buyurmuşdur. Səqəleyn (iki ağır əmanət) hədisində Peyğəmbər (s) belə buyurmuşdur: "Mən sizin aranızda iki qiymətli əmanət qoyuram; Allahın kitabı və Əhli-beytim. Bu ikisi hovuzda mənim yanıma gələnə qədər bir-birindən əsla ayrılmaz." Hədislərinin birində İmam Rzanın (ə) bu ayə haqqında belə buyurduğunu oxuyuruq: "Bu ayədə Fatimənin (ə) oğlanları nəzərdə tutulmuşdur. Yaxşı işlərdə öndə gedən imamdır, imamı tanıyan orta yolu tutan, imamı tanımayan isə özünə zülm edəndir."[1786]

35. Narahatlıq və uğursuzluğun olmayacağı yer: Ayədə Allahın Cənnət əhlinə bəxş etdiyi və bir-birini tamamlayan iki böyük nemətinə işarə edilmişdir. Ora insanların qalacaqları yerdir. Bu yerlə tanış olub oraya bağlandıqdan sonra oradan köçmək əmri verilməyəcək, həyatları əbədiləşəcək, əzab-əziyyət hiss etməyəcəklər. Orada ümumiyyətlə, belə bir anlayış olmayacaq, hətta uzunömürlükləri də yorucu və bezdirici olmayacaq. Çünki onlara hər gün yeni nemətlər veriləcək, Allahın bəxş etdiyi nemətlər hər gün yeni görüntü alacaq.[1787]

37. Ayədə Cəhənnəm əhlinə açıq şəkildə belə deyilir: Sizə az şey verilməyib. İxtiyarınızda yetərli qədər fürsət olub. Allah tərəfindən sizə çoxlu sayda qorxudanlar gəlmişdir. Bu iki faktor oyanmaq və nicat tapmaq üçün kifayət edirdi. Buna görə də sizin heç bir bəhanəniz ola bilməz. Əgər kifayət qədər vaxtınız olmasaydı, üzr və bəhanə etmək üçün əsasınız olardı. Əgər vaxtınız olsaydı, ancaq heç bir rəhbər və haqq yolu göstərən göndərilməsəydi, yenə üzrünüz olardı. Lakin bu ikisi olduğu halda, nəyi bəhanə edə bilərsiniz? Hədislərdə oyanış və xatırlama üçün yetərli qədər ömür verilməsi müxtəlif ifadələrlə bəyan edilmişdir. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Allah kimməsə altmış il ömür veribsə, üzr***

[1786] Əl-Mizan, c.17, səh.45
[1787] Nümunə, c.18, səh.270

qapısı artıq onun üzünə bağlanmışdır.” Başqa bir hədisində isə belə buyurmuşdur: ***“Qiyamət günü yetişəndə carçı “Altmış yaşlılar haradadır?” – deyə car çəkəcək. Bu Allahın “Sizə xatırlaya bilənlərin xatırlaya biləcəyi qədər ömür vermədikmi?” – deyə buyurduğu həmin ömürdür.”*** İmam Sadiq (ə) hədislərinin birində belə buyurmuşdur: “Yetərli ömrün müddəti on səkkiz ildir.” Ola bilsin ki, sonuncu hədisdə həmin ömrün minimum həddi nəzərdə tutulmuşdur. Yəni yuxarıdakı hədisdə maksimum, burada isə minimum həddə işarə edilmişdir. buna görə də hədislər arasında heç bir təzad yoxdur.[1788]

[1788] Nümunə, c.18, səh.276

39. Sizi yer üzündə xələflər edən Odur. Kafirin küfrü öz ziyanına olacaq. Kafirlərin küfrü Rəbləri yanında ancaq qəzəb artırar. Kafirlərin küfrü onlara zərər və ziyandan başqa bir şey artırmaz.

40. De: “Mənə deyin görüm, Allahdan başqa çağırdığınız bu məbudlar yer üzündə nəyi yaradıblar? Yoxsa onların göylərdə (göylərin yaradılışı və idarə edilməsində) ortaqlıqlarımı var?” Yaxud onlara bir kitab vermişik, onlar da ondakı dəlilə istinad edirlər? Xeyr! Bunların heç biri deyil. Zalımlar bir-birinə ancaq yalan vədlər verirlər.

41. Göylərin və yerin malik olduqları sistemin sıradan çıxmaması üçün Allah onları tutub saxlayır. Əgər malik oldquları sistem pozulsa, onları Ondan başqa heç kəs tutub saxlaya bilməz. O, həlimdir, bağışlayandır.

42. Onlar son dərəcə təkidlə Allaha and içdilər ki, əgər onlara qorxudan bir peyğəmbər gəlsə, ümmətlərin ən doğru yolda olanı olacaqlar. Amma onlara peyğəmbər gəldikdə bu, onların ancaq qaçışını və nifrətini artırdı.

43. Bunlar hamısı onların yer üzündə təkəbbür göstərmələrinə və yaramaz hiyləgərliklər törətdiklərinə görə idi. Bu hiylələr isə yalnız öz sahiblərini yaxalayar. Onlar əvvəlkilərin başına gələn aqibətdən başqa bir

şeymi gözləyirlər? Sən Allahın qayda-qanununa heç bir əvəz tapa bilməzsən, Allahın qayda-qanununda heç bir dəyişiklik də tapa bilməzsən.

44. Məgər onlar özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmək üçün yer üzündə gəzib-dolaşmadılarmı? Onlar ki bunlardan daha qüvvətli idilər. Nə göylərdə, nə də yerdə heç nə Allahın qüdrətindən kənara çıxa bilməyəcək O, biləndir və qadirdir.

--

41. Göylər və yer onun qüdrəti sayəsində mövcuddur: Ayədə Allahın bütün göylər və yer üzündəki hakimiyyətindən söhbət açılır. Yaradılışın ilkin başlanğıcı, varlıq aləminin qorunub saxlanması və idarə edilməsi Allahın qüdrətindən asılıdır. Ancaq iş təkcə bununla bitmir, yaradılmışlar hər an yeni-yeni yaradılışa imza atır, davamlı olaraq lütf və mərhəmət mənbəyindən bəhrələnirlər. Əgər bu böyük mənbə ilə olan əlaqələri bir an kəsilsə, məhv olarlar. Yaddan çıxarmaq olmaz ki, planetlər nədənsə sallanmadan milyon illərdir ki, öz orbitlərində azacıq sapma olmadan hərəkətdədirlər. Günəş sistemində bunun real şahidiyik. Yer kürəsi milyon, bəlkə də neçə milyard ildir ki, Günəşin ətrafında fırlanır, cazibə və dafiə qüvvəsinin balansı sayəsində dəqiq nizamla öz orbitində hərəkət edir, Allahın fərmanından çıxmır. Tarix boyu bəzi astronomların hansısa quyruqlu ulduzun və ya digər planetin yer orbitinə yaxınlaşacağını və onunla toqquşacağını dəfələlə proqnozlaşdırdıqlarının şahidi olmuşuq. Belə həssas məqamlarda insanların əlindən heç nə gəlmədiyi, hadisənin insanların imkanları xaricində olduğu, Allahdan başqa heç kəsin onun qarşısını ala bilməyəcəyi aydın olur, hər kəs ehtiyacsız Allaha üz tutur. Ancaq ehtimal

edilən təhlükə sovuşduqdan sonra unutqanlıq kölgəsi insanları öz ağuşına alır.[1789]

43. Allah qanunlarının dəyişməzliyi: Quranın ayrı-ayrı ayələrində Allah qanunlarının dəyişməzliyindən söhbət açılır. Qeyd etməliyik ki, bizdən asılı olan və olmayan aləminə Quranda Allahın dəyişməz qanunları adlanan, əsla dəyişməyən sabit və dəyişməz qanunlar hakimdir. Bu qanunlar varlıq aləminə keçmişdə olduğu kimi, bu gün və sabah da hakim olacaqdır[1790]; insanların konustitusiya qanunları adlandırdıqları qanunlar kimi dəyişməzdir. Peyğəmbərlərə köməklik göstərilməsi və kafirlərin məğlubiyyətə uğraması, ölüm anında edilən tövbənin heç bir fayda verməməsi, Allah tərəfindən əzab nazil olması və sair bu daimi qanunlar sisteminə daxildir.[1791] Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, Quranın bəzi ayələrində ilahi qanunların təkcə dəyişməzliyindən (Əhzab-62), bəzi ayələrində isə onların təkcə əvəz edilməyəcəyindən (İsra-77) söhbət açılmışdır. Ancaq bu ayədə qeyd olunan ifadələr ardıcıl işlədilmişdir. Əvəzləmə deyilərkən nəyinsə tamamilə əvəzlənməsi, götürülüb yerinə başqasının qoyulması, dəyişilmə deyilərkən isə nəyinsə kəmiyyət və keyfiyyət baxımından dəyişdirilməsi nəzərdə tutulur. Beləliklə, Allah qanunları tamamilə əvəz edilməz, kəmiyyət, keyfiyyət, hətta zəiflik və kəskinlik baxımından da dəyişikliyə məruz qalmaz. Belə ki, Allah-taala oxşar günahlar üçün hər cəhətdən oxşar olan cəzalar nəzərdə tutmuş, bir qrupu cəzaya məhkum edib, başqa bir qrupu cəzadan azad etmir, eyni

[1789] Nümunə, c.18, səh.286
[1790] Nümunə, c.18, səh.296
[1791] Nümunə, c.17, səh.435

zamanda bir qrupu da yüngül cəza ilə cəzalandırmır. Bu forma sabitlik və dəyişməzlikdən qaynaqlanır, onda əvəzlənmə və dəyişilmə baş vermir.[1792]

[1792] Nümunə, c.18, səh.296

45. Əgər Allah insanları gördükləri işlərə görə dərhal cəzalandırsaydı, yer üzündə bir canlını belə sağ buraxmazdı. Lakin Allah onlara müəyyən vaxtadək (islah olsunlar deyə,) möhlət verir. Vaxtları çatanda isə (hər kəsə öz əməlinə görə cəza verəcəkdir). O öz qullarını görür (hamının əməl və niyyətlərindən xəbərdardır).

"Yasin" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ya Sin!

2. And olsun hikmətli Qurana!

3. Əlbəttə, sən göndərilmiş elçilərdənsən,

4. doğru yoldasan.

5. Bu Quran Qüdrətli və rəhmli Allah tərəfindən nazil edilib ki,

6. ataları qorxudulmamış, buna görə də özləri qafil olan bir qövmü qorxudasan.

7. Əmr onların çoxu barəsində gerçəkləşdi. Buna görə iman gətirmədilər.

8. Biz onların boyunlarına, çənələrinə qədər uzanan və başlarını dik saxlayan buxovlar keçirtdik.

9. Biz onların önlərindən bir sədd, arxalarından da başqa bir sədd çəkdik və gözlərini bağladıq. Buna görə də onlar görmürlər.

10. Sən onları qorxutsan da, qorxutmasan da, onlar üçün eynidir, iman gətirməyəcəklər.

11. Sən ancaq Allahın bu xatırlatmasına tabe olub mərhəmətli Allahdan gizlində qorxan şəxsi qorxuda bilərsən. Beləsini bağışlanma və çox qiymətli bir mükafatla müjdələ.

12. Həqiqətən, Biz ölüləri dirildir, onların qabaqcadan göndərdiklərini və özlərindən sonra qoyub getdikləri əməlləri yazırıq. Biz hər şeyi aydınlıq gətirən kitabda qeydə almışıq.

"Yasin" surəsinin ümumi məzmunu: Bu surənin ehtiva etdiyi məzmunları dörd qrup üzrə ümumiləşdirmək olar: 1. İslam peyğəmbərinin (s) peyğəmbərliyindən və əzəmətli Qurandan danışılır; 2. Allahın göndərdiyi üç peyğəmbərin peyğəmbərlik missiyasından, onların tövhid inancına çağırış formasından, şirklə əzmkar mübarizələrindən bəhs edilir; 3. Mövcudat aləminin Allahın əzəmətini ehtiva edən nişanələri və onun birliyini göstərən incəliklərdən danışılır. 4. Qayıdış və onun müxtəlif arqumentlərlə sübuta yetirilməsi, qalxma, dirilmə, Qiyamət gününün sual-cavabı, dünyanın sonu, Cənnət və Cəhənnəmdən söhbət açılır. Hədislərə əsasən bu surə Quranın qəlbi adlandırılmışdır.[1793]

7-10. Dərketmə vasitələrinin yararsızlığı: 7-ci ayədə Şeytan ardıcıllarına Cəhənnəm əzabı vəd verilir. Belə ki, Allah-taalanın "Səcdə" surəsinin 13-cü ayəsində belə buyurduğunu görürük: ***"Mənim: "Cəhənnəmi mütləq bütün (günahkar və imansız) cin və insanlarla dolduracağam!" sözüm və vədim doğrudur."*** Əlbəttə, bu, Allahla olan əlaqəsini tamamilə kəsənlərə, inadkarlıq və əbləhliyi son həddə çatdıran şəxslərə aiddir. İnsan yalnız o zaman islah ola və doğru yola yönələ bilər ki, tövhid fitrətini çirkin

---

[1793] Nümunə, c.18, səh.309

əməllər və pis əxlaqla tamamilə zay etməsin. Əks təqdirdə qaranlıq onun bütün qəlbinə hakim kəsilər, bütün ümid işartılarını bağlayar. İnsanın ətraf aləmlə bağlı məlumat əldə etmək istədikdə istifadə etdiyi vasitələr idrak vasitələri adlanır. Bu vasitələrin bəzisi daxili, bəzisi xarici vasitələr adlanır. Daxili vasitələrə ağıl, vicdan və fitrəti, xarici vasitələrə, görmə, eşitmə və sair hiss üzvlərini misal göstərə bilərik. Əgər bu vasitələrdən doğru-düzgün istifadə edilsə, günbəgün güclənər, həqiqətləri daha yaxşı və daha dəqiq göstərərlər. Ancaq bir müddət yanlış yollarda istifadə edilsələr və islahat üçün onlardan istifadə edilməzsə, tədricən dəyişərək həqiqətləri yanlış göstərərlər. İnsanın yanlış düşüncələri və əməlləri idrak vasitələrini ondan alır. Deməli, bu nemətlərdən məhrum olmanın əsas səbəbkarı insan özüdür. Buna görə də Quran və hədislərdə israrla təkid edilir ki, insan hər hansı xətaya yol verdikdə dərhal tövbə etsin, tövbəni təxirə salmasın, günahı davam etdirməkdən çəkinsin, kiçik maneələri böyük səddə çevrilməzdən əvvəl dağıtsın, inkişaf yolunu açıq qoysun, gözləri önündəki toz-torpağı təmizləsin.[1794]

12. Aydınlıq gətirən rəhbər: Təfsirçilərin çoxu bu ayədəki “aydınlıq gətirən rəhbər” ifadəsini “lövhi-məhfuz” kimi izah etmişlər. Bu, edilən bütün əməllərin və bu dünyada baş verən bütün hadisələrin qeydə alınıb saxlandığı kitabdır. Onun rəhbər adlandırılması bəlkədə Qiyamətdə savab və əzab məmurlarına rəhbərlik edəcəyi və yol göstərəcəyi, insanların əməllərinin ölçülməsi, mükafat və cəzalarını təyin edəcəyi üçündür.[1795] Hədislərdə “aydınlıq gətirən rəhbər” ifadəsi ilə İmam Əliyə (ə) işarə edildiyini oxuyuruq. İmam Əliyə (ə) aid olan hədislərin birində belə buyurulur: ***“And olsun Allaha, mən aydınlıq gətirən rəhbərəm. Haqqı batildən ayırıram, bu,***

[1794] Nümunə, c.18, səh.320
[1795] Nümunə, c.18, səh.332

mənə Peyğəmbərdən (s) miras qalıb.” Hədislərinin birində Peyğəmbərin (s) İmam Əli (ə) haqqında belə buyurduğunu oxuyuruq: ***“O, elə bir imamdır ki, Allah-taala bütün elmləri ona vermişdir.”*** Əlbəttə, bu hədislər ayənin daha öncə qeyd etdiyimiz mənası ilə heç bir təzad təşkil etmir. Çünki hədislərdə ayənin batini və daha üstün mənasına işarə edilmişdir. Belə ki, Allahın misilsiz hesab etdiyi və bəndəliyini özünə görə xalis etdiyi bir bəndəsinə aydınlıq gətirən kitabdakı elmləri lütf etməsinin heç bir problemi yoxdur. Bu şəxs isə Peyğəmbərdən (s) sonra təkAllahlıların rəhbəri olan İmam Əlidən (ə) başqası deyil.[1796]

13. Sən onlara o zaman elçilər gəlmiş şəhər (Antakya) sakinlərini misal çək.

14. İki nəfəri onlara elçi göndərdiyimiz zaman onlar elçiləri yalançı saydılar. O ikisini qüvvətləndirmək üçüncü şəxsi də göndərdik. Onlar dedilər: “Biz sizə göndərilmiş elçilərik”.

[1796] Əl-Mizan, c.17, səh.71

15. Onlar isə dedilər: “Siz də bizim kimi sadəcə bir insansınız. Mərhəmətli Allah heç bir şey nazil etməmişdir. Siz ancaq yalan danışırsınız”.

16. (Elçilərimiz) dedilər: “Rəbbimiz bilir ki, biz, həqiqətən də, sizə göndərilmiş elçilərik.

17. Bizim vəzifəmiz ancaq açıq şəkildə çatdırmaqdır”.

18. Onlar dedilər: “Biz sizdə nəhslik gördük. Əgər (bu sözlərinizə) son qoymasanız, sizi daşqalaq edəcəyik və ağrılı-acılı işkəncəmizə tuş gələcəksiniz.

19. (Elçilər) dedilər: “Əgər doğru fikirləşsəniz, uğursuzluğunuz öz ucbatınızdandır. Doğrusu, siz həddi aşmış bir zümrəsiniz”.

20. Şəhərin ən ucqar nöqtəsindən bir kişi sürətlə gəlib dedi: “Ay mənim qövmüm! Elçilərə tabe olun!

21. Sizdən heç bir haqq istəməyən, özləri də doğru yolda olan şəxslərin ardınca gedin!

22. Məni yaradan və hüzuruna qaytarılacağınız varlığa nə üçün ibadət etməyim?

23. Mən heç Ondan başqa məbudlar qəbul edərəmmi? Əgər mərhəmətli Allah mənə bir zərər yetirmək istəsə, onların şəfaəti mənə heç bir fayda verməz və onlar məni xilas edə bilməzlər.

24. Əgər belə etsəm, açıq-aydın bir azğınlıq içində olaram.

25. Mən sizin Rəbbinizə iman gətirdim. Elə isə, mənə qulaq asın!”

26. (Nəhayət onu şəhid etdilər,) ona: “Cənnətə daxil ol!” – deyildi. O dedi: “Kaş xalqım biləydi ki,

27. Rəbbim məni bağışladı və məni hörmətli adamlardan etdi”.

--

13. Antakya şəhərinin sakinləri: Antakya Suriyanın ən qədim şəhərlərindən biridir. Bəziləri onun miladdan üç yüz il əvvəl salındığını qeyd edirlər. Bu şəhər keçmişdə sərvət, elm və ticarət baxımından Rum dövlətinin üç böyük şəhərindən biri hesab edilirdi. Bu ayə ilə bağlı olan hədislərdə həzrət İsanın (ə) iki həvarisini əhalisi bütpərəst olan Antakya şəhərinə göndərdiyi qeyd edilmişdir. Həvarilər bu şəhərə gedib camaatı təkAllahlıq inancına dəvət edir, dəvətlərinin doğru olduğunu sübuta yetirmək üçün xəstələrə şəfa vermək kimi möcüzələr göstərirlər. Şəhərin hakimi onları tutub həbs etdirir. Bu zaman həzrət İsa (ə) həvarilərin başçısı Şəmun Səfanı onların dalınca göndərir. O da şəhərin hakimini və camaatı Allahpərəstliyə dəvət edir, möcüzələr göstərir. Quran ayələrindən belə məlum olur ki, şəhər sakinləri iman gətirmir və göy gurultusu vasitəsilə məhv edilirlər. Bəzi hədislərdə qeyd edilir ki, şəhər hakimi iman gətirmir, sakinlər isə həmin üç elçini qətlə yetirmək qərarına gəlirlər. Bu xəbər haqqında 20-27-ci ayələrdə danışılan Həbib Nəccara çatır. O, şəhərin ən ucqar nöqtəsindən qaça-qaça gəlir, onlara xatırlatma verir, camaatı elçilərə itaət göstərməyə çağırır. Quran ayələrində onun da sonda bu kafir camaat tərəfindən qətlə yetirildiyi qeyd edilir. Hədislərdə bu haqq yolunun şəhidi haqqında qeyd edilmiş çox yüksək fikirlər Allah yanında onun çox yüksək məqam sahibi olduğundan xəbər verir. Hədislərinin birində İslam peyğəmbəri (s) belə buyurmuşdur: ***"Ümmətlərin bir göz qırpımı qədər də Allaha kafir olmayan ən qabacıl şəxsləri üç nəfərdir: Əli ibn Əbutalib, Yəs sakini və Firon nəslinin mömini. Onlar öz dövrlərinin peyğəmbərlərini təsdiq etmişlər. Əli onların ən üstünüdür."*** 26-cı ayədə Həbib Nəccar haqqında belə buyurulmuşdur: ***"Ona: "Cənnətə daxil ol!" – deyildi."*** Bu ayə sözügedən mömin kişinin şəhid olan kimi Cənnətə daxil olduğunu göstərir. Bu iki hadisə arasındakı fasilə o qədər qısadır ki, Quran çox incə ifadə ilə Həbibin şəhid olması

yerinə onun Cənnətə daxil olmasını bəyan etmişdir. Təbii ki, burada söhbət Bərzəx Cənnətindən gedir. Çünki hədislərdə əbədi Cənnətin möminlərə Qiyamət günü nəsib olacağı qeyd edilmişdir. Kafirlərə vəd edilən Cəhənnəm də həmin günə aiddir. Hədislərinin birində İmam Əli (ə) qəbir haqqında belə buyurmuşdur: ***"Qəbir ya Cənnət bağlarından, ya Cəhənnəm quyularından biridir."*** Diqqət çəkən cəhət budur ki, bu Allah adamı (Həbib Nəccar) şəhid olduqdan sonra da xalqının iman gətirməsini arzu etmişdir. Peyğəmbər (s) belə buyurmuşdur: ***"Bu imanlı kişi həm həyatda olduğu vaxt, həm də öldükdən sonra xalqının xeyrini istəmiş, onların haqq yola yönəlməsini arzu etmişdir."***[1797]

[1797] Nümunə, c.18, səh.340; Əl-Mizan, c.17, səh.82

28. Biz ondan sonra xalqının üstünə göydən heç bir qoşun göndərmədik və heç göndərən də deyildik.

29. Ancaq təkcə dəhşətli bir göy gurultusu oldu. Qəfildən hamısı sükuta qərq oildu.

30. Doğru yola yönəltmək üçün gələn bütün peyğəmbərləri iztehza edən bu qulların vay halına.

31. Onlar özlərindən əvvəl neçə-neçə qövmləri məhv etdiyimizi və onların bir daha bunların yanına qayıtmadıqlrını görmürlərmi?

32. Onların hamısı hüzurumuza gətiriləcəklər.

33. Ölü torpaq onlar üçün bir dəlildir. Biz onu diriltdik, oradan toxum çıxardırıq, onlar da ondan yeyirlər.

34. Biz orada xurma bağları və üzümlüklər yaratdıq, bulaqlar qaynadıb çıxartdıq ki,

35. onların meyvələrindən yesinlər. Halbuki onların yaranmasında heç bir rol oynamırlar. Allaha şükür etməyəcəklərmi?

36. Yerin bitirdiklərindən, insanların özlərindən və bilmədiklərindən bütün cütləri yaradan Allah pakdır, müqəddəsdir.

37. Gecə də onlar üçün bir dəlildir. Biz gündüzü ondan ayırıb çıxaran kimi, qəfildən onları qaranlıq bürüyür.

38. Öz təyin olunmuş yerinə doğru daim hərəkətdə olan Günəş də (onlar üçün bir dəlildir). Bu, qüdrətli və bilən Allahın əzəli hökmüdür.

39. Ay üçün də mənzillər müəyyən etmişik. Nəhayət, o dönüb xurma ağacının qövs şəkilli və sarı rəngli qurumuş budağının şəklini alır.

40. Nə günəş aya çata, nə də gecə gündüzü keçə bilər. Onların hər biri öz orbitində üzür.

---

36. Bilmədikləri: Böyük ehtimalla, “cüt” deyilərkən, bu ayədə qadın və kişi cinsi nəzərdə tutulur. Quranın bu ayəsində bütün bitkilər, insanlar və insanların bilmədiyi digər varlıqların cütlərinin olduğu xəbər verilir. “Bilinməyən varlıqlar” deyilərkən, ola bilsin ki, o dövrdə xurma ağacları və sair istisna olmaqla, cüt olduqları insanlara hələ məlum olmayan bitkilər nəzərdə tutulmuşdur. Halbuki bu gün cütləşmə prosesinin bitki aləminə xas olan ümumi bir xüsusiyyət olduğu artıq sübuta yetmiş bir məsələdir. Ola bilsin ki, ayədə dənizlərin dərinliklərində yaşayan və o dövrdə heç kəsə məlum olmayan, bu gün yalnız bəzi növləri kəşf edilmiş heyvanat aləmi nəzərdə tutulmuşdur. Burada “cüt” deyilərkən atomların daxilindəki müsbət və mənfi yüklü zərrəciklərə işarə edildiyi də ethimal edilmişdir. Bilirik ki, bu dünyada bütün əşyalar atomdan təşkil olunmuş və atom bu kainat binası üçün sanki kərpic rolunu oynayır. Atom parçalanmayana qədər heç kəsin bu cütlükdən xəbəri olmamışdır. Atom daxilində müsbət və mənfi yüklü

zərrəciklərin olması və onların ətrafına fırlanan elektronların mövcudluğu sonradan sübuta yetmişdir.[1798]

39. Ayın mənzilləri: Mənzillər deyilərkən tam qaranlıq olmazdan qabaq ayın qət etdiyi 28 günlük dayanacaqlar nəzərdə tutulur. Ayın otuz gün olduğu vaxtlarda ay iyirmi səkkizinci günə qədər səmada görünür. Ancaq iyirmi səkkizinci gün çox nazik, sarı rəngdə və az işıqlı olur. Qalan iki gündə görünmür. Ayın iyirmi doqquz gün olduğu vaxtlarda ay səmada iyirmi yeddinci günə qədər görünür, qalan iki gündə görünmür. Bu dayanacaqlar çox dəqiq hesablanmışdır. Belə ki, astronomlar yüz illər öncədən dəqiq hesablamalar əsasında onları təyin edə bilirlər. Bu heyrətamiz sistem insanların həyatına nizam-intizam bəxş edir. Bu elə bir təbii səma təqvimidir ki, savadlı və ya savadasız olmasından asılı olmayaraq, hər kəs onu oxuya bilər. Əgər insan azacıq diqqətli olsa və ayrı-ayrı gecələri nəzərdən keçirsə, ayın vəziyyətindən hansı ayın hansı gecəsi olduğunu dəqiq və ya təxmini şəkildə təyin edə bilər. Ayın əvvəlində hilalın ucları yuxarıya doğru olur, tədricən ayın həcmi böyüyür, yeddinci gecəyə, yəni ayın tam diskinin yarısının aşkar olduğu vaxta qədər bu böyümə davam edir. Böyümə on dördüncü gecəyə yəni ayın tam bədirləndiyi vaxta qədər davam edir. Bundan sonra ay kiçilməyə doğru gedir və iyirmi birinci gün yarımdairə şəklini alır. Kiçilmə iyirmi səkkizinci günə qədər davam edir və zəif hilal formasını alır. Bu vaxt hilalın ucları üzüaşağı olur.[1799]

[1798] Nümunə, c.18, səh.377
[1799] Nümunə, c.18, səh.383

41. Onların övladlarını dolu gəmidə daşımağımız onlar üçün bir dəlildir.

42. Biz onlar üçün buna bənzər minik vasitələri yaratdıq.

43. Əgər istəsək, onları qərq edərik. Onda nə onların imdadına çatan olar, nə də onlar xilas ola bilərlər.

44. Yalnız Bizim onlara rəhm etməyimiz və müəyyən vaxtadək bu həyatdan faydalanmaları istisnadır.

45. Onlara: "Önünüzdə olan və arxanızca gələndən (Allahın əzabından) qorxun ki, bəlkə sizə rəhm oluna!" – deyildikdə (etinasızlıq göstərirlər).

46. Onlara öz Rəblərinin ayələrindən elə bir ayə gəlmir ki, ondan üz döndərməsinlər.

47. Onlara: "Allahın sizə verdiyi ruzidən Allah yolunda xərcləyin!" – deyildikdə, kafirlər möminlərə deyirlər: "Allahın istədiyi təqdirdə yedirdəcəyi kimsəni bizmi yedirdək? Siz ancaq aşkar azğınlıq içindəsiniz".

48. Onlar: "Əgər doğru deyirsinizsə, bu vəd nə vaxt olacaq?" – deyə soruşurlar.

49. Onlar sadəcə, bir-birləri ilə höcətləşərkən onları yaxalayacaq böyük bir səsi gözləyirlər.

50. Onlar vəsiyyət edə və ailələrinin yanına qayıda bilməyəcəklər.

51. Sur üfürüldüyündə onlar dərhal qəbirlərdən çıxıb Rəblərinə tərəf sürətlə axışacaqlar.

52. Deyəcəklər: "Vay halımıza! Bizi yatdığımız yerdən kim qaldırdı? Bu, mərhəmətli Allahın vəd etdiyidir. Elçilər doğru deyirdilər".

53. Təkcə dəhşətli bir səsdir. Dərhal hamısı hüzurumuza gətiriləcək.

54. Bu gün heç kəsə zərrə qədər haqsızlıq edilməyəcəkdir. Sizə ancaq etdiyiniz əməllərin əvəzi veriləcəkdir.

---

45. Öndən və arxadan: Təfsirçilər bu barədə müxtəlif fikirlər irəli sürmüşlər. Ümumiyyətlə, burada "öndən" deyilərkən dünya əzabları nəzərdə tutulur. Əvvəlki ayələrdə onlardan bir neçəsi qeyd edilmişdir. "Arxadan" deyilərkən isə axirət əzabları nəzərdə tutulur. Axirət əzabı üçün "arxadan" ifadəsindən ona görə istifadə edilib ki, hələ baş verməyib, sanki insanın ardınca hərəkət edir və nəhayət, bir gün ona çatacaq, onu yaxalayacaq. "Bu əzablardan qorunmaq deyilərkən", onlara səbəb olan amillərdən qorunma nəzərdə tutulur. İnsan onu yaxalayacaq əzablara səbəb olan olan işlərdən uzaq durmalıdır.[1800] İmam Sadiqin (ə) bu ayənin təfsirini ehtiva edən hədislərinin birində belə buyurulmuşdur: ***"Yəni önünüzdə olan günahlardan və arxanızca gələn cəzalardan qorunun."***[1801]

47. Allah yolunda xərcləməkdən boyun qaçırmaq üçün bəhanə: Bu ayədə kafirlərin dilindən nəql edilən fikir hər bir dövrdə eqoist və paxıl insanların gətirdikləri avam bəhanələrdəndir. Məsələn, əgər filankəs

---

[1800] Nümunə, c.18, səh.399
[1801] Əl-Mizan, c.17, səh.97

yoxsuldursa, yəqin elə bir iş tutub ki, Allah onun yoxsul olmasını istəyib, əgər varlıdırsa, yəqin elə bir iş görüb ki, Allah ona qarşı lütfkarlıq göstərib. Deməli, həm onların yoxsulluğu, həm də bizim zənginliyimiz əbəs deyil. Bu sözü deyən adam dünyanın imtahan meydanı olduğundan xəbərsizdir. Allah birini yoxsulluqla sınağa çəkir, başqasını var-dövlətlə. Bəzən bir insanı ayrı-ayrı vaxtlarda bu ikisi ilə sınağa çəkir. İnsan yoxsul olarkən əmanətə qarşı sədaqət nümayiş etdirirmi? Mətinlik nümayiş etdirib şükür edirmi? Habelə, varlı olduğu vaxt ixtiyarında olanlardan Allah yolunda xərcləyirmi? Əslində, obyektiv sistem Allahın bütün nemətlərini insanların ixtiyarına verməsini, kamilləşmələri üçün etdikləri əməllərdə onları azad buraxmasını, eyni zamanda onların hər bir insanı bir tərəfə sövq edən instinktlərlə təmin etməsini tələb edir. Subyektiv sistem isə instinktlərin cilovlanması, özünütəmizləmə, fədakarlıq, güzəşt, Allah yolunda xərcləmə, Allahın xəlifəsi məqamına çatma istedadı və sair ilə özünütərbiyə qanunlarının təyin edilməsini tələb edir. İnsan Allahın xəlifəsi olmaq istedadı ilə bu məqama çata bilər, zəkat vasitəsilə özünü islah edə, xərcləməklə paxıllığı qəlbindən silib ata, insan həyatında minlərlə fəsadın mənşəyi olan sinfi fasilələri aradan qaldıra bilər. Təsəvvür edin, bir nəfər deyir ki, bizim təhsil almağımıza və dərs deməyimizə nə lüzum var? Əgər Allah istəsəydi, bizim hamımıza elm verərdi və kiminsə təhsil almağa ehtiyacı qalmazdı. Hansı ağıllı bu məntiqi qəbul edər?[1802]

49-53. Qiyamətin dəhşətli səsləri: 49-cu ayədə “səs” deyilərkən birinci surun birinci dəfə üfürülməsi nəzərdə tutulur. Bu üfürülmə zamanı hər kəsi bir anın içində olduğu yerdə və olduğu vəziyyətdə canından edən, döyüş və mübarizələr səhnəsinə çevrilmiş maddi çəkişmələrlə dolu həyatlarına son

[1802] Nümunə, c.18, səh.401

qoyan böyük səmavi səs ucalacaq. Hədislərinin birində İslam peyğəmbəri (s) belə buyurmuşdur: ***"İki nəfər parçalarını (süfrələrini) açacaq. Onu yığışdırmazdan əvvəl Qiyamət qopacaq. Bir nəfər tikəsini ağzına tərəf aparır, onu ağzına qoymazdan əvvəl Qiyamət qopacaq. Bir nəfər heyvanlarını suvarmaq üçün qabını doldurub. Onları suvarmazdan əvvəl Qiyamət qopacaq."*** 51-ci ayədə ikinci sura işarə edilmişdir. İkinci sur üfürüləndə ölülər dirilib qəbirlərindən qalxacaqlar, çürümüş sümüklər və torpaqlar Allahın əmri ilə həyata qayıdacaq, ölülər qəbirlərindən dirilib qalxacaq, mühakimə olunmaq və hesabat vermək məhkəmədə hazır olacaqlar. Bir səslə öldükləri kimi, bir səslə də dirilib həyata qayıdacaqlar. Deməli, insanların ölməsi üçün uzun zamana lüzum olmadığı kimi, ölülərin dirilməsi və Allahın ədalət məhkəməsindən iştirak etməsi üçün də uzun zamana ehtiyac yoxdur. Birinci səs ölüm əmri, ikinci səs həyata qayıdış və Allahın ədalət məhkəməsində iştirak əmridir.[1803]

[1803] Nümunə, c.18, səh.406; Əl-Mizan, c.17, səh.98

55. Cənnət əhli həmin gün nemətlər içində şad-xürrəm olacaq.

56. Onlar zövcələri ilə birlikdə kölgəliklərdə taxtlara söykənəcəklər.

57. Onlar üçün Cənnətdə çox dadlı meyvələr və istədikləri hər şey vardır.

58. Rəhmli Rəbb tərəfindən onlara salam deyiləcək.

59. “Bu gün ayrılın, ey günahkarlar!

60. Ey Adəm övladları! Məgər Mən sizdən əhd almadımmı ki, şeytana ibadət etməyin, o sizin açıq-aydın düşmənizdir,

61. Mənə ibadət edin! Doğru yol budur!

62. Çoxunuzu yoldan çıxarmışdır. Məgər düşünmürdünüz?

63. Bu sizə vəd edilmiş Cəhənnəmdir.

64. Bu gün oraya daxil olun və kafir olduğunuza görə orada yanın!”

65. Bu gün onların ağızlarına möhür vurarıq, əlləri bizimlə danışar, ayaqları etdikləri əməllər üçün şahidlik edər.

66. Əgər istəsək, gözlərini kor edərik, sonra onlar yoldan keçmək üçün bir-birlərini qabaqlamağa çalışarlar. Amma necə görə bilərlər?

67. Əgər istəsək, onları yerlərindəcə başqa bir şəklə salarıq, nə irəli gedə, nə də geri qayıda bilərlər.

68. Kimə uzun ömür veririksə, onu xilqətcə tərsinə çeviririk. Məgər düşünmürlər?

69. Biz ona (Muhəmmədə) şeir öyrətmədik, bu ona heç layiq də deyil. Bu, ancaq xatırlatma və aydınlıq gətirən Qurandır ki,

70. diri olanları qorxutsun və əzab əmri kafirlər üçün gerçəkləşsin.

---

58. Cənnət sakinlərinin ən böyük neməti: Cənnətliklər Cənnətə daxil olan kimi Allah salamı ilə qarşılaşırlar. Əli ibn İbrahim bu ayəni təfsir edərkən belə yazmışdır: ***"Salam deyilərkən əmin-amanlıq nəzərdə tutulur."*** Həqiqi möminlərə Allah tərəfindən əmin-amanlıq bəxş ediləcək. Onlar daim əmin-amanlıq içində olacaqlar. Allah Cənnətə daxil olan saleh bəndəsinə "salam" və "xoş gəldin" deyəcək, bundan sonra bəndələri onun əmin-amanlıq evində əbədi qalacaqlar.[1804] Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Cənnət sakinləri Cənnət nemətləri içində qərq olduqları vaxt başları üzərində bir nur aşkar olacaq; Allahın lütfkarlıq nuru onlara işıq saçacaq. Bu vaxt "Salam olsun sizə, ey Cənnət sakinləri!" – deyə bir nida ucalacaq. Bu Allah-taalanın Quranda "Rəhmli Rəbb tərəfindən onlara salam deyiləcək", - deyə buyurduğu ayədir. Allahın lütf və mərhəməti onları elə cəzb edəcək ki, Allahdan başqa, hər şeyi unudacaqlar, bütün Cənnət nemətlərini yaddan çıxaracaqlar, mələklər isə onlara hər tərəfdən salam deyəcəklər."***[1805]

60-61. Allaha itaət əhd-peymanı: "Şeytana ibadət" deyilərkən onun vəsvəsə və göstərişlərinə tabe olmaq nəzərdə tutulur. Allah və Allahın icazə verdikləri istisna olmaqla, heç kəs itaətə layiq deyil. İmam Baqir (ə) belə buyurmuşdur: ***"Danışanın sözünə qulaq asan şəxs ona itaət etmiş olur. Əgər danışan Allah tərəfindən danışarsa, dinləyici Allaha, əgər danışan İblis tərəfindən danışarsa, dinləyici İblisə itaət etmişdir."*** Başqa bir hədisində isə belə buyurmuşdur: ***"Allaha qarşı üsyanda kiməsə itaət göstərən şəxs həmin şəxsə itaət etmişdir."*** "Allahın Adəm övladlarından əhd alması" deyilərkən peyğəmbərinin dilindən bəndələrinə İblisə itaət göstərməmələri ilə bağlı göndərdiyi ismarış nəzərdə tutulur. Buna aşağıdakı

[1804] Tematik təfsir, c.5, səh.324
[1805] Nümunə, c.18, səh.419

ayələri misal göstərə bilərik: ***"Ey Adəm övladları, Şeytan ata və ananızı Cənnətdən çıxardığı kimi, sizi də aldatmasın..."*** (Əraf-27); ***"Şeytan sizi Allah yolundan saxlamasın, o sizin aşkar düşmənizdir."*** (Zuxruf-62). Allah-taala Şeytana itaətin qadağan edilməsinin səbəbini belə izah etmişdir: ***"O sizin aşkar düşmənizdir"*** Quran ayələri və hədislərdə bu düşmənçilik haqqında çox məlumat verilmişdir. Möminlərin əmiri İmam Əli (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Elə isə, ey Allahın bəndələri! Allahın düşmənindən qorxun. Nəbadə Şeytan sizi öz xəstəliyinə yoluxdusun, öz çağırışı ilə sizin yerinizdən oynatsın, atlılarını və piyadalarını başınıza töksün. And olsun öz canıma, o, təhdid oxunu kamana qoyub, kamanını daram çəkib, yaxın yerdən sizə ox yağır. Çünki o, "Ey Rəbbim, sən məni azdırdığın üçün mən maddi nemətləri yer üzündə onlara gözəl göstərib, ilxaslı bəndələr istisna olmaqla, hamısını haqq yoldan azdıracağam", - deyə söz vermişdir."***[1806]

68. İxtiyar dövrü və ya xilqətin tərsinə çevrilməsi: Bu ayədə "çevrilmə" deyilərkən insanın tamamilə uşaqlıq dövrünə qayıdışı nəzərdə tutulur. Doğrusu, çətinlikləri çox çətin təsvir edilə biləcək çox ağrılı-acılı günlər yetişir. Allah-taala "Həcc" surəsinin 5-ci ayəsində belə buyurmuşdur: ***"Bəziləri həyatlarının ən pis mərhələsinə, ixtiyar dövrünə çatacaq qədər ömür edir, bildiyi şeyləri unudur."*** Bəzi hədislərdə 72, bəzilərində isə 90 yaşlı insanlar Allahın yer üzündəki əsirləri adlandırılmışdır. Hər halda, "***Məgər düşünmürlər?"*** cümləsi insanlara "Sizə verilən bu qədər güc və qüdrət bir əmanət olmasaydı, belə asanlıqla sizdən alınmazdı. Bilin ki, başınız üzərində bir qüdrət əli var. Gənclik və təvarətli dövrlərinizin qədrini bilin ki, zəif və yaşlı olduğunuz vaxtda əlinizdən heç nə gəlməyəcək", - deyə

[1806] Əl-Mizan, c.17, səh.102; Nümunə, c.18, səh.422

bir xəbərdarlığı ehtiva edir. Peyğəmbər (s) belə buyurmuşdur: ***"Beş şeyi beş şeydən əvvəl qənimət bil – qocalmazdan əvvəl gəncliyi, xəstələnməzdən əvvəl sağlamlığı, yoxsulluqdan əvvəl zənginliyi, çətinlikdən əvvəl asudəliyi, ölməzdən əvvəl həyatı."***[1807]

71. Məgər sahib olduqları heyvanları onlar üçün öz qüdrətimizlə yaratdığımızı görmürlərmi?

72. Heyvanları onlara ram etdik, həm onlardan minik kimi faydalanır, həm də qidalanırlar.

73. Bunlarda onlar üçün başqa mənfəətlər və dadlı içkilər vardır. Yenə də şükür etmirlərmi?

74. Müşriklər yardım edəcəklərinə ümid edərək özlərinə Allahdan başqa məbudlar seçdilər.

[1807] Nümunə, c.18, səh.435

75. Amma məbudları onlara heç bir kömək edə bilməzlər. Onlar (məbudları) bunlar üçün Cəhənnəm oduna çağırılmış bir qoşun olacaq.

76. Onların sözləri səni kədərləndirməsin. Biz onların nəyi gizli saxladıqlarını və nəyi aşkar etdiklərini bilirik.

77. Məgər insan bizim onu dəyərsiz bir nütfədən yaratdığımızı bilmirmi? O indi (güc, qüdrət, şüur və nitq sahibi olduqdan sonra bizimlə) açıq-aşkar mübahisəyə qalxır.

78. O Bizə bir məsəl çəkdi, lakin yaradılışını unudaraq dedi: "Çürüdükləri halda bu sümükləri kim dirildər?"

79. De: "Onları ilk dəfə yaradan özü onları dirildəcəkdir. O, hər bir yaradılmışa yaxşı bələddir.

80. O sizin üçün yaşıl ağacdan od əmələ gətirdi. Budur, siz indi ondan od yandırırsınız".

81. Göyləri və yeri yaradan onların (torpağa çevrilmiş insanların) eynisini yarada bilməzmi?! Şübhəsiz ki, o, bilici yaradandır.

82. Onun əmri belədir, bir şeyi (yaratmaq) istədikdə ona təkcə: "Ol!" deyər, o da dərhal olar.

83. Əlində hər şeyin hökmü və mülkiyyəti olan Allah pak və müqəddəsdir. Sizi Ona doğru qaytaracaqlar.

---

78. Çürümüş sümüklər: İmam Sadiqə (ə) istinad edilən bir hədisdə belə deyilir: ***"Übəy ibn Xələf adlı bir şəxs Peyğəmbərin (s) yanına gedir, yerdən çürümüş bir sümük çıxarıb əzərək deyir: "Biz çürüyüb dağılmış sümüklər olduqdan sonra yenidən yaradılıb qaldırılacağıq?" Allah-taala***

bu ayəni nazil edir: "...bu sümükləri kim dirildər?"[1808] Bu ayə ətrafında araşdırma aparıldığı zaman sual verənə qayıdış iki cəhətdən qeyri-mümkün görünmüşdür: 1. Çürüdükdən sonra sümüklərin yenidən həyata qayıdışı qeyri-mümkündür; 2. Başqa varlıqların bədən üzvləri ilə qarışmış insan bədəninin üzvlərini ayırd etmək mümkün deyil. Allah-taala birinci etiraza cavab vermək üçün insanın ilk yaradılışını misal çəkir. Bununla da başa salmaq istəyir ki, ölüləri diriltmək onları ilk yaratmaq kimidir. Onu qeyri-mümkün hesab etmək yersizdir. İkinci şübhəyə cavab vermək üçün sonsuz elm sahibi olduğunu xatırladır.[1809]

80. Enerjilərin dirilməsi: Təfsirçilər hesab edirlər ki, burada badam və qırmızı söyüd ağacına işarə edilmişdir. Bu iki ağac bir-birinə sürtüldükdə alışır. Keçmişdə insanlar ocaq qalamaq üçün bu iki ağacın hərəsindən bir parça götürüb, qırmızı söyüdü altda, badam ağacını isə üstə qoyar və onları bir-birinə sürtərmişlər. Yaş olmalarına baxmayaraq, ağaclar Allahın izni ilə odlanarmış. Ölünü diriltmək yaş ağacı alışdırmaqdan təəccüblü deyilmi? Halbuki, su ilə od bir-birinə zidd şeylərdir.[1810] Bu təfsirlə yanaşı daha dəqiq bir təfsir də mövcuddur. Belə ki, bitkilərin ən böyük funksiyalarından biri havadakı karbonu udub selluloz hazırlamaqdır. Bitki hüceyrələrinin bu sellülozu havadakı karbon qazını alıb parçalayır, oksigeni buraxır, karbonu özlərində saxlayır. Daha sonra onu su ilə birləşdirib gövdə və budaqların əsas hissəsinə çevirir. Diqqət çəkən məqam ondan ibarətdir ki, cisimləşən hər bir kimyəvi tərkib ya əsas enerjinin cəzb edilməsi, ya da onun azad edilməsi ilə birlikdə olmalıdır. Deməli, bu qanuna əsasən ağaclar karbonu alarkən, günəş işığı və istiliyinin yaydığı enerjiyə ehtiyacları var. Bu qayda

---

[1808] Əl-Mizan, c.17, səh.118
[1809] Mənşuri-cavid, c.9, səh.67
[1810] Əl-Mizan, c.17, səh.113

ilə, ağacların gövdə və budaqlarının yaranışı zamanı günəş enerjisinin bir miqdarı onlarda qalır. Budaqları yandırarkən həmin enerjilər azad olur, karbon havadakı oksigenlə birləşərək karbon qazını təşkil edir, oksigen və hidrogen (H2O-su) azad olur. Buna görə də günəş enerjisi Yer kürəsində olan bütün enerjilərin mənbəyi hesab edilir. Burada biz enerjilərin dirilişinin şahidi oluruq. Belə ki, fəzaya yayılmış, ağacların yarpaqlarını, gövdə və budaqlarını təşkil edən işıq və hərarət əsla məhv olmayıb və olmur, formasını dəyişir, biz insanların gözlə görə bilmədiyi bir şəkildə ağacların gövdəsi, budaqları və yarpaqlarında toplanır, od şöləsi bir parça oduna toxunduqda həmin toplanmış enerjilərin dirilişi başlayır, ağacların ayır-ayrı hissələrində toplanmış enerji həmin an aşkara çıxır, bir şam işığı qədər işartı da ondan azalmır.[1811]

82. Allahın istəyi = əşyaların varlığı: Təbii ki, "Allahın əmri" deyilərkən bu ayədə sözlü ifadə nəzərdə tutulmur. Habelə "ol" sözü də Allahın sözlə ifadə etdiyi bir kəlmə deyil. Çünki onun sözlü ifadəyə ehtiyacı yoxdur. Əslində, burada Allahın yaratmaq və icad etmək istəyi nəzərdə tutulmuşdur. "Ol" sözündən istifadə isə onun çox qısa olması ilə yanaşı çox geniş məna ifadə etməsi ilə bağlıdır. Allahın nəyisə istəməsi artıq həmin şeyin yaranması deməkdir. Möminlərin əmiri İmam Əli (ə) belə buyurmuşdur: ***"Nəyisə istədikdə "Ol!" deyir və həmin şey də dərhal olur. Bu demək qulaq vasitəsilə eşidilə biləcək şəkildə deyil. Əslində, pak və uca Allahın sözü yaratdığı işin özüdür."***[1812]

[1811] Nümunə, c.18, səh.463
[1812] Nümunə, c.18, səh.471

"Saffat" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. And olsun sıraya düzülənlərə,

2. qadağan edənlərə (və çəkindirənlərə)

3. Allahın ayələrini fasiləsiz tilavət edənlərə!

4. Məbudunuz təkdir!

5. Göylərin, yerin və onların arasındakıların, həm də məşriqlərin Rəbbidir.

6. Biz yaxın (aşağı) səmanı ulduzlarla bəzədik

7. ki, onu hər bir çirkin şeytandan qoruyaq.

8. Onlar yuxarı aləmin mələklərinə qulaq asa bilməzlər və (əgər buna cəhd etsələr) hər tərəfdən hədəfə alınarlar,

9. kəskin şəkildə geri qaytarılarlar. Onları əbədi bir əzab gözləyir.

10. Lakin onlar gizlicə qulaq asmaq üçün bir anlıq yaxınlaşarlarsa, onları yandırıb-yaxan komet təqib edər.

11. Onlardan soruş: “Onları yaratmaq çətindir, yoxsa mələkləri (göyləri və yeri)?” Biz onları yapışqan palçıqdan yaratdıq.

12. Sən (inkar etdiklərinə görə) onlara təəccüb edirsən, onlar isə ələ salırlar.

13. Onlara xatırlatdıqda xatırlamırlar.

14. Bir möcüzə gördükdə isə (başqalarını da) istehzaya çağırırlar.

15. və deyirlər: “Bu ancaq açıq-aşkar bir sehrdir.

16. Biz öldükdən, torpağa və sür-sümüyə çevrildikdən sonra yenidənmi dirildiləcəyik?

17. Ulu atalarımızdamı (dirildiləcəklər)?”

18. De: “Bəli, hamınız xar və zəlil olmuş halda diriləcəksiniz”.

19. Yalnız çox böyük və dəhşətli bir səs qopacaq və onlar qəfildən (qəbirlərdən çıxıb) baxacaqlar.

20. Deyəcəklər: “Vay halımıza! Bu, haqq-hesab günüdür!”

21. “Bu, yalan saydığınız həmin ayrılıq (haqqın batildən ayrıldığı) günüdür!”

22. (Bu vaxt mələklərə belə əmr olunacaq:) “Zalımları, onların yoldaşlarını və ibadət etdiklərini –

23. Allahdan başqa ibadət etdiklərini - bir yerə toplayın və Cəhənnəm yoluna tərəf yönləndirin.

24. Onları dayandırın, çünki onlar sorğu-sual olunmalıdırlar”.

“Saffat” surəsinin ümumi məzmunu: Bu surədə daha çox başlanğıc və qayıdışdan bəhs edilir. Müşriklər qətiyyətli ifadələr, qısa və dərin mənalı ayələrlə məzəmmət edilir, parlaq və açıq dəlillər vasitəsilə onların inanclarının yanlışlığı aşkar edilir.[1813]

[1813] Nümunə, c.19, səh.3

1-3. Üzərlərinə düşən vəzifəni yerinə yetirməyə hazır olan mələklər: Ayədə hansı zümrəyə və ya zümrələrə işarə edilməsi ilə bağlı fikir ayrılıqları mövcuddur. Əllamə Təbatəbai belə yazır: "Burada vəhyi endirməklə vəzifələndirilmiş və vəhy yolunu şeytanların müdaxiləsindən qoruyan, onu peyğəmbərlərə, xüsusilə İslam peyğəmbərinə endirməklə vəzifələndirilmiş mələklər nəzərdə tutulmuşdur. Bu məzmun "Cinn" surəsinin 26-28-ci ayələrində belə ifadə edilmişdir: ***"O, qeybi biləndir və heç kəsi qeybinin sirlərindən xəbərdar etmir; seçdiyi elçilər istisnadır. O, onların önündə və arxasında gözətçilər qoyur ki, peyğəmbərlərinin Rəblərinin göndərdiklərini necə təbliğ etdiklərini bilsin. O onların yanında olanları əhatə edir və hər şeyi saymışdır."*** Bu ehtimala əsasən ayələrin mənası belə olur: Vəhy yolu üzərində sıraya düzülmüş mələklərə, sonra şeytanların Allahın vəhyinə müdaxilə etməsinə mane olan, onların qarşısını alan mələklərə, sonra vəhyi Peyğəmbərə çatdıran mələklərə and olsun. Bu ehtimalı daha sonra şeytanların kometlə qovulmasından bəhs edən ayələr də təsdiq edir.[1814]

6-10. Göylərin şeytanların nüfuzundan qorunması: Təfsirçilər şeytanların göylərdə gizlicə qulaq asması, bu zaman kometlər vasitəsilə vurulması mövzusu ilə bağlı aydın təsəvvürə malik olmaq üçün aidiyyatı olan ayələr və bu mövzunu ehtiva edən hədislər əsasında mülahizələr irəli sürmüşlər. Səma Yer kürəsini əhatə edən və bir qrup mələyin məskunlaşdığı göy qatlarıdır. Bu göylərin qapı və divarları var. Səmanın özündən olanlar istisna olmaqla, kənardan onlara heç nə daxil ola bilməz. Habelə birinci göydə bir qrup mələk əllərində kometlər şeytanları gözləyirlər. Şeytanlar göyün gizli xəbərlərinə qulaq asmaq üçün yaxılnlaşmaq istədiklərində onları

[1814] Əl-mizan, c.17, səh.122

atəşə tuturlar və onları uzaqlaşdırırlar. Bu məna ayələrin və hədislərin zahiri məzmunlarından başa düşülür. Lakin artıq kometlər üçün qeyd edilmiş bütün bu yozumların yanlış olduğu gün kimi aydındır. Artıq bu ayəni insanların kosmik müşahidləri və müasir elmi nailiyyətlərlə təzad təşkil etməyən aspektdən izah etmək lazımdır. Biz ehtimal edirik ki, Allah-taala hisslər çərçivəsindən xaric olan həqiqətlərlə bağlı təsəvvür yaratmaq, nəticədə hiss olunmayan gerçəkləri hiss olunacaq şəkildə başa salmaq üçün bu açıqlama formasından misal kimi istifadə etmişdir. Belə ki, Allah-taala "Ənkəbut" surəsinin 43-cü ayəsində belə buyurmuşdur: ***"Bunlar bizim bilənlər üçün çəkdiyimiz məsəllərdir. Onları yalnız bilənlər dərk edər."*** Bu cür misallar və bənzətmələr Allah kəlamında çoxdur. Ərş, kürsü, lövh, qələm və sairəni buna misal göstərə bilərik. Deməli, mələklərin məskunlaşdığı aləm bizim olduğumuz kainatdan çox-çox yüksəklikdə olan mələklər aləmidir. Bizim maddi dünyamızın səması və kosmik cisimlər bizim olduğumuz Yer kürəsindən çox-çox yüksəkdə olduğu kimi, mələklər aləmi də çox yüksəkdədir. Şeytanların səmalara yaxınlaşması, gizlicə qulaq asmaq istəmələri və onların kometlərlə qovulması deyilərkən onların yaradılışın sirlərindən və gələcəkdə baş verəcək hadisələrdən xəbərdar olmaq üçün mələklər aləminə yaxınlaşmaq istəməsi və mələklər aləminə xas olan işıqla qovulması nəzərdə tutulur. Burada başqa bir yozum da ehtimal edilə bilər. Şeytanlar haqqı batilə qarışdırmaq üçün haqqa yaxınlaşırlar. Lakin mələklər onların batillərini puça çıxaracaq haqqla haqdan uzaqlaşdırırlar. Allah-taalanın şeytanların gizlicə qulaq asması və onların kometlərinin hədəfinə tuş gəlməsi məsələsinə vəhy gətirən mələklərə və şeytanların müdaxiləsinə

mane olan qoruyucu mələklərə and içdikdən sonra qeyd etməsi də müəyyən qədər bizim yanaşmanı təsdiq edir. Allah daha bilicidir.[1815]

25. “Sizə nə olub ki, bir-birinizdən yardım istəmirsiniz?”

26. Amma onlar o gün Allahın qüdrəti qarşısında təslim olacaqlar!

27. Bir-birinə üz tutub soruşacaqlar.

28. Deyəcəklər: “(Siz azğın rəhbərlər idiniz,) xeyirxahlıq və yaxşılıq adı ilə daxil olurdunuz (ancaq işiniz yalnız aldatmaqdan ibarət idi).”

29. (Onlar isə cavabında) deyəcəklər: “Xeyr! Siz özünüz inanan adamlar deyildiniz. (Bizim təqsirimiz deyil.)

30. Bizim sizin üzərinizdə heç bir hökmranlığımız olmayıb, siz özünüz həddi aşan bir zümrə olmusunuz.

31. İndi Rəbbimizin əmri bizim barəmizdə həqiqətə çevrildi. Hamımız onun əzabından dadırıq.

32. Biz özümüz azğın olduğumuz kimi, sizi də azdırdıq”.

33. Həmin gün onların hamısı (liderlər və ardıcıllar) ilahi əzablara şərik olacaqlar.

34. Biz günahkarlarla belə rəftar edirik.

35. Çünki onlara: “Allahdan başqa məbud yoxdur!” – deyildiyində təkəbbürlük edib boyun qaçırır

36. və elə hey deyirdilər: “Bir məcnun şairə görə məbudlarımızı tərk edəkmi?”

37. Belə deyil, o, haqqı gətirib və keçmiş peyğəmbərləri təsdiq edib.

38. Siz mütləq, ağrılı-acılı əzabı dadacaqsınız.

[1815] Əl-Mizan, c.17, səh.126

39. Yalnız etdiyiniz əməllərin cəzasını alacaqsınız.

40. Allahın ixlaslı qulları müstəsnadır.

41. Onlar üçün müəyyən və xüsusi bir ruzi vardır –

42. meyvələr. Onlara ehtiram göstəriləcəkdir –

43. Cənnətin nemətlərlə dolu bağlarında.

44. Onlar taxtlar üstündə bir-birinin qarşısında dirsəklənib oturacaqlar.

45. Ətraflarında pak şərabla dolu piyalələr dolandıracaqlar -

46. İçənlər üçün ağappaq, parlaq və ləzzətli bir şərab.

47. O şərab nə ağlı başdan alar, nə də ondan məst olarlar.

48. Onların yanında yalnız öz ərlərini sevən gözəl gözlü zövcələri olacaq.

49. Onlar (zövcələr) sanki (incəlik və lətafətdə quş qanadları altında) gizli qalmış yumurta kimi olacaqlar.

50. Onlar bir-birilərinə tərəf dönüb soruşacaqlar.

51. Onlardan biri deyəcək: “Mənim bir yoldaşım var idi.

---

40. İxlaslı (müxləs) bəndələrin mükafatı: Quran ayələrinə diqqətlə nəzər saldıqda “müxlis” (özünü saflaşdıran, xalisləşdirən) sözündən daha çox özünü düzəltmək mərhələsində olan və hələ lazımı kamillik mərhələsinə çatmamış, “müxləs” (özünü saflaşdırmış, xalisləşdirmiş) sözündən isə özü ilə bir müddət mübarizə apardıqdan, Allahtanıma və iman mərhələlərini qət etdikdən sonra şeytanların vəsvəsələrinin nüfuz edə bilməyəcəyi bir məqama çatmış insanlar haqqında işləndiyinin şahidi oluruq. Belə ki, Quranda İblisin dilindən belə deyildiyinin şahidi oluruq: ***“Sənin qüdrətinə and olsun ki, onların hamısını yoldan çıxaracağam. Təkcə Sənin ixlaslı bəndələrindən***

başqa!” (Sad – 82-83). Quranın bir neçə yerində rast gəlinən bu ifadədən ixlaslı (müxləs) insanların böyük məqam sahibi olduqları aydın olur. Bu, böyük cihadda qalib gəlmiş, Allahın lütfü ilə varlığı bütün qarışıqlıqlardan, qatqılardan, xalis olmayanlardan təmizlənmiş, hadisələr kürəsində tamamilə ərimizş və yalnız xalis qızılı qalmış insanların məqamıdır. Onların mükafatlarının ölçü meyarı etdikləri əməllər deyil, Allahın lütf və mərhəməti olacaq. Əllamə Təbatəbai bu barədə belə yazır: “Allah-taala bu ayədə buyurur ki, müxləs bəndələr istisna olmaqla, bütün bəndələr etdikləri əməllərin qarşılığını alacaqlar. Çünki onlar bəndəlik məqamına uyğun olaraq özlərini heç nəyin sahibi hesab etmirlər, yalnız Allahın istədiyini istəyir, yalnız onun tələb etdiyini yerinə yetirirlər. Müxləs olduqları üçün Allah onları özü üçün seçmişdir. Onlar da Allahdan başqa heç nəyə bağlı deyillər, nə dünyanın bər-bəzəyinə, nə də axirətə. Qəlblərində Allahdan başqasına yer yoxdur. Məlumdur ki, bu xüsusiyyətə malik olanların ləzzəti, zövqü, neməti, və ruzisi başqalarınkından fərqlənir. Belə ki, Allah-taala sonrakı ayədə belə buyurur: ***“Onlar üçün müəyyən və xüsusi bir ruzi vardır.”*** Doğrudur ki, onlar da digər Cənnət sakinləri kimi, Cənnətdə yaşayacaqlar, ancaq onların həzzi başqalarının həzzindən fərqlənir. Onlar Allahın pak zatının cilvəsindən zövq alır, onun batini ləzzətlərindən faydalanırlar, qəlbləri sevgi, məhəbbət, eşqlə doludur, eşq və vüsal dənizində qərq olublar.”[1816]

49. Cənnətdəki zövcələrin incəliyini və zərifliyini ifadə edən gözəl bir bənzətmə: Mənası quş yumurtası olan “beyd” sözü “beydə” sözünün cəmidir. “Kən” sözündən düzəlmiş “məknun” sözünün mənası örtülü və gizli deməkdir. Quranın bu bənzətməsi yumurtaya toyuq yumurtadıqdan dərhal sonra, hələ heç kəsin toxunmadığı, quşun qanadları altında olduğu

[1816] Nümunə, c.19, səh.48; Əl-Mizan, c.17, səh.137

vaxt yaxından baxıldığında aydın olur. Bu zaman onda qəribə bir şəffaflıq və səfa müşahidə edilir. Bəzi təfsirçilər "məknun" deyilərkən qabıqla örtülmüş əsas hissənin nəzərdə tutulduğunu qeyd etmişlər. Belə ki, yumurtanı bişirdikdən və qabığını soyduqdan sonra onun ağ və parlaq olması ilə yanaşı xüsusi bir yumşaqlığa və zərifliyə malik olduğunu görürük. Hər halda, həqiqətləri ifadə edən Quran ifadələri o qədər dərin və məzmunludur ki, qısa bir sözlə xüsusi bir incəliklə böyük mənaları ifadə edir.[1817]

52. O elə hey deyirdi: "Sən inanırsan ki,

53. biz öldükdən, torpağa çevrilib sür-sümük olduqdan sonra diriləcək və cəzalandırılacağıq?"

[1817] Nümunə, c.19, səh.56

54. Sonra o (sözünə davam edib) deyəcək: “Siz ondan xəbər tuta bilərsinizmi?”

55. Bu zaman baxıb onu (yoldaşını) Cəhənnəmin ortasında görəcək

56. və deyəcək: “Allaha and olsun ki, az qalmışdı sən məni də məhv edəsən.

57. Əgər Rəbbimin neməti olmasaydı, mən də (Cəhənnəmə) gətirilənlərdən olardım.

58. (Sonra dostlarına deyəcək:) biz heç ölməyəcəyikmi?

59. İlk ölümümüzdən başqa bir də ölməyəcək və heç vaxt əzaba düçar olmayacağıq ki?”

60. Doğrusu, bu, həmin böyük zəfərdir.

61. Qoy çalışanlar belə bir aqibət üçün çalışsınlar!

62. Bu yaxşıdır, yoxsa zəqqum ağacı?

63. Biz onu zalımlar üçün əzab-əziyyət vasitəsi etdik.

64. O, Cəhənnəmin dərinliyindən bitib çıxan bir ağacdır.

65. Onun çiçəyi şeytanların başları kimidir.

66. Onlar (günahkarlar) ondan yeyib qarınlarını dolduracaqlar.

67. Üstündən də üfunətli qaynar su içəcəklər.

68. Sonra Cəhənnəmə qaytarılacaqlar.

69. Çünki onlar ata-babalarını azmış gördülər,

70. ancaq buna baxmayaraq, sürətlə onların izini tutub getdilər.

71. Onlardan öncə əvvəlki nəsillərin çoxu zəlalətə düşmüşdü.

72. Biz onlara qorxudanlar göndərdik.

73. Bax gör qorxudulanların aqibəti necə oldu.

74. Təkcə Allahın ixlaslı bəndələri müstəsnadır.

75. Nuh Bizi çağırdı. Biz (çağırışa) necə də gözəl cavab verənik!

76. Onu və ailəsini böyük sıxıntıdan qurtardıq.

55-57. Cənnət sakinləri ilə Cəhənnəm sakinlərinin əlaqəsi: Bu ayədən belə məlum olur ki, bəzən Cənnət sakinləri ilə Cəhənnəm sakinləri arasında bir növ əlaqə yaranır. Belə təsəvvür yaranır ki, sanki Cənnət sakinləri yuxarıda qərarlaşıb, oradan Cəhənnəm sakinlərinə baxır, onların vəziyyətindən xəbərdar olurlar. Əlbəttə, bu, Cənnətlə Cəhənnəm arasındakı məsafənin az olduğunu deməyə əsas vermir. Əslində, Allah-taala Cənnət sakinlərinə qeyri-adi görmə qabiliyyəti verir, bu zaman isə fasilə və məkan heç bir maneə yarada bilmir. Bəzi hədislərdə Cənnətdə bir dəlik olduğu və Cənnət sakinlərinin həmin dəlikdən Cəhənnəm sakinlərinə baxdıqları qeyd edilmişdir. "Əraf" surəsinin ayələrində də Cənnət sakinləri ilə Cəhənnəm sakinləri arasında əlaqə olduğu aydın şəkildə qeyd edilir: ***"Cənnət əhli Cəhənnəm sakinlərini səsləyib deyəcəklər: "Biz Rəbbimizin bizə vəd etdiyini həqiqətən gördük. Siz də Rəbbimizin sizə vəd etdiyini gerçəkdən gördünüzmü?" Onlar: "Bəli!"– deyəcəklər."*** (Əraf - 44). Əlbəttə, bu ayədən Cənnət sakinləri ilə Cəhənnəm əhli arasında pərdə olduğu da məlum olur. Bütün bunlarla yanaşı, Qiyamət gününün şərtləri və vəziyyəti ilə bu dünyanın vəziyyəti tamamilə fərqlidir. Biz oranın şərtlərini bu dünyanın meyarları ilə qiymətləndirə bilmərik.[1818]

62-65. Zəqqum: Zəqqum kiçik, acı və pis qoxulu yarpaqları olan bir ağacın adıdır. Bu ağacın yarpaqlaı qoparıldığı zaman yerindən şirə süzülür. Bu şirə bədənin harasına düşərsə, oranı şişirdir. Sözügedən ağac quru və səhraya yaxın olan, susuz və bitkisiz ərazilərdə bitir. Hədislərdə qeyd edilir ki, qüreyşlilər bu ayəni eşitdikdən sonra: "Biz bu vaxta qədər bu adda ağac

---

[1818] Nümunə, c.19, səh.64

eşitməmiş, belə bir ağac tanımırıq" deyirlər. Zəbəri adlı bir şəxs deyir: "Bərbərlərin dilində Zəqqum xurma və yağa deyilir". Əbu Cəhl kənizinə deyir: "Bizə zəqqum gətir". Kəniz çörək və yağ gətirir. Sonra Əbu Cəhl dostlarına deyir: Məhəmmədin sizi qorxutduğu şeydən yeyin. O, elə güman edir ki, od ağac bitirir, halbuki od ağacı yandırır. Allah-taala bu ayəni nazil edir: ***"Biz onu günahkarlar üçün əzab-əziyyət vasitəsi etdik."***[1819] Əslində, onlar axirət dünyasına hakim olan qanunların bu dünya qanunlarından fərqləndiyini bilmirdilər. Cəhənnəm quyusunun bitki və ağacları Cəhənnəm rəngindədir və Cəhənnəmin şəraitinə uyğun bitmişdir. Bəlkə də onlar bunu bilirdilər, sadəcə məqsədləri məsxərə və istehza olmuşdur. Sonrakı ayədə belə deyilir: ***"Onun çiçəkləri şeytanların başları kimidir."*** Burada ortaya belə bir sual çıxır: İnsanlar şeytanların başlarını görmüşdülərmi ki, Quranda zəqqumun çiçəkləri onlara bənzədilmişdir? Təfsirçilər bu suala bir sıra cavablar vermişlər. Onlar arasında ən düzü bəlkə də budur ki, qeyd olunan bənzətmədən həmin güllərin son dərəcə çirkin və iyrənc olduğunu göstərmək üçün istifadə edilmişdir. Belə ki, insan nifrət etdiyi hər bir şey üçün təsəvvüründə çirkin və qorxulu bir sima yaradır. Ancaq sevdiyi şey üçün gözəl və sevimli bir surət xəyal edir. Buna görə də mələk təsvirlərini çox gözəl, şeytan və div təsvirlərini isə çirkin simalarda verirlər. Halbuki hələ mələk və div görən olmamışdır.[1820]

75. Nuhun duası: Bu ayədə "Nuhun (ə) duası" deyilərkən onun öz xalqı üçün etdiyi nifrin və Rəbbindən dilədiyi yardım nəzərdə tutulmuşdur. "Nuh" surəsinin 26-cı ayəsində belə deyilir: ***"Nuh dedi: "Ey Rəbbim! Kafirlərdən heç birini yer üzündə saxlama"***. "Qəmər" surəsinin 10-cu

[1819] Əl-Mizan, c.17, səh.144
[1820] Nümunə, c.19, səh.71

ayəsində belə deyilir: ***"O, Allaha "Mən məğlub oldum, mənim intiqamımı onlardan al!" – deyə müraciət etdi."***[1821]

77. Təkcə onun nəslini qoruyub saxladıq.
78. Sonra gələn ümmətlər arasında onun gözəl adını qoruyub saxladıq;
79. Aləmlər içərisində Nuha salam olsun!
80. Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq.
81. Çünki o Bizim mömin qullarımızdandır.
82. Sonra o birilərini suya qərq etdik.
83. İbrahim onun ardıcıllarından idi.
84. Bir zaman o, öz Rəbbinin hüzuruna sağlam qəlblə gəldi.
85. Onda o, öz atasına və qövmünə dedi: "Siz nəyə sitayiş edirsiniz?
86. Allahı qoyub uydurma məbudlaramı üz tutursunuz?
87. Aləmlərin Rəbbi barəsində nə düşünürsünüz?"

[1821] Əl-Mizan, c.17, səh.146

88. (Sonra) o, ulduzlara bir nəzər salaraq

89. “Mən xəstəyəm!” – dedi.

90. Onlar ondan üz çevirib, çıxıb getdilər.

91. (O, bütxanaya daxil oldu,) xəlvətcə onların məbudlarına baxıb istehza ilə dedi: “Nə üçün (bu təamları) yemirsiniz?

92. Nə üçün danışmırsınız?”

93. Sonra onlara yaxınlaşdı, sağ əli ilə onlara möhkəm bir zərbə endirdi (Böyük bütdən başqa hamısını qırdı).

94. Onlar tələsik onun yanına gəldilər.

95. O dedi: “Siz öz əlinizlə yonduqlarınızamı sitayiş edirsiniz?

96. Halbuki sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır”.

97. (Bütpərəstlər) dedilər: “Onun üçün uca bir bina tikin və onu od Cəhənnəminə atın!”

98. Onlar İbrahimi məhv etmək üçün tədbir tökmüşdülər, amma Biz onları məğlub və rüsvay etdik.

99. (O bu təhlükədən xilas olduqdan sonra) dedi: “Mən Rəbbimə doğru gedirəm. O məni doğru yola yönəldəcəkdir.

100. Ey Rəbbim! Mənə əməlisalehlərdən olan saleh bir övlad bəxş et!”

101. Biz də onu səbirli və dözümlü bir yeniyetmə ilə müjdələdik.

102. O, onunla birlikdə çalışmaq həddinə çatdıqda dedi: “Oğlum! Yuxuda gördüm ki, səni qurban kəsirəm, sənin fikrin nədir!” Dedi: “Atacan! Sənə buyurulanı yerinə yetir. Allahın istəyi ilə mənim səbrlilərdən olduğumu görəcəksən”.

---

84. İbrahim və sağlam qəlb: Bilirik ki, Quran leksikonunda "qəlb" deyilərkən ruh və ağıl nəzərdə tutulur. Buna görə də "sağlam qəlb" istənilən şirk, şək-şübhə və fəsaddan uzaq olan pak, təmiz, sağlam ruha deyilir. Quranda bəzi qəlblərə "qasiyə" - bərk, qatılaşmış, daşürək (Maidə-13), bəzisinə natəmiz (Maidə-41), bəzisinə xəstə (Bəqərə-10), bəzisinə də möhürlənmiş və bağlanmış (Tövbə-87) deyilir. Bunlarla yanaşı, qeyd olunan qüsurlardan uzaq, pak, yumşaq, sevgi dolu, haqq qarşısında təslim olan sağlam qəlb ifadəsi də işlədilmişdir. Hədislərdə sağlam qəlbin Allahın hərəmi adlandırıldığına rast gəlirik. İmam Sadiq (ə) buyurmuşdur: ***"Qəlb Allahın hərəmidir. Allahdan qeyrisini Allahın evində məskunlaşdırma!"*** Bu qəlb qeyb həqiqətlərindən xəbərdar ola bilən, mələklər aləmini görə bilən gözə malik qəlbdir. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Əgər şeytanlar Adəm övladlarının qəlbini əhatə etməzlərsə, şübhəsiz, onlar mələklər aləmini görərlər."*** Ümumiyyətlə, Qiyamətdə insanı xilas edəcək ən yaxşı sərmayə sağlam qəlbidr. İbrahim (ə) Allah dərgahına bu qəlblə tələsib peyğəmbərlik əmri almışdır. İmam Rza (ə) buyurmuşdur: ***"Allahın bəndələri arasında ürək adlanan bir qab vardır. Bu qabların ən yaxşısı saf, möhkəm və zərif olanıdır. Allah dinində ən möhkəm olanı günahlardan ən pak olanı, ən zərif qəlb din qardaşlarına qarşı zərif olan qəlbdir."***[1822]

88-89. İbrahim (ə) yalan danışmadı: Şübhəsiz ki, İbrahimin (ə) xəstələndiyini deməsi onun ulduzlara baxması ilə bağlı idi. Bu əlaqə ilə bağlı iki fikir mövcuddur: 1. Onun ulduzlara baxması xəstələnəcəyi saatı təyin etmək üçün olmuşdur. Məsələn, fasiləli qızdırma xəstəliyinə düçar olmuş bir adam qızdırmasının qayıdacağını hər hansı ulduzun çıxması və batması və

[1822] Nümunə, c.19, səh.97

ya ulduzların xüsusi vəziyyəti ilə təyin edir; 2. O, ulduzlara baxmaqla tezliklə xəstələnəcəyini müəyyən etmişdir. Belə ki, çoxları, o cümlədən ulduzpərəstlər ulduzların vəziyyətinə baxmaqla gələcəkdə baş verəcək hadisələrdən xəbərdar olmağın mümkünlüyünə inanırlar. Əlbəttə, bu ikisi arasında birinci nəzər daha doğru görünür. Çünki İbrahimin təkAllahlıq inancı o qədər xalis idi ki, dünyada heç kəsin və heç nəyin müstəqil təsir gücünə malik olduğuna inanmırdı. 84-cü ayədə də ruh və etiqadının sağlamlığından bəhs edilən belə bir şəxsin öz xəstəliyini ulduzla təyin etməsi, yalan və əsassız söz danışması mümkün deyil. Digər tərəfdən, onun xəstə olmaması ilə bağlı heç bir dəlil yoxdur. Ayənin zahirinə əsasən onun xəstə olduğu aşkardır. Bu məsələ birinci izahla da tamamilə üst-üstə düşür.[1823]

99. Mən Rəbbimə doğru gedirəm: Bu, İbrahimin (ə) kafirlərə verdiyi vədə sədaqətinin ifadəsidir. O, müşrik Azərə belə deyir: ***"Mən sizi və sizin Allahdan başqa tapındığınızı tərk edib bir kənara çəkilir və öz Rəbbimi çağırıram, Rəbbimin çağırışımı cavabsız qoymayacağına ümidvaram."*** (Məryəm-48). Bu ayədən belə məlum olur ki, İbrahim (ə) "Rəbbimə doğru gedirəm" deyərkən təklikdə Allaha ibadət edib, dua və razü-niyaz edəcəyi məkana gedəcəyini nəzərdə tutmuşdur. Bu məkan Şam məmləkəti olmuşdur.[1824]

[1823] Əl-Mizan, c.17, səh.149
[1824] Əl-Mizan, c.17, səh.152

103. Hər ikisi təslim olduqları və İbrahim onun alnını torpaq üzərinə qoyduğu vaxt

104. Biz onu çağırıb dedik: “Ey İbrahim!

105. Artıq sən yuxunu gerçəkləşdirdin!” Biz yaxşı iş görənləri belə mükafatlandırırıq.

106. Həqiqətən də bu, açıq-aşkar imtahandır.

107. Biz böyük bir qurbanlığı ona əvəz verdik.

108. Onun yaxşı adını sonrakı ümmətlər arasında əbədiləşdirdik.

109. İbrahimə salam olsun!

110. Yaxşı əməl sahiblərini belə mükafatlandırırıq.

111. O, Bizim mömin qullarımızdandır.

112. Onu layiqlilərdən olacaq bir peyğəmbər – İshaq ilə müjdələdik.

113. Biz ona və İshaqa bərəkət verdik. Hər ikisinin nəslində yaxşı iş görənlər də var, açıq-aşkar özünə zülm edənlər də.

114. Biz Musa ilə Haruna nemət bəxş etdik.

115. Onların hər ikisini və tayfalarını böyük qəm-qüssədən xilas etdik.

116. Onlara köməklik göstərdik, düşmənlərinə qalib gəldilər.

117. Hər ikisinə aydınlıq gətirən kitab verdik.

118. Hər ikisini doğru yola yönəltdik.

119. Yaxşı adlarını sonrakı ümmətlər arasında əbədiləşdirdik.

120. Musaya və Haruna salam olsun!

121. Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq.

122. Onlar ikisi də Bizim mömin qullarımızdandır.

123. İlyas da elçilərdəndir.

124. Bir zaman o öz qövmünə demişdi: “Məgər təqvalı olmursunuz?

125. Siz yaradanların ən yaxşısını qoyub “Bəl” bütünümü çağırırsınız –

126. həm sizin, həm də əcdadlarınızın Rəbbi olan Allahı tərkmi edirsiniz?”

102-106. İbrahim qurbanda: Bu ayədə İbrahimin oğlu İsmayıl nəzərdə tutulmuşdur. Təfsirçilərin yazdığına görə, həmin vaxt İsmayılın on üç yaşı olmuşdur. İbrahim qəribə bir yuxu görür, həmin yuxunun böyük bir imtahanın başlandığından xəbər verdiyini başa düşür. Yuxuda Allah tərəfindən ona yeganə oğlunu öz əlləri ilə qurban kəsmək əmri verildiyini görür. Allahın imtahanından dəfələrlə üzağ çıxmış bu əzəmətli peyğəmbər ürəyini ümman etməli, Allahın fərmanına boyun əyməli, ancaq hər şeydən əvvəl övladını bu işə hazır etməli idi. Buna görə də övladının bu barədə fikrini soruşur. Fədakar atasının varlığının bir nüsxəsi olan, az müddət ərzində səbr, dözümlülük və iman dərsini atasından öyrənmiş İsmayıl Allahın fərmanını gülərüzlə qarşılayır, atasını da buna həvəsləndirir. Atası qurban məsələsini on üç yaşlı oğlu ilə açıq danışır, onu seçimində müstəqil və azad buraxır. Övlad da öz növbəsində atasının qərarlı, qərarında isə qətiyyətli olmasını istəyir. Bu barədə fərqli fikirlər mövcuddur. Onların bəzisi daha heyrətamizdir. Belə ki, deyilənə görə, fədakar övlad atasına öz

vəzifəsini yerinə yetirməkdə kömək etmək üçün ondan ipi möhkəm sarınmasını, ilahi əmrə boyun əyərkən əl-ayaq tərpədib savabının azalmamasını istəyir. Atasına deyir: Ata bıçağı iti et, bıçağı boğazıma sürətlə çək ki, dözmək mənə və sənə daha asan olsun. Atacan, öncə paltarımı çıxar ki, qana boyanmasın. Çünki anamın qanlı paltarı görüb dözümsüzlük göstərəcəyindən qorxuram. Hədislərin bəzisində belə yazılır: Şeytan İsmayılın anası Hacərin yanına gedib deyir: "İbrahim övladını qurban kəsmək istəyir". Hacər deyir: "Get və mümkün olmayan sözlər danışma. O, çox mərhəmətli adamdır". Şeytan vəsvəsələrinə davam edərək deyir: "O, iddia edir ki, bunu ona Allah əmr edib". Hacər deyir: "Əgər Allah əmr edibsə, itaət göstərmək lazımdır, razılıq verməkdən və təslim olmaqdan başqa yol yoxdur". Şeytan yenə də öz vəsvəsəsinə davam edir, ancaq heç bir nəticə hasil olmadığını görüb İbrahimin yanına gedir: "İbrahim, gördüyün yuxu şeytani yuxudur. Şeytana itaət etmə". İbrahim iman və peyğəmbərlik işığı sayəsində onu tanıyır, üstünə çığıraraq deyir: "Uzaq ol, ay Allahın düşməni!"

Hədislərin birində belə yazılır: İbrahim oğlunu kəsmək üçün ilk öncə Məşhərül-harama gedir. Şeytan qaça-qaça onun dalınca düşür. O, birinci cəmərəyə (daş atılan yerə) çatır. Şeytan da onun dalınca qaçır. İbrahim ona yeddi daş atır. İkinci cəmərəyə çatdıqda yenə də şeytanın gəldiyini görüb ona yeddi daş atır. Sonuncu cəmərəyə çatdıqda şeytana yeddi daş da atıb onu həmişəlik məyus edir. Hər halda, İbrahim övladının üzünü yerə qoyub bıçağı çəkir, ancaq iti bıçaq övladının yumşaq və zərif boğazına təsir etmir. Bu zaman Allah tərəfindən nida gəlir və ona vəzifəsinə əməl etdiyi, böyük imtahandan üzüağ çıxdığı buyurulur. Bəzi hədislərdə belə qeyd edilir: Bu hadisə zamanı Cəbrayıl heyrət içində "Əllahu Əkbər, Əllahu Əkbər…" deyir, İsmayıl "La ilahə illəllah, Əllahu Əkbər", İbrahim isə uca səslə

“Əllahu Əkbər və lillahil-həmd” deyir. Bu, bizim Qurban bayramı günü söylədiyimiz təkbirlərdir. Oğlunun əvəzində qurban kəsməsi, gələcəkdə həcc mərasimləri zamanı Minada bir ənənə kimi icra edilməsi üçün Allah-taala bir qoç göndərir. Müsəlmanlar həccdə olarkən müəmmalı və zahirən heç bir mənası olmayan əməllərlə qarşılaşırlar. Ancaq İbrahimin (ə) həyatı ilə tanış olarlarsa, hər bir əməlin dərin məna daşıdığının şahidi olarlar. Cəmərələrdə daş atılması o vaxt İbrahim (ə) tərəfindən yerinə yetirilmiş və şeytanın daşlanmasını simvolizə edən bir əməldir. Minada qurban kəsilməsi insana İbrahimin (ə) böyük imtahanını, İsmayılın qurban kəsilməsi əmrini, hər ikisinin Allahın əmrinə itaət göstərməsini xatırladır. Həccin digər əməlləri də eynilə bu şəkildə dərin mənaları ehtiva edir. Məhz elə buradan da biz ***“İbrahimin yaxşı adını sonrakı ümmətlər arasında əbədiləşdirdik”*** ayəsinin mənasını yaxşı başa düşürük.[1825]

127. Onlar onu yalançı saydılar. Ancaq şübhəsiz ki, hamısı (Allahın ədalət məhkəməsinə) gətiriləcəkdir.

[1825] Nümunə, c.19, səh.109

128. Allahın ixlaslı qulları müstəsnadır.

129. Onun yaxşı adını sonrakı ümmətlər arasında əbədiləşdirdik.

130. İlyasinə salam olsun!

131. Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq.

132. O Bizim mömin bəndələrimizdəndir.

133. Lut da elçilərdəndir.

134. Bir zaman Biz onu və bütün ailəsini xilas etdik.

135. Təkcə geridə qalanlardan olan yaşlı bir qadından başqa.

136. Sonra da qalanlarını məhv etdik.

137. Siz həm səhər çağı onların yanından (şəhərlərinin xarabalıqlarının yanından) keçirsiniz,

138. həm də axşam çağı. Düşünmürsünüzmü?

139. Yunus da elçilərdəndir.

140. Bir zaman o, yüklü bir gəmiyə tərəf qaçdı.

141. Onlarla püşk atdı və məğlub oldu.

142. Qınanmağa layiq olduqda böyük bir balıq onu uddu.

143. Əgər o, Allaha tərif deyənlərdən olmasaydı,

144. balığın qarnında Qiyamət gününə qədər qalardı.

145. Xəstə vəziyyətdə onu bitkisiz və quru bir əraziyə atdıq.

146. Başı üzərində balqabaq tağı bitirdik.

147. Biz onu yüz mindən də çox adamı olan bir cəmiyyətə göndərdik.

148. Onlar ona iman gətirdilər, Biz də müəyyən vaxtadək onları həyat nemətlərindən qəni etdik.

149. Onlardan soruş: “Qızlar sənin Rəbbinin, oğlanlar isə onlarındırmı?”

150. Yoxsa Biz mələkləri dişi yaratmışıq və onlar da (buna) şahid olublar?

151. Bilin, onlar bu böyük böhtanları ilə deyirlər:

152. “Allah doğmuşdur”. Lakin onlar şübhəsiz ki, yalan danışırlar.

153. Məgər (Allah) qızları oğlanlardan üstün tutmuşdur?

139-148. Yunis (ə) sınaq qarşısında: Yunis (ə) digər peyğəmbərlər kimi çağırışa tövhidlə, bütpərəstlərə qarşı mübarizə ilə başlamış, sonra yaşadığı cəmiyyətdə yayılmış çirkin davranışlarla mübarizəyə qalxmışdır. Yunis (ə) mehriban bir ata xeyirxahlığı, qayğısı, nəvazişi və sevgisi ilə haqq yoldan sapmış camaata nəsihət verməkdən əl çəkməmişdir. Ancaq hikmətli məntiqi qarşısında yalnız söz oyunu və səfsətə ilə qarşılaşmışdır. Uzun müddət təbliğat apardıqdan sonra çox az sayda adam – iki nəfər (bir abid, bir alim) iman gətirmişdi. Yunis (ə) çox təbliğat aparır, nəhayət, onların haqq yola gələcəklərindən məyus olur, abidin təklifi ilə, eyni zamanda qövmünün vəziyyətini analiz edərək onları nifrin etmək qərarına gəlir. Nifrin etdikdən sonra ona ilahi əzabın nə zaman nazil olacağı vəhy edilir. Əzab vaxtı yaxınlaşdığında Yunis (ə) qəzəbli halda abidi də özü ilə götürüb qövmünü tərk edir və dəniz sahilinə gedir. Orada sərnişin və yüklə dolu bir gəmi görür. Onlardan onu da aparmasını istəyir. 140-cı ayədə bu hadisəyə işarə edilmiş, onun gəmiyə doğru gedişi qaçmaq kimi ifadə edilmişdir. Şübhəsiz ki, Yunis (ə) məsum peyğəmbərdir və əsla günah etməz. Ancaq yaxşı olardı ki, bir qədər də dözəydi, əzab nazil olacağı son ana qədər, camaatı tərk etməyəydi, səbrli olaydı. Bəzi hədislərdə onun qırx il təbliğat apardığı yazılmışdır. Ancaq bu müddətə bir neçə saat da əlavə etməsi çox yaxşı olardı. Belə etmədiyi üçün fərari bəndəyə bənzədilmişdir. Yunis (ə) gəmiyə mindikdən sonra böyük bir balıq gəminin önünü kəsib ağzını açır, sanki yeməyə nə isə istəyir. Gəmidə olanlar deyirlər ki, gəmidə bir günahkar var və o bu balığa yem olmalıdır, həmin adamın kimliyini müəyyən etmək üçün

isə püşk atmaqdan başqa çarə yoxdur. Püşkdə Yunisin (ə) adı çıxır. Onu tutub balığın ağzına atırlar. Allah balığa bəndəsi Yunisə (ə) heç bir əziyyət verməməyi əmr edir. O, tərk etdiyi daha yaxşını dərk etməsi və yanlışını düzəltmək qərarına gəlməsi üçün misli görülməmiş bir məhbusluq həyatı yaşamalı idi. Allah-taala buyurur ki, əgər o, Allaha tərif deyənlərdən olmasaydı, Qiyamətə qədər balığın qarnında qalacaqdı və bu müvəqqəti həbsxana onun daimi həbsxanasına, hətta qəbrinə çevriləcəkdi. Ancaq Yunis (ə) hadisənin mahiyyətinə varır, bütün varlığı ilə Allah dərgahına üz tutub daha yaxşı əməli tərk etdiyi üçün Allahdan bağışlanmasını diləyir. "Ənbiya" surəsinin 87-ci ayəsində Allah-taala belə buyurur: "O, qatı qaranlıqlar içində fəryad qoparıb demişdi: ***"Səndən başqa heç bir ilah yoxdur! Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam!"*** Bu doğru etiraf, peşmançılıqla müşayiət olunan bu tərif öz işini görür. Belə ki, "Ənbiya" surəsinin 88-ci ayəsində Allah-taala belə buyurur: ***"Biz onun duasını qəbul etdik, onu qəm-qüssədən xilas etdik, möminləri belə xilas edirik."*** Böyük balıq Allahın əmri ilə quru və ot-ələfsiz bir sahildə başından çox böyük olan tikəsini sahilə tullayır. Ancaq bu qeyri-adi həbsxana Yunisin (ə) sağlamlığına ziyan vurur, onu xəstələndirir və zəifləməsinə səbəb olur. Deyilənə görə, o, balığın qarnından çıxarkən yumurtadan yeni çıxmış qanadsız bir cücə kimi zəif olur. Hətta hərəkət etməyə belə taqəti olmur. Allah onun zəif bədəninə kölgə salması və onu günəş istisindən qoruması üçün başı üzərində balqabaq kolu bitirir. Daha sonra Yunis (ə) qovmünün əzabdan sonrakı aqibətini öyrənmək üçün yola düşür. Onların yaşadıqları əraziyə çatdıqda çox təəccüblənir, o, hicrət edərkən bütün qövmü bütpərəst idi, indi necə olub ki, hamısı Allahpərəst və təkAllahlı olub. Əslində, hadisə belə olmuşdu: Yunisin (ə) nifrini onlara çox təsir edir. Buna görə də çarə yolları axtarırlar, mömin alimin göstərişi ilə tövbə etmək qərarına gəlirlər.

Kollektiv şəkildə səhraya üz tuturlar, anaları övladlarından, heyvanları balalarından ayırır, bundan sonra ah-nalə edə-edə, ağlaşma içində Allahdan bağışlanma diləyirlər. Bu zaman əzab pərdəsi çəkilir, bəla dağlara dəyir, tövbə edən mömin cəmiyyət xilas olur, bundan sonra Yunisə (ə) iman gətirib müəyyən müddətə qədər dünya nemətindən bəhrələnirlər.[1826]

154. Sizə nə olub, necə hökm çıxarırsınız? (Nə etdiyinizi başa düşürsünüz?)

155. Xatırlamırsınızmı?

156. Sizin bu barədə açıq-aydın bir dəliliniz varmı?

157. Əgər doğru deyirsinizsə, kitabınızı gətirin!

158. Onlar onunla (Allahla) cinlər arasında qohumluq əlaqəsinin olduğunu uydurdular. Halbuki cinlər onların Allah məhkəməsinə gətiriləcəyini yaxşı bilirlər.

159. Allah onların aid etdikləri sifətlərdən uzaqdır.

160. Təkcə Allahın ixlaslı bəndələri istisnadır.

161. Nə siz, nə də sizin tapındıqlarınız

162. heç kəsi aldada bilməzsiniz;

163. təkcə Cəhənnəmə girəcək şəxslər istisnadır.

[1826] Nümunə, c.19, səh.152

164. (Mələklər dedi): “Bizlərdən hər birimizin müəyyən bir yeri vardır.

165. Biz sıraya düzülmüşük.

166. Biz hamımız Ona təriflər deyirik”.

167. (Müşriklər) elə hey deyirdilər:

168. “Əgər bizdə də əvvəlkilərdə olan kitablardan biri olsaydı,

169. biz mütləq, Allahın ixlaslı bəndələri olardıq”.

170. (Lakin bu böyük səmavi kitab onlara nazil olduqdan sonra) onlar onu inkar etdilər. Ancaq tezliklə biləcəklər.

171. Bizim göndərdiyimiz bəndələr haqqında verdiyimiz vəd əzəldən deyilmişdi:

172. “Onlar yardım olunanlardır.

173. Bizim qoşunumuz qalibdir”.

174. Sən bir müddət onlardan üz çevir!

175. Onların vəziyyətinə bax! Tezliklə (əməllərinin nəticəsini) görəcəklər.

176. Onlar əzabımız üçün tələsirlər?

177. Əzabımız onların evlərinin kandarına endiyi zaman qorxudulanların sabahı çox pis olacaq!

178. Sən müəyyən vaxta qədər onlardan üz çevir!

179. Onların vəziyyətinə bax! Onlar tezliklə (əməllərinin nəticəsini) görəcəklər.

180. Sənin Rəbbin, yenilməz qüdrət sahibi olan Rəbb müşriklərin (Ona) aid etdikləri sifətlərdən uzaqdır, pakdır.

181. Elçilərə salam olsun!

182. Həmd və tərif aləmlərin Rəbbi olan Allaha məxsusdur!

159-160. Allahı tanımaq üçün kimin yanına gedək? Bu ayələrə əsasən, insanların Allaha aid etdiyi istənilən səciyyə yanlışdır. Allah təkcə ixlaslı bəndələrin, şirk, nəfsani istəklər, cəhalət və azğınlıqdan uzaq olan, Allahın yalnız onun öz icazə verdiyi xüsusiyyətlərlə səciyyələndirən bəndələrin bəyan etdiyi xüsusiyyətlər istisna olmaqla, bütün xüsusiyyətlərdən ucadır. Allahı tanımaq üçün cahil xalqlardan qalmış, dilə gətirilməsi utanc verən xurafatların arxasınca düşmək olmaz. Sözləri insan ruhunu göyün ənginliklərində pərvaz etdirən, tövhid işığında qərq edən, istənilən şirk qırıntısını qəlbdən yuyub aparan, hər növ bənzətməni və cisimləşdirməni beyinlərdən yox edən ixlaslı bəndələrin yanına getmək lazımdır. Peyğəmbər və onun məsum Əhli-beytinin sözlərinə üz tutmaq, Allahı onların bəyan etdiyi xüsusiyyətlər əsasında tanımaq lazımdır. Möminlərin əmiri İmam Əli (ə) belə buyurmuşdur: ***"Düşüncələr Allaha yetişə bilməz ki, ona ölçü təsəvvür edə bilsin, iti fikirlər onu dərk edə bilməz ki, onunla bağlı bir təsəvvür yarada bilsin. Hisslər onu hiss edə bilməz, əllər ona toxuna bilməz, onda dəyişiklik baş vermir, zaman ona təsir göstərmir. Gecə-gündüzün axışı onu qocaltmır, işıq və qaranlıq ona təsir etmir. Allah üzvlərlə, bədənlə, aksidensiya, çevrilmə və dəyişilmə ilə səciyyələndirilmir. Onun ölçüsü və sonu yoxdur, onun üçün yoxluq və son yoxdur."***[1827]

171-173. Allahın peyğəmbərlərə kömək edəcəyi ilə bağlı verdiyi qəti vəd: Quranın bir sıra ayələrində işarə edilmiş vəd haqq yolunun yolçularına təsəlli verən, onların ruh aldığı, yorulduqları zaman onlara yeni nəfəs verən, damarlarındakı qanı təzələyən ən mühüm faktorlardan biridir. Haqq

---

[1827] Nümunə, c.19, səh.176

ordusunun batil üzərindəki qələbəsi, Allah qoşunlarının zəfəri, Allahın peyğəmbərlərə və həqiqi möminlərə köməyi onun qəti vədlərindən və qanunlarındandır. Ancaq burada ortaya belə bir sual çıxır: Nə üçün bəzi peyğəmbərlər şəhid edilir, bəzi möminlər məğlubiyyətə uğramış və uğramaqdadırlar? Birincisi, "qələbə" və "səfər" sözü geniş məna ifadə edir, hər zaman da düşmən üzərində çalınan zahiri və fiziki qələbəni ifadə etmir. Bəzən qələbə məktəbin qazandığı qələbə ilə ölçülür. Əsl qələbə də elə məhz budur. Məsələn, düzdür ki, İmam Hüseyn (ə) və silahdaşları Kərbəlada şəhid oldular. Ancaq buna baxmayaraq, onların məqsədi hasil oldu. Belə ki, onların məqsədi Peyğəmbərin (s) xəlifələri olduqlarını iddia edən əməvilərin çirkin simasını açıb göstərmək idi, öz məqsədlərinə də çatdılar. Müsəlmanları onların təhlükəsindən xəbərdar etdilər, İslamı tənəzzüldən xilas etdilər. İndi onların Kərbəlada məğlub olduqlarını demək olarmı? Peyğəmbərlər və möminlər haqq düşmənlərinin davamlı və mütəşəkkil səyləri qarşısında öz hədəflərini reallaşdıra, özlərinə çoxlu ardıcıl toplaya, məktəblərinin xəttini əbədiləşdirə, bütün fırtınalara sinə gərə, hətta müasir dünyada da dünya əhalisinin əksər hissəsinin diqqətini özlərinə cəlb edə bilmişlər. İkincisi, bu vədin mütləq və qeyd-şərtsiz deyil, şərtli olduğunu yaddan çıxarmamlıyıq. Yanlışlıqların çoxu bu həqiqətin diqqətdən kənarda qalmasından qaynaqlanır. Nəzər nöqtəsi olan ayədə "bizim bəndələrimiz", "bizim qoşunumuz", başqa ayələrdə "Allah ordusu", "bizim yolumuzda cihad edənlər", "Kim Allaha kömək etsə, ona kömək edər" və sair məzmunlu ifadələr də qələbə şərtləri üçün aşkar dəlillərdir. Allahın verdiyi bu vəd ürəkdən və candan Allahın razılığını istəyən, əməldə onun fərmanına boyun əyən, təqva və əmanəti unutmayan şəxslərə məxsusdur.[1828]

[1828] Nümunə, c.19, səh.187

"Sad" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Sad. Xatırladan Qurana and olsun!

2. Kafirlər təkəbbür və ixtilaf içindədirlər.

3. Biz onlardan öncə də neçə-neçə nəsilləri məhv etmişik. Əzab nazil olanda onlar yalvarıb imdad diləyirdilər, lakin artıq xilas vaxtı keçmişdi.

4. Öz aralarından onlara qorxudan bir peyğəmbərin gəlməsinə təəccübləndilər və kafirlər dedilər: “Bu, çox yalançı bir sehrbazdır!

5. O, bütün bu tanrıları bir tanrımı ilə əvəz etdi? Bu, qəribə bir şeydir”.

6. Onların adlı-sanlı adamları çıxıb gedərək dedilər: “Gedin öz məbudlarınızdan bərk-bərk yapışın. Bu (onların sizi sapdırmaq) istədikləri bir şeydir.

7. Biz bunu sonuncu dində eşitməmişik. Bu, uydurmadan başqa bir şey deyil.

8. Məgər içimizdən Quran təkcə onamı (Muhəmmədə) vəhy edilmişdir?” Əslində, onlar Mənim vəhyimə şəkk gətirirlər. Onlar Allahın əzabını hələ dadmayıblar.

9. Yoxsa sənin qüdrətli və bəxş edən Rəbbinin rəhmət xəzinələri onlardadır?

10. Ya da göylərin, yerin və onların arasında olanların üzərindəki hakimiyyət onlaramı məxsusdur? (Əgər belədirsə,) qoy onda mümkün olan istənilən vasitə ilə göylərə qalxsınlar (və vəhyin Peyğəmbərə nazil olmasının qarşısını alsınlar).

11. Bunlar müttəfiq qrupların məğlubiyyətə uğramış kiçik bir dəstəsidir.

12. Onlardan əvvəl Nuh və Ad qövmü, qüdrət sahibi olan Firon da (peyğəmbərlərimizi) yalançı saymışdılar.

13. Həmçinin Səmud, Lut qövmü və Əykə əhli (Şüeybin qövmü) də. Bunlar müttəfiq dəstələr idi.

14. Hər biri elçiləri yalançı hesab etdi və Allahın cəzası onlar haqqında gerçəkləşdi.

15. Onlar (bu əməlləri ilə) yalnız və yalnız heç bir möhlət və qayıdışı olmayan səmavi səs gözləyirlər.

16. Onlar dedilər: “Ey Rəbbimiz! Bizim əzab payımızı hesablaşma günü gəlməmişdən əvvəl, çox tez ver!”

“Sad” surəsinin ümumi məzmunu: Bu surənin məzmununu beş hissəyə bölmək olar: 1. Tövhid, şirklə mübarizə, İslam peyğəmbərinin peyğəmbərliyi, müşrik düşmənlərin bu iki mövzu qarşısında inadkarlıq göstərməsi. 2. Allahın doqquz peyğəmbərinin, xüsusilə Davud, Süleyman, Əyyub peyğəmbərin həyat tarixindən fraqmentlər qeyd edilmiş, onların həyatlarında və dəvətləri zamanı qarşılaşdıqları çətinliklərdən söhbət açılmış, bununla da ciddi təzyiqlərə məruz qalmış ilk müsəlmanlara dərs verilmişdir. 3. Üsyankar və yağı kafirlərin Qiyamətdəki aqibətindən, onların Cəhənnəmdə bir-birləri ilə apardıqları mübahisələrin təsviri verilmiş, imansız kafirlərə aqibətlərinin necə olacağı göstərilmişdir. 4. İnsanın

yaranışı, onun böyük məqam sahibi olması, mələklərin Adəmə səcdə etməsindən danışılmış, insanın yüksəliş və eniş qövsü arasında nə qədər böyük məsafə olduğu başa salınmışdır. 5. İnadkar düşmənlər təhdid edilmiş, İslam peyğəmbərinə təsəlli verilmiş, çağırışının qarşılığı olaraq kimsədən haqq və muzd istəməməsi, habelə kiminsə ağrı-acı çəkməsini diləməməsindən bəhs edilmişdir.[1829]

1-3. Kafirlər, təkəbbür və ixtilaf: Hədislərinin birində İmam Baqir (ə) belə buyurmuşdur: ***"Əbu Cəhl və bir dəstə qüreyşli Peyğəmbərin (s) əmisi Əbu Talibin yanına gedib dedilər: "Qardaşın oğlu bizi və tanrılarımız incidir, narahat edir. Onu çağır və tapşırıq ver, tanrılarımızdan əl çəksin. Əvəzində biz də onun tanrısını söyməyək. Əbu Talib Peyğəmbərin (s) dalınca adam göndərir. Peyğəmbər (s) otağa daxil olanda içəriyə göz gəzdirir, Əbu Talibi dövrəyə alan adamların hamısının müşriklər olduğunu görür. "Salam olsun hidayət ardınca gedənlərə", - deyə salam verir, sonra oturur. Əbu Talib onların sözlərini Peyğəmbərə (s) çatdırır. Peyğəmbər (s) buyurur: "Onlar bir cümlədə mənimlə razılaşıb, həmin cümlə sayəsində bütün ərəblərdən üstün olmağa, onlar üzərində hökmran olmağa hazırdırlarmı?" Əbu Cəhl: "Bəli, razıyam! Qəsd etdiyin cümlə hansıdır?" – deyə cavab verir. Peyğəmbər (s) buyurur: "Deyin: Lai ilahə illəllah". Orada olanlar bu cümləni eşitdiklərində elə qorxuya düşürlər ki, barmaqlarını qulaqlarına tutub, sürətlə oranı tərk etdilər. Çıxarkən isə belə deyirlər: "Biz bunu sonuncu dində eşitməmişik. Bu, uydurmadan başqa bir şey deyil." Ardınca Allah-taala bu surənin 1-7-ci ayələrini göndərir."***[1830]

[1829] Nümunə, c.19, səh.203
[1830] Nümunə, c.19, səh.206

11. Məğlub olmuş kiçik qoşun: Bu ayə yelbeyin və özündən razı kafirləri təhqir səciyyəsi daşıyır. “Hunalikə” (ora, oraya, orada) uzağı ifadə edən işarə əvəzliyidir. Deməli, bu cümlədə müşriklərin Məkkəyə nisbətən uzaqda yerləşən Bədrdəki məğlubiyyətinə işarə edilmişdir. “Əhzab” (koalisiya, tərəfdar dəstələr, ayrı qrupların ittifaqı) deyilərkən Peyğəmbərə (s) qarşı mübarizə aparan qruplar nəzərdə tutullur. Allah-taala onların hamısını məhv etmişdir. Müşriklər həmin qruplara aid olan kiçik bir qrupdur. Onlar da mənsub olduqların koalisiyanın aqibətini yaşayacaqlar. Gələcək ayələrdə bu faktın şahidi olacağıq. Bu surə Məkkə surələrindəndir. Allah-taala bu sözü müsəlmanlar azlıqda olduqları vaxt buyurmuşdur. Həmin vaxt müşriklər onları bir tikə kimi uda bilərdilər. Həmin vaxt müsəlmanların qalib gələcəyindən heç bir əsər-əlamət olmamış, Bədr, Əhzab və Hüneyn müharibələri baş verməmişdi. Ancaq Quran qətiyyətlə bu inadkar düşmənləri məğlubiyyətə uğrayacaq kiçik bir qoşun adlandırır. Bu gün də Quran hər tərəfdən təcavüzkar qüdrətlərin mühasirəsində olan dünya müsəlmanlarına müjdə verir, onlara Allahla olan əhdlərinə sadiq olacaqları təqdirdə Onun da koalisiyaları məlubiyyətə uğradacağı ilə bağlı verdiyi vədinə əməl edəcəyini bəyan edir.[1831]

17. Onların söylədiklərinə qarşı dözümlü ol və çox-çox tövbə edən qüdrətli qulumuz Davudu yadına sal!

[1831] Nümunə, c.19, səh.226

18. Biz dağları ona ram etmişdik. Onlar axşam və səhər onunla birlikdə tərif deyirdilər.

19. Biz quşları da toplu halda ona ram etdik. Hamısı ona tərəf qayıdırlar.

20. Biz onun hakimiyyətini möhkəmləndirdik, ona elm və ədalətli hökm çıxarmaq qabiliyyəti verdik.

21. Onun mehrabına qalxıb şikayət edənlərin əhvalatı sənə gəlib çatıbmı?

22. Onlar Davudun yanına daxil olduqlarında onları görüb qorxdu. Dedilər: “Qorxma! Biz iki şikayətçiyik. Birimiz digərinin haqqını tapdalamışdır. Aramızda ədalətlə hökm ver, haqsızlıq etmə və bizə düz yolu göstər!

23. Bu mənim qardaşımdır. Onun doxsan doqquz qoyunu, mənim isə bircə qoyunum vardır. İsrarla “Onu mənə ver!” – dedi və mübahisədə mənə üstün gəldi”.

24. (Davud) dedi: “O sənin qoyununu öz qoyunlarına qatmaq üçün istəməklə sənə qarşı haqsızlıq etmişdir. Şəriklərin çoxu bir-birinin haqqını tapdalayar. Yalnız iman gətirib yaxşı işlər görənlərdən başqa. Onların sayı isə çox azdır!” Davud Bizim onu (bu hadisə ilə) sınağa çəkdiyimizi başa düşdü. Buna görə də Rəbbindən bağışlanma dilədi, səcdəyə qapanıb tövbə etdi.

25. Biz bu davranışı ona bağışladıq. O, Bizim yanımızda yüksək məqam sahibi və aqibəti yaxşı olanlardandır.

26. Ey Davud! Biz səni yer üzündə xəlifə təyin etdik. Elə isə insanlar arasında ədalətlə hökm ver, nəfsin istəyinə uyma, yoxsa o səni Allahın yolundan azdırar. Allahın yolundan azanları hesablaşma gününü unutduqları üçün şiddətli bir əzab gözləyir.

21-25. Davudun böyük imtahanı: Quranın bu ayələrindən belə başa düşülür ki, şikayət etmək üçün onun mehrabına iki nəfər qalxır. Davud əvvəl qorxur, sonra şikayətçinin şikayətini dinləyir. Şikayətçi deyir: Mənim bir, qardaşımın doxsan doqquz qoyunu var. O deyir ki, bu bir dənəni də mənə ver. Davud şikayətçinin haqlı olduğunu bildirir, bu tələbin qarşı tərəfə zülm və haqsızlıq olduğunu deyir. Sonra öz qərarından peşman olur, Allahdan bağışlanılma diləyir, Allah da onu bağışlayır. Burada iki nüans daha çox diqqət çəkir: 1. Sınaq; 2. Bağışlanma diləyi və tövbə. Quran bu iki mövzudan heç birini digərindən ayırmır. Ancaq bu ayələrin konteksti və ayələrin təfsirini ehtiva edən ayələrdən belə məlum olur ki, Davud yüksək mühakimə istedadına malik olmuşdur. Buna görə də Allah onu sınağa çəkmək istəyir, qarşısına qeyri-adi bir hadisə çıxarır. Davud hökm çıxararkən azacıq tələskənlik edir, qarşı tərəfin fikrini öyrənmədən hökm çıxarır. Davudun qərarı ədalətli olsa da, mühakimə şərtlərindən kənar çıxmışdı. Ayələrdən də görünür ki, şikayətçi tərəflər onun qərarını eşitdikdən sonra qərarla razılaşır və heç nə demədən oranı tərk edirlər. Ancaq Davud fikrə dalır, ədalətli qərar verdiyini bilsə də, mühakimə şərtlərini pozduğunu, tələskənlik göstərdiyini başa düşür. O bilir ki, qarşı tərəfi də dinləməli, yalnız bundan sonra qərar qəbul etməli idi. Yanlışını başa düşür, dərhal daha yaxşını tərk etdiyi üçün Allahdan bağışlanılmasını diləyir. Allah da onu bağışlayıb əfv edir.[1832]

26. Azğınlıqların mənşəyi: Bu ayədən belə məlum olur ki, bütün sapmalar və azğınlıqlar Qiyamət gününü unutmaqdan qaynaqlanır. Bu prinsip qayıdışa diqqətin insanın tərbiyəsində nə qədər rol oynadığını açıq

---

[1832] Nümunə, c.19, səh.244

şəkildə göstərir. Bu mövzunu ehtiva edən hədislər çox böyük diqqət tələb edir. Peyğəmbər (s) və İmam Əliyə (ə) istinad edilən bir hədisdə belə deyilir: ***"Ay camaat! Hər şeydən çox iki şeyə düçar olacağınızdan daha çox qorxuram. Bunlar nəfsin istəklərinə tabe olmaq və uzun-uzadı arzulardır. Nəfsin istəklərinə tabe olmaq sizi haqdan uzaq salır, uzun-uzadı arzular Qiyaməti sizə unutdurur."*** Bu cümlə qızıl hərflərlə yazılıb hər kəsin, xüsusilə dövlət rəhbərlərinin, hakimlərin, məsul şəxslərin görə biləcəyi bir yerdən asılmağa layiq bir cümlədir. İmam Baqir (ə) buyurmuşdur: ***"Üç şey insanı məhv edir: itaət göstərilən paxıllıq, itaət göstərilən nəfs, insanın özündən razı olması."***[1833]

27. Biz göyü, yeri və onların arasındakılarını əbəs yerə xəlq etməmişik. Bu, kafirlərin gümanıdır. Vay o kafirlərin Oddakı halına!

28. Biz heç iman gətirib yaxşı işlər görənləri yer üzündə fitnə-fəsad törədənlərə tay tutarıqmı? Ya da Allahdan qorxanları günahkarlara tay tutarıqmı?

29. Bu bərəkətli Kitabı, (insanların) onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də xatırlaması üçün sənə nazil etdik.

30. Biz Davuda Süleymanı bəxş etdik. O necə də gözəl qul idi! Çünki daima Allaha qayıdardı (onu xatırlayardı).

31. Bir dəfə axşam çağı ona cəld və itiqaçan atlar təqdim etdilər.

32. Dedi: "Mən bu atları Allahıma xatir sevirəm" (və onlardan cihadda istifadə etmək istəyirəm." Gözündən itənə qədər (onlara baxmaqda davam etdi).

[1833] Nümunə, c.19, səh.264

33. “Onları yanıma qaytarın!” – dedi. O, atların qıçlarını və boyunlarını tumarlamağa başladı.

34. Biz Süleymanı sınağa çəkib taxtının üstünə bir cəsəd atdıq. Sonra o, tövbə etdi.

35. O dedi: “Ey Rəbbim! Məni bağışla və mənə məndən sonra heç kəsə nəsib olmayacaq bir səltənət ver. Həqiqətən, Sən bəxş edənsən.

36. Biz də, onun əmri ilə istədiyi yerə sakitcə hərəkət edib getməsi üçün küləyi ona ram etdik.

37. Həmçinin şeytanları da, onlardan olan bənnaları, dalğıcları

38. və başqalarını da zəncirlənmiş halda (ona tabe etdik)

39. (və ona buyurduq:) “Bu Bizim hədiyyəmizdir! İstədiyinə versən də, verməsən də səndən haqq-hesab tələb olunmayacaqdır”.

40. O Bizə yaxın olanlardandır və onun üçün gözəl qayıdış yeri hazırlanmışdır.

41. Qulumuz Əyyubu da xatırla! Bir zaman o öz Rəbbinə yalvarıb demişdi: “Şeytan məni əzab-əziyyətə salmışdır!”

42. (Ona dedik): “Ayağını yerə vur! Bu sərin sulu bulaq yuyunmaq və içmək üçündür!”

31-33. Süleyman (ə) öz ordusuna baxış keçirir: Bu ayə və hadisə ilə bağlı olan müxtəlif faktlardan belə başa düşülür ki, Süleyman (ə) axşamçağı iti qaçan və cəld hərəkət edən döyüş atlarına baxış keçirir, məmurlar döyüş atları ilə onun qarşısından keçirlər. Güclü ordu qurmaq ədalətli və nüfuzlu şah üçün ən zəruri məsələlərdən və itiqaçan miniklər də ordunun ən vacib hissəsi olduğu üçün Quranda bu məsələyə Süleymanın (ə) yüksək məqam sahibi olduğu qeyd edildikdən sonra toxunulur. Süleyman (ə) atlara olan marağının dünyapərəstlikdən qaynaqlanmadığını göstərmək üçün “Mən bu

atları Allaha xatir sevirəm və onlardan döyüşdə istifadə etmək istəyirəm", – deyə əlavə edir. Atlar gözdən itənə qədər onlara baxır. Səhnə Süleyman (ə) üçün o qədər ürəkaçan olur ki, onları təkrar görmək istəyir. Məmurlar bu əmrə itaət göstərib atları qaytarırlar. Süleyman (ə) atları tumarlayır, onların qıçlarına və boyunlarına sığal çəkir, bununla da həm onlara baxanlara stimul verir, həm də öz təşəkkürünü ifadə edir. Hər hansı miniyə görə təşəkkür bildirərkən adətən, onun başına, üzünə, yalına, boynuna və ayağına tumar çəkirlər. Əlbəttə, Süleyman (ə) kimi böyük bir peyğəmbərin insanın yüksək hədəflərə çatmasında rol oynayan bir vasitəyə bu cür sevgi bəsləməsi heç də təəccüblü deyil.[1834]

34. Süleymanın (ə) çətin sınağa çəkilməsi: Təfsirçilər və hədisçilər bu ayəni təfsir edərkən hədislərə istinad etmiş, müxtəlif izahlar vermişlər. Bu təfsirlər arasında ən qanedicisi budur: Bir gün Süleyman (ə) ölkənin idarə edilməsi, xüsusilə düşmənlə müharibədə ona kömək edə biləcək abırlı və cəsur bir oğlunun olmasını arzu edir. Onun çoxlu arvadı var idi. Öz-özünə düşünür ki, hədəflərimə çatmaqda mənə kömək edəcək çoxlu övladım olacaq. Ancaq bu zaman bir anlıq diqqətsizlik edib bütün hallarda insanın Allaha təvəkkül etdiyini göstərən "İnşAllah" (Allahın izni ilə, Allah istəsə) sözünü demədiyi üçün heç bir arvadından övladı olmur. Təkcə bir övladı olur, o da dünyaya ölü gəlir. Həmin ruhsuz cəsədi gətirib Süleymanın (ə) taxtının üzərinə qoyurlar. Süleyman (ə) fikrə dalır və bir anlıq diqqətsizlik göstərdiyini və təkcə özünə güvəndiyini xatırlayıb bərk narahat olur. Buna görə də tövbə edib Allahdan bağışlanmasını diləyir. Bu ayəyə verilmiş ikinci izahda belə deyilir: Allah Süleymanı (ə) ağır bir xəstəliklə sınağa çəkir. İş o

[1834] Nümunə, c.19, səh.272

yerə çatır ki, Süleyman (ə) taxtında cansız bir ruh kimi yıxılıb qalır. Nəhayət tövbə edir, Allah da onu əvvəlki vəziyyətinə qaytarır.[1835]

35. Süleyman (ə) nə üçün belə bir hakimiyyət istəyir? Bu ayəni şərh edərkən İmam Kazim (ə) belə buyurur: ***"Hakimiyyət iki cürdür: Zülm və zor gücünə əldə edilmiş, Allah tərəfindən verilmiş. İkinciyə İbrahimin (ə) soyunu, Talut və Zülqərneynin hakimiyyətlərini misal göstərə bilərik. Süleyman (ə) əl açıb Allaha deyir, ey Rəbbim, mənə elə bir hakimiyyət bəxş et, heç kəs deyə bilməsin ki, bu, zor gücünə zülm və haqsızlıq edilərək insanlardan alınmışdır. Allah-taala küləyi..., şeytanları... Süleymana (ə) ram edir... ona quşların dilini öyrədir, hakimiyyətini yer üzündə bərqərar edir. Bununla da bütün insanlar onun hökumətinin insanların seçiminə əsaslanan, zülm və zor gücünə əldə edilmiş hökumətlərin heç birinin ona bənzəmədiyini başa düşürlər."*** Daha sonra İmam Kazım (ə) belə buyurur: ***"And olsun Allaha! Süleymana və bütün peyğəmbərlərə verilənlərin hamısı bizə (Əhli-beytə) verilmişdir."*** Bu hədis onu göstərir ki, Süleyman (ə) analoqu olmamış və olmayacaq deyil, insanların heç bir etiraz etməyəcəkləri, zülm və zor gücünə mənimsənildiyi iddia edilməyəcək bir hökumət istəyir. Allah-taala bu hökumətin zor gücünə alınmadığını, insanlar tərəfindən, Allah tərəfindən verildiyini göstərmək üçün onu heyrətamiz möcüzələrlə çulğalayır.[1836]

[1835] Nümunə, c.19, səh.280
[1836] Nurussəqəleyn, c.6, səh.261; Quranın ismarışı, c.7, səh.129

43. Bizdən bir mərhəmət və ağıl sahiblərinə bir xatırlama olsun deyə, ailəsini ona (yenidən) və üstəlik bir o qədər də bəxş etdik.

44. (Ona dedik:) “Əlinə bir dəstə buğda çubuğu (və ya bənzər bir şey) götür və onunla (arvadını) vur. Andını pozma”. Biz onun dözümlü olduğunu gördük. O, Allaha çox-çox tövbə edən necə də gözəl bəndə idi!

45. (Güclü) qolları və (görən) gözləri olan bəndələrimiz İbrahimi, İshaqı və Yəqubu xatırla!

46. Biz axirət evini xatırtmağı onların əsas xüsusiyyəti etdik.

47. Onlar Bizim yanımızda seçilmiş və yaxşılardandırlar.

48. Hamısı yaxşılardan olan İsmaili, əl-Yəsəi və Zül-Kifli də xatırla!

49. Bu, bir xatırlatmadır. Allahdan qorxanları gözəl bir qayıdış yeri gözləyir –

50. qapıları onlar üçün açılmış əbədi Cənnət bağları.

51. Onlar orada taxtlara dirsəklənəcəklər, qarşılarında çoxlu-çoxlu meyvələr və (Cənnətə məxsus) içkilər olacaq.

52. Yanında gözlərini ərlərindən çəkməyən həmyaşıd zövcələri olacaq.

53. Bunlar hesablaşma günü üçün sizə vəd olunanlardır.

54. Bu Bizim verdiyimiz tükənməz nemətdir.

55. Bax belə (Bu, təqva sahiblərinin mükafatıdır)! Hədlərini aşanları çox pis qayıdış yeri gözləyir –

56. daxil olacaqları Cəhənnəm. Necə də pis yataqdır!

57. Bu, dadmalı olacaqları qaynar su və irindir!

58. Bunlardan başqa buna bənzər cəzalar da vardır.

59. (Onlara deyiləcək): “Bu, sizinlə birlikdə Cəhənnəmə daxil olan dəstədir. (Onlar insanları haqq yoldan azdıran başçılardır.) “Onlara salam olmasın! (rahatlıq üzü görməsinlər!) Hamısı odda yanacaq”.

60. Olanlar (öz başçılarına) deyəcəklər: “Xeyr, sizin özünüzə salam olmasın! Bunu bizə siz hazırladınız. Bura necə də pis qərar tutulan yerdir!”

61. Deyəcəklər: “Ey Rəbbimiz! Bunu bizə kim hazırlayıbsa, onun əzabını odda ikiqat artır!”

44. Əyyubun (ə) həyat yoldaşının xətası: Məşhur təfsirçi İbn Abbasa istinad edilən bir şərhdə belə deyilir: Şeytan (ya da şeytansifət bir adam) bir gün insan surətində Əyubun (ə) həyat yoldaşının qarşısına çıxıb deyir: Mən sənin ərini müalicə edərəm. Ancaq bir şərtim var, sağalandan sonra sağalmasının yeganə səbəbkarının mən olduğunu desin, başqa bir haqq istəmirəm. Ərinin xəstəliyinin daha da şiddətlənməsindən bərk narahat olan arvad bu təklifi Əyyuba (ə) çatdırır. Bunun şeytan tələsi olduğunu başa düşən Əyyub (ə) əsəbləşir və zövcəsini tənbeh edəcəyinə and içir. Başqa bir şərhdə deyilir ki, Əyyub (ə) onu bir iş dalınca göndərir, o isə gecikir. Əyyub (ə) xəstəlikdən əziyyət çəkdiyi üçün arvadını cəzalandıracağına and içir. Amma hər halda, arvadı belə bir cəzaya layiq olsa da, Allahın peyğəmbərinə uzun müddət xidmət göstərdiyi üçün ayədə qeyd edilən əfvə layiq idi. Bir dəstə buğda samanı və ya xurma salxımının çubuğu ilə vurmanı Əyyubun (ə) öz andına sadiq qalması üçün deyil, Allahın adına hörməti qorumaq və qanun pozuntusunun yayılmaması üçün etdiyini hesab edirlər. Əlbəttə, bu cür davranış cəzaya layiq görülən tərəf əfv edildiyində və insanın əfv olunmaqla yanaşı, qanunun formal tərəfini qorumaq istədiyi təqdirdə məqbuldur. Əks təqdirdə, yəni cəzaya layiq görülən tərəf əfv olunmadığında

bu davranış forması yolverilməzdir.[1837] Daha ətraflı məlumat almaq istəyənlər "Ənbiya" surəsinin 83-cü ayəsinə baxa bilələr.

46. Peyğəmbərlərə xas ixlas: "Ev" deyilərkən qeyd şərtsiz olaraq axirət evi nəzərdə tutulur. Sanki ondan başqa heç bir ev yoxdur, ondan qeyriləri həmin evə doğru keçidlərdir. Peyğəmbərlər və Allah dostları axirət evini heç zaman unutmamış, baxışlarını bu dünyanın bir neçə günlük həyatı və ləzzətləri ilə məhdudlaşdırmamışlar. Onlar bu keçəri həyat üzərində nemətləri ilə birlikdə əbədi bir həyatın olduğunu görmüş və ona qovuşmaq üçün səy göstərmişlər. Başqaları da bəzən axirəti xatırlaya, xüsusilə dostlarından biri dünyasını dəyişdiyində və ya dəfn mərasimlərində, əzizlərinin anım məclislərində iştirak etdikləri vaxt təsirlənə və axirəti xatırlaya bilərlər, ancaq bu xatırlama xalis xatırlama olmur və ya dünya sevgisi ilə qarışmış xatırlama olur. Lakin Allah-taala xalis, dərin və davamlı xatırlama deyərkən fərqli bir məsələni nəzərdə tutur. Xalis xatırlamada Qiyamət günü hər zaman insanın gözləri önündə olur. Ayədə "xalis" deyilərkən məhz bu məna nəzərdə tutulur.[1838]

48. Əl-Yəsə və Zülkifl: Allah-taala bu ayədə iki böyük şəxsiyyətin adını çəkir, onların peyğəmbər olduğunu qeyd edib tərifləyir. Hədislərdə də bu ikisinin peyğəmbər olduğu bildirilmişdir. Casəliqlə mübahisə edərkən İmam Rza (ə) belə buyurmuşdur: ***"Əl-Yəsə İsanın etdiklərini edirdi, suyun üzərində gedirdi, ölünü dirildirdi, kora şəfa verirdi, dəri xəstəliklərini sağaldırdı, ancaq ümməti onun Allah olduğunu söyləmirdi."*** Hədislərinin birində İmam Cavad (ə) belə buyurmuşdur: ***"Zülkifl Davud oğlu***

[1837] Nümunə, c.19, səh. 299
[1838] Nümunə, c.19, səh.308

Süleymandan sonra yaşamış, insanlar arasında mühakimə yürütmüşdür. Onun adı "Uidya" olmuşdur."[1839]

62. Deyəcəklər: "Biz nə üçün pis adamlar hesab etdiyimiz kişiləri burada (Cəhənnəm odunda) görmürük?

63. Biz onları məsxərəyə qoyurduq? Yoxsa (o qədər kiçikdirlər ki,) gözlər onları görmür?"

64. Bu, Cəhənnəm sakinlərinin bir-biri ilə höcətləşməsi bir həqiqətdir.

[1839] Əl-Mizan, c.17, səh.217

65. De: “Mən yalnız qorxudanam. Tək olan qalib Allahdan başqa məbud yoxdur”.

66. Göylərin, yerin və onların arasında olanların Rəbbi yenilməz qüdrət sahibidir, bağışlayandır.

67. De: “Bu, böyük xəbərdir,

68. ancaq siz ondan üz döndərirsiniz.

69. Uca aləmin sakinləri mübahisə edərkən mənim onlardan heç bir xəbərim yox idi.

70. Mənə, yalnız mənim açıq-aydın qorxudan olduğum vəhy edilir.”

71. Bir zaman sənin Rəbbin mələklərə belə demişdi: “Mən palçıqdan bir insan yaradıram.

72. Ona surət verib Öz ruhumdan üfürdüyüm zaman ona səcdə edin!”

73. O zaman bütün mələklər səcdə etdi,

74. yalnız İblisdən başqa! O təkəbbür göstərdi və kafirlərdən oldu.

75. Dedi: “Ey İblis! Sənə Mənim öz qüdrətimlə (iki əlimlə) yaratdığıma səcdə etməyə nə mane oldu? Təkəbbür göstərdin, yoxsa böyüklərdən olmuşdun?”

76. Medi: “Mən ondan daha yaxşıyam. Məni oddan, onu isə palçıqdan yaratmısan!”

77. Dedi: “Səmalardan (və mələklərin sırasından) xaric ol! Sən mənim dərgahımdan qovulmusan!

78. Qiyamət gününə qədər lənətim sənin üzərində olacaqdır!”

79. Dedi: “Ey Rəbbim! İnsanlar dirildiləcəkləri günə qədər mənə möhlət ver”.

80. Dedi: “Sən möhlət verilənlərdənsən,

81. amma müəyyən edilmiş günə və zamana qədər!”

82. Dedi: “Sənin izzətinə and olsun ki, onların hamısını yoldan çıxaracağam;

83. Onların arasından təkcə Sənin xalis bəndələrin istisnadır!”

62-63. Nə üçün pis adamlar hesab etdiyimiz kişiləri görmürük? Qiyamətdə Əbu Cəhl və Əbu Ləhəb kimi azğın liderlər Əmmar Yasirləri, Müsəyyibləri və Bilalları Cəhənnəmdə görmədikdə ağıılları başlarına gələcək və bir-birlərinə deyəcəklər: “Bəs bunlar necə oldu? Biz onları ictimai asayişi pozan, əcdadlarımızın qürur və iftixarlarını məhv etmək üçün ayağa qalxmış bir ovuc pislər, quldur və dağıdıcı dəstələr adlandırırdıq. Biz onlara şər etiketi yapışdırmışdıq[1840], dünyada onlara rişxənd edirdik. Bəlkə biz yanıldığımızı bilmirik, onlar xilas olublar, gözlərimiz bizi aldadır, onlar da oddadırlar.”[1841] İmam Sadiq (ə) səhabələrindən birinə belə buyurur: ***“Allah-taala Quranda siz Əhli-beyt davamçılarından söz açmışdır. Düşmənləriniz Cəhənnəmdə “Biz nə üçün pis adamlar hesab etdiyimiz kişiləri burada (Cəhənnəm odunda) görmürük?...” soruşarlar. And olsun Allaha! Burada “kişilər” deyilərkən sizsiniz. Bir qrup adam sizi düşmən hesab edir. And olsun Allaha! Siz Cənnətdə şad və xürrəm olacaqsınız. Halbuki Cəhənnəm sakinləri Cəhənnəmdə sizi axtaracaq.”***[1842]

67. Böyük xəbər: Bu hansı xəbərdir ki, bu ayədə ona işarə edilmiş və böyük olduğu vurğulanmışdır – Quran, Peyğəmbərin peyğəmbərliyi, Qiyamət, mömin kafirlərin aqibəti, Allahın təkliyi, yoxsa bunların hamısı birlikdə? Quran bütün bunları əhatə etdiyi, onları özündə cəm etdiyi və

[1840] Nümunə, c.19, səh.325
[1841] Əl-Mizan, c.17, səh.221
[1842] Nümunə, c.19, səh.327

müşriklər ona etiraz bildirdikləri üçün onun nəzər nöqtəsi olması daha məqsədəuyğundur. Bu səmavi kitab, bu dünyanı yaradan Yaradıcı tərəfindən endirilmiş böyük xəbər varlıq aləmi böyüklükdədir. Nazil olduğu vaxt böyük bir çoxluq onun böyüklüyünü dərk edə bilməmiş, bir qrup insan ona istehza etmiş, bir qrup onu cadu, başqa bir qrup isə şeir adlandırmışdır. Ancaq çox keçməmiş bu böyük xəbər öz batinini göstərmiş, insanlıq tarixinin axarını dəyişmişdir. Maraqlıdır ki, bu ayə hicrətdən əvvəl, müsəlmanların tamamilə gücsüz olduqları, qələbə qapılarının hamısının bağlı olduğu bir vaxt Məkkədə nazil olmuşdur. Hətta bu gün də bu xəbərin böyüklüyü dünya əhalisinə, hətta müsəlmanların özlərinə də tamamilə aydın deyil, gələcəkdə aydın olacaq. Quranın "Siz üz döndərirsiniz" məzmunlu xitabı hələ də öz aktuallığını qoruyur. Müsəlmanların bu üz çevirməsi onların Allahın nemət çeşməsindən tam sirab ola, onun sayəsində inkişaf edə, fəxr və şərəf qüllələrini fəth edə bilməmələrinə səbəb olmuşdur.[1843]

69. Yuxarı aləmdə mübahisə: Şübhəsiz ki, mələklərin Allahla mübahisəsi olmamışdır. Ancaq Allah "Mən yer üzündə özümə bir xəlifə təyin edəcəyəm", - deyə buyurduğu vaxt mələklər öz aralarında danışaraq deyirlər: "Qan töküb fəsad törədəcək bir şəxsi təyin edirsən?" Allah buyurur: "Mən elə həqiqətləri bilirəm ki, siz onları bilmirsiniz" (Bəqərə-30). Bu danışıq mübahisə adlandırılmış və Adəmin yaranışından bəhs edən sonrakı ayələr üçün giriş rolunu oynamışdır.[1844]

[1843] Nümunə, c.19, səh.331
[1844] Nümunə, c.19, səh.332

84. Buyurdu: “And olsun haqqa, haqq deyirəm!

85. Cəhənnəmi səninlə və sənə tabe olanlarla dolduracağam!”

86. (Ya peyğəmbər!) De: “Mən peyğəmbərlik vəzifəsinə görə sizdən heç bir mükafat istəmirəm və özümdən bir şey uydurmuram.

87. Bu (Quran) aləmlərə bir xatırlatmadır.

88. Siz onun verdiyi xəbəri bir müddətdən sonra eşidəcəksiniz!”

"Zumər" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Bu, yenilməz qüdrət və hikmət sahibi olan Allah tərəfindən nazil edilmiş bir kitabdır.

2. Biz kitabı sənə haqq olaraq nazil etmişik. Elə isə, Allaha ibadət et və dinini onun üçün xalis et!

3. Bilin, xalis din Allaha məxsusdur. Allahdan qeyrisini özlərinə rəhbər seçənlər: “Biz onlara ancaq bizi Allaha yaxınlaşdırsınlar deyə ibadət edirik” – (deyirlər.) Allah Qiyamət günü onların ixtilafda olduqları şey barəsində hökm verəcəkdir. Allah yalançı və kafiri doğru yola yönəltməz.

4. Əgər Allah övlad götürmək istəsəydi, yaratdıqları arasından istədiyini seçərdi. O, pakdır, müqəddəsdir. O, yeganə qalib Allahdır.

5. O, göyləri və yeri haqq olaraq yaratmışdır. O, gecəni gündüzə bürüyür, gündüzü də gecəyə bürüyür. O, günəşi və ayı öz əmrinə ram etdi. Onların hər biri müəyyən olunmuş vaxtadək öz hərəkətlərinə davam edəcək. Bilin ki, o, qüdrətlidir, bağışlayandır.

---

86. Saxtakar kimə deyilir: Ayənin orijinalında işlədilmiş “mütəkəllif” sözü səlahəyyəti çatmadığı halda, çətinliklə də olsa belə, saxtakarlıq edərək nəyisə özünə aid edən şəxs haqqında işlədilir. “De, mən özümdən bir şey uydurmuram” cümləsinə əsasən Peyğəmbər (s) başa salmaq istəyir ki, peyğəmbərliyini özündən uydurmamışdır.[1845] Hədislərdə saxtakar və onun əlamətlərindən çox bəhs edilmişdir. Hədislərinin birində Peyğəmbər (s) buyurmuşdur: “Saxtakarın üç əlaməti var: Mövqecə özündən yüksək olan adamla daim mübahisə edər, aressivlik nümayiş etdirər, bilmədiyi şeyləri danışar, əsla çata bilməyəcəyi işlərin arxasınca düşər.” Başqa bir hədisində Peyğəmbər (s) belə buyurmuşdur: “Saxtakarın üç əlaməti var: Aşkarda yaltaqlıq edər, gözdən uzaq yerdə qeybət edər, müsibət vaxtı tənələr yağdırar.” İmam Sadiq (ə) buyurmuşdur: “Saxtakar üzdə həqiqətə çatmış kimi görünsə də, yanlış yoldadır... Saxtakarın sonu xarlıq və rüsvayçılıq, bu günü isə əziyyət, zəhmət və narahatlıqdır. Saxtakarın zahiri riya, batini

---

[1845] Quranın lüğəti, c.6, səh.137

nifaqdır, daim bu iki qanadla uçur. Xülasə, saxtakarlıq əməlisalehlərin əxlaqından, təqvalıların şüarindən uzaqdır. Allah-taala öz peyğəmbərinə: "De: "Mən peyğəmbərlik vəzifəsinə görə sizdən heç bir mükafat istəmirəm və özümdən bir şey uydurmuram.", - deyə buyurur."[1846]

"Zumər" surəsinin ümumi məzmunu: Bu surə bir neçə mövzunu ehtiva edir: 1. Xalis tövhid, bütün cəhətləri və yönləri ilə tövhid. 2. Qayıdış, hesab-kitab, Cənnətin otaqları, Cəhənnəmin odlu kölgəsalanları, Qiyamət gününün qorxusu, məhşər səhnəsində əməllərin nəticəsinin və əməllərin özünün aşkara çıxması. 3. Quranın əhəmiyyəti. 4. Keçmiş xalqların aqibəti və Allahın ayələrini yalan hesab etdikləri üçün Allahın ağrı-acılı əzabının nazil olması. 5. Tövbə və Allaha qayıdış qapılarının açıq olması.[1847]

3. Xalis din Allaha məxsusdur: Bu və əvvəlki ayədə din deyilərkən ibadət nəzərdə tutulur. ***"Xalis din Allaha məxsusdur"***, yəni Allah təkcə ona ibadət etməyən şəxsin ibadətini qəbul etmir. Burada ibadət edərkən Allahdan qeyrisinin şərik edilməsi və ya qeyrisinə təklikdə ibadət edilməsinin heç bir fərqi yoxdur. Deyilənə görə, bir gün bir kişi Peyğəmbərə (s) deyir: Ey Allahın rəsulu! Biz yaxşı ad qazanmaq üçün mallarımızı veririk. Buna görə mükafatımız varmı? Peyğəmbər (s) buyurur: ***"Allah-taala yalnız ona ixlasla ibadət edənin ibadətini qəbul edir"*** Sonra bu ayəni buyurur: ***"Bilin! Xalis din Allaha məxsusdur"***[1848]

[1846] Nümunə, c.19, səh.352
[1847] Nümunə, c.19, səh.359
[1848] Əl-Mizan, c.17, səh.233 və 245

6. Allah sizi tək bir şəxsdən yaratdı. Sonra zövcəsini ondan (onun qalmış torpağından) yaratdı. Sizin üçün səkkiz cüt heyvan xəlq etdi. O sizə analarınızın bətnlərində üç qaranlıq içərisində yaranış ardından yaranış bəxş etdi. Bu sizin Rəbbiniz olan Allahdır. Hakimyyət Ona məxsusdur. Ondan başqa heç bir məbud yoxdur. Bəs siz haqdan necə dönürsünüz?

7. Küfr etsəniz, (bilin ki,) Allahın sizə ehtiyacı yoxdur. O, bəndələrinin kafirlik etməsinə razı olmaz. Əgər ona şükür etsəniz, buna görə sizdən razı qalar. Heç bir günahkar başqasının günah yükünü daşımaz. Sonra hamınız Rəbbinizə doğru qayıdacaqsınız. O, sizi etdiyiniz əməllərdən xəbərdar edəcəkdir. Çünki O, kökslərdə olanları bilir.

8. İnsana bir zərər toxunduqda Rəbbini çağırıb ona doğru qayıdır. Sonra Allah öz tərəfindən ona bir nemət verəndə o, daha öncə Allahı nədən ötrü çağırdığını unudur və insanları Allahın yolundan çıxartmaq üçün Ona şəriklər qoşur. De: "Küfründən faydalan, çünki Cəhənnəmliklərdənsən!"

9. (Bu cür adam dəyərlidir, yoxsa) gecə saatlarını qiyam və səcdə halında ibadət edərək keçirən, axirət əzabından qorxan və Rəbbinin rəhmətinə ümid bəsləyən adam? De: "Bilənlərlə bilməyənlər eynidirmi? Təkcə ağıl sahibləri xatırlayar".

10. De: "Ey Mənim iman gətirən bəndələrim! Rəbbinizdən qorxun! Bu dünyada yaxşılıq edənləri yaxşı mükafat gözləyir. Allahın yeri (yaratdığı yer üzü) genişdir. (Kafir rəhbərlərin təzyiqinə məruz qaldığınız zaman hicrət edin,) səbr edənlər mükafatlarını hesabsız alacaqlar".

---

6. Səkkiz cüt heyvan və üç qaranlıq: "Səkkiz cüt" deyilərkən dəvə, qoyun, keçi və inək cütü nəzərdə tutulur. "Cüt" ərəb dilində hər hansı cinsin dişi və erkəyinə deyildiyi üçün ümumilikdə səkkiz cüt edir.[1849] "Üç qaranlıq" ifadəsi ilə ana bətni, uşaqlıq və rəhmin qaranlığına işarə edilir. Cift üç qalın pərdə ilə örtülü olur. Adi portretçinin portret çəkməsi üçün tam işıq və aydınlığın olmazı şərtdir. Ancaq Allah-taala qaranlıqlar içində su

[1849] Ərəb dilində olan "cüt" Azərbaycan dilində "cüt" sözündəın fərqlənir. Dilimizdə "cüt" deyilərkən dişi və erkək birlikdə nəzərdə tutulur. Ərəb dilində isə cüt bu taylardan birinə deyilir.

üzərində elə rəsm çəkir, elə portret yaradır ki, dünyaya gəldikdən sonra hər kəs ona heyran olur, digər tərəfdən, əlçatmaz bir məkanda onu davamlı olaraq çox sürətli inkişaf üçün zəruri olan qida və ruzi ilə təmin edir. Cift Allahın yaratdığı çöhrələrin ən herətamiz və zərifidir. Embrologiya tam bir Allahtanıma kursu hesab edilir. Bu mərhələnin incəliklərini araşdıran az adam tapılar ki, onu yaradana tərif deməsin.[1850]

9. Bilənlərlə bilməyənlər bərabərdirlərmi? Bu sualda diqqətlər bilənlərlə bilməyənlərin müqayisəsinə yönəldilsə də, əsas müqayisə obyekti gecələri oyaq qalıb ibadət edən möminlərlə müşriklərdir. Yəni inadkar və kor qəlbli müşriklərlə pak, nurlu və ixlaslı möminlər bərabər deyillər. Möminlərlə bu aşkar reallıqdan xəbəri olmayan insanlar bərabərdirlərmi? Hər halda, bu cümlə İslamın əsas şüarlarından birini ehtiva edir. Cümlədə nadanlarla müqayisədə elm və alimlərin çox yüksək məqamda olduğu göstərilir. Məlumatı olmayanların və dini durğunluq hesab edənlərin iddialarının əksinə olaraq, peyğəmbərlərin çağırışının əsas hissəsini elm və biliyə çağırış təşkil edir. Quran ayələri ilə yanaşı, hədislərdə də elm qədər heç nəyə bu qədər yüksək əhəmiyyət verilmədiyinin şahidi oluruq. İslam peyğəmbəri (s) buyurmuşdur: ***"Həyatın yalnız iki şəxsə faydası var: itaət göstərilən alim, alim sözü dinləyən elm tələbəsi".*** Bu ayəni təfsir edərkən İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Bilənlər bizik (Əhli-beyt), bilməyənlər bizim düşmənlərimizdir, ağıl sahibləri isə bizim tərəfdarlarımızdır."*** Təbii ki, bu şərh ayənin ehtiva etdiyi yönlərdən birini ifadə edir, onun ümumi məzmununu məhdudlaşdırmır.[1851]

10. Allahın geniş yeri: Burada "Biz Məkkədə müşriklərin təzyiqləri altında öz ilahi vəzifələrimizi yerinə yetirə bilmirik", deyən iradəsi zəif

---

[1850] Nümunə, c.19, səh.381
[1851] Nümunə, c.19, səh.394

bəhanəçilərə cavab verilmişdir. Allah Quranda buyurur ki, yer üzü Məkkə ilə məhdudlaşmır, dünya genişdir. Buna görə də azadlığınıza, vəzifələrinizi yerinə yetirməyinizə mane olan küfrə bulaşmış boğucu mərkəzlərdən başqa yerlərə köçün. Hicrət İslamın ilk çağlarına aid deyil, İslam hökumətinin qələbəsində mühüm rol oynayan və buna görə təqvim üçün başlanğıca çevrilən, eyni zamanda bütün dövrlərdə öz aktuallığını qoruyub saxlayan mühüm çıxış yollarından biridir. Bu prinsip möminlərin təzyiqlərdən və boğucu mühitlərdən xilas olmasında, digər tərəfdən isə İslamın başqa regionlara yayılmasında rol oynayır.[1852]

[1852] Nümunə, c.19, səh.401

11. De: “Mənə, dinimi yalnız Allah üçün xalis edərək, Ona ibadət etmək əmr olunmuşdur.

12. Mənə həm də müsəlmanların birincisi olmaq əmr olunmuşdur”.

13. De: “Rəbbimə asi olsam, böyük günün əzabından qorxaram”.

14. De: “Mən dinimi yalnız Allah üçün xalis edərək təkcə Ona ibadət edirəm.

15. Siz də Ondan başqa istədiyinizə ibadət edin”. De: “Əsl ziyan çəkənlər Qiyamət günü özləri və qohumlarının sərmayəsini itirənlərdir . Bilin, açıq-aşkar ziyan da elə budur!”

16. Onlar üçün başları üzərində oddan kölgə salanlar, ayaqları altında da oddan çətirlər olacaqdır. Allah bununla bəndələrini qorxudur. Ey bəndələrim! Məndən qorxun!

17. Həddini aşmışlara ibadət etməkdən çəkinib Allaha doğru qayıdanlara müjdə vardır. Bəndələrimi müjdələ!

18. Onlar sözləri dinləyib onların ən yaxşısına tabe olan, Allahın doğru yola yönəltdiyi şəxslərdir. Onlar ağıl sahibləridirlər.

19. Haqqında əzab fərmanı qətiləşmiş şəxsi xilas edə bilərsənmi?! Od içində olan şəxsi tutub ona nicat verə bilərsənmi?!

20. Lakin Rəbbindən qorxanların Cənnətdə bir-birinin üstündə tikilmiş, altından çaylar axan otaqları vardır. Bu, Allahın vədidir. Allah öz vədinə xilaf çıxmaz.

21. Allahın göydən su endirib onu bulaqlar formasında yerdən axıtdığını, sonra onunla rəngarəng əkinlər yetişdirdiyini, daha sonra onların quruduğunu, saralıb cansız hala düşdüyünü, daha sonra Allahın onları çör-çöpə döndərdiyini görmürsənmi? Bu misalda ağıl sahibləri üçün xatırlatma vardır.

---

15. Qohumlar deyilərkən kimlər nəzərdə tutulur? Təfsirçilər bu suala fərqli-fərqli cavablar vermişlər. Ancaq ayənin məzmununa daha uyğun gələni, "qohumlar" deyilərkən Allahın Cənnətdə mömin və təqvalı insan üçün yaratdığı həyat yoldaşları və xidmətçilərin nəzərdə tutulduğu qeyd edilən yanaşmadır. Belə ki, Qiyamət günü qohumluq və dünya həyatına xas olan bütün ictimai əlaqələrə son qoyulacaq. Allah-taala "Muminun" surəsinin 101-ci ayəsində belə buyurur: ***"... O gün onlar arasında heç bir qohumluq əlaqəsi olmayacaq..."*** Deməli, ayənin mənası belə olur: Əsl ziyana uğramışlar özlərini əbədi məhvə məhkum edənlər, həqiqi kamillik yolundan uzaqlaşanlardır. Onlar iman və saleh əməllər sayəsində nail olan və bununla da özlərinə əbədi qohum və yaxın edə biləcəkləri Cənnət həyat yoldaşları və xidmətçilərindən məhrum olacaqlar. Əsl ziyan və zərər məhz budur.[1853]

[1853] Əl-Mizan, c.17, səh.250

18. İslamın azad düşüncə məntiqi: İslam şüarına çevrilmiş bu və əvvəlki ayə müsəlmanların azad düşüncəyə və müxtəlif məsələlərdəki seçim hüquqlarına malik olduğunu göstərir. Din və məzhəblərin çoxu öz ardıcıllarına araşdırma aparmağı və başqalarının sözlərini tədqiq etməyi qadağan edir. Çünki məntiqləri zəif olduğu üçün başqalarının məntiqinin yüksək olduğunu görəcəklərindən, nəticədə, mənsub olduqları məktəb və ya dini tərk edəcəklərindən qorxurlar. Bu ayədən də göründüyü kimi, İslam araşdırma aparan, başqalarının sözlərini eşitməkdən, qeyd-şərtsiz təslim olmayan, heç bir vəsəvəsənin təsiri altına düşməyən şəxsləri Allahı həqiqi bəndələri kimi tanıtdırır. İslam sözləri, fikirləri dinləyib ən yaxşısına tabe olanlara müjdə verir. Onlar təkcə yaxşını pisdən üstün tutmurlar, yaxşılar arasından da ən yaxşısını seçirlər. Ümumiyyətlə, məntiqi güclü olan hər hansı məktəbin başqalarının sözlərindən qorxmasına heç bir əsas yoxdur. Qarşı tərəf qorxmalıdır ki, zəif və məntiqsizdir. Bu ayə ilə bağlı olan hədislərdə bu məsələyə təkid edilmişdir. İmam Kazim (ə) belə buyurmuşdur: ***"Allah-taala kitabında ağıl və düşüncə sahiblərinə müjdə verərək buyurmuşdur: "Bəndələrimə müjdə ver, sözləri dinləyib onların ən yaxşısına tabe olanlara"***. İmam Əli (ə) belə buyurmuşdur: ***"Hikmət möminin itiyidir. Münafiqdən də olsa belə, hikməti öyrən."***[1854]

20. Üst-üstə olan otaqlar: Bu surənin ziyana uğramışların Qiyamət günü düçar olacaqları əzabdan bəhs edən 16-cı ayəsində oxuduq ki, onların başı üzərində od kölgələri, ayaqları altında oddan təbəqələr olacaq. Beləcə, onlar hər tərəfdən od şölələri ilə əhatə olunurlar. Bu ayədə isə təqva sahiblərinə müjdə verilir, onlara Cənnətdə üst-üstə otaqlar və qəsrlər

[1854] Nümunə, c.19, səh.412

veriləcəyi xəbər verilir.[1855] İmam Sadiq (ə) buyurmuşdur: ***"Möminlərin əmiri (ə) Peyğəmbərdən (s) "Bu otaqlar nə üçün inşa edilmişdir?" – deyə soruşduqda Allah rəsulu (s) buyurur: "Bu otaqları Allah-taala dostları üçün dürr, yaqut və zümrüddən düzəltmişdir. Onların tavanı qızıldandır, gümüşlə bərkidilmişdir. Bu otaqların qızıldan min qapısı var, hər qapıya da bir mələk ezam edilmişdir..."***[1856]

[1855] Nümunə, c.19, səh.415
[1856] Tematik təfsir, c.5, səh.311

22. Allahın, köksünü İslam üçün açdığı və Rəbbinin nur miniyinin üzərinə qaldırdığı şəxs (qəlbi kor olan şəxslə eyni ola bilərmi)? Qəlbi Allahın zikrinə qarşı sərt olanların vay halına! Onlar aşkar azğınlıq içindədirlər.

23. Allah sözün ən gözəlini – ayələri (incəlik, gözəllik, dərinlik və məzmun baxımından) bir-birinə bənzəyən və (zövq oxşayan bir şəkildə) təkrarlanan bir kitab nazil etdi. Onu dinlədikdə Rəblərindən qorxanların bədəninə titrətmə düşər. Sonra daxilləri və zahirləri yumşalar, diqqətləri Allahı xatırlamağa yönələr. Bu, Allahın hidayətidir. Onunla istədiyini doğru yola yönəldir. Allahın zəlalətə saldığı şəxsə isə heç yol göstərən olmaz.

24. Qiyamət gününün dəhşətli əzabını üzü ilə özündən uzaqlaşdıran şəxs (əsla od görməyəcək şəxslə eynidirmi?) Zalımlara: “Qazandığınızı dadın!” – deyilər.

25. Onlardan əvvəl də (ayələrimizi) yalan hesab edənlər olmuşdu, əzab onlara gözləmədikləri yerdən gəlmişdi.

26. Allah onlara dünya həyatında rüsvayçılığı daddırdı. Axirət əzabı isə daha şiddətlidir. Kaş biləydilər!

27. Biz bu Quranda insanlar üçün hər cür məsəllər çəkdik ki, bəlkə xatırlayalar

28. Heç bir qüsuru olmayan, ərəbcə Quran nazil etdik ki, bəlkə təqvalı olsunlar.

29. Allah bir-biri ilə çəkişən bir neçə şərikli ağası olan kişi ilə tək bir şəxsə təslim olan kişini məsəl çəkir. Onlar eynidilərmi? Həmd Allaha məxsusdur, lakin onların çoxu bilmir.

30. Sən də öləcəksən, onlar da öləcəklər!

31. Sonra siz Qiyamət günü Rəbbinizin yanında mübahisə edəcəksiniz.

---

22. Köksü açan və qəlbi sərtləşdirən amillər: “Köksün açılması” deyilərkən köksün haqq sözü qəbul edəcək tutuma malik olması nəzərdə tutulur. Köksün açılması İslama xatir olduğu, İslam Allah və onun iradəsi qarşısında təslim olmaq mənası daşıdığı, Allahın iradəsi də yalnız haqq olduğu üçün “köksün İslama xatir açılması” deyilərkən insanın haqq olan hər bir sözü qəbul edəcək vəziyyət alması nəzərdə tutulur. Əlbəttə, bu o demək deyil ki, insan eşitdiyi hər sözü kor-koranə qəbul etməlidir. Haqqı açıq gözlə görərək, inkişaf yolunu tanıyaraq qəbul etmək lazımdır.[1857] Köksün açılmasının əks tərəfi qəlbin sərtləşməsidir. Bu, qəlblərin haqq və hidayət nuru qarşısında əyilməyən, yumşalıb təslim olmayan, hidayət işığının təsir etmədiyi vəziyyəti nəzərdə tutulur. Ümumiyyətlə, haqqa münasibətdə insanlar eyni deyil: Bəziləri haqqı incə bir işarə və ya qısa bir cümlə ilə başa düşürlər. Halbuki bəzi insanlara ən parlaq dəlillər, güclü nəsihətlər belə təsir göstərmir. Təbii ki, bu iki vəziyyətin də öz amilləri vardır. Davamlı araşdırmalar, əməlisaleh alimlərlə əlaqə, özünü islah, nəfsi təmizləmə, özünü düzəltmə, günahdan çəkinmə, xüsusilə haram qidadan uzaq durmaq, Allahı xatırlamaq köksün açılmasının ən mühüm amillərindəndir. Günah, cəhalət, inadkarlıq, yersiz mübahisələr, günahkarlarla oturub-durmaq ruhun daralmasına, qəlbin sərtləşməsinə səbəb olur. İbn Məsud Peyğəmbərdən (s) bu ayənin təfsirini soruşur: İnsan necə açıq ürəkli ola bilər? Peyğəmbər (s) buyurur: ***“Nur insanın qəlbinə daxil***

[1857] Əl-Mizan, c.17, səh.255

olduqda qəlb açılır”. Soruşur: Ey Allahın rəsulu (s), əlamətləri nədir? Peyğəmbər (s) buyurur: ***“Axirət evinə diqqət, yalançı evdən ayrılmaq, ölüm gəlməzdən əvvəl ona hazır olmaq”***. İmam Əli (ə) buyurmuşdur: ***“Göz yaşları yalnız qəlb sərtləşdiyində quruyur, yalnız günah çoxaldığında ağırlaşır.”*** Hədislərin birində Allahın Musaya (ə) belə bir vəhy göndərdiyini oxuyuruq: ***“Ey Musa, dünyada arzularını uzun etmə ki, qəlbin sərtləşər, yumşaq olmaz. Daşürəklilər məndən uzaqdırlar.”***[1858]

23. Ən gözəl söz: Bu ayədə “mütəşabeh” (bənzər) deyilərkən ayrı-ayrı hissələri bir-birinə bənzəyən, səsləşən, heç bir təzad və müxtəliflik olmayan, yaxşısı, pisi olmayan, bütün hissələri bir-birindən gözəl olan kəlam nəzərdə tutulur. Bu forma insanların danışıqlarından tamamilə fərqlənir, insanların danışdığı sözlərə diqqətlə nəzər saldıqda onlar arasındakı fərqliliklərin, ziddiyətlərin həddən artıq çox olduğunun şahidi olarıq. Ayədə bu kitabın təkrarlanan olması onun başqa bir xüsusiyyəti kimi tanıtdırılır. Ola bilsin ki, bununla müxtəlif mövzuların, hekayələrin, əhvalatların, nəsihətlərin, öyüdlərin təkrarlanmasına işarə edilir. Ancaq bu təkrarlar əsla bezdirici deyil, əksinə, zövq verir, həyəcan yaradır. Əslində, lazım gəldiyində və daha dərindən təsir göstərmək üçün təkrardan istifadə edilməsi fəsahətin əsas prinsiplərindəndir. Ancaq təkrarlar hər zaman yeni formada və biçimdə olmalıdır ki, bezdirici olmasın. Bundan əlavə, Quranın mövzuları bir-birini izah edir, problemlərin çoxu bu yolla öz həllini tapır. Bundan sonra ayədə Quranın təvazökar qəlblərə daha dərindən təsir göstərdiyini ehtiva edən digər xüsusiyyətinə işarə edilir və bu xüsusiyyət çox gözəl bir şəkildə təsvir edilir. Quran ilk öncə hazır qəlblərdə ayıqlığa, hərəkətə və insanların öz məsuliyyətlərinə diqqət yetirməsinə səbəb olacaq bir qorxu yaradır. Növbəti

[1858] Nümunə, c.19, səh.425

mərhələdə ona haqq sözü qəbul edəcək yumşaqlıq və tutum, ardınca isə rahatlıq bəxş edir. Quranın nəsihətləri qəlbləri titrədir, müjdələri qəlblərə rahatlıq bəxş edir. Allahın böyüklüyü haqqında düşünmək insanı qorxuya salır. İnsanda onu necə tanıya bilmək qorxusu yaranır, ancaq Allahın insanın özü və ətraf aləmdəki nişanələrini araşdırmaq ona rahatlıq bəxş edir.[1859]

32. Allaha iftira atan və doğru söz deyildiyində onu yalan sayan şəxsdən daha zalım kim ola bilər? Cəhənnəmdə kafirlər üçün yer yoxdurmu?

33. Doğru söz gətirən və onu təsdiq edənlər isə əsl müttəqilərdir.

34. Onlar üçün Rəblərinin yanında dilədikləri hər şey mövcuddur. Yaxşı işlər görənlərin mükafatı budur.

[1859] Nümunə, c.19, səh.432

35. Allah onların etdikləri ən pis əməlləri bağışlayacaq və etdikləri ən yaxşı əməllərin mükafatını verəcəkdir.

36. Allah öz quluna kifayət etmirmi? Onlar isə səni ondan başqaları ilə qorxudurlar. Allahın doğru yoldan sapdırdığı kimsəyə isə heç bir doğru yol göstərən olmaz.

37. Allahın doğru yola yönəltdiyi kimsəni də azdıran olmaz. Allah qüdrətli və intiqam sahibi deyilmi?

38. Əgər sən onlardan: "Göyləri və yeri kim yaradıb?" – deyə soruşsan, onlar mütləq: "Allah!" – deyəcəklər. De: "Heç düşünürsünüzmü, əgər Allah mənə bir zərər toxundurmaq istəsə, sizin Allahdan başqa ibadət etdikləriniz onun zərərini aradan qaldıra bilərlərmi? Ya da O mənə bir mərhəmət göstərmək istəsə, onlar Onun mərhəmətinin qarşısını ala bilərlərmi?" De: "Allah mənə yetər. Təvəkkül edənlər yalnız Ona təvəkkül edirlər!"

39. De: "Ey qövmüm! Nə bacarırsınız, edin, mən də edəcəyəm. Siz tezliklə biləcəksiniz ki,

40. kimə rüsvayedici əzab gələcək, kimi əbədi əzab saracaq".

-

33. Doğru danışan və təsdiq edən: Təfsirçilər bu ayənin Peyğəmbərə (s) aid olduğunu yazmışlar. Təbii ki, ayədə həm vəhy gətirənin, həm də vəhyi təsdiq edənin peyğəmbər olması ilə bağlı izah ayənin yeganə mənası deyil, mənalarından biridir. Buna görə də bir qrup təfsirçi ***"Doğru söz gətirən"*** cümləsi ilə bütün peyğəmbərlərin, ***"Onu təsdiq edən şəxs"*** cümləsi ilə isə onların həqiqi davamçıları və dünyanın bütün təqvalı insanlarının nəzərdə tutulduğunu bildirmişlər. İzahlar arasında daha ümumi olan başqa bir təfsirdə ***"Doğru söz gətirən şəxs"*** cümləsinin təkcə peyğəmbərlər deyil,

onların məktəbini təbliğ edən, haqq sözü yayan insanların nəzərdə tutulduğu qeyd edilmişdir. Deməli, hər iki cümlənin bir qrupa şamil olmasının heç bir problemi yoxdur. Nəticədə, burada həm doğru sözü gətirənlər, həm də ona əməl edənlərdən söz açılmışdır. Onlar vəhy məktəbini dünyaya yayan, özlərini ona iman gətirən və əməl edən şəxslər, peyğəmbərlər, imamlar, onların məktəblərinin izahediciləridirlər. Sünni və şiə təfsirçilərinin əksəriyyəti bu ayəni izah edərkən ***"Doğru söz gətirən"*** cümləsi ilə Peyğəmbərə (s), ***"Onu təsdiq edən şəxs"*** cümləsi ilə isə Əliyə (ə) işarə edildiyini ehtiva edən hədisi nəql etmişlər. Yaddan çıxarmamalıyıq ki, bu təfsir ayənin məzmununu məhdudlaşdırmır, əksinə, onun ən parlaq məna çalarını bəyan edir. Şübhəsiz ki, İmam Əli (ə) Peyğəmbəri (s) təsdiq edənlər arasında birinci yerdə qərarlaşır. İslam alimləri arasında elə bir şəxs tapılmaz ki, kişilər arasında Peyğəmbəri (s) təsdiq edən birinci şəxsin Əli (ə) olduğunu inkar etsin.[1860]

36. Allah yetər: Təfsirçilərin çoxunun yazdığına görə, Məkkə müşrikləri Peyğəmbəri (s) bütlərin qəzəbindən qorxmağa çağırıraq deyirlər: Onları söymə, onlara qarşı heç bir söz danışma, onlar sənin ağlını başından alar, sənə zərər verərlər. Bu ayə nazil olur. Qeyd olunan bu hədisə əsasən ayənin nazilolma səbəbi kafirlərin Peyğəmbəri (s) bütlərin qəzəbi ilə təhdid etməsi olsa da, ayənin mənası daha genişdir, Allahdan başqa bütün təhdid vasitələrinə şamil olur, haqq yolunun yolçuları, həqiqi möminlərə, xüsusilə azlıqda olduqları cəmiyyətlərdə, hər tərəfdən təhdidlərə məruz qaldıqları şəraitdə müjdə səciyyəsi daşıyır. Bu ayə onlara təskinlik verir, əzmkar, qətiyyətli olmalarında rol oynayır, onları ruhlandırır, addımlarını mətinləşdirir, düşmənin təhdidlərinin zərərli psixoloji təsirlərini aradan

---

[1860] Nümunə, c.19, səh.452

qaldırır. Çünki insanlar hadisələr tufanı qarşısında saman çöpünə bənzəyir, ayrı-ayrı səmtlərə atılırlar. Küləklə sovrularkən saman çöpü yarpağa və ya qırıq bir budağa yapışa bilər, ancaq güclü külək onların hər ikisini özü ilə apara bilər. Hətta hər hansı ağacdan yapışsa belə, bəzən güclü külək ağacı da yerindən qoparır. Ancaq saman çöpü böyük bir dağa arxalansa, heç bir külək, tufan, qasırğa onu yerindən qopara bilməz. Dağ Allaha imanı, qalan vasitələr isə Allahdan qeyrisinə güvənməni ifadə edir. Bu ayənin məzmununa diqqət və inam dözülməz hadisələr qarşısında möhkəm dağ kimi müqavimət göstərməsi, düşmənin çoxluğundan qorxmaması, yoldaşlarının azlığından məyus olmaması, kəskin böhranların ruhi sakitliyini pozmaması üçün insana qeyri-adi cəsarət və özgüvən verir, rahatlıq bəxş edir.[1861] Tövhid inancı sayəsində heç bir amil təkAllahlı insanın Allahdan qeyrisinə qul olmasına səbəb ola bilməz. Allaha bəndəlik insana hürriyyət bəxş edir, Allahdan qeyrisinə, hətta nəfsin istəklərinə qul olmaqdan azad edir. Çünki o elə bir varlığın bəndəsidir ki, hər yerdə hazır və nazirdir, bəndə bütün işlərini ona həvalə edir. Bu cür insan Allahın xüsusi hidayəti sayəsində başqalarının istismarına, müstəmləkəsinə, köləçiliyinə məruz qalmır, xar olmur, təhqir olunmur. O, Allahın yenilməz qüdrətinə arxalandığı üçün heç bir qüdrətdən qorxmur, qorxmadığı üçün də heç kəsə sitayiş etmir, yaltaqlanmır, təhqirə boyun əymir, həyatının və ruzisinin başqalarının əlində olmadığını bildiyi üçün ruziyə görə zillət və köləliyi qəbul etmir.[1862]

[1861] Nümunə, c.19, səh.457
[1862] Tematik təfsir, c.2, səh.566

41. Biz insanlar üçün olan bu kitabı sənə haqq olaraq sənə nazil etdik. Kim doğru yola yönəlməni qəbul etsə, onun öz xeyrinə olar, kim azğınlıq yolunu qəbul etsə, təkcə öz ziyanına haqq yoldan azar. Sən onları doğru yola yönəlməyə məcbur etməməlisən.

42. Allah ruhları ölüm anında, ölməyənlərin canını isə onlar yuxuda ikən alır. Ölümünə hökm verdiyi şəxslərin canını saxlayır, digərlərini (yaşamasını istədiyi şəxslərin ruhlarını) isə müəyyən olunmuş vaxtadək qaytarır. Bunda düşünənlər üçün nişanələr vardır.

43. Onlar Allahdan qeyrilərinimi özlərinə şəfaətçi etdilər? Onlara de: “Onlar heç bir şeyə malik olmadıqları, heç bir şey anlamadıqları, dərk etmədikləri halda da (onlardan şəfaət istəyirlər)?”

44. De: “Şəfaət bütünlüklə Allaha məxsusdur. (Çünki) göylərin və yerin hökmranlığı Ona məxsusdur. Sonra sizi Ona doğru qaytaracaqlar”.

45. Allahın tək olduğu xatırlandığı zaman axirətə inanmayanların qəlbini nifrət bürüyür. Ondan qeyriləri yad edildiyi zaman isə onlar sevinirlər.

46. De: “Ey göyləri və yeri yaradan, gizlini və aşkarı bilən Allahım! İxtilaf etdikləri məsələdə bəndələrin arasında hökmü Sən verəcəksən!”

47. Əgər zülmkarlar yer üzündə olanların hamısına, üstəlik bir o qədərinə də malik olsaydılar, Qiyamət gününün dəhşətli əzabından qurtarmaq üçün onların hamısını fidyə verərdilər. Allah tərəfindən onlara əsla güman etmədikləri aşkar olacaq.

---

42. Yuxunun sirli dünyası: Yuxunun mahiyyəti nədən ibarətdir, nə baş verir ki, insan yatır? Bu mövzu ilə bağlı alimlər çox araşdırmalar aparmışlar. Ancaq alimlərin yuxu mövzusunu aydın şəkildə izah edə bilməməsinin səbəbi onların maddi düşüncəsidir. Onlar bu mövzunu ruhun fundamentallığını və müstəqilliyini qəbul etmədən izah etməyə çalışırlar. Halbuki yuxu cismani olmadan əvvəl ruhani bir fenomendir, ruhu doğru-düzgün öyrənmədən onu izah etmək qeyri-mümkündür. Quranın bu ayəsində yuxu ən dəqiq şəkildə izah edilmişdir. Ayədə buyurulur ki, yuxu bir növ ruhun bədəndən çıxmasıdır. Ancaq bu ayrılma tam şəkildə baş vermir. Allah əmri ilə ruhun işığı bədəndən ayrıldığında və onun bədəndə yalnız zəif bir işartısı qaldığı zaman şüur və idrakın fəaliyyəti dayanır, insan hiss və hərəkətdən məhrum olur. Baxmayaraq ki, həyatın davam etməsi üçün zəruri olan bəzi fəaliyyətlər, o cümlədən ürək döyüntüləri, qan dövranı, tənəffüs, həzm sistemi və sair öz fəaliyyətlərini davam etdirir. Burada çox mühüm hadisə hesab edilən yuxu məsələsi də diqqət çəkir. Çox zaman yuxuların eynilə və ya çox az fərqlə real həyatda baş verdiyinin şahidi oluruq. Materialist yozumlar bu cür yuxuları izah edə bilmir. Lakin ruhi izahlar bu

məsələni çox asanlıqla izah edə bilir. İnsanın ruhu bədəni tərk edib ruhlar aləmi ilə əlaqəyə girdiyi zaman keçmiş və gələcəyə aid bir çox həqiqətləri dərk edir. Buna görə də doğru yuxular adlandırılır. Bu ayənin izahı ilə bağlı qeyd edilmiş hədislərdən belə başa düşülür ki, İslama görə, yuxu ruhlar aləminə doğru hərəkət, oyanmaq isə ruhun bədənə və həyata təkrar qayıdışıdır. Hədislərinin birində İmam Əli (ə) belə buyurmuşdur: ***"Müsəlman cünub halında yatmamalı, yatağına təmiz və dəstəmazlı girməlidir. Əgər su tapmasa, təyəmmüm etsin. Çünki möminin ruhu Allaha doğru yüksəlir. Allah onu qəbul edir, ona bərəkət verir. Əgər ruh sahibinin əcəli çatarsa, həmin ruhu rəhmət xəzinələrinə qovuşdurur, əgər əcəli çatmazsa, onu əmanət götürmüş mələklərlə birlikdə hərəkət etdirir və mələklər onu cəsədinə geri qaytarır."***[1863]

45. Onlar Allahın adından qorxurlar: Bu ayə təkcə Peyğəmbər (s) dövrünün müşriklərinə aid deyil, hər bir dövrdə Allah düşmənlərinin, Allahı inkar edən məktəblərin adını, zülmkarların qələbəsini eşitdikdə sevinən, yaxşılarını, təmizlərini, onların proqramlarını və qələbə xəbərlərini eşitdikdə narahat olan qəlbi qara azğınlar olmuşdur. Bəzi hədislərdə qeyd edilir ki, bu ayə Əhli-beyt (ə) və onların ardıcıllarının üstünlüklərini eşitdikdə narahat olan şəxslər haqqındadır.[1864] Bu gün də bəziləri Quran, dini hökmlərin söyləndiyi, dini nəsihətlrə verildiyi, Əhli-beytin (ə) fəzilətlərinin çatdırıldığı məclislərdə iştirak etməkdən imtina edir. İştirak etsələr də bəzi maraqları güdürlər. Ancaq günah məclislərinə dəvət edildikdə böyük həvəslə oraya tələsir və dəvəti sevinclə qarşılayırlar.[1865]

[1863] Nümunə, c.19, səh.481
[1864] Nümunə, c.19, səh.487
[1865] Ətyəbül-bəyan, c.11, səh.323

47. Əsla güman etmədikləri: Bu ayəyə əsasən kafirlər Qiyamətdə etiqad bəsləmədikləri deyil, təsəvvür etmədikləri, ağıllarına gəlməyn qorxulu hadisələrlərlə qarşılaşacaqlar. Müşriklər peyğəmbər və imamlardan Allahın bəndələr üçün sorğu-sual və tərəzi hazırladığını, kafirlər üçün od və müxtəlif əzablar nəzərdə tutduğunu eşidir, bu eşitdiklərini təsəvvürlərində olanlarla, yəni dünya odu, dünya əzabı, sorğu-sualı ilə müqayisə edirlər. Lakin Qiyamətdə Allahın əzabı ilə qarşılaşdıqlarında burada gördükləri əzabın təsəvvürlərindəkindən daha böyük olduyğunun şahidi olacaqlar. Bu ayədə Cənnət nemətlərindən bəhs edən "Səcdə" surəsinin 17-ci ayəsi kimi əzabdan bəhs edilir. Allah-taala "Səcdə" surəsinin 17-ci ayəsində belə buyurur: ***"Heç kəs gözləri işıqlandıran hansı böyük mükafatların onlar üçün gizlədildiyini bilmir..."***[1866]

[1866] Əl-Mizan, c.17, səh.273

48. Etdikləri pis əməllər qarşılarına çıxacaq və istehza etdikləri onları bürüyəcəkdir.

49. İnsana bir zərər toxunduğu zaman Bizi çağırır. Sonra Biz ona öz tərəfimizdən bir nemət verdikdə deyir: “Bu nemət mənə yalnız bilik və bacarığıma görə verilmişdir!” Xeyr, bu, bir imtahandır, lakin onların çoxu bilmir.

50. Bunu onlardan əvvəlkilər də demişdilər. Amma əldə etdikləri onlara heç bir fayda vermədi.

51. Etdikləri pis əməllərin cəzasını aldılar. Bu zümrənin zalımları da tezliklə etdikləri əməllərin pis nəticəsinə düçar olacaq və onlar əzabdan qaça bilməyəcəklər.

52. Onlar bilmirlərmi ki, Allah istədiyinin ruzisini bol edir, istədiyinin də ruzisini azaldır? Bunda iman gətirənlər üçün əlamətlər vardır.

53. De: “Ey Mənim özlərinə qarşı həddi aşmış və zülm edən bəndələrim! Allahın rəhmətindən ümidinizi üzməyin. Allah bütün günahları bağışlayır. O, bağışlayandır, rəhmlidir!”

54. Əzab sizə gəlməzdən əvvəl Rəbbinizin dərgahına qayıdın və Onun qarşısında təslim olun. Sonra sizə heç kəs tərəfindən kömək olunmaz.

55. Qəfil əzab sizə fərqinə varmadığınız bir halda, gəlməmişdən əvvəl Rəbbiniz tərəfindən sizə nazil edilən ən gözəl göstərişlərə tabe olun!

56. (Bu göstərişlər ona görədir ki,) kimsə Qiyamət günü: “Allahın əmrinə itaətdə səhlənkarlıq göstərdiyimə və rişxənd edənlərdən olduğuma görə vay mənim halıma!” – deməsin.

---

53. Allah bütün günahları bağışlayır: Bu ayə Quranın günahkarlara xitab edən ən ümidverici ayələrindəndir. Ayənin əhatə dairəsi o qədər genişdir ki, İmam Əli (ə) belə buyurmuşdur: ***“Bütün Quranda “Ey Mənim özlərinə qarşı həddi aşmış... bəndələrim!” ayəsi qədər əhatəli ayə yoxdur.”*** Ümumiyyətlə, islah və tərbiyə yolunda mövcud olan ən böyük problemlərdən biri insanın keçmişdə etdiyi pis əməllər nəticəsində keçirdiyi günah hissidir. Xüsusilə günahlar böyük olduğu zaman bu hiss insanı heç vaxt rahat buraxmır, yolunu dəyişmək və Allah yoluna qayıtmaq istədikdə keçmişdə etdiyi günahların məsuliyyətindən necə yaxa qurtara biləcəyini düşünür. Sözügedən problem Quran kontekstində öz həllini tapır. Həqiqi tövbə keçmişdən xilas olmanın və yeni həyata başlamanın ən qətiyyətli vasitəsidir. Quran zaman və şəraitindən, məsuliyyət yükünün ağırlığından asılı olmayaraq Allahın lütf və mərhəmət qapısının insanın üzünə açıq olduğunu buyurur. Bu ayə çox incə bəyanla günahkarları Allaha doğru çağırır, onlara keçmişlərindən tamamilə qopa biləcəklərini vəd verir. İslam peyğəmbəri (s) hədislərinin birində belə buyurmuşdur: ***“Günahına tövbə etmiş şəxs günah etməmiş kimidir.”*** Əlbəttə, Allahın rəhmətinə doğru yönəlmiş bu qayıdış heç də qeyd-şərtsiz deyil. Çünki Allah müdrikdir və hesab-kitabsız bir iş görməz. Əgər Allah rəhmət qucağını bəndələrə açıbsa, onları özünə doğru çağırırsa, bəndələrin də buna hazır olması lazımdır. Bəndə qayıdışı bütün varlığı ilə istəməli, daxili və köklü surətdə dəyişmək istəməli, həm də qayıtdıqdan sonra günah qasırğası nəticəsində dağılmış iman və etiqad əsaslarını yenidən inşa etməli, ruhi və əxlaqi zəifliyini saleh

əməllərlə aradan qaldırmalıdır. Bir də keçmiş günahlar nə qədər böyük olsa, əməllər bir o qədər böyük olmalıdır. Qaranlıq keçmişi yalnız bu vasitə ilə işıqlandırmaq olar.[1867]

56. Allahın yanı: "Cənb" ərəb dilində yan və böyürə deyilir. Bu söz yanaşı olan hər bir şeyə aid edilir. Bu ayədə "Allahın yanı" deyilərkən Allaha aid olan, onun tərəfindən baş verən işlər nəzərdə tutulur; Allahın əmri, ona itaət, ona yaxınlaşmaq, Allah tərəfindən göndərilmiş səmavi kitablar bu məzmuna daxildir. Bu ayədə "səhlənkarlıq" sözü Allah əmrinə boyun əyməkdə, səmavi kitablara itaət edilməsində, peyğəmbər və imamlara tabe olmaqda göstərilən bütün səhlənkarlıqlara şamil olur. Hədislərdə "Cənbəllah" imamlar kimi yozulmuşdur. İmam Kazim (ə) belə buyurmuşdur: ***"Cənbəllah Əmirül-möminin (ə) və ondan sonra sonuncu nümayəndəsinə qədər yüksək məqam sahibi olan vəsilərdir"***. Əlbəttə, bu cür izahlar sözün ən parlaq məna çalarlarından biri kimi izah edilməlidir. Çünki imamlara (ə) tabe olmaq Peytğəmbərə (s) tabe olmaq və Allahın əmrinə boyun əyməkdir. Çünki onlar özlərindən heç bir söz demirlər.[1868]

[1867] Nümunə, c.19, səh.499
[1868] Nümunə, c.19, səh.511

57. Yaxud: “Əgər Allah məni doğru yola yönəltsəydi, mən müttəqilərdən olardım!” – deməsin.

58. Həm də əzabı gördüyü zaman: “Kaş ki, bir də (dünyaya) qayıdaydım, yaxşı işlər görənlərdən olardım!” - deməsin

59. Xeyr! Ayələrim sənə gəldi, sən isə onları yalan saydın, təkəbbür göstərdin və kafirlərdən oldun”.

60. Sən Qiyamət günü Allah haqqında yalan uyduranların üzlərinin qara olduğunu görəcəksən. Cəhənnəmdə təkəbbürlülər üçün yermi yoxdur?

61. Allah müttəqilərə uğurlar və xilas bəxs edəcək. Onlara pislik toxunmayacaq və onlar kədərlənməyəcəklər.

62. Allah hər şeyin xaliqidir. O, hər şeyi qoruyandır.

63. Göylərin və yerin açarları ona məxsusdur. Məhz Allahın ayələrini inkar edənlər ziyana uğrayanlardır.

64. De: "Mənə Allahdan qeyrisinəmi ibadət etməyi əmr edirsiniz, ey cahillər?"

65. Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər müşrik olsan, bütün əməllərin puç olacaq və ziyana uğrayanlardan olacaqsan.

66. Sən yalnız Allaha ibadət et və şükür edənlərdən ol!"

67. Onlar Allahı layiqincə tanımadılar. Halbuki Qiyamət günü yer tamamilə onun ovcunda, göylər isə onun əlində bükülü olacaq. Allah onların (Ona) qoşduqları şəriklərdən ucadır, pakdır, müqəddəsdir.

-

63. Yer və göyün açarları: "Məqalid" sözü "məqlid" (açar) sözünün cəmidir. Bu sözdən adətən hakimiyyət və mülkiyyət ifadə etmək üçün istifadə edilir. Məsələn, "Bu işin açarı filankəsin əlindədir". Buna görə də nəzər nöqtəsi olan ayədə həm Allahın yer və göyün yeganə sahibi, həm də onların yeganə hakimi və idarəedicisi olduğuna işarə edildiyini söyləyə bilərik. Belə ki, ayənin davamında da belə bir nəticə təqdim edilir: ***"Allahın ayələrini inkar edənlər ziyana uğrayanlardır."*** Çünki belə bir şəxs xeyir və bərəkətlərin əsl mənbəyini tərk edib yolunu azır, yerin və göyün açarlarının sahibindən üz döndərir, heç nəyin sahibi olmayan aciz varlıqların dalınca düşür.[1869] Bəzi təfsirçilər bu ayəni şərh edərkən belə yazmışlar: Açar iki

---

[1869] Nümunə, c.19, səh.522

şəkildə fırlanır, bir fırlanışda qapını açır, başqa bir fırlanışda onu bağlayır. Rəhmət xəzinələrinin bütün qapıları haqq və haqq axtaran möminlərin üzünə açıq, batil və yanlış yolda olan kafirlərin üzünə bağlıdır. Heç bir xəzinə batil və küfrə uyğun gəlmir.[1870] Allahın rəhmət qapılarınının ən mühüm açarlarından biri dua və ehtiyacların Allaha bildirilməsidir. Hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Çox dua et, çünki dua hər bir rəhmətin açarı, ehtiyacların aradan qalxma səbəbidir."***[1871]

65. Əgər müşrik olsan, əməllərin sovrulub gedəcək: Burada ortaya belə bir sual çıxır: Məgər Allahın böyük peyğəmbərləri şirkə məruz qala bilərlərmi ki, ayə onlara bu ahəngdə xitab edir? Əslində cavab birmənalı olaraq aydındır. Peyğəmbərlər müşrik olmaqda ixtiyar və qüdrət sahib ola bildikləri halda, əsla müşrik olmazlar. Məsum olmaq qüdrət və ixtiyarın əldən alınması demək deyil. Onların elm və biliklərinin yüksək olması, vəhy mənbəyi ilə birbaşa əlaqədə olmaları onların hətta bir an da olsun, şirk fikrinə düşməsinə imkan vermir. Zəhərli bir maddənin təhlükəli və öldürücü olduğunu bilən savadlı bir həkim ağlı başında olduğu halda, həmin maddəni qəbul edə bilərmi? Əslində, ayənin belə bir məzmun və ahəngə malik olması şirkin çox təhlükəli olduğunu göstərmək üçündür. Yəni Allah-taala insanlara başa salmaq istəyir ki, əgər bu mövzuda böyük peyğəmbərləri ilə belə danışırsa, deməli adi insanlar öz vəzifələrini bilməlidirlər. Eyni fikir İmam Rzaya (ə) aid edilən bir hədisdə də öz əksini tapmışdır: ***"Bu cür ayələrdə xitab obyekti peyğəmbər olsa da, ümmət nəzərdə tutulur."***[1872]

[1870] Tematik təfsir, c.6, səh.30
[1871] Tematik təfsir, c.14, səh.313
[1872] Nümunə, c.19, səh.528

67. Allahı layiqincə tanımadılar: Şirkin əsl səbəbi Allahı doğru-düzgün tanımamaqdır. Əgər bir adam Allahın varlığının hər cəhətdən sonsuz, hüdudsuz olduğunu, bütün mövcudatın onun tərəfindən yaradıldığını, hətta həyatlarının davam etməsində də hər an ona möhtac olduqlarını, kainatın onun tərəfindən idarə edildiyini, bütün düyünlərin onun əli ilə açıldığını, ruzilərin onun qüdrətli əlində olduğunu, hətta şəfaət olsa belə, onun əmri, izni və icazəsi ilə baş verəcəyini bilsə, Allahdan qeyrisinə üz tutmaz. "Qəbzə" ovucda tutulana deyilir. Adətən bu sözlə mütləq qüdrət və kamil hakimiyyət nəzərdə tutulur. Bu gün dilimizdə də bu cür ifadələrə rast gəlirik. Məsələn, Filan şəhər mənim əlimdədir, Filan mülk mənim ovcumun içindədir. "Mətviyyat" sözü "təyy" (bir-birinə yapışmış) sözünün cəmidir. Bəzən bu sözlə ömrün keçməsi və nədənsə keçmək mənaları ifadə edilir. Bu sözdən "Ənbiya" surəsinin 104-cü ayəsində daha aydın şəkildə istifadə edilmişdir: "O gün göyü vərəq kimi bükəcəyik". Kağızı dürmələyib sağ əlində tutmuş şəxs ona tam hakim olmuş şəxsdir. Cümlədə (yəmin) sağ əl ifadəsi ona görə işlənib ki, insanların əksəriyyəti ən vacib işlərini sağ əllə görürlər, sağ qollarında daha böyük güc hiss edirlər. Burada ortaya belə bir sual çıxır: Məgər bu dünyada yer və göy Allahın ovcunda deyilmi? Əslində, Qiyamət günü Allahın qüdrəti hər zamankından daha çox aşkar olacaq.[1873]

[1873] Nümunə, c.19, səh.529

68. Sur üfürüləcək və Allahın istədiyi kimsələrdən başqa göylərdə və yerdə kim varsa, hamısı öləcəkdir. Sonra bir daha sur üfürüləcək, dərhal hamı qalxıb gözləyəcək.

69. Yer öz Rəbbinin nuru ilə işıqlanacaq, əməl dəftərlərini (insanların) qarşılarına qoyacaq, peyğəmbərləri və şahidləri gətirəcəklər. Onların arasında ədalətlə hökm veriləcək və onlara haqsızlıq edilməyəcəkdir.

70. Hər kəsə öz əməlinin qarşılığı tam veriləcəkdir. Allah onların nə etdiklərini hər kəsdən yaxşı bilir.

71. Kafirlər dəstə-dəstə Cəhənnəmə sürüklənəcəklər. Cəhənnəmə çatdıqda onun qapıları açılacaq və oranın gözətçiləri onlara deyəcək: "İçərinizdən Rəbbinizin ayələrini sizə oxuyan və sizə bu gününüzlə qarşılaşacağınızı qorxu gələn elçilər gəlmədimi?" Onlar: "Əlbəttə, (gəlmişdi!)" – deyəcəklər. Lakin əzab əmri kafirlər barəsində qətiləşib.

72. Onlara: "Cəhənnəmin qapılarından daxil olun, orada əbədi qalın!" – deyiləcək. Təkəbbürlülərin yeri necə də pisdir!

73. Rəblərindən qorxanlar da dəstə-dəstə Cənnətə aparılacaqlar. Oraya çatdıqda oranın qapıları açılacaq və gözətçilər onlara deyəcək: “Sizə salam olsun! Bu nemətlər nuşi canınız olsun! Cənnət daxil olun və orada əbədi qalın!”

74. Onlar deyəcəklər: “Həmd bizə verdiyi vədini yerinə yetirən və bizi bu yerə (Cənnətə) varis edən Allaha məxsusdur! Biz Cənnətin istədiyimiz yerində məskunlaşırıq. Əməl sahiblərinin mükafatı necə də gözəldir!”

---

68. Ölüm və həyatın fəryadı: Quranın çox ayələrində surun üfürülməsi mövzusuna çox işarələr edilmişdir. Ayələrdən surun iki dəfə üfürüləcəyi məlum olur. Sur birinci dəfə hər kəsin öləcəyi gün, yəni dünyanın sonu çatdığı vaxt üfürüləcək. Bu üfürmə ölüm fəryadı adlanır. Sur ikinci dəfə bütün ölülərin diriləcəyi diriliş günü üfürüləcək. Bu, həyat üfürməsi adlanır. Sur üfürülməsi metaforik səciyyə daşıyır. Ola bilsin ki, həqiqətən şeypur çalınacaq. Ancaq məlumdur ki, bu, adi bir şeypur olmayacaq, bütün yeri və göyü bürüyəcək, bütün mövcudatın ölməsinə və ya yenidən hərəkətə gəlib, həyata qayıtmasına səbəb olan böyük gurultu və səs olacaq. İmam Səccad (ə) buyurmuşdur: ***“Sur bir başı iki tərəfi olan böyük bir buynuzdur. Yerə tərəf olan hissəsi ilə səmaya tərəf olan hissəsi arasındakı məsafə yerin yeddinci qatından göyün yeddinci qatına qədər olan məsafə qədərdir. Onun üzərində mövcudatın ruhlarının sayı qədər dəlik var. Onun ağzı yerlə göy arasındakı böşluq qədərdir.”*** Hədislərdə qeyd edilir ki, Allahın İsrafil adlı yaxın mələyinə suru üfürmək vəzifəsi tapşırılmışdır. Bəzi hədislərdə onun Allaha ən yaxın və Adəmə səcdə etmiş ilk mələk olduğu yazılmışdır. İmam Səccada (ə) aid olan hədisdə ölüm surunun üfürülməsinin İsrafil tərəfindən yerinə yetiriləcəyi, ondan sonra İsrafilin də öləcəyi, həyat

surunun isə Allah tərəfindən üfürüləcəyi yazılmışdır. Hədislərdə birinci üfürülmə ilə ikinci üfürülmə arasında zaman fasiləsi olacağı da yazılmışdır. Bu illərin eynilə dünya illəri, yoxsa hər bir günü əlli min olan axirət ili qədər olacağı bizə dəqiq məlum deyil.[1874] Möminlərin əmiri İmam Əli (ə) birinci üfürülmədən sonrakı dövrü təsvir edərkən belə buyurmuşdur: ***"Sur üfürüləcək, canlar bədənlərdən ayrılacaq, dillər lal olacaq, dağlar ucalacaq, qayalar elə tökülәcək ki, uzaqdan titrək ilğmlar kimi görünəcək, abadlıqlar quruyub hamarlaşacaq."***[1875] Bu ayənin birinci üfürmədə bəzi zümrələri istisna etməsi ilə bağlı iki ehtimal vardır: 1. Allahın yer və göydən başqa varlıqları da olduğunu ehtimal etsək, bu istisnanın onlara aid olduğunu düşünə bilərik. Çünki ayədə yerdə və göylərdə olanların hamısının öləcəyi buyurulmuş, yer və göylərdən başqa məkanda mövcud ola biləcəkləri ehtimal edilən digər varlıqlar istisna edilmişdir. 2. Ölüm cisimlərə aiddir. Ruh cisimdən çıxdıqdan sonra cisim ölür, ancaq ruhlar ölmür. Ola bilsin ki, ayənin istisnası ruhlara aiddir. Bəzi Əhli-beyt (ə) hədisləri ikinci ehtimalı təsdiq edir.[1876]

69. Yer üzü Allahın nuru ilə işıqlanacaq: Bu ayənin təfsiri ilə bağlı iki rəy mövcuddur: 1. "Allahın nuru" deyilərkən haqq-ədalət nəzərdə tutulur. Allah-taala həmin gün yer üzünü məhz haqq-ədalətlə dolduracaq. Əllamə Məclisi bu barədə belə yazır: "Yəni Qiyamət gününü Allah-taala haqq-ədalət işığı ilə işıqlandıracaq. Çünki yer üzünün işığı ədalətdir." 2. Qiyamət gününün xüsusiyyətlərindən olan "yer üzünün Allahın nuru ilə işıqlanması" deyilərkən pərdələrin çəkilməsi, əşyaların həqiqətinin, əməllərin xeyirli və şər olmasının, itaət, üsyan, haqq və batilin əsl həqiqətinin aşkara çıxması

[1874] Quranın ismarışı, c.6, səh.67
[1875] Nəhcül-bəlağə, 186-cı xütbə
[1876] Əl-Mizan, c.17, səh.293

nəzərdə tutulur. Əşyalar işıq olduğu vaxt aşkara çıxır. Şübhəsiz ki, Qiyamətdə həqiqətləri aşkara çıxaran varlıq Allahdır. Çünki Qiyamətdə aşkarlayıcı vasitələr (günəş və s.) qüvvədən düşəcək. Hər şeyin həqiqəti Allahın nuru vasitəsilə aşkara çıxacaq. Bəzi hədislərdə bu ayədə İmam Mehdinin (ə) qiyamına işarə edildiyi qeyd edilmişdir. Bu hədislərin bənzər tətbiqlərə xidmət etdiyini yaddan çıxarmaq olmaz. Belə ki, İmam Mehdinin (ə) qiyamı vaxtı dünya Qiyamət səhnəsinin bir nümunəsinə çevriləcək, o rəhbərin səyi ilə yer üzündə haqq-ədalət hökm sürəcək.[1877]

[1877] Nümunə, c.19, səh.543

75. Sən mələklərin Ərşi dövrəyə alaraq Rəblərinə sitayişlə təriflər dediklərini görəcəksən. Bəndələr arasında ədalətlə hökm veriləcək və: “Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur!” – deyiləcəkdir.

"Ğafir" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ha, Mim.

2. Bu kitab qüdrətli, elmli Allah tərəfindən nazil edilmişdir.

3. Günahları bağışlayan, tövbələri qəbul edən, cəzası şiddətli, nemətləri çox olan Allah (tərəfindən)! Ondan başqa məbud yoxdur. Dönüş təkcə Ona doğrudur.

4. Bizim ayələrimiz barəsində yalnız (inadkarlıq göstərən) kafirlər mübahisə edərlər. Onların şəhərlərdə gəzib-dolaşmaları (və nümayiş etdirdikləri qüdrətləri) səni aldatmasın.

5. Onlardan əvvəl Nuhun qövmü və sonrakı qövmlər (peyğəmbərlərini) yalançı saydılar. Hər ümmət plan qurub öz peyğəmbərini yaxalamağa çalışırdı. Haqqı boğmaq üçün batil mübahisəyə əl atırdılar. Ancaq Mən onları yaxaladım. Bax gör, Mənim cəzam necə oldu!

6. Rəbbinin kafirlərin od sakinləri olacağı barədəki əmri belə qətiləşdi.

7. Ərşi daşıyan və onun ətrafında öz Rəblərinə həmd edərək tərif deyən, Ona iman gətirən və möminlər üçün də bağışlanma diləyən mələklər (deyirlər): “Ey Rəbbimiz! Sənin mərhəmətin və elmin hər şeyi əhatə edib. Tövbə edib Sənin yolunla gedənləri bağışla, onları Cəhənnəm əzabından qoru!

--

"Ğafir" surəsinin ümumi məzmunu: Bu surəni məzmun etibarı ilə altı yerə bölmək olar: 1. Allahın gözəl adlarına, xüsusilə ürəklərdə qorxu və ümid yaradan adlarına diqqət. 2. Despot kafirlərin dünya və axirət əzabı ilə təhdid edilməsi. 3. Musa (ə) və Fironun əhvalatından bir parça. 4. Qiyamətlə bağlı bir təsvir. 5. Tövhid və şirkin inkar edilməsi. 6. Peyğəmbərə (s) səbrli və dözümlü olmaq tövsiyəsi.[1878]

4. Kafirlərin qüdrət nümayişindən qorxmayın: İslamın ilk vaxtlarında müsəlmanların əksər hissəsi yoxsul və hər şeydən məhrum insanlardan təşkil olunmuşdu. Ayədə Peyğəmbərə (s) və möminlərə despot kafirlərin maliyyə imkanları, siyasi və sosial qüdrətlərinə aldanmamaları tövsiyə edilir, bu vasitələrin onların haqq olduqlarını göstərmədiyi bildirilir. Tarixdə bu cür insanlar çox olub, ancaq onlar Allahın əzabları qarşısında aciz qalıb, payızın iti küləyi qarşısında solmuş yarpaqlar kimi sovrulublar. Quranın çox ayələrində bu mövzuya rast gəlmək olar: "Məhrum möminlər düşünməsin ki, zalım, despot və imansız fərd və cəmiyyətlərin malik olduğu geniş imkanlar onların qələbə, səadət və xoşbəxtliklərinin göstəricisidir." Dar düşüncəli insanların ağlına gələn, fərdlərin maddi imkanlarının onların haqq olduğunu ehtiva edən fikirlərin yanlış olduğunu göstərmək üçün Quran keçmiş xalqların başına gələnləri xatırladır, konkret olaraq Misirdə Firon, Babildə Nəmrud, İraq, Hicaz və Şamda Nuh, Ad və Səmud qövmlərinin adını çəkir. Bununla da yoxsul və məhrum insanların zəiflik hissləri keçirməsinin, imanı olmayan zülmkarlar qarşısında acizlik göstərməsinin qarşısını alır. Əlbəttə, Allah qanununa görə yanlışa yol vermiş insan dərhal

---

[1878] Nümunə, c.20. səh.4

cəzalandırılmır, daha çox sınanması üçün möminlərə, hətta küfr və günah bartaqlığına batması, bütün qayıdış yollarını bağlamaq üçün kafirlər və günahkarlara bol nemət verilir.[1879]

7. Ərşi daşıyanlar daim möminlərə dua edirlər: Bu ayədə bir tərəfdən möminlərə ibadət edənlərin təkcə onlardan ibarət olmadığı, Allahın ərşini daşıyan və onun ətrafına fırlanan yaxın mələklərin həm və tərif dediyi qeyd edilir, digər tərəfdən, kafirlərə iman gətirib-gətirməmələrinin heç bir fərqi olmadığı, Allahın heç kəsin imanına ehtiyacı olmadığı deyilir. Mələklər Allaha ağlasığmaz dərəcədə həmd və təriflər deyir. Halbuki Allahın onların da həmd və təriflərinə ehtiyacı yoxdur. Başqa bir tərəfdən, möminlərə yaşadıqları cəmiyyətlərdə nə qədər azlıqda olsalar da tək olmadıqları, xətalarının bağışlanacağı, Cəhənnəm əzabından qorunacaqları xatırlanır. Ayədə ərşi daşıyan mələklər vasitəsilə möminlərə dua etmək forması başa salınır: Allahın adını çağırmaq, Onu gözəl və əzəmətli adı ilə yad etmək, sonsuz elm və rəhmətindən mədəd ummaq, bundan sonra duaya daxil olmaq, qəbulu sığortalayan şərtlərə əməl edərək ehtiyacları böyükdən kiçiyə doğru dilə gətirmək, sonda duanı Allahın gözəl və əzəmətli adlarını xatırlamaqla, rəhmətinə ümid bəsləyərək sona çatdırmaq.[1880]

[1879] Nümunə, c.20, səh.4
[1880] Nümunə, c.29, səh.33

8. Ey Rəbbimiz! Onları da, onların atalarından, zövcələrindən və nəsillərindən olan əməlisalehləri də onlara vəd etdiyin əbədi Cənnət bağlarına daxil et. Sən yenilməz qüdrət və hikmət sahibisən.

9. Onları günahlarının pis aqibətindən qoru. O gün Sən kimi pis aqibətdən qorusan, ona rəhm etmiş olarsan. Böyük xilas məhz budur".

10. Qiyamət günü kafirlərə belə xitab olunacaq: "Allahın sizə qəzəb və nifrəti sizin özünüzün özünüzə olan qəzəb və nifrətinizdən daha çoxdur. Çünki siz imana dəvət edildiyiniz halda, ondan imtina edirdiniz. ".

11. Onlar deyəcəklər: “Ey Rəbbimiz! Sən bizi iki dəfə öldürüb iki dəfə diriltdin. İndi biz öz günahlarımızı etiraf edirik, Cəhənnəmdən xilas olmaq üçün bir yolumuz varmı?”

12. (Onlara deyiləcək:) “Bu ona görədir ki, Allah təklikdə (şirk qoşulmadan) çağırıldığı zaman siz inkar edirdiniz. Ona şərik qoşulduqda isə inanırdınız. Artıq hökm uca və böyük Allaha məxsusdur”.

13. O sizə öz ayələrini göstərən və göydən ruzi nazil edən varlıqdır. Bu həqiqətləri yalnız Allaha doğru qayıdanlar xatırlayar.

14. Kafirlərin xoşuna gəlməsə də, təkcə Allahı çağırın və dininizi onun üçün xalis edin!

15. O, dərəcələri (əməlisaleh bəndələrin dərəcələrini) yüksəldir, O, Ərşin sahibidir. Öz əmri ilə Ruhu qullarından istədiyinə nazil edir ki, insanları Görüş günü ilə qorxutsun.

16. O gün onların hamısı aşkara çıxacaq və onların heç bir şeyi Allahdan gizli qalmayacaqdır. “Bu gün hökm kimə məxsusdur? Tək olan, qalib Allaha!”

---

10. Allahın sizə olan qəzəbi sizin özünüzün özünüzə olan qəzəbindən çoxdur: Kafirlər tövhid çağırışçılarının sinəsindən itələyərək onları rədd etməklə, nəticədə, Allahın hidayət çıraqlarından üz çevirməklə, hətta onları qətlə yetirməklə dünyada özlərinə qarşı ən böyük düşmənçiliyi ediblər. İnsanın öz-özünə nəfsinin istəklərinə tabe olmaq, dünyanın keçəri həzzindən zövq almaq bahasına əbədi xoşbəxtlik yolundan üz çevirməsi, əbədi əzab qapılarını üzünə açması qədər düşmənçiliyi ola bilməz.[1881]

[1881] Nümunə, c.20, səh.40

11. İki dəfə ölmək, iki dəfə dirilmək: “İki dəfə ölmək” deyilərkən bir dəfə əcəl çatdığı zaman ölmək, bir dəfə də Bərzəx həyatının sonunda ölmək, “iki dəfə dirilmək” deyilərkən isə bir dəfə Bərzəx həyatı üçün, bir dəfə də Qiyamət həyatı üçün dirilmək nəzərdə tutulur. Belə ki, insan öldükdən sonra onun üçün Bərzəx adlı yeni bir həyat başlayır. Həmin həyatda ***“Onlar diridirlər və Rəbblərinin dərgahında onlara ruzi verilir”*** (Ali-İmran-169) ayəsinə əsasən şəhidlər diridirlər, Peyğəmbər (s) və imamlar (ə) bizim salamımızı eşidir, cavab verirlər, Firon kimi təcavüzkar və zalım insanlara səhər-axşam əzab verilir: ***“Onların əzabları oddur, hər səhər-axşam oraya salınırlar.”*** (Ğafir-46). Digər tərəfdən, bilirik ki, bu dünya həyatı sona çatdıqda və birinci sur üfürüldüyü vaxt təkcə insanlar deyil, ***“Göydə və yerdə olan hər kəs öləcək”*** (Zumər-68) ayəsinə əsasən bütün mələklər, ölənlərin müvəqqəti Bərzəx qəlibində olan ruhları da öləcək. Allahdan başqa heç bir varlıq qalmayacaq. Ümumiyyətlə, bizim bir cismani, bir də Bərzəx həyatımız var. Ömrümüzün sonunda cismani həyatımız sona çatacaq, bu dünyanın sonunda isə Bərzəx həyatımız sona çatacaq. İki ölümdən sonra Bərzəx və Qiyamət həyatı olmaqla iki həyatımız da vardır.[1882]

15. Ruhu öz əmri ilə istədiyi bəndəsinə nazil edir: Bu və digər ayələrin məzmununa əsasən deyə bilərik ki, bu ayədə “Ruh” deyilərkən qəlblərin həyat mənbəyi olan quran və vəhy nəzərdə tutulur. Bu ruh həyat, hərəkət, fəaliyyət, mübarizə və vəhy mənbəyidir. Bəzi hədislərdə ruhun burada Ruhul-qüdüs olması, ayənin peyğəmbər və məsum imamlar ilə xas olması ilə bağlı fikirlər qeyd etdiyimiz izahla heç bir təzad təşkil etmir. Çünki müqəddəs ruh peyğəmbər və məsum imamlarda tam şəkildə qərarlaşan müqəddəs ruh və yüksək mənəvi məqamdır. Çox hallarda ondan bir nur

---

[1882] Nümunə, c.20, səh.43

başqa şəxslərin də varlığında təcəlla edir. Ruhul-qüdüsün iltifatı onlara köməklik göstərsə, onlar Allahın mühüm əmrlərini icra edərlər.[1883]

16. Onların hamısının aşkara çıxdığı gün: Cümlənin mənası bu deyil ki, Allah insanları bu dünyada görmür, ancaq axirətdə görəcək. Əslində, burada həqiqətlərin insanlara aşkar olacağından danışılır. Çünki həmin gün insanları özünə cəzb edən, onlara Allahın hökmranlığını, idarəçilikdə onun tək olduğunu unutduran sərvət və qüdrət kimi xəyali vasitələr və səbəblər ortadan qalxacaq, insanın zahiri ilə batini, yadında olan və unutduqları məhşər səhnəsində aydın şəkildə aşkar olacaq. Allahın həqiqi hökmranlığı aşkar olduğu vaxt insanlara belə bir sual ünvanlayacaq: ***"Bu gün hökm kimə məxsusdur?"*** Elə özü tərəfindən də cavab gələcək: ***"Tək olan, qalib Allaha!"***[1884]

[1883] Nümunə, c.20, səh.53
[1884] Əl-Mizan, c.17, səh.319

17. Bu gün hər kəsə etdiyi əməl qarşılığında mükafat veriləcəkdir. Bu gün haqsızlığa yol verilməyəcək. Allah sürətli haqq-hesab çəkəndir.

18. Onları qorxudan ürəklərin xirtdəyə çatacağı, bütün varlıqlarının qəm-qüssəyə batacağı yaxın günlə qorxut. Zalımların heç bir dostu olmayacaq, heç bir şəfaətçinin şəfaəti qəbul olunmayacaq.

19. O, xaincəsinə fırlanan baxışları və kökslərdə olanlari bilir.

20. Allah ədalətlə hökm verər. Ondan başqa çağırdıqları tanrılar heç bir hökm verə bilməzlər. Allah eşidəndir, görəndir!

21. Onlar özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmək üçün yer üzündə gəzmədilərmi? Onlar bunlardan daha qüvvətli idilər və yer üzündə daha çox iz qoymuşdular. Allah onları günahlarına görə yaxaladı və onları əzabdan müdafiə edən olmadı.

22. Bu ona görə idi ki, elçiləri onlara açıq-aydın dəlillər gətirməsinə baxmayaraq, onlar inkar edirdilər. Buna görə də Allah onları yaxaladı. O, qüvvətlidir, cəzası da şiddətlidir.

23. Biz Musanı möcüzələrimizlə və aşkar bir dəlillə göndərdik –

24. Fironun, Hamanın və Qarunun yanına. Onlar isə: “Bu, çox yalançı bir sehrbazdır!” – dedilər.

25. Tərəfimizdən onlara həqiqəti bəyan etdiyində onlar dedilər: “Musa ilə birlikdə iman gətirənlərin oğullarını öldürün, qadınlarını isə sağ buraxın!” Amma kafirlərin planı boşa çıxar.

-

18. Canların ağıza gələcəyi gün: Məlumdur ki, insan çətin və çıxılmaz vəziyyətdə qalanda sanki qəlbinin yerindən qopub çölə çıxmaq istədiyini hiss edir. Buna ideomatik dildə ürəyin ağıza gəlməsi deyilir. Yoxsa ki, qan dövranının mərkəzi olan ürək ümumiyyətlə, yerindən hərəkət etmir və ağıza da gəlmir. Qəlb, ürək deyiləndə ola bilsin ki can nəzərdə tutulur. Yəni can boğaza gəlir. Sanki ruh bədəni tədricən tərk edir və yalnız az hissəsi bədəndə qalır. Hər halda Allahın dəqiq sorğu-sualının yaratdığı həyəcan və dəhşət, insanların qarşısında rüsvay olmaq qorxusu, xilası mümkün olmayan acı əzab insanda dillə ifadə edilməsi mümkün olmayan dəhşətli bir hiss yaradır.[1885]

18. Şəfaət olunan və olunmayan insanlar: Quran ayələri və məsumların (ə) hədislərindən belə məlum olur ki, Allaha inanan Peyğəmbər (s) və onun Əhli-beyti (ə) ilə düşmənçilik etməyən şəxs şəfaət nemətindən faydalanacaq. Əlbəttə, keçmişləri yaxşı olan bəzi fərdlər Allahın bu nemətindən daha tez, bəziləri isə gec faydalanacaq. Ancaq istənilən halda bu rəhmət qapısı onların üzünə açılacaq. Bəzi hədislərdə zərrə qədər də imanı olan şəxsə şəfaət olunacağı, bəzi hədislərdə böyük günahların şəfaətə mane olduğu qeyd edilmişdir. Əslində bu hədislər bir-biri ilə təzad təşkil etmir. Çünki ikinci qrup hədislər bu günahların ümumiyyətlə, insanı şəfaətdən məhrum edəcəyini deyil, bir müddət əzab içində qalacağını və şəfaətdən müəyyən müddətə qədər məhrum edəcəyini ifadə edir.[1886] İslam peyğəmbəri (s) hədislərinin birində belə buyurmuşdur: ***"Bəndə etdiyi günaha görə yüz il Cənnətdən ayrı düşəcək, ancaq ailəsinin Cənnətdən bəhrələndiyinə***

[1885] Nümunə, c.20. səh.63
[1886] Mənçuri-cavid, c.8, səh.192

tamaşa edəcək."[1887] Hədislərinin birində İmam Əli (ə) belə buyurmuşdur: ***"Allahın əzabını yüngül saymayın. Şəfaətimiz ondan məhrum olmuş bəzi israfçılara üç yüz min ildən sonra çatacaq."***[1888] Hədislər küfr, şirk, Peyğəmbər (s) və onun ailəsi ilə düşmənçiliyin, onların rəhbərliyini qəbul etməməyin insanı şəfaətçinin tamamilə şəfaətdən məhrum edəcəyini göstərir. Bəzi günahlar da insanın şəfaətdən məhrum və əzaba düçar olacağına səbəb olur. İffət yolunu azmaq və namazı yüngül saymağı buna misal göstərə bilərik. Bəzi hədislərdə müəyyən əməllərin şəfaətin sürətlənməsinə səbəb olduğu qeyd edilmişdir. Xalis və səmimi iman, xalis tövhid inancı, çoxlu səcdə etmək, Peyğəmbər (s) və onun əhli-beytinə çoxlu salavat göndərmək, onlara qarşı məhəbbət göstərmək, iman əhli ilə dostluq etmək, onlara xidmət göstərmək, Quran öyrənmək, dini vəzifələri yerinə yetirmək, başqalarının üzrünü qəbul etmək, güzəştə getmək, çətinliklərə və məhrumiyyətlərə səbr etmək və sair əməlləri buna misal göstərmək olar.[1889]

19. Xain baxışlar: İmam Sadiqdən (ə) bu ayənin mənası haqqında soruşulduqda buyurur: ***"Görməmisənmi, bir adam bir şeyə baxır, ancaq özünü elə göstərir ki, guya həmin şeyə baxmır? Buna xain baxış deyilir."*** Əlbəttə, xain baxışlar müxtəlifdir: Bəzən başqalarını təhqir etmək və eyiblərini göstərmək üçün gözlə işarələr edilir, bəzən baxışlarla şeytani planlar cızılır. Bəzən oğrun baxışlarla insanların namusuna və baxılması qadağan olunan şeylərə baxılır.[1890] Hədislərin birində belə deyilir: ***"Birinci baxış (bilmədən naməhrəmə baxmaq) sənin üçündür (buna görə sənə cəza***

[1887] Üsuli-kafi, c.2, səh.293
[1888] Biharül-ənvar, c.6, səh.154
[1889] Mənçuri-cavid, c.8, səh.193
[1890] Nümunə, c.20, səh.65

verilməz), ancaq ikinci baxış sənin zərərinədir.” Buna görə də naməhrəmə ikinci baxış haramdır və xain baxış hesab edilir.[1891]

26. Firon dedi: “Qoyun Musanı öldürüm, o da Rəbbini çağırsın. Çünki mən onun sizin dininizi dəyişdirəcəyindən, yaxud yer üzündə fəsad törədəcəyindən qorxuram”.

[1891] Məcməül-bəyan, c.8, səh.433

27. Musa dedi: “Mən Hesablaşma gününə inanmayan hər bir təkəbbürlüdən həm mənim və sizin Rəbbinizə sığınıram!”

28. Firon ailəsindən olub imanını gizlədən mömin bir kişi dedi: “Siz bir kişini: “Rəbbim Allahdır!” – dediyinə görəmi öldürəcəksiniz? Halbuki o, Rəbbinizdən sizə açıq-aydın dəlillər gətirdi. Əgər o, yalan danışırsa, onun yalanı ancaq öz əleyhinədir. Yox, əgər doğru danışırsa, onun vəd etdiyi əzabların (ən azı) bəzisi sizə toxunar. Allah həddi aşanı, yalançını doğru yola yönəltməz.

29. Ey qövmüm! Bu gün hökmranlıq sizə məxsusdur, bu ölkədə qalibsiniz. Əgər Allahın əzabı bizə gəlsə, bizi kim qoruyacaq?” Firon dedi: “Mən sizə ancaq öz inandığımı bəyan edir, sizə ancaq doğru yolu göstərirəm”.

30. Mömin kişi dedi: “Ey qövmüm! Mən keçmiş xalqların başına gələnlərin sizin də başınıza gələcəyindən qorxuram.

31. Nuhun qövmü, Ad, Səmud tayfalarını və onlardan sonra gələnlərin bənzər adətindən qorxuram. Allah bəndələrə zülm və haqsızlıq olunmasını istəməz.

32. Ey qövmüm! Mən sizin üçün insanların bir-birini çağıracağı gündən qorxuram.

33. Geriyə dönüb qaçacağınız gün Allah qarşısında heç bir sığınacağınız olmaz. Allahın azğınlığa saldığı kimsəyə isə yol göstərən olmaz”.

---

26. Cinayətini yozmaq üçün Fironun gətirdiyi iki bəhanə: Firon Musanı (ə) qətlə yetirməklə bağlı gəldiyi qərarı tərəfdarlarına yozmaq üçün iki arqument təqdim edir. Bu arqumentlərdən biri mənəvi, digəri isə maddi

səciyyə daşıyır. O, ilk öncə belə deyir: ***"Sizin dininizi dəyişəcəyindən qorxuram".*** Əlbəttə, Firona görə din yalnız ona və digər bütlərə sitayiş etməkdən ibarət idi. Sonra deyir: "Bu ölkədə fəsad törədəcək". Yəni bu gün sussam və Musa (ə) ilə mübarizəyə bir müddətdən sonra başlasam, özünə çoxlu ardıcıl yığacaq, qan tökülməsinə, fəsad törədilməsinə və qarışıqlıq yaranmasına səbəb olacaq problemlər yaradacaq. Buna görə də onu tez öldürmək lazımdır. Firona görə fəsad əsir və həbsdə olan kütlələri azad etmək, bütpərəstliyi yer üzündən silmək və təkAllahlıq inancını həyata qaytarmaq üçün diktaturaya qarşı yaradılacaq inqilab idi. Despotlar, diktatorlar və cinayətkarlar öz cinayətlərini yozmaq və Allah adamları ilə mübarizə aparmaq üçün bu iki uydurma bəhanəyə əl atmışlar. Bu gün də dünyanın ayrı-ayrı yerlərində sözügedən bəhanələrin şahidi oluruq.[1892]

28. Firon ailəsindən olan mömin bir kişi: Quran ayələrindən bu şəxsin Fironun yaxınlarından olduğu və Musaya (ə) iman gətirdiyi, ancaq imanını gizlətdiyi məlum olur. Qəlbində Allahın peyğəmbərinə sevgi bəsləyən bu şəxs onu qorumağı özünə vəzifə bilir. O, şox ayıq, dəqiq, deyəcəyi sözün və atacağı addımın vaxtını bilən məntiqli və güclü bir adam olmuşdur. Həssas məqamda Musanın (ə) yardımına qaçmış, sonrakı ayələrdə də qeyd ediləcəyi kimi, təhlükə və sui-qəsddən xilas etmişdi. Hədislərdə bu şəxsdən çox bəhs edilmiş, təfsirçilər onun haqqında yüksək fikirlər söyləmişlər. Bəziləri onun Fironun əmisi, ya xalası olduğunu qeyd etmiş, "Fironun ailəsi" ifadəsini öz iddialarına dəlil gətirmişlər. Çünki bu ifadə adətən, qohumlar haqqında işlədilir. Baxmayaraq ki, dostlar və tərəfdarlara da aid edilir. Bəziləri onun Firon xəzinələrinin xəzinədarı olduğunu bildirmişlər. Peyğəmbər (s) hədislərinin birində belə buyurmuşdur: ***"İlk təsdiqləyicilər üç nəfər***

[1892] Nümunə, c.20, səh.79

olmuşdu: Həbib Nəccar və ya Ali Yasinə iman gətirmiş, camaata: "Allahın elçilərinə tabe olun, sizdən muzd və mükafat istəməyən şəxslərə tabe olun", - deyən şəxs; Həzqil və ya Firon ailəsindən iman gətirən şəxs; Əli ibn Əbu Talib (ə). O, hamısından üstündür."[1893]

34. Daha öncə Yusuf sizə açıq-aydın dəlillər gətirdi. Siz onun gətirdiklərinə şəkk etməkdə davam etdiniz. Nəhayət, o, vəfat etdikdə dediniz: "Allah ondan sonra elçi göndərməyəcəkdir!" Allah həddi aşan, şübhə edən kimsəni beləcə azğınlığa salar.

35. Onlar bir dəlil gəlmədən Allahın ayələri barəsində mübahisə edənlərdir. Onlar həm Allah yanında, həm də iman gətirənlərin yanında ancaq böyük bir nifrət artırır. Allah hər bir zülmkar təkəbbürlünün qəlbini belə möhürləyir.

36. Firon dedi: "Ey Haman! Mənim üçün bir uca bina tik, bəlkə vasitələrə çatım –

37. göylərin vasitələrinə (göyə çıxmaq üçün olan vasitələrə) çatım və Musanın məbudunu görüm. Baxmayaraq ki, mən onu yalançı sayıram!" Firona pis əməli beləcə gözəl göstərildi və o, doğru yoldan çıxarıldı. Fironun hiyləsi uğursuz oldu.

[1893] Nümunə, c.20, səh.87

38. O mömin kişi dedi: “Ey qövmüm! Mənim ardımca gəlin, sizi doğru yola yönəldim.

39. Ey qövmüm! Bu dünya həyatı ancaq keçəri bir zövqdür, axirət isə əbədi yurddur.

40. Kim pis bir iş tutsa, o ancaq işinin həddi qədər cəza alar. Qadın və kişi olmasından asılı olmayaraq, yaxşı iş görən hər bir kəs mömin olarsa, Cənnətə daxil olar və orada onlara hesabsız ruzi verilər.

---

34. Musadan (ə) əvvəl Fironun qövmünə göndərilmiş peyğəmbər: Firon ailəsindən iman gətirmiş şəxs Firon və Firon tərəfdarlarının qaralmış qəlbinə nüfuz etmək, qəlblərindəki təkəbbür və küfr pasını əritmək üçün keçmişlərini, elə uzaq olmayan tarixlərini yada salır, Musanın (ə) babalarından olan Yusifin (ə) peyğəmbərliyindən danışır. Onların Yusiflə (ə) necə davrandıqlarına, Yusifin (ə) vəfatından sonra özbaşnalıqlarını davam etdirmək üçün inadkarlıq göstərdiklərinə, davamlı olaraq şübhə və tərəddüd olduqlarına, istənilən məsuliyyət yükündən azad olmaq üçün Yusifdən (ə) sonra heç bir peyğəmbər seçilməyəcəyini söylədiklərinə işarə edir.[1894] Bəzi hədislərdə qeyd edilir ki, ölümündən qabaq Yusif (ə) ondan sonra qövmünün Fironun hakimiyyəti altına keçəcəyini, oğlanlarının başlarının kəsiləcəyini, qadınlarının kəniz ediləcəyini, övladlarından Musa ibn İmran adlı bir peyğəmbər seçiləcəyini, həmin peyğəmbərin Fironun hakimiyyətinə son qoyub İsrail oğullarını xilas edəcəyini xəbər verir. Buna görə də İsrail oğulları belə bir şəxsin yolunu gözləyirlər. Bu məsələdən xəbər tutan Firon

[1894] Nümunə, c.20, səh.97

ailəsi Musanın (ə) gələcəyindən qorxuya düşür. Hər halda, Musanın (ə) adı o dövrün insanlarına tanış olmuşdur.[1895]

38. Həqiqi və yalançı yönləndiricilər: 29-cu ayədə Fironun mömin kişinin sözünü kəsdiyi və ***"Mən sizə ancaq öz inandığımı bəyan edir, sizə ancaq doğru yolu göstərirəm"***, - dediyi qeyd edilmişdir. Ümumiyyətlə, bütün despotlar və diktatorlar belə olmuş və olacaqlar. Onlar öz fikirlərini ən doğru fikir hesab edir, heç kəsə söz söyləməyə icazə vermirlər. Özlərini tam ağıl sahibi hesab edir, başqalarına ağıldan kəm, savadsız kimi baxırlar. Bu isə nadanlıq və axmaqlığın ən yüksək həddidir.[1896] Nəzər nöqtəsi olan ayədə qeyd edilir ki, Firon ailəsindən olan mömin kişi Fironun sözünü təkzib edərək deyir: ***"Ey qövmüm! Mənim ardımca gəlin, sizi doğru yola yönəldim."*** Bununla da insanları Fironun sözlərinə və vəsvəsələrinə aldanmamağa çağırır, onun bütün planlarının uğursuzluğa düçar olacağını başa salır. Bundan əlavə, o, insanlara doğru yolun təqva, Allahpərəstlik və Allahın peyğəmbərinə itaət göstərmək olduğunu söyləyir.[1897]

40. Qadın və klişi bərabərliyi: Qadın və kişinin fiziki və psixoloji baxımdan fərqli olduğu danılmazdır. Buna görə də ictimai mövqeləri də bir-birindən fərqlənir, hər birinin özünəməxsus fəaliyyəti var. Ancaq bu fərqlərin heç biri onların şəxsiyyətlərinin fərqli olduğunu, Allah dərgahında fərqli məqamlara malik olduqlarını deməyə əsas vermir. Onların hər ikisi Allah dərgahında bərabərdir. Onların şəxsiyyət və mənəviyyat meyarları eynidir, bu isə iman və saleh əməldir. Hər iki cinsin mənsubları bu məsələdə bərabərdirlər. Nəzər nöqtəsi olan ayə qeyd olunan məsələni açıq şəkildə bəyan edərək keçmişdə və indi qadının şəxsiyyətini alçaltmağa çalışan

---

[1895] Ətyəbül-bəyan, c.11, səh.375
[1896] Nümunə, c.20, səh.86
[1897] Nümunə, c.20, səh.106

boşboğazların ağzını bağlayır, eyni zamanda İslamın bu mühüm ictimai məsələ ilə bağlı mövqeyini açıqlayır, dar düşüncəli insanlara İslamın kişi dini olmadığını, kişilərə aid olduğu qədər qadına aid olduğunu sübuta yetirir. Hər iki cins iman motivasiyasından faydalansa, pak və sağlam bir həyata nail olar. Onların hər ikisinin Allah dərgahındakı mükafatları bərabərdir, onların ictimai mövqeləri də bənzərdir. Onlar bir-birindən yalnız iman və saleh əməl hesabına üstün ola bilərlər.[1898]

[1898] Nümunə, c.11, səh.391

41. Ey qövmüm! Nə üçün mən sizi xilasa çağırdığım halda, siz məni oda çağırırsınız?

42. Siz məni tək olan Allahı inkar etməyə, bilmədiyim bir şeyi Ona şərik qoşmağa çağırırsınız. Halbuki mən sizi qüdrətli və bağışlayan Allaha doğru çağırıram.

43. Şübhəsiz ki, sizin məni çağırdıqlarınızın nə dünyada, nə də axirətdə çağırılmağa haqqı yoxdur. Qiyamətdə dönüşümüz Allahadır. Həddi aşanlar od sakinləridirlər.

44. Sizə dediklərimi tezliklə xatırlayacaqsınız. Mən öz işimi Allaha həvalə edirəm. Allah öz bəndələrini görür".

45. Allah onu onların məkrli planlarından qorudu. Firon nəslini isə dəhşətli əzab bürüdü.

46. Onları səhər və axşam oda salırlar. Qiyamət gələcəyi gün isə "Firon nəslini ən şiddətli əzaba salın!" (- deyə buyurulacaq).

47. O zaman onlar odda bir-birilə höcətləşəcəklər. Zəiflər təkəbbür göstərənlərə: "Biz sizin ardınızca gedirdik. Siz bizim əvəzimizə odun bir hissəsini qəbul edərsinizmi?" – deyəcəklər.

48. Təkəbbür göstərənlər: "Hamımız bunun içindəyik. Çünki Allah qullar arasında hökm vermişdir" – deyəcəklər.

49. Odda olanlar Cəhənnəm məmurlarına deyəcəklər: "Rəbbinizdən istəyin, heç olmasa, bircə gün əzabı bizdən götürsün!"

---

44. İşləri Allaha həvalə edilməsinin əhəmiyyəti: Öz işlərini Allaha həvalə və ona təvəkkül etməyin əhəmiyyəti haqqında İmam Əli (ə) belə buyurmuşdur: ***"İmanın dörd sütunu var: Allaha təvəkkül, işləri Allaha həvalə etmək, Allahın qəzasına razı olmaq, Allahın fərmanı qarşısında təslim olmaq."*** İmam Sadiq (ə) buyurmuşdur: ***"İşlərini Allaha həvalə edən əbədi rahatlıq, sonu olmayan bərəkətli həyat içində olar. İşlərini həqiqətən Allaha həvalə edən şəxs Allahdan qeyrisini düşünəndən üstündür."*** Əlbəttə, İşləri Allaha həvalə etmək bütün iş-gücdən əl çəkmək deyil. Əslində, insan bütün səy və fəaliyyətlərini səfərbər etməli, çətinliklə qarşıladıqda qorxmamalı, fəaliyyətdən soyumamalı, işlərini Allaha həvalə etməli, sarsılmaz əzmkarlıqla səy və fəaliyyətinə davam etməlidir.[1899]

45. Firon ailəsindən olan möminin aqibəti: "Məkrli planlarından" ifadəsi Firon ailəsindən olan mömin kişiyə qarşı plan qurulduğunu göstərir. Quranda bu plana üstüörtülü şəkildə işarə edilir. Ümumiyyətlə, cəza, işkəncə, qətl və edəm, hər nə olursa-olsun, Allah öz lütfü ilə onların hamısını nəticəsiz qoymuşdur. Bəzi təfsirlərdə yazılır ki, o münasib bir vaxtda özünü Musaya (ə) çatdırmış və İsrail oğulları ilə birlikdə dənizi keçmişdir. Bəzilərinin yazdığına görə, Fironun tərəfdarları onu qətlə yetirmək qərarına gəldikdə o, dağa qaçıb gözlərdən itmişdir. Əslində, bu iki fikir bir-biri ilə təzad təşkil etmir. Ola bilsin ki, o, öncə şəhərdən çıxıb bir yerdə gizlənmiş, tam arxayın olduqdan sonra İsrail oğullarına qoşulmuşdur. Firon tərəfdarlarının planlarından biri onu bütə sitayiş etməyə və təkAllahıq inancından çıxmağa məcbur etmək olmuşdur. Allah isə onu çətinlikdən xilas etmiş, iman, tövhid və təqva yolunda sabit saxlamışdır.[1900]

[1899] Nümunə, c.20, səh.117
[1900] Nümunə, c.20, səh.113

46. Bərzəx aləminin mövcudluğunu sübuta yetirən başqa bir ayə: Bərzəx aləminin mövcud olduğunu açıq şəkildə göstərən ayələrdən biri də bu ayədir. Hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: "Bu ayədə xəbər verilən əzab dünya və Qiyamətdən əvvələ aiddir. Çünki Qiyamət odunun səhər və axşamı yoxdur. Əgər onlar Qiyamət günü Cəhənnəm odunda təkcə səhər və axşam yandırılacaqlarsa, bu ikisi arasında xoşbəxtlərdən olarlar. Halbuki belə deyil. Bu, Bərzəxə, Qiyamət günündən əvvəlki əzaba aiddir. Məgər Allahın ***"Qiyamət qopduğu gün: "Firon ailəsini əzabların ən şiddətlisinə daxil edin", – deyə buyuracaq", - deyə buyurduğunu eşitməmisiniz?"***[1901]

50. Onlar deyəcəklər: "Peyğəmbərləriniz sizə açıq-aydın dəlillər gətirməmişdilər?" Onlar: "Əlbəttə (gətirmişdilər)!" – deyəcəklər. Onlar da: "Elə isə nə qədər istəyirsiniz çağırın!" – deyəcəklər. Kafirlərin çağırışı havaya sovrulacaq.

51. Şübhəsiz ki, Biz öz peyğəmbərlərimizə və möminlərə həm dünya həyatında, həm də şahidlərin şəhadət verəcəyi gün yardım edəcəyik.

52. O gün zalımlara üzr diləmələri heç bir fayda verməyəcəkdir. Onları həm lənət, həm də pis yurd gözləyir.

53. Biz Musaya doğru yolu göstərən rəhbər verdik və İsrail oğullarını Kitabın varisləri etdik –

[1901] Nümunə, c.20, səh.118

54. ağıl sahiblərinə doğru yol göstərən və xatırladan kitabın.

55. Elə isə, səbr et! Allahın vədi haqdır. Günahının bağışlanmasını dilə, hər səhər və axşam Rəbbini həmd ilə təriflə.

56. Bir dəlil gəlmədən Allahın ayələri barəsində mübahisə edənlərin ürəklərində böyüklük iddiasından başqa bir şey yoxdur. Onlar öz istədiklərinə əsla çatmayacaqlar. Sən Allaha sığın! O, eşidəndir, görəndir.

57. Göylərin və yerin yaradılması insanların yaradılmasından daha böyük şeydir. Lakin insanların çoxu bilmir.

58. Korla görən, iman gətirib yaxşı işlər görənlərlə pislik edənlər eyni deyildir. Ancaq az xatırlayırsınız!

---

51. Peyğəmbərlərə və möminlərə yardım: Ayədə Allahın dəyişməz qanunlarından birinə işarə edilmişdir. Bu qanuna əsasən "Allah dünya və axirətdə peyğəmbərləri və möminləri himayə edir". Allah onları müxtəlif uğurlarla müşayiət olunan qüsursuz himayəsinə alır. Bu uğurlara məntiq və gözəl danışıq qabiliyyəti, müharibədə qələbə, müxaliflərə əzab göndərib onları məhv etmək, qəlblərə güc, ruha ilahi sevgi bəxş edən qeyb yardımları və sairəni misal göstərmək olar. Ortaya belə bir sual çıxır, bəs nə üçün peyğəmbərlərin və möminlərin bir qrupu kafirlər tərəfindən qətlə yetirilmiş, zülmə məruz qalmış, sürgün edilmişdir? Burada incə bir nüansa diqqət yetirmək lazımdır. Belə ki, insanların qələbə mövzusu ilə bağlı səciyyələndirməsi çox məhduddur. Onlar hesab edirlər ki, qələbə düşməni geri oturtmaq, bir neçə günlük hökmranlıq etməkdən ibarətdir.[1902] Ancaq Allahın vədi bundan qat-qat yüksəkdə dayanır. "Allahın peyğəmbər və

[1902] Nümunə, c.20, səh.127

möminlərə qələbə və yardım vədi" deyilərkən Allahın peyğəmbərlərə öz dəvətlərini sübuta yetirmək üçün dəlil gətirməsi, iddiasını sübut etmək üçün möcüzə göndərməsi və sair nəzərdə tutulur. Onlar haqlı olduqları, haqq isə məğlubedilməz olduğu üçün düşmənlərlə mübarizədə onlara ya görünən şəkildə, ya da intiqam formasında yardım göstərilir. Allah-taala "Yusuf" surəsinin 110-cu ayəsində belə buyurmuşdur: ***"Nəhayət, peyğəmbərlər ümidsizliyə qapıldıqda və özlərinin yalançı hesab edildiklərini gördükdə köməyimiz onlara yetişdi, dilədiklərimiz nicat tapdılar. Bizim əzabımız günahkarlardan əsla dəf olunmaz!"*** Onlara axirətdə də yardım ediləcək. "Təhrim" surəsinin 8-ci ayəsində belə buyurulur: ***"O gün Allah peyğəmbəri və iman gətirənləri xar etməyəcək"***. Möminlərə də rəhbərləri, yəni peyğəmbərlər kimi yardım edilir. "Ali-İmran" surəsinin 139-cu ayəsində belə buyurulur: ***"Məyus olmayın, kədərlənməyin, əgər mömin olsanız, siz üstünsünüz."*** Allahın bu hökmü, yəni peyğəmbərlər və möminlərə yardım göstərməklə bağlı qanunu bir məsələ ilə bağlıdır. Belə ki, peyğəmbərlər Allahın göndərdiyi bəndələr, möminlər isə Allahın ordusu olduqları, onun əmrinə itaət göstərdikləri və onun yoluinda cihad etdikləri üçün nə qədər ki, bu yoldadırlar, onlara yardım edilir və qələbə ilə sığortalanırlar. Ancaq imandan yalnız quru ad qaldığı, Allaha və peyğəmbərə bağlılıq yalnız quru sözdən ibarət olduğu zaman onların Allah tərəfindən yardım ediləcəklərinə ümid bəsələmələri mənasızdır.[1903]

55. Allah tərəfindən bağışlanma əmri verilməsi: Məlumdur ki, məsum olduqları üçün peyğəmbərlər günah etmirlər. Deməli, Quranda İslam peyğəmbəri (s) və digər peyğəmbərlərlə bağlı işlədilmiş bu cür ifadələr nisbi xarakter daşıyır. Çünki bəzən adi insanların etdikləri əməllər ibadət və

[1903] Əl-Mizan, c.17, səh.177

xeyirli əməl sayıldığı halda, böyük peyğəmbərlər üçün günah sayılır. Bir anlıq diqqətsizlik, hətta daha üstün bir əməlin tərk edilməsi onlar üçün günahdır. Onlar yüksək məqam sahibləri olduqları, əqli, elmi və idrak səviyyələri yüksək olduğu üçün bu işlərdən uzaq durmalı, daha üstün bir əməli tərk etdikləri zaman Allahdan bağışlanma diləməlidirlər.[1904] "Peyğəmbərin (s) günahı" deyilərkən ümmətinin günahı nəzərdə tutulur. Peyğəmbərə (ə) ümmətinin günahkarlarılna şəfaətçi olmaq icazəsi verilmişdir. Deməli, ayənin mənası belə olur: "Ümmətinin günahlarına görə bağışlanma dilə və onlar üçün şəfaətçi ol!"[1905]

[1904] Nümunə, c.20, səh.134
[1905] Əl-Mizan, c.17, səh.340

59. Qiytamət günü mütləq gələcəkdir, bunda heç bir şübhə yoxdur. Lakin insanların əksəriyyəti inanmır.

60. Rəbbiniz deyib: “Məni çağırın, sizi (duanızı) qəbul edim. Mənə ibadət etməyə təkəbbür göstərənlər tezliklə Cəhənnəmə zəlil gündə daxil olacaqlar”.

61. Allah gecəni rahatlanmanız üçün yaradan, gündüzü işıqlı edən varlıqdır. Allah insanlara qarşı lütfkardır, lakin insanların çoxu şükür etmir.

62. Budur Allah, hər şeyin xaliqi olan Rəbbiniz! Ondan başqa məbud yoxdur! Belə olan halda, haqq yoldan necə çıxırsınız?

63. Allahın ayələrini inkar edənlər haqq yoldan belə çıxırlar.

64. Allah, yeri sizin üçün əmin-amanlıq məkanı, göyü tavan edən, sizə surət verib surətlərinizi gözəl şəklə salan, sizə pak nemətlərdən ruzi verən varlıqdır. Budur sizin Rəbbiniz olan Allah. Aləmlərin Rəbbi olan Allah bərəkətli və əbədidir!

65. (Həqiqi) diri odur. Ondan başqa məbud yoxdur. Dininizi onun üçün xalis edərək dua edin. Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur!

66. De: “Rəbbim tərəfindən mənə açıq-aydın dəlillər gəldiyi üçün sizin Allahı qoyub çağırdığınız məbudlara ibadət etmək mənə qadağan edilmiş və mənə yalnız aləmlərin Rəbbi qarşısında təslim olmaq əmr olunmuşdur”.

---

60. Məni çağırın, duanızı qəbul edim: Bu ayə bir neçə məsələni ehtiva edir: 1. Allah bəndələrinin çağırışını sevir, özü onlardan dua etməsini istəyir. 2. Duadan sonra onu qəbul edəcəyini vəd verir. Ancaq bu vədin qeyd-şərtsiz deyil, şərtli olduğunu bilirik. Dualar dua və dua edən yalnız müəyyən şərtlərə cavab verdiyində qəbul edilir. 3. Dua özü bir növ ibadətdir. Çünki ayənin davamında onun üçün ibadət ifadəsi işlədilmişdir. Bir gün dostlarından biri İmam Sadiqdən (ə) soruşur: Məscidə daxil olduqdan sonra biri daha çox namaz qılan, digəri isə daha çox dua edən iki nəfər haqqında fikriniz nədir? Bunlardan hansı üstündür? İmam (ə) buyurur: ***"Hər ikisi yaxşıdır."*** Səhabə soruşur: Bunlardan hansı üstündür? İmam (ə) buyurur: ***"Daha çox dua edən şəxs üstündür. Məgər Allahın "Məni çağırın, duanızı qəbul edim", - deyə buyurduğunu eşitməmisənmi? Əlbəttə, dua."*** İmam Baqir (ə) buyurub: ***"Allah dərgahında Allahdan istəmək, onun dərgahında olanlardan istəməkdən üstün heç nə yoxdur. Allah qarşında ibadətə qarşı təkəbbür göstərən, Allah dərgahında olandan istəməyən şəxsdən çox qəzəbə layiqlisi yoxdur."*** Bəs, görəsən bəzi dualar niyə qəbul olmur? Əslində, bəzi duaların qəbul edilməməsinin müxtəlif səbəbləri vardır: 1. Çətin vəziyyətə düşən şəxs əlini bütün iş-gücdən çəkib elə hey Allaha dua edir, Allahdan çətinliklərin həll eidlməsini istəyir. Şübhəsiz ki, belə olan halda, onun duası qəbul olmayacaqdır. 2. İnsan xeyrinə olmayan bir şeyi istəyərsə, duası qəbul olmaz. Bunu belə bir misalla izah edə bilərik. Bir xəstə və ya uşaq tibb bacısından müxtəlif yeməklər istəyir. Əgər onun istəyinə əməl edilsə, xəstəliyi güclənər, hətta canını təhlükəyə salar. Allah da bəzən insanlara məsləhət bilmədiyi duaları qəbul etmir, ancaq əvəzini axirətə saxlayır. İmam Sadiq (ə) buyurmuşdur: ***"Elə bir şəxs yoxdur ki, Allahı çağırsın və Allah da onun duasını qəbul etməsin. Əlbəttə, zülmkarın duası tövbə etməyənə qədər özünə qayıdır. Ancaq qəbula layiq olan bir adam***

dua etdiyində Allah onun çağırışına cavab verir, problem və çətinliyini gözləmədiyi yerdən həll edir ya da onun üçün bol mükafat qoruyub-saxlayır, həmin mükafata ehtiyac duyduğu gün həmin mükafatı ona bağışlayır. Əgər bəndənin istədiyi şey xeyrinə olmasa, Allah həmin şeyi dua edən bəndəsindən əsirgəyir.”[1906]

64. Surətlərinizi gözəl yaradan: Zahiri görkəminə görə insanın digər varlıqlardan və heyvanlardan üstün olması elə ilk baxışdan aşkardır. İnsanın qaməti düz və göz oxşayan, üzü gözəl və ürəyəyatımlı, son dərəcə səliqəli və dayanıqlıdır. Malik olduğu quruluş ona müxtəlif ağır və incə işlər görməyə, müxtəlif əzələ sisteminə malik olmaqla rahat yaşamağa və həyat nemətlərindən istifadə etməyə imkan verir. İnsan heyvanların əksəriyyətindən fərqli olaraq qidasını ağzı ilə deyil, diqqətlə, qidanın və ya içəcəyin növünə uyğun şəkildə əli ilə götürüb ağzına qoyur. Bu ona təmiz olan qidaları bulaşıq və çirkli olan qidalardan fərqləndirməkdə çox kömək edir. O, meyvələrin qabığını asanlıqla soyur, istifadəyə yarasız hissələri tullayır. Bəzi təfsirçilər “surət” deyilərkən burada zahiri və batini sima olmaqla, daha geniş mənalar nəzərdə tutulduğunu, Allahın insana bəxş etdiyi istedad və zövqlərə, bununla da onu digər canlılardan üstün tutduğuna işarə edildiyini qeyd etmişlər.[1907]

[1906] Nümunə, c.20, səh.146
[1907] Nümunə, c.20. səh.159

67. Sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan yaradan, körpə surətində dünyaya gətirən Odur. Sonra siz böyüyüb yetkinlik yaşına çatır, daha sonra da qocalırsınız. Bir qrupunuz bu mərhələyə yetişməzdən əvvəl ölür, nəhayət, ömrünüzün sonuna gəlirsiniz. Bəlkə düşünəsiniz.

68. Dirildən də, öldürən də Odur. O, bir şeyin olmasını istədikdə ona ancaq: “Ol” – deyir, o da dərhal olur.

69. Allahın ayələri barəsində mübahisə edənləri görmədinmi? Onlar necə də haqq yoldan sapırlar!

70. Onlar Kitabı və elçilərimizə göndərdiklərimizi yalan saydılar. Ancaq (əməllərinin nəticəsini) tezliklə biləcəklər;

71. boyunlarında dəmir halqalar və zəncirlər olduğu və sürüklənəcəkləri vaxt –

72. qaynar suya tərəf; sonra Cəhənnəm odunda yandırılacaqlar.

73. Sonra da onlara deyiləcəkdir: “Haradadır Allaha şərik qoşduqlarınız –

74. Allahdan başqa ibadət etdiklərinizi?” Onlar deyəcəklər: “Hamısı gözümüzdən itdi. Biz ümumiyyətlə, daha öncə heç nəyə ibadət etmirdik!” Allah kafirləri beləcə azğınlığa salar.

75. “Bu sizin yer üzündə nahaq yerə sevinməyinizə, qürur və məstlikdən fərəhlənməyinizə görədir!

76. Cəhənnəmin qapılarından daxil olun və orada əbədi qalın!” Təkəbbürlülərin yeri necə də pisdir!

77. Səbr et! Allahın vədi haqdır. Ya onlara vəd etdiyimiz əzabların bir qismini həyatda ikən sənə göstərəcək, ya da (daha öncə) səni dünyadan aparacağıq (Bunların heç bir fərqi yoxdur). Çünki onlar yalnız Bizə doğru qaytarılacaqlar.

---

67. Bir qrup insan bu mərhələyə yetişməzdən əvvəl ölür: Bu cümlədə ola bilsin ki, qocalıq yaşına çatmazdan əvvələ və ya bütün yaradılış mərhələlərinə, yəni həyatın bütün mərhələlərində, uşaqlıq, gənclik və sair mərhələlərdə ölümün baş verəcəyinə işarə edilmişdir. Diqqət çəkən məqamlardan biri də budur ki, bütün bu mərhələləri ifadə edən sözlər

arasında “summə” (sonra) sözündən istifadə edilmişdir. Bu isə fasiləli ardıcıllığı göstərir. Ancaq sonuncu mərhələləri ifadə edən sözlər arasında “və” bağlayıcısı işlədilmişdir. Bu da ola bilsin ki, ömrün sonunun hər zaman qocalıq dövrünə təsadüf etmədiyini ifadə etmək üçündür. Gənc yaşda insanların, yeniyetmə və uşaqların ölümü də bunu göstərir. Buna görə də insanlar, xüsusilə gənclər insan ömrünün ən mühüm sərmayəsi olan və nə zaman əldən çıxacağından xəbərdar olmadıqları ömürlərindən yaxşı istifadə etsinlər.[1908] İslam peyğəmbəri (s) hədislərinin birində belə buyurmuşdur: ***“Allah bir mələk yaradıb. Həmin mələk gecə yerə enib deyir: “Ey iyirmi yaşlılar, çalışın, səy göstərin! Ey otuz yaşlılar, dünya həyatı sizi aldatmasın! Ey qırx yaşlılar, Rəbbinizlə görüşə nə hazırlamısınız? Ey əlli yaşlılar, Sizi qorxudan gəlib! Ey altmış yaşlılar, biçin vaxtı yetişmiş tarlasınız! Ey yetmiş yaşlılar, sizi çağırırlar, cavab verin! Ey səksən yaşlılar, Qiyamətiniz yetişib, ancaq siz xəbərsizsiniz!” Sonra deyər: “Əgər rüku edən bəndələr, təvazökar kişilər, südəmər uşaqlar, otlayan heyvanlar olmasaydı, şübhəsiz ki, sizə şiddətli bir əzab nazil olardı.”***[1909]

74. Yalançı məbudlar və faydasız ibadət: Quranın başqa ayələrində olduğu kimi, burada da yalançı məbudların ibadət edənləri ilə birlikdə Cəhənnəmdə olacaqları, heç bir rola malik olmayacaqları, sanki it-bata düşəcəkləri buyurulmuşdur. Kafirlər bütlərə ibadət etdiklərini etiraf edəcəkləri təqdirdə vəziyyətlərinin daha da pisləşəcəyini bilib onları inkar edəcəklər: “Biz daha öncə ümumiyyətlə, heç nəyə ibadət etməmişik.” Bunlar həqiqət olduğunu düşündüyümüz xəyallar idi. Bu gün bizə onların adlananları olmayan adlar, mənasız sözlər və anlayışlar olduğu aydın olub. Onlara ibadət yalnız zəlillik, azğınlıq və mənasızlığa səbəb olur. Bununla da

[1908] Nümunə, c.20, səh.167
[1909] İrşadül-qülub, c.1, səh.32

inkarolunmaz bir gerçəyi etiraf edəcəklər. Təfsirçilər bu ayəni təfsir edərkən onların bu yalanı rüsvayçılıqdan xilas olmaq üçün söylədiklərini bildirmişlər. "Ənam" surəsinin 22-24-cü ayələrində belə buyurulur: ***"O gün onların hamısını (bir yerə) toplayacaq, sonra isə şərik qoşanlara deyəcəyik: "Allaha tay tutduğunuz şəriklər haradadır?" Sonra onların: "Rəbbimiz olan Allaha and olsun ki, biz müşrik olmamışdıq!"– demələrindən başqa bir cavabları olmayacaq. Bax gör, onlar özlərinə qarşı necə yalan söyləyirlər. Yalandan Allaha tay tutduqlarını isə itirəcəklər."***[1910]

[1910] Nümunə, c.20, səh.174

78. Biz səndən əvvəl də elçilər göndərmişik. Onların bəziləri haqqında sənə danışmış, bəziləri haqqında isə danışmamışıq. Heç bir elçi Allahın izni olmadan hər hansı bir möcüzə gətirə bilməzdi. Allahın əmri gəldikdə isə ədalətlə hökm verilər və nahaq yolda olanlar orada ziyana uğrayarlar.

79. Allah, bəzilərini minəsiniz, bəzilərindən də yeyəsiniz deyə, heyvanları sizin üçün yaradan varlıqdır.

80. Onlarda sizin üçün çoxlu mənfəətlər var. Siz onları minərək ürəyinizdən keçən yerlərə gedib çatırsınız. Həm onlara, həm də gəmilərə minirsiniz

81. O sizə öz möcüzələrini daim göstərir. Allahın hansı möcüzəsini inkar edirsiniz?

82. Onlar özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmək üçün yer üzünü gəzib dolaşmadılarmı? Onlar bunlardan sayca daha çox, daha qüvvətli idilər və yer üzündə daha çox iz qoymuşdular. Ancaq əldə etdikləri onları ehtiyacsız edə bilmədi.

83. Elçiləri onlara açıq-aydın dəlillər gətirdikdə özlərində biliklə qürrələndilər, ancaq istehza etdikləri (əzab) onları bürüdü.

84. Əzabımızı gördükdə: "Biz tək olan Allaha iman gətirdik, Ona ortaq qoşduğumuz məbudları isə inkar edirik!"

85. Lakin əzabımızı gördükdə iman gətirmələri onlara heç bir fayda vermədi. Bu, Allahın öz qulları barəsində əzəldən bəri qüvvədə olan qanunudur. Onda kafirlər ziyana uğradılar.

---

78. Allahın peyğəmbərlərinin sayı: Təfsirçilərin çoxu bu ayəni təfsir edərkən peyğəmbərlərin say məsələsinə toxunmuş, müxtəlif hədisləri sitat gətirmişlər. Peyğəmbər və imamlara istinad edilən bir çox hədislərdə peyğəmbərlərin sayının 124 min nəfər olduğu qeyd edilmişdir. İmam Rza (ə) hədislərinin birində Peyğəmbərin (s) belə dediyini buyurmuşdur: ***"Allah 124 min peyğəmbər yaradıb. Allah dərgahında mən onların hamısından əzizəm. Ancaq buna baxmayaraq fəxr etmirəm, qürrələnmirəm. Allah 124 min vəsi yaradıb. Allah yanında Əli onların hamısından əziz və üstündür."*** Hədislərinin birində Peyğəmbər (s) 124 min rəqəmini qeyd etdikdən sonra buyurmuşdur: ***"Onların beşi ulul-əzm olub – Nuh, İbrahim, Musa, İsa və Muhəmməd."***[1911]

78. Yanliş yolda olanlar ziyandadırlar: Hədislərin birində qeyd edilir ki, Mədinədə bir təlxək var imiş. O, təlxəklik edib camaatı güldürərmiş. Bəzən deyərmiş: "Bu kişi (İmam Səccad) məni yorub. İndiyə qədər onu güldürə bilməmişəm". Bir gün imam yol ilə gedərkən həmin təlxək yaxınlaşıb imamın əbasını çiynindən götürüb gedir. İmam heç bir reaksiya vermir. Yol yoldaşları təlxəyi təqib edirlər. Əbanı ondan alıb İmamın

---

[1911] Nümunə, c.20, səh.183

çiyninə salırlar. İmam: ***"Bu adam kim idi?"*** – deyə soruşduqda mədinəli təlxək olduğunu deyirlər. İmam buyurur: ***"Allahın bir günü var ki, həmin gün yanlış yolda olanlar ziyanda olacaqlar."***[1912]

83. Elmləri ilə qürrələnənlər: Bu surənin bir çox ayəsində insanların çoxunun bədbəxtliyinin və haqq yoldan azmasının əsas səbəbinin təkəbbür və qürrələnmə olduğu göstərilmişdir. Təkəbbür bəzən maliyyə imkanlarından, tərəfdarların çoxluğundan, hərbi qüvvədən, bəzən isə çox hesab edilən az elmdən qaynaqlanır. Müsasir dövrümüzdə, maddi cəhətdən inkişaf etmiş ölkələrin elm və sənaye uğurlarından sonra bunun canlı şahidiyik. Dinin inkar edilməsi və ateist məktəblərə üz tutulmasının əsas səbəblərindən biri son dövrlərdə təbiət elmləri üzrə bəzi nailiyyətlər əldə etmiş alimlərin öz elmləri ilə qürrələnməsi olmuşdur. Onlar təbiətin bəzi sirlərini kəşf etdikdən və kiçik bir elmi sızıntıya nail olduqdan sonra elə məst oldular ki, dünyada onların bildiyindən başqa heç nəyin həqiqət olmadığını təsəvvür etdilər. Allahı öz laboratoriyalarında müşahidə edə bilmədikləri üçün onu inkar etməyə qalxdılar. Bu elmi təkəbbür elə bir həddə çatdı ki, dinin və peyğəmbərə edilən vəhyin cəhalətdən və ya qorxudan qaynaqlandığını iddia etdilər, elm öz çiçəklənmə dövrünə çatdıqdan sonra artıq dinə ehtiyac olmadığını söylədilər. Ancaq xoşbəxtlikdən bu məstlik və təkəbbür uzun sürmədi, başqa faktorlar ortaya çıxdı və onların əsassız düşüncələrinin üzərindən xətt çəkdi. Bir-birinin ardınca baş verən müharibələr, etik və sosial problemlər, hərc-mərcliklər, qırğınlar, psixoloji xəstəliklər, müxtəlif maliyyə və namus təcavüzləri göstərdi ki, bəşər elmi təklikdə hərc-mərcliklərin qarşısını ala bilməmiş və ala da bilməz. Digər tərəfdən, müxtəlif elm sahələrində meydana çıxmış və

[1912] Nümunə, c.20, səh.182

insanın həll etməkdə aciz qaldığı saysız-hesabsız müəmmalar insanların yenidən peyğəmbərlərin təlimlərinə üz tutmasına, böyük bir zümrənin vəhy kölgəsinə qayıtmasına, insanlığı məhvə sürükləyən bu xəstəliklərin çarəsini peyğəmbərlərin göstərişlərində axtarmasına səbəb oldu. Bu əsnada İslam özünün xüsusi, mütərəqqi və əhatəli təlimləri ilə yeni mərhələyə qədəm qoymuş, həqiqi İslamın tanınması istiqamətində hərəkətə başlamışdır. Ümid var ki, Allahın qəzəbi dünyanın böyük bir hissəsini tutmazdan əvvəl bu oyanış qloballaşacaq, təkəbbür tamamilə ortadan qalxacaq.[1913]

[1913] Nümunə, c.20, səh.197

"Fussilət" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ha, Mim.

2. Bu, rəhman və rəhim olan Allah tərəfindən nazil edilmiş bir kitabdır,

3. ayələri anlaya bilən bir cəmiyyət üçün yerli-yerində qeyd edilmiş fəsahətli və rəvan bir kitabdır.

4. O, həm müjdə verən, həm də qorxudandır. Lakin onların çoxu üz çevirdi. Buna görə heç nə eşitmirlər.

5. Onlar dedilər: “Qəlbimiz sənin bizi dəvət etdiyinə qarşı qapalıdır, qulaqlarımızda ağırlıq (karlıq) vardır, bizimlə sənin arana pərdə çəkilmişdir. Sən öz işində ol, biz də öz işimizdə olacağıq!”

6. De: “Mən yalnız, sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin məbudunuz tək olan İlahdır. Elə isə bütün diqqətinizi ona yönəldin, ondan bağışlanma diləyin. Vay müşriklərin halına!

7. Zəkatı ödəməyən və axirəti inkar edənlərin.

8. İman gətirib yaxşı işlər görənləri daimi mükafat gözləyir”.

9. De: “Siz yeri iki günə yaradanı inkar edir və Ona bənzərlər təyin edirsiniz? O, aləmlərin Rəbbidir.

10. O, yerdə möhkəm dağlar yaratdı, onu bərəkətli etdi və tələb edənlərin ehtiyacı qədər qida müəyyən etdi, bütün bunlar dörd gün ərzində oldu.

11. Sonra o, tüstü halında olan göyü yaratdı, ona və yerə: “Ya itaət göstərərək, ya məcburi olaraq əmələ gəlin (və formalaşın!)” – dedi. Onlar: “Biz itaət göstərərək gəldik (və formalaşdıq)!” – dedilər.

“Fussilət” surəsinin ümumi məzmunu: Surə məzmun etibarı ilə beş hissəyə bölünür: 1. Qurana diqqət və bu mövzunu ehtiva edən məzmunlar; 2. Göyün və yerin yaranışına diqqət; 3. Keçmişdə yaşamış təkəbbürlü və asi xalqların həyatına işarə; 4. Kafirlərin qorxudulması və təhdid edilməsi; 5. Qayıdışla bağlı dəlillər və onun bəzi xüsusiyyətləri; 6. Müxtəlif öyüd və nəsihətlər; 7. Allahın insanın daxili və onu əhatə edən aləmdəki nişanələrindən bəhs edən qısa və gözəl bir mövzu.

7. Zəkat: Ayənin məzmunundan Allah yolunda xərcləmək nəzərdə tutulduğu başa düşülür. Onun şirk əlamətləri sırasında qeyd edilməsi ona görədir ki, Allah yolunda xərcləmək fədakarlıq, bağışlamaq və Allaha olan sevginin əlamətlərindən sayılır. Belə ki, mal insanın ən sevdiyi şeylərdəndir, xərcləmək və ya xərcləməmək bir çox məqamlarda şirk və iman üçün meyar hesab edilə bilər. Başqa sözlə desək, Allah yolunda xərcləməmək Allaha imanın olmamasının göstəricisidir. Buna görə də qayıdışın inkarını ehtiva edən əməllər sırasında yer alır.[1914]

9-11. Göy və yerin yaradılış mərhələləri: Bu ayələrdə diqqət yetirilməsi zəruri olan nüanslar var: 1. “Gün” deyilərkən burada adi gün nəzərdə tutulmur. Çünki yer və göy yaranmazdan əvvəl bu gün başa düşdüyümüz gün ümumiyyətlə, mövcud olmamışdır. Əslində, burada bəzən bir neçə milyon və ya milyard il sürən yaranış dövrləri nəzərdə tutulur.[1915] 2. Quran ayələrində göylərin və yerlərin altı günə, daha doğrusu, altı dövrdə yaradıldığı qeyd edilmişdir. Lakin bu ayələrdə yerin iki günə, dağların, bərəkətlərin və qidaların dörd günə, göylərin isə iki günə yaradıldığı

[1914] Nümunə, c.20, səh.216
[1915] Nümunə, c.20, səh.225

buyurulmuşdur. Bu da ümumilikdə səkkiz gün edir. Belə olan halda, ziddiyyət yaranmırmı? Bəzi böyük təfsirçilər bu suala belə cavab vermişlər: Altı gün müddətindən bəhs edən ayələrdə təkcə göy və yerin yaradılışına işarə edilir, 10-cu ayədə qeyd edilənlərin, yəni dağların yaradılışı, yer üzünün bərəkətli edilməsi, yerdəki canlıların qidalanması üçün zəruri olan qidaların yaradılması nəzərdə tutulmur. Ümumiyyətlə, 10-cu ayədə ümumi yaradılışdan bəhs edilmir. Ayədə "dörd gün" deyilərkən yer kürəsinin böyük bir hissəsi üçün səciyyəvi olan dörd fəsil nəzərdə tutulur. Buna görə də ayənin mənası belə olur: Allah yer kürəsini iki günə yaratdı, yerə aid olan hadisələri dörd fəsil üzrə tənzimlədi. Tüstü şəklində olan göyü iki günə formaya saldı, onu yeddi təbəqə etdi. Buna görə də nəzər nöqtəsi olan ayələrlə varlıq aləminin altı günə yaradıldığını bəyan edən ayələr təzad təşkil etmir.[1916] 3. "Summə" (sonra) sözü 11-ci ayədə olduğu kimi, adətən zaman ardıcılığını, bəzən isə söz ardıcıllığını ifadə edir. Birinci mənaya əsasən göylər yerdən sonra yaradılmışdır. İkinci mənaya əsasən göylərin birinci, yerin isə ondan sonra yaradılmasına baxmayaraq, ifadə zamanı yer, insanların tələbatlarına uyğun olan qidaların və zəruri vasitələrin daha öncə qeyd edilməsi, ardınca göylərin yaradılışından danışılmasının heç bir problemi yoxdur. İkinci məna elmi kəşflərlə uyğunluq təşkil etməsi ilə yanaşı, Quranın digər ayələri ilə də səsləşir. (Bax: Naziat-22-24). 4. "Tüstü halında olan" ifadəsi onu bildirir ki, yaradılışın ilkin mərhələsində göylər böyük qaz kütlələrindən ibarət olmuşdur. Bu həqiqət yaradılışın başlanğıcı ilə bağlı aparılan son araşdırmaların nəticələri ilə də səsləşir. Bu gün də ulduzların çoxu sıxılmış qazlar formasındadır. 5. 11-ci ayədə Allahın yer və göylə danışmasından bəhs edilir. Əslində, bu heç də başa düşdüyümüz sözlü

[1916] Əl-Mizan, c.17, səh.364

danışıq deyil. Allahın danışması onun yaratmaq istəyi və obyektiv əmri deməkdir. “İtaət edərk və ya məcburən...” cümləsi Allahın göylər və yerin formalaşması ilə bağlı qəti istəyini ifadə edir. İstənilən halda, başqalarının istəyib-istəməmsindən asılı olmayaraq onlar bu şəkildə olmalı idilər.[1917]

12. İki gün ərzində onları yeddi göy formasında yaratdı və hər göyə onun öz işini vəhy etdi. Aşağı səmanı çıraqlarla (ulduzlarla) bəzədik və qoruduq. Bu, qüdrətli və bilən Allahın əzəli hökmüdür.

13. Əgər onlar üz döndərsələr, de: “Mən sizi Ad və Səmud qövmünə göndərilmiş ildırıma bənzər bir ildırımdan qorxmağa çağırıram”.

[1917] Nümunə, c.20, səh.227

14. Onları önlərindən və arxalarından (hər tərəfdən): “Allahdan qeyrisinə ibadət etməməyə!” çağıran elçilər gəldiyində onlar dedilər: “Əgər Rəbbimiz istəsəydi, mələklər endirərdi. Buna görə də biz sizin təyin edildiyiniz missiyanı inklar edirik!”

15. Ad qövmü yer üzündə haqsızcasına təkəbbür göstərib: “Bizdən daha güclü olan varmı?” – dedilər. Məgər onları yaradan Allahın onlardan daha qüvvətli olduğunu bilmirdilərmi? (Buna görə) onlar ayələrimizi, elə hey inkar edirdilər.

16. Biz dünya həyatında onlara rüsvayedici əzabı daddırmaq üçün nəhs günlərdə üstlərinə çox şiddətli, dəhşətli, soyuq və güclü bir külək göndərdik. Axirət əzabı isə ondan da rüsvayedicidir. Onlara kömək edilməz.

17. Səmud qövmünə gəlincə, biz onlara doğru yol göstərdik, ancaq onlar korluğu doğru yola yönəlməkdən üstün tutdular. Buna görə də etdikləri əməllər üzündən onları ildırım - alçaldıcı əzab yaxaladı.

18. İman gətirib təqvalı olanları isə xilas etdik.

19. Bir gün Allahla düşmənçilik edənlər Cəhənnəmə doğru toplanılacaq və ilk sıralarda saxlanılacaqlar.

20. Oraya çatdıqları zaman qulaqları, gözləri və dəriləri etdikləri əməllər barəsində şahidlik edəcəkdir.

---

12. Göyün yaranışı ilə bağlı iki nüans: 1. “İki gün ərzində onları yeddi göy formasında yaratdı” cümləsində göylərin iki dövrdə yarandığına işarə edilmişdir. Bu dövrlərin hər biri milyonlar və milyardlarla il sürmüş, hər dövr də öz növbəsində ayrı-ayrı dövrlərə bölünmüşdür. Bu iki dövrdə sıxılmış qazlar mayeyə və ərimiş maddələrə, ərimiş maddələr isə bərk

maddələrə çevrilmişdir.[1918] 2. “Vəhy” deyilərkən burada təyin etmək nəzərdə tutulur.[1919] “Hər göyə onun öz işini vəhy etdi” cümləsi ilə işlərin təkcə göylərin yaradılışı ilə bitmədiyinə işarə edilmişdir. Bu göylərin hər biri üçün xüsusi varlıqlar, nizam-intizam, ayrı bir sistem təyin etmişdir. Bunların da hər biri öz növbəsində Allahın əzəmət, elm və qüdrətindən xəbər verir (Daha ətraflı məlumat üçün bax: “Bəqərə” surəsi, 29-cu ayə).[1920]

20-21. Qiyamətdə insanın bədən üzvlərinin şahidlik etməsi: Bu ayələrdən başqa, “Yasin” surəsinin 65-ci və “Nur” surəsinin 24-cü ayələrində insanın bədən üzvlərinin Qiyamət günü şahidlik edəcəyindən söhbət açılmışdır. Həmin gün artıq bədən üzvləri sahibinin istəklərinə tabe olmayacaq. Hər biri Allaha itaət göstərəcək, dərgahında baş əyəcək, həqiqətləri öz şahidlikləri ilə aşkara çıxaracaq. Necə də heyrətamiz məhkəmədir, şahidlər insanın öz bədən üzvləri, günaha alət olmuş üvlərin özləri olacaq! Bəlkə də bədən üzvləri ona görə şahid qismində dindiriləcək ki, günahkarlara etdiyiniz əməllərə görə cəzanız Cəhənnəm odudur deyildiyində onlar inkar edəcək, bu məhkəmənin də eynilə dünya məhkəməsi kimi olduğunu, günahlarını bir-birlərinin boynuna ataraq həqiqətləri gizlədə biləcəklərini güman edəcəklər. Məhz elə bu məqamda Allahın əmri ilə bədən üzvləri dilə gələcək, etdikləri günahları etiraf edəcəklər. Bununla da bütün qaçış yolları insanın üzünə bağlanacaq. Təfsirçilər bədən üzvlərinin necə danışa biləcəyi ilə bağlı müəyyən ehtimallar irəli sürmüşlər: 1. Həmin gün Allah-taala bədən üzvlərinin hər birinə şüur, ağıl, dərketmə və danışıq qabiliyyəti verəcək. Onlar həqiqəti söyləyəcək. Belə ki, bu qabiliyyəti dil adlı bir ət parçasına və ya beyini verən

---

[1918] Nümunə, c.20, səh.229
[1919] Tematik təfsir, c.3, səh.76
[1920] Nümunə, c.20, səh.230

varlıq üçün eyni qabiliyyəti başqa üzvlərə də verə biləcəyi heç də təəccüblü deyil. 2. Onların şüur və idrakı olmayacaq, ancaq Allah onları danışmağa vadar edəcək. Əslində, üvzlər dilə gələcək və Allahın əmri ilə həqiqətləri bəyan edəcəklər. 3. Hər bir insanın bədən üzvləri bütün ömrü boyu gördüyü işlərin təsirlərini özü ilə daşıyacaq. Çünki du dünyada heç bir əməl məhv olmur. Şübhəsiz ki, əməllərin təsirləri bədən üzvlərinin üzərində və fəzada qalır. Həqiqətlərin aşkar olduğu gün həmin təsirlər əl, ayaq və digər üzvlər üzərində aşkara çıxacaq. Bu təsirlərin aşkara çıxmasının özü elə bir növ şahidlikdir. Öz aramızda danışarkən də "Yanağın qızarması gizli bir sirdən xəbər verir" ideomundan istifadə edirik.[1921] İmam Əli (ə) belə buyurmuşdur: "***Bilin, ey Allah bəndələri! Özünüzdən özünüzə nəzarətçilər, bədən üzvlərinizdən casuslar, gördüyünüz işləri yazıya alan, nəfəslərinizin sayını qeyd edən casuslar və doğruçu mühafizəçilər təyin edilmişdir. Qaranlıq gecələrin qaranlığı sizi onlardan gizlədə bilməz. Bağlı qapılar arxasında gizlənsəniz də onların gözündən gizlənə bilməzsiniz."***[1922] Əlbəttə, bədən üzvlərinin şahidliyi kafir və günahlar üçündür. Yoxsa ki, möminlərin hesabı aydındır. Hədislərinin birində İmam Baqir (ə) belə buyurmuşdur: ***"Bədən üzvləri möminə qarşı şahidlik etmir. Onlar əzab əmri qəti olan insana qarşı şahidlik edir. Möminin əməl dəftərini sağ əlinə verirlər. Belə ki, Allah-taala "İsra" surəsinin 71-ci ayəsində belə buyurmuşdur: "Əməl dəftərləri sağ əllərinə verilənlər onu (şadlıq içində) oxuyarlar. Onlara xurma çərdəyinin yarığındakı sap qədər haqsızlıq edilməz."***[1923]

[1921] Nümunə, c.20, səh.431
[1922] Tematik təfsir, c.4, səh.420
[1923] Nümunə, c.20, səh.433

21. Onlar öz dərilərinə: “Nə üçün əleyhimizə şahidlik etdiniz?” – deyəcəklər. Onlar deyəcək: “Hər bir varlığı danışdıran Allah bizi danışdırdı. O sizi ilk dəfə yaratmış, qayıdışınız da ona doğru olacaqdır”.

22. Siz günahlarınızı qulaqlarınızın, gözlərinizin və dərilərinizin şahidlik edəcəyindən qorxaraq gizləmirdiniz. Əksinə, siz elə güman edirdiniz ki, Allah etdiyiniz əməllərin çoxunu bilmir.

23. Bu sizin öz Rəbbiniz barəsində etdiyiniz pis zənn idi, o sizin məhvinizə səbəb oldu, nəhayət, ziyan çəkənlərdən oldunuz.

24. Dözsələr də, onların yeri oddur. Əfv də diləsələr, əfv olunmazlar.

25. Biz onlara (çirkin) yoldaşlar qoşduq və (bu dostlar) onlara çirkinlikləri öndən və arxadan gözəl göstərdilər. Onlardan əvvəl gəlib-getmiş cinlərdən və insanlardan olan ümmətlər barəsindəki ilahi əmr onlar barəsində də gerçəkləşdi. Onlar həqiqətən, ziyana uğrayanlardır.

26. Kafirlər: “Bu Qurana qulaq asmayın, o oxunarkən hay-küy salın. Bəlkə qalib gələsiniz” – dedilər.

27. Biz kafirlərə mütləq, şiddətli bir əzab daddıracaq və onları etdikləri əməllərin ən pisi ilə cəzalandıracağıq.

28. Bu od Allahın düşmənlərinin cəzasıdır! Əbədi evləri orada olacaq. Bu, ayələrimizi inkar etdikləri üçün verilən bir cəzadır.

29. Kafirlər deyəcəklər: "Ey Rəbbimiz! Bizi tovlayıb yoldan çıxaran cinlərdən və insanlardan bizə göstər ki, onları ayağımızın altına alıb insanların ən aşağı dərəcəlisinə çevirək.

---

23. Allah haqqında yaxşı və pis düşünmək: Bu ayə açıq şəkildə göstərir ki, Allah haqqında bədgüman olmaq o qədər təhlükəlidir ki, bəzən insanın əbədi məhvinə və əzaba düşməsinə səbəb olur. Belə ki, bir qrup kafir Allahın onların nə etdiklərini görmədiyini, danışıqlarını eşitmədiyini güman edirdilər. Bu pis gümanları onların ziyana uğramasına və məhvinə səbəb olmuşdur. Halbuki Allah haqqında yaxşı düşünmək dünya və axirətdə xilasa səbəb olur. Hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Yaxşı olar ki, bəndə Allahdan Cəhənnəm odunun kənarında dayanıb, ona daxil olacaqmış kimi qorxsun. Allaha sanki Cənnət sakiniymiş kimi ümid bəsləsin. Allah-taala buyurur: "Bu sizin öz Rəbbiniz barəsində etdiyiniz pis zənn idi, o sizin məhvinizə səbəb oldu". Bilin ki, Allah öz bəndəsinin etdiyi zənnin yanındadır. Əgər zənni yaxşı olsa, nəticəsi yaxşı, əgər zənni pis olsa, nəticəsi pis olar."*** Başqa bir hədisində İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Allah haqqındakı gümanı xeyirli olan elə bir bəndə yoxdur ki, Allah onun gümanının yanında olmasın. Allah-tala: "Bu sizin öz Rəbbiniz barəsində etdiyiniz pis zənn idi", - deyə buyurmuşdur."***[1924]

[1924] Nümunə, c.20, səh.253

26. Quranı eşitməmək üçün hay-küy salın: Hədislərdə qeyd edilir ki, Peyğəmbər (s) Məkkədə uca səslə Quran oxumağa, Allahın şirin, cazibədar, məzmunlu sözlərini dilə gətirməyə başladıqda müşriklər camaatı ondan uzaqlaşdıraraq deyirdilər: "Onu eşitməmək üçün fit çalın, ucadan şeir deyin". Bu, haqq sözə mane olmaq üçün hələ lap keçmiş dövrlərdən mövcud olan ümumi mübarizə metodlarından biri idi. Bu gün də camaatın fikrini qarışdırmaq, haqq-ədalət carçılarının səsini boğmaq, hay-küy salaraq kiminsə bu haqq carçılarının səsini eşitməsinə mane olmaq üçün eyni metoddan daha geniş və daha təhlükəli şəkildə istifadə edilir. Bunun üçün bəzən hay-küy salıb fitə basmaq, bəzən yalan və xurafatlar danışmaq, lirik və ehtirasları coşduran əfsanələrdən də istifadə edilir. Bəzən söz həddini aşaraq məşğuliyyət, əyləncə, fəsad mərkəzləri, vulqar filmlər, məzmunsuz və baş qarışdıran mətbu vasitələri, qondarma siyasi oyunlar, süni həyəcanlar, xülasə, elə şeylər yaradırlar ki, insanların fikrini haqq yoldan sapdırırlar. Daha pisi də budur ki, bəzən elm adamları, alimlər arasında boş və mənasız mövzuları müzakirəyə çıxarır, onlar arasına elə təfriqə salırlar ki, hər hansı fundamental məsələlər haqqında fikirləşməyə fürsətləri olmur.

O dövrün müşrikləri Qurana qalib gələ bilmədilər, şeytani fəaliyyətləri küləyə sovruldu, Quran günbəgün vüsət aldı, daha çox fayda verməyə başladı, nəhayət, bütün dünyaya işıq saldı.[1925] Bu ayə kafirlərin Quran qarşısında tamamilə aciz qaldığını göstərir. Quran kafirlərdən ona hər cəhətdən tay ola biləcək bir kitab gətirilmələrini istəyir. Ancaq onlar o qədər aciz qalırlar ki, bir-birlərindən susmamağı, yalnız hay-küy salmalarını, Peyğəmbər (s) Quran oxuyarkən boş-boş sözlər danışmalarını, bununla da Qurana mane olmalarını, insanların Quranı dinləməsinin qarşısını almalarını,

[1925] Nümunə, c.20, səh.264

qoyduğu təsiri aradan aparmalarını istəyirlər. Onlara görə bu, qələbə hesab edilirdi.[1926]

29. Ey Rəbbimiz! Bizi tovlayıb yoldan çıxaranları bizə göstər! İnsan hər hansı bəlaya düçar olduğu, xüsusilə çıxılmaz vəziyyətdə qaldığı vaxt əsas səbəbi tapmaq, intiqamını almaq, hətta imkanı çatsa, onu parça-parça etmək fikrinə düşür. Ayədə kafirlərin Cəhənnəmdə ikən belə bir vəziyyətdə olacaqlarına işarə edilir. Burada "cinlər və insanlar" deyilərkən müəyyən şəxslər deyil, şeytanlardan və insanlardan olan şeytansifət azdırıcılar nəzərdə tutulur.[1927]

[1926] Əl-Mizan, c.17, səh.388
[1927] Nümunə, c.20, səh.267

30. Həqiqətən də: “Rəbbimiz tək olan Allahdır!” – deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub (deyirlər:) “Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnət müjdəniz olsun!

31. Biz dünya həyatında da, axirətdə də sizin dostlarınız və yardımçılarınızıq. Cənnətdə sizin üçün ürəyiniz istəyən hər şey hazırdır. Nə istəsəniz sizə veriləcək.

32. Bunlar bağışlayan və rəhmli Allah tərəfindən verilən ziyafətdir”.

33. Allaha doğru çağıran, yaxşı iş görən və: “Mən müsəlmanlardanam!” – deyən kəsdən daha gözəl söz danışan kim ola bilər?

34. Yaxşılıqla pislik əsla eyni deyil. Sən pisliyi yaxşılıqla dəf et! Qəfildən sənինlə ədavəti olan şəxs sanki yaxın və səmimi bir dost olar.

35. Bu məqama isə yalnız səbr edib, dözümlülük göstərənlər, (iman və təqva cəhətdən) böyük nəsibi olanlar nail olurlar.

36. Əgər sənə şeytandan vəsvəsələr gəlsə, Allahdan sığınacaq istə, çünki o, eşidəndir, biləndir.

37. Gecə və gündüz, günəş və ay Onun nişanələrindəndir. Əgər Ona ibadət etmək istəyirsinizsə, onda günəşə və aya səcdə etməyin, onları yaradan Allaha səcdə edin.

38. Əgər onlar təkəbbür göstərsələr (bilsinlər ki,) sənin Rəbbinin yanında gecə-gündüz usanmadan Onun şəninə təriflər deyən şəxslər var.

---

30. İman və düz yol xoşbəxtliyin iki amili: Bu ayə bütün yaxşı əməllərə və üstün cəhətlərə şamil olur. İlk öncə Allaha sevgi bəsləmək, ona iman etmək, sonra bütün həyatı iman rənginə boyamaq, bu istiqamət üzrə davam etdirmək. Allahı sevdiklərindən dəm vurub əməlində düz olmayanlar

çoxdur. Zəif və gücsüz insanlar ehtiraslar tufanı ilə qarşılaşdıqda imanla vidalaşır, əməldə müşrik olurlar, mənafeləri təhlükəyə düşəndə olan-qalan zəif imanlarını da əldən verirlər. Bu ayəni oxuduqdan sonra İslam peyğəmbəri (s) belə buyurmuşdur: ***"Bir qrup adam bu sözü dedi, sonra çox hissəsi kafir oldu. Ancaq bu sözü deyib ölənə qədər sözünün üstündə dayanan şəxs ondan ayrılmaz."*** İmam Rza (ə) ayədə işlədilmiş "düz yol" deyilərkən nəyin nəzərdə tutulduğunu soruşan şəxsə belə cavab vermişdir: ***"Düz yol sizin etiqad bəslədiyiniz vilayət xəttidir."*** Bu izah qeyd olunan sözün mənasını məhdudlaşdırmır. Əslində, Əhli-beyt imamlarının (ə) rəhbərliyini qəbul etmək tövhid və İslam dininin əsas xəttinin, saleh əməlin davam etməsinin birinci dərəcəli sığortaçısı olduğu üçün İmam (ə) bu sözü qeyd olunan şəkildə izah etmişdir.[1928]

34-35. Pisliyin yaxşılıqla dəf edilməsi: Quranın bu ayəsində buyurulan davranış tərzi, xüsusilə inadkar və nadan düşmən qarşısında aparılan ən mühüm, ən incə və ən məhsuldar təbliğat metodlarındandır. Psixoloqların apardığı son araşdırmalar da bunu təsdiq edir. Çünki pislik edən hər bir şəxs, xüsusilə özü də pis olan, hər hansı pisliklə qarşılaşdıqda bəzən bir neçə qatını qaytaran şəxs qarşı tərəfin də eyni addımı atacağını gözləyir. Ancaq qarşı tərəfdən pislik deyil, yaxşılıq edildiyini gördükdə daxilində bir tufan qopur, ruhunda çevrilmə baş verir, utanır, özünün kiçildiyini, cılızlaşdığını, qarşı tərəfin isə böyük olduğunu hiss edir. Nəticədə, içində baş qaldırmış tufan kin-küdurəti aparır, ədavəti sevgi və səmimiyyət əvəz edir. Əlbəttə, bu daimi deyil, ümumi bir qanundur. Çünki bu qanundan sui-istifadə edən azlıqlar da mövcuddur. Onlar cəza qamçılarının zərbələrini yemədən adam olmaz, çirkin davranışlarından əl çəkməzlər. Bu zümrənin hesabı ayrıdır,

---

[1928] Nümunə, c.20, səh.270

onlara qarşı sərt olmaq lazımdır. Ancaq yaddan çıxarmaq olmaz ki, bu zümrə hər zaman azlıqdadır, pisliyin yaxşılıqla əvəz edilməsi qanunu əksəriyyətə aiddir.[1929]

36. Şeytanın vəsvəsələri qarşısında nə edək? Xoşbəxt olmaq, Allahın razılığını qazanmaq üçün insanın qət etdiyi uzun-uzadı yolunda şeytanın pusqu qurduğu keçilməz keçidlər var. Əgər insan tək qalsa, bu yolu qət edə bilməz, bu təhlükəli yolda irəliləyə bilmək üçün insan Allaha təvəkkül etməli, tufan və qasırğa gücləndiyində Onun lütfünə daha çox sığınmalıdır. Bir nəfər başqa birisi haqqında pis danışır, həmin şəxsə qarşı qəlbində qəzəb odu yanır. Peyğəmbər (s): ***"Mən elə bir söz bilirəm ki, qəzəbli şəxs onu desə, qəzəbi soyuyar, həmin cümlə budur: "Qovulmuş şeytanın şərindən Allaha sığınıram"***, - deyə buyurur. Həmin qəzəbli adam deyir: "Mənim dəli olduğumu düşünürsünüz (Şeytanın bədənimə girdiyini güman edirsiniz?)" Peyğəmbər (s) Quranın bu ayəsini buyurur: ***"Əgər sənə şeytandan vəsvəsələr gəlsə, Allahdan sığınacaq istə"***. Peyğəmbər (s) bu cümlə ilə ehtiras və nəfsani istəklər kimi, qəzəbin şeytanın qaldırdığı vəsvəsə tufanlarından olduğunu çatdırmaq istəyir. Möminlərin əmiri İmam Əli (ə) hədislərinin birində belə buyurmuşdur: "***Şeytan sizlərdən hər kimi vəsvəsə etsə, Allaha sığınıb "Allaha iman gətirdim və dinimi onun üçün xalis etdim", - desin."***[1930]

[1929] Nümunə, c.20, səh.281
[1930] Nümunə, c.20, səh.286

39. Yer üzünü qupquru görməyin də Onun nişanələrindəndir. Ancaq biz onun üzərinə su endirdikdə o, hərəkətə gəlib artır. Onu dirildən, ölüləri də dirildəcəkdir. O, hər şeyə qadirdir.

40. Ayələrimizi təhrif edənlər bizdən gizli qalmazlar. Oda atılan adam yaxşıdır, ya Qiyamət günü məhşər səhnəsinə əmin-amanlıq içində gələn adam? İstədiyinizi edin! O, nə etdiyinizi görür.

41. Zikr onlara gəldiyi zaman onu inkar edənlər (də bizdən gizli qalmayacaqlar). Bu, yenilməz bir Kitabdır.

42. Nə öndən, nə də arxadan batil ona nüfuz edə bilməz. Çünki o, hikmət sahibi, tərifəlayiq olan tərəfindən nazil edilmişdir

43. Haqqında deyilən xoşagəlməz sözlər səndən əvvəlki elçilər haqqında deyilmiş eyni sözlərdir. Sənin Rəbbin bağışlayandır, ağrılı-acılı cəza verəndir.

44. Əgər Biz onu başqa bir dildə Quran etsəydik, hökmən deyərdilər: "Nə üçün ayələri aydın deyil? Ərəb peyğəmbərdən əcnəbi dildə olan Quran?!" De: "Bu, iman gətirənlərə doğru yol göstərən və şəfadır". İman gətirməyənlərin isə qulaqlarında ağırlıq vardır. Onlar ona qarşı sanki kordurlar, onu görmürlər. Onlar (sanki) uzaq bir yerdən çağırılırlar.

45. Biz Musaya Kitab verdik, sonra onun barəsində ixtilaf düşdü. Əgər bu barədə Rəbbin tərəfindən bir əmr olmasaydı, onların arasında hökm verilmiş olardı. Amma onlar hələ də onun barəsində iftira dolu bir şübhə içindədirlər.

46. Kim yaxşı iş görsə, xeyri özünə, kim də pislik etsə, zərəri özünə olar. Sənin Rəbbin bəndələrə əsla zülm etməz.

---

42. Nə öndən, nə də arxadan batil ona nüfuz edə bilməz: Təfsirçilər bu cümlənin təfsiri ilə bağlı çox fikirlər söyləmişlər. Onlar arasında ən əhatəlisi budur: Heç bir batil heç bir vasitə ilə Qurana nüfuz edə bilməz, yəni Quranın təqdim etdiyi məsələlər arasında heç bir ziddiyət yoxdur, inkişaf etmiş elmlər və kitablar ona zidd ola bilməz, gələcəkdə əldə ediləcək elmi nailiyyətlər ona müxalif olmayacaq, heç kəs onun həqiqətlərini yalana çıxara bilməz, gələcəkdə qüvvədən düşməyəcək, təqdim etdiyi məlumatlar, qanunlar, verdiyi xəbərlər və nəsihətlər arasında ixtilaf yoxdur, sonra da belə bir hal baş verməyəcək, heç bir ayəsi, hətta heç bir kəlməsi də azalmamış,

ona heç nə artırılmamışdır. Başqa sözlə desək, təhrif edənlərin əli onun uca zirvəsinə çatmamış, çatmır və çatmayacaq.[1931]

44. Quranla bağlı başqa bir bəhanəyə cavab: Kökü "ücmə" olan "əcəm" sözünün mənası fəsahətsiz və anlaşılmaz söz və danışıqdır. Ərəblər ərəb olmayanların dillərini yaxşı başa düşmədikləri üçün onları əcəm adlandırıblar. Ayədə inadkar kafirlərin bəhanələrindən söz açılır və gətirdikləri bəhanələrdən birinə cavab verilir. Onlar bəhanə edirdilər ki, nə üçün Quran əcnəbi dildə nazil olmayıb? Əgər belə olsaydı, biz ona daha çox əhəmiyyət verərdik və digər tərəfdən, ərəb olmayanlar da ondan faydalanardılar. Əslində, belə deyərkən məqsədləri başqa idi. İstəyirdilər ki, camaat onu başa düşməsin və ***"Bu Qurana qulaq asmayın, oxunduğu zaman hay-küy salın"*** (26-cı ayə) göstərişinə də ehtiyac qalmasın. Quran onlara belə cavab verir: Əgər biz Quranı başqa bir dildə göndərsəydik, hökmən deyəcəkdilər: Nə üçün ayələri aydın deyil? Nə üçün qarışıqdır? Biz ondan baş açmırıq. Ya da deyəcəkdilər: Ərəb xalqına yad olan bir kitab? Ərəb dilində olduğu, hər kəs tərəfindən yaxşı dərk edildiyi, dərinliklərinə qədər aydınlıq gətirildiyi halda, hələ də "Qurana qulaq asmayın, hay-küy salıb camaatın ona qulaq asmasına mane olun" deyə car çəkirlər.[1932]

46. Allahın bəndələrə zülm və haqsızlıq etməsi qeyri-mümkündür: Ayənin son hissəsi ixtiyar və iradə azadlığına aydın bir dəlildir. Allah-taala bu ayədə kiməsə səbəbsiz yerə cəza vermədiyini və heç bir əsas olmadan əzabını artırmadığını buyurur. Allahın proqramı xalis ədalət üzərindədir. Çünki zülm və haqsızlıq çatışmazlıq, nöqsan, cəhalət, məlumatsızlıq və ya nəfsani istəklərdən qaynaqlanır. Halbuki Allahın müqəddəs zatı bütün bunlardan ucadır. "Zəllam" mübaliğə bildirir, mənası çox-çox zülm edən

[1931] Nümunə, c.20, səh.298
[1932] Nümunə, c.20, səh.304

deməkdir. Ayələrə əsasən deyə bilərik ki, Allahın heç bir səbəb olmadan zülm və haqsızlığa yol verməsi onun böyük bir zülmkar olmasından qaynaqlanmalıdır. Allah isə belə bir xüsusiyyətdən ucadır. Bəziləri hesab edir ki, bəndələri çox olduğu üçün, hər kəs haqqında ediləcək kiçik bir zülm üst-üstə gələrək mübaliğə yaradır. Bu yozumlar arasında heç bir təzad yoxdur. Hər halda, Quran bu ayələrdə fəsadın yayılması, müxtəlif çirkinliklərə imza atılması və məsuliyyətin götürülməsinə səbəb olacaq "cəbr" (məcburiyyət, ixtiyarsızlıq) məktəbi üzərindən xətt çəkir, hər kəsin öz əməlləri qarşısında məsuliyyət daşıdığını, etdikləri əməllərin nəticəsinin birinci növbədə özlərinə qayıdacağını buyurur. Səhabələrindən biri İmam Rzadan (ə) "Allah öz bəndələrini günaha məcbur edirmi?" – deyə soruşduqda İmam (ə) buyurur: ***"Xeyr, Onları sərbəst buraxır, günahlarını bağışlatmaları üçün onlara möhlət verir."*** Səhabə soruşur: "Bəndəyə öhdəsindən gələ bilməyəcəyi vəzifəni tapşırırmı?" İmam (ə) buyurur: ***"Özü "Bəndələrə əsla zülm və haqsızlıq etməz", - deyə buyurduğu halda, bunu necə edə bilər?"*** Sonra belə əlavə edir: Atam Musa ibn Cəfər atası Cəfər ibn Muhəmmədə istinadən belə bir hədis nəql etmişdir: ***"Əgər kimsə Allahın öz bəndələrini günaha məcbur etdiyini və ya imkanları xaricində olan vəzifəni tapşırdığını güman edirsə, həmin şəxsin kəsdiyi heyvanın ətindən yeməyin, şahidliyini qəbul etməyin, arxasında namaz qılmayın, zəkatdan ona pay ayırmayın."***[1933]

[1933] Nümunə, c.20, səh.308

47. Qiyamət haqqında bilgi yalnız Ona məxsusdur. Onun xəbəri olmadan heç bir meyvə toxumundan cücərib çıxmaz, heç bir qadın hamilə olmaz və daşıdığı yükü (bətnindəkini) yerə qoymaz. O gün onları çağırıb: “Mənə qoşduğunuz şəriklər haradadır?” – deyə soruşduqda deyəcəklər: “Biz Sənə bildirdik ki, dediklərimizə heç bir şahid yoxdur!” – deyəcəklər.

48. Əvvəllər çağırdıqları bütün məbudlar məhv olacaq və onlar heç bir qaçış yerinin olmadığını biləcəklər.

49. İnsan özünə xeyir diləməkdən usanmaz. Lakin ona bir pislik dəysə, çox məyus olub ümidini itirər.

50. Başına gələn bəladan sonra öz tərəfimizdən ona bir rəhmət daddırsaq, deyər: “Bu mənim haqqımdır və Qiyamətin gələcəyini güman etmirəm. Rəbbimə doğru qaytarılsam, Onun yanında mənim üçün gözəl mükafatlar var!” Biz kafirləri nə etdiklərindən xəbərdar edəcəyik və onlara ağır bir əzab daddıracağıq.

51. İnsana (qəflət yuxusunda olan insana) nemət verdiyimiz zaman üz çevirib təkəbbürlü halda haqdan uzaqlaşar. Lakin kiçik bir problemlə qarşılaşdıqda uzun-uzadı yalvarıb-yaxarar.

52. De: “Bir deyin görək, əgər bu Quran Allah tərəfindən olarsa, siz də (bilə-bilə) onu inkar edərsinizsə, qəti şəkildə müxalifətçilik edən şəxsdən daha azğın kim ola bilər?

53. Onun haqq olduğu onlara aydın olana qədər Biz nişanələrimizi onlara həm kainatda, həm də onların özlərində mütləq göstərəcəyik. Rəbbinin hər şeyə şahid olması kifayət deyil?

54. Bilin ki, onlar öz Rəbləri ilə qarşılaşacaqlarına şübhə edirlər. Bilin ki, o, hər şeyi əhatə edir.

---

52. Ehtimal edilən zərərin dəf edilməsi əqli cəhətdən vacibdir: Bu ayə inadkar kafirlərə xitab edir, məşhur bir əqli qanunu aydın şəkildə onlara izah edir. Əlbəttə, bu prinsip heç bir məntiqi dəlili qəbul etməyənlərə aiddir, daha doğrusu, inadkar, təkəbbürlü və təəssübkeş insanlara ünvanlanmış son sözdür. Belə ki, əgər siz Quranın həqiqətlərini, tövhidi, ölümdən sonrakı həyatın varlığını yüz faiz qəbul etməsəniz də onu inkar etmək üçün heç bir dəliliniz yoxdur. Deməli, Quranın çağırışı və axirət mövzusunun gerçəklik olması ehtimalı daha güclüdür. İndi belə bir sapma, kəskin reaksiya və Allah dini qarşısında cəbhə almağınızla sizi hansı qorxulu və qaranlıq aqibətin gözlədiyini düşünün. Bu, din öndərlərinin inadkar insanlara söylədikləri son sözdür. Hədislərdə İmam Sadiqin (ə) dövrünün məşhur materialist və dönüklərindən olan İbn Əbil-övca ilə olan mübahisəsinin çox uzun sürdüyü qeyd edilmişdir. Bir gün həcc mərasimində olarkən İmamın (ə) onunla rastlaşan bəzi səhabələri İbn Əbil-övcanın müsəlman olduğunu deyirlər. İmam (ə) buyurur: ***“O daha kor qəlblidir. Heç vaxt müsəlman olmayacaq.”*** İbn Əbil-övca İmamı (ə) görən kimi deyir: Mənim ağam, mənim böyüyüm! İmam (ə) soruşur: ***“Səni bura gətirən nədir?”*** İbn Əbil-övca: “Fiziki ibadət,

bu ərazinin adət-ənənəsi. Gəlmişəm ki, camaatın axmaq-axmaq hərəkətlərinə, başlarını qırxmalarına, daş atmalarına tamaşa edim." İmam Sadiq (ə): ***"Sən hələ də öz təkəbbür və azğınlığında qalmısan?"*** İbn Əbil-övca ağzını açıb nə isə demək istədikdə İmam Sadiq (ə) buyurur: ***"Həcc mübahisə yeri deyil"***. Əbasını onun əlindən dartıb bu cümləni buyurur: ***"Əgər məsələ sən dediyin kimi (Allah və Qiyamət yoxdur) olsa (ki, heç də belə deyil), həm sən xilas olacaqsan, həm biz. Əgər məsələ biz dediyimiz kimi olsa (əslində, elə biz dediyimiz kimidir), biz xilas olacağıq və sən həlak olacaqsan."*** İbn Əbil-övca üzünü yoldaşlarına tutub deyir: Ürəyimin dərinliyində bir ağrı hiss etdim, məni qaytarın. Onu qaytarırlar və bir müddətdən sonra dünyasını dəyişir.[1934]

53. Tezliklə öz nişanələrimizi onlara göstərəcəyik: "Həm kainatda, həm də onların özlərində" olan nişanələr deyilərkən nələrə işarə edilməsi və onların nəyi sübuta yetirməsi ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Bu fikirlər arasında ikisi daha çox diqqətəlayiqdir: 1. Dünya həyatına vida edərkən kafirin son anlarda gördükləri. O vaxt bütün düşüncələrinin alt-üst olduğunu, etdiyi iddiaların tamamilə havaya sovrulduğunu, əlinin hər yerdən üzüldüyünü görəcək, Allahın haqq olduğunu, ondan qeyri nə varsa, hamısının yalan olduğunu başa düşəcək. 2. Gələcəkdən xəbər verən Quran ayələri. Müsəlmanların müşriklər üzərində qələbə çalacağını vəd verən ayələri buna misal göstərə bilərik. Belə ki, Allahın müsəlmanlara dünyanın hər tərəfində müşriklər üzərində ardıcıl qələbələr nəsib etməsi, kafirlərin müsəlmanlar tərəfindən qətlə yetirilməsi Quranın bu ayələrinin gerçəkləşdiyini aydın şəkildə göstərir. Quran ayələri haqq yolunda olanlara Allah dininin tezliklə bütün dünyaya hakim olacağını, yer üzündə Allahdan

---

[1934] Nümunə, c.20, səh.325

qeyrisinə ibadət edilməyəcəyini vəd vermişdir. Əhli-beyt (ə) hədislərində bu ayədə Həzrət Mehdinin (ə) zühur edəcəyi dövrün nəzərdə tutulduğu buyurulumuşdur.[1935]

[1935] Əl-Mizan, c.17, səh.404

"Şura" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ha, Mim.

2. Ayn, Sin, Qaf.

3. Yenilməz qüdrət və hikmət sahibi olan Allah sənə və səndən əvvəlki peyğəmbərlərə belə vəhy edir.

4. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. O, ucadır, böyükdür.

5. Göylər az qalır yuxarıdan parça-parça olsun. Mələklər davamlı olaraq Rəblərinə həmd və təriflər deyir və yerdəkilər üçün bağışlanma diləyirlər. Bilin, Allah bağışlayandır, rəhmlidir.

6. Allahdan başqasını özünə rəhbər seçənlərin bütün əməllərinin hesabını Allah qoruyub saxlayır. Sənə onları haqqı məcburi şəkildə qəbul etdirmək əmr edilməyib.

7. Beləliklə, biz sənə ərəbcə olan (fəsahətli və açıq-aydın) bir Quran vəhy etdik ki, şəhərlər anası (Məkkə) və onun ətrafındakıları xəbərdar edəsən, barəsində heç bir şübhə olmayan, bütün yaranmışların toplanacağı günlə qorxudasan. Bir qisim Cənnətdə, digər qisim isə yanar oddadır.

8. Əgər Allah istəsəydi, onları vahid bir ümmət edərdi. Lakin o öz mərhəmətinə istədiyini qovuşdurur. Zalımların isə nə bir himayəçisi olar, nə də bir yardımçısı var.

9. Onlar Allahdan qeyrisini özlərinə rəhbər və himayəçi seçdilər. Halbuki rəhbər və himayəçi yalnız Allahdır. Ölüləri dirildən Odur. Hər şeyə qadir olan Odur.

10. İxtilafa düşdüyünüz şeylər barəsində hökm vermək ancaq Allaha aiddir. Budur mənim Rəbbim olan Allah. Mən Ona təvəkkül etmişəm və Ona tərəf qayıdıram.

"Şura" surəsinin ümumi məzmunu: Bu surənin əsas sujet xəttini vəhy mövzusu təşkil edir. Sözügedən mövzu ilə yanaşı, tövhid, qayıdış, mömin və kafirlərin xüsusiyyətləri və sair kimi mövzulara da toxunulmuşdur.[1936]

5. Tezliklə göylər yuxarıdan parçalanacaq: Bu cümləyə iki formada izah verilmişdir: 1. Bu cümlənin məzmunu əvvəlki ayələrin bəhs etdiyi vəhy mövzusu ilə bağlıdır. Əslində, "Həşr" surəsinin 21-ci ayəsinin məzmunu ilə oxşardır. Allah həmin ayədə belə buyurur: ***"Əgər bu Quranı dağa nazil etsəydik, onun qarşısında əridiyini və Allah qorxusundan parçalandığını görərdik."*** Allah kəlamı göydən enərkən onu lərzəyə gətirir, az qalır parça-parça olsun. Əgər dağa nazil olsaydı, parça-parça olardı. Çünki o, Allah tərəfindən endirilən hikmətli kəlamdır. Onun qarşısında yumşalmayan, təslim olmayan insanın inadkar qəlbidir. 2. Göylər ən aşağı varlıqları varlıq aləminin böyük başlanğıcına tay tutan müşriklərin şirk və bütpərəstliyi qarşısında az qalır parça-parça olsun. (Daha ətraflı məlumat üçün bax: Məryəm-90).[1937]

7. Şəhərlərin anası: Bu ayəni oxuyarkən belə bir fikir yarana bilər ki, burada təkcə Məkkə və onun ətraf ərazilərində yaşayan insanlar nəzərdə tutulmuşdur. Bu ifadə İslamın ümumbəşəri din olması məsələsinə zidd deyilmi? Bir nüansa diqqət yetirsək sual aydınlaşar. O da budur ki, "Ummul-qura" (şəhərlərin anası) Məkkənin adlarından biridir. Bu ad "umm" və "qura" olmaqla iki sözdən təşkil olunmuşdur. "Umm" sözünün mənası əsas və başlanğıc deməkdir. Övladların əsas başlanğıcı ana olduğu üçün ərəblər anaya "umm" deyirlər. "Qura" mənası abadlıq, böyük və kiçikliyindən asılı

[1936] Əl-Mizan, c.18, səh.5
[1937] Nümunə, c.20, səh.350

olmayaraq, şəhər və kənd olan "qəryə" sözünün cəmidir. Quranda bu ifadəyə çox rast gəlinir. Məkkənin nə üçün "Ummul-qura" adlandırılmasına "Ənam" surəsinin 92-ci ayəsində açıqlama gətirmişik. Bundan başqa, nəzərə almalıyıq ki, İslam tədricən yayılmışdır. Peyğəmbərə (s) ilk öncə yaxın qohumlarını qorxutmaq əmr edilmişdir. Belə ki, "Şüəra" surəsinin 214-cü ayəsində Allah-taala belə buyurmuşdur: ***"Yaxın qohumlarını qorxut"***. Əslində, bu cür başlanğıcın məqsədi əsas özəyi möhkəmlətmək və yayılmağa hazır etməkdir. Bundan sonra Peyğəmbərə (s) ərəbləri qorxutmaq əmr edilmişdir. Belə ki, "Fussilət" surəsinin 3-cü ayəsində Allah-taala belə buyurur: ***"Ərəbcə olan bir kitab"***. Artıq "Zuxruf" surəsinin 44-cü ayəsində isə belə buyurulur: ***"Bu sən və sənin qovmunə xatırlatma vasitəsidir."*** İslamın əsasları ərəblər arasında möhkəmləndikdən sonra Peyğəmbərə (s) daha böyük vəzifə tapşırılır, ona bütün insanları qorxutmaq əmri verilir. Belə ki, "Fürqan" surəsinin birinci ayəsində belə buyurulur: "***Aləmləri qorxutmaq üçün Quranı bəndəsinə nazil edən şəxs tükənməz və mübarəkdir.***" Buna görə də Peyğəmbər (s) o vaxt Ərəbistan yarımadasından uzaqlarda yaşayan dünya hökmdarlarına məktub yazır, kəsraları, qeysərləri və sairəni İslama dəvət edir. Ardıcılları da ondan sonra məhz bu proqram üzrə İslamı təbliğ etmək üçün bütün dünyaya səpələnir, İslam təlimlərini dünyaya yayırlar.[1938]

10. İxtilaflar barəsində hökm vermək yalnız Allah-taalaya məxsusdur:

Bəzi təfsirçilər bu ayənin məzmununu bənzər ayələr və ya hüquqi ixtilaflar çərçivəsi ilə məhdudlaşdırmağa çalışmışlar. Ancaq ayənin mənası daha genişdir, ilahi maarif, etiqad məsələləri, şəriət hökmləri, insanlar arasında mövcud olan bütün hüquqi və məhkəmə məsələlərini və sairəni əhatə edir. İnsanların məlumatları məhdud və az olduğu üçün Allahın elm mənbəyindən

[1938] Nümunə, c.20, səh.357; Əl-Mizan, c.18, səh.18

qaynaqlanmalı, mövcud ixtilaflarını vəhy vasitəsilə həll etməlidirlər.[1939] Bu ayə insanların ehtiyac duyduqları bütün məsələlərin Quran və sünnədə mövcud olduğunu, istənilən müqayisə, fərdi qanunvericilik və sairənin yanlış olduğunu aydın şəkildə göstərən ayələrdəndir. Çünki bu hökmlər Quran və sünnədə olmasa idi, bütün ixtilafların Allaha həvalə edilməsinin heç bir mənası olmazdı.[1940]

11. O, göyləri və yeri yaradandır. O sizin üçün öz cinsinizdən həyat yoldaşları, heyvanlardan da cütlər yaratdı. Sizi bu yolla çoxaldır. Onun heç bir bənzəri yoxdur. O, eşidəndir, görəndir.

12. Göylərin və yerin açarları Ona məxsusdur. O, istədiyinin ruzisini artırar, istədiyininkini də azaldar. O, hər şeyi biləndir.

13. Nuha tövsiyə etdiyi dini sizin üçün qanun etdi. Sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimiz budur: "Dini qoruyun və onda təfriqə yaratmayın!" Sizin dəvət etdiyiniz müşriklərə ağır gəldi. Allah istədiyi kəsi seçir və ona tərəf qayıdanı doğru yola yönəldir.

[1939] Nümunə, c.20, səh.364
[1940] Quranın ismarışı, c.3, səh.369

14. Onlar məhz elm gəldikdən sonra haqdan sapdıqları üçün (paxıllıqları ucbatından) parçalandılar. Əgər Rəbbin tərəfindən müəyyən bir vaxtadək verilmiş bir əmr olmasaydı, onlar arasında artıq hökm çıxarılartdı. Onlardan sonra Kitaba varis olanlar da onun barəsində bədbin bir şübhə içindədirlər.

15. Buna görə də sən (onları Allah dininə) dəvət et və sənə əmr olunduğu kimi düz yolla get. Onların nəfslərinin istəyinə uyma və de: "Mən Allahın nazil etdiyi hər bir Kitaba iman gətirdim. Mənə sizin aranızda ədalətli olmaq əmr edilmişdir. Allah bizim də Rəbbimizdir, sizin də. Bizim əməllərimiz bizə, sizin də əməlləriniz sizə aiddir. Aramızda şəxsi zəmində düşmənçilik yoxdur. Allah bizi və sizi bir yerə toplayacaqdır. Dönüş onadır".

---

11. Allahın bənzəri yoxdur: Bu cümlə Allahın bütün atributlarının tanınmasının əsas təməl prinsipini ehtiva edir. Həmin prinsip nəzərə alınmadan Allahın atributlarının heç birini dərk etmək olmaz. Çünki Allahtanıma yolunda mövcud olan ən təhlükəli uçurum, hər hansı atribut baxımından Allahı öz yaratdıqlarına bənzətməkdir. Bu faktor insanın şirk dərəsinə yuvarlanmasına səbəb olur. Başqa sözlə desək, Allah hər cəhətdən, qüdrət, elm, həyat, iradə, lütfkarlıq və sair cəhətdən sonsuz, hüdudsuz bir varlıqdır, ondan qeyri nə varsa, sonlu və məhduddur. Bu, Allahın mümkün varlıqların bütün nöqsanlarından pak və üstün hesab edilməsidir. Buna görə də Allahdan qeyrisi haqqında sübuta yetmiş çox anlayışlar Allah prizmasında öz mənasını itirir. Məsələn, bəzi işlər bizim üçün asan, bəzisi isə çətindir, bəzi əşyalar uzaq, bəzisi yaxındır, bəzi hadisələrin zamanı keçmiş, bəziləri indi baş verir və ya gələcəkdə baş verəcək, bəzi cismlər

böyük, bəzisi kiçikdir və sair. Bütün bunlar ona görə belədir ki, biz məhdud varlığıq və ya varlıqların müqayisəsi bizdə belə təsəvvür yaranmasına səbəb olur. Ancaq bütün cəhətlərdən sonsuz, əzəli və əbədi olan varlıq haqqında bu mənanı təsəvvür etmək olmur. Onun haqqında uzaq və ya yaxın anlayışları təsəvvür edilmir, onun nəzərində hər şey yaxındır. Onun üçün çətinlik və ya asanlıq deyilən bir şey yoxdur, hər şey onun üçün asandır. Onun üçün keçmiş və gələcək anlayışı yoxdur, hər şey onun üçün indidir. Əlbəttə, bu mənanı dərk etmək diqqət, beyinin öyrəşdiklərini bir kənara qoyması tələb edilir. Bu səbəbdən də Allahın tanınmasının çox asan, atributlarının tanınmasının isə çox çətin olduğunu deyirik.[1941] Şübhəsiz ki, Allah təsəvvür, xəyal, müqayisə, güman, təxəyyülə sığmayan bir varlıqdır, zatını təsəvvür etmək qeyri-mümkündür. Çünki biz yalnız bənzərini və hissələrini gördüyümüz əşyaları təsəvvür edə bilərik. Ancaq bənzəri və tayı-bərabəri olmayan varlıq bizim idrakımıza və təsəvvürümüzə əsla sığmaz. Biz yalnız bu qədər bilirik ki, O var. Onun işlərini və nişanələrini bizi əhatə edən kainatda müşahidə edir, həmin nişanələr əsasında Onun atributlarını ümumi şəkildə dərk edirik. Heç kəs, hətta peyğəmbər və mələklər də onun zatını dərk edə bilməzlər. Elə məhz bu həqiqəti etiraf etmək insanın Allahtanıma prosesindəki son mərhələsidir. Peyğəmbərin (s) "Biz səni layiq olduğun kimi tanıya bilmərik" hədisi insanın Allahtanıma ilə bağlı bilgisinin ən yüksək zirvəsidir. Səbəbi isə aydındır. O, hər cəhətdən sonsuz varlıqdır, Ondan qeyri nə varsa, hər cəhətdən məhdud və sonludur. Buna görə də Onu özündən qeyrisi ilə müqayisə etmək olmaz, Bizim varlığımız, ağlımız və fikrimiz məhdud olduğu üçün Onun sonsuz zatına vara bilmərik. Bir gün bir nəfər Peyğəmbərin (s) yanına gəlib: "Elmin ən yüksək mərhələsi hansıdır?"

[1941] Nümunə, c.20, səh.366

– deyə soruşur. Peyğəmbər (s) buyurur: “Allahı layiq olduğu kimi tanımaq”. Sonra əlavə edir: “Onun nə misli var, nə bənzəri, O, tək, yaradan, qadir, əvvəl, axır, zahir və batin olan məbuddur. Heç bir tayı-bərabəri yoxdur. Budur Onu layiqincə tanımaq.”[1942]

13. İslam səmavi dinlərin çıxarışı, xülasləşdirilmiş formasıdır: Ayədə İslamın təkAllahlığa dəvətinin yeni bir şey olmadığı, bütün ülül-əzm peyğəmbərlərin dəvəti olduğu buyurulur. Təkcə tövhid deyil, peyğəmbərlərin dəvətlərinin əsas prinsipləri bütün səmavi dinlərdə eyni olmuşdur. Bu ayəyə əsasən keçmiş peyğəmbərlərə nə tövsiyə olunubsa, onların şəriətlərində nə olubsa, İslam şəriətində toplanmışdır. “Minəd-din” (din) ifadəsi səmavi şəriətlərin təkcə tövhid və inanc əsaslarında deyil, kök etibarı ilə də eyni olduğunu göstərir. Baxmayaraq ki, insan cəmiyyətinin təkamülü, ikinci dərəcəli qanunların insanların təkamülünə uyğun olaraq sonuncu dinlərə qədər təkmilləşməsini tələb edir. Belə ki, Quran ayələrində bütün səmavi dinlərdə inanclar, qanunlar və vəzifələrin eyni olduğunu göstərən nümunələr çoxdur.[1943]

[1942] Quranın ismarışı, c.3, səh.265
[1943] Nümunə, c.20, səh.377

16. Allahı qəbul etdikdən sonra onun barəsində söz güləşdirənlərin dəlili Rəbləri yanında batil və əsassızdır. Onları qəzəb və şiddətli əzab gözləyir.

17. Kitabı və tərəzini haqq olaraq nazil edən Allahdır. Nə bilirsən, bəlkə də Saat (Qiyamət qopacağı vaxt) yaxındır.

18. Qiyamətə inanmayanlar onun barəsində tələskənlik edirlər. Möminlər isə ondan qorxur və onun həqiqət olduğunu bilirlər. Qiyamət barəsində mübahisə edənlər dərin bir azğınlıq içindədirlər.

19. Allah öz qullarına qarşı lütfkardır, istədiyinə ruzi verir. O, qüvvətlidir, yenilməzdir.

20. Biz axirət tarlasını istəyənin əkininə bərəkət və artım verir, məhsulunu bol edirik, yalnız dünya əkinini istəyənə isə ondan az miqdar veririk. Axirətdə onun heç bir nəsibi olmaz.

21. Yoxsa Allahın izni olmadan onlar üçün din yaradan məbudları var? Əgər onlara bəlli bir möhlət verilməsəydi, onlar haqqında hökm çıxarılardı. Zalımları ağrılı-acılı bir əzab gözləyir.

22. Zalımların etdikləri əməllərdən çox qorxduğunu görəcəksən. Lakin əməlləri onları yaxalayacaq. İman gətirib yaxşı işlər görənlər isə Cənnət bağlarında olacaqlar. Rəblərinin yanında onlar üçün istədikləri hər şey hazırlanmışdır. Böyük lütfkarlıq da elə budur.

-

17. Allah kitab və tərəzini haqq olaraq göndərmişdir: “Kitab” deyilərkən vəhy nəzərdə tutulur. İnsan cəmiyyətinin idarə edilməsi üçün zəruri olan din və şəriət məhz vəhy vasitəsilə göndərilmişdir. Tərəzi ölçü vasitəsinə deyilir. Burada “tərəzi” deyilərkən kitabın ehtiva etdiyi din nəzərdə tutulur. İnanc və əməllər din vasitəsilə ölçüldüyü üçün tərəzi adlandırılmışdır. Qiyamətdə də onun vasitəsilə sorğu-sual olunacaq, ölçü müəyyən ediləcək, mükafat və ya cəza veriləcək. Deməli, “tərəzi” deyiləkən əsasları və əməli hökmləri ilə birlikdə din nəzərdə tutulur. Bəzi təfsirçilər tərəzini Peyğəmbərə (s) yozmuşlar. Əlbəttə, bu yozum əvvəlki şərhlə heç bir təzad təşkil etmir. Çünki qeyd etdiyimiz kimi, “tərəzi” deyilərkən əsasları və əməli hökmləri ilə birlikdə din nəzərdə tutulur. Məlumdur ki, Peyğəmbər (s) dinin əsasları və əməli hökmlərinin tam əyarlı meyarıdır. O, elə bir tərəzidir ki, fərdlərin hər bir təkinin dindarlığı onunla ölçülür. Ona daha çox bənzəyən fərd daha dindar, ona daha az bənzəyən isə az dindardır.[1944]

20. Dünya və axirət tarlası: Ayədə incə bir bənzətmə ilə insanlar Allahın bəxş etdiyi ruzilər və ondan istifadə formasına əsasən əkinçilərə bənzədilmişlər. İnsanların bir qrupu axirət, bir qrupu isə dünya üçün əkin əkir və bununla da tarlaların hər birinin nəticəsini müəyyən edir. Bu ayəyə əsasən insanlar əkinçi, bu dünya tarla, əməllərimiz toxumlar, Allahın yaratdığı imkanlar yağan yağışlardır. Toxumlar müxtəlif olur. Onların bəzisinin məhsulu tükənməz, sonsuz, əbədi, ağacları həmişəyaşıl, barlı-bəhrəlidir. Bəzisinin məhsulu çox az, ömrü qısa və keçici, meyvələri acıdır. “İstəyir” sözü ilə niyyətlərin fərqli olduğuna işarə edilir. Ümumiyyətlə, bu

---

[1944] Əl-Mizan, c.18, səh.38

ayədə üst ayədə qeyd edilmiş bəzi nemətlər səciyyələndirilir. Bəziləri Allahın verdiyi bu nemətlərdən toxum kimi axirət üçün, bəziləri isə dünya ləzzətləri üçün istifadə edir. Axirət əkinçiləri belə səciyyələndirilir: ***"Onun əkininə bərəkət və artım veririk, məhsulunu bol edirik"***, ancaq dünya ləzzətindən də məhrumdurlar deyə buyurulmur. Dünya əkinçilərinə gəldikdə, onlar haqqında belə buyurulur: ***"Ondan az miqdar veririk. Axirətdə onun heç bir nəsibi olmaz."*** Deməli, dünyapərəstlər istədiklərinə çatmır, axirət istəyənlər isə dünyadan məhrum olmurlar. Nəticədə, dünyapərəstlər o dünyaya əliboş, axirət istəyənlər isə əlidolu gedirlər. Hədislərinin birində İslam peyğəmbəri (s) belə buyurmuşdur: ***"Allah niyyəti dünya olan şəxsin işini tərs gətirər, onu yoxsul edər. O, dünya malından yalnız təyin edilmiş miqdarı əldə edər. Allah niyyəti axirət olan şəxsi dağınıqlıqdan xilas edər, qəlbini ehtiyacsızlıq hissi ilə doldurar. Dünya müti halda ona doğru yürüyər."*** İslama görə dünya məqsəd deyil, məhsulu Qiyamətdə yığılacaq bir əkin sahəsidir. Quranın başqa ayələrində və məsumların (ə) hədislərində buna bənzər ifadələrə çox rast gəlmək olar. Məsələn, "Bəqərə" surəsinin 261-ci ayəsində Allah yolunda xərcləmək hər tumu yeddi sünbül və hər sünbülü yüz və daha artıq tum verən toxuma bənzədilmişdir. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"İnsanları üzüqoylu oda atan yalnız onların dillərinin biçdiyi məhsuldur."*** İmam Əli (ə) buyurmuşdur: ***"Var-dövlət və övladlar bu dünya payı, saleh əməl insanın axirət nəsibidir. Bəzən Allah bu iki neməti bəzi insanlara bir yerdə verir."*** Bu ayədən həm də belə nəticə almaq olar ki, həm dünyanın, həm də axirətin səy və fəaliyyətə ehtiyacı var, heç bir məhsul zəhmətsiz əldə edilə bilmədiyi kimi, dünya və axirət də zəhmətsiz qazanıla edilməz.

Deməli, insan zəhmətini tez solub quruyan deyil, meyvəsi şirin, dadlı və əbədi olan ağaca sərf etsə, daha yaxşı olar.[1945]

23. İman gətirib yaxşı işlər görən qullarına Allahın verdiyi müjdə budur. De: “Mən sizdən peyğəmbərliyimin əvəzində qohumlarıma (Əhli-

[1945] Nümunə, c.18, səh.397

beytim) sevgidən başqa bir mükafat istəmirəm". Kim yaxşı bir iş görsə, onun yaxşılığını artırarıq. Çünki Allah bağışlayandır, təşəkkür edəndir.

24. Yoxsa onlar: "O, Allaha qarşı yalan uydurdu" – deyirlər? Əgər Allah istəsə, sənin qəlbinə möhür vurar. Allah batili silib yox edər və haqqı öz fərmanı ilə bərqərar edər. Çünki o, kökslərdə olanlardan xəbərdardır.

25. Qullarının tövbəsini qəbul edən, günahları bağışlayan və sizin nə etdiyinizi bilən Odur.

26. O, iman gətirib yaxşı əməllər edənlərin istəyini qəbul edir və öz lütfünü onlara artırır. Kafirləri isə şiddətli əzab gözləyir.

27. Əgər Allah öz qullarına bol ruzi versə, onlar yer üzündə həddi aşarlar. Buna görə də o, istədiyi qədər göndərir. Çünki o öz qullarından xəbərdardır, görəndir.

28. (İnsanlar) ümidlərini kəsdikdən sonra faydalı yağış endirən və öz rəhmətini yayan Odur. O, himayəçidir, tərifəlayiqdir.

29. Göyləri, yeri və onlarda yaydığı canlıları yaratması onun nişanələrindəndir. O, istədiyi vaxt onları bir yerə toplamağa qadirdir.

30. Başınıza gələn hər bir müsibət etdiyinz əməllər üzündəndir. (Allah) Çoxunu da bağışlayır.

31. Siz yer üzündə Allahın qüdrətindən qaçıb yaxa qurtara bilməzsiniz. Allahdan başqa sizin heç bir himayəçiniz və köməkçiniz yoxdur.

---

23. Qohumlar kimlərdir? Bütün şiə təfsirçiləri və əhli-sünnə təfsirçilərinin bir qrupu "qohumlar" deyilərkən Peyğəmbərin (s) qohumlarının nəzərdə tutulduğunu qeyd etmişlər. Bu şərhə qarşı başqa yozum və ehtimallar da irəli sürülmüşdür. Ancaq böyük ehtimalla bu

ehtimalları irəli sürənlərin hamısının əsl istəyi imamət və xəlifəlik mövzusunun elə də böyük əhəmiyyət daşımadığını göstərmək, Əhli-beyt (ə) məqamının əhəmiyyətini azaltmaq olmuşdur. Bu ayə ilə bağlı əsl diqqət çəkən məqam ondan ibarətdir ki, bir tərəfdən Allah Quranda peyğəmbərlərin çoxunun dilindən açıq-aydın şəkildə ***"Biz sizdən heç bir mükafat istəmirik, bizim mükafatımız Allaha məxsusdur"***, - deyə buyurur (Şüəra-109, 127, 145, 164, 180), digər tərəfdən isə, nəzər nöqtəsi olan ayədə ***"Mən sizdən qohumlarıma (Əhli-beytim) sevgidən başqa bir mükafat istəmirəm"***, - deyə buyurur. Daha maraqlı cəhət Allah-taalanın "Fürqan" surəsinin 57-ci ayəsində Peyğəmbərə (s) ***"De: "Mən peyğəmbərliyim əvəzinə sizdən heç bir mükafat istəmirəm. Təkcə onu istəyirəm ki, insanlar Rəblərinə tərəf aparan bir yol tutsunlar"***, - deyə göstəriş verir, "Səba" surəsinin 47-ci ayəsində isə belə buyurur: ***"Mənim sizdən istədiyim mükafat yalnız öz xeyrinizədir. Mənim haqqım və mükafatım Allaha aiddir."*** Bu dörd ayəni yanaşı qoyduqda belə nəticə almaq olar ki, İslam peyğəmbəri (s) də digər peyğəmbərlər kimi insanlardan özü üçün heç bir haqq və mükafat istəməmişdir. İstədiyi mükafat isə qohumlarına qarşı sevgi olmuşdur. Bu isə Allaha aparan yol və insanların öz xeyirlərinə olan bir istəkdir. Çünki sözügedən sevgi imamət, xilafət, Peyğəmbərin canişini, Allah rəsulunun ümmət üzərindəki rəhbərliyinin davam etməsi və insanların bu rəhbərlik işığında haqq yola yönəlməsi mövzusuna açılan bir qapıdır. Bu həqiqət Peyğəmbərdən (s) nəzər nöqtəsi olan ayənin şərhi ilə bağlı rəvayət edilmiş hədislərə müraciət etdiyimiz və onları bu ayələrlə yanaşı qoyduğumuz zaman aydın olur. Bu ayənin təfsiri ilə bağlı nəql edilmiş hədislərin məcmusundan belə nəticəyə gəlirik ki, nəzər nöqtəsi olan ayə konkret olaraq imamət və xilafət mövzusuna aiddir. Peyğəmbərlik missiyasının haqq və mükafatı məhz bu məsələ təyin edilmişdir. Bu haqq insanları Allaha

yaxınlaşdırır, faydası onların özlərinə aid olur. İbn Abbas belə nəql edir: Bu ayə nazil olduqdan sonra səhabələr soruşdu: "Ey Allahın rəsulu! Bunlar kimdir ki, Allah-taala bizə onları sevməyi əmr edir?" Buyurdu: ***"Əli, Fatimə və bu ikisinin övladları"***. Habelə Peyğəmbər (s) buyurudu: ***"Allah peyğəmbərləri müxtəlif ağaclardan yaratmışdır, amma mən və Əli bir ağacdan yaradılmışıq. Mən onun kökü, Əli onun budaqları, Həsən və Hüseyn onun meyvələri, şiələrimiz isə onun yarpaqlarıdır. Onun budağına yapışan xilas olar, ondan uzaq duran isə süquta uğrayar..."*** Sonra Peyğəmbər (s) bu ayəni oxudu: ***"Mən sizdən peyğəmbərliyimin əvəzində qohumlarıma (Əhli-beytim) sevgidən başqa bir mükafat istəmirəm"***. Əhli-sünnə məzhəbinin böyük təfsirçilərinin qeyd etdiyi başqa bir hədisdə Peyğəmbərin (s) belə buyurduğunu görürük: ***"Muhəmmədin ailəsini sevərək dünyadan köçən şəxs dünyadan şəhid kimi köçmüşdür. Bilin, Muhəmmədin ailəsini sevərək dünyadan köçən şəxs bağışlanmışdır. Bilin, Muhəmmədin ailəsini sevərək dünyadan köçən şəxs dünyadan imanı kamil olan bir mömin olaraq köçmüşdür. Bilin, Muhəmmədin ailəsini sevərək dünyadan köçən şəxsi ölüm mələyi Cənnətlə müjdələyər, sonra Nəkirlə Münkir ona Cənnət müjdəsi verər. Bilin, Muhəmmədin ailəsini sevərək dünyadan köçən şəxsi Cənnətə elə hörmətlə apararlar ki, sanki gəlini bəy evinə aparırlar. Bilin, Muhəmmədin ailəsini sevərək dünyadan köçən şəxsin qəbrindən Cənnətə iki qapı açılar. Bilin, Muhəmmədin ailəsini sevərək dünyadan köçən şəxsin qəbrini mələklər rəhmətin endiyi bir məkana çevirərlər... Bilin, Muhəmmədin ailəsi ilə ədavət apararaq dünyadan köçən şəxs Qiyamət günü məhşər səhnəsinə alnında "Allahın rəhmətindən məyus" yazısı yazılmış halda daxil olar. Bilin, Muhəmmədin ailəsinə qarşı kin-küdurəti olaraq dünyadan köçən şəxs dünyadan kafir***

olaraq köçmüşdür. Bilin, Muhəmmədin ailəsi ilə ədavət apararaq dünyadan köçən şəxs Cənnətin ətrini qoxlaya bilməz.”[1946]

32. Dənizdə dağlar kimi görünən gəmilər də Onun nişanələrindəndir.

33. Əgər istəsə, küləyi sakitləşdirər, onlar da dənizin kürəyində hərəkətsiz qalarlar. Bunda şükür edən hər bir səbrli adam üçün nişanələr vardır.

34. Yaxud, əgər istəsə, onları sərnişinlərin etdikləri əməllər ucbatından məhv edər və eyni zamanda çoxunu bağışlayar.

35. Bizim ayələrimiz barəsində mübahisə edənlər bilsinlər ki, qaçmağa heç bir yerləri yoxdur.

36. Sizə verilənlər dünya həyatının keçici zövqüdür. Allahın yanında olanlar isə iman gətirib, Rəblərinə təvəkkül edənlər üçün daha xeyirli və tükənməzdir.

[1946] Quranın ismarışı, c.9, səh.225

37. O kəslər üçün ki, böyük günahlardan və çirkin əməllərdən çəkinir, qəzəbləndikləri zaman əfv edirlər,

38. O kəslər üçün ki, Rəblərinin dəvətini qəbul edir, namaz qılır, işləri barədə öz aralarında məsləhətləşir, onlara verdiyimiz ruzidən Allah yolunda xərcləyirlər.

39. O kəslər üçün ki, haqsızlığa məruz qaldıqda (təslim olmur) yardım istəyirlər.

40. Pisliyin cəzası özü kimi pislikdir. Amma kim bağışlasa və barışsa, onun mükafatı Allaha aid olar. Allah zalımları sevmir.

41. Haqsızlığa uğradıqdan sonra yardım istəyən şəxs məzəmmət olunmaz.

42. Məzəmmət olunmağa ancaq insanlara zülm edənlər və yer üzündə haqsız yerə zülm edənlər layiqdirlər. Onlar üçün ağrılı-acılı əzab vardır.

43. Hər kim səbr edib bağışlasa, bu təqdirəlayiq işlərdəndir.

44. Allah kimi azğınlığa salsa, ondan başqa heç bir himayəçisi və yardımçısı olmaz. Sən zalımları əzabı gördükləri zaman: “Qayıtmağa bir yol varmı?” – deyən görəcəksən.

---

37. Qəzəbli vaxtında əfv etmək: Bu ayədə həqiqi möminlərə xas olan xüsusiyyətlərədn birinə, insanın ən gərgin hallarından hesab edilən qəzəbli vaxtında öz nəfsini kontrol etməsinə işarə edilmişdir. Diqqət çəkən nüans budur ki, onların ümumiyyətlə, qəzəblənmədikləri buyurulmur. Çünki bu xüsusiyyət insanın təbiətinə xas olan xüsusiyyətdir, bəzi məqamlarda, yəni Allah üçün olduqda və ya haqsızlığa məruz qalmış insanların hüquqlarının müdafiəsi üçün hətta zəruridir. Ayədə buyurulur ki, onlar qəzəbləndikləri vaxt günah etmirlər, qarşı tərəfi əfv edirlər. Əslində, elə belə də olmalıdır.

İnsan özü kin-küdurətli olduğu və intiqam odu ilə yandığı halda, Allahdan necə əfv uma bilər? Burada qəzəb məsələsinin xüsusilə qabardılması ona görədir ki, qəzəb insanın içindən baş qaldıran yandırıcı alov kimidir. Qəzəbini cilovlaya bilən insanlar azdır. Ancaq həqiqi möminlər öz qəzəblərinə tabe olmurlar. İmam Baqir (ə) belə buyurmuşdur: ***"Allah, şövq, istək, qorxu və qəzəb vaxtı nəfsinə hakim olan şəxsə Cəhənnəm odunu haram etmişdir."***[1947] Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: "Allah qəzəbləndiyi vaxt qəzəbinə uyğun davranmağa qüdrəti çatdığı halda, qəzəbini boğan şəxsin qəlbinə Qiyamət günü rahatlıq və iman bəxş edər."[1948] İmam Sadiq (ə) buyurmuşdur: ***"Üç xüsusiyyətə malik olan şəxsin imanı kamil olar: haqsızlıq qarşısında mətin olub qəzəbini boğan, hesabı Allaha həvalə edən və bağışlayan şəxs. Bu cür şəxs sorğu-sualsız Cənnətə daxil edilər, onun Rəbiə və Muzir (adam sayına görə ən böyük qəbilələr olduqları üçün bu iki qəbilə ərəblər arasında məsələ çevrilmişdir) qəbilələri kimi çoxluq üçün etdiyi vasitəçiliyi qəbul edilər."***[1949]

38. İşlərdə məsləhətləşmək mühüm bir prinsipdir: Şura və məsləhətləşmək ən mühüm sosial mövzulardandır. Məsləhətsiz iş hər zaman qüsurludur. Bir insan əqli cəhətdən nə qədər güclü olsa da, ayrı-ayrı mövzulara yalnız bir və ya bir neçə aspektdən baxa bilər, qalan aspektlər ona məlum olmaz. Ancaq hər hansı bir məsələ şuranın müzakirəsinə çıxarılsa, ağıllar, təcrübələr və müxtəlif baxış bucaqları bir-birinin yardımına tələssələr, məsələ tamamilə bişər, nöqsanlar daha az olar, sapmalar olmaz. Peyğəmbər (s) buyurmuşdur: ***"Başqası ilə məsləhətləşən şəxs doğru yola yönələr."*** İmam Əli (ə) buyurmuşdur: ***"Məsləhət doğru yola yönəlmənin***

[1947] Nümunə, c.20, səh.459
[1948] Üsuli-kafi, c.2 ,səh.139
[1949] Nurussəqəleyn, c.1, səh.464

özüdür”. Diqqət çəkən məqam ondan ibarətdir ki, ayədə məsləhətləşmə keçici və müvəqqəti deyil, davamlı bir proqram kimi təqdim edilmişdir. Ayədə bütün işlərin onlar arasında məsləhətli şəkildə icra edildiyi vurğulanmışdır. Hətta Peyğəmbər (s) tam ağıl formasına malik olmasına, vəhylə birbaşa rabitədə olmasına baxmayaraq, ictimai və icra məsələlərində, müharibə, sülh və sair işlərdə böyük ehtiramla səhabələri ilə məsləhətləşir, hətta problem yarana biləcəyinə belə baxmayaraq, çoxluğun rəyini qəbul edir, bununla da insanlara örnək olurdu. Çünki məsləhətləşmənin xeyri ehtimal edilən zərərlərdən daha çoxdur. Əlbəttə, yaddan çıxarmaq olmaz ki, şura və məsləhətləşmə yalnız icra məsələlərinə və mövzuların öyrənilməsi kontekstinə aiddir. Dini hökmlər, yəni təyin edilməsi yalnız vəhy mənbəyi, kitab və sünnə aid edilən imam və Peyğəmbərin (s) canişininin təyin edilməsi kimi məsələlər bu kateqoriyaya aid deyil. “İşləri” ifadəsi də məhz bu faktı çatdırmağa xidmət edir. Çünki dini hökmlər insanların deyil, Allahın işdir.[1950]

[1950] Nümunə, c.20, səh.462

45. Od qarşısına gətirildikləri zaman sən onların zəlillikdən başlarını aşağı salıb gözucu baxdıqlarını görəcəksən. Möminlər deyəcəklər: “Əsl ziyana uğrayanlar Qiyamət günü özlərini və ailələrini itirənlərdir”. Bilin, zalımlar daimi əzab içində olacaqlar.

46. Onlara Allahdan başqa kömək edəcək himayəçi və dostlar olmayacaqdır. Allah kimi azğınlığa salsa, onun üçün heç bir qurtuluş yolu olmaz.

47. Allahın iradəsi qarşısında dönüşü olmayan gün gəlməmişdən əvvəl Rəbbinizin dəvətini qəbul edin! O gün nə bir sığınacağınız, nə də bir müdafiəçiniz olacaq.

48. Əgər üz çevirsələr, (kədərlənmə,) Biz səni onlara mühafizəçi təyin etməmişik. Sənin vəzifən ancaq təbliğ etməkdir. Biz insana öz rəhmətimizdən daddırdıqda ona sevinir. Onlara öz əlləri ilə etdikləri əməllərin ucbatından bir bədbəxtlik üz verdikdə isə (nankorluq edir.) İnsan çox nankordur.

49. Göylərin və yerin hökmranlığı Allaha məxsusdur. O, istədiyini yaradır; istədiyinə qız uşağı, istədiyinə oğlan uşağı bəxş edir.

50. Yaxud (da istəsə,) onlara hər ikisini - oğlan və qızı birlikdə verir, istədiyini də sonsuz edir. Çünki o, biləndir, qadirdir.

51. Allah insanla ancaq vəhylə və ya pərdə arxasından danışır, yaxud bir elçi göndərir və o da Allahın izni ilə Onun istədiyini vəhy edir. Çünki O, ucadır, hikmət sahibidir.

---

51. Vəhy ən mühüm bilik mənbəyidir: "Vəhy" sürətli işarə, sirli danışıq, məktub və ya işarələr vasitəsilə məxfi ismarışlar göndərilməsinə deyilir. Allahın Peyğəmbərə (s) təlqin etdiyi təlimlər sirli şəkildə baş verdiyi üçün həmin əlaqə vəhy adlanmışdır. Quranda bu bilik mənbəyindən çox ayələrdə bəhs edilir.[1951] Təkcə Quran deyil, bütün səmavi kitablarda bu mənbə əsas vasitə kimi təqdim edilmişdir. Ümumiyyətlə, səmavi dinlərin davamçıları vəhyi Allahın sonsuz elmindən qaynaqlanan ən mühüm bilik mənbəyi hesab edirlər. Halbuki digər məşhur mənbələr insanların özlərinə aiddir. Buna görə də vəhylə müqayisədə məhdud və kiçikdirlər. Əgər ağıl, fitrət, vicdan və təcrübəmizi güclü işıqlandırıcılara bənzətsək, vəhy bütün dünyanı işıqlandıran günəşə bənzəyir, onun işıqlandırdığı miqyas çox-çox böyükdür. Buna görə də Allahpəsətlərə görə vəhy ən mühüm və ən zəngin bilik mənbəyidir. Bu ayədə peyğəmbərlərlə Allah arasında mövcud olan üç əlaqə formasına işarə edilmişdir. Ayədə buyurulur ki, Allah-taala cism olmadığı üçün heç bir insan onunla qarşılaşa bilməz. İnsan Allahla yalnız üç vasitə ilə əlaqə yarada bilər: 1. Vəhy vasitəsilə. Nəzərə almaq lazımdır ki, burada "vəhy" deyilərkən onun mütləq və qeyd-şərtsiz mənası nəzərdə tutulmur. Çünki ayədə vəhyin ayrı-ayrı növləri olduğu bildirilir. Onlardan yalnız biri ilahi vəhy hesab edilir. İlahi vəhy deyilərkən isə Allahla peyğəmbər arasında heç bir vasitə olmadan baş verən gizli danışıq nəzərdə tutulur. 2. Pərdə arxasından. Bu vəhy forması vasitəli vəhy adlanır. Ayədə

[1951] Quranın ismarışı, c.1, səh.216

həmin vasitə pərdə adlandırılmışdır. Əlbəttə, vəhy edən pərdə deyil, pərdə sadəcə, bir vasitədir və Allah tərəfindən peyğəmbərə gələn vəhy həmin vasitə arxasından çatdırlır. Buna Allah-taalanın Tur dağında Musa (ə) ilə danışmasını misal göstərə bilərik. Belə ki, "Qəsəs" surəsinin 30-cu ayəsində belə buyurulur: ***"Odun yanına gəlib çatdıqda vadinin sağ tərəfində olan mübarək (bərəkətli) yerdəki ağacdan nida gəldi..."*** Habelə peyğəmbərlərə yuxu vasitəsilə edilən vəhyləri də buna misal göstərə bilərik. 3. Elçi vasitəsilə. Bu elçi Allahın əmrini peyğəmbərə nazil edən vəhy mələyidir. "Şüəra" surəsinin 193-cü və 194-cü ayələrində belə buyurulur: "***Ruhul-əmin onu sənin pak qəlbinə nazil edib"*** Bir qrup səhabəsi İmam Sadiqdən soruşur: "Necə olur ki, Peyğəmbər (s) bəzən deyir ki, Cəbrayıl belə dedi, mənə fərman gətirən Cəbrayıldır, bəzən isə vəhy gələn vaxt isə heyrətlənir?" İmam (ə) buyurur: ***"Bu ona görədir ki, vəhy birbaşa Allah tərəfindən nazil olanda, Cəbrayıl vasitəçi olmur. Bu zaman Peyğəmbər (s) vəhyin ağırlığından halsızlaşır. Ancaq vəhyi Cəbrayıl gətirəndə Peyğəmbər bu hala düşmür, "Cəbrayıl mənə dedi, bu, Cəbrayıldır", - deyə buyurur."*** Başqa bir hədisində İmam Sadiq (ə) belə buyurur: ***"Cəbrayıl Peyğəmbərin (s) yanına gələndə qarşısında kölələr kimi əyləşir, o icazə vermədən yanına gəlmir."*** Hər halda, çoxsaylı hədislər vəhyin Peyğəmbərə (s) bu üç vasitə ilə (vasitəsiz, vasitə və pərdə arxasından və vəhy mələyi vasitəsilə) nazil olduğunu göstərir.[1952]

[1952] Əl-Mizan, c.18, səh.74

52. Həmin qaydada (əvvəlki peyğəmbərlərə vəhy göndərdiyimiz kimi) biz sənə ruhu öz əmrimizlə vəhy etdik. Sən bundan öncə kitab nədir, iman nədir bilmirdin. Lakin biz onu, qullarımızdan istədiyimizi doğru yola yönəltmək üçün, bir nur etdik. Sən həqiqətən, doğru yola yönəldirsən –

53. göylərdə və yerdəkilərin sahibi olan Allahın yoluna. Bil ki, bütün işlər yalnız Allaha qayıdır.

"Zuxruf" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ha, Mim!

2. Aydınlaşdıran Kitaba and olsun!

3. Biz onu ərəbcə və fəsih bir Quran etdik ki, bəlkə siz dərk edəsiniz.

4. O, yanımızdakı "Ana kitabda" (Lövhi-məhfuzda) ucadır, möhkəmdir.

5. Siz həddi aşan adamlar olduğunuza görə, biz bu zikri sizə çatdırmaqdan imtina etməliyik?

6. Əvvəlki ümmətlərə də neçə-neçə peyğəmbərlər göndərdik.

7. Ancaq onlara elə bir peyğəmbər gəlmədi ki, onu məsxərəyə qoymasınlar.

8. Biz onlardan daha qüvvətli olanları məhv etdik. Əvvəlkilərin əhvalatına son qoyuldu.

9. Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?" – deyə soruşsan, mütləq, deyəcəklər: "Onları qüdrətli və bilən Allah yaratmışdır!" –

10. Yeri sizin üçün rahatlıq məkanı edən və orada sizin üçün yollar salan varlıq. Bəlkə düz yola yönələsiniz.

---

52. İlahi vəhy: Bənzər cümlə "Ğafir" surəsinin 15-ci ayəsində də mövcuddur. Daha ətraflı məlumat üçün həmin ayəyə baxa bilərsiniz.

52. Sən bundan öncə kitab nədir, iman nədir bilmirdin: Bəzi dar düşüncəlilər bu cümləyə əsaslanaraq Peyğəmbərin (s) peyğəmbərliyə

seçilməzdən əvvəl Allaha iman gətirmədiyini iddia edirlər. Halbuki ayənin mənası açıq-aydındır: ayədə Quran nazil olmazdan əvvəl sən Quranı bilmir, onun məzmun və təlimatlarından xəbərsiz idin, onlara imanın yox idi. Bu ifadə Peyğəmbərin (s) tövhid inancı, yüksək biliyi, bəndəlik prinsipləri ilə tanışlığı ilə əsla təzad təşkil etmir. Quranın məzmunundan xəbərsiz olmaq bir şey, Allahı tanımamaq, bu haqda bilgiyə malik olmamaq başqa bir şeydir. Peyğəmbərin (s) bu vəzifəyə seçilməzdən əvvəlki həyatından bəhs edən tarix kitabları da bu mənanı təsdiq edir. İmam Əli (ə) isə bu həqiqəti daha aydın şəkildə ifadə etmişdir: ***"Allahın elçisi süddən ayrıldığı vaxtdan Allah onun alicənab, gözəl əxlaqi keyfiyyətlərə sahib olaraq böyüməsi üçün ən böyük mələyini gecə-gündüz ona yoldaş etdi."***[1953] Eyni mənaya "Zuha" surəsinin 7-ci ayəsində də işarə edilmişdir: ***"Səni itmiş tapıb yönləndirdi"***. Bu ayədə də "dall" sözünün mənası yolunu azmış deyil, peyğəmbərlik və Quranın məzmunundan xəbərsizlikdir.[1954]

"Zuxruf" surəsinin ümumi məzmunu: Bu surə ümumilikdə yeddi hissədən ibarətdir: 1. Quranın və Peyğəmbərin (s) peyğəmbərliyinin əhəmiyyəti, nadanların onunla davranışı; 2. Ətraf aləmdə mövcud olan tövhid nişanələri və Allahın insanlara bəxş etdiyi nemətlərin bir qisminin qeyd edilməsi; 3. Şirklə mübarizə Allah haqqında işlədilən xoşagəlməz sözlər və korkoranə təqlidlə mübarizə; 4. Keçmiş peyğəmbərlər, o cümlədən İbrahim (ə), Musa (ə) və İsanın (ə) qövmlərinin tarixindən fraqmentlər; 5. Qayıdış, möminlərin mükafatı və kafirlərin acı taleyi; 6. İmansız düşüncələrə hakim olan yanlış dəyərlər; 7. Surədə qeyd edilən bu bölmələri

[1953] Nümunə, c.20, səh.505
[1954] Nümunə, c.27, səh.103

təkmilləşdirmək və təsirlərini daha da artırmaq üçün dərin məzmunlu nəsihətlər.[1955]

10. Yol neməti: Quranda dəfələrlə xatırlanan bu nemət çoxlarının diqqətindən kənarda qalan nemətlərdəndir. Yer kürəsinin quru sahəsini başdan-başa qırışlar, böyük və kiçik dağlar, təpəliklər əhatə etdiyini bilirik. Dünyanın ən böyük dağ silsilələri arasında kəsiklər mövcuddur. İnsan yolunu həmin kəsiklər arasından tapır. Dağların yer kürəsinin ayrı-ayrı hissələri arasında fasilə salmasına az təsadüf edilir. Bu, Allahın yaranış sisteminin sirlərindən və insanlara bəxş etdiyi böyük nemətlərdən biridir. Bundan başqa, yer kürəsinin bir çox hissələri arasındakı əlaqələr dəniz yolları vasitəsilə gerçəkləşir. Ayənin məzmunu bu mənanı da ehtiva edir.[1956]

[1955] Nümunə, c.21, səh.3
[1956] Nümunə, c.21, səh.17

11. O, göydən müəyyən miqdarda su endirdi. Onun vasitəsilə ölü bir diyara həyat bəxş etdik. Sizi də beləcə çıxaracaq.

12. O, bütün cütləri yaratdı. Mindiyiniz gəmiləri və heyvanları yaratdı ki,

13. onların belində yaxşı qərarlaşasınız. Sonra onlara mindiyiniz zaman Rəbbinizin nemətini xatırlayıb deyəsiniz: “Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir. Yoxsa bizim onu ram etməyə gücümüz çatmazdı.

14. Biz Rəbbimizə doğru qayıdacağıq”.

15. Onlar qullarından bəzisini Allahın bir hissəsi hesab etdilər (Mələkləri Allahın qızları adlandırdılar). İnsan açıq-aydın nankordur.

16. Yoxsa yaratdıqlarından qızları Özünə götürüb oğlanları sizin üçün seçmişdir?

17. Halbuki onlardan birinə, mərhəmətli Allaha aid etdikləri ilə müjdə versələr (sənin qızın olub müjdəsi versələr), üzü qapqara qaralar, qəzəblənər.

18. Zinətlər, bəzək-düzək içində böyüyən və mübahisə zamanı məqsədini aydın ifadə edə bilməyənimi (Allahın qızı hesab edirlər)?

19. Onlar mərhəmətli Allahın qulları olan mələkləri qadın hesab etdilər. Məgər onların yaradılışının şahidi olublar? Onların şahidliyi yazılır və buna görə cavab verməli olacaqlar.

20. Onlar dedilər: "Əgər mərhəmətli Allah istəsəydi, biz onlara ibadət etməzdik!" Onların bu barədə heç bir bilik və əminliyi yoxdur. Onlar ancaq yalan danışarlar.

21. Bəlkə onlara bundan əvvəl kitab vermişik və onlar da ona istinad edirlər?

22. Xeyr! Onlar: "Biz atalarımızı bu dində gördük və biz də onlara tabe olaraq düz yola yönəlmişik!" – deyirlər.

---

13. Nemətlərdən istifadə edərkən Allahı xatırlamaq: Bu ayədə dəniz və quru nəqliyyatının yaradılışının qeyd edilməsinin iki məqsədə xitmət etdiyi buyurulmuşdur: birincisi, onlara minərkən Allahın nemətlərini xatırlamaq, ikincisi, bunları insana ram edən Allahı tərifləmək. İnsanlar Allahın yardımı ilə gəmiləri elə düzəldirlər ki, onlar dalğaları yara-yara məqsədə doğru irəliləyir. Allah heyvanları insanlara ram etmişdir. Əgər Allahın lütfü olmasaydı, insanlar bu minikləri saxlaya bilməzdilər. Əks küləklər davamlı olaraq gəmiləri çevirər və biz sahilə çıxıb xilas ola bilməzdik. Əgər fiziki cəhətdən insandan qat-qat güclü olan heyvanlara itaətkarlıq ruhu hakim olmasaydı, insanlar hətta onların yaxınına belə gedə bilməzdilər. Belə ki, bəzən onların qəzəbləndiyinin, itaətkar ruhlarının hökmündən çıxdığının, hətta bir neçə nəfərin qarşısını ala bilmədiyi təhlükəli varlıqlara çevrildiyinin şahidi oluruq. Halbuki adi vəziyyətdə bir

insan yüzlərlə baş heyvanı cilovlaya, cilovu istənilən uşağa verə və uşaq onların cilovundan dartıb istədiyi yerə yönləndirə bilir. Quran ayələrində diqqət çəkən maraqlı nüanslardan biri Allahın bəxş etdiyi nemətlərdən istifadə edərkən oxuması üçün insana bəzi dualar öyrədilməsidir. Bu dualar insan ruhunun tərbiyəsində, qürur və qəflətdən xilas olmasında rol oynayır. Ayədə insanlara göstəriş verirlir ki, miniklərə minərkən Allahın nemətlərinə şükür edib ona tərifl ər desinlər. İnsan hər bir nemətdən istifadə edərkən həqiqi nemət sahibini xatırlamağa adət edərsə, nə qəflət qaranlığına qərq olar, nə də təkəbbür uçurumuna yuvarlanar, əksinə, maddi nemət onunla Allah arasında körpü rolunu oynayar. Peyğəmbər (s) hər dəfə miniyinə minmək üçün ayağını üzəngiyə qoyarkən "Bismillah", mindikdən sonra isə "Bütün hallarda həmd Allaha məxsusdur. "Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir. Yoxsa bizim onu ram etməyə gücümüz çatmazdı. Biz Rəbbimizə doğru qayıdacağıq", - deyə buyurarmış. Bəzi hədislərdə qeyd edilir ki, miniyinə minərkən bu ayəni kim oxuyarsa, Allahın əmri ilə onun atına heç bir at çata bilməz. Allahın tərbiyəvi təlimləri ilə öz miniklərini fəxr, qürur, özlərini göstərmək, bəzən günah vasitəsi kimi istifadə edən təkəbbürlü və nəfsani istəklərinə qul olan insanların düşüncələri çox fərqlidir.[1957]

15-19. Nə üçün mələkləri Allahın qızları adlandırırdılar? Bu ayədə mələkləri Allahın qızları və özlərinin məbudları hesab edən müşriklərin cahil inanclarına işarə edilmişdir. Bu xurafatın cahil ərəblər arasında nə üçün meydana gəlməsi və nə üçün onun çöküntülərinin indi də bəzilərinin təfəkküründə qalması, mələklərin qadın və qız şəklində təsvir edilməsi, "Azad mələk"- in uzun saçlı qadın simasında təcəssüm etdirilməsi ilə bağlı

[1957] Nümunə, c.21, səh.21

onu deyə bilərik ki, bu fikir ola bilsin ki, mələklərin adətən, qapalı yaşayan qadınlar kimi gözə görünməməsindən qaynaqlanır. Ərəb dilində bu təfəkkür tərzinin bir sıra nümunəsi var. Belə ki, günəş diski adətən, öz şüaları ilə örtüldüyü üçün ona baxmaq elə də asan deyil. Ancaq ay belə deyil. Buna görə də ərəb dilində günəş məcazi olaraq qadın cinsində, ay isə kişi cinsində işlədilir. Ola bilısin ki, mələklər qadınlara zərif varlıqlar olduqları üçün bənzədilmişdir. İslamın bu təfəkkür tərzinə qarşı bu qədər mübarizə aparmasına baxmayaraq, bu gün də qadınları vəsf edərkən onlara mələk deyilir. Halbuki kişilər haqqında bu ifadə düzgün sayılmır.[1958]

[1958] Nümunə, c.21, səh.26

23. Biz səndən əvvəl hansı bir şəhərə qorxudan peyğəmbər göndərdiksə, onun məst və təkəbbürlü dövlətliləri: “Biz atalarımızı bir dində gördük və onların ənənlərinə də tabe olacağıq!” – dedilər.

24. (Peyğəmbərləri) dedi: “Əgər sizə atalarınızın dinindən daha doğrusunu gətirsəm necə?” Onlar dedilər: “Biz sizinlə göndəriləni inkar edirik”.

25. Buna görə də onlardan intiqam aldıq. Bax gör haqqı yalan sayanların aqibəti necə oldu.

26. Bir zaman İbrahim atasına (əmisi Azərə) və qövmünə demişdi: “Mən sizin ibadət etdiklərinizdən uzağam.

27. Yalnız məni yaradandan başqa! O məni doğru yola yönəldəcəkdir”.

28. O tövhid kəlməsini özündən sonrakı nəsilər arasında daimi qalacaq bir kəlmə etdi ki, bəlkə Allaha doğru qayıtsınlar.

29. Haqq və aşkar bir elçi gələnədək Mən bunlardan da, atalarından da dünya nemətlərini əsirgəmədim.

30. Onlara haqq gəldikdə isə: “Bu, sehrdir, biz ondan imtina edirik!” – dedilər.

31. Onlar dedilər: “Nə üçün bu Quran iki şəhərdən (Məkkədən və ya Taifdən) olan böyük (və varlı) bir adama nazil edilmədi?”

32. Onlar sənin Rəbbinin mərhəmətinimi təsnif edirlər? Biz dünya həyatında onların dolanışıqlarını aralarında bölüşdürdük. Biri digərini öz yanına işçi götürsün (qarşılıqlı yardımlaşsınlar) deyə, bəzilərinin dərəcələrini

digərlərindən üstün etdik. Rəbbinin mərhəməti onların bütün topladıqlarından xeyirlidir.

33. Əgər (kafirlərin maddi imkanları) insanların (azğınlıqda) vahid bir ümmətə çevrilməsinə səbəb olmasaydı, mərhəmətli (Allahı) inkar edənlərin evlərinin tavanlarını və çıxdıqları nərdivanları da gümüşdən edərdik;

---

31. Nə üçün Quran dövlətlilərdən birinə nazil olmayıb? Ayədə müşriklərin əsassız bəhanələrindən birinə işarə edilərək buyurulur: Onlar - nə üçün bu Quran Məkkə və Taif şəhərlərindən olan görkəmli və dövlətli bir kişiyə gəlmədi? – deyə etiraz etdilər. Əlbəttə, bir cəhətdən onların belə bir bəhanəyə əl atmasını başa düşmək olardı. Çünki bu insanların dünyagörüşünə görə insanın dəyər meyarı sərvət, var-dövlət, zahiri mövqe, şöhrət idi. Onlar qəbilənin varlı adamlarının və zalım qocalarının Allah dərgahına ən yaxın adamlar olduğunu düşünürdülər. Buna görə də Allahın böyük nemətinin – peyğəmbərlik missiyasının bu cür insanlardan birinə deyil, əksinə Muhəmməd adlı yetim, yoxsul və kasıb bir adama nazil edilməsinə təəccüblənirdilər. Təbii ki, yanlış dəyərlərin hökm sürdüyü bir sistemdə belə bir qənaətə gəlmək normaldır. Təkcə o dövrdə deyil, bütün dövrlərdə insanların təfəkkür tərzlərindəki yanlışlığın əsas səbəblərindən biri məhz bəzən həqiqətləri tamamilə tərsinə göstərən yanlış dəyər sistemidir. Allahın dəvət missiyasını bütün varlığı təqva ruhu ilə dolmuş, ayıq, iradəli, əzmkar, qərarlı, cəsur, şücaətli, ədalətli, məhrum və məzlum insanların halından xəbərdar olan bir şəxs yerinə yetirməlidir. Səmavi missiyanı daşımaq üçün lazım olan həqiqi dəyərlər gözəl geyimlər, bahalı, təmtəraqlı qəsrlər, bəzək-düzək əşyaları deyil, məhz yuxarıda sadaladıqlarımızdır.

Həqiqi dəyərlərlə yalançı dəyərlər səhv salınmasın deyə, peyğəmbərlərin heç biri yalançı dəyərlərə sahib olmamışlar.[1959]

32. Quran bir insanın başqa bir insan tərəfindən işlədilməsini qəbul edirmi? Sualın cavabı ayənin məzmununa diqqət yetirdikdə aydın olur. Bəzi adamlar hesab edirlər ki, bir qrup insan başqa bir qrupu zor gücünə işlədə bilər. Əslində, məsələ heç də qeyd edildiyi kimi deyil. Ayədə insanların ümumilikdə bir-birindən istifadə edə biləçəklərindən danışılır. Hər bir insan özünəməxsus imkan, istedad, potensial və hazırlığa malikdir. İnsan yalnız malik olduğu potensial üzrə fəaliyyət göstərə bilir. Nəticədə, fəaliyyət göstərdiyi sahədəki xidmətlərini başqalarının, eyni zamanda qarşı tərəflər də öz xidmətlərini onun ixtiyarına verirlər. Bu da qarşılıqlı xidmət təklifi, ikitərəfli və çoxtərəfli fəaliyyət, qarşılıqlı yardımlaşma adlanır. Belə ki, əgər bütün insanlar mənəvi və fiziki cəhətdən eyni imkanlara malik olsaydılar, sosial sistem yaranmazdı. Bu qaydanı hüceyrələr haqqında da söyləyə bilərik. Əgər insan bədəninin hüceyələri quruluş, incəlik və müqavimət baxımından eyni olsaydılar, insanın fiziki sistemi məhv olardı. Məsələn, ayağın daban sümüyünün çox möhkəm hüceyrələri ilə göz şəbəkəsinin zərif hüceyrələri çox fərqlidir. Bu hüceyrələrin hər biri təyinatları üzrə fəaliyyət göstərir. Ədalətin mənası hər bir şeyin eyni olması, eyni şəraitə malik olması deyil, hər bir şeyin özünə münasib olan yerində olmasıdır. Bəzən insanlar şüar verərkən fərqinə varmadan bərabərlik sözündən istifadə edirlər, ancaq məlumdur ki, əməl mərhələsində fərqləri nəzərə almadan sistem, nizam-intizam yaratmaq qeyri-mümkündür. Əlbəttə, bu fərqlilik bir insanın başqa bir insan tərəfindən istismar edilməsinə bəhanə olmamalıdır. Öz yaradıcı qüvvələrindən isitfadə etməsi, istedadlarını çiçəkləndirməsi, fəaliyyətlərinin

[1959] Nümunə, c.21, səh.47

nəticələrindən bəhrələnməsi, güc və qüdrəti olanların çatışmazlıqların aradan qaldırılmasına çalışması üçün hər kəsin azad olmadılır.[1960]

34. evlərinin qapılarını və söykəndikləri taxtları da.

[1960] Nümunə, c.21, səh.51

35. Növbənöv zinətlər də (verərdik). Bütün bunlar sadəcə, dünya həyatının zövqüdür. Axirət isə Rəbbinin yanında ancaq təqvalılara məxsusdur.

36. Kim Allahı xatırlamaqdan üz döndərsə, Biz şeytanı ona calayarıq və o da hər zaman ona yaxın olar.

37. Şeytanlar onları haqq yoldan sapdıracaq, halbuki onlar özlərinin əsl haqq yolda olduqlarını güman edəcəklər.

38. Nəhayət, o, hüzurumuza gəldikdə (yoldaşına) deyəcək: "Kaş, mənimlə sənin aranda günçıxanla günbatanın arası qədər məsafə olaydı. Sən nə pis yoldaş imişsən!"

39. (Ancaq onlara deyəcəyik:) "Siz haqsızlıq etdiyinizə görə bu gün bu danışıqların sizə heç bir faydası yoxdur. Hamınız əzabda ortaqsınız!"

40. Sən sözlərini karlara eşitdirə və ya korları və aşkar azğınlıq içində olanları doğru yola yönəldə bilərsənmi?

41. Əgər səni onların arasından alıb aparsaq, onlardan mütləq, intiqam alacağıq.

42. Əgər (sağ qalsan və) onlara vəd etdiyimizi sənə göstərsək, Biz onlar üzərində hökmranıq.

43. Odur ki, sənə vəhy olunandan möhkəm yapış, çünki sən düz yoldasan.

44. Bu (Quran) sən və sənin xalqın üçün bir xatırladıcı vasitədir. Tezliklə sorğu-sual olunacaqsınız.

45. Səndən əvvəl göndərdiyimiz elçilərdən soruş: Biz mərhəmətli Allahdan başqa ibadət üçün məbudlarmı təyin etdik?

46. Biz Musanı öz ayələrimizlə Firon və onun əyanlarının yanına göndərdik. (Musa onlara) dedi: "Mən aləmlərin Rəbbinin elçisiyəm!"

47. Ayələrimizi onlara gətirəndə onlara gülürdülər.

33-35. Yanlış dəyərlərin darmadağın edilməsi: Doğrusu, yalançı dəyərlərin darmadağın edilməsi üçün bu ayələrdə qeyd ediləndən daha məzmunlu ifadə tapılmaz. Şəxsiyyətin dəvələrin sayı, dinar və dirhəmin miqdarı, nökər və kənizlərin sayı, evlər və onların əşyaları ilə ölçüldüyü, yetim və maddi cəhətdən yoxsul olan Muhəmmədin peyğəmbər seçilməsinin təəccüblə qarşılandığı bir cəmiyyəti dəyişmək üçün bu yanlış dəyər kompleksi darmadağın edilməli, yerində təqva, elm, fədakarlıq, şücaət və mərhəmət kimi əsl insani dəyərlərin inşa edilməsi ən vacib məsələdir. Əks təqdirdə, bütün islahat tədbirləri səthi, davamsız və əsassız olacaqdır. İslam, Quran və Peyğəmbərin (s) ən üstün şəkildə həyata keçirmək istədikləri də bu olmuşdur. Buna görə də tamamilə geridə qalmış, insan cəmiyyətinin ən çox xurafata uğramış bir hissəsi qısa zaman ərzində ilk sırada qərarlaşacaq qədər inkişaf etmişdir. Peyğəmbərin (s) bu proqramla bağlı buyurduğu bir hədisdə belə deyilir: ***"Əgər Allah yanında dünyanın milçəyin qanadı qədər çəkisi olsaydı, Allah kafirə bir qurtum belə su içirtməzdi."***[1961]

36-38. Şeytanın yoldaşı: Bu ayələrə əsasən Allahı unutmaq, onu xatırlamamaq, dünya ləzzətləri içində qərq olmaq, dünyanın bər-bəzəyinə aldanmaq şeytanın insanı istila etməsinə, hər zaman yanında olmasına səbəb olur. Kimsə bu ayədə məcburiyyət olduğunu iddia edə bilməz. Çünki bütün bunlar insanın öz etdiyi əməlləri nəticəsində baş verir. İnsanın etdiyi əməllər, xüsusilə dünya ləzzətlərinə və müxtəlif günahlara aludə olmaq ilk olaraq insanın qəlbinə və qulağına möhür vurulması, gözünə pərdə asılması, insanın Allahdan uzaqlaşması, şeytanların insanları istila etməsi, hətta qayıdış yolunun tamamilə bağlanması ilə nəticələnir. Deməli, şeytanlar və

[1961] Nümunə, c.21, səh.57

şeytan düşüncələrinin insanı hər tərəfdən mühasirəyə almasının səbəbi insanın öz əməlləridir.[1962] Şeytanların mühasirəsi artıq insanın düz yolla yanlış yol arasında fərq qoymamasına, Allah yolundan azdığı halda, özünün haqq yolda olduğunu düşünməsinə səbəb olur. Ümumiyyətlə, insan fitri olaraq haqq və həqiqətə meyilli olur, həqiqəti və doğrunu bilmək istəyir. Əgər həqiqət insana təqdim və təklif edilsə, o da nəfsinin istəklərinə tabe olduğu üçün həqiqətdən üz çevirsə, həyatına eyni qaydada davam etsə, Allah onun qəlbinə möhür vurar, haqqı görən gözünü kor edər, şeytanları ona yoldaş edər. Artıq bu cür insan həqiqət dərkini itirər, hər bir pak fitrətin qəbul etdiyi həqiqəti şeytanın təlqin etdiyi yanlışa tətbiq edər və yanlış yolda olduğu halda, haqlı və doğru yolda olduğunu güman edər, haqq yoldan sapdığı halda, haqq yolla irəlilədiyini düşünər.[1963] İmam Əli (ə) belə buyurub: ***"Haqq yoldan sapmışlar Şeytanı fəaliyyət meyari seçdilər, Şeytan da onları özünə ortaq etdi, kökslərinə yumurta yığıb cücə çıxardı, ətəkləri üzərində yeridi, gözləri ilə baxdı, dilləri ilə danışdı, onları yanlış yola saldı, çirkinlikləri gözlərinə gözəl göstərdi, sanki danışıqlarının sahibinə çevrildi."***[1964]

[1962] Nümunə, c.21, səh.64
[1963] Əl-Mizan, c.18, səh.103
[1964] Nəhcül-bəlağə, 7-ci xütbə

48. Bizim onlara göstərdiyimiz hər bir nişanə (və möcüzə) digərindən daha böyük idi. Onları əzaba düçar etdik ki, bəlkə, (doğru yola) qayıdalar.

49. Onlar (əzaba düçar olduqdan sonra): “Ey sehrbaz! Rəbbini sənin-lə olan əhdinə vəfa etməyə çağır, biz doğru yola yönələcəyik” – dedilər.

50. Ancaq biz əzabı onlardan uzaqlaşdıran kimi, sözlərindən dönürdülər.

51. Firon qövmünü səsləyib dedi: “Ey xalqım! Misir səltənəti mənim deyilmi? Bu çaylar mənim əmrimlə axmırmı? Məgər görmürsünüzmü?

52. Məgər mən bu aşağı sinifdən və ailədən olan, hətta aydın danışa bilməyən adamdan daha üstün deyiləmmi?

53. Nə üçün ona qızıl bilərziklər verilməyib və onunla birlikdə bir-birinin ardınca mələklər gəlməyib?”

54. (Firon) öz xalqını axmaq yerinə qoydu, onlar da ona itaət etdilər. Onlar fasiq xalq idi.

55. Bizi qəzəbləndirdikləri vaxt onlardan intiqam alıb hamısını (dənizdə) batırdıq.

56. Biz onları gələcək nəsilər üçün (əzaba məhkum olmuş) sələflərə və bir ibrətə çevirdik.

57. Məryəm oğlu örnək göstərilincə sənin xalqın sevinərək güldü.

58. Dedilər: "Bizim məbudlarımız yaxşıdır, yoxsa o?" (Əgər bizim tanrılarımız Cəhənnəmdədirsə, İsa da Cəhənnəmdədir. Çünki o da tanrı hesab edilib.) Onlar bu bənzətməni sənə yalnız höcət etmək üçün dedilər. Doğrusu, onlar kinli və höcətləşən adamlardır.

59. İsa yalnız və yalnız Bizim nemət verdiyimiz və İsrail oğullarına nümunə təyin etdiyimiz bir bəndədir.

60. Əgər istəsəydik, sizin əvəzinizə yer üzündə sizi əvəz edəcək mələklər yaradardıq.

---

49. Həm sehrbaz adlandırdılar, həm də yardım istədilər: Bu ayənin maraqlı məzmunu var: Firon tərəfdarları Musanı (ə) həm sehrbaz deyə çağırır, həm bəladan xilas olmaq üçün ondan yardım istəyirlər, həm də haqq yola yönələcəklərini vəd verirlər. Əlbəttə, özündən razı cahillərin, lovğa təkəbbürlülərin, despot təcavüzkraların təfəkkür və danışıq tərzindən xəbərdar olan insanlar bilirlər ki, onların danışıqları bu cür təzadlar və paradokslarla doludur. Onlar Musaya (ə) möhtac olduqlarını bildikləri halda, ona yalan vədlər verirlər, hətta çarəsiz qaldıqları, yardım dilədikləri halda da təkəbbürlərindən əl çəkmirlər; "bizim Rəbbimiz", "bizimlə olan əhdinə" demək əvəzinə "sənin Rəbbin", "Sənlə olan əhdinə" deyirlər. Halbuki

Musa (ə) onlarla danışarkən “Mən öz Rəbbim tərəfindən” deyil, “Mən aləmlərin Rəbbi tərəfindən göndərilmişəm” deyir. Bunlar müxaliflərin inadkarlıqlarından usanmamaları, ümidsizlik və məyusluq dəryasına qərq olmamaları, Musa (ə) və İsrail oğlları öz yollarına davam edib Firon tərəfdarları üzərində qələbə çaldıqları kimi, əzmkarlıq və mətanət göstərib öz yollarına davam etmələri üçün müsləmanlara bir dərs, Peyğəmbərə (s) isə təsəllidir. Bundan əlavə, Firon və tərəfdarlarından heç də güclü və qüdrətli olmayan inadkar düşmənlərə bir xəbərdarlıqdır; onlara baxıb öz aqibətlərini düşünsünlər.[1965]

54. Fikir və düşüncələri istila etmək bütün cinayətkar hökumətlərin metodudur: İnsanları aşağı düşüncə səviyyəsində saxlamaq, fikirlərini boğmaq, müxtəlif vasitələrlə onları axmaq yerinə qoymaq, davamlı olaraq həqiqətlərdən, gerçəklərdən xəbərsiz qoymaq, yalançı dəyərləri həqiqi dəyərlər adına insanlara sırımaq zalım, despot və cinayətkar hökumətlərin öz diktatura və avtoritarlıqlarını davam etdirmələri üçün həyata keçirdikləri metoddur. Millətlərin oyaqlığı, ayıqlığı və azad təfəkkürü diktator hökumətlərin ən böyük düşməni olduğu üçün daim ona qarşı mübarizə aparırlar. Bu fironsayağı üsul, yəni ağılların gülünc vəziyyətə salınması, yüngülləşdirilməsi müasir dövrümüzdə də cinayətkar dövlətlərin tam qüvvəsi ilə həyata keçirdiyi bir metoddur. Bu məqsədə nail olmaq üçün Fironun əlində olan vasitələr məhdud idi, ancaq dövrümüzün təcavüzkarları, qəsbkarları, avtoritarları, diktatorları millətlərin tamamilə xəbərsiz qalıb müti olmasına nail olmaq üçün kütləvi informasiya vasitələrindən, mətbuatdan, radio, televiziya və sair vasitələrdən geniş şəkildə istifadə edirlər. Buna görə də peyğəmbərlərin məktəbini davam etdirən, onların fikir

[1965] Nümunə, c.21, səh.80

xəttində irəliləyən alimlər və din mütəfəkkirləri ağılların gülünc vəziyyətə salınmasına qarşı mübarizədə üzərlərinə ağır vəzifə götürürlər. Diqqət çəkən məqam ayənin ***"Onlar fasiq xalq idilər"*** cümləsi ilə bitir. Allah-taala bu cümlə ilə başa salmaq istəyir ki, Misir xalqı fasiq idi, Allahın itaətindən, ağlın hökmündən çıxmasaydı, bu cür təbliğatlara uymaz, öz əli ilə özünü azğınlığa məhkum etməzdi. Buna görə onlar bu azğınlıqlarına görə üzrlü sayılmırdılar. Düzdür ki, Firon onları aldadaraq özünə müti etmişdi, ancaq onlar da kor-koranə itaətkarlıqları ilə buna zəmin yaratmışdılar. Əslində bu xalq caniyə tabe olan bir cani idi.[1966]

[1966] Nümunə, c.21, səh.88

61. O (İsa) Qiyamət gününün bilinmə səbəbidir (İsanın enişi Qiyamətin yaxınlaşmasından xəbər verir). Ona əsla şəkk etməyin və Mənə tabe olun ki, düz yol budur!

62. Şeytan sizi (Allahın yolundan) döndərməsin. O sizin aşkar düşmənizdir.

63. İsa aydın dəlillər gətirib dedi: "Mən sizə hikmət gətirmişəm və barəsində ixtilafa düşdüyünüz bəzi şeyləri izah etməyə gəlmişəm. Təqvalı olun və mənə itaət edin!

64. Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. (Təkcə) Ona ibadət edin ki, düz yol budur!"

65. Bəzi firqələr arasında (İsa ilə bağlı) fikir ayrılığı yarandı (bəziləri ona tanrı dedi). Ağrılı-acılı bir günün əzabından vay zalımların halına!

66. Onlar özləri də hiss etmədən Qiyamətin qəfildən onlara gəlməsindən başqa bir şeymi gözləyirlər?

67. O gün müttəqilərdən başqa (bütün) dostlar bir-birinə düşmən kəsiləcəklər.

68. Ey bəndələrim! Həmin gün sizə qorxu yoxdur və siz heç kədərlənməyəcəksiniz də.

69. Siz ayələrimizə iman gətirib müsəlman olmusunuz.

70. Siz də, zövcələriniz də hədsiz sevinclə Cənnətə daxil olun!

71. Onların dövrəsinə qızıl qablar və piyalələr dolandırılacaqdır. Orada ürəklərin istədiyi və gözlərə xoş gələn hər şey olacaqdır. Siz orada əbədi qalacaqsınız.

72. Bu, etdiyiniz əməllərə görə varis olduğunuz Cənnətdir.

73. Orada sizin üçün bol-bol meyvələr vardır, onlardan yeyəcəksiniz.

---

61. İsa (ə) Qiyamətin əlamətidir: Bu ayənin təfsiri ilə bağlı iki ehtimal mövcuddur: 1. İsanın (ə) dünyaya atasız gəlməsi Allahın sonzus qüdrətindən xəbər verir. Öldükdən sonra dirilmə bu qüdrət sayəsində baş verir; 2. Hədislərdə İsanın (ə) axır-zamanda göydən enəcəyi qeyd edilmişdir. Bu isə Qiyamətin yaxınlaşmasından xəbər verəcək. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Həzrət İsa enəcək, müsəlmanların əmiri (İmam Zaman (ə)) deyəcək: "Önə keçib namaz qıl". Həzrət İsa deyəcək: "Xeyr, siz önə keçib namaz qılın. Çünki siz bir-birinizin imam və əmirisiniz (Onların əmiri sizsiniz). Bu, Allahın bu ümmətə verdiyi dəyərdir, hörmətdir." (Sonra həzrət İsa (ə) həzrət Mehdiyə (ə) iqtida edəcək)."***[1967]

67. Dostların düşmənçiliyi: Qiyamətin bir xüsusiyyətinin təsvir edildiyi bu ayə əvvəlki ayədə də "saat" deyilərkən Qiyamət gününü nəzərdə tutulduğunu deməyə əsas verir. Həmin gün təqvalılar istisna olmaqla, bütün dostlar bir-birinə düşmən kəsiləcək. Həmin gün dostluqların düşmənçiliyə çevrilməsi təbii bir haldır. Çünki onlar bədbəxtliklərində bir-birlərini günahlandıracaqlar. Təkcə təqva sahibləri belə olmayacaq, əbədi dəyərlər ətrafında toplaşdıqları üçün onların dostluğu əbədi olacaq. Bu əbədi dostluğun bərəkətli nəticəsi Qiyamət günü daha çox aşkar olacaq, daha da möhkəmlənəcək. İmam Sadiq (ə) buyurmuşdur: ***"Bilin, bu dünyada Allaha xatir olmayan bütün dostluqlar düşmənçiliyə çevriləcək."***[1968] Başqa bir hədisində isə İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Dost axtararkən yerin***

[1967] Nümunə, c.21, səh.100
[1968] Nümunə, c.21, səh.110

zülmət qaranlıqlarında da olsa, bütün ömrünü axtarmağa da sərf etsən, Allahdan qorxanları tap. Çünki Allah yer üzündə peyğəmbərdən sonra onlardan yaxşısını yaratmamışdır. Allah-taala heç bir bəndəyə onlarla yoldaşlıq etməkdən yaxşı nemət bəxş etməmişdir. Allah-taala buyurub: "O gün müttəqilərdən başqa (bütün) dostlar bir-birinə düşmən kəsiləcəklər." Hesab edirəm ki, bu zamanda eyibsiz dost axtaran dostsuz qalacaqdır."[1969]

71. Cənnətdə bütün zövq və ləzzətlər var: Əgər bütün insanlar bir yerə toplaşıb Cənnət nemətlərini vəsf etmək istəsələr, bu cümlədə qeyd edilənlərdən artığını söyləməyə qüdrətləri çatmaz. Varlıq aləmi genişlikdə, təsəvvürümüzə gələ biləcək və ya bilməyəcək bir miqyasda gözəl və əhatəli bir ifadədir. Ondan üstün söz tapmaq mümkün deyil. Şairin poetik dili ilə desək: "Nə görərsənsə, ürəyin onu istəyər, ürəyin nə istəyərsə, onu da görərsən" (Müt: Hatif İsfahani). Bu ayəni təfsir edərkən təfsirçilər ortaya belə bir sual atmışlar: "Bu ayənin məna genişliyi və məzmun miqyası bu dünyada haram olan şeylərin o dünyada halal olacağını və istənildikdə veriləcəyini deməyə əsas verirmi?" Əslində, bu sualı irəli sürənlər haram və çirkinliklərin insan ruhu üçün iyrənc qidaya bənzədiyini, sağlam ruhun qətiyyən belə bir qida ismədiyini, yalnız xəstə ruhun münasib olmayan zəhərli qidaya meyl göstərdiyini nəzərdən qaçırıblar. Belə ki, bəzən elə xəstələrə rast gəlirik ki, xəstəlikləri baş qaldırdıqda torpaq və ya başqa şeylər yeyirlər. Amma xəstəlikləri ortadan qalxan kimi, bu saxta iştah kəsilir. Cənnət sakinlərinə gəldikdə, onlarda belə bir istək yaranmayacaq. Çünki bu cür istək və meyllər Cəhənnəmlik olan xəstə ruhlara məxsusdur. Bir nəfər ərəb Peyğəmbərdən (s) soruşur: Cənnətdə dəvə də olacaq? Çünki mən dəvəni həddən artıq çox sevirəm. Peyğəmbər (s) Cənnətdə ərəbə dəvəsini

---

[1969] Nurussəqəleyn, c.6, səh.444

unutduracaq nemətlərin olduğunu bildiyi üçün qısa və lakonik olaraq belə buyurur: ***"Ey ərəb, əgər Allah səni Cənnət daxil etsə, ürəyin istədiyi və gözünü oxşayan nə varsa, orada ona nail olacaqsan."***[1970]

74. Günahkarlar əbədi olaraq Cəhənnəm əzabı içində qalacaqlar.

75. Onların əzabı heç vaxt yüngülləşdirilməyəcək və orada hər şeydən məyus olacaqlar.

76. Biz onlara zülm etmədik, onlar özləri zalım idilər.

77. Onlar fəryad qoparıb deyəcəklər: "Ey Malik! Rəbbin bizi öldürsün!" O isə deyəcək: "Siz burada əbədi qalacaqsınız!"

78. Biz sizə haqqı gətirdik, ancaq çoxunuzun haqdan xoşu gəlmədi.

[1970] Nümunə, c.21, səh.115

79. Yoxsa onlar hiylə üçün qəti qərar qəbul etdilər? Bizim də qərarımız qətidir.

80. Yoxsa onlar Bizim onların sirlərini və gizli danışıqlarını eşitmədiyimizi düşünürlər? Xeyr! Yanlarında yazan elçilərimiz (və mələklərimiz) vardır.

81. De: "Əgər Allahın övladı olsaydı, ona ilk ibadət edən mən olardım.

82. Göylərin və yerin Rəbbi, Ərşin Rəbbi onların Ona aid etdikləri xüsusiyyətlərdən uzaqdır, təmizdir!"

83. Onları öz başlarına burax, qoy vəd olunduqları günə qovuşanadək batil əməllər içində qərq olsunlar və başları qarışsın.

84. Göydə də, yerdə də məbud Odur. O, hikmət sahibidir, biləndir.

85. Göylərin, yerin və onların arasında olan hər şeyin hakimi olan Allah mübarək və daimidir! Qiyamətin nə vaxt qopacağını O bilir və siz Onun hüzuruna qaytarılacaqsınız.

86. Onu qoyub çağırdıqları şəfaət verə bilməzlər. Yalnız haqqa şahidlik edənlər və bilənlər istisnadır.

87. Əgər onlardan onları kimin yaratdığını soruşsan, əlbəttə: "Allah!" – deyərlər. Bəs Ona bəndəlik etməkdən necə yayınırlar?

88. Onlar Peyğəmbərin: "Ey Rəbbim! Bunlar iman gətirməyən adamlardır!" – deyə etdiyi şikayətdən (necə xəbərsiz qalırlar?)

89. (İndi ki belədir) onlardan üz çevirib "Salam olsun sizə!" de. Onlar tezliklə biləcəklər.

---

81. Əgər Allahın övladı olsaydı, ona ilk ibadət edən mən olardım: Bəzi təfsirçilərə ayənin mənası çox mürəkkəb görünmüş, buna görə də ona

müxtəlif izahlar verməyə çalışmışlar. Bəzi izahlar isə çox qəribə görünür. Əslində, ayənin mənası heç də mürəkkəb deyil, Allah-taala inadkar insanlara qarşı maraqlı bir metoddan isitfadə etmişdir. Bunu aydın bir misalla belə izah edə bilərik: Bir adam səhvən kiminsə daha böyük alim və elmi olduğunu söyləyir. Həmin şəxs heç də söyləndiyi kimi olmadığı üçün belə cavab veririk: "Əgər o, hər kəsdən savadlı və elmli olsa, ona tabe olan birinci adam biz olarıq". Bununla da qarşı tərəfi düşünməyə, iddiasını sübut etmək üçün dəlil axtarmağa, həqiqət üzə çıxdıqdan sonra onu qəflət yuxusundan oyanmağa vadar edirik.[1971]

86. Kim şəfaətçi ola bilər? Bu ayələrdə şirkin yanlış olduğundan və müşriklərin həyatlarının acı sonluğundan söhbət açılır. Ayədə müşriklərə başa salınır ki, əgər onlar şəfaət niyyəti ilə öz tanrılarına üz tuturlarsa, bilsinlər ki, Allahı qoyub çağırdıqları heç bir tanrı şəfaət edə bilməz, Allah dərgahında şəfaət yalnız Onun öz izn və əmri ilə icazəlidir. Hikmət sahibi olan Allah ağlı, şüuru və dəyəri olmayan bu daş və ağaclara belə bir icazə verməmiş və verməyəcəkdir də. Ancaq məbudlar arasında mələklər və Allahın İsa (ə) kimi xüsusi bəndələri olduğu üçün ayənin davamında Allah istisna qoyaraq belə buyurmuşdur: "Yalnız haqqa şahidlik edənlər". Tövhid və Allahın təkliyini bütün dərəcələri ilə qəbul etmiş, Haqq qarşısında tam itaət göstərən şəxslər Allahın iznilə şəfaətçi ola bilərlər. Təbii ki, onlar da bütpərəst, müşrik və təkAllahlıq dinindən dönməsindən asılı olmayaraq, hər adam üçün şəfaətçi olmurlar. Onlar kimə şəfaətçi olacaqlarını yaxşı bilirlər. Bu ayə Allah dərgahında şəfaətçi olanların əsas şərtini təyin edir. Həmin şəxslər haqqa şahidlik edənlər, haqqın bütün mərhələlərindən xəbərdar olan,

[1971] Nümunə, c.21, səh.127

tövhid ruhundan yaxşı xəbəri olan, şəfaət olunanların şərtlərini də yaxşı bilənlərdir.[1972]

89. Ayədə "salam" deyilərkən nə nəzərdə tutulur? Əslində bu "salam" "Fürqan" surəsinin 63-cü ayəsində qeyd edilən "salam"la eyni mənanı daşıyır: ***"Nadanlar onlara söz atdıqları zaman onlara salam verirlər (və etina etməyib alicənablıqla keçib gedirlər)."***[1973] Bu salam zəiflik və acizlik deyil, etinasızlıq və alicənablıq əlamətidir. Bu salam cahil və yelbeyin insanlarla qarşılaşmamaq üçün verilən bir salamdır. Bu salam sevgi və dostluq əlaməti olan sağlamlıq diləmək deyil, onların faydasız sözlərinə vida etmək üçün verilmiş salamdır. Xülasə, səbr, dözüm və alicənablıq əlaməti olan bir salamdır.[1974]

[1972] Nümunə, c.21, səh.134
[1973] Nümunə, c.21, səh.138
[1974] Nümunə, c.21, səh.149

"Duxan" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ha, Mim!

2. And olsun bu aydınlaşdırıcı kitaba!

3. Biz onu bərəkətli bir gecədə nazil etdik. Biz hər zaman qorxudan olmuşuq.

4. O gecədə hər bir iş hikmət üzrə ayırd edilir –

5. (Quranın nazil edilməsi) Allah tərəfindən verilən bir əmr olmuşdur. Biz (Muhəmmədi) göndərdik –

6. Bunlar hamısı sənin eşidən və bilən Rəbbinin mərhəmətindəndir.

7. Əgər əminliklə inanırsınızsa, (bilin ki, Allah) göylərin, yerin və onların arasında olanların Rəbbidir.

8. Ondan başqa məbud yoxdur, dirildir və öldürür, sizin və əcdadlarınızın Rəbbidir.

9. Lakin onlar şəkk-şübhə içindədirlər, (həqiqətlərlə) əylənirlər.

10. Sən göydən aşkar bir tüstü peyda olacağı günü gözlə.

11. O tüstü bütün insanları bürüyəcək. Bu, ağrılı-acılı bir əzabdır.

12. (Onlar deyəcəklər:) “Ey Rəbbimiz! Əzabı bizdən uzaq et ki, iman gətirək”.

13. Onlar necə öyüd-nəsihət dinləyə bilərlər ki, açıq-aşkar bir Peyğəmbər gəldiyi halda,

14. ondan üz çevirib: “Öyrədilmiş bir dəlidir!” – dedilər.

15. Biz əzabı bir az sizdən uzaqlaşdırarıq, amma siz yenə öz işlərinizə qayıdacaqsınız.

16. Onları böyük bir müsibətlə yaxalayacağımız gün (onlardan intiqam alacağıq). Biz intiqam alanıq.

17. Biz onlardan əvvəl Fironun xalqını da sınadıq. Onlara möhtərəm bir elçi gəldi.

18. (Onlara dedi): “Allah bəndələrinin işlərini mənə həvalə edin ki, mən sizin üçün etibarlı bir elçiyəm.

“Duxan” surəsinin ümumi məzmunu: Bu surəni məzmun etibarı ilə yeddi hissəyə bölmək olar: 1. Quranın əzəməti və onun Qədr gecəsində nazil olması; 2. Allahın təkliyi və varlıq aləmində onun böyüklüyünü göstərən nişanələrin bəzisi; 3. Kafirlərin aqibəti və onlara verilən müxtəlif əzablar; 4. Musa (ə) və İsrail oğullarının Firon tərəfdarlarına qarşı mübarizəsi, Firon tərəfdarlarının məğlubiyyəti və məhvi; 5. Qiyamət, Cəhənnəm sakinlərinin ağrılı-acılı əzabları, təqvalıların ruh oxşayan mükafatları; 6. Yaradılışın məqsədi, göy və yerin yaradılışının əbəs olmaması; 7. Quranın əzəmətinin yenidən bəyan edilməsi.[1975]

[1975] Nümunə, c.21, səh.143

3-5. Quranın bərəkətli bir gecədə nazil olması: Tükənməz xeyirlərin və daimi yaxşılıqların mənşəyi olan gecə hansıdır? Təfsirçilərin əksəriyyəti bu gecənin Qədr gecəsi olduğunu bildirmişlər. Bu gecə insanların bir illik müqəddəratının təyin edildiyi bərəkətli gecədir. Quran talelərin həll olunduğu bir gecədə Peyğəmbərin (s) pak qəlbinə nazil olmuşdur. Qeyd etmək yerinə düşər ki, Quranın insanların müqəddəratının həll olunduğu, ruzilərinin, nemətlərinin təyin olunduğu Qədr gecəsində nazil olması bu ayələrdə ötəri, "Qədr" surəsində isə açıq şəkildə bəyan edilmişdir. Bu ayələrdən belə başa düşülür ki, bizim müqəddəratımızın və taleyimizin Quranın məzmunu ilə sıx əlaqəsi var. Təkcə mənəvi deyil, maddi həyatımızın da bu kitabla qırılmaz əlaqəsi var. Bəli, Quran məhz müqəddəratların təyin edildiyi gecə nazil edilmişdir.[1976]

10-16. Göydə aşkar bir tüstünün peyda olması: Bu ayələrdə əzab nişanəsi kimi təqdim edilən tüstü ilə nəyə işarə edilməsi təfsirçilər arasında fikir ayrılığına səbəb olmuşdur. Ancaq ayələr və hədislərdə qeyd edilənlərə əsasən, burada dünyanın sonu və Qiyamətin başlanğıcında göy üzünü bürüyəcək, dünyanın sonunun çatdığını, zalımlara şiddətli əzablar veriləcəyindən xəbər verən qatı tüsdüdən danışıldığını deyə bilərik. Bu izahın yeganə problemi onun 15-ci ayə ilə düz gəlməməsidir. Çünki dünyanın sonu və ya Qiyamət günü Allahın əzabı yüngülləşməyəcək, nəticədə də insanlar yenidən öz günahlarına dönməyəcəklər. Əgər biz bu cümləni şərt budaq cümləsi kimi götürsək, o zaman problem öz həllini tapar. Bu zaman ayənin mənası belə olur: Əgər əzabı bir az sizdən uzaqlaşdırsaq, yenidən əvvəlki yolunuzu tutacaqsınız. Bu zaman ayə eynilə "Ənam" surəsinin 28-ci ayəsi ilə eyni məzmuna malik olacaq. Həmin ayədə Allah-

[1976] Nümunə, c.21, səh.147 və 156

taala belə buyurur: ***"Əgər qayıtsalar, yenidən qadağan olunduqları əməllərə dönəcəklər."*** İkinci izahı Peyğəmbər (s) və Əhli-beyt imamlarından (ə) nəql edilən hədislər də təsdiq edir. İmam Əli (ə) Peyğəmbərə (s) istinad etdiyi bir hədisdə belə buyur: ***"Qiyamətdən əvvəl on əlamət görünəcək: Süfyani, dəccal, Dabbətül-ərd, həzrət Mehdinin (ə) qiyamı, Günəşin qərbdən çıxması, həzrət İsanın (ə) enməsi, Şərqdə batırıcı zəlzələ, Ərəb yarmadasında oxşar zəlzələ, Ədnin dərinliklərindən yüksəlib insanları Məhşərə qovan od."***[1977]

[1977] Nümunə, c.21, səh.163

19. Allah qarşısında özünüzü yuxarı tutmayın. Mən sizə aydın bir sübut gətirmişəm.

20. Mən sizin məni ittiham və daşqalaq etməyinizdən həm mənim, həm də sizin Rəbbiniz olan Allaha sığınıram.

21. Əgər mənə inanmırsınızsa, onda məndən uzaq olun!"

22. Sonra o, Rəbbinə dedi: "Bunlar günahkar adamlardır!"

23. (Allah ona:) "Gecə bəndələrimi yola çıxart. Çünki siz təqib olunursunuz!"(– deyə göstəriş verdi).

24. Dənizi də sakit və açıq burax! Onlar suda batırılacaq bir qoşun olacaqlar!"

25. Onlar özlərindən sonra neçə-neçə bağlar, çeşmələr qoyub getdilər;

26. əkinlər, möhtəşəm yerlər

27. və içində qərq olduqları çoxlu nemətləri.

28. Bax belə oldu! Biz başqalarını onların (mal və mülklərinin) varisi etdik.

29. Nə göy, nə də yer onlardan ötrü ağlamadı. Onlara möhlət də verilmədi.

30. İsrail oğullarını alçaldıcı əzabdan qurtardıq –

31. təkəbbürlü və həddi aşan Firondan.

32. Biz onları (İsrail oğullarını) öz elmimizlə aləmlərdən üstün tutduq.

33. Onlara içində açıq-aydın imtahan olan dəlillər verdik.

34. Bunlar deyəcəklər:

35. "Bizim ölümümüz təkcə birinci ölümdür. Biz heç vaxt dirildilməyəcəyik.

36. Əgər doğru deyirsinizsə, onda atalarımızı gətirin!"

37. Bunlar yaxşıdır, yoxsa Tubba qövmü və onlardan əvvəlkilər? Biz onları məhv etdik. Çünki onlar günahkar idilər.

38. Biz göyü, yeri və onların arasında olanları əyləncə üçün (və əbəs yerə) yaratmadıq.

39. Bu ikisini haqq-həqiqət olaraq yaratdıq, lakin çoxları bilmir.

-

25-29. Nemətə nankorluq dağıdıcıdır: Bir gün möminlərin əmiri İmam Əli (ə) Mədainin yaxınlığından keçirmiş, dağılmaqda olan Kəsra (Ənuşirəvan və digər sasani şahları) abidələrinə baxır. Yanındakı şəxs ibrətamiz bir şeir deyir. Həmin şeirin tərcüməsi belədir: "Küləklər onların ölkəsinin qalan qalıqları üzərinə əsdi. Sanki onların hamısının bir vəd olunan yeri var idi və həmin vəd olunan yerə doğru tələsdilər." İmam Əli (ə) buyurur: ***"Nə üçün bu ayələri söyləmədin?"*** Sonra bu bu ayələri buyurur: ***"Bunlar (başqalarının malına və hökumətlərinə) varislər idilər. Ancaq (başqalarına) miras etdilər. Nemətə görə şükür etmədilər. Dünyaları itaətsilik göstərdiklərinə görə onlardan alındı. Nemətə nankorluq etməkdən çəkin. Allahın qəzəbi sizi yaxalamasın."***[1978]

32. İsrail oğullarının üstünlüyü onlar üçün böyük bir sınaqdır: Bu ayədə əslində, İsrail oğullarının yalnız öz dövrlərinin seçilmiş ümməti olduğu buyurulmuşdur. Çünki "Ali-İmran" surəsinin 110-cu ayəsində Allah-taala İslam ümmətinin yaxşı işlər görməyi əmr etdikləri və pis əməlləri qadağan etdiklərini qeyd edərək onun ən üstün ümmət olduğunu buyurmuşdur. Bəzi təfsirçilər İsrail oğullarının yalnız onların özlərinə xas olan spesifik xüsusiyyətləri olduğunu bildirmişlər. Onlara çoxlu sayda peyğəmbər göndərilməsi də bu xüsusiyyətlərdəndir. Heç bir xalqa bu qədər peyğəmbər göndərilməmişdir. Əslində bu heç də üstünlük sayıla bilməz.

[1978] Səfinətül-bəhar, c.8, səh.44

Çünki peyğəmbərlər çoxluğu bu xalqın həddən artıq itaətsizlik göstərən bir xalq olması ilə bağlı ola bilər. Musa peyğəmbərin (ə) qiyamından sonra baş vermiş müxtəlif hadisələr onların Allahın böyük peyğəmbəri ilə necə davrandığını göstərir. Bu xalqın inadkar olduğunu, Quranın buyurduğu ilə davamlı olaraq öz peyğəmbərlərini incitdiklərini, Allahın hökmləri qarşısında inadkarlıq və təssübkeşlik nümayiş etdirdiklərini, hətta Nili keçib xilasa qovuşduqdan dərhal sonra Musaya (ə) bütpərəstlik təklif etdiklərini nəzərə alsaq, deməliyik ki, nəzər nöqtəsi olan ayədə qeyd olunan üstünlük ifadəsi onlar üçün imtiyaz deyil, başqa bir həqiqəti ifadə edir. Ayənin çatdırmaq istədiyi məna belə ola bilər: Biz onların Allahın bəxş etdiyi nemətlərdən sui-istifadə edəcəklərini bildiyimizə baxmayaraq, onlara üstünlük verdik. Bunu onları sınaqdan keçirmək üçün etdik. Sonrakı ayədə Allahın sınamaq üçün onlara başqa nemətlər də verdiyi buyurulmuşdur. Deməli, Allahın seçimi onlar üçün nəinki üstünlük, əksinə bir məzəmmətdir. Çünki onlar bu nemətə layiq olmadılar və sınaqdan keçmədilər.[1979]

37. Tubba qövmü: "Tubba" Yəmən şahlarının ümumi ləqəbidir. Quranın bu ayəsində bəzi hədislərdə adı Əsəd Əbu Bəkr kimi qeyd edilən Yəmən şahlarından birindən söz açılır. Bir qrup təfsirçi onun haqq axtaran və mönin kişi olduğunu yazmış, ayədəki "Tubba qövmü" ifadəsini də buna sübut gətirmişdir. Çünki ayədə onun özü deyil, qövmü məzəmmət edilmişdir. İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Tubba Ovs və Xəzrəc qəbilələrinə dedi: Siz burada İslam peyğəmbəri (s) gələnə qədər qalın. Əgər mən onu görsəydim, onun xidmətində durar və onunla qiyam edərdim."*** Bəziləri yazır ki, Tubba Hindistana qoşun yürütmüş, həmin regionun bütün ölkələrini fəth etmiş Yəmən şahlarından biri olmuşdur.

[1979] Nümunə, c.21, səh.184

Fəthlərinin birində o, Məkkəyə girmiş, Məkkəni viran qoymaq istədiyi vaxt qəfildən xəstələnmişdir. Tubbanın qoşununda başçıları Şamul adlı bir şəxs olan bir dəstə həkim də olmuşdu. Həmin həkim ona: "Sənin xəstəliyinin səbəbi Kəbəni uçurmaq niyyətidir. Əgər bu fikrindən daşınıb, bağışlanma diləsən, şəfa taparsan", - deyə məsləhət vermişdi. Tubba qərarından dönmüş, Kəbəyə ehtiram göstərəcəyini söz vermişdir. Sağaldıqdan sonra Kəbənin üzərinə qiymətli Yəmən parçasından örtük atmışdır.[1980]

40. Ayrılıq günü onların hamısı üçün müəyyən olunmuş vaxtdır.

41. O gün dostun dosta heç bir faydası dəyməyəcək, onlara heç yerdən köməklik göstərilməyəcək.

42. Allahın rəhm etdiyi adamlar istisnadır! O, qüdrətlidir, rəhmlidir.

43. Heç şübhəsiz zəqqum ağacı

44. günahkarların yeməyidir.

45. Əridilmiş dəmir kimi qarınlarda qaynayar –

[1980] Nümunə, c.21, səh.194

46. qaynar su qaynayan kimi.

47. (Sonra Cəhənnəm məmurlarına əmr edilər:) Onu tutub Cəhənnəmin ortasına atın!

48. Sonra başına qaynar əzab yağdırın!

49. (Ona deyilər:) Dad (bu əzabı! Öz xəyalında) Sən qüdrətli və möhtərəm idin.

50. Bu, sizin daim tərəddüdlə yanaşdığınız həqiqətdir!

51. Allahdan qorxanlar isə təhlükəsiz bir yerdə olacaqlar –

52. bağçalarda və çeşmələr başında!

53. Qalın və nazik ipək parçadan libaslar geyib qarşı-qarşıya əyləşəcəklər.

54. Cənnət sakinləri belədir! Üstəlik onları iri qara gözlü hurilərlə evləndirəcəyik.

55. Onlar orada hansı növ meyvə istəsələr, ixtiyarlarında olacaq, son dərəcə əmin amanlıq içində olacaqlar.

56. Onlar orada ilk ölümdən başqa heç bir ölüm dadmayacaqlar. Allah onları Cəhənnəm əzabından qoruyur.

57. Bu sənin Rəbbin tərəfindən bir lütfkarlıq, bir hədiyyədir. Böyük uğur məhz budur.

58. Biz bunu (Quranı) sənin dilində asanlaşdırdıq ki, bəlkə onlar xatırlasınlar.

59. Sən gözlə! Şübhəsiz ki, onlar da gözləyirlər.

---

49. Dad! Sən qüdrətli və möhtərəm idin: Əvvəlki ayələrdə Cəhənnəm sakinlərinə veriləcək fiziki əzabların bir neçəsinə işarə edilmişdir. Nəzər nöqtəsi olan ayədə isə onlara veriləvək psixoloji əzablardan birinə işarə edilir. Cəhənnəm sakinlərinə belə xitab ediləcək: ***“Dad (bu əzabı! Öz***

xəyalında) Sən qüdrətli və möhtərəm idin.” Yoxsul və acizləri zəncirləyən, onlara qarşı zülm və haqsızlıq edən, eyni zamanda özünü qalıb və möhtərəm bir adam hesab edirdin. Bu təkəbbürünlə istənilən cinayətə əl atırdın. İndi əzab şəklində təcəssüm edən əməllərinin nəticəsini dad. İnsanların cismini və canını yandırdığın kimi, indi də sənin için və çölün Allahın qəzəb odunda yanır. Bir gün Peyğəmbər (s) Əbu Cəhlin əlindən tutub buyurur: ***“Vay olsun sənə, ay Əbu Cəhl! Vay olsun sənə!”*** Əbu Cəhl deyir: Məni nə ilə təhdid edirsən? Nə sən, nə də sənin sahibin mənə heç nə edə bilməz. Bu yerlərdə məndən qüdrətli və hörmətli adam yoxdur. Nəzər nöqtəsi olan ayədə həmin hadisəyə işarə edilmişdir. Ayəyə əsasən onu Cəhənnəm oduna atdıqdan sonra deyəcəklər: Dad! Ey qüdrətli və möhtərəm![1981]

54. İri qara gözlü hurilər: Həyatda insana rahatlıq, ünsiyyət və fərəh bəxş edən vasitələrdən biri münasib və hər cəhətdən kamallı olan bir həyat yoldaşının olmasıdır. Qadın və kişi olmasından asılı olmayaraq, belə bir həyat yoldaşının olması çətinlikləri insana asan edər, ona sevinc, fərəh, şirinlik, şadlıq bəxş edər. Belə bir həyat yoldaşının olmaması və ya uyğun olmayan bir həyat yoldaşının olması bütün digər vasitələrin olmasına baxmayaraq, həyatın şirin dadının ağızda acı olması üçün kifayət edər. Başqa sözlə desək, münasib, ağıllı-kamallı, mehriban və lütfkar həyat yoldaşı təkcə fiziki rahatlıq deyil, həm də psixoloji rahatlıq mənbəyidir. Quranın ayrı-ayrı ayələrdə Cənnətin müxtəlif nemətlərindən danışılarkən bu nüansa diqqət yetirilmiş, bu haqda maraqlı ifadələr işlədilmişdir. Quranın bir neçə yerində Cənnətdəki həyat yoldaşlarının təsviri “hurul-eyn” (iri qara gözlü huri) ifadəsi ilə verilmişdir. “Hur” sözü “hura” sözünün cəmidir. “Əhvər” gözünün qarası tamamilə qara, ağı isə tamamilə ağ, şəffaf, parlaq

---

[1981] Nümunə, c.21, səh.205

olan insana deyilir. Bu, ifadə gözlərin həddən artıq gözəl olduğunu göstərir. Bəziləri bu ifadənin bədənin ağlığı kimi də izah etmişlər. Ola bilər ki, bu ifadə ilə həm gözlərin, həm də bədənin gözəlliyinə işarə edilib. "Eyn" sözü "əyən" və "əyna" sözlərinin cəmidir, mənası iri deməkdir. Bu ifadə iri, cazibədar və gözəl gözləri olan şəxs haqqında işlədilir. Quranın bu nöqtəyə xüsusi önəm verməsi insanın gözəlliyinin hər şeydən əvvəl və hər şeydən çox onun gözləri ilə ölçülməsi ilə bağlıdır. Sözügedən ifadə, əslində, cismin və ruhun gözəlliyini simvolizə edir. Bir məsələyə də diqqət yetirməliyik ki, həm "hur", həm də "eyn" sözü həm qadın, həm də kişi cinsinə aid olur. Buna görə də daha geniş məna ifadə edərək, Cənnətdəki bütün həyat yoldaşlarına şamil olur. Möminə qadınlara gözəl həyat yoldaşları, mömin kişilərə gözəl həyat yoldaşları lütf ediləcək.[1982] İmam Sadiq (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Əgər Cənnət hurilərindən biri dünyadakı insanlara baxsa və bir telini onlara göstərsə, bütün insanları namaz qılanın namaz halında keçirdiyi həyacan hissi bürüyər. Əgər Allaha huri ilə evlənmək istəmədiyini desə, onlar: "Bu adam bizə qarşı nə qədər rəğbətsizdir!" – deyərlər."***[1983] İmam Sadiq (ə) başqa bir hədisində belə buyurmuşdur: ***"Cənnət sakinləri evlilikdən aldıqları zövq və ləzzət qədər heç nədən, hətta Cənnətin yeməkləri və içkilərindən ləzzət almırlar."*** Burada cismin ən çox ləzzət aldığı nemət nəzərdə tutulmuşdur. Çünki ayə və hədislərdə qəlb hüzuru, Allaha yaxınlıq, Allahın Cənnət sakinlərindən razılığının bütün digər nemətlərdən üstün və ləzzətli olduğu buyurulmuşdur.[1984]

[1982] Quranın ismarışı, c.6, səh.259
[1983] Vəsailüşşiə, c.6, səh.466
[1984] Əl-Mizan, c.3, səh.136

"Casiyə" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ha, Mim!

2. Bu Kitab qüdrətli, müdrik Allah tərəfindən nazil edilmişdir.

3. Şübhəsiz, göylərdə və yerdə möminlər üçün nişanələr vardır.

4. Sizin yaradılışınızda və (yer üzünə) yaydığı canlılarda qəti iman gətirmiş insanlar üçün nişanələr vardır.

5. Gecə və gündüzün bir-birini əvəz etməsində, Allahın göydən bərəkət endirib onun vasitəsilə yerə ölümündən sonra həyat bəxş etməsində, habelə küləklərin əsməsində düşüncəli insanlar üçün nişanələr vardır.

6. Bunlar Allahın nişanələridir. Biz onu sənə bir həqiqət kimi oxuyuruq. Onlar Allahın sözünə və ayələrinə inanmadıqdan sonra hansı sözə daha inanacaqlar?!

7. Vay halına günahkar yalançının!

8. O, Allahın ona oxunan ayələrini eşidir və sonra, sanki onları eşitməmiş kimi təkəbbür göstərərək əks mövqeyinə israr edir. Beləsini ağrılı-acılı bir əzabla müjdələ.

9. Ayələrimizin hansındansa xəbərdar olduğu zaman onu lağa qoyur. Bələləri üçün alçaldıcı bir əzab vardır.

10. Onları Cəhənnəm izləyir. Nə qazandıqları, nə də Allahdan başqa tutduqları himayəçilər onları (əzabdan) xilas edə bilməyəcəklər. Onları böyük bir əzab gözləyir.

11. Bu (Quran) doğru yol göstəricisidir. Rəbbinin ayələrini inkar edənləri ən pis cəza – ağrılı-acılı əzab gözləyir.

12. Gəmilərin Onun əmri ilə dənizdə üzməsi və sizin də Onun lütfündən faydalanmağınız üçün dənizi sizə ram edən Allahdır. Bəlkə şükür edəsiniz.

13. Göylərdə və yerdə olanların hamısını Özü sizə ram etmişdir. Bunda düşünən adamlar üçün nişanələr vardır.

"Casiyə" surəsinin ümumi məzmunu: Bu surə yeddi mövzunu əhatə edir: 1. Quranın əzəməti; 2. TəkAllahlığı sübuta yetirən dəlillərin bir qismi; 3. Naturalistlərin bəzi iddiaları və onlara cavab; 4. Keçmiş xalqların, o cümlədən İsrail oğullarının aqibətinin necə olmasına işarə; 5. Öz azğın inancları üzərində israrla dayanmış azğınlara qarşı təhdid; 6. Doğru yoldan sapmamaq və qətiyyət göstərməklə yanaşı əfv və güzəştə dəvət; 7. Qiyamətin təkanverici hadisələrinə işarə.[1985]

[1985] Nümunə, c.21, səh.223

4. İnsanın qəribə yaranışına diqqət: Bu ayəyə əsasən insanın mürəkkəb yaranışına diqqət varlıq aləminin bilikli və qüdrətli yaradıcısını tanımaq üçün uyğun nərdivan rolunu icra edə bilər. İnsan bütün kainatı özündə xülasələşdirmiş kiçik bir cismdir. Onun bir hüceyrəsinin quruluşu böyük bir sirli sənaye şəhərinin quruluşu boydadır. Elmi araşdırmalar nəticəsində bəzi xüsusiyyətləri kəşf edilmiş bir tük kompleks olaraq bütün xüsusiyyətləri ilə yaranışı Allahın böyük nişanələrindən biridir. Bədəndə irili-xırdalı minlərlə km uzunluqda olan damarların, həddən artıq incə olan kapilyarların, minlərlə kilometr uzunluqda sinir sistemlərinin mövcudluğu, onların beyində yerləşən həddən artıq mürəkkəb, sirli, eyni zamanda güclü olan bir mərkəzlə əlaqəsi, bədənin daxilindəki orqanların hər birinin işləmə mexanizmi, qəfil hadisə baş verdiyi zaman onların heyrətamiz rabitəsi, xarici amillərin hücumu zamanı mühafizəçi qüvvələrin ciddi müdafiəsi və sair ayrı-ayrılıqda bütün mövcudat aləmini Allahın tanınma əlaməti kimi qəbul edən iman və qətiyyət axtarışında olan, fikir və düşüncə sahibləri üçün çox mühüm bir nişanədir. Maddə və dünya həyatından kənar bir həqiqətin olduğunu qəbul etməyən insanlar bütün ömürlərini tanınmazların tanınmasına, bilinməzlərin bilinməsinə sərf etsələr də bu reallığı dərk edə bilməyəcəklər.[1986]

5. Üç böyük nemətə - işıq, su və havaya diqqət: Bu ayədə insan və digər varlıqların həyatında mühüm rol oynayan üç böyük nemətə işarə edilmişdir. Birinci nemət işıq və qaranlıq, onların bir-birini əvəzləməsidir. Əgər gündüz daimi olsaydı, temperatur o qədər yüksələrdi ki, bütün canlılar yanardı. Əgər gecə daimi olsaydı, hər şey soyuqdan donardı. Alimlər bildirirlər ki, gecə və gündüzlərin uzunluğu və qısalığı baxımından Yer kürəsinin ayrı-ayrı regionlarının fərqlənməsinə baxmayaraq, ilin bütün

---

[1986] Nümunə, c.21, səh.229

günlərinin məcmusunu hesabladıqda, bütün regionların günəş enerjisindən eyni ölçüdə istifadə etdiyinin şahidi oluruq. İkinci nemət göyün həyat bəxş edən yağışdır. Nə zərifliyinə etiraz oluna bilər, nə də həyat bəxş etməsinə. Hər yerdə həyat, gözəllik və təravət nişanəsi sayılır. Niyə də olmasın? Halbuki insan, heyvan və bitkilərin çoxunun əsas hissəsini su təşkil edir. Üçüncü nemət küləkdir. Külək oksigenli havanı yerbəyer edib canlıların ixtiyarına verir. Karbonlu havanı təmizləmək və distillə etmək üçün meşələrə, düzlərə, səhralara aparır, təmizlədikdən sonra şəhər və kəndlərə qaytarır. Qəribəsi isə bitki və heyvanların fərqli tənəffüs sisteminə malik olmasıdır. Heyvanlar oksigeni alır, dioksidin karbon qazını buraxır. Bitkilər isə dioksidin karbonu alıb oksigeni verir, bununla da balansı təmin edir. Zaman keçdikcə faydalı ehtiyatın tükənməməsi üçün küləklər bitkiləri tozlandırmaqla yanaşı toxumları başqa yerlərə səpir, meşə və təbii guşələri becərir, okeanlarda dalğa yaradır, dalğa isə öz növbəsində dənizə həyat və hərəkət bəxş edir, suyu üfunətdən və zibildən xilas edir, gəmiləri suyun üzündə hərəkət etdirir.[1987]

[1987] Nümunə, c.21, səh.240

14. İman gətirənlərə de: “Allah, etdikləri əməllərə görə hər bir tayfanın cəzasını versin deyə, Allahın günlərinə (Qiyamət gününü) ümidi olmayanları bağışlasınlar.

15. Kim yaxşı iş görsə, (xeyri) özünə, kim də pislik etsə, zərəri özünə olar. Sonra hamınız Rəbbinizə qaytarılacaqsınız.

16. Biz İsrail oğullarına Kitab, hökmranlıq və peyğəmbərlik bəxş etmiş, onlara pak nemətlərdən ruzi vermiş və onları aləmlərdən üstün etmişdik.

17. Onlara peyğəmbərlik və şəriətə dair aydın dəlillər vermişdik. Amma elm onlara gəldikdən sonra zülm və ağalıq etmək istəyi üzündən ixtilafa düşdülər. Amma sənin Rəbbin ixtilafa düşdükləri məsələlər barəsində Qiyamət günü onların arasında hökm verəcəkdir.

18. Sonra səni doğru din və şəriət yolunda qərarlaşdırdıq. Sən ona tabe ol və bilməyənlərin istəklərinə tabe olma!

19. Onlar səni Allahdan (və onun əzabından xilas) əsla qurtara bilməzlər. Zalımlar bir-birinin dost və yoldaşıdır, Allah da təqvalıların dost və yoldaşıdır.

20. Bu (Quran və İslam şəriəti) qəti inamı olanlar üçün görmə, doğru yola yönəlmə və rəhmət vasitəsidir.

21. Yoxsa günah qazanan və pis işlərlə məşğul olanlar onları iman gətirib yaxşı işlər görənlərlə eyni tutacağımızı və həyatları ilə ölümlərinin eyni olacağınımı güman edirlər? Nə pis mühakimə yürüdürlər!

22. Allah göyləri və yeri ədalətlə yaratmışdır ki, hər kəs qazandığının əvəzini alsın. Onlara heç bir haqsızlıq edilməyəcəkdir.

---

14. Allahın günlərinə ümidi olmayanları bağışlasınlar: Bu ayə Məkkədə nazil olub. Özlərini üstün tutan və Allahın ayələrinə istehza edənlərdən bəhs edən ayələrdən sonra gəlir və onları çox ağır əzabla təhdid edir. Möminlər Peyğəmbərə (s) tənələr yağdıran, onu təhqir edən, təhqirlərində hədlərini aşan, Allahın ayələrinə rişxənd edən insanlarla qarşılaşanda ixtiyarları əllərindən gedir, Allahın kitabı və Peyğəmbərin (s) müdafiəsinə qalxar, kafirlərdən çirkin davranışlarından əl çəkmələrini, Allaha və Peyğəmbərə (s) iman gətirmələrini tələb edərmişlər. Ancaq onlar kafirlərin inad və təkəbbürləri ucbatından Allahın əzabına düçar olduqlarını və əsla doğru yola yönəlməyəcəklərini bilmirdilər. Buna görə də Allah Peyğəmbərə (s) göstəriş verir ki, möminlər bu tip kafirlərə güzəştə getsinlər, onlara etiraz etməsinlər. Çünki onlar tezliklə öz əməllərinin cəzasını alacaqlar. (Allahın günləri mövzusu ilə bağlı daha ətraflı məlumat almaq üçün bax: İbrahim-5).[1988]

18. Peyğəmbər (s) haqq din və şəriət yolu üzərində: "Şəriət" suyu yer səthində aşağıda olan çayın suyundan istifadə etmək üçün düzəldilmiş yola və ümumiyyətlə, insanı məqsədinə çatdıran istənilən yola deyilir. Bu ifadənin haqq din haqqında işlədilməsi onun vəhy mənbəyinə, Allahın razılıq çeşməsinə, dirilik suyuna bənzəyən əbədi xoşbəxtliyə çatdırması ilə bağlıdır. Bu ifadə Quranda cəmi bir dəfə, o da İslam dini haqqında işlədilmişdir.[1989]

21. Möminlərlə kafirlərin bir-birindən fərqlənən həyatı və ölümü: Quranın ayrı-ayrı ayələrində mömin və kafir, təqvalı və günahkar insanlar müqayisə edilmişdir. Bu ayədə Allah iman və saleh əməlin və ya küfr və

[1988] Əl-Mizan, c.18, səh.167
[1989] Nümunə, c.21, səh.253

günahın insan həyatına təsir etmədiyini söyləyənlərin fikirlərinin səhv olduğunu başa salmaq istəyir. Əslində, bu qrupların həyatları bir-birindən fərqlənir. Möminlər iman və saleh əməl sayəsində xüsusi rahatlıq əldə edir və bu rahatlıq nəticəsində dünya həyatının ən ağır hadisələri belə onlara təsir göstərmir. Halbuki imanı olmayan və günah çirkabına bulaşmış insanlar hər zaman stress və narahatlıq içindədirlər. Üzdə rifah içində olduqları təsəvvürü bağışlaslar da, hər zaman maddi mülkiyyətlərinin məhv olacağından əziyyət çəkir, çətinliklə qarşılaşdıqda onunla mübarizə apara bilmirlər. Möminlər Allahın himayəsi ilə doğru yolda olurlar, ancaq ikinci qrup insanların həyatda bəlli hədəf və proqramları olmur. Buna görə də qaranlıqlar içində özlərini itirmiş halda gəzirlər. Bu cəhətlər dünya həyatına aiddir. Ancaq əbədi aləmə bir qapı, Axirətə bir darvaza olan ölüm təqvalılar üçün bütün çətinliklərdən xilas, əzab-əziyyətsiz həyata başlanğıcdır. Halbuki ölüm imanı olmayan günahkarlar üçün çətinliklər, əzab-əziyyətlə dolu olan ağır həyatın başlanğıcıdır. "Nəhl" surəsinin 32-ci ayəsində təqvalılar haqqında belə buyurulmuşdur: ***"O kəslər ki, mələklər onların canlarını tər-təmiz olduqları halda, alıb deyirlər: "Sizə salam olsun! Əməllərinizə görə Cənnətə girin!"*** Halbuki imanı olmayan günahkarlarla başqa cür davranılacaq. "Nəhl" surəsinin 28-29-cu ayələrində belə buyurulur: "Mələklər özlərinə zülm edən kimsələrin canlarını aldıqları zaman onlar itaət göstərib: ***"Biz heç bir pis iş görmürdük!" (– deyəcəklər) Xeyr! Allah sizin nələr etdiyinizi bilir. (Onlara deyiləcək:) "İndi isə içində əbədi qalacağınız Cəhənnəmin qapılarından daxil olun! Təkəbbürlülərin qalacağı yer necə də pisdir!"***[1990]

[1990] Nümunə, c.21, səh.258

23. Nəfsinin istəyini öz tanrısı edən şəxsi gördünmü? Allah (əzəli) elmi sayəsində onu azğınlığa salıb, qulağını və qəlbini möhürləyib, gözünə də pərdə çəkib. Bu vəziyyətdə onu Allahdan başqa doğru yola kim yönəldə bilər? Məgər yada salıb xatırlamırsınız?

24. Onlar dedilər: “Bizim dünya həyatımızdan başqa həyat yoxdur. Kimimiz ölür, kimimiz də onun əvəzinə doğulur. Bizi öldürən ancaq təbiət

və zamandır”. Bu haqda onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar.

25. Bizim aydın ayələrimiz onlara oxunduğu zaman onların: “Əgər doğru deyirsinizsə, atalarımızı (dirildib) gətirin!” – deməkdən başqa bir dəlilləri yoxdur.

26. De: “Allah sizə həyat verir, sonra öldürür, sonra da sizi (gələcəyinə) heç bir şəkk-şübhə olmayan Qiyamət günü (dirildib) bir yerə toplayacaqdır”. Lakin insanların çoxu bilmir.

27. Göylərin və yerin hökmranlığı ancaq Allaha məxsusdur. Qiyamət qopacağı gün yanlış yolda olanlar ziyana uğrayacaqlar.

28. Sən bütün ümmətləri diz çökmüş görəcəksən. Hər bir ümmət öz kitabına tərəf çağırılacaqdır. (Onlara deyiləcək:) “Bu gün sizə etdiyiniz əməllərin əvəzini verəcəklər!

29. Bu Bizim sizin əleyhinizə həqiqəti söyləyən kitabımızdır. Biz sizin etdiyiniz əməlləri yazırdıq!”

30. İman gətirib yaxşı işlər görənlərə gəlincə, Rəbləri onları öz rəhmətinə daxil edəcək. Bu, böyük qalibiyyətdir.

31. Kafir olanlara gəldikdə isə, (onlara deyiləcəkdir): “Məgər ayələrim sizə oxunmurdumu? Siz isə təkəbbür göstərdiniz və günahkar adamlar idiniz.

32. “Allahın vədi haqdır və Qiyamətlə bağlı heç bir şəkk-şübhə yoxdur!” – deyildiyi zaman siz deyirdiniz: “Biz Qiyamətin nə olduğunu bilmirik! Bu barədə yalnız güman edirik, heç bir əminliyimiz yoxdur.”

---

24. Materialistlərin inancları: Bu ayədə tövhidi inkar edənlər haqqında bir mövzu açılmış və materialist qrupuna işarə edilmişdir. Materisalistlər

varlıq aləminin yaradıcısı olduğunu qeyd-şərtsiz olaraq inkar edirlər. Halbuki müşriklərin çoxu Allahın varlığına inanır, ibadət etdikləri bütləri onun şəfaətçiləri olduğunu düşünürlər. Kainatda baş verən hadisələrin subyektinin zaman və ya başqa bir iddiaya görə fələklərin hərəkət və vəziyyəti olduğunu iddia edən klassik materialistlər dünyada baş verən hadisələri fələklərlə əlaqələndirmiş, əsl səbəbkarın kürələr olduğuna inanmışlar. Bu xurafat zaman keçdikcə sıradan çıxmışdır. Xüsusilə astronomiya elmi inkişaf etdikdən sonra obyektiv aləmdə fələklər (büllur soğan qabığının iç-içə kürələri) deyilən bir fenomenin olmadığı, ulduzların da az-çox eynilə Yer kürəsinə bənzər quruluşa malik olduğu sübuta yetmişdir. Sadəcə, bəzisi sönükdür, bəzisi digər kürələrdən işıq alır, bəzisi işıq saçır. Materialistlər bəzən xoşagəlməz hadisələrə görə fələyi söyürlər. Çox maraqlıdır ki, müasir ədəbiyyatda bəzi Allahpərəst şairlərin fələyin qəddar, tərsinə fırlanan çarx olduğunu söylədiklərinin şahidi oluruq. Onlar hər hansı hadisədə zamanı lənətləyib onu nifrin edirlər. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: “Zamanı söyməyin ki, zaman Allahdır”. O bununla zamanın yalnız Özündən ibarət bir anlayış olduğunu başa salmaq istəmişdir. Yəni bu dünyanın idarəedicisi və fırladanı Allahdır. Bu dünyanın idarəedicisini söyən özü də bilmədən Allahı söymüş olur. Bəzi böyüklər, hətta imamların kəlamlarında zamana nifrin edilməsi faktı ilə qarşılaşırıq. Təbii ki, onlar həmin ifadələrlə fələkləri və varlıq sistemini deyil, zəmanə insanlarını nəzərdə tutmuşlar.

28. Diz çökmüş ümmətlər: Təfsirçilərin yazdıqlarından belə məlum olur ki, keçmişdə məhkəməyə çağırılmış insanlar başqalarından seçilmək üçün diz üstə əyləşərmişlər. Qiyamət günü də mühakimə olunmaları üçün o böyük məhkəmə qarşısında hər kəs diz üstə çökəcək. Çünki hazır vəziyyətdə oturan insanlar diz üstə otururlar. Qeyd olunan ifadə ilə ola bilsin ki, onların

mühakiməyə hazır olduqları və ya zəif və aciz olduqları, varlıqlarını bürümüş qorxu ucbatından oturmaq nəzərdə tutulmuşdur. Ayədə bütün bu deyilənlərin hamısının birlikdə nəzərdə tutulduğunu da söyləmək olar.[1991]

29. Köçürmək: Bu ayə ilə bağlı müxtəlif izahlar irəli sürülmüşdür. Ancaq onlar arasında ən uyğunu bu ikisindən biri ola bilər: Ola bilsin ki, burada "köçürmə" deyilərkən ya elə yazmaq nəzərdə tutulur, ya da insanın əməlləri insanın ixtiyarı olmadan yazdığı bir kitab kimidir, əməlləri hafizələrinə yazan mələklər həmin kitabın üzünü köçürürlər. Buna görədir ki, "Yasin" surəsinin 12-ci ayəsində bu ifadənin əvəzinə "yazmaq" ifadəsi işlədilmişdir: ***"Həqiqətən, biz ölüləri dirildir, öncədən göndərdiklərini və onların təsir və nəticələrini yazırıq".*** (Qiyamət günü insanın öz əməllərindən xəbərdar olacağı ilə bağlı daha ətraflı məlumat almaq üçün bax: Muminun-62; Kəhf-49).[1992]

[1991] Nümunə, c.21, səh.279
[1992] Nümunə, c.21, səh.280

33. Onların etdikləri əməllərin pis nəticələri özlərinin qarşısına çıxacaq, nəhayət, istehza etdikləri onları bürüyəcək

34. Onlara deyiləcəkdir: “Siz bu gününüzlə qarşılaşacağınızı unutduğunuz kimi, Biz də bu gün sizi unudacağıq. Yeriniz Cəhənnəmdir. Sizin heç bir köməkçiniz yoxdur.

35. Bu ona görədir ki, siz Allahın ayələrini məsxərəyə qoyurdunuz və dünya həyatı sizi aldatdı”. Bu gün onları oradan çıxarmayacaq və heç bir üzr qəbul edilməyəcək.

36. Həmd göylərin Rəbbi, yerin Rəbbi və aləmlərin Rəbbi olan Allaha məxsusdur!

37. Göylərdə və yerdə böyüklük və əzəmət yalnız Ona məxsusdur. Qüdrətli və müdrik odur.

"Əhqaf" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ha, Mim!

2. Bu Kitab qüdrətli, müdrik Allah tərəfindən nazil edilmişdir.

3. Biz göyləri, yeri və bu ikisi arasında olanları yalnız haqq olaraq və məlum bir zaman üçün yaratdıq. Kafirlər isə qorxu gəlindikləri şeylərdən üz döndərdilər.

4. Onlara de: “Mənə göstərin görüm, sizin Allahdan başqa tapındıqlarınız yer üzündə nə yaratmışlar? Yoxsa göylərin yaradılmasında onların bir şərikliyi var? Əgər doğru danışırsınızsa, (sözlərinizin doğruluğunu sübuta yetirmək üçün) mənə bundan əvvəl (nazil olmuş) bir kitab və ya keçmişdəkilərinə aid bir elmi əsər gətirin”.

5. Allahı qoyub Qiyamət gününə qədər onlara cavab verə bilməyən, çağırılmasından da xəbərsiz olan əşyaları çağıran şəxsdən daha azğın kim ola bilər?

---

34. Bu gün sizi unudacağıq: Şübhəsiz ki, elmi bütün varlıq aləmini əhatə edən Allah əsla unutmaz. Əslində, bu ifadə günahkar insana etinasızlıq və onun görməzdən gəlinməsini ifadə etmək üçündür. Dilimizdə də bu formadan istifadə edirik. Məsələn, “Filan vəfasız dostu birdəfəlik unut, onu heç vaxt axtarma!”

Bu ifadə forması əməllərin təcəssümünü, cəza və cinayətin uyğunluğunu ifadə etmək üçündür. Çünki Qiyamət günündə unutmaq mərhəmətli və mehriban Allahın kimisə bütün lütf və mərhəmətindən məhrum etməsi deməkdir.[1993]

“Əhqaf” surəsinin ümumi məzmunu: Bu surə aşağıdakı mövzuları ehtiva edir: 1. Quranın əzəməti; 2. Bütün növ şirk və bütpərəstliyə qarşı mübarizə; 3. Qayıdış və Allahın ədalətli məhkəməsi; 4. Əhqaf diyarının Ad

---

[1993] Nümunə, c.21, səh.288

qövmü; 5. Peyğəmbərin (s) dəvətinin ümumiliyi və genişliyi (insanlarla yanaşı cinlərə də şamil olur). 6. Möminlərin həvəsləndirilməsi, kafirlərin qorxudulması; 7. Peyğəmbəri (s) daha çox səbrli və dözümlü olmağa, keçmiş peyğəmbərlər kimi davranmağa çağırmaq.[1994]

4. Keçmiş ümmətlərə aid kitab və ya elmi əsərin gətirilməsini istəmək:

Bu ayədən belə başa düşülür ki, dəlil ya səmadan göndərilmiş vəhy əsaslı nəqli, ya rasional və məntiqi olmalı, ya da elm adamlarının təsdiqinə əsaslanmalıdır. Müşriklər öz bütləri ilə bağlı irəli sürdükləri iddialarda nə hər hansı səmavi kitaba əsaslanırdılar, nə də ibadət etdikləri bütlərin göylərin və yerin yaradılışına ortaq olduqlarını sübuta yetirə bilirdilər. Onların iddialarını nə ağıl qəbul edir, nə də keçmiş xalqların elmi əsərləri təsdiq edirdi. Onların dinləri yalnız bir ovuc xurafatdan və yalançı xəyallardan ibarət idi.[1995] İmam Əli (ə) İmam Həsənə (ə) etdiyi vəsiyyətində belə buyurmuşdur: "Bil ay oğlum! Əgər Rəbbinin şəriki olsaydı, onun da peyğəmbərləri gələrdi, onun da hökmranlıq və idarəçiliyinin əlamətlərini görərdin, işləri və xüsusiyyətlərindən xəbərdar olardın. Amma sənin Allahın Özü Özünü səciyyələndirdiyi kimi təkdir." Allah hikmət sahibidir, müdrikdir, hikmət sahibi olan Allahın həm bizdən asılı olan, həm də olmayan aləmdə doğru yola yönəldən bələdçisi və lütfü vardır. Bəs kainatda heç bir əsər-əlaməti, elçiləri olmayan başqa Allahın varlığı necə təsəvvür edilə bilər? Əgər varsa, bu onun müdriklikdən kənar olduğunu göstərir, çünki insanları onu, onun əzəmət və qüdrətini tanımaqdan məhrum edib. Bundan başqa, bütün peyğəmbərlərin insanları təkAllahlığa dəvət etməsi ikinci Allahın fərz edilməsi ilə uyğun gəlmir. Çünki peyğəmbərləri göndərən bir Allahın yalan danışıb insanları təkAllahlı olmağa çağırması qeyri-

[1994] Nümunə, c.21, səh.295
[1995] Nümunə, c.21, səh.302

mümkündür. Çünki bu da onun hikmət və müdrikliyi ilə düz gəlmir. Əlbəttə, Allahın təkliyini sübut edən başqa dəlillər də mövcuddur. Ancaq bütün peyğəmbərlərin insanları tək olan Allaha doğru çağırması da müstəqil dəlillərdən biridir.[1996] Buna görə də ***"Mənə göstərin görüm, sizin Allahdan başqa tapındıqlarınız yer üzündə nə yaratmışlar?"*** cümləsi ilə əqli dəlilə, ***"Əgər doğru danışırsınızsa, (sözlərinizin doğruluğunu sübuta yetirmək üçün) mənə bundan əvvəl (nazil olmuş) bir kitab və ya keçmişdəkilərinə aid bir elmi əsər gətirin"*** cümləsi ilə nəqli dəlilə, ***"keçmişdəkilərinə aid bir elmi əsər"*** cümləsi ilə peyğəmbərlərin və onların icraçılarının ənənəsinə, keçmiş alimlərin əsərlərinə işarə edilmişdir. İmam Baqir (ə) "elmi əsər" ifadəsini təfsir edərkən buyurmuşdur: ***"Burada peyğəmbərlərin canişinlərinin elmi nəzərdə tutulmuşdur".***[1997]

[1996] Quranın ismarışı, c3, səh.199
[1997] Nümunə, c.21, səh.302

6. İnsanlar bir yerə toplanılacaqları zaman məbudları onlara düşmən kəsiləcək, hətta ibadətlərini inkar edəcəklər.

7. Açıq-aydın ayələrimiz onlara oxunduğu zaman kafirlər onlara gəlmiş həqiqət qarşısında dayanıb: “Bu, açıq-aşkar bir sehrdir!” – deyirlər.

8. Yaxud: “Bu ayələri Allahın adından uydurub!” – deyirlər. De: “Əgər mən onu Allahın adından uydurmuşamsa, siz məni Allahdan qoruya bilməzsiniz. O sizin etdiyiniz əməllərdən daha yaxşı xəbərdardır. Allahın mənimlə sizin aranızda şahid olması yetər. O, bağışlayandır, rəhmlidir”.

9. De: “Mən təzəcə zühur etmiş bir peyğəmbər deyiləm. Mənim və sizin başınıza nə gələcəyini də bilmirəm. Mən yalnız mənə vəhy olunana tabe oluram. Mən yalnız açıq-aşkar qorxudanam!”

10. De: “Mənə deyin görüm, əgər bu Quran Allah tərəfindən olsa və siz də onu inkar etmiş olsanız, halbuki İsrail oğullarından biri də ona şahidlik edib iman gətirsə, siz isə təkəbbür göstərsəniz (sizdən zülmkar adam olarmı)? Allah zalımları doğru yola yönəltməz!”

11. Kafirlər möminlər haqqında belə dedilər: “Əgər (İslam) yaxşı bir şey olsaydı, onlar bunda bizi qabaqlaya bilməzdilər!” Bunun vasitəsilə doğru yola gəlmədikləri üçün: “Bu, köhnə bir yalandır!” – dedilər.

12. Ondan əvvəl Musanın rəhbər və rəhmət olan Kitabı var idi. Bu isə zalımları qorxutmaq və yaxşı iş görənlərə müjdə vermək üçün ərəb dilində, fəsih və aydın şəkildə nazil edilmiş, Tövratın əlamətləri ilə uyğunluq təşkil edən bir Kitabdır.

13. “Rəbbimiz Allahdır!” – deyib sonra düz yol tutanlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər.

14. Onlar Cənnət əhlidirlər və etdikləri əməllərin əvəzi olaraq orada əbədi qalacaqlar.

---

9. Müşriklərin iradlarının çoxuna bir cavab: Bu ayənin çox qısa, eyni zamanda dərin məzmunlu cümlələri müşriklərin iradlarının çoxuna bir cavabdır. Bəzən müşriklərə adi bir insanın Allahla əlaqə yarada bilməsi təəccüblü gəlirdi. Bəzən deyirdilər ki, nə üçün o yemək yeyir, küçə və bazarları gəzir, bəzən ondan əcaib möcüzələr göstərməsini istəyir, hər adam bir şey arzu edirdi. Bəzən Peyğəmbərin (s) qeyb elminin mədəni olduğunu hesab edib gələcəkdə baş verəcək bütün hadisələri onlara danışmasını istəyirdilər. Bəzən onun təkAllahlıq və məbudun yeganə olması inancına çağırış etməsinə təəccüblənirdilər. Allah-taala bu ayə vasitəsilə bütün bəhanələrə cavab verərək buyurur: "De: "Mən təkAllahlıq dininə çağıran ilk adam deyiləm. Məndən qabaq çoxlu peyğəmbərlər gəlib, hamısı da insan olub, hamısı paltar geyinib, yemək yeyib, heç biri də qeybi qeyd-şərtsiz olaraq bildiyini iddia etməyib. Hamısı qeyb hadisələrindən Allahın öyrətdiyi qədər xəbərdar olub. Onların heç biri insanların nəfsani istəklərindən qaynaqlanan təklifləri qarşısında təslim olmayıb. Hər kəs bilməlidir ki, Peyğəmbər (s) də Allahın bəndələrindən biridir. Onun da elmi və qüdrəti Allahın verdiyi miqyasla məhdudlaşır. Mütləq olan sonsuz elm və qüdrət Allaha məxsusdur." İnsanların yersiz iradlara son qoyması üçün bunlar onların bilməli olduqları gerçəklərdir. Peyğəmbərin (s) qeybi bildiyi qeyd edilən ayənin bu ayə ilə təzad təşkil etmədiyini diqqətdən qaçırmamalıyıq. Çünki bu ayə qeyd-şərtsiz, mütləq, başqa sözlə desək, müstəqil bilməni inkar edir. Ancaq digər ayələrdə Peyğəmbərin (s) qeybdən Allahın təlimatı ilə xəbərdar olduğu buyurulur.[1998]

10. İsrail oğullarından Quranın düzlüyünə şahid: Təfsirçilərin çoxu qeyd edir ki, həmin adam Mədinədə iman gətirib müsəlmanlara qoşulmuş

[1998] Nümunə, c.21, səh.310

məşhur yəhudi alimi Abdullah ibn Salam olmuşdur. O, Peyğəmbər (s), müsəlmanlardan bir nəfər və bir qrup yəhudinin olduğu bir məclisdə öncə yəhudilərdən onun Tövratı onlardan yaxşı bildiyini öz dilləri ilə təsdiq etmələrini istəyir, bundan sonra İslam peyğəmbərinin (s) peyğəmbər olduğunu təsdiq edir, onun Tövrat və İncildə haqqında müjdə verilən peyğəmbər olduğuna şahidlik edir, sonra İslamı qəbul edir və oranı Peyğəmbərlə (s) birlikdə tərk edir.[1999]

11. Ehtiraslarının köləsi olmuş varlıların dinlə bağlı məntiqləri: Təfsirçilər bu ayənin nazilolma səbəbi ilə bağlı bir neçə versiya qeyd etmişlər. Onların hamsının məcmusundan belə başa düşülür ki, yoxsul, səhranişin, kasıb təbəqə İslamı çox sürətlə qarşıladı. Çünki onların nə təhlükəyə məruz qalacaq qeyri-qanuni mənfəətləri var idi, nə də beyinləri təkəbbür havası ilə dolmuşdu, digər tərəfdən isə, onların qəlbi əyyaş və ehtiras düşkünü olan varlıların qəlbindən çox-çox təmiz idi. Bu təbəqənin İslama isti qucaq açması Allah dininin ən güclü cəhətlərindən idi. Halbuki bu cəhət özlərini hər kəsdən yuxarı tutan müşriklər üçün zəif cəhət hesab edilirdi. Onlar deyirdilər: Bu nə dindir ki, onun davamçıları səhrada yaşayan yoxsul və kasıblar, kənizlər və qullardır? Əgər məntiqli bir məktəb olsaydı, cəmiyyətin aşağı təbəqəsi onu əsla qarşılamamalı, yüksək təbəqənin adamları, cəmiyyətin yanan çırağı olan bizlər isə geri qalmamalı idik. Din haqqındakı bu azğın və yanlış təfəkkür tərzi bu gün də özündənrazı varlılar və ehtiras düşkünü olan imkanlılar arasında geniş yayılıb. Onlar deyirlər ki, din yoxsul və ayaqyalın adamlar üçündür, ümumiyyətlə, onlar bir-biri üçün

[1999] Nümunə, c.21, səh.313

yaxşıdır, biz daha yüksək təbəqənin adamlarıyıq. Quranın bu ayəsində Allah-taala onlara yetərli cavab verir.[2000]

15. Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik. Anası onu (bətnində) əziyyətlə daşımış və əziyyətlə doğmuşdur. Onun (bətndə) daşınma və süddən ayrılması otuz ay çəkir. Nəhayət, o, güc və inkişafın yüksək həddinə yetişib qırx yaşa çatdıqda deyər: "Ey Rəbbim! Mənə, ata və anama bəxş etdiyin nemətə şükür etmək və Sənin razı qalacağın yaxşı işlər görmək üçün mənə kömək et, övladlarımı da əməlisaleh et. Mən Sənə doğru qayıdıram. Mən müsəlmanlardanam!"

[2000] Nümunə, c.21, səh.317

16. Belələri, əməllərinin ən yaxşısını qəbul edəcəyimiz, günahlarından keçəcəyimiz və Cənnət əhli içərisinə daxil edəcəyimiz şəxslərdir. Bu onlara verilmiş doğru vəddir.

17. Kimisi də ata-anasına: “Off sizin əlinizdən! Məndən əvvəl neçə-neçə nəsillər gəlib-getdiyi halda, Qiyamət günü siz mənim çıxarılacağımı vəd edirsiniz?” – deyər. Onlar fəryad qoparıb Allahdan sürəkli yardım diləyəcək və deyəcəklər: “Vay sənin halına! İman gətir, Allahın vədi haqdır!” O isə deyəcək: “Bunlar keçmişdəkilərin əfsanələrindən başqa bir şey deyildir!”

18. Belələri o kəslərdir ki, onların əzab fərmanı onlardan əvvəl gəlib-getmiş cin və insanlardan olan qövmlərlə birlikdə gerçəkləşmişdir. Çünki onlar hamısı ziyana uğrayanlardır.

19. Allahın onlara əməllərinin əvəzini tam verməsi və heç bir haqsızlıq etməməsi üçün onların hər birinin etdiyi əməllərə görə dərəcələri vardır.

20. Kafirlər odun qarşısına gətiriləcəkləri gün (onlara deyiləcəkdir:) “Siz dünya həyatınızda pak nemətlərinizdən istifadə edib zövq aldınız. Bu gün isə siz yer üzündə haqsız olaraq təkəbbür göstərdiyinizə və günah etdiyinizə görə alçaldıcı əzabla cəzalandırılacaqsınız!”

-

15. Ey insan, ata və anana yaxşılıq et: Bu ayədə bütün insanlara ata və analarına yaxşılıq etmələri tövsiyə edilir, stimul vermək üçün ananın hamiləlik, hamiləlikdən azad olma və süd verdiyi dövrlərin çətinlikləri xatırladılır. Ayədə “otuz ay” deməklə hamiləlik müddətinin minimum həddinə - altı ay və üstə gəl, süd vermə müddətinin maksimum həddi olan iki illik dövrə işarə edilmişdir. Hamiləliyinin altı ayında azad olan

xanımlara, dünyaya gələn uşağın da sağlam olmasına çox təsadüf edilmişdir.[2001] Hər halda qadın minimum otuz ay ərzində böyük fədakarlıq göstərib övladı üçün çox çətinliklərə dözür. Nütfənin tutduğu ilk günlərdən başlayaraq ananın vəziyyəti dəyişir, çətinliklər bir-birini əvəzləməyə başlayır. Döl böyüdükcə ananın canının şirəsini daha çox tükədir, hətta əsəblərinə və sümüklərinə təsir göstərir, tez-tez ananın yuxusunu, yeməyini, istirahətini, rahatlığını əlindən alır, hamiləliyin son dövrlərində yerimək, hətta oturmaq və durmaq ana üçün çətinləşir. Ancaq ana səbr və hövsələ göstərir, yüksək sevgi ilə onu dünyaya gətirir. Uşaq tezliklə gözünü açıb anasının üzünə gülümsəyən kimi hamiləliyin bütün çətinlikləri yadından çıxır. Hamiləlik dövrü ananın həyatının ən çətin dövrlərindən biridir. Hətta bəzən elə olur ki, ana canını övladına tapşırır. Hər halda bu ağır yük yerə qoyulduqdan sonra onun digər çətin dövrü başlayır. Bu dövrdə ana gecə-gündüz övladını gözdən qoymamalıdır, bu elə bir dövrdür ki, ana heç bir ehtiyacını deyə biləcək gücdə olmayan körpəsinin bütün ehtiyaclarını ödəməlidir. Bu mərhələdə körpənin ağrısı olduqda ağrıyan yerini göstərə bilmir, aclıq, susuzluq, isti və soyuqdan əziyyət çəkdikdə dərdini dilə gətirib deyə bilmir, bildiyi şey elə hey ağlamaqdır. Ana ayıqlıq, səbr və hövsələ göstərib körpənin ehtiyaclarını tək-tək təmin etməlidir. Quranın burada ananın çətinliklərindən söz açıb, atanın əziyyətlərinə işarə etməməsi atanın mövqeyinin yüksək olmaması ilə bağlı deyil. Sadəcə, ananınm əzabları çox olduğu üçün Allah burada onu daha çox qabartmışdır. Məhz buna görədir ki, hədislərdə də anaya daha çox yer verilmişdir. Ayədə diqqət çəkən məqamlardan biri qırx yaş həddidir. Ümumiyyətlə, bu nüans qırx yaşındakı insanın adətən əqli cəhətdən daha çox kamilləşməsi ilə bağlıdır.

[2001] Əl-Mizan, c.18, səh.205

Peyğəmbərlərin əksəriyyətinə də peyğəmbərlik vəzifəsi məhz bu yaşda verilmişdir. Hədislərin birində belə deyilir: "Şeytan əlini qırx yaşına çatıb tövbə etməyənin üzünə çəkərək deyir: Heç vaxt nicat tapmayacaq surətə atam qurban."[2002]

20. Zahidlik axirət üçün bir ehtiyatdır: Şübhəsiz ki, Allahın bu dünyadakı nemətlərindən istifadə etmək heç də pis hal deyil. Ən pis cəhət maddi ləzzətlərə batmaq, Allahı xatırlamağı, Qiyaməti unutmaq, dünya nemətlərindən tamamilə qeyd-şərtsiz istifadə, başqalarının hüquqlarını qəsb etməkdir. Nəzər nöqtəsi olan ifadəyə Quranın yalnız bu ayəsində rast gəlinir. Belə ki, insan bəzən dünya nemətlərinə göz yumur, ya da Allahın buyurduğu əmrləri yerinə yetirmək üçün onlardan ehtiyacı qədər götürür. Belə olan halda həmin nemətləri axirəti üçün azuqə saxlamış olur. Ancaq çox vaxt dördayaqlılar kimi heç bir qeyd-şərtsiz onlardan istifadə edir, hamısını məhv edib dağıdır, axirət azuqəsini darmadağın etməklə yanaşı özü üçün günah xurcunu da hazırlayır. Bir gün möminlərin əmiri İmam Əli (ə) yumşaq çörəklə ciyərdən hazırlanmış bir yemək yeyir. Bu yeməyin üzərindən bir il keçir, ancaq İmam (ə) həmin il ərzində o yeməkdən bir də yemir. Bir gün oruc olduğu vaxt İmam Həsənə (ə) həmin yeməkdən hazırlamasını istəyir. Həmin yeməklə iftarını açmaq istədikdə qapıya bir dilənçi gəlir. İmam (ə) buyurur: ***"Oğlum, bu yeməyi apar ver ona ver ki, Qiyamət gününün sabahısı əməl dəftərimizdən: "Siz dünya həyatınızda pak nemətlərinizdən istifadə edib zövq aldınız", - cümləsi oxunmasın."***[2003]

[2002] Nümunə, c.21, səh.326
[2003] Nümunə, c.21, səh.346

21. Ad qövmünün qardaşını (Hudu) xatırla! Bir zaman o Əhqaf diyarında özündən əvvəl yaxın və uzaq keçmişlərdə çoxlu peyğəmbərlərin gəlib: “Allahdan başqasına ibadət etməyin!” – deyə qorxutduğu qövmünə: “Mən sizə üz verəcək böyük günün əzabından qorxuram!” – deyə qorxu gəlmişdi.

22. Onlar isə demişdilər: “Sən (öz yalanlarınla) bizi məbudlarımızdan döndərməyəmi gəlmisən? Əgər doğru danışanlardansansa, bizə vəd etdiyin əzabı gətir!”

23. Dedi: “Bu haqda məlumat təkcə Allaha məxsusdur. Mən sizə yalnız mənimlə göndəriləni təbliğ edirəm. Lakin mən sizin sürəkli olaraq cəhalət içində qalan bir qövm olduğunuzu görürəm”.

24. Nəhayət onun (əzabın) vadilərinə və su bəndlərinə doğru bir bulud şəklində gəldiyini gördükdə (sevinc içində): “Bu bizə yağış yağdıracaq buluddur!” – dedilər. (Ancaq onlara deyildi:) “Xeyr! Bu sizin gəlməsinə tələsdiyiniz – özü ilə ağrılı-acılı əzab gətirən bir küləkdir!

25. O öz Rəbbinin əmri ilə hər şeyi yerlə-yeksan edəcəkdir!" Onlar evlərindən başqa heç bir şeyin gözə dəymədiyi bir halda səhəri açdılar. Biz günahkar adamları belə cəzalandırırıq.

26. Sizə vermədiyimiz qüdrəti Biz onlara vermişdik. Onlara qulaq, göz və qəlb vermişdik. Lakin (əzab nazil olanda) nə qulaqları, nə gözləri, nə də qəlblərinin onlara heç bir faydası olmadı. Çünki onlar Allahın ayələrini inkar edirdilər. İstehza edib ələ saldıqları onları yaxaladı.

27. Biz sizin ətrafınızda olan şəhərləri məhv etdik. Ayələrimizi onlara müxtəlif formalarda izah etdik ki, bəlkə dönələr.

28. Bəs nəyə görə Allaha yaxınlaşdıracağını güman edərək seçdikləri məbudlar onlara kömək etmədi? Əksinə, onlardan uzaqlaşıb yox oldular. Bu onların iftiraları və uydurmalarının nəticəsidir.

---

21. Əhqaf diyarı: "Əhqaf" küləklərin əsməsi nəticəsində səhralarda əyri-üyrü düzbucaqlı şəklində bir-birinin üzərinə qalaqlanmış çınqıllara deyilir. Deməli, Ad qövmünün məskunlaşdığı ərazi qumluq yer olmuşdur. Bu ərazinin harada yerləşməsi ilə bağlı müxtəlif versiyalar irəli sürülmüşdür. Bu versiyalar arasında daha ağlabatanı Ərəbistan yarımadasının cənubu, Yəmən yaxınlığında bir ərazidir.[2004]

24-25. Ad qövmünə göndərilən əzabla bağlı bəzi nüanslar: Təfsirçilərin yazdığına görə, onların məskunlaşdıqları ərazilərə uzun müddət yağış yağmır, nəticədə, hava isti, quru və boğucu vəziyyət alır. Ad qövmü uzaq üfüqlərdən onların səmasına doğru iri və qara buludların gəldiyini görüb çox sevinir, onları qarşılamağa tələsir, bərəkətli yağışın yağmasına tamaşa edib ruhlarını təzələmək üçün vadilərin, arxların ətrafına toplaşır.

[2004] Nümunə, c.21, səh.351

Ancaq onlara bunun yağış olmadığı, gəlməsinə tələsdikləri həmin vəd olunan əzab olduğu xəbər verilir. Nəhayət, dağıdıcı tufan qopur, onların özlərini və mallarını məhv edir, cəsədlərini və mallarını uzaq-uzaq səhralara və dəniz sahillərinə səpələyir. Deyilənlərə görə onlar bir də toz-torpaqlı tufan onların ərazilərinə çatıb heyvanları, çobanları, onların çadırlarını havaya qaldıranda ayılırlar. Tufan onları o qədər yüksəyə qaldırır ki, havada sanki çəyirtkə sürüsünü xatırladırlar. Onlar bu səhnəni gördükdə evlərinə qaçıb qapılarını bağlayırlar. Amma külək qapıları yerindən qoparır, onların özlərini havaya qaldırıb ya yerə çırpır, ya da özü ilə uzaqlara aparır, qum təpəciklərini onların meyidləri ilə örtür. Allah-taala "Haqqə" surəsinin 7-ci ayəsində belə buyurur: ***"Allah bu dağıdıcı tufanı yeddi gecə, səkkiz gün fasilə vermədən onların üstündə əsdirdi. (Əgər sən orada olsaydın,) o tayfanı xurma ağacının yıxılmış çürük gövdələri kimi yerə sərilmiş görərdin."*** Onlar qum təpələrinin altında durmadan nalə çəkib inildəyirdilər. Allah külək əsdirib qumları kənara çəkir, yenidən bədənləri aşkara çıxır, onları götürüb dənizə tökür.[2005]

27. Sizin ətrafınızdakı şəhərləri məhv etmək: Allah Məkkə ətrafında məskunlaşmış, naşükürlük və nankorluq etdiklərinə görə əzaba düçar olmuş bir neçə qövmü xatırladır. Ad qövmü Ərəbistan yarımadasının cənubunda Əhqaf ərazisində, Səmud qövmü yarımadanın şimalında Hicr adlı ərazidə, Səba qövmü Yəməndə, Lut qövmü onların Şam istiqamətində olan yolları üzərində, Şüeybin qövmü Mədyəndə yaşayırdı. Şüeybin qövmü də çoxlu günah və nankorluq etdiyi üçün müxtəlif əzablara düçar olmuşdur.[2006]

[2005] Nümunə, c.21, səh.355
[2006] Nümunə, c.21, səh.361

Sonumidtv.az

29. Bir zaman bir dəstə cini Quranı dinləmək üçün sənin yanına yolladıq. Gəlib çatdıqdan sonra bir-birlərinə: “Susun və dinləyin!” – dedilər.

(Quran oxunub) qurtardıqdan sonra isə öz tayfalarının yanına qayıdıb onları xəbərdar etdilər.

30. Dedilər: “Ey qövmümüz! Biz, Musadan sonra nazil edilmiş, özündən əvvəlkiləri təsdiqləyən, haqqa və düz yola yönəldən bir Kitab dinlədik!

31. Ey qövmümüz! Allahın dəvətçisini qəbul edin və ona iman gətirin ki, günahlarınızı bağışlasın və sizi ağrılı-acılı əzabdan qurtarsın!”

32. Allahın dəvətçisini qəbul etməyən şəxs yer üzündə Allahın əzabından yaxa qurtara bilməz və Allahdan başqa onun yar və yoldaşı da olmaz. Bu cür adamlar aşkar azğınlıq içindədirlər.

33. Məgər onlar göyləri və yeri yaradan, onları yaratmaqla zəifləməyən Allahın ölüləri də diriltməyə qadir olduğunu görmürlərmi? Bəli, O, hər şeyə qadirdir.

34. Kafirlərə Odun qarşısına gətirilib: “Məgər bu, həqiqət deyilmi?” – (deyiləcəyi), onların: “Bəli, Rəbbimizə and olsun ki, (həqiqətdir!)” – deyə cavab verəcəkləri. (Allahın da): “Küfr etdiyinizə görə dadın əzabı!” – deyə xitab edəcəyi günü xatırla!

35. Sən ülül-əzm peyğəmbərlər səbr etdikləri kimi səbrli ol! Onlar üçün (əzab istəməyə) tələsmə. Onlara vəd olunanları gördükdə (dünyada) günün yalnız bir saatı qədər qaldıqlarını sanacaqlar. Bu, hamıya ünvanlanmış bir elandır. Heç fasiq adamlardan başqası məhv olarmı?

29-32. Cin tayfası iman gətirir: Bu ayənin nazil olma səbəbi ilə bağlı müxtəlif hədislər mövcuddur. Hədislərin birində belə qeyd edilir: Allah rəsulu (s) insanları İslama dəvət etmək məqsədilə Zeyd ibn Harisə ilə birlikdə Məkkədən Taifin Okaz bazarına gəlirlər. Ancaq heç kəs onun

çağırışını qəbul etmir. Əlacsız qalan Peyğəmbər (s) Məkkəyə qayıdır, "Cin vadisi" adlanan yerə çatdıqda gecənin qaranlığında Quran oxumağa başlayır. Həmin vaxt oradan bir dəstə cin keçirmiş. Peyğəmbərin (s) Quran oxuduğunu görüb ona qulaq asır, bir-birlərinə "Susun!" deyirlər. Peyğəmbər (s) Quranı oxuyub başa vurduqdan sonra onlar iman gətirir, bu həqiqəti öz tayfalarına çatdırmaq üçün tayfalarına doğru yollanır və onları İslama dəvət edirlər. Bu çağırışı müsbət qarşılayan bir dəstə cin iman gətirir və təbliğatçılara qoşulub Peyğəmbərin (s) yanına gəlir. Peyğəmbər (s) İslam dinini onlara öyrədir. Bu ayələr və "Cinn" surəsi də məhz elə burada nazil olur. Bu ayədə diqqət çəkən məqamlardan biri təbliğatçı cinlərin öz tayfaları arasında tətbiq etdikləri metoddur. Onlar Peyğəmbərin (s) yanına gəldikdən, Quranı eşitdikdən və onun mahiyyətini dərk etdikdən sonra sürətlə öz tayfalarının yanına gedib İslamı təbliğ edirlər. Öncə Quranın haqq və həqiqət olduğunu söyləyib iddialarını üç dəlillə sübuta yetirir, sonra onları bu dinə həvəsləndirir, sonda isə axirət əzabından xilas olmanın yeganə yolunun dünyanın keçici dəyərlərindənsə axirətin həqiqi dəyərlərinə və qayıdışa daha çox əhəmiyyət verən bu səmavi kitab olduğunu söyləyirlər. Üçüncü mərhələdə imanı tərk etmənin təhlükələrini onlara xatırladır, dəlil-sübutlar və canıyananlıqla onları xəbərdar edir, bu yoldan sapmanın sonunun aşkar azğınlıq olduğunu bəyan edirlər. Şübhəsiz ki, bu metod hər kəsə və hər topluma təsir edə biləcək bir metoddur.[2007]

35. Ülül-əzm peyğəmbərlər: Bu ayədə "Ülül-əzm" deyilərkən hansı peyğəmbərlərin nəzərdə tutulması ilə bağlı müxtəlif fikirlər söylənmişdir. "Əzm" sözünün mənası möhkəm və sarsılmaz iradə deməkdir. Deməli, ülül-əzm möhkəm və sarsılmaz iradəsi olana deyilir. Yeni şəriət və yeni ayin

[2007] Nümunə, c.21, səh.365

sahibi olan peyğəmbərlər daha böyük çətinliklərlə qarşılaşdıqları üçün onlara daha möhkəm iradə və əzmkarlıq lazımdır. Buna görə də onlara əzm sahibi olan peyğəmbərlər deyilmişdir. Nəzər nöqtəsi olan bu ayədə də həmin mənaya işarə edilmişdir. Ayə və hədislərə əsasən ülül-əzm peyğəmbərlər bunlardır: Həzrət Nuh (ə), Həzrət İbrahim (ə), Həzrət Musa (ə), Həzrət İsa (ə), Həzrət Muhəmməd (s). Hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: Peyğəmbər və elçilərin ən böyükləri beş nəfərdir. Onlar ülül-əzm peyğəmbərlərdir. Peyğəmbərlik və nəbilik dəyirmanın çarxı onların varlığın ətrafına fırlanır. Onlar Nuh, İbrahim, Musa, İsa və Muhəmməddir (hamısına salam olsun).” Bu peyğəmbərlərin, xüsusilə İslam peyğəmbərinin həyatı onların güclü tufanlar, əzab-əziyyətli hadisələr, güc tükədən problemlər qarşısında hədsiz dərəcədə dözümlü olduğunu göstərir. Haqq yol hər zaman problem və çətinliklərlə müşayiət olunduğu üçün haqq yolunun yolçuları fəaliyyətlərində onlardan ilham almalıdırlar. Biz adətən, keçmiş xalqların qaranlıq günlərinə İslam tarixinin parlaq nöqtəsindən boylanırıq. Gələcəkdən keçmişə istiqamətlənən bu baxış gerçəkləri bizə başqa cür göstərir. O günləri daha yaxından hiss etmək üçün özümüzü həmin gündə təsəvvür etməliyik, peyğəmbər tək-tənha olmuşdu, hətta ən yaxın qohumları belə, ona qarşı mübarizə aparanların ön sırasında yer almışdılar, iqtisadi, siyasi və ictimai cəhətdən onu elə mühasirəyə almışdılar ki, bütün yollar onun və yoldaşlarının üzünə bağlanmışdı. Bəziləri aclıqdan həlak olmuş, bəzilərini xəstəlik əldən salmışdı. Peyğəmbərin (s) sayca az olan yoldaşlarına işkəncə verir, onu fiziki və mənəvi cəhətdən incidirdilər. Hətta özünü qətlə yetirəcək həddə gəlmişdilər, sehrbaz, dəli və şair deyə çağırır, İslamı məhv etmək üçün əllərindən gələn heç nəyi əsirgəmirdilər. Ancaq bütün bunlara baxmayaraq, Peyğəmbər (s) əzmkarlıq və dözümlülük göstərirdi. Nəhayət bu əzmkarlıq və dözümün şirin

meyvəsini dadmış, dini təkcə Ərəbistan yarımadasını deyil, bütün Şərq və Qərbi bürümüşdü. Bu gün qələbə çağırışı olan azan səsi dünyanın dörd bir tərəfindən, beş qitəsindən eşidilir. “Sən ülül-əzm peyğəmbərlər səbr etdikləri kimi səbrli ol!” cümləsinin mənası məhz budur.[2008]

"Muhəmməd" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Kafirlərin və (insanları) Allahın yolundan sapdıranların əməllərini (Allah) puça çıxarır.

2. İman gətirib yaxşı işlər görənlərin, Rəbləri tərəfindən Muhəmmədə nazil edilən və tamamilə haqq-həqiqət olana inananların isə (Allah) günahlarından keçir və işlərini düzəldir.

3. Bu ona görədir ki, kafirlər batilə uymuş, iman gətirənlər isə öz Rəblərindən gələn həqiqətə tabe olmuşlar. Beləcə, Allah insanlara onlara aid misallar çəkir.

[2008] Nümunə, c.21, səh.377

4. Döyüş meydanında (cinayətkar) kafirlərlə qarşı-qarşıya gəldiyiniz zaman boyunlarını vurun. Nəhayət, düşməni yetərli qədər qırıb zəiflətdikdən sonra əsirləri möhkəm bağlayın. Sonra ya (azad etməklə) onlara minnət qoyun, ya da fidyə alıb azad edin. Müharibəyə son qoyulanadək (bu vəziyyət davam etdirilsin). Proqram bax budur! Əgər Allah istəsəydi, özü onları cəzalandırardı. Lakin O sizi biri-birinizlə sınağa çəkmək istəyir. Allah Öz yolunda öldürülənlərin əməllərini heç vaxt boşa çıxartmaz.

5. Tezliklə onları doğru yola yönəldib vəziyyətlərini yaxşılaşdıracaq.

6. və onları haqqında danışdığı Cənnətə daxil edəcəkdir.

7. Ey iman gətirənlər! Əgər siz Allaha (Onun dininə) kömək göstərsəniz, O da sizə köməklik göstərər və addımlarınızı möhkəmlədər.

8. Kafirlərə ölüm olsun! Əməlləri puça çıxsın!

9. Bu ona görədir ki, onlar Allahın nazil etdiyinə nifrət etdilər, O da onların əməllərini puça çıxartdı.

10. Məgər onlar yer üzündə gəzib dolaşıb özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmürlərmi? Allah onları həlak edib. Kafirlərə də buna bənzər əzablar olacaq.

11. Bu ona görədir ki, Allah möminlərin rəhbəri və himayəçisidir. Kafirlərin isə heç bir himayəçisi yoxdur.

“Muhəmməd” surəsinin ümumi məzmunu: Bu surədə kafirlərin mənfur xüsusiyyətləri ilə möminlərin gözəl xüsusiyyətləri və yaxşı davranışları müqayisə edilir, kafirlərin acı aqibəti, möminlərin xoşbəxt sonu

haqqında məlumat verilir. Bununla yanaşı cihadın bəzi qaydaları da bəyan edilir.[2009]

4. İslamda quldarlıq: Bu ayəyə görə müharibədə əsir götürülmüş adamları öldürmək olmaz. Müsəlmanların rəhbəri müəyyən şərtlər daxilində onların bəzisini heç bir əvəz ödənilmədən, bəzilərini isə müəyyən əvəz müqabilində azad edir. Bu əvəz əslində düşmənin ödəməli olduğu bir kompensasiyadır. İslamda bunlardan başqa üçüncü bir hökm də var ki, həmin hökmə əsasən döyüşdə götürülmüş əsirlər qula çevrilir. Əlbəttə, bu məcburi hökm deyil, yalnız İslam rəhbəri xüsusi şərtlər daxilində lazım bildiyi təqdirdə bu qayda tətbiq edilir. Bəlkə də məhz elə buna görədir ki, Quranda bu mövzu açıq şəkildə qeyd edilməmiş və bu haqda yalnız hədislərdə məlumat verilmişdir. Quldarlıq İslam peyğəmbərinin (s) zamanında mövcud olmuşdur. Bəziləri bunu İslama nöqsan tutaraq bildirirlər ki, İslam özündə bu qədər yüksək insani dəyərləri ehtiva etdiyi halda, nə üçün quldarlığı ləğv etmədi? Qəti və ümumi hökm verərək qulların qeyd-şərtsiz azadlıqlarını elan etmədi? Yaddan çıxarmamalıyıq ki, şəxsin və ya cəmiyyətin dərinliklərinə qədər kök atmış hər hansı yanlış bir ənənəni kökündən qoparıb ləğv etmək üçün tədrici proqram lazımdır. Əks təqdirdə, həmin ənənənin gözlənilmədən ləğv edilməsi mənfi nəticələr verir. O dövrdə quldarlıq cəmiyyətlərin əsas ənənəsi hesab edilirdi, insanların əksər hissəsini qullar təşkil edirdi. Əgər İslam ümumi şəkildə bütün qulların azad olduğunu elan etsəydi, gözlənilmədən böyük bir işsizlər ordusu yaranacaqdı, nəticədə onların öz həyatları təhlükəyə düşəcəkdi, cəmiyyət darmadağın olacaqdı, məhrumiyyət təzyiqləri hər tərəfi bürüyəcəkdi, hər tərəfdə qarşıdurmalar yaranacaq, qan töküləcəkdi. Buna görə də onlar tədricən azad edilməli,

---

[2009] Əl-Mizan, c.18, səh.225

cəmiyyətə hazır şəkildə transfer edilməli idilər. Bununla da həm onların özləri, həm cəmiyyət məhv olma təhlükəsindən xilas olmalı idi. İslam quldarlığın mənbəyini bağlamış, yalnız müharibədə götürülən əsirlərin qul edilməsinə icazə vermişdi. Bu da məcburi xarakter daşımırdı. Bunun da səbəbi həmin vaxt həbsxanaların olmaması ilə izah edilir. Yəni vəziyyətləri aydınlaşana qədər əsirləri saxlamaq üçün yerlər yox idi. Yeganə çıxış yolu onları ailələr arasında bölüşdürb qul kimi saxlamaq idi. Təbii ki, bu şərait əvəzləndiyi təqdirdə müsəlmanların rəhbərinin əsirlərin qul edilməsinə hökm verməyə heç bir ehtiyac olmazdı. Müəyyən şərtlər altında onları ya fidyə ilə, ya da fidyəsiz azad etdirərdi. Ümumiyyətlə, İslam qulların azad edilməsi ilə bağlı çox böyük bir proqram tənzimləmişdir. Əgər müsəlmanlar həmin proqrama əməl etsəydilər, çox qısa zaman ərzində bütün qullar azad edilib İslam cəmiyyətə transfer edilərdilər. Bu proqramın bəzi əsas prisipləri bunlardır: 1. Zəkatın sərf olunduğu yerlərdən biri qul azad etməkdir: 2. Qullar öz sahibləri ilə bağladıqları müqaviləyə əsasən öz məvaciblərindən azad edilə bilərdilər: 3. Qul azad etmək İslamda ən mühüm ibadətlərdən və ən xeyirli əməllərdən hesab edilir. İslam öndərləri bu işdə hər kəsdən öndə getmiş, qul azad etmək üçün kiçik bir bəhanə gəzmişlər. 4. İslamda bir çox qayda pozuntularının cəzası qul azad edilmə təyin edilmişdir. Orta əsrlərdə qullar öz azadlıqlarına İslamın hesablanmış proqramı əsasında nail olmuşlar. İslam onların hüquqlarını bərpa etmək üçün böyük addımlar atmış, onlara yüksək ehtiram göstərmişdir. Belə ki, Peyğəmbər (s) belə buyurmuşdur: “İnsan əlinin altında olan qardaşına öz yediyindən verməli, öz geyindiyindən geydirməli, onu gücü çatdığından artığı ilə yükləməməlidir.”[2010]

[2010] Nümunə, c.21, səh.412

12. Allah iman gətirib yaxşı işlər görənləri ağacları altından çaylar axan Cənnət bağlarına daxil edər. Kafirlər isə dünyanın ötəri ləzzətindən istifadə edər, heyvan kimi yeyib-içərlər. Sonda onların yeri Oddur!

13. Səni qovub çıxaran şəhərindən daha qüvvətli neçə-neçə şəhərlər var idi ki, Biz onları məhv etdik və onlara bir kömək edən də olmadı.

14. Öz Rəbbi tərəfindən (vəhy edilmiş) aydın dəlilə istinad edən şəxs əməllərinin çirkinliyi gözünə gözəl göstərilən və nəfslərinə uyan şəxs kimi ola bilərmi?!

15. Müttəqilərə vəd olunan Cənnətin vəsfi belədir; orada qoxumayan saf və xalis sudan çaylar, dadı dəyişməyən süddən çaylar, içənlərə ləzzət verən (pak) şərabdan çaylar və süzülmüş baldan çaylar vardır. Orada onları hər cür meyvə və Rəbləri tərəfindən bağışlanma gözləyir. Məgər onlar od içində həmişəlik qalan və işlərini parça-parça edən qaynar su içirdiləcək şəxslər kimi ola bilərlərmi?

16. Onların arasında səni dinləyənlər də var. Ancaq sənin yanından çıxdıqda elm verilmiş şəxslərə istehza ilə deyərlər: “İndi (bu kişi) nə dedi?” Bunlar o adamlardır ki, Allah onların qəlbinə möhür vurmuş, özləri də nəfslərinə tabe olmuşlar.

17. Doğru yolla gedənlərə gəldikdə isə, (Allah) onlara hidayətini artırar və onlara təqva ruhu bağışlayar.

18. Məgər onlar (kafirlər) yalnız Qiyamətin qəfildən gəlməsini (və onların məhz bundan sonra iman gətirməsini) gözləyirlər? Artıq onun əlamətləri gəlmişdir. Ancaq gəlib yetişdiyi zaman xatırlamalarının (və imanlarının) onlara heç bir faydası olmayacaq?

19. Bil ki, Allahdan başqa heç bir məbud yoxdur. Həm özünün, həm də mömin kişilərlə mömin qadınların günahlarının bağışlanmasını dilə. Allah gəzib-dolaşdığınız yeri də, qərarlaşdığınız məskəni də bilir.

---

15. Cənnətdəki dörd çay: Ayələrdən Cənnətdə hər birinin özünəməxsus dad və faydası olan müxtəlif çay və bulaqların mövcud olduğu məlum olur. Nəzər nöqtəsi olan ayədə onların dördünün adı çəkilmişdir. Bu dörd növün adı çəkilərkən "çaylar" ifadəsinin işlədilməsi onların hər birinin bir deyil, çox olduğundan xəbər verir. Əslində Cənnət nemətlərinin dünya həyatına xas ifadələrlə təsvir edilməsi qeyri-mümkündür. Sözlər onları tam və dolğun şəkildə ifadə etməyə acizdir, yalnız cüzi bir bənzətmə yaratmağa kifayət edir.[2011] Bəlkə də elə ayənin orijinalında "Cənnət məsəli..." ifadəsinin işlədilməsinin səbəbi məhz budur. Yəni həqiqi Cənnət sözlərlə ifadə edilməkdən çox-çox yüksəkdə dayanır. Sadəcə onunla bağlı təsəvvür yaratmaq üçün bənzətmədən istifadə edilmişdir. "Səcdə" surəsinin 17-ci ayəsində belə buyurulmuşdur: "Etdikləri əməllərin mükafatı kimi onlar üçün gözlərinə sevinc gətirəcək nələr gizlədildiyini heç kəs bilmir."[2012] Bu ayədə dörd Cənnət çayından axan dörd içkiyə işarə edilmişdir: susuzluğu yatırtmaq

---

[2011] Nümunə, c.21, səh.442
[2012] Əl-Mizan, c.18, səh.236

üçün, su, qidalanmaq üçün süd, şadlıq, sevinc və yüksək əhval-ruhiyyə üçün pak şərab, güc və ləzzət üçün bal. Əlbəttə bu içkilər dünyadakı bənzərlərindən tamamilə fərqlənir. Dünyadakı sular bir müddət keçdikdən sonra qoxularını və dadlarını dəyişirlər, dünyadakı süd bir müddətdən sonra xarab olur, dünyadakı şərablar acı dadır, məstlik gətirir, dünyadakı ballar çox vaxt xalis olmayanla qarışır, amma Cənnət içkilərində bu qüsurların heç biri yoxdur. Cənnət elə bir yerdir ki, orada ən kiçik xoşagəlməzlik belə yoxdur.[2013]

18. Qiyamətin əlamətləri: "Əşrat" mənası əlamət olan "şərt" sözünün cəmidir. Şərt bir hadisənin baş verməsinin başqa bir fenomenin mövcudluğundan asılı olmasına deyilir. Belə ki, həmin fenomenin varlığı artıq növbəti hadisənin baş verəcəyindən xəbər verir. Deməli, Qiyamət əlamətləri Qiyamətin baş verməsi üçün zəruri olan hadisələrdir. Bəlkə də "əlamətlər" deyilərkən insanın yaranması, insan növünün əməlisaleh, günahkar, təqvalı və cinayətkarlara bölünməsi kimi həqiqətlərdir. Çünki bu təsnifatın Allahın qəti mühakiməsinə ehtiyacı vardır. Allah həmin mühakiməsində onları bir-birindən fərqləndirir, hər birinə layiq olduğu qarşılığı verir. İnsanların ölməsi Qiyamət əlamətlərindən ola bilər. Çünki Qiyamət əlamətlərindən biri hər kəsin ölümü dadmasıdır. Hamı ölməsə Qiyamət qopmaz.[2014] Bəziləri hesab edir ki, "Artıq onun əlamətləri gəlmişdir" cümləsində bütün əlamətlərin Peyğəmbər (s) zamanında nazil olması nəzərdə tutulmamışdır. Cümlədə onların Qiyamətin yaxınlaşdığından xəbər verən bəzisinin aşkar olması, qalan hissəsinin isə gələcəkdə aşkar olacağı nəzərdə tutulmuşdur. Bu versiyaya əsasən bəziləri hesab edir ki, nəzər nöqtəsi olan ayədə "Qiyamətin şərtləri" deyilərkən Peyğəmbərin (s) öz

[2013] Quranın ismarışı, c.6, səh.244
[2014] Əl-mizan, c.18, səh.240

qiyamı nəzərdə tutulur. Bunu Peyğəmbərin (s) öz hədisi də təsdiq edir: ***"Mən və Qiyamət bu ikisi kimi qaldırılmışıq".*** Peyğəmbər (s) bu cümləni dedikdən sonra orta barmaqla adsız barmağını göstərmişdir. Bəziləri Peyğəmbər (s) zamanında baş vermiş "Ayın bölünməsi" və sair kimi hadisələri bu əlamətlərdən saymışlar. Bir çox hədislərdə bəzi günahların yayılması da Qiyamət əlamətlərindən biri kimi təqdim edilmişdir. Peyğəmbər (s) buyurmuşdur: "Elmin aradan qalxıb, cəhalətin aşkar olması, şərabın içilməsi və zinanın artması Qiyamət əlamətlərindəndir." Hətta İmam Mehdinin (ə) qiyamı kimi mühüm hadisələr də Qiyamət əlamətlərindən hesab edilir.[2015]

[2015] Nümunə, c.21, səh.449

20. Möminlər: “Nə üçün (cihada dair) bir surə nazil olmur?!” - deyirlər. Ancaq döyüşdən bəhs edən açıq-aydın bir surə nazil olan kimi qəlbində xəstəlik olan münafiqlərin sənə ölüm ayağında olan adam kimi baxdığını görərsən. Ölüm onlar üçün daha yaxşıdır.

21. (Lakin) itaət və xoş söz onlar üçün daha xeyirlidir. Cihad əmri qətiləşdiyi zaman Allaha sadiq qalsaydılar, onlar üçün daha yaxşı olardı.

22. Əgər (bu göstərişlərdən) üz çevirsəniz, yer üzündə yalnız fitnə-fəsad törədəcəyiniz və qohumluq əlaqələrini kəsəcəyiniz gözləniləcək.

23. Onlar Allahın öz rəhmətindən uzaqlaşdırdığı, qulaqlarını kar və gözlərini kor etdiyi adamlardır.

24. Məgər onlar Quran haqqında düşünmürlərmi? Yoxsa qəlbləri qıfıllıdır?

25. Hidayət yolu aydınlaşdıqdan sonra haqqa arxa çevirən şəxslərin çirkin əməllərini şeytan onlara gözəl göstərib özlərini də uzun arzularla aldatdı.

26. Bu ona görədir ki, onlar Allahın nazil etdiyinə nifrət edənlərə: “Biz bəzi işlərdə sizə itaət edəcəyik!” – dedilər. Halbuki Allah onların sirlərini bilir.

27. Bəs mələklər onların üzlərinə və arxalarına vura-vura canlarını alanda halları necə olacaq?

28. Bu ona görədir ki, onlar Allahın qəzəbinə səbəb olan şeyə uydular və Onun razı qaldığı şeyə nifrət etdilər. Buna görə də (Allah) onların əməllərini puça çıxartdı.

29. Yoxsa qəlblərində xəstəlik olanlar elə hesab edirdilər ki, Allah onların kin-küdurətini üzə çıxarmayacaq?

-

20. Cihad adından qorxmaq: Bu ayədə mömin və münafiqlərin cihad əmri qarşısındakı mövqeləri təsvir edilmişdir. Öncə belə buyurulur: ***"Möminlər: "Nə üçün (cihada dair) bir surə nazil olmur?!" - deyirlər."*** Onlar cihad əmri verilən, möminlərin qəddar, qaniçən və məntiqsiz düşmənlərə qarşı necə davranacaqlarını müəyyən edən, ayələri qəlblərə hidayət nuru səpən, öz işığı ilə ruha və cana parlaqlıq bəxş edən surənin gəlməsini istəyirlər. Ancaq münafiqlər müharibə adını eşidən kimi münafiqlərin bütün varlığını qorxu və iztirab bürüyür, az qalır ürəkləri ağızlarına gəlsin. Beyinləri donur, gözlərinin qarası can verən anda hərəkətsiz və diqqətlə baxan, kiprikləri qırpmadan açıq qalmış adamın gözlərinin qarası kimi bərələ qalır. Bu, keçi ürəkli qorxaq münafiqlərin vəziyyətini ifadə edən çox gözəl bir cümlədir. Niyə də belə olmasın? Birinci qrup möhkəm imana sahib olduğu üçün həm Allahın lütfünə, diqqətinə və yardımına ümid bəsləyir, həm də onun yolundan ölməkdən çəkinmirlər. Onlar üçün cihad meydanı sevgiliyə qarşı sevginin izhar edildiyi, şərəf və üstünlük, istedadların çiçəkləndiyi, müqavimət və qələbə meydanıdır. Belə bir meydanda qorxuya yer yoxdur. Ancaq münafiqlər üçün cihad meydanı ölüm və yoxluq, bədbəxtlik, məğlubiyyət, dünya ləzzətlərindən ayrılıq, qorxulu və naməlum gələcəyi olan qaranlıq və zülmətlər meydanıdır.[2016]

22. Qohumluq əlaqələrinin kəsilməsi: Hədislərinin birində İmam Səccadın (ə) oğlu İmam Baqirə (ə) belə buyurduğunu görürük: ***"Qohumluq əlaqələrini kəsmiş adamla dostluq etmə. Çünki mən Allahın kitabının üç yerində ona lənət söyləndiyinin şahidi olmuşam. Allah-taala: "Əgər üz***

[2016] Nümunə, c.21, səh.461

çevirsəniz...” – deyə buyurur.” Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***“Üç dəstə Cənnətə daxil olmayacaq: “Şərabxor, cadugər və qohumluq əlaqələrini kəsən”***[2017]

24. Quran düşüncə və əməl kitabıdır: Quranın çox ayəsində bu səmavi kitabın təkcə oxumaq üçün olan bir kitab olmadığı, əsas məqsədinin xatırlama, düşünmək, qorxutmaq, insanları qaranlıqlardan işığa çıxarmaq, şəfa, rəhmət və düz yola yönəltmək olduğu qeyd edilmişdir. Buna görə də Quran müsəlmanların həyat devizinə çevrilməli, onlar bu kitabı özlərinə rəhbər və nümunə seçməli, göstərişlərinə tək-tək əməl etməli, həyatlarının bütün istiqamətlərini onunla uyğunlaşdırmalıdırlar. Ayədə açıq şəkildə buyurulur ki, bu xəstə qəlbli münafiqlər Quranın ayələri haqqında dərindən düşünmədikləri üçün qara günə qaldılar. Yaddan çıxarmaq olmaz ki, Qurandan istifadə etməsi üçün insanın bir növ özünü düzəltməsinə ehtiyacı var. Çünki qəlblərdə nəfsani istəklər, təkəbbür və qürur, inadkarlıq və təəssübkeşlik qıfılı olarsa, haqqın nuru oraya daxil ola bilməyəcək. Möminlərin əmiri İmam Əli (ə) təqvalıların xüsusiyyətlərindən bəhs edən bir xütbəsində belə buyurmuşdur: ***“Gecə vaxtı ibadət etmək üçün qalxırlar, Quranı hissə-hissə, aramla, düşünə-düşünə oxuyurlar, oxuyarkən qəmlənir, dərdlərinin dərmanını onda axtarırlar, müjdə verilən bir ayəyə yetişdiklərində sanki qarşılarında imiş kimi, tamahsılanırlar, ruhları görmək həvəsi ilə qanadlanır, əzab qorxusu verilən ayəyə yetişdiklərində qəlb qulaqlarını ona dikirlər, Cəhənnəmin fəryad və haray səsinin qulaqlarında dolaşdığını güman edirlər.”***[2018]

[2017] Nümunə, c.21, səh.466
[2018] Nümunə, c.21, səh.467-469

30. Əgər Biz istəsəydik, onları sənə göstərərdik, sən də onları üzlərindən tanıyardın. Baxmayaraq ki, sən onları danışıq tərzlərindən tanıya bilərsən. Allah sizin əməllərinizi bilir.

31. Biz aranızdakı həqiqi mücahidlərin və səbr edənlərin ayırd edilib üzə çıxarılması üçün sizin hamınızı mütləq sınayacaq və barənizdəki xəbərləri də yoxlayacağıq.

32. Kafir olanlar, (insanları) Allah yolundan sapdıranlar və hidayət yolunu tanıdıqdan sonra Peyğəmbərə qarşı çıxanlar Allaha heç bir zərər vura bilməzlər. (Allah) tezliklə onların bütün əməllərini puça çıxaracaqdır.

33. Ey iman gətirənlər! Allaha və Peyğəmbərə itaət edin və əməllərinizi puç etməyin!

34. Kafirləri, (insanları) Allah yolundan sapdıranları, sonra da kafir kimi ölənləri Allah heç vaxt bağışlamayacaqdır.

35. Siz də (cihadda) zəiflik göstərməyin və üstün olduğunuz halda, (düşmənləri rüsvayedici) sülhə çağırmayın! Allah sizinlədir. O sizin əməllərinizi əskiltməz.

36. Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Əgər iman gətirib təqvalı olsanız, O mükafatlarınızı verər və sizdən mal-dövlətinizi istəməz.

37. Əgər (Allah) sizdən bunu istəsə və hətta israr etsə, siz isə xəsislik göstərsəniz, kin-küdurətinizi üzə çıxardar.

38. Budur, siz Allah yolunda xərcləməyə dəvət edilirsiniz. Bəziləriniz xəsislik edir. Kim xəsislik etsə, ancaq öz əleyhinə etmiş olar. Allah ehtiyacsızdır, siz isə möhtacsınız. Əgər boyun qaçırsanız, yerinizə sizə bənzəməyən başqa insanlar gətirər.

---

30. Münafiqləri danışıq tərzlərindən tanımaq olar: İnsanın nəyisə ürəyində uzun müddət gizli saxlaması, hətta eyham, işarə və səs tonu ilə də aşkara çıxarmaması qeyri-mümkündür. Hədislərinin birində İmam Əli (ə) belə buyurmuşdur: “Heç bir şəxs heç nəyi ürəyində gizli saxlamır, onu ən azı düşünmədən dediyi sözlərində və ya üz ifadələrində aşkar edir.” Quranın başqa ayələrində də münafiqlərin danışıq tərzini göstərən incidici danışıqları və ya şübhəli hərəkətlərindən söhbət açılmışdır. Bəzi təfsirçilər bu ayə nazil

olduqdan sonra Peyğəmbərin (s) münafiqləri əlamətlərindən tanıdığını qeyd etmişlər. Peyğəmbərə (s) münafiqlərdən hər hansı biri öldükdən sonra ona namaz qılmaması, qəbrinin yanında dua etməməsi və günahlarının bağışlanmasının istəməməsi ilə bağlı verilmiş göstəriş bu iddianı təsdiq edən faktlardan biridir (Tövbə-84). Münafiqlərin əsl simalarını büruzə verdikləri yerlərdən biri cihad idi; döyüşdən əvvəl, köməklərin toplaşdığı vaxt, meydana getmək üçün hazırlıq, döyüş meydanı, düşmənin kəskin hücumları, döyüşdən sonrakı vaxt, qənimətlərin bölündüyü vaxt. Quranın çox ayələrində, xüsusilə "Tövbə" və "Əhzab" surələrində bu cəhətlərə işarə edilmişdir. İş o yerə çatmışdı ki, hətta adi müsəlmanlar da qeyd olunan məqamlarda onları tanıya bilirdilər. Münafiqlərin aşkar əlamətlərindən biri İmam Əliyə (ə) qarşı düşmənçilik idi. Əbu Səid Xudriyə istinad edilən bir hədisdə deyilir: "Danışıq tərzi" deyilərkən onların Əli ibn Əbutalibə qarşı nifrəti idi. Peyğəmbər (s) dövrünün münafiqlərini onların Əli ibn Əbutalibə (ə) qarşı olan nifrətləri ilə tanıyırdıq." Əlbəttə, kişilər arasında ilk iman gətirmiş ilk möminə və canını İslam üçü ilk sipər edən bir şəxsə qarşı düşmənçilik münafiqlərin aşkar əlamətlərindən biri idi. Bu gün də münafiqləri danışıq tərzlərindən, mühüm sosial məsələlərdə, xüsusilə böhranlı vəziyyətlərdə və müharibələrdə əks mövqedə dayanmaları ilə tanımaq çox asandır. Danışıqlarına və davranışlarına azacıq diqqət yetirməklə onları tanımaq olar. Çox yaxşı olar ki, müsəlmanlar ayıq olsunlar, bu ayədən ilham alıb təhlükəli və kinli düşmənləri tanıyıb ifşa etsinlər.[2019]

38. Allaha itaətsizlik göstərmənin nəticəsi: Bu cümlədə bütün müsəlmanlara elan edilir ki, onları pak dininin keşikçiləri etmiş Allah-taalanın bu böyük nemətinin qədrini bilsinlər. Bu yük heç vaxt yerdə

[2019] Nümunə, c.21, səh.479

qalmır, əgər siz öz mövqeyinizin nə qədər böyük olduğunu dərk etmirsinizsə, bu böyük missiyanı görməzdən gəlirsinizsə, Allah başqa bir xalqı sizin yerinizə, sizdən fədakar, malını və canını Allah yolundan verməyə sizdən daha hazırlıqlı olan bir xalqı seçib böyük missiyanı onlara həvalə edəcək. Təfsirçilər yazırlar ki, bu ayə nazil olduqdan sonra bir qrup səhabə Peyğəmbərə (s) dedi: ***"Bu ayədə nəzərdə tutulan insanlar kimlərdir?" Bu vaxt Salman Peyğəmbərin (s) yanında əyləşmişdi. Peyğəmbər (s) ənənəsinə uyğun olaraq əlini onun qıçının üstünə, başqa bir hədisə görə isə çiyninə qaymuş halda, buyurur: "Bu kişi və onun qövmü deyiləndə kim nəzərdə tutulur? Canım əlində olana and olsun ki, əgər iman Sürəyyə ulduzundan asılı olsa da, Farsdan olan bir qrup kişi onu əldə edəcək."*** Hədislərinin birində (ə) İmam Sadiq (ə) belə buyurmuşdur: ***"And olsun Allaha ki, Allah bu vədinə əməl etdi, onlardan daha yaxşı olan qeyri-ərəbi onların yerinə gətirdi."*** Əgər İslam tarixi və İslam elmlərinə təəssübsüz diqqət yetirsək, qeyri-ərəb xalqların, xüsusilə iranlıların cihad və düşmənlə mübarizə meydanlarından qoşunun 1/3 %-ni təşkil etdiyinin və İslam elmlərinin yayılmasında müstəsna rol oynadıqlarının şahidi olarıq. Bütün bunları nəzərə alsaq, hədisin mənasını daha yaxşı başa düşərik.[2020]

[2020] Nümunə, cş21, səh.497

"Fəth" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Biz sənə aydın bir qələbə verdik ki,

2. Allah sənə aid edilən əvvəlki və sonrakı günahları bağışlasın, nemətini sənin üçün tamamlasın, səni düz yola yönəltsin

3. və sənə yenilməz bir qələbə nəsib etsin.

4. Möminlərin imanı üstünə iman artırmaq üçün onların qəlbinə rahatlıq göndərən Odur. Göylərin və yerin qoşunları Allaha məxsusdur. Allah biləndir, müdrikdir.

5. (Bu aşkar qələbəni nəsib etməkdə) məqsəd odur ki, Allah mömin kişiləri və mömin qadınları içində əbədi qalacaqları, ağacları altından çaylar axan Cənnət bağlarına daxil etsin və onların günahlarından keçsin. Bu, Allah yanında böyük xilasdır.

6. (Həm də odur) ki, Allah özü barəsində pis fikirdə olan münafiq kişi və münafiq qadınlara, müşrik kişi və müşrik qadınlara əzab versin. Onların (möminlər üçün arzu etdikləri) xoşagəlməz hadisələr təkcə onların özlərinin

başına gəlir. Allahın onlara qəzəbi tutmuş, rəhmətindən uzaqlaşdırmış və Cəhənnəmi onlar üçün hazırlamışdır. Ora nə pis aqibətdir.

7. Göylərin və yerin qoşunları Allaha məxsusdur. Allah qüdrətlidir, müdrikdir.

8. Həqiqətən, Biz səni şahid, müjdəçi və qorxudan göndərmişik.

9. (Biz belə etdik) ki, siz Allaha və Onun elçisinə iman gətirəsiniz, onun müdafiəsinə qalxasınız, onun hörmətini saxlayasınız və gecə-gündüz (Allahı) tərifləyəsiniz.

-

"Fəth" surəsinin ümumi məzmunu: Bu surə yeddi hissədən ibarətdir: 1. Fəth müjdəsi, Peyğəmbərin (s) Məkkənin fəthi və "Ümrə" ayinlərini yerinə yetirməsi ilə bağlı gördüyü yuxunun gerçəkləşməsi; 2. Hüdeybiyyə sülhünə aid hadisələr; 3. Peyğəmbərin (s) məqamı və onun uca məqsədi; 4. Münafiqlərin təxribatları və cihadda iştirak etməmək üçün onların gətirdikləri bəhanələrdən nümunələr; 5. Münafiqlərin bəzi yersiz istəkləri; 6. Döyüşdə bağışlanmış insanlara aid hökmlər; 7. İslam peyğəmbərinin həqiqi ardıcıllarının bəzi xüsusiyyətləri.[2021]

1. Açıq-aşkar fəth: "Fəth" deyilərkən müsəlmanların "Hüdeybiyyə" sülhü ilə əldə etdikləri qələbə nəzərdə tutulur. Hicrətin altıncı ili, zilqədə ayı Peyğəmbər (s) ümrə məqsədilə Məkkəyə doğru hərəkətə keçir və bütün müsəlmanları bu səfərdə iştirak etməyə həvəsləndirir. Bir dəstə bu səfərdən boyun qaçırır. Ancaq mühacir, ənsar və səhranişin ərəblərdən ibarət böyük bir dəstə Peyğəmbərlə (s) birlikdə Məkkəyə doğru yola düşür. Sayları min dörd yüz nəfərə çatan bu qoşunun bütün əsgərləri bir nəfər kimi ehram

---

[2021] Nümunə, c.22, səh.6

paltarı geyinir, özləri ilə yalnız müsafir silahı hesab edilən qılınc götürürlər, bundan başqa heç bir silah götürmürlər. Hüdeybiyyəyə çatanda Osman ibn Əffan Məkkə başçılarını səfərin məqsədindən xəbərdar etmək üçün Məkkəyə yollanır. Ancaq çox çəkmir ki, müsəlmanlar arasında onun qətlə yetirilməsi xəbəri yayılır. Bu zaman Peyğəmbər (s) səhabələri ilə bir ağacın altında son nəfəslərinə qədər mübarizə aparacaqları ilə bağlı əhd-peyman bağlayır. Çox çəkmir ki, Osman sağ-salamat qayıdır. Onun ardınca da Süheyl ibn Əmr sülh bağlamaq üçün Peyğəmbərin (s) yanına gəlir. Uzun danışıqlardan sonra sülh müqaviləsi imzalanır. Bu, müsəlmanlar və müşriklər arasında davam edən müharibələrə müvəqqəti olaraq son qoyan bir müqavilə idi.[2022] Allahın bu sülhü aşkar qələbə adlandırmasının sirri onda idi ki, Peyğəmbər (s) və möminlərin ümrə ziyarəti üçün səfərə çıxması təhlükəli hesab edilirdi. Hətta bəziləri Mədinəyə dönüşü qeyri-mümkün bir iş hesab edirdi. Müsəlmanlar az qoşunla yaralı və eyni zamanda qüdrətli bir düşmənin ərazisinə daxil olur, ancaq Allah vəziyyəti Peyğəmbərin (s) və müsəlmanların xeyrinə dəyişir. Belə ki, müşriklər on illik bir sülh müqaviləsinin bağlanmasına, Peyğəmbərin (s) həmin il Mədinəyə geri dönməsinə, növbəti il Məkkəyə gəlməsinə, Məkkə camaatının Məscidül-haramı və Kəbə evini üç gün müsəlmanlar üçün tamamilə boşaldılmasına razılıq verirlər. Bu, Allahın Peyğəmbərə (s) nəsib etdiyi ən parlaq bir qələbə idi. Bu sülh həm də Məkkənin fəth edilməsində rol oynayan ən mühüm amil olmuşdur. Çünki Hüdeybiyyə sülhü ilə Məkkə fəthi arasındakı iki il müddəti ərzində müşriklərin çoxu müsəlman olmuş, sülh müqaviləsindən iki il sonra Xeybə və ətraf kəndlər müsəlmanlar tərəfindən fəth edilmiş, müsəlmanların şöhrəti daha da artmışdı. Sülh müqaviləsinin şərtləri müşriklər tərəfindən

[2022] Nümunə, c.22, səh.10

pozulduqdan sonra hicrətin səkkizinci ili Peyğəmbər (s) Məkkəni fəth etmək üçün hərəkətə keçmişdi. Bu dəfə isə qoşun min dörd yüz deyil, on iki min nəfərdən ibarət olmuşdur.[2023] Bundan başqa, Peyğəmbər (s) hicrətin yeddinci ili o dövrün abad ölkələrinə qoşun çəkmiş, o dövrün qabaqcıl dövlətlərinin başçılarını İslama dəvət etmiş, bu vasitə ilə dininin cahanşümul bir din olduğunu, digər şəriətlərin dövrünün artıq başa çatdığını, hər kəsin sonuncu səmavi şəriətə tabe olmalı olduğunu elan etmişdir.[2024]

2. Peyğəmbərin günahı nə olmuşdu? "Zənb" sözü hər zaman günah mənasında işlənmir. Əslində, "zənb" acı nəticələri olan davranışa, "məğfirət" (bağışlamaq) isə nəyinsə üzərinə pərdə salınmasına deyilir. Məhz elə buna görə də "günahın bağışlanılması" deyilərkən onu örtmək və üzərinə pərdə çəkmək nəzərdə tutulur. Böyük ehtimalla burada "Peyğəmbərin günahı" deyilərkən kafirlərə etdiyi dəvətin təhlükəli nəticələri nəzərdə tutulur. Kafirlər Peyğəmbərin (s) təxribatçı və provakator bir adam olduğunu düşünüb, imkanları çatdığı qədər onu məhv edəcəklərini qarşılarına məqsəd qoymuşdular. Ancaq Allah Məkkənin fəthi və kafirlərin süquta uğraması ilə nəticələnən Hüdeybiyyə sülhü ilə Qüreyşin bütün qüdrətini əlindən alır və nəticədə, müşriklərin düşüncələrində Peyğəmbərlə (s) bağlı təsəvvür etdikləri günahların üstünü örtür, onu Qüreyşin şərindən qoruyur.[2025]

[2023] Əl-Mizan, c.18, səh.256
[2024] Mənşuri-cavid, c.7, səh.17
[2025] Əl-Mizan, c.18, səh.257

10. Sənə beyət edənlər Allaha beyət etmiş olurlar. Allahın əli onların əllərinin üstündədir. Kim əhdini pozsa, təkcə öz ziyanına pozmuş olar. Kim də Allahla bağladığı əhdinə sadiq qalsa, Allah tezliklə ona böyük mükafat verər.

11. Tezliklə geri qalmış bədəvi ərəblər sənə: "Var-dövlətimiz və ailələrimiz başımızı qatdı. Bizim üçün bağışlanma dilə!" – deyəcəklər. Onlar qəlblərində olmayanları dilləri ilə deyirlər. De: "Əgər Allah sizə bir zərər yetirmək və ya bir xeyir vermək istəsə, sizi ondan kim qoruya bilər?" O sizin nə etdiyinizdən xəbərdardır.

12. Siz elə güman edirdiniz ki, Peyğəmbər və möminlər heç vaxt öz ailələrinə qayıtmayacaqlar. Bu, qəlbinizdə gözəl göstərilmiş və siz pis fikrə düşmüşdünüz . Nəhayət, siz (şeytanın tələsinə düşüb) məhv oldunuz.

13. Allaha və Onun elçisinə iman gətirməyənin (sonu Cəhənnəmdir). Çünki Biz kafirlər üçün şölələnən od hazırlamışıq.

14. Göylərin və yerin hökmranlığı Allaha məxsusdur. O, istədiyini bağışlayır, istədiyinə də əzab verir. Allah bağışlayandır, rəhmlidir.

15. Siz qənimətləri götürməyə getdiyiniz zaman (Hüdeybiyyə səfərindən) geri qalanlar: "Qoyun biz də sizin arxanızca gələk!" – deyirlər. Onlar Allahın sözünü dəyişdirmək istəyirlər. De: "Siz əsla bizim arxamızca gəlməməlisiniz. Allah əvvəldən belə demişdir". Onlar: "Xeyr, siz bizə həsəd aparırsınız"– deyirlər. Amma onlar çox az anlayırlar.

---

10. Rizvan beyəti: Bu surənin birinci ayəsini şərh edərkən yazırlar ki, Peyğəmbər (s) və müsəlmanlar Hüdeybiyyəyə çatanda Osman Əbu Süfyanın qohumlarından olduğu, elçiliyinin təsiri olacağı ehtimal edildiyi üçün Peyğəmbər (s) tərəfindən Məkkəyə gedib müsəlmanların müharibə etmək

üçün gəlmədiklərini Məkkə böyüklərinə çatdırması oraya göndərildi. Müşriklər Osmanı Məkkədə bir qədər yubandırırlar. Bu da müsəlmanlar arasında onun ölüm xəbərinin yayılmasına səbəb olur. Əgər bu xəbər doğru olsaydı, deməli, qüreyşlilər bu addımla müharibə elanı vermişdilər. Buna görə də Peyğəmbər (s) buyurur: "Bu tayfa ilə döyüşməyənə qədər biz buradan getməyəcəyik". Bu planın çox böyük əhəmiyyət daşıdığını çatdırmaq üçün onlardan beyətlərini təzələməsini istəyir. Müsəlmanlar orada bir ağacın altına toplaşıb Peyğəmbərə (s) beyət edir, meydandan qaçmayacaqlarına və gücləri çatana qədər düşmənlə mübarizə aparacaqlarına söz verirlər. Bu hadisədən xəbər tutan düşmənlər bərk qorxuya düşür və istəmədən sülhə razılıq verirlər. Sözügedən beyətin "Rizvan beyəti" (razılıq beyəti) adlandırılması bu surənin 18-ci ayəsində qeyd edilən ***"Möminlər (Hüdeybiyyədə) ağac altında sənə beyət edərkən Allah onlardan razı qaldı"*** cümləsi ilə bağlıdır.[2026] Beyət, beyət edənlə, beyəti qəbul edən arasındakı razılaşmaya, sazişə, müqaviləyə deyilir. Sazişə əsasən beyət edənlər beyət olunana itaət göstərməli, tabe olmalı, onu himayə və müdafiə etməlidirlər. Bəziləri beyəti bir növ seçkilərə bənzədirlər. Halbuki seçki sistemi beyətin tam əksidir. Seçki seçilən üzərinə məsuliyyət yükləmək, onu vəzifəyə təyin etmək, başqa sözlə, seçilənə bir növ vəkillik verməkdir. Əlbəttə, seçki seçici üçün də bəzi vəzifələr yaradır. Halbuki beyət belə deyil. İnsanlar vəzifəsi və məsuliyyəti olan şəxsə vəfalı olduqlarını elan edirlər. Buna görə də beyət olunan beyətini götürməyənə qədər beyət edənlər beyətlərini poza bilməzlər. lakin seçki sistemində seçicilər əksər hallarda, seçdikləri şəxsi tuduğu vəzifədən kənarlaşdıra bilərlər. Bir məsələni də qeyd etmək lazımdır ki, Allah tərəfindən təyin edilmiş Peyğəmbər (s) və

[2026] Nümunə, c.22, səh.43

imamların (ə) beyətə heç bir ehtiyacları yoxdur. Beyət edib-etməmələrindən asılı olmayaraq, insanların onlara itaət göstərməsi Allahın buyurduğu vacib əmrdir. Peyğmbər (s) və imamların (ə) beyət alması isə insanların ilahi rəhbərlərə vəfalı olduqlarını elan etmələri üçündür. Beyəti pozmaq böyük günahlardandır. Hədislərdə bu əməlin ilahi əzaba səbəb olan həlakedici günahlardan olduğu qeyd edilmişdir. İslam fiqhində Peyğəmbər (s) və imamlardan (ə) qeyrisinə beyət edilməsi məsələsi yoxdur. Rəhbər fəqihin naibliyi ilə məsum imam tərəfindən təyin edildiyi beyətə lüzum yoxdur. İnsanların rəhbər fəqihə itaət göstərməsinin beyətlə heç bir əlaqəsi yoxdur. Fəqihin rəhbərliyinə tabe olmaq Allahın hökmünə əməl etməkdir.[2027]

15. Hər şeyin hazırına nazir əhd pozanlar: Peyğəmbər (s) Hüdeybiyyədən qayıtdıqdan sonra Allahın əmri ilə Hüdeybiyyədə iştirak etmiş müsəlmanlara Xeybərin fəthini müjdə verir və bu döyüşdə yalnız Hüdeybiyyəyə gedən şəxslərin iştirak edəcəyini, qənimətlərin yalnız həmin şəxslərə aid olacağını, Hüdeybiyyəyə getməkdən boyun qaçıranlara həmin qənimətlərdən heç bir pay verilməyəcəyini elan edir. Ancaq qorxaq dünyapərəstlər Peyğəmbərin (s) yaxın gələcəkdə baş verəcək müharibədə qalib gələcəyini və çoxlu qənimətlər əldə ediləcəyini anlayıb Peyğəmbərin (s) yanına gəlir, keçmiş səhvlərini düzəltmək, məsuliyyət yüklərini yüngülləşdirmək bəhanəsi ilə bu döyüşdə iştirak etmək üçün icazə istəyirlər. Ancaq Quran ayələrinin daha əvvəl nazil olub, onların sirlərini üzə çıxarmasından xəbərləri olmur. Xülasə, tarixi mənbələrin yazdığına görə Peyğəmbər (s) Xeybər qənimətlərini yalnız Hüdeybiyyə iştirakçıları arasında

[2027] Nümunə, c.22, səh.71

bölür, hətta Hüdeybiyyədə olduğu halda, Xeybərdə iştirak edə bilməmiş Cabir ibn Abdullah Ənsariyə də bu qənimətlərdən pay verir.[2028]

16. Geri qalan ərəblərə de: “Tezliklə çox qüvvətli və döyüşkən bir tayfaya qarşı (döyüşməyə) çağırılacaqsınız. Onlar müsəlman olana qədər siz onlarla döyüşəcəksiniz. Əgər itaət etsəniz, Allah sizə gözəl bir mükafat verər. Yox, əgər daha əvvəl boyun qaçırdığınız kimi boyun qaçırsanız, sizi ağrılı-acılı bir əzabla cəzalandırar”.

17. (Əgər döyüşdə iştirak etməsə,) kora, çolağa, bir də xəstəyə heç bir günah yoxdur. Kim Allaha və onun elçisinə itaət etsə, onu ağacları altından

[2028] Nümunə, c.22, səh.57

çaylar axan Cənnət bağlarına daxil edər. Kim boyun qaçırsa, onu ağrılı-acılı bir əzaba düçar edər.

18. Möminlər ağac altında sənə beyət edərkən Allah onlardan razı qaldı. Allah onların qəlbində gizli qalanı bildi, onların qəlbinə rahatlıq nazil etdi və onları yaxın bir zəfərlə mükafatlandırdı.

19. Üstəlik əldə edəcəyiniz çoxlu qənimətlərlə (mükafatlandırdı.) Allah məğlubedilməzdir, müdrikdir.

20. Allah sizə əldə edəcəyiniz çoxsaylı qənimətlər vəd etdi. Ancaq onlardan birini sizə daha tez nəsib etdi, möminlərə bir ibrət olsun və və sizi doğru yola yönəltsin deyə insanların (düşmənlərin) təcavüzkar əllərini sizdən çəkdi.

21. Sizin qüdrətiniz çatmayan, ancaq Allahın qüdrətinin əhatə etdiyi başqa qənimətləri və fəthləri də (nəsib etdi). Allah hər şeyə qadirdir.

22. Əgər kafirlər (Hüdeybiyyədə) sizinlə vuruşsaydılar, mütləq arxaya dönüb qaçardılar. Sonra da onlar özlərinə nə bir himayədar, nə də bir yardımçı tapardılar.

23. Bu, Allahın əzəldən olmuş bir ənənəsidir. Sən Allahın qoyduğu qaydalarda (heç vaxt) bir dəyişiklik tapa bilməzsən.

---

16. Qüvvətli və döyüşkən tayfa: Peyğəmbər (s) zamanında Hüdeybiyyə və Xeybər müharibəsindən sonra müşriklərlə Məkkənin fəthi və Hüneyn müharibəsindən başqa elə də mühüm bir müharibə olmadığını nəzərə alsaq, bu ayədə məhz həmin iki hadisəyə, xüsusilə Hüneyn döyüşünə işarə edildiyini deyə bilərik. Hüneyn döyüşündə Həvazin və Bəni Səd tayfalarının çox igid kişiləri iştirak etmişdi.[2029]

[2029] Nümunə, c.22, səh.61

17. Döyüşdən azad edilənlərə aid hökmlər: Müharibəyə getməyənlər arasında bədən üzvlərindən hər hansı birini itirmiş və ya xəstə olan, ümumiyyətlə cihadda iştirak edə bilməyən insanlar da var idi. Onların haqlarının kəsilməsi səhv olardı. Bu ayədə onların üzrlü olduqlarından danışılır. Bəzi təfsirçilər yazırlar ki, döyüşdən boyun qaçırmış insanları təhdid edən əvvəlki ayə nazil olduqdan sonra bir dəstə əlil Peyğəmbərin (s) yanına gəlib deyir: "Ey Allahın rəsulu, bizim vəzifəmiz nədir?" Bu ayə nazil olur və onların vəziyyətinə aydınlıq gətirlir. Əlbəttə, təkcə cihad deyil, bütün ilahi vəzifələrin ümumi şərtləri var, həmin şərtlərdən biri də güc və qüdrət şərtidir. "Bəqərə" surəsinin 286-cı ayəsində bu məsələ ümumi qanun şəklində qeyd edilmişdir: ***"Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər mükəlləf edir."*** Əslində bu insanlar cihad meydanında iştirak etməkdən azad olsalar da, gücləri çatan qədər İslamın güclənməsinə və ilahi hədəflərin daha geniş yayılmasına çalışmalıdırlar. "Tövbə" surəsinin 91-ci ayəsində belə buyurulur: ***"Allaha və Onun elçisinə qarşı xeyirxah olacaqları təqdirdə acizlərə, xəstələrə və (döyüşdə) xərcləmək üçün vəsait tapa bilməyənlərə (döyüşdə iştirak etmədikləri üçün) heç bir günah yoxdur."*** Yəni onların əlindən heç bir iş gəlmirsə, ən azı dillərini bu yolda əsirgəməməlidirlər. Bu da onu göstərir ki, hər kəs gücü çatdığı qədər çalışmalıdır. Başqa sözlə desək, döyüşdən azad edilmişlər ön cəbhədə heç nə edə bilməsələr də, arxa cəbhəni möhkəm qorumalıdırlar. Yaddan çıxarmamalıyıq ki, korluq, topallıq və ciddi xəstəliklərə görə üzrlü olmaq yalnız cihada aiddir. Müdafiə məsələsində hər kəs gücü və imkanı çatdığı qədər İslam sərhədlərini, öz canlarını qorumalıdırlar. Bu məsələdə heç bir istisna yoxdur.[2030]

[2030] Nümunə, c.22, səh.62

18. Xeybər döyüşü: Ayədə “beyət” deyilərkən bu surənin 10-cu ayəsinin izahı zamanı haqqında məlumat verilən “Rizvan beyəti” nəzərdə tutulur. “Onları yaxın bir zəfərlə mükafatlandırdı” cümləsi ilə Hüdeybiyyə sülhündən bir neçə ay baş vermiş Xeybər hadisəsinə işarə edilmişdir. Peyğəmbər (s) Hüdeybiyyədən qayıtdıqdan sonra hicrətin yeddinci ilininin zilhiccə ayını tam və məhərrəm ayının bir hissəsini Mədinədə qalır, sonra Hüdeybiyyədə iştirak etmiş min dörd yüz nəfərlə birlikdə İslama qarşı aktiv fəaliyyət göstərən, anti-islam hərəkatlarını qızışdıran Xeybər adlı mərkəzə doğru hərəkətə keçir. Əslində, Peyğəmbər (s) çoxdan idi ki, bu fəsad mərkəzinə hücum etmək üçün əlverişli fürsət axtarırdı. Həmin ərəfədə Peyğəmbərin (s) ciddi baş ağrıları olurdu, hətta iki gündən birini çadırdan çölə çıxa bilmirdi. Həmin vaxt bayrağı əlinə alan Əbu Bəkr müsəlmanlarla birlikdə yəhudi qoşunlarının üzərinə hücum çəkir, ancaq nəticə almadan geri dönür. Növbəti dəfə bayrağı Ömər götürür, müsəlmanlar əvvəlkindən daha kəskin döyüş aparırlar, ancaq nəticə almadan geri dönürlər. Üçüncü gün Peyğəmbər (s) bayrağı İmam Əliyə (ə) tapşırır. İmam Əli (ə) qalanın başçısı Mərhəbi məğlub edir, güclü bir təkanla qalanın qapısını yerindən qoparır, müsəlmanlar qalaya girib onu fəth edirlər. Yəhudilər təslim olur və bu hərəkətləri müqabilində Peyğəmbərdən (s) onların canlarını bağışlamasını istəyirlər. Peyğəmbər (s) də bu istəyi qəbul edir. Müsəlmanlar bu döyüşdə çoxlu qənimətlər əldə edirlər. Ancaq gəlirlərinin yarısını müsəlmanlara vermək şərti ilə bağ və ərazilərini Peyğəmbər (s) onların özlərinə qaytarır.[2031]

[2031] Nümunə, c.22, səh.83

24. Sizi onların üzərində qalib etdikdən sonra, Məkkənin göbəyində onların əlini sizdən, sizin də əlinizi onlardan çəkən Odur. Allah sizin nə etdiklərinizi görəndir.

25. Onlar kafirlər, sizi Məscidul-hərama buraxmayan və qurbanlıq heyvanlarınızın qurbangaha gedib çatmasına imkan verməyən kimsələrdir. Əgər (Məkkədə) tanımadığınız mömin kişi və mömin qadınları bilmədən tapdalayıb əzmək və bilməməzlik ucbatından xətaya yol vermək təhlükəsi ilə qarşılaşmasaydınız, (Allah bu müharibəyə əsla mane olmazdı.) Lakin Allahın məqsədi istədiyini öz rəhmətinə daxil etməkdir. Əgər möminlər və kafirlər bir-birindən seçilsəydi, Biz kafirlərə ağrılı-acılı bir əzab verərdik.

26. Kafirlər qəlblərində cahiliyyə qəzəbi və lovğalığına qapıldıqları zaman Allah öz elçisinə və möminlərə rahatlıq və təskinlik nazil etdi, onlara təqva ruhunu bəxş etdi. Onların buna daha çox haqqı var idi və ona layiq idilər. Allah hər şeyi bilir.

27. Allah öz elçisinə yuxuda göstərdiyini gerçəyə çevirdi. Allahın istəyi ilə, siz son dərəcə əmin-amanlıq içində, başlarınızı qırxdırmış və ya qısaltmış halda, heç kəsdən qorxmadan, çəkinmədən hökmən, Məscidul-hərama daxil olacaqsınız. Allah sizin bilmədiklərinizi bilirdi (təxirə

salmaqda bir hikmət var idi). O, bundan qabaq (Məkkəyə girməzdən əvvəl sizə) yaxın bir qələbə də bəxş edəcəkdir.

28. (İslamı) bütün dinlərə qalib etsin deyə öz elçisini hidayətlə və haqq dinlə göndərən Odur. Allahın bu məsələyə şahidliyi kifayətdir.

---

24. Hüdeybiyyə sülhünün nəticələrindən biri: Bu sülh Quranın təsvir etdiyi kimi, parlaq qələbənin təzahürlərindən biri idi. Yetərli qədər döyüş ləvazimatı olmayan az sayda bir dəstənin dəfələrlə Mədinəyə hücum çəkmiş, müsəlmanları məhv etmək üçün ciddi cəhdlər göstərmiş bir düşmənin torpaqlarına daxil olması, nəticədə, düşmənin qorxu içində sülh təklif etməsi böyük bir hadisədir. Heç kəsin burnu belə qanamadan qüdrətli bir düşmən üzərindən aşkar qələbə qazanmaqdan böyük fəth ola bilməz! Hüdeybiyyə sülhü bütün Ərəbistan yarımadasında Qüreyş üçün məğlubiyyət, müsəlmanlar üçün isə qələbə hesab edilirdi.

Allah Quranda Məkkə şəhərində qarşıdurma olmayacağını təkidlə buyurur. Bu israr və təkidlə iki mühüm nüansa işarə edilə bilər: 1. Məkkə düşmənin qüdrət mərkəzi idi. Qaydaya görə onlar bu əlveriuşli fürsətdən isitfadə etməli və müsəlmanlara hücum çəkməli idilər. Necə deyərlər, onlar müsəlmanları göydə axtarırdılar, əllərinə yerdə düşmüşdülər. Onları öz yerlərində yaxalamışkən asanlıqla buraxmamalı idilər. Ancaq Allah bu qüdrəti onlardan alır. 2. Məkkə Allahın əmin-aman yeri idi. Əgər orada qarşıdurma olsaydı, qan tökülsəydi, Kəbə evinə hörmətsizlik olardı, digər tərəfdən, müsəlmanlara bu müqəddəs məkanın ənənəvi təhlükəsizliyini pozmaları böyük bir nöqsan və eyib sayılardı. Allahın Peyğəmbərə (s) və müsəlmanlara bəxş etdiyi ən böyük nemətlərdən biri bu idi ki, Hüdeybiyyə

hadisəsindən sonra Məkkənin fəthini onlara heç bir qan tökülmədən bağışladı.[2032]

25. Əgər möminlər və kafirlər bir-birindən seçilsəydi, Biz kafirlərə ağrılı-acılı bir əzab verərdik: Bu ayədə İslamı qəbul etmiş, lakin müəyyən səbəblərdən hicrət etməyib Məkkədə qalmış mömin kişi və qadınlara işarə edilir. Əgər müsəlmanlar Məkkəyə hücum etsəydilər, Məkkədə olan bu müsəlmanların canı təhlükəyə düşər və müşriklər də rişxəndlə deyərdilər: İslam ordusu nə öz müxalifinə rəhm edir, nə də davamçısına və tərəfdarına. Bu, böyük bir utanc olardı. Bu ayənin təfsirini ehtiva edən bir çox hədislərə əsasən bu ayədə hələ dünyaya gəlməmiş, kafirlər atalarının belində olan mömin insanların nəzərdə tutulduğu qeyd edilmişdir. Həmin möminlərin sonradan dünyaya gəlməsi üçün Allah bu kafirləri cəzalandırmadı. Bir nəfər İmam Sadiqdən (ə) soruşur: "Əli (ə) Allah dinində güclü və qüdrətli deyildimi?" İmam (ə) buyurur: ***"Bəli, güclü idi."*** Həmin şəxs: "Bəs nə üçün kafir və münafiqlərə qalib gəldikdən sonra onların kökünü kəsmədi? Buna nə mane oldu?" İmam (ə) buyurur: ***"Quranın bir ayəsi".*** Həmin şəxs: "Hansı ayə?" İmam (ə) buyurur: ***"Bu ayə - Əgər onlar ayrılsaydı, kafirlərə şiddətli əzab verərdik."*** Sonra əlavə edir: ***"Kafir və münafiqlərin belində Allahın əmanətləri var idi. Bu əmanətlərin dünyaya gəlməsi üçün Allah ataları öldürmədi... Habelə bu əmanətlər dünyaya gəlməyincə biz Əhli-beytin qaimi zühur etməyəcək."*** Yəni Allah-taala bilir ki,onların övladlarından bir qrupu gələcəkdə öz iradə və ixtiyarları ilə iman gətirəcəklər, onlara görə ataları sürətli əzabdan xilas edir. Bu ayədə həm

[2032] Nümunə, c.22, səh.89

Məkkədəki möminlərin kafirlərə qarışması, həm də atalarının belində olan möminlərə işarə edilməsi ilə də bağlı heç bir problem yoxdur.[2033]

27. Peyğəmbərin doğru yuxusu: Peyğəmbər (s) yuxuda görür ki, səhabələri ilə birlikdə ümrə ayinlərini yerinə yetirmək üçün Məkkəyə daxil olur. Bu yuxusunu səhabələrinə danışır. Hamısı sevinir. Ancaq Hüdeybiyyə sülhü baş verdiyi il, müşriklər Hüdeybiyyə ərazisində Məkkəyə gedən yolları müsəlmanların üzünə bağladıqları vaxt bəzi müsəlmanlarda Peyğəmbərin (s) də yuxusunun düz olmaması ilə bağlı şübhə yaranır. Peyğəmbər (s) buyurur: ***"Məgər mən sizə bu yuxunun məhz elə bu il baş verəcəyini dedim?"*** Nəzər nöqtəsi olan ayədə onların Mədinəyə dönüşünə işarə edilir və təkidlə Peyğəmbərin (s) yuxusunun doğru olduğu, bu hadisənin hökmən baş verəcəyi xəbər verilir.[2034]

[2033] Nümunə, c.22, səh.89
[2034] Nümunə, c.22, səh.102

29. Muhəmməd Allahın elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları hər zaman Allahdan lütf və razılıq diləyərək rüku edən, səcdəyə qapanan halda görərsən. Əlamətləri isə üzlərində olan səcdə izidir. Bu onların Tövratdakı və İncildəki vəsfidir. Onlar cücərtisini üzə çıxarıb, gövdəsi üzərində möhkəm dayanması və əkinciləri heyran eədəcək qədər artması üçün gücləndirən əkinə bənzədilmişlər. Bu, kafirləri qəzəbləndirmək üçündür. Allah onlardan iman gətirib yaxşı işlər görənlərə bağışlanma və böyük bir mükafat vəd etmişdir.

"Hucurat" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ey iman gətirənlər! (Heç bir şeydə) Allahı və Onun elçisini qabaqlamayın. Allahdan qorxun! Allah eşidəndir, biləndir.

2. Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən yüksəyə qaldırmayın və bir-birinizin yanında olduğu kimi, onun da yanında uca səslə danışmayın (hay-küy salmayın). Yoxsa, özünüz də hiss etmədən əməlləriniz hədər gedər.

3. Allahın elçisinin yanında səsini endirənlər o şəxslərdir ki, Allah onların qəlbini təqva üçün xalis etmişdir. Onları bağışlanma və böyük mükafat gözləyir.

4. Səni otaqların arxasından uca səslə səsləyənlərin əksəriyyəti anlamır.

---

29. Peyğəmbərin (s) yoldaşlarının səciyyəvi xüsusiyyətlərindən biri: Ayədə Peyğəmbərin (s) xüsusi səhabə və onun yoluna sadiq olanlar Tövrat və İncilə istinadən çox yüksək səviyyədə səciyyələndirilir. Bu müxtəsərdə

onların ikisinə işarə edilmişdir: 1. “Sima” üz və ya bədənin başqa bir yerində olmasından asılı olmayaraq hər hansı əlamət və vəziyyətə deyilir. Baxmayaraq ki, bəzi təfsirçilər bu sözü səcdə nəticəsində alında yaranmış ləkə və ya torpağın səcdə yerində qoyduğu iz kimi izah etmişlər. Ayənin mənası daha genişdir, Allah adamlarının simasının tam təsvirini ehtiva edir. Hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: “Gecələri oyaq qalmaq deyilərkən gecə vaxtı namaz qılmaq üçün oyanmaq nəzərdə tutulur”. Bunun da əlamətləri gündüz vaxtı həmin insanın üzündən məlum olur. Təbii ki, bu mənaların hamısı birlikdə də nəzərdə tutula bilər. 2. “Cücərtisini çıxaran əkin...” Bu bənzətmədə Peyğəmbərin (s) səhabələri və möminlərin beş əsas xüsusiyyəti qeyd edilmişdir: tumurcuqlamaq, cücərmək, boy atmağa kömək etmək, möhkəmlənmək, gövdəsi üzərində durmaq, heyrətamiz şəkildə artmaq. Peyğəmbərin (s) səhabələri bir an olsun, hərəkətsiz dayanmayan yüksək xüsusiyyətlərə malik adamlardır. Sürəkli olaraq cücərir, cücərtiləri boy atır, məhsuldarlaşır. Onlar İslamı öz danışıq və əməlləri ilə yorulmadan dünyaya yayır, müsəlmanların sayını günbəgün artırırlar. Əsla usanmırlar, davamlı olaraq pak niyyətlə irəliyə doğru hərəkət edirlər. Haqq düşmənləri qarşısında Allahın qəzəb məzhəri, dostlar qarşısında isə onun lütf və mərhəmət simvoludurlar.[2035]

“Hucurat” surəsinin ümumi məzmunu: Bu surədə Peyğəmbərin özü və müsəlmanların qarşılıqlı münasibətləri ilə bağlı çox mühüm nüanslara toxunulmuşdur. Surədə mühüm əhəmiyyət daşıyan bir çox etik və əxlaqi məsələlər təqdim edildiyi üçün onu əxlaq və ədəb-ərkan surəsi də adlandırmaq olar.[2036]

[2035] Nümunə, c.22, səh.115
[2036] Nümunə, c.22, səh.129

2-5. Peyğəmbərin (s) hüzurunda necə davranmalı? İncə ruhlu və azad təbiətli Peyğəmbər (s) əxlaqi keyfiyyətlərinin çoxundan uzaq olan insanlarla əhatə olunmuşdu. Misli olmayan bu şəxsiyyətlə adi insalarla danışdıqları kimi danışırdılar. Hicrətin "Amül-vüfud" adlanan doqquzuncu ilində İslamı qəbul etmək üçün Mədinəyə ətraf qəbilələrdən dəstə-dəstə adamlar gəlirdi. Yeni gəlmiş adamlar vaxtlı-vaxtsız Peyğəmbərın (s) qapısında durub "Ay Muhəmməd, çölə çıx!" – deyə yüksək səslə çağırırdılar. Bu davranış Peyğəmbərin (s) istirahətini pozmaqla yanaşı, Allahın elçisi olan bir şəxsiyyətə qarşı hörmətsizlik də yaradırdı. Allah-taala dördüncü ayədə bu cür insanları ağılsız və düşüncəsiz adlandırır, düzgün davranış formalarını isə beşinci ayədə bəyan edir. Peyğəmbər (s) təkcə bu cür davranış tərzlərindən deyil, səhrada yaşayan ərəblər və əcnəbilərin də davranış tərzlərindən narahat idi. Peyğəmbərin (s) yaxın səhabələrinin bəzisi onun yanında danışıq qaydalarına da riayət etmirdilər.

Bəni Təmim qəbiləsinin müşayiəti ilə Mədinəyə bir heyət gəlir. Əbu Bəkr və Osman onları qarşılamaq üçün ayrı-ayrı fərdləri təyin edirlər. Bu ixtilaf və fikir ayrılığı onların Peyğəmbər (s) hüzurunda səs-küylü mübahisəsi və Peyğəmbərin (s) narahat olmasına gətirib çıxarır. Bu xoşagəlməz hərəkətlərin bir daha təkrar edilməsinin qarşısını almaq üçün "Hucurat" surəsinin ikinci və üçüncü ayələri nazil olur və bu çirkin əməlin xeyirli əməllərin puça çıxmasına səbəb olacağı buyurulur. Görəsən Peyğəmbərin (s) hüzurunda bu cür hörmətsiz davranış yaxşı əməllərin puça çıxmasına səbəb olur? Səbəb budur ki, Peyğəmbərə (s) aşkarda ehtiram göstərilməsi ona daxilən hörmət bəslənilməsindən xəbər verir. Əslində, hərəkət və əməllərimiz etiqad və iman dərəclərindən qaynaqlanır, bu cür xoşagəlməz hərəkət və etinasızlıqlar Peyğəmbər (s) və dini müqəddəslərə qarşı daxili etinasızlıqdan irəli gəlir. Unutmamalıyıq ki, bu cür hörmətli

davranışlar təkcə Peyğəmbərə (s) deyil, bütün İslam öndərlərinə, alimlərə, müəllimlərə, ata-analara, böyüklərə qarşı olmalıdır.[2037]

5. Sən onların yanına gedənədək səbr etsəydilər, əlbəttə, bu, onlar üçün daha yaxşı olardı. Allah bağışlayandır, rəhmlidir.

6. Ey iman gətirənlər! Əgər bir fasiq sizə bir xəbər gətirsə, onu araşdırın. Yoxsa bilmədən bir qövmə zərər yetirər, sonra da etdiyinizin peşmançılığını çəkərsiniz.

7. Bilin ki, Allahın elçisi aranızdadır. Əgər bir çox işlərdə o sizə tabe olsa, çətinliyə düşərsiniz. Lakin Allah sizə imanı sevdirmiş, onu qəlbinizə

[2037] Mənşuri-cavid, c.7, səh.397-399

gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır. Bu xüsusiyyətlərə malik olanlar doğru yolda olanlardır.

8. (Bu) Allah tərəfindən bir lütf və nemətdir. Allah biləndir, müdrikdir.

9. Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə təcavüz etsə, təcavüzkar dəstə ilə, o, Allahın əmrinə qayıdanadək, vuruşun. Əgər qayıtsa (və sülhə zəmin yaransa), hər iki dəstə arasında ədalətlə sülh yaradın və ədalətli olun. Çünki Allah ədalətliləri sevir.

10. Möminlər qardaşdırlar. Elə isə qardaşlarınızı barışdırın və təqvalı olun ki, onun rəhməti sizə şamil olsun.

11. Ey iman gətirənlər! Kişilərdən bir dəstəsi başqa bir dəstəni məsxərəyə qoymasın. Ola bilər ki, onlar bunlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları (məsxərəyə qoymasınlar). Ola bilər ki, onlar bunlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın, bir-birinizdə eyib axtarmayın, bir-birinizi çirkin və xoşagəlməz ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra kimisə küfr məzmunlu adla adlandırmaq çox pisdir. Tövbə etməyənlər zalımdırlar.

---

6. Fasiqlərin xəbərlərinə etina etməyin: Bu ayənin Vəlid ibn Üqbə haqqında nazil olduğu nəql edilmişdir. Peyğəmbər (s) onu zəkat toplamaq üçün Bəni-Mustaləq qəbiləsinə göndərir. Qəbilə camaatı Peyğəmbər (s) nümayəndəsinin gəldiyini eşidib sevinc hissi ilə onu qarşılamağa çıxır. Cahiliyyə dövründə onlarla Vəlid arasında düşmənçilik olduğundan, Vəlid camaatın onu öldürməyə gəldiyini güman edir. Geri, Peyğəmbərin (s) yanına qayıdır və onların zəkatı verməkdən boyun qaçırdıqlarını xəbər verir. Zəkatı ödəməkdən boyun qaçırmaq isə İslam hökumətinə qarşı bir növ qiyam hesab

edilir. Vəlid bunları bildiyi üçün onların dindən çıxdıqlarını da iddia edir. Peyğəmbər (s) bərk qəzəblənir, həmin qəbiləyə qarşı müharibə etmək qərarına gəlir. Bu vaxt haqqında "Hucurat" surəsinin 6-cı ayəsi nazil olur və müsəlmanlara fasiq bir adam xəbər gətirdikdə onun araşdırılmasını göstəriş verir.[2038]

7. Rəhbərlik və itaət: Bu ayə göstərir ki, Vəlidin Bəni-Mustaləq tayfasının dindən çıxması ilə bağlı xəbərindən sonra bir qrup sadəlövh müsəlman Peyğəmbərdən (s) həmin tayfaya qarşı müharibə etməsini tələb edir. Allah-taala Quranda belə buyurur: Sizin xoşbəxtliyiniz ondadır ki, Peyğəmbər (s) aranızdadır, onunla vəhy aləmi arasında rabitə var, sizin aranızda hər hansı yanlış hərəkət baş versə, vəhy vasitəsilə o sizi xəbərdar edir. O, rəhbərdir, onun sizə tabe olacağını və sizdən əmr alacağını gözləməyin. O sizə qarşı hər kəsdən mehribandır. Fikirlərinizi zorla ona qəbul etdirməyə çalışmayın ki, bu sizin ziyanınızadır. Ümumiyyətlə, cəmiyyətin inkişafı üçün Allah tərəfindən təyin edilmiş rəhbərin olması zəruridir. Bir şərtlə ki, ona itaət göstərilsin, daha ardıcılları onu öz fikirlərinə uyğun davranmağa məcbur etməsinlər, əmrlərini gözləri üzərində tutsunlar, daha öz məhdud fikirlərini həyata keçirmək üçün ona təzyiq göstərməsinlər. Bu prinsip təkcə Allah tərəfindən təyin edilmiş rəhbərlər deyil, digər idarəçilik sistemləri üçün də zəruridir. Əlbəttə, bu prinsip rəhbərlərin despotizminə və məsləhətləşməni tərk etməsinə əsas vermir. Çünki müzakirənin məqsədi hər kəsin öz rəy və fikirlərini bildirməsi olsa da, son fikri Peyğəmbər (s) söyləməlidir. Başqa sözlə desək, müzakirə bir, öz fikir

[2038] Nümunə, c.22, səh.152

və inanc diktəsi başqa bir şeydir. Bu ayə əslində, müzakirəni deyil, fikir diktəsini inkar edir.[2039]

11. Bir-birinizi çirkin və xoşagəlməz ləqəblərlə xatırlamayın: Başqalarına çirkin adlar qoymaq və bu vasitə ilə onları təhqir etmək, şəxsiyyətlərinə ləkə gətirmək, bu vasitə ilə onlardan intiqam almaq keçmiş və indiki dövrün əxlaqdan kənar adamlarına xas xüsusiyyətlərdəndir. Əgər bir adam keçmişdə pis bir iş tutubsa, sonra tövbə edib tamamilə təmizlənibsə, İslam onu keçmişdəki əməlini ifadə edən adla çağırılmasını, ona "sən filan günah əməlin sahibi idin deyilməsini", ata və analarının səhvlərinə görə məzəmmət edilməsini, "sənin atan və ya anan filan əməlin sahibidir" deyilməsini, müsəlmanın təhqir edilməsinə səbəb olacaq ən kiçik eyhamın işlədilməsin qadağan edir.[2040] Hədislərin birində deyilir ki, Xeybər döyüşündən sonra İslamı qəbul etmiş və Peyğəmbərin (s) zövcəsi olmuş Səfiyyə binti Həyy ibn Əxtəb bir gün ağlaya-ağlaya Peyğəmbərin (s) yanına gəlir. Peyğəmbər (s) nə baş verdiyini soruşduqda, o: "Aişə mənə rişxəndlə ay yəhudi balası dedi", - deyə şikayətlənir. Nə üçün demədin ki, ***"Atam Harundur, əmim Musadır, həyat yoldaşım Muhəmməd?"*** Bu zaman nəzər nöqtəsi olan ayə nazil olur.[2041]

[2039] Nümunə, c.22, səh.158
[2040] Nümunə, c.22, səh.180; Əl-Mizan, c.18, səh.326
[2041] Nümunə, c.22, səh.180

12. Ey iman gətirənlər! Zənn və gümanların çoxundan uzaq durun. Çünki zənn edilənlərin bir qismi günahdır. (Başqalarının şəxsi həyatı ilə bağlı) axtarış aparmayın, bir-birinizin qeybətini qırmayın. Sizlərdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Hamınız bundan iyrənirsiniz. Təqvalı olun! Allah tövbələri qəbul edəndir, rəhmlidir.

13. Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətliniz ən təqvalı olanınızdır (Allahdan ən çox qorxanınızdır). Allah biləndir, xəbərdardır.

14. Bədəvi ərəblər: “Biz iman gətirdik!” – dedilər. De: “Siz iman gətirməmisiniz! Ancaq: “Biz müsəlman olduq!” – deyin. İman sizin qəlblərinizə hələ daxil olmamışdır. Əgər Allaha və Onun elçisinə itaət göstərsəniz, O sizin əməllərinizin mükafatından heç bir şey əskiltməz. Allah bağışlayandır, rəhmlidir!”

15. Həqiqi möminlər ancaq Allaha və Onun elçisinə iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə cihad edənlərdir! Onlar doğru danışanlardır.

16. De: “Siz Allahı imanınızdanmı xəbərdar edirsiniz?” Halbuki Allah göylərdə olanları da, yerdə olanları da bilir. Allah hər şeydən agahdır.

17. Onlar müsəlman olduqlarına görə sənə minnət qoyurlar. De: “Müsəlman olmağınızı mənə minnət qoymayın! Əgər doğru danışanlarsınızsa, (bilin ki,) əslində, Allah sizi imana gətirməklə sizə minnət qoyur!”

18. Şübhəsiz ki, Allah göylərin də, yerin də qeybini bilir, nə etdiklərinizi görür.

---

12. Qeybət ən böyük günahlardandır: İnsanın həyatdakı ən böyük sərmayəsi heysiyyət, abır və şəxsiyyətidir. İnsanın bu sərmayəsinə təhlükə yaradan şəxs sanki həmin adamın canını təhlükəyə atır. Bəzən şəxsiyyətin terror edilməsi şəxsin özünün terror edilməsindən daha ağır olur. Müsəlman qardaşın abrı onun bədəninin əti kimidir. “Ölü” ifadəsi qeybəti edilən adamın həmin yerdə olmaması, eynilə ölü kimi öz haqqını müdafiə edə bilməməsi ilə bağlıdır. Bu, insanın öz qardaşına edə biləcəyi ən namərdcəsinə haqsızlıqdır. Hədislərdə bu mövzu ilə bağlı çox şokedici ifadələr işlədilmişdir. Hədislərinin birində Allah rəsulu (s) belə buyurmuşdur: ***“İnsanın sələmdən qazandığı bir dirhəm otuz altı dəfə zina etməkdən ağırdır. Bir müsəlmanın abrını tökmək zinadan da pisdir.”*** Bu müqayisə əslində, zinanın Allaha aid olan bir haqq olması, sələm yemək və camaatın abrının aparılmasının isə insanlara aid haqq olması ilə bağlıdır. Başqa bir hədisində Peyğəmbər (s) belə buyurmuşdur: ***“Qeybətin***

müsəlmanın dininə təsiri xoranın insan bədəninə təsirindən daha sürətlidir." Bu bənzətmə göstərir ki, xora insanın bədəninin ətini çürütdüyü kimi, qeybət də insanın dinini puça çıxarır, çox tez bir zamanda imanını məhv edir.[2042] İmam Səccadın (ə) bir hədisində belə deyilir: ***"Qeybətdən ciddi şəkildə qorunun. Çünki o, Cəhənnəm itlərinin yeməyidir."***[2043]

Qeybət kiminsə bədənində və yə əxlaqında, davranışında və ya danışığında, hətta ona aid işlərdə - evi, paltarı, həyat yoldaşı, övladları və sairədə mövcud olan eybinin həmin adam olmadığı vaxtda açılmasıdır. Ancaq yaddan çıxarmaq olmaz ki, bu cəhətlərin həmin adamda olması başlıca şərtdir, əks təqdirdə, danışılan söz qeybət yox böhtan olacaq. Böhtanın günahı isə qeybətin də günahından böyük və ağırdır. Deməli, bəzi adamların sadəlövhlüklə gətirdiyi bahənələr qəbul edilmir. Məsələn, bəzən qeybət edən adam deyir: Bu, qeybət deyil ki, həqiqətdir. Halbuki həqiqət olmasaydı, artıq böhtan sayılacaqdı. Ya da biri belə deyir: Mən bu sözü onun yanında da deyərəm. Halbuki bu davranış insanın günahını azlatmır, əksinə, qarşı tərəfin inciməsinə və narahat olmasına səbəb olduğu üçün daha böyük günahdır.

Bəzi məqamlarda qeybətə icazə verilir. Həmin məqamlardan biri həyat yoldaşı, iş ortağı və bu kimi məsələlərdə araşdırma aparan şəxsə verilən məlumatdılr. Əgər haqqında araşdırma aparılan adamda eyib varsa, araşdıran adamın tələyə düşməməsi üçün onu xəbərdar etmək mütləq lazmdır. Aşkarda günah edən adamlar isə istisnadır. Aşkarda günah edən adamın günahının danışılması qeybət sayılmır. Yaddan çıxarmaq olmaz ki, qeybət edilən məclisdə iştirak etmək və qeybətə qulaq asmaq da haramdır.

[2042] Nümunə, c.22, səh.184
[2043] Tematik təfsir, c.2, səh.235

Bəzi hədislərə görə heysiyyəti ləkələnən müsəlmanı müdafiə etmək vacibdir.[2044]

13. İnsanın ən böyük dəyəri: Bu ayə bütün zahiri və maddi imtiyazlar üzərindən xətt çəkir, əsl dəyərin təqva və Allah qorxusu olduğunu bildirir. Allaha yaxınlaşmaq üçün təqvadan üstün imtiyaz yoxdur. Hədislərinin birində Allahın rəsulu (s) belə buyurmuşdur: ***"Allah sizin ailə vəziyyətinizə, əsil-nəsəbinizə, bədənlərinizə, mallarınıza deyil, qəlblərinizə baxır. Allah qəlbi sağlam olana lütf və məhəbbət göstərir. Siz hamınız Adəmin övladlarısınız. Sizin Allah yanında ən sevimliniz Allahdan ən çox qorxanınızdır."*** Qəribədir ki, bu qədər göstəriş və təlimatlara baxmayaraq, hələ də müsəlmanlar arasında milliyyəti və dili ilə öyünən, hətta bunları dini vəhdətdən üstün tutan adamlar var. Allahın rəsulu (s) hədislərinin birində belə buyurmuşdur: ***"Siz hamınız Adəmin övladlarısınız, Adəm torpaqdan yaradılıb. İnsanlar ataları ilə öyünməkdən çəkinsinlər, əks təqdirdə, çirkaba bulaşmış həşəratdan da aşağı olacaqlar."***[2045]

[2044] Nümunə, c.22, səh.192
[2045] Nümunə, c.22, səh.197

"Qaf" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Qaf. Şərafətli Qurana and olsun!

2. Onlar öz aralarından qorxudan bir peyğəmbər gəlməsinə təəccüb etdilər və kafirlər dedilər: “Bu, çox qəribə bir şeydir.

3. Məgər biz ölüb torpağa qarışdıqdan sonra (yenidən həyata qayıdacağıq)? Bu, əlçatmaz bir qayıdışdır!”

4. Ancaq Biz yerin onlardan nəyi alıb əskiltdiyini bilirik. Bizdə hər şeyin qorunub saxlandığı bir Kitab vardır.

5. Lakin həqiqət onlara məlum olduqda onu yalan hesab etdilər. Buna görə də dağınıq işləri arasında çaşqın vəziyyətdədirlər.

6. Məgər onlar başları üstündəki göyə baxıb onu necə yaratdığımızı və necə bəzədiyimizi görmürlərmi? Orada heç bir yarıq da yoxdur.

7. Biz yeri genişləndirdik, oraya böyük və möhkəm dağlar saldıq, zövq-səfa bəxş edən gözəl bitkilərin hər növündən yetişdirdik.

8. (Bunu) Tövbə edən hər bir bəndənin gözünün açılması və xatırlaması üçün (etdik).

9. Biz göydən bərəkətli su endirdik, onunla bağlar və biçilən taxıl dənələri bitirdik.

10. Eləcə də sıx meyvələri olan hündür xurma ağacları (bitirdik.)

11. Bütün bunlar bəndələrə ruzi bəxş etmək üçündür! Yağış vasitəsilə ölü bir məmləkəti diriltdik. Ölülərin dirilməsi də belədir.

12. Onlardan əvvəl Nuhun qövmü, Rəss əhli, Səmudun qövmü (peyğəmbərlərini) yalançı saydı.

13. Habelə Ad, Firon və Lutun qövmü,

14. Əykə əhli və Tubba qövmü – bunların hamısı Allahın göndərdiyi elçiləri yalançı saydı və onlar haqqında olan əzab vədi gerçəkləşdi.

15. Məgər Biz ilk yaradılışa acizlikmi çəkdik? Xeyr! Onlar yenə də yeni yaradılış barəsində şübhə içindədirlər.

"Qaf" surəsinin ümumi məzmunu: Bu surənin əsas məzmununu qayıdışa aid məsələlər təşkil edir. Demək olar ki, bütün ayələr bu mövzu ətrafında dövr edir, digər mövzular isə periferik və qeyri-əsas səciyə daşıyır. Qayıdışa aid məsələlərdə bu cəhətlərə daha diqqət ayrılmışdır: 1. Kafirlərin qayıdışı (fiziki qayıdışı) inkar etməsi və bu məsələyə təəccüblə yanaşması; 2. Diqqətləri yaranış sisteminə, xüsusilə yağışın yağması ilə ölü yerlərin yenidən dirilməsi məsələsinin üzərinə çəkməklə qayıdış hadisəsinin əsaslandırılması; 3. Diqqətləri insanın yardılışına çəkməklə qayıdış hadisəsinin əsaslandırılması; 4. Əməl və danışıqların hesablaşma günü üçün qeyd edilməsinə işarə edilməsi; 5. Ölüm və bu dünyadan o dünyaya köçmə halları; 6. Qiyamət gününə aid bəzi məsələlər, Cənnət və Cəhənnəmin bəzi xüsusiyyətləri; 7. Başqa bir dünya üçün başlanğıc olan bu dünyanın sonunda baş verəcək hadisələrə işarə. Bu mövzularla yanaşı həddlərini aşmış bəzi xalqların vəziyyəti, acı taleyi, Allah və İslam peyğəmbərinə diqqət yetirilməsi, surənin əvvəli və sonunda Quranın əzəmət və böyüklüyü kimi məsələlərə işarə edilmişdir.[2046]

[2046] Nümunə, c.22, səh.222

4. Qayıdışı inkar edənlərin iki iradına cavab: Bu ayədə qayıdışı inkar edənlərin iki iradına cavab verilmişdir: Birinci irad budur ki, insan öldükdən sonra onun sümükləri çürüyür, əti torpağa çevrilir, bütün zərrələri də qaz və buxar halında havaya yayılır. Belə olan halda onları yenidən bir yerə kim toplaya bilər, ümumiyyətlə, onları kim ayırd edə bilər. Sualın cavabı şox aydındır. Elmi bütün əşyaları əhatə edən Allah bütün bu zərrələrdən xəbərdardır, lazım gəldiyi zaman hamısını toplayır. Dəmirçi ətrafa səpələnmiş dəmir qırıntılarını tüstü yığını arasında bir maqnit parçası vasitəsilə bir yerə topladığı kimi, Allah üçün də insanın zərrələrini bir yerə toplamaq çox asandır. İkinci irad budur ki, insanın əməllərinin hesab-kitabını qayıdış və dirçəliş gününə qədər kim qoruyub saxlayır? Cavab budur ki, onların hamısı "Lövhi-məhfuzda" qorunub saxlanır.[2047] Bütün əşyalar, təsirlər və vəziyyətlər bu kitabda qorunub saxlanır, o, heç bir dəyişikliyə məruz qalmır. Dünyada nə olub, nə olur və nə olacaqsa, hamısı həmin kitabda qeyd edilib.[2048]

6. Heç bir yarıq və kəsiyi olmayan göy: Bu cümlə ya göyün nöqsansız, qüsursuz və eyibsiz olduğunu, ya da Yer kürəsini əhatə edən göyün heç bir kəsintisinin olmadığını ifadə edir. "Ənbiya" surəsinin 32-ci ayəsində göy "Qorunan tavan" adlandırılmışdır. O, davamlı olaraq kosmosdan sürətlə Yer kürəsinə doğru yağan daşların qarşısını kəsir, Yerə çatmazdan əvvəl onları yandırıb kül edir, bundan başqa kosmosdan gələn zərərli şüaların qarşısını alır. Əgər bunlar olmasa, göy təkcə ulduzların səpələndiyi və planetlərin üzdüyü boş məkandan başqa bir şey olmaz.[2049]

[2047] Nümunə, c.22, səh.230
[2048] Əl-Mizan, c.18, səh.343
[2049] Nümunə, c.22, səh.334

16. Biz insanı yaratdıq və onun nəfsinin vəsvəsələrini də bilirik. Biz ona şah damarından da yaxınıq.

17. İnsanı sağ və soldan müşayiət edən iki mələk onun əməllərini qeydə alır.

18. Dediyi elə bir söz yoxdur ki, həmin an nəzarətçi və hazır dayanmış mələk (onu qeydə alıb) vəzifəsini yerinə yetirməsin.

19. Nəhayət, ölüm məstliyi həqiqəti (gözlər önünə) gətirəcəkdir. (Ona deyiləcək:) Bu sənin uzaq qaçdığın şeydir.

20. Sur üfürüləcəkdir. Həmin gün qorxulu vədin gerçəkləşdiyi gündür.

21. Hər kəs məhşərə yol göstərən və şahidlə birlikdə gələcəkdir.

22. (Ona deyiləcək:) Sən bu səhnədən xəbərsiz idin. Biz pərdəni sənin gözlərinin önündən qaldırdıq. Bu gün gözlərin çox iti görür!”

23. Onunla birlikdə olan mələk deyəcəkdir: “Bu onun məndə olan əməl dəftəridir!”

24. (Allah əmr edib deyəcək:) “Atın Cəhənnəmə hər bir inadkar, təkəbbürlü kafiri,

25. xeyrə mane olanı, azğınlaşıb həddi aşanı, şübhə edəni,

26. başqa bir məbudu Allaha tay tutanı. Atın onu şiddətli əzabın içinə!”

27. (Şeytanlardan olan) yoldaşı deyəcəkdir: “Ey Rəbbimiz! Onu itaətsizlik göstərməyə mən məcbur etmədim, əksinə, o özü dərin azğınlıq içində idi!”

28. (Allah) deyəcəkdir: “Mənim hüzurumda höcətləşməyin. Mən əvvəlcədən sizi xəbərdar etmişdim.

29. Mənim Sözüm dəyişməzdir. Mən bəndələrə zülm edən deyiləm!”

30. O gün Biz Cəhənnəmə: “Doldunmu?” – deyəcəyik. O isə: “Yenə varmı?” – deyəcəkdir.

31. Cənnəti müttəqilərə yaxınlaşdıracaqlar, onlardan uzaqda olmayacaqdır.

32. Budur sizə vəd edilən! O, Allaha doğru qayıdan, Onun əhd, əmr və hökmlərini qoruyan,

33. Mərhəmətli Allahdan Onu görmədən qorxan və (Allaha) yönəlmiş qəlblə gələn kimsələr üçündür.

34. (Onlara deyilər:) Cənnətə sağ-salamat daxil olun! Bu gün əbədiyyət günüdür.

35. Orada onlar üçün istədikləri hər şey var. Üstəlik hüzurumuzda bundan da artığı vardır.

---

16. Şah damardan yaxındır: Bizim fiziki həyatımız qanı müntəzəm olaraq ürəyə ötürən və oradan xaric edərək bütün bədən üzvlərinə paylayan (venoz və arterial) damarlardan asılıdır. Əgər bu fəaliyyət bir anlıq dayansa, insan dərhal ölər. Allah-taala da bizə şah damarımızdan yaxındır. Bu ayə Allah-taalanın "Ənfal" surəsinin 24-cü ayəsində "Bilin ki, Allah insanla onun qəlbi arasında pərdə olur", - deyə buyurduğu cümləyə bənzəyir. Allah bundan da yaxın və üstündür. Maddi aləmdə bundan daha açıq bənzətmə tapmaq olmur. Allahın elminin bu cür əhatəsi və bizim onun qüdrəti ilə əhatə olunmağımız üzərimizə düşən vəzifəyə aydınlıq gətirir. Bizim danışıqlarımız, hərəkətlərimiz, düşüncələrimiz, niyyətlərimiz, hətta qəlbimizdəki vəsvəsələrimiz də ondan gizli deyil. Bu həqiqətə diqqət insanı ayıldır, onu Allahın ədalət məhkəməsindəki ağır məsuliyyəti ilə tanış edir, laqeyid insanı öhdəliyi olan bir varlığa çevirir.[2050]

[2050] Nümunə, c.22, səh.244

17-18. Sizin ən kiçik sözlərinizi də yazırlar: 16-cı ayədə Allahın elminin aşkar və gizlini, insanın daxilini və xaricini əhatə etdiyi buyurulur. Nəzər nöqtəsi olan ayələrdə isə, bununla yanaşı insana sağdan və soldan nəzarət edərək əməllərini qoruyan, hər zaman onunla olan, bir an belə ondan ayrılmayan iki mələyin də olduğu qeyd edilir. Bu, dəlil tamlığını təmin etmək və əməllərə görə cavab veriləcəyinin daha çox diqqət mərkəzində saxlanılmasının zəruri olduğunu çatdırmaq üçündür.[2051] İmam Sadiq (ə) buyurmuşdur: "Allah mələklərə ibadət etməyi əmr etmiş və bəndələrinə şahidlik etməyi tapşırıb ki, bəndələri onların müşayiəti ilə Allaha itaətdə daha diqqətli olsunlar, ona üsyan etməkdən daha çox çəkinsinlər. O qədər bəndə olub ki, hər hansı günahı etməyə niyyətlənmiş, ancaq bu iki mələyi xatırlayıb həmin günahdan çəkinərək demişdir: Rəbbim məni görür, əməlləri qoruyan mələklər də şahidlik edirlər."[2052] Peyğəmbərə (s) istinad edilən hədislərdə sağ tərəfin mələyinin yaxşı əməlləri, sol tərəfin mələyinin pis əməlləri yazdığı, ikinci mələyin birinci mələyə tabe olduğu qeyd edilmişdir. İnsan hər hansı yaxşı əməli etdikdə sağ tərəfdəki mələk on dəfə artıq yazır, insan günaha yol verdikdə və sol tərəfdəki mələk onu yazmaq istədikdə sağ tərəfdəki mələk ona tələsməməyi əmr edir. Günah əməli yazmağa təyin edilmiş mələk yeddi saat bu əməli yazmayıb gözləyir. Əgər insan peşman olub tövbə edərsə, heç nə yazılmır, əgər tövbə etmirsə, yalnız bir günah yazılır. Hədislərdə qeyd edilir ki, mömin insan dünyasını dəyişdikdən sonra onlar deyirlər: Ey Rəbbimiz, bəndənin ruhunu bədənindən aldıqdan sonra bizim işimiz nə olacaq? Allah-taala buyurur: "Mənim göyüm mələklərimlə, yerim isə yaratdıqlarımla doludur. Siz bəndəmin qəbrinə girin, orada təsbih

[2051] Nümunə, c.22, səh.247
[2052] Quranın ismarışı, c.6, səh.109

(Subhanəllah), təkbir (Əllahu Əkbər) və təhlil (la ilahə illəllah) deyin və savabını Qiyamətə qədər bəndəmin yaxşı əməllər dəftərinə yazın.”[2053]

19. Ölüm məstliyi: Ölüm məstliyi ölüm anı yetişdikdən sonra qeyri-adi həyəcan formasında meydana gələn məstlikdir. Bu məstlik beyinə nüfuz edərək insanda güclü həyəcan və narahatlıq yaradır. İmam Əli (ə) ölüm anları və onun məstliyini çox canlı şəkildə təsvir edərək belə buyurur: ***“Ölüm məstliyi bir tərəfdən, fürsətlərin əldən verilməsinin həsrəti digər tərəfdən. Əlləri və ayaqları süstləşir, rəngləri dəyişir. Ölüm bədənlərinə nüfuz etdikdə dilləri fəaliyyətdən düşür. Ailə və yaxınlarının arasında uzanmış vəziyyətdə gözləri görür, qulaqları eşidir, ancaq ağlı yerindədir, şüuru və dərk işləyir. Ömrünü hansı yolda zay etməsi, günlərini necə keçirməsi haqqında düşünür, topladığı sərvəti xatırlayır, onu toplamaq üçün halal və harama göz yummuşdu, halal və haramı, şübhəli mal olduğu aşkar olan yerdən sərvət toplamışdı, indi onların yükü boynundadır, bilir ki, ayrılıq vaxtı yetişib, ondan sonra sərvəti miras yeyənlərə qalacaq, onlar ondan faydalanacaqlar, ancaq zülmü onun boynunda qalacaq, miras başqalarına nəsib olduğu halda, o sərvətin girovundadır.”***[2054]

36. Biz onlardan əvvəl özlərindən daha qüvvətli, şəhərlər (və ölkələr) fəth edən neçə-neçə nəsilləri məhv etdik. Məgər (əzabdan) qaçıb qurtarmaq olarmı?”

37. Bunda ağlı olan, hazır durub diqqətlə qulaq asan kimsə üçün xatırlatma və ibrət vardır.

[2053] Məcməül-bəyan, c.9, səh.240
[2054] Nümunə, c.22, səh.255

38. Biz göyləri, yeri və onların arasında olanları altı gündə yaratdıq və Bizə heç bir əziyyət və çətinlik olmadı.

39. Sən onların dediklərinə səbr et! Gün doğmamışdan əvvəl və batmamışdan əvvəl Rəbbinə həmd və tərif de!

40. Gecənin bir hissəsində və səcdələrdən sonra Onun şəninə təriflər de!

41. Dinlə (ey Peyğəmbər!) O gün carçı yaxın bir yerdən çağıracaqdır.

42. O gün onlar bu səsi həqiqətən eşidəcəklər. Bu, (qəbirlərdən) çıxma günüdür.

43. Dirildən də, öldürən də Bizik. Dönüş də yalnız Bizədir.

44. O gün yer onlardan ötrü sürətlə yarılacaq, onlar (qəbirlərdən) çıxacaqlar. Bu cür toplamaq Bizim üçün asandır.

45. Biz onların nə dediklərini yaxşı bilirik. Sən onları məcbur edən deyilsən. Sən Mənim əzabımdan qorxanlara Quran vasitəsilə xatırlat!

"Zariyat" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. And olsun (buludları) hərəkətə gətirən küləklərə!

2. And olsun ağır (yağış) yükü daşıyan buludlara!

3. And olsun asanlıqla hərəkət edən gəmilərə!

4. And olsun işləri paylaşdıran mələklərə!

5. Sizə vəd olunanlar əlbəttə, həqiqətdir.

6. Şübhəsiz ki, əməllərin əvəzinin veriləcəyi mütləqdir!

39-40. Dörd vaxt Allaha tərif demək: Təfsirçilər ayədə dörd vaxt Allaha təfir söylənməsi (gün doğmazdan əvvəl, qürubdan əvvəl, gecə və səcdələrdən sonra) məsələsi ilə bağlı müxtəlif fikirlər irəli sürmüşlər. Bəzi

böyük təfsirçilər belə yazırlar: Gün doğmazdan əvvəlki tərifi sübh namazı kimi başa düşmək olar. Yəni həmin ifadə ilə sübh namazı nəzərdə tutulmuşdur. Qürubdan əvvəlki tərifi əsr namazı və ya zöhr və əsr namazları, gecənin bir hissəsinin tərifini isə məğrib və işa namazları kimi başa düşmək olar. Səcdədən sonranın tərifinin namazlardan sonrakı tərifləro aid olduğunu deyə bilərik. Səcdə namazın hər bir rükətinin sonunda gəldiyi və namazlardan sonra edilən dualar da namaz bitdikdən sonra yerinə yetirildiyi üçün bunu belə izah edə bilərik.[2055]

"Zariyat" surəsinin ümumi məzmunu: Bu surənin ehtiva etdiyi mövzuları beş bölmə üzrə ümumiləşdirmək olar: 1. Surənin əsas hissəsini qayıdış mövzusu təşkil edir; 2. Yaranış sistemində Allahın varlığını və Allahın tək olduğunu göstərən əlamətlər; 3. İbrahimə qonaq olmuş və Lut qövmünün yaşadığı şəhərləri məhv etməyə ezam olunmuş mələklər; 4. Musa (ə), Ad qövmü, Səmud və Nuh (ə) qövmünün başına gələnlərdən fraqmentlər; 5. İnadkar qövmlərin keçmiş peyğəmbərlərə qarşı mübarizələri, qatı müxaliflərlə qarşı-qarşıya dayanmış İslam peyğəmbərinə (s) təskinlik verilməsi, onu dözümlü olmağa çağırmaq.[2056]

1-4. Ayədə qeyd edilən andların izahı: Ayələrdə diqqətləri bir məsələyə yönəltmək üçün bir-birinin ardınca bir neçə and qeyd edilmişdir. Həmin məsələ insana etdiyi əməllərin əvəzinin verilməsindən ibarətdir. Birinci ayədə buludları ətrafa yayan (toxumları və zərrələri yer üzünə yayan) küləklərə and içilmişdir. İkinci ayədə ağır yağış yükünü daşıyan buludlara, sonra asanlıqla hərəkət edən gəmilərə, dördüncü ayədə Allahın əmrlərini yerinə yetirən, onun fərmanlarını vəzifə və səlahiyyətlərinə uyğun olaraq bölüşdürən mələklərə and içilmişdir. Allahın dünyanın yaranışı və idarəçiliyi

[2055] Əl-Mizan, c.18, səh.364
[2056] Nümunə, c.22, səh.303

ilə bağlı fərmanı birdir. Ancaq bu fərman ayrı-ayrı vəzifə daşıyan mələklərə çatdıqda bölüşdürülür. Bu təsnifat kainatın ən kiçik işlərini görməyə ezam edilmiş mələklərə qədər davam etdirilir. Allahın dünyanın idarə edilməsi ilə bağlı fərmanı mələklərə çatdıqda hər bir mələk öz vəzifəsinə müvafiq olaraq davranır və dünyanın ayrı-ayrı hissələrinin idarəçiliyi ilə məşğul olur. Gördüyümüz kimi, bu dörd ayədə dünyanın bütün hissələrinə işarə edilmişdir. "Hərəkətə gətirən küləklər" cümləsi ilə quruya aid bəzi hadisələrin idarəçiliyinə, "Asanlıqla hərəkət edən gəmilər" cümləsi ilə dənizlərin idarə edilməsinə, "yağış yağdıran buludlar" cümləsi ilə göylərin idarəçiliyinə, "İşləri bölüşdürən idarəedici mələklər" cümləsi ilə isə kainatın digər idarəçiliyinə işarə edilmişdir. Deməli, bu dörd ayədə Allah-taala bizə bunları bəyan edir: "And olsun dünyanın idarəçiliyində rol oynayan bütün bu vasitələrə, sizə verdiyim vəd doğrudur, əməllərin əvəzi veriləcək." Sünni və şiə mənbələrində bu ayənin qeyd olunan formadakı təfsiri İmam Əliyə (ə) aid olan bir hədisə istinad edilir.[2057]

[2057] Quranın ismarışı, c.2, səh.356

7. And olsun gözəl qatları olan səmaya!

8. Sizin (Qiyamətlə bağlı) sözləriniz ziddiyyətlidir.

9. Ona iman gətirməkdən (yalnız) haqdan boyun qaçıran dönər.

10. Ölüm olsun yalançılara -

11. cəhalət və qəflət içində batanlara!

12. Onlar dayanmadan soruşurlar: “Haqq-hesab günü nə vaxt olacaq?”

13. Həmin gün onları odda yandıracaqlar.

14. (Onlara deyiləcək:) “Dadın əzabınızı! Sizin tələsdiyiniz şey budur!”

15. Şübhəsiz ki, müttəqilər Cənnət bağlarında və bulaqlar başında olacaqlar,

16. öz Rəblərinin onlara verdiyini alacaqlar. Çünki onlar bundan əvvəl yaxşı iş görən adamlar olmuşdular.

17. Onlar gecələrin az bir hissəsini yatırdılar.

18. Səhərlər isə bağışlanma diləyirdilər.

19. Onların mal-dövlətində dilənçi və yoxsullar üçün pay vardır.

20. Yəqinlik axtarışında olanlar üçün yer üzündə nişanələr vardır.

21. Sizin öz varlığınızda da (nişanələr vardır.) Məgər görmürsünüz?

22. Sizin ruziniz və sizə vəd olunan şeylər göydədir.

23. Göyün və yerin Rəbbinə and olsun ki, bu, sizin danışığınız kimi həqiqətdir.

24. İbrahimin möhtərəm qonaqlarının əhvalatı sənə gəlib çatıbmı?

25. Onlar onun yanına daxil olub: “(Sənə) salam olsun!” – dedilər. (İbrahim:) “Sizə də salam olsun! Siz yad adamlarsınız!” – dedi.

26. Sonra xəlvətcə ailəsinin yanına getdi və (qızardılmış) kök bir buzov gətirdi

27. və onların qarşısına qoydu. (Yeməyə əl uzatmadıqlarını görüb təəccüblə) soruşdu: “Yemək yemirsiniz?”

28. Onlardan qorxdu. Dedilər: “Qorxma! (Biz Allahın elçiləriyik)”. Ona elmli bir oğlunun olacağını müjdə verdilər.

29. Zövcəsi qışqırıb üz-gözünə vura-vura dedi: “Axı mən sonsuz qoca qarıyam!”

30. Onlar dedilər: “Sənin Rəbbin belə deyib. O, müdrikdir, biləndir!”

---

7. Göyün qatları: “Hubk” sözünün çox mənası, o cümlədən yollar, küləklər nəticəsində səhranın qumları üzərində yaranan qatlar, suyun üzərində yaranan ləpələr və buludlar üzərində yaranan qırışlar mənası var. Buruq saçlara da hubk deyilir. Bəzən bu söz gözəllik, nizam-intizamlı və səliqəli mənasında da işlədilir. Bu sözün əsl mənası isə bağlamaq və məhkəmlətməkdir. Bu mənaların hamısının bir mənbədən qaynaqlandığını deyə bilərik. Həmin mənbə dalğalar, buludlar, qumlar və saçda yaranan buruqlardır. Bu mənanın səmaya aid edilməsinə gəlincə isə, bu, ulduz

yığınının müxtəlif formaları, planetlərin vəziyyətləri və göydəki buludların qəribə şəkilləri ilə bağlı ola bilər. Buludlar bəzən o qədər gözəl olur ki, insan uzun müddət gözünü onlardan çəkə bilmir. Bu məna qalaktiklarda saç buruqlarını xatırladan böyük kütlələrin forması ilə də bağlı ola bilər. Alimlərin teleskoplar vasitəsilə qalaktikalardan əldə etdikləri görüntülər burulmuş saçları xatırladır. Bu izaha əsasən Allah insanların hələ görə bilmədikləri səmaya və böyük qalaktikalara and içir. Bu mənaların bir-biri ilə təzad təşkil etmədiyini nəzərə alsaq, onların hamısının bu andda nəzərdə tutula biləcəyini deyə bilərik. "Muminun" surəsinin 17-ci ayəsində belə deyilir: "Biz sizin yuxarınızda yeddi yol yaratdıq"[2058]

22-23. Sizin ruziniz göydədir: Bəzi ayə və hədislərdə hər bir canlının ruzisinin Allaha aid olduğu qeyd edilmişdir. İndi ortaya belə bir sual çıxır: əgər belədirsə, o zaman ruzi qazanmaq və yaşayışı təmin etmək üçün çalışmağın və əziyyət çəkməyin, cəmiyyətin iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün proqramlar hazırlamağın nə mənası var? Ruziyə Allah tərəfindən zəmanət verilməsi, onun bölünməsi və sair deyilərkən ona potensiallar – insanın özündə və özündən kənar potensialların yaradılması nəzərdə tutulur. Bu ikisi birləşdiyi zaman insanın ruzi payını əldə edə bilir. Bir nüansı da yaddan çıxarmamalıyıq ki, insanın səbəblər aləmi içində itib batmaması, ruzinin yalnız səy və fəaliyyətlərin nəticəsi olduğunu düşünməməsi üçün Allah bəzən insanlara heç bir zəhmətsiz ruzi yetirir, bəzən isə həddən artıq zəhmətkeş olan bir adamı ruzidən məhrum edir. Bunu bütün səbəblər üzərində başqa bir qüdrətin hökmran olduğunu başa salmaq üçün edir. Əgər bizim ruzimizə zəmanət verilibsə, bəs nə üçün bəzi adamlar acdır? Bu suala cavab vermək üçün bir neçə məqama diqqət yetirmək

[2058] Nümunə, c.22, səh.312

lazımdır: 1. Ruziyə zəmanət və təminat vermək o demək deyil ki, o, ağlı olan insana zəhmətsiz verilməli, qapısının ağzına aparılmalı, tikə edilib ağzına qoyulmalıdır. “Zəmanət” deyilərkən potensial və zəmin yaradılanması nəzərdə tutulur. İnsanın səy və fəaliyyətləri bu potensialların reallaşmasının əsas şərtidir. 2. Bir qrup insanın keçmişdə və indi başqalarının hüquqlarını əlindən alması, zorla ruzisinə sahib olması ruzinin Allah tərəfindən təmin edilməməsi kimi başa düşülməməlidir. 3. İnsanın qidalanması üçün Yer kürəsində çox zəngin mənbələr var, insan ağlını və beynini işlədərək onlardan faydalanmalıdır. Əgər insan səhlənkarlıq edirsə, təqsirkar o özüdür. 4. Hədislərdə ruzinin artmasına səbəb olan bir çox amillər göstərilmişdir. Həmin amillərdən bir neçəsi bunlardır: Qohumlara baş çəkmək, evin, bədənin və paltarın təmizliyi, müsəlman qardaşlarla qarşılıqlı yardımlaşma, səhər tezdən ruzi dalınca çıxmaq, nemətin şükrünü etmək, tamahı tərk etmək, yalandan and içməyi tərgidmək, bağışlanma diləmək, günahlara görə tövbə etmək, işlərdə yaxşı niyyətdə olmaq, qonşulara yaxşılıq, Allaha diqqət. Bu faktorların hər biri cəmiyyətin sağlam olmasında, iqtisadi hədəflərin inkişaf etdirilməsində və ruzinin artmasında böyük rol oynayır.[2059]

[2059] Quranın ismarışı, c.2 ,səh.356

31. (İbrahim) dedi: “Siz hansı işdən ötrü ezam edilmisiniz, ey elçilər?”

32. Dedilər: “Biz günahkar bir qövmə göndərilmişik ki,

33. üstlərinə gildən daşlar yağdıraq –

34. həddi aşanlar üçün sənin Rəbbinin yanında nişan qoyulmuş daşlar!”

35. Biz o şəhərlərdə olan möminləri (əzab nazil olmazdan əvvəl) çıxartdıq.

36. Amma orada bir ailədən başqa müsəlman tapmadıq.

37. Ağrılı-acılı əzabdan qorxanlar üçün orada bir əlamət qoyduq.

38. Musanın həyatında da (nişanə və ibrət dərsi) vardır. O zaman Biz onu Fironun yanına aydın bir dəlillə göndərmişdik.

39. Ancaq o, bütün varlığı ilə ondan üz çevirib dedi: “Bu ya sehrbazdır, ya dəli!”

40. Buna görə də Biz onu və əsgərlərini yaxalayıb dənizə atdıq. O, qınanmağa layiq idi.

41. Ad (qövmünün) hekayətində də (ibrət) vardır. O zaman Biz onların üstünə yağışsız bir külək göndərmişdik.

42. O (külək) üstündən keçdiyi hər bir şeyi çürümüş sümüklər kimi etdi.

43. Səmud qövmünün hekayətində də ibrət vardır. O zaman onlara: “Qısa müddət bəhrələnin!” – deyilmişdi.

44. Onlar öz Rəblərinin əmrindən çıxdılar və onları gözləri baxa-baxa ildırım vurdu.

45. Yerə elə yıxıldılar ki, ayağa qalxa və kimdənsə kömək istəyə bilmədilər.

46. Onlardan Nuh qövmünü məhv etdik. Çünki onlar fasiq adamlar idilər.

47. Biz göyü qüdrətlə yaratdıq və sürəkli olaraq onu genişləndiririk.

48. Yeri də açdıq. Nə gözəl genişləndirənik!

49. Biz hər şeydən cütlər yaratdıq ki, bəlkə xatırlayasınız.

50. Elə isə, "Allaha tərəf qaçın! Mən onun tərəfindən sizi açıq-aşkar qorxudanam!

51. Allahla yanaşı başqa bir məbud qəbul etməyin. Mən onun tərəfindən sizi açıq-aşkar qorxudanam!"

---

47. Göylərin davamlı olaraq genişlənməsi: Bəzi təfsirçilər bu genişlənməni Allahın bəndələrə yağış vasitəsilə göndərdiyi ruzini genişləndirməsi kimi izah etmişlər. Bəzilərinə görə burada ruzinin hər cəhətdən genişlənməsi nəzərdə tutulmuşdur. Bəziləri onu Allahın ehtiyacsız olması kimi izah etmişlər. Çünki onun xəzinələri o qədər genişdir ki, Allaha ruzi verməklə əsla tükənmir və azalmır. Ancaq həm əvvəlki ayədə göylərin yaranması, həm də müasir dövr alimlərinin dünyanın genişlənməsi ilə bağlı kəşfləri, bu kəşflərin intuitiv müşahidələr vasitəsilə də təsdiqinə nəzər salsaq, ayənin daha incə məna ifadə etməsi qənaətinə gələ bilərik. Belə ki, Allah göyləri yaradıb və onları davamlı olaraq genişləndirir. Müasir elmi nailiyyətlər təkcə Yer kürəsinin kosmik maddələri cəzb edərək tədricən ağırlaşdığını deyil, göylərin də sürəkli olaraq genişləndiyini təsdiq edir. Belə ki, müşahidələr bir qalaktikaya aid olan ulduzların sürətlə həmin qalaktikanın mərkəzindən uzaqlaşdığını göstərir. "Biz genişləndirənik" ifadəsi göstərir ki, bu genişlənmə hər zaman olmuş və indi də davam edir. Müasir alimlər artıq belə bir qənaətə gəliblər kli, planetlər və qalaktikalar başlanğıcda vahid bir mərkəzdə bir yerdə olublar. Sonra böyük bir partlayış

baş verib. Həmin partlayışın ardınca dünyanın hissələri parçalara ayrılaraq planetlər formasını alıblar. İndi də genişlənməkdə və geriləməkdədirlər.[2060]

49. Bütün yaradılmışların cütünün yaradılması: Təfsirçilərin çoxu "cüt" sözünün burada müxtəlif siniflər mənasında olduğunu yazmış və ayədə bu dünyada mövcud olan varlıqların cüt formasını almış müxtəlif siniflərinə işarə edildiyini qeyd etmişlər. Buna gecə və gündüz, işıq və qaranlıq, dəniz və səhra, günəş və ay və sairəni misal göstərmək olar. Bu cür ayələrdə "cüt" sözünü daha dəqiq mənaya aid etmək olar. Çünki bitki və heyvanat aləmindən asılı olmayaraq, "cüt" sözünü adətən, dişi və erkək cinsinə aid edirlər. Əgər bu sözün məna yükünü bir qədər də genişləndirsək, bütün müsbət və mənfi yüklü zərəciklərə də şamil olduğunu görərik. Quranın bu ayəsində "hər şeydən" ifadəsinin işlədildiyini nəzərə alsaq, deməli, burada canlı və cansız olmasından asılı olmayaraq, bütün mövcudatın müsbət və mənfi zərrələrdən təşkil olunmasına işarə edildiyini başa düşərik. Müasir elm atomların müxtəlif hissələrdən, o cümlədən elektron adlanan mənfi, proton adlanan müsbət yüklü hissələrdən təşkil olunduğunu sübuta yetirmişdir. Buna görə də "şey" sözünü heyvan və bitki, "cüt" sözünü də sinif mənasında izah etməyə lüzum yoxdur. Bu iki mənanı birlikdə götürmək də olar.[2061]

50. Allaha doğru qaçmaq: "Fərar" (qaçmaq) sözü burada çox gözəl və incə bir mənanı ifadə edir. İnsan qorxulu bir varlıq və ya hadisə ilə qarşılaşdıqda sürətlə uzaqlaşaraq sığınacaq bildiyi təhlükəsiz yerə qaçır. Müşriklər də qorxulu inanc olan şirk və bütpərəstlikdən həqiqi təhlükəsiz və əmin-aman yer olan xalis tövhidə doğru qaçmalıdırlar. Buna görə də ayədə hər kəsin Allahın əzabından rəhmətinə, günahdan tövbəyə doğru,

[2060] Nümunə, c.22, səh.373
[2061] Nümunə, c.22, səh.376

çirkinliklərdən, pisliklərdən, imansızlıqdan, cəhalət qaranlıqlarından, əbədi əzabdan Allahın rəhmətinə, bağışlanmaya və əbədi xoşbəxtliyə doğru qaçmasını göstəriş verir. İmam Sadiqin (ə) bir hədisində "Allaha doğru qaçmaq" deyilərkən həcc və Allah evini ziyarətin nəzərdə tutulduğu qeyd edilmişdir. Məlumdur ki, Allah evini ziyarət Allaha doğru qaçmağın parlaq nümunələrindən biridir. Çünki həcc insanı tövhid, tövbə və bağışlanma diləməyin həqiqəti ilə tanış edir, Allahın lütf və mərhəmət dolu sığınacağına daxil edir.[2062]

52. Belədir, bunlardan əvvəlkilərə də elə bir elçi gəlmədi ki, (onun barəsində): "Sehrbazdır, ya da dəlidir!" – deməsinlər.

53. Onlar bunu bir-birinə vəsiyyətmi etmişlər? Xeyr, onlar həddi aşan adamlardır.

[2062] Nümunə, c.22, səh.377

54. İndi ki belədir, artıq onlardan üz döndər! Sən buna görə qınanmazsan.

55. Sən dayanmadan xatırlat! Çünki xatırlatmaq möminlərə fayda verir.

56. Mən cinləri və insanları ancaq Mənə ibadət etmələri üçün yaratdım.

57. Mən onlardan ruzi istəmirəm. Mən onlardan Məni yedirtmələrini də istəmirəm.

58. Allah ruzi verəndir, qüdrət və qüvvət sahibidir.

59. Zülm edənləri həmtaylarının payı kimi böyük bir əzab payı gözləyir. Buna görə də tələsməsinlər!

60. Onlara vəd olunmuş gündən ötrü vay kafirlərin halına!

"Tur" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. And olsun Tur dağına!

2. And olsun yazılmış Kitaba –

3. açılmış bir səhifə üzərində (olan Kitaba)!

4. And olsun Beytul-məmura (abad ev)!

5. And olsun yüksəklmiş tavana!

6. And olsun dolu və alovlanan dənizə!

7. Rəbbinin əzabı mütləq olacaqdır.

8. Heç nə onun qarşısını ala bilməyəcək.

9. O gün göy şiddətlə titrəyəcək,

10. dağlar yerindən qopub hərəkətə gələcəkdir.

11. O gün vay halına yalan sayanların!

12. O kəslərin ki, batil sözlər için oynayırlar.

13. O gün onları zorla Cəhənnəm oduna atacaqlar.

14. (Onlara deyəcəklər:) “Bu sizin inkar etdiyiniz Cəhənnəm odudur!

---

56. Quran nöqteyi-nəzərindən insan yaranışının məqsədi: Hər kəsin özü-özünə verdiyi ən mühüm suallardan biri budur ki, biz nə üçün yaranmışıq? Allah natamam idimi ki, insanı yaratmaqla öz natamamlığını tamamladı? Halbuki Allahın hər cəhətdən kamil və sonsuz bir varlıq olduğunu bilirik. Quran ayələrində insanın yaradılış məqsədi müxtəlif formalarda ifadə edilmişdir.”Mülk” surəsinin 2-ci ayəsində gözəl əməl cəhətdən insanın sınağa çəkilməsi bir məqsəd olaraq təqdim edilmişdir. “Tələq” surəsinin 12-ci ayəsində Allahın elm və qüdrətindən xəbərdar olması göylərin və yerlərin yaradılış məqsədi kimi göstərilmişdir. “Hud” surəsinin 118-119-cu ayələrində bildirilir ki, insan Allahın rəhmətinə nail olmaq üçün yaradılmışdır. Nəzər nöqtəsi olan ayədə isə insanın yalnız ibadət etmək üçün yaradıldığı göstərilir. Allah-taala bu ayədə açıq şəkildə buyurur ki, cinləri və insanları yalnız ona ibadət etməsi üçün yaradıb. Bu ayələrə azca diqqətlə baxdıqda onlar arasında heç bir ixtilaf olmadığının, əksinə, onların bəzisinin ilkin məqsəd, bəzisinin orta məqsəd, bəzisinin son məqsəd, bəzisinin isə nəticə olduğunun şahidi oluruq. Əsl hədəf isə bu ayədə qeyd edildiyi kimi, ibadət və bəndəlikdir, elm, qüdrət, imtahan, sınaq isə ibadət və bəndəlik yolu üzərində olan məqsədlərdir, Allahın rəhməti isə bəndəlik və ibadətin nəticəsidir. Əlbəttə, yaddan çıxarmamalıyıq ki, ibadət təkcə öz-özlüklərində mühüm əhəmiyyət daşıyan namaz və oruc kimi zahiri əməllərdən ibarət deyil, ibadət Allah qarşısında tam itaət göstərməkdir. Bəndəlik və ibadət bütün sahələrdə qeyd-şərtsiz itaətdən ibarətdir. Kamil bəndəlik budur ki, insan yalnız həqiqi məbud haqqında düşünür, onun

yolunda addım atır, ondan qeyrisini, hətta özünü də unudur. Yaradılışın son məqsədi də məhz budur. Həmin məqsədə çatmaq üçün Allah imtahan və sınaq meydanı yaradıb, insana elm və ayıqlıq verilib, nəticədə, isə ona rəhmət okeanında qərq olmaq lütfü bəxş edib.[2063]

"Tur" surəsinin ümumi məzmunu: Bu surə Məkkədə nazil olub. Surə yaxşılar, pak və təmiz insanlar, pislər, günahkarlar və cinayətkarların aqibətindən bəhs edir. Bundan əlavə burada müxtəlif etiqad məsələlərinə də toxunulur.[2064]

1-6. Ayələrdə qeyd edilən andların izahı: "Tur" deyilərkən böyük ehtimalla Musaya (ə) vəhy nazil olan Turi-sina dağı nəzərdə tutulur. "Geniş səhifəyə yazılmış kitab" ifadəsi ilə lövhələr formasında nazil olan və səhifələr üzərində yazılmış Tövrata işarə edilir. "Beytül-məmur" sözü ilə bağlı iki versiya var: Birinci versiyaya görə Kəbə evidir. Çünki insanların ibadət etməsi üçün ilk tikilən, dövrümüzə qədər də abad qalmış ev məhz Kəbə evidir. İkinci versiyaya görə Kəbə evinə paralel olaraq göydə yerləşən və mələklərin ibadəti ilə abad olan evdir. Bu versiyaya bir çox hədislərdə də rast gəlinir. "Yüksəlmiş tavan" deyilərkən səma nəzərdə tutulur. Səmanın tavana bənzədilməsi ola bilsin ki, ulduz və planetlərin onu sıx şəkildə örtərək tavan şəklinə salmaları ilə bağlıdır. Ola bilsin ki, burada atmosfer təbəqəsi nəzərdə tutulur. Belə ki, o, yer küəsini tavan kimi möhkəm örtərək onu göydən yağan daş yağışlarından, kosmosdan gələn zərərli şüalardan, qoruyur. "Bəhrül-məscur" sözünün də iki mənası var: dolu və alovlanan dəniz. Quran ayələri (Təkvir-6, İnfitar-2) və bəzi hədislərdə ikinci məna təsdiq edilir. Hədislərdə qeyd edilir ki, Qiyamət günü dənizlər yanacaq, oda

---

[2063] Nümunə, 22, səh.384
[2064] Nümunə, c.22, səh.408

çevriləcək. Bəzi hədislərdə də qeyd edilir ki, dənizlər, onlarda od yandırıldığı üçün quruyacaq.[2065]

15. Bu, sehrdir, yoxsa siz görmürsünüz?

16. Oraya daxil olub yanın! Dözsəniz də, dözməsəniz də sizin üçün eynidir. Çünki sizə ancaq etdiyiniz əməllərin cəzası verilir".

17. Ancaq müttəqilər Cənnət bağları və bol nemətlər içindədirlər.

18. Rəblərinin onlara bəxş etdiklərinə və onları Cəhənnəm əzabından xilas etdiyinə görə sevinirlər.

19. (Onlara deyiləcək:) "Xeyirxah əməllərinizin əvəzi olaraq nuşcanlıqla yeyin, için!"

20. Sıra ilə düzülmüş taxtlar üzərində bir-birlərinin yanında dirsəklənəcəklər. Biz onları iri qaragözlü hurilərlə evləndirəcəyik.

21. Möminlərin imanda onların arxasınca gedən nəsillərini də (Cənnətdə) özlərinə qovuşduracağıq. Onların əməllərindən heç bir şey əskiltməyəcəyik. Hər kəs öz əməlinin girovudur.

22. Onlara istədikləri meyvələrdən və ətlərdən bol-bol verəcəyik.

[2065] Nümunə, c.22, səh.411 və Əl-Mizan, c.19, səh.6

23. Onlar Cənnətdə bir-birlərindən mənasız davranışlara və günaha təhrik etməyən pak şərabla dolu badələr alacaqlar.

24. Ətraflarında onlara xidmət etmək üçün sədəf içindəki mirvarilər kimi yeniyetmə oğlanlar fırlanacaq.

25. Onlar bir-birinə üz tutub (keçmişdən) soruşacaqlar.

26. Deyəcəklər: “Biz ailəmiz içində olarkən (onların günahlarının bizə də bulaşacağından) qorxurduq.

27. Amma Allah bizə minnət qoydu və öldürücü əzabdan qorudu.

28. Biz əvvəllər Onu çağırdıq. Çünki yaxşılıq edən və rəhmli olan Odur!”

29. (Onlara) xatırlat! Sən öz Rəbbinin lütfü sayəsində nə kahinsən, nə də dəli!

30. Yoxsa onlar: “O bir şairdir. Biz onun ölümünü gözləyirik!” – deyirlər.

31. De: “Gözləyin, mən də sizinlə birlikdə gözləyirəm!”

---

21. Cənnət əhlinə qarşı böyük lütfkarlıq: Qiyamət günü Allahın möminlərə qarşı göstərəcəyi lütfkarlıqlardan biri budur ki, gözlərinə işıq bəxş etmək üçün onların mömin və sevdikləri övladlarını onlara qovuşduracaq. Əgər bu övladlar əməl cəhətdən büdrəmiş və təqsirkar olsalar, Allah əməlisaleh atalarının hörmətinə onları bağışlayacaq, dərəcələrini artıracaq. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***“İnsan Cənnətə daxil olduğu vaxt ata, ana, həyat yoldaşı və övladlarını axtaracaq. Ona deyiləcək: “Onlar sənin dərəcənə çatmayıblar”. Deyəcək: “Ya Rəbbim! Mən özümə və onlara görə əməl etmişəm.” Bu zaman övladlarının ona qovuşdurulmasına əmr veriləcək.”*** Övladların atanın dərəcəsinə yüksəlməsi məsələsində belə təsəvvür oluna bilər ki, atanın

əməllərindən götürülüb övlada verilir. Ancaq ayənin davamında belə buyurulur: ***"Biz onların əməllərindən heç nə əskiltmirik".*** Sonda isə belə buyurulur: ***"Hər kəs öz əməlinin girovundadır."*** Buna görə də möminlərin əməllərinin və mükafatlarının azalıb-əskilməməsi heç də təəccüblü deyil. Çünki bu əməllər hər zaman insanla birlikdədir. Əgər Allah onların övladlarına lütfkarlıq və mərhəmət göstərib onları Cənnətdə təqvalılara qovuşdurursa, bu, Cənnətdəkilərin əməllərindən kəsilməsi nəticəsində baş vermir.[2066]

24. Mirvari kimi xidmətçilər: Allah Cənnət əhlinin nemətlərini tam edib, onlara hər şey verib, o cümlədən onlara yüksək səviyyədə xidmət göstərən xidmətçilər, ətraflarında dövrə vuran, onları pak şərabla sirab edən saqilər bəxş edib. Zahiri gözəllikləri, incə davranışları, gözəl əxlaqları, Cənnət əhlini elə məftun edəcək ki, dünyada olarkən Allaha itaət yolunda qatlaşdıqları bütün ağrı-acıları unudacaqlar. Quranın çox ayələrində Cənnətin xidmətçiləri sədəf içində olan mirvariyə bənzədilmişdir. Çünki bu gövhər o qədər şəffaf, gözəl və tərdir ki, ona heç bir həddi təyin etmək olmur. Sədəfdən çıxarılarkən isə o tamamilə başqa cür olur. Cənnətin xidmətçiləri də o qədər gözəl, ağbəniz və səfalıdırlar ki, sanki sədəfdən yeni çıxmış mirvarini xatırladırlar. "Onlar üçün" ifadəsi Cənnət sakinlərinin hər birinin özünə məxsus olan xidmətçiləri olduğunu göstərir. Cənnət qəm-qüssə yeri olmadığı üçün bu xidmətçilər Allahın xüsusi bəndələrinə xidmət göstərməkdən xüsusi zövq alacaqlar. Bir məsələni də qeyd etməliyik ki, "qılman" mənası qul deyil, yeniyetmə olan "qulam" sözünün cəmidir. Məlumdur ki, bu yaşda olanlar çevik, aktiv, şad və gülərüz olurlar. Ayə və hədislərə görə Cənnətdə ümumiyyətlə, xidmətçiyə ehtiyac olmayacaq. Nə

[2066] Nümunə, c.22, səh.427

istəyəcəklərsə, dərhal ona nail olacaqlar. Ancaq bu, Cənnət sakinlərinə qarşı Allah tərəfindən göstərilən yüksək hörmət və qayğının göstəricisidir. Bu ayədə onların konkret hansı xidmətləri göstərəcəkləri qeyd edilməsə də, digər ayələr onların işinin Cənnət sakinlərinə xidmət göstərmək, onlara növbənöv dadlı Cənnət içkiləri və yeməkləri verməkdən ibarət olduğu qeyd edilmişdir. Bir nəfər Peyğəmbərdən (s) "Xidmətçilər sədəfdəki mirvari kimidirlərsə, bəs xidmət göstərdikləri necədir?" – deyə soruşduqda buyurur: ***"Canım əlində olana and olsun ki, xidmət göstərilənlərin xidmətçilərdən üstünlüyü on dörd gecəlik ayın digər ulduzlardan üstünlüyü kimidir."***[2067]

[2067] Quranın ismarışı, c.6, səh.265

32. Bu əməlləri onlara öz ağılları əmr edir, ya onlar həddi aşmış adamlardır?

33. Ya onlar: “Quranı yalandan Allahın adına çıxırsan!” – deyirlər? Xeyr, onlar iman gətirmirlər.

34. Əgər doğru söyləyirlərsə, onda ona (Qurana) bənzər bir kəlam gətirsinlər.

35. Bəlkə onlar heçdən yaranıblar? Ya onlar öz-özlərini yaradıblar?

36. Ya onlar göyləri və yeri yaradıblar? Xeyr, onlar yəqinlik axtarışında deyillər.

37. Sənin Rəbbinin xəzinələrimi onlardadır? Ya onlar bütün kainatın hakimidirlər?

38. Yoxsa onların, üstünə çıxıb vəhyin sirlərini dinlədikləri bir nərdivanlarımı vardır? Əgər onlardan bu iddiada olan varsa, qoy onda aydın bir dəlil gətirsin!

39. Yoxsa qızlar Onun, oğlanlar isə sizindir?

40. Yoxsa sən onlardan ağır yükü altında qaldıqları bir mükafat istəyirsən?

41. Yoxsa onlar qeybi bilir və ona əsasən yazırlar?

42. Yoxsa sənin‌lə bağlı mənfur bir plan hazırlayırlar? Amma kafirlər bilsinlər ki, özləri o planın toruna düşəcəklər.

43. Yoxsa onların Allahdan başqa bir məbudları var? Allah onların qoşduqları şəriklərdən uzaqdır.

44. Əgər onlar göydən bir daş parçasının düşdüyünü görsələr: “Bu, topa buluddur!” – deyərlər.

45. Sən onları ölümləri ilə görüşəcəkləri günə qədər tərk et!

46. O gün planları onlara heç bir fayda verməyəcək və onlara kömək göstərilməyəcəkdir.

47. Zalımlar üçün ondan qabaq bir əzab var. Lakin onların çoxu (bunu) bilmir.

48. Rəbbinin hökmünün təbliğində dözümlü ol! Sən Bizim tam mühafizəmiz altındasan. Qalxdıqda Rəbbinə həmd və tərif de!

49. Habelə gecə vaxtı ona tərif de, bir də ulduzlar batandan sonra (səhər açılanda)!

---

34. Əgər doğru deyirlərsə, Qurana bənzər bir kəlam gətirsinlər: Bu, Quran möcüzəsini açıq şəkildə bəyan edən ayələrdən biridir, məzmunu təkcə Peyğəmbərin (s) dövrünə xas deyil. Cümlədəki xitab Quranın vəhy olması ilə bağlı şək-şübhəsi olan hər kəsə şamildir. Bu və eyni məzmunlu ayələrdə Quranın çağırış nidası çox yüksək olmuşdur. Peyğəmbərin (s)seçildiyi gündən bu vaxta qədər on dörd əsr keçir, bu müddət ərzində ona müsbət cavab verən tapılmamışdır. Doğrusu, nə üçün alimlər, xüsusilə uzun illər anti-İslam təbliğatına böyük vəsait xərcləyən kilsə xadimləri və yəhudilər Quranla mübarizəyə qalxmaq, "Qurana bənzər bir kəlam gətirsinlər" çağırışına cavab olaraq bir kəlam təqdim etmələri üçün mallarının bir hissəsini alim, ədib və söz bilicilərinin ixtiyarına vermirlər? Cavab aydındır. Quranın bu ümumi ecazkarlığı səmavi vəhyin orijinallığının canlı şahididir.[2068]

48. Peyğəmbərin (s) tam mühafizəsi: Ayənin ərəbcə orijinalındakı "Sən bizim gözlərimiz önündəsən" cümləsi çox incə məna ifadə edir, həm Allahın elmindən xəbər verir, həm də onun tam himayəsini və lütfkarlığını

[2068] Nümunə, c.22, səh.449

göstərir. Belə ki, insan böyük bir varlığın nəzarət etdiyini, himayəsində olanın bütün səy və fəaliyyətlərini gördüyünü, onu düşməndən qoruduğunu hiss etsə, həm özündə güc tapar, həm də daha çox məsuliyyətli olar.[2069]

48-49. Allaha təriflər söylənilən vaxt: Allahla dərdləşmək, ona ibadət etmək, təriflər söyləmək, pak və müqəddəs olduğunu etiraf etmək insana rahatlıq gətirdiyi üçün Allah-taala səbr və dözümlü olmaq göstərişi verdikdən sonra buyurur: "Qalxdıqda Rəbbinə həmd və tərif de!" – Sübh vaxtları ibadət etmək və namaz qılmaq üçün qalxanda, vacib namaz qılmaq üçün yuxudan qalxanda, məclis və yığıncaqlardan qalxanda ona həmd və tərif de, ruhuna və canına ona həmd və tərif deməklə işıq və səfa bəxş et, dilini onu xatırlamaqla xoş ətirli et, onu xatırlamaqdan yardım al, düşmənin xəyanətlərinə qarşı mübarizəyə hazır ol. Hədislərin birində belə deyilir: Peyğəmbər (s) məclisdən qalxarkən buyurdu: "Ey mənim Allahım, sən ucasan, sənə həmd edərək səndən başqa məbud olmadığına şahidlik edirəm, səndən bağışlanma diləyirəm, sənə tövbə edirəm" Soruşdular: Bunlar nədir belə, deyirsən? Buyurdu: ***"Bunlar Cəbrayılın mənə öyrətdikləri, məclisdə baş verənlərin kəffarəsidir."***

Surənin son ayəsində belə buyurulur: ***"Gecə vaxtı ona tərif de, bir də ulduzlar batandan sonra"*** Təfsirçilərin çoxu "gecə vaxtı ona tərif de" ifadəsi ilə gecə namazının, "ulduzlar batandan sonra" ifadəsi ilə dan yeri sökülməzdən əvvəl, ulduzların batdığı vaxt qılınan sübh namazının nafiləsinə işarə edildiyini qeyd etmişlər. Peyğəmbər (s) buyurmuşdur: ***"Sübh namazının iki rükət nafiləsi dünya və dünyada olanların hamısından yaxşıdır."***[2070]

[2069] Nümunə, c.22, səh.467
[2070] Nümunə, c.22, səh.467

"Nəcm" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. And olsun batmaqda olan ulduza!

2. Sizin yoldaşınız nə azmış, nə də hədəfi itirmişdir.

3. O, əsla nəfsinin istəyi ilə danışmır.

4. Danışdığı yalnız ona nazil edilən bir vəhydir.

5. Bunu ona çox qüvvətli olan öyrətdi –

6. qeyri-adi bacarığı olan şəxs (Cəbrail). O, qüdrət və ökmranlığını göstərdi.

7. O, ən uca üfüqdə idi.

8. Sonra yaxınlaşıb daha yaxın oldu.

9. O, iki yay uzunluğunda, hətta ondan da yaxın məsafədə idi.

10. Burada Allah öz bəndəsinə vəhy olunmalı olanı vəhy etdi.

11. (Peyğəmbərin pak) qəlbi gördüyünü yalan saymadı.

12. Siz onunla gördüyü şey barəsində mübahisəmi edirsiniz?

13. Onu bir daha gördü –

14. (Sidrətül-müntəha) Münəthadakı Sidr ağacının yanında.

15. Məva bağı da oradadır.

16. Həmin vaxt Sidrətül-müntəhanı bir şey (göz qamaşdıran nur) bürümüşdü.

17. (Peyğəmbərin) gözü yayınmadı və həddi aşmadı (Gözləri onu aldatmadı, gördüyü həqiqət idi).

18. O, Rəbbinin ən böyük dəlil və nişanələrindən bəzisini gördü.

19. Siz mənə deyin görüm, Lat və Uzza,

20. habelə üçüncüləri olan Mənat (Allahın qızlarıdır)?

21. Məgər oğlanlar sizin, qızlar Onundurmu?

22. Elə isə, bu, ədalətsiz bölgüdür!

23. Onlar sizin və atalarınızın qoyduqları adlardan başqa bir şey deyildir. Allah onlar haqqında heç bir dəlil nazil etməmişdir. Onlar yalnız əsası olmayan zənnlərinə və nəfslərinin istəklərinə uyarlar. Halbuki Rəblərindən onlara doğru yolu göstərən rəhbər artıq gəlmişdir.

24. Yoxsa insan arzuladığı hər şeyə çatacaqmı?

25. Axirət də, dünya da Allahındır.

26. Göylərdə o qədər mələk var ki, onların şəfaətinin heç bir faydası yoxdur. Yalnız Allah istədiyi və razı qaldığı şəxs üçün icazə verdikdən sonra bu, mümkündür.

“Nəcm” surəsinin ümumi məzmunu: Bu surənin əsas məqsədi üç məqsədi xatırlamaqdır: Allahın yeganə idarəedici olması, qayıdış və peyğəmbərlik. Surə peyğəmbərlik mövzusu ilə başlayır, Peyğəmbərə (s) Allah tərəfindən vəhy edildiyi təsdiq edilir, onun hansı formada olması qeyd edilir. Sonra Allahın təkliyindən danışılır, xəyali olaraq Allaha ortaq edilən şəriklər və bütlər ciddi şəkildə inkar edilir, ardınca bütün yaradılış və onların idarə edilməsi, o cümlədən diriltmək, öldürmək, güldürmək, ağlatmaq, zəngin, yoxsul və məhv etmək, əzaba düçar etmək, dəvət etmək, qoxutmaq və sairənin yalnız Allaha aid edildiyi bəyan edilir. Surə qayıdış mövzusu, səcdə və ibadətə əmr edilməsi ilə sona yetir.[2071]

7-18. Merac, dostla yaxından görüş: Bu və əvvəlki ayələr Peyğəmbərə (s) vəhy edildiyini təsdiq edir, onun formasını izah edir. Əhli-beyt (ə) imamlarına çoxlu sayda hədislərdə bu ayələrin əsas məqsədinin bütün vəhylər deyil, Merac gecəsi Allahın Peyğəmbərə (s) göndərdiyi yaxın vəhy haqqında məlumat vermək olmuşdur. Ayələrin zahiri məzmunu da bu faktı təsdiq edir. Təfsirçilər bu ayələrdəki cümlə və sözlər haqqında bir-birindən kəskin şəkildə fərqlənən müxtəlif fikirlər irəli sürmüşlər. Allah-taala 7-ci ayədə ***“O, ən uca üfüqdə idi”***, - deyə buyurur. Üfüq yer mənası bildirir. Uca üfüq deyiləndə göy nəzərdə tutulur. Əslində, ayənin çatdırmaq istədiyi məzmun belədir: Peyğəmbər (s) merac gecəsi göyün ən yüksək yerində olmuş, sonra daha çox yaxınlaşmışdır... Allah-taala vəhy edilməli olanı öz bəndəsinə vəhy etmişdi. Peyğəmbərin pak qəlbi gördüyü hadisədə yanılmadı, Peyğəmbərin (s) gördükləri həqiqət idi. Əlbəttə, burada Peyğəmbərin (s) qəlb gözü ilə nə gördüyü açıq şəkildə deyilməmişdir. Ancaq 18-ci ayədə onun bu ruhani səfərdə Allahın bir sıra böyük

---

[2071] Əl-Mizan, c.19, səh.26

nişanələrini gördüyü qeyd edilmişdir. Burada Allah-taala ilə görüş nəzərdə tutula bilər, təbii ki, görmə fiziki göz deyil, qəlb gözünə aiddir, "görüş" deyilərkən isə fiziki deyil, ruhani görüş nəzərdə tutulur. Allahı fiziki deyil, yalnız ruhani gözlə görmək olar. İmam Rzadan (ə) "Peyğəmbər (s) Allahı gördümü?" - deyə soruşulduqda buyurmuşdur: "***Bəli, Onu qəlbi ilə gördü. Məgər Allahın "(Peyğəmbərin pak) qəlbi gördüyünü yalan saymadı", - deyə buyurduğunu eşitməmisənmi? Peyğəmbər (s) Allahı gözü ilə deyil, qəlbi ilə gördü."*** 13-cü ayədə Peyğəmbərin (s) Allahla olan başqa bir görüşünə - Merac vaxtı Peyğəmbərin (s) Sidrətül-müntəhanın yanında olan başqa bir görüşünə işarə edilmişdir. "Sidr" ağac, "Müntəha" isə yer adıdır. Burada göylərin ən son nöqtəsi nəzərdə tutulmuşdur. Çünki "Məva bağı"nın (möminlərin məskunlaşdığı Cənnət bağıl) onun yanında, Cənnətin göydə olduğunu buyurur. Quranda bu ayədən başqa heç bir yerdə bu ağacdan söhbət açılmamışdır. Sanki Allah burada rəmzlərlə danışır. Hədislərdə Sidrin yeddinci göydə bir ağacın adı olduğu qeyd edilmişdir. İnsanların əməlləri həmin ağaca doğru yüksəlir.[2072] Peyğəmbər (s) belə buyurmuşdur: ***"Onun yarpaqlarnın hər birinin üzərində Allaha tərif deyən bir mələk gördüm."*** Başqa bir hədisində isə belə buyurur: ***"Mən Sidrətül-müntəhaya çatdım, onun hər bir yarpağının kölgəsində bir ümmətin əyləşdiyini gördüm."*** Buradan da yerdəki ağaclara bənzər bir ağacın nəzərdə tutulmadığı məlum olur. Onunla Allah dərgahında böyük bir kölgəsalana və hər yarpağı üzərində bir mələyin tərif deməsinə, keçmiş ümmətlərin əməlisalehlərinin onun kölgəsində əyləşməsinə işarə edilmişdir. [2073] 16-cı ayədə belə buyurulur: "Sidrətül-müntəhanı bir şey bürümüşdü". Allah bu ayənin izahını verməmişdir. Ancaq hədislərdə bildirilir ki, Allahla Peyğəmbər (s)

[2072] Əl-Mizan, c.19, səh.26
[2073] Nümunə, c.22, səh.497

arasındakı pərdə götürüldüyü və o, Allahı qəlb gözü ilə gördüyü an Sidr ağacını bir nur bürümüşdür.[2074] Hər halda, biz meracın əsl həqiqətindən xəbərsizik. Bu hadisə haqqında olan izahlar bir növ bənzətmədir. Söz bu həqiqəti ifadə etməyə aciz olduğu üçün bu cür böyük həqiqətlərə belə işarə edilmişdir.

27. Axirətə inanmayanlar, mələkləri qadın adlandırırlar.

28. Ancaq buna dair heç bir bilgiləri yoxdur. Sadəcə, əsası olmayan zənnə qapılırlar. Halbuki zənn əsla həqiqət ola bilməz.

29. İndi ki, belədir, sən də Bizi xatırlamağı rədd edib yalnız dünya həyatını istəyənlərdən üz çevir!

30. Bu, onların biliyinin ən son həddidir. Sənin Rəbbin Onun yolundan azanı da, doğru yolla gedəni də yaxşı tanıyır.

31. Pislik edənlərə əməllərinin cəzasını verməsi, yaxşılıq edənləri isə yaxşı əməllərinə görə mükafatlandırması üçün göylərdə və yerdə nə varsa, Allaha məxsusdur.

32. Onlar kiçik günahlar istisna olmaqla, böyük günahlardan və çirkin əməllərdən çəkinirlər. Sənin Rəbbinin məğfirəti genişdir. O, sizi torpaqdan yaratdığı vaxtdan və analarınızın bətnində rüşeym halında olduğunuz vaxt hər kəsdən yaxşı tanıyırdı. Elə isə özünüzü öyməyin! O, təqvalıları daha yaxşı tanıyır.

33. Gördünmü (İslamdan) üz çevirəni,

34. (malından) az verib çox verməkdən imtina edəni?

35. Məgər o, qeybi bilirmi, görürmü?

36. Ya Musanın səhifələrində olanlardan xəbərdar olmayıbmı?

[2074] Əl-Mizan, c.19, səh.32

37. və vəzifəsini tam yerinə yetirən İbrahimin (səhifələrində olanlardan xəbərdar olmayıbmı?)

38. Heç bir günahkar başqasının günah yükünü daşımaz.

39. İnsana yalnız çalışıb səy göstərdiyi aiddir.

40. Onun səy göstərdiyi tezliklə görünəcək.

41. Sonra ona yetərli qədər mükafat veriləcəkdir!”

42. Bütün işlərin son nöqtəsi sənin Rəbbindir.

43. Güldürən də, ağladan da Odur!

44. Öldürən də, dirildən də Odur!

---

32. “Ləməm” sözünün mənası: “Ləməm” günaha yaxınlaşmağa deyilir. “Ləməm” içik günahlar mənasında da işlədilir. Ayənin məzmunundan da məlum olur ki, “ləməm” insanın yol verdiyi, ancaq sonradan fərqinə varıb tərk etdiyi günaha deyilir. İmam Sadiq (ə) bu ayəni izah edərkən belə buyurmuşdur: “İnsanın etdiyi, sonra bir müddət uzaqlaşdığı, yenidən etdiyi günahdır (həmşiəlik adətinə çevrilmir)”. Altıncı imam başqa bir hədisində belə buyurmuşdur: “Ləməm insanın öncə edib, sonra bağışlanılmasını dilədiyi günahdır.” Ümumiyyətlə, əməlisaleh insanların xətaya yol verməsi mümkün haldır, ancaq bu xəta onların təbiətinə ziddir. Onların ruhları və qəlbləri hər zaman təmizdir, bulaşma təsadüfi xarakter daşıyır. Onlar xətaya yol verən kimi, peşman olub Allahdan bağışlanma diləyirlər.[2075]

32. Özünüzü öyməyin: Bu çirkin əməl insanın özünü tanımamasından irəli gəlir. Əgər insan özünü yaxşı tanısa, Allahın böyüklüyü qarşısında özünün kiçik olduğunu görsə, üzərində olan ağır məsuliyyətlər müqabilində

[2075] Nümunə, c.22, səh.537

əməllərinin kiçik olduğunu bilsə, Allahın ona bəxş etdiyi saysız-hesabsız nemətləri gözləri önünə gətirsə, heç zaman özünü öyməz, lovğalanmaz. Qürrələnmək, qəflət, özünü üstün tutmaq və nadan düşüncələr də bu çirkin əmələ təhrik edən amillərdəndir. İnsanın özünü öyməsi onun özünü kamil hesab etməsindən irəli gəldiyi üçün geriləməsinə səbəb olur. Çünki kamilliyin göstəricisi insanın qüsurlu olduğunu etiraf etməsi, naqis və zəif olduğunu qəbul etməsi ilə bəlli our. Buna görə də övliyalar Allahın təyin etdiyi vəzifələr qarşısında hər zaman təqsirli olduqlarını etiraf etmiş, insanları özünü öymək, etdikləri əməlləri üstün tutmaqdan çəkinməyə çağırmışlar. İmam Baqir (ə) belə buyurmuşdur: ***"Heç biriniz namazının, orucunun, zəkat, həcc və ümrə ayinlərinin çoxluğu ilə öyünməsin. Çünki Allah təqvalıları daha yaxşı tanıyır."***[2076] İmam Əli (ə) təqvalıların seçkin xüsusiyyətləri haqqında belə buyurmuşdur: "Öz kiçik əməllərindən narazıdırlar, etdikləri çox ibadəti az sayırlar, Bunlar özlərini daim ittiham edirlər, əməllərinə görə qorxu hissi keçirirlər. Onları təmiz olduqlarına görə tərifladikdə qorxuya düşərək deyirlər: Mən özüm özümü yaxşı tanıyıram, Rəbbim məni məndən yaxşı tanıyır. Ey Rəbbim, məni haqqımda söyləninənlərə görə cəzalandırma, məni haqqımda düşündüklərindən daha yaxşı et, onların xəbərsiz olduqları günahlarımı bağışla!"[2077]

39. İnsan üçün yalnız etdiyi əməlin nəticəsi var: Əllamə Təbatəbai bu ayəni izah edərkən "insan üçün" ifadəsi ilə bağlı çox mühüm bir nüansa toxunmuşdur. Burada "lam" hərfi (üçün mənasını bildirir) həqiqi sahibliyi, malikliyi bildirir. Yəni insan təkcə etdiyi yaxşı və ya pis əməlin sahibidir. Bu əməllər əbədi olaraq onunla bir yerdə olur. Ancaq insanın sahib və malik olduğunu düşündükləri – mal, vəzifə, övlad və sair, hamısı bu dünyada

[2076] Nümunə, c.22, səh.542
[2077] Nəhcül-bəlağə, 184-cü xütbə

insanla birlikdə olan xəyali varlıqlardır, insan bu dünyanı tərk edərkən onları bu dünyada qoyub gedir. Ancaq ayə və hədislərə əsasən o dünyada günahı olan möminlərə şəfaət ediləcəyi məsələsinə gəlincə, bu məsələ ilə təzad təşkil etmir. Səbəbi isə onların bu dünyada Allaha və onun ayələrinə inanıb yaxşı əməllər etməsidir. Onların şəfaət olunmasına məhz həmin iman və əməlləri səbəb olur. Əgər imanları olmasaydı, əsla şəfaət olunmazdılar. Bu şəkildə mömin öldükdən sonra digər möminlərin bağışlanma istəyindən və göndərdikləri hədiyyə savablardan faydalanırlar. Habelə bu dünyada yaxşı və ya pis bir ənənə qoymuş insan öldükdən sonra həmin ənənəyə əməl edən insanların günah və savabına ortaq olurlar. Çünki həmin adam həmin ənənəni qoymaq üçün səy göstərmişdir.[2078]

45. O, biri erkək və bir də dişi olmaqla iki cüt yaratdı –
46. xaric olan bir nütfədən.
47. Başqa bir aləm də yaratmaq Ona aiddir.
48. Ehtiyacsız edib, qalıcı sərmayə bəxş edən Odur.

[2078] Əl-Mizan, c.19, səh.47

49. Şira ulduzunun da Rəbbi Odur.

50. O, əvvəlki Ad qövmünü məhv etdi,

51. Səmud qövmünü də. Onlardan heç kəsi sağ buraxmadı.

52. Onlardan qabaq Nuh qövmünü də. Çünki onlar daha zalım, daha azğın kimsələr idi.

53. Həmçinin alt-üst olmuş şəhərləri (Lutun qövmünü) də O viran qoydu.

54. Sonra onları ağır əzaba qərq etdi.

55. Sən öz Rəbbinin hansı nemətinə şübhə edirsən?

56. Bu, əvvəlki qorxudanlardan olan bir qorxudandır (peyğəmbərdir).

57. Yaxınlaşmalı olan yaxınlaşıb (Qiyamət günü yetişir).

58. Allahdan başqa heç kəs onun çətinliklərini aradan qaldıra bilməz.

59. Siz bu sözə təəccüblənirsiniz,

60. gülürsünüz, heç ağlamırsınız,

61. qəflət və ehtiras içində ömür sürürsünüz?

62. İndi ki belədir, hamınız Allaha səcdə qılın və Ona ibadət edin!

"Qəmər" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Qiyamət yaxınlaşdı və ay bölündü.

2. Onlar bir möcüzə və əlamət gördükdə üz döndərib: “Bu davamı olan bir sehrdir” deyirlər.

3. Onlar (Allahın ayələrini) yalan hesab etdilər və öz nəfslərinin istəklərinə tabe oldular. Halbuki hər bir işin qərarlaşdığı bir yer var.

4. Onlara pisliklərdən çəkindirən kifayət qədər xəbərlər gəlmişdir.

5. Bu, Allahın böyük bir hikmətidir. Lakin təhdidlər (inadkar insanlara) fayda vermir.

6. Buna görə onlardan üz çevir. Carçının onları qorxulu hadisəyə çağıracağı günü xatırlat!

--

49. Şira ulduzu: Şira Yəmən şirası adı ilə tanınan ən parlaq ulduzlardan birinin adıdır. Bu ulduz cənub tərəfdə çıxdığından, eyni zamanda Yəmən də Ərəbistan yarımadasından cənubda yerləşdiyi üçün Yəmən şirası adlandırılmışdır. Bu ulduz adətən səhərlər əkizlər bürcünün yanında görünür və çox diqqət çəkən parlaqlığı olur. Çox parlaq olduğu üçün ona ulduzlar şahı da deyilir. Bu ulduzun çox qəribəlikləri var. Quranda Allahın Şira ulduzunun Rəbbi kimi təqdim edilməsi Xəzaə və sair qəbilələrin həmin ulduzu müqəddəs hesab edib ona sitayiş etməsi, onu yer üzündəki bütün mövcudatın mənbəyi hesab etmələri ilə bağlıdır. Onlar yaradılmışı yaradanın, idarə ediləni idarə edənin yerinə qoymuşdular. Çox maraqlıdır ki, surənin əvvəlində batan ulduza and içilir, burada isə Şiranın Rəbbindən danışılır. Əgər bu ikisini yanaşı qoysaq, Şiranın nə üçün məbud ola bilməyəcəyi aydın olar. Onun da məbud ola bilməyəcəyi qürub etməsi və yaradılış qanunlarına tabe olması ilə bağlıdır.[2079]

5. "Qəmər" surəsinin ümumi məzmunu: Bu surə beş hissədən ibarətdir: 1. Qiyamətin yaxın olması, ayın iki yerə bölünməsi və Allahın möcüzələrini inkar edənlərin israrı; 2. İlk inadkar qövm olan Nuh (ə) qövmü, onların tufan və seldə məhv olması ilə bağlı kiçik bir xatırlatma; 3. Ad qövmünün əhvalatı və onların ağır əzaba düçar edilməsi; 4. Səmud qövmünün əhvalatı və onların öz peyğəmbərləri Salehə (ə) qarşı çıxması; 5. Lut (ə) qövmü ilə bağlı xatırlatma və onların acı sonu; 6. Firon və yandaşları

[2079] Nümunə, c.22, səh.562

haqqında xatırlatma və onlara göndərilən əzab; 7. Bu qövmlərin Məkkə müşrikləri və Peyğəmbərin (s) müxalifləri ilə müqayisəsi, bu hərəkətlərini davam etdirəcəkləri təqdirdə onları çox təhlükəli gələcək gözləyəcəyindən xəbər verilməsi, günahkarlara Qiyamətdə veriləcək əzablar və təqvalılara veriləcək mükafatların bir qisminə işarə.[2080]

1. Ayın iki yerə bölünməsi: Bəzilərinin iddiasına görə, hətta təvatür (uydurula bilmə ehtimalı 0% olan hədislər çoxluğu) həddə olan hədislər çoxluğuna əsasən müşriklər Peyğəmbərin (s) yanına gəlib deyirlər: "Əgər doğru deyirsənsə, və sən Allahın peyğəmbərisənsə, ayı bizim üçün iki yerə ayır". Peyğəmbər (s) buyurur: "Əgər bunu etsəm, iman gətirərsiniz?" Onlar deyirlər: "Əlbəttə". Həmin gecə on dördüncü gecə idi. Peyğəmbər (s) Allahdan onların istədiyini yerinə yetirməsini istəyir. Sonra barmağı ilə aya işarə edir və qəfildən ay iki yerə bölünür. Peyğəmbər (s) müşrikləri tək-tək çağırıb buyurur: Baxın![2081] Ayın bölünməsi hadisəsinin Peyğəmbərin (s) hicrətindən qabaq Məkkədə baş verməsi təfsirçi və hədisçilərçilərə görə mübahisə mövzusu deyil. Bəzi hədislərdən belə məlum olur ki, bu hadisə Peyğəmbərin (s) hicrətinə yaxın vaxtda, onun Məkkədə olduğu son dövrlərdə baş vermişdir. Bu da Mədinədən Peyğəmbərin (s) yanına gəlib onunla Əqəbədə beyət edənlərin xahişinə əsasən baş vermişdir. Bu hadisənin tələb edilməsinin səbəblərindən bəhs edən bəzi hədislərə görə müşriklər Peyğəmbərə (s) deyirlər ki, sehr və cadu yerdəki hadisələrə təsir göstərir, biz Muhəmmədin (s) sehr deyil, möcüzə göstərdiyinə əmin olmaq üçün onun göylə bağlı bir qeyri-adilik göstərməsini istəyirik. Hətta bir qrup inadkar təəssübkeş bu böyük möcüzəni gördükdən sonra deyirlər ki, Şam və Yəmən kasrvanlarının gəlib bu hadisəni gördüklərini deməsələr biz onun möcüzə

[2080] Nümunə, c.23, səh.5
[2081] Nümunə, c.23, səh.8-9

olduğunu qəbul etməyəcəyik. Adıçəkilən karvanlar da hadisəni təsdiq etdikdən sonra onlar yenə də iman gətirmirlər. Əlbəttə, bu böyük möcüzə digər möcüzələr kimi, zəif tarixi mənbələr və hədislərdə ayın bir parçasının yerə enməsi kimi, xurafat və təhriflərə məruz qalmışdır. Buna görə də möcüzənin əsl məzmununun it-bata düşməməsi üçün xurafatları orijinaldan diqqətlə ayırmaq lazımdır.[2082]

7. onlar qorxunun şiddətindən gözlərini aşağı dikmiş halda ətrafa yayılan çəyirtkələr kimi qəbirlərindən çıxacaqlar.

8. Boyunlarını carçıya tərəf uzadaraq: “Bu gün ağır və acı bir gündür!” – deyəcəklər.

9. Onlardan əvvəl Nuh qövmü yalançı hesab etmişdi. Onlar qulumuzu yalançı adlandırıb: “O, dəlidir!” – dedilər və (peyğəmbərlik missiyasını davam etdirməməsi üçün müxtəlif vasitələrlə) ona maneələr yaradıldı.

10. O, Rəbbinə yalvarıb: “Məni üstələdilər! Mənim intiqamımı onlardan al!” – dedi.

11. Biz göyün qapılarını leysan yağışı ilə açdıq.

12. Yeri yarıb çoxlu bulaqlar qaynatdıq. Bu iki su təyin edilmiş ölçüdə bir-birinə qarışdı (və böyük bir dəniz yaratdı).

13. Biz onu lövhələr və mismarlardan hazırlanmış bir miniyə mindirdik.

[2082] Nümunə, c.23, səh.18

14. (Həmin gəmi) nəzarətimiz altında hərəkət edirdi. Bu, (kafirlər tərəfindən) inkar edilmiş şəxslərə bir mükafat idi.

15. Biz bu hadisəni ümmətlərə bir əlamət olaraq saxladıq. Heç ibrət alan bir nəfər varmı?

16. Mənim əzabım və qorxutmağım necə oldu!

17. Biz Quranı yada salmaq üçün asanlaşdırdıq. Heç xatırlayan bir adam varmı?

18. Ad qövmü də yalançı saydı. (Görün) Mənim əzabım və qorxutmağım necə oldu!

19. Biz qurtarmaq bilməyən nəhs bir gündə onların üstünə çox soyuq və qorxulu bir külək göndərdik.

20. O, insanları kökündən qoparılmış xurma gövdələri kimi yerdən qoparırdı.

21. (Görün) Mənim əzabım və qorxutmağım necə oldu!

22. Biz Quranı yada salmaq üçün asanlaşdırdıq. Heç xatırlayan bir adam varmı?

23. Səmud qövmü də Allahın təhdidlərini yalan saydı.

24. Onlar dedilər: “Özümüzdən olan bir adamamı tabe olacağıq? Onda biz azğınlığa düşər və ağılsız iş görmüş olarıq!

25. Aramızdan vəhy təkcə onamı nazil oldu? Xeyr, o, çox özündən razı yalançıdır,”

26. Sabah onlar kimin özündən razı yalançı olduğunu biləcəklər.

27. Biz onları sınağa çəkmək üçün bir dişi dəvə göndərəcəyik. Sən onların sonunu gözlə və səbrli ol!

---

13. Lövhələr və mıxlardan ibarət bir minik: Quranın bu ifadəsi çox maraqlı və dərin mənalıdır. Çünki Allah sanki demək istəyir ki, bütün

dünyanı basmış, qarşısına çıxan hər şeyi öz kamına alıb batıran böyük selin içində Nuhun (ə) və dostlarının xilasını bir ovuc mismar və taxtaya tapşırdıq, onlar da öz vəzifələrini yaxşı yerinə yetirdilər. Bu, əslində, böyük bir qüdrət nümayişidir.[2083]

17. Biz Quranı yada salmaq üçün asanlaşdırdıq: Dildə və qəlbdə Allahla ünsiyyət yaratmaq üçün Quran ən asan, ən yaxşı və ən yaxın vasitədir. Onun asanlıq səbəbi yüngül və səthi olması deyil, ismarışlarının qəlbə və cana yaxın olmasıdır. "Müzzəmmil" surəsinin 5-ci ayəsində belə buyurulur: "Biz tezliklə sənə çox ağır bir çətinlik endirəcəyik." Quran çox ağır və dərin məzmunlu kitabdır, ancaq insanın fitrətinə tanış olduğu və onunla səsləşdiyi üçün onu anlamaq və ondan istifadə etmək hər kəsə asandır. Ağır və dərin mənalı olmaqla yanaşı asan, rəvan və hər kəs üçün başa düşülən olması Quranın möcüzəli xüsusiyyətlərindəndir. Ağır olmaq heç də çətin olmaq deyil. Necə ki, yüngül olmaq da səthilik və məzmunsuzluq demək deyil. Asanlıq və ağırlıq bir-birinə zid xüsusiyyətlər olmadığı üçün onların bir araya gəlməsi heç də qəribə deyil.[2084] Qəlb Quranla ünsiyyətə hazır olduğu hər vaxt onun tərəfindən cəzb olunur. İslam tarixində Quranın hazır qəlblərə göstərdiyi heyrətamiz təsirlə bağlı nümunələr bu faktı təsdiq edir. Ancaq bir toxumun həyat nütfəsi ölübsə, ona heç nə etmək olmaz. Əgər onu ən münbit yerdə əksəniz, dibinə kövsər suyu töksəniz və ən yaxşı bağbanların nəzarəti altında bəslənsə belə heç vaxt göyərməyəcək, gül-çiçək açmayacaq.[2085]

19. Mübarək və nəhs: Adətən insanlar bəzi günlərin mübarək, bəzilərinin isə nəhs olduğunu düşünürlər. Baxmayaraq ki, onlar arasında

---

[2083] Nümunə, c.23, səh.33
[2084] Tematik təfsir, c.1, səh.355
[2085] Nümunə, c.23, səh.36

həmin günlərin dəqiq hansılar olduğu da ixtilaflıdır. Görəsən İslamın bu inanca münasibəti necədir. Bu suala cavab vermək üçün bir neçə nüansa diqqət yetirmək lazımdır: Birincisi, bu inanc heç də ağıl və şüura zidd deyil. Baxmayaraq ki, bu mövzunu sübut və ya inkar etmək üçün heç bir rasional arqumentimiz yoxdur. Sadəcə, bunun mümkün olduğunu, ancaq əqli cəhətdən sübuta yetirilə bilmədiyini deyə bilərik. Buna görə də bu barədə əlimizdə geniş üfüqlərə işıq saçan vəhy əsaslı dini dəlil olarsa, onu qəbul etmək bəlkə də bir zərurət hesab edilməlidir. İkincisi, Quranda günlərin mübarək və nəhs olmasına işarələr edilmişdir. Hədislərdə də bu, çox rast gəlinən məsələdir. Hədislərdə qeyd edilir ki, Adəm ayın birinci günündə yarandığı üçün həmin gün mübarəkdir. Bu cür hədislərdən bəzi günlərin sirli təsirlərə malik olduğu, ancaq bizim onlardan xəbərdar olmadığımız aydın olur. Üçüncüsü, diqqətlərin nəhs və mübarək günlərə yönəldilməsi adətən, insana ibrətamiz tarixi hadisələri xatırlatmaqla yanaşı Allaha üz tutmasına da səbəb olur. Buna görə də hədislərdə qeyd edilir ki, nəhs adlandırılmış günlərdə iş dalınca getməzdən əvvəl sədəqə verin, dua oxuyun, Allahdan yardım diləyin, bəzi Quran əylərini oxuyun, Allaha təvəkkül edin ki, işiniz uğurlu olsun. [2086] İmam Sadiq (ə) belə buyurmuşdur: ***"(Səfər niyyəti, ruzi qazanmaq və sair məqsədlə) evdən çıxmağa hazırlaşanda sədəqə ver."***[2087] Yuxarıda qeyd edilənlərə də əsaslanıb ifrata varmaq, şayiə və xurafatlara uymaq olmaz. Əgər hər hansı mötəbər hədisdə bir şey öz təsdiqini tapıbsa, onu qəbul etmək lazımdır, əks təqdirdə, Allaha təvəkkül etməklə həmin sözə etinasızlıq göstərib həyata ciddi-cəhdlə davam etmək lazımdır.[2088]

[2086] Nümunə, c.23, səh.41
[2087] Küfi, c.4, səh.283
[2088] Nümunə, c.23, səh.44

28. Onlara xəbər ver ki, su onların arasında bölünməlidir (bir gün dəvə, bir gün isə onların növbəsidir). Hər biri öz növbəsində gəlsin!”

29. Onlar yoldaşlarından birini çağırdılar. O da dəvəni tutub diz vətərini kəsdi.

30. (Görün) Mənim əzabım və xəbərdarlıqlarım necə oldu!

31. Biz onlara yalnız səs göndərdik və onlar mal-qara sahibinin ağılda topladığı quru ot-ələf kimi oldular.

32. Biz Quranı yada salmaq üçün asanlaşdırdıq. Yada salan bir adam varmı?

33. Lut qövmü də xəbərdarlıqları yalan saydı.

34. Biz onların üstünə çınqılları havaya sovuran tufan göndərdik. Yalnız Lutun ailəsini sübh çağı xilas etdik –

35. Bu Bizim tərəfimizdən bir nemət idi. Biz şükür edən şəxsi belə mükafatlandırırıq.

36. (Lut) onları Bizim əzabımızla qoxutdu, onlar isə höcətləşməyə və şübhə yaratmağa davam etdilər.

37. Onlar Lutdan qonaqlarını onlara verməsini tələb etdilər. Ancaq Biz onları kor etdik (və dedik): “Əzabımı və təhdidlərimi dadın!”

38. Nəhayət, sübh tezdən onlara davamlı bir əzab gəldi.

39. Elə isə əzabımı və təhdidlərimi dadın!

40. Biz Quranı yada salmaq üçün asanlaşdırdıq. Yada salan bir adam varmı?

41. Xəbərdarlıqlar Firon nəslinə də gəldi.

42. Onlar nişanələrimizin hamısını yalan saydılar. Biz də onları qüvvət və qüdrətimizlə yaxalayıb cəzalandırdıq.

43. Sizin kafirləriniz onlardan yaxşıdırmı? Yoxsa səmavi kitablarda sizə toxunulmazlıq vəd edilmişdir?

44. Yoxsa onlar: "Biz müttəfiq, güclü və qalib bir dəstəyik!" – deyirlər?

45. Tezliklə hamısı məğlub olacaq və dönüb qaçacaqdır.

46. Qiyamət onlara vəd verilib. Qiyamət əzabı daha qorxulu və daha acıdır.

47. Günahkarlar azğınlıq və od şölələri içindədirlər.

48. Cəhənnəm oduna sürüklənəcəkləri gün (onlara deyiləcək): "Cəhənnəmin odunu dadın!"

49. Əlbəttə, Biz hər şeyi qədərincə yaratdıq.

---

37. Biz onların kor etdik: İmam Sadiq (ə) buyurmuşdur: ***"Lutun qövmü onunla mübahisə edir, güc göstərirdi. Hətta iş o yerə çatdı ki, evə soxuldular. Cəbrayıl Lutdan onları buraxmasını istəyir. Onlar içəri girən kimi Cəbrayılın işarəsi ilə kor olurlar."***[2089] Deyilənə görə, hətta gözləri yerli-dibli yox olur. Deyilənə görə, Allah onların əzabını ona görə sübh vaxtına qədər təxirə salır ki, bu hadisə bir gün əvvəl baş verdiyi üçün, Allah onlara bir gecə də artıq düşünmək fürsəti verir, Allahın kor etdiyi insanlar üzərindəki əzab nümunəsinə baxsınlar, bəlkə ayılıb tövbə etsinlər. Ancaq hədislərdə qeyd edilənlərə görə, hətta kor olanları özləri belə, ibrət almır, əlləri ilə divarlardan tuta-tuta evlərinə gəlib sabah Lutun ailəsini son nəfərinə qədər qətlə yetirəcəklərinə and içirlər.[2090]

48. Səqər: Bəziləri hesab edir ki, "Səqər" Cəhənnəmin tam deyil, qeyri adı yandırıcı xüsusiyyətə malik xüsusi bir hissəsinin adıdır.

[2089] Əl-Mizan, c.19, səh.85
[2090] Nümunə, c.23, səh.64

Hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: “Cəhənnəmdə Səqər adlı bir dərə var. Ora təkəbbürlü adamların yeridir. O dərə hər dəfə nəfəs aldıqda Cəhənnəmi yandırır.”[2091]

49. Dünyanın hər bir şeyi hesab-kitab üzrədir: Bu ayə varlıq aləminə hakim olan bir həqiqət üzərindən pərdə çəkir. Həmin həqiqət bütün kainatın dəqiq nizam-intizamıdır. Bəşəriyyətin elmi artdıqca insan bu nizam-intizamdan daha çox xəbərdar olur. Kosmonavtlar dəqiq elmi hesablamalarla Ayda düşmək istədikləri nöqtəyə dəqiqliklə uçuş edə bilirlər. Baxmayaraq ki, onlar Yer kürəsindən hərəkət etdikləri vaxtda Ay öz oxu ətrafına, habelə raket yerdən qalxarkən Yer həm öz oxu ətrafına, həm də Günəşin ətrafına çox böyük sürətlə fırlanır. Ancaq bütün bu hərəkətlər dəqiq tənzimləndiyi üçün kosmonavtlar dəqiq hesablamalarla uğurlu uçuş yerinə yetirə bilir və istədikləri məkana eniş edə bilirlər. Astroloqlar dəqiq hesablamalar sayəsində on illər öncədən gün və ay tutulması ilə bağlı dəqiq proqnoz verirlər. Bütün bunlar kainatda dəqiq ölçülərin olmasından xəbər verir. Kiçik varlıqlar arasında xırda qarışqalar öz mürəkkəb bədənləri, damarları və sinir sistemi ilə insanı heyran edir. Ancaq mikroblar, viruslar və amöblər kimi kiroskopik varlıqları müşahidə etdikdə bu ölçü incəliyinin nə qədər yüksəldiyinin şahidi oluruq. Belə ki, həmin mikroskopik canlılarda bəzən bir millimetrin mində birinin, hətta daha kiçik ölçünün hesablandılğı insanda heyrət doğurmaya bilmir. Bundan başqa, atomları araşdırdıqda bundan da kiçik miqyaslarla qarşılaşırıq. Atomlarda artıq ölçülər ağlasığmaz dərəcədədir. Bu miqyaslar təkcə kəmiyyətlərə aid deyil, mürəkkəb keyfiyyətlər də bu miqyaslarda dəqiqliklə nəzə alınmışdır. İnsanın ruhu, meylləri, istəkləri, instinktləri üzərində hakim olan sistem və nizam-intizam

[2091] Nümunə, c.23, səh.76

onun fərdi və ictimai həyatı üçün dəqiqliklə nizamlanmışdır. Əgər bu sistemdə kiçik bir dəyişiklik baş versə, adamın fərdi və ictimai həyatı bir-birinə dəyər. Təbiət aləmində elə varlıqlar var ki, bir-birlərinin əyləci hesab edilirlər. Ov quşları kiçik quşların ətini yeyir. Onların sayının həddi aşmaması, nəticədə, bütün məhsulları məhv etməməsi üçün iri quşlar onların qarşısını alır. Onlar yalnız xüsusi şərtlər altında sağ qalırlar. Əgər onlar uzun ömür yaşayıb çoxlu bala versəydilər, bütün kiçik quşların nəsli kəsilərdi. Bu qayda bitki və heyvanat aləmi, flora və fauna üçün dəyişməzdir. Onları üzərində araşdırmalar insanı "Əlbəttə, Biz hər şeyi qədərincə yaratdıq" ayəsi ilə daha yaxından tanış edir.[2092]

50. Biz bircə dəfə əmr edirik, o da bir göz qırpımında yerinə yetir.

51. Biz keçmişdə sizə bənzər şəxsləri məhv etmişik. Heç ibrət alan varmı?

52. Onların etdiyi hər şey əməl kitablarında yazılmışdır.

53. Hər bir kiçik və böyük (əməl) yazılmışdır.

[2092] Nümunə, c.23 ,səh.81

54. Şübhəsiz ki, müttəqilərin Cənnət bağlarında və çayların kənarında yerləri var -

55. qüdrətli hökmdar olan Allahın hüzurunda doğru haqq məkanda.

"Rəhman" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Rəhman Allah

2. Quranı öyrətdi.

3. İnsanı yaratdı,

4. ona danışmağı öyrətdi.

5. Günəş və ay müəyyən bir ölçü ilə fırlanırlar.

6. Bitkilər da, ağaclar da Ona səcdə edir.

7. Göyü ucaltdı, tərəzi və qanun qoydu ki,

8. çəkidə həddi aşmayasınız.

9. Tərəzidə insafla çəkin və çəkini əskiltməyin.

10. O, yeri məxluqat üçün yaratdı.

11. Orada meyvələr və gül-çiçkli xurma ağacları vardır.

12. Saman şəkli alan gövdəli və yarpaqlı dənli bitkilər və xoş ətirli bitkilər də vardır.

13. Elə isə (ey insanlar və cinlər,) Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

14. O, insanı saxsı kimi quru gildən yaratdı,

15. cinləri də qarışıq və hərəkət edən oddan yaratdı.

16. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

“Rəhman” surəsinin ümumi məzmunu: Bu surədə Allahın insanlara bəxş etdiyi müxtəlif maddi və mənəvi nemətlərdən danışılır. Buna görə də bu sürəni mərhəmət və ya nemət surəsi də adlandırmaq olar.[2093]

4. Bəyan etmək insanın ən mürəkkəb davranışıdır: “Bəyan” sözü leksik baxımdan geniş məna yükünə malikdir. Bu sözü istənilən açıqlayıcı və aşkarediciyə şamil etmək olar. Buna görə də təkcə danışığa deyil, yazmağa, müxtəlif və mürəkkəb mövzuları ifadə edən rasional və məntiqi əsaslandırmalara şamil olur. Bütün bunlar “bəyan” ifadəsində toplaşır. Baxmayaraq ki, bu kompleksin indeksi danışmaqdır. Adət etdiyimiz üçün biz danışmağı sadə bir proses hesab etsək də, insanın ən mürəkkəb incə davranışlarındandır. Bəlkə də deyə bilərik, belə bir zərif, eyni zamanda mürəkkəb davranış yoxdur. Çünki səs orqanları müxtəlif səsləri yaratmaq üçün bir-birləri ilə əməkdaşlıq edirlər: Ağ ciyər havanı özünə çəkir, sonra yavaş-yavaş onu qırtlaqdan xarıc edir. Sonra səs telləri səslənir, bəzisi razılıq, bəzisi qəzəb, bəzisi yalvarış, bəzisi sevgi, məhəbbət və ya ədavət ifadə edən müxtəlif səslər meydana gəlir. Ardınca bu səslər dil, dodaq, dişlər və ağız boşluğu vasitəsilə əlifba hərflərini xüsusi incəliklə ərsəyə gətirir. Başqa sözlə desək, qırtlaqdan xaric olan monoton səs fərqli forma və ölçülərdə kəsilərək hərf şəkli alır. Nəticədə, dillərin yaranması prosesi meydana gəlir. İnsan maddi və mənəvi ehtiyaclarını ödəmək üçün malik olduğu təfəkkürünü inkişaf etdirərək müxtəlif dillər yaradır. Maraqlıqdır, dil yaradılışında insana mane ola biləcək heç nə yoxdur. Dünyada mövcud olan dillər o qədər çoxdur ki, onları saymaq olmur. Hətta tədricən yeni-yeni dillər formalaşır. Bunlardan əlavə, nitqin insanların inkişafı və təkamülü, mədəniyyətlərin meydana gəlməsi və tərəqqisindəki rolunu nəzərə alsaq,

---

[2093] Nümunə, c.23, səh.91

məlum olar ki, əgər bu nemət olmasaydı, insanlar öz təcrübələrini, elmlərini asanlıqla gələcək nəsillərə ötürə, elm, mədəniyyət, din və əxlaqın inkiafına nail ola bilməzdirlər. Əgər bu böyük nemət insandan bir günlüyə alınsa, insan cəmiyyəti geriləyər. Əgər "bəyan" sözünü daha geniş mənada götürsək, yəni yazı və incəsənəti də buraya aid etsək, onun insan həyatında nə qədər mühüm rol oynadığı tam aydın olar. Buna görə də Rəbbin insanlara bəxş etdiyi nemətlər məcmusunu ehtiva edən bu surədə nə üçün insanın yaradılışından sonra danışıq nemətinə yer verildiyini başa düşərik.[2094]

13. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? Allah-taala bu cümlə ilə insanları Allahın bəxş etdiyi nemətlər haqqında düşünməyə, öz-özlərindən "Bu nemətlərdən hansınısa inkar etmək olarmı? Əgər olmazsa, nə üçün nemət verəni tanımayaq? Nə üçün onu tanıyıb nemət verənə şükür etməyək? Nə üçün müqəddəs dərgahında təzim etməyək?" – deyə soruşmağa sövq edir. Bu cümlənin təkrarı fəsahətlə nəinki təzad təşkil etmir, əksinə özü bir fəsahət yaradır. Sanki ata unutqan oğluna xitab edərək deyir: Uşaqlıq və aciz olduğun vaxtı unudursan? Xəstələndiyində sənə ən yaxşı həkimləri gətirdiyimi və sənin müalicən üçün hansı zəhmətlərə qatlaşmağa hazır olduğumu unudursan? Gənclik yaşına çatdığında, ailə qurmaq istədikdə yaxşı bir həyat yoldaşı seçdiyimi unutdunmu? Ev və yaşamağa ehtiyac duyduğun vax sənin üçün hər şey etdiyimi unutdunmu? Bəs bu itaətsilik və sevgisilik nədəndir? Allah-taala da müxtəlif nemətlərini bu unutqan insanlara xatırladır, bu nemətlərin hər birindən sonra soruşur ki, bunlardan hansını inkar edə bilərsən?[2095] Cəhənnəmliklərin bəzi əzabları qeyd edildikdən sonra da bu cümlə təkrar edilmişdir. Əslində onların əzablarından

[2094] Nümunə, c.23, səh.99
[2095] Nümunə, c.23, səh.113

sonra qeyd edilən bu xatırlatma da bütün insanlar və cinlər üçün bir nemətdir.[2096]

17. O, iki məşriqin və iki məğribin Rəbbidir.

18. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

19. O, iki müxtəlif dənizi təmas halında bir-birinin yanında qərarlaşdırdı.

20. Onların arasında maneə vardır, onu keçə bilməzlər.

21. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

22. Onlardan mirvari və mərcan çıxır.

23. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

24. Düzəlmiş gəmilər də Onundur - dənizdə hərəkət edir, dağ kimidirlər.

25. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

26. Yer üzündə olan hər kəs fani olacaq.

27. Təkcə Rəbbinin əzəmətli və uca zatı əbədidir.

[2096] Əl-Mizan, c.19, səh.102

28. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

29. Göylərdə və yerdə olan hər kəs Ondan diləyir. O hər gün bir iş görür.

30. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

31. Tezliklə ancaq sizinlə məşğul olacağıq, ey insanlar və cinlər.

32. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

33. Ey cin və insan tayfası! Əgər bacarırsınızsa, göylərin və yerin hüdudlarını aşın! Yalnız qüdrət və qüvvətlə keçə bilərsiniz.

34. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

35. Üstünüzə tüstüsüz alov və qalın tüstü göndəriləcək və siz heç kəsdən kömək diləyə bilməyəcəksiniz.

36. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

37. Göy yarılıb ərimiş yağ kimi çəhrayı olduğu vaxt (elə qorxulu hadisələr baş verəcək ki, tab gətirə bilməyəcəksiniz).

38. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

39. O gün nə insan, nə də cin günahı barəsində sorğu-sual olunmayacaqdır (hər şey aydın olacaq).

40. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

---

29. O, hər gün bir işdədir: Bu ayə geniş məzmuna malikdir, istənilən yeni yaradılışa, dünyada baş verən dəyişikliklərə şamil olur. Allah daim yaradır və yaratmaqda davam edir. Onun ehtiyaclıların və diləyənlərin ehtiyaclarına cavab verməsi də belədir, hər gün yeni forma yaradır. Bir gün bir xalqa qüdrət bəxş edir, başqa bir gün onları qara torpaq üzərinə oturdur, bir gün sağlamlıq və təravət bəxş edir, başqa bir gün zəiflədir, bir gün qəm-qüssəni ürəkdən yuyub aparır, başqa bir gün qəm-qüssə üçün bir şərait

yaradır. Xülasə, hər gün gözəl yaradılış sisteminə, nizam-intizamına uyğun olaraq yeni bir hadisə, yeni bir varlıq yaradır. Bu həqiqət bir tərəfdən bizim Allaha daim ehtiyaclı olduğumuzu göstərir, digər tərəfdən ümidsizlik pərdəsini qəlbimizdən kənara çəkir, başqa bir tərəfdən təkəbbür və qəfləti yuyub aparır. O, hər gün bir iş görür. İmam Əli (ə) belə buyurmuşdur: ***"Həmd və tərif əsla ölməyən, yaratdığı sisteminin qəribəlikləri heç zaman bitib tükənməyən Allaha məxsusdur. Çünki o, hər gün bir iş görür, heç zaman olmamış yeni bir məzmun yaradır."*** Peyğəmbərin (s) bu ayənin təfsirini ehtiva edən bir hədisində belə buyurulur: ***"Onun işlərindən biri budur ki, hansısa günahı bağışlayır, narahatlığı və çətinliyi aradan qaldırır, bir dəstəni yüksəldir, başqa bir dəstəni aşağı endirir."*** Bu ayə ümidverici, təkəbbür sındıran, yaradılışın davamlı olduğunu göstərən ayələrdəndir. Buna görə də İslam öndərləri insanlarda ümid yaratmaq üçün bu ayəyə xüsusi önəm vermişlər. Belə ki, Əbuzərin Rəbəzəyə sürgün qərarı verildikdən sonra İmam Əli (ə) onu ötürməyə gedir və çox dərin mənalı kəlamları ilə ona təsəlli verir. Sonra İmam Həsən (ə) onu əmi deyə çağırır, atasının sözlərinə əlavələr edir. Ondan sonra İmam Hüseyn (ə) belə buyurur: ***"Ey əmi! Allah-taala bu şəraiti dəyişə bilər. O, hər gün yeni bir iş, vəziyyət yaradır. Bu zümrənin dünyası sənin haqqı deməyinə mane oldu, sənin dinin isə onların yanlışına mane oldu... Elə isə Allahdan səbr və qalibiyyət dilə."*** Bir məsələni də qeyd etməliyik ki, "gün" deyilərkən burada gündüz mənası deyil, uzun sürən dövrlər, saatlar, anlar nəzərdə tutulmuşdur. Yəni Allah hər zaman, hər an bir iş, bir vəziyyət yaradır.[2097]

33. Əgər bacarırsınızsa, göylərin və yerlərin hüdudlarını aşın: Bu ayənin dünyaya, yoxsa Qiyamətə, ya da hər ikisinə aid olması təfsirçilər

---

[2097] Nümunə, c.23, səh.138

arasında fikir ayrılığına səbəb olmuşdur. Əvvəlki və sonrakı ayələr axirət dünyasına aid olduğu üçün bu ayənin Allahın ədalətindən qaçışa aid olduğunu söyləyə bilərik. İmam Sadiq (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Allah Qiyamət günü bəndələri bir yerə toplayacaq, göyün mələklərinə yerə enmələrini əmr edəcək, sayları yer üzünün insan və cinlərinin sayından iki dəfə artıq olan mələklər yerə enəcək. Sonra sayları bu saydan iki dəfə çox olan ikinci göyün mələklərinə enmələrini əmr edəcək. Bu ardıcıllıqla yeddi göyün mələyi yerə enəcək, bir-birini əhatə edən yeddi örtük kimi insanları və cinləri əhatə edəcəklər. Bundan sonra carçı car edərək deyəcək: "Əgər bacarırsınızsa, göylərin və yerin hüdudlarını aşıb keçin. Yalnız qüdrət və qüvvətlə keçə bilərsiniz." Bu zaman onları yeddi qrup mələyin əhatə etdiyini görəcəklər."***[2098]

39. Qiyamətdə sorğu-sual yoxdur? Bu ayənin ilk baxışda Qiyamətdə sorğu-sual olunacağından bəhs edən ayələrlə təzad təşkil etməsi təəssüratı yarana bilər. Ancaq Qiyamətin uzun bir gün olacağını nəzərə alsaq, bu problem öz həllini tapar. Həmin gün insan dayanacaq və keçidlərdən keçməli, hər dayanacaqda bir müddət dayanmalıdır. Bəzi hədislərə görə əlli dayanacaq olacaq, onların bəzisində ümumiyyətlə sorğu-sual olmayacaq, "üzün rəngi daxili sirlərdən xəbər verəcək". Bəzi dayanacaqlarda insanın dilinə möhür vurulacaq, bədən üzvləri şahidlik edəcək. Bəzi insanlar həqiqətən sorğu-sual olunacaqlar, bəziləri höcətləşəcək, mübahisə edəcək, özünü müdafiə etməyə qalxacaq. Xülasə, hər bir səhnənin öz şərtləri olacaq, hər bir səhnə digərindən daha qorxulu olacaq.[2099]

[2098] Nümunə, c.23, səh.149
[2099] Nümunə, c.23, səh.155

41. Günahkarlar simalarından tanınacaq, kəkillərindən və ayaqlarından yaxalanacaqlar.

42. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

43. Budur günahkarların inkar etdikləri Cəhənnəm!

44. Bu gün onlar onunla qaynar su arasında get-gəldə olacaqlar.

45. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

46. Rəbbinin hüzurundan qorxanları iki Cənnət bağı gözləyir.

47. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

48. İkisində də növbənöv nemətlər və təravətli ağaclar vardır.

49. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

50. İkisində də hər zaman axan iki bulaq vardır.

51. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

52. İkisində də hər meyvədən iki növ vardır.

53. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

54. Onlar orada astarları atlas və ipəkdən olan döşəklərə dirsəklənəcəklər. Hər iki bağın meyvələri onlara yaxın olacaqdır.

55. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

56. O Cənnət bağlarında yalnız öz həyat yoldaşlarını sevən, onlardan əvvəl heç bir insan və cinin toxunmadığı qızlar vardır.

57. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

58. Onlar sanki yaqut və mərcandırlar.

59. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

50. Yaxşılığın əvəzi ancaq yaxşılıq deyildirmi?

61. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

62. Bu ikisindən aşağıda iki Cənnət bağı da vardır.

63. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

64. Hər ikisi yamyaşıldır.

65. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

66. İkisində də fəvvarə vuran iki bulaq vardır.

67. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

---

44. Cəhənnəmlə qaynar su arasında: "An" sözünün kökü mənası vaxt olan "ina" sözüdür. "An" sözü burada yüksək hərarət və qaynar mənasında işlədilmişdir. Yəni qaynar su artıq ən son mərhələsinə yetişmişdir. Cəhənnəm sakinləri Cəhənnəmin yandırıcı şölələrində yanıb susayacaqlar, su içmək istədiklərində isə onlara qaynar su veriləcək, ya da üzərlərinə töküləcək. "Ğafir" surəsinin 71-72-ci ayələrinə əsasən qaynar Həmim bulağı Cəhənnəmin yanındadır. Cəhənnəmlik insanları birinci oraya tökəcək, sonra Cəhənnəm oduna salacaqlar: ***"Həmin vaxt onları boyunlarında dəmir halqalar və zəncirlər olduğu halda sürüyüb qaynar suya tökəcəklər; sonra odda yandırılacaqlar."*** Nəzər nöqtəsi olan ayə də oxşar məzmunu ifadə edir.[2100]

46. Bu iki Cənnət qorxanların yolunu gözləyir: Təfsirçilər "Allahın hüzurundan qorxurlar" deyilərkən hansı məna nəzərdə tutulması ilə bağlı müxtəlif versiyalar irəli sürmüşlər. Bəzi Quran ayələri və hədislərin də təsdiq etdiyi bir təfsirə əsasən, burada Allahın elmi, qüdrəti və bütün insanlara daimi nəzarətindən qorxmaq nəzərdə tutulmuşdur. "Rəd" surəsinin 33-cü ayəsində belə buyurulur: ***"Hər kəsin başı üzərində olan (hər kəsə nəzarət edən), hamının əməllərini görən (bu xüsusiyyətlərə malik***

[2100] Nümunə, c.23, səh.158

olmayanla eynidirmi?)” İmam Sadiqin (ə) bu ayənin təfsirini ehtiva edən bir hədisində belə deyilir: “Bir adam Allahın onun etdiklərini bildiyini, dediklərini eşitdiyini, xeyir və pis əməllərindən xəbərdar olduğunu bilirsə, bu diqqət onu çirkin işlərdən çəkindirir. Bunlar Rəblərinin hüzurundan qorxan və özlərini nəfslərinin istəklərindən saxlayanlardır.”[2101]

46. İki Cənnət bağı: İki Cənnət bağı ilə bağlı çoxlu versiyalar irəli sürülmşüdür. Birinci Cənnət maddi və cismani Cənnət, ikinci Cənnət isə Cənnət sakinlərinin Allahın təsəvvür edilə bilməyəcək razılığından zövq aldığı mənəvi və ruhani Cənnət ola bilər (Ali-İmran-15). Birinci Cənnət onların əməllərinin nəticəsi, ikinci Cənnət Allahın əlavə lütfkarlığı ola bilər (Nur-38). Biri itaət, digəri isə günahdan çəkinməyə, biri iman və əqidə, digəri saleh əməllər və sairəyə görə verilə bilər. Xitab obyekti insanlar və cinlər olduğu üçün bu Cənnətlərin hər biri onlara ayrı-ayrılıqda aid ola bilər. Əlbəttə, bu versiyaların heç biri xüsusi arqumentə əsaslanmır, ancaq eyni zamanda, hamısının bu ayədə toplana biləcəyi mümkün haldır. Dəqiq məlumdur ki, Allah Cənnət sakinlərinin ixtiyarına çoxlu bağlar verəcək. Cəhənnəm sakinləri odla qaynar su arasında get-gəldə olduqları halda, Cənnət sakinləri Cənnət bağlarında gəzib dolanacaqlar. [2102] 62-ci ayədən sonra qeyd olunan iki Cənnətdən aşağı olan digər iki Cənnət barəsində söz açılmışdır. Yəqin ki bu Cənnət məqamı iman və Allahın hüzurundan qorxmaq baxımından əvvəlkilərdən geri qalan insanlara məxsusdur. Məqsəd iman və saleh əməl tənasübünü göstərməkdir. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: “Qızıldan olan iki Cənnət məqamları çox yüksək olan Allah dərgahına yaxın olanlar üçündür. Gümüşdən olan iki

[2101] Nümunə, c.23, səh.160
[2102] Nümunə, c.23, səh.162

Cənnət isə bir qədər aşağı məqamda olan sağ tərəf sahibləri üçündür.”[2103] Əla ibn Səyabə adlı bir nəfər İmam Sadiqə (ə) deyir: “Biz bir dəstə Cəhənnəmdən çıxıb Cənnətə daxil olur” dedikdə camaat bizə təəccüblə baxır və deyirlər ki, siz demək istəyirsiniz ki, onlar Cənnətdə Allahın dostları ilə bir yerdə olurlar? İmam (ə) buyurur: ***“Ey Əla, Allah-taala “Onlardan aşağıda iki Cənnət bağı vardır”, - deyə buyurmuşdur. And olsun Allaha, Allah dostları ilə bir yerdə deyillər...”***[2104]

68. Onlarda çoxlu meyvələr, xurma və nar ağacları vardır.
69. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
70. Orada xoş xasiyyətli, gözəl qızlar vardır.
71. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
72. Çadırlarda təkcə öz ərlərinə aid olan hurilər vardır.
73. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?
74. Onlardan əvvəl heç bir insan və cinin toxunmadığı qızlar vardır.
75. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

[2103] Nümunə, c.23, səh.175
[2104] Məcməül-bəyan, c.9, səh.351

76. Onlar yaşıl rəngli gözəl parçalarla üzlənmiş taxtlara dirsəklənəcəklər.

77. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

78. Sənin əzəmət və kərəm sahibi olan Rəbbinin adı nə qədər mübarəkdir.

"Vaqiə" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Böyük hadisə (Qiyamət) qopacağı zaman
2. Heç kəs onu inkar edə bilməz.
3. Bəzilərini alçaldacaq, bəzilərini də ucaldacaqdır.
4. Yer şiddətlə titrədiyi zaman,
5. Dağlar bir-birinə çırpıldığı
6. və (ətrafa) səpələnmiş toz-torpağa döndüyü zaman
7. siz üç qrupa ayrılacaqsınız.
8. (Birinci qrup:) Xöşbəxtlər. Onlar necə də xoşbəxtdirlər!
9. (İkinci qrup:) Bədbəxtlər. Onlar necə də bədbəxtdirlər!
10. (Üçüncü qrup:) Öndə gedənlər, öndədirlər!
11. Onlar (Allaha) yaxın olanlar
12. Cənnətin nemət dolu bağlarında (olacaqlar).
13. Onların çoxu əvvəlki nəsillərdən,
14. az bir qismi də sonunculardandır.
15. Onlar sıraya düzülmüş və bir-birinə birləşdirilmiş taxtlar üstündə
16. qarşı-qarşıya əyləşib dirsəklənəcəklər.

“Vaqiə” surəsinin ümumi məzmunu: Bu surədə Qiyamət və onun xüsusiyyətlərindən bəhs edilir. Bu məzmun surənin ayələrinin çoxunu əhatə edir.[2105]

1-3. Böyük hadisə: Baş verəcəyi qəti olduğu üçün Qiyamət “Vaqiə” (hadisə) adlandırılmışdır. Hətta bəziləri hesab edir ki, o Qiyamətin adlarından biridir. Bəzi təfsirçilər “kazibə” (yalan) sözünü məsdər ölçüsündə götürərək, bu sözü Qiyamətin heç kəsin inkar və təkzib edə bilməyəcəyi şəkildə zahir olacağı kimi izah etmişlər. Bəziləri isə bu sözü feli sifət ölçüsündə götürərək, Qiyaməti heç bir kəsin inkar etməyəcəyi şəklində izah etmişlər. Hər-halda Qiyamətdə təkcə kainat deyil, insanlar da dəyişəcək. 3-cü ayədə də buna işarə edilmişdir: ***“Bəzilərini alçaldacaq, bəzilərini də ucaldacaqdır.”*** İtaət göstərməyən təkəbbürlülər və yuxarı başda əyləşən zalımlar tənəzzülə uğrayacaq, zəif və məzlum möminlər, saleh bəndələr yüksək zirvələrə qaldırılacaqlar. Bir qrup Cəhənnəm dərəsinə yuvarlanacaq, bir qrup Cənnətin ən yüksək yerində qərarlaşacaq. İmam Səccadın (ə) bu ayənin təfsirini ehtiva edən bir hədisində belə buyurulur: ***“Qiyamət alçaldandır. And olsun Allaha! Allah düşmənlərini oda süqut etdirəcəklər. Qiyamət ucaldandır. And olsun Allaha! Allah dostlarını uca Cənnətə qaldıracaqlar.”***[2106]

7-14. Üç qrup insan: Bu ayədə Qiyamət günü insanların vəziyyətinin necə olacağından və üç qrupa – öndə gedənlər, xoşbəxtlər və bədbəxtlərə bölünəcəklərindən danışılır. Möminlərin əmiri İmam Əlinin (ə) bir hədisi bu mənanı yaxşı izah edir: 1. Yaxşı işdə öndə gedənlər xilas olacaq; 2. Əməldə gecikənlər bağışlanmaya ümid edəcəklər; 3. Vəzifələrinə laqeyd yanaşmış,

---

[2105] Nümunə, c.23, səh.193
[2106] Nümunə, c.23, səh.199

nəfslərinin istəklərinə tabe olanlar Cəhənnəm oduna yuvarlanacaqlar.[2107] Birinci "öndə gedənlər" sözü ilə xeyir işdə öndə gedənlər, ikinci "öndə gedənlər" sözü ilə isə Allahın rəhmət və mərhəmətinə birinci daxil olanlar nəzərdə tutulur. Onlar xeyir işlərdə öndə getdikləri üçün rəhmət və mərhəmət birinci onlara şamil olacaq, onların yeri Cənnətdir. Allah-taala bu qrupun insanlarını dərgahına yaxın bəndələr adlandırır. Onlar ən xoşbəxt insanlardır. Bu məqam yalnız iradə və əməli ilə öz sahibinə tam itaət göstərən, yalnız onun istəklərini yerinə yetirən insanlara aiddir. Bu məqam Allahın himayəsi altına tam keçmək deməkdir. Onlar Allahın dostlarıdırlar.[2108] Xeyir işlərdə önə keçmək ağıl parlaqlığının və qəlb səfasının əlamətidirsə, bu qiymətli gövhərin başqa təsirləri də olacaqdır. Allah-taala "muminun" surəsinin 57-61-ci ayələrində öndə gedənlərdən danışarkən onların xüsusiyyətlərini belə sıralayır: Rəblərinin qorxusundan əsim-əsim əsirlər, Rəblərinin ayələrinə iman gətirirlər, Rəblərinə şərik qoşmurlar, maliyyə öhdəliklərini yaxşı yerinə yetirirlər. Qəlblərində hər zaman Allah qorxusu var. Bu qorxu ona görədir ki, qayıdışa inanırlar. Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər. [2109] Öndə gedənlərin çoxu keçmiş ümmətlərdəndir. Keçmiş ümmətlərin bir yerdə yüz iyirmi dörd min məsum peyğəmbəri olmuşdur. Bu ümmətin isə cəmi on dörd məsumu var. Məsumlar istisna olmaqla, İslam ümmətinin neçə nəfərinin bu qrupa aid olduğunu qətiyyətlə söyləyə bilmərik.[2110] İbn Abbas Peyğəmbərdən (s) "Öndə gedənlər, öndədirlər!" haqqında soruşduqda Peyğəmbərin (s) Cəbrayılın bu barədə belə xəbər verdiyini buyurur: ***"Onlar***

[2107] Mənşuri cavid, c.9, səh.436
[2108] Əl-Mizan, c.19, səh.125
[2109] Mənşuri-cavid, c.9, səh.437
[2110] Ətyəbül-bəyan, c.12, səh.395

Əli və onun Cənnətə doğru öndə gedən ardıcıllarıdır, Allah onlara ehtiram göstərdiyi üçün Allah dərgahına yaxın olan adamlardır.”[2111]

17. Əbədi təravət və əzəmətə malik (xidmətçi) yeniyetmələr onların ətrafında fırlanacaqlar;

18. Cənnətdə axan bulaqlardan (pak şərab) doldurulmuş badələr, bardaqlar və qədəhlərlə –

19. ondan başları ağrımaz və məst olmazlar,

20. seçdikləri hər növ meyvələr

21. və ürəklərindən keçən quş əti ilə.

22. Onlar üçün iri qaragözlü hurilər var –

23. sədəf içində gizlənmiş mirvariyə bənzər (hurilər).

24. Bunlar onların etdikləri əməllərin mükafatıdır.

[2111] Nurussəqəleyn, c.7, səh.236

25. Onlar orada nə boş söz, nə də günaha səbəb olan söhbət eşidəcəklər.

26. Eşidəcəkləri yeganə söz “Salam! Salam!” olacaq.

27. Sağ tərəf yoldaşları və xoşbəxtlər. Nə xoşbəxtdir sağ tərəf yoldaşları!

28. Onlar tikansız sidr ağacları arasında,

29. bol yarpaqlı “Təlh” ağacının kölgəsində,

30. uzanmış kölgəlikdə,

31. şəlalələr kənarında,

32. bol meyvələr,

33. tükənməz və qadağan edilməyən (meyvələr) içində

34. uca boylu həyat yoldaşları ilə olacaqlar.

35. Biz onlara (qadınlara) yeni biçim bəxş edəcəyik

36. Onları bakirə qızlar edəcəyik –

37. ərlərini sevən, gözəl danışan həmyaşıdlar.

38. Bunlar hamısı sağ tərəf sahibləri üçündür.

39. Onların bir qismi əvvəlki nəsillərdən,

40. bir qismi də sonunculardandır.

41. Sol tərəf sahibləri. Nə bədbəxtdir sol tərəf sahibləri!

42. Onlar öldürücü küləklər və qaynar su içində,

43. qalın və yandırıcıtüstülərin kölgəsində olacaqlar.

44. O, nə sərindir, nə də rahatlıq gətirən.

45. Onlar bundan əvvəl (dünyada) nemət içində məst olmuşdular,

46. böyük günah işlətməkdə israr edirdilər

47. və deyirdilər: “Biz ölüb torpaq və sür-sümük olduqdan sonra yenidənmi dirildiləcəyik?

48. Yaxud bizim əcdadlarımız (dirildiləcəklərmi)?”

49. De: “Əvvəlkilər də, sonrakılar da,

50. hamısı vəd edilmiş bəlli bir gündə toplanılacaqlar.

---

28. Cənnətin ağaclarının ifadəli təsviri: Bu ayədə Cənnətin ağacları dilimizdə işlənən sözlərin imkanları çərçivəsində ifadəli şəkildə təsvir edilmişdir. Belə ki, Sidr hündürlüyü qırx metrə çatan iri cüssəli bir ağacdır. Deyilənə görə iki min il yaşayır, çox böyük və zərif kölgəsi olur. Bu ağacın yeganə nöqsanı tikanlı olmasıdır. Ancaq Allah-taala Cənnətdə bu ağacın tikansız olacağını buyurur. Peyğəmbər (s) hədislərinin birində belə buyurmuşdur: ***“Allah o Cənnət ağacının tikanlarını təmizləyib və hər tikanın yerinə meyvə bitirib, hər meyvənin heç biri digərinə bənzəməyən yetmiş iki növ qidası vardır.”***[2112]

35-37. Cənnətdəki həyat yoldaşlarının təsviri: Bu ayələrdə Cənnətdəki həyat yoldaşlarının gözəlliyini ifadə edən dörd xüsusiyyətə işarə edilmidşir: Biz onlara yeni biçim bəxş edəcəyik. Yəni biz onları xüsusi görkəmdə və xüsusiyyətdə yaradacağıq. Gənc, yaşlı, gözəl və çirkin olmasından asılı olmayaraq, həyat yoldaşları Cənnətdə gəncliyin, gözəlliyin və cazibənin ən yüksək zirvəsində olacaqlar; Hamısını bakirə edəcəyik; Onlar yalnız öz həyat yoldaşlarını sevəcəklər. “Urub” sözü mənası öz həyat yoldaşına qarşı mehriban olan, yalnız ona naz-qəmzə edən, yalnız öz həyat yoldaşının aşıqı qadın olan “ərub” sözünün cəmidir.[2113] Bir-birlərinin hisslərini tam dərk etmək üçün həmyaşıddırlar, bir yerdə yaşamaq onlar üçün çox zövqlüdür.[2114]

38. Sağ tərəf sahibləri: “Yəmin” ərəbcə sağ tərəfə deyilir. Sağ tərəf sahibləri, yəni Allahın imtahanından uğurla adlamanın göstəricisi olaraq

---

[2112] Nümunə, c.23, səh.220
[2113] Əl-Mizan, c.19, səh.128
[2114] Nümunə, c.23, səh.225

əməl dəftərinin sağ əllərinə verilmiş xoşbəxt insanlar. “Süllət” sıx cəmiyyət deməkdir. Bu ayəyə əsasən həm özləri, həm də peyğəmbərlərinin sayı çox olduğu üçün keçmiş ümmətlərin öndə gedənlərinin sayı İslam ümmətinin öndə gedənlərinin sayından çoxdur. Buna görə də sağ tərəf sahiblərinin çox hissəsini keçmiş ümmətlər təşkil edəcək. İslam ümmətinin də böyük bir hissəsi sağ tərəf sahiblərindən olacaq. Çünki bu ümmətin də əməlisaleh və mömin bəndələri çoxdur.[2115] Hədislərinin birində İslam peyğəmbəri (s) belə buyurmuşdur: ***“Mən ümidvaram ki, Cənnət sakinlərinin yarısını mənim ümmətim təşkil edəcək.”*** Sonra Peyğımbər (s) bu ayələri buyurmuşdur: “Onların bir qismi əvvəlki nəsillərdən, bir qismi də sonunculardandır.” Sağ tərəf sahibləri Quranda üç mərhələ üzrə səciyyələndirilmişdir: 1. Dünya həyatında. Onlar Allahın əmr və qadağalarına tabe olurlar, dinin vaciblərinin çarxını əzmkarlıqla və usanmadan fırladırlar. Allaha bəndəlik vəzifəsini yerinə yetirməklə yanaşı başqalarını da buna cəlb edirlər (Bələd-11-18). 2. Ölüm vaxtı. Həmin vaxt üzləri gülür, tam rahatdırlar, heç bir narahatlıq onları incitmir (Vaqiə-90-91). 3. O biri dünyada. Əməl dəftərləri sağ əllərinə verilir. Sorğu-sualları asan olur, yoldaşlarının yanına böyük sevgi və fərəh içində qayıdırlar, Cənnətin ən yüksək yerində qərarlaşırlar. Cənnətin növbənöv nemətlərini heç bir zəhmət çəkmədən əldə edirlər (Haqqə-19, İnşiqaq-7-9, Haqqə-22-24).[2116]

45. Onlar nemət içində məst olmuşdular: Bu ayə sol tərəf sahiblərinin Cəhənnəmlik olmasının səbəbini onların nemətlər çoxluğundan yollarını azıb başlarını itirmələri ilə izah edir. “Mutrəfin” gününü Allahın nemətləri ilə xoş keçirib, buna görə də itaətsizlik göstərən şəxslərə deyilir. Onlar nemətlərin zövqü ilə elə sərməst olurlar ki, ondan yuxarısını unudurlar. Təbii

[2115] Nümunə, c.23, səh.219-216
[2116] Mənşuri-cavid, c.9, səh.442

ki, “mütrəfin” heç də yalnız varlı adamlar demək deyil, dünya malından nəsibinin az olmasına baxmayaraq, əlində olana tamamilə Allahı unudacaq dərəcədə bağlanan insan da ola bilər. Bu cür insanlar da “mütrəflər” sırasına daxildir.[2117]

51. Sonra, siz ey (doğru yoldan) azanlar, (haqqı) yalan sayanlar!

52. Mütləq, zəqqum ağacından yeyəcəksiniz,

53. qarınlarınızı onunla dolduracaqsınız,

54. üstündən də qaynar su içəcəksiniz.

55. Onu susuzluq xəstəliyinə tutulmuş dəvələr kimi içəcəksiniz”.

56. Bu onların Haqq-hesab günündəki ziyafətidir.

57. Biz sizi yaratdıq. Bəs nə üçün (yenidən yaradılışı) təsdiq etmirsiniz?

58. Rəhimlərə axıtdığınız nütfədən xəbərdarsınızmı?

59. Onu siz yaradırsınız, yoxsa Biz?

60. Aranızda ölümü Biz müəyyən etdik və heç kəs Bizdən önə keçə bilməz.

61. Bir qrupu başqa bir qrupun yerinə gətirərik və sizə bilmədiyiniz bir dünyada yeni yaradılış bəxş edərik (kimsə bizdən önə keçə bilməz).

62. Siz birinci dünyadan xəbərdar oldunuz. Bəs necə olur ki, (ondan sonra bir dünyanın olacağını) xatırlamırsınız?

63. Heç əkdiyiniz barəsində düşünürsünüz?

64. Onu siz bitirirsiniz, yoxsa Biz bitiririk?

65. Əgər Biz istəsək, onu döyülmüş saman çöpünə döndərər, siz də heyrətlənərsiniz

---

[2117] Əl-mizan, c.19, səh.129

66. (və deyərdiniz): “Doğrusu, biz ziyana uğradıq.

67. Daha doğrusu, tamamilə məhrum olduq!”

68. İçdiyiniz su haqqında düşündünüzmü?

69. Onu buluddan siz endirmisiniz, yoxsa Biz endiririk?

70. Əgər istəsək, bu şirin suyu acı və şor edərik. Bəs nə üçün şükür etmirsiniz?

71. Yandırdığınız od haqqında düşünmürsünüzmü?

72. Onun ağacını siz yaratmısınız, yoxsa Biz yaratmışıq?

73. Biz onu yada salmaq və müsafirlərin istifadəsi üçün yaratdıq.

74. Elə isə Ulu Rəbbinin adına təriflər de!

75. Ulduzların (doğduğu və batdığı) yerlərinə and olsun!

76. Kaş bunun çox böyük bir and olduğunu biləydiniz.

58-59. İnsanın mürəkkəb varlığına diqqət: Nütfə üzərində aparşdırma aparan alimlər belə qənaətə gəliblər ki, insanın yaranmasında sperma (kişinin nütfəsi) və toxum (qadının nütfəsi) birləşməsi rol oynayır. Sperma çox kiçik mikroskopik bizquyruqlardır. Hər axıdılan miqdarda 2-500 milyon arası bizquyruq ola bilər. Bu kiçik varlıq qadının nütfəsi ilə birləşdikdən sonra sürətlə inkişaf edir, başgicəlləndirici şəkildə çoxalaraq insanın bədən hüceyrələrini yaradır. Bu hüceyrələr zahirən bir-birinə bənzəsə də, qruplar şəklində ayrılaraq bir qrupu ürəyi, başqa bir qrupu əlləri, ayağı, bir başqası qulağı, gözləri təşkil edir və hər biri özünə aid yerdə qərarlaşır. Nə ürəyi təşkil edən hüceyrələr böyrəyin yerinə gedir, nə də böyrəyi təşkil edən hüceyrələr ürəyin yerinə. Xülasə, nütfə döl vaxtı heyrətamiz aləmlər qət edir, nəhayət, körpə surətində dünyaya gəlir. Bütün bunlar Allahın davamlı idarəçiliyi sayəsində baş verir. Halbuki insanın bu yaranışdakı sadə rolu

təkcə nütfənin axıdldığı vaxt sona yetir. Məgər bu, qayıdışın həqiqət olması, Allahın ölüləri yenidən diriltməsi üçün bir dəlil deyilmi?[2118]

63-65. Əkən Allahdır, yoxsa sizsiniz? Təbii ki, insanın işi yalnız əkməkdən ibarətdir, ancaq göyərtmək Allaha məxsus bir işdir. Hədislərinin birində İslam peyğəmbəri (s) belə buyurmuşdur: "Heç biriniz "bitirdim" deməsin, "əkdim" desin. (Çünki həqiqi becərən Allahdır)". Əkmək eynilə insanın uşağın yaranmasılnda oyandığı rola bənzəyir. Əkinçi dəni səpir və çılxıb gedir. Ancaq Allah toxumun içrəsində canlı bir hüceyrə yaradıb. Həmin hüceyrə əlverişli şəraitdə öncə toxumun içindəki maddələrdən istifadə edir, sonra cücərir, kök atır, heyrətamiz sürətlə torpaqdakı qida maddələrini mənimsəyir, bitkinin daxilində olan sirli cihazlar işə düşür, qeyri-adi bir aləm yaranır, gövdə, budaq, sünbül yaranır. Bəzən bir toxumdan yüzlərlə, minlərlə toxum qalxır. Alimlər hesab edir ki, bir bitkinin tərkibindəki təşkilatlanma böyük sənaye şəhəri və ya müxtəlif zavod və fabriklərdəki təşkilatlanmadan daha heyrətamiz və daha mürəkkəb olur. Belə bir qüdrətə malik olan varlıq ölülərini yenidən dirildə bilməzmi?[2119]

70. Bu şirin su kimin tərəfindəndir? Allah-taala bu ayədə insana başa salır ki, əgər Allah istəsəydi, suyun tərkibində olan duzların da su zərrəcikləri ilə birlikdə buxarlanmasına imkan verərdi, onlar da su ilə birlikdə havaya qalxar, şor və duzlu buludlar yaranar, yağış damcıları dəniz suyu kimi şor və duzlu yağadı. Ancaq o, bu duzlanmaya icazə vermir. Təkcə duzlanma deyil, hətta ziyanverici mikroblara da buxarla birlikdə havaya qalxıb yağış damcılarını çirkləndirməyə icazə vermir. Buna görə də əgər hava çirkli olmasa, yağış damcıları ən təmis, ən saf və ən şirin su olar. Peyğəmbər (s) su içərkən belə deyərmiş: ***"Şükürlər olsun Allaha ki, bizi***

[2118] Nümunə, c.23, səh.241
[2119] Nümunə, c.23, səh.249

şirin və ləzzətli su ilə sirab etdi, onu bizim günahlarımıza görə acı və şor etmədi.”[2120]

77. Bu, ehtirama layiq Qurandır,
78. qorunub saxlanılan kitabda (Lövhi-mhfuz) yer alır.
79. Ona yalnız pak olanlar toxunur.
80. Aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir.

[2120] Nümunə, c.23, səh.256

81. Siz bu kəlamı zəif və kiçik hesab edirsiniz?

82. Sizə verilən ruzilərə görə şükür etmək əvəzinə, onu yalan sayırsınız?

83. Bəs nə üçün boğaza yetişdiyi zaman (onu geri qaytara bilmirsiniz) –

84. O an siz yalnız baxırsınız.

85. Biz ona sizdən daha yaxın oluruq, siz isə görmürsünüz.

86. Madam ki siz haqq-hesab olunmayacaqsınız

87. və doğru danışanlarsınızsa, onda, o canı geri qaytarın?

88. Əgər o, (Allaha) yaxın olanlardandırsa,

89. onda ruh və reyhana, bol nemətli Cənnətə yetişər.

90. Əgər o, sağ tərəf sahiblərindəndirsə,

91. (onda ona): “Sağ tərəf sahiblərindən sənə salam olsun!” – (deyilər.)

92. Yox əgər o, (haqqı) yalan sayanlardan və (doğru yoldan) azanlardandırsa,

93. Cəhənnəmin qaynar suyu ilə qarşılanacaq,

94. Onun aqibəti Cəhənnəm oduna girmək olacaq.

95. Bu, şübhə doğurmayan bir həqiqətdir.

96. Elə isə ulu Rəbbinin adına təriflər de!

"Hədid" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Göylərdə və yerdə olanların hamısı Allahın şəninə təriflər deyir. O, qüdrətlidir, müdrikdir.

2. Göylərin və yerin hökmranlığı Ona məxsusdur, dirildir və öldürür. O, hər şeyə qadirdir.

3. Əvvəl, axır, aşkar və gizli Odur. O, hər şeyi bilir.

---

79. Qurana yalnız pak olanlar toxunar: Təfsirçilərin çoxu məsum imamlardan (ə) nəql olunan hədislərə istinad edərək, onu Quranın xəttinə pak olmadan (dəstəmaz və qüsülsüz) toxunmanın icazə olmaması kimi izah etmişlər. Bəziləri burada Qurandan xəbərdar olan və onu vəhy vasitəsilə Peyğəmbərin (s) qəlbinə nazil edən pak mələklərin nəzərdə tutulduğuna işarə edildiyini qeyd etmişlər. Bəziləri bu ayəyə istinadən Quranın ali həqiqətlərinə yalnız pak insanların vara biləcəyini düşünürlər. Başqa sözlə desək, Quranın ən sadə məzmununu başa düşmək üçün heç olmasa, həqiqət axtarışında olan ruhun pak olması şərtdir. Paklıq və təmizlik artıqca, Quranın məzmununu dərkin dərəcəsi də artar.[2121] Quranın zahiri məzmunundan zahiri təmizlik vasitəsilə də istifadə etmək olar, ancaq onun uca maarifini yalnız qəlbin və daxili aləmin paklığı ilə əxz etmək olar. Quranın zahirinə təmiz olmadan toxunmaq olmaz. Ancaq Quranın dərin məzmunu, canı və batini ilə təmas yaratmaq üçün sağlam qəlbə və pak ruha ehtiyac var. İnsan ruhun çirklənməsinə səbəb olan pis davranışları, etiqad və fikir sapmalarını özündən uzaq etməli, qəlbini və canını cilalamalıdır ki, Quranın aynasına çevrilsin, Quranın uca maarifi orada əks olunsun. Allah-taala bu ayədə Quranın həqiqəti və batininin pak olmayanlar tərəfindən əhatə edilə biləcəyinin qeyri-mümkün olduğunu buyurmuşdur. Allah-taala "Əhzab" surəsinin 33-cü ayəsində "beşliyə (ə)" xitab edərək buyurur: " Ey Əhli-beyt! Allah yalnız sizdən günah və çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!" Bu iki ayəni yanaşı qoyduqda məlum olur ki, Allahın bütün günahlardan pak və təmiz etdiyi Peyğəmbər (s), onun pak və təmiz

---

[2121] Nümunə, c.23, səh.268

Əhli-beyti (ə) Quranın ruhu və canı ilə sıx təmasdadırlar.[2122] Bunu belə də əsaslandıra bilərik ki, Quran hər kəsin haqq yola yönəlməsi üçün olsa da, çox adam Quranı birbaşa Peyğəmbərin (s) dilindən eşitməsinə, həqiqətin bu zülal suyunu vəhy mənbəyində görməsinə baxmayaraq, inad və təəssüb üzündən ondan az da olsa, bəhrələnə bilməyiblər. Ancaq özünü azacıq təmizləyən, həqiqət axtarışında olan ruhu ilə ona yaxınlaşan insanlar onun vasitəsilə haqq yola yönəlmişlər. Deməli, insanın təmizliyi və təqvası nə qədər artarsa, Quranın dərinliklərinə daha çox vara bilər. Ümumiyyətlə, ayə həm ruhani və fiziki yönlərin hər ikisinə şamil olur.[2123]

"Hədid" surəsinin ümumi məzmunu: Surə beş hissədən ibarətdir: 1. Allahın təkliyi və atributları ilə bağlı əhatəli məlumat. 2. Quranın əzəməti və böyüklüyü. 3. Qiyamətdə mömin və münafiqlərin vəziyyətinin necə olmasına qısa işarə. 4. İmana və şirkin tərk edilməsinə çağırış, keçmişdə yaşamış bir qrup kafirin əhvalatı. 5. Allah yolunda xərcləmək. 6. Sosial ədalət. 7. Rahiblik və güşənişinliyin tənqidi.[2124]

3. Əvvəl, axır, aşkar, gizli: "Əvvəl" və "axır" ifadələri Allahın əzəli və əbədi olmasını bildirən çox incə ifadələrdir. Çünki O, sonsuz və varlığı vacib olan varlıqdır. Yəni varlığı kənardan deyil, Özündəndir, başlanğıcı yoxdur, sonu da olmayacaq, əzəldən olub, əbədi də olacaq. O, varlıq aləminin başlanğıcıdır, dünya məhv olduqdan sonra da olacaq. "Aşkar" və "gizli" ifadələri Onun bütün varlığı əhatə etməsini göstərir. Hər şeydən aşkardır, çünki hərşey onun yaratdıqlarıdır. Hər kəsdən gizlidir, çünki zatı heç kəsə aydın deyil.[2125] İmam Əli (ə) oğlu İmam Həsənə (ə) vəsiyyət edərkən belə buyurur: ***"O, əşyaların varlığından əvvəl, başlanğıcı olmadan hər zaman***

[2122] Tematik təfsir, c.1, səh.371
[2123] Nümunə, c.23, səh.272
[2124] Nümunə, c.23, səh.291
[2125] Nümunə, c.23, səh.298

əvvəl olub. Sonu olmayan axırdır.”[2126] Peyğəmbər (s) hədislərinin birində belə buyurmuşdur: ***“Ey Rəbbim! Sən hər şeydən əvvəl olmusan və Səndən əvvəl heç nə olmayıb. Sən hər şeydən sonrasan, Səndən sonra heç nə olmayacaq.”***[2127]

4. Göyləri və yeri altı gündə yaradan, sonra da qüdrət taxtında qərarlaşan Odur. O, yerə girəni də, oradan çıxanı da, göydən enəni də, oraya qalxanı da bilir. Harada olsanız, O sizinlədir. Allah sizin nə etdiklərinizi görür.

5. Göylərin və yerin hökmranlığı Ona məxsusdur. Bütün işlər ancaq Ona doğru qaytarılacaqdır.

6. O, gecəni gündüzə, gündüzü də gecəyə daxil edir. O, kökslərdə olanları bilir.

7. Allaha və Onun elçisinə iman gətirin! Sizi özünün canişini və nümayəndəsi etdiyi maldan (xeyirxah işlərə) sərf edin! Sizdən iman gətirib xərcləyənləri böyük bir mükafat gözləyir.

[2126] Nəhcül-bəlağə, 31-ci məktub
[2127] Quranın ismarışı, c.4, səh.189

8. Peyğəmbər sizi Rəbbinizə iman gətirməyə çağırdığı halda, nə üçün Allaha iman gətirmirsiniz? Əgər siz möminsinizsə, (bilin ki,) artıq O, sizdən əhd almışdır (fitrətiniz və şüurunuzda).

9. Sizi zülmətlərdən nura çıxartmaq üçün öz quluna açıq-aydın ayələri nazil edən Odur. Allah sizə qarşı şəfqətlidir, rəhmlidir.

10. Göylərin və yerin mirası Allaha məxsus olduğu halda, nə üçün Allah yolunda xərcləmirsiniz? Fəthdən əvvəl Allah yolunda xərcləyib döyüşənləriniz (fəthdən sonra xərcləyənlərlə) eyni deyil. Onların dərəcəsi fəthdən sonra xərcləyib döyüşənlərdən daha üstündür. Allah onların hər ikisinə ən gözəl olanı vəd etmişdir. Allah sizin nə etdiklərinizdən xəbərdardır.

11. Kimdir o şəxs ki, Allaha gözəl bir borc versin (Allah yolunda malını yaxşı işlərə sərf etsin), O da onun üçün bunu qat-qat artırsın? Onun üçün çox dəyərli bir mükafat vardır.

---

4. Harada olsanız, O, sizinlədir: Bu cümlə Allahın məkansız, zaman və məkandan yüksəkdə olduğunu göstərir. Buna görə də Allah hər yerdədir, hər şeyi əhatə edir.[2128] Onun hər yerdə olmasını hiss etmək bir tərəfdən bizə böyüklük, digər tərəfdən isə əminlik, özünə güvən, şücaət və cəsarət bəxş edir, üçüncü bir tərəfdən isə insanda məsuliyyət hissini yüksək edir. Çünki insan Allahın hər yerdə olduğunu, insanı hər zaman gördüyünü hiss edir. Bu isə əslində, çox böyük tərbiyəvi əhəmiyyət daşıyır. Allah rəsulu (s) bir hədisində belə buyurmuşdur: ***"İnsanın imanının ən yüksək mərhələsi olduğu hər bir yerdə Allahın olduğunu hiss etməkdir."*** Bir gün Musa (ə) Allaha "Səni harada tapım, Ey Rəbbim?" – deyə müraciət etdikdə Allaha

---

[2128] Quranın ismarışı, c.4 ,səh.260

belə buyurmuşdur: “Ey Musa! Nə zaman Məni istəsən, Mənə qovuşarsan”. Allahın hər zaman bəndə ilə bir yerdə olması o qədər incə və dəqiq məsələdir ki, hər bir düşünən mömin onu öz düşüncə və imanı qədərində dərk edər.[2129]

10. İman, cihad və xərcləməkdə öndə gedənlər: “Fəth” deyilərkən Məkkənin fəthi və ya Hüdeybiyyə sülhü nəzərdə tutulur. ***“Fəthdən əvvəl Allah yolunda xərcləyib döyüşənləriniz”*** cümləsi göstərir ki, burada “Allah yolunda xərcləmək” deyilərkən cihad yolunda xərcləmək nəzərdə tutulur. Ayədən belə məlum olur ki, Allah yolunda xərcləməyə tələsmək Allah dərgahında daha sevimli və qiymətli bir əməldir.[2130] Şübhəsiz ki, iman, və xeyir əməllərdə başqalarını qabaqlayanların həm şücaəti və ayıqlığı çoxdur, həm də fədakarlıqları yüksəkdir. Buna görə də Allah qarşısında hamısı eyni deyil. Ayədə məhz buna, yəni fəthdən (Məkkənin fəthi, Hüdeybiyyə və ya bütün islami fəthlər) əvvəl xərcləyib döyüşənlərin Allah dərgahında başqaları ilə eyni olmamasına işarə edilmişdir. Əbu Səid Xudriyə istinad edilən bir məlumatda deyilir: Hüdeybiyyə baş verən ili biz Allah rəsulu (s) ilə bir yerdə idik. Əsqələ (Məkkə yaxınlığında yer adı) çatanda buyurdu: ***“Gələcəkdə bir qrup insan gələ bilər ki, sizin əməllərinizi öz əməlləri ilə müqayisə edib sizin əməllərinizi kiçik görər.”*** Əbu Səid: Onlar kimlərdir, Ey Allahın rəsulu? Qüreyşdirmi? Allah rəsulu (s): ***“Xeyr, onlar Yəmən əhlidir. Onların qəlbi sizinkindən daha incə, daha yumşaqdır.”*** Əbu Səid: Onlar bizdən yaxşıdırlarmı, Ey Allahın rəsulu? Allah rəsulu (s): ***“Əgər onların hər birinin qızıldan bir dağı olsa və onu Allah yolunda xərcləsə, mükafatı sizin xərclədiyinizin mükafatının bir müddü (750 q) və ya onun yarısı qədər də etməz. Bilin ki, bu, bizimlə başqa insanlar arasında olan***

[2129] Nümunə, c.23, səh.307
[2130] Əl-Mizan, c.19, səh.160

fərqdir. Allah kəlamı da bunu təsdiq edir: "Fəthdən əvvəl Allah yolunda xərcləyib döyüşənləriniz (fəthdən sonra xərcləyənlərlə) eyni deyil..."[2131]

11. Kimdir o şəxs ki, Allaha gözəl bir borc versin? Bu ayədə də insanları Allah yolunda xərcləməyə həvəsləndirmək üçün maraqlı bir cümlə işlədilmişdir: Bütün nemətlərin sahibi Allahdır, varlığımızın bütün zərrələri hər an Onun sonsuz mərhəmət dənizindən faydalanır. Ancaq bununla belə, Allah bizi malların sahibi saymış, bizdən borc almaq istədiyini buyurmuş, adi borclardan fərqli olaraq əvəzini bir neçə qat, hətta yüzlərlə, bəzən minlərlə dəfə artıq qaytaracağını buyurur, bundan əlavə, yalnız Allaha məlum olan böyük mükafat verəcəyini vəd edir.[2132] Qeyd etməliyik ki, "Allaha borc vermək" deyilərkən Onun yolunda edilən bütün yardımlar nəzərdə tutulur. Bunun ən böyük nümunələrindən biri İslam hökumətinin idarəçiliyə sərf etməsi üçün Peyğəmbər və İslam rəhbərlərinə verilən köməklərdir. Hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Allahın bəndələrdən borc istəməsinin səbəbi ehtiyac deyil. Əslində, Allahın Özünə aid olan hüquqlar onun vəli və nümayəndəsinə də aiddir."*** İmam Kazim (ə) belə buyurmuşdur: ***"Bu ayə İmama hədiyyə və yardım etməklə bağlı nazil olmuşdur."***[2133]

[2131] Nümunə, c.23, səh.325
[2132] Nümunə, c.23, səh.321
[2133] Nümunə, c.23, səh.326

12. O gün sən mömin kişi və qadınların nurunun onların önlərindən və sağ tərəflərindən sürətlə hərəkət etdiyini görəcəksən. (Onlara deyəcəklər:) “Bu gün sizin müjdəniz ağacları altından çaylar axan Cənnət bağlarıdır. Siz orada əbədi qalacaqsınız!” Bu, böyük uğurdur.

13. O gün münafiq kişi və qadınlar iman gətirənlərə: “Bizə nəzər salın ki, nurunuzdan işıq alaq” – deyəcəklər. Onlara deyiləcəkdir: “Geriyə qayıdıb işıq qazanın!” Bu vaxt onların arasına içəri tərəfində mərhəmət, çöl tərəfində əzab olan qapılı bir sədd çəkiləcəkdir.

14. Onları çağırıb deyəcəklər: “Məgər biz sizinlə birlikdə deyildikmi?” (Möminlər) deyəcəklər: “Bəli, lakin siz öz-özünüzü məhv etdiniz, (Peyğəmbərin ölməsini) gözlədiniz, (hər şeyə) şübhə edirdiniz və Allahın əmri gələnədək xülyalar sizi yoldan çıxartdı. Kələkbaz şeytan sizi Allah (Allahın fərmanı) qarşısında aldatdı.

15. Bu gün nə sizdən, nə də kafirlərdən heç bir fidyə qəbul olunmaz. Yeriniz oddur. Haminiz də elə odur. Ora nə pis yeridir!”

16. Möminlərin qəlbinin Allahın zikri və haqdan nazil olan qarşısında müti olmasının, daha öncə səmavi Kitab verilmiş, uzun bir müddət keçdikdən sonra isə qəlbləri sərtləşmiş, çoxu da günahkar olmuş kimsələr kimi olmamasının vaxtı gəlib çatmayıbmı?

17. Bilin ki, Allah torpağı onun ölümündən sonra dirildir. Biz ayələri sizə izah etdik ki, bəlkə düşünəsiniz.

18. Şübhəsiz ki, sədəqə verən kişi və qadınlar və (bu yolla) Allaha gözəl borc verənlər üçün (savab) qat-qat artırılacaqdır. Onlar üçün çox qiymətli mükafat da vardır.

---

12. Mömin kişi və qadınların nuru onların önlərindən və sağ tərəflərindən sürətlə hərəkət edəcək: Təfsirçilər "nur" sözü ilə bağlı müxtəlif fikirlər irəli sürsələr də, burada iman nurunun təcəssüm edəcəyi aydın məsələdir. "Nuruhum" (onların nuru) ifadəsi də bunu deməyə əsas verir. Çünki həmin gün insanların inancları, etiqadları, əməlləri təcəssüm edəcək, başdan başa nur olan iman aşkar işıq və parlaqlıq kimi təcəssüm edəcək, mütləq qaranlıq olan küfr isə qaranlıq formasında təcəssüm edəcək. "Yəsa" (sürətlə hərəkət edəcək) ifadəsi onu göstərir ki, möminlər özləri də sürətlə məhşərdən Cənnətə, əbədi səadət mərkəzinə doğru hərəkət edəcəklər. Çünki möminlərin nurlarının sürətli hərəkəti onların özlərindən ayrı hərəkət olmayacaq. Diqqət çəkən cəhət budur ki, burada iki – möminlərin önündə və sağ tərəfində hərəkət edən nurdan söhbət açılmışdır. Bəlkə də bununla möminlərin iki qrupa, yəni nurları özlərindən irəlidə hərəkət edən yaxın möminlərə və nurları sağ tərəflərində hərəkət edən sağ tərəf sahiblərinə bölünəcəyinə işarə edilmişdir. Bildiyimiz kimi, əməl dəftərləri sağ tərəf möminlərinin sağ əlinə veriləcək. Bu da onların sağ tərəfinə nur saşacaq və ətraflarını nura boyayacaq. Hər halda bu nur onları Cənnətə doğru aparacaq, onlar bu nur sayəsində Cənnət yolunu sürətlə qət edəcəklər. Digər tərəfdən, bu nur iman və saleh əməldən qaynaqlandığı üçün iman və əməlin dərəcəsindən asılı olaraq fərqli olacaq. İmanları daha güclü olanların nurları daha böyük ərazini işıqlandıracaq, imanları zəif olanların nuru da zəif

olacaq. Qumminin təfsirində belə yazılmışdır: ***"Qiyamət günü nur insanlar arasında imanların ölçüsündən asılı olaraq paylanacaq."***[2134]

13. Onların arasına içəri tərəfində mərhəmət, çöl tərəfində əzab olan qapılı bir sədd: "Sur" keçmişdə şəhərləri qorumaq üçün onların ətrafına çəkilən, müəyyən məsafələrdən bir gözətçi bürcləri olan divara deyilir. Ayədə qeyd edilir ki, bu divarın içi rəhmət, çölü əzabdır. Yəni möminlər bu bağın içində olan şəhər sakinləri, münafiqlər isə həmin hasardan kənarda qalan yadlar kimidir. Onlar bir cəmiyyət daxilində bir yerdə yaşasalar da, onları bir-birindən etiqad və əməllərdən ibarət böyük bir divar ayırır.[2135] İmam neməti möminlər üçün zövq aldıqları böyük bir nemətdir. Bu böyük nemət münafiqlər üçün isə böyük bir əzabdır. Çünki onlar özlərini bu vasitə ilə sevdirməyə çalışdıqları halda, bundan əziyyət çəkirdilər. Qiyamətdə də bu məna təcəssüm edəcək.[2136] Bəs görəsən həmin divardakı qapı nə üçündür? Bəlkə də ona görədir ki, münafiqlər həmin qapıdan Cənnət nemətlərini görüb həsrət çəksinlər, ya da günahı çox olmayan insanların islah olduqdan həmin qapıdan keçib möminlərə qovuşması üçündür.[2137]

16. Qəflət və xəbərsizlik nə vaxta qədər olacaq? "Təxşə" sözünün kökü "xüşu", mənası böyük həqiqət və ya böyük şəxsiyyət qarşısında insanın ruhunda və cismində yaranan təvazökarlıq vəziyyətidir. Məlumdur ki, Allahı xatırlamaq insanın ruhunun dərinliklərinə nüfuz etsə və ya insan Peyğəmbərə (s) nazil edilmiş ayələr haqqında dərindən düşünsə, təvazökar olar. Ancaq Quranın bu ayəsində Allah bu cür məsələlərdə təvazökar olmadıqları, keçmiş ümmətlər kimi, nəticəsi qəlblərin bərkiməsi və günah olan qəflətə qapıldıqları üçün bir mömini məzəmmət edir. İman iddiası ilə

[2134] Nümunə, c.23, səh.329
[2135] Nümunə, c.23, səh.332
[2136] Əl-Mizan, c.19, səh.163
[2137] Nümunə, c.23, səh.332

kifayətlənmək, bu cür mühüm məsələlərin kənarından asanlıqla keçmək, özünü dəbdəbəli həyat qoynuna atmaq, naz-nemət içində yaşamaq, davamlı olaraq kef-damaq içində ömür sürmək imanla uyğun gəlirmi?[2138]

19. Allaha və Onun elçilərinə iman gətirənlər siddiqlər (əməli ilə sözləri düz gələn, düzlüyün kamil nümunəsi olanlar) və öz Rəbləri yanında olan şəhidlərdir. Əməllərinin mükafatı və imanlarının nuru onlar üçündür. Kafir olub ayələrimizi yalan sayanlara gəlincə, onlar Cəhənnəm sakinləridir.

20. Bilin ki, dünya həyatı təkcə oyun və əyləncə, dəbdəbə, bir-birinizin yanında öyünmək, var-dövləti və oğul-uşağı çoxaltmaq istəyindən

[2138] Nümunə, c.23, səh.341

ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, ondan əmələ gələn bitki əkinçiləri heyran edir. Sonra o quruyur və sən onun, saralıb solduğunu, sonra isə küləşə çevrildiyini görürsən. Axirətdə ya şiddətli əzab var, ya da bağışlanma və razılıq. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir.

21. Rəbbiniz tərəfindən bağışlanmağa və genişliyi göyün və yerin genişliyi qədər olan, Allaha və Onun elçilərinə iman gətirənlər üçün hazırlanmış Cənnətə tələsin. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah böyük lütf sahibidir.

22. Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz yer kürəsini yaratmamışdan əvvəl Lövhi-məhfuzda yazılmasın. Bu, Allah üçün çox asandır.

23. Bu, ona görədir ki (bunu ona görə belə izah edirik ki), itirdiyinizə kədərlənməyəsiniz və Onun sizə verdiyinə sevinməyəsiniz. Allah heç bir özünü öyən təkəbbürlünü sevmir.

24. O kəsləri ki, özləri xəsislik edir, insanları da xəsislik etməyə çağırırlar. Kim (bu əmrdən) üz çevirsə, (Allaha deyil, özünə ziyan vermiş olur.) Allah, ehtiyacsızdır, tərifəlayiqdir.

---

20. Dünya həyatı aldadıcı ləzzətdən başqa bir şey deyildir: Bu ayədə dünya həyatı, onun müxtəlif mərhələləri və bu mərhələlərə hakim motivasiyaların obrazlı təsviri verilmişdir. Ayədə insan ömrünün beş mərhələyə bölündüyü qeyd edilmişdir: 1. Xəbərsizlik, oyun və qayğısızlıq içində keçən uşaqlıq dövrü. 2. Oyunu əyləncənin əvəz etdiyi yeniyetməlik dövrü. Yeniyetmə onu məşğul edə biləcək, başını qatacaq vasitələr axtarışında olur, ciddi məsələlərdən uzaq olur. 3. İnsanın eşq, həvəs və dəbdəbə axtarışında olduğu gənclik dövrü. 4. Vəzifə, mövqe və qürurverici hisslərin insanı özünə cəlb etdiyi dövr. 5. İnsanın mal, sərvət, var-dövlət

yığmaq həvəsində olduğu, adamlarının sayının çox olmasını istədiyi dövr. İlk ömür mərhələlərinin zamanı təxminən bəllidir. Ancaq sonrakı mərhələlərin hansı yaşlarda başladığı ayrı-ayrı adamlarda fərqli olur. Məsələn, var-dövlət, sərvət toplamaq ömrün sonuna qədər davam edir. Bu beş dövrün hər birinin müddəti səkkiz il çəkir. Deməli, üst-üstə qırx il edir. İnsan qırx yaşına çatanda onun şəxsiyyəti sabitləşir. Bəzi insanların şəxsiyyəti birinci və ikinci mərhələdə dayanır, qocalana qədər elə hey oyun, əyləncə, kef-damaq fikrində olur və yaxud dəbdəbə xəyalı ilə yaşayır, ömrünün sonuna qədər bütün fikri, xəyalı ev, minik, gözəl geyim və sair olur. Bunlar ixtiyar yaşında olan uşaqlar və ya uşaq ruhiyyəsində olan qocalardır. Daha sonra ayədə dünyanın əvvəli və sonunun necə olacağı sadə bir misalla insanın gözləri önündə təcəssüm etdirilir. İnsanın yetmiş il və ya daha uzun illər qət etdiyi bu mərhələlər bir neçə aylıq ömrü olan bitki həyatında təzahür edir. İnsan tarla kənarında oturub müxtəsər müşahidə ilə ömrün əvvəl və sonunun necə olduğunu və necə keçdiyini müşahidə edə bilər.[2139]

22-23. Nə təəssüf, nə sevinc: Quran ayələrinə əsasən belə qənaətə gəlmək olar ki, insanın başına gələn müsibətlər iki qrupa bölünür: 1. İnsanın günahlarının cəzası olan müsibətlər. Zülm, haqsızlıq, ədalətsilik, xəyanətlər, azğınlıq və sair günahlar müsibətlərin çoxunun mənşəyidir (Şura-30). 2. Bizdən asılı olmayan, baş verməsi qəti olan qaçılmaz müsibətlər. Peyğəmbərlər və övliyaların çoxunun başına bu cür müsibətlər gəlir. Ayədə bu müsibətlərdən bəhs edilir, onların Lövhi-məhfuzda qeyd edildiyi deyilir. Buna görə də insan bu dünyanın bəzək-düzəyinə bağlanmamalıdır. Çünki bu bağlılıq insan xöşbəxtliyinin ən böyük düşmənidir, ona Allahı unutdurur,

[2139] Nümunə, c.23, səh.351

kamillik hərəkətindən saxlayır. Bu müsibətlər qafillərin oyanış zəngi, dünyanın əbədi olmaması və ömrün qısa olmasının rəmzidir. İmanlı insanlar bu ayəni rəhbər tutaraq Allah tərəfindən bəxş edilmiş nemətin onlara əmanət verildiyini düşünür, onun getməsinə görə kədərlənmir, ona malik olduqları üçün sevinmir, onun çoxluğu içində məst olub özlərindən getmirlər. Onlar özlərini Allahın malının əmanətçiləri hesab edirlər. Bir gün külli miqdarda sərvət əldə edir, ertəsi gün onu minlərlə, milyonlarla xərcləyir. Nə onu əldə etdikləri üçün sevinir, nə də onu əldən verdikləri üçün kədərlənirlər. İmam Əli (ə) bu ayə haqqında belə buyurmuşdur: ***"Bütün zahidlik iki söz arasındadır. Allah-taala belə buyurur: "İtirdiyinizə kədərlənməyəsiniz və Onun sizə verdiyinə sevinməyəsiniz." Deməli, keçmişinə təəssüflənməyən, gələcəyə sevinməyən zahidliyi bu ikisindən əxz etmişdir."***[2140]

[2140] Nümunə, c.23, səh.362

25. Biz elçilərimizi aydın dəlillərlə göndərdik və onlarla birlikdə Kitab və (haqqı batildən ayıran, ədalətli qanunları təyin edən) tərəzi nazil etdik ki, insanlar ədalətli olsunlar. Biz özündə çox böyük qüvvə və insanlar üçün mənfəətlər olan dəmiri də endirdik ki, Allah, (Onu) görmədən Ona və elçilərinə kömək göstərənləri üzə çıxartsın. Allah qüvvətlidir, qüdrətlidir.

26. Biz Nuhu və İbrahimi göndərdik, bu ikisinin nəslinə peyğəmbərliyi və Kitabı nəsib etdik. Onların bir qismi doğru yoldadır, çoxu isə günahkarlardır.

27. Sonra onların ardınca digər elçilərimizi yolladıq. Sonra Məryəm oğlu İsanı göndərib ona İncil bəxş etdik. Onun ardınca gedənlərin qəlblərinə şəfqət və mərhəmət saldıq. Onların özlərindən icad etdikləri rahibliyi onlara biz göstəriş verməmişdik. Baxmayaraq ki, məqsədləri Allahın razılığını qazanmaq idi, lakin ona lazımi qaydada riayət etmədilər. Biz onlardan iman gətirənlərin mükafatlarını verdik. Onların çoxu isə fasiqlərdir.

28. Ey iman gətirənlər! Allahdan qorxun və Onun elçisinə iman gətirin ki, sizə öz mərhəmətindən iki pay bəxş etsin: sizə (insanlar arasında

və öz həyat yolunuzda) getməyiniz üçün nur versin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, rəhmlidir.

29. Kitab əhli bilsin ki, onlar Allahın lütfündən heç bir şey əldə edə bilməyəcəklər. Bütün lütfkarlıq (və mərhəmət) Allahın əlindədir, onu istədiyinə bəxş edər. Allah böyük lütf sahibidir.

---

25. Peyğəmbərlərin göndərilməsinin əsas məqsədi: Bu ayədə üç prinsip ədalətin bərqərar edilməsinin giriş şərtləri kimi təqdim edilmişdir: aydın dəlillər, kitab və tərəzi.[2141] "Aydın dəlillər" ifadəsinin məna yükü çox əhatəlidir, peyğəmbərlərin gətirdikləri möcüzələrə və əqli dəlillərə şamil olur. "Kitab" deyilərkən səmavi kitablar nəzərdə tutulur. Səmavi kitabların hamısının ruhu və həqiqəti eyni olduğu üçün "kitab" sözü tək halda işlədilmişdir. Sadəcə, zaman keçdikcə və insanların idrakı dərinləşdikcə onların məzmunları daha da təkmilləşdirilmişdir. Mizan ölçmək və miqyas təyin etmək üçün olan vasitədir. Bu ölçü vasitəsinin hiss olunan nümunələrindən biri də tərəzidir. Ancaq şübhəsiz ki, burada mənəvi ölçü vasitəsi nəzərdə tutulmuşdur. Yəni insanların bütün əməllərinin ölçülə biləcəyi bir vasitədir. Ümumi mənada bu vasitə Allahın hökmləri və qanunları və ya Allahın dinidir. Allahın dini yaxşı və pis əməllərin, dəyərlərin və dəyərə zidd davranışların meyarıdır.[2142] Bəzi təfsirçilər bu ayəni şərh edərkən cəmiyyətdə ədalətin bərqərar olmasında üç faktorun əsaslı rol oynadığını qeyd etmişlər: 1. Ədalət və zülmün sərhədlərini aydınlaşdıran qanun. Bu qanun sayəsində haqq və ədalət təcavüzdən fərqləndirlir. 2. Cəmiyyətdə qanunun mətnini icra edən ədalətli icraçı. 3.

[2141] Quranın ismarışı, c.7, səh.23
[2142] Nümunə, c.23, səh.371

Mühakimə zamanı ədalətli qərar qəbul edən ədalətli hakim. Buna görə də peyğəmbərlər bəzən mühakimə və icra zamanı mövcud ixtilaflara son qoyur, bəzən də öz əmrləri ilə ixtilafların qarşısını alırlar.[2143] Maraqlıdır ki, ədalətin bərqərar edilməsi vəzifəsi peyğəmbərlərə aid edilmir. Ayədə buyurulur ki, insanlar özləri ədaləti bərqərar etsinlər. Ən doğrusu da elə məhz budur, ədalət cəmiyyətə məcbur edilməli deyil, cəmiyyət özü ədaləti istəməlidir, ədalət cəmiyyətin öz arasından yüksəlməlidir.[2144] Diqqət çəkən məqamlardan biri də kitab və tərəzinin endirilməsi məsələsi qeyd edildikdən sonra dəmirin göndərilməsindən və onun heyrətamiz qüvvəyə malik olduğundan danışılır. Bəlkə də burada dəmirdən danışılması iki cəhətlə bağlıdır, başqa sözlə, ədaləti bərqərar etmənin yolu iki vasitədən keçir: 1. Qəlbləri pak olan insanlar üçün faydalı ola biləcək təlim və təbliğ yolu; 2. Məntiqə boyun əyməyən və itaətsizlik göstərən qruplar üçün zor və məcburiyyət yolu.[2145]

27. Rahilbik qondarma metoddur: "Rəhbaniyyət" (rahiblik) qorxu deməkdir. Onunla daha çox Allahdan qorxmaq nəzərdə tutulur. Bu ayədən belə başa düşülür ki, xristianlıqda rahiblik vacib deyil, müəyyən mənada mövcud olmuş bir ayin olmuşdur. Ancaq xristianlar onu təhrif etmişlər. Buna görə də İslamda sözügedən rahiblik kəskin şəkildə tənqid edilir. Məşhur hədislərin birində belə deyilir: "İslamda rahiblik yoxdur". Xristianların rahiblik məsələsində özlərindən icad etdikləri qanunlardan biri tərki-dünya kişi və qadınlara ailə qurmağın qadağan edilməsi, cəmiyyətdən kənarlaşma adətinin təbliğ edilməsi, insanın cəmiyyət qarşısındakı

[2143] Mənşuri-cavid, c.10, səh.45
[2144] Quranın ismarışı, c.7, səh.23
[2145] Mənşuri cavid, c.10, səh.44

vəzifələrinin pozulması, ibadət etmək üçün ucqar ibadətxanaların seçilməsi, cəmiyyətdən uzaq bir mühitdə yaşamaqdır.

İnsan cəmiyyətdə yaşamaq üçün yaradılmış bir varlıqdır, onun maddi və mənəvi təkamülü də ictimai həyatla şərtlənir. Buna görə də səmavi dinlərdən heç biri insana aid olan bu cəhəti ona qadağan etməmiş, əksinə, onun əsaslarını daha da möhkəmləndirmişdir. Allah-taala insanda nəsil artırmaq üçün cinsi istək yaratmışdır. Bu xüsusiyyəti qadağan edən hər bir hökm yanlışdır. Bir gün Peyğəmbər (s) İbn Məsuda belə buyurur: ***"Bilirsən rahiblik haradan yaranıb?"*** O belə cavab verir: "Allah və peyğəmbəri daha yaxşı bilir." Peyğəmbər (s) buyurur: ***"İsadan (ə) sonra bir dəstə zülmkar peyda oldu. Möminlər onlara qarşı üç dəfə mübarizəyə qalxdılar, ancaq hər üçündə məğlub oldular. Bundan sonra çöllərə düşdülər və İsanın (ə) vəd verdiyi Peyğəmbərin (s) gəlməsi ümidi ilə mağaralarda ibadətlə məşğul olmağa başladılar. Onların bəzisi öz dinlərində qalsa da, bəzisi kafir oldu."*** Sonra Peyğəmbər (s) belə buyurur: ***"Bilirsən ümmətin rahilbiyi nədir?"*** O isə "Allah və rəsulu daha yaxşı bilir", - deyə cavab verir. Peyğəmbər (s) buyurur: ***"Hicrət, cihad, namaz, oruc, həcc, ümrə".*** Yaddan çıxarmaq olmaz ki, İslamda sadə həyat tərzi, dəbdəbədən uzaqlıq, mal və vəzifənin əsarət boyunduruğuna boyun əyməmək mənasında olan zahidliyin rahibliklə heç bir əlaqəsi yoxdur. Çünki rahiblik cəmiyyətdən təcrid olmaq, zahidlik isə sosial yaşamaq üçün azadlıq və təvazökarlıqdır. [2146]

[2146] Nümunə, c.23, səh.384

"Mücadələ" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Əri ilə bağlı sənə müraciət və Allaha şikayət edən qadının sözünü Allah eşitdi. Allah sizin söhbətinizi eşidir. Allah eşidəndir, görəndir.

2. Sizlərdən öz qadınlarını (anaya bənzədərək) özlərinə haram edənlərin zövcələri onların anaları deyillər. Anaları yalnız onları dünyaya gətirmiş qadınlardır. Onlar yaramaz və yanlış söz danışırlar. Allah əfv edəndir, bağışlayandır.

3. Qadınlarını (anaya bənzədərək) özlərinə haram edib, sonra sözlərini geri götürənlər onlarla yaxınlıq etməzdən əvvəl bir kölə azad etməlidirlər. Bu sizə verilən öyüd-nəsihətdir. Allah nə etdiklərinizdən xəbərdardır.

4. (Buna) imkanı olmayan şəxs qadını ilə yaxınlıq etməzdən əvvəl iki ay ardıcıl oruc tutmalıdır. Buna da gücü çatmayan şəxs altmış yoxsulu yedirtməlidir. Bu sizin Allaha və Onun elçisinə iman gətirməniz üçündür. Bunlar Allahın hüdudlarıdır. Ona qarşı çıxanları isə ağrılı-acılı bir əzab gözləyir.

5. Allah və Onun elçisi ilə düşmənçilik edənlər özlərindən əvvəlkilər xar və rüsvay olduqları kimi xar və rüsvay olacaqlar. Biz artıq açıq-aydın ayələr nazil etdik. Kafirləri xar və rüsvayedici bir əzab gözləyir.

6. O gün Allah onların hamısını dirildəcək və etdikləri əməllərdən - Allahın hesabını qoruduğu, onların özlərinin unutduqları əməllərdən xəbərdar edəcək. Allah hər şeyə şahiddir.

-

“Mücadilə” surəsinin ümumi məzmunu: Bu surəni məzmun etibarı ilə üç hissəyə bölmək olar: 1. “Zihar” (kişilərin öz qadınlarını analarına bənzədərək onları özlərinə haram etməsi) və onun hökmləri. 2. Məclisə aid olan ədəb qaydaları, o cümlədən pıçıltı ilə danışmaq, məclisə yenicə daxil olmuş adama yer vermək haqqında göstərişlər. 3. Münafiqlər və zahirdə İslamdan dəm vuran, ancaq düşmənlərlə əlaqəsi olanlar haqqında ətraflı məlumat, həqiqi müsəlmanların şeytan və münafiqlər partiyasına girməməsinə çağırış, onların Allah partiyasına girməsinə çağırılması.[2147]

1. Surənin ilk ayələrinin nazilolma səbəbi: Təfsirçilərin çoxunun ilk ayələrin nazilolma səbəbləri ilə bağlı qeyd etdiklərinin ümumi məzmunu: Ənsardan olan bir qadın ərinin qəzəbinə tuş gəlir və ər də tündxasiyyət bir adam olduğu üçün həyat yoldaşından ayrılmaq qərarına gəlir. Buna görə də öz həyat yoldaşına belə deyir: “Sən mənim üçün anam kimisən!” Bu boşanma forması cahiliyyət dövrünə aid idi. Bu cür boşanma zamanı qadının nə öz həyat yoldaşı ilə ailəliyi mümkün idi, nə də başqa bir adamla ailə qura bilərdi. Qeyd olunan vəziyyət ərli bir qadının başına gələn ən pis hadisə hesab edilirdi. Çox keçmir ki, ər peşiman olur, ancaq “zihar” (qadının anaya bənzədilməsi ilə haram edilməsi) cahiliyyə dövründə qayıdışı mümkün olmayan boşanma forması olduğu üçün kişi həyat yoldaşına belə deyir: Hesab edirəm ki, mənə həmişəlik haramsan. Qadın deyir: Belə danışma, Allah rəsulunun (s) yanına get və bu məsələni ondan soruş. Kişi: Mən utanıram. Qadın: Onda qoy mən gedim. Kişi: Eybi yoxdur. Qadın Peyğəmbərin yanına gedir və əhvalatı ona danışır. Peyğəmbər (s) buyurur:

[2147] Nümunə, c.23, səh.403

Sən ona haram olmusan və mənim bu barədə heç bir göstərişim yoxdur. Qadın üzünü Allah dərgahına tutub deyir: Ey Rəbbim, çarəsizliyimdən, ehtiyacdan və vəziyyətimin pisliyindən sənə şikayət edirəm. Peyğəmbərinə (s) bir əmr göndər və bu problemi həll et. Bu vaxt nəzər nöqtəsi olan surənin ilk ayələri nazil olur. Peyğəmbər (s) həmin ayələri o qadının həyat yoldaşına oxuyur və zihar boşanmasının yaratdığı problemin həlli yolunu göstərir. Zihar böyük günahlardandır, hər kəs öz həyat yoldaşını "Sən mənə anam kimisən" deyib boşasa, qadın şəriət hakiminə müraciət edib rəsmi boşanma vasitəsilə həyat yoldaşından boşana və ya ərini əvvəlki evliliyinə məcbur elətdirə bilər. Ancaq əvvəlki evlilik həyatına qayıtmazdan əvvəl ər cərimə ödəməlidir. Ziharın cəriməsi imkan olduğu təqdirdə bir qul azad etməkdir, imkan olmadığı təqdirdə iki ay ardıcıl oruc tutmaqdır, buna da imkan olmadıqda altmış ehtiyaclını doyurtmaqdır. İslamın zihar boşanmasına qarşı bu cür qətiyyətli münasibəti onu göstərir ki, İslam özbaşnalıq edən kişilərin öz zalım və qəddar ənənlərindən istifadə edərək qadınların hüquqlarını pozmasına icazə vermir, əksinə insanlar arasında nə qədər kök atmış olsa belə, bu cür xurafat və yanlış ənənələrinin yer üzündən silinməsini aradan qaldırmaq istəyir.[2148]

[2148] Nümunə, c.23, səh.406

7. Allahın göylərdə və yerdə olan hər şeyi bildiyini bilmirsənmi? Nə zaman üç nəfər xəlvəti söhbət edirsə, dördüncüləri Allahdır, nə zaman dörd nəfər xəlvəti söhbət edirsə, beşinciləri Allahdır, nə zaman beş nəfər xəlvəti söhbət edirsə, altıncıları Allahdır. İstər bundan az, istərsə də çox olsunlar – harada olursa olsunlar, (Allah) onların yanındadır. Sonra Qiyamət günü onlara nə etdiklərini xəbər verəcəkdir. Çünki Allah hər şeyi bilir.

8. Gizli söhbət qadağan ediləndən sonra yenə də qadağan olunmuş əmələ qayıdıb günah, düşmənçilik etmək və Peyğəmbərə qarşı çıxmaq üçün

öz aralarında xəlvəti danışanları görmədinmi? Onlar sənin yanına gəldikdə səni Allahın salamladığı kimi salamlamır və öz-özlərinə: “Bəs niyə Allah bizi dediklərimizə görə əzaba düçar etmir?” – deyirlər. Cəhənnəm onlara yetər. Onlar orada yanacaqlar. Ora necə də pis aqibətdir.

9. Ey iman gətirənlər! Gizli danışdığınız zaman günah, düşmənçilik və Peyğəmbərə qarşı çıxmaq barədə danışmayın. Yaxşı işlər və Allahdan qorxmaq barədə danışın, hüzuruna toplanılacağınız Allahdan qorxun!

10. Gizli söhbətlər iman gətirənləri kədərləndirməyə çalışan şeytan tərəfindəndir. Amma Allahın izni olmadıqca o, onlara heç bir zərər yetirə bilməz. Deməli, möminlər Allaha təvəkkül etsinlər.

11. Ey iman gətirənlər! Sizə: “Məclislərdə yer verin!” – deyildikdə yer verin ki, Allah da sizə geniş yer versin. Habelə sizə: “Qalxın!” – deyildikdə qalxın ki, Allah da sizdən iman gətirənlərin və elm verilmiş şəxslərin dərəcələrini ucaltsın. Allah nə etdiklərinizdən xəbərdardır.

---

7. Allah hər bir xəlvəti yerdədir: Allah cisim deyil, cismə xas olan xüsusiyyətlərin heç biri onda yoxdur, buna görə də onun üçün zaman və məkan təsəvvür etmək olmaz. Eyni zamanda Allahın hər hansı yerdə olduğunu təsəvvür etmək onu məhdudlaşdırmaqdır. Başqa sözlə desək, O, hər şeyi əhatə edir, ancaq məkanı yoxdur. Bundan başqa onun mələkləri də hər yerdədir və bütün əməlləri qeydə alırlar. İmam Əli (ə) bu ayənin təfsiri haqqında belə buyurmuşdur: ***“Yəni Allahın etibarlı varlıqları onlara verdiyimiz qüdrətlə bütün yaradılmışlar üzərində hakimdirlər, əgər bir şey etsələr, sanki Allah etmişdir.”*** Əlbəttə, bu məsələnin bir tərəfidir. Ancaq digər tərəfi Allahın özünün hər şeyi əhatə etməsidir. Belə ki, xristian alimlərindən biri İmam Əlidən (ə) “Allah haradadır?”, - deyə soruşduqda İmam (ə) buyurur: ***“O, buradadır və oradadır, yuxarıda və aşağıdadır, bizi***

əhatə edir, hər zaman bizimlədir. Allah "Nə zaman üç nəfər xəlvəti söhbət edirsə, dördüncüləri Allahdır...", - deyə buyurarkən də bunu çatdırmaq istəmişdir."[2149]

8. Allahın və Allahdan qeyrisinin salamı: İmam Baqirin (ə) hədislərinin birində belə qeyd edilir: Bir gün bir qrup yəhudi Peyğəmbərin (s) yanına gəlib "Əssəlamu ələykə" demək əvəzinə "Əssam ələykə, ey Əbəlqasim" deyirlər. Bunun da mənası sənə ölüm olsun və ya məzəmmət və yorğunluğa düçar olasan deməkdir. Peyğəmbər (s) onlara ***"Eynisi sizə olsun"***, - deyə cavab verir. Aişə qeyd edir ki, bu məqam mənim diqqətimi cəlb etdiyi üçün dedim: "Sizə ölüm olsun. Allahın lənət və qəzəbi üzərinizə olsun." Peyğəmbər (s) mənə dedi: ***"İdarə et, kobudluq və pis danışmaqdan çəkin"***. Dedim: Məgər eşitmirsən, sənə ölüm olsun, deyirlər? Buyurdu: ***"Bəs sən mənim onlara "eynisi sizə olsun" dediyimi eşitmədinmi?"*** Bu zaman Allah-taala bu ayəni göndərir: "Onlar sənin yanına gəldikdə səni Allahın salamladığı kimi salamlamır".[2150]

11. Elmli möminlərin dərəcələrinin yüksəldilməsi: Bir gün Peyğəmbər (s) cümə günlərinin birində "süffə"də (Məscidin qarşısında olan böyük səki) əyləşir, ətrafında da adam çox olduğu üçün yer darısqallıq edir. Peyğəmbər (s) adətən, Bədr mücahidlərinə çox böyük hörmət bəsləyərmiş. Həmin vaxt adıçəkilən adamlardan bir qrupu daxil olur. Ancaq camaat artıq Peyğəmbərin (s) ətrafını doldurmuşdu. Onlar Peyğəmbərin (s) yanına gəldiklərində ona salam verir, Peyğəmbər (s) də cavab verir. Sonra oradakılara salam verirlər. Onlar da cavab verirlər. Beləcə, ayaq üstə qalırlar. Ancaq onlara yer verən olmur. Bu vəziyyət Peyğəmbərə (s) çox ağır gəlir, üzünü ətrafında oturanlardan bir neçəsinə tutur, gələnlərə yer vermələri

---

[2149] Nümunə, c.23, səh.426
[2150] Üsuli kafi, c.2, səh.642

üçün onları yerlərindən qaldırır. Bu, iman və cihadda digərlərindən öndə olanlara hörmət göstərilməsini göstərirdi. Ancaq oradakıların bəzisi Peyğəmbərin (s) bu davranışından narazı qalırlar. Allah-taala nəzər nöqtəsi olan ayəni nazil edir, məclisdə oturmaq qaydaları ilə bağlı onlara bir neçə tövsiyə verir, bu göstərişlərin iman, elm və ayıqlıqdan xəbər verdiyini göstərir. Bundan başqa, Peyğəmbərin (s) təzə gələnlərə yer vermələri üçün bəzi adamlara durmalarını göstəriş verməsi müqəddəs məqsədə, iman və elmdən öndə olanlara hörmət səciyyəsi daşıyır. Digər tərəfdən, nəzər nöqtəsi olan ayədən belə başa düşülür ki, insanın dərəcəsini iki cəhət yüksəldir: iman və elm. İmam Əli (ə) buyurmuşdur: ***"Elm və təhsil axtarışında olarkən əcəli yetişmiş şəxslə Peyğəmbər (s) arasında bir dərəcə fasilə var"***. Peyğəmbər (s) belə buyurmuşdur: ***"Qiyamətdə üç qrup şəfaətçi olacaq: peyğəmbərlər, alimlər və şəhidlər".***[2151]

[2151] Nümunə, c.23, səh.437

12. Ey iman gətirənlər! Peyğəmbərlə gizli söhbət etmək istədiyiniz zaman öncə sədəqə verin. Bu sizin üçün daha xeyirli və daha pakdır. Əgər imkanınız olmasa, (bilin ki,) Allah bağışlayandır, rəhmlidir.

13. Yoxsullaşacağınızdanmı qorxub gizli söhbətinizdən əvvəl sədəqə verməkdən çəkindiniz? İndi ki, bunu etmədiniz və Allah da tövbənizi qəbul etdisə, onda namaz qılıb zəkat verin, Allaha və Onun elçisinə itaət edin. Allah nə etdiklərinizdən xəbərdardır.

14. Sən Allahın qəzəbinə tuş gəlmiş adamlarla dostluq edənləri görmədinmi? Onlar nə sizdəndirlər, nə də onlardan. Onlar bilə-bilə yalandan and içirlər.

15. Allah onlar üçün şiddətli bir əzab hazırlamışdır. Çünki onlar pis əməllər törədiblər.

16. Onlar andlarını özlərinə sipər edib insanları Allah yolundan döndərdilər. Buna görə də onnları alçaldıcı bir əzab gözləyir.

17. Nə malları, nə də övladları onları Allahın əzabından qorumayacaq. Onlar Cəhənnəm sakinləridir və orada əbədi qalacaqlar.

18. Allah onların hamısını dirildəcəyi gün onlar sizə and içdikləri kimi, Ona da and içəcək və nə isə əldə edə biləcəklərini güman edəcəklər. Bilin ki, onlar əsl yalançılardır.

19. Şeytan onları üstələmiş və Allahı xatırlamağı onlara unutdurmuşdur. Onlar şeytanın firqəsidirlər. Bilin ki, şeytanın firqəsi ziyana uğramışdır.

20. Allah və Onun elçisi ilə düşmənçilik edənlər ən zəlil kimsələr arasında olacaqlar.

21. Allah əzəldən belə yazmışdır: "Mən və elçilərim hökmən qalib gələcəyik!" Allah qüvvətlidir, məğlubedilməzdir.

---

12. Xəlvəti danışıq: Bu ayənin nazilolma səbəbindən bəhs edən hədis və tarixi mənbələrdən belə məlum olur ki, bir qrup varlı adam Peyğəmbərin (s) yanına gəlib onunla xəlvəti söhbətlər edirdi. Bu hərəkət Peyğəmbərin (s) qiymətli vaxtını tutmaqla yanaşı, zəiflərin narahatlığına və varlıların imtiyaz qazanmasına səbəb olurdu. Allah-taala 12-ci ayəni nazil edir və onlara xəlvətə çəkilməzdən əvvəl ehtiyaclılara sədəqə vermələrini göstəriş verir. Vəziyyəti belə görən varlılar xəlvətə çəkilməkdən imtina edirlər. Bu zaman növbəti ayə nazil olur və Allah həmin ayədə onları məzəmmət edir, birinci ayənin hökmünü götürür və hər kəsə yalnız xeyir işlərdə xəlvəti danışmağa, Allaha itaət etmək üçün xəlvətə çəkilməyə icazə verir. Bəs bu hökmün və onun tez bir zamanda dəyişməsinin səbəbi nə olmuşdur? Bəzi təfsirçilər bu suala cavab verərkən belə qeyd etmişlər: Burada məqsəd öz sevgilərini Peyğəmbərə (s) xəlvətdə izhar edən iddialı insanları sınamaq olmuşdur. Allah-taala bu vasitə ilə sevgi və mərhəmət etirafının havayı olduğu zamana aid olduğunu aşkara çıxarır. Halbuki az miqdarda maldan keçməklə şərtləndiyində iddiaçılar susurlar. Əlbəttə, Allahın bu böyük imtahanından yalnız möminlərin əmiri İmam Əli (ə) keçmişdir. İmam Əli (ə) hədislərinin birində belə buyurur: ***"Quranda bir ayə nazil olub ki, nə məndən əvvəl kimsə ona əməl edib, nə də məndən sonra kimsə ona əməl edəcək. Mənim***

bir dinarım var idi, onu on dirhəmə dəyişmişdim. Allahın rəsulu (s) ilə hər dəfə xəlvətə çəkilmək istədikdə bir dirhəm sədəqə verirdim." Abdullah ibn Ömər ibn Xəttaba istinad edilən bir rəvayətdə belə deyilir: ***"Əlinin üç fəziləti var idi. Əgər onlardan biri məndə olsaydı, mənim üçün qırmızı tüklü dəvələrdən daha yaxşı olardı. Onun Fatimə ilə evliliyi, Xeybər günü bayrağın ona verilməsi və "Nəcva" ayəsi(nə əməl etmək)."*** Bu ayə müsəlmanlara göstərdi ki, zərurət olmadığı təqdirdə Peyğəmbər (s) və digər İslam rəhbərlərinin qiymətli vaxtını xəlvətə çəkməklə tutmasınlar, bununla da müsəlmanların narahatlığına səbəb olmasınlar. Buna görə də birinci hökm müvəqqəti xarakter daşımış, ayənin məqsədi hasil olduqdan sonra dəyişmişdir. Çünki birinci hökm bir sıra problemlərin meydana çıxmasına səbəb olurdu; hər hansı zəruri bir məsələ ortaya çıxdıqda və həmin məsələni Peyğəmbərə (s) xəlvətdə söyləmək zərurəti yarandıqda sədəqə hökmü insanların qarşısını kəsirdi, bununla da bir çox fürsətlər əldən çıxır, İslam cəmiyyətinə ziyan dəyirdi. Peyğəmbərlə (s) xəlvətdə danışmaq hökmünün nə qədər sürməsi və nə zaman dəyişməsi ilə bağlı müxtəlif fikirlər bildirilmişdir. Bəziləri bu müddətin bir saat, bəziləri bir gecə, bəziləri isə on gün sürdüyünü qeyd etmişlər. Ehtimal ki, üçüncü fikir daha düzgündür. Çünki bu müddət bir saat və ya bir gecə sürsəydi, qanundan boyun qaçıranlar bəhanə edib deyəcəkdilər ki, bizim Peyğəmbərlə (s) xəlvətdə görüşüb danışmağımıza səbəb olacaq bir hadisə baş vermədi. Ancaq on gün müddəti elə bir müddətdir ki, həqiqətləri üzə çıxarır, onların məzəmmət edilməsinə haqq qazandırır. Sədəqənin miqdarına gəldikdə isə, bu barədə nə ayədə, nə də hədislərdə bir şey qeyd edilməmişdir. Ancaq İmam Əlinin (ə) hədisindən hətta bir dirhəmin belə, kifayət etdiyi başa düşülür.[2152]

[2152] Nümunə, c.23, səh.447

19. Şeytanın hökmranlığı münafiqlərin taleyinin sonudur: Bu ayədə münafiqlərin taleyinin sonunun necə olduğuna işarə edilmişdir. Yalançı münafiqlər, var-dövlətləri ilə qürrələnənlərin sonu şeytanın hökmranlığı altına keçmək, onun vəsvəsələrinə tabe olmaq və Allahı tamamilə unutmaqdır. Onların sonu təkcə haqq yoldan azmaq deyil, şeytanın xidmətçiləri, köməkçiləri, yardımçıları, qoşunu və partiyası tərkibində başqalarını da haqq yoldan çıxarmaqdır. İmam Hüseyn (ə) Kərbəlada qaranlıq gecə və coşqun sel kimi axışıb gələn Kufə ordusu qarşısında belə buyurmuşdur: ***"Əcəb pis bəndələrsiniz, Allaha itaət etdiyinizi, Peyğəmbərə iman gətirdiyinizi deyirsiniz, ancaq indi Peyğəmbərin (s) balasını öldürməyə gəlmisiniz, şeytan sizi hökmranlığı altına alıb, Allahı sizə unutdurub."*** Sonra buyurmuşdur: ***"Məhv olun, arzularınız məhv olsun! Allah tərəfindən gəlmişik, Ona tərəf də qayıdacağıq."***[2153]

22. Allaha və Axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun elçisinə düşmən olanlarla – öz ataları,

[2153] Nümunə, c.23, səh.461

oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə – dostluq etsinlər. Allah imanı onların qəlb səhifəsinə yazmış və öz tərəfindən bir ruhla onlara güc bəxş etmişdir. Onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəkdir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər. Bilin ki, Allahın firqəsi qalib gələnlər və nicat tapanlardır.

"Həşr" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Göylərdə və yerdə olanların hamısı Allahın şəninə təriflər deyir. O, qüdrətlidir, müdrikdir.

2. Kitab əhlindən kafir olanları (müsəlmanlarla) ilk qarşılaşmada evlərindən çıxardan Odur. Siz onların çıxacaqlarını güman etmirdiniz. Onlar isə elə güman edirdilər ki, qalaları onları Allahın əzabından qoruyacaqdır. Allah isə onları gözləmədikləri yerdən haqlayıb qəlblərinə qorxu və dəhşət saldı. Onlar evlərini həm öz əlləri, həm də möminlərin əlləri ilə dağıdırdılar. İbrət götürün, ey ağıl sahibləri!

3. Əgər Allah onlara vətənlərini tərk etmək hökmünü yazmış olmasaydı, onlara elə bu dünyada əzab verərdi. Axirətdə onlar üçün od əzabı hazırlanmışdır.

---

22. Möminlər Allah və peyğəmbərinin düşmənləri ilə dosluq etmirlər: Quranın ən aydın ayələrindən olan bu ayədə möminlərə bildirilir ki, Allaha sevgi ilə Allah düşməninə qarşı olan sevgi bir qəlbə sığışmaz, bu ikisindən birini seçmək lazımdır. Əgər həqiqi mömindirlərsə, Allahın düşməni ilə dostluq etməkdən çəkinsinlər, əks təqdirdə mömin olduqlarını iddia etməsinlər. Ata, övlad, qardaş və qohumları sevmək çox yaxşıdır, insani hisslərin yaşaması deməkdir. Ancaq bu sevgi Allaha olan sevgi ilə qarşı-

qarşıya gəldikdə dəyərini itirir. Hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Allah insana onun özünün, ata-anası, və övladlarının canından, evindən, malından və bütün insanlardan qiymətli olmadıqca, insan Allaha olan imanını əsla xalis edə bilməz."*** Buna görə də Allah firqəsinin xətti Allah, Peyğəmbər (s), onun vəsilərini sevmək, onlardan qeyrisindən əl üzməkdir. Şeytan firqəsini səciyyələndirərkən Allah-taala belə buyurur: onların ən bariz əlaməti münafiqlik, Haqqla düşmənçilik, Allahı xatırlamağı tərk etmək, yalan və hiylədir.[2154]

"Həşr" surəsinin ümumi məzmunu: Surənin əvəvlində müsəlmanlarla bir qrup yəhudinin mübarizəsindən danışılır. Surənin son ayələrində bütün müsəlmanlara öyüd-nəsihətlər verilir, Quranla bağlı çox obrazlı bir təsvir verilir, onun ruh və canların təmizlənməsindəki rolundan danışılır. Surənin son üç ayəsində Allahın mühüm atributları sadalanır.[2155]

2. Mədinədə Bəni-Nəzir yəhudilərinin hiylələrinin sonu: Mədinədə üç qrup yəhudi yaşayırdı: Bəni-Nəzir, Bəni Qüreyzə, Bəni-Qinqa. Deyilənlərə görə onlar ümumiyyətlə, hicazlı olmamışlar. Sadəcə, öz dini kitablarından Mədinədə bir peyğəmbərin zühur edəcəyini öyrəndikləri üçün buraya köçüb həmin böyük günü gözləyirdilər. Peyğəmbər (s) Mədinəyə hicrət etdikdən sonra onlarla təcavüzkarlıq etməmələri haqqında müqavilə bağlayır. Lakin onlar hər fürsətdə bu müqaviləni pozmağa cəhd edirdilər. O cümlədən "Ühüd" döyüşündən sonra yəhudilərin başçısı Kəb ibn Əşrəf qırx nəfər süvari yəhudi ilə birlikdə Məkkəyə yollanır. Məkkədə Qüreyş tayfası ilə görüşüb Peyğəmbərə (s) qarşı döyüşmək haqqında saziş bağlayır. Allah vəhy vasitəsilə Peyğəmbəri (s) bu məsələdən xəbərdar edir.

[2154] Nümunə, c.23, səh.468
[2155] Nümunə, c.23, səh.479

Yəhudilərin xəyanətlərindən biri də bu idi ki, bir gün bir neçə nəfər səhabəsi ilə birlikdə Mədinə yaxınlığında yaşayan Bəni-Nəzir qəbiləsinin yanına yardım və ya borc istəməyə gedir. Ola bilsin ki, Peyğəmbər (s) və səhabələri bu vasitə ilə onların vəziyyətini yaxından öyrənmək və müsəlmanların üzərinə qəfildən hücum etməyəcəklərindən əmin olmaq istəyirdilər. Yəhudilərin qalasından kənarda qalan Peyğəmbər (s) Kəb ibn Əşrəflə danışıq aparır. Bu vaxt yəhudilər arasına hiylə toxumu səpilir və belə qərara gəlirlər ki, bir nəfər damın üstünə çıxıb Peyğəmbərin (s) başına böyük bir daş tullasın, bununla da onların canını bu kişinin əlindən xilas etsin. Yəhudilərdən biri bu vəzifəni öz üzərinə götürür və damın üstünə çıxır. Allah rəsulu (s) vəhy vasitəsilə bu sui-qəsddən xəbərdar olur, səhabələrinə heç bir söz demədən söhbəti yarımçıq qoyub Mədinəyə qayıdır. Səhabələr elə güman edirlər ki, Peyğəmbər (s) geri qayıdacaq, ancaq sonradan Peyğəmbərin (s) Mədinədə olduğunu öyrənib onlar da Mədinəyə dönürlər. Yəhudilərin əhd sındıran olduqları Peyğəmbərə (s) tam sübuta yetir, buna görə də müsəlmanlara müharibəyə hazır olmağı əmr edir.

Deyilənə görə Bəni-Nəzir şairlərindən birinin Peyğəmbər (s) haqqında layiq olmayan sözlər işlətməsi yəhudilərin müqaviləni pozma səbəblərindən hesab edilir. Peyğəmbər (s) onlara öncədən tutarlı zərbə endirmək üçün Kəb ibn Əşrəflə tanışlığı olan Məhəmməd ibn Müsliməyə göstəriş verir ki, nəyin bahasına olursa-olsun Kəbi qətlə yetirsin. O da bu əmri yerinə yetirir. Kəb ibn Əşrəfin ölümü yəhudiləri zəiflədir. Bunun ardınca Peyğəmbər (s) müsəlmanlara bu əhdpozan tayfa ilə müharibə etmək əmri verir. Yəhudilər müsəlmanların hərəkətə keçdiyini eşidib qalalarına çəkilir və qapılarını möhkəm bağlayırlar. Peyğəmbər (s) qalanın yaxınlığında olan xurma ağaclarını çıxarmağı və ya yandırmağı əmr edir. Ancaq yəhudilər Peyğəmbərə (s) “Ey Muhəmməd! Özün həmişə bu cür hərəkətləri qadağan

edirdin!” – deyə etiraz edirlər. Bu surənin beşinci ayəsi nazil olur və bunun Allahın xüsusi əmri olduğu bəyan edilir. Mühasirə bir neçə gün davam edir, Peyğəmbər (s) onlara Mədinəni tərk etməyi göstəriş verir. Onlar da təklifi qəbul edib mal-dövlətlərindən bir qədərini götürüb oranı tərk edirlər, qalan mülkləri müsəlmanların əlinə keçir.[2156]

4. Bu onların Allah və Onun elçisi ilə düşmənçilik etmələrinə görədir. Kim Allahla düşmənçilik etsə, (bilsin ki,) Allah şiddətli cəza verəndir.

5. Hər hansı qiymətli xurma ağacını kəsməyiniz, yaxud hansınasa toxunmamağınız Allahın əmri ilədir. Bu, fasiqləri xar və rüsvay etməsi üçün idi.

6. Allahın öz elçisinə onlardan (yəhudilərdən alıb) qaytardıqlarına doğru siz nə at, nə də dəvə sürdünüz. Lakin Allah öz elçilərini istədiyi şəxslər üzərində hakim edir. Allah hər şeyə qadirdir.

7. Allahın öz peyğəmbərinə bu kəndlərin əhalisindən qaytardıqları Allaha, Peyğəmbərə, onun qohum-əqrəbasına, yetimlərə, yoxsullara və yolda qalmış müsafirlərə məxsus edilmişdir ki, aranızdakı varlılar arasında əldən-ələ dolaşmasın. Peyğəmbər sizə nəyi gətiribsə, onu götürün, nəyi də qadağan edibsə, ondan çəkinin. Allahdan qorxun ki, Allahın cəzası şiddətlidir.

[2156] Nümunə, c.23, səh.484

8. Bu mallar evlərindən, yurdlarından qovulmuş və mallarından məhrum olunmuş Allahın mərhəmətini və razılığını qazanmağa can atan, Allaha və Onun elçisinə kömək edən yoxsul mühacirlərə məxsusdur. Doğru olanlar da məhz onlardır.

9. (Bu mallar habelə) burada (Mədinədə) və iman diyarında mühacirlərdən əvvəl yurd salmış, onlara doğru hicrət edənləri sevən, mühacirlərə verilənlərə ehtiyac hissi duymayan, hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutanlara məxsusdur. Nəfsinin hərisliyindən, xəsisliyindən qorunanlar nicat tapanlardır.

---

7. Döyüşsüz əldə edilən qənimətlər: Bu ayələrdə Bəni-Nəzir tayfasından əldə edilmiş qənimətlər, eyni zamanda heç bir zəhmət və əziyyət çəkilmədən İslam cəmiyyətinə aid olan, İslam fiqhində "Fi"adlanan qənimətlərə şamil olan ümumi bir qanun təqdim edilir. Əvvəlki ayədə bütün qənimətlərin Allah rəsuluna aid edilməsi əslində, o demək deyil ki, Peyğəmbər (s) onları şəxsən özünə xərcləməlidir. Sadəcə, Peyğəmbər (s) İslam hökumətinin rəhbəri, ehtiyaclıların hüquqlarının müdafiəçisi və qoruyucusu vəzifəsi daşıdığı üçün həmin qənimətlərin əsas hissəsini onlara xərcləyir. Nəzər nöqtəsi olan ayədə "Fi" qənimətlərinin istifadəsi üçün nəzərdə tutulmuş altı yerin adı çəkilir: 1. Allahın səhmi. Məlumdur ki, Allah hər bir şeyin malikidir və heç nəyə ehtiyacı yoxdur. Bu, əslində, bir növ formal xarakter daşıyır. Allah-taala burada ona görə öz adını qeyd edib ki, digər payı olan qruplar bunu özlərinə təhqir hesab etməsinlər, öz səhmlərinin Allahın səhmi ilə eyni sırada qərarlaşdığını düşünərək cəmiyyət içində bunun onların şəxsiyyətinə zərrə qədər də xələl gətirmədiyini anlasınlar. 2. Peyğəmbərin (s) payı. Bu pay vasitəsilə Peyğəmbər (s) öz şəxsi ehtiyaclarını, vəzifə təminatlarını, müsəlmanların gözləntilərini təmin edir.

3. Müsəlmanların ümumi mallarından hesab edilən zəkatdan məhrum edilmiş Peyğəmbərin (s) qohumları – Haşim övladlarından olan qohumlarının payı. 4. Yetimlərin payı. 5. Yoxsulların payı. 6. Yolda qalan müsafirlərin payı. Bir məsələni də xüsusilə qeyd etməliyik ki, bu hüquq Peyğəmbərdən (s) sonra imamlara, onlardan sonra bütün şərtləri özündə ehtiva edən müctəhidlərə keçmişdir. Çünki İslam hökmlərinin icrası əsla dayandırılmamalıdır. İslam hökumətinin əsas sütunlarından biri İslam iqtisadiyyatıdır. İslam iqtisadiyyitının tərkib hissəsinə daxil olan məsələlərdən biri də məhz bu məsələdir.[2157]

8. Başqalarını özündən üstün tutmaq: Bir nəfər Peyğəmbərin (s) yanına gəlib ac olduğunu deyir. Peyğəmbər (s) evindən ona yemək gətirilməsini göstəriş verir. Ancaq Peyğəmbərin (s) evində yemək olmur. Peyğəmbər (s) "Kim bu gecə bu kişini evində qonaq edər?" soruşur. Bir nəfər hazır olduğunu deyib həmin adamı evinə qonaq aparır. Ancaq həmin adamın evində yalnız uşaqlarına çatacaq qədər az miqdarda yemək olur. Həmin kişi bu yeməyin qonağa verilməsini göstəriş verir. Həyat yoldaşına çırağı söndürməsini, necə olursa-olsun uşaqları yatırtmasını söyləyir. Sonra kişi və qadın süfrəyə əyləşib yeməkdən yemədən ağızlarını tərpədirlər. Qonaq onların da yemək yediklərini güman edib yetərincə yeyib doyur, ev sahibləri isə ac yatırlar. Səhər Peyğəmbərin (s) yanına gəldiklərində Peyğəmbər (s) onlara baxıb təbəssüm edir, bu ayəni oxuyub onların fədakarlığını təqdir edir. Əhli-beyt hədislərində qeyd edilir ki, həmin ev sahibi Əli (ə) uşaqlar onun uşaqları, uşaqları ac yatırdan isə xanım Fatimeyi-Zəhra (ə) olmuşdur.[2158]

[2157] Nümunə, c.23, səh.501
[2158] Məcməül-bəyan, c.9, səh.430

9. Xilas nəfsi xəsislik və hərislikdən saxlamaqdadır: "Şühhə" adət halı almış hərisliklə müşayiət edilən xəsisliyə deyilir. İmam Sadiq (ə) səhabələrindən birinə belə buyurmuşdur: ***"Bilirsən şühhə nədir?"*** O isə "xəsislikdir", - deyə cavab verir. İmam (ə) buyurur: ***"Şühhə xəsislikdən daha şiddətlidir. Xəsis əlində olana xəsislik edir. Ancaq şəhih həm camaatın əlində olana, həm də öz əlində olana xəsislik edir. Camaatın əlində olanı halal və ya haram yolla əldə etməyi arzu edir, Allahın verdiyi ruziyə qane olmur."*** Başqa bir hədisdə belə deyilir: ***"Allah yolunun tozu ilə Cəhənnəmin tüstüsü bir insanın daxilində bir araya gələ bilmədiyi kimi, şühhə və iman bir qəlbə sığışmaz."*** Xülasə, xəsislik və hərisliyi tərk etmək insanı xilasa nail edir. Ancaq bu xüsusiyyətə aludə olmaq xoşbəxtlik evini viran qoyur.[2159]

[2159] Nümunə, c.23, səh.520

10. Onlardan (mühacir və ənsardan) sonra gələnlər deyirlər: “Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Qəlbimizdə iman gətirənlərə qarşı kin-küdurətə və həsədə yer vermə. Ey Rəbbimiz!, Sən şəfqətlisən, rəhmlisən!”

11. Münafiqlərin Kitab əhlindən kafir olan qardaşlarına: “Əgər sizi vətəninizdən qovsalar, biz də sizinlə birlikdə çıxıb gedəcək və heç kəsin sizin haqqınızda olan sözlərinə tabe olmayacağıq. Əgər sizinlə döyüşsələr, sizə kömək edəcəyik!” – dediklərini görmədinmi? Allah onların yalançı olduğuna şahiddir.

12. Əgər onları (yurdlarından) qovsalar, (münafiqlər) onlarla birlikdə çıxıb getməyəcəklər, (müsəlmanlar) onlara qarşı vuruşsalar, onlara köməklik göstərməyəcəklər. Əgər yardım göstərsələr belə, geri dönüb qaçar, sonra da onlara heç bir kömək edilməz.

13. Onlar ürəklərində Allahdan çox sizdən qorxurlar. Çünki onlar nadan insanlardır.

14. Onlar qrup halında sizə qarşı ancaq möhkəm qalalarda və ya divar arxasından vuruşarlar. Bir-birlərinə qarşı döyüşləri çox kəskindir. (Sizə qarşı isə çox zəifdirlər). Sən onların həmrəy olduğunu güman edirsən, halbuki onların qəlbləri dağınıqdır. Bu ona görədir ki, onlar düşünməyən insanlardır.

15. Onlar özlərindən bir az əvvəl əməllərinin acısını dadmış, özləri üçün də ağrılı-acılı bir əzab hazırlanmış kimsələrə bənzəyirlər.

16. Onların (münafiqlərin) əməli insana: “Kafir ol! (Sənin problemlərini həll edərəm)” – deyən, kafir olan kimi: “Mən səndən uzağam. Mən aləmlərin Rəbbi olan Allahdan qorxuram!” – deyən şeytanın əməlinə bənzəyir.

11-14. Yəhudi hiylələrində münafiqlərin rolu: Bəzi təfsirçilərin bu ayələrin nazil olma səbəbi ilə bağlı qeyd etdiklərinin xülasəsi belədir: Bir qrup münafiq, o cümlədən Abdullah ibn Übəyy bir nəfər vasitəsilə gizlicə Bəni-Nəzir yəhudilərinə belə bir xəbər göndərirlər: “Öz yerlərinizdə möhkəm dayanın, evlərinizdən çıxmayın, qalalarınızı möhkəmləndirin. Bizim özümüz və digər tayfalardan ibarət iki min nəfərlik silahdaşımız var. Son nəfəsimizə qədər sizinləyik. Bəni Qüreyzə və sizin Qətfan qəbiləsindən olan digər əməkdaşlarınız sizinlə birdir.” Bu xəbər Bəni-Nəzir tayfasını Peyğəmbərlə (s) düşmənçilik etməyə qıcıqlandırır. Ancaq Bəni-Nəzir tayfasının böyüklərindən olan Salam tayfanın proqramlarına rəhbərlik edən Həyy ibn Əxtəbin sözlərinə inanmamağı tövsiyə edir və bildirir ki, o, yəhudiləri Muhəmədlə (s) döyüşə qıcıqlandırıb özləri evlərində oturacaq və yəhudiləri çətin vəziyyətdə qoyacaqlar. Həyy ibn Əxtəb deyir: Bizim bildiyimiz bir şey var - Muhəmmədlə düşmənçilik və ona qarşı döyüşmək. Salam isə deyir: And olsun Allaha! Mən onların bizi bu torpaqlardan çıxaracaqlarını, malımızın, mülkümüzün və şərəfimizin küləyə sovrulacağını, uşaqlarımızın əsir götürüldüyünü döyüşçülərimizin qətlə yetiriləcəyini görürəm.” Nəzər nöqtəsi olan bu ayələrdə həmin hadisənin aqibətinin necə olmasından danışılır.[2160]

[2160] Nümunə, c.23, səh.526

16. Şeytanın çürümüş kəndiri ilə quyuya sallanmayın: Ayədə “insan” deyilərkən kimin nəzərdə tutulması ilə bağlı müxtəlif fikirlər söylənmişdir. Bəziləri hesab edir ki, burada şeytanın təsiri altına düşən, onun yalan vədlərinə aldanan, küfür yolunu tutan, sonda şeytanın tək qoyduğu, nifrət etdiyi bütün insanlar nəzərdə tutulur. Bəzilərinə görə burada Bədr döyüşündə şeytanın yalan vədlərinə aldanan, sonda, məğlubiyyətin acısını dadan Əbu Cəhl və onun ardıcılları kimi xüsusi insanlar nəzərdə tutulmuşdur (Bax: Ənfal-48). Bəzi təfsirçilər və hədis biliciləri bu ayələri təfsir edərkən İsrail oğullarından olan Bərsisa adlı bir abidin əhvalatını qeyd etmişlər. Həmin əhvalat hər kəsə böyük bir ibrət dərsidir. Bu dərs insanlara şeytan və münafiqlərin çürük ipi ilə quyuya sallanmamağı, sallanıb məhv olmamağı öyrədir. Həmin əhvalatın xülasəsi belədir: İsrail oğulları arasında uzun zaman ibadət etmiş, yanına aparılmış ruhi xəstələri etdiyi dualarla sağaldacaq qədər Allaha yaxın olmuş Bərsisa adlı bir abid yaşayırmış. Bir gün qardaşları hörmətli ailədən olan gənc bir xanımı onun yanına gətirirlər. Şəfa tapması üçün xanımın bir müddət orada qalması tövsiyə edilir. Şeytan bundan sonra vəsəvəsələrə başlayır. O qədər səy göstərir ki, axırda abid günah iş görür. Çox çəkmir ki, həmin xanımın hamilə olduğu ortaya çıxır. Bir günah daha böyük günahların mənbəyi olduğu üçün abid həmin xanımı öldürüb bir yerdə basdırır. Qardaşlar abidin belə bir dəhşətli cinayət törətdiyindən xəbər tuturlar. Xəbər bütün şəhərə yayılır və sonra şəhərin əmirinin də qulağına çatır. O, bir dəstə götürüb abidin yanına yollanır və cinayətin baş verməsi sübuta yetdiyi üçün onu ibadət etdiyi ocaqdan çıxarırlar. Abid cinayətini etiraf etdikdən sonra əmir onun dar ağacından asılmasını əmr edir. Abid dar ağacının altına gətirildikdən sonra şeytan onun gözünə görünüb deyir: Səni bu hala salan mən olmuşam. Əgər dediklərimi etsən səni xilas edərəm. Abid “Nə etməliyəm”, - deyə soruşduqda şeytan

deyir: “Mənə bir səcdə kifayətdir”. Abid gözucu, ya da əli ilə şeytana səcdə etdiyini göstərir və beləcə can verən anda dünyadan kafir olaraq köçür.

Şeytan və onun yolunu gedən münafiqlərin vəsvəsələrinə uyanların aqibəti budur.[2161]

17. Onların hər ikisinin aqibəti Cəhənnəm odu içində əbədi qalmaqdır. Zalımların cəzası budur.

[2161] Nümunə, c.23, səh.537-544

18. Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs sabahı üçün öncədən nə göndərdiyinə baxsın. Allahdan qorxun! Allah nə etdiklərinizdən xəbərdardır.

19. Allahı unudan, buna görə də Allahın onları özlərinə unutdurduğu kəslər kimi olmayın! Onlar fasiqlərdir.

20. Cəhənnəm əhli ilə Cənnət əhli eyni deyillər. Cənnət əhli uğur qazananlar və xilas olanlardır.

21. Əgər Biz bu Quranı dağa nazil etsəydik, sən onun Allahın qorxusundan boyun əyib parça-parça olduğunu görərdin. Biz bu misalları insanlar üçün çəkirik ki, bəlkə, fikirləşələr.

22. O, özündən başqa heç bir məbud olmayan, qeybi və aşkarı bilən Allahdır. O rəhman, rəhimdir.

23. O, özündən başqa heç bir məbud olmayan, hökmran, həqiqi malik, hər bir eyib və nöqsandan uzaq, pak, heç kəsə zülm etməyən, əmin-amanlıq bəxş edən, hər şeyi nəzarətdə saxlayan, öz iradəsi ilə hər bir işi islah edən məğlubedilməz qüdrət və əzəmət sahibi. Allah onların Ona şərik qoşduqlarından ucadır.

24. O, xaliq, yoxdan yaradan, surətverən Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə tərifl ər deyir. O, qüdrətlidir, müdrikdir.

---

18. Öncədən göndərilməli olan: İnsan Qiyamət gününün sabahı üçün öncədən hansı ehtiyatı göndərdiyinə fikir verməlidir. Qiyamət səhnəsində insanın əsl sərmayəsi öncədən göndərdiyi ehtiyatdır. Çünki insan öldükdən sonra kimsə onun dərdini çəkmir. Hədislərinin birində Allah rəsulu (s) belə buyurmuşdur: ***"Allah yolunda xərcləyin, hətta bir mən (3 kq) xurma miqdarında, ya ondan az, bir ovuc, ya ondan az, bir xurma dənəsi qədər,***

ya bir xurma dənəsinin yarısı qədər olsa belə. Əgər bir adam onu da tapmasa, pak sözlərlə qəlbləri sevindirsin. Çünki Qiyamətdə Allah dərgahında durduğunuz zaman Allah sizə buyuracaq: Sənin üçün filan-filan şeyləri etmədimmi? Sənə qulaq və göz vermədimmi? Sənə mal və övlad vermədimmi? Bəndə deyəcək: Bəli. Allah-taala buyuracaq: Elə isə bax gör özünə nə göndərmisən? O da önünə, arxasına, sağına və soluna baxar, üzünü oddan qorumaq üçün qarşısına tutmağa heç nə tapmaz."[2162]

Ayədə diqqət çəkən məqamlardan biri iki dəfə təqvalı olmağa çağırış edilməsidir. Bəzi təfsirçilər bu təkrarın səbəbini belə izah etmişlər: Birinci təqva günahlardan çəkinməyə, vacibləri yerinə yetirməyə işarədir, ikinci təqva, əməllərdə ixlaslı və səmimi olmağa, riyadan qorunmağa işarədir. Deməli, insan günahlardan çəkinməli, axirəti üçün nə göndərdiyinə diqqət yetirməlidir. Ancaq həm də ona diqqət yetirməlidir ki, göndərdiyi yalnız Allah üçün olmalı, riyakarlıqdan uzaq olmalıdır.[2163]

21. Əgər Quran dağlara nazil olsaydı, parça-parça olardı: Təfsirçilərin çoxu bu ayənin bir bənzətmə olduğunu qəbul edərək belə qeyd etmişlər: Əslində, burada Allah demək istəyir ki, bütün möhkəmliklərinə və sarsılmazlıqlarına baxmayaraq, əgər dağların ağıl və hissləri olsaydı, bu ayələr də insana yox, onlara nazil olsaydı, tir-tir əsib parça-parça olardılar. Ancaq bir qrup insanın qəlbi o qədər daşlaşıb ki, heç bir dəyişikliyə məruz qalmır.

Bəzi təfsirçilər ayəni həqiqi mənada götürərək belə qeyd etmişlər: Bu dünyada olan bütün varlıqların, o cümlədən dağların özlərinə xas olan idrakı, şüuru vardır. Əgər bu ayələr onlara nazil olsaydı, həqiqətən parça-parça olardılar (Bax: Bəqərə-74). Hər halda Quranın qəlblərə və düşüncələrə təsiri

---

[2162] Nümunə, c.23, səh.545
[2163] Əl-Mizan, c.19, səh.226

inkaredilməz bir həqiqətdir, İslam tarixində bu mənanı təsdiq edən faktlar çoxdur. Ən möhkəm qəlblər belə, yumşalaraq İslama təslim olmuşlar. Təkcə inadkar, varlıqlarında haqq yolunu tapmaq üçün heç bir yer olmayan insanlar bu qanundan istisnadır.[2164]

22-24. Son ayələrin böyüklüyü: Surənin son ayələrində Allahın mühüm ad və atributlarından bəhs edir. Ayələr çox əzəmətli, ilhamverici və tərbiyəvi əhəmiyyətlidir. Allah rəsulu (s) belə buyurmuşdur: ***"Hər kim "Əgər Biz bu Quranı dağa nazil etsəydik..." ayəsindən surənin sonuna qədər oxusa və həmin gecə ölsə, şəhid olaraq ölmüşdür."*** Səhabələrdən bir Peyğəmbərdən (s) Allahın əzəmətli adlarının hansılar olduğunu soruşduqda o, belə cavab vermişdir: ***"Həşr" surəsinin son hissəsini oxu, çox oxu"***. Səhabə yenə də sualını təkrar etdikdə, Peyğəmbər (s) də cavabını təkrar etmişdir. Hədislərin birində belə deyilir: ***"Bu ayələr ölümdən başqa bütün dərdlərin dərmanıdır."***[2165] Əlbəttə, burada qeyd edilən mükafatlar qeyd olunan ayələri diqqətlə və düşünərək oxuyan insanlara aiddir.

[2164] Nümunə, c.23, səh.545
[2165] Nümunə, c.23 ,səh.558

"Mumtəhinə" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ey iman gətirənlər! Mənim düşmənimi də, öz düşmənizi də özünüzə dost tutmayın! Onlar Haqq tərəfindən sizə gələni inkar etdikləri halda, siz onlara mehribanlıq göstərirsiniz. Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi şəhərinizidən, yurdunuzdan qovub çıxardırlar. Əgər siz Mənim yolumda və Mənim razılığımı qazanmaq üçün hicrət etmisinizsə, (onlarla dostluq etməyin.) Onlarla gizlində dostluq edirsiniz. Halbuki Mən sizin gizli saxladığınızı da, aşkar etdiyinizi də hər kəsdən yaxşı bilirəm. Sizlərdən bu işi kim tutsa, doğru yoldan sapmış olar.

2. Əgər onlar sizi ələ keçirsələr, sizə düşmən kəsilər, əlləri və dilləri ilə sizə pislik edər və sizin küfrə dönməyinizi istəyərlər.

3. Qohumlarınız və övladlarınız sizə Qiyamət günü heç bir fayda verməyəcək, aranıza ayrılıq salacaq. Allah nə etdiklərinizi görür.

4. İbrahim və onunla birlikdə olanların həyatında sizin üçün gözəl bir örnək vardır. Onlar öz qövmlərinə dedilər: "Biz sizdən və sizin Allahdan başqa tapındığınız şeylərdən uzağıq. Biz sizdən imtina edirik. Siz bir olan Allaha iman gətirincəyə qədər bizimlə sizin aranızda daim ədavət və nifrət olacaqdır!" Yalnız İbrahimin öz atasına (əmisi Azərə): "Mən sənin üçün bağışlanma diləyəcəyəm. Fəqət Allaha qarşı sənin üçün heç bir ixtiyar sahibi deyiləm!" – deməsi istisnadır. (Onlar dedilər): "Ey Rəbbimiz! Biz Sənə təvəkkül etdik və Sənə doğru qayıtdıq. Bütün sonlar sənə doğrudur.

5. Ey Rəbbimiz! Bizi kafirlərin azmasına vasitə etmə. Ey Rəbbimiz, bizi bağışla. Sən qüdrətlisən, müdriksən!"

"Mumtəhinə" surəsinin ümumi məzmunu: Bu surəni məzmun etibarı ilə iki hissəyə bölmək olar: 1. Allaha görə dostluq və düşmənçilik, müşriklərlə dostluğun qadağan edilməsi. 2. Hicrət etmiş qadınlar, onların yoxlanılması və bu mövzuya aid hökmlər.[2166]

1-3. Allahın və özünüzün düşmənləri ilə dostluq etməyin: Bu ayələrin nazilolma səbəbi: Htib ibn Əbu Bəltəə adlı bir nəfər İslamı qəbul etdikdən sonra Mədinəyə hicrət edir, ancaq ailəsi Məkkədə qalır. Həmin ərəfədə Peyğəmbərin (s) hücum edəcəyindən ehtiyatlanan qüreyşlilər Hatibin arvadının yanına gedib ondan ərinə məktub yazmasını, Muhəmmədin Məkkəyə hücum edib-etməməsini öyrənməsini istəyirlər. Məktub yazıb Hatibə göndərir və bu haqda maraqlanırlar. Hatib onlara Peyğəmbərin (s)

[2166] Nümunə, c.24, səh.5

belə bir fikirdə olduğunu yazıb məktubu Səfiyyə adlı bir qadına verir. Qadın məktubu saçlarının arasında gizlədib yola düşür. Cəbrayıl nazil olub Peyğəmbəri (s) bu hadisədən xəbərdar edir. Peyğəmbər (s) Əli (ə) və Zübeyr ibn Əvamı həmin qadının arxasınca göndərir. Onlar həmin qadına çatdıqda İmam Əli (ə) məktubun yerini soruşur. Qadın deyir: Məndə heç nə yoxdur. Məktub haqqında onu sorğu-suala çəksələr də, heç bir şey hasil olmur. Zübeyr deyir: Onda heç nə yoxdur. İmam Əli (ə) buyurur: "And olsun Allaha, Peyğəmbər (s) yalan deməyib, Cəbrayılın adından heç nə uydurmayıb, Cəbrayıl da Allahın adından yalan danışmayıb. And olsun Allaha, ya məktubun yerini söyləyirsən, ya da başını Peyğəmbərə (s) aparıram". Qadın deyir: "Məndən aralanın ki, onu çıxarım". Məktubu saçlarının arasından çıxarır. İmam Əli (ə) məktubu alıb Peyğəmbərə (s) aparır. Peyğəmbər (s) buyurur: "Ey Hatib, bu nədir?" Hatib: "Ey Allahın rəsulu! And olsun Allaha, mən ikiüzlülük etmədim, dini və əhd-peymanımı dəyişmədim. Mən Allahdan başqa bir tanrı olmadığına və sənin peyğəmbərliyinə şahidlik edirəm. Ancaq ailəm mənə qüreyşlilərin onlarla yaxşı davrandıqlarını yazdı. Mən də onların bu davranışlarına qarşılıq olaraq onlara hədiyyə etmək istədim".

Allah-taala bu münasibətlə nəzər nöqtəsi olan ayələri nazil etmişdir.[2167]

4. İbrahim hamınız üçün bir örnəkdir: Allah Quranın bir çox yerində öz təlimatlarını təkmilləşdirməkdən ötrü insanlıq tarixində mövcud olmuş böyük örnəklərdən sitatlar gətirir. "Mumtəhinə" surəsində də Allahın düşmənləri ilə dostluq edilməsi kəskin şəkildə qadağan edildikdən sonra bütün xalqlar, xüsusilə ərəblər üçün örnək hesab edilən İbrahim (ə) və onun

[2167] Əl-Mizan, c.19, səh.244

proqramından söz açılmışdır. O, bütün həyatı başdan-başa Allaha bəndəlik, Allah yolunda cihad və ona qarşı sevgi dərsi olan böyük bir peyğəmbərdir. “Onunla birlikdə olanlar” deyilərkən onun ətrafında olan azsaylı yoldaşları nəzərdə tutulur. Tarixi mənbələrin də yazdığına görə İbarhimin (ə) Babildəki möcüzələrini gördükdən sonra bir qrup insan ona iman gətirmiş, Şama hicrət edərkən onu müşayiət etmişdir. Bu isə onun vəfalı dostlarının olduğundan xəbər verir.[2168] Böyük örnəklər həyatları boyu insanların tərbiyə olunmasında mühüm rol oynamışlar. Buna görə də peyğəmbərlər və məsum imamlar həqiqət yolunun ən mühüm qollarını insanlara öz əməlləri ilə göstərmişlər. Sünnə məsumların sözü, əməli və təsdiqindən ibarətdir. Yəni məsum öndərlərin sözləri, əməlləri və sükutları istiqamətləndiricidir. Buna görə də həyatın bütün sahələrində örnək ola bilmələri üçün peyğəmbərlər və imamların hamısının məsum olması şərtdir. İmam Sadiqin (ə) hədisində də qeyd edildiyi kimi, insanların dillə deyil, əməl vasitəsilə dəvət edilməsi şüarı da bu cəhəti təsdiq edir. Bütün həqiqi müsəlmanlar öz növbələrində başlarına örnək olmalı, öz əməlləri ilə İslamı bütün dünyaya tanıtdırmalıdırlar. Əgər belə olsaydı, İslam bütün dünyaya hakim olardı.[2169]

[2168] Nümunə, c.24, səh.17
[2169] Nümunə, c.24, səh.24

6. Onların həyatında sizin üçün – Allaha və Axirət gününə ümid bəsləyənlər üçün gözəl nümunə vardır. Kim üz döndərsə (özünə ziyan vurub, çünki) Allah ehtiyacsızdır, tərifəlayiqdir.

7. Ümid var ki, Allah sizinlə ədavət bəslədiyiniz (müşrik) kimsələr arasında (İslam vasitəsilə) dostluq yaratsın. Allah qadirdir. Allah bağışlayandır, rəhmlidir.

8. Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla ədalətlə davranmanızı sizə qadağan etmir. Allah ədalətli olanları sevir.

9. Allah sizə ancaq sizinlə din uğrunda vuruşan, sizi evlərinizdən qovub çıxardan və çıxarılmanıza kömək edən kimsələrlə dostluq etmənizi qadağan edir. Onlarla dostluq edənlər zalımlardır.

10. Ey iman gətirənlər! Mömin qadınlar hicrət edib sizin yanınıza gəldikləri zaman onları sınaqdan keçirin. Allah onların imanına daha yaxşı bələddir. Əgər mömin olduqlarını görsəniz, onları kafirlərə qaytarmayın. Nə bunlar kafirlərə halaldır, nə də kafirlər bunlara halaldırlar. Həyat yoldaşlarının (evlənərkən mehr olaraq) bunlara xərclədiklərini özlərinə qaytarın. Həmin qadınların mehrlərini onların özlərinə verdiyiniz təqdirdə onlarla evlənməyinizdə sizə heç bir günah yoxdur. Kafir zövcələrinizi öz kəbninizdə saxlamayın, ödədiyiniz mehrləri də onlardan tələb etməyə haqqınız var. Onların da (ayrılmış zövcələrindən) ödədikləri mehri sizdən

tələb etməyə haqları var. Allahın hökmü budur. O sizin aranızda hökm verir. Allah biləndir, müdrikdir.

11. Əgər zövcələrinizdən hər hansı biri sizi qoyub kafirlərin yanına getsə və siz də döyüşdə kafirlərə qalib gəlsəniz, (ələ keçirdiyiniz qənimətdən) zövcələri çıxıb getmiş şəxslərə onların ödədikləri mehr qədər verin. İman gətirdiyiniz Allahdan qorxun!

---

7. Bir qrup müsəlmana sevgilərinin boş qalan yerini doldurmaq müjdəsi: Bu ayədə Allaha xatir sevgi və nifrət, müşriklərlə olan əlaqənin kəsilməsindən bəhs edən ayələrin mövzusu davam etdirilir. Qeyd olunan əlaqələrin kəsilməsi bir qrup müsəlmanda sevgi boşluğu yaradırdı. Ancaq buna baxmayaraq, həqiqi möminlər və Allah rəsulunun dostları bu yolda qətiyyət nümayiş etdirirdilər. Allah-taala onları mükafatlandırmaq və çatışmazlıqlarını aradan qaldırmaqdan ötrü onlara müjdə verir, qəm yeməmələrini, vəziyyətin heç də belə davam etməyəcəyini xəbər verir. Bu müjdə nəhayət, reallaşır. Hicrətin səkkizinci ili yetişir, Məkkə fəth edilir, Məkkə əhalisi dəstə-dəstə İslamı qəbul edir, qara düşmənçilik buludları onların həyat səmasından çəkilir, iman günəşi dostluq və sevgi istisi ilə şəfəq saçır.[2170]

8-9. Döyüşməyən kafirlərlə yaxşı münasibət: Bu ayələrə əsasən qeyri-müsəlmanlar iki qrupa bölünür: 1. İslam və müsəlmanlara qarşı olan ədavət və düşmənçiliklərini söz və əməlləri ilə büruzə verən qrup. Müsəlmanlar onlarla istənilən formada dostluq və əlaqə qurmaqdan çəkinməlidirlər. 2. Kafir və müşrik olduqları halda, müsəlmanlarla işləri olmayan qrup. Hətta

---

[2170] Nümunə, c.24, səh.29

onlardan elələri də var idi ki, müsəlmanlarla düşmənçilik etməmək haqqında saziş bağlamışdılar. Bu qrupa yaxşılıq etməyin, onlara qarşı xoş münasibət bəsləməyin heç bir maneçiliyi yox idi, onlarla hər hansı müqavilə bağlandıqda ona əməl etmək və ədalətli olmaq vacib idi. Bu ayələrdən müsəlmanların kafirlərlə davranış formasını ehtiva edən ümumi bir qanun əldə edilir. O da bundan ibarətdir ki, müsəlmanlar düşmən mövqeyində olan istənilən qruplar, cəmiyyət və ölkələr qarşısında sərt mövqe sərgiləməli, bütün dostluq əlaqələrini kəsməlidirlər. Ancaq müsəlmanlar, kafir olduqları halda, İslama və müsəlmanlara qarşı bitərəf mövqedə dayanan və ya müsəlmanlara meylli olan qruplarla dostluq əlaqəsi yarada bilərlər. Ancaq yenə də bu əlaqələr müsəlman qardaşlarla olan əlaqə səviyyəsində, onların müsəlmanlara nüfuz edəcəyi həddə olmamalıdır.[2171]

10-11. Müsəlman və kafirlərin ziyanlarının aradan qaldırılması: Bu ayələrin nazilolma səbəbi haqqında belə qeyd etmişlər: Peyğəmbər Hüdeybiyyədə Məkkə müşrikləri ilə bir müqavilə imzalayır. Müqavilənin şərtlərindən biri belə idi ki, Məkkə əhalisindən müsəlmanlara kim qoşulsa, müsəlmanlar onu geri qaytarsınlar. Ancaq müsəlmanlardan kimsə İslamı tərk edib Məkkə müşriklərinə qoşulsa, onu geri qaytarmaya bilərlər. Bu vaxt Səbiə adlı bir xanım İslamı qəbul edir və elə Hüdeybiyyədə müsəlmanlara qoşulur. Həmin qadının həyat yoldaşı Peyğəmbərin (s) yanına gəlib deyir: Ey Muhəmməd, həyat yoldaşımı geri qaytar. Çünki müqavilənin şərtlərindən biridir, hələ ki, müqavilənin mürəkkəbi qurumayıb. Bu surənin 10-cu ayəsi nazil olur və mühacir qadınların imtahan edilməsi göstərişi verilir. İbn Abbasa istinad edilən bir məlumatda deyilir: İmtahanları da bundan ibarət idi ki, onlar and içib hicrətlərinin həyat yoldaşına qarşı kin-küdurət, yeni

[2171] Nümunə, c.24, səh.31

əraziləri görmək marağından və ya digər dünyəvi məqsədlərdən ötrü olmadığını deməli idilər. Həmin qadın da and içib həmin sözləri deyir. Bu zaman Peyğəmbər (s) həmin qadının mehrini onun ərinə ödəyir, ehtimal edilən xərci ödəyib buyurur: Bu müqavilədəki maddə təkcə kişilərə aiddir, qadınlara yox. Bununla da həmin müsəlman qadının kafir diyarına göndərilməsinin qarşısını alır. Bu ayəyə əsasən bu cür şəraitlərdə İslam hökuməti kafir ərin müsəlman həyat yoldaşına ödədiyi mehrin əvəzi Beytül-maldan qaytarmağa borcludur. Eyni zamanda müsəlman həyat yoldaşını tərk edib kafir olaraq küfr diyarına gedən qadının mehri də kafirlərdən tələb edilməlidir. 11-ci ayədə buyurulur ki, əgər kafirlər bu işdən boyun qaçırsalar, həyat yoldaşları kafir olub kafirlərin yanına qaçmış kişilərin hüquqlarının pozulmaması üçün əldə eidlən qənimətlərdən öncə həmin kişilərin haqqı ödənsin, artıq bundan sonra bölgü aparılsın. İslamın nə malın, nə də canın heç bir qiyməti olmadığı bir mühitdə insanların hüquqlarının qorunmasına, hətta təkcə dostlar deyil, düşmənlərin də haqlarının qaytarılmasına bu qədər səy göstərilməsi kimi hökmləri Peyğəmbərin (s) dəvətinin haqq olduğunu göstərən əlamətlərdəndir.[2172]

[2172] Nümunə, c.24, səh.35

12. Ey Peyğəmbər! Mömin qadınlar Allaha heç bir şərik qoşmayacaqlarına, oğurluq və zina etməyəcəklərinə, uşaqlarını öldürməyəcəklərinə, qarşılarındakı ilə bağlı böhtan və iftira atmayacaqlarına (ərlərindən olmayan uşaqlarını onlara isnad etməyəcəklərinə) və heç bir yaxşı işdə sənə qarşı çıxmayacaqlarına dair sənə beyət etmək üçün yanına gəldikləri zaman onların beyətini qəbul et və Allahdan onlar üçün bağışlanma dilə. Allah bağışlayandır, rəhmlidir.

13. Ey iman gətirənlər! Allahın qəzəbinə gəlmiş adamlarla dostluq etməyin. Kafirlər qəbirdəkilərin (bir daha) diriləcəyinə inanmadıqları kimi axirət gününə də ümid etmirlər.

"Saff" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Göylərdə və yerdə olanların hamısı Allahın şəninə təriflər deyir. O, yenilməz qüdrət sahibidir, müdrikdir.

2. Ey iman gətirənlər! Nə üçün əməl etmədiyiniz şeyləri danışırsınız?

3. Əməl etmədiyiniz şeylərdən danışmağınız Allah dərgahında qəzəbə səbəb olur.

4. Allah, Onun yolunda dəmir bina kimi dayanıb döyüşənləri sevir.

5. Bir zaman Musa öz qövmünə demişdi: “Ey qövmüm! Mənim, Allahın sizə göndərdiyi elçisi olduğumu bildiyiniz halda, nə üçün məni incidirsiniz?!” Onlar doğru yoldan sapdıqda, Allah da onların qəlbini sapdırdı. Allah fasiqləri doğru yola yönəltməz.

---

12. Qadınların beyət şərtləri: Təfsirçilərin yazdıqlarına əsasən bu ayə Məkkə fəth edildiyi gün nazil olmuşdur. Peyğəmbər (s) səfa dağında olduğu

vaxt kişilərdən beyət alır. Məkkənin iman gətirmiş qadınları beyət etmək üçün gəldiklərində bu ayə nazil olur və onların beyət forması izah edilir. Peyğəmbər (s) içində su olan bir qab gətirilməsini göstəriş verir. Peyğəmbər (s) əlini qabın bir tərəfindən suya salır, qadınlar isə əllərini qabın digər tərəfindən suya salırlar. Bu ayə İslamdan xəbəri olmayan və ya İslamın insanların yarısına aid olduğunu, qadınlara heç bir dəyər tanımadığını, onlarla hesablaşmadığını iddia edən qərəzli insanlara cavab verməklə yanaşı, qadınlarla ən mühüm məsələlərdə hesablaşıldığını göstərir. Belə ki, bu beyətdə qadınlar kişilərlə çiyin-çiyinə iştirak etmiş, hətta kişilərlə müqayisədə daha çox şərt qəbul etmişlər. Bu şərtlər qadının insanlıq kimliyinə həyat vermiş, onu dəyərsiz mal və ya kişilərin ehtiraslarını söndürən vasitə olmaqdan xilas etmişdir.[2173]

"Saff" surəsinin ümumi məzmunu: Bu surə iki əsas prinsipi ehtiva edir: 1. İslam bütün səmavi dinlərdən üstündür. Allah onun əbədi yaşayacağına zəmanət vermişdir. 2. Bu dinin qorunması və inkişaf etdirilməsi yolunda cihad etmək zəruridir.[2174]

2-3. Nə üçün əməl etmədiyiniz sözləri danışırsınız? Təfsirçilər bu ayələrin nazilolma səbəbi ilə bağlı müxtəlif fikirlər təqdim etmişlər. Ancaq hamısının ümumi məzmunundan belə başa düşülür ki, bir qrup mömin cihad və döyüş meydanına getməklə bağlı hökm nazil olmazdan əvvəl deyirmiş ki, "Əgər belə bir hökm nazil olsa, onu canla-başla qəbul edəcək və cihad meydanından qaçmayacaqlar". Ancaq əməldən başqa bir söz deyirmişlər. Əlbəttə, bu ayə daha geniş məna daşıyır, istər cihad meydanındakı mətanət olsun, istərsə də başqa bir müsbət davranış olsun, bütün əməlsiz danışıqları tənqid edir. İnsan cəmiyyətlərinin başına gələ biləcək ən böyük

[2173] Nümunə, c.24, səh.44
[2174] Nümunə, c.24, səh.57

müsibətlərdən biri əminliyin olmamasıdır. Bunun isə ən başlıca səbəbi danışıqla əməlin üst-üstə düşməməsidir. Sözü deyib əməl etməyən insanlar əsla bir-birlərindən əmin ola və problemlər qarşısında bir ola bilməzlər. Onlar arasında qardaşlıq və səmimiyyət yaranmaz, onları heç bir dəyər bir-birinə bağlaya bilməz, heç bir düşmən onlarla hesablaşmaz. Şam orusunun soyğunçularının İraq sərhədlərini çapıb talaması ilə bağlı xəbər İmam Əliyə (s) çatdıqda çox narahat olur, İraq camaatına xütbə oxuyaraq belə buyurur: ***"Ey bədənləri bir, istəkləri müxtəlif olan camaat! Cəsurluqdan danışanda sözləriniz möhkəm daşları yumşaldır, halbuki davranışlarınız düşmənlərinizi tamaha salır. Məclisdə əyləşdikdə cəngavərlikdən dəm vurursunuz, döyüş üzünü göstərdikdə ondan qaçırsınız."***[2175] İmam Baqir (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Camaata ədalətdən dəm vurub özü ədalətli olmayan şəxsin Qiyamət günü həsrəti böyük olacaq... təəssüflənəcək ki, nə üçün Allahın əmrlərinə qarşı laqeydlik göstərib."***[2176]

4. Dəmir bina kimi döyüşənlər: Allah bu ayədə demək istəyir ki, haqq yolunun döyüşçüləri bir və möhkəmdirlər. Sanki hamısı bir-birinə birləşmiş və aralarında heç dəlik də yoxdur. Allah düşməni dağıdıcı selə bənzədir, onun qarşısını yalnız polad bəndlə almaq olar. Əfsuslar olsun ki, İslamın bu böyük təlimi bu gün unudulub, müsəlmanların polad bənd şəklini almamaları bir tərəfə qalsın, parça-parça olaraq bir-birlərinə qarşı dayanıblar, hər birinin başında bir xəyal, ürəyində bir arzu var. Bir neçə yüz milyonluq İslam dünyasının parçalanmasının acı nəticəsini bu gün görməzdən gəlmək yanlış olar. Sionistlərin kiçik bir qruplaşması İslam torpaqlarını işğal edib, gün-gündən də İslama və müsəlmanlara qarşı

[2175] Nümunə, c.24, səh.60
[2176] Tematik təfsir, c.11, səh.155

təhqirlərini, haqsızlıqlarını, təzyiqlərini davam etdirirlər.[2177] Ayədə nəzər nöqtəsi olan ifadə göstərir ki, İslam cihadı əslində, müdafiə xarakteri daşıyır. Çünki səddlər tarixin sellərinin hücümlarının qarşısını alan müdafiə baryerləridir, heç bir sədd hücum üçün nəzərdə tutulmur.[2178]

6. Bir zaman Məryəm oğlu İsa demişdi: “Ey İsrail oğulları! Mən Allahın sizə göndərdiyi, məndən əvvəl nazil edilmiş kitabı (Tövratı) təsdiqləyən və məndən sonra gələcək Əhməd adlı elçisi ilə (sizi) müjdələyən bir elçisiyəm!” O (Əhməd) onlara açıq-aydın dəlillər və möcüzələr gətirdikdə onlar: “Bu, aşkar bir sehrdir!” – dedilər.

7. İslama dəvət edildiyi halda, Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər? Allah zalım adamları doğru yola yönəltməz.

8. Onlar Allahın nurunu öz ağızları ilə söndürmək istəyirlər. Halbuki kafirlərin xoşuna gəlməsə də, Allah öz nurunu tamamlayacaqdır.

[2177] Nümunə, c.24, səh.64
[2178] Quranın ismarışı, c.10, səh.338

9. Müşriklərin xoşuna gəlməsə də, dinini bütün dinlərdən üstün etmək məqsədilə öz elçisini hidayət və haqq dinlə göndərən Odur.

10. Ey iman gətirənlər! Sizi ağrılı-acılı əzabdan xilas edəcək bir ticarəti sizə göstərimmi?

11. Allaha və Onun elçisinə iman gətirin, Allah yolunda malınız və canınızla cihad edin. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir.

12. (Əgər belə etsəniz,) O sizin günahlarınızı bağışlayar və sizi ağacları altından çaylar axan Cənnət bağlarına və əbədi Cənnətin tər-təmiz məskənlərə daxil edər. Bu, böyük müvəffəqiyyətdir.

13. Sevdiyiniz başqa şey də vardır: Allah tərəfindən kömək və yaxın qələbə. Möminləri (bu böyük qələbə ilə) müjdələ.

14. Ey iman gətirənlər! Allahın köməkçiləri olun. Necə ki, Məryəm oğlu İsa həvarilərə: “Allah yolunda kimlər mənə köməkçi olacaq?” – demiş, həvarilər də: “Bizik Allahın köməkçiləri!” – demişdilər. Bu zaman İsrail oğullarından bir qrup iman gətirdi, digər bir qrup isə kafir oldu. Biz də iman gətirənləri düşmənlərinə qarşı qüvvətləndirdik və sonda onlar qalib gəldilər.

---

6. Həzrət İsa (s) İslam peyğəmbərinin (s) gələcəyini müjdə vermişdir:

Bu ayədə sözügedən müjdənin İsaya (ə) göndərilən səmavi kitabda olduğu qeyd edilməsə də, Quranın başqa ayələrində (Əraf-156) onun məhz İncildə olduğu qeyd edilmişdir. Əlbəttə, bu gün yəhudi və xristianların əlində olan İncil və Tövrat heç də Musa (ə) və İsaya (ə) göndərilmiş səmavi kitablar deyil. Əslində bu gün mövcud olan İncil və Tövrat adıçəkilən peyğəmbərlərin dostları və ya onlardan sonrakı dövrlərdə yaşamış insanların yazdıqları kitabların toplusudur. Bu topluya ümumi şəkildə nəzər saldıqda iddiamızın doğruluğunun heç bir şübhə doğurmadığının şahidi oluruq. Yəhudi və xristianlar özləri də bunu danmırlar. Bununla belə, şübhəsiz ki,

Musa (ə) və İsaya (ə) öyrədilənlərin, eyni zamanda səmavi kitablarda yer almış məzmunların bir qismi adıçəkilən peyğəmbərlərin davamçıları tərəfindən həmin kitablarda yazıya alınmışdır. Buna görə də Əhdi-ətiq (Tövrat), Əhdi-cədiddə (İncil) yazılanların hamısını nə qəbul, nə də inkar etmək olar. Bu kitablarda Musa (ə) və İsaya (ə) göndərilmiş təlimatlar başqalarının fikir və düşüncələri ilə qarışdırılmışdır. Bu gün mövcud olan kitablarda da böyük bir peyğəmbərin gələcəyi ilə bağlı çoxlu müjdələrin verildiyinin şahidiyik. Həmin müjdələr isə yalnız İslam peyğəmbərinə aiddir. Bir nüansı da qeyd etməliyik ki, bu kitablarda yer almış öngörülər və onların İslam peyğəmbərinin (s) əlamətləri ilə üst-üstə düşməsi ilə yanaşı, Yuhənna İncilinin üç yerində işlədilmiş və mənası "təsəlli verən" olan "Farqlit" sözü xüsusi diqqət çəkir. Belə ki, yunanca orijinaldan götürülmüş süryani dilindəki İncillərdə "təsəlli verən" sözünün yerinə yunanca mənası "təriflənən və ya tərifəlayiq" olan "Parqlit", yunanca orijinalda "Pirkletus" sözləri işlədilmişdir. Bu sözün isə ərəbcə qarşılığı Muhəmməd və ya Əhməddir. Kilsə rəhbərləri bu cür tərcümələrin onların təşkilatlarına güclü zərbə vuracağını gördüklərində "Pirkletus" sözünün əvəzinə tərcüməsi "təsəlli verən" olan "Parakletus" sözünü yazmış kobud bir təhrifə yol verərək bu canlı sənədi dəyişmişlər. Qeyd olunan təhrifə baxmayaraq, həmin kitablarda gələcəkdə böyük bir zühurun baş verəcəyi ilə bağlı aşkar bir müjdə də yer almaqdadır. Əhməd Peyğəmbərin (s) məşhur adlarından biridir. O, həyatda olarkən bu adla şöhrət tapmışdır. Buna görə də nəzər nöqtəsi olan ayələr nazil olanda düşmənlərinin heç biri onun adının Əhməd olmasına etiraz etməmişlər. Çünki bu ad artıq hər kəsə məlum idi.[2179]

[2179] Nümunə, c.24, səh.73; Əl-Mizan, c.19, səh.261

10-12. İman və cihada daha çox önəm verilməsi: Allah-taala bu ayələrdə iman və cihad prinsiplərini önə çəkir, incə təsvirlərdən isitfadə edərək insanın ruhunda ilahi hərəkət stimulu yaradır. Ayənin xitab obyekti möminlərdir. Ayə onları iki prinsipə - iman və cihada səsləyir. Ola bilsin, Allah-taala başa salmaq istəyir ki, quru və səthi iman kifayət deyil, insana fədakarlıq və cihad mənbəyi ola biləcək xalis və dərin iman lazımdır. Bu və digər ayələrə əsasən deyə bilərik ki, canla edilən cihadı malla edilən cihaddan ayırmaq olmaz. Çünki bütün cihadların imkan və vasitələrə ehtiyacı var, maliyyə yardımları ilə təmin olunmalıdırlar. Elə olur ki, bəziləri onların hər ikisi, bəziləri yalnız malları, bəziləri isə canları ilə cihadda iştirak etmək imkanına malik olurlar.[2180]

13. Yaxın qələbə: Təfsirçilərin çoxu burada Məkkənin fəthinin, bəziləri Rum və İranın fəthinin, bəziləri iman gətirdikdən az sonra müsəlmanların əldə etdikləri bütün İslam fəthlərinin nəzərdə tutulduğunu iddia etmişlər. Ancaq ayənin xitab obyekti təkcə səhabələr deyil, tarix boyu mövcud olmuş və olacaq möminlər olduğu üçün qələbənin mənası daha böyükdür, qələbə müjdəsi onların hamısına aiddir. Baxmayaraq ki, Peyğəmbərin (s) zamanında və bu ayələrin nazil olduğu vaxt bu ayənin ən parlaq nümunəsi Məkkənin fəthi olmuşdur.[2181] Bəzi hədislərdə həzrət Mehdinin (ə) son qələbəsi və fəthinin bu ayənin nümunələrindən biri olduğu qeyd edilmişdir.[2182]

[2180] Nümunə, c.24, səh.87
[2181] Nümunə, c.24, səh.91
[2182] Əl-Mizan, c.19, səh.272

"Cumuə" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Göylərdə və yerdə olanların hamısı məlik, hakim, hər bir eyib və nöqsandan uca, qüdrətli, müdrik Allahın şəninə təriflər deyir.

2. Savadsız cəmiyyətə özlərindən elçi göndərən Odur. (Elçi) onlara (Allahın) ayələrini oxuyur, onları (pis əməllərdən) təmizləyir, onlara Kitabı və hikməti öyrədir. Şübhəsiz ki, onlar daha öncə açıq-aydın azğınlıq içində idilər.

3. (Habelə) hələ (müsəlmanlara) qoşulmamış başqalarına da (elçi göndərmişdir). O, qüdrətlidir, müdrikdir.

4. Bu, Allahın lütfüdür, onu istədiyinə (layiq gördüyünə) verir. Allah böyük lütf sahibidir.

5. Tövrata əməl etmək tapşırıldıqdan sonra ona əməl etməyənlər belində çoxlu kitab daşıyan, (amma onlardan faydalana bilməyən) uzunqulağa bənzəyirlər. Allahın ayələrini inkar edən adamların bənzədildiyi şey necə də pisdir. Allah zalım adamları doğru yola yönəltməz.

6. De: “Ey yəhudilər! Əgər başqa adamların deyil, yalnız özünüzün Allahın dostları olduğunuzu güman edirsinizsə və doğru danışanlarsınızsa, onda (Allahla görüşmək üçün özünüzə) ölüm arzulayın!”

7. Lakin onlar öncədən göndərdikləri əməllərə görə əsla ölüm arzulamazlar. Allah zalımları yaxşı tanıyır.

8. De: “Qaçdığınız bu ölüm nəhayət, sizi haqlayacaq. Sonra siz qeybi və aşkarı bilənin hüzuruna qaytarılacaqsınız. O zaman O, sizə nə etdiklərinizi xəbər verəcəkdir”.

“Cümə” surəsinin ümumi məzmunu: Məzmun etibarı ilə “Cümə” surəsini iki hissəyə bölmək olar: 1. Tövhid, Allahın atributları, İslam peyğəmbərinin (s) göndərilməsinin məqsədi və qayıdış. 2. Cümə namazının proqramı və bu böyük ibadətin xüsusiyyətləri.[2183]

3. Hələ onlara qoşulmamış digər dəstə: İslam peyğəmbəri (s) təkcə savadsız ərəblərə göndərilmədiyi və çağırışı ümumbəşəri olduğu üçün bu ayə sonradan İslamı qəbul etmiş bütün müsəlmanlara şamil olur. Hədislərin birində qeyd edilir ki, Peyğəmbər (s) bu ayəni oxuduqdan sonra səhabələr “Onlar kimlərdir?” – deyə soruşduqlarında Peyğəmbər (s) əlini Salman Farsinin çiyninə qoyub buyurur: ***“Əgər iman Sürəyyada da olsa,[2184] bu dəstədən olan insanlar onu əldə edəcəklər.”***[2185]

5. Üzərində kitab olan heyvan: Bu ayə İslam peyğəmbərinin (s) əlamətləri və xüsusiyyətləri, onun gəlməsi ilə bağlı müjdələri Tövrat və İncildə oxuyub həmin əlamətlərin və müjdələrin həzrət Muhəmmədə aid olduğunu bildikləri halda ona iman gətirməkdən boyun qaçıran yəhudilər haqqındadır. Tövratda yazılanlar haqqında düşünüb onlara əməl etmək əvəzinə onun yalnız adı və oxunuşu ilə kifayələnən özündən razı yəhudilər axmaqlıqda və nadanlıqda məsələ çevrilmiş heyvana bənzədilmişlər. O, kitabın yalnız ağırlığını hiss edir, onun üçün fərqi yoxdur, belində daşıdığı daş və ağacdır, ya yaranışın ən dəqiq sirlərini və həyatın ən faydalı

[2183] Nümunə, c.24, səh.101
[2184] Məsafənin uzaqlığını ifadə etmək üçün ərəblərdə işlədilən məsəldir.
[2185] Nümunə, c.24, səh.109

proqramlarını özündə ehtiva edən kitablardır. Bu, elm məsuliyyətinin ağırlığını çiyinlərində daşıyıb həmin elmin bərəkətindən faydalanmayan əməlsiz alimi səciyyələndirmək üçün ən obrazlı ifadədir. Bu misal Quranın sözləri ilə oynayıb onun məzmun və əməli proqramından xəbərsiz olan alimlərə də şamil olur. İmam Əli (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Ey insanlar, doğru yola yönəlməniz üçün bir şeyi bildikdə ona əməl edin. Çünki öz elminə əməl etməyən alim nadanlığından ayılmayan sərsəm cahildir. Ona qarşı dəlil daha güclüdür, onun qəm-qüssəsi daimidir, Allah dərgahında o, daha çox məzəmmət olunacaq."***[2186]

8. Nə üçün bir qrup insan ölümdən qorxur? Bunun ən böyük səbəbi insanın ölümdən sonrakı həyata iman gətirməməsi, əgər iman gətiribsə də, imanı köklü inam şəkli almaması, düşüncələrinə və hisslərinə hakim kəsilməməsidir. İnsanın yox olmaqdan qorxması təbiidir. Əgər insan "Dünya möminin həbsxanası, kafirin Cənnətidir" hədisinə inansa, daha da kamilləşmək üçün həyatı sevməklə yanaşı ölümdən də əsla qorxmaz. Mənbələrin yazdığına görə Aşura hadisəsində düşmənin mühasirəsi daraldıqca, İmam Hüseyn (ə) və səhabələrinə olan təzyiqlər artdıqca onların çöhrələri daha da açılırmış. Aşura günü səhər qocaların üzü gülürmüş. Onlardan bunun səbəbi soruşulduqda deyirmişlər: Çünki bir neçə saatdan sonra şəhadət şərbətini içəcək, qara gözlü huriləri qucaqlayacağıq. Ölümdən qorxmağın ikinci səbəbi dünyaya həddən artıq bağlı olmaqdır. Çünki ölüm insanla sevdiyi arasına ayrılıq salır, dəbdəbəli həyat üçün yaratdığı imkanlardan ayrılmaq ona çox ağırdır. Bir nəfər Əbuzərin yanına gəlib ondan bu sualı soruşduqda belə cavab verir: ***"Çünki siz dünyanı abad edib axirəti viran qoymusunuz. Təbii ki, abad yerdən xarabalığa köçmək***

[2186] Nümunə, c.24, səh.114; Əl-Mizan, c.19, səh.277

istəməzsiniz.” İnsanın ölümdən qorxmasının üçüncü səbəbi əməl dəftərində yaxşı əməl qrafasının boş, günah qrafasının dolu olmasıdır.[2187]

9. Ey iman gətirənlər! Cümə günü namaz üçün azan veriləndə Allahı yad etməyə tələsin və ticarəti dayandırın. Əgər bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir!

10. Namaz başa çatdıqdan sonra yer üzünə dağılıb Allahın lütfünü axtarın və Allahı çox yad edin ki, bəlkə nicat tapasınız.

11. Onlar ticarət və ya əyləncə, baş qarışdıran mənasız bir iş gördükləri zaman dağılışıb ona tərəf qaçır və səni ayaq üstə olduğun halda

[2187] Nümunə, c.24, səh.121

tərk edirlər. De: “Allah yanında qazanacağınız savab əyləncədən də, ticarətdən də xeyirlidir. Allah ən yaxşı ruzi verəndir”.

"Munafiqun" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Münafiqlər sənin yanına gəldikləri zaman: “Biz şəhadət veririk ki, sən həqiqətən Allahın elçisisən!” – deyirlər. Allah bilir ki, sən Onun elçisisən. Ancaq Allah şahiddir ki, münafiqlər yalançıdırlar.

2. Onlar insanları Allah yolundan döndərmək üçün andlarını sipər ediblər. Çox pis işlərlə məşğuldurlar!

3. Bu ona görədir ki, onlar öncə iman gətirib sonra kafir oldular. Buna görə də onların qəlbinə möhür vuruldu, onlar həqiqəti dərk etmirlər.

4. Sən onlara baxdıqda zahiri görünüşləri səni heyrətləndirir, danışanda dediklərinə qulaq asırsan. Halbuki onlar divara söykədilmiş quru odunlar kimidirlər. Hər bir səs-küyün onlara qarşı olduğunu sanırlar. Onlar sənin əsl düşmənlərindir. Sən onlardan çəkin! Allah onları məhv etsin, necə də haqdan döndərilirlər!

---

9. Həftənin ən böyük ibadəti – siyasi toplantısı: Cümə namazı hər şeydən əvvəl böyük və ictimai bir ibadətdir, ruh və canı gözəlləşdirən, qəlbi günah bulaşığından yuyub təmizləyən, günah pasını qəlbdən silib aparan ibadətlərin ümumi təsirini özündə ehtiva edir. Bu böyük əməl İslam dünyasında illik Həcc konfransından sonra ən böyük həftəlik konfransdır. Allah rəsulunun (s) bir hədisində belə deyilir: “Cümə namazı yoxsulların Həccidir”. Bu hədisdə İslamın böyük həcc konfransının bir çox bərəkətlərinin Cümə namazında da olduğuna işarə edilmişdir. Hədislərdə bu

mövzuya çox böyük önəm verilmişdir. Hədislərinin birində Allah rəsulu (s) belə buyurmuşdur: "İmanı üzündən Cümə namazında iştirak edən insan əməlini yenidən başlamışdır."[2188]

Bəziləri hesab edir ki, bu namaz məsum imam və ya onun xüsusi nümayəndəsinin vəzifələrindəndir. Başqa sözlə desək, məsum imamın olduğu vaxta aiddir. Halbuki tədqiqatçıların çoxu Cümə namazının hər bir insana tək-tək vacib olması, bu şərtin ixtiyari vacibliyinin olmamasıı, qeyb dövründə də Cümə namazının qılına və zöhr namazı ilə əvəz edilə biləcəyi qənaətindədirlər.[2189]

"Munafiqun" surəsinin ümumi məzmunu: Bu surənin əsas məzmununu ikiüzlülük və münafiqlərə aid mövzular təşkil edir.[2190]

1-4. Münafiqlər İslamın ən böyük düşmənləridir: İkiüzlülük və münafiqlik problemi Peyğəmbər (s) Mədinəyə hicrət etdikdən, İslamın əsasları gücləndikdən və qələbəsi aşkara çıxdıqdan sonra ortaya çıxmışdır. Düşmənçiliyi büruzə vermək çətin, hətta qeyri-mümkün olduğu üçün məğlubiyyətə uğramış İslam düşmənləri destruktiv - dağıdıcı proqramlarını həyata keçirmək üçün simalarını dəyişib özlərini üzdə müsəlman kimi göstərib müsəlmanların sırasında yer alırlar, ancaq xəlvətdə öz mənfur əməllərini davam etdirirlər. Hər bir inqilab aşkar qələbəsindən sonra münafiqlər ordusu ilə qarşılaşır, dünənin qatı düşmənləri dost libası geyinib özlərini dost kimi göstərməyə çalışırlar. Buna görə də münafiqlərə aid olan ayələrin hamısının Məkkədə deyil, Mədinədə nazil olmasının səbəbini başa düşmək olar.[2191] Bəzi təfsirçilər münafiqliyin İslamın ilk vaxtlarından mövcud olduğunu qeyd edirlər. Hesab edirlər ki, bəziləri Məkkədə

[2188] Nümunə, c.24, səh.133
[2189] Nümunə, c.24, səh.129
[2190] Nümunə, c.24, səh.143
[2191] Nümunə, c.24, səh.146

müsəlmanların çətinliklərinin həddən artıq çox olmasına baxmayaraq İslamı qəbul edir və Peyğəmbərə (s) yardımlar göstərirdilər. Ümid edirdilər ki, Peyğəmbər (s) düşmənlərinə qalib gələcək və onlar da Peyğəmbərdən (s) sonra hakimiyyəti ələ alacaqlarına ümid edirdilər.[2192] Ümumiyyətlə, tarix boyu İslam ən böyük zərbəni münafiqlərdən almışdır. Buna görə də Quranda ən ağır cümlələr onlar haqqında işlədilmişdir. Hətta açıq düşmənlər belə münafiqlər qədər hədəfə alınmamışdır. Allah rəsulu (s) buyurmuşdur: ***"Mənim ümmət üçün mömin və müşrik tərəfdən qorxum yoxdur. Çünki Allah mömini imanına görə qoruyur, müşriki də şirkinə görə xar və rüsvay edir. Ancaq sizin üçün qorxum ürəyində münafiq, dildə alim olan tərəfindəndir. O, sizin xoşunuza gələn sözlər danışır, xoşlamadığınız işlər görür".*** Unutmaq olmaz ki, nifaq sözünün mənası genişdir, insanın istənilən növ daxili və zahiri ikiliyi ifadə edir. Bu ikiliyin ən bariz nümunəsi etiqad ikiliyidir. Münafiqlərə aid ayələrdə adətən bu məsələ diqqət mərkəzində olur. Münafiqlər üzdə özlərini mömin kimi göstərib, çirk və küfrlərini ürəklərində gizlədirlər. Əməli ikilik batində müsəlman olub aşkarda bu inanca zidd hərəkət etməyə deyilir. Bu da onların daxili və zahiri simasının ikili olduğunu göstərir. Məsələn, əhd sındırmaq, yalan danışmaq, əmanətə xəyanət etmək və sairəni buna misal göstərmək olar. İslam peyğəmbəri (s) hədislərinin birində belə buyurmuşdur: ***"Üç xüsusiyyət kimdə olsa - hər nə qədər namaz qılan, oruc tutan, özünü müsəlman hesab edən adam olsa belə, o, münafiqdir: Əmanətə xəyanət, yalan, vədə xilaf çıxmaq." İmam Səccad (ə) belə buyurmuşdur: "Münafiq insanları çirkinlikdən çəkindirir, ancaq özü onu tərk etmir, insanları yaxşı əmələ çağırır, ancaq özü onu***

[2192] Əl-Mizan, c.19, səh.300

etmir.” Münafiqliyin ən mühüm formalarından biri riyakarlıqdır. Hədislərdə bu haqda çox məlumat verilmişdir.[2193]

5. Onlara: “Gəlin Allahın elçisi sizin üçün bağışlanma diləsin!” – deyildiyi zaman başlarını yelləyir və sən onların özlərini dartaraq sözlərindən üz döndərdiklərini görürsən.

6. Sən onlar üçün bağışlanma diləsən də, diləməsən də, fərqi yoxdur. Allah onları bağışlamayacaqdır. Çünki Allah fasiq adamları doğru yola yönəltməz.

7. Onlar həmin adamlardır ki, “Allahın elçisinin yanında olan adamlara heç nə verməyin ki, dağılıb getsinlər!” – deyirlər. Halbuki göylərin və yerin xəzinələri Allahındır, lakin münafiqlər anlamırlar.

8. Onlar deyirlər: “Əgər biz Mədinəyə qayıtsaq, ən qüdrətlilər ən acizləri oradan çıxardacaqlar!” Halbuki qüdrət yalnız Allaha, Onun elçisinə və möminlərə məxsusdur, lakin (bunu) münafiqlər bilmirlər.

9. Ey iman gətirənlər! Nə mallarınız, nə də övladlarınız sizə Allahı xatırlamağı unutdurmasın! Bunu edənlər ziyana uğrayanlardır.

[2193] Nümunə, c.24, səh.146-177

10. Sizlərdən birinə ölüm gəlməzdən və siz də: “Ey Rəbbim! Nə üçün ölümü bir az təxirə salmadın ki, sədəqə verib əməlisalehlərdən olum?!” – deməzdən əvvəl sizə verdiyim ruzidən Allah yolunda xərcləyin.

11. Allah əcəli çatmışlara əsla möhlət verməz. Allah sizin nələr etdiyinizdən xəbərdardır.

5-8. Ayələrin nazilolma səbəbi: Bu ayənin nazilolma səbəbinin böyük bir hadisə ilə bağlı olduğu qeyd edilmişdir. Həmin hadisənin xulasəsi belədir: Hicrətin altıncı ilində baş vermiş Bənu Mustələq müharibəsindən sonra Qədid adlanan yerdə biri ənsar, digəri mühacirlərdən olan iki müsəlman quyudan su çıxararkən mübahisə edirlər. Minafiqlərin məşhur başçılarından olan Abdullah ibn Übəyy ənsardan olan müsəlmana arxa çıxır, onlar arasında çox ciddi söz davası çıxır. Abdulla çox qəzəblənir. Tayfasından bir dəstə adam da orada olur. Onların qarşısında and içir ki, Mədinəyə qayıtdıqdan sonra qüdrətlilər zəifləri şəhərdən çıxaracaq. Qüdrətlilər deyərkən özü və ardıcıllarını, zəif və acizlər deyərkən mühacirləri nəzərdə tutur. Sonra üzünü yandaşlarına tutub deyir: “Bu, sizin öz başınıza açdığınız bəlanın nəticəsidir. Əgər bunlara öz şəhərinizdə yer verməsəydiniz, mallarınızı onlarla bölüşdürməsəydiniz, yeməklərinizin artığını bu adam kimilərinə verməsəydiniz, boynunuza çıxmazdılar”. Bu vaxt hələ gənc olan Zeyd ibn Ərqəm üzünü Abdullaha tutub deyir: “And olsun Allaha, aciz və zəif sənsən, Muhəmməd (s) Allahın izzət və qüdrət bəxş etdiyi, müsəlmanların məhəbbət bəslədiyi şəxsdir”. Abdulla deyir: “Sən sus, sən gərək indi oyun oynayasan uşaq!” Zeyd ibn Ərqəm Allah rəsulunun (s) yanına gedib əhvalatı ona danışır. Peyğəmbər (s) Abdullahın yanına adam göndərib buyurur: “Bu nədir, mənim haqqımda demisən?” Abdullah deyir: And olsun səmavi kitabı sənə göndərən Allaha, mən heç nə

deməmişəm, Zeyd yalan danışır. Sonra Peyğəmbər (s) həmin gün bütün gündüzü və gecəni yol getməyi əmr edir. Nəhayət, Mədinəyə çatırlar. Zeyd ibn Ərqəm böyük qəm-qüssə içində evə çəkilib çölə çıxmır.[2194] Faktlar Zeydin doğru, Abdullanın isə yalan danışdığını deməyə əsas verirdi, ancaq şərait Peyğəmbərin (s) üzdə Abdullahı təkzib etməməyi və vəhy gələnə qədər gözləməyi tələb edirdi.[2195] Bu vaxt "Munafiqun" surəsi nazil olur, Zeydin doğru, Abdullanın isə yalan danışdığı təsdiqini tapır. Peyğəmbər (s) buyurur: "Ey gənc! Allah sənin sözünü təsdiq etdi və sənin söylədiklərinlə bağlı ayələr nazil etdi". Bu ayələr nazil olduqdan və Abdullahın yalanı üzə çıxdıqdan sonra bəziləri ona deyirlər: "Peyğəmbərin (s) yanına get, Allahdan sənin bağışlanmağını istəsin". Abdullah başını yellədir və xoşagəlməz sözlər deyir. Bu zaman "Gəlin Allahın elçisi sizin üçün..." ayəsi nazil olur.[2196]

9. Mallarınız və övladlarınız Allahı xatırlamağı sizə unutdurmasın: Münafiqliyin ən mühüm amillərindən biri dünyaya, mal-dövlət və övladlara qarşı ifrat sevgidir. Bu ayə möminlərin bu cür sevgidən çəkindirir. Mal-dövlət və övladlar Allahın nemətləridir, ancaq onlar Allah yolunda irəliləməkdə, və xoşbəxtliyə nail olmaqda insana yardım göstərməlidirlər. Əgər onlara qarşı ifrat sevgi insanla Allah arasında sədd yaradarsa, ən böyük bəla hesab edilərlər. İmam Baqirin (ə) bir hədisində bu məna daha aydın şəkildə təsvir edilmişdir: ***"İki yırtıcı canavar biri öndən, biri də arxadan çobansız sürüyə sərvətpərəstlik və şöhrətpərəstliyin möminin dininə vurduğu qədər zərər vura bilməzlər."***[2197] İmam Əli (ə) səhabələrindən birinə məktub yazıb ona nəsihətlər verir. Həmin nəsihətlərin birində belə deyilir: ***"Dünyanı boşla ki, dünya sevgisi gözü kor, qulağı kar, dili lal, boyunları***

[2194] Nümunə, c.24, səh.156
[2195] Mənşuri-cavid, c.4, səh.85
[2196] Nümunə, c.24, səh.158
[2197] Nümunə, c.24, səh.172

isə bükük edir. Ömrünün qalan hissəsində keçmişini yu, bunu sabah və ya o biri gün edərəm, demə. Çünki sizdən əvvəl arzular qurmaqla, bu gün və sabah etmələri üçün həlak olan şəxslər olub."[2198]

10. Allah yolundan xərcləmək insanın islah olması və axirətdə xilas olmasında rol oynayan mühüm amildir: Bəziləri burada xərcləmək əmrini zəkat verməyin vacibliyi kimi izah etmişlər. Ancaq məlumdur ki, bu ayədə insanın xilasına səbəb olacaq istənilən növ həm vacib, həm də müstəhəb xərcləmək nəzərdə tutulmuşdur. Ayənin son hissəsində belə buyurulmuşdur: ***"Sədəqə verib əməlisalehlərdən olun"*** Bu ifadə sədəqənin insanın əməlisaleh olmasında çox böyük rol oynadığını göstərir.[2199]

[2198] Quranın ismarışı, c.1, səh.323
[2199] Nümunə, c.24, səh.173

"Təğabun" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Göylərdə və yerdə olanların hamısı Allahın şəninə təriflər deyir. Hökm Onundur, həmd Ona məxsusdur. O, hər şeyə qadirdir.

2. Sizi yaradan Odur. Kiminiz kafir, kiminiz də mömindir. Allah nə etdiklərinizi görür.

3. O, göyləri və yeri ədalətlə yaratdı, sizə surət verib onları gözəl şəklə saldı. Son dönüş də Onadır.

4. Göylərdə və yerdə olanları bilir. Sizin gizlində və aşkarda nə etdiyinizi də bilir. Allah kökslərdə olanlardan agahdır.

5. Daha öncə kafir olmuş və etdikləri böyük günahların cəzasını dadmış kimsələrin xəbəri sizə gəlib çatmadımı? Onlar üçün acılı-ağrılı bir əzab hazırlanmışdır.

6. Bu ona görədir ki, elçiləri onlara aydın dəlillər gətirirdi, onlar isə: “Məgər bizə (bizim kimi) insanlarmı doğru yol göstərəcəklər?” – deyirdilər. Onlar küfr edir və üz döndərirdilər. Allahın ehtiyacı yoxdur. Allah ehtiyacsızdır, tərifəlayiqdir.

7. Kafirlər heç vaxt dirildilməyəcəklərini sanırlar. De: “Xeyr, Rəbbimə and olsun ki, siz hamınız dirildiləcəksiniz. Sonra isə etdiyiniz əməllər sizə xəbər veriləcəkdir. Bu, Allah üçün çox asandır!”

8. Elə isə Allaha, Onun elçisinə və nazil etdiyimiz Nura (Qurana) iman gətirin! Allah nə etdiklərinizdən xəbərdardır.

9. O gün (Allah) hamınızı toplanma günü (Qiyamət günü) bir yerə toplayacaq. Həmin gün xəsarət və peşmançılıq günüdür. Hər kəs Allaha iman gətirib yaxşı işlər görsə, onun günahlarını bağışlayar və onu ağacları altından çaylar axan Cənnət bağlarına daxil edər. Onlar orada əbədi qalacaqlar. Bu, böyük müvəffəqiyyətdir.

"Təğabun" surəsinin ümumi məzmunu: Bu surə ümumi məzmun və forma baxımından "Hədid" surəsinə çox bənzəyir. Sanki həmin surənin xulasəsi təəssüratı yaradır. Bu surədə möminlər Allah yolunda xərcləməyə həvəsləndirilir, onlara iman, cihad və Allah yolunda xərcləməyə mane olduğu ehtimal edilən problemlərə görə qüssələnməmələri tövsiyə edilir. Çünki onların qarşılaşdıqları bütün problemlər Allahın iznilə baş verir, [2200] Allah onlardan xəbərdardır, həmin çətinliklərin mükafatını hesaba alır.

6. Ehtiyacsız Allah: Bir qüdsi hədisdə belə deyilir: ***"Mənim bəndələrim! Siz mənə ziyan və xeyir verə bilməzsiniz. Əgər əvvəldən axıra qədər insanlar və cinlər ən pak qəlbə malik olsalar, mənə itaətdə zərrə qədər artım olmaz, əgər əvvəlindən axırına qədər insanlar və cinlər ən pis qəlbə malik olsalar, mənə itaətdə zərrə qədər əskilmə olmaz. Bəndələrim! Əvəvlindən axıra qədər insanlar və cinlər bir meydana toplaşıb, hər nə istəsələr və mən onların istədiyi hər şeyi versəm, xəzinələrimdən heç nə əskilməz. Bu, bir kəndirin dənizdən aldığı rütubətə bənzəyir. Bəndələrim! Mən sizin əməllərinizi hesaba lıb sonra sizə qaytarıram. Kim xeyirlə qarşılaşsa, Allaha şükür etsin, kim başqa bir şeylə qarşılaşsa, yalnız özünü məzəmmət etsin!"***[2201] Məhdud bir bənzətmə ilə desək, biz günəşdən enerji alan ağac və bitkilər kimiyik. Bizim günəşə ehtiyacımız olduğu və ondan enerji aldığımız halda, aləmləri işıqlandıran günəşin onlara heç bir ehtiyacı olmur.[2202]

8. Allaha, Onun elçisinə və ona nazil etdiyimiz Nura iman gətirin: Quranın nura bənzədilməsi ayələrdə rast gəlinən haldır. "Biz onu nazil

---

[2200] Əl-Mizan, c.19, səh.307
[2201] Nümunə, c.24, səh.25
[2202] Quranın ismarışı, c.3, səh.50

etdik" forması bu faktı təsdiq edir. Baxmayaraq ki, Əhli-beyt (ə) imamlarına istinad edilən çoxsaylı hədislərdə bu ayədə "Nur" deyilərkən imam nəzərdə tutulduğu qeyd edilmişdir. Bu izah bəlkə də bununla bağlıdır ki, imam Quranın əməli təcəssümüdür. Məhz buna görədir ki, Peyğəmbər (s) və imamlara (ə) danışan Quran deyilmişdir. Həmin hədislərin birində İmam Baqirin (ə) belə buyurduğunu görürük: "Onlar möminlərin qəlbinə işıq və nur bəxş edən şəxslərdirlər."[2203]

9. Təğabun günü: Qiyamət udanla uduzanın tanınacağı gündür. Həmin gün dünya həyatındakı ticarətdə kimlərin ziyana uğradığı məlum olacaq. Həmin gün Cəhənnəm əhli Cənnətdəki boş yerləri görüb təəssüflənəcək, Cənnət sakinləri də Cəhənnəmdə boş qalmış yerlərini görüb sevinəcəklər. Hədislərinin birində Allah rəsulu (s) belə buyurmuşdur: ***"Cənnətə daxil olan elə bir bəndə olmayacaq ki, daha çox şükür etməsi üçün pislik edəcəyi təqdirdə odda olacağı yeri ona göstərməsinlər. Cəhənnəm oduna daxil olan elə bir bəndə olmayacaq ki, daha çox həsrət çəkməsi üçün yaxşılıq edəcəyi təqdirdə Cənnətdə qərarlaşacağı yeri ona göstərməsinlər."***[2204] Qiyamətin bu cür adlandırılmasını başqa aspektlərlə də izah etmişlər. Belə ki, kafirlər həmin gün uduzduqlarını, həyat ticarətində ziyana uğradıqlarını, ömürlərinin qiymətli sərmayəsini ucuz qiymətə satdıqlarını, nəticədə, əbədi pak həyatdan məhrum olduqlarını görəcəklər. Başqa bir izaha görə mömin və kafir olmasından asılı olmayaraq, Məhşərdə olan hər kəs ziyana düşdüyünü hiss edəcək. Möminlər təəssüflənəcəklər ki, nə üçün daha çox əməl etmədilər, kafirlər də təəssüflənəcəklər ki, nə üçün əməlisaleh olmadılar. Hər iki qrup əslində, Qiyamət gününü layiqincə qiymətləndirmədikləri üçün təəssüflənəcəklər. Bəziləri bu təəssüf və

[2203] Nümunə, c.24, səh.193
[2204] Nümunə, c.24, səh.194

peşmançılığın insanları haqq yoldan sapdıran təkəbbürlülərə və onlara tabe olan azğınlara aid olduğunu qeyd etmişlər. Belə ki, insanları haqq yoldan sapdıranlar davamçılarını dünyapərəstliyə səsləmək və Axirət inancından çəkindirib aldatdıqları, ardıcılları da təkəbbürlü rəhbərlərinə tabe olalaraq onları aldatdıqları, təkəbbür dənizində daha çox batmalarına, onların azğınlıqlarının daha da artmasına, nəticədə daha çox əzaba düçar olmalarına səbəb olduqları üçün təəssüflənəcəklər. Deməli, hər iki qrup bir-birini aldadıb, bir-birinə aldanmışlardır.[2205]

10. Kafir olub ayələrimizi yalan sayanlara gəldikdə isə, onlar Cəhənnəm sakinləridir. Onlar orada əbədi qalacaqlar. Ora necə də pis dönüş yeridir!

11. Allahın izni olmadan (heç kəsə) bir müsibət üz verməz. Hər kəs Allaha iman gətirsə, Allah onun qəlbini haqqa yönəldər. Allah hər şeyi bilir.

12. Allaha və Onun elçisinə itaət edin! Əgər üz çevirsəniz, (bilin ki,) elçimizin vəzifəsi yalnız açıq bir təbliğdir.

13. Allah! Ondan başqa heç bir məbud yoxdur. Möminlər yalnız Allaha təvəkkül etsinlər.

[2205] Əl-mizan, c.19, səh.314

14. Ey iman gətirənlər! Zövcələrinizdən və övladınızdan sizə düşmən olanlar da vardır. Onlardan qorunun! Lakin onları əfv etsəniz, göz yumsanız və bağışlasanız, (bilin ki,) Allah bağışlayandır, rəhmlidir.

15. Var-dövlətiniz və övladlarınız yalnız bir imtahan vasitəsidir. Böyük mükafat isə Allah yanındadır.

16. Nə qədər bacarırsınızsa, Allahdan qorxun, qulaq asıb itaət edin və Allah yolunda xərcləyin ki, sizin üçün daha yaxşıdır. Nəfsinin xəsisliyi və hərisliyindən qorunanlar nicat tapanlardır.

17. Əgər Allaha gözəl bir borc versəniz (malınızı Onun yolunda xərcləsəniz), O bunu sizin üçün qat-qat artırar və sizi bağışlayar. Allah təşəkkür edən və həlimdir.

18. O, qeybi də, aşkarı da biləndir, qüdrətlidir, müdrikdir.

---

11. Bütün müsibətlər Onun iznilə baş verir: Şübhəsiz ki, bu dünyadakı bütün hadisələr Allahın iznilə baş verir. Feili tövhid prinsipinə əsasən varlıq aləmində heç nə Allahın iradəsindən kənarda baş vermir. Sadəcə, müsibətlər təsəvvürlərdə daim sual yaratdığı üçün ona xüsusi diqqət yetirilmişdir. Burada ortaya belə bir sual çıxır: bu müsibətlərin çoxunun səbəbi zülmkarların zülmü və bizim səhlənkarlığımız və səhvlərimizdir. Bunlar da Allahın izni ilə baş verir? Qeyd etməliyik ki, Quranda müsibətlərdən bəhs edən ayələrin məcmusundan müsibətlərin iki yerə bölündüyünün şahidi oluruq: 1. Həyatın ayrılmaz bir parçası olan və insanın cüzi də olsa rolu olmadığı müsibətlər. Ölüm-itim və təbiətlə bağlı olan bir sıra hadisələr. 2. İnsanların müəyyən mənada rol oynaqdıqları bəlalar. Quranda birinci qrup hadisələrin Allahın iradəsi ilə baş verdiyi, ikinci qrup hadisələrin isə insanların öz əməllərinin nəticəsində baş verdiyi buyurulur. Buna görə də

heç kəs bütün bəlaların Allah tərəfindən baş verdiyini iddia edib zalımlar qarşısında sükut etməməli, mübarizədən əl çəkməməli, habelə xəstəlik, yoxsulluq və cəhalətin qarşısını almaqdan imtina etməməlidir. Təbii ki, insanın özünün rol oynadığı müsibətlərdə də Allahın izni və icazəsi şərtdir. Əgər Allah istəməsə, istənilən səbəb təsirini və rəngini itirər.[2206]

14-15. Bəzi həyat yoldaşlarınız və övladlarınız sizin düşmənlərinizdir:

Bu ayənin xitab obyekti möminlər olduğu üçün ayənin məzmunundan belə başa düşülür ki, bəzi həyat yoldaşları və övladların mömin həyata yoldaşı və ata ilə düşmənçiliyinin səbəbi məhz onların imanıdır. Bəzi övladlar və həyat yoldaşları onları imandan və saleh əməllərdən, Allah yolundan xərcləməkdən çəkindirir, küfr diyarından hicrət etməlıərinə mane olur, onları küfrə, xəsislik, Allah yolunda xərcləməmək kimi günahlara vadar edirlər. Bəzən həyat yoldaşına və övladlarına qarşı ifrat sevgi insanı camaatın malını qəsb etməsinə və ya haram yolla qazanc əldə etməsinə səbəb olur. Allah-taala bu ayədə möminlərə buyurur ki, bu cür həyat yoldaşları və övladların səhvlərinə göz yumun, ancaq ehtiyatlı olun ki, sizi həlak etməsinlər, onların sevgisi sizin əbədi bədbəxtliyinizə səbəb olmasın.[2207] Sonra 15-ci ayədə Allah-taala mal-dövlətin və övladların yalnız imtahan vasitəsi olduğunu buyurur. Ümumiyyətlə, Allah insanın tərbiyələnməsi üçün adətən onu qaynar imtahan kürələrinə salır. Sadəcə, bu iki vasitə, yəni övlad və mal-dövlət ən mühüm imtahan vasitələridir. Çünki var-dövlətin cazibəsi, övladlara qarşı sevgi insanı Allahın razılığı ilə onların razılığının ayrıldığı məqamlarda çətin vəziyyətdə qoyur. “İnnəma” ədatı məhdudlaşdırıcı məna ifadə edir. Bu da onu göstərir ki, qeyd olunan iki vasitə daha çox imtahan mövzusu olur. Hədislərinin birində İmam Əli (ə) belə buyurmuşdur:

[2206] Nümunə, c.24, səh.198
[2207] Əl-Mizan, c19, səh.220

"Sizlərdən heç biri "İmtahandan Allaha sığınıram" deməsin. Çünki hər hansı formada sınanmaq qaçılmazdır. Ancaq kimsə Allaha sığınmaq istəyirsə, haqq yoldan sapdıran fitnələrdən sığınsın. Allah-taala "Var-dövlətiniz və övladlarınız yalnız bir imtahan vasitəsidir." – deyə buyurmuşdur."[2208] Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Hər bir ümmət üçün bir imtahan vasitəsi var. Mənim ümmətimin imtahan vasitəsi mal və sərvətdir."***[2209]

[2208] Nümunə, c.24, səh.206
[2209] Əl-Mizan, c.19, səh.322

"Təlaq" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ey Peyğəmbər! Qadınları boşadığınız zaman onları gözləmə müddətlərində (aylıq adətlərindən təmizlənib həyat yoldaşları ilə yaxınlıq etmədikləri vaxt) boşayın, gözləmə müddətinin hesabını qoruyun və Rəbbiniz olan Allahdan qorxun. Açıq-aşkar çirkin iş görmədikləri təqdirdə, onları evlərinizdən qovub çıxartmayın və onlar özləri də çıxmasınlar. Bu, Allahın qanunlarıdır. Allahın qoyduğu qanunları pozan şəxs özünə zülm etmiş olar. Sən bilmirsən, ola bilsin ki, Allah bundan sonra başqa bir hökm versin.

2. Gözləmə vaxtları bitdikdə onları layiqli şəkildə saxlayın və yaxud layiqli şəkildə onlardan ayrılın. Aranızdan iki ədalətli kişi şahid çağırın və Allah üçün şahidlik edin. Bu, Allaha və Axirət gününə iman gətirənlərə verilən nəsihətdir. Allahdan qorxana Allah xilas yolu göstərir

3. və ona güman etmədiyi yerdən ruzi bəxş edir. Kim Allaha təvəkkül etsə, Allah ona kifayət edər. Allah öz əmrini yerinə yetirəndir. Allah hər şey üçün bir ölçü qoymuşdur.

4. Heyzdən kəsilmiş (yaşlı) qadınlarınızın (iddəsi barəsində) şübhəniz varsa, onların, eləcə də hələ heyz görməmiş qızların gözləmə müddəti üç aydır. Hamilə qadınların gözləmə müddəti isə onlar hamiləlikdən azad olana qədərdir. Kim Allahdan qorxarsa, Allah onun işini asanlaşdırar.

5. Bu, Allahın sizə nazil etdiyi əmridir. Kim Allahdan qorxarsa, Allah onu bağışlayar və onun mükafatını artırar.

"Tələq" surəsinin ümumi məzmunu: Bu surənin əsas hissəsini tələq, onun hökmləri, xüsusiyyətləri və nəticələri mövzusu təşkil edir. Daha sonra başlanğıc, qayıdış, Allah rəsulunun (s) peyğəmbərliyi, müjdə və qorxu mövzularından bəhs edilir.[2210]

1. Tələqın (boşanmanın) səbəbləri və təsirləri: Digər sosial hadisələr kimi boşanmanın da müxtəlif səbəbləri vardır. Həmin səbəbləri dəqiqliklə araşdırmadan boşanmanın qarşısını almaq çox çətin məsələdir. Boşanmanın ən mühüm amilləri bunlardır: a) Qadın və ya kişinin hüdudsuz gözləntiləri; b) Dəbdəbə, israf, bədxərclik ruhunun ailələrə hakim kəsilməsi; c) Qohumlar, yaxınlar və tanışların qadın və kişinin şəxsi həyatına yersiz müdaxilələri; d) Qadın və kişi arasında mədəniyyət uyğunluğunun olmaması; e) Qadın və kişinin bir-birinin istəklərinə, xüsusilə sevgi və cinsi münasibətlərlə bağlı istəklərinə etina etməməsi. Hədislərdə bu məsələlərə xüsusi əhəmiyyət verilmişdir. Boşanma hadisəsi ailələr, qadın və kişilər, xüsusilə övladlar üçün bir çox problemlər yaradır. Onları üç qrupda ümumiləşdirmək olar: 1. Boşandıqdan sonra kişi və qadının üzləşdiyi psixoloji, sentimental problemlər. Çünki bu fərdlər yanlarında olan ən yaxın adamlarından ayrıldıqdan sonra psixoloji cəhətdən xəsarət alırlar, çox vaxt ömürlərinin sonuna qədər ailə qurmurlar, yenidən ailə qurduqda isə adətən, ailəlikləri uğurlu alınmır. 2. Bu fərdlərin qarşılaşdıqları sosial problemlər isə daha çoxdur. Çünki onların uğurlu ailə həyatı üçün şansları elə də çox olmayacaq. Övladları olduğu təqdirdə bu şans daha da az olacaq. Nəticədə,

---

[2210] Nümunə, c.24, səh.217

istəklərinin təmin edilmədiyi bir ailə həyatına razı olacaqlar. Buna görə də ömürlərinin sonuna qədər əziyyət çəkəcəklər. 3. Övladların problemləri hər kəsdən çox olacaq. Çünki onlar ana və ata sevgisindən, qayğısından məhrum olacaq, ömürlərinin sonuna qədər psixoloji patalogiyadan əziyyət çəkəcəklər. Bu, isə təkcə ailə deyil, bütün cəmiyyət üçün bir itkidir. Bəzən həmin övladlar elə həddə çatırlar ki, öz intiqamlarını cəmiyyətdən almağa qalxırlar. İslamın boşanmaya ciddi yanaşmasının səbəbi də məhz həmin ziyanlı və xoşagəlməz nəticələrlə bağlıdır. Buna görə də Allah-taala Quranda açıq şəkildə buyurur ki, əgər ərlə arvad arasında problem yaranarsa, hər iki tərəfin yaxınları onların münasibətlərini düzəltməyə çalışsınlar, digər tərəfdən "ailə sülh məhkəməsi" yaratmaqla ərlə arvadın ailə problemlərinin məhkəmə zallarına aparılmasının və boşanmanın qarşısını alsınlar. Ərlə arvadın xoşbəxtliyinə, ailə münasibətlərinin sütunlarının möhkəmlənməsinə yardım göstərən vasitələr İslam tərəfindən bəyənilən, bu əsasları silkələyən vasitələr isə mənfur sayılmışdır. İslam peyğəmbəri (s) belə buyurmuşdur: ***"Evlənin, boşanmayın. Çünki tələq Allahın ərşinin silkələnməsinə səbəb olur."***[2211]

2-3. Təqva və problemlərdən xilas: Bu ayə Quranın ən ümidverici ayələrindəndir. Onu oxumaq insanın qəlbinə ruh və səfa bəxş edir, ümidsizlik pərdələrini yırtır, həyat bəxş edən ümid şölələri ilə qəlbi işıqlandırır, bütün təqvalı insanlara xilas və proplemlərin həll olunması vədi verir. Allah rəsulu (s) belə buyurmuşdur; ***"Mən bir ayə bilirəm ki, əgər bütün insanlar ondan yapışsalar, onlar üçün kifayət edər."*** Bunu deyib "Allahdan qorxana Allah xilas yolu göstərir..." ayəsini oxumuş, dəfələrlə onu təkrar etmişdir. Peyğəmbər (s) bu ayəni təfsir edərkən belə

[2211] Nümunə, c.24, səh.227

buyurmuşdur: Allah təqvalı insanları dünyanın şübhəli işlərindən, ölümün çətin anlarından, Qiyamət gününün çətinliklərindən xilas edir. Başqa bir hədisində isə belə buyurmuşdur: "***Kim Allahdan tez-tez bağışlanma diləsə, Allah onu hər bir qüssədən azad edər, hər bir çətinlikdən xilas edər."*** Əlbəttə, bu ayədə Allah demək istəmir ki, insan səy və fəaliyyətdən əl çəkməlidir. Əksinə, təqva səy və fəaliyyətlə əldə olunur. Əgər qapılar bu məqama nail olmuş insanın üzünə bağlanarsa, Allah onların açılmasına zəmanət verir.[2212]

6. Onlara (boşanmış qadınlara) imkanınız daxilində öz yaşadığınız yerdə qalmağa yer verin. Sıxışdırmaq məqsədilə onlara zərər yetirməyin. Əgər onlar hamilədirlərsə, hamiləlikdən azad olana qədər onların xərclərini ödəyin. Sizin üçün uşaq əmizdirirlərsə, onların haqqını verin. (Övladlarınızla

[2212] Nümunə, c.24, səh.236

bağlı qərar qəbul etmək üçün) xoşluqla müzakirə aparın. Razılığa gəlməsəniz, uşağı əmizdirməyi başqa bir qadına həvalə edin.

7. Var-dövlət sahibi öz geniş imkanlarına uyğun şəkildə xərcləsin. İmkanı az olan isə Allahın ona verdiyindən xərcləsin. Allah hər kəsə yalnız Özünün həmin şəxsə bəxş etdiyi imkan daxilində vəzifə verir. Allah çətinliklərdən sonra tezliklə asanlıq verir.

8. Neçə-neçə şəhər və kəndlərin əhalisi öz Rəbbinin və Onun elçilərinin əmrinə asi oldu. Biz də onlarla sərt haqq-hesab çəkib onları mislisiz əzablara düçar etdik.

9. Onlar əməllərinin pis nəticəsini daddılar və aqibətləri ziyana uğramaq oldu.

10. Allah onlar üçün şiddətli əzab hazırlamışdır. Elə isə, ey iman gətirmiş ağıl sahibləri, Allahdan qorxun! Allah sizə xatırlamaya səbəb olan vasitə nazil etmiş

11. və iman gətirib yaxşı işlər görənləri zülmətlərdən nura çıxartmaq üçün Allahın aydın ayələrini sizə oxuyan bir elçi göndərmişdir. Hər kəs Allaha iman gətirib saleh əməllər etsə, onu içində əbədi qalacağı, ağacları altından çaylar axan Cənnət bağlarına daxil edər. Allah ona gözəl ruzi təyin etmişdir.

12. Yeddi göyü və yerdən də onların bənzərini yaradan Allahdır. Allahın fərmanı onların arasında ona görə nazil olur ki, Allahın hər şeyə qadir olduğunu və elminin hər şeyi əhatə etdiyini biləsiniz.

---

6. Ayrıldıqdan sonra qadınların hüquqları: Ayədə ayrıldıqdan sonra qadınların təmin olunması vacib olan bəzi hüquqlarından bəhs edilir. Ayədə öncə boşanmış qadına mənzil hüququnun tanınması ön plana çəkilmişdir: ***“Onlara (boşanmış qadınlara) imkanınız daxilində öz yaşadığınız yerdə***

qalmağa yer verin.” Təbii ki, mənzillə təmin etmək kişinin vəzifəsi olduğu üçün digər təminatları da (yemək və geyim) o ödəməlidir. Daha sonra Allah-taala ayədə buyurur ki, kin-küdurət, düşmənçiliklər və nifrət sizi haqq-ədalətdən uzaq salmasın, kin-küdurətiniz onları mənzil və digər qeyd-şərtsiz təminatlardan məhrum etməyinizə, bununla da özlərini təzyiq altında hiss edib hər şeyi tərk edərək qaçmalarına səbəb olmasın (Qayıdış talağının fəlsəfəsi, Bəqərə-231). Ayənin davamında buyurulur ki, əgər boşanmış qadınlar hamilə olsalar, hamiləlikdən azad olana qədər onların xərcləri ödənilməlidir. Nə qədər ki, hamiləlikdən azad olmayıblar, gözləmə müddətindədirlər, xərcləri və mənzil təminatları ərlərinə vacibdir. Bir hüquq da “uşaq əmizdirən qadın”larla bağlıdır. Əgər qadınlar boşandıqdan sonra övladlarını əmizdirmək istəsələr, ər onların haqqını südün miqdarı və vaxtına uyğun şəkildə ödəməlidir. Çünki çox vaxt körpələr və uşaqlar ayrıldıqdan sonra kişi ilə qadının ixtilaf bəhanəsinə çevrilir. Övladların taleyi ilə bağlı qarşılıqlı müzakirə aparmalarını, onlar haqqında ən uyğun qərarı qəbul etmələrini, ərlə arvadın ixtilafının uşaqların həyatına zərbə vurmamasını, fiziki və zahiri baxımdan ziyan görməmələri üçün çalışmalarını, eyni zamanda psixoloji problemlə qarşılaşmamaları üçün onlardan lazım olan sevgilərini əsirgəməmələrini tələb edir. Ata ilə ana Allahı unutmamalı, köməksiz uşaqların mənafe və maraqlarını öz maraq və qərəzlərinə qurban verməməlidirlər. Əgər boşandıqdan sonra keçmiş ər və arvad uşaqların təminatı və əmizdirilməsi ilə bağlı razılığa gəlməsələr, uşağın əmizdirilməsi başqa bir qadına tapşırılmalıdır.[2213]

12. Kainatın yaranışının məqsədi tanımaqdır: “Bəqərə” surəsinin 29-cu ayəsində “yeddi göy” haqqında məlumat verilmişdir. Lakin burada

---

[2213] Nümunə, c.24, səh.246

“yerdən də onların bənzərini yaradan”, - deyə buyurulur. Ayənin zahiri məzmunundan belə başa düşülür ki, Allah yeddi göy yaratdığı kimi, yeddi yer yaratmışdır. Bu ifadə təfsirçilər arasında fikir ayrılıqlarının yaranmasına səbəb olmuşdur. Bəziləri hesab edir ki, burada Günəş sisteminə daxil olan və biri də Yer olan planetlər nəzərdə tutulur. Başqa bir qrup yerin qatlarına işarə edildiyini iddia edir. Müasir elm torpağın müxtəlif qatlardan təşkil olunduğunu sübuta yetirmişdir. Bəlkə insana da işarə eidldiyini deyə bilərik. Belə ki, insan yerə aid varlıq olsa da yeddi göyün bir nümunəsi olan böyük səmavi ruha malikdir. “Allahın fərmanı onların arasında nazil olur” cümləsinə gəlincə, burada Allahın yerlər və göylərə aid olan və insanın imkanları xaricində olan obyektiv fərmanı nəzərdə tutulur. Onlar Allahın əmri ilə müəyyən sistem üzrə idarə olunurlar. Bu ayə “Səcdə” surəsinin “Bu dünyanın işlərini göydən yerə doğru idarə edir” məzmunlu 4-cü ayəsinə bənzəyir. Nəzər nöqtəsi olan ayənin sonunda əzəmətli yaradılışa işarə edilmişdir. Məqsəd isə insana Allahın elm və qüdrətini tanıtmaq, onun bütün varlığının Allah tərəfindən əhatə edildiyini, bütün əməllərindən xəbərdar olduğunu, qayıdış, Qiyamət və möminlərin müvəffəqiyyəti ilə bağlı vədlərinin həqiqət olduğunu başa salmaqdır. Böyük varlıq sistemini idarə edən bu cür elm və qüdrət sahibi olan Allah boşanma və qadınlaırn hüquqları ilə bağlı hökmlər müəyyən edirsə, deməli, hamısının bir hikməti var.[2214]

[2214] Nümunə, c.24, səh.261; Əl-Mizan, c.19, səh.340

"Təhrim" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ey Peyğəmbər! Zövcələrini razı salmaq üçün Allahın sənə halal etdiyi şeyi nə üçün özünə qadağan edirsən? Allah bağışlayandır, rəhmlidir.

2. Allah (bu cür hallarda) andlarınızdan xilas olmağın yolunu sizə aydınlaşdırmışdır. Allah sizin rəhbərinizdir. O, biləndir, müdrikdir.

3. Bir zaman Peyğəmbər öz zövcələrindən birinə bir sirr verdi. Ancaq o, həmin sirri yaydıqda Allah Peyğəmbərinə bunu xəbər verdi. O da bunun bir qismini zövcəsinə bildirib digər qismini saxladı. Peyğəmbər bunu ona bildirdikdə (zövcəsi) dedi: "Bunu sənə kim xəbər verdi?" O buyurdu: "Bilən və xəbərdar olan Allah xəbər verdi!"

4. (Ey Peyğəmbərin iki zövcəsi) əgər Allaha tövbə etsəniz, (sizin xeyrinizə olar, çünki) hər ikinizin qəlbi haqqdan sapmışdır. Əgər ona qarşı bir-birinizə dəstək versəniz, (bilin ki, heç nə edə bilməzsiniz). Çünki Allah,

Cəbrayıl və əməlisaleh möminlər onun dostu və yardımçısıdırlar. Bunlardan başqa mələklər də onun yardımçılarıdır.

5. Əgər o sizi boşasa, Rəbbi sizin əvəzinizə ona sizdən daha yaxşı zövcələr – müsəlman, mömin, itaətkar, tövbə edən, ibadət edən, hicrət edən dul qadınlar və bakirə qızlar verə bilər.

6. Ey iman gətirənlər! Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan oddan qoruyun! Ona Allahın verdiyi əmrlərə (heç vaxt) asi olmayan (əmrindən əsla çıxmayan), buyurulanları yerinə yetirən amansız və güclü mələklər nəzarət edir.

7. Ey kafir olanlar! Bu gün üzr diləməyin. Çünki ancaq etdiyiniz əməllərin cəzasını çəkəcəksiniz!

"Təhrim" surəsinin ümumi məzmunu: Bu surə dörd hissədən ibarətdir: 1. Peyğəmbərin (s) bəzi həyat yoldaşlarının ona qarşı kələk qurması. 2. Bütün möminlərə ailənin təlim-tərbiyəsinə diqqət yetirmək və günahlara tövbə etmək göstərişinin verilməsi. 3. Kafir və münafiqlərə qarşı cihad. 4. Möminlər üçün iki əməlisaleh və iki əməlisaleh olmayan qadının misal çəkilməsi.[2215]

1-5. Ayələrin nazilolma səbəbi: Sünni və şiə məzhəbinin təfsir, hədis və tarix kitablarında bu ayələrin nazilolma səbəbləri ilə bağlı çoxlu sayda hədis və rəvayət yer almışdır. Onların arasında ən məşhur və münasib olanı budur: Peyğəmbər (s) bəzən həyat yoldaşlarından olan Cəhişin qızı Zeynəbin yanına gedərkən Zeynəb ona bal yedizdirərmiş. Bu xəbər Aişəyə çatanda çox narahat olur. Aişə xanım Peyğəmbərin (s) digər xanımı Həfsə ilə belə qərara gəlirlər ki, Peyğəmbər (s) onların yanına hər gələndə dərhal ondan

---

[2215] Nümunə, c.24, səh.267

“Sən məğafir şirəsi yemisən?”[2216] – deyə soruşsunlar[2217]. Çünki Peyğəmbər (s) ağzından və ya paltarından xoşagəlməz qoxu gəlməməsi üçün çox çalışar, əksinə xoş ətir qoxusu verməyə səy göstərərmiş. Bir gün də Peyğəmbər (s) Həfsənin yanında olarkən o, adəti üzrə bu sözü yenə də deyir. Peyğəmbər (s): “Mən məğafir yeməmişəm, Cəhişin qızı Zeynəb yanında olarkən bal yemişəm. And içirəm ki, bir daha bal yeməyəcəyəm. Ancaq sən bu barədə heç kəsə bir söz demə.” – deyə cavab verir. Həfsə dözməyib bu sirri Aişə xanıma açır, sonradan bunun bir kələk olduğu ortaya çıxır. Peyğəmbər (s) bərk narahat olur, bu ayələr nazil olur və Peyğəmbərin (s) evində bir daha belə bir hadisənin təkrar edilməməsi ilə bağlı göstəriş verilir. Bəzi rəvayətlərdə bu hadisədən sonra Peyğəmbərin (s) bir ay öz həyat yoldaşlarından uzaq durduğu, hətta onları boşayacağı ilə bağlı şayiə gəzdiyi, qadınların da bu xəbərdən qorxuya düşüb peşman olduqları qeyd edilmişdir.[2218] Bəzi təfsirçilər bu nazilolma səbəbini və bu barədə olan rəvayətləri tənqid etmiş və onlara iradlar bildirmişlər.[2219]

6. Ailənin təlim-tərbiyəsi: Bu ayədə insanın öz ailə və övladları qarşısında böyük məsuliyyət daşıdığı qeyd edilmişdir. Ər imkanı daxilində onların təlim-tərbiyəsinə çalışmalı, onları günahdan çəkindirməli, yaxşı əməllər etməyə çağırmalı, təkcə qida təminatı ilə kifayətlənməməlidir. Dövrümüzdə ailələrdən kənarda fitnə-fəsad və günahın cövlan etdiyi bir şəraitdə onların təsirlərinin qarşısını almaq üçün ailənin təlim-tərbiyəsi əsaslı və dəqiq şəkildə proqramlaşdırılmalıdır. Deyilənə görə bu ayə nazil olanda səhabələrindən biri Peyğəmbərdən (s) soruşur: Ailəmizi Cəhənnəm odundan necə qoruyaq? Peyğəmbər (s) buyurur: ***“Onlara Allahın əmrlərini əmr et,***

[2216] Məğafir Hicazda Ğurqut adlı aəacdan axan və xoşagəlməz qoxusu olan bir ağacın şirəsinə deyilir.
[2217] Bu hadisəni Aişə xanım özü nəql etmişdir. Bu plan kitablarda xanımın özünə istinadən nəql edilmişdir.
[2218] Nümunə, c.24, səh.271
[2219] Daha ətraflı məlumat üçün bax: Əl-mizan, c.19, səh.352

qadağan etdiklərini qadağan et. Əgər sənə itaət göstərsələr, deməli, onları qorumusan, yox əgər itaət göstərməsələr, vəzifənə əməl etmisən." Möminlərin əmiri İmam Əli (ə) bu ayə haqqında belə buyurmuşdur: ***"Özünüzə və ailənizə yaxşılıq öyrədin, onları ədəbləndirin."***[2220]

[2220] Nümunə, c.24, səh.293

8. Ey iman gətirənlər! Allaha xalis və səmimi tövbə edin. Ümid var ki, Allah Peyğəmbəri və onunla birlikdə iman gətirənləri xar etməyəcəyi gündə Rəbbiniz günahlarınızdan keçsin və sizi ağacları altından çaylar axan Cənnət bağlarına daxil etsin. Onların nuru önlərindən və sağ tərəflərindən hərəkət edəcəkdir. Onlar deyəcəklər: “Ey Rəbbimiz! Nurumuzu tamamla və bizi bağışla. Sən hər şeyə qadirsən!”

9. Ey Peyğəmbər! Kafirlərə və münafiqlərə qarşı vuruş! Onlarla sərt davran! Onların yeri Cəhənnəmdir. Ora necə də pis aqibətdir!

10. Allah kafirlərə Nuhun arvadı ilə Lutun arvadını misal çəkdi. Onlar Bizim əməlisaleh qullarımızdan iki qulun himayəsi altında idilər. Onlar ərlərinə xəyanət etdilər və bu ikisi ilə (iki peyğəmbərlə) olan əlaqələrinin onlara heç bir faydası olmadı. Onlara: “Daxil olanlarla birlikdə oda daxil olun!” – deyildi.

11. Allah iman gətirənlərə isə Fironun zövcəsini misal çəkdi. O zaman o: “Ey Rəbbim! Mənə Öz yanında – Cənnətdə bir ev tik. Məni Firondan və onun əməlindən xilas et. Məni zalım adamlardan qurtar!” – demişdi.

12. Həmçinin ismətini qoruyan İmran qızı Məryəmi də (misal çəkdi). Biz ona (paltarının yaxasında olan kəsiyinə) Öz ruhumuzdan üfürdük. O, Rəbbinin sözlərini və kitablarını təsdiq etdi və Allahın fərmanına itaət göstərənlərdən oldu.

--

8. Allaha xalis və səmimi tövbə edin: Allah-taala əvvəlki ayədə möminlərə özləri və ailələrini Cəhənənm odundan xilas etmək göstərişi verir. Bu ayədə isə Cəhənnəm odundan xilas olmağın yolunu göstərir. Xilas olmağın birinci yolu günaha tövbə etməkdir. İnsanı oddan xilas edən tövbə

hər cəhətdən xalis olmalı, motivasiyası Allahın əmri, günah qorxusu (günahın ictimai və dünyəvi nəticələri deyil, axirət qorxusu) olmalıdır. Habelə bu tövbə insanı hər zaman Allaha asi olmaqdan saxlamalı, günaha dönüşünün qabağını alan bir tövbə olmalıdır. Tövbə əslində, bir daha etməmək qərarı ilə edilən günaha peşmançılıqdır, habelə xəsarəti aradan qaldırıla bilən işin xəsarətinin aradan qaldırılmasıdır. Bağışlanma diləmək üçün onun sözlə ifadəsi də bu mənanı izhar etmək üçündür. Ümumiyyətlə, tövbənin beş şərti var: günahı tərk etmək, peşmançılıq, gələcəkdə onu bir daha etməməyə qərarlılıq, keçmişdəki xəsarətin aradan qaldırılması və bağışlanma diləmək.[2221] Bir nəfər Peyğəmbərdən (s) "Xalis tövbə nədir?" – deyə soruşduqda belə cavab vermişdir: ***"Bəndə keçmiş günahlarından peşman olur, sonra Allahdan üzr istəyir, bu, sinədən çıxan süd bir daha geri qayıtmadığı kimi, bir də günaha dönməməkdir."***[2222] Bu incə ifadə onu göstərir ki, xalis tövbə insanda keçmişə qayıdış yolunu tamamilə bağlayacaq çevriliş yaradır. Çox vaxt insanda sapmalar baş verir, ancaq geriyə dönüş qapıları tamamilə bağlı olarsa, bir də geri dönməz və dönmək fikrindən daşınar. Buna görə də İslamın təlim-tərbiyə məktəbində tövbə ən mühüm tərbiyəvi əhəmiyyəti olan vasitələrdən hesab edilir. Quran da məhz bu cəhəti qabardaraq özlərini islah etmələri, keçmişdəki xəsarətlərini aradan qaldırmaları üçün bütün günühkarları bu qapıdan daxil olmağa çağırır. İmam Səccad (ə) "Tövbəkərlərin minacatı"nda Allaha belə xitab edir: ***"Mənim Allahım! Sən elə bir varlıqsan ki, bəndənin üzünə rəhmət qapısı açıb adını tövbə qoyaraq buyurmusan: "Allaha xalis və səmimi tövbə edin". Bəs bu***

[2221] Nümunə, c.24, səh.289
[2222] Əl-Mizan, c.19, səh.357

qapı açıldıqdan sonra o qapıdan daxil olmağı unudanların üzrü nə olacaq?”[2223]

10. Nuh və Lutun zövcələri – iki əməlisaleh olmayan qadın: Allah-taala bu ayədə İslam peyğəmbərinin (s) sirrinin ifşa edilməsi və onun narahat olmasına səbəb olan hadisənin qəhrəmanları olan iki qadına xəbərdarlıq edir ki, peyğəmbər zövcəsi olmaq onların cəzalanmasına mane ola bilməz. Necə ki, Nuh və Lut əleyhissalamların həyat yoldaşları xəyanət etdikləri üçün onların bu peyğəmbərlərlə olan əlaqəsi kəsilmiş, əzaba düçar edilmişlər. Bu ayə həm də bütün möminlər üçün bir xəbərdarlıqdır. Onlar günah etdikləri halda, Allah dostlarına qarşı olan sevgiləri onların əzaba düçar olmasına mane ola bilməz. Nuh və Lut əleyhissalamların günahı onda idi ki, düşmənlərlə əlbir olub evlərinin sirrini düşmənə verirdilər. Onlar bundan başqa iffətə zidd olan heç bir səhvə yol verməmişdilər.[2224]

11. Fironun həyat yoldaşı ən üstün Cənnət xanımlarındandır: Fironun həyat yoldaşının adı Asiya, atasının adı isə Müzahim olmuşdur. Asiya Musanın (ə) sehrbazlar qarşısındakı möcüzəsini gördükdən sonra iman nuru qəlbinin dərinliklərinə nüfuz edir və o andan etibarən Allahın elçisinə iman gətirir, ancaq imanını gizli saxlayır. Firon onun imanından xəbər tutduğunda dəfələrlə onu bu işdən çəkindirməyə çalışır. Bu əzmkar xanım isə Firona tabe olmur. Nəhayət, Fironun əmri ilə onun əllərini və ayaqlarını mismarlayır, günəşin altında uzadır və sinəsinin üstünə böyük bir daş qoyurlar. Asiya ömrünün son anlarında belə dua edir: ***“Ey Rəbbim! Mənə Öz yanında – Cənnətdə bir ev tik. Məni Firondan və onun əməlindən xilas et. Məni zalım adamlardan qurtar!”*** Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***“Ən üstün Cənnət xanımları dörd nəfərdir: Xüveylə***

[2223] Nümunə, c.24, səh.295
[2224] Nümunə, c.24, səh.300

qızı Xədicə, Muhəmməd qızı Fatimə, İmran qızı Məryəm və Müzahimin qızı və Fironun həyat yoldaşı Asiya.”[2225]

"Mülk" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Varlıq aləminin hökmranlığı əlində olan şəxs bərəkətli və tükənməzdir. O hər şeyə qadirdir.

[2225] Nümunə, c.24, səh.304

2. Əməl baxımından hansınızın daha yaxşı olduğunu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, yenilməzdir, bağışlayandır.

3. Yeddi göyü bir-birinin üzərində təbəqələr şəklində yaradan Odur. Sən rəhman olan Allahın yaratdığında heç bir ziddiyyət və qüsur görməzsən. Yenə diqqət yetir, heç onda bir çat görürsənmi?

4. Sonra təkrar bax. Nəhayət, gözlərin yorğun və gücsüz halda özünə tərəf dönəcəkdir.

5. Biz aşağı (yaxın) olan göyü parlayan çıraqlarla bəzədik və onları şeytanlara atılan atəşlər etdik. Biz onlar üçün yandırıb-yaxan od əzabı hazırlamışıq.

6. Rəblərinə qarşı çıxanlar Cəhənnəm əzabına düçar olacaqlar. Ora nə pis dönüş yeridir.

7. Onlar oraya atılanda onun qaynayan halda çıxardığı dəhşətli səsi eşidəcəklər.

8. Qəzəbindən az qala parçalanacaq. Hər dəfə bir dəstə oraya atılarkən Cəhənnəmin gözətçiləri onlardan soruşacaqlar: “Məgər sizə qorxudan (bir peyğəmbər) gəlməmişdi?”

9. Onlar deyəcəklər: “Əlbəttə, bizə qorxudan (bir peyğəmbər) gəlmişdi. Amma biz (onu) yalançı sayıb: “Allah heç bir şey nazil etməyib, siz də ancaq böyük bir azğınlıq içindəsiniz” – demişdik.

10. Onlar deyəcəklər: “Əgər biz dinləsəydik və ya anlasaydıq Cəhənnəm sakinlərinin arasında olmazdıq!”

11. Onlar öz günahlarını etiraf edəcəklər. Cəhənnəm sakinləri Allahın rəhmətindən uzaq olsunlar!

12. Öz Rəblərindən (Onu) görmədən qorxanlar üçün bağışlanma və böyük bir mükafat vardır.

“Mülk” surəsinin ümumi məzmunu: Bu surə üç hissədən ibarətdir: 1. Başlanğıc, Allahın atributları, yaranışın heyrətamiz sistemindən bəhs edən ayələr. 2. Qayıdış və Cəhənnəm əzabından bəhs edən ayələr. 3. Kafir və zalımların dünya və axirətin müxtəlif əzabları ilə təhdid edilməsi.[2226]

2. Ölüm və həyat sınaq vasitəsidir: Ölüm yox olmaq və puça çıxmaq olsaydı, haqqında yaradılmaq ifadəsi işlənməzdi. Çünki yaratmaq ifadəsi mövcudluğu, varlığı olan hadisələr haqqında işlədilir. Ölüm əslində, bir dünyadan başqa bir dünyaya keçiddir, bu cəhətdən də şübhəsiz ki, yaradılmış bir hadisədir. Ayədə “ölüm” sözünün “həyat” sözündən əvvəl işlədilməsi ona diqqət yetirilməsinin insanların yaxşı əməl etməsinə daha böyük təsir göstərməsi ilə bağlıdır. İmtahan isə bir növ tərbiyə səciyyəsi daşıyır. İmtahan insanların əməl meydanında səy göstərərək sınanmış, təmizlənmiş və layiqli şəkildə Allaha yaxınlaşmasına səbəb olur. Diqqət çəkən məqam həm də ondan ibarətdir ki, burada əməlin çoxluğu deyil, məhz yaxşı olması imtahanın məqsədi kimi göstərilmişdir. Bu da ona görədir ki, İslam kəmiyyətə deyil, keyfiyyətə əhəmiyyət verir. Əməl nə qədər az olsa da, onun Allah üçün xalis olması önəmli şərtdir. Peyğəmbər (s) belə buyurmuşdur: ***“Yəni sizin hansınızın ağlının çox olduğunu, Allahdan daha çox qorxduğunu, müstəhəb əməlləri az yerinə yetirsə belə, Allahın əmr və qadağalarından daha çox xəbərdar olduğunu yoxlamaq üçündür.”*** Təbii ki, kamil ağıl əməli təmizləyir, niyyəti xalis edir, mükafatı artırır.[2227]

3-4. Varlıq aləmi qüsursuzdur: Bu ayədən iki nəticə hasil etmək olar: Quran haqq yolunun bütün yolçularından istəyir ki, imkanları çatdığı qədər varlıq aləminin sirləri, bu dünyanın qəribəlikləri haqqında dərindən düşünüb diqqətlə araşdırma aparsınlar. O qədər sirlər var ki, ilk baxışda diqqət cəlb

---

[2226] Nümunə, c.24, səh.311
[2227] Nümunə, c.24, səh.316

etmir, onları görə bilmək üçün dəfələrlə baxmaq, baxışı itiləşdirmək lazımdır. Digər tərəfdən, insan bu nizam-intizama nə qədər diqqətlə nəzər salsa, onun nizam-intizamını, bir-birindən asılılığını daha yaxşı dərk edər. Bu zəncirvari sistem onu yaradanın və onu idarə edən elmli və qüdrətli idarəedicinin varlığının bir sübutudr.[2228] Bu ayənin mənası çox genişdir, Allahın yaratdıqlarının istənilən qüsur, nöqsan, nizamsızlıq, ziddiyyət, əyrilik, zəiflikdən uzaq olduğunu göstərir.[2229]

11. Dinləyən qulağı, ayıq təfəkkürü olan insanlar Cəhənnəmdə olmazlar: Bu ayədə Allah Cəhənnəm sakinlərinin dəhşətli aqibətindən danışarkən onların bədbəxtliklərinin əsas səbəbini də qeyd edərək buyurur: Allah insanlara həm eşidən qulaq, ağıl və düşüncə verib, həm də açıq dəlillərlə peyğəmbərlər göndərmişdir. Əgər bu ikisi birləşdirilsə insan səadətə qovuşar. Ancaq insan ona verilən qulaq vasitəsilə dinləməsə, gözləri ilə baxmasa, ağlı ilə düşünməsə, Allahın peyğəmbərlərinin və kitablarının heç bir təsiri olmaz. İmam Əli (ə) belə buyurmuşdur: ***"Cəbrayıl Adəmə (ə) nazil olub buyurdu: "Mən sənə bu üç nemətdən birini seçmək hüququ verirəm. Birini seçib digər ikisini tərk edəcəksən." Adəm (ə) onların nələr olduğunu soruşduqda Cəbrayıl buyurdu: "Ağıl, həya və din." Adəm dedi "Mən ağılı seçirəm". Cəbrayıl həya və dinə "Onu tərk edin", - deyə göstəriş verdi. Onlar isə "Bizə hər yerdə ağılla birlikdə olmaq, ondan ayrılmamaq əmri verilmişdir.", - deyə cavab verdilər. Cəbrayıl dedi: "İndi ki, belədir, əmrə əməl edin". Sonra səmaya qalxdı."*** Bu, ağıl və düşüncənin, həya və dinin ona münasibətinin çox incə təsviridir. Əgər ağıl

[2228] Nümunə, c.24, səh.321
[2229] Quranın ismarışı, c.3, səh.173

dindən ayrı düşsə, havaya sovrular, təhrifə uğrayar. İnsanın günah etməsinə mane olan həya hissi də ağıl və düşüncənin nəticə və səmərələrindəndir.[2230]

13. Sözünüzü gizli saxlasanız da, onu aşkara çıxarsanız da, (fərqi yoxdur,) O, kökslərdə olanı bilir.

14. Yaradan agah və xəbərdar olduğu halda, ola bilərmi ki, (gizlində və aşkarda olanları) bilməsin?

15. Yeri sizə ram edən Odur. Onun səthində gəzin və ruzilərindən yeyin. Hamının qayıdışı Onadır.

16. Səmanın hakiminin əzabından, yerə ayrılıb sizi udmaq və titrəməsinə davam etmək əmri verməyəcəyindən əminsinizmi?

17. Yoxsa səmanın Allahının çınqıl daşlarla dolu qasırğanı üzərinizə göndərməyəcəyinə əminsinizmi? Siz tezliklə mənim təhdidlərimin hansı nəticələr verdiyini biləcəksiniz.

18. Onlardan əvvəlkilər də bunları yalan hesab etmişdilər. (Gör) Mənim əzabım necə oldu!

[2230] Nümunə, c.24, səh.328

19. Məgər onlar başları üzərində gah qanadlarını açan, gah da yığan quşlara baxmırlarmı? Onları səmada yalnız rəhman olan Allah saxlayır. Çünki O, hər şeyi görür.

20. Yoxsa qoşununuz olan adam sizə Allah qarşısında yardım edə biləcək? Kafirlər ancaq aldanmaqdadırlar!

21. Ya da O, ruzisini kəssə, sizə kim ruzi verəcək? Lakin onlar təkəbbür göstərməkdə və həqiqətdən qaçmaqda israr edirlər.

22. Üzü üstə düşüb sürünən adam hidayətə daha yaxındır, yoxsa düz yolda dimdik addımlayan şəxs?

23. De: “Sizi yaradan, sizə qulaq, göz və ürək verən Odur. Ancaq az şükür edirsiniz!”

24. De: “Sizi yer üzünə yayan da Odur. Siz Onun hüzuruna toplanılacaqsınız!”

25. Onlar deyirlər: “Əgər doğru deyirsinizsə, bu Qiyamət vədi nə vaxt olacaq?”

26. De: “Bunu yalnız Allah bilir. Mən isə yalnız aşkar qorxudanam!”

---

15. Yer insana ram edilmişdir: “Zəlul” (ram edilmiş) sözü yer haqqında işlədilmiş ən əhatəli ifadədir. Çünki bu sürətlə hərəkət edən itiqaçan minik elə sakit görünür ki, sanki heç tərpənmir. Yerin dörd hərəkət formasına malik olduğu qeyd edilir. Bu hərəkətlərdən üçü onun öz oxu ətrafına fırlanması, günəşin ətrafına fırlanması və günəş sistemi ilə birlikdə qalaktika daxilində hərəkətinə aiddir. Bu hərəkətlərində həddən artıq yüksək sürətə malik olmasına baxmayaraq, yer elə rahat və mülayimdir ki, əgər onun hərəkət etməsi ilə bağlı qəti dəlillər olmasaydı, bu fakta inanmazdı. Digər tərəfdən, Yer nə həyat üçün əlverişsiz olacaq dərəcədə sərtdir, nə də

üzərində olanları batıracaq qədər yumşaq. Həyat üçün tam əlverişli şəraitə malikdir. Fərz edin, əgər yer üzü tamamilə hər şeyi dərinliyə dartan bataqlıq, insanın dizə qədər batdığı yumşaq qum, iti və sərt daşlardan ibarət olsaydı, yerin sakit və rahatlıq mənbəyi olmadığı o zaman bilinərdi. Digər tərəfdən onun Günəşlə olan məsafəsi istinin onu yandıracağı qədər yaxın, hər bir şeyin donacağı qədər uzaq deyil. Yer kürəsində hava təzyiqi insanın bütün rahatlığını təmin edəcək dərəcədədir. Yerin cazibəsi insanın sümüklərini sındıracaq qədər yüksək, səmaya tullayacaq qədər aşağı deyil. Xülasə, hər cəhətdən insana ram edilmişdir. Çox maraqlıdır ki, Allah yerin ram edilən olduğunu qeyd etdikdən sonra onun çiyinləri üzərində yeriməyi əmr edir. Yer o qədər sakit və rahatdır ki, insan onun çiyinləri üzərində gəzə və tarazlığını saxlaya bilir.[2231]

19. Quşlar qəribə varlıqlardır: Bu ayədə Allahın başqa bir nişanəsinə, yəni quşlar və onların heyrətamiz uçuşuna işarə edilir. Bu ağır cisimlər cazibə qanununun əksinə olaraq yerdən qalxır, asanlıqla göydə uçur, saatlarla, bəzən həftələrlə, aylarla öz hərəkətlərinə davam edir, gah aram-aram, gah da sürətlə yollarına davam edirlər. Bəziləri uçarkən qanadlarını açır, bəziləri isə sürəkli qanad çalır. Dördüncü qrup isə bir müddət qanad çalır, sürət yığmaq üçün isə qanadlarını tamamilə yığır və hava okeanında irəli şığıyır. Hamısı uçsa da, hər birinin özünəməxsus proqramı var.[2232]

22. Tövhid yolunun ayaq üstə dimdik gəzən yolçuları: Bu ayədə kafir və möminlərin vəziyyəti maraqlı bir misalla təsvir edilmişdir. İmansız, inadkar və təkəbbürlü zalımlar hamar olmayan, əyri-üyrü, enişli-yoxuşlu yerdə üzü üstə yerə düşmüş, əlləri və ya sinəsi ilə hərəkət edən, yolu doğru-düzgün görmədən və özünü idarə edə bilmədən, maneələrdən xəbərsiz, çox

[2231] Nümunə, c.24, səh.337
[2232] Nümunə, c.24, səh.343

ləng irəliləyən, gah gedib, gah da duraraq sürünən adama bənzədilmişdir. Mömin isə hamar, təmiz və düz yolda sürətlə, qətiyyətlə, tam məlumatlı şəkildə irəliləyən adama bənzədilmişdir. İmansız insanlar özlərini istəyən, eqoist, inadkar olduqları, yalnız öz maddi və keçici mənfəətlərini düşündükləri və yolları da yalnız ehtiraspərəstlik yolu olduğu üçün daşlıqda sinəsi üzərində əl-ayağı ilə hərəkət edən adama bənzəyirlər. İmanları sayəsində nəfslərinin istəklər buxovundan azad olan şəxslər dərin baxışa malikdirlər, onların yolları da saf və hamardır.[2233] Bəzi hədislərdə İmam Əlinin (ə) imam olduğunu inkar edənlər birinci qrupun mənsublarından hesab edilmişdir.[2234]

[2233] Nümunə, c.24, səh.349
[2234] Əl-Mizan, c.19, səh.378

27. Kafirlər onu (Allahın vədini) yaxından gördükdə üzləri qaralacaq, çirkin görkəm alacaq və onlara: “Sizin durmadan istədiyiniz bax budur!” – deyiləcəkdir.

28. De: “Deyin görüm, əgər Allah məni və mənimlə birlikdə olanları məhv edərsə və ya bizə mərhəmət göstərərsə, kafirlərə ağrılı-acılı əzabdan kim sığınacaq verəcək?”

29. De: “O, Rəhman olan Allahdır! Biz Ona iman gətirmiş, Ona təvəkkül etmişik. Tezliklə kimin aşkar azğınlıq içində olduğunu biləcəksiniz.

30. De: “Deyin görüm, əgər suyunuz yerin dibinə çəkilsə, kim sizə axar və dadlı su gətirə bilər?”

"Qaləm" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Nun. And olsun qələmə və yazdığınıza!

2. Məhz Rəbbinin neməti sayəsində sən dəli deyilsən.

3. Sənin üçün böyük və tükənməz mükafat hazırlanmışdır.

4. Sən böyük və yüksək əxlaq sahibisən!

5. Tezliklə sən də görəcəksən, onlar da –

6. hansınızın dəli olduğunu.

7. Rəbbin Onun yolundan azanları və haqq yolda olanları hər kəsdən yaxşı bilir.

8. Elə isə yalan sayanlara itaət göstərmə.

9. Onlar sənin güzəştə getməyini, qarşılığında özlərinin də güzəştə getmələrini istəyirlər.

10. İtaət etmə tez-tez and içənə, alçağa,

11. eyib axtarana, söz gəzdirənə,

12. xeyrə mane olana, həddi aşana, günahkara,

13. kin saxlayana, çox yeyənə, kobud və bədnama –

14. Məbada çoxlu var-dövlət və oğul-uşaq sahibi olduğu üçün (ona itaət göstərəsən).

15. Ayələrimiz ona oxunduğu zaman: “Bunlar keçmişdəkilərin uydurduqları əfsanələrdir!” – deyər.

---

40. Axar suyu sizin ixtiyarınıza kim verir? Birilik ki, torpaq iki əsas təbəqədən ibarətdi: Suyu özünə hopduran yumşaq təbəqə və sərt təbəqə. Su sərt təbəqənin altında toplanır. Bütün bulaqlar, quyular, kəhrizlər, bu iki təbəqə sayəsində meydana gəlir. Əgər yer üzü dərinliklərinə qədər tamamilə yumşaq və sukeçirən olsaydı, su tamamilə hopub yerə sovrular və onu əldə etmək qeyri-mümkün olardı. Əgər yer üzü tamamilə sərt olsaydı, su yerin üzərində durardı və yer üzü başdan-başa bataqlığa çevrilərdi, ya da axıb dənizlərə tökülərdi və bütün yeraltı ehtiyatlar əldən çıxardı. Bu, Allahın bütün mövcudata bəxş etdiyi rəhmətinin kiçik bir nümunəsidir. İnsanın ölümü və həyatı bu nemətdən çox-çox asılıdır. Əhli-beyt (ə) hədislərində bu ayədə İmam Mehdinin (ə) zühuruna və onun bütün dünyanı ədalətlə dolduracağına işarə edildiyi qeyd edilmişdir. Bir hədisində İmam Baqir (ə) nəzər nöqtəsi olan ayənin təfsiri ilə bağlı belə buyurmuşdur: ***“Bu ayə Allahın ədaləti ilə qiyam edəcək bir imam haqqında nazil olub. O, deyəcək: “Əgər sizin imamınız qeybə çəkilsə, siz onun yerini bilməzsiniz, sizə göydən və yerdən məlumat verən, halal və haramı izah edən imamı kim göndərər?”*** sonra buyurmuşdur: ***“And olsun Allaha! Bu ayənin yozumu hələ nazil olmayıb, nəhayət gələcək.”*** Bu məzmunda hədislər çoxdur. Əlbəttə, onların hamısının tətbiq nümunəsi olduğunu unutmamalıyıq. Başqa sözlə desək, bu ayənin zahiri məzmunu mövcudatın

həyat mənbəyi olan axar suya, batini isə insan cəmiyyətinin həyat mənbəyi olan imama, onun elminə və cahanşümul ədalətinə aiddir.[2235]

"Qaləm" surəsinin ümumi məzmunu: Bu surədə Allah Peyğəmbərə (s) onu dəli adlandıran müşriklərin təhqirinə cavab olaraq təsəlli verir, onun böyük əxlaq sahibi olduğunu, aqibətinin xeyirli olduğunu müjdə verir. Ona müşriklərlə razılığa gəlməyi, onlara tabe olmağı, missiyasının çətinliklərinə dözməsini və Allahın fərmanını gözləməsini göstəriş verir.[2236]

4. Peyğəmbər yüksək əxlaq sahibidir: Peyğəmbərlik missiyasını yerinə yetirərkən Peyğəmbərin (s) uğur qazanmasına səbəb olan ən mühüm amillərdən biri onun əxlaqı olmuşdur. Malik olduğu yüksək əxlaqi keyfiyyətləri, ali insani dəyərləri, dostlarını heyran edir, hətta ən qatı düşmənlərini də təsir altına salır, ona təslim olmağa məcbur edirdi. Əgər bunu Peyğəmbərin (s) əxlaq möcüzəsi adlandırsaq, yanılmarıq. Peyğəmbərin (s) gözəl əxlaqı, mehribanlığı, fədakarlığı, təqvası haqqında çox əhvalat və xatirələr nəql edilmişdir. Hədislərinin birində İmam Hüseyn (ə) belə buyurur: Bir gün atam Əmirəlmöminindən (ə) Peyğəmbərin (s) xüsusiyyətləri və əxlaqı haqqında soruşdum, o da mənə geniş cavab verdi. İmamın cavabının bir hissəsində belə deyilir: ***"Peyğəmbər yoldaşlarırna qarşı xoşüz, gülərüz, mülayim idi, əsla kobud, daşürəkli, aqressiv, pis danışan, eyib axtaran, yaltaq olmamışdır. Heç kəsi məyus etməmişdir, evinə gedən məyus halda geri qayıtmamışdır. Özünü üç xislətdən xilas etmişdi: Söz savaşına çıxmaz, çox danışmaz, ona aid olmayan işə müdaxilə etməzdi. Üç davranışı özünə yaxın buraxmazdı: insanları məzəmmət etməz, danlamaz, camaatın gizli eyib və xətalarının üstünü açmazdı, yalnız Allahdan savab yazılacağına ümidi olduğu mövzulardan danışardı…***

[2235] Nümunə, c.24, səh.358
[2236] Əl-mizan, c.19, səh.383

Qərib və tanımayan adam kobud danışıb nə isə istəsəydi, dözümlülük göstərib yoldaşlarına buyurardı: "Kimin bir ehtiyacı olduğunu görsəniz, verin". Heç kəsin sözünü kəsməzdi, sözünün sona yetməsini gözləyərdi."[2237]

16. Biz tezliklə onun burnuna rüsvayçılıq damğası vuracağıq.

17. Biz "bağ sahiblərini" sınağa çəkdiyimiz kimi onları da sınağa çəkdik. O zaman (bağ sahibləri) and içmişdilər ki, səhər tezdən meyvələri (ehtiyaclı insanların xəbəri olmadan) yığacaqlar

18. və heç bir istisna da etməmişdilər.

19. Onlar yuxuda ikən Rəbbinin əzabı onların bağını bürüdü.

20. O yamyaşıl bağ zülmət gecə kimi (qapqara) oldu.

21. Səhər bir-birlərini çağırdılar:

22. "Əgər meyvələri yığacaqsınızsa, bağınıza erkən gedin!"

23. Onlar yollandılar, (yol boyu da) bir-birlərinə (belə) pıçıldayırdılar:

24. "Bu gün oraya – yanınıza heç bir kasıb girməsin!"

[2237] Nümunə, c.24, səh.377

25. Onlar səhər tezdən qərara gəlmişdilər ki, var gücləri ilə yoxsullara mane olsunlar.

26. Onu (bağı) görəndə isə dedilər: “Həqiqətən biz azmışıq!

27. Xeyr! (Hər şey əlimizdən çıxıb) Biz məhrum olmuşuq!”

28. Onların ən ağıllısı dedi: “Məgər mən sizə demədimmi, nə üçün Allaha təriflər söyləmirsiniz?”

29. Onlar dedilər: “Rəbbimiz pakdır, müqəddəsdir! Həqiqətən də, biz özümüzə zülm etmişik!”

30. Sonra dönüb bir-birlərini qınamağa başladılar

31. (və) dedilər: “Vay halımıza! Biz həddi aşmışıq!

32. Ümidvarıq ki, Rəbbimiz bizə onun əvəzinə ondan daha yaxşısını versin. Çünki biz Rəbbimizi sevirik”.

33. (Dünyadakı) əzab belədir. Axirət əzabı isə ondan da böyükdür! Kaş biləydilər!

34. Müttəqilər üçün Rəblərinin dərgahında nemət dolu Cənnət bağları var.

35. Biz heç möminləri günahkarlara tay tutarıqmı?

36. Sizə nə olub, necə hökm verirsiniz?

37. Yoxsa sizin elə bir kitabınız vardır ki, ondan oxuyursunuz?

38. Seçdiyiniz hər bir şeyin sizin olduğu(nu ondanmı oxuyursunuz)?

39. Yaxud Bizimlə Qiyamət gününədək əhd bağlamısınız ki, hökm etdiyiniz hər şey sizin olacaqdır?

40. Onlardan soruş gör, hansı buna zəmanət verir?

41. Yoxsa onların Allaha şərik qoşduqları məbudları vardır (və onlar üçün şəfaətçi olacaq)? Əgər doğru danışırlarsa, onda məbudlarını gətirsinlər.

42. Bir gün (dəhşətdən) baldırlar çılpaqlaşacaq və onlar səcdəyə çağırılacaqlar, lakin bacarmayacaqlar (səcdə etməyə qüdrətləri çatmayacaq).

17-33. İnhisarçılıq hissi varlıların ən böyük bəlasıdır: İnsanın istər-istəməz dünya malına sevgisi olur. Yaşayış dünya malı ilə təmin olunduğu üçün ona qarşı həddində rəğbət məzəmmət edilmir. Ən başlıca cəhət ehtiyaclıları da nəzərə almaqdır. İnsan təkcə Allahın vacib hüquqlarını ödəməklə kifayətlənməməlidir, müstəhəb sədəqələrdən də uzaq durmamalıdır. Hədislərdə bağ və əkini olanların yığın zamanı ehtiyaclılara da pay ayırmaları xüsusilə göstəriş verilmişdir (Ənam-141). Var-dövlətə sevgi ifrat həddə olduqda inhisarçılıq hissi güclənir, insan həmin hissdən həzz almağa başlayır. Bu isə müasir cəmiyyətlərdə də çox rəst gəlinən böyükj bəlalardandır. Hətta onu təhlükəli xəstəlik növü də hesab etmək olar. Bu ayədə işlədilən ***"bağ sahibləri"***nin simasında əl-ələ verib kasıbların məhrum edilməsi üçün plan cızan, onlar görmədən məhsul götürməyə və ondan geniş şəkildə istifadə etmək istəyən varlıların inhisarçılıq ruhiyyəsi aydın şəkildə təsvir edilmişdir. Çox vaxt məhrum edilmiş kasıbların ah-naləsi yandırıcı ildırıma çevrilib inhisarçı varlıların həyat xırmanına od vurur, çox vaxt bu ildırımlar inqilablar formasında təzahür edir, varlılar inanmadıqlarını öz gözləri ilə əyani şəkildə görürlər, fəryadları göyə ucalır, keçmiş günah və səhvlərindən peşiman olmaqdan, tövbə etməkdən dəm vurmağa başlayırlar. Bu ayədə həm də belə məlum olur ki, günahla ruzinin kəsilməsi arasında yaxın əlaqə var. İmam Baqir (ə) belə buyurmuşdur: "Bəzən insan günah edir, nəticədə, ruzisi kəsilir." Bu cümlədən sonra İmam (ə) nəzər nöqtəsi olan surənin 17-19-cu ayələrini buyurmuşdur.[2238] İbn Abbasa deyirlər: Bəziləri səhvən belə düşünürlər ki, insanın etdiyi günah

---

[2238] Nümunə, c.29, səh.404

onun ruzidən məhrum olmasına səbəb olur. İbn Abbas deyir: "And olsun özündən başqa tanrı olmayan Allaha! Bu məsələ Quranda parlaq günəşdən də aydın təsvir edilib. Allah "Qaləm" surəsində ondan bəhs edir." Sonra bağ sahiblərinin əhvalatını nəql edir.[2239]

42. Səcdəyə dəvət ediləcəkləri, ancaq bunu bacarmayacaqları gün: Bir qrup təfsirçi "Baldırlar çılpaqlaşacaq" cümləsi ilə vəhşət, qorxu, dəhşət hissinə eyham vurulduğunu qeyd etmişdir. Adətən, ərəblər çətin bir işlə qarşılaşdıqda ətəklərini bellərinə bağlayır, nəticədə, baldırları açıq qalır. Ayədə sonra buyurulur ki, həmin gün insanlar Allah qarşısında səcdə edib təvazökarlıq göstərməyə dəvət edildikdə möminlər səcdə edəcək, münafiqlər isə varlıqlarını sarmış dəhşət və qorxudan səcdə etməyi unudacaq, Allah qarşçısında səcdə edə bilməyəcəklər. Burada ortaya belə bir sual çıxır: Əgər Qiyamət günü vəzifə və mükəlləfiyyət yeri deyilsə, bəs nə üçün hər kəs səcdə etməyə çağırılacaq? İmam Rza (ə) belə buyurmuşdur: ***"Qiyamətdə Allahın nuru üzərindən bir pərdə götürüləcək, onun əzəmətindən möminlər səcdəyə qapanacaq, münafiqlər isə arxaları quruduğu üçün bunu edə bilməcəklər."*** Başqa sözlə desək, həmin gün Allahın əzəməti aşkar olacaq və bu əzəmət möminləri səcdə etməyə çağıracaq, onlar da səcdəyə qapanacaqlar, ancaq münafiqlər həmin səadətdən məhrum olacaqlar.[2240]

[2239] Əl-Mizan, c.19, səh.393
[2240] Nümunə, c.24, səh.413

43. gözləri yerə dikiləcək, özlərini də zillət və xarlıq bürüyəcəkdir. Halbuki onlar daha əvvəl sağ-salamat olduqları halda, səcdə qılmağa dəvət olunurdular.

44. İndi bu sözü yalan sayanları Mənim öhdəmə burax. Biz onları bilmədikləri bir yöndən tədricən əzaba doğru aparacağıq.

45. Mən onlara (qayıtmaq üçün) möhlət verirəm. Çünki Mənim planların çox güclü və dəqiqdir.

46. Yoxsa sən onlardan ödəməyə çətinlik çəkdikləri bir haqq istəyirsən?

47. Yoxsa qeybin sirləri onların əlindədir və onlar da onu yazırlar?

48. İndi ki, belədir, sən öz Rəbbinin fərmanını gözlə və balıq sahibi (Yunus) kimi olma! O zaman o, son dərəcə qəm-qüssə içində Rəbbini çağırmışdı.

49. Əgər Rəbbinin mərhəməti dadına yetməsəydi, o, (balığın qarnından) qınanmış halda çölə atılacaqdı.

50. Lakin Rəbbi onu seçib əməlisalehlərdən etdi.

51. Kafirlər Quranı eşitdikləri zaman öz baxışları ilə az qalır səni məhv etsinlər. Onlar deyirlər: “O, dəlidir!”

52. Halbuki bu (Quran) aləmlər üçün ayıldıcı vasitədən başqa bir şey deyildir.

"Haqqə" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Baş verəcək gün!

2. “Baş verəcək gün” nə deməkdir?

3. Sən nə biləsən o baş verəcək gün nə deməkdir?

4. Səmud və Ad qövmləri Allahın əzici əzabını inkar etdilər (acı nəticəsini də gördülər.)

5. Səmud qövmü qarşısıalınmaz bir əzabla məhv edildi.

6. Ad qövmü isə hədsiz soyuq, şiddətli və qarşısıalınmaz bir küləklə həlak edildi.

7. Allah bu dağıdıcı tufanı yeddi gecə, səkkiz gün fasilə vermədən onların üstündə əsdirdi. (Sən orada olsaydın,) həmin tayfanın o tufanın içində içi boş və çürümüş xurma ağacları kimi yerə düşüb həlak olduğunu görərdin.

8. Sən onlardan qalan bir kimsəyə heç rast gəlmisənmi?

-

51. Nəzər varmı? İnsanların çoxu bəzi gözlərin xüsusi təsirə malik olduğunu, nəyəsə təəccüblə baxdıqda həmin şeyə xəsarət yetirəcəyinə və ya onu məhv edəcəyinə, insanı xəstə və ya dəli edəcəyinə inanırlar. Bu inanc əqli cəhətdən mümkünsüz bir şeydir. Bu gün alimlərin çoxu bəzi gözlərdə çox böyük təsir gücünə malik, hətta xüsusi təlim və məşqlər vasitəsilə daha da təkmilləşdirilə bilən maqnit qüvvəsinin olduğu qənaətindədirlər. Gözlərin maqnit gücü vasitəsilə qarşı tərəfdəkini hipnoz etmək mümkün haldır. Bu gözlər görünməz lazer şüalarının mövcud olduğu bir dünyada heç bir dağıdıcı silahın qadir olmadığını edə bilər. Qarşı tərəfə xüsusi dalğalar vasitəsilə təsir göstərən gözlərdə hər hansı bir gücün olması təəccüblü bir şey deyil. Bəzi fərdlərin bu cür sirli gücə malik gözləri olması, insanları, heyvanları və ya hər hansı əşyanı bir baxışla məhv etməsi faktını gördüyünü

çox adamın dilindən eşitmək olar. Deməli, bu reallığı inkar etməkdə israrlı olmaq əvəzinə onun elmi və əqli cəhətdən mümkün olduğunu qəbul etmək lazımdır. Hədislərdə bu fakt müxtəlif formalarda təsdiq edilmişdir. Bir gün Əsma bint Ümeys Peyğəmbərə (s) deyir: "Arada Cəfərin (ərinin) uşaqlarına göz dəyir. Onlar üçün ruqyə[2241] götürə bilərikmi?" Peyğəmbər (s) buyurur: "Bəli, heç bir eybi yoxdur. Əgər nə isə qəza və qədərin qarşısını ala bilsəydi, o nəzər olardı." İmam Əli (ə) hədislərinin birində belə buyurur: Peyğəmbər (s) İmam Həsən (ə) və İmam Hüseyn (ə) üçün ruqyə götürüb bu duanı oxudu: "Sizi ölümün, ziyanverici heyvanların, paxıllıq edən hər bir paxıl və pis gözdən Allahın gözəl sözləri və adlarına tapşırıram." Sonra Peyğəmbər (s) bizə baxıb buyurdu: "Həzrət İbrahim İsmayıl (ə) və İshaq (ə) üçün bu cür dua etdi". Başqa bir hədisində İmam Əli (ə) belə buyurmuşdur: "Nəzər doğrudur, onu dəf etmək üçün duadan istifadə etmək də doğrudur." Bir məsələni də qeyd etməliyik ki, dualar bir çox dağıdıcı işlərə təsir göstərib onların təsirini aradan qaldırdığı kimi, Allahın iznilə bu duaların və istəklərin gözlərin sirli maqnit gücünün təsirinin qarşısını almasını heç də təəccüblü deyil. Əlbəttə, nəzəri qəbul etmək heç də bu demək deyil ki, bu fakta əsaslanıb xurafatlarla məşğul olmağa, nəticədə, şəriətin göstərişlərinə zidd hərəkət etməyə, mövzunun əsl mahiyyətindən xəbəri olmayan insanlarda şəkk-şübhə yaratmağa icazə verilir. Bir çox həqiqətlərin təhrifi və onlara xurafatların qarışdırılması təsəvvürlərdə həmin həqiqətlərlə bağlı mənfi təsir yaratması bunun əyani sübutudur.[2242]

"Haqqə" surəsinin ümumi məzmunu: Bu surəni üç mövzu üzrə ümumiləşdirmək olar: 1. Qiyamət və onun biz çox xüsusiyyətləri. 2. Keçmişdə yaşamış kafir qövmlər, xüsusilə Ad, Səmud və Firon qövmləri,

[2241] Nəzər üçün yazılıb üstdən asılan dua
[2242] Nümunə, c.24, səh.426

Qiyaməti inkar edən bütün kafirlərin qorxudulması. 3. Quranın əzəməti, Peyğəmbərin (s) məqamı və onu yalançı sayanların cəzası.[2243]

9. Firon da, ondan əvvəlkilər də, alt-üst olmuş kəndlərin sakinləri (Lut qövmü) də böyük günahlar işlətmişdilər.

10. Onlar öz Rəblərinin elçisinə asi oldular, O da onları şiddətli) bir əzaba düçar etdi.

11. Su aşıb-daşdıqda Biz sizi gəmiyə mindirdik.

12. Sizə bir xatırlatma olsun və dinləyən qulaqlar onu anlayıb dərk etsinlər deyə (belə etdik).

13. Sur bircə dəfə üfürüləcəyi,

[2243] Nümunə, c.24, səh.433

14. yer və dağlar qaldırılıb qəfildən bir-birinə çırpılıb parça-parça olacağı zaman –

15. həmin gün “böyük hadisə” qopacaq.

16. Göy yarılacaq və həmin gün o, süstləşib yerə töküləcək.

17. Mələklər isə onun ətrafında olacaqlar. O gün sənin Rəbbinin Ərşini səkkiz mələk bütün bunların üzərindən daşıyacaqdır.

18. O gün siz Allahın hüzuruna gətiriləcəksiniz və heç bir işiniz gizli qalmayacaq.

19. Əməl dəftəri sağ əlinə verilən (sevincindən) qışqırıb deyəcək: “Əməl dəftərimi alın oxuyun!

20. Mən əmin idim ki, etdiklərimin hesabına qovuşacağam”.

21. O, xoşbəxt həyat sürəcəkdir

22. uca bir Cənnətdə,

23. (elə bir Cənnətdə ki,) onun meyvələri əlçatan olacaqdır.

24. (Onlara deyiləcək:) “Keçmiş günlərdə etdiyiniz əməllərə görə nuşcanlıqla yeyin-için!”

25. Əməl dəftəri sol əlinə verilən adam isə deyəcəkdir: “Kaş əməl dəftərimi mənə verməyəydilər!

26. Hesabımdan da xəbərim olmayaydı!

27. Kaş ölümüm yetişəydi!

28. Var-dövlətim məni zəngin etmədi.

29. Qüdrətim də məhv olub getdi”.

30. (Mələklərə deyiləcək): “Onu yaxalayıb zəncirləyin!

31. Sonra da Cəhənnəmə atın!

32. Onu uzunluğu yetmiş dirsək olan zəncirə vurun!

33. Çünki o, Böyük Allaha iman gətirmirdi,

34. və (heç kəsi) kasıbı yedirtməyə rəğbətləndirmirdi.

-

11. Su aşıb-daşanda sizi gəmiyə mindirdik: Bu ayədə Nuh qövmünün aqibəti və onlara göndərilən ağrılı-acılı əzabdan bəhs edilir. Həmin vaxt qara buludlar göy üzünü örtmüş, sonra göydən sel yağırmış kimi yağılş yağmağa başlamışdı. Yerdəki bulaqlar da aşıb-daşmağa başlamışdı. Hər ikisi birləşərək qarşılarına çıxanı altına almış, yalnız Nuha iman gətirənlər xilas olmuş və onunla birlikdə gəmiyə minmişdilər. "Sizi mindirdik" ifadəsi ilə bizim ata-babalarımıza işarə edilmişdir. Çünki onlar xilas olmasaydılar, biz də əsla olmazdıq.[2244]

12. Dinləyən və eşidən qulaqlar: Bəzən elə olur ki, insan bir sözü eşidib onu tez də unudur. Adi danışıq dilimzdə də "Bir qulağından alıb digər qulağından verdi" ifadəsi işlədirik. Bəzən isə eşitdiyimiz haqqında düşünür, qəlbimizə hopdurur, həyat yoluna çıraq edirik. Deyilənə görə bu ayə nazil olduqdan sonra İslam peyğəmbəri (s) buyurmuşdur: ***"Rəbbimdən istədim ki, onu (eşidən qulaqları), Əlinin qulaqları etsin."*** Ondan sonra İmam Əli (ə) buyurmuşdur: ***"Mən ondan sonra Allah rəsulundan (s) nə eşitdimsə, hamısı yaddaşıma həkk oldu, heç zaman da unutmadım."*** Bu, Peyğəmbərin (s) sirlərinin sirdaşı və bütün elmlərinin varisi olan o böyük öndər üçün çox böyük bir hədiyyə olmuşdur. Buna görə də Peyğəmbərdən (s) sonra İslam cəmiyyəti elmi məsələlərdə hansı problemlə qarşılaşsaydı, müxalif və tərəfdar olmasından asılı olmayaraq, ona müraciət edər, probleminin həllini ondan soruşarmışlar. Bu barədə mənbələrdə çox faktlara rast gəlmək olar.[2245]

[2244] Nümunə, c.24, səh.443
[2245] Nümunə, c.24, səh.444

17. Ərş və onun səkkiz daşıyıcısı: Ayədə bu daşıyıcıların mələklər olacağı açıq şəkildə qeyd edilməmişdir. Ancaq kontekstdən onların mələklər olduğu məlum olur. Habelə həmin səkkiz daşıyıcının səkkiz mələk, yoxsa səkkiz böyük və ya kiçik mələklər qrupu olduğu da dəqiq göstərilmir. Hədislərdə indi həmin daşıyıcıların dörd mələk (və ya mələklər qrupu) olduğu, Qiyamətdə isə səkkizə çatacaqları buyurulmuşdur. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: "İndi onlar dörd nəfərdir, Qiyamət günü isə onlar dörd digər mələklə gücləndiriləcək və sayları səkkiz nəfər olacaq." Doğrusu, "Ərş" nədir? Bu mələklər kimlərdir? Əslində "Ərş" heç də fiziki mənada başa düşülən səltənət taxtı deyil, bütün varlıq aləmidir, Allahın əmrlərini icra edən mələklər tərəfindən idarə edilən hökumətidir. Belə bir ehtimal da var ki, Allahın bu idarəediciləri mələklərdən daha üstün varlıqlardır. Belə ki, hədislərdə də qeyd edilmişdir ki, Qiyamət günü Allahın ərşini daşıyanlar əvvəllərdən olan dörd nəfər və axırdan olan dörd nəfərdir. Əvvəllərdən olan dörd nəfər Nuh, İbrahim, Musa və İsa əleyhimissalamlar, axırdan olan dörd nəfər isə Muhəmməd, Əli, Həsən və Hüseyn əleyhissalamlardır. Şübhəsiz ki, Qiyamət gününə aid olan hadisələr bu məhdud və qaranlıq dünyanın sakinləri olan bizlər üçün dəqiq və aydın olmadığı üçün Ərşin daşıyıcıları ilə bağlı məsələ də dəqiq məlum deyil. Qeyd etdiklərimiz Allahın ayələrinin işığında yürütdüyümüz xəyaldır. Onların həqiqətini həmin vaxt görəcəyik.[2246]

[2246] Nümunə, c.24, səh.451

35. Buna görə də bu gün burada onun mehriban dostu yoxdur.

36. Qan və irindən başqa yeməyi də yoxdur.

37. Onu ancaq günahkarlar yeyər”.

38. And olsun həm gördüklərinizə,

39. həm də görmədiklərinizə!

40. Bu, Quran möhtərəm bir elçinin sözüdür.

41. O, şair sözü deyildir! Amma az inanırsınız!

42. O, kahin sözü də deyildir! Hərçənd ki, az diqqət yetirib xatırlayırsınız!

43. O, aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir!

44. Əgər o, bir sözü özündən uydurub Bizə aid etsəydi,

45. Biz onu öz qüdrətimizlə yaxalayar,

46. sonra da şah damarını kəsərdik.

47. İçərinizdən heç kəs də buna mane ola bilməzdi.

48. Bu, əlbəttə, müttəqilər üçün bir xatırlatmadır.

49. Bəzilərinizonu yalan saydığını da bilirik!

50. Bu, kafirlər üçün bir peşmançılıq səbəbidir.

51. Bu, əsl həqiqətdir.

52. Elə isə Böyük Rəbbinin adına təriflər de!

"Məaric" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. İstəyən kimsə baş verən əzabı istədi –

2. Bu əzab kafirlər üçündür. Heç kəs onu dəf edə bilməz.

3. O, (mələklərin enib qalxdığı) pillələr sahibi olan Allah tərəfindəndir.

4. Mələklər və Ruh (Allaha yaxın mələk) Ona doğru sayı əlli min ilə bərabər bir gün ərzində qalxırlar.

5. Sən təmkinlə səbr et!

6. Çünki onlar həmin günün uzaqda olduğunu güman edirlər.

7. Biz isə onun yaxın olduğunu görürük.

8. O gün göy ərimiş metal kimi olacaqdır.

9. Dağlar da didilmiş rəngli yuna bənzəyəcək.

10. Dost dostunu axtarmayacaq.

44-47. Allahın adından yalan danışmağa möhlət yoxdur: Buradan ortaya belə bir sual çıxır: Əgər kimsə Allahın adından yalan danışırsa, Allah onu dərhal cəzalandırmalı, məhv etməli, peyğəmbərləri yalançı sayanlar tez bir zamanda həlak olmalıdırlar. Halbuki bunun belə olmadığının, onların uzun illər yaşadıqlarının, hətta yanlış dinlərinin özlərindən sonra da davam etdiyinin şahidi oluruq. Məsələ burasındadır, ki, Allah “Hər bir iddiaçı deyil, yalnız İslam peyğəmbərinin yalan deyəcəyi təqdirdə belə edəcəyini” buyurur. Yəni Allahın möcüzə verdiyi, həqiqətən peyğəmbər olduğunu göstərən dəlillərini təsdiq etdiyi bir peyğəmbər haqq yoldan çıxarsa, ona bir an olsun belə, möhlət verməz. Çünki o, insanların haqq yoldan sapmasına

səbəb olar. Əgər belə bir addım atsa, Allah onu məhv etməklə sözlərinin yalan olduğunu hər kəsə sübut edər.[2247]

"Məaric" surəsinin ümumi məzmunu: Bu surədə Qiyamət günü kafirlərin başına gələcək ağrılı-acılı əzablardan danışılır.[2248]

1-2. Əlinin (ə) imam olduğunu inkar edənin dərhal əzaba düçar olması: İmam Sadiq (ə) buyurmuşdur: ***"Allah rəsulu (s) Qədiri-Xum günü həzrət Əlini (ə) xəlifə təyin etdikdən və haqqında "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır", - deyə buyurduqdan sonra bu xəbər bütün şəhərlərə yayıldı. Bir gün Nöman ibn Harix Fəhri adlı bir şəxs Peyğəmbərin (s) yanına gəlib dedi: Sən bizə Allahın təkliyinə və sənin də Onun elçisi olduğuna şahidlik etməyimizi göstəriş verdin, biz də şahidlik etdik. Sonra cihadı, orucu, namazı və zəkatı əmr etdin, biz də qəbul etdik. Ancaq bunlarla da kifayətlənməyib bu gənci (Əlini(ə)) özünə canişin təyin etdin və dedin ki, "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır". İndi bu söz sənin sözündür, yoxsa Allahın?" Peyğəmbər (s) buyurdu: "And olsun Allaha ki, Ondan başqa heç bir məbud yoxdur! Bu, Allahın sözüdür. Nöman üzünü çevirib dedi: İlahi, əgər bu söz Sənin tərəfindən nazil olmuş bir həqiqətdirsə, göydən bizim başımıza daş yağdır. Elə bu vaxt onun başına göydən bir daş düşüb onu öldürdü. Sonra bu ayələr nazil oldu."***[2249]

4. Əlli min ilə bərabər gün: Yəni Qiyamət günü dünyaya xas olan bu müddət qədər davam edəcək. Əlbəttə, bu, günahkar, zalım və kafirlərə aiddir. Bir gün Peyğəmbərdən (s): "Həmin gün nə qədər çəkəcək?" – deyə soruşulduqda belə cavab vermişdir: ***"Muhəmmədin canı əlində olan Allaha***

[2247] Nümunə, c.24, səh.483
[2248] Əl-Mizan, c.20, səh.5
[2249] Nümunə, c.25, səh.7

and olsun! O gün möminlər üçün dünyada qılınan bir vacib namazdan asan olacaq.” Bu ayə Qiyamət gününün min il sürəcəyi qeyd edilən Səcdə surəsinin 5-ci ayəsi ilə təzad təşkil etmir. Çünki həmin ayədə Qiyamətin əlli dayanacağından birindən, burada isə bütün Qiyamət müddətinə işarə edilmişdir.[2250] Hər kəs Qiyamətdə dünyada əməl etdiyi qədər qalacaq, bu dünyada Allahın əmrlərinə cani-dillə qucaq açan, böyük sevgi ilə onları qəbul edib yorulmadan və usanmadan çalışsa, Qiyamətin dayanacaqlarından böyük şadlıqla keçəcək. Allahın qanunlarını yerinə yetirməyə ərinən, onlardan imtina edən şəxs Qiyamətin dayanacaqlarından çətinliklə keçəcək, həmin keçidlərdən keçmək onun üçün çox uzun gələcək.[2251]

11. Onlar bir-birini göstərəcəklər. Elə olacaq ki, günahkar o günün əzabından qurtarmaq üçün qurban vermək istəyəcək – öz övladlarını,

[2250] Nümunə, c.25, səh.16; Əl-Mizan, c.20, səh.8
[2251] Mənşuri-cavid, c.9, səh.311

12. həyat yoldaşını və qardaşını,

13. hər zaman onu himayə etmiş qəbiləsini

14. və yer üzündə olanların hamısını – təki (bu) onu xilas etsin.

15. Xeyr! (Bunlarla əsla xilas olmaq olmaz) Bu odun yandırıcı şölələridir –

16. başın dərisini sıyırıb çıxaran, əli, ayağı qoparıb aparan (bir od).

17. (O od) çağırır Allahın əmrinə arxa çevirəni

18. və mal-dövlət yığıb saxlayanı.

19. İnsan həris və kəmhövsələ yaradılmışdır.

20. Ona bir pislik toxunduqda dözümsüzlük göstərir,

21. bir xeyir nəsib olduqda isə xəsislik edir.

22. Namaz qılanlar istisnadır.

23. O kəslər ki, namazlarında davamlıdırlar.

24. O kəslər ki, onların mallarında məlum bir haqq vardır-

25. dilənən və kasıblar üçün.

26. O kəslər ki, Haqq-hesab gününə inanırlar.

27. O kəslər ki, Rəblərinin əzabından qorxurlar.

28. Çünki heç kəs Rəbbinin əzabından təhlükəsizlikdə deyil.

29. O kəslər ki, tənasül üzvlərini qoruyurlar –

30. zövcələri və sahib olduqları cariyələr istisnadır. (Buna görə) onlar əsla qınanmazlar.

31. Bundan artığını istəyənlər isə həddi aşanlardır.

32. O kəslər ki, əmanətlərinə və əhdlərinə sadiqdirlər.

33. O kəslər ki, şahidliklərində mətindirlər.

34. Bir də o kəslər ki, namazlarında diqqətlidirlər.

35. Onlara Cənnət bağlarında hörmət göstəriləcək.

36. Bu kafirlərə nə olub belə, Sənə doğru sürətlə gəlirlər –

37. sağdan-soldan, dəstə-dəstə?

38. Onların hər birinin tamahında var ki, nemətlərlə dolu Cənnət bağlarına daxil edilsinlər?

39. Əsla! Biz onları özləri bildikləri şeydən xəlq etmişik.

---

19. İnsan həris və kəmhövsələdir: Allah-taala insanda kamilləşmək, tərəqqi etmək, səadətə nail olmaq üçün vasitə olan və öz-özlüyündə pis olmayan xüsusiyyətlər, instinktlər və potensial qüvvələr yaratmışdır. Ancaq həmin qüvvələrdən sui-istifadələr edilərsə, yanlış yolda istifadə edilərsə, bədbəxtliyə, şər və fəsada səbəb olarlar. Məsələn, hərislik insanın səy və fəaliyyətdən tez bir zamanda yorulmasına, hər hansı nemətə nail olduqdan sonra doyub usanmasına imkan vermir. Bu, insanın varlığına hakim kəsilmiş bir yandırıcı susuzluqdur. Əgər bu xüsusiyyət elm, bilik, mənəvi kamilliklərin əldə edilməsinə sərf edilərsə, şübhəsiz ki, onun inkişafına səbəb olar, yox, əgər sərvət, şəhvət, ehtiras və bu kimi yollara sərf edilərsə, şər və bədbəxtliyə səbəb olar.[2252]

23. Namaza diqqət özünü düzəltmiş insanların ən üstün xüsusiyyətidir: Namaz özünü düzəltmiş insanların ən başlıca xüsusiyyətləridir ki, onun vasitəsilə Allahla olan əlaqələrini qoruyur, qəflət, təkəbbür, ehtiras, şeytan və nəfsin istəklərinin əsarətindən qorunurlar. "Namazlarında davamlıdırlar" deyilərkən hər zaman namaz halında olmaq nəzərdə tutulur. Burada namazları vaxtı-vaxtında qılmaq da nəzərdə tutula bilər. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Yəni nafilələri özlərinə vacib edib davamlı olaraq yerinə yetirirlər."*** İmam Baqir (ə)

[2252] Nümunə, c.25, səh.29; Əl-Mizan, c.20, səh.14

buyurmuşdur: ***"Bu ayədə nafilə namazı, 34-cü ayədə isə vacib namazlara işarə edilmişdir."***[2253] Hər halda Allah özünü düzəltmiş insanların xüsusiyyətlərini sadalamağa onların namaza diqqətli olmasını qeyd etməklə başlayır. Məhz eyni xüsusiyyətlərlə də bu sıralamaya son verir. Bu da onu göstərir ki, sadalanan xüsusiyyətlər arasında namaza diqqət ən mühüm və ən üstün xüsusiyyətdir.[2254]

29. İffət: Quran iffət məsləsinə çox böyük əhəmiyyət verir. Hədislərdə də bu xüsusiyyət maraqlı ifadələrlə təsvir edilmişdir. İmam Sadiq (ə) buyurmuşdur: ***"Allah qarının qorunması və iffətdən üstün vasitə ilə tərifləna bilməz."*** Bunun da səbəbi budur ki, qarını haramxorluqdan və iffəti haram münasibətdən qorumaqdan çətin iş yoxdur. Bir nəfər İmam Baqirə (ə) deyir: Mən müstəhəb əməlləri yerinə yetirməkdə zəifəm və az oruc tuturam, ancaq yalnız halal yeyirəm, yalnız halal münasibətdə oluram. İmam (ə) buyurur: ***"Qarının və iffətin qorunmasından böyük cihad varmı?"*** Peyğəmbərin (s) bu məzmunda bir hədisi var: "Mənim ümmətimi Cəhənnəmə daxil edən ən böyük şey qarın və iffəti qorumamaq olacaq." Hədislərinin birində Peyğəmbər (s) qarnını və iffətini qoruyan adama Cənnəti zəmanət vermişdir. Hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: ***"… Camaatın qadınlarına qarşı iffətli olun ki, sizin də qadınlarınız iffətli olsunlar."*** Hədislərdə iffətə xələl gətirən harama baxmaq, naməhrəmlə əl görüşmək və sair kimi ilkin addımlardan qorunmaq da göstəriş verilmişdir.[2255]

[2253] Nümunə, c.25, səh.30
[2254] Nümunə, c.25, səh.39
[2255] Biharül-ənvar, c.68, səh.268

40. And olsun gündoğanların və günbatanların Rəbbinə! Biz qadirik ki, –

41. onları daha yaxşıları ilə əvəz edək. Biz əsla məğlubiyyətə uğramayacağıq.

42. Vəd verilmiş günə çatanadək onları özbaşına burax, qoy öz batillərinə qərq olub və oynasınlar.

43. O gün məbudlarına ibadətə can atırmışlar kimi qəbirlərdən çıxacaqlar.

44. O gün utandıqlarından və qorxudan baxışları yerə dikiləcək, zillət, xarlıq və rüsvayçılıq pərdəsi ilə örtüləcəklər. Bu onlara vəd verilmiş həmin gündür.

"Nuh" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Biz Nuhu öz qövmünə göndərib dedik: “Sən öz qövmünü, onlara ağrılı-acılı bir əzab gəlməzdən əvvəl qorxut!”

2. O dedi: “Ey qövmüm! Mən sizin üçün açıq-aşkar qorxudanam!

3. Allaha ibadət edin, Ona qarşı çıxmaqdan qorxun və mənə itaət edin!

4. Belə etsəniz, O sizin günahlarınızdan keçər və sizə müəyyən vaxtadək möhlət verər. Çünki Allahın müəyyən etdiyi vaxt gəlib çatdıqda əsla təxirə salınmayacaq. Kaş biləydiniz!”

5. O dedi: “Ey Rəbbim, mən qövmümü gecə də, gündüz də dəvət etdim.

6. Amma dəvətim yalnız onların haqdan qaçmalarını artırdı.

7. Sən onları bağışlayasan deyə mən hər dəfə onları (imana) dəvət etdikdə onlar barmaqlarını qulaqlarına tıxayır, paltarlarına bürünür, küfrlərində israr edir və inadkarlıqla təkəbbürlənirdilər.

8. Sonra mən onları uca səslə dəvət etdim.

9. Sonra mən onlara aşkarda, həm də gizlində bəyan edib

10. dedim: “Rəbbinizdən bağışlanmağınızı diləyin! O, çox bağışlayandır!

---

40. Gündoğanların və günbatanların Rəbbi: Quranın ayələrində bəzən gündoğan və günbatan, (Bəqərə-115), bəzən iki gündoğan və iki günbatan (Rəhman-17), bəzən də bu ayədə olduğu kimi, gündoğanlar və günbatanlar ifadəsi işlədilmişdir. Bu da onunla bağlıdır ki, günəş hər gün yeni bir nötədən çıxıb yeni bir nöqtədə batır. Buna görə də ilin hər gününə uyğun olan günçıxan və günbatan vardır. Digər tərəfdən, bu gündoğanlar və günbatanlar arasında ikisi daha seçkindir: biri yayın əvvəli, yəni günəşin şimal dairəsində ən yüksək zirvəyə qalxdığı, digəri isə qışın əvvəli günəşin cənub dairəsinə ən çox yaxınlaşdığı vaxtdır. Birinə əqrəb, digərinə isə oğlaq

başı deyilir. Bu ikisi tam qabarıq olduğu üçün onlara daha çox təkid edilmişdir. Bu ikisindən başqa bərabərlik günbatan və gündoğanı da vardır (yazın və payızın əvvəli. Bütün dünyada gecə ilə gündüzün bərabərləşdiyi vaxt). Buna görə də "Rəhman" surəsinin 17-ci ayəsində "İki gündoğan və iki günbatanın Rəbbi" deyilərkən bu fakta işarə edildiyi qeyd edilmişdir. "Günbatan və gündoğan" ifadəsinə gəlincə isə, bu mənanın ümumilikdə nəzərdə tutulduğu bildirilir.[2256]

43. Sanki bütlərinə doğru tələsirlər: Ayədə müşriklərin Qiyamət günü Allahın ədalət məhkəməsinə qaçış vəziyyətləri təsvir edilmişdir. Onların bu qaçışları bu dünyada şənlik və matəm vaxtları bütlərinə doğru qaçışlarına bənzədilmişdir. Ancaq bu hara, o hara? Bu, əslində, dünyada puç inanclar üzərində həyat qurub onlar üçün yaşayan insanları məzəmmətdir.[2257]

"Nuh" surəsinin ümumi məzmunu: Bu surədə həzrət Nuhun (ə) peyğəmbərlik fəaliyyətindən, xalqının ona mənfi cavab verməsindən, Nuhun (ə) onlara nifrin etməsindən, kafirlərin məhv olması, möminlərin isə bağışlanıb xilas olmasından danışılır.[2258]

5-9. Təbliğatın metodu: Bu surədə Nuhun (ə) çağırışından bəhs edən ayələr Peyğəmbər (s) və Məkkədə ona qoşulmuş azsaylı möminlərə təsəlli xarakteri daşımaqla yanaşı Allah yolunun təbliğatçıları üçün də bir ümumi proqram rolunu oynayır. Nuh (ə) camaatın onun çağırışına müsbət cavab verəcəyini, şəhər mərkəzində toplaşıb onu dinləyəcəyini, gözlərini ağzına dikib sakitcə qulaq asacaqlarını gözləmirdi. Ayələrin məzmunundan belə başa düşülür ki, o bəzən evlərə gedir, bəzən küçə və bazarlarda uca səslə çağırış edir, hövsələ, qayğı və sevgi ilə təbliğ edir, bəzən isə bayram və

[2256] Nümunə, c.25, səh.45
[2257] Nümunə, c.25, səh.48
[2258] Əl-Mizan, c.20, səh.29

matəm məclislərinə gedir Allahın fərmanını uca səslə aşkarcasına onlara çatdırırdı. Ancaq həmişə xoşagəlməz reaksiyalarla, təhqirlərlə qarşılaşır, döyülür, xəsarət alırdı. Bununla belə, işindən əl çəkmirdi. Bu heyrətamiz hövsələsi, qayğısı, misilsiz səbr və dözümü onun haqq dinə dəvət yolundakı sərmayəsi idi. Ən təəccüb doğurun cəhət də budur ki, təbliğat apardığı doqquz yüz əlli il müddətində ona cəmi səksən nəfər iman gətirmişdi. Əlbəttə, insanlara yalnız o adam yaxşı rəhbər, öndər, lider və yolgöstərən ola bilər ki, vəzifəsini sevsin, insanlara ürəyi yansın, onları sevsin. Əgər ata və ananın övladlarına qarşı sevgisi olmasaydı, onlar övladlarının təlim-tərbiyə çətinliklərinə əsla qatlanmazdılar. Əgər peyğəmbərlər insanların doğru yola yönəlməsini istəməsydilər, bu işin ömür tükədən çətinliklərini qəbul etməz və bu yolun təhlükələrini üzərlərinə almağa razı olmazdılar.[2259]

[2259] Quranın ismarışı, c.7, səh.62; Nümunə, c.25, səh.65

11. O, göydən sizə ardıcıl bərəkətli yağışlar göndərər,

12. var-dövlət və oğul-uşaqla sizə yardım edər, ixtiyarınıza yamyaşıl bağlar və axar çaylar verər.

13. Nə üçün siz Allahın əzəmətini qəbul etmirsiniz?

14. Halbuki O sizi müxtəlif mərhələlərlə yaratdı.

15. Məgər Allahın yeddi göyü bir-birinin üstündə necə yaratdığını bilmirsinizmi?

16. Ayı göylərin arasında bir nur, günəşi də parlaq çıraq etmişdir.

17. Allah sizi torpaqdan bir bitki kimi bitirmişdir.

18. Sonra O sizi ora qaytaracaq və yenidən çıxardacaqdır.

19. Allah yeri sizin üçün açılmış bir xalı etdi.

20. (Belə etdi) ki, oradakı geniş yollar və dərələrlə hərəkət edəsiniz".

21. Nuh dedi: "Ey Rəbbim! Onlar mənə asi oldular və var-dövlətləri, övladları özlərinə zərərdən başqa bir şey artırmayan adamlara tabe oldular.

22. (Bu yolunu azmış rəhbərlər) böyük bir hiylə işlətdilər

23. və dedilər: "Öz məbudlarınız və bütlərinizdən əl çəkməyin; Vəddi, Suvaı, Yəğusu, Yəuqu və Nəsri tərk etməyin!"

24. Artıq onlar çoxlarını azdırmışlar. Ey Rəbbim! Zalımlara azğınlıqdan başqa bir şey artırma".

25. Onlar öz günahlarına görə (suya) qərq edildilər və Cəhənnəm oduna daxil oldular. Onlar özlərinə Allahdan savayı köməkçilər tapmadılar.

26. Nuh dedi: "Ey Rəbbim, kafirlərdən heç birini yer üzündə sağ buraxma!

27. Çünki Sən onları (sağ) qoysan, qullarını azdıracaq və yalnız günahkar, kafir (övladlar) doğub-törəyəcəklər.

28. Ey Rəbbim! Məni, atamı, anamı, evimə mömin kimi daxil olanları və (bütün) mömin kişi və qadınları bağışla! Zülmkarların isə ancaq həlakını artır".

10-12. Allahdan bağışlanma diləməklə abadlığın əlaqəsi: Quranın bu və digər ayələrindən belə başa düşülür ki, Allahdan bağışlanma diləməklə nemət bolluğu, abadlıq, şad-xürrəm həyat, müsibətlərin aradan qalxması, problemlərin öz həllini tapması arasında xüsusi əlaqə var. Zülm və fəsadla nemətlərin əldən çıxmasıyla problemlərin meydana gəlməsi arasında da birbaşa əlaqə vardır. Əlbəttə, bu əlaqə yalnız mənəvi əlaqəyə aid deyil, mənəvi əlaqə ilə yanaşı çox aydın maddi əlaqə də vardır. Küfr və inamsızlıq məsuliyyətsizlik hissinə, qanun pozuntusuna, əxlaqi dəyərlərin unudulmasına, bunlar da öz növbəsində insanlar arasında vəhdətin pozulmasına, etibar və inam əsaslarının laxlamasına, insani və iqtisadi qüvvələrin itirilməsinə, sosial tarazlığın pozulmasına səbəb olur. Bu prinsiplərin hakim olmadığı cəmiyyət sürətlə geriləyir, süquta uğrayır, məhvə doğru gedir. Əgər hər hansı cəmiyyətin iman və təqva olmadığı halda, maddi cəhətdən nisbətən inkişaf etdiyini görürüksə, bu özü də həmin cəmiyyətin bəzi əxlaq prinsiplərini nisbətən də olsa diqqət mərkəzində saxlaması ilə bağlıdır. İmam Əli (ə) buyurmuşdur: ***"Allahdan çoxlu bağışlanma dilə ki, ruzini özünə doğru cəlb edəsən."***[2260]

[2260] Nümunə, c.25, səh.71; Əl-mizan, c.20, səh.33

23. Vəd, Suva, Yəğus, Yəuq və Nəsr bütləri: Kontekstən belə məlum olur ki, bu bütlər həmin azğın camaatın nəzərində xüsusi imtiyaz sahibi olan bütlər sayılmışlar. Buna görə də fürsətdən maksimum istifadə edən rəhbərlər də onlara ibadətə əsaslanırdılar. Bu beş bütün haradan peyda olması ilə bağlı müxtəliv versiyalar mövcuddur. Bəziləri iddia edir ki, bu beş büt Nuhdan əvvəl yaşamış beş əməlisaleh adamın adıdır. Onlar dünyalarını dəyişdikdən sonra şeytanın təhriki ilə onlara heykəl düzəldib yadigar saxlamış, ehtiram göstərmişlər. Həmin adətləri tədricən bütpərəstliyə çevrilmişdir. Bəziləri hesab edir ki, onlar Adəmin övladlarının adlarıdır. Hər biri dünyadan köçdükdən sonra xatirəsini əziz tutmaq üçün heykəlini düzəltmişdilər. Ancaq keçdikcə əsl həqiqət unudulmuş və həmin heykəllərə sitayiş etməyə başlamışdılar. Həmin ənənə Nuhun (ə) dövründə zirvə nöqtəsinə çatmışdı. Bəziləri də hesab edir ki, bunlar elə Nuhun (ə) öz dövründə düzəldilmiş bütlərdir. Bunun səbəbi isə Nuhun (ə) insanlara Adəmin qəbrinə təvaf etməyi qadağan etməsi olmuşdur. Belə ki, bir qrup adam İblisin təhriki ilə onun yerinə heykəllər düzəltmiş və onlara sitayiş etməyə başlamışdılar. Həmin adlar cahiliyyə dövrünün ərəblərinə qədər gəlib çıxmış, hər bir qəbilə öz bütü ilə yanaşı bu bütlərdən də birini seçib ona sitayiş edirdi.[2261]

26-27. Nuhun (ə) son nifrini: Həzrət Nuh (ə) bütün cəhdlərini etdikdən, xalqının iman gətirməsi üçün əlindən gələn hər bir yolu sınaqdan keçirdikdən və yalnız az sayda adamın iman gətirməsinə nail olduqdan sonra qalanlardan ümidini kəsir və Allahdan istəyir ki, kafirlərdən heç birini sağ buraxmasın. Bu da onu göstərir ki, peyğəmbərlərin heç birinin, o cümlədən Nuhun (ə) nifrin etməsinin səbəbi qəzəb, kin-küdurət, intiqam hissi olmamışdır. Bu nifrinlərin bir məntiqi hesabı olmuşdur. Nuh (ə) elə də

[2261] Nümunə, c.25, səh.83

kəmhövsələ adam deyildi ki, kiçik bir hadisə ilə əzmkarlığından əl çəkib nifrinə əl atsın. Quranın buyurduğuna görə o, doqquz yüz əlli il dəvət, səbr, təmkin, əzmkarlıq, əzab-əziyyət, nəhayət tamamilə naümid olduqdan sonra nifrinə əl atmışdır. Bu ayələrin ümumi məcmusundan belə başa düşülür ki, Allahın əzabları hikmət üzərindədir.[2262]

"Cinn" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. De: "Mənə vəhy olunub ki, cinlərdən bir dəstə sözlərimi dinlədikdən sonra deyiblər: "Biz heyrətamiz bir Quran dinlədik!

[2262] Nümunə, c.25, səh.88

2. O, doğru yola yönəldir. Biz ona iman gətirmişik və əsla kimsəni Rəbbimizə şərik qoşmayacağıq.

3. Rəbbimizin əzəməti çox yüksəkdir. O, nə zövcə, nə də övlad seçməyib.

4. Bizim səfehimiz (İblis) Allah haqqında xoşagəlməz sözlər danışırdı.

5. Biz güman edirdik ki, insanlar da, cinlər də Allaha əsla iftira atmazlar.

6. İnsanlardan bəzi kişilər cinlərdən bəzi kişilərə sığınırdılar. Bunlar da onların azğınlığının artmasına səbəb olurdular.

7. Onlar da siz güman etdiyiniz kimi, elə düşünürdülər ki, Allah ölənləri heç vaxt diriltməyəcəkdir.

8. Biz səmanı axtarıb onun güclü gözətçilər və yandırıb-yaxan alovlarla dolu olduğunun şahidi olduq.

9. Biz əvvəllər gizlicə qulaq asmaq üçün göylərdə oturardıq. Amma kim bunu indi etmək istəsə, o, pusquda gözləyən yandırıcı alova rast gələr.

10. Biz bilmirik, (bununla) yerdəkilərə pislik etmək qəsd edilmişdir, yoxsa Rəbbi onları doğru yola yönəltmək istəmişdir?

11. Əlbəttə, aramızda xeyirxah əməl sahibləri də, onlar kimi olmayanlar da var. Biz fərqli-fərqli qruplarıq.

12. Tam əminliklə bilirik ki, Allahın yer üzərindəki iradəsinə qalib gələ və Ondan qaçıb yaxa qurtara bilmərik.

13. Biz Quranın doğru yolu göstərdiyini eşitdiyimiz zaman ona iman gətirdik. Rəbbinə iman gətirən, nə (savabının) azalmasından, nə də haqsızlığa uğramaqdan qorxmaz.

-

“Cinn” surəsinin ümumi məzmunu: Bu surədə gözəgörünməz varlıqlar olan cinlərdən danışılır. Bu surənin nazilolma səbəbi ilə bağlı qeyd edilmiş rəvayətlər eynilə “Əhqaf” surəsinin 29-32-ci ayələrinin nazilolma səbəbi ilə bağlı nəql edilmiş rəvayətlərlə uyğunluq təşkil edir. Bu da hər ikisinin eyni hadisə ilə bağlı olduğunu göstərir (Daha ətraflı məlumat üçün bax: “Əhqaf” surəsi, 29-32-ci ayələr).[2263]

1. Cin: “Cinn” leksik mənasından da məlum olduğu kimi, gözəgörünməz varlıqdır. Quranda onun bir çox xüsusiyyətlərinə işarə edilmişdir: 1. Od şöləsindən yaranıblar (Rəhman-15); 2. Elm və idrak sahibidirlər, haqla batili ayıra bilirlər, məntiqli mühakimə və əsaslandırma gücləri var (Cinn surəsi); 3. Məsuliyyət daşıyan və mükəlləfiyyəti olan varlıqlardır (Cin və Rəhman surələri); 4. Bir qrupu əməlisaleh mömin, başqa bir qrupu isə kafirdir (Cinn-11); 5. Onlar da qiyamət günü qaldırılacaqlar (Cinn-15); 6. Onların göylərə qalxmaq, oradakı söhbətlərə gizlicə qulaq asmaq qüdrətləri olmuş, İslam peyğəmbəri (s) seçildikdən sonra bu iş onlara qadağan edilmişdir (Cinn-9); 7. Onların bəzisinin insanlarla əlaqəsi olmuş, məhdud şəkildə xəbərdar olduqları bəzi gizli sirlərdən insanları haqq yoldan azdırmaq üçün istifadə etmişlər (Cinn-6); 8. İnsanlarda olduğu kimi, onların da bəzisi fövqəladə gücə malikdir (Nəml-29); 9. Onların bəzisi insanların ehtiyac duyduğu bəzi işləri görə bilir (Səba-12-13); 10. Onların yaranışı insan yaranışından əvvəl olmuşdur (Hicr-27)... Bundan başqa ayələrdən belə məlum olur ki, onların bizdən daha yaxşı olduqlarını düşünən insanların söylədiklərinin əksinə olaraq insanlar növ olaraq cinlərdən daha üstündürlər. Cinlərin insan növünə aid Peyğəmbərə (s) təslim olmaları, ona iman gətirmələri və itaət göstərmələri də bu faktı təsdiq edir. Ümumiyyətlə,

[2263] Nümunə, c.25, səh.97

Şeytana Adəmin önündə səcdə etməsi ilə bağlı əmr verilməsi insan növünün cin növündən üstün olduğunu göstərir. Çünki Şeytan həmin vaxt cinlər tayfasının böyüklərindən olmuşdur (Kəhf-50). Sadə və məlumatsız insanlar bu varlıq haqqında ağla və məntiqə zidd olan çoxlu xurafatlar qondarmışlar. Buna görə də cin adı gələndə bir ovuc xurafat da onunla birlikdə gəlir. O cümlədən, onların əcaib-qəraib, qorxulu simalı, quyruqlu, dırnaqlı, zərərverici, ziyanverici, kinli, pis davranışlı və bu kimi neqativ xüsusiyyətlərə malik varlıqlar olduğu uydurulmuşdur. Hər halda Quranda bir az yuxarıda sadaladığımız xüsusiyyətlərə malik olan bir varlığın mövcudluğundan xəbər vermiş, eyni zamanda onların mövcudluğunu inkar edən bir əqli dəlil də yoxdur. Buna görə də bu faktı qəbul etməli, yanlış və xoşagəlməz yozumlardan uzaq durmalı, sadə və məlumatsız insanların xurafatlarından qorunmaq lazımdır.[2264]

[2264] Nümunə, c.25, səh.154

14. Bizlərdən bir qismi müsəlman, bir qismi zalımdır. Müsəlman olan şəxslər doğru yol tutanlardır.

15. Zalımlar Cəhənnəm üçün yanacaq və odun olacaqlar”.

16. Əgər onlar (insanlar və cinlər) o yolda sabit qalsalar, Biz onlara bol-bol su verərik.

17. Belə edərdik ki, onları bu bol nemətlə sınayaq. Kim öz Rəbbini xatırlamaqdan üz döndərərsə, O, həmin şəxsi şiddətli və artan bir əzaba məruz qoyar.

18. Məscidlər Allahındır. Elə isə, heç kəsi Allahla yanaşı çağırmayın!

19. Allahın qulu ibadət etməyə qalxıb Allahı çağırdıqda bir dəstə onun dövrəsində güclü izdiham yaradır.

20. De: “Mən yalnız öz Rəbbimi çağırıram və kimisə Ona şərik qoşmuram!”

21. De: “Mən sizə nə ziyan verməyə, nə də doğru yola yönəltməyə qadirəm!”

22. De: “(Əgər mən də onun əmrindən çıxsam,) məni Onun qarşısında heç kəs himayə edə bilməz və mən Ondan başqa bir pənah yeri tapa bilmərəm!

23. Mənim vəzifəm yalnız Allah tərəfindən çatdırmaq və Onun göndərdiklərini təbliğ etməkdir. Kim Allaha və Onun elçisinə asi olarsa, onun üçün içərisində əbədi qalacaqları Cəhənnəm odu hazırlanmışdır”.

24. Onlar vəd olunmuş hadisəni gördükləri zaman kimin köməkçisinin daha zəif və adamlarının daha az olduğunu biləcəklər.

25. De: “Mən sizə vəd olunmuş hadisənin yaxın olduğunu və yaxud Rəbbimin onun üçün bir zaman təyin etmiş olduğunu bilmirəm.

26. O, qeybi biləndir və heç kəsi öz qeybinin sirlərindən xəbərdar etməz;

27. seçdiyi elçilərdən başqa. Onların önlərində və arxalarında gözətçilər qoyur ki,

28. elçilərin Rəblərinin göndərdiklərini təbliğ etdiyini bilsin. O onların nə etdiklərini nəzarəti altında saxlayır və hər şeyi ayrı-ayrılıqda hesaba alır”.

16-17. Bol nemətlərlə sınamaq: Allah-taala Quranda diqqətləri iman və təqvanın təkcə maddi nemətlərin, maddi abadlığın və firavanlığın artmasına səbəb olan mənəvi bərəkətlərin mənbəyi olmadığına yönəldir. Bu ayələrə əsasən nemətlər bolluğuna səbəb iman deyil, imanda sabit qalmaqdır. Çünki keçici və müvəqqəti iman bolluğa səbəb ola bilməz. Önəmli olan iman və təqvada sabit qalmaqdır. Çoxlarının bu yolda ayağı sürüşüb, çoxları bu yolda özlərini sabit saxlaya bilməyib. 17-ci ayədə buyurulur ki, nemətlər bolluğu insanları sınamaq üçündür, bu bolluq onların

təkəbbür və qəflətinə, yoxsa ayılmasına, şükür etməsinə, Allaha daha çox diqqət ayırmasına səbəb olacaq. Buradan da aydın olur ki, ilahi sınağın mühüm səbəblərindən biri nemətlər bolluğudur. Əslində, nemətlə olunan imtahan çətinliklər vasitəsilə edilən imtahandan daha çətin, daha mürəkkəbdir. Çünki süstlük, tənbəllik, qəflət, ləzzətlər və ehtiras içində qərq etmək nemət artımının təbiətindədir. İnsanı Allahdan uzaqlaşdırır, meydanı şeytanın fəaliyyəti üçün açıq edir. Nemət bolluğu və onun mənfi təsirlərindən yalnız daim Allahı yadında saxlayan, Onu unutmayan, qəlb evini şeytanların nüfuzundan qoruyanlar xilas ola bilər.[2265]

18. Məscidlər Allahındır: Bu ayədə qeyd edilmiş "məscidlər" sözü ilə bağlı müxtəlif izahlar verilmişdir: 1. Allaha səcdə edilən məkanlar. Onların da ən kamil nümunəsi Məscidül-həram və digər məscidlər, daha geniş mənada Allahın çağırıldığı və Ona səcdə edilən bütün yerlərdir. Peyğəmbər (s) məşhur bir hədisində belə buyurmuşdur: ***"Bütün yer üzü mənim üçün səcdəgah və pakedici vasitə edildi".*** Bu hədisə əsasən "məscidlər" deyilərkən hər yer nəzərdə tutulur. Bu ayə ilə həm Kəbə evini bütxanaya çevirən müşrik ərəblər və qeyri-ərəblərə, həm də öz kilsələrində üçlük inancını qoruyub üç Allaha sitayiş edən xristianlara cavab verir. Allah-taala Quranda buyurur ki, bütün məbədlər Allaha məxsusdur, onlarda Allahdan başqasına səcdə etmək olmaz, Ondan qeyrisinə sitayiş etmək qadağandır. 2. Məscidlər deyilərkən yeddi səcdə üzvü (alın, iki əlin içi, dizlər, və iki ayağın başqa barmaqlarının ucu) nəzərdə tutulur. Bu üzvləri təkcə Allah üçün yerə qoymaq lazımdır, Ondan qeyrisinin qarşısında bunu etmək qadağandır. Bu izah İmam Cavadın (ə) bir hədisindən götürülmüşdür. Əlbəttə, ayənin zahiri

[2265] Nümunə, c.25, səh.122

ilə daha çox birinci izah düz gəlir, ikinci təfsir ayənin məna genişliyini göstərmək üçün ola bilər.[2266]

[2266] Nümunə, c.25, səh.124

"Muzzəmmil" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ey paltara bürünmüş!

2. Az bir hissəsi istisna olmaqla gecələr dur!

3. Gecənin yarısını, yaxud ondan bir az əskilt,

4. və ya onun yarısına artır. Quranı diqqətlə və düşünərək oxu!

5. Biz tezliklə sənə ağır bir Söz vəhy edəcəyik.

6. Sözsüz ki, gecənin namazı və ibadəti sabit və möhkəmdir (mənəvi təsirləri sabit və davamlıdır).

7. Gündüz sənin uzun-uzadı və davamlı işlərin olacaq.

8. Rəbbinin adını yad et və qəlbini yalnız Ona bağla!

9. O, gündoğanın və günbatanın Rəbbidir. Ondan başqa məbud yoxdur. Onu özünə mühafizəçi və vəkil seç!

10. (Düşmənlərin) dediklərinə səbr et və onlardan xoşluqla uzaqlaş.

11. Məni, yalan sayan var-dövlət sahibləri ilə tək burax və onlara bir az möhlət ver.

12. Bizdə (onlar üçün) buxovlar, zəncirlər və Cəhənnəm hazırlanmışdır,

13. boğazda tıxanıb keçməyən yemək və ağrılı-acılı bir əzab da (vardır).

14. O gün yer və dağlar şiddətlə titrəyəcək, dağlar yumşaq qum topalarına dönəcəkdir.

15. Biz Firona elçi göndərdiyimiz kimi sizə də şahidlik edəcək elçi göndərdik.

16. Firon elçiyə asi oldu. Biz də onu şiddətli bir əzabla yaxaladıq.

17. Əgər küfr etsəniz, uşaqları qocaldacaq gündə özünüzü (əzabdan) necə xilas edəcəksiniz?

18. Göy parçalanacaq. (Allahın) vədi mütləq yerinə yetəcəkdir.

19. Bu, bir xatırlatmadır. Kim istəsə, Rəbbinə tərəf yönələr.

--

"Muzzəmmil" surəsinin ümumi məzmunu: Bu surə məzmun etibarı ilə beş hissədən ibarətdir: 1. Peyğəmbərin (s) gecəni ayıq qalmağa, peyğəmbərliyin ağır proqramını qəbul etməyə hazır olmaq üçün Quran oxumağa çağırılması. 2. Onun bu işdə müxaliflərə qarşı səbrli və dözümlü olmağa çağırılması. 3. Qayıdış mövzusu və Musa ilə Fironun əhvalatından sitat. 4. Müsəlmanların çətinliyi olduğu üçün surənin əvvəlində gecəni qalxmaqla bağlı olan göstərişin yüngülləşdirilməsi. 5. Quran oxumağa, namaz qılmağa, zəkat verməyə ,Allah yolunda xərcləməyə və Allahdan bağışlanma diləməyə dəvət.[2267]

1. Ey paltara bürünmüş: Bu və "Müddəssir" surəsinin ayələrinin məzmunundan belə məlum olur ki, müşriklər Peyğəmbəri (s) məsxərəyə qoyub onu çox incidirlər. Öz vəzifəsini yerinə yetirərkən bu cür dözülməz çətinliklərlə qarşılaşdığı üçün Peyğəmbər (s) kədərlənir, qəm-qüssəsini dağıtmaq üçün paltarını özünə bürüyüb yatır. Buna görə də Allah Peyğəmbərə (s) ***"Ey paltara bürünmüş!"***, - deyə xitab edir, onu gecəni oyaq qalmağa, namaz qılmağa, kafirlərin söylədikləri qarşısında səbrli və dözümlü olmağa çağırır. "Bəqərə" surəsinin 153-cü ayəsində də ona ***"Səbr və namazdan kömək al"***, - deyə göstəriş verilmişdir. Ümumiyyətlə, Peyğəmbərə (s) çətinliklər və problemlərə müqavimət göstərə bilmək üçün

---

[2267] Nümunə, c.25, səh.163

namaz və səbrdən yardım almaq, əbasına bürünüb yatmaqdan çəkinmək əmr edilmişdir.[2268]

4. "Tərtil"in mənası: Bu ayədə daha çox qabardılan məsələ Quran oxumaq deyil, "tərtil"dir. "Tərtil" haqqında müxtəlif hədislər nəql edilmiş və onların da hər biri bu sözü müxtəlif yönlərdən izah etməyə xidmət edir. Möminlərin əmiri İmam Əli (ə) hədislərinin birində belə buyurmuşdur: ***"Onu aydın şəkildə bəyan et, şeir kimi sürətlə və dalbadal oxuma, qum dənələri kimi onu səpələmə, elə oxu ki, onunla sərt qəlbləri əzib ayıldasan, hədəfiniz yalnız surəni sona çatdırmaq olmasın."*** İmam Sadiq (ə) "tərtil" barəsində belə buyurmuşdur: ***"Cənnətin xatırlandığı ayələri oxuduqda Allahdan Cənnət istə, Cəhənnəmdən bəhs edən ayələri oxuduqda ondan Allaha sığın."*** İmam Sadiq (ə) başqa bir hədisində belə buyurmuşdur: ***"Tərtil odur ki, ayələr üzərində dayanıb onları gözəl səslə oxuyasan."*** Bu və eyni məzmunu ifadə edən başqa hədislərdən belə başa düşülür ki, Quran ayələri məzmunsuz və məqsədsiz sözlər kimi oxunmamalı, onda oxucuya və dinləyiciyə təsir göstərəcək məsələlər diqqət mərkəzinə alınmalıdır. Yaddan çıxarmaq olmaz ki, bu, Allahın ismarışıdır, məqsədi ehtiva etdiyi məzmunların həyata keçməsidir.[2269]

6. Gecə namazı sabitdir: Gecə edilən ibadət xüsusilə səhər, fəcrdən qabaq qılınan namazın ruhun saflaşması, nəfsin təmizlənməsi, insanın mənəvi tərbiyəsində, qəlbin paklanmasında, iman və iradənin güclənməsində, təqva əsaslarının qəlbdə və canda möhkəmlənməsində böyük təsiri var. Hətta bir dəfə sınaqdan keçirməklə insan onun təsirlərini özündə açıq-aşkar hiss edir. Buna görə də Quran ayələri ilə yanaşı hədislərdə də ona xüsusi önəm verilmişdir. İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Üç şey***

[2268] Əl-Mizan, c.20, səh.66
[2269] Nümunə, c.25, səh.170

Allahın xüsusi nəzarətində olan davranışlardandır: gecə namazı, oruc tutana iftar vermək, müsəlman qardaşla görüşmək." İmam Sadiq (ə) "Hud" surəsinin 114-cü ayəsinin izahı ilə bağlı belə buyurmuşdur: ***"Gecə namazı gündüz edilən günahları aradan aparır."***[2270]

20. Rəbbin bilir ki, sən və sənin**lə** olan insanların bir qismi ya gecənin üçdə ikisindən az, ya yarısını, ya da üçdə birini dururs**u**nuz. Gecə və gündüzü Allah ölçüb müəyyənləşdirir. O, bilir ki, siz bu miqdarı (dəqiq) hesablaya bilmirsiniz, buna görə sizi bağışlayır. Elə isə Qurandan imkanı çatdığı qədər oxusun! O bilir ki, tezliklə bəziləriniz xəstə olacaq, digərləriniz Allahın mərhəmətindən (ruzi) əldə etmək məqsədilə səfərə çıxır, bir qisminiz də Allah yolunda vuruşur. Buna görə Qurandan sizə mümkün olan

[2270] Nümunə, c.25, səh.172

qədərini oxuyun! Namaz qılın, zəkatınızı ödəyin və Allaha gözəl bir borc verin. Özünüz üçün öncədən göndərdiyiniz xeyirli işlərin Allah yanında daha xeyirlisi ilə və daha böyük mükafatla əvəz olunduğunu görəcəksiniz. Allahdan sizi əfv etməsini istəyin! Allah bağışlayandır, rəhmlidir!

"Muddəssir" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Ey yuxu libasına bürünmüş!
2. Qalx və xəbərdar et!
3. Rəbbini uca tut!
4. Paltarını təmizlə!
5. Pis şeylərdən uzaq dur!
6. Daha artığına göz dikərək minnət qoyma!
7. Rəbbin üçün səbr et!
8. Sur üfürülərkən –
9. Çətin bir gün olacaq.
10. Kafirlərə asan olmayacaqdır.
11. Məni öz yaratdığımla tək burax,
12. Mən ona bolluca var-dövlət bağışladım,
13. hər zaman yanında olan övladlar (verdim)
14. və onu hər cür imkanlarla təmin etdim.
15. Yenə də onun üçün artırmağımı arzulayır.
16. Əsla belə olmayacaq! Çünki o, ayələrimizi inadla inkar edir.
17. Tezliklə onu həyat zirvəsinə qalxmağa məcbur edəcəm (sonra onu oradan aşağı yuvarlayacam).

---

20. Quranı imkan çatdığı qədər oxumaq: Bu ayədə də surənin başlanğıcında olduğu kimi, gecəni oyaq qalmaqdan danışılır. Sadəcə, bu ayənin fərqi ondadır ki, burada sözügedən ibadət əmrinə Peyğəmbərlə (s) yanaşı əməl edən bir qrup mömindən də danışılır. İslamın ilk dövrləri üçün spesifik olan şərait onların İslamın təbliğinə və müdafiəsinə hazır olmaları üçün etiqad, əməl və əxlaq dərslərini ehtiva edən Quranı oxumalarını və gecələri namaz qılmalarını tələb edirdi. İmam Rza (ə) bir hədisində bu ayəni təfsir edərkən babası İmam Sadiqə (ə) istinadən belə buyurmuşdur: "Ondan qəlbə təvazökarlıq və batinə saflıq gətirəcək qədər oxuyun." Ayədə ruzi qazanmaq məsələsi Allah yolunda cihadla bərabər işlədilmişdir. Bu da İslamın bu məsələyə nə qədər böyük əhəmiyyət verdiyini göstərir. Niyə də olmasın? Yoxsul, ac, başqalarına möhtac olan bir xalq müstəqil, başıuca və böyük ola bilməz. Buna görə də iqtisadi cihad düşmənə qarşı cihadın bir hissəsidir.[2271] İslam peyğəmbəri (s) hədislərinin birində belə buyurmuşdur: ***"Bir qidanı müsəlman şəhərlərindən birinə aparıb orada o dövrün qiymətinə uyğun məbləğdə satıb qazanc əldə edən şəxs Allah dərgahında şəhid dərəcəsindədir."*** Sonra Peyğəmbər (s) bu ayəni buyurmuşdur: ***"Bir qisminiz Allahın mərhəmətindən (ruzi) əldə etmək məqsədilə səfərə çıxır, bir qisminiz də Allah yolunda vuruşur."***[2272]

"Muddəssir" surəsinin ümumi məzmunu: Bu surədə kafirlər və Peyğəmbəri (s) inkar edənlər kəskin şəkildə pislənir, təhdid edilir və onlara qorxu gəlinir.[2273]

1. "Muddəssir": Bax: "Muzzəmmil" surəsi, 1-ci ayə.

[2271] Nümunə, c.25, səh.192
[2272] Əl-Mizan, c.20, səh.85
[2273] Əl-Mizan, c.20, səh.86

4-5. Paklıq və təmizlik göstərişi: “Paltarını təmizlə” ayəsi ilə bağlı müxtəlif fikirlər söylənmişdir. Onlar arasında ikisi daha münasibdir: 1. “Paltarını təmizlə” deyilərkən əməllərin islah edilməsi nəzərdə tutulur. Çünki insanın əməlləri ruhunun və etiqadlarının libası, zahiri isə daxilinin göstəricisidir. Buna görə də Allah-taala nəzər nöqtəsi olan ayədə ruh üçün libas olan əməllərin çirkinliklərdən təmiz saxlanmasına əmr verir. 2. “Paltarını təmizlə” deyilərkən paltarın namaz üçün təmizlənməsi nəzərdə tutulur. İkinci rəyə görə ***“Rəbbini uca tut”*** ayəsində namazdakı “Təkbirətül-ehram”a işarə edilmişdir. Ümumiyyətlə, ayə namaz üçün paltarın təmiz saxlanmasını göstəriş verir. Əslində, bu iki ayə Peyğəmbərin (s) seçildiyi ilk vaxtlar İslamda namazın vacib edilməsi ilə bağlı verilmiş göstərişi ifadə edir.[2274] ***“Çirkinlikdən uzaq dur”*** ayəsindəki “ricz” (çirkinlik) sözünün məna müxtəlifliyi bu söz barəsində müxtəlif fikirlər irəli sürülməsinə səbəb olmuşdur. Bəzən onu büt, bəzən günah, bəzən çirkin əxlaq, bəzən bütün günahların başlanğıcı olan dünya sevgisi, bəzən şirk və günahın nəticəsi olan əzab, bəzən insana Allahı unutduran istənilən vasitə kimi izah etmişlər. Məlumdur ki, Peyğəmbər (s) hətta peyğəmbərliyə seçilməzdən əvvəl də bu əməllərdən uzaq olmuşdur. Dost və düşmənin təsdiq etdiyi tarix də bunu deməyə əsas verir. Sadəcə, burada diqqət mərkəzində olan əsas məsələ Allah yoluna çağırış və hər kəsə örnək olacaq bir nümunənin təqdimidir.[2275]

[2274] Əl-Mizan, c.20, səh.88
[2275] Nümunə, c.25, səh.213

18. O, (Quranla mübarizə aparmaq üçün) fikirləşib qərara gəldi.

19. Ölüm olsun ona! Necə qərar qəbul etdi?

20. Yenə ölüm olsun ona! Gör necə qərar qəbul etdi?

21. Sonra o nəzər saldı.

22. Üz-gözünü turşudub tələsik mətləbə keçdi.

23. Sonra da arxasını çevirib təkəbbür göstərdi.

24. Sonda dedi: “Bu (Quran), əvvəlkilərin sehrlərinə bənzəyən sehr-cadudan artıq bir şey deyil!

25. Bu, adi insan kəlamıdır!”

26. Tezliklə onu Səqərə (Cəhənnəmə) salacağam.

27. Sən haradan biləsən ki, Səqər nədir?!

28. O, (elə bir oddur ki,) nə saxlayar, nə də buraxar,

29. bədənin dərisini tamamilə dəyişər.

30. Onun üzərində on doqquz (gözətçi mələk) vardır.

31. Biz Cəhənnəm gözətçilərini yalnız mələklərdən etdik və onların sayını müəyyən etdik ki, (bu,) kafirlər üçün ancaq bir sınaq olsun, Kitab əhli yəqinlik hasil etsin, iman gətirənlərin imanı artsın, Kitab əhli və möminlər (bu səmavi kitabın haqq olduğuna) şübhə etməsinlər, qəlblərində xəstəlik olanlar və kafirlər: “Allah bu təsvirlə nə demək istəyir?” – desinlər. Allah

istədiyi kimsəni belə azdırır, istədiyini də doğru yola yönəldir. Sənin Rəbbinin qoşunları barədə özündən başqa heç kəs heç nə bilmir. Bu, insanlar üçün ancaq bir xəbərdarlıq və xatırlatmadır.

32. Xeyr (onlar düşündükləri kimi deyil)! And olsun aya!

33. And olsun arxa çevirib gedən gecəyə!

34. And olsun ağarmaqda olan sübh çağına!

35. O (Qiyamət gününün qorxulu hadisələri) çox mühüm məsələlərdəndir,

36. bütün insanlar üçün xəbərdarlıq və qorxutmadır,

37. sizlərdən (doğru yolda) irəli çıxmaq və ya (doğru yoldan) geri qalmaq istəyənlər üçün.

38. Hər kəs öz əməllərinin girovundadır,

39. (iman və təqvalarının göstəricisi olaraq əməl dəftərləri sağ əllərinə verilmiş) sağ tərəf sahiblərindən başqa.

40. Onlar Cənnət bağlarındadırlar. Onlar soruşacaqlar –

41. günahkarlardan:

42. Sizi Cəhənnəmə salan nədir?

43. Onlar deyəcəklər: “Biz namaz qılanlardan deyildik.

44. Kasıbları da yedizdirməzdik.

45. Batil yolda olanlarla oturub-durar, həmsöhbət olardıq

46. və Haqq-hesab gününü inkar edərdik –

47. ölümümüz yetişənə qədər”.

11-25. Mənfur plan: Bu ayələrin nazilolma səbəbi: Deyilənə görə Peyğəmbər (s) Hicri-İsmayılda oturub Quran oxuyurmuş. Qüreyş müşrikləri Peyğəmbəri (s) məsxərəyə qoyanlardan olan qoca Vəlid ibn Müğeyrənin yanına gedib deyirlər: “Ey Əba-əbdişşəms, Muhəmmədin bu söylədikləri

nədir? Şeirdir, kahinlikdir (cinlərlə əlaqədir), ya xütabədir?"[2276] Vəlid deyir: "İcazə verin, gedib dinləyim". Bunu deyib Peyğəmbərin (s) yanına gedir və ona belə xitab edir: "Ey Muhəmməd, mənə şeirlərindən oxu!" Peyğəmbər (s) buyurur: "Onlar şeir deyil, Allahın mələkləri və peyğəmbərlərinə seçdiyi sözlərdir". Vəlid deyir: "Ondan mənə bir şey oxu". Peyğəmbər (s) "Fussilət" surəsini oxuyub 13-cü ayəyə, yəni "Əgər onlar üz çevrisə, de: "Sizi Ad və Səmuda göndərilən ildırım kimi bil ildırımla qorxuduram" ayəsinə çatanda Vlidin bədəninə titrətmə düşür, bədəninin bütün tükləri biz-biz olur, evinə gedir, daha qüreyşlilərin yanına qayıtmır. Müşriklər Əbu-cəhlin yanına gedib deyirlər: "Ey Əbul-hikəm[2277], Əbu-əbdişşəms Muhəmmədin dininə meyl göstərir, görmürsən qayıtmadı?" Əbu-cəhl Vəlidin yanına gedib deyir: "Əmi, bizi məyus və rüsvay, düşməni isə şad etdin, Muhəmmədin dininə meyl göstərdin". Vəlid cavab verir: "Mən onun dininə meyl göstərmədim. Ancaq elə ağır bir söz eşitdim ki, bədənimə titrətmə düşdü". Əbu-cəhl soruşur: "Xütabədir?" Vəlid deyir: "Xütabə deyil. Xütabə bir-birinə qarışmış mürəkkəb sözlərdən ibarətdir, bunun sözləri isə qarışıq və mürəkkəb deyil, açıq-aydındır, bir-birinə bənzəmir". Əbu-cəhl soruşur: "Şeirdir?" Vəlid deyir: "Yox, mən müxtəlif şeir formaları görmüşəm, ancaq bu, şeir deyil". Əbu-cəhl soruşur: "Bəs nədir?" Vəlid deyir: "İcazə verin, bir az düşünüm". Həmin günün səhəri Vəliddən soruşurlar: "Ey Əbu-əbdişşəms, dediklərimiz haqqında nə qərara gəldin?" Vəlid cavab verir: "Deyin ki, o sehir-cadudur, insanların qəlbini ələ alır". Allah-taala bundan sonra bu ayələri göndərir: ***"Məni özüm yaratdığımla tək burax..."***[2278]

[2276] Xütabə qarşı tərəfi hər hansı istiqamətə yönəltmək, ona nəzərdə tutulan fikri aşılamaq üçün istifadə edilən sös sənəti.
[2277] Əbu-Cəhl adını ona Peyğəmbər (s) qoymuşdu.

[2278] Əl-Mizan, c.20, səh.100

30-31. Cəhənnəm məmuru: 30-cu ayədə Cəhənnəm məmurlarının sayının 19 olduğu buyurulduğunu eşitdikdən sonra Əbu-cəhl istehza ilə üzünü Qüreyş müşriklərinə tutub deyir: "Ananız matəminizə otursun! Eşitmişəm, Muhəmməd Cəhənnəm gözətçilərinin sayının on doqquz nəfər olduğunu deyib. Sizlərdən on nəfərinin onlardan birini məğlub etməyə gücü çatmazmı?" Qüreyşin güclü adamlarından biri deyir: "Mən sizi qorumaq üçün onların on yeddisinin öhdəsindən gələrəm. Siz də məni qorumaq üçün onların qalan ikisinə qarşı mübarizə aparın". Allah-taala onların bu boş-boş danışıqlarına cavab olaraq belə buyurur: "Bu say bizim tərəfimizdən müəyyən edilib, onlar öz işlərinin öhdəsindən gəlməyə qadirdirlər. Lut qövmünü bir neçə mələk məhv etdi. Ancaq onların sayını sizə bildirməkdə məqsədimiz budur ki, sizi sınağa çəkib Allahın sözləri qarşısında necə reaksiyanı göstərəcəyinizi, itaət göstərib təvazökarlıq göstərəcəyinizi, yoxsa asi olub istehza edəcəyinizi üzə çıxarmaq istəyirik. Yəhudilər və xristianlar da əmin olsunlar ki, Quran haqdır. Çünki Cəhənnəm gözətçilərinin sayı onların da kitablarında qeyd edilib. Kitab əhlinin cavabı ilə möminlərin inamı daha da artacaq, münafiqlər və kafirlər rişxəndlə və təhqiramiz şəkildə "Bu nə məsəldir?" deyəcəklər".[2279]

38-39. Əməllərinin girovunda olmayan şəxslər: Bu ayələrdə bütün insanların etdikləri əməllərin girovunda olduğu buyurulmuşdur. Sanki insanların bütün varlıqları onların üzərlərinə düşən vəzifələrin girovundadır. Əgər onları yerinə yetirsələr, azad olacaqlar, əgər yerinə yetirməsələr, əsarət altında qalacaqlar. Sağ tərəf sahibləri bu əsarətdən azaddır. Onlar iman və saleh əməl sahibləridirlər, cüzi günahları yaxşı əməllərinin işığında qərarlaşır. Ya Cənnətə heç bir sorğu-sulasız daxil olurlar, ya da sorğu-

[2279] Əl-Mizan, c.20, səh.94

sualdan çox asanlıqla keçirlər. İmam Baqir (ə) buyurmuşdur: ***"Biz və şiələrimiz sağ tərəf sahiblərididirlər. Biz Əhli-beytlə düşmənçilik edən hər bir kəs əməllərinin əsarətində olacaq."***[2280]

[2280] Nümunə, c.25, səh.250

48. Buna görə də şəfaət edənlərin şəfaəti onlara fayda verməz.

49. Nə üçün onlar xatırlatmadan üz döndərirlər?

50. Sanki ürküdülmüş zebrlərdir ki,

51. aslandan qaçırlar.

52. Onların hər biri onlara ayrı-ayrılıqda (Allah tərəfindən) məktub gəlməsini gözləyir.

53. Xeyr (heç də onlar söylədikləri kimi deyil)! Onlar Axirətdən qorxmurlar.

54. Xeyr (heç də onlar söylədikləri kimi deyil)! Bu (Quran) bir xatırlatmadır.

55. İstəyən ondan nəsihət götürər.

56. Allah istəmədikcə heç kəs nəsihət götürə bilməz. Qorxub çəkinməyə layiq olan da, bağışlamasına ümid edilən də Odur!

"Qiyamət" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. And olsun Qiyamət gününə!

2. And olsun ayıq vicdana, tənə edən nəfsə (diriliş doğrudur)!

3. İnsan elə düşünür ki, Biz onun sümüklərini yığmayacağıq?

4. Xeyr, Biz onun barmaqlarının uclarını(n hətta xətlərini də) bərpa etməyə qadirik.

5. (İnsan qayıdışa şəkk etmir) Sadəcə, o, bütün ömrü boyu günah etmək istəyir.

6. (Buna görə) O: “Qiyamət günü nə vaxt olacaq!” – deyə soruşur.

7. Gözlər qorxudan fırlanacağı,

8. ay tutulacağı

9. və günəşlə ayın qovuşacağı zaman –

10. o gün insan deyəcəkdir: “Hara qaçaq?”

11. Xeyr, (o gün) pənah aparılacaq yer olmayacaq.

12. O gün son sığınacaq (ancaq) sənin Rəbbinə doğru olacaqdır.

13. O gün insana öncədən və ya sonra göndərdiyi bütün əməllər xəbər veriləcəkdir.

14. Əslində, insan öz vəziyyətindən xəbərdardır;

15. Üzdə özünə üzrlər gətirsə də.

16. Onu (Quranı) tələsik oxumaq üçün dilini hərəkət etdirmə!

17. Çünki onu (sənin qəlbinə) toplamaq və (sənin dilindən) oxumaq Bizə aiddir.

18. Deməli, Biz onu oxuduğumuz zaman sən onun oxunuşunu izlə.

19. Sonra, onu izah etmək də Bizə aiddir.

50-51. Haqdan sanki şirdən ürküb qaçan zebrlər kimi qaçmaq: Zebrlərdə şirə qarşı qəribə qorxu hissi var. Hətta şirin səsini eşitdikdə belə, qorxu hissi onları elə bürüyür ki, dəli kimi olub ətrafa səpələnirlər. Şir sürüyə hücum etdikdə isə bu səhnəni izləyən adamda heyrət doğuracaq şəkildə pərən-pərən düşürlər. Ümumiyyətlə, hər şeydən qorxub hürkən bu heyvan qaniçən düşmənindən daha çox qorxur. Bu ayə müşriklərin ruha qida olan ayələrdən qorxub qaçmasını obrazlı şəkildə həm şüursuz olan, həm də hər şeydən ürküb qaçan zebr qaçışına bənzətmişdir. Halbuki Quran nəsihət və xatırlamadan başqa bir şey deyil.[2281]

[2281] Nümunə, c.25, səh.263

“Qiyamət” surəsinin ümumi məzmunu: Surənin əsas məzmununu qayıdış və Qiyamət gününə aid məsələlər təşkil edir. Yalnız bəzi ayələrində Quran və onu yalan hesab edənlərdən danışılır.[2282]

2. Vicdan qayıdışın doğru olduğunu sübuta yetirən bir dəlildir: Qayıdışın doğru olduğunu sübuta yetirən vasitələrdən biri insanın daxilindəki vicdan məhkəməsidir. Yaxşı iş gördükdə insanın ruhunu sevinc, şadlıq və fərəh hissi ilə doldurur, bu vasitə ilə sahibini mükafatlandırır, pis bir iş gördükdə, cinayət törətdikdə isə sahibinin ruhuna təzyiq göstərir, ona əzab verir. Bəzən bu hiss elə bir həddə çatır ki, cinayəti törətmiş adam vicdan əzabından xilas olmağın yolunu intiharda görür. Necə deyərlər, vicdan öz sahibinin edam hökmünü özü kəsib icrasını onun özünə tapşırır. Vicdan hissi bəzi adamlarda çox güclü, bəzilərində isə çox zəifdir. Ancaq hər bir adamda mövcuddur. Sadəcə, çox adam etdiyi çoxsaylı günahlar nəticəsində onu tamamilə yararsız hala salır.[2283] Əgər kiçik dünyanın – insanın öz daxili dünyasında kiçik bir məhkəmə varsa, böyük dünyanın – bütün əzəməti ilə varlıq aləminin məhkəməsi niyə də olmasın? İnsan vicdan vasitəsilə diriliş və Qiyamətin doğruluğunu dərk edir. Bununla da surənin əvvəlində qeyd edilmiş iki and arasındakı əlaqə aydın olur. Başqa sözlə desək, ikinci and birinci and üçün bir dəlildir.[2284]

14-15. İnsan öz əməllərinin ən yaxşı hakimidir: Bu ayədə insanın bədən üzvlərinin öz əməllərinə şahidlik edəcəyindən bəhs edən digər Quran ayələrinin ehtiva etdiyi məzmun əks olunmuşdur (Fussilət-20, Yasin-65). Belə ki, Qiyamət günü insanın əməllərinin ən böyük şahidi elə o özü olacaq. Çünki insan özünü hər kəsdən yaxşı tanıyır, özünə hər kəsdən daha çox

---

[2282] Nümunə, c.25, səh.271
[2283] Nümunə, c.25, səh.275
[2284] Nümunə, c.25, səh.285

bələddir. Baxmayaraq ki, bütün sirlərdən xəbərdar olan, böyük məhkəmənin yeganə sahibi olan Allah tam sübut üçün bir çox şahidlər gətirəcəkdir. Bu ayələrdə qayıdış və Qiyamətdən bəhs edilsə də, onların məzmunları daha genişdir, dünyaya şamil olur. Çünki dünyada olanda da insan öz həqiqi simasını yalanlar, arxa çevirmələr, qaçmalar, inkarlar, imtinalar və riyakarlıq pərdəsi arxasında gizləsə də, öz vəziyyətindən xəbərdardır. İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Sizlərdən kimsə öz zahirini bəzəyib gizlində pis işlərlə məşğul olarsa, nə edə bilər? Özü özünə müraciət etsə, belə olmadığını bilməzmi? Allah-taala buyurur: "İnsan öz vəziyyətindən xəbərdardır". İnsanın daxili dünyası düzələrsə, zahiri də yaxşı olar, gözəlləşər."***[2285]

20. Xeyr (Siz düşündüyünüz kimi deyil, sizə qayıdışın dəlilləri yetərsiz deyil)! Sadəcə, siz tez ötüb keçən dünyanı (qeyd şərtsiz ehtirasları) sevir,

21. Axirəti tərk edirsiniz.

22. O gün neçə-neçə üzlər sevinəcək

23. və öz Rəblərinə baxacaq.

24. O gün neçə-neçə üzlər də tutulub qaralacaq,

[2285] Nümunə, c.25, səh.292

25. Çünki qarşıda bel sındıran bir əzab olduğunu biləcək.

26. Xeyr (o düşündüyü kimi deyil), can xirtdəyə yetişəcəyi zaman;

27. “Bunu (ölümün çəngindən) xilas edən varmı?” – deyiləcəkdir.

28. Dünyadan ayrıldığını yəqin edəcək

29. və baldır baldıra dolaşacaq.

30. O gün hamının yolu Rəbbinə doğru olacaq.

31. (Həmin gün deyiləcək:) O nə iman gətirdi, nə də namaz qıldı.

32. Yalan saydı və üz döndərdi.

33. Sonra da lovğa-lovğa ailəsinin yanına qayıtdı.

34. (Buna görə də ona deyiləcək:) Allahın əzabı sənə daha layiqdir, daha layiq!

35. Yenə də Allahın əzabı sənə daha layiqdir, daha layiq!

36. Bəlkə insan məqsədsiz tərk edildiyini güman edir?

37. Məgər o, spermadan rəhmə axıdılan bir damla nütfə deyildimi?

38. Sonra laxtalanmış qan oldu. Allah onu yaradıb görkəmə saldı.

39. Ondan da bir cüt kişi və qadın yaratdı.

40. Belə bir varlıq ölüləri diriltməyə qadir deyil?

"İnsan" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. İnsan üçün xatırlanmayacaq uzun bir zaman keçibmi?

2. İnsanı qarışdırılmış nütfədən yaratdıq və onu sınaqdan keçirmək üçün eşidən və görən etdik.

3. Biz yolu ona göstərdik! Fərqi yoxdur, ya şükür etsin, ya da naşükür olsun.

4. Kafirlər üçün zəncirlər, buxovlar və yandırıcı şölələri olan od hazırlamışıq.

5. Sözsüz ki, möminlər xoş ətirli (şərab dolu) badələrdən nuş edəcəklər.

---

23. Allaha baxmaq: Bu ayədə Cənnət sakinlərinə ediləcək ən böyük mənəvi hədiyyədən bəhs edilir, həmin hədiyyə qəlb gözü ilə, batini müşahidə ilə Allahın camalına baxmaqdır. Bu baxış onları Allahın misilsiz zatına, mütləq kamillik və gözəlliyə cəzb edəcək, onlara bir an bütün dünya və dünyadakılardan da üstün olan təsəvvürəgəlməz mənəvi zövq bəxş edəcək. Bir qrup məlumatsız insan burada hissə aid müşahidədən, Qiyamətdə Allahın zahiri hiss orqanı olan gözlə görüləcəyindən danışıldığını iddia etmişdir. Halbuki bu cür görmə Allahın cism olmasını tələb edir. Çünki məkan və keyfiyyət cismə xas olan xüsusiyyətlərdir. Allah isə bu xüsusiyyətlərdən ucadır. Quran ayələrində də bu məsələyə dəfələrlə toxunulmuşdur (Ənam-1003). Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Cənnət sakinləri Cənnətə daxil olduqları zaman Allah buyuracaq: "Sizin üçün artırmağımı istədiyiniz bir şey varmı?" Onlar deyəcəklər: "Bizim üzümüzü ağardıb Cənnətə daxil etmədinmi? Oddan xilas etmədinmi?" Bu zaman pərdələr çəkiləcək. Həmin vaxt onlar üçün Rəblərinə baxmaqdan gözəl bir şey olmayacaq."***[2286]

"İnsan" surəsinin ümumi məzmunu: Bu surə məzmun etibarı ilə beş hissədən ibarətdir: 1. İnsanın yaradılışı, yolun ona göstərilməsi və yol seçimində onun azad buraxılması. 2. Möminlərin bəzi mükafatlarının qeyd edilməsi. Əhli-beytə aid olan xüsusi nazilolma səbəbi və sözügedən mükafatın onlara layiq görülməsinin dəlilləri. 3. Quranın əhəmiyyəti, onun

---

[2286] Nümunə, c.25, səh.302

hökmlərinin icra yolları, habelə özünü düzəltmənin enişli-yoxuşlu yolu. 4. İnsanın ixtiyar sahibi olması ilə yanaşı Allahın iradəsinin hökmranlığına işarə.[2287]

5-22. Peyğəmbər Əhli-beytinin (s) üstünlüyünü təsdiq edən böyük fakt: İbn Abbas belə nəql edir: İmam Həsənlə, İmam Hüseyn (əleyhiməssalam) xəstələnmişdi. Peyğəmbər (s) bir qrup səhabəsi ilə onlara dəyməyə gəlmişdi. Peyğəmbər (s) həzrət Əliyə (ə) buyurdu: Ey Əbəlhəsən, yaxşı olardı ki, övladlarının şəfa tapması üçün nəzir edəsən. Həzrət Əli (ə), həzrət Fatimə (ə) və Fizzə (onların xidmətçisi) nəzir edirlər ki, əgər onlar şəfa tapsalar, üç gün oruc tutacaqlar. Bəzi hədislərə görə İmam Həsənlə, İmam Hüseyn (əleyhiməssalam) də oruc tutmağı nəzir etdi. Çox çəkmədi ki, hər ikisi sağaldı. Həmin vaxt onların maddi vəziyyətləri də yaxşı deyildi.

Həzrət Əli (ə) 3 kq arpa borc alır, həzrət Fatimə (ə) onun üçdə birindən çörək bişirir. İftar vaxtı qapıya bir dilənçi gəlib deyir: Salam olsun sizə, ey Muhəmmədin ailəsi! Müsəlman yoxsullarındanam, mənə yemək verin, Allah da sizə Cənnət yeməklərindən lütf etsin. Onlar hamısı öz payını həmin yoxsula verib yalnız su ilə keçinirlər. İkinci gün də oruc tuturlar, iftara yemək (arpa çörəyi) hazırlayırladıqları vaxt qapıya bir yetim gəlir. Həmin gün də öz paylarından keçirlər, yenə də su ilə kifayətlənirlər. Növbəti gün yenə oruc tuturlar. Bu dəfə qürub vaxtı bir əsir gəlir. Bu dəfə də paylarını verirlər. Səhər açılandan sonra həzrət Əli (ə) İmam Həsənlə, İmam Hüseynin (əleyhiməssalam) əlindən tutub Peyğəmbərin (s) yanına gedir. Peyğəmbər (s) onların aclıqdan titrədiklərini görüb buyurur: Sizin bu vəziyyətiniz mənə çox ağır gəldi. Sonra ayağa qalxıb onlarla birlikdə yola düşür. Həzrət Fatimənin (ə) evinə daxil olanda onun aclıqdan qarnı belinə

[2287] Nümunə, c.25, səh.327

yapışmış və gözləri batmış halda mehrabda dayanıb namaz qıldığını görürlər. Peyğəmbər (s) çox narahat olur. Bu vaxt Cəbrayıl enib buyurur: Ey Muhəmməd, bu surəni qəbul et ki, Allah belə bir ailəyə sahib olduğuna görə səni təbrik edir. Bunu söyləyib "İnsan" surəsini nazil edir. Bəziləri həmin vaxt "İnsan" surəsinin 5-22-ci ayələrinin nazil olduğunu qeyd etmişlər.[2288] Sünni məzhəbinin ən böyük təfsirçilərindən olan Alusi də bu surənin Əhli-beyt (ə) haqqında nazil olduğunu qeyd etmiş və ayələrin altından belə yazmışdır: Bu surədə Cənnət xidmətçilərindən danışıldığı halda, Zəhrayi-Bətula (s) hörmət əlaməti olaraq qaragözlü hurilərdən danışılmır.[2289]

6. Allahın xüsusi bəndələri su içəcəkləri bulağı özləri istədiyi səmtə yönəldərlər.

7. Onlar vəd etdikləri nəziri verər və əzabı hər yeri sarmış Gündən qorxarlar.

8. Onlar özləri istədikləri (ehtiyac duyduqları) yeməyi kasıba, yetimə və əsirə verərlər

9. (və deyərlər): "Biz sizi yalnız Allaha xatir yedirdirik və sizdən nə əvəz, nə də bir minnətdarlıq gözləyirik!

10. Əslində, biz ağır və zəhmli gündə Rəbbimizdən qorxuruq!"

11. (Bu etiqad və əməllərinə görə) Allah onları həmin günün şərindən qoruyar və onlara gözəllik və sevinc nəsib edər,

12. səbr etdiklərinə görə onlara Cənnəti və ipəkdən olan Cənnət libasları bağışlayar.

13. Orada taxtlar üzərində dirsəklənəcək və orada nə günəş, nə də soyuq görəcəklər.

[2288] Nümunə, c.25, səh.343
[2289] Əl-Mizan, c.20, səh.143

14. Cənnət ağaclarının kölgələri onlar üçün aşağı enəcək, meyvələrini də dərmək asan olacaq.

15. Onların ətrafına (təamlarla dolu) gümüşdən hazırlanmış qablar və büllur qədəhlər dolandırılacaq.

16. Gümüşdən olan elə büllur qədəhlər ki, onları münasib ölçüdə hazırlamışlar.

17. Orada onlara zəncəfil qatılmış pak şərabla dolu badələr içirdiləcək.

18. (Həmin badələr) Cənnətdə Səlsəbil adlı bulaqdan (doldurulacaq).

19. Onların ətrafında həmişə gənc olan xidmətçi gənclər dolanacaq. Onları gördükdə səpələnmiş mirvari dənələri olduqlarını sanarsan.

20. Oraya baxsan, nemət və əzəmətli səltənət görərsən.

21. Onların əyinlərində taftadan və atlazdan yaşıl paltarlar olacaq. Qolları gümüş bilərziklərlə bəzədiləcək. Rəbləri onlara pak şərab içirdəcəkdir.

22. (Onlara deyiləcəkdir): “Bu sizin hədiyyənizdir, səyiniz təşəkkürə layiqdir”.

23. Həqiqətən, Biz Quranı sənə nazil etdik.

24. Belə ki, Rəbbinin hökmünün (təbliği və icrasında) səbrli və dözümlü ol və onlardan heç bir günahkara və ya kafirə itaət etmə!

25. Hər səhər-axşam Rəbbinin adını xatırla!

---

6. Xüsusi bəndələrə aid olan bulaq: Allahın xüsusi bəndələrinin ixtiyarında olan pak şərab bulağı onlar istədiyi verdən baş qaldırıb axır. İmam Baqir (ə) həmin bulaq haqqında belə buyurmuşdur: ***“O bulaq İslam peyğəmbərinin (s) evindədir, oradan digər peyğəmbərlər və möminlərin evinə axır.”*** Dünyada elm və mərhəmət bulağı Peyğəmbərin (s) evindən

Allah bəndələrinin evinə doğru cərəyan etdiyi kimi, Axirətdə də onun böyük bir təcəssümü olacaq, pak şərab çeşməsi vəhy evindən qaynayıb möminlərin evlərinə doğru axacaq.[2290]

9. Başqalarına yemək verməyin savabı: Acları doydurmaq yaxşı insanların ən üstün cəhətlərindəndir. Quranda bu cəhətə çox böyük önəm verilmişdir. Əgər müasir dünyaya nəzər salsaq, yayılan xəbərlərə görə hər il dünyada milyonlarla adam aclıqdan ölür. Halbuki dünyanın başqa yerlərində zibilliklərə külli miqdarda yemək tökülür. Bu da İslam qanunlarının çox yüksək dəyərlərə sahib olduğunu, dünyanın isə ondan nə qədər uzaq düşdüyünü açıq şəkildə göstərir. Hədislərdə də bu məsələyə xüsusi önəm verilmişdir. Hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Bir möminə qarnı doyunca yemək verən şəxsi Axirətdə hansı mükafatın gözlədiyini aləmləri rəbbi olan Allahdan başqa heç kəs, hətta Allahın yaxın mələkləri və peyğəmbərlər də bilməz."*** Hədislərdə açıq şəkildə qeyd edilir ki, mömin və müsəlman olmasa belə, ac adamları doydurmaq ən yaxşı əməllərdəndir. İslam peyğəmbəri (s) belə buyurmuşdur: ***"Allah dərgahında əməllərin ən yaxşısı yanan ciyərləri sərinlətmək, ac qarınları doydurmaqdır. Canım əlində olana and olsun, müsəlman qardaşı gecəni ac yatdığı halda, tox yatan bəndə mənə iman gətirməmişdir."***[2291]

13. Orada nə günəş, nə də soyuq görəcəklər: Bu cümlə Cənnət havasının çox xoş olduğunu bədii çalarlarla ifadə edir. "Zəmhərir" şiddətli soyuğa deyilir. İbn Abbasa istinad edilən bir hədisdə belə deyilir: ***"Cənnət sakinləri qəfildən Cənnəti işıqlandıran günəş işığına bənzər bir işıq görəcək və Cənnət məmuruna deyəcəklər: Bu nə işıqdır belə? Axı Allah buyurub ki, orada nə günəş, nə də soyuq görəcəklər. O isə belə deyəcək:***

[2290] Nümunə, c.25, səh.350
[2291] Nümunə, c.25, səh.357

Bu günəş və ay işığı deyil, Əli (ə) və Fatimə (ə) gülüb, Cənnət onların dişlərinin nurundan işıqlanıb.”[2292]

21. Pak şərab: Cənnətdə əməlisalehlərə verilən nemətlərdən söz açılarkən dadlı və ləzzətli içkilərdən də danışılır. Ancaq onlarla bu ayədə qeyd edilən içki arasında çox böyük fərq olduğunu görürük. Onlarda içkini verən saqi əbədiyaşar gənclər, burada isə Allahdır. İnsanı tərbiyə edib yüksək kamillik mərhələlərinə nail edərək, son mərəhləyə yüksəldən Allah lütfkarlığının ən yüksək həddini nümayiş etdirir, öz qüdrət əli ilə əməlisaleh bəndəsini pak şərabla sirab edir. Ümumiyyətlə, “təhur” ərəbcə həm pak olana, həm də pak edənə deyilir. Deməli, bu içki insanın cismini və ruhunu istənilən bulaşıqdan təmizləyir, ona sözlə ifadə edilməsi qeyri-mümkün olan ruh, nur və sevinc bəxş edir. İmam Sadiqin (ə) bu ayənin təfsirini ehtiva edən bir hədisində belə deyilir: ***“Onları Allahdan başqa hər şeydən təmizləyər”.*** Qəflət pərdələrini yox edər, örtükləri aradan qaldırar, insanı Allah yaxınlığında daimi hüzura layiq edər.[2293]

[2292] Nümunə, c.25, səh.363
[2293] Nümunə, c.25, səh.371

26. Gecə vaxtı Ona səcdə et və gecədə uzun müddət Onun şəninə təriflər de!

27. Bunlar ötəri dünyanı sevib ağır günü tərk edirlər.

28. Biz onları yaratdıq və xilqətini möhkəmlətdik. Əgər istəsək, onları başqaları ilə əvəz edərik.

29. Bu, bir xatırlatmadır. İstəyən, Rəbbinə doğru aparan bir yol tutar.

30. Amma Allah istəməyincə, siz istəyə bilməzsiniz! Allah biləndir, müdrikdir!

31. O, istədiyini (layiq gördüyünü) öz rəhmətinə daxil edər. Zalımlara isə, O, ağrılı-acılı əzab hazırlamışdır.

"Mursəlat" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. And olsun dalbadal göndərilən mələklərə

2. və iti külək kimi hərəkət edənlərə!

3. And olsun (buludları) yayanlara,

4. ayıranlara

5. And olsun ayıldıcı ayələri çatdıranlara –

6. son xəbərdarlığı etmək və ya qorxutmaq üçün.

7. Sizə vəd edilmiş mütləq vaqe olacaqdır.

8. Ulduzlar sönəcəyi zaman;

9. Göy yarılacağı (planetlər bir-birindən uzaqlaşacağı) zaman;

10. Dağlar yerindən qopduğu zaman;

11. Peyğəmbərlərə (şahidlik etmək üçün) vaxt təyin olunacağı zaman –

12. (deyiləcəkdir): “Verilmiş möhlət hansı günə qədərdir?”

13. (Deyiləcəkdir): “(Haqqın batildən) ayırd ediləcəyi günədək!”

14. Ayırd etmə gününün nə olduğunu sən haradan biləsən?

15. Yalan sayanların o gün vay halına!

16. Biz (günah edən) ilk nəsilləri həlak etmədikmi?!

17. Sonra başqalarını da onların dalınca göndəririk.

18. Biz günah sahibləri ilə belə davranırıq.

19. Yalan sayanların o gün vay halına!

“Mursəlat” surəsinin ümumi məzmunu: Bu surədə daha çox Qiyamət və onu inkar edənlərin, yalan sayanların təhdid edilməsinə, qorxudulmasına aid məsələlər yer almışdır.[2294]

1-6. And: Çox mühüm məsələlərdən xəbər verən bu andlarla bağlı üç yozum irəli sürülmüşdür: 1. Bu beş and vasitəsilə təbiətin bir çox hadisələrində mühüm rol oynayan küləklərə işarə edilmişdir. Buna görə ayələrin mənası belə olur: And olsun bir-birinin dalınca əsən küləklərə, and olsun şiddətlə əsən tufanlara, and olsun buludları yayan və onlardakı yağış damcılarını quru torpağa yollayan küləklərə, and olsun yağış yağdıqdan sonra buludları dağıdan küləklərə, and olsun bu nizam-intizamla Allahı xatıladan küləklərə. 2. Bu andlarla mələklərə işarə edilmişdir. Ayələrin mənası belədir: And olsun peyğəmbərlərə dalbadal göndərilən mələklərə, and olsun öz vəzifələrini icra etmək üçün tufan kimi sürətlə hərəkət edənlərə, and olsun səmavi kitabların ayələrini peyğəmbərlərin qarşısında açıb yayanlara, bu vasitə ilə haqqı batildən ayıranlara, Allahın zikrini və əmrlərini peyğəmbərlərə endirənlərə. 3. Birinci və ikinci andda küləklər və tufanlar, üç, dörd və beşinci andda Allahın ayələrinin mələklər tərəfindən

---

[2294] Nümunə, c.25, səh.391

yayılması, haqqın batildən ayırd edilməsi, son xəbərdarlıq və qorxutmaq məqsədilə Allahın əmrlərinin peyğəmbərlərə çatdırılması nəzərdə tutulmuşdur. Üçüncü təfsir bir çox cəhətlərdən daha uyğun görünür.[2295]

11-13. Peyğəmbərlər üçün vaxt təyin edilməsi: Qiyamət haqqında məlumat verildikdən sonra bu ayədə deyilir: O vaxt növbə ilə gəlib öz ümmətlərinə şahildik etmələri üçün peyğəmbərlərə vaxt təyin ediləcək. "Əraf" surəsinin 6-cı ayəsində belə buyurulmuşdur: ***"Biz həm özlərinə peyğəmbər göndərilmiş şəxslərdən soruşacağıq, həm də peyğəmbərlərin özlərindən."*** 12-ci ayədə Allah-taala belə buyurur: ***"Şahidlik etmələri üçün peyğəmbərlərə verilmiş möhlət hansı günə qədər təxirə salınıb?"*** Ardınca belə cavab verilir: ***"(Haqqın batildən) ayırd ediləcəyi günədək!"*** Həmin gün haqqın batildən, möminlərin kafirlərdən, əməlisalehlərin pis əməl sahiblərindən ayırd edildiyi, Allahın hər kəs haqqında hökm verəcəyi gündür. Bu sual-cavab həmin günün böyüklüyünü göstərmək üçündür. "(Haqqın batildən) ayırd ediləcəyi gün!" həmin gün haqqında söylənmiş çox dərin məzmunlu bir ifadədir.[2296]

15. Yalan hesab edənlərin vay halına: "Vay" sözü insanlar həlak olduqda, əzab və bədbəxtliyə düçar olduqları vaxt deyilir. Bəziləri onun əzab sözündən daha ağır məna daşıdığını bildirmişlər. Bəziləri "Vay"ın Cəhənnəmdə bir quyu və ya dərə adı olduğunu, burada onun leksik mənası deyil, məna çalarının nəzərdə tutulduğunu qeyd etmişlər. Quranda bu sözə çox yerdə, o cümlədən kafirlər, müşriklər, yalançılar, yalan hesab edənlər, günahkarlar, çəkidə aldadanlar, qafil namazqılanlar haqqında işləndiyinə rast

[2295] Nümunə, c.25, səh.397
[2296] Nümunə, c.25, səh.401

gəlinir. Ancaq Quranda bu söz daha çox yalan hesab edənlər haqqında işlədilmişdir. Nəzər nöqtəsi olan surədə isə on dəfə təkrar edilmişdir.[2297]

20. Məgər Biz sizi dəyərsiz bir sudan (nütfədən) xəlq etmədikmi?

21. Sonra onu etibarlı və hazır bir yerdə yerləşdirmədikmi –

22. məlum bir vaxta kimi?

23. Biz buna qadir olduq. Elə isə Biz yaxşı qürət sahibiyik!

24. Yalan sayanların o gün vay halına!

25. Məgər Biz yeri insanların toplaşdığı mərkəz etmədikmi –

26. həm diri olduqları, həm də ölü olduqları vaxt?

27. Orada möhkəm və uca dağlar yaratdıqı və sizə şirin sulardan içirtdik

[2297] Nümunə, c.25, səh.402

28. Yalan sayanların o gün vay halına!

29. (O gün onlara belə deyiləcək): “Dərhal gedin yalan hesab etdiyinizə (Cəhənnəmə) doğru!

30. Üç qola ayrılan (boğucu və yandırıcı) kölgəyə tərəf gedin!”

31. O kölgə nə rahatlıq gətirir, nə də alovdan qoruyur.

32. Hər biri hündür imarət həcmində olan qığılcımlar püskürür.

33. Onlar sanki sarı dəvələrdir.

34. Yalan sayanların o gün vay halına!

35. Bu, (günahkarların) danışa bilməyəcəkləri (və özlərini müdafiə edə bilməyəcəkləri) bir gündür.

36. Onlara üzrxahlıq etmək üçün izn verilməyəcəkdir.

37. Yalan sayanların o gün vay halına!

38. (Onlara deyiləcək:) Bu gün həm sizi, həm də əvvəlkiləri topladığımız (haqqı batildən) ayırd etmə günüdür!

39. Əgər qarşımdan qaçmağa bir çarəniz varsa, həyata keçirin!

40. Yalan sayanların o gün vay halına!

41. (Həmin gün) müttəqilər kölgəliklərdə, çeşmələr başında

42. və istədikləri meyvələrin arasında olacaqlar.

43. (Onlara deyiləcək): “Nuşcanlıqla yeyin-için. Bunlar etdiyiniz əməllərin qarşılığıdır!

44. Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq!”

45. Yalan sayanların o gün vay halına!

46. (Günahkarlara de:) “Yeyin və bu az müddətdə (dünya həyatından) ləzzət alın (ancaq bilin ki, Allahın əzabı sizi gözləyir)! Çünki siz günahkarlarsınız!

47. Yalan sayanların o gün vay halına!

48. Onlara: “Rüku edin!” – deyildiyi zaman rüku etməzlər.

49. Yalan sayanların o gün vay halına!

50. (Əgər onlar bu Qurana inanmırlarsa,) Ondan sonra hansı sözə inanacaqlar?

-

25. Yer insanların toplaşdığı mərkəzdir: Yer bütün insanların toplaşdığı məkandır, diriləri üzərində cəm edib bütün ehtiyaclarını təmin edir, ölülərə də özündə yer verir. Təsəvvür edin, əgər yer ölülərin dəfn edilməsi üçün əlverişli olmasaydı, onlardan yaranan xəstəliklər bütün canlı aləmi üçün faciə yaradardı. Yer övladlarını ətrafına toplayıb qanadları altına alan bir ana kimi, insanları öz üzərində toplayır, qidalandırır, paltarla təmin edir, yaşamaları üçün yer verir, ehtiyacalrını təmin edir, ölənlərini bağrına basır, pis təsirlərini məhv edir. Möminlərin əmiri İmam Əli (ə) Siffeyn müharibəsindən Kufəyə qayıdarkən Kufə yaxınlığına çatanda Kufə darvazasından kənarda olan qəbristanlığa nəzər salıb buyurmuşdur: ***"Bu, ölülərin toplaşdığı məkandır".*** Sonra isə üzünü Kufəyə tərəf tutaraq ***"Bu da dirilərin toplaşdığı məkandır"***, - deyə buyurmuşdur. Ardınca nəzər nöqtəsi olan ayəni oxumuş, həyat ilə ölüm mənzili arasında çox az məsafə olduğuna işarə etmişdir.[2298]

30-33. İmarət kimi qığılcımlar: 29-cu ayədə Qiyamət günü qayıdışı inkar edənlərə hər zaman inkar etdikləri Cəhənnəmə doğru hərəkət etmələri əmrinin veriləcəyi buyurulmuşdur. Bu ayələrdə onların çəkəcəkləri əzab haqqında bir qədər izah verilmişdir. "Üç qola ayrılmış kölgə" deyilərkən üç boğucu tüstü nəzərdə tuutulmuşdur: yuxarıdan, sağdan və soldan gələn tüstü. Həmin qatı tüstü onları hər tərəfdən əhatə edərək öz kamına alacaq. 32-ci

---

[2298] Nümunə ,c.25, səh.411

ayədə Cəhənnəmin yandırıcı odu ilə bağlı başqa bir izah verilmişdir: ***"Hər biri hündür imarət həcmində olan qığılcımlar püskürür."*** Yəni oranın odunun qığılcımı bu dünyadakı odun iynə ucu boyda olan qığılcımı boyda deyil, daha böyük olacaq. Burada "imarət" ifadəsi ilə daha dərin məna nəzərdə tutulmuşdur. Əslində, burada "dağ boyda qığılcım" da deyilə bilərdi. Ancaq unutmaq olmaz ki, elə bu surənin 27-ci ayəsində dağlar xeyir və bərəkət, şirin su mənbəyi kimi təqdim edilmişdir. Ancaq imarətlər, saraylar, qəsrlər qığılcım saçan yandırıcı odun şölələrinin mənbəyidir. Buna görə də günahkarlar o dünyada imarətləri boyda olan qığılcımlar içində yanmalıdırlar. 33-cü ayədə həmin qığılcımlar haqqında başqa bir ifadə işlədilmişdir: ***"Onlar sanki sarı dəvələrdir."*** Əvvəlki ayədə bu qığılcımlar imarətlərə həcm baxımından bənzədildiyi halda, burada çoxluq, rəng, hərəkət, hər tərəfə yayılma baxımından ətrafa səpələnmiş dəvə sürüsünə bənzədilmişdir. Qığılcımları bu cür olan bir odun özü haqqında danışmağa isə artıq lüzum qalmır.[2299]

35-36. Yalan hesab edənlərin danışmayacağı gün: Qiyamət elə bir gündür ki, yalan hesab edənlərə nə danışmağa, nə üzr istəməyə, nə də özlərini müdafiə etməyə icazə veriləcək. Çünki bütün həqiqətlər ortada olacaq, deməyə heç nə qalmayacaq.[2300] Soruşula bilər ki, dillərin danışa bilməməsinə Qiyamətin böyük qorxusu səbəb olacaq, ya onların üzr istəməyə, deməyə və danışmağa sözləri olmayacaq, yoxsa Allahın hökmü ilə dil öz funklsiyasını itirəcək, əvəzinə bədən üzvləri şahidlik edəcək? Üçüncü təfsir daha münasib görünsə də, ayədə hər üç təfsirin nəzərdə tutula biləcəyini söyləyə bilərik.[2301] Hədislərinin birində İmam Sadiq (ə) belə

[2299] Nümunə, c.25, səh.417
[2300] Nümunə, c.25, səh.421
[2301] Quranın ismarışı, c.5, səh.110

buyurmuşdur: ***"Allah əsaslı üzrü olan bəndəsinin üzr istəməsinə icazə verməməkdən daha uca, daha böyük, daha ədalətlidir. Əslində, onların ümumiyyətlə, istəməyə üzrləri olmayacaq."***[2302]

"Nəbə" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Onlar nə barədə bir-birindən soruşurlar?
2. Böyük və əhəmiyyətli bir xəbər (Qiyamət) barəsində –
3. elə bir xəbər ki, onun haqqında ziddiyyətdədirlər.
4. Xeyr, (onlar düşündükləri kimi deyil,) onlar tezliklə biləcəklər!
5. Bir daha xeyr! Onlar tezliklə biləcəklər (ki, Qiyamət doğrudur)!
6. Məgər Biz yeri rahatlıq məkanı etmədikmi?
7. Dağları da yerin mıxları?!
8. Biz sizi cüt yaratdıq.
9. Yuxunuzu da istirahət vasitəniz etdik.
10. Gecəni örtük etdik,
11. gündüzü isə ruzi qazanmaq vaxtı.
12. Yuxarınızda yeddi möhkəm (göy) inşa etdik,
13. çox parlaq və istilik verən bir çıraq yaratdıq.
14. Biz buludlardan bol su endirdik ki,

[2302] Nümunə, c.25, səh.421

15. onunla taxıl və çoxlu bitkilər yetişdirək,

16. habelə ağacları bol olan bağlar (salaq).

17. Ayırd etmə günü bəlli bir vaxta təyin edilmişdir!

18. Sur üfürüləcəyi gün siz dəstə-dəstə gələcəksiniz.

19. Göy açılacaq və müxtəlif qapılar formasını alacaq.

20. Dağlar da hərəkətə gəlib ilğıma çevriləcək.

21. Həqiqətən, Cəhənnəm pusquda dayanıb gözləyəcək.

22. O, həddi aşanların qayıdacağı yerdir.

23. Onlar orada uzun illər qalacaqlar.

24. Onlar orada nə bir sərinlik, nə də dadlı içki dadacaqlar.

25. (İçdikləri) yalnız qaynar su və irin (olacaq –)

26. Bu, (onların törətdikləri əməllərə) uyğun bir cəzadır.

27. Çünki onlar haqq-hesab çəkiləcəklərinə ümid etmirdilər.

28. Ayələrimizi tamamilə təkzib edirdilər.

29. Biz hər bir şeyi hesablayıb yazmışıq.

30. Elə isə dadın (əzabı!) Biz sizə əzabdan başqa bir şey artırmayacağıq!

“Nəbə” surəsinin ümumi məzmunu: Surədə başlanğıc, qayıdış, müjdə və təhdidlərdən bəhs edilir.[2303]

2. Mühüm xəbər: “Böyük və mühüm xəbər” deyilərkən Quranın daha çox təkid etdiyi diriliş və ölülərin qaldırılması hadisəsi nəzərdə tutulmuşdur. Bir çox hədislərdə sözügedən böyük xəbər İmam Əlinin (ə) imam təyin edilməsi kimi izah edilmişdir. Əlbəttə, həmin hədislərdə ayənin zahiri deyil,

---

[2303] Nümunə, c.26, səh.3

batini mənası qəsd edilmişdir. Ayənin zahiri mənası qayıdışa aiddir. Ümumiyyətlə, bir ayənin bir neçə mənası, onlardan isə biri zahiri, digəri isə batini mənaya aid ola bilər. Təbii ki, Quranın batini mənasını Peyğəmbər (s) və imamlara (ə) aid izahlar və aydın faktlar olmadan dərk etmək mümkün deyil. Quranın batini mənalarının olması faktı Quran ayələrini ürəkləri istədiyi kimi yozmaq istəyən azğınlar üçün bəhanə olmamalıdır.[2304]

18. Məhşərə dəstə-dəstə daxil olmaq: Peyğəmbərin səhabələrindən olan Məaz ibn Cəbəl Peyğəmbərdən (s) bu ayənin izahını soruşduqda Peyğəmbər (s) belə cavab vermişdir: ***"Ey Məaz, çox böyük bir məsələ haqqında soruşdun."*** Sonra gözlərini yumub belə buyurmuşdur: ***"Ümmətimdən on dəstə ayrı-ayrı dəstələr şəklində gələcək. Allah onları müsəlmanlar arasında ayıracaq. Onların bəzisini meymun, bəzisi donuz sifətində olacaq, bəzisinin ayaqları yuxarı, üzləri aşağı çevrilmiş vəziyyətdə olacaq, üzləri ilə yerdə sürünəcəklər. Bəziləri kor olacaq, o tərəf-bu tərəfə gedəcək. Bəziləri kar, lal və şüursuz olacaq. Bəziləri dillərini çeynəyəcək, ağızlarından çirk axacaq. Məhşərdəkilər həmin çirkin üfunət qoxusundan narahat olacaqlar. Bəzilərinin əl-ayağı kəsik olacaq. Bəziləri od dilləri üzərində asılı vəziyyətdə olacaq. Bəzilərinin üfunəti qoxumuş murdardan daha pis olacaq. Bəzilərinin əynində bədənlərinə yapışmış odda ərimiş mis paltar olacaq. Meymun surətində olanlar sözgəzdirənlərdir. Donuz surətində olanlar haramxorlardır. Kəlləmayallaq olanlar sələm yeyənlərdir. Korlar kam çıxaranlardır. Karlar və lallar əməllərini böyük sayanlardır. Dillərini çeynəyənlər əməlləri ilə danışıqları düz gəlməyən alim və qazilərdir. Əl və ayaqları kəsik olanlar qonşularını incidənlərdir. Od dilləri üzərində asılanlar camaatı sultanlara satanlardır (camaatın***

[2304] Nümunə, c.26, səh.6-9; Əl-Mizan, c.20, səh.174-179

həbsinə, sürgün edilməsinə, edam olunmasına və sairəyə səbəb olanlar). Murdardan daha üfunətli olanlar haramdan ləzzət almaq, haramla ehtiraslananlar, Allahın hüququ olan vacib maliyyə vergisini verməyənlərdir. Əyinlərində odul paltar olanlar təkəbbürlü və lovğa adamlardır.”[2305]

19. Səmanın açılması və qapılar formasını alması: Bəzi təfsirçilər yazır ki, həmin gün qeyb aləminin qapıları müşahidə aləminin üzünə açılacaq, pərdələr kənara çəkiləcək, mələklər aləmi ilə insanlar aləminin arası açılacaq. Bir qrup təfsirçi isə burada Quranın digər ayələrində qeyd edildiyi kimi, Qiyamət ərəfəsində göylərin parçalanmasının nəzərdə tutulduğunu yazmışlar (İnşiqaq-1; İnfitar-1). Planetlər elə parçalanacaq ki, onların hamısının sanki qapılara çevrildiyi təsəvvürü yaranacaq.[2306]

[2305] Məcməül-bəyan, c.10, səh.242
[2306] Nümunə, c.26, səh.32

31. Müttəqilər üçün xilas və müvəffəqiyyət vardır,

32. yamyaşıl bağlar və növbənöv üzümlər,

33. çox gənc və həmyaşıd hurilər

34. və ləbələb (doldurulmuş) qədəhlər!

35. Onlar orada nə mənasız sözlər, nə də yalan eşidəcəklər.

36. Bunlar sənin Rəbbin tərəfindən olan mükafatlar, yetərli qədər olan töhfələrdir.

37. (O,) göylərin, yerin və onların arasında olanların mərhəmətli Rəbbidir. Allahın icazəsi olmadan kiminsə danışmağa, söz deməyə haqqı yoxdur.

38. Ruh və mələklər bir sırada duracağı gün, mərhəmətli Allahın izn vermədiyi şəxlərdən başqa heç kəs danışmayacaq. Danışan da doğru danışacaq.

39. O gün gerçək bir gündür. Kim istəsə, Rəbbinə doğru bir yol tutar!

40. Biz sizi yaxın əzabla qorxutduq. Bu əzab o gün olacaq ki, insan öncədən öz əlləri ilə göndərdiyini görəcək. Kafir deyəcək: “Kaş mən torpaq olaydım!”

"Naziat" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. And olsun (günahkarların canlarını bədənlərindən zorla) çəkib çıxaran mələklərə!

2. And olsun (möminlərin canını) rahatlıqla, xoşluqla alan mələklərə!

3. And olsun (Allahın əmrini icra etmək üçün) sürətlə hərəkət edən,

4. bir-biri ilə ötüşən,

5. işləri idarə edən mələklərə!

6. O gün qorxulu zəlzələlər hər şeyi titrədəcək,

7. onun ardınca ikinci hadisə (Məhşərin qorxulu səsi) baş verəcək.

8. Həmən gün qəlblər tir-tir əsəcək.

9. Onların gözləri qorxudan yerə dikiləcək.

10. (Halbuki indi) onlar deyirlər: “Yəni biz həyata yenidən qayıdacağıq?

11. Çürümüş sümüklərə çevrildikdən sonra?”

12. Deyilər: “Əgər Qiyamət varsa, bu, zərərli bir qayıdışdır”.

13. Bu qayıdış təkcə uca bir səslə baş verəcək.

14. Qəfildən onlar hamısı yerin səthinə çıxacaqlar.

15. Musanın əhvalatı sənə yetişibmi?

---

38. Ruh və söz deməyə qüdrəti olanlar kimlərdir? Bu ayədə sözükeçən “Ruh” haqqında müxtəlif yozumlar qeyd edilmişdir. Ən ağlabatan versiya isə həmin ruhun Allahın ən böyük mələklərindən olması versiyasıdır. Bəzi hədislərə görə o, hətta Cəbrayıl və Mikayıldan da üstündür. İmam Sadiq (ə) belə buyurmuşdur: “O, Cəbrayıl və Mikayıldan da üstün mələkdir.” Qiyamət günü mələklər bu böyük mələyin əmrində olacaqlar. Məhşərin qorxusu və dəhşəti hər kəsi elə bürüyəcək ki, heç kəs danışmağa cürət etməyəcək, söz danışan və şəfaət edən yalnız Allahın icazəsi ilə edəcək. İmam Sadiqdən (ə) bu barədə soruşulduğunda belə buyurmuşdur: ***“And olsun Allaha! Biz Qiyamətdə söz danışmağa icazəsi ola şəxslərik.”*** Soruşan “Siz o gün nə deyəcəksiniz?”, - deyə soruşduqda isə İmam (ə) belə buyumruşdur: ***“Rəbbimizə təriflər deyəcək, peyğəmbərlərə salam göndərəcək, ardıcıllarımıza şəfaət diləyəcəyik. Allah-taala da bizim şəfaətimizi geri çevirməyəcək.”*** Bu hədisdən belə başa düşülür ki, peyğəmbərlər və məsum imamlar (əleyhimissalam) da həmin gün mələklər eyni sırada duracaqlar.

Ancaq onlara danışmaq, Allaha tərif demək, həmd etmək və şəfaət etmək icazəsi veriləcək.[2307]

"Naziat" surəsinin ümumi məzmunu: Qayıdışdan bəhs edən bu surə altı hissədən ibarətdir: 1. Qayıdışla əlaqəsi olan və bu böyük günün gerçəkləşəcəyini təkidlə çatdıran andlar; 2. O günün qorxulu və dəhşətli mənzərələrindən fraqmentlər; 3. Həm Peyğəmbərə (s) və möminlərə təsəlli vermək, həm də qayıdışın inkarının insanı hansı günahlara sürüklədyini həddi aşan müşriklərə başa salmaq məqsədilə Musa (ə) ilə həddi aşmış fironun əhvalataına qısa və ötəri bir işarə; 4. Qayıdış və ölümdən sonrakı həyatın varlığını başa salmaq üçün yerdə və göydə Allahın qüdrətli olduğunu sübuta yetirən əlamətlərin bir neçəsinin qeyd edilməsi; 5. Qorxulu gündə baş verəcək hadislərin bir neçəsi, həddi aşanların aqibəti və əməlisalehlərin mükafatı; 6. Sonda Qiyamətin nə zaman baş verəcəyinin heç kəsə məlum olmaması, ancaq tezliklə qopacağı buyurulmuşdur.[2308]

1-5. Andların izahı: Təfsirçilər bu beş andın kimlər haqqında olması ilə bağlı müxtəlif fikirlər irəli sürmüşlər. Ən uyğun təfsir isə belədir: Bu andlar kafirlərin və günahkarların canlarını əziyyətlə, möminlərin canlarını yumşaq alan, Allahın əmrlərini yerinə yetirmək üçün sürətlə hərəkət edən, sonra bir-biri ilə yarışa çıxan, Allahın əmri ilə dünyanı idarə edən mələklərlə bağlıdır. Əlbəttə, bu yozumu daha ümumi mənada götürmək olar. Belə ki, mömin və kafirlərin canlarının alınması ayənin ifadə etdiyi mənanın yalnız bir hissəsidir. Andlar isə Allahın əmrlərini icra edən mələklərlə bağlıdır. Bu mələklər tərəfindən Allahın əmrlərinin icrası beş mərhələ ilə səciyyələnir:: Qətiyyət, kəskin hərəkət, aramla yola düşmək, daha da sürətlənmək, dünyanın idarə edilməsi. Hər halda, mömin və kafirlərin canlarının alınması

[2307] Nümunə, c.26, səh.56
[2308] Nümunə, c.26, səh.71

ümumi məzmunun bir yönüdür və surənin qayıdışla bağlı hissəsinə bir girişdir.[2309]

16. O zaman Rəbbi onu müqəddəs Tuva vadisində səsləyib demişdi:

17. “Fironun yanına yollan! O, həddini aşmışdır.

18. Ona de: “Paklanmaq istəyirsənmi?

19. Səni Rəbbinə doğru yönəldimmi ki, (Ondan) qorxub çəkinəsən?”

20. Sonra Musa ən böyük möcüzəni ona göstərdi.

21. O isə yalan sayıb asi oldu.

22. Sonra da arxa çevirib (haqq dini məhv etmək üçün) dayanmadan çalışdı.

23. Sehrbazları toplayıb camaatı çağırdı

[2309] Nümunə, c.26, səh.76

24. və dedi: “Mən sizin uca rəbbinizəm!”

25. Buna görə Allah onu dünya və Axirət əzabına düçar etdi.

26. Bunda (Allahdan) qorxan üçün ibrət var.

27. Sizin yaradılışınız çətindir, yoxsa göyün? O, onu inşa etdi,

28. onun qübbəsini ucaltdı və onu nizama saldı,

29. gecəsini qaranlıq, gündüzünü aydın etdi.

30. Sonra yeri açdı,

31. onda su və otlaq yaratdı,

32. dağları da sabit və möhkəm etdi.

33. Bunlar hamısı sizin və mal-qaranızın faydalanmasından ötrüdür.

34. O böyük hadisə baş verdiyi zaman –

35. o gün insan səy göstərdiklərini xatırlayacaqdır.

36. Cəhənnəm görmə qabiliyyətinə malik olan hər bir adama göstəriləcəkdir.

37. Ancaq kim həddi aşıbsa,

38. dünya həyatını üstün tutubsa,

39. Cəhənnəm onun məskəni olacaqdır.

40. Amma kim Rəbbinin məqamından qorxmuş və nəfsini ehtirasdan çəkindiribsə,

41. şübhəsiz, Cənnət onun məskəni olacaq.

42. Səndən Qiyamət barəsində: “O nə vaxt qopacaq?” – deyə soruşurlar.

43. Onu xatırlmağın sənə nə aidiyyəti var?! (Onu sən də bilmirsən)

44. O sənin Rəbbində tamamlanır (Onu sənin Rəbbindən başqa heç kəs bilmir).

45. Sənin işin yalnız ondan qorxanı qorxutmaqdır.

46. Onlar Qiyaməti gördükləri gün (dünyada) yalnız bir axşam çağı və yaxud bir sübh qədər qaldıqlarını güman edəcəklər!

-

24. Nə qədər axmaqlıq etmək olar? Doğrusu, çox qəribədir ki, həddi aşan bu axmaq və inadkarlar təkəbbür və lovğalıq miniyinə mindikləri vaxt heç bir həd tanımırlar, hətta Allahlıq iddiasına da düşür, Allahlar Allahı olmaq istəyirlər. Onlar camaata belə deyirlər: Siz bütlərə sitayiş edirsiniz, onlar öz yerlərində hörmətə layiqdirlər, ancaq mən sizin ən uca bütünüz və məbudunuzam. "Əraf" surəsinin 127-ci ayəsinə əsasən özü bütpərəst olan Firon bu ayədə qeyd edilənlərdən də göründüyü kimi, elə bir həddə çatır ki, insanların uca rəbbi olduğunu iddia edir, özünü hətta öz məbudundan da uca tutur. Bu, hədlərini aşmışların nə qədər boş və gülünc iddialarda olduqlarını göstərir.[2310] Məlumdur ki, daşa və taxtaya səcdə edən insanlar insan olan Allahı daha yaxşı qəbul etməlidirlər. Buna görə də Firon özünü bütün məbudlardan üstün bilirdi.[2311]

37-38. Həddi aşmaqla dünyapərəstliyin əlaqəsi: Bu ayələrdə xoşbəxtlik və bədbəxtlik amilləri çox gözəl şəkildə təsvir edilmiş, bədbəxtliyin həddi aşmaq və dünyapərstliyin nəticəsi, xoşbəxtliyin isə Allahdan qorxmaq və nəfsani istəklərin tərk edilməsinin səmərəsi, peyğəmbər və öyliyaların bütün təlimlərinin bəhrəsi olduğu buyurulmuşdur. Deməli, nəfs və ehtirasa müti olmaq ağlın üzərinə pərdə çəkir, çirkin əməlləri insanın gözündə gözəl göstərir, Allahın ən böyük neməti və insanı heyvandan fərqləndirən imtiyazı ondan alır və onu özünə məşğul edir. İmam Baqir (ə) buyurmuşdur: ***"Cənnət narahatlıqlar və çətinliklərlə səbr və***

[2310] Nümunə, c.26, səh.93
[2311] Quranın ismarışı, c.3, səh.254

dözüm arasında gizlənmişdir. Dünyadakı narahatlıqlara dözən Cənnətə daxil olar. Cəhənnəm ləzzətlər və ehtiraslar arasında gizlənmişdir. Nəfsini bu ləzzətlər və ehtiraslar qarşısında azad buraxan şəxs Cəhənnəmə daxil olar." İmam Sadiq (ə) buyurmuşdur: ***"Nəfsi onun istəklərinin ixtiyarına vermə. Çünki nəfsin istəkləri nəfsin ölməsinə səbəb olur. İstəkləri qarşısında nəfsi azad buraxmaq onun üçün dərd olur. Onu bu istəklərdən saxlamaq onun əlacıdır."*** Nəfsin istəklərinə tabe olmaq təkcə Axirət Cəhənnəmi deyil, əmin-amanlıqların pozulması, nizam-intizamların sıradan çıxması, müharibələr, qan tökülməsi, kin-küdurətlər kimi dünya Cəhənnəmləri də onun nəticəsidir.[2312]

46. Qiyamətlə müqayisədə dünyanın və Bərzəxin kiçikliyi: Bu ayələr onu göstərir ki, Qiyamətə qədər olan zaman elə də uzun sürməyəcək. Dünyanın qısa ömrü, habelə Bərzəx həyatı elə sürətlə ötüb keçəcək ki, Qiyamət qopduğu vaxt insan bütün bu dövrlərin bir neçə saatdan uzun sürmədiyini düşünəcək. Dünyanın ömrü onsuz da çox qısa və keçicidir, ancaq Qiyamətlə müqayisədə bir neçə anlıq təəssüratı bağışlayacaq. Quran ayələrində buyurulur ki, günahkarlar Qiyamətdə dünya və Bərzəx həyatları haqqında danışarkən belə deyəcəklər: ***"Siz (dünya və Bərzəxdə) yalnız on gün qalmısınız".*** Ancaq onlar daha yaxşı fikirləşib deyəcəklər: ***"Siz yalnız bir gün qalmısınız."*** (Taha-103-14). Başqa bir yerdə buyurulur ki, Qiyamət qopanda günahkarlar and içib deyəcəklər ki, cəmi bir neçə saat qalıblar (rum-55). Bu fərqlər ona görədir ki, onlar zamanın qısalığını öz hiss etdikləri kimi bəyan edirlər. Əlbəttə, hamısı bir cəhətdə müttəfiqdirlər, o da budur ki,

[2312] Nümunə, c.26, səh.109

Qiyamətlə müqayisədə dünyanın ömrü qısadır. Bu, insanı qəflət yuxusundan oyadacaq bir məsələdir.[2313]

"Əbəsə" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Üzünü turşudub yana çevirdi.

2. Yanına bir kor gəldiyinə görə.

3. Haradan biləsən, bəlkə o təmizlənib təqvalı olacaq

4. və yaxud xatırlayıb nəsihət alacaq və bu xatırlama onun üçün faydalı olacaq.

5. İmkanlıya gəlincə,

6. sən ona diqqət yetirirsən.

7. Onun təmizlənməməyinin sənə bir dəxli yoxdur.

8. Sənin yanına gəlib səy göstərən,

9. Allahdan qorxan kimsəyə gəlincə isə,

10. ona məhəl qoymursan!

11. Xeyr! (Bu, onlar düşündüyü kimi deyil.) Bu (Quran), bir xatırlatmadır.

[2313] Nümunə, c.26, səh.115

12. Kim istəsə, qoy ondan nəsihət alsın.

13. Çox qiymətli lövhələrdə yazılıb,

14. yüksək və pak lövhələrdə

15. səfirlərin əlləri ilə,

16. möhtərəm və müti olanların.

17. Ölüm olsun bu insana! Nə qədər kafir və nankordur!

18. (Allah) onu nədən yaradıb?

19. Onu dəyərsiz nütfədən yaratdı, sonra müəyyən şəklə saldı.

20. Sonra yolu onun üçün asanlaşdırdı.

21. Sonra onu öldürüb qəbirə yerləşdirdi.

22. İstədiyi vaxt onu dirildəcəkdir.

23. Xeyr! (O, düşündüyü kimi deyil.) O, hələ də (Allahın) verdiyi əmrə itaət göstərməmişdir.

24. İnsan gərək yediyinə diqqət yetirsin!

25. Biz göydən bol su yağdırırıq.

26. Sonra da yeri çat-çat yarıb

27. orada taxıl yetişdiririk.

28. (Habelə) üzüm və bol göyərti,

29. çoxlu zeytun və xurma (ağacları),

30. ağacları bol olan bağlar,

31. meyvələr və otlaqlar (bitirdik).

32. (Bu nemətlər) sizin (istifadəniz) və mal-qaranızın faydalanması üçündür.

33. O vahiməli səs gələndə –

34. o gün insan qaçacaq öz qardaşından,

35. anasından, atasından,

36. arvadından və övladlarından!

37. O gün onlardan hər birinin yetərincə işi olacaqdır.

38. O gün (neçə-neçə) üzlər parlayacaq,

39. güləcək və fərəhlənəcəkdir.

40. O gün (neçə-neçə) üzlərə toz-torpaq hopacaq,

41. onları qaranlıq bir tüstü bürüyəcəkdir.

42. Onlar həmin günahkar kafirlərdir!

"Əbəsə" surəsinin ümumi məzmunu: Bu surə məzmun etibarı ilə beş hissəyə bölünür: 1. Həqiqət axtarışında olan kor bir kişiyə qarşı uyğun olmayan hərəkətə yol verən insanın Allah tərəfindən ciddi şəkildə danlanması; 2. Quranın əhəmiyyəti və mövqeyi; 3. İnsanın Allah nemətlərinə qarşı naşükürlüyü; 4. Allahın bəzi nemətlərinin sadlanması; 5. Qayıdış, mömin və kafirlərin aqibəti.[2314]

1-10. Qaşqabağını sallayıb üzünü çevirdi: Bu ayələrdən belə məlum olur ki, Allah varlıları haqq axtarışında olan kor bir kişidən üstün tutan bir nəfəri danlayır. Danlanan şəxsin kimliyi çoxlu fikir ayrılıqlarına səbəb olmuşdur. Bəzi təfsirçilər bir nazilolma səbəbinə əsasən həmin adamın İslam peyğəmbəri (s) olduğunu qeyd etmişlər. Onlar yazırlar ki, Peyğəmbər (s) məsələ öyrənmək üçün onun yanına gəlmiş bir müsəlmana qaşqabaq sallayıb üzünü yana çevirmişdir. Halbuki İmam Sadiqə (ə) istinad edilən bir hədisdə belə deiylir: ***"Bu ayələr Peyğəmbərin (s) yanında əyləşmiş Bəni-üməyyədən olan bir şəxs haqqında nazil olmuşdur. Belə ki, o, Peyğəmbərin (s) yanında olduğu vaxt Abdulla ibn Məktum adlı kor və yoxsul bir kişi gəlir. Həmin şəxs Abdullanı görən kimi özünü elə yana çəkir ki, sanki onun yoxsulluğunun buna keçəcəyindən qorxur,***

[2314] Nümunə, c.26, səh.121

qaşqabağını sallayıb üzünü kənara çevirir. Allah-taala bu ayələrdə onu bu davranışına görə məzəmmət edir.” Bu ayələr onu göstərir ki, İslam və Quran haqq axtarışında olanlara, xüsusilə yoxsul və aşağı təbəqənin adamlarına xüsusi ehtiram və diqqət, Allahın verdiyi bol nemət içində məst olub lovğalananlara isə sərt münasibət göstərir. İslam dinində haqq axtarışında olan yoxsullara hörmət və qayğı o qədər diqqət mərkəzindədir ki, hətta azacıq incidilmələri belə yolverilməz sayılır. Çünki İslamın ən ixlaslı müdafiəçiləri, çətinliklər zamanı din öndərlərinin fəryadına səs verənlər, müharibə və şəhadət meydanlarının fədakarları hər zaman kasıb təbəqə olmuşdur. Möminlərin əmiri İmam Əli (ə) Malik Əştərə yazdığı məşhur məktubunda belə qeyd etmişdir: ***“Dinin sütunu və düşmənlərə qarşı mübarizədə müsəlmanların çox hissəsi sadə camaatdır. Buna görə də onlara daha çox diqqət və qayğı göstərməlisən.”***[2315]

24. İnsan öz yeməyinə baxmalıdır: Məlumdur ki, “baxmaq” deyilərkən oturub tamaşa etmək deyil, yeməyin tərkibi, onu təşkil edən maddələr, onların insan orqanizminə təsiri və ən nəhayət də onu yaradan barəsində düşünmək nəzərdə tutulur. Belə ki, bizi əhatə edən aləmdə insana ən yaxın olan şey yeməkdir. Yemək bir çevrilişlə insanın varlığının bir hissəsinə çevrilir. Əgər insan qidasız qalsa, tez bir zamanda həyatla vidalaşar. Buna görə də Quranda hər şeydən çox qidaya, xüsusilə bitki və ağaclardan əldə edilən qidaya önəm verilmişdir. Məsum imamlara (ə) istinad edilən bəzi hədislərdə qida deyilərkən burada insan ruhunun qidası olan elm və bilik nəzərdə tutulduğu qeyd edilmişdir. Belə ki, insan elmi kimdən kəsb etdiyinə fikir verməlidir. Əslində, ayələrin zahiri məzmunundan sonrakı ayələrdə izah edilən fiziki qidaların nəzərdə tutulduğu məlum olur. Ancaq

---

[2315] Nümunə, c.26, səh.123; Əl-Mizan, c.20, səh.222

insan ruh və cisimdən ibarət bir varlıq olduğu üçün cisim maddi qidaya ehtiyac duyduğu kimi, ruh da mənəvi qidaya ehtiyac duyur. İnsan cismani qidasında diqqətli olduğu, onun mənbəyinin həyat bəxş edən yağış olduğuna fikir verdiyi kimi, mənəvi və ruhi qidasına da diqqət yetirməli, bu qida mənbəyinin vəhy yağışı vasitəsilə Peyğəmbərin (s) pak qəlbinə endiyini, məsumların (ə) qəlbində xəzinə kimi qorunduğunu, bulaqlar kimi qaynayıb qəlb tarlalarına axdığını, iman, təqva və gözəl əxlaq meyvələri bitirdiyini bilməlidir. İnsan çox diqqətli olmalı, çirkli bulaqdan qidalanmamalı, nəticədə ruhunu və canını xəstələndirib məhv etməməlidir.[2316] Qəribədir ki, bəzi adamlar maddi qidalarına çox ciddi şəkildə fikir verdikləri halda, ruhi və mənəvi qidalarına elə də böyük əhəmiyyət vermirlər. İmam Həsən (ə) belə buyurmuşdur: ***"Bədənlərinin qidasını düşünüb ruhlarının qidasına diqqət yetirməyənlərə çox təəccüblənirəm. Ziyanlı yeməkləri qarınlarından uzaq tuturlar, ancaq qəlblərini həlakedici məsələlərlə doldururlar."***[2317]

[2316] Nümunə, c.26, səh.144
[2317] Nümunə, c.26, səh.162

"Təkvir" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Günəş büküləcəyi zaman,

2. ulduzlar sönəcəyi zaman,

3. dağlar hərəkətə gətiriləcəyi zaman,

4. ən qiymətli mallar unudulacağı zaman,

5. vəhşi heyvanlar bir yerə toplanılacağı zaman,

6. dənizlər alovlanacağı zaman,

7. hər kəs öz tayına qovuşdurulacağı zaman,

8. diri-diri basdırılmış qız uşağı haqqında soruşulacağı zaman –

9. hansı günaha görə öldürülmüşdür?!

10. əməl dəftərləri açılacağı zaman,

11. göy üzündən pərdə çəkiləcəyi zaman,

12. Cəhənnəm alovlandırılacağı zaman

13. və Cənnət (möminlərə) yaxınlaşacağı zaman,

14. hər kəs nə tədarük etdiyini biləcəkdir.

15. And olsun qayıdan ulduzlara! (gündüz batıb gecə yenidən çıxan ulduzlara),

16. hərəkət edib gözdən itirlər.
17. And olsun başa çatmaqda olan gecəyə,
18. və açılmaqda olan səhərə!
19. Bu (Quran), möhtərəm elçimizin (Cəbrayılın) sözüdür.
20. (O), qüvvətlidir, Ərşin sahibi yanında böyük hörmət sahibidir,
21. göylərdə itaət ediləndir, etibarlıdır.
22. Sizin dostunuz (Muhəmməd) divanə deyildir.
23. O, (Cəbrayılı) aydın üfüqdə görüb.
24. O, qeybdən aldığına da xəsislik edən deyildir.
25. Bu (Quran), daşqalaq olunmuş şeytanın sözü də deyildir.
26. Elə isə hara gedirsiniz?
27. Bu Quran aləmlər üçün bir xatırlatmadır –
28. sizlərdən doğru (yolda) olmaq istəyənlər üçün.
29. Aləmlərin Rəbbi Allah istəməyincə, siz istəyə bilməzsiniz!

-

"Təkvir" surəsinin ümumi məzmunu: "Təkvir" surəsini məzmun etibarı ilə iki hissəyə bölmək olar: 1. Bu dünyanın sonu və Qiyamətin başlanğıcında müşahidə eidləcək Qiyamət əlamətləri. 2. Quran və onu gətirənin böyüklüyü, onun insanlara təsiri.[2318]

1-14. Qiyamət vaxtı baş verəcək hadisələr: Bu ayələrdə insanı özü ilə qəribə aləmlərə aparan, dünyanın sonu, Qiyamətin başlanğıcında baş verəcək qorxulu hadisələrin lakonik, eyni zamanda həyəcanlı təsviri ilə qarşılaşırıq. Bu müxtəsər təsvirdə dörd əlamətə toxunulmuşdur. Birinci ayədə belə buyurulur: ***"Günəş bükülməyi zaman".*** Müasir elm adamları

[2318] Nümunə, c.26, səh.166

hesab edirlər günəşin fəzaya yayılan enerjisi yanacağı hidrogen, külü isə helium olan nüvə partlayışlarından meydana gəlir. Buna görə sözügedən kürənin daxilində də hər gün üç yüz əlli milyon ton azalma baş verir, nəticədə, günəş zəifləyir və işığı azalmağa doğru gedir. Sadəcə, indiki halda bu səma cismi çox böyük olduğu üçün qeyd edilən azalma miqdarı ona elə də təsir göstərmir. Eyni vəziyyət göydəki digər planet və ulduzlara da aiddir. Bu proses indi tədrici xarakter daşıyır, ancaq dünyanın sonuna yaxın o güclənəcək. Bir-birini izləyən qəfil və zəncirvari hadisələr nəticəsində mövcud sistem dağılacaq və Allahın əmri ilə bu dünyanın ömrü sona çatacaq.[2319] Beşinci ayədə belə buyurulur: ***"Vəhşi heyvanların bir yerə toplaşdığı zaman"*** Təfsirçilərin bir çoxu hesab edir ki, bu ayədə bütün heyvanların Qiyamət məhkəməsinə toplaşacağına işarə edilmişdir. Çünki onlar da öz aləmlərində öz dünyalarına uyğun məsuliyyət daşıyırlar. Əgər bir-birlərinə zülm və haqsızlıq ediblərsə, orada cavab verəcəklər (Daha ətraflı məlumat üçün bax: Ənam-37). Belə bir ehtimal da var ki, bu dünyada bir-birindən qorxub qaçan heyvanlar Qiyamət hadisələrinin vahiməsindən hər şeyi unudub bir yerə toplaşacaq və bu vasitə ilə qorxularından xilas olmaq istəyəcəklər. Yeddinci ayədə deyilir: ***"Hər kəs öz tayı ilə qovuşacağı zaman"*** Qiyamətdə olaraq yaxşılar yaxşılarla, pislər isə pislərlə bir yerdə olacaq. Halbuki bu dünyada hamı bir-birinə qarışıb, bəzən möminin qonşusu müşrik olur, möminin həyat yoldaşı pis adam. Qiyamət günü ayrılıq günü olduğu üçün bu qruplar bir-birindən ayrılacaq. Bir ehtimala da görə Cənnət sakinləri hurilərə, Cəhənnəm sakinləri isə şeytanlara qovuşacaq. On birinci ayədə deyilir: ***"Göy üzündən pərdə çəkiləcəyi zaman"***. Təfsirçilər hesab edirlər ki, bu dünyada maddi aləmlə yuxarı aləm arasında olan, insanların

---

[2319] Quranın ismarışı, c.6, səh.33

mələklər aləmini, Cənnət və Cəhənnəmi görməsinə mane olan pərdə kənara çəkiləcək və insanlar dünyanın həqiqətlərini görəcəklər. Bəzi təfsirçilər bu ayədə Qiyamətdən əvvəlki hadisələrə işarə edildiyini və burada göylərin bükülməyi və göyə aid nizam-intizamın pozulacağının nəzərdə tutulduğunu ehtimal etmişlər. Bir çox ayələrdə də bu cəhətə işarə edilmişdir.[2320]

19-21. Mələklərin başçısı: Bu ayələrdə vəhy mələyi olan Cəbrayılın hər bir elçiyə lazım olan beş xüsusiyyəti qeyd edilmişdir. Birincisi, onun hörmətəlayiq bir varlıq olmasıdır. İkincisi, qüdrətli olmasıdır. Belə ki, Allahın böyük ismarışını qəbul edib dəqiqliklə çatdırmaq üçün böyük güc və qüdrətə sahib olmaq lazımdır. Ümumiyyətlə, hər bir elçi öz missiyasına uyğun güc və qüdrətə sahib olmalıdır. Xüsusiyyətlərindən biri onun mövqe və məqam sahibi olmasıdır. Göydə mələklər Cəbrayıla itaət göstərir, o etibar sahibidir. Bəzi hədislərdə qeyd edilir ki, bəzən Quran ayələrini çatdırarkən Cəbrayılı böyük bir mələk dəstəsi müşayiət edir. Şübhəsiz ki, onlar Cəbrayılın əmrindədirlər.[2321] Hətta bəzi hədislərdə qeyd edilir ki, göyün bütün mələkləri, o cümlədən Cəhənnəm gözətçiləri də Cəbrayılın əmrindədirlər.[2322]

"İnfitar" surəsi

[2320] Nümunə, c.26, səh.170-186; Əl-Mizan, c.20, səh.235-237
[2321] Nümunə, c.26, səh.193-199
[2322] Əl-mizan, c.13, səh.10

Rəhman və Rəhim Allahın adı ilə!

1. Göy parçalanacağı zaman,

2. ulduzlar səpələnib töküləcəyi zaman,

3. dənizlər bir-birinə qarışacağı zaman,

4. qəbirlər çevriləcəyi zaman,

5. hər kəs əvvəlcədən nəyi göndərib, nəyi sonraya saxladığını biləcəkdir.

6. Ey insan! Səni öz səxavətli Rəbbinə qarşı təkəbbürlü edən nədir?

7. O ki, səni yaradıb kamilləşdirdi və sənə gözəl bir surət verdi.

8. Səni istədiyi şəklə saldı.

9. Xeyr! Elə deyil (Siz düşündüyünüz kimi deyil). Siz Qiyamət gününü yalan hesab edirsiniz!

10. Sizin üstünüzdə nəzarətçilər qoyulub –

11. çox möhtərəm, (yaxşı və pis əməlləri) yazanlar.

12. Onlar sizin nə etdiklərinizi bilirlər.

13. Həqiqətən, yaxşılar bol nemət içində olacaqlar.

14. Günahkarlar Cəhənnəmdə olacaqlar.

15. Onlar ora Haqq-hesab günü daxil olub yanacaqlar.

16. Onlar ondan əsla uzaq deyillər.

17. Sən haradan biləsən ki, Haqq-hesab günü nədir?

18. Yenə də sən haradan biləsən ki, Haqq-hesab günü nədir?

19. O gün heç kəs heç kəsə fayda verə bilməz və həmin gün bütün işlər Allaha məxsus olacaqdır!

"Mutaffifin" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Çəkidə və ölçüdə aldadanların vay halına!

2. O kəslərin ki, özləri üçün ölçəndə öz haqlarını tam alırlar,

3. baqşaları üçün ölçdükdə və ya çəkdikdə az çəkirlər.

4. Onlar qaldırılacaqlarını düşünmürlərmi

5. böyük bir gündə?

6. O gündə ki, insanlar aləmlərin Rəbbinin qarşısında dayanacaqlar.

"İnfitar" surəsinin ümumi məzmunu: Bu surədə Qiyamətə aid məsələlərdən danışılır.[2323]

6. Allaha qarşı təkəbbürlük edən insan: Ayədə insan növünə xitab edilir, onun həm Rəbb, həm də səxavətli olan Allaha qarşı durduğu qeyd edilir. Allah Rəbb olduğu üçün hər zaman insanı himayə edir, tərbiyə edir, kamilləşməsini öz üzərinə götürür, səxavətinə uyğun olaraq nemət süfrəsinin başında əyləşdirir, heç nə ummadan, əvəz və haqq istəmədən ondan heç bir maddi və mənəvi nemətini əsirgəmir, hətta xətalarını görməzdən gəlir, onu əvf edir. Bu ayəni oxuyarkən Allah rəsulu (s) belə buyurmuşdur: ***"Cahilliyi və nadanlığı onu təkəbbürlü edib."***[2324]

10-12. Əməllərin gözətçiləri: "Gözətçilər" deyilərkən burada insanların yaxşı və pis əməllərini qoruyub saxlayan mələklər nəzərdə tutulur. Quranın başqa ayələrində də əməllərə nəzarət edən bu mələklərdən danışılmışdır (Qaf-17). Bir nəfər İmam Sadiqdən (ə) soruşur: Allah sirləri və sirlərdən gizli olanları da bildiyi halda, insanların yaxşı və pis əməllərini yazıb saxlayan mələklərə nə ehtiyac var? İmam (ə) buyurur: ***"Allah-taala bu mələkləri özünə ibadət etməyə çağırdı, onların nəzarət etdiyini yadda saxlayıb Allaha itaətdə daha diqqətli olmaları, itaətsizlik göstərdikdə daha çox narahat olmaları üçün həmin mələkləri bəndələri üzərinə nəzarətçi və***

[2323] Nümunə, c.26, səh.206
[2324] Nümunə, c.26, səh.217

şahid qoydu. Çox bəndə var ki, günah etmək istədikdə bu iki mələyi xatırlayıb qərarından daşınır, nadanlıq etməkdən əl çəkir, özünü günahdan saxlayaraq deyir: "Rəbbim məni görür, əməllərimi yazıb saxlayan mələklər şahidlik edir." Bundan başqa, Allah bu mələkləri ona görə ayırıb ki, Allahın əmrilə həddi aşmış şeytanları insanlardan uzaqlaşdırsınlar, onları Allahın (ölüm, əcəl) fərmanı yetişənə qədər görüb xəbərdar olmadıqları ziyanverici canlılardan və bəlalardan qorusunlar." Onlar əməlləri yazmaqla yanaşı, insanları xoşagəlməz hadisələr, bəlalar və şeytanlaırn vəsvəsələrindən də qoruyurlar.[2325] Allah-taala bu mələkləri bir-birini tamalayan dörd xüsusiyyətlə səciyyələndirmişdir: 1. İnsanlaırn əməllərinin gözətçiləridirlər. 2. Hörmət sahiblərididirlər. Onlar insanların əməllərini yazmaq vəzifəsi daşısalar da, kobudluğa yol vermir, nəzakətlə, alicənablıqla davranırlar, yaxşı əməlləri dərhal on bərabər yazır, pis əməllərin yazılmasını bir neçə saat təxirə salır, onun tövbə edib qayıtmasını gözləyirlər. Onların böyüklüyü həm də ondadır ki, yaxşı əməlləri göylərə qaldırıb mələklər arasında yayır, pis əməllərə gəldikdə isə, Allahın eyibləri örtən xüsusiyyətindən ilhamlanaraq onları gizlədirlər. 3. İnsanların əməllərini yazır və qoruyub saxlayırlar. Bunun üçün hərtərəfli bilgiyə malik olmaq lazımdır. 4. ***"Onlar sizin nə etdiyinizi bilir"***, - deyə buyurulur. Bu məzmun həm sözlər, həm üzvlərin gördükləri işlər, həm də niyyətlərə şamildir.[2326]

"Mutəffifin" surəsinin ümumi məzmunu: Surədə çəkidə aldadanlar təhdid edilir. Onlara əməllərinin cəzasını çəkmək üçün Qiyamət günü qaldırılacaqları bildirilir. Mövzu Qiyamət günü, əməlisalehlərin Cənnət,

---

[2325] Nümunə, c.26, səh.224
[2326] Quranın ismarışı, c.6, səh.93.

günahklarların isə Cəhənnəmdə qarşılaşacaqları hadisələrin qeyd edilməsi ilə davam etdirilib bu şəkildə sona çatdırılır.[2327]

7. Xeyr! (Onlar düşündüyü kimi deyil). Günahkarların əməl dəftəri Siccindədir.

8. Sən haradan biləsən Siccin nədir?!

9. O, hesablanmış bir yazı, qaçılmaz aqibətdir!

10. O gün yalan hesab edənlərin vay halına!

11. O kəslərin ki, Haqq-hesab gününü yalan hesab edirlər.

12. Onu yalnız həddini aşan və günahkar inkar edir.

13. Ayələrimiz ona oxunduğu zaman: "Bu, keçmişdəkilərin (uydurduğu) əfsanələrdir!" – deyir.

14. Xeyr! (Düşündüyünüz kimi deyil). Əməlləri pas kimi qəlblərini örtüb.

[2327] Əl-Mizan, c.20, səh.255

15. Xeyr! (Düşündüyünüz kimi deyil). Həmin gün onlarla Rəbləri arasına pərdə çəkiləcək!

16. Sonra onlar Cəhənnəmə girəcəklər

17. və onlara deyiləcək: “Bu, sizin yalan hesab etdiyinizdir!”

18. Xeyr! (Düşündüyünüz kimi deyil). İtaətkarların əməl dəftəri İlliyyundadir!

19. Sən haradan biləsən, İlliyyun nədir?!

20. O, hesablanmış bir yazı, qaçılmaz aqibətdir!

21. Ona yalnız (Allaha) yaxın olanlar şahiddirlər!

22. Həqiqətən, itaətkarlar nemətlər içində olacaqlar.

23. Taxtlara dirsəklənib seyrə dalacaqlar.

24. Sən onların çöhrəsində nemət təravəti və sevinci görəcəksən.

25. Onlara toxunulmamaış, ağzı bağlı zülal kimi şərabdan içirdiləcəkdir.

26. Onun möhürü müşkdəndir. İstək və rəğbəti olanlar bir-birini qabaqlasınlar!

27. Bu şərab təsnimə qarışıb.

28. (O təsnim elə) bir bulaqdır ki, ondan (Allaha) yaxın olanlar içərlər.

29. Günah edənlər iman gətirənlərə hey gülürdülər,

30. onların yanından keçdikdə işarələrlə məsxərəyə qoyurdular,

31. ailələrinin yanına qayıdanda şadlanıb gülürdülər,

32. möminləri gördükdə: “Bunlar azmışlardır!” – deyirdilər.

33. Halbuki onlara gözətçi qoyulmamışdılar.

34. Bu gün iman gətirənlər kafirlərə güləcəklər.

7-9. Siccin və İlliyyun: Bu ayələrlə bağlı iki fikir mövcuddur: 1. Ayələrdə böyük və kiçikliyindən asılı olmayaraq bütün əməllərin

əskiltmədən qeyd eidldiyi əməl dəftərləri nəzərdə tutulur. Bu yozuma əsasən mənası həbsxana olan "Siccin" bütün günahkarların əməllərini cəm edən kitabdır. Mənası yüksəklik və ucalıq olan "İlliyyun" isə yaxşı əməl sahiblərinin əməllərinin toplandığı kitabdır. 2. "Kitab" deyilərkən burada yazılmış yazı nəzərdə tutulur. Bu yozuma əsasən ayələrdə Allahın qəti və qaçılmaz hökmünə, taleyə işarə edilmişdir. Siccin Cəhənnəm, İlliyyun isə Cənnətdir. İkinci təfsirə görə ayələrin mənası belə olur: Etdikləri əməllərə görə Allahın günahkarlar üçün təyin etdiyi aqibət Cəhənnəmdə həbs edilmək, əməlisalehlər üçün təyin etdiyi tale isə Cənnətin yüksək dərəcələridir. Hədislərinin birində İmam Baqir (ə) belə buyurmuşdur: ***"Siccin yeddinci yer, İlliyyun isə yeddinci göydür."*** (Bəlkə də ən aşağı məkan nəzərdə tutulmuşdur). Çoxsaylı hədislərdə bildirilir ki, Allaha yaxın olmağa layiq olmayan əməllər süquta uğrayır və Siccində qərarlaşır.[2328]

14. Günah qəlbin pasıdır: Quranın bu və başqa ayələrində günahın insan qəlbini qaraltdığı qeyd edilmişdir. Günahın ən pis təsiri budur ki, elm işığını söndürür, aydınlaşdırma xüsusiyyətini insanın əlindən alır, qəlbi üfunətli bataqlığa çevirir. Nəticədə, insan yolla quyunu ayırd edə bilmir, hər kəsi heyrətləndirəcək böyük səhvlərə yol verir. Hədislərinin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"Bəndə günah edəndə qəlbində qara bir nöqtə yaranır. Əgər tövbə edib günahdan əl çəksə, Allahdan bağışlanma diləsə, qəlbi cilalanır. Əgər günah etməyə davam etsə, həmin qara nöqtə artaraq bütün qəlbi bürüyər. Ayədə işarə edilən həmin pas budur."*** İnsan günah etməyə davam etdikcə ruhunu sarmış qaranlıq içində anbaan batmaqda davam edir, iş o yerə çatır ki, etdiyi günahlar gözündə yaxşı əməl kimi görünür, bəzən etdiyi günahla fəxr etməyə qalxır. Belə olan surətdə

[2328] Nümunə, c.26, səh.256

qayıdış yolları üzünə bağlanır. Bu isə insan üçün ən təhlükəli vəziyyətdir.[2329] Hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: ***"Qəlbi ən çox məhv edən şey günahdır. Qəlb günahın təsiri altına düşdükdə günah tədricən onu bürüyür, nəhayət, qəlbi tamamilə əhatə edir. Nəticədə, qəlb çevrilib alt-üst olur."*** Təbii ki, "alt-üst" deyilərkən insanın ayrıd etmə hissinin alt-üst olması nəzərdə tutulur. Belə ki, günahla ünsiyyət nəticəsində çirkinlikləri gözəllik, gözəllikləri isə çirkinlik kimi görür. Bu isə ən təhlükəli vəziyyətdir.[2330]

25-28. Təsnim Cənnətin ən üstün içkisidir: Təsnim suyu yüksəlişə səbəb olan bulaqdır. Bəlkə də onun bu cür adlandırılması Allaha yaxın olan bəndələrin onu içərək Allaha daha da yaxın olması və bu yaxınlıq nurunda qərq olmaları ilə bağlıdır. "Qummi təfsiri"ndə belə qeyd edilmişdir: ***"Cənnət sakinlərinin ən üstün içkisi yuxarıdan şəlalə kimi axan xüsusi içkidir. Bu Allaha yaxın olanların içdiyi bulaqdır. Allaha yaxın olanlar isə Peyğəmbərin Əhli-beytidir… Bunlar təsnimi heç bir qatqısız, başqaları isə pak şərabla qarışdırıb içəcəklər."*** Deməli, bu bulaq hündürlükdən axacaq, təsir baxımından da ruhu yüksəkliklərə qaldıracaq, qeyri-adi çadlıq bəxş edəcək, Allaha daha da yaxınlaşdıracaq. [2331] Çoxsaylı hədislərdə dünyanın bulaşıq sularına göz yuman, susuzları sirab edən, möminlərin qəlbindəki qəm odunu söndürənlərin Cənnətin zülal və ağzı qapalı suyundan içəcəkləri qeyd edilmişdir.[2332]

[2329] Nümunə, c.26, səh.265
[2330] Quranın ismarışı, c.1, səh.365
[2331] Quranın ismarışı, c.1, səh.249
[2332] Nümunə, c.26, səh.265

35. Cənnətin bəzədilmiş taxtları üzərində əyləşib (onların acı aqibətinə) tamaşa edəcəklər.

36. Kafirlər törətdiklərinin cəzasını aldılarmı?!

"İnşiqaq" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Göy yarılacağı

2. və Rəbbinin əmrinə itaət göstərəcəyi zaman – belə də olmalıdır;

3. Yer genişlənəcəyi,

4. içindəkiləri kənara atıb boşalacağı

5. və Rəbbinin əmrinə itaət göstərəcəyi zaman – belə də olmalıdır;

6. Ey insan! Sən, səy göstərib Rəbbinə tərəf can atırsan. Sən Onunla qarşılaşacaqsan!

7. Kimin əməl dəftəri sağ əlinə veriləcəksə,

8. tezliklə o, yüngül sorğu-suala tutulacaq

9. və sevincək öz ailəsinə qayıdacaqdır!

10. Kimin əməl dəftəri arxa tərəfindən veriləcəksə,

11. o fəryad qoparıb “Vay olsun mənə, məhv oldum” – deyəcək

12. və odun yandırıcı şölələrinə atılacaqdır!

13. Çünki o, (dünyada ikən) öz ailəsində (küfr və günahı ilə) fərəhlənirdi

14. və elə güman edirdi ki, (Rəbbinin hüzuruna) qayıtmayacaqdır.

15. Xeyr! Rəbbi onu görürdü.

16. And olsun şəfəqə,

17. And olsun gecəyə və topladıqlarına,

18. And olsun bədirlənmiş (on dörd gecəlik) aya!

19. Siz sürəkli haldan-hala keçib (dəyişəcəksiniz).

20. Bəs nə üçün onlar iman gətirmirlər

21. və onlara Quran oxunduqda səcdə etmirlər?

22. Əksinə, kafirlər Allahın ayələrini inkar edirlər.

23. Allah ürəklərində nəyi gizlətdiklərini yaxşı bilir!

24. Elə isə onları ağrılı-acılı bir əzabla müjdələ.

25. İman gətirib yaxşı işlər görənlər isə istisnadır. Onlar üçün tükənməz mükafatlar hazırlanmışdır.

"İnşiqaq" surəsinin ümumi məzmunu: Bu surədə Qiyamətin qopacağından bəhs edilir, insana Allahla qarşılaşacağı günə qədər Ona doğru hərəkətdə olduğunu, qarşılaşma vaxtı əməl dəftərinin hesablanacağı qeyd edilir.[2333]

6. Mütləq kamilliyə doğru ciddi-cəhdlə çalışmaq: Ayədə həyatın əzab-əziyyətlər və çətinliklərlə müşayiət olunduğu qeyd edilir. Hətta məqsədi müvəqqəti ləzzətlər olan dünya həyatı bu qədər çətinliklərlə müşayiət olunduğu halda, hədəfi axirət, əbədi xoşbəxtlik və Allaha yaxınlaşmaq olan həyatın nə qədər çətin olduğunu deməyə lüzum qalmır. Bu, dünya həyatının təbiətindən irəli gəlir. Hətta son dərəcə rifah içində yaşayan insanlar da dərd-

---

[2333] Əl-Mizan, c.20, səh.269

sər, əzab-əziyyət içində olurlar. Bu əziyyət və çətinliklər Allahla qarşılaşana qədər davam edir. "Qarşılaşma" deyilərkən Allahın mütləq hökmranlığının aşkar olduğu Qiyamət səhnəsi də nəzərdə tutula bilər, mükafat və əzabla qarşılaşma günü də, Allahın batini gözlə müşahidə ediləcəyi gün də. Hər bir halda dünya həyatının əzab-əziyyətləri həmin vaxta qədər davam edəcək. Onlar yalnız bu dünya həyatı sona yetdikdən və insan pak əməllə Allah qarşısına çıxdığı vaxt başa çatacaq. Rahatlıq, asudəlik yalnız onda olacaq. İmam Səccada (ə) aid olan çox dərin məzmunlu bir hədisdə belə deyilir: ***"Dünyada və dünya əhalisi üçün rahatlıq yoxdur. Rahatlq və asayiş təkcə Cənnət və Cənnət əhli üçün yaradılmışdır. Çətinlik dünya və onun sakinləri üçün yaradılmışdır. Buna görə də ondan bir cam götürən iki qat hərisləşər. Dünya malı daha çox olan adamlar daha ehtiyaclıdırlar. Çünki var-dövlətlərini qorumaq üçün daha çox adama və bütün dünya vasitələrinə möhtacdırlar. Deməli, dünyanın sərvətində də rahatlıq yoxdur."*** Sonra İmam (ə) belə buyurmuşdur: ***"Allah dostları dünyada dünya üçün əziyyət çəkmirlər, onların dünyadakı əziyyət və zəhmətləri axirət üçündür."***[2334]

19. Sürəkli dəyişirsiniz: Ayə ilə bağlı müxtəlif yozumlar irəli sürülmüşdür: 1. Allaha, mütləq kamilliyə doğru gedən əzab-əziyyətli, çətin və məçəqqətli yolda insanın qarşılaşdığı hallar nəzərdə tutulur: öncə dünya, sonra Bərzəx, ardınca Qiyamət və oraya aid hallar. 2. Nütfə olduğu vaxtdan ölən vaxta qədər insanın düşdüyü müxtəlif hallar nəzərdə tutulur. Bəziləri bu halların sayının 37 olduğunu qeyd etmişlər. 3. İnsanın dünyada qarşılaşdığı müxtəlif hallar – sağlamlıq və xəstəlik, qəm-qüssə və sevinc, çətinlik və asanlıq, sülh və müharibə nəzərdə tutulur. 4. Sorğu-sualdan azad olub

[2334] Nümunə, c.26, səh.300

Cənnət və ya Cəhənnəmə gedənə qədər insanın Qiyamətdə qarşılaşdığı hallar. 5. Keçmiş xalqlara aid hallar. Həmin acı və şirin hadisələr, müxaliflərin təkzib və inkarları bu ümmətdə baş verir. Bu cəhətə İmam Sadiqin (ə) bir hədisində işarə edilmişdir. Əlbəttə, bütün bu yozumların hamısının bir yerdə nəzərdə tutulmasının heç bir problemi yoxdur. Ayə insanın həyat yolunda qarşılaşdığı bütün hallara və dəyişikliklərə şamil ola bilər. Bu hlların baş verməsi və insanın bir halda sabit qalmaması onun yaradılan olduğunu və yaradana möhtac olduğunu sübuta yetirir. Çünki hər bir dəyişən sonradan meydana gələndir, hər bir sonradan meydana gələnin də bir yaradanı olmalıdır. Bu fakt həm də dünyanın qeyri-sabit olduğunu, insanın davamlı olaraq Allaha doğru qayıtdığını və hərəkətdə olduğunu göstərir.[2335]

"Buruc" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

[2335] Nümunə, c.26, səh.315

1. And olsun bürclü göyə!

2. And olsun vəd verilmiş günə!

3. And olsun şahidlik edənə və edilənə!

4. Ölüm olsun işgəncəçi xəndək sahiblərinə!

5. Böyük və şölələnən (xəndək).

6. Onlar xəndəyin kənarında oturub,

7. möminlərə etdiklərinə tamaşa edirdilər.

8. Onlardan yalnız qüdrətli, tərifəlayiq Allaha iman gətirdiklərinə görə intiqam alırdılar.

9. Halbuki göylərin və yerin qeyd-şərtsiz hakimiyyəti Ona məxsusdur. Allah hər şeyə şahiddir.

10. Mömin kişi və qadınları (yandırmaqla) sınağa çəkib sonra da tövbə etməyən şəxslərə Cəhənnəm əzabı və onları yandırıb-yaxan od əzabı hazırlanmışdır.

11. İman gətirib yaxşı işlər görənlər üçün ağacları altından çaylar axan Cənnət bağları vardır. Bu, böyük xilas və müvəffəqiyyətdir.

12. Rəbbinin günahkarları qəzəblə yaxalaması və əzabı, həqiqətən, çox şiddətlidir!

13. O, yoxdan yaradır və yenidən qaytarır!

14. O, bağışlayandır, (möminləri) sevəndir.

15. Ərşin sahibidir, əzəmət və ucalıq sahibidir!

16. İstədiyini edəndir.

17. Qoşunlar haqqında olan əhvalat sənə çatıbmı?

18. Firon və Səmud qoşunları?

19. Ancaq kafirlər haqqı sürəkli yalan saymaqdadırlar.

20. Allah onların hamısını əhatə etmişdir.

21. Bəli, (sehr və uydurma deyil,) əzəmətli və şərafətli Qurandır.

22. O, Lövhi-məhfuzdadır.

“Buruc” surəsinin ümumi məzmunu: Bu surənin məqsədi möminlərin ruhiyyəsini gücləndirmək, onları düşmənlərin işkəncələrinə qarşı dözümlü etmək, əzmkar omağa həvəsləndirməkdir.[2336]

3. Şahidlik edən və edilən: Təfsirçilər bu iki sözə otuz çeşiddə şərh yazmışlar. Şahid və şahidlik edilənin leksik mənasına əsasən daha uyğun mənanın insanların əməllərinə şahidlik edən peyğəmbərlər, mələklər, insanın bədən üzvləri, gecə və gündüzdən asılı olmayaraq Qiyamətdəki şahidlərin hamısının və edilən əməllərin nəzərdə tutulduğunu ifadə edən versiyaya aid olduğunu deyə bilərik.[2337]

4. Xəndək sahibləri: “Uxdud” sözünün mənası böyük xəndəkdir. Burada işgəncəçilərin möminləri içinə atıb yandırdıqları tonqal qalanmış xəndəklər nəzərdə tutulmuşdur. Bu hadisənin hansı zamana və xalqa aid olması ilə bağlı müxtəlif fikirlər var. Ancaq onlar arasında Yəmənin məşhur qəbilələrindən biri olan Himyər sülaləsinin son başçısı Zunuasın əhvalatı daha məşhurdur. Zunuas Himyər sülaləsinin sonuncu başçısı idi. O, İsa peyğəmbərin (ə) gəlişindən, yəni yəhudilik dininə xitam verildikdən sonra yəhudiliyi seçmiş bir adam idi. Qəbiləsi də ona baxaraq bu dini seçmişdi. Bir gün ona xəbər verirlər ki, Nəcran adlı ərazinin sakinləri hələ də xristian dinindədirlər. Həmməsləkləri Zunuası vadar edirlər ki, onlara yəhudiliyi zorla qəbul etdirsin. O da Nəcrana doğru hərəkət edir, camaatı toplayıb onlardan yəhudiliyi qəbul etmələrini istəyir. Ancaq camaat öz dinindən əl çəkmir. Zunuasın əmrilə böyük bir xəndək qazılıb içində tonqal yandırılır. Camaatın bir qismini həmin tonqalda diri-diri yandırır, digər qismini isə

[2336] Nümunə, c.26, səh.324
[2337] Nümunə, c.26, səh.329

qılıncla tikə-tikə doğrayırlar. Qətlə yetirilənlərin sayı iyirmi minə çatır. Bəzi mənbələrin yazdığına görə Nəcran xristianlarından biri Ruma qaçır, oranın imperatoruna Zunuasdan şikayət edir, ondan yardım istəyir. İmperator deyir: Sizin ölkəniz bizdən uzaqdır. Ancaq Həbəş şahına bir məktub yazıb ondan sizə yarıdm etməsini istəyərəm. Çünki o həm xristiandır, həm də sizə yaxındır. Bundan sonra məktub yazıb şahdan xristianların qisasını almasını istəyir. Həbəş şahı Nəcaşi bu xəbər alan kimi Yəmənə doğru qoşun yürüdür, Zunuası məğlub edir, yandaşlarının çoxunu qətlə yetirir. Nəticədə, Yəmən Nəcaşinin əlinə keçir, möminləri diri-diri yandıran işgəncəçilər Qiyamətin yandırıcı əzabına layiq görülməklə yanaşı bu dünyada da Allahın əzabından yaxa qurtara bilmirlər.[2338]

21-22. Uca Quran Lövhi-məhfuzdadır: “Məcid” sözünün kökü, “məcd”, mənası əzəmət və şərafətdir. Bu ifadə Quran haqqında tam yerinə düşür. Çünki Quran məzmun etibarı ilə əzəmətli və böyük, məna etibarı ilə, ehtiva etdiyi maarif, etiqad, inanc, nəsihət və qanunlar baxımından uca və dərindir. “Lövhi-məhfuz” deyilərkən Quranın yazıldığı səhifələr nəzərdə tutulur. Bu səhifələr isə bizim başa düşdüyümüz səhifə mənasında başa düşülməməlidir. Əslində, Lövhi-məhfuz Allahın bütün şərqi və qərbi əhatə edən təhrifə və dəyişikliyə uğramayan elm səhifəsidir. Quran da məhz belə bir sonsuz elm mənbəyindən qaynaqlanır, insan düşüncəsinin məhsulu, habelə şeytan vəsəvəsləri deyil. Ehtiva etdiyi məzmunlar bunu təsdiq edir.[2339]

[2338] Nümunə, c.26, səh.337
[2339] Nümunə, c.26, səh.353

"Tariq" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. And olsun səmaya və gecədöyənə!

2. Sən haradan biləsən gecədöyən nədir?

3. Qaranlıqları yarıb keçən parlaq ulduzdur.

4. Hər kəsin güdükçüsü və qoruyucusu vardır!

5. İnsan nədən yaradıldığına baxsın!

6. Sıçrayan bir sudan yaradılmışdır.

7. Bu (su) bel və köks sümükləri arasından xaric olur.

8. Şübhəsiz ki, (bu qüdrətə malik olan Allah) onu qaytarmağa qadirdir.

9. Sirlərin aşkara çıxacağı gün,

10. onun nə bir qüvvəsi, nə də bir köməkçisi olacaq.

11. And olsun bol yağışlı göyə!

12. And olsun (növbənöv bitkilərlə) yarılan yerə!

13. Bu (Quran), haqqı batildən ayıran bir kəlamdır.

14. Əsla zarafat deyildir.

15. Onlar sürəkli hiylə qururlar.

16. Mən də onlara qarşı tədbir tökürəm.

17. (İndi ki, belədir,) kafirlərə bir az möhlət ver!

"Əla" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Uca Rəbbinin adına təriflər de!

2. O Allah ki, yaradıb nizama saldı;

3. O Allah ki, ölçü verib doğru yola yönəltdi,

4. O Allah ki, otlağı cücərdib,

5. sonra da qurudub qaraltdı.

6. Biz tezliklə sənə (Quranı) oxuyacağıq və sən də əsla unutmayacaqsan.

7. (Əlbəttə,) Allahın istədiyindən başqa. Çünki O, aşkarı da, gizlini də bilir.

8. Biz səni hər bir xeyirli işi görməyə müvəffəq edərik.

9. Əgər xatırlatma fayda versə, xatırlat!

10. Tezliklə Allahdan qorxanlar xatırlayacaq.

11. İnsanların ən bədbəxti isə ondan uzaq duracaq.

12. O kəs ki, böyük oda daxil olacaq,

13. O orada nə ölə, nə də yaşaya bilməyəcəkdir.

14. Həqiqətən, günahlardan təmizlənən şəxs uğur qazanmışdır.

15. (O şəxs ki,) Rəbbinin adını yad edib sonra namaz qılmışdır.

“Tariq” surəsinin ümumi məzmunu: Məzmun etibarı ilə bu surəni iki hissəyə bölmək olar: 1. Qayıdış və diriliş; 2. Quranın əhəmiyyəti və dəyəri.[2340]

1. Gecəni döyəcləyən: Kökü “tərəq” olan “tariq” sözünün mənası döyən deməkdir. Gecə vaxtı evlərin qapıları bağlandığı üçün gecələr evə gedən evən qapını döymək məcburiyyətində qalmışdır. Buna görə də evə gecə gələn adama tariq deyilmişdir. Ancaq Allah burada “tariq” sözünü belə izah edir: Bu gecə qonağı göydə peyda olan parlaq ulduzdur. O qədər yüksəkdədir ki, sanki göy qübbəsini dəlməyə çalışır. İşığı o qədər parlaqdır ki, qaranlıqları yarır, insanın gözünü qamaşdırır. Hədislərdə həmin ulduzun Günəş sisteminə aid olan Saturn planeti olduğu qeyd edilmişdir.[2341]

13. Bu kəlam zarafat deyil: Allah əvvəlki iki ayədə göyə və yerə and içir, bu ayədə isə hansı səbəbdən and içdiyini açıqlayır. Quran haqq və doğrunu batil və doğru olmayandan ayırd edən kəlamdır. Onda qeyri-ciddi heç nə yoxdur. Deməli, Quranın haqq və həqiqət saydığı hər bir şey qeyd-şərtsiz haqq və həqiqətdir. Quranın batil adlandırdığı isə şübhəsiz ki, batildir.[2342] Möminlərin əmiri İmam Əli (ə) belə buyurmuşdur: ***“İslam peyğəmbəri (s) buyurdu: “Tezliklə sizin aranıza fitnə düşəcək” Soruşdum: “Ey Allahıln rəsulu! Ondan xilas olmağın yolu nədir?” Buyurdu: “Qurandır, əvəvlkilər, sonrakılar haqıqnda məlumatlar ondadır, sizin aranızda hökm verən odur.” Haqqı batildən ayıran bir kəlamdır, ciddidir, zarafat deyil. Allah onu tərk edən zülmkarı əzib məhv edir, ondan qeyrisində doğru yol axtaranı haqq yoldan azdırır.”***[2343]

[2340] Nümunə, c.26, əsh.356
[2341] Nümunə, c.26, əsh.360
[2342] Əl-Mizan, c.20, səh.293
[2343] Nümunə, c.4, səh.374

“Əla” surəsinin ümumi məzmunu: Bu surə iki hissədən ibarətdir: 1. Allah Peyğəmbərə (s) xitab edir, ona Allaha tərifl ər deməsi, peyğəmbərlik missiyasını yerinə yetirməsi ilə bağlı göstərişlər verir, özünə xas olan yeddi xüsusiyyətini sadalayır. 2. Təvazökar möminlərdən, bədbəxt kafirlərdən danışır, bu iki zümrənin xoşbəxtlik və bədbəxtlik amillərini qısa şəkildə bəyan edir.[2344]

6. Allahın ayələrini unutmaqdan ehtiyatlanmaq: Allah-taala bu ayədə Peyğəmbərə (s) vəd verir ki, o, Allahın lürf və mərhəməti sayəsində Allahın vəhyini əsla unutmayacaq. Çünki insanların doğru yola yönəlməsi üçün bu ayələri nazil edən Allah özü də onların qoruyucusudur. O, bu ayələri Peyğəmbərin (s) köksündə sabit saxlayır, onlaırn unudulmasına imkan vermir. Bu, Peyğəmbərin (s) möcüzələrindən biridir ki, Cəbrayılın bir oxunuşu ilə uzun surələrin ayələrini yaddaşına həkk edir, həmişəlik yadında saxlayır və heç nəyi unutmur.[2345]

7. Allahın istədiyindən başqa: Əslində, bu o demək deyil ki, Peyğəmbər (s) nəyisə unudurmuş. Əgər belə olsaydı, ona qarşı inam tamamilə itərdi. Sadəcə, Allah-taala burada başa salmaq istəyir ki, ayələrin qorunması Allahın lütf etdiyi bir nemətdir. Allah istədfiyi an onu Peyğəmbərdən (s) ala bilər. Bu ayə eynilə Cənnət sakinlərinin əbədi həyatından bəhs edən “Hud” surəsinin 108-ci ayəsinə bənzəyir. Həmin ayədə belə buyurulmuşdur: ***“Xoşbəxtlərə gəldikdə isə, onlar Cənnətdə əbədi qalacaqlar. Onlar Rəbbinin dilədiyi istisna olmaqla, göylər və yer durduqca orada əbədi qalacaqlar.”*** Şübhəsiz ki, Cənnət sakinləri Cənnətdən heç vaxt çıxmayacaqlar. Nəzər nöqtəsi olan ayədə də vəziyyət eynidir. Bu cümlədə Allahın qüdrət və iradəsinin hakimiyyətinə, həm başlanğıcda, həm

[2344] Nümunə, c.4, səh.380
[2345] Nümunə, c.4, səh.393

də sonda bütün əlaqələrin onun istəyindən asılı olduğuna işarə edilmişdir. Bunu təsdiq edən faktlardan biri insanların bəzi xatirələri qoruyub saxlaması, bəzilərini isə yaddan çıxarmasıdır. Buna görə də burada Quranın bütün ayələri və hökmləri nəzərdə tutulmuşdur.[2346]

[2346] Nümunə, c.26, səh.394; Əl-mizan, c.20, səh.300

16. Xeyr, siz dünya həyatını üstün tutursunuz;

17. Halbuki axirət daha yaxşı və daha davamlıdır.

18. Bu, əvvəlki səmavi kitablarda bildirilmişdir –

19. İbrahimin və Musanın kitablarında.

"Ğaşiyə" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. (Aləmi) Bürüyənin xəbəri sənə gəlib çatdımı?

2. O gün neçə-neçə üzlər xar olub yerə dikiləcək,

3. Davamlı əməl edib əldən düşənlər, (əməlinin nəticəsi olmayanlar)

4. çox isti oda girəcəklər,

5. onlara qaynar çeşmədən içirdiləcəkdir.

6. Onlara pis qoxulu zəhərli tikandan başqa bir yemək verilməyəcəkdir.

7. O yemək onları nə kökəldər, nə də aclıqdan xilas edər.

8. Neçə-neçə üzlər o gün sevinəcək,

9. səy və fəaliyyətlərindən məmnun qalacaq,

10. uca Cənnətdə olacaqlar,

11. orada boş və mənasız söz eşitməyəcəkdir.

12. Orada bir bulaq axır;

13. Orada hündür taxtlar,

14. düzülmüş piyalələr,

15. yan-yana qoyulmuş yastıqlar,

16. və sərilmiş zərif xalçalar vardır.

17. Məgər onlar dəvənin necə yaradıldığına baxmırlarmı?

18. Göyün necə ucaldığına baxmırlarmı ?

19. Dağların necə sancıldığına baxmırlarmı?

20. Yerin necə açılıb hamar edildiyinə baxmırlarmı?

21. Xatırlat! Sən yalnız xatırladansan.

22. Sən onların üstündə hökmdar deyilsən ki, onları (iman gətirməyə) məcbur edəsən.

23. Lakin üz döndərib küfr edəni,

24. Allah ən şiddətli əzabla cəzalandırar.

25. Şübhəsiz ki, onların dönüşü Bizədir.

26. Sonra onları sorğu-suala çəkmək də Bizə aiddir.

16-17. Axirət daha yaxşı və daha davamlıdır: Şübhəsiz ki, Quranın sorğu-sualı möminlərə tam aydındır. Bəs necə olur ki, mömin bir adam bəzən bildiklərini ayaqları altına qoyub günaha yol verir? Bunun səbəbi dünya sevgisindən qaynaqlanan ehtirasların insana üstün gəlməsidir. Dünyaya sevgi – var-dövlət, vəzifə sevgisi, cinsi ehtiraslar, özünü başqalarından üstün tutmağa çalışmaq, yalnız qarnına qulluq etmək, intiqam düşkünlüyü və sair insanın ruhunda elə bir tufan yaradır ki, bütün məlumatlarını, bildiklərini unudur, hətta aydınlaşdırma hissini də əlindən alır, nəticədə, dünya həyatını axirət həyatından üstün tutur. Hədislərdə dünya sevgisinin bütün günahların mənbəyi hesab edilməsi bir həqiqətdir. Özümüz və başqalarının həyatında bunun dəfələrlə şahidi olmuşuq. Buna görə də günahın kökünü kəsmək üçün dünya sevgisini qəlbdən çıxarmaqdan başqa

çarə yoxdur. Dünyaya bir keçid vasitəsi, körpü və ya bir əkin sahəsi kimi baxmaq lazımdır. Dünyanın ləzzətinə qovuşmaq və Allahın razılığını qazanmaq kimi iki yol ayrıcında dayandıqda dünyasevərlərin ikinci yolu seçməsi mümkün deyil. Əgər müharibələrin, qan tökülmələrinin, hətta qardaşlar arsında olan çəkişmələrin səbəblərinə diqqət yetirsək, onların hamısında dünya sevgisinin izlərini görə bilərik. Bəs biz hamımız dünyanın övladları və dünya bizim anamız olduğu, anaya qarşı sevgi də təbii bir hal olduğu halda, dünya sevgisini qəlbimizdən necə çıxara bilərik? Bunun üçün fikir, mədəniyyət və etiqad məsələləri ilə bağlı maariflənməyə, daha sonra nəfsin təmizlənməsinə ehtiyac var. Din yolunda addımlayanlara bu sahədə kömək edəcək ən uğurlu vasitələrdən biri dünyapərəstlərin aqibətinə baxmaqdır. Tarixə nəzər saldıqda böyük qüdrət sahiblərinin həyat dəftərinin necə darmadağın olduğunu, bir gün qüdrət taxtından düşüb saray və sərvətdən qaçdıqlarını görürük. Bu bizim üçün böyük bir dərs, müəllim və nəsihətçidir.[2347]

“Ğaşiyə” surəsinin ümumi məzmunu: Bu surəni üç hissəyə bölmək olar: 1. Qayıdış, günaharların və möminlərin aqibəti; 2. Tövhid və Allahın varlıq aləmindəki nişanələri; 3. Peyğəmbərlik və İslam peyğəmbərinin (s) bəzi vəzifələrinin bəyanı.[2348]

17. Hər şeydən əvvəl dəvənin yaradılışına işarə edilməsi: Ərəblərin ən böyük sərvəti Məkkə və dəvə olmuşdur. Onların bütün gecə və gündüzləri onunla keçmişdir. Quranda dəvə ərəblərin həyatının ən mühüm sərvəti kimi təqdim edilmişdir. Bu heyvan onu digərlərindən fərqləndirən heyrətamiz xüsusiyyətlərə malikdir. Həmin xüsusiyyətlər həm də Allahın böyüklüyünü göstərir: 1. Bəzi heyvanların yalnız ətindən, bəzilərinin adətən südündən

[2347] Nümunə, c.26, səh.406
[2348] Nümunə, c.26, səh.412

istifadə edilir, bəziləri minmək və yük daşımaq üçün münasibdir. Ancaq dəvə bütün bu xüsusiyyətlərin hamısına malikdir. 2. Dəvə əhlləşdirilmiş ən güclü heyvandır. Belə ki, yük ona yatdığı halda yüklənir. Yükləndikdən sonra bir təkanla yerindən qalxır. Ancaq digər heyvanlarda belə bir güc yoxdur. 3. Dəvə hər gün kilometrlərlə yol gedə, heç bir heyvanın keçə bilmədiyi keçilməz yerlərdən, qumluqlardan keçib gedə bilər. Buna görə də ərəblər onu səhra gəmisi adlandırırlar. 4. Qida baxımından da sərfəlidir, bütün növ tikan və çör-çöpü yeyir. 5. Səhrada göz və qulaqları dolduran qum qasırğaya Allahın bəxş etdiyi xüsusi qulaq və göz sayəsində davam gətirir və öz yoluna davam edir. 6. Bütün güc və qüdrətinə baxmayaraq ən tez ram olunan heyvandır. Hətta azyaşlı bir uşaq da dəvənin yüyənini əlində tutub onu istədiyi yerə çəkə bilər.[2349]

"Fəcr" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. And olsun dan yerinə!
2. And olsun on gecəyə!
3. And olsun cütə və təkə!
4. And olsun hərəkətdə olan gecəyə!
5. Bu deyilənlərdə ağıl sahibi üçün mühüm bir and yoxdurmu?
6. Məgər görmədinmi, Rəbbin nələr etdi Ad qövmünə,
7. əzəmətli İrəm şəhərinə?

[2349] Nümunə, c.26, səh.427

8. Halbuki şəhərlər arasında ona bənzər şəhər salınmamışdı.

9. Habelə vadidə böyük qayaları yonan Səmud qövmünə?

10. Eləcə də qüdrətli və işgəncəçi Firona?

11. Onlar o xalqlar idi ki, şəhərlərində həddi aşmış,

12. çoxlu fitnə-fəsad törətmişdilər.

13. Buna görə də Rəbbin onları əzabla qamçılamışdı.

14. Həqiqətən, sənin Rəbbin nəzarət edir.

15. İnsana gəlincə, Rəbbi onu sınayıb ehtiram göstərəndə və ona nemət verəndə: “Rəbbim mənə ehtiram göstərdi!” – deyər.

16. Amma onu sınamaq üçün ruzisini azaldanda: “Rəbbim məni alçaltdı!” – deyər.

17. Xeyr! (Siz düşündüyünüz kimi deyil.) Əslində, siz yetimə ehtiram göstərmirsiniz,

18. bir-birinizi kasıbları yedirtməyə təhrik etmirsiniz,

19. mirası hərisliklə yeyirsiniz,

20. var-dövləti də çox sevirsiniz.

21.

22. Rəbbin əmri yetişəcək və mələklər sıra ilə düzüləcək

23. və o gün Cəhənnəm gətiriləcək. O gün insan (günahlarını) xatırlayacaqdır. Lakin bu xatırlamanın ona nə faydası?

“Fəcr” surəsinin ümumi məzmunu: Bu surəni beş hissəyə bölmək olar: 1. Zülmkarları təhdid etmək üçün içilən müxtəlif andlar. 2. Hədlərini aşmış bəzi keçmiş xalqlar və onların ağrılı-acılı aqibətlərinə işarə. 3. Nemətlər və çətinliklər vasitəsilə imtahan. 4. Qayıdış, mömin və kafilərin aqibəti.[2350]

[2350] Nümunə, c.26, səh.438

1-4. Andlar: Təfsirçilər bu ayələrlə bağlı çoxlu fikirlər bildirmişlər. Ən münasibi isə budur ki, "Fəcr" deyilərkən bütün sübh vaxtları nəzərdə tutulur. Allah-taala Quranın ayrı-ayrı ayələrində sutkanın fərql-fərqli vaxtlarına and içmişdir. Ola bilsin ki, burada Qurban bayramının, yəni Zilhiccə ayının onuncu gününün sübh vaxtı qəsd edilmişdir. "On gecə" deyilərkən ehtimal ki, Zilhiccə ayının birinci ongünlüyünün gecələri nəzərdə tutulur. Cüt və tək anlayışı da həccin başlandığı, hacıların Kəbədən Ərəfata yola düşdükləri səkkizinci və Ərəfə günü olan doqquzuncü günlə uyğun gəlir. Deməli, bu andlarla bəlkə də əzəmətli həcc mərasimlərinin keçirildiyi günlərin qəsd edildiyini deyə bilərik.[2351] Sonuncu and belədir: ***"And olsun sübhə və işıqlanmaya doğru hərəkətdə olan gecəyə".*** Hərəkətin gəzənin özünə aid edilməsi çox maraqlı bir ifadədir. Sanki gecə hiss və hərəkəti olan canlı bir varlıqdır, öz qaranlığı içində aydın sabaha doğru hərəkət edir. Allah üzü işığa doğru olan, durğun deyil, hərəkətdə olan qaranlığa and içir. Qaranlıq o zaman qorxulu və dəhşətlidir ki, sabit olsun. Əgər onda işığa doğru hərəkət varsa, dəyərlidir. Quranın batini mənalarını ehtiva edən əziz hədislərdə Fəcr İmam Mehdi (ə), on gecə ondan əvəvlki on imam, cüt İmam Əli (ə) və həzrət Zəhra (ə), tək isə Peyğəmbər (s) kimi yozulmuşdur.[2352]

22. Allahın gəlməsi: "Rəbbin gələcək" cümləsində insanların sorğu-sual edilməsi ilə üçün Allah tərəfindən əmr gəlməsi, ya Allahın əzəmətini göstərən nişanələrin təzahür etməsi, ya həmin gün Allahı tanımanın tam aşkar olması nəzərdə tutulur. Allahtanıma elə həddə olacaq ki, insanlar sanki Allahın misilisiz varlığını öz gözləri ilə müşahidə edəcəklər. Təbii ki, cümlənin həqiqi mənasını qəbul edib Allahın həqiqətən gələcəyini iddia edib onu cisimləşdirmək, məkana sığışdığını söyləmək mənasızdır. Çünki o cisim

---

[2351] Əl-Mizan, c.20, səh.431
[2352] Nümunə, c.26, səh.443

və onun xüsusiyyətlərindən ucadır. Bu məna İmam Rzaya (ə) aid olan bir hədisdə də açıq şəkildə qeyd eidlmişdir.[2353]

23. O gün Cəhənnəmi gətirəcəklər: Bu cümlədən Cəhənnəmin hərəkət edəcəyi, onun günahkarlara yaxınlaşdırılacağı başa düşülür. Eyni məna "Şüəra" surəsinin 90-cı ayəsində Cənnət haqqında da işlədilmişdir: "Cənnəti təqvalılar yaxınlaşdıracaqlar". Doğrusu, Qiyamət aləminin həqiqətləri bizə aydın deyil, oradakı sistem bu dünyaya hakim olan sistemdən fərqlidir. Buna görə Cənnət və Cəhənnəmin hərəkət etməsi qəribə görünməməlidir. Hədislərinin birində İmam Rza (ə) belə buyurmuşdur: ***"Bu ayə nazil olanda Peyğəmbərin (s) rəngi dəyişir və bu, səhabələrə ağır gəlir. Bir qrup səhabə Əlinin (ə) yanına gedib vəziyyəti ona danışırlar. Əli (ə) gəlib Peyğəmbərin (s) iki çiyninin arasından öpüb deyir: Ey Allahın rəsulu, atam-anam sənə fəda olsun, nə baş verib? Peyğəmbər (s) buyurur: Cəbrayıl bu ayəni nazil etdi. Əli (ə) soruşur: Cəhənnəmi necə gətirəcəklər? Buyurur: Yetmiş min mələk yetmiş min yüyənlə onu gətirəcəklər. Elə canfəşanlıq edəcək ki, əgər onu buraxsalar hər kəsi yandırar. Sonra mən Cəhənnəmin önündə duracam. O deyəcək: Ey Muhəmməd, mənim səninlə işim yoxdur. Allah sənin ətini mənə haram edib. O gün hər kəs "özüm, özüm!", təkcə Muhəmməd (s) "Ey Rəbbim, ümmətim, ümmətim!" deyəcək."***[2354]

[2353] Nümunə, c.26, səh.470
[2354] Nümunə, c.26, səh.471

24. O: “Kaş (bu) həyatım üçün öncədən bir şey görəydim!” – deyəcəkdir.

25. O gün heç kəs Onun kimi əzab verməyəcək.

26. və heç kəs kimisə Onun kimi buxovlamayacaq.

27. “Ey arxayın olan şəxs!

28. Sən Ondan, O da səndən razı halda öz Rəbbinə tərəf dön!

29. Bəndələrimin arasına keç!

30. Cənnətimə daxil ol!

"Bələd" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. And olsun bu müqəddəs şəhərə (Məkkəyə)!

2. Sən sakini olduğun şəhərə.

3. And olsun ataya və onun övladına!

4. Biz insanı çətinlik içində xəlq etdik (həyatını çətinlik içində qərarlaşdırdıq).

5. O, heç kəsin ona gücü çatmayacağınımı güman edir?

6. O deyir: “Mən çoxlu var-dövlət sərf etmişəm!”

7. O, heç kəsin onu görmədiyinimi zənn edir?

8. Ona iki göz verməmişikmi?

9. Bir dil, iki dodaq (verməmişikmi)?

10. Onu xeyir və şər yola yönəltdik.

11. O çətin keçiddən keçmədi.

12. Sən haradan biləsən, çətin keçid nədir?

13. Bir kölə azad etməkdir

14. və ya aclıq günündə yemək verməkdir –

15. qohumluğu çatan bir yetimə,

16. yaxud torpaq üzərində oturmuş kasıba!

17. Sonra isə iman gətirən, bir-birinə səbr və mərhəmət tövsiyə edənlərdən olmaqdır.

18. Onlar sağ tərəf sahibləridir.

19. Ayələrimizi inkar edənlər isə sol tərəfə sahibidirlər.

20. Onlar üçün (qaçış yeri olmayan) qapalı bir od var.

27-30. Arxayın olan şəxs: Əvvəlki ayələrdə qeyd edilir ki, dünyapərəst insanlar iki haldan xaric olmurlar: nemət əldən çıxdıqda dözümsüzlük göstərir, nemət verildikdə isə itaətsizlik göstərir, həddi aşırlar. Halbuki həm nemətin bolluğu, həm də onun alınmasının bir imtahan və sınaq olduğuna fikir vermirlər. Allah bol nemət vasitəsi ilə insanın şükür edən və ya naşükür olduğunu, bəla və müsibət qarşısında dözümlü olub-olmadığını üzə çxarmaq istəyir. Ancaq bu ayədə başqa bir zümrəyə işarə edir. Onlar iman və Allahı xatırlamaq sayəsində elə arxayınlıq qazanıblar ki, Allahın hər bir istəyinə razı olurlar, özlərini insanların ibadətindən heç bir mənfəət güdməyən, günahları ilə ziyana uğramayan bir varlığın bəndəsi bilirlər. Onlar dünya həyatının məcazi bir həyat, çox qiymətli bir həyat üçün vasitə olduğunu düşünürlər, dünya malına sahib olub-olmamağı imtahan hesab edirlər, bəndəlik yolundan çıxmırlar, bu yolda möhkəm dayanırlar. Bir nəfər İmam Sadiqdən (ə) soruşur: Mömin canının alınmasından narahat ola bilərmi? İmam (ə) buyurur: ***“And olsun Allaha ki, yox! Ölüm mələyi***

ruhunu bədənindən almağa gələndə narahat olar. Ölüm mələyi deyər: Ey Allahın dostu, narahat olma! Muhəmmədi göndərənə and olsun ki, mən sənə ata və anandan daha mehriban və canıyananam. Gözlərini aç və bax. (Gözlərini açıb baxar). Allah rəsulunu (s), İmam Əlini (ə), Fatiməni (ə), İamam Həsəni (ə), İmam Hüseyni (ə) və onun nəslindən olan imamları görər. Ona deyilər: Bunlar sənə yol yoldaşlığı edən Allah rəsulu, möminlərin əmiri olan İmam Əli, Fatimə, İamam Həsən, İmam Hüseyn və onun nəslindən olan imamlardır. O gözlərini açıb baxar. Qəfildən böyük Allah tərəfindən bir carçı səslənib deyər: "Ey Muhəmməd və onun ailəsinə arxayın olan, onların rəhbərliyinə razı, Allah da səndən razı halda Rəbbinə doğru qayıt. Bəndələrimin sırasına, yəni Muhəmməd və onun Əhli-beytinin sırasına, Cənnətimə daxil ol." Deməli, bəndə üçün canının bədənindən tez alınıb, ruhunun bədənindən tez ayrılıb bu carçıya qoşulmaq istəyindən daha sevimli istək ola bilməz."[2355]

"Bələd" surəsinin ümumi məzmunu: Bu surədə insanın çətinliklər içində yaradıldığı, bütün həyatı boyu çətinliklər içində yaşayacağı buyurulmuşdur. Elə isə dünyanın çətinliklərinə dözüb axirət rahatlığına qovuşmaq nə yaxşı olar. Əks təqdirdə axirət həyatı da dünya həyatı kimi çətin olar.[2356]

1-2. Sən o şəhərin sakinisən: "Müqəddəs şəhər" deyilərkən burada Məkkə şəhəri nəzərdə tutulur. Məkkə əzəmətli olduğu üçün Allah oraya and içir. Bura ilk tövhid mərkəzi, Allaha ibadət edilən ilk məkan, peyğəmbərlərin təvaf etdiyi torpaq olmuşdur. ***"Sən sakini olduğun şəhərə"*** cümləsi isə başqa bir həqiqətdən xəbər verir. Yəni Məkkə sənin bərəkətli varlığın sayəsində elə dərəcəyə yüksəlib ki, and içilməyə layiq görülüb.

[2355] Əl-Mizan, c.20, səh.323
[2356] Əl-Mizan, c.20, səh.327

Yerlərin dəyəri adətən orada yaşayan insanlarla ölçülür. Buna görə də Allah-taala Məkkəyə and içmə səbəbini bəyan edir və bununla bildirir ki, kafirlər elə təsəvvür etməsinlər ki, Quran Məkkənin torpağı və ya onların bütlərinə dəyər vermişdir.[2357]

11-16. Çətin keçid: Naşükür insanların keçməyə can atmadıqları çətin keçid sonrakı ayələrdə bəyan edilən insanlara xidmət, imkansızlara yardımın çevrəsində dövr edən yaxşı və xeyirli əməllərin, xalis və doğri inanacların məcmusudur. İnsanların çoxunun mal və sərvətə böyük sevgisini nəzərə alsaq, bu keçiddən keçmək elə də asan iş deyil. Səadət yolunun ən çətin keçidlərindən biri aclıq və qıtlıq vaxtı yetimlərə, qoumlara və kasıblara yemək verməkdir.[2358]

"Şəms" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. And olsun günəşə və onun işığının yayılmasına,
2. ondan sonra çıxmaqda olan aya!
3. yer üzünü işıqlandırmaqda olan gündüzə!
4. yer üzünü bürüməkdə olan gecəyə!
5. And olsun göyə və onu inşa edənə!

[2357] Nümunə, c.27, səh.7
[2358] Nümunə, c.27, səh.27

6. And olsun yerə və onu genişlədirənə!

7. And olsun nəfsə və ona surət verənə,

8. ona günahları və qorxmağı ilham edənə!

9. Nəfsini təmizləyən uğur qazanmışdır.

10. Nəfsini günahla bulaşdıran şəxs isə məyus və məhrum olmuşdur.

11. Səmud qövmü öz azğınlığı üzündən (Allahın elçisini) yalançı saydı.

12. Onların ən bədbəxti (dəvəni kəsməyə) qalxdıqda

13. Allahın elçisi onlara dedi: “Allahın bu dişi dəvəsinə (toxunmayın) və onun su içməsinə (mane olmayın)!”

14. Onlar isə peyğəmbəri yalançı sayıb, dəvənin diz vətərini kəsdilər. Buna görə də Rəbləri günahlarına görə onların hamısını qırıb yerlə-yeksan etdi.

15. Allah bu işin (zülmkarların cəzalanmasının) nəticəsindən çəkinməz!

"Ləyl" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. And olsun (yer üzünü) bürüməkdə olan gecəyə!

2. And olsun aydınlaşan gündüzə!

3. And olsun kişini və qadını yaradana!

4. Sizin can atdıqlarınız başqa-başqadır.

5. Kim (Allah yolunda) xərcləyir və Allahdan qorxursa,

6. və ən gözəl olan mükafatı təsdiq edirsə,

7. Biz onu ən asan olana nail edəcəyik.

8. Kim də xəsislik edərək (bu vasitə ilə) varlı olmaq istəyərsə,

9. və ən gözəl olan mükafatı inkar edirsə,

10. Biz onu tezliklə çətinliyə salarıq.

11. (Cəhənnəmə) düşdükdə var-dövləti ona fayda verməyəcək.

12. Şübhəsiz ki, doğru yola yönəltmək Bizə aiddir.

13. Sözsüz ki, Axirət də, dünya da Bizimdir.

14. Mən sizi alov saçan bir odla qorxutdum.

"Şəms" surəsinin ümumi məzmunu: Bu surədə nəfsin çirkinlikdən paklanıb təmizlənməsindən bəhs edilir.[2359]

9. Nəfsi təmizləmək ən böyük vəzifədir: Quranın hər hansı mövzu ilə bağlı andları daha çoxdursa, deməli, həmin mövzunun əhəmiyyəti bir o qədər çoxdur. Quranda ən çox and bu surədədir. Bu surədə Allahın özünə üç dəfə and içilib. Andlardan sonra müvəffəqiyyətin nəfsin təmizlənilməsində, bədbəxtlik və məhrumiyyətin isə onun tərk edilməsində olduğu buyurulmuşdur. Əslində, insan həyatının xilası, uğur və müvəffəqiyyəti xəyal və xülya, mal, sərvət, vəzifə, mövqe, başqalarının əməllərindən asılılıqda (xirsitanlara görə hər bir adamın xilası İsanın (ə) fədakarlığındadır) deyil, nəfsi təmizləmədə, ruhun iman və saleh əməl işığında yüksəlməsindədir. Bədbəxtlik və məğlubiyyət qeyri-ixtiyari qəza və qədərdə, qaçılmaz tale, başqalarının əməllərinin nəticəsində deyil, günah və haqq yoldan sapmaqdadır. Mənbələrin yazdığına görə Yusif (ə) Misirin xəzinədarı və maliyyə naziri olduqdan sonra Misir əzizinin xanımı Züleyxa onunla görüşdükdən sonra deyir: "Hərislik və ehtiras şahları qul, səbr və təqva isə qulları şah etdi." Yusif (ə) onun sözünü təsdiq edib Allahın bu kəlamını

[2359] Nümunə, c.27, səh.36

buyurur: ***"Hər kəs təqvalı və səbrli olsa, (Allah onun mükafatını verər). Allah əməlisalehlərin haqqını zay etmir."***[2360]

"Ləyl" surəsinin ümumi məzmunu: Bu surədə Qiyamət, Allahın mükafat və cəzası və onlara səbəb olan amillərdən bəhs edilir.[2361]

7. Müvəffəqiyyət təqva və Allah yolunda xərcləməyin mükafatıdır: Allah-taala bu ayədə buyurur ki, Allah-taala Allaha itaət, bəndəlik, təqva və xeyriyyəçilik yolunda ilxasla hərəkət edən adama uğur bəxş edir, onların bu yoldakı hərəkətini asanlaşdırır. Əslində yaxşı əməl ilk başlanğıcda çətin olur, ancaq təkrar və davam etdirildikdə elə asanlaşır ki, insan ondan zövq alır, tərk etmək isə ona çətin gəlir. O qədər səxavətli adamlar var ki, qonağın süfrə başında əyləşməsindən zövq alırlar. Bir gün qonaq gəlmədikdə narahat olurlar. Bu, bir növ çətinliyin onlar üçün asanlaşdırılmasıdır. Ümumiyyətlə, axirət gününə və Allahın böyük mükafatlar verəcəyinə inam çətinliklərə tab gətirməyi insana asanlaşdırır. Bu asanlıq elə həddə çatır ki, insan nəinki malını, hətta canını da rahatlıqla verməyə, böyük eşqlə müharibə meydanında şəhid olmağa və fədakarlığından ləzzət almağa hazır olur.[2362]

[2360] Nümunə, c.27, səh.62
[2361] Nümunə, c.27, səh.66
[2362] Nümunə, c.27, səh.74

15. Ona ancaq insanların ən bədbəxti girər.

16. O şəxs ki, (Allahın ayələrini) yalan sayır və ondan üz döndərir.

17. İnsanların ən təqvalısı tezliklə ondan uzaqlaşdırılar.

18. O şəxs ki, paklanmaq üçün malını Allah yolunda verir.

19. Onun boynunda heç kəsin, əvəzi veriləcək haqqı yoxdur.

20. Onun yeganə məqsədi uca Rəbbinin razılığını cəlb etməkdir.

21. Tezliklə razı qalacaqdır!

"Zuha" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. And olsun səhərə!

2. And olsun sakitləşməkdə olan gecəyə!

3. Rəbbin səni əsla tərk etməmiş və sənə acığı tutmamışdı.

4. Həqiqətən, Axirət sənə dünyadan daha yaxşıdır.

5. Tezliklə Rəbbin sənə o qədər (nemət) bəxş edəcək ki, razı qalacaqsan.

6. O, səni yetim çağında götürüb sığınacaq vermədimi?

7. İtib-batdığın halda səni doğru yola yönəltmədimi?
8. Kasıb olduğun zaman səni varlandırmadımı?
9. Elə isə yetimə xor baxma!
10. Səndən kömək diləyəni qovma!
11. Rəbbinin nemətindən danış.

"Şərh" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Məgər Biz sənin köksünü açmadıqmı?
2. Ağır yükünü səndən götürmədikmi?
3. Həmin yük belinə çox ağırlıq edirdi.
4. Adını ucaltdıq
5. Sözsüz ki, hər çətinliklə yanaşı asanlıq var.
6. Sözsüz ki, hər çətinliklə yanaşı asanlıq var.
7. Elə isə bir böyük işdən qurtaran kimi başqa bir böyük işdən yapış.
8. Rəbbinə doğru üz tut!

“Duha” surəsinin ümumi məzmunu: Peyğəmbərə (s) on beş gün vəhy nazil olmadığını eşidən müşriklər deyirlər: “Muhəmmədin Rəbbi onu tərk edib, ona qəzəbi tutub. Əgər doğrudan da Allah tərəfindən göndərilibsə, vəhy əlaqəsi heç zaman kəsilməməli idi”. Bu surə nazil olur və müşriklərə cavab verir. Allah Peyğəmbərə (s) onu tərk etmədiyini, ona razı qalacağı qədər rəhmət göstərəcəyini müjdə verir. Peyğəmbərin (s) keçmişini xatırlayaraq hər zaman onu necə himayə etdiyini xatırladır. Buna görə də

verilən nemətlərin şükrünü etməsi üçün ona yetimlərə və yoxsullara mehribanlıq göstərməsini, Allahın nemətini xatırlamasını göstəriş verir.[2363]

5. Rəbbin sənə o qədər (nemət) bəxş edəcək ki, razı qalacaqsan: Allahın ***"Tezliklə Rəbbin sənə o qədər (nemət) bəxş edəcək ki, razı qalacaqsan"***, - deyə buyurması Onun Peyğəmbərə (s) qarşı olan böyük hörmət və ehtiramının göstəricisidir. Dünyada düşmənlərinə qalib gələcəyi, dininin bütün dünyaya yayılacağı, axirətdə də Allahın üstün nemətlərinə layiq görüləcəyi xəbəri Peyğəmbəri (s) razı salacaq müjdələr olmuşdur. Həzrət Muhəmməd (s) peyğəmbərlərin sonuncusu və dünyanın rəhbəri olduğu üçün onun razılığı təkcə özünün xilasında deyil. O, o zaman razı qalar ki, ümməti ilə bağlı şəfaəti qəbul edilsin. Buna görə də hədislərdə nəzər nöqtəsi olan ayənin Qurandakı ən ümidverici, eyni zamanda şəfaəti sübuta yetirən ayələrdən olduğu qeyd eidlmişdir. Möminlərin əmiri İmam Əlinin (s) Peyğəmbərə (s) istinad etdiyi bir hədisdə belə buyurulur: "Qiyamət günü mən şəfaət duracağında durub o qədər günahkları bağışlatdıracağam ki, Allah-taala buyuracaq: ***"Ey Muhəmməd, razı qaldın?" Mən də "Razı qaldım", - deyə cavab verəcəm".*** Əlbəttə, qeyd etməliyik ki, şəfaətin də şərtləri var, nə Peyğəmbər (s) hər kəsə şəfaət edəcək, nə də hər günahkar şəfaətə layiq olacaq.[2364] "Nisa" surəsinin 116-cı, yəni "Allah özünə şərik qoşulmasını bağışlamır, ondan aşağısını istədiyinə (layiq gördüyünə) bağışlayır" ayəsini şərh edərkən İmam Əliyə (ə) istinad edilən bir hədisdə onun bu ayəni ən ümidverici ayələrdən biri kimi təqdim etdiyini oxumuşduq. Bu ayələri və hədisləri yanaşı qoyanda belə qənaətə gəlmək olar ki, Allah şirk içində ölən adamı bağışlamır, ancaq imanı olan

[2363] Nümunə, c.27, səh.92
[2364] Nümunə, c.27, səh.99

digər günahkarları Peyğəmbər (s) və digər şəfaətçilərin vasitəçiliyi ilə bağışlayır. Əslində bu iki ayə birlikdə eyni mənanı ifadə edir.

7. “Zəlalət” deyilərkən nə nəzərdə tutulur? Bax: “Şura” surəsinin 52-ci ayəsi.

9. Yetimlərə qayğı: Ayə və hədislərdə yetimlərə xüsusi diqqət göstərilmişdir. Bunun səbəbi isə yetimlərin qayğı və nəvazişdən məhrum olmasıdır. Əgər bu çatışmazlığın yeri doldurulmasa, uşaqlar qeyri-sağlam, əksər hallarda daşürəkli, cinayətkar və təhlükəli yetişəcəklər. Bundan başqa, insanlıq hissləri onlara da digər uşaqlar kimi diqqət, qayğı göstərilməsini tələb edir. Digər tərəfdən, insanlar gələcəkdə öz uşaqlarına da belə bir vəziyyətə düşəcəyi təqdirdə, qayğı və nəvaziş göstəriləcəyindən əmin olmalıdırlar. Hədislərinin birində İslam peyğəmbəri (s) belə buyurmuşdur: “Yetim ağlayanda Allahın ərşi titrəyər... Bu vaxt Allah buyurar: “Ey mələklərim, sizi şahid tuturam ki, hər kim onu sakitləşdirsə, könlünü alsa, Qiyamət günü mən onu sevindirərəm.”[2365] Başqa bir hədisində isə belə buyurmuşdur: “Kim yetimin başını nəvazişlə oxşasa, Qiyamət günü əlinin toxunduğu tük qədər nuru olar.”[2366] Müasir dövrün inkişaf etmiş cəmiyyətlərində müsəlmanlar bu sahədə fərdi işlərlə kifayətlənməməli, güclərini birləşdirib yetimləri dəqiq iqtisadi, mədəni və təhsil proqramları ilə himayə etməli, onlardan cəmiyyət üçün layilqi şəxsiyyətlər hazırlamalıdırlar.[2367]

“Şərh” surəsinin ümumi məzmunu: Surədə Allahın öz peyğəmbərinə bəxş etdiyi bəzi mənəvi nemətlərdən danışılır.[2368]

[2365] Nümunə, c.27, səh.92
[2366] Nümunə, c. 27, səh.99
[2367] Nümunə, c. 27, səh.106
[2368] Nümunə, c. 27, səh.117

"Tin" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. And olsun əncirə və zeytuna!

2. And olsun Sinay dağına!

3. And olsun bu təhlükəsiz şəhərə (Məkkəyə)!

4. Biz insanı ən gözəl surətdə yaratdıq!

5. Sonra isə onu ən aşağı qata qaytaracağıq.

6. İman gətirib xeyirxah işlər görənlər istisnadır! Onlar üçün tükənməz mükafat hazırlanmışdır.

7. Bütün bunlardan sonra Haqq-hesab gününü inkar etməyinə nə səbəb oldu?

8. Məgər Allah hakimlərin ən üstünü deyilmi?

"Ələq" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Yaradan Rəbbinin adı ilə oxu!

2. O, insanı qan laxtasından yaratdı.

3. Oxu! Sənin Rəbbin çox əzəmətlidir.

4. O, qələmlə (yazmağı) öyrətdi.

5. İnsana bilmədiyini öyrətdi.

6. Xeyr! İnsan həddini aşır,

7. özünün ehtiyacsız olduğunu zənn etdiyinə görə.

8. Şübhəsiz ki, son dönüş sənin Rəbbinə doğrudur!

9. De görüm, bir kəs ki, mane olur

10. bir bəndəyə namaz qıldığı zaman (Allahın əzabına layiq deyilmi)?

11. Söylə görüm, əgər o bəndə doğru yola yönəldirsə,

12. yaxud təqvalı olmağı əmr edirsə, (onun mane olması doğrudurmu)?

13. Söylə görüm, əgər haqqı inkar edib üz döndəribsə, (Allahın əzabına layiq deyilmi)?

14. Məgər o bilmir ki, Allah görür?

15. Xeyr! Əgər son qoymasa, (Biz onun) kəkilindən tutacağıq –

16. günahkar yalançı kəkilindən.

17. Qoy kimi istəyir, çağırsın.

18. Biz də tezliklə Cəhənnəm məmurlarını çağıracağıq.

19. Xeyr, sən ona qulaq asma! Səcdə qıl və (Allaha) yaxınlaş!

"Tin" surəsinin ümumi məzmunu: Bu surədə insanın gözəl biçimdə yaradılmasından, onun kamilliyindən və süqutundan, müvəffəqiyyət və xilasına səbəb olan amillərdən bəhs edilir. Surənin sonunda qayıdış və Allahın mütləq hakimiyyəti məsələlərinə toxunulur.[2369]

4-5. İnsanın ən gözəl biçimdə yaradılması: Allah insanı bütün cəhətlərdən, həm fiziki, həm ruhi, həm də əqli cəhətdən gözəl yaratmış, çox əzəmətli yüksəlişə nail ola bilməsi üçün onu bütün imkanlarla təchiz etmişdir.[2370] Quran ayələrinə əsasən insan elə yaradılıb ki, elm, iman, təqva və saleh əməl işığında insanı Allaha doğru yüksəldən ən uca zirvələrə qalxa, Allahın rəhmət dənizində başdan-başa xoşbəxtlik olan əbədi həyata qovuşa bilər. "Taha" surəsinin 75-76-cı ayələrində belə buyurulur: ***"Kim Onun hüzuruna yaxşı əməllər etmiş bir mömin kimi gələrsə, onlara ən yüksək***

[2369] Nümunə, c.27, səh.126
[2370] Nümunə, c.27, səh.144

dərəcələr nəsib olar – ağacları altından çaylar axan əbədi Cənnət bağları. Orada əbədi qalarlar. Bu, özlərini təmizləyənlərin mükafatıdır.”[2371] Əgər insan bütün bu potensialı və imtiyazları ilə haqq yoldan saparsa, ən aşağı dərəcəyə süqut edər. Kamillik yüksəlişinin əvəzinə qorxulu enişə məruz qalar. İnsan istedad və potensialları zəngin olan bir varlıqdır. Əgər onları islah yolunda istifadə etsə, ən yüksən qürur zirvəsinə ucalar, yox əgər bütün ağlını və istedadını fəsad və günaha sərf etsə, ən böyük fəsada səbəb olar. Bu da onun ən aşağı dərəcəyə yuvarlanması ilə nəticələnər.[2372]

“Ələq” surəsinin ümumi məzmunu: Surənin başlanğıcında Peyğəmbərə (s) oxuması əmr edilir. Sonra insanın bir damcı qiymətsiz qandan yaradılmasına, Allahın lütf və kəraməti sayəsində insanın kamilləşməsi, elm və qələmlə tanış olmasına işarə edilir. Ardınca Allahın bütün nemətlərinə rəğmən insanın naşükürlük etməsi, həddini aşmasına işarə edilir. Surədə insanların düz yola yönəlməsinə çalışan, yaxşı işlər görənlərə mane olan şəxslərdən də söz açılır. Surə Allaha səcdə və yaxınlaşma göstərişi ilə sona yetir. Surənin başlanğıc hissəsi Quranın Peyğəmbərə (s) nazil olan ilk hissəsidir.[2373]

9-16. Ayələrin nazilolma səbəbi: Bir gün Əbu Cəhl yandaşlarından soruşur: “Muhəmməd sizin aranızda da üzünü (səcdə etmək üçün) torpağa qoyur?” “Bəli” – deyə cavab verirlər. Deyir: “And olsun and içdiyimizə, əgər onu bu vəziyyətdə görsəm, ayağımla basıb boğazını xurd-xəşil edəcəyəm”. Deyirlər: “Bax, odur, orada namaz qılır”. Əbu Cəhl peyğəmbərin boğazını əzmək üçün ona doğru yürüyür. Ancaq yaxınlaşdıqda sanki əli ilə nəyisə özündən uzaqlaşdırırmış kimi geri çəkilir. Soruşurlar:

[2371] Əl-Mizan, c.20, səh.365
[2372] Nümunə, c.27, səh.144
[2373] Nümunə, c.27, səh.150

“Bu nədir, sənə nə oldu?” Deyir: “Qəfildən onunla öz aramda içi odla dolu bir xəndək, dəhəşətli bir mənzərə, həmçinin qanadlar gördüm”. Peyğəmbər (s) buyurur: ***“And olsun canım əlində olana! Əgər mənə yaxınlaşsaydı, Allahın mələkləri onu parçalayardılar.”***[2374]

14. Varlıq aləmi Allahın hüzurudur: Gördüyü bütün işləri Allahın qarşısında etdiyini, bütün əməllərin, hətta insanın niyyətlərinin də Ondan gizli olmadığını diqqət mərkəzində saxlasa, insanın bütün həyat proqramı dəyişər, bu əməl sayəsində bütün günahlardan uzaq durar. Təbii ki, bu davranış imanla, qəti inamla şərtlənir. Hədislərin birində deyilir: ***“Allaha elə ibadət et ki, sanki Onu görürsən. Sən onu görməsən də O səni görür.”***[2375]

"Qədr" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Biz onu (Quranı) Qədr gecəsi nazil etdik!

2. Sən haradan biləsən Qədr gecəsi nədir?

3. Qədr gecəsi min aydan xeyirlidir.

4. O gecə Rəbbinin izni ilə mələklər və Ruh hər bir işə görə (hər bir işi öncədən təyin etmək üçün yerə) enirlər.

[2374] Nümunə, c.27, səh.165
[2375] Nümunə, c.27, səh.167

5. Sübh açılanadək əmin-amanlıq (bərəkət və rəhmət dolu) olan bir gecədir.

"Bəyyinə" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Kitab əhlindən və müşriklərdən inkar edənlər (deyirdilər:) onlara açıq-aydın dəlil gəlməyincə öz dinlərindən əl çəkməyəcəklər.

2. (Bu dəlil) pak səhifələri oxuyan Allahın göndərdiyi elçidir.

3. Onlarda doğru yazılar vardır.

4. Kitab verilənlər onlara yalnız aydın bir dəlil gəldikdən sonra ayrıldılar.

5. Halbuki onlara, dinlərini məhz Allah üçün xalis edərək və şirkdən tövhidə qayıdaraq, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru və davamlı din də elə budur!

6. Kitab əhlindən və müşriklərdən inkar edənlər Cəhənnəm odundadırlar və orada əbədi qalacaqlar. Onlar məxluqatın ən pisləridir.

7. İman gətirib yaxşı işlər görənlər məxluqların ən yaxşısıdırlar.

Mübarək “Qədr” surəsinin ümumi məzmunu: Bu surədə öncə Quranın Qədr gecəsi nazil olmasından, daha sonra Qədr gecəsinin əhəmiyyəti, bərəkəti və təsirlərindən danışılır. Hədislərdə bu surəni oxumağın savab və üstünlüyü xüsusilə vurğulanır. Belə ki, hədislərinin birində Allah rəsulu (s) belə buyurmuşdur: “Onu oxuyanın savabı Ramazan ayını oruc tutub, Qədr

gecəsini ehya saxlamış adamın savabı qədər olar."[2376] Bütün namazlarda birinci rükətdə "Qədr" surəsini oxumaq çox savabdır.[2377]

"Qədr" surəsi haqqında bir neçə mühüm nüans: 1. Hədislərdə Qədr gecəsinin Ramazan ayının ya on doqquz, ya iyirmi bir, ya da iyirmi üçüncü gecəsi olduğu qeyd edilmişdir. Ancaq Əhli-Beyt imamlarına istinad edilən bir çox hədislərdə iyirmi üçüncü gecəyə daha çox önəm verildiyinin şahidi oluruq. Çoxları hesab edir ki, Qədr gecəsinin vaxtı ona görə dəqiq müəyyən edilməyib ki, insan bütün gecələrə Qədr gecəsi ehtimalı ilə əhəmiyyət verib daha çox minacat edərək daha çox savab qazansın. 2. Quranın iki nazilolma forması var: bir dəfəyə və hissə-hissə. Quran Qədr gecəsi bir dəfə tam şəkildə Peyğəmbərin (s) pak qəlbinə nazil olmuşdur. Eyni zamanda iyirmi üç il ərzində də hissə-hissə nazil olmuşdur. 3. Çoxsaylı hədislərdə Qədr gecəsi insanların bir illik müqəddəratlarının, ruzilərinin, əcəlin, və sair işlərinin təyin edildiyi buyurulmuşdur. Əlbəttə, bu məsələ insanın iradə azadlığı və ixtiyar sahibi olması məsələsi ilə təzad təşkil etmir. Çünki Allahın təyin etdiyi müqəddərat insanların ləyaqəti, iman dərəcəsi, təqvaları, niyyətlərinin paklığı və əməllərinin yaxşılığına əsaslanır. Allah-taala hər kəsə layiq olduğunu təyin edir, başqa sözlə desək, onun üçün imkan və zəminlər yaradır. Bu da ixtiyarla təzad təşkil etmir, əksinə onu təsdiq edir. Əhli-beyt (ə) hədislərində qeyd edilir ki, hər il Qədr gecəsi mələklər və Ruh insanların bir illik müqəddəratını zamanın imamı İmam Mehdiyə (ə) təqdim edir və təsdiq etdirirlər (Bax: "Nurussəqəleyn təfsiri", "Qədr" surəsinin təfsiri). 4. Bu gecənin min aydan üstün olması həmin gecədə yatmayıb edilən ibadətlə bağlıdır. Qədr gecəsi və həmin gecədə edilən ibadətlərin üstünlüyünü ifadə edən sünni və şiə hədisləri də bu faktı təsdiq edir. Bundan başqa, Quranın,

---

[2376] Nümunə, c.27, səh.178
[2377] İmam Xomeyni, "Məsələlərin izahı traktatı" 1018-ci məsələ

Allahın rəhmət və bərəkətinin bu gecədə nazil olması onun min aydan üstün olmasına səbəb olmuşdur. Hədislərdə Allahın bu gecəni İslam ümmətinə bəxş etdiyi nemətlərdən olduğu, onun keçmiş ümmətlərə aid olmadığı qeyd edilmişdir. Hədislərdə qeyd edilir ki, Peyğəmbər (s) Əməvi sülaləsinin min il müsəlmanlar üzərində hökmranlıq edəcəyini eşidib bərk narahat olur. Allah-taala ona təsəlli vermək üçün bu ayələri nazil edərək buyurur: Onlar min il hökmranlqı etsələr də, Allah sənə və ümmətinə elə bir şey hədiyyə edir ki, onların min illik hakimiyyətindən üstündür. O "Qədr" gecəsidir.[2378]

"Bəyyinə" surəsinin ümumi məzmunu: Bu surədə Muhəmmədin (s) peyğəmbərliyinin ümumbəşəri olmasına, onun aydın dəlillərlə müşayiət olunmasına işarə edilir. Surədə həm də bütün peyğəmbərlərin dəvət əsaslarının eyni olması, Kitab əhli və müşriklərin İslam qarşısında fərqli mövqelər sərgiləməsindən bəhs edilir.[2379]

[2378] Nümunə, c.27, səh.187; Əl-Mizan, c.20, səh.379
[2379] Nümunə, c.27, səh.196

8. Onların Rəbləri yanındakı mükafatı ağacları altından çaylar axan, içində həmişəlik qalacaqları Cənnət bağlarıdır. Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. Bu (yüksək dərəcə), Rəbbindən qorxan şəxslər üçündür!

"Zəlzələ" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Yer titrəyib lərzəyə gələcəyi zaman;
2. Yer ağır yüklərini bayıra atacağı
3. və insan: “Yerə nə olub?” – deyəcəyi zaman –
4. həmin gün yer öz əhvalatlarını danışacaqdır.
5. Çünki Rəbbin ona vəhy edəcəkdir.
6. O gün insanlar əməllərinin onlara göstərilməsi üçün dəstə-dəstə gələcəklər.
7. Zərrə qədər yaxşılıq edən onu görəcəkdir.
8. Zərrə qədər pislik edən onu görəcəkdir.

"Adiyat" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. And olsun tövşüyə-tövşüyə qaçan atlara!

2. And olsun (dırnaqları ilə) qığılcım çıxaranlara!

3. And olsun sübh çağı hücum edənlərə ki,

4. tozanaq qaldıraraq

5. düşmən qoşununun içərisinə soxulurlar.

6. İnsan Rəbbinin nemətlərinə qarşı yaman nankor və xəsisdir.

7. Özü də bunun şahididir.

8. O, var-dövlətə çox hərisdir.

9. Məgər o bilmir ki, qəbirlərdə olanlar çıxardılacağı zaman

-

"Zəlzələ" surəsinin ümumi məzmunu: Bu surədə üç məsələdən bəhs edilir: Qiyamətin əlamətləri, yer insanların bütün əməllərinə şahidlik edəcək, insanlar yaxşılar və pislər olmaqla iki qrupa bölünəcək, hər kəs öz əməlinin əvəzini alacaq.[2380]

7-8. Xüsusi sorğu-sual: Ayələrdə Qiyamət günü Allahın sorğu-sualının çox dəqiq, əməlləri ölçən tərəzisinin ən xırda əməlləri ölçəcək qədər incə olacağı buyurulur. Allah-taala bu ayələrdə insanları xəbərdar edir ki, sorğu-sual edəcəyi əməl hər nə olursa-olsun əhəmiyyətsiz deyil. Bəzi təfsirçilər yazırlar ki, Peyğəmbərin (s) bəzi səhabələri az miqdarda sədəqə verməyə elə də əhəmiyyət verməz, "Mükafat yalnız o şeylərə verilər ki, bizim üçün onların böyük dəyəri var. Kiçik şeylər bizim əhəmiyyət vermədiklərimizdir", - deyərmişlər. Bununla yanaşı, kiçik günahlara da etinasız yanaşarmışlar. Bu ayə nazil olur və onları kiçik olan yaxşı əməllər etməyə, kiçik günahlardan qorunmağa çağırır. Hədislərin birində deyilir ki, bir kişi Peyğəmbərin (s) yanına gəlib deyir: Mənə Allahın sənə

[2380] Nümunə, c.7, səh.218

öyrətdiyindən öyrət. Peyğəmbər (s) səhabələrindən birinə ona Quran öyrətməsini tapşırır. Həmin səhabə ona "Zəlzələ" surəsini öyrədir. Həmin kişi bu surə ilə kifayətlənir, ayağa qalxıb deyir: Mənə bu qədər kifayətdir. Peyğəmbər (s) buyurur: ***"Daha onunla işin olmasın, o, alim oldu."*** Peyğəmbərin (s) nə demək istədiyi çox aydındır. Çünki həmin kişi ən kiçik əməllərinin belə sorğu-sual olunacağını öyrəndiyi üçün artıq öz əməllərinə diqqət yetirəcək. Bu isə ən böyük tərbiyə vasitəsidir.[2381]

"Adiyat" surəsinin ümumi məzmunu: Surə ayıldıcı andlarla başlayır. Ardınca insanın küfr, xəsislik, dünyapərəstlik kimi zəif cəhətlərindən söz açılır, sonda qısa və obrazlı şəkildə qayıdış və Allahın elminin bütün bəndələri əhatə etməsi məsələsinə toxunulur.[2382]

1-6. "Adiyat" surəsinin nazilolma səbəbi: Bir hədisdə bu surənin "Zatüssəlasil" döyüşündən sonra nazil olduğu qeyd edilmişdir. Həmin döyüş belə olmuşdur: Hicrətin səkkizinci ilində Peyğəmbərə (s) xəbər verirlər ki, on iki min süvari Yabis ərazisində toplaşıb Peyğəmbər (s) və Əlini (ə) qətlə yetirib müsəlmanların axırına çıxmayınca oturmamaq haqqında qərara gəlib. Peyğəmbər (s) bir çox səhabəsini bəzi səhabələrinin başçılığı ilə onların üzərinə göndərir. Ancaq danışıqlardan sonra onlar heç bir nəticə hasil etmədən geri dönürlər. Nəhayət, Peyğəmbər (s) İmam Əlinin (ə) başçılığı ilə mühacir və ənsardan ibarət bir qoşun göndərir. Qoşun düşmən olduğu düşərgəyə doğru çox böyük sürətlə hərəkət edir, gecə yol gedib səhər vaxtı düşməni mühasirəyə alır. Öncə onları İslama dəvət edirlər, qəbul etmədiklərini görüb hələ hava qaranlıq ikən hücuma keçib onları darmadağın edirlər, bir dəstəsini öldürüb qadınlarını və uşaqlarını əsir götürür, külli miqdarda qənimət əldə edirlər. İslam ordusu hələ Mədinəyə qayıtmamış

[2381] Nümunə, c.7, səh.229
[2382] Nümunə, c.7, səh.236

“Adiyat” surəsi nazil olur. Peyğəmbər (s) həmin gün məsciddə Sübh namazını qılarkən bu surəni deyir. Namaz bitdikdən sonra səhabələr “Bu hansı surədir ki, biz bu vaxta qədər onu eşitməmişik?” – deyə soruşduqda Peyğəmbər (s) buyurur: “Bəli, Əli düşmənlər üzərində qələbə çalıb. Cəbrayıl da dünən gecə bu surəni gətirməklə mənə müjdə verib.” Bir neçə gündən sonra Əli (ə) İslam ordusu, əsirlər və qənimətlərlə birlikdə Mədinəyə daxil olur.[2383] Peyğəmbər (s) bir qrup səhabəsi ilə qoşunu qarşılamağa çıxır. Qoşun başçısı Peyğəmbəri (s) görən kimi dərhal atdan düşür. Peyğəmbər (s) əlini Əlinin (ə) kürəyinə vura-vura deyir: “Atına min, Allah və Peyğəmbər səndən razıdır.” Bu vaxt sevincdən Əlinin (ə) gözləri yaşla dolur və Peyğəmbər (s) Əli (ə) haqqında olan tarixi cümləsini buyurur: ***“Əgər ümmətimdən, xristianların həzrət İsa haqqında dedikləri sözü sənin haqqında da deyəcək bir zümrə olmasaydı, haqqında elə söz deyərdim ki, ayaq basdığın elə bir yer qalmazdı, oradan təbərrük götürməsinlər.”***[2384]

10. və kökslərdə olanlar aşkar ediləcəyi zaman –
11. o gün Rəbbi onlardan tam xəbərdardır?

"Qariə" surəsi

[2383] Nümunə, c.27, səh.239
[2384] Mənşuri-cavid, c.7, səh.33

Rəhman və Rəhim Allahın adı ilə!

1. Çırpıb əzən hadisə!

2. Çırpıb əzən hadisə nədir?

3. Sən haradan biləsən, çırpıb əzən hadisə nədir?

4. O gün insanlar pərən-pərən düşmüş pərvanələr kimi olacaqlar.

5. Dağlar isə didilmiş yun görkəmi alacaqdır.

6. Kimin əməl tərəziləri ağır gələrsə,

7. xoşbəxt güzəran içində olacaq.

8. Kimin əməl tərəziləri yüngül gələrsə,

9. anası Haviyə olacaqdır.

10. Sən haradan biləsən, Haviyə nədir?

11. O, çox yandırıcı bir oddur!

"Təkasur" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Çoxa hərisliyiniz sizi elə aludə etdi ki,

2. qəbirləri ziyarət etdiniz (və ölülərinizi sayıb onların sayı ilə fəxr etdiniz).

3. Xeyr! (Siz düşündüyünüz kimi deyil). Tezliklə biləcəksiniz!

4. Yenə də xeyr! (Siz düşündüyünüz kimi deyil). Tezliklə biləcəksiniz!

5. Xeyr! (Siz düşündüyünüz kimi deyil). Əgər yəqininiz olsaydı, (çoxa hərisliyiniz Allahı sizə unutdurmazdı).

6. Siz Cəhənnəmi mütləq görəcəksiniz!

7. Sonra (ona daxil olmaqla) öz gözlərinizlə görəcəksiniz!

8. Sonra, o gün nemətlər barəsində hökmən sorğu-sual olunacaqsınız.

--

"Qariə" surəsinin ümumi məzmunu: Surədə Qiyamət günü və Qiyamət ərəfəsində baş verəcək hadisələr, yaxşı və pis insanların aqibəti çox həyəcanverici şəkildə bəyan edilir.[2385]

"Təkasur" surəsinin ümumi məzmunu: Bu surədə uydurma şeylərlə fəxr edən insanlar məzəmmət edilmiş, insanlara qayıdış, Qiyamət, Cəhənnəm odu, nemətlərə görə sorğu-sual edilmə xəbərdarlığı verilmişdir.[2386]

1-2. "Təkasur" surəsinin nazilolma səbəbi: Təfsirçilər hesab edirlər ki, bu surə bir-birinə qarşı adamlarının çoxluğu, var və dövlətləri ilə fəxr edən qəbilələr haqqında nazil olmuşdur. Onlar hətta iş o yerə çatmışdı ki, adamlarının sayının daha da çox olduğunu göstərmək üçün qəbristanlığa gedib özlərinin və başqalarının ölülərini saymışdılar.[2387] İmam Əli (ə) bir gün bu ayələri oxuduqdan sonra belə buyurmuşdur: ***"Nə qəribə! Nə qədər uzaq məqsəd, nə qafil görüşənlər, nə böyük və qorxulu iş! Onlar gedənlərin ibrətlik məkanlarını boş hesab etdilər. Nə ibrət, nə nəsihət! Onlardan uzaq olan və torpaqda çürümüş ölülərlə fəxr etdilər. Atalarının qəbirləri, yoxsa ölənlərinin çoxluğu ilə fəxr edirlər? O cansız və hərəkətsiz bədənlərin qayıtmasını istəyirlər. Ölülərin ibrət olması fəxr vasitəsi hesab edilməkdən daha yaxşıdır. Onlara baxıb daha da təvazökar olmaq onları qüdrət səbəbi hesab etməkdən daha ağıllı davranışdır."***[2388]

[2385] Nümunə, c.27, səh.257
[2386] Nümunə, c.27, səh.272
[2387] Nümunə, c.27, səh.275
[2388] Nəhcül-bəlağə, 212-ci xütbə

5-7. Yəqin və onun mərhələləri: "Yəqin" şəkk və şübhənin antonimidir.[2389] Əminlik nəyinsə qəti sübutu və tam aydın olması zamanı hasil olur. Hədislərə əsasən imanın ən üstün dərəcəsi yəqin mərhələsi hesab edilir. İmam Baqir (ə) buyurmuşdur: ***"İman islamdan, təqva, imandan, yəqin isə təqvadan bir dərəcə yüksəkdir. İnsanlar arasında yəqindən az bölünən bir şey olmamışdır."*** Yəqinin nə olduğu soruşulduqda belə cavab verir: ***"Yəqin Allaha təvəkkül etmək, qarşısında təslim olmaq, qəzasına razı olmaq, bütün işləri Ona həvalə etməkdir."*** Hədislərinin birində İmam Sadiq (ə) belə buyurmuşdur: "Müsəlmanın yəqinliyinin əlamətlərindən biri budur ki, Allahın qəzəbini insanların razılığına dəyişməsin, onları Allahın ona vermədiyi ilə məzəmmət etməsin... Allah adil və alim olduğu üçün rahatlığı yəqin və razılıqda, hüzün və kədəri şək-şübhə və narazılıqda qoymuşdur." Deməli, hədisdən belə başa düşülür ki, əgər insan yəqin mərhələsinə çatarsa, bütün qəlbini və ruhunu xüsusi rahatlıq bürüyər. Bəzi təfsirçilər Qurana əsaslanaraq yəqini üç mərəhələyə bölmüşlər: 1. Elmül-yəqin. İnsan dəlil və sübutlar əsasında nəyinsə varlığına əmin olur. Məsələn, tüstünü görməklə yanğının olduğuna əmin olur. 2. Eynul-yəqin. Müşahidə mərhələsinə deyilir. Məsələn, oyanğını birbaşa görmək. 3. Həqqul-yəqin. Oda daxil olub onu bütün varlığı ilə hiss etmək, odun xüsusiyyətlərini özündə ehtiva etmək. Bu, yəqinin ən yüksək mərhələsidir. Əslində, birinci mərhələ ümumi səciyyə daşıyır. İkinci mərhələ təqvalılara, üçüncü mərhələ isə Allahın xüsusi və yaxın bəndələrinə xas olan mərhələdir. Bir gün Peyğəmbərə (s) deyirlər: Eşitdiyimə görə İsanın (ə) səhabələrindən biri suyun üzərində yeriyirmiş. Peyğəmbər (s) buyurur: ***"Əgər yəqini daha çox olsaydı, havada gəzərdi."*** Əllamə Təbatəbai bu hədisi qeyd etdikdən sonra

[2389] Burada "yəqin" sözünün leksik deyil, dini termin olaraq mənası nəzərdə tutulur. Dinə görə yəqin insanın inam, iman və etiqadın son mərəhləsidir.

belə yazır: Hər şey Allaha olan qəti inam və yəqin dünyadakı səbəblərin heç birinin müstəqil təsirə malik olmamasına inam çevrəsində dövrə vurur. Allahın mütləq qüdrətinə inam və etiqadı nə qədər yüksək olarsa, bütün dünya insana o qədər müti və qul olar.[2390]

"Əsr" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. And olsun əsrə -

2. ki, insanlar ziyandadırlar!

3. Yalnız iman gətirib yaxşı işlər görənlər, bir-birinə haqqı məsləhət görənlər və bir-birinə səbrli olmağı tövsiyə edənlər istisnadır.

"Huməzə" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Məsxərəyə qoyan və eyib axtaran qeybətçinin vay halına!

[2390] Əl-Mizan, c.6, səh.186

2. O şəxs ki, çoxlu var-dövlət toplayıb onu sayır

3. və elə güman edir ki, var-dövləti onu əbədiləşdirəcək.

4. Xeyr! (Düşündüyü kimi deyil). Tezliklə Hütəməyə (parça-parça edən od) atılacaqdır.

5. Sən haradan biləsən, Hütəmə nədir?

6. Allahın yandırdığı oddur.

7. (O od) ki, ürəklərdən qalxacaq.

8. O (od), onların üzərinə qapanacaqdır.

9. Uzadılmış və uzun direklərdə.

"Fil" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Rəbbinin fil süvarilərinə nə etdiyini görmədinmi?

2. Onların planını alt-üst etmədimi?

3. Onların üzərinə qatar-qatar quşlar göndərdi.

4. (O quşlar) onları kiçik daşlarla hədəfə alırdılar.

5. Axırda onları əzilmiş saman çöpünə döndərdi.

"Əsr" surəsinin ümumi məzmunu: Bu surədə insanın yeganə xilas yolunun hansı olduğu və nicat tapmışların kimlər olduğu göstərilmişdir.[2391]

1. "Əsr" deyiləndə nə nəzərdə tutulur? Ayələrin kontekstinə daha uyğun gələn məna İslam peyğəmbərinin (s) yaşadığı dövr, onun bərəkətli həyatının təsadüf etdiyi zamandır. Çünki sonrakı ayələrdə haqqa tabe olan və onun üçün səbrli olanlar istisna olmaqla, bütün insanların ziyanda olduğu buyurulmuşdur. Məlumdur ki, haqq Peyğəmbər (s) zamanında aşkar

[2391] Nümunə, c.27, səh.290

olmuşdur və İslam günəşi insanlara həmin vaxt işıq saçmışdır. Deməli, əbədi ziyandan yalnız o cənabın dininə tabe olanlar xilas olur. Bəzi hədislərdə əsrin İmam Mehdinin (ə) zühuir edəcəyi dövrə yozulması isə haqqın batil üzərində tam qələbə çalacağı ilə bağlıdır.[2392]

2-3. Yeganə xilas yolu: Quran ayələrinə əsasən insan əbədi həyata malikdir. Bu həyat yolu heç zaman kəsilmir, sadəcə, insan bir yerdən başqa bir yerə köçür. Allah-taala Quranda bu əbədi həyatın bir hissəsinin imtahan üçün olan dünya həyatı olduğunu buyurur. Əbədi həyatın digər hissəsi buradakı imtahanın nəticəsindən asılıdır. Deməli, dünya həyatı insanın öz ixtiyarı ilə seçdiyi əbədi xoşbəxtlik və bədbəxtliyin açarıdır. Qısa olmasına baxmayaraq, növbəti həyat üçün çox mühüm əhəmiyyət daşıyır. Həqiqi xoşbəxtliyə qovuşmaq üçün insanın ən qiymətli sərmayəsi bu dünya həyatıdır. Ancaq zaman keçdikcə insan istər-istəməz bu sərmayəni əldən verir. Bəziləri bu qiymətli sərmayəni az və ya çox sərvət, kiçik daxma və ya böyük saray əldə etmək üçün xərcləyir. Bəziləri onu vəzifə üçün xərcləyir, bəziləri eyş-işrətə, keçəri ləzzətlərə, maddi güzərana sərf edir. Şübhəsiz ki, bunların heç biri qiymətli ömür sərmayəsinin qiyməti deyil. Onun qiyməti yalnız Allahın razılığını qazanmaq, Ona yaxın olmaqdır. Üçüncü ayədə Allah böyük bu ziyanın qarşısını ala biləcək, daha böyük və daha qiymətli sərmayə əldə etmək üçün ömür sərmayəsini böyük mənfəətə çevirə biləcək dörd maddədən ibarət bir proqram təqdim edir. Bu mənfəət sərmayə boşluğunu təkcə doldurmur, həm də onun dəyərini yüzlər və minlər dəfə artırır. Həmin dörd maddə bunlardır: 1. İnsanın bütün fəaliyyətlərinin bünövrəsini təşkil edən iman; 2. İman ağacının meyvəsi olan saleh əməllər. Belə ki, qəlbdə iman çırağı yandıqda onun işığı insanın bütün üzvlərində əks

---

[2392] Əl-Mizan, c.20, səh.409

olunur. Təbii ziyanın qarşısını almaq üçün bütün saleh əməllərə əl atmaq lazımdır, onların bir neçəsi kifayət etmir; 3. İnsanların bir-birini haqqa çağırması. Haqq yolçuları qəlbləri və ruhları işıqlı olan adamlardır. Onlar insan cəmiyyətinin haqq nuruna boyanmasını, batilin qaranlığından xilas olmasını, nəticədə haqqın işığının hər tərəfi bürüməsini və hər kəsin haqqa itaət göstərməsini istəyirlər. 4. Bir-birlərinə günah qarşısında səbrli və dözümlü olmağı, özünü qorumağı, ibadətin çətinliklərinə, müsibət və çətinliklərə dözməyi tövsiyə edirlər. Əgər müsəlmanlar bu dörd prinsipə sözün əsl mənasında əməl etsələr, bütün çətinliklər öz həllini tapar və məğlubiyyətlər qələbə ilə əvəz olunar.[2393]

"Huməzə" surəsinin ümumi məzmunu: Bu surədə camaatda eyib axtaran, başqaları haqqında xoşagəlməz ifadələr işlədən var-dövlət düşkünləri, lovğalar və təkəbbürlülərə şiddətli əzab vədi verilir.[2394]

"Fil" surəsinin ümumi məzmunu: Bu surədə məşhur Fil sahibləri əhvalatına işarə edilmişdir.[2395]

[2393] Əl-Mizan, c.20, səh.40; Nümunə, c.27, səh.293
[2394] Əl-Mizan, c.20, səh.413
[2395] Əl-Mizan, c.20, səh.417

"Qureyş" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. (Fil süvarilərinin cəzalandırılması) Qureyşin (bu yerlərə) sevgi göstərib öyrəşməsi (nəticədə, Peyğəmbərin zühuruna zəmin hazırlanması) üçün idi,

2. onların qış və yay səfərlərinə öyrəşməsi üçün.

3. (Bu nemətə görə) Onlar bu evin Rəbbinə ibadət etsinlər.

4. (Həmin Allah) onları aclıqdan xilas etdi və qorxudan (çıxarıb) əmin-amanlıq bəxş etdi.

"Maun" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Sorğu-sual gününü durmadan inkar edən adamı gördünmü?

2. O elə adamdır ki, yetimi kobudluqla qovar

3. və (başqalarını da) kasıba əl tutmağa həvəsləndirməz.

4. Vay halına namaz qılanların –

5. o şəxslərin ki, onlar namazlarında səhlənkardırlar.

6. Onlar riyakardırlar

7. və başqalarına ən zəruri məişət vasitələrini verməkdən imtina edirlər.

"Kovsər" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Biz sənə Kövsər (bol xeyir-bərəkət) bağışladıq.

2. Elə isə Rəbbin üçün namaz qıl və qurban kəs!

3. Sənin düşmənin özü sonsuzdur.

"Qureyş" surəsinin ümumi məzmunu: Bu surədə Allah Qüreyş qəbiləsinə yay-qış səfərlərinə görə minnət qoyur, ardınca onları təkallahlığa və Kəbənin sahibinə ibadət etməyə çağırır.[2396]

2. Yay-qış səfərləri: Məkkə bağ və əkinə yararlı əraziləri olmayan bir şəhər idi, heyvandarlıq üçün də əlverişli deyildi. Məkkə əhalisinin əsas gəlir mənbəyi ticarət idi. Onlar qış fəslində şimala, havası mülayim Şama gedirdilər. Şam və Yəmən həmin vaxt ən mühüm ticarət mərkəzlərindən hesab edilirdi. Məkkə və Mədinə bu ikisinin qovuşma nöqtəsi idi. Qüreyş günah etsə də, Allahın bütün bu lütf və məhəbbətinə layiq olmasa da, İslam peyğəmbəri (s) Qüreyş qəbiləsindən çıxacağı və bu müqəddəs şəhərdə zühur edəcəyi üçün Allah adıçəkilən qəbiləyə qarşı lütfkar davranırdı.[2397]

"Maun" surəsinin ümumi məzmunu: Bu surədə Qiyaməti inkar edənlərin beş xüsusiyyəti (sədəqə verməmək, yetim və kasıbları qovmaq, riyakarlıq, namaza səhlənkar yanaşmaq, başqalarının yoxsullara yardım etməsinə mane olmaq) qeyd edilmişdir.[2398]

7. Maun: Kökü "mən" olan "maun" az bir şeyə deyilir. Burada insanların, xüsusilə qonşuların bir-birlərindən istədikləri cüzi şeylər nəzərdə tutulur. Təbii ki, bu cür işlərdə xəsislik edən adam çox xəsis və dəyərsiz adam hesab edilir. Allah rəsulu (s) buyurmuşdur: "Zəruri və kiçik əşyaları qonşusundan əsirgəyən adamı Allah Qiyamət günü öz xeyrindən məhrum

---

[2396] Əl-Mizan, c.20, səh.421
[2397] Nümunə, c.27, səh.352
[2398] Nümunə, c.27, səh.356

edir, özbaşına buraxır. Özbaşına buraxılanın vəziyyəti necə də pis olacaq."[2399]

"Kovsər" surəsinin ümumi məzmunu: Bu surənin nazilolma səbəbi haqqında belə yazırlar: Müşriklərin başçılarından olan As ibn Vail Peyğəmbəri (s) Məscidül-həramdan çıxarkən görüb bir müddət onunla söhbət edir. Qüreyş başçılarından bir qrupu da məsciddə oturub uzaqdan bu mənzərəyə tamaş edir. As ibn Vail söhbətini qurtarıb məscidə daxil olanda ona deyirlər: Kiminlə danışırdın? Deyir: Sonsuz kişi ilə.

İzah üçün qeyd edək ki, Peyğəmbərin (s) Xədicə xanımdan (ə) Qasım və Tahir adlı iki oğlu olmuşdu. Bu uşaqlar hələ körpə ikən dünyalarını dəyişdikləri üçün Peyğəmbər (s) oğulsuz idi. Buna görə də bədxahlar Peyğəmbərə (s) sonsuz deyirdilər. Onlar hesab edirdilər ki, Peyğəmbər (s) dünyadan köçəndən sonra təqdim etdiyi proqramlar da sona yetəcək. Buna görə də çox sevinirdilər. Allah vəhy göndərir və bu surədə onlara möcüzəli şəkildə cavab verir, düşmənlərin sonsuz qalacaqlarını, İslam və Quranın hökmlərinin sona yetmədiyini xəbər verir. Allahın bu surədə verdiyi müjdə bir tərəfdən İslam düşmənlərinin ümidlərinə bir zərbə vurur, digər tərəfdən düşmənlərin verdikləri çirkin ləqəb və arzu etdikləri hiyləyə görə çox kədərlənən Peyğəmbərə (s) təsəlli verir.

"Kövsər" sözü haqqında müxtəlif fikirlər irəli sürülmüşdür. Bəziləri hesab edir ki, Kövsər Cənnətdə suyu süddən ağ, büllurdan saf olan bir bir çayın adıdır. Bəziləri onu peyğəmbərlik, bəziləri Quran, bəziləri səhabələrin çoxluğu, bəziləri Peyğəmbərin (s) qızı Fatimənin (ə) nəslindən dünyaya gələcək övladlarının çoxluğu kimi, bəziləri də şəfaət kimi yozmuşdur. Kövsər sözünün mənası çox genişdir. Qeyd edilən yozumların hamısı onun

---

[2399] Nümunə, c.27, səh.361

ayrı-ayrı məna çalarıdır. Şiə məzhəbinin böyük alimlərinin çoxu Fatimeyi-Zəhranın (ə) varlığını bu sözün ən parlaq məna çaları hesab etmişdir. Çünki Peyğəmbərin (s) nəsli dünyaya həmin övladının nəsli vasitəsilə yayılmışdır. Bu nəsil Peyğəmbərin (s) təkcə fiziki övladları olmamış, İslam dinini və onun bütün dəyərlərini qoruyub gələcək nəsillərə ötürmüşdür.[2400]

"Kafirun" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. De: “Ey kafirlər!
2. Mən sizin ibadət etdiyinizə ibadət etmərəm,
3. siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz.
4. Mən sizin ibadət etdiyinizə ibadət edən deyiləm,
5. siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz.

[2400] Nümunə, c.20, səh.368

6. Sizin dininiz sizə, mənim dinim də mənədir!”

"Nəsr" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Allahın köməyi və qələbə gəlib çatdığı zaman,

2. insanların dəstə-dəstə Allahın dininə girdiklərini gördükdə

3. Rəbbinə həmd və tərif de, Ondan bağışlanmağını dilə. O, çox tövbə qəbul edəndir!

"Məsəd" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. Əbu Ləhəbin əlləri kəsilsin!

2. Nə var-dövləti, nə də qazandıqlarının ona faydası olmayacaq.

3. Tezliklə o, alovlanan oda girəcək.

4. Onun odun daşıyan arvadı da.

5. Arvadının boynunda xurma lifindən kəndir olacaqdır.

“Kafirun” surəsinin ümumi məzmunu: Bu surədə tövhid, şirkin inkarı və kafirlərin Peyğəmbərlə (s) sazişdən məyus olması mövzularına işarə edilmişdir.[2401]

“Nəsr” surəsinin ümumi məzmunu: Surədə böyük qələbədən, qələbədən sonra insanların dəstə-dəstə Allah dininə daxil olacağından xəbər

[2401] Nümunə, c.20, səh.380

verilir və bu böyük nemətə görə Peyğəmbərdən (s) Allaha həmd və tərif deməsi, bağışlanma istəməsi göstəriş verilir.[2402]

1. Allahın yardımı və qələbə: Məkkənin fəthi İslam tarixində yeni bir fəsil açmışdır. Çünki şirkin əsl mərkəzi dağıdılmış, bütlər məhv edilmiş, bütpərəstlərin ümidləri tamamilə boşa çıxmış, insanların İslama iman gətirməsinə əngəl olan maneələr aradan qalxmışdı. Buna görə də Məkkənin fəthini İslamın Ərəb yarımadası və eyni zamanda dünyada sabitləşmə mərhələsi hesab etmək olar. Çünki ondan sonra qarşısı çox sürətlə alınan bir hal istisna olaraq müşriklər tərəfindən heç bir müqavimət olmamış, insanlar İslamı qəbul etmək üçün Ərəb yarımadasının hər yerindən Peyğəmbərin (s) yanına axın edirdilər.[2403]

"Məsəd" surəsinin ümumi məzmunu: Surədə İslamın iki düşməni, yəni Əbu Ləhəb və onun arvadından danışılır, onların imansız və Cəhənnəmlik olduqları açıq şəkildə ifadə edilir.[2404]

1. "Məsəd" surəsinin ümumi məzmunu: İbn Abbasa istinad edilən bir məlumatda qeyd edilir ki, "Yaxın qohumlarını qorxut" (Şüəra-214) ayəsi nazil olduqdan və Peyğəmbərə (s) yaxın qohumlarını qorxutmaq və İslama dəvət etmək əmri verildikdən sonra o, Səfa dağına çıxıb camaatı səslədi. Camaat dağın ətəyinə toplaşdıqdan sonra buyurdu: ***"Mənə deyin görüm, əgər sizə xəbər versəm ki, düşmən süvariləri səhər tezdən sizə hücum çəkəcək və ya gecə basqın edəcək, mənə inanarsınızmı?"*** Onlar "Biz səndən heç vaxt yalan eşitməmişik." - deyə cavab verdilər. O dedi: ***"Mən sizi Allahın şiddətli əzabından xəbərdar edirəm"***. Əbu Ləhəb bu sözü eşidən kimi dedi: Ölüm olsun sənə! Bizi elə bunu demək üçün toplamısan?

[2402] Nümunə, c.20, səh.394
[2403] Nümunə, c.20, səh.399
[2404] Nümunə, c.20, səh.412

Bu surə elə həmin vaxt nazil oldu. Bəziləri əlavə olaraq qeyd edirlər ki, Əbu Ləhəbin arvadı (Ümmü Cəmil) bu surənin əri ilə onun haqıqnda nazil olduğunu eşitdikdə Peyğəmbərin (s) yanına gedir. Peyğəmbəri (s) tapa bilmir. Əlinə bir daş götürüb deyir: "Eşitmişəm Muhəmməd mənim haqqımda pis danışıb. And olsun Allaha! Əgər onu tapsam, bu daşı onun ağzına çırpacam. Mən də şairəm". Bunu deyib Peyğəmbər (s) və İslam haqqında həcvlər deyir. Əbu Ləhəb və arvadının İslama qarşı olan ədavət və düşmənçiliyi bununla bitmirdi. Əgər Quran onlara kəskin münasibət bildirib açıq şəkildə pisləyibsə, deməli, daha tutarlı səbəblər var. Deyilənə görə o, Peyğəmbər (s) haqqında pis sözlər danışaraq haqq axtarışında olan camaatı onun yanına getməkdən çəkindirər, Peyğəmbər (s) camaatı dinə dəvət edərkən ayağına daşla vurub onu yaralayar, "Ay camaat, bu kişi yalançıdır, ona inanmayın!", - deyə hay salarmış. Həyat yoldaşı isə İslam peyğəmbərini (s) incitmək üçün tikan kollarını belində daşıyıb onun yoluna tökərmiş. Əbu Ləhəbin başı aldığı bir zərbə nəticəsində yaralanıb irinləmiş, sonda həmin yaradan ölmüşdür. Hətta deyilənə görə bədəninin üfunəti elə həddə çatır ki, camaat ona yaxın durmur, Məkkədən çıxarıb uzaqdan üzərinə su tökürlər. Bədəni daşların altında görünməz olana qədər üzərinə daş atırlar.[2405]

[2405] Nümunə, c.20, səh.421-423

"İxlas" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. De: “O Allah Təkdir!
2. O, bütün ehtiyaclıların üz tutduğu Allahdır.
3. Nə doğub, nə doğulub,
4. Onun bənzəri də yoxdur”.

"Fələq" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. De: “Sığınıram sübh çağının Rəbbinə!
2. Bütün yaratdıqlarının şərindən,
3. gecələr gələn hər bir şər varlığın şərindən,
4. düyünlərə ofsun üfürən qadınların şərindən
5. və həsəd aparan zaman paxılın şərindən!”

"Nas" surəsi

Rəhman və Rəhim Allahın adı ilə!

1. De: “Sığınıram insanların Rəbbinə,
2. insanların hökmdarına,
3. insanların məbuduna!
4. Gizli iş görən vəsvəsəçinin şərindən
5. ki, insanların qəlbinə vəsvəsə salır,
6. (həmin vəsvəsəçi) istər cinlərdən olsun, istər sə də insanlardan!”

“İxlas” surəsinin ümumi məzmunu, nazilolma səbəbi və onu oxumağın savabı: Surədə Allahın təkliyindən söz açılır. Hədislərdə bu surəni oxumağın savabının çox olması ilə bağlı deyilənlər onun əzəmətli olmasından xəbər verir. Bir gün Peyğəmbər (s) ***“Sizlərdən bir gecədə Quranın üçdə birini oxumağı bacarmayan bir adam varmı?”*** – deyə soruşur. Dinləyicilərdən biri deyir: “Ey Allahın rəsulu! Kim bunu bacarar?” Peyğəmbər (s) buyurur: ***“Qul huvəllahu əhəd surəsini oxuyun!”*** Başqa bir hədisində belə buyurmuşdur: ***“Allaha və Qiyamət gününə imanı olan şəxs namazlardan sonra “Qul huvəllahu əhəd” surəsini oxumağı unutmasın. Çünki kim onu oxuyarsa, Allah dün ya və axirətin xeyrini onun üçün toplayar, özü, atası, anası və övladlarının günahlarını bağışlayar.”*** Hədislərdə qeyd edilir ki, evə daxil olarkən bu surəni oxumaq ruzini çoxaldıb yoxsulluğu yox edir. Bu surənin savabı haqqında söylənmiş hədislər bu müxtəsərə sığmayacaq qədər çoxdur. Daha ətraflı məlumat üçün təfsir və hədis kitablarına baxın.[2406]

[2406] Nümunə, c.27, səh.428

“Fələq” surəsinin ümumi məzmunu: Bu surədə Peyğəmbərə (s) ümumi mənadan bütün şərlərdən, xüsusi mənada bəzi şərlərdən Allaha sığınmaq göstərişi verilir.[2407]

4. Cadugərlik və düyünlərə üfürmək: Burada düyünlərə üfürən, ofsun edən cadugər qadınlar nəzərdə tutulur. “Burada nə üçün cadugər qadınlardan danışıldığı halda, cadugər kişilərdən bir söz deyilməmişdir?” sualına gəlincə, qeyd etməliyik ki, o dövrdə sehr və cadu daha çox qadınlar arasında geniş yayılmışdı. Buna görə də Quran daha çox onları qabardır. Hər halda bu ayə və Fironun cadugərlərindən bəhs edən “Bəqərə” surəsinin 102-ci ayəsi kimi digər Quran ayələri cadugərliyin əslində mövcud olduğunu təsdiq edir. İmam Sadiqin (ə) bir hədisində belə buyurulmuşdur: ***“Bir yəhudi Peyğəmbərə (s) cadu edir, Peyğəmbər (s) xəstələnir. Buna görə də Allaha şikayət edir. Cəbrayıl nazil olub bu iki surəni – “Fələq” və “Nas” surələrini gətirib buyurur: “Bir yəhudi kişi sənə cadu edib, cadusu filan quyudadır”. Peyğəmbər (s) Əlini (ə) həmin quyuya göndərir və Əli (ə) həmin cadunu gətirir. Peyğəmbər (s) Əliyə (ə) düyünləri açmasını və açarkən ayə oxumasını göstəriş verir. Əli (ə) də (bu iki surədən) ayə oxuyub bir-bir düyünləri açır. Sona çatanda Peyğəmbər (s) sanki dolaşıqdan azad olan kimi ayağa qalxır”.***[2408]

“Nas” surəsinin ümumi məzmunu: Bu surədə Peyğəmbərə (s) gizli vəsəvəsəçinin şərindən Allaha sığınması göstəriş verilmişdir.[2409]

4-6. Gizli vəsvəsəçilər: Adətən, şeytanlar gizli fəaliyyət göstərirlər. Bəzən insanın qulağına elə üfürürlər ki, o şeytanın fikrinin özünə aid bir fikir olduğunu güman edir. Bu da insanın haqq örtüyü altında haqdan sapmasına,

---

[2407] Əl-mizan, c.20, səh.454
[2408] Nümunə, c.27, səh.455
[2409] Nümunə, c.27, səh.259

doğru yoldan çıxmasına səbəb olur. İnsan şeytanların öz paltarlarında görünəcəyinə ümid bəsləməsin. Onlar insanlara hakim olmaq üçün haqqa aid bir hissəni batilə aid bir hissə ilə qarışdırırlar. Bu surəyə görə bütün gizli iş görən şeytansifətlər ayrıca bir qrup şəklində fəaliyyət göstərmirlər, insanlar və cinlər arasına müxtəlif libaslarda və formalarda yayılıblar. Uyğun olmayan dostlar, azğın öndərlər, vəsvəsəçi kütləvi informasiya vasitələri və sair geniş miqyasda gizli vəsəvəsçilər sırasına daxildir. İnsan bunların hamısından Allaha sığınmalıdır.[2410]

[2410] Nümunə, c.27, səh.272